Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

NAXÇIVAN MUXTAR RESPUBLİKASI-100

Naxçıvan Dövlət
Universiteti

"ELMİ İNKİŞAF: UĞURLAR VƏ ÇAĞIRIŞLAR"

GƏNC TƏDQİQATÇILARIN I RESPUBLİKA ELMİ KONFRANSI



15-16
APREL
2024

NAXÇIVAN

genckon.ndu.edu.az

genckon@ndu.edu.az

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

“ELMİ İNKİŞAF: UĞURLAR VƏ ÇAĞIRIŞLAR”
GƏNC TƏDQİQATÇILARIN
I RESPUBLİKA ELMİ KONFRANSININ
MATERİALLARI

Naxçıvan - 2024

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

Təşkilat komitəsinin sədri- Elbrus İsayev, rektor
Təşkilat komitəsinin sədr müavini- Elsevər Əsədov, Elm və innovasiya məsələləri üzrə prorektor

ÜZVLƏR

Arzu Abdullayev- Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor

Əli Həşimov- Naxçıvan Dövlət Universiteti Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinin müdiri

Çapay Quliyev- Naxçıvan Dövlət Universiteti Magistratura və doktorantura mərkəzinin direktoru

Cavanşir Zeynalov- Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsinin dekanı

Arif Ağalarov- Naxçıvan Dövlət Universiteti Tarix-filologiya fakültəsinin dekanı

Taleh Xəlilov- NDU "Pedaqogika və psixologiya" kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru

Mahir Məhərrəmov- Naxçıvan Dövlət Universiteti "Baytarlıq təbabət" kafedrasının müdiri

MÜNDƏRİCAT

HUMANİTAR ELMLƏR

TALEH XƏLİLOV, SURƏ VƏLİYEVA. Pedaqoji monitorinq təhsil prosesinin informasiya təminatı vasitəsi kimi 14
ÜLKƏR MƏMMƏDOVA. Süni intellekt və emosional intellektin qarşılıqlı əlaqəsi fonunda böyük məktəb yaşı dövründə koqnitiv bacarıqların inkişaf etdirilməsi 17
TƏNZİLƏ RÜSTƏMLİ. Nağıl ruhlu yazıçı - Səməd Behrəngi 18
AYGÜN ŞÜKÜROVA. Tarix dərslərində müasir təhsil yeniliklərindən istifadə tələbələrin yaradıcı qabiliyyətlərinin təşkil edilməsi yolu kimi 21
AZADƏ ƏLİYEVA. Dilçilikdə frazeoloji birləşmələrin inkişaf tarixi 25
SEVDA CƏFƏROVA, AFƏT BABAYEVA. Yeni tədris mərhələsində ümumtəhsil məktəblərində kadr hazırlığının təşkil olunmasının əsasları 28
KƏRƏM MANSUROV. Azərbaycan Respublikası prokurorluğunun sistemi, təşkili və fəaliyyətinin əsas istiqamətləri 33
BAHAR ƏLİYEVA. İnnovativ pedaqoji fəaliyyətin mahiyyəti və strukturu 37
CEYRAN ƏLİYEVA. Qədim Türk qaynaqlarında qeyd olunmuş Qaraqoyunlu etnotoponimi haqqında 41
RUBABA MAMMADOVA. 43
AYNURƏ ƏHMƏDOVA. Akademik Məmməd Cəfər Cəfərovun ömür yolu 46
FATİMƏ HƏSƏNOVA. "Şərqi-Rus" qəzetində terminologiya məsələləri 50
ELNURƏ RZAYEVA. Qeyri-verbal ünsiyyətin dil öyrənilməsi prosesində rolu 54
ILKANA RZALI. About the connection between language and the mind 56
NURAY MƏMMƏDOVA. Həmid Arzulunun "Qaçaq Quşdan" romanı və Azərbaycanda repressiya gerçəkləri 59
İNCİ ƏHMƏDOVA. Abdulla Şaiq ədəbiyyat müəllimi kimi 64
NƏZRİN KƏRİMOVA. Ali təhsildə təlimin təşkili formalarının ümumi xüsusiyyətləri 67
MƏHSƏTİ CƏFƏRLİ. Faciə janrının tədrisi zamanı qarşıya çıxan çətinliklər və onların həlli yollar haqqında 70
GÜLŞƏN MƏMMƏDOVA. Bədii əsərlərin dilində ana dili mövzusunun qoyuluşu 72
TÜRKANƏ QOCAYEVA. Müasir şəraitdə ali məktəb müəllimlərinin yeni rol və funksiyaları 75
NIGAR MEHDIZADE. Advantages of teacher-centred language learning teacher-centred language learning in Azerbaijan 79
ÖZLƏM BAYRAMOVA. Osman Sarıvəlli yaradıcılığı və xalq ədəbiyyatı 81
SƏKİNƏ SƏFƏRZADƏ. Azərbaycan dilində sintaktik əlaqələr 84
SAYNUR RÜSTƏMLİ. Azərbaycan dilçiliyində üslubiyyat məsələlərinin tədqiqi 87
QUMRAL SƏFƏROVA. XVII əsr Azərbaycan ədəbi dilində sadə isimdən və düzəltmə sıfətdən ibarət olan mürəkkəb sıfətlər 93
SUNAY ƏSƏDOVA. Çəmənzəminli hekayələrinin sənətkarlıq xüsusiyyətləri 96
TALEH XƏLİLOV, FATİMƏ MƏMMƏDOVA. Sosial şəbəkələrin gənc ailələrə təsiri 99
ULVIYYA FARAJOVA, JEYRAN GULIYEVA. Conversion as a productive way of word formation 103

AYXAN HÜSEYNLİ. Məktəbəqədəryaşlı dizartriyalı uşaqlarda nitq inkişafı ləngiməsinin qarşısının alınması yolları 106
CƏMİLƏ MƏHƏRRƏMOVA. Babək rayonu etnourbanonimlərinin linqvistik xüsusiyyətləri 109
KÜBRA VƏLİYEVA. Razi Astrabadinin "Şərhu-l-radi alə əl-kafiyə fi ilmin nəhv va irab" əsərində "Məfulun mutlaq" mövzusu 112
SƏKİNƏ MƏMMƏDZADƏ. Dram əsərlərinin dilində təkrarlar üslubi fiqur kimi 113
NƏRMİN HƏSƏNZADƏ. İlyas Əfəndiyevin dramlarında müasirlik 117
RÜZGAR CAMAL. Naxçıvan Muxtar Respublikasi Kəngərli rayon oykonimləri-məntəqə adlari tarixi qaynaqlarda 119
TOMRİS CƏLİLOVA. Müasirləri professor Əjdər Ağayev haqqında 123
TÜRKANƏ BABAYEVA. Yaradıcılıq azadlığı və fikır və söz azadlığı: müqayisəli təhlil 126
ULDUZ QƏHRƏMANOVA. Millilik və xəlqilik bədii yaradıcılığın əsas estetik kateqoriyalarından biri kimi 130
ZAMİQ ALLAHVERDİYEV. Uşağın baxışlarına (fikirlərinə) hörmət prinsipinə dair beynəlxalq müddəaların milli təcrübəyə implementasiyası 135
TÜRKAN NOVRUZZADƏ. Fərdi məlumatların qorunmasına dair ümumi nəzəri-tarixi təhlil 141
ŞƏHLA ƏMİROVA. Kül Tigin abidəsində "Ər at" ifadəsi 145
TÜRKAN HÜSEYNOVA. Aleksandr Sergeyevıç Puşkin və Aleksandr Düma yaradıcılığında Qafqaz mövzusu 148
ZÖHRƏ YUSİFZADƏ. "Irk-bitig" qədim uyğurların dini görüşünün öyrənilməsində ilkin mənbə kimi 149
XƏYALƏ SƏFƏROVA. Azərbaycan dilində tarixizmlərin leksik-semantik xüsusiyyətləri 151
FƏRİDƏ ƏLİYEVA. Sifətin tədrisində ilkin verilmiş biliyin möhkəmləndirilməsi 155
RASİMƏ BABAYEVA. Professor Akif İmanlının elmi araşdırmaları 158
NƏZİFƏ SADİQOVA. Adil Bağırovan elmi yaradıcılığında toponimlərin linqvistik xüsusiyyətləri 162
NƏRMİN HÜSEYNOVA. Məktəblilərin mədəniyyətlərarası səriştəsi elmi tədqiqat predmeti kimi 166
NURANƏ QULUZADƏ. Məhdud sağlamlıq imkanları olan uşaqlarda sosiallaşmanın səmərəli təşkilinin pedaqoji şərtləri 173
ÜLKƏR ABBASBƏYLİ. Azərbaycan ədəbi dilinin formalaşması 176
AYNURƏ BAĞIROVA. Məhəmməd Füzulinin ilk alleqorik əsəri – "Bəngü-Badə" haqqında .. 179
FATİMƏ DÜNYAMALIYEVA. Azərbaycan ədəbi tənqidin tarixi köklərinin haqqında Kamal Talıbzadənin tədqiqatları 181
FATİMƏ ABBASOVA. Çağdaş poeziyada postmodernist arayışlar 184
MƏNSUMƏ ABBASOVA. Söz yaradıcılığı qaydaları 187
ESMİRA AĞAYEVA. Müasir təhsil sistemində təlim-tərbiyə tərbiyə prosesisinin təşkili və formalaşdırılması 191
PAKİZƏ MƏMMƏDOVA. Sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili 193
İLAHƏ ƏLİYEVA. İnformasiya kommunikasiya texnologiyalarının təhsildə tətbiqi 198
SƏBUHƏ CƏFƏROVA. Dram əsərlərinin dili 201
ELMİN BAXIŞLI. Cinayətin anlayışı və əlamətləri 204
ELNUR BEHBUDOV. Mədəniyyət sistemində fiziki mədəniyyətin yeri və rolu 207

FƏRİDƏ KIRAÇ. Azərbaycanda əlilliyi olan gənclərin reablitasiyası problemi 209
MEHRİN İMANOVA. Pedaqoji prosesdə didaktik oyunların əhəmiyyəti 214
VÜSAL SƏFƏROV. Emosional mühit amili şəraitində tələbə-gənclərdə milli mənlik şüurunun inkişaf xüsusiyyətləri 215
PAKİZƏ KƏRİMOVA. Şeir dilinin bədii xüsusiyyətləri 219
SƏMİYYƏ PAŞAYEVA. Qiymətləndirmənin elmi-nəzəri əsasları 221
SOLMAZ CABBAROVA, ŞƏHLA MURADOVA. Təhsildə keyfiyyətin qiymətləndirilməsinin aktual problemləri 224
VƏFA ƏHMƏDOVA. Təlim prosesinin mahiyyəti 228
ZUBEYDA ZEYNALOVA. Translating idiomatic expressions from english into Azerbaijani 231
ELTAC QURBANOV. Yeniyetmə tələbatı ailədaxili ünsiyyətin inkişaf dinamikasının əsası kimi 234
TALEH XƏLİLOV, AYTƏN AĞASİYEVA. İbtidai sinif müəllimlərinin peşə bacarıqları 237
AMİNƏ SEYİDOVA. Naxçıvanda daş epiqrafik abidələr 241
AYNUR NAMAZOVA. The main features of the parts of speech in the turkic languages of the oghuz group 245
AYSU HAJIYEVA. Main features of phraseological units in modern English and Azerbaijani language 248
CAVİD NADİRLİ. Yeniyetmələrdə iradi keyfiyyətlərin formalaşmasını qiymətləndirmək üçün diaqnostik vasitələr 251
ZAUR DÜNYAMALIYEV. Dağlıq Qarabağ probleminin türk dünyası geosiyasətinə təsirləri 254
DUYĞU ƏLƏKBƏRLİ. Qədim Türk abidələrinin dili və Naxçıvan şivələrinin ortaq leksikası (qədim dövrün mənbələri əsasında) 259
AFSANA ORUJLU. Metacognitive skills 262
ELÇİN MƏMMƏDOV. Orta çağlarda islam şərqində müxalifətçi hərəkatlar 265
ƏLİ ABDULLAYEV. Cəzadan azadetmə və cinayət hüquq normalarının ümumi xarakteristikası 269
ELMIRA BAYRAMOVA, ILHAME MAMMADOVA. About the condotional mood: tenses used in condotional mood, its usage 273
FƏRİD HACIYEV. Torpaq idarəetməsində kadastrın təsirləri 276
KAMİL ƏLİYEV. Hüquq ideologiyası 284
LEYLA ISMAYILOVA, AIDA JALILZADA. Importance of abbreviations in press materials 288
MARAT QƏHRƏMANOV. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Əlimərdan bəy Topçubaşov 290
POLAD MEHDİYEV. Azərbaycan Respublikasında insan hüquqlarının təminatı 295
NURAN MƏMMƏDƏLİYEV. Əmələn kriminallığını aradan qaldıran halların anlayışı 301
PƏRVANƏ MƏMMƏDOVA. Məktəblilərin mənəvi əxlaqi mədəniyyətinin inkişafında təsviri sənət bir amil kimi 304
MUXTAR RZAZADƏ. Jurnalistikada analitik janrlar 307
AFİDƏ NOVRUZOVA. Hülakülər dövlətində idarəetmə sistemi 310
NUBAR PAŞAYEVA. Rusiyanın Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı 314

NURAY ALIYEVA. The evaluation criteria of ielts reading and listening 318
NURLAN BAĞIRLI. Naxçıvan erkən orta əsr abidələri 321
VƏSİLƏ RAZİMİ. 323
KAMALA ALIEVA. Inquiry-based learning 324
RƏŞAD FƏRMAYILLI. Mədəni irsin mühafizəsi və muzeyşünaslığın problemlərinə dair 326
SOLMAZ HƏSƏNOVA. Təsviri xarakterli inşaların tədrisi prinsipləri 330
XAVƏR ADIYEVA. Kipr sülh hərəkatı 333
FAİQ ABİŞOV. İrəvan xanlığı birinci Rusiya-İran müharibəsinin başlaması ərəfəsində 338
HİDAYƏT ƏKBƏROV. Fransız dilində affikslər və linqvistik eynilik: regional və sosial müxtəliflikər prefiks və suffikslərin istifadəsinə təsiri 340
GÜLÖYŞƏ ƏHMƏDZADƏ. Müasir təhsil sistemində innovativ müəllim 344
SAHİLƏ İBRAHİMOVA. Azərbaycan elmi inkişaf yolundadır 347
XƏYALƏ MƏMMƏDOVA. Azərbaycan və Almaniya mülki prosesində müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə məhkəmə qərarının qəbul edilmə proseduru 348
ŞƏFAQƏT MƏMMƏDOVA. Qrammatik şəkilçilərin omonimliyi 353
OSMAN ƏHMƏDZADƏ. Müasir təhsil sistemində kreativ tələbə 356
İSMƏT CƏFƏROVA. Subyektiv idealistlər: Corc Berkli və Devid Yum 358
NARDANƏ ƏLİYEVA. Müstəqillik dövründə "Şərq qapısı" qəzetində çap olunmuş materialların mövzu dairəsi 362
XALİD ƏLƏKBƏROV. Azərbaycanlıların soyqırımının beynəlxalq səviyyədə tanınması problemləri 365
ƏZİZ ZAMANOV. Elxanilər dövrünün Azərbaycan fəqihləri 366
GÜLVİRA ABBASOVA. Naxçıvan və İngilis folklor örnəklərindən əldə olunan frazeoloji birləşmələrin struktur-semantik xüsusiyyətləri 369
VASİLƏ ABBASOVA. Bəxtiyar Vahabzadənin dil və üslub özəllikləri 372
ARZU MƏMMƏDOVA. Tədris prosesində biliklərin qiymətləndirilməsi işinin təşkili, inkişaf xüsusiyyətləri və əhəmiyyəti 376
BİLLURƏ AXUNDZADƏ. Hüquqi dövlətin mənşəyi 380
AYTEN GALANDAROVA. The study of the impact of historical events and conflicts on the language development 383
ELZA QULUZADƏ. Yetkinlik yaşına çatmayanlara münasibətdə cəza təyin etmənin xüsusiyyətləri 387
FATİMƏ MƏSUMOVA. XVI əsrdə Səfəvi dövlətinin xarici siyasəti 391
GÖZƏL HƏSƏNOVA. Əsrın sonlarında səfəvı-osmanlı münasıbətlərı 394
JALƏ HACIZADƏ. Qütb və onun "Xosrov və Şirin" əsəri haqqında 397
KHYALA SAFAROVA. Lexical-semantic characteristics of historizms in the azerbaijan Language 399
ŞƏBNƏM ŞÜKÜROVA. 1920-ci ilin aprel işğalı dövründə Azərbaycanın hərbi gücü 400
RƏQSANƏ QULİYEVA. Dünya sivilizasiyası müstəvisində türk sivilizasiyası 403
PƏRİ MUSTAFAYEVA. Azərbaycan dilinin formalaşmasında Heydər Əliyevin misilsiz rolu 406
LƏMAN ŞAHVERDİYEVA. Müəllimin pedaqoji etikası və peşə mədəniyyəti 409
ŞAMİL MAMEDOV. Pedaqoji prosesdə monitorınq və qiymətləndirmənin yeri və rolu 413
SƏİDƏ İMANOVA. Yusif Seyidovun yaradıcılığında dil məsələləri 419

TURAN MƏMMƏDLİ. İşğaldan azad edilmiş ərazilərimizdə sosial-mədəni proqramlar və xidmətlərin kulturoloji aspektləri 422
NƏZRİN MƏHƏRRƏMOVA. İsmin tədrisində mənsubiyyət kateqoriyası 426

TƏBİƏT ELMLƏRİ

SƏMƏNNAZ ABBASLI. Döş xərçənginin müalicəsində istifadə olunan müalicə metodları 429
AYSEL YUSİFOVA. Naxçıvan Muxtar Respublikası florasında *hordeum* L. – arpa cinsinin taksonomiyası və bioloji xüsusiyyətləri 431
CEYRAN HÜSEYNOVA. Lantanoidlərin tədqiqi və kəşfi tarixləri haqqında 433
COŞQUN ELMANOĞLU. İnəklərdə qısırlıq 435
RÜBABƏ ƏLİYEVA. Naxçıvan Muxtar Respublikası faunasında yayılan *coccınella undecımpunctata* L.-11-nöqtəlı parabüzən entomofaqının bioekoloji xüsusiyyətləri 438
MİNA ƏSGƏROVA. Qaraciyərin hidatidioz exinokokkozunun punksion- drenaj üsulla cərrahi müalicəsinin nəticələri 442
FƏRİDƏ HÜSEYNLİ. Naxçıvan Muxtar Respublikası florasında yayılan güləvər (*Centaurea* L.) cinsinə daxil olan nadir və məhvolma təhlükəsində olan növlərin qiymətləndirilməsi 447
FƏRİDƏ HÜMBƏTOVA. Bitkilərin böyüməsinə fitohormonların təsiri 451
NİGAR VƏLİZADƏ. İnəklərdə yem travmatizmi və ona qarşı aparılan profilaktika tədbirləri 454
SƏKİNƏ HƏSƏNOVA. C.Aurata L. 1758 - qızılı parıldağ növünün inkişaf xüsusiyyətləri 457
QARATEL HÜSEYNOVA, FƏRİDƏ SƏFƏROVA. Balqabaq - *cucurbıta* L. cinsinin bioloji xüsusiyyətləri 461
TAHİRƏ İNTİZAMLI. Ekoloji tərbiyənin pedaqoji-psixoloji əsasları və prinsipləri 464
ZEYNƏB RƏSULOVA. Sağ qasıq nahiyyəsində yetişmiş absesi olan inəyin müalicəsi 468
FİDAN SƏLİMOVA, SAMİRƏ ŞƏFİYEVA. Saccharomyces və candida cinsli maya göbələklərinin temperatura və şəkərlərə münasibəti 471
LEYLA QƏRIBOVA. Səhralaşma prosesinin ətraf mühitə təsirinin qiymətləndirilməsi və qarşısı alınma yolları 474
SƏMA AĞALAROVA. İnəklərin klinik müalicəsi zamanı stimullaşdırma və sinxronizasiyanın təsiri istiqamətləri 477
AKİM AXUNDOV, MEHRİ AĞACANOVA. Ordubad inzıbati rayonunda torpaqların formalaşmasına təsir göstərən təbii və antropogen amillər 481
MÖMÜNƏ FƏRHADZADƏ. Canlılarda dayaq, hərəkət, qidalanma və tənəffüs 486
ÜLVİ İSMAYILLI. Çılpaq bıyan (*glycyrrhıza glabra* l.) bitkıisinin bioekoloji və fıtokimyəvi xüsusiyyətləri 489
MURAD AĞABABAYEV. $TlInS_2$ -$TlGdS_2$ sistem ərintilərinin izotermik sıxılma əmsalının nəzəri hesablanması və onun kimyəvi rabitə qüvvəsi ilə əlaqəsi 493
KHANİM NASİRLİ. 497
NAİLƏ QULİYEVA. Kiçik hüceyrəli ağciyər xərçəngının müalıcəsində müasir yanaşmalar 500
LEYLA NİFTƏLİYEVA. Pb-Zn filizindən $BASO_4$ konsentratinin alınması 504
L.P. IBRAHİMOVA. Ordubad rayonunda təbii şəraitinin müasir üsullarla tədqiqi 505
LEYLA BUDAQOVA. Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış *iynəcələr (odonata)* dəstəsinə aid olan *sympetrum meridionale* (selys, 1841) növünün morfo-bioloji təsviri və ekoloji xüsusiyyətləri 510

GÜLNAR HÜSEYNOVA, HÜSEYN IMANOV. Su və üzvi mühitdə nano gümüş hissəciklərinin hazırlanması 516
F.Ə.MİRZƏYEV, R.M.QULİYEV, N.M.BAXIŞOV, F.E.ƏLİYEVA. Ekoloji problemlərin azaldılmasında maarifləndirmənin rolu 519
XOŞQƏDƏM SEYİDOVA. Sintetik kauçukların tətbiqi sahələri 522
X.V.ƏLIQULIYEVA, A.F.TALIFLI. In_2Se_3 vibrasiya xüsusıyyətlərının eksperımental tədqıqı 525
TAMARA HÜSEYNOVA. Tədris vəsaitləri konsepsiyasi 526
RUQAYƏ ORUCOVA. Saxarozanin tədrisi metodikasi 530
SAHİB HACIYEV, NURCAHAN BAĞIRLI. Şahbuz inzibati rayonunda torpaqların ekoloji qiymətləndirilməsi 533
MƏSUMƏ İBRAHİMOVA. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan lərgə (vicia) cinsinə aid növlərin istifdə istiqamətləri 537
İZZƏT NAMAZOVA. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan qırxbuğumkimilər fəsiləsinə aid növlərin istifdə istiqamətləri 540
AYTAC HÜMBƏTOVA. Yerlı cıns ınəklərdə çətın doğuşların müalıcə və profilaktıkası 543
FATMA CƏFƏROVA. Naxçıvan Muxtar Respublikası ərazisində yayılan əmənkömənçikimilər - *malvaceae juss* fəsiləsinə aid olan hibiskus cinsinin bioekoloji xüsusiyətləri 544
AYŞƏN ABBASOVA. Qeyri-simmetrik civələşmiş manqan karbonil törəmələrinin neodim metalı ilə reaksiyalarının tədqiqi 546
RƏNA ABBASOVA, FƏRİDƏ SƏFƏROVA. Dazıkimilər-(hypericaceae juss.) fəsiləsinə aid olan növlərin ekobioloji xüsusiyyətləri və istifadə istiqamətləri 547
LƏTİFƏ NOVRUZOVA, GÖZƏL ABBASOVA. Naxçıvan Muxtar Respublikasının daş duz yataqları və onun tətbiq sahəsi 549
RAMİLƏ AĞAYEVA. "Ekoloji mədəniyyət" anlayışının mahiyyəti 553
AYSUN HÜSEYNLİ. Ağac formalı dekorativ bitkilərin tədrisində estetik tərbiyəyə dair 556
GÜLÜM MƏMMƏDOVA. Botanikanın tədrisində "dərman bitkiləri" öyrədilməsi zamanı əyanilik prinsipinin tətbiqi məsələləri. (Vl sinif materialları üzrə) 559
ŞƏRMİN HÜSEYNƏLİYEVA. Paxlalıkimilər (*fabaceae* juss.) fəsiləsinin rəsmi dərman bitkiləri 562
ENZALƏ NOVRUZOVA, İZZƏT NAMAZOVA. Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan qırxbuğumkimilər fəsiləsinə aid növlərin istifadə istiqamətləri 564
JALƏ ƏSGƏRLİ. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yayılan qaymaqçiçəkkimilər (*ranunculaceae*) fəsiləsinə daxil olan zəhərli növlərin tədqiqi vəziyyəti 567
AYSEL MƏMMƏDOVA. Biologiyanın tədrisində rəqəmsal bacarıqlardan istifadə 571
AYSU ŞAHMƏMMƏDOVA. Naxçıvan Muxtar Respublikası ərazisində yayılmış yarpaqyeyən böcəklərin (coleoptera, chrisomelidae) bioekoloji xüsusiyyətləri 575
SƏFƏRALI ABDULLAYEV. Aqrar sahənin dövlət tənzimlənməsinin prioritetləri 578
QƏNİRƏ ŞİRİNZADƏ. Naxçıvan Muxtar Respublikasının ali xərçənglərın faunası və ekologıyası 582

FİZİKA – RİYAZİYYAT ELMLƏRİ

XANƏLİ HƏSƏNOV, AYGÜN CANBAĞIŞOVA. Bircins yarımkeçirici plazmanın elektromaqnit sahəsində rəqslərinə dair 586
NAZİLƏ QARDAŞBƏYOVA, NƏZAKƏT MƏMMƏDOVA. Yarımkçirici cihazlarda qeyri-əsas daşıyıcıların yaşama müddətinin ölçülmə üsulları 590

RAMIZ İSMAYILOV, REYHAN YUNİSOVA. $Cd_xHg_{1-x}Te$ monokristallarının fotoelektrik xassələri 592
AYGÜN SULTANOVA, ARİFƏ ƏLİZADƏ. Yüksək voltlu selen elemetnləri 597
GÜLSEVƏR MƏJLUMOVA. Orta məktəblərdə fizikanın tədrisi problemləri və onun həlli yolları 601
H.N.ADİGOZALZADE, U.Z.BASHİROVA, N.Z.ISMAİLOV, A.A.AGHAYEVA. HD 141569 ulduzunun spektrində hydrogen xətləri 603
AYNUR SADİQOVA. Fizikadan məsələ həlli dərslərində yeni informasiya texnologiyalari vasitələrindən istifadə 606
ASİMƏ ZƏKİLİ. Riyazi fizika tənlikləri kursu təliminin metodiki sisteminin qurulması 610
XƏZƏL HƏSƏNOVA. $(Sb, Bi)_2 Te_3$-Te evtektik ərintilərinin alınması və xassələri 614
SƏKİNƏ ƏSGƏROVA. Fizika qanunlarının mənimsədilməsində məntiqi təfəkkürün və qavramanın üzvü əlaqəsinə dair 616
ZƏRNİŞAN ISAYEVA. Riyazi təfəkkürün inkişafında dərsdənkənar məşğələlərin rolu 619
MELİHAN HÜSEYNZADƏ. Ekspert sistemləri. biliklərin təmsil edilməsi metodları 622
PƏRVİN QULİYEV, LEYLA QULİYEVA. Tellurit ionlarının reduksiyasına mühitin təsirinin öyrənilməsi 626
GÜLNAR YAQUBOVA. Qüvvəti dörd olan hal üçün modifikasiya edilmiş ferma teoremi 629
PƏRVİN QULİYEV, YASİN BABAYEV, LEYLA QULİYEVA. Elektrokimyəvi yolla sintez edilən Sb_2Se_3 nazik yarımkeçirici təbəqələrinin işıqda və qaranlıqda fotoelektrokimyəvi xassələrinin tədqiqi 631
RUHİYYƏ CƏFƏROVA, AYTƏN İSMAYILOVA. Veyl aksiomatikası əsasında düz xətlərə və müstəvilərə aid bəzi məsələlərin həlli 636
JALƏ CƏFƏROVA. Funksıyaların xətti müsbət operatorlarla yaxınlaşması tərtibinin qiymətləndirilməsi 640
Г.Г.КУЛИЕВА, С.Е.ХАЛИЛОВА. Решение уравнения клейна-фока-гордона для потенциала розен-морса в связанном состоянии 643
RUHİYYƏ CƏFƏROVA, TƏRANƏ HÜSEYNOVA. Veyl aksiomatikası əsasında evklid həndəsəsinin bəzi teoremlərinin isbatı 648
NƏRMİN AYDINLI. Qurma məsələlərinin həllində cəbri metoddan istifadə 652
GÜLÜSÜM PİRİYEVA. Diferensial hesablamanın əsas teoremlərinin tədqiqi 656
ZƏRNİŞAN ISAYEVA. Riyazi təfəkkürün inkişafında dərsdənkənar məşğələlərin rolu 658
ZİNYƏT ŞAHBAZOVA. Təlımatlar ardıcıllığı şəklində hesablama prosesi anlayışının mahiyyəti alqoritmik təfəkkürün əsas komponenti 661
FİDAN RƏHİMOVA. Lantanın metalkarbonil törəməli kompleksinin sintezi 666
H.N.ADIGOZALZADE, U.Z.BASHIROVA, N.Z.ISMAILOV, A.A.AGHAYEVA. HD 141569 ulduzunun spektrində hydrogen xətləri 668

YENİ İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

ŞƏFİQƏ İMANOVA. Tərcüməyönümlü ixtisaslarda ikt -nin rolu.onlayn tərcümə. Problemlər. Təkliflər 671
AYNUR NƏCƏFOVA. Paylanmış şəbəkələrdə informasiya təhlükəsizliyi 675
MİNAYƏ MƏMMƏDOVA. Şəbəkədə etibarlılıq və informasiya mühafizə problemləri 680
MURAD ƏHMƏDOV. Naxçıvan Muxtar Respublikasının müstəqilliyinin bərpası illərində kitabxana işi 683

SEVİNC ƏSƏDOVA. Ekspert sisteminin tətbiqi ilə qərar qəbul etmə prosesi 686
PÜSTƏ ZEYNALOVA. İdarəetmədə informasiya sistemlərinin inkişaf istiqamətləri: gələcəyə doğru yol xəritəsi 690
DÜRAYƏ MƏMMƏDLİ. Bank xıdmətləri sahəsində ınformasıya texnologiyalarindan istifadə 692
GÜNSEL QASIMZADƏ. Tarix dərslərində informasiya-kommunikasiya texnologiyalarından istifadə 697
AYGÜL ABDULLAYEVA. Müasir fizika dərslərində kompüterdən istifadənin perspektivliyi 702
NUBAR QƏNBƏROVA. Yeni iqtisadi şəraitdə bankların idarə olunmasında müştəri layihələrinin əhəmiyyəti 704
GÜLTAC ƏLİYEVA, MƏHƏBBƏT MUSA. Elektron kitablar və onların tətbiqi 708
KÖNÜL MƏMMƏDOVA, FATMA NƏZƏRƏLİYEVA. Artırılmış reallıq texnologiyası informasiya texnologiyası kimi 710
SƏDAQƏT MƏMMƏDOVA. Müxtəlif siniflər üzrə texnologiya dərslərində tədris olunan elektrotexniki işin öyrədilməsi metodikası 715
MEHPARƏ İSMAYILOVA. Texnologiya dərslıklərində “elektron texnologıyaları” bölməsindəkı mövzuların elmı-nəzərı əsaslarının araşdırılması.Kompüterin tipləri və növləri 718

TEXNİKİ ELMLƏR

ƏYYUB AĞAYEV. Alternativ enerji mənbələrindən istifadənin üstünlükləri 721
ŞƏBNƏM MƏMMƏDOVA. Geniş istifadə olunan texnoloji öyrənmə üsulları 726
KÖNÜL ƏHMƏDOVA, MİRNAMİK BƏŞİROV. Günəş aktivliyinin tələbələrin tədris göstəricilərinə təsirinin tədqiqi 730
AYSUN HÜSEYNOVA. İnformasıya axtarış sıstemlərındə maşın öyrənməsı və maşın öyrənmə metodlarının ranklanma problemlərində tətbıqı 735
KÖNÜL MƏMMƏDOVA, FATMA HƏMZƏYEVA. Tədris prosesinin təşkilinin yeni formalarından istifadəyə informatika müəlliminin hazırlanması üsulları 739
A.MAMMADOVA, M.BASHIROV. A survey of solar wind models 744
VÜQAR SALMANOV, MƏNZƏR MAHMUDLU. Sosial informatika yeni elmi istiqamət kimi 748
VÜQAR SALMANOV, GÜNEL ABBASOVA. İnformatika fənninin tədrisinə səriştə əsaslı və sistemli fəaliyyət yanaşmaları 751
GÜL QULUZADƏ. İnformatika ixtisası bakalavrlarının hazırlanması sistemində proqramlaşdırma təliminin rolu və yeri 755
GÜL KÖNÜL. Obyekt yönümlü proqramlaşdırmanın əsasları üzrə tədris metodlarının effektivliyinin qiymətləndirilməsi üzrə eksperimental iş 760
ZEYNƏB HÜSEYNOVA. Logıstık sıstemlərın ıdarə edılməsındə nəqlıyyatın yerı və rolu 764
MƏZAHİR RZAYEV. Naxçıvan Muxtar Respublikası ərazsisində II və III sinif qruntlarda inşa olunan kürələrdə zəlzələ zamanı yaranan nisbi sürüşmə deformasiyaları 767
SƏMINƏ RÜSTƏMOVA, FƏRHAD RÜSTƏMOV. VR və AR texnologiyalarının tədris prosesinə inteqrasiyası məsələləri 770
ŞƏFİQƏ MEHDİYEVA. Germaniumun kompleksəmələgətirici SB-1 anionitinin fəal qrupları ilə qarşılıqlı təsirinin mexanizmi haqqında 774
LEYLA BAĞIROVA. Texnologiya üzrə məşğələlərdə uşaqların yaradıcı fəalıyyətının formalaşdırılması 779

İCTİMAİ ELMLƏR

AYSU ABDULLAZADƏ. Enerji təhlükəsizliyi , enerji effektivliyi və ətraf mühitin mühafizəsi problemi 782
VİDADİ BEHBUDOV. Əmək ödənişləri üzrə audit yoxlamalarının xüsusiyyətləri 786
AYSUN CƏFƏROVA. Kommersiya banklarının əmək potensialı onun rəqabət qabiliyyətliliyinin əsası kimi 790
ƏDALƏT TAĞIYEV. Regionlararası fərqlilik və tənzimlənməmiş fərqliliyin sosial-iqtisadi nəticələri 795
ELVİN QƏNBƏRLİ. Kiçik biznesin innovativ inkişaf faktorlarının iqtisadi artıma təsiri 800
ƏŞRƏF ƏLƏKBƏROV, CAVİD HƏSƏNLİ. Müasir iqtisadi inkişaf mərhələsində sahibkarlıq fəaliyyətinin əsaslandırılması 804
KƏMİNƏ ORUCƏLİYEVA. Kommersiya bankları maliyyə bazarının subyekti kimi 808
OĞUZ CƏFƏROV. Müasir dövrdə Azərbaycanda əmək bazarının dövlət tənzimlənməsinin məzmunu və xüsusiyyətləri 815
RAUF ƏLİYEV. Yeni dövrdə Naxçıvan Muxtar Respublikasında ekoloji təmiz layihələrin həyata keçirilməsi istiqamətləri 820
İLAHƏ SADİQOVA. Əsrin qələbəsi və yeni geosiyasi reallıqlar 824
SEVİNC SƏFƏRLİ. Azərbaycan Respublikasının müalicə-sağlamlıq turizm sahəsində mövcud problemlər və bu problemlərin həllində dövlət siyasətinin rolu 826
SEVİNC ƏMİRƏLİYEVA. Regional bank sistemi pul-kredit tənzimlənməsinin başlıca vasitələrindən biri kimi 830
ƏLİ FƏRƏCOV. İdarəetmədə informasiya sistemlərindən istifadənin əsasları 836
ELXAN MASUMOV. Naxçivan Muxtar Respublikasinda aktiv istirahət məzmunlu turizm marşrutlarinin perspektiv imkanlari 841
HƏSƏN HƏSƏNOV. Naxçivan türbələrinin türk-islam memarliğinda ədəbi xüsusiyyətləri 844
MƏRHƏMƏT QULİYEV. Terrorizmin yayılmasının əsas səbəbləri və terrorizmin yayılmasına qarşı mübarizə tədbirləri 848
SƏİMƏXANIM ƏLİYEVA. Xarici və daxili investisiyaların ölkənin iqtisadi inkişafında əhəmiyyəti 852
TURAL TAPDIQLI. Sənaye müəssisələrinin əsas kapital istiqamətlərinin mahiyyəti və əhəmiyyəti 857
FİDAN SADİQOVA. Kommersiya banklarının kapitalının dəyərinin qiymətləndirilməsi üsulları 861
FƏRAHİM MƏMMƏDOV. Yol nəqliyyat hadisələri və onların təsnifatı 864
ELTUN İBRAHİMOV, YADULLA ZEYNALOV. Ölkəmizdə sənaye strukturunun formalaşmasına təsir göstərən amillər 867
MİRCƏBRAYIL MUSTAFAYEV. Xarici ticarətdə gömrük-tarif tənzimlənməsi və onun hüquqi təminatının təkmilləşdirilməsi əhəmiyyəti 871
ŞİRƏLİ ƏLİYEV. Azərbaycan və türkiyənın xarici ticarətinin inkişafı 874
AKİF BUDAQLI. Azərbaycan Respublikasında dövlət idarəçiliyində innovasiya siyasəti 884
ASƏF QƏRİBOV, AMİN FƏRZƏLİYEV. Naxçıvan Muxtar Respublikasının davamlı iqtisadi inkişafına bank sektorunun təsiri məsələləri 888
MÜBARİZ GÖYÜŞLÜ. Azərbaycan və Türkiyə iqtisadi münasibətlərinin mediada əks olunması 893
ABBAS İSMAYILOV. İnsan kapitalının müəssisənin fəaliyyətində rolu 894

ƏŞRƏF ƏLƏKBƏROV, CAVİD HƏSƏNLİ. Müasir iqtisadi inkişaf mərhələsində sahibkarlıq fəaliyyətinin əsaslandırılması 897
ALXAN NİFTƏLİYEV. Maliyyə axınları sənayeləşmə siyasətinin tərkib elementi kimi ... 901
NİHAD HÜSEYNLİ. UNESCO-nun maddi-mədəni irs nümunələrinə olan turizm marağı 905
HİNDƏ GÜLMƏMMƏDOVA. İşğal sonrası yeni dövrdə Qarabağda perspektiv turizm növlərinin inkişafı məsələləri 908
ELMƏDDİN HİLALLI. Azərbaycan Respublikasının qanunvericiliyində vətəndaşlıq institutunun formalaşması və inkişafı 912
GÜLCAN ƏLİZADƏ. Gənc ailənin çətinliklərinin xarakter xüsusiyyətləri 917
İNCİ PAŞAYEVA. müasır sosıallaşma şəraıtındə uşaqlarda sosıal normalar haqda baxışların formalaşdırılması 920
AYSEL ABDULLAYEVA. Universitetin sosial mühiti və tələbələrin fəaliyyətləri 924
SARA AĞAYEVA. Natamam ailələrdə böyüyən uşaqlarda devıant davranışlar 929
ƏRUS GÜLMƏMMƏDOVA. Pozitiv valideyn və yeniyetmə münasibətlərində fəaliyyətlə ünsiyyətin əlaqəsi 934
SALATİN HACİYEVA, GÜLTAC HƏSƏNOVA. Sosıal pedaqoqun peşə fəaliyyətinin strukturu 939
SEVİNC HİDAYƏTLİ. Şagirdlərin mənəvi tərbiyəsində milli dəyərlərdən istifadə 944
SALATIN HACIYEVA, AYSEL İBRAHİMLİ. Çətin həyat şəraitində yaşayan ailələrin sosial – pedaqoji problemləri 947
KİMYƏ ALLAHVERDİYEVA. Müəllimin peşə mədəniyyəti 952
SARA MUSAYEVA. İdeal ailə modeli 955
GÜLNAR NOVRUZOVA. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında xarici əlaqələrin rolu 958
GÜNEL ORUCOVA. Sosial işin təşkilinin beynəlxalq təcrübəsi 963
ÖZLƏM QARAYEVA. Cəmiyyətin informasiyalaşdırılması mühitinə keçid mərhələsində müəllimlərdə ünsiyyət bacarıqlarının formalaşdırılması 968
NURİDƏ QULUZADƏ. Sosial pedaqogikada şəxsiyyətin formalaşmasının pedaqoji-psixoloji məsələləri 972
BAĞIR BABAYEV, FİDAN RƏHİMLİ. Ailə sosial hadisə kimi və müasir ailələrdə sosial-problemlər 975
RÜBABƏ ƏLMƏRDANOVA. Şəxsiyyət və onun inkişafı 980
SUNAY ABDULLAYEVA. Azərbaycanda sosial işin təşkili və inkişaf perspektivləri 983
TALEH XƏLİLOV, ZÜLEYXA MURADOVA. XIX-XX ƏSR Azərbaycan maarifçilərinin şəxsiyyət tərbiyəsindəki rolu 991

SƏNƏTŞÜNASLIQ VƏ METODİKA

SƏMƏNNAZ İMANLI. N.A.Rimski –Korsakov və folklor 996
FİDAN KAMİLLİ. Muğamın bəstəkar yaradıcılığında təcəssümü 1000
RƏSUL MÜTƏLİMOV. Müasir dövrdə Azərbaycan bəstəkarlarının yaradıcılığında muğam sənətinin inkişafı 1003
NƏRMİN RZAYEVA. XX əsrin 50-60-ci illərində yazılmış operalarda folklor nümunələri .. 1007
NURLANA TAĞIYEVA. XX əsrin 60-cı illərində Azərbaycan bəstəkarlarının yaradıcılığında kantata-oratorial janr 1011
TURAN ABBASZADƏ. Ordubad şəhərının rekonstruksıya xüsusıyyətləri və problemləri 1015

AYİŞƏ ZEYNALOVA. Görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin yaradıcılığında milli üslub xüsusiyyətləri 1020
MİRSƏLİM EMİNOV. Naxçıvanın dəmir dövrü sənətkarlığın texniki üsulları 1025
NİGAR HÜMBƏTOVA. Bəstəkar Emin Sabıtoğlunun mahnı yaradıcılığı 1026
ORHAN GHORBANİ. Azərbaycan bəstəkarlarının əsərlərində forma və məzmunun ifadəsi .. 1032
SOFİYA AXUNDZADƏ. Bəstəkar süleyman ələsgərovun yaradıcılığının səciyyəvi xüsusiyyətləri 1037
ŞƏMSİYYƏ ZALOVA. Azərbaycan memarlıq tarixi əcnəbi tədqiqatçıların qeydlərində 1041
TURANXANIM HÜMBƏTOVA. Klassik səhnə sənətində rejissorun və aktyorun rol üzərində yaradıcılıq prosesinə K.S.Stanislavski "sistem"inin tətbiqi prinsipləri 1045
TƏRANƏ MƏMMƏDOVA. Muğam janrının yaranması və inkişaf mərhələləri 1048
ŞÜKUFƏ VƏLİYEVA. Arif Məlikovun simfonik musiqi yaradıcılığı 1053
NAZİLƏ QARDAŞBƏYOVA, ZİNYƏT MƏMMƏDZADƏ. Azərbaycan kinofilmləri üçün yazılan musiqilərin milli xüsusiyyətləri 1056
ZEYNƏB MAHMUDOVA. Fəal təlimin təsviri sənətdəkı rolu və ənənəvi təlimlə müqayisəsi 1061
KÖNÜL SÜLEYMANZADƏ. Tofiq Bakıxanovun bəstəkarlıq üslubunun spesifik cəhətləri 1062
GÜNAY ƏLİYEVA. Bəstəkar Kamal Əhmədovun "Mən səni sevmişəm" romansında milli xüsusiyyətlər 1066
FƏRHAD ALLAHVERDİYEV. Müasir Azərbaycan karikaturasında Bayram Hacızadənin rolu 1067
AYSUN ƏLƏSGƏROVA. Azərbaycanda balet janrının yaranması və bu janrın ilk nümunələri 1069
CƏMİLƏ ALLAHVERDİYEVA. Pyotr İlıç Çaykovskının sımfonık yaradıcılığı 1072
AYSEL BAĞIROVA. Türk aləmində Naxçıvan musiqi mədəniyyəti 1075
CEYHUN ƏLİYEV, TÜRKANƏ AXUNDOVA. Tərcümədə terminlərdən istifadə metodları 1079
NƏRMİN AXUNDOVA. Şagirdlərin estetik və mənəvi dünyagörüşünün formalaşmasında incəsənət əsərlərinin rolu 1083
FƏRİD HƏSƏNZADƏ. Təsviri incəsənət dərslərində kiçikyaşlı məktəblilər üçün oyun fəaliyyətinin təşkili 1087
NAZİLƏ QARDAŞBƏYOVA, GÜLAN MƏMMƏDOVA. Zakir Bağırov yaradıcılığında konsert janrı 1091
AYSU RÜSTƏMOVA. Əlavə təhsil sistemində uşaq şəxsiyyətinin inkişafında təsviri sənətin rolu 1094
NƏCİBƏ QAFAROVA. Cövdət Hacıyevin yaradıcılığında aşıq musiqisi 1097

HUMANİTAR ELMLƏR

TALEH XƏLİLOV
x.taleh@gmail.com

SURƏ VƏLİYEVA
sura.valiyeva@gmail.com
Naxçıvan Dövlət Universiteti

PEDAQOJİ MONİTORİNQ TƏHSİL PROSESİNİN İNFORMASİYA TƏMİNATI VASİTƏSİ KİMİ

Məqalədə tədris prosesi, onun təkmilləşdirilməsi yolları, pedaqoji monitorinq, pedaqoji monitorinqin informasiya vasitəsi kimi rolu, pedaqoji monitorinqin təhsil sistemində yeri və əhəmiyyəti, pedaqoji monitorinq və qiymətləndirmə proseslərinin və vasitələrinin əhatə dairəsi, tətbiqi və nəticələrindən bəhs olunur. Tədris prosesinin təkmilləşdirilməsi yolları diqqətə çatdırılır. Müasir dövrümüzdə təhsil sisteminin hazırkı pedaqoji monitorinq və qiymətləndirmə sistemi əsasında inkişaf istiqamətlərindən söz açılır.

Açar sözlər: *Pedaqoji monitorinq, tədris, informasiya, İKT, təhsil, inkişaf*

Azərbaycanda təhsil sisteminin inkişafı cəmiyyətin bir çox sahələrində inkişafa nail olmaqla yanaşı həm də təhsilin informasiyalaşdırılması prosesinə qoşulmuşdur. Hazırda müasir dövrümüzdə informasiya və texnika cəmiyyətində pedaqoji fəaliyyətə, təhsil prosesinə peşəkarcasına və səriştəli yanaşmaq əsas tələblərdən biri hesab olunur. Təhsilin inkişafına təsir göstərən əsas amillərdən biri də informasiya cəmiyyətinin yaranmasıdır. Təhsilin inkişafı birbaşa cəmiyyətin inkişafı ilə bağlıdır. İnformasiyalı cəmiyyətin gələcək qurucularını məktəb illərindən başlayaraq yeni- yeni İKT ilə tanış olması və ondan sərbəst istifadə etməyi bacarması müasir təhsil sisteminin optimallaşdırılmasının əsa tələblərindən biridir. İnsan fəaliyyətinin bir çox sahələrində olduğu kimi, tədris prosesində İKT-dən istifadə fəaliyyətin səmərəsini artırmaqla yanaşı onu optimallaşdırır, buda öz növbəsində təlimin keyfiyyətinə müsbət təsir göstərir. İKT-nin təhsil sisteminə inteqrasiyası, təhsil prosesinin məzmununu və idarəolunmasının modernləşdirilməsi istiqamətində davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır [Cəbrayılov, İ., 2013].

Ənənəvi təhsilin informatlaşdırılması onun daha da zənginləşib inkişaf etməsinə səbəb olmuşdur. Öyrədən və öyrənən təlimdə qarşılıqlı əlaqələrin qurulmasına, əks-əlaqənin həyata keçirilməsinə, qarşılıqlı informasiya mübadiləsinin inkişafına şərait yaradır. İKT əsaslı təlim prosesində öyrədən və öyrənənin yeni interaktiv tərəfdaşı meydana gəlir. Müəllim şagird üçün informasiya mənbəyi rolundan çıxır. İKT vasitələri sayəsində müəllimin imkanlarının bir qismi məhdudlaşır, əsas üstünlük İKT vasitələrinə keçir. Bu zaman öyrədən daha çox məsləhətçi funksiyasını daşıyır. Müəllim vaxtını şagirdlərə informasiya ötürməyə sərf etmir. Artıq müəllim tədris materialını təhsilalanlara nəql etməyə və onlardan öyrənilmiş materialı almağa vaxt itirmir. Qazanılmış əlavə vaxt müddətində təhsilalanlar digər yaradıcı məsələlərlə məşğul olmağa imkan qazanırlar. Beləliklə, təhsil və informasiya mühitinin qarşılıqlı əlaqəsi formalaşdıqca İKT vasitələri arasında yeni səviyyəli informasiya mühiti yaranır və informasiya mübadiləsi imkanları genişlənir. Bu da təhsilalanların yeni təlim-tədris mühitində təhsil almalarına, tədris prosesinin təkmilləşdirilməsinə və onların inkişafına yol açır.

Pedaqoji monitorinq informasiya təminatı vasitəsi kimi təhsil sisteminin prosedurlarına nəzarət, məlumat toplama və informasiya kommunikasiya texologiyalarının emalı prosesidir. İnformasiya təminatı vasitəsi olan pedaqoji monitorinq elektron məlumat bazasının (veb portal) yaradılmasını, tədris bazasından səmərəli istifadəni, onun davaml inkişafını tələb edir. Təhsil portalı cəzbedici

olmaqla bərabər elektron dərsliklər, metodiki vəsaitlər, məlumat-sorğu sistemləri, inkişafetdirici oyunlar, elektron testlər və başqa təhsilyönümlü materiallarla zənginləşdirilməlidir. Portalda fənlər üzrə metodiki dəstəklə bağlı bölmələr yaradıla bilər, orada nümunəvi dərslərin video nümunələrinə geniş yer verilməlidir.

Təhsilin informatlaşması nəticəsində müasir pedaqoji innovasiyalar həyata keçirilir, əsas məqsəd təlim- təhsil fəaliyyətini aşağıdakı vəzifələrin icrasına və problemlərin həlli metodologiyasına yönəltmək, tədris prosesini texnologiya və praktika ilə təmin etməkdir:

1.Təhsil məqsədli informasiya resurlarından istifadə olunması, pedaqoji informasiya bazasında qarşılıqlı əlaqə texnologiyalarının müəyyən edilməsi;

2.Təhsil eksperimentlərinin təşkil edilməsi. Aparılan eksperimentlərin nəticələrinin təhlil edilməsi və emalı proseslərinin həyata keçirilməsi;

3. Diaqnostik mərhələnin tətbiq edilməsi ilə təhsilalanların bilik və bacarıq səviyyələrinin, təhsil nailiyyətlərinin qiymətləndirilməsi. Onların intellektual imkanlarının hansı səviyyədə olması, təlim keyfiyyətlərinin müəyyənləşdirilməsi məqsədilə bir sıra testlərin hazırlanması və tətbiqinin həyata keçirilməsi;

4.İKT vasitələrinin təhsildə tətbiqinə yönələn pedaqoji proqram vasitələrinin (PPV) pedaqoji cəhətdən qiymətləndirilməsi;

5.Pedaqoji informasiya, metodiki materiallardan istifadə etməklə, verilənlər bazası və kompüter şəbəkələrindən istifadə etməklə təhsil sisteminin idarə olunması mexanizminin təkmilləşdirilməsi. İnformatlaşma prosesləri vasitəsilə ümumtəhsil müəssisələrinin və tədrisin idarə olunması [Əhmədov, İ., 2009, 35-36].

Təhsil prosesinin informasiya təminatı vasitəsi, analitik qiymətləndirmə, proqnostik funksiyaları pedaqoji monitorinqin funksiyaları sırasına aid etmək olar. Təhsilin keyfiyyətini effektiv qiymətləndirmək üçün ölçülə bilən mexanizm lazımdır. Bu problemin həlli təhsil müəssisələrində pedaqoji monitorinqin tətbiqidir. Təhsil proqramlarının keyfiyyətinin monitorinqi və idarə olunması üçün informasiya sistemi hazırlanmışdır. Təhsilin keyfiyyətinin yüksəldilməsi onun informasiya təminatı vasitəsi kimi çıxış etməsində mühüm rol oynayır. Təhsil prosesinin pedaqoji monitorinqi və qiymətləndirilməsi təhsilin informatlaşdırılması prosesinin əsasını təşkil edir. Müasir araşdırmalar göstərir ki, hazırki dövrdə təlimin məzmununa gətirilən informasiyalar təkcə ayrı-ayrı öyrənənlərə deyil, bütövlükdə cəmiyyətə istiqamətlənməli, cəmiyyətin sosial, iqtisadi, siyasi- mədəni inkişafında təkanverici rol oynamalıdır.

Şagird informasiya təminatı kimi bütün təlim-tərbiyə fəaliyyətinin mərkəzində dayanır. Təhsilin təşkilinin bütün üsul və formaları şagirdin hərtərəfli inkişafına xidmət etməsi ümumtəhsil müəssisələrinin əsasını təşkil edir. Pedaqoji monitorinq zamanı məktəbin əhatəsi, fənn proqramları, müəllimlərin dərs zamanı istifadə etdiyi metodlar, dərsliklərin hazırlanması, təhsil texnologiyaları müşaiyət edilir, yoxlanılır və korreksiya işləri aparılır. Məqsəd şagird və tələbələrə qiymət vermək deyil, öyrənmə çatışmazlıqlarını aşkar edib tamamlamaqdır. Bu tip qiymətləndirmə və monitorinq müəllim və şagirdlərə tədrisin effektivliyi haqqında davamlı məlumat vermək üçün aparılır.

İnformasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə tədris prosesinin monitorinqi çərçivəsində təhsilalanların fəaliyyəti təlim prosesinin planının əsasını təşkil edən strateji prosesdir. İnformasiya kommunikasiya texnologiyaları sayəsində hər bir mərhələnin keyfiyyətlə həyata keçirilməsi ilə dərslərin gedişatı müəyyən edilmişdir. Müəyyən bir şəkildə monitorinq edilmiş, diaqnoz qoyulmuş, proqnozlaşdırılmış və düzəliş edilmişdir. Hər bir mərhələ haqqında məlumat alınmışdır.

Kompüterdə monitorinq sisteminin layihələndirilməsi bacarığı elmi dərslərin, birgə məqsəd və vəzifələrin əldə olunmasına və hər bir dərsin yerini müəyyənləşdirmək, səmərəli ünsiyyət qurmaq, təhsilalanlarla birlikdə informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadə edərək yüksək nailiyyətlər əldə etməyi təmin etdi.

Məlumatların toplanması, emalı, təhlili və şərhini təmin etmək üçün pedaqoji monitorinqin informasiya vasitəsi olmaq funksiyası təhsilin təkmilləşdirilməsində vacib nüanslardan biridir. Eyni zamanda, pedaqoji monitorinq informasiyanın elementidir, səriştəli idarəetmə və pedaqoji qərarların

qəbulunda dəstək sistemidir. Pedaqoji monitorinq və qiymətləndirmə sistemi olmadan ümumtəhsil müəssisələrində təhsil prosesinin səmərəliliyini elmi əsaslarla proqnozlaşdırmaq, planlaşdırmaq, təşkil etmək, tənzimləmək və onu səmərəli idarə etmək mümkün deyildir.

ƏDƏBİYYAT

1) Cəbrayılov, İ. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013.- 296 s.
2) Əhmədov, İ. Təhsilin informatlaşması pedaqoji elmin yeni sahəsidir.”Azərbaycan məktəbi” jurnalı № 3, 2009.- 112 s.

SUMMARY

Taleh Khalılov, Surah Valiyeva

PEDAGOGICAL MONITORING AS A MEANS OF INFORMATION SUPPLY OF THE EDUCATIONAL PROCESS

The article talks about the teaching process, ways to improve it, pedagogical monitoring, the role of pedagogical monitoring as an information tool, the place and importance of pedagogical monitoring in the educational system, the scope, application and results of pedagogical monitoring and evaluation processes and tools. Ways to improve the teaching process are highlighted. In our modern era, there is talk of development directions based on the current pedagogical monitoring and evaluation system of the education system.

Key words: *Pedagogical monitoring, teaching, information, ICT, education, development*

ÜLKƏR MƏMMƏDOVA
mammadovaul91@gmail.com
Naxçıvan Müəllimlər İnstitutu
ORCID ID: 0009-0004-9813-6674

SÜNİ İNTELLEKT VƏ EMOSİONAL İNTELLEKTİN QARŞILIQLI ƏLAQƏSİ FONUNDA BÖYÜK MƏKTƏB YAŞI DÖVRÜNDƏ KOQNİTİV BACARIQLARIN İNKİŞAF ETDİRİLMƏSİ

Məqalədə XXI əsr bacarıqlarının əsasını təşkil edən İKT bacarıqlarının fonunda erkən gənclik dövründəki şagirdlərdə ikinci planda qalan Emosional intellektin ön plana çıxarılması, süni intellekt (Aİ) və Emosional intellektin (Eİ) qarşılıqlı əlaqəsi nəticəsində koqnitiv bacarıqların inkişaf etdirilməsi metodlarından danışılmış, həmçinin, yeni təhsil metodu olan STEAM təhsil metodu zamanı istifadə olunan Emosional intellektin əməkdaşlıq, sosial bacarıqlar, motivasiya, Koqnitiv bacarıqların diqqət, problem həll etmə, məkan-vizual və s. elementlərinin bu sahədəki əhəmiyyətli rolundan bəhs edilmişdir. Texnologiya əsrində Azərbaycan təhsilində geniş istifadə olunan İnformasiya Kommunikasiya Texnologiyaları sahəsində infrastrukturun genişləndirilməsi nəticəsində, böyük məktəb yaşlı şagirdlərin internet istifadəsinin faydalı istiqamətə yönəldilməsi üçün tələb olunan şərtlər nəzəri və praktik cəhətdən araşdırılmışdır.

Bu gün 21 əsrin tələblərinə uyğun olaraq, texnolohgiyanın inkişafı, insan əməyinin robotlarla əvəz edilməsi emosiyaların ikinci plana atılması və yeni Z generasiyası adlanan nəslin bacarıq və qabiliyyətlərinin yüksək səviyyədə olmağına baxmayaraq, onlarda empatiya hissinin zəif olduğu müşahidə olunur.

TƏNZİLƏ RÜSTƏMLİ
tenzilerustemli@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0009-4462-0272

NAĞIL RUHLU YAZIÇI - SƏMƏD BEHRƏNGİ

Səməd Behrənginin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisə idi. Bu, mövzunun aktuallığını əsaslandıran əsas amildir. Səməd Behrənginin yaradıcılığına müraciət etmək – həm də Cənubi Azərbaycan ədəbiyyatına xas olan aktuallığın əsas əlamətlərindəndir. Beləliklə, Səməd Behrənginin (1939-1968) yaradıcılığı xalq ədəbiyyatına məxsus olan xüsusi poetik özəlliklərə-söz, məna, fikir, ideya, ruh özəlliklərinə malikdir. Səməd Behrənginin yaradıcılığını nəsr poetikasına aid poetik strukturdan, bədii özəlliklər konteksindən yanaşmaq, onun poeziyasına məxsus cəhətləri ön xəttə çıxarmaqdır.

Açar sözlər: *Cənubi Azərbaycan ədəbiyyatı, Səməd Behrəngi yaradıcılığı, poetik özəlliklər, nəsr poetikası, ideya özəllikləri*

Səməd Behrəngi (1939-1968) çox işıqlı ziyalı yazıçı idi. Eyni vaxtda bir neçə kənddə dərs deyərdi. Onun pedaqoji və xalq yaradıcılığı üzrə tədqiqləri və nağıllarından yayılan poetik işığı qaranlıqları vahimiyə salırdı. Ən böyük iradəsi Azərbaycan mədəniyyətinə vurğunluğu idi. Şagirdlərinə Büyük vətənin söz, hikmət aləmindən dürlü-dürlü məlumatlar verər, nağıllar oxuyardı. O nağıllar həm topladıqlarından olardı, həm də özünün yazdıqlarından. İlkin olaraq, şagirdlərinə Azərbaycan folklor nümunələrini tanıdar, xalq arasında yayardı. Onun bədii yaradıcılığının ruhu da öz ruhunda idi: bu nağıllı ruh idi.

Səməd Behrəngi nağıllar toplamış, şagirdlərinə oxudarmış. O, nağıl aşiqi idi. Ona görədir ki, bütün hekayələrini nağıl dili ilə qələmə almışdır. Çünki gerçəkləri nağıl dilində gözəl ifadə etmək olurdu. Özünün yazdığı hekayələr də sağlığında xalq arasında tanınmışdır.

Və Səməd Behrəngi yeni üslublu bir nasir kimi "Adət", "Binam", "Narınc qabığı", "Balaca qara balıq", "Ulduz və qarğalar", "24 saat yuxuda və ayıqlıqda", "Çuğundursatan oğlan", "Bir hulu, min hulu", "Məhəbbət nağılı", "Təlxun", "Ləbi satan uşaq", "Qoca arvad və qızıl cücəsi", "Koroğlu və keçəl Həmzə", "Ulduzla danışan gəlincik", "Əli dayının keçiləri", "Alışqanlıq", "Çox bəxtiyar ağa" kimi hakayələrini nağıl stilində yazmışdır. Nağıl stili cəmiyyətin və insanların həyat burulğanlarını daha canı və maraqlı şəkildə ifadə edirdi.

Ədəbiyyatşünas tənqidçi Əbülfəz Əzimli Əli Daşqın haqqındakı məqaləsində S.Behrəngini yada salır və Əli Daşqının poetik kövrəkliyini S.Behrənginin ruhu ilə bağlayaraq yazır: "Səməd Behrəngi nakam öksüz idi ki, anasına qovuşdurdular – şah cəlladları boynuna ağır daş bağlayıb Arazın dərinliklərinə atdılar. Araza atdılar ki, ağır daşla birgə onun suyunu, bir az da coşdursun, qaldırsın, desinlər, Arazın suyu qalxıb" [Əzimli Ə. 1) 4, s.158-159; 2) 5, 400-404].

Səməd Behrəngi özü də nağıl üslublu bir müəllim, yazıcı, ziyalı idi. Hər şeyə gözəllik, ədalət-haqq prizmasından baxırdı. Haqqında bəhs etdiyimiz "Adət" hekayəsi onun ilk mətbu əsərlərindən biridir. Əsərin qəhrəmanının həyati düşüncələri, yaşam halları və cəmiyyətdəki psixoloji durumlara həssas olan və həm düşüncəsi, həm də hərəkətləri-münaisibətləri ilə sərt təmasda olan insandır. Yazıçı elə ilk cümlələrindən onu qeyri-adi bir münasibətlərdə olan insan kimi təqdim edir: *"Bizim bu müəllim acından ölməmək üçün bir qarın çörək istəyənlərdən deyildi. İstəyirdi ki, yaxşı yaşasın, başqalarının gözlədiyindən də yaxşı. Texnikumda qəbul imtahanlarını uğurla başa vuranda o qədər də sevinməmişdi. Heç yadına gəlmirdi ki. Hansı qüvvə onu bu mühitə ayaq basmağa məcbur etmişdi, gələcəyi haqda nə düşünürdü, arzusu, amalı nə idi" [3, Güney Azərbaycan nəsri, 2017, s.194]* Yazıçı, müəllimini sərgüzəştli, cəmiyyətdəki haqsızlıqlara və qeyri-səmimi hallara qarşı əks reaksiya vermə hallarını macəralı nağıl tərzində təsvir edir. Onun qəhrəmanı dinamik bir obrazdır, vətəndaşdır.

Başqaları kimi öz mövqeyini gizlədə bilmir. Sözsüz ki, Səməd Behrəngi bu müəllim obrazı ilə öz həyat macəralarını və baxışlarını, cəmiyyətlə insan haqqı arasındakı münasibət məzmunlarını qələmə almışdır.

Onun qəhrəmanı müəllimdir: öz mənəvi saflığı və iradəsi ilə insanlardan üst mövqedə dayanır. Təsvirdə birinci tanıtma obrazın bir neçə dramatik halını təqdim edir. Bu təqdimlər ilk baxışda, adi məlumat xarakteri daşıyır. Ancaq bu bədii faktlar insanın-qəhrəmanın simasında cəmiyyətin, quruluşun və xalq həyatının təzadlarını əks etdirir. *"Təpənin başından baxanda kənd tüstülənən odun qalağına bənzəyirdi. Ona bu görkəmi verən təndirlərin tüstüsü idi. Təxminən yeddi min nəfərlik əhalisi küçələrdə qaynaşırdı. Onlardan bəziləri kəndlərinin bərbadlığından dodaqaltı deyinir, lakin yenə də birtəhər yaşayırdılar. Hərə öz işi ilə məşğul idi. Ən qabarıq xüsusiyyətləri isə xəsislik və qəlbiqaralıq idi" [2. Antologiya, s.195]. Bir məkanda ki insanlar uyğunlaşma halındadırlar-yəni adət eləyirlər o tipik həyatın tipik münasibətlərinə, o zaman bu təzada və tüstü altında boğulma halında olmalarına adi bir şey kimi baxanların faciələri daha sərt şəkil alır. Obrazın halı – adi bir tərzlə baxılsa tüstülənmə halıdır.*

"Tüstülənən odun qalağı" bənzətmə deyil, real görünən mənzərədir. Adamlar o tüstülər içərisində daxilən boğulma halında idilər İnsan təbiəti ilə yaşam şəraiti və münasibəti bir-birinə oxşayırdı. Təzad-təzad içində idi.Bununla belə, adamlar öz məkanlarının halı içərisində birtəhər yaşayırdılar - adət halını almışdır onların yaşamları uyğunlaşma təzadı içərisində idi. Adət halında olmaları da insanın faciəli halı idi. Cəmiyyət insanı öz rənginə və halına salır-əsərdən çıxan ideya bundan ibarətdi.

Hekayədə bədii detallar çoxdur, hamısı da tipik məzmun səviyyəsi daşıyır. Üslubi və təsviri baxımda detallar çoxdur; hər bir bədii detal-obrazın xarakterlərinin məzmun səhifələrini inikas etdirir. Bütün bədii detallar lirik, sərgüzəştli nağıl elementlərinə bənzəyir. Sonrakı məzmunlarda Səməd Behrəngi öz qəhrəmanının həyatına aid olan "şirin xatirələr" şəklində təqdim edir:

"Texnikumda oxuduğu iki il qəlbinin ən gizli guşəsində saysız-hesabsız şirin xatirələr qoymuşdu. Sonralar tənhalıq, bekarçılıq vaxtlarında bu xatirələri yada salmaq onun üçün bir növ ürəkaçan, baş qarışdıran işə çevrildi" [3. Antologiya s.194].

Yazıçı Obrazın halındakı səmimiyyətlə cəmiyyət arasındaki faciələri nişan verir. Müəllifin-obrazın həyatı ilə özünün mənəvi saflığı, eyni zamanda haqsızlığa qarşı təpkiləri tipik hallardır, Belə deyək ki, bütün bunlar obrazın yaşadığı həyatın və onun xarakter hallarıdır. Obrazın hal və hərəkətləri, münasibətləri fonunda Cəmiyyətin də məzmun xarakteri açıqlanır. Budur, yazıcının bənzətmələri nə qədər kövrək və həssas bir xarakteri təsvir edir:

Müəllim-obraz elə bir xarakterdədir ki, *"Oyuncaqlarının hər biri ilə bir müddət məşğul olan, onların hər birindən xüsusi daxili ləzzət alan uşaq kimi o da hər xatirədən mütəəsir olur, ürəyində razılıq hissi baş qaldırırdı"*

Bunlar obrazın daxilindəki mənəvi-iradi böyüklüyü əks etdirir.

Səməd Behrənginin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisə idi. Bu, mövzunun aktuallığını əsaslandıran əsas amildir. Səməd Behrənginin yradıcılığına müraciət etmək – həm də Cənubi Azərbaycan ədəbiyyatına xas olan aktuallığın əsas əlamətlərindəndir..

Beləliklə, Səməd Behrənginin (1939-1968) yaradıcılığı xalq ədəbiyyatına məxsus olan xüsusi poetik özəlliklərə - söz, məna, fikir, ideya, ruh özəlliklərinə malikdir. Səməd Behrənginin yaradıcılığını nəsr poetikasına aid poetik strukturdan, bədii özəlliklər konteksindən yanaşmaq, onun poeziyasına məxsus cəhətləri ön xəttə çıxarmaqdır. Bu, ŞSəməd Behrəngi kimi, ustad yazıçının ədəbi prosesdə tutduğu yeri də aydın şəkildə xarakterizə etmiş olar. Çünki XX əsr poetikasına məxsus cəhətlər ümummilli ədəbi prosesin əsasını təşkil edir.

ƏDƏBİYYAT

1. Behrəngi Səməd. Məhəbbət nağılı. Bakı: 1987.
2. Güney Azərbaycan nəsri: Başlanğıcdan bu günə qədər (Antologiya) Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017, 576 s.
3. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası / Bakı: Elm, 1981. 384 s.
4. Əzimli Əbülfəz. İçimizdə boğulan səsin şairi, yaxud Cənublu şair Əli Daşqın. "Azərbaycan" jurnalı, 2006, N- 7, s. 158-165.
5. Əzimli Əbülfəz. "Buzlu düşüncələr". Ali Daşkın. Gönül saksısı. Bakı: "Avrasiya press" yayın evi, 2005, s. 400-404.

SUMMARY

Tanzile Rustemli

WRITER WITH A FAIRYTALE SPIRIT - SAMAD BEHRANGI

Samad Behrangi's work was a new literary event in the 20th century Azerbaijani literature. This is the main factor justifying the relevance of the topic. Turning to Samad Behrangi's work is also one of the main signs of the actuality characteristic of South Azerbaijani literature. Thus, the creativity of Samad Behrangin (1939-1968) has special poetic features belonging to folk literature - words, meaning, thought, idea, spirit. It is to approach Samad Behrangi's work from the poetic structure of prose poetics, from the context of artistic features, and to bring the features of his poetry to the forefront.

Key words: *South Azerbaijani literature, Samad Behrangi's creativity, poetic features, prose poetics, idea features*

РЕЗЮМЕ

Танзила Рустемли

ПИСАТЕЛЬ СО СКАЗОЧНЫМ ДУХОМ – САМАД БЕХРАНЖИ

Творчество Самеда Беранги стало новым литературным событием в азербайджанской литературе XX века. Это главный фактор, обосновывающий актуальность темы. Обращение к творчеству Самеда Беранги также является одним из главных признаков актуальности, свойственной южноазербайджанской литературе. Таким образом, творчество Самада Берангина (1939-1968) имеет особые поэтические черты, принадлежащие народной литературе - слова, смысла, мысли, идеи, духа. Это значит подойти к творчеству Самада Беранги из поэтической структуры поэтики прозы, из контекста художественных особенностей и вывести на первый план особенности его поэзии.

Ключевые слова: *южноазербайджанская литература, творчество Самеда Беранги, поэтические особенности, поэтика прозы, особенности идеи.*

AYSUN ŞÜKÜROVA
sukurovaaysun11@gmail.com
Naxçıvan Dövlət Universiteti

TARİX DƏRSLƏRİNDƏ MÜASİR TƏHSİL YENİLİKLƏRİNDƏN İSTİFADƏ TƏLƏBƏLƏRİN YARADICI QABİLİYYƏTLƏRİNİN TƏŞKİL EDİLMƏSİ YOLU KİMİ

Məqalədə Azərbaycan cəmiyyətinin inkişafının hazırkı mərhələsində təhsil islahatlarının xüsusi aktuallıq qazanmasından və bu islahatların keçirilməsində əsas məqsədin tələbələrin əsas səlahiyyətlərinin inkişaf etdirilməsindən, bacarıqların formalaşması üçün innovativ mühitin yaradılmsından ibarət olduğu qeyd olunur. Göstərilir ki, təhsil sahəsində həyata keçirilən islahatlar müəllimlərin qarşısına ən çətin vəzifələrdən birini-ali və orta məktəblərdə akademik fənlərin tədrisi metodlarını müasirləşdirmək vəzifəsini qoyub. Bunu isə artıq gündəlik həyatımıza daxil olan və adi qələm və dəftərləri, təbaşir və lövhəni tədricən əvəz edən müasir innovasiyalar, informasiya texnologiyaları olmadan etmək mümkün deyil. Artıq günümüzdə serverlərdə, bloqlarda, vebsaytlarda, təhsil platformalarında, sosial şəbəkələrdə, portallarda olan bütün məlumatların əlçatan olduğu vurğulanır.

Elmi məqalə məktəbdə tarixin tədrisi prosesi zamanı ən son təhsil yeniliklərindən istifadə edilməsindən bəhs edir. Müasir təhsil innovasiyaları tarixin tədrisində istifadə oluna bilən informasiya texnologiyalarının geniş spektrini təklif edir. Bunlar veb axtarışları, mental xəritələr və s-dən ibarətdir. İnnovativ texnologiyalara prioritet kimi qrup və fərdi təhsil formaları daxildir. İnnovativ təlim özü təlim prosesində yeni bir mərhələdir, bu, tələbə ilə müəllim arasındakı münasibətlərin tamamilə yenidən nəzərdən keçirildiyi, təlimin əsas məqsədinin hər bir tələbənin fərdi və fəal yanaşmasına çevrildiyi zaman təlim prosesinə yeni bir baxışdır.

Məqalədə qeyd olunur ki, müasir təhsil qarşısında təhsil fəaliyyətinin təşkilinin yeni növləri və formalarının axtarışı vəzifəsi durur. Təhsil müstəqil tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi baxımından inkişafetdirici olmalıdır. Bu məqsədlə bir çox müəllimlər artıq çoxdan layihə texnologiyasından və internet resurslarından istifadə edirlər. Amma internetdə məlumatların bolluğu və onun keyfiyyəti layihə üzərində işləmə prosesini sadələşdirməməklə yanaşı, onu çətinləşdirir. Bu problemin mümkün həll yollarından biri veb-kvest və yaxud webquest (veb-axtarış) texnologiyasıdır. Məqalədə innovativ təhsil strategiyasının işlənib hazırlanması vasitəsi kimi veb axtarış texnologiyasının imkanları müzakirə olunur. Veb-kvestin istifadəsi tarixin tədrisi prosesinin təşkilini daha müxtəlif və məhsuldar edir, öyrənilən mövzuya idrak marağı üçün motivasiya səviyyəsini artırır, kommunikativ sərişənin formalaşmasına və tələbənin informasiya mədəniyyətinin inkişafına kömək edir.

Açar sözlər: *Bacarıqların formalaşması; Təhsil innovasiyaları; İnnovativ təlim; Veb-axtarış; Tarixi yaddaş; Zehni xəritələr*

Azərbaycanda təhsilin keyfiyyətini yaxşılaşdırmaq və dövlətimizin üçüncü minillikdə sosial, siyasi, iqtisadi və s. tələbatlarını ödəmək təhsil sahəsində keçirilən islahatların əsas məqsədi kimi müəyyənləşdirilmişdir. Məhz bu məqsədlə də ölkəmiz ilə dünyanın qabaqcıl ölkələri ilə bu sahədə qarşılıqlı əlaqələr qurulmuşdur. Bu qarşılıqlı əlaqələrin nəticəsi kimi, 1999-cu ildən etibarən Təhsil Sahəsində İslahat Proqramının həyata keçirilməsinə başlanılmışdır [Nəzərov, 2012: 7-8].

Belə sürətli dəyişikliklər şəraitində müəllim öz multimedia, kompüter və informasiya savadını tez uyğunlaşdırmalı və təkmilləşdirməlidir. Ölkəmizdə təhsilin inkişafı, ali və orta məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi və onların informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması, müəllimlərin peşəkarlıq səviyyələrinin artırılması istiqamətində çox mühüm irəliləyişlər olmuşdur. Bununla belə, ölkəmizdə peşəkar müəllimlərə, yeni pedaqoji texnologiyaları dərindən mənimsəyən və tədris prosesinə tətbiq etməyi bacaran müəllimlərə çox böyük ehtiyac vardır [İlyasov, 2018: 13-14].

Məqaləni yazmaqda məqsəd tarixin tədrisi prosesində, xüsusən ümumtəhsil müəssisələrində tarix fənninin tədrisi zamanı innovativ texnologiyalardan istifadənin zəruriliyini və müasir təhsil yeniliklərinin

tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafında əhəmiyyətini göstərməkdir. Məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

-əsas anlayışların mahiyyətini açmaq, təlimin effektivliyini artırmaq üçün təlimin innovativ pedaqoji texnologiyasının və onun tədris prosesində tətbiqi şərtlərinin retrospektiv təhlilini aparmaq;

- tarixin tədrisi prosesində müasir innovativ texnologiyaların tətbiqi metodunu əsaslandırmaq;

- tarix elminin öyrənilməsi kursunda layihələndirmə, tədqiqat, distant texnologiyalardan istifadə üzrə innovativ dərs modellərini hazırlamaq.

Məktəbdə tarix tədrisinin qeyri-ənənəvi formaları müəllimlərin diqqətini böyük həcmdə tarixi materialın öyrənilməsi ilə şagirdlərin xarici müstəqil qiymətləndirməyə hazırlanmasına, tarixi şəxsiyyətlərin fəaliyyətinin, əsas tarixi hadisələrin öyrənilməsi ilə birləşdirmək imkanının əldə edilməsinə cəlb edir.

Məktəblinin həyatında hər dərs sevincli özünü kəşf, özünü ifadə, özünü təsdiq etmə məkanına çevrilməlidir. Yadda saxlamaq lazımdır ki, "Dərsin uğurunu müəllimin mədəniyyəti və peşəkarlığı müəyyən edir. Dərsin xeyirxahlıq, müstəqillik, yaradıcılıq və məsuliyyət məktəbinə çevrilib-çevrilməməsi ondan asılıdır" [Вакалюк, 2015: 43].

Metod: Məqalənin yazılması prosesində aşağıdakı üsullardan istifadə edilmişdir: sistemli yanaşma, statistik təhlil, ümumiləşdirmə, sintez, tədqiqat, təsvir.

Praktik əhəmiyyəti: Tarix və pedaqogika müəllimləri, magistrantlar, ali və ümumi orta təhsil müəssisələrinin tələbə və şagirdləri tərəfindən istifadə oluna bilər.

Giriş: Tarix müəlliminin məharəti, əsasən, təlim və tərbiyə metodlarına məharətlə yiyələnməkdən, pedaqogikanın ən son nailiyyətlərini və qabaqcıl pedaqoji təcrübəni yaradıcılıqla tətbiq etməkdən, şagirdlərin idrak və praktik fəaliyyətinə rasional rəhbərlik etməkdən, onların intellektual inkişafından ibarətdir. Müasir ali məktəb müəllimlərinin əksəriyyəti tarixin tədrisi prosesində daima qabaqcıl müasir təhsil innovasiyalarından istifadə edirlər. Ən əsası, əlbəttə ki, bunlar skriping, veb-kvestlər, ağıl xəritələri, infoqrafika, bulud və interaktiv texnologiyalardır. Təbii ki, onlardan istifadəsinin üstünlükləri və mənfi cəhətləri var. Ancaq yeniliklərin məqsədəuyğun birləşməsi və fərdi fəaliyyət yanaşması dərsin məqsədinə çatmaqda əhəmiyyətli təsir göstərəcəkdir. Eyni zamanda, yadda saxlamaq lazımdır ki, müasir şagird müəllimin hekayəsinin passiv dinləyicisi deyil, dərsin iştirakçısı olduğu maraqlı dərsdə olmaq, yeni məlumatlar öyrənmək istəyir. Bu, yaradıcı, ahəngdar və yüksək inkişaf etmiş səriştəli şəxsiyyət yetişdirmək üçün çox vacibdir. Təqdim edilən məqalədə tarixin tədrisində ən çox istifadə edilən, dərslərdə şagirdlərin yaradıcılıq qabiliyyətlərinin formalaşmasına kömək edən həmin təhsil yeniliklərindən bəhs etməyə çalışacağıq.

Webquest internetdə tələbələrin və ya müəllimlərin işlədiyi saytdır. Kvestlərin iki növü var: qısamüddətli (iki və ya üç sinif üçün nəzərdə tutulmuş biliyin dərinləşdirilməsi və inteqrasiyası) və uzunmüddətli (tələbələrin biliklərinin dərinləşdirilməsi və çevrilməsi uzun müddətə - bir semestr və ya tədris ili üçün nəzərdə tutulmuşdur). Veb-kvestlərin özəlliyi ondan ibarətdir ki, onunla tələbələrin müstəqil və ya qrup işi üçün məlumatların bir hissəsi və ya hamısı müxtəlif veb-saytlarda yerləşdirilir [Быховский, 1999: 7-11].

Veb-kvestlər ən çox mini-qruplarda işləmək üçün uyğundur, lakin çox vaxt veb-kvestlər fərdi tələbələr tərəfindən də işləmək üçün nəzərdə tutulub. Çox vaxt müəllimlər tarix dərslərində uşaqların yaradıcılıq qabiliyyətlərinin formalaşmasında fənlərarası veb-kvestdən istifadə edirlər, çünki bu iş bu baxımdan səmərəlidir. Tələbələr isə bu texnologiyadan istifadə edirlər, çünki tapşırıqların yaradılması və aparılması əlavə proqramların yüklənməsini və ya xüsusi bilik, bacarıq və vərdişlərin əldə edilməsini tələb etmir. Sizə lazım olan tək şey kompüter, internetə çıxış və yaradıcı düşüncədir.

Tarix dərsində veb axtarışı aktiv öyrənmə formasıdır. Yaradıcı iş prosesində şagirdlər "istifadəyə hazır" biliklər almırlar, özləri axtarış fəaliyyətinə cəlb olunurlar [3, 2012: 139]. Veb axtarışı tarix layihələri üzərində işləmək üçün çox əlverişlidir. Onun köməyi ilə siz problemli təlim texnologiyasını həyata keçirə, tədqiqat işlərini təşkil edə, uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirə bilərsiniz. Bu texnologiya həm fərdi, həm də qrup işi zamanı hər bir tələbənin yaradıcı potensialının üzə çıxarılmasını çox gözəl nümayiş etdirir.

PowToon onlayn serveri hazır personajların kitabxanalarından istifadə edərək skript videosu yaratmağa, şəkillər yükləməyə və istifadə etməyə, səs əlavə etməyə imkan verir. Bunun üçün qeydiyyatdan keçməlisiniz (Google, Facebook və ya Twitter hesabından istifadə edə bilərsiniz). Hazır video dərhal YouTube-a yüklənə bilər. Yenə də əl işi daha çox qiymətləndirilir, baxmayaraq ki, bu, çox səy tələb edir.

Yazı yaratmaq üçün alqoritm:

- mövzu seçin (yaxşı təsvir edilməlidir);
- komanda yaratmaq, rollar təyin etmək (ssenari müəllifi rejissor, səs operatoru, rəssam, diktor, redaktor);
- material seçmək, təhlil etmək, plan qurmaq;
-skript yazmaq, onu çərçivələrə bölmək;
-eskizlər yaratmaq və onları komandada müzakirə etmək;
- kamerada çəkmək və çəkmək (telefon, planşet, kamera);
-videonu kompüterə yükləmək və redaktə etmək, video redaktorlardan birində (Windows Movie Maker, Nero, Windows Live Film Studio və s.) səs, subtitr əlavə etmək;
-Youtube-da dərs [Зелинская, 2019: 49-50].

Məktəblilərə tarixi biliyin əhəmiyyətini dərk etməyi öyrədən müəllim onların yaradıcılıq qabiliyyətlərinin, tarixi təfəkkürünün, tarixi yaddaşının formalaşmasına xüsusi diqqət yetirir. Şagirdlər layihələr hazırlayır, təqdimatlar tərtib edir və bununla da elmi və mədəni potensiallarını artırırlar. Beləliklə, skript qeyri-standart təşkil edilmiş təhsil fəaliyyəti və maraqlı müasir dərsdir.

Məlumatın məntiqi quruluşunun ən yaxşı formalarından biri ağıl və ya zehni xəritələrdir.

Bu, zehni xəritələrin istifadəsinə əsaslanan unikal texnikadır, o qədər də tanınmır, lakin istənilən məlumatla işləyərkən əhəmiyyətli üstünlüklər əldə etməyə imkan verir. Öyrənmə prosesi zamanı zehni xəritələrin əhəmiyyəti getdikcə artmaqdadır. Belə ki, zehni xəritələrdən istifadə edilməsi daha mürəkkəb və dərk edilməsi çətin olan mövzuların öyrənilməsini asanlaşdırır və öyrənilənlər yaddaşa həkk olunur, unudulmur [Məmmədova, 2017: 81-85].

Zehni xəritə (mind-map, mindmapping) çoxölçülü təfəkkür proseslərinin qrafik təsviridir. Ağıl xəritələri düşüncə və alternativ yazının vizuallaşdırılması üçün əlverişli, effektiv texnikadır.

Konsepsiya ilk dəfə 1970-ci ildə Tony Buzan tərəfindən təqdim edilmişdir. Əvvəlcə "ağıl xəritəsi" "qeydlər aparmaq üçün yaxşı forma"mənasını verirdi. Hələ Toni tələbə olarkən bunu qeydlər aparmağın alternativ yolu kimi təklif etmişdi. Daha sonra ağıllı xəritələr qeyd etməkdən kənara çıxdı və tətbiqlərin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişləndi. Onlar düşüncələrin təşkili və hətta zəkanın təkmilləşdirilməsi üçün yaxşı vasitə hesab olunurlar. Buzan zehin xəritəsini tərtib etmə texnikasını "zehnin hər bir zehni əzələsini inkişaf etdirən çoxşaxəli təlim cihazı" kimi izah edirdi [Терещенко, 2012: 139].

Bu təhsil yeniliklərini öz fənninin tədrisində tətbiq etmək üçün daim özünütəhsilə diqqət yetirmək, öz peşəkar sərişlərinin səviyyəsini daim yüksəltmək, daim kurs hazırlığında, distant kurslarda iştirak etmək və sadəcə olaraq irəli getmək, inkişafda olmağı istəmək lazımdır.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Nəzərov A. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri). Dərs vəsaiti. Bakı: 2012, 103 s.
2. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji sərişləliliyin müasir problemləri (Monoqrafiya). "Elm və Təhsil", Bakı: 2018, 208 s.
3. Məmmədova N. Vizual resurslar-zehni xəritələrin təlim prosesində yeri və əhəmiyyəti. "Azərbaycan məktəbi" jurnalı, 2017, № 3, s. 81-85. https://wwwidealonline.com.tr

Rus dilində:

1. Воколюк Т.А. Использование информационно-коммуникационных технологий в общеобразовательных школах для повышения качества образования/ Вакалюк Т.А.,

Шевелева М.К.//Информационно-коммуникационные технологии как средство повышения качества образования/ Сб. науч. др. [ред.кол.: В.Е. Берека (гол) и др.]. – Хмельницкий: Издательство ХОИППО, 2015. с.40-45
2. Быховский Я.С. Образовательные веб-квесты//Материалы международной конференции «Информационные технологии в образовании. ИТО-99. – http://ito.bitpro.ru/1999
3. Кононец Технология веб-квеста в контексте ресурсно-ориентированного обучения студентов. Серия: Педагогические науки. – 2012.-Вып.10. с.138-143
4. Скрайб-презентации в учебно-воспитательном процессе//: Режим доступа [http://shamadarina.blogspot.com/p/blog-page_19.html]
5. Зелинская М. Скрайбинг: широкие возможности, высокие результаты/ Зелинская М.// На пути к Новой украинской школе/ Сб. науч. др. [ред.кол.: В.Е. Берека (гол) и др.]. Хмельницкий: Издательство ХОИППО, 2019, с. 49-50.
6. Терещенко Н. В. Интеллект-карты-современные инновационные социальные технологии обучения в системе образования / Н.В. Терещенко//Функциональная экономика. – Ученые записки. - №14, 2012, с.139-145.

SUMMARY

Aysun Shukurova

USING MODERN EDUCATIONAL INNOVATIONS IN HISTORY LESSONS AS A WAY TO ORGANIZE STUDENTS' CREATIVE SKILLS

In the article, it is noted that at the current stage of the development of the Azerbaijani society, educational reforms have gained special relevance and the main goal of these reforms is to develop the basic competencies of students, to create an innovative environment for the formation of skills. It is shown that the reforms carried out in the field of education put one of the most difficult tasks in front of teachers - the task of modernizing the methods of teaching academic subjects in higher and secondary schools. It is impossible to do this without modern innovations and information technologies, which have already entered our daily life and are gradually replacing ordinary pens and notebooks, chalk and blackboard. It is emphasized that all information on servers, blogs, websites, educational platforms, social networks, and portals is accessible today.

The scientific article talks about the use of the latest educational innovations during the process of teaching history at school. Modern educational innovations offer a wide range of information technologies that can be used in the teaching of history. These include web searches, mind maps, etc. Innovative technologies include group and individual forms of education as a priority. Innovative training itself is a new stage in the training process, it is a new look at the training process when the relationship between the student and the teacher is completely revised, the main goal of training becomes the individual and active approach of each student.

The article states that modern education faces the task of searching for new types and forms of organizing educational activities. Education should be developmental in terms of developing independent critical and creative thinking. For this purpose, many teachers have been using project technology and Internet resources for a long time. But the abundance of information on the Internet and its quality, while not simplifying the process of working on the project, complicates it. One of the possible solutions to this problem is webquest or webquest (web-search) technology. The article discusses the possibilities of web search technology as a means of developing an innovative educational strategy. The use of the web quest makes the organization of the history teaching process more diverse and productive, increases the level of motivation for cognitive interest in the studied topic, helps to form communicative competence and the development of the student's information culture.

Key words: *Capacity building; Educational innovations; Innovative training; Web search; Historical memory; Mind maps*

AZADƏ ƏLİYEVA
aliiyevazade@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-5227-7792

DİLÇİLİKDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN İNKİŞAF TARİXİ

Məqalədə ümumi dilçilikdə frazeologiya anlayışının Azərbaycan dilçiliyinə nisbətən daha tez yaranması tədqiq edilmişdir. Ümumi dilçilikdə frazeologiya Ferdinand de Sössürün adı ilə bağlıdır. Həmçinin ümumi dilçilikdə frazeologiya sahəsinin inkişafında Viktor Vinoqradov nəzəriyyəsinin də böyük əhəmiyyətinin olduğu göstərilmişdir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan dilçiliyi müstəqil şəkildə frazeoloji problemləri həll etmək istiqamətində inkişaf etmişdir. Frazeologiyaya aid olan bütün əsərlərdə tədqiq edilmiş ümumi nəzəri məsələlərdə elmin tarixi nəzərdən keçirilmiş və Azərbaycan dilçiliyində öz əksini tapmışdır. Vahid metadil və metodlar sistemində dünya dilçiliyinin təsiri özünü büruzə verir. Bundan fərqli olaraq Azərbaycan dilçiliyində bütün mücərrəd frazeoloji müddəaların sadəcə Azərbaycan dili materialına tətbiq olunduqdan sonra qəbul edilmişdir. Bununla yanaşı Azərbaycan dilçiliyində frazeologiya tam araşdırılmamışdır və bu mövzu hələ də aktual xarakter daşıyır.

Açar sözlər. *Frazeologiya, frazeoloji birləşmələr, frazeoloji birləşmələrin tarixi, Azərbaycan dilçiliyi, ümumi dilçilik*

Dilimizin zənginləşməsi prosesində frazeoloji birləşmələrin rolu olduqca böyükdür. Xalqın adət və ənənələri, milli psixologiyasının parlaq, aydın əksi, tarixi keçmişi frazeoloji birləşmələrdə öz əksini tapmışdır. Frazeoloji birləşmələrin yaranmasında və xalq dilinə qəbulunda məna bütövlüyü, işlədilmə mövqeyi, leksik, semantik və sintaktik sabitliyi əsas şərtlərdəndir. Dilimizin belə zəngin xəzinəsinin öyrədilməsi zamanı istər dilin müasir vəziyyəti, istər tarixi əhəmiyyətini öyrənmək mümkündür. Çünki frazeoloji birləşmələrin tərkibində qalan bir çox sözlər müasir dövrdə öz işləkliyini itirmiş olsa da, birləşmənin tərkibində və kənar şəkildə tədqiqata cəlb olunur. Bizə məlumdur ki, frazeologiya uzun inkişaf yolu keçmiş, müstəqil dilçilik sahəsi kimi birdən-birə yaranmamışdır. Ümumiyyətlə, frazeologiya diqqətdən kənarda qalmış, yalnız müstəqil bir elm sahəsi kimi təşəkkül tapdıqdan sonra tədqiq edilmişdir.

Uzun, tarixi bir dövr ərzində inkişaf yolu keçmiş frazeologiya müstəqil bir dilçilik şöbəsi kimi formalaşaraq ədəbi dilimizin inkişafına öz təsirini göstərmişdir. İstər Azərbaycan dilçiliyində ,istərsə də ümumi dilçilikdə frazeologiyanı leksikologiyanın bir şöbəsi kimi araşdırmışlar. Lakin sonradan frazeologiyanın zəngin təbiəti, ifadəliliyi, rəngarəngliyi nəzərə alınaraq frazeologiya adlanan dilçilik sahəsinin yaradılması və frazeologiyanın müstəqil dilçilik sahəsi kimi araşdırılması zərurəti yaranmışdır. Hazırda frazeologiyanın keçdiyi inkişaf yolunun tam şəkildə tədqiq edilməsi aktual xarakter daşıyır.

Frazeologiya keçən əsrin 60-cı illərindən başlayaraq daha çox inkişaf yolu keçmişdir. Belə ki, bu dövrdən etibarən frazeologiya sahəsinin araşdırılmasında bu sahəni obyekt seçən alimlər çox olmuşdur. İstər ümumi dilçilikdə, istərsə də Azərbaycan dilçiliyində frazeologiya bu dövrdən inkişaf etməyə başlamışdır.

Frazeologiyaya aid olan bütün əsərlərdə tədqiq edilmiş ümumi nəzəri məsələlərdə elmin tarixi nəzərdən keçirilmiş və Azərbaycan dilçiliyində öz əksini tapmışdır. Frazeologiyanın praktiki əhəmiyyəti, frazeoloji vahidlərin Azərbaycan ədəbi dilini zənginləşdirməsi, həmçinin frazeologiyanın nəzəri problemləri Afad Qurbanovun, Arif Məmmədlinin, Məhəmməd Tağıyevin, Səlim Cəfərovun, Musa Adilovun, Hüseyn Bayramovun, Sadıq Murtuzayevin, Həsrət Həsənovun, Yusif Seyidovun, Buludxan Xəlilovun və s. Azərbaycan alimlərinin əsərlərində öz əksini tapmışdır.

Dilçi Həsrət Həsənov frazeoloji vahidlərin dili zənginləşdirməsini aşağıdakı sözlərlə aydınlaşdırır. "Azərbaycan dilinin lüğət tərkibi sabit söz birləşmələri ilə zəngindir. Bütövlükdə bir məna ifadə edən sabit birləşmələr dilimizin lüğət tərkibinin zənginləşməsində, artımında böyük rol oynayır. Bu cəhət frazeologiya ilə leksikanın sıx əlaqəsini göstərir. Belə ifadələr daha çox milli səciyyəlidir. Hər dilin milli özünəməxsus ifadələri vardır. Frazeologizimlər dilin xalq fizionimiyasıdır. (V.Q.Belinski). Bunlarda xalqın ağıl və biliyi, sevinci və kədəri, məhəbbəti və nifrəti, gülüşü və göz yaşları, düzlüyü və əyriliyi, zəhmətkeşliyi və tənbəlliyi, mübarizəsi- bir sözlə, hər şeyə qadir gücü əks olunmuşdur" [3, s. 344].

Frazeologiyanın tədqiqində qarşıya çıxan əsas problemlərdən biri də, sərbəst söz birləşmələri ilə sabit söz birləşmələrini fərqləndirməkdir. Yusif Seyidov bu problemlə əlaqədar "Azərbaycan dilində söz birləşmələri" kitabında yazır: "Nəticə olaraq deyək ki, həm sərbəst, həm də sabit birləşmələr iki və daha artıq müstəqil mənalı sözün leksik və qrammatik cəhətdən birləşməsindən əmələ gələn söz birləşmələridir. Buna görə də söz birləşmələrindən bəhs edərkən sərbəst və sabit birləşmələr məsələsinə toxunmadan keçmək mümkün olmur. Lakin sabit birləşmələrin semantikasında əmələ gələn keyfiyyət onu söz birləşmələri silsiləsindən tamamilə ayırır və başqa elm sahəsinin tədqiqat obyektinə çevirir. Sintaksisdə isə yalnız sərbəst birləşmələrin tədqiqi nəzərdə tutulur" [8, s. 160]

Frazeoloji birləşmələrlə bağlı digər bir müəllif, Afad Qurbanov bu haqda yazır: " "Frazeoloji sabit söz birləşmələri öz xüsusiyyətlərinə görə həm frazeoloji ifadə və ibarələrdən, həm də digər növ birləşmələrdən (sərbəst söz birləşmələrindən) fərqlənir" [6, s. 361].

Akademik nəşr olan "Müasir Azərbaycan dili" kitabının birinci cildində frazeologiyaya həsr olunmuş bölmədə belə bir fikirlə rastlaşırıq: " Hər bir dilin leksik sistemində ayrıca formalaşan və funksional cəhətdən ayrı-ayrı sözlərə uyğun olan çoxlu müstəqil dil vahidləri mövcuddur ki, bunlara dilçilik ədəbiyyatında frazeoloji vahid, yaxud frazeologizm deyilir. Bunların həcmi isə frazeologiya adlanır. [7, s. 248].

Azərbaycan dilçiliyində frazeologiyanın inkişafından danışarkən Məhəmməd Tağıyevin adını xüsusilə qeyd etmək lazımdır . M.Tağıyev , 1966-cı ildə " Müasir rus dilinin feili frazeologiyası" monoqrafiyasını çapdan çıxarmışdır. Bu monoqrafiya çıxdığı ilk günlərdən başlayaraq bir sıra alimlərin o cümlədən akademik Viktor Vinoqradovun və rus alimlərinin diqqətini cəlb etmişdir. Son illər prof. M. Tağıyev haqqında yazılan əsərlər içərisində görkəmli alim prof. Fəxrəddin Veysəllinin "Azərbaycan tədqiqatçısı professor M. Tağıyevin dilçilik konsepsiyasına dair fikirlər" adlı məqaləsinin də adını qeyd etmək lazımdır. Məhəmməd Tağıyevin təklif etdiyi elmi üsulun bu vaxta qədər sovet dilçiliyində ilk dəfə işlənməsi isə, onun bu qədər diqqət cəlb etməsinə səbəb olmuşdur. Belə ki, M.Tağıyev ilk dəfə sovet dilçiliyində istifadə edilmiş frazeoloji vahidlərin yalnız daxili yox, xarici əlamətlərinin də təhlil edilməsini təklif etmişdir. Bununla yanaşı alim göstərmişdir ki, frazeoloji vahid öz-özlüyündə nəzərdən keçirilə bilməz, çünki öz-özlüyündə frazeoloji vahid natamam hesab olunur.

Müasir dövrdə frazeologiyadan danışarkən Qəzənfər Kazımovun, Nəriman Seyidəliyevin, Həsən Baxşıyevin adlarını xüsusilə qeyd etməliyik. Bu dövr alimlərindən biri olan professor Qəzənfər Kazımovun elmi yaradıcılığının bir qismi də məhz elə Azərbaycan dilinin frazeologiyası ilə əlaqədardır. Qəzənfər Kazımov digərlərindən fərqli olaraq daha da irəli getmiş, öz əsərlərində frazeologiyanın xeyli inkişaf yolu keçdiyini və qədim tarixə malik olduğunu göstərmişdir. Belə ki, hələ 1965-ci ildə qələmə aldığı "Ə. Haqverdiyevin dramaturgiya dili" adlı əsərində frazeologiyadan bəhs etmişdir. Bu əsərində Azərbaycan dili frazeologiyasının tarixində mühüm rolu vardır [5, s.17].

Azərbaycan dilçiliyi ilə bərabər ümumi dilçilikdə də frazeologiya haqqında xeyli əsər yazılmışdır. Ferdinand de Sössürün frazeologiya sahəsində adını xüsusilə qeyd etməliyik. F. de Sössür öz əsərlərində frazeologiyanın iki növ sistem əlaqəsi haqqında danışmış, bunlardan birincisini sintaqmatik, digərini isə assosiativ əlaqə adlandırmışdır. Sintaqmatik əlaqələrdə assosiativ əlaqə kimi ola bilir. Sadəcə, paradiqmatik assosiasiyalar sintaqmatik assosiasiyalardan fərqlənir. Sintaqmatik əlaqələrin mahiyyəti ondan ibarətdir ki, dil ünsürlərinin heç biri müstəqil şəkildə nə öz vəzifəsini

yerinə yetirə bilir, nə də öz məzmununu realizə edə bilir. Assosiativ əlaqələr isə, bir növü seçim nəzərdə tutur. Yəni eyni vəzifəni yerinə yetirən iki və yaxud daha çox işarədən hər hansı biri seçilib nitqdə istifadə oluna bilər. Sössürün fikrinə görə, sistemdə olan və eyni vəzifəni daşıyan bütün ünsürlər assosiativ əlaqələrlə bir-birinə bağlıdır.

Ümumi dilçilikdə frazeologiyadan danışarkən Viktor Vinoqradovun adını da xüsusilə qeyd etmək lazımdır. Vinoqradov frazeologiyaya aid iki məqalə yazmışdır. Akademik V.Vinoqradovun frazeoloji konsepsiyası məktəb yarada bilməmişdir. Bunun iki səbəbi vardır. Birinci səbəb özünü terminoloji aparatın tam formalaşmasında və əsas terminlərin sistemsiz şəkildə istifadəsində göstərir. İkinci səbəb isə Vinoqradovun ardıcılları atalar sözlərini frazeologiyaya aid etmiş və beləliklə də, dil sisteminin fundamental prinsiplərini pozmuşdurlar.

Deyilən bütün fikirləri ümumiləşdirərək belə bir nəticəyə gələ bilərik ki, ümumi dilçilikdə frazeologiya anlayışı Azərbaycan dilçiliyinə nisbətən daha tez yaranmışdır. Frazeologiyanın inkişafında tədqiqatçıların əsərlərinin böyük rolu vardır. Frazeologiya sahəsində aparılan tədqiqatlar nəticəsində yeni problemlər yaranır və indiyə qədər öyrənilən sualların hər birinə aydınlıq gətirilir. Lakin tədqiqatçılar arasında yekdil fikir yoxdur. Elə bu səbəbdən də frazeologiya sahəsində aparılan tədqiqatlar hələ də frazeologiya bəhsini tam əhatə etmir. Fikrimizcə tədqiqatçılar arasında frazeologiya sahəsində deyilən fikirlərdən Həsrət Həsənovun fikri digərlərinə nisbətən daha dolğundur. Ümumiyyətlə, istər ümumi dilçilikdə istərsə də Azərbaycan dilçiliyində frazeologiya birdən - birə yaranmamış, uzun inkişaf yolu keçmiş və müstəqil bir sahə kimi formalaşmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan dilçiliyində frazeolojiləşmə haqqında təsəvvürlər. // Dil və ədəbiyyat (Beynəlxalq elmi-nəzəri jurnal). Bakı: 2010, №1(72). 100-101 s.
2. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: 1978.
3. Həsrət Həsənov, Müasir Azərbaycan dilinin leksikası, Bakı: 1988, 344 s.
4. Kazımov Q. Ş. Azərbaycan dili frazeologiyasının ən qədim qatı (Yazıyaqədərki dövr) 12 s.
5. Kazımov Q. Seçilmiş əsərləri: on cilddə – I cild. – Bakı: Nurlan, 2008. – 560 s.
6. Qubanov A. Müasir Azərbaycan ədəbi dili, Bakı: 1985. 215 s.
7. Müasir Azərbaycan dili. 1 cild. Bakı: Elm, 1978, 248 s.
8. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri. Bakı: BDU nəşriyyatı, 1992, s. 160
9. Sərbəst və sabit söz birləşmələrinin məna fərqləri//Filologiya məsələləri. Bakı: 2012, №8, 63-66 s.

SUMMARY

Azada Aliyeva

DEVELOPMENT HISTORY OF PHRASEOLOGICAL COMBINATIONS IN LINGUISTICS

In the article, the concept of phraseology in general linguistics is studied more quickly than in Azerbaijani linguistics. In general linguistics, phraseology is associated with the name of Ferdinand de Saussur. It was also shown that the theory of Viktor Vinogradov was of great importance in the development of the field of phraseology in general linguistics. It should also be noted that Azerbaijani linguistics has developed in the direction of independent solution of phraseological issues. In all works related to phraseology, the history of science was considered in general theoretical issues and reflected in Azerbaijani linguistics. The influence of world linguistics is evident in the unified metalanguage and system of methods. In contrast, in Azerbaijani linguistics, all abstract phraseological provisions were accepted only after applying them to the material of the Azerbaijani language. In addition, phraseology has not been fully investigated in Azerbaijani linguistics, and this topic is still relevant.

Key words. *Phraseology, Phraseological combinations, history of phraseological combinations, Azerbaijani linguistics, general linguistics*

SEVDA CƏFƏROVA
ceferovasevda73@gmail.com

AFƏT BABAYEVA
afetbabayeva106@gmail.com
Naxçıvan Dövlət Universiteti

YENİ TƏDRİS MƏRHƏLƏSİNDƏ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ KADR HAZIRLIĞININ TƏŞKİL OLUNMASININ ƏSASLARI

Məqalədə, tədrisverənin, yəni müəllimin ümumtəhsil məktəblərində peşəkarlıq fəaliyyətinin elmi cəhətdən mənalandırılması təqdim olunur. Göstərilmişdir ki, peşəkarlıq – istənilən istiqamətlər üzrə fəaliyyət ifadəsinin daha məntiqli olmasının zəruri amillərindən biri və aktual olanıdır. Peşəkarlıq göstəricilərinin şaxəli olması həyata keçirilən fəaliyyətin məntiqli, geniş miqyasda, qəbul olunan prosedurda və nizamlamalar, qaydalar müstəvisində, eyni zamanda, müəyyən normalara müvafiq olaraq, gerçək olması mənasını daşımaqdadır. Pedaqoji sənət sferası da bunun kimidir. Müəllimlərin peşəkarlıq göstəricilərinin şaxəli olması görülən tədris və tərbiyə məsələlərinin düzgünlüyünü, məntiqiliyini təmin etməklə birlikdə, eyni zamanda da, pedaqoji fəaliyyətin dövlət tədris normaları müstəvisində, düşünülmüş, şaxəli və təcrübə üzrə gerçək olmasıdır.

Məqalədə qeyd olunur ki, müəllim peşəkarlığı pedaqoji fəaliyyəti elmi əsaslar üzrə təşkil etmək, yönəltmək, pedaqoji tənzimləmələri və qaydaları əsas götürməklə, müəyyən olunan məqsəd və təhsil normalarının gerçək olması, eyni zamanda, təlim işlərini dolğun pedaqoji məsələyə çevirməyi bacarmaq kimi zəruri pedaqoji işlərin uğurla gerçək olmasını təmin etməkdən ibarətdir. Bəhs olunanlar isə müəllimlərin hər zaman öz bilik və keyfiyyətlərinin yüksəldilməsini, peşəkarlıq göstəricilərinin təkmilləşməsi məqsədilə öz üzərində çalışmasını, eləcə də, öncül pedaqoji səriştəyə malik olmaqla, özünü inkişaf etdirməsini tələb edir. Müəllimlərin peşəkarlığının birinci amili pedaqoji tədris sahəsində olduğundan tədris mərhələlərində qarşıdakı dövrlər üzrə müəllimlərlə də bu sahədə düşünülmüş və səmərəli proseslərin başladılması intensiv mahiyyət kəsb etmiş olur. İnkişaf etmiş bir çox ölkələrin keçdiyi yola nəzərə salanda aydın olur ki, sabahın tədrisverənləri ilə peşəkarlıq və təcrübəlilik göstəriciləri üzrə kompleks işlərin görülməsi onların qarşıdakı illərdə peşəkar pedaqoq olaraq inkişaf etmələrinə pozitiv təsir etməkdədir.

Məhz bu mənada da, tamamlanmış olan məqalədə pedaqoji təcrübələrin bir sıra problemləri ələ alınır, perspektivlər tədqiq olunur. Bəhs olunan sferada həqiqi vəziyyət və müəllimlərin peşəkarlıq göstəricilərinin gücləndirilməsinin bir sıra sahələri analiz olunur.

Açar sözlər: *təhsilverən, müəllim, ümumtəhsil məktəbləri, peşəkarlıq, bilik və bacarıqlar, pedaqoji fəaliyyət, tədris prosesləri və s.*

Tarixin bütün mərhələlərində təhsil cəmiyyət üzvlərinin həyatında aktual bir məsələ olaraq, mühüm əhəmiyyət kəsb etmişdir. Hadisələrə düzgün yanaşmanın, baxışın, təhlil, analiz və səmərəli nəticələrin ortaya qoyulmasında təhsilin artan əhəmiyyətini qeyd etmək zəruridir. Təhsil, ayrılıqda hər bir fərdin, bütövlükdə isə, xalqların və millətlərin keçmişlə gələcəyinin əlaqələndirilməsində, tarixiliklə müasirliyinin düzgün vəhdətinin təmin olunmasında zəruriliyinə görə seçilmişdir. Təhsil, malik olduğu zəruriliyinə, dövrün və sosial mahiyyətinin əhəmiyyətinə görə hər zaman ciddi tələbat yaratmışdır. Onun cəmiyyət üzvlərinə əlçatan olması, daha doğrusu, hər kəs üçün arzuolunan göstəricilər kompleksinə sahiblənməsi tədris proseslərinin mövcud olmasını şərtləndirir və bu, təbii olaraq, müəllimlərin səyi, biliyi, bacarıq, istedad və təcrübəsi ilə mümkün ola bilməkdədir. Müəllim, hər şeydən əvvəl, təhsilverəndir. Onu bütün tərəflərinə görə mənimsəyən və təhsilalanlara, yəni şagirdlərinə və tələbələrinə mənimsətməyi bacaran şəxsdir. Müəllimin tədris proseslərində təşəkkül tapmış olan fəaliyyəti ixtisaslaşma proseslərini təşkil edir və tarixi, eyni zamanda, sosial mahiyyətinə

görə fərqlənməkdədir. Beləliklə də, hər bir müəllim və ya təhsilverən, insanların sənət və peşə sahibi olmasında olduqca zəruri bir vəzifəni öz üzərlərinə götürməkdədir.

Araşdırma materiallarından və ya təhlil nəticələrindən aydın olur ki, bütün dövrlərdə peşələrin mənalandırılması müvafiq fəaliyyət sferalarına xas olmaqla, mümkün olmuşdur. Fikrimizi əsalandırmaq üçün onu qeyd etmək olar ki, Şərqin nəhəng tarixi və ədəbi nümunələrindən biri olan "Qabusnamə"də göstərilmişdir ki, insan nə ilə məşğul olsa, o da onun peşəsi sayılar. İnsan öz sənətini yaxşı bilməlidir. ...Elə bir iş, peşə tapmaq mümkün deyildir ki, onda nizam-intizama ehtiyac olmasın. Hər peşənin öz qayda-qanunu var. Peşələr isə müxtəlif və çoxdur, bunların hamısının üsulunu bilmək lazımdır [Qabusnamə, 2014].

İstinad olunan fikirləri pedaqoji sahənin malik olduğu peşəyə də uyğunlaşdırmaq mümkün olar. Bu mənada, pedaqoji peşənin də sahib olduğu nizam-intizamı, tənzimlənməsi və mexanizmləri mövcud olmaqdadır. Təbii olaraq, sadalananları yetərincə bilmək, onlara riayət etmək müəllimlərin peşəkarlıq göstəricilərinin artırılmasında olduqca zəruri meyar olmaqdadır. Müəllimlərin peşəkarlığı onun qarşılıqlı əlaqədə olan bir çox keyfiyyətlərə malik olması ilə xarakterizə olunur. Bəhs olunanlar, xüsusilə, şəkil 1-in məlumatlarında öz yerini almaqdadır.

Şəkil 1

Müəllimlərin peşəkarlığını səciyyələndirən amillər

Pedaqoji-psixoloji bacarıqlara, didaktik keyfiyyətlərə malik olması və nəzəriyyə ilə təcrübəni uyğunlaşdırması	Fəaliyyətini olduqca məhsuldar qaydada olmaqla, mənimsəyə bilməsi və fəaliyyətində peşəkarlıq sərgiləməsi	Pedaqoji proseslərdə ardıcıl olaraq öz təcrübi bilik, bacarıq və peşəkarlığını daha da gücləndirməsi
Pedaqoji məsələlərdə əhatəli mexanizm, texnologiya və prosedurlardan yararlana bilməsi	Müəllimin təcrübə, keyfiyyət, vərdiş və əldə etmiş olduğu ixtisaslaşmanı ehtimal olunan nəticəyə sintez edə bilməsi	

Təcrübi baxımdan qeyd etmək olar ki, peşəkarlıqda səriştəlilik olmaya bilər və bu göstərci, təhsilalma da təqdim olunmur. Bu baxımdan da, müəllimlərin peşəkarlığı və pedaqoji baxımdan səriştəliliyi tarixi mərhələlər üzrə zaman-zaman ardıcıl dövrlər müddətində ortaya çıxır, tərəqqi edir və təşəkkül tapmış olur. Bu məqsədlə də, tədrisverənin peşəkarlığını artırması, pedaqoji peşənin dərinliklərinə qədər mənimsənilməsi zəruri məsələ və strateji mexanizm olaraq formalaşır. Müasir pedaqoji anlayışa malik olmaq, mənimsəmədə arasıkəsilməzlik, müəyyən praktika əldə etmək, təkmil bacarıqlardan yararlanmaq, özünütəkmilləşdirmək, özünüinkişaf prosesləri, pedaqoji məsələləri analiz etmək qabiliyyəti, öz üzərində fasiləsiz çalışmaq və s. kimi proseslər sistemi onun qərarlaşmasının əsasını təşkil edir. Onu da qeyd etmək olar ki, peşəkarlığın özü də bir sıra səviyyədən ibarət olmaqdadır. Bəhs olunanlar, genişmiqyaslı peşəkarlıq göstəricilərinə qədər olan mərhələləri əhatəsinə almaqdadır. Bunu, şəkil 2-nin məlumatarında görmək olar.

Şəkil 2


Müəllimin peşəkarlıq səviyyəsinin ifadə formaları

İnnovativlik, innovativliyi əsas tutmaq	Təcrübəyə sahib olduqdan sonra böyük uğurlara malik olmaq, olduqca güclü peşəkarlıq ortaya qoymağı bacarmaq göstəricilərində özünü ifadə etməyi bacarmaq	Yüksək təcrübəyə malik olmaq

İndiki dünyamızın reallıqları müstəvisində yanaşdıqda, bəhs etmək olar ki, cəmiyyətimizin müəllimlərdən gözləntisi olduqca çoxdur. Bu mənada da, inamla və əminliklə, gənc nəsli müəllimlərə etibar edir, onlara etibar edir və gənclərin ömürlük həyat fəaliyyətlərinin güvənilir əllərdə olduğuna tamamilə əmin olur. Təbii olaraq, cəmiyyət üzvlərinin etimadını doğrultmaq, həmin inama layiq fəaliyyətdə olmaq, məsuliyyətin dərk olunması ilə böyük vəzifə ağırlığını qürurla yaşatmaq isə müəllimlərin yetkinlik göstəricilərindən, onların fəaliyyətlərinə, ixtisaslarına və təcrübələrinə doğma qayğı bəsləmələrindən, peşəkarlıq və məsuliyyətlilik miqyasından olduqca asılı olur. Bəhs olunanlar isə öz özlüyündə şagirlərin və tələbələrin istər bir peşəkar olaraq özünün təkmilləşmə göstəricilərinin, istərsə də daha bilikli olmaqğa stimul və həvəslərinin böyük olmasına yol açmış olur [Cahangirov, 2020]. Beləliklə də, bütün bunlar da, nəticə etibarilə hazırkı tədris proseslərinin hədəflərində olan zəruri məqsəd və vəzifələrin reallıq olması ilə yekunlaşmış olur. Mövcud fəaliyyət sahəsindən asılı olaraq, ölkəmizin hazırkı təhsil və tədris proseslərində müəllimlərin təkmilləşmə proseslərini bir neçə

Şəkil 3

Təhsilverənlərin kateqoriyalar üzrə təsnifləşdirilməsi



dərəcəyə bölmək olar ki, bunu da şəkil 3-ün məlumatlarında ifadə etmək olar:

Müəllimlərin peşəkarlığı bir çox meyarlarla xarakterizə olunur. Müasir tədrisin önündə olan zəruri hədəflərin və vəzifələrin yetərincə dərk olunması, onların həyata keçirilməsi məqsədilə sənətinə və ixtisasına dolğun olaraq, yaxından bələd olması və onları təcrübəli formada olmaqla, mənimsədə bilməsi müəllimlərin peşəkarlığının zəruri amillərindəndir [5]. Həmin sferada 2 xüsusiyyət, istər ixtisasını mükəmməl mənimsəmək, istərsə də onu güclü peşəkarlıqla aşılaya bilmək bir-biri ilə güclü əlaqəli olub, pedaqoji təkmilləşmənin zəruri meyarı olaraq özünü göstərmiş olur. Tədrisverənlər üçün zəruri olan bu qarşılıqlı fəaliyyət formasının birinin olmaması rastlanmış olan proseslərə təcrübəsiz münasibət göstərilməsinə səbəb olur ki, bunun da ifadəsi olaraq, özünü çox gözlətməli olmur. Məhz bu baxımdan da, Azərbaycan tədrisinin indiki vəziyyətində tədrisin bütün mərhələlərində müəllimlərin peşəkarlıq göstəricilərinin artırılması öncüllü məsələlərdən biri olaraq təhsil təşkilatlarının və pedaqoji tədris verən ali məktəblərinin məsuliyyətinə aid olmaqdadır.

Pedaqoji yönümlü tədris vasitələrində da bəhs olunduğu kimi, hazırkı dünyada pedaqoji tədris üzrə bir çox sosial vəziyyətlər özünü göstərməkdədir. Qeyd olunanlar, xüsusilə, şəkil 4-ün məlumatlarında özünü göstərməkdədir [İlyasov, 2021]:

Şəkil 4

Pedaqoji təhsil üzrə mövcud olan bir sıra sosial mərhələlər

Şəxsiyyətin mövqeyinə və ya özünəinamına etibar etmə	Pedaqoji mahiyyətli olan tədrisin standartlarının müəyyən olunması və inkişafı	Pedaqoji təhsilin bazasının yaradılması
Təhsilin səmərəli təşkili və idarə olunması	Ali pedaqoji təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması	Müəllimin statusunun gücləndirilməsi
Tədrisverənin peşə yetkinliyi kompetensiyaları həlli yollarının perspektivliliyinin tapılmış olması	Təhsilin dövlət-ictimai idarəsi	Müəllim hazırlığında varislik və fasiləsizlik

Müəllimlərin təcrübəsini artırması, onun daha da dəqiq mülahizə vermək qabiliyyətinin inkişaf etdirilməsi və təbii olaraq, peşəkarlıq səviyyəsinin artırılması olduqca ciddi amildir. Bu, elə bir amil olmaqdadır ki, onu nəzərə almadan, təcrübəli tədrisverən olaraq formalaşmaq olmaz. Eyni zamanda, dolğun mütəxəssis olmaq olmaz. Getdikcə artan tələbatlar müstəvisində, tədrisin mahiyyəti və innovativ layihələr öz nəticələrini vermiş olduqca, daha mütərəqqi idarəetmələrə inteqrasiya prosesləri çoxaldıqca, məlumatlar dəqiqləşdikcə, tədrisverənin də daha inkişaf etməsi zərurəti ortaya çıxmaqdadır [İlyasov, 2018]. Sözün həqiqi mənasında, müəllimlərin peşəkarlıq göstəricilərinin artırılması arasıkəsilməz, şaxəli və onların dolayısı ilə özünütədrisi ilə əlaqəli bir məsələdir. Bu sahədə, aparılan araşdırmalar da öz nəticələrini verməkdədir və beynəlxalq təcrübənin əhəmiyyətini də qeyd etmək əhəmiyyətli olmaqdadır. Bunu şəkil 5-in məlumatlarında görmək olar.

Şəkil 5

ABŞ-ın Mərkəzi Təhsil Departamentinin təhlillərinə görə yaxşı müəllimin malik olduğu keyfiyyətlər

Həyat təcrübəsinə malikdir	Hər şagirdin nə ilə motivasiya olunduğunu hiss edə bilir	Bir qəhrəman deyil, insandır	Müasir texnologiyaya tam hakim olmasa da, öyrənməyə daim meyillidir	Şagirdlərinə riskli olmağı öyrədə bilir
Rəhbərliyin nə düşünəcəyindən narahat olmadan öyrənənlər üçün xeyirli olanları edir	Özünə güvəndiyini göstərə bilir	Önəmli olan hissələrə diqqətini yönəldə bilir	Özünüdərk və özünütəhsili mühüm səriştə kimi qiymətləndirir	Özünü təkmilləşməyə səy göstərir

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası. (2007). //Təhsil xəbərləri (TN-nin məlumat-informasiya məcmuəsi). Bakı: Pedaqogika, s.20-21.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013.
3. Cahangirov, A. (2020). Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları. Bakı: Şərq-Qərb, 364 s.
4. Əliyev, H. (2002). Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev). Bakı: Təhsil, 580 s.
5. http://www.fill:IIIC:/users/toshiba// This electronic editon is in no way produced bu, affiliated with of sponsored by Penguin Press.
6. İlyasov, M.İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Dərs vəsaiti. Bakı: "Elm və təhsil", 208 s.
7. İlyasov, M.İ. (2021). Müasir təhsil: ənənədən innovasiyaya. Monoqrafiya. Bakı: Elm və təhsil, 376 s.

8. Qabusnamə. Bakı: Azərbaycan, 2014, 240 s.

SUMMARY

Sevda Jafarova, Afet Babayeva

PRINCIPLES OF ORGANIZING STAFF TRAINING IN SECONDARY SCHOOLS IN THE NEW EDUCATIONAL PHASE

The article presents the scientific interpretation of the professional activity of the teacher, that is, the teacher in secondary schools. It has been shown that professionalism is one of the necessary and relevant factors to make the expression of activity in any direction more logical. Diversification of professional indicators means that the activity carried out is logical, on a large scale, in the accepted procedure and at the level of regulations and rules, and at the same time, in accordance with certain norms, it is real. The sphere of pedagogical art is like this. The diversification of teachers' professional indicators ensures the correctness and logic of teaching and upbringing issues, and at the same time, the fact that the pedagogical activity is thought out, varied and practical at the level of state educational norms.

It is mentioned in the article that the teacher's professionalism is to organize and direct the pedagogical activity on scientific grounds, based on the pedagogical regulations and rules, to realize the defined goals and educational norms, and at the same time, to be able to successfully realize the necessary pedagogical tasks, such as being able to turn training work into a full pedagogical issue is to provide. The discussed ones require teachers to always improve their knowledge and qualities, to work on themselves in order to improve their professional indicators, as well as to develop themselves by having pioneering pedagogical competence. Since the first factor of teachers' professionalism is in the field of pedagogic education, it is very important to start thoughtful and effective processes in this field with teachers in the future periods of education. Considering the path taken by many developed countries, it is clear that conducting complex work on the indicators of professionalism and experience with tomorrow's teachers has a positive effect on their development as professional educators in the coming years.

It is in this sense that the completed article addresses a number of problems of pedagogical practices and explores perspectives. The real situation in the mentioned sphere and a number of areas of strengthening the professional indicators of teachers are analyzed.

Key words: *educator, teacher, secondary schools, professionalism, knowledge and skills, pedagogical activity, educational processes, etc.*

KƏRƏM MANSUROV
karam.mansurov@jlc.gov.az
Bakı Dövlət Universiteti
ORCID ID: 0009-0009-3011-4272

AZƏRBAYCAN RESPUBLİKASI PROKURORLUĞUNUN SİSTEMİ, TƏŞKİLİ VƏ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Məqalədə Azərbaycan Respublikasının Prokurorluğunun sistemi, təşkili qaydaları, əsas fəaliyyət istiqamətlərinin günümüzün tələblərinə uyğun olub-olmaması, müsbət və mənfi cəhətləri araşdırılmış, nəticədə həll üçün təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *Prokurorluq orqanlarının fəaliyyət istiqamətləri, Prokurorluq orqanlarının sistemi, Prokurorluq orqanlarının təşkili və sturukturu, Azərbaycan Respublikası Prokurorluğu*

Müstəqillik bərpa olunduqdan sonra həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq təcrübə və yerli ictimai münasibətlər nəzərə alınaraq qəbul edilmiş prokurorluq haqqında normativ hüquqi aktlar prokurorluq orqanlarının demokratik prinsiplərə əsaslanan sistemə, sturuktura və fəaliyyət istiqamətlərinə malik olmasına, o cümlədən düzgün idarəetmənin həyata keçirilməsinə və müasir dövrün tələblərinə uyğun formalaşdırılmasına zəmin yaratmışdır. Həmin qəbildən olan əsas normativ hüquqi aktların biri kimi çıxış edən "Prokurorluq haqqında" Qanunun 4-cü maddəsində prokurorluğun fəaliyyət istiqamətləri açıq şəkildə göstərilmişdir:

1. cinayət işi başlayır və ibtidai istintaq aparır, habelə korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir;
2. cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir;
3. təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir;
4. məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir;
5. məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir;
6. məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest verir;
7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir;
8. məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir.

Qanunda göstərilən fəaliyyət istiqamətləri növbəti dəyişikliklərə qədər səlahiyyətlər baxımından daha dar çərçivələnmişdir. Belə ki, dəyişikliklər nəticəsində ilk başda göstərilən fəaliyyət istiqamətlərinə korrupsiya ilə bağlı cinayətlər üzrə həm əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək, həm də cinayət işini başlamaq, kommersiya mübahisələrinə dair işlərdə iddiaçı kimi çıxış etmək, İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, inzibati xəta haqqında iş üzrə icraata başlamaq və səlahiyyətli orqanın qərarlarından və ya qərardadlarından protest vermək kimi xüsusiyyətlər əlavə olunmuşdur. İlk iki fəaliyyət istiqaməti inzibati sistemdəki dəyişikliklərlə birbaşa əlaqəli olsa da, inzibati xətalar üzrə səlahiyyətlərin prokurorluq orqanlarına həvalə edilməsi səlahiyyət çərçivəsinin əməli şəkildə genişləndirilməsi kimi izah edilə bilər. Prokurorluğun hüquqi statusu və fəaliyyət istiqamətləri 12 noyabr 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasında göstərilsə də, 24 avqust 2002-ci il tarixində keçirilmiş referendumla həmin dövr üçün tendensiya sayıla bilən "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında" Konvensiyaya, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər nüfuzlu beynəlxalq aktların prokurorluğun dövlət orqanları arasındakı yerinə və ədalət mühakiməsinin həyata keçirilməsindəki roluna dair tələb və tövsiyyələrinə əsaslanan yeni məhkəmə-hüquq konsepsiyasına

uyğun olaraq, sovet dövrünün sinfi mənafelərə xidmət edən dövlət orqanından insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən dövlət təsisatına çevirilməklə sivil dövlətin prokurorluq orqanlarına xas olmayan səlahiyyət və funksiyalardan azad edilmişdir [1, m. 133]. Dövrün tələbinə və ictimai münasibətlərin inkişafı və tənzimlənməsi istiqamətinə uyğun olaraq, qanunvericiliyə edilən dəyişikliklərlə fəaliyyət istiqamətlərinin artırıldığı hər zaman müşahidə olunur. 7 Dekabr 1999-cu ildə qəbul olunmuş "Pokurorluq haqqında" Qanunda prokurorluğun fəaliyyəti 7 istiqamət üzrə formalaşdırılsa da, sürətli sosial-iqtisadi inkişaf şəraitində ictimai münasibətlərin dəyişməsi öz növbəsində qanunun da təkmilləşdirilməsinə və fəaliyyət istiqamətlərinin artırılmasına gətirib çıxarmışdır. Belə ki, 25 oktyabr 2011-ci ildə "Prokurorluq haqqında" Qanuna edilmiş dəyişikliklə korrupsiya ilə əlaqədar cinayətlər üzrə cinayət işinin başlanması və istintaqın aparılması təmin etmək prokurorluğun səlahiyyətlərinə əlavə edilmiş, Azərbaycan Respublikası Prezidentinin "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Sərəncamına əsasən Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsi yaradılmışdır.

Digər ölkələrin prokurorluq orqanlarına və ya prokurorluq adı altında olmasa da, səlahiyyət baxımından ona bərabər hesab edilən orqanların qanun üzrə fəaliyyət istiqamətlərinə nəzər yetirdikdə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun daha lakonik xarakter daşıdığının şahidi ola bilərik. Belə ki, Rusiya Federasiyası prokurorluğunun fəaliyyətinin başlıca istiqaməti kimi güc strukturarına və digər dövlət orqanlarına nəzarət xarakterli orqan statusu daşıması təsbit olunmuşdur [6]. Yuxarıda da qeyd olunduğu kimi qanun üzrə Azərbaycan Respublikası Prokurorluğunun nəzarət funksiyası yalnız təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarətlə çərçivələnir. İsveçrə hüquq sisteminə nəzərən formalaşdırılan Türkiyə Məhkəmə və Prokurorluq sisteminə nəzər yetirdikdə məhkəmə hakimiyyətinin bir hissəsi kimi göstərilən prokurorluğun əməliyyat-axtarış fəaliyyəti və dövlət mənafeyinin müdafiəsi, hüququn aliliyinin qorunması kimi təməl xüsusiyyətlərə sahib olduğunu, nəzarət funksiyasının isə daha çox tabe olduğu Ədliyyə nazirliyinin səlahiyyətlərinə aid edildiyini görə bilərik [7, m. 161].

Qanunda prokurorluğun sistemi, təşkili və idarəetmə əsasları müəyyən edilərək, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə sisteminin bir hissəsi kimi təsbit olunaraq ərazi və ixtisaslaşdırılmış prokurorluqların Baş prokurorun tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi göstərilmişdir. Belə ki, Azərbaycan Respublikasının prokurorluq sisteminə respublikanın Baş prokurorluğu, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, rayon (şəhər) prokurorluqları, hərbi ixtisaslaşdırılmış prokurorluqlar, tədris-elm müəssisələri, mətbuat orqanları, mətbəə, sosial-məişət, təsərrüfat təyinatlı digər qurumlar daxildir [2, m. 8]. Prokurorluq sisteminin təşkili və fəaliyyətinə rəhbərlik qanunla nəzərdə tutulmuş səlahiyyətlər daxilində Baş Prokurorluğun mərkəzi aparatı tərəfindən həyata keçirilir. Qanunda da nəzərdə tutulduğu kimi mərkəzi aparatın fəaliyyət istiqamətinin çərçivəsi qanunların icra və tətbiq olunmasına prokuror nəzarəti təcrübəsini öyrənmək və ümumiləşdirmək, prokuror nəzarətinin təkmilləşdirilməsi və hüquq pozuntularının qarşısının alınması üçün tədbirlər hazırlayıb həyata keçirmək, müvafiq orqanlarla birlikdə cinayətkarlığın, cinayətlərin açılması vəziyyətinin, cinayət işlərinin hərəkətinin vahid uçotu və statistik hesabatlarına dair metodikanın hazırlanmasında iştiak etmək, prokurorluğun kadrlarının seçilib yerləşdirilməsi və peşə hazırlığının yüksəldilməsi işini təşkil etmək, statistik hesabatları təmin etmək, prokuror və istintaq təcrübəsinin ümumiləşdirilməsini və təkmilləşdirilməsini, elmi-texniki təlimata dair təkliflər hazırlanmasını təmin etmək, prokurorluğun maliyyələşdirilməsinə və elmi-texniki təminatına dair təkliflər hazırlanmasını təmin etmək, Azərbaycan Respublikası Baş prokurorunun əmr, göstəriş və digər aktlarını həyata keçirmək, Azərbaycan Respublikası qanunları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirməklə əhatələndirilmişdir [4, s. 69]. Rəhbərliyini Baş prokuror həyata keçirən məşvərətçi orqan Kollegiyanın tərkibi Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilir. Baş prokuror tərəfindən mütəmadi olaraq çağırılan Kollegiyada prokurorluğun fəaliyyətinin əsas istiqamətləri, cinayətkarlıqla mübarizənin və icra intizamının vəziyyəti, mühüm kadr məsələləri, prokuror hesabatları, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğuların verilməsi məsələləri, prokurorluğun fəaliyyətinə aid digər

məsələlər müzakirə edilir. Müzakirə məsələləri üzrə qərarlar bərabər hüquqlu Kollegiya üzvləri tərəfindən səs çoxluğu ilə qəbul olunur. Müzakirələr zamanı fikir ayrılığı olduqda yekun qərar kimi Baş prokurorun əsaslandırılmış qərarı icra edilir [2, m. 11].

Azərbaycan Respublikası Prokurorluğunun sistemini Baş prokurorun rəhbərliyi altında böyük köməkçiləri hesab edilən idarə rəisləri, köməkçiləri hesab edilər idarə rəislərinin müavinləri və şöbə rəisləri, böyük prokuror və prokurorlar, böyük prokuror-metodistlər, böyük prokuror-kriminalist və prokuror kriminalistlər, mühüm işlər üzrə böyük müstəntiqlər və müstəntiqlər təşkil edir [4, s. 74]. Hazırda Baş prokurorluğun sturukturunu İstintaq idarəsi, Prokurorluqda istintaqa nəzarət idarəsi, Daxili işlər orqanlarının istintaq-təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Ədliyyə, gömrük, vergi orqanlarının istintaq-təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq-təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsi, Dövlət ittihamının müdafiəsi üzrə idarə, Təşkilat və icraya nəzarət idarəsi, Kadrlar idarəsi, Xidməti araşdırmalar idarəsi, Cinayət təqibindən kənar icraatlar idarəsi, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsi, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi, Kriminalistika və informasiya texnologiyaları idarəsi, Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsi, Elm-tədris mərkəzi, Mətbuat xidməti, Maddi-texniki təminat şöbəsi təşkil edir [5]. Sözü gedən idarə və şöbələr prokurorluq sistemində baş verən son dəyişikliklərdən sonra strukturda işlərin daha səmərəli həyata keçirilməsi məqsədilə yenidən formalaşdırılmışdır.

İnkişafın müqayisəli təhlili üçün prokurorluq orqanlarının tarixi aspektlərinə diqqət yetirdikdə ilk müstəqil prokurorluq sistemi hesab edilən Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyətə başlamış sistem sturuktur etibarı ilə eyni zamanda Ədliyyə naziri vəzifəsini daşıyan Baş prokuror ierarxiyasında növbəli olaraq Məhkəmə Palatasının prokuroru, müavinləri qismində Bakı və Gəncə dairə prokurorları, onların müavinləri və sahə prokurorlarından ibarət olmuşdur [3, s. 114]. Bu dövrdə strukturun tam formalaşmamasından qaynaqlanan əsas boşluqlardan biri kimi müstəntiq vəzifələrinin mövcud olmaması və vəzifənin hakim köməkçiləri tərəfindən həyata keçirilməsi nəticəsində prosesdə ləngimələrin olması və ədalətin tam bərpa olmamasını göstərmək mümkündür. Azərbaycan SSR dövründə isə çar ənənələri üzərində formalaşan sovet prokurorluq institutunun respublikalar üzrə əsas nəzarət orqanlarından biri kimi fəaliyyət göstərməsi səciyyəvi xarakter daşıyır. Struktur baxımından islahatlar nəticəsində bir neçə dəfə dəyişiklik olunmuş sovet prokurorluq sistemi nəticə etibari ilə sinfi mənafelərə xidmət edən orqan kimi çıxış etmişdir. Sovet dövründə prokurorluq institutunun formalaşmasında ilk addım olaraq yaradılmış istintaq komisiyaları 1920-ci il noyabrın 5-də Xalq Müstəntiqləri İnstitutu ilə əvəz edilmiş daha sonra ilə 1922-ci il mayın 11-də Azərbaycan SSR Xalq Ədliyyə Komisarlığının tərkibində sovet prokurorluq orqanı yaradılmışdır [3, s. 121]. 1931-ci İl avqust ayının 22-də ZSFSR Prokurorluğu yaradılaraq Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına daxil olan 3 respublikanın prokurorları buraya tabe edilmişdir. 1933-cu İldə isə prokurorluq yenidən Xalq Ədliyyə Komissarlığına tabe edilmişdir. 1936-cı İl SSRİ Konstitusiyasına və 1937-ci il Azərbaycan SSR Kostitusiyasına əsasən Azərbaycan SSR prokuroru SSRİ Baş prokuroru tərəfindən təyin edilir və birbaşa ona tabe idi [3, s. 124]. Tarixi prosesdən də bizə məlum olduğu kimi ötən əsrdə prokurorluq institutunun tədricən formalaşması və müstəqil fəaliyyət göstərə bilməməsi ümumi hüquq sistemində müəyyən boşluqlar yaratsa da, müasir prokurorluq sistemimizin bəzi strukturlarının yaranmasının həmin dövrə təsadüf etməsi fəaliyyət baxımından müsbət nəticələnməsə belə, sistemin formalaşması baxımından təqdirəlayiq hadisə kimi qarşılanmalıdır. 27 Fevral 1959-cu ildə prokurorluq yanında Kollegiyanın və 14 dekabr 1966-ci ildə Hərbi prokurorluğun yaradılması və prokurorluq strukturuna daxil edilməsi bu qəbildəndir. 30 Noyabr 1979-cu ildə qəbul olunmuş "SSRİ prokurorluğu haqqında" Qanun əvvəlki əsasnamələrə nisbətdə ilk dəfə olaraq prokurorluğun fəaliyyət istiqamətini dəqiq şəkildə tənzimləmişdir. Müasir prokurorluğun fəaliyyət istiqamətləri ilə kəsişən tərəfləri olsa da, əsas etibari ilə 1978-ci il Konstitusiyasının prokurorluq barədə maddələrinin realizəsi kimi özünü göstərən bu qanun bütün nazirliklər, dövlət komitələri və baş idarələri, müəssisə, idarə və təşkilatlar, o cümlədən vətəndaşlar üzərində ali nəzarət funksiyasının SSRİ Baş prokuroru, ona tabe olan Azərbaycan SSR prokuroru və aşağı prokurorlar tərəfindən həyata keçirilməsini

nəzərdə tuturdu. Sovet dövründə nəzarətin çərçivəsinin son dərəcə geniş göstərilməsi, hətta məhkəmələr üzrərində nəzarətin prokurorluq orqanlarına verilməsi ədalət mühakiməsi zamanı, eyni zamanda istintaq və əməliyyat-axtarış fəaliyyəti ilə məşğul olan prokurorluq orqanının məhkəmə qərarlarına birbaşa təsirini qaçılmaz edirdi.

Nəticə etibarilə müstəqilliyin bərpasından sonra prokurorluğun hüquqi statusunun Azərbaycan Respublikası Konstitusiyasında birbaşa təsbit olunması və bu sahədə demokratik əsaslara söykənən qanunvericilik aktlarının qəbulu müstəqillikdən əvvəlki dövrdə formalaşan sinfi mənafelərə xidmət edən orqanın demokratik, müasir tələblərə cavab verən, insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən quruma çevrilməsinə səbəb olmuşdur. Dövrün tələbinə uyğun olaraq, prokurorluğun zəruri hallarda səlahiyyətlərinin genişləndirilməsi heç bir halda hakimiyyət qolları arasında çəkindirmə və tarazlaşdırma prinsipini pozmamalı, fərqli hakimiyyət qollarına aid olan qurumların bir-biri üzərində üstünlüyünə əsas yaratmamalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Konstitusiyası. https://e-qanun.az/framework/897
2. Prokurorluq haqqında Azərbaycan Respublikası qanunu. https://e-qanun.az/framework/5229
3. Azərbaycan Prokurorluğu – Bir əsrlik inkişaf tarixi (Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, 2018).
4. Müstəqil dövlətin müasir prokurorluğu (Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi, 2016).
5. Azərbaycan Respublikasının Baş Prokurorluğu. https://genprosecutor.gov.az/az/page/prokurorluq/bas-prokurorlugun-struktur-qurumlari
6. Деятельность российской прокуратуры. https://epp.genproc.gov.ru/web/gprf/activity
7. Ceza Muhakemesi Kanunu https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5271.pdf

SUMMARY

Karam Mansurov

MAIN DIRECTIONS OF THE SYSTEM, ORGANIZATION AND ACTIVITY OF THE PROSECUTOR'S OFFICE OF THE REPUBLIC OF AZERBAIJAN

The article conducts an analysis of the Prosecutor's Office system in the Republic of Azerbaijan, exploring its organizational framework and assessing the alignment of its primary activities with present-day requirements. The examination encompasses an evaluation of both positive and negative aspects, culminating in the presentation of recommendations for improvement.

Key words: *Fields of activity of the Prosecutor's office, system of Prosecutor's Office, organization and structure of Prosecutor's Office, Prosecutor's Office of the Republic of Azerbaijan.*

РЕЗЮМЕ

Карам Мансуров

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СИСТЕМЫ, ОРГАНИЗАЦИИ И ДЕЯТЕЛЬНОСТИ ПРОКУРАТУРЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

В данной статье анализируется система Прокуратуры Азербайджанской Республики, оцениваются её организационные принципы, соответствие основных сфер деятельности современным требованиям, выявляются положительные и отрицательные аспекты, а также предлагаются соответствующие рекомендации.

Ключевые слова: *Сферы деятельности прокуратуры, система органов прокуратуры, организация и структура органов прокуратуры, Прокуратура Азербайджанской Республики.*

BAHAR ƏLİYEVA
baharhesenzade0@gmail.com
Naxçıvan Dövlət Universiteti

İNNOVATİV PEDAQOJİ FƏALİYYƏTİN MAHİYYƏTİ VƏ STRUKTURU

Məqalədə innovativ pedaqoji fəaliyyətin strukturunun müəyyənləşdirilməsinə müasir yanaşmalar araşdırılır; konsepsiyasının mahiyyəti açılır, "innovativ pedaqoji fəaliyyət"; anlayışının tərifi verilir, mmüəllimin innovativ peşə fəaliyyəti", ali təhsil müəssisəsi müəlliminin innovativ peşə fəaliyyətinin struktur komponentləri müəyyən edilir və onların məzmunu aşkarlanır.

Elmi məqalədə qeyd olunur ki, ali sivilizasiyanın inkişafının indiki mərhələsində cəmiyyətin innovativ potensialı xüsusi rol oynayır. Bu isə öz növbəsində sistemli və konstruktiv düşünməyi bacaran, lazımi məlumatları tez tapa bilən, adekvat qərarlar qəbul edən, müxtəlif bilik sahələri üzrə prinsipial yeni ideyalar yarada bilən mütəxəssislərin hazırlanmasını tələb edir. Bununla da ali təhsil sistemində yeni yanaşmalar üçün sosial sifariş, yeni pedaqoji təfəkkür, müəllimin öz peşə fəaliyyətinə yeni münasibəti formalaşır ki, bunun da nəticəsi "innovativ insan" tərbiyəsi olmalıdır. Belə şəraitdə innovativ peşə fəaliyyəti hər bir müəllimin peşəkar fəaliyyətinin inkişafında ayrılmaz amilə çevrilir. Ali təhsil müəssisəsində müəllimin innovativ peşə fəaliyyətinin modelləşdirilməsi innovativ peşə fəaliyyətinin özünün strukturunun və onun əsas xüsusiyyətlərinin dərin təhlilini tələb edir.

Göstərilir ki, tədqiqatın aktuallığı cəmiyyətdə baş verən və pedaqoji təhsilin strukturuna və məzmununa təsir edən dəyişikliklərlə müəyyən edilir. Azərbaycan təhsil sisteminə yeniliklər, yəni pedaqoji prosesə yeni stabil elementlər daxil edən, təhsil sisteminin bir vəziyyətdən digər vəziyyətə keçidinə səbəb olan məqsədyönlü dəyişikliklər daxil olub. Azərbaycanda orta təhsil müəssisələrinin daha da təkmilləşdirilməsi üçün geniş təhsil məkanına yönəlmiş və innovasiyada iştirak etməyə hazır olan müəllimlərə böyük ehtiyac vardır ki, bu da öz növbəsində müəllimlərin innovativ fəaliyyətinin müxtəlif komponentlərinin inkişafını tələb edir. Müasir cəmiyyətin tələblərinə cavab verə bilən mütəxəssislərin yetişdirilməsi ali və orta təhsil müəssisələrinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ali məktəb müəllimlərinin innovativ əsaslara əsaslanan peşəkarlıqlarının artırılması hər zaman aktuallığını qoruyub saxlamışdır.

Bu gün təhsilə olan yeni yanaşma onu tələb edir ki, müəllimlər cəmiyyətin tələblərinə cavab verə bilsin, öz ixtisasına dərindən yiyələnsin, öz üzərində çalışsın, pedaqoji və psixoloji problemlərdən xəbərdar olsun. Hər bir müəllim cəmiyyətimizin sosial tələblərini yerinə yetirmək üçün ilk növbədə İKT-dən istifadə etməyi bacarmalıdır.

Açar sözlər: *İnnovativ fəaliyyət; Pedaqoji təfəkkür; Peşə fəaliyyəti; Müəllimin innovativ peşə fəaliyyəti; Struktur; Funksiyalar.*

Ali sivilizasiyanın inkişafının indiki mərhələsində cəmiyyətin innovativ potensialı xüsusi rol oynayır. Bu isə öz növbəsində sistemli və konstruktiv düşünməyi bacaran, lazımi məlumatları tez tapa bilən, adekvat qərarlar qəbul edən, müxtəlif bilik sahələri üzrə prinsipial yeni ideyalar yarada bilən mütəxəssislərin hazırlanmasını tələb edir. Bununla da ali təhsil sistemində yeni yanaşmalar üçün sosial sifariş, yeni pedaqoji təfəkkür, müəllimin öz peşə fəaliyyətinə yeni münasibəti formalaşır ki, bunun da nəticəsi "innovativ insan" tərbiyəsi olmalıdır. Belə şəraitdə innovativ peşə fəaliyyəti hər bir müəllimin peşəkar fəaliyyətinin inkişafında ayrılmaz amilə çevrilir. Ali təhsil müəssisəsində müəllimin innovativ peşə fəaliyyətinin modelləşdirilməsi innovativ peşə fəaliyyətinin özünün strukturunun və onun əsas xüsusiyyətlərinin dərin təhlilini tələb edir.

Metod: Məqalənin yazılmasında nəzəri təhlil, elmi-pedaqoji metodlardan istifadə edilmiş, nəzəri-metodiki ədəbiyyatlar öyrənilmiş, təhlil edilmiş və mövzunun işlənməsi üçün müvafiq nəticələr çıxarılmışdır

Azərbaycanın bir sıra tədqiqatçılarının əsərlərində (S.Xəlilov, Ə.Ağayev), A.Abbasov, M.Əmirov və s.) müəllimlərin innovativ fəaliyyətə hazırlanmasının müxtəlif aspektləri nəzərdən keçirilmişdir. Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən verilmiş 2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyanın başlıca məqsədi də müasir və innovativ təhsil sisteminin təkmilləşdirilməsindən ibarət olmuşdur [7]. Bundan əlavə, "Azərbyacan Respublikasında təhsil sahəsində İslahat Proqramı"nda, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu"nda, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında və s. təhsil sisteminin innovativ əsaslarla təkmilləşdirilməsi məsələləri öz əksini tapmışdır [Cəbrayılov, 2015: 9].

İnnovativ pedaqoji fəaliyyət yaradıcı fəaliyyətin xüsusi növü kimi təhsil sisteminin yenilənməsinə yönəlmişdir. Bu, insan fəaliyyətinin nəticəsidir ki, xarici mühitə uyğunlaşmaqdan çox, onu şəxsi və ictimai ehtiyac və maraqlara uyğun dəyişməkdədir [6].

Tədqiqatın aktuallığı cəmiyyətdə baş verən və pedaqoji təhsilin strukturuna və məzmununa təsir edən dəyişikliklərlə müəyyən edilir. Azərbaycan təhsil sisteminə yeniliklər, yəni pedaqoji prosesə yeni stabil elementlər daxil edən, təhsil sisteminin bir vəziyyətdən digər vəziyyətə keçidinə səbəb olan məqsədyönlü dəyişikliklər daxil olub. Azərbaycanda orta təhsil müəssisələrinin daha da təkmilləşdirilməsi üçün geniş təhsil məkanına yönəlmiş və innovasiyada iştirak etməyə hazır olan müəllimlərə böyük ehtiyac vardır ki, bu da öz növbəsində müəllimlərin innovativ fəaliyyətinin müxtəlif komponentlərinin inkişafını tələb edir. Müasir cəmiyyətin tələblərinə cavab verə bilən mütəxəssislərin yetişdirilməsi ali və orta təhsil müəssisələrinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ali məktəb müəllimlərinin innovativ əsəslara əsaslanan peşəkarlıqlarının artırılması hər zaman aktuallığını qoruyub saxlamışdır. Bu gün təhsilə olan yeni yanaşma onu tələb edir ki, müəllimlər cəmiyyətin tələblərinə cavab verə bilsin, öz ixtisasına dərindən yiyələnsin, öz üzərində çalışsın, pedaqoji və psixoloji problemlərdən xəbərdar olsun. Hər bir müəllim cəmiyyətimizin sosial tələblərini yerinə yetirmək üçün ilk növbədə İKT-dən istifadə etməyi bacarmalıdır [Əsədova, 2015:131].

Müəllimin innovativ fəaliyyətinin strukturunu nəzərdən keçirmək üçün "innovasiya" və "pedaqoji fəaliyyət"in əsas anlayışlarını müəyyən edən terminlərin mənasını təhlil etmək lazımdır. Fəaliyyət ətraf aləmə aktiv münasibətin spesifik formasıdır ki, onun məzmunu mədəniyyətin müxtəlif formalarının inkişafı əsasında bu dünyanın məqsədəuyğun dəyişməsi və çevrilməsidir.

İnnovativ fəaliyyət öz təbiətinə görə çoxkomponentlidir və psixoloji-pedaqoji, tarixi ədəbiyyatda müxtəlif üsullarla, xüsusən də sürətlə gedən proseslərin dərk edilməsi, yeni təfəkkür növünün formalaşması, digər fəaliyyətlər sistemində peşəkar fəaliyyətin şəxsi anlayışı, fəaliyyət keyfiyyətinin nəticələrinin gözlənilən və ya planlaşdırılanlarla müqayisəsi kimi müəyyən edilir. İnnovativ pedaqoji fəaliyyət çoxkomponentli hesab olunur və onun mahiyyəti, forması və nəticələri təhsil fəaliyyəti subyektlərinin ideya yaratmaq, onların həyata keçirilməsi, monitorinq məlumatlarının təhlili və yeni pedaqoji ideyaların istehsalı, nəticələrin dərci, şəraitin təmin edilməsi qabiliyyətini göstərir [Qonçarenko, 1997:33-34].

Müəllimin innovativ fəaliyyəti şəxsi kateqoriya kimi, yaradıcı proses və yaradıcı fəaliyyətin nəticəsi kimi şərh edilə bilər. Təhsil sistemində innovativ proseslərin strukturunda aşağıdakı istiqamətlər fərqləndirilir: Tarixin tədrisi prosesində yeni nəyinsə yaradılması; yeni şeylərin qavranılması, mənimsənilməsi və qiymətləndirilməsi; yeninin istifadəsi və tətbiqi.

İnnovativ fəaliyyətin real həyata keçirilməsinin əsası diaqnostika, proqnozlaşdırma, eksperimental proqramın işlənib hazırlanması, onun həyata keçirilməsinin gedişi, nəticələri, təhlili, innovativ hərəkətlərin düzəldilməsi və əks olunması, habelə innovativ proqramın həyata keçirilməsi, innovasiyaların monitorinqi və innovativ fəaliyyətin monitorinqini əhatə edən pedaqoji innovasiya üçün konseptual baza qurmaq bacarığıdır [Slastenin, 1997: 77-79].

Müəllimin innovativ fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri şərt innovativ qərar qəbul etmək, müəyyən risk götürmək, yeniliyin həyata keçirilməsi zamanı yaranan konfliktli vəziyyətləri uğurla həll etmək, innovasiya maneələrini aradan qaldırmaq bacarığıdır. Bununla əlaqədar olaraq, pedaqoji fəaliyyətin tənzimlənməsi ilə bağlı məsələlərin həlli xüsusi əhəmiyyət kəsb edir.

İnnovativ fəaliyyət təkcə müəyyən vəzifələri həll etmək bacarığı ilə deyil, həm də istənilən kənar nəzarətdən kənar vəzifələri axtarmaq və həll etmək üçün motivasiya hazırlığının olması ilə birləşdirilir. İnnovativ fəaliyyətin motivasiyası problemi müəllim tərəfindən peşəkar fəaliyyətin adekvat şəxsi mənasını tapmaq problemi kimi ortaya çıxır.

Tanınmış sovet-rus pedaqoqu M. Potaşnik innovasiya prosesinin strukturlarının belə bir iyerarxiyasını ayırır: 1) Fəaliyyət strukturu (komponentlər toplusu: motivlər-məqsəd-vəzifələr-məzmun-formalar-üsullar-nəticələr); 2) Fənn strukturu-bütün inkişaf subyektlərinin fəaliyyəti: menecerlər, müəllimlər, alimlər, tələbələr, valideynlər, məsləhətçilər, ekspertlər, təhsil orqanlarının əməkdaşları və s.;3) Səviyyəli struktur-beynəlxalq, federal, regional, rayon və məktəb səviyyələrində subyektlərin innovativ fəaliyyəti; 4) Mənalı struktur-təhsildə, tərbiyə işində, məktəb idarəçiliyində və sairədə yeniliklərin doğulması, inkişafı və mənimsənilməsi; 5) Mərhələlərlə ifadə olunan həyat dövrünün quruluşu: ortaya çıxma-sürətli böyümə (opponentlərə, mühafizəkarlara, skeptiklərə qarşı mübarizədə)-yetkinlik-ustalıq-diffuziya (nüfuz, paylama)-doyma (bir çox insanın mənimsəməsi, hamıya nüfuz etməsi), təhsil və idarəetmə proseslərinin hissələri)-rutinləşdirmə-böhran-innovasiyanın modernləşdirilməsi; 6) İdarəetmə strukturu-planlaşdırmanın, təşkilin, idarəetmənin, nəzarətin qarşılıqlı əlaqəsi; 7) Təşkilati struktur. Buraya aşağıdakı mərhələlər daxildir: diaqnostik, proqnostik, təşkilati, praktiki, ümumiləşdirmə, həyata keçirmə [Potaşnik, 1996: 168].

Yenilikçi müəllimlərin yaradıcı axtarışlarının, təcrübələrinin məhsulu olan pedaqoji təcrübə müəyyən şərtlər daxilində bütün təhsil sisteminin unikal sərvətinə çevrilə bilər. Bu, tarix elminin nailiyyətlərinin və qabaqcıl pedaqoji təcrübənin təhsil praktikasına tətbiqi prosesində baş verir. Bu proses dörd mərhələni əhatə edir: 1) təcrübə yaratmaq (həll etmək), 2) modelləşdirmə prosesi, 3) öyrənilən təcrübənin pedaqoji təcrübədə tətbiqi və 4) təcrübə modelinin formalaşması.

Nəticə: Aparılmış araşdırmalardan belə bir nəticəyə gəlinir ki, deməli, "innovasiya" anlayışı təkcə innovativ yeniliklərin yaradılması və yayılmasını deyil, həm də bu yeniliklərlə bağlı olan transformasiyaları, fəaliyyət tərzində, müəllimin düşüncə tərzində dəyişiklikləri nəzərdə tutur. Müəllimin innovativ fəaliyyətinin struktur və funksional komponentləri qarşılıqlı əlaqədədir və ardıcıl, dinamik sistem təşkil edir. Müəllimin innovativ fəaliyyətinin yüksək səviyyədə formalaşmasına nail olmaq təkcə fərdin yüksək yaradıcı potensialı nəticəsində deyil, həm də aşağıdakı hallarda mümkündür: 1) Peşəkar və motivasiya hazırlığı olduqda yaradıcı ideyanı həyata keçirmək üçün məhdud imkanlar; 2) Ali və orta məktəb müəllimlərinin yaradıcılıq fəaliyyətinin artırılmasına yönəlmiş sistemli, kompleks təhsil vəzifələrinin həyata keçirilməsi. Hesab olunur ki, müəllimlərin innovativ fəaliyyət üçün müvafiq hazırlığı zəruridir. İnnovasiyaya yüksək səviyyədə hazır olan yaradıcı müəllimlər qrupunun formalaşdırılması çox mühüm prosedurdur, yeni yanaşma və iş formalarının uğurla həyata keçirilməsinin əsası, kollektivdə əlverişli innovativ mühitin əsasıdır.

İnnovativ pedaqoji fəaliyyət yaradıcı fəaliyyətin xüsusi növü kimi təhsil sisteminin yenilənməsinə yönəlmişdir. Bu, insan fəaliyyətinin nəticəsidir ki, xarici mühitə uyğunlaşmaqdan çox, onu şəxsi və ictimai ehtiyac və maraqlara uyğun dəyişməkdədir.

Elmi məqalənin aktuallığı cəmiyyətdə baş verən və pedaqoji təhsilin strukturuna və məzmununa təsir edən dəyişikliklərlə müəyyən edilir.

Elmi yenilik: İlk dəfə olaraq məqalə səviyyəsində innovativ pedaqoji fəaliyyətin mahiyyəti açıqlanmış, strukturu müəyyən edilmişdir.

ƏDƏBİYYAT

1. Əsədova İ. Məktəbin metodik təminatında metodmərkəzlərin işinin idarə olunmasının rolu. Bakı: ARTPİ-nin "Elmi əsərlər"i, 2015, №2.
2. Cəbrayılov İ. Təhsildə innovativ fəaliyyətin təkmilləşdirilməsi problemləri. "Azərbaycan müəllimi" qəzeti, 2015, 18 aprel, s.9

Rus dilində

1. Гончаренко С. Педагогический словарь: [справочное издание] / – Киев: Лыбидь, 1997. – 376 с.
2. Сластенин В.А. Педагогика: Инновационная деятельность / .В.А. Сластенин, Л.С. Подымова – М.: ИЧП «Изд-во Магистр», 1997. – 308 с.
3. Поташник М.М. Инновационные школы России. Становление и развитие: [Учебн. пособие] / М.М. Поташник. – М.: Новая школа, 1996. – 243 с.

İnternet saytları

1. https://naurok.com.ua
2. https://www.idrak-m.com

SUMMARY

Bahar Alıyeva

NATURE AND STRUCTURE OF INNOVATIVE PEDAGOGICAL ACTIVITY

The article discusses current approaches to determining the structure of innovative educational activities, the essence the concept of “innovative teaching activities” developed, an definition of “innovative professional activity teacher of high school” resulted” structural components of innovative professional teacher of high school and disclosed their contents determined.

The scientific article notes that the innovative potential of society plays a special role at the current stage of the development of higher civilization. This, in turn, requires the training of specialists who are able to think systematically and constructively, who can quickly find the necessary information, make adequate decisions, and who can create fundamentally new ideas in various fields of knowledge. With this, a social order for new approaches in the higher education system, a new pedagogical thinking, a new attitude of the teacher to his professional activity is formed, the result of which should be the education of an “innovative person”. In such conditions, innovative professional activity becomes an integral factor in the development of the professional activity of every teacher. Modeling the innovative professional activity of a teacher in a higher education institution requires an in-depth analysis of the structure of the innovative professional activity itself and its main features.

It is shown that the relevance of research is determined by the changes occurring in society and affecting the structure and content of pedagogical education. Innovations have entered the educational system of Azerbaijan, i.e. purposeful changes that introduce new stable elements into the pedagogical process and lead to the transition of the educational system from one state to another. For the further improvement of secondary educational institutions in Azerbaijan, there is a great need for teachers who are focused on a wide educational space and are ready to participate in innovation, which in turn requires the development of various components of innovative activities of teachers. Training of specialists who can meet the demands of modern society is one of the most important tasks facing higher and secondary educational institutions. Increasing the professionalism of higher school teachers based on innovative principles has always remained relevant.

Today, the new approach to education requires that teachers be able to meet the demands of society, master their specialty, work on themselves, and be aware of pedagogical and psychological problems. Every teacher must first be able to use ICT to fulfill the social demands of our society.

Key words: *Innovation activities, Pedagogical thinking; Professional activityInnovative teacher professional activity, Structure, Functions.*

CEYRAN ƏLİYEVA
ceyran.aliyeva2001@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0000-4810-8772

QƏDİM TÜRK QAYNAQLARINDA QEYD OLUNMUŞ QARAQOYUNLU ETNOTOPONİMİ HAQQINDA

Bu məqalədə qədim türk qaynaqlarında qeyd olunmuş Qaraqoyunlu etnotoponiminin mənşəyi, tarixi-coğrafi və dil xüsusiyyətləri araşdırılıb, tədqiq edilmiş, etimoloji təhlili verilmişdir. Bu araşdırmalardan belə bir nəticəyə gəlinmişdir ki, bu ərazidə məskunlaşan qədim türk tayfalarının adları tarixi proseslər nəticəsində bir çox coğrafi obyektlərin ünvanına çevrilmişdir.

Açar sözlər: *toponim, qaraqoyunlu, türk, etnotoponim*

Onomastik vahidlərin maraqli qruplarından biri də toponimlərdir. M.Zehtabinin dediyi kimi, Azərbaycan xalqının milli tarixini öyrənmək üçün əhəmiyyətli, dərin mübahisəsiz mənbə və sənədlərdən biri də milli dil, el, şəxs və yer adlarıdır [1, s.34].

Toponimlərin bir qisminin zəngin informasiya yükünə malik olduğunu qeyd edən A.Qurbanov A.V.Superanskayanın fikri ilə razılaşaraq göstərir ki, toponimlər tarixin aynasıdır [2, s.362].

Qədim türk qaynaqlarında qeyd olunan toponimlərin maraqlı bir qismini etnonimlərdən törənmiş toponimlər təşkil edir.

Naxçıvan və tarixən ona aid ətraf ərazilərdəki toponimlərin böyük bir qisminin etnonimlərdən ibarət olması faktı bu ərazinin ilkin sakinlərinin türklər olduğunu sübuta yetirir.

Qədim türk qaynaqlarında adı daha çox keçən qədim türk tayfalarından biri də Qaraqoyunluların adını daşıyan toponimlərin Naxçıvanın ətraf bölgələrində qeydə alınmasıdır. Tarixi araşdırmalar göstərir ki, bu ərazilər Qaraqoyunluların önəmli qışlaq yerləri olmuşdur. N.Çetinqayanın tədqiqatlarında Qaraqoyunluların tarixi haqqında ətraflı məlumatlar vardır. Miladdan sonra III əsrin ortalarına Doğru Türküstanda Qaraqoyunlular, XIV əsrin ikinci yarısında Erciş məntəqəsində öz bəyliklərini qurmuşlar [5, s. 211].

Elxanilər islamı qəbul etdikdən sonra qədim oğuzlardan gələn türkmanlar milli adət ənənlərini yaşadaraq Daş Oğuz (Qaraqoyunlu) və İç Oğuz (Ağqoyunlu) qollarına ayrılaraq müsəlmanlığı qəbul etdilər. 1468-ci ildən sonra Ağqoyunlu tayfaları ilə qaynayıb qarışaraq Qaraqoyunlu tayfaları əsasən Azərbaycan və indiki Ermənistan ərazisində məskunlaşmışlar. XIX əsrdə Zaqafqaziyada, əsasən, Azərbaycanda Qaraqoyunlu adlı 16 toponim qeydə alınmışdır [11, s. 57].

1591-ci il dəftərində Ağcaqala nahiyəsində Qaraqoyunlu kəndi, İğdır – Aralıq nahiyəsində Yuxarı və Aşağı Qaraqoyunlu kəndləri, müasir Tuzluca mərkəz nahiyəsində Qaraqoyunlu, İğdırın mərkəz və Cəngətabad nahiyələrində Qaraqoyunlu adlı kəndlər qeydə alınmaqdadır.

Toponimik tədqiqatlardan aydın olur ki, qaraqoyunlar sadəcə Naxçıvan və onun ətraf bölgələrində deyil, tarixən daha geniş əraziələrə yayılaraq öz adlarını coğrafi adlarda qorumağa nail olmuşlar. Tarixi qaynaqlarda verilən məlumatlara görə qaraqoyunlular XIV – XV əsrlərdə Türkiyənin Antalya bölgəsinin Qarahisar yaxınlığına köç edərək burada da yerləşmiş və qaraqoyunlu adını məskunlaşdıqları yerlərə vermişlər [12, s. 141].

Qədim türk qaynaqlarında Qaraqoyunlu tayfası, Qarahisar və Qızılqaya qəzaları, Teke sancağı, Canik Sancağı, musul, Malatya, Hama, Hums, Maraş, Bozox, Nicdə, Qayseriyə, Kırşəhr, Ankara, Karaman, Şam sancakları, İzmir qəzası, Cuşaabad nahiyəsi, Diyarbəkir əyalətinin əhalisi kimi qeyd olunur [7, s.478].

Müasir dövrdə Türkiyənin Anadolu yörəsində Qaraqoyunlu adı ilə xeyli toponim qeydə alınıb. Qaraqoyun kəndi Muğla, Milas, Sinop – Kirzə, Urfa – Siberek), Qaraqoyunlu kəndi (Antalya – Almalı, Anlatya – Serik, Qayseri – Pınarbaşı, Ordu – Fatsa), Qaraqoyunlu məhəlləsi (Çankırı – Çerkeş – Pürçükörən kəndi, Qaziantəp – Kilis – Dölək kəndi, Adana – Osmaniyə) [7, s. 615].

Şimali Azərbaycanın Göyçay, Zəngəzur, Nuxa, Quba, Naftalan və Ağsu bölgələrində də Qaraqoyunlu adlı kəndlər qeydə alınıb.

Cənubi Azərbaycanın Maku və Xoy yörəsində Qaraqoyunlu və Ağqoyunlu topluluqları bərabər yaşamaqdadır. Cənubi Azərbaycanda qaraqoyunluların ana icması əsasən Qaradağ ilə Araz çayı ətrafında Arasbaranda yaşamaqdadır.

Cənubi Azərbaycanın Maku və Urmiyə yörəsində Qaraqoyunlu adlı kəndlər vardır.

Ermənistanın Vardanis şəhərinə bağlı Qaraqoyun adlı türk kəndi 1935 – ci ildə erməni dövlətinin qərarı ilə Əzizli olaraq dəyişdirilmişdir [13, s. 230].

Toponimik tədqiqatlardan belə bir nəticəyə gəlirik ki, bu ərazidə ilkin məskunlaşan türk tayfalarının adları tarixi proseslər nəticəsində bir çox coğrafi obyektlərin ünvanına çevrilmişdir.

ƏDƏBİYYAT

1. Zehtabi M. İran türklərinin əski tarixi. Təbriz: 1377, 880 s.
2. Qurbanov A. Müasir Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988, 596 s.
3. Məşədiyev Q.I. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 1990, 148s.
4. Vəlili (Baharlı) M.H., Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) Bakı: Azərbaycan, 1993, 192 s.
5. Çetinkaya N. İğdır tarihi. TDAV, İstanbul: 1996, 420 s.
6. Qeybullayev Q.Ə. Qədim Türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
7. Türkiyede Meskun Yerler Klavuzu. T.C. İçişleri Bakanlığı Yayını. 2 cilt Ankara: Başbakanlık Devlet Matbaası, 1946,.
8. Гейбуллаев Г. Топонимия Азербайджана. Баку: Элм, 1986, 192 с.
9. Шахниязов. Этнический состав узбекского народа. Ташкент, 1974.
10. Бартолд В.В. Сочинение. Т.5. Москва: 1968
11. Velidi T.Z. Azerbaycan Etnoqrafiyasına dair // Azerbaycan Yurt bilgisi, 1933, c.II.
12. Hasan M. Antalya'nın Fethi ve Türk Mühürünün Vuruluşun // Türk Dünyası Araştırmalar Dergisi, 1993, aralık, № 87.
13. Makas Z. Ermenistan'da Adları Değiştirilen Bazı Türk Yerleri Üzerine // Türk Dünyası Araştırmaları Dergisi. 1993, nisan, № 83, s.

SUMMARY

Ceyran Aliyeva

ABOUT THE ETHNOTOPONYMY OF THE BLACK-NECKED NAME RECORDED IN ANCIENT TURKISH SOURCES

In this article, the origin, history-geography and language of Garagoyunlu mentioned in ancient Turkish sources were investigated, researched and etymological analysis was given. From these studies, it was concluded that the names of the ancient Turkic tribes that inhabited this project became the management of many geographical objects.

Key words: *toponym, Karagoyunlu, Turkish, ethnotoponym*

RUBABA MAMMADOVA
efsaneorujlu@gmail.com
Nakhchivan State University
ORCID ID: 0009-0008-9137-2964

One of the elements underlying interactive learning is metacognitive knowledge and skills. Prioritizing these skills is indispensable for students ' self-improvement. Cognitive processing and self-regulation of learning are concepts which refer to the ability to manage one's own opinions and learning. Metacognition is the capacity to reflect about one's own thoughts. It relates to our awareness of our own beliefs, mental processes, ideas, and emotions, as well as how they impact our ability to make choices and solve issues.

Key words: *metacognitive knowledge, Forgetting Curve theory, beneficial practical-exercise, management of metacognitive skills.*

Introduction

The adaptation process of students to the class varies. The teacher should know ways to address this diversity. To capture the attention of the class in a central point, the teacher needs to identify specific ways of engaging children who differ in knowledge, attention levels, and interest. Due to the individual characteristics of students, their levels of attention and interest in lessons vary greatly. Some actively participate with high enthusiasm and attention, while others read for the sake of memorizing, and some prefer to meet only the minimum requirements.

Literature analysis and methods

Typically, a teacher may lift the entire class to perform a few physical activities to prepare the class with high energy, aiming to counteract passivity or fatigue that may occur in the early morning or late classes. Additionally, the teacher can make motivational remarks while engaging in physical activities. Another option is to use crossword puzzles, puzzles, or similar tools for students who enjoy such activities. Sometimes, a student may approach the class or the speaking teacher with indifference. In such cases, the teacher can use the exotechnique method by asking the student to repeat what they heard to engage the student in the class. To ensure the active participation of the whole class, the teacher can also use the student chain method. In this case, students see themselves as contributors to the class and participate more enthusiastically, and the teacher acts as a facilitator, providing guidance when necessary. This is an effective method for fostering collaboration among students and developing their cognitive abilities **[1-p. 37]**.

There are various and versatile ways to realize general education outcomes. Interactive learning provides students with an environment to demonstrate activities independently.

The German psychologist Hermann Ebbinghaus, who conducted systematic research on memory and learning, was one of the first psychologists to do so. Mainly exploring processes of retention and forgetting, and establishing mathematical principles, Ebbinghaus implemented all his experiments on himself. According to him, to positively change our lives, we must make continuous learning a habit. The process of forgetting usually manifests itself when we do not review or repeat the information we have learned after a certain period. In his self-discovered “forgetting curve” formula, the German psychologist suggested ways to reduce the rate of forgetting based on the results of testing his own memory:

- Memory is closely related to time intervals, and information that is not repeated over time tends to be forgotten;
- Repeating information increases the possibility of long-term storage in memory;
- We can more easily and for a longer period retain any information that has gained a specific meaning for us;
- Our emotions contribute to the improvement of our recall ability;

- Information needed to avoid any psychological or physical harm is stored more quickly and comprehensively in memory;
- Showing excessive effort or using methods that aid recall during learning is beneficial for long-term memory.

Work forms are highly beneficial practical-exercise forms for the development and formation of a student's metacognitive skills. Metacognitive skills are related to age but are directly associated with education. The impact of education on the formation of metacognitive skills is higher than the age factor. Students being aware of their own knowledge levels, skills, effectively utilizing them, and self-evaluating in a proper manner serve as excellent examples of metacognitive skills. Metacognitive skills are assessed in modern interactive education under two main headings: **metacognitive knowledge and metacognitive regulation/management [2 - p.33].**

Metacognitive knowledge involves a student knowing when, how, and in what situations to use their individual knowledge, skills, and acquisitions. Metacognitive knowledge has three stages, and each stage contributes to the development of the others:

➢ *Descriptive Information:* This information primarily covers the student's awareness of their own skills, indicating whether the student can solve the given task or problem based on their skills. For example, a student proficient in grammar in a foreign language can demonstrate this knowledge by applying it to sentences or in speech.

➢ *Procedural Information:* It involves the student knowing how to handle assigned tasks and what the outcome will be. This information reflects not only the execution of the task but also the methods and approaches the student will use during the task. For example, a student should know the lexical and grammatical structure of a sentence when constructing sentences in the language they are learning.

➢ *Situation-Based Information:* This type of information explains the student's ability to find a solution in any given situation. It encompasses the student's understanding of how to use their knowledge functionally in any given situation. Situational information is related to the student's awareness of whether they can perform the assigned task, the methods to employ, and what actions to take based on the situation.

Metacognitive regulation is the ability to effectively use all metacognitive information. The essence of metacognition is that students should strategically use metacognitive information as much as they possess it. The ability of a student to apply and manage acquired knowledge in a situation is the result of cognitive activity and encourages purposeful use to achieve cognitive goals. There are primarily four metacognitive skills:

1. Prediction
2. Planning
3. Monitoring
4. Evaluation/Assessment

Prediction helps the student think ahead about the learning duration and anticipated outcomes. It directs them to identify and analyze potential difficulties in any situation they may encounter, guiding them to choose appropriate task forms based on the difficulty level of the situation.

Planning guides the student in determining which supportive tools, resources, and methods they should use in their work, how they will obtain information initially, and what they will gain from this information.

During ***the monitoring*** process, the student reviews their application, identifies areas that need modification, assesses whether their direction is correct, and determines which stages they may go through later.

During ***evaluation***, the student can determine the accuracy of the results obtained and what they have gained in terms of reliability **[3- p.45]**.

Results and Discussion

Metacognition is essential for self-directed and successful learning. We may increase our understanding, memory, and application of knowledge by being aware of our own cognitive processes and employing effective metacognitive tactics. In education enables pupils to take control of their own learning. Understanding how individuals learn and which tactics work best for them allows students to adopt a more active and independent approach to their education. Metacognition is also necessary for the development of critical thinking abilities. Reflecting on their cognitive processes allows students to analyze the validity of their own ideas, detect potential faults or biases, and find innovative solutions to challenges.

REFERENCES

1. “Whole child, whole school” by Eileen Santiago, JoAnne Ferrara, Jane Quin; 2012, p.37.
2. “Leading professional learning teams” by Susan E. Sather; 2009, p.33.
3. “Teaching and researching: Language learning strategies” by Rebecca L.Oxford ; 2013, p.45.

AYNURƏ ƏHMƏDOVA
aynuraahmedova7@gmail.com
Naxçıvan Dövlət Universiteti

AKADEMİK MƏMMƏD CƏFƏR CƏFƏROVUN ÖMÜR YOLU

Məqalədə akademik Məmməd Cəfər Cəfərovun keçdiyi həyat yolundan bəhs edilir. Məmməd Cəfər Cəfərov zəngin və çoxcəhətli yaradıcılığını bir neçə istiqamət üzrə təsnif etmək olar.

Birincisi, Məmməd Cəfər Cəfərov rus ədəbiyyatının görkəmli tədqiqatçısı idi. Bunu alimin "Rus ədəbiyyatı tarixi oçerkləri" (1939), "Rus klassikləri" (1969) və üç cildlik "XIX əsr rus ədəbiyyatı tarixi" (1970, 1974) dərslikləri əyani sübut edir.

İkincisi, Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid" (1960), "Azərbaycan ədəbiyyatında romantizm" (1963) monoqrafiyaları belə deməyə əsas verir ki, o romantizmşünas alim idi.

Üçüncüsü, Məmməd Cəfər Cəfərovun estetika nəzəriyyəçisi və sənətşünas filosof idi. Buna əminlik üçün alimin "Estetik zövq haqqında" (1965), "Mütəfəkirin şəxsiyyəti" (1966), "Estetik tərbiyə, ailə və məktəb" (1967), "Həyatın romantikası" (1968), "Nizaminin fikir dünyası" (1982) kitablarını oxumaq kifayətdir.

Açar sözlər: *Məmməd Cəfər Cəfərov, tədqiqatçı, sənətşünas, filosof, romantizm, Azərbaycan ədəbiyyatı və s.*

XX əsr Azərbaycan ədəbiyyatında-poeziya, nəsr və dramaturgiyada ayrı-ayrı ədəbi məktəblərin mövcudluğundan söz açsaq, poeziyada Səməd Vurğun, Mirzə Ələkbər Sabir, Rəsul Rza, nəsrdə Cəlil Məmmədquluzadə, dramaturgiyada Cəfər Cabbarlı, İlyas Əfəndiyev ədəbi məktəbləri olmuşdur.

XX əsr Azərbaycan ədəbi tənqidində isə mənim fikrimcə, bir məktəbdən söz açmaq olar ki, bu məktəbin baniləri kimi Məmməd Arifin və Məmməd Cəfər Cəfərovun adlarını xüsusi qeyd etmək olar.

Tarixən Azərbaycanda fəlsəfi fikir bədii ədəbiyyatın bətnindən boy atıb. Bu mənada klassik Azərbaycan ədəbiyyatını poetik fəlsəfə kimi dəyərləndirmək olar. Əfzələddin Xaqaninin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Mirzə Fətəli Axundzadənin bədii irsi əslində Azərbaycan fəlsəfəsinin ideya məxəzləridir. Və bu fəlsəfənin əsasında böyük insanpərvərlik-humanizm dayanır. XX əsrdə klassik Azərbaycan ədəbiyyatının fəlsəfi dərki akademik Məmməd Cəfər Cəfərovun adı ilə bağlıdır. O ilk dəfə poetik fəlsəfədən fəlsəfi tənqid yaratdı.

Yaşar Qarayevin görkəmli alim Məmməd Cəfər Cəfərovun uşaqlıq və gənclik illərinə həsr etdiyi "Bir ömrün işıqları" monoqrafiyasından oxuyuruq: Bu görkəmli şəxsiyyət otuzuncu illərin sonlarından başlayaraq ədəbi tənqidin təkcə bədii ədəbiyyatın deyil, həm də mədəniyyətin fəal bir sahəsinə çevrilməsində böyük rol oynadılar. Tənqidin "xalis ədəbiyyat sərhədləri daxilində yox, bütünlükdə ideoloji işin, ictimai fikrin ümumi mənzərəsində mövqeyi və rolu" [24, s. 168] ilk dəfə məhz bu iki tənqidçinin yaradıcılığında daha bariz şəkildə hiss olundu, onların ədəbi-tənqidi fəaliyyəti təkcə ədəbiyyata yox, həm də əsrə, zamana kökləndi.

25 ildən çox ali məktəblərdə, 30 il akademiya sistemində çalışan, bir neçə nəslin müəllimi, ömrünü elmimizin və təhsilimizin tərəqqisi yolunda şam kimi əridən ədəbiyyat mücahidi akademik Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov yüz il bundan əvvəl, 9 may 1909-cu ildə Naxçıvan şəhərində dərzi Zeynalabdin kişinin ailəsində anadan olmuşdur. Məmməd Cəfər Cəfərov kiçik yaşlarında - 1919-cu ildə həm atasını, həm də anasını itirdiyindən beş nəfərlik ailəsinə başçılıq etmək vəzifəsi onun üzərinə düşmüşdür. Böyüyü yeddi, kiçiyi iki yaşında olan iki bacısı, özündən bir yaş kiçik qardaşı, əlli yaşında nənələri, demək olar ki, ümidlərini ona dikdilər. Ona görə də onun savad almağı bir az gec başa gəlir, ailə qayğıları ona imkan vermir ki, tam ibtidai təhsil alsın, amma buna baxmayaraq, yazıb-oxumağı öyrənir, Şura inqilabı gələndə isə altı aylıq savad kursunu başa vurur, iki ay müddətində isə Hüseyn Cavidin böyük qardaşı Məhəmməd Rəsizadədən dərs alır. Ancaq ibtidai təhsil haqqında vəsiqəsi olmadığından onu orta məktəbə qəbul eləmirlər. Ürəyi isə oxumaq, təhsil

almaq eşqilə çırpınırdı və tanış bir ziyalının məsləhətilə o vaxt maarif komissarı olan Ruhulla Axundova şeir ilə uzun bir ərizə yazır. Bu ərizənin böyük təsiri olur. Balaca Məmməd Cəfər Cəfərov ailəni dolandırmaq üçün ilk əvvəlcə atasının sənətini – dərziliyi öyrənmək üçün dərzi şagirdi olur. Sonra bir müddət kuryerlik edib, saatlarla küçələri dolaşır. Özünü bu işlərdə tapa bilməyən Məmməd Cəfər Cəfərov 1922-ci ildə çörək dükanında işə girir. Buradakı vəzifəsi kündə salmaq, anbardan saman daşımaq, təndiri odlamaq, təmizlik işlərinə baxmaq, ustaların evlərinə ət, çörək paylamaq idi.

Məmməd Cəfər Cəfərov ağır, lakin ailəsinə sevinc gətirən əməyini "On iki yaşlı kündəgir" adlı xatirəsində belə xatırlayırdı: "Biz çörəkçi əmələləri günəmuzd işləyirdik. Hamıdan az muzd alan mən idim. Bununla belə mənim gündəlik qazancım beş nəfərlik ailəmiz üçün ətə, çörəyə, qənd və çaya çatırdı…" (20, səh. 139).

Məmməd Cəfər Cəfərova ilk ədəbiyyat dərsini də məhz Tanrının bəxş etdiyi yaşam və onun süd anası olan Zəhra xala kimi insanlar vermişdi.

Tale ona valideyn nəvazişi, sığal – tumarı qismət etməsə də yaxşı, xeyirxah insanlar çıxarmışdı qarşısına. Belə insanlardan biri işlədiyi çörəkçi dükanının müştərisi olan Adıgözəl idi. Fars dilini gözəl bilən bu insanın köməyi ilə o, minillik Şərq poeziyası ilə tanış, Firdovsi, Xəyyam, Nizami, Sədi və Hafiz şeirinə bələd olmuşdu. Adıgözəl onların əsərlərindən parçalar oxuyar, sonra tərcümə və izah edərdi. Tanrının Məmməd Cəfər Cəfərova göndərdiyi üçüncü bəndə isə papaqçı Qulamhüseyn idi. Bu bəndə isə XX əsr ədəbiyyatının bilicisi idi. Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Namiq Kamal, Tofiq Fikrəti əzbər bilən bu insan onların şeirlərini oxuyar, hətta tərcümeyi – hallarından maraqlı söhbətlər edərdi.

Bütün bunlar gələcəyin böyük alimində ədəbiyyata məhəbbətin dərinləşməsində mühüm rol oynamışdır.

1928-ci ilin sentyabrın 15-də iki milis nəfəri çörək dükanlarının birində onu tapır, rayon partiya komitəsinə aparırlar. Ruhulla Axundov mənzum ərizənin birinci səhifəsində yazmışdı: "Bu oğlanı təcili tapıb məktəbə qəbul olunmasına kömək edin!". Beləliklə, elə həmin gün Məmməd Cəfər Cəfərov Naxçıvan pedaqoji texnikumuna qəbul olunur. Naxçıvan Dövlət Arxivində pedaqoji texnikumunun sənədlərini ələk-vələk etdiksə də Məmməd Cəfər Cəfərova aid yalnız bir məlumata rastlaşdıq. Texnikumun 1931-32-ci illərin məzunlarının siyahısında 53-cü sırada Məmməd Cəfər Cəfərovun adı var idi. Adın qarşısında isə - "qurtarmamışdır" kəlməsi yer almışdır. Bəli! Son sinfə keçərkən pedaqoji şuranın qərarı ilə Məmməd Cəfər Cəfərov Bakıya Ali Pedaqoji İnstitutun dil və ədəbiyyat fakültəsinə göndərilmişdir.

Məmməd Cəfər Cəfərov 1928-1931-ci illər Naxçıvan Pedaqoji texnikumunun tələbəsi olmuşdur.

1932-ci ildə Məmməd Cəfər Cəfərov pedaqoji texnikumu bitirir və təhsilini davam etdirmək üçün Bakıya gəlir, o, Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsinə daxil olur. Beləliklə, gənc Məmməd Cəfər Cəfərov qaynar ədəbi mühitə qovuşur.

O, Naxçıvanda yaşayarkən ara-sıra şeirlər də yazırdı, əlinə keçən bədii əsərləri mütaliə edirdi və onun şeirlərini dinləyən hər kəs bu cavanın istedadlı olduğuna şübhə eləmirdi. Bakı həyatı isə Məmməd Cəfər Cəfərovun publisist və tədqiqatçı kimi fəaliyyəti üçün təkanverici rol oynadı, o, "Gənc işçi", "Maarif işçisi" qəzetlərinin redaksiyalarında çalışır, sonra aspirantura təhsili alır [1, s. 78].

Xarakterindəki zəhmətsevərlik, sənətinə fanatik məhəbbəti Məmməd Cəfərin çox tezliklə elmi təşkilatçılıq kariyerasını da müəyyənləşdirir: o, APİ-də rus ədəbiyyatı tarixi müəllimi, ədəbiyyat fakültəsinin dekanı, Axundov adına Müəllimlər İnstitutunda ədəbiyyat tarixi kafedrasının müdiri kimi fəaliyyət göstərir. M.Cəfər Böyük Vətən müharibəsi illərində Qubada müəllimlər institutunun təşkilatçılarından biri olur, hətta iki il orada elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır.

Onun pedaqoji fəaliyyəti daha çox ADU-nun filologiya fakültəsi ilə bağlıdır. M.Cəfər düz on səkkiz il-1959-cu ilin sonuna kimi burada fakültə dekanı, rus ədəbiyyatı tarixi kafedrasının müdiri və əlbəttə, müəllim kimi ADU-nun filologiya fakültəsinin tələbələrinin sevimlisinə çevrilir. Maraqlıdır ki, o, sonrakı illərdə də rus ədəbiyyatı tarixindən mühazirələr oxumaq üçün BDU-ya dəvət edilirdi.

Qızğın pedaqoji fəaliyyətlə yanaşı, Məmməd Cəfər Cəfərov dörd il (1945-1948) "Ədəbiyyat qəzeti"ndə baş redaktor da işləmişdir. Mən istəmirəm ki, bu bioqrafik faktları uzadım. Qısaca deyim ki, Məmməd Cəfər Cəfərov sonrakı illərdə də həmişə ədəbi və elmi fikrin fəal qurucularından olmuş, Ədəbiyyat institutunda şöbə müdiri və direktor, Azərbaycan EA ictimai elmlər bölməsinin akademik – katibi vəzifəsində çalışmışdır.

1961-ci ildə Filologiya elmləri doktoru, 1963-cü ildə professor, 1976-cı ildə Azərbaycan EA-nın həqiqi üzvü, 1982-ci ildə əməkdar elm xadimi adını almış və heç bir titulun çərçivəsinə sığmayan sabit, sərt və təmkinli insan, bütöv şəxsiyyət Azərbaycanın ədəbi-tarixi taleyində nüfuzlu söz sahibi Məmməd Cəfər Cəfərov otuzdan artıq monoqrafiya, dərslik və kitabın, 300-dən artıq elmi-nəzəri məqalənin, duzlu-məzəli hekayələrin ("Əntiqə adamlar" 1981) müəllifi idi. Məmməd Cəfər Cəfərov zəngin və çoxcəhətli yaradıcılığını bir neçə istiqamət üzrə təsnif etmək olar.

Birincisi, Məmməd Cəfər Cəfərov rus ədəbiyyatının görkəmli tədqiqatçısı idi. Bunu alimin "Rus ədəbiyyatı tarixi oçerkləri" (1939), "Rus klassikləri" (1969) və üç cildlik "XIX əsr rus ədəbiyyatı tarixi" (1970, 1974) dərslikləri əyani sübut edir.

İkincisi, Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid" (1960), "Azərbaycan ədəbiyyatında romantizm" (1963) monoqrafiyaları belə deməyə əsas verir ki, o romantizmşünas alim idi.

Üçüncüsü, Məmməd Cəfər Cəfərovun estetika nəzəriyyəçisi və sənətşünas filosof idi. Buna əminlik üçün alimin "Estetik zövq haqqında" (1965), "Mütəfəkirin şəxsiyyəti" (1966), "Estetik tərbiyə, ailə və məktəb" (1967), "Həyatın romantikası" (1968), "Nizaminin fikir dünyası" (1982) kitablarını oxumaq kifayətdir.

Digər tərəfdən Məmməd Cəfər Cəfərov 1932-ci ildən 1992-ci ilə qədər 60 il gözü qarşısında davam edən cari ədəbi prosesi ədəbiyyata məhəbbət və sərt tənqidçi prinsipiallığı ilə izləmiş professional tənqidçi idi. O 300-dən artıq ədəbi-nəzəri və tənqidi məqalə yazmış, "Ədəbi düşüncələr" (1958), "Sənət yollarında" (1975) və alimin iki cildli "Seçilmiş əsərləri"ndə (1974) bu məqalələrin bir qismi oxuculara çatdırılmışdır (1/ s'h/ 101).

Sağlığında ona "filosof tənqidçi" və "ədəbiyyatın vicdanı" deyirdilər. Ədəbi ictimaiyyətin və onu tanıyanların nəzərində o, ilk növbədə, böyük şəxsiyyət idi. Onun tənqidçi, ədəbiyyatşünas, pedaqoq, maarifçi kimi XX əsr Azərbaycan mədəniyyəti tarixində silinməz izlər buraxması danılmaz bir həqiqətdir [1, s. 45].

Məmməd Cəfər Cəfərov 1992-ci il 9 mayda Bakıda vəfat etmiş, fəxri xiyabanda dəfn olunmuşdur.

Ölümündən iki ay əvvəl verdiyi müsahibələrin birində müxbirin "İnsanın özünə inamı onun həyat yolunu müəyyənləşdirməkdə, gələcək taleyində mühüm rol oynayır. Sizdə özünüzə inam və vaxt yaranıb?" - sualına Məmməd Cəfər müəllim belə cavablandırmışdır:

"Məncə, özünə inam hər kəsin gördüyü xeyirxah bir işdən zövq alıb fərəhləndiyi zaman yaranır. 1918-ci ildə ata-anamı itirdiyimdən beş nəfərdən ibarət ailəni dolandırmaq mənim öhdəmə düşmüşdü. İbtidai təhsili yarımçıq qoyub 12 yaşımdan on il fəhləlik etməli oldum! Gündəlik zəhmət haqqı ilə ailəmizə lazım olan zəruri ərzaq gətirə bilirdim. Biri məndən üç yaş kiçik, o biri hələ 3 yaşına çatmamış bacılarım axşamlar qapıda məni gözləyirdilər. 90 və 70 yaşlı nənələrim, qonşular məni "evin kişisi" adlandırırdılar. Fərəhlənirdim. Bu fərəh məndə özünə inam və ən yaxşı mənəvi keyfiyyətlərdən biri olan nikbinlik yaratdı" [2, s. 88].

ƏDƏBİYYAT

1. Akademik Məmməd Cəfər Cəfərov: taleyi və sənəti. Bakı: Elm və təhsil, 2009
2. Məmməd Cəfər. Naxçıvan Ensiklopediyası. Bakı: 2002
3. Məmməd Cəfər. Naxçıvan Ensiklopediyası. 2 c.-də, C.2. Naxçıvan: 2005, s. 18
4. Məmməd Cəfər. İnsanlar və talelər. (Tərt. ed.: İ. Həbibbəyli ; elmi red.: F.Kazımova.) – Bakı: "Elm və Təhsil" nəşriyyatı, 2009.
5. Məmməd Cəfər Cəfərov. Seçilmiş əsərləri. I; II; III cild, Bakı: Çinar – Çap,

SUMMARY

Aynura Ahmadova

ACADEMICIAN MAMMAD JAFAR JAFAROV'S LIFE PATH

The article talks about the life path of academician Mammad Jafar Jafarov. Mammad Jafar Jafarov's rich and multifaceted creativity can be classified in several directions.

First, Mammad Jafar Jafarov was an outstanding researcher of Russian literature. This is clearly evidenced by the scientist's textbooks “Essays on the history of Russian literature” (1939), “Russian classics” (1969) and three-volume “History of Russian literature of the XIX century” (1970, 1974).

Secondly, Mammad Jafar Jafarov's monographs “Huseyn Javid” (1960), “Romanticism in Azerbaijani Literature” (1963) suggest that he was a scholar of romanticism.

The third was Mammad Jafar Jafarov's aesthetic theorist and art critic philosopher. To be sure of this, the scientist's books “About aesthetic taste” (1965), “The identity of the thinker” (1966), “Aesthetic education, family and school” (1967), “The romance of life” (1968), “Nizamin's world of thought” (1982) enough to read.

Key words: *Mammad Jafar Jafarov, researcher, art critic, philosopher, romanticism, Azerbaijani literature, etc.*

FATİMƏ HƏSƏNOVA
fhasanova2001@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 009-0006-5219-8452

"ŞƏRQİ-RUS" QƏZETİNDƏ TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ

Terminlərin yaranması çox qədim dövrlərə gedib çıxır. Ancaq dilimizdəki terminlər uzun müddət ərəb-fars sözlərindən ibarət olmuşdur. XIX əsrdə ilk dəfə M.F.Axundzadə,daha sonra "Əkinçi" qəzeti dilimizin terminlər sisteminin formalaşması istiqamətində mühüm xidmətlər göstərmişlər.Böyük maarifçi ədib M.Şahtaxtlı bu ənənəni uğurla davam etdirmiş, XX əsrin ilk anadilli qəzeti olan "Şərqi-Rusda" terminlərdən istifadə məsələsinə xüsusi həssaslıqla yanaşmışdır. Görkəmli ədib qəzetdə bəzi alınma terminlərin cəmiyyət tərəfindən geniş şəkildə işlədildiyini və anlaşıldığını nəzərə alıb qəzetdə izahsız-filansız istifadə edirdi. Məsələn: fanatizm, pedaqoq, prokuror, protest və s. O, bəzən Avropa mənşəli terminləri işlədərkən daha anlaşıqlı olsun deyə mötərizədə onun mənasını da izah edirdi. Bəzən isə Avropa mənşəli terminin qarşılığını verirdi. Qəzet termin yaradıcılığını inkişaf etdirmək üçün o dövrün osmanlı türkcəsinin leksik vahidlərindən də istifadə edirdi. Məhəmməd ağa Şahtaxtlı terminologiya ilə bağlı fəaliyyətini yaradıcılığının sonrakı dövrlərində daha da genişləndirmişdir.

Məqalədə "Şərqi-Rus" qəzetində terminlərin anlaşıqlı olması üçün istifadə edilən digər metod və üsullar da geniş şəkildə təhlil və tədqiq olunmuşdur.

***Açar sözlər**: "Şərqi-Rus", Şahtaxtlı, dil, termin, mətbuat*

Məlumdur ki, Azərbaycan dilində terminlərin yaranması çox qədim dövrlərə gedib çıxır. Ancaq uzun müddət dilimizin termin yaradıcılığı mənbəyi ərəb-fars dilləri olmuşdur. XIX əsrdə elm və texnikanın inkişafı ilə əlaqədar dilimizin özünəməxsus terminoloji sisteminin formalaşması zərurəti də qarşıya çıxmışdır [4,46; 1, 3]. Realist Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadə dövrün tələblərinə uyğun termin yaradıcılığı məsələsində böyük xidmət göstərmiş, anlaşılmayan ərəb-fars terminlərinin yerinə Avropa dillərindən alınmış terminlərin işlədilməsini məqsədəuyğun hesab etmişdi. Görkəmli maarifçi-demokrat, ilk Azərbaycan qəzetinin naşiri H.Zərdabi bu sahədə daha səmərəli fəaliyyət göstərmiş, terminlərin anlaşılması, ana dilinin tələblərinə uyğunlaşdırılması və beləliklə, dilimizin terminlər sisteminin formalaşması istiqamətində çalışmışdır [2, 13]. "Əkinçi" qəzeti elmi terminlərin yaradılmasında Azərbaycan dilindən əsas mənbə kimi istifadə olunmasının tərəfdarı idi [3] və burada istifadə olunan terminlərdə də bu meyl açıq şəkildə nəzərə çarpır. Bununla belə, qəzet rus və Avropa mənşəli terminlərin də işlədilməsinə müəyyən yer ayırırdı. Qəzetdə Avropa dillərinə məxsus terminlər əslində olduğu kimi deyil, rus dilində işlədildiyi kimi verilirdi ki, bu da düzgün yol idi. "Əkinçi" qəzeti vaxtilə ərəb və fars dillərindən Azərbaycan dilinə keçmiş sözlərdən yeni mənaları ifadə edən bir çox terminlər yaratmışdır. Həsən bəy Zərdabi, M.F.Axundzadə alınma terminlərin başa düşülməsini asanlaşdırmaq məqsədilə onlardan bəziləri haqqında izahat vermişlər. H.Zərdabi termin yaradıcılığında, hətta Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələrindən də istifadə etmiş, bir çox sözləri məhdud məhəlli dairədən çıxarıb ədəbi dilə gətirməklə möhkəmlən-dirmişdir. Qarayara, qarğaduzu, ağıl (qoyunlar saxlanan yer), xəzri, mala, çaydaşı, qırov, qarabaş (taxılda olan xəstəlik), mərgümüş, su quşu, şoran və s. sözlər buna misal ola bilər. O, müxtəlif peşə və sənətlərə, kənd təsərrüfatının müxtəlif sahələrinə, idarə işlərinə, siyasətə, iqtisadiyyata, maliyyə məsələlərinə, hərbi işlərə və sairəyə aid işlədilən bir çox sözləri mətbuata keçirməklə, elmi terminologiya yaradılmasının ilk nümunələrini vermişdir [5, 55].

Böyük ədib Məhəmməd ağa Şahtaxtlı da termin yaradıcılığında özünü təcrübədə təsdiq etmiş, bu uğurlu ənənəni davam etdirmiş, xalqı maarifləndirmək, elmi və ictimai-siyasi bilikləri təbliğ etmək, xalqın mədəni səviyyəsini yüksəltmək məqsədilə ilkin olaraq Avropa dillərinə aid olan siyasi

və ictimai terminləri, məfhumların məna və məzmununu izah edir, xalqa çatdırır. Bəzi məfhum və terminlərin izahı üçün bir neçə abzas şərh verməkdən belə çəkinmir. Məsələn, naşir yazır ki, "Şərq əhlinə Qərb və ya Qərb əhlinə Şərq əfkarından, əxlaqından danışanda bəzi ən mütədavil kəlmələrin mənalarından dəxi danışmaq lazım gəlir ki, oxuyanın fikrində iştibah vaqe olmasın. Çün əksəriyyən bu mütədavil kəlmələrin mənaları arasında şərqlilər ilə qərblilər arasında böyük təfavüt və fərq olur [7,1904, №84].

Naşir beynəlxalq miqyasda işlədilən "inteliqensiya" terminini aydınlaşdırmaq, xalq kütləsinə anlatmaq üçün, hər şeydən əvvəl, qəzetdə bu məqsədlə sözün geniş izahını verir: "Axirət kargüzarları olan üləmadan dünya işini ummaq sərapa (başdan ayağa) qələt (səhv) bir arzudur. Dünya işlərimizi dünya alimlərimiz yapmalıdır ki, bu qism alimlərin heyətinə yevropalılar inteliqensiya deyirlər" [7, 1904, №78]. Bundan sonra naşir həmin terminin dilimizdəki qarşılığını da mötərizədə verməyi unutmur: "Millətlərin irəli getməsinin səbəbləri, vasitələri o maarif ərbabıdır ki, onların heyətinə ruslar da inteliqentsiya deyirlər. Hər millətin zamanın icabına görə bir milli məqsədi olur. İnteliqensiya (ziyalılar) o məqsədi anlar və ona vasil olmaq üçün lazım olan əsbab və vəsilələri hazırlar. İnteliqensiya millətin ən nüfuzlu sinfindən, sözləri millətləri tərəfindən ən ziyadə eşidilən təbəqələrdən çıxar" [7, 1904, №79].

M.Şahtaxtlı "belletristika" terminini belə şərh edir: "Rusi olsun, müsəlmani olsun, məmləkətimizin maarifməndanının ən mümtazlarındandır. Hekayə və roman təsnifində ki, ədəbiyyatın bu şöbəsinə "belletristika" deyirlər, əhli-qələm içində məşhurdur" [7, 1904, №20].

Naşir "tolerans" termini haqqında belə bir izahat verir: "Bu əlacın adı fransızca (tolerans), rusca (veroterpimost)dir ki, bizim dilimizə (əqaide-riayət) ləfzi ilə tərcü-mə ediriz" [7, 1904, №187].

M.Şahtaxtlı XX əsrin dilimizdə çıxan ilk mətbu orqanında " Əkinçi" kimi beynəlxalq səciyyəli bəzi alınma terminlərin umimiyyət tərəfindən geniş şəkildə işlədildiyini və anlaşıldığını nəzərə alıb onları izahatsız-filansız qəzetdə istifadə edirdi. Məsələn: "Üləmanın, cahillərin və avamın təəssüb və *fanatizminin* qorxusundan bir kərə rəylərini belə açıq söyləyə bilməmişlər" [7, 1903, № 2]. Yevropalılardan aldıqları məmləkət idarəsinə aid olan *liberal* və fəlsəfi fikirlərini səfsətə edib... Yevropa əfkarını cansızlaşdırmışlar [7, 1903, № 2]. Şəxsin təklifinə görə böyük bir *kapital* yığıblar ki, Qafqazda bir qəzet çıxarıb illərcə ziyanına ucuz qiymətdə xalqa paylayıb əhalini oxumağa öyrətsinlər [7, 1903, №12]. Evini şəhər əmanəti səkkiz min manat qiymət elədiyi halda Hacı niyə *protest* edib azaltmaq istəyir [7, 1903, №12]. İndi Mərdan bəy məni təhti-mühakiməyə alıb Ağayevi *prokuror* təyin erdib [7, 1903, №12]. Binəvayı Tiflisə gətirib əz cümlə binəvanın mərəzi üçün dəxi xüsusi dairəsi və ixtisas əhlindən *spesialist* təbibi olan Mixail mərizxanasına qoydular [7, 1904, №20]. Bizim mühərrirlərimiz də, ədib və *pedaqoqlarımız* da müntəzəm təlim və tərbiyə görmüş üsul və nizamlı darüttəlimlərdə kamalat təhsil etmiş zatlar deyil, bəlkə kəndilərini min bəla və yüz dürlü qeyrətlər ilə mədrəsə bataqlığından və *sxolastik*daryasından qurtarıb bir tənəffüs edər-etməz qələmə sarılmış adamlardır [7, 1904, №30]. "Şərqi-Rus" idarəsində müsahibə əməlinə (buğalteriya) aşina bir *kantor*çuya və türki və rusi yaxşı bilən mütərcimə və Qazan türkcəsilə Azərbaycan ləhcəsinin hər ikisini mükəmməl bilən bir mütərcimə ehtiyac var [7, 1903, №27]. Əgər müştərilər şəhərlilərdirsə *adreslərin* yazın ki, özümüz onlara nüsxələrimizi rahrast (birbaşa) göndərək [7, 1903, №7]. Peterburqdan *prins* İstanbul səfarəti əliyyəsinə göndərildilər [7, 1904, №102]. Tiflisdə çox müddət İranın general-konsulu olub [7, 1904, №88] və s.

M.Şahtaxtlı qəzetdə yuxarıda da qeyd edildiyi kimi, əsasən o dövrün Osmanlıcası ilə müştərək olan klassik ədəbi dilimizdən istifadə edirdi. Məlumdur ki, bu ədəbi dil üslubunda ərəb və fars sözləri üstünlük təşkil edirdi. Müəllif bu çoxluq qarşısında onları oxucuya anlatmaq üçün mötərizədə türkçəsini yazmaq üsulundan da istifadə edirdi. Məsələn, "əgər müştərilər şəhərlilərdirsə, adreslərin yazın ki, özümüz onlara nüsxələrimizi rahrast (birbaşa) göndərək" [7, 1903, №7]. Həmd olsun ki, Bakı qubernatoru kardan (işbilən) və rəhmdil bir rəis olduğundan xalqı Ağayevin fitnəsindən zərərsiz xilas etməyin çarəsini bulmuşdur [7, 1903, №12]. Qonşu millətlərin... yövmi (gündəlik) çıxan mütəəddid qəzetləri var [7, 1903, №115]. Çün qəzet nə olduğunu və həm mənim nə yolda mütəarif və əhli-süluk adam olduğumu rəna (gözəl) bilir [7, 1903, №12]. Yuxarıdan sayılan mabədi (qalan)

həzərat isə onlar barəsində heç bir rəy nə xüsusda olursa olsun, verməmişiz [7, 1903, №24]. Əlbəttə, böyük mühərririn nəzəri hər kəs ilə mücalisə və müzakirədə müsavat üzrə olub məqalatı hər növ iğrazdan bəid (uzaq) olacağında şübhə yoxdur [7, 1903, №85]. Fars nahiyəsində Qoçqayi köyündə iyun ayının 21-də şiddətli dolu yağmış 150 qoyun, 55 qavsale (bızav) və əkinlər tələf olmuş [7, 1903, №42]. Yuxuda (röyada) görmüş ki, guya bir oğlan doğmuş [7, 1903, №43].

Naşir rus və Avropa terminlərinin də qarşılığını verməyə səy göstərmişdir: "Şərqi-Rus" idarəsində müsahibə əməlinə (buğalteriya) aşina bir kantorçuya və türki və rusi yaxşı bilən mütərcimə və Qazan türkcəsilə Azərbaycan ləhcəsinin hər ikisini mükəmməl bilən bir mütərcimə ehtiyac var [7, 1903, №27]. Məktəb və mədrəsələrin səhhəti (gigyena) xüsusunda təşkil olunmuş beynəlmiləl şurası açılır [7, 1903, №35]. Çin dövləti tərəfindən elan olunmuş bitərəfliyi (neytrallıq) yox və hökmsüz hesab edəcəkdir [7, 1903, №24]. 103 nömrəli yük poyezdi (dəmir yol qatarı) dəmir xətdən (relsdən) çıxıb [7, 1903, №23]. Bu əlacın adı fransızca (tolerans), rusca (veroterpimost)dir ki, bizim dilimizə (əqaide-riayət) ləfzi ilə tərcümə ediriz [7, 1904, №187]. Konqresçi xanımların rəyi o idi ki, arvadlara parlament intixabları üçün siyasi və şəhər idarələri üçün mülkiyyə (qrajdanski) hüququ verilməlidir [7, 1904, №74]. Xolera (vəba) naxoşluğunun halətinə dair xəbər soruşmuşdu [7, 1904, №119]. Ədliyyə vəzarətində Batum şəhərində məhkəmeyi ədliyye (okrujnoy sud) təsis etmək xüsusunda müzakirə olunur [7, 1903, № 42].

Rus və fransız *deklarasiyasıyla* (bəyannamə) ki, bağlanmışdır martın üçündə... [7, 1904, №18]. Bu gün sübhdən "Yaponya" eskadrası (gəmilər firgəsi) gözə göründü [7, 1904, №19]. Rus dəmir yol xidmətində əhəmiyyətli bir injiner (mühəndis) xidmətində olan... [7, 1904, №88] bir politika tutan böyük hökumətə nisbət vermək nə qədər cəhalətdir [7, 1904, №188]. "Şərqi-Rus" məntiqincə bu dinsizlik və qövmsizlik qosmopolitizm olmaq iqtiza edir [7, 1904, №188]. Şiələrin mühafizəkarlarına və ya konservatorlarına mütəşərrein deyirlər [7, 1904, №188]. Siyasi və ekonomi davaların isə dinə heç dəxli yoxdur [7, 1904, №188]. Həm də diplomat və siyasiyun aləmində ki, zəka və karşünaslıqlar ilə məşhuri-afaqdırlar [7, 1904, №187].

Bəzən qarşılıq tapa bilmədiyi üçün birbaşa alınma termini işlətmək məcburiyyətində qalır: Əmim oğlu İsasultan Şahtaxtinski ki, Qars qubernatorunun konservatoriya *provotili* idi [7, 1904, №188]. Sünniləri *bukser* yapmaq xüsusunda Rusiyanın xaricindəki müsəlman dövlətlərini dolaşan nəşriyyatla sizin nəşriyyatınız arasındakı rabitə haradan başlanır [7, 1903, №12]. Bu gün cümə günü Xarpuxda füqəra məlçəyi olan *priotda* doktor Boqdan Qriqoroviç Ağasarovun tərəfindən türk dilində xolera xüsusunda nitq və ya şərhi-əhvalı ki rusca krait deyirlər oxunacaq [7, 1904, №101], ... bu *mikroblardan* çox maneələr toxunur [7, 1904, №86]. Bizim üçün *mexanika, fizika, tematika,* filan fənləri öyrənib, bizə təzə elmlər tədris etməlidirlər [7, 1904, №78]. Həkimlik, *advokatlıq, maşinistlik*... kimi bir çox məşğuliyyətlərdə arvadlar bu halkı halda xidmət edirlər [7, 1904, №74], Konqreni şöbələrə təqsim etmişlər [7, 1904, №74], Çün şəşəəli şan və şöhrətli karyeralarının əvayilini Qafqazda keçirmişlər [7, 1904, №102], Afrikadan Amerikaya gətirdikləri qara rəngli neqerləri öyrədirlər [7, 1904, №88], ... agentləri vasitəsilə [7, 1904, №187] və s.

Müəllif Osmanlı dili ilə Azərbaycan türkcəsini bir dil hesab etdiyi üçün, Osmanlı yazı dilinə böyük əhəmiyyət verdiyi üçün qəzetdə Osmanlı ədəbi dilindən rəsmi standart yazı dili kimi istifadə edirdi. Amma naşir yavaş-yavaş Azərbaycan ədəbi dilinin mətbuat üslubunu inkişaf etdirmək məqsədilə bir çox məqamlarda osmanlıca leksik vahidlərinin yanında mötərizə içərisində o sözün Azərbaycanca qarşılığını göstərirdi. Məsələn: Savadlı olanları da nasıl (necə) savadlıdır [7, 1903, №47]. Toylarda (düyünlərdə) ziyafət və sair məclislərdə şən və zəmanə təqazasına görə cavanlarımızın nəzər- diqqətini cəlb edən sazəndə ilə xanəndələrin [7, 1903, №49]. Bəs deyilmi bu qədər vaxt yuxu (uyku)? [7, 1903, №49]. Bu hesabdan hər kəs qazet fiyatını (qiymətini) kəsir və qüsur ilə göndərmiş isə ləğv olunur ki, bela təxir kəsir qalan pulu da göndərsinlər [7, 1904, №27]. Qəbul olunur hər ehsanlar: tuman, köynək (gömlek) və sair alt paltarları, yundan olan fufayka köynəklər, corab, dəri börklər (papaxlar), başlığ və əlcəklər (əldivənlər)... [7, 1904, №27]. Kiyefdə qənd (şəkər) qiymətdə çox sınmış, bildirkinə (keçən il) müqabil pudda 20 qəpik sınmış [7, 1903, №43]. Bakudə avqust ayının 9-da şiddətli yel (rüzgar) əsmiş [7, 1903, №56]. İmam əfəndinin qurduğu

bu tələ (tuzağ) bir az ustalıqla tərtib edildiyindən şayani təqdirdir [7, 1903, №65]. O cümlədən şəhərdə dava vəkili (avqat) cənab Əliəkbər bəg Xasməmmədov [7, 1903, №65]. Karılara, yəni arvadlara oxu-yub yazmaq şərən haram olduğu həqiqətə müvafiq deyildir [7, 1903, №82].

M.Şahtaxtlı terminologiya ilə bağlı fəaliyyətini yaradıcılığının sonrakı dövrlərində daha da genişləndirmişdir.

ƏDƏBİYYAT

1. Ağalarov A.M. Müasir Azərbaycan dilində iqtisadiyyat terminlərinin leksik-semantik və struktur təhlili. Avtoreferat, Bakı:1999
2. Axundov A.A. Dil və ədəbiyyat, I c. Bakı: Nurlan, 2003
3. Əkinçi (1875-1877). Bakı:Azərnəşr,1989
4. Müasir Azərbaycan dili, 3 cilddə, I c.Bakı: Elm,1978
5. M.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları, Bakı:1978
6. Ə.Quliyev, S.Həsənova. Görkəmli naşir və dilçi. Naxçıvan: Əcəmi, 2016
7. "Şərqi-Rus" qəzeti,1903-1905

SUMMARY

Fatıma Hasanova

ISSUES OF TERMINOLOGY IN "SHARGI-RUS" NEWSPAPER

The origin of the term dates back to ancient times. However, the terms in our language have been composed of Arabic-Persian words for a long time. First in the 19th century, M.F. Akhundzade and then "Akinchi" newspaper provided important services in the direction of the formation of the system of terms of our language. The great educator and writer M. Shahtakht successfully continued this tradition, he was particularly sensitive to the issue of using terms in "Shargi-Rus", the first native-language newspaper of the 20th century. The prominent writer used some borrowed terms in the newspaper without any explanation, taking into account that they are widely used and understood by the society. For example: fanaticism, pedagogue, prosecutor, protest, etc. Sometimes, when using terms of European origin, he also explained their meaning in parentheses for better understanding. Sometimes it corresponded to the term of European origin. The newspaper also used the lexical units of the Ottoman Turkish of that time to develop term creation. Mohammad Agha Shahtakhtli further expanded his activities related to terminology in the later periods of his creativity.

In the article, other methods and techniques used in "Shargi-Rus" newspaper for the understanding of terms are also widely analyzed and studied.

Key words: *"East-Russian", Shahtakhtli, language, term, press*

ELNURƏ RZAYEVA
merdanli2014@gmail.com
Naxçıvan Dövlət Universiteti

QEYRİ-VERBAL ÜNSİYYƏTİN DİL ÖYRƏNİLMƏSİ PROSESİNDƏ ROLU

Texnologiyaların bu qədər inkişaf etdiyi indiki vaxtda zaman və məkanın sərhədləri getdikcə yaxınlaşır və bu yaxınlaşmanı sürətləndirən və gücləndirən qloballaşma prosesi xarici dillərin tədrisinin vacibliyini ortaya qoyur. İnkişaf edən sosial, ticarət və mədəni əlaqələr və qlobal dünya ilə uyuşmanın tələbi sayılan birdən çox xarici dil bilmə zərurəti bu sahədə çalışanları yeni axtarışlara sövq etmişdir.Məqalədə dil öyrənilməsinə təsir edən faktorlardan biri olan qeyri-verbal ünsiyyətin, yəni bədən dilinin bu prosesə göstərdiyi təsirləri araşdırılır.

Açar sözlər: *qeyri-verbal ünsiyyət, hədəf dil, bədən dili, kommunikativ dil bacarığı.*

Xarici dil öyrənmənin iki əsas məqsədi var. Bunlardan biri başqa mədəniyyətləri tanımaq, digəri isə başqa mədəniyyətlərdə olan insanlarla ünsiyyət qurmaqdır. Bu gün mövcud olan və qəbul edilən müasir təhsil yanaşmaları dil və mədəniyyət arasında çox sıx əlaqəyə əsaslanan kommunikativ bacarıqların mənimsənilməsini vurğulayır. Bilik və bacarıq bir-birini tamamlayan iki ayrı anlayışdır və indi dil tədrisində məqsəd bəzi linqvistik məzmunun öyrənilməsindən çox bacarıqların, xüsusən də kommunikativ bacarıqların mənimsənilməsidir.

Əsas hissə Dil öyrənməyin əsas məqsədi ünsiyyət saxlaya bilməkdir. Getdikcə qloballaşan dünyamızda başqa xalqların nümayəndələri ilə uğurlu kommunikasiya, fərqli kontekslər və mətnləri anlaya bilmək xarici dil öyrətməyin əsas məqsədlərindən biridir. Biliyi müstəqil şəkildə dərinləşdirə bilmək, müxtəlif mədəniyyətlərdən, fərqli dillərdən olan vətəndaşlarla birgə fəaliyyət göstərə bilmək də hədəflər arasında sıralan bilər. Uğurlu dil öyrənən, dilləri tez və asan öyrənən yox, müstəqil şəkildə öyrənməyə davam edə biləndir. Öyrənmə prosesinə təsir edən faktorlara intellekt, motivasiya, şəxsiyyət fərqliliyi, yaddaş, öyrənmə tərzləri motivasiya mənbələri, sosial-kultural faktorları, öyrənənlərin yaşını daxil etmək olar.

Sosial mühitdə yaşamağın, bu mühitin daxilində başqa insanlarla münasibət qurmağın, mədəniyyət yaratmağın əsas məqsədi ünsiyyətdir. İnsanın başqa insanlara və onlarla ünsiyyətə ehtiyacı var. Ünsiyyət bu ehtiyacı ödəyən yeganə vasitədir. Gündəlik həyatda ünsiyyət iki şəkildə baş verir.Onlardan biri şifahi ünsiyyətdir və düşüncələrimizi, niyyətlərimizi və hərəkətlərimizi sözə çevirərək qarşı tərəfə özümüzü ifadə etmək imkanı verir. Ünsiyyətin digər tərəfi linqvistik ifadələrdən istifadə edilmədən baş verən qeyri-verbal ünsiyyətdir [4]. Qeyri-verbal ünsiyyət prosesində paralinqvistik məlumatlar qavranılır, şərh olunur və şifahi ifadələrin şərhində böyük əhəmiyyət kəsb edir.Bunlar jest, mimika, geyim kimi vasitələrlə ifadə edilir.Tədqiqatlar göstərir ki, ünsiyyətdə paralinqvistik elementlər və bədən dili mühüm yer tutur. Nəticədə, bu dəyərlər gündəlik həyatda söylədiklərimizdən daha çox necə söylədiyimizin əhəmiyyətli olduğunu göstərir. Və yenə də gündəlik həyatda ünsiyyətdə bədən dili özümüzü ifadə edərkən istifadə etdiyimiz şifahi ifadəni dəstəkləyən mühüm və təsirli ifadə formasıdır [3].

Müvafiq olaraq, kommunikativ dil bacarığı bir çox bacarıqların birləşməsindən ibarətdir. Başqa sözlə, dili öyrənən şəxs hədəf dildə danışmaq üçün müəyyən dərəcədə bir çox bacarıqlardan istifadə etməlidir. Bu bacarıqlara sosial-mədəni bacarıqlar, mədəniyyətlərarası bacarıqlar, qrammatik bacarıqlar, praqmatik bacarıqlar və sosial-linqvistik bacarıqlar daxildir. İnsanın bədən dilindən istifadə edərək və ya onun köməyi ilə ifadə etdiyi söz və ya mövzu bilavasitə ünsiyyətdə olduğu insana hiss və duyğuları vasitəsilə çatır:

Xarici Dildə bədən dilindən və paralinqvistik elementlərdən səmərəli istifadə etməklə bu dildə dilin tədrisini və ünsiyyətini asanlaşdıra bilərik.

Mövzu bədən dili və paralinqvistik elementlərin dəstəyi ilə izah edildikdə və tələbələr öz fiziki ifadələrindən istifadə edərək prosesə cəlb olunduqda öyrənmə daha effektiv və qalıcı ola bilər [2]. Bədən dili və paralinqvistik elementlər intellektual zəka ilə birlikdə hisslərimizə çatır. Hisslərimizə nə qədər çox məlumat çatarsa, bir o qədər çox yönlü və qalıcı öyrənmə baş verə bilər.Söhbət başqa dildə ünsiyyətə

yönəlmiş xarici dil tədrisi və təhsilinə gəldikdə, bu özümüzü ifadə edərkən daim istifadə etdiyimiz bədən dili və dildənkənar ifadələrdir. Gündəlik həyatda, müxtəlif səbəblərdən sinif mühitinə lazımi şəkildə daxil edilmir. Dərsliklərdə hədəf dildə keçilən mövzuları müxtəlif üsullarla gücləndirən və izah edən məşqlər yer alsa da, bədən dili və paralinqvistik elementlərdən istifadə edilən məşqlərə çox rast gəlinmir.

Bu vəziyyət öyrənmə prosesinə nə qədər çox daxil edilərsə, öyrənmə bir o qədər qalıcı və asan baş verir. Xarici dil öyrənərkən qeyri-verbal ünsiyyətin vasitəsilə müxtəlif tapşırıqlardan istifadə etmək olar.

Dil və mədəniyyət ayrılmaz və bütövdür. Xarici dil bilmək fərqli bir mədəniyyəti bilmək deməkdir. İnsanlar ünsiyyət prosesində bildikləri xarici dildən istifadə edərək sərhədləri aşmaq imkanı əldə edirlər. Onlar getdikləri xarici ölkələrdə insanlarla söhbət edə, fikir mübadiləsi apara bilərlər. Dil bilməyən, heç bir şəkildə ünsiyyət qura bilməyən ölkəyə gedən insanlar necə davranırlar? Kaşıkçıya görə bu cavabı "İstifadə etdiyimiz dildən başqa bilmədiyimiz xarici dildə ünsiyyətin edildiyi bir ölkəyə getdiyimiz zaman, demək istədiyimizi ifadə edə bilmədiyimiz zaman sözlərlə bədən dilini yenidən qəbul edirik" [1].

Dil ilə tanış olmadığı bir ölkədə insanların çıxış yolunu bədən dilinə müraciət etməklə axtarması çox təbiidir. Bu vəziyyət ünsiyyətdə "bədən dilinin" əhəmiyyətini bir daha vurğulayır. İstənilən vəziyyətdə bədənimizdən istifadə edərək ünsiyyət qura bildiyimiz üçün bədən dilimizin ünsiyyətə təsiri danılmazdır. Bir sözlə, bədən dilimiz istənilən şifahi ifadədən üstündür. Sözlərin, səsin və bədən dilinin təsirləri insanların mədəni səviyyəsinə, danışılan mövzuya, atmosferə görə fərqlidir. Emosiya və ya düşüncənin ötürülməsi, başqa sözlə desək, nəyin və necə deyilməsinin böyük əhəmiyyəti var.

Nəticə

Xarici dil öyrənməyin əsas məqsədi insanlarla ünsiyyət qurmaq, hədəf dildə danışanların mədəniyyəti, həyat tərzi və s. ilə tanış olmaqdır. Bu prosesə təsir edən bir çox faktorlar vardır. Bunlardan biri də qeyri-verbal ünsiyyətdir. Qeyri-verbal ünsiyyət öyrənmə prosesində istifadə edilən bədən dili, jestlər, mimiklərdir. Araşdırmaya görə bədən dili öyrənmə prosesini qüvvətləndirir, dəstəkləyir.

ƏDƏBİYYAT

1. Griffiths, Carol. 2018. Lessons from Good Language Learners. Cambridge: Cambridge UnivCapan, S.A., & Simsek, H. (2012). General Foreign Language Anxiety among EFL Learners: A Survey Study. Frontiers of Language and Teaching, 3, 116-124.
2. Chen, M. & Hung, L. (2012) :Personality type, Perceptual Style Preferences, and Strategies for Learning English as a Foreign Language. Social Behavior and Personality, 40, 1501-1510.
3. Dr,Majid Vahedi, 2017, Motivation, attitude, and language learning: International Conference on Education and Educational Psychology
4. Dörnyei, Z. (2019). Individual differences: Interplay of learner characteristics and learning environmen

SUMMARY

Elnura Rzayeva

THE ROLE OF NON-VERBAL COMMUNICATION IN THE LANGUAGE LEARNING PROCESS

Nowadays, when technologies are so advanced, the borders of time and space are getting closer, and the process of globalization, which accelerates and strengthens this convergence, reveals the importance of teaching foreign languages. Developing social, commercial and cultural relations and the need to know more than one foreign language, which is considered a requirement of integration with the global world, has pushed the workers in this field to new searches. The article examines the effects of non-verbal communication, i.e. body language, on this process, which is one of the factors affecting language learning.

Key words: *non-verbal communication, target language, body language, communicative language skills*

ILKANA RZALI
ilkanerazli@gmail.com
Nakhchivan State University

ABOUT THE CONNECTION BETWEEN LANGUAGE AND THE MIND

Grammar and vocabulary together make up the systematic system of communication known as language. It is the primary means through which individuals convey meaning in both spoken and written language. This can also be accomplished using sign languages.A writing system that enables the transcription and preservation of linguistic sounds or signals has been devised for the great majority of human languages. Human language stands out due to its cultural and historical diversity because of the vast variances between cultures and over time. The productivity and displacement qualities of human languages enable the creation of an endless number of sentences as well as the ability to refer to things, occasions, people and concepts that are not now being discussed.Human language is used in a socially prescribed manner and is learned.There are between 5,000 and 7,000 different human languages in the globe, according to estimates. The arbitrary separation (dichotomy) made between languages and dialects is what allows for precise estimations. But using aural, visual, or tactile clues like writing, whistling, signing, or braille, any language can be encoded into secondary media. Natural languages are spoken, signed, or both. In other words, while written or signed language is the best means to record or encode the real human voice or gestures, human language is mmodality-independent.

Introduction

Depending on the philosophical viewpoints regarding the definition and meaning of language, "language" when used as a general concept may refer to the cognitive capacity to learn and use systems of complex communication, or it may describe the set of rules that make up these systems, or it may describe the set of utterances that can be produced from those rules. Semiosis is a technique used by all languages to connect signs to specific meanings. In oral, manual, and tactile languages, a phonological system governs how symbols are combined to generate word sequences, or morphemes.

Linguistics is the field that studies language scientifically.Since at least Gorgias and Plato in ancient Greek society, critical analyses of languages, such as philosophy of language, the connections between language and cognition, how words express experience, etc., have been a topic of discussion. Immanuel Kant (1724–1804) and others have suggested that languages emerged from rational and logical thought, while thinkers like Jean-Jacques Rousseau (1712–1778) have claimed that language developed from emotions. Philosophers of the twentieth century, including Ludwig Wittgenstein (1889–1951), asserted that the study of language itself is what philosophy really is. Ferdinand de Saussure and Noam Chomsky are two prominent figures in modern linguistics.

Early hominins are assumed to have developed the capacity to build a theory of mind and shared intentionality when they first developed communication methods that eventually diverged from previous ape communication systems.Many linguists believe that the structures of language have evolved to serve particular communicative and social tasks. This evolution is sometimes assumed to have occurred at the same time as an increase in brain volume. Humans learn language through social interaction in infancy, and by the time they are three years old, most youngsters are able to speak effectively. Culture and language are interdependent.

Languages develop and change over time, and it is possible to reconstruct the history of their volution by comparing contemporary languages to identify the characteristics that their ancestors' languages must have possessed in order for the following developmental phases to take place. A language that has been proven to have no living or non-living link with another language is referred to as a language isolate. Language families are a group of languages that have a common ancestor. Additionally, there are numerous undeclared languages for whose relationships have not yet been determined, and it's possible that fictitious languages never existed at all. According to academic

opinion, between 50% and 90% of the languages that were spoken at the start of the twenty-first century would likely be extinct by the year 2100.

When the biological basis of language is clarified, it will open the door to the genesis and evolution of natural language (Fingelkurts, Fingelkurts, and Marchetti, 2010). This is the source of language endowment. Therefore, it is crucial to look into and provide examples of the relationship between the human linguistic characteristic and the mind.

Language and the mind have a complex interaction in which several layers of importance and meaning are both taken from and expressed through language. Since language is impalpable and invisible, it actually represents the human mind. The means of language. The human mind leaves the body and interacts with and is understood by the outside world. If we think of language as a tool and the mind as a person, then that tool necessarily denotes that person's language. The mind is expressed through language, and language itself manipulates the mind-expression process in a variety of ways. Language can both directly reveal the structure and organization of the mind as well as indirectly depict it.

Similar to how the mind uses a long-standing influence on language, people can learn about someone's mental health by looking at his or her speech.The many factors that operate in the background of the mind to produce a certain mental semblance are only revealed through language. Simultaneously, if a person occasionally tries to conceal his psychological events and exhibit an unaffected language pattern, it can also be seen in the language itself. As a result, the mind creates language and is exposed to it.

Once more, there are countless influences originating from personal life, family, society, and work. Business. Education, hope, dreaming, and the like are all forms of spoken and non-spoken language that exert influences on the mind in order to prompt it to build a particular kind of language.

Every soul has'mentalese' or 'a language of thought' that it uses to carry out its mental tasks, which are really just thinking and conceptualizing (Fodor, 1975 cited in Bloom and Keil, 2001), even before it learns to speak and understand any audible human language. According to Birner (n. d.), language and thought develop simultaneously and have an ongoing impact on one another. Birner (n. d.) argues that people can think about a particular symphony or a particular type of unusual feeling without any name or phrase for it in order to refute the claim that people must by default think in language.

In spite of the fact that every thought cannot be expressed in audible or visible words, it is nonetheless evident that every thinking contains a language. There are, at the very least, obscure and ethereal terms. For a variety of emotions and thoughts. Language is always linked to cultural issues, which in turn have the power to affect how language users think. This is another important point that Birner (n. d.) makes. This alludes either directly or indirectly to the idea that language inexorably shapes mental mechanisms in a variety of essential ways. Boroditsky (2011) emphasizes that different languages impart distinct cognitive efficiency, which leads to the conclusion that speakers of different tongues think differently, with regard to the relationship between language and mind.Around 7000 distinct languages are spoken around the world, and each one requires its speakers to use various words and expressions to convey various meanings and thoughts.

A few linguists (Scovel, 2004; Slobin, 1939) have shed light on the fact that language gets initiated in one's mind in the first place, despite the fact that quite a few linguists and researchers have established and analyzed the influences of language on people's minds. Therefore, it is evident that mental health has a significant impact on the form and pattern of linguistic communication.

Furthermore, it has been demonstrated that the concept of language originates in the human mind (Scovel, 2004). Conceptualization, formulation, articulation, and self-monitoring are the first steps in the initiation of language in the mind (Scovel, 2004).

Language facilitates "mental representation," which is the cognitive process that must be carried out, including planning, reasoning, and problem-solving (Slobin, 1939). Through the language he uses, the speaker is able to represent parts of his or her mental state, and language itself is decoded

and interpreted in accordance with the listener's mental state (Azabdaftari, 2012). More convincingly, Azabdaftari (2012) emphasizes that the relationship between language and mind is essentially one of cause and effect, meaning that each has a significant impact on the other and is significantly altered by the other.

Conclusion

Fundamentally, the interaction between the mind and the language functions in a circular fashion to create a similar mechanism in human communication. It is a complicated reality that takes into account both linguistic and mental health meanings. Additionally, there are other associated phenomena that shape the meaning-making process that are both mind- and language-related. Both the speaker's and the listener's prior experiences can be tied to these relevant topics. Any and everything, including the situation right now and your future ambitions. The psychological and linguistic understanding can be correct or incorrect depending on the many facets of human life. However, given that every denotation occurs for a variety of psychological or linguistic reasons, there is actually nothing wrong with the way meaning is constructed.However, explanation should be produced on the foundation of human welfare, for which the communication must be kept healthy for the speaker and the listener, regardless of the psychological characteristics and how the language may sound.

REFERENCES

1. Chomsky, N. (1965). Aspects of the Theory of Syntax. Cambridge: MIT Press.
2. Pinker, S. (1994). The Language Instinct. New York: HarperCollins.
3. Sapir, E., & Whorf, B. L. (1956). Language, Thought, and Reality. Cambridge: MIT Press.

NURAY MƏMMƏDOVA
nuraymemmedofa@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-9565-5663

HƏMİD ARZULUNUN "QAÇAQ QUŞDAN" ROMANI VƏ AZƏRBAYCANDA REPRESSİYA GERÇƏKLƏRİ

Rus sovet hakimiyyətinin törətdiyi repressiya 1920-1953-cü illər arasındakı müddətdə Azərbaycanda geniş vüsət almış, 80 minə yaxın insan bunun qurbanı olmuşdur. Bu fəlakətin sonu isə yalnız Stalinin ölümündən sonrakı illərdə gəlmişdir. Azərbaycanın müxtəlif bölgələrində sovet rejiminə qarşı nə qədər çıxışlar olsa da, onlar amansızlıqla yatırılır, xalqın içərisindəki milli ruhlu, azadlıq tərəfdarı olan insanları mübarizəyə çağıranlara satqınlıq və böhtan atmaq yolu ilə "xalq düşməni", "qaçaq", "xain" damğaları vuraraq onları ya həbs edir, ya güllələyir, ya da sürgünə göndərirdilər.

Həmid Arzulu "Qaçaq Quşdan" romanında bu dövrün gerçəkliklərini, xalqın başına gələnləri aydın şəkildə bədii lövhələrlə canlandırmışdır. Azərbaycanın bir çox bölgəsində baş verən digər üsyanlar kimi Keçili üsyanı da çox məşəqqətli yollardan keçmişdir. Müəllif bu yolları sürətlərin simasında əks etdirmişdir.

Açar sözlər: *roman, nəsr, repressiya, qaçaq, üsyan*

XIX əsrdən bəri Azərbaycan tarixində hakim rejimə, xüsusilə Rus idarəçiliyinə qarşı xalq içərisindən çıxmış, haqqın və ədalətin mübarizəçisi olan etirazçılar "qaçaqlar" adı ilə tanınmış və məşhurlaşmışlar. "Qaçaq" anlayışı müxtəlif millətlərdə müxtəlif anlayışlar ifadə etsə də, Azərbaycan tarixində onlar xalqın təmsilçisi, qəhrəmanı olaraq qəbul edilmişdir. Qaçaq Nəbi, Səttarxan, Dəli Alı, Qaçaq Məhəmməd kimi xalq içindən çıxan cəsurlar artıq həddini aşan zülmə qarşı uzunmüddətli mübarizə aparmışlar. Filologiya elmləri doktoru, professor Füzuli Bayat Azərbaycanda qaçaqlıq anlayışını belə ifadə etmişdir: "Qaçaqçılıq və ya soylu əşkiyalıq fərdi haqq davasıdır, intiqam almağın, zülmə qarşı üsyan etməyin bir şəklidir, yeni bir qanun qoymağın təcrübəsidir. Harada ki, zülm həddini aşmış, harada ki, insanların hüquqlarını pozulmuş, dövlət də buna laqeyd qalmış, orada qaçaq hərəkatı baş vermişdir. Qaçaqlar fəaliyyətləri ilə artıq işləməz hala gələn qanunu öz bölgələrində yenisi ilə əvəz etməklə yeni bir nizam qurmağa çalışan qorxmaz insanlardır. Rəsmi qanun hər bölgədə fərqli olan, ona tərs düşən yeni bir qanunun olmasına qarşı çıxdığından varlıdan alıb yoxsula verən, üsyan çıxaran bu qrupları qanundan kənar elan etməklə onların dövlətdən qaçaq düşməsinə səbəb olmuşdur. Bunun nəticəsində tarixə özünəməxsus ədalət qanunları qoyan və uyğulayan insanlar çıxmışdır ki, onlara qaçaq (Türkiyədə əşkiya, Rusiyada pazboynik, İngiltərədə və Fransada bandit) deyilmişdir" [6, s. 7]. Ədəbiyyatımızda da bu mövzu həm yazılı ədəbiyyat, həm də folklor nümunələrinə yansımışdır. Fərman Eyvazlı, Nəcəf bəy Vəzirov kimi kimi müəlliflərlə yanaşı, Həmid Arzulu da bu mövzuda əsər yaratmışdır.

1937-ci ildə Naxçıvan şəhərində dünyaya gələn Həmid Arzulu (Əliyev) ilkin yaradıcılıq fəaliyyətinə şeir yazmaqla başlasa da, daha sonra qələmini hər üç ədəbi növdə – poeziya, nəsr və dramaturgiya sahəsində sınamış və nəticədə ədəbiyyatımıza sanballı nəsr, nəzm nümunələri qazandırmışdır. Çoxşaxəli yaradıcılığa malik olan H.Arzulunun "Məni çağır" (1998), "Xanbacı və qonaqları" (2003) şeirlər kitabları, "Şərq qapısı" qəzetinin keçirdiyi müsabiqədə birinci yerə layiq görülən "Heydərnamə" poeması və digər poemaları onun poeziya sahəsindəki uğurunun isbatıdır. Ədəbiyyatımızda yazıçı, dramaturq və şair kimi tanınan H.Arzulu "İnam", "Əlincə qalası", "Mərhəmət məhəbbət deyil", "Ərsizlər və arsızlar", "Xəzinə axtaranlar" və s. kimi dramatik növ nümunələri də yaratmışdır. Bütün bunlarla yanaşı, alman dilindən tərcümə sahəsində tədqiqatla məşğul olan alim 2010-

cu ildə "Alman klassik poeziyanın Azərbaycan dilinə tərcüməsinin nəzəri və praktik prinsipləri" mövzusunda doktorluq işini müdafiə etmiş və filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır.

Azərbaycanda repressiya illərində dünyaya göz açan H.Arzulunun əsərlərində də tarixilik, repressiya gerçəklərinin açılması, tarixən millətimizə qarşı törədilən amansızlıqların əksi mühüm yer tutur. "Günahsız şikəstlər" (2015) povesti, "Qaçaq Quşdan" (2015) romanı kimi əsərlərində bu dövrün gözlə görünməyən, göründüyü zamanlar da dərk edilməyən və xalqın qarşı çıxmaqda aciz qaldığı həqiqətləri təqdim etmişdir. Bu iki nəsr əsərindəki hadisələr nə qədər fərqli dövrləri, fərqli hadisələri əks etdirsə də, əsərlərin əsas məzmunundan çıxarılan nəticələr bir-birinə çox bənzəyir. Belə ki, "Qaçaq Quşdan" romanında repressiya, kollektivləşdirmə, sovet zülmünün insanlara, xüsusilə kənd camaatına verdiyi zərər, gətirdiyi ölümlər əks olunarkən, "Günahsız şikəstlər" povestində müharibə müddətində insanların üzləşdiyi çətinliklər, ayrılıqlar və ondan sonrakı illərdə əhaliyə qarşı zorakılıqların, ədalətsizliklərin baş alıb getdiyi bir dövrdə yüksək təbəqənin nümayəndələrinin aşağı təbəqəyə qarşı amansızlığı, bu haqsızlığa qarşı çıxanların həbs və işgəncələrə məruz qalması kimi məqamlara toxunulub. Ümumiyyətlə, hər iki əsərin əsas mahiyyətində zülmün, zorakılığın, ədalətsizliyin səbəb və nəticələri dayanır.

Rus sovet hakimiyyətinin törətdiyi repressiya 1920-1953-cü illər arasındakı müddətdə Azərbaycanda geniş vüsət almış, 80 minə yaxın insan bunun qurbanı olmuşdur. Bu fəlakətin sonu isə yalnız Stalinin ölümündən sonrakı illərdə gəlmişdir. Azərbaycanın müxtəlif bölgələrində sovet rejiminə qarşı nə qədər çıxışlar olsa da, onlar amansızlıqla yatırılır, xalqın içərisindəki milli ruhlu, azadlıq tərəfdarı olan insanları mübarizəyə çağıranlara satqınlıq və böhtan atmaq yolu ilə "xalq düşməni", "qaçaq", "xain" damğaları vuraraq onları ya həbs edir, ya güllələyir, ya da sürgünə göndərirdilər.

Ölkədəki anti-sovet hərəkatına dəstək olan və onlara kömək edənlərsə təqib olunur, təhdidlərlə məruz qalırdılar. Sadə kəndlilərdən tutmuş, yazıçı və şairlərə, dövlət idarələrində çalışanlaradək hər kəsi qorxuya salaraq onların mübarizə əzmini qırmağa çalışırdılar.

Azərbaycanda baş verən çoxsaylı üsyanlardan sərhəd bölgələrdə baş verənlərin digərlərindən fərqi, bəlkə də, daha çox çətinliklərlə qarşı-qarşıya qalması idi. Erməni quldurları ilə sərhəddə yerləşən kəndlərdə həm sovet rejimi, həm erməni fitnəkarlığının yaratdığı təzyiqə qarşı çıxanları daha çətin vəziyyətə salırdı. Bu illərdəki etirazlardan bir neçəsi Naxçıvanda ardıcıl olaraq başlamışdı. Həmin kütləvi etirazlar arasında 1930-1932-ci illərdə baş verən Keçili hərəkatı fəallığı və üayankarlığı ilə digərlərindən seçilirdi. Kənd camaatı içərisindən çıxmış gənc Quşdanın ətrafına igidləri toplayaraq haqq-ədalət uğrunda həm erməni fitnəkarlarına, həm sovet rejiminə qarşı illərlə qaçaqçılıq yolu ilə apardığı mübarizəsi uzun illər boyu xalqın dilində və tarixində özünə yer etmişdir.

Həmid Arzulu "Qaçaq Quşdan" romanında üsyanın başlama səbəblərinə, gedişatına bədiilik qataraq əsərin baş qəhrəmanı və Keçili üsyanının öncülərindən olan Quşdanın anadan olmasından ölümünə qədər olan müddətdə başına gələn qeyri-adi hadisələri, Quşdanın haqsızlığa qarşı duruşunu nəql etmişdir.

Romanda yazıçı əsərə dolğunluq və cəlbedicilik qatmaq məqsədilə Quşdanın doğulandan sonra başına gələn kəndlilərin dilində əfsanəyə çevrilmiş qeyri-adi hadisədən başlayır. Gələcəkdəki pis xəbərlərin, xüsusilə quraqlıq, kasadlıq kimi şəraitin əvvəlcədən xəbərçisi saydıqları, lakin hələ uşaq doğulmadan atası Məhərrəmin birini vurub öldürdüyü Səma quşunun onlardan guya qisas almaq üçün yeni doğulan Quşdanı qaçırması , ancaq ata-anasının fəryadından sonra geri gətirməsi təsvir olunur. Bundan sonra adı Əbdül olmasına baxmayaraq, balacalıqdan hər kəs bu uşağı "Quşdan" deyə çağırmağa başlayır. İllər sonra Səma quşunun hələ də onlarə izlədiyini görən Məhərrəm artıq oğlundan nigaran qalmır. Çünki bilir ki, Səma quşu artıq sadəcə Quşdanı qorumaq üçün səmada gəzir. Balaca vaxtından bütün kənddə cəsurluğu, məharətləri ilə məşhurlaşan Quşdanın bu güc-qüvvətini dəhər kəs Səma quşuna bağlayır. Əsərin yekununda da Quşdanın cansız bədəninin tapılmaması və insanların bunu Səma quşundan bilməsi kimi bir düşündürücü sonluqla tamamlanır.

Əsərdəki hadisələr hələ repressiyanın qızğınlaşmadığı dövrdən başlayır. Ancaq bu illərdə erməni daşnaklarının hiyləgərlikləri davam etməkdə idi. Belə ki, sərhəd kəndlərdə silah-sursat daşınması, xalqın arasına qarışıb gah məlumat toplamaq, gah fitnələr törətmək, dövlət orqanlarında özlərinə yer etmək kimi

cürbəcür əməllərlə məşğul olurdular. Bu riyakar millətə bələd olan xalq da onların yoluna daş qoymağı, bacara bildikləri qədət qarşılarında durmağa çalışırdılar. Əsərdə Quşdan və qardaşının açıqgözlülüyü sayəsində Andronikin geridə qalan dəstələrinə qarşı uğurlu müdafiə də bunlardan biridir. Ermənilərlə mübarizəni, onlardan müdafiəni çətinləşdirən əsas amil də əhalinin silahsız olması idi. Mövcud rejim üsyan və qarşıdurmaların önünə keçə bilmək və əhalini gücsüzləşdirmək üçün onların silahlarını əllərindən alır, başqa yerlərdən silahla təmin olunmasına qarşı çıxırdılar.

Ermənilərin xainliklərini müəllif bir çox məqamda fərqli süjetlərin timsalında təsvir etmişdir. Romana ön söz yazan akademik Bəkir Nəbiyev bu mövzuya toxunaraq qeyd edir: "...Əsər boyu erməni fitnələri və qısqanclığı çox dramatik süjetlər vasitəsilə həm də təkzibedilməz tarixi fakt və sənədlərlə oxuculara çatdırılır. Qisasçılıqdan və torpaq ələ keçirməkdən yana əsərdəki ermənilər hər cür şərəfsizliyə hazırdırlar. Erməni yaltaqlığə arxasında necə bir məkr gizləndiyini müəllif "Qudurmuş it" süjetində və Qazançı keşişinin xarakterində məharətlə açmışdır..." [1, s. 6].

Həmid Arzulu romanda Quşdanın simasında sanki Azərbaycan xalqının xarakterini əks etdirmişdir. Vətənpərvərlik, milli əqidə bağlılığı ilə yanaşı mərhəmət, yaxşılıq və açıqürəklilik kimi xalqımıza xas olan xüsusiyyətlərləri canlandırmışdır.

Müəllif qırğının yeni qanad çalan quşları ovlamasını və bunu amansızlıq olaraq görən Quşdanın narahatlığını təsvir edərkən sanki gələcəkdəki hadisələrdən xəbər verir. Bu səhnədə Quşdan ilə söhbətində Dəli Məhərrəm əsər boyu baş verənləri , həmin dövrün fəlakət və həqiqətlərini ifadə edən bu fikrini səsləndirir: Həyat yaşamaq uğrunda çarpışmaq, didişməkdir. Güclülərlə gücsüzlərin canlı savaşıdır" [1, s. 36]. Doğrudur ki, həmin illərdə haqq-ədalət uğrunda mübarizə zaman-zaman da yaşamaq uğrunda mübarizə ilə əvəz olunurdu. Bolşeviklərin qoyduğu tələblər ilə razılaşmayanlar güllələnir, bununla xalqa gözdağı verilirdi.

Bunların nəticəsində bir-birinin ardınca baş verən üsyanlar, dövlət dairələrindəki erməni əsilli nümayəndələrin sovet rejimini dəstəkləməsi və daha da qızğınlaşdırmaq üçün atdığı addımlar kəndliləri, xüsusilə də üsyana qalxmaq istəyənləri daha da sıxışdırır, çıxılmaz yola aparırdı. Xalqın içindən çıxmış və haqqını müdafiə etməyə çalışan igidlər mübarizə qüvvəsi toplamaq və həyatda qalmaq üçün dağlara qalxıt, mövcud rejim isə onları "qaçaq" adlandırıb ölüm hökmü verirdi. Bu etdikləri zülmün isə haqq olduğuna özlərini inandırırdılar. Kəndə basqın edib insanlara divan tutduqları zaman Yaqubov günahsız Kərbəlayi Müslümü, Molla Həşimi güllələməklə qalmır, özünə haqq qazandıraraq deyir: "Onlar dövlət adamının üzünə ağ olmuşdu... Dövlət yumruq kimi olmalıdır. Onun bir sözü iki olmamalıdır. Mən dedimsə, Allah yoxdur, deməli, molla da təsdiq etməliydi ki, yoxdur" [1, s. 197].

Belə söhbətlərdən mənfur rejimin yetişdirdiyi dövlət işçilərinin nə dərəcədə əqidəsindən dönmüş insanlara çevrildiklərinin şahidi oluruq. Müəllif insafsız SSRİ hakimiyyəti, NKVD nümayəndələri və dinc əhali arasında yaranan ziddiyyətli münaqişələri və səbəblərini belə ümumiləşdirir: "Ağıl əvəzinə zor tədbiq olunurdu. Bu isə şübhəsiz ki, etiraza, narazılığa səbəb olurdu. Kəndin sosialistcəsinə yenidənqurulması adlanan bu bədnam proses çox qanlı sinfi toqquşmalar törədirdi. On illərlə, yüz illərlə təbii yaşayış tərzinə uyğunlaşmış, öz aralarında təbii münasibətlər, ənənələr yaratmış əhali, xüsusilə böyük mülk sahibləri ölkə boyu hər yerdə böyük kütləvi etirazlar yaradır, bu etirazlar əksər hallarda qan içində qərq edilirdi. Uzun illər xüsusi mülkiyyət psixologiyası ilə yoğrulmuş kəndli zəkası birdən-birə ortaya atılmış bu yeni iqtisadi siyasəti, ümumilik deyilən bu şeyi dərk edə bilmir, bununla barışmaq istəmirdi..." [1, s. 168].

Baş vermiş üsyanları yatırmaq da NKVD əməkdaşlarının, SSRİ nümayəndələrinin üstünə düşürdü. Bundan istifadə edən ermənipərəstlər də onları üsyanı ağılalmaz qanlı yollarla yatırmağa sövq edirdilər. Hər nə qədər Orbelyan, Abbas Qasımov, Yaqubov kimi qəddar, daşürəkli sovet tərəfdarları arasında çalışsa da, Bəşir Vəliyev kimi doğrunun arxasınca gedib haqqa tərəf çıxan insanları da görmək mümkün idi. Ermənilərlə əlbir olub ikitərəfli çalışan Orbelyanın çevirdiyi işləri anlayıb olanları dərk etməyə başlayan Bəşir Vəliyev tam bir faciə ilə üzləşir. Nahaqın, ədalətsizliyin, qəddarlığın törətdiyi bu faciəni anlayandan sonra xalqa haqq qazandırmağa, bu qarşıdurmanı bir qədər yumşaltmağa çalışsa da, hər haqq tərəfdarı kimi onun üçün də nəticəsi ağır olur.

Daha sonra Yaqubovun Bəşir Vəliyevlə söhbəti zamanı onun daxilindəki konfliktin şahidi oluruq. O, Bəşir Vəliyevdən Quşdanı yolundan dönməyə çağırması üçün vəzifələndirir. Onların təklikdə söhbətindən Vəliyev Yaqubovun sərt qanunlara, qırğınlara qarşı olduğunu hiss etsə də, bunu tam şəkildə əsaslandıra bilmir. Yaqubovun danışığından çıxan nəticəni müəllif "vicdanın oyanışı" kimi qiymətləndirir. Lakin bu oyanış süjet boyu özünü doğrultmur. Quşdanla söhbəti zamanı Yaqubovun öz dilindən həqiqətləri müəllif belə ifadə edir:

"–Bəs nə dövrü başlanır? İnsanların öz qoçaqlığını göstərməyə cəsarətləri çatmayacaqsa, bəs nə edəcəklər?

–İşləyəcəklər. Əkib-biçəcəklər, daş daşıyacaq, binalar quracaq, yer şumlayacaq. Dövlət nə desə, camaat da onu icra edəcək. Açığını bilmək istəyirsənsə... dillənənin dilini kəsəcəyik, dikbaşlıq edənin başını. Belə olmasa, dövlət-dövlət olmaz! İnsan zora tabedir! Zor olmasa hərə bir at minib dağlarda, dərələrdə mənəm-mənəmlik eləyər..." [1, s. 195].

Dəfələrlə Quşdan və dəstəsinin mərhəməti ilə qarşılaşmasına baxmayaraq, sonra öz vicdanı, acizliyi ilə qarşı-qarşıya dayanır və öz sonunu özü gətirir.

Nə qədər, düşmən qarşısında məğrur və möhkəm dayansa da, Keçili üsyanı da digər etirazlar kimi amansızlıqla yatırılır. 1932-ci ildə Quşdan kəndə girən zaman xəbər tutan sovet əsgərləri onu mühasirəyə alırlar. Qətiyyətlə təslim olmağı rədd edən Quşdan son gülləsi ilə özünü öldürür. Bundan sonra tamamilə sovet nəzarətinə salınan kəndlərdə Quşdan və onun tərəfdarları haqqında danışmaq belə qadağan olunur.

ƏDƏBİYYAT

1. Həmid Arzulu. "Qaçaq Quşdan" romanı. / Naxçıvan: Əcəmi, 2015, 312 s
2. Həmid Arzulu. "Günahsız şikəstlər" povesti. / Naxçıvan: Əcəmi, 2015, 128 s
3. "Repressiya: Gizlin və gerçəkləri ilə..." / Ədəbiyyat qəzeti, 22 iyul 2018
4. Sənan Turanlı QılıncArslan "Azərbaycan tarixinin qaranlıq üsyanları – SSRİ-yə qarşı Keçililər" / Kırımın Səsi Gazetesi, 27 sentyabr 2019
5. İradə Musayeva. "Qorxumuzun 80 yaşı" / https://kulis.az/xeber/tarix/xeber-21338
6. Füzuli Bayat. "Qaçaq folkloru sosial-iqtisadi və siyasi-mədəni kontekstdə" / Bakı: Elm və təhsil, 2019, 304 s.

SUMMARY

Nuray Mammadova

HAMID ARZULU'S NOVEL "THE RUNAWAY BIRD" AND THE FACTS OF REPRESSION IN AZERBAIJAN

The repression caused by the Russian Soviet government was widespread in Azerbaijan in the period between 1920 and 1953, and about 80,000 people were victims of it. The end of this disaster came only in the years after Stalin's death. No matter how many speeches there are against the Soviet regime in different regions of Azerbaijan, they are mercilessly suppressed, those who call people with a national spirit and supporters of freedom to struggle are branded as "enemies of the people", "fugitives", "traitors" by treason and slander. Were either shot or sent into exile.

Hamid Arzulu vividly depicted the realities of this period and what happened to the people in his novel "From the Fugitive Bird" with artistic plates. Like other uprisings that took place in many regions of Azerbaijan, the Kechili uprising also went through very difficult paths. The author reflected these roads in the form of speeds.

Key words: *novel, prose, repression, fugitive, rebellion*

РЕЗЮМЕ

Нурай Мамедова

РОМАН ХАМИДА АРЗУЛУ «БЕЛЕНАЯ ПТИЦА» И ФАКТЫ РЕПРЕССИЙ В АЗЕРБАЙДЖАНЕ

Репрессии, вызванные советским правительством России, были широко распространены в Азербайджане в период с 1920 по 1953 год, жертвами которых стали около 80 тысяч человек. Конец этой катастрофе наступил лишь спустя годы после смерти Сталина. Сколько бы выступлений против советской власти ни звучало в разных регионах Азербайджана, они беспощадно подавляются, тех, кто призывает к борьбе людей с национальным духом и сторонников свободы, клеймят как «врагов народа», «беглецов», «предатели» за измену и клевету были либо расстреляны, либо отправлены в ссылку.

Хамид Арзулу ярко изобразил реалии этого периода и то, что происходило с народом в своем романе «От птицы-беглеца» с художественными пластинами. Как и другие восстания, происходившие во многих регионах Азербайджана, восстание Кечили также прошло очень трудный путь. Автор отразил эти дороги в виде скоростей.

Ключевые слова: *роман, проза, репрессии, беглец, бунт.*

İNCİ ƏHMƏDOVA
incihmdova358@gmail.com
Naxçıvan Dövlət Universiteti

ABDULLA ŞAİQ ƏDƏBİYYAT MÜƏLLİMİ KİMİ

Ədəbiyyat tədrisi tarixində bilavasitə müəllimlik etmiş, metodik görüşlərini dərs dediyi siniflərdə, pedaqoji prosesdə yaratmış və formalaşmışdırmış müəllimlər içərisində Abdulla Şaiqin xüsusi mövqeyi və şərəfli yeri vardır. Ədəbiyyatı böyük məhəbbətlə sevən Şaiq həm də onu ehtirasla tədris etməyi bacaran ustad müəllimlərdən olmuşdur. Sabiq tələbələrinin xatirələrindən və arxiv sənədlərindən aydın olur ki, bu həqiqi pedaqoq dərs dediyi məktəblərdə öz pedqoji bacarığı ilə həmişə fərqlənmiş, başqalarına nümunə olmuş, ədəbi hadisələri, ayrı-ayrı sənətkarların yaradıcılıq yolunu xüsusi bir qabiliyyətlə öyətmiş, ədəbi biliyinə və mütodik hazırlığına görə müasirlərindən seçilmişdir.

A.Şaiqin müəllimliyindəki metodik ustalıqlardan biri tədris etdiyi fənni şagirdlərə sevdirməsi olmuşdur. O, bu fikirdə idi ki, müəllim ədəbiyyatı sevmirsə, onu şagirdlərə də sevdirə bilməz. Əgər fənnə müəllimlə şagird arasında qarşılıqlı məhəbbət zəifdirsə, onda qarşıya qoyulan məqsədə də çətin nail olmaq mümkündür.

Ədəbiyyat müəllimi öz danışığı, nitqi etibarı ilə nümunə olmalıdır. Bu, ədəbi hadisələrin möhkəm mənimsənilmsini asanlaşdırır, əsərdə təbliğ olunan ideyanın tez başa düşülməsinə imkan verir, eyni zamanda, şagirdlərin nitq inkişafına təsir göstərir. Nitqi gözəl olan müəllim dərsi maraqlı təşkil edə bilir, öz danışığı ilə şagirdlərə həmişə nümunə olur. A.Şaiqin pedaqoji fəaliyyətinə dair materialların tədqiqi göstərir ki, o məhz bu nöqteyi-nəzərdən də seçilən ədəbiyyat müəllimi olmuşdur.

Açar sözlər: *Abdulla Şaiq, müəllim, fənn, nitq, şagird, metodik ustalıq, ədəbiyyat, pedaqoji görüşlər, tədrisi metodika və s.*

A.Şaiqin müəllimlik fəaliyyəti ona maarifin zəruri ehtiyaclarını, tədrisin səmərəli təşkili məsələlərini daha dərindən dərk etməyə kömək edirdi. O, uşaqların mütaliəsini əsrin artan tələbləri səviyyəsinə qaldırmağı vacib sayırdı. Odur ki, A.Şaiq öz işini dərs deməklə məhdudlaşdırmır, eyni zamanda bədii yaradıcılıqla məşğul olur, az bir zaman içərisində uşaq ədəbiyyatının zənginləşməsi və inkişafı üçün bütün imkanlarını səfərbər edərək yazıçı-tərbiyəçi kimi şöhrət qazanır. Bilavasitə pedaqoji fəaliyyətin nəticəsidir ki, Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının ən görkəmli yaradıcılarından biri olmuşdur. O, ömrünün 50 ildən çoxunu bilavasitə uşaq ədəbiyyatına həsr etmiş, Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil olan əsərlər yaratmışdır.

A.Şaiqin görkəmli bir uşaq yazıçısı kimi yetişməsi və yaradıcılığı boyu bu sahə ilə məşğul olması səbəbsiz deyildir. Bu bir tərəfdən, ümidimiz və gələcəyimiz olan uşaqların məfkurəvi və bədii tərbiyəsinə yazıçının böyük məhəbbəti, onların yenilməz enerji və gücünə inamı ilə əlaqədar olsa da, digər tərəfdən bəlkə də, ən başlıcası, Şaiqin pedaqoji fəaliyyətlə möhkəm və sıx bağlı olması ilə əlaqədardır.

Sadə və təvazökar bir insan olan A.Şaiq Azərbaycanda Sovet hakimiyyətindən əvvəl yaşamış demokratik fikirli xalq müəllimlərinin nəcib və mütərəqqi sifətlərini özündə ümumiləşdirmişdir.

A.Şaiq bədii yaradıcılığında olduğu kimi, pedaqoji fəaliyyətində də orijinal yaradıcılıq yolu ilə getmiş, köhnəlmiş üsulları təkrarlamamışdır. O, pedaqoji ilə yaradıcılıq işi kimi baxmış, müəllimdən xüsusi istedad tələb etmişdir.

A.Şaiq müəllimlikdə istedad olmalıdır, dedikdə hansı pedaqoji və metodik bacarığa yiyələnməyi başlıca şərt hesab edirdi?

A.Şaiq müəllimin istedadını, hər şeydən əvvəl, onun pedaqoji fəaliyyətinə münasibətində axtarırdı. O deyirdi ki, müəllim öz sənətini süvməzsə, heç bir zaman müvəffəqiyyət qazana bilməz. Müəllim fitrətən, mənən öz sənətinə bağlı olmalı, ona vurulmalıdır. Müəllim yalnız dərsləri ilə deyil, rəftarı, mədəniyyəti ilə də seçilməlidir. Mədəniyyəti yüksək olanın müəllimlik nüfuzu da təsirli olar, hamı ona inanır, dərsləri yüksək səviyyədə keçər. A.Şaiq müasirləri S.M.Qənizadə, S.S.Axundov, H.Cavid kimi müəllimləri pedaqoji fəaliyyətinə istinad edir, məhz bu müəllimlərin təcrübəsi əsasında

fikir söyləyirdi. O, S.S.Axundovun pedaqoji fəaliyyətinə istinad edir, məhz bu müəllimlərin təcrübəsi əsasında fikir söyləyirdi.

A.Şaiq həyatının 34 ilini fasiləsiz olaraq pedaqoji işə sərf etmişdir. İlk dəfə olaraq 1900-cü ildə Bakıya gələn A.Şaiq 1901-ci ildə birinci Aleksandrovski gimnaziyasında Azərbaycan dili müəllimi hüququ almaq üçün imtahan vermişdir. O, bu imtahan zamanı istedad və bacarığını göstərmiş, öz səyi və mütaliəsi sayəsində bu imtahanda "Azərbaycan dilinə və ədəbiyyata dair..., metodika və didaktikaya aid suallara" ( ). N.Nərimanovu başqa müəllimləri çox razı salan cavablar vermiş və müəllimlik hüququnu almışdır. Həmin ildən başlayaraq A.Şaiq Bakının müxtəlif məktəblərində müəllimlik etmişdir. Müasirləri C.Məmmədquluzadə, S.S.Axundov, Ə.Haqverdiyev, M.Ə.Sabir kimi A.Şaiq də xalqın maarif və mədəniyyətini yüksəltmək üçün bədii yaradıcılıqla bərabər, pedaqoji işlə, təlim-tərbiyə ilə də məşğul olmağı xalqa xidmətin ən başlıca şərti hesab edirdi. Bu nəcib vətənpərvərlik hissinin nəticəsidir ki, o, həyata atıldığı gündən gənc nəslin tərbiyəsi ilə müntəzəm məşğul olur, müəllimlik edir, dərsliklər yaradırdı.

A.Şaiqin demokratik fikirli Azərbaycan dili və ədəbiyyat müəllimi kimi fəaliyyət göstərməsi müasirlərindən xeyli fərqlidir. Şair dindar bir mühitdə böyüyüb, "bizim ev bir müəllim evi olduğu halda, mövhumat yuvası idi" ( ), deyərək öz uşaqlıq illərini xatırlasa da, dini mərkəzlərdə təhsil alsa da, bir müəllim və yaziçi kimi bu təsirdən uzaq olmuşdur. gənclik çağlarından müəllimlik sənətinə xüsusi maraq göstərən A.Şaiq pedaqoji fəaliyyətə başladığı dövrlərdə iki cəbhə ilə üz-üzə gəlirdi. Birincisi, köhnə məktəblər – mollaxanalar, orada dərs deyən mollalar, sxolastik təlim-tərbiyə üsulu ilə dərs deyən "müəllimlərin" fəaliyyət göstərdikləri və qızğın təbliğ etdikləri "pedaqoji cəbhə" idi. A.Şaiqin dünyagörüşü təhsili daha çox bu cəbhəyə uyğun gəlirdi. Amma əqidəsi, məsləki, əsil köhnə məktəblərlə, bu məktəblərin təlim-tərbiyə, "üsulları" ilə uyuşmurdu. O, Mollaxanalarda təlim olunan sxolastik elmlərin inkişaf və tərəqqi üçün faydasızlığını görürdü. A.Şaiq başqa pedaqoji cəbhəyə, yeni təlim-tərbiyə üsullarına, dünyəvi məktəblərə meyl edirdi. Onun diqqətini və marağını Qori seminariyasını qurtarmış müəllimlərin pedaqoji fəaliyyəti daha çox cəlb edirdi. O, bu müəllimlərin fəaliyyəti ilə hələ ilk təhsil aldığı məktəbdə tanış olmuşdur. Bu məktəbdə çalışan Qori seminariyasının məzunları Baxşəlibəy və Paşabəy öz pedaqoji qabiliyyətləri ilə Şaiqə nümunə idilər.

A.Şaiq aydın görürdü ki, XIX əsrin 80-90-cı illərində yeni tipli, dünyəvi məktəblərin sayı ildən-ilə artır, xalqda elmə, maarifə böyük həvəs oyanır. O, bunu da yaxşı bilirdi ki, "Rusiya ali məktəblərində və Qori müəllimlər seminariyasında təhsil alıb gələn qabaqcıl müəllimlər, yeni üsullu məktəblərin möhkəmlənməsi, dini məktəblərin nüfuzdan düşməsi üçün şərait yaradır" ( ). Buna görə də o, həmin müəllimlərin təcrübəsindən öyrənir, onları "uçitelişka" adlandırıb, lağa qoyan və həqarətlə baxan burjua mühərrirlərinin zərərli görüşləri ilə razılaşmır, özünü də bu cür müəllimlərlə bir sırada fəaliyyət göstərən pedaqoq kimi görmək istəyirdi. Şaiq oxuyur, öyrənir, yeniliyi duymağa can atır, özünü yenidən qururdu. O, "pedaqogikanın son nailiyyətlərindən xəbərdar olan" demokratik fikirli maarif xadimləri, əsil xalq müəllimləri ilə durub oturur, onlarla məsləhətləşirdi.

A.Şaiqin pedaqoji fəaliyyətinin çox hissəsi Azərbaycanda Sovet hakimiyyətindən əvvəlki dövrə təsadüf edir. A.Şaiq Sovet hakimiyyəti illərində yalnız orta məktəb şagirdlərinin və ali məktəb tələbələrinin sevimli müəllimi-tərbiyəçisi olmamış, həm də xalq maarifi cəbhəsində, ədəbiyyat tədrisi sahəsində çalışan gənc müəllimlərin metodik məsləhətçisi, müəllimi olmuşdur. Onun ədəbiyyat meəllimi-metodistliyində özünü göstərən bir sıra keyfiyyətlər yalnız bilavasitə məktəbdə çalışdığı illər deyil, daha sonralar, indi də nümunədir. A.Şaiqin müəllimlik təcrübəsində metodik ustalıq xüsusi təqdirə layiqdir.

ƏDƏBİYYAT

1. Ağayev Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı: Elm, 2000
2. Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı: ADPU, 2011
3. Cavid H., Şaiq A. Ədəbiyyat dərsləri (çapa hazırlayan G.Babaxanlı). Bakı: Çaşıoğlu, 2010
4. Əhmədov C.M.Azərbaycan ədəbiyyatının tədrisi tarixindən. Bakı: Maarif, 1971 5.
5. Hacıyev A. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Təhsil, 2003
6. Qafarova S., Gərayzadə E.Azərbaycan ədəbiyyatının tədrisi tarixi. Bakı: Mütərcim, 2010
7. Mürşüdlü M.A.Şaiq "Nümunə məktəbi"nin Azərbaycan məktəb tarixində yeri. "Azərbaycan məktəbi" jurnalı, Bakı: 2004, № 5
8. Mürşüdlü M. Abdulla Şaiq Talıbzadənin pedaqoji fəaliyyətinə konseptual yanaşma. "Elmi axtarışlar" toplusu, 2006, № 20
9. Yusifov F.Ədəbiyyatın tədrisi metodikası. Bakı: ADPU, 2012

SUMMARY

Inji Ahmadova

ABDULLA SHAIQ AS A LITERATURE TEACHER

Abdulla Shaig has a special position and an honorable place among the teachers who directly taught in the history of literature teaching, created and formed their methodical ideas in the classes he taught, and in the pedagogical process. Shaiq, who loved literature with great love, was also one of the master teachers who was able to teach it with passion. From the memories of his former students and archival documents, it is clear that this true pedagogue always distinguished himself with his pedagogical skills in the schools where he taught, became an example to others, taught literary events and the creative path of individual artists with a special ability, and was chosen among his contemporaries due to his literary knowledge and methodological training.

One of the methodical skills of A. Shaig's teaching was that he made students love the subject he was teaching. He was of the opinion that if the teacher does not like literature, he cannot make the students like it. If the mutual love between the subject teacher and the student is weak, then it is difficult to achieve the set goal.

A literature teacher should be an example in his speech. This facilitates solid mastering of literary events, allows quick understanding of the idea promoted in the work, and at the same time affects the speech development of students.

Key words: *Abdulla Shaik, teacher, subject, speech, pupil, methodical mastery, literature, pedagogical meetings, teaching methodology, etc.*

NƏZRİN KƏRİMOVA
nazrin.karimova02@mail.ru
Naxçıvan Dövlət Universiteti

ALİ TƏHSİLDƏ TƏLİMİN TƏŞKİLİ FORMALARININ ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

Elmi məqalədə təlimin təşkili formalarının ümumi xüsusiyyətləri təhlil edilir. Göstərilir ki, təlim prosesinin yüksək nəticələr verməsi onun təşkil edilməsi formalarından çox asılıdır. Təlimin təşkil edilməsi prosesinin tarixinə qısa nəzər salınmış, mərhələləri göstərilmişdir.

Qeyd olunur ki, təlim prosesi ali və orta məktəb müəllimlərinin rəhbərliyi ilə təhsilalanlara bilik, bacarıq və vərdişlərin öyrədilməsinə yönələn bir pedaqoji prosesdir. Bu prosesdə müəllimlərlə tələbə və şagirdlər arasında qarşılıqlı əlaqə mövcuddur. Bu proses zamanı müəllim təhsilalanlara bilik, bacarıq və vərdişləri mənimsətməli, onlarda şüur və psixika inkişaf etdirilməli və lazımi olan keyfiyyətlər aşılanmalıdır.

Təlim prosesində dərslərlə yanaşı olaraq təlimin seminar məşğələlərindən, praktikumlardan, təlim ekskursiyalarından, fakultetiv məşğələlərdən, ev tapşırıqlarından istifadə edilir ki,bunlar haqqında məqalədə ətraflı bəhs edilmişdir.

Məqalədə ali təhsil müəssisələrində təlim prosesinin təşkilinin aparıcı formasının elmi və pedaqoji işçilərin tədrisində elmi biliklərin sistemli şəkildə təqdim olunmasını təmin edən mühazirədən danışılır. Eyni zamanda, onun təqdimetmə formaları, dərsin məzmunu, quruluşu, nümunələrin və illüstrasiyaların seçilməsi, metodik tərtibatı, vaxtın hesablanması, şagirdlərin tərkibi və xüsusiyyətlərinin dərsə hazırlıq zamanı nəzərə alınması, quruluşunun giriş, tematik, icmal və yekundan ibarət olması göstərilir. Qeyd olunur ki, mühazirə növlərinə problemli mühazirə, vizuallaşdırma mühazirəsi, planlaşdırılmış səhvlərlə mühazirə, binar mühazirə (iki nəfərlik mühazirə), mühazirə-mətbuat konfransı və s. daxildir.

Məqalədə həmçinin, ali təhsil müəssisələrində mühazirələrlə yanaşı digər təşkilati təhsil formalarından da, yəni seminar, laboratoriya işi, elmi-praktik konfrans, tələbələrin müstəqil tədris işi, istehsalat təcrübəsi, başqa yerli və ya xarici universitetlərdə təcrübə keçmək formalarından bəhs edilmiş, onların xarakterik xüsusiyyətləri təhlil edilmişdir.

Sonda belə bir nəticəyə gəlinmişdir ki, təlimin təşkili formalarından istifadə edilərək keçirilən dərslər təhsilalanlarda müstəqil şəkildə düşünməyi, sərbəst olaraq fikir bildirməyi, şəxsiyyəti qiymətləndirməyi bacarmağı, onlarda təhlil etmək qabiliyyətini, əməkdaşlıq etməyi, kollektivlə işləmək qabiliyyətini, başqalarını dinləməyi bacarmağı, digərlərinin fikirlərinə hörmətlə yanaşmağı, tənqidi təfəkkürü və s. inkişaf etdirir.

Açar sözlər: *Təlim prosesi, qloballaşan dünya, sinif-dərs sistemi, təlimin təşkili formaları, mühazirə, seminar.*

Təlim prosesinin yüksək nəticələr verməsi onun təşkil edilməsinin formalarından çox asılıdır. Belə ki, təlimin məqsədi və məzmunu onun təşkili forması ilə həyata keçirilir. Təlim prosesinin ən mühüm komponentlərindən biri onun təşkil edilməsidir. Təlimin təşkil edilməsi prosesinin tarixi çox qədimdir və bir çox mərhələlərdən keçmişdir [5].

Qloballaşan dünyamızda həyatın bütün sahələrində olduğu kimi, təlim sahəsində də inteqrasiya və vahid qlobal inkişaf xətti müəyyənləşmişdir. Sinif-dərs sistemi, ev tapşırıqları, fakultetiv və seminar məşğələləri, istehsalat təcrübələri, praktikumlar və s. kimi təlimin təşkili formaları meydana gəlmişdir [Bədəlova, 2015: 97-106].

Bildiyimiz kimi, təlim prosesi ali və orta məktəb müəllimlərinin rəhbərliyi ilə təhsilalanlara bilik, bacarıq və vərdişlərin öyrədilməsinə yönələn bir pedaqoji prosesdir ki, bu proses müəllimlərlə tələbə və şagirdlər arasında gedir [Quliyev, 2019: 3-6].

Təhsilin təşkili forması - didaktik məqsədlərindən, məzmunundan və təhsil subyektlərinin və obyektlərinin fəaliyyətinin xüsusiyyətlərindən asılı olaraq, təhsil dərsinin müəyyən struktur-təşkilati və

idarəetmə dizaynıdır. Təlim prosesində dərslərlə yanaşı olaraq təlimin seminar məşğələlərindən, praktikumlardan, təlim ekskursiyalarından, fakultetiv məşğələlərdən, ev tapşırıqlarından və s. istifadə edirlər [4].

Ali təhsil müəssisələrində təlim prosesinin təşkilinin aparıcı forması elmi və pedaqoji işçilərin tədrisində elmi biliklərin sistemli şəkildə təqdim olunmasını təmin edən mühazirədir. Mühazirə zamanı material elmi, cəmlənmiş, məntiqi və arqumentativ şəkildə təqdim olunur. Dərsin məzmunu, quruluşu, nümunələrin və illüstrasiyaların seçilməsi, metodik tərtibatı, vaxtın hesablanması, şagirdlərin tərkibi və xüsusiyyətləri dərsə hazırlıq zamanı nəzərə alınır. Mühazirə giriş, tematik (informasiya), icmal və yekundan ibarət olur.

Giriş mühazirəsi mövzuya ilk vahid baxışı verir və tələbəni bu kursdan iş sistemində istiqamətləndirir. İnformasiya mühazirəsi elmi faktların, hadisələrin və proseslərin ardıcıl olaraq açıqlanması yolu ilə müəyyən bir təhsil fənnindən müəyyən miqdarda məlumatın dinləyicilərə ötürülməsini nəzərdə tutur. İcmal mühazirəsi elmi biliklərin yüksək səviyyədə sistemləşdirilməsidir ki, bu da təfərrüatlı və konkretləşdirmə ilə yanaşı, fənndaxili və fənlərarası əlaqələrin açılması zamanı öyrədilən məlumatın dərk edilməsi prosesində çoxlu assosiativ əlaqələr tələb edir. Giriş mühazirəsi ali təhsil müəssisələrində bilik, bacarıq və vərdişlər məcmusunun mənimsənilməsi məqsədi ilə tələbələrin fəaliyyətinin yanaşmalarını, prinsiplərini, şərtlərini, formalarını, metodlarını və xüsusiyyətlərini üzə çıxarmağa yönəlmiş mühazirə növüdür. Bu cür mühazirələr ən çox qiyabi və distant təhsil tələbələri ilə keçirilir. Yekun mühazirə akademik fənnin, akademik fənlər blokunun, kursun və s.-nin öyrənilməsinin sonunda yekunlaşdırmaq məqsədilə istifadə olunan mühazirə növüdür.

Ali təhsil müəssisələrində mühazirələrin hər bir növü müxtəlif metodlardan istifadə etməklə aparıla bilər. Məsələn, problem metodu əsasında sözdə problem mühazirəsini öyrədirlər. Bu mühazirə zamanı yeni biliklər sual, tapşırıq və ya vəziyyətin çətinliyi vasitəsilə ötürülür.

Vizuallaşdırma metoduna əsasən, mühazirə vizuallaşdırma deyilən üsul (mühazirə materialının audio və video avadanlığı vasitəsilə təqdimat forması) vasitəsilə tədris olunur.

Dialoq metodu əsasında ikili mühazirə tədris olunur, yəni bu növ mühazirə iki elmi və pedaqoji işçi, yaxud iki elmi məktəbin nümayəndələri, yaxud alim və praktik, müəllim və tələbə arasında dialoq şəklində mühazirə növüdür.

Səhvlərin tapılması üsuluna əsasən, əvvəlcədən planlaşdırılmış səhvləri olan qondarma mühazirə tədris olunur ki, bu da tələbələri təklif olunan məlumatlara daim nəzarət etməyə stimullaşdırmaq üçün nəzərdə tutulmuşdur. Mühazirənin sonunda dinləyicilərə diaqnoz qoyulur və yol verilmiş səhvlər təhlil edilir.

Ali təhsil müəssisələrində mühazirələrlə yanaşı digər təşkilati təhsil formalarından da, yəni seminar, laboratoriya işi, elmi-praktik konfrans, tələbələrin müstəqil tədris işi, istehsalat təcrübəsi, başqa yerli və ya xarici universitetdə təcrübə keçmək formalarından istifadə edirlər.

Ali təhsil müəssisələrində təlimin digər mühüm təşkili formalarından biri seminardır. Onun digər formalardan fərqi ondan ibarətdir ki, o, tələbələri təhsil və idrak fəaliyyətlərində daha böyük müstəqillik kəşf etməyə istiqamətləndirir. Seminarda ilkin mənbələr, sənədlər, əlavə ədəbiyyat və s. üzrə müstəqil sinifdənkənar işlər nəticəsində əldə edilmiş biliklər dərinləşdirilir, sistemləşdirilir və nəzarətə götürülür. Keçirilmə üsulundan asılı olaraq, seminarların aşağıdakı növləri fərqləndirilir: seminar-söhbət, seminar-dinləmə, seminar-disput, seminar-mətbuat konfransı və s.

Laboratoriya məşğələsi ali məktəb müəllimlərinin tapşırığına uyğun və rəhbərliyi altında həyata keçirilən təlimin təşkili formasıdır. Əsas didaktik məqsədlər öyrənilən nəzəri müddəaların eksperimental təsdiqidir.

Tədris prosesinin təşkili formalarından biri də praktik məşğələdir. Praktik məşğələ təhsildə laboratoriya işlərinin növlərindən biridir. Praktik məşğələ zamanı şagirdlər müəllimin tapşırığına uyğun olaraq və rəhbərliyi altında hər hansı fənn üzrə praktiki məşğələ və ya sinifdənkənar iş görürlər. Onun əsas məqsədi əvvəllər formalaşmış bilik və bacarıqları praktikada tətbiq etmək, nəzəri bilikləri ümumiləşdirmək və sistemləşdirməkdir.

Təlimin təşkili formalarından biri ekskursiyalardır. Tədris prosesindəki yerindən asılı olaraq, ekskursiyalar aşağıdakılara bölünür: 1) təhsil proqramına münasibətdə-proqrama və proqramdan kənara; 2) məzmuna görə-tematik və birləşdirilmiş; 3) tədris materialının vaxtına görə-giriş, cari və yekun üçün; 4) təhsil fənninə münasibətdə-diyarşünaslıq muzeyi, tarix muzeyi, tarixi abidələr və s.

Beləliklə, təlimin təşkil edilməsinin müasir formaları tədris prosesini xeyli dərəcədə intensivləşdirir, onu hər bir təhsilalan üçün əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir [Əskərov, 2018: 80-85].

ƏDƏBİYYAT

1. Bədəlova Ə. Təlim-tərbiyə. Mühazirə mətnləri. Bakı: 2015, 291 s.
2. Əskərov A. Təlim prosesində müasir təlim üsulları ilə tədqiqatların təşkili. Sumqayıt Dövlət Universiteti "Elmi əsərlər", Sosial və humanitar elmlər bölməsi, 2018, cild 14, № 3, s. 80-85
3. Quliyev Ə. Təlim prosesinin təşkili formalarının mahiyyəti və təsnifatı. "Педагогические науки" jurnalı, 2019, s. 3-6
4. Təlimin təşkilinin digər formaları. 2 iyun, 2010 https://kayzen.az
5. Təlimin təşkili formalarının tarixi. 22 iyun, 2010 https://kayzen.az.

SUMMARY

Nazrin Karimova

GENERAL CHARACTERISTICS OF ORGANIZATIONAL FORMS OF EDUCATION IN HIGHER EDUCATION

The scientific article analyzes the general characteristics of the forms of training organization. It is shown that the high results of the training process depend very much on the forms of its organization. The history of the process of organizing the training is briefly reviewed and its stages are indicated.

It is noted that the training process is a pedagogical process aimed at teaching students knowledge, skills and habits under the guidance of high school and secondary school teachers. In this process, there is interaction between teachers and students. During this process, the teacher should acquire the knowledge, skills and habits of the students, develop their consciousness and psyche and instill the necessary qualities.

In the training process, in addition to lessons, training seminars, practicums, training excursions, faculty exercises, and homework are used, which are discussed in detail in the article.

The article talks about the leading form of organization of the training process in higher education institutions, which ensures the systematic presentation of scientific knowledge in the teaching of scientific and pedagogical staff. At the same time, its presentation forms, content, structure of the lesson, selection of examples and illustrations, methodical design, time calculation, taking into account the composition and characteristics of students during the preparation of the lesson, its structure is indicated as introduction, thematic, overview and conclusion. It is noted that lecture types include problematic lecture, visualization lecture, lecture with planned errors, binary lecture (two-person lecture), lecture-press conference, etc. includes.

In addition to lectures in higher education institutions, other forms of organizational education, such as seminars, laboratory work, scientific-practical conferences, students' independent teaching work, industrial experience, internships in other local or foreign universities, are discussed in the article, and their characteristic features are analyzed. has been done.

In the end, it was concluded that the lessons conducted using the forms of organization of the training help the students to think independently, to express their opinions freely, to be able to evaluate the personality, to be able to analyze, to cooperate, to work with a team, to be able to listen to others, to respect the opinions of others, to be critical. thinking etc. develops.

Key words: *Training process; Globalizing world; Classroom system; Training organization forms; Lecture; Seminar.*

MƏHSƏTİ CƏFƏRLİ
cavidceferli115@gmail.com

FACİƏ JANRININ TƏDRİSİ ZAMANI QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN HƏLLİ YOLLAR HAQQINDA

NDU-nun "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodologiyası və metodikası" ixtisası üzrə ikinci kurs magistrantı Cəfərli Məhsəti Cavid qızının "Faciə janrının tədrisi zamanı qarşıya çıxan çətinliklər və onların həlli yolları haqqında" adlı məqaləsi onun yazdığı "Azərbaycan ədəbiyyatında dramatik əsərlərin tədrisi" adlı magistr dissertasiyasının ikinci fəslini ehtiva edir. Məqalədə Azərbaycan dramaturgiyasında faciə janrının tədrisi haqqında müəyyən məlumat verilmişdir.

Açar sözlər: *faciə, dramaturgiya, tədris, konflikt.*

Məlumdur ki, dramatik əsərlərin tədrisinin mühüm bir qolunu faciə janrının tədrisi təşkil edir. Azərbaycan dramaturgiyası M.F Axundzadənin "Təmsilatlar"ı ilə, yəni indiki dillə desək, komediyalarla başlamışdı. Uzun illər Azərbaycan teatrının təşəkkülü və regionlarda davamı məhz M.F.Axundzadənin əsərlərinin təsiri altında idi; yəni yerlərdə bu əsərləri tamaşaya qoyurdular.

Nəhayət, Nəcəf bəy Vəzirovun məlum "Müsibəti-Fəxrəddin", onunla yanaşı, Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", Nəriman Nərimanovun "Nadir şah" kimi faciələri yarandı.

Faciənin tədrisi zamanı müəllim izah edir ki, dram əsərlərində janrın müəyyən edilməsi konfliktlə bilavasitə bağlıdır. Belə ki, konflikt yumşaq olarsa, komik situasiyalarla əhatə olunarsa, komediya, orta dərəcəli, sonluğu adi sonluqla bitən əsər olarsa, dram, kəskin konflikt, ziddiyyətli məqamların üz-üzə dayandığı əsərdə, fəci situasiyalar yaranarsa, faciə janrı arenaya gəlir. Məsələn, Sabit Rəhmanın "Toy" komediyasında Kərəmovun düşdüyü situasiya komik situasiyadır, gülməlidir, islah olunandır. Amma yuxarıda qeyd etdiyimiz kimi, Nəcəf bəy Vəzirovun məlum "Müsibəti-Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", Nəriman Nərimanovun "Nadir şah" kimi faciələrində situasiya kəskin ehtirasların toqquşması ilə müşayiət edilir. Qarşı-qarşıya dayanan qüvvələr kəskin ziddiyyətdədir. Əgər Fəxrəddin atasının ölümünü, bir növ, "unudub" kənddə məktəb açmaq istəyirsə, elm, maarif işığı yandırmaq fikrindədirsə və bu yolla insanların daha mədəni olması eşqindədirsə, Rüstəm bəy feodal-patriarxal mühitin təsiri ilə qan intiqamı haqda düşünür. Və Rüstəm bəy belə hesab edir ki, onun oğlu Rəşidin intiqamı üçün mütləq Fəxrəddin ölməlidir.

Bu arada Rüstəm bəyin əsərin əvvəlindəki və əsərin sonundakı monoloqları maraq doğurur. Bu monoloq əsərdəki kontrastın, kəskin ziddiyyətin bir göstəricisidir.

Görkəmli metodist alim Əliyar Qarabağlının yetirməsi Mirabbas Aslanovun "Dramatik əsərlərin tədrisi" monoqrafiyasında dramatik əsərlərin təhlili haqqında müəyyən məlumatlara rast gəlirik. Əsərdə "Ölülər" komediyasının (Sonrakı təhlillərdə "Ölülər" tragikomediyası kimi təhlil edilir – Məhsəti Cəfərli) və "Müsibəti Fəxrəddin" faciəsinin təhlil planı verilmişdir. (№ 1, s.32-33) "Müsibəti Fəxrəddin" faciəsinin planının tərtibi beş pərdənin hər birinə aid beş planla tanış oluruq.

Ədəbiyyatımızda faciə janrında mükəmməl əsər yazan sənətkarlarımızdan biri də məhz Hüseyn Caviddir. "İblis" əsərinin ədəbiyyatımıza gəlişi ilə yeni bir cığır formalaşdırmışdır. Hüseyn Cavidin dünya ədəbiyyatına olan marağının təcəssümünü məhz bu əsərdə görmək mümkündür. Demonizm ənənələrinin bir sıra ünsürləri Hüseyn Cavid yaradıcılığına da sirayət etmişdir. "İblis" faciəsinin əsas qəhrəmanlarından olan İblis məhz demonizm poeziyasının məhsuludur. Düya ədəbiyyatının klassikləri ilə eyni ustalıqda hətta daha sənətkarlıqla yaradıcılıq işinə məşğul olan görkəmli mütəfəkkir Azərbaycan ədəbiyyatında silinməz izlər qoymağı bacarmışdır. Görkəmli sənəntkarın əsərləri ümumtəhsil məktəblərində ətraflı şəkildə tədris edilir. Əsərin həcmindən asılı olaraq, təhsilverən müxtəlif iş üsullarından istifadə edərək tədris prosesini təhsilalanlar üçün daha maraqlı edə bilər.

Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsi də ədəbiyyatımızda özünəməxsus yer tutur. Görkəmli sənətkar yaratdığı konfliktin rişələrindən istifadə etməklə mükəmməl sənət əsərini yaratmağa müvəffəq olmuşdur. Maarifçi gənclərlə köhnə dünya ənənələrini müdafiə edən mülkədarlar arasındakı ziddiyyət real boyalar əsasında işlənmişdir. Əsərdə maarifçi ziyalıları Fərhad surəti təmsil edirsə, acgöz mülkədarları onun atası Səməd ağa təmsil edir. Əsər xalqı inkişafa və maarifə yönləndirmək baxımından uğurludur. "Bəxtsiz cavan" əsərində təkcə maarif və inkişaf məsələlərindən bəhs edilmir, eyni zamanda müəllif əsərə sevgi xəttini də əlavə etmişdir. Onu da qeyd etməliyik ki, Fərhad obrazı güclü bir obraz olaraq təsvir edilməmişdir. Sevdiyi qızın istəmədiyi bir şəxslə evləndirilməsi hadisəsinə yetərli reaksiyanı göstərməməsi bunu sübut edən cəhətlərdəndir. İnkişafa maraq göstərməyən, ənənəvi yaşayışlarını davam etdirmək istəyən bir mühitdə maarifçi gənclər irəliləyə bilməzlər. Əbdürrəhim bəy Haqverdiyev bu əsəri ilə mövcud cəmiyyətin inkişaf etməsinin nə qədər önəmli olduğunu vurğulamışdır.

Azərbaycan ədəbiyatının böyük sənətkarları olan Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Hüseyn Cavid misilsiz faciə janrında olan əsərlər yazmışlar. Bu əsərlərin hər biri mükəmməl quruluşa malik kompozisiyası və mühüm konfliktlərin təsvir edilməsinə görə ədəbiyyatımızda özünəməxsus yer tutur. Bu faciə əsərlərinin hamısı baş qəhrəmanın ölümü ilə nəticələnsə də, müəllif xalqına aşılamaq istədiyi əxlaqi-mənəvi ideyalar baxımından öz arzusuna çatmış olur.

Mirabbas Aslanov hesab edir ki, müəllim şagirdlərdən əsərin məzmununu danışmağı tələb etməlidir. Çünki əsərin məzmununu bilməyən şagird həmin əsəri təhlil edə bilməz. Doğrudur, dramatik əsərin məzmununu nəql etmək çətindir, amma mümkündür. Bu zaman dramatik əsərin janr xüsusiyyətlərini müəyyən etmək xüsusi əhəmiyyət daşıyır.

Dram əsərinin tədrisi zamanı müəllimin qarşısına çıxan çətinliklərdən biri də əsərin sinifdə rollar üzrə oxusunu təşkil etməkdir. Bu, həm əsərin əyani qavranmasına kömək edir, həm də şagirdləri ifadəli oxu vərdişlərini nizamlayır. Əlbəttə, burada da müəllim şagirdlərin yaş xüsusiyyətləri ilə bağlı müəyyən çətinliklərə sinə gərməli olur, məsələn, kimsə Hacı Qara yox, Heydər bəy olmaq istəyir, Tükəz olmaq istəməyən şagird tapılır, kim isə Şeyx Nəsrullah olmaq istəmir və sair.

Dramatik əsərlərin tədrisi zamanı müəllim həmin əsərin yazıldığı zamanı və əsərin fabulasında, məzmununda göstərilən zamanı şagirdlərə izah etməlidir. Əks-təqdirdə əsəri başa düşmək çətin olar.

Konfliktin tədrisi haqqında dissertasiyamızda daha geniş bəhs edəcəyimizi nəzərə alıb burada daha az fikir bildirdik. Ümumiyyətlə, dramatik əsərin tədrisi mənzum və nəsr əsərlərin tədrisindən köklü surətdə fərqləndiyindən bu zaman müəyyən çətinliklər müəllim tərəfindən nəzərə alınmalıdır

Metod: Dissertasiya müqayisəli tarixi metod vəelmi təfsir metoduna istinad edir.

Əldə olunan nəticələr: Məqalə dramatik əsərlərin tədrisi zamanı qarşıya çıxan bir sıra çətinliklər haqqında aydın təsəvvür yaradır və mövzunun daha düzgün təsəvvür edilməsini aydınlaşdırır.

ƏDƏBİYYAT

1. Əliyar Qarabağlı – Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif, 1969.
2. Mirabbas Aslanov – Dram əsərlərinin tədrisi metodikası. Maarif, 1976.
3. Nəcəf bəy Vəzirov – Seçilmiş əsərləri. Bakı: Maarif, 1991.
4. Əjdər Tağıoğlu – Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi. Bakı: Elm və təhsil, 2015.

SUMMARY

Mahsati Gafarli

DIFFICULTIES ENCOUNTERED DURING TEACHING THE TRAGEDY GENRE AND ABOUT THEIR SOLUTIONS

The article "On the difficulties encountered during the teaching of the tragedy genre and ways to solve them" of Jafarli Mahsati Javid, a second-year master's student of NSU, majoring in"Methodology and methods of teaching Azerbaijani language and literature", contains the second

chapter of her master's thesis entitled “Teaching dramatic works in Azerbaijani literature”. The article provides some information about the teaching of the tragedy genre in Azerbaijani drama.

Key words: *tragedy, dramaturgy, teaching, conflict.*

GÜLŞƏN MƏMMƏDOVA
gulsenmvaa2002@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0005-6388-205X

BƏDİİ ƏSƏRLƏRİN DİLİNDƏ ANA DİLİ MÖVZUSUNUN QOYULUŞU

Bir xalqın milli özünəməxsusluğunu əks etdirən ən mühüm vasitə ümumxalq dilidir. Ədəbi dil ümumxalq dilinin baş tacı, bəzəyidir. Bədii dil ümumxalq dili ilə ədəbi dilin sintezindən ibarət olub, dilin zəngin ifadəlilik vasitələrini özündə cəmləşdirə bilən yaradıcılıq üslubudur. Bədii dil ən uzaq, ən qaranlıq guşələrə işıq saça bilmə imkanları ilə bütün başqa üslublardan fərqlənir. Hər bir şair və yazıçı dilinə olan sevgisi, ana dilinin tarixinə dair aldığı biliklərin əsasında, yüksək yaradıcılıq duyğusu ilə dilin ən incə, zərif, emosional, eyni zamanda ən kütləvi, kütləviləşə bilən tərkib elementlərini bədii dilə gətirir, ədəbi dili zənginləşdirir.

Açar sözlər: *ana dili, bədii əsər, milli dil, bədii dil, dil və üslub.*

Dilimizə məhəbbət hissinin artırılmasında, nitq və ünsiyyət mədəniyyətinin inkişaf etdirilməsində bədii ədəbiyyatın rolu böyükdür. Şair və yazıçıların bizə irs qoyduğu poeziya nümunələri onların ürəyinin səsi, mənəviyyatının sədası olmaqla yanaşı ana dilində böyük coşğu ilə yaratdıqları sənət əsərləridir, dilə olan sevgiləri, sarsılmaz istəkləridir. Bu sevgi, bu ilham şairlərin şeir yaradıcılığında onların dilinin bütün guşələrində hiss edilir. Bu da təbii haldır. Çünki söz ustalarının ilhamının mayası onların qüdrətli qələmlərində köklənib, xalq dilindən gələn ifadələrin sehrində yoğrularaq günümüzədək uzun və şərəfli bir yol qət etmişdir.

XX əsrdən başlayaraq Azərbaycan ədəbi dilinin lüğət tərkibində dilimizin öz sözlərindən ibarət olan məfhumlar yer almışdır. “Azərbaycan ədəbi dili tarixi” kitabında danışıq dilinə xas olan sözlərin terminləşməsi, elmi səciyyə daşımasından geniş bəhs olunmuş, ümumxalq dilinin təzahür sahələri haqqında elmi fikirlər yer almışdır: “İctimai – siyasi həyatın, elmin, təsərrüfatın, mədəniyyətin, maarifin bütün sahələri ilə əlaqədar yeni anlayışların ifadəsi zamanı ümumxalq dilindən sözlər götürülərək ya nominativ, ya da başqa mənada işlədilməsi diqqəti cəlb edir” [1, s.129].

Nə deyirsə, yad desin
Öz dilimdir şirin dil
Nə deyirsə, yad desin
Öz dilimdir şirin dil.

Kərkük bayatısından götürülən bu mahnı sözləri dilə olan sevginin ən bariz göstəricisidir. Çox vaxt əlində qələm, kökslərini isə dilə olan sonsuz söz çələngi bəzəyib. Şairlərin iç dünyasının avazına uyğun həmin gözəllik, həmin məftunluq qabardılır, duyğusal deyimlər, siqlətli ifadələr işlədilir. Dağlardakı əzəmət, vüqar “şirinlikdə şərbət kimi” olan ana dilimizin imkanları hesabına şairlərimizin qəlbindən oxucu qəlbinə məlahətli bir səslə, həzin bir avazla axır, mənəviyyatımıza, ruhumuza həlimlik, sərinlik gətirir.

Azərbaycan ədəbiyyatında dilə, dil tarixinə, onun saflığına, qorunmasına həsr olunan şeir, poema, nəsr, dram əsərləri yazılmış, bu əsərlər nəinki uşaqlar, hətta böyüklər tərəfindən sevilmiş, vətənpərvərlik hisslərinin formalaşmasına, dil sevgisinin daha da artmasına səbəb olmuşdur. Bunun səbəbi isə dövlətin dilə olan qayğısı ilə dil daşıyıcısı olan Azərbaycan xalqının mənafeyinin üst - üstə düşməsi, eyni amala xidmət etməsidir. Dilin təmizliyinin qorunmasında dil təəssübkeşliyi xalqın mənəvi yükünə çevirilməklə yanaşı, şair, yazıçı dilçi, ədəbiyyatşünas alimlərin də istiqamətləndiyi mövzu olmuşdur. Şair və yazıçılar öz əsərlərində dilin xalq üçün necə dəyərli, mötəbər mənəvi sərvət olması fikrini aşılamaq istəmiş, dilimizin əhatə dairəsini genişləndirməklə hər zaman günün aktual mövzusu olmağı bacarmışdırlar.

Görkəmli dilçi alimlər dilin insanlar arasında təkcə ünsiyyət vasitəsi kimi yox, məxsus olduğu xalqın tarixini özündə ehtiva edən bir vasitə kimi qiymətləndirərək, keçdiyi tarixi inkişaf yolunu da işıqlandırmışdırlar. Dil tarixinin müxtəlif mərhələləri məhz müxtəlif dövrlərdə yaşayıb – yaradan görkəmli sənətkarlarla bağlıdır. Çünki həmin sənətkarlar yaşadıqları mühitdə mövcud olan dilə daha tez yaxından, operativ müdaxilə etmiş, onunla bağlı bütün sıxıntı, arzu və istəklərini dilə gətirmişdirlər. Onlar öz əsərləri ilə dilə yeni - yeni sözlər gətirərək, sözün imkanlarını üzə çıxarmış, lüzumsuz ifadələri ələkdən keçirərək zaman - zaman dil mühitindən uzaqlaşdırmışdırlar.

Qəzənfər Kazımov bədii dilə yüksək qiymət verərək dilin ən uzaq, ən qaranlıq guşələrə işıq saçmasından, onun imkanlarından faydalanaraq bütün başqa üslubların da yaranmasına yol açdığını diqqətə çəkərək yazır: "Həqiqi yazıçı ana dilinin tarixinə dair aldığı biliklər əsasında, yüksək yazıçı duyğusu ilə dilin ən incə, zərif, emosional, eyni zamanda ən kütləvi, kütləviləşə bilən tərkib elementlərini bədii dilə gətirir, ədəbi dili zənginləşdirir" [4, s.15]. Orta əsrlərdə Nəsimi, Füzuli, Xətayi kimi sənətkarlar, XIX əsr və XX əsrdə isə M.F.Axundzadə, M.Cəlil, M.Şahtaxtılı, M.Ə. Sabir, S.Vurğun, Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi görkəmli sənətkarlar bu ənənənin görkəmli nümayəndələri sırasında yer almış, ana dilinin qorunub saxlanması, inkişafı yolunda böyük işlər görmüşdürlər. Şair və yazıçılar ara - sıra qəzet və jurnallarda "Ana dilim - ana köküm!", "Tarix, dil, ənənə", "Ana dili", "Dil haqqında sorğu", "Bir daha ana dili haqqında", "Dil və əlifba", "Dilimiz - ədəbiyyatımız", "Dildə təbiilik və gözəllik", "Ana dili - dövlət dili" kimi məqalə, şeirlərlə çıxış etmiş, dilin dövlətin və xalqın həyatındakı əhəmiyyətli rolundan, qüdrətindən böyük sevgi ilə bəhs etmişdirlər. Böyük sənətkarlar dilə olan sevgi, qayğı və ehtiramlarını məqalələr, monoqrafiyalar, dərsliklər, bədii ədəbiyyat nümunələri ilə ifadə etmiş, Azərbaycan dilini yüksək qiymətləndirmiş, bir alovlu vətəndaş kimi dilimizi bədii təsvir və ifadə vasitələrinin gücü ilə aydınlaşdırmış, yüksək dərəcədə qiymət vermiş, dil və şeir arasında qurulan qırılmaz əlaqələri üzə çıxarmağa çalışmışdırlar. Bu ümumbəşəri dəyərlər cərgəsində öz layiqli yerini tutan Şəhriyar irsinin ana dilli poeziyasının Azərbaycan ədəbiyyatı üçün məna və əhəmiyyətinin böyük olmasından söz açan akademik Bəkir Nəbiyevin fikirləri olduqca maraqlıdır: "Şəhriyarın irsi, o cümlədən də xüsusən ana dilində yazılmış əsərləri, Azərbaycan poeziyasının xalq həyatı ilə qaynayıb qarışmasında, şeir dilimizin mənəvi sərvətlərimizdən, ədəbi dilimizin şəhdindən - şəkərindən gözü dolusu barınıb - bəhrələnməsində müqayisəyə gəlməz dərəcədə böyük xidmətlər göstərmişdir" [5, s. 11].

Şair və yazıçılarımız bir çox mövzular - fəlsəfi, sevgi - məhəbbət, təbiət haqqında yazsalar da, dil haqqında yazdıqları şeirlər nisbətən daha sosial səciyyə daşıyır və oxucunun dil haqqında düşündükləri ilə eyniyyət təşkil edir, xalqı bu milli problem haqqında düşünməyə sövq etmişdirlər. Ədiblərin dil haqqındakı felyeton, publisitik yazıları, şeir və nəsr əsərləri bu gün də əhəmiyyətli və aktualdır, xüsusi diqqətə layiqdir. Nizami Xudiyev "Azərbaycan ədəbi dili tarixi" kitabında ana dilinin ictimai - tarixi nüfuzunun güclənməsi, onun normativlik səviyyəsinin yüksəlməsi, funksional imkanlarının genişlənməsi haqqında elmi fikirləri olduqca qiymətlidir. Nəsiminin ana dilinin inkişafındakı rolunu qiymətəndirən professor Nizami Xudiyev yazır: "Şair ana dilindən nə qədər götürürsə, onun materialını nə qədər sərf edirsə, ona o qədər də qaytarır; ana dili qarşısında bu cür məsuliyyət hiss etmək baxımından Nəsimini ancaq Füzuli ilə, Vaqiflə, Sabirlə müqayisə etmək mümkündür" [3, s. 256]. Bu cür əsərlər türkçülüyü qabardır, dil haqqında xalqa öyrədici mesaj ötürür və yol göstərici funksiyası daşıyır. Qələmə alınan nəsr əsərlərində, poeziya nümunələrində dil sevgisinin yaranması üçün ən mütərəqqi fikirləri yer almışdır. Onlar dövlətin, xalqın, milli dirçəlişini, tərəqqisini ana dilinə məhəbbətdə görür və ona görə də ana dilinə böyük ehtiramla yanaşırdılar. Ədəbi simalar bu yolda öz sələflərinin işini uğurla davam etdirmiş, zaman keçdikcə inkişaf nəticəsində müsbətə doğru dəyişilən dilimizi qorumağa çalışmışdırlar. Tofiq Bayramın yaradıcılığı haqqında ön söz yazan Şamil Salmanovun fikirlərini xatırlatmaq yerinə düşər: "Şairin şeirlərində diqqəti cəlb edən başlıca məziyyət – onun yaradıcılığında poetik nəfəs genişliyi, öz şəxsi həyəcanlarında zəmanənin həyəcanlarını və təfəkküründü əks etdirməsi, misraların emosional və fikri cəhətdən silqətli olmasından ibarətdir" [2, s. 6]. Bu sözlərin özünü bədii yaradıcılığa həsr edən bütün şairlərə şamil edərək yazıldığını düşünməmək mümkün deyil. Ana dilinə möhkəm bağlı olan və onun zənginliyinə arxalanan sənətkarlar olduqca sadə, yığcam, dolğun və təsirli dildə bədii nümunələr yaratmış, xalqın milli dəyərlərinin qayğısına qalmışdırlar. Ana dili haqqında yaranan əsərlərin poetik qüdrətindən

bəhs edərək dilimizə məhəbbət hisslərini aşılayan sənətkarlarımız dilin bütün poetik imkanlarından istifadə edərək xalqa ləyaqətlə xidmət etmişdirlər.

Qeyd edək ki, şair və yazıçılar dil uğrunda mübarizə apararaq dili qorumaq, inkişaf etdirmək, onu yad təsirlərdən qorumaq kimi cəsarətli addımları o dövrün ən çətin, qorxulu vaxtlarında atmış, bu səbəbdən də hakim qüvvələrin qəzəbinə tuş gəlmişdirlər. Maarifçi ziyalılar minilliklər boyu formalaşan, günümüzə qədər böyük inkişaf yolu qət edən dilimizi, yaradıcılıqları boyu dilin mövcud problemlərini mətbu orqanlarda da cəsarətli çıxışları ilə qabartmış, ana dilinin inkişafını, tərəqqəsini irəli sürərək bu sahədə müstəsna xidmətlər göstərdikləri üçün hakim ideologiyanın təqibinə məruz qalmış, sürgün olmuşdurlar. Buna baxmayaraq, geri addım atmamış, dil uğrunda mübarizələrini qeyd etdiyimiz kimi çətin tarixi – siyasi dövrlərdə də həyata keçirmişdirlər.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbi dili tarixi. 4 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2007, 480 s.
2. Bayramov T. Seçilmiş əsərləri. Bakı: Lider, 2005, 128 s.
3. Xudiyev N. Azərbaycan ədəbi dili tarixi. Bakı: Elm və təhsil, 2012, 686 s.
4. Kazımov Q. Seçilmiş əsərləri, 4 - cü cild, Bakı: Nurlan, 2009, 528 s.
5. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı: Avrasiya press, 2005, 480 s.

SUMMARY

Gulshan Mammadova

MOTHER TONGUE SUBJECT SETTING IN THE LANGUAGE OF ARTISTIC WORKS

The most important tool that reflects the national identity of a nation is the national language. Literary language is the crown and decoration of the national language. Artistic language consists of the synthesis of vernacular language and literary language, it is a creative style that can include the rich means of expression of the language. Artistic language differs from all other styles in its ability to shed light on the farthest, darkest corners.

Every poet and writer's love for their language, based on the knowledge they have about the history of their mother tongue, with a high sense of creativity brings the most subtle, elegant, emotional, and at the same time the most massive, massizable constituent elements of the language into the artistic language and enriches the literary language.

Key words: *mother tongue, artistic work, national language, artistic language, language and style.*

РЕЗЮМЕ

Гульшан Мамедова

РОДНАЯ ЯЗЫКОВАЯ ТЕМАТИЧЕСКАЯ ПОСТАНОВКА В ЯЗЫКЕ ХУДОЖЕСТВЕННЫХ ПРОИЗВЕДЕНИЙ

Важнейшим инструментом, отражающим национальную самобытность нации, является национальный язык. Литературный язык – венец и украшение национального языка. Художественный язык представляет собой синтез народного языка и литературного языка, это творческий стиль, который может включать в себя богатые средства выразительности языка. Художественный язык отличается от всех других стилей способностью пролить свет на самые дальние, темные уголки.

Любовь каждого поэта и писателя к своему языку, основанная на знании истории родного языка, при высоком творческом чутье привносит самые тонкие, изящные, эмоциональные и в то же время самые массивные, масштабируемые составляющие элементы. языка в художественный язык и обогащает литературный язык.

Ключевые слова: *родной язык, художественное произведение, национальный язык, художественный язык, язык и стиль.*

TÜRKANƏ QOCAYEVA
gojayevaturkan@gmail.com

MÜASİR ŞƏRAİTDƏ ALİ MƏKTƏB MÜƏLLİMLƏRİNİN YENİ ROL VƏ FUNKSİYALARI

Məqalə Azərbaycanın Avropanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiyası şəraitində ali məktəb müəlliminin yeni rol və funksiyalarının öyrənilməsinə, ölkəmizdə təhsil sahəsində aparılan islahatlara həsr edilmişdir. Ali təhsil müəssisələrinin qarşısında duran ən mühüm vəzifələr sırasında gələcək mütəxəssislərin hərtərəfli hazırlanmasının keyfiyyətinin yüksəldilməsi, tələbəyönümlülük prinsipinin tətbiqi, səriştələrin formalaşdırılması, davamlı özünütəhsil ehtiyacının, innovasiyaların aparılmasını xüsusilə qeyd etmək lazımdır. Bu vəzifələrin yerinə yetirilməsi müəllimin əsas funksiyalarının nəzərdən keçirilməsinə təsir göstərir. Ali məktəb müəllimi təkcə tələbələrə bilik ötürməməli, eyni zamanda, onların köməkçisi, məsləhətçisi, motivatoru, əlaqələndiricisi, təşkilatçısı, psixoloqu olmalıdır.

Tarixin tədrisi metodikası, eyni zamanda pedaqogika elminə "məşqçi", "fasilitator", "tərbiyəçi", "mentor", "məsləhətçi" və s. kimi yeni anlayışlar daxil olubdur. Təqdim olunan məqalədə vurğulanır ki, bu anlayışların hamısında fərdi və ya bir qrup tələbə ilə qarşılıqlı əlaqənin müxtəlif aspektlərinə diqqət yetirilir. Məqalədə bu anlayışlar ayrı-ayrılıqda təhlil edilmişdir. Göstərilmişdir ki, təcrübəçi kimi məsləhətçi də peşəkar təkmilləşmə yolunu müəyyən etməyə kömək edir. Mentor istedadlı tələbələrlə fərdi işləyir, məşqçi fərdin daxili potensialını üzə çıxarmaq üçün aktiv qarşılıqlı əlaqədən istifadə edir, fasilitator qəbul edilən qərarların keyfiyyətini tədricən artırmaq üçün qrup tərəfindən bacarıqların sistematik praktikasını təşkil edir. Həmçinin, repetitor təhsil, peşə və sosial mühitin vəhdətini təmin edir, kurator tələbələri həyatın müxtəlif sahələrinə cəlb edir, moderator nizam-intizamı idarə edir və münaqişələrin qarşısını alır. Odur ki, ali məktəb müəllimindən tələbələrin fərdi ifadəsinə, şəxsiyyətinin inkişafına, əldə olunan təlim nəticələrinə görə məsuliyyətin artmasına, özünütəhsil ehtiyacının formalaşmasına töhfə verəcək mühitin yaradılması gözlənilir.

Məqalədə eyni zamanda, vurğulanır ki, bunun üçün ali məktəb müəllimi daim öz bilik və bacarığını təkmilləşdirməli, elmi tədqiqatlar aparmalı və onun nəticələrini tədris prosesinə daxil etməli, peşə-pedaqoji mədəniyyətinin səviyyəsini yüksəltməli, yaradıcı, çevik, təhsilə açıq, yeniliklərə, dəyişikliklərə hazır olmalıdır.

Açar sözlər:*Ali məktəb müəllimi; Repetitor; Fasilitator; Mentor; Universitet müəlliminin peşəkar və pedaqoji mədəniyyəti*

Problemin qoyuluşu: Dövrün, cəmiyyətin peşəkarlara, fəal vətəndaşlara olan tələbatını, eləcə də ölkəmizin Avropanın qabaqcıl, inkişaf etmiş ölkələrinə inteqrasiya kursunu nəzərə alaraq Azərbaycanda təhsil sahəsində islahatların aparılması özünün aktiv inkişaf mərhələsindədir. Müasir olmaq, uşaqları yetkinliyə hazırlamaq, bilik vermək və faydalı bacarıqlar kompleksini təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdəndir [Mehrabov, Abbasov, 2009: 5]. Bu məqsədə nail olmaq üçün müxtəlif təhsil müəssisələrində müəllimlərin rollarına yeni, innovativ yenişiklər şəraitində yenidən baxılmalıdır.

Problemin öyrənilməsi səviyyəsi: Müasir şəraitdə müəllimin funksiya və rollarının dəyişdirilməsi probleminə bir çox elmi əsərlər həsr edilmişdir.Müstəqilliyin əldə edilməsindən sonra ölkəmizdə təhsil sahəsində aparılan köklü islahatlar bir tərəfdən pedaqoji innovasiyalara yol açmışsa, digər tərəfdən də Avropanın qabaqcıl ölkələrinin təhsil standartlarına uyğun yeniliklərin aparılmasını, innovasiyaların tətbiq edilməsini zəruri etmişdir [İlyasov, 2018: 14]. Azərbaycanda təhsil sistemində əsaslı islahatlar aparılır, ali məktəb müəllimlərinə olan tələblərə yenidən baxılır. Bir sıra tədqiqatçılar, o cümlədən, Myasoed Q.İ. xarici təcrübəni [Myasoed, 2015: 107-113], Volkova N.P. və

S.M.Romanovaali təhsil müəlliminin (məsələn, müəllimin fasilitator, məşqçi kimi) rolunun dərk edilməsində müəyyən yenilikləri[Volkova, 2018: 228-234; Romanova, 2010:83-97], N.M.Mironçik isə müasir şəraitdə ali məktəb müəlliminə olan tələbləri [Mironçik, 2018: 146-172] öyrənirlər.

Təqdim olunan bu aktual mövzunun tədqiqi davam etdirilə bilər, çünki cəmiyyətin indiki inkişafı mərhələsində müəllimin fəaliyyəti dəyişir, çoxşaxəli və kifayət qədər intensiv xarakter daşıyır və tədris prosesinə yeniliklərin tətbiqi çox vaxt bir sıra çətinliklərlə üzləşir.

Metod:Nəzəri təhlil, elmi-pedaqoji, nəzəri-metodiki ədəbiyyatlar öyrənilmiş, təhlil edilmiş və mövzunun işlənməsi üçün müvafiq nəticələr çıxarılmışdır.

Elmi yenilik: Ali təhsil sistemində baş verən dəyişikliklər müəllimlərdən tez uyğunlaşmağı, yeni funksiya və rollar götürməyi, daim özünü təkmilləşdirməyi, peşəkar və pedaqoji mədəniyyətini yüksəltməyi tələb edir.

Ali məktəb müəlliminin fəaliyyəti mürəkkəbdir. Ona görə də müasir təhsil məkanının xüsusiyyətlərini tələbələrin təhsil prosesinin birbaşa iştirakçıları və rəhbərləri mövqeyindən nəzərdən keçirmək lazımdır. Bu problem aktualdır.

Məqalənin obyektini ali təhsilin müasirləşdirilməsi və islahatının müasir şəraitində müəllimlərin pedaqoji fəaliyyəti təşkil edir.

Məqalənin predmeti ali məktəb müəllimlərinin cari funksiyaları və rollarıdır.

Məqalənin məqsədi. İşin məqsədi dövlətin və cəmiyyətin hazırkı inkişaf mərhələsində Azərbaycanın ali təhsil müəssisəsi müəlliminin yeni sosial rollarını araşdırmaq, elmi və pedaqoji nailiyyətlərə nail olmağa kömək edəcək bir sıra yeni bacarıq və vərdişləri təhlil etməkdir.

Giriş: XX əsrin sonlarında müstəqilliyimizin yenidən əldə edilməsindən sonra, xüsusilə, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə edilən uğurlar təbii ki, təhsil sahəsindən də yan keçməmişdir. Təhsil sahəsində həyata keçirilən vacib və zəruri tədbirlər, keçirilən islahatlar, imzalanan sərəncam və fərmanlar azərbaycan təhsilinin keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Təbii ki, təhsil sahəsi çoxpilləli və çoxşaxəlidir, bu baxımdan bu sahədə də problemlər mövcuddur [Xudiyev, 2012].

Müəllim-moderator sinifdə, kursda nizam-intizama nəzarət edir, komandada baş verən bütün hadisələri bilir, tələbələrin psixoloji imkanlarını öyrənir, çətin vəziyyətlərdən çıxış yolu tapır. Onun fəaliyyətinin nəticəsi münaqişələrin, mübahisələrin olmaması, rahat etimad mühitidir [Гвоздий, Устянская, 2019: 148-149]. Bu halda müəllimə psixologiya, konfliktologiya üzrə biliklər və müvafiq bacarıqlar toplusu lazımdır. Müəllim moderatorun əsas peşə funksiyalarından biri müəllimlərin müstəqil qrup fəaliyyətlərini təşkil etmək, həmçinin. məlumatların müəllimlər tərəfindən mənimsənilməsinə köməklik göstərməkdir [Nəcəfov, İsgəndərova, 2021].

Ali məktəb müəlliminin funksiyalarından biri də bələdçi(fasilitator) funksiyasıdır. Fəal-interaktiv təlim prosesi zamanı müəllim bilikləri ötürən rolundan imtina edərək üzərinə yeni, bələdçi (fasilitator) rolunu götürür. Fasilitasiya sözünün hərfi mənası "işi və ya prosesi asanlaşdırmaq"dır. Fasilitatorlar interaktiv tədbirlərdə nəticələr əldə etmək məqsədilə burada iştirak edənlərin maksimum surətdə aktivliklərinə nail olmaq üçün bir sıra metodlardan istifadə edərək prosesi asanlaşdırırlar [Taunsend, Donovan, 2009:6].

Tarixin tədrisi prosesində yeni pedaqoji texnologiyalardan getdikcə daha çox istifadə olunur. Təlimçi (məşqçi) kimi müəllim xüsusi bacarıqların əldə edilməsi, iştirakçıların fəallığı, müsbət atmosfer və əks əlaqə üçün intensiv qrup qarşılıqlı fəaliyyətini təmin edir [Керик, 2015: 136-140]. O, şəxsiyyətin daxili potensialını üzə çıxarır, məsuliyyəti həvalə etməklə onu inkişaf etdirir, innovativ metodlara yiyələnir, tələbələrin mühüm məqsədləri və onlara doğru irəliləyiş tempini tapmasına şərait yaradır [Романова, 2010:84].

Mentor (ingilis dilində müəllimə) terminində pedaqoji elmdə və təcrübədə də rast gəlinir [Бойченко, 2014: 4-5]. Tədqiqatçılar mentorun funksiyaları arasında, xüsusən də intellektual stimullaşdırma, emosional dəstək və qorunma, idrak inamının əldə edilməsini qeyd edirlər. Akademik mentorluq müəyyən bir sahədəki potensialını üzə çıxarmaq üçün müəyyən bir tələbənin ümumi maraqlarını bölüşən müəllim tərəfindən himayə edilməsini nəzərdə tutur. Peşəkar mentorluq tələbəyə

müəyyən bir peşəyə yiyələnməkdə təcrübə qazanmağa, özünü biznesdə sınamağa imkan verir və peşəkar fəaliyyətdə köməklik göstərir. Buna görə də, ali təhsil müəssisəsində mentor rolunu müəllimlər, işəgötürənlər, yuxarı kurs tələbələri yerinə yetirə bilər [Бойченко, 2014: 6].

Ali məktəb müəlliminin yuxarıda sadalanan keyfiyyətləri, bilik və bacarıqları bizim "peşəkar-pedaqoji mədəniyyət" anlayışına daxildir ki, bu anlayışı ustalıq, öyrənmə, təhsil və şəxsiyyətin inkişafı, müəllim sənəti, müəllim sənəti elminə yiyələnməyin xüsusi təzahürü kimi başa düşürük. Bu, spesifiklik, muxtariyyət və çoxfunksionallıq ilə xarakterizə olunan xüsusi fəaliyyətdir.

Müəllimlərə olan tələblərin dəyişdirilməsi probleminin aktuallığını ölkəmizin ali təhsil sistemində aparılan islahatlar, ölkəmizin Avropanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiya kursu müəyyən edir.

Nəticə. Ali təhsil sistemində aparılan islahatlar, təhsil xidmətlərinin keyfiyyəti, akademik dürüstlük məsələlərinə diqqətin artırılması, Azərbaycanın Avropanın qabaqcıl ölkələrinin təhsil məkanına daxil olması müəllimlərin yeni rol və funksiyaları ətrafında müzakirələrə səbəb olub. Aydındır ki, hazır biliyin sadə şəkildə ötürülməsi heç kimə nə maraqlı, nə də lazım deyil. Tələbə təhsil prosesinin subyekti, onun təkmilləşdirilməsi prosedurlarının iştirakçısı kimi çıxış etməlidir. Avropanın qabaqcıl ölkələrinin təhsil məkanına daxil olmaqla, ali təhsilin keyfiyyətini yüksəltmək, tələbələrdə kompetensiyalar kompleksini formalaşdırmaq, biliyə daimi ehtiyac, özünütəhsil, özünü təkmilləşdirmək, yeniliklər tətbiq etmək, mobilliyi təmin etmək lazımdır. Bu, müəllimlərin yeni funksiyalarının görünüşünə təsir göstərir. Hazırda ali təhsil müəllimləri nəzəriyyəçi, praktikant, məruzəçi, təşkilatçı, ekspert, tədqiqatçı, metodist, psixoloq və menecer kimi fəaliyyət göstərirlər.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Ağayev İ. Tyutor tələbələrin akademik maraqlarını qoruyur. "Palitra" qəzeti, 5 aprel, 2011, s. 7. https:www.anl.az
2. Xudiyev N. Azərbaycanın müasir təhsil sistemi: problemlər, düşüncələr, mülahizələr. Yeni Azərbaycan, 2012. https://www.yeniazerbaycan.com
3. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri. Monoqrafiya. Elm və Təhsil, Bakı: 2018, 208 səh.
4. Mehrabov A., Abbasov Ə. Nailiyyətlərimiz, qarşıda duran vəzifələr. "Azərbaycan müəllimi" qəzeti, 2009, 4 sentyabr, s. 5
5. Nəcəfov E., İsgəndərova A. Metodistin müasir təhsildəki obrazı. "Azərbaycan müəllimi" qəzeti, 10 sentyabr, 2021. https;//www.muallim.edu.az
6. Taunsend Con, Donovan Pol. Fasilitatorlar. 2-ci nəşr, 2009, 125 s.

Rus dilində:

7. Мясоед Г.И. Современные требования к преподавателю высшей школы: обзор тенденций мировой педагогической практики. Педагогические науки Теория, история, инновационные технологии. 2015. №3(47). С. 107-113.
8. Волкова Н.П., Степанова А.А. Фасилитатор как важная позиция современного преподавателя вуза. Вестник Университета имени Альфреда Нобеля. Серия «Педагогика и психология». 2018. № 1(15). С. 228-234.
9. Романова С.М. Коучинг как новая технология в профессиональном образовании. Вестник Национального авиационного университета. Серия "Педагогика, психология". 2010. № 3. С. 83-97.
10. Мирончук Н.М. Профессиональная деятельность преподавателя высшей школы: общественные вызовы и проблемы содержания подготовки. Профессиональное образование: андрагогический подход: монография / под ред. О.А. Дубосенюк. Житомир: А.А. Евенок, 2018. С. 146-172. URL: http://eprints.zu.edu.ua/27786/1/Мирончук%20Н.М.pdf.

11. Стрига Э.В. Роли преподавателя вуза. Наука и образование. 2013. № 5. С. 48-50. URL: http://nbuv.gov.ua/UJRN/NiO. 2013, 5, 15.
12. Гвоздий С., Устянская О. Профессиональные роли преподавателя высшей школы в подготовке будущих специалистов. Просветительский дискурс. 2019. № 1-2(24-25). С. 141-160.
13. Керик О. Использование тренинговых технологий в профессиональной подготовке специалистов социальной сферы. Молодежь и рынок. 2015. № 2(121). С. 136-140.
14. Бойченко М.А. Менторство как форма поддержки одаренных и талантливых стран ЕС и США. Педагогические науки Теория, история, инновационные технологии. 2014. № 7(41). С. 3-9.
15. Оленец С.Ю. Технологии эффективного усвоения информации при обучении в высшем учебном заведении. Актуальные проблемы современной медицины. 2016. Т. 16. Вып. 2. С. 275–2

SUMMARY

Turkana Gocayeva

NEW ROLES AND FUNCTIONSOFA HIGH SCHOOL TEACHER IN MODERN CONDITIONS

The article is dedicated to the study of the new roles and functions of the higher school teacher in the context of the integration of Azerbaijan into the educational system of advanced European countries, and the reforms carried out in the field of education in our country. Among the most important tasks facing higher education institutions, it is necessary to highlight the improvement of the quality of the comprehensive training of future specialists, the application of the student-oriented principle, the formation of competencies, the need for continuous self-education, and the implementation of innovations. The performance of this function affects the support of the main functions of the teacher. A high school teacher should not only impart knowledge to students, but also be their assistant, advisor, motivator, coordinator, organizer, and psychologist.

History teaching methodology, at the same time, “coach”, “facilitator”, “educator”, “mentor”, “consultant” etc. new concepts like. The presented article emphasizes that all these concepts focus on different aspects of interaction with an individual or a group of students. These concepts are analyzed separately in the article. It has been shown that the counselor, like the practitioner, helps determine the path of professional development. A mentor works individually with gifted students, a coach uses active interaction to reveal an individual's inner potential, a facilitator organizes systematic practice of skills by a group to gradually improve the quality of decisions made. Also, the tutor ensures the unity of educational, professional and social environment, the curator involves students in different areas of life, the moderator manages discipline and prevents conflicts. Therefore, higher school teachers are expected to create an environment that will contribute to the individual expression of students, the development of their personality, the increase of responsibility for the obtained learning results, and the formation of the need for self-education.

At the same time, in the article, it is emphasized that for this, the teacher of the higher school should constantly improve his knowledge and skills, conduct scientific research and include its results in the teaching process, raise the level of professional and pedagogical culture, be creative, flexible, open to education, ready for innovations and changes.

Key words: *High school teacher; Tutor; Facilitator; Mentor; Professional and pedagogical culture of auniversity teacher*

NIGAR MEHDIZADE
nigarmehdizade4@gmail.com
Nakhcivan State University
ORCID ID: 0009-0008-5116-3666

ADVANTAGES OF TEACHER-CENTRED LANGUAGE LEARNING TEACHER-CENTRED LANGUAGE LEARNING IN AZERBAIJAN

This lecture is mainly about teacher-centred language learning. We discussed here advantages of teacher-centred language learning. How we teach foreign language in Azerbaijan institution stages. The main role of teacher in foreign language learning is crucial and how teacher can help and motivate students during the learning process. Teacher can help to improve four skill(reading, writing, speaking, listening) in students and its effect for their feature life.

Key words: *teacher-centred, student-centred, language learning in Azerbaijan, teachers role, skills, challenges, classroom management.*

INTRODUCTION

The Advantages of Teacher-Centered Education. In Azerbaijan, teacher-centered education has always been one of the topics that create superiority and debate, whether it is considered advantageous or not. The superiority and controversies of teacher-centered education are still considered a debated issue. According to some, this method, which is still in use, is not considered effective, while others still consider the teacher as the main source of knowledge and information. However, the approach in our country is different. Teachers are still at the core of education. Lessons are conducted directly under the supervision of the teacher. The management of the classroom, the development of lesson plans, and the organization of lessons are all under the control of the teacher.

LITERATURE ANALYSIS AND METHODS

Also, the age factor has great importance during the teaching process. Teacher should know how to organize lessons according to students' age [2,p21-23]. To teach foreign language to teenagers and primary school children's is quite different. Teachers can face some challenges when teaching adults and teenagers. Some suggestions can help them to overcome these difficulties.

1. Be guided by the learners
2. Observe
3. Open tutorials and more formal tutorials
4. Give them a voice
5. Regular feedback sessions
6. Active learning process
7. Problem solving or real-life tasks
8. Build on prior knowledge
9. Celebrate achievements
10. Consider that adults may have been working all day- engagement to help motivation is key

Teacher must be guide and mentor during the learning process. It will help students to improve their learning strategies. Regular feedback session also very effective technology during the foreign learning process. Teacher must give regular feedback or at the end of every teaching process.

Teachers' can use some effective techniques and games. It will make lessons more interesting and enjoyable for learners. The games like auction, bingo, charades, pictionary, matching games, name that item, taboo words, letter scramble, what am I thinking of and other interesting games can help students to learn foreign language and increase their vocabulary.

The role of the teacher in teaching a foreign language is undeniable. Sometimes students try to learn a foreign language independently. However, they may encounter many difficulties during this time. Due to their lack of knowledge, they may make mistakes. Therefore, the teacher is considered the main guide for students. The selection of the correct teaching strategy and the establishment of a teaching model suitable for the student's level are within the teacher's discretion. Taking into account the student's level, age, and ability to learn a foreign language, the teacher can prepare an individualized teaching plan for the student. Thanks to this plan, the student's interest in the lesson will increase, and they will be able to learn the foreign language comfortably. Some believe that students should be encouraged to learn a foreign language independently. However, this idea may be partly correct. Independent learning of a foreign language is difficult for young students. Such children can learn under the mentorship of either the teacher or their parents. Students may struggle to find suitable materials and organize their learning process, thus necessitating the role of the teacher as a mentor during these initial stage [1, p.1]

Learning a foreign language without any assistance is a problem for young children. In addition, for children aged 9-13, the supervision of the teacher is also important. The teacher directly monitors the students' correct pronunciation rules and ensures their adherence to these rules. The correct learning of new words and word combinations by the child, or the acquisition of grammatical rules, can be achieved directly through the teacher's supervision and mentorship. The teacher is also a key helper in helping students build proper sentence structures. As we know, the grammatical structure of the English language is completely different from that of the Azerbaijani language, which creates difficulties for students starting to learn a new foreign language. At this time, the student can seek help from the teacher. The teacher should clearly explain grammatical rules and sentence structures to the student so that they can easily understand them.

It should be noted that paying attention to primary communication is essential when learning a foreign language. Developing students' ability for free communication in a foreign language should be considered a priority issue. The student should also understand that if they want to speak fluent English, they should always engage in communication. The best source of communication here is the teacher. The teacher can not only help develop fluent speaking skills in a foreign language but also create conditions for correcting students' mistakes and providing them with new ideas.

RESULTS AND DISCUSSIONS

Sometimes, allowing students to learn the foreign language freely in their own environments by creating conditions for them can lead to chaos in the classroom. Allowing students freedom is necessary, but it should also be implemented within certain boundaries. The teacher should also consider the learning ability of students when teaching a foreign language. Some students grasp concepts quickly, while others may struggle to understand the lesson. Therefore, the teacher should adjust the teaching plan according to the students. In conclusion we must accept that teacher centred language learning still actual in our country. All stages of learning process depend on teacher-oriented language learning. We must know that teacher is a source of correct and relevant information. Without teacher’s help and mentorship it will be difficult for students to learn foreign language properly and effectively.

REFERENCES

1. Mehdizade N. Specific Features of teacher-centred language teaching, International Scientific Symposium “From Social Analysis to Science Fiction: Intercultural Studies and Global Interaction”. Ankara, The 25th of February 2024. 367p
2. Tabulawa R (2006). International aid agencies, learner-centered pedagogy and political democratization: A critique. Comparat. Educ. 39(11): 7-26.

ÖZLƏM BAYRAMOVA
bayramovaozlem013@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-8909-6893

OSMAN SARIVƏLLİ YARADICILIĞI VƏ XALQ ƏDƏBİYYATI

Məqalədə Azərbaycanın görkəmli söz ustadlarından O.Sarıvəllinin yaradıcıllığa başladığı vaxtdan etibarən Azərbaycan ədəbiyyatına öz dəyərli töhfələrini verməsindən danışılır.Şairin "Əsirgəməzdim", "Məhəbbət", "O mənim hər zaman ürəyimdədir" şeirlərində xalqa məhəbbəti,doğma yurda böyük sevgisi öz əksini tapmışdır. "Gətir oğlum, gətir" şeirində O.Sarıvəlli həm doğma vətənini tərənnüm edir, həm də onu gənc nəslə sevdirir, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur. Elə təkcə bu şeiri ilə onun ana vətənə olan böyük məhəbbətini görə bilirik. Təbii ki, vətənə böyük sevgisi olan şair xalqın ədəbiyyatını da yaxşı bilir və bunu əsərlərində əks etdirirdi. O.Sarıvəllinin "Aşıq dostuma", "Başına döndüyüm", "O kimdir başımda çalır çağırır", "Əmrahın sözü" adlı şeirlərində aşıq ədəbiyyatının təsiri açıq şəkildə özünü göstərir. Bundan başqa, "Dərdin alım", "Qara geyinmə", "Gözünün yaşına qurban" şeirləri də xalq deyimləri, xalq adət – ənənələrinin əks etdirilməsi baxımından zəngindir. "Mən belə dedim", "Nə bilsin", "Gəlmədi", "Dedim", "Dağlar" şeirlərində aşıq ədəbiyyatından həm forma, həm də məzmun baxımından istifadə aydın şəkildə özünü göstərir (2, s. 104).

O.Sarıvəlli "Qocalıqdır", "Qocalanda bilərsən", "Qocalığın qazancı" şeirlərində isə aşıq ədəbiyyatında geniş istifadə olunan qocalıq mövzusu tərənnüm olunmuşdur. Bütün yaradıcılığında mübaliğəsiz desək xalq ədəbiyyatının təsiri olmayan, xalq adət-ənənəsinin əksini tapmayan bir şeirini də tapmaq olmaz (2, 106; 107; 109).

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, xalq yaradıcılığı, folklor, Osman Sarıvəlli, mövzu, aşıq ədəbiyyatı, yaradıcılıq, xalq ədəbiyyatı və s.*

Müasir Azərbaycan ədəbiyyatının dahi söz ustadlarından, görkəmli şairlərindən biri də Osman Sarıvəllidir. Axıcı, şirin üslubu, gözəl ifadə tərzi, məharətli poetikası ilə Azərbaycan xalqı tərəfindən daim sevilən və oxunan O.Sarıvəlli ölməz sənət əsərləri yaratmışdır. Şair hər bir şeirində fərqli bir mövzuya toxunmuş, yeni bir forma üzərində işləmişdir. Həm heca vəznində, həm də sərbəst vəzndə öz şair qələmini sınamış və hər sınaqdan da uğurla çıxmışdır. Yalnız bir vəzn çərçivəsində qalmayan O.Sarıvəllinin şeirlərində mövzu rəngarəngliyi də parlaq şəkildə diqqətə çarpır.

Təbii ki, O.Sarıvəlli yaradıcılığı heçdən yaranmamışdır. Güclü istedadla yanaşı onun da bəhrələndiyi qaynaqlar olmuşdur. Onun da oxuduğu, mütaliə etdiyi və təsirləndiyi sələfləri,mənbələr vardır. Bəs bu mənbələri necə müəyyənləşdirmək olar? O.Sarıvəlli yaradıcılığı ilə bağlı namizədlik dissertasiyası yazan prof. M.Cəfərov şairin istifadə etdiyi qaynaqları belə qruplaşdırır:

1. Klassik Azərbaycan ədəbiyyatı.
2. Rus və Qərbi Avropa ədəbiyyatı.
3. Şifahi xalq ədəbiyyatı [3, s. 186].

Şairin klassik Azərbaycan ədəbiyyatından təsirlənməsinin ilk müjdəsini də özü belə verir: "Vaqif mənim ilk ədəbi məktəbim olmuşdur. Yadımdadır, ərəb əlifbasını yenicə öyrənmişdim. Kəndimizdə Molla Süleyman adlı öz dövrünə görə açıq görüşlü, ağıllı bir şəxs vardı. Molla olsa da, Süleyman kişi dünyəvi elmlərlə çox maraqlanırdı. Füzulini, Vidadini, Vaqifi mütaliə edirdi. Bir dəfə onun əlində Vaqifin şeirlər kitabını gördüm. Bir günlüyə xahiş elədim. Süleyman kişi kitabı mənə verdi. Dağlarda qoyun – quzu otara – otara demək olar ki, şeirlərin əksəriyyətini əzbərlədim. Həmin vaxtdan Vaqif şeirləri məni məftun etdi. Sinəmdə o zamana qədər tanış olmayan nəcib hisslərin oyanmasına təkan verdi. Özüm də yavaş – yavaş bu şeirlərə oxşar qoşmalar yazmağa başladım" [6, s. 20].

O.Sarıvəlliyə, onun qəlbinə, arzularına daha yaxın olan mövzulardan biri və bəlkə də başlıcası kənd mövzusu idi. Şair yaradıcılığının ilk illərindən başlayaraq, demək olar ki, ömrünün sonuna qədər daim bu mövzuya müraciət etmiş və bu səpkidə maraqlı və uğurlu əsərlər yaratmışdır. Bəlkə də onun uşaqlığını, gəncliyini yada saldığı, xatirələrini varaqladığı üçün tez-tez həmin mövzuya qayıdırdı. Özü kənddən ayrılsa da qəlbini, ruhunu orada qoyduğu üçün idi ki, xəyalı yenə oralara qayıdırdı, o yamaclarda, çəmənliklərdə dolaşır, qələmindən də kənd lövhələri uğurlu misralarla, öz təbiiliyi ilə süzülüb gəlirdi.

Hər bir şair, yazıçı kimi o, da doğulduğu torpaqlara bağlı idi, dilindən doğma yurdun tərənnümü düşmürdü. Axı o, burada doğulub böyümüşdü. Burada ilk dəfə sevinmiş, gülmüş, kədərlənmiş, ağlamış, burada boya – başa çatmışdı. Elə buna görədir ki, onun kənd mövzulu şeirlərində həm də O.Sarıvəllinin avtobioqrafiyasının izləri var. Şair həm kənd, təbiət mənzərələri vermiş, həm də kənd insanlarının həyatını qələmə alarkən öz uşaqlığını da yazıya köçürmüşdür. Kənd insanının mənəviyyatını əks etdirərkən öz mənəviyyatını da oxucuya tanıtmışdır. O, insanların düşüncəsini, sevincini, kədərini, şadlığını,qəmini şeirlərində ifadə edərkən, həm də öz daxili aləmini misralarda gizləmişdir. Haqlı olaraq tədqiqatçı I.Mustafayev yazır: "...Osman Sarıvəlliyə "uşaqlıq və ilk gənclik illərini danış", - deyə müraciət etməyə ehtiyac yoxdur. Bunun üçün şairin "Bənövşə", "Çobanın məktubları", "Qara yurdun tarixi", "Tut ağacı" kimi onlarca şeirində bolluca avtobioqrafik material vardır" [2, s.121].

Dumanlı səhərlər, çənli axşamlar,
Keçəli çadırlar, yeraltı damlar.
Olduqca məskənim, olduqca yuvam,
Yamaqlı şalvarım, yamaqlı çuxam.
Vüqarlı başımı saldı aşağı,
Çıxdı gözlərimə qəlbimin dağı...[2, s.122].

Nümunələrdən də göründüyü kimi, O.Sarıvəlli yaradıcılığında bənövşə bir dost, sirdaş, həmdəm kimi verilmiş, simvollaşdırılmışdır. Şairin həsrət və intizarının bədii ifadəçisi olan rəmz kimi verilmişdir. Bəzən bənövşəyə qəlbini açan şair, bəzən də ondan ayrı düşdüyü üçün kədərini, qəmini gizləmir. Bənövşəyə həsrət onun doğma yurd – yuvasına olan həsrəti, uşaqlıq çağı, gənclik illərinə qayıtmaq arzusunu ifadə edir. Deməli bənövşə şairə bir ədəbi rəmz kimi yox, tanış keçmişi ilə bağlı bir detal kimi əziz idi. Onun uşaqlığı aya o, yalın, başıaçıq gəzdiyi vaxtlarla bağlı idi. Bir sözlə, burada da onun ömür yolunun izlərini görə bilərik.

O.Sarıvəlli bu şeirlərində kəndə, təbiətin qoynuna olan həsrətini ifadə edir. Gəzdiyi oylaqları artıq şəhərdə yaşayan şair bir daha gəzmək istəyir, gördüyü meşələri yenidən görmək, suyundan içdiyi bulaqlardan təkrar içmək istəyir. Zamanla bu, şairin həm də cavanlıq, gənclik həsrətinə çevrilir. Şair dəli – dolu gəncliyinə olan həsrətini də həmin şeirlərində gizləmir:

Baxıb qarlı dağlara ötürürəm köksümü,
Nə olaydı, deyirəm, qayıdaydı gəncliyim.
Görünəydi bircə yol keçmiş hər ayım, ilim,
Çıxıb dərin dərədən dağlar aşa biləydim.[2, s.185].

Hər şeirində o yerləri yenidən xatırlayan, yenidən xəyalında canlandıran O.Sarıvəlli hər bir əsərində daha bir kənd, təbiət lövhəsi yaradır. Qəlbindəki bu böyük sevgi ona doğma yurdun tərənnümü üçün yeni ilham verirdi. Həmin gözəllik, həmin təbiilik idi onun xəyalını qanadlandıran, romantikasını coşduran, bu hiss idi onu əlinə qələm almağa təhrik edən, məhz bu arzu, bu dilək sayəsində qələmindən hər dəfə yeni kənd mövzulu, kənd həsrətli, kənd arzulu gözəl misralar çıxır, oxucu tərəfindən sevilən əsərlər yazılırdı.

Ümumiyyətlə, O.Sarıvəlli şeirlərində oxucunu maraqlandıran bütün mövzular öz əksini tapmış və bu mövzular yüksək sənətkarlıqla qələmə alınmışdır.

ƏDƏBİYYAT

1. B.Vahabzadə. O.Sarıvəllinin seçilmiş əsərlərinə müqəddimə. Bakı:Şərq-Qərb, 2004.
2. O.Sarıvəlli, Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2004.
3. M.Cəfərov. O.Sarıvəlli yaradıcıllığı. Bakı: 1986.
4. P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981.
5. Pöhrələr. Bakı qəzeti, 3 sentyabr 1970.
6. Vaqif Yusifli. Osman Sarıvəlli dünyası. Xalq şairinin 110 illiyinə. 525-ci qəzet.- 2016.- 14 yanvar.- s.6.
7. Sarıvəlli O. Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir. Bakı: Avropa, 2010, 112 s.
8. Sarıvəlli O. Qüdrətli şair, ustad sənətkar. Bakı: Avropa, 2011, 128 s.

SUMMARY

Ozlam Bayramova

CREATIVITY AND FOLK LITERATURE OF OSMAN SARIVALLI

In the article, O. Sarivalli, one of Azerbaijan's prominent wordsmiths, talks about his valuable contributions to Azerbaijani literature from the time he started his work. The poet's poems “Asirgamazdim”, “Love”, “He is always in my heart” reflect his love for the people and his great love for his native land. . In the poem “Bring my son, bring”, O. Sarivalli glorifies his native land, and makes the young generation love it, and engages in the education of the young generation. With this poem alone, we can see his great love for his motherland. Of course, the poet, who has great love for his homeland, knows the people's literature well and reflected this in his works. The influence of love literature is evident in O.Sarivalli's poems “To my friend in love”, “I turned to my head”, “Who is he calling in my head”, “Amrah's word”. In addition, the poems “Dardin alım”, “Dressing in black”, “Sacrifice to the age of your eyes” are also rich in terms of reflecting folk sayings and folk traditions. In the poems “I said so”, “Ne bilsin”, “He did not come”, “I said”, “Mountains” the reference to the love literature is clearly evident both in terms of form and content.

In O. Sarivalli's poems “Old age”, “You can grow old”, “The profit of old age”, the topic of old age, which is widely used in Ashiq literature, is glorified. To say without exaggeration, one cannot find a single poem in his entire creative work that is not influenced by folk literature and does not reflect folk traditions.

Key words: *Azerbaijani literature, folk creativity, folklore, Osman Sarivalli, theme, Ashiq literature, creativity, folk literature, etc.*

SƏKİNƏ SƏFƏRZADƏ
sfrzdesekine@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-6821-1543

AZƏRBAYCAN DİLİNDƏ SİNTAKTİK ƏLAQƏLƏR

Məqalədə sintaktik əlaqələrin – uzlaşma əlaqəsinin şəxsə və kəmiyyətə görə olduğu, yəni tabe edən tərəf hansı şəxsə aiddirsə, tabe tərəfi də həmin şəxsə məxsus qrammatik əlamətlər qəbul etdiyi izah edilir. Eyni zamanda tabe edən tərəfin tək və cəmliyi də tabe tərəfdə əks olunur.

Bu mövzu ilə bağlı bəhs etdiyim kitablardan biri də Ə.Abdullayevin "Müasir Azərbaycan dilində sintaktik əlaqələr" adlı tədris-metodiki vəsaitidir. Müəllif burada uzlaşma əlaqəsi haqqında məlumat verir və mübtəda ilə xəbərin uzlaşması, əlavənin uzlaşması, söz birləşmələrində uzlaşma haqqında yazır.

Bütün qeyd etdiyimiz bu halları prof. Y.Seyidov "Azərbaycan dilində söz birləşmələri" adlı kitabında Azərbaycan dilinin və ümumiyyətlə, türk dillərinin spesifik xüsusiyyəti hesab edir.

Sintaksisin tədqiqində və tədrisində öyrənilməsi vacib məsələlərdən biri də söz birləşmələrinin arasında olan əlaqələrin müəyyənləşdirilməsidir. Bu sahədə ciddi tədqiqat işləri aparılmış və belə bir nəticəyə gəlinmişdir ki, söz birləşmələri arasında özünü göstərən tabelilik və tabesizlik əlaqələri həm söz birləşmələrinin, həm də cümlələrin formalaşmasında mühüm rola malikdir.

Açar sözlər: *sintaksis, söz birləşmələri, uzlaşma əlaqəsi, Azərbaycan dili, Müasir Azərbaycan dili, qrammatika, qrammatik əlaqələr və s.*

Hər bir dil sistemində, eləcə də türk dillərində qrammatik əlaqələrin konkret formalarını, ifadə üsullarını müəyyənləşdirmək sahəsində fikir müxtəlifliyi olsa da, ümumən əlaqələr haqqında fikir ayrılığı yoxdur. Deməli, hər hansı bir dildə nə olsa da və müxtəlif adlarla qeyd edilsə də, onlar iki əlaqə növü (tabesizlik və tabelilik) dairəsindən kənara çıxa bilmir və onların növləri kimi meydana çıxır. Bütün bunlar göstərir ki, hər iki əlaqə növü ümumi əlaqələr kimi özünü göstərir, digərləri isə bu əlaqələrin növləri kimi meydana çıxır. Yəni qrammatik əlaqələr hansı formada necə özünü göstərir-göstərsin, onların bir qismi tabesizlik, bir qismi isə tabelilik əlaqəsində olacaqdır. Bu bölgüdən kənara çıxma halı ola bilməz.

Sintaktik əlaqələr hər bir dildə tam spesifik xüsusiyyətləri ilə meydana çıxır. Bu baxımdan da tədqiqata daxil edilən dillər müxtəlif olar, sintaktik əlaqələrin də əhatə dairəsi, eyni zamanda işlənmə arealı arasında müəyyən fərqlənmələr də ola bilir. Eyni mənalı sözlərdən təşkil olunan təyini söz birləşməsində təyinlə təyin olunanın əlaqəsi rus dilində uzlaşma ilədirsə, Azərbaycan dilində yanaşma ilədir.Eyni zamanda rus dilində uzlaşma əlaqəsi şəxsə, kəmiyyətə, cinsə və hala görə müəyyənləşirsə, Azərbaycan dilində bu əlaqə ancaq şəxs və kəmiyyətə görə olur.

Azərbaycan dilçiliyində bu məsələ xüsusi problem kimi 1950-ci illərdən sonra diqqəti cəlb etməyə başlamışdır. Həmin il Ə.Dəmirçizadə tərəfindən "Azərbaycan dilində uzlaşma" adlı məqalə yazılmışdır (7) 6, s. 14-23).

Sonralar M.Şirəliyev və M.Hüseynzadə tərəfindən orta məktəbin VI-VIII sinifləri üçün yazılmış "Azərbaycan dilinin qrammatikası" adlı dərslikdə sintaktik əlaqələrin bir tipi olan uzlaşma əlaqəsi xəbərin mübtəda ilə uzlaşması fonunda izah edilir. Bu, o deməkdir ki, bu dərslikdə sintaktik əlaqələr ayrıca mövzu kimi verilməmişdir. Lakin həmin dərsliyin sonrakı nəşrlərində sintaktik əlaqələr ayrıca mövzu kimi verilmiş, xəbərin mübtəda ilə uzlaşması isə yenə də eyni ilə saxlanılmışdır.

Ə.Z.Abdullayevin filoloji fakültənin qiyabiçi tələbələri üçün tədris-metodiki vəsaiti olan "Müasir Azərbaycan dilində sintaktik əlaqələr" kitabında sintaktik əlaqələrin növləri olan uzlaşma,

idarə, yanaşma əlaqələri haqqında qısa, konkret əlaqələrin növləri olan uzlaşma, idarə, yanaşma əlaqələri haqqında qısa, konkret, müəyyən misallar əsasında məlumat verilir (21) 3, 18).

Sonralar müəllif "Azərbaycan dili məsələləri" adlı kitabında "Bir daha sintaktik əlaqələr haqqında" adlı məqalə ilə çıxış edir. Müəllif qeyd etdiyimiz tədris vəsaitindən sonra bir daha bu məsələyə qayıtmağı belə izah edir: "Sintaktik əlaqələr haqqında 1956-cı ildə Universitetin qiyabiçi tələbələri üçün kiçik bir əsər yazmışdıq. O zamandan 34 il keçmiş, bu müddət ərzində tədris təcrübəmizdə müəyyən məsələlərlə qarşılaşmışıq. Bunlar bizi vadar edir ki, əvvəl dediklərimizə bəzi fikirlər əlavə edək. Bu mövzuya qayıtmağımızın əsas səbəbi budur" (2) 4, s. 173).

Sintaktik əlaqələr haqqında Z.X.Tağızadə də "Müasir Azərbaycan dilinin sintaksisi" kitabında məlumat verir. Belə ki, burada tabesizlik əlaqəsinin adı çəkilmir, yalnız tabelilik əlaqəsinin növləri olan yanaşma, uzlaşma, idarə əlaqələri haqqında konkret, yığcam məlumat verilir. Müəllif yazır: "Dilimizin lüğət tərkibində olan sözlər söz birləşmələrində və ya cümlələrdə müəyyən bir qaydada, yəni məntiqi bir əsasda birləşir ki, sözlərin bu cür birləşməsi sintaktik əlaqə adlanır" (20) 15, s. 5). Sözlər arasındakı əlaqələrə gəldikdə, biz onlarla iki mühitdə qarşılaşırıq:

1. Söz birləşməsindəki sözlər arasında əlaqə.
2. Cümlədəki sözlər arasında əlaqə

Söz birləşmələri və cümlələrdəki sözlər arasındakı əlaqələrdən danışarkən qeyd etməliyik ki, söz birləşmələri və cümlələri əmələ gətirən sözlər arasında həm məna, həm də qrammatik əlaqələr olur.

Məlumdur ki, hər bir nitq vahidi forma və məzmun vəhdəti əsasında birləşir. Bu deyilənlərdən bir daha belə nəticə çıxır ki, sözlər söz birləşməsi və cümlə daxilində bir-biri ilə iki cəhətdən bağlı olur:

1. Məna (semantik) cəhətdən;
2. Qrammatik (sintaktik) cəhətdən.

Belə ki, bunlardan birincisi söz birləşmələrinin daxili mahiyyətini, ikincisi isə xarici-formal cəhətini təşkil edir. Sözlər arasında məna əlaqəsi dedikdə, sözlərin əlaqəsi nəticəsində yaranan leksik semantika deyil,ümumiləşmiş qrammatik semantika nəzərdə tutulur.

Məna əlaqəsi obyektiv aləmdəki əşya və hadisələrlə onların müxtəlif əlamət və xüsusiyyətləri arasındakı real əlaqədən doğur. Məsələn: Quzu mələyir. Qapı açılır. Xoruz banlayır və s. cümlələrinin hər biri leksik semantikasına görə fərqli mənalar ifadə edir.

Lakin bunlar sözlərin eyni münasibətdə birləşməsidir. Belə ki, hamısında əşya ilə onun hərəkəti ifadə olunmuşdur. İnəkləri yemləmək, taxılı döymək, traktoru işə salmaq və s. birləşmələrinin hər biri fərdi semantikaya malik olduğu halda, ümumiləşmiş qrammatik mənasına görə eyni olub hərəkətlə onun obyekti arasındakı əlaqəni bildirir. Bu qəbildən olan misalların sayını artırmaq da olar.

Sözlər arasındakı əlaqələrin ikinci tərəfini həmin əlaqələrin ifadə formaları təşkil edir. Bu da söz birləşmələrinin tərəfləri arasındakı əlaqələrin formal cəhəti sayılır və qrammatik əlaqələr, daha konkret desək, sintaktik əlaqələr adı ilə qeyd edilir. Bu haqda Q.Kazımov yazır: "Birləşmə və cümlələrdə sözlər arasında formal əlaqəyə ona görə qrammatik əlaqə deyilir ki, bu əlaqənin yaranması üçün həm morfoloji, həm də sintaktik cəhətdən birləşməsi əsas və həlledicidir" (8, s. 10).

Qrammatik əlaqələrin həm də sintaktik əlaqələr adı ilə adlandırılması ona görədir ki, qrammatikada sözlərin dəyişməsi, müxtəlif şəkillərə düşməsi, təsrifi qaydaları morfologiyanın, sözlərin bir-biri ilə bağlanma, əlaqələnmə qaydaları isə sintaksisin payına düşür. Deməli, bunun nəticəsidir ki, qrammatik əlaqələrə həm də sintaktik əlaqələr deyilir.

Qrammatik (sintaktik) əlaqənin *tabesizlik* və *tabelilik* adlı iki növü qeyd edilir. Bunlardan tabesizlik əlaqəsi məna və qrammatik cəhətdən bir-biri ilə əlaqədar olan, lakin buna baxmayaraq, bir-birindən asılı olmayan, biri digərini heç bir cəhətdən aydınlaşdırmayan, eyni zamanda bir-birinə münasibətdə eyni hüquqlu sözlər arasında olur, məsələn: atalar və oğullar, qızlar və gəlinlər və s.

Tabelilik əlaqəsində isə vəziyyət tamamilə başqadır. Belə ki, qrammatik əlaqənin bu növünün dildə daha böyük rolu var. Belə ki, xəbər mübtəda ilə, tamamlıq və zərflik xəbərlə, təyin təyinlənənlə tabelilik yolu ilə əlaqələnir. Tabelilik əlaqəsi söz birləşmələrinin tərəfləri arasında, cümlənin həmcins olmayan bütün üzvləri arasında, tabeli mürəkkəb cümlənin baş və budaq cümlələri arasında olur. Bu əlaqədə əlaqədar olan vahidlərdən bir digərinə tabe olur, biri digərini izah edir, aydınlaşdırır,

tamamlayır. Burada tərəflərdən biri əsas, digəri isə asılı tərəf adlanır (Əsas tərəfə müstəqil, tabe olan tərəf deyilir).

Sözlər tabelilik yolu ilə əlaqələnərək iki cür birləşmə əmələ gətirir:

1. *Predikativ* birləşmələr.
2. *Qeyri-predikativ* birləşmələr.

Predikativ birləşmələr xəbərin iştirakı ilə yaranan birləşmələrdir. Qeyri-predikativ birləşmələr isə xəbərin iştirakı olmadan qurulan birləşmələrdir.Sözlər arasında tabelilik əlaqələri konkret ifadə formasından asılı olaraq, üç yerə ayrılır:

1.Uzalaşma, 2. İdarə, 3. Yanaşma.

İndi də üzərində dayanacaq, onun müasir dilimizdəki nümunələri əsasında müəyyən təhlillər aparacağıq.

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Seyidov Y., Ağamalıyev H. Müasir Azərbaycan dili. Sintaksis, IV hissə. Bakı: Şərq-Qərb, 2007, 424 s.
2. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: 1962, 245 s.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
4. Şirəliyev M., Hüseynzadə M. Azərbaycan dilinin qrammatikası. 6-8 siniflər üçün dərslik. Bakı: Maarif, 1970, 189 s.
5. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (sintaksis). Bakı: Elm və təhsil, 2010, 500 s.
6. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (morfologiya). Bakı: Elm və təhsil, 2010, 400 s.
7. Xəlilov B. Müasir Azərbaycan dili (sintaksis). Bakı: 2017, 428 s.

SUMMARY

Sakina Saferzade

SYNTACTIC RELATIONSHIPS IN AZERBAIJAN LANGUAGE

In the article, it is explained that the syntactic relations - agreement relations are according to person and quantity, that is, to which person the subordinating party belongs, the subordinate party also receives grammatical signs belonging to that person. At the same time, the singular and plural of the subordinating side are also reflected in the subordinate side.

One of the books I mentioned on this topic is A. Abdullayev's teaching-methodical tool called “Syntactic relations in the modern Azerbaijani language”. Here, the author provides information about the relationship of reconciliation and writes about the reconciliation of the message with the messenger, the reconciliation of the addition, and the reconciliation of word combinations.

All these cases mentioned by prof. Y.Seyidov in his book “Word formations in the Azerbaijani language” considers a specific feature of the Azerbaijani language and Turkic languages in general.

One of the important issues to be studied in the study and teaching of syntax is the determination of relationships between word combinations. Serious research works have been carried out in this field and it has been concluded that the relations of subordination and subordination between word combinations have an important role in the formation of both word combinations and sentences.

Key words: *syntax, word combinations, agreement relationship, Azerbaijani language, Modern Azerbaijani language, grammar, grammatical relations, etc.*

SAYNUR RÜSTƏMLİ
saynurrustmli@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0009-5607-4097

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ ÜSLUBİYYAT MƏSƏLƏLƏRİNİN TƏDQİQİ

Dilçilik üslubiyyatının əsas problemlərindən bəhs edilib və bu problemlərin milli dilçiliyimizdə tədqiqi haqqında müəyyən məlumat verilib. Dilçilik üslubiyyatının problemləri müxtəlif və mürəkkəbdir, lakin bir-biriylə sıx əlaqədə, biri digərinə tabe olub, biri digərini tamamlayır. Bu problemlər bir-birini təqib edərək milli dilçiliyimizdə ardıcıl və müntəzəm şəkildə araşdırılmaqdadır.

Bədii dil probleminin mürəkkəb və mübahisəli şəkil almasına müəyyən dərəcədə onun uzun müddət iki elmin, yəni həm ədəbiyyatşünaslığın, həm də dilçiliyin tədqiqat materialı olması səbəb olmuşdur. Lakin bu mürəkkəbliyə baxmayaraq, bədii dil filoloqların daima diqqət mərkəzində duran üslubiyyatın əsas problemlərindən biri olaraq qalmaqdadır. Belə ki, üslubiyyatın tədqiqinə həsr olunmuş əsərlərin böyük bir qismi az və ya çox dərəcədə onunla bağlıdır, yaxud xüsusi olaraq onun ayrı-ayrı məsələləri və tərəflərinin işlənməsi ilə məşğuldur.

Bədii ədəbiyyatın dilinin tədqiqi üslubiyyatın digər məsələlərindən daha qabaqlar (təxminən XX əsrin 30-40-cı illərində) başlamışdır. Ancaq onun müntəzəm şəkildə araşdırılması 50-ci illərdən sonra, yəni üslubiyyatın ədəbiyyatşünaslıq və dilçilik üslubiyyatına parçalanması nəticəsində mümkün olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, bədii üslubun tədqiqi, bir tərəfdən, struktur üslubiyyatın bu və ya digər sisteminin araşdırılması ilə əlaqədar ümumi xarakterli monoqrafiyalarda, digər tərəfdən bədii üsluba həsr olunmuş ayrı-ayrı əsərlərdə, üçüncüsü – onun müxtəlif janr, yaxud nitq növlərinin öyrənilməsi ilə məşğul olan yazılarda, və nəhayət, ayrı-ayrı yazıçıların dil və fərdi üslubunun xüsusiyyətlərini tədqiq edən kitab və məqalələr, dissertasiyalar kimi bir neçə istiqamətdə gedir.

Açar sözlər: *üslubiyyat, dilçilik, bədii dil, tədqiqat, ədəbiyyatşünaslıq.*

Azərbaycan dilçiliyində üslubiyyat problemlərinin tədqiqi tarixi olduqca qədimdir. “İfadə tərzi”, “gözəl danışmaq”, “müraciət vasitəsi”, “səliqə” və bu kimi məzmunlar bildirən ərəb mənşəli üslub sözü dilimizdə hələ orta əsrlərdən işlənməyə başlamış və bütün Şərqdə olduğu kimi Azərbaycanda da geniş yayılaraq “Bəlağət”, “İnşa”, “Fəsahət” kimi elmlərin yaranmasına əsas vermişdir. Həmin elmləri üslubiyyatın ilk qaynaqları kimi qiymətləndirmək olar. Lakin zaman keçdikcə üslub sözünün mənası dəyişmiş, genişlənmişdir: “metod”, “bədii cərəyan”, “fərdi bədii üslub” və s. məzmunları kəsb edərək bu söz öz yerini daha da möhkəmləndirmiş və XX yüzilliyin 20-ci illərindən başlayaraq üslubiyyat elmi adlandırılmışdır. Məhz həmin dövrdə bu sahəyə aid ilk üslubiyyat əsərləri meydana çıxmışdır. A.Tağızadə və X.S.Xocayevin “Müxtəsər üslubiyyat” kitabı bu qəbildəndir [Cabbarov X., 1993, 65].

Bununla belə, uzun müddət, təxminən XX əsrin 60-cı illərinə qədər üslubiyyat yalnız ayrı-ayrı bədii söz sənətkarlarının dil və fərdi yazı üslubunu öyrənməklə məhdudlaşır və bu cəhət filoloqlar arasında ciddi mübahisələrin ortaya çıxmasına səbəb olur: ədəbiyyatçılar üslubiyyatı öz sahəsi, dilçilər isə öz tədqiqat obyekti hesab etmişlər. Yalnız XX əsrin 50-ci illərindən sonra Sovet filologiyasında uzun sürən müzakirənin nəticəsi olaraq üslubiyyat iki hissəyə - ədəbiyyatşünaslıq üslubiyyatı və dilçilik üslubiyyatına ayrıldı, nəticədə hər birinin məqsəd və vəzifələrinin, tədqiqat obyektlərinin müəyyənləşdirilməsinə və dəqiqləşdirilməsinə lazımi şərait yarandı. Və həmin parçalanma sayəsində dilçilik üslubiyyatı o zamandan öz istiqamətində, ədəbiyyatşünaslıq üslubiyyatı isə öz istiqamətində tərəqqi etməkdədir – hər biri öz məqsəd və vəzifələri, öz tədqiqat obyekti ilə.

Dilçilik üslubiyyatı ümummilli ədəbi dili küll halında, yəni bədii üslub da daxil olmaqla, onun bütün funksional üslublarını öyrənir. Ədəbiyyatşünaslıq üslubiyyatı isə ancaq bədii ədəbiyyatın dilini tədqiq edir. Bununla da əlaqədar ədəbi dilin bir qolunun tədqiqində iki elmin materialı araşdırılır. Lakin qeyd etmək lazımdır ki, material eyni olsa da, onların hər birində tədqiqat müxtəlif istiqamətlərdə aparılır. Dilçilik üslubiyyatı bədii ədəbiyyatın dilini ümumədəbi dilin əksi kimi öyrənib, ədəbi dil sistemində onun yerini, başqa üslublarla münasibətini, bədii dil və ədəbi dil arasındakı qarşılıqlı təsirin səciyyəsini müəyyənləşdirməyə çalışır. Ədəbiyyatşünaslıq üslubiyyatı isə bədii dili estetik bir kateqoriya, incəsənət materialı kimi öyrənir. Söz, burada obraz yaradan və müəllifin niyyətlərini təmsil edən əsas vasitə kimi çıxış edir və bu baxımdan da tədqiq edilir.

Beləliklə, eyni material dilçilik üslubiyyatında bir nöqteyi-nəzərdən və müvafiq metodlar əsasında, ədəbiyyatşünaslıq üslubiyyatında isə başqa məqsəd və prinsiplər əsasında araşdırılır. Lakin bu fərqə baxmayaraq, bədii dilin tədqiqi hər iki elmin metodoloji prinsiplərinə bələd olmağı tələb edir. Bununla əlaqədar olaraq, "nitqin poetik formasını anlamaq istəməyən dilçi, dilçilik problemlərinə biganə qalan və dilçilik üslubları ilə tanış olmayan ədəbiyyatşünas – hər ikisi eyni dərəcədə dözülməz anaxronizmdir", - deyən məşhur Qərb alimi R.Yakobson tamamilə haqlıdır. Odur ki, bədii dil sahəsi ilə məşğul olan filoloq-alim hər iki elmin metodoloji prinsiplərini bilməlidir [Bayram T., 1984, 48].

Lakin dilçilik üslubiyyatının problemləri tək bədii dilin öyrənilməsi ilə məhdudlaşmır. Qeyd etdiyimiz kimi, dilçilik üslubiyyatı dili bütövlükdə öyrənir, onun bütün funksional üslublarını tədqiq edir, həm də qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə. Dilçilik üslubiyyatı dili müxtəlif cəhətli bir sistem kimi tədqiq etdiyi üçün onun problemləri olduqca rəngarəng və mürəkkəbdir. Bunu nəzərə alaraq, alimlər onun vəzifələrini dəqiqləşdirməyə çalışır və həmin məqsədlə bağlı müəyyən metodoloji prinsiplər əsasında dilçilik elmi çərçivəsində problemlər üzrə parçalanma məsələsini irəli sürürlər. Ümumi dilçilikdə bu barədə müxtəlif mülahizələr və tövsiyələr mövcuddur. Məsələn, R.A.Budaqov dilin müxtəlifliyini nəzərə alaraq, dilçilik üslubiyyatının aşağıdakı problemlər üzrə ayrılmasını zəruri hesab edir:

l. Ümumxalq dilinin üslubiyyatı;
2. Ədəbi dilin üslubiyyatı;
3. Bədii dilin üslubiyyatı.

Azərbaycan dilçiliyində bu mürəkkəb məsələnin müntəzəm şəkildə işlənməsi XX əsrin 60-cı illərindən sonrakı vaxtlara aiddir. Onun tədqiqi özünü həm ümumi xarakterli, həm də funksional üslub probleminə həsr olunmuş xüsusi yazılarda göstərir. Həmin əsərlərdə üslub, funksional üslubların təsnifi, mahiyyəti haqqında fikir birliyi yoxdur, xüsusilə də funksional üslubların qruplaşdırılması məsələsində. Müxtəlif prinsiplərdən çıxış edərək, yaxud heç bir prinsipə arxalanmadan, alimlər ədəbi dili üslublar üzrə parçalayır və, təbii olaraq, bu təsniflərdən biri digərindən fərqlənir. Məsələn. Ə.Dəmirçizadə bu təsnifatı təfəkkür tərzinə arxalanaraq aparır və ədəbi dildə üç üslubun (bədii, elmi, ictimai-siyasi), Ə.Bağırov dilin yazılı və şifahi formada çıxış etmə xüsusiyyətini nəzərə alıb ədəbi dildə dörd üslubun (rəsmi, bədii, publisistik, elmi), K.Əliyev dil vasitələrinin üslubi rənginə və tarixilik prinsipinə əsaslanaraq ədəbi dildə altı üslubun (elmi, bədii, publisistik, natiqlik, rəsmi, danışıq) olduğunu göstərir.

Şübhəsiz, alimlərin əsaslandıqları bütün bu cəhətlər ədəbi dilə xasdır və üslubi təsnifat zamanı nəzərə alınmalıdır. Lakin həmin təsnifatın ədəbi dilin təbiətinə tam uyğun olaraq, yerinə yetirilməsi üçün onun ən vacib xüsusiyyəti ünsiyyət vasitəsi olması, yəni ictimai-funksional səciyyəsi unudulmamalıdır. Dilin təfəkkürlə əlaqədar şifahi və yazılı şəkildə olaraq insan fəaliyyətinin bütün ictimai sahələrinə xidmət edən bir anlamı vardır ki, məhz ona görə də üslublar üzrə parçalanır. Onun üslublara ayrılması əslində ictimai sahələrə tam uyğundur. Bu meyara əsasən, ədəbi dil cəmiyyətdə daşıdığı ictimai funksiyasıyla əlaqədar, yəni insan fəaliyyətinin məişət, elmi, publisistik, rəsmi və bədii sahələrinə müvafiq olaraq, beş üsluba ayrılır və bu üslublar çərçivəsində nitq üslubları yerləşir. Beləliklə, yazılı və şifahi tərzdə ortaya çıxan ədəbi dilimiz də aşağıdakı üslublara ayrılır: 1. Danışıq-

məişət üslubu; 2. Elmi-üslub; 3. Publisistik-qəzet üslubu; 4. Rəsmi-işgüzar üslub; 5. Bədii-estetik üslub.

Bunlardan ancaq danışıq-məişət üslubu ədəbi dilin şifahi qoluna, digərləri isə yazılı qoluna aiddir. Bununla belə, bu təsnif nisbidir: çünki üslublar arasında kəskin bir sərhəd yoxdur. Yazı üslubları şifahi şəkildə (elmi çıxışlar, konfranslar, simpoziumlar, dərs, mühazirə, yaxud məhkəmədə vəkillərin çıxışları və s.), danışıq-məişət üslubu isə yazılı şəkildə (şəxsi yazışmalar, məktublar və s.) ortaya çıxa bilər.

Funksional üslubların yaranması və formalaşması ədəbi dilin ümumi tarixi inkişafı ilə bağlıdır: danışıq-məişət üslubu və bədii üslub daha qədimdir, elmi, publisistik-qəzet, rəsmi-işgüzar üslublar təxminən XIX əsrdən fəaliyyətdədir (Müasir Azərbaycan ədəbi dilinin işgüzar üslubu, 2004, 21).

Lakin nəzərə almaq lazımdır ki, funksional üslubların hər biri mürəkkəb bir sistemdir: o, müxtəlif nitq növlərinə ayrılır və həmin nitq növləri vasitəsilə fəaliyyət göstərir, bu proses zamanı inkişaf edir, formalaşır, təkmilləşir. Məsələn, həmin proses bədii üslubda şeir, nəsr, dramaturgiya, epik nitq növləri, elmi üslubda elmi-texniki, elmi-kütləvi, sırf elmi nitq növləri, rəsmi-işgüzar üslubda siyasi-diplomatik, ictimai-siyasi, ictimai-hüquq nitq növləri, publisistik üslubda mətbuat, qəzet, radio, televiziya nitq növləri vasitəsilə mümkünləşir. Dilçilik üslubiyyatının mərkəzi problemlərindən biri də sinonimik vasitələrin tədqiqidir.

Məlumdur ki, sinonimlər dilin, xüsusilə də lüğət tərkibinin əsas hissəsini təşkil edən, onun spesifik xüsusiyyətlərini özündə əks etdirən və qoruyub saxlayan nitq vahidləridir. Eyni məfhumu rəngarəng üslubu boyalarla və çalarlarla ifadə edən sinonimlər nitqin ən zəruri və həm də ən mənalı leksik-üslubi vasitələri hesab edilir. Nitq üçün sinonimlərin zəruriliyini hələ antik dövrün alimləri qeyd etmişlər. O dövr alimlərindən Anaksimen bu barədə belə söyləmişdir: "Nə cür olursa-olsun, fikir müxtəlif şəklə salınmalıdır. Bunun üçün ifadələri dəyişdirmək lazımdır ki, eyni fikir eyni sözlərlə təkrar olunmasın. O zaman nitqimiz yaxşı təsir bağışlayar" [Həbibova S., 1993, 98].

Dilçilik üslubiyyatının qarşısında duran önəmli problemlərdən biri də dilin emosional-ekspressiv vasitələrini öyrənməkdir.

Emosional (fransız sözü "*emovere*", yəni hiss-həyəcan) və ekspressiv (latın sözü *"expression"*, yəni yüksək ifadə) kimi kəlmələri əsasında yaranan emosional-ekspressiv termini ümumi dilçilikdə qəbul olunmuş və milli filologiyamızda da işlənməkdədir. Buna görə də bu xüsusiyyətləri özündə daşıyan sözlər və birləşmələr dilin ən mənalı və ən təsirli elementləri sayılmaqdadır. Bundan ziyadə, tədqiqatçıların bir çoxu emosional-ekspressiv vasitələrin araşdırılmasını dilçilik üslubiyyatının ən vacib vəzifəsi hesab edir.

Həmin müəlliflərin fikrincə, üslubiyyatın başlıca tədqiqat obyekti "dilin ekspressiv vasitələri, onların istifadə sahələrini, onlardan nitq ünsiyyətinin məqsəd və şəraitinə müvafiq seçmə prinsiplərini öyrənməkdir". Son illər dilçilik elmində üslubiyyat məsələləri ilə əlaqədar dərc olunmuş əsərlərdə də funksional üslublar və sinonimika ilə birlikdə ekspressiv vasitələrin tədqiqi də zəruri hesab edilir [Məmmədli F, 1997, 35].

Emosionallıq və ekspressivlik yüksək hiss-həyəcana malik canlı danışıq dilinin səciyyəvi xüsusiyyətləridir. Həmin keyfiyyətləri özündə daşıyan kəlimələr yazılı dilə ancaq bədii yaradıcılıq vasitəsilə keçir və burada onların daha mənalı səciyyəvi əlamətləri meydana çıxır.

Bədii üslubda ümumxalq dilindən fərqli olaraq emosionallığın və ekspressivliyin ifadə imkanları daha geniş və daha rəngarəngdir. Çünki burada həm ümumxalq dilinə xas olan emosional-ekspressiv kəlmələr ifadə gücünə malikdir, həm də ən adi neytral sözlər xüsusi üslubi üsulların sayəsində emosional və ekspressiv mənalar qazana bilir. Ona görə də, bədii üslubda emosionallıq və ekspressivliyin rolunu doğru təyin etmək üçün, bir tərəfdən, həmin xüsusiyyətləri özündə müstəqil şəkildə daşıyan lüğəvi vahidləri öyrənmək, digər tərəfdən isə, adi sözü qüvvətli ifadə vasitəsinə çevirə bilən üslubi üsulları müəyyənləşdirmək vacib şərtlərdəndir.

Emosionallıq kateqoriyası hiss və həyəcan ifadə etməklə bağlıdır. Bu xüsusiyyətə malik olan sözlər insanın məhz hisslərini ifadə edən nitq vahidləridir. Emosional məna sözdə həm müstəqil tərzdə, həm də əşyavi-məntiqi məna ilə yanaşı mövcud ola bilər. Belə ki, dilimizin tərkibində elə

sözlər var ki, onlar heç bir əşyavi-məntiqi məna ifadə etmir, ancaq emosiya bildirir: müəyyən sözlərlə yanaşı işlənərək onlara, hətta bütöv bir cümləyə, mətnə də emosiya çaları verir. Bu cür sözlər, məlum olduğu kimi, nidalardır [Азимов П., 1968, 41].

Milli dilçiliyimizdə emosionallıq və ekspressivlik kateqoriyaları, bu xüsusiyyətləri özündə daşıyan dil elementləri və onları ortaya çıxaran üsullar tədqiqat obyekti olmamışdır. Bu mövzu, müəyyən dərəcədə bədii üslubla əlaqədar leksik vahidlər üzrə az və ya çox dərəcədə araşdırılmışdır.

Lakin qeyd etdiyimiz kimi, bu kateqoriyalar tək leksika ilə deyil, dil sisteminin digər strukturları ilə də bağlıdır. Özü də son illər dilçilikdə belə bir fikir də irəli sürülür ki, bu kateqoriyalar digər yazı üslublarına da (məsələn, elmi və publisistik üslubların populyar xarakterli növlərinə) yol tapmaqdadır.

Dilin bütün sistemlərini qaplamış bu kateqoriyalar o qədər geniş diapazonlu mövzuya çevrilmişdir ki, onun xüsusi şəkildə ciddi və dərindən tədqiq edilməsinə ehtiyac vardır, xüsusilə də bütün funksional üslublarla bağlı.

Dilçilik üslubiyyatının ciddi tədqiqata ehtiyacı olan məsələlərindən biri də praktik üslubiyyatdır. Praktik üslubiyyatın tədris prosesində rolu, nəzəri üslubiyyatla əlaqəsi, üslubi norma məsələsi, normanı təşkil edən amillər, norma və nitq mədəniyyəti və s. bu kimi məsələlər müasir dövrümüzün başlıca tələbləridir. Yuxarıda qeyd etdiyimiz kimi, praktik üslubiyyat və onun problemlərinin tədqiqi dilçilik elmimizdə yeni mövzu deyil. Üslubiyyat elminin tədqiqi ən əvvəl onun tədrisi məsələsi və dərs vəsaitlərinin ortaya çıxması ilə başlamışdır. Bu isə tariximizin orta əsrlərinə gedib çıxır, yəni o dövrə ki, bütün Şərqdə olduğu kimi, Azərbaycanda da tədris müəssisələri olan mollaxanalar və mədrəsələrdə üslubiyyatın ilk qaynaqları sayılan bəlağət elmi və inşa dərsləri öyrənilirdi. Daha sonralar, XIX yüzillikdən başlayaraq, həmin fənlər, üslubiyyatın özü də daxil olmaq şərti ilə, bütün məktəblərin tədrisinə qatılır ki, bunu o dövrdə bir sıra dərsliklərin ortaya çıxması açıqca sübuta yetirir.

Həmin kitabların başlıca məqsədi – bədii mətnləri təhlil elmək üsulu ilə tələbələrə dilin leksik, morfoloji və sintaktik üslubi rəng və ayrıntılarını açıqlamaq olmuşdur. XX əsrin 20-30-cu illərindən sonra üslubiyyat bütün məktəblərin, həm də yüksək təhsil ocaqlarının da tədris planına daxil edilir və bunun nəzəri əsasları tədqiq edilməyə başlayır, tədrisi metodoloji prinsiplər əsasında istiqamətləndirilir [Əliyeva D., 2000, 41].

Praktik üslubiyyatın başlıca vəzifəsi üslubi normaları öyrənmək və tətbiq etməkdir. Üslubi normalar dildə mövcud olan variantlıq xüsusiyyətinə (yəni lüğəvi və qrammatik sinonimlik kateqoriyasına) arxalanır və funksional üslubun səciyyəsinə uyğun fikrin ifadəsini seçmə prosesi nəticəsində gerçəkləşdirir. Belə olduqda, üslubi normalar nitqin düzgünlük, dürüstlük, məntiqilik, təmizlik, ifadəlilik, rəngarənglik, münasiblik kimi xüsusiyyətlərinin yaranmasına kömək göstərir. Sistemli bir şəkildə çıxış edərək üslubi normalar nitq mədəniyyətinin təməlini təşkil edir. Nəticədə, filologiyada bu iki elmin problemləri arasında sıx əlaqə yaranır, onların biri digərini tamamlayır: praktik üslubiyyat üzərində nitq mədəniyyəti qurulur, nitq mədəniyyəti üzərində isə natiqlik sənəti.

Dilçilik üslubiyyatının mühüm problemlərindən biri də bədii ədəbiyyatın dilini, onun ayrı-ayrı fərdi üslublarını, bədii dil və ədəbi dil arasındakı münasibətlərini, bədii dilin ədəbi dilin formalaşması və təkmilləşdirilməsi prosesindəki rolunu, ədəbi dilin bu və ya digər inkişaf mərhələlərində daşıdığı istiqamətverici əhəmiyyətini, bədii dilin müxtəlif janr növlərindən istifadəetmə məqamlarını və bədii dillə bağlı sair cəhətlərini öyrənməkdir.

Göründüyü kimi, üslubiyyatın bu problemi də çoxşaxəli və mürəkkəbdir. Həmin mürəkkəblik bədii dilin bir sıra xüsusiyyətlərindən doğur:

1) bədii üslubun funksional səciyyəsi;
2) onun ədəbi dillə münasibətinin xarakteri;
3) filologiyada iki elmin – həm ədəbiyyatşünaslıq, həm də dilçilik üslubiyyatının tədqiqat materialı olmasından.

Qeyd olunan cəhətlər bədii üslub ətrafında uzun müddət müxtəlif mülahizələrin və mübahisələrin əmələ gəlməsinə gətirib çıxarmışdır. Belə ki, bədii dilin səciyyəsi – onun digər

funksional üslublardan fərqli olaraq, ədəbi dildən bütövlüklə istifadəetmə qabiliyyəti, yəni ədəbi dil normaları ilə bərabər, həm də qeyri-ədəbi variantlardan, habelə başqa funksional üslubların da elementlərini cəlbetmə xüsusiyyəti – ədəbi dilin funksional üslublar sistemində yerinin və mövqeyinin təyin edilməsi məsələsində alimlər arasında fikir ayrılığına səbəb olmuşdur. Digər tərəfdən bu fikir ayrılığına həm də ədəbi dil və bədii dil terminlərinin qarışdırılması da əsas vermişdir. Belə ki, filologiya elmində ədəbi dil termininin iki mənada işlənmə məqamlarıyla rastlaşırıq: həm bədii dil, həm də ümumxalq dilinin təkmilləşmiş forması funksiyasında. Bəzən də ədəbi dil və bədii dil terminləri birləşdirilmiş şəkildə də işlədilir – ədəbi-bədii dil. Halbuki, buna heç bir əsas yoxdur, məntiqi cəhətdən də bu düzgün deyil. Çünki ədəbi dil yazılı şəkildə qəbul olunmuş normalara əsaslanan ümumxalq dilinin biçilib yonulmuş, cilalanmış formasıdır. Ədəbi dilin yazılı qollarından biri də bədii dildir. Ədəbi dillə bədii dil arasında qəribə münasibətlər vardır. Bir tərəfdən, ədəbi dil bədii dildən daha geniş məna bildirir. Çünki ədəbi dilə bədii dillə birlikdə digər funksional üslublar da daxildir. Digər tərəfdən isə, bədii dil anlayışı ədəbi dil anlayışından daha genişdir; çünki bədii dildə şivə və dialekt ünsürləri, müxtəlif səciyyəli jarqonizmlər, sadə-familyar vasitələr də işlənə bilər.

Ədəbi dil normalarından kənaraçıxma xüsusiyyəti bədii dili ədəbi dildən fərqləndirən ən ümdə cəhətdir. Bu iki anlayışı fərqləndirən ikinci cəhət isə ondan ibarətdir ki, ədəbi dil kommunikativ funksiya, bədii dil isə kommunikativ-estelik funksiya daşıyır. Ədəbi dillə bədii dil arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsir mövcuddur. Ümumiyyətlə, ümumxalq dilinin bu iki növü qəribə münasibətdə-dir: bir tərəfdən, bədii dil ədəbi dilin normalaşdırılmasına kömək edir, digər tərəfdən isə, elə bu normaları pozan da birinci özüdür. Lakin bu "pozulma" nəticəsində o, ədəbi dili yeni normalarla təmin etmiş olur. Bədii söz sənətkarları ümumxalq dilinin leksik və qrammatik formalar xəzinəsindən istifadə edərək həmin vasitələrin dərinliklərində gizlənən üslubi rəngləri üzə çıxarır, onları rəndələyir, biçib-yonur və milli dilin normalarında möhkəmləndirir. Nəticədə, bədii-fərdi üslub bədii dili zənginləşdirməklə bərabər, ədəbi dili də zənginləşdirir, ona yeni normalar verir [Qurbanov A., 1967, 68].

Bədii dilin mürəkkəb təbiətini araşdırmaq, ədəbi dillə münasibətlərini öyrənib tədqiq etmək məsələsi milli üslubiyyatımızın qarşısında duran zəruri problemlərdən biridir. Düzdür, bu haqda dilçilik üslubiyyatı elmimizdə müəyyən yazılar mövcuddur, lakin həmin məsələ hələlik xüsusi tədqiqat obyektinə çevrilməmişdir.

ƏDƏBİYYAT

1. Bayram T. Məsləkim-silahım. Bakı: Yazıçı, 1984. 267 s.
2. Cabbarov X. Sənətkar, söz, üslub. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 195 s.
3. Əliyeva D. Toponimlərin üslubi-linqvistik xüsusiyyətləri. Bakı: Maarif, 2000, 81 s.
4. Həbibova S. Mətbuatda gedən dil prosesləri – leksika (1970-1999-cu illə-rin materialları əsasında). Namizədlik dissertasiyası. Bakı: AMEA. Nəsimi ad. Dilçilik İnstitutu. 1993, 147 s.
5. Müasir Azərbaycan ədəbi dilinin işgüzar üslubu. Bakı: Elm, 2004, 196 s.
6. Məmmədli F. Bədii dilin estetik mənbələri. Bakı: 1997, s.4.
7. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1967, 374 s.
8. Азимов П. Развитие стилистических систем литературных языков народов СССР // Материалы конференции 26-28 октября, Ашхабад: Ылым, 1968, с. 26.
9. Агаева И.С. Взаимодействие художественного и научного стилей современного азербайджанского литературного языка. Автореф. дисс.... канд. филол. наук. Институт языкознания им. И.Насими Ан Аз ССР, Баку: 1980, 27 с.
10. Горбачевич К.С. Нормы и вариантности на синтаксическом уровне. М.: 1977, 210 с.

SUMMARY

Saynur Rustamlı

STUDY OF STYLE ISSUES IN AZERBAIJAN LINGUISTICS

The main problems of linguistic style were discussed and certain information was given about the study of these problems in our national linguistics. The problems of linguistic stylistics are diverse and complex, but they are closely related to each other, one is subordinate to the other, and one complements the other. These problems follow each other and are being investigated consistently and regularly in our national linguistics.

To a certain extent, the fact that the problem of literary language took a complex and controversial scene was due to the fact that for a long time it was the research material of two sciences, that is, both literary studies and linguistics. However, despite this complexity, artistic language remains one of the main problems of stylistics, which is always in the focus of philologists. Thus, a large number of works dedicated to the study of stylistics are more or less related to it, or are specifically engaged in the development of its separate issues and aspects.

The study of the language of fiction began earlier than other issues of stylistics (approximately in the 30s-40s of the 20th century). However, its regular investigation became possible after the 50s, that is, as a result of the division of stylistics into literary and linguistic stylistics.

It should also be noted that the study of artistic style proceeds in three directions: on the one hand, in general monographs related to the study of this or that system of structural style, on the other hand, in separate works dedicated to artistic style, and on the third - its various genres, or in writings dealing with the study of types of speech, and finally in books and articles, dissertations, which study the characteristics of the language and individual style of individual writers.

Key words: *stylistics, linguistics, artistic language, research, literary studies.*

QUMRAL SƏFƏROVA
ruzgarhsnov77@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0006-7529-4789

XVII ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ SADƏ İSİMDƏN VƏ DÜZƏLTMƏ SİFƏTDƏN İBARƏT OLAN MÜRƏKKƏB SİFƏTLƏR

Sifətlərin quruluşca növlərindən biri də mürəkkəb sifətlərdir. Bu sifətlərin özü də müxtəlif nitq hissələrinin birləşməsindən əmələ gəlir.

Bu məqalədə sadə isimdən və düzəltmə sifətdən ibarət olan sifətlərin XVII əsr Azərbaycan ədəbi dilində işlənməsində danışılır. Belə mürəkkəb sifətlərdə əvvəlcə heç bir şəkilçi qəbul etməmiş sadə isim, sonra isə düzəltmə sifət gəlir. Onların birləşməsindən yaranan mürəkkəb sifət vahid məna ifadə edir. Məqalədə XVII əsr ədəbi dilimizdə bu modelə aid olan çoxsaylı mürəkkəb sifətlərdən söhbət açılmış, onların geniş işlənmə dairəsinə malik olduğu göstərilmişdir.

Açar sözlər: *Azərbaycan dili, sifət, isim, morfologiya, XVII əsr, mürəkkəb.*

Sifətin quruluşca bir növü də mürəkkəb sifətlərdən ibarətdir. Mürəkkəb sifətlərin özünəməxsus məziyyətləri vardır. Tanınmış dilçi alim Muxtar Hüseynzadə "Müasir Azərbaycan dili" kitabında mürəkkəb *sifətlərin* xüsusiyyətlərini izah edərkən yazmışdır: "Mürəkkəb sifətlər iki sözün birləşməsindən əmələ gəlir. Lakin bu birləşmə tərkib şəklində olmur. Buradakı iki ayrı-ayrı söz əvvəlki məzunların əsasında yeni məzmun ifadə edən bir söz kimi işlənir, hətta bunlar iki müxtəlif nitq hissələrindən əmələ gəldikdə belə, bir vurğu altında işlənir [5, s. 30].

Müasir Azərbaycan dilində mürəkkəb sifətlər müxtəlif nitq hissələrinə məxsus sözlərin iştirakı ilə əmələ gəlir.

Dilimizdə sadə və düzəltmə sifətlər kimi, mürəkkəb sifətlər də özünəməxsus tarixi inkişaf mərhələlərindən keçmişdir. XVII əsr Azərbaycan ədəbi dilində də müxtəlif nitq hissələrindən əmələ gəlmiş çoxsaylı mürəkkəb sifətlər işlənmişdir. Onlardan biri də sadə isimdən və düzəltmə sifətdən ibarət olan mürəkkəb sifətlərdir.

Belə mürəkkəb sifətlərdə əvvəlcə heç bir şəkilçi qəbul etməmiş sadə isim, sonra isə düzəltmə sifət gəlir. Onların birləşməsindən yaranan mürəkkəb sifət vahid məna ifadə edir.

XVII əsrə aid yazılı ədəbi mətnlərdə belə mürəkkəb sifətlərin ikinci komponenti kimi ən çox **-lı ,-lı,-lı,-lü və -ıcı,-ici,-ucu,-ücü** şəkilçisi olan düzəltmə sifətlər işlənmişdir. O dövrdə çox işlənən **gül üzlü** mürəkkəb sifətinə aid bir neçə nümunə:

Gül üzlü yarımı hər görsə bülbül,
Gətirməz yadə gülzarın hərgiz.
(Məhəmməd Məczub) [5, s. 97]

Benim **ey gül** üzlü yarım, necə oldu etibarım?
(Mürtəzaqulu Şamlı) [5, s. 88]

Gül üzlü yar ilən meyi çün ərğəvan içər.
(Saib Təbrizi) [11, s. 65]

Gül üzlü növbaharın kəndi kəndindən şeyxü şab oynar.
(Vahid Qəzvini) [8, s. 112]

Göründüyü kimi, yuxarıdakı nümunələrin üçündə bu mürəkkəb sifət vəsf olunan gözələ aid epitet kimi işlənmişdir. Bir misalda isə həmin mürəkkəb sifət yeni gəlmiş bahara aiddir. Baharın gül üzündən söz açılması da öz növbəsində obrazlılığa malikdir, metafordur.

Ümumiyyətlə, aparılan araşdırma göstərir ki, belə mürəkkəb sifətlər daha çox məcazilik kontekstində işləməklə poetik obrazlılıq yaratmışdır. Məsələn:

Oxşatma heş kimsəyə mənim yarımı,
Tale gəlişi, **ruh gedişli** nigarımı. [3, s. 73]
Daş bağırlı yarımın könlünə ahım neyləsün,
Daşə daim yel əsər, etməz vəli hərgiz əsər. [3, s. 110]
Dün Vəhidi gördüm əlhəq, qabili-bidad imiş,
Daş canlı, **şişə bağırlı** əcaib zad imiş. [7, s. 154]
Can verərsən İsayi-Məryəm tək aşiqlər,
Ey **qiyamət xasiyyətli**, abi-heyvansan məgər?
(Vahid Qəzvini) [8, s. 135]
Eyləməz, Qövsi, əsər bu **daş bağırlı** bütlərə,
Tiri-ahindən nə hasil kim, səfalətdən keçər.
(Qövsi Təbrizi) [10, s. 78]

İlk beytdəki **tale gəlişi**, **ruh gedişli** kimi mürəkkəb sifətlər o qədər də ənənəvi deyil, müəllifin yaradıcılıq axtarışlarının tapıntıdır. **Tale gəlişi** mürəkkəb sifətinin epitet yerində işlətməklə şair demək istəyir ki, nigarın gəlişi aşiq üçün tale qədər önəmlidir, elə taleyin özüdür, qismətdir. **Ruh gedişli** ifadəsi isə nəzərə çatdırır ki, gözəlin gedişi aşiq üçün ruhunun bədəni tərk etməsi kimidir.

İkinci beytdəki **daş bağırlı** mürəkkəb sifəti hazırda dilimizdə işlənən **daş qəlbli**, **daş ürəkli** sifətlərinin sinonimi kimi çıxış etmişdir. Qövsi Təbrizidən misal gətirilən beytdən işlənmiş **daş bağırlı büt** (burada büt sözü gözəl mənasındadır) ifadəsindəki sifət də eyni xarakterdədir.

Üçüncü nümunədə ki **daş canlı**, **şişə bağırlı** kimi mürəkkəb sifətlər də analoji obrazlılıq imkanlarına malikdir.

Dördüncü beytdə gördüyümüz **qiyamət xasiyyətli** mürəkkəb sifəti də mahiyyətinə görə qeyri-ənənəvidir. Şair bu ifadəni gözələ aid etməklə dini rəvayətlərə istinadən onun aşiqə can vermək xüsusiyyətini məcazi şəkildə poetikləşdirmişdir.

Aşağıdakı misallarda da nigarın zahiri gözəlliyinə və xasiyyətinə aid müxtəlif xüsusiyyətləri ifadə edən mürəkkəb sifətlər işlənmişdir:

Gözəl avlaq imiş, **laçın baxışlım**, eşq səhrası.
(Vazi Qəzvini) [8, s. 98]
Bir **can alıcı** könül xərabi,
Evlər yıxılan dil iztirabı.
(Məsihi) [9, s. 133]

Ey **can alıcı** gözlərin, Şahbaz baxışlı,
Şahin yaşınır pənceyi- müjganını görgəc.
(Qövsi Təbrizi) [10, s. 83]

Maraqlıdır ki, **can alıcı** mürəkkəb sifəti bir nümunədə könülə, digərində gözə aid işlənmişdir. Yəni birinci də xarakter əlaməti, ikincidə isə zahiri əlamət bildirir. **Laçın baxışlı** ifadəsi də zahiri əlaməti göstərir. **Evlər yıxılan** mürəkkəb sifəti isə xarakter əlamətini nəzərə çatdırır.

Qövsi Təbrizinin aşağıdakı beyində isə qəlbinə dağ çəkilmiş aşiqin dərdinin böyüklüyü **bel bükücü dağ** ifadəsində ki mürəkkəb sifət vasitəsilə epitetləşdirilmişdir:

Bitab olub, fəğanlar edib yalvarım, nola,

Kim, dözməz bu **bel bükücü dağə** dağlar. [6, s. 142]

Ümumiyyətlə, XVII əsr ədəbi dilimizdə yuxarıda danışılan modelə aid çoxsaylı mürəkkəb sifətlər işlənmişdir.

ƏDƏBİYYAT

1. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1956
2. Azərbaycan ədəbi dili tarixi, dörd cilddə, 2-ci cild (XVII-XVIII əsrlər). Bakı: Şərq-Qərb, 2007
3. Cəfərov S.A. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: ADU nəşriyyatı, 1960
4. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dili tarixi, I hissə. Bakı: Maarif, 1979
5. Hüseynzadə M.H. Müasir Azərbaycan dili (morfologiya). Bakı: Maarif, 1983
6. Xudiyev N. M. Azərbaycan milli ədəbi dilinin yaranması və inkişafı. Bakı: ADPU nəşriyyatı, 1994
7. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Nurlan, 2010
8. Qəzvini V. Divan (nəşrə hazırlayanlar P.Kərimov, A.Ramazanov). Bakı: Nurlan, 2009
9. Məsihi. Vərqa və Gülşah (tərtib edəni, ön söz və şərhlərin müəllifi Ə.Səfərli). Bakı: Şərq-Qərb, 2005
10. Təbrizi Q. Seçilmiş əsərləri (tərtib edəni, ön sözün müəllifi P.Kərimov). Bakı: "Lider" nəşriyyat, 2005
11. Təbrizi S. Seçilmiş əsərləri (tərtibçi, ön söz və şərhlərin müəllifi B. Azəroğlu). Bakı: "Öndər" nəşriyyat, 2004
12. Təbrizi T. Türkcə şeirlər(nəşrə hazırlayan P. Kərimov). Bakı: Nurlan, 2011

SUMMARY

Gumral Safarova

COMPOUND ADJECTIVES CONSISTING OF SIMPLE NOUN AND ADJECTIVE IN 17TH CENTURY AZERBAIJAN LITERARY LANGUAGE

One of the structural types of adjectives is compound adjectives. These adjectives themselves are formed from the combination of different parts of speech.

This article discusses the processing of adjectives consisting of a simple noun and a modifying adjective in the literary language of the 17th century Azerbaijan. In such complex adjectives, a simple noun without any suffix comes first, followed by a modifying adjective. A compound adjective formed from their combination expresses a single meaning. The article talks about numerous complex adjectives belonging to this model in our literary language of the 17th century, and it is shown that they have a wide scope of development.

Key words: *Azerbaijani language, adjective, noun, morphology, XVII century, complex*

SUNAY ƏSƏDOVA
sunayesedova152@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0007-6392-3418

ÇƏMƏNZƏMİNLİ HEKAYƏLƏRİNİN SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

XX əsrin əvvəlləri Azərbaycan nəsrinin inkişafında əsl mənada kamilləşmə dövrü hesab olunur. Bu baxımdan, alim, etnoqraf, demokrat və diplomat, pedaqoq və yazıçı kimi tanınmış Yusif Vəzir Çəmənzəminlinin həyat həqiqətlərini daha dəqiq, təfsilatlı təqdim etmək baxımından bədii nəsrə, hekayələrə verdiyi üstünlük mühüm əhəmiyyət kəsb edir. Təqdim etdiyimiz məqalədə yazıçının hekayələrində sosial-mədəni reallıqlar baxımından hekayələrinin mövzu və ideya xüsusiyyətləri açıqlanmışdır.

Çəmənzəminlinin istənilən hekayəsində təsvir olunan şəraitin çoxsaylı milli amillərlə zəngin olması, təsvir olunan şəraitin asanlıqla müsəlman Şərqinə – Azərbaycana aid olması kimi detallar incələnmişdir. Yazıçının öz hekayələrində təsvir etdiyi personajlarının zahiri görkəminin təsvirində milli elementlərə xüsusi yer verdiyi öz əksini tapmışdır. Ədibin hekayələrində bütün zahiri görkəmlərinə, geyimlərinə əsasən bu tiplərin Şərqdə yaşadığını asanlıqla təyin etməyin mümkünlüyü öz təsdiqini tapmışdır.

Açar sözlər: *nəsr, realizm, hekayə, mövzu, ideya.*

XX əsr ədəbiyyatı xalq məişətinin, xalq dərdi və ehtiyaclarının tərcümanı olmaq baxımından tarixin heç bir dövrü ilə müqayisəyə gəlmir. Azərbaycan ədəbiyyatının çiyinlərindəki ağır yükü daşımaqda nəsrin və onun həmin dövrdə aparıcı janrı olan hekayənin qüdrətli yaradıcılarından biri, "Şaqqulunun xeyir işi" adlı hekayəsi ilə ədəbiyyata gəlmiş dahi Yusif Vəzir Çəmənzəminli idi. Hekayələrində müasir həyata ciddi maraq göstərməsinin ilk səbəbini Yusif Vəzirin realizmində axtarmaq lazımdır. Yusif Vəzir hekayələrində realizm həyatiliyi, xəlqiliyi və sadəliyi ilə səciyyələndirilə bilər. Ədibi əksər hallarda tədqiqatçılar tənqidi-realist kimi təqdim etmişlər. Realizmlə bağlı çoxlu mübahisələri nəzərə alsaq, deməliyik ki, Yusif Vəzir tənqidi realist olduğu qədər də maarifçi-realist olmuşdur. Ədibi yalnız ifşa, tənqid yox, məhz həmin ifşa, tənqid obyektlərinin islahı, inkişafı, dəyişilməsi, müasir həyatla ayaqlaşması – ayılması düşündürürdü.

Yazıçının hekayələrində müraciət etdiyi mövzular XX əsr Azərbaycan ictimai-siyasi həyatından götürülmüşdü və bu mövzular, öz növbəsində hekayələrin ideyasını təyin edirdi. Lakin Yusif Vəzir hekayələrinin ən spesifik cəhətlərindən biri bundan ibarətdir ki, hər hansı bir hekayəti çox zaman bu mövzulardan yalnız birinə aid etmək mümkün olmur. Çox vaxt bir hekayədə həyatın bir neçə eybəcər tərəfi tənqid obyektinə çevrilir. Çəmənzəminlinin hekayələrində qələmə aldığı mövzulara XX əsrin əvvəllərində onlarla qüdrətli qələm sahibi də müraciət etmişdi, lakin Yusif Vəzirdə mövzunun bədii həlli özünəməxsus səciyyə daşıyırdı. "Qüdrətli yazıçı işlənmiş mövzunu qələmə alsa da, onu dahi bir sənətkarlıqla yenidən qurmaqla məsələni həll edir və bu mövzuya təkrar dönmək cəsarəti artıq görünmür" [5, s. 116].

Yusif Vəzirin ifşa üsulu da özünəməxsusdur. İctimai mühitin bədii təcəssümündə müəllif yumoru hekayələrdə daimi bələdçiyə çevrilir. Yusif Vəzir hekayələrində satiranın deyil, məhz yumorun üstünlük təşkil etməsi, müəllifin öz gülüş obyektinə rəğbətindən, güldüyü adama həm də acımasından irəli gəlir. Kinayə isə müxtəlif yollarla meydana çıxır – müəllif bəzən çox ciddi şəkildə müəllif təhkiyəsində sezdirmədən tipin "müstəsna" cəhətlərindən söz açır.

Məsələn, "Kərbəlayi Qulunun təbabətdə çox məşhur olduğu şübhəsiz idi... Kərbəlayinin bir eybi yox idi" ("Cənnətin qəbzi"), yaxud "Ağabala çox qoçaq uşaq idi", söhbət məktəbdən getdiyindən oxucu elə başa düşə bilər ki, yəqin Ağabala yaxşı dərs oxuyur – lakin məlum olur ki, "məktəbdə

cəmi işə hamıdan artıq o, atılırdı, o biri uşaqlar məktəbə həftədə bir güyüm su verəndə, Ağabala beş-altı güyüm verərdi, məktəbi hər gün süpürər, bazara gedib mollaya piti alardı" [4, s. 61].

Burada müəllifin tipin qoçaqlığına işarə etməsi və sonra bu qoçaqlığın nədən ibarət olması haqda verdiyi məlumat gülüş doğurur – oxucu Ağabalanın dərslərini oxumaqda hansı qoçaqlığı göstərdiyini görmək istərkən, gözlədiyindən tamam fərqli bir məlumat alır və bu təzad güclü yumoristik gülüşə çevrilir. Hekayələrin obrazlar aləmi ictimai mühitin bədii təcəssümündə müstəsna rol oynayır. Tip ictimai mühit kontekstində daha güclü görünür.

Hekayələrdə Azərbaycan adət-ənənələrinin təsviri, milli müəyyənliyin ifadəsi xüsusi yer tutur. Elə ilk hekayədəcə toy, elçilik, gəlin gətirmə, evlənmə adətlərinin təsviri kimi elementlər etnoqrafik amillərə Yusif Vəzir yaradıcılığında xüsusi yer verildiyini göstərirdi. Evlənmə zamanı evlənənin rəyinin soruşulmaması, məşşatə Yetərin elçilik üçün dəvət olunması, qızın anasının atasından icazəsiz qəti söz deyə bilməməsi və s. Azərbaycan şəraiti üçün tipik sayıla bilən detallardır [1, s.34].

Hekayələrdə "başmaq seyri", "bildirçin döyüşdürmək", "çöpçülük", "tikə ötürmək" ("Cənnətin qəbzi"), ("Şaqqulunun xeyir işi"), "qız qaçırma" ("Hərrac"), "yaraya peyin doldurmaq", "şişmiş gözə süd sağmaq", "batmış qabırğalara qırsaqqız salmaq" ("Sərhəd məsələsi"), "cəhrə qurub yun daramaq" ("Şaqqulunun xeyir işi") və s. kimi sırf milli koloritlə bağlı xüsusiyyətlərə geniş rast gəlinir.

Qadınlarla kişilərin münasibətləri, ədəb qaydalarının gözlənilməsi də hekayələrdə gözəl bədii ifadəsini tapmışdır. Nənəxanımgilin Şaqquluya almaq istədikləri qızın atası anasına "Hacının qızı" – deyə müraciət edir ki, bu da "Hacı" titulunun islam aləmində böyük şərəf hesab olunması ilə bağlıdır. Usta Ağabala ilə arvadının bir-birlərinin adını çəkməməsi, "ə" deyə bir-birinə müraciət etməsi də milli koloriti özündə əks etdirir. "Sərhəd məsələsində" basaraq Kazımın arvadı Xırdaxanımın davaya tələssə belə, yaylığını başına atıb sonra yüyürməsi, Şaqqulunun qəbul etmədiyi gəlinin başına çarşab örtməsi, elçiliyə gedərkən Yetərin və Nənəxanımın çarşaba bərk-bərk bürünmələri də milli koloriti daşıyan detallardır.

İstənilən hekayədə təsvir olunan şərait çoxsaylı milli amillərlə zəngindir – təsvir olunan şəraitin asanlıqla müsəlman şərqinə aid olduğunu – Azerbaycanda baş verdiyini təyin etmək olur.

Yazıçı tipin zahiri görkəminin təsvirində milli elementlərə xüsusi yer vermişdir. Məlumdur ki, Şərqdə saqqal zahiri görkəm elementi kimi uzun müddət mühüm rol oynamışdır: "Saqqalım yoxdur, sözüm ötmür", "Saqqala salam vermirsən", "Saqqalının altından keçmək", ən təhqiramiz cəza növü kimi "Saqqalını qırxdırmaq" ifadələri bu qənaəti təsdiqləməkdədir. Hekayələrdə Yusif Vəzirin tipin saqqalının təsvirinə, ümumiyyətlə, saqqalla bağlı təfərrüatlara xüsusi diqqət yetirməsi bu tarixi təfəkkür tərzi ilə bağlı olmuşdur. Usta Ağabalanın saqqalına qulluq etməsi, tez-tez hənalayıb qoz yarpağı döşəməsi bu inamla, ənənə ilə bağlıdır və müəllif artıq belə mənasız milli elementlərə ona görə gülmüşdür ki, ustanın saqqalı da onun dünyagörüşü, avamlığı və cəhaləti, cənnətin qəbzi yolunda can verməsi, fikir və düşüncələri kimi mənasız və gülünc təsir bağışlayır. Digər tiplərin də zahiri təsvirində saqqal qeyd olunur. "Müsəlman arvadının sərgüzəşti"ndə qadının ilk əri Mirqasım adlı bir qırmızı saqqaldır [2, s.47].

Yusif Vəzirin hekayələrində bütün zahiri portret detalları kimi saqqal da tipin daxili aləminin açılmasında mühüm əhəmiyyət kəsb edir. Və bu yolda çox vaxt açar rolu oynayır. Hekayələrdə bütün zahiri görkəmlərinə, geyimlərinə əsasən bu tiplərin Şərqdə yaşadığını asanlıqla təyin etmək mümkündür. Arxalıq, çəpkən, cübbə, büzmə, araqçın və s. milli geyim ünsürlərinə hekayələrdə dəfələrlə rast gəlirik – bu milli geyim formaları həm də tiplə yaxından tanışlıqda oxucuya yardımçı olur. "Cənnətin qəbzi"ndə hətta təkcə papaqlarına əsaslanıb bu papağın sahibinin hansı zümrəyə aid olduğunu demək də müəlifin milli geyimə nə dərəcədə mühüm əhəmiyyət verdiyini göstərir.

ƏDƏBİYYAT

1. Ağayev M. Azərbaycan ictimai fikrində milli məsələ (1917-1920-ci illər). Namizədlik Dissertasiyası, Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutu, Bakı: 1991, 161 s.
2. Bayramov Q. Milli mənlik şüurunun ictimai komponenti kimi. Azərb.SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). 1975, .N 4.
3. Çəmənzəminli Y.V. Şəbehgordanlıq. "Qobustan" jur., 1982, N9 1, s.88- 89.
4. Çəmənzəminli Y V. Əsərləri 3 cilddə. Hekayələr, 1-ci cild. B.: Elm, 1966, 508 s.
5. Əlioğlu M. Qüdrətli romançı və hekayələrimiz.. Y.V.Çəmənzəminlinin anadan olmasının 80 illiyi. Azərbaycan gəncləri, 1967, 12 dekabr.
6. Hüseynov A. Müxtəlifliyin birliyi. B.: Yazıçı, 1983, 216 s.
7. Hüseynov T., Y.V.Çəmənzəminli. Azərbaycan SSR "Bilik" Cəmiyyəti. Mühazirəçiyə kömək. B.: 1987, 84 s.

SUMMARY

Sunay Asadova

ARTISTIC CHARACTERISTICS OF CHAMANZAMINLI STORIES

The beginning of the 20th century is considered a period of improvement in the development of Azerbaijani prose. From this point of view, the preference of Yusif Vazir Chamanzaminli for fictional prose and stories in terms of providing a detailed presentation of the truth of life, who is known as a scientist, ethnographer, democrat and diplomat, teacher and writer, is of great importance. The article explains the plot and ideological features of his stories from the point of view of sociocultural realities in the writer's stories.

Details such as the conditions described in any of Chamanzaminli's stories are rich in numerous national factors and that the described conditions easily belong to the Muslim East – Azerbaijan are worked out in detail. The writer gave a special place to national elements in describing the appearance of the characters he describes in his stories. In the writer's stories, one can easily determine by appearance and clothing that all the characters live in the East.

Key words: *prose, realism, story, theme, idea.*

РЕЗЮМЕ

Сунай Асадова

ХУДОЖЕСТВЕННАЯ ХАРАКТЕРИСТИКА РАССКАЗОВ ЧЕМЕНЗЕМИНЛИ

Начало XX века считается периодом совершенствования развития азербайджанской прозы. С этой точки зрения большое значение имеет предпочтение Юсифа Везира Чеменземинли художественной прозе и рассказам с точки зрения предоставления подробного изложения правды жизни, который известен как учёный, этнограф, демократ и дипломат, педагог и писатель. В статье, объяснены сюжетные и идейные особенности его рассказов с точки зрения социокультурных реалий в рассказах писателя.

Подробно проработаны такие детали, что условия, описанные в любом из рассказов Чеменземинли, богаты многочисленными национальными факторами и что описанные условия легко принадлежат мусульманскому Востоку – Азербайджану. Особое место писатель отводил национальным элементам в описании внешности персонажей, которых он описывает в своих рассказах. В рассказах писателя по внешности и одежде можно легко определить, что все персонажи живут на Востоке.

Ключевые слова: *проза, реализм, рассказ, тема, идея.*

TALEH XƏLİLOV
x.taleh@gmail.com
FATİMƏ MƏMMƏDOVA
fatimemm77@gmail.com
Naxçıvan Dövlət Universiteti

SOSİAL ŞƏBƏKƏLƏRİN GƏNC AİLƏLƏRƏ TƏSİRİ

Məqalədə sosial şəbəkələrin gənc ailələrə təsiri araşdırılmışdır. Bu zaman öyrənilmişdir ki, gənc ailələr, cəmiyyətdəki ən dinamik və potensial qruplardan biridir. Ailə birlik, dəstək mənbəyidir. Ailə insanların həyatında ən əsas mühit və möhkəm təşkilatdır. Ailə həmçinin kiçik bir dövlət olmaqla, cəmiyyətin əsasını təşkil edir. Klassik mənada desək, ailə qan qohumluğu, nikah, ümumi büdcə və maraqlara əsaslanan sosial qrupdur.

Açar sözlər: *Sosial şəbəkə, gənc ailə, ər, arvad, boşanma*

Ailə kiçik qrup olmaqla, sosioloqlar tərəfindən sosial-institut kimi də araşdırılır. Sosial-ictimai institut kimi ailə bir sıra funksiyalara malikdir. Bunlara mədəni irsin yeni nəslə ötürülməsi, rekreativ, iqtisadi və təsərrüfat, asudəlik, sosial status və başqa funksiyalar daxildir.

Ailə münasibətləri daxilində bədii və mənəvi dəyərlər öyrənilir, illər keçdikcə nəsillərdən-nəsillərə ötürülür. Həmçinin bu da öz növbəsində sosial funksiyanı icra edir. Belə ki, ailə bir nəslin, digər nəslə adət-ənənə, mədəniyyət, bir sıra dəyərlər ötürülməsini təmin edir. Ailənin cəmiyyətin və dövlətin inkişafında oynadığı rolu mütəfəkkirlər, sosioloqlar da təsdiqləyiblər. Bunlara Kont, Rilza, Le-Pini və s. aiddir. Onlar insanın sosiollaşmasında, milli-mənəvi dəyərlərin gənc nəsillərə ötürülməsində ailəni altqurum hesab edirlər.

Lakin bütün bunlara baxmayaraq, gənc ailələr bir çox problemlərlə üzləşirlər. Bu problemlərə urbanizasiya, işsizlik, sosial şəbəkələrdən mütəmadi istifadə, maddi vəziyyətin aşağı olması, multimediya vasitələri, sosial problemlərin üst-üstə yığılması və s. daxildir [4].

Günümüzdə uşaq şəxsiyyətinin formalaşdırılması və ailə problemləri cəmiyyətimizdə olduqca mühüm, aktuallaşan problemdir. Müxtəlif dövrlərdə "kiçik dövlət"in sosialoji böhranının yaranması, deformasiyalara uğraması, ailə təşkilatının funksiyalarının düzgün seçilməməsi bir sıra inkişaf etmiş ölkələrdə ən çox müzakirə olunan məsələlərdən olmuşdur. Cəmiyyətin həyatında baş verən dəyişikliklər, sosial-iqtisadi vəziyyətlər ailəyə də öz təsirini göstərir. Sosial problemlər nəinki ailə münaqişələrinə, hətta boşanma hallarının yaranmasına gətirib çıxarır. Bəzən isə cinayət faktları belə baş verə bilir.

Qeyd etdiyimiz kimi, ailələrdə yaranan sosial problemlərdən biri sosial şəbəkələrdir. İnternetin yayılması ilə sosial şəbəkələr gənc nəslin həyatında əhəmiyyətli rol oynamışdır. Dünyada 3 milyarda yaxın insan sosial media istifadəçisidir. Sosial şəbəkələrin yaranması isə ötən əsrin 90-cı illərinə təsadüf edir. Bu gün sosial şəbəkələrdən istifadə etməyən çox az miqdarda insana rast gələ bilərik. Sosial şəbəkələr gündəlik həyatımızın mühüm tərkib hissəsi olsa da, onların da müsbət və mənfi cəhətləri vardır. Müsbət cəhətləri aşağıdakılardır:

1. İnsanlar arasında əlaqələrin artırılması;
2. Yeni insanlarla tanışlıq;
3. Aktual məlumatların paylaşılması;
4. İnformasiyanın açıq və rahat əldə edilməsi, informasiya paylaşımının sürətlənməsi;
5. Mütəxəssislərdən təlimlər almaq;
6. Faydalı tədbirlərə dair məlumatlar;
7. Yaradıcı paylaşımlar;
8. İş əlaqələrinin güclənməsi [2].

Sosial şəbəkələr sonsuz informasiya okeanı olmaqla, hər hansı yeni məlumatı asan və cəld şəkildə tapmağımıza köməklik edir. Bu platformalar, insanların bir-biri ilə əlaqə yaratmalarına, fikir və həyat fəlsəfələrini paylaşmağa, yeni məlumatları əldə etməyə və məlumatları paylaşmaq imkanı verir.

Sosial şəbəkələrin rolu artmaqdadır və onlardan müxtəlif məqsədlərlə istifadə olunur. Ən çox istifadə olunan sırasında Youtube, İnstagram, Facebook, Twitter və s. vardır. Sosial şəbəkələr insanlara bir çox seçimlər təqdim edir ki, bunlara da şəxsi məqsədləri, iş imkanları, əyləncələri daxildir.

Günümüzdə gənc ailələr artıq aktiv şəkildə sosial şəbəkələrdən istifadə edir. Sosial şəbəkələr gənc ailələrə karyeralarını inkişaf etdirmək, təhsil üzrə məlumatlar axtarmaq, ailələr, dostlar və tanışların yeniliklərini izləmək imkanını verən faydalı bir resursdur.

Qeyd olunduğu kimi həmçinin sosial şəbəkələrin mənfi cəhətləri də vardır. Bunlar aşağıdakılardır:

1. İnsanların psixoloji sağlamlığına təsiri;
2. Depressiya riski;
3. İnternet bağımlılığı;
4. İnternet dolandırıcılığı;
5. Qeyri-real münasibətlərin yaranması;
6. Ünsiyyət problemi;
7. Ailədaxili münasibətlərin pozulması;
8. İnsanların fiziki, mənəvi sağlamlığına təsiri;
9. Zaman itkisi [3].

Son zamanlarda sosial şəbəkələrin ailə dəyərlərinə təsiri kəskin şəkildə artmışdır. Sosial şəbəkələr ailə üzərində müəyyən təsirlər yaradır. Bunlardan birincisi, sosial şəbəkələrin insanların zamanını çox almasıdır. Bundan başqa, həm də insanı real həyatdan uzaqlaşdırır. Xüsusilə də böyüməkdə olan gənc nəslin psixikasına ciddi zərbələr vurur, asılılıq yaradır.

Bəzən insanlar öz sıxıntılarından və stresslərindən uzaqlaşmaq üçün sosial şəbəkələrdən istifadə edirlər. Lakin aparılan araşdırmalar göstərir ki, sosial media stresi azaltmır, əksinə onu daha da yüksək həddə çatdırır. Bu ailədə də belədir. Bir çox gənc ailə üzvləri gərgin iş rejimindən sonra qalan vaxtlarını da sosial şəbəkələrdə keçirirlər. Bu həm onların sağlamlığına, həm də böyüməkdə olan gənc və yeniyetmə uşaqların həyatına mənfi təsirini göstərir.

Digər bir yaranan problem isə ünsiyyət problemidir. Baxmayaraq ki, sosial şəbəkələr bizim başqa insanlarla ünsiyyət qurmağımıza şərait yaradır lakin bəzən özümüz də bilmədən real ünsiyyətimizdə problemlər baş verə bilir. Gənc ailə üzvlərinin bir-biri ilə ünsiyyətində soyuqluq yaranır. Övlad-valideyn münasibətləri düzgün qurulmur [6].

Sosial şəbəkələrin təsiri, insanların başqa vacib məsələlərə vaxt ayırmasına mane olur. Bu da ev içi əməkdaşlığı azaldır, ailə üzvləri arasında əlaqələri minimum həddə çatdırır. Sosial şəbəkələrin səmərəli istifadəsi əsasında isə gənc ailə üzvləri arasında düzgün əlaqələr qurmaq və əməkdaşlığı gücləndirmək mümkündür. Sosial şəbəkələr, gənc ailə üzvləri arasında yalnızlaşma, bir-birlərindən uzaqlaşma hissini yarada bilər.

Sosial şəbəkələr həmçinin ailə üzvləri arasında paylaşım mübahisələrinə də səbəb ola bilər. Bəzi paylaşımlar qərəzlərə və müxtəlif düşüncələrə səbəb olur. Bunun da nəticəsində qayda pozuntuları, mübahisələr yaranır [5].

Xüsusilədə, xanımların həyat yoldaşlarının xəbəri olmadan sosial şəbəkələrdən istifadəsi, qurulan dostluq sonda ciddi ixtilaflar yaradır.

Psixoloqlar sosial şəbəkələrdən istifadənin uşaqlara mənfi təsir etdiyini bildiriblər. Onların fikrincə, sosial şəbəkələrin uşaqların əxlaqına, psixologiyasına mənfi təsiri mövcuddur. Hətta uşaqlarda fiziki sağlamlıq barədə də ciddi problemlər yaranır. Bəzən bir sıra sosial şəbəkələrdə uşaqların qarşısına yaşına uyğun olmayan informasiyalar çıxa bilər və bu onun şüuraltında mənfi fikir formalaşdıra bilər. Bunlara spirtli içkilərin, tütün məmulatlarının reklamı və digər bu xarakterli

informasiyalar aiddir. Belə informasiyalar nəinki uşaqlarda mənfi fikir oyadır, gələcəkdə onların həyatında müəyyən fəsadlar da yaradır. İnkişaf etmiş ölkələrin çoxunda belə reklamların, informasiyaların qarşısını almaq üçün filtr proqramlarından istifadə olunur.

Tədqiqatlar göstərir ki, daha çox qız uşaqları "kiber" təqiblərə məruz qalır, onlarda psixoloji travmaların yaranmasına səbəb olur. Bir çox valideynlər, uşaqlarına sərf edəcək vaxtı sosial şəbəkələrdə keçirirlər. Bu da uşaqların valideyn qayğısından kənar böyüməsinə səbəb olur [7].

Sosial şəbəkə aludəçiliyi olan ailələrdə uşaqların ünsiyyət tələbatlarının ödənilməsində boşluqlar yaranır. "Küçə qrup"larının uşaqlara təsiri özünü büruzə verir. Uşaqlar tək qaldıqları üçün ailədən kənarda özünə dost, həmsöhbət axtarır. Beləliklə, bir müddət ünsiyyətdə olduqdan sonra "küçə qrup"ları onlar üçün əhəmiyyətli statusa malik olur. Hər bir valideyn uşağının hansı saatda, harada, nə ilə məşğul olduğu barədə ciddi şəkildə maraqlanmalıdır. Valideyn özü uşağa nümunə olmalıdır. Məsələn, valideynlər uşaqlara müsbət vərdişləri təlqin etmək üçün bu vərdişləri ilk növbədə özləri etməlidirlər. Təbii ki də bütün günü sosial şəbəkədə "yatan" valideyn uşağına örnək ola bilməz.

Həqiqətən də sosial şəbəkələr gənc ailələrdə böyüklərin də psixikasına təsir edir. Burada vaxt keçirən şəxslər bir növ təsir altına düşür, manipulyasiyaya uğrayır. Tənqid, təhqir, mübahisələr və bu kimi halların yaranması insanların psixikasını məhv edir.

Sosial mediadan istifadə edərkən, bəzən insanlar mükəmməl insanlara və həyatlara baxıb özlərini müqayisə edirlər. Əlbəttə ki, hər kəsin maddi imkanı eyni dərəcədə deyil. Ən çox da ailələrdə gənc uşaqların özlərini müqayisə etdiyinin şahidi oluruq. Bu da onları yetərsiz hiss elətdirə bilər. Lakin onlar unudurlar ki, hər şey orda göründüyü kimi deyil. Daha çox orda vaxt keçirilməsi, nəinki uşaqların hətta böyüklərin belə özgüvənini, özdəyərini aşağı sala bilər [2].

Mütəxəssislər hesab edirlər ki, sosial şəbəkələr insanları asosiallaşdırır. Sosial şəbəkələrə aludəçilik, ailə üzvlərinin bir-birlərinə laqeyd münasibətinə, kobud rəftarına, aldatma hallarına gətirib çıxarır. Bu hallar da sonda ailələrin dağılmasına səbəb olur. Statistika göstərir ki, 70% ailələrdə boşanma hallarının yaranmasının səbəbi sosial şəbəkələrdir.

Sosial şəbəkələrdən istifadə, real münasibətlərin yerini ala bilmir. Beləliklə, insanlar özlərini təcrid olunmuş kimi hiss etməsinə səbəb olur. Sosial şəbəkələrin yaratdığı problemlərdən biri də insanlar da yuxu probleminin yaranmasıdır. Yeniyetmə və gənclərin əksəriyyəti çox zaman uzun müddət sosial şəbəkələrdən ayrıla bilmirlər. Tədqiqatlardan müəyyən edilmişdir ki, sosial şəbəkələrdə aktivlik daha çox gecə saatlarında olur. Belə olduqda isə onlarda ciddi şəkildə yuxu problemi yaranır. Eyni zamanda bütün bunlar gənclərin psixologiyasına zərər vurmaqla yanaşı, təhsillərinə də öz təsirini göstərir. Əksər psixoloqlar yuxu probleminin yaranmasının səbəbini sosial şəbəkələrdən mütəmadi istifadədə görürlər. Belə ki, yuxusuz insan aqressiv olur, düzgün qərarlar qəbul edə bilmir. Yaddaş zəifliyi də məhz yuxu problemindən yarana bilər.

Sosial şəbəkələdən istifadə bağlı bir neçə gənc ailə ilə interviyu apardıq. Ailələrə aşağıdakı suallar verildi:

1. Sosial şəbəkələrdən istifadədən məmnunsunuzmu;
2. Sizcə, sosial şəbəkələrdən istifadənin faydalı cəhətləri və mənfi cəhətləri nələrdir;
3. Sosial şəbəkələrdən istifadə üçün gün ərzində nə qədər vaxtınızı ayırırsınız;
4. Uşaqların sosial şəbəkədən istifadəsi ilə bağlı məhdudiyyət qoyursunuzmu;
5. Sizin sosial şəbəkələrə münasibətiniz necədir;
6. Uşaqların sosial şəbəkələrin fəsadlarından qorunmaları üçün hansı tədbirləri üstün tutardınız;
7. Sizcə, sosial şəbəkələr ailə üzvləri arasındakı əlaqələrə nə kimi təsir göstərir;
8. Sosial şəbəkələrin əsas funksiyaları nələr olmalıdır;
9. Sizin fikrinizcə, sosial şəbəkələrdən hansı məqsədlər üçün istifadə edilməlidir [1].

Təbii ki, yanaşmalar və verilən cavablar müxtəlif oldu. Bəzi ailələr sosial şəbəkələrin faydalı tərəflərini bildirdilər, bəziləri isə onlardan istifadənin mənfi olduğunu bildirdi. Hər 5 ailədən 3-ü isə daha çox bu şəbəkələrin zərərli cəhətlərini bildirdilər. Bütün bunlarla yanaşı, uşaqlardan əlavə ailədə

böyüklərin də vaxtının çox hissəsinin sosial şəbəkələrdə keçirdiyinin şahidi olduq. Tədqiqatlardan da göründüyü kimi sosial şəbəkələr hər kəsə fərqli şəkildə təsir edir.

Ümumilikdə belə bir nəticəyə gələ bilərik ki, sosial şəbəkələrdən səmərəli istifadə edilməlidir. Ekspertlər hesab edir ki, valideyn nəzarəti daim uşaqlar üzərində aparılmalıdır ki, uşaqlar hər sosial şəbəkədən istifadə etməsinlər. Nəzarət olmayanda uşaqlar düzgün inkişaf etmirlər. Ailələr sosial şəbəkələrdən istifadənin tənzimlənməsi üçün müəyyən qaydalar tətbiq edə bilərlər. Məsələn, hər gün bir neçə saat sosial şəbəkədən uzaq olmaq, günün müəyyən hissəsində sosial şəbəkələrdən istifadə əvəzinə kitabların oxunması və s. aid ola bilər. Bu qaydalara əməl olunduqda, sosial şəbəkələrin təsiri azala bilər və gənc ailələrin real həyat keyfiyyəti yüksələ bilər. Psixoloqların fikrincə, ailə üzvləri sosial şəbəkələrin mənfi təsirlərini azaltmaq üçün birgə çalışa bilərlər. Beləliklə, onlar effektiv nəticə əldə edərlər.

ƏDƏBİYYAT

1. http://www.anl.az/down/meqale/yeni_az/2011/aprel/170916.htm
2. https://teleqraf.com/news/toplum/229336.html
3. https://www.bizimyol.info/az/news/352050.html
4. https://sia.az/az/news/social/850738.html
5. https://modern.az/musahibe/322921/internet-sosial-sebekeler-aile-deyerlerimizi-suretle-daidir-komite-sedrilemsahibe/
6. https://www.bbc.com/azeri/international-42681055
7. https://axar.az/news/toplum/26553.html

SUMMARY

Taleh Khalılov, Fatıma Mammadova

THE EFFECT OF SOCIAL NETWORKS ON YOUNG FAMILIES

The article examines the impact of social networks on young families. At this time, it was learned that young families are one of the most dynamic and potential groups in society. Family is a source of unity and support. Family is the most basic environment and solid organization in people's lives. The family is also the foundation of society, being a small state. In the classical sense, a family is a social group based on blood kinship, marriage, common budget and interests.

Key words: *Social network, young family, husband, wife, divorce*

ULVIYYA FARAJOVA
ulviyyafaraj@gmail.com
Nakhchivan State University

JEYRAN GULIYEVA
PhD in Philology, Associate Professor

CONVERSION AS A PRODUCTIVE WAY OF WORD FORMATION

Conversion, also known as zero derivation, is a remarkable word formation process in which a word changes its grammatical category, such as transitioning from a noun to a verb, an adjective to a noun, or vice versa, without altering its form. Conversion, a productive method of word formation, involves altering the grammatical category of a word without changing its form. This process is highly efficient, as it allows speakers to create new words without the need for additional morphological changes. By repurposing existing vocabulary, conversion contributes to the expansion and enrichment of a language's lexicon. This paper explores the mechanisms and implications of conversion in language evolution, highlighting its role in linguistic creativity and communication. Through analysis of examples across different languages, we examine the semantic nuances and syntactic patterns associated with conversion, demonstrating its versatility and adaptability. Additionally, we discuss the cognitive processes involved in both the production and comprehension of converted words, shedding light on how speakers navigate linguistic structures to convey meaning effectively. Understanding conversion as a productive method of word formation provides valuable insights into the dynamic nature of language and the mechanisms driving its evolution. This subtle yet powerful transformation underscores the flexibility of English and allows speakers to adapt their language creatively and efficiently.

Key words: *Conversion, transformation, productive, modify, versatility, adaptability*

Introduction

Language, being a mobile sign system, does not remain at the same level, it develops simultaneously with the development of society. In connection with the changes taking place in all spheres of human life, with the emergence of new objects and phenomena of reality, and with the development of science, culture, and technology, there is a need for new words. Vocabulary is replenished through the processes of word formation. Word formation is associated with grammar, in particular with morphology. New words are written by the grammar of the English language, modeled on existing words, and refer to a certain part of speech. There are three groups of word formation methods depending on the result: word production, which includes affixation and conversion.

In this article, we'll deal with the conversion and treat it as a non-productive way. Conversion (from Latin "conversion", "transformation") is a way of forming new words, in which the external form does not change, but the word moves to another grammatical category, acquiring new functions and a new meaning. When a new word is formed with the help of conversion, not only its grammatical meaning changes, but also its lexical meaning, which leads to the emergence of a new word

In conversion, the indicator of the converted word is its grammatical structure. Not only syntactic compatibility with other words is taken into account, but also the paradigm of the derived word. The grammarian draws attention to the fact that although the converted word retains the meaning of the original one, nevertheless, in the future there is a discrepancy in meaning between them [2, p. 64]. Conversion is most common as a way of word formation in languages where many morphemes are null, such as in English and Chinese. Conversion is characteristic of the English language due to the analytical nature of its structure. The lack of morphological markers that indicate classes and forms that designate the parts of speech that a given word belongs to is the cause of the extensive usage of conversion in modern English. Conversion as a way of word formation is also

observed in the Russian language. For example, a beaten person (participle) and beaten truths (adjective), a working day (adjective) and a construction worker (noun), a day off (adjective) and a day off (noun), graduation party (adjective) and graduation (noun). However, in English, the conversion is more productive.Conversion is a sort of word construction, not a structural relationship pattern. The latter, however, is of the utmost importance and interest. Synchronously, both forms of pencil (n), pencil (v), and sleep (n), sleep (v) must be handled as instances of patterned homonymy. However, when the study is diachronic, it is crucial to distinguish between the cases of conversion and treat them separately.There is no way to categorize these countless situations because they are utterly outside of the regular system. On the other hand, conversion might be thought of as the most common way to format English verbs. In actuality, there are no competing forms of English verbs—aside from the stand-up variety—because their composition and prefixation are both extremely rare. Denominal verbs with the suffixes -ate, -ify, and -ize come to mind, although these are stylistically restricted to educated and technical forms.To down, to encore, and to pooh-pooh are just a few examples of verbs derived from adverbs and other elements of speech that are well-established in the English language. This pattern is quite fruitful, thus numerous neologisms can be used as examples, such as to chair, which means “to preside over a meeting,” and to the campaign, which means “to organize a campaign. Other examples include the following: to screen “to make a motion picture of a novel or play,” to star “to appear, or to present as a star actor. The main sign of conversion as a word-formation process is the formation of a new designation with new content. A distinctive characteristic of conversion is that there is a rethinking, a turn of the motivating basis, and its consideration from a new angle. the identity of the unit that motivated the process with the unit motivated by it. It is this fact that causes difficulties both with determining the direction of derivation (what is formed from what), and with determining the very secondary, derivative nature of the unit under study” During conversion, some changes occur in the derived word. First, there is a change in the semantics of the derived word in comparison with the original stem. For example, an adjective that turns into a noun ceases to denote a sign of an object and begins to express the object. Accordingly, the noun turned into a verb no longer denotes an object, but expresses the action of the object. Secondly, the compatibility of derivative words changes. So, a noun can be used in any position in a sentence, and, passing into the class of adjectives, it is used only before a noun. Thirdly, the paradigm of the word is changing. The transitional word takes on all the grammatical features of the new part of speech. For example, a noun, passing into the category of adjectives, like adjectives, ceases to change in cases, numbers and categories of possessiveness. O.S. Akhmanova presents and elaborates on the concept of a paradigm in her explanation of the essence of conversion. She writes: “Conversion is the formation of a new word by translating this stem into another paradigm of inflection” [1, p.93]. Examples make clear how the stem changes during conversion in terms of syntactic function and paradigm, or more specifically, in distribution. The semantic modifications seem a little disorganized at first. However, a closer examination will reveal some indications of patterned relationships, particularly if one looks at groups that are semantically related. The verb's lexical meaning identifies the tool, the actor, the location, the reason why something happened, the outcome, and the moment of the event. The classification is far from exhaustive, and the examples following are just meant to illustrate this. Similar to other verbs that paint a clear picture, they frequently take on a persistent metaphorical meaning. Although the polysemantic verbs among them will also render other meanings, for example, eye means “to watch carefully” (with eyes), finger means “to touch with the fingers,” hand means “to give or help with the hand,” elbow means “to push or force one's way with the elbows,” and toe means “to touch, reach, or kick with the toes.” This pattern is also followed by the word head, which also has the meaning “to strike with one's head” (as in football) in addition to its most common meaning “to be at the head of.”

When a noun refers to a location, a structure, a container, or something similar, the converted verb's meaning will be locative. There are many more sense groups that are either less systematic or less numerical, including, for example, instrumental relations, and the list of sense groups given above is by

no means comprehensive. Any other part of speech can be converted into a noun, including adverbs: the bounding vitality that had carried her through a life that had been marked by quite sharp ups and downs. However, there are many instances of repeated formations from the same polysemantic source, each new formation being based on a different meaning. Kostenko looked into some interesting cases of this.

Methods

This article employs a multidisciplinary approach, integrating historical linguistic analysis, corpus linguistics, and comparative studies. By examining historical texts, and contemporary language databases, and conducting comparative analyses, the research aims to uncover patterns and trends in word formation.

Discussion

Conversion, or zero derivation, operates as the silent power behind English's expressive versatility. By seamlessly transforming words from one grammatical category to another, speakers tap into a reservoir of linguistic resources, enhancing their ability to convey thoughts, emotions, and actions. This process illuminates the intricacies of language evolution, emphasizing English's ability to shape itself according to the ever-changing needs of its users. As long as language continues to mirror the dynamic nature of society, conversion will remain an indispensable tool, silently enriching our expressive palette and ensuring the language's enduring relevance.

REFERENCES

1. Akhmajian Adrian. Linguistics. An Introduction to Language and Communication. The MIT Press Cambridge, Massachusetts London, England. 2001
2. Ralph W. Fasold/ An Introduction to Language and Linguistics.Cambridge University Press. 2016
3. Allan, Keith, and Burridge, Kate. “Euphemism & Dysphemism: Language Used as Shield and Weapon.” Oxford University Press, 2006.
4. Aronoff, Mark, and Fudeman, Kirsten. “What Is Morphology?” John Wiley & Sons, 2011.
5. Barber, C. (2009). The English Language: A Historical Introduction.

AYXAN HÜSEYNLİ
huseyni_ayxan@mail.ru
ORCID ID: 0000-0002-3040-7333

MƏKTƏBƏQƏDƏRYAŞLI DİZARTRİYALI UŞAQLARDA NİTQ İNKİŞAFI LƏNGİMƏSİNİN QARŞISININ ALINMASI YOLLARI

Məqalə kiçikyaşlı uşaqların nitq qüsurlarının pedaqoji və psixoloji cəhətdən öyrənilməsindən bəhs edir. Məqalədə məktəbəqədər və kiçik məktəbyaşlı uşaqların nitq qüsurlarının baş vermə səviyyələri göstərilir və onların ümumi müddəaları qeyd olunur. Xüsusilə məktəbəqədər yaşlı uşaqlarda uşaqlarda yaranan nitq qüsurları dizartriya kimi xarakterizə olunur. Dizartriyanın ilkin əlamətləri kimi nəzərə alınır. Bütün bunlar kiçikyaşlı uşaqların nitq qüsurlarının öyrənilməsi və ailədə, məktəbdə işin düzgün təşkili fonunda şərh olunur.

Açar sözlər: *Psixi təsirlər, nitq qüsurları, dizartriyalı hallar, fonetik cəhət, leksik – qrammatik tərəf.*

Azərbaycan Respublikasında şəxsiyyətin sağlamlığı, psixi inkişafı, intellektual inkişafı, təlim-tərbiyəsi dövlətin xüsusi diqqət yetirdiyi məsələlərdən birinə çevrilmişdir. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 18.1. maddəsində yazılır: "Məktəbəqədər təhsil, təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətin formalaşmasını təmin edir". Məktəbəqədər yaş dövründə uşaqlarda özünü göstərən çatışmazlıqlarının, o cümlədən nitq qüsurlarının aradan qaldırılması onların məktəbə hazırlanması işini asanlaşdırır. Bunun üçün məktəbəqədər yaş dövrlərində özünü göstərən nitq qüsurlarının məqsədyönlü, planlı və mütəşəkkil olaraq islah olunması belə uşaqların məktəbəhazırlıq işlərini təmin etmiş olur.

Material və metodlar

Nitq qüsurlarının daha mürəkkəb formaları dilin fonetik-fonematik və leksik-qrammatik tərəflərini müəyyən edir və nitqin ümumi inkişaf geriliyini (uşağın ilk qığıltısından əhatəli nitqinə qədər, ancaq təyin olunmuş fonetik və leksik-qrammatik zəifliyin göstəriciləri olan) ortaya çıxarır.

Nitqin ümumi inkişaf geriliyinin 3 səviyyəsini məşhur rus pedaqoqu A.E.Levina müəyyən etmişdir.

Birinci səviyyə: Göstəricilərinə görə natamam sayılan və ya demək olar ki, ünsiyyətin natamam sözlü vasitəsinin öz əksini tapması ilə təyin olunur. Bu səviyyənin əsasını səs və səs təqlidinin kompleksləri, nitq inkişafında lüğət ehtiyatının kasıblığından ibarət olub və münasibətlərdə anlaşılmayan aksentlərdən istifadə olunan, aydın olmayan nitqdir.

İkinci səviyyə: Onunla xarakterizə olunur ki, dizartriya ünsürləri daşıyan nitq imkanları daha geniş olan uşaqların, ətraf aləmlə arasındakı ünsiyyət münasibətlərində yanlız sözlərin hecaları, aksentlərlə deyil, eyni zamanda fonetik və qrammatik baxımdan təhrif olunmuş nitq parçalarından ibarətdir.

Üçüncü səviyyə: Özündə yetəri qədər inkişaf etmiş, fonetik və leksik-qrammatik qüsurları cəhətdən daha kobud olmayan, lakin fonetik, leksik və qrammatik tərəfləri ilə ayrı-ayrı qüsurları özündə ehtiva edən danışıq nitqini əks etdirir.

Bu qanunauyğunluqlara nəzərən loqopediya dili sistemli formada öyrənir və qanunauyğunluqdan kənarda qalan halları müəyyənləşdirir və həlli yolları axtarır.

Bütün səviyyələr üzrə görülən işlər müvafiq prinsiplərə istinad etməklə, həyata keçirilir. Həmin prinsiplərdən biri də psixi inkişafın başqa cəhətləri ilə nitq qüsurlarının əlaqəsi prinsipi adlanır.

Qeyd etmək vacibdir ki, uşağın psixikası və psixi prosesləri olan, intellektual, sensor və effektiv iradi sferalar, nitq fəaliyyəti ilə qarşılıqlı əlaqədə formalaşır və inkişaf edir. Uşaqların ehtiyaclarının müəyyən olunması, bilik və bacarıqlarının formalaşdırlması, problemlərin həlli istənilən mühitdə

planlaşdırılan və yerinə yetirilən işin səviyyəsindən, mütəxəssislərin qarşılıqlı fəaliyyətindən asılıdır [Sadıqov F.B., 2018, 242]. Dizartriya ünsürlərini daşıyan uşaqlarda müxtəlif psixi proseslərin özünəməxsus formada fərdilik göstəricilərinə uyğun olaraq, anormal uşaqlarda hər hansı şəkildə özünü göstərən nitq qüsurunun yaranması, anlama səviyyəsinə necə təsir etdiyini nəzərə almaq lazım gəlir.

O da nəzərə alınmalıdır ki, görmə analizatorunun kompensator imkanlarının azalması və görmə zəifliyinin yaranması ilə aleksiya və aqrafiya kimi qüsurlar özünü daha ağır formada göstərir, hətta reallaşa bilir. Ona görə də nitq qüsurları olan, yəni dizartriya ünsürləri özünü göstərən uşaqlara ilk növbədə, psixi təsir göstərmək lazım gəlir.

Psixi təsir insan psixikasında uzun müddət və hətta ömür boyu davamlı olaraq qalır [Həsənli S., 2013, 13]. Psixi təsirləri nitqi qüsurlu 3 yaşlı uşaqlara göstərmək faydalı hesab olunur. Çünki dizartriya ünsürləri əsasən 3 yaşdan etibarən özünü göstərməyə başlayır.

Bəzi valideynlər, bunu adi hal kimi qəbul edirlər. Elə zənn edirlər ki, belə nitq qüsurları yaş xüsusiyyətləri ilə bağlıdır. Ona görə, belə uşaqlara psixi təsirlərin göstərilməsi özünü göstərən dizartriya ünsürlərinin inkişaf etməsinin qarşısını alır.

Psixikanın müxtəlif tərəfləri ilə nitq qüsurları arasındakı əlaqənin düzgün öyrənilməsi, yarana biləcək nitq qüsurlarında özünü göstərən psixi proseslərə təsir etmə yollarını müəyyənləşdirməyə kömək edir.

Məktəbəqədər yaş dövründə uşaqlarda özünü göstərən nitq qüsurlarının həm pedaqoji cəhətdən öyrənilməsi, həm də psixoloji cəhətdən aydınlaşdırılaraq, müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Psixoloji cəhətdən qorunmayan və təsirlərə məruz qalan uşaqlar əsəbi olur, aqressivlikləri ilə seçilir [Sadıqov F.B., 2017, 202]. Məktəbəqədər yaş dövründə, yəni 3-4, 5-6 yaş dövründə müxtəlif səbəblər üzündən (anadangəlmə travmalar, sonradan qazanılan travmalar və bu kimi səbəblər nəzərdə tutulur. – A.H.) uşaqlarda kəkələmələr, yaxud tıntınlıq əlamətləri özünü büruzə verir. Bəzən hiss olunmayan, bəzən isə daha kəskin şəkildə hiss olunan dizartriya əlamətləri ilkin olaraq, ailə mühitində aşkara çıxır. Lakin bəzi valideynlərin səhlənkarlığı, bəzilərinin biganəliyi, bəzilərinin isə övladlarına qeyri-səmimi münasibətinin olması səbəbindən, belə uşaqlarla vaxtında korreksiya işləri aparılmır. Başqa sözlə desək, ailə mühitində ciddi nitq qüsurları olan uşaqların nitq qüsurlarını pedaqoji və psixoloji cəhətdən öyrənilməsinə biganə qalan valideynlər unudurlar ki, məktəbəqədər yaş dövründəki nitq qüsurları vaxtında korreksiya olunmadığı hallarda məktəbəhazırlıq illərində və ya məktəb illərində belə qüsurların aradan qaldırılması çətinləşir. Çünki ildən-ilə özünü göstərən ağırlaşmalar islah olunmaz hala gətirib çıxarır. Məhz ona görə məktəbəqədər yaş dövründə özünü büruzə verən dizartriya hallarının korreksiyasını məqsədyönlü şəkildə həyata keçirmək lazımdır ki, uşaqlar məktəbə getməyə tam hazır olsunlar. Bunun üçün, dizartriya hallarının baş verdiyi vaxtdan başlayaraq, həmin halların pedaqoji və psixoloji cəhətdən düzgün öyrənilməsi lazım gəlir. Məktəbəqədər yaşlı uşaqlarda özünü göstərən dizartriya hallarının məqsədyönlü, planlı, mütəşəkkil olaraq həyata keçirilməsi işinin pedaqoji cəhətdən öyrənilməsi deyəndə, valideynlərin loqopedlərlə və pedaqoji işçilərlə birgə fəaliyyətləri nəticəsində hazırlanan iş modeli üzrə fəaliyyət istiqamətləri nəzərdə tutulur. Buraya aşağıdakılar daxildir:

- Ailədə 4-5 və ya 5-6 yaşlarından etibarən dizartriyalı uşaqların müəyyənləşdirilməsi və loqopedə müraciət edilməsi;
- Valideynlərin loqopedlərlə iş birliyi nəticəsində dizartriyanın səviyyəsinin müəyyənləşdirilməsi;
- Valideynlər tərəfindən loqopedlərlə yanaşı, pedaqoji işçilərin köməyindən istifadə edilməsinin planlaşdırılması;
- Pedaqoji işçilərin göstərilənlərdən birinin məqsədəuyğun hesab edilməsi: Azərbaycan dili və ədəbiyyat müəllimi, dilçilik üzrə mütəxəssis, qüsurlu uşaqlarla işləyən metodist, nitqi qüsurlu uşaqlarla bağlı korreksiya pedaqogikası sahəsində tədqiqat aparan mütəxəssis.

Göstərilənlərin məktəbəqədər yaşlı uşaqlarda nitq qüsurlarının pedaqoji cəhətdən öyrənilməsinin nümunəvi iş modeli də adlandırmaq olar. Hansı ki, bu modelə, ilk növbədə, uşaqlarla

həyata keçirilən didaktik işlərin planlaşdırılması lazım gəlir. Həmin didaktik işlərə qruplaşdırmalar üzrə, işlərin daxil edilməsi daha məqsədəuyğundur. Qruplaşdırmalar üzrə işlər deyəndə, müəyyən edilən nitq qüsurlarının qruplaşdırılması nəzərdə tutulur. Birinci qrupa elə qüsurlar aid edilir ki, onlar yalnız fonetik tərəfdən özünü göstərən qüsurlar kimi qeydə alınır. Bu cür qüsurlar müxtəlif səbəblərdən yaranır. Ən başlıca səbəb artikulyasiya aparatında bəzən kobud, bəzən də kobud olmayan quruluş qüsurları özünü daha tez-tez büruzə verir. İkinci səbəb isə, düzgün olmayan nitq mühitinin təsirindən yaranan səbəblər kimi qeydə alınır. Hər iki səbəbdən uşaqlarda müəyyən səslərin tələffüzü təhrif edilmiş şəkildə formalaşmağa başlayır. Qarşısı alınmadıqda artikulyasiya aparatında mövcud olan belə quruluş qüsurlarının və eləcə də, düzgün olmayan nitq mühitinin təsirindən yaranan nöqsanlı tələffüz epizodları daimi hala keçir və həmin uşağı bütün ömrü boyu müşayiət edir. Nitq səslərinin (fonemlərinin) dəqiq differensiallaşdırmaq bacarığının inkişafdan qalması, eşitmə vasitəsilə səsləri qavramanın geriliyi, uşaqlarda eşitmənin formalaşmaması, fonematik qavramanın ləngiməsi isə digər səbəb kimi xarakterizə olunur [Dostuzadə D.Ə., 2017, 27].

Nəticə olaraq qeyd etmək lazımdır ki, nitq qüsurlarının pedaqoji yönümdən qarşısının alınması istiqamətində birgə işin təşkili, məktəb, loqoped, ailə münasibətlərinin düzgün qurulması, bu işin daha məqsədəuyğun formada həyata keçirilməsini təmin edəcəkdir.

Məqalənin aktuallığı. Məktəbəqədər və kiçik məktəbyaşlı uşaqlarda nitq qüsurlarının islahı günün aktual məsələlərindən biridir. Məktəbəqədər dövründən etibarən, valideynlərin dizartriyalı uşaqlar haqqında biliklərə yiyələnməlidir ki, nitq qüsurunu yaradan faktorların ilkin göstəricilərini müəyyənləşdirməyi bacarmaqla, ümumilikdə daha mürəkkəb nitq qüsurlarının qarşısının alınmasına nail olunsun. Eyni zamanda, nitq qüsurları sahəsində həyata keçirilən lazımi işlərlə bərabər, gələcəyə hesablanan keyfiyyət göstəriciləri üzərində yeni təsəvvürlərə istiqamətlənmək lazımdır.

ƏDƏBİYYAT

1. Dostuzadə D.Ə. Dizartriya. Dərslik. /D.Ə.Dostuzadə, F.B.Sadıqov – Bakı: ADPU, - 2017. – 206 s.
2. Həsənli S. Psixologiya. Dərs vəsaiti. / S.Həsənli - Bakı: Elm və təhsil, - 2013. - 285 s.
3. Sadıqov F.B. Korreksiya pedaqogikasına giriş / F.B.Sadıqov - Bakı: ADPU, - 2017. – 199 s.
4. Sadıqov F.B. Korreksiya pedaqogikası / F.B.Sadıqov - Bakı: Maarif, - 2018. – 300 s.

SUMMARY

Aykhan Huseynli

WAYS TO PREVENT SPEECH DEVELOPMENT DELAY IN PRESCHOOL CHILDREN WITH DYSATHRIA

The article deals with the pedagogical and psychological study of speech defects of young children. The article shows the levels of occurrence of speech defects of preschool and small school-age children and mentions their general provisions. Speech defects in children, especially in preschool children, are characterized as dysarthria. It is considered as the initial symptoms of dysarthria. All this is interpreted against the background of the study of speech defects of young children and the proper organization of work in the family and school.

Key words: *mental effects, speech defects, dysarthric cases, phonetic aspect, lexical-grammatical side.*

CƏMİLƏ MƏHƏRRƏMOVA
cemilenihatmeherremova@gmail.com
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu
ORCID ID: 0009-0007-4494-1143

BABƏK RAYONU ETNOURBANONİMLƏRİNİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə Babək rayonu ərazisində olan etnourbanonimlərdən bəhs olunur. Babək rayonu etnourbanonimləri Naxçıvan Muxtar Respublikası urbanomlərinin leksik tərkibində tədqiqata cəlb olunmuşdur. Ərazidə yerləşən bir qrup məhəllə adları yaranma üsulu, mənşəyi və s. kimi xüsusiyyətlərinə görə qruplaşdırılmışdır. Eyni zamanda Babək rayonun bir neçə kəndində araşdırmalar aparılmış və məhəllə adlarının sistemli şəkildə tədqiqata cəlb olunmuşdur. Babək rayonu ərazisində yerləşən Qarahindilər məhəlləsi, Çiman məhəlləsi, Bəydili məhəlləsi, Dəlmə məhəlləsi, Culfalılar məhəlləsi kimi etnourbanonimlərinin leksik-semantik xüsusiyyətləri burada öz əksini tapmışdır. Tədqiqatdan belə nəticəyə gəlinir ki, Babək rayonunda mövcud olan etnourbanonimlər milli mənşəli adlardır və Naxçıvan Muxtar Respublikasının tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

Açar sözlər: *Babək rayonu, etnourbanonim, məhəllə, meydan, Qarahindilər, Bəydili, Cığatay məhəlləsi.*

Giriş. Azərbaycanın dilinin onomastik leksikasında urbanonimlərin xüsusi yeri və mövqeyi vardır. Urbanonim latınca *urbanous*- "şəhərli, şəhər sakini", onim- "ad" sözlərinin birləşməsindən əmələ gəlib, şəhərdaxili topoqrafik obyektlərin- məhəllə, meydan, prospekt, küçə, döngə, park, bağ, bazar, hamam, bina və s. xüsusi adlarını bildirir (Bağırov A.N, 2014, 3). Məlumdur ki, xalqımız çoxəsrlik tarixi dövründə hər bir şəhər və kənddə xeyli bina, qala, hamam, bazar, dükan inşa etmiş, məhəllə, küçə, meydana öz təfəkkür dünyası, düşüncə tərzi, peşə, sənət və məşğuliyyəti ilə bağlı adlar vermişdir. Bu adlar əsrlərdən günümüzədək yaşayan milli mənəvi sərvətimizdir. Belə adları öyrənmək xalqımızın dil tarixi, etnik mənşəyi, etnoqrafiyası, yaşayış tərzi, məşğuliyyət sahələri haqqında təsəvvürü genişləndirir, qan yaddaşımızla bağlı bir çox qaranlıq mətləblərin açıqlanmasında mühüm rol oynayır. Bu baxımdan da zəngin urbanonimlər sisteminə malik olan Babək rayonu ərazisindəki məhəllə və meydan adlarını tədqiqata cəlbi maraq doğurur. Ərazidəki urbanonimlərini tədqiq etmək üçün ilk növbədə xaraktercə müxtəlif mənbə və qaynaqları müəyyənləşdirmək, salnamələri, qədim səyyahların yol qeydlərini, arxivləri araşdırmaq, folklor nümunələrini dərindən öyrənmək problem məsələlərdəndir. Bu diyarı dərindən öyrənmək üçün milli yaddaşımızın daşıyıcısı olan "Kitabi-Dədə Qorqud dastanı"nı, "İrəvan əyalətinin icmal dəftəri"ni, "Naxçıvan sancağının müfəssəl dəftəri"ni, "Naxçıvan ensiklopediyası"nı, "Naxçıvan abidələri ensiklopediyası"nı, rus dilində çap olunmuş elmi tədqiqat əsərləri, statistik məlumatları, müxtəlif xəritə və atlasları, lüğət, elmi və bədii ədəbiyyat nümunələrini, mətbuat orqanları araşdırılıb təhlil edilmişdir. Ən əsası isə bu diyarı yaxından tanımaq, onun tarixini, coğrafiyasını, landşaftını öyrənmək, dağları daşları gəzmək, bitki və heyvanat aləmini, yaylaq və meşələrini, yol və irizləri dərindən öyrənmək lazımdır. Ümumiyyətlə, bu diyarı qarış-qarış gəzməklə informatorlardan, yaşlı nəsildən məlumatlar toplanmışdır ki, bu tədqiqat üçün xüsusi elmi əhəmiyyət daşıyır.

Babək rayonu urbanonimləri leksik, semantik və qrammatik xüsusiyyətlərinin zənginliyinə, müxtəlif xalq, nəsil, qəbilə, tayfa, tirə, şəxs, quş, heyvan, bitki, və s. adları ilə bağlı olmasına, məna və qrammatik formalarına görə biri-birindən seçilir. Geniş bir ərazini əhatə etdiyi üçün bu bölgədə etnonim səciyyəli urbanonim, oykonim səciyyəli urbanonim, antroponim səciyyəli urbanonim kimi zəngin urbanonimlər sistemi yaranmışdır. Babək rayonu ərazisi qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin urbanonimlərində də öz təsirini göstərmişdir.

Əsas. Etnourbanoimlər. Babək rayonu ərazisi qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin urbanonimlərində də öz təsirini göstərmişdir. Bu urbanonimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, məna əsasına görə müxtəlif yollarla formalaşmışdır. Urbanonimlərin bir çox hissəsi uzaq tarixi keçmişimizlə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Coğrafi obyektlərə ad verərkən obyektlərin müəyyən əlamət və xüsusiyyətləri nəzərə alınmışdır. Adlandırma daha çox hər hansı şəxs, tayfa, tayfa birləşmələri, tirə, qəbilə və sülalə adları əsasında formalaşmışdır. Bu üsulla yaranan urbanonimlər etnourbanonimlər hesab olunur. Babək rayonu ərazisində də xeyli sayda tayfa adları ilə bağlı urbanonim mövcuddur. Buna Alcanlılar məhəlləsi, Cuncuqlu məhəlləsi, Qarahindilər məhəlləsi, Cıgatay məhəlləsi, Bəydili məhəlləsi və s. kimi urbanonimlər daxildir. İstənilən hər hansı bir ərazi adının yaranmasında müxtəlif amillər yer alır. Burada ən çox təsadüf olunan tayfa birliklərinə məxsus adlardır ki, hər bir tayfanın yaşadığı ərazi onun adı ilə adlanır. Qədim Naxçıvan tayfalarının inancları və dillərinin ən qədim dövrü tədqiq edilərkən, burada adlarda tayfa adları ilə yanaşı mifik inanclar da yer alır.

Tarixi müqayisəli metod. Bəydili məhəlləsi. Babək rayonunun Sirab kəndində məhəllə adıdır. Eyni adlı toponimə Naxçıvan Muxtar Respublikası ərazisinin digər rayonlarında, xüsusilə də Şərur rayonunda rast gəlinir. Bəydili türk mənşəli addır. Bu ada ilk dəfə M.Kaşğarinin "Divani-lüğət-it türk" əsərində rast gəlirik [Kaşğari M., 2006, 56]. Tədqiqatçıların bir qismi bu adı oğuz tayfa adı ilə, digər bir qismi isə Səlcuq tayfalarının bir qolu kimi) və Kəngərli tayfalarına məxsus toponimkimi izah edir [Ensiklopedik lüğət., 2007, 77; Şopen. İ.,1852, 477]. Fikrimizcə, Bəydili oğuz qəbilələrinə məxsus boylardan biridir və leksik mənasını "bəyi əziz tutan", "böyüklər kimi əziz" kimi izah etmək olar. Toponim qədim türk tayfalarına məxsusdur və türk tayfa adını günümüzədək yaşadır.

Qarahindilər məhəlləsi. Babək rayon Cəhri kəndində məhəllə adıdır. Güman edirik ki, bu ad qədim türk hun tayfalarından birinin adı ilə bağlı yaranmışdır. Adın ilkin variantı da Qarahunlular şəklində olmuş və zaman keçdikcə canlı danışıq dilində fonetik dəyişikliyə uğrayaraq Qarahindlilər şəklinə düşmüşdür [Bağırov A.N., 2010, 363]. Qarahindlilər adı iki komponentdən (qara və hindi (hunlu)) ibarətdir. Burada birinci komponentimiz olan "Qara" sözü *böyük, qüvvətli, qüdrətli* mənalarında, ikinci komponentimiz olan "hindi" (hunlu) sözü isə tayfa adı bildirir.

Cığatay məhəlləsi. Babək rayonunun Nəzərabad kəndində məhəllə adıdır. Eyni adlı məhəllə Naxçıvan şəhərində də mövcuddur. Bir çox mənbələrdə adın monqol mənşəli olduğu qeyd olunur. M.Vəliyevin yazdığına görə: "cığataylar monqolların türklərlə qarışığı olub Çingiz xanın oğlu Cığatayın xatirəsinə *cığatay* adlandırılan türkdilli xüsusi tayfadır" [Vəliyev M., 1993, 44]. Q.Qeybullayev də XIII-XIV əsrlərdə İranda yaşayan cığatayların monqol mənşəli olmasını təsdiqləyir və Quba rayonunda mövcud olan eyni adlı oykonimin bu etnonim əsasında yarandığını yazır [Qeybullayev Q.A.,1986, 62]. Bu tədqiqatçılardan fərqli olaraq İ,Şopen qeyd edir ki, XIX əsrdə Naxçıvanda kəngərlilərin bir qolu cığatay adlandırılmış [Şopen İ., 1852, 537]. A.Bağırov da türkdilli *cığatay* tayfasına məxsus döyüşçülər monqolların tərkibində Naxçıvana gəlmiş, Əlincənin alınmasında iştirak etmiş, bir qismi yaralanmış, vətəninə qayıda bilməmiş və Naxçıvanda özlərinə yaşayış məskəni salmışlar və yaşadıqları bölgəni Cığatay məhəlləsi adlandırmışlar (Bağırov A.N.,2010, 343). Qeyd etdiyimiz tədqiqatçıların fikirlərinə əsaslanaraq deyə bilərik ki, Cığatay toponimi türk mənşəlidir və türklərin advermə ənənəsini özündə əks etdirir. Eyni zamanda şəxs adı ilə bağlı olduğu üçün toponimi antroponim səciyyəli urbanonimlər qrupuna da daxil etmək olar.

Nəticə. Naxçıvan Muxtar Respublikası Babək rayonunda müxtəlif tayfalara məxsus olan urbanonimləri müəyyənləşdirmək üçün müraciət etdiyimiz qədim mənbələr bu ərazidə yaşamış tayfaların, qəbilələrin bütövlükdə Azərbaycan türkləri olduğunu, eləcədə bu toponimlərin həmin tayfaların dil vahidləri hesabına yarandığını sübut edir. Bu vahidlərinin bir çoxu bizim qədim dövrlərlə səsləşir ki, bu da dilimizin əski dövrlərinin tədqiqi istiqamətində xüsusi əhəmiyyət daşıyır. Sonda belə elmi nəticəyə gəlirik ki, Babək rayonundakı müxtəlif tayfalara məxsus olan etnonim səciyyəli urbanonimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

ƏDƏBİYYAT

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2 cilddə, I c., Bakı: 2007, Şərq-Qərb, 304 s.
2. BağırovA. N. Naxçıvan oykonimləri, Bakı: 2008, Nurlan, 333 s.
3. BağırovA. N. Naxçıvan urbanonimləri, Bakı: 2014, ADPU-nun nəşri, 172 s.
4. Bağırov A.N. Onomologiya problemləri, 2 cilddə, I c, Bakı: 2010, Elm və təhsil, 220 s.
5. Kaşğari M. "Divanülüğat-it-türk", I c., (çeviren Besim Atalay), Ankara: 2006, 530 s.
6. Kaşğari M. "Divanülüğat-it-türk", II c., (çeviren Besim Atalay), Ankara: 2006, 366 s.
7. Qeybullayev Q.A. Топонимия Азербайджана. Bakı: 1986, Elm, 198 s.
8. Мурзаев Э.М. Словарь народных географических терминов. М.: 1984, Мысль, 653 с.
9. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi, Bakı: 2006, Kitab aləmi, 228 s.
10. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российско йимперии. Санкт-Петербург: 1852, 644 с.
11. Vəliyev (Baharlı) M. Azərbaycan, Bakı: 1993, Azərbaycan, 192 s.

SUMMARY

Jamila Maharramova

LINGUISTIC CHARACTERISTICS OF BABAK DISTRICT ETHNOURBANONYM

The article deals with etnourbanonims in the territory of Babek district. It is known that the lexical composition of urbanonims of Nakhchivan Autonomous Republic was also involved in research. The names of a group of mahalla (neighborhoods) located on the territory are grouped according to the method of formation, origin and other features. At the same time, investigations were carried out in several villages of Babek district and neighborhood names were systematically involved in the research. Ethnourbanonims such as Garahindilar, Dzhigatay, Beydili mahalla located in the territory of Babek district are reflected here. It is concluded from the research that ethnourbanonyms existing in Babek district are names of national origin and reflect the history, antiquity, and nationality of the Nakhchivan Autonomous.

Key words: *Babek district, urbanonyms, mahalla, square, Garahindililar, Baydili, Dzhigatay,*

KÜBRA VƏLİYEVA

RAZİ ASTRABADİNİN "ŞƏRHU-L-RADİ ALƏ ƏL-KAFİYƏ Fİ İLMİN NƏHV VA İRAB" ƏSƏRİNDƏ "MƏFULUN MUTLAQ" MÖVZUSU

XIII əsr Misir qrammatika məktəbinin ən böyük nümayəndələrindən biri İbn Hacibdir (1175-1249). İbn Hacib müxtəlif elm sahələrinə aid dəyərli əsərləri vardır. Xüsusilə onun ərəb dilinin qrammatikasından bəhs edən "Kafiyə" (sintaksis) və "Şafiyə" (morfologiya) əsərləri nəhvçi və qrammatiklər tərəfindən yüksək qiymətləndirilmişdir. O bu əsərlərinə görə "ən-Nəhvi" ləqəbi ilə məşhurlaşmışdır.

"Əl-Kafiyə" əsəri ərəb dilçiliyi sahəsində yazılan üç əsas kitabdan biri hesab olunur. Bu dəyərli kitablar Sibəveyhinin (767-809) "əl-Kitab", Zəməxşərinin (1074-1144) "əl-Mufassal" və İbn Hacibinin (1174-1248) "əl-Kafiyə" əsəridir. İbn Hacibə daha çox şöhrət qazandıran "Kafiyə" əsəri olmuşdur. Əsər elm aləmində çox bəyənilmiş və bu əsərə müxtəlif dilçi alimlər tərəfindən şərhlər yazılmışdır. Əsərə yazılan məşhur şərhlərdən biri Razi Astrabadinin "Şərhul Radi alə əl-Kafiyyə fi ilmin nəhv va irab" ("Razinin "kafiyə"yə sintaktik baxımdan şərhi") adlı əsəridir. Bu şərh dərslik kimi uzun illər mədrəsələrdə istifadə olunmuşdur.

Məruzədə Razi Astrabadi haqqında ətraflı məlumat verilmiş və onun "Şərhul Radi alə əl-Kafiyyə fi ilmin nəhv va irab" əsərində "məfulun mutlaq" (sərbəst tamamlıq) mövzusu tədqiq edilmişdir.

"Şərhul-Kafiyə" əsəri ərəb dilinin qrammatikasından bəhs edən dəyərli əsər olmaqla yanaşı, bu dili öyrənənlər üçün də qiymətli mənbədir.

Açar sözlər: *kafiyə, nəhv, şərh, ərəb dili, Razi Astrabadi, məfulun mutlaq.*

SUMMARY

Kubra Valiyeva

THE SUBJECT OF "MAFULUN MUTHLAQ" IN THE WORK OF "SHARHU-L-RADI ALA AL-KAFIYA FI ILMIN NAHV WA IRAB" BY RAZI ASTRABADI

One of the greatest representatives of Egyptian grammar school of the 13th century was Ibn Hajib (1175-1249). Ibn Hajib has valuable works related to various fields of science. His works "Kafiya" (syntax) and "Shafiya" (morphology), which deal with the grammar of the Arabic language, were especially appreciated by specialists in syntax and grammarians. He is known by the penname "An-Nahwi" for these works.

"Al-Kafiya" is one of the three main books written in the field of Arabic linguistics. These valuable books are "al-Kitab" by Sibawayhi (767-809), "al-Mufassal" by Zamakhshari (1074-1144) and "al-Kafiya" by Ibn Hajibi (1174-1248). Ibn Hajibah's most famous work was "Kafiya". The work was very popular in the world of Science and various linguists wrote comments on it. One of the most famous commentaries on the work is "Sharh al-Radi al-Kafiya fi ilmin nahw wa irab" ("Syntax and Razi's commentaries on kafiya in a syntactic form") by Razi Astrabadi.

The report provides detailed information about Razi Astrabadi and explored the subject of "al maful muthlaq" in his work "Sharhul Radi ala al-Kafiyyah fi ilmin nahv wa irab".

"Sharhul-Kafiya" is not only a valuable work on the grammar of the Arabic language, but also a valuable source for learners of this language.

Key words: *kafiya, nahw, commentary, Arabic, Razi Astrabadi, al-maful muthlaq.*

SƏKİNƏ MƏMMƏDZADƏ
sekinememmedzade1@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0007-4727-5211

DRAM ƏSƏRLƏRİNİN DİLİNDƏ TƏKRARLAR ÜSLUBİ FİQUR KİMİ

Müasir Azərbaycan dilində eyni söz, fikir və ifadələrin məharətlə istifadə olunaraq şüurlu şəkildə təkrarı müəllifi lüzumsuz təkrarlardan qurtarır. Beləliklə, ortaya mükəmməl təkrar nümunələri çıxır. Bir çox müəlliflərin nəzərində təkrarlar vasitəsi ilə dil üslub xüsusiyyətlərinin qüvvətləndirilməsi nəticəsində personajların nitqində ekspressivlik gücü artır. Buna görə də, ekspressivlik nə qədər geniş və qüvvətli təsvir olunubsa, deməli müəllif təkrarlardan bir o qədər müvəffəqiyyətlə istifadə etmişdir.

Bir sıra mənbələrdə təkrir termini ilə yanaşı repriz terminindən də istifadə olunmuşdur. Belə ki, ikisi də eyni anlam və mahiyyət ifadə etməkdədir. Repriz də, təkrir kimi müəyyən bir sintaktik vahidin, cümlə üzvlərinin iki dəfə, bəzi hallarda dəfələrlə, şüurlu formada işlənilməsi hadisəsinə əsaslanan üslubi fiqurdur.

Açar sözlər: *Azərbaycan dili, dram, təkrar, sintaktik vahidlər, üslubi fiqurlar, yazıçı, şair.*

Ədəbiyyatda yazıçı və şairlər əsərlərini qələmə alarkən bir sıra bədii priyomlardan ya da üslubi fiqurlardan məharətlə istifadə edirlər. Buradakı əsas məqsəd ondan ibarətdir ki, ortaya çıxarmış olduğu bədii əsərlərində obrazlılığı, emosional-ekspressivliyi, axıcılığı təmin etmiş olsunlar. Bədii əsərlərdə müxtəlif üslubi fiqurlardan istifadə olunur. Bu fiqurlar arasında işləkliyi və növ baxımından çoxluq təşkil edən növlərindən biri də məhz təkrirdir. Təkrir tarixilik baxımından qədim üslubi fiqurlar sırasında yer almaqdadır. Sənətkarlar öz əsərlərində təkririn müxtəlif növlərindən istifadə etmişlər, baxmayaraq ki, ədəbiyyatda təkririn növlərinin olduqca az olmasından bəhs olunmuşdur. Və tədqiqatçılar onlar haqqında qısa təriflər verməklə kifayətlənmişlər. Burada biz məqaləmizdə təkririn əsas və bir o qədər də, maraqlı növündən bəhs edəcəyik. Lakin buna keçməmişdən əvvəl təkririn nə olduğuna və onun haqqında bir sıra məsələlərə (növlərinə, funksiyalarına) toxunaq. Təkrirlər iki növ vahidlərlə ifadə olunur:

1. Leksik təkrirlər
2. Sintaktik təkrirlər

Müasir Azərbaycan ədəbi dilində məlum olduğu üzrə leksik təkrirlər sözlə, sintaktik təkrirlər isə söz birləşməsi, sadə və mürəkkəb cümlələrlə, eləcə də, bütöv bir abzasla da ifadə olunur. Bu zaman, bir bütün abzasın təkrarını təşkil edən sintaktik təkrir kimi özünü göstərir.

Təkrarlar bütövlükdə cümlə üzvü hesab olunsalar da, bunları ayrılıqda, yəni təkrarın komponentlərini ayrı-ayrı şəkildə müstəqil üzv kimi götürə bilmərik. Buna görə də, həmin anlayış, tabe olan tərəf və tabe edən tərəf şəklində istifadə olunur. Beləliklə də, tabe edən tərəf olduğu kimi qalır, tabe olan tərəfi isə daxili üzv adlandırırıq.

Daxili üzvlü təkrarların mühüm özəlliyi bundan ibarətdir ki, tabe edən və tabe olan üzv eyni bir sözlə ifadə oluna bilər. Bu zaman burada iştirak edən sintaktik vahidlər öz əksini həm söz birləşmələri, həm də cümlələr şəklində tapır.

Əlbəttə, əsas vurğulayacağımız məqamlardan biri də, bədii əsərlərdə təkrirlərdən hansı məqsədlər üçün istifadə olunmasıdır. Həmin məqsədlər aşağıdakılardır:

- Müxtəlif üslubi-semantik funksiyalarından istifadə
- Müəyyən bir fikir, ideya və məğzin daha da qüvvətli işlənilməsi
- Obrazlılıq, emosinallıq və poetik çalarlığın ifadə olunması
- Hadisə, hal və hərəkətin davamlılığının göstərilməsi
- Mətnin əsas ideya və mahiyyətinə diqqətin verilməsi, o cümlədən bütün bunların geniş və təfsilatı ilə təsvir olunması

- Mövzuya əlavə məlumatların verilməsi deyil də, yeni subyektiv modallıq gətirilməsi
- Fikir və ifadələrin daha təsirli təsvir olunması və bədii əsərin dinamikasının artırılması
- Nəzm əsərlərinin fərqli şəkillərdə kombinasiyasının qurulması və s.

Ümumiyyətlə, təkrir mühüm anlayış hesab olunur. Çünki bu fiqurdan yalnız müasir dövrümüzə məxsus ədəbiyyatlarda istifadə olunmur, həmçinin, klassik ədəbiyyatda, o cümlədən, şifahi xalq ədəbiyyatında, müxtəlif janrlarda da geniş şəkildə istifadə olunur. Təkrir həm də bir sıra xalqların dastan və folklor yaradıcılığında sözişlətmə və sözdüzəltmə hadisəsi kimi də qiymətləndirilir.

Bədii əsələrdə müəyyən üslubi məqsədlərlə istifadə olunan, məqamında və yerli-yerində işlədilən təkrir növlərindən biri də təkrarlardır. Əlbəttə ki, bu sıradan bir təkrar deyildir. Burada hər hansı müvəffəqiyyətsizliyə yaxud nitq səhvliklərinə gətirib çıxaran, dili yoran təkrarlardan söhbət getmir. Buna müəllif əlindən gəldiyi qədər yol verməməyə çalışır. Bizim bəhs edəcəyimiz təkrarlar- müəllif tərəfindən xüsusilə qurulmuş, əsərdə müəllifin çatdırmaq istədiyi bu və ya digər məsələnin mahiyyətini qabarıq şəkildə nəzərə çarpdırmaq məqsədi güdən və mükəmməl şəkildə təşkil olunmuş bədii priyomdur.

Təkrarda həm söz, söz birləşməsi, cümlələr, həm də abzaslar məqsədli şəkildə təkrarlanır. Təkrarlar tənifat baxımından da, müxtəlif hissələrə bölünür. Aşağıdakı üç növ əsas hesab olunur:

1. Sözün formasının dəyişməsi ilə yaranan təkrar
2. Hərfi təkrar
3. Sinonim sözlərin vasitəsi ilə əmələ gələn təkrar

və onu da qeyd edək ki, bu növlərin də bölündüyü bir neçə yarımnövlər mövcuddur.

Dramatik dildə olan təkrarlar dil üslub xüsusiyyətləri baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Sadə və mürəkkəb cümlələrdə fərqli üslubi məqsədlər üçün istifadə olunan təkrarlar özünü müxtəli forma və şəkillərdə göstərir.

Təkrarın bu növünün aşağıdakı yaranma üsulları mövcuddur:

1. Əsər daxilində ümumi gedişat boyunca müəyyən məqamlarda təkrarlanma yolu ilə yaradılır.
2. Bəddi əsərdə təkrarlar ardıcıl formada verilərək yaradılır.
3. Təkrarın, personajın nitqində verilməsi ilə bir cümlənin və yaxud cümlələrin əsər boyu, yaxud, müxtəlif hissələrdə təkrarlanması yolu ilə yaradılır.

Yazıçı və şairlər bədii əsərlərdə təkrarlardan istifadə edərkən, onları müəyyən bir qrupda sistemləşdirirlər. Bəzi qruplara nəzər yetirək:

1. Sadə cümlələrdə təkrarlar.

Bu tipli cümlələrdə bədii priyom vasitəsi kimi təkrarlara həm nəzm, həm də, nəsr əsərlərində rast gəlinir. Lakin eyni təkrarlar olmasına baxmayaraq, bu fiqurlar özünü nəzm əsərlərində bir cür, nəsr əsərlərində isə tamam başqa cür göstərir.

Məqaləmizin mövzusu dram dilinə həsr olunduğu üçün biz nümunələri məhz dram əsərləri üzərindən verməyi daha məqbul hesab edirik. Sadə cümlədə təkrarlara müxtəlif formalarda yol verilir.

“Sonra o, bu pıçıldayanların səsindəki ehtirasdan, şövqdən, hərislikdən tanıdı ki, bunlar uzun-uzun illər boyu ölüb getmiş mal-dövlət sahibləridi, tanış-bilişlərdi və bu açıq-aşkar hiss olunan şadlıq da onu deyirdi ki, axır ki, sənin də axırın çatdı, axır ki, səninki də qurtardı; onların sifətini gözünün qabağına gətirə bilmədi, üzlərini görmədi, amma hamısını tanıdı; bunların bir çoxunu o, talamışdı, bir çoxunun qızılı, daş-qaşı, kəniz-qaravaşı, qulbeçələri sonradan onun olmuşdu, yığılmışdı, yığılmışdı, yığılmışdı” [Əfəndiyev E.İ., 1983, 144].

Nəsr əsərlərində təkrarların verilməsi sətirlərin obrazlı səslənməsinə, ifadə olunan fikrin qüvvətli deyilməsinə və ən əsası oxucunun diqqətinin hansı məsələlərə cəlb edilməsinə xidmət edilir. Buna görə də nəzm əsərlərində olduğu kimi, nəsr əsərlərində də təkrarlardan üslubi fiqur kimi geniş şəkildə istifadə olunur.

Bədii əsərlərdə sadə cümlələrinin dilində işlədilən təkrarlar məqsədindən asılı olaraq, aşağıdakı kimi qruplaşdırıla bilər: personajın müxtəlif qorxu və həyəcan hisslərini bildirməsi , yardım istəməsi, yaxud hər hansı bir dərdini qəmini, ah naləsini obrazlı və təsirli şəkildə dilə gətirməsi məqsədi ilə işlədilən təkrarlar: Məsələn: “Xosrov. “Bilirəm! Sənsən! Bütün müsibətləri başımıza açan sənsən!

Məni sən Sibirə göndərmişdin! Məni öldürən də sənsən! O tonqalı sən qalamışdın! Sən taunsan! Taun!.. Taun!.. Taun!..” [Əfəndiyev E.İ., 2005, 75].

Görkəmli dramaturqlarımızdan biri olan Elçinin “Taun yaşayır” (Bir həyatın xronikası) əsərinin son hissəsindən verdiyimiz nümunənin təhlilinə nəzər yetirək. Yuxarıda da qeyd etdiyimiz kimi, vermiş olduğumuz nümunədə personajın keçirmiş olduğu hissləri, həyəcanı, gərginlik və məyusluq ifadələri öz əksini tapmışdır. Əsər boyu Əbdül Qafarzadə və onun tərəfdarlarının rüşvətxorluq, xalqı çapıb talamaq, ondan sui-istifadə etmək kimi hallarının bilavasitə şahidi oluruq. Əbdül Qafarzadə və onun əlaltıları əsərdə zavallı xalqı əzib, onların hüquqlarını tapdalamaqla məşğuldur. Lakin bu cəzasız qalmır. Əhaliyə qəbiristanlıqdakı yeri belə pulla satan bu şəxs, əsərin sonuna yaxın xərçəng xəstəliyinə tutulduğu məlum olur. Bununla da, ədalət öz yerini tapır. Əsərdə Xədicə namazında, niyazında olan bir qadın idi. Hər kəsə sadəcə yaxşılığı toxunan bu qadının bircə oğlu var idi. Lakin oğlu Balaniyaz da, Əbdül Qafarzadə kimi pislik zillətinə bulaşmışdı. Anasının ölümü onu zərrə də olsun üzmür. Molla Əsədullanın köməkliyi ilə Xədicə qadının adına layiqincə ehsan verilir və kənd camaatı bu müsəlman qadınının fərqli dinlərə mənsub olan yeni qəbiristanlıqda dəfn olunmasına könülləri razı olmur, onların fikrincə, əgər belə etsək Xədicə qarının qarğışına düçar olarıq deyirlər. Buna görə də, sonda qəbiristanlıqdan yer almaq üçün Xosrovu qəbiristanlıq müdiri Əbdül Qafarzadənin yanına göndərirlər. Xosrov nə qədər israr etsə də, hökumətin bu yerləri əhaliyə pulsuz verdiyini dönə-dönə desə də, heç bir faydası olmur. Əbdül Qafarzadə elə yerin 400manat olduğu iddiasından əl çəkmir.

Əsərin son səhnəsində Xosrovun Əbdül Qafarzadənin kabinetinə icazəsiz, hirsli şəkildə girməyi və onun yaxasından tutub yuxarıdakı nümunədə verilən hissəni deməyi təsvir olunur. Əslində dramaturq burada personajın dilindən Əbdül Qafarzadə kimilərinin mənəvi xəstəliyə tutulduğunu oxucuların və tamaşaçıların diqqətinə gətirmək istəmişdir. Nəhayət, Əbdül Qafarzadə etdiklərinin bədəlini ödəyir və qan qusaraq fitnəkar həyatına son qoyur. Əsər müəllifin sözləri ilə yekunlaşır.

2. İsrar və təkid məqsədi ilə istifadə olunan təkrarlar :

“Sakit ol… Sakit ol… Özünü ələ al. Dost var, düşmən var.

Sakit ol… Bəyəm Bayandur da, öz oğlun kimi sənə sədaqətli deyilmi? Bəyəm Bayanduru da, öz oğlun qədər çox istəmirsənmi?” [Əfəndiyev E.İ., 2005, 485].

Müəllif əsərin bu hissəsində işlətdiyi təkrarı monoloji nitq əsasında vermişdir. Yəni Ziyad xan öz-özünü sakitləşdirmək məqsədilə “Sakit ol” ifadəsini bir neçə dəfə təkrarlayır. Müəllif bu təkrarı obrazının dilində verməklə onun təlaş və daxili həyəcanını oxuculara bu kimi bir üslubi fiqurla çatdırmağa müvəffəq olmuşdur.

Beləliklə, eyni söz, fikir və ifadələrin məharətlə istifadə olunaraq şüurlu şəkildə təkrarı müəllifi lüzumsuz təkrarlardan qurtarır. Beləliklə, ortaya mükəmməl təkrar nümunələri çıxır. Bir çox müəlliflərin nəzərində təkrarlar vasitəsi ilə dil üslub xüsusiyyətlərinin qüvvətləndirilməsi nəticəsində personajların nitqində ekspressivlik gücü artır. Buna görə də ekspressivlik nə qədər geniş və qüvvətli təsvir olunubsa, deməli müəllif təkrarlardan bir o qədər müvəffəqiyyətlə istifadə etmişdir.

Bir sıra mənbələrdə təkrir termini ilə yanaşı repriz terminindən də istifadə olunmuşdur. Belə ki, ikisi də eyni anlam və mahiyyət ifadə etməkdədir. Repriz də, təkrir kimi müəyyən bir sintaktik vahidin, cümlə üzvlərinin iki dəfə, bəzi hallarda dəfələrlə, şüurlu formada işlənilməsi hadisəsinə əsaslanan üslubi fiqurdur.

ƏDƏBİYYAT

1. Elçin. Bülbülün nağılı. Bakı: Yazıçı, 1983.
2. Elçin. Seçilmiş əsərləri. 3-cü cild, Bakı: Çinar-çap, 2005.
3. Musa Adilov Azərbaycan dilində sintaktik təkrarlar. III cild. Bakı: Elm və təhsil, 2019, 416 s.
4. Elçin. Seçilmiş əsərləri, 4-cü cild, Bakı: Çinar – çap, 2005.
5. Aytən Müslüm qızı Bəylərova. Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 2008. - 212 s. https://tdkturkdunyasi.gov.tr/tam-metin-pdf/876/tur Tahir Nəsib. Xalq epik yaradıcılığında təkrarlar
6. Afad Qurbanov. Ümumi dilçilik. II cild (3 cilddə). Bakı: 2019, 272 s.
7. https://anl.az/el/Kitab/2015/2008-1187.pdf

SUMMARY

Sakina Mammadzade

REPETITION AS A STYLE FIGURE IN THE LANGUAGE OF DRAMAS

In modern Azerbaijani language, skillful repetition of the same words, ideas, and expressions consciously eliminates unnecessary repetitions by authors, resulting in excellent examples of repetition. According to many authors, through the use of repetition, the stylistic features of language are strengthened, leading to an increase in the expressiveness of characters' speech. Therefore, the more extensive and powerful the expressiveness is depicted, the more successfully the author has utilized repetitions.

In addition to the term repetition, the term reprise has also been used in some sources. Both terms express the same meaning and essence. Reprise is a stylistic figure based on the deliberate repetition of a certain syntactic unit, sentence members, twice, and sometimes several times.

Key words: *Azerbaijani language, drama, repetition, syntactic units, stylistic figures, writer, poet*

NƏRMİN HƏSƏNZADƏ
nhesenzade73@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0001-0373-4275

İLYAS ƏFƏNDİYEVİN DRAMLARINDA MÜASİRLİK

Çağdaş Azərbaycan ədəbiyyatının zəginləşməsində böyük xidmətləri olmuş, xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığının öyrənilməsi, ayrı-ayrı əsərlərinin ideya-sənətkarlıq xüsusiyyətlərinin araşdırılması ədəbiyyatşünaslıq qarşısında duran mühüm vəzifələrdən biridir.

Ədibin əsərlərini biri-birindən təkcə bədii forma və üslub əlamətləri ayırmır, onları daha çox fərqləndirən fərdi poetik aləmlərdir. Bu mənada İlyas Əfəndiyevin poetik fərdiyyətini müasir ədəbiyyatımızın ümumi mənzərəsindən ayıran cəhətlər xüsusilə qabarıqdır.

Sənət aləminə bənzərsiz yaradıcılıq nəfəsi ilə gələn İlyas Əfəndiyev öz yaradıcılığı ilə nəsr və dramaturgiyamızı yeni mövzularla zənginləşdirmiş, ədəbiyyatımıza orijinal xarakterlər, yeni talelər gətirmişdir.

Müasir həyat, onun özünəməxsus cəhətləri, ziddiyyətləri, bizim həməsərimiz olan insanlar, onların fərdi xüsusiyyətləri bu əsərlərdə süjet xəttində həlledici rola malikdir.

Həmin əsərləri nəzərdən keçirmək çağdış ədəbiyyatda mənəvi-əxlaqi problemlərin bədii həllini işıqlandırmağa xidmət etməklə bərabər, həm də İlyas Əfəndiyevin yaradıcılıq məziyyətlərini, dramaturgiyasının özünəməxsusluğunu aydınlaşdırmaq baxımından da aktual və əhəmiyyətlidir.

Açar sözlər: *İlyas Əfəndiyev, dramaturgiya, yaradıcılıq, xalq yazıçısı, əsər, ədəbiyyat, çağdaş Azərbaycan, nəsr və s.*

Müasir Azərbaycan ədəbiyyatını təmsil edənlər sırasında yazıçı İlyas Əfəndiyev fərdi, orijinal, koloritli sima kimi seçilir. Onun tamamilə yeni ruhlu hekayə, povest və romanları Azərbaycanda lirik nəsrin inkişafında maraqlı hadisədir. Pyesləri dramaturgiya tariximizdə ayrıca "lirik" bir mərhələni təşkil edir. Ədibin nəsrə gəlişi nəsri, dramatik ədəbiyyata gəlişi bizim dramaturgiyanı parlaq poetik bir üslubla zənginləşdirdi.

Böyük Vətən müharibəsi dövründə İlyas Əfəndiyevin Mehdi Hüseynlə birgə yazdığı "İntizar" (1949) pyesi xalqın vətənpərvərlik əzmini, qəhrəmanlıq duyğu və düşüncələrini əks etdirən bir əsər kimi o zaman Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyuldu və maraqla qarşılandı. Alxas bəyin oğlu Qanbay cəbhədə vuruşur. Arvadı Gülyaz isə ərinə xəyanət edir, ərinin dostu Tofiqə vurulur. Qanbay cəbhədən kor qayıdır. Tofiq dostuna qarşı etdiyi çirkin əməlinə görə vicdan əzabı çəkir və ölür. Göründüyü kimi, bu əsərdə də insanların mənəvi – əxlaqi keyfiyyətləri ilk planda verilmişdir. Dramaturgiya janrında ilk qələm sınağı "İntizar"dan sonra İlyas Əfəndiyev tamaşaçıları uzun müddət intizarda qoymadı, axtarışlarını inamla davam etdirdi, bərpa dövrünün Azərbaycan ədəbiyyatında əmək – istehsalat mövzusuna dair ilk pyesin müəllifi oldu. "İşıqlı yollar"ı (1947) yazıb, Bakı neftçilərinin həyatını və əməyini işıqlandırdı. Dramaturgiya təcrübəsinin azlığı və mövzunun bu janra demək olar ki, təzəcə gətirilməsi müəllifi çətinliklərlə üzləşdirsə də o, M.Hüseynin sözləri ilə desək, bir sıra ciddi və sağlam xüsusiyyətləri ilə nəzəri cəlb edən pyes yarada bildi.

"İşıqlı yollar" müəllifi Azərbaycan teatrı tarixində ilk dəfə Bakı neftçilərinin müasir həyatını, onların Vətən müharibəsindən sonrakı illərdə ölkəyə daha çox neft vermək uğrunda mübarizələrini səhnəyə gətirmişdir. Pyesin mərkəzi konflikti həyati idi, hətta bu gün də aktuallığını saxlayır. Lakin itigözlə görülmüş, real konflikt əsərdə həyatda kəsb etdiyi gərginlik dərəcəsinə yüksəldilə bilmədiyindən tərəflər arasında toqquşma başlanan kimi sönür, çətin və mürəkkəb problemlər bir iclasla həll olunurdu. Bu, qismən dramaturqun təcrübəsizliyindən doğsa da, əsasən, konfliktsizliyin doqmatik tələbləri ilə şərtlənirdi.

İlyas Əfəndiyev həmişə qabaqcıl müasirlərimizlə, mənən zəngin mərd insanlarla daha çox maraqlanmış, onların bədii surətini yaratmaq sahəsində axtarışları aram bilməmişdir. "İşıqlı yollar"da bu

qəbildən olan adamlar hələ tam dolğun, canlı bir tip kimi verilə bilməsələr də müəllif onların varlığını görmüş və ümumi cizgilərlə də olsa düzgün göstərə bilmişdi. "Bahar suları"nda bu keyfiyyət daha da inkişaf etdirildi, xeyli yüksək səviyyəyə qaldırıldı. Hadisələrin düzgün izi ilə gedib adamların məişət və şüurunda baş verən yenilikləri əks etdirmək baxımından İlyas Əfəndiyev müharibədən sonrakı dövrdə C.Cabbarlı ənənələrinin görkəmli davamçısı olmuşdur. Ümumiyyətlə, o, (müasir Azərbaycan ədəbiyyatında) sovet dramaturgiyasının qiymətli ənənələrindən, müsbət təcrübəsindən öyrənə – öyrənə yetişmişdir ki, tənqid bunu vaxtında göstərmişdir.

"İşıqlı yol"da hadisələrin cərəyan məkanı şəhər, "Bahar suları"nda isə kənd mühitidir. Hər iki əsərin mövzusu istehsalat – təsərrüfat sahəsi ilə bağlıdır. İlyas Əfəndiyev müharibədən sonra ölkənin həyatında başlanan dinc əmək pafosunu bu dəfə Azərbaycan kandinin timsalında əks etdirməyə çalışmış və məqsədinə də, əsasən, nail olmuşdur.

Ümumiyyətlə, İlyas Əfəndiyev həm nəsrində, həm də dramaturgiyasında həyatın nəbzini tutmağa, yeniliyi səciyyəvi əlamət, hadisə və obrazlarda canlandırmağa yollar axtaran sənətkar kimi diqqəti cəlb edir.

Azərbaycan ədəbiyyatı böyük və rəngarəng bir gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravətilə dərhal nəzəri cəlb edən cazibədar, toplu və dolğun bir çiçəklikdir.

ƏDƏBİYYAT

1. Vəfa Xanoğlan. İlyas Əfəndiyev: yaxından və uzaqdan. Xalq qəzeti.- 2010.- 9 fevral.- s. 7.
2. Məryəm Əlizadə. İyirmi birinci əsrin dramaturqu | İlyas Əfəndiyev. Azərbaycan ədəbiyyatı. 26 may 2021
3. http://modern.az/az/news/145051#gsc.tab=0
4. http://www.anl.az/down/he_serencamlar.pdf
5. Yeganə Nəriman qızı Qasımova. İlyas Əfəndiyevin bədii publisistikası. Dərslik. Bakı: 2017
6. Azərbaycanın görkəmli şəxsiyyətləri. İlyas əfəndiyev. Biblioqrafiya. Bakı: 2014
7. Vaqif Yusifli. O səs indi də yaşayır... 525-ci qəzet.- 2014.- 9 may.- s.24.
8. İ.Əfəndiyev. Seçilmiş əsərləri. Üç cilddə, I cild, Bakı: "Avrasiya press", 2005
9. İ.Əfəndiyev. Seçilmiş əsərləri. Üç cilddə, II cild, Bakı: "Avrasiya press", 2005

SUMMARY

Nermin Hasanzade

MODERNITY IN THE DRAMAS OF ILYAS EFANDIYEV

Studying the works of Ilyas Efendiyev, the people's writer who made great contributions to the enrichment of contemporary Azerbaijani literature, and examining the ideas and artistic features of his individual works is one of the important tasks facing literary studies.

The works of the writer are not separated from each other only by the signs of artistic form and style, but individual poetic worlds distinguish them more. In this sense, the aspects that distinguish Ilyas Efendiyev's poetic individuality from the general picture of our modern literature are particularly prominent.

Ilyas Efendiyev, who came to the world of art with a unique breath of creativity, enriched our prose and drama with new themes, brought original characters and new destinies to our literature.

Modern life, its unique features, contradictions, people who are our collaborators, their individual characteristics have a decisive role in the plot line of these works.

Reviewing those works is relevant and important in terms of clarifying Ilyas Efendiyev's creative merits and the uniqueness of his dramaturgy, as well as serving to illuminate the artistic solution of spiritual and moral problems in contemporary literature.

Key words: *Ilyas Efendiyev, dramaturgy, creativity, folk writer, work, literature, contemporary Azerbaijan, prose, etc.*

RÜZGAR CAMAL
camalruzgar@gmail.com
AMEA Naxçıvan Bölməsi
ORCID ID: 0009- 0004-3264-342X

NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏNGƏRLİ RAYON OYKONIMLƏRİ-MƏNTƏQƏ ADLARI TARİXİ QAYNAQLARDA

Məqalədə dilçiliyin xüsusi şöbəsi olan Onomastika və onomastik vahidlərin tədqiqinin elmi əhəmiyyəti haqqında, qısa da olsa məlumat verilir. Azərbaycanın, eləcə də dünyanın ən qədim yaşayış məskənlərindən olan Naxçıvan Muxtar Respublikasının bu günkü Kəngərli rayonunun ərazisində yerləşən qədim yaşayış məntəqələrinin tarixi mənbələrdəki yeri məqalədə tədqiqata cəlb olunmuşdur. Həmin oykonimlər tarixi qaynaqlara istinadən tədqiq olunmuş və onlardan bir çoxunun adına hələ 1590-cı illərə aid olan "İrəvan əyalətinin icmal dəftəri"ndə və 1703-30-cu illərin materialı olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə eləcə də arxiv materiallarında yer aldığı, faktlarla sübut edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan sancağının müfəssəl dəftəri"nin müqayisəli şəkildə tədqiqata cəlb olunması nəticəsində İndiki Kəngərli rayonu ərazisində yerləşən kəndlərin müxtəlif tarixi dövrlərdəki inzibati ərazi bölgüsündə eyni yaxud müxtəlif nahiyələrə aid edilməsi məsələsi işıqlandırılır. Eyni zamanda həmin oykonimlərin tarixi qaynaqlarda əksini tapmış ilkin versiyası ilə bugünkü versiya qarşılaşdırılır, bu və ya digər məsələlər onomastik tədqiqat müstəvisində müqayisəli təhlil edilir.

Açar sözlər: *Naxçıvan, Kəngərli, onomastika, oykonim, etimologiya, tarixi qaynaqlar*

Giriş

Həm zaman faktoru və onun tələbləri, həm də ictimai-siyasi hadisələrin dilə təsir etdiyini və dilin özlüyündə daim inkişafda olan proses olduğunu nəzərə aldıqda, tarixi proseslərdə onomastik vahidlər, əsasən də oykonimlər müəyyən siyasi təsirlərə məruz qalmışdır. Bu baxımdan dilin genetik-struktur xüsusiyyətlərini istisna etməklə, deyə bilərik ki, istər qonşu ölkələrlə sıx münasibətlər, istərsə də elmi-texniki kəşflər və inkişaflarla bağlı olaraq dilin lüğət tərkibində bəzən ayrı-ayrı sözlərin arxaikləşməsi ilə qarşılaşırıq. Bu siyasi proses oykonimik sistemdən də kənar deyildir ki, oykonimlər əsasən tayfa adlarını daşımaqla tarixi mənbələrdə yer almışdır. Biz Kəngərli rayon oykonimlərini mənbələr əsasında araşdırarkən, onların da müəyyən siyasi təsirlərlə üzləşdiyini görürük.

Naxçıvanın təkcə Azərbaycanın yox, dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu nəzərə aldıqda, xüsusilə, bu bölgənin oykonimlərinin mənbələr əsasında tədqiqat obyekti kimi nə qədər əhəmiyyətli olduğunu görürük. Bu baxımdan Kəngərli rayon məntəqə adları- oykonimlərinin də mənbələr əsasinda üzə çıxarılması onların hansı tayfalara məxsus olduğunun mənbələr əsasında təsdiqi xüsusi elmi əhəmiyyət daşıyır. Təbii ki, oykonimlərin tədqiqində müraciət olunası əsas mənbələr tarixi qaynaqlardır.

Biz mənbələrə istinadən müxtəlif dövrlərdə ayrı-ayrı rayonların tərkibinə daxil edilmiş, 23 mart 2004-cü ildən isə, yeni inzibati-ərazi bölgüsünə əsasən Kəngərli rayonu adı altında birləşdirilmiş Naxçıvan Muxtar Respublikasının bir neçə qədim yaşayış məntəqəsinə mənbələr əsasında nəzər salmaq istərdik.

Kəngərli rayon oykonimləri tarixi qaynaqlarda

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 mart 2004-cü il tarixli sərəncamına əsasən, Babək rayonu ərazisindən Böyükdüz, Çalxanqala və Xıncab, Şərur rayonundan Xok, Qarabağlar, Qıvraq, Şahtaxtı, Yeni Kərki və Yurdçu kəndləri və onları inzibati ərazi dairələrini əhatə edən əraziləri daxil edilməklə Naxçıvan Muxtar Respublikasının Babək və Şərur rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilərək Kəngərli rayonu yaradılmışdır. Yeni yaradılmış rayon üçün bu adın seçilməsi heç də təsadüfi deyildi, biz "İrəvan əyalətinin icmal dəftəri"nə əsasən deyə bilərik ki, Sisyan nahiyəsində Salvartı yaylağı adlı ərazi Kəngərli tayfalarının yaşayış məskəni olmuşdur, eyni zamanda xalqın yaddaşında da Qıvraq, Qarabağlar və Xok kəndləri Kəngərli tayfalarının qədim yaşayış məntəqələri kimi həkk olunmuşdur.

Kəngərli adlı qədim türk tayfaları Naxçıvanın tarixi yerli sakinləri olmuş, bununla bağlı olaraq qədim Şərur oykonimlərinin ilk dəfə sistemli şəkildə araşdıran tədqiqatçı alim F.Rzayev belə qeyd edir, "Oğuz xanının öz dövründə kəngərlər mövcud idi və onlar Azərbaycanda oğuzlarla birləşmişlər. Onlar oğuzlardan da qabaq m.ö. ən azı IV minillikdə tarix səhnəsində olmuşlar. Biz oğuzların, m.ö. II minilliyin ortalarında mövcud olmaqla, ərazilərimizdə məskunlaşaraq, yerli sakinlər olduqları haqda məlumat vermişdik" [Rzayev F. H., 2006, 161].

Ölkəmizin ayrı-ayrı ərazilərini tədqiqat obyektinə çevirmiş müəlliflər də bu bölgələrin etnik tərkibi barədə məlumat verərkən, Naxçıvan əhalisinin böyük qisminin Kəngərlilərdən ibarət olduğunu vurğulayırlar. Həmin məsələyə elmi yöndən toxunan tədqiqatçılardan A.Abbasova yazır; "Müasir türk xalqlarının bir çoxunun, o cümlədən də azərbaycanlıların etnogenizində iştirak edən, Osmanlı qaynaqlarında adı keçən qədim türk tayfalarından biri də Kəngərli türkləridir. Bir çox tarixi qaynaqlardan bəlli olur ki, kəngərlilərin Naxçıvandakı tarixi bizim eradan əvvəlki dövrlərə gedib çıxır" [Abbasova A. Y.,2018,122-123]. Həmçinin Kəngərli tayfalarılər Naxçıvan xanlığının idarəetmə sistemində müstəsna rol oynayan qədim türk boylarından olmuşdur. Döyüşkənlikləri ilə seçilən Kəngər türkliləri Naxçıvan xanlığının hərb və ordu sahəsində də öz uğurlu xidmətlərini göstərmişlər. Beləliklə, bu rayon adı qədim Kəngərli tayfa adı ilə adlandırılmışdır.

Biz müasir mənbələrə müraciət etdikdə 23 mart 2004-cü il tarixli sərəncama əsasən Kəngərli rayonu tərkibində Qıvraq qəsəbəsi, Qabıllı, Şahtaxtı, Qarabağlar, Yurdçu, Xok, Yeni Kərki, Çalxanqala, Xıncab, Təzəkənd, Böyükdüz kəndlərini görürük. Yuxarıda adları qeyd olunan yaşayış məntəqələrindən bir neçəsinin adına həm 1590-cı illərə aid olan "İrəvan əyalətinin icmal dəftəri"ndə, həm də 1703-30-cu illəri əhatə edən "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə rast gəlirik. Bugünkü Kəngərli rayonunun mərkəzi Qıvraq qəsəbəsi Kəngərli rayonu yaradılana kimi Şərur rayonunun inzibati ərazisi daxilində olmuşdur [3,1997, 29]. Bu kənd Naxçıvanın qədim yaşayış məskənlərindən biri olmaqla həm "İrəvan əyalətinin icmal dəftəri"ndə, həm də "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə qeyd edilir. "İrəvan əyalətinin icmal dəftərin"nə əsasən deyə bilərik ki, Qıvraq kəndi müxtəlif tarixi dövrlərdə Sisyan nahiyəsinə və Qarabağ nahiyəsinə də daxil edilmişdir. Mənbədə Qıvraq kəndi əvvəlcə Sisyan nahiyəsi daxilində göstərilir. Daha sonra isə eyni mənbədə Qıvraq kəndi Qarabağ nahiyəsinin tərkib hissəsi olaraq göstərilir [2, s., 150, 166].

Naxçıvanın tarixi ilə bağlı qiyməti mənbələrdən biri də yuxarıda qeyd etdiyimiz kimi "Naxçıvan sancağının müfəssəl dəftəri"dir. Burada 1703-1730-cu illərin müfəssəl onomastik mənzərəsi öz əksini tapmaqla, Qıvraq kəndi Qarabağ nahiyəsinin tərkib hissəsi kimi göstərilir. O cümlədən kənddə heç kimin yaşamadığı və bu ərazidə dənli bitkilər yetişdirildiyi, başqa yerdən gələnlərin bu kəndin torpaqlarını istifadə etdiyi qeyd edilir [3, s. 29, 134-135]. Bütün bunlar Qıvraq kəndi haqqındakı ilkin məlumatlardır.

Bu bölgə kəndlərindən biri də Naxçıvanın qədim kəndlərindən olan Qarabağlar kəndidir. Bugünkü Kəngərli rayonunun inzibati ərazisinə aid olan bu kənd, tarixi mənbələrdə Qarabağ variantında rast gəlinir. "İrəvan əyalətinin icmal dəftəri"ndə əvvəlcə göstərilir ki, Qarabağ kəndi Maku nahiyəsinə daxildir, Daha sonra isə Qarabağ kəndinin eyniadlı Qarabağ nahiyəsinə daxil edildiyi qeyd olunur [2, s. 40-41, 144]. Bu istiqamətdə tədqiqatımızda biz digər istinad mənbəyi olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ni də qeyd etdik ki, bu mənbə yuxarıdakı məlumatları təkzib etmir. Belə ki, burada da Qarabağlar kəndinin adına Qarabağ variantında rast gəlirik və kəndin Qarabağ nahiyəsinə aid göstərilir [3, s. 29]. Eyni zamanda bu mənbədə kəndin əhalisi və vergilər haqqında da ətraflı məlumatlar verilməklə əhali sayına da rast gəlmək mümkündür [3, s. 130].

Bugünkü Kəngərli rayonu ərazisində yerləşən və tarixi mənbələrdə də rast gəldiyimiz qədim yaşayış məntəqələrindən bir digəri Xok kəndidir. "İrəvan əyalətinin icmal dəftəri"nə əsasən deyə bilərik ki, Xok kəndi əvvəlcə Maku daha sonra Qarabağ nahiyəsinə daxil edilmişdir. Daha sonra həmin mənbədə Xok kəndinin Qarabağ nahiyəsinə aid olduğu və kəndin Əhmədova dizəsi adı ilə tanındığı qeyd edilir [2, s. 40-41, 166].

Digər mühüm tarixi qaynaq olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə də Xok kəndi Qarabağ nahiyəsi daxilində göstərilir. Kənddə heç kimin yaşamadığı və bura gəlib yerləşən həmşərilərin öz rüsumlarını kəndin zabitinə verdikləri qeyd edilir [3, s. 29, 134].

Hazırkı Kəngərli rayonunun tarixi qaynaqlarda əksini tapmış kəndlərindən bir də Xıncab kəndidir. Mənbələrdə kəndin adına elə Xıncab variantında rast gəlinir. "İrəvan əyalətinin icmal dəftəri"nə əsasən Xıncab kəndi Qarabağ nahiyəsinə daxil edilmiş kənddir, daha sonra isə həmin qaynaqda Xıncab kəndi Naxçıvan nahiyəsinin tərkib hissəsi kimi verilir [2, s. 144, 165].

Biz "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Xıncab kəndini Qarabağ, Xok və Qıvraq kəndləri ilə birgə Qarabağ nahiyəsinə daxilində qeyd edildiyini [3, s.29]. Həmçinin bu qaynaq vasitəsilə həmin tarixi dövrlərdə Xıncab kəndinin əhalisinin sayı və ailə vəziyyəti, eləcə də vergilər haqqında ətraflı məlumat toplamaq mümkündür.

Kəngərli rayonunun inzibati ərazisinə daxil olan kəndlərdən biri də Yurdçu kəndidir ki, biz tarixi qaynaqlarda bu məntəqə adına Muğanlı variantında rast gəlirik. "İrəvan əyalətinin icmal dəftəri"ndə Dərələyəz nahiyəsinə daxil edilmiş Muğanlı kəndinin digər adının Nağıyurdu olduğu qeyd edilir . Daha sonra eyni mənbədə Karbi nahiyəsinin tərkib hissəsi olan Muğanlı kəndi ilə qarşılaşırıq [2, s. 60, 163]. Şübhəsiz ki, söhbət indiki Yurdçu kəndindən gedir.

Biz F.Rzayevin Şərur oykonimləri ilə bağlı tədqiqatına nəzər yetirdikdə, 1828-1900-cü illər Naxçıvan qəzasının Dərələyəz (Şərur) mahalında daxil olan yaşayış-məntəqə adlarında bu kənd adının Muğanlı-Qorçulu oykonimi kimi verilməsi faktı ilə qarşılaşmırıq. Daha sonra 1900-1924 cü illərin arxiv materiallarına diqqət yetirdikdə, Yurdçu oykoniminin Yup-çu yazılış formasına rast gəlirik [Rzayev F. H., 2006, 21-24]. Buradan da aydın olur ki, kəndin adı tarix qaynaqlarda əvvəlcə Muğanlı olmuş, daha sonra Qorçulu kimi əks olunsa da, müasir Yurdçu oykonimi Yup-çu variantının səs əvəzlənməsi nəticəsində ərsəyə gəlmiş oykonimdir.

Kəngərli rayon ərazisində yerləşən Qabıllı yaşayış məntəqəsi Ulu Öndər H. Əliyevin Naxçıvan Muxtar Respublikasının şəhər və rayonların inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi siyasətinin göstəricisi olan 1 mart 2003-cü il tarixli sərəncamına əsasən bir neçə kəndlə birgə adına qismən dəyişikliklər edilmiş yaşayış məntəqələrindəndir. Belə ki, kəndin adı Qarabullu variantından Qabıllı variantına salınmışdır. İndiki Kəngərli rayonunun Çalxanqala kəndi, eləcə də, Çalxanqala oykonimi barədə isə məlumatlara biz F.Rzayevin Heradot, M.Kalankaytuklunun və s. müəlliflərin tarixi məlumatlarını müqayisəli təhlil etdiyi "Naxçıvan Makrotoponimlərinin linqvistik xüsusiyyətləri" kitabında rast gəlirik. Bütün tarixi faktların müqayisəli tədqiqinin nəticəsi kimi müəllif xüsusi olaraq "Çolların ərkasların-kas ərlərinin həmvətənlisi olması faktını qeyd edir ki, bu tarix ən azı m.ö. III minilliklə səsləşir. Tarixi qaynaqlara müraciət edən müəllif, bu tayfaların Naxçıvan ərazilərindən şimala köç etdiklərini və ola bilsin ki, Altay türklərinin dil imkanları hesabına onlar Çelkan-Çul kağanı formasında adlandıqlarını göstərir [Rzayev F. H., 2019, 149-150]. Buradan aydın olur ki, Çalxanqala kəndi də Naxçıvanın qədim yaşayış məntəqələrindən biri olmuş və bu oykonim də xeyli sayda tarixi qaynaqlarda və arxiv sənədlərində öz geniş əksini tapmışdır.

Bununla bərabər Kəngərli rayonuna daxil olan digər bir məntəqə adı-oykonim olan Şahtaxtı yaşayış məntəqəsinin adına tarixi qaynaqlarda 1900-1924-cü illərin arxiv materiallarında rast gəlinir [Rzayev F. H., 2006, 24]. Burada kənd adının elə Şahtaxtı şəkildə öz əksini tapması göstərilir. Yeri gəlmişkən onu da qeyd edək ki, 1936-cı ildə aparılmış milli mənşəli onomastik vahidlərimizin saxtalaşdırılması siyasətinin nümunəsi kimi Şahtaxtı məntəqə adı Yaqodabad kimi adlandırılmışdır [Rzayev F. H., 2019,35]. Müstəqillik illərində kəndin əvvəlki adı bərpa olunmuş və hal-hazırda Şahtaxtı şəklindədir.

Nəticə

Kəngərli rayon inzibati ərazisinə daxil olan yaşayış məntəqə adlarının 1590-cı illərə aid olan "İrəvan əyalətinin icmal dəftəri" və 1703-30-cu illərin materialı olan "Naxçıvan sancağının müfəssəl dəftəri" kimi mühüm tarixi qaynaqlarla araşdırmadan əldə edilən məlumatlar bir daha ərazimizin qədim tark tayfalarına məxsus olduğunu göstərir. Tarixi proseslər nə qədər məntəqə adlarına müəyyən təsirlər göstərsə də, gördüyümüz kimi adlar tarixdən birdəfəlik silinmir. İşin yekun nəticəsi kimi deyə bilərik ki, indiki Kəngərli rayonu inzibati ərazisində yerləşən yaşayış məntəqələrindən Qıvraq qəsəbəsi, Qarabağlar, Xok, Xıncab, Yurdçu, Qabıllı, Çalxanqala və Şahtaxtı kəndləri "İrəvan əyalətinin icmal dəftəri" və "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə də qeyd edildiyi kimi Azəbaycan xalqının Ana yurdlarıdır. Tarixən bu məntəqələr-oykonimlər Naxçıvan ərazisinin tərkib hissəsi, əcdadlarımızın yaşadığı yurd yerləri olmuşdur.

ƏDƏBİYYAT

1. Abbasova A.Y. Osmanlı qaynaqlarında Naxçıvan və ətrafının onomastikası. Bakı: Elm və təhsil, 2018,160 s.
2. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
3. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
4. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
5. Rzayev F.H. Naxçıvan makrotoponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: ADPU,2019, 244 s.

SUMMARY

Ruzgar Jamal

NAMES OF KANGARLI DISTRICT OF NAKCHIVAN AUTONOMOUS REPUBLIC - DISTRICT NAMES IN HISTORICAL SOURCES

The article provides brief information about Onomastics, a special branch of linguistics, and the scientific significance of the study of onomastic units. The location of the ancient settlements in the historical sources of the Kangarli district of Nakhchivan Autonomous Republic, which is one of the oldest settlements of Azerbaijan and the world, is included in the research in the article. Those oikonyms were researched with reference to historical sources, and the names of many of them are included in the "Irevan Province Summary Book" dating back to the 1590s and the "Detailed Book of the Nakhchivan Sanjak" which is a material of the years 1703-30, as well as in archival materials. has been proven. As a result of the comparative study of the "Irevan Province Summary Book" and the "Nakhchivan Sanjak's Detailed Book", the question of whether the villages located in the current Kangarli region belong to the same or different districts in the administrative territory division in different historical periods is illuminated. At the same time, the original version of those oikonyms reflected in the historical sources is contrasted with the current version, these or other issues are comparatively analyzed at the level of onomastic research.

Key words: *Nakhchivan, Kangarli, onomastics, etymology, historical sources.*

TOMRİS CƏLİLOVA
tomriscelilova@gmail.com
Naxçıvan Dövlət Univeristeti
ORCID ID: 0009-0004-6361-9924

MÜASİRLƏRİ PROFESSOR ƏJDƏR AĞAYEV HAQQINDA

Məqalədə görkəmli pedaqoq alimi professor Əjdər Ağayevin elmi-pedaoji,ədəbi-publisistik irsi haqqında müasirlərinin fikir və rəylərindən bəhs olunur. Əjdər müəllim Azərbaycan pedaqoji elminin elə simalarındandır ki, onun elmi fəaliyyəti pedaqogikamızın arsenalının möhkəmlənməsi və yüksəlişi üçün intəhasız, tükənməz fəaliyyət nümunəsidir. Bu səbəbdən də onun elmi yaradıcılığı, pedaqoji fəaliyyəti özündən sonrada öz əhəmiyyətini itirməmiş, əksinə bu xəzinəyə maraq daha da artmışdır. Əjdər Ağayevin irsi və ictimai fəaliyyətinin nəcib xüsusiyyətləri pedaqoqlarımız tərəfindən yaşanan dəyərlər olacaqdır.

Açar sözlər: *əxlaqi-mənəvi tərbiyə, pedaqoji əsər, ictimai – pedaqoji fikir, ictimai fəaliyyət.*

Giriş

Professor Əjdər Ağayev XX əsr Azərbaycan pedaqoji elminin nüfuzlu, sözü keçən alimlərindən biridir. Akademik Hüseyn Əhmədov və professor Fərrux Rüstəmovun bu fikiri "Elmi xidmətləri ilə Azərbaycan pedaqogika elminin son dövr tarixinə daxil olan Ə.Ağayevin elmi-pedaqoji irsində, məktəb və pedaqogika tarixinin öyrənilməmiş məsələlərinin araşdırılması, tərbiyə nəzəriyyəsi və təcrübəsinin (xüsusilə əxlaqi-mənəvi tərbiyə) ümumiləşdirilməsi, təlimin təkmilləşdirilməsi, təhsilin yeni məzmununun müəyyənləşdirilməsi, pedaqoji biliklərin geniş təbliği və digər məsələlər geniş yer tutur" [1, s.173].

Əjdər müəllim çox az tədqiqatçı alimlərdəndir ki, onun maraq dairəsi geniş və hüdudsuzdur. O həm müasir pedaqoji nəzəriyyənin, pedaqoji fikrimizin və təhsil tariximizin, həm də pedaqoji tənqidin, müasir pedaqoji elmin və pedaqoji təcrübənin nailiyyətlərini və uğursuzluqlarını heyranedici bir səviyyədə görür, təhlillər aparır, doğru, obyektiv, hamı tərəfindən qəbul edilə bilən tövsiyələr verirdi. Əjdər müəllim təhsil mütəxəsisi kimi pedaqoji mühitdə, təhsilin idarə edilməsi strukturunda lazımi səviyyədə tanınırdı. Bu cəhət onun ictimaiyyətçi, vətəndaş alim simasını layiqincə xarakterizə edir, əhali arasında, xüsusi ilə valideynlər arasında hörmət və nüfuzunun artmasına təsir edirdi.

Əjdər Ağayev kütləvi informasiya vasitələrində (televiziyada, mətbuatda, ictimai-mədəni tədbirlərdə) sosial tərbiyənin, böyüyən nəslin cəmiyyət həyatına uyğunlaşması və inteqrasiyasının aktual məsələlərini şərh etməkdə yüksək məharət nümayiş etdirə bilirdi. Tədqiqatçı alim-pedaqoqların söylədiyi kimi Əjdər müəllim pedaqoq olmaqdan əlavə həm də yazıçı idi. İ.H.Pestalotsinin, A.S.Makarenkonun, V.Y.Suxomlinskinin ənənələrini Azərbaycan pedaqogikasında davam və inkişaf etdirirdi. Filoloq-alim bu cəhəti diqqətə çəkərək yazırdı ki: "XIX əsrin sonları, XX əsrin əvvəllərində fəaliyyət göstərmiş müəllim-ziyalıların ən görkəmliləri – Seyid Əzim Şirvani, Kamal Ünsüzadə, Məhəmməd Tağı Sidqi, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Süleyman Sani Axundov, Mirzə Məhəmməd Axundzadə, Abdulla Şaiq və b. yeri gəldikcə bu yoldan istifadə etmişlər. Ə.Ağayev də onların peşə-sənət ənənələrini, pedaqoji yolunu davam etdirən ədib-pedaqoq, müəllim-yazıçı, tərbiyəçi-jurnalist, şair ürəkli, bədii təfəkkürlü tədqiqatçı alimdir" [2, s. 4].

Bütün bunlar yüksək təfəkkür sahibi kimi Əjdər müəllim haqqında müasirlərinin xoş xatirələrinin yaranmasının başlıca səbəbi idi. Onu tanıyanlar bu pedaqoq-yazıçının həyat fəaliyyətini, istedadının qeyri-adiliyini, möhkəm, nizamlı xarakterini böyük həvəslə qələmə alır, xatirəsini yad edirlər. Professor F. Rüstəmovun söylədiy bu sözlər Əjdər Ağayevin alim, vətəndaş, pedaqoq simasını çox gözəl ifadə edir:" Yaddaşlarda əbədi iz qoyan alimlərimizdən biri də tərcümeyi-halı təmsil etdiyi pedaqogika elminin tərcümeyi-halına çevrilən pedaqogika elminin mogikanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim Əjdər Əbdülhüseyn oğlu Ağayevdir [3].

Müasirləri belə cəhəti xüsusi olaraq diqqətə çəkirlər ki, Əjdər müəllim elmi fəaliyyətini digərləri kimi rəsmi sənədləşməyə maraq göstərmirdi. Bunu professor Hümeyir Əhmədov dəqiq müşahidə edərək yazırdı:" Əjdər Ağayev pedaqoji elmlər doktoru elmi dərəcəsini, pedaqoji elmi adını da başqalarına bənzəmədən almışdır. Çünki o, bu zirvəyə faktiki sənədlə çatana qədər, əsərləri, tədqiqat işləri,elmi-pedaqoji kadr hazırlığı sahəsindəki xidmətləri, pedaqoji və geniş ictimai fəaliyyəti, elmi-pedaqoji ictimaiyyət içərisindəki nüfuzu ilə çatmışdı" [4, s.29]. Əjdər Ağayev "Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi" adlı tədqiqatını müdafiəyə təqdim edilərkən Ali Attestasiya Komissiyasında mükəmməl pedaqoji əsər kimi qiymətləndirilmişdi. Əsərə və elmi fəaliyyətinə görə alimə "AAK Rəyasət Heyətinin iclasında bütün üzvlərin müsbət rəyi ilə birbaşa elmlər doktoru dərəcəsi və professor elmi adı verildi. Televiziyada akademik Azad Mirzəcanzadə ilə müsahibədə AAK-ın sədri olaraq "Daha kimlərə belə bir şərəf qismət olar?" sualını verəndə, o hər hansı pedaqoji əsər Əjdər Ağayev plankasını keçsin demirəm, ona uyğun olarsa, mən o əsərin belə qiymətləndirilməsini təklif edə bilərəm; - dedi: Beləliklə, pedaqoji elmdə "Əjdər Ağayev plankası" analayışı meydana gəldi" [4, s.29].

Professor Əjdər Ağayev Azərbaycanın zəngin yaradıcılığa malik pedaqoq alimlərdən biridir. Onun yaradıcılığı XX əsrin 70-ci illərində elmi fikrin diqqətini çəkmiş, elmi yeniliyi, düşüncə tərzi, yazı manerası ilə fərqlənmişdir. Elmi mühitin hamılıqla etiraf etdiyi kimi bu əsərlərin hər biri pedaqoji elminin nailiyyəti idi. Onun monoqrafik tədqiqatları elmi mühitdə, təcrübi fəaliyyət sahəsinin iştirakçıları arasında rəğbətlə qarşılanır, yaxşı əks-səda doğururdu. Bu tədqiqatlardakı aydınlıq, dərin mənalılıq, fikrin ifadə zənginliyi oxucunu düşünməyə vadar edirdi. Müəllifin hər yeni əsəri özü haqqında yeni fikir yaradırdı.

Ümummilli lider Heydər Əliyevə həsr etdiyi "Nəsillərə örnək insan" əsəri Əjdər müəllimin dahi şəxsiyyətin siyasi, social-mədəni fəaliyyətinə müəllif münasibətini layiqincə əks etdirən əsər idi. Kitaba ön söz yazmış professor Qəzənfər Paşayev etirafları çox səmimi və dəqiqdir. O yazırdı:"...görkəmli pedaqoq alim, professor Əjdər Ağayev Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış bənzərsiz şəxsiyyət Heydər Əliyevə həsr etdiyi "Nəsillərə örnək insan" əsərinə ön söz yazmağı təklif edəndə tərəddüd etdim. Lakin kitabın əlyazmasını oxuyanda həyacanım keçdi. Qəti qənaətə gəldim ki, böyük şəxsiyyətlər haqqında mötəbər sözü böyük həyat təcrübəsi olan, dünyanın gedişatından başı çıxan, ziyalı kimi xalq arasında nüfuz qazanan, ictimaiyyət arasında söz sahibi kimi tanınan adamlar deyəndə daha mötəbər olur. Professor Əjdər Ağayev sadaladığım bütün keyfətləri özündə cəm edən şəxsiyyətlərdəndir" [5,s.3].

Professor Əjdər Ağayevin elmi-pedaqoji, ictimai-mədəni fəaliyyəti, ədəbi irsi zəngin və çox şaxəlidir. Bu böyük yaradıcılıq yolu məzmun-məndəricə cəhətdən zəmanəsinin pedaqoji düşüncəsinin kamil nümunələri, sonrakı dövrün pedaqogikasının formalaşma mənbəyidir. Belə bir mənəvi xəzinənin qorunması, necə və hansı şəraitdə istifadə edilməsinin müəyyənləşdirilməsi şübhəsiz ki. Fayda veräçəkdir.

Nəticə

Professor Əjdər Ağayev XX əsr Azərbaycan pedaqogikasının ən nüfuzlu və tanınmış simalarından biridir. Geniş maraqları, qeyri-adi istedadı və möhkəm xarakteri ilə tanınan Ağayev təkcə pedaqoq kimi deyil, həm də yazıçı və ictimai xadim kimi hörmətlə qarşılanırdı.

Ağayevin yaradıcılığı müasir pedaqogika nəzəriyyəsini, təhsilin tarixini və tənqidini əhatə edir. O, təhsilin və əxlaqi tərbiyənin təkmilləşdirilməsinə, pedaqoji biliklərin yayılmasına və yeni təhsil məzmununun müəyyənləşdirilməsinə yönəlib. Ağayevin əsərləri öz aydınlığı, dərinliyi və orijinal perspektivləri ilə elmi ictimaiyyətdə böyük rəğbət qazanmışdır.

Ağayev təkcə əsərləri ilə deyil, şəxsiyyəti ilə də iz qoyub. Müasirləri onun müdrikliyini, təvazökarlığını və fədakarlığını yüksək qiymətləndirirdilər. Ağayev Azərbaycanda pedaqogika elminin inkişafında mühüm rol oynayıb və gələcək nəsillər üçün ilham mənbəyi olmaqda davam edir.

ƏDƏBİYYAT

1. Rüstəmov F. Pedaqoji oçerklər: sələflərim və müasirlərim. Bakı: Elm və həyat, 2010.
2. Ə.Ağayev. Seçilmiş əsərləri. VII cild. Bakı: 2016.
3. Əhmədov H. Azərbaycanda təhsil və pedaqogika elminin çəfakeş alimi. "Azərbaycan məktəbi" j., 2017, №5, s.27-34
4. Ağayev Ə. Nəsillərə örnək insan. Bakı: 2007
5. https://www.muallim.edu.az/news.php?id=3297&lang=

SUMMARY

Tomris Jalilova

ABOUT CONTEMPORARY PROFESSOR AJDAR AGHAYEV

The article talks about the opinions and opinions of his contemporaries about the scientific-pedagogical, literary-publicistic heritage of professor Ajdar Aghayev, a prominent educational scientist. Teacher Ajdar is one of the figures of Azerbaijani pedagogical science, whose scientific activity is an example of tireless and inexhaustible activity for the strengthening and improvement of the arsenal of our pedagogy. For this reason, his scientific creativity and pedagogical activity did not lose their importance even after him, on the contrary, the interest in this treasure increased even more. Ajdar Aghayev's heritage and noble characteristics of his social activities will be the values experienced by our educators.

Key words: *moral and spiritual education, pedagogical work, social-pedagogical idea, social activity.*

TÜRKANƏ BABAYEVA
turkanebabayeva6@gmail.com
Bakı Dövlət Universiteti

YARADICILIQ AZADLIĞI VƏ FİKİR VƏ SÖZ AZADLIĞI: MÜQAYİSƏLİ TƏHLİL

İnsana xas xüsusiyyətlərdən biri kimi özünü ifadə etmək istəyi, demək olar ki, bəşəriyyət tarixi qədər qədimdir. Necə ifadə edilirsə edilsin, yaradıcılıq da əsas etibarilə insanın özünü ifadə etməsinin bir təzahürüdür. İnsan öz yaradıcılığı ilə ifadə etmək və ünsiyyət qurmaq ehtiyacını ödəmək qabiliyyətinə malikdir. Hətta, insanı tərif edərkən belə, onun, ilk növbədə, yaratdıqları ilə dünyanı dəyişdirə bilən varlıq olduğu bildirilir. Odur ki, yaradıcılıq azadlığı bilavasitə fərdin yaradıcı tərəfi və fikirlərini ifadə etmək zərurəti ilə bağlıdır. Bu da yaradıcılıq azadlığının qarşılıqlı əlaqəsini təsdiq edir. Bir tərəfdən, beynəlxalq-hüquqi mətnlərdə əksər hallarda bu azadlıq ifadə azadlığının əhatə dairəsinə düşür. Digər tərəfdən isə ifadə azadlığının elementinə daxil olan ifadə formaları əksər hallarda yaradıcılıq azadlığının da məzmununa daxil olur. Belə ki, ifadələr məzmunundan, hüququn müdafiə dairəsindən və dövlətlərin mülahizəsindən asılı olaraq, dəyişə bilər.

Bəzi ölkələrdə bədii ifadələrin ifadə azadlığı çərçivəsində mühafizəsi yaradıcılıq və ifadə azadlığı arasında əlaqənin ən bariz nümunəsidir. İfadə azadlığı xüsusən də sənətin təsir yaratdığı mərhələdə yaradıcılıq azadlığı ilə sıx əlaqədədir. Bu mərhələdə sənət digər ifadə formaları kimi ünsiyyət vasitəsinə çevrilir və ifadə azadlığı kimi o, sənətdən də ikitərəfli azadlıq kimi istifadəni özündə ehtiva edir.

Beləliklə, hər hansı bir xəbər və ya məlumat sənət vasitəsilə ötürülürsə, həm həmin bədii ifadənin ötürücüsü, həm də həmin ifadənin çatdırıldığı şəxs və ya şəxsləri birbaşa təmin edən azadlıq növünü, yəni yaradıcılıq azadlığını seçmək məqsədəuyğun olardı. Başqa sözlə, bədii ünsiyyət yaradıcılıq azadlığının təminatı altındadır.

Açar sözlər: *yaradıcılıq azadlığı, ifadə azadlığı, hüquqi tənzimləmə, beynəlxalq təcrübə, bədii ifadə.*

Yaradıcılıq azadlığının digər əsas hüquq və azadlıqlarla sıx əlaqədə olduğunu nəzərə almaq, azadlığın məhdudlaşdırılması problemi ilə bağlı müzakirələr üçün böyük əhəmiyyət kəsb edir. Məsələn, din və vicdan azadlığı ilə yaradıcılıq azadlığı arasındakı əlaqə daha çox dini məzmunlu sənət əsərlərindən bəhs edərkən diqqəti cəlb edir. Eynilə, ifadə azadlığı ilə yaradıcılıq azadlığı arasında elə bir əlaqə vardır ki, nifrət nitqi və ya digər insan ləyaqətini alçaldan ifadələr sənət vasitəsilə ifadə olduğu situasiyalarda ortaya çıxır.

Yaradıcılıq azadlığı ikitərəfli bir azadlıq olaraq həm özünü sənət vasitəsilə ifadə etmək bacarığını, həm də başqalarının bu bədii ifadələrdən bəhrələnmə qabiliyyətini özündə ehtiva edir. Yaradıcılıq azadlığı insanın özünü ifadə etmək üçün məqsədəuyğun hesab etdiyi sənət sahəsindən və ya bədii vasitədən istifadə etməsi deməkdir; Söhbət bu sənəti mümkün qədər geniş auditoriyaya və ya dinləyiciyə yaymaq azadlığından və digər insanların bu bədii ifadələrdən bəhrələnmək imkanlarından gedir. Yaradıcılıq azadlığı, hər şeydən əvvəl, insanın həyat tərzi ilə bağlı birbaşa seçim azadlığını təmin edir. Yaradıcılıq azadlığı təkcə bu sahədə sərbəst fəaliyyət göstərə bilmək və bu zəhmətin nəticəsi olan əsəri sərbəst sərgiləmək demək deyildir, bu, hər şeydən əvvəl sənət dünyası ilə bağlı istənilən fəaliyyətlə məşğul ola bilmək ideyasının qanuni şəkildə təmin olunmasını və bu kontekstdə lazımi imkanların təmin edilməsini tələb edir. Başqa sözlə, yaradıcılıq azadlığı fərdin məşğul olmaq istədiyi sənət sahəsini sərbəst seçmək qabiliyyətindən başlayaraq sənət əsərinin təqdimatına,nəşrinə, yəni onun yaradıcılıq sahəsinə qədər uzanan spektrdə qiymətləndirilməlidir. Yaradıcılıq azadlığı təkcə düşüncənin ifadəsi deyildir. Bu, həm də düşüncələri üzə çıxarmaqla mənəvi təsir yaratmaq seçimini ehtiva edir.

Bütövlükdə yaradıcılıq azadlığı sənət əsərlərinin yaradılmasına, təbliğinə, yayılmasına və ictimailəşdirilməsinə yönəlmiş fəaliyyətin istər dövlətin, istərsə də dövlətdən başqa üçüncü şəxslərin

müdaxiləsi olmadan həyata keçirilə bilməsini, sənət dünyasının istənilən sahəsi ilə məşğul olmasını və onu yaymaq bacarığını nəzərdə tutur. Yaradıcılıq azadlığına hər cür sənət fəaliyyətindən irəli gələn maddi və mənəvi nemətlərin qorunmasını tələb etmək hüququ da daxildir.

İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Paktın 19-cu maddəsindən fərqli olaraq, AİHK-da bədii ifadə və ya sənət azadlığı ilə bağlı ayrıca tənzimləmə yoxdur. Bununla belə, məhkəmə presedentində açıq şəkildə göstərildiyi kimi, bədii fəaliyyət ifadə forması kimi 10-cu maddə çərçivəsində müdafiə olunur. Bu məqamda sənət əsərinin öz formasını, yoxsa estetik dəyərini qoruyub saxlamaqdan bəhrələnməsinin təkcə müəyyənedici amil kimi əhəmiyyəti yoxdur.

Bədii ifadə, əsasən 10-cu maddənin ifadə azadlığı çərçivəsində qorunsa da, bəzi hallarda əqli mülkiyyət hüququ çərçivəsində də nəzərə alına bilər. Əslində bədii ifadə deyilən anlayış fərdin şüurunda olan fikirləri hərəkətə gətirməklə bədii əsər yaratmaq formasında da baş verə bilər. Bu halda bədii ifadələrin əqli mülkiyyət hüququ çərçivəsində bir əsərə çevrilməsi halında mülkiyyət hüquqlarının qorunmasından da yararlanacağı ifadə edilə bilər.

Bədii ifadə ilə bağlı ən çətin məsələlərdən biri ədəbsizlik, erotik məzmun və pornoqrafiya ilə əlaqədardır. İfadə azadlığını məhdudlaşdıran səbəblərdən olan mənəviyyatın qorunması ilə bədii ifadənin qorunması arasında açıq-aşkar ziddiyyət vardır. Qeyd edək ki, Azərbaycan qanunvericiliyində bu tip məlumatlar nə yaradıcılıq azadlığının, nə də fikir və söz azadlığının predmeti ola bilməz. Çünki qanunla yayılması qadağan olunmuş informasiya hesab olunur. Nəzərə alınmalı olan ikinci məqam məzmunun estetik dəyəri ilə ədəbsizlik arasında tarazlığın qurulmasıdır. AİHM kitabın erotik məzmununa görə müsadirə edilməsi qərarı ilə bağlı ərizəsində sözügedən kitabın artıq bir çox Avropa dillərinə tərcümə olunduğunu və əsərin artıq Avropa mədəni irsinin bir hissəsinə çevrildiyini bu səbəblə müsadirə edilməsi qərarının müəyyən dildə danışanları bu irsdən məhrum buraxılması nəticəsini doğuraraq ifadə azadlığını pozacağını qərara almışdır [4].

Bədii ifadənin təxribat xarakterli olmasının ön plana çıxdığı digər bir vəziyyət isə həm AİHM-in, həm də Konstitusiya Məhkəməsinin satira, parodiya, karikatura kimi daha çox xüsusi mühafizəsi olduğu hallardır. AİHM satira ilə bağlı belə bir qərar vermişdir ki, satira bədii ifadə formasıdır və sosial tənqiddir və özünə xas olan mübaliğə və reallığı təhrif edən xüsusiyyətlərinə görə təbii olaraq təxribat və təhrik etmə məqsədi daşıyır. Amma təbii ki, satiranın da müəyyən bir həddi vardır [6].

İfadə azadlığının başqa bir istiqaməti akademiklərin fəaliyyət sahəsi, işlədikləri qurum və sistem haqqında öz fikirlərini sərbəst şəkildə ifadə edə biləcəklərini qoruyan akademik ifadə azadlığıdır. Akademik əsər sayılan ifadələr nə qədər təxribatçı olsa da, ifadə azadlığının müdafiəsi çərçivəsində olacaq. Akademik ifadə azadlığı ilə bağlı digər bir məsələ akademik fəaliyyətlə məşğul olmaq istəyənlərin dövlət orqanlarında olan məlumat və sənədlərə müraciət etmək hüququdur. Bununla belə, AİHM akademik fəaliyyət zamanı dövlət orqanlarının onlarda olan sənədləri təqdim etməkdən imtina edə bilməyəcəyinə dair qərar vermişdir [5].

AİHK-ın əvvəlində qeyd edildiyi kimi, o, müqavilə bağlayan dövlətlərin demokratiya, sülh və ədalət kimi prinsiplərə bağlı olacağını öhdəsinə götürür. AİHM-ə görə, Konvensiyanın bərqərar etmək məqsədi daşıdığı demokratik sistemin əsas prinsiplərindən biri siyasi müzakirə azadlığıdır. Bu baxımdan, siyasi ifadənin AİHM-in ən yüksək müdafiəni təmin etdiyi və məhdudiyyət meyarlarını ən sərt şəkildə şərh etdiyi ifadə formasıdır desək, heç də səhv olmaz. Bu, təkcə hökumətlərə nəzarət etmək və onları tənqid etmək hüququ deyil. Bunun həm də bir vətəndaşlıq borcu olduğunu və dövlət orqanlarının onlara ünvanlanan tənqidlərə effektiv cavab vermək iqtidarında olduğunu nəzərə alaraq, hökumətlər onlara qarşı edilən tənqidlərə nə qədər sərt olsalar da müdaxilə etməməli və əgər müdaxilə edərsə, bu, şəxslərin ifadə azadlıqlarını həyata keçirmələri üçün maneə olmamalıdır. Əslində, siyasi xadimlər ictimaiyyətin diqqətində olmağı qəbul edir və gördüyü işlər birbaşa ictimaiyyətə aiddir. Lakin bu o demək deyil ki, siyasətçilərə ünvanlanan hər hansı ifadə ifadə azadlığının qorunmasından faydalanacaq. Burada təhqir və böhtan hallarına qətiyyən yol verilməməlidir. Bu məsələ respublikamızda konstitusion qaydada da bəyan olunmuşdur (47-ci maddənin III bəndi).

İfadə azadlığının digər aspekti kimi dini ifadəni qeyd etmək olar. AİHM dövlətlərə dini ifadələrlə bağlı geniş təqdir hüququ versə də, dini ifadələrin istifadəsinə tolerantlıqla yanaşılmalı olduğunu da qəbul edir [3, s.53].

AİHM-də ifadə azadlığına dair tənzimləmələrində ifadənin forması ilə bağlı məhdudiyyətlər qoyulmamışdır. Yazı, rəsm, məqalə, heykəltəraşlıq kimi klassik mənada ifadələrin ifadə azadlığı çərçivəsində qiymətləndiriləcəyi şübhəsizdir. Lakin ifadə azadlığının əhatə dairəsi bununla məhdudlaşmayıb o, həmçinin simvolik ifadələri də ehtiva edir. İfadə azadlığı təkcə ifadənin məzmununu deyil, həm də formasını qoruyur. İnformasiya almaq, məlumat vermək və məlumat yaymaq arasında ümumi fərqlə yanaşı, mətbuat və nəşr azadlığı kimi hüquqlar da ifadə azadlığının ümumi çərçivəsinə daxildir. İfadə azadlığının məzmun baxımından məhdudlaşdırılması mübahisəli məsələdir. Nifrət nitqi və soyqırımı inkarı kimi ifadələrin qorunma çərçivəsindən kənara necə çıxarılacağı müəyyən edilməlidir. Bir yanaşmaya görə, ifadə azadlığı məzmun baxımından məhdudlaşdırıla bilər, belə ki, nifrət nitqi kimi ifadələr qəti şəkildə İfadə azadlığının müdafiəsi xaricində hesab olunur. Nifrət nitqi qəti şəkildə ifadə azadlığının hüdudlarından kənarda olsa da, AİHM mübahisəli bəyanatın nifrət nitqi dairəsinə daxil olub-olmadığını müəyyən etmək üçün ərizəni mahiyyəti üzrə araşdırır və bu araşdırmanın nəticəsi olaraq, bəyanatın nifrət nitqini ehtiva edilərsə, 17-ci maddənin hüququndan sui-istifadə halları ön plana çıxır.

Qəzet, jurnal və televiziya kimi mətbuat və yayım orqanları ifadə azadlığının ən sıx və effektiv şəkildə istifadə edildiyi kanallar sırasındadır. AİHK-də mətbuat və nəşr azadlığı ilə bağlı açıq müddəa yoxdur, lakin 10-cu maddədə bildirilir ki, ifadə azadlığı məlumat və fikirləri almaq və yaymaq azadlığını əhatə edir. Vaxt keçdikcə Məhkəmə 10-cu maddə çərçivəsində mətbuat azadlığı ilə bağlı geniş məhkəmə təcrübəsi əldə etmişdir. Mətbuatın ictimai maraqlara xidmət edəcək məsələlər barədə cəmiyyəti məlumatlandırmaq vəzifəsinin vacibliyini tez-tez vurğulayan məhkəmə,mətbuat orqanların bu vəzifəsini demokratiyanın gözətçisi kimi qələmə verir və mətbuatın bu vəzifəni yerinə yetirməsinin zəruriliyini tez-tez vurğulamışdır. Bu geniş ifadə azadlığına baxmayaraq, mətbuatın da üzərinə düşən vəzifələr qəbul edilir. Bu məsuliyyətin mənbəyi AİHM-in başqa heç bir maddəsində tənzimlənməyən vəzifə və öhdəliklərin ifadəsidir. Siyasətçilər, ictimai xadimlər, vətəndaşlar kimi media orqanları da öz ifadə azadlığından istifadə edərkən bu məsuliyyətə uyğun hərəkət etməlidirlər. Əks halda, ifadə azadlığının məhdudlaşdırılması qanuni hesab edilə bilər.

Demokratik və plüralist cəmiyyətin əsaslarını təşkil edən ifadə azadlığını çox klassik şəkildə, ən sadə formada, insanların öz fikir və düşüncələrini ifadə edən və yayması, istəmədikləri halda ifadə etməməsi kimi müəyyən etmək olar. Demokratik cəmiyyətlərdəki əhəmiyyəti nəzərə alınaraq ifadə azadlığının digər insan hüquqlarının da mənbəyi olduğu da bildirilir. Bu vacibliyi nəzərə alaraq, ifadə azadlığı ilə bağlı müdaxilələr çox sərt şərtlərdən ibarətdir. İfadə azadlığı Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsində qeyd edilmişdir. Həmin Konvensiya hər kəsin öz fikrini ifadə etmək azadlığı hüququna malik olduğu qeyd edilir.

Nəticə

Beləliklə, ifadə azadlığı demək olar ki, bütün fundamental insan hüquqları sənədlərinə daxil edilən hüquqlardan biridir. Beynəlxalq orqanlar da öz qərarlarında ifadə azadlığının vacibliyini tez-tez vurğulayır və hətta bunun həyati əhəmiyyət daşıdığını qeyd edirlər. İfadə azadlığı Konvensiya ilə qorunan digər hüquqların qorunmasında da həlledici rola malikdir ki, bu kontekstdə yaradıcılıq azadlığı xüsusi çəkiyə malikdir. Avropa Məhkəməsi bildirmişdir ki, ifadələrin məzmunu qədər müxtəlif ifadə formaları da qorunur və Konvensiyanın zəmanəti altında sənət onlardan biridir. Bu səbəbdən bədii ifadələr də Konvensiyanın 10-cu maddəsində ifadə azadlığı çərçivəsində yer alır.

ƏDƏBİYYAT

1. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Nurlar, 2019, 352 s.
2. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ: Dərslik. Bakı: Nurlar, 2019, 448 s.
3. İrem Savaş. İnsan hakları hukuku bağlamında telif hakkı ve ifade özgürlüğü / Yüksek Lisans Tezi/ - İstanbul: 2023, 182 s.
4. Akdaş v. Turkey, App. No: 41056/04, Judgement of 16 February 2010, para. 28-30. https://hudoc.echr.coe.int/eng?i=002-1133
5. Kenedi v. Hungary, App. No: 31475/05, Judgement of 26 May 2009, para. 43. https://hudoc.echr.coe.int/fre?i=001-92663
6. M'Bala v. France, App. No: 25239/13, Judgement of 20 October 2015, para. 34-42. https://hudoc.echr.coe.int/eng?i=001-160358

SUMMARY

Turkana Babayeva

FREEDOM OF CREATIVITY AND FREEDOM OF EXPRESSION: A COMPARATIVE ANALYSIS

The desire to express oneself as one of the human characteristics is almost as old as the history of mankind. No matter how it is expressed, creativity is basically a manifestation of a person's self-expression. Man has the ability to satisfy the need to express and communicate through his creativity. Even when praising man, it is stated that he is, first of all, a being who can change the world with his creations. Therefore, creative freedom is directly related to the creative side of the individual and the need to express his ideas. This confirms the interdependence of freedom of creativity. On the one hand, in most cases in international legal texts, this freedom falls under the scope of freedom of expression. On the other hand, the forms of expression included in the element of freedom of expression are included in the content of freedom of creativity in most cases. Thus, expressions may vary depending on their content, the scope of protection of the right and the discretion of the states.

The protection of artistic expression within the framework of freedom of expression in some countries is the clearest example of the connection between creativity and freedom of expression. Freedom of expression is closely related to freedom of creativity, especially at the stage where art creates an impact. At this stage, art becomes a means of communication like other forms of expression, and like freedom of expression, it includes the use of art as a two-way freedom.

Thus, if any message or information is transmitted through art, it would be appropriate to choose the type of freedom that directly provides both the transmitter of that artistic expression and the person or persons to whom that expression is conveyed, i.e. freedom of creativity. In other words, artistic communication is under the guarantee of freedom of creativity.

Key words: *freedom of creativity, freedom of expression, legal regulation, international experience, artistic expression.*

ULDUZ QƏHRƏMANOVA
ulduzkahraman1@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID ID: 0009-0003-4418-9319

MİLLİLİK VƏ XƏLQİLİK BƏDİİ YARADICILIĞIN ƏSAS ESTETİK KATEQORİYALARINDAN BİRİ KİMİ

Bədii ədəbiyyatda xəlqilik novatorluqla dinamik vəhdətdədir. Xəlqilik sənətkarın mənsub olduğu xalqının ruhunu başa düşməsi, onun həyatı ilə yaşamasıdır. Xəlqilik xalqın ehtiyac və tələblərinin sənət əsərlərinə gətirilməsi deməkdir. Xəlqilik bədiiliyin ən yüksək şəkli, ən qüvvətli bir təzahürüdür. Xəlqiliyin əsas əlaməti xalqın həyatı və mənafeyi ilə bağlılığındadır. Xəlqiliyin mühüm əlamətlərindən biri də budur ki, yazıçı öz fikrini, öz hisslərini xalqın başa düşə biləcək, xalqın hiss və fikirlərinə təsir edə biləcək şəkildə çatdıra bilməsindədir.

Sənətin milliliyi onun mənsub olduğu xalqın dili, həyatı, təbiəti, arzu və istəkləri, problemləri, bədii təfəkkür tərzi, mədəni irsi ilə bağlılığı deməkdir. Millilikdən təcrid olunmuş əsər ümumbəşəri əhəmiyyət kəsb edə bilməz. Sənət xalq həyatından qidalandığı, onunla nəfəs aldığı üçün milliyini müəyyənləşdirir. Sənətin milli sənətkar kimi mövcudluğunun şərtləri milli varlıqdadır.

Milli və sinfi anlayışları bir-birinə qarışdırmaq və eyniləşdirmək olmaz. Belə ki: Millilik xalqın adət-ənənəsinin sənətkar tərəfindən sənət əsərinə gətirilməsidir. Ona görə də millilik hər şeydən əvvəl xəlqiliklə bağlıdır. Yəni xəlqilik milliyin ayrılmaz tərkib hisssəsi olsa da, millilik xəlqiliyə nisbətən daha geniş, daha dərin və əhatəli bir anlayışdır. Sənət öz milli mühiti, xalqın qayğı və ehtiyatı ilə, ideallığı və mübarizələri ilə bağlı olmalıdır.

Açar sözlər: *xəlqilik, millilik, sinfilik, bədii sənət, adət-ənənə*

Bədii ədəbiyyat təkcə yazılı şəkildə yaranan ədəbiyyat deyildir. Yazılı ədəbiyyatın özü də ilk doğuluşunda mifoloji təsəvvürlərə və şifahi xalq şeirinə əsaslanırdı. Yəni bədii ədəbiyyat xalqın həyatı ilə bağlı şəkildə inkişaf etməyə başlamışdır. Xalq ədəbiyyatı bədii ədəbiyyatın qan damarı, köküdür. Xalq ədəbiyyatına başqa sözlə folklore da deyilir. "Folk" ingiliscə xalq, "lore" isə "görüş, baxış, hikmət" deməkdir. Həqiqətən xalq ədəbiyyatı sənət əsərlərində xalqın həsrət və arzuları, görüş və fikirləri, etiqad və təsəvvürlərinin özündə ehtiva etməsidir. Xalq ədəbiyyatını yaradan xalq arasından çıxmış sənətkarlar olmuşdur. Lakin bu ədəbiyyat əvvəlcə şifahi şəkildə yaşadığından, ağızdan-ağıza keçdiyindən bunları yaradan adamların adları getdikcə unudulmuş və bu əsərlərin hamısı xalqın mənəvi sərvəti olmuşdur. Buna görə də çox zaman xalq ədəbiyyatını yaradanın xalqın özü olduğunu söyləyirlər.

Məlumdur ki, şifahi ədəbiyyatın meydana çıxması kollektiv yaşayış üsulu-ibtidai insanın yaşayış tərzi arasında bir bağlılıq vardır. Və kollektiv əmək prosesi (ovçuluq, balıqçılıq) folkor nümunələrinin yaranmasına səbəb olur. Sənətin mənşəyi xalq şeirinin meydana çıxması ilə bağlıdır. Şifahi xalq ədəbiyyatını öz hafizəsində saxlayan və qoruyan əsasən kəndli kütlələri olmuşdur. Onun üçün buna adətən xalq şeiri, xalq ədəbiyyatı adını vermişlər. Bu folklor nümunələrində xalqın keçmiş tarixi, əfsanələri, fəlsəfəsi, əxlaqı, adətləri, sevinc və arzuları, kədər və həsrətləri inikas edilmişdir.

Yazılı bədii ədəbiyyatın yaranması isə bəşər tarixində yazının icad edilməsi ilə bağlıdır. İlk yazılar hərflər şəklində deyil, rəsmlər şəklində idi. Hər bir söz rəsm ilə göstərilməyə başlanmışdır. Rəsm ilə göstərilən yazı inkişaf edərək məşrut (şərti) işarələr şəklinə düşmüşdür ki, buna da heroqlif deyilir. Ən qədim heroqlif Hindistanda e.ə. IV minilliyin sonunda əmələ gəlmişdir. Bu heroqliflərlə 12 min inək dərisi üzərində qədim Avesta yazılmışdır. Avropa xalqları arasında mədəniyyət tarixinə ilk qədəm atan yunanlar olmuşdur. VII əsrdə artıq yunanlarda mövcud olan heroqlif əsasında deyil, səs, hərf əsasında qurulmuşdur. Yazının meydana gəlməsi nəticəsində xalq ədəbiyyatı ilə birlikdə yazılı bədii ədəbiyyat da inkişaf etməyə başlamışdır.

Bədii ədəbiyyatda xəlqilik novatorluqla dinamik vəhdətdədir. Xəlqilik sənətkarın mənsub olduğu xalqının ruhunu başa düşməsi, onun həyatı ilə yaşamasıdır. Xəlqilik xalqın ehtiyac və tələblərinin sənət əsərlərinə gətirilməsi deməkdir. (U.Q.) Xəlqilik bədiiliyin ən yüksək şəkli, ən qüvvətli bir təzahürüdür. Xəlqiliyin əsas əlaməti xalqın həyatı və mənafeyi ilə bağlılığındadır. Xəlqiliyin mühüm əlamətlərindən biri də budur ki, yazıçı öz fikrini, öz hisslərini xalqın başa düşə biləcək, xalqın hiss və fikirlərinə təsir edə biləcək şəkildə çatdıra bilməsindədir. Hər bir xalqın yaratdığı ədəbiyyat milli bir xarakter daşıyır, ölkənin və xalqın milli xüsusiyyətləri ilə, milli dili ilə əlaqədardır. Həqiqi, böyük sənətkarlar hər zaman milli sənətkarlar olmuşlar, öz yaradıcılıqları ilə vətəninə, xalqına kömək etmişlər. İnsanlığa dərin məhəbbət hissi təlqin etməyə çalışmışlar. Ona görə də vətənpərvərlik və humanizm həqiqi xalq yazıçılarına xas olan bir keyfiyyətdir. Millilik yazıçının beynəlmiləlçiliyinə zidd deyil, əksinə, bunu tamamlayır, daha da mükəmməlləşdirir.

Klassik yazıçılar xəlqiliyin əsas şərtlərini belə müəyyənləşdirirlər:

- Xalqın arzu və istəklərini təmsil etmək
- Dövrün qabaqcıl ideyalarına əsaslanmaq
- Xalqın başa düşəcəyi dil və üslubda yazmaq
- Xalqın milli adət-ənənələrini bilməklə, milli çərçivələrdə qalmayıb bəşər mədəniyyəti səhnəsinə çıxmaq

Bədii yaradıcılıqda tipiklik həm də xəlqiliyin əsasıdır. Xəlqilik ancaq tipikliklə üzvi əlaqədə, vəhdətdə təzahür edir., meydana çıxır. Məlumdur ki, hər bir xalqın həyatı özünəməxsus formalarda meydana çıxır. Bədii əsərdə həyatın, adət-ənənənin təsviri doğrudursa, o təsvir eyni zamanda xəlqidir. Tolstoy deyirdi ki, ancaq öz xalqı ilə birlikdə yaşayan və onu yaxşı tanıyan yazıçı əsl mənada xalq sənətkarı ola bilər. N.A.Dobrolyubov da deyirdi ki, əsl xalq şairi olmaq üçün xalq ruhunu başa düşmək, onun həyatı ilə yaşamaq, onun səviyyəsində dayana bilmək lazımdır.

Yaradıcılıqda xəlqiliyə nail olmaq üçün sənətdə ən azı 3 vacib şərtə əməl olunmalıdır.

1.Sənətkarın qələmə aldığı mövzu xalqın taleyi, tarixi müqəddəratı ilə bağlı olmalı, ümumxalq probleminə cavab vermlidir.

2. Bu mövzunun əsasında dayanan obrazlar xalqın istək və arzularının həqiqi daşıyıcıları olmalıdır, xalqın mənafeyi xeyrinə həll olunmalıdır.

3. Həm mövzu, həm də obrazlar sənətkarlıq cəhətdən yüksək səviyyədə işlənməli və öz həqiqi bədii həllini tapmalıdır. Yəni yazıçı öz əsərlərini xalqa yaxın bir formada, xalqın anlaya biləcəyi və sevə biləcəyi bir dildə, parlaq və inandırıcı surətlərlə yaradır, bu surətlərlə xalqın həyatına təsir etmiş olur.

Bədii əsərlərdə xəlqilik sənətkarlığın tərkib hissəsi və onu tamamlayan daxili keyfiyyətlərdən biridir. Sənətdə xəlqilik həm də orijinallıqla bağlı bir anlayışdır. Xəlqilik orjinallıqla vəhdətdə giriş, daha dərin məna kəsb edir. Hətta dahilik səviyyəsində yüksəlir. Orijinallıq sənətdə novatorluğun əsası, ilkin şərtidir.

Sənətdə millilik nədir? Sənətin milliliyi onun mənsub olduğu xalqın dili, həyatı, təbiəti, arzu və istəkləri, problemləri, bədii təfəkkür tərzi, mədəni irsi ilə bağlılığı deməkdir. Millilikdən təcrid olunmuş əsər ümumbəşəri əhəmiyyət kəsb edə bilməz. Sənət xalq həyatından qidalandığı, onunla nəfəs aldığı üçün milliyini müəyyənləşdirir. Sənətin milli sənətkar kimi mövcudluğunun şərtləri milli varlıqdadır.

Milli və sinfi anlayışları bir-birinə qarışdırmaq və eyniləşdirmək olmaz. Belə ki: Millilik xalqın adət-ənənəsinin sənətkar tərəfindən sənət əsərinə gətirilməsidir. (U.Q.) Ona görə də millilik hər şeydən əvvəl xəlqiliklə bağlıdır. Yəni xəlqilik milliyin ayrılmaz tərkib hisssəsi olsa da, millilik xəlqiliyə nisbətən daha geniş, daha dərin və əhatəli bir anlayışdır. Sənət öz milli mühiti, xalqın qayğı və ehtiyatı ilə, ideallığı və mübarizələri ilə bağlı olmalıdır. Millilik bu və ya digər xalqın ədəbiyyatının spesifik simasından, onun üçün səciyyəvi olan müəyyən bir xalqın ədəbiyyatı kimi təyin edən cəhətlərdən ibarətdir.

Millilik xalq həyatının, mənəviyyatının, psixologiyasının, ideologiyasının istinad nöqtəsidir. Əsl ümumbəşərilik, dünyəvilik milli formada meydana çıxır. Yəni millilik xəlqilikdən, ümumbəşərilik isə millilikdən qidalanır. Xəlqilik-millilik-ümumbəşərilik

Millilik isə xalqın adət-ənənəsindən gələn xüsusiyyətləri özündə ehtiva etməsidir. Məsələn: İ.Şıxlının "Dəli Kür"romanı xəlqiliklə milliliyin bütün təzahürlərini özündə birləşdirən zəngin xarakterlər romanıdır. Belə ki, Cahandar ağa həm düşüncə, həm də həyat tərzinə görə öz əslinə, kökünə bağlı sırf milli xarakterdir. Onun haqqında mühakimə yürüdülərkən bu xüsusiyyət mütləq nəzərə alınmalıdır. Sinfi mənsubiyyətcə mülkədar olan Cahandar ağa eyni zamanda azərbaycan xalqına məxsus milli fərddir. İsmayıl Şıxlının "Dəli Kür" romanına nəzər salsaq biz bir çox milli elementlərə rast gələ bilərik. Belə ki, Cahandar ağa Qori Seminariyasına şagird yığmaq üçün kəndə gəlmiş Çerniyayevskini ən çətin dəqiqələrdə Molla Sadığın təhriki ilə törədilmiş fitnəkarlıqdan qoruması, qonağa əl qaldırmazlar deməsi Cahandar ağanın öz xalqının milli adət ənənəsindən gələn elementlərə bağlı olmasından irəli gəlir. Yaxud: Düşmənlərinin Cahandar ağanın sevimli Qəmər adlı atının quyruğunu qırxması öz xalqının adət-ənənəsinə görə kişi üçün təhqir hesab edilirdi. Atının quyruğunun kəsilməsini görən Cahandar ağanın bu hadisəyə tab gətirə bilməməsi, əzabdan qəddinin əyilməsi, ilk dəfə özünə ölüm arzulaması, arxası hesab etdiyi atını öz əli ilə güllə ilə vurub sonra da qayadan uçurması və s. elementlər də milliyin xüsusiyyətləridir.

Həqiqi milli əsər həqiqi ümumbəşəri məzmun kəsb edən əsərdir. Əsl bədii əsər milli məzmunlu, milli xarakterli, ümumbəşəri mövzulu əsərlərdir. Millilik milli şüura, milli təfəkkür tərzinə yiyələnmiş, vahid bir formada düşünən, vahid bir dildə danışan bir cəmiyyətin, toplumun dünyagörüşünün poetik təzahürüdür.

Sinfilik isə insanların təbəqələrə bölünməsidir. Azərbaycan tarixində sinfilik Sovet Dövründə daha çox qabardıldı. İnsanlar ictimai aşağılar və ictimai yuxarılar deyə təbəqələşdirildi. Sovet ədəbiyyatşünaslığında ictimai aşağılar zəhmətkeş kütlələr: fəhlələr, əkinçilər, kəndlilər və digərləri xalq adlanırdı. İctimai yuxarılar isə ağalar, bəylər, mülkədarlar, kapitalistlər (burjuaziya sinfi) idi. Sovet rejimi də ictimai aşağıların yanında dayanaraq aşağıları ictima yuxarılara qarşı qaldırırdı. Sovet ədəbiyyatşünaslığı xalqın ancaq "ictimai aşağı" lardan ibarət olması fikrini məqsədli olaraq şüuraltına yeridirdi. Sovet ədəbiyyatşünaslığı "xalq" anlayışına sinfi məzmun verməyə çalışırdı. Bu əslində sovet ədəbiyyatşünaslığının 1920-30-cu illərdə dövriyyəyə buraxdığı ədəbiyyat siyasətinin ifadəsi idi.

Sovet ədəbiyyatşünaslığı milli oyanış, milli özünüdərk, vətəndaşlıq məfhumlarına "sinfilik" donu geyindirmişdir. Sovet ədəbiyyatşünaslığında "xalq" obrazının məzmunu "ictimai aşağılar"a tabe tutulurdu. Sovet ədəbiyyatşünaslığı "millət" yox, "xalq" anlayışını önə çəkirdi. Məlumdur ki, millət məfhumunu təşkil edən əlamətlərdən biri milli özünüdərkdir. Milli özünüdərk özünün bu və ya digər millətə mənsub olduğunu şüurlu olaraq anlamaqdır. Azərbaycan tarixində XX əsr milli şüurun formalaşması, milli intibah uğrunda aparılan aramsız mübarizə dövrü idi. Azərbaycan xalqının tarixində XX əsr millətin mövcudluğu, özünü təsdiq etməsi uğrunda gedən mübarizə dövrü idi.

Sovet rejimi isə xalqı millət kimi formalaşdırmağa maneə yaradan rejim idi. Rejim bu siyasəti həyata keçirmək üçün burjuaziyanı sinfi düşmən elan edirdi. Azərbaycan tarixinə nəzər salanda görərik ki, XX əsrin əvvəllərində neft bumu sayəsində Azərbaycan burjuaziyası yenicə formalaşmağa başlamışdır. Millətin formalaşması üçün əsas amil neft bumu ilə bağlı kapitalizmin inkişafı və bunun nəticəsi olaraq burjuaziya sinfinin meydana çıxması ilə yeni sosial təbəqə yaranmış oldu. Azərbaycan xalqı da XX əsrdə burjua milləti kimi formalaşdı. Sovet rejimi də burjuaziyanı sinfi düşmən elan etməklə əslində millət kimi formalaşmasına imkan vermək istəmirdi. Sovet rejimi cəmiyyətdə "istismar olunanlar"ı "ictimai aşağılar", "istismar edənlər"i "ictimai yuxarılar" kimi təqdim edirdi. Sovet rejimi də "ictimai yuxarılar"ı, yəni burjuaziya təbəqəsini sinfi düşmən elan etmişdir. Özü də "ictimai aşağılar"ın yanında dayanmaqla ictimai yuxarılar ilə ictimai aşağıları üz-üzə qoymuşdur. Bu da Sovet imperiyasının özünü qorumaq üçün yürütdüyü anti-milli siyasətin bir parçası idi.

"İctimai yuxarılar" olan burjuaziyanın ölümə məhkum edilməsi Sovet rejiminin məqsədyönlü siyasəti idi. Rejim "ictimai aşağılar"ilə "ictimai yuxarılar" ı qarşı-qarşıya qoyurdu. Bununla rejim milli birliyə mane olmaq siyasəti həyata keçirirdi. Bu siyasət də bir xalqın millət kimi

formalaşmasının, öz milli varlığının dərk etməsinin qarşısını almağa yönəlmişdir. Əslində Sovet rejimi burjuaziyaya qarşı "müharibə"ni xalqı millət kimi formalaşdırmaq imkanından məhrum etmək üçün başlatmışdır. Bu siyasət təbii ki siyasi rejimin "parçala və hökm sür" konsepsiyasından irəli gəlirdi.

Sovet tədqiqatları Azərbaycan xalqının keçmişini ancaq "cəhalət yuvası" adlandırırdı. Bu da özümüzün, tarixi varlığımızın, keçmişimizin inkarı idi. Bu, əlbəttə, sovet düşüncə tərzindən qopmamaqdan, onun əsiri olmaqdan, əsarətində qalmaqdan irəli gəlirdi. Sovet rejimi əsarətdə saxlamaq məqsədi ilə apardığı sinfi təbəqələşmə siyasətində ictimai aşağılar və ictimai yuxarıları milli və dini cəhətdən də yanaşaraq böldürürdü. Milli, türkçülük, ümmətçilik idealı uğrunda döyüşən sinifləri də Sovet iperiyası ya repressiyaya məruz qoyub, ya da mühacir həyatı yaşamağa məhkum qoyubdur.

Milli düşüncədəki naqisliyi aradan qaldırmağın yeganə yolu hər bir vətəndaşda vətəndaşlıq düşüncəsini formalaşdırmaqdır. Çünki milli şüurun oyanışı vətəndaşlıq düşüncəsindən qidalanır. Bunun üçün şüurda inqilab etmək gərəkdir. Şüurlarda inqilab milli tərəqqi uğrunda mübarizədən başlayır. Şüurlarda inqilab məktəbdən, təhsildən, maariflənməkdən başlayır. Elm, təhsil, məktəb milli oyanışın, tərəqqinin, dirçəlişin hərkətverici qüvvəsidir. Milli tərəqqiyə gedən yol məktəbdən keçir. Təhsil, elm milli qurtuluş yoludur.

XX əsrin əvvəllərində milli məfkurəmiz azərbaycançılıq ideyası idi. Azərbaycan ədəbiyyatının tarixində milli istiqlal və azərbaycançılıq ideyalarını bədii konsepsiya səviyyəsində ifadə edən Cəlil Məmmədquluzadə yaradıcılığının novatorluğu idi. Bu əsr azərbaycan ziyalısını milli ideologiyaya, soykökə bağlılığa səsləyir, istiqlaliyyət uğrunda mübarizəyə səsləyir. Bu əsr azərbaycançılıq mövzusunda yazılmış silsilə əsərlərin qaynağıdır. Ədəbiyyatda, sənətdə xəlqilik, millilik, bəşərilik biri digərini tamamlayan, biri digəri ilə qarşılıqlı əlaqədə, vəhdətdə yaranıb formalaşan bədii kateqoriyalardır. Sənətdə, bədii yaradıcılıqda millilik bəşəri idealların əsasıdır. Böyük, kamil sənət əsərlərində millikdə bəşərilik vacib ictimai-estetik meyardır. Çünki hər bir fərd bəşər evinin övladı, sakinidir.

ƏDƏBİYYAT

1. Cəlal Mir, Xəlilov Pənah. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Çaşıoğlu, 2005
2. Əlimirzəyev Xalid. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: 2008
3. Əliyev Məmməd. Ədəbiyyat nəzəriyyəsinin əsasları. Bakı: 2000
4. Əliyev Rafiq. Ədəbiyyatşünaslığın əsasları. Bakı: 2001
5. Hacıyev Abbas. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1999
6. Xəndan Cəfər. Ədəbiyyat nəzəriyyəsi. Bakı:1958
7. Qəhrəmanova U. M.Ə.Sabir və klassik irs. Bakı: 2024
8. Rəfili Mikayıl. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1958
9. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012
10. Məmmədov K. XX əsr Azərbaycan gülüşü, Bakı: Yazıçı, 1989

SUMMARY

Ulduz Kahramanova

NATIONALITY AND NATIONALISM AS ONE OF THE MAIN AESTHETIC CATEGORIES OF ARTISTIC CREATIVITY

In fiction, humanity is in dynamic unity with innovation. Ethnicity is the artist's understanding of the spirit of his people and living with his life. Folkism means bringing the needs and demands of the people into works of art. Folkism is the highest form of art, the most powerful manifestation. The main sign of nationalism is its connection with the life and interests of the people. One of the important signs of humanity is that the writer is able to convey his thoughts and feelings in a way that people can understand and influence people's feelings and thoughts.

The nationality of art means its connection with the language, life, nature, dreams and desires, problems, artistic way of thinking, and cultural heritage of the people to which it belongs. A work isolated from nationality cannot be of universal importance. Art defines the nation because it is nourished by the life of the people and breathes with it. The conditions for the existence of art as a national artist are in the national existence.

National and class concepts cannot be confused and equated. So: Nationalism is the bringing of the traditions of the people to the work of art by the artist. Therefore, nationality is first of all related to humanity. In other words, although nationalism is an integral part of nationalism, nationality is a wider, deeper and comprehensive concept than nationalism. Art should be related to its national environment, people's care and concern, idealism and struggles.

Key words: *nationality, nationality, class, artistic art, tradition*

ZAMİQ ALLAHVERDİYEV
zamiq.allahverdiyev99@mail.ru
Bakı Dövlət Universiteti
ORCID ID: 0009-0003-2340-5481

UŞAĞIN BAXIŞLARINA (FİKİRLƏRİNƏ) HÖRMƏT PRİNSİPİNƏ DAİR BEYNƏLXALQ MÜDDƏALARIN MİLLİ TƏCRÜBƏYƏ İMPLEMENTASİYASI

Hal-hazırda 196 dövlətin ratifikasiya etdiyi UHK əksər dünya dövlətlərinin milli qanunvericiliyində rəhbər tutulsa da, xoşagəlməz faktlar yenə də dünya statistikalarında yer almaqdadır. Məsələn, erkən nikahların sayının çox olması, uşaqların məcburi əməyə cəlb edilməsi və s. Bu da bir daha təsdiq edir ki, uşaq hüquqlarının müdafiəsinə dair beynəlxalq prinsiplərin dövlətdaxili hüquqda tətbiqi üzrə çatışmazlıq və problemlər mövcuddur.

Uşaq hüquqlarının müdafiəsi sahəsində qəbul edilmiş beynəlxalq-hüquqi sənədlərin dövlətlər tərəfindən qəbul edildiyi etiraf olunsa da, onların daxili hüquqda səmərəli həyata keçirilməsinə dair dövlətlərin münasibətində nəzərəçarpacaq uyğunsuzluğun olması göz önündədir. Nəzərə almalıyıq ki, uşaq hüquqlarına dair beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmuş bir çox hüquqlar onların dövlətdaxili hüquqda müdafiə mexanizmi olmadığı təqdirdə sadəcə bəyanat xarakteri daşıyacaqdır. Bundan əlavə, uşaqların hələ də yetkin olmaması və müəyyən mənada başqa şəxslərdən "asılı" olması təcrübədə onların hüquqlarının realizəsi ilə bağlı məsələlərin həllində ciddi çətinliklər meydana gətirir.

Nəzəri yanaşmaların təhlili əsasında qeyd etmək lazımdır ki, tarixən uşaq hüquqlarına dair üç əsas yanaşma mövcud olmuşdur: valideynlərin, xüsusilə atanın uşaqların təbii himayədarları olduğunu və uşaqlar üçün müstəqil hüquqların lazımsız olduğunu iddia edən paternalist yanaşma; valideyn himayəsinin qeyri-mümkün və ya qeyri-adekvat olduğu hallarda cəmiyyət üçün tənzimləyici və müdaxilə rolunu müəyyən edən qoruyucu yanaşma; uşaqların müstəqil seçim etmək hüququnun genişləndirilməsinə üstünlük verən müasir yanaşma.

Uşaq hüquqlarına dair beynəlxalq mənbələr və dövlətdaxili qanunvericilik, eləcə də Konstitusiyamızda olan tənzimləmələr arasında fərqləri nəzərə alaraq, ayrı-ayrı uşaq hüquqlarının müdafiəsi ilə bağlı şərhləri Uşaq Hüquqları Komitəsinin respublikamızla bağlı verdiyi şərhlər əsasında təhlili nəticəsində belə bir qənaətə gəlmək olar ki, milli-hüquqi tənzimlədə uşaqların hüquqlarını nəzərdə tutan əksər normaların formulə edilməsində yanlış istiqamətlər vardır. Məsələn, "Uşaq hüquqları haqqında" Qanunun 27-ci maddəsi şərəf və ləyaqətin müdafiəsini təhsil müəssisələrindəki nizam-intizamla məhdudlaşdıraraq, uşağın işgəncəyə məruz qoyulmaması, şərəf və ləyaqətinin alçaldılmasına yol verən digər halları başqa bir maddədə nəzərdə tutur (maddə 28, 29). Belə məhdudlaşdırma çox güman ki, UHK-nın 28-ci maddəsinin II bəndi ilə əlaqədar edilmişdir. Hesab edirik ki, 27-ci maddənin məzmunundakı 2-ci cümlə çıxarılaraq, təhsil almaq hüququnu təsbit edən 22-ci maddəyə əlavə edilməlidir. Qanunda bu cür qeyri-müəyyən məzmun fərqləri çoxluq təşkil edir. Yaxşı olardı ki, uşaq hüquq və azadlıqlarını nəzərdə tutan normalar UHK və digər insan hüquqlarını təsbit edən beynəlxalq sənədlərə uyğun şəkildə yenidən redaktə edilsin.

Açar sözlər: *uşaq, uşaq hüquqları, beynəlxalq hüquq normaları, uşağın baxışlarına hörmət prinsipi, milli qanunvericilik.*

Uşağın onu maraqlandıran məsələlərdə sağlam fikrinin formalaşması üçün onun bilik və rəyə malik olması, onları ifadə edə bilməsi lazımdır. Ailə daxilindən başlayaraq uşağın fikirlərini nəzərə almaqla ifadə azadlığının olması uşağın avtonom şəxsiyyətinin formalaşması üçün əvəzsiz şərtdir. Bu iştirak hüququ uşaqlara bütün qərarların özləri tərəfindən verilməsi səlahiyyətini vermir, əksinə valideynlərin istiqamətləndirmək məsuliyyəti altında onlar inkişaf edən qabiliyyət və yetkinlik səviyyəsinə uyğun olaraq, lazım gəldikdə özünü ifadə edə bilən şəxsiyyətlər kimi yetişmələrini təmin edir.

Y.Korçak "Uşağı necə sevməli" kitabında yazırdı ki, uşaqların əsas və təkzibedilməz hüququ öz fikirlərini söyləmək, onlarla bağlı mülahizələrimizdə və hökmlərimizdə fəal iştirak etmək hüququdur. Zalım təhsil sistemindən fərqli olaraq, Korçak öz təliminin mərkəzi elementləri kimi uşaq hüquqlarını – danışmaq və dinlənilmək hüququnu qoymuşdur. Hələ 1910-cu illərdə Korçak kiçik "uşaq respublikası"ndakı bu iş formasını böyük beynəlxalq ictimaiyyətdə uşaqların hüquqlarına dair bəyannamə hazırlamaq cəhdləri ilə əlaqələndirirdi: Əgər mən məhkəməyə qeyri-mütənasib dərəcədə böyük bir yer ayırsam, mən bunu əminliklə edirəm ki, məhkəmə uşaqların bərabərliyinə töhfə verə bilər, konstitusiyaya yol hazırlaya bilər, uşaq hüquqları ilə bağlı bəyannamə qəbul edə bilər. Uşaqların öz problemlərini ciddi şəkildə həll etmək və ədalətli şəkildə düşünmək hüququ vardır. İndiyə qədər hər şey müəllimin xoş niyyətindən, yaxşı və ya pis əhval-ruhiyyəsindən asılı idi. Uşağın etiraz etmək hüququ yoxdur. Bu despotizmə son qoyulmalıdır (Korczak, 2009, p.18-19).

UHK-nın 12-ci maddəsində UHK-nın sütunlarından biri kimi təsbit edilmiş uşağın "dinlənilmək hüququ" ən yenilikçi uşaq hüququdur və bu, şübhəsiz ki, ən təsirli hüquqdur. 12-ci maddənin icrası müəyyən dərəcədə uşaqların "görülmüş və eşidilməyən" mövqeyini onlara təsir edən bütün qərarların qəbulunda iştirak etmək hüququ olan hüquq sahibləri kimi tanınmasına çevirmişdir. Uşağın onlara təsir edən bütün məsələlərdə öz fikirlərini sərbəst ifadə etmək hüququ beynəlxalq səviyyədə qanunvericilik və siyasət dəyişikliklərinə səbəb olmuşdur.

Lakin hələ də uşağın öz fikirlərini ifadə etmək və bu fikirlərə uşağın yaşına və yetkinliyinə uyğun olaraq, lazımi əhəmiyyətə malik olmaq hüququnu özündə ehtiva edən 12-ci maddənin icrası ilə bağlı çox şey aydın deyil. Qərar verənlər təkcə uşaqları dinləməməli, həm də onlara təsir edən qərarların qəbulu prosesində onların fikirlərinə verilən əhəmiyyət barədə məlumat verməlidirlər. Genişləndirici təfsir versək, uşaq onu maraqlandıran istənilən məsələdə fikir formalaşdıra bilər. Hər bir uşağa öz fikrini bildirməyə imkan verən 12-ci maddə uşaqların öz fikirlərini sərbəst ifadə etmək hüququna aşağı həddi qoymur. Əslində, uşaqların fikirlərinin yalnız onlara aid olan məsələlərlə bağlı eşidilməsinə ehtiyac olması məsələsi məqbul sayılmır. Bu gün cəmiyyətimizdə uşaqları maraqlandırmayan bir mövzunun olduğunu söyləmək çətindir. Hər bir mövzu uşağın həyatına uzaqdan təsir etmək potensialına malikdir. Bu zaman uşaqların bütün məsələlərlə bağlı fikirlərini bildirmələri, hətta lazım gəldikdə qərar qəbul etmələri uşağın azadlığı üçün vacibdir. Uşağın öz fikirlərini ifadə edə bilməsi mütləq o demək deyil ki, uşaq fikir bildirməlidir. Əslində, Konvensiyada bu məsələ "sərbəst" ifadəsi ilə izah olunur. Öz fikirlərini ifadə etmək uşaqlar üçün öhdəlik deyil, hüquqdur. Ona görə də uşaqlar öz fikirlərini ifadə etməyə məcbur edilə bilməz və onlar öz fikirlərini ifadə edərkən heç bir manea ilə üzləşməməlidirlər. Bu baxımdan, uşaqlara öz fikirlərini ifadə edə biləcəkləri adekvat imkanlar və mühitlər yaradılmalı, onların fikirləri fərqlidirsə, onlara hörmət edilməli, ən əsası onlara dəstək göstərilməlidir.

Aisling Parkes (Aisling, 2013) beynəlxalq uşaq hüquqları qanunu və siyasətinin daha geniş kontekstində UHK-nın 12-ci maddəsinin mahiyyətini və əhatə dairəsini nəzərdən keçirərək, geniş təhlillər aparmışdır. Müəllif müxtəlif sahələrdə uşağın eşdilmək hüququnun həyata keçirilməsini müzakirə edir: ailə daxilində, ailə hüququ prosesində, məktəbdə, qanunla ziddiyyət təşkil edən uşaqlar üçün və ictimai qərarların qəbulunda.

UHK-nın 12-ci maddəsində nəzərdə tutulur ki, öz fikirlərini formalaşdıra bilən uşaq ona aid bütün məsələlərdə bu fikirlərini sərbəst ifadə etmək hüququna malik olmalı və uşağın yaşına və yetkinliyinə uyğun olaraq, onlara lazımi əhəmiyyət verilməlidir. Həmçinin bunun üçün birbaşa və ya nümayəndə vasitəsilə uşağa aid istənilən məhkəmə və inzibati prosesdə onun dinlənilmək imkanı təmin edilməlidir.

Uşaqların fikirlərinə lazımi əhəmiyyət verilməsində istifadə ediləcək meyarlar da Konvensiya ilə tənzimlənir. Konvensiyaya əsasən, uşağın yaşına və yetkinliyinə uyğun olaraq, onun fikirləri nəzərə alınmalıdır. Burada yaş və yetkinlik səviyyəsinin birlikdə meyar olacağı müəyyən edilmişdir. Göründüyü kimi, 12-ci maddə uşaqların öz fikirlərini sərbəst ifadə etmək hüququna heç bir aşağı yaş həddi qoymur. Komitənin də bütün hesabat və şərhlərində uşaqların fikirlərinin müəyyən edilməsi və ya nəzərə alınması üçün daha aşağı yaş məhdudiyyəti qoyanlara heç bir dəstək göstərilmir. "Erkən

uşaqlıq dövründə uşaq hüquqlarının həyata keçirilməsi" ilə bağlı 7 saylı Ümumi Şərhində Komitə iştirakçı dövlətləri erkən uşaqlıq dövründə hüquqlar üçün müsbət gündəm yaratmağa təşviq edir: "Erkən uşaqlıq dövrünü əsasən uşaqlıq dövrü kimi qəbul edən ənənəvi inanclardan uzaqlaşma, yetişməmiş insanın yetkin yetkin statusuna doğru ictimailəşməsi tələb olunur. Konvensiya tələb edir ki, uşaqlar, o cümlədən ən kiçik uşaqlar, öz hüquqlarında şəxsiyyət kimi hörmət edilsinlər. Azyaşlı uşaqlar öz qayğıları, maraqları və baxışları olan ailələrin, icmaların və cəmiyyətlərin fəal üzvləri kimi tanınmalıdırlar" (CRC, 2005, para 5).

Konvensiyanın 12-ci maddəsinin 2-ci bəndində vurğulanır ki, uşaqların məhkəmə və ya inzibati icraat zamanı öz fikirlərini ifadə etmək hüququ vardır. Məhkəmə prosesi və inzibati təqib prosesi anlayışları geniş məna daşıyır. Bu kontekstdə uşağın şəxsi vəziyyəti ilə bağlı məhkəmə proseslərində, mülki və cinayət işlərində, təhsil, sağlamlıq və məşğulluq kimi rəsmi qərar proseslərində öz fikirlərini ifadə etmək hüququ olduğu qəbul edilir. Konvensiyada ədalətli mühakimə zəmanəti altında təşkil edilən məhkəmə prosesində səmərəli iştirak hüququ ilə də bağlı olan bu bənd uşaqlara istənilən mühitdə öz fikirlərini sərbəst ifadə etməyə imkan verir. Məhkəmə və ya inzibati prosesdə uşağın necə dinləniləcəyi tərəflərin ixtiyarındadır. Bu nöqtədə dövlətlər uşaqları birbaşa, nümayəndə vasitəsilə, müvafiq orqan vasitəsilə və ya digər alternativ vasitələrlə dinləyə bilərlər.

Bununla bağlı, İHAM təcrübəsinə nəzər salsaq, heç də ürəkaçan olmayan faktlar mövcuddur. Məsələn, 1982-ci ildə Hendriks Hollandiyaya qarşı və 1988-ci ildə Nielsen Danimarkaya qarşı işlərində Komissiya və Məhkəmə müvafiq olaraq, uşaqların istəklərinə məhəl qoymayan yerli hakimiyyət orqanlarının yanaşması ilə razılaşmışdı. Eyni zamanda, digər məhkəmə təcrübəsi göstərir ki, uşağın valideynlər görüşə qarşı çıxması ən üstün maraqlar testinin bir hissəsi kimi aktual hesab edilmişdir. Məsələn, Komissiya etiraf etmişdir ki, uşağın istəklərinə zidd olaraq valideynlə görüşməyə məcbur etmək onun maraqlarına uyğun deyil (Ursula, 2002, p. 343). Bundan başqa, ictimai hüquq kontekstində Məhkəmə müəyyən etmişdir ki, uşaq valideyndən ayrıldıqda və valideynlə uşaq arasında daha sıx əlaqə yaratmaq üçün bəzi tədbirlər görüldükdə, valideyn yox, yetkin uşaq öz münasibətlərinin inkişaf tempini müəyyən etməlidir (European Court, 1992). Uşaqların öz fikirlərini ifadə etmək hüququ və imkanlarının olması vacib olsa da, bu hüquq uşağın öhdəliyi kimi şərh edilməməlidir. Məhkəmə Şahin Almaniyaya qarşı işində bu mövqeyə əhəmiyyətli dəstək göstərmişdir (European Court, 2023). Həmin iş üzrə uşağın özünü ifadə etmək hüququ valideynlə münasibəti kontekstində şərh olunmuşdur. Həmçinin yalnız məhkəmənin deyil, həmçinin psixoloji ekspertizanı aparmış ekspertin uşağın fikrini almamasını İHAM qeyri-məqbul saymış və Konvensiyanın 8-ci maddəsinin pozulması kimi qiymətləndirmişdir. Məhkəmənin fikrincə, məsələ ərizəçinin öz maraqlarının lazımi müdafiəsini təmin etmək üçün kifayət dərəcədə qərarların qəbulu prosesində iştirak edib-etməməsindən gedir və ona görə də yerli məhkəmələr uşaqla birbaşa təmasda olduqdan sonra uşağın ən yüksək mənafeyinə nəyin uyğun olduğunu diqqətlə nəzərdən keçirməlidirlər. Bu baxımdan, uşağın bu cür işlərdə məhkəmədə dinlənilməməsi düzgün hal deyil (European Court, 2023).

Azərbaycanın dövri hesabatlarında uşağın baxışlarına hörmət prinsipinin təminatı aşağıdakı münasibətləri əhatə edir:

- mülki münasibətlər: emansipasiyanın təsbit edilməsi;
- ailə münasibətləri: uşağın öz valideynlərinin (və ya onları əvəz edən şəxslərin) zorakılıqlarından müdafiə olunması hüququnun təsbiti. Belə zorakılıq halları mühafizə orderlərinin tətbiqi və ya valideynlik hüquqlarından məhrumetmə ilə nəticələnə bilər. Bundan əlavə, Ailə Məcəlləsində 10 yaşına çatmış fikirlərinin mütləq nəzərə alınması imperativ qaydada müəyyən olunmuşdur. Eyni zamanda, həmin Məcəllə ilə nəzərdə tutulmuş hallarda məhkəmə və ya müvafiq orqanlar yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə, habelə qərar qəbul edərkən 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər (maddə 52). Bu qaydalar uşağın himayədar ailəyə verilməsi zamanı da tətbiq edilir. Belə ki, yalnız onun fikri nəzərə alınmaqla himayədar ailəyə vermə mümkün ola bilər. 10 yaşı tamam olmuş uşaq isə yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə verilə bilər (Ailə Məcəlləsinin 145-ci maddəsi).

➢ Müxtəlif icraatlar üzrə prosessual münasibətlər: prosessual məcəllələrdə yetkinlik yaşına çatmayanlara verilən bir çox hüquqlar onların baxışlarına hörmət prinsipindən irəli gəlir. Məsələn, ədalətli məhkəmə araşdıması, ifadə verməkdən imtina hüququ və s.

Milli təcrübədə olan bu müsbət dəyişikliklər Uşaq Hüquqları Komitəsi tərəfindən təqdirəlayiq hal sayılmışdır, hətta Komitə dövlət orqanlarının uşaqların iştirakının təşviqinə yönəlmiş müxtəlif təşəbbüslərini, o cümlədən "Uşaq Səfirlər Məclisi" layihəsini xüsusi vurğulamışdır (Committee on the Rights of the Child, 2023, para 20). Belə ki, bu layihə 2020-ci ildən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təqdim edilmişdir və 15 nəfərdən ibarət olan Məclisə Komitənin rəyi əsasında 13-17 yaş arası uşaqlar üzv ola bilər. Layihənin əsas məqsədi uşaqlarda müstəqil özünü ifadə etmə bacarığını formalaşdırmaq, onarın ictimai fəallığını artırmaqla, onların iştirak hüququnun təmin olunmasından ibarətdir (Uşaq Səfirlər Məclisi, 2023).

Bununla belə, Komitə aşağıdakılardan narahatdır: (a) uşaqların dinlənilmək hüququnun həyata keçirilməməsi; (b) uşaqların, xüsusilə əlilliyi olan və ucqar ərazilərdə yaşayan uşaqların onlara təsir edən qərarların qəbul edilməsində iştirak etmək imkanlarının olmaması; (c) Fəaliyyət göstərməyən Uşaq Parlamenti, "uşaq dostu məktəblər" layihəsindən imtina, "gənclər evlərinə" seçmə giriş və uşaq assosiasiyalarının və məktəb parlamentlərinin fəaliyyətinin azalması (Committee on the Rights of the Child, 2023, para 20).

Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar:

UHK-nın 7-ci maddəsinin I bəndində "öz valideynlərini tanımaq və onlardan qayğı görmək hüququ" ad və vətəndaşlıq almaq hüququnun məzmununa uyğun deyil. Fikrimizcə, bu hüquq haqlı olaraq bizim Qanunun 17-18-ci maddələrində təsbit olunmuşdur. Lakin bir fərqli məqam ondan ibarətdir ki, 18-ci maddə uşağın ondan ayrı yaşayan valideynini tanımaq hüququnu tanıyır. Belə olduğu halda, UHK-da bəyan olunmuş "öz mənşəyini tanımaq, bilmək hüququ"nu bu maddə altında şərh etmək mümkün olmur. Çünki uşağın onunla birlikdə yaşayan valideynləri onun əsl valideyni olmaya da bilər. Bu baxımdan, uşağın öz mənşəyini bilmək hüququ tamam fərqli bir hüquqdur. Bu hüququn milli hüquqda öz təsbitini tapması vacib məsələdir. Doğrudur, müvafiq normativ xarakterli aktlarda uşağın doğum haqqında məlumatlarının yalnız o, yetkinlik yaşına çatdıqdan sonra və məhkəmə qərarı ilə təqdim edilməsi ilə bağlı tənzimləmə vardır. Lakin buna baxmayaraq, beynəlxalq normalara uyğunluğun təmin edilməsi və müvafiq prosedur qaydaların işlənib hazırlanması üçün qeyd olunan hüququn ayrıca maddədə "Uşaq hüquqları haqqında" Qanuna daxil edilməsi daha düzgün olardı. Bundan əlavə, bu hüquqla bağlı "qəyyumun tələbi" həmin maddədən istisna olunmalıdır (Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydasının 2.9-cu bəndində belə qayda nəzərdə tutulmuşdur ki, zənnimizcə, düzgün yanaşma deyil).

Bundan əlavə, həm ailə, həm də cinayət qanunvericiliyi övladlığa götürmə zamanı övladlığa götürənin mənafeyini "sanki daha çox qoruyur". Çünki CM-nin 175-ci maddəsi övladlığa götürmə sirrinin övladlığa götürən şəxsin iradəsinə zidd olaraq yayılmasını kriminallaşdırmışdır. Ailə Məcəlləsində isə uşaq 10 yaşına çatdıqda ona övladlığa götürmə ilə bağı məlumatların təqdim olunması nəzərdə tutulsa da (maddə 130.5), övladlığa götürmüş şəxsin razılığı olmadan bu barədə məlumatın kənar şəxslərə təqdim edilməsi qadağan edilir (maddə 130.2). Hesab edirik ki, qeyd etdiyimiz hər iki normaya "övladlığa götürülənin iradəsinə zidd olaraq" ifadəsinin əlavə edilməsi daha məqsədəuyğundur.

Uşaqların siyasi partiyalarda birləşməsini istisna edən tənzimləməyə gəldikdə isə, Komitə bir çox dövlətlərin (Gürcüstan, Kosta-Rika, İran) hesabatlarına dair şərhlərində belə təcrübəni pisləyərək, iştirakçı dövlətlərə 18 yaşına çatmamış şəxslərin siyasi fəaliyyətlə məşğul olmaq hüququ ilə bağlı qanunvericiliyinin uyğunluğunu təmin etmək üçün müvafiq tədbirlər görməyi tövsiyə edir (Azərbaycanda da 18 yaş məhdudiyyəti nəzərdə tutulmuşdur). Komitə narahatlıqla qeyd edir ki, qanun gənclərin siyasi partiyalara üzv olmasını qadağan edir və bu qadağa onların siyasi liderliyə hazırlığını ləngidir və birləşmək azadlığını inkar edir (Rachel Hodgkin, 2007, p.199). Fikrimizcə, uşaqların siyasi fəaliyyətə cəlb edilməməsi daha düzgündür. Bu cür hüququn tanınması müxtəlif siyasi partiyalar tərəfindən uşaqların mövqeyindən sui-istifadə hallarına gətirib çıxara bilər. Siyasi

partiya və təşkilatların dövlətlərin idarəetməsində həlledici rolunu nəzərə alsaq, xalqın taleyini siyasi hakimiyyət və fəaliyyətin nə olduğunu dərk etmək iqtidarında olmayan uşaqların yanaşmasına buraxmaq bir qədər düzgün olmazdı. Lakin bu, uşaqların təhsil müəssisəsi daxilində söz haqqına malik olması hüququnu istisna etmir.

ƏDƏBİYYAT

1. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Nurlar, 2019, 352 s.
2. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: AZSEA nəşriyyatı, 2012, 232 s.
3. Uşaq Səfirlər Məclisi. https://cac.info.az/ourgoal/
4. Committee on the Rights of the Child. Concluding observations on the combined fifth and sixth periodic reports of Azerbaijan, 22 February 2023. https://digitallibrary.un.org/record/4003971
5. Janusz Korczak. The Child's Right to Respect. translated by E.P Kulawiec. Office of the Commissioner for Human Rights, Council of Europe, 2009, 91 p.
6. Kilkelly Ursula. Effective Protection of Children's Rights in Family Cases: An International Approach // Transnational Law & Contemporary Problems, 2002, Vol. 12, No. 2, pp. 335-354
7. Parkes Aisling. Children and International Human Rights Law/The Right of the Child to be Heard, London, Routledge (Routledge Research in Human Rights Law), 2013, 396 p.
8. Rachel Hodgkin, Peter Newell. Implementation Handbook for the Convention on The Rights of The Child. United Nations Publications, 2007, 788 p.
9. Rieme v. Sweden. Application No. 12366/86, 22 April 1992. https://international.vlex.com/vid/case-of-rieme-v-870640527
10. Sahin v. Germany. Application No. 30943/96, 8 July 2003. https://opil.ouplaw.com/display/10.1093/law:ihrl/2924echr03.case.1/law-ihrl-2924echr03
11. UN Committee on the Rights of the Child (CRC). General comment No. 7, 2005, Implementing Child Rights in Early Childhood, CRC/C/GC/7/Rev.1, para 5. https://www.refworld.org/docid/460bc5a62.html

SUMMARY

Zamiq Allahverdiyev

IMPLEMENTATION OF THE INTERNATIONAL PROVISIONS ON THE PRINCIPLE OF RESPECT FOR THE VIEWS (OPINIONS) OF THE CHILD INTO NATIONAL PRACTICE

Although the Convention on the Rights of the Child, ratified by 196 countries, is guided by the national legislation of most of the world's countries, unpleasant facts are still included in world statistics. For example, high number of early marriages, involvement of children in forced labor etc. This once again confirms that there are deficiencies and problems in the application of international principles on the protection of children's rights in domestic law.

Although it is recognized that the international legal documents adopted in the field of child rights protection have been accepted by the states, there is a noticeable inconsistency in the attitude of the states regarding their effective implementation in the domestic law. We must take into account that many rights established in the international legal documents on children's rights will only have the nature of a statement if they do not have a protection mechanism in the domestic law. In addition, the fact that children are still immature and in a certain sense “dependent” on other people creates serious difficulties in solving issues related to the realization of their rights in practice.

Based on the analysis of theoretical approaches, it should be noted that historically there have been three main approaches to children's rights: a paternalistic approach that argues that parents, especially fathers, are children's natural guardians and that independent rights for children are unnecessary; a protective approach that defines a regulatory and intervention role for society when parental care is impossible or inadequate; a modern approach that favors the expansion of children's right to make independent choices.

Taking into account the differences between international sources on children's rights and domestic legislation, as well as the regulations in our Constitution, as a result of the analysis of the comments on the protection of individual children's rights based on the comments made by the Children's Rights Committee regarding our republic, it can be concluded that the national legal regulation of children there are wrong directions in the formulation of most norms that envisage their rights. For example, Article 27 of the Law “On the Rights of Child”, limits the protection of honor and dignity to discipline in educational institutions, and provides in another article that the child should not be subjected to torture, and other cases that allow the humiliation of honor and dignity (Article 28, 29). Such restriction was probably made in connection with paragraph II of article 28 of the Convention on the Rights of the Child. We believe that the 2nd sentence in the content of Article 27 should be removed and added to Article 22, which establishes the right to education. Such vague content distinctions abound in the law. It would be good if the norms regarding children's rights and freedoms are revised in line with the Convention on the Rights of the Child and other international documents establishing human rights.

Key words: *child, children's rights, international norms, the principle of respect for the views of the child, national legislation.*

TÜRKAN NOVRUZZADƏ
tnovruzzade2000@gmail.com
Bakı Dövlət Universiteti

FƏRDİ MƏLUMATLARIN QORUNMASINA DAİR ÜMUMİ NƏZƏRİ-TARİXİ TƏHLİL

Fərdi məlumatların hüquqi mətnlərə daxil edilməsi İkinci Dünya müharibəsindən sonra Avropa dövlətlərinin işi ilə başlamışdır. Əvvəllər şəxsi toxunulmazlıq hüququnun bir hissəsi hesab edilən fərdi məlumatların qorunması hüququ sonralar xüsusi olaraq fundamental hüquqlara daxil edilmişdir. Bütün dünyada fərdi məlumatların mühafizəsi baxımından hər bir dövlət tərəfindən müxtəlif təcrübələrin qəbul edilməsi nəticəsində müxtəlif mühafizə səviyyələri formalaşmışdır.

Fərdi məlumatların qorunması ilə bağlı beynəlxalq qaydalar ən geniş şəkildə Avropa qanunvericiliyinə daxil edilmişdir. GDPR ilə birlikdə üzv ölkələrdə qüvvədə olan ümumi qanunvericilik yaratmağa müvəffəq olan Avropa Birliyi üçüncü ölkələrə məlumat ötürülməsi ilə bağlı qaydaları və fərdi məlumatların yüksək səviyyədə qorunmasını hədəfləyən ideologiyası ilə dünya praktikalarına da təsir göstərmişdir.

Qərbdə ABŞ müasir mənada fərdi məlumatların qorunmasında təsirli olan əsas prinsiplərin meydana çıxmasında təsirli olmuşdur. Lakin sonradan bu prinsiplərin həyata keçirilməsi üçün heç bir səy göstərilməmiş və iqtisadi maraqların prioritet olduğu təcrübələr qəbul edilmişdir.

Şəxsi həyatın toxunulmazlığı hüququnun, ilk növbədə insan hüquqları daxilində əks olunması və müasir cəmiyyətdə texnologiyaların inkişafı qarşısında şəxsin sahib olduğu şəxsi həyat sahələrinin gün keçdikcə daralması bu hüququn müdafiəsini beynəlxalq hüququn da problemi halına gətirmişdir. Qeyd olunan hüquqla bağlı beynəxalq müqavilələrdə tənzimləmələr aparılmış və şəxsi həyatın qorunması məsələsi elmi səviyyədə nəzərdən keçirilərək bu mövzuda müzakirələr də aparılmışdır.

Bu gün fərdi məlumatların qorunması informasiya cəmiyyətinin əsas istiqamətlərindən biri kimi qiymətləndirilir və bu mənada informasiya dövrümüzün aktual problemlərindəndir. Hər gün dövlət qurumları və özəl qurumlar, fərdlər haqqında əhəmiyyətli miqdarda məlumatlar toplamaqda, saxlamaqda, işləməkdə və nəql etməkdədirlər. Bununla yanaşı, texnologiya fərdlərin məlumatı paylaşması və dünya miqyasında yaymasına icazə verəcək formada inkişaf etmişdir. Bütün bunlar fərdlərin məlumatları üzərində nəzarətini itirərək, özlərinə qarşı istifadəsi kimi bir çox təhlükəli vəziyyətin yaranmasına səbəb olmaqdadır. Fərdi məlumatların qorunması həmin məlumatların başqa şəxs və ya qurumlar tərəfindən icazəsiz istifadəsinə qarşı şəxslərin sahib olduqları bir hüquqdur. Dövrümüzdə texnologiyanın inkişafı ilə bu hüququn təminatı məsələsi xüsusi diqqət tələb edir.

Açar sözlər: *şəxsi toxunulmazlıq hüququ, fərdi məlumat, doktrinal yanaşma, beynəlxalq hüquqi tənzimetmə, milli qanunvericilik.*

Ümumi doktrinal yanaşma

Fərdi məlumatların mühafizəsi hüququ, ümumiyyətlə, şəxsi həyatın toxunulmazlığı ilə bağlı olsa da, onun hüquqi mahiyyəti ilə bağlı doktrinada iki əsas fikir üstünlük təşkil edir [4, s. 62]. Bu fikirlər fərdi məlumatların mühafizəsi və işlənməsi ilə bağlı fərqli yanaşmalara malik olan ABŞ və Avropa qaydaları əsasında yaranmışdır. ABŞ-da fərdi məlumatların qorunması iqtisadi hüquq kimi yanaşıldığı halda, Avropada təbii hüquq yanaşmasına əsaslanan insan hüquqları çərçivəsində baxılır. Demək olar ki, bu müxtəlif yanaşmaların meydana çıxmasında Avropada sosial-demokratiyanın qəbul edilməsi ilə dövlət fərdlərin əsas hüquq və azadlıqlarının qorunmasında pozitiv öhdəliklər götürür, ABŞ-da isə aktiv liberal demokratiya nəticəsində, dövlət fərdlərin hüquqlarını qorumaq üçün onların azadlıqlarına müdaxilədən qaçaraq öz üzərinə neqativ öhdəliklər götürür.

ABŞ-da fərdi məlumatların mühafizəsinin iqtisadi hüquq xarakteri daşıması burada informasiya infrastrukturuna Avropanın informasiya cəmiyyəti baxışından fərqli olaraq, informasiya iqtisadiyyatı

kimi yanaşılması ilə izah olunur. Nəticə etibarilə, Avropada fərdi məlumatların paylaşılmasının sosial təsirlərini tənzimləyən mexanizmlər nəzərdə tutularkən, ABŞ-da fərdi məlumatların kommersiya həyatında rolunun tənzimlənməsi prioritet olmaqla, fərdlər üçün bəzi minimum səviyyəli qoruma mexanizmləri nəzərdə tutulub.

Bundan əlavə, fərdi məlumatların qorunmasının mülkiyyət hüququ və əqli mülkiyyət hüququ nəzəriyyələri aspektindən izahına dair fikirlər vardır.

Mülkiyyət hüququ nəzəriyyəsində fərdi məlumatlar bazar dövriyyəsində olan və iqtisadi dəyərə malik olan əmtəə hesab edilir. Beləliklə, fiziki şəxslərin mülkiyyət hüquqları əsasında şəxsi məlumatlarını satması və ya açıqlaması mümkündür. Bu yanaşma ilə fərdlər öz şəxsi məlumatları üzərində hakimiyyətə sahib olub, onların şəxsi məlumatlarından kimlərin istifadə edə biləcəyinə nəzarət edə bilir və şəxsi məlumatların məxfiliyindən qismən və ya tamamilə imtina edərək onun iqtisadi dəyərini müəyyən edə bilirlər. Bundan başqa, fərdlərin fərdi məlumatlar üzərində yalnız müqavilə tərəfləri arasında tələb oluna bilən məhdud hüquqları əvəzinə, mülkiyyət hüququ ilə hər kəsə qarşı iddia edə biləcəkləri mütləq hüquqları var [5, p. 1256].

Mülkiyyət hüququna dair fikir Amerika iqtisadçıları və hüquqşünaslar tərəfindən fərdi məlumatların dövriyyəsini asanlaşdırdığı və mühafizəsinə daha az maliyyə sərf olunduğu kimi səbəblərə görə müdafiə olunur. Bu fikrin başqa bir güclü tərəfi odur ki, o, fərdlərə hər hansı pozuntu baş verdikdə birbaşa iddia qaldırmaq və təzminat tələb etmək hüququ verir.

Mülkiyyət hüququ nəzəriyyəsinin bəzi üstünlüklər təmin etdiyi qəbul edilsə də, bir çox aspektdən tənqid olunur. Tənqid edilən ilk məqam iqtisadi hüquqlar baxımından fərdi məlumatların qorunması məsuliyyətinin fərdlərin üzərinə qoyulmasının, fərdin şirkətlər və ya dövlət qurumları kimi güclü tərəflər qarşısında şəxsi məlumatlarını paylaşmaq məcburiyyətində hiss etməsi kimi mənfi nəticələrə səbəb ola biləcəyidir [4, s. 65]. Bundan başqa, mülkiyyət hüququnun ötürülə bilən xüsusiyyətinə görə, əgər fərdin şəxsi məlumatları ötürüldükdən sonra üçüncü şəxslərin əlinə keçərsə fiziki şəxsin artıq bu məlumatlar üzərində mülkiyyət hüququ olduğunu söyləmək mümkün olmadığından heç bir iddia irəli sürülə bilməz. Bu ötürmə azadlığı avtomobillər kimi daşınan mallar üçün mümkün olsa da, bu cür yanaşma şəxslə sıx bağlı olan şəxsi məlumatlar üçün qəbuledilməzdir.

Əqli mülkiyyət hüquqları mənəvi hüquqların mübadiləsini asanlaşdıran praqmatik bir yanaşmadır [6, p. 1293]. Bu səbəbdən də fərdi məlumatlar üzərində suverenliyi müəllif hüququ kimi yanaşma ilə izah edən müəlliflər də var. Əslində, əqli mülkiyyət hüquqları nəzəriyyəsi də şəxsi məlumatlara nəzarət etmək və şəxsi məlumatların bazarda sərbəst mövcud olmasını təmin etmək məqsədi daşıyır. Bununla belə, doktrinada üstünlük təşkil edən fikir ondan ibarətdir ki, fərdi məlumatların əqli mülkiyyət hüquqlarından fərqli olması kimi səbəblərə görə əqli mülkiyyət hüquqları nəzəriyyəsi fərdi məlumatların qorunması haqqı baxımından düzgün olmayacaq.

Amerika hüququnda iqtisadi maraqların ön plana çıxdığı bir modelin qəbul edilməsində daha əvvəl də qeyd etdiyimiz kimi burada təsirli olan liberal demokratiya anlayışı və bu anlayışa uyğun formalaşan iqtisadiyyat və insan hüquqları modelinin də böyük təsiri vardır. Fərdi məlumatların qorunması hüququda özündə ehtiva edən şəxsi həyatın toxunulmazlığı hüququ ABŞ qanunlarında konstitusion hüquq kimi öz əksini tapmır. Şəxsi həyatın toxunulmazlığı anlayışı ədəbiyyata 19-cu əsrdə Samuel Uorren və Louis Brendais tərəfindən yazılmış məqalələrlə daxil olmuşdur [7]. Bununla belə, şəxsi toxunulmazlıq hüququ daha sonra məhkəmə təcrübəsi vasitəsilə konstitusiya müdafiəsi qazanmışdır.

Bununla belə, qeyd etmək lazımdır ki, Amerikada fərdi məlumatların qorunması hüququnun vacibliyi və mövcud təcrübələrin qeyri-adekvatlığı ilə bağlı müzakirələr aktual olaraq qalır. Bununla belə, iqtisadi hüquqlar yanaşmasında fəal olan fərdlərin öz şəxsi məlumatlarına nəzarət etməsi və buna görə də məhkəməyə müraciət etmək və təzminat tələb etmək haqqı insan hüquqları yanaşmasında da keçərlidir.

Fərdi məlumatların qorunması üzrə hüquqi tənzimləmələr

Fərdi məlumatların qorunması ilə bağlı qaydalar fərdi məlumatların işləndiyi andan tətbiq olunmağa başlayır. Avropa İttifaqı tərəfindən qəbul edilən Ümumi Məlumatların Qorunması

Qaydasının 2-ci maddəsində qeyd edilir ki, fərdi məlumatların işlənməsi tam və ya qismən avtomatik üsullarla və ya avtomatik vasitələrdən başqa, sənədləşmə sisteminin bir hissəsini təşkil edən və ya onun bir hissəsini təşkil etmək üçün nəzərdə tutulan digər vasitələrlə həyata keçirilə bilər. 4-cü maddəyə görə, fərdi məlumatların emalı dedikdə, avtomatlaşdırılmış vasitələrlə olub-olmamasından asılı olmayaraq toplanması, qeyd edilməsi, təşkili, strukturlaşdırılması, saxlanması, uyğunlaşdırılması və ya dəyişdirilməsi, axtarışı, istifadəsi, ötürülməsi, yayılması, məhdudlaşdırılması, silinməsi, məhv edilməsi kimi istənilən əməliyyat və ya əməliyyatlar sistemi nəzərdə tutulur. Tərifdən də anlaşıldığı kimi, emal fəaliyyəti bu maddədə sadalananlarla məhdudlaşmır və verilənlər üzərində hər hansı əməliyyat və ya əməliyyatlar sistemi emal fəaliyyəti hesab olunur.

Fərdi məlumatlar anlayışının tərifində qeyd edildiyi kimi, fərdi məlumatlar müxtəlif sahələrdən olan məlumatları ehtiva edə bilər. Burada vacib məqam odur ki, o, şəxsin müəyyən edilməsinə kömək edə bilər. Bu müxtəlifliyin nəticəsi olaraq, şəxsi məlumatlar məlumat subyektinin həyatının müxtəlif sahələrinə aid olub şəxsi həyatın məxfiliyi, ifadə azadlığı və məlumat hüququ kimi müxtəlif əsas hüquq və azadlıqlar çərçivəsində müdafiədən faydalana bilər. Fərdi məlumatların qorunmasının fundamental hüquq olması yanaşması, xüsusən də Avropada geniş şəkildə qəbul edilir. Bu hüquqlar arasında fərdi məlumatların qorunması hüququ daha çox şəxsi toxunulmazlıq hüququ ilə əlaqələndirilmiş və bu çərçivədə mühafizədən faydalanmışdır. Bununla belə, texnoloji inkişaflar nəticəsində fərdi məlumatların emalı imkanları artmış, fərdi məlumatlardan istifadə etməklə həyata keçirilə bilən qanuni və hüquqa zidd hərəkətlər və bu əməlləri həyata keçirmək asanlaşmışdır. Beləliklə, fərdi məlumatların mühafizəsi hüququ özünəməxsus xarakteri ilə ayrıca hüquq kimi görülməyə başlamışdır.

Fərdi məlumatların mühafizəsinin ayrıca hüquq kimi ortaya çıxması İkinci Dünya müharibəsi və ondan sonrakı hadisələr nəticəsində 1970-ci illərdə Avropa ölkələrində başlamışdır. Bu mövzuda ilk tənzimləmə Almaniyanın Hessen əyalətində qüvvəyə minən Məlumatların Qorunması Qanunu (Datenschutz) olmuş, ardınca 1973-cü ildə İsveçdə qəbul edilmiş Məlumat Qanunu (Datalag) və 1978-ci ildə Fransada qəbul olunan Kompüter və Azadlıqlar (informatique et libertés) qanunu bu mövzuda ilk hüquqi tənzimləmə hesab olunur [3, s. 16]. Fərdi məlumatların qorunması hüququ Aİ-nin Əsas Hüquqlar Xartiyasının 8-ci maddəsində də təmin edilir. Bundan əlavə, Avropa İnsan Hüquqları Konvensiyasında (AİHK) fərdi məlumatların qorunması hüququnu özündə ehtiva edən heç bir xüsusi tənzimləmə olmasa da Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) yurisprudensiyasında Şəxsi və ailə həyatına hörmət adlı 8-ci maddə çərçivəsində qiymətləndirilməklə əsas hüquq və azadlıqlar çərçivəsində qorunmaqdadır.

Nəticə

Beləliklə, fərdi məlumatlar əvvəlki dövrlərdə şəxsi məlumatların tərkib hissəsi olsa da, hal-hazırda milli və beynəlxalq qanunvericilikdə müstəqil formada öz əksini tapır. Xarici dövlətlərin qanunvericiliyinin müqayisəli təhlili nəticəsində fərdi məlumatların qorunmasına dair dövlətlərin yanaşma tərzində müvafiq fərqlərin olduğu nəzərə çarpır. Bu fərqli yanaşmalar isə ABŞ və Avropa qaydaları nəticəsində ortaya çıxmışdır. Bu səbəbdəndir ki, ABŞ və Avropada müvafiq olaraq fərdi məlumatların qorunmasına iqtisadi hüquq və təbii hüquq yanaşmasına əsaslanan insan hüquqları çərçivəsində baxılır. İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində fərli məlumatların qorunması bütün dövlətlər üçün prioritet məsələ olaraq qalmaqdadır.

ƏDƏBİYYAT

1. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Nurlar, 2019, 352 s.
2. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ: Dərslik. Bakı: Nurlar, 2019, 448 s.
3. Gizem Büşra Sarı. Avrupa Birliği hukuku kapsamında kişisel verilerin korunması ve üçüncü devletler bakımından etkisi: ABD Örneği / Yüksek Lisans tezi / - Ankara, 2023. - 131 s.
4. Küzeci, E. Kişisel Verilerin Korunması. Ankara: Turhan Kitabevi Yayınları, 2018, 644 s.
5. Kang, J. Information Privacy In Cyberspace Transactions // Stanford Law Review, 1998, C. 50, pp. 1256-1257.
6. Litman, J. Information Privacy/Information Property // Stanford Law Review, 2000, Vol. 52(5), pp. 1283-1313
7. Samuel D. Warren, Louis D. Brandeis. The Right to Privacy // Harvard Law Review, 1890, Vol. 4, No. 5, pp. 193-220.

SUMMARY

Turkan Novruzzade

GENERAL THEORETICAL-HISTORICAL ANALYSIS OF PERSONAL DATA PROTECTION

The inclusion of personal data in legal texts began after the Second World War with the work of European states. The right to protection of personal data, which was previously considered a part of the right to privacy, was later specifically included in the fundamental rights. Different levels of protection have been formed as a result of the adoption of different practices by each country in terms of personal data protection around the world.

International regulations on the protection of personal data are most widely incorporated into European legislation. Together with the GDPR, the European Union, which succeeded in creating common legislation in force in member countries, has also influenced world practices with its rules on data transfer to third countries and its ideology aiming at a high level of protection of personal data.

In the West, the United States has been influential in the emergence of basic principles that are effective in the protection of personal data in the modern sense. However, later on, no effort was made to implement these principles, and practices were adopted where economic interests were a priority.

The reflection of the right to the inviolability of personal life within the first kind of human rights and the shrinking of the personal life areas of a person in the face of the development of technologies in modern society have made the protection of this right a problem of international law. Regulations were made in the international agreements related to the mentioned right, and the issue of personal life protection was considered at the scientific level and discussions were held on this topic.

Today, the protection of personal data is considered as one of the main directions of the information society, and in this sense, it is one of the actual problems of our information age. Every day, government institutions and private institutions collect, store, process and transmit significant amounts of information about individuals. At the same time, technology has evolved to allow individuals to share and disseminate information worldwide. All this leads to the emergence of many dangerous situations, such as individuals losing control over their data and using it against themselves. Protection of personal data is a right of individuals against the unauthorized use of such data by other persons or institutions. Nowadays, with the development of technology, the issue of ensuring this right requires special attention.

Key words: *right to privacy, personal information, doctrinal approach, international legal regulation, national legislation.*

ŞƏHLA ƏMİROVA
shlamirova@gmail.com,
Bakı Dövlət Universiteti
ORCID ID: 0009-0005-1960-7501

KÜL TİGİN ABİDƏSİNDƏ "ƏR AT" İFADƏSİ

Göytürk abidələri Azərbaycan dili və ədəbiyyatı üçün olduğu qədər Azərbaycan mədəniyyəti üçün də böyük əhəmiyyət daşımaqdadır. Göytürk abidələrinin Vilhelm Tomsen tərəfindən oxunuşundan bu günə qədər abidələr üzərində bir çox işlər aparılmışdır. Tomsen və Radlov ilə başlayan oxuma və mənalandırma işləri günümüzə qədər davam etmiş, istər yerli, istərsə də xarici türkoloqlar tərəfindən abidələr üzərinə sərbəst mətn nəşrləri edilmiş, müxtəlif oxuma və mənalandırma cəhdləri gerçəkləşdirilmişdir. Bu yöndə görülən işlər günümüzdə də davam etməkdədir. Bu işlərlə abidələrdəki bir çox məsələ həll tapmış və tapmaqdadır.

Xüsusilə də abidələrin mənalandırılması işləri daşlardakı dilin məna zənginliyinin ortaya qoyulması baxımından son dərəcə vacibdir. Çünki bir sözün aid olduğu, ifadə etdiyi mənaların müxtəlifliyi o kəlmənin aid olduğu dilin qədim və köklü bir dil olduğunu göstərir.

Göytürk abidələrindəki bəzi sözlərin hansı mənada və hansı məqsədlə istifadə olunduğunu anlamaq hər zaman asan olmamışdır. İlk baxışda məqsədin anlaşılması, xüsusilə çətin görünən sözlərdən biri də Kül tigin abidəsində keçən 'ər at' ifadəsidir. 'Ər at' ifadəsi azərbaycancanın, demək olar, bütün dönəmlərində və bütün türk dillərində istifadə olunan ifadələrindən biridir. Bu ifadə Göytürk abidələrində 'hapax legomenon' olaraq tanımlanan bir ifadədir. Bu məqalədə bu ifadə üzərində edilən müzakirələr ətraflı şəkildə ələ alınacaqdır. Nəticə olaraq bu məqalədə bu ifadə üzərində indiyədək edilmiş təkliflər tənqidi bir gözlə yenidən dəyərləndiriləcək və ifadənin mənası üzərində yeni bir fikir gətiriləcəkdir.

Açar sözlər: *Göytürk abidələri, Kül tigin abidəsi, ər at, ordu, mənalandırma.*

Türk dil və mədəniyyətlərində "ər" "ar" və "ər at" ifadələri

Bu cümlədə keçən ifadələrlə əlaqədar olaraq, bu günə qədər bir çox araşdırma edilmiş, mövzu yetəri qədər müzakirə edilmiş, bir çoxunda ittifaq yaradılmışdır. Cümlədəki *"ər at buldı"* ifadəsinə tədqiqatçılar tərəfindən tərcümələrdə "*ərlik adı aldı*" şəklində məna verilmişdir. Bu ifadənin anlamı haqqında ciddi bir müzakirə olmadığı kimi üzərində tam bir görüş birliyi də olmamışdır. Sözügedən ifadə Göytürk abidələrində sadəcə bir dəfə işlənmiş bir ifadə, başqa sözlə desək, '*hapax legomenon* ' vəziyyətindədir. Bir ədəbi mətndə yalnız bir dəfə işlənən söz və ya deyimlərə dilçilikdə '*hapax legomenon',* yəni "*tək istifadəlik, nümunəlik*" deyilir. Abidələr üzərində edilən araşdırmalarda hər hansı bir açıqlama edilmədən ifadəni *'ər at buldu'* şəklində oxuyub '*ərlik at aldı*' şəklində mənalandıraraq səthi yanaşılması, məsələni aydınlatmaq üçün kifayət etməmədiyi qənaətindəyik.

Abidələrdən günümüzədək gəlmiş bəzi ifadələr bu gün istifadə olunduğu mənada işlənmədiyi üçün abidələrdə hansı mənada işləndiyinin anlaşılması qəlizdir. *Ər at* ifadəsi də belə ifadələrdən biridir. *Ər* sözü əksərən azərbaycancada '*insan, kişi'* mənasındadır. Türklərdə *ər* və *at* sözləri xalq arasında ən qədim zamanlardan bəri yan-yana işlənmişdir. *Ər* ilə *at* bədən ilə ruh kimi bir-birindən ayrılmaz qəbul olunmuşdur. Sahanın əsəri olan DLT-də '*Kuç kanatın er at'* / '*Quş qanadı ilə uçar ər atı ilə çatar'* (DLT I 34) deyə qədim bir atalar sözü nəql edilir. Türklərin ata olan bu məlumatları, təbii ki, onların həyat tərzləri ilə bağlıdır. Köçəri həyat tərzi (öz sərhədləri daxilində) keçirən türklər atdan həm minik vasitəsi, həm də yük daşıması üçün, eyni zamanda ətindən və südündən də istifadə edirlərmiş, ancaq ən vacib olan isə atın üstün sürəti sayəsində düşmənləri ilə müqayisədə üstünlük əldə edirlərmiş.

Göytürk abidələrinə görə xalq abidələri və şəxsi məzar daşları olan Yenisey abidələri abidə sahibi özünü *ər atım* və ya *oğlan atım* şəklində tanıtmışdır. Bu abidələr, şübhəsiz, Azərbaycan dili və ədəbiyyatı üçün olduğu qədər türk tarixi və mədəniyyəti baxımından da böyük önəm daşımaqdadır. Ancaq bu abidələrin xalq abidələri olması gözdən qaçmamalıdır. Əhməd Cəfəroğlu 'Qədim Uyğur Türkcəsi Sözlüyündə' *ər at* ifadəsini '*topluluq, sürü insan'* olaraq tanımlamış, eyni ifadəni

Annemarie fon Qaben isə ‘Qədim Türkcənin Qrammatikası’ adlı əsərində ‘*həddi-büluğa çatdıqdan sonra oğlana verilən ad’* şəklində mənalandırmışdır.

Türklərdə dövlət adamlarının yeni vəzifəyə keçərkən yeni ünvan və ad alması bir adət vəziyyətindədir. I Göytürk xaqanı Bumın xaqan dövlətin başına keçdikdən sonra İlik xaqan adını və ya ünvanını almışdır. Bir tayfanın başında duran Qutluğ xan isə dövlətin başına gələrkən İltəris xaqan, xanımı da İlbilgə xatun ünvan və ismini almışdır. Qədim türklərdə vəzifə sahiblərinin müxtəlif dövrlərdə müxtəlif ad və ünvanlar daşıdıqlarına abidələrdə rast gəlirik.

Bu məqalədə üzərində durmaq istədiyimiz, Kül tigin abidəsinin şərq üzünün 31-ci sətrinin birinci cümləsində keçən bu *ər at* ifadəsinin abidədə hansı mənada işlənmiş olduğudur. *Ər at* ifadəsi sonrakı dövrlərdə ‘*ordu, əsgər’* mənası ilə qarşılaşırıq. Müzakirənin anlaşılması üçün bu cümlədən sonra gələn cümləyə də diqqət yetirmək lazımdır. *Altı yegirmi yasinga eşim kağan ilin törüsin ança kazgandı* ‘*On altı yaşında əmim xaqanın ilini törəsini beləcə qazandı’* (KT Ş31) şəklində olub, bundan sonra Kül tiginin hərbi zəfərlərindən bəhs edilir. Türklərdə uşaq gənclik çağına gəldikdən sonra bir qəhrəmanlıq göstərirsə, ona ikinci bir ad daha verilərək özünü və ailəsini qürurlandırırdı. Bu yeni ad, xüsusilə, göstərilən cəsarət, qüvvət və bacarığa uyğun bir mənada olurdu. Yeni ada *ər adı* deyilirdi. *Ər adı* əvvəlki adın yerini alaraq onu tamamilə unutdururdu. Daha doğrusu, həmin gənc bundan sonra ilk adı ilə deyil, sonradan aldığı *ər adı* ilə anılırdı.

Orta əsrlərin ən böyük əsərlərindən olan ‘Qutadğu bilig’ əsərində ‘*Kapugdaki er at birle negü Teg Tirigüsin Ayur*’ adıyla bir bab ayrılmışdır. Əsərdə üç yerdə *ər at bolsa*, iki yerdə *ər at boldı* və bir yerdə də *ər at bolmasa* ifadələri yer almışdır. Həmçinin 33 yerdə *ər at*, səkkiz yerdə *ər at sü*, iki yerdə *ər atnı*, iki yerdə *ər atı,* bir yerdə *sü ər at, ər atka, ər atta, ər atsız* ifadələri işlənməkdədir. Buradakı ifadələrin heç biri *ərlik adı* mənasında deyildir, ‘*əsgər, ordu, xidmətçi’* mənasındadır. Qaldı ki, Kül tigin adının mənası, türklərdə, əsasən *kiçik oğul* mənasında işlənən *Od tigin* ifadəsindəndir.

Türkoloq V.V.Bartold bu haqda yazır:

‘*Qədim Orxon abidələrinin baş qəhrəmanı olan Kül tiginin adında görülən ‘Kül’ kəlməsinə karluq əmirlərinin ləqəbi olmaq üzrə deyilən Kül İrkin ləqəbində də təsadüf olunur. Ancaq Kül kəlməsinin qədim mənası Mahmud Kaşğari tərəfindən də göstərilməmişdir. Ona görə də bu sözün yalnız ‘göl’ və ‘havuz’ mənası bizə məlumdur. Bu səbəbdən yazar ləqəblərdəki bu ‘Kül’ sözünü uydurma bir şəkildə ‘xanın elmi göl qədər geniş’ deyə yorumlamışdır’.*

Göytürk abidələrində türk xalq ədəbiyyatı ünsürlərinə də təsadüf edilməkdədir. Bu baxımdan Manas dastasındakı Kül Çoranın adındakı *Kül* sözü də olduğu Kül tiginin adındakı *kül* kəlməsi də ocaq və atəşin bir simvolu olmalıdır. Bu barədə də fəqli görüşlər mövcuddur.

Qısaltmalar

DLT	Divanü luğat it-türk
QB	Qutadğu bilig
QUTS	Qədim Uyğur Türkcəsi Sözlüyü
KT	Kül tigin abidəsi

ƏDƏBİYYAT

1. AALTO Pentti, “Orxon abidələrindəki At adları üzərinə”, (Tər. Erhan Aydın), Türk Dili jurnalı, nömrə: 587, s. 453-457, noyabr 2000.
2. ALYILMAZ Cengiz, “Göytürk abidələri və göytürk abidələrində atlar”, Atatürk Üniversitesi, Türkiyat Araştırmaları Enstitüsü jurnalı, nömrə: 4, s. 155-163, 1996.
3. AMANOĞLU Əbülfəz, “Qədim türk onomastikası üzərinə notlar”, Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü jurnalı, nömrə: 13, s. 61-67, 1999.
4. AYDIN Erhan, “Vilhelm Tomsen sözlüyü”, İlmî Araştırmalar, nömrə: 17, s. 69-82, Payız 2004.
5. CƏFƏROĞLU Əhməd, “Türk onomastikasında ‘At’ Kultu”, Türkiyat Məcmuəsi, nömrə: X, s. 201-212, 1953.

6. KAŞĞARLI MAHMUD, Divanü Luğat-İt-türk (Tər. Besim Atalay) Türk Dil Kurumu Yayınları, Ankara 2006.
7. SÜMER Faruk, "Orxon Abidələri qəhrəmanı Kül tigin (Köl Tigin) I-II", Türk Dünyası Tarih Kültür jurnalı, nömrə: 33, 1989-b.
8. TƏKİN Tələt, Orxon abidələri, Türk Dil Kurumu Yayınları, Ankara 2010.

SUMMARY

Shahla Amirova

EXPRESSION "ƏR AT" AT KUL TIG'S MONUMENT

Göktürk Inscriptions have a crucial importance not only for the Azerbaijan language and literature, but also for Azerbaijan culture. There have been so many studies on Göktürk Inscriptions since its being read by Vilhelm Thomsen. The studies on reading and meaning that started with Thomsen and Radloff have been continuing to these days, self-contained text publications on the inscriptions have been done by domestic and foreign Turcologists, various reading and meaning trials have been done. With these studies so many issues in the inscriptions have been solved and continue.

Especially, the meaning studies have a crucial importance from the point of revealing the richness of language's meaning. Because, the diversity of notions that a word defines proves the language's -the word belonging to- being ancient and deep rooted.

It is not always easy to understand the meaning and function of some words in Göktürk inscriptions. One such words and terms, whose function seems particularly difficult to understand at first glance, is 'er at' in the Kül Tigin Inscription. The word 'er at' is a common word used in every period of Azerbaijan and in all Turkish dialects. This word is defined as hapax legomenon in Göktürk inscriptions. This word will dealt extensively through this article. As a result in this article, will reevaluate the existing offers from a critical point of view and will dare to make a new offer on the meaning of this wording.

Key words: *Göktürk inscriptions, Kül Tigin Inscription, er at, army, interpreting.*

TÜRKAN HÜSEYNOVA
turkan.huseynova.8989@mail.ru
ADPU-nun Şamaxı filialı

ALEKSANDR SERGEYEVİÇ PUŞKİN VƏ ALEKSANDR DÜMA YARADICILIĞINDA QAFQAZ MÖVZUSU

İstər Azərbaycan, istərsə də dünya ədəbiyyatı nümunələrinin müəyyən bir qismində Qafqaz mövzusu hər zaman aktual məsələ olmuşdur. Təbii ki, Azərbaycan ədəbiyyatı nümunələrində Qafqaz labüd və qaçılmaz bir mənbədir, amma bu mövzuya dünya ədəbiyyatı nümunələrində rast gəlmək qürurverici və maraqlı bir faktdır. Tədqiqatçıların fikrincə, böyük yunan faciənəvisi Esxilin "Zəncirlənmiş Prometey" əsərində bəhs olunan Qaf dağı elə Qafqaz dağlarıdır.

XIX əsr Rus poeziyasının ən məşhur şairi sayılan Aleksandr Sergeyeviç Puşkinin yaradıcılığında başlıca yer tutan mövzulardan biri də Qafqaz və burda yaşayan xalqlardır. Qafqazda sürgündə olduğu dövrlərdə yazılan əsərlərdən məlum olur ki, A.S.Puşkin Qafqaz torpağına, bu ərazilərdə yaşayan xalqların etnoqrafiyası, tarixi və mədəniyyətinə dərindən bələddir. "Kazak", "Qurana nəzirə", "Peyğəmbər", "Bülbül və gül", "Qafqaz" şeirləri, "Qaraçılar", "Qafqaz əsiri" poemaları bunun bariz nümunəsidir. A.S.Puşkin yaradıcılığında maraqlı mövzulardan biri Qafqaz xalqlarının əsas inancı olan də İslam dini, "Qurani-Kərim" və Məhəmməd Peyğəmbərdir. Yuxarıda adları çəkilən şeirlərdə onun romantik alman şeirinin dahisi İ.V.Höte kimi İslam aşiqi, Məhəmməd Peyğəmbər (s.a.v) heyranı olduğu məlum olur.

XIX əsr fransız ədəbiyyatının ən tanınmış nümayəndələrindən biri olan Aleksandr Düma yaradıcılığında da Qafqaz və burda yaşayan xalqların həyat tərzi, dünyagörüşü haqqında zəngin məlumatlar vardır. Onun bu torpaqlara səyahətinə həsr olunmuş "Qafqaz" adlı kitabında Şamaxı, Nuxa, Tiflis, azərbaycanlılar və ermənilərin xaraktersitik milli kimliyi haqqında olduqca zəngin məlumatlar vardır. A.Dümanın "Qafqaz" kitabı burda yaşayan xalqlar haqqında olduqca dolğun məlumatlarla zəngindir. Onun Qarabağ torpaqlarının xan qızı Xurşidbanu Natəvanla da görüşü məşhurdur.

A.Dümanın "Qafqaz" əsərindəki "Rus zabitləri Qafqazda", "Tatarlar və monqollar", "Ləzgilər", "Dərbənd", "Qafqazın nəhəng qala divarları", "Bakı", "Əlvida, Xəzər dənizi", "Şamaxı", "Şamaxıdan Nuxaya gedən yol", "Nuxa: küçələr, bazar, zərgərlər, sərraclar, ipəkçilik, Xan sarayı", "Udinlər, qoç döyüşü, azərbaycanlıların rəqs və güləşi, Badridzenin məktubu", "Tiflis: dar ağacından asılanlar barədə", "Gürcüstan və gürcülər" və s. kimi fəsillər deyilənlərə əyani sübutdur.

Açar sözlər: *A.S.Puşkin*, A.Düma, Qafqaz, azərbaycanlılar, Qafqaz xalqları

ZÖHRƏ YUSİFZADƏ
zohayusif@mail.ru
Bakı Dövlət Universiteti
ORCID ID: 0009-0003-9923-1924

"IRK-BİTİG" QƏDİM UYĞURLARIN DİNİ GÖRÜŞÜNÜN ÖYRƏNİLMƏSİNDƏ İLKİN MƏNBƏ KİMİ

Türküstanın coğrafi şəraiti burada yaşayan toplumların ictimai-siyasi, mədəni həyatının formalaşmasına mühüm təsir göstərmişdir. Bu mühitdə formalaşan ən qədim türkdilli xalqlardan olan qədim uyğurlar fərqli dini inanclara malik olmuş, zamanla tanrıçılıq, maniçilik, buddizm, islam dininə etdiqad etmişlər. Lakin ibtidai dini etiqadlarına sadiqlik uzun zaman öz təsirini saxlamışdır. Qədim uyğurlar müxtəlif xalqlar və müxtəlif cəmiyyətlərdə olduğu kimi gələcək həyatla bağlı narahatlıq, şübhə və marağın nəticəsi olaraq müxtəlif problemləri həll etmək üçün fala müraciət etmiş, falçılardan kömək gözləmişlər. Mütəxəssislərin fikrincə, şamanizmin mövcudluğu dövründə uyğurların sehrbazlıq və falçılığı yaxşı bildikləri və müxtəlif bütlərə inanmaları haqqında xeyli fikirlər mövcuddur. Falçılıq uyğur şamanlarının ən çox məşğul olduqları işlərdən biri olmuşdur. Qədim Türk mədəniyyətinin, dini-inanclar sisteminin öyrənilməsində maraqlı mənbə olan "Irk-Bitig" qədim türkcə yazılan fal kitabı hesab olunur. Əsər erkən türk mifologiyası üçün mühüm mənbə hesab edilir.

Açar sözlər: *Qədim Uyğurlar, dini dünyagörüşü, falçılıq, Irk-Bitig*

Qədim Türk mədəniyyətinin öyrənilməsində mühüm mənbə olan "Irk-Bitig" qədim türkcə yazılan fal kitabı hesab olunur. Dil baxımından mətnin IX əsrdə Göytürkcə, yəni Runi əlifbası ilə yazıldığı bildirilir. Kitab qədim türk hərfləri ilə yazılmış və indiyə kimi saxlanılan yeganə kitabdır. Bəzi tədqiqatçıların fikrincə, Mani dinin uyğurların rəsmi dini inancı olduğu bir zamanda yazılan bu mətnlər dini əsər hesab edilmir. Türkoloq S.Mavlov əsərin şamanizm dünyagörüşünün məshulu olduğunu vurğulayır. V.Tomsen və A.Gabain kimi türkoloqlar isə kitabın mani dinin təsiri altında yazıldığını və maniçiliyə aid bir mətn olduğunu qeyd edirlər. Kitab insanlara yaxşı və pisi öyrətmiş, əxlaqi dəyərlərə önəm vermiş, insanın öz taleyini idarə etmək və ya öz taleyini dəyişdirə bilmək qabiliyyətini vurğulamışdır. Hər faldan əvvəl 3 şans sayı, ardıyca fal mətni, ən sonda isə falın yaxşı və ya pis olduğunu bidirən nəticə qeyd edilmişdir.*(Ceval Kaya,2008, s.360)Məs-Bilin ki, bu çox yaxşıdır. Bilin ki, bu pisdir.* İrk-Bitigin sadəcə bir fal kitabı deyil, eyni zamanda Nəsihət kitabı olması ilə bağlı fikirlər də mövcuddur. (*Kuban Seçkin, 2015, s. 1449.*) Əlyazma 57 səhifə və 65 paraqrafdan ibarətdir. Səhifələrin hər iki üzü yazılmış və cildlənmişdir. Uyğur ədəbiyyatı, türk poezsiyası və türk dini-mifoloji dünyagörüşü Irk-Bitigin formalaşmasında mühüm rol oynamışdır. Əsər poetik cəhətdən Orxon abidəsi ilə xüsusən Kültigin abidəsi ilə eyniyyət təşkil edir. Irk-Bitigdəki dördlüklər bayatı şəklində yazılmış və qafiyə sisteminin formalaşmasına şərait yaratmışdır.(Füzuli Bayat, s.39) Əsərin dəqiq tarixi məlum deyil.Təxminən IX-X əsrlərə aid olması haqqında ehtimalları yüksəkdir. Irk Bitig(Falnaməvə ya Fal kitabı) 1907-ci ildə tədqiqatçı Aureil Stein tərəfindən Dunhuanq şəhərində (Şərqi Türküstanda) Uyğur dövlətinin hakim olduğu bir coğrafiyada Min Budda Mağarları və ya Maqao mağaralarında aşkarlanmışdır. Kitabın sonunda bu əsərin bir monastırda yazıldığı ifadəsi bu şəkildə aydınlaşır. "Taygüntan monstırnda bir gənc şagird tərəfindən böyük qardaşı Sanqun İtakuç üçün yazılmış, tarixi isə pələng ilinin ikinci ayının 15-ci günündə aiddir."(*H.İşık, N.Ş.Erçevik, 2023, s.74)*

Irk-Bitig üzərində çox sayda tədqiqatçılar araşdırmalar aparmışdır. Kitabı ilk dəfə Tomsen oxumuş və 1912- ci ildə nəşr etdirmişdir. Daha sonra H.N.Orkun, S.Mavlov, T.İkeda, Ü.Bang, G.Klauson, J.Hamilton, T.Tekin və s. türkoloqlar əsərin dili, mətnin məzmunu kimi məsələlər haqqında öz mülahizələrini irəli sürmüşdülər. "Irk" sözünün mənası qədim uyğurca "fal" deməkdir.

Mahmud Qaşqarlının "Divani Lügəti-it-Türk" əsərində "Irk" sözünün mənası "fal", "falçılıq", "kiminsə ürəyində olanı bilmək" kimi yozulur. *(H.İşık, N.Ş.Erçevik,2023, s.71)*

Hazırda bu yazı nümunəsi İngiltərənin paytaxtı London şəhərində yerləşən Britaniya Muzeyinin Şərq əlyazmaları bölməsində saxlanılır.

ƏDƏBİYYAT

1. G.Uluç. Irk-Bitig qədim uyğurca yazılmış fal kitabı. Bakı: 2013, 120 s.(həmmüəllif)
2. B.Ögel. Türk mitolojisi I cilt.Türk Tarih Kurumu Basımevi, Ankara: 2010, 657 s.
3. C. Kaya. Irk-Bitigdə falçılıq Kültür tarihimizde gizli diller ve şifreler. Ed. Emine Gürsoy Naskali-Erdal Şahin. İstanbul: 2008, s.359-368
4. Füzuli Bayat, "Irk Bitig Metninin Poetik Yapısı", Türkiyat Araştırmaları Dergisi, 2006, s.39-65
5. Kuban Seçkin, "Irk Bitig: Toplumsal İyi ve Kötünün İnşasında İdeolojik Bir Fal Kitabı" Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, C. 4, S. 4, 2015, s.1433-1450
6. H.İşık, N.Ş.Erçevik. İslamiyyet öncesi türklerde değer eğitimi ve İrk Bitig fal kitabının değer eğitimi açısından önemi. Genel Tarihi araştırmaları dergisi, cilt V, 2023, s.69-82

SUMMARY

Zohra Yusifzade

"IRK-BITIG" AS A PRIMARY SOURCE IN STUDYING THE RELIGIOUS VIEW OF THE ANCIENT UIGURS

The geographical conditions of Turkestan had an important influence on the formation of the social, political and cultural life of the communities living here. The ancient Uyghurs, who are among the oldest Turkic-speaking peoples formed in this environment, had different religious beliefs, and over time they practiced theism, Manichaeism, Buddhism, and Islam. However, adherence to primitive religious beliefs has long maintained its influence. Ancient Uyghurs turned to fortune-telling to solve various problems and expected help from fortune-tellers as a result of anxiety, doubt and curiosity about the future life, as in various nations and societies. According to experts, there are many opinions that during the existence of shamanism, the Uyghurs knew sorcery and divination well and believed in various idols. Divination has been one of the most popular activities of Uyghur shamans. "Irk-Bitig", which is an interesting source for the study of the ancient Turkish culture and system of religious beliefs, is considered an ancient Turkish divination book. The work is considered an important source for early Turkic mythology.

Key words: *Ancient Uighurs, religious outlook, divination, Irk-Bitig*

XƏYALƏ SƏFƏROVA
xeyaleseferova01@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0009-9606-3711

AZƏRBAYCAN DİLİNDƏ TARİXİZMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə Azərbaycan dilinin leksik tərkibində yer tutan köhnəlmiş sözlərin bir hissəsi olan tarixizmlərdən bəhs edilir. Tarixizmlər, adından da göründüyü kimi, özündə müəyyən bir dövrün tarixi hadisəsini və ya predmetini ifadə edir. Belə hadisə və predmetlərin adlarının tarixizm olması üçün onların aid olduğu tarixi dövrlə birlikdə köhnəlməsi, istifadədən çıxması əsas xüsusiyyətdir. Belə sözlər cəmiyyətimizin keçmiş həyatının müxtəlif sahələri ilə bağlıdır. Həmin sahələrdə baş verən inkişaf bir sıra sözlərin köhnəlməsinə səbəb olub. Köhnəlmiş hadisə, predmetlər isə tarixizmlərə çevrilib və dilin passiv lüğətində özünə yer tutub.

Tarixizmləri daha yaxşı müşahidə edə bilmək üçün tarixi lüğətlərə, ədəbi abidələrə müraciət etmək lazımdır. Dilin lüğət ehtiyatının tarixi mənzərəsini aydın əks etdirən belə qaynaqlar sırasında "Divani-lüğət-it türk", "Kitabi-Dədə Qorqud" kimi abidələrin, "Oğuznamə" mətnlərinin önəmli bir yeri vardır. Çünki bu abidələr dili müxtəlif aspektləri ilə təqdim etmək, lüğət ehtiyatlarının rəngarəngliyini göstərmək imkanındadır.

Açar sözlər: *Azərbaycan dili, tarixizmlər, köhnəlmiş hadisələr, xüsusiyyət, predmet, "Divani-lüğət-it türk", "Kitabi-Dədə Qorqud", "Oğuznamə" və s.*

Azərbaycan dilinin tarixizmləri Azərbaycanın tarixi inkişafı boyunca meydana gəlmiş və onu siyasi, hüquqi, iqtisadi, mədəni və mənəvi terminlərilə əks etdirməkdədir. İslam öncəsi dövrün dövlətçilik terminologiyası, iqtisadi münasibətlər sistemi və mədəniyyəti abidələrin dilindəki tarixizmlərdə qalmaqdadır. Zamanı, dövrü keçmiş əşyalar istifadədən çıxdıqca onların adları da tarixizmlərə çevirilir.

"Oğuznamə"də "Ər ləqəbilə anılur" kimi məsəlin varlığı təsdiqləyir ki, oğuzlar arasında ər (igid) sayılan adam üçün ləqəb qazanmaq zəruri imiş. Bu, o deməkdir ki, "Dədə Qorqud" qəhrəmanlarının bir çoxunun ləqəbi-adı konkret hadisələrlə, hadisələrdə qəhrəmanların fəal iştirakı, hünəri-ərdəmi ilə bağlıdır, həmin adların linqvistik təfsirində, düzgün transkripsiyasında, etimoloji şərhində bu cəhət həlledici olmalıdır. İndi məlum olur ki, "Dədə Qorqud" dastanını danışan ozan oğuz yuxusunu niyə "kiçicik ölüm" adlandırır. Görünür, oğuzlar yuxu ilə ölüm hadisəsi arasında bir bənzəyiş, uyğunluq görüblər (belə bir ifadə indi də yaşayır: "Yatdın,-öldün!". Ona görə də mümkün qədər yatmaqdan çəkinərlərmiş və yatanda da, "Kitabi-Dədə Qorqud"da deyildiyi kimi, yuxuları möhkəm, uzunmüddətli imiş" (42, 15).

Statistik hesablamalara görə, abidədə 77 şəxs adından 50-si türk, 24-ü ərəb və 2-si fars mənşəlidir (111, 111). Digər bir məlumatda isə antroponimlərin 100-ə yaxın olduğu qeyd olunur (128, 154). Bu statistik faktı Ə.Tanrıverdi də təsdiqləyərək (134, 37) antoponimləri 10 istiqamətdə qruplaşdırır:

1. Müqəddimədə işlədilən antroponimlər (Məhəmməd, Həsən, Hüseyn, Əli, Əbubəkr, Yetər, Zəlixə, Zübeydə, Ürüydə və s.);
2. Oğuz qəhrəmanlarının adları (Qazan, Qaragünə, Qarabudaq, Qanturalı, Buğac, Beyrək və s.)
3. Qəhrəmanın bütöv ad konstruksiyasında işlədilən ata adları (Duxa Qoca – Duxa Qoca oğlı Dəli Domrul);
4. Oğuz qəhrəmanlarının dilində işlədilən dini adlar (Məhəmməd, Həsən, Hüseyn və s.);
5. Oğuz qadınları (Burlaxatun, Banıçiçək və s.);
6. Aşağı təbəqə nümayəndələrinin adları (Qaraca Çoban, Qabangücü, Dəmirgücü və s.);

7. Oğuz qəhrəmanlarının bədii təyinlərində işlədilən adlar (İlək Qoca oğlı Alb Ərən; Ağ Məlik Çeşmə qızı – Ağ Məliyin Çeşmə qızı);
8. Adları türk, özləri Oğuz düşməni, kafir kimi işlədilən adlar (Qara Tükən Məlik, Buğacıq Məlik, Şöklü Məlik və s.);
9. Titullar (alp, bəy, bəylər bəyi, sultan, məlik, çavuş və s.);
10. Əslində, qeyri-real, mifik olub, ancaq real ad kimi işlədilənlər (Təpəgöz, Pəri qızı, Əzrayıl, Xızır) (134, 37).

Müəllif onu da əlavə edir ki, bu "qruplara daxil olan antroponimik vahidlər yaranma əsaslarına görə igidlik, şöhrətlilik, gözəllik, dini-mifoloji, eponim və digər məzmunlu adlardır. "Kitabi-Dədə Qorqud"un antroponimlər sistemindəki kişi adlarında (Baybura, Basat, Buğac) ən qədim türklərdə olduğu kimi igidlik, qorxmazlıq, qadın adlarında (Banıçiçək, Selcan) isə gözəllik motivi əsasında formalaşma daha qabarıq nəzərə çarpır" (134, 37).

A.Paşaya görə, eposdakı adların hamısı qəhrəmanlıq və igidliklə əlaqədar deyildir. Çünki bu adların bir çoxu ata adı, titul, etnonim və qəhrəmanlıqla əlaqədardırsa, bir qismi də şəxsin xarici görünüşü, geyimi, xasiyyəti, gücü, peşəsi və s. ilə bağlıdır və bunlar da ləqəb – addan başqa bir şey deyildir. Məsələn, Qıyan Səlcuq, Qazılıq Qoca, Duxa Qoca, Dəli Domrul, Qaracıq Çoban, Qabangüc, Dəmirgüc, Yalançı oğlu Yalıncıq, Qonur Qoca, Sarı Qoca, Yüklü Qoca, Sarı Çoban, Dəmir donlu Mumaş, Boğazca Fatma, Qısırca Yengə, Boyu uzun Burla Xatun, Sarı donlu Selcan Xatun, Buğac, Bamsı Beyrək, Qılbaş (109, 30-31).

Dastanda keksikologiyanın tədqiqat predmeti kimi seçilən leksik qruplardan biri də toponimlərdir. Abidədəki toponimlər indiyə qədər daha çox linqivistik və tarixi baxımdan araşdırılmışdır. Linqivistik tədqiqatlarda bu adların qramatik aspektinə, tarixi tədqiqatlarda isə onların xalqın tarixi və tarixi-coğrafiyası ilə əlaqələrinə diqqət yetirilmişdir. Qorqudşünaslıq araşdırmalarında "KDQ boylarında adı keçən tarixi- coğrafi terminləri məna baxımından aşağıdakı şəkildə qruplaşdırırlar:

1. Tayfa, el, oba adları: Oğuz eli// oğuzlar, Rumeli, Qarun eli, alpanlar, abxazlar, qan abxaz eli, Ağsaqa, pasinlər, iç oğuz, taş oğuz və s.
2. Dağ, dərə, dəniz, çay, yer, yurd, orman adları: Ağlağan, Ala dağ, Qara dağ, qara dağlar, Gökçə dağ, Ağ orman, Talı sazı, Ağ saz, Ağ qaya, Ağ gölü, Ayqırgözlər suyu, Danlı su, Amid suyu, Quru çay, Umman dənizi, Gökçə dəniz və s.
3. Dövlət, şəhər, qala,qəsr, şəxs adları: Türküstan, Gürcüstan, İstanbul, Trabuzon, Bayburd, Gəncə, Bərdə, Dərbənd, Kərbəla, Məkkə, Mədinə, Ərəfat, Tumanın qalası, Düzmürd qalası, Əlincə qalası və s.

Bu təxmini təsnifatla yanaşı, iyirmi bir coğrafi ad xəyalidir (müəyyən ərazi ilə lokalizasiya olunmayan): ağ meydan, ağ orman, ağ saz, tana sazı, arqıç qız, bam-bam təpə, qara yer, kafir sərhəddi, gün ortac, sallaxana (salaxan) qayax, çeşmə, Uzun binar, aslan yatağı, Oğuz sərhədi, yeni bayır və s. Təxminən on bir ad isə müştərəkdir. Türk xalqları yaşayan ərazilərin çoxunda bu adlara rast gəlmək olar: Qara dağ, Ala dağ, qara dərə, ağ qaya, ağ saz (sazlıq, şamlıq, quru çay// quru dərə, qanlı su (qanlı göl), qanlı dərə, qaytaban, Bayat, Qara dəniz.

Beş coğrafi ad: (Ərəfat, Məkkə, Mədinə, Kərbəla) ərəb mənşəlidir.

İki yerdə Türküstan adı çəklilir. Bir neçə yerdə isə müxtəlif formada Dərbənd adı təkrar olunur (Dərbənd, qara Dərbənd, Qanlı qara Dərbənd, qapılar Dərbəndi, Dəmir qapı Dərbənd). Bu adlar isə müxtəlif coğrafi ərazilərlə bağlıdır.

Yer adlarının təhlili göstərir ki, hazırda elm aləmində məlum olan Drezden və Vatikan nüsxələrinin boylarında cərəyan edən hadisə və əhvalatlar, əsasən, Qafqazla-qədim Azərbaycan (Şimal-Cənub), o cümlədən indi Ermənistana daxil edilən qədim türk oğuz Azərbaycan torpaqları, Gürcüstan və Anadolu bölgələri ilə bağlıdır. KDQ- də rast gəlinən toponimlərin çox böyük bir qismi əski oğuz yurdu Azərbaycanda, Ermənistanda və Gürcüstanda cərəyan edir" (69, 306). Əlbəttə, bu məsələyə folklor qanunauyğunluqları kontekstində baxmaq lazımdır. Qeyd edək ki, folklor mətnlərindəki bir sıra adlar xalq yaradıcılığının və ya xalqın ad yaradıcılığının məhsuludur. Belə adlar

folklor yaddaşı kimi insanlarla birgə olur, onların folklor yaddaşının tərkib hissəsi kimi yaşayır, yayılır və tətbiq olunur. Daha dəqiq ifadə etsək, bu adlar adlandırma sisteminin sabit qəliblərininin vahidləridir.

KDQ boylarına aid əsərlərdə boylarda adı çəkilən bəzi toponimlər barədə qısa izahat vermişlər, o cümlədən də abidənin Azərbaycanda ilk naşiri H.Araslı 43 yer adının, Ş.Cəmşidov 10 coğrafi yer, 18 şəxs adlarından törəmə yer adının qısa izahını vermişlər. Son zamanlar isə S.Babayev və N.Babayev tərəfindən Naxçıvan MR ərazisində KDQ boyları ilə səsləşən 20-dən çox yer adı, Aslan Bayramov tərəfindən Ermənistan və yenə də Naxçıvan ərazisində bir çox toponimlər qeydə alınmışdır. Türkiyədə KDQ toponimlərinin tədqiqinə daha əvvəllər başlanmışdır. Qaynaqlardan aydın olur ki, bu vacib məsələ ilə ilk dəfə Əbdülqadir İnan maraqlanmış, Trabzon, Riza, Gümüşxana, Ərzurum, Ərzincan və digər əyalətləri gəzmiş, Qara dərə, Sürməli, Çukur, Bayburd, Əvnik qalası və bir sıra başqa yerlər haqqında məlumat toplamış, həmin məlumatların bir qismini 1930-cu ildə İstanbulda nəşr etdirmişdir. Muharrem Erginin "Kitabi Dədə Qorqud" dastanı ilə bağlı tədqiqatları isə dastanın sistemli şəkildə öyrənilməsinin yeni mərhələsi sayıla bilər Müstəqillik illərində Azərbaycanda da "Dədə Qorqud" dastanının tədqiqi istiqamətində çoxsaylı tədqiqatlar aparılmışdır. Bu istiqamətdə akademik Kamal Abdullanın və başqalarının da fəaliyyəti diqqətə alınmalıdır (134; 51).

Azərbaycan dilində hərbi terminoloji leksikaya tarixizm aspektindən aşağıdakı şəkildə dövrlər üzrə yanaşmaq olar:

Birinci dövr: Ən qədim zamanlardan İslama qədərki dövr. Hesab edilir ki, hərbi terminoloji leksika bu dövrdə təşəkkül tapmış və formalaşmışdır. Bu dövrün hərbi leksik vahidləri dialekt fərqlərini nəzərə almasaq, demək olar ki, ortaqdır (75, 18).

İkinci dövr: VII-XIX əsrləri əhatə edən bir dövrdür. Bu dövrdə hərbi leksika ərəb və fars dillərindən alınmalarla zənginləşir(75, 19).

Üçüncü dövr: XIX əsrin əvvəllərindən XX əsrin əvvələrinə qədər olan bir dövrü əhatə edir. Bu dövrdə rus dilindən və rus dili vasitəsilə digər dillərdən hərbi leksika dilimizə daxil olur. Eyni zamanda, bu dövr hərbi leksikanın kəmiyyət baxımından artdığı bir dövr kimi xarakterizə edilir.

Dördüncü dövr: XX əsrin əvvəllərindən 1990-cı illərin əvvəllərinə qədər davam edir. Bu dövrdə rus dilinin ciddi rolu müşahidə olunur, rus dili və rus dili vasitəsilə hərbi leksika dilimizə daxil olur və hərbi terminologiya genişlənir və zənginləşir.

Beşinci dövr: XX əsrin 90-cı illərindən başlanan və bu gün də davam edən dövrdür (75, 20).

M.Kaşqarlının XI əsrdə yazdığı çox dəyərli ensiklopedik lüğət olan "Divani-lüğət-it türk"də tarixizmlərin zəngin nümunəsi ilə qarşılaşırıq. Kaşqarlı lüğətdə islam öncəsi dövrün mədəniyyəti ilə bağlı zəngin məlumatlar vermişdir. Burada tanrıçılıq dini inancı ilə bağlı çox zəngin məlumatlar vardır. Burada Tanrının əski türk təsəvvüründəki funksiyaları aydın şəkildə müşahidə olunur. Məsələn, "Tənqri ajun türütti" (81, c.II, 303) (Tanrı dünyanı yaratdı), "Tənqri yalnquk türütti" (81, c.II, 303) (Tanrı insanı yaratdı), "Tənqri oğul toğdurdu" (81, c.II, 173) (Tanrı övlad verdi), Tanrı yeri yaratdı, Tanrı qar qarlatdı, Tanrı yağış yağdırdı, Tanrı məni zənginləşdirdi, Tanrı səni mənə sevdirdi və s.

Burada əski inanclar və ibadətlərlə bağlı təsəvvürlər də öz əksini tapmışdır. Məsələn, "qul Tənqriqə bütti" (81, c.II, 347) (adam Tanrının birliyini iqrar etdi), "Tənqriqə sığındım" (81, c. II, 160) (Tanrıya sığındım), "Tənqriqə kirtgün" (81, c.II, 423) (Tanrıya inan), "umunç Tənqriqə tut" (81, c.I, 133) (ümidi Tanrıya tut), "uluğluq Tənqriqə" (81, c.I, 150) (Tanrı uludur), "Tənqriqə yükin" (81, c.II, 187) (Tanrıya səcdə (ibadət) et) və s.

ƏDƏBİYYAT

1. Abasov Ə. Zəngəzur. Birinci kitab. Bakı: Şərq-Qərb, 2004, 355 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
3. Aşıq Ələsgərin söz ümmanı. Bakı: Elm və təhsil, 2017, 313 s. s. 188
4. Həsənova S. "Kitabi-Dədə Qorqud" dastanı dilimizin hikmət xəzinəsidir / Dilimiz mənəvi kimliyimizdir, Naxçıvan: Əcəmi, 2018, 424 s.
5. "Kitabi Dədə Qorqud və Naxçıvan: tarixi, etnoqrafik, coğrafi atlas". Naxçıvan: Əcəmi, 2017,
6. Qazi Bürhanəddinin "Divan"ı. Bakı, "Öndər", 2005, 726 s.
7. Quliyev Əbülfəz, Əliyeva Nuray.Naxçıvan dialket və şivələribib lüğəti. Naxçıvan: Əcəmi, 2017, 296 s.
8. Mahmud Kaşğari "Divanü lüğat-it-türk". Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər. I cild, Bakı: Ozan, 2006, 512 s.
9. Makulu P.Əsərlər. Bakı: 2016, Azərbaycan, 496 s.
10. Rzayev F. Naxçıvan əhalisinin etnogenezi tarixindən, 2 cilddə, II cild. Bakı: ADPU nəşri, 2017, 648 s.
11. Səfərov M. Azərbaycan dili məsələləri. Bakı: Elm və təhsil, 2016, 292 s., 197
12. Vaqif Molla Pənah. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 264 s.
13. Vəliyev Ə. Seçilmiş əsərləri. B.: AvrasiyaPress, 2005, 320 s.
14. Vidadi M.V. Seçilmiş əsərləri. B.: Öndər, 2004, 128 s.
15. Vurğun S. Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2005, 264 s.
16. Yaqub Z. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 288 s.
17. Zeynalov F. Türk dillərinin morfoloji quruluşu / Azərbaycan dilçiliyi müntəxəbatı, II c. Bakı: Abis Alarco, 2013, s.411- 427.

SUMMARY

Khyala Safarova

LEXICAL-SEMANTIC CHARACTERISTICS OF HISTORIZMS IN THE AZERBAIJAN LANGUAGE

The article talks about historicisms, which are part of obsolete words in the lexical structure of the Azerbaijani language. Historicisms, as the name suggests, express the historical event or subject of a certain period. In order for the names of such events and objects to be historicism, it is the main feature that they should become obsolete along with the historical period to which they belong. Such words are related to various areas of the past life of our society. The development in those areas has led to the obsolescence of a number of words. Obsolete events and objects have become historicisms and have taken their place in the passive vocabulary of the language.

In order to better observe historicisms, it is necessary to refer to historical dictionaries and literary monuments. Monuments such as "Divani-luğat-it türk", "Kitabi-Dade Gorgud" and "Oguzname" texts have an important place among such sources that clearly reflect the historical picture of the vocabulary of the language. Because these monuments are able to present the language with its various aspects and show the diversity of vocabulary resources.

Key words: *Azerbaijani language, historicisms, outdated events, feature, subject, "Divani-luğat-it Turk", "Kitabi-Dade Gorgud", "Oguzname", etc.*

FƏRİDƏ ƏLİYEVA
aliyevaferide63@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0003-1308-2551

SİFƏTİN TƏDRİSİNDƏ İLKİN VERİLMİŞ BİLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ

Şagirdlər nitq hissələri haqqında ilk məlumatı savad təlimi dövründə alırlar. Nitq hissələri barədə ilk məlumat əşya haqqında verilən məlumatla başlayır. Məsələn, dərsliyin tələbinə görə müəllim uşaqlardan ev quşları və vəhşi quşların adlarını soruşur. Bu proseslə bağlı dərs məşğələlərində şagirdlər "əşya", "əşyanın adı" ifadələri ilə tanış olurlar.

II sinifdə "Əşyanın adını bildirən sözlər", "əşyanın necəliyini bildirən sözlər", habelə, "əşyanın hərəkətini bildirən sözlər" mövzusu ilə əlaqədar yeni bilgilər alırlar. Verilmiş bilikləri möhkəmləndirmək üçün, birinci növbədə, onu mənimsətmək lazımdır.

Əşya sözü ilə bağlı şagirdlər isim anlayışlarını qavrayırlar. Bu zaman bir neçə söz misal göstərilir. Məsələn, ev, qonaq, təmizlik, şirinlik, ağıl, xəyal və s.

Bu zaman şagirdlərə izah edilir ki, bütün gözlə görünənlər əşyadır, lakin gözlə görünməyən əşyalar da vardır, məsəln, hörmət, qayğı, xəyal və s. gözlə görünməyən bir ismin adıdır. İsimlər əşyaların adlarıdır.

Açar sözlər: *şagird, sifət, əşya, nitq hissələri, məlumat, təlim, tədris, isim, məna, söz, nitq vahidləri və s.*

Nitq hissələrinin tədrisi, geniş mahiyyət daşıyır və o morfologiyanın əsasını təşkil edir. nitqdəki vəzifəsinə və mövqeyinə, mənasına, formasına görə nitq hissələri iki yerə bölünür:

1. Əsas nitq hissələri: burada nitq vahidləri həm ayrı-ayrılıqda, həm də birlikdə xüsusi rol oynayır.

2. Köməkçi nitq hissələridir ki, adından da göründüyü kimi, nitqdə ikinci dərəcəli rol oynayır. Onlar sözlər arasında müxtəlif funksiyanı yerinə yetirirlər.

Ibtidai siniflər üzrə ilk qrammatik məlumatlarda sifətə də xüsusi yer ayrılır. II siniflərdə "Əşyanın necəliyini bildirən sözlər" mövzusu tədris edilərkən şagirdlər sifətin nitq hissəsi kimi əsas xüsusiyyəti haqqında ilk məlumatı alırlar. Bu zaman bir sıra sözlər vasitəsilə sifətin bir neçə əlamətə xüsusiyyətə malik olduğunu anlayırlar.

Şagirdlərə məlumat kimi çatdırılır ki, sifət əşyanın əlamət və keyfiyyətini bildirir. Əlamətlə keyfiyyət haqqında – onların bir-birindən fərqi barədə çalışmalar yazılarkən müəllim şərhlər verməlidir.

Şagirdlərə izah edilir ki, əlamət əşyanın gözlə görünən, keyfiyyət isə gözlə görünməyən xüsusiyyətidir. Bu mənada ismin- əşyanın müxtəlif əlamət və keyfiyyətlərini bildirməsinə dair sözlər – çalışmalar təqdim edilməlivə izahat verilməlidir.

Sifətə aid məna növlərinə dair sözlər:

Forma bildirən sifətlər: yumru, uzun, əyri, yastı və s.

Böyüklük bildirən sözlər: yekə, kiçik, hündür, alçaq, qoca, cavan və s.

Insanın xarici görünüşünü bildirən sifətlər: topal, çolaq, gülərüz, qozbel və s.

Rəng bildirən sifətlər: yaşıl, qırmızı, göy,bənövşəyi, narıncı, sarı və s.

Əşyanın əlamətini, dadını bildirən sifətlər: acı, şirin, dadlı, dadsız, turş, şirin və s.

Iy bildirən sifətlər: ətirli, üfunətli, rayihəli və s.

Insanın daxili əlamətini bildirən sifətlər: yaxşı, pis, nəcib, xeyirxah, zalım, fağır, gülərüz və s.

Həm əlamət, həm keyfiyyət bildirən sifətlər: gözəl, yaraşıqlı, böyük və s.

Sifət haqqındakı məlumatlar genişləndikcə şagirdlər başqa növ sifətlərlə – mücərrəd mənalı sifətlərlə də tanış olurlar. Məsələn, igid, şən, firavan, qədim, cəsarətli və s.

Sifətlərin yaranmasında leksik şəkilçilər xüsusi rol oynayır. Buna misal olaraq –lı[4]; -sız[4] şəkilçilərini göstərmək olar. Bu şəkilçilər əsasında şagirdlər sözlər yazırlar: yağlı, bağlı,səsli, Sulu,güllü, yağsız, sənsiz və s.

Sifət düzəldən şəkilçilər müxtəlifdir. III sinifdə şagirdlər düzəltmə sifətlərlə yuxarıda göstərdiyimiz şəkilçilər əsasında tanış olurlar. Bu tip şəkilçilər söz yaradıcılığında xüsusi rol oynayır, bunlarla eyniköklü sözlərlə iş aparmağa şərait yaradır.

IV sinifdə –kı[4]; -dakı[2]; -ıq[4]; ıcı[4] şəkilçiləri vasitəsilə fellərdən sifətin düzəldilməsi, sifətlərin əvvəlində ən, çox, daha sözlərinin işlədilməsi, mürəkkəb sifətlər, onların yazılışı öyrədilməli, habelə sifətin başqa sahələri, məsələn, dərəcələri ilə bağlı praktik iş aparılmalıdır.

Əvəzlik haqqında ilk məlumatlarla şagirdlər hələ II sinifdən tanış olurlar. Lakin bir nitq hissəsi kimi, onun haqqında geniş elmi məlumatlar IV sinifdə verilir.

Tədris məşğələsi "Əvəzlik haqqında ümumi məlumat» başlığı ilə başlayır. Mövzunun tədrisində çalışma üzərində iş əsas yer tutur. 288 №-li çalışma rabitəli mətndir. Burada deyilir: "Oxuyun, qara hərflərlə verilmiş sözləri köçürün". Bununla bağlı aşağıdakı son məlumat verilir: "Mən, sən, o, biz, siz, onlar, bu, belə, elə sözləri əvəzliklərdir".

Növbəti çalışmada o, bu, elə, belə sözlərinin işlənməsindən bəhs edilir.

Şagirdlər əvəzliyin cümlədə, nitqdə rolu barədə ilk sistemli məlumatları da bu zaman alırlar.

Bunun üçün dərslikdəki ikinci elmi-qrammatik fikrə diqqət yetirək. Növbəti çalışmadan sonra kitabda belə yazılır: "Əvəzlik isim,sifət və əşyaları əvəz edir". Deməli, şagirdlər anlayırlar ki, əvəzlik cümlədə (nitqdə) isim və sifəti əvəz edir

Əvəzliyin daha bir qrammatik sistemi – onun məna növlərindən ibarətdir. Şagirdlər bu sistemdə ilkin olaraq şəxs əvəzliyi ilə tanış olurlar. Dərslikdə bununla əlaqədar təqdim edilmiş çalışmada adlar və hər hansı bir şəxsi bildirən sözlərlə bağlı bilik əldə edirlər.

Çalışma: "Oxuyun, əvəzlikləri seçib yazın".

Mətn: 1. Mən Kərim dayını yaylaqda görmüşdüm. 2. Biz Akifə dərslərini hazırlamaqda köməklik etməliyik. 3. Sən səhvini başa düşməlisən. 4. Biz sabahkı görüşdə sabah çıxış etməliyik. 5. Siz verilmiş tapşırıqları yazmalısınız. 6. O, hadisəni müşahidə edirdi. 7. Onlar bizim təcrübəmizi bəyəndilər.

Buradakı mən, biz, sən, siz,o, onlar şəxs əvəzlikləridir. Dərslikdə ilk məlumat: Şəxs əvəzlikləri kim? sualına cavab verir.

Şagirdlər şəxs sözünün mənasını bilməlidirlər. Şəxs mənsubluq bildirir. Tədrisdə müəllim izah edir ki, hər bir adam özünü "mən", yanındakı adamları "biz" adlandırırlar.

Birinci şəxs "mən" adlanır, o fikir söyləyəndir.

Ikinci şəxs "sən" və "siz"dir. Ikinci şəxs fikri dinləyəndir. Üçüncü şəxs isə (o, onlar) haqqında söhbət gedən şəxsdir.

Şagirdlər şəxs əvəzliyinin tək və cəm olduğunu da çalışmalarla daha yaxşı anlayırlar.

Şəxs əvəzliklərinə aid digər bir qrammatik məlumat – onların isim kimi hallanmasıdır. Bu barədə dərslikdəki cədvəl üzərində izahat aparıla bilər:

Ad.	mən	sən	o	biz	siz	onlar
Y.	mənim	sənin	onun	bizim	sizin	onların
Yön.	mənə	sənə	ona	bizə	sizə	onlara
T.	məni	səni	onu	bizi	sizi	onları
Yer.	məndə	səndə	onda	bizdə	sizdə	onlarda
Ç.	məndən	səndən	ondan	bizdən	sizdən	onlardan

Çalışma üzərində iş şəxs əvəzlikləri haqqındakı bilik və vərdişləri möhkəmləndirməkdə xüsusi əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Azərbaycan dili (II sinif üçün dərslik). Bakı: Azərbaycan nəşriyyatı, 2005
2. Azərbaycan dili (IV sinif üçün dərslik). Bakı: Azərbaycan nəşriyyatı, 2005
3. A.Abdullayev, Y.Kərimov. ibtidai siniflərdə ana dili tədrisinin metodikası. Bakı: Maarif, 1997
4. Kərimov Y.S. Ana dilinin tədrisi metodikası. Bakı: "Nasir" nəşriyyatı, 2003

SUMMARY

Farida Aliyeva

REINFORCEMENT OF PRELIMINARY KNOWLEDGE IN TEACHING ADJECTIVES

Students receive the first information about parts of speech during literacy training. The first information about parts of speech begins with information about the object. For example, according to the textbook, the teacher asks the children the names of domestic birds and wild birds. In the lessons related to this process, students get acquainted with the expressions "thing", "name of the thing".

In the II class, they receive new information about the subject of "Words denoting the name of an object", "words denoting the nature of an object", as well as "words denoting the movement of an object". To consolidate the given knowledge, first of all, it is necessary to master it.

In relation to the word object, students grasp the concepts of nouns. Here are a few examples. For example, home, guest, cleanliness, sweetness, mind, dream, etc.

At this time, it is explained to the students that all visible objects are objects, but there are also invisible objects, for example, respect, care, dreams, etc. is the name of an invisible name. Nouns are the names of things.

Key words: *student, adjective, object, parts of speech, information, training, teaching, noun, meaning, word, speech units, etc.*

RASİMƏ BABAYEVA
tahir.babayev075@icloud.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0006-1336-0015

PROFESSOR AKİF İMANLININ ELMİ ARAŞDIRMALARI

Məqalədə professor Akif İmanlının elmi yaradıcılığından danışılır. Bu məqsədlə onun bəzi əsərləri təhlil edilir.

Onomastika dilcilik elminin maraqlı və nisbətən cavan sahələrindəndir. Xüsusilə də Azərbaycan dilçiliyində onomastik vahidlərin öyrənilmə tarixi uzaq deyil. Belə ki, ölkəmizdə onomastik vahidlərin araşdırılması XX yüzilliyin II yarısına aiddir. Həmin dövrdə ilk tədqiqatlar yaransa da, sonralar onimoloji araşdırmaların sahəsi genişlənmiş, mövzu ilə bağlı bir sıra elmi-nəzəri əsərlər yazılmışdır. Onomastik materialın bol olmasına baxmayaraq, həmin sahədə yazılanlar kifayət deyil. Məhz buna görə də bir sıra alimlər qələmini həmin mövzuda sınamış və bu prosesdə bir-birindən dəyərli əsərlər meydana çıxmışdır.

Professor Akif İmanlı həm elmi, həm də bədii yaradıcılıqla məşğul olan ziyalılardandır. Onun elmi yaradıcılığında Azərbaycan dilçiliyinin müxtəlif məsələlərinə aid problemlərə işıq salınır, maraqlı elmi-nəzəri fikirlər irəli sürülür. A.İmanlı həm qrammatika, həm də onomastika mövzularında dərin tədqiqatlar müəllifidir. Onun yurd yerlərimizlə bağlı əsərləri məntiqli mülahizələri ilə diqqəti cəlb edir.

Onomastika elmi Azərbaycanda son zamanlar sürətlə inkişaf edir. Tədqiqatlarda bu elm ilə bağlı müxtəlif mövzular üzrə çox sayda mövzular təhlil edilmiş, maraqlı nəticələr ortaya qoyulmuşdur. Akif İmanlı Naxçıvan və Türkiyə əeazisindəki oykonimlərlə bağlı maraqlı araşdırmalar aparmış, onomastik vahidlərin leksik-semantik mənaları, qrammatik xüsusiyyətləri haqqında orijinal fikirlər irəli sürmüşdür. Naxçıvan onomastikası haqqında yazılan elmi-nəzəri əsərlərdə xüsusi yeri olan Şərur rayonu toponimlərinin böyük əksəriyyətinin əsasını Azərbaycan türklərinin, eləcə də Azərbaycan dilinin təməl dəyərlərindən qaynaqlanan milli yer adlarının əkəsəriyyət təşkil etməsini görürük. Onların öyrənilməsi xalqın milli şüurunu gələcək nəsillərə çatdırmaq baxımından şox əhəmiyyətlidir.

Açar sözlər: *dil, söz, leksika, onomastika, elmilik.*

Professor Akif İmanlı çaraqlı və zəngin elmi yaratıcılığa malik olan alimlərdəndir. Onun "Onlara nə ad verək?" adlı əsəri onun maraqlı elmi yazılarından biri kimi diqqəti cəlb edir. Həmin əsərdə alim dünyada heç nəyin adsız olmadığını qeyd edərək adların necə yarandığını sual kimi ortaya qoyur və bu baxımdan, keçmiş zamanlara müraciət edir. Araşdırmaçının fikrincə, adlar əcdadlarımızın dil açıb danışmağa başladığı zamandan formalaşıb və onların düzüb-qoşduğu sözlər içərisində sıralanıb.

A.İmanlı insanların yaratdlıqları adların da hansısa informasiyanın çatdırılmasında mühüm rol oynadığını qeyd edir. Alimin mülahizələrinə görə əvvəllər insanlar hər hansı bir heyvan haqqında məlumat verərkən onların etdiyi hərəkəti edirdilərsə, adlar meydana çıxdıqdan sonra həmin bilgilər onlar vasitəsilə həyata keçirilirdi.

Əslində, ad seçmək qabiliyyət və bacarıqla bağlı məsələdir. Adların araşdırılmasından bəhs edən "onomastika"nın hərfi anlamı da "ad vermək məharəti" deməkdir. A.İmanlı "Onlara nə ad verək?" adlı məqaləsində adları böyük bir yaradıcılıq prosesi ilə bağlayaraq onları "tarixin bir hissəsi" adlandırır. O, adların yaranmasında aşağıdakıların rolunu xüsusilə dəyərləndirir:

1. Bədii yaradıcılıq.
2. Xalq fantaziyası
3. Tarixi əlaqələr.
4. Məişət hadisələri

5. İnamlar.

Prof. A.İmanlı yazır: "İlk baxışdan asan görsənsə də, bu gün yeni bir ad yaratmaq, nəyəsə təzə bir isim fikirləşib tapmaq olduqca müşkül məsələdir. Diqqətlə fikir versək, görərik ki, müasir dövrdə yaranan xüsusi isimlərin hamısı Latın, Yunan, İngilis və Fransa dilində mövcud olan sözlərdən düzəldilib götürülür. Yəni heç kim özündən yeni ad kəşf edə bilmir" (2). Lakin professorun bu fikrini birmənalı şəkildə qarşılamaq olmaz. Əvvəla, onun hansı xüsusi isimləri nəzərdə tutduğu aydın deyil. İkincisi, xüsusi isimlər içərisində çox sayda milli sözlərə rast gəlmək olar. Xüsusilə yer və insan adları bu baxımdan səciyyəvidir.

Prof. A.İmanlı adların özü-özlüyündə insan səsi olduğunu vurğulasa da, bu səslərin hamısından isim kimi istifadə etməyin mümkünsüzlüyünü göstərir: "Çünki adlar adi abstrakt səs yığımı deyil, müəyyən məna kəsb edən, daha doğrusu səs qiyafəsində olan mənalardır. Bu mənalı səslər öz sədası ilə sahibini bəlli edirlər. Yiyəsinə yapışmayan, onun naturasına uyğun gəlməyən adlar heç kim tərəfindən qəbul edilmir. Ad, bir növ sahibinin mahiyyətini mənalı şəkildə səsləndirir" (2). Bu məsələdə o, "meymun" adına müraciət edərək bu sözün hansı canlını bildirdiğini onun gülməli olduğunu yazır. Alim bunu "meymun" ifadəsinin yumorlu səslənməsi ilə izah edir. Belə ki, tədqiqatçı "meymun" adı ilə bu heyvanın naturasının harmoniya yaratmasını əsaslandırır. "Meymunun meymunluq eləməsi də ona verilən adın gücündən doğur. Ruslar demişkən, gəmiyə hansı adı versən elə də üzəcək!" (2). A.İmanlı dolayı yolla "Meymun baxar güzgüyə, adını qoyar özgəyə" adlı xalq deyimini yada salır. Maraqlıdır ki, alim "meymun" məsələsindən sonra dərhal "erməni" sözünü açmaq istəyir. "Əvvəllər, heç kimin tanımadığı bir tayfa dağdan enəndə, Türklər onları "hay" çağırırmışlar. Ancaq, sonradan görürlər ki, bu haylardan adama hay olmaz, elə ayaqlarını hara qoyurlar, deyirlər bura mənimdir, ora mənimdir, tez hayların adını dəyişib "yer mənim", yəni "erməni" qoyurlar. Ancaq nəzərə almırlar ki, yuxarıdakı meymun məsələsindəki kimi "gəmiyə hansı adı versən, elə də üzəcək" (2).

A.İmanlı Azərbaycan xalqının tarixi düşməni olan ermənilərin addəyişmədən daha çox əl-ayaq açmalarına da münasibət bildirir: "Deyirlər ki, madam bizim adımız oldu "erməni", onda bütün yer kürəsi bizimdir. Başlayırlar açıq-aşkar qədim xalqlara, ən çox da Azərbaycan xalqına məxsus olan yer, musiqi, alət, abidə və digər dəyərlərin adlarını dəyişməklə onları özününkü etməyə" (2). A.İmanlı məqaləsində bugünkü Ermənistan ərazisindəki bütün yer adlarnın xalqımızın adı ilə bağlı olduğunu və xainliklə həmin adların dəyişdirildiyini qeyd edir. Hətta Ağdam rayonunun adının dəyişdirilməsinə cəhd edildiyini "hədsiz erməni həyasızlığı" hesab edir. Profesor belə qənağtğ gəlir ki, "erməni" adının özünü dəyişmək lazımdır.

Məqalədə bədii çalarlar da vardır: "Bəlkə də o vaxtlar babalarımız bədnam qonşularımıza "erməni" adını verməsəydilər heç başımıza bu müsibətlər də gəlməzdi. Yazıqlar nə biləydi ki, ermənilər öz adlarını doğrultmaq üçün, sözün həqiqi mənasında əsl ermənilik edəcəklər" (2). Ermənilərə başqa bir ad verilməsindən danışan A.İmanlı xalqımızın bir şəxsin adını dəyişməklə, onu sağalmaz irsi xəstəlikdən xilas etməyin mümkün olması kimi qədim inamlarına və həm də sınaqdan çıxmış adətlərə söykənir və ironiya ilə fikirlərinə davam edir: "İnama görə, ad tale olduğu üçün, onu dəyişdirdikdə sahibinin də taleyi dəyişir. Xəstə insan sanki yenidən dünyaya gəlir və sağlam həyata qədəm qoyur. Bu üsulla çox adamlar şəfa tapıb. İndi ermənilərin adını dəyişdirə bilsək, bu milləti də nəsillikcə davam edən "yer mənim" xəstəliyindən azad edə bilərik, həm də böyük savab qazanarıq. Ancaq bir qəliz məsələ var ki, bədnam qonşularımıza hansı adı verək?..." (2).

Əslində professor Akif İmanlının "Onlara nə ad verək?" adlı əsərinin üslubunu təyin etmək çətindir. Belə ki, burada publisistik üsluba xas olan faktlar, bədii üsluba aid deyim tərzi, yumor və satirik çalarlar və s. kimi amillər bu əsərin üslubların sintezində yazıldığını göstərir. Bu, adverməninin böyük məsuliiyyət rələb etdiyini bir daha xatırladır.

Akif İmanlının yaradıcılığı tayfa və heyvanlara verilən adların təhlili ilə nəticələnmir. Onun elmi-nəzəri təhlillərində yaşayış yerlərinin adı məsələsi önəmli mövqeyə malikdir. Bu baxımdan, alimin Naxçıvan Muxtsr Respublikasının Şərur rayonundakı qədim yaşayış məskənlərindən biri olan Yengicə kəndi haqqındakı məlumatları və elmi mülahizələri maraq doğurur. Sözügedən kənd

haqqında danışan alim 1728-ci ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"nə müraciət edərək kəndin əvvəlki adının Qazançılar olduğuna diqqət çəkir. O, "Qazan" sözünü "Kazan" xasusi adı ilə əlaqələndirərək Azərbaycan türklərinin təşəkkül tarixi ilə bağlı qiymətli əsərlərin müəllifi tarix elmləri doktoru, professor Qiyasəddin Qeybullayevin tədqiqatlarına əsaslanaraq Kazanın Azərbaycan ərazisində mövcud olmuş Albaniyaya beşinci əsrdə öz tayfası ilə gəlmiş bir elbəyin adı olduğunu vurğulayır, onun mənşəcə türk leksikasına aidliyini göstərir və "Kitabi-Dədə Qorqud" dastanındakı Kazan adı ilə müqayisə olunduğunu haqlı sayır. Alim sözün türkmənşəli olduğuna şübhəsiz yanaşaraq və diqqəti türk xalqlarını çoxunda, məsələn, qazaxlarda xalq təqviminə görə payızın ikinci ayına (oktyabra) "kazan" adı verildiyinə çəkərək "Kazan" adını daşıyan şəxsin həmin ayda doğulduğunu qeyd edir. Bəzi adların təqvimlə bağlı olduğunu təsdiq etmək üçün A.İmanlı türk xalqlarının, o cümlədən Azərbaycan xalqının adət-ənənələrinə əsaslanaraq oğlan uşaqlarına qoyulan *Mövlud, Oruc, Məhərrəm, Novruz* kimi adları ilin ayları ilə əlaqələndirir. Bundan başqa, A.İmanlı Qazançı etnonimini türk boylarının bir qolu kimi təqdim edir. Bu məsələdə o, tarixi məlumatlara istinad edərək türk bolqarların bizim eranın ikinci yüzilliyində Cənubi Qafqaza, o sıradan Albaniya ərazisinə gəldiklərini qeyd edir. O, Biləsuvar rayonundakı Bolqarçay toponiminin həmin tayfa iləbağlı olduğunu göstərir: "Bolqarların Kuvyar, Çakar, Kul və Kazan qollarının adları isə Xubyarlı, Çaxırlı, Qullar və Qazançı toponimlərində qalıbdır" (1). Əsərdə Cənubi və Şimali Qafqazda, Orta Asiyada kazan/qazan sözünün iştirak etdiyi külli miqdarda toponimlərin mövcud olması haqqında çox sayda tədqiqatçı fikirlərinin olduğunu məntiqli sayır.

A.İmanlı "Azərbaycan toponimləri. Ensiklodedik lüğət"dəki tarixi-elmi məlumatlara söykənərək kazan/qazan tayfalarının ilk dəfə bizim eradan əvvəl II əsrdə bulqarların tərkibində Zaqafqaziya ərazisinə gəldiklərini, eramızın ilk yüzilliklərində hunların, onların ardınca suvar və avarların, daha sonralar isə xəzərlərin tərkibində Azərbaycanda məskunlaşdıqlarını qeyd etməkdən başqa yazır: "Oktyabr inqilabına qədər Qafqazda qazan etnonimi ilə bağlı 24 coğrafi ad vardı. Cənubi Azərbaycan ərazisində, habelə Ukrayna, Başqırdıstan, Tatarıstan, Qərbi Sibir və s. yerlərdə də qazanlarla bağlı toponimlər var" (1).

A.İmanlı məntiqli və faktlara əsaslanan fikirlərlə bir sıra oykonimlərin (məsələn, Qazançı, Qazançılar), əslində, Qaza/Kazan etnonimindən əmələ gəldiyini göstərir və bir sıra yaşayış yerlərinin etnonim adı ilə bağlılığını təsdiq edir. Alim belə adları "etnooykonim" adlandırır. O, "Qazan" sözü ilə bağlı olan toponimləri iki qrupa aid edir:

1. Bolqar (bulqar) etnosuna mənsub qazan, qazançı, qazançılar tayfasının, nəslinin, tirəsinin adı.
2. Zahirən qazana oxşayan dağ, qaya və s. adları.

Belə aydınlaşdırmalardan sonra A.İmanlı əvvəllər Qazançılar kimi tanınan kəndə sonralar "Yengicə" adının verildiyini əsasalandıraraq göstərir ki, əslində, yerin adı "Yenicə"dir: "Yengicə Yenicə sözünün fonetik şəklidir. Yengicə və Yenicə adlanan kəndlər əhalinin müəyyən hadisə ilə əlaqədar (əsasən, torpaq çatışmazlığına görə) ana kənddən köçüb kənar yerdə yeni yaşayış məntəqəsi salması nəticəsində yaranıbdır. Yaşayış yerinin adı Azərbaycan dilinin öz daxili imkanları əsasında yarandığından şəffaf toponimlər qrupuna daxildir və "yeni kənd" mənasındadır" (1).

A.İmanlının araşdırmalarında orijinal elmi-nıəzəri fikirlərdən başqa, onun görkəmli bilginlərin mülahizələrindən yerli-yerində istifadəsinə də rast gəlirik. Belə ki, o, Yengicə adı ilə əlaqəli fikirlərində Budaq Budaqov və Qiyasəddin Qeybullayevin həmin oykonimlərin əmələ gəlməsinin səbəbləri haqqındakı mülahizələrini təhlil edir. Sözügedən alimlər türk dillərində "təzə", "yeni" mənasını verən yeŋı leksik-qrammatik vahidinin oykonim adlarında əks etdirildiyi barəsində maraqlı mülahiozələr irəli sürmüşlər. A.İmanlı tədqiqatçılardan Adil Bağırovun da B.Budaqov və Q.Qeybullayevin fikirləri ilə həmrəy olduğunu göstərir. O, Adil Bağırovun "Yengicə" adının "yeni salınmış kənd", "icma torpağında yaranmış məntəqə" mənasında işlənməsi haqqındakı fikirlərinə istinad edir.

Yengicə sözü onomastik leksikaya daxil olmamışdan, yəni xüsusi ad kəsb etməmişdən əvvəl apelyativ leksikaya aiddir, yəni ümumi söz kimi dilimizdə təşəkkül tapıb. Məşhur dil tarixçisi Hadi Mirzəzadə özünün "Azərbaycan dininin tarixi qrammatikası" kitabında "yengi" sözünü izah

edərkən göstərir ki, "yengi" təxminən, XIX əsrin ortalarına qədər əski formasını saxlanıb get-gedə "n"-nın tərkibində olan q(g) samitinin zəifləyib düşməsi ilə "yeni" şəklində sabitləşib. Yengi sözünün özünə gəldikdə bu, yalnız Azərbaycan dilində deyil, eyni zamanda bütün türk xalqlarının yazısında müştərək bir orfoqrafiyaya malik olubdur. Yengi sözünün "yeni" şəklində yazıldığını M.F.Axundzadənin yazılarında da görürük... Yengi sözünün qədim imlası, demək olar ki, XX əsrin əvvəllərində yazılmış bir sıra dərsliklərin dilində olduğu kimi saxlanıbdır.

Alimlərdən İbrahim Bayramov toponimin təzə mənasında işlənən yengi sözü ilə -cə şəkilçisinin birləşməsindən əmələ gəldiyini qeyd edərək yengi sözünü ədəbi dilimizdə işlənən yeni sözünün dialekt variantı hesab edir. Yengi sözü hazırda Azərbaycan şifahi və yazılı ədəbi dilində "yeni" sözü ilə əvəz olunubdur. Yengi sözü yalnız əski yazılarda və toponimlərdə qalmaqdadır.

Toponimlərdə görünən –ca -cə şəkilçisi, əsasən, sifətlərə, bəzən xüsusi və ümumi isimlərə, bir neçə qeyri-müəyyən saya artırılır. Toponimlərdə ərazilərin və məntəqələrin səciyyəvi cəhətlərini özündə əks etdirməyə xidmət edir. Yengi/yeni sözünə artırılan –cə şəkilçisi eyni zamanda topoformant funksiyasını yerinə yetirərək, həmin sözü "yeni kənd, təzə kənd" mənasında oykonimləşdirib.

ƏDƏBİYYAT

1. Qədim yurd yerlərimiz: Yengicə. https://nuhcixan.az
2. Onlara hansı adı verək..? https://modern.az

SUMMARY

Rasima Babayeva

SCIENTIFIC RESEARCH OF PROFESSOR AKIF IMANLI

The article talks about the scientific creativity of Professor Akif Imanli. For this purpose, some of his works are analyzed.

Onomastics is one of the interesting and relatively young fields of linguistics. In particular, the history of the study of onomastic units in Azerbaijani linguistics is not long. Thus, the study of onomastic units in our country belongs to the second half of the 20th century. Although the first studies were created in that period, later the field of onimological studies expanded, and a number of scientific and theoretical works were written on the subject. Although there is a lot of onomastic material, what is written in that field is not enough. That is why a number of scholars have tried their hand at that topic and in this process, valuable works have emerged from each other.

Professor Akif Imanli is one of the intellectuals engaged in both scientific and artistic creativity. In his scientific works, the problems related to various issues of Azerbaijani linguistics are shed light, and interesting scientific and theoretical ideas are put forward. A. Imanli is the author of in-depth studies on both grammar and onomastics. His works about our homeland attract attention with their logical reasoning.

The science of onomastics is developing rapidly in Azerbaijan recently. In the researches, a large number of topics related to this science were analyzed and interesting results were revealed. Akif Imanli has conducted interesting research on oikonyms in Nakhchivan and the Turkish region, and has put forward original ideas about the lexical-semantic meanings and grammatical features of onomastic units. In the scientific-theoretical works written about the onomastics of Nakhchivan, we see that the majority of toponyms of the Sharur region, which have a special place, are based on Azerbaijani Turks, as well as national place names originating from the basic values of the Azerbaijani language. Their study is very important in terms of conveying the national consciousness of the people to future generations.

***Key words**: language, word, lexicon, onomastics, science.*

NƏZİFƏ SADİQOVA
nezifesadiqova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0008-4694-1021

ADİL BAĞIROVANIN ELMİ YARADICILIĞINDA TOPONİMLƏRİN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə dilçi-alim Adil Bağırovun elmi yaradıcılığından danışılır. Bu məqsədlə onun onomastik araşdırmaları təhlil edilir. Alimin tədqiqatlarında toponim mövzusuna diqqət edilir və onun bu sahədəki elmi yaradıcılığı incələnir.

XX yüzillikdə bir sıra alimlər onomastik problemlərə müraciət etmiş və orijinal araşdırmalar aparmışlar. Bu proses Azərbaycanın müxtəlif bölgələrində yaşayan alimlər tərəfindən də həyata keçirilmişdir. Bu mənada, Adil Bağırovun araşdırmaları Azərbaycanda onomastikanın inkişafına müəyyən qədər töhfə vermişdir. O, qədim oğuz yurdu olan Naxçıvanın bir sıra onomastik vahidlərini tədqiq edərək onlara aydınlıq gətirmişdir. Bununla da, Azərbaycan dilçilik elmində onomastikanın bir sıra sahələri üzrə problemlərin öz həllini tapmasında alimin əməyi olmuşdur. O, elmi üslubun prinsiplərini gözləyərək maraqlı və orijinal linqvistik əsərlər yazmışdır. Məqalədə Adil Bağırovun tədqiqatlarının elmi-nəzəri təhlilindən alınmış nəticələr öz əksini tapmışdır.

***Açar sözlər**: söz, dil, toponimlər, onomastika, Azərbaycan dili, yer adları*

Dilçilik elmi tarixən qədimliyi ilə seçilən elm sahələrindəndir. Bu elm inkişaf etdikcə onun müxtəlif sahələri yaranmış və onunla bağlı tədqiqatlar meydana çıxmışdır. Elmlərin yaranması cəmiyyətin əlamətdar xüsusiyyətlərindən biridir. Elmlər yarandıqdan sonra onların bir çox imkanları üzə çıxmış və bu sahədə müxtəlif dəyişmələr olmuşdur. Çağdaş dövrümüzdə əsas məsələlərdən biri elm şəbəkəsinin genişlənməsi, yeni araşdırma və fikirlərin üzə çıxmasıdır. Bu baxımdan, Azərbaycan dilçiliyi elmi də öz inkişafını davam etdirir və bu prosesdə bir sıra yeniliklər özünü göstərir. İnkişaf prosesində sözügedən elmin bir sıra bölmələri formalaşıb irəli getmiş və bu, çox sayda araşdırmaçıların diqqətini çəkmişdir.

Çağdaş dövrümüzdə bir sıra alimlər onomastik problemlərə müraciət etmiş və orijinal araşdırmalar aparmışlar. Azərbaycan dilçiliyində bu mövzunun tədqiqi ilə bağlı bir sıra məqalə və monoqrafiyalar nəşr olunmuşdur. Dilçiliyin bu sahəsi ilə elmi dərəcə almaq üçün bir neçə dissertasiya yazılmışdır. Bu işlər Azərbaycanda onomastikanın inkişafına təkan vermişdir.

Azərbaycan dilçilik elmində onomastikanın bir sıra sahələri üzrə problemlər öz həllini tapmışdır. Onomastika xüsusi adların toplusundan ibarət olan dilçilik bölməsidir. Mütəxəssislər dildə mövcud olan xüsusi adların onomastikanı təşkil etməsi haqqında fikir söyləyirlər. Onomastika dildəki xüsusi adların məcmusudur və bu fikri bütün dillərə aid etmək olar. Məsələn, Azərbaycan onomastikası, türk onomastikası, qırğız onomastikası və s. Cəmiyyətdə mövcud olan hər bir əşya, canlı və hadisələrin adı vardır. Bu adların hamısı linqvistik xüsusiyyətlərə malikdir.

Adların tarixi bəşər tarixi qədər qədimdir. İnsanlar özlərini başqalarından fərqləndirmək üçün özlərinə və ətraflarına ad qoymağı seçmişlər və bu adların niyə və nə vaxt verildiyini təxmin edə bilmədiklərindən həmişə bu adlar haqqında düşünmüşlər. Çox vaxt bu adların verilməsi bənzətmə (analogiya) və xalq etimologiyası ilə izah edilmişdir.

Dildəki yer adları olan toponimlər onomastika elminin bir bölməsini təşkil edir. Onomastika tədqiqatlarının əksəriyyəti toponimlərdən ibarətdir. Toponimlər onomastikanın iki əsas qolundan biridir, "…toponimlərin genetik və etnolinqvistik təhlili göstərir ki, müxtəlif dövrlərdə coğrafi obyektlərin adlandırılmasında müəyyən meyllər olmuşdur. Belə ki, yaşayış məskənləri və başqa yer adları müəyyən dövrdə ancaq hər hansı bir şəxsin adını daşımışdır. Başqa bir dövrdə bu adlandırma

tayfa və qəbilələrin adı əsasında formalaşmışdır. Beləliklə, yer adları şəxs, tayfa, qəbilə, heyvan, bitki, səma cisimləri, su obyektlərinin və s. adını daşımaqla ortaya çıxarılmışdır" [4, 186].

AMEA-nın müxbir üzvü, professor Adil Bağırov toponimlərə aid maraqlı və orijinal araşdırçaların müəllifidir. Onun elmi yaradıcılığından öyrənirik ki, insanların yaşadığı coğrafiyanı ən yaxşı şəkildə təsvir etmək və onların məskunlaşdığı yerlərə öz xüsusiyyətlərini əlavə etmək üçün ən sadə və əlverişli üsul bizi simvolizə edən yerlərə ad verməkdir. Hər biri bir ünvan olan yer adları insanların təbiəti təsvir etmək, bir-biri ilə ünsiyyəti təkmilləşdirmək və bununla da həyatlarını asanlaşdırmaq ehtiyacından irəli gəlmişdir. Adlar bir xalqın dilini, tarixini, mədəniyyətini əks etdirir. Toponimika onomastikanın coğrafi adların mənbəyini araşdıran sahəsidir. Dilçilik elminin bu yeni qolu yer adlarını quruluş, məna və mənşə baxımından öyrənilməsinə əsaslanır. Əvvəllər ümumi bir anlayış kimi qələmə verilən toponimika dilçilik sahəsi daxilində qiymətləndirilsə də, son zamanlar onun tarix, sosiologiya və arxeologiya kimi elm sahələri ilə əlaqəsi nəzərə alınmışdır. Yer adları bir xalqın məskunlaşma tarixi üçün ən mühüm canlı sənədlərdən biridir. Azərbaycan geosiyasi əhəmiyyətinə görə tarix boyu bir çox xalqın diqqətini çəkmiş və buna görə də bölgəyə hakim olmaq istəyən xalqlar arasında müharibələr olmuşdur. Bu səbəbdən Azərbaycan coğrafiyasının tarixi adları tez-tez təhrif olunub. İnsanlar bəzən öz ləhcə xüsusiyyətlərinə görə köhnə adı formalaşdırmış, bəzən də bu yerlərdə öz tayfalarının, ı soylarının adlarını yaşatmaq istəmişlər. Bunu bacarmadıqları hallarda ətraf mühitin fiziki xüsusiyyətlərinə görə adlar verməyə üstünlük vermişlər. Bəzi adların necə və nə üçün qoyulduğu bu gün aydın olmasa da, bu adlandırmalarda icmaların bir yerə aid olmaq istəyinin təsiri olduğu da güman edilir.

Toponimlərin araşdırılmasında Adil Bağırovun özünəxas rolu və əməyi olmuşdur. Dili güzgüyə bənzədənlər yanılmayıblar. Ona görə ki, xalqın həyatında, dilində, mədəniyyətində baş verən dəyişikliklər dildə öz əksini tapır. Yer adlarının dəyişməsi ilə dilin tarixi inkişafında müəyyən dəyişikliklər baş verir. Yer adları hər zaman qorunmalı, onlarda dəyişikliyə imkan verilməməlidir. Çünki bütün yer adları hər hansı bir səbəb və hadisə ilə bağlıdır və bunlar yer adalrı dərişdiriləndə itir, tarixə çevrilir və beləliklə, yaddaşlardan silinir. Yeni kimlik qazanan yer adı əslindən uzaqlaşır. Mütəxəssislər tarixi yer adlarının mənbəyini insan və təbiətlə əlaqələndirirlər.Azərbaycanda tarixən hökmdarların, dövlət adamlarının, sərkərdələrin, qəhrəmanların, hadisələrin və əfsanələrin adlarını yaşadan toponimlər vardır. Adil Bağırovun yer adlarına əsaslanan araşdırmalarında xalqların, xüsusilə də türk xalqlarının ad verərkən əvvəlcə ətrafdan, sonra isə fərdlərdən faydalandıqları göstərilir. Bunun özü mədəniyyətin göstəricilərindən biridir.

Toponimlərin tədqiq tarixi qədimdir. Hələ XI yüzillikdə Mahmud Kaşqarlının "Divani Luğət-it türk" adlı möhtəşəm əsəri yer adlarının tarixi inkişafını müəyyən edən mühüm mənbələrdən biridir. Kaşqarlı divanında əslində iyirmi türk tayfasının olduğunu və bu boyları saya bilməyəcək qədər çox tayfa olduğu üçün qeyd edə bilmədiyini yazır. O, bu qəbilə və tayfaların məskunlaşdıqları yerlərdən danışaraq bir növ toponimik təcrübə aparmışdır.

Hər hansı bir yer adının ona niyə verildiyini müəyyən etmək o qədər də asan deyil. Bunun üçün tarixi və coğrafi biliklərin köməyinə ehtiyac vardır. Yer adlarının mənasını və xüsusiyyətlərini müəyyən etmək baxımından Adil Bağırovun aşadırmalarında maraqlı məlumatlar vardır. Alimin "Naxçıvanda Nuhla bağlı yer-yurd adlarının tarixi-etimoloji təhlili" adlı əsəri, bu baxımdan, səciyyəvidir. Bu əsərdə Naxçıvan, Gəmiqaya, Qapıcıq, Nəbi yurdu, Nuhdabanı, Nigərih, Nürgüt, Dava Daşı, Nəhəcir dağı, Əlincə dağı, Peyğəmbər ayağı qayası, Üçqardaş təpəsi, Qaranquş yaylağı adlarındanın elmi izahını vermişdir. Adil Bağırov bu ulu məkanın ad zənginliyini sistemli şəkildə öyrəndiyi onomastik vahidlərlə təsdiq etmişdir: "Azərbaycanın qədim inzibati və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın hər daşında, hər qayasında xalqımızın şərəfli tarixi, zamanın müxtəlif dövrlərinə aid zəngin maddi-mədniyyət abidələri, daş kitabələrdə milli adlarımız, təfəkkür dünyamız, düşüncə tərzimiz yaşayır" [3, 117]. Adil Bağırov "Naxçıvan" toponiminin bir neçə variantını qeyd edərək Jak Şarden, Frederik Dübuade Monpere, V.Qriqoryev, K.Nikitin və digərlərinin Naxçıvanla bağlı fikirlərini incələmiş və onlara aydınlıq gətirmişdir. "Toponimlərin bir qismi zəngin informasiya yükünə malikdir. A.V.Superanskaya haqlı olaraq göstərir ki, toponimlər

tarixin aynasıdır1 . Bu cəhətdən toponimlərin semantikasının açılması xalqın tarixinə, dilinə, iqtisadiyyatına və s. məsələlərə dair maraqlı məlumatlar verir. Buna görə də hər bir toponimin ayrı-ayrılıqda öyrənilməsi, onların qonşu və qohum xalqların dillərinə aid faktlarla qarşılaşdırılması, toponimlərin dialekt variantlarının öyrənilməsi və s. vacibdir" [4, 228].

Adil Bağırov təhlil etdiyi onomastik vahidlərin milliliyinə diqqət edərək bu məsələni xüsusi olaraq vurğulayır. Məsələn o, "Gəmiqaya" haqqında deyir: "Gəmiqaya *gəmi* və *qaya* sözlərinin bir-birinə yanaşması nəticəsində yaranmış milli sözlərimizdən biridir. Min illərdir ki, bu ad dilimizdə işlənir və adın mənşəyinin Nuh peyğəmbərin adı ilə bağlı yarandığı ehtimal olunur" [1, 123].

Toponimlər içərisində günümüz üçün anlamı bilinməyən və ya mənası çətin anlaşılan yer adlarının araşdırılması dil tarixinə də maraqlı faktlar verə bilər. Belə ki, yer adları içərisində qədim və orta türk dilindən gələn sözlər də vardır. Bu sözlərin mənasını müəyyən etmək toponimika elminin vacib məsələlərindəndir. "Və bu adların izahı onların əski türk sözlərindən ibarət olduğunu, bu torpaqların bizim ulu babalarımız olan qədim türk tayfalarının əbədi məskəni olduğunu bir daha təsdiq edəcəkdir" [5, 67]. Azərbaycan onomastik sistemi zəngindir və bu zənginlik sözlər vasitəsilə aydınlaşdırırlıb üzə çıxarılır. Bu sistemin izahında akademin T.Hacıyev, A.Quebanov, Q.Məşədiyev, E Əzizov, Ə.Tanrıverdinin ənənələrini davam etdirir. Yer-yurd adlarında bir tarix, bir rəvayət, bir qəhrəmanlıq dastanının gizlənməsini, demək olar ki, çoxları etiraf etmişlər. Filologiya elmləri doktoru Sərdar Zeynal adlar haqqında deyir: "Dərindən fikirləşəndə görürük ki, dünyada gözlə görünən, yaxud, gözlə görünməyən nə varsa hamısı sözdür, sözdən ibarətdir. Söz olmasa nə dağı dağdan, nə bulağı bulaqdan, nə də insanı insandan ayırmaq mümkün olar. Həyatda hər nə varsa, hər birini tapmaqda ilk növbədə köməyimizə çatan söz olur. O söz ki, onun arxasında insan düşüncəsi dayanır, çay dayanır, bulaq, dağ, qaya ağac dayanır. Bir balaca düşüncəyə daldıqda görürük ki, ətrafımızdakılarla bərabər, özümüz də sözük, sözdən ibarətik. Hər bir kəsin kimliyinin, nəçiliyinin, hansı peşə sahibi olduğunun, harada yaşadığının önündə söz dayanır. Biz o sözdən tutub axtardığımız nöqtənin kəşfinə nail oluruq" [5, 66]. Bu sözlər üçün dilimizə borcluyuq.

Adil Bağırov "Dədə Qorqud kitabında Naxçıvanla bağlı toponimlər" adlı əsərində Altuntaxt, Dərəşam, Böyükdüz, Əlincəqala, Əyrək, Qaraçuq, Sədərək, Şərur adalrını elmi-nəzəri təhlilə cəlb etmiş və bunun keçmiş sərhədlərimizin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olduğunu göstərir.

Adil Bağırovun toponimik araşdırmalarında "1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftərində yer adları" əsəri diqqəti çəkir [2]. Bu əsərdəki adlar beş qrupa ayrılır. Onlardan birincisi tamamilə unudulmuş adlardır. Müəllif bu adlardan bəhs edərkən Əlibəydizəsi məzrəsi, Ələyəz məzrəsi, Yollu kəndi, Şeyx Yusifli kəndi, Keçidi-islamiyyə kəndi, Nərkeş kəndi, Dərəalpaq kəndi, Təhmasqulu dizəsi məzrəsi, Kuhi-pirən kəndi, Molla Məhəmməd məzrəsi, Dratagüney məzrəsi və s. kimi iyirmi beş unudulmuş yer adını üzə çıxarır.

Adil Bağırov sözügedən əsərdəki toponimlərin ikinci qrupuna tarixin izini qismən saxlayan, yerləşdiyi ərazi məlum olan yaşayış məntəqələri və yer adlarını daxil edir. O, on iki belə adın olduğunu qeyd edir. Müəllifin ilk iki qrupa aid etdiyi adlar haqqında, təəssüf ki, məlumatlar azdır.

"1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftərində yer adları" əsərində üçüncü sırada öz varlığını qoruyub saxlayan adlar dayanır ki, onlar indi də dildə yaşayır. Dəyişdirilmiş adlar dördüncü qrupa aid edilmişdir. Burada səkkiz yer adı verilmişdir.

Adil Bağırovun bölgüsündə paralel adlar beşinci qrupa daxil edilib. Bu qrupda on üç oykonimin adı çəkilir. Həmin oykonimlərin biri – Əlincənin iki (Əlincə və Aralıq), Əyrəkin üç (Dərəşahbuz, İrəvan və Karbi), Yenicə//Yengicənin beş (Naxçıvan, İrəvan, Bazrçayı, Abnik və Zebil) nahiyədə işləndiyi göstərilir. Bundan başqa, Keçili, Qaraqoyunlu, Almalıq, Yarımca, Qarabağ, Quşçu, Qalacıq, Şəhriyar, Dükan kimi oykonimlərin Naxçıvan və İrəvan nahiyələrinə daxil olması qeyd edilir.

Adil Bağırovun haqqında danışdığı toponimlər yuxarıdakılarla məhdudlaşmır. Onun elmi yaradıcılığı bu baxımdan zəngindir. Bu maraqlı qaynaq toponimlərin araşdırılmasına bütün tarixi zamanlarda ehtiyac olduğunu təsdiq edir.

ƏDƏBİYYAT

1. Bağırov A. “Dədə Qorqud” kitabında Naxçıvanla bağlı toponimlər. Onomalogiya problemləri. I cild. Bakı: Elm və təhsil, 2010, s. 127-136.
2. Bağırov A. 1590-cı il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə yer adları. Onomalogiya problemləri. I cild. Bakı: Elm və təhsil, 2010, s. 136-142.
3. Bağırov A. Naxçıvanda Nuhla bağlı yer-yurd adlarının tarixi-etimoloji təhlili. Onomalogiya problemləri. I cild. Bakı: Elm və təhsil, s. 117-127.
4. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. II cild. Bakı: AMEA, 2019. 432 s.
5. Zeynal S. Tivi kəndinin onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Qərbi Kaspi Universitetinin Elmi xəbərləri (Humanitar elmlər seriyası), Bakı: 2019, say 2, s. 66-71.

SUMMARY

Nazifa Sadigova

TOPONYMS IN THE SCIENTIFIC CREATION OF ADIL BAGHIROVAN LINGUISTIC CHARACTERISTICS

The article talks about the scientific creativity of linguist-scientist Adil Bagirov. For this purpose, his onomastic studies are analyzed. In the scientist's research, attention is paid to the topic of toponyms, and his scientific creativity in this field is refined.

In the 20th century, a number of scientists addressed onomastic problems and conducted original research. This process was also carried out by scientists living in different regions of Azerbaijan. In this sense, the researches of Adil Bagirov contributed to the development of onomastics in Azerbaijan. He studied a number of onomastic units of Nakhchivan, the ancient Oghuz homeland, and clarified them. In addition, the work of the scientist in finding solutions to problems in a number of areas of onomastics in Azerbaijani linguistics. He wrote interesting and original linguistic works, anticipating the principles of scientific style. The article reflects the results obtained from the scientific-theoretical analysis of Adil Bagirov's research.

***Key words**: word, language, toponyms, onomastics, Azerbaijani language, place names*

NƏRMİN HÜSEYNOVA

MƏKTƏBLİLƏRİN MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏSİ ELMİ TƏDQİQAT PREDMETİ KIMI

Məqalənin məqsədi kiçik məktəblilərin mədəniyyətlərarası sərişləsini elmi tədqiqat predmeti kimi nəzərdən keçirmək, mədəniyyətlərarası sərişdə, mədəniyyətlərarası kommunikativ sərişdə anlayışlarını nəzərdən keçirməkdir. Multikultural təhsilə sərişdə əsaslı yanaşmanın rolu məsələlərinə toxunulur. Burada məktəblilərdə mədəniyyətlərarası sərişdənin formalaşmasının əsaslarına xüsusi diqqət yetirilir və problemi tədqiq etmiş yerli və xarici alimlərin fikirlərinə də münasibət bildirməyə səy göstərilir

Açar sözlər: *mədəniyyətlərarası əlaqə, mədəniyyətlərarası kommunikativ sərişdə, orta məktəb yaşı, multikultural təhsil, sərişdəli yanaşma anlayışı.*

Pedaqoji prosesdə günümüzün vacib sosial problemlərindən biri müxtəlif millətlərin və etnik qrupların nümayəndələri arasında mədəniyyətlərarası münasibətlərin və qarşılıqlı əlaqələrin artması ilə üzə çıxan problemlərdir. Bu istiqamətdə görüləcək işlərin səmərəli olmasında multikultural təhsil mühüm əhəmiyyətə malikdir. Multikultural təhsil mədəniyyətlərarası sərişdəliliyi etnik qruplar arasında təşviq edən mühüm amildir. Bu işdə uğur əldə edilməsi, görünən və faydalı nailiyyətlərin qazanılması üçün bir sıra amillər vacib olur ki, bunlardan daha çox əhəmiyyət, mühümlük kəsb edəni məktəbəqədər yaşdan tutmuş orta məktəb yaşının sonuna qədərki dövr ərzində uşaqların multikultural dəyərlər əsasında tərbiyəsidir. Məktəbəqədər yaşlı uşaqlarda daxil olmaqla şagirdlər dəyərli təlimatlar (davranış və qaydalı hərəkətlər) hazırlanmasında iştirak edir. həmyaşıdları və böyüklər ilə yeni münasibətlərdə - ünsiyyət qurma prosesində müəyyən təcrübə toplayırlar.

Zamanın reallıqları göstərir və tələqin edir ki, müasir cəmiyyətin mədəniyyətlərarası qarşılıqlı əlaqə sistemində yaşamağa və qarşılıqlı fəaliyyət göstərməyə hazır olan şəxsiyyətin formalaşdırılmasının nəzəriyyə və praktikasında ziddiyyətlər var. Belə bir ziddiyyət mədəniyyətlərarası münasibətlərin və qarşılıqlı əlaqələrin zəruriliyinin artması və onun təhsil sahəsində kifayət qədər təmsil olunmaması ilə birbaşa bağlıdır. İndiki halda problem ümumtəhsil məktəbinin proqramlarında işlənməli və diqqətdə saxlanılmalıdır.

Mədəniyyətlərarası sərişdə anlayışı haqqında sistemli nəzəri tədqiqatlar və təcrübi işin nəticələrini əks etdirən, ümumiləşdirən xeyli sayda əsərlər var. H.Spenser-Oatey və P.Franklin belə hesab edir ki, mədəniyyətlərarası sərişdə "həm özünə, həm də başqa insanlara münasibətdə mədəni şəraiti, qavrayışın, qərar qəbul etmənin, hisslərin müəyyənedicilərini tanımaq, hörmət etmək, qiymətləndirmək və məhsuldar şəkildə istifadə etmək bacarığıdır. Və mədəniyyətlərarası sərişdə əməkdaşlığın sinergik formalarının qarşılıqlı uyğunlaşması və inkişafı üçün şərait yaratmaq, birlikdə yaşamaq, mövcud fərqlərə dözümlülük, dünyanın təfsiri və formalaşması xüsusiyyətləri ilə bağlı səmərəli oriyentasiya üçün tədbirlər məcmuyudur" [2,23]. Müəlliflər problemə aid fikirlərini davam etdirərək yazır ki, etnik qruplar arasındakı mədəniyyətlərarası sərişdə "bir-birinin dilinin, dəyərlərinin və normalarının, təcrübələrinin və davranış alqoritmlərinin unikallığı haqqında biliklərə yiyələnmək əsasında ortaq mənalar (dəyərlər) və təcrübələr formalaşdırmaq" qabiliyyətinin mövcudluğudur [2,24]. (Bu müəlliflərin fikirləri əsə A.P. Sadoxinin əsərindən götürülmüşdür).

V.A.Yançuk qeyd edir ki, mədəniyyətlərarası sərişdənin formalaşması "... razılaşdırılmış və birgə təcrübədən keçmiş faydalı düşüncənin yaranması və inkişafına" yönəlmiş dialoqa şərait yaradır [3]. H.Spenser-Oatey və P. Franklin tərəfindən göstərildiyi kimi, mədəniyyətlərarası sərişdənin zəruri ilkin şərti mədəniyyətlərarası kommunikativ sərişdədir və bu, müəlliflər tərəfindən "...xüsusi mühitdə çoxsaylı şəxsiyyətləri nəzərə alaraq effektiv ünsiyyət qurmaq bacarığı kimi başa düşülür"(2,24).

Mədəniyyətlərarası ünsiyyətin funksiyası, kommunikantların biri-biri ilə şifahi və qeyri-şifahi ünsiyyətinin xarici dil mədəniyyətinin xüsusiyyətlərinə yönəldilməsini nəzərdə tutur. Bu zaman müxtəlif etnik-mədəni icmaların nümayəndələrinin adekvat qarşılıqlı anlaşmasına və mənəvi

qarşılıqlı zənginləşməsinə kömək edən dialoq onların qarşılıqlı əlaqəsini təmin edir. Psixologiyada müəyyən edilmişdir ki, ünsiyyət zamanı hər bir iştirakçının şüurunda onun "şəxsi baqajı" – öz mədəniyyəti (dünyanın fərdi mənzərəsi) və bu və ya digər şəkildə "yad dünya" (başqa bir obraz) mövcuddur. Məhz "yad dünyaya" qarşı "dialoq", ünsiyyət şəxsiyyət yaradır. Şəxsiyyətin dialoq, ünsiyyət qurmaq xarakteri onun şəxsi inkişafında mühüm amildir və nəticədə bu cəhət şəxsin mədəniyyətlərin dialoqunda iştirak etmək qabiliyyətinə çevirir .

Əksər xarici müəlliflər (K.Knapp, H.Göhring, E.T.Hall; F.R. Kluckhohn, F.L.Strodtbeck, G.Hofstede, J.Rehbein, V.Hinnenkamp, J.Bolten) mədəniyyətlərarası anlayışı səriştə, müxtəlif millətlərin və etnik qrupların nümayəndələri arasında səmərəli qarşılıqlı əlaqə üçün zəruri olan şüur, bilik və bacarıqlar kimi müəyyənləşdirirlər.

Bu problemin Rusiyanın pedaqogika, psixologiya, fəlsəfə və mədəniyyətşünaslığında tədqiqi L.S.Vıqotski, N.M. Lebedeva, L.M. Drobijeva, A.R. Aklaev, V.V. Koroteeva, G.U. Soldatova, S.V. Rıjova, V.N. Pavlenko, L.G. İonin, Z.V. Sikeviç, T.A. Titova, I.A. Snejkova, V.Y.Xotinets, I.V. Balitskaya, A.Yu. Beloqurova, S.N. Artanovski, E.M. Vereşşagin, V.G. Kostamarov, M.N. Kuzmina və başqalarına məxsusdur.

Rus tədqiqatçılarının, xüsusən A.P.Sadoxin və O.A.Leontoviçin fikrincə, mədəniyyətlərarası səriştənin komponentləri aşağıdakıları ibarətdirr:

affektiv: empatiya; dözümlülük;

koqnitiv: fərqli mədəniyyət nümayəndələrinin kommunikativ davranışının adekvat təfsiri üçün əsas olan mədəni spesifik biliklər;

prosessual: mədəniyyətlərarası ünsiyyət vəziyyətlərində kommunikativ davranış strategiyaları; tərəfdaşın mədəni kimliyi haqqında biliklərin artırılmasına yönəlmiş strategiyalar [2,79].

Mədəniyyətlərarası səriştənin formalaşmasında xüsusi əhəmiyyət kəsb edən amil etnik kimlikdir. İ.A. Snezkova etnik kimliyin formalaşması prosesinin üç mərhələdə baş verdiyi qənaətinə gəlir:

Birinci mərhələ (6-10 yaş). Bu dövrdə uşaqlarda insanlarla birlik, ünsiyyət, əlaqə haqqında qeyri-müəyyən, tam olmayan məlumatlılıq özünü göstərir. Bu mərhələ, ümumiyyətlə, zəif etnik bilik ilə xarakterizə olunur. Bununla belə, ailədən və yaxın mühitdən asılı olaraq, bu yaşda uşaqlarda müəyyən etnik qruplara qarşı ümumi emosional münasibət inkişaf edir.

Özünüdərkin formalaşmasının növbəti mərhələsi (11-15 yaş). Bu dövr insanın öz etnik mənsubiyyətini dərk etməsi, özünün və başqa millətin tarixinə və mədəniyyətinə marağın təzahürü ilə xarakterizə olunur. Bu yaşda intensiv inkişaf özünüdərk etmənin müxtəlif qiymətləndirmə üsullarının stereotipləri, komponenti kimi baş verir.

Üçüncü mərhələ (16-17 yaş). Bu mərhələdə uşaqda öz etnik mənsubiyyətini dərk etmək, milliyyət seçmək motivasiyası güclənir, öz etnik qrupu ilə münasibətləri formalaşır [4].

İ.A.Snejkovanın belə bir fikri də maraqla qarşılanır ki, məktəblilərdə digər etnik qruplara emosional münasibət rasional münasibətə çevrilir.Müəllifin fikrincə, bu, xüsusilə ibtidai məktəb yaşında özünü göstərir. Ətrafdakı sosial təsirlərə yüksək həssaslıq, maksimalizm və impulsivlik kimi yeni inkişaf xüsusiyyətləri gəncləri millətlərarası gərginlik vəziyyətlərində aqressiv və idarəolunmaz edir. Bu mərhələdə etnik özünüdərkin inkişafı dayanmır, o, həyat boyu davam edir, yeni rənglər alır [4].

İbtidai məktəb yaşı insanın psixososial inkişafında ən vacib dövrdür. Bu dövrdə uşağın şəxsiyyət kimi inkişafına müdaxilə etməmək olmaz. Əks halda mənfi milli stereotipləri tənqidi dərk etmək qabiliyyəti hələ formalaşmamış uşağın şüurunda ziyanlı nümunələrin "məskunlaşmasına" imkanı yaranır. Mənfi milli stereotiplər uşağın şəxsiyyətinin inkişafı üçün böyük təhlükə yaradır. Uşağın fərqli etnik mədəniyyətə mənsub olan ailələrinin dil və mədəni dəyərlərinin cəmiyyətdə hörmətlə qəbul edildiyini bilməsi çox vacibdir. Q.R. Lyusier[5,21] və S. Çaykilin [6,28] fikrincə, bu, həmyaşıdlar qrupunda uşağın sosiallaşmasına və hətta tədris-təlim sahəsində uğurlar qazanmasına müsbət təsir göstərir .

Şagirdlərin əvvəlcə öz doğma mədəniyyəti, sonra isə digər mədəniyyətlərlə tanış etməkdən ibarət olan mədəniyyətlərarası səriştənin inkişaf etdirilməsi vacibdir. Bunun üçün ilk növbədə uşaqlarda mədəniyyətlərarası fərqləri müsbət bir şey kimi qəbul etmək istəyi inkişaf etdirilməli, daha sonra bu hazırlıq millətlərarası anlaşma və dialoq qabiliyyətinə çevrilməlidir. Eyni zamanda, tolerantlığın formalaşması və millətlərarası ünsiyyət mədəniyyətinin əsasları, başqa mədəniyyətlərin nümayəndələrinin dilinə, mədəni, dini ənənələrinə, tarixinə və həyat tərzinə hörmət olmalıdır.

Qeyd edək ki,Azərbaycan təhsilinin modernləşdirilməsi konsepsiyası prioritet kimi səriştə əsaslı yanaşmanı əsas götürür [1]. Bu yanaşma etnik qrupların sosial-mədəni inkişafı üçün optimal şəraitin yaradılmasına və millətlərarası gərginlik ocaqlarının qarşısının alınmasına, Azərbaycanın bütün etnik qruplarının ümumiliyinin qorunmasına, dövlətin birliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsinə yönəlmiş milli münasibətlərin tənzimlənməsinə yönəlmişdir.

O.E. Lebedevə görə, "səriştəyə əsaslanan yanaşma" təhsilin məqsədlərini müəyyən etmək, təhsilin məzmununu seçmək, bu prosesin təşkili və təhsil nəticələrinin qiymətləndirilməsi üçün ümumi prinsiplərin məcmusudur. Bu yanaşmanın mahiyyətinin və onun səriştə probleminin öyrənilməsində rolunun ətraflı təsviri V.A. Bolotov, V.V. Voronin, E.F. Zeer, V.A. İsayev, V.V. Serikov, G.M. Solomina, A.I. Subetto, E.E. Symanyuk, Y. G. Tatur və başqalarının tədqiqatlarında əks olunmuşdur.

Mədəniyyətlərarası səriştə haqqında qənaətimiz belədir ki, bu yeni formalaşmanı şagirdlərin yaş xarakteristikası kimi əsaslandırmalı, o cümlədən müasir cəmiyyətdə mədəniyyətlərarası ünsiyyət sistemində yaşamağa və qarşılıqlı fəaliyyətə hazır olan şəxsiyyət yetişdirmək vacib vəzifə olmalıdır. Çünki müasir dünyada multikultural təhsil və tərbiyə etnik sivilizasiya və mədəni birliklərin mühüm tərkib hissəsidir. Həm də mədəniyyətlərarası münaqişələrin tənzimlənməsinə və sosiallaşmış, mədəni insanların inkişafı üçün optimal şəraitin yaradılmasına yönəlmiş təhsil prosesinin təşkilində səriştə əsaslı yanaşmanın rolu böyükdür. Eyni zamanda, millətlərarası ünsiyyət mədəniyyətinin formalaşması qarşılıqlı hörmətə, tolerantlığa, anlaşmaya, dialoqa əsaslanır.

ƏDƏBİYYAT

1. Imanova S.Mədəniyyətlərarası səriştənin formalaşdırılmasında istifadə olunan modellərin təsnifatı, ADU Elmi Xəbərləri, 2020, №2, s.67-75
2. Садохин, А.П. Межкультурная компетентность: сущность и механизмы формирования. М.: МГУКИ, 2009.
3. Янчук,В.А. Социокультурно-интердетерминисткая диалогическая перспектива формирования межкультурной компетентности / В. А. Янчук // Известия Саратовского университета. 2014. – Т. 3, № 3. – С. 241–253
4. Снежкова И.А. К проблеме изучения этнического самосознания у детей и юношества. [Студопедия]. URL: http://studopedia.ru/10_31425_osobennosti-formirovaniya-mezhkulturnoy-kompetentnosti-v-mladshem-shkolnom-vozraste.html
5. Люсиер Г.К. К позитивным результатам через культурное разнообразие класса // Новые ценности образования. – № 4: Культурная и мультикультурная среда школ. - М.: 1996. - С. 20-24.
6. Чайклин С. Значение культурной идентичности в обучении учащихся, принадлежащих к культурному меньшинству // Новые ценности образования. - Вып. 4: Культурная и мультикультурная среда школ. - М.: 1996. - С. 25-31.

МЕЖКУЛЬТУРНАЯ КОМПЕТЕНТНОСТЬ МЛАДШИХ ШКОЛЬНИКОВ КАК ПРЕДМЕТ НАУЧНОГО ИССЛЕДОВАНИЯ

Одним из сугубо важных, остросоциальных вопросов современного поколения, является накаляющаяся проблема взаимоотношений и взаимодействий между людьми разных национальностей и этносов, поэтому важную роль играет поликультурное образование. Оно способствует распространению межкультурной компетентности. Безусловно, это представляется особенно важным, именно в начальной школе, так как у младших школьников определяются ценностные ориентиры, накапливается опыт общения в новых отношениях со сверстниками и взрослыми.

Вместе с тем, в теории и практике обозначилось противоречие между ориентацией современного общества на формирование личности, готовой жить и конструктивно взаимодействовать в системе межкультурного взаимодействия, и недостаточной представленностью данного направления работы в образовательных программах начальной школы.

Межкультурная компетентность, согласно H. Spencer-Oatey, P. Franklin, представляет собой «способность признавать, уважать, ценить и продуктивно использовать как по отношению к себе, так и к другим людям – культурные условия, детерминанты восприятия, принятия решений, чувств и действий с целью создания условия для взаимной адаптации и развития синергетических форм кооперации, совместной жизни, толерантности к существующим различиям, эффективной ориентации, касающейся особенностей интерпретации и формирования мира» [11]. При этом межкультурная компетентность предполагает наличие (или развитие) способности «формирования разделяемых значений и переживаний на основе овладения знаниями о своеобразии языка, ценностей и норм, переживаний и поведенческих алгоритмов друг друга» [11]. В. А. Янчук отмечает, что становление межкультурной компетентности создает условия для диалога, направленного на «…формирование и развитие согласованных и совместно пережитых значений и смыслов» [8]. Необходимой предпосылкой и условием межкультурной компетентности, как указывают H. Spencer-Oatey, P. Franklin, является межкультурная коммуникативная компетентность, понимаемая этими авторами как способность «…осуществлять эффективную коммуникацию, учитывая множественные идентичности взаимодействующего в специфическом окружении»

Многие авторы, занимающиеся исследованием данной сферы, рассматривают не столько межкультурную компетентность, но и межкультурную компетенцию. Функция межкультурной коммуникации обеспечивает диалоговое взаимодействие, предполагающее ориентацию вербального и невербального общения коммуникантов на особенности иноязычной культуры и способствующее адекватному взаимопониманию и духовному взаимообогащению представителей различных этнокультурных общностей. В психологии установлено, что присутствие в сознании каждого участника общения своего «личного багажа» - своей собственной культуры (индивидуальной картины мира) и так или иначе противопоставленного ему «чужого мира» (чужого образа сознания) создает «диалогичность» личности (Т.Н.Ушакова, 1986). Именно диалогичность личности является важным фактором ее (личности) развития и делает ее, в результате, способной к участию в диалоге культур.

Большинство зарубежных авторов (Knapp K., Knapp-Potthoff A, G. Maletzke, H. Göhring, E.T. Hall; F.R. Kluckhohn, F.L. Strodtbeck, G. Hofstede, J. Rehbein, V. Hinnenkamp, J. Bolten) определяют межкультурную компетентность как осведомленность, знания и умения, необходимые для эффективного взаимодействия людей разных национальностей и этносов [9,10].

Исследованием данной проблемы в отечественной педагогике, психологии, философии, культурологии занимались такие ученые, как Л.С. Выгодский, Н.М. Лебедева, Л.М. Дробижева, А.Р. Аклаев, В.В. Коротеева, Г.У. Солдатова, С.В. Рыжова, В.Н. Павленко, Н.Н. Корж, Л.Г. Ионин, З.В. Сикевич, Т.А. Титова, И.А. Снежкова, В.Ю. Хотинец, И.В. Балицкая,

А.Ю. Белогурова, Г.А. Аванесова, С.Н. Артановский, Е.М. Верещагин, В.Г. Костамаров, М.Н. Кузьмина и др.

По мнению Российских исследователей, в частности А. П. Садохин и О. А. Леонтович под составляющими межкультурной компетентности понимают следующее:

 аффективные: эмпатия; толерантность;

 когнитивные: культурно-специфические знания, служащие основой для адекватного толкования коммуникативного поведения представителей иной культуры;

 процессуальные: стратегии коммуникативного поведения в ситуациях межкультурного общения; стратегии, направленные на пополнение знаний о культурном своеобразии партнера [4].

Особое значение в основе формирования межкультурной компетентности лежит этническая идентичность, становление которой происходит, по мнению И.А. Снежковой, в три этапа. “Первый этап (6-10 лет). Этому периоду свойственна нечеткая осознанность общности с людьми, своей этнической принадлежности, слабые этнические знания, но складывается общее эмоциональное отношение к тем или иным этносам, которое зависит от семьи, ближайшего окружения. Следующий этап формирования самосознания (11-15 лет) характеризуется осознанием своей этнической принадлежности, проявлением интереса к истории и культуре своей и другой национальности. В этом возрасте происходит интенсивное развитие такого компонента самосознания как стереотипы различной оценочной модальности. На третьем этапе (16-17 лет) укрепляется осознание своей этнической принадлежности, формируется мотивация выбора национальности, становятся более прочными отношения к своей этнической группе”[5].

Мы согласны с мнением И.А. Снежковой о том, что эмоциональное отношение к другим этносам переходит в рациональное и это особенно проявляется в младшей школьном возрасте. А такие новообразования, как высокая чувствительность к окружающим социальным влияниям, максимализм, импульсивность, делают молодежь в ситуациях межэтнической напряженности агрессивными, неуправляемыми. На этом этапе развитие этнического самосознания не прекращается, оно продолжается на протяжении всей жизни, приобретая все новые краски [5].

В рамках нашей статьи представляет интерес младший школьный возраст – важнейший период в психосоциальном развитии человека когда, согласно Э. Эриксону, происходит идентификация личности, результатом которой выступает «этническое самосознание – наиболее устойчивая сторона самосознания личности, которая формируется в процессе социального общения личности через отталкивание от этнического другого и представляет собой осознание личностью своих связей с данным этносом, утверждение своего “Я” в этих связях». [6]

Абсолютно очевидно, что не вмешиваться в формирование детской личности в этот период - означает позволить «осесть» негативным национальным стереотипам в детское сознание, когда способность к критическому их осмыслению еще не сформирована. Это несет большую опасность для становления детской личности. Для детей иной этнокультуры очень важно знать, что язык и культурные ценности их семьи уважаемы и приняты в обществе. По мнению Г. Люсиера и С. Чайклина, это положительно сказывается на социализации ребенка в группе сверстников и даже на школьных успехах [3], [5].

Нам представляется важным формировать межкультурную компетентность, что предполагает введение младшего школьника сначала в родную для него культуру, а затем в иные культуры. При этом, вначале у ребёнка должна быть сформирована готовность признавать межкультурные различия как что-то позитивное, затем эта готовность должна развиться в способность к межэтническому взаимопониманию и диалогу. В месте с тем, должно иметь место формирование толерантности и основ культуры межэтнического

общения, уважения к языку, культурным, религиозным традициям, истории и образу жизни представителей других культур.

При этом концепция модернизации российского образования на период до 2020 года выделяет компетентностный подход в качестве приоритетного [2]. Подход направлен на регулирование национальных отношений, направленных на создание оптимальных условий для социально-культурного развития народов и на предотвращение очагов межнациональной напряженности, на сохранение общности всех этносов России, укрепление единства и территориальной целостности государства.

По мнению Лебедева О.Е., «компетентностный подход» – это совокупность общих принципов определения целей образования, отбора содержания образования, организации образовательного процесса и оценки образовательных результатов. Подробное описание сущности данного подхода и его роли в исследовании проблемы компетентности осуществили в своих работах В.А. Болотов, В.В. Воронин, Э.Ф. Зеер, В.А. Исаев, А.М., В.В. Сериков, Г.М. Соломина, А.И. Субетто, Э.Э. Сыманюк, Ю.Г. Татур.

Авторская позиция в формировании межкультурной компетентности состоит в обосновании данного новообразования как возрастной характеристики младшего школьника, включающей формирование личности современного общества, готовой жить и конструктивно взаимодействовать в системе межкультурного общения.

Таким образом, в данной статье мы рассмотрели межкультурную компетентность младших школьников как предмет научного исследования. Мы пришли к выводу о том, что поликультурное образование и воспитание в современном мире являются значимыми составляющими этнических цивилизационно-культурных сообществ. А также роль компетентностного подхода в организации образовательного процесса, направленного на регулирование межкультурных конфликтов и создание оптимальных условий развития социально - культурного народа. При этом, формирование культуры межнационального общения идёт на основе взаимного уважения, терпимости, понимания, диалога.

Список литературы:

1. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура [2005, PDF / DjVu, RUS].
2. Концепция модернизации российского образования на период до 2020 года http://www.edu.ru/db/mo/data/d_02/393.html
3. Люсиер Г.К. К позитивным результатам через культурное разнообразие класса // Новые ценности образования. – № 4: Культурная и мультикультурная среда школ. - М.: 1996. - С. 20-24.
4. Садохин, А.П. Межкультурная компетентность: сущность и механизмы формирования. М.: МГУКИ, 2009.
5. Снежкова И.А. К проблеме изучения этнического самосознания у детей и юношества. [Студопедия]. URL: http://studopedia.ru/10_31425_osobennosti-formirovaniya-mezhkulturnoy-kompetentnosti-v-mladshem-shkolnom-vozraste.html
6. Чайклин С. Значение культурной идентичности в обучении учащихся, принадлежащих к культурному меньшинству // Новые ценности образования. - Вып. 4: Культурная и мультикультурная среда школ. - М.: 1996. - С. 25-31.
7. Эриксон Э. Идентичность: юность и кризис. — М.: Прогресс, 1996. с. 344
8. Янчук, В. А. Социокультурно-интердетерминисткая диалогическая перспектива формирования межкультурной компетентности / В. А. Янчук // Известия Саратовского университета. Серия Акмеология образования. Психология развития. – 2014. – Т. 3, № 3. – С. 241–253
9. Hofstede, G. Vivre dans un monde multiculturel. Les Editions d'Organisation, P., 1994.
10. Knapp K., Knapp-Pot--thoff A. Interkulturelle Kommunikation // Zeitschrift fur Fremdsprachenforschung.- - 1990. - № 1. - P. 83.

11. Spencer-Oatey, H. Intercultural interaction: a multidisciplinary approach to intercultural communication / H. Spencer-Oatey, P. Franklin. – New York: 2009. – P. 367.
12. Vereshchagin E.M., Kostomarov V.G. Dil və mədəniyyət [2005, PDF / DjVu, RUS].
13. 2020-ci ilə qədər olan dövr üçün Rusiya təhsilinin modernləşdirilməsi konsepsiyası http :// www. təhsil . ru / db / ay / data / d_02 /393. Html
14. Lucier G.K. Sinfin mədəni müxtəlifliyi ilə müsbət nəticələrə doğru // Təhsilin yeni dəyərləri. – № 4: Məktəblərin mədəni və multikultural mühiti. - M.: 1996. - S. 20-24.
15. Sadoxin, A.P. Mədəniyyətlərarası kompetensiya: mahiyyəti və formalaşma mexanizmləri. M.: MGUKI, 2009.
16. Snejkova I.A. Uşaqlarda və gənclərdə etnik özünüdərkin öyrənilməsi problemi haqqında . [Studopedia]. URL: http://studopedia.ru/10_31425_osobennosti-formirovaniya-mezhkulturnoy-kompetentnosti-v-mladshem-shkolnom-vozraste.html
17. Çayklin S. Mədəni azlığa mənsub tələbələrin tədrisində mədəni kimliyin əhəmiyyəti // Təhsilin yeni dəyərləri. - Cild. 4: Məktəblərin mədəni və multikultural mühiti. - M.: 1996. - S. 25-31.
18. Erickson E. Şəxsiyyət: gənclik və böhran. – M.: Tərəqqi, 1996. s. 344
19. Yançuk, V. A. Mədəniyyətlərarası səriştənin formalaşmasının sosiomədəni-interdeterministik dialoji perspektivi / V. A. Yançuk // Saratov Universitetinin xəbərləri. Təhsilin akmeologiyası seriyası. İnkişaf psixologiyası. – 2014. – T. 3, No 3. – S. 241–253
20. Hofstede, G. Vivre dans un monde multikultural. Les Editions d'Organisation, P., 1994.
21. Knapp K., Knapp-Pot--thoff A. Interkulturelle Communikation // Zeitschrift fur Fremdsprachenforschung.- - 1990. - No. 1. - R. 83.
22. Spencer-Oatey, H. Mədəniyyətlərarası qarşılıqlı əlaqə: mədəniyyətlərarası ünsiyyətə multidissiplinar yanaşma / H. Spencer-Oatey, P. Franklin. – Nyu York: 2009. – s. 367.

NURANƏ QULUZADƏ
Naxçıvan Dövlət Universiteti

MƏHDUD SAĞLAMLIQ İMKANLARI OLAN UŞAQLARDA SOSİALLAŞMANIN SƏMƏRƏLİ TƏŞKİLİNİN PEDAQOJİ ŞƏRTLƏRİ

Sağlamlıq imkanı məhdud olan uşağın aktiv fəaliyyətə qoşulması üçün fəalliyyətin subyektinə çevrilməsi vacibdir və buna daxili istəyi yaranmalıdır. Uşağın fəaliyyətinin əsasını özünüreallaşdırmağa imkan verən motivasiya təşkil edir. Daxili motivasiyanın çatışmaması və ya zəif olması onların hər hansı vərdişə yiyələn-mələrində çətinlik törədir.Sağlamlıq imkanları məhdud uşaqların aktiv fəaliyyətinə əmək fəaliyyəti aiddir. Əmək fəaliyyəti ilə məşğul olmaları sayəsində ikinci çatışmamazlığı yaradan səbəblər aradan qalxır. Kollektiv əmək fəaliyyəti ünsiy-yətə geniş imkan yaradır. Bu zaman məqsədin formalaşması inamsızlıq və ümidsizlik kimi natamamlıq hissinin 9 kompensatoru kimi çıxış edir. Mövcud olan psixoloji problemlər həll olunmadan uşaqların sosiallaşması və cəmiyyətə bərpa olunmaları da çətinləşir. "Natamamlıq kompleksinin" aradan qaldırılması və uşaqların sosial reabilitasiyasının həyata keçirilməsi üçün aşağıdakılar nəzərə alınmalıdır:

• Sağlamlıq imkanları məhdud olan uşaqların ilkin təsəvvürlərə əsaslanan keçmiş təcrübələri, tələbatları, motivləri, maraqları və s. yeni fəaliyyətləri qavramağa təsir göstərir. Buna görə də ilkin təsəvvürlərin bazası yaradılmalıdır.

• Uşağın özünü dərk etməsinə kömək göstərmək, öz gücünə və imkanlarına inam yaratmaq lazımdır.

• Uşağın sosial marağının artması üçün şərait yaratmaq lazımdır. O, öz davranışının nəticələrini təhlil etməyi və səhvləri düzəltməyi bacarmalıdır.

Açar sözlər: *Natamamlıq kompleksi, sosiallaşma*, sağlamlıq, əmək fəaliyyəti, məhdud.

Son illər ölkədə saglamlıq imkanları mahdud usaqların sayında artım müşahidə olunur. Belə usaqlarla işləmək çox çətin işdir və müəllimdən böyük zəhmət, səbr, məharət tələb edir. Usağın tam inkişafı yalnız normal həyat şəraiti yaratmaqla, rasional həyat tərzini tətbiq etməklə mümkündür. Onu da qeyd etmək vacibdir ki, usaqlarda təhsil fəaliyyətinin formalaşması üçün xüsusi şərait yaratmaq lazımdır. Sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması uşaqların, valideyinlərin və müəllimlərin sosial pedaqoji reabilitasiyası və inkişaf qüsurlu uşaqları qəbul etməyə hazırlanması yolu ilə həyata keçirilir. Müasir şəraitdə inkuliziv təhsilin tətbiqi prosesi fərdi xüsusiyyətlərdən, təhsil nəaliyyətlərindən, ana dilindən mədəniyyətindən, əqli və fiziki imkanlarından asılı olmayaraq bütün uşaqların təliminə, təhsilinə və inkişafına imkan verən innovativ prosesdir.

İnkuliziv təhsilin tətbiqi təhsilin daha da humanistləşdirilməsinin artımını, əlilliyi olan şəxslərin əlçatan və yüksək keyfiyyətli təhsil almaq hüquqlarının tanınmasını, yeni tip peşakar pedaqoji ictimaiyyətin formalaşmasını təmin edir.

Sağlamlıq imkanları məhdud uşaqların tədris və tərbiyəsinin əsas vəzifələrindən biri bütövlükdə hər bir insan şəxsiyyətinin formalaşdırılması, onların idrak fəaliyyətinin potensial imkanlarının optimal inkişafı, cəmiyyətin tamhüquqlu üzvləri kimi hazırlanması və ətraf mühitə daxil edilməsidir. Sağlmlıq imkanları məhdud uşaqların təhsilinə və tərbiyəsinə valideyinlərin fəal cəlb edilməsi üçün müxtəlif iş formalarını daxil etmək lazımdır.

Sağlamlıq imkanları məhdud olan uşaqlarla aparılan sosial rabilitasiya işinin məqsədi onların kollektivdə və cəmiyyətdə sosial statuslarının bərpa olunmasından ibarətdir. Belə uşaqlar yeni həyat fəaliyyəti mühitinə uyğunlaşmaqda çətinlik çəkirlər. Onların cəmiyyətin və kollektivinin üzvü kimi formalaşması üçün qrupa adaptasiya və inteqrasiya olunmaları vacibdir.

Uşaqların şəxsiyyəti fəaliyyət və ünsiyyət prosesində inkişaf edir. Kollektiv fəaliyyətə qoşulan uşaq sosial cəhətdən inkişaf edir və cəmiyyətdə reabilitasiya olunur. Sağlamlıq imkanı məhdud olan

uşağın aktiv fəaliyyətə qoşulması üçün fəaliyyətin subyektinə çevrilməsi vacibdir. Uşağın fəaliyyətinin əsasını özünüreallaşdırmağa imkan verən motivasiya təşkil edir. Fəaliyyətin subyektinə çevrilmiş fəal uşaq öz fəaliyyətini idarə edə bilir, planlaşdırır, nəzarət və qiymətləndirməni həyata keçirir.

Sağlamlıq imkanı məhdud olan uşaqların aktiv fəaliyyətinə əmək fəaliyyəti aiddir. Əmək fəaliyyəti ilə məşğul olmaları sayəsində çatışmamazlığı yaradan səbəblər aradan qalxır. Kollektiv əmək fəaliyyəti ünsiyyətə geniş imkan yaradır. Mövcud olan psixoloji problemlər həll olunmadan uşaqların sosiallaşması və cəmiyyətə inteqrasiya olunmaları da çətinləşir.

"Natamanlıq kompleksinin" aradan qaldırılması və uşaqların reabilitasiyasının həyata keçirilməsi üçün aşağıdakılar nəzərə alınmalıdır:

Sağlamlıq imkanları məhdud olan uşaqların ilkin təsəvvürlərə əsaslanan keçmiş təcrübələləri, tələbatları, motivləri, maraqları və s yeni fəaliyyətləri qavramağa təsir göstərir. Buna görədə onlarda ilkin təsəvvürlərin bazası yaradılmalıdır. Uşağın özünü dərk etməsinə kömək göstərmək, öz gücünə və imkanlarına inam yaratmaq lazımdır.

Uşağın sosial marağının artması üçün şərait yaratmaq lazımdır. O öz davranışlarının nəticələrini təhlil etməyi və səhvlərini düzəltməyi bacarmalıdır.

Əksər sağlamlıq imkanları məhdud uşaqlarda natamanlıq kompleksi olur ki buda öz imkanlarının məhdudluğunu qəbul etməsi və fikrin şüuraltında möhkəmlənməsi nəticəsində yaranır. Motivasiya sahəsinin, emosional-iradı sferanın tam inkişaf etməsi uşağın davranış və fəaliyyətinə mənfi təsir göstərir. Psixi çatışmamazlıq sosial dezadaptasiyaya səbəb olur. Uşaq özünə qapanır, onun ətrafdakılara münasibəti pozulur. Özünü aşağı qiymətləndirmə nəticəsində onda ətrafdakılarla münasibəti pozulur. Fikri fəaliyyətdə çatışmazlıqlar onları yaşıdlarından fərqləndirir. Belə uşaqlar özünü həmyaşıdları ilə müqayisə edərək başqaları kimi olmaq istəyir və psixoloji cəhətdən əziyyət çəkirlər. Bu da uşaqda "natamanlıq kompleksi" yaradır.

Erinsona görə "natamanlıq kompleksi" sağlamlıq imkanları məhdud uşaqların psixoloji və sosial inkişafında gizli mərhələdir.

Pedaqoji fəaliyyətin əsasını əvvəlcə xüsusi qayğıya ehtiyacı olan uşaqlarda mövcud olan ruh düşkünlüyünün aradan qaldırılması, sosiallaşma, mənəvi tərbiyə təşkil etməlidir. Uşağın sosiallaşması üçün onun sosial-emosional bacarıqları inkişaf etdirilməli, müəyyən sosial vərdişlərə malik olmalıdırlar.

Bu məqsədlə sinif mühitində müəllim-şagird arasında qarışılıqlı münasibət elə qurulmalıdır ki, sağlamlıq imkanı məhdud uşaqlar sosial münasibətləri düzgün mənimsəsinlər.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların əqli və fiziki inkişafının zəifliyi onlarda böyük və kiçik motorianın emosional-iradi sferanın inkişafını ləngitdiyi kimi idrak proseslərinin inkişafına mənfi təsir göstərir. Uşağın sosial cəhətdən inkişafı üçün iradi bacarıqların formalaşdırılması lazımdır. İradi bacarıqları inkişaf elətdirmək üçün uşağa müəyyən kiçikhəcimli işlər verib, onu iradi fəaliyyətə yönəldə bilən bore hissinin yaranmasına nail olmaq vacibdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların iradi tərbiyəsi üçün inandırma və iradi səyləri həvəsləndirmə metodlarından istifadə olunur.

Sağlamlıq imkanları məhdud şəxslərin nəzərə çarpacaq dərəcədə böyük bir qismi yoxsulluqdan bu və digər halda əziyyət çəkir. Ölkəmizdə bu qəbildən olan insanların rifahının yaxşılaşdırılması istiqamətində atılan bütün addımlara baxmayaraq, bu problem öz aktuallığını saxlamaqdadır. Sağlamlığı məhdud şəxslərin təhsil sahəsində üzləşdiyi digər problemlərdən biri də insanlar tərəfindən normal qəbul edilməməsidir.

İnkluziv təhsilin inkişaf etdirilməsi üçün pozitiv öyrənmə mühiti yaradılmalıdır. Hər bir şagirdin sosial ekonomin vəziyyətindən, təhsilə hazırlığından asılı olmayaraq xoş atmosferin yaradılması onların daha aktiv öyrənməsini dəstəkləyir. Bu yolla müəllim tələbə ilə daha şəxsi və dərin əlaqələr qura bilir. Bu isə tələbənin öyrənmə həvəsini və dərsdə iştirakını artırır. Beləcə şagird özünü dəstəkləyən, mühakimə etməyən bir mühitdə olduğu üçün təhlükəsiz hiss edir və bu da şagirdin performansına müsbət təsir ilə nəticələnir. Sağlamlıq imkanları məhdud olan uşaqların təcrid olunmuş kimi hiss etmələri, dəyərli hiss etmələri üçün cəmiyyət olaraq hər birimiz onlara diqqət və qayğı

göstərməli, amma yazıq kimi baxmamalıyıq. Onların da bizim kimi olduğunu bilib, düşünüb hiss etməliyik. Düşüncəmiz necə olarsa, davranışımız da elə olar ki, bu da əlilliyi olan insanlara öz təsirini göstərər.

ƏDƏBİYYAT

1. S.İsgəndərova. Sağlamlıq imkanları məhdud olan uşaqların pedaqoji reabilitasiyası üçün təlim prosesinin idarə olunması. Bakı: 2022
2. Тригер Р.Д. Психологические особенности социальизации детей с задержкой психического развития: Питер, 2003
3. Ülviyyə Axundova, Məftunə İsmayılova. Uşaq inkişafı metodikası. Bakı: 2011
4. Görmə qüsurlu məktəbəqədər uşaqların imkişafı korreksiyası və təhsili. L.M.Şipitsipanın red ilə Toplu. Təhsil, 1995
5. Basilova T.A. Yeniyetmə yaşlarında eşitmə və görmə qabiliyyətini itirmiş uşaqların psixi sağlamlıq problemləri. Defektologiya, 2022

SUMMARY

Nurana Guluzade

PEDAGOGICAL CONDITIONS OF EFFECTIVE ORGANIZATION OF SOCIALIZATION IN CHILDREN WITH LIMITED HEALTH OPPORTUNITIES

In order for a child with limited health opportunities to participate in active activities, it is important to become the subject of the activity and to have an internal desire to do so. The basis of the child's activity is the motivation that allows self-realization. The lack of or weak internal motivation makes it difficult for them to acquire any habit. The active activity of children with limited health opportunities is labor activity. Due to their employment, the causes of the second shortage disappear. Collective labor activity creates a wide opportunity for interaction. At this time, the formation of the goal acts as a compensator for the feeling of incompleteness, such as distrust and hopelessness. Without solving existing psychological problems, it becomes difficult for children to socialize and reintegrate into society. In order to eliminate the “incompleteness complex” and implement the social rehabilitation of children, the following should be taken into account:

• Past experiences, needs, motives, interests, etc. of children with limited health opportunities based on initial ideas. affects the perception of new activities. Therefore, a base of initial ideas should be created.

• It is necessary to help the child to understand himself, to build confidence in his own strength and capabilities.

• It is necessary to create conditions for increasing the child's social interest. He must be able to analyze the consequences of his behavior and correct mistakes.

Key words: *Incompleteness complex, socialization, health, labor activity, limited.*

ÜLKƏR ABBASBƏYLİ
abbasbeyliu@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0005-7815-0361

AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN FORMALAŞMASI

Məqalədə Azərbaycan dilinin dövlət dili kimi statusu, tədbiq sahələri, dilin zənginliyi, imkanları, realizə formaları, Azərbaycan dilinin tarixi və s. haqqında məlumatlara yer verilmişdir. Eyni zamanda nitq nədəniyyətinin elmi konsepsiyası, nitqin funksional üslubları, nitqin kommunikativliyi keyfiyyətini ödəyən tələblər, nitq etiketləri, natiqlik sənətinin əsasları və bir çox məsələlər yeni baxış bucağından şərh edilir. Məqalədə qeyd olunur ki, natiqlik sənədinin sirləri, effektiv ünsiyyət vasitəsi olan nitq aləti ilə düzgün davranmaq, mədəni və kommunikativ səriştəliyi formalaşdırmaq Azərbaycan dilini daha da inkişaf etdirir.

Açar sözlər: *Azərbaycan, nitq, konsepsiya, üslub*

Hər bir dilin elmi tədqiqinin və praktiki öyrənilməsinin böyük əhəmiyyəti vardır. Dil bir çox mürəkkəb xüsusiyyətlərə, sirlərlə dolu qanunauyğunluqlara malikdir. Bütün bu sirlər öyrənildikdə dil insan həyatında fikirləri ifadə etmək üçün daha güclü bir vasitəyə çevrilir. Dil haqqında geniş bilik əldə etmək fərdlərə müxtəlif məsələləri daha dəqiq ifadə etməyə imkan verir. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli öyrənilməsinə həm elmi, həm də praktiki baxımdan böyük önəm kəsb edir. Respublikamızda Azərbaycan dilinin inkişafı üçün geniş imkanlar və şərait mövcuddur. Digər dillər kimi Azərbaycan dili də XX əsrdə geniş şəkildə tədqiq edilməyə başlamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstutunda hazırda ali məktəblərin nəzəri şöbələrində bu dillə bağlı tədqiqatlar aparılır. Azərbaycan ədəbi dilin 800 ilə yaxın təşəkkül prosesi iki böyük dövrü əhatə edir. Keçmiş dövr adlandırılan ilk dövr XIII-XVIII əsrə qədər olan bir dövrü əhatə edir. Yeni dövr daha doğrusu, müasir dövr adlandırdığımız dövr isə XVIII əsrdən, hal-hazırda yaşadığımız dövrü əhatə edir. Azərbaycan ədəbi dilinin fəaliyyət göstərdiyi sahə öz genişliyi ilə seçilir. Həmin dövrdə Azərbaycan dövlətlərinin Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövlətlərinin saraylarında və ordularında Azərbaycan dili rəsmi dil rolunu oynayırdı. Bu dil həmin dövrdə bütün Yaxın Şərq regionunda ədəbi dil kimi fəaliyyət göstərmişdir. Leksika baxımından mövcud olan fərqlərdən biridə ondan ibarətdir ki, Azərbaycan dilinin birinci dövründə ərəb və fars sözlərinin çoxluğu var. Keçmiş dövrün dil üslubları xüsusəndə bir çox müxtəlif janrlar və alətlər ədəbi dilimizə alınma sözlərin xeyli axını ilə nəticələnmişdir. İkinci dövr realist poeziya məktəbinin yaranması və realizmin yaradıcılıq metodu kimi formalaşması dövründə dilimiz əsas lüğət tərkibinə daxil ola bilməmiş, alınma sözlərin ədəbi dilin lüğət fondundan ləğvinə səbəb olmuşdur. Azərbaycan dili özünün müasir dövr mərhələsində (ədəbi dilin formalaşması və təşəkkül mərhələsində) ortaya çıxır. Müasir dövrdə şeir ilə yanaşı bir çox jurnallar, qəzetlər çap olunur və bəzi dövlət sənədlərində və elmi araşdırmalarda da istifadə olunur. Azərbaycana o cümlədən ruslar və almanlarda buna maraq göstərir və onların bəziləri dil öyrənməyə başlayır. Azərbaycan ədəbi dilinin inkişaf etməsi və bununla bağlı problemlər ən çox XX əsrlə bağlıdır. Bu dövrdə Azərbaycan ədəbi dili özünəməxsus problemlərlə qarşılaşır. Cənubi Azərbaycanda da ədəbi dilin funksional qanunları son illərdə şimaldakı ilə müqayisədə tədqiq etməkdir. Cənubi Azərbaycanda ədəbi dilin lüğət fondundakı mənzərəsi, ədəbi dilin hazırda olduğu vəziyyət üzərində etnoqrafik məzmunlu leksik vahidləri ilə zəngin edir. Müasir dövrdə Azərbaycan ədəbi dilinin leksik normasına ümumi baxış müəyyən edilmişdir, leksik semantik sistemi tədqiq edilmişdir. XVI əsrin sonu, XVII əsrin əvvəllərindən başlayaraq türk dilinə daxil olan sözlərin sistemli istiqaməti, hətta xarici leksikanın dilin arxaikləşməsinə sistemli meyli müəyyən edilərək tədqim edilmişdir. Dilimizin arxaik bölməsində olan leksik dil nümunələrinin bəzi formaları işıqlandırılmış, hətta onların çağdaş dildəki tarixi yerini də ortaya qoymuşdur. Söz yaradıcılığı

mərhələsində yeniliyin təzahürü olan yeni leksik vahidlərin meydana çıxması qeyd edilmiş və təqdim olunmuşdur. Bu prosesdə türk təsirinin töhfəsi müəyyən edilmişdir. Xalq şeiri janrlarında frazeoloji birləşmələrin əhatə dairəsinin genişliyi bariz reallıq olsada, bu dövrdə Azərbaycan ədəbi dilinin yazılı materiallarında fraza potensialının yüksəlişi belə qiymətləndirilir. Xalq arasında ədəbi dilin başlıca funksiyası onun əsas danışıq vasitəsi olmasıdır. Dilin ən başlıca xüsusiyyəti bundan təşkil olunub ki, o bir neçə ilin, yaxud illərin məhsulu olmayıb, əsrlər boyu yaranır, təşəkkül prosesi keçir, formalaşır, zənginləşir, yarandığı tarixdən xidmət etdiyi ayrı-ayrı cəmiyyət üzvlərində fərq qoymadan hamıya eyni səviyyədə xidmət göstərir. Bu dilin beynəlxalq əlamət daşıdığını göstərir. Dil aid olduğu kateqoriya ilə üzvü surətdə bağlıdır. Dil ictimaiyyət daxilində təşəkkül tapır. Azərbaycan xalqı da çox uzaq keçmişdə öz ana dilini yaratmışdır. Hal-hazırda ona Azərbaycan dili deyilir. Azərbaycan dili Azərbaycan xalqının milli dilidir, eyni zamanda Azərbaycan Respublikasının rəsmi dövlət dilidir. Dünyanın 87 ölkəsində 60 milyondan artıq adam Azərbaycan dilində danışır. Azərbaycan dili mahiyyətinə görə dünyanın ən zəngin milli dillərindən sayılır. Azərbaycan dili hər şeydən əvvəl xoş avaz yaradan səslər sisteminə, zəngin və rəngarəng söz ehtiyatına, tam sabit qrammatik quruluşa malikdir. Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək imkanına malikdir. Tarixi faktlar sübut edir ki, Azərbaycan ərazisindəki aborigen türk tayfaları kutilər, lullular, sular, turukkilər, kassilər, hürrilər daima müəyyən sabit ərazilərdə yaşamış, onların qurduqları dövlətlər müəyyən məlum sərhədlər daxilində mövcud olmuşdur. Bu da onların e.ə III-II minilliklərdə elə həmin ərazilərdə tədricən bir xalq kimi birləşməyə, xüsusiləşməyə başladığını təsdiq edir. Q.Kazımov bu tayfaların dillərini e.ə III minillikdən prototürk yox, protoazərbaycan dili hesab etməyi daha düzgün sayır. Beləliklə, e.ə IV minilliyin ortalarından protoazərbaycan dili dövrü başlanır. Azərbaycan ərazisində yaşayan türk tayfalarının dili yerli keyfiyyətlər qazanır, yerli toponim, etnonim və antroponimlər yaranır, dil (tayfa dilləri) tədricən şərqə hərəkət edən türk tayfa dillərindən ayrılma, gələcək vahid Azərbaycan dilinin əcdadı kimi təşəkkül tapma istiqamətində inkişaf edir. Bu dövr e.ə I minilliyin ortalarına qədər davam etmişdir. Azərbaycan dilinin tarixi miladdan əvvəlki dövrlərə gedib çıxır. Ayrı-ayrı türk boy birləşmələrinin ümumi anlaşma vasitəsi olan bu dil IV-V əsrlərdən etibarən ümumxalq danışıq dili kimi fəaliyyət göstərir. Ə.Dəmirçizadə ümumxalq Azərbaycan dilinin VI-VIII əsrlərdə təşəkkül tapdığını söyləmişdir. Lakin müasir dövrümüzün bir çox tarixçi, dilçi və etnoqraflarının əldə etdiyi yeni faktlar göstərir ki, ümumxalq Azərbaycan dili III-V əsrlərdə tam təşəkkül tapmışdır. Ümumxalq dilinin inkişafının yeni mərhələsidir, onun yetkin formasıdır. Ədəbi dil və xüsusən onun şifahi qolu ümumxalq dili kimi tədricən, bir neçə dövr ərzində nəsillərin, tayfaların, xalqın və onun istedadlı təbəqələrinin, zümrələrin birgə əməyi, səyi nəticəsində müəyyən tarixi şəraitdə təşəkkül tapır. Şifahi şəkildə yayılan ilkin ədəbiyyat nümunələri (dastanlar, nağıllar, bayatılar, laylalar) Azərbaycan şifahi ədəbi dilinin erkən formalaşması və təşəkkülü zərurətini yaratmışdır. Azərbaycan ədəbi dilinin yazılı qolu müəyyən əlverişli tarixi şəraitdə ümumxalq dili əsasında təşəkkül tapmışdır. Xalq şifahi şəkildə yaratdıqlarını əbədiləşdirmək üçün sonradan onları yazıya köçürmüşdür. “Kitabi-Dədə Qorqud” dastanları bu baxımdan səciyyəvidir. Qaynağını uzaq keçmişdən alan Azərbaycan dilinin ilk və ən qədim yazılı nümunələri bu günümüzədək gəlib çatmasa da ölkəmizin ərazilərində qədim əlifbaların varlığı, həmçinin yazı dilimizin bədii məna kamilliyi və digər amillər bu dilin dərin tarixi köklərə malik olduğunu sübut edir. Ədəbi dil anlayışı dilçilikdə məlum linqvistik hadisə olsa da anlayışın birmənalı qəbulunda mübahisəli məsələlər mövcuddur. Bəzən ədəbi dilin yaranmasını yazılı dillə bağlayırlar. Ədəbi dilin inkişafı və təkmilləşməsində yazılı dilin rolu çox olsa da, yeganə deyil. Yazı hələ çox qədimdən əmələ gəlmişdir, ədəbi dil isə daha sonra. Ə.Dəmirçizadə ədəbi dil haqqında mülahizələrini bölüşərək yazır: “Bəziləri ədəbi dil dedikdə, ancaq yazılı dili anlamışlar, şifahi ədəbi dilin də ola biləcəyini ağıllarına belə gətirməmişlər. Buna görə ədəbi dil və onun inkişafı dedikdə, ancaq yazılı ədəbiyyatın, yazılı sənədlərin, nəhayət, kitabələrin dilini tədqiq etməkdən uzağa getməmişlər. Belə anlayış nəticəsində yazısı olmayan xalqların ədəbi dili olmaz” kimi yanlış anlayış meydana çıxmış, yaxud bu və ya digər xalqın ədəbi dilinin başlanğıcı həmin xalqın yazıya malik olduğu dövrdən hesab edilmişdir”. Məlumdur ki, dil öz-özlüyündə nə inkişaf edir, nə də zənginləşir. Bu proses nitq

sayəsində reallaşır. Çünki dil sistemdir, həm də olduqca mürəkkəb bir sistem. Dil fonetika, morfologiya, leksika, sintaksis və üslublardan ibarət sistemlər sistemidir. Bu mürəkkəb sistemi hərəkətə gətirən, işə cəlb edən nitqdir. Nitq dilin fəaliyyət formasıdır. Məhz həmin fəaliyyət prosesində dil tərəqqi edir, çox növlü, çeşidli və rəngarəng ifadə imkanlarına nail olur, yəni şəraitdən asılı, məlumatın xarakterinə uyğun vəziyyət və üsluba müvafiq nitq bu dil sistemindən hər dəfə zəruri leksik və qrammatik vasitələri seçib fikrin ifadəsini təmin edir, ünsiyyətin yaranmasına səbəb olur. Ona görə də dil nə qədər zəngin olsa, bir o qədər də nitq üçün əlverişlidir, faydalıdır. Çünki məhz dil nitqin zənginliyini təmin edir. Eyni zamanda nitq də öz növbəsində dili daima zənginləşdirir, onun ifadəlilik imkanlarını artırır, genişləndirir. Ona görə dil və nitq dialektik bir vəhdət, birlik təşkil edir. Dilin və nitqin ayrılmaz rabitəsi əsasında dil mədəniyyəti yaranır, dil mədəniyyəti üzərində isə nitq mədəniyyəti. Yalnız yüksək və zəngin dil mədəniyyətinə sahib olan dilin nitq mədəniyyəti mövcuddur. Dünyanın zəngin və qədim dillərindən biri sayılan Azərbaycan dilinin dil mədəniyyəti olduğu üçün yüksək nitq mədəniyyəti var və onun tarixi qədimdir. İnsan fəaliyyətinin ictimai sahələrinə uyğun müxtəlif üslublarda, məsələn, danışıq-məişət, rəsmi-işgüzar, elmi, publisistik, bədii üslublarda çıxış edən ədəbi dilimizin nüfuz dairəsi gündən-günə genişlənməkdədir. İndi dünya ədəbiyyatının ən dəyərli əsərləri dilimizə tərcümə edilmiş, dilimizin qrammatik quruluşu haqqında saysız-hesabsız araşdırmalar aparılmış, müxtəlif lüğətlər nəşr edilmiş, orfoqrafiya və orfoepiya qaydaları, ədəbi normaları əsasən təyin edilmişdir. Hal-hazırda tamamilə milli dilimizdə yayımlanan radio və televiziya verilişləri nitq mədəniyyətinin, xüsusilə də şifahi nitqin inkişafında müsbət rol oynayır. Nitq mədəniyyətinin ümumi inkişafı isə ilk növbədə bədii üslubla, bədii yaradıcılıqla sıx şəkildə əlaqəli olduğu üçün ayrı-ayrı yazıçı və şairlərin nitqi bədii üslubu zənginləşdirərək, ədəbi dilimizin də ümumi inkişafına kömək göstərir. Bu həm yazılı, həm şifahi şəkildə baş verir. Bunun nəticəsi olaraq ədəbi dil mədəniyyəti yüksək bir formada zənginləşərək nitq mədəniyyətinin inkişafını istiqamətləndirir, onun daha böyük nailiyyətlər qazanmasına imkan yaradır.

ƏDƏBİYYAT

1. “Xalq” qəzeti, 5 noyabr, 1977.
2. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunu
3. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası
4. Cəfərov N. Azərbaycan dili müstəqil dövlətin dilidir.// Dirçəliş, №55.
5. İsmayılova M. Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi. Metodik vəsait. Bakı:
6. Yusifov M. Dövlətçilik və dil. Bakı: 2004

SUMMARY

Ulkar Abbasbeyli

FORMATION OF AZERBAIJAN LITERARY LANGUAGE

The article, the status of the Azerbaijani language as a state language, areas of application, the richness of the language, possibilities, forms of realization, the history of the Azerbaijani language, etc. information about. At the same time, the scientific concept of speech culture, the functions of speech, the requirements that fulfill the communicative quality of speech, speech etiquette, the basics of public speaking and many other points of view are interpreted. The article mentions that the secrets of the art of public speaking, proper behavior with the speech instrument, which is an effective means of communication, and the formation of cultural and communicative competence further develop the Azerbaijani language.

Key words: *Azerbaijani, speech, concept, style*

AYNURƏ BAĞIROVA
aynura.bagirova.88@mail.ru
Naxçıvan Dövlət Universiteti

MƏHƏMMƏD FÜZULİNİN İLK ALLEQORİK ƏSƏRİ – "BƏNGÜ-BADƏ" HAQQINDA

NDU-nun "Azərbaycan ədəbiyyatın " ixtisası üzrə birinci kurs magistrantı Bağirova Aynurə Zaman qızının "Məhəmməd Füzulinin ilk alleqorik əsəri – "Bəgü-Badə" haqqında" adlı məqaləsi onun yazdığı "Məhəmməd Füzulinin alleqorik əsərləri" adlı magistr dissertasiyasının birinci fəslini ehtiva edir. Məqalədə Məhəmməd Füzulinin ilk alleqorik əsəri olan "Bəngü Badə" adlı əsəri haqqında müəyyən elmi məlumat verilmişdir.

Açar sözlər: *Bəng nədir, xəfif bəhri, məsnəvi forması*

Azərbaycan şeirini yüksək zirvələrə çatdırmış böyük Azərbaycan mövlanası Məhəmməd Füzuli lirik və epik poetik nümunələri ilə beş yüz ildən artıqdır ki, oxucularını və tədqiqatçılarını heyrətə salır. Hər bir oxucu, hər bir tədqiqatçı onun yaradıcılığında yeni-yeni çalarlar tapır, onun təsvir və ifadə vasitələrinə heyran olur.

Bu kiçik həcmli məqalədə Füzulinin ilk alleqorik əsəri- "Bəngü Badə" haqqında söhbət açacağıq. Məhəmməd Füzulinin aşağıda ədəbiyyat sihahısında adlarını göstərdiyimiz tədqiqatçıları bu alleqorik əsərlərin birbaşa və dolayısı ilə, yəni rəmzi olaraq mənalarını izah etmişlər (**№**.4, **№** 6, **№** 7). Məsələ buradadır ki, yazıçı, şair öz dövrü üçün xarakterik hadisələri ya birbaşa tənqid etməkdən çəkinir, yaxud elə bilərəkdən bədii priyoma əl ataraq əsərində bu hadisələri simvolik surətdə sintez edir.

Alleqoriyanın mahiyyəti haqqında ədəbiyyat nəzəriyyələri kitablarında yetərincə məlumat vardır. Məhəmməd Füzulinin alleqorik əsərləri aşağıdakı-lardır: "Bəngü Badə", "Həft cam" (Ə. Səfərli və X.Yusiflidə "Yeddi cam" – A.B.), "Söhbətül-əsmar". Bunlar poema adlanır. Buraya alleqorik qitələri də əlavə etmək lazım gəlir. Beləliklə, Füzuli həm özündən əvvəl yazıb-yaratmış böyük sənətkarlar Ə.Xaqani və Nizami Gəncəvi yaradıcılığında olduğu kimi alleqoriyaya müraciət etmiş, həm də özündən sonra gələn azərbaycandilli və farsdilli ədəbiyyat üçün möhtərəm nümunələr qoymuşdur.

Deyldiyi kimi, "Bəngü Badə" şairin ilk alleqorik poemasıdır (**№ 2,** s.171**)**. Burada fars dilinin təsiri ilə yazılmış əsərlərdə bəzi məqamlara diqqət yetirmək lazım gəlir. Məsələn, əgər söz birləşmələri izafət şəklindədirsə, o zaman defislə yazılır – "Söhbətül-əsmar" - meyvələrin söhbəti. Yaxud, "Aşiyani-mürği-dil" -"Könül quşunun məskəni". Lakin söz birləşməsində "vav" ("u") hərfi gəlirsə, bu, artıq "və" deməkdir. Deməli, buradakı "Bəngü Badə" –Bəng və Badə deməkdir. Bu halda həm Bəng, həm də Badə artıq bədii obrazlardır.

Bəng - narkotik bitkidir ki, ondan istifadə edən insanın ağlını başından çıxarır. Keçmişdə bir nəfər o biri nəfərin yersiz davranışına cavab olaraq "Sən bəng atıbsan?" –deyə təhqiramiz cavab verərlərmiş. Badə isə həm şəraba, həm də şərab piyaləsinə deyərlər.

Elmi ədəbiyyatda "Bəngü Badə"ni Füzulinin ilk iri həcmli əsəri kimi qiymətləndirirlər. Bu əsərin yazılma tarixinə gəlincə, belə hesab olunur ki, əsər 1515-ci ildən sonra yazılmışdır **(№ 3, s.480).** Çünki Sultan Səlim və Şah İsmayıl Xətai arasında gedən yazışmalar, Qərbin qızışdırıcı siyasəti ilə nəticələ-nən Çaldıran döyüşü (1514) bu əsərin yazılması üçün motivasiya rolunu oynamışdır. Prof. Ə. Səfərli doğru olaraq bu qənaətə gəlir ki, M.Füzuli bu alleqorik əsəri ilə bir çox Avropa müəlliflərinin satirik tonda və ya rəmzi olaraq təsvir etdiyi obrazları qabaqlamışdır. Buraya orta əsrlərdə Avropada yazılmış romanlar daxildir.

"Bəngü Badə" poeması *xəfif* bəhrində (İkinci variant: *FailAtün məfAülün fə"lün***. bax: № 3.** s. 483**; № 5,** s.85**; № 8,** s.252-253**)** məsnəvi formasında yazılmışdır və təkmil, rəvan dilə malikdir. Əslində, çətin bir mövzunu Füzuli çox oxunaqlı və aydın nəticələrə gətirib çıxaran əsər kimi təqdim etmişdir.

Yuxarıda Bəngin və Badənin insanı öz normal vəziyyətindən çıxarması haqqında bəhs etdik. Əsərdə göstərilir ki, Bəng də Badə də özlərini öyür, başqalarına üstən aşağı baxırlar. Və hər ikisinin də yanında onlara xidmət edən-lər, əlaltılar var. Məsələn, Badənin yanında Ərəq, Buzə, Nəbud varsa, Bəngin də yanında Əfyun, Bərş, Məcun vardır. Maraqlıdır ki, bu deyişmələr, hərbə-zorba-lar vaxtı Bəngin də Badənin də elçiləri satqın çıxırlar, getdikləri yerdə, necə deyərlər, "ilişib" qalırlar (**№ 3, s. 483)**.

Bəng və Badənin oxşar cəhətləri vardır. Hər ikisini qəbul etmiş insan mənəmlik arzusuna düşür. Burada böyük sənətkar padşahların mənəmliyini, başqalarına üstdə aşağı baxmaq ehtiraslarını önə çəkmişdir. Poemada onların deyişməsi səhnəsi də buna misal olaraq verilmişdir. Füzuli bir ustad kimi, həm də mötəbər mənbələrdə əyləşənlərin zaman-zaman elə bəngdən və badədən bəh-rələndiyinə işarə edir. Birisi (Mey) özünü sultanın həmsöhbəti (nədimi-sultan), o birisi (Bəng) özünü əhli-irfan (bilik sahibi-A.B), piri-danişamuz (elm öyrən-ənlərin ustadı –A.B.) adlandırır. Bu deyişmələr zamanı şair, əslində Bəngin də Badənin də yuxarı mənsəb sahiblərinin əyləncə vasitəsi olduğuna işarə edir. Bu məqamda, əlbəttə, M. Füzulinin "Padşahi-mülk..." qitəsindəki padşahların min hiylə ilə özgə torpaqlarına təcavüz etməsi fikri də yada düşür.

Əsər sonda gülüş hədəfinə çevrilən Bəngin və Badənin yersiz iddiaların qurbanı olduğunu göstərməklə böyük tərbiyəvi əhəmiyyət daşıyır. Bu əsərdə kədər həmin gülüş hədəfləri ilə sintezdədir və onlardan ayrı deyildir. Əsər sonrakı nəsil ədiblərə bir örnək, nümunə rolunu oynamışdır. Həm Azərbaycan ədəbiyyatında, həm də farsdilli ədəbiyyatda Füzulidən sonra gələn şairlər alleqoriyanın örnəyini, nümunəsini burada görmüşlər.

Bu məqalə mövzumuzun birinci fəslinə istinad etdiyindən poemanı bütünlüklə magistr dissertasiyasında təhlil edəcəyimizi nəzərə alıb burada əsər haqqında qısa bəhs etdik.

Metod: Dissertasiya işi elmi təfsir metoduna istinad edir

Əldə olunan nəticələr: Məqalə alleqorik əsərlərin yaranma səbəbləri və onların ədəbiyyat tarixindəki mövqeyi haqqında aydın təsəvvür yaradır və mövzunun daha düzgün müəyyən edilməsinə xidmət edir.

ƏDƏBİYYAT

1. Məhəmməd Füzuli – Əsərləri
2. Həmid Araslı – Füzuli. 1958
3. Əliyar Səfərli, Xəlil Yusifli – Azərbaycan ədəbiyyat tarixi (Qədim və orta əsrlər tarixi) Bakı: 2008.
4. Mirzağa Quluzadə - Füzulinin lirikası. Bakı: 1965
5. Ədəbiyyatşünaslıq terminləri lüğəti (Tərtib edəni Əziz Mirəhmədov) Maarif, 1988
6. Kamil Vəli Nərimanoğlu – "Ey Füzuli!" – 525-ci qəzet, 16 avqust 2000-ci il
7. Sabir Əliyev – Füzulinin poetikası. Bakı: Yazıçı, 1986.
8. Rafiq Yusifoğlu - Ədəbiyyatşünaslığın əsasları. Bakı: 2009

FATİMƏ DÜNYAMALIYEVA
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİN TARİXİ KÖKLƏRİ HAQQINDA KAMAL TALIBZADƏNİN TƏDQİQATLARI

NDU-nun "Azərbaycan dili və ədəbiyyatın tədrisi" ixtisası üzrə ikinci kurs magistrantı Dünyamalıyeva Fatimə İntiqam qızının "Azərbaycan ədəbi tənqidin tarixi köklərinin haqqında Kamal Talıbzadənin tədqiqatları" adlı məqaləsi onun yazdığı "Ali məktəbdə ədəbi proses və ədəbi tənqidin tədrisi" adlı magistr dissertasiyasının birinci fəslini ehtiva edir. Məqalədə Azərbaycan ədəbi tənqidini tarixi kökləri və tənqidçiləri haqqında müəyyən məlumat verilmişdir.

Açar sözlər: *Şərhlər, təzkirələr, Əbu Təmmam, Lütfəli bəy Azər*

Azərbaycan ədəbih, tənqidinin tədrisi haqqında bəhs edərkən onun tarixi köklərinə diqqət yetirməyimiz lazım gəlir.

Ədəbi tənqid və tənqidin tənqidi anlayışları üzərində ən çox əmək sərf edən alimimiz professor Kamal Talıbzadə olmuşdur. Doğrudur, professor Kamal Talıbzadəyə qədər bu sahədə bir çox tənqidçilər olmuşdur.. Məsələn, XIX əsrin axırı, XXəsrin birinci rübündə görkəmli müəllim və ədəbiyyat xadimi Firidun bəy Köçərli bu barədə böyük xidmətlər göstərmişdir. Bir sıra tənqidçilər isə XX əsrin 30-cu illərində repressiya qurbanları olmuşlar. Əli Nazim, Əmin Abid kimi istedadlı tənqidçilər bu qəbildən olan alimlərimizdir. Yazıçı Seyid Hüseyn də "Kazımoğlu" imzası ilə tənqidi məqalələr yazmışdır. Daha sonra akademik Məmməd Arif Dadaşzadə və akademik Məmmədcəfər Cəfərov ardıcıl olaraq tənqidlə məşğul olmuşlar. Bu sahədə görkəmli tənqidçi, professor Yaşar Qarayevin də əməyi böyükdür.

Lakin tənqidin ***tədqiqi*** ilə, yuxarıda dediyimiz kimi, professor Kamal Talıbzadə mütəmadi məşğul olmuş və ədəbiyyat siyahımızda mühüm yer tutan "Azərbaycan ədəbi tənqidinin tarixi" (1984) kimi sanballı əsər araya-ərsəyə gətirmişdir. Zəngin ədəbiyyata malik kitabda (İstifadə edilmiş ədəbiyyat sihasında 292 ədəbiiyyat vardır) həm "Azərbaycan ədəbi tənqidinin tarixi kökləri, XIX əsrin tənqidi" və həm də "XX əsrin əvvəllərində tənqid. 1900-1920-ci illər" kimi fəsillər vardır.

"Ali məktəbdə ədəbi proses və ədəbi tənqid tarixinin tədrisi" mövzusunu işləyərkən bütövlükdə tənqidin tarixi köklərinə baxış məsələsi qarşımıza çıxır." M.F.Axundov "Elmi harada öyrənək, kimdən öyrənək, hansı dildə və necə öyrənək" sualını qoyur və buna geniş cavablar verirdi" **(№ 1. s.11).** Bu məsələ elmi ədəbiyyatda belə aydınlaşdırılır: Mirzə Fətəli Axundova qədərki dövrdə, daha doğrusu, qədim və orta ədrlər dövründə ədəbi tənqid sistemli şəkildə olmamışdır. Bu dövrü araşdıran alimlərin qənaətinə görə, ədəbi-nəzəri fikrin həmin dövründə üç mənbə vardır: 1.Şərhlər (Poetika kitabları), 2. Təzkirələr, 3) Söz ustalarının öz əsərləri **[Bax: № 4, s.8-9**]. Bu mənbələr haqda professor Vaqif Sultanlı da fikir bildirmişdir **[Bax: № 2, s.30**].

Şərhlər, əsəsən, aşağıdakılar hesab olunur: XI əsrdə yaşamış Xətib Təbrizinin əsərləri, məsələn, "Şərh divan-əl Həmasə", Əbu Təmmamın divanının şərhi, Əruz vəzni haqqında elm, XII əsr alimi Yusif Xöylunun"Tənvir" əsəri, XIII əsr alimi Nəsirəddin Tusinin "Mizanül-əşar" əsəri, XIV əsr alim və şairi Əssar Təbrizinin, Rami Təbrizinin, XV əsr alimi Vəhid Təbrizinin, XVII əsr alimi Məhəmməd Rəfi Dost kimi alimlərin poetika və ya şərh əsərləri. Bu əsərlər Azərbaycanda ədəbi-nəzəri fikrin gedişatını izləmək üçün zəngin material verir. Bu əsərlər o dövrün ədəbiyyatşünaslığı hesab olunur **[№ 4, s.8]**.

İkinci mühüm mənbə təzkirələrdir. Təzkirələr, bir növ, müntəxabat hesab oluna bilər. Belə ki, buraya müxtəlif sənət adamlarının əsərləri ya bütöv, ya da qismən bütöv şəkildə toplanır və haqqında da müəyyən məlumat verilir. Bu təzkirələr ədəbiyyatşünaslıq elminin ilkin nümunələridir, lakin onlar estetik cəhətdən təzkirəni tərtib edən adamın oz zövqünə görə seçilmişdir. Buraya Sadiq bəy Sadiqi, Şərafəddin Rami, Əhdi Bağdadi, Sam Mirzə, Lütfəli bəy Azər və yəqin ki, ən sonda Firidun bəy Köçərlini daxil etmək lazımdır **[№ 4, s. 9]**.

Üçüncü mənbə isə bir qədər dağınıq olsa da müəyyən etmək olur ki, yazıçı və şairlərimiz öz əsərlərində poetik qayda-qanun haqqında fikirlər söyləmişlər. Sirr deyil ki, üzü Nizami Gəncəvidən bu yana bütün ədiblər öz əsərlərinin həm giriş hissəsində, həm də əsərin içərisində ədəbi-nəzəri fikir haqqında müəyyən iz buraxmışlar. Məsələn, Nizami Gəncəvi oğluna nəsihətdə poeziyanın Nizami ilə bitdiyinə bir işarə vursa da, əslində, "Şairlik eyləmə" dedikdə, bu işin çətinliyini nəzərdə tuturdu. (Çünki Nizamiylə qurtardı o da). Sənətkarların bir çoxu öz bədii əsərlərində poeziyanın qayda-qanunu, ədəbiyyatın qarşısında duran vəzifələri, mahiyyəti haqqında söz demişlər. Qətran Təbrizi, Xaqani, Nizami Gəncəvi, Zülfüqar Şirvani, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Arif Ərdəbili, Məhəmməd Füzuli Saib və Qövsi Təbrizilər bu sahədə orta əsrlərin estetik-bədii görüşlərini ifadə etmişlər. Sözün qüdrəti haqqında, şeirin azərbaycan dilində yazılmasının çətinliyi haqqında (M.Füzuli – Azərbaycanca divanının dibaçəsində dediyi fikirlər) və s. fikirlər müasir ədəbiyyatşünaslığın, ədəbi proses və ədəbi tənqid haqqında bəhs edən tədqiqatçıların daim diqqət mərkəzində olub.

Bəs əsil tənqid necə olmalıdır ki, ədəbi-nəzəri fikir kimi qəbul etsinlər? Bu haqda danışarkən birinci mənbə - hərhlərə diqqət yetirməliyik. Şərh – izah etməyə aid olsa da, orada "təşrih", yəni elementlərə ayiraraq izah etmə var və bu zaman onun indiki tənqid və biblioqrafiya ilə mütləq yaxınlığı var. Çünki şərh edən alim əsərin daxili strukturu, ideya-bədii cəhətləri, üsubu, və s. haqqında dərin fikir söyləyir, əsərin fəlsəfəsini açırdı.

Lakin bu zaman şərhçi qarşısında da müəyyən tələblər qoyulurdu. Bu zaman şərhçi obyektiv olmalı, qərəz və tendensiyadan (tərəfkeşlikdən) kənar olmalı idi. Xətib Təbrizi "Şərh "Səqd əz-Zənd" əsərində göstərirdi ki, şeiri tədqiq etmək onu nəzmə çəkməkdən daha çətindir **]№ 4, s. 10]**.

Şərh üçün müəyyən kriteriyalar da var idi: Belə ki, şərh yorucu olmamalı, qısa və aydın dillə verilməli, oxucuya fayda versin.

Şərhçilik ərəb filologiyasından gəlirdi, ona görə də, onu milli formaya salmaq və təkmilləşdirmək bir alim kimi Xətib Təbrizinin əsərlərində təzahür edir. "Xətib Təbrizi bütün ömrünü ədəbi tənqidə həsr etmişdir" **[№ 3, s. 60].** Tənqidçi Əbu Təmmamın divanına yazdığı şərhdə bir sıra yad ünsürləri tənqid etmək məqsədi daşımışdır **[Bax: № 4, s.11]**.

Bəs nə üçün azərbaycanlı alim və şairlər öz əsərlərini fars və ərəb dillərində yazıb-yaratmışlar? Bu, təhsillə əlaqədardır. Nizami, Xaqani fars dilidə, M.Füzuli isə üç dildə azərbaycan, fars və ədəb dillərində yazmışdır. Abasqulu ağa Bakıxanov da üçdilli idi. İndi Azərbaycanda rus dilində yazıb-yaradan şair və yazıçılar, tənqidçilər var. Xalq yazıçıları Maqsud və Rüstəm İbrahimbəyov qardaşları, Xalq yazıçısı Çingiz Abdullayev rus dilində, mərhum yazıçı Çingiz Hüseynov isə hər iki dildə - Azərbaycan və rus dillərində yazmışdır. XIX əsrdə İsmayıl bəy Qutqaşınlı "Rəşid bəy və Səadət xanım" əsərini fransız dilində yazmışdır. Burada belə nəticəyə gəlmək olar ki, ədəbi-tənqidi əsərlərin ərəb və ya fars dilində yazılması müəllifin milli kimliyini şübhə altına almır.

Keçmişdə fəaliyyət göstərən bu alimlər təkcə ədəbiyyatşünas olmamışlar, onlar eyni zamanda riyaziyyat, ilahiyyat, fəlsəfə, məntiq, psixologiya, tibb, həndəsə, coğrafiya kimi elmləri də dərindən bilmişlər. Bu dövrdə elmlərin inteqrasiyası, diferensiallaşması hünər sayılmışdır. Buna görə də həmin alimlər öz dövrlərinin mütəffəkirləri səviyyəsinə

Bütün bunlarla yanaşı, göstərmək lazımdır ki, şərhlər tamamilə bitkin birəsər, indiki dillə desək, əhatəli monoqrafiya deyildir. Onlar müəllifin ən çox diqqət yetirdiyi məsələlərdən bəhs edirdi. Monoqrafiya müəllifini nə çox maraqlandırırdısa, ona da çox yer verirdi. Məsələn, Xətib Təbrizi əruz və qafiyə haqqında olan əsərində sənətkarlığa az yer vermiş, əvəzində əruz vəzni, qafiyə sistemi, bədii təsvir və ifadə vasitələri haqqında geniş bəhs etmişdir. Bu da, yuxarıda qeyd etdiyimiz kimi, müəllifin özünün maraq dairəsi ilə sıx bağlı idi.

Məlumdur ki, islamın yayıldığı arenada istər bədii ədəbiyyatda, istərsə də alimlərin şərhində Quran motivlərinə kifayət qədər yer verilmişdir. İslamda şəkk etmək yoxdur, ehkamlara inam vardır. Bu səbəbdən həmin dövrdə peyğəmbərlik, şairlik, alimlik, hətta dinsizlər haqqında da fikir yürüdülürdü.

Kamal Talıbzadənin Azərbaycan ədəbi tənqidinin tarixi haqqındakı tədqiqatı bu barədə ilkin bitkin tədqiqat olduğu üçün qiymətlidir. Ədəbiyyat tariximizdə professional tənqidin tarixi məhz

Kamal Talıbzadənin konseptual tədqiqatında öz əksini tapmışdır. Bu sahənin özünəməxsus çətinlikləri vardır.

Belə ki, ədəbi-nəzəri fikir tarixinə köklü yanaşma bir ustad işidir və bu işin öhdəsindən layiqincə gəlmişdir. Kamal Talıbzadənin tədqiqatında estetik fikir tariximizə işıq salınmış və milli tənqidin tarixi kökləri aydınlaşdırılmışdır. Professor K.Talıbzadənin tədqiqatının milli ədəbi-nəzəri fikrin tarixiliyi və dərinliyi sahəsində də əhəmiyyəti böyükdür.

Bütün bunlar haqqında daha geniş bəhs etmək mümkündür, lakin zənnimizcə, bir məqalənin həcmi daxilində bu qədər kifayətdir.

Metod: Dissertasiya müqayisəli tarixi metod vəelmi təfsir metoduna istinad edir

Əldə olunan nəticələr: Məqalə "Ali məktəbdə ədəbi proses və ədəbi tənqidin tədri-si"nin tarixi köklərini aydınlaşdırmaqla müasir tənqid və ədəbi prosesin daha düzgün təsəvvür edilməsini aydınlaşdırır.

ƏDƏBİYYAT

1. Əliyar Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: Maarif, 1969.
2. Vaqif Sultanlı. Azərbaycan ədəbi tənqidi. Bakı: 2019
3. Ə.Səfərli, X.Yusifov. Azərbaycan ədəbiyyat tarixi (Qədim və orta əsrlər). Bakı: 2008.
4. Kamal Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarixi. Maarif, 1984.

SUMMARY

Fatima Dunyamaliyeva

KAMAL TALIBZADE'S RESEARCH ON THE HISTORICAL ROOTS OF AZERBAIJAN LITERARY CRITICISM

The article "On the teaching of the historical roots of Azerbaijani literary criticism" of Dunyamaliyeva Fatima Intigam, a second-year master's student of NSU, majoring in "Teaching of Azerbaijani language and literature", contains the first chapter of her master's thesis entitled "Teaching of literary process and literary criticism in higher education". The article provides some information about the historical roots and critics of Azerbaijani literary criticism.

Key words: *Comments, memoirs, Ahu Tammam, Lutfali Bey Azer*

FATİMƏ ABBASOVA
fatimabbasova2@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-2210-5046

ÇAĞDAŞ POEZİYADA POSTMODERNİST ARAYIŞLAR

Qeyri-müəyyənliyə əsaslanan postmodernizm cərəyanı XX yüzilliyin ikinci yarısında bir sıra sahələrdə təşəkkül tapmışdır. Bu cərəyanın xüsusi bir qanunu yoxdur. Bu ədəbi cərəyan bütün formaları, ehkamları, qaydaları inkar edən cərəyandır. Ədəbiyyatda postmodernizm az sözlə çox fikir ifadə etmək, mövcud cəmiyyət qanunları ilə barışmamaq və nə vaxtsa düzələcəyinə ümidsizlik, ənənəyə fərqli gözlə baxmaq yaxud ənənəni inkar etmək, tənha insan obrazı yaratmaq və s. təməl istiqamətləri irəli sürür. Postmodernist yanaşma tərzi ilk dəfə qərbdə inkişaf etmişdir. Sonralar postmodern estetika Şərq ölkələri, ədəbiyyatlarına da sirayət etmişdir. Postmodernist əsərlərin bir sıra istiqamətləri mövcuddur ki, bu istiqamətləri Nizami Tağısoy "Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış" [3] məqaləsində əks etdirmişdir. Bu məqalədə müəllif qeyd edir ki, "Postmodernist əsərlərdə ikinci istiqamət postmodern anlamların mühüm bir ünsürü olan və ilk dəfə rus ədəbiyyatında istifadə olunan parodiyadır" [3]. Burada əsas məqsəd əsərdə təqlid istəyini yaratmaqdır. Ədəbi əsərin kompozissiyasını dəyişdirib, gülünc bir şey yaratmaqla ciddilikdən kənarlaşdırılmasıdır. Azərbaycan ədəbiyyatında Elçinin yaradıcılığında bu struktur forma daha çox diqqəti cəlb edir. Onun "Baş" romanında fərqli parçalardakı Sisianov obrazını buna nümunə göstərmək olar. Digər təməl istiqamətlərdən biri ironiyadır. Bu təməl istiqamətə əsaslanaraq postmodernizmin praqmatizm ədəbi cərəyanı ilə qarşılıqlı əlaqəsini vurğulamaq olar. Çarlz Pirs tərəfindən yaradılan bu ədəbi cərəyanda zamana və məkana ironiyadan bəhs edilir. Bu cərəyana Ramiz Rövşənin yaradıcılığında- "Bir durna oxuyur" şeirində rast gəlmək olar:

"Bir durna teliyçin durna öldürən
İgid Eyvazım da küsdürüb bizi,"
yaxud,
"Uçan durnalara şeir yazdılar
Ölən durnaların lələklərilə…" [2]

Bu misralarda zamana və məkana ironiya ön plana çəkilir. Postmodernist əsərlərdə sonuncu istiqamət "kollajdır". Bu istiqamətin əsasında hazır olanların bir araya gətirilməsi ilə yeni kompozissiya yaratmaq başlıca prinsipə çevrilməkdədir. Burada ayrı-ayrı parçalar, fərqli çalarlar bir araya gətirilərək əsərin infrastrukturuna daxil edilir.

Açar sözlər: *Postmodernizm, roman, cərəyan, praqmatizm, istiqamət, Ramiz Rövşən, obraz*

Postmodern ədəbiyyatda roman janrının özünəməxsus spesifik xüsusiyyətləri vardır. Bu janr əvvəlki roman ənənəsindən uzaqlaşaraq patiş, kollaj, montaj və digər üslubları özündə birləşdirərək zənginləşir. Anarın "Ağ qoç, qara qoç", Kamal Abdullanın "Yarımçıq əlyazma" və s. romanlar bu qəbildənir. Azərbaycan nəsrində postmodern romanların meydana gəlməsi XX əsrin sonlarına təsadüf edir. Salidə Şərifovanın "Çağdaş Azərbaycan postmodern romanı" adlı kitabında qeyd olunur ki, "Anarın "Ağ qoç qara qoç" antiutopiyasında hadisələr 3 zaman çərçivəsində inkişaf edir" [1]. Anar insanda irrasional başlanğıcın əhəmiyyətini üç zaman kəsiyində: keçmiş, indiki və gələcək zamanda açıqlayır. Postmodernizm həmçinin geniş yayılmış dini və mənəvi görüşlərin dağıdıcı mövqeyi ilə seçilir, müəyyənləşir. Anarın bu əsərində də tipik nümunələrə rast gəlmək olur. Əsərdə Məlik sürətinin nənələrinin təsiri ilə Allaha sidq ürəkdən tapınması göstərilir. Belə qeyd olunur ki, "Məlik dindar deyildir. Dini ritualları heç vaxt icra etməmişdi- namaz qılmırdı, oruc tutmurdu, heç ziyarətə getmək də qismət olmamışdı ona. Buna baxmayaraq, hər axşam yatmazdan qabaq özünün tərtib etdiyi və bəzən hətta televiziya proqramlarında da səsləndirdiyi duanı ürəyində təkrar edərdi" [5]. Həmçinin

əsərdə İmamqulu və Məlikin televiziya barədə danışdıqları dialoqlardan da o nəticəyə gəlmək olar ki, burada cəmiyyət dini prinsiplər əsasında hərəkət edir. Yazıçı bunun nəticəsini açıqlayır və dinin müasirliyə uyğunlaşdırılması problemlərini önə çəkir.

Bəzi postmodern romanlarda zamanın sıxlaşması prosesi müşahidə olunur ki, onlardan biri də Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəridir. Kamal Abdullanın bu romanında vahid zaman kəsiyinin olmaması bizi hadisələrə əbədiyyət bucağından baxmağa sövq edir. Bu əsərdə hadisələrin üç zaman axarında inkişafını görürük. Zaman çərçivəsində zamansızlığı nəzərə çarpdırmaqla müəllifin yaşadığı zamanla, yəni müasir zamanda Oğuzların və Şah İsmayıl Xətainin yaşadığı zaman və onun ölümündən sonrakı zaman çərçivəsində istədikləri şəkildə sərbəst hərəkət etmələri əsərin ahəngdarlığına xələl gətirmir.

Postmodernizm cərəyanına həmçinin poeziyada da rast gəlmək mümkündür. Bu cərəyan Azərbaycan Xalq şairi Ramiz Rövşənin yaradıcılığında yüksək ustalıqla əks olunmuşdur. Şair yaradıcılığı boyu nə haqqında yazırsa onun adını çəkmir və insanın öz-özlüyündə fikir xülyasında mübahisələrə yol açır. Dərd haqqında yazır, lakin dərdin adını çəkmir, ölümdən danışır, amma ölümün adını çəkmir. Buna "Soyuyur" şeirini misal gətirmək olar:

Səslər batır qulağında
Dadlar itir damağında
Cadar-cadar dodağında
Min öpüş yeri soyuyur.

İnsanın ölüm anında səslərin qulağında batmasından, insan bədəninin soyumasından məharətlə bəhs edən şair ilk misrasında səsləndirdiyi "bu adam ölür deyəsən" fikri ilə ölümün səssizliyindən bəhs edir.

Şair yaradıcılığında həmçinin postmodernizmin arayışlarından olan təhnalığa baş vurmuş, "Canavar ovu" poeması ilə düşüncələrini əks etdirmişdir:

Nə yarı var, nə yoldaşı
Görən-görən uzaq qaçır,
Dünyanın bəyi-bayquşu
Bir tənha yalquzaq qaçır

Bu misralarda dünyanın bayquşu adlandırdığı yalquzağın qaçışını təsvir edir. Lakin digər misrasında o nəticəyə gəlir ki, ən azad canlı yalquzaqdır, o da tənhalığının əsiridir:

Sürü-sürü canavarlar
Dolaşır dərəni, dağı
Onun da qisməti budur
Azadlığın tənhalığı.

Çağdaş Azərbaycan poeziyasında postmodernist estetikanın təsirində çoxsaylı bədii nümunələr qələmə alınmışdır. Poeziyada postmodern kult Ramiz Rövşən yaradıcılığının mayasını təşkil edir. Şairin yaradıcılığnda postmodernizmdən gələn təsirlər ədəbi təmayülün estetikasının hüdudlarını aşmaq səviyyəsindədir.

ƏDƏBİYYAT

1. Salidə Şərifova. " Çağdaş Azərbaycan postmodern roman" kitabı. Bakı: Elm və təhsil, 2015
2. Ramiz Rövşən. "Nəfəs" kitablar kitabı. Bakı: "Qanun" nəşriyyatı, 2006, 257 s.
3. Nizami Tağısoy. " Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış" məqaləsi, "Ulduz" jurnalı, No_05, 2018
4. İradə Aytel. "Min ildir tanıdığım şair - Ramiz Rövşən" məqaləsi, 2015
5. https://kitabal.az/book.php?book=11259

SUMMARY

Fatima Abbasova

POSTMODERNIST REFERENCES IN CONTEMPORARY POETRY

The trend of postmodernism, based on uncertainty, was formed in a number of areas in the second half of the 20th century. There is no special law for this trend. This literary trend is a trend that denies all forms, dogmas, and rules. In literature, postmodernism expresses many ideas with few words, does not agree with existing social laws and despairs that they will ever be corrected, looks at tradition with different eyes or denies tradition, creates the image of a lonely person, etc. puts forward the basic directions. The postmodernist approach first developed in the west. Later, postmodern aesthetics spread to the literature of Eastern countries. There are a number of directions of postmodernist works, which were reflected by Nizami Tagısoy in the article “A fragmentary view of some features of postmodernism” (3). In this article, the author notes that “the second direction in postmodernist works is parody, which is an important element of postmodern meanings and was used for the first time in Russian literature” (3). The main goal here is to create a desire to imitate in the work. It is the removal of seriousness from a literary work by changing its composition and creating something ridiculous. In Azerbaijani literature, this structural form attracts more attention in Elchi's work. An example of this is the character of Sisianov in different parts of his novel “Baş”. Another fundamental direction is irony. Based on this basic direction, it is possible to emphasize the interaction of postmodernism with the literary movement of pragmatism. This literary trend, created by Charles Peirce, deals with the irony of time and place.

Key words: *Postmodernism, novel, trend, pragmatism, direction, Ramiz Rovshan, image*

MƏNSUMƏ ABBASOVA
mnsumabbasova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-4455-6580

SÖZ YARADICILIĞI QAYDALARI

Məqalədə Azərbaycan dilində söz yaradıcılığının tədrisində yaranan problemlər hər bir dilçinin maraq obyektinə çevrilmiş və bu sahədə nöqsanları aradan qaldırmaqdan ötrü çox sayda işlər görülməsindən danışılır.

Azərbaycan dili qədim tarixi olan dillərdən biridir və çox çətin dövrlərdən keçərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Təbii ki, onun bizə gəlib çatmasında şairlərimizin, tarixçilərimizin, tədqiqatçılarımızın, dilçi və yazıçılarımızın böyük rolu vardır. Ana dilinə olan sonsuz sevgiləri onların əsərlərindəvə yazılarında özünü mükəmməl səviyyədə göstərir.

Demək olar ki, söz yaradıcılığının tədrisi məsələsi hər bir dövr dilçiləri və ədəbiyyatçılarının aktual problemləri sırasında ilk pillələrdə idi. Buna görə də dil sahəsində müxtəlif islahatlar aparılırdı. Bu islahatlar sırasında 1999-cu ildə təhsil sistemində aparılan islahatların adını çəkmək olar ki, artıq bunlar öz faydasını göstərməkdədir. Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil sahəsində bir sıra uğurlu islahatlar aparılmışdır. Bu islahatların aparılmasının əsas məqsədi Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiya edilməsi idi.

Açar sözlər: *Azərbaycan dili, söz yaradıcılığı, dilçi, tədris, tədrisi metodika, müəllim, dilin tədrisi və s.*

"Söz yaradıcılığının tədrisi üsulları" metodika sahəsində geniş tədqiq edilmiş mövzulardan biridir. Azərbaycan dilinin tədrisi metodikası fənni orta və ali məktəblərdədə Azərbaycan dilinin öyrədilməsi sirləriilə tələbələri tanış edir. Əvvəlcə, Azərbaycan dilinin tədrisi metodikasının predmeti və nəzəri əsaslarına münasibət bildirilir, sonra isə onun keçdiyi yola (Azərbaycan dilində söz yaradıcılığının öyrənilməsi yoluna) nəzər salınır. Təbiidir ki, müxtəlif dövrlərdəAzərbaycan dilinin öyrənilməsi vəziyyətinə və tarixi təcrübəyə dərindən bələd olmadan, Azərbaycan dilinin öyrənilməsi işində heç bir uğur qazanmaq olmaz. Məlumdur ki, tarix, keçilən yol bir aynadır. Biz ona baxmasaq, qazancımızı və itkilərimizi, nailiyyətləri və buraxılan qüsurlarımızı düzgün təhlil edə bilmərik.

"Kurikulum" sistemi tətbiq olunduqdan sonra təhsildə çoxlu uğurlara imzaatıldı. Bu sistemə görə təhsil ocaqlarında söz yaradıcılığının tədrisi üsulları milli maraqlar və dövlətçilik nöqteyi nəzərindən mühüm bir məsələ hesab olunurdu. Söz yaradıcılığının tədrisi üsulları şəxsiyyətin formalaşmasında vacib nüans idi.

Söz yaradıcılığı anlayışı ilə dilçilikdə iki linqvistik hadisəni izah edirlər. Birincisi, dildə olan hazır modellər və nümunələr əsasında affiksasiya və digər formal vasitələrlə eyniköklü sözlərdən düzəltmə və mürəkkəb sözlərin yaradılması söz yaradıcılığı hesab edilir. Söz yaradıcılığının digər mənası daha geniş əhatə dairəsinə malikdir. Belə ki, söz yaradıcılığı dilçilikdə düzəltmə və mürəkkəb sözlərin yaranmasının, quruluşunun və təsnifatının bütün aspektlərini öyrənən müstəqil bir sahədir.

Söz yaradıcılığı ali məktəblərin dil kursunda dilçiliyin xüsusi sahəsi kimi keçirilir. Bu problem hazırda dilçilikdə elə bir mühüm sahəyə çevrilmişdir ki, orta məktəbdə Azərbaycan dili kursunda da həmin sahənin öyrənilməsi zərurəti meydana çıxmışdır.

Söz yaradıcılığı probleminə aid çoxlu tədqiqatlar aparılmış, külli miqdarda əsərlər yazılmışdır. Dilçilik ədəbiyyatında ilk dəfə V.V.Vinoqradov rus dilində söz yaradıcılığı qaydalarını belə müəyyənləşdirir:

1. Morfoloji;
2. Sintaktik;
3. Sintaktik-morfoloji;

4. Leksik-semantik;
5. Leksik-sintaktik.

Söz yaradıcılığı müasir Azərbaycan dilçiliyinin də xüsusi şöbəsi olmaqla dilimizin daxili qanunauyğunluqları əsasında yeni söz yaratmağın müəyyən qayda-qanunlarını əhatə edir.

Söz yaradıcılığı prosesinin öyrədilməsi məktəb proqramında da müəyyən dərəcədə öz əksini tapmışdır. Bu material özünün elmi-nəzəri əsasları üzrə şagirdlərə söz yaradıcılığı prosesinin yolları və vasitələrini öyrətmək məqsədini güdür. Burada Azərbaycan dilində leksik-semantik, morfoloji-sintaktik, morfoloji və leksik-sintaktik yolla söz yaradıcılığı prosesinin əsas xüsusiyyətlərinin nəzərdən keçirilməsi və onların orta məktəb proqramında tutduğu mövqeyini aydınlaşdırmaq məqsədi qarşıya qoyulmuşdur.

Sözlərin leksik-semantik yolla əmələ gəlməsi prosesi dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Bu yolla yeni sözlərin əmələ gəlməsi orta məktəbdə leksika və morfologiyanın tədrisi prosesində öyrədilir. Dil müəllimi bu sahədə düzgün iş təşkil etmək üçün, hər şeydən əvvəl, bunun elmi-nəzəri əsaslarını bilməli, leksik-semantik yolla söz yaradıcılığı üzrə işi onun əsasında təşkil etməlidir.

Sözlərin leksik-semantik yolla əmələ gəlməsində, ümumiyyətlə, sözün çoxmənalılıq problemi, omonim mənada formalaşması və çoxmənalılıqdan omonomləşməyə doğru inkişaf yolu əsas rol oynayır.

Çoxmənalı sözlərdə omonimləri eyniləşdirmək olmaz. Doğrudur, çoxmənalı sözlər də omonimlər kimi eyni səs (hərf) tərkibinə malik olmaqla müxtəlif mənalar ifadə edir, məsələn, qol və çay sözlərini götürək. Qol sözü həm adamın qolunu, həm də çayın, dastanın qolunu, çay sözü isə həm axar suyun, həm də çay bitkisinin adını bildirir. Bu münasibətlər dairəsində qol çoxmənalı, çay isə omonim sözdür.

Çoxmənalı sözlərdən bir sözün ifadə etdiyi mənalar, əsasən, bir məna ətrafında toplaşaraq onun müxtəlif cəhətdən məna çalarlığını ifadə edir. Omonim sözlər isə iki və daha çox, bəzən məntiqcə yaxın, bəzən də heç bir məntiqin adını, həm də ilin on ikidə birinin bir hissəsini bildirir.

Dilimizdə ən çox çoxmənalıq kəsb edən nitq hissəsi feildir. Məsələn; sürmək-maşın, ömür sürmək (yaşamaq), yer sürmək (əkmək); çalmaq-tar çalmaq, ot çalmaq, ilan çalmaq, əl çalmaq və s. Misallarında sürmək və çalmaq çoxmənalı feillərdir. Burada sürmək və çalmaq feilləri müxtəlif məna çalarlıqlarında işlənmişdir. Bəzi feillərdə çoxmənalılıqdan keçərək omonimləşmə prosesində rast gəlmək olur: məsələn, köç(mək), düz(mək) feildir, əşyanın hərəkətini bildirir. Həmin sözlər feillikdən çıxaraq əşyanın adını bildirdikdə omonimləşir, köç, düz sözləri bu zaman isim kimi nə? Sualına cavab verir və ismə məxsus leksik və qrammatik xüsusiyyətləri özündə əks etdirir.

Dil tədrisində omonimlərin öyrənilməsi şagirdlərin nitqinin zənginləşməsi və silsiləşməsində, orfoqrafik səhvlərin aradan qaldırılmasında müəyyən rol oynayır. Bu sahədə əhəmiyyət verilmədikdə şagirdlər nitqdə bir sıra üslub nöqsanlarına yol verir, morfoloji və sintaktik təhlil zamanı bir çox sözlərin hansı nitq hissəsi və ya cümlə üzvü olmasını müəyyənləşdirməkdə çətinlik çəkirlər.

Yeni sözlərin leksik-semantik yolla əmələ gəlməsi prosesinin öyrənilməsinin əhəmiyyəti ona görə böyükdür ki, bunun əsasında şagirdlər çoxmənalı sözlərlə omonimləri fərqləndirir, nitqdə lüksik, üslubi və orfoqrafik səhvlərə yol verməməyə çalışırlar.

Morfoloji-sintaktik yolla söz yaradıcılığı prosesi bir nitq hissəsinin başqa bir nitq hissəsinə keçməsi yolu ilə olur. Sistematik kursda bu sahədə iş hər bir nitq hissəsinin tədrisi prosesində onunla bağlı şəkildə aparılır. Bu zaman şagirdlər eyni sözdən müxtəlif nitq hissəsinin əmələ gəlməsini, daha doğrusu, bir nitq hissəsinə aid sözün konteksdə yeni məna kəsb edən digər bir nitq hissəsinə çevrilməsini öyrənirlər.

Nitq hissələri içərisində morfoloji-sintaktik yolla sifətlərdən isimlərin əmələ gəlməsi və ya isimlərdən sifətlərin əmələ gəlməsi hadisəsi sifətin substantivləşməsi, ismin isə atributivləşməsi ilə olur. Müasir Azərbaycan dilində bu yolla sifətlərdən isimlərin törəməsi hadisəsi isimlərdən sifətlərin törəməsinə nisbətən daha qüvvətlidir.

Sifətlərin substantivləşməsi nəticəsindıə onlardan isimlərin əmələ gəlməsi mahiyyət etibarı ilə müəyyən prosesin nəticəsində baş verir: məsələn, qəhrəman, qoca, gözəl və yaxşı kimi sifətlərin substantivləşməsi öz təsirini elə şəkildə göstərir ki, nəticədə onun isim olması haqqında təsəvvür möhkəmlənir və isimlik məfhumuna keçir. Daha doğrusu, həmin söz isimlik məfhumu ifadə etmək hüququ qazanır. Beləliklə, yeni leksik vahid əmələ gəlir. Məsələn,"Gənc qocanın yanına gəldi". Bu cümlədə gənc və qoca sözləri öz ilkin mənasını (sifət) dəyişərək yeni məna (isim) qazanmış, substantivləşmişdir.

Sözlərin morfoloji-sintaktik qayda üzrə əmələ gəıməsi iki yolla olur:

1. Sadə szölərin başqa nitq hissəsinə keçməsi;
2. Düzəltmə sözlərin başqa nitq hissələrinə keçməsi.

Məsələn, Almalı (kənd adı) ismi düzəltmə sifətin (almalı bağ) isimləşməsi yolu ilə əmələ gəlmişdir. Bu yolla düzəltmə sifətlərin adverbiallaşması nəticəsində zərflərin əmələ gəlməsi də özünü göstərir. Məsələn, işsiz adam birləşməsində işsiz sözü sifət, işsiz gəzmə ifadəsində isə həmin söz zərfdir.

Bu sahədə işin təşkili şagirdlərin nitqinin zənginləşməsinə və bir sıra leksik və qrammatik səhvlərin aradan qaldırılmasına, nitq hissələrinin düzgün müəyyənləşdirə bilmələrinə böyük kömək göstərir. Buna baxmayaraq, yeni Azərbaycan dili dərsliklərində bir nitq hissəsinin başqa nitq hissələrinə keçməsi yolu ilə sözlərin əmələ gəlməsi hadisəsi lazımi şəkildə aydınlaşdırılmışdır.

Müasir Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində sözlərin morfoloji yolla əmələ gəlməsi prosesi mühüm yer tutur. Bu dilçilikdıə nisbətən ən çox işlənmiş və aydınlaşdırılmış sahələrdən biridir.

Məlumdur ki, sözlərin morfoloji yolla əmələ gəlməsində sözdüzəldici şəkilçilər mühüm rol oynayır. Səlim Cəfərovun adı çəkilən əsərlərində morfoloji yolla sözlərin düzəldilməsi ətraflı işlənmiş, həm də burada şəkilçilərin törəmə yolları, semantik və funksional bölgüsü, nitq hissələrinə görə təsnifi və bir sıra başqa məsələlər geniş şərh edilmişdir.

Dilimizdə sözlərin leksik-semantik yolla əmələ gəlməsi prosesi morfoloji yolla düzəldilmə prosesindən fərqlənməklə bərabər, həm də tarixi qədimliyi, həm də müasir dövrdəki vəziyyəti etibarı ilə böyük əhəmiyyətə malikdir.

Dilimizdə leksik-semantik yolla yeni leksik vahidlərin əmələ gəlməsi prosesindən çox geniş şəkildə istifadə edilir. Eləcə də biz dərsliklərdə, bədii siyasi, elmi əsərlərdə, qəzet və jurnallarda, hətta müxtəlif radio və televiziya verilişlərində tez-tez külli miqdarda mürəkkəb sözlərə rast gəlirik. Dilimizin zəngin etimoloji leksikasının, demək olar ki, mühüm bir hissəsini leksik-sintaktik yolla söz yaradıcılığı prinsipləri əsasında düəldilmiş terminlər tutur.

Mürəkkəb sözlər də, hər şeydən əvvəl, sadə və düzəltmə sözlər kimi, hər hansı bir məfhumu - əşyanın adını, əlamətini, hərəkətini və s. bildirir. Lakin düzəltmə söz köklə sözdüzəldici şəkilçidən ibarət olduğu halda mürəkkəb söz iki və daha artıq sadə sözün birləşməsindən (ayaqqabı, istiot, əlüzyuyan) əmələ gəlir. Dilimizdə aş, vint, gün, bax, dağ, uzun, keçi, süz, bur, boğaz sözləri yalnız bir kökdən ibarətdir. Ona görə də sadə söz hesab olunur. Biz həmin sadə sözləri mənaca bir-birinə bağlamaqla müəyyən bir əşyanın adını, əlamətini bildirən mürəkkəb sözlər (aşsüzən, vintburan, günəbaxan, dağkeçisi, uzunboğaz) əmələ gətiririk.

Mürəkkəb sözlər əmələ gəlməsinə və quruluşuna görə sadə və düzəltmə sözlərdən seçilsə də, sadə və düzəltmə sözlər kimi onlar da müxtəlif nitq hissələrinə ayrılır. Bununla əlaqədar mürəkkəb sözlərin də özünəməxsus xüsusiyyətləri tədrisdə aydınlaşdırılmalıdır. Şagirdlər bilməlidirlər ki, sözlərin cəmlənməsi, daha doğrusu iki və daha artıq sözü müəyyən qayda ilə birləşdirmək yolu ilə müxtəlif nitq hissələrinə aid mürəkkəb sözlər əmələ gətirilir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, dilimizdə leksik-sintaktik yolla sözlərin əmələ gəlməsi prosesi özünəməxsus xüsusiyyətlərə malik olmaqla, müəyyən söz yaradıcılığı qanunlarına əsaslanır, buna görə də orta məktəbdə söz yaradıcılığı üzrə işdə bu xüsusiyyətlərin nəzərə alınması zəruridir.

ƏDƏBİYYAT

1. A.Məmmədova. Azərbaycan dilinin tədrisi tarixi, Bakı: "Mütərcim" nəşriyyatı, 2015. 324 səh.
2. A.S.Kazımov. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı: ADPU nəşri, 2013. 186 s.
3. C.Musayeva. Ana dili dərslərində interaktiv təlim metodlarından istifadəninəhəmiyyəti // Elm və həyat: Elmi-populyar jurnal. 2016, № 4, s. 93-95.
4. Ə.Bədəlova. Fəal interaktiv metodlar və ənənəvi təlim // Azərbaycan dili vəədəbiyyatı tədrisi: elmi-metodik jurnal. 2015, № 4, s.9-16.
5. G.M.Əhmədova. Bəşir Əhmədovun Azərbaycan dilinin tədrisi metodikasınınınkişafında rolu, magistr dissertasiyası, Bakı, 2011. 73 s.
6. H.B.Balıyev. Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Qismət" nəşriyyatı, 2014. 380 səh.
7. H.K.Piriyev, E.Q.Həşimov, S.Valehov. Tədrisdə interaktiv təlim metodları. Konkret vəziyyətlərin təhlili (case study) metodu, Bakı: "Hərbi" nəşriyyatı, 2017. 30 s
8. İ.İsmayılov, M.Əmirov, H.Qurbanov, C.Cəfərli, E.İmanov. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Təhsil" nəşriyyatı, 2014. 136 s.
9. O.Məmmədov. Təlimdə interaktiv metod və formaların tətbiqi // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal. 2013, №3, s. 56-58.
10. R.Məmmədli. Azərbaycan folklorunun vurğunu Firudin bəy Köçərli, Bakı: F.Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2018. 69 s.
11. S.R.Bədiyev. Ənənə və müasirlik, AMİ-nin Şəki filialının kafedra müdiri,pedaqogika üzrə fəlsəfə doktoru, məqalə. Şəki, 2013. 5 s.
12. T.Hacıyev. Dilimiz mənəviyyatımızdır, Bakı: "Azərbaycan məktəbi" , 2015, №1-s. 22-25.
13. V.T.Qurbanov. Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Müəllim" nəşriyyatı, 2014. 258 səh.
14. Y.Ş.Kərimov İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı:"Səda" nəşriyyatı, 2013. 551 s.

SUMMARY

Mansuma Abbasova

RULES OF WORD CREATION

The article talks about the problems that arise in the teaching of word creation in the Azerbaijani language, which have become the object of interest of every linguist, and a lot of work has been done to eliminate the shortcomings in this field.

The Azerbaijani language is one of the languages with an ancient history and has passed through very difficult times and reached our modern times. Of course, our poets, historians, researchers, linguists and writers have a great role in bringing it to us. Their endless love for their mother tongue shows itself perfectly in their works and writings.

It can be said that the issue of teaching word creation was in the first steps among the actual problems of linguists and writers of every era. Therefore, various reforms were carried out in the field of language. Among these reforms, we can mention the reforms carried out in the education system in 1999, which are already showing their benefits. After Azerbaijan gained independence, a number of successful reforms were carried out in the field of education. The main goal of carrying out these reforms was the integration of Azerbaijani education into European education.

Key words: *Azerbaijani language, word creation, linguist, teaching, teaching methodology, teacher, language teaching, etc.*

ESMİRA AĞAYEVA
aagayevaesmira@gmail.com
Azərbaycan Respublikası Təhsil İnstitutu

MÜASİR TƏHSİL SİSTEMİNDƏ TƏLİM-TƏRBİYƏ PROSESİNİN TƏŞKİLİ VƏ FORMALAŞDIRILMASI

Təqdim etdiyimiz işin aktuallığı ondan ibarətdir ki, müasir təhsil sistemində təlim-tərbiyə prosesinin formalaşması istiqamətində bir sıra çətinliklər və müzakirələr var. Bu aspektdə müasir təhsil sistemində təlim-tərbiyə metodlarının yenilənməsi günümüzün aktual problemlərdən biridir. Təhsil sisteminin aparıcı vəzifəsi təhsilin bütün pillələrində keyfiyyətli təhsil təmin etməkdir. Lakin bununla yanaşı, təlim-tərbiyə metodlarının yenilənməsi və yeni metodlar vasitəsi ilə ilkin yanaşma bu istiqamətdə öz müsbət təsirini verməklə yanaşı, 21-ci əsrin şagirdinin müstəqil cəmiyyətdə özünü idarəetməsinə zəmin yaradacaqdır.

***Açar sözlər*:** şagird, təlim-tərbiyə, mənəvi-əxlaqi inkişaf, cəmiyyət

Müasir şagirdin mədəniyyətinin formalaşma səviyyəsi təhsilin inkişaf dərəcəsinə öz təsirini göstərir. Xüsusilə yaradıcı şagirdlərin öz təxəyüllərinin inkişafı, özünüdərk günümüzün aktual məsələlərindəndir [1]. Tez-tez qarşılaşdığımız problemlərdən biri də məktəbdə şagirdlərin özlərini ifadə edə bilməməsi, özgüvənin aşağı olması ilə müşayət olunur. Bütün bu problemlərin kökündə təlim-tərbiyə prosesi durur. Çünki mədəni və təhsilli cəmiyyət yetişdirmək istəyiriksə, bu iki amil bir yerdə özünü doğrultmalıdır. Tərbiyə, mədəniyyət amili hər bir cəmiyyətdə mühüm faktor kimi çıxış edir [2]. Əgər nəzərə alsaq ki, bugünün şagirdi 21-ci əsrin yəni texnologiya əsrinin şagirdidir, deməli həm ailə, həm də məktəbin bu prosesisinin təşkili və formalaşdırılması istiqamətində apardığı fəaliyyət birgə olmalıdır. Bu aspektdən bir çox yanaşmalarda bu və ya digər məsələləri rəhbər tutaraq yeni metodlara keçid prosesini qismən itgisiz keçirdə bilərik. Məsələn, əgər biz dünənin şagirdi ilə müqayisə etsək, görürük ki, dünənki şagirdin yanaşması, dünyaya baxışı, fikirləri, hərəkətləri ilə böyük təzad yaranır. Bunun səbəbi ancaq texnoloji inkişafdır desək yalnış olar [3]. Çünki nəzəri cəhətdən prinsip etibarı ilə texnoloji inkişaf, şagirdin daha da irəli getməsinə, onun həm təlim-tərbiyə, həm təhsil istiqamətində nəticələrinin daha yüksək olmasına gətirib çıxartmalı idi. Texnoloji inkişaf, hər şeyin əlçatan olması, istədiyin an informasiyanın sənə yaxınlığı və əlçtanlığı zaman itgisinə, seçim sərbəstliyinə, dünya görüşünə daha böyük miqiyasda pəncərə açır [4]. Lakin bütün bunlarla yanaşı, şagirdlər arasında günümüzdə qarşılaşdığımız aqresiv və zorakılıq halları bunu deməyə imkan verir ki, məsələyə yeni formatdan yanaşmaq lazımdır. Heç də hər uşaq bu texnoloji inkişafın naliyyətlərindən öz xeyrinə düzgün istifadə edə bilmir [5]. Bu isə yuxarıda qeyd etdiyim arzuolunmaz hallara gətirib çıxardır. Təbii ki, bu yanaşmada ailənin, valideynin mövqeyi və fikri, yönləndirməsi də öz sözünü deyir [7]. Əgər hər iki tərəf yəni məktəb və valideyn düzgün yanaşma ilə məsələnin həlli yollarını birikdə nəzərdən keçirərlərsə, bu daha yaxşı nəticə verər. Lakin bu təkli və nəticələr dəfələrlə müzakirə olunmalı və lazım gəldikdə şagird üçün indivudal təlim-tərbiyə forması seçilməlidir [6]. Yalnız bu şəkildə müasir şagirdin tələblərini qismən ödəyəcək və ona təklif olunan təklifi düzgün dəyərləndirə biləcək savadlı nəsil yetişdirə bilərik. Çünki gündəlik informasiyanın çoxluğu bəzən məktəb və valideynin bir çox məqamlarda nəzərindən qaçan aspektləri yeni metodların köməyi ilə planlı şəkildə bu problemləri həlli yolu kimi çıxış edəcəkdir [8].

Bununla bağlı, müxtəlif ölkələrin təcrübəsi, məsələn Yaponiya [9] təhsil sistemində təlim-tərbiyə proseslərinin necə düzgün qurulduğunu müqayisə edərək, onların bu istiqamətdə apardığı işlər və metodlarla yaxından tanış olaraq, o sistemin müəyyən müsbət tərəflərinin özünküləşdirərək tətbiq etmək olar. Bütün bu sadalananlar təbii ki, ilk növbədə sağlam nəsil, sağlam gələcək naminə atılmış addımlardır. Savadlı, tərbiyəli şagird, sabahın savadlı, alimi, həkimi, mühəndisidir. Düşünürəm ki, b

u istiqamətdə təhsil istiqamətində bu gün aparılan islahatlar bir neçə il sonra öz müsbət töhvəsinin verəcəkdir.

ƏDƏBİYYAT

1. Abülxanova-Slavskaya, K.A. Şəxsiyyətin fəaliyyəti və psixologiyası / K.A.Abulxanova-Slavskaya. M.: Elm, 1980. - 335 s.
2. Azərov, Y.P. Tərbiyə sənəti: Müəllim üçün kitab/Y.P. Azərov. M.: Maarif, 1985. - 448 s.
3. Azarxin, A.V. Şəxsiyyətin dünyagörüşü və estetik inkişafı/A.V. Azarxin. Kiyev: Naukova dumka, 1990. -191 s.
4. Andreev, V.I. Yaradıcı şəxsiyyətin tərbiyəsi və özünüidarəsi dialektikası. Yaradıcılıq pedaqogikasının əsasları/V.I.Andreyev. -Kazan: Qazan Universiteti, 1988. 238s.
5. Anichkin, S.A. Məktəbəqədər və kiçik məktəbli uşaqların estetik tərbiyəsində davamlılıq/S.A. Anichkin.-Sverdlovsk, 1982.
6. Lewis, C. & Tsuchida, I Yaponiyada təhsildə planlaşdırılan dəyişikliklər: tələbələrə yönəldilmiş ibtidai elmə keçid. Təhsil siyasəti jurnalı/S. Lyuis və I.Tsuçida. 1997. (12)5, 313-331.
7. Larri Pettersen. Yapon Cram məktəbləri. Təhsilə rəhbərlik 50, № 5 (1993): 56-8. Nemenskaya, JI.A. Özünümüdafiənin estetik xarakteri/JI.A Nemenskaya //Sovet. pedaqogikası. 1990. № 12.- S. 71-76.
8. Japan educational standards http: // www.ed.gov/ pubs/ JapanCaseStudy / chapterlb.html

SUMMARY

Esmira Aghayeva

ORGANIZATION AND FORMATION OF THE EDUCATIONAL PROCESS IN THE MODERN EDUCATION SYSTEM

The relevance of the work we have presented lies in the fact that in the modern education system there are a number of difficulties and discussions regarding the formation of the educational process. In this aspect, updating teaching methods in the modern education system is one of the most pressing problems. The leading task of the education system is to provide quality education at all levels of education. However, in addition to this, updating teaching methods and an initial approach through new methods will have a positive effect in this direction and create the basis for self-government of the 21st century student in an independent society.

Key words: *student, learning, moral development, society*

РЕЗЮМЕ

Эсмира Агаева

ОРГАНИЗАЦИЯ И ФОРМИРОВАНИЕ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА В СОВРЕМЕННОЙ СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Актуальность представленной нами работы заключается в том, что в современной системе образования существует ряд сложностей и дискуссий по направлению формирования образовательного процесса. В этом аспекте обновление методов обучения в современной системе образования является одной из актуальных проблем. Ведущей задачей системы образования является обеспечение качественного образования на всех уровнях образования. Однако, помимо этого, обновление методов обучения и первоначальный подход через новые методы окажут положительный эффект в этом направлении и создадут основу для самоуправления студента XXI века в независимом обществе.

Ключевые слова: *студент, обучение, нравственное развитие, общество.*

PAKİZƏ MƏMMƏDOVA
pakizememmedova98@gmail.com
"Naxçıvan" Universiteti
ORCID ID: 0009-0002-0780-9243

SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİLİNİN TƏŞKİLİ

Məqalədə sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin təşkilindən bəhs olunur. Qeyd olunmuşdur ki, sağlamlıq imkanlarından, ailə vəziyyətindən, bacarıqlarından, dinindən, irqindən asılı olmayaraq, bütün uşaqların təhsil almaq hüququ vardir. Sonda belə qənaətə gəlinmişdir ki, Azərbaycanda sağlamlığı məhdud olan uşaqlar, digər uşaqlarla birlikdə təhsil alaraq, cəmiyyətə daha rahat və sürətli inteqrasiya etmələri üçün cəmiyyətin inklüziv təhsilə yanaşması müsbətə doğru dəyişməli, onların təhsilə cəlb olunması və gələcəkdə əmək bazarında özlərinə daha rahat və yaxşı yer tuta bilmələri üçün onların bacarıqlarının inkişaf etdirilməsi üçün münbit şərait yaradılmalıdır.

Açar sözlər: *Sağlamlıq imkanları məhdud olan uşaqlar, xüsusi məktəblər, sosial model, inklüziv təhsil, ümumtəhsil məktəbləri*

Məlumdur ki, Azərbaycan Respublikasında hər bir vətəndaşın təhsil almaq hüququ var. Təhsil almaq sahəsində heç bir məhdudiyyət qoyulmur.Təhsilin məqsədi də elə təhsil alanların müəyyən ictimai statusa malik olmağından və öz sosial əhəmiyyətini təsdiq etməkdən ibarətdir. Azərbaycan Respublikasının Təhsil Qanununun 5.2 maddəsində qeyd olunur ki, "Dövlət cinsindən, irqindən, dilindən, siyasi əqidəsindən, milliyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir." (Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu, s.12) Amma biliklər əldə etmək, həmin bilikləri təkmilləşdirmək, öz ictimai əhəmiyyətini təsdiq etmək, cəmiyyətdə müəyyən mövqe tutma arzusu heç də hamı üçün reallığa çevrilmir. Belə insanlar arasında sağlamlıq imkanları məhdud olan uşaqlar da vardır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikamızda Sağlamlıq imkanları məhdud olan uşaqların təhsili ön plana çəkildi. Belə uşaqların təhsili problemi müəllim, psixoloq, pedaqoqların diqqətini cəlb etməklə yanaşı, Azərbaycan dövlətinin təhsil siyasətinin prioritetlərindəndir. Ulu Öndər Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət hazırda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Azərbaycan müstəqillik illərində insan hüquqları, xüsusilə uşaq hüquqları ilə bağlı beynəlxalq saziş və konvensiyalara qoşulmuş, bununla bağlı üzərinə bir sıra öhdəliklər götürmüşdür. Həmin öhdəliklərdən biri də ayrı-seçkiliyə yol vermədən sağlamlıq inkanları məhdud uşaqların təhsil hüququnu təmin etmək üçün bütün səviyyələrdəonların təhsilin təşkil edilməsidir. Ölkəmizdə bu sənədlərdən irəli gələn vəzifələri həyata keçirmək məqsədi ilə müvafiq qərarlar qəbul edilmişdir.

Son illər istər məktəbəqədər, istərsə də orta təhsil sahəsində aparılan islahatlar sağlamlıq imkanı məhdud övladı olan valideynlər üçün yeni ümidlər yaradıb. Yuxarıda da qeyd etdik ki, ölkəmizdə bu istiqamətində məqsədyönlü addımlar atılıb və bu addımlar bu sahədəki mövcud çətinliklərin aradan qaldırılmasına imkan yaradıb.

Bildiyimiz kimi, əvvələr belə uşaqları valideyinlər nəinki onları təhsilə cəlb etmirdilər, hətta onları cəmiyyətdən uzaqlaşdırırdılar. Hal-hazırda inklüziv təhsilin təşkili bu duşüncə tərzinə son qoydu.

Mütəxəssislər belə hesab edirlər ki, sağlamlıq imkanları məhdud olan uşaqlar öz sağlam həmyaşıdları ilə birlikdə böyüdükdə və təlim prosesində birgə iştirak etdikdə özlərini yararsız, köməksiz saymırlar. Belə uşaqlar sağlam uşaqlar kimi hərəkət etməyə, danışmağa, fəaliyyət göstərməyə, özlərində güc, qüvvət toplamağa səy göstərirlər. Düşdükləri mühitə adaptasiya olunaraq

bir fərd, cəmiyyətə yararlı insan olduqlarını hiss edirlər. Belə bir şəraitdə onların sosiallaşması üçün münbit şərait yaranır.

Qeyd edək ki, hazırda sağlamlıq imkanları məhdud olan uşaqlara dəstək xidmətinin inkişafı "sosial model"lə müəyyən olunur. XX əsrin 80-ci illərinin ortalarından hazırki dövrə qədər - "sosial model"(İnkluziv siniflərdə təlimin təşkili, 2018) adlanır. Bu modelə əsasən sağlamlıq imkanlarından, ailə vəziyyətindən, bacarıqlarından, dinindən, irqindən asılı olmayaraq bütün uşaqların təhsil prosesində və həyatda bərabər-hüquqlu olmasını nəzərdə tutur.

Aparılan araşdırmalara əsasən müəyyənləşdirilmişdir ki, istər sağlam, istərsə də qeyri-sağlam insanların bərabər təhsil alma hüquqlarını təmin edir ki, bu da cəmiyyətdə sosial bərabərliyin qorunmasına, sağlamlığı məhdud uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaradır.Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onlar arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir(2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud uşaqlar üçün inkluziv təhsilin inkişafı üzrə Dövlət proqramı).

Getdikcə dünyada genişlənən inklüziv təhsil hələ ki, ölkəmizdə tam təşəkkül tapmasa da, bu təhsil növünün yaranması və inkişafı istiqamətində müəyyən addımlar atılıb.

Təhsil Nazirliyinin həyata keçirdiyi ən uğurlu layihələrdən biri məhz inklüziv təhsillə bağlı layihə hesab olunur. Belə ki, ölkəmizdə "İnklüziv təhsil layihəsi"nin icrasına 2005-ci ildən start verildi. "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı əsasında Təhsil Nazirliyi və UNİCEF tərəfindən 2005-ci ildən etibarən Azərbaycanda birgə inkluziv təhsil layihələri həyata keçirilməyə başlanıldı.Və proqram çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı UNESCO-nun maliyyə dəstəyi ilə 2005-ci ildən 3 pilot layihənin icrasına başlanıldı. 15 ümumtəhsil məktəbi və 13 məktəbəqədər təhsil müəssisəsində 268 əlil uşaq layihələrin icrası müddətində inklüziv təhsilə cəlb edildi.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının Fəaliyyət Planında (2015-2023) məktəbəqədər və ümumi təhsil müəssisələrinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulmuşdur. ("Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı).

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fon-dunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsillə bağlı görülən işlər təhlil edilib.Sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin təşkili nəticə etibarilə yeni mərhələyə keçib. Xüsusi təhsil sistemində interaktiv proseslər 2016-cı ildə həyata keçirilib və xüsusi qayğıya ehtiyacı olan uşaqların yaradıcılıq potensialının inkişafı sahəsində inklüziv təlimin keyfiyyətinin yüksəldilməsi istiqamətində səmərəli işlər görülüb. Sağlamlıq imkanları məhdud olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına 2015-2016-cı tədris ilindən başlanılıb. Bu məqsədlə müəyyənləşdirilən pilot inklüziv məktəblərin (Bakıdakı 138, 220, 202 və 252 nömrəli məktəblər) hər birində iki sinif olmaqla, sağlamlıq imkanları məhdud olan 4 uşaq birinci sinfə qəbul edilib. Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 86 şagird inklüziv təhsilə cəlb edilib.

Layihənin Fəaliyyət Planına əsasən, pilot məktəblərin direktorları, eksperimental siniflərin müəllimləri, xüsusi təhsil mütəxəssisləri üçün Almaniyada inklüziv təhsil üzrə təlim təşkil edildi və Bakıda onlara Almaniyanın Oldenburq Universitetinin 4 nəfərdən ibarət professor heyəti tərəfindən ikihəftəlik təlim keçirildi.

Məktəblərin yerləşdiyi ərazidə yaşayan əlil uşaqların valideynlərinə xüsusi və inklüziv təhsil üzrə maarifləndirici seminarlar keçirildi və həmin məktəblərdə loqopedik

xidmət yaradıldı.

2017-ci il 14 dekabrda "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edildi.(İnkişaf Proqramının təsdiq edilməsi haqqında fərman (2018-2024 illər)xüsusi qayğıya ehtiyacı olan uşaqların

(əlil uşaqlar) təhsilinin təşkili. Azərbaycan Respublikası. 2017). Proqramının məqsədi SİM məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir.Hazırlanan sənəd layihələrinin, aparılan araşdırma və tədqiqatların nəticələrinin müzakirəsinin təşkili və müvafiq təkliflərin hazırlanması üçün İşçi Qrupu yaradıldı.

2018-ci ilin may ayından "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsinin icrasına başlanıldı. Bununla bağlı Bakı şəhəri, Quba, Şəki, Cəlilabad, Ağcabədi və Şamaxı rayonlarında müəllimlərin inklüziv təhsil sahəsində tədris imkanlarının və pedaqoji resurslarının təkmilləşdirilməsi nəzərdə tutuldu. Layihə çərçivəsində fəaliyyət 4 istiqamətdə – inklüziv təhsil üzrə tədris proqramı və materiallarının təkmilləşdirilməsi, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması, onlar üçün resursların yaradılması, inklüziv təhsil üzrə siyasətin təkmilləşdirilməsi və ictimai maarifləndirmə tədbirlərinin təşkili üzrə aparılırdı. Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında müəllim və yardımçı mütəxəssislərin inklüziv təhsil üzrə resurslara çıxışını təmin etmək məqsədilə İnklüziv Təhsil Mərkəzləri yaradıldı.Bunlarla yanaşı, respublikada inklüziv təhsilin qanunvericilik əsasları barədə məlumat kitabçası və digər maarifləndirici materiallar hazırlandı.

Eyni zamanda, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması istiqamətində təlimlər təşkil olundu və bu təlimlərdən ibtidai sinif müəllimləri, orta məktəb rəhbərləri, universitetlərin pedaqoji fakültələrində çalışan pedaqoq-müəllimlər və tələbələr faydalandılar.

Azərbaycanda inklüziv təhsillə bağlı nəzərdə tutulan innovativ layihələrə dəstək daha da artırılır. Bu məqsədlə 2019-cu ildə Heydər Əliyev Fondunun dəstəyi əsasında daha bir layihəyə başlanılıb. "1001 səsli hekayə" adı altında olan layihədə həm orta məktəb dərsliklərindən, həm də klassik və dünya ədəbiyyatından 5-16 yaşlı uşaqlar üçün yeni resurslar hazırlanılır. Bununla bağlı bir neçə video hazırlanıb və uşaqların ixtiyarına verilib.

Təhsil Nazirliyinin təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsinin qalibi olan "Səsli dərslik" layihəsi bu gün də uğurla davam etdirilir. Kəlbəcər rayon 19 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Nofəl Şirinovun innovativ bir layihə olan "Səsli dərslik" ideyası təsdiq edildi. Bu lahiyədə VI sinfin ədəbiyyat dərsliyindəki bədii mətnlər perspektiv planlaşdırmanın tələblərinə uyğun ardıcıllıqla professional diktor və qiraətçilər tərəfindən studiya şəraitində səsləndirilib və www.seslidərslik.az saytına yerləşdirilib. Səsləndirilən bədii mətnləri şagirdlər saytdan dinləyərək öyrənə bilirlər. Eyni zamanda, layihə ilə bağlı mobil tətbiq də mövcuddur. Valideynlər həmin kitabı telefonlarına da yükləyə bilirlər. Qeyd edək ki, bu layihəyə böyük maraq doğurmuş, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üçün imkanların təmin olunmasında dəstək olmuşdur.

Bütün bunlarla yanaşı, sağlamlıq imkanları məhdud olanların rastlaşdığı bir çox problem var ki, onlar inkluziv cəmiyyətin yaranmasına və ümumiyyətlə, təhsilli əhalinin yetişməsinə ciddi çətinliklər yaradır. Bu sahədə başlıca problem ölkəmizdə inkluziv təhsil sisteminin tam mövcud olmamasıdır. SİM olan uşaqların sağlam həmyaşıdları ilə birgə təhsili o zaman uğurla gedər ki, qüsurlu uşaqları oxudan ümumi məktəb müəllimləri uşaqların təlim və tərbiyə xüsusiyyətləri barədə tam məlumatlıdır və dərsləri təhsil sisteminin korrektiv istiqamətliliyini nəzərə alaraq keçirirlər.

Bu sahədə başlıca problemlərdən biri də ölkəmizdə inkluziv təhsilin tətbiq olunduğu məktəbəqədər müəssisələr və ümumtəhsil məktəblərinin sağlamlıq imkanları məhdud uşaqlarının sayına nisbətən azlıq təşkil etməsidir. Xüsusilə regionlarda bu uşaqların belə müəssisələrə cəlb olunmasındakı ciddi problemlər, valideynlərin evdə təhsili üstün tutması, xüsusu proqram və dərsliklərin azlığı da belə uşaqların inkluziv təhsilə cəlb olunmasını çətinləşdirir.Ümumtəhsil məktəblərinin müəllimlərinə informasiya və metodiki yardımı həmçinin qüsurlular üçün kitabxanalar göstərə bilər. SİM uşaqların həyatında ciddi irəliləyişlərə səbəb ola biləcək əsas amillərdən biri də müyəssər infrastrukturun yaradılmasıdır. Nəqliyyat strukturu və küçələrin, yolların quruluşu SİM olan şəxslərin müstəqil hərəkət etmlərində ciddi çətinliklər yaradır. Bu baxımdan da qeyd etmək

lazımdır ki, müyəssər infrastrukturun olmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz.

Aparılan araşdırmalara əsasən Azərbaycanda 60 minə yaxın Sağlamlıq imkanları məhdud olan uşaq var. Onlardan yalnız 12 mini təhsilə cəlb olunub, o cümlədən, 1105-i xüsusi məktəblərdə, 2664-ü xüsusi internat məktəblərində, 7750-si evdə, 268-i isə inklüziv təhsil alır. UNICEF-in hesablamalarına görə, Azərbaycanda qeydiyyatdan keçmiş əlilliyi olan 72 000 uşaqdan 54 000 nəfəri ibtidai və orta məktəb yaşındadır. Yəni qeydiyyatda olan məktəb yaşlı əlilliyi olan uşaqların yalnız 20%-i təhsil alır.Onlardan isə yalnız 14638 nəfər təhsilə cəlb olunub. Evdə təqribən 9355 nəfər, xüsusi məktəblərdə 2558 nəfər, xüsusi internat məktəblərində təqribən 2725 nəfər təhsil alır. Yəni ümumilikdə hər 5 sağlamlıq imkanı məhdud uşaqdan 4-ü təhsildən kənarda qalır.

Sağlamlıq imkanları məhdud uşaqların linqvistik və texnoloji biliklərə, həm də, həyat üçün lazım olan bacarıqlara yiyələnmələri üçün inklüziv təhsilin rolu danılmazdır. Belə uşaqların həyata düzgün hazırlanması cəmiyyətin sosial inkişafı deməkdir. Məhz belə bir təhsil qorxu, təhqir, psixoloji və fiziki şiddət, ayrı-seçkilik kimi mənfi halların aradan qaldırılmasına şərait yaradar, saglam ,ümid dolu cəmiyyətin rüşeymini təşkil edər.

Sağlamlıq imkanları məhdud uşaqların təhsili məhz ona görə vacibdir ki, sanki onlar cəmiyyətin gözündən, könlündən uzaqda qalır, vaxtlarının çoxunu evdə keçirir, sosiallaşa bilmirlər. Bu isə onların cəmiyyətə inteqrasiyasının qarşısını alır. Belə uşaqlar məktəbdəki dərslərdə iştirak etmir və müxtəlif fəaliyyətlərə qoşula bilmirlər. Öz bacarıqlarını inkişaf etdirməyə lazımlı şəraiti tapa bilmirlər. Və bir çox halda valideynləri maddi çatışmazlıqlar, təhsil səviyyəsinin aşağı olması səbəbindən övladlarını həyata yaxşı səviyyədə hazırlaya bilmirlər. Həmin uşaqlar gələcəkdə əmək bazarında da iş tapmaqda çox çətinlik çəkirlər.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycanda sağlamlığı məhdud olan uşaqlar digər uşaqlarla təhsil alaraq cəmiyyətə daha rahat və sürətli inteqrasiya etmələri üçün cəmiyyətin inklüziv təhsilə yanaşması müsbətə doğru dəyişməli, təhsilə cəlb olunmuş və təhsildən kənarda qalmış belə uşaqları müəyyən edə bilmək üçün yaradılmış vahid məlumat bazası müntəzəm nəzarətdə saxlanılmalı, onların təhsil alması üçün əlavə xüsusi proqram və dərsliklər müəyyən edilməli, onlarla işləməli olan yetərli sayda kadr hazırlanmalı və gələcəkdə əmək bazarında özlərinə daha rahat və yaxşı yer tuta bilmələri üçün onların bacarıqları inkişaf etdirilməli və münbit şərait yaradılmalıdır. Çünki belə uşaqların yaşama həvəsinin artırılması onların uğurlarının da artmasına səbəb olar.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı. Bakı şəhəri, 19 yanvar 2015-ci il № 995
2. Ağayev Ş., Məmmədova E., Əliyeva X. “İnkluziv təhsil günün tələbidir”. “Azərbaycan məktəbi” jurnalı. Bakı: 2012, №4
3. BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. Yanvar, 2011-ci il.
4. Əlil uşaqların təhsilə cəlb edilməsi ilə bağlı yeni planlar. Təhsil Nazirliyi, Press-reliz- Sual-cavab, 2014-cü il.
5. İnkişaf Proqramının təsdiq edilməsi haqqında fərman (2018-2024 illər) xüsusi qayğıya ehtiyacı olan uşaqların (əlil uşaqlar) təhsilinin təşkili. Azərbaycan Respublikası. 2017. Bakı: Respublikanın Qanunvericilik Toplusu Azərbaycan.
6. İnkluziv siniflərdə təlimin təşkili (2018). Bakı: Oxu materialı. http://www.tipi.edu.az
7. 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud uşaqlar üçün inkluziv təhsilin inkişafı üzrə Dövlət proqramı. Bakı: 2017
8. Qasımov S., Talıbov Y. Əlahiddə pedaqogikanın əsasları. Bakı: 2000, 120 s.

9. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət, beynəlxalq praktika və təkliflər (İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD), Bakı: 2016.
10. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu (2001).
11. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı: "Hüquq ədəbiyyatı", 2010. 80 s.

SUMMARY

Pakiza Mammadova

ORGANIZATION OF EDUCATION FOR CHILDREN WITH DISABILITIES

The article deals with the organization of education of children with disabilities. It was noted that all children, regardless of their health, marital status, skills, religion, race, have the right to education. In conclusion, it is concluded that in order for children with disabilities in Azerbaijan, studying with other children, to integrate more comfortably and quickly into society, the society's approach to inclusive education should change for the better, favorable conditions should be created for their involvement in education and skills development in order to in the future, they could take a more convenient and good place in the labor market.

Key words: *children with disabilities, special schools, social model, inclusive education, general education schoolsizzə*

İLAHƏ ƏLİYEVA
aliyevailahe430@gmail.com
"Naxçıvan" Universiteti
ORCID ID:0009-0002-0780-9243

İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ TƏHSİLDƏ TƏTBİQİ

Müasir dünyada elmi və texnoloji inkişaflar bir tərəfdən yeni təhsil ehtiyacları yaratmaqda, digər bir tərəfdən də təhsil tətbiqlərinə yeni imkanlar təqdim etməkdədir. Bu imkanların başında şübhəsiz kompyuter ilk sıralarda gəlir.

Artıq indiki vaxtda, Kompyuterin cəmiyyət həyatında gedərək yayılması, sabahın dünyasının bu günkündən çox dəyişik, kompleks və irəli səviyyədə olacağı təəssüratını verir.

Hal-hazırda dünyada və Azərbaycanda kompyuter texnologiyasında ictimai həyatın bütün sahələrində istifadə edildiyi kimi təhsil sahəsində də geniş tətbiq edilməkdədir.

Hər kəsə məlumdur ki, XXI əsr texnologiya ən geniş yayılmış sahədir. Müasir dünyada insanların ən yaxın dostu olan kompyuter texnologiyası, o cümlədən ilə bərabər təhsilə, mədəniyyətə və s. təbəqələrə də təsiri danılmazdır. Bu məqalədə "İnformasiya Kommunikasiya Texnologiyalarının təhsildə tətbiqi" məsələləri araşdırılmışdır.

Açar sözlər: *müasir dünya, informasiya kommunikasiya texnologiyaları, yeni təhsil ehtiyacları, yeni imkanlar, internet*

Kompüterin ilk yaranması müxtəlif mərhələlərdən keçmiş və 1946-cı ildə universal adlı kompyuter yaradılmışdır. Artıq indiki vaxtda, Kompüterin cəmiyyət həyatında gedərək yayılması, sabahın dünyasının bu günkündən çox dəyişik, kompleks və irəli səviyyədə olacağı təəssüratını verir. Hal-hazırda dünyada kompüter texnologiyasında ictimai həyatın bütün sahələrində istifadə edildiyi kimi təhsil sahəsində də geniş tətbiq edilməkdədir. Dünyanın bir çox ölkələri bir neçə illərdir ki, bu sahədə bir sıra uğurlu addımlar atmışdır. Məsələn, ABŞ-da kompyuter texnologiyasından əsasən 60-70-ci illərdən geniş istifadə edilməyə başlamışdır, ictimai həyatın müxtəlif sahəsində istifadə olunmağa başlamışdır.Bu sahədə digər Avropa ölkələri bu sahədə öndə gedən ölkələr sırasındadır.

Hər kəsə məlumdur ki, XXI əsr texnologiya ən geniş yayılmış sahədir. Müasir dünyada insanların ən yaxın dostu olan kompyuter texnologiyası, o cümlədən internetin insanlara təsiri ilə bərabər təhsilə, mədəniyyətə və s. təbəqələrə də təsiri danılmazdır. Bu mövzuda fikirlər ikiyə bölünür:

Birinci tərəflər bildirirlər ki, kompüterin təhsilə xeyrindən çox zərəri vardır. Bu kimi insanlar daha çox Sovet təhsil sistemi dəstəkləyənlərdir. İkinci tərəfdə olan fikirlər isə kompüterin təhsildə daha çox xeyirli olduğunu düşünürlər. Onların fikrincə, kompyuter texnologiyası təhsil sahəsində istifadə edilməyə başladıqdan sonra bir sıra yeni metodlar ortaya çıxmış və dərslərin tədrisinə müsbət təsir etmişdir. Bu fikri irəli sürənlər daha çox Qərb dünyası təhsil sisteminə üstünlük verənlərdir (İ,İsmayılov, C.Abdullayev.2006).

Təhsil sistemində müasir informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi bu gün informasiya cəmiyyətinin zəruri tələblərindən, ehtiyaclarındandır. Tam əminliklə demək olar ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti xeyli dərəcədə onlarn İKT-dən səmərəli istifadəsi ilə şərtlənir. Bu baxımdan təhsil sahəsinin informasiyalaşdırılması sürətli inkişaf dövrünü yaşayır.

Müstəqil ekspertlərin rəyinə görə, Azərbaycanın təhsil sistemi bu gün informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin sürətinə və çoxşaxəliliyinə görə digər sahələri üstələyir. «2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı»nın tətbiqinə start verilməsindən sonra bu sahədə əldə edilən aralıq nəticələr yalnız

müsbət qiymətləndirilə bilər.

Artıq bir neçə ildir Azərbaycanda da kompyuter texnologiyasından geniş istifadə edilməyə başlamışdır. Azərbaycanın Avropaya inteqrasiyasından sonra bu sahədə işlər daha da gücləndirildi. Bu təxminən 2000-cil ildən bu günə kimi dövrü əhatə edir. İlk əvvəllər kompyuter sahəsində çox az biliklər var idi insanlarda. Lakin illər keçdikcə bu sahədə geniş biliklər əldə edildi.

Yaşadığımız dövrdə kompyuter texnologiyasının təhsildə rolu çox genişdir. Beləliklə, dünyada, o cümlədən Azərbaycanda istər universitetlərdə,istərsə də məktəblərdə və digər təhsil ocaqlarında artıq bir çox dərslər kompyuterlə idarə olunur. Bu sahədə ilk vasitə kimi internetdən istifadə olunur. Bu sahədə də fikirlər ikiyə bölünür:

İnternetə daxil ola bilənlər və ola bilməyənlər. Bunlar arasında ciddi fərq vardır.İnternetə daxil ola bilməyənlərin qarşısında elə də böyük imkanlar yoxdur. İnternetə girşi olanların isə qarşısında böyük imkanlar durur. Beləliklə, internetə girişi olanlar Azərbaycanda oturmaqla dünyanın bir çox ölkələrinin tələbələri, müəllimləri söhbət imkanları olur. Bundan başqa, ehtiyacı olan kitabı oxumaq imkanı, dünya kitabxanalarına pulsuz baxış, istənilən informasiyanı tapmaq imkanı və s. imkanları vardır. İstənilən cəhətdən kompüterin-internetin təhsilə çoxlu müsbət təsiri vardır. Bu gün müəllimlər(müasir müəllimlər) tələbələrindən internetdən bilik axtarmağa yönəldirlər. Bu həmçinin tələbələrə rahatdır. Məsələn, bir tələbə gedib kitabxana da axtaracağı kitabı evdə oturaraq internet vasitəsilə daxil olaraq əldə edir. Bu həm tələbənin vaxtına qənaət edir, həm də maddi cəhətdən sərfəlidir. Amma bəzən internetdən istənilən informasiyanı tapmaq mümkün olmur. Bu xüsusilə Azərbaycan internet məkanında çox çətindir (İ.Fazilova.2005).

Əslində internetdən qısa və lakonik informasiyaların oxunması daha məqsədə uyğundur. Təbiidir ki, hər hansısa bir romanı internetdə oxumaq qeyri-mümkün deyil. Bugünkü dövrdə internetdə əyləncəli saytların zənginliyi, lakin maarifləndirici məlumatların kasıblığı internetə əyləncə vasitəsi kimi baxanların sayını artırıb. Lakin internet təkcə əyləncə vasitəsi deyil, həmçinin ən geniş yayılmış informasiya vasitəsidir.

Azərbaycanda təhsil mərkəzləri artıq informasiya texnologiyalardan kifayət qədər istifadə edir. Artıq neçə illərdir ki, Azərbaycanda CELT Colleges təhsil-tədris mərkəzi tədrisdə informasiya texnologiyalarından bir çox layihələrdə yararlanır.

Təhsil sisteminin informasiyalaşdırılması prosesi əsasən aşağıdakı istiqamətləri əhatə edir:

Təhsil sisteminin informasiya infrastrukturunun yaradılması. Təhsil sisteminin informasiya infrastrukturu (TSİİ) dedikdə daxilində idarəetmə, monitorinq, akkreditasiya, attestasiya, biliyin qiymətləndirilməsi, servis və s. kimi informasiya-texnoloji mərkəzlərdən təşkil olunmuş vahid informasiya sistemi (VİS) başa düşülür.

VİS təhsildə istifadə olunan elektron avadanlıqlara, elektron tədris vəsaitlərinə və kadrlara tələbatın öyrənilməsini, təhsildə İKT layihələrinə nəzarət üzrə monitorinq və onun nəticələrinin təhlilini təmin edir.

Təhlillərdən çıxarılan nəticələrin, təhsillə bağlı normativ sənədlərin, qanunvericilik aktlarının, əmr və sərəncamların yerlərə operativ və təhrifsiz çatdırılmasının təmin olunması və təhsil fəaliyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi məqsədilə müəssisələrarası elektron sənəd dövriyyəsi təşkil edilməli və təhsil resursları üzrə vahid informasiya bazasının imkanlarından geniş istifadə olunmalıdır. VİS-nin əsas vəzifəsi təhsil müəssisələri arasında rayondaxili, rayonlararası və beynəlxalq informasiya mübadiləsinin təşkilinə və təhsil müəssisələrinin dünyanın elektron informasiya-məlumat mənbələrinə çıxışını təmin etməkdir.

Müəssisələrin idarəetmə və maliyyə fəaliyyətinin avtomatlaşdırılması, təhsil prosesi iştirakçıları arasında normal informasiya mübadiləsinin aparılması məqsədilə müəssisələrarası telekommunikasiya sistemlərinin yaradılması və bu məqsədlə təhsil müəssisələrinin genişzolaqlı internet xətləri ilə təmin olunması və internet resurslarından səmərəli istifadənin, məsafədən təhsil texnologiyalarının təşkili də informasiya infrastrukturunun vacib elementlərindəndir.

Təhsilin informasiyalaşdırılması üçün tədris-metodiki baza dedikdə əsasən elektron tədris materialları və elektron metodiki vəsaitləri özündə saxlayan elektron baza başa düşülür. Bu vəsaitlərin hazırlanmasında baza təhsil planlarının tələbləri ciddi nəzərə alınmalı yeni texnologiyaların üstünlüklərindən, müəllimlərin, proqramçı-dizaynerlərin, psixoloqların bu prosesdə iştirakına nail olunmalıdır. Hazırlanmış bütün elektron tədris vəsaitləri bu məqsədlə xüsusi yaradılmış və müasir maddi-texniki baza ilə təchiz olunmuş təcrübə mərkəzlərində yoxlanılmalı və sertifikatlaşdırılmalıdır.

Setrifikatlaşma əsasən tədris resurslarının texniki, məzmun və dizayn-erqonomika istiqamətlərini dərindən bilən, təhsildə İKT-nin tətbiqi üzrə beynəlxalq və qabaqcıl təcrübəyə yiyələnmiş ekspert rəyləri əsasında aparılmalı, materialların keyfiyyəti xüsusi hazırlanmış metodika üzrə qiymətləndirilməlidir. Təhsil müəssisələrində Elektron kitabxana və elektron kataloqların, mediatekaların yaradılması və virtual kitabxana texnologiyalarının tətbiqinə nail olunmalıdır. Elektron dərs vəsaitlərindən düzgün və səmərəli istifadənin təşkili məqsədi ilə metodiki tövsiyələrin və elektron metodiki-tədris materiallarının hazırlanıb tədris müəssisələrinin istifadəsinə verilməsinə nail olunmalıdır.

Bunlardan əlavə, təhsilin informasiyalaşdırılması məqsədilə tədris-metodiki bazanın yaradılması və ondan səmərəli istifadənin təşkili məsələləri müəssisənin elektron məlumat bazasının (veb portal) yaradılmasını da tələb edir. Təhsil portalı cəzbedici olmaqla bərabər elektron dərsliklər, metodiki vəsaitlər, məlumat-sorğu sistemləri, inkişafetdirici oyunlar, elektron testlər və başqa təhsil yönümlü materiallarla zənginləşdirilməlidir. Portalda fənlər üzrə metodiki dəstəklə bağlı bölmələr yaradıla bilər, orada nümunəvi dərslərin video nümunələrinə geniş yer verilməlidir.

ƏDƏBİYYAT

1. İ.İsmayılov, C.Abdullayev.Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları. Tədrisdə onlardan istifadə metodikası, Bakı: 2006
2. İ.Fazilova. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu. Bakı: 2015
3. Hümeyir Əhmədov. Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları. Bakı: 2013

SUMMARY

Ilaha Aliyeva

APPLICATION OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN EDUCATION

In the modern world, scientific and technological advances, on the one hand, create new educational needs, and on the other hand, open up new opportunities for educational applications. The computer is undoubtedly at the head of these possibilities.

Already at the present time, when the computer is spreading through the life of society, it seems that the world of tomorrow will be much more changeable, complex and advanced than it is today.

Currently, computer technologies are widely used in the world and Azerbaijan in the field of education, as well as in all spheres of public life.

Everyone knows that the 21st century of technology is the most widespread field. Computer technologies, which are the closest friends of people in the modern world, including, along with education, culture, etc. the influence on the layers is also undeniable. This article discusses the issues of “The use of information and communication technologies in education.”

Key words: *modern world, information and communication technologies, new educational needs, new opportunities, Internet*

SƏBUHƏ CƏFƏROVA
sebuheceferzade@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID:0009-0007-4763-6419

DRAM ƏSƏRLƏRİNİN DİLİ

Məqalədə dram əsərlərinin dili, xüsusilə də onun dramatik dilinin lüğət tərkibinin əsas xüsusiyyətləri, üslubi - semantik, üslubi - qrammatik xüsusiyyətləri tədqiq edilmişdir. Xüsusilə nitqin ritmik, melodik axını, fasilə, vurğu və s. kimi intonasiya vasitələri, cümlə üzvlərinin inversiyasına baxmayaraq, fikrin asanlıqla və dəqiq şəkildə ifadəsi üçün sözlər dram dilində ədəbi dil qaydalarına uyğun yerləşmiş, fikrin düzgün ifadəsinə xidmət etmişdir.

Açar sözlər: *dramaturgiya, dil, nitq, intonasiya, ritm*

Ədəbi dilin inkişafında, onun səlisləşməsində bədii ədəbiyyatın rolu olduqca böyükdür. Bədii ədəbiyyatın dili üzərində işləyən ədiblər dilin inkişafına xidmət etməklə yanaşı, dilin mövcud qanunlarının möhkəmlənib sadələşməsində, kütləviləşməsində mühüm rolu oynamışdırlar. XIX əsrdə Azərbaycan ədəbi dilinin sabitləşməsi və inkişaf etməsində xüsusi xidmətlər göstərmiş Mirzə Fətəli Axundovun adının böyük qürur hissi ilə qeyd etmək lazımdır. Böyük ədəbi şəxsiyyət M.F.Axundov bütün fəaliyyəti boyu Azərbaycan dilinin milli müstəqilliyini qorumuş və onun inkişafı uğrunda hərtərəfli mübarizə aparmışdır. Dil sahəsində M.F.Axundovun fəaliyyəti çoxşaxəli olduğundan bəhs edən Afad Qurbanov qeyd edir ki, Axundov dilin elə bir sahəsi, elə bir mühüm məsələsi yoxdur ki, ona toxunmasın, onu qabartmasın. Afad Qurbanov "Müasir Azərbaycan ədəbi dili" kitabında fikirlərini bir qədər də dəqiqləşdirərək yazır: "O, dilin elə bir sahəsi, elə bir mühüm məsələsi yoxdur ki, ondan bəhs etməmiş olsun; belə ki, ədəbi dilin xəlqiliyini qorumaqda, ərəb əlifbasının dəyişdirilməsi sahəsində, orfoqrafiya məsələlərinin qaydaya salınmasında, ədəbi dilin terminlərlə zənginləşdirilməsində M.F.Axundovun çox böyük və xüsusi xidmətləri olmuşdur; o, ilk dəfə olaraq ədəbi dildə dram üslubunun əsasını qoymuşdur" [2, s.42]. Dram əsərləri dövrün ədəbi dil normalarını və özünə qədərki sənətkarların yaradıcılığında mühüm yer tutan əsas ifadə üsullarını özündə əks etdirmişdir.

XIX əsrin sonlarında yazılmış dram əsərlərinin tədqiqi yazıçıların o dövrün ədəbi dilinə münasibətini, ədəbi dilimizin inkişafında xidmətlərini sərgiləyir. Adı keçən əsrin əvvəlləri ictimai həyatın bütün sahələrində ziddiyyətlərin meydana çıxdığı bir dövr idi. "Azərbaycan dramaturgiyası antologiyası" kitabında 1905 – 1907 – ci illərdə Azərbaycan tarixinin ən mürəkkəb və ictimai – siyasi hadisələrlə zəngin dövrlərdən biri olduğu, Azərbaycan mədəniyyəti sürətli inkişaf yoluna qədəm qoyması, kiçikhəcmli pyeslərin, komediyaların yazılmasından bəhs olunmuşdur. Teatrın Azərbaycanda deyil, Yaxın Şərqdə də yarandığı qeyd olunmuş, orada oynanılan əsərlərin müxtəlif mövzuları əhatə etdiyi qeyd edilmişdir: "Dramaturqlar ictimai və mədəni həyatda yeni dövrün başlandığını dərk edir, günün tələblərinə uyğun səhnə əsərləri yazmağa çalışırdılar" [3, s. 13].

XX əsrin əvvəllərində bir qrup ziyalılar panislamizm və pantürkizm mövqeyindən çıxış edərək Azərbaycan ədəbi dilini inkişaf etdirməyə çalışırdılar. Azərbaycan ədəbi dilində ərəb və fars sözləri geniş şəkildə istifadə edilir və ədəbi dilin inkişafına mənfi təsir göstərirdi. Bunların əksinə olaraq, ədəbi dil uğrunda mübarizəyə qalxmış ədəbi şəxsiyyətlər XX əsrin əvvəllərində qələmə aldıqları ilk dram əsərlərini xalq dilinə, canlı danışıq dilinə son dərəcədə yaxın bir şəkildə yazır, ədəbi dili milli zəmin üzərində inkişafına şərait yaradırdılar. Teymur Əhmədov "Nəriman Nərimanovun dramaturgiyası" kitabında dövrün mədəni həyatında teatrın rolunu qiymətləndirərək yazır: Azərbaycan teatrı inqilabdan əvvəl çox mürəkkəb tarixi şəraitdə adi, həvəskar dərnəyi səviyyəsindən professional teatr səviyyəsinə yüksəlmiş, xalqın mədəni və fikir inkişafına ciddi təsir göstərmişdir" [4, s.301].

İlk yaradıcılıq nümunələrində sənətkarların dili öz zənginliyi ilə seçilir. Görkəmli dramaturqlar öz əsərlərini xalq kütləsinin dilindən süzülüb gələn söz və ifadələri, ana dilinin zəngin imkanları əsasında inkişaf etdirirdi. Dramaturqlar öz yazılarını mövcud mətbuatın qarışıq dilinə uyğunlaşdırmağa çalışmamış, əksinə, mətbuat dilini öz üslubuna uyğunlaşdırmağa səy göstərmişdilər. Səadət Vahabova "Bədii nəsrinin dil və üslub xüsusiyyətləri" məqaləsində ifşa strukturunu məcazlarla əlaqələndirmə bacarığı hadisələrin məzmunu və ifadə forması arasında müntəzəmliyi itirmədən, ictimai funksiyalı dildən fərdi şəkildə istifadə edilmə kimi obyektivlik meyarını səciyyələndirməsindən bəhs edərək tutarlı istinad gətirir: "Üslub heç də yalnız texniki üsulların, bədii ifadə vasitələrinin cəmi və formal yığını deyildir. Üslub bunların hamısının üzvi birliyi, sənətkarın həyat və sənət baxışları, əsərin ideya mündəricəsi ilə şərtlənmiş şəklidir. Bitkin və orijinal üslublar bir tərəfdən real varlığı kəşf edirsə, digər tərəfdən müəllifin öz varlığını rəsm edir" [6, s. 237].

Dram əsərlərində fikri qüvvətli və daha emosional şəkildə ifadə etmək üçün frazeoloji vahidlərdən geniş istifadə edilmiş, aydın, yığcam və səlis şəkildə ifadəsinə, canlı dilin lüğət tərkibindən ustalıqla istifadəsinə nail olunmuşdur. Mirzə Fətəli Axundov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid kimi görkəmli sənətkarlar dram əsərlərində bədii dilin əsasında xalq dilini əsas götürərək dil yaradıcılığı sahəsində uğurlar əldə edərək dram əsərlərində bu istiqamətdə mühüm xidmətlər göstərmişdirlər. Dram əsərlərinin lüğət tərkibi şivə sözləri və leksik arxaizmlər, xalis Azərbaycan sözləri ilə yanaşı, alınmalara, o cümlədən, ərəb - fars mənşəli, qəliz izafət tərkibləri təşki etmişdir.

Seyfəddin Eyvazov "Xalq yazıçısı Elçinin dramaturgiyası" kitabında nəsr əsərlərində olduğu kimi dramaturgiyada da üslub fərqinin özünü göstərdiyini qeyd edərək yazır: "İnsanın daxili aləmini açmağa meyl, mənəvi - əxlaqi problemlərin önə çəkilməsi, bədiiliyə uğurla xidmət edən epizm, polifonik istiqamətin məcmuyu, həyat hadisələrinə cəsarətli müdaxilə, fantastik, ictimai – siyasi problemlərə aydın yer ayırmaq, ümumiləşdirmə və fərdiləşdirmə cəhdinin güclü şəkildə qorunması, şərtiliyin imkanlarından maksimum istifadə bunlar dramaturgiyanın qeyd edə biləcəyimiz xüsusiyyətlərindəndir" [5, s.20].

Dram əsərlərinin leksikası, əsərin yarandığı mühiti, ictimai şəraiti əks etdirdiyindən, ədiblərin yaradıcılığının əsas spesifik xüsusiyyətlərini də müəyyənləşdirilmişdir. Belə ki, dram əsərlərinin dilindəki ərəb və fars sözlərinin bir qismi formaca mənşə dildəkindən fərqlənir və Azərbaycan dili qaydalarına uyğun olaraq, işlədilmişdir. Bunlarla yanaşı, dram əsərlərində alınmaların Azərbaycan dilinin fonetik qanunlarına tabe olmayan, ahəng qanununa uyğun gəlməyən nümunələrinə də rast gəlinir ki, bunlar da obraz dilini tipikləşdirmək üçün işlədilmişdir. Bu cür alınmalar izafət tərkibində işlənmişdir və tədricən dildən çıxmmışdır. Dram əsərlərində diqqəti cəlb edən məsələlərdən bir də dini sözlərin tarixi və onların ədibin dildə işlənmə məqamları, quruluş xüsusiyyətləri və söz yaradıcılığında iştirak etmə məsələləri təşkil edir. Qəzənfər Kazımov dramların dilimizin lüğət ehtiyatının zənginləşməsində müstəsna rolu olduğunu, bu sahəyə tutarlı material verdiyini və milli ədəbi dilimizi lüğət ehtiyatı ilə zənginləşdirməkdə böyük rolu olduğunu diqqətə çəkərək yazır: "dram əsərləri bədii əsərlər içərisində xüsusi mövqe tutur və ictimai həyatın müxtəlif hadisələrinə daha həssas olduğu, həmin hadisələri bilavasitə obrazların dili ilə canlandırdığı üçün belə əsərlərdə müəllif son dərəcə rəngarəng nitq vasitələrindən – ümumişlək sözlərlə yanaşı, şivə leksikasından, arxaik sözlərdən, əsərin əsas qəhrəmanlarının sinfi təbiətinə uyğun olaraq, jarqon ünsürlərindən, alınmalardan daha çox istifadə edir, realizm və tipiklik məsələlərinə əməl edərkən sənətkarın alınma sözlərə münasibəti aydınlaşır" [1. s.11].

Ümumiyyətlə, bədii əsərlərin dilində ərəb və fars sözlərinin sintaktik yolla söz yaradıcılığında iştirakı iki üsulla aparılmışdır:

1. Alınma sözlərin Azərbaycan dili sözləri ilə birləşməsi;
2. Ərəb - fars sözlərinin birləşməsi.

Pyes və dram əsərlərində canlı dilin xüsusiyyətlərini qabarıq şəkildə əks etdirən qoşa sözlərə də mürciət edilmişdir.

ƏDƏBİYYAT

1. Kazımov Qəzənfər. Seçilmiş əsərləri. 1-ci cild. Bakı: Nurlan, 2008, 560 s.
2. Qurbanov Afad. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı: 2019. 464 s.
3. Azərbaycan dramaturgiyası antologiyası. Dörd cilddə, I cild, Bakı: Şərq-Qərb, 2007, 472 s.
4. Əhmədov Teymur. Nəriman Nərimanovun dramaturgiyası. Bakı: Nurlar, 2005, 384 s.
5. Eyvazov Seyfəddin. Xalq yazıçısı Elçinin dramaturgiyası. Bakı: ADPU, 2008, 207 s.
6. Haqverdiyev Əbdürrəhim. Həyatı və yaradıcılığı (Kollektiv). Bakı: Elm və təhsil, 2018, 332 s.

SUMMARY

Sabuha Jafarova

LANGUAGE OF DRAMA WORKS

In the article, the language of dramatic works, especially the main features of the vocabulary of its dramatic language, stylistic - semantic, stylistic - grammatical features were studied. Especially rhythmic, melodic flow of speech, pause, emphasis, etc. such as intonation means, despite the inversion of the sentence members, the words were arranged according to the rules of the literary language in the drama language to express the idea easily and accurately, and served the correct expression of the idea.

Key words: *dramaturgy, language, speech, intonation, rhythm*

РЕЗЮМЕ

Сабуха Джафарова

ЯЗЫК ДРАМАТИЧЕСКИХ ПРОИЗВЕДЕНИЙ

В статье изучен язык драматического произведения, особенности лексики его драматического языка, стилистико - семантические, стилистико - грамматические особенности. Особенно ритмичное, мелодичное течение речи, паузы, акценты и т. д. как интонационные средства, несмотря на инверсию членов предложения, слова располагались по правилам литературного языка в языке драмы, чтобы легко и точно выразить мысль, и служили правильному выражению идеи.

Ключевые слова*: драматургия, язык, речь, интонация, ритм*

ELMİN BAXIŞLI
elminbaxisli@mail.ru
Naxçıvan Dövlət Universiteti
ORCID ID:0009-0007-1310-8693

CİNAYƏTİN ANLAYIŞI VƏ ƏLAMƏTLƏRİ

Cinayət Məcəlləsinin 1.4.1-ci maddəsinin məzmununa görə cinayət dedikdə, törədilməsi Cinayət Məcəlləsi ilə qadağan edilmiş təqsirli olaraq törədilən ictimai təhlükəli əməl başa düşülür. Əməl dedikdə, cinayət qanunvericiliyi ilə törədilməsi qadağan edilmiş hərəkət və ya hərəkətsizlik başa düşülür. Hərəkət – insanın iradəvi və fəal davranışıdır. Hərəkətsizlik – ayrı-ayrı hallara görə üzərinə müəyyən hərəkətləri etmək vəzifəsi düşən şəxsin həmin hərəkətlərin edilməməsindən ibarət iradəvi və passiv davranışıdır.

Açar sözlər: *Cinayət Məcəlləsi, İctimai Təhlükəlilik, Təqsirlilik, Hərəkət və ya Hərəkətsizlik, Analogiya.*

Cinayətin anlayışı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 14-cü maddəsində verilmişdir. Orada deyilir: "Bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizlik) təqsirli olaraq törədilməsi cinayət sayılır". Cinayətə verilən bu anlayış əvvəlki cinayət qanunvericiliyində cinayətə verilən anlayışdan fərqlənir. Qüvvədə olan cinayət qanunvericiliyində cinayətə verilən anlayış əməlin təqsirli və cəzalandırılmalı olması kimi əsas əlamətləri özündə əks etdirir. Cinayətə verilən anlayış həm formal, həm də maddi xarakter daşıyır. Əməlin qanunla qadağan olunması formal, əməlin ictimai təhlükəli olması isə onun maddi əlaməti hesab edilir. Cinayət və cəza cinayət hüququnda əsas kateqoriyalardır. Cinayət sosial-hüquqi hadisədir. Cinayətin ictimai aləmdə baş verməsi onun sosial hadisə olmasını ifadə edir. Cinayətin hüquqi hadisə olması cinayət hesab edilən əməlin cinayət qanunvericiliyində nəzərdə tutulması kimi başa düşülür. Cinayət Məcəlləsinin 1.4.1-ci maddəsinin məzmununa görə cinayət dedikdə, törədilməsi Cinayət Məcəlləsi ilə qadağan edilmiş təqsirli olaraq törədilən ictimai təhlükəli əməl başa düşülür. Əməl dedikdə, cinayət qanunvericiliyi ilə törədilməsi qadağan edilmiş hərəkət və ya hərəkətsizlik başa düşülür. Hərəkət – insanın iradəvi və fəal davranışıdır. Hərəkətsizlik – ayrı-ayrı hallara görə üzərinə müəyyən hərəkətləri etmək vəzifəsi düşən şəxsin həmin hərəkətlərin edilməməsindən ibarət iradəvi və passiv davranışıdır. Cinayət hüquq nəzəriyyəsinə əsasən cinayətin aşağıdakı əlamətləri vardır: 1. İctimai təhlükəlilik; 2. Qeyri-hüquqilik; 3. Təqsirlilik; 4. Cəzalandırılmalı olan; 5. Qeyri-əxlaqilik; İctimai təhlükəlilik – əməlin ictimai münasibətlərə ziyan yetirən xüsusiyyətidir. Bu əlamət cinayət sayılan əməlin obyektiv əlamətidir. Bu, o deməkdir ki, qanunvericinin şüurundan asılı olmayaraq, ictimai təhlükəli əməl cinayət qanunvericiliyi ilə qorunması vacib olan ictimai münasibətlərə hər bir halda ziyan vurur. Məhz bu əlamətə görə əməlin 5 (hərəkət və ya hərəkətsizlik) cinayətlər qrupuna daxil edilir və törədilməsi cinayət qanunvericiliyi ilə qadağan edilərək, belə əməllərin törədilməsinə görə dövlət məcburetmə tədbiri müəyyən edilir. Əməlin ictimai təhlükəliliyi ilk növbədə onun qəsd etdiyi ictimai münasibətlərə görə müəyyən edilir (bu münasibətlərin dairəsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 2.1-ci maddəsində öz əksini tapmışdır). Digər tərəfdən əməlin ictimai təhlükəliliyi həmin əməlin yetirdiyi ziyanın miqdarı ilə müəyyən edilir. Lakin bir sıra əməllər zərərli nəticənin baş verməsindən asılı olmayaraq, ictimai təhlükəli hesab edilir (formal tərkibli cinayətlər). Bununla yanaşı, bir qrup əməllər qanunda nəzərdə tutulan nəticə mövcud olduqda və ya belə nəticənin baş verməsi ehtimalı olduqda (mad. 338, 339), ictimai təhlükəli hesab edilir. Eyni zamanda, nəticənin xarakterindən asılı olaraq, Cinayət Məcəlləsində bəzi mzddələrində təhlükəlilik dərəcəsi müxtəlif olan sağlamlığa ağır, az ağır və yüngül zərər vuran cinayətin növləri fərqləndirilir. Bundan başqa, ictimai təhlükəlilik əməlin baş verdiyi zamandan və şəraitdən, eləcə də cinayətin törədilməsi üsulundan da asılı ola bilər (məsələn, mad.

321.2, 329.3, 341.3, 328.4, 340.2, 348.2, 171.2.1., 186.1.2. və s.) Cinayətin ictimai təhlükəliliyi motiv və məqsəddən də asılı ola bilər (məsələn, mad. 120.2.2., 102). Cinayət qanunvericiliyində ictimai təhlükəliliyin kəmiyyət və keyfiyyət tərəfi də fərqləndirilir. Burada cinayətin xarakteri (hansı ictimai münasibətlərə yönəlməsi) əməlin təhlükəliliyinin keyfiyyət, təhlükəlilik dərəcəsi onun kəmiyyət göstəricisi hesab edilir. Cinayətin qeyri-hüquqilik əlaməti əməlin cinayət hesab edilməsinin qanunda göstərilməsini nəzərdə tutur. Cinayətin qeyri-hüquqilik əlaməti ilk dəfə 1958-ci ildə cinayət qanunvericiliyinin əsaslarında göstəriş olmuşdur. Məlum olduğu kimi, əvvəllər cinayət qanunvericiliyində analogiyaya (eynilik, oxşarlıq) yol verildiyi üçün belə hal nəzərdə tutulmurdu. Hazırda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Qanunçuluq prinsipi" adlı 5-ci maddəsində cinayət qanununun analogiya üzrə tətbiqinə yol verilməməsi barədə bilavasitə göstəriş vardır. Bu o deməkdir ki, cinayət qanununda nəzərdə tutulmayan əməli törəmiş şəxs cinayət törətməkdə təqsirləndirilə və cinayət məsuliyyətinə cəlb edilə bilməz. Başqa sözlə, törədilmiş əməl o vaxt cinayət hesab edilir ki, onun törədilməsi cinayət qanunvericiliyi ilə qadağan edilmiş olsun. Qeyrihüquqilik ictimai təhlükəliliyin qanunda ifadə olunan hüquqi formasıdır. Yuxarıda qeyd etdik ki, cinayət qanunvericiliyi 1958-ci ildən etibarən analogiyadan imtina etmişdir. Bundan əvvəlki dövrün cinayət qanunvericiliyində analogiyaya yol verilməsi, bilavasitə qanunda nəzərdə tutularaq qeyd edilirdi ki, "hər hansı əməlin 6 qanunda cinayət olmasına dair birbaşa göstəriş olmadıqda, lakin belə əmələ görə cəza, yaxud da ictimai müdafiə tədbirlərinin tətbiqi zəruri hesab edilərsə, qanunun oxşar cinayətə görə məsuliyyət müəyyən edən normalarına əsasən Cinayət Məcəlləsinin Ümumi hissəsinin müddəalarını rəhbər tutmaqla, belə əmələ görə cinayət məsuliyyətinin həllinə yol verilir" (analogiya institutu yolverilməz olsa da, sovet hakimiyyətinin erkən illərində cinayət qanunvericiliyi mükəmməl olmadığı üçün, bu institut qanunvericilikdə mövcud olan boşluğu aradan qaldırmağa xidmət etmişdir). Təqsirlilik – şəxsin törətdiyi əmələ psixi münasibətidir. Şəxsin törətdiyi əmələ psixi münasibəti cinayət qanunvericiliyinə görə qəsd və ya ehtiyatsızlıq formasında olur (bax: CM, mad. 24). Törədilmiş əmələ psixi münasibət təqsirin heç bir formasında özünü göstərmirsə, əməl cinayət hesab edilir və şəxs bu əmələ görə məsuliyyət daşımır (bax: CM, mad. 25, 26). Bu halda əməl ictimai təhlükəli hesab edilir, lakin təqsir olmadığına görə məsuliyyət yaranmır. Orta əsrlərə qədər şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinin əsasını ziyan yetirən əməlin törədilməsi hesab edilərək, bu əməli törədən şəxsin təqsiri aydınlaşdırılmamışdır. Cinayət cəzalandırılmalı olan əməldir dedikdə, qanunla cinayət sayılan hər bir əmələ görə müvafiq cəzanın nəzərdə tutulması başa düşülməlidir. Qeyd etmək lazımdır ki, cinayət törətmiş şəxs qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada cinayət məsuliyyətinə cəlb edilir. Bu hallar bir sıra cinayət hüquq institutları və Cinayət Məcəlləsinin Xüsusi hissəsinin bəzi maddələrində müəyyən edilmişdir. Məsələn, Cinayət Məcəlləsinin məsuliyyətdən azad etməni nəzərdə tutan 72-75-ci maddələri. Bundan başqa, 88.1-ci maddədə qeyd edilir ki, «yetkinlik yaşına çatmayan (14-18 yaş) ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət (bax: CM, mad. 15) etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirləri tətbiq etməklə onun islah olunması mümkün hesab edilərsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər. Yuxarıda göstərilənlərdən göründüyü kimi, bütün hallarda cinayət törətmiş şəxsə cəza təyin edilmir. Bu hallar cinayətin cəzalanması olan əlamətə malik olması müddəası ilə ziddiyyətli görünsə də, əslində burada heç bir ziddiyyət yoxdur. Belə ki, Cinayət Məcəlləsinin Xüsusi hissəsinin maddələri ilə cinayət hesab edilən hər bir əmələ görə cəza nəzərdə tutulur. Beləliklə, törədilən hər bir cinayət əməlinə görə cəza tətbiq ediləcəyi hədəsi bariz şəkildə bunu göstərir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2020
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Mad.2,3,14,18,66,75,83. Bakı: 2021
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası (prof. F.Y.Səməndərovun redaktəsi ilə). Bakı: 2019.
4. F.Y.Səməndərov "Cinayət hüququ". Ümumi hissə. Dərslik. Bakı: 2019
5. Vəliyev S.Ə. Cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı: 2010
6. Ağayev İ. Azərbaycan Respublikasının cinayət hüququ. Ümumi və Xüsusi hissələr. "Nurlar" nəşriyyatı, Bakı: 2010.
7. Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı: 2016
8. T.M.Qafarov. Cinayət və cinayət məsuliyyəti. Bakı: 1978
9. A.V.Naumov. Rusiya cinayət hüququ. Ümumi hissə. Dərslik. Bakı: 1998

SUMMARY

Elmin Baxışlı

DEFINITION AND SIGNS OF CRIME

According to Article 1.4.1 of the Criminal Code, when we say crime, we mean an act or omission that is criminally negligent. When we say act, we mean a movement prohibited by criminal law. Movement is the deliberate and active behavior of a person. Inaction is the deliberate and passive behavior of a person who is duty-bound to perform certain actions for various reasons.

***Key words**: Criminal Code, Public Danger, Negligence, Action or Inaction, Analogy.*

РЕЗЮМЕ

Елмин Бахышлы

ОПРЕДЕЛЕНИЕ И ПРИЗНАКИ ПРЕСТУПЛЕНИЯ

Согласно статье 1.4.1 Уголовного кодекса, когда мы говорим о преступлении, мы имеем в виду действие или бездействие, которое является уголовно небрежным. Под действием понимается движение, запрещенное уголовным законом. Движение - это умышленное и активное поведение человека. Бездействие - это умышленное и пассивное поведение человека, который обязан совершить определенные действия по различным причинам.

***Ключевые слова**: Уголовный кодекс, Общественная опасность, Небрежность, Действие или Бездействие, Аналогия.*

ELNUR BEHBUDOV
Naxçıvan Dövlət Universiteti

MƏDƏNİYYƏT SİSTEMİNDƏ FİZİKİ MƏDƏNİYYƏTİN YERİ VƏ ROLU

***Açar sözlər**: fiziki mədəniyyət, problem, adaptasiya*

Mədəniyyət cəmiyyətin tarixi inkişafı prosesində formalaşmış maddi və mənəvi sərvətlərin məcmusudur. Mədəniyyət bu və ya digər elm və bilik çalarları baxımından özünəməxsus mənası olan və bir sıra müxtəlif aspektlərdən nəzərdən keçirilə bilən bir hadisədir. Mədəniyyətin müasir tərəflərindən nəzərə çarpan ən mühüm səciyyəvi xüsusiyyət onun get-gedə artan çoxmənalıq və rəngarənglik kəsb etməsidir.

Mədəniyyət (kultura) sözünü ilk dəfə kimin işlətməsi mübahisəlidir. Kultur sözünün qədim mənasını araşdırdıqda belə məlum olur ki, bu təbii olan, Allahın yaratdığı deyil, insan əqlinin məhsulu kimi yaradılan başa düşülür. Son vaxtlara qədər mədəniyyət sözü yalnız ayrı-ayrı xalqlara aid edilmiş, fəlsəfi biliyin tədqiqat obyekti olmamışdır.

İstehsal münasibətlərinin formalaşmağa başladığı, intibah dövr, humanist və maarifçilərin təlimlərinin meydana gəlməsi, mədəni inqilab dövrü mədəniyyətin fəlsəfi tədqiqat obyektinə çevrilməsi dövrü olmuşdur. Mədəniyyət haqqında ilk nəzəri cəhətdən işlənib hazırlanmış təsəvvürlər yeni tarixin mənəvi sərvətinə aiddir. Məhz bu dövrdə mədəniyyət fəlsəfi-nəzəri marağın obyektinə çevrilir, müstəqil anlayış əhəmiyyət kəsb edir.

Hər hansı bir fəlsəfi problem kimi mədəniyyət probleminin də öz tarixi vardır. Problemin tarixi dedikdə fəlsəfə tarixində uzun əsrlər boyu formalaşmış və müxtəlif dövrlərdə bu problemin qoyuluşuna və həllində tətbiq oluna bilən mədəniyyətin klassik modelindən bəhs edən və bu günə qədər həlli araşdırılan ənənə nəzərdə tutulur.

Mədəniyyət, insan fəaliyyətinin müxtəlif sahələrində əldə edilən nailiyyətlərini əks etdirir. Mədəniyyətdə habelə müəyyən tarixi dövrlərdə konkret cəmiyyət, millət və xalqın malik olduğu dəyərlər təcəssüm olunur.

Beləliklə, insanın yaradıcı əməyi mədəniyyətin mənbəyini təşkil edir.

Mədəniyyətin xüsusi elm, bilik sahəsi olduğunu əsaslandırmaq üçün onun predmetini və vəzifələrini digər elm sahələrindən, məsələn, psixologiyadan və sosiologiyadan fərqləndirmək lazımdır. Bir zaman qərbdə geniş yayılmış və mədəniyyəti ancaq abstrksiya kimi təqdim edən cəhdlərə qarşı çıxaraq L.Uayd qeyd edir ki, bu anlayış da digər dil anlayışların olduğu dərəcədə abtraksiyadır. Mədəniyyət ancaq insan cəmiyyətinə xas olan və özünəməxsus qanunlarla inkişaf edən, xüsusi fəaliyyət sahəsini ifadə edən elmi kateqoriyadır. Alim mədəniyyəti bütöv bir sistem kimi götürərək üç yarımsistemə bölür:

1. Maddi cəhətdən ifadə olunmuş alətlərin və onların istifadə olunmasından ibarət olan texnoloji sistem insan fərdlərinin və kollektivlərinin təbii mühütlə əlaqəsi bunun sayəsində mümkün olur, buraya həmçinin istehsal vasitələri, insanın yaşaması üçün lazım olan vasitələr, ev tikmək üçün lazım olan materiallar, hücum və müdafiə vasitələri və s. daxildir

2. İnsanlar arasında əlaqələr və müvafiq davranış tiplərini özündə əhatə edən sosial yarımsistem: bu yarımsistem iqtisadi, siyasi, etnik, hüquqi, hərbi, peşə məşğuliyyəti və s. əhatə edir.

3. İdeoloji yarımsistem: buraya nitq və simvolik formalar vasitəsi ilə ifadə olunan ideyalar, inam, əqidə, biliklər və s. daxildir. Ədəbiyyat, fəlsəfə, din, mifologiya, elm, xalq müdrikliyi və s. burada əks olunur.

Lakin mədəniyyətin mahiyyətini düzgün başa düşmək üçün onu təşkil edən ünsürlərdən birinin və ya digərinin rolunun şişirdilməsi deyil, bu ünsürlərin bir-biri ilə qarşılıqlı əlaqəsinin ziddiyyətli inkişaf prosesini başa düşmək lazımdır. Əslində insanlar mədəniyyətin müəyyən sahəsinə şüurlu şəkildə təsir edirlər. Bu zaman isə onlar ancaq yerinə yetirdikləri ictimai rollar çərçivəsində fəaliyyət güstərirlər.

Mədəniyyət ünsürlərinin kifayət qədər bəlli olan daxili və xarici əlaqəsi ilə xarakterizə olunan sistemdir. Əsas məsələ isə bu əlaqələri aşkara çıxarıb mədəniyyəti real sistem kimi təqdim etməkdən ibarətdir. M.S.Kaqan özünün "İnsan fəaliyyəti" əsərində bu vəzifəni həll etməyə çalışır. O, mədəniyyəti bioloji aspektdən ayrılıqda formalaşmış, özünəməxsus, ancaq insana müəssər olan yaradıcılıq üsulu kimi təyin edir.

M.S.Kaqan mədəniyyət sahəsində "texniki-texnoloji, predmet-məhsul tərəflərinin, eləcə də üç təbəqənin: maddi, mənəvi və bədii mədəniyyətin ayrılıb tədqiq edilməsini" təklif edir. Maddi mədəniyyətdə o iki sahəni: praktiki dəyişdirici və praktiki kommunikativ fəaliyyətə ayırır. Birinci sahəyə maddi istehsalın əşya formasında nəticələri, texniki avadanlıq və s. aiddir. Müəllif istehsal mədəniyyəti ilə bərabər həm də insan nəslinin təkrar istehsalı mədəniyyətini də ayırmağı təklif edir

Filosof mənəvi mədəniyyətin daxili quruluşunu xarakterizə edərkən, hər şeydən əvvəl qeyd edir ki, o insan fəaliyyətinin ancaq iki növünün daxil olduğu maddi mədəniyyətdən fərqli olaraq həm də idrak və mənəvi orientasiya fəaliyyətini əhatə edir. Bədii mədəniyyətin ayrılıqda tədqiq olunması da həmçinin onunla əsaslandırılır ki, incəsənət nadir mədənilik xüsusiyyətinə malik olub insan fəaliyyətinin ona yönəlmiş bütün növlərini öz ətrafında toplayaraq onlardan uzaqlaşması nəticəsində nisbətən müstəqil elm sahələri yarana bilir. Kommununikativ sahəni isə təfəkkür mədəniyyəti, etik mədəniyyət, estetik mədəniyyət və s. kimi təhlili ilə əlaqədar olan müəllifin fikri maraq doğurur.

Müəllif mədəniyyəti bir sistem kimi təqdim etməsinə baxmayaraq, cəmiyyətin inkişafında əsas amillərdən biri olan və cəmiyyətin inkişafının demək olar ki, bütün sahələrini əhatə edən fiziki mədəniyyətin mədəniyyət sistemində yerini və rolunu araşdırmağı nəzərdən qaçırmamşdır. Müasir dövrdə bədii mədəniyyət sahəsində olduğu kimi fiziki mədəniyyətin də ayrılaraq ayrıca bir elm sahəsi kimi öyrənilməsinə ehtiyac duyulmaqdadır.

M.S.Kaqanın fikrincə, mədəniyyət iki əsas funksiyanı yerinə yetirməlidir:

1. Cəmiyyətin təbiətlə vəhdətdə inkişafı üçün onun bütün zəruri şeylərlə təmin edilməsi, daha doğrusu onun neqontropiya-nizamlayıcı səviyyəsinin daim artırılması;
2. Onun çevik, dinamik, məhsuldar, bir sözlə bütün mexanizmlərin fasiləsiz özünü təkmilləşdirilməsinin təmin edilməsi;

Yuxarıda göstərilənlərdən başqa mədəniyyətin adaptiv funksiyası da mövcuddur.

Canlı mühütün özünümühafizə və inkişafını təmin edən adaptasiya funksiyasını eyni zamanda cəmiyyətin də inkişafına aid etmək lazımdır.

Hər hansı bir sistemin adaptasiyası dedikdə təkcə onun mövcudluğu deyil, həm də inkişafı nəzərdə tutulur. Bu baxımdan adaptasiya həyatın ümumi strateğiyasını müəyyən edir, neqontropik funksiya isə bu strategiyanın həyata keçirilməsinə xidmət edir.

Mədəniyyətin ayrıca bir yarımsistem kimi ayrılıb tədqiq olunacaq sahələrindən biri də sosial requlyativ-sosial nizamlayıcı sahəsidir. Bu sistemin müstəqil surətdə tədqiq olunmasını əsaslandırmaq üçün qeyd edək ki, istənilən konkret cəmiyyət müəyyən fərdlər çoxluğunun məsmuusudur. Bu fərdlər müəyyən məhdud mühit məkanında bir-biri ilə qarşılıqlı əlaqədədir. Sosial sistemlərin hərəkət fəallığının daxili mənbəyini məhz fərdlərin bu fəaliyyətində görmək olar. İlkin baxışda elə görünə bilər ki, ayrı-ayrılıqda götürülmüş fərdlərin tələbatını təhlil etməklə mədəniyyəti bir sistem halında nəzəri cəhətdən formalaşdırmaq olar.

ƏDƏBİYYAT

1. Abbasov Ə.F. Yeniləşən cəmiyyət,müasir elmi idaretmə. Bakı: 1998.
2. Ağayev Ə. Pedaqoji fikrimiz, dünənimiz, bu günümüz.
3. Ağayev H. Azərbaycanda uşaq mütəhərrik oyunları. Bakı: 89.

FƏRİDƏ KIRAÇ
kiracferade@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0005-19-40-7948

AZƏRBAYCANDA ƏLİLLİYİ OLAN GƏNCLƏRİN REABLİTASİYASI PROBLEMİ

Məqalə müasir dövr üçün aktual olan əlilliyi olan gənclərin reablitasiya probleminə həsr olunub. Qeyd olunur ki, əlillik anlayışı konkret bir insan və ya bir qrup tərəfindən problem kimi başa düşülməkdən, bütün cəmiyyət tərəfindən ciddi sosial problem kimi qəbul olunmağa qədər doğru bir yol keçmişdir.

Əlilliyi olan gənclərin sosial reablitasiyası probleminin tədqiq edilməsinin əsas istiqamətlərini təhlil edərkən onun bir çox aspektlərinin hələ də lazımi səviyyədə işıqlandırılmadığını vurğulamaq lazımdır. Əlilliyi olan gənclərin sosial reablitasiyasının ən səmərəli model və mexanizmləri, "münaqişəsiz" cəmiyyət və dövlət strukturunun formalaşdırılması problemləri və orada əlillərin tutduğu yer hələ də mübahisəli məsələlər olaraq qalır. Reablitasiya əlilliyi olan şəxslərin hüquqi status üzrə fərdi strategiyalarının həyata keçirilməsi üçün nəzərdə tutulmuş dövlət proqramlarıdır. Əlilliyi olan şəxslərin hüquq və azadlıqlarından istifadə etmələrini təmin etmək üçün reablitasiya mühüm əhəmiyyət kəsb edir, çünki müvafiq xidmətlər olmadan əlillər vətəndaş cəmiyyətinin ayrılmaz hissəsinə çevrilə bilməzlər.

Bu gün əlillərin reablitasiyası, Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətidir və əsasən, əlillərin sosial müdafiəsinin əsas forması kimi, əlillərin həyat keyfiyyətinin yaxşılaşdırılmasına, maksimum sosial və hüquqi mobilliyin əldə edilməsi və saxlanması üçün şəraitin yaradılmasına, fiziki, sosial və peşə qabiliyyətlərinin tam və ya qismən kompensasiyasına yönəlmişdir.

Açar sözlər: *gənc, əlil, cəmiyyət, inteqrasiya, reablitasiya*

Son illərdə əlilliyi olan gənclərin hüquq və azadlıqlarının sosial müdafiəsi siyasətini həyata keçirən reablitasiya və abilitasiyanın əsas formalarına maraq artmaqdadır. Belə ki, bu federal qanunun 9-cu maddəsində göstərilir ki, "əlillərin reablitasiyası - əlillərin məişət, sosial və peşə fəaliyyəti qabiliyyətlərinin tam və ya qismən bərpası sistemi və prosesidir. Abilitasiya isə, öz növbəsində, əlillərin məişət, sosial və peşə fəaliyyəti üçün lazımi qabiliyyətlərinin formalaşdırılması sistemi və prosesidir".

Əlillərin reablitasiya mərkəzi unikal və çox istiqamətli müəssisədir. Burada çalışan mütəxəssislər tibbi, sosial və peşə reablitasiyası kimi istiqamətlərdə fəaliyyət göstərirlər. Bu istiqamətərin hər biri psixofizioloji funksiyaları kompensasiya etməyə, sosial və peşə bacarıqlarını inkişaf etdirməyə yönəlmiş tədbirlər kompleksindən ibarətdir. Mərkəzin fəaliyyəti əsas vəzifənin həllinə - əlilliyi olan şəxslərin sosial statusunun bərpasına yönəlib. Reablitasiya Mərkəzinin mütəxəssislərinin müşahidələri göstərir ki, əlillərlə aparılan qrup çalışmaları çox səmərəlidir, çünki bu cür çalışmalar iştirakçılara sosial qarşılıqlı əlaqədə ilk təcrübələri qazanmağa, həyati situasiyaları öz üzərlərində layihələndirməyə və onları ictimai rəyin köməyi ilə və ya şəxsən psixoloqa müraciət etməklə həll etməyə kömək edir. Ona görə də hər bir qrup məşğələsinin sonunda gənclərdə psixoloji məsləhət almaq istəyi yaranır. "Özünə inan" proqramı çərçivəsində psixoloji dəstəyin dinamikası kağızda (qrup iş jurnalı və psixoloji məsləhət jurnalı) və psixoloji – pedaqoji müşahidənin nəticələrinin qeydə alındığı elektron daşıyıcılarda əks olunur. Hər bir məzunun reablitasiya potensialının qiymətləndirilməsi ilə sosial – psixoloji profil tərtib edilir. Reablitasiya Mərkəzinin mütəxəssisləri tərəfindən göstərilən reablitasiya dəstəyi sosial əhəmiyyətli bilik, bacarıq və vərdişlərin formalaşdırılması və inkişafı yolu ilə əlilliyi olan gənclərin həyat keyfiyyətini və sosial fəaliyyətini yüksəldir.

Əlillər üçün reablitasiya mərkəzlərinin əsas vəzifəsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tövsiyələrinə uyğun olaraq, əmək qabiliyyətli yaşda olan əlillər üçün sosial, peşə reablitasiyası və tibbi dəstək tədbirlərinin həyata keçirilməsidir [Cəfərov İ., 2002, s.14].

Əlilliyi olan gənclərin yaşadığı problemlərin əksəriyyəti sosial – psixoloji xarakter daşıyır. Fiziki, maddi və sosial məhdudiyyətlər əmək fəaliyyətindən ayrılma, sosial dairələrin daralması əlillərdə çaşqınlıq, yararsızlıq, acizlik kimi hisslərin yaranmasına səbəb olur. Əlilliyi olan bir insan çox vaxt tək qalır və keçirdiryi tənhalıq hissi də müəyyən psixoloji narahatlığa səbəb olur. Azərbaycanda həyata keçirilən islahatlar əhalinin sosial problemlərinin həllini əhəmiyyətli dərəcədə ağırlaşdırmışdı ki, bu da ilk növbədə, əhalinin ən həssas kateqoriyasına, xüsusən də əllliyi olan gənclərə öz təsirini göstərir. Bu baxımdan indiki mərhələdə ən mühüm vəzifələrdən biri əlillik problemi olan gənclərlə aparılan reablitasiya işinin səmərəliliyinin artırılmasıdır. Əlillyi olan gənclər pozulmuş şəxsiyyətlərinin bərpasına ehtiyac hiss edirlər ki, bu da səmərəli reablitasiya prosesinin təşkili, o cümlədən tibb müəssisələrində təlim – tərbiyə fəaliyyətinin səmərəli təşkili ilə bağlıdır.

Əlilliyi olan gənclərin müalicə - profilaktika müəssisələrində reablitasiyası hər bir insanın psixofiziki xüsusiyyətlərini və imkanlarını nəzərə almaqla sosial – pedaqoji müdafiəsini və devinat davranışının qarşısının alınmasını və korreksiyasını təmin edən proses hesab edilir [Xolostova E.İ., Dementyeva, 2006, s. 45].

Sosial – mədəni fəaliyyətin nəzəriyyəsi və metodologiyası kontekstində sosial – mədəni reablitasiya, bir tərəfdən, mədəniyyət və əlavə təhsil müəssisələrinin təhsil prosesində, ümumelmi və pedaqoji anlayışların tətbiqi ilə sıx bağlı olan aparıcı kateqoriya kimi çıxış edir , digər tərəfdən isə əlillərin mədəni həyatının təşkilinin mahiyyətini, yəni mütəxəssisin sosial – mədəni sferada birbaşa iştirakı ilə əlilliyi olan şəxsin mədəni inkişafa və özünüinkişafa sövq etməyi əks etdirir. Sosial – mədəni reablitasiyanın mahiyyətinin bu xüsusiyyətləri əlilliyi olan insanların davranışında və şəxsi keyfiyyətlərində baş verən dəyişikliklərdə müşahidə olunur.

Əlillərin sosial-mədəni reablitasiyası sahəsində aparılmış tədqiqatlar müəllifləri (T.V.Qudina, T.A.Zrelova, O.Y.Matsukeviç, Y.S.Mozdakova, D.V.Şamsudinova və başqaları) ümumbəşəri dəyərləri mənimsəmək və mədəni sərvətlərin istifadəsində hüquq bərabərliyi, əlilliyi olan insanların həyat funksiyalarını əhəmiyyətli dərəcədə artırmağa imkan verir. O.Y.Makuçeviçin bu fikiri ilə razışmaq olar ki, məhz sənət sahəsində əlillər sağlam insanlarla rəqabət apara, istedadlarını bütövlükdə mümayiş etdirə bilərlər [Pavlenok P.D., 2009, s. 16].

Bununla əlaqədar olaraq, sosial-mədəni reablitasiya əlilliyi olan şəxsin fərdi xüsusiyyətlərinin bərpasına yönəlmiş, habelə mədəniyyət və sənət aləmində sosial əlaqələrin inkişafının vahid prosesi kimi başa düşülür. Sosial-mədəni reablitasiyanın bu cür başa düşülməsinin aktuallığı təkcə cəmiyyətin əlillərə münasibətində deyil, sosial-mədəni fəaliyyətin pedaqoji sistemindəki inkişaf proseslərinin fəaliyyət dinamikasının aktivləşməsi sayəsində güclənir.Əlillərin sosial-mədəni reablitasiyasının əsas vəzifələri kimi aşağıdakılar nəzərə alınmalıdır:

- Sosial-mədəni texnologiyaların tətbiqinin əsas tərkib hissəsi kimi mövcud vəziyyətin müxtəlif üsullarla korreksiyası sayəsində əlil şəxsin özünün və cəmiyyətlə əlaqələrinin passiv qavranılmasının aradan qaldırılması;
- sosial-mədəni fəaliyyət prosesində musiqi, bədii, ədəbi-poetik və s. növ yaradıcılıq məsələlərinin uğurla həyata keçirilməsi üçün əlillərin fərdi-psixoloji xüsusiyyətlərinin müəyyən edilməsi;
- Əlillərin həvəskar maraqlarını, mənəvi ehtiyaclarını və qabiliyyətlərini nəzərə alaraq, sosial-mədəni mühitdə fərdi davranış tərzlərinin formalaşdırılması;
- sosial-mədəni fəaliyyətdə müxtəlif pedaqoji vasitələrdən, o cümlədən informasiya, təhsil, oyundan və s. istifadə zamanı fərdiliyin təzahüründə dəyişikliyin inkişafı;
- bədii özfəaliyyət yaradıcılığında, adaptiv idman və şəxsiyyətlərarası əlaqələrdə konkret sosial hərəkətlrin yerinə yetirilməsinin səmərəli yollarının öyrədilməsi;

- yaş və fərdi xüsusiyyətləri nəzərə almaqla əlilliyi olan şəxsin yeni sosial-mədəni məkana daxil olması və bu proses nəticəsində ona inteqrasiya olunması mərhələlərinin proqnozlaşdırılması;

Əlillərin humanizm, insanlara inam, müstəqillik, tələbkarlıq kimi şəxsi keyfiyyətlərinin formalaşmasını və inkişafını təmin edən sosial və mədəni amillər toplusunun seçilməsinin əsaslandırılması, əlillərin sosial-mədəni reablitasiyasının sosial adaptasiya, fərdiləşmə və sosial-mədəni inteqrasiya kimi üç mərhələsi nəzərə alınmadan təcrübə yönümlü problemləri həll etmək mümkün deyil.

Müasir cəmiyyətin və onun aparıcı institutlarının modernləşdirilməsi tələblərinə cavab vermək üçün nəzərdə tutulmuş sosial-mədəni reablitasiyanın strukturunun təşkilati məzmununun əsasını müəyyənləşdirmək üçün sistemli, fəaliyyətə əsaslanan, fədri yanaşma prinsiplərindən isatifadə edilir. Sistemli yanaşma gerçəkliyin hadisə və proseslərinin universal əlaqəsini və qarşılıqlı asılılığını əks etdirir. Sistemli yanaşma bizə sosial-mədəni reablitasiyanı sosial əhəmiyyəti olan pedaqoji sistem kimi nəzərdən keçirməyə imkan verir. Onun köməyi ilə pedaqoji sistemdə inteqrasiya olunmuş sistem formalaşdıran əlaqə və münasibətlər üzə çıxarılır, əsas və ikinci dərəcəli komponentlər formalaşır, əlilliyi olan gənclərin şəxsiyyətinin ayrı-ayrı komponentlərinin əhəmiyyəti müəyyən edilir.

Sosial - mədəni reablitasiyanın pedaqoji məsələlərinin öyrənilməsinə sistemli yanaşmanın xüsusiyyətləri aşağıdakılarla bağlıdır:

- ixtisaslaşdırılmış kitabxanaların, sağlamlıq imkanları məhdud uşaqları böyüdən ailələr üçün valideyn – uşaq klublarının, muzeylərin, sərgi mərkəzlərinin, bədən tərbiyəsi və idman klublarının və s. fəaliyyətinin təşkili prosesində ən çox tələb olunan humanist texnologiyaların təsnifatının hazırlanması;

- əlillərin mədəni inkişaf mərhələlərinin, onların prosessual aspektlərinin həm ümumi, həm də şəxsi texnologiyalar əsasında tənzimlənməsi;

- sosial – mədəni sahədə mütəxəssisin, sənət dünyasına daxil olmuş əlillərə münasibətdə humanist, pedaqoji cəhətdən əsaslandırılmış funksiyalarını həyata keçirmək üçün bu tip texnologiyaların səmərəliliyinin üzə çıxarılması;

- ətrafdakı reallığın dərk edilməsi ilə bağlı ümumi sosial davranış normaları haqqında biliklərin möhkəmləndirilməsi;

- gözəlliyi dərk etmək,onu yaratmaq və ən əsası bütün bunlara şəxsi dəyər kimi yanaşmağı öyrətmək.

Fəaliyyətə əsaslanan yanaşma, əlçatan mühitin təşkili qaydalarının həyata keçirilməsi şərti ilə əlillərin bu və ya digər sahədə inkişaf etdirici təcrübənin müəyyən sahələrinə cəlb edilməsinə yönəldilmişdir. Təcrübənin unikal formalarının seçiminin subyektivliyi bir sıra amillərdən, ilk növbədə, əlillərin ətraf məkanı qiymətləndirməsinin mənəvi və əxlaqi əsaslarından, habelə ona ağlabatan, aktiv və düşüncəli uyğunlaşma bacarıqlarından asılıdır. Yuxarıda göstərilən yanaşmanın sosial – mədəni reablitasiyanın təşkili prosesində tətbiqinin səmərəliliyi bir sıra amillərlə müəyyən edilir. Birincisi, fəaliyyət əsaslı yanaşmanın istifadəsi vahid funksiyalar kompleksini həyata keçirməyə imkan verir:

a) inkişafetdirici funksiya: əlillər üçün əhəmiyyətli olan, həm mənəvi ehtiyacların, həm də təhlükəsizlik tələbatlarının məcmusunun əks etdirilməsi;

b) sosiallaşma institutlarında əsas ehtiyacların ödənilməsi üçün məkan hüdudlarının genişləndirilməsi əsasında fəaliyyətin stimullaşdırılmasının təşkili;

c) oriyentasiya, o cümlədən əlillərin fərdi imkanlarına uyğun olan mədəni fəaliyyətlərə şəxsi maraq, sosial- mədəni reablitasiya texnologiyalarının müxtəlifliyi haqqında məlumatlılıq.

İkincisi, fəaliyyət əsaslı yanaşma sayəsində əlillərin sosial-mədəni sferadakı mütəxəssislərlə pedaqoji qarşılıqlı əlaqəsinin ən çox ehtimal olunan vəziyyətlərində konkret hərəkətlərin modellərini, onların müxtəlif növlərinin uyğunluğunu tərtib etmək mümkün olur.

Üçüncüsü, fəaliyyət əsaslı yanaşma sosial-mədəni fəaliyyətin ənənəvi və innovativ formalarından istifadəni nəzərdə tutur: həvəskar studiya və klublarda (teatr, folklor və s.) iştirak,

virtual ekskursiyalara, incəsənət və kitab sərgilərinə baş çəkmək, özünütəhsil və asudə vaxt keçirmək məqsədilə gəzintilər etmək, internetdə ünsiyyət və s. [2].

Bu yanaşmaya görə, sosial-mədəni reablitasiya əlillərin mənəvi gücünün və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsindən ibarət olan humanist funksiyanı nümayiş etdirməyə qadirdir.

Bu fəaliyyət nə qədər müxtəlif olarsa, əlilləri ümumbəşəri dəyərlər sistemi ilə tanış etmək və müvafiq olaraq öz baxışlarını inkişaf etdirmək də bir o qədər səmərəli olacaq. Bununla əlaqədar olaraq, fərdi yanaşma əlilliyi olan şəxsin yaradıcılıq qabiliyyətlərinin müəyyənləşdirilməsi əsasında onun mədəni özünüinkişafı üçün pedaqoji –psixoloji şərait yaratmağa, habelə onun unikallığını və dəyərini dərk etmək üçün öz hərəkətini təşkil etməyə imkan verir. Bütün bunlar əlilliyi olan gəncə özünü təkmilləşdirməyə olan tələbatda öz mədəni inkişafını dərk etməyə imkan verir.

Əlilliyi olan gənclərin sosial statusunun bərpası, onun uğurla inteqrasiya etmək qabiliyyətinin formalaşması şəxsi inkişafın, təlim və tərbiyənin optimallaşdırılması prosesində həyata keçirilir, korreksiya işləri aparmaqla xüsusi yardım və sosial müdafiənin təmin edilməsini tələb edir.

Aparılmış təhlillər nəticəsində məlum olmuşdur ki, əlillərin reablitaiyası ilə bağlı müasir təsəvvürlər Azərbaycanda sürətli inkişaf yolu keçmişdir (tibbi modeldən, sosial - əmək modelindən sosial-hüquqi modelə qədər). Əlilliyin təcridedici paradiqması inteqrasiya paradiqması ilə əvəz olundu və bu, reablitasiya modellərinin dəyişməsinə səbəb oldu.

Tədqiqat zamanı reablitasiya prosesini bir neçə aspektdən nəzərdən keçirmək təklif edilir:

- əlillik səviyyəsinin azaldılması və əlillərə sosial yardımın göstərilməsi üçün məqsədyönlü səylərin həyata keçirilməsi prinsipi kimi;
- əlillərin sağlamlığının bərpa edilməsinin tarixi inkişaf etdirici sistemi kimi;
- sosial həyat və ictimai münasibətər sisteminin təzahürü kimi;
- əlilliyin mənfi nəticələrinin aradan qaldırılmasının əsas yolu kimi.

Əldə edilmiş materialların təhlili nəticəsində reablitasiyaya müxtəlif münasibətləri ilə, reablitasiya proqramlarının yerinə yetirilməsi zamanı müxtəlif davranışları ilə fərqlənən bir neçə əlil qrupu müəyyən edilmişdir. Reablitasiyaya münasibətlə əlaqədar aşağıdakı əlil növləri fərqləndirilmişdir:

1. Uyğunlaşan tip – (reablitasiya prosesinin özünə maraq göstərmədən yalnız müəyyən bir müavinət və ya müavinət paketi almağa yönəlmə) ;

2. Adaptiv tip – (ümumiyyətlə, əlil reablitasiya prosesinə daxil olmağa istiqamətlənib, bunu hazırda onun üçün ən vacib bir məqam kimi dəyərləndirir, reablitasiyanın davamı isə onun əldə edəcəyi müsbət və ya mənfi nəticələr sayəsində müəyyən edilir)

3. Ənənəvi tip – (əlillər adət etdikləri reablitasiya növlərini - tibbi tədbirləri, sosial proqramları uğurla yerinə yetirdikləri halda, peşəkar reablitasiya ilə maraqlanmır və ya ona ehtiyatla yanaşırlar).

4. İnkaredici tip – reablitasiyaya və onun təşkili forması olan fərdi reabıitasiya proqramına mənfi münasibət.

5. Fəal qavrayıcı – bu, sosial inteqrasiya problemi ilə fəal surətdə məşğul olan Qərb tipli reablitasiya olunan əlildir.

Araşdırmalar zamanı əldə edilən narahatedici nəticələrdən biri ondan ibarətdir ki, pozulmuş funksiyaların bərpası olan reablitasiya sosial proses kimi, həm bu barədə məlumatlı olmaq, həm bu prosesdə faktiki iştirak etmək, həm də reablitasiya proqramlarının həyata keçirilməsi baxımından bir çox hallarda əlillər üçün qapalı proses olaraq qalır.

Nəticə. Əlilliyi olan gənclərə münasibət onların cəmiyyətin gündəlik həyatına nə dərəcədə daxil olmasından asılıdır. Fiziki mühitin, o cümlədən mənzil, nəqliyyat, təhsil, iş və mədəniyyət, informasiya və kommunikasiya kanallarının əlçatanlığı əlillərin müstəqil yaşaması üçün əsas şərtdir. Əlçatan yaşayış mühiti əlilliyi olan gənclərin cəmiyətə inteqrasiyasında həlledici amildir. Maneəsiz mühitin yaradılmasının zəruriliyi beynəlxalq müqavilələr və milli qanunvericilikdə şərh olunur; əlçatanlığın təmin edilməsi insan hüquqları kontekstində müasir müzakirələrin ən aktual məsələlərindən biridir.

Əlilliyi olan gənclərin cəmiyyətə uğurlu inteqrasiyasının açarı onların sosial infrastruktur obyektlərinə maneəsiz çıxışı üçün şəraitin yaradılmasıdır. Başqa sözlə, ictimai nəqliyyat vasitələri, yaşayış binaları, ictimai və istehsalat binaları, idman obyektləri, təhsil müəssisələri, mədəni - əyləncə obyektləri və istirahət obyektləri mülkiyyət formasından asılı olmayaq əlillərin, xüsusilə də əlil arabalarında istifadə edənlərin giriş- çıxışı və hərəkəti üçün uyğunlaşdırılmalıdır. Mövcud ictimai və sosial infrastrukturun formalaşdırılması və uyğunlaşdırılması əlilliyi olan insanların əmək və sosial fəallığını əhəmiyyətli dərəcədə stimullaşdıracaq, onların yerli birliklərin həyatına daxil olmasına, sosial sərbəstliyə və iqtisadi müstəqillik əldə etməsinə kömək edəcəkdir.

ƏDƏBİYYAT

1. Cəfərov İ. Azərbaycan Respublikasında təqaüdçülərin, veteranların, əlillərin və şəhid ailələrinin hüquqları. İqtisadi – hüquqi Maarifçilk Mərkəzi. –Bakı: 2002.-64 s.
2. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının qanunu
3. Павленок, П.Д. Технологии социальной работы с различными группами населения: учеб.пособие/ - М.: ИНФРА –М.: 2009.- 272 с.
4. Холостова Е.И., Дементьева Н.Ф. Социальная реаблитация. М.: Дашков и Ко, 2006. 340 c.https//www.studmed/ru/holostova–el-dementeva-nf-socialnaya reablitaciya_0d9893820dc/html

SUMMARY

Farida Kiraj

THE PROBLEM OF REHABILITATION OF YOUTH WITH DISABILITIES IN AZERBAIJAN

The article is devoted to the problem of rehabilitation of young people with disabilities, which is relevant for modern times. It is noted that the concept of disability has come the right way from being understood as a problem by a specific person or group, to being perceived by the whole society as a serious social problem.

When analyzing the main directions of studying the problem of social rehabilitation of young people with disabilities, it should be emphasized that many of its aspects are still not adequately covered. The most effective models and mechanisms of social rehabilitation of young people with disabilities, the problems of forming a “conflict-free” society and state structure and the place occupied by people with disabilities in it still remain controversial issues. Rehabilitation is state programs designed to implement individual strategies of persons with disabilities on legal status. Rehabilitation is of paramount importance to ensure that persons with disabilities enjoy their rights and freedoms, since without appropriate services, people with disabilities cannot become an integral part of civil society.

Today, rehabilitation of persons with disabilities is a priority direction of the state policy of Azerbaijan, and mainly as the main form of social protection of persons with disabilities, aimed at improving the quality of life of persons with disabilities, creating conditions for obtaining and maintaining maximum Social and legal mobility, full or partial compensation of physical, social and professional abilities.

***Key words**: young, disabled, society, integration, rehabilitation*

MEHRİN İMANOVA
mehrinmehdiyevaadu@gmail.com
Naxçıvan Dövlət Universiteti

PEDAQOJİ PROSESDƏ DİDAKTİK OYUNLARIN ƏHƏMİYYƏTİ

"Azərbaycan Respublikasında təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda əsas istiqamətlərdən biri şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması ilə bağlıdır. Mühüm aktuallığı ilə səciyyələnən bu dövlət sənədində şəxsiyyətin inkişafı və formalaşdırılmasında, məktəblilərin idrak fəallığının yüksəldilməsində didaktik oyunlardan, müxtəlif fəallaşdırıcı forma və metodlardan istifadə edilməsi göstərilir. Kurikulum materiallarında da fənlərin tədrisində rollu və didaktik oyunlardan istifadənin mühüm əhəmiyyət kəsb etdiyi və bundan təlim prosesində istifadə edilməsi vurğulanmışdır. Bu sənəddə göstərilir ki, *"Rollu və didaktik oyunlar hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı, müxtəlif rollara girməyi tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir. Əsasən ədəbiyyat, tarix, həyat bilgisi, ingilis dili dərslərində oxuduğunu daha dərindən dərk etmək üçün didaktik oyunlardan istifadə edilməlidir"*. Ona görə ki, didaktik oyunlar məktəblilərə biliklərin mənimsədilməsində, elmlərin əsaslarının öyrədilməsidnə, onların idrak fəallığının yüksəldilməsində, intellektual səviyyəsinin artıtıllmsında və şəxsiyyətyönümlülük təlimidə mühüm əhəmiyyətə malikdir.

Tədris prosesində didaktik oyunlardan, fəallaşdırıcı metodlardan istifadə şagirdlərin kreativ düşüncəsinin inkişfaında, idrak fəallığının yüksəldilməsində və ümumiyyətlə, şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

Pedaqoji prosesdə məktəblilərin yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması, idrak fəallığının yüksəldilməsi istiqamətində təhsil müəssisələrimizdə didaktik oyunların təşkilinə dair dəyərli iş təcürbələri toplanmışdır.

Didaktik oyunların məqsədyönlü, planlı, mütəşəkkil olaraq təşkili şagirdlərin bilik, bacarıq, vərdişlər sistemini genişləndirməklə yanaşı, onların sosiallaşmasında da əhəmiyyətli rol oynayır. Həmiçinin didaktik oyunların təşkili zamanı şagirdlərin bədii yaradıcılıq qabiliyyətləri, insanlarla düzgün ünsiyyət və münasibətləri, mənəvi, əxlaqi keyfiyyətləri də inkişaf edir.

Pedaqoji prosesdə didaktik oyunlar vasitəsilə məktəblilərin idrak fəallığına cəlb edilməsi onların bədii yaradıcılığının, yaradıcı təfəkkürünün və təxəyyül səviyyələrinin yüksəltməsinə də qüvvətli təsir edir. Bu prosesdə şagirdlərin qabiliyyətlərinin aşkara çıxarılması onların istedadlılıq və talantlılıq səviyyəsinin də yüksəldilməsinə kömək etmiş olur. Bu baxımdan didaktik oyunların kreativ təşkili zamanı ibtidai sinif şagirdlərinin yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması onların məqsədyönlü fəaliyyətinin müvəffəqiyyətli icrasına çevrilmiş olur.

Tədris prosesidnə didaktik oyunlardan bacarıqla və yaradıcı şəkildə istifadə etməklə şagirdlərin idrak fəallığının yüksəldilməsinə, təlimə müsbət motivasiya yaradılmasına, kreativ düşüncənin inkişafına, şəxsiyyətin sosaillaşmasına və bütövlükdə inkişafına nail olmaq olar.

VÜSAL SƏFƏROV
Naxçıvan Dövlət Universiteti

EMOSİONAL MÜHİT AMİLİ ŞƏRAİTİNDƏ TƏLƏBƏ-GƏNCLƏRDƏ MİLLİ MƏNLİK ŞÜURUNUN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Emosional mühit, insanların duyğusal və psixoloji sağlamlığına təsir edən faktorları əhatə edir. Bu mühit, insanların üzərində hiss etdikləri müxtəlif duyğuları özündə əks etdirir.. Tələbə-gənclər üçün emosional mühit, öyrənmə prosesində, sosial münasibətlərdə və özünə inamın formalaşmasında vacibdir. Tələbə-gənclər üçün milli mənlik şüurunun formalaşması, həm təhsil müəssisələrinin, həm də sosial mühitlərin təsiri altında baş verir. Bu, bir şəxsin öz milli mənlik və dəyərlərinə qarşı məsuliyyətini tanıma, onları qorumaq və inkişaf etdirməyə dair bir anlayışı ifadə edir. Emosional mühit amili şəraitində tələbə-gənclərdə milli mənlik şüurunun inkişafı mümkündür. Bu halda, təhsil müəssisələri və sosial təşkilatlar tələbə-gənclərin milli mənliklərini qorumaq, dəstəkləmək və gücləndirmək üçün proqramlar və tədbirlər təşkil etməlidir. Ümumiyyətlə, emosional mühitin təsiri altında tələbə-gənclər milli mənlik şüurunu inkişaf etdirə bilərlər, amma bu proses müsbət mühit və dəstək tərəfindən dəstəklənməlidir.

Açar sözlər: *emosional mühit, tələbə, gənc, milli mənlik şüuru*

Emosional mühit fərdin emosional sağlamlığına və ümumi rifahına təsir edən amillər məcmusudur. Bu konsepsiya fərdin münasibətləri, təcrübələri və daxili prosesləri ilə müəyyən edilir. Müsbət emosional mühit insanların emosional ehtiyaclarını dəstəkləyən təhlükəsiz, isti və xoş mühiti, mənfi emosional mühit isə stress, narahatlıq, qorxu və təklik kimi mənfi emosiyaları artıran və ya gücləndirən mühiti təmsil edir.

Emosional mühit bir çox müxtəlif amillərdən təsirlənir. Bunlara insanın sosial mühiti, ailə münasibətləri, iş mühiti, məktəb mühiti, icma normaları, mədəni amillər, keçmiş təcrübələr və şəxsi daxili proseslər kimi elementlər daxildir. Məsələn, fərdin ailəsində və ya iş mühitində müsbət münasibətlər onun emosional ehtiyaclarını ödəməyə və ümumi xoşbəxt həyat sürməyə kömək edə bilər. Ancaq əksinə, daimi stresli iş mühiti və ya zəhərli əlaqələr fərdin emosional sağlamlığına mənfi təsir göstərə bilər.

Müsbət emosional mühitin bir çox faydası var. İnsanlar özlərini daha təhlükəsiz hiss edir, daha xoşbəxt və məmnun olur, stress səviyyələri azalır və münasibətləri daha möhkəm olur. Bundan əlavə, müsbət emosional mühit insanların motivasiyasını artıra, məhsuldarlığı artıra və ümumi həyat keyfiyyətini yaxşılaşdıra bilər.

Mənfi emosional mühitin bir çox zərərləri var. İnsanlar daha çox stress yaşayır, depressiya və narahatlıq kimi psixi sağlamlıq problemləri yaşayır, münasibətləri zəifləyir və ümumi həyat keyfiyyəti azalır. Bundan əlavə, mənfi emosional mühit iş performansına və məktəb uğuruna mənfi təsir göstərə bilər [3, s. 7].

Emosional mühit çox vaxt cəmiyyət tərəfindən idarə oluna və ya təsir altına alına bilər. Məsələn, şirkət işçilərin emosional ehtiyaclarına cavab verən dəstəkləyici iş mühiti təmin etməklə müsbət emosional mühit yarada bilər. Universitetlər tələbələrə dəstək verən sosial və emosional öyrənmə proqramları vasitəsilə müsbət emosional mühit yarada bilər. Cəmiyyətlər insanları bir-birini dəstəkləməyə təşviq edərək və ictimai həmrəyliyi artıraraq müsbət emosional mühit yarada bilər. Nəticə olaraq, emosional mühit fərdlərin emosional sağlamlığına və ümumi rifahına əhəmiyyətli təsir göstərən mürəkkəb bir anlayışdır. Sağlam və dəstəkləyici emosional mühitin yaradılması fərdlərin və cəmiyyətlərin rifahını artırmaq üçün vacibdir.

Milli mənlik şüuru insanların öz milli kimliyini tanıyıb qəbul etmək və bu kimliyə sadiq qalmaq qabiliyyəti ilə bağlıdır. Bu şüuru inkişaf etdirmək bir millətin və ya etnik qrupun üzvləri arasında birlik hissi yaratmağa kömək edir. Milli mənlik şüuru insanların öz milli tarixləri və sivil irsləri ilə

əlaqələrini qəbul etmələrini və qiymətləndirmələrini təmin edir. Bu, insanların bir-birinə və özlərinə daha yaxın hiss etmələrinə, öz milli tarixlərinə qətiyyətlə bağlı olmağa kömək edir.

Dil milli şüurun ən mühüm elementlərindən biridir. Bir xalqın dilini bilmək, onun sivilizasiyasını dərk etmək milli şüurun inkişafında mühüm rol oynayır. Milli şüuru gücləndirmək üçün sivilizasiya, musiqi, ədəbiyyat, ictimai tədbirlər və digər mənbələr mühüm əhəmiyyət kəsb edir.

Bu, insanların milli məqsədlərə çatmaq və millətə xidmət etmək üçün birlikdə işləmək üçün daha həvəsli olmasına kömək edir.

Tələbələrin milli şüuru millətin bir parçası olmağı dərk etməklə yanaşı, milli kimliyə, mədəniyyətə və dəyərlərə bağlılığını ifadə edir. Bu konsepsiya gənc nəslin öz ölkəsinə, cəmiyyətinə və mədəniyyətinə mənsubluq hissini dərk etməyi və dəyərləndirməyi əhatə edir. Milli mənlik şüuru gənclərin öz milli tarixini, mədəniyyətini, dilini, adət-ənənələrini öyrənərək qoruyub saxlaması ilə formalaşır. Bu proses gənclərə öz şəxsiyyətlərini kəşf etməyə və onları bir araya gətirən ümumi dəyərləri paylaşmağa kömək edir. Milli kimlik şüuru cəmiyyətin bir parçası olmaq məsuliyyətini də ehtiva edir; yəni gənclərin öz ölkəsinə və cəmiyyətinə töhfə vermək, inkişaf etdirmək istəyini əhatə edir. Milli kimlik şüurunun inkişafını ümumilikdə təhsil sistemi, mədəni tədbirlər, sosial mühit və ailə mühiti təmin edir. Tələbələrə milli tarix, mədəniyyət və dəyərlər haqqında dərslər keçirilir, milli bayramlar qeyd olunur. Mədəni tədbirlər gəncləri ənənəvi rəqs, musiqi və incəsənət kimi elementlərlə tanış edir. Mövcud informasiya mənbələri gənclərə öz ölkəsinin və cəmiyyətinin tarixi, uğurları və çətinlikləri haqqında öyrədirsə, ailələr milli dəyərlərə bağlılığı təşviq edir və mənsubiyyət hissini gücləndirir.

Milli mənlik şüuru gənclərin ictimai-siyasi həyatda iştirakına da təsir edir. Gənc ölkəyə və cəmiyyətə bağlılığı ilə bağlı daha şüurlu və məsuliyyətli vətəndaş olmağa meyllidir. Gənclər ortaq kimlik və məqsəd ətrafında birləşdiyi üçün milli şüur həm də ictimai birliyi və həmrəyliyi artırır. Bununla belə, milli mənlik şüuru ekstremizm və ya təcrid kimi mənfi nəticələrə də gətirib çıxara bilər. Bəzi hallarda gənclər öz milli şüurunu ifrata çatdıra, başqa mədəniyyətlərə və millətlərə qarşı düşmənçilik hiss edə bilərlər. Odur ki, milli kimlik şüurunun sağlam inkişafı üçün təhsildə tarazlıq və tolerantlıq vacibdir. Nəticədə xalqın milli şüuru öz ölkəsinə, cəmiyyətinə, mədəniyyətinə bağlılığını ifadə edir. Bu gənclərə öz şəxsiyyətlərini anlamağa və cəmiyyətə töhfə verməyə kömək etməklə yanaşı, cəmiyyətin bir parçası olmaq məsuliyyətini də özündə ehtiva edir. Gənclərin milli mənəvi şüuru da müxtəlif amillərin təsirinə məruz qalır və emosional mühitin bir hissəsi kimi inkişaf edir [4, s. 7-17].

Təhsil prosesi, öyrənənlərin yalnız mədəni və intellektual inkişafını dəstəkləmək deyil, həm də onların emosional mühitini inkişaf etdirməyə də nail olmalıdır. Emosional mühit, təhsilin əsas bir hissəsidir və öyrənənlərin özündən və digərlərindən dəstək alaraq öz potensiallarını daha yaxşı şəkildə inkişaf etdirmələrinə kömək edir. İdeal bir təhsil mühiti yaradılması üçün bir neçə əsas prinsip var:

1. Müəllimlər və tərbiyəçilər arasında dəstək və empati mühüm rol oynayır. Öyrənənlərin problemlərinə dəyər verilən, onların duyğularına ehtiram göstərən və ehtiyac duyduqları zaman kömək edən bir mühit yaradılmalıdır.
2. Təhsil prosesi, öyrənənlərin yaratıcılıq və təşəbbüskarlığını dəstəkləməlidir. İnnovativ metodlar, müəllimlərin və tələbələrin yeniliklərə cəsarət etməsini, yaratıcılığını artırmağa kömək edir.
3. Pozitiv mühit öyrənmə prosesini təşvik edir. Qəbul edən, dəstəkleyən və tərəfdaşlıq təşkil edən bir mühit, öyrənənlərin öz inkişafında daha çox inamlı olmalarına kömək edir.
4. Öyrənənləri təşviq etmək və onları motivasiyalandırmaq mühüm bir həftedir. Hədəf qoyulduğunda və bu hədəflərə nail olduğunda, öyrənənlər daha motivasiyalı və məqsədə yönlənmiş olurlar.
5. İnteraktiv dərslər, tələbələrin daha maraqlı olmasına və öyrənənlərin bir-biriləri ilə birlikdə işləməsinə kömək edir. Bu, onların emosional mühitini də inkişaf etdirmələrinə yardımcı olur.

6. Ətraflı və inklüziv mühit, öyrənənlərin müxtəlifliklərı qəbul etmələrinə kömək edir və hər kəsin hiss etdiyi və dəyər verdiyi bir mühit yaradır [5,s. 20-21].

Bu prinsiplər, təhsil prosesində emosional mühitin qurulması üçün əsaslı və əhəmiyyətli addımlardır. Bu mühit öyrənənlərin sərbəst fikirlərini ifadə etmələrinə, öz potensiallarını maksimal səviyyədə inkişaf etdirmələrinə və həyat boyu öyrənmə prosesinə maraqlanmalarına kömək edir.

Tələbələrin milli mənlik şüurunun inkişafında emosional mühitin oynadığı rolu anlamaq üçün ilk növbədə hər iki anlayışı ayrıca müəyyənləşdirmək vacibdir. Emosional mühit fərdin emosional sağlamlığına təsir edən amillər toplusudur. Bu amillərə insanın ətraf mühiti, münasibətləri, təcrübələri və daxili prosesləri kimi elementlər daxildir. Digər tərəfdən milli şüur fərdin özünü bir millətin bir parçası kimi dərk etməsi və həmin xalqın mədəniyyətinə, tarixinə və dəyərlərinə bağlılığına aiddir. Tələbələrin milli mənəvi şüurunun inkişafında emosional mühitin oynadığı rol müxtəlif yollarla təsirli ola bilər:

1. Sağlam və dəstəkləyici ailə mühiti tələbələrin özlərini təhlükəsiz hiss etmələrini təmin edir. Ailə üzvləri arasında milli mədəniyyətin və dəyərlərin əhəmiyyəti vurğulansa, gənclər bu dəyərlərə daha çox bağlılıq hiss edə bilərlər.
2. Təhsil müəssisələri gənclərə milli tarix, mədəniyyət və dəyərlər haqqında maarifləndirmə yolu ilə milli şüurun inkişafına töhfə verə bilər. Milli kimliyi tərənnüm edən fəaliyyət və proqramlar gəncləri bu məsələlərdən daha çox məlumatlandıra bilər.
3. Gənclərin yaşadıqları cəmiyyətin mədəni və sosial dinamikası onların milli şüurunun formalaşmasında mühüm rol oynayır. Müsbət sosial mühit milli kimliyi təşviq edə, mənfi mühit isə bu kimliyi zəiflədə və ya rədd edə bilər.
4. Hər bir fərdin şəxsi təcrübələri və daxili prosesləri milli şüurun inkişafına təsir göstərir. Xüsusilə, gənclərin öz milli kimliklərini və bu kimliklə necə əlaqəli olduqlarını kəşf etmək üçün daxili bir proses yaşamaları adi haldır [7, s. 364].

Nəticədə gənclərin milli mənəvi şüurunun inkişafında emosional mühit mühüm rol oynayır. Ona görə də gənclərin emosional ehtiyaclarını ödəyən, milli kimliyi gücləndirən emosional mühitin təmin edilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2003.
2. Əliyev B.H. Şəxsiyyətə yeni baxış./Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları. Bakı: Renessans, 1998, s.
3. Əliyev N.A., Adıgözəlova G.K. Cəmiyyətin psixi sağlamlığı problemlərinə müasirlik və islami mövqelardan baxış. // Azərbaycan Psixiatriya Jurnalı, №2(9) 2004, s.7.
4. Psixi sağlamlığın qorunmasına dair Avropa bayannaməsi // Azərbaycan Psixiatriya Jurnalı, Ne12, 2006, s.7-17.
5. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiyası və strategiyası. //Təhsil xəbərləri (TN-nin məlumat-informasiya məcmuəsi). Bakı: Pedaqogika, 2007, s.20-21.
6. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013.
7. Cahangirov, A. (2020). Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları. Bakı: Şərq-Qərb, 364 s.
8. Əliyev, H. (2002). Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev). Bakı: Təhsil, 580 s.
9. Братусь Б.С.. Розовский И.Я., Цапкин В.Н. Психологические проблемы изучения и коррекции аномалий личности. М.: Московский Университет, 1988, с. 40.
10. Васильева О.С., Филатов Ф.Р. Психология здоровья человека. М.: Академия, 2001.

SUMMARY

Vusal Safarov

SPECIFICATIONS OF POPULAR DEVELOPMENT OF NATIONAL SELF IN YOUTH STUDENTS UNDER EMOTIONAL ENVIRONMENT FACTOR

The emotional environment includes factors that affect people's emotional and psychological health. This environment reflects the various emotions that people feel in their essence. The emotional environment for young people is important in the learning process, in social relations and in the formation of self-confidence. The formation of national moral consciousness in students takes place under the influence of both educational institutions and social circles. It expresses the concept of realizing the responsibility of a person towards his national values and values, protecting and developing them. It is possible to form national consciousness in the society in the emotional environment. In this case, educational institutions and public organizations should prepare programs and measures to protect, support and strengthen the national spirituality of students. In general, under the influence of an emotional environment, demand groups can develop national moral consciousness, but this process must be supported by a positive environment and support.

Key words: *emotional environment, demand, youth, national consciousness*

PAKİZƏ KƏRİMOVA
pmemmedova588@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009000514152085

ŞEİR DİLİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

XIX əsr şeir dilinin üslubi imkanları sənət dili və bədii nitq mədəniyyəti baxımından nəzərdən keçirilmişdir. Azərbaycan poeziyasının xalq həyatı ilə qaynayıb qarışmasında rolu olan sənətkarlar şeir dilimizin mənəvi sərvətlərindən, ədəbi dilimizin imkanlarından bəhrələnərək böyük xidmətlər göstərmişdirlər. Görkəmli sənətkarlar şeir dilini ifadə imkanları ilə təmin edən vasitələr (səs ahəngi, ritm, qafiyə uyğunluğu, sözlərin fərqli ifadəsi və s.) baxımından yaddaqalan sənət əsərləri yaratmışdırlar.

Açar sözlər: *şeir dili, XX əsrin əvvəlləri, klassik dil, poeziya dili, bədii dil*

XX əsrin əvvələrindən etibarən həyatın bütün sahələrində olduğu kimi ədəbiyyat sahəsində də görkəmli şair və yazıçılar realist ədəbiyyat uğrunda mübarizəyə qoşulmuş, buna görə də poeziya dili də mövzu, məzmun və forma cəhətdən inkişaf etməyə başladı. XX əsrin əvvəllərində şeir dilində alliterasiya, assonans, qafiyə, leksik təkrarlar və sintaktik paralelizmlərin spesifik təzahürləri bədii - estetik baxımdan yeniliklərlə əhatə olmuşdur. Şeir dilində ritm və intonasiyanın bədii xüsusiyyətlərindən sənət faktı kimi bəhs edilmişdir. Poeziya sənətinin estetikasında, ilk növbədə onun dilində yer alan milli ifadəli təfəkkür tərzi, ictimai həyatın bütün sahələrinə dair üslublar ədəbi mühit nümayəndələrinin şeir dilini yenidən öyrənmək zərurətini ortaya qoymuş, ədəbi irsə hörmət, ulu sənət korifeylərindən təsirlənmək, zəngin ədəbi nümunələrdən bəhrələnmək kimi məsələlərin əhəmiyyətini artırmışdır. Ağasən Bədəlzadə "Məhərrəm Hüseynov: Elmi və poetik təfəkkürün parlaq işığı" kitabında poeziyanın həyatda, təbiətdə heç vaxt tükənmədiyindən, onun gözəlliyi duyan, qələmə alan, onu insan ruhuna çevirən istedadlı şairləri qiymətləndirərək yazır: "Dərin hissiyyatlı adamın qəlbində həmişə fitri bir poeziya yaşayır. Onu açıq fəzaya çıxarmaq üçün fövqəladə şərait tələb olunur" [3, s.83].

Klassik ədəbiyyatın görkəmli nümayəndələrinin şeir dilini yenidən araşdırmaq dövrün dil mənzərəsini canlandırmağa şərait yaradır. Görkəmli yazıçılar hər zaman xalqın dilini düşünmüş, onu qorümuşdurlar. M.Vaqif, M.Vidadi, Q.Zakir, C.Məmmədquluzadə, M.Ə.Sabir Ə.Haqverdiyev, M.T.Sidqi, Ə.Qəmküsar, Ə.Səbri, S.Səbri və digər ədiblər öz əsərlərində dövrün reallıqlarını nəzərə alaraq ana dilinin qayda – qanunlarına riayət etmiş, sadə, aydın dildə əsərlər yazmışdırlar. Əzizağa Nəcəfov "Füzuli – şairin yaradıcılıq psixologiyası" kitabında müxtəlif dövrləri nəzərdən keçirərək poeziyada yer alan mövzular, obrazlar sistemi, üslubi çalarlar, yeni məna axarının meydana çıxmasını geniş şəkildə işıqlandıraraq yazır: "Ümumiyyətlə, sadalanan xüsusiyyətlər Azərbaycanda XI-XVI əsrlərdə formalaşıb, zaman-zaman təkmilləşərək, ürfan elmi, sufi fəlsəfəsi təsiri altında yaranan yeni bir poeziya tipinin - intellektual poeziyanın XIX əsrin sonlarınadək mövcud olduğu fikrini söyləməyə imkan verir və bu yaradıcılıq aktları toplusunun hər bir təzahürü nə qədər oxşar olsa da, öz təkrarolunmazlığı ilə seçilir" [2, s.55].

Naxçıvan ədəbi mühitinin nümayəndələrinin şeir yaradıcılığında dil bütün sahələrdə poetik təfəkkürü səslərin, sözlərin yaratdığı obrazlarla reallaşdırmış, dil bütün səviyyələrdə şair və yazıçıların obrazlı təfəkkürünü ifadə edirdi. Bu yaradıcılıq prosesində fonoloji təkrarların formalaşdırdığı obrazlı təəssüratın zənginliyi yeni poetik düşüncələrə qanadlandırırdı. Səbinə Alməmmədova "Bəxtiyar Vahabzadə poeziyasının dili" kitabında bədii əsərlərin dilinin araşdırılması ədəbi dilin öyrənilməsində mühüm mərhələ təşkil etdiyini vurğulayaraq yazır: "Ədəbiyyatın inkişafı, ədəbi janrların təkamülü, təkmilləşdirilməsi ədəbi dilə öz təsiri göstərir. Bu son nəticədə ədəbi dilin xəlqiləşməsinə, onun ifadəetmə qabiliyyətinin güclənməsinə aparıb çıxarır. Ədəbi dil prosesini

humanitar elmlərin, o cümlədən dilçiliyin müasir tələbləri səviyyəsində qavramaq, öyrənmək, doğru-düzgün qiymətləndirmək üçün şair və yazıçıların dilini öyrənməyə həmişə ciddi ehtiyac duyulur [1, s.6]. Poetizmlərin, lirik-üslubi hadisələrin yaratdığı ifadə gözəlliklərini bədii dildə tərənnüm etmişdirlər.

Ədəbi prosesdə dil məsələsi, bədii nitq mədəniyyətinin spesifik cəhətləri, üslubi keyfiyyət dəyişmələri və təkamül yeni istiqamət aldı. Poeziyanın dilində təbii ifadə üsullarının artması, şairlərimizin nitq təkamülü sahəsindəki səmərəli fəaliyyəti, heç şübhəsiz, yüksək sənətkarlıq uğrunda mübarizənin ayrılmaz tərkib hissəsinə çevrildi. Məhərrəm Hüseynov "Səsin poeziyası" kitabında şeir dilində təsvir olunan qafiyə də, hadisəyə sənətkar baxışının əhatəliliyi və tutumluluğu da misraların səslənmə orijinallığından qaynaqlandığını qeyd edərək yazmışdır: "Şeir dilinin linqvistik təhlilində səsin poetik funksiyası ona görə xüsusi diqqət çəkir ki, şair məhz səslərlə konkret bir poetik ovqat yaradır, bədii formanı səs ahəngi ilə, ondan törəyən assosiasiyaların köməyi ilə bəyənimli edir. Səs naxışlarının zənginliyi, mənalılığı və təravətliliyi müəyyən səs fiqurları fonunda hiss olunur" [4, s.5]. Dilimizin akustik gözəlliyinin, poetik ruh və şeiriyyətinin, intonasiya zənginliklərinin və s. yeni-yeni keyfiyyətlərinin meydana gəlməsi XX əsrin əvvəllərində poeziyada bədii dilə olan qayğı və zəhmətin təzahürü idi. Dövrün poeziya yaradıcılığının əsl mahiyyətini müəyyənləşdirən ən başlıca amillərdən biri poetik-üslubi vasitələrin özünü göstərməsi, dilimizin bədii imkanlarının genişləndirilməsi, şeir dilinin canlı ünsiyyət dilinə daha da yaxınlaşması idi. Bu isə Azərbaycan şeirinin bədii-estetik səviyyəsi və uğurlarının göstəricilərindən biri kimi qiymətləndirilməyə layiqdir.

ƏDƏBİYYAT

1. Alməmmədova Səbinə. Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı: Elm, 2010, 76 s.
2. Nəcəfov Əzizağa. Füzuli – şairin yaradıcılıq psixologiyası. Bakı: Mütərcim, 2012, 140 s.
3. Bədəlzadə Ağasən, Məhərrəm Hüseynov. Elmi və poetik təfəkkürün parlaq işığı. Bakı: 2018, 104 s.
4. Hüseynov Məhərrəm. Səsin poeziyası. Bakı: 2010, 318 s.

SUMMARY

Pakiza Karimova

ARTISTIC CHARACTERISTICS OF THE LANGUAGE OF POETRY

The stylistic possibilities of the language of poetry of the 19th century were considered from the point of view of the language of art and the culture of artistic speech. The works written in the mother tongue, the artists who played a role in the fusion of Azerbaijani poetry with the life of the people, benefited from the spiritual wealth of our poetic language and the virtues of our literary language and rendered great services. Prominent artists have created memorable works of art in terms of means that provide poetic language with expressive possibilities (sound harmony, rhythm, rhyme harmony, different expression of words, etc.).

***Key words**: language of poetry, early 20th century, classical language, language of poetry, artistic language*

РЕЗЮМЕ

Пакиза Каримова

ХУДОЖЕСТВЕННАЯ ОСОБЕННОСТЬ ЯЗЫКА ПОЭЗИИ

Стилистические возможности языка поэзии XIX века рассмотрены с точки зрения языка искусства и культуры художественной речи. Произведения, написанные на родном языке, художники, сыгравшие роль в слиянии азербайджанской поэзии с жизнью народа, воспользовались духовным богатством нашего поэтического языка, достоинствами нашего литературного языка и оказали большую услугу. Выдающиеся художники создали запоминающиеся произведения искусства средствами, обеспечивающими поэтическому языку выразительные возможности (звуковая гармония, ритм, гармония рифм, различное выражение слов и т. д.).

Ключевые слова: *язык поэзии, начало XX века, классический язык, язык поэзии, художественный язык*

SƏMİYYƏ PAŞAYEVA
NƏZAKƏT YUSİFOVA
pashayevasema@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0009-4642-8604

QİYMƏTLƏNDİRMƏNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

Bu tədqiqatın əsas məqsədi təlim-tərbiyə prosesində tədrisi qiymətləndirmək və onu müxtəlif aspektlərdən araşdırmaqdır. Öyrənmə və öyrətmə tədris prosesinin daimi qarşılıqlı əlaqədə olan iki əsas ölçüsünü təşkil edir. Qiymətləndirmə yalnız bu iki ölçü daxil edildikdə məna və bütövlük qazanır. Təhsilin keyfiyyətini ölçmək üçün istifadə olunan əsas göstərici şagirdin öyrənmə nəticələridir. Bu nəticələrin obyektiv qiymətləndirilməsi təhsilin keyfiyyətini üzə çıxaran etibarlı mənbə rolunu oynayır. Obyektiv qiymətləndirmə faktiki vəziyyətin üzə çıxarılmasında həlledici vasitə rolunu oynayır. Hərtərəfli təhlillər nəticəsində çatışmazlıqlar müəyyən edilir, onların aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirilir və proqnozlaşdırılır.

Açar sözlər: *qiymətləndirmə, qiymətləndirmənin mahiyyəti və keyfiyyəti, təlimin qiymətləndirilməsi*

Keyfiyyətli təhsil dövlət, cəmiyyət və şagirdlərin özləri tərəfindən idarə olunan təhsil sisteminin əsas ictimai tələbidir. Bu sahədə aparılan islahatların məqsədi onun keyfiyyətinin yüksəldilməsidir. Bəs təhsilin keyfiyyəti tam olaraq necədir? Bu necə müəyyən edilir və biz onu necə effektiv idarə edə bilərik? Təhsildə keyfiyyət əldə edilmiş nəticələrin əvvəlcədən müəyyən edilmiş meyarlara və ya standartlara nisbəti əsasında qiymətləndirilir.

80 il əvvəlki keçmişə nəzər saldıqda, Sovet İttifaqının, o cümlədən Azərbaycanın öz təhsil sistemində hərtərəfli qiymətləndirməyə üstünlük vermədiyini aşkarlamaq mümkündür. Bu da qiymətləndirmənin yalnız sinif performansına yönəldilmiş dar bir qavrayış olaraq uzun müddət qalmasına səbəb olmuşdur. Bu dövrdə təhsildə qiymətləndirmənin məqsədi və fəlsəfəsinə çox az diqqət yetirilirdi və beynəlxalq təcrübədən öyrənmək imkanları məhdud idi.

Həyatın hər bir sahəsinin öz fəlsəfəsi olduğu kimi, təhsildə qiymətləndirmənin də fəlsəfi əhəmiyyəti var. Qiymətləndirmə fəlsəfəsi keyfiyyətin artırılmasına yönəlmiş idarəetmə və qərarların qəbulu proseslərində əsas amil kimi rol oynayır.Xülasə, qiymətləndirmənin mahiyyəti və məqsədini bir neçə əsas aspektə bölmək olar:

1. **İdarəetmə:** Təhlil edilmiş nəticələr əsasında təhsilin keyfiyyətinin yüksəldilməsi və təkmilləşdirilməsi üçün çatışmazlıqların müəyyən edilməsi;
2. **Birgə iş:** Təhsilin keyfiyyətini kollektiv şəkildə təmin etmək və artırmaq, maraqlı tərəflər arasında məsuliyyət hissini aşılamaq üçün müəllimləri, şagirdləri, valideynləri, məktəb rəhbərlərini və idarəetmə orqanlarını tədris proseslərinə cəlb etmək;
3. **İnkişaf:** Şagirdlərin, müəllimlərin və idarəçilərin inkişafını asanlaşdırmaq üçün qiymətləndirmə nəticələrinə əsasən keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi;
4. **Perspektivlik:** Mövcud qiymətləndirmə nəticələrinə əsasən gələcək istiqamətlərin və təhsil siyasətinin formalaşdırılması;
5. **Proqnostik:** Təhsil inkişafının növbəti mərhələləri üçün hədəflərin real şəkildə vizuallaşdırılması.

Yaxın keçmişə baxsaq, 1992-ci ildən Azərbaycanda ali təhsil müəssisələrinə qəbul prosesi mərkəzləşmiş, orta məktəblərdə də bu üsul tətbiq edilmişdir. Beləliklə, şagirdlərin yekun qiymətləndirilməsi üçün uyğun modelin yaradılması zərurəti yaranmışdır. İctimai rəy nəzərə alınaraq ümumtəhsil məktəblərində buraxılış imtahanlarının test tapşırıqlarından istifadə etməklə keçirilməsinə qərar verilmişdir. Bu yanaşma 1999-2000-ci tədris ilində Təhsil Nazirliyi tərəfindən XI

sinif səviyyəsində dörd fənn üzrə buraxılış imtahanları üçün test suallarının hazırlanmasına başlanılmışdır. İmtahanların keçirilməsinin bu üsulu o dövr üçün yeni bir konsepsiya idi. Növbəti bir neçə il ərzində ayrı-ayrı məktəblərdə keçirilən sınaqların nəticələri gözləntiləri doğrultmasa da, etiraf olunur ki, bu ilkin addım atılmasaydı, mərkəzləşdirilmiş buraxılış imtahanı modelinə keçid bu gün mümkün olmazdı [*Mərdanov M, Şahbazlı F.1998-2004, 218 s.*].

İmtahanlar məktəb şəraitində şagird nailiyyətlərinin qiymətləndirilməsi forması kimi qiymətləndirmənin kulminasiya nöqtəsini təmsil edir. Yekun qiymətləndirmə mərhələsinə çatmazdan əvvəl şagirdlər müxtəlif qiymətləndirmə mərhələlərindən, o cümlədən diaqnostik, formativ və summativ qiymətləndirmələrdən keçirlər. 2006-cı ildə dövlət "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" sənədinin tərkib hissəsi kimi qiymətləndirməyə yeni yanaşmanı təsdiq etmişdir. Bu sənəd şagird nailiyyətlərinin qiymətləndirilməsini təhsil fəaliyyətinin tərkib hissəsi kimi təhsilin keyfiyyətinin yüksəldilməsindəki xüsusi rolunu vurğulayır.

Sənəddə qeyd olunan qiymətləndirmə müddəalarına əsaslanaraq, Təhsil Nazirliyi həyata keçirilməsi istiqamətində müəyyən tədbirlər görməyə başlamışdır. İlk addım 2006-2007-ci tədris ilində dörd pilot məktəbdə: 6 nömrəli məktəb-liseydə, Elitar gimnaziyasında, Sumqayıt şəhər 18 nömrəli məktəbdə və Abşeron rayonundakı Novxanı kənd məktəbində summativ qiymətləndirmə modelinin tətbiqi ilə atılmışdır. Bu eksperiment V və VIII sinif şagirdlərinə, xüsusilə dil və riyaziyyat fənlərinə yönəldilmişdir. Eksperimentin səmərəliliyini təmin etmək üçün qeyd olunan siniflərdə fənn müəllimləri xüsusi təlim keçmiş və xüsusi sinif jurnalları tərtib edilmişdir. Bu eksperimentin nəticələri sonrakı mərhələlərdə qiymətləndirmə mexanizmlərinin inkişafı üçün dəyərli hesab olunmuşdur.

Qiymətləndirmə müəyyən edilmiş standarta nisbətən ölçülmüş parametrin dəyərinin qəbul edilməsini əhatə edir, çox vaxt reytinq şkalasında təmsil olunur. Bununla belə, standartlara əsaslanan qiymətləndirmələr şagirdlərin fəaliyyətinə təsir edən xarici amillərə görə həmişə reallığı əks etdirməyə bilər. Bu qiymətləndirmələr aparıldıqları zaman vəziyyətin statik görünüşünü təqdim edir, lakin onlar dinamik dəyişiklikləri və ya qiymətləndirmə nəticələrinə təsir edən xarici təsirləri nəzərə almaya bilər. Buna görə də, standartlara əsaslanan qiymətləndirmələr dəyərli fikirlər təqdim etsə də, onlar tədrisin faktiki vəziyyətini əks etdirən kontekst amilləri və potensial məhdudiyyətlər nəzərə alınmaqla şərh edilməlidir [*Mehrabov A. 2010, 113 s.*].

Azərbaycanda "qiymətləndirmə" termini çox vaxt yalnız şagirdlərin akademik fəaliyyətinin qiymətləndirilməsini nəzərdə tutur, digər mühüm aspektləri nəzərdən qaçırır. Bununla belə, qlobal təcrübə qiymətləndirmənin təkcə şagird biliyini deyil, həm də müəllim və məktəbin effektivliyini, valideynlərin tədris prosesinə cəlbini və təhsil işçilərinin peşəkarlığını əhatə etdiyini qəbul edir.

Azərbaycanda müəllimlərin subyektiv mühakimələrinə əsaslanan və yalnız şagirdlərin akademik nailiyyətlərinə yönəlmiş ənənəvi qiymətləndirmə şagirdlərin motivasiyasını azaldır və onların hərtərəfli inkişafına mane olur. Azərbaycanda üstünlük təşkil edən qiymətləndirmə sistemi kəmiyyətə deyil, keyfiyyətə önəm verir, şagirdlərə öz akademik tərəqqiləri haqqında hərtərəfli məlumat təqdim edə bilmir. Bundan əlavə, qiymətləndirmə prosesi əsasən ayrı-ayrı məktəblərlə məhdudlaşır, ölkədə ümumi təhsil keyfiyyətini ölçmək üçün məhdud milli və beynəlxalq qiymətləndirmə mexanizmləri mövcuddur.

Zaman keçdikcə "şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji konsepsiyası təkamülə uğramış və bu, qiymətləndirmənin akademik fəaliyyətdən kənar daha geniş anlayışı əks etdirdiyi müəyyən olunmuşdur. Bununla belə, Azərbaycanda mövcud qiymətləndirmə sistemində standartlaşdırılmış qiymətləndirmə standartları yoxdur ki, bu da qeyri-ardıcıl qiymətləndirmə təcrübələrinə və müəllimlər üçün metodiki rəhbərliyin çatışmazlığına gətirib çıxarır. Nəticə etibarilə, mövcud qiymətləndirmə metodlarının təhlilinə və təkmilləşdirilməsinə, qiymətləndirmə meyarlarında aydınlığın təmin edilməsinə və müəllimlər tərəfindən hazırlanmış innovativ qiymətləndirmə vasitələrinin yayılmasının təşviqinə ehtiyac var.

Beləliklə, təhsilin keyfiyyətinin müəyyən edilməsi şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsindən asılıdır. Bununla belə, şagirdlərin təlim nəticələrinə təhsil sektorunda

müxtəlif amillər, o cümlədən ölkənin təhsil sisteminin fəaliyyətinin qiymətləndirilməsinə birgə töhfə verən təhsil işçilərinin, təhsil müəssisələrinin və ümumi təhsili idarəetmə strukturlarının tədris fəaliyyətləri təsir göstərir.Şagirdlərin fəaliyyətinin hərtərəfli təhlili, onların performansı üzrə dəyərləndirmələrin aparılması və əhatə dairəsinin genişləndirilməsi üçün möhkəm zəmin yaradır.

ƏDƏBİYYAT

1. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.-516 s.
2. Mərdənov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu, 2003.-416 s.
3. Mərdanov M, Şahbazlı F. Azərbaycanın təhsil siyasəti. (1998-2004) I kitab. Bakı: Çaşıoğlu, 2005. 832 s.

İnternet resusları

1. https://edu.gov.az/upload/file/M-Merdanov-Qiymetlendirme.pdf
2. https://edu.gov.az/upload/file/monitorunqveqiymetlendirme/cisishlar/monitorinq-ve-qiymetlendirme-tehsilin-keyfiyyeti.pdf

SUMMARY

Samyya Pashayeva

SCIENTIFIC-THEORETICAL BASIS OF ASSESSMENT

The main purpose of this study is to evaluate teaching in the educational process and examine it from different aspects. Learning and teaching are two main dimensions of the educational process that are constantly interacting. Evaluation gains meaning and integrity only when these two dimensions are included.The main indicator used to measure the quality of education is student learning outcomes. The objective evaluation of these results serves as a reliable source that reveals the quality of education. Objective evaluation plays the role of a decisive tool in revealing the actual situation.As a result of comprehensive analysis, shortcomings are identified, measures to eliminate them are defined and predicted.

Key words: *evaluation, nature and quality of evaluation, training evaluation*

SOLMAZ CABBAROVA
solmazjabbarlindu@gmail.com
ŞƏHLA MURADOVA
muradovashahla23@gmail.com
Naxçıvan Dövlət Universiteti

TƏHSİLDƏ KEYFİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Təhsil müəssisələrinin fəaliyyətində qiymətləndirmə təhsilalanların təlim nailiyyətlərinin qiymətləndirilməsinin əsas vasitəsi hesab edilir. Müasir dövrdə ümumtəhsil məktəblərində təlim nailiyyətlərinin qiymətləndirilməsində obyektivliyin təmin edilməsi bir sıra məsələlərin həllini ön plana çəkir. Təhsilin məzmununa, onun təşkili formalarına, pedaqoji texnologiyalara və tədris metodlarına artan tələblərlə əlaqədar olaraq, təlim nəticələrinin qiymətləndirilməsinin müasir vasitələrinə olan tələblər da artır. Qiymətləndirmə sistemi formalaşdıran deyil, tədris prosesinin yalnız köməkçi struktur komponenti olsa da, öyrənənlərin nə dərəcədə uğurla təhsil almasının göstəricisi hesab edilən, məhz nəzarət – ölçü alətlərindən istifadə etməklə iştirakçıların və müəllimlərin nə qədər uğurlu çalışmaları və işləmələri, təhsil müəssisələrinin və bütövlükdə təhsil sisteminin nə dərəcədə səmərəli fəaliyyət göstərməsi ilə müəyyən edilən öyrənənlərin təhsil nəticələrinin səviyyəsi hesab olunur. Uzun müddət ərzində təlim nəticələrinin qiymətləndirilməsilə bağlı əldə edilmiş materialların təhlili deməyə əsas verir ki, bu sahədə aparılmış araşdırmaların nəticəsi o qədər də ürəkaçan deyil. Ona görə də bu problem üzrə pedaqoji - psixoloji tədqiqatların aparılması xüsusilə aktuallıq kəsb edir.

Açar sözlər: *təhsil, keyfiyyət, qiymətləndirmə, təlim nəticəsi, ümumtəhsil məktəbi*

Azərbaycan Respublikasında Təhsil Sektorunun inkişafı layihəsində ən aktual vəzifələrdən birini müasir qiymətləndirmə sisteminin hazırlanması təşkil edir. Müasir iqtisadi və sosial-mədəni qlobal tendensiyalar milli təhsil sistemində öz əksini tapır: bütün səviyyələrdə ideal təlim nəticələri ideyasını ifadə edən təhsil məqsədləri tənzimlənir, təhsilin məzmununa yenidən baxılır, təhsil təcrübəsi innovativ texnologiyalara yönəldilir. Təhsil sisteminin müxtəlif komponentlərinə təsir edən dəyişikliklər təhsilalanların təlim nailiyyətlərinin qiymətləndirilməsinə dair yanaşmalara da təsir etməyə bilməz. Təhsil sahəsində əsas istiqamətlərdən birini yeni qiymətləndirmə sisteminin hazırlanması təşkil edir. Şagirdin təlim nəticələri təhsilin keyfiyyətinin əsas göstəricisidir və keyfiyyəti üzə çıxaran ən dəqiq mənbə isə bu nəticələrinin obyektiv qiymətləndirilməsidir. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün təhsil proqramının nə dərəcədə səmərəli olduğunu, öyrənənlərin biliyə nə dərəcədə yiyələndiyini, bu və ya digər bacarıqları mənimsədiyini və praktikada tətbiq etməyi bacardığını bilmək lazımdır. Bu cür məlumatlar isə təlim nəticələri görə müəyyən edilir.

Son illərdə təhsil sahəsində qiymətləndirmə ilə bağlı vəzifələri idarə etmək məqsədilə Qiymətləndirmə Konsepsiyası nəzərdə tutulmuşdur. Qiymətləndirmə prinsiplərinin müəyyən edilməsi, qiymətləndirmənin istiqamətinin təyin edilməsi, qiymətləndirmədən təlim tələbatlarının ödənilməsi məqsədilə istifadə edilməsi bu konsepsiyanın əsas məzmununu təşkil edir. Müasir dünya standartlarına uyğun olaraq, hazırlanan bu konsepsiya qiymətləndirmə sistemi üçün baza rolunu oynayır.

Hazırki dövrdə təhsil cəmiyyətin davamlı inkişafını müəyyən edən, həm yerli, həm də qlobal xarakterli problemlərin uğurlu həllini şərtləndirən mühüm bir faktor kimi öz təsdiqini tapmışdır. Müasir təhsilin keyfiyyətinin yüksəldilməsi, onun inkişaf perspektivləri daim cəmiyyətin, dövlətin və elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Pedaqoji elm sahəsi üçün təlim nəticələrinin qiymətləndirilməsi yeni problem olmayıb, həmişə ənənəvi pedaqoji problemlərin tərkibinə daxil olmuşdur. Lakin son 15 -20 ildə təhsilin keyfiyyətinin göstərici kimi təhsil nəticələrinin elmi cəhətdən

əsaslandırılmış şərhi və keyfiyyətin ümumpedaqoji nəzəriyyəsinin işlənib hazırlanması xüsusi aktuallıq kəsb etmişdir. Bunun da səbəbini aşağıdakı kimi xarakterizə etmək olar:

- Azərbaycanın qlobal təhsil məkanına fəal şəkildə daxil olması;
- əmək bazarında və təhsil xidmətləri bazarında artan rəqabət;
- təhsil müəssisələrinin fəaliyyətinə və meyarların qiymətləndirilməsinə şəxsiyyət, cəmiyyət və dövlət tərəfindən yeni tələblərin verilməsi;

Keyfiyyət anlayışı hər bir sahədə müəyyən edilmiş standartlara uyğunluğu ifadə edir. Bu qayda təhsil sahəsinə də aiddir. Təhsilin nəticələrinin öncədən müəyyən edilmiş meyarlara yaxınlığı onun keyfiyyətini müəyyən edir. Şagirdlərin təlim nəticələri təhsilin keyfiyyətinin əsas göstəriciləridir. Keyfiyyəti üzə çıxaran ən səmərəli üsul isə şagird nəticələrinin düzgün qiymətləndirilməsidir.

Qiymətləndirmənin missisyası olduqca vacibdir, hətta təlimin məzmunu, üslubu, metodları planlaşdırılarkən, qiymətləndirmənin də optimal vasitələri müəyyən edilməlidir. Tarixən təhsilin qiymətləndirilməsi müxtəlif rollar yerinə yetirmişdir: təhsil fəaliyyətinin motivi və nəticələri; peşə seçimi, təhsil sistemində hesabatlılığın monitorinqi və ya təmin edilməsi; zəruri təlim kursunun bitirildiyini təsdiq edən sertifikat; təhsil müəssisələrinə qəbul üçün müsabiqə yolu ilə seçim; təhsil və onun nəticələrinin sistemli diaqnostikası yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi və s. Bunların arasında təhsilin keyfiyyətinin yüksəldilməsində qiymətləndirmənin rolu problemi xüsusi aktualıq kəsb edir. Əvvəlcə bu problemin əsas anlayışlarını nəzərdən keçirək. Təhsil proseslərinin keyfiyyətinin idarə edilməsi nəzəriyyəsində qiymətləndirmə, diaqnostika, monitorinq kimi anlayışlardan istifadə edilir.

Qiymətləndirmə - bu mövcud bilik, həmçinin, tələb olunan miqdarla müqayisəsidir. Qiymətləndirmə, bir tərəfdən, biliklərin həcmi ilə təhsil proqramının səriştə tələbləri arasındakı uyğunsuzluğu təsdiq edən kəmiyyət və ya keyfiyyət nəticəsidir, digər tərəfdən isə bu öyrənənlərin biliyinin həcminin və ya təlim məlumatlarının mənimsənilmə səviyyəsinin müəyyən edilməsi üsuludur. Qiymət – təhsilin nəticəsinin kəmiyyət göstəricisidir.

Genişmiqyaslı qiymətləndirmə sistemi həm təhsilin nəticələri, həm də təhsilin məzmunu, didaktik texnologiyalar və onların nəticələrinin qiymətləndirilməsi üsulları haqqında daha obyektiv məlumat əldə etməyə imkan verir. Həm müəllimlər, həm də tələbələr qiymətləndirmənin ədalətli və obyektiv olmasını istəyirlər. O, ilk növbədə təlim fəaliyyətinin motivasiyasına, səmərəli təlim prosesinin təmin edilməsinə və bütövlükdə təhsil nəticəsinin yaxşılaşdırılmasına yönəldilməlidir. Bunun üçün nəzarət və qiymətləndirmə vasitələri, əldə edilmiş biliklərdən təkcə öyrənilən fənn daxilində deyil, həm də digər tətbiq sahələrində istifadə etmək, tədris məlumatlarını təhlil etmək və onun sintetik təsvirini vermək bacarığını müəyyən etməyə, eləcə də tələbələrin tənqidi düşünmə fəaliyyəti səriştəsini mənimsəmələrinin öyrənilməsinə yönəldilməlidir. Başqa sözlə, qiymətləndirmə və nəzarət vasitələri faktiki və alqoritmik biliyin yoxlanılmasına və tədris məlumatlarının mənimsənilməsinin reproduktiv səviyyəsinə diqqət yetirməklə məhdudlaşmamalıdır.

Peşəkar təhsil müəssisələrində gələcək mütəxəssislərin şəxsi inkişafına yönəlmiş səriştə əsaslı modelin tətbiqi onların təhsil nailiyyətlərinin qiymətləndirilməsinə yeni tələblər qoyur. Bu tələblərə aşağıdakılar daxildir: tələbənin təlim nailiyyətlərinin qiymətləndirilməsindən onun əsas təhsil proqramlarında nəzərdə tutulmuş bir sıra səriştələrə yiyələnmə səviyyəsinin qiymətləndirilməsinə keçid; dünənki təhsil nəticələrini bugünkü ilə müqayisə etməklə əldə edilmiş nisbi göstəricilər əsasında tələbənin nailiyyətlərinin müəyyən edilməsi.

Hal-hazırda biliyin keyfiyyətinin qiymətləndirilməsinin innovativ vasitəsi kimi daha çox modul-reytinq sistemindən istifadə edilir. Bu sistemin mahiyyətini izah edək. Müasir təhsil prosesinin ən mühüm vəzifəsi, tələbəyə müəyyən bir fənndə onun məzmununun invariant hissəsini müəyyən etməyə imkan verən fundamental hazırlığa diqqəti artırmaqdır. Müəllimin fəal və interaktiv təlim texnologiyalarından istifadəsi vasitəsilə tədris prosesi zamanı əldə edilən məzmunu öyrənilən kursun məzmununun əsas komponenti hesab olunur. Bununla əlaqədar olaraq, artıq təlim fənninin məzmununu tərtib edərkən, onun konseptual şəbəkəsi konseptual baza adlanan əsasdan fərqləndirilir-

ən vacib semantik vahidlər orada təqdim olunur. Konseptual baza (tezaurus), birincisi, pedaqoji nəzarət vasitələrinə dair meyarların və vahid tələblərin tərtibini asanlaşdırır, ikincisi, təhsil nəticələrinin qiymətləndirilməsini sadələşdirir. Müxtəlif dövrlərdə şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə sistemləri sınaqdan keçirilmişdir. Bu qiymətləndirmə sistemlərində ümumi cəhət ondan ibarətdir ki, öncə şagirdin ilkin bacarıqları üzə çıxarılır, daha sonra il boyu onun nailiyyətləri izlənilməklə yekun qiymətləndirmə aparılır.

Qiymətləndirmə deyildikdə, Azərbaycanda yalnız təhsilalanın təlim nəticələrinə verilən qiymət başa düşülür. Lakin bu həm də məktəbin və müəllimlərin fəaliyyətinə, məktəb rəhbərlərinin peşəkarığına verilən qiymətdir. Azərbaycan təhsil sistemində tətbiq edilən qiymətləndirmə sistemi şagirdlərin təlim nailiyyətlərini keyfiyyət baxımından qiymətləndirdiyinə görə, şagirddə öz biliyi haqqında doğru fikir formalaşmır. Həmçinin milli və beynəlxalq qiymətləndirmənin tətbiq edilməməsi, daha çox məktəbdaxili qiymətləndirmədən istifadə edilməsi milli səviyyədə təhlillərin aparılmasına şərait yaratmırdı.

"Qiymətləndirmə idrak motivasiyasının yüksəldilməsinə, idrak maraqları yaradılmasına, şagird təfəkküründün fəallaşdırılmasına təsir edir. Pedaqoqların öyrənənlərə humanist yanaşaraq, onların bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsi bütün didaktik problemlərin əsasında dayanır. Bu səbəbdən də qiymətləndirmənin obyektivliyi pedaqoji nəzəriyyədə və praktikada həmişə müqayisəli məsələlərdən biri olmuşdur" [Cəbrayılov İ., 2016, 237-238].

Uzun illər boyunca "şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi anlayışı işlədilsə də, son dövrlərdə təhsil leksikonuna "şagird nailiyyətlərinin qiymətləndirilməsi" kimi yeni bir pedaqoji anlayış daxil olmuşdur. Mövcud qiymətləndirmə sisteminin təhlili deməyə əsas verir ki, hazırki dövrə qədər qiymətləndirmə standartları olmamış, bu da qiymətləndirmə prinsiplərinin pozulmasına səbəb olmuşdur. Qiymətləndirməyə dair metodik tövsiyələrin və vəsaitlərin azlığı bu sahədə müəyyən problemlər yaratmışdır.

Yeni qiymətləndirmə üsullarından istifadə təcrübəsinin azlığı, müəllimlərin hazırlıq səviyyəsinin yüksək olmaması, qiymətləndirmə aparanlarla tədris proqramlarını hazırlayanlar arasında əlaqənin zəifliyi qiymətləndirmə prosesinə həqiqi mənada problem yaradırdı. Problem yaradan əsas amillərdən biri də qiymətləndirmənin nəticələrinin təhlil edilməməsi, bunula bağlı hesabatların hazırlanmamasıdır. Qiymətlərin gündəlik olaraq yazılması, gündəlik qiymət əsasında son qərarın verilməsi müasir qiymətləndirmə sisteminin əsas xüsusiyyətidir. Qiymətlər gündəlik olaraq yazıldıqda şagirdlər daha çox yüksək qiymət almağın müxtəlif yolları barədə düşünür, öyrənməyə cəhd göstərmirlər.

Ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsində qiymətləndirmənin xüsusi yeri vardır. A.Mehrabovun qeyd etdiyi kimi "Təhsilin keyfiyyəti mürəkkəb və çoxparametrli olduğundan, o yalnız nəticələrlə əlaqələndirilməməli, daha ətraflı tədqiq edilməlidir. Nəticələrin keyfiyyəti, prosesin və onun reallaşdığı mühitin xarakteristikaları arasında birbaşa və əks əlaqə olduğundan, təhsildə əldə edilən nəticələrə tədris-təlim prosesindən və onun üçün yaradılan şəraitdən kənar baxmaq olmaz" [Mehrabov A., 2010, 224 s.].

Təhsil prosesinin səmərəliliyinin proqnozlaşdırılması, planlaşdırılması və idarə edilməsi qiymətləndirmə sistemi olmadan mümkün deyil. Qiymətləndirmə sistemi şagirdlərin nailiyyətlərinin ölçülməsinin ən mühüm vasitəsidir. Ümumtəhsil məktəblərində qiymətləndirmə sisteminin məzmunu məktəbdə təlim – tərbiyə prosesinin keyfiyyəti barədə obyektiv məlumatı əks etdirməlidir. Ona görə ki, ümumtəhsil məktəblərində pedaqoji monitorinq və qiymətləndirmə sistemi dedikdə təhsil prosesinin müxtəlif komponentlərinə dair nəticələrin səmərəliliyinin müntəzəm ölçülməsi (qiymətləndirilməsi) sistemi başa düşülür" [Mehrabov A., 2010, 228 s.].

Dünya təcrübəsinə əsaslanaraq, qiymətləndirmənin prinsiplərini aşağıdakı kimi təsnif edə bilərik:

- qiymətləndirmə təlim prosesinin mühüm tərkib hissəsidir və bütün təlim prosesi ərzində aparılmalıdır;
- qiymətləndirmə prosesində şəraitdən və şagirdin inkişaf səviyyəsindən asılı olaraq, müxtəlif

metodlardan istifadə edilməlidir;
- qiymətləndirmə təlimin son nəticələrinə və ictimai həyata girişə yönələn qabaqlayıcı standartlara əsaslanmalıdır;
- qiymətləndirmədə ədalətlilik, şəffaflıq və obyektivlik təmin olunmalı, qiymətləndirmənin meyarları ölçüləbilən və etibarlı olmalıdır [Həsənova C., 2008].

Nəzərə almaq lazımdır ki, qiymətləndirmənin bütün istiqamətləri çoxşaxəlidir – onların hər biri bir tərəfdən normalara uyğunluğu, digər tərəfdən isə təhsil prosesinin subyektlərinin tələbat və tələblərinə uyğunluğu üzə çıxarmağa kömək etməlidir. Başqa sözlə, pedaqoji nöqteyi – nəzərdən təhsilin keyfiyyətinin qiymətləndirilməsi qeyd – şərtsiz və birmənalı xarakterizə edilə bilməz, çünki bura, tədris prosesinin subyektlərinin nailiyyətlərinin qiymətləndirilməsivə tədris prosesinin tələblərinə uyğunluğunun müəyyən edilməsi də daxildir. Təhsil anlayışının çoxmənalılığı və mürəkkəbliyi, onun sistemli xarakter daşıması deməyə əsas verir ki, təhsilin keyfiyyətinin qiymətləndirilməsi müəyyən bir təhsil müəssisəsində təhsilin vəziyyətini, fəaliyyətin keyfiyyətini və onu bütün elementlərinin qarşılıqlı əlaqəsini aşkara çıxarmalıdır. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi özlüyündə bir sistem olmaqla, sistemlər və sistemli yanaşmaya dair ümumi müddəalara əsaslanmaqla daha dərindən öyrənilməli və praktiki cəhətdən inkişaf etdirilməlidir.

Qiymətləndirmədə maksimum obyektivliyə nail olmaq üçün, nəzarət və qiymətləndirmə fəaliyyətinin təşkili üçün müxtəlif vasitə və variantlardan, xüsusilə də təhsil prosesinin əsas səriştələrin formalaşdırılmasına yönəldilməsinə kömək edən vasitələrdən istifadə etmək lazımdır.

ƏDƏBİYYAT

1. Cəbrayılov İ.H. Müasir təhsilə innovativ yanaşmalar. ARTPİ, 2016
2. Mehrabov A. Müasir təhsilin konseptual əsasları. Bakı: Mürətcim, 2010
3. Həsənova C. Qiymətləndirmə sistemi və təlimin keyfiyyəti // Kurikulum, 2008, №2

SUMMARY

Solmaz Jabbarova, Shahla Muradova

CURRENT PROBLEMS OF QUALITY ASSESSMENT IN EDUCATION

In the activity of educational institutions, evaluation is considered the main means of evaluating the educational achievements of students. Ensuring objectivity in the assessment of learning achievements in secondary schools in modern times brings to the fore the solution of a number of issues. In connection with the increasing demands on the content of education, forms of its organization, pedagogical technologies and teaching methods, the demands on modern means of evaluation of educational results are also increasing. Although the evaluation system is not a formative, but only an auxiliary structural component of the educational process, it is considered to be an indicator of how successful the students are in their education, namely, how successful the participants and teachers work and work, how efficient the educational institutions and the educational system as a whole are, using control and measurement tools. The level of educational results of learners determined by their performance is considered. The analysis of the materials obtained on the evaluation of training results over a long period of time suggests that the results of the researches conducted in this field are not so encouraging. Therefore, conducting pedagogical-psychological research on this problem is especially relevant.

Key words: *education, quality, evaluation, learning outcome, secondary school*

VƏFA ƏHMƏDOVA
vefaahmedova77@gmail.com
Naxçıvan Dövlət Universiteti

TƏLİM PROSESİNİN MAHİYYƏTİ

Məqalə cəmiyyətin həyatında təlim prosesinin inkişafına həsr edilmişdir. Cəmiyyətin yaşaya bilməsi üçün mühüm şərtlərdən biri olaraq insanlar dünyanın obyektiv inkişaf qanunlarını dərk etməsidir və qanunların onlardan istifadə yollarının gənc nəslə çatdırılması prosesini xüsusilə qeyd etmək lazımdır. Təqdim olunan məqalədə vurğulanır ki, gənclərin ali təhsil almağa marağının aydın şəkildə artması ilə bəzi universitetlərdə abituriyentlərin seçiminə qoyulan tələblərin azalması müşahidə olunur. Buna bir çox universitetlərinin ağır maliyyə vəziyyəti və abituriyentlərin sayının azalması ilə özünü göstərən ölkədəki kəskin demoqrafik vəziyyət səbəb olur. Göstərilmişdir ki, müasir şəraitdə, ali təhsilin istiqamətləri və paradiqmalarının dəyişdiyi, universitet məzunlarının sürətlə və kəskin dəyişən şəraitdə işləməli olduğu və gələcək peşə fəaliyyətinə tam əminlik olmadığı bir şəraitdə, tələbələrin uyğunlaşma qabiliyyətinin inkişafı aparıcılardan biri kimi rol oynayır.

Açar sözlər: *Təlim prosesi, mühazirə, tədqiqatçılıq, eksperimental, pedaqoji*

Problemin qoyuluşu: Təlim prosesinin mahiyyəti kimi biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsi, onun sosial-mədəni təbiətinin aydınlaşdırılması cəmiyyət həyatının inkişafını təmin etməsi əsas məsələlərdən biridir. Canlı orqanizimlərin inkişafın tarixi inkişafı prosesində insan öz fəaliyyətini şüurlu şəkildə ifadə və idarə etmişdir. Bu zaman praktik fəaliyyət prosesində toplanmış təcrübənin gənc nəslə ötürülməsi ehtiyacı yaranmışdır. İlk əvvəl təbiət, cəmiyyət, təfəkkür haqqında formalaşmış biliklər inkişaf edir, fəaliyyət üsulları və sahələri yaranır. Elm və onun predmetinin aydınlaşdırılması haqqında tədqiqatlar müəllifi P.V.Kopninin müəyyənləşdirdiyinə görə, insan ideyalarının məcmusu, predmetlərin mənimsənilməsini əks etdirir [11, s. 65].

Problemin öyrənilməsi səviyyəsi: Deməli, cəmiyyətin yaşaya bilməsi üçün mühüm şərtlərdən biri odur ki, insanlar dünyanın obyektiv inkişaf qanunlarını dərk etsinlər, həmin qanunlardan əməli şəkildə istifadə etməyin yollarını müəyyənləşdirsinlər. Daha mühüm bir şərt dərk olunmuş qanunların və onlardan istifadə yollarının gənc nəslə çatdırılması prosesidir.

Təlim prosesində əldə edilmiş biliklər, yəni təlimi idrak öz xüsusiyyətlərinə görə elmi idrakdan fərqlənir. P.M.Erdinyev yazır ki, öyrənmə idrakın xüsusi hadisəsi kimi müəllimin rəhbərliyi altında zənginləşdirilmiş bilikdir. Təbii ki, idrakın ümumi qanunauyğunluqlarının xüsusi didaktiv məsələ (vəzifə) kimi həll edilməsi faydalı ola bilməz.

Metod: Nəzəri təhlil, pedaqoji müşahidə, pedaqoji müsahibə, təhlil edilmiş və mövzunun işlənməsi üçün müvafiq nəticələr çıxarılmışdır.

Elmi yenilik: Apardığımız tədqiqat işi geniş və əhatəli formada araşdırılmış, tələbələrin ümumi təlim prosesinə daha asan uyğunlaşması üçün təhlil edilmişdir. Ali təhsil sistemində baş verən yeniliklərə müəllimlərin daha tez uyğunlaşması və onları tələbələrə düzgün çatdırmaqda önəmli məsələlərdən biridir.

Məqalənin obyekti : Təhsil prosesin mahiyyətin və müasir şəraitdə müəllim və tələbələr əhatə edir.

Məqalənin predmeti: Ali məktəblərdə təhsilin inteqrasiyası və inkişafını öyrənməkdir.

Məqalənin məqsədi: İşin məqsədi Azərbaycanda ali təhsil müəssisəzinə qəbul olmuş tələbələrdə düzgün təlim-tədris prosesini yaratmaqdır.

Giriş: Təlim fəaliyyətinin imkanlarının sosial-pedaqoji məzmununun genişliyi sosiallaşmanın tərkibində əks qütbdə parçalanmanı yaratmır, əksinə,tamlıq, bütövlük və vəhdət yaradır. Buradan məlum olur ki, sinif kollektivi şagirdin sosiallaşmasını şərtləndirən əsas mərhələ olaraq çıxış edir. Sinifdə mövcud qarşılıqlı münasibətlər şagirdin artan tələbatlarını təmin etməklə sosiallaşmanın mühüm mərhələsinə çevrilir. Burada münasibətlərin səviyyəcə daha yüksək formasının təzahür

olunması şagird şəxsiyyətinə dəyərli, ictimai keyfiyyətlər qazandırır. Tələbələrin özünütəhsil fəaliyyətinin yaradıcı təşkilində ilk addım zehni əməyin səmərəli qurulmasıdırsa, ikinci mühüm vəzifə isə onların özünütəhsil üzrə işlərinin fərdi planlaşdırılması. Müasir təlimin təşkilinə verilən tələblərdən biri kimi bərabər təlim şəraitinin yaradılmasında sosial-psixoloji mühitin təşkilinə də böyük önəm verilir və demək olar təlim prosesinin sonrakı nailiyyəti bu mühitin düzgün təşkilindən çox asılıdır. Sosiallaşma nəticəsində fərd özünün daxil olduğu sosial qrupda olan davranış normalarını mənimsəyir və öyrənir. Şəxsiyyətin sosiallaşmasında şəxsi nümunələr, normal həyat tərzi, normal məişət, xoş ailə münasibətləri, yaxşı yoldaşlar, bilikli müəllimlər, onu əhatə edən insanların ona qayğısı və s. müsbət rol oynayır. Sosial-psixoloji mühitə şagirdin həm digər insanlarla, həm də öz daxili aləmi ilə təlimə həvəsinin formalaşmasına təsir edən qarşılıqlı əlaqələrin bütün növləri aiddir: "şagird-şagird", "müəllim-şagird", "müəllim-şagird-valideyn", "müdriyyət-şagird-valideyn", "dostlar-şagird". Şagird üçün sosial mühit dedikdə mürəkkəb sosial-psixoloji atmosferin təzahür etdiyi məktəb sinfidə başa düşülür. Bu zaman qrup üzvlərinin davranış və fəaliyyətinin uzlaşmasına gətirib çıxaran qrup inteqrativliyi, sinfin məqsədlərini, maraqlarının və əxlaqi dəyərlərinin məcmusu, intellektual bilik, yəni sinfin ümumi rəyinin formalaşmasına xidmət edən tez və asan şəkildə ümumi dil tapa bilmə qabiliyyəti nəzərə alınır. Bir çox hallarda müəllim şagirdləri idrak səviyyəsi baxımından qarışıq qruplarda fəaliyyətə cəlb edə bilər. Bu zaman müəllimin bircə təlimatı qrup daxilində güclü şagirdlərin zəif şagirdlər öyrətməsini istiyə bilər. Müəllim tapşırığın icrası ilə bağlı təlimatlar verərkən xüsusi ilə qeyd edirki qrup işini təmin edəcək şəxsi o özü müəyyənləşdirəcək. Onların birgə fəaliyyətinin nəticəsini kimin təqdim edəcəyi məlum olmadığından güclü şagirdlər məsələnin incəliklərini aşağı idrak səviyyəsi nümayiş etdirən yoldaşlarına səylə öyrədirlər. Bu zaman bütün şagirdlərin təlimə bərabər cəlb edilməsi təmin olunmaqla bərabər, şagirdlərdə digər insani dəyərlərdə formalaşır. Bu da birgəfəaliyyət, əməkdaşlıq, qayğıkeşlik, dəstək, özgəsinin uğuruna sevinmək və s.-dir. Şagirdlərin istəklərinin nəzərə alınmasıda onların təlimə cəlb edilməsi və nəaliyyətlərinin yüksəldilməsində mühüm amillərdən hesab edilir. Buna görə də müəllim hər bir şagirdi tədqiqat obyektinə çevirməli və onların maraqlarını,istəklərini öyrənməlidir. Hər bir şagirdin öz psixologiyasına uyğun davranmaq lazımdır. Tapşırıqlar məhz bu baxımdan tərtib edilməlidir. Maraqları üst-üstə düşən uşaqların birlikdə fəaliyyəti çox səmərəli nəticə verir. Əməkdaşlıq pedaqogikasının mahiyyəti belədir ki, müəllim təlim-tərbiyə prosesinin idarə edilməsində şagirdlərə arxalanır, onları özünə köməkçi hesab edir. Təlim-tərbiyə prosesinin təşkilində onların fikirlərini, rəyini arzu və təkliflərini nəzərə alır, onlarla diskuziyalar edir. Bu prosesdə müəllim çalışır ki, uşaqlar da təlim prosesinə cəlb olunsunlar, onlar da pedaqoji prosesin müəllimlərlə bərabər tam hüquqlu iştirakçısı və təşkilatçısı olsunlar.

Nəticə: Ali təhsil sistemində aparılan islahatlar, təhsil xidmətlərinin keyfiyyəti, tələbə-müəllim münasibəti, təlim-tədris işlərinin görülməsi ali təhsil müəssisələrinin hər gün inkişaf etməsinə gətirib çıxardır. Tələbə təhsil prosesinin subyekti, onun təkmilləşdirilməsi prosedurlarının iştirakçısı kimi çıxış etməlidir. Təlim prosesi olduqca mühim bir məna kəsb edir.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Ağayev Ə. Azərbaycan ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: "Avropa" nəşriyyatı, 2005.
2. Axundova İ., İsmayılova M., Mirzəyeva Ü. Uşaq inkişafı metodikası. Bakı: "Qanun" nəşriyyatı, 2011, 572 s.
3. Abbasov A. Pedaqogika. Bakı: 2010.
4. Abbasov A. Pedaqogika (müxtəsər konspekt və sxemlər). Bakı: 2007.
5. Azərbaycan Respublikasının Təhsil qanunu. Bakı: 2009-cu il 19 iyun.

Rus dilində:

1. Агаев А. Женское образование среди мусулман. Baku: Газ. “Каспи”, 1901, 5 октября
2. Акты Кавказскою Археографическою комииссию: в 12-х т. Т. X1, Тифлис, 1888, 1020 с.
3. Военно-статистическое обозрение Российской империи: Том 16. Кавказекии край, Часть 6. Санкт Петербургъ: 1853, 300 с.
4. Гасумов Г.Деятелъности КП Азербайджана по развитию народного образованыя в услоыиях развитного социализма (1959-1975 гг.) /Автореф. дис., канд., ист., наук., Ифлу, 1981, 24 с.
5. Джафаров Ф. Развитие народного оброзаваниея в Нахчвванской АССР (1920-1941 гг) / Автореф. дис., канд., ист., наук. Баку: 1991, 33 с.
6. Еветски О.С. Статистические описание Закавказского края. Санкт Петербург: 1835, 306 с.
7. Итоги Всесаюзной переписи населения в 1959 Азербайджансеой ССР, Москва: 1963, 200 с.
8. Итоги Всесаюзной переписи населения в 1970 Азербайджансеой ССР, Москва: т.3, 1972, 250 с.

SUMMARY

Vafa Ahmadova

THE ESSENCE OF THE TRAINING PROCESS

The article is devoted to the development of the learning process in the life of society. One of the important conditions for society to live is that people understand the objective development laws of the world, and the process of conveying the ways of using them to the younger generation should be especially noted. The presented article emphasizes that with a clear increase in the interest of young people in higher education, a decrease in the requirements for the selection of applicants is observed in some universities. This is caused by the severe financial situation of many universities and the sharp demographic situation in the country, which is manifested by a decrease in the number of applicants. It has been shown that in modern conditions, when the directions and paradigms of higher education change, university graduates have to work in rapidly and sharply changing conditions, and there is no complete certainty of future professional activity, the development of students' adaptability plays a role as one of the leading factors.

Key words: *educational process, lecture, research, experimental, pedagogical*

ZUBEYDA ZEYNALOVA
zeynalovazubeyd@gmail.com
Naxçıvan Dövlət Universiteti

TRANSLATING IDIOMATIC EXPRESSIONS FROM ENGLISH INTO AZERBAIJANI

Introduction

Translating idiomatic expressions is a delicate dance between languages and cultures, requiring more than just linguistic prowess. These expressions, deeply embedded in cultural contexts, pose unique challenges for translators seeking to convey their nuanced meanings accurately. From preserving cultural essence to finding equivalents and adapting to context, the task demands a profound understanding of both the source and target languages. In this article, we delve into the complexities of translating idioms between English and Azerbaijani, examining the intricacies involved and the pivotal role of translators in bridging cultural divides.

Main part

Translating idioms presents a unique set of challenges, predominantly due to their deep cultural roots. A literal translation of an idiom often leads to confusion or a loss of meaning. The translator must not only understand the literal words but also grasp the cultural context and the non-literal meaning of the expression.

- Loss of Cultural Essence: When translating idioms, there is a risk of losing the cultural essence embedded in the original expression. For example, translating the Azerbaijani idiom “Dağ dağa baxar, dağın xəbəri olmaz; adam adama baxar, adamın xəbəri olmaz” (literally 'mountain looks at mountain, the mountain doesn't know; person looks at person, the person doesn't know') into English would lose its profound cultural and philosophical context if done literally.

- Finding Equivalents: Finding an equivalent idiom in the target language that conveys the same meaning and retains the cultural nuance is often challenging. For instance, the English idiom “burning the midnight oil,” which means to work late into the night, may not have a direct equivalent in Azerbaijani that conveys the same sense of hard work and urgency.

- Cultural Specificity: Some idioms are so culturally specific that they have no parallel in other languages. For instance, the Azerbaijani idiom “gözü yuxuda olmaq” (literally 'to have eyes in sleep') meaning to be oblivious or unaware, might not find an exact match in English that conveys the same blend of disregard and unconsciousness.

- Adapting to Context: In many cases, the translator must adapt the idiom to fit the cultural and linguistic context of the target language. This often involves finding a similar idiom or rephrasing the idea in a way that makes sense in the target language. For example, translating the English idiom “let the cat out of the bag” into Azerbaijani might require finding an equivalent expression that conveys unintentional disclosure of a secret.

Examples and Analysis

- English to Azerbaijani:

- “Piece of cake” (something very easy) might be translated into Azerbaijani as “əl çatmaz qoz fındıq deyil” (literally 'not a walnut that cannot be reached'), which conveys ease of achieving something.

- “Bite the bullet” (to endure a painful experience bravely) could be translated as “dişini sıxıb dayanmaq” (literally 'to clench one's teeth and endure'), capturing the essence of enduring hardship.

- Azerbaijani to English:

- “Qarğa qarğanın gözün çıxarmaz” (literally 'a crow doesn't peck out another crow's eyes') equivalent to “honor among thieves” in English, reflects a shared understanding of mutual protection in a group.

- “Söz gümüşdür, sükut qızıldır” (literally 'speech is silver, silence is gold') translates well into the English idiom “silence is golden,” preserving the value placed on discretion and thoughtfulness.

In summary, the translation of idiomatic expressions between English and Azerbaijani is a complex task that requires a deep understanding of both languages and their respective cultures. It is not just a linguistic exercise but a cultural one, where the translator acts as a bridge connecting not just words but worlds. This process involves not just the translation of language but the transference of meaning, context, and culture.

Conclusion:

Translating idiomatic expressions is not merely a linguistic exercise but a cultural endeavor that demands a nuanced understanding of both source and target languages. The challenges of preserving cultural essence, finding equivalents, and adapting to context underscore the complexity of this task. Translators play a vital role in bridging linguistic and cultural gaps, facilitating cross-cultural communication. As global interactions continue to increase, the importance of skilled translators in preserving the richness of language and culture becomes increasingly evident. Thus, translation remains a dynamic process of conveying not just words but the essence of diverse cultures.

REFERENCES

1. Baghirova N. (2022). Similar and different grammatical categories of the verb in different languages (based on english and azerbaijani materials). Scientific Journal of Polonia University, 54(5), 16-23.
2. Kazemian B., & Hashemi S. (2014). A Contrastive Linguistic Analysis of Inflectional Bound Morphemes of English, Azerbaijani and Persian Languages: A Comparative Study. Journal of Education & Human Development, 3(1), 593-614.
3. Nuriyeva S. (2016). The grammatical ways of expressing the future in English and their corresponding forms in Azerbaijani. International Journal of English Linguistics, 6(3), 156-169.
4. Suerek M. (2014). On the Problems Arising during the Transformation of the English Verbal Phraseological Units. International Journal of English Linguistics, 4(6), 151.
5. Rafig M.J. (2017). Semantic correlation of English and Azerbaijani-ecological terms. European journal of literature and linguistics, (2), 14-19.

XÜLASƏ

Zübeydə Zeynalova

İDİOMATİK İFADƏLƏRİN İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ EDİLMƏSİ

İdiomatik ifadələrin Azərbaycan və ingilis dilləri arasında tərcümə edilməsi hər iki dildə mövcud olan mədəni nüanslar səbəbindən tərcümə zamanı böyük problemlər ortaya çıxarır. Hərfi tərcümə çox zaman idiomların məğzini tam əhatə edə bilmir və idiomların dərin mədəni kontekstinin və mənasının itirilməsi riskini daşıyır. Mədəni ifadələrin unikallığı onların hədəf dildə tam qarşılığının tapılmasını çətinləşdirir.Tərcüməçilər idiomları hədəf dilin linqvistik və mədəni kontekstinə uyğunlaşdırmalıdırlar, bu isə öz növbəsində hər iki dil və müvafiq mədəniyyətlər barədə dərin biliyə malik olmağı tələb edir. ‘Piece of cake’ və ‘Qarğa qarğanın gözünü çıxarmaz’ kimi ifadələr bu tapşırığın mürəkkəbliyini ifadə edir. Əslində isə tərcümə məna, kontekst və mədəniyyətləri nəql etməklə dilin sərhədlərini aşaraq dünyaları birləşdirən körpü kimi çıxış edir.

Açar sözlər: *idiomatik ifadələr, hərfi tərcümə, kontekst və məna, ekvivalent idiomlar, mədəni ifadələr.*

РЕЗЮМЕ

Зубейда Зейналова

ПЕРЕВОД ИДИОМАТИЧЕСКИХ ВЫРАЖЕНИЙ С АНГЛИЙСКОГО НА АЗЕРБАЙДЖАНСКИЙ ПЕРЕВОД

Перевод идиоматических выражений между английским и азербайджанским языками представляет собой серьезные трудности перевода из-за культурных нюансов, присутствующих в обоих языках. Буквальный перевод часто не может полностью передать суть идиом и рискует потерять глубокий культурный контекст и значение идиом. Уникальность выражений культуры затрудняет поиск их точного эквивалента на целевом языке.

Переводчики должны адаптировать идиомы к лингвистическому и культурному контексту целевого языка, что, в свою очередь, требует глубокого знания обоих языков и соответствующих культур. Выражения типа «Кусочек пирога» и «Ворона вороний глаз не вынет» выражают сложность этой задачи. Фактически, перевод действует как мост, соединяющий миры, преодолевая границы языка, передавая смысл, контекст и культуры.

Ключевые слова: *идиоматические выражения, дословный перевод, контекст и значение, эквивалентные идиомы, выражения культуры.*

ELTAC QURBANOV
eltacqurbanov56@gmail.com
Naxçıvan Müəllimlər İnstitutu
ORCID ID: 0009 0003 7086 5595

YENİYETMƏ TƏLƏBATI AİLƏDAXİLİ ÜNSİYYƏTİN İNKİŞAF DİNAMİKASININ ƏSASI KİMİ

Məqalədə yeniyetməlik yaşının müxtəlif mərhələlərində tələbatların xarakteri və onun yeniyetmə ilə ailədaxili ünsiyyətdə nəzərə alınması məsələləri araşdırılmışdır. Belə bir nəticə hasil olmuşdur ki, yeniyetməlik yaşı dövrü 11-16 yaşları əhatə etsə də hər yaşın keçid mərhələsində yeniyetmənin fizioloji və psixoloji inkişafı eyni zanamda münasibətlərinin xarakteri dəyişir. Bu dəyişmə yeniyetmə üçün fərqli məna kəsb edir. Bu baxımdan ailədə yeniyetmələrlə ünsiyyət qurularkən 11-16 yaş aralığındakı bütün mərhələlərdə onların tələbatlarının inkişaf dinamikası nəzərə alınmalıdır. Məs. 11-12 yaşda yeniyetmələr valideynlərinin sözünə və onlarla ünsyyətə daha çox üstünlük verirlərsə, 13-14 yaşlarda yoldaşları ilə ünsiyyət onlar üçün ön planda olur.

Açar sözlər: *yeniyetmə, psixologiya, ünsiyyət, ailə, xarakter, valideyn.*

Uşağın bir şəxsiyyət kimi təkamülünün əsası ünsiyyət prosesindən başlayır. Yeniyetmə xarakterinin yaranmasında ailədaxili ünsiyyət mühüm əhəmiyyət kəsb edir. Yeniyetmə ata və anası tərəfindən təbiət və cəmiyyət haqqında biliklərə və anlayışlara yiyələnir, özünü qiymətləndirmək meyyarlarını dərk edir. Yetkin adamlarla bərabər içərimizdə hüquq normalarına, birgəyaşayış qaydalarına əhəmiyyət verməyən, əxlaqi-hüquqi cəhətdən qeyri-sağlam yaşayan, çətin yeniyetmə hesab edilən, qanunları pozan, cinayət xarakterli əməllərə meyl edən öz şəxsi mənafeyini ümumxalq mənafeyindən üstün tutanlarda vardır. Araşdırma və sorğulardan aydın olur ki, onların böyük qismi uğursuz ailələrdə yaşayıb boya-başa çatmış, tərbiyə almış məktəbi ictimai təşkilatların tərbiyəvi təsirlərinə laqeyd qalmışdır. Uğursuz ailələrdə ata-ana arasında qeyri-səmimi münasibətin kəskin artması, küsülülük, söz-söhbət, dava-dalaş olan ailələrdə yeniyetmə yaddan çıxarılır, tez-tez acılanır, döyülür, haqqı tapdalanır. Ata ilə ana, ana ilə nənə arasındakı qeyri-səmimiyətlilik gələcək vətəndaşı çıxılmaz vəziyyətdə salır. Ailədə qayğıya həsrət qalan yeniyetmə özünə qapanır, söz eşitməz, hər şeyə biganə və kobud olur. Onun bu davranışı getdikcə onun xarakterinə çevrilir. Bu cürə yeniyetmələrin tərbiyəsi qəlizləşir, yeniyetmə öz üzərində nəzarətin zəiflədiyini hiss edib yad kənar təsirlərə yönəlir. Yeniyetmə olan ailələrdə bəzən valideynlərin ünsiyyət zamanı nalayiq sözlər söyləməsi yeniyetmənin inkişafına pis təsir göstərir. Uşaqların yeniyetməlik mərhələsində bu nalayiq sözlər onların nitqində ən çox istifadə edilən sözlərə çevrilir və onların əksəriyyəti belə düşüncədə olur ki, ancaq bu yolla əsl insan olmaq mümkündür. Bu səbəbdən valideynlər istifadə etdikləri sözlərə diqqət etməli və nalayiq sözlərdən istifadə etməməlidirlər. Unutmayaq ki, uşaqlar bizim məsləhətlərimizdən çox işlətdiyimiz sözləri və etdiyimiz hərəkətləri özlərinə nümunə götürürlər.

Yeniyetmələrə ailədaxili münasibətlər ən vacibdir çünki onların həyatlarında böyük bir təsirə sahib olur. Sağlam ailə əlaqələri, sevgi, dəstək və anlayış, yeniyetmələrin kişilər kimi inkişaf etmələrinə kömək edir və onların psixoloji və sosial sağlamlığına təsir edir. Bunun üçün, valideynlər və ailə üzvləri yeniyetmələrə müsbət nümunələr göstərməli, onların fikirlərinə və hisslərinə dəyər verməlidir. Ailə üzvləri arasında açıq və sağlam kommunikasiya da çox önəmlidir. Ailədə sağlam kommunikasiyanın formalaşması üçün aşağıdakı bəzi prinsiplər vacibdir:

- Hər bir üzv öz fikirlərini, hisslərini və ehtiyaclarını rahatlıqla ifadə etməlidir.
- Hər bir üzvün fikirləri və hissləri eyni dəyərə malikdir. Hörmət və anlayış, müzakirələrin produktiv olmasına kömək edir.

• Dinləmə, anlayış və empati göstərmək əhəmiyyətlidir. Başqalarının fikirlərinə diqqət yetirmək və onları anlamağa çalışmaq, qarşılıqlı anlaşmanın və əlaqələrin inkişafının əsasını təşkil edir.

• Problemləri həll etmək və müqavimət göstərmək üçün açıq və sağlam müzakirələr təşkil etmək əhəmiyyətlidir. Hər bir məsələni həll etmək üçün birgə çalışmaq, güclü bir ailə birliyini təmin edir.

• Ailə üzvləri bir-birilərinə vaxt ayırmağa və bir-birilərinin həyatlarında maraqlı olmağa çalışmalıdır. Birlikdə keçirilən keyfiyyətli vaxt, əlaqələrin qüvvətlənməsinə kömək edir.

Göstərilən prinsipləri praktikada həyata keçirmək, ailə üzvləri arasında sağlam bir kommunikasiya mexanizmasını inkişaf etdirməyə kömək edir.

Ailə münasibətləri həyatımız boyu ünsiyyətə dərindən təsir edir və başqaları ilə müxtəlif yollarla qarşılıqlı əlaqəmizi formalaşdırır. Ümumiyyətlə, ailə söhbətlərini müşahidə etmək və iştirak etmək bizə özümüzü şifahi və qeyri-şifahi şəkildə ifadə etməyi, aktiv şəkildə dinləməyi və münaqişəni idarə etməyi öyrədir. Ailə dinamikası emosiyaları ifadə etməyi və idarə etməyi öyrənməyimizə əhəmiyyətli dərəcədə təsir edir. Açıq və dəstəkləyən ailələr tez-tez sağlam emosional ifadəni inkişaf etdirir, məhdudlaşdırıcı və ya münaqişəli mühitlər isə buna mane olur.

Münaqişələrin necə həll olunduğu da daxil olmaqla, ailə ünsiyyəti modelləri, fərdlərin ailə birliyindən kənar münaqişələrə yanaşma və həll etmə üsullarına birbaşa təsir göstərir. Ailə münasibətlərinin keyfiyyəti özünə hörmət və inamın formalaşmasında həlledici rol oynayır. Dəstəkləyici və təsdiqedici ünsiyyət, insanın ünsiyyət tərzinə və iddialılığına təsir edərək, müsbət özünü qavrayışı gücləndirir.

Ailə dinamikası fərdləri aktiv dinləmə, empatiya və aydın ifadə kimi əsas ünsiyyət bacarıqları ilə təchiz edə bilər. Bu bacarıqlar ailədən kənarda daha güclü şəxsiyyətlərarası münasibətlərə çevrilir. Bu həmçinin gələcək münasibətlər üçün bir model kimi xidmət edir. Fərdlər tez-tez şüuraltı olaraq ailə daxilində olanlarla oxşar ünsiyyət tərzi nümayiş etdirən tərəfdaşlar və ya dostlar axtarırlar. Yadda saxlamaq lazımdır ki, ailə münasibətləri ünsiyyətə həm müsbət, həm də mənfi təsir göstərə bilər. Sağlam ailə dinamikası effektiv ünsiyyət bacarıqlarını və müsbət şəxsiyyətlərarası münasibətləri inkişaf etdirə bilsə də, mənfi amillər, ünsiyyət çətinliklərinə və ailədən kənarda sağlam münasibətlərin qurulmasında çətinliklərə səbəb olur.

Yeniyetmənin düzgün təlim-tərbiyəsi onu tələb edir ki, biz yeniyetmə ilə yaşlı-uşaq münasibəti kimi deyil, yaşlı-yaşlı münasibət kimi təşkil edək. Təcrübələrdən görürük ki, yaşlılar yeniyetmələrlə öz keçmiş münasibətlərini dəyişmirlərsə, bu zaman böyük narazılıqlara gətirib çıxarır. Bu münasibətlər aşağıdakı formada ola bilər:

• İlk olaraq valideyn yeniyetmə ilə öz münasibətini dəyişmir və bu zaman yeniyetmə ilə arasındakı çətinliklər getdikcə çoxalır, ziddiyyətlər durmadan artır. Bu da yeniyetmənin ciddi etirazlarına gətirib çıxarır. O, söz eşitmir, müqavimət göstərir və s.

• İkinci halda valideyn yeniyetmə inadkarlığı üzündən öz şəxsi fikirlərinə zidd gedərək əvvəl icazə vermədiklərinə artıq icazə verir. Ancaq valideyn bu cür hərəkətlərində heç ardıcıllıq etmir. Bu zaman yeniyetmə ilə valideyn arasında ziddiyyətlərin biraz azalsa da, bu hal yenidən baş verdikdə valideynlər çıxılmaz vəziyyətə düşür. Yeniyetmə hər dəfə onun keçmişdə verdiyi qərara görə günahlandırır və növbəti dəfə güzəşt istəyinə nail olur. Qeyd etməliyik ki, hadisələrin bu cür cərəyan etməsi heç də xoşagələn hal deyil. Burada pis cəhət orasındadır ki, yeniyetmə nəyi edə bilər, nəyi edə bilməz haqqındakı məlumatları nə yeniyetmə, nə də valideyn düzgün şəkildə başa düşə bilmir.

• Sonuncu və ən yaxşı davranış yolu. Valideynlər vaxt keçdikcə artıq yeniyetməni uşaq hesab etmirlər. Bir dəfə onunla razılaşır və davranış tərzlərini müvafiq surətdə dəyişdirirlər. Nəyə icazə olar, nəyə isə icazə olmaz bunu qaydalaşdırırlar və bunu tətbiq edirlər. Belə olduqda problemlər aradan qalxır.

Ümumiyyətlə, yeniyetmə ilə valideyn arasında ziddiyyətlərin olmaması üçün valideyn və müəllimlər yeniyetmə şəxsiyyətinə onun statusuna, mənliyinə, şəxsi ləyaqətinə hörmətlə yanaşmağı bacarmalıdırlar.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya (dərslik). Bakı: "Çinar-Çap" nəşriyyatı, 2002, 620 s.
2. Əlizadə Ə.Ə. Abbasov Ə.N. Ailə həyatının etika və psixologiyası. Bakı: Maarif, 1988, 190 s.
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: "Maarif" nəşriyyatı, 2008, 386 s.
4. Fətəliyev, X.Q. Ailədə milli tərbiyə / X.Q. Fətəliyev. – Bakı: Maarif, – 1996. – 185 s.
5. İsmixanov, M.A. Pedaqogikanın əsasları / M.A.İsmixanov. – Bakı: ADPU, – 2013. – 300 s.
6. Quliyev, S. Gəncliyin davranış və nəzakət dəyərləri. Dərslik. / – Bakı: Maarif, – 1997. – 130 s.
7. Quliyev, S.M. Müasir gəncliyin əxlaq normaları. Dərslik. – Bakı: Ünsiyyət, – 2002. – 72 s.
8. Quliyev, S.M. Qloballaşma və müasir gəncliyin tərbiyə problemləri. Dərslik. / Bakı: ADPU, – 2013. – 266 s.

SUMMARY

Eltac Gurbanov

THE EFFECT OF INTERFAMILY COMMUNICATION ON THE FORMATION OF YOUTH'S CHARACTER

In these articles, we talk about adolescence, which for most of us is considered interesting and, at the same time, difficult. We meet children of this age in each of our families, relatives, and around us. It should be noted that adolescence is not a specific age limit, this period can start or end earlier or later in beautiful children. But in the most adolescent period, it covers the period of 10-14 years for boys and 11-15 years for girls. At this age, are we able to learn properly with our children, do we understand them? These studies were conducted in the article.

Key words: *innovation, learning, family, character, correct, child*

РЕЗЮМЕ

Элтак Гурбанов

ВЛИЯНИЕ МЕЖСЕМЕЙНОГО ОБЩЕНИЯ НА ФОРМИРОВАНИЕ ХАРАКТЕРА МОЛОДЕЖИ

В этих статьях мы говорим о подростковом возрасте, который для большинства из нас считается интересным и в то же время трудным. Детей этого возраста мы встречаем в каждой нашей семье, родственниках и вокруг нас. Следует отметить, что подростковый возраст не является определенным возрастным пределом, у красивых детей этот период может начаться или закончиться раньше или позже. Но в наиболее подростковом периоде он охватывает период 10-14 лет для мальчиков и 11-15 лет для девочек. Способны ли мы в этом возрасте правильно учиться со своими детьми, понимаем ли мы их? Эти исследования были проведены в статье.

Ключевые слова: *новаторство, обучение, семья, характер, правильный, ребенок.*

TALEH XƏLİLOV
x.taleh@gmail.com
AYTƏN AĞASİYEVA
aytenagsyva@gmail.com
Naxçıvan Dövlət Universiteti

İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN PEŞƏ BACARIQLARI

Məqalədə böyüyən nəslin təlim tərbiyəsi istiqamətində xüsusilə uşaqlarda elmi biliklərin bünövrəsini formalaşdıran ibtidai sinif müəlliminin şəxsi və peşə keyfiyyətlərinin, bacarıqlarının zənginləşdirilməsi və təkmilləşdirilməsi yollarından bəhs olunur. Təhsil, təlim-tərbiyə prosesinin gedişi və nəticələrini yaxşılaşdırmaq məqsədilə müasir təhsil infrastrukturuna bələd olan kompleks nəzəriyyələri qavrayıb ölkənin rifahı üçün fəaliyyətini düzgün quran ibtidai sinif müəllimlərinin sayının artırılması istiqamətində yeni təlim texnologiya vasitələrindən və peşə bacarıqlarından optimal dərəcədə istifadəsinə geniş yer verilməsindən söz açılır.

Açar sözlər: *təhsil, inkişaf, kompleks təlim, layihələşdirmə, peşəkar*

Müasir dövrdə qarşımızda duran ən vacib və önəmli vəzifələr sırasında əsas yeri müstəqil çalışa bilən, təhsilini müstəqil davam etdirə bilən, fərdi düşünmə qabiliyyətinə və vərdişinə yiyələnmiş adamlar tərbiyə etmək tutur. Həyatda insana lazım olan bu vəzifəni adı "müəllim" olan şəxs icra edir. Getdikcə inkişaf edən informasiya cəmiyyətində müasir dünya ölkələrinin aparıcı pedaqoq və psixoloqlarının yekdil qənaətinə görə, müəllim daimi olaraq həyatda yerini tapıb real problemlərin həllini açmaqda doğru metodlardan istifadə edərək övladlarına ən uyğun trayektoriyanı cızan bacarıqlı insandır.

Böyüyən nəsillərin təlim və tərbiyəsi istiqamətində təhsilin Avropa standartları səviyyəsinə qaldırılması, Vətənimizi beynəlxalq miqyasda layiqincə təmsil edə biləcək müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrların hazırlanması ümumilikdə müəllimin, xüsusilə uşaqlarda elmi biliklərin bünövrəsini formalaşdıran ibtidai sinif müəlliminin şəxsi və peşə keyfiyyətlərinin, bacarıqlarının zənginləşdirilməsi, təkmilləşdirilməsindən bilavasitə asılıdır.

Bu baxımdan, ibtidai sinif müəllimlərinin müasir təlim-tərbiyəvi fəaliyyətə hazırlanması elmi pedoqogikanın aktual problemlərinə daxildir. Belə ki, təhsil, təlim-tərbiyə prosesinin gedişi və nəticələrini yaxşılaşdırmaq məqsədilə yeni təlim texnologiya vasitələrindən istifadəyə üstünlük verən, düşünülmüş konsepsiyalar, tədris planları tərtib edə bilən, müasir təhsil infrastrukturuna bələd olan kompleks nəzəriyyələri qavrayıb ölkənin rifahı üçün fəaliyyətini düzgün quran ibtidai sinif müəllimlərinin sayı artırılmalıdır.

Bu gün parta arxasında əyləşən hər bir məktəbli bir neçə ildən sonra müstəqil həyata atılacaq və cəmiyyətin ictimai həyatında bir parça olacaq. Müasir şəraitdə böyüyən nəslin həyata düzgün hazırlanmasında ibtidai sinif müəllimlərinin rolu əvəzsizdir. İbtidai sinif müəllimlərinin fəaliyyəti və rolu öz peşəsinin mükəmməlliyi və keyfiyyəti ilə şərtlənir. İbtidai sinif müəllimlərinin tərbiyəvi fəaliyyətə hazırlanması və müəllim hazırlığı sahəsində əvəzsiz xidmətlər göstərən Azərbaycanın bir sıra görkəmli mütəffəkkirlərinin adını qeyd etmək olar: A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani, M.T.Sidqi, sonrakı dövrdə C.H.Məmmədquluzadə, F.B.Köçərli, M.Ə.Sabir, N.N.Nərimanov, Ü.Ə.Hacıbəyov və b.

İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlığından danışarkən ilk növbədə onun hansı pedaqoji bacarıqlara malik olmasını qeyd etmək lazımdır. Ədəbiyyata nəzər salsaq ötən əsrin 20-ci illərində müəllimin bacarıqlarının növləri müəyyənləşdirilmişdir:

1. Təşkilatçılıq-uşaqların maraq dairəsini bilmək, onların işini təşkil etmək bacarığı;
2. Əmək-əmək alətlərinə, elementlərinə cəlb etmək bacarığı;
3. Bədii-öz fikrini canlı, ifadəli və obrazlı şəkildə ifadə etmək qabiliyyəti;

4. Metodiki-uşaqların əqli fəaliyyətini təşkil etmək bacarığı;
5. Ictimai-ictimai iş bacarığı
6. Mədəni-sağlamlıq, yaradıcılığa meyl, gözəllik, maraq və estetik zövqün olması.

Düzdür, bu gün ibtidai sinif müəllimlərinə verilən ictimai sifariş, bacarıqların təsnifatına müasir yanaşmalar dəyişmişdir. Lakin onlar indi də müəllim fəaliyyətinin tərkib hissəsi kimi qalır.

N.V.Kuzmina tədqiqatlarında pedaqoji bacarıqların 5 növünü səciyyələndirmişdir:

1. Konstruktiv, kommunikativ, gnostik, təşkilatçılıq və tətbiqi bacarıq;

2. Konstruktiv-elmi nəzəriyyələrin deduktiv qurulması üsullarından biri olmaqla pedoqiji bacarıqlar arasındadır. Çağdaş müəllimin yaradıcı olması, öz bacarığından çıxış edərək yeni fikir, yeni ideya yaradıb onu həyata tətbiq etməyi ehtiva edən önəmli, dəyərli bacarıqdır;

3. Kommunikativ-qarşılıqlı münasibətin verbal ya da qeyri-verbal formada aparılmasını ehtiva edən bacarıqlardandır. Uyğun kommunikasiya üçün danışma, tələffüzün və qrammatik qaydaların düzgün formalaşması üçün fəaliyyət növü və üsullar düzgün seçilməli və tətbiq olunmalıdır.

Kommunikativ bacarıqlara aid etmək olar:

1. Təşkilatçılıq qabiliyyəti, avtoritar qabiliyyət, perseptiv qabiliyyət, suqqestik qabiliyyət, pedaqoji mərifət, pedaqoji təxəyyül, diqqəti paylaya bilmək qabiliyyəti, pedaqoji refleksiya

2. Gnostik-pedaqoji nəzəriyyəyə dərindən bələd olub, ondan yaradıcı şəkildə istifadə etmək, qabaqcıl təcrübəni öyrənib ümumiləşdirmək, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmaq, təkcə öz fənnini deyil, onun tədrisi metoddikası və psixologiyasını dərindən bilmək, elmi yenilikləri müntəzəm izləmək və innovasiyaları təhsilin məzmununa daxil etmək bacarığıdır.

3. Təşkilatçılıq-şagird kollektivini təşkil etmək, möhkəmləndirmək, vacib məsələlərin həyata keçirilməsinə ruhlandırmaq və öz fəaliyyətini düzgün təşkil edib səliqəlilik, işgüzarlıq, dəqiqlik, öz işini düzgün planlaşdırmaq və özünənəzarəti təşkil etmək bacarığıdır.

N.Y.Şurkova isə müəllimin bacarıqlarının üç qrupunu aid etmişdir.

Birinci qrup:

1. Sosial-perseptiv bacarıqlar(diqqət, müşahidə və təsəvvür);
2. Öz hisləri və əhval ruhiyyəsini idarə etmək bacarığı;
3. Hərəkətlərinə hakimlik(mimika və jestlərin ifadəliliyi);
4. Nitq mədəniyyəti(tənəffüs, bəlağət, məntiqlilik, düzgün tələffüz və ifadəli nitq).

İkinci qrup: bunlara təşkilatçılıq, kommunikativ,didaktik bacarıqlar, vaxtdan düzgün istifadə və qərar qəbul etmək bacarığı aiddir.

Üçüncü qrup: Əməkdaşlıq bacarıqları-şəxsiyyəti duymaq, anlamaq,uşağı düzgün başa düşmək, uşağı qoruya bilmək, ona təsir edə bilmək, qarşılıqlı təsir bacarıqları aiddir.

M.A.İsmixanov isə pedaqoji prosesin əsas siması sayılan müəllimin peşə bacarıqlarına diqqət yetirərək bu bacarıqlara akademik bacarığı da əlavə etmişdir.

Müxtəlif pedaqoqların müxtəlif baxışlarından yola çıxaraq ibtidai sinif müəllimlərinin təhsil müəssisələrində fəaliyyəti zamanı özündə əks etdirdiyi pedaqoji bacarıqları aşağıdakı kimi ümumiləşdirərik:

Qnostik – Peşəkarlıq mədəniyyətini artırmaq, peşə yüksəlişi baxımından perspektiv planlar qurmaq. Öz əməyinin nəticələrini sintezləşdirərək təhlil etməyi bacarmaq, həmkarlarının da təcrübəsini öyrənib onlardan faydalanmaq, yeniliyə cəhd etmək, yaradıcılıq üsullarına malik olmaq

Layihələşdirmə - Tərbiyənin məqsəd və vəzifələrini əvvəlcədən müəyyənləşdirməyi bacarmaq, tərbiyə işini planlaşdırmağı və reallaşdırmağı bacarmaq. Sinifdənxaric tədbirləri, ekskursiyaları proqramlaşdırmağı və keçirməyi bacarmaq

Konstruktiv – Tərbiyə işinin forma və üsullarını seçə bilmək, həmin işi uşağın mövqeyini yüksəltməyə yönəltmə bacarığı

Təşkilatçılıq – Qarşıya qoyulmuş məqsədə çatmaq üçün uşaqların və özünün fəaliyyətini təşkil etmək bacarığı

İbtidai sinif müəllimlərinin pedaqoji prosesdə kəmiyyət və keyfiyyət baxımından yerinə yetirdiyi bütün məsələlər müxtəlif aspektlərdən araşdırdıqda bir biri ilə düz mütənasib olması

prinsipini qorumalıdır. Buna görə də müəllim pedaqoji bacarıqlarından istifadə edərək pedaqoji prosesi ən optimal şəkildə həyata keçirməlidir. Müəllimin peşəkar və səriştəli fəaliyyətində pedaqoji ustalığı ön sıradadır. Pedaqoji ustalıq müəllimin yüksək öyrətmə mədəniyyəti, şagirdləri fəallaşdırmaq, onların müstəqilliyini təmin etmək bacarığı , uşaqlardan müsbət mənəvi keyfiyyətlərin aşılanması bacarığı, mükəmməl pedaqoji texnika deməkdir. Pedaqoji texnika dedikdə şagirdlərlə ünsiyyətin düzgün qurulması, özünün və şagirdlərin diqqətini idarə edə bilmək, şagirdin mənəvi durumunu öyrənmək, pedaqoji prosesin tempini hiss etmək, şagirdlərin axlaqi davranışına münasibətini aydın ifadə edə bilmək nəzərdə tutulur.

İbtidai sinif müəllimləri ilə yanaşı hər bir müəllimin pedaqoji müvəffəqiyyəti onda aşağıdakı keyfiyyətlərin inkişaf səviyyəsindən asılıdır:

-Peşə yararlılığı;
-Empatiya;
-Pedaqoji uzaqgörənlik;
-Pedaqoji takt;
-Ünsiyyət mədəniyyəti;
-Pedaqoji refleksiya.

Peşəyə yararlılıq – uşaqlarla işləməyə psixoloji hazırlığı, peşə maraqlarını, qabiliyyətlərini, pedaqoji ünsiyyət tərzini və müəllimin fəaliyyətə şəxsi münasibətini əhatə edir.

Empatiya – başqalarının həyəcanına həssaslıqla, qayğı ilə yanaşmaq və onların emosiyanal vəziyyətini anlamaqdır.

Pedaqoji takt – pedaqoji təsirlər zamanı müəyyən həddi gözləməyi bacarmaq, pedaqoji prosesin "nəbzini tuta bilməkdir". Pedaqoqun sevgi və tələbkarlığı, xeyirxahlığı və iradları, inamı və nəzarəti, zarafat və ciddiliyi düzgün əlaqələndirə bilməkdir.

Pedaqoji uzaqgörənlik – uşağın inkişafı üçün əhəmiyyətli olan məsələləri görmək və hər bir uşağın şəxsiyyət kimi formalaşmasındakı dinamikanı müəyyən edə bilməkdir

Pedaqoji optimizm – pedaqoji prosesə nikbinliklə yanaşmaq, hər bir uşağın inkişaf gücünə və imkanlarına inanmaqdır

Pedaqoji ünsiyyət mədəniyyəti – müəllimin şagirdlərlə, valideynlərlə, uşaqların uşaqlarla qarşılıqlı münasibətlərinin düzgün qurulmasını əhatə edir.

Pedaqoji refleksiya – müəllimin görülmüş işləri, əldə etdiyi nəticələri və onların qarşıya qoyulmuş məqsədə optimallığını təhlil etməsidir.

Nəticədə aparılan tədqiqatda pedaqoji təhsil sistemində ibtidai sinif müəlliminin peşə bacarıqları və onların xüsusiyyətləri üzə çıxarıldı. Bu peşə bacarıqları pedaqoji şəraitin effektini müəyyən edən əsas aspektə çevrildi. Əvvəlcə belə düşünürdük ki, bilik və bacarıqlar müəllimlərin təlim və tərbiyə işinə münasibətinin əsası və real təzahürüdür. Nəticədə apardığımız araşdırmalarda elə məhz düşündüyümüz tədqiqatın fərziyyəsi öz əksini tapdı.

ƏDƏBİYYAT

1. Şahkərəm M. İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasının pedaqoji əsasları. Bakı: Maarif, 2018. -18-19 s.
2. İsmayıl Ə. İbtidai təhsilin pedaqogikası. Bakı: Maarif, 2012. -215-218 s.

SUMMARY

Taleh Khalilov, Ayten Agasiyeva

PROFESSIONAL SKILLS OF PRIMARY CLASS TEACHERS

The article talks about the ways of enriching and improving the personal and professional qualities and skills of primary school teacher, who form the foundation of scientific knowledge, especially in children, in the direction of education of growing generation. In order to improve the progress and results of the education, training and education process, it is said to give ample space to the optimal use of new training technology tools and professional skills in order to increase the number of primary school teachers who grasp the complex theories familiar to the modern educational infrastructure and properly organize their activities for the welfare of the country.

Key words: *Education, development, comprehensive training, design, professional*

AMİNƏ SEYİDOVA
seyidovamine@gmail.com
Naxçıvan Dövlət Universiteti

NAXÇIVANDA DAŞ EPİQRAFİK ABİDƏLƏR

Naxçıvan diyarı əsrlərin keşməkeşli tarixinin parlaq şahididir. Bu diyarda qorunub saxlanılan arxeoloji tapıntılar və klassik memarlıq abidələrində bəşər sivilizasiyasının inkişafı aydın görünür. Bəşəriyyətin ikinci vətəni olan Naxçıvanın hər daşının altında bir tarix vardır. Qoynunda qoruyub saxladığı maddi-mədəniyyət abidələri də onun qədim tarixinin daşlaşmış nümunələrindəndir. Bu nümunələr xalqımızın mənəvi sərvətindən, böyük şəxsiyyətlərinin həyatından, adət-ənənələrindən qaynaqlanan mədəni tariximizdən xəbər verir. Epiqrafik abidələrin tədqiqi mədəniyyət və incəsənət tariximizin tədqiqində mühüm əhəmiyyət kəsb edir. Naxçıvan bölgəsi tarixin müxtəlif dövrlərinə aid olan və müxtəlif əlifbalarla yazılan epiqrafik memarlıq abidələri ilə zəngindir. Naxçıvanda arami əlifbasından başlayaraq kril əlifbasına qədər müxtəlif əlifbalarla yazılmış müxtəlif sənədlər və kitabələrə rast gəlmək olar. Lakin bu kitabələr çox az saydadır. Bölgədə daha çox müsəlman türkləri yaşadığından burada yazı vasitəsi kimi ərəb əlifbasından istifadə edirdilər və burada əsasən müsəlman epiqrafikası abidələri üstünlük təşkil etmişdir. Müsəlman epiqrafik abidələrini zənginliyi ilə Naxçıvan Azərbaycanın ən qədim yerlərindən biri kimi fərqlənir. Naxçıvan Muxtar Respublikasında tapılmış epiqrafik abidələr Azərbaycanın orta əsrlər dövrü və mədəniyyəti haqqında öyrənmək üçün ən yaxşı mənbədir.

Açar sözlər: *daş abidələr, qoç heykəllər, epiqrafik abidələr*

Giriş

Orta əsrlərə aid mənbələr günümüzədək qorunub saxlanılıb, həmin dövr ərzində Azərbaycanın tarixi mədəniyyəti ilə bağlı maraqlı və çoxşaxəli faktlar vardır. Bu qaynaqlarda epiqrafik abidələrin və kitabələrin xüsusi yeri var. Yazılı mənbələr və əsərlərlə yanaşı Azərbaycan tarixinin açıqlanmasına xidmət edən faktlardan biridə epiqrafik abidələrdir. Azərbaycanda epiqrafik abidələr fərqli dövrlərdə, fərqli əlifbalarda, fərqli mövzularda və müxtəlif materiallar üzərində yazılmışdır. Azərbaycan beynəlxalq vəziyyətdə tanıtmaq üçün bu epiqrafik materialların mühüm rolu olmuşdur. Azərbaycan xalqının əməyə sayəsində yaranan onun həyat və məişətində geniş formada istifadə olunan el sənətlərimizin böyük və zəngin bir tarixi vardır. Azərbaycan ərazilərində aparılan arxeoloji qazıntılar sübut edir ki, bu ərazidə yaşayan tayfalar hələ ta qədim dövrlərdən bizim erada daxil olmaqla daşdan, gildən, taxtadan və digər məlumatlardan daş abidələr, saxsı qablar, toxuculuq alətləri, silah və bəzək örnəkləri hazırlayıb öz həyat və məişətlərdən istifadə edərək gələcək nəsillərə zəngin bir irs buraxmışlar. Erkən orta əsrlərdə Azərbaycanda çox qədim zamanlardan mövcud olan sənətkarlıq dahada inkişaf etmiş, onun yeni sahələri yaranmışdır. Epiqrafik abidələrin tədqiqi mədəniyyət və incəsənət tariximizin öyrənilməsi baxımından mühüm önəm kəsb edir. Orta əsrlərdə nəinki məzar daşları üzərində, hətta memarlıq abidələrində həndəsi və nəbat naxışlara üstünlük verilməsi İslam dininin qanunları ilə bağlı olub. İslam qanunlarına görə, canlı aləmin qəbirüstü daşlarda, digər memarlıq abidələrində təsviri yolverilməzdir. O dövrlərdə həndəsi fiqurlardan naxış kimi istifadə olunub.

Naxçıvanda daş abidələr

Naxçıvan Azərbaycanın əsas ticarət mərkəzlərindən biri olmuşdur və orta əsrlərdə bu sahədə dahada inkişaf etmişdir. Həmçinin Yaxın Şərqdə və Qafqazda iqtisadi və mədəni əlaqələrin dahada genişlənməsində mühüm bir rol oynamışdır. Qədim zamanlardan Naxçıvan öz sənətkarlığı və memarlığı ilə tanınır. Burada zəngin mədəni irs nümunlərinin aşkarlanması qədim zamanlardan davamlı həyat sürüldüyünü, bu sivilizasiya arasında qırılmaz mədəni əlaqələrin olduğunu görürük. Daş üzərində oyma və bədii tərtibat sənəti Azərbaycan dekorativ-bədii yaradıcılığının ən yüksək inkişaf etmiş sahəsidir. Tarixi mənbələrdə göründüyü kimi bu sənət ta qədimdən nəsildən-nəslə

keçərək əsrlər boyu formalaşmış və müasir dövrümüzə qədər gəlib çatmışdır. Təəssüf ki, memarlıq sənəti tarixinə dair yazılmış əsərlərdə abidələrimizin tarixi memarı və ya kim tərəfindən kimin üçün tikildiyi haqqında kifayət qədər məlumatlar verildiyi halda, onları bilavasitə öz əlləri ilə tikən usta daşyonanlar haqqında lazımı qədər məlumata rast gəlinmir. Arxeoloji qazıntılar zamanı şəhərdən daşişləmə sənətinə aid xeyli materiallar, qəbirüstü abidələr aşkar edilmişdir. Naxçıvanın orta əsr memarlığı və tikinti sənətində başlıca yeri bişmiş kərpic tutsa da bütün dövrlərdə daşdan geniş istifadə edilmişdir. Digər tərəfdən nəzərə almaq lazımdır ki, bu ərazi müxtəlif tərkibli və keyfiyyətli daş ehtiyatları ilə zəngindir .

Qeyd etmək lazımdır ki, bu sənətin inkişafında yerli daş materialların növləri sənət ustaların iş üslubuna da ciddi təsir göstərmişdir. Bu baxımdan Naxçıvan memarlıq abidləri xüsusilə fərqlənir. Lakin burdan tapılmış baş daşları, sinə daşları və sənduqələr kimi xatirə abidələri üzərindəki müxtəlif həndəsi, nəbati ornamentlər, kompozisiyaları və eləcə də xətlərlə yazılmış kitabələr, həmçinin at və qoç heykəlləri birdaha sübut edir ki, daşyonma sənəti bu ərazidə də yaxşı inkişaf etmişdir. Hər bir xalq öz tarixinin qədim və zənginliyinə arxalanır. Bu zəngin və qədimliyi sübuta yetirən isə ilk növbədə tarix və memarlıq abidələrimizdir. Naxçıvanda yaradılmış Açıq Səma Altında muzey də bu sahədə yeni xeyirxah işin davamıdır. Bu muzeydə toplanmış sənət örnəkləri olan qoç, qoyun, sənduqələ, baş daşları, sütün altıqları, əski məişət əşyaları və.s.Gəmiqayadakı qayaüstü təsvirlər, piktoqrafik işarələr tarixi baxımdan böyük elmi əhəmiyyət daşıyır və Anadolunun qədim incəsənət abidələri ilə sıx bağlılıq təşkil edərək tarixən bu ərazidə qədim türk etnoslarının yaşadığını sübut edir.Bu abidədəki qayaüstü təsvirlər Kür-Araz, Boyalıqablar, Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən tapılan arxeoloji materiallarla bağlılıq təşkil edərək Naxçıvanın qədim və zəngin tarixinin müxtəlif dövrlərini əks etdirir. Qədim sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan diyarı tarixi abidələrlə zəngindir. Onlar həm yazıyaqədərki, həm də yazının meydana çıxmasından sonrakı tariximizi öyrənmək üçün əvəzsiz mənbələrdir. Abidələrimizin tədqiqi zamanı əldə olunmuş elmi nəticələr nəinki Azərbaycan, eləcə də dünya arxeologiyasının öyrənilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki Qazma, Kilid, Daşqala mağaraları və digər Daş dövrünün abidələri Naxçıvanın ilk insan məskənlərindən biri olduğunu sübut edir. Bu abidələrdən tapılan fauna və flora qalıqları, müxtəlif formalı əmək alətləri və digər arxeoloji materiallar Naxçıvanda Daş dövrünün bitki və heyvanat aləmi ilə yanaşı, insanların həyat tərzi, məşğuliyyət sahələri haqqında da məlumatlar verir. Qazma mağa-rasından tapılan sümük qalıqlarının əksəriyyətinin iri heyvanlara məxsus olması göstərir ki, Mustye mədəniyyəti dövründə bu abidədə məskunlaşmış insanların həyatında ovçuluq xüsusi yer tutubdur. Oradan əldə olunmuş işlənmiş daş və sümük materiallar Naxçıvanda daşişləmə və sümükişləmə sənətkarlıq sahələrinin tarixinin qədim olduğunu da sübut edir.

Tarix boyu xalqımızın həyat, yaşayış tərzini, inam, düşüncə xüsusiyyətləri, gözəllik duyğularını çox əyani və dəqiq şəkildə əks etdirir. Məlum olduğu kimi, folklorumuzda, nağıl və dastanlarımızda, xalq inanclarında at, qoç obrazları hünər, bərəkət rəmzi kimi müqəddəs simvollar kimi yaşayır. Həmçinin çox qədim xarakterli bu qoç, at fiqurları Azərbaycanın bir çox yerlərində qəbiristanlıqlarda mövcuddur. Naxçıvan MR-nin müxtəlif, bəzən ən ucqar güşələrindəki at, qoç-qoyun fiqurlarıda böyük dəyərə malikdirlər. Bu fiqurların, totem, inanc, tapınaq obyekti kimi elmi əhəmiyyəti varsa, onları qədim heykəltaraşlığımızın misilsiz nümunələri kimi estetik qiyməti, bəlkədə daha da artıqdır. Bu heykəllər heç şübhəsizki istedadlı sənətkar əlinin bəhrəsidir. Odur ki, hər bir qoç və ya at fiquru onu yaradan adsız sənətkarın fərdiyyətini, şəxsiyyətini zövqünü əks etdirir. Buna görədə bir qoç digərinə bənzərliyi yoxdur. Daş abidələr sənəti tarixindən danışarkən qoş fiqurlarına xüsusi qeyd etmək lazımdır. Çünki onlar həm say, həmdə üslub xüsusiyyətlərini müxtəlifliyi ilə daşdan düzəldilmiş sənətimizin inkişaf yolları haqqında ətraflı məlumat verir. Daşdan yonulmuş qoç fiqurlarının belə geniş yayılması təəsadüfi deyildir. Qoçu bir totem kimi təmsil edən təsvirlər içərisində bizim üçün ən qiymətli daşdan yonulmuş qoç fiqurlarıdır. Ordubad, Culfa, Şahbuz, Şərur bölgələrində aşkar olunmuş bu cür qəbirüstü abidələrin üzərində ov təsvirləri də var. Təsvirlərdə ox, kaman, ovçu, öküz təsvirlərini görmək mümkündür. Daş qoç və qoyun heykəllərinin bir neçəsinin

üstündə isə at təsvirləri yer alıb. Heykəlin üzərində yəhərli at və qılınc təsvir olunub. Naxçıvanın digər bölgələrində də üzərində at təsviri olan qəbirüstü daş qoç və qoyun heykəlləri aşkar olunub. Bunun səbəbi türk xalqlarında ata böyük hörmət və məhəbbətə yanaşılmasıdır.Şərur ərazisində tapılmış bir qoç heykəli üzərində isə dəvə karvanı təsvir olunub. Bu təsvir orta əsrlərdə Naxçıvanda dəvədən nəqliyyat vasitəsi kimi istifadə olunduğunu göstərir. Həmçinin bu təsvir Naxçıvan ərazisinin keçid bölgəsi olduğu və burada dəvəçiliyin inkişafı barədə məlumat verir.

XIX-XX əsrlərdə etnoqrafiya, folklor, ekspedisiyalarının apardığı araşdırmalardan aydın olur ki, türk dilli xalqlar qoyunların heykəllərin düzəldir ona inanırmışlar. Deməli, qoyun inancı o qədər güclü imiş ki, XX əsrin 30-cu illərinə kimi olmuşdur. Azərbaycanlılar qoyunların balalama zamanı mahnı oxumaq kimi adətləri varıymış. Azərbaycanın bir çox yerlərində qoyun heykəllərinə, qəbir daşları üzərində qoyun, qoyun başı qabartmalarına rast gəlmək olur. Bütün bunlar qoçun şəri, pisi qovması inamı ilə bağlıdır. Naxçıvan şəhər İmamzadə ətrafından gətirilmiş qoç fiquru üzərindəki təsvir də çox maraqlıdır. Daş yonma ustaları qoç heykəllərinin başlarına xüsusi diqqət yetirmiş, qoçların buynuzları qabarıq şəkildə yonulmuşdur. Bəzi qoçların boğazları hörmə naxışlar və dairəvi dalğalar şəklində olan qabarıqlarla bəzədilmişdir. Halqalar formasında olan qabarıqlar günəşin rəmzini təmsil edir. Muzeydə qorunub saxlanan qəbirüstü abidələr, sənduqələr də çox maraqlıdır. Qəbirüstü abidələr orta əsrlərdə Naxçıvanda daşişləmə sənətinin intibah dövrü keçirdiyini sübut edir. Qədim sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan diyarı tarixi abidələrlə zəngindir. Onlar həm yazıyaqədərki, həm də yazının meydana çıxmasından sonrakı tariximizi öyrənmək üçün əvəzsiz mənbələrdir. Abidələrimizin tədqiqi zamanı əldə olunmuş elmi nəticələr nəinki Azərbaycan, eləcə də dünya arxeologiyasının öyrənilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki Qazma, Kilid, Daşqala mağaraları və digər Daş dövrünün abidələri Naxçıvanın ilk insan məskənlərindən biri olduğunu sübut edir. Bu abidələrdən tapılan fauna və flora qalıqları, müxtəlif formalı əmək alətləri və digər arxeoloji materiallar Naxçıvanda Daş dövrünün bitki və heyvanat aləmi ilə yanaşı, insanların həyat tərzi, məşğuliyyət sahələri haqqında da məlumatlar verir. Qazma mağarasından tapılan sümük qalıqlarının əksəriyyətinin iri heyvanlara məxsus olması göstərir ki, Mustye mədəniyyəti dövründə bu abidədə məskunlaşmış insanların həyatında ovçuluq xüsusi yer tutubdur. Oradan əldə olunmuş işlənmiş daş və sümük materiallar Naxçıvanda daşişləmə və sümükişləmə sənətkarlıq sahələrinin tarixinin qədim olduğunu da sübut edir. Muxtar respublikanın bölgələrindən gətirilmiş müxtəlif daş abidələrin böyük bir qismi Naxçıvan şəhərində yerləşən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömінə Xatın və Açıq Səma Altında Muzey Kompleksində mühafizə olunur. Bütün abidələr qədim zamanlardan bəri türklərin bu ərazilərdə tarixin erkən dövrlərindən yaşadığını sübut edir. Bu daş abidələr tarixin sınağından keçərək bu günümüzə gəlib çatıb və özündə qədim türk xalqlarının minilliklərə sığmayan tarixini, mədəniyyətini yaşadır.

Nəticə

Nəticə olaraq bunu demək olar ki, belə gözəl sənət əsərləri vaxtı ilə dogma diyarımızda baş verən müharibələr nəticəsində çox hissədi dağıdılıb və qədir-qiyməti bilinməmişdir. Son illər tarixi memarlıq abidələrimizin qorunması istiqamətində nəzərə çarpacaq irəliləyişlər vardır. Bu istiqamətdə artıq həyacan təbili çalınır, tarixi abidələrimiz dünya iris siyahısna salınır, onların qorunması istiqamətində beynəlxalq qurumlarla əməkdaşlıq edilir. Həm "Naxçıvan abidələri" ensiklopediyası, həmdə muzeydə qorunan mədəniyyət abidələrinin düzgün təhlili və təbliği mənfur ermənilərin Naxçıanla bağlı iddialarına yetərli sübut olacaqdır. Həqiqətən də abidələrimizin tədqiqi bird aha sübut edir ki, Naxçıvan türk torpağıdır. Çünki bu günə qədər istər abidələrin araşdırılması, istərsə də yer adları ilə bağlı mənbələrdə heç bir erməni adına rast gəlinməməşdir.

ƏDƏBİYYAT

1. Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2019, 152 s.
2. Naxçıvan epiqrafik abidəlrində görkəmli şəxsiyyətlər. Naxçıvan: "Əcəmi" NPB, 2016, 144 s.
3. Azərbaycan tarixi dərslərində epiqrafik materialladan istifad. Bakı: Elm, 2002, 80 s.

SUMMARY

Amina Seyidova

STONE EPIGRAPHIC MONUMENTS IN NAKHCHİVAN

The land of Nakhchivan is a vivid witness of the turbulent history of centuries. The development of human civilization is clearly visible in the archaeological finds classical architectural monuments preserved in this land. Nakhchivan, which is considered the second homeland of mankind, has a history under every stone. The material cultural monuments preserved in its bosom are among the petrified examples of its ancient history. These examples tell about the spiritual wealth of our people, the lives of great personalities, and their traditions. The study of epigraphic monuments is important in the study of our culture and art history. Nakhchivan region is rich in epigraphic architectural monuments belonging to different periods of history and written in different in Nakhchivan, one can find various documents and inscriptions written in different alphabets, starting with the "aramaic'' alphabet, and ending with the "krillic" alphabet. Since there were more muslim turks living in the region, they used the Arabic alphabet as a means of writing, and the monuments of muslim epigraphy prevailed here. Nakhchivan stands out as one of the oldest places of Azerbaijan due to the wealth of muslim epigraphic monuments. The epigraphic monuments found in the Nakhchivan Autonomous Republic are the best source for learning about the medieval period and culture of Azerbaijan.

Key words: *stone monuments, ram sculptures, epigraphic monuments*

AYNUR NAMAZOVA
aynamaz@mail.ru
Azerbaijan State Pedagogic University
ORCID ID: 0009-0001-2498-8880

THE MAIN FEATURES OF THE PARTS OF SPEECH IN THE TURKIC LANGUAGES OF THE OGHUZ GROUP

This article examines the main features of parts of speech in Turkic languages of the Oghuz group. Thus, in this article, the important features of the main parts of speech in the Turkic languages of the Oghuz group are involved in the research. Of these parts of speech, nouns, adjectives, and pronouns attract special attention.

Key words: *dialects, parts of speech, Turkish words, Oghuz, linguistics*

The reason for the difference in how many compound nouns are divided into is that researchers handle compound nouns with different approaches. In Oghuz dialects, nouns are divided into two as specific and generic, depending on whether the entities they represent are one or more. Proper names used in Oghuz dialects may differ due to religious and political reasons. The subject of nouns according to their qualities and quantities is discussed under the title of number in nouns, and nouns are evaluated according to their qualities and quantities either under two headings as singular and plural, or under three headings as singular, plural and collective. In all Oghuz dialects, there is singularity and nouns that do not have the plural suffix -lAr; It is accepted as a singular noun and there is no grammatical sign indicating singularity in Turkish dialects. The suffixes -In, - Un, -(n)In, -(n)Un, which are accepted as noun case suffixes in some studies, are called complement suffixes or genitive suffixes in this study; Additionally, the complement suffix is not among the case suffixes.

The suffix -CA, which adds the meanings of equality, similarity, relativity and comparison by adding it to nouns and noun words in the sentence; It is shown among noun case suffixes by many researchers. This suffix is mentioned among the transformation suffixes in our study because it transforms the noun to which it is added into an adverb. Again, in our study, directional, relative and equality suffixes are not considered among the noun case suffixes, and the noun case suffixes consist of -I / -U (determining), -A (dating), -DA (staying) and -DAn (leaving). So, noun case suffixes are divided into five: the simple case of the noun, the accusative case, the dative case, the accusative case and the separating case. Additionally, there is diversity in the preferred terms for case suffixes. As seen in the scanned sources, among the noun expansion suffixes in Oghuz dialects, the noun case suffixes that enable the word to be added to function as subject, object, indirect complement and adverbial complement in the sentence are basically common, except for a few phonological and semantic features. However, significant task changes are also seen in case suffixes in GT.

In our study, adjectives are grouped under two main headings: qualifying adjectives and indicative adjectives, and indicative adjectives are also included; It is divided into subheadings as demonstrative adjectives, indefinite adjectives, interrogative adjectives and numerical adjectives. Number adjectives are; They are grouped as main number adjectives, ordinal number adjectives, compound number adjectives, fraction number adjectives, and group number adjectives. In Oghuz dialects, descriptive adjectives are meant by adjective expression, and the determining adjectives in TT are not included in the scope of adjectives in AT, TmT and GT. Demonstrative adjectives, indefinite adjectives, and interrogative adjectives, which are considered under the subheading of demonstrative adjectives in Turkey Turkish, are evaluated within pronouns in other Oghuz dialects. Demonstrative adjectives, which are considered as subheadings of demonstrative adjectives in TT, are demonstrative pronouns in other Oghuz dialects. While indefinite adjectives that indicate nouns as indefinite are considered under the subheading of indicative adjectives in Turkey Turkish, they are

evaluated within pronouns in other Oghuz dialects. While interrogative adjectives that indicate nouns in question form are considered as a subheading within demonstrative adjectives in Turkey Turkish, they are included in the question of interrogative pronouns in other Oghuz dialects. As can be seen, adjectives and pronouns are intertwined in Oghuz dialects.

abbreviations in press materials, examined the challenges associated with their usage, and identified tools and strategies for managing them effectively. The theoretical foundation has emphasized the importance of abbreviations as linguistic shortcuts that enhance conciseness and readability. The use of standardized abbreviations aligns with the principles of efficient communication, particularly in scientific and technical domains. Moreover, the methodological basis for employing abbreviations underscores the need for clear guidelines, glossaries, and consistent translation approaches to maintain coherence across diverse materials. Encourage continuous training for translators and content creators to stay updated on industry-specific abbreviations and evolving language trends. Foster collaboration among translation teams, subject-matter experts, and writers to create a shared understanding of abbreviation usage and translations

Discussion

Terminology is dynamic, and industry-specific abbreviations may undergo changes over time. Implementing adaptive terminology management practices involves not only staying abreast of industry shifts but also actively engaging with stakeholders to capture emerging trends. Ultimately, the effectiveness of abbreviation usage is measured by its impact on the end-user. Organizations should prioritize a user-centric approach, seeking feedback, conducting usability studies, and refining abbreviation choices based on user preferences and comprehension. Inclusive communication is a cornerstone of effective abbreviation usage. Integrating accessibility standards ensures that abbreviations are presented in a format that accommodates individuals with diverse needs, including those with visual or cognitive impairments.

REFERENCES

1. Bowker, L., & Pearson, J. (2002). Working with Specialized Language: A Practical Guide to Using Corpora. Routledge.
2. Brislin, R. W. (1993). Understanding Culture's Influence on Behavior. Fort Worth, TX: Harcourt Brace College Publishers.
3. Daskalov, R., & Malakova, G. (2017). Terminology Management in Cross-Language Information Retrieval. Journal of Computer Science and Technology, 17(2), 123-136.
4. García-Sánchez, F., et al. (2021). The Impact of Artificial Intelligence in Translation Processes: A Case Study in the Medical Domain. Frontiers in Artificial Intelligence, 4, 648879.
5. Groom, N., & Schuster, S. (1997). The Learning Organization: Principles, Practices, and Pitfalls. Organizational Dynamics, 26(2), 54-67.
6. Jääskeläinen, R. (2018). Investigating Translation Competence: Conceptual and Methodological Issues. In Translation Studies (pp. 1-16). Routledge.

MARAT QƏHRƏMANOV
maratqhrmanov@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID :0009-0009-4413-2869

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNDƏ ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

Məqalədə AXC - nin xarici siyasətində əsas rol oynayan Əlimərdan bəy Topçubaşovun siyasi bacarığından bəhs edilmişdir. Qeyd edilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olsa da, bu qısa müddətdə çox işlər həyata keçirilmişdir. Reallıqları nəzərə alaraq aparılan siyasət qısa zaman kəsiyində AXC - nin beynəlxalq arenada tanınmasına təkan vermişdir. AXC - nin xarici siyasətinin aparılmasında əsas fiqurlardan biri də Əlimərdan bəy Topçubaşov olmuşdur. Əlimərdan bəy Topçubaşovun siyasi görüşləri, onun siyasi fəaliyyəti AXC - nin mövcudluğu dövründə əsasən beynəlxalq məclislərdə, xüsusilə də Paris sülh konfransında özünü yüksək səviyyədə, açıq aydın göstərmişdir. Bu isə Azərbaycan dövlətçiliyi tarixində danılmaz fakt və xidmətlərdən biri hesab olunur. Bu baxımdan da görkəmli diplomatın siyasi fəaliyyətinə məqalədə nəzər salınmış və onun Cümhuriyyət tariximizdəki əvəzsiz xidmətləri yüksək qiymətləndirilmişdir. Eyni zamanda AXC - nin yaranması Azərbaycan millətinin inkişafının timsalı idi. Bu dövlətin yaradıcıları olan Ə. Topçubaşov və başqa vətənpərvər istiqlalçılar gecəni gündüzə qataraq, milli dövlətçiliyimizin əsaslarını möhkəmləndirdilər.

Açar sözlər: *Əlimərdan bəy Topçubaşov, Xarici siyasət, AXC, diplomat , Paris sülh konfransı*

Giriş. Azərbaycan Xalq Cümhuriyyəti irsinin Azərbaycan dövlətçiliyi və Azərbaycançılıq məfkurəsindəki rolu, beynəlxalq aləmdə xarici siyasət ideyalarının formalaşmasındakı əhəmiyyəti olduqca böyükdür. Çox böyük tarixi inkişaf ənənələri olan Azərbaycan cəmiyyəti çar Rusiyası dövründə ciddi maneələrlə qarşılaşdı. 1918-ci ildə özünün millət olmaq əzmini göstərərək dövlət müstəqilliyini elan etdi. 23 ay müddətində mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq aləmdə öz nüfuzunu kifayət qədər tanıtmışdır. Belə bir zəmində xüsusi olaraq nəzərə almaq lazımdır ki, Cümhuriyyət irsinin ən qaranlıq səhifələrinin araşdırılması, Əlimərdan bəy Topçubaşovun siyasi fəaliyyətinin reallıqlarının bütün incəliklərinə qədər tədqiq olunması olduqca mühüm və aktual məsələdir.

Əlimərdan bəy Topçubaşovun Azərbaycan Xalq Cümhuriyyətindəki fəaliyyəti bir - birinin əksində dayanan iki konsepsiya əsasında araşdırılmışdır. 1987-ci ildən Azərbaycan mətbuatında Azərbaycanda milli demokratik hərəkata, Əlimərdan bəy Topçubaşovun fəaliyyətinə aid elmi - tarixi məqalələr çap olunmağa başladı. Əlimərdan bəy Topçubaşovun müxtəlif illərdə nəşr etdirdiyi əsərlərinin öyrənilməsi də onun fəaliyyətinin araşdırılmasında çox mühüm və əsaslı bazadır. Məqalənin yazılmasında istifadə olunan mənbələrdən biri də Əlimərdan bəyin Parisdə 1926-cı ildə nəşr etdirdiyi " Qafqazlılar arasında " əsəridir. Həmin əsərdə AXC - nin müstəqilliyindən 8 il keçməsi və özünün Parisdəki fəaliyyətindən söhbət açılır. Cümhuriyyətin ilk günlərində Əlimərdan bəy Topçubaşovun hazırladığı memorandum Azərbaycan Xalq Cümhuriyyətinin mühüm siyasi - hüquqi sənədi hesab olunmalıdır. Memorandum hətta Əlimərdan bəyin çoxtərəfli fəaliyyətinin ölkəmizdəki və beynəlxalq təşkilatlardakı prosesləri qiymətləndirmək baxımından da əhəmiyyətlidir. Əlimərdan bəy Topçubaşovun memorandumu səlahiyyətli xarici dövlət dairələrinə və eləcə də Paris sülh konfransına təqdim etməsi onun hərtərəfli diplomatik bacarığını, səriştəsini nümayiş etdirir [3, s. 226].

AXC - nin müstəqilliyinin beynəlxalq aləmdə tanınmasında ilk cəhdlər

Əlimərdan bəy Topçubaşov 1918-ci ilin avqustun 23-də Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi və naziri kimi İstanbula yola düşmüşdür. Bir müddət ləngidikdən sonra sentyabrın

28-də İstanbula gedib çıxa bilmişdir. Cümhuriyyət dövründə olan mənbələrdən məlum olur ki, həmin ləngimə bir sıra rəsmi şəxslərlə əhəmiyyətli görüşlərə görə olmuşdur. Daha sonra İstanbula getdiyi gündən Cümhuriyyətin yaşaması və inkişafı üçün əlindən gələni etmişdir. Türk hökumətinin Azərbaycan Xalq Cümhuriyyətinə maddi yardım göstərməsində onun mühüm xidmətləri olmuşdur. Sonrakı bir ilə yaxın müddətdə İstanbulda 36 rəsmi görüş keçirən Əlimərdan bəy Topçubaşov mühüm işlərə imza atmışdır . Həmin danışıqlar barədə bu gün də arxivlərimizdə qeydlər qorunub saxlanılır. Eyni zamanda qeydlərdə Əlimərdan bəy Topçubaşovun Türk hökumətinin nazirləri Tələt paşa , İzzət paşa , Tofiq paşa ilə görüşlərindən söz açılır. Oktyabrın 3 - də Əlimərdan bəyi Sultan Mehmet qəbul etmişdir. Bu görüşdə Əlimərdan bəy Topçubaşov Azərbaycanın siyasi vəziyyətini şərh etmiş və bir sıra dostluq münasibətlərinə nail olmuşdur [5, s. 281].

Əlimərdan bəy Topçubaşov 1918 - ci ilin dekabrında Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinin sədri təyin olundu. Həmin nümayəndə heyətində digər görkəmli ziyalılarımız da yer almışdı. Əlimərdan bəy Topçubaşov İstanbuldan birbaşa Parisə yola düşdü. Uzun məşəqqətli yoldan sonra yalnız may ayının birinci on günlüyündə o , böyük çətinliklərlə Parisə çatmışdır. Parisə çatdıqdan sonra Azərbaycan nümayəndə heyətinin üzvləri burdakı siyasi iqlimi dərindən öyrənməyə başladılar. Bu zaman Avropa ölkələrində vəziyyət bir qədər fərqli idi. Müharibədən sonra bir sıra ölkələrdə böhran vəziyyəti yaşanırdı. Bütün bu vəziyyəti dərindən öyrənməyə çalışan Əlimərdan bəy Topçubaşov yazırdı ki, bizim kimi yeni yaranan dövlətlərin görüşləri, xüsusilə maraqları Avropa dövlətlərinin nümayəndələrinin diqqət mərkəzində dayana bilməz. Avropa nümayəndələri daha çox " rus məsələsi" nin həllində maraqlı idi. Paris mətbuatında bölünməz Rusiya fikirləri tez - tez səslənirdi. Azərbaycan nümayəndə heyətinin üzvləri, həmçinin Rusiyadan ayrılmaq istəyən digər dövlətlərin nümayəndələri buna kəskin etiraz bildirdilər. Bütün bunların fonunda Azərbaycan nümayəndə heyətinin Parisə çatdıqdan sonra gördüyü ən mühüm iş hələ İstanbulda ikən hazırladıqları " Qafqaz Azərbaycan respublikasının Paris sülh konfransına memorandumu " yenidən işləyib fransız və ingilis dillərində nəşrə hazırlamaq oldu. Bu memorandum çox yüksək dəqiqliklə işlənmiş, hətta ona rəngli xəritə də əlavə olunmuşdu. Həmin xəritə Azərbaycan nümayəndə heyətinin verdiyi sənədlər əsasında fransız coğrafiyaşünası C. Forer tərəfindən işlənilmişdi. Memorandumdan başqa Əlimərdan bəy Topçubaşov Azərbaycanın etnik və antropoloji tərkibi , Qafqaz Azərbaycanının maliyyə vəziyyəti haqqında sənədləri də işləyib hazırlayırdı. Bununla yanaşı Əlimərdan bəy Topçubaşov may ayı ərzində Parisdə bir sıra ölkələrin nümayəndələri ilə görüşdü. Onların içində Böyük Britaniyanın Parisdəki səfiri lord Derbi də var idi. Lord Derbi Əlimərdan bəy başda olmaqla Azərbaycan nümayəndə heyətini may ayının 19 - da qəbul etmişdir. Əlimərdan bəy Topçubaşov memorandum nəşr olunduqdan sonra onun bir nüsxəsini Lord Derbiyə də göndərmişdir [1, s. 183].

Əlimərdan bəy Topçubaşova Parisə yollanan zaman ona Bakıda olan ingilis general - qubernatorluğunun ləğv olunması barədə də tapşırıq verilmişdi. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi Əlimərdan bəyə yazırdı : Nəyin bahasına olursa - olsun Bakıda olan ingilis general - qubernatorluğunun fəaliyyətinin qarşısı alınsın. Bu barədə Avropa ictimaiyyətinə məlumat verilsin və qeyd olunsun ki bu Azərbaycan hökümətinin hakimiyyətinə birbaşa müdaxilədir. Bu məsələlər barəsində ingilis nümayəndə heyətinin üzvü ser Luiz Mallet Azərbaycan nümayəndələrinə köməklik göstərəcəyinə vəd verdi. Hələ may ayınının 2 - si prezident V.Vilsonun təşəbbüsü ilə Azərbaycan da daxil olmaqla Cənubi Qafqaz məsələsi müzakirə edilmişdi. Boğazlar və Qafqaz üzərindəki mandatlar məsələsi ilə müzakirələr ABŞ rəhbərliyinin Azərbaycan nümayəndə heyəti ilə görüşün keçirilməsinə marağını artırmışdı. Bununla bağlı ABŞ prezidenti V.Vilson may ayının sonunda Azərbaycan nümayəndə heyətini qəbul etdi. Azərbaycan nümayəndə heyəti üçün bu görüş böyük tarixi əhəmiyyətə malik idi. Bu görüşün keçirilməsi Azərbaycan nümayəndə heyəti üçün tarixi bir günə - may ayının 28-nə təsadüf edirdi. Bu gün istiqlalın birinci ildönümü idi. Günün birinci yarısı Azərbaycan nümayəndə heyətini Henri Marqentau qəbul etdi. O, Yaxın Şərqə Amerika yardımı komitəsinin sədr müavini idi. Günün ikinci yarısında olacaq görüş ərəfəsi bir sıra məsələlər müzakirə edildi. Günün ikinci yarısında V.Vilson Azərbaycan nümayəndə heyətini qəbul etdi. Görüş zamanı Əlimərdan bəy Topçubaşov V.Vilsona müraciət edərək dedi ki, dövlətlərin , o cümlədən kiçik

xalqların öz müqəddəratını həll etmək barədə ali prinsiplərin müəlifi olan böyük Amerikanın lideri olan V.Vilsonu salamlamaqdan şərəf duyur və istəyirik ki, bizim ölkəmiz haqqında məlumatları bizim öz dilimizdən eşidəsiniz. Tez - tez Avropa dövlətlərinin Azərbaycan haqqında səhv məlumatlar verdiyini eşidirik. Ümumiyyətlə, bizi yaxşı tanımırlar. Amma sizi inandırım ki bizdə müstəqil yaşamaq üçün hər şey vardır. Biz əminik ki, böyük xalqlar kimi biz də sizin ali prinsiplərinizə əsasında yardım alacağıq. Biz Azərbaycan üçün yalnız öz dövlətimizi , öz parlamentimizi tanıyırıq. Əlimərdan bəy Topçubaşov öz çıxışında Qafqaz xalqlarının - azərbaycanlılar , ermənilər , gürcülər və dağlıların konfederasiyasının mümkünlüyünü prezident Vidro Vilsona bildirdi və Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin memorandumu Amerika prezidentinə təqdim edildi [5, s. 406].

Həmin memorandum qısa siyasi tarixi səpkidə hazırlanmışdı. Memorandumda Azərbaycanın 1918 - ci ildə cümhuriyyət yaratdığı və parlamentə sahib olduğu göstərilirdi. Həmin parlamentdə Azərbaycanlılarla yanaşı, digər xalqların nümayəndələri də var idi. Böyük müharibə illərində Azərbaycanın müttəfiqlərə yardım göstərdiyi, 200 - dən artıq azərbaycanlı zabitin döyüşlərdə fərqləndiyi, həmçinin Antanta ordusunun ehtiyaclarının ödənilməsində böyük işlər gördüyü memorandumda göstərilirdi. Həmçinin Azərbaycanın Rusiya ilə əlaqəsinin olmadığı, tam azad respublika olduğu göstərilirdi. Bunu xəritədə asanlıqla görmək olardı. Bu məsələlərdə Əlimərdan bəy Topçubaşov xüsusi fəallıq nümayiş etdirdi. Görüş zamanı Azərbaycan nümayəndə heyətinin tələbləri V.Vilsona verildi. Həmin tələblərdə göstərilirdi: **1**. Azərbaycanın dövlət müstəqilliyi tanınsın. **2.** V.Vilsonun prinsipləri Azərbaycan dövlətinə də aid edilsin. **3.** Azərbaycan nümayəndə heyəti sülh konfransına buraxılsın. **4.** Azərbaycan Millətlər Cəmiyyətinə qəbul edilsin. **5.** ABŞ rəhbərliyi Azərbaycana hərbi yardım göstərsin. **6.** ABŞ və Azərbaycan hökuməti arasında diplomatik əlaqələr qurulsun. ABŞ prezidenti V.Vilson Azərbaycan nümayəndə heyətini görməyə şad olduğunu bildirdi. Lakin Amerika dünyanı kiçik hissələrə bölmək istəməz, Rus məsələsi həll olunmadan Azərbaycan məsələsi həll oluna bilməz fikirlərini səsləndirdi. Bu dövrdə V.Vilsonun bu cür fikirlər səsləndirməsinin bir sıra səbəbləri var idi. Birincisi V.Vilsonun ermənipərəst mövqeyi, ikincisi bəzi erməni nümayəndələrinin Azərbaycan haqqında saxta məlumatlar verməsi və s. idi [6, s .137].

Əlimərdan bəyin Avropada təbliğat işlərini gücləndirməsi və Azərbaycanın müstəqilliyinin tanınması.

1919-cu ilin payızında Azərbaycan nümayəndə heyətinin başda Əlimərdan bəy olmaq şərtilə fəaliyyətlərinin ən qızğın dövrü idi. Avropa ölkələrinin nümayəndələri ilə çoxtərəfli görüşlər nəticəsində Azərbaycanın müstəqilliyinin tanınması prosesi tezləşirdi. Bunun əsas səbəblərindən biri rus ağgvardiyaçı generallarının məğlubiyyətinin qaçılmaz olması idi. Buna görə də təkcə ABŞ deyil Fransa, Böyük Britaniya, İtaliya nümayəndələrinin Qafqaza, o cümlədən Azərbaycana olan marağı həddindən artıq artırdı. Buna görə də Fransa hökuməti bir sıra işlər gördü. Bu istiqamətdə Fransa telefon və teleqraf kompaniyası Gəncədə olan radiostansiyanı Eyfel qülləsindəki radiostansiyaya qoşdu. 1919-cu ilin noyabrında Əlimərdan bəy Topçubaşov birbaşa xətlə teleqram vurdu. Teleqramda yazılırdı: Sizi ilk radiostansiyasının işə başlaması münasibətilə təbrik edirəm. Azərbaycan nümayəndə heyəti 1919-cu ilin oktyabr ayında daha iki böyük uğura imza atdı. Bunlardan biri İranın Xarici İşlər Naziri Firuz Mirzə ilə görüş, digəri isə Mərkəzi Müsəlman Cəmiyyətinin liderlərindən biri olan Ağa xanla görüş idi. Əlimərdan bəy bu görüşlərlə Azərbaycanın nüfuzunu daha da artırdı. Ağa xan geriyə döndükdən sonra Əlimərdan bəyə teleqram vurdu. Həmin teleqramda qardaş Azərbaycan xalqına uğur arzu edilirdi. 1919-cu ilin payızında artıq Avropada vəziyyətin Azərbaycanın xeyrinə dəyişdiyini nəzərə alan Azərbaycan hökuməti İsveçrəyə fövqəladə missiya göndərmək və Avropada mətbuatın inkişafına xüsusi əhəmiyyət verməyi ön plana almışdı. İsveçrəyə missiya göndərmək təsadüfi deyildi. Əsas səbəb Millətlər Cəmiyyətinin orada açılması idi. Uzun çətinliklərdən sonra Əlimərdan bəy Topçubaşovun Bakıya göndərdiyi məlumatda yazılırdı : Etiraf etmək lazımdır ki, bizim burada olduğumuz ilk vaxtlara nisbətən mətbuat bizim haqqımızda indi daha çox yazır. Artıq Avropada bizə rəğbət bəsləyən mətbuat orqanları var. Böyük çətinliklərdən sonra “L Eyrope Oriantale” , “ Le Temps” , “ Limaçe”, “ Humanite” , “Le Kroix” və s. qəzetlərdə Azərbaycan haqqında məlumatlar əks olunmuşdur. Bu Azərbaycan diplomatiyasının, bir sözlə, Əlimərdan bəy

Topçubaşovun misilsiz hünəri idi. Avropada aparılan təbliğat işlərindən əlavə Əlimərdan bəy Azərbaycan haqqında məlumatlar əks olunmuş Azərbaycan informasiya bülleteninin yaranmasına nail oldu. Həmin bülletendə Azərbaycan haqqında məlumatlar əks olunmuşdur . Daha sonra uzun məşəqqətli yoldan sonra Böyük Britaniyanın təşəbbüsü ilə yanvar ayının 10-da Paris sülh konfransı Ali şurasının sessiyası çağırıldı. Bir gün sonra Kerzonun təklifi ilə Gürcüstan və Azərbaycan hökumətlərini birlikdə de-fakto səviyyəsində müstəqilliyi tanıdıldı. Bununla da Azərbaycanın müstəqilliyi 1920-ci ilin yanvarın 11-də de - fakto olaraq tanındı . Versal Ali Şurasının qərarından sonra yanvar ayının 15-də Azərbaycan nümayəndə heyətinin üzvləri Fransa Xarici İşlər Nazirliyinə dəvət edildilər. Əlimərdan bəy Topçubaşov və M.Məhərrəmov bu münasibətlə təbrik edildi və bildirildi ki, müstəqil dövlətlər kimi sülh konfransına lazımi məsələlərlə bağlı rəsmən müraciət edə bilərlər. Bununla da uzun məşəqqətli yoldan sonra Azərbaycan nümayəndə heyəti Avropada böyük uğura imza atdı [5, s .413].

Nəticə

Müsəlman şərqində ilk parlament respublikası olan AXC xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq , müasir dövrə xas dövlət yaradılmasına nail olmuşdur. Milli parlamentimizin təşəkkül tarixi 1918-ci il 7 dekabr parlamentin ilk iclasından başlayır. Həmin parlamentin başçısı Azərbaycanın xarici siyasət ənənələrinin əsasını qoyan böyük diplomat Əlimərdan bəy Topçubaşov idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun xarici siyasəti mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Ziyalılarımız tərəfindən əsası qoyulmuş proseslər milli özünüdərkin gerçəkləşməsində mühüm rol oynamışdır. Əlimərdan bəy Topçubaşov və onun nümayəndə heyətinin siyasi proseslərə qatılması, Paris sülh konfransında iştirakı tariximizin unudulmaz səhifələrindəndir. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin hər bir səhifəsi bizlər üçün əzizdir. Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, beynəlxalq aləmdə özünü tanıtması və Əlimərdan bəyin bu istiqamətdə atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris sülh konfransında 1920-ci ilin yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Tarixi faktlar göstərir ki, Əlimərdan bəy keçdiyi həyat yolunu sənədləşdirən və mübarizə yolunun ailə arxivini yaradan ilk azərbaycanlıdır. Zaman keçdi, Əlimərdan bəyin böyük adı və işıqlı əməlləri Azərbaycanın milli dəyərinə, hazırladığı sənədlər isə mili tariximizin dövlət xəzinəsinə çevrildi. Bu gün müstəqil Azərbaycan respublikasında Cümhuriyyət irsi və Əlimərdan bəy Topçubaşovun xatirəsi əziz tutulur. 28 may günü münasibətilə Prezident İlham Əliyev rəsmi qəbullar keçirir və xalqımızı bu gün münasibətilə təbrik edir. Bakıda Cümhuriyyət dövrünə aid abidənin açılışı, Əlimərdan bəy Topçubaşovun xatirəsinə ucaldılmış abidə Azərbaycan dövlətinin dövlətçilik tarixinə verdiyi qiyməti göstərir.

ƏDƏBİYYAT

1. Paşayev A. Cümhuriyyətin görkəmli xadimi diplomat Əlimərdan bəy Topçubaşov. “Dirçəliş” XXl əsr, 2003
2. Balayev A. Azərbaycanda milli azadlıq hərəkatı . 1917-1920-ci illər . Bakı: 1990
3. Arzumanlı V. Azərbaycan Xalq Cümhuriyyəti. Bakı: Qartal, 1998.
4. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Biblioqrafiya: Bakı: 2008.
5. Həsənli C. Tarixi şəxsiyyətin tarixi : Əlimərdan bəy Topçubaşov. Bakı: 2013, 588 s.
6. Hacıyev F. Əlimərdan bəy Topçubaşovun siyasi görüşləri . Bakı: Təkmur, 2018
7. Rəsulzadə M.Ə. Azərbaycanda milli azadlıq hərəkatı, 1917-1920-cı illər, Bakı: 1990

SUMMARY

Marat Gahramanov

IN THE FOREIGN POLICY OF THE AZERBAIJAN PEOPLE'S REPUBLIC ALIMARDAN BEY TOPCHUBASHOV

The article talks about the political skills of Alimardan Bey Topchubashov, who plays a key role in the foreign policy of APC. It was noted that the Azerbaijan Democratic Republic existed for only 23 months. However, a lot of work has been done in this short time. In a short period of time, the policy conducted taking into account the realities has given impetus to the recognition of APC in the international arena. Alimardan Bey Topchubashov was one of the main figures in the conduct of APC's foreign policy. Alimardan Bey Topchubashov's political views, his political activity during the existence of the APC, mainly in international meetings, especially in the Paris peace conference, showed themselves at a high level. This is considered an undeniable fact and service in the history of Azerbaijan statehood. In this regard, the political activity of the prominent diplomat was reviewed in the article and his invaluable services in the history of our Republic were highly appreciated. At the same time, the creation of APC was a symbol of the development of the Azerbaijani nation. A. Who are the founders of this state. Topchubashov and other patriotic independentists strengthened the foundations of our national statehood by adding night to day.

Key words: *Alimardan bey Topchubashov, Foreign policy, APC, diplomat , Paris peace conference.*

POLAD MEHDİYEV
poladmehdiyev446@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-6191-1003

AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN HÜQUQLARININ TƏMİNATI

Bu məqalədə Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı xüsusilə son illərdə həyata keçirdiyi tədbirlər əks olunur. Dövlətin COVID-19 pandemiyası zamanı insanların maddi rifahının yaxşılaşdırılması, daha az zərərlə pandemiya şəraitindən çıxması üçün həyata keçirdiyi layihələr, həmçinin ÜST-ə maliyyə yardımı göstərməsi öz əksini tapıb. Bundan başqa, insanların əməkhaqqlarının artırılması, sosial müavinət və pensiya məbləğlərində artımın olması məqalədə xüsusilə vurğulanır.

Bu məqalədə ölkəmizdə bütün insan qruplarına ayrı-ayrı diqqət göstərilməsi, o cümlədən əlilliyi olan şəxslərə xüsusi dövlət qayğısı göstərilməsi, işsiz əhalinin işlə təmin olunması, kurslara cəlb olunması kimi məsələlər göstərilir. Qarabağ müharibəsi zamanı şəhid olmuş şəxslərin ailələrinə və milli qəhrəmanlara göstərilən maddi və mənəvi dəstək tədbirləri məqalədə əks olunur.

İnsan və vətəndaş hüquq və azadlıqlarında onların sağlamlıq məsələləri də əks olunur ki, bu baxımdan ölkəmizdə səhiyyə sistemi də müasirləşdirilir, xüsusilə pandemiya dövründə modul tipli xəstəxanaların tikilməsi, insanların peyvənd olunması dövlətin ayrıca diqqət ayırdığı sahələrdən hesab olunur. Gender bərabərsizliyi probleminə də məqalədə toxunulmuşdur.

Açar sözlər: *İnsan hüquq və azadlıqları, İnsan Hüquqları üzrə Müvəkkil, COVID-19 pandemiyası, səhiyyə, təhsil*

Giriş

Tədqiqatın aktuallığı: Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi müxtəlif beynəlxalq təşkilatların üzvüdür. Üzv kimi Azərbaycan insan hüquqları standartlarını müdafiə edən beynəlxalq müqavilə və konvensiyalara tabedir. Sərhədləri daxilində insan hüquqlarının təmin edilməsi onun beynəlxalq aləmdə mövqeyini qoruyub saxlamaq və bu müqavilələr üzrə öhdəliklərini yerinə yetirmək üçün vacibdir.

Azərbaycanda daxili sabitliyin və harmoniyanın qorunması üçün insan hüquqlarına hörmət çox vacibdir. İnsan hüquqları prinsiplərinin dəstəklənməsi hökumətlə vətəndaşlar arasında inam hissini gücləndirir ki, bu da sosial birlik və sabitlik üçün vacibdir. Əksinə, insan haqlarının pozulması ölkədə sabitliyi poza biləcək sosial iğtişaşlara, etirazlara və hətta münaqişələrə səbəb ola bilər.

İnsan hüquqları təcrübələri ilə bağlı ölkənin reputasiyası onun digər dövlətlərlə münasibətlərinə, eləcə də qlobal birlikdəki mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. İnsan hüquqlarının müdafiəsi Azərbaycanın beynəlxalq arenada nüfuzunu və təsirini artırır, digər ölkələrlə diplomatik əlaqələri və əməkdaşlığı asanlaşdırır.

Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsi beynəlxalq öhdəliklərin yerinə yetirilməsi, daxili sabitliyin qorunması, iqtisadi inkişafın dəstəklənməsi, ölkənin nüfuzunun qorunub saxlanması və sosial tərəqqinin təşviqi üçün mühüm əhəmiyyət kəsb edir. Bu, bütün Azərbaycan vətəndaşları üçün ədalətli və firavan cəmiyyət yaratmaq üçün həm hökumətin, həm də vətəndaş cəmiyyətinin diqqətini və fəaliyyətini tələb edən vacib mövzudur.

Tədqiqatın obyekti və predmeti: Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsi sahəsində tədqiqat obyekti ölkə hüdudlarında insan hüquqlarının müdafiəsi və təşviqinə dəstək verən və ya ona mane olan mövcud sistem, mexanizmlər, siyasətlər və təcrübələrdir.

Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsi sahəsində tədqiqat predmeti ölkə daxilində insan hüquqları təhlükə altında olan şəxsləri və qrupları əhatə edir. Bura Azərbaycan

vətəndaşları, rezidentlər və Azərbaycanın yurisdiksiyasına daxil olan digər şəxslər, habelə hüquqları qeyri-mütənasib şəkildə təsir altına düşə bilən xüsusi həssas və ya təcrid olunmuş qruplar daxildir.

Material və metodlar

İnsan hüquqlarının və əsas azadlıqlarının qorunması və təşviqi Azərbaycan Respublikası hökumətinin əsas fəaliyyət istiqamətlərindən biridir. 2011-ci il dekabrın 27-də qəbul edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" bu sahədə mühüm sənəd olaraq qalır. Ölkəmiz insan hüquq və əsas azadlıqlarının müdafiəsi və təşviqi sahəsində İnsan Hüquqları Şurasının Ofisi və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, Avropa Şurası, ATƏT və Avropa İttifaqı kimi beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edir (https://www.ohchr.org/sites/default/files/2022-05/Republic-of-Azerbaijan-3rd-cycle-mid-term-report.pdf).

Azərbaycan bütün insan hüquq və əsas azadlıqlarının universallığı, qarşılıqlı asılılığı və bölünməzliyi prinsiplərinə sadiqdir. Ölkənin beynəlxalq öhdəlikləri nəzərə alınaraq bu sahədə milli qanunvericilik hazırlanıb və beynəlxalq standartlara uyğunlaşdırılıb. Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı insan hüquq və əsas azadlıqlarının təşviqi və müdafiəsi üzrə gələcək tədbirləri təmin etmək, habelə BMT-nin bu sahədə fəaliyyət göstərən mexanizmləri ilə əməkdaşlığın səmərəliliyini artırmaq üçün beynəlxalq təşkilatların tövsiyələri mexanizmləri də nəzərə alınmışdır. Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə tərkibinə bir sıra nazirlik və idarələrin, Baş Prokurorluğun və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının nümayəndələrinin daxil olduğu müvafiq İşçi Qrup yaradılıb ("BMT-nin hüquqlarının mexanizmləri üzrə strukturları ilə əlaqədar qurğular haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2018).

Bu qrupun səlahiyyətlərinə BMT-nin insan hüquqları üzrə müqavilə qurumları və BMT İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində Azərbaycan Respublikası Hökuməti tərəfindən təqdim olunan bütün dövri hesabatların hazırlanması daxildir. İşçi qrupuna həmçinin Azərbaycanla bağlı qəbul edilmiş tövsiyələrin icrasına nəzarət etmək səlahiyyəti verilib.

Onu da qeyd edək ki, İnsan Hüquqları üzrə Müvəkkil müvafiq təhsil müəssisələrinin tədris planları əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Polis Akademiyasında, Ədliyyə Akademiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında, Baş Prokurorluğun tədris mərkəzində, hərbi sahədə kadr hazırlığı üzrə təhsil müəssisələrində gənc tələbələr, hakimlər, hüquqşünaslar, dövlət qulluqçuları üçün ardıcıl maarifləndirici tədbirlər təşkil edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Komitə hər il dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə birlikdə dövlət məmurları və mütəxəssisləri arasında insan hüquqlarının maarifləndirilməsinə yönəlmiş tədbirlər həyata keçirir.

2020-ci ildə dünya genişmiqyaslı mənfi nəticələrə və insan tələfatına səbəb olan COVID-19 koronavirus infeksiyasının yayılmasının yaratdığı qlobal böhranla üzləşdi. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikasının təşəbbüsü ilə 2020-ci il dekabrın 3-də BMT Baş Assambleyasının COVID-19-a həsr olunmuş xüsusi sessiyası keçirilib. Həmçinin Azərbaycanın sədrliyi ilə Türk Şurasının pandemiya problemlərinə həsr olunmuş Zirvə Toplantısı keçirilib.

Pandemiyanın başlanğıcından Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının pandemiya ilə mübarizədə göstərdiyi səyləri fəal şəkildə dəstəkləyib. Azərbaycan Respublikası ÜST-ə 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə vermiş və bu günə qədər 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir. Bundan əlavə, Azərbaycan dörd ölkəyə 150 min doza vaksin pulsuz göndərib. Pandemiya dövründə iş yerlərinin qorunması və əhalinin sağlamlığının qorunması üçün hökumət tərəfindən 2,7 milyard ABŞ dolları məbləğində sosial və iqtisadi yardım paketi ayrılıb, sosial dəstək tədbirləri əhalimizin yarısını təşkil edən 5 milyona yaxın insana çatıb (https://president.az/az/articles/view/53197).

Son illər ölkə iqtisadiyyatında aparılan mühüm struktur dəyişiklikləri və şaxələndirmə siyasətinin uğurla həyata keçirilməsi nəticəsində qeyri-neft-qaz sektoru milli iqtisadiyyatın artım və inkişafının əsas amilə çevrilib. 2011-2021-ci illərdə (yanvar-sentyabr) ölkə iqtisadiyyatına birbaşa

xarici investisiyalar iqtisadi artımın əsas amillərindən biri olmuşdur. Bu dövrdə ölkəyə cəlb olunmuş birbaşa xarici investisiyaların ümumi həcmi 61,2 mlrd. ABŞ dolları təşkil edib.

Son illər məşğulluq, sosial təminat və həssas qrupların müdafiəsi sahələrində mühüm addımlar atılmış, Məşğulluq sahəsində milli qanunvericiliyin daha da təkmilləşdirilməsi istiqamətində tədbirlər görülür.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "2019-2030-cu illər üçün Azərbaycan Respublikası Əhalinin Məşğulluq Strategiyası" təsdiq edilib. 2021-ci ildə 77,6 min nəfər işlə təmin olunub, 25,2 min nəfər haqqı ödənilən ictimai işlərə, 988 nəfər peşə hazırlığı kurslarına, 16,2 min nəfər özünüməşğulluq proqramına cəlb edilib, 3,7 min nəfərə işsizliyə görə müavinət təyin edilib. Vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqəsinin alıcılıq qabiliyyətinin və real gəlirlərinin artırılması məqsədilə son illər 3 paket sosial islahatlar həyata keçirilib. Bu islahatlar nəticəsində minimum əmək haqqı 2,3 dəfə, illik əməkhaqqı fondu 2 dəfədən çox, minimum pensiya 2,2 dəfə, orta pensiya və sosial müavinətlər 65% artıb (https://modern.az/news/325353/).

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, təhsil sektorunda və bir sıra digər sahələrdə çalışan işçilərin əməkhaqları orta hesabla 20 faiz artırılıb. Azərbaycan Respublikası Prezidentinin "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" 2021-ci il 29 dekabr tarixli Sərəncamına əsasən, ünvanlı dövlət sosial yardımı alan ailələrə birdəfəlik maddi yardım verilib. Bu məqsədlə 4,5 milyon manat vəsait xərclənib. "Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" qanuna əsasən, ölkədə yaşayış minimumu 196 manat, minimum əmək haqqı (250 manat) isə ölkə üzrə yaşayış minimumundan 27,6 faiz yüksək müəyyən edilib. İndi orta aylıq əmək haqqı 729 manat, orta pensiya 330 manat, yaşa görə əmək pensiyası isə 360 manata yaxındır.

Ölkədə dövlət siyasətinin əsas məqsədlərindən biri əlilliyi olan şəxslərin potensialından tam istifadə etmək üçün lazımi şəraitin yaradılması, onların cəmiyyətə inteqrasiyasının təşviqi, məşğulluq səviyyəsinin yüksəldilməsi, sosial müdafiəsinin gücləndirilməsi, onlara açıq və bərabər imkanların təmin edilməsidir. 31 may 2018-ci il tarixində bu kateqoriyadan olan şəxslərin BMT-nin "Əlillik haqqında" Konvensiyasında nəzərdə tutulmuş hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı bütün məsələləri əhatə edən "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanunun tətbiqi ilə əlaqədar əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinin gücləndirilməsinə yönəlmiş 20-yə yaxın yeni normativ hüquqi akt qəbul edilmişdir.

2021-ci il yanvarın 1-dən şəhid ailə üzvlərinin, müharibə əlillərinin və Milli Qəhrəmanların pensiyaları orta hesabla 60 faiz artırılıb. Bu günədək müharibədə həlak olanların ailələrinin və müharibə veteranlarının sosial müdafiəsi sahəsində xeyli işlər görülüb. Bu kateqoriyadan olan 12 350 benefisiar mənzil və fərdi yaşayış evi, 7 400-dən çox fiziki şəxsə isə şəxsi minik avtomobili verilib. Qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramlarına uyğun olaraq, həyata keçirilən tədbirlər nəticəsində son 20 ildə 315 min nəfər məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb, əhalinin yoxsulluq səviyyəsi aşağı salınıb. Bu həssas kateqoriya 75 faizdən 12 faizə enmiş, əmək qabiliyyətli əhalinin 380 min nəfərindən 210 mini dövlət sektorunda işlə təmin edilmiş, 160 mini mövsümi işlərə cəlb edilmiş, son üç ildə əhalinin bir aylıq müavinət demək olar ki, 70% artmışdır. Əlavə olaraq, dövlət universitetlərində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin uşaqlarının xərclərini dövlət ödəyir.

(https://azertag.az/xeber/sehid_aileleri_muharibe_elilleri_uchun_sosial_odenislerin_meblegi_2021_2022_ci_illerde_orta_hesabla_60_faiz_artirilib-2213219).

Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, DOST mərkəzlərində "Şəhidlərin ailə üzvlərinin, müharibə nəticəsində xəsarət almış hərbi qulluqçuların və əlillərin müraciətləri üçün vahid əlaqələndirmə mərkəzləri" yaradılıb.

Ölkədə uğurla həyata keçirilən sosialyönümlü siyasət səhiyyənin inkişafı, əhalinin sağlamlığının qorunması ilə bağlı problemlərin həllinə imkanlar yaratmışdır. Son vaxtlar səhiyyənin maliyyə-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, təmiri və yenidən

qurulması, onların müasir avadanlıqlarla təchiz edilmiş dövlət büdcəsindən səhiyyənin inkişafına ayrılan vəsaitin həcmi ildən-ilə artır. Dövlət büdcəsindən səhiyyəyə ayrılan maliyyə vəsaitləri ildən-ilə artır. 2013-cü il üçün bu rəqəm 669 milyon 250 min 451 manat, 2020-ci ildə isə 1 milyon 716 milyon 595 min 488 manat təşkil edib ki, bu da 2,5 dəfə artım deməkdir.

Davam edən COVID-19 pandemiyasının səhiyyə sistemlərinə böyük təzyiq göstərməsinə baxmayaraq və yataq ehtiyatlarının tədarükünü artırmaq üçün xəstələrin daimi artımı, 13 modul tipli xəstəxanalar, əlavə ventilyator avadanlığı alınmış, imkanlar gücləndirilmişdir COVID-19 üçün test laboratoriyaları, bu günə qədər ölkə üzrə sayı 50-dən çoxdur.

Səhiyyə sistemində aparılan islahatlar nəticəsində 2020-ci ilin yanvar ayından ölkədə icbari tibbi sığorta tətbiq edilib ki, bu da səhiyyənin əlavə maliyyələşdirilməsi mənbələrinin yaradılmasına və yeni resursların səfərbər edilməsinə yönəlib.

24 fevral 2020-ci il tarixində hökumət "Uşaqların doğuşdan əvvəl cinsi seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Milli Fəaliyyət Planı"nı qəbul edib. Qəbul edilmiş Əhali və Demoqrafiya üzrə 2018-2030-cu illər üçün Dövlət Proqramında gender bərabərsizliyi probleminin həlli istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi və monitorinqlərin aparılması ilə bağlı müddəalar öz əksini tapıb.

Ölkədə qadınlara və uşaqlara qarşı zorakılığın qarşısının alınmasına xüsusi diqqət yetirilir. Azərbaycan hökuməti məişət zorakılığı ilə mübarizə üçün lazımi tədbirləri davam etdirir. Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında məişət zorakılığına qarşı mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilib. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə 2020-ci il dekabrın 1-dən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu ilə birgə "Qaynar xətt" fəaliyyətə başlayıb ("Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər Milli Fəaliyyət Planı"nın elan edilməsi haqqında, 2020).

Nəticə

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə insan hüquqlarının və əsas azadlıqlarının qorunmasına və təşviqinə sabit sadiqliyini nümayiş etdirmişdir. Milli Fəaliyyət Proqramı və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq kimi təşəbbüslər vasitəsilə Azərbaycan qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması və daha da təkmilləşdirilməsi, tövsiyələrin həyata keçirilməsi üçün səylə çalışıb. İxtisaslaşmış işçi qrupların və təhsil proqramlarının yaradılması hökumətin müxtəlif sektorlar üzrə insan hüquqları prinsiplərini dəstəkləməyə sadiqliyini vurğulayır.

Bundan əlavə, COVID-19 pandemiyasının yaratdığı qlobal böhran şəraitində Azərbaycan beynəlxalq səylərə təşəbbüs göstərməklə, böyük maliyyə və humanitar yardım göstərməklə, vətəndaşlara təsirin azaldılması üçün kompleks sosial və iqtisadi dəstək tədbirləri həyata keçirməklə nümunəvi liderlik nümayiş etdirib. İqtisadiyyatda həyata keçirilən mühüm struktur dəyişiklikləri, güclü sosial islahatlarla birlikdə məşğulluq, sosial təminat və həssas qrupların həyat səviyyəsinin nəzərəçarpacaq dərəcədə yaxşılaşmasına səbəb olmuşdur.

Bundan əlavə, Azərbaycanın səhiyyənin inkişafına proaktiv yanaşması, xüsusilə büdcədən ayrılan vəsaitlərin əhəmiyyətli dərəcədə artması və infrastrukturun təkmilləşdirilməsi onun əhalisinin rifahının və sağlamlığının təmin edilməsinə sadiqliyini nümayiş etdirir. İcbari tibbi sığortanın tətbiqi səhiyyənin maliyyələşdirilməsini və resurs səfərbərliyini artırmaq üçün perspektivli strategiyanı əks etdirir.

Mahiyyət etibarı ilə Azərbaycanın çoxşaxəli səyləri onun insan ləyaqətini, bərabərliyini və sosial ədaləti qoruyan, bütün vətəndaşları üçün davamlı inkişafa və inklüziv rifaha yol açan cəmiyyəti inkişaf etdirmək əzmini vurğulayır.

Müzakirə

Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsi həm ölkə daxilində, həm də beynəlxalq miqyasda davamlı müzakirə və araşdırma mövzusudur. Azərbaycan insan hüquqlarının müdafiəsinin müəyyən aspektlərində mühüm irəliləyişlər əldə edir.

Qeyd edək ki, aparılan araşdırmalardan da məlum olduğu üzrə ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması yönündə mühüm tədbirlər görülür. Xüsusilə prezident İlham Əliyevin başçılığı altında insanların hüquqların pozulmamasına ciddi nəzarət var. Son dövrlərdə xüsusilə aktual olan korrupsiya və rüşvətxorluq halları çoxalsa da, prezidentimizin səyi nəticəsində həmin şəxslər vəzifələrindən uzaqlaşdırılır, belə ki, sadə vətəndaşların haqqını mənimsəyən məmurlarla bağlı ciddi cəza tədbirləri görülür.

Bundan əlavə, insan hüquqlarının təminatı sahəsində ləyaqətli həyat səviyyəsinin təmin olunması ilə bağlı sosial müavinət və pensiyalarda artım özünü göstərir. Çətin həyat şəraitində olan şəxslərə yardım edilir, aztəminatlı ailələr, əlillər daim diqqət mərkəzində saxlanılır.

Qeyd edək ki, gənc nəslin qayğısı da dövlətimizdə mühüm prioritet hesab olunur. Gənclər üçün hərtərəfli şərait yaradılır, xaricdə təhsil üçün maliyyələşmə məsələləri diqqətdə saxlanılır. Bundan əlavə, illik ödənişi ödəyə bilməyən tələbələrə hər cür yardım göstərilir.

Eyni zamanda Qarabağ müharibəsi zamanı şəhid olmuş şəxslərin ailələri, veteranlar və onların ailəsi də dövlətimizin daim nəzarətindədir. Onlara kömək məqsədli görülən işlər, ev və maddi təminat məsələləri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın insan hüquqlarının təşviqi və qorunması istiqamətində göstərdiyi səyləri etiraf etmək vacibdir. Hökumət insan hüquqlarının müdafiəsi üçün hüquqi bazanın təkmilləşdirilməsi, o cümlədən insan hüquqlarına dair beynəlxalq müqavilələrin ratifikasiyası və qanunvericilik islahatlarının qəbul edilməsi istiqamətində addımlar atmışdır. Azərbaycan həmçinin BMT-nin insan hüquqları qurumları ilə əməkdaşlıq və regional insan hüquqları təşəbbüslərində iştirak kimi beynəlxalq insan hüquqları mexanizmləri ilə də məşğul olub.

Həmçinin Azərbaycan qadın hüquqlarının təşviqinə və onların ictimai-siyasi həyatda iştirakının artırılmasına yönəlmiş təşəbbüslərlə gender bərabərliyi kimi sahələrdə irəliləyiş əldə edib. Sosial və iqtisadi hüquqların təşviqi səyləri, o cümlədən yoxsulluğun azaldılması proqramları və səhiyyə və təhsil infrastrukturunun təkmilləşdirilməsi Azərbaycanda insan hüquqlarının inkişafına da öz töhfəsini verib. Yekun olaraq qeyd edək ki, Azərbaycan insan hüquqlarının təşviqi və müdafiəsi istiqamətində addımlar atılır.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər Milli Fəaliyyət Planı”nın elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı: 27 noyabr 2020-ci il
2. “BMT-nin hüquqlarının mexanizmləri üzrə strukturları ilə əlaqədar qurğular haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı: 20 sentyabr 2018-ci il
3. “BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı”, 2021, URL: https://president.az/az/articles/view/53197
4. Hacıyeva S., “İnsan hüquqları müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən, onları insaniləşdirən ən əsas meyardır”, 2019
5. https://www.ohchr.org/sites/default/files/2022-05/Republic-of-Azerbaijan-3rd-cycle-mid-term-report.pdf
6. https://modern.az/news/325353/
7. https://azertag.az/xeber/sehid_aileleri_muharibe_elilleri_uchun_sosial_odenislerin_meblegi_2021_2022_ci_illerde_orta_hesabla_60_faiz_artirilib-2213219

SUMMARY

Polad Mehdiyev

PROVISION OF HUMAN RIGHTS IN THE REPUBLIC OF AZERBAIJAN

This article reflects the measures implemented in Azerbaijan, especially in recent years, regarding the provision of human rights and freedoms. During the COVID-19 pandemic, the projects implemented by the state to improve the financial well-being of people, to get out of the pandemic situation with less damage, as well as financial assistance to the WHO, were reflected. In addition, the article emphasizes the increase in people's wages, social benefits and pension amounts.

In this article, issues such as paying special attention to all groups of people in our country, including providing special state care to people with disabilities, providing jobs to the unemployed population, and attracting them to courses, are shown. The material and moral support measures provided to the families of martyred persons and national heroes during the Karabakh war are reflected in the article.

Human and civil rights and freedoms also reflect their health issues, from this point of view, the healthcare system in our country is also being modernized, especially during the pandemic, the construction of modular hospitals and vaccination of people are considered to be areas that the state pays special attention to. The article also touched upon the problem of gender inequality.

Key words: *Human rights and freedoms, Human Rights Commissioner, COVID-19 pandemic, health, education*

NURAN MƏMMƏDƏLİYEV
memmedeliyevnuran92@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-9404-7872

ƏMƏLİN KRİMİNALLIĞINI ARADAN QALDIRAN HALLARIN ANLAYIŞI

Cinayət hüququ nəzəriyyəsində və qanunvericilik təcrübəsində kriminallığını aradan qaldıran halların əlamətlərinin fərqləndirilməsi ilə bağlı fikir mübadilələrinə və diskussiyalara tez-tez rast gəlinir. Bəzi məqamlarda ortaq məxrəcə gəlmək mümkündürsə, bir çox zaman üst-üstə düşməyən fikirlər də mövcuddur. Əməlin cinayət olmasını istisna edən halların anlayışının qanunvericiliyimizdə əks olunmaması bu mövzunun araşdırılması və öyrənilməsi üçün zəruri element rolunda çıxış edir. Əməlin kriminallığını aradan qaldıran halların anlayışının açıqlamaq üçün öncə cinayətin tərifini anlamaq, daha sonra isə əməlin cinayət olmasını istisna edən halların əlamətlərini ətraflı araşdırmaq zəruridir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır.[1]

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 8-ci fəslində əməlin cinayət olmasını aradan qaldıran hallar öz əksini tapmışdır. Belə hallar tərkibində zəruri müdafiə (36-cı maddə), cinayət törətmiş şəxsin tutulması (37-ci maddə), son zərurət (38-ci maddə), əsaslı risk (39-cu maddə), əmrin və ya sərəncamın yerinə yetirilməsi (40-cı maddə) qeyd edilmişdir.[2]

Açar sözlər. *Cinayətin əlamətləri,* cinayət əməli, cinayət məcəlləsi

Giriş. Əməlin kriminallığını aradan qaldıran hallar cinayət hüququ elminin hər zaman diqqət mərkəzində olan və cinayət hüquq normalarının realizəsi təcrübəsində önəmli yer tutur.

Əminliklə demək olar ki, əməlin kriminallığını aradan qaldıran hallara həm hüquq nəzəriyyəsində, həm də praktikada önəmli yer tutması, habelə cinayət qanununda bu halların dəqiqliklə təsvir edilməsi bir qayda olaraq, cinayət-hüquq siyasətinin istiqamətlərinə və məzmununa yönəlmiş məqsədlərin əsas göstəricilərindən biri olduğunu bildirir. Bu, müasir dövrümüzdə də dövlətin diqqət mərkəzində saxladığı önəmli məsələlərdən biridir. Eyni zamanda bu problem cinayət hüquq elminin tədqiqat predmetinə daxildir.Məsələnin belə bir kompleks hal almasının təməlindəki əsas səbələrindən biri əməlin kriminallığını aradan qaldıran halların dairəsinin genişlənməsi ehtimalıdır. Qeyd etmək lazımdırki əməlin kriminallığını aradan qaldıran halların tədqiqinə keçmiş sovet imperiyasının görkəmli hüquqşünasları tərəfindən önəmli çalışmalar aparılmışdır. Bu da, öz növbəsində ona dəlalət edirki əməlin kriminallığını aradan qaldıran hallar cinayət hüququnun mərkəzi institutlarından biri qismində çıxış edir.

Azərbaycan Respublikasının nə müasir cinayət hüquq elmində, nə də hal hazırda qüvvədə olan cinayət məcəlləsində əməlin cinayət olmasını istisna edən halların ümumi anlayışı qeyd edilmir. Əməlin cinayət olmasını istisna edən halların ayrı-ayrılıqda məcəllədə və müasir cinayət hüquq elmində öz əksini tapdığı halda anlayışın bu mənbələrdə öz əksini tapmaması qanunvericilikdə bu halların tətbiqi sferasında bir sıra axsaqlıqlar yaranması ilə nəticələnir.

XXI əsrin əvvələrinə qədər bu problemlə bağlı bir sıra çatışmazlıqlar qanunvericilikdə fərqli bir vəziyyət yaratmışdı. Sovet cinayət qanunlarında zəruri müdafiə və son zərurət halları istisna olmaqla, ümumiyyətlə, əməlin kriminallığını aradan qaldıran halları özündə əks etdirən vahid normalardan ibarət fəsil və bölmə yox idi. Günümüzdə belə nəzəri müddəanın hazırlanması cinayət hüquq elminin vəzifə səlahiyyətlərinə daxil olduğunu nəzərə alsaq, bu zaman belə qənaətə gəlmək olarki cinayət hüquq elminin bu sahəsində elmi-nəzəri boşluq mövcuddur. Bir sıra qərbi avropa dövlətlərində bu problemin həlli daha fərqli üsulla ələ alınmışdır. Belə ki, məsələn Almaniya Federativ Respublikasının cinayət məcəlləsində zəruri müdafiə (32-ci maddə), zəruri müdafiə həddini aşma (33-cü maddə), son zərurət (34-cü maddə) və təqsiri istisna edən və ya yüngülləşdirən son zərurət (35-ci maddə) adlı normalar öz əksini tapmışdır [3]. Bu qeyd edilənləri 1937-ci ildə qəbul

edilmiş İsveçrə və 1975-ci ildə qəbul edilmiş Avstriya Cinayət Məcəllələrinədə aid etmək olar. Beləki Avstriya Cinayət Məcəlləsinin 3-cü paraqrafında zəruri müdafiə, 10-cu paraqrafında hüquqauyğun son zərurət kimi əməllərin əməlin cinayət olmasını istisna edən hallar qismində əks olunmuşdur [4]. Oxşar maddələr İsveçrə Cinayət Məcəlləsinin əməlin kriminallığını aradan qaldıran hallar kimi, zəruri müdafiə (33-cü maddə) və son zərurət (34-cü maddə) nəzərdə tutulmuşdur [5].

Metodika. Tədqiqatın metodoloji əsasını ümumelmi (analiz və sintez), xüsuselmi (qarşılıqlı müqayisə) və fərdi (məxsusi) metodlar təşkil edir.

Analiz metodundan istifadə edərək əməlin cinayət olmasını istisna edən halların anlayışını müəyyən etmək üçün ayrı-ayrılıqda əməlin kriminallığını aradan qaldıran halları ələ alınmış və bu hissələrin əlaqələri müəyyənləşdirilmişdir.

Qarşılıqlı müqayisə metodundan istifadə edərək Almaniya Federativ Respublikası, Avstriya, İsveçrə kimi dövlətlərin hüquq normalarının məsələyə baxışı müəyyənləşdirilmişdir.

Nəticə. Son olaraq əməlin kriminallığını aradan qaldıran hallar dedikdə, aşağıdakı kimi tərif verməyin doğru olduğu qənaətinə gəlmək olar. Müəyyən hallarda fəaliyyətdə olan ictimai münasibətlərə zərər verməklə törədilən cinayətkar qəsdin varlığını aradan qaldıraraq, törədilən əməlin cəzalanmalı olmasını istisna edən, həmin hərəkətlərin törədildiyi zaman cinayət qanunvericiliyi ilə nəzərdə tutulan sosial faydalı hərəkətlər və digər hallar nəzərdə tutulur [6].

Müzakirə. Azərbaycan Respublikasının nə müasir cinayət hüquq elmində, nə də hal hazırda qüvvədə olan cinayət məcəlləsində əməlin cinayət olmasını istisna edən halların ümumi anlayışı qeyd edilmir. Əməlin cinayət olmasını istisna edən halların ayrı-ayrılıqda məcəllədə və müasir cinayət hüquq elmində öz əksini tapdığı halda anlayışın bu mənbələrdə öz əksini tapmaması qanunvericilikdə bu halların tətbiqi sferasında bir sıra axsaqlıqlar yaradır. Bu zaman "Cinayət hüququnun müstəqil institutlarından olan əməlin kriminallığını aradan qaldıran hallar nədən ibarətdir?" formasında bir sual yaranır. Bu suala dəqiq cavab vermək üçün cinayətin anlayışını və əlamətlərini dəqiqləşdirmək zəruridir. Cinayət sosial hadisədir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 3-cü maddəsində cinayət məsuliyyətinin anlayışı "yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır." formasında verilmişdir. Deməli, bir əməli cinayət kimi tövsif edib əmələ uyğun şəxsi məsuliyyətə cəlb etmək üçün əməldə cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğuna əmin olunmalıdır. Cinayətin anlayışına AR CM-nin 14-cü maddəsində aşağıdakı kimi tərif verilmişdir. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır."

Cinayətin əlamətlərini ətraflı analiz etmək onun anlayışını daha dərindən dərk etməyə və nəticədə cinayət əməli ilə zahirən cinayətə bənzəyən lakin cinayət sayılmayan əməlləri bir-birindən ayırmaqda yardımçı olacaqdır.

Hüquqazidlik. Cinayətin bu əlaməti əməlin öz əksini cinayət qanunvericiliyində tapması yəni qanunverici tərəfindən əməlin kriminallaşdırılmasını bildirir. Cinayətin formal əlamətlərindən biri hüquqazidlik. Törədilən əməllərin cinayət sayılması və əməli törədən şəxsin cəzalanmalı olması üçün əməl qanunvericilikdə öz əksini tapmalıdır.

Cəzaya layiqlik. AR CM-nin 14-cü maddəsində öz əksini tapan "cəza təhdidi altında qadağan olunmuş" ifadəsindəki cəza hər bir konkret cinayətin cəzalanmalı olan əməl hesab olunduğunun göstəricisidir. Lakin qanunvericiliyimizdə əks olunan bəzi halları, hansıki bu hallarda cinayətə görə cəzanın tətbiq edilməyədə bilindiyini unutmamaq zəruidir. Bu hallara aşağıdakılar aiddir.

1. Cinayətin baş verməsinə rəğmən təqsirkar aşkar edilməmişdir.
2. Cinayət hadisəsinin üstü açılıb, təqsirkar müəyyən edilməsinə baxmayaraq, hakim cəza təyin etməyi lazım bilməmişdir [7].

Lakin bu hallar, cinayətin mütləq əlaməti kimi, onun cəzaya layiqliyi haqqında tezisi dəyişmir: Cinayət olmayan yerdə cəzadan danışmağa dəyməz və yalnız real törədilmiş cinayətin nəticələri ola bilər [8].

Qeyri-əxlaqilik. Cinayət əməli tarixin bütün zamanlarında həmişə əxlaqdan kənar və ictimai qınağa tuş gələn əməl olaraq qəbul olunub.

Təqsirlilik. AR CM-nin 14-cü maddəsində də göstərildiyi kimi bir əməlin cinayət sayılması üçün əsas şərtlərdən digəri törədilən əməlin təqsirli olaraq törədilməsidir. Təqsir hüquq nəzəriyyəsində qəsd və ehtiyatsızlıq olaraq iki formada ifadə olunmuşdur. Əgər törədilən əməldə təqsir yoxdursa bu zaman cinayət əməli istisna olunur.

İctimai təhlükəlilik. İctimai təhlükəlilik cinayət qanunu ilə mühafizə olunan obyektlətə qarşı edilən əməlin (hərəkət və ya hərəkətsizlik formasında) ona zərər vurmaq qabiliyyətinə malik olmasıdır.

Bir sıra Avropa dövlətlərinin cinayət qanunvericiliklərində cinayətin maddi əlaməti, ictimai təhlükəli olması, bir qayda olaraq, öz əksini tapmamışdır. Məsələn, AFR-nin Cinayət Məcəlləsində cinayət dedikdə, "törədilməsinə görə minimum cəza qismində bir ildən az olmayan müddətə azadlıqdan məhrum etməni və daha ciddi cəzanı nəzərdə tutan hüquqa zidd əməl" [9] başa düşülür.

İctimai təhlükəliliyin müəyyən edilməsində əsas yeri qəsdin obyektinə vurulan zərərli nəticələr durur. Əməlin kriminallığını aradan qaldıran hallar elə hallardır ki, onlar mövcud olduğu zaman əməl xarici cəhətləri ilə cinayətkar qəsdə oxşar olsada onun kriminallığı hüquqauyğun davranışa çevrilirlər. Bu hallar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 8-ci fəslində əməlin cinayət olmasını aradan qaldıran hallar başlığı altında öz əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 14-cü maddəsi.
2. Səməndərov.F.Y., Cinayət hüququ ümumi hissə. Dərslik. Bakı: 2007, 277 s.
3. AFR-nin Cinayət Məcəlləsinin 32,33,34 və 35-ci maddələri.
4. Avstriya Cinayət Məcəlləsinin 3-cü və 10-cu paraqrafları.
5. İsveçrə Cinayət Məcəlləsinin 33 və 34-cü maddələri.
6. Qurbanov.H.S., "Əməlin cinayət olmasını istisna edən hallar", Monoqrafiya, Bakı: "Təhsil" nəşriyyatı, 2014, 88 s.
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 88.1-ci maddəsi.
8. Qurbanov.H.S., "Əməlin cinayət olmasını istisna edən hallar", Monoqrafiya, Bakı: "Təhsil" nəşriyyatı, 2014, 62 s.
9. Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsi.

SUMMARY

Nuran Mammadaliyev

UNDERSTANDING CIRCUMSTANCES REMOVING THE CRIMINALITY OF AN ACT

In criminal law theory and legislative practice, there are frequent exchanges of views and debates on the distinction between the symptoms of the circumstances that render an act a criminal offence. Although it is possible to reach a common ground on some points, there are also conflicting and incompatible views. The fact that the concept of the circumstances that decriminalise the act is not reflected in our legislation is a necessary element for the research and examination of this issue. In order to clarify the concept of the circumstances that decriminalise the act, it is necessary first of all to understand the definition of the offence, and then to examine in detail the signs of the circumstances that decriminalise the act. The culpable commission of a socially dangerous act (action or inaction) prohibited by the Criminal Code of the Republic of Azerbaijan under the threat of punishment is considered an offence.[1]

Chapter 8 of the current Criminal Code of the Republic of Azerbaijan contains the circumstances that eliminate the criminalisation of the act. These circumstances include self-defence (Article 36), apprehension of the offender (Article 37), final necessity (Article 38), significant risk (Article 39), execution of an order or warrant (Article 40).[2]

Key words. *Symptoms of the offence, criminal act, criminal code*

PƏRVANƏ MƏMMƏDOVA
elcin.memmedov075@icloud.com
Naxçıvan Dövlət Universiteti

MƏKTƏBLİLƏRİN MƏNƏVİ ƏXLAQİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA TƏSVİRİ SƏNƏT BİR AMİL KİMİ

Məqalədə əxlaqi tərbiyə problemindən bəhs edilir. Kiçikyaşlı məktəblilər və yeniyetmələr təsviri sənət dərslərində müxtəlif vasitələrlə praktiki tapşırıqları yerinə yetirirlər. Burada plastik sənətin ifadə vasitələri ilə əxlaq tərbiyəsi prosesinin xüsusiyyətləri üzə çıxarılır.

Hal hazırda gənc nəslin aktual dəyərləri dəyişib. Şəxsiyyətin mənəvi inkişafına böyük təsir göstərən bir çox amillər var. Bugünkü cəmiyyətdə uşaq ona müsbət və mənfi təsir göstərən müxtəlif mənbələrin əhatəsində yaşayır ki, bu da uşağın kövrək zehninə və duyğularına, hələ də formalaşmaqda olan əxlaq sahəsinə kifayət qədər nəzərə çarpan təsir göstərir. Müəllimlər və valideynlər tərəfindən dəstək olmadıqda, uşağın bu problemləri həll etməsi çətindir. Bu, həm də müasir dünyada obyektiv olaraq mövcud olan, əsas istehlakçıları çox vaxt uşaqlar olan geniş məlumat axını ilə bağlıdır.

Açar sözlər: *əxlaqi tərbiyə, estetik tərbiyə, təsviri sənət, yeniyetmələk*

Gənc nəslin əxlaqi tərbiyəsi, şübhəsiz ki, cəmiyyətin mühüm məqsədi hesab olunur. Mənəvi inkişaf və əxlaqi tərbiyə problemi bir çox böyük filosofları, müəllimləri və psixoloqları hər zaman maraqlandırırdı. Belə ki, tənqidçi-publisist, filosof V.Q.Belinski şəxsiyyətin formalaşmasında təlim-tərbiyə prosesində əxlaq tərbiyəsinin böyük əhəmiyyəti olduğunu hesab edirdi. O qeyd edirdi ki, insanın hər hansı əxlaqı mənimsəməsindən təhsilin nəticəsi, əldə etdiyi bilik və bacarıqlar asılıdır. Bu səbəbdən o hesab edirdi ki, şəxsi inkişafın mənəvi sahəsi təhsilin əsas vəzifəsi hesab olunur [2].

Gənc nəslin yüksək mənəvi kamilliyi məsələsi milli pedaqoji fikri üçün əhəmiyyətlidir. Bu, əsrlər boyu formalaşmış təhsil ənənələri ilə müəyyən edilir. Milli pedaqogikada insanın praktikada kamilliyi yüksək mənəvi idealla eyniləşdirilir. Şəxsi xüsusiyyətlər əxlaqi nöqteyi-nəzərdən qəbul edildi, insan həyatının maddi komponentini, mənəvi və mənəvi hissəsini tabe etmək istəyi və bacarığı qiymətləndirildi. K. D. Uşinski hesab edirdi ki, əxlaqi təsir tərbiyənin əsas vəzifəsidir, ümumiyyətlə, ağlın inkişafından qat-qat vacibdir [8, 2-ci cild].

Azərbaycanda bədii mədəniyyət ənənəvi olaraq insanın mənəvi-əxlaqi dəyərləri, özünü inkişaf etdirməsi və özünütərbiyəsi sahəsini təcəssüm etdirir. Lakin bu gün ona tamamilə əks münasibət formalaşmışdır. Müasir şəraitdə ənənəvi mənəvi-əxlaqi dəyərlərin tədricən məhv edilməsi müşahidə olunur. Onlar maddi dəyərlərlə əvəz olunur ki, bu da gənc nəslin əxlaq ideyasının təhrif olunmasına gətirib çıxarır.

Yeniyetmə artıq nə uşaq, nə də böyükdür. O, böyüklərə müqavimət göstərir və özünü sübut etmək üçün başqa sosial qruplar axtarır. Lakin bu qruplar həmişə müsbət olmur. Bu yaşda uşağın inkişafının sosial vəziyyətində dəyişikliklərin yaşandığı bir dövr gəlir [1, 4, 6]. Bu baxımdan qeyd etmək lazımdır ki, təsviri sənət yeniyetmələrin mənəvi-əxlaqi inkişafında mühüm rol oynayır. Çünki yaradıcılıq prosesində yeniyetmə özünü axtarır, hisslərini, ətraf aləmini və oradakı yerini dərk etməyə çalışır. Bu yaşda yaşananlar və həyata keçirilənlər psixoloji cəhətdən daha sabitdir. Məlumdur ki, bu yaşda pedaqoji amil əxlaqi tərbiyə prosesində ən çox idarə olunan amil hesab olunur. Təsviri incəsənət müəllimi tərbiyə problemini həll edərək insanda əxlaqi və mənəvi keyfiyyətlərə əsaslanmalı, dəyər prinsiplərinin müəyyən edilməsində şagirdlərə köməklik göstərməlidir.

Müasir şəraitdə təhsilin əsas məqsədlərindən biri əxlaqi tərbiyədir. V.A. Suxomlinski bunu - "Gənc bir insanın ümumbəşəri əxlaq normalarını mənimsəməsi" insanın əxlaqi mədəniyyətinin formalaşmasında çox mühüm mərhələ" adlandırırdı [7, 2-ci cild, s. 161]. Şəxsiyyətin dəyər-semantik sahələrinin inkişafı təkcə özünəinamın formalaşmasına kömək etmir, həm də ənənəvi əxlaq normaları və əxlaqi ideallar əsasında yeniyetmənin başqa insanlara, cəmiyyətə və dünyaya münasibətini formalaşdırmağa imkan verir.

Mənəvi tərbiyə prosesində müəllimlər çalışırlar ki, təbii insanı ən qısa zamanda sosial insana, mədəni şəxsiyyətə çevirsinlər. Onları birləşdirən, insandakı təbii və sosial prinsiplər arasındakı ziddiyyətləri tənzimləyən təbiətlə cəmiyyət arasında olan mədəniyyətdir. Məhz mədəniyyət vasitəsilə uşaqlar sosial həyat dövrünə daha təbii şəkildə daxil olurlar.

Fərdin bütün şəxsi keyfiyyətlərinin mərkəzi olan anlamanın müxtəlif şərhləri var. Seçilmiş istiqaməti nəzərə alaraq biz "təsviri sənət vasitəsi ilə mənəvi inkişaf"ı - bir insanın kiçik yaşlarından mövcud cəmiyyətin vacib yaxşı dəyərlərinə tanış olmasına kömək edən maarifləndirici tədbirlər kompleksi hesab edirik. Bu, ictimai əxlaqa, sosial normalara və insan birliyinin təşkili prinsiplərinə uyğun gələn dəyərli keyfiyyətlərin formalaşdırılması üçün insanın şüuruna, davranışına təsirdir. Təsviri sənət vasitəsilə gözəlliyin yaradılması prosesində dünyaya yanlış baxışın düzəldilməsi prosesi gedir.

Uşaqlar üçün təsviri sənət mənəvi aləmin dərk edilməsi və formalaşmasının əsas vasitəsidir. "İncəsənət insan ruhunun gözəlliyinin yaşadığı zaman və məkandır. Gimnastika bədəni düzəltdiyi kimi, sənət də ruhu düzəldir. Sənətin dəyərini dərk edən insan insanda insanı tanıyır, özünü gözəlliyə doğru yüksəldir..." [7, 1-ci cild, s. 505]. Ətraf aləmin tamlığı uşağın gözü qarşısında üzə çıxır və bu dünyanın vahid olması üçün müxtəlif vizual fəaliyyət növlərini birləşdirmək vacibdir. Bədii fəaliyyətlər zamanı şagirdlərin yaddaşı, təfəkkürü və təxəyyülü inkişaf etdirilir.

V.A. Suxomlinski qeyd edirdi ki, "Yeniyetməlikdə, emosionallıq və estetikanın birliyi xüsusi əhəmiyyət kəsb edir... Sosial-ictimai ideyaya şəxsi emosional-estetik münasibət nə qədər parlaqdırsa, mənəvi hisslər də bir o qədər dərinləşir" [7, 1-ci cild, s. 465]. Təsviri sənət dərslərində həm plastik sənət əsərlərini, həm də onları əhatə edən reallığı emosional qavramaq, şagirdlərin mövqeyini və emosiyalarını ifadə etmək çox vacibdir. Belə ki, qurulaçaq kompozisiyanın elementlərinin toplanması və ilkin təhlilinə, təbii materialın öyrənilməsinə əsaslanan işlərdə məktəblilər kompozisiyanın məntiqi qurulmasında təklif olunan ifadə vasitələrindən istifadə edirlər.

Beləliklə, plastik sənət vasitəsi ilə əxlaq tərbiyəsi yaradıcı təfəkkürün formalaşmasına əsaslanır ki, onun əsas xüsusiyyəti plastik sənətin obrazlı vasitələri sistemində ətraf reallığın səmərəli təcrübəsidir.

Mənəvi tərbiyə təsviri incəsənət dərslərinin aparıcı məqsədlərdən biri olmaqla təhsil fənlərin tədrisi ilə ayrılmaz şəkildə bağlıdır. Müxtəlif plastik sənət növlərini araşdıraraq uşaqlar ətraf aləmə nəzər salmağı, təhlil etmək, ona estetik-əxlaqi ideallar baxımından yanaşmağı öyrənirlər. Uşaqlarda həm texniki, həm də yaradıcı xarakterli tapşırıqları yerinə yetirərkən dünyaya yanlış baxış və əlin qeyri-kafi bacarığını düzəltmə prosesi baş verir.

Hər dərsin və ya fəaliyyətin əyani obrazını təşkil edən illüstrativ materialın, rəssamların əsərlərinin reproduksiyalarının seçimi də çox əhəmiyyətlidir. Əsərlər şagirdlərdə emosional reaksiya oyatmalıdır. Yalnız bu halda müəllim uşaqları yüksək əxlaqlı davranmağa təşviq edən daxili stimulların formalaşmasına arxalana bilər. Özündə sənət həmişə harmonikdir. Onun əsas vəzifəsi bu harmoniyanı özünə uyğunlaşdırmaqdır. Mən bir insanam və onun ətrafındakı dünyayam.

ƏDƏBİYYAT

1. Астафьева О. Психолого-педагогические и исторические аспекты нравственного воспитания. [Электронный ресурс] // ist.na5bal.ru URL: URL: https://ist.na5bal.ru/doc/28043/index.html
2. Белинский В.Г. О воспитании детей. [Электронный ресурс] //Geum.ru Образовательный портал. URL: http://geum.ru/next/art10304.leaf-26.
3. Лихачев Б.Т. Педагогика: Курс лекций / Учеб. пособие для студентов педагог, учеб. Юрайт-М.: 2001. 607с.
4. Мухина В.С. Возрастная психология. - М.: Академия, 2000. – 456 с.
5. Песталоцци И.Г. Избранные педагогические сочинения: В 2-х т. Под ред. В.А. Ротенберг, В.М. Кларина. Т.2. М.: Педагогика, 1981. 336, 416 с

6. Ремшмидт Х. Подростковый и юношеский возраст. Проблемы становления личности.- М.: 1994.
7. Сухомлинский В. А. Избранные педагогические сочинения: В 3-х т. / Сост. О.С.Богданова, В.З Смаль – М.: Педагогика , 1979 – 1981.
8. Ушинский К.Д. Педагогические сочинения: в 6 т. / сост. С.Ф. Егоров. - М.: Педагогика, 1988.

SUMMARY

Parvana Mammadova

IN THE DEVELOPMENT OF SPIRITUAL AND MORAL CULTURE OF SCHOOLCHILDREN FINE ART AS A FACTOR

The article deals with the problem of moral education of adolescents by means of visual arts, in the process of working with graphics as a type of visual art, in the process of performing practical tasks for children in art classes. The features of the process of moral education with the help of expressive means of plastic arts are revealed.

Currently, the current values of young people have changed. There are many factors that greatly influence the spiritual development of personality. In today's society, the child lives surrounded by various sources that have positive and negative effects on him, which has a rather noticeable effect on the child's fragile mind and emotions, and on the still developing moral sphere. Without support from teachers and parents, it is difficult for a child to solve these problems. This is also due to the large flow of information that objectively exists in the modern world, the main consumers of which are often children.

Key words: *moral education, aesthetic education, fine arts, adolescence.*

MUXTAR RZAZADƏ
serqin.seheribabek@bk.ru
Naxçıvan Dövlət Universiteti

JURNALİSTİKADA ANALİTİK JANRLAR

Analitik jurnalistika janrları müasir mediamızın ən çox üz tutduğu sahələrdən biridir. Bu gün Azərbaycan teleməkanında, istərsə də qəzetçilikdə jurnalist araşdırmasının, məqalnin, şərhin, resenziyanın, korrespondensiyanın, analitik müsahibənin ən kamil nümunələrinə rast gəlmək mümkündür.Analitik jurnalistika həm də media mənsubundan dərin müşahidə və təhlil qabiliyyəti tələb edir. Ona görə də anlitik janrlar informasiya janrlarından xüsuilə seçilir və peşəkarlıq tələb edir. Ən əsasl analitik jurnalsitika məşğul olmaq üçün bəzən qələm sahibindən 10 il və ya daha artıq peşə fəaliyyəti tələb olunur.

Açar sözlər: *Jurnalistika, janr, analitik janr, resenziya*

Yaradıcı sahələrdən biri olan, bu sahədə çalışan şəxsdən xüsusi istedad, bacarıq və qabiliyyət tələb edən jurnalistikanın müxtəlif sahələri mövcuddur. Jurnalistikanın əsası yazılı media ilə bağlı olsa da, televiziya, radio və hətta müasir dövrdə sosial şəbəkələr, sosial media kimi qollar da bu sahənin aparıcı istiqamətlərindən biri kimi diqqəti cəlb edir. Amma reallıq bundan ibarətdir ki, müasir dövrün jurnalistikası daha çox ixtisaslaşma tələb edir. Bu isə daha çox oxucu, tamaşaçı və dinləyici marağı və sifarişi ilə bağlıdır. Məsələn, dünyanın inkişaf etmiş elə media təsisatları var ki, ancaq xəbər sahəsində ixtisaslaşıb və onlar gün ərzində sutka ərzində hər saatbaşı yenilənmiş xəbər materialları ilə auditoriya qarşısına çıxırlar. Başqa bir nümunə: istər dünya, istər ölkə, istərsə də muxtar respublika mətbuatında yalnız tarixi sahədə ixtisaslaşan və ancaq qələmini bu sahədə sınayan, öz imzasını qeyd olunan profildə məşhurlaşdıran jurnalist həmkarlarımız vardır.

Əslində bu fikir başqa sözlə ifadə etsək, jurnalistikanın janr məsələsini də özlüyündə ifadə edir. Hər kəsə yaxşı məlumdur ki, digər sahələr kimi, jurnalistikada müxtəlif yaradıclıq istiqamətləri vardır və müəlliflər özlərinə uyğun janrlarda ortaya qoyduqları materialları ilə tanınırlar. Ümumiyyətlə, mənbələrə istinad edərək deyə bilərik ki, janrın anlayış kimi meydana gəlməsi XVIII əsrə təsadüf edir. Fransız dilindəki "genre" sözündən olub, çeşid, növ mənasını ifadə edir. Medianın flaqmanı hesab olunan tanınmış jurnalist Cahagir Məmmədli müəllifi olduğu "Jurnalistikanın nəzəriyyəsi və təcrüəsi" kitabında yazır ki, janr müəyyən bir qəlibdir, yaradıcı jurnalsitin öz mövzusunu bu qəliblərin hansında gerçəkləşdirəcəyi mövzuya yanaşma tərzindən asılıdır. Deməli, janr həm də dəyişkən, sabit olmayan bir sistemdir [2, s.23-24].

Təhlil etsək görərik ki, jurnalistikanın informasiya (bunlara daxildir xəbər, korrespondensiya, xəbər-hesabat, xəbər-müsahibə, reportaj), bədii-publisistik (bunlara daxildir oçerk, felyeton, pamflet, və sair) və analitik janrları (bunlara daxildir KİV xülasəsi, icmal, analtik şərh, analtik korreponensiya, söhbət, resenziya, jurnalist araşdırması və sair) vardır. Bütün bu janrlar özlüyündə jurnalistikanın əsas yaradıcılıq meyarları əmələ gətirirlər. Bu amil də xüsusilə qeyd olunmaldır ki, bütün janrlarda qələm sınamaq hər jurnalistə nəsib olan iş deyil.

Professor Famil Mehdi özünün "Mətbuat janrları" kitabında yazır ki, mətbuatın səmərəliliyi, təsirliliyi, eləcə də, hər bir jurnalistin mənalı yaradıcılıq fəallığı birinci növbədə janrların imkanlarından necə istifadə olumasından, bunun üçün hər bir janrın özünəməxsus xüsusiyyətlərinin sirlərinə nə dərəcədə yiyələnməsindən asılıdır. "Başqa sözlə, publisistika, jurnalistika sənətkarlığı-yaradıcılığın əsas mahiyyətini və səviyyəsini müəyyən edən bu amil bilavasitə və tamamilə janrlarla, formalarla bağlıdır [3, s.29-36].

Jurnalistikanın nəzəriyyəsi ilə məşğul olan tədqiqatçılar əslində janrları aşağıdakı üç qurupa bölürlər:

Bir qayda olaraq jurnalistlər adətən əldə etdiyi faktlarla kifayətlənmirlər. Həmin faktları analiz edib, daha doğrusu, araşdırıb, digər faktlarla müqayisə edib, vəziyyəti qiymətləndirib, həmin fakta və problemə öz baxışlarını təqdim etməlidirlər. İnformativ janrlara müqayisədə analitik janrlar faktiki materiala görə geniş əhatəli, düşüncə tərzinə görə ətraflı, tədqiqat obyekti kimi həyati vacib problemdir. Müəyyən vaxt kəsiyi zəminində bir tipli materiallarla iş quran jurnalist bu faktları birləşdirməyə çalışır. Bu birləşmə jurnalistə problemin bütün aspektlərini açmaqda kömək edir. Analitik janrlar obyektiv göstərilməsi, məsələnin dərindən tədqiqatı, konkret, tərbiyəvi məqsədi və digərləri ilə bir-birlərindən seçilirlər [1, s.264].

Qeyd edək ki, analitik janrlar jurnalistikanın ən vacib və çətin qollarından biri hesab olunur. Bu janrda material hazırlamaq üçün jurnalist xüsusi istedada, hadisələri duymaq, şərh etmək, onu araşdırmaq, təhlil etmək, qabiliyyətinə malik olmalıdır. Jurnalist hətta bu janrda hazırladığı yazılarda hadisələr arasında görünməyəb əlaqələri, bu əlaqələrin səbəblərini duymalıdır. Bundan başqa, qələm sahibi gündəlik ölkə və dünya gündəmini öyrənməli, cərəyan edən hadisələrə yaxşı bələd olmalı, hazırladığı materialda yeniliyi ilə diqqəti cəlb etməlidir. İnformasiya janrından fərqli olaraq analitik janrlarda hadisənin operativ, tez oxucuya təqdim olunması yox, təhlil olunmuş, mahiyyəti açılaraq ortaya qoyulmuş formada çatdırılması tələb olunur. Başqa sözlə, buna həm də "ikinci dərəcəli jurnalistika" da deyə bilərik. Yəni birinci informasiya yubanmadan xəbər formasında oxucuya, tamaşaçıya çatdırılır, daha sonra təhlil edilərək, məqsəd və məramı açılaraq geniş formada yazıya alınır və yaxud televiziya və radiolarda veriliş formatında hazırlanaraq auditoriyaya təqdim olunur .

Etiraf edək ki, müasir dövr mediasında hər hansı bir qəzet redaksiyası, yaxud televiziya və radioda yeni əmək fəaliyyətinə başlayan gənc jurnalist dərhal xəbər arxasınca qaçır, işini ancaq və ancaq informasiya vermək üzərində qurur. Bəziləri düşünür ki, həcm etibarilə xəbər hazırlamaq daha asan olduğu, bəziləri də belə hesab edir ki, gənc qələm sahibləri işə başladıqları yerdə özlərindən əvvəlki media nümayəndələrini örnək aldıqları üçün analitik yox, informasiya janrlarına üstünülük verirlər. Belə olan halda isə sanki analitik jurnalistikanı öz əllərimizlə torpağa gömürük. Sonuncu dəfə nə vaxtsa hansısa qəzetdə kifayət qədər samballı və əhatəli korrespondesniya, yaxud analitik şərh, analitik təhlil hesabat oxuduğumuzu xatırlamırıq. Doğrudur, bu o demək deyil ki, ümumiyyətlə, analitik jurnalistika dəfn edilib, qətiyyən bu fikirdən uzağıq. Amma fakt budur ki, ya bu janrda az materiallar hazırlanır, ya da hazırlanan yazılar və ya teleradio materiallarında peşəkarlıq çatmır.

Professor Cahangir Məmmədli "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" nəşrində yazır ki, analitik janrlar fakta və hadisəyə təhlil, araşdırma və izahetmə meyarları ilə yanaşır. Bu janrlar daha çox fakt və hadisənin əsas məqamlarının təhlilini öz üzərinə götürür. Radiojurnalistikanın bu ad altında qruplaşdırılan müsahibə, söhbət, icmal və s. kimi janrları hər hansı fakt və hadisəni təhlil obyektinə çevirir, müəllif məqsədinə uyğun olaraq, konkret istiqamətdə araşdırır. Bu janrlar üçün səciyyəvi cəhət mövzunun müxtəlif rakurslardan araşdırılması, əks fikirlərin tutuşdurulması və plüralist təhlilin aparılmasıdır. C.Məmmədliyə görə, analitik janrlar baş vermiş hadisəni və ya faktı jurnalistin, ekspertin, müəllifin, adi vətəndaşın və s. münasibətindən keçirərək auditoriyaya təqdim edir. Analitik janrlar arasında ən çox işlənən müsahibə, söhbət və icmaldır [3, s. 39].

Professor yazır ki, analitik janrda material hazırlayan jurnalist xüsusi istedada, hadisələri duymaq və onları şərh etmək qabiliyyətinə malik olmalı, hətta şərh edilən hadisələr arasında görünməyən əlaqələri, bu əlaqələrin səbəblərini duymalıdır. Burada vacib məqamlardan biri də budur ki, qələm sahibi jurnalistikanın əsas meyaralarından olan tərəfsizlik və qərəzsizliyi əldə rəhbər tutmalı, analitik jurnalsitikada da maarifçilik funksiyası açıq və birbaşa şəkildə bu janrda ifadə olunur. Cahangir Məmmədlinin analitik janrların əhəmiyyətindən xüsusilə bəhs etdiyi, analitik janrların tədqiqinə geniş yer verdiyi "Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi" kitabı bu gün ali təhsil ocaqlarının jurnalistika fakültəsi və kafedralarında əsas dərs vəsaitlərdən biri hesab olunur. Müəllif nəşrdə analitik jurnalistikanın bütün janrlarını açıq aydın təhlil edir, bu janrlar aid televiziya müsahibələrindən və qəzetlərdən sitatlar gətirir. Oxucu məhz bu kitabda təhlili analitik hesabatın, analitik korrespondensiyanın, analitik müsahibənin, söhbət və analitik şərhin nümunələrinə rast gələ bilər.

XXI əsr jurnalistikasında populyar janrlardan biri də **resenziya**dır. Bu janrın üzərində xüsuilə dayanmaq istəyirik və təəssüf hissi ilə qeyd edirik ki, bu gün ölkə və Naxçıvan mediasında bəzən jurnalistlərimiz yeni işıq üzü görən hər hansı nəşrə tərif deməklə, işlərin bitmiş hesab edir və ən acınacaqlı hal isə budur ki, bu tipli yazıların bütün rubrikalarına "resenziya" başlığını əlavə edirlər.

Ancaq analitik jurnalistika ilə bağlı tədqiqat aparan dəyərli ziyalılarımızın araşdırmalarından öyərinirik ki, resenziya janrına yeni işıq üzü görən kitab haqqında müsbət fikirlər yazıb qəzetdə dərc etmək gözü ilə baxmaq tamamilə yalnışdır.

ƏDƏBİYYAT

1. Akif Rüstəmov. "Jurnalistikanın əsasları" kitabı, Bakı: 2003
2. Cahangir Məmmədli. "Jurnalistikanın nəzəriyyəti və təcrübəsi" kitabı, Bakı: 2011
3. Famil Mehdi. "Mətbuat janrları" kitabı, Bakı: 1996

AFİDƏ NOVRUZOVA
afidanovruzova05@gmail.com
Naxçıvan Dövlət Universiteti

HÜLAKÜLƏR DÖVLƏTİNDƏ İDARƏETMƏ SİSTEMİ

Məqalədə Hülakülər (Elxanilər) dövlətinin dövlət quruculuğu, o cümlədən dövlətin idarəetmə sistemi araşdırılır. Köçəri monqol tayfalarının Azərbaycanda yerləşməsi ölkənin idarəetmə sistemində bir sıra yeniliklərlə əks olunsa da, Hülakülər dövlətində özünəməxsus idarəçilik bərqərar olmuşdu. Həmçinin məqalədə Hülakülər dövlətində ali orqan kimi qurultayın əhəmiyyətindən bəhs olunur. Mütləq hakim kimi dövlət başçısı elxan adlandırılırdı. Bundan başqa, məqalədə Elxandan sonra ikinci yerin naib əs-səltənətə məxsus olduğu qeyd olunur.

Qeyd edək ki, məqalədə Hülakülər dövlətində mövcud olan xüsusi ordu quruluşu haqqında da məlumatlar qeyd olunub. Hülakülər dövlətində məhkəmə sistemi özünməxsusluğu ilə seçilirdi. Belə ki, XIII-XIV əsrlərdə yarğu və şəriət məhkəmələri fəaliyyət göstərirdi, əlavə olaraq qəza məhkəmələri də yerli əhaliyə xidmət edirdi.

Açar sözlər: *Hülakülər dövləti, idarəetmə sistemi, ali orqan, ordu, məhkəmə sistemi*

Giriş

Tədqiqatın aktuallığı: Hülakülər dövləti kimi tarixi dövlətlərin idarəetmə sistemini dərk etmək keçmişin ictimai-siyasi dinamikası haqqında təsəvvürlər yaradır. O, alimlərə və tarixçilərə həmin dövr ərzində cəmiyyətləri formalaşdıran idarəetmə strukturlarını, inzibati təcrübələri və güc dinamikasını təhlil etməyə imkan verir.

Qeyd edək ki, Hülakülər dövlətinin idarə sistemi bölgənin mədəni irsinin bir hissəsidir. Bu irsin öyrənilməsi və qorunub saxlanılması regionla tarixi əlaqələri olan icmalar arasında şəxsiyyət və qürur hissini inkişaf etdirməyə kömək edir. Bu, həm də müxtəlif mədəni ənənələrin daha geniş başa düşülməsinə və qiymətləndirilməsinə töhfə verir.

Hülakülər dövlətinin idarəetmə sistemi zamanla idarəçilik təkamülünün bir nümunəsidir. İnzibati strukturların və proseslərin inkişafını izləməklə, tədqiqatçılar cəmiyyətlərin dəyişən şəraitə necə uyğunlaşdığını, yeni ideyaları özündə birləşdirdiyini və yaranan problemlərin həllini müşahidə edə bilərlər.

Bütövlükdə, Hülakü dövlətində idarəetmə sistemi mövzusu tarixi, mədəni və idarəçiliklə bağlı məsələləri araşdırmaq üçün çoxşaxəli obyektiv təklif edir. Onun aktuallığı keçmişin hüdudlarından kənara çıxır, müasir elm və siyasətin qurulması ilə rezonans doğuran dəyərli fikirlər və dərsləri özündə ehtiva edir.

Tədqiqatın obyekti və subyekti: Tədqiqatın obyekti kimi Hülakülər dövlətin idarəetmə sistemi, məhkəmə sistemi, ordu quruculuğu çıxış edir. Tədqiqatın subyekti Hülakülər dövlətidir.

Material və metodlar

Köçəri monqol-türk tayfalarının Azərbaycana köçməsi ilə yanaşı, hərbi-feodal və mütləqiyyət quruluşu ilə səciyyələnən Hülakülər dövlətinin yaranması ölkə daxilində ictimai, siyasi və inzibati həyatın müxtəlif sahələrinə böyük təsir göstərmişdir. Monqol İmperiyası monqolların özləri ilə Azərbaycana gətirdikləri səmərəli inzibati sistemi və bürokratiyası ilə məşhur idi. Qısır və ya inkişaf etməmiş landşaftlara gəlməkdən fərqli olaraq, onlar zəngin və inkişaf etmiş mədəniyyətə malik insanların yaşadığı sosial, iqtisadi, əxlaqi və mədəni cəhətdən inkişaf etmiş bir cəmiyyətlə qarşılaşdılar.

Bütövlükdə monqolları təmsil edən Hülakülərin inzibati quruluşu və idarəçilik sistemi Azərbaycanda qurulan yerli idarəetmə quruluşu ilə sintezdə oldu. Yerli əhalinin ənənəvi sistemləri ilə köçəri monqollar arasındakı bu qarşılıqlı əlaqə tədricən vahid, təkmil və zərif inzibati çərçivənin yaranmasına səbəb oldu. Monqollar hərbi işlərdə öz üstünlüklərini qoruyub saxlasalar da, yerli mülki idarəetmə və maliyyə sistemlərinin elementləri üstünlük təşkil edirdi. Monqollar hərbi və mülki təcrübələri ilə yanaşı, bukavul, bəxşi, yurdçi, bəlarquçi və digərləri kimi müxtəlif anlayışlar təqdim etdilər ki, bu da müəyyən şəxslərə vətəndaşlıq hüququ verir və onlara o dövrün yeni qurulmuş inzibati sistemində iştirak etməyə imkan verir [Cümşüdlü F., 2017].

Hülakülər səltənətində ilkin idarəetmə orqanı qurultay adlanırdı və o, iki fərqli məclisə bölünürdü: Böyük Qurultay və Ümumi Qurultay. Böyük Qurultay mühüm dövlət əhəmiyyətli məsələləri, o cümlədən Elxanların seçilməsi, əyalət hakimlərinin, əsas dövlət məmurlarının təyin edilməsi, hərbi və iqtisadi strategiyaların formalaşdırılması, müharibə, sülh və din məsələlərinin müzakirəsi, habelə dövlət fərmanlarının təsdiqi, bununla yanaşı zadəganlara mükafat və ya cəzaların verilməsi kimi məsələləri həll edirdi. Bu möhtəşəm qurultaylar hər il keçirilirdi və bəzən iki minə qədər nümayəndənin iştirak etdiyi üç gündən bir aya qədər uzana bilirdi. Qurultayda iştirak məcburi idi və qərarlar toplaşan nümayəndələrin səs çoxluğu ilə qəbul edilirdi. Adi qurultaylarda və ya iclaslarda daha az, daha çox günlük məsələlərə baxılırdı.

Dövlətdə ali hakimiyyət qeyri-məhdud səlahiyyətlə Elxanın (və ya Sultanın) himayəsi altında ərazini və onun sakinlərini idarə edən mütləq hökmdarın əlində idi. Elxani taxtının mülkiyyəti adətən atadan oğula irsi ötürülürdü. Belə hallarda Hülakülər sülaləsinin bütün üzvlərinin razılığı tələb olunurdu və bu məsələ qurultayda müzakirə edilməli idi. Vərəsəlik prosesi yeni hökmdarın tacqoyma mərasimindən keçməsini və Ali Monqol Xanlığından icazə almasını əhatə edirdi. Elxani taxtına çıxmağın mahiyyətcə üç üsulu var idi [https://ens.az/az/elxaniler-dovleti]

1) qurultayda seçki;
2) sələf tərəfindən təyin edilməsi;
3) hakimiyyəti zorla ələ keçirmək.

Elxanilər dövlətinin nizami inzibati iyerarxiyasında ikinci dərəcəli vəzifəni səltənət regenti kimi tanınan Naib əl-səltənət tuturdu. Naib əl-səltənət Elxanın olmadığı dövrdə dövləti idarə etmək məsuliyyətini öz üzərinə götürür, eyni zamanda ölkənin vəziyyəti, mühüm hadisələrlə bağlı Elxanı xəbərdar edir və onun mövcud şərtlərlə tanış olmasını təmin edir.

Dövlətin inzibati iyerarxiyasında üçüncü dərəcəli vəzifəni ölkənin Əmir ül-Umara kimi tanınan baş əmiri tuturdu. Hərbi və inzibati strukturlar bir-biri ilə sıx uyğunlaşdırılmışdı: əyalətlər inzibati nöqteyi-nəzərdən "ölkə" adlandırıldığı halda, hərbi məqsədlər üçün də belə adlandırılırdı. Hərbi və inzibati idarələrin mərkəzi dövlət aparatına inteqrasiyasına nəzarət baş əmir tərəfindən idarə olunan əmirlik idi. Bu baş əmir dövlətin dörd əsas əmiri arasından seçilir və Elxanın razılığını tələb edirdi. Əmirlik müxtəlif səviyyələri, o cümlədən ölkə əmirliklərini, mahal əmirliklərini, min yüz əmirlikləri, yarğu (məhkəmə) əmirliyini, eləcə də inaq, bukavul, təvəçi, yasavul, bəlarquçi, zafidi və başqaları kimi yüksək hərbi mövqeləri əhatə edirdi. İnaqlar hərbi məsləhətçi kimi xidmət edirdilər, Bukavullar isə yürüşlər zamanı əldə etdikləri vəsaiti hərbi hissələr arasında bölüşdürür və ordunun təminatına şərait yaradırdılar. Təvəçilər ümumi səfərbərliyə, yasavullar isə qoşunları döyüşə hazırlayır və onların hazırlığını təmin edirdilər. Hökmdarın və hərbi hissələrin iqamətgahı kimi xidmət edən yurdlar tərəfindən müxtəlif yerlərdə, o cümlədən düşərgələrdə, çəmənliklərdə və qışlaqlarda tikilirdi. Qoşunlar geri çəkildikdən sonra Balarquçi itmiş fərdləri, mal-qaranı və əşyaları geri qaytarmaq, onların qanuni sahiblərinə çatdırmaq üçün məsuliyyət daşıyırdı. Hərbi idarə tez-tez hədiyyə mübadiləsi ilə məşğul olurdu [Qarayev N., Yusifov P., 2013].

Elxanların hərbi təşkilatı bir neçə iyerarxik bölmədən ibarət idi. Bütün ordu on minlərlə qoşundan ibarət bölmələrə bölünmüşdü. Bu bölmələr daha sonra minlərə bölünürdü ki, onlar yüzbaşılar və onbaşılar tərəfindən idarə olunurdu. Bütün əsgərlərin adları dəftərdə diqqətlə qeyd olunurdu. Azərbaycanda mülki idarə divan sisteminə riayət edirdi, mərkəzi dövlət aparatının tərkibində 20-dən çox divan fəaliyyət göstərirdi.

Mərkəzi divanlara nazirlər başçılıq edirdilər. Vəzirlər xalqın ümumi iqtisadi vəziyyətinə nəzarət etmək, həm tənəzzülə, həm də böyüməyə səbəb olan amilləri müəyyən etmək, maliyyə məsələlərini həll etmək və ilk növbədə səltənət, onun şahzadələri və ailələri üçün resursların təmin edilməsinə cavabdeh idilər. Bundan əlavə, nazirləri adətən nazir müavinləri adlandırılan müavin köməkçiləri dəstəkləyirdi [Bayram A., 2012].

Təsərrüfatın müxtəlif sahələrinə ayrı-ayrı ixtisaslaşmış divanlar nəzarət edirdi. Baş mustovfisinin idarə etdiyi istefa divanı dövlət gəlirlərinin müəyyən edilməsi, toplanması və bölüşdürülməsi ilə bağlı ümumi uçotu aparırdı. Uluq əkinçi dövlətin sərvətinin toplanması və xərclənməsinə rəhbərlik edən xalqın əmlakına nəzarətçi kimi xidmət edirdi. Münşi əl-Məmalik dövlət sənədlərinin tərtibində və xarici dövlətlərlə diplomatik münasibətlərin tənzimlənməsində həlledici rol oynamışdır. Dövlət xəzinələrinə üç şəxs nəzarət

edirdi: vəzir dövlət xəzinəsinin xərclərini idarə edirdi, müşrif xəzinə gəlirlərini yığırdı, xəzinədar isə xəzinəni qoruyurdu. İsfəhsalara dövlət təhlükəsizliyini qorumaq, şəhərləri qorumaq, ictimai asayişi qorumaq və dövlət qanunlarının lazımi qaydada icrasını təmin etmək vəzifəsi qoyulmuşdu. Dövlət arbitrajları məhkəmə proseslərinə nəzarət edir və mübahisələri hüquqi çərçivədə həll etməyə çalışırdı. Bayrat Divan istifadəsiz torpaqların qeydiyyatı və istifadəsinə rəhbərlik edirdi, İmirət Divanı tikinti layihələrinə nəzarət edirdi və məsas divanı sənətkarlıqla bağlı fəaliyyətləri əlaqələndirirdi. Dövlət zərbxanalarına nəzarət etmək üçün təyin edilmiş bir rəis məsul idi. Ticarət işlərini ət taciri Məlik idarə edirdi. Ölkədaxili rabitə müxtəlif yerlər arasında ötürülməni asanlaşdıran hər 3 fərsəxdən bir (təxminən 20 kilometr) əsas yollar boyu dayanacaqlar (yamalar) ilə qurulan yam sistemi vasitəsilə həyata keçirilirdi [Nuriyeva İ., 2015: 85].

XIII-XIV əsrlərdə Azərbaycanda həm yarğu məhkəmə, həm də şəriət məhkəmələri fəaliyyət göstərirdi ki, bu məhkəmələr mahiyyətcə dövlətin vahid məhkəmə sisteminin ayrı-ayrı qollarını təşkil edirdi. Bu məhkəmələrə sədrlərin təyinatı elxanın səlahiyyətində idi. Yurisdiksiya məhkəmələri Çingiz xanın "Yasa"sında təsbit edilmiş qaydalara riayət edir və monqol-türk tayfalarından olan şəxslər arasında mübahisələrə rəhbərlik edirdi. Bundan əlavə, monqollarla yerli əhali arasındakı münaqişələr yarğu məhkəmələri çərçivəsində həll edilirdi. Bu yurisdiksiya yarğu məhkəmələrində Elxan müstəsna səlahiyyətlərə malik idi və öz mülahizələrinə uyğun olaraq, məsələləri müstəqil həll edə bilirdi. Qurultaylarda mühüm dövlət əhəmiyyətli məsələlər müzakirə olunurdu, belə hallarda Elxan baş hakim rolunu öz üzərinə götürürdü. Hərbi hissələrdə məhkəmə işlərinə məhkəmə proseslərində isfahların və digər vəzifəli şəxslərin iştirakı ilə baş əmirlər, diviziya əmirləri və marşallar nəzarət edirdilər. Məhkəmələrin çıxardığı qərarlar yüksək instansiyaların, o cümlədən kritik işlərdə Elxanın özünün təsdiqini tələb edirdi.

Yerli əhali ilə bağlı mübahisələrə şəriət qanunları ilə idarə olunan qəza məhkəmələrində baxılırdı. Məhkəmə prosesi beş ardıcıl mərhələdən ibarət olub: məhkəmə icraatının başlanması, təqsirləndirilən şəxsin məhkəməyə çağırılması, hər iki tərəf üçün qanuni nümayəndələrin seçilməsi, istintaq və üzləşdirmə və məhkəmə hökmünün çıxarılması. Şəriət məhkəmələrində inzibati vəzifələr, katib tərəfindən idarə olunan və nəzarətçi, tarixçi, menecer və vəkil də daxil olmaqla müxtəlif vəzifəli şəxslərdən ibarət olan dar ül-qəzə kimi tanınan bir orqan tərəfindən idarə olunurdu. Şəriət məhkəmələri məscidlərdə mühakimə aparılmasını qadağan etməklə, muzalim divanları, ədliyyə idarələri (dar ül-ədl), mədrəsələr və məqsədyönlü tikililər kimi təyin olunmuş yerlərdə toplanırdı. Dini məhkəmələr müstəqil fəaliyyət göstərirdilər və yalnız baş qazi və Elxan qarşısında cavabdeh idilər, qanunlar şəriət məhkəmələrinin işlərinə hər hansı müdaxiləni açıq şəkildə qadağan edirdi.

Nəticə

Yekun olaraq qeyd edək ki, Azərbaycanda Elxanilər dövlətinin yaradılması regionun ictimai, siyasi və inzibati mənzərəsində mühüm məqam oldu. Monqolların hərbi-feodal, mütləqiyyətçi quruluşunun yerli əhalinin oturaq inzibati quruluşu ilə birləşməsi vahid və inkişaf edən inzibati sistemin formalaşmasına səbəb oldu. Bu sistem, hərbi işlərdə monqol üstünlüyünü saxlamaqla yanaşı, mülki idarəçilik və maliyyə sistemində yerli aspektləri özündə cəmləşdirirdi.

Elxan dövlətinin başında mühüm dövlət əhəmiyyətli məsələlərin müzakirə edilərək qərar verildiyi ali orqan kimi çıxış edən qurultay dayanırdı. Mütləq hökmdarın rəhbərlik etdiyi iyerarxik inzibati quruluş əyalətlər və ərazilər arasında hamar idarəçiliyi təmin edirdi. Naib əl-səltənətin və Əmir ül-Umarənin rolu hökmdarın olmadığı şəraitdə səmərəli idarəçiliyi asanlaşdırdı və müvafiq olaraq hərbi və inzibati işləri idarə etdi.

Mütəşəkkil bölmələri və rütbələri ilə seçilən hərbi idarə Elxan dövlətinin strateji qüdrətini nümayiş etdirdi. Mülki administrasiya isə hər biri xüsusi idarəçilik sahələrinə cavabdeh olan divanlar şəbəkəsi vasitəsilə fəaliyyət göstərirdi. Həm yurisdiksiya, həm də şəriət məhkəmələrindən ibarət məhkəmə sistemi qanunun aliliyini qoruyur və Çingiz xanın "Yasa" və şəriət prinsiplərinə uyğun olaraq, ədaləti həyata keçirirdi.

Bütövlükdə, Elxanilər dövlətinin inzibati sistemi müxtəlif təsirlərin sintezindən ibarət olub, Azərbaycanın mədəni və siyasi irsinin mürəkkəbliyini və zənginliyini əks etdirirdi. Qarşılıqlı təsir və

uyğunlaşma sayəsində o, bölgənin ictimai-siyasi nizamını təmin edən və onun daha geniş imperiyaya inteqrasiyasını asanlaşdıran möhkəm bir çərçivəyə çevrildi.

Müzakirə

Hülakülər dövlətində idarəetmə sistemi dövlət siyasətinin, xidmətlərinin və resurslarının təşkili, həyata keçirilməsi və idarə olunmasında mühüm rol oynayan idarəetmənin dayağı kimi xidmət edir. Dövlət quruculuğunun kritik komponenti kimi idarəetmə sistemi Elxaninin idarəçilik strukturu çərçivəsində səmərəli qərarların qəbul edilməsini asanlaşdırmaq, hesabatlılığı və ictimai inkişafı təşviq etmək vəzifəsini daşıyır.

Hülakülər dövlətində idarəetmə sisteminin mərkəzində inzibati səlahiyyətləri və qərar qəbuletmə səlahiyyətlərini yerli hökumət səviyyələrinə paylamağa çalışan mərkəzsizləşdirmə prinsipi dayanır. Qeyri-mərkəzləşdirmə icmanın səlahiyyətlərini artırır, yerli ehtiyaclara cavab vermə qabiliyyətini artırır və vətəndaşları qərarların qəbulu prosesinə cəlb etməklə iştirakçı idarəetməni təşviq edir. Seçilmiş yerli şuralar, inzibati orqanlar və icma forumları vasitəsilə Hülakülər dövlətində xalq demokratiyasını gücləndirmək və regionlar, icmalar arasında inklüziv inkişafı təşviq etmək məqsədi daşıyır.

İdarəetmə sisteminin əsas funksiyalarından biri sosial-iqtisadi problemlərin həllinə, ictimai rifahın yüksəldilməsinə və davamlı inkişafın təşviqinə yönəlmiş dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsidir. Effektiv siyasətin həyata keçirilməsi dövlət orqanları arasında koordinasiyanı, resursların bölüşdürülməsini və siyasət məqsədlərinə vaxtında və səmərəli şəkildə nail olunmasını təmin etmək üçün nəticələrin monitorinqini tələb edir.

Siyasət formalaşdırılması və həyata keçirilməsi ilə yanaşı, Hülakülər dövlətində idarəetmə sistemi vətəndaşlara dövlət xidmətlərinin çatdırılmasına cavabdehdir. Bura əhalinin həyat keyfiyyətinin və rifahının yaxşılaşdırılmasına yönəlmiş səhiyyə, təhsil, infrastruktur və sosial rifah proqramları kimi mühüm xidmətlər daxildir. Yekun olaraq qeyd edək ki, Hülakülər dövlətində idarəetmə sistemi idarəetmə mənzərəsinin formalaşdırılmasında, inklüziv inkişafın təşviqində və ictimai rifahın yüksəldilməsində mühüm rol oynayırdı.

ƏDƏBİYYAT

1. Bayram A., “Orta əsrlərdə Azərbaycanda dünyəvi qanunvericilik” // “Xalq Cəbhəsi”, 2012, 24 yanvar, №12, s.10.
2. Cümşüdlü F., “Azərbaycan Hülakilər (Elxanilər) dövləti tərkibində”, 2017
3. Qarayev N., Yusifov P., “Azərbaycanda dövlət quruculuğunun tarixi inkişaf ənənələri”, // «Dövlət idarəçiliyi», 2013, № 1 (41), s.152-158.
4. Nuriyeva İ., “Azərbaycan Tarixi”, (ən qədim zamanlardan–XXI əsrin əvvəllərinədək), Ali məktəblər üçün dərslik, Bakı: Mütərcim, 2015, 336 s.
5. https://ens.az/az/elxaniler-dovleti

SUMMARY

Afida Novruzova

ADMINISTRATION SYSTEM IN HULAKUL STATE

The article examines the state building of the state of the Hulakus (Elkhans), including the state's management system. Although the settlement of nomadic Mongolian tribes in Azerbaijan was reflected in a number of innovations in the country's administration system, a unique administration was established in the Hulakul state. The article also talks about the importance of the congress as the highest body in the Hulakul state. As an absolute judge, the head of state was called elkhan. In addition, the article mentions that the second place after Elkhan belongs to the viceroyalty.

It should be noted that the article also mentions information about the special army structure existing in the Hulakul state. The judicial system in the Hulakul state was distinguished by its uniqueness. Thus, in the 13th-14th centuries, judicial and Sharia courts operated, in addition, accident courts served the local population.

Key words: *Hulakular state, management system, supreme body, army, judicial system*

NUBAR PAŞAYEVA
nubarpashayeva0208@gmail.com
Naxçıvan Dövlət Universteti

RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ AZƏRBAYCANIN YERİ, ŞİMALİ AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

Müasir dövrdə elmi cəhətdən aktuallıq kəsb edən məsələlərdən biri Azərbaycanın Rusiya və İran arsında bölüşdürülməsinin Azərbaycan tarixşünaslığında tutduğu yeri öyrənmək təşkil edir. Qeyd olunan məsələ hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Lakin həm çar Rusiyası dövründə, hən də Sovet dövləti dövründə tədqiqatçıların əksəriyyəti Rusiyanın Qafqaz siyasətini, Azərbaycan torpağını ikiyə bölümməsini təhrif etmişlər. Rusiyanın işğalçılıq siyasətini və xalqın işğalçılara qarşı apardığı mübarizəni əks etdirən bütün faktlar demək olar ki, gizlədilmiş, yaxud həmin faktlar tədqiqat əsərlərinə daxil edilməmişdir. Buna görə də, məqalədə qeyd olunan məsələ tədqiqat obyekti sçilmişdir. Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin mahiyyəti, çarizmin müstəmləkəçilik siyasəti, buna qarşı xalqın münasibəti və digər aktual məsələlər öyrənilmişdir. Tədqiqat zaman Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin mahiyyəti faktiki materiallar əsasında araşdırılmışdır. XVIII əsrin son rübü-XIX əsrin əvvəllərində Şimali Azərbaycana qarşı Rusiyanın apardığı siyasətin görünməyən, indiyəqədər gizli qalan cəhətləri ortaya çıxarılmışdır. Bu dövrdə çarizmin apardığı siyasətin müstəmləkiçilik xarakteri faktik materiallar əsasında müəyyən edilmişdir. Aparılan araşdırma zamanı belə bir nəticə əldə olunmuşdur ki, Ruslar Azərbaycana bölgə xalqının razılığı ilə gəlməmişlər. Onlar müstəmləkəçilik siyasəti həyata keçirərək Şimalı Azərbaycanı işğal etmişlər. Özlərinə etnik dayak yaratmak üçün ermənləri Şimali Azərbaycan torpağlarına məqsədli şəkildə köçürülmüşlər.

Açar sözlər: *Şimali Azərbaycan, Türkmənçay müqaviləsi, Gülüstan müqaviləsi, işğal.*

Giriş

Azərbaycanın Rusiya tərəfindən işğalı, xalqıməzən işğalçılara qarşı apardığı mübarizə uzunmüddət giozli saxlanılmış, yaxud həmin faktlar tədqiqat əsərlərinə daxil edilməmişdir. Rusiya dövlətinin mənafeyi baxımından qeyd olunan məslə şərh edilmişdir. Bununla da Rusiyanın Azərbaycanı işğal etməsi faktını danaraq, onu gizlətmişlər. Azərbaycan müstəqillik əldə etdikdən sonra qeyd olunan məslənin obyektiv öyrənilməsinə başlanılmışdır. Ona görə də, qeyd olunan məslə tərəfimizdən tədqiqata cəlb edilərək öyrənilmişdir. Tədqiqatın başlıca məqsədi XVIII əsrin son rübbü-XIX əsrin əvvəlində İranıla Rusiya arasındakı münasibətlərdə Azərbaycanın tutduğu yeri müəyyənləşdirməkdən, İranıla Rusiya arasında Azərbaycan torpaqlarının parçalanmasına gətirib çıxaran hadisələri obyektiv şəkildə öyrənməkdən ibarətdir. Qeyd olunan mövzun indiyə kini öyrənilsə də, bu sahədə hələ də öyrənilməsi zəruri olan bir mox məsələlərin olması üçün tərəfimizdən tədqiqata cəlb əsas vəzifə kimi qarşımıza qoyulmuşdir.. Tədqiqat zaman Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinin mahiyyəti müəyyən hadisələr vasitəsilə araşdırılarır. Rusiyanın Cənubi Qafqaza nə vaxt və nə üçün maraq göstərməyə başladığı, Rusiyanın Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri suallarına mənbələr, ədəbiyyat materialları əsasında aydınlıq gətirilir.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyası vəziyyət, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycan siyasi baxımdan son dərəcə mürəkkəb vəziyyətdə idi. Araz çayının cənubundakı Azərbaycan torpaqları İran Qacar dövlətinin tərkibində idi. Qacar şah Fətəli şah 1799-cu ildə oğlu Abbas Mirzəni Azərbaycan ordusunun başçısı təyin etdikdən sonra 1805-ci ildə bütün Azərbaycanın idarəsini ona tapşırmışdı [Həsənov, 2001: 15]. Bu dövrdə Azərbaycanın şimalında tam siyasi boşluq hökm sürürdü. Bəzi xanların torpaqları vahid dövlətdə birləşdirmək cəhdləri nəticə vermədi. Azərbaycan bu dövrdə hər hansı kənar hücumun qarşısını alacaq

vəziyyətdə deyildi. Osmanlı İmperiyasının Rusiyanın hücumlarını dəf edəcək gücü də, yox idi. Fransaya qarşı koalisiyaya qoşulan və 1799-cu ildə Rusiya ilə müttəfiqlik müqaviləsi imzalayan Osmanlı hökuməti 1806-cı ilə qədər Rusiyanın Cənubi Qafqaz siyasətinə müdaxilə edə bilməmişdi (Sadıqov, 1991: 110). Çar 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest vermişdi. Manifestə əsəsən Şərqi Gürcüstanla yanaşı Azərbaycanın Qazax, Şəmşəddil və Borçalı sultanlıqları da Rusiyaya birləşdirilməsi ilə Şimali Azərbaycanın Rusiya çarlığı tərəfindən işğalıprosesi başlandıımışdı [Əliyev, 2001: 155]. Bu dövrdə Şimali Azərbaycan xanlıqlarını öz siyasi təsiri altına salmağa çalışan Rusiya əvvəlcə diplomatik addımlara üstünlük verdiyi üçün ilk öncə Şimali Azərbaycan xanlıqlarını Georgiyevskə danışıqlara dəvət etdi. Xanların əksəriyyəti təklifləri rədd etsə də, 1802-ci il dekabrın 26-da Quba və Lənkəran xanları, Tarki, Qarakaytak və Tabasaran hökmdarları ilə birlikdə Georgiyevdə bir yerə toplaşdılar və tarixi Georgiyevsk müqaviləsini imzadılar . Müqaviləyə əsasən xanlar və hökmdarlar aralarındakı düşmənçiliyi dayandıracaqlarını, aralarında olan ixtilafları sülh yolu ilə həll edəcəklərini və Qacar ordusu hücum edərsə, ona qarşı birgə döyüşəcəklərini öz üzərlərinə götürdülər (Afandiyeva, 2020: 65). Bu dövrdə 1802-ci ildə gürcü əsilli Pavel Sisiyanov Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilməsindən sonra Qafqazda siyasi vəziyyət xeyli mürəkkəbləşdi. O, vəzifəyə gəldikdən sonra Qafqaz xalqlarına qarşı ən qəddar müstəmləkəçilik siyasətini həyata keçirməyə başladı.1803-cü ildə Qulyakovun başçılığı ilə rus qoşunları Çar-Balakən ərazisinə daxil oldular. Rus ordusu Car-Balakəndə xalqın şiddətli müqaviməti ilə qarşılaşdı. Alazan çayı yaxınlığında baş verən döyüşdə rus ordusu Car-Balakənliləri məğlub etdi və 29 mart 1803-cü ilə tarixində Car-Balakən rus qoşunları tərəfindən işğal edildi [Umudlu, 2004: 5].

Rus çarları Gəncə xanlığının ələ keçirilməsinə də, böyük əhəmiyyət verirdi. Ona görə də, rus ordusu general Portnyakinin başçılığı ilə Gəncə üzərinə də yürüş etdi. Yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları Gəncə qalasına daxil oldular. Onlar gəncəlilərin şiddətli müqaviməti ilə qarşılaşsalar da, sayca üstün olduqları üçün qalib gəldilət. Cavad xan və oğlu Hüseynqulu rus ordusu ilə döyüşdə şəhid oldular. Beləliklə, Gəncə xanlığı da, ruslar tərəfindən tutuldu. Gəncənin işğalından sonra I Aleksandrın həyat yoldaşı Yelizavettanın şərəfinə bu şəhərin tarixi adı dəyişdirilərək "Yelizavetpol" adlandırılıbdı və bundan sonra şəhərin əvvəlki tarixi adını (Gəncəni) tələfüz edənlərin cərimə ödəyəcəyi bildirilibdi. Gəncənin müdafiəsində iştirak edənlərdən 1500 nəfəri öldürülüb, 17222 nəfəri girov götürülübdü [Sadıkov, 2018: 50-52]. .

Rusiyanın Cənubi Qafqaz siyasəti İran Qacar dövlətini narahat etdiyi üçün İran dövləti 1804-cü ilin mayında Rusiyaya müharibə elan etmişdi. Bununla da Rus-Qacar müharibəsi başlamışdı. Qacar dövləti bu müharibədə məğlub olaraq Rusiya ilə 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində 11 maddədən ibarət sülh müqaviləsi imzalmışdı. Gülüstan müqaviləsinə əsasən, Naxçıvan və İrəvan istisna olmaqla, Araz çayının şimalında və Şərqi Gürcüstanda olan bütün Azərbaycan xanlıqları Qacarlar dövləti tərəfindən Rusiyaya verildi, Xəzər dənizində yalnız Rusiyanın hərbi donanmasını saxlamaq, rus tacirlərinə azad ticarət hüququ verildi. Gülüstan müqaviləsi nəticəsində Rusiya Xəzər dənizində donanma saxlamaq hüququna malik olan yeganə gücə çevrildi [Süleymanov, 2014: 225].

Gülüstan müqaviləsinin şərtləri İran Qacarlar dövlətini qane etmədiyi üçün İran hökuməti ilə İngiltər arasında 1814-cü il noyabrın 25-də Rusiyaya qarşı yeni ittifaq müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə əsasən İngiltərə şah hökumətinə hərbi yardım göstərəcəyini, Gülüstan müqaviləsini yenidən gündəmə gətirəcəyini və bu məsələdə Rusiya ilə danışıqlar aparacağını vəd etdi. 1825-ci ildə Sank-Peterburqda dekabristlərin üsyanı adlı üsyanın başladığını öyrənən şah bu vəziyyətdən istifadə etmək qərarına gəldi. İngiltərənin təhrik etdiyi Fətəli şah 1826-cı ildə yenidən Rusiyaya qarşı müharibə elan etdi. Bu arada Azərbaycanda da rus hakimiyyətinə qarşı üsyanlar baş verdi. İyunun 17-də Gəncədə böyük üsyan başladı. Lənkəranda, Şəkidə, Şamaxıda ruslara qarşı üsyanlar başladı [Umudlu, 2004: 100-105]. Bütün Şimali Azərbaycanı əhatə edən üsyanlar "Müsəlman birliyi üsyanı" kimi tanınırdı. Rusiyanın müstəmləkəçilik siyasətinə qarşı başlayan bu üsyanlar Rusiya hökuməti tərəfindən yatırıldı. 1826-cı il oktyabrın 1-də ruslar İrəvanı tutdular. 1827-ci ilin əvvəlində general İvan Fyodoroviç Paskeviçin komandanlığı ilə rus ordusu Naxçıvanı aldı. Rus ordusu Naxçıvanı tutandan sonra Abbasabat qalasına yaxınlaşdı. Qısa müddətdən sonra Abbasabat da ələ keçirildi. İkinci Rus-Qacar müharibəsi Türkmənçay

müqaviləsinin imzalanması ilə başa çatdı. Türkmənçay müqaviləsi 1828-ci il fevralın 10-da imzalandı. Türkmənçay müqaviləsi Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Azərbaycanın Qacarlarda qalan hissəsi üçün Cənubi Azərbaycan, yəni Cənubi Azərbaycan terminləri və ya sonrakı illərdə İran Azərbaycanı terminləri, Rusiyada qalan hissəsi üçün isə Şimali Azərbaycan terminləri işlənməyə başladı. Azərbaycandan, yəni Şimali Azərbaycandan istifadə edilməyə başlandı. Azərbaycanın şimal hissəsi Rusiyaya tərəfindən işğalı rəsmləşdirildi. Cənub hissəsi isə Qacar imperiyasının tərkibində qaldı. 16 maddədən ibarət olan müqavilənin şərtlərinə görə, Araz çayınının şimalındakı bütün torpaqlar, o cümlədən İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirildi (şəkil 1). Xəzər dənizində yalnız Rusiyanın donanma saxlamaq hqququ saxlanıldı. Müqaviləyə əsasən, qacarlar Rusiyaya 20 milyon rubl təzminat ödəməyə öz üzərlərinə götürdülər [Şükürov, 2006: 100-109].



Şəkil 1. Türkmənçay müqaviləsindən sonra Azərbaycan torpaqlarının parçalanması

Bu müqavilənin ən faciəli nəticəsi Azərbaycanın iki yerə bölünməsi oldu. Türkmənçay müqaviləsi Azərbaycan üçün çox ağır nəticələr verdi. Rusiya bu müqavilə nəticəsində ermənilərin Qacar imperiyası ərazisindən Cənubi Qafqaza köçməsi üçün zəmin hazırladı. Müqavilənin 15-ci maddəsində Qacar imperiyası torpaqlarında yaşayan ermənilərin Rusiyaya köçə biləcəyi, köç edən ermənilərə şərait (vergi azadlığı, pulsuz torpaq və s.) yaradılacağı bildirilirdi. Bu maddə ermənilərin İran torpaqlarından Cənubi Qafqaza, o cümlədən Qarabağa kütləvi şəkildə köçməsinə də, şərait yaratdı. Nəticədə Cənubi Qafqazda, xüsusilə İrəvan və Qarabağ torpaqlarında çoxlu erməni ailələri yerləşdirildi. 1828-1829-cu illər Osmanlı-Rusiya müharibəsindən sonra da, ermənilərin böyük bir hissəsi Osmanlı imperiyasından Cənubi Qafqaza deportasiya edildi. İran və Osmanlı dövlətlərindən Azərbaycan torpaqlarına 120 mindən çox erməni köçürüldü [Okan, 2008: 185-190]. Onlar Naxçıvanda, İrəvanda, Qarabağda, Bakıda və Gəncədə yerləşdirilmişdir (şəkil 2). Bu vəziyyət ermənilərin Cənubi Qafqaz torpaqlarında kök salması ilə nəticələndi. Ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə yerləşdirilməsindən sonra bəzi tarixçilər onları "Türkmənçay uşaqları" da, adlandırıblar. N.N.Şavrovun verdiyi məlumata görə, 1828-1830-cu illər müharibələri nəticəsində ermənilərin azlıq təşkil etdiyi Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarına 40 mindən çox Qacar və 84 mindən çox Osmanlı ermənisi köçürülübdür. Bu zaman Qarabağın dağlıq hissəsinə rəsmi olaraq 124 mindən çox, qeyri-rəsmi olaraq isə 200 mindən çox erməni köçübdü

Nəticə



Şəkil 2. Türkmənçay və Gülüstan müqavilələrindən sonra Ermənilərin kütləvi şəkildə Azərbaycana köçürülməsi

Aparılan araşdırma nəticəsində sonda onu qeyd etmək olar ki, XVIII əsrdə Cənubi Qafqaz regionunda hökmranlıq etmək üçün Qacarlar İmperiyası ilə Osmanlı İmperiyası arasında gedən mübarizədə Rusiya da, iştirak etmişdir. Rus çarlığının əsas məqsədi Azərbaycanın torpaqlarını və təbii sərvətlərini ələ keçirmək, Osmanlı İmperiyasının Cənubi Qafqazla əlaqələrini kəsmək, eyni zamanda Xəzər dənizini "Daxili dəniz"ə çevirərək bölgənin ticarət yollarına hakim olmaq idi. Qərbi Avropa ölkələrinin, xüsusilə İngiltərə və Fransanın Cənubi Qafqazla bağlı işğalçı planları da, olubdur. Onlar Rusiyanın bu bölgədəki fəaliyyətini izləyib, çarizmin planlarının qarşısını almağa çalışsalar da, öz məqsədlərinə nail olmayıblar. Bu dövrdə İranın Cənubi Qafqazda öz mövqeyini itirməsi, Osmanlı dövlətinin getdikcə zəifləməsi, Azərbaycanın ayrı-ayrılıqda

çox zəif olan xanlıqlara parçalanması Rusiyanın Şimalı Azərbaycanı işğal etməsini asanlaşdıran əsas amillərdən olubdu. Ruslar Azərbaycana bölgə xalqının razılığı ilə gəlməmişlər. Onlar müstəmləkəçilik siyasəti həyata keçirərək Şimalı Azərbaycanı işğal etmişlər. Özlərinə etnik dayak yaratmak üçün ermənіləri Şimali Azərbaycan torpaqlarına məqsədli şəkildə köçürülmüşlər.

ƏDƏBİYYAT

1. Əliyev M. (2001). Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı tarixi, Bakı: "Adiloğlu" nəşriyyatı, 216 s
2. Həsənov H. (2001) XVIII əsrin son rübbü - XIX əsrin əvvəllərində Azərbaycan Rusiya-İran münasibətlərində / Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtorefaratı, Bakı: 24 s.
3. Umudlu V. (2004). Şimali Azərbaycanın Çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçiliyə qarşı mübarizə, 1801-1828, Bakı: "Elm" nəşriyyatı, 180 s.
4. Sadıqov R. (1991) Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787 -1829), Bakı: "Elm" nəşriyyatı, 175 s.
5. Süleymanov M. (2014) Gülistan Müqaviləsi-II hissə, Bakı: "Elm və təhsil", 608 s.
6. Şükürov K. (2006) Türkmənçay-1828: Tarixi xronika (İxtisarla). Bakı: "Elm" nəşriyyatı, 188 s.
7. Afandiyeva Ü. (2020) *19. Yüzyıl başlarında Rus çarlığı'nın Güney Kafkasya politikası,* Yüksek lisans tezi, İstanbul, 110 s.
8. Okan Y. (2008) "*Türkmençay anlaşması ve sonuçları*" Ankara üniversitesi Türkiyat Araştırmaları Enstitüsü dergisi, say: 36, s.185-190.
9. Türker Ö. (2017) Güney Kafkasya'da Rus-Kaçar (İran) nüfuz mücadelesi (1779-1813), Doktora tezi, Ankara, 125 s.
10. Sadıkov R. (2018) "Çar I. Aleksandr döneminde Rusya'nın Azerbaycanda işgalcilik siyaseti". *Karadeniz Araştırmaları Dergisi*, 59/ XV, Erdahan, s. 48-82.

SUMMARY

Nubar Pashayeva

AZERBAIJAN'S PLACE IN RUSSIA'S SOUTH CAUCASUS POLICY, RUSSIAN OCCUPATION OF NORTHERN AZERBAIJAN

One of the scientifically relevant issues in modern times is to study the place of the division of Azerbaijan between Russia and Iran in Azerbaijani historiography. The mentioned issue has always been the focus of researchers' attention. However, both during the period of Tsarist Russia and the Soviet state, the majority of researchers distorted the policy of Russia in the Caucasus, dividing the land of Azerbaijan into two. Almost all the facts reflecting Russia's policy of aggression and the people's struggle against the invaders were hidden, or those facts were not included in the research works. Therefore, the issue mentioned in the article is the object of research. The essence of the division of Azerbaijan between Russia and Iran, the colonial policy of tsarism, the people's attitude towards it and other relevant issues were studied. During the research, the essence of the division of Azerbaijan between Russia and Iran was investigated on the basis of actual materials. In the last quarter of the 18th century and the beginning of the 19th century, the invisible, hitherto hidden aspects of Russia's policy against North Azerbaijan have been revealed. The colonial nature of the policy of tsarism in this period was determined on the basis of factual materials. During the investigation, it was concluded that the Russians did not come to Azerbaijan with the consent of the people of the region. They occupied Northern Azerbaijan by carrying out colonial policy. In order to create an ethnic support for themselves, Armenians were purposefully relocated to the lands of North Azerbaijan.

Key words: *Northern Azerbaijan, Turkmenchay Treaty, Gulistan Treaty, occupation.*

NURAY ALIYEVA
eliyevanuray932@gmail.com
Nakhchivan State University
ORCİD İD: 0009-0004-5480-2604

THE EVALUATION CRITERIA OF IELTS READING AND LISTENING

This paper critically evaluates the assessment procedures employed in the International English Language Testing System (IELTS) listening and reading sections. Drawing upon established literature and empirical evidence, the examination centers on the validity, reliability, and effectiveness of these assessment components in gauging candidates' English language proficiency. Through an exploration of the structural intricacies, scoring methodologies, and research findings, this paper provides a nuanced understanding of the evaluation mechanisms inherent in the IELTS listening and reading sections, offering insights for both test administrators and candidates.

Key words: *IELTS, IELTS reading, IELTS listening, IELTS evaluation, IELTS assessment, assessment of IELTS reading, assessment of IELTS listening, assessment of receptive skills in IELTS.*

Introduction:

The International English Language Testing System (IELTS) serves as a pivotal instrument in evaluating English language proficiency for academic and immigration purposes. Central to this evaluation are the listening and reading sections, which pose unique challenges and opportunities in the assessment domain. This paper embarks on a scholarly inquiry into the evaluation of these sections, aiming to elucidate their assessment validity, reliability, and effectiveness. By examining the underlying frameworks, assessment criteria, and scoring systems, we endeavor to unravel the intricate mechanisms that govern the evaluation of language proficiency within the IELTS paradigm. Moreover, through a synthesis of empirical studies and theoretical perspectives, this paper seeks to provide a scholarly discourse on the evaluation of IELTS listening and reading proficiency, thereby contributing to the broader discourse on language assessment and testing.

Evaluation of Reading

The IELTS Reading examination plays a crucial role within the International English Language Testing System (IELTS), evaluating candidates' capacity to understand and interpret a diverse range of written materials commonly encountered in both academic and everyday settings[1]. Achieving proficiency in this section demands not just adept reading comprehension abilities, but also effective time management and strategic planning. In this article, we explore the complexities of the IELTS Reading test and provide actionable strategies to assist candidates in achieving success.

Understanding the Format:

The IELTS Reading test comprises three sections, each featuring diverse passages sourced from authentic materials such as newspapers, magazines, journals, and books. Candidates are allotted 60 minutes to complete the entire examination, with each section typically presenting one long reading passage or several shorter passages covering various topics.

Navigating Question Types:

Candidates encounter a diverse range of question types in the IELTS Reading test, including multiple-choice, true/false/not given, matching headings, sentence completion, summary completion, matching information, matching features, diagram label completion, and short answer questions. Understanding the nuances of each question type and practicing extensively is crucial for success.

Scoring and Time Management:

Scoring in the IELTS Reading test is straightforward - each correct answer earns one mark, with no penalty for incorrect responses. However, effective time management is essential, as candidates must complete all questions within the allocated 60 minutes. Strategizing and allocating time wisely across the sections ensure sufficient time for reading passages, understanding questions, and answering accurately.

Preparation Strategies:

To prepare adequately for the IELTS Reading test, candidates should adopt a multifaceted approach:

- Familiarize yourself with the test format, question types, and instructions.
- Practice reading a wide range of texts on various topics to enhance comprehension skills and build vocabulary.
- Develop efficient skimming and scanning techniques to quickly locate key information within passages.
- Identify keywords and phrases that signal important information and understand how they relate to the questions.
- Manage time effectively to ensure all questions are attempted within the allocated 60 minutes.
- Review and analyze mistakes to identify areas for improvement and adjust study strategies accordingly.

Achieving success in the IELTS Reading exam demands thorough preparation, strategic planning, and adept time management. By grasping the format, question types, and scoring standards, candidates can customize their preparation tactics to optimize their performance on exam day. With consistent practice and dedication, attaining proficiency in the IELTS Reading test becomes attainable, opening doors to enhanced prospects in academic and professional pursuits.

Evaluation of Listening

The IELTS Listening test is a pivotal aspect of the overall IELTS examination, serving as a barometer of candidates' ability to comprehend spoken English across diverse scenarios. Below is an in-depth assessment of the IELTS Listening test:

1. Comprehensive Format:

The IELTS Listening test is structured into four sections, each featuring distinct types of spoken recordings. These recordings encompass conversations between individuals, monologues such as lectures or speeches, and discussions on topics ranging from academic subjects to everyday life situations. The assortment of recording types ensures candidates are exposed to various accents, speech patterns, and subject matters [2].

2. Diverse Question Types:

Throughout the Listening test, candidates encounter a plethora of question types, including multiple-choice, matching, sentence completion, and note completion. These questions are meticulously crafted to gauge a wide array of listening skills, such as grasping main ideas, identifying specific details, discerning opinions or attitudes, and accurately following instructions.

3. Gradual Difficulty Progression:

The difficulty level of the recordings escalates progressively throughout the test. While the initial section often comprises straightforward language commonly encountered in everyday conversations, subsequent sections introduce more intricate vocabulary, idiomatic expressions, and nuanced concepts. This gradual elevation in difficulty compels candidates to adapt their listening abilities to varying contexts and linguistic styles.

4. Scoring Mechanism:

Candidates are awarded one mark for each correct answer in the Listening test, with no penalty for incorrect responses. The cumulative score is then mapped onto the IELTS 9-band scale, providing a standardized measure of candidates' listening proficiency. This scoring system ensures impartiality and uniformity in the assessment process.

5. Importance of Time Management:

Effective time management is imperative in the IELTS Listening test, as candidates are allotted approximately 30 minutes to complete all four sections. This timeframe encompasses both listening to the recordings and transferring answers to the answer sheet. Therefore, candidates must strike a delicate balance between actively engaging with the recordings, comprehending the content, and accurately recording their answers within the stipulated timeframe.

6. Strategic Preparation Strategies:

To excel in the IELTS Listening test, candidates should adopt strategic preparation techniques, such as:

- Familiarizing themselves with the test format, question types, and instructions.
- Practicing listening to a diverse range of English accents, including British, American, Australian, and Canadian.
- Cultivating effective note-taking methodologies to capture crucial information while listening to the recordings.
- Enhancing their capacity to decipher main ideas, specific details, opinions, and attitudes conveyed in the recordings.
- Regularly undertaking practice tests under timed conditions to simulate the exam environment and refine time management skills.

7. Feedback and Continuous Improvement:

Following practice tests or the actual examination, candidates should meticulously review their answers and solicit feedback from instructors, tutors, or language partners. Identifying areas of weakness and implementing targeted improvement strategies can significantly enhance listening proficiency over time.

Conclusion:

In essence, the evaluation of the IELTS Listening and Reading sections underscores their pivotal role in assessing candidates' English language proficiency across diverse contexts. The intricate formats, diverse question types, and rigorous scoring mechanisms employed in these sections serve as robust measures of candidates' abilities to comprehend written and spoken English. Through strategic preparation, adept time management, and targeted improvement strategies, candidates can navigate these sections with confidence, thereby enhancing their prospects in academic and professional endeavors.

The IELTS Listening and Reading sections offer not merely a test of linguistic competence but also a reflection of candidates' adaptability, critical thinking, and communicative effectiveness. As candidates engage in comprehensive preparation, they cultivate not only language skills but also valuable test-taking strategies that transcend the examination hall, proving beneficial in real-life scenarios.

As the demand for English language proficiency continues to grow in global academia and professional spheres, the significance of the IELTS Listening and Reading sections as reliable indicators of language competence remains indisputable. By embracing the challenges posed by these sections and leveraging the plethora of resources and preparation strategies available, candidates can unlock opportunities for personal and professional growth, thereby advancing towards their aspirations with confidence and competence.

REFERENCES

1. Rachel Mitchell/ “IELTS Reading Strategies: The Ultimate Guide with Tips and Tricks on How to Get a Target Band Score of 8.0+ in 10 Minutes a Day” by Rachel Mitchell**:** USA**,** Independently published, 2017.
2. Cambridge English Top Tips for IELTS Academic”: USA, Cambridge University Press; 1st edition, 2012.

NURLAN BAĞIRLI
Naxçıvan Dövlət Universteti

NAXÇIVAN ERKƏN ORTA ƏSR ABİDƏLƏRİ

Feodal münasibətlərin yaranması. Tarixin müxtəlif mərhələlərində Atropatenanın tərkibində olan Naxçıvanda feodal münasibətləri digər Şərq ölkələrində olduğu kimi erkən meydana gəlmişdir.Naxçıvanda feodal münasibətlərin meydana çıxmasını təsdiqləyən faktlar azdır. Erkən Orta əsrlərə aid arxeoloji abidələrin tədqiqi az da olsa torpaq üzərində feodal mülkün meydana çıxdığını göstərir. Bu münasibətlər III əsrdən formalaşmağa başlamışdır. Naxçıvanda feodal münasibətləri, Şərqdə olduğu kimi, feodalların öz təsərüffatlarını yaratması ilə deyil, kəndlilərin renta alınması yolu ilə inkişaf etmişdir. İstehsalın əsasını kəndli əməyi təşkil edirdi.Kəndlilər şəxsən azad idilər. Naxçıvanın əlverişli təbii şəraiti, xüsusilə Araz vadisinin və Araz çayına qovuşan gursulu çayların vadisindəki münbit torpaqlar, dağlıq ərazidəki maldarlıq üçün əlverişli otlaqlar feodal mülkiyyətin inkişafına, daha mütərəqqi quruluşun formalaşmasına əlverişli şərait yaradırdı. Naxçıvanın təbii-coğrafi şəraiti süni suvarmanın olmasını tələb edirdi. Əvvəldə qeyd etdiyimiz kimi, Naxçıvanda hələ qədim dövrlərdən suvarma kanallarından istifadə edilmişdir. İstər əkinçilik, istərsə də maldarlığın inkişafı digər təsərüffat sahələrinin də inkişafını stimullaşdırmış, Naxçıvanın iqtisadi və siyasi müstəqilliyi üçün əsas olmuşdur. Erkən Orta əsrlərdə Naxçıvan hakimlərinin müstəqil siyasət yürütməsinin səbəblərindən biri də budur.

Quyuludağ qalası-Musa Kalankaytuklunun verdiyi məlimata görə mənşəcə Sisakadan olan Aran Araz çayından başlayaraq Hunan qalasınadək uzanan ölkənin düzənliklərini və dağlarını miras olaraq almışdı. Bu artıq torpaq üzərində iris mülkiyyətin olduğunu təsdiq edir. Tarixi mənbələrin hakim sinifin nümayəndələrinə vilayətlərin və kəndlərin bağışlanması, hakim sinfin öz mülklərinin oğulları arasında bölüşdürməsi haqqındakı məlumatları toplayaraq sahibliyin dövlət formasının üstün olduğunu göstərir. Sasanilərin və ərəblərin hökmdarlara bütöv vilayətlər bağışlaması, onların öz vassallarına torpaq paylaması dövlət və feodal torpaqlarını artırır, 124 kəndlilərin onlardan asılılığını gücləndirirdi. Feodalizm dövrünün əsas sinifləri feodallar və asılı kəndlilər idi. Feodalların formalaşması iki yolla gedirdi. Bir tərəfdən azad icmalar arasında təbəqələşmə nəticəsində varlıların yeni qruplaşmaları yaranır və adlı sanlı əyanlarla birləşərək feodal sinfinin əsasını təşkil edirdi. Digər tərəfdən isə vilayət hakimləri vəzifələrini irsiləşdirərək atadan oğula vermək hüququ alırdılar. Feodalizmin inkişafı ilə feodallar arasında da təbəqələşmə gedirdi. Onlar arasında üstün mövqe tutan vilayətin, yaxud əyalətin hakimləri idi. Əlincə və Qoxtan daxil olmaqla Sünikdə on iki vilayət olduğunu nəzərə alsaq artıq feodal monarxiyası rütbə cədvəli ilə müəyyənləşdirilmişdi. Vilayət hakimləri hökmdarın yanında rütbələrinə görə otururdu. Sünik hakiminə uyğun yer verilmədiyi üçün onlar Sasani hökmdarlarından incimiş və üsyan etmişdilər. Erkən Orta əsrlərdə Albaniya və Atropatenada iris (Dastakert) və şərti torpaq mülkiyyəti (Xostak) mövcud olmuş, şərti torpaq mülkiyyətinin iris mülkiyyətə çevrilməsi prosesi getmişdir. Dastakertin sahibi hökmdar və iri feodallar, Xostakın sahibi isə xırda zadəganlar (azatlar) idilər. Naxçıvanda vilayət hakiminin şəxsində iri mülkiyyət daha üstün yer tutmuşdur. İstər Albaniya və Atropatenanın, istərsə də böyük imperyaların tərkibində Naxçıvanın müstəqil siyasət yeritməsi bununla bağlı olmuşdur. Feodal torpaq sahibliyinin formalarından biri də dini torpaqlar idi. Dini torpaqlar və məbədlərə məxsus torpaqlar toxunulmaz idi və inanca görə Tanrı tərəfindən qorunurdu. Sünik vilayətində baş verən üsyan zamanı feodalların öz qiymətli əşyalarını Şalat məbədinə gizlətməsi, Sasanilərin bu təpəyə çıxarkən zəlzələ olması buna işarədir. Erkən Orta əsrlərdə Naxçıvanda da Azərbaycanın digər yerlərində olduğu kimi hakim feodallar sinfinin mənafeyini müdafiə edən dövlət hakimiyyəti mövcud idi. Bu dövrdə Naxçıvanın müəyyən müddət ərzində müstəqil siyasət yeritdiyini nəzərə alsaq ali dövlət hakimiyyətinin vilayət hakiminin əlində cəmləşdiyini demək olar. Musa Kalankaytuklunun yazdığından məlum olur ki, Sünik hakimləri knyaz titulu daşıyırdı. Şahbuz rayonundan, Ağbulaq nekropolundan aşkar olunan üzük möhürlər yerli hakimlərin və feodalların möhürə də malik

olduğunu təsdiq edir. Əyalət hakimləri vilayət hakimlərinə tabe idilər. Naxçıvan hakimi öz növbəsində Atropatena hökmdarından asılı idi. Son Antik və Erkən Orta əsrlərə aid yaşayış yerlərinin tədqiqi vilayət hakimlərinin saraylara malik olduğunu göstərir. Bəzi qalalarda Sitadellərin mövcudluğu hakim təbəqənin qala divarları ilə mühafizə olunan xüsusi sahədə yaşadığını deməyə imkan verir. Vilayət hakimlərinin həmçinin özünə tabe olan ordusu var idi. Sünik vilayətinin ordusu o qədər qüvvətli idi ki, onların gücündən Dərbənd keçidini mühafizə etmək üçün istifadə olunurdu. Mənbələrdə Sünik 126 hakiminin öz ordusu ilə Mədainə hücum etməsi, İran dövlətinin paytaxtında keçirilən ümumi hərbi keçiddə onun öz dəstəsi ilə iştirak etməsi haqqında məlumatlar vardır.

Türkdilli tayfaların yeni axınları-Erkən Orta əsrlərdə türk tayfalarının Azərbaycanda o cümlədən Naxçıvanda məskunlaşması prosesi davam etmişdir. Hun türklərinin (xəzər, sabir, onoqur və s.) II əsrdə Şimali Qara dəniz sahillərində, yaxud Xəzərin şimalında yaşaması haqqında Vizantiya tarixçisi Dionisiy, yunan coğrafiyaçısı Klavdi Ptolomey məlumat vermişlər. Lakin Moisey Xorenskinin 193-213-cü illərdə xəzərlərin Çoradan keçərək bütün Albaniyaya yayılmasını bəzi tədqiqatçılar anaxronizim adlandırmış, bu hadisələrin IV əsrdə baş verdiyini göstərmişlər. Lakin V.N.Qabiaşvili göstərir ki, qədim gürcü mənbələrində türk xalqları e.ə IV-III əsrlərə aid hadisələrlə bağlı olaraq xatırlanır. Bu mənbələrdə Makedoniyalı İsgəndərin Cənubi Qafqaza yürüşü zamanı türklərlə qarşılaşdığı göstərilir. Birinci fəsildə qeyd olunduğu kimi, Heredot eramızdan əvvəlki hadisələrdən bəhs edərək türklərin Azərbaycanda məskunlaşdığını göstərmişdir. Bəzi tədqiqatçılar kəngərli tayfalarının Naxçıvanda I əsrdən məskunlaşdığını göstərir. Lakin Midiya ərazisində olan bəzi toponimlər-məsələn, Kinqarakku, Kinqibira, Kinqikanqi və digərləri ehtimal ki, bu tayfalarla bağlıdır.

Naxçıvan Sasanilər dövlətinin tərkibində-226-cı ildə Ərdəşirin şah titulu qəbul etməsilə Sasanilər dövlətinin əsası qoyuldu. Naxçıvanın III-VII əsrlər tarixi Sasanilər dövləti ilə bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi, Sasani şahı I Şapura məxsus kitabədə Sünik müstəqil ölkə kimi xatırlanmışdır. Lakin I Şapurun ölümündən sonra Sasani-Roma müharibələri yenidən gücləndi.Bu müharibələr 283-cü ildə romalıların xeyrinə bağlanan sazişlə başa çatdı. Bu dövrdə digər şəhərlərlə birlikdə Naxçıvan da Sasanilərin hakimiyyəti altından çıxır.Amid döyüşündən sonra 359-cu ildə Sasanilərlə romalılar arasında bağlanan müqaviləyə görə Arsax, Marlar ölkəsi və Kaspiana sasanilər tərəfindən tutuldu. 364-367-ci illərdə II Şapurun talançı yürüşləri zamanı səkkiz şəhər dağıdılmışdı ki, onlardan biridə Naxçıvan idi. Bu dövrdə Cənubi Qafqazın digər ölkələri ilə birlikdə Naxçıvan da Sasanilər tərəfindən talan və qarətlərə məruz qalır. Mənbələr göstərir ki, əsir edilmiş əhali Cənubi Qafqazın digər yerlərindən İran ordugahının yerləşdiyi Naxçıvana gətirildi. Sonda Naxçıvan şəhəri də dağıdılıb talan edildi. Əhali sürgün edilib yad ölkələrə aparıldı. II Şapurun istilaları zamanı Naxçıvanda 18 min nəfər ailə əsir edilməşdi. İşğal edilmiş şəhərlərin Sasanilər tərəfindən verilmiş siyahısı və Sasani ordularının keçdiyi yolların təsviri bu Naxçıvanın Araz çayı üzərində olan Naxçıvan olduğunu göstərir.Mənbələr yazır ki, bütün Azərbaycan və Naxçıvan ərazisi Sasani Roma ordularının döyüş meydanına çevrilmişdir.Bununla bərabər köçəri alan və hun tayfalarıda buraya gəlirdilər. Hunlar tez-tez yerli əhalinin Sasanilərə qarşı mübarizəsinə müdaxilə edirdilər. Romalılar atəşpərəst məbədlərini dağıdır, yerində xristian kilsələri tikirdilər. Roma ilə İran arasında bağlanan 387- ci il müqaviləsinə görə Naxçıvan Sasanilərin tərkibində qaldı. Musa Kalankaytuklunun Alban tarixi əsərində Sünik 130 əhalisinin Sasani şahı II Şapura qarşı mübarizəsi haqqında maraqlı məlumat saxlanmışdır.

VƏSİLƏ RAZİMİ
vesilerazimi99@gmail.com
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
ORCİD İD: 0000-0002-2613-1071

Açar sözlər: *uşaq, "şəhid şəhər", kənd həyatı, Qarabağ, folklor*

70-80-ci illərdə ədəbi mühitə gəlsə də, əsasən, 90-cı illərdən bu günə kimi milli uşaq və gənclər ədəbiyyatının inkişafında diqqəti cəlb edən qələm sahiblərindən biridir. Şair görkəmli poeziya ustası B.Vahabzadədən xeyir-dua almış, X.Rza Ulutürk, M.Araz, N.Həsənzadə, M.Aslan və başqa sənətkarlar onun yaradıcılığı haqqında xoş sözlər söyləmişlər. Görkəmli şair N.Həsənzadə "Şəhid şəhər" poemasına yazdığı rəydə qeyd edir: "Bu gün Ələmdar Quluzadə müasir Azərbaycan şeirimizi təmsil edən qüdrətli qələm sahibləri sırasındadır. Onun müdrik və qaynar ilhamına pərəstiş etməmək olmur".

Filologiya elmləri doktoru, tanınmış uşaq şairi R.Yusifoğlu yazır: "Ə.Quluzadənin uşaq şeirləri səmimiliyi, dilinin rəvanlığı ilə diqqəti cəlb edir. Şairin folkloru, kənd həyatını, təbiət hadisələrini yaxşı bilməsi, həssas müşahidələri, predmetə uşaq gözü ilə baxmaq bacarığı onun şeirlərinin uğurunu təmin edən başlıca cəhətlər kimi yadda qalır.

Azərbaycan Dövlət Radiosunda Uşaq verilişləri redaksiyasında baş redaktor kimi fəaliyyət göstərən şair uşaqlar üçün "Tumurcuqlar", "Beş qitənin uşaqları", "Məhləmizin uşaqları", "Boğça", "Qürbətə düşən daş", "Dilotu", "Navalça", "Bulaq suyu" kimi maraqlı kitablarını da nəşr etdirmişdir. Bu kitablarda qələmə aldığı şeirlər, poemalar, nağıllar həm dilinin sadəliyi, həm də tərbiyəvi əhəmiyyəti ilə dəyərlidir.

Mövzusunu folklordan, kənd həyatından, təbiət hadisələrindən aldığı kiçikhəcmli lirik parçalarda şair uşaqlara vətəni sevməyi, ata-anaya hörmət etməyi, təbiətə həssas münasibət bəsləməyi, əməyə vərdişi və s. aşılayır.

Ə.Quluzadənin uşaq əsərlərinin başlıca mövzusu vətənpərvərlik, xalqa, soykökünə bağlılıq, mənəvi saflıq, təbiətə məhəbbət, uşaq həyatıdır. Şairin uşaq şeirlərinin bir qismi yanıltmac səciyyəlidir. Yanıltmac – şeirlər uşaqların nitqinin inkişafı, səlis, aydın, axıcı olması baxımından çox əhəmiyyətlidir:

Bir tərəfdə xalçadı,
Bir tərəfdə alçadı.
Bir tərəfdə dolçadı.
Alça xalçaya baxdı,
Xalça dolçaya baxdı,
Dolça alçaya baxdı.
Xalçanı sərdilər,
Alçanı dərdilər,
Dolçaya verdilər.

Ələmdar Quluzadə İkinci Qarabağ müharibəsinə həsr olunmuş xeyi sayda şeirlər də yazmışdır. Şairin uşaq şeirləri orta məktəb dərslikəri vasitəsilə də uşaqlara çatdırır. O, bu gün də dərin mənaya malik əsərlər yazaraq uşaqlara ərmağan edir.

KAMALA ALIEVA
gulayalizade343@gmail.com
Nakhchivan State University
ORCİD İD: 0009-0002-5922-4511

INQUIRY-BASED LEARNING

Inquiry-based learning is an educational technique where students must discover ways to solve problematic situations through the research process. This type of learning is an instructional method that places students at the center of the teaching process. There are multiple methods for employing this technique: guidance in the inquiry can be provided by students, teachers, or both. The main aim of inquiry-based learning is to spark creativity in students, encouraging deeper levels of learning.

Key words: *critical thinking, independence, questioning, active learning, conclusion drawing, class management.*

Introduction

Inquiry-based learning is an educational approach that prompts students to pose inquiris and explore real-world issues. There are many benefits associated with this form of learning. In this learning environment, learners engage actively in the learning process and are afforded the chance to explore their inherent interests. This approach aims to tackle problems and promote teamwork. Repsetenting a dynamic approach to education, it underscores the importance of critical thinking and problem-solving in learning. Differing from conventional teaching approaches, it highlights student-centered learning, where students actively participate in the learning process through inquiry. This form of learning is an educational strategy focused on learners engaging in inquiry-based activities to acquire knowledge.

Literature analysis and methods

Inquiry-based learning is a form of active learning that initates with the introduction of questions, problems, or scenarios. Itinvolves preparing questions, conducting observations, conducting research to ascertain existing information, utilizing and preparing methods for experiments, gathering data, analyzing and interoreting information, and creating forecasts for future research **[1- p.9]**.

There exist *four varieties* of inquiry-based learning:

- *Structured inquiry approach*. This approach entails a step-by-step process that assists students in learning through questioning and exploring real-world problems. This type of inquiry-based learning is frequently utilized in natural science lessons, where students are presented with problems to explore and instructed on how to appy the scientific process to find solutions.

- *Open inquiry approach*. This method of inquiry-based learning adopts a more unrestricted and adaptable approach. In this learning setting, students are afforded the librety to explore their own interests and pose questions pertaining to the subject matter they are studying. This approach is often employed in humanities courses, where students are tasked with conducting in-depth research on the topic and engaging in discussions about various perspectives. At this stage, students demonstrate the highest level of independence by formulating their own questions, methods, and conclusions **[2- p.277]**.

- *Verification inquiry approach.* Students adhere to special instructions to achieve a known outcome by reinforcing their understanding of previously learned concepts. This methos is employed in mathematics and engineering lessons.

- *Guided inquiry approach*. This is a method led by the teacher. In this approach, the teacher directs students in the inquiry process by posing questions and assisting them in finding solutions to

those questions. This form of inquiry-based learning is itilized in elementary and middle school grades. This stage boosts students' abilities in creativity and problem-solving **[3- p.271]**.

Results and discussion

The method of inquiry-based learning inspires students to delve into a problem through experimental exploration. The learning process initates by arouising interest among students, and studies indicate that capturing student interest can lead to accomplishing more sophisticated objectives. The inquiry-based learning approach is a more efficient method for teachers, asthis method instructs students in independent learning and fosters a sence of responsibility for their own learning, it also cultivates conditions for students to be actively engaged in the lesson.

REFERENCES

1. "21st Century Skill Development through Inquiry-based learning" by Samuel Kai Wah Chu, Rebecca B. Reynolds, Nicole J. Tavares; 2016, p.9.
2. "Inquiry-based learning for the Arts, Humanites and Social Sciences" by Patric Blessinger, John M. Carfora; 2014, p.277.
3. "Inquiry-based learning for Faculty and Instutional Development" by Teressa Coffman; 2017, p.271.

RƏŞAD FƏRMAYILLI
rsadfrmayilli@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-7942-2383

MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ VƏ MUZEYŞÜNASLIĞIN PROBLEMLƏRİNƏ DAİR

Azərbaycan Respublikası Konstitusiyasına görə tarix və mədəniyyət abidələrini mühafizə etmək hər bir vətəndaşın borcudur. Tarix mədəniyyət abidələri Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" (6 fevral 1998-ci il), "Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında" (10 aprel 1998-ci il) qanunlarına (7:8), habelə "Ümumdünya mədəni təbii irsinin qorunması haqqında Konvensiya" (Paris, 1972-ci il), "Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası" (La- Valetta, 1992-ci il) kimi beynəlxalq sənədlərə uyğun olaraq, mühafizə, bərpa və istifadə edilir.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində (2010-cu il noyabrın 1-3-də) "Muzeylər və mədəni irs" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda muzeydə mədəni irsin öyrənilməsi, mühafizəsi, təbliği, mədəni irs və lokal muzeylər, mədəni irsin konservasiyası, mədəni irsin qorunmasında və təbliğində müasir texnologiyaların tətbiqi, mədəni irsin təbliği və nümayişi mövzularına həsr olunmuş məruzələr dinlənilmişdir.

Açar sözlər: *muzeylər və mədəni irs, mədəniyyət abidələri, tarix*

Giriş. Azərbaycanın mədəni irsi Qobustandakı mezolit dövrünün qayaüstü rəsmlərindən, atəşpərəstlərin Suraxanıdakı "Atəşgah" məbədindən, Şirvanşahlar Sarayı və bütövlükdə İçəri Şəhərdən (orta əsrlər Bakısı), Kiş kəndindəki Alban kilsəsindən, Şəki qalası və Xan sarayından, birinci neft yüksəlişi zamanı Bakıda tikilən gözəl binalardan tutmuş digər çoxsaylı gözəl şəhər nümunələrinə, qalalara, məscidlərə, kilsə, məbəd və milli tikililərə qədər polietnik və çoxmədəniyyətli keçmişin bütün daşıyıcılarını əhatə edir. Milli mədəni irsimiz həmçinin muzey və kitabxanaların kolleksiyalarını digər ənənəvi mədəniyyət nümunələrini də əhatə edir.

İtaliya hökuməti ilə əməkdaşlıq zəmnində Dünya Bankı və YUNESKO tərəfindən nəşr olunaraq mədəniyyət və maliyyə sistemləri arasında körpü yaratmaq məqsədilə 1998-ci ildə Florensiyada keçirilən beynəlxalq konfransın ideya və tövsiyələrini yekunlaşdıran "Sabit inkişaf üçün yeni mədəniyyət strategiyalarına doğru" adlı sənəddə belə bir müraciət vardır: "İnkişaf yaradıcı iştirak prosesini əks etdirməlidir və bu mənada mədəniyyətin rolu bundan sonra danıla bilməz". YUNESKO tərəfindən həyata keçirilən bu yanaşma üsulu, həmçinin Avropa Şurasının "Çərçivədən kənar" tədqiqatlarının mərkəzi konsepsiyasını təşkil edir [10].

1998-ci ilin aprel ayının 1-də qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması" haqqında Azərbaycan Respublikasının Qanunu tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir. Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar, xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir. Qanunda deyilir ki, tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Abidələr daşınar (səyyar) və daşınmaz (stasionar) olur. Daşınar abidələr muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə, daşınmaz abidələr əksər hallarda arxeoloji və memarlıq abidələri olmaqla, inşa edildiyi yerlərdə qorunur. Azərbaycan xalqının zəngin milli mədəniyyətinin qorunub saxlanması dövlətimizin ən mühim vəzifələrindən biridir. Mədəni sərvətlərin qorunub saxlanması və istifadəsi problemləri ölkənin əsas Qanununda Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı,ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır" [2, s. 24].

Azərbaycan Respublikası Konstitusiyasına görə tarix və mədəniyyət abidələrini mühafizə etmək hər bir vətəndaşın borcudur. Tarix mədəniyyət abidələri Azərbaycan Respublikasının

"Mədəniyyət haqqında" (6 fevral 1998-ci il), "Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında" (10 aprel 1998-ci il) qanunlarına (7: 8), habelə "Ümumdünya mədəni təbii irsinin qorunması haqqında Konvensiya" (Paris, 1972-ci il), "Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası" (La- Valetta, 1992-ci il) kimi beynəlxalq sənədlərə uyğun olaraq, mühafizə, bərpa və istifadə edilir. Tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması keçmiş SSRİ-nin Ümumittifaq Mədəniyyət İnstitutu tərəfindən hazırlanmış vahid prinsip əsasında aparılıb. 1969-cu ildən tətbiq edilən bu sistem mövcud olan və yeni üzə çıxarılan hər bir abidənin hökmən öz pasportu və qeydiyyat vərəqəsi olmasını tələb edirdi. və onlarda abidə haqqında ətraflı zəruri olan informasiyalar toplanırdı. Sovet dövründə bu sistemə 1500 abidə daxil edilmiş və pasport "almışdı". Hazırda elektron pasportlaşdırma və kataloqlaşdırmanın yeni milli standartları işlənib hazırlanmışdır.

Azərbaycan YUNESKO-nun nəzdindəki Ümumdünya İrs Mərkəzi ilə sıx əməkdaşlıq edir. 2000-ci ildə Bakı şəhərinin tarixi mərkəzi "İçərişəhər, Şirvanşahlar Sarayı və Qız Qalası" Ümumdünya İrsi Siyahısına daxil edilmişdir. Gələcəkdə həmin siyahıya daxil edilmək üçün digər abidələrin (atəşpərəstlik məbədi "Atəşgah", "Qobustan" mədəni-tarixi qoruğu və Naxçıvandakı Möminəxatun, Gülüstan, Qarabağlar vəYusif ibn Küseyr türbələri) sənədləri yeni və "tentativ vərəq" (ilkin siyahı) Ümumdünya İrs Mərkəzinə təqdim edilmişdir. Mədəni İrsin qorunub saxlanması sahəsində bir çox ölkələrin iş təcrübəsi öyrənilərək, Beynəlxalq təşkilatlarda əməkdaşlıq əlaqələri qurulmuşdur. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində çalışan Azərbaycan mütəxəssisləri ardıcıl olaraq, YUNESKO, İKOMOS, İKROM və digər beynəlxalq təşkilatların keçirdiyi konfrans və sessiyalarda iştirak edirlər [1, s. 59]. Bərpa və konservasiya (qablaşdırma) işləri əsasən dövlət büdcəsindən, yerli büdcədən ayrılan vəsait, habelə özəl şəxslərin, xarici və beynəlxalq təşkilatların dotasiyaları hesabına aparılır. Məsələn, Bakıdakı kiçik alman "Kirxa"sının ("Kapelhauz") bərpası tamamilə Almaniya hökuməti tərəfindən maliyələşdirilmişdir. Norveçin qeyri-hökumət təşkilatlarının ayırdığı maliyə vəsaiti hesabına Şəki rayonunun Kiş kəndindəki V-VI əsrlərə aid alban xristian kilsəsi bərpa edilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində (2010-cu il noyabrın 1-3-də) "Muzeylər və mədəni irs" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransda muzeydə mədəni irsin öyrənilməsi, mühafizəsi, təbliği, mədəni irs və lokal muzeylər, mədəni irsin konservasiyası, mədəni irsin qorunmasında və təbliğində müasir texnologiyaların tətbiqi, mədəni irsin təbliği və nümayişi mövzularına həsr olunmuş məruzələr dinlənilmişdir.

2010-cu ildə AMEA Milli Azərbaycan Tarix Muzeyinin 90 illiyinə həsr olunmuş "Muzeylər və mədəni irs" Beynəlxalq elmi konfransını giriş sözü ilə Milli Azərbaycan Tarix Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı açmış, salamlama nitqləri isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimov və Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri Əbülfəz Qarayev tərəfindən söylənilmişdir.

İlk muzey Bakıda 1919-cu ildə, ilk memorial muzey isə Şəkidə 1938-ci ildə yaradılıb. AMEA-nın Tarix Muzeyi ötən əsrin 20-ci illərindən millətin ixtiyarına verilib. Bu muzey məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin mülkündə yerləşir. Həmin binanın özüdə Azərbaycan tarixinin keçmişindən xəbər verən daş abidə kimi qiymətlidir. Ona görədə tarix muzeyinə bəzən "Muzey içində muzey" deyirlər. Dövlətin xüsusi qayğısı nəticəsində muzey yüksək səviyyədə bərpa və təmir edilərək yenidən öz qapılarını seyrçilərin üzünə açmışdır. Ölkədə muzey işinin inkişaf etdirilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən lazımi tədbirlər görülür. Yalnız Bakıda deyil, regionlarımızda da yerləşən muzeylərdə əsaslı yenidənqurma və təmir işləri aparılır.

Ölkə başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının Bakı şəhərində İstiqlal Muzeyinin yaradılması və İstiqlal Abidəsinin ucaldıması haqqında" 2006-ci il 18 dekabr və "Müasir İncəsənətin yaradılması haqqında" 2006-ci il 19 dekabr tarixli sərəncamların muzey işinə dövlət qayğısının aydın təzahürüdür. Prezident milli-mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması işinə xüsusi diqqət göstərərək artan mərkəzlərin iqtisadi potensialın tempinə uyğun yeni yaradılmasının, fəaliyyət göstərməsini, millətə xidmət etməsini zəruri sayır.

Ölkə muzeylərinin mövcud olan vəziyyətinin daha da yaxşılaşdırılması üçün bu sahədə bir sıra əlavə tədbirlərin həyata keçirilməsi zərurətidə özünü göstərməkdədir. Bu, bir tərəfdən maddi-mənəvi abidələrin mühafizəsi, digər tərəfdən də inkişaf edən, hər bir mədəniyyət ocağının dünya standartlarına uyğun şəkildə həyata qaytarılması, bərpa edilməsi və yaşaması üçündür.

Prezident İlham Əliyevin 2007-ci il martin 6-da "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" imzaladığı Sərəncamda deyilir: "Azərbaycanda muzey işinin yaxşılaşdırılmasının, ölkəmizin mənəvi həyatının inkişafı baxımından əhəmiyyətini və perspektivlərini nəzərə alaraq elmi Və mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarını genişləndirmək üçün Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı hazırlansın" [2].

Mədəniyyət və Turizm Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və digər aidiyyatlı təşkilatlar dövlət başçısının göstərişinə əsasən Azərbaycanda muzeylərin fəaliyyətinin müasir prinsiplər əsasında müvafiq olaraq yenidən qurulması və onun bütün ekspozisiyalarının azərbaycançılıq məfkurəsinə uyğunlaşdırılması yolunda işə başladılar.

Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanan "Azərbaycan regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı"na müvafiq olaraq Bakı muzeylərinin veb saytları hazırlanmışdır. Saytların yaradılmasında Əsas məqsəd muzeyləri geniş ictimaiyyətə tanıtmaq və təbliğ etməkdən ibarətdir. Bu saytlarda muzey fondlarının elektron kataloqları və keçirilən tədbirlər haqqında məlumatlar mütəmadi olaraq yerləşdirilir. 2010-cu ildən muzeylərin saytları rus dilində də fəaliyyət göstərir. İlin əvvəlindən etibarən muzeylərin, mədəniyyət müəssisələrində səyyar sərgiləri təşkil olunur. Yerlərdə keçirilən sərgilər vasitəsilə muzeylərə gedə bilməyənlər üçün şərait yaradılır, bu, əsasən Azərbaycanın ucqar rayonlarına şamil olunur. Eyni zamanda səyyar sərgilər vasitəsilə mədəniyyət müəssisələri arasında əlaqələr genişləndirilir. Həmçinin muzeylər orta təhsil müəssisələrində də sərgiləri nümayiş etdirməkdədirlər. Bu sərgilər muzeylər və məktəblər arasında iş birliyinin daha da artmasına şərait yaradır [4. s.268].

Azərbaycan, keçid dövrü şəraitində, mədəniyyətlə bağlı kəskin tənəzzüllə üzləşmişdir. Bir çox kütləvi mədəniyyət mərkəzlərinin (muzeylər, kitabxanalar, parklar, teatr və konsert zalları) əsaslı bərpasına və modernləşdirilməsinə ehtiyac duyulurdu. Məhz bunu nəzərə alaraq son illərdə bir çox dövlət əhəmiyyətli layihələr həyata keçirilmişdir. Belə ki, 2003-cü ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müasir beynəlxalq təcrübəyə əsaslanan mədəniyyət siyasəti istiqamətində 2004-2008-ci illər üçün "Azərbaycan mədəniyyətinin Dövlət Strateji inkişafı proqramının" layihəsi hazırlanmışdır. Proqram Azərbaycan Respublikasında dövlət səviyyəsində aparılan mədəniyyət siyasətinin əsas istiqamətlərini müəyyən edir və "Mədəniyyət siyasətinin təminatı", "Mədəni irsin mühafizəsi", "Yaradıcılığın dəstəklənməsi" və "Mədəni mənafelərin inkişafı" adlı 4 bölmədən, 20 fəsildən və proqrama əlavə olunan "Məqsədli layihələr cədvəli"ndən ibarətdir. Proqram müasir cəmiyyətdə mədəniyyətin rolunun yenidən dərk olunmasına, milli ideyanın inkişaf etdirilməsinə, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun artırılmasına həsr olunmuşdur. Proqramın əsas məqsədi keçmişi qoruyub saxlamaq, indini dəstəkləmək və gələcək inkişaf üçün zəmin yaratmaqdır.

Azərbaycan Respublikasında aparılan məqsədyönlü dövlət mədəniyyət siyasətinin nəticələri özünü son illərin bir sıra uğurlu layihələri ilə təsdiqləməkdədir. Belə ki, 2008-ilin dekabr ayının 2 və 3-də Avropa şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı məhz Azərbaycanda (Bakıda) keçirilmişdir. Dövlətimizin mədəniyyət siyasətinə və qayğısı nəticəsində xalqımızın mədəniyyət inciləri olan "Muğam", "Aşıq sənəti" və "Novruz bayramı" YUNESKO tərəfindən dünyanın qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir [10;11]. Bu uğurlar bütövlükdə bütün xalqımızı sevindirir. Çünki özünü dərk edən hər bir vətəndaş çox yaxşı bilir ki, xalqın mədəni irsi onun milli yaradıcılıq potensialının etibarlı göstəricisidir. Mədəni irsin qorunması və inkişaf etdirilməsi ümumilikdə cəmiyyətin inkişafının və bütün sahələrdə yüksək

nailiyyətlər əldə etmək cəhdlərinin ayrılmaz bir hissəsidir. Tarix və memarlıq abidələri, muzeylər, kitabxanalar və arxivlər mədəni irsi mühafizə edən ən mühüm mədəniyyət ocaqlarıdır.

SUMMARY

Rashad Fermayıllı

ON PROBLEMS OF PROTECTION OF CULTURAL HERITAGE AND MUSEUM STUDY

According to the Constitution of the Republic of Azerbaijan, it is the duty of every citizen to protect historical and cultural monuments. Historical and cultural monuments of the Republic of Azerbaijan "On Culture" (February 6, 1998), "On Protection of Historical and Cultural Monuments" (April 10, 1998) (7: 8), as well as "Convention on the Protection of World Cultural and Natural Heritage" (Paris, 1972), "European Convention on the Protection of Archaeological Heritage" (La Valletta, 1992) is protected, restored and used in accordance with international documents.

An international conference on "Museums and cultural heritage" was held at the National Azerbaijan History Museum of the Azerbaijan National Academy of Sciences (November 1-3, 2010). At the conference, reports were heard on the topics of cultural heritage study, protection, promotion, cultural heritage and local museums, conservation of cultural heritage, application of modern technologies in the protection and promotion of cultural heritage, promotion and display of cultural heritage.

Key words: *museums and cultural heritage, cultural monuments, history*

SOLMAZ HƏSƏNOVA
hesenli.s.128@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009 -0001 -0124- 0431

TƏSVİRİ XARAKTERLİ İNŞALARIN TƏDRİSİ PRİNSİPLƏRİ

İnşa nitq inkişafına dair aparılan işin nəticələrini, onun keyfiyyətini özündə əks etdirir. Rabitəli nitqin inkişafı üzərində işin son məqsədi şagirdlərə öz fikrini şifahi ifadə etməyi, gördükləri, eşitdikləri, oxuduqları haqqında hekayə qurub yazmağı öyrətməkdən ibarətdir.

Biz elə bir dövrdə yaşayırıq ki, hər bir mühəndis, həkim, aqronom, ümumiyyətlə, mədəni adam fikrini məntiqi ifadə etməyi, savadlı yazmağı bacarmalıdır. Çox təəssüf ki, bir çox hallarda ziyalıların, o cümlədən müəllimlərin məruzələri, yazıları məzmunsuz, hətta anlaşılmaz olur. İstər-istəməz təəssüfənir və bunun səbəbini araşdırmağa çalışırsan. Düşünürsən, axı onların hamısı orta məktəb bitirmiş, yazmağı, oxumağı öyrənmiş, kamal attestatı almışlar. Bəs nə üçün fikirlərini düzgün, səlis, aydın, yığcam, gözəl ifadə etməkdə çətinlik çəkirlər? Öz işimizə nəzər salırıq, günahın böyük bir qismini özümüzdə görürük. Axı biz onlara, əsasən, üzündənköçürmə və imla yazmağı öyrətmişik. Dil və ədəbiyyat müəllimləri bu zəif təməl üzərində onlara mükəmməl inşa yazmaq vərdişi aşılaya bilməmişlər…

Təsadüfi deyildir ki, yeni proqramda rabitəli nitq üzrə çalışmaların aparılması ana dili tədrisinin mühüm prinsiplərindən biri hesab edilir və bu sahədə işin həm qiraət, həm də qrammatika dərslərində aparılması məsləhət görülür.

Açar sözlər: *inşa, rabitəli nitq, cümlə, çalışma, proqram, ana dili, qiraət, qrammatika, dərs və s.*

Məzmununda təsvir elementləri olan və təsvir xarakterli inşalar da əslində öz təbiəti etibarilə müşahidə üzrə inşalardır. Aydındır ki, müşahidəsiz təsvir etmək mümkün deyil.

Metodik ədəbiyyatda inşanın bu növü çətin hesab edilir və belə inşaları yalnız III sinifdən etibarən aparmaq məsləhət görülür.

Bəzi metodistlər isə I – II siniflərdə də təsvirdən istifadə olunmasını mümkün hesab edirlər.

Məktəb təcrübəsi məhz axırıncıların fikrini təsdiq edir. Təsvir – inşalar bir sadə əşya, üzərində əvvəllər müşahidə aparılmış mürəkkəb əşya, təbiət hadisəsi, mənzərə və insanların əmək prosesi üzərində müşahidə əsasında yazdırılır.

İlk təsvir xarakterli yazılar müəyyən sadə əşyanın təsviri üzrə aparılır: məsələn, I sinifdə şagirdlərə tanış olan heyvanların (sərçə, qaranquş, qarğa və s.) təsvirini tələb etmək olar.

Yazı zamanı heyvan və ya quş bilavasitə şagirdlərin gözləri qarşısında olmalıdır. Bu, mümkün olmadıqda onların müqəvvalarından, yaxud aydın natural şəkillərdən də istifadə edilə bilər.

Quşların müqəvvalarını göstərib yazmağı tələb etdikdə yalnız adlarını yazırlar. Həmin müqəvvalar əsasında əşya dərsi keçilən siniflərdə isə çətinlik çəkmirlər. Əşya dərsində müvafiq sözlərlə, müəllimin göstərişi ilə müşayiət olunan müşahidə konkret təsəvvür yaradır. Quşun surəti və müvafiq sözlər yazılı nitq vərdişlərinin yaranmasını da təmin edir. Əşya dərsində şagirdlərin diqqəti əşyaların müxtəlif əlamətlərini və əlaqələrinin müəyyənləşdirilməsinə yönəldir. O, müşahidə fəaliyyətiilə eşitmə, qiraət, inşa arasında əlaqə yaradır. Beləliklə də, yeni söz genişlənən əlaqələr sistemində işlənir. Müşahidədən sözə və sözdən müşahidəyə keçmə prosesində əyani obraz və söz arasında qarşılıqlı əlaqə yaranır.

Bu prosesdə nitq qıcıqlandırıcısı üç formada (ginestetik, eşitmə və görmə) çıxış edir. Bir sözlə, əşyanın müşahidəsi əsasında yazı effektli nəticə verir.

II – III siniflərdə bir qədər mürəkkəb əşyalar (dələ, tısbağa, sağsağan, ağacdələn, tərəvəz, ağac yarpaqları,taxıl bitkiləri və s.) üzrə iş aparılır.

II sinifdən etibarən şagirdlər hava, təbiət, insanların əməyi üzərində qısa və uzunmüddətli müşahidələr aparır və müşahidələrin nəticələrini gündəliklərində qeyd edirlər. Fəsli dəyişikliklər, təbiət hadisələri və təbiətin gözəllikləri üzərində müşahidələr təsvir xarakterli inşalar üçün bol material verir.

Bəzi şagirdlərin diqqətini bir əşyaya yönəldərək onu təsvir etməyə hazırlamaq mümkündür: məsələn, şagirdlər payızda çinar ağacı üzərində qısamüddətli müşahidədən sonra onu təsvir edə bilərlər. Belə inşada çinarın nəhəngliyi, onun çox hündür və qol – budaqlı olması, gövdəsinin yoğunluğu, yaşılaçalan qabığının özbaşına soyulub tökülməsi, altdan ağararaq qabığın görünməsi, yarpağının iri, qaz ayağına bənzər olması, bəzilərinin sarı, bəzilərinin sarıtəhər, bəzilərinin isə yaşıl olması, yarpağın dalının ağ tüklü olması, meyvəsinin yumru, tikanlı, qəhvəyi rəngdə olması, şabalıda bənzəməsi, sırğa kimi sallanması, külək əsəndə yarpaqların səslənməsi və s. haqqında yazırlar.

Bəzən sinifdəki hava və təbiət təqvimində aparılan qeydlər əsasında bu və ya digər ayda havanın necə olması, yazın ilk əlamətləri və s. mövzuda yazılan inşalara təsvir elementləri daxil etmək olar.

Bəzən isə təbiətdə baş verən bu və ya digər hadisənin (qarın yağması, yağışın yağması, tufan, çovğun, günəşin doğması və s.) üzərindəki müşahidədən sonra onun təsvirini verməyi tələb etmək mümkündür.

Bəzən evdə, dərsdən kənarda müxtəlif heyvanlar, quşlar, başqa obyektlər üzərində müstəqil müşahidə aparmaq tapşırılır: məsələn, I – II sinif şagirdləri it, pişik, qoyun, inək, at, III sinif şagirdləri isə məktəbin həyəti, çay, kolxozun dirriyi, xırman, tarla düşərgəsi, park, stadion və s. üzərində müşahidə apara bilərlər. Müstəqil müşahidələrin səmərəli olması üçün müəllim nələrə diqqət yetirməyin zəruriliyi haqqında göstəriş verir. Şagirdlərə qısa plan da vermək mümkündür. Məsələn, inək üçün belə plan vermək olar: a). bədəni, b). başı, c). ayaqları, ç) quyruğu, d). necə hərəkət edir? e). necə səs çıxarır? Şagirdlər inəyin bədəninin böyük, yoğun, başının uzunsov, iri gözlü, sallaq qulaqlı, iti buynuzlu, ayaqlarının qısa, yoğun, iki dırnaqlı, quyruğunun uzun, ucu qara tüklü olmasına, quyruğu ilə cücüləri qovmasına, buynuzu ilə özünü müdafiə etməsi, təpik atmasına, dili ilə balasını yalamasına, necə ot yeməsinə, su içməsinə, gövşək etməsinə, böyürməsinə fikir verirlər.

Növbəti dərsdə şagirdlərin müşahidələri ümumiləşdirilir. Hər kəs öz müşahidələrindən bəhs edir. Müəllim onların fikirlərini dəqiqləşdirir, tamamlayır. Nəhayət, uşaqlar inşa yazırlar.

İbtidai sinif şagirdləri qazla ördəyin, pişiklə pələngin, itlə qurdun, küknarla şamın, maralla ceyranın müqayisəsi üzrə təsvir xarakterli inşa yazmağı sevirlər. Bu sahədə müəyyən vərdiş yarandıqdan sonra günəşin çıxması ilə batmasının, payız meşəsi ilə yay meşəsinin müqayisəsinə həsr olunmuş inşalar yazdırmaq mümkündür. Belə yazılar şagirdlərin lüğət ehtiyatının dəqiqləşdirilməsində, onların məntiqi təfəkküründün inkişafında mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Y.Kərimov. İbtidai siniflərdə lüğət işi. Bakı: Maarif, 1971
2. K.D.Uşinski. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1953
3. Y.Kərimov. İbtidai siniflərdə şagirdlərin nitq inkişafına dair şəkillər. Bakı: "Maarif" nəşriyyatı, 1967
4. Y.Kərimov. Müşahidə gündəliyi. Bakı: Azərtədrisnəşr, 1967
5. Y.Ş.Kərimov. İbtidai siniflərdə inşalar. Bakı: Maarif, 1973.

SUMMARY

Solmaz Hasanova

PRINCIPLES OF TEACHING DESCRIPTIVE ESSAYS

The essay reflects the results of the work on speech development, its quality. The final goal of the work on the development of communicative speech is to teach students to express their opinion orally, to create and write a story about what they see, hear, and read.

We live in such a time that every engineer, doctor, agronomist, in general, should be able to logically express the opinion of a civilized person and write literately. Unfortunately, in many cases, the reports and writings of intellectuals, including teachers, are meaningless and even incomprehensible. Whether you like it or not, you regret it and try to find out why. You think, after all, they all graduated from high school, learned to read and write, and received a certificate of completion. But why do they find it difficult to express their thoughts correctly, fluently, clearly, succinctly and beautifully? We look at our own work, we see a large part of the sin in ourselves. After all, we've mostly taught them cursive and spelling. Language and literature teachers have not been able to instill in them the habit of writing perfect essays on this weak foundation...

It is no coincidence that in the new program, conducting studies on communicative speech is considered one of the important principles of teaching the mother tongue, and it is recommended to conduct work in this area in both recitation and grammar classes.

Key words: *essay, communicative speech, sentence, study, program, native language, recitation, grammar, lesson, etc.*

XAVƏR ADIYEVA
adiyevnazli@Gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-6279-1445

KİPR SÜLH HƏRƏKATI

Elmi məqalədə 1960-cı ildə qurulan Kipr Cumhuriyyətinin müstəqilliyinə son qoymaq və adanı Yunanıstana ilhaq etmək üçün Yunanıstanda hakimiyyətdə olan Albaylar Xuntası tərəfindən idarə edilən və Rum Milli Mühafizə ordusu tərəfindən həyata keçirilən 1974-cü il 15 iyul dövlət çevrilişi nəticəsində Makariosun hakimiyyətdən getməsi ilə Türkiyənin London müqaviləsinə əsaslanaraq Kipr Cumhuriyyətinin müstəqilliyini, torpaq bütünlüyünü, türk toplumunun həyati təhlükəsizliyini qorumaq və adada sülhü təmin etmək məqsədilə müdaxilə etməsindən bəhs edilir. Kipr problemi 1955-ci ildən etibarən beynəlxalq bir problem kimi ortaya çıxmışdır və həmin gündən etibarən Türkiyənin xarici siyasətinin əsas qollarından birini təşkil etməkdədir. Türkiyənin Kipr probleminə tərəf olmağının əsas səbəbləri adanın Aralıq dənizi sahillərinə olan yaxınlığından dolayı geosiyasi və geostrateji baxımdan əhəmiyyət kəsb etməsi və burada türk toplumunun mövcudluğu ilə əlaqədardır [Osman M.Ö., 2003, s-25-27].

Türkiyənin 1974-cü il 20 iyulda həyata keçirdiyi I Kipr Sülh Hərəkatının beynəlxalq arenada hər hansı bir mübahisə doğurmamasına baxmayaraq, Cenevre Sülh Danışıqlarının uğursuz olmasından sonra Birləşmiş Millətlərin atəşkəs qərarına rəğmən Türkiyənin 1974-cü il 14 avqustda başlatdığı ikinci hərəkatın və bununla əlaqədar olaraq, adanın ikiyə bölünməsinin nəticəsində Kipr Barış Hərəkatı beynəlxalq arenada bütün qanuniliyini itirmiş və Türkiyə işğalçı kimi qəbul edilmişdir. Bu məqalədə Kipr Barış Hərəkatının səbəbləri və beynəlxalq hüquqa uyğun olub-olmaması ilə bağlı məsələlər müzakirə ediləcəkdir.

Açar sözlər: *Kipr Barış Hərəkatı, Qanlı Bayram, 1967-ci il böhranı, Nikos Sampson çevrilişi, Cenevre Konfransları*

Giriş

Mövzunun aktuallığı: Kipr problemi tarixin qədim dövrlərindən etibarən başlamış və günümüzdə də öz aktuallığını itirməmişdir. Kipr məsələsinin bu günə qədər həll edilməməsinin əsas səbəbləri adanın geosiyasi və geostrateji baxımdan mühüm əhəmiyyətə malik olması ilə izah oluna bilər. Belə ki, ada coğrafi olaraq Şərqi Aralıq dənizində yerləşir. Adanın coğrafi mövqeyi bura hakim olan qüvvəyə Yaxın Şərqdən Afrikaya uzanan yollara, yəni Anadolu-Süveyş kanalı-Yaxın Şərq xəttinə və Hindistan, Sakit Okeana uzanan dəniz yollarına nəzarət etmək üçün imkan yaradır. Kipr Barış Hərəkatının baş vermə səbəblərinin mənşəyi də məhz adanın coğrafi mövqeyi ilə əlaqədardır.

Tədqiqat işinin metodları: Elmi məqalə bir neçə metodların istifadə edilməsi ilə ərsəyə gətirilmişdir. Tədqiqatın aparılması üçün birinci istifadə edilən metod kontent analiz metodudur. İstifadə edilmiş mənbələrdən mövzu ilə bağlı məsələlər araşdırılmış və tədqiqat işinə əlavə olunmuşdur. Məqalənin yazılması üçün istifadə olunan digər metod isə müqayisə metodudur.

Bildiyimiz kimi, 1960-cı ildə keçirilən London və Zürix konfranslarının nəticəsində türklərin və rumların bərabər hüquqlara sahib olduğu Kipr Cumhuriyyəti yaradılmışdı. Lakin rumların lideri Makarios Kipr Cumhuriyyətini enosisə gedən yolda bir vasitə olaraq görürdü. Hətta, Makarios Kipr Cumhuriyyəti qurulduqdan sonra etdiyi çıxışında; "*rumlar müqavilələrin müsbət tərəflərindən yararlanacaq, mənfi tərəflərini isə ortadan qaldıracaqdır"* demiş və beləliklə, əsas məqsədini ortaya qoymuşdur [Erol M., 2003, s-171]. Kipr Cumhuriyyətinin qurulmasından 3 il sonra, Makariosun, ümumiyyətlə, rum-yunan birliyinin fəaliyyəti nəticəsində adada yaşayan türklərə qarşı böyük bir terror hərəkatı başladılmış və bu hərəkat gedərək genişlədilmişdir. Türkiyənin Kiprə müdaxilə

etməyinin əsas səbəblərindən biri bu terror hərəkatları, xüsusilə də 1963-1964-cü illər Kipr böhranı, 1967-ci il hadisələri və 15 iyul 1974-cü ildə baş vermiş Nikos Sampson çevrilişidir.

Yuxarıda qeyd edildiyi kimi, 1960-cı illərdə adada yaşayan türklərə qarşı baş verən terror hərəkatlarının ən dəhşətlisi 1963-1964-cü illərdə baş vermiş hərəkatdır. Tarixə "Qanlı bayram" adı ilə daxil olan bu terror hərəkatından sonra Türkiyə Cumhuriyyəti hökuməti London müqaviləsinin dördüncü maddəsinə əsaslanaraq İngiltərə və Yunanıstandan ortaq müdaxilə etməyi tələb edir. Lakin nə İngiltərə, nə də Yunanıstan bu təklifi müsbət qarşılamır (Erol M., 2003, s-91). Belə olduqda isə, Türkiyə təkbaşına müdaxilə edəcəyini bildirir. Bundan sonra, Türkiyənin müdaxilə etməkdə qətiyyətli olduğunu anlayan İngiltərə açıq, ABŞ isə dolaylı bir şəkildə araya girərək müdaxilənin qarşısını aldılar və Lefkoşa yaşıl xətt adlanan sərhədlə ikiyə ayrıldı [Şükrü G., 1984, s-258]. Bu xətt ilə türklərin və rumların yaşadıqları ərazilər bir-birindən ayrılır, ara bölgə isə İngilis hərbi birliyinin hakimiyyəti altına girirdi. Yaşıl xəttin yaradılması eyni zamanda adada faktiki olaraq iki ayrı idarə sisteminin yaradılmasının başlanğıcı olmuşdur. Lakin alınan bu tədbirlərə baxmayaraq, rumların türklərə qarşı hücumları davam etmişdir.

Bu dövrdə adadakı dönüm nöqtələrindən biri də 1967-ci ildə Grivasın başçılığı altında rum-yunan ordusunun Boğaziçi və Keçidqala kəndlərinə etdiyi hücum olmuşdur. Bu hücuma cavab olaraq türk hərbi təyyarələri həmin bölgədə uçuşa başlamış və türk hərbi donanması Kiprə doğru yola çıxmışdır. Hətta, TBMM hücumların davam etdiyi təqdirdə Yunanıstan ilə müharibə qərarı almışdır. Ancaq Türkiyənin bu cavabından sonra rumlar işğal etdikləri bölgələrdən çəkilmiş, türk əsirlər sərbəst buraxılmış, Grivas adadan ayrılmış, Yunanıstanın adaya gizlicə soxduğu əsgərlərdən 12 mini geri göndərilmişdir.

1967-ci il hadisələrindən sonra, Makarios Enosisdən imtina etməməklə bərabər, bu planın uzaq bir hədəf olduğunu anlamışdı. Hətta Makarios 1970-ci ilin oktyabrında "*Mən daima Yunanıstanla birləşmə tərəfdarı olmuşam. Lakin bunun bu gün üçün həyata keçirilməsinin çox çətin bir məsələ olduğunun fərqindəyəm"* demişdir [Mehmet E., 1987, s-119]. Lakin 1967-1974-cü illər arasında həm Yunanıstanın öz daxilində, həm də Kiprdə baş verən hadisələr Kipr probleminin gedişatını dəyişdirmişdir. Belə ki, 1967-ci ildə Yunanıstanda "Albaylar Xuntasının" hakimiyyətə gəlməsilə, Kipr rum toplumu arasında da çaxnaşmalar başlamış və Kipr Cumhuriyyətinin prezidenti Makariosun Afina ilə arası açılmağa başlamışdır. Makariosun əksinə, Albaylar Xuntası Kiprin Yunanıstana ilhaqının zamanının gəldiyini düşünür və Makariosu bu yolda əngəl olaraq görürdü. Bundan dolayı, Albaylar Xuntası Makariosu hakimiyyətdən uzaqlaşdırmaq üçün fəaliyyətlərə başlamış və enosis tərəfdarı Kipr rumlarını Makariosa qarşı qışqırtmışdır [Fahir A., 1997, s-460]. Albaylar Xuntasının hazırlatdığı "Apollon Hərəkat Planı" çərçivəsində hazırlıqlar tamamlandıqdan sonra Makariosa qarşı dövlət çevrilişi 15 iyul 1974-cü ildə həyata keçirilmişdir. 16 iyul 1974-cü ildə "Rum Milli Mühafizə Ordusu" Bafı ələ keçirdikdən sonra Makarios BMT-ə sığınmış və ingilis hərbi bazasının yerləşdiyi Akrotiriyə qaçmışdır.

15 iyul 1974-cü ildə Türkiyə prezidenti Bülent Ecevit keçirilən iclasda məsələ ilə bağlı fikirlərini " Yunan Xuntası tərəfindən həyata keçirilmiş olan bu hərəkat irəlidə enosisi hədəf alan bir hərəkatdır. Vəziyyət son dərəcə ciddidir və hər hansı bir tədbir görülməzsə, gələcəkdə Türkiyə üçün təhlükəli vəziyyət yaranacaqdır. Bu bir Yunan müdaxiləsidir. Adadakı qanuni rejim aradan qaldırılmış, qeyri-qanuni hərbi diktatura qurulmuşdur. Türkiyə bunu müqavilələrin pozulması hesab edir. Hazırlıqları sürətləndirmək və vaxt itirmədən hərəkətə keçmək lazımdır" şəklində ifadə etmişdir [Mehmet A.B., 1990, s-34].

Beynəlxalq arenada isə Sampson çevrilişinə dair yanaşmalar müxtəlif olmuşdur. SSRİ hökuməti Türkiyəyə nota verib, "*Üsyan xarici qüvvələr tərəfindən hazırlanmışdır. Sovet hökuməti üsyançılarla mübarizə aparanların yanındadır"* şəklində açıqlama edərkən, Bulqarıstan və Yuqoslavya, Yunanıstanla sərhədə qüvvət yığmağa başlamışdır. ABŞ-a gəldikdə isə onun üçün ən önəmli şey SSRİ-ni bu hadisələrdən uzaq tutmaq və Türkiyə ilə Yunanıstan arasında baş verə biləcək müharibənin qarşısını almaq idi. Qısacası, bu dövrdə Makariosla SSRİ-nin yaxınlığından narahat olan ABŞ-ın əsas mövqeyi Nikos Sampsonun adada vətəndaş müharibəsi yaratmadan, eyni zamanda

Türkiyə və Yunanıstan arasında hərbi toqquşma baş vermədən yeni rejimin yaradılmasından ibarət idi. Yəni ABŞ bu dövrdə "gözlə və gör" siyasətini yeritməkdə idi [Bülent Ş., 2016, s-407]. ABŞ-ın bu siyasətindən xəbərdar olan Ecevit çox vaxt itirildiyi təqdirdə vəziyyətin Türkiyənin əleyhinə olacağının fərqində idi. Prezident Ecevitin qarşısında 20 iyula qədər olan 5 günlük bir müddət var idi və Ecevit bu müddət ərzində adaya ediləcək müdaxiləyə gələcəkdə ola biləcək hər hansı etirazla bağlı bəhanə yaratmamaq üçün məsələnin həlli ilə bağlı bütün diplomatik yollara əl atdı. Belə ki, 17 iyul 1974-cü ildə İngiltərə ilə rəsmi görüş keçirildi. Bu görüşdə Ecevitin əsas məqsədi müqaviləyə əsaslanaraq İngiltərə ilə birlikdə müdaxilə etmək və adada mövcud olan ingilis hərbi bazalarından istifadə etmək idi. Lakin İngiltərə Ecevitin bu təklifini rədd etmişdir. Belə olduqda isə, Türkiyə adaya təkbaşına müdaxilə etmək məcburiyyətində qalmışdır.

Birinci Kipr Barış Hərəkatı 20 iyul 1974-cü ildə türklərin havadan və dənizdən hücumları ilə başlamış və 3 gün ərzində şiddətli şəkildə davam etmiş və uğurla nəticələnmişdir. Birinci Kipr Barış Hərəkatının nəticəsində türklər Girne-Lefkoşa-Gönyeli bölgəsini nəzarət altına almışdır. Lakin bu dövrdə bir sıra uğursuzluqlar da mövcud olmuşdur. Belə ki, türk ordusu adanın ancaq 7%-lik bir hissəsinə yerləşə bilmişdir. Başqa bir sözlə, 40.000 nəfərlik bir ordu 348 km^2-lik dar bir əraziyə yerləşmişdir ki, belə bir şəraitdə hər hansı bir hücum qarşısında ordunun hərəkət etməyi olduqca məhduddur. Kiprdə döyüşlərin davam etdiyi 20 iyul 1974-cü il gecəsi BMT atəşkəslə bağlı 353 nömrəli qərarı qəbul etmişdir. Həm ABŞ-ın Türkiyə və Yunanıstan nəzdindəki cəhdləri, həm də mövcud hərbi vəziyyətlə əlaqədar olaraq, Türkiyə 1974-cü il 22 iyul saat 17:00-da BMT-nin atəşkəs qərarını yerinə yetirməyə başlamışdır. Baş vermiş hadisələrin nəticəsində Yunanıstanda Albaylar Xuntası hakimiyyətdən getmiş, onun yerinə Konstantinos Karamanlis gəlmişdir. Kiprdə isə, Nikos Sampsonu Glafkos Klerides əvəz etmişdir. Bu hadisələrdən sonra 1974-cü il 25-30 iyul tarixlərində I Cenevre Konfransı keçirilmişdir.

25-30 iyul 1974-cü ildə keçirilən Birinci Cenevre konfransına Türkiyə Xarici İşlər Naziri Turan Günəşin başçılığı altındakı heyətlə, Yunanıstan isə Xarici İşlər Naziri Georgios Mavrosun başçılığı altındakı heyətlə qatılmışdır. İngiltərə Xarici İşlər Naziri James Callaghanın başçılığı altındakı heyətlə qatılmış, BMT, SSRİ, ABŞ isə konfransa nəzarətçi göndərərək hadisələrin gedişatını yaxından izləmişdir. Yunanıstan və Türkiyə konfransda öz mənafelərinə uyğun tələblər irəli sürmüşdürlər. Konfransın nəticəsində imzalanan Cenevre Protokolu Türk diplomatiyası baxımından böyük bir uğur olmuşdur. Çünki protokolda demək olar ki, Türkiyənin bütün tələbləri öz əksini tapmış, eyni zamanda I Kipr Barış Hərəkatı qanuni və hüquqi baxımdan təsdiqlənmiş, adadakı Kipr türk toplumunun rumlarla eyni statusa malik olduğu qəbul edilmişdir. Nəticədə, Türkiyə İkinci Cenevre Konfransına böyük bir üstünlük ilə qatılmışdır. Lakin II Cenevre Konfransı gərgin bir şəraitdə başlamışdır. ÇünkiCenevre Protokoluna baxmayaraq, Yunanıstan türk bölgələri ətrafındakı mühasirəni aradan qaldırmamış, atəşkəsə riayət etməmiş və döyüşlər davam etmişdir. Yunanıstan heyəti də Türk birliklərinin protokola riayət etmədiyini və adada irəliləməyi davam etdirdiyini bildirmişdir. Konfrans bu şəkildə davam etmiş, 13-14 avqusta tarixlərində keçirilən son toplantıdan da heç bir nəticə alınmamışdır. Konfransın uğursuzluqla nəticələndiyini görən Bülənt Ecevit məşhur "*Ayşə tətilə çıxsın"* mesajını vermiş və beləliklə də, II Kipr Barış Hərəkatını başlatmışdır. II Kipr Barış Hərəkatı 14 avqust 1974-cü ildə başlamış və türk birlikləri hava qüvvələrinin də dəstəyi ilə şərqdən Mağusa, qərbdən Lefkeyə doğru iki qoldan hərəkətə keçmişlərdir [Erol M., 2003, s-393]. Beləliklə, türk ordusu 22 iyul 1974-cü ildən bu yana sıxışıb qaldıqları dar ərazidən xilas olaraq, rumların dirənişini qırmağa başlamışdırlar. 14 avqust 1974-cü ildən 16 avqust 1974-cü ilə qədər davam edən II Kipr Barış Hərəkatı Türkiyənin BM-in 360 nömrəli qərarına əsasən, atəşkəsi qəbul etməsi ilə sona çatmışdır. Hərəkatın nəticəsində Türk Silahlı Qüvvətləri Mağusa-Lefkoşa-Lefke-Erenköy xəttinə çataraq adanın 38%-lik bir hissəsini ələ keçirmişdir. Lakin birinci hərəkatın əksinə ikinci hərəkat beynəlxalq arenada Türkiyənin əleyhinə bir vəziyyətin yaranmağına səbəb olmuşdur. Birinci hərəkatın Cenevre protokolu ilə qanuni sayılmasına baxmayaraq, ikinci hərəkat işğal kimi dəyərləndirilmişdir. İkinci Kipr Barış Hərəkatına ən sərt reaksiyalar Yunanıstan, BMT, SSRİ, ABŞ-dan gəlmişdir. İkinci hərəkatın başlaması ilə Yunanıstan NATO-nun üzvlüyündən çıxmışdır. Bundan

sonra, SSRİ Türkiyəyə qarşı siyasətini, eyni zamanda Kipr probleminə dair mövqeyini dəyişdirərək Türkiyə ilə siyasi əlaqələrini zəiflətmiş, Yunanıstan ilə isə əlaqələrini genişləndirmişdir. BMT isə ikinci hərəkatdan sonra 3212 nömrəli qərar qəbul etmişdir. Bu qərara görə, adadakı bütün xarici qüvvələr adadan çıxarılmalı, şimaldan cənuba köçən rumların əvvəlki yerlərinə geri dönmələri üçün tədbirlər alınmalı, Kipr rum və Kipr türk toplumları məsələni bərabər şərtlər altında edəcəkləri görüşlərlə həll etməlidirlər. İkinci Kipr Barış Hərəkatı ilə əlaqəli Türkiyə üçün ən önəmli reaksiya ABŞ cəbhəsindən gəlmişdir. ABŞ Konqresinin 1974-cü il 14 dekabr qərarı ilə Türkiyəyə qarşı silah embarqosu tətbiq edilməyə başlanmışdır. Bu silah embarqosuna Türkiyənin cavabı isə belə olmuşdur:

1. 1975-ci ildə Kiprdə Türk Federal Dövləti qurulmuşdur.
2. Türkiyə ABŞ-a 1975-ci il 17 iyun tarixində Türkiyədəki 20-yə yaxın ABŞ hərbi bazasının statusunun yenidən müzakirə edilmədiyi təqdirdə, yeni bir vəziyyətin yaranmağı ilə əlaqədar nota vermişdir.
3. Türkiyə ABŞ-a 1975-ci il 25 iyul tarixində verdiyi digər notada isə 1969-cu il Türkiyə-Amerika müqaviləsini ləğv etmişdir.

Kipr Türk Federal dövləti yarandıqdan sonra, BMT-in təşəbbüsü ilə 1975-ci ildə imzalanan müqaviləyə əsasən, adanın şimalında yaşayan rumlar cənuba, cənubunda yaşayan türklər isə cənuba köçmüşdür. Beləliklə də, adada iki ayrı dövlətin təməli qoyulmuşdur.

Nəticə

Türkiyənin 1974-cü il 20-22 iyun tarixlərində həyata keçirdiyi I Kipr Barış Hərəkatı qanunidir. Çünki Türkiyə London və Zürix müqavilələrinə əsaslanaraq təkbaşına müdaxilə etmək haqqını istifadə etməzdən öncə İngiltərə nəzdində addımlar atmış, lakin rədd cavabı almışdır. Türkiyənin müdaxilə ilə bağlı Yunanıstan nəzdində addımlar atması isə qeyri-məntiqi bir hərəkət olardı. Çünki 1974-cü il 15 iyulda Kiprdə baş verən dövlət çevrilişi Yunanıstan hökumətinin dəstəklədiyi Rum Milli Mühafizə Ordusu tərəfindən həyata keçirilmişdir. Türkiyə əsas məqsədinin Kipr Cumhuriyyətinin bərpa edilməsi olduğunu 22 iyul 1974-cü ildə BM-in verdiyi 353 nömrəli atəşkəs qərarına riayət etməklə də göstərmişdir. Nəticə etibarilə, I Kipr Barış Hərəkatının hüquqi baxımdan qanuniliyi beynəlxalq arenada da öz əksini tapmışdır.

İkinci Barış Hərəkatının BM tərəfindən qanuni sayılmamasının əsas səbəbi isə, Türkiyənin 353 nömrəli qərarı 14 avqust 1974-cü ildə pozması ilə əlaqəlidir. Lakin Türkiyənin həm birinci, həm də ikinci hərəkatı həyata keçirməkdəki məqsədi və əsaslandığı mənbə eynidir. Buradan belə bir nəticəyə gəlmək olar ki, əgər BMT birinci hərəkatdan sonra obyektiv şəkildə daha ciddi tədbirlər ələ alsaydı, yəni verdiyi qərarlar kağız üzərində qalmasaydı, Türkiyə adaya ikinci dəfə müdaxilə etməzdi. Bunu Türkiyənin 22 iyul 1974-cü ildə BM-in qəbul etdiyi atəşkəs qərarına riayət etməsi və Cenevrə konfranslarına qatılması sübut edir.

ƏDƏBİYYAT

1. Osman Metin Öztürk. Stratejik baxımdan Şərqi Aralıq dənizi və Kipr. Altınkürə. Ankara: 2003.
2. Bülent Şener. Kipr Sülh Hərəkatının beynəlxalq hüquq baxımından qanuniliyi. Atatürk Araşdırma Mərkəzi. Ankara: 2016.
3. Erol Mütercimler. Satılıq ada Kipr. Toplumsal Dönüşüm. İstanbul: 2003.
4. Şükrü Gürel. Kipr tarixi. Qaynaq. İstanbul: 1984.
5. Fahir Armaoğlu. 20-ci yüz il siyasi tarixi. Alkım. İstanbul: 1997.
6. Mehmet Erdoğan. Kipr türklərinin Şimali Kiprə köçü. Atase. Ankara: 1987.
7. Mehmet Ali Birand. 30 isti gün. Milliyət. İstanbul: 1990.

SUMMARY

Khavar Adıyeva

CYPRUS PEACE MOVEMENT

After Archbishop Makarios was overthrown with a coup d'etat on 15 July 1974 by the "Greek National Guard Forces" in Cyprus that were manipulated by the "Colonels' Junta", which formed the government in Athens in order to end the independent existence of the Republic of Cyprus in 1960 and to ensure the annexation of the island to Greece, Turkey used its right to be a "guarantor state" and was compelled to take action in order to protect the independence, territorial integrity of Cyprus and to bring peace to the island. The first stage of Cyprus Peace Action, which was performed by Turkey through a military intervention in Cyprus on 20 July 1974, did not lead to any discussions in terms of international law and legitimacy, but after the failure of Geneva Peace Talks, despite the cease fire decision adopted by UN Security Council, the second military intervention by Turkey on 14 August 1974 and the physical division of the island into two parts as a result, caused Cyprus Peace Operation to lose its legitimacy from the perspective of the international community as a whole and to be deemed as breaching international law and Turkey was regarded as an "occupying state". This study explains the political and military reasons of Cyprus Peace Operation, while the arguments in favor and against the operation's legitimacy and compliance with international law will be discussed within the framework of 1959 Zurich and London Conventions, UN Security Council decisions and Geneva Protocol.

Key words: *Cyprus Peace Operation, Bloody Feast, The crisis of 1967, Revolution of Nicos Sampson, Geneva Conference*

FAİQ ABIŞOV
Naxçıvan Dövlət Universiteti

İRƏVAN XANLIĞI BİRİNCİ RUSİYA-İRAN MÜHARİBƏSİNİN BAŞLAMASI ƏRƏFƏSİNDƏ

Bu məqalədə birinci Rusiya-İran müharibəsi ərəfəsində İrəvan xanlığının siyasi vəziyyətindən bəhs edilir. Bu dövrdə İrəvan xanlığı həm Rusiyanın həm də, İranın təzyiqlərinə məruz qalmışdır. Kartli-Kaxetiya çarlığı Rusiyaya birləşdirildikdən sonra Pəmbək və Şuragöl torpaqları da Rusiyanın tərkibinə daxil edildi. İrəvan xanı Məhəmməd xan Rusiyanın təcavüzkar siyasətinə qarşı qətiyyətlə çıxış edərək pəmbəkliləri işğalçılara boyun əyməməyə çağırırdı. 1801-ci ilin martında Eçmiədzin katolikosu Arqutinskinin ölümü ilə Rusiya katolikos vəzifəsinə öz namizədi Danili gətirmək üçün Məhəmməd xana təzyiq göstərirdi. Bu illərdə İranın da İrəvan xanlığı ilə bağlı planları var idi. Qacar hakim dairələri elə düşünürdülər ki, İrəvan xanlığına sahib olduqdan sonra, onlar asanlıqla Gürcüstana qoşun çəkərək rusları oradan qovub, Cənubi Qafqazı ələ keçirmək üçün özlərinə əlverişli zəmin yarada bilərlər. İrəvan xanı Məhəmməd xan yaranmış şəraitlə əlaqədar olaraq, İrəvan qalasının müdafiyyəsini gücləndirməyə başlamışdı.

Açar sözlər: *İrəvan xanlığı, Rusiya, İran, Eçmiədzin, Şuragöl, Pəmbək*

XIX əsrin əvvəllərində İrəvan xanlığı Rusiya və İran üçün mühüm əhəmiyyət kəsb edirdi. İrəvanı almaqla Rusiya həm bu bölgədə mövqeyini möhkəmləndirər, həm də Türkiyə və İran sərhədlərində özü üçün möhkəm sədd yarada bilərdi.

Kartli-Kaxetiya çarlığı Rusiyaya birləşdirildikdən sonra Pəmbək və Şuragöl torpaqları da Rusiyanın tərkibinə daxil edilməsi nəticəsində bölgəni narazılıqlar bürümüşdü. Məhəmməd xan Pəmbək vilayətinin rus təcavüzündən qorunması üçün xüsusi müşavirə çağırtdırmışdı. Həmin müşavirədə Kəlbəli xanla bərabər İrəvan xanlığının vəzifəli əyanları iştirak edirdilər. Müşavirənin qərarı belə olmuşdu ki, xristianların Pəmbək vilayətində müsəlmanlar üzərində ağalığına dözmək olmaz və ona görə də bu vilayətin yad məzhəb tərəfdarlarının hakimiyyəti altına düşməməsi üçün lazımi və təcili tədbirlər həyata keçirilməlidir. Müşavirədə o da qərara alınmışdı ki, xanlıq ərazisində əlavə qoşun hissələri toplansın və Pəmbək vilayətinə sarı göndərilsin. Qoşun yığmaqla bərabər Məhəmməd xan eyni zamanda danışıqlar yolu ilə də rus zabitlərini təcavüzkar planları həyata keçirməkdən çəkindirməyə çalışırdı. O öz nümayəndələrini Lazerevin yanına göndərib nəzərinə çatdırırdı ki, Pəmbək vilayəti Ağa Məhəmməd şah tərəfindən 1795-ci ildə İrəvan xanına bağışlanmışdır. İərvan xanlığının Rusiyanın təbəəliyinə hazırlaşdığı halda onun tərkibinə daxil olan vilayətin zorla ondan qoparılmasına cəhd göstərilməsi heç də İrəvan xanlığı ilə Rusiya arasındakı münasibətlərin yaxşılaşmasına xidmət etmir, Pəmbək vilayətindənsə bütün İrəvan xanlığı ilə münasibətlər yaratmaq Rusiya üçün daha xeyirlidir və ona görə də təklif edirdi ki, Pəmbək vilayəti üzərinə planlaşdırılan hücumdan əl çəksin. Lakin Məhəmməd xanın İ.P.Lazarevlə olan danışıqları heç bir nəticə vermədi. Rus qoşunları ilə açıq münaqişəyə girməkdən ehtiyyat edən Məhəmməd xan Pəmbək qaçqınlarının geri qayıtmasına icazə verdi. Qaçqınların geri qayıtması ilə kifayətlənən Lazarev mayor Çeqişevin başçılığı ilə tiflis atıcı alayını Pəmbək sultanlığına yerləşdirərək geri qayıtdı.

Gürcüstanda Rusiyanın tələblərinə cavab verən sabitliyi təmin etdikdən sonra Sisianov öz diqqətini Azərbaycan xanlıqları üzərinə çevirdi. Və bu ərazilərə rus süngüsünü sancmaq üçün təcili tədbirlərə əl atdı. Mühüm hərbi strateji əhəmiyyət kəsb edən İrəvan və Gəncə xanlıqlarının işğal edilməsi üçün Sisianov hələ Tiflisə gəldiyi günlərdə plan cızmağa başlamışdı. Sisianova görə rus qoşunlarının bir hissəsini orada saxlamağı, qalanı isə İrəvana doğru hərəkət etməli idi. Bununla bərabər Sisianov və bütünlükdə çarizmi ermənilər itaət altında saxlamaq üçün bütün ermənilərin patriarxı vəzifəsinə də rusiyapərəst Danilin otuzdurulmasına nail olmağa çalışırdı. David adlı erməni keşişi də öz tərəfdarları ilə birlikdə bu vəzifə uğrunda mübarizə aparırdı. Türk sultanı da məhz Davidin səlahiyyətlərini tanımışdı. Sisianov isə hər vasitə ilə ruspərəst Danilin Eçmiədzinə

gətizdirilməsinə cəhd göstərirdi və hələ 1803-cü il fevral ayının 6-da Məhəmməd xana yazdığı məktubunda onu Rusiya ilə əməkdaşlığa səsləyir, bu əməkdaşlığın ilk əlaməti kimi Danilin bütün ermənilərin patriarxı stuluna əyləşdirilməsinə köməklik göstərilməsinə çağırırdı. Ermənilər Rusiyanın diqqətini İrəvan xanlığına cəlb etmək üçün Davidlə Danil arasındakı katolikos vəzifəsi uğrunda mübarizədən məharətlə istifadə edirdilər. Hadisələrin sonrakı inkişafı göstərir ki, heç bir tərəf öz mövqelərindən əl çəkmək fikrində deyil. Sisianov 1803-cü ilin sonunda Gəncə üzərinə hücum təşkil etdi və 1804-cü ilin yanvar ayının 15-də Gəncənin işğalını başa çatdırdı. Yalnız bundan sonra Sisianov diqqətini İrəvan xanlığına sarı çevirdi. Xanlığın işğalı həm strateji cəhətdən Rusiya üçün çox gərəkli idi, həm də Sisianov onun qarşısında sınmayan, məğrur və müdrik Məhəmməd xanı cəzalandırmaq niyyətindən əl çəkməmişdir.

Məhəmməd xanın müstəqil siyasət yeritməsi dövlətçilik baxımından da Rusiyanın Gürcüstandakı mövqelərinə ciddi təsir göstərən, burada müstəqillik meyllərinin güclənməsinə səbəb ola bilərdi. Bütün bunlara birdəfəlik son qoymaq üçün Sisianov Gəncənin işğalını başa çatdırdıqdan sonra ciddi hazırlıq görməyə başladı.

Belə bir hazırlığı İran tərəfi də görürdü. İran rəhbərliyi Rusiya qoşunlarına ciddi zərbə endirmək, onları sıxışdıraraq birdəfəlik Cənubi Qafqazdan çıxartmaq qərarına gəlmişdi. Bu qərarın yerinə yetirlməsi üçün İran tərəfi hərbi qüvvələrindən elə bir say üstünlüyü yaratmaq istəyirdi ki, növbəti hərbi əməliyyatların uğuruna heç bir şübhə qalmasın.

Həm Məhəmməd xan, həm də onun yanında qalan keçmiş Naxçıvan xanı Kəlbəli xan İran qoşunlarının İrəvanı tutacağı təqdirdə tək xanlığın müstəqilliyini itiriləcəyini deyil, həm də onların özlərinin qətlə yetiriləcəyini istisna etmirdi. Ona görə də bu xanların hər ikisində kömək üçün Rusiya ilə əlaqələr yaratmaq meyli var idi. 1804-cü ilin martında Məhəmməd xan İran qoşunlarının İrəvan istiqamətində hərəkət etdiklərini öyrəndikdən sonra Rusiya ilə münasibətləri nizama salmağa səy göstərirdi. Lakin Məhəmməd xanla Sisianov arasındakı məktublaşma heç cür rus ordusunun komandanını təmin etmədi. İran qoşunlarının İrəvana yaxınlaşması və Məhəmməd xanın diplomatik manevri bir daha göstərirdi ki, xanlığı silah gücü ilə almağın vaxtı gəlib çatmışdır. İran hökuməti rus qoşunlarının bölgəyi tərk etmələrini tələb etdi. Rusiyanın bu tələbi rədd etməsi nəticəsində 1804-cü il iyunun 10-da birinci Rusiya-İran müharibəsi başladı.

Məhəmməd xan rus qoşununa etibar etmədiyi kimi, şah hökumətinədə inanmırdı. O, xanlığın müstəqilliyini saxlamaq üçün hər iki dövlət arasında maner etmək məcburiyyətində qalaraq, onlar arasında baş verən mübarizədən yararlanmaqa çalışırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi 7 cilddə. Dördüncü cild. Bakı: “Elm” nəşriyyatı, 2007
2. Z.M.Bünyadov, Y.B.Yusifov. “Azərbaycan tarixi” Bakı: 1994, 2005
3. Mahmud İsmayıl. Azərbaycan tarixi. Bakı: 1992
4. İsmayıl Məmmədov. Azərbaycan tarixi. Bakı: 2005

HİDAYƏT ƏKBƏROV
hidayetp@yahoo.fr
Naxçıvan Dövlət Universiteti

FRANSIZ DİLİNDƏ AFFİKSLƏR VƏ LİNQVİSTİK EYNİLİK: REGİONAL VƏ SOSİAL MÜXTƏLİFLİKLƏR PREFİKS VƏ SUFFİKSLƏRİN İSTİFADƏSİNƏ TƏSİRİ

Fransız dilində prefikslər və suffikslər kimi affikslər söz əmələ gəlməsində mühüm rol oynayır və çox vaxt dildə incə çalarları əks etdirir. Onların istifadəsi coğrafi bölgələr və sosial kateqoriyalar arasında geniş şəkildə fərqlənə bilər və dilin eyniliyi ilə bağlı maraqlı məqamlar doğurur. Bu məqalədə biz regional və sosial dəyişimlərin affikslərin istifadəsinə təsirini və onların dilin eyniliyi ilə əlaqəsini araşdırırıq.

Tədqiqatımızda biz müxtəlif coğrafi bölgələrdə və sosial kateqoriyalarda müxtəlif icmalardan linqvistik məlumatlar topladıq. Morfoloji analiz və kəmiyyət sosiolinqvistikası kimi linqvistik təhlil metodlarından istifadə edərək, biz bu müxtəlif qruplar üzrə affikslərin istifadəsində tendensiyaları araşdırdıq. Coğrafi bölgələr və sosial qruplar üzrə affikslərin istifadəsində əhəmiyyətli dəyişiklikləri aşkar edilmişdir. Məsələn, bəzi bölgələr müəyyən xüsusi prefikslərin və ya şəkilçilərin istifadəsinə üstünlük verə bilər, digərləri isə onların istifadəsində daha incə dəyişikliklərə malik ola bilirlər. Eynilə, sosial qruplar arasında tez-tez sosial-iqtisadi, təhsil və ya mədəni amillərlə əlaqəli olan affiksasiya üstünlükləri baxımından nəzərəçarpacaq fərqlər müşahidə edilir.

Apardığımız tədqiqat linqvistik eyniliy regional və sosial dəyişimlərin tanınması və təhlilinin vacibliyini vurğulayır. Bu dəyişimlər, mədəniyyət və cəmiyyət arasında qarşılıqlı əlaqəni vurğulamaqla yanaşı, dillərin zənginliyi və müxtəlifliyi haqqında heyranedici fikir təqdim edir. Bu xülasə, məqalədə qeyd olunan əsas məqamları ümumiləşdirərək, affikslər və linqvistik eyniliyə dair araşdırmamızın əsas nəticələrinin hərtərəfli icmalını təqdim edir.

Açar sözlər: *affikslər, prefikslər, suffiks, linqivistik eynilik,morfoloji analiz*

Giriş

Tarixi və sosial-mədəni kontekstuallaşdırma: Minilliklər boyu insanların danışdığı dillər fərdlər, icmalar və mədəniyyətlər arasında mürəkkəb qarşılıqlı təsirlər nəticəsində dinamik şəkildə inkişaf etmişdir. Bu təkamül prosesində dillər bu linqvistik quruluşda mərkəzi rol oynayan affikslərlə çoxlu məna və nüans qatları ilə zənginləşmişdir. Prefiks və suffiks kimi affikslər leksik bazaya prefiks və ya suffiks əlavə etməklə yeni sözlərin yaranmasına imkan verən morfoloji elementlərdir. Müəyyən struktur uyğunluğu qoruyaraq yeni sözlər yaratmaq bacarığı dillərin çevikliyi və zənginliyi üçün vacibdir.

Affikslərin əhəmiyyəti: Affikslər yalnız söz əmələ gətirmə funksiyası ilə məhdudlaşmır; onlar da müxtəlif mənalar daşıyırlar. Məsələn, prefiksin əlavə edilməsi sözün mənasını incə və ya kəskin şəkildə dəyişə bilər, eyni zamanda onun istifadə olunduğu sosial-mədəni kontekst haqqında məlumatı üzə çıxara bilər. Beləliklə, affikslərin tədqiqi dil, mədəniyyət və cəmiyyət arasında qarşılıqlı əlaqənin daha yaxşı başa düşülməsini təmin etməklə yanaşı, dillərin mürəkkəbliyi və müxtəlifliyi haqqında dərin təsəvvür yaradır.

Dil eyniləşməsi ilə əlaqə: Dil eyniləşməsi fərdlərin öz dilləri vasitəsilə özlərini müəyyən etmələri və tanımaları üsullarına istinad edən mürəkkəb bir anlayışdır. Bu kimlik coğrafi bölgə, etnik mənsubiyyət, sosial-iqtisadi vəziyyət və sosial qarşılıqlı təsirlər kimi çoxsaylı amillərlə formalaşır. Affikslər məna və çağrışımlarla yüklənmiş linqvistik elementlər kimi bu dil eyniləşməsinin qurulmasında və ifadəsində həlledici rol oynayır. Məsələn, müəyyən affikslər konkret regional dialektlərlə, xüsusi dil registrləri ilə, hətta fərqli sosial və ya etnik qruplarla əlaqələndirilə bilər. Müxtəlif linqvistik birliklərdə affikslərin necə istifadə edildiyini araşdıraraq, biz linqvistik variasiyaların fərdi və kollektiv kimlik qavrayışlarını necə əks etdirdiyini və təsir etdiyini daha yaxşı

anlamağa çalışırıq. Bu linqvistik dinamikanı tədqiq etməklə biz dillərin mürəkkəbliyi və müxtəlifliyinin daha yaxşı başa düşülməsinə, eləcə də onların fərdi və kollektiv şəxsiyyətin qurulmasındakı rolunun daha dərindən qiymətləndirilməsinə töhfə verdiyinə ümid edirik. Bu müfəssəl giriş, mövzunun tarixi, sosial-mədəni və linqvistik aspektləri arasındakı əlaqələri vurğulayaraq, affiksləri və linqvistik kimliyi öyrənməyiniz üçün möhkəm çərçivə yaradır. O, həmçinin tədqiqatımızın konkret məqsədini açıq şəkildə elan edir.

Affikslər və linqvistik eynilik regional və sosial variasiyaların prefiks və suffikslərin istifadəsinə təsirinə diqqət yetirməklə, dilçilik və sosiolinqvistikanın bir neçə vacib aspektlərini tədqiq edə bilər.

Material və metodlar

Tədqiqat çərçivəsinin müəyyən edilməsi: Ədəbiyyat icmalının məqsədləri aydın şəkildə müəyyən edilmişdir. Prefiks və şəkilçilərin istifadəsinin və linqvistik eyniliyin hansı spesifik aspektlərini araşdırılması və hansı bölgələri və ya dil icmalarını təhlilə daxil edilməsi məsələləri müəyyənləşmişdir.

Ədəbiyyat axtarışı: Mövzu ilə bağlı müvafiq məqalələri tapmaq üçün Google Scholar, JSTOR, PubMed və s. kimi akademik məlumat bazalarından istifadə edilmişdir.

Müvafiq tədqiqatların seçilməsi: Tədqiqat mövzunuza uyğunluğunu müəyyən etmək üçün tapılan məqalələrin başlıqlarını, xülasələrini və açar sözlərini qeyd olunmuşdur. Fərqli bölgələr və sosial qruplar üzrə prefiks və şəkilçilərin istifadəsinə və onların dil kimliyi ilə necə əlaqəsinə xüsusi diqqət yetirən tədqiqatları seçilşişdir.

Fərqli bölgələrdə və müxtəlif sosial qruplar tərəfindən prefiks və şəkilçilərin necə istifadə edildiyinə dair nümunələri və meylləri və bu istifadələrin linqvistik kimliklə necə əlaqəli olduğunu müəyyənləşdirilmişdir. Regional və sosial variasiyaların linqvistik eyniliyin qurulmasında prefiks və şəkilçilərin istifadəsinə necə təsir etdiyini təhlil edilmişdir.

Əldə olunan nəticələr:

- Affikslərin istifadəsində regional variasiyaların konkret misallarla təqdimatı.
- Affikslərin işlənməsi baxımından sosial qruplar arasında müşahidə olunan fərqlərin təhlili.
- Ümumi tendensiyaların və regional və ya sosial xüsusiyyətlərin müəyyən edilməsi.

Müzakirə:

- Tədqiqatın əsas nəticələrinin xülasəsi və onların dilçilik və sosiolinqvistika sahəsində tədqiqatlar üçün təsiri.
- Dil eyniliyi anlayışınızda linqvistik və mədəni müxtəlifliyin tanınmasının vacibliyini vurğulamaq.
- Dil müxtəlifliyinin daha çox başa düşülməsini və qiymətləndirilməsini təşviq etmək üçün gələcək tədqiqatlar və praktik tətbiqlər üçün təkliflər.
- Bu fərqli məqamları müzakirə etməklə, məqalənin yekunu linqvistik kimlik kontekstində affikslərin öyrənilməsinin vacibliyini vurğulanmış, tapıntılarımızın gələcək tədqiqatlar və sosial-linqvistik təcrübələr üçün əhəmiyyətli təsirləri qeyd olunmuşdur.

Linqvistik müxtəliflik coğrafi bölgə, yaş, cins, təhsil səviyyəsi və sosial-iqtisadi vəziyyət kimi amillərə əsaslanan müxtəlif danışan qrupları arasında dil istifadəsində müşahidə edilən fərqlərə aiddir. Dil dəyişkənliyini başa düşmək, prefiks və şəkilçilərin müxtəlif nitq icmalarında necə fərqli istifadə edildiyini təhlil etmək üçün vacibdir. Sosiolinqvistika dil və cəmiyyət arasındakı əlaqəni öyrənir, sosial və mədəni amillərin dil istifadəsinə necə təsir etdiyini araşdırır. Affikslərin və linqvistik eyniliyin tədqiqinin bir hissəsi olaraq, sosiolinqvistika prefiks və şəkilçilərin istifadəsində regional və sosial variasiyaların dil normaları, sosial münasibətlər və güc dinamikası ilə necə formalaşdığını araşdırmağa imkan verir. Linqvistik eynilik fərdlərin dil vasitəsilə özlərini müəyyən etmə və tanıma üsullarına aiddir. Bu, çox vaxt etnik mənsubiyyət, mənşə bölgəsi, təhsil və sosial qarşılıqlı əlaqə kimi amillərlə əlaqələndirilir. Dil identikliyini başa düşmək bizə affikslərin istifadəsindəki variasiyaların dil icmaları daxilində bu eyniliyin qurulmasına necə kömək edə biləcəyini təhlil etməyə imkan verir. Linqvistik əlaqə dil təması müxtəlif dillərdə və ya ləhcələrdə

danışanlar təmasda olduqda baş verir ki, bu da dilin yaxınlaşması və dialekt dəyişikliyi kimi hadisələrlə nəticələnə bilər. Affikslər kontekstində dil əlaqəsi bölgələr və sosial qruplar arasında xüsusi prefiks və şəkilçilərin qəbuluna təsir göstərə bilər.

Dil nüfuzunun dinamikası linqvistik prestij dinamikası müəyyən linqvistik formaların digərlərinə nisbətən prestijli və ya dəyərli kimi qəbul edilməsi üsulunu ifadə edir. Affikslərin istifadəsində regional və sosial variasiyalara linqvistik prestij normaları təsir edə bilər ki, bu da müəyyən prefiks və şəkilçilərin qəbul edilən statusuna görə qəbul edilməsinə və ya rədd edilməsinə səbəb ola bilər.

Müxtəlif fransızdilli ölkələrdə, o cümlədən Fransa, Belçika, Kanada və İsveçrədə affikslərin istifadəsində regional dəyişiklikləri müşahidə etmək üçün apardığımız araşdırmalarda məsələn, "ré-" prefiksinin müxtəlif bölgələrdə keçmiş hərəkətin təkrarını göstərmək üçün necə istifadə edildiyini müşahidə etdik. Müxtəlif kontekstlərdə prefiks və suffikslərin istifadə tendensiyalarını təhlil etmək üçün müxtəlif dillərdə yazılmış mətnləri, o cümlədən ədəbi əsərlər, xəbər məqalələri və akademik sənədləri araşdırdıq. Məsələn, siyasi çıxışlarda və araşdırma məqalələrində "-tion" şəkilçisinin necə işlənməsinə nəzər saldıq.

Morfoloji təhlilimiz toplanmış məlumatlarda istifadə olunan prefiks və şəkilçilərin identifikasiyası və təsnifatı ilə yanaşı, onların məna və qrammatik funksiyasının araşdırılmasından ibarət idi. Məsələn, "bi-" prefiksinin iki elementi və ya iki hissəni göstərmək üçün necə istifadə edildiyinə gördük. Bundan əlavə, biz müxtəlif dillərdə və dialektlərdə affikslərin morfoloji və fonoloji variasiyalarını təhlil edərək, alınma sözlərin forma və tələffüzündə baş verən dəyişikliklərə malikdir. Bundan əlavə, regional klasterləri və dil keçid sahələrini vurğulayaraq, prefiks və şəkilçilərin istifadəsində məkan meyllərini müəyyən etmək üçün klaster və coğrafi xəritələşdirmə təhlilləri aparılmışdır.

Linqvistik təhlil: Məlumatlarımızın linqvistik təhlili keyfiyyət və kəmiyyət metodlarından istifadə etməklə aparılmışdır. Nümunələrimizdə istifadə olunan prefiks və şəkilçilərin affiks nümunələrini, morfoloji variasiyalarını və əlaqəli semantik dəyişiklikləri tədqiq edərək ətraflı morfoloji təhlili aparılmışdır.Həmçinin müxtəlif regionlar və sosial qruplar arasında affiks istifadəsində əhəmiyyətli fərqləri qiymətləndirmək üçün variasiya təhlili (ANOVA) və qarışıq modellər kimi statistik üsullardan istifadə edilmişdir. Bu müxtəlif yanaşma və üsulları metodologiyamızda birləşdirərək, biz affikslərin istifadəsində regional və sosial variasiyaların və onların dil kimliyi ilə əlaqəsinin dərin və ciddi təhlilini apara bildik. Bu möhkəm metodologiya bizə tədqiqatımızda iştirak edən linqvistik və sosial-mədəni dinamika haqqında əhəmiyyətli fikirlər əldə etməyə imkan verdi.

ƏDƏBİYYAT

1. Chambers, J. K., & Trudgill, P. (1998). Dialectology (2nd ed.). Cambridge University Press.
2. Bauer, L. (2003). Introducing Linguistic Morphology (2nd ed.). Edinburgh University Press.
3. Labov, W. (2010). Principles of Linguistic Change, Volume 3: Cognitive and Cultural Factors. Wiley-Blackwell.
4. Eckert, P. (2000). Linguistic Variation as Social Practice. Wiley-Blackwell.
5. Société Internationale de Dialectologie et Géolinguistique - https://sidg.org/
6. The Language Variation and Change journal - https://www.cambridge.org/core/journals/language-variation-and-change
7. The Journal of Sociolinguistics - https://onlinelibrary.wiley.com/journal/14679816

SUMMARY

Hidayat Akbarov

AFFIXES AND LINGUISTIC IDENTITY IN FRENCH: THE INFLUENCE OF REGIONAL AND SOCIAL DIVERSITIES ON THE USE OF PREFIXES AND SUFFIXES

In French, affixes, like prefixes and suffixes, play an important role in word formation and often reflect subtle nuances in the language. Their use can vary widely between geographic regions and social categories, raising interesting points about language identity. In this article, we examine the influence of regional and social change on the use of affixes and their relationship to language identity.

In our study, we collected linguistic data from different communities in different geographical regions and social categories. Using methods of linguistic analysis such as morphological analysis and quantitative sociolinguistics, we examined trends in the use of affixes across these different groups.

Significant changes in the use of affixes by geographical regions and social groups were found. For example, some regions may favor the use of certain specific prefixes or suffixes, while others may have more subtle variations in their use. Similarly, marked differences in affixation preferences are observed between social groups, often related to socioeconomic, educational, or cultural factors.

Our research highlights the importance of recognizing and analyzing regional and social variation in the use of affixes for a comprehensive understanding of linguistic identity. These changes provide a fascinating insight into the richness and diversity of languages, while highlighting the interplay between culture and society.

This summary provides a comprehensive overview of the main findings of our research on affixes and linguistic identity, summarizing the main points made in the paper.

Key words: *affixes, prefixes, suffixes, linguistic identity, morphological analysis*

GÜLÖYŞƏ ƏHMƏDZADƏ
Naxçıvan Dövlət Universiteti

MÜASİR TƏHSİL SİSTEMİNDƏ İNNOVATİV MÜƏLLİM

Müasir təhsil müasir tədris və təlim anlayışını əks etdirən müxtəlif yanaşma və təcrübələri əhatə edir. Müasir təhsil bu elementləri və tendensiyaları əhatə etməklə, innovativ müəllimə sürətlə dəyişən dünyada inkişaf etmək və cəmiyyətə müsbət töhfə vermək üçün lazım olan bilik, bacarıq və meylləri təmin etməyə çalışır. İnnovativ müəllim olmaq yaradıcılıq, problem həll etmək və irəliyə doğru düşünmə təfəkkürü inkişaf etdirməkdir. Bu strategiyaları tədris təcrübənizə inteqrasiya etməklə və yanaşmanızı davamlı olaraq təkmilləşdirməklə siz innovasiyaları təşviq edən və tələbələrə və şagirdlərə yaradıcı problem həll edən və yenilikçi olmaq imkanı verən dinamik öyrənmə mühiti yarada bilərsiniz. Bu strategiyaları mənimsəməklə innovativ müəllim müasir dünyanın çağırışlarının öhdəsindən gəlməyə və cəmiyyətə mənalı töhfələr verməyə hazır olan yaradıcı mütəfəkkir ola bilər.

Açar sözlər : *müasir təhsil, innovativ müəllim, strategiya, əsas elementlər*

Müasir təhsilin xüsusiyyyətləri belə olmalıdır:

1. Fərdiləşdirilmiş öyrənmə: Müasir təhsil tələbələrin müxtəlif öyrənmə üslublarına, maraqlarına və öyrənmə templərinə malik olduğunu qəbul edir. Fərdiləşdirilmiş təlim yanaşmaları hər bir öyrənənin fərdi ehtiyaclarını ödəmək üçün təlimatı fərdiləşdirir, fərdiləşdirilmiş öyrənmə təcrübələrini təmin etmək üçün texnologiya və çevik öyrənmə mühitlərindən istifadə edir.
2. Texnologiya inteqrasiyası: Texnologiya müasir təhsildə mühüm rol oynayır, interaktiv öyrənmə, əməkdaşlıq və geniş resurslara çıxış imkanlarını təmin edir, tədris və öyrənmə təcrübələrini artırmaq üçün planşetlər, noutbuklar, təhsil proqramları və onlayn resurslar kimi rəqəmsal alətləri birləşdirir.
3. Layihə əsaslı öyrənmə : Layihə əsaslı öyrənmə həqiqi problemləri həll etmək üçün bilik və bacarıqları tətbiq etməyi tələb edən real layihələrə və ya sorğulara cəlb edir. Tələbələr və şagirdlər mənalı və həyatlarına uyğun olan layihələr üzərində işlədikləri üçün layihə əsaslı öyrənmə tənqidi təfəkkür, əməkdaşlıq və yaradıcılığı təşviq edir.
4. Qlobal vətəndaşlıq təhsili: Müasir təhsil məlumatlı, empatik və məsuliyyətli qlobal vətəndaşlar kimi hazırlanmanın vacibliyini vurğulayır. Buraya mədəniyyətlərarası anlaşmanın, ekoloji davamlılığın, sosial ədalətin və etik qərarların qəbulunun təşviqi daxildir.
5. STEM təhsili: Tələbələri mühəndislik, kompüter elmləri və səhiyyə kimi sahələrdə karyeraya hazırlamaq üçün elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) təhsilinə artan diqqət var. STEM təhsili praktiki, sorğuya əsaslanan öyrənməni vurğulayır və tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir.
6. 21-ci əsr bacarıqları: Müasir təhsil 21-ci əsrdə uğur qazanmaq üçün vacib olan bir sıra bacarıqları, o cümlədən tənqidi düşüncə, yaradıcılıq, ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq və uyğunlaşma qabiliyyətini inkişaf etdirməyi hədəfləyir. Bu bacarıqlar getdikcə daha mürəkkəb və bir-birinə bağlı olan dünyada naviqasiya üçün həyati əhəmiyyət kəsb edir.
7. Sosial-emosional öyrənmə: tələbələrin özünüdərketmə, özünüidarəetmə, empatiya və münasibətlər qurmaq kimi sosial və emosional bacarıqlarının inkişafına diqqət yetirir. Müasir təhsil tələbələrin ümumi rifahını və akademik uğurunu dəstəkləmək üçün onların sosial və emosional ehtiyaclarının qarşılanmasının vacibliyini qəbul edir.
8. Qarışıq öyrənmə: ənənəvi üz-üzə təlimatı onlayn öyrənmə fəaliyyətləri ilə birləşdirərək, tələbələrə fərdi və rəqəmsal öyrənmə təcrübələrinin qarışığını təklif edir. Bu yanaşma çevikliyə, fərdiləşdirilmiş öyrənmə yollarına və tələbələrin öz sürətlərində öyrənmə imkanlarına imkan verir.
9. Öyrənmə üçün qiymətləndirmə: Müasir təhsil yalnız əzbərləmə və ya standartlaşdırılmış testdən daha çox, şagirdin böyüməsini, başa düşməsini və bacarıqların mənimsənilməsini ölçməyə yönəlmiş qiymətləndirmə təcrübələrini vurğulayır. Özünüqiymətləndirmə və həmyaşıdların

qiymətləndirilməsi kimi formativ qiymətləndirmə üsulları tələbələrin öyrənilməsini dəstəkləmək və təlimatı istiqamətləndirmək üçün istifadə olunur.

İnnovativ müəllimin xüsusiyyətləri belə olmalıdır:

1. Yaradıcılığı təşviq etmək: Şagirdləri düşünməyə təşviq edən göstərişlər və ya çağırışlar təqdim edin. Tələbələrin öz fikirlərini bölüşməkdə rahat hiss etdikləri təhlükəsiz və dəstəkləyici sinif mühiti yaradın. Yaradıcılığı stimullaşdırmaq üçün ağıl xəritəsi, sərbəst yazı və ya vizual beyin fırtınası üsulları kimi fəaliyyətləri təqdim edin.
2. Dizayn düşüncəsini öyrətmək: Dizayn düşünmə prosesini idarə oluna bilən addımlara bölün və tələbələri hər mərhələdə istiqamətləndirin. Effektivliyini göstərmək üçün uğurlu dizayn düşüncə layihələrinin real dünya nümunələrindən istifadə edin. Hədəf auditoriyasının ehtiyaclarını daha yaxşı başa düşmək üçün tələbələrə müsahibələr və ya müşahidələr apararaq empatiyanı təşviq edin.
3. Əməkdaşlığın təşviqi: Problemi həll etmək və ya məhsul yaratmaq üçün tələbələrin birlikdə işləməsini tələb edən qrup layihələri təyin edin. Şagirdlərə həmyaşıdları ilə səmərəli əməkdaşlıq etmək üçün ünsiyyət və komanda işi bacarıqlarını öyrədin. Tələbələrə əməkdaşlıq təcrübələri üzərində düşünmək və komandada işləmək bacarıqlarını təkmilləşdirmək yollarını müəyyən etmək üçün imkanlar təmin edin.
4. Tənqidi düşüncənin vurğulanması: Tələbələrdən problemləri müxtəlif perspektivlərdən təhlil etməyi tələb edən fəaliyyətləri birləşdirin. İnformasiya mənbələrinin etibarlılığını və etibarlılığını qiymətləndirmək üçün strategiyaları öyrət. Mürəkkəb məsələləri daha dərindən dərk etmək üçün tələbələri suallar verməyə və fərziyyələrə etiraz etməyə təşviq edin.
5. İnteqrasiya texnologiyası: Texnologiyanın real dünya problemlərini həll etmək və ya innovativ məhsullar yaratmaq üçün necə istifadə edildiyinə dair nümunələri nümayiş etdirin. Texnologiya resurslarına çıxışı təmin edin və tələbələrə yeni alətlər və texnologiyalarla təcrübə aparmağa kömək edin.
6. Real dünya nümunələrinin təqdim edilməsi: İnnovasiyanın müxtəlif sektorlara necə təsir etdiyini göstərmək üçün nümunə araşdırmalarından istifadə edin. Tələbələri ruhlandırmaq üçün müxtəlif mənşəli və mədəniyyətlərdən olan uğurlu innovasiyaların nümunələrini nümayiş etdirin. Tələbələri tədqiqat və müzakirələr vasitəsilə cari hadisələri və innovasiya meyllərini araşdırmağa həvəsləndirin.
7. Yaradıcılığın qiymətləndirilməsi: Yaradıcılığı qiymətləndirmək üçün orijinallıq, mümkünlüyü və təsir kimi amilləri özündə əks etdirən rubrikalar və ya meyarlar hazırlayın. Həm güclü tərəflərə, həm də təkmilləşdirilməli olan sahələrə diqqət yetirən rəy təklif edin və tələbələri yaradıcılıq prosesi haqqında düşünməyə təşviq edin. Tələbələrə öz yaradıcılıq işlərini təqdimatlar, sərgilər və ya nəşrlər vasitəsilə nümayiş etdirmək üçün imkanlar təmin edin.
8. Davamlı öyrənmə: İnnovasiya və tədrislə bağlı sahələrdə bilik və bacarıqlarınızı genişləndirmək üçün vebinarlarda, seminarlarda və ya onlayn kurslarda iştirak edin. Peşəkar inkişafınızı dəstəkləmək üçün təcrübəli novatorlar və ya pedaqoqlarla mentorluq imkanlarını axtarın.
9. Böyümə zehniyyətini inkişaf etdirmək: Uğursuzluqlardan öyrənməyin vacibliyini vurğulayaraq, davamlılıq və əzmkarlıq dərslərini tədris planınıza daxil edin. Öz problemlərinizi açıq şəkildə müzakirə edərək öyrənmək və böyümək istəyinizi nümayiş etdirməklə böyümə düşüncə tərzini modelləşdirin. İnnovasiyanın davamlı öyrənmə və təkmilləşmə səyahəti olduğu fikrini möhkəmləndirmək üçün tələbələrin yalnız nailiyyətlərini deyil, səylərini və tərəqqini qeyd edin.

Müasir təhsil və innovativ müəllimin xüsusiyyətləri birlikdə müasir təhsil sistemində innovativ müəllim modelini yaradırlar və bu proses reallaşarsa, təhsildə uğurlar qaçınılmazdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 2013-cü il.
2. Abbasov, A.N., Hacıyev, A.X. və b. (2012). Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim
3. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.

SUMMARY

Guloysha Ahmadzade

INNOVATIVE TEACHER IN THE MODERN EDUCATION SYSTEM

Modern education encompasses a variety of approaches and practices that reflect the modern understanding of teaching and learning. By embracing these elements and trends, modern education seeks to provide the innovative teacher with the knowledge, skills, and dispositions needed to thrive in a rapidly changing world and contribute positively to society. Being an innovative teacher is about developing a creativity, problem solving and forward thinking mindset. By integrating these strategies into your teaching practice and continually refining your approach, you can create a dynamic learning environment that encourages innovation and empowers students and learners to be creative problem solvers and innovators. By mastering these strategies, the innovative teacher can become a creative thinker ready to meet the challenges of the modern world and make meaningful contributions to society.

Key words : *modern education, innovative teacher, strategy, basic elements*

SAHİLƏ İBRAHİMOVA
sahila.ibrahimova@yahoo.com
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID ID: 0009-0008-6960-524X

AZƏRBAYCAN ELMİ İNKİŞAF YOLUNDADIR

Azərbaycan Respublikasında elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlətin gələcəyi, iqtisadi, siyasi və hərbi qüdrəti onun elmi potensialı ilə bilavasitə bağlıdır.

Azərbaycanda elmin çox zəngin tarixi və ənənləri vardır. Əsrlər boyu Azərbaycan alimləri elmi təfəkkürün müxtəlif sahələrində meydana gətirdikləri sanballı əsərlərlə bəşəriyyətin elmi-mədəni yüksəlişinə böyük xidmətlər göstərmiş, Şərqlə Qərb arasında elmin varislik əlaqələrnin qorunub saxlanması işinə dəyərli töhfələr vermişlər [1].

Respublikamızda elmin, təhsilin inkişafı sahəsində mövcud ənənələrinin milli məqsədə yönəldilməsi, bu ənənələrin çağdaş dövrün tələbləri səviyyəsində inkişafı istisnasız olaraq müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, böyük öndər Heydər Əliyevin adl ilə bağlıdır. Azərbayacn elminin, təhsilinin, ümumilikdə mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuş Ulu Öndər ölkəyə rəhbərliyinin bütün dövrlərində bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, xalqın nicatını məhz intelektual tərəqqidə görmüşdür.

Ümumiyyətlə, elmin inkişafı üçün insanlarda kiçik yaşlardan həvəs yaradılmalıdır. Elmə həvəsin yaranması və ya yaranmaması təbii ki, elə uşaqlıq dövründən başlayır. Uşaqlıqdan elmi mühit, ailəsində kitab oxuyan adam görməyən çox az sayda insan olur ki, gələcək zamanlarda kitaba sevgisi olsun. Düzdür, cəmiyyətdə hər kəsin elmlə məşğul olması vacib deyil, amma elmə maraqlı insanların sayı çox olarsa, uşaqlıqdan elmə sevgi ilə böyüyən cəmiyyət üzvləri nə qədər çox olarsa, elmin inkişafı da bir o qədər sürətli və hərtərəfli olar.

Ulu Öndər Heydər Əliyevin elm və təhsil sahəsində müəyyənləşdirdiyi siyasət bu gün Azərabyacn Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni mərhələdə uğurla davam etdirilir. Dövlət başçısının 9 avqust 2016-cı il tarixli Fərmanına əsasən Azərbaycan elminin tarixindəə ilk dəfə olaraq "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu Qanun Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə olunması və inkişaf sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin müəyyənləşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını mçüəyyən edir [1].

Azərbaycanda elmin inkişafının sürətlənməsi üçün sadəcə, tədqiqatçılarda vətənpərvərlik ruhu və biraz da tədqiqata maraq olmalıdır. Alimlərimiz, bu sahədə yeni addım atan insanlar aktual, zamanın tələbinə uyğun mövzular üzərinə işləməlidirlər. götürdükləri işlər üzərində ciddi işləməli yeni tədqiqatlar ortaya qoymalıdırlar. Alim fikirləşməlidir ki, gördüyü çətin işin öhdəsindən gəlməlidir. Çətinlik hər zaman olub və hər zaman olacaqdır. əsas odur ki, bu çətinliyin öhdəsindən gələ biləsən. Hər hansl bir tədqiqat işini aparmaq üçün hər zaman şərait tapmaq mümükündür. Axı biz alimik, öz yolumuzu özümüz cızmalıyıq.

Ölkəmizdə elmin inkişafı üçün bir çox işlər görülməlidir. Bunun üçün dünya elmi instituları ilə əməkdaşlığı genişləndirmək, alimlərimizi dünya elm mərkəzlərinə elmi məzuniyyətə göndərmək, Azərbaycan elminin dünyada təbliğini gücləndirmək, elmi işçilərinin fəaiiyyətinin inkişafına dəstək olaraq onlara maddi və mənəvi dəstəyin gücləndirilməsi, televiziya kanallarında bunula bağlı təbliğatın aparılması, alimlərin əsərlərinin nəşrinə dəstək və s. məsələlər xüsusi qeyd olunmalıdır.

ƏDƏBİYYAT

1. https://science.gov.az/uploads/pdf/p1b2kqg0dmoqlpjhrqg1v151a64.pdf

XƏYALƏ MƏMMƏDOVA
xeyale.memmedovatn@gmail.com
Bakı Dövlət Universiteti

AZƏRBAYCAN VƏ ALMANİYA MÜLKİ PROSESİNDƏ MÜVƏQQƏTİ TƏMİNAT TƏDBİRLƏRİNİN TƏTBİQİ BARƏDƏ MƏHKƏMƏ QƏRARININ QƏBUL EDİLMƏ PROSEDURU

Məqalə Azərbaycan və Almaniya mülki prosessual hüququnda müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə məhkəmə qərarının qəbul edilmə prosedurunun oxşar və fərqli cəhətləri müzakirə edilir. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə məhkəmənin qərar qəbul etmə qaydasının təkmilləşdirilməsi ilə bağlı təkliflər verilir.

Açar sözlər: *Müvəqqəti təminat tədbiri, qərar qəbuletmə prosesi*

Müvəqqəti təminat tədbiri institutu mülki məhkəmə prosesində şəxslərin hüquqlarının və qanuni mənafelərinin səmərəli qorunması üçün optimal şərait yaratmağı hədəfləyir və məhkəmənin qanuni və əsaslandırılmış qərarının gələcəkdə icrasına təminat kimi çıxış edir.

Məhkəmə tərəfindən müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün müraciət qaydaları mülki prosessual qanunvericiliklə müəyyən edilir. Almaniya mülki prosessual hüququnda müvəqqəti təminat tədbirləri "der einstweilige Rechtsschutz və ya vorlaeuflger Rechtsschut" adlandırılır. Azərbaycan və Almaniya mülki prosessual hüququnda müvəqqəti təminat tədbirləri instutunda oxşar cəhətlər olsa da fərqlər də kifayət qədərdir. Bu məqalədə Azərbaycan və Almaniya mülki prosessual hüququnda müvəqqəti təminat tədbirlərinin tətbiqi haqqında məhkəmə qərarının qəbulu proseduru müqayisəli şəkildə təhlil edilir. Almaniya təcrübəsinə maraq hər iki ölkənin müasir mülki prosessual hüququnun əsas müddəalarının oxşarlığı ilə bağlıdır. Belə ki, Alman mülki prosessual hüququnda müvəqqəti təminat tədbirlərinin qanunvericiliklə tənzimlənməsi təcrübəsi, bu cür tədbirlər tətbiq edilən şəxsə öz maraqlarını səmərəli şəkildə qorumaq üçün nəzərdə tutulan imkanlar Azərbaycan mülki prosessual hüquq elmi üçün aktualdır.

Müvəqqəti təminat tədbirləri cavabdehin və ya digər şəxslərin hərəkətləri (hərəkətsizliyi) nəticəsində mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya əhəmiyyətli dərəcədə çətinləşəcəyinin qarşısını almaq məqsədilə tətbiq edilir.

Azərbaycan və Almaniyada mülki məhkəmə prosesində məhkəmələr işdə iştirak edən şəxslərin ərizəsi olmadan müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərar qəbul edə bilməzlər. Çünki nə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, nə də Almaniyanın Mülki Prosessual Məcəlləsi məhkəmələrə öz təşəbbüsü ilə müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərar qəbul etmək hüququ vermir.

Qeyd edilməlidir ki, 2000-ci ilə qədər Respublikamızda qüvvədə olmuş Azərbaycan SSR Mülki Prosessual Məcəlləsinin tələblərinə görə, məhkəmə öz təşəbbüsü ilə müvəqqəti təminat tədbirləri tətbiq edə bilərdi. Mülki prosessual hüquq elmində məhkəmənin öz təşəbbüsü ilə müvəqqəti təminat tədbirləri tətbiq etmək hüququna malik olub-olmaması ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bir sıra alimlər məhkəmənin öz təşəbbüsü ilə müvəqqəti təminat tədbirləri tətbiq etmək hüququna malik olmasını vacib hesab edirlər. Yanaşmalardan biri odur ki, məhkəmə işdə iştirak edən şəxslərə hüquq və vəzifələrini izah etdikdən sonra da proses iştirakçıları həmişə öz hüquqlarından istifadə edə bilmirlər. Bu baxımdan məhkəmənin təşəbbüs hüququ olmalıdır.

Digər müəlliflər isə əksinə, məhkəmənin öz təşəbbüsü ilə müvəqqəti təminat tədbirləri tətbiq edə bilməməsini doğru hesab edirlər. Hesab edirlər ki, bu halda mülki məhkəmə prosesinin həm tərəflər, həm də hakimlər üçün sadə olması məqsədəuyğundur. Məhkəmə qərəzsizliyi qorumalı və işin hallarına hərtərəfli və tam baxılması və araşdırılması üçün lazımi şərait yaratmalıdır. Bu cəhətdən hesab edirəm ki, məhkəmənin öz təşəbbüsü ilə müvəqqəti təminat tədbiri tətbiq etmək hüququnun

olmaması Konstitusiyamızın 127-ci maddəsində təsbiq edilmiş mülki məhkəmə prosesində tərəflərin çəkişmə və bərabərlik prinsiplərinə və mülki məhkəmə prosesinin hazırki məqsədinə daha uyğundur.

Azərbaycan və Almaniyanın mülki prosesində müvəqqəti təminat tədbirləri tətbiqi barədə ərizəyə hansı məhkəmənin baxmaq hüququna malik olması məsələsi fərqli qaydada tənzimlənir. Almaniyada müvəqqəti təminat tədbirinin tətbiqinə dair ərizələrə baxmaq səlahiyyətinə malik olan məhkəmə tələb olunan müvəqqəti təminat tədbirinin növü ilə müəyyən edilir. Beləliklə, Almaniya Federativ Respublikası MPM-nin 919-cu paraqrafına əsasən, həm işə mahiyyəti üzrə baxan məhkəmə, həm də əmlakın yerləşdiyi və ya barəsində həbs tətbiq edilən şəxsin yaşadığı yer üzrə rayon məhkəməsi həbs qərarı çıxarmaq səlahiyyətinə malikdir (4).

Almaniyadan fərqli olaraq, formalaşmış məhkəmə təcrübəsinə əsasən Azərbaycanda müvəqqəti təminat tədbirinin tətbiqinə dair ərizəyə yalnız müvəqqəti təminat tədbirinin aid olduğu işə mahiyyəti üzrə baxan məhkəmə baxa bilər.

AR MPM-nin 157.3-cü maddəsinə əsasən müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə məhkəmədə iddia ərizəsi verilənədək, iddia ilə eyni vaxtda və ya məhkəmə icraatının gedişində verilə bilər. Göründüyü kimi, Azərbaycan Respublikasının mülki prosesində işin baxılmasının istənilən mərhələsində yəni təkcə birinci instansiya və apellyasiya instansiyasında deyil, həm də kassasiya instansiyasında, habelə məhkəmə qərarlarına yeni açılmış və ya yeni hallar üzrə baxılarkən müvəqqəti təminat tədbirinin tətbiqinə yol verilir. Məhkəmə qərarı qüvvəyə mindikdən sonra isə müvəqqəti təminat tədbiri deyil, məhkəmə qərarının icrasını təmin etmək məqsədilə tədbirlər görülür. Hesab edirəm ki, müvəqqəti təminat tədbirinin yuxarı instansiyalarda icraat zamanı tətbiqi gələcək məhkəmə qərarının icrasına təhlükə olduğunu göstərən yeni hallar yarandıqda zəruridir.

Almaniyanın mülki prosesində müvəqqəti təminat tədbirinin tətbiqi də təkcə işə birinci instansiya məhkəməsində baxılması dövrü ilə məhdudlaşmır. Almaniyanın MPM-nin 943-cü paraqrafı həm birinci instansiya məhkəmələrinə, həm də apellyasiya məhkəmələrinə Almaniyanın mülki icraatında müvəqqəti təminat tədbirinin tətbiqinə icazə verir (6).

Qeyd olunduğu kimi, AR MPM-nin 157.3-cü maddəsinə əsasən müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə iddia ərizəsi verilənədək də verilə bilər. Bu halda müvəqqəti təminat tədbirinin gələcək əsaslılığı ilə bağlı çoxsaylı problemlər yarana bilər. Müəyyən mənada problemlərin qarşısını almaq məqsədilə AR MPM–nin 157.4-cü maddəsində nəzərdə tutulmuşdur ki, bu halda məhkəmə 1 aydan çox olmayan müddətə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərardad qəbul edə bilər. Qərardadda müvəqqəti təminat tədbirinin qüvvədən düşəcəyi tarix qeyd edilməlidir. Bu müddət ərzində iddia ərizəsi verilərsə, müvəqqəti təminat tədbirlərinin tətbiqi məsələsinə müvafiq vəsatət əsasında yenidən baxılır və qərardad qəbul edilir.

Azərbaycanda olduğu kimi, Almaniya Mülki Prosessual Məcəlləsinin 926-cı maddəsində təsbit edilmişdir ki, müvəqqəti təminat tədbirinin tətbiqi ilə bağlı ərizəyə məhkəmə tərəfindən mülki işin başlanmasından əvvəl də baxıla bilər.

Azərbaycan mülki prosesində müvəqqəti təminat tədbiri barədə ərizəyə ayrıca icraatda baxılması nəzərdə tutulmuşdur. Müvəqqəti təminat tədbiri barədə ərizəyə ayrıca icraatda baxılması Mülki Prosessual Məcəlləyə 09.07.2021-ci il tarixli 363-VIQD nömrəli AR Qanunu ilə əlavə edilmişdir. Bu əlavə təsadüfi baş verməmişdir. Belə ki, vətəndaşlarının hüquqlarının əlverişli təminatı üçün əhəmiyyətli əlavədir.

Azərbaycan mülki prosesində müvəqqəti təminat tədbirinin tətbiqi ilə bağlı ərizəyə həm birinci instansiya məhkəmələrində, həm də apellyasiya məhkəmələrində işdə iştirak edən şəxslərə məlumat verilmədən (ex parte) baxılır.

Alman mülki prosesində də müvəqqəti təminat tədbirinin tətbiqi ilə bağlı ərizəyə, bir qayda olaraq, məhkəmə tərəfindən onun qəbul edildiyi şəxsə və işdə iştirak edən digər şəxslərə məlumat verilmədən baxılır. Bu tənzimləmə müvəqqəti təminat tədbirinin tətbiqinin qarşı tərəf üçün "gözlənilməzlik effekti" yaratmaq kimi mühüm xüsusiyyəti ilə əlaqələndirilir.

Alman prosessualistləri müvəqqəti təminat tədbirinin tətbiqi barədə müraciətə "ex parte" baxılmasına müxtəlif cür yanaşırlar. Bəzi alimlər qeyd edirlər ki, "gözlənilməzlik effekti" olmadan

müvəqqəti təminat tədbirləri səmərəsiz olacaq və həyata keçirildiyi məqsədə nail ola bilməyəcək. Digərləri vurğulayırlar ki, bu çəkişmə və prosesdə tərəflərin prosessual bərabərliyi prinsiplərinin təsirini məhdudlaşdıran prosessual qayda kimi qiymətləndirilə bilər (7).

Bununla belə, tərəflərin maraqlarının tarazlığına nail olmaq üçün AR MPM-nin 159.3-cü maddəsində nəzərdə tutulmuşdur ki, qəbul edilmiş məhkəmə qərardadı barədə işə onların iştirakı olmadan baxılmış işdə iştirak edən şəxslərə dərhal xəbər verilir.

Almaniya qanunvericiliyində mübahisə predmetinin olduğu yerdə müvəqqəti təminat tədbiri barədə qərar qəbul edildiyi hallarda ərizəçi ilə qarşı tərəfin hüquqlarının balansının qorunmasına təminat verilir. Rayon məhkəməsi ilkin qaydada işə mahiyyəti üzrə baxan məhkəməyə müvəqqəti təminat tədbirinin tətbiqi qərarın etibarlılığı məsələsini həll etmək üçün qarşı tərəfin məhkəməyə çağırılması barədə ərizəçinin vəsatət verməli olduğu müddəti müəyyən edir. Ərizəçi bu öhdəliyi yerinə yetirmədikdə, məhkəmə müvəqqəti təminat tədbiri haqqında qəbul edilmiş qərarı ləğv edir. Beləliklə, ərizəçinin müvəqqəti təminat tədbirinin tətbiqi barədə müraciət hüququ, barəsində müvəqqəti təminat tədbiri tətbiq edilən şəxsə isə məhkəmə tərəfindən dindirilmə hüququ təmin edilir.

Belə ki, müvəqqəti təminat tədbiri qarşı tərəfə bildirilmədən verilir, lakin ona etiraz etmək imkanı verilir. Bu halda rayon məhkəməsinin qəbul etdiyi müvəqqəti təminat tədbirləri məhkəmə iclasında qarşı tərəf tərəfindən onlara etiraz edilənədək və ya qarşı tərəfin məhkəməyə çağırılması barədə vəsatət vermə müddəti bitənə qədər qüvvədə qalır. Müvəqqəti təminat tədbiri barədə qərarın bu şərtlə verilməsində məqsəd cavabdeh müvəqqəti tədbirlərin mahiyyəti üzrə dinlənilmək hüququndan istifadə edənə qədər status-kvonu saxlamaqdır.

Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyinə əsasən, müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərardaddan verilmiş şikayət nəticəsində müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərardad dəyişdirilmədən saxlanırsa məhkəmə iclası keçirilmir. Yəni AR MPM-nin 269.1-ci maddəsinə əsasən, şikayətə qərardadı qəbul etmiş birinci instansiya məhkəməsi tərəfindən 3 gün müddətində yazılı icraat qaydasında baxılır. Mülki prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq, şikayət baxılması üçün apellyasiya məhkəməsinə göndərilir. Apellyasiya məhkəməsində isə yazılı icraat qaydasında baxılır.

Lakin şikayət nəticəsində müvəqqəti təminat tədbirinin tətbiqi barədə məhkəmə qərardadı ləğv ediləcəksə müvəqqəti təminat tədbiri barədə qərardaddan verilmiş şikayətə məhkəmədə baxılır. Çünki AR Mülki Prosessual Məcəlləsinin 162.2-ci maddəsində nəzərdə tutulmuşdur ki, müvəqqəti təminat tədbirinin ləğv olunması məsələsi məhkəmə iclasında həll edilir. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri barədə xəbərdar edilirlər. Lakin həmin şəxslərin gəlməməsi müvəqqəti təminat tədbirinin ləğv olunması haqqında məsələyə baxmağa mane olmur (5).

Müvəqqəti təminat tədbirinin ləğv edilməsi məsələsinə baxılarkən məhkəmə iclasının vaxtı və yeri barədə işdə iştirak edən şəxslərin məhkəmə tərəfindən məcburi məlumatlandırılmasının təmin edilməsi işdə iştirak edən şəxslərin çəkişmə prinsipinin həyata keçirilməsinin ən mühüm təminatıdır. Lakin sadəcə müvəqqəti təminat tədbirinin ləğvi məsələsinin məhkəmə iclasında baxılmasının nəzərdə tutulması əvvəldən tərəfi məhkəmə iclasının nəticəsi barədə sanki "xəbərdar etməkdir". Ona görə də hesab edirəm ki, müvəqqəti təminat tədbiri barədə qərardan verilmiş şikayətə nəticəsindən asılı olmayaraq məhkəmə iclasında baxılmalıdır.

AR Mülki Prosessual Məcəlləsinin 161.3-cü maddəsinə əsasən, müvəqqəti təminat tədbirinin dəyişdirilməsi məsələsinə baxılması üçün məhkəmə iclasının keçirilməsi zərurəti nəzərdə tutulmuşdur.

Alman mülki prosesində də müvəqqəti təminat tədbirləri yalnız məhkəmə iclasında dəyişdirilə və ya ləğv edilə bilər. Müasir qanunvericiliyin tələblərinə uyğun olaraq, bu yanaşma uğurludur. Çünki çəkişmə prinsipinə uyğun olaraq, sübutların təqdim edilməsi və tədqiq edilməsi məhkəmə iclasında həyata keçirilir.

Müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi məsələsinə məhkəmənin baxdığı müddət AR MPM-də birbaşa qeyd edilməmişdir. Lakin müvəqqəti təminat tədbirlərin təxirəsalınmaz xarakterini nəzərə alaraq, təminat tədbirinin növünün dəyişdirilməsi haqqında ərizəyə

baxılma müddəti minimal, lakin məhkəmə iclasının keçirilməsi üçün zəruri olan bütün hərəkətləri yerinə yetirmək baxımından kifayət qədər olmalıdır. Hesab edirəm ki, bu müddətin müvəqqəti təminat tədbirinin tətbiqi barədə şikayətə baxılma müddəti qədər olması ağlabatandır. Yəni müvəqqəti təminat tədbirinin bir növünün digər növ tədbirlə əvəz edilməsi barədə ərizənin məhkəməyə daxil olduğu günün ertəsi gündən başlayaraq 3 gün ola bilər.

Müvəqqəti təminat tədbirlərinin tətbiq edilməsində mühüm məsələlərdən biri də bu barədə məlumatlandırma məsələsidir. Çünki bu tədbirlərin effektivliyi, həm də onların tətbiqi zamanı qarşı tərəfin hüquqlarına riayət edilməsi məlumatlandırma prosesindən asılıdır. Tətbiq edilən tədbirlər haqqında tərəflərin məlumatlandırılması proseduru həm barəsində müvəqqəti təminat tədbiri tətbiq edilmiş şəxsin tətbiq edilən tədbirlər haqqında məlumatı operativ almaq hüququnu, həm də ərizəçinin maraqlarını nəzərə almalıdır (8).

Qeyd edilənləri ümumiləşdirərək, bu nəticəyə gəlirik ki, müvəqqəti təminat tədbiri barədə şikayətə məhkəmə iclasında baxılmasının nəzərdə tutulması və müvəqqəti təminat tədbirinin növünün dəyişdirilməsi ilə bağlı ərizəyə baxarkən müddət nəzərdə tutulması AR MPM-nə əlavə edilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası: - [elektron resurs] http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi: – [elektron resurs] / URL: https://www.e-qanun.az/framework/46945
3. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 158-ci maddələrinin bəzi müddəalarına dair Konstitusiya Məhkəməsi Plenumunun 14 mart 2018-ci il tarixli qərarı : – [elektron resurs] https://e-qanun.az/framework/38480
4. Almaniya Federativ Respublikasının Mülki Prosessual Məcəlləsi: – [elektron resurs] URL: http://www.gesetze-im-internet.de/zpo/
5. Mövsümov M. Mülki prosessual hüquq. Dərslik. Bakı. Qanun nəşriyyatı. 2011.
6. Enders P., Börstinghaus U. Einstweiliger Rechtsschutz. ZAP, Münster, 2010.
7. Berger C. Einstweiliger Rechtsschutz im Zivilrecht, Erich Schmidt Verlag. Berlin, 2006.
8. Волченко, Олег Юльевич. Обеспечение иска в гражданском процессуальном праве России и Германии: сравнительно-правовое исследование: диссертация ... кандидата юридических наук : 12.00.15 / Волченко Олег Юльевич; [Место защиты: Ин-т государства и права РАН].- Москва, 2013.- 192 с.: ил. РГБ ОД, 61 13-12/270

SUMMARY

Khayala Mammadova

THE PROCEDURE FOR MAKING A DECISION ON THE IMPLEMENTATION OF TEMPORARY SECURITY MEASURES IN CIVIL LEGAL PROCEEDINGS IN AZERBAIJAN AND GERMANY

This article analyzes the common and distinctive features of the procedure for making a decision on the implementation of temporary security measures in civil legal proceedings in Azerbaijan and Germany.

Key words: *Temporary security measures, the procedure for making a decision*

РЕЗЮМЕ

Хаяла Мамедова

ПРОЦЕДУРА ПРИНЯТИЯ РЕШЕНИЯ О МЕРАХ ПО ОБЕСПЕЧЕНИЮ ИСКА В ГРАЖДАНСКОМ СУДОПРОИЗВОДСТВЕ АЗЕРБАЙДЖАНА И ГЕРМАНИИ

В данной статье анализируются общие и отличительные черты процедура принятия решения о мерах по обеспечению иска в гражданском судопроизводстве Азербайджана и Германии.

Ключевые слова: *Меры по обеспечению иска, процедура принятия решения*

ŞƏFAQƏT MƏMMƏDOVA
sefaqetmemmedova01@gmail.com
Naxçıvan Dövlət Universiteti

QRAMMATİK ŞƏKİLÇİLƏRİN OMONİMLİYİ

Bütün dünya xalqları üçün eyni olan məfhumlar həmin xalqların dilində müxtəlif səs kompleksləri ilə istifadə edilir. Lakin bunun əksinə olan hallar da mövcuddur. Belə ki, dildə çox vaxt müxtəlif anlayış, məfhum və s. eyni səs kompleksi ilə ifadə edilir. Bu hadisə dil vahidlərinin fonetik cəhətdən eyni, mənaca müxtəlifliyinin yaranmasına kömək olmuşdur. Məsələn: Azərbaycan dilində top (silah), top (oyuncaq), qəza (insanın başına gələn hadisə), qəza (keçmişdə vilayət tərkibinə daxil olan ərazi bölgüsü), kaman (silahın bir hissəsi), kaman (musiqi aləti), kök (bitki adı), kök (adam), qaz (quş adı), qaz (yanacaq maddəsi), neştər (cərrah bıçağı), neştər (həşərat iynəsi) və s. kimi sözlər fonetik cəhətdən eyni olsalar da, müxtəlif məna bildirən sözlərdir. Dilçilikdə bu hadisə omonimlik adlanır.

Son vaxtlarda ümumi dilçilikdə omonimlik, əsasən, sözlərə aid edilir, o biri dil vahidlərinin bu məsələdə adı çəkilmirdi. Omonimlər yalnız leksikologiya bəhsində tədqiq olunurdu. Lakin dildə olan faktlar sübut edir ki, formaca eynilik, mənaca müxtəliflik yalnız sözlərə deyil, həm də fonem, morfem, söz birləşməsi və cümlələrə də aiddir. Ona görə də bu hadisə nəinki qrammatikada, hətta fonetikada da öyrənilməlidir.

Açar sözlər: *omonim, fonem, Azərbycan dili, dilçilik, cümlə, leksikologiya, qrammatika, şəkilçi, söz birləşməsi və s.*

Dildə omonimlərin mövcudluğu yeni hadisə deyildir. Omonimlik dilin leksik və qrammatik əlamətlərini özündə birləşdirir. Öz fonetik strukturuna görə dilin müəyyən inkişaf dövründə uyğunlaşan morfem, söz, söz birləşməsi və cümlələri əhatə edir.

Omonimliyin dildə əmələ gəlməsi müxtəlif hadisə və səbəblərlə əlaqədardır. Ə.Dəmirçizadə bunu belə izah edir: "Doğrudan da insan şüuru dəyişdikcə, məfhumlar doğduqca, bunlara məxsus yeni ifadə vasitələri də yaranmalıdır. Hər yeni məfhum üçün yeni şəklin yaranması isə xeyli vaxt tələb edir; buna görə də müvəqqəti olaraq əvvəlki ifadə vasitələrindən yeni məzmun üçün də istifadə olunur və beləliklə, ilk zamanlar çoxmənalı sözlər və buradan da omonimlər törəyir. (Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, s. 143).

Omonimlik tarixi kateqoriya olub, dilin inkişafında mühüm rol oynayan hadisələrdəndir. O dilin təbiətinə uyğun olaraq, əmələ gəlmiş, əsrlər boyu mürəkkəb inkişaf yolu keçmiş və dildə özünə məxsus yer tutmuşdur.

Omonimliyin tarixinə nəzər saldıqda görünür ki, bu proqram Qədim Yunan və Şərq fəlsəfəsində ciddi mübahisələrə səbəb olmuşdur. Hələ XVII əsrin linqvistik tədqiqatlarında bu termin işlənmişdir. Rus və Qərbi Avropa dilçiliyinə gəlincə, omonimlik məsələsi geniş şəkildə işlənmiş, 1950-ci ildən sonra lüğətçiliyin inkişafı ilə əlaqədar olaraq, omonimliyə maraq artmışdır.

Azərbaycan dilinin iltisaqiliyi ilə əlaqədar olaraq, özünəməxsus morfoloji-qrammatik kateqoriyaları vardır. Qrammatik kateqoriya müəyyən qrammatik mənanın paradiqmatik pland xüsusi sözdəyişdirici şəkilçilərlə sistem şəklində istifadəsinə deyilir (Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1980).

Hər hansı bir qrammatik kateqoriya təfəkkürün və dilin inkişafının müəyyən bir dövründə meydana çıxır. Hər bir qrammatik kateqoriyanın özünəməxsus morfoloji və sintaktik xüsusiyyətləri vardır.

Qrammatik kateqoriyalar qrammatik şəkilçilər vasitəsi ilə formlaşır, başqa sözlə, qrammatik şəkilçilər qrammatik kateqoriyaların göstəriciləri rolunu oynayır. Qrammatik şəkilçilər dilin qrammatik quruluşu fonunda çıxış edir, ünsiyyətin təşkilində yardımçı vasitə kimi onların sözlər arasında əlaqə yaratmaq rolunu qeyd edirlər. Yəni bunlar leksik şəkilçilərdən fərqli olaraq. Söz

yaradıcılığında iştirak etmir, lakin sözlərin qrammatik cəhətdən əlaqələnərək söz birləşmələri və cümlələrin təşkilində vasitəçi kimi iştirak edirdilər.

Qrammatik şəkilçilərin hamısı dilimizin öz şəkilçiləridir, bunların arasında alınma şəkilçi yoxdur.

Prof. Y.Seyidov Azərbaycan dilindəki qrammatik şəkilçiləri aşağıdakı kimi qruplaşdırır:

1. Hal ktateqoriyasının şəkilçiləri;
2. Mənsubiyyət kateqoriyasının şəkilçiləri;
3. Kəmiyyət kateqoriyasının şəkilçiləri;
4. Şəxs-xəbərlik kateqoriyasının şəkilçiləri;
5. Sifətin dərəcə kateqoriyasının şəkilçiləri;
6. İnkarlıq kateqoriyasının şəkilçiləri;
7. Təsirsiz feillərdən təsirli feillər əmələ gətirmək üçün istifadə olunan şəkilçilər (-ar, -ər; çıx – çıx-ar; -ır, -ir, -ur, -ür; qaç – qaç – ar; bit – bit-ir; uç – uç-ur; köç – köç-ür və s.);
8. Feilin növ kateqoriyasının şəkilçiləri;
9. Zaman kateqoriyasının şəkilçiləri;
10. Feil formalarının şəkilçiləri;
11. Feilin təsriflənməyən formalarının (məsdər, feili sifət, feili bağlama) (Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2000, s. 50) şəkilçiləri;
12. Bu kateqoriyaya aid olmayan başqa şəkilçilər: məsələn, -dakı, -dəki.

Prof. M.Hüseynzadə isə bu bölgünü belə aparmışdır:

1. Kəmiyyət kateqoriyasının şəkilçiləri;
2. Hal kateqoriyasının şəkilçiləri;
3. Xəbərlik kateqoriyasının şəkilçiləri;
4. Mənsubiyyət kateqoriyasının şəkilçiləri;
5. İnkarlıq kateqoriyasının şəkilçiləri;
6. Zaman kateqoriyasının şəkilçiləri;
7. Şəxs kateqoriyasının şəkilçiləri ((M.Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, Bakı, 1983, səh. 15).

Prof. M.Hüseynzadə -maq, -mək şəkilçisini qrammatik şəkilçilər sırasında qeyd etmir və belə bir izahat verir. –maq (-mək) şəkilçisi feil köklərinə artırılarkən iş və hərəkətin adı anlayışını ifadə edir. Həmin söz də isimlər kimi hallanır.

Buna görə də -maq (-mək) şəkilçisini tamamilə sözdəyişdirici şəkilçi adlandırmaq doğru deyildir.

Qrammatik şəkilçilərin zənginliyi və şəkililərin çoxluğu fonunda dildə müxtəlif linqvistik proseslər baş verir ki, bunların biri də qrammatik şəkilçilərin omonimliyidir. Bu şəkilçilər fonetik tərkibcə eyni olmalarına baxmayaraq, müxtəlif funksiyalarda çıxış edirlər. Qrammatik omomorfemlərə ismin yönlük, yerlik, təsirlik hallarının şəkilçiləri, mənsubiyyət kateqoriyasının şəkilçiləri, feilin əmr şəklinin (birinci şəxsin təki, ikinci şəxsin cəmi) şəxs sonluğu, feilin keçmiş və gələcək zamanın şəkilçiləri, lazım və vacib formasının şəkilçiləri, kəmiyyət kateqoriyasının şəkilçiləri daxildir.

Qrammatik şəkilçilərin omonimliyini nəzərdən keçirdikdə belə məlum olur ki, bu şəkilçilərin əksəriyyəti eyni mənşədən yaranmışdır. Morfoloji təhlil vasitəsilə morfoloji kateqoriyaların arxetipini müəyyənləşdirmək olur. Demək lazımdır ki, qədimə getdikcə bəzi morfoloji kateqoriyalar (hal, mənsubiyyət, zaman, forma) ifadə vasitələri üst-üstə düşür. Bu o deməkdir ki, amorf dil quruluşundan iltisaqi quruluşa keçdikcə eyni sözdən yaranan morfemlər müxtəlif funksiyalar üzrə difernsiallaşır. Yaxın məna çalarına malik olan morfemlərin forma və məzmun çarpazlaşması sonrakı inkişafında izini saxlasa da, morfoloji quruluşda cilalanma prosesində hər morfemin bu və ya digər məna çalarları ön plana keçmiş və beləliklə, morfemlərin qrammatik yükünü tənzimləmişdir. Ona görə də bu prosesdə omonimləşən şəkilçilər müxtəlif kateqoriyaların göstəricisinə çevrilmişdir

ƏDƏBİYYAT

1. Dəmirçizadə Ə. Azırbaycan dilinin üslubiyyatı. Bakı: 1962
2. B.Xəlilov. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: 2008
3. Müasir azərbaycan dili. AMEA nəşri, Bakı: 1982
4. Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Bakı: 2000
5. B.Xəlilov. Müasir Azərbaycan dili. I hissə. Bakı: 2000
6. M.Hüseynzadə. Azərbaycan dilinin morfologiyası. III hissə, Bakı: 1983

SUMMARY

Shafagat Mammadova

HOMONYMY OF GRAMMATICAL FIGURES

Concepts that are the same for all peoples of the world are used with different sound complexes in the language of those peoples. However, there are also cases that are contrary to this. So, the language often has different concepts, concepts, etc. expressed with the same sound complex. This event contributed to the emergence of phonetically identical and semantically diverse language units. For example: top (weapon), ball (toy), qeda (an event that happened to a person), qeda (territory division that was part of a province in the past), kaman (part of a weapon), kaman (musical instrument), root (plant name) in Azerbaijani), root (man), gas (bird name), gas (fuel), scalpel (surgeon's knife), scalpel (insect needle), etc. Although the words are phonetically the same, they have different meanings. In linguistics, this phenomenon is called homonymy.

Recently, in general linguistics, homonymy is mainly related to words, other language units were not mentioned in this matter. Homonyms were studied only in lexicology. However, the facts of the language prove that the sameness in form and diversity in meaning apply not only to words, but also to phonemes, morphemes, word combinations and sentences. Therefore, this phenomenon should be studied not only in grammar, but also in phonetics.

Key words: *homonym, phoneme, Azerbaijani language, linguistics, sentence, lexicology, grammar, suffix, word combination, etc.*

OSMAN ƏHMƏDZADƏ
Naxçıvan Dövlət Universiteti

MÜASİR TƏHSİL SİSTEMİNDƏ KREATİV TƏLƏBƏ

Müasir təhsil sistemində yaradıcı tələbə olmaq çox faydalı ola bilər. Müasir təhsil sistemində kreativliyi mənimsəməklə siz təkcə akademik cəhətdən üstün ola bilməzsiniz, həm də problemlərin həlli, innovasiya və şəxsi inkişaf üçün dəyərli bacarıqlar inkişaf etdirə bilərsiniz. Bu strategiyaları öyrənməyə və yaradıcılığa olan yanaşmanıza daxil etməklə siz müasir təhsil sistemində daha effektiv hərəkət edə və tam yaradıcı potensialınızı ortaya qoya bilərsiniz. Bu strategiyaları mənimsəyən yaradıcı tələbələr innovativ həllər, fənlərarası anlayışlar, rəqəmsal bacarıq, davamlılıq, effektiv əməkdaşlıq, şəxsi inkişaf və gələcəyə hazırlıq kimi nəzərəçarpacaq nəticələr əldə etməyi gözləyə bilərlər. Bu nəticələr onların təhsil təcrübəsini artırmaqla yanaşı, həm də gələcək karyeralarında və səylərində uğur qazanmağa imkan verir.

Açar sözlər: *tələbə, kreativlik, potensial, inkişaf*

Kreativ tələbənin xüsusiyyətləri belədir:

1. Fərqli düşüncəni qəbul edin: Fərqli düşüncə yaradıcılıq üçün vacibdir, çünki problemin həllində kəşfiyyatı, çevikliyi və orijinallığı təşviq edir. Beyin fırtınası, zehin xəritəsi kimi üsullar fərqli düşüncəni stimullaşdırmağa kömək edə bilər. Nə qədər qeyri-ənənəvi olsa da, bütün ideyaları dəyərləndirərək və onların üzərində əməkdaşlıq edərək qrup mühitində fərqli düşüncə mədəniyyətini təşviq edin.
2. Fənlərarası əlaqələr axtarın: Fənlərarası öyrənmə tələbələri müxtəlif bilik sahələri arasında əlaqə yaratmağa təşviq etməklə yaradıcılığı inkişaf etdirir. Layihələrinizə və tapşırıqlarınıza bir çox fənlərdən anlayışları inteqrasiya etmək imkanlarını axtarın. Fənlərarası tədqiqat və əməkdaşlıq təhsildə getdikcə daha çox qiymətləndirilir, çünki onlar çox vaxt mürəkkəb problemlərə innovativ həllər gətirir.
3. Texnologiyadan istifadə edin: Texnologiya müxtəlif sahələrdə yaradıcı ifadə və öyrənmə üçün sonsuz imkanlar təqdim edir. Qrafik dizayn proqramı, video redaktə platformaları və kodlaşdırma mühitləri kimi məzmun yaratmaq üçün rəqəmsal alətlərlə sınaqdan keçirin. Ənənəvi kurs işinizi tamamlamaq və öyrənmə təcrübənizi artırmaq üçün onlayn öyrənmə platformalarını, virtual laboratoriyaları və təhsil proqramlarını araşdırın.
4. Maraq inkişaf etdirin: Maraq, araşdırmaya və kəşfə ilham verməklə yaradıcılığı gücləndirir. Fəal olaraq yeni təcrübələr axtararaq, suallar verməklə və birbaşa akademik diqqətinizdən kənar maraqları həyata keçirməklə marağı artırın. Çətinliklərə öyrənmə imkanları kimi baxan və uğursuzluğu yaradıcı prosesin təbii hissəsi kimi görən inkişaf zehniyyətini qəbul edin.
5. Uğursuzluğu qəbul etmək: Uğursuzluq yaradıcılıq prosesinin qaçılmaz hissəsidir və dəyərli öyrənmə təcrübəsi kimi qəbul edilməlidir. Uğursuzluğu müvəffəqiyyətə aparan bir addım kimi yenidən nəzərdən keçirmək və uğursuzluqlardan öyrənilən dərslərə diqqət yetirməklə dözümlülük inkişaf etdirin. Tələbələrin mühakimə və ya tənqid qorxusu olmadan yeni ideyaları araşdırmaqda rahat hiss etdikləri təcrübə və risk alma mədəniyyətini təşviq edin.
6. Əməkdaşlıq və şəbəkə: Əməkdaşlıq fərdlərə ümumi məqsədlərə nail olmaq üçün kollektiv güclərini və təcrübələrini istifadə etməyə imkan verir. Maraqlanan sahədə həmyaşıdları, mentorları və peşəkarları ilə əməkdaşlıq imkanlarını fəal şəkildə axtarın. Başqaları ilə effektiv əməkdaşlıq etmək və qrup dinamikasını idarə etmək üçün güclü ünsiyyət və komanda işi bacarıqlarını inkişaf etdirin.
7. Reflektiv düşüncəni məşq edin: Reflektiv təfəkkür, fikirlər əldə etmək və gələcək performansını yaxşılaşdırmaq üçün öz düşüncələrini, hərəkətlərini və təcrübələrini tənqidi şəkildə yoxlamağı əhatə edir. Yaradıcılıq prosesinizi qiymətləndirmək, təkmilləşdirilməli olan sahələri müəyyənləşdirmək və nailiyyətləri qeyd etmək üçün özünü əks etdirməyə vaxt ayırın. Zamanla irəliləyişinizi izləmək üçün qeydlər edin.

8. Çağırış konvensiyaları: Yaradıcılıq o zaman inkişaf edir ki, fərdlər ənənəvi müdrikliyə meydan oxumağa hazırdırlar. Fərziyyələri soruşun, alternativ perspektivləri araşdırın və akademik və yaradıcılıq axtarışlarınızda müəyyən edilmiş normalara meydan oxuyun. Mümkün olanın sərhədlərini aşan yeni ideyaları və yanaşmaları tədqiq etməyə cəsarət edərək təcrübə və innovasiya ruhunu qəbul edin.
9. Möhkəm olun: Dözümlülük, çətinliklər qarşısında yaradıcılığı qorumaq üçün çox vacib olan uğursuzluqlar və çətinliklərdən geri qayıtmaq qabiliyyətidir. Mübarizə strategiyalarını inkişaf etdirmək, başqalarından dəstək axtarmaq və çətin vəziyyətlərdə müsbət münasibət saxlamaqla davamlılığı inkişaf etdirin. Unutmayın ki, uğursuzluqlar inkişaf və öyrənmə fürsətləridir və onları yaradıcı məqsədlərinizə çatmaq üçün motivasiya kimi istifadə edin.
10. Balans strukturu və çeviklik: Yaradıcılıq o zaman inkişaf edir ki, insanın öyrənmə və problemlərin həllinə yanaşmasında struktur və çeviklik arasında tarazlıq mövcuddur. Vaxtınızı səmərəli idarə etmək və mütəşəkkil qalmaq üçün rutinlər və sistemlər qurun, lakin kortəbiiliyə və yeni imkanlara açıq qalın. Həm diqqətli işə, həm də yaradıcı kəşfiyyata imkan verən, eyni zamanda dəyişən şərtlərə və prioritetlərə uyğunlaşa bilən, sizin üçün uyğun olan ritm tapın.
11. Unikal portfolio: Konvensiyalara meydan oxumaqla və ənənəvi gözləntilərin sərhədlərini aşaraq yaradıcı tələbələr öz yaradıcılıqlarını, orijinallığını və çox yönlülüyünü nümayiş etdirən unikal portfel hazırlayırlar. İstər bədii əsərlər, istər tədqiqat layihələri, istər sahibkarlıq təşəbbüsləri, istərsə də real dünya problemlərinə innovativ həllər şəklində, onların portfeli onları fərqləndirir və maraqlı imkanlara qapı açır.
12. Gələcəyə hazırlıq: Tələbələr öz yaradıcılıq bacarıqlarını mükəmməlləşdirməklə və inkişaf zehniyyətini mənimsəməklə, gələcək iş bazarının və cəmiyyətin qeyri-müəyyənliklərini idarə etməyə daha yaxşı hazırlaşırlar. Yaradıcılıq, tənqidi təfəkkür, uyğunlaşma və möhkəmlik 21-ci əsrin sürətlə dəyişən mənzərəsində uğur üçün vacib bacarıqlar kimi getdikcə daha çox tanınır.
13. Şəxsi inkişaf: Nəhayət, təhsildə yaradıcılığın mənimsənilməsi şəxsi inkişafı və məqsəd duyğusunu təşviq edir. Yaradıcı tələbələr özlərini həqiqi şəkildə ifadə etmək və ümumilikdə cəmiyyətə mənalı töhfələr vermək səlahiyyətinə malikdirlər.
14. Qlobal vətəndaşlıq: Yaradıcılıq heç bir sərhəd tanımır və mədəni, linqvistik və coğrafi maneələri aşa bilər. Kreativ tələbələr beynəlxalq əməkdaşlıqlarda, xaricdə təhsil proqramlarında və ya perspektivlərini genişləndirən və mədəniyyətlərarası anlaşmanı gücləndirən mədəni mübadilələrdə iştirak edə bilərlər.

Müasir təhsil sistemində formalaşan kreativ tələbə gələcəkdə lider mövqeyində olacaq və müasir dünyada əsas prioritetlərdən biridir.

ƏDƏBİYYAT

1. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik, Bakı: Adiloğlu, 2006.
2. İlyasov M. Müəllimin pedaqoji ustalığı, Bakı: Elm və təhsil, 2013.
3. Mehrabov.A.O. Azərbaycan təhsilinin müasir problemləri, Bakı: Mütərcim, 2007.

SUMMARY

Osman Ahmadzade

THE CREATIVE STUDENT IN THE MODERN EDUCATION SYSTEM

Being a creative student can be very rewarding in today's education system. By mastering the modern system, you can not only excel academically, but also develop valuable skills for problem solving, innovation and personal development. You can incorporate these strategies into your approach to learning and creativity. Creative works according to this strategy are created as innovative solutions, subject relations concepts, digital skills, self-sustainability, effective action, personal development and future preparation. This allows them to succeed in their educational experience as well as in their future careers and endeavors.

Key words: *student, creativity , potential, development*

İSMƏT CƏFƏROVA
ceferovaismet0614@gmail.com
"Naxçıvan" Universiteti

SUBYEKTİV İDEALİSTLƏR: CORC BERKLİ VƏ DEVİD YUM

İngilis Maarifçiliyi, İntibah və İslahat dövrlərinin İngiltərədə necə fərqli bir inkişaf mühiti nümayiş etdirdiyinin göstəricisidir. Krallıqdakı siyasi-ictimai mühit, demokratikləşmə səyləri özü ilə yeni ictimai quruluş, mədəniyyət, yeni siyasi quruluş və yeni fəlsəfə gətirdi. Müxtəlif fəlsəfi baxışların davam etdiyi XVIII əsrdə xüsusilə əxlaqi-estetik fəlsəfə baxımından yeni və tutarlı fikirlər irəli sürülür. Əxlaq fəlsəfəsi baxımından Bernard de Mandevil və Tomas Hobbs tərəfindən irəli sürülən eqoizm bu dövrün ən fəal və hakim əxlaqi baxışı idi. T. Hobbsun eqoizmlə bağlı baxışı əslində o dövrün mərkəzi baxışı idi, çünki buna qarşı çıxan başqa hərəkatlar ortaya çıxdı və bu baxışın cəmiyyətə zərərli olduğunu sübut etməyə çalışdı. Əks tərəfdə, insanların tamamilə eqoist bir təbiətə sahib olması fikrini rədd edən rasionalistlər və sentimalistlər var. Sentimentalistlərin tərəfində olan filosofların fikrincə, insanlar eqoistdirlər, eyni zamanda cəmiyyətin xeyrini də düşünürlər, yəni insan təbiəti pis deyil. Bu mütəfəkkirləri altruist mütəfəkkirlər adlandıra bilərik. Bu mütəfəkkirlərin məqsədi azad bazar iqtisadiyyatı və XVIII əsrdə meydana çıxan fəal mənəvi hərəkatın yaratdığı problemləri aradan qaldırmaqdır. Bundan əlavə, Corc Berkli və Devid Yumun yaşadığı dövr materializmin çox təsirli olduğu və buna görə də Tanrı və dinin əhəmiyyətini itirdiyi bir dövr idi. Mənəvi tənəzzül və azğınlıqlar C. Berklini və D. Yumu çox narahat edirdi və onlar, bu nəticələrin səbəbinin materializm və dövrün elmi olduğunu düşünürdülər.

Açar sözlər: *Corc Berkli, prinsiplər, üç söhbət, Devid Yum, ideya və təəssüratlar*

Corc Berklinin həm bir filosof, həm də bir din xadimi olaraq nail olmağa çalışdığı yeganə məqsəd ateistləri məğlub etmək və xristianlığı yaymaqdır. Filosof bu məqsədə çatmaq üçün çox gənc yaşlarından ömrünün sonuna qədər fizikadan riyaziyyata, fəlsəfədən teologiyaya qədər bir çox sahədə əhəmiyyətli əsərlər yazmışdır. Hələ 24 yaşında ikən 1709-cu ildə "An Essay Towards a New Theory of Vision" adlı əsərini nəşr etdirdi.

Filosof "An Essay Towards a New Theory of Vision" əsərində görmə və toxunma arasında müqayisə aparır, bu duyğular arasında ortaq hisslərin olub olmadığını araşdıraraq aşağıdakı nəticəyə gəlir: "Hər iki duyğuda ortaq hisslər yoxdur. Görmə hissi ilə qəbul edilən məkan, forma və hərəkətlər, eyni adla adlandırılan toxunma hissindən tamamilə ayrıdır. Hər iki hiss üçün ümumi bir məna və ya duyğu növü kimi bir şey yoxdur" [4, s. 1].

Filosof 1710-cu ildə nəşr etdirdiyi "A Treatise Concerning the Principles of Human Knowledge" əsərində "təbii zəiflikdən və qabiliyyətlərimizin məhdudiyyətlərindən asılı olaraq, ən müdrik insanların bizim cəhalətimizi sağalmaz hesab etmələrinin səbəbi kimi müxtəlif fəlsəfə məktəblərindəki şübhə, qeyri-dəqiqlik, cəfəngiyat və ziddiyyətləri kəşf etməyi" qarşısına vəzifə kimi qoyur [3, s. 120]. "Şübhəlilik, küfr, absurdluq" dedikdə alim dini bilikləri deyil, elmi bilikləri rəhbər tutaraq dünyanı araşdırmaq cəhdlərini nəzərdə tutur. Müəllif məsafənin və hərəkətin hesablanması üçün riyazi hesablamalar və düsturlardan istifadəni "axmaq fantaziya" adlandırdığı əvvəlki "Theory of Vision" əsərində də bu barədə danışılmışdı.

Müəllif vurğulayır ki, həqiqətin dərk edilməsi və axtarışı prosesində yaranan "maneələr və çətinliklər" "cisimlərin qaranlığından və qarışıqlığından və ya təbii şüursuzluqdan deyil, daha çox insanların israr etdiyi və qarşısının alınması mümkün olan saxta prinsiplərdən qaynaqlanır [3, s. 125]. Əsərin girişində C. Berkli təklif edir ki, bir çox fəlsəfi xətaların mənbəyi dildən, yəni oradakı hər bir sözün dəqiq məna daşımasından, daha doğrusu, hər hansı bir ideyaya uyğun olması ilə əlaqəli fərziyələrdən asılıdır.

C. Berkliyə görə, substansiya bütün bilik mənbəyini ehtiva edir. Alim bunu "ağıl", "ruh", "can" və "mənim özüm" adlandırır. Burada substansiya anlayışını iki cür şərh etmək olar: ya "ruh" Tanrının

özüdür, ya da o, Tanrı ilə insan arasında bir növ təbiət aləmindən işarələri qəbul edib insana çatdıran ötürücüdür. Biliyin yalançı prinsipləri kateqoriyasına C. Berkli birinci dərəcəli keyfiyyətlərin obyektivlik kimi xarakteristikasını aid edir.

Müəllif 1713-cü ildə nəşr etdirdiyi "Three Dialogues Between Hylas and Philonous" əsərində maddə, substansiya və ideya kimi məfhumların xarici aləmdə qarşılıqlarının olub-olmamasını aydınlaşdırmağa cəhd edir. Bu o deməkdir ki, əgər materiyadan bütün duyulan xüsusiyyətləri çıxarsaq, maddə deyə bir şey olmayacaq. Mövcud olmağın dərk edilmək olduğu qənaətinə gələn C. Berkli üçün maddə haqqında bütün biliklərimiz ya real görmədən, ya da digər duyğu təcrübələrindən asılıdır. Ancaq hisslər aldadıcı olacağı üçün verdikləri məlumatlar etibarlı deyil. Məsələn, reallıqda biz vaxtı və məkanı və ya ölçünü dərk edə bilmirik, sadəcə olaraq obyektləri müxtəlif baxış bucaqlarından qavrayırıq və beləliklə, obyektlərə fərqli baxışlarımız olur. Biz uzağı görmürük belə ki, obyektlərin məsafəsi bizə təcrübəmizlə təlqin edilir. Gördüyümüz hər şey əslində obyektin xüsusiyyətləridir. Bu xüsusiyyətlər görməmizin hiss etdiyi və qavradığı şeylərdir. Beləliklə, biz bir cismin yaxınlığını və uzaqlığını görə bilmirik, lakin o cismə doğru yaxınlaşdıqda və uzaqlaşdıqda biz həmin cismin fərqli görüntüsünün şahidi oluruq. Yenə bizə kiçik görünən daş bizdən kiçik bir varlıq üçün böyük ola bilər. Bu o deməkdir ki, maddənin sahib olduğu bu keyfiyyətlər əslində müxtəlifdir. Halbuki C.Berkli üçün "hər hansı bir obyektə xas olan bir həqiqi xüsusiyyət obyektin özündə dəyişiklik olmadan dəyişdirilə bilməz" və nə forma, nə rəng, nə də bütün digər keyfiyyətlər onu qəbul edən şeydən kənarda mövcud ola bilməz [1, s. 33].

Filosof isti və soyuğu nəzərdən keçirməyə başlayır. O deyir ki, həddindən artıq istilik, əzabdır və əzab onu dərk edən şüurda olmalıdır. Buna görə də istilik psixi bir fenomendir. Bənzər bir arqument soyuğa da aiddir. Bu, məşhur isti su mübahisəsi ilə dəstəklənir. Bir əliniz isti, digəri soyuq olduqda, hər ikisini ılıq suya batırın, onlardan biri soyuq, digəri isə isti hiss edəcək; lakin su eyni anda isti və soyuq ola bilməz. Bu, "istilik və soyuqluq yalnız ruhumuzda mövcud olan hisslər olduğunu" etiraf edən Hilası tərksilah edir. Lakin o, ümidlə göstərir ki, digər həssas keyfiyyətlər qalır [1, s. 13-19].

C. Berkli maddəni inkar etmək üçün temperaturdan başqa dadlardan, qoxulardan, səslərdən və rənglərdən də bəhs edir. Əslində bunlar C. Lokkun ikinci dərəcəli keyfiyyətlərinə uyğundur. O deyir ki, şirin və acı da isti və soyuq kimi həzzlə bağlıdır, bəzən bizə şirin görünən şeylər başqası üçün fərqli dad verə bilər. Qoxulara münasibətdə də məsələ oxşardır. Hilas, havasız mühitlərdə səsin çıxmadığını əsas gətirərək, cisimlərin mahiyyətinə səsin daxil olmadığını söyləyir. Səsin qəbulu havadakı hərəkətdən asılıdır. Filonus bu izahata "...havada hər hansı bir hərəkət olduqda səsi eşitdiyimizi qəbul etsək belə, səsin özünün havada olduğu qənaətinə necə gəldiyini anlamıram" deyərək qarşı çıxır. Hilas qarşılığında belə cavab verir: "Məhz xarici havadakı bu hərəkət şüurda səs hissi yaradır; çünki qulaq pərdəsinə dəyərək, vibrasiyaya səbəb olur. Bu eşitmə sinirləri ilə beynə ötürüldüyü üçün ruh səs deyilən hissdən təsirlənir" [1, s. 22].

Hilasın "maddənin varlığını qəbul etmədən şeylərin gerçəkliyi müdafiə oluna bilməz" iddiasına qarşı Filonus ondan şeylərlə nə demək istədiyini, hiss edilə bilən, yoxsa düşünülə bilən şeyləri nəzərdə tutduğunu soruşur. Onların eşidilən şeylər olduğu cavabında isə deyir: "Əllərimlə toxunduğum və gördüyüm şeylər gerçəkdir, lakin onların arxasında mənim qavramadığım və bilmədiyim maddə kimi bir şey ola bilməz" [1, s. 85].

C.Lokk və C. Berkli ilə birlikdə ingilis fəlsəfəsinin üç mühüm simasına daxil olan D.Yum, şübhəsiz ki, bu şöhrəti fəlsəfəyə verdiyi mühüm töhfələr nəticəsində əldə etmişdir. XVIII əsr ingilis fəlsəfəsində D.Yumun tutduğu mövqeyi ədalətlə qiymətləndirmək üçün seçilən ifadələr içərisində ən münasibi ingilis filosofu B. Rassellin onun haqqında söylədiyi bu təkzib olunmaz fikirləridir:

"Devid Yum Lokkun və Berklinin empirik fəlsəfəsini məntiqi nəticəyə qədər inkişaf etdirdiyi və onu özlüyündə kamilləşdirərək ağlasığmaz hala gətirdiyi üçün ən mühüm filosoflardan biridir. Müəyyən mənada bu, çıxılmaz dalana bənzəyir; onun istiqamətində daha da irəli getmək mümkün deyil. Əsərlərini yazdığı gündən bəri onu təkzib etmək metafiziklərin sevimli məşğuliyyətinə çevrilib. Mən öz tərəfimdən təkziblərin heç birini inandırıcı hesab etmirəm; yenə də Yum sistemindən daha az şübhəli bir şeyin kəşf oluna biləcəyinə ümid edə bilmirəm" [2, s. 296].

D.Yumun 1739-1740- cı illərdə yazdığı "A Treatise of Human Nature" əsərinin məqsədi insan təbiətini, başqa sözlə, insan ağlını araşdırmaqdır. Başqa sözlə desək, o, insanların necə düşündüyü, hiss etdiyi, arzuladığı və mühakimə etdiyinə dair araşdırma nəticəsində, öz təbirincə desək, "ağıl coğrafiyasının sərhədlərini təyin etməyi" hədəfləyir [5, s. 307].

Əsərdə diqqət çəkən məqamlardan biri ideya və təəssüratınların münasibətidir. Yum ideya və təəssüratın mənbəyini fərqləndirsə də, bildirir ki, bəzi hallarda ideya ilə təəssüratlar bir-birinə bənzədiyindən onları fərqləndirmək qeyri-mümkün olur. Məsələn, yuxuda, yüksək hərarətdə, əqli nəzarəti itirdikdə və ya şiddətli emosional şokda, bəzən təəssürat fikirlərdən ayrıla bilməyəcək dərəcədə soluq və zəif olur [5, s. 2].

Lakin zehnin qavraması baxımından ideya və təəssürat arasındakı fərq, ümumiyyətlə, vurğulanır. Qısacası, Yumun xarici aləmə əsaslanan bilik nəzəriyyəsində təəssüratın ekvivalenti beş duyğu orqanı ilə hiss olunan qavrayış ikən, ideya insanın həmin orqanlarla qavradığı hisslərin təəssüratla müqayisədə daha zəif surətləridir [5, s. 1].

İnsanın doğulduğu zaman limonun dadını bilməməsi, onu təcrübədən keçirməməsi ilə əlaqədardır. Limonun dadı yoxlanılanda təəssüratın ideyaya köçürülməsi nəticəsində onun turş meyvə olması fikri aydın və birmənalı şəkildə üzə çıxır. O, ideyanı insan təfəkkürü və mülahizələrində xarici aləmdən əldə edilən məlumatların solğun təəssüratları kimi müəyyənləşdirmiş olur [5, s. 2].

C.Lokkun ardınca D.Yum ideyaların birləşdirilməsi prinsipini assosiasiya adlandırır. O hesab edir ki, ideyalar oxşarlıq, qonşuluq və səbəb əlaqəsi ilə əlaqələndirilə bilər. Fantaziyalarımız nə qədər ixtiyari görünsə də, təxəyyül həmişə dolayısı ilə bu və ya digər assosiasiya prinsipi ilə idarə olunur. Amma ideyalar, əlbəttə ki, təkcə birləşdirilə bilməz, həm də ayrıla, mücərrədləşdirilə bilər. D.Yum isə hesab edir ki, mücərrəd ideyalar ayrı-ayrı şeylərin ideyalarından məzmununa görə deyil, təmsil funksiyasına görə fərqlənir: mücərrəd ideyanı hansısa oxşarlığa malik olan əşyalar sinfini təmsil edən ideya adlandırmaq olar. Mücərrədliyin reprezentativ nəzəriyyəsini miras qəbul etdiyi C.Berkli kimi, mövcudluq ideyasını qavrayış ideyasından ayırmağı qeyri-mümkün hesab edən D.Yum da traktatın birinci kitabının "Məkan və zaman ideyaları haqqında" adlı ikinci hissəsində məkan və zamanın şərhində də qismən C.Berklinin ardınca gedir, məkan və zamanın sonsuz bölünməsi tezisinin ziddiyyətli mahiyyətini vurğulayır. Traktatın "Bilik və ehtimallar haqqında" adlı üçüncü hissəsində ideyalar arasındakı əlaqə mövzusunu davam etdirərək göstərir ki, etibarlı bilik yalnız oxşarlıqların, əksliklərin, keyfiyyət dərəcələrinin və kəmiyyət əlaqələrinin tədqiqi sayəsində mümkündür. Münasibətlərin ilk üç növü intuitiv şəkildə dərk edilir və gizli kəmiyyət əlaqələri riyaziyyatda nümayiş predmetinə çevrilə bilər. Digər münasibətləri dərk etmək təcrübədən asılıdır. Filosof dördüncü hissədə isə antik fəlsəfənin bir çox sistemlərinin fantastik fərziyyələr üzərində qurulduğunu iddia edir.

Müəllifin fəlsəfi araşdırması din mövzusunu da əhatə edir. D.Yum öz tədqiqat predmentini hər yöndən dəqiqliklə tədqiq edir. Onun əsas məqsədi dinin prinsipial problemlərinin izahında ağıla istinad etməyi əsaslandırmaqdır. Bu fikri dəstəkləyən D. O'Konnora görə Yumun din fəlsəfəsinin əsas mövzusunu iman və ağıl arasındakı əlaqə təşkil etmiş olur. Onu inancın ağıl tərəfindən dəstəkləndiyi və bunun nə dərəcədə mümkün olduğu məsələsi maraqlandırır [6, s. 8].

Təcrübə ilə sübut oluna bilməyən iddiaların həqiqi məlumatı ehtiva etmədiyini qəbul edən Yumun fikirlərinin dinə zidd olması təəsüratı meydana çıxır. D.Yum bir çox əsərində düşüncənin də dinin əsasını şübhə altına aldığını açıqlayır. N.K. Smit həmçinin D.Yumun birbaşa dinə qarşı çıxmaqdan çəkindiyini vurğulayırdı. Yum yalnız dinin ümumi, batil və fanatik cəhətdən qabardılmış cəhətlərini hədəf alır [7, s. 19].

D.Yum özünün bilik nəzəriyyəsində C.Lokk və C.Berkli mövqeləri arasında orta mövqe tuturdu. C.Lokk kimi o da sensualist idi. Amma əgər C. Berkli hisslərimizin mənbəyi kimi real maddi dünyanı tanıyırdısa, onda D.Yum inanırdı ki, prinsipcə biz xarici dünyanın mövcud olub-olmadığını bilə bilmərik. Bizdə hisslər yaradan səbəblər dərkolunmazdır. Əgər C.Berkli insan hisslərinin mənşəyini Tanrı şüuru ilə əlaqələndirirdisə, D.Yum hesab edirdi ki, onların mənşəyi haqqında, ümumiyyətlə, baş sındırmağa dəyməz. Ona görədə o, biliyin vəzifəsini reallığın düzgün əks etdirməsində deyil, əməli hərəkətlərə rəhbər ola bilmək qabiliyyətində görürdü.

ƏDƏBİYYAT

1. Berkeley, G. Hylas ve Philonous Arasıda Üç Konuşma. Çev: K. Sahir Sel / G. Berkeley.– İstanbul: Sosyal Yayınlar, –1996. –144 s
2. Russell, B. Batı Felsefesi Tarihi: Modern Felsefe, Cilt 3, (çev. Ahmet Fethi) / B. Russell.– İstanbul: Alfa Yayınları, – 2020. –599 s.
3. Беркли Д. Сочинения / сост., общ. ред. и вступ., ст. И.С. SНарского / Д. Беркли.– Москва: Мысль, – 2000. – 560 с.
4. Berkeley, G. A New Theory of Vision and Other Writings / G. Berkeley. – Victoria: Leopold Classic Library, – 2016. – 338 p.
5. Hume, D. A Treatise of Human Nature : Vol. 1 / D. Hume, L.A. Selby-Bigge, –Norderstedt: hansebooks, – 2017. – 732 p.
6. Orr, J. David Hume and His Influence on Philosophy and Theology / J. Orr. – Sydney: Wentworth Press, – 2019. – 256.
7. Smith, N. K. The Philosophy of David Hume: A Critical Study of its Originsand Central Doctrines / N. K. Smith. – New York: Palgrave Macmillan, – 2005. – 600 p.

SUMMARY

Ismet Jafarova

SUBJECTIVE IDEALISTS: GEORGE BERKELEY AND DAVID HUME

The English Enlightenment is an indicator of how the Renaissance and Reformation followed a different development in England. The political and social atmosphere and the democratization efforts brought along the new social order, culture, politics and philosophy. In the XVIII century, when philosophically different views continued, new and solid views were put forward, especially in terms of moral and aesthetic philosophy. In terms of moral philosophy, egoism, pioneered by Bernard Mandeville and Thomas Hobbes, was the most active and dominant moral view of this period. Thomas Hobbes' view of selfishness was the central view of that period because other movements emerged in opposition to it and tried to prove that this view was harmful to society. On the opposite side, some rationalists and sentimentalists reject the view that man has a purely selfish nature. According to philosophers who are on the side of sentimentalists, people are selfish, but they also think about the benefit of society, that is, human nature is not bad. We can call these thinkers altruistic thinkers. These thinkers aimed to eliminate the problems created by the free market economy and the active moral movement that emerged in the 18th century. Moreover, the period in which George Berkeley and David Yume lived was a time when materialism was very influential and God and religion lost their importance. Moral collapse and perversions greatly disturbed G. Berkeley and D. Yume, and they thought that the cause of these consequences was materialism and the science of the period.

Key words: *George Berkeley, principles, three dialogues, David Hume, ideas and impressions*

NARDANƏ ƏLİYEVA
eliyevanardane@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0007-0627-3105

MÜSTƏQİLLİK DÖVRÜNDƏ "ŞƏRQ QAPISI" QƏZETİNDƏ ÇAP OLUNMUŞ MATERİALLARIN MÖVZU DAİRƏSİ

Müstəqillik dövrü "Şərq qapısı" qəzetində geniş yer tutan bədii-publisistik əsərlər ilk növbədə cəmiyyət həyatında mühüm əhəmiyyət kəsb edən ciddi mövzuların gündəmə gətirilməsi xüsusiyyəti ilə səciyyələnir. Müşahidələr deməyə əsas verir ki, o dövr mətbuatda söz sahibləri öz publisistik əsərlərində əsasən xalqın taleyində mühüm əhəmiyyət daşıyan məsələlərdən bəhs etmişlər. Bu sırada X.Sadıqovanın "İntiqamın intiqamı alınacaq", X.Kərimlinin "Bu torpağın daşı qandı ..." M.Məmmədovanın "Neft amilindən insan amilinə", "Serial xəstəliyi", "Tütün iyi, yoxsa çörək ətri" kimi publisistik əsərlərində insanları düşündürən müxtəlif mövzuların qələmə alındığını görürük. Yaradıcılıqlarında publisistikaya müraciət edən müəlliflər Azərbaycan şəhidindən dönə-dönə söz açmış, insanları yeni həyatın tələbləri ilə yaşamağa səsləmiş, qlobal dünyada var olmaqdan ötrü yeniləşmənin, mübarizə aparmağın zərurliyini nəzər nöqtəsinə çəkmişlər.

Açar sözlər: *Müstəqillik, publisistik, intiqam, xalq, tale, torpaq, mübarizə, serial*

Nəşr tarixi bir əsrdən artıq dövrü əhatə edən "Şərq qapısı" qəzeti müstəqillik illərində Naxçıvanda yaşayan ziyalıların ideya birliyi mərkəzinə çevrilmiş, milli ideologiya zəminində ictimai rəyin təntənəsinə nail olmuşdur. Ümumiyyətlə, XX əsrin 90-cı illərində "Şərq qapısı" qəzeti səhifələrində daha çox xalqın taleyüklü məsələlərindən bəhs edən bədii-publisistik materialların bir qədər geniş yer tutması müşahidə edilməkdədir. Naxçıvanda yaşayıb-yaradan qələm sahibləri, söz sahibi olan ziyalılar öz publisistik əsərləri ilə əsasən bütün cəmiyyəti düşündürən məsələləri gündəmə gətirmiş və bu məqamda hər bir Azərbaycan vətəndaşının qarşısında duran vəzifələrdən məxsusi söz açmışlar.

Təqdirolunası haldır ki, müstəqillik dövrü naxçıvanlı şair və yazıçıların publisistik yazılarında şəhidlik mövzusuna daha müntəzəm şəkildə müraciət olunması müşahidə edilməkdədir və fikrimizcə, bu, təsadüfi deyildir. Çünki sovetlər dönəmində Vətən uğrunda şəhid olanların unutdurulması istiqamətində sistemli iş aparılmış, bu yolla cəmiyyət üzvlərinə vətən sevgisinin aşılanması müəyyən mənada arxa plana keçirilmişdir. Dərsliklərə vətəndən ümumi şəkildə söz açılan əsərlərin salınması, faşizmə qarşı müharibədə həyatlarını itirmiş qəhrəmanlardan bəhs olunması da eyni məqsədə xidmət etmişdir. Lakin XX əsrin 90-cı illərində bütün dünyada gedən ictimai-siyasi proseslər bir daha sübut etdi ki, müstəqil dövlətçiyə gedən yol şəhidlikdən keçir. Əlbəttə ki, ictimai-siyasi həyatda baş verən proseslər publisistikada da öz əksini tapırdı və həmin qarşılıqlı təsir elmi düşüncənin də diqqətindən yayınmamışdır. Budur, 2 cildlik "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının I cildindən oxuyuruq: "Şəhidlik motivi Qarabağ müharibəsi və 20 yanvar 1990-cı il faciəsi mövzusunda yazılan əsərləri bir zəmində, Vətənin azadlığı, milli istiqlal uğrrunda savaş ideyası ətrafında birləşdirir. Həmin məqam 1990-cı illər ədəbiyyatında daha çox publisistika janrında təzahür edir" (4, s. 186).

Şübhəsiz ki, şair və yazıçılar öz yaradıcılıqlarında, eləcə də publisistik əsərlərində sanki bir mənəvi borc olaraq Azərbaycan şəhidlərinin xatirələrini əbədiləşdirməyə çalışdılar. Naxçıvanda yaşayıb-yaradan qələm sahiblərinin yaradıcılığına şəhidlik mövzusunun ciddi surətdə nüfuz etməsi S.Əliyevanın "Qarabağ mövzusu Hüseyn Razinin ədəbi-publisistik yaradıcılığında" məqaləsində belə mənalandıdırlmışdır: "Məqalənin davamında (söhbət Hüseyn Razinin "Şərq qapısı" qəzetinin 17 yanvar 1991-ci il tarixli sayında çap olunmuş "Çətin yollar ayrıcında" məqaləsindən gedir – N.Ə) Şəhidlər xiyabanına gedən Razinin ana torpağın fəryadı, gözüyaşlı anaların hönkürtüsü ilə sehrlənən məzarların, orada uyuyan övladlarımızın qanının yerdə qalmayacağına sonsuz inamı ifadə

olunmuşdur: “Biz indi belə ümid qaynaqları olan çətin yolların ayrıcındayıq. Uğur olsun bu yolda hünər və qeyrət göstərən övladlarımıza! Şəhidlərin ruhuna və məzarına pak ürəklə and içib azadlığın yolunda mətanətlə irəli gedənlərə uğur olsun” (1, s. 87).

“Şərq qapısı” qəzetinin 30 noyabr 1994-cü il tarixli sayında Xanəli Kərimlinin çap olunmuş “Bu torpağın daşı qandı...” adlı nekroloq-məqaləsində 1993-cü ildə Şahbuz rayonunun Mahmudoba kəndindən könüllü olaraq cəbhəyə yollanan və 1994-cü ildə döyüş səngərində həyatını itirən Afət Əşrəf oğlu Hacıyevin şəhidlik məqamına yüksəlməsindən danışılır. Maraqlıdır ki, müəllifin fikrincə, şəhid olmaq arzusu hər bir azərbaycanlının milli yaddaşının dərin qatlarından süzülüb gələn şəxsi mənəvi keyfiyyətidir, xalqımıza məxsus milli birliyin canla ödəniləcək sübutudur. Nekroloq-məqalənin sonunda şair-publisist X.Kərimli Vətən uğrunda canından keçməyin nə qədər şərəfli bir iş olduğunu vurğulayaraq yazırdı: “Sən şəhid oldun. Sənin şəhid olmağından cəbhədə vuruşan doğma qardaşın Elşadın hələ xəbəri yoxdur, Afət. Sonradan eşitdik ki, Elşadın ayaqlarını soyuq alıb. Gəncədə müalicədədir...

Elşad “görüşünə” gələndə səni yox, uğrunda şəhid olduğun müqəddəs Vətən torpağının bir “çimdiyini” – məzarını qucaqlayacaq, bağrına basacaq və deyəcək:

▪ Əgər bu bir qarış torpağımız olmasaydı, səni harda dəfn edərdik, qardaş? Uğrunda şəhidləşdiyin bu bir qarış torpaq ana südü kimi halalın olsun” (3, s.114).

O da var ki, müstəqillik illərində “Şərq qapısı” qəzetində çap olunmuş publisistik əsərlərin mövzu baxımından birbaşa Azərbaycan dövlətçiliyi ideyası ilə bağlı olması müşahidə edilməkdədir. Belə əsərlər sırasında M.Məmmədovanın “Neft amilindən insan amilinə”, yaxud “Serial xəstəliyi” məqalələrindən məxsusi söz açmağa ehtiyac vardır.

Məlum olduğu kimi, milli düşüncəmizdə neft amilindən insan amilinə keçid ideyasının müəllifi Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. M.Məmmədovanın “Şərq qapısı” qəzetinin 31 mart 2008-ci il tarixli sayında getmiş “Neft amilindən insan amilinə” adlı publisistik əsərində Ulu Öndər Heydər Əliyev siyasətinin ardıcıl davamçısı cənab İlham Əliyevin yeni tarixi mərhələdə Azərbaycanın inkişafı naminə aparıdığı mübarizədən danışılır. Daha doğrusu, adıçəkilən əsər böyük dövlət başçısı İlham Əliyevə məxsus fenomenal zəkanın milli şüurda təntənəsini ifadə etməkdədir: “... Bu gün milli sərvətimizlə firavan gələcəyimizin təməli qoyulur. Neftlə müstəqil Azərbaycanın gələcək inkişafına yol açılır. Bu yol insan amili ilə sıx bağlıdır. Məhz buna görə də neft amili insan amilinə, onun təhsilinə, sağlamlığına, inkişafına, rahatlığına çevrilir. Çünki insan amili ilə xalqımızın tarixi yaşaya bilər. İnsan amili ilə xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənələri qoruna bilər. İnsan amili ilə müstəqilliyimizin daimiliyinə, möhkəmlənməsinə karant yarana bilər. İnsan amili ilə milli ordunun varlığından söhbət gedə bilər. İnsan amili ilə Azərbaycan yüz il bundan sonra da Azərbaycan olaraq qalar, müstəqil yaşayar, inkişaf və tərəqqi edər” (4, s. 96).

Prinsip etibarilə M.Məmmədovanın “Neft amilindən insan amilinə” adlı publisistik əsərində oxucuya belə bir ideya təlqin olunmuşdur ki, müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən torpaqlarının azad edilməsinə işinə milli təfəkkürün fəthindən başlamışdır və bu isə müstəqqillik dövrü Azərbaycan publisistikasının uğuru demək idi.

ƏDƏBİYYAT

1. Əliyeva S. Qarabağ mövzusu Hüseyn Razinin ədəbi-publisistik yaradıcılığında // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Qərbi Kaspi Universiteti. “Ədəbiyyatda Qarabağ mövzusu” adlı Respublika elmi konfransının materialları. Bakı: 24 aprel 2021
2. Məmmədova M. Qəzet jurnalistikası. Bakı: Nurlar, 2010
3. Muxtaroğlu Ə., Rzazadə S. Şahbuzlu şəhidlər. Bakı: Şirvannəşr, 2009
4. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, I cild. Bakı: Elm və təhsil, 2016

SUMMARY

Nardana Aliyeva

SUBJECT RANGE OF MATERIALS PRINTED IN THE "EAST DOOR" NEWSPAPER DURING INDEPENDENCE

The period of independence, the artistic and journalistic works that occupy a large place in the newspaper "Eastern Gate" are primarily characterized by the feature of bringing to the agenda serious topics of great importance in the life of the society. Observations suggest that at that time, the owners of words in the press in their journalistic works mainly talked about issues of great importance for the fate of the people. At the same time, publicist works such as "Vengeance will be avenged" by X. Sadighova, "The stone of this land is blood..." by M. Mammadova, "From the oil factor to the human factor", "Serial disease", "Smell of tobacco or the aroma of bread" we see that various thought-provoking topics are written. Authors who turned to publicism in their works repeatedly talked about the martyr of Azerbaijan, called people to live with the demands of a new life, and pointed out the necessity of renewal and struggle in order to exist in the global world.

Key words: *Indipendence, publicistic, revenge, people, fate, land, struggle, series*

XALİD ƏLƏKBƏROV
khalid.alakbarov.ir@gmail.com
Bakı Dövlət Universiteti

AZƏRBAYCANLILARIN SOYQIRIMININ BEYNƏLXALQ SƏVİYYƏDƏ TANINMASI PROBLEMLƏRİ

Bu məqalə Azərbaycan soyqırımının beynəlxalq aləmdə tanınmasının təşviqi problemlərinə həsr olunub.

2024-cü il fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev işğaldan azad edilmiş Xocalı sakinləri qarşısında çıxış etdi. Dövlət başçısı

"Əfsuslar olsun ki, "Xocalıya ədalət!" çağırışımız cavabsız qaldı. Düzdür, 18 ölkə bizim səylərimizin nəticəsi olaraq bu qanlı faciəni soyqırımı kimi tanımışdır. Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır" deyə bildirdi.

Açar sözlər: *soyqırım, Xocalı, beynəlxalq hüquq, siyasət, diplomatiya.*

Bu məqalədə mən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı faciəsini beynəlxalq səviyyədə soyqırım kimi tanınmasının problemlərin səbəblərini müəyyən etməyə çalışıram. Azərbaycanlıların Soyqırımının, etnik təmizləmənin və digər cinayətlərin tanınması Azərbaycanın həm daxili, həm də xarici gündəmləri üçün əsas əhəmiyyət kəsb edir. Azərbaycanlıların soyqırımının beynəlxalq səviyyədə tanınması son dərəcə vacibdir. Azərbaycanlıların soyqırımının beynəlxalq səviyyədə tanınması uğrunda mübarizənin məqsədi ilk növbədə Ermənistanın Birinci və İkinci Qarabağ müharibələrinin günahkarı kimi tanınmasına yönəlib. Təbii ki, 2023-cü ilin 44 günlük lokal antiterror əməliyyatında Azərbaycan xalqının qələbəsi regionda ədalətin bərpası istiqamətində mühüm addım oldu.

Lakin Ermənistanın daxilindəki revanşist dairələr və xaricdəki antiazərbaycan lobbisi Ermənistanı "qurban", Azərbaycanı isə "işğalçı" kimi təqdim etməyə çalışırlar. Revanşistlər Azərbaycan dövlətinin təhlükəsizliyi və inkişafı üçün yeni təhdidlərə zəmin yaradırlar. Xaricdəki antiazərbaycan lobbilərinin fəaliyyəti isə Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunu aşağı salmaq və böyük dövlətləri ölkəmizə qarşı yönəltmək təhlükəsi yaradır. Bundan əlavə, düşmən qüvvələrinin hərəkətləri Cənubi Qafqaz regionunda xalqlar arasında sülhün və sabitliyin bərqərar olmasına xələl gətirir.

Birincisi, Azərbaycanın elmi cəmiyyəti soyqırımın həm hüquqi həm mənəvi-siyasi anlayışları və onun beynəlxalq aləmdə necə tanınacağını yenidən nəzərdən keçirməlidir. Nəzərə almaq lazımdır ki, hüquqi qiymətləndirmə mənəvi-siyasi qiymətləndirmə arasında əlaqə var. Məqalədə hüquqi qiymətləndirmə ilə məhdudlaşmamağı, və həmçinin mənəvi-siyasi qiymətləndirməyə diqqət yetirməyi təklif edilir.

Ermənistanın mənəvi və siyasi qınaqının təbliği Ermınistan tərəfindən törədilmiş Azərbaycana qarşı cinayətləri barədə məlumatı qlobal səviyyədə yayılmasında yaxşı vasitə olacaq. Beləliklə, siyasi və akademik dairələrdə azərbaycanlıların soyqırımı mövzusunun təbliğinə ümid etmək mümkün olacaq.

İkincisi, məqalədə erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri bütün cinayətlərin (xüsusilə 1987-ci ildən 1994-cü ilə qədər olan dövrdə) azərbaycanlıların soyqırımı konsepsiyası çərçivəsində birləşdirilməsinin zəruriliyi izah edilir.

ƏZİZ ZAMANOV
a.zamanov96@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0004-8282-4077

ELXANİLƏR DÖVRÜNÜN AZƏRBAYCAN FƏQİHLƏRİ

Bəhs edilən dövrün görkəmli fəqihləri və dövlət xadimlərindən danışarkən Tacəddin Urməvi, Həsən ibn Ömər Naxçıvani, Vəliəddin Baba Xətib Təbrizi, Bədrəddin Məhəmməd Naxçıvani və başqalarını da göstərmək olar. Onların fiqhə, siyasətə, dövlət idarəçiliyinə dair yazdıqları əsərlər ictimai-siyasi münasibətlərin tənzimlənməsinə, hüququn inkişafına qiymətli töhvələr olmuş, bütün islam aləminin hüquq-məhkəmə orqanlarının işçiləri tərəfindən geniş istifadə olunmuşdur. Bu gündə məqalə öz aktuallığını saxlayır və geniş şəkildə tədqiqat aparılmasına zərurət vardır.

Açar sözlər: *fəqih, fiqh, dövlət idarəetməsi, hüquq sistemi, dövlət xadimi, mütəfəkkir, qanunçuluq, dövlət quruluşu, hüquqi status.*

XIII-XIV əsrlər Azərbaycanda hüququn inkişafı, başqa sözlə deyilərsə Elxanilər dövlətinin hüququ iki dövrə bölünür. Təqribən 1256-1294-cü illəri əhatə edən birinci dövrdə hüququn əsasında Çingiz xan Yasası, 1294-1357-ci illəri əhatə edən ikinci dövrdə isə islam şəriəti dayanır. Lakin bunu həmişə mütləq hesab etmək olmaz. Belə ki, ilk monqol işğalları dövründə müsəlmanların hüquq və məhkəmə fəaliyyətinə monqollar tərəfindən qarışılmırdı. Sonradan Qazan xanın islahatları ilə Qazi əl-Quzat vəzifəsinin təsis edilməsi, qaziəlquzatın hökmdar tərəfindən təyini və qazilərin ancaq şəriət qanunlarına tabe olması da hüquqdakı bu ikiliyi aradan qaldırmamışdı. Ümumiyyətlə, islamın meydana çıxmasından sonra bütün zamanlarda və bütün islam dövlətlərində cəmiyyətin hüquqi münasibətləri iki əsasda tənzimlənmişdir: dövlət tərəfindən yaradılan qanunlar və şəriət qanunları. Ümumiyyətlə, islam tarixində dünyəvi hökmdarlar ruhani fəqihlərlə toqquşmaqdan həmişə çəkinmişlər. Bəziləri öz zəif mövqeləri, digərləri isə dinlə yaxın bağlı olduqlarına görə. Lakin bu o demək deyildir ki, hökmdarlar heç vaxt bütünlüklə qanunvericilik səlahiyyətlərini ələ almağa, eləcədə fəqihlər hökmdarların səlahiyyətlərini məhdudlaşdırmağa cəhd göstərməmişlər.

Beləliklə, demək olar ki, müsəlman hüququ elxanilərin ilkin zamanlarında cəmiyyət həyatının bəzi sahələrini, sonralar isə bütün hamısını əhatə etmişdi. Hərçənd ki, əvvəllər olduğu kimi, bəhs edilən dövrdə də hüququn bəzi sahələrində başlıca olaraq dövlət hegemonluq etmişdi. Bunu da qeyd etmək lazımdır ki, bəzi hallar istisna olmaqla, Hülakülər zamanından əvvəllər də, sonralar da müsəlman hüququnda mühüm dəyişmələr baş verməmişdir.

Qeyd etmək lazımdır ki, dövründən, məzhəbindən və özünün dünyagörüşü səviyyəsindən asılı olaraq, müsəlman fəqihlərinin yazdığı fiqhə dair əsərlərdə, yaratdıqları hüquq təlimlərində fərqlər olmuşdur. Lakin demək olar ki, onların hamısında oxşar ardıcıllıqla mülki hüquq, ailə hüququ, cinayət hüququ, ədalət məhkəməsinin həyata keçrilməsi qaydaları və s. işlənmiş və yerləşdirilmişdir.

XIII-XIV əsrlərdə baş verən viranedici monqol basqınları və dəhşətli dağıntılar, bunları əvəz edən ağır vergilər və istismar Azərbaycan xalqının irəliyə doğru sosial-mədəni inkişafını dayandıra bilməmişdi. İşğalçılar tədricən özlərindən qat-qat yüksək mədəni səviyyədə olan Azərbaycan xalqının mədəni təsirinə məruz qalır, özlərindən asılı olmayaraq, elmi və mədəniyyətin inkişafına fikir verməli olurdular. Ayrı-ayrı elxani hökmdarları (Hülakü xan, Qazan xan, Ulcaytu xan və b.) dövləti möhkəmləndirmək və hakimiyyətlərini gücləndirmək məqsədilə elmin, mədəniyyətin qayğısına qalırdılar. Zəmanəsinin görkəmli dövlət xadimi, alimi və mütəfəkkiri olan, Qazan xanın və Ulcaytu xanın sarayında ali dövlət vəzifələri daşıyan Fəzlullah Rəşid-əd-din, habelə Nəsirəddin Tusi və başqaları Hülakü xanları ilə yaxın münasibətlərindən istifadə edib, elmin və mədəniyyətin, o cümlədən hüquq elminin inkişafına təkan verirdilər.

Rəşid-əd-dinin birbaşa məsləhəti və yaxından iştirakı ilə Hülakülərin Təbrizdə açdıqları ali mədrəsədə, habelə Yaxın Şərqin Bağdad, Dəməşq, Hələb və b. şəhərlərində dövrün onlarla məşhur hüquqşünasları yetişmişdilər. Bunlardan biri XIV əsrdə yaşamış çox məşhur hüquqşünas, tarixçi, mütəfəkkir olan Məhəmməd ibn Fəxrəddin Hinduşah Naxçıvani idi.

Bir çox müasirləri kimi, Yaxın Şərqin məşhur elm ocaqlarında təhsil almış Məhəmməd Naxçıvani uzun illər ərzində Hülakülər dövlətinin baş münşisi (dövlət katibi) və baş qazısı vəzifələrində işləmişdi. Fəzlullah Rəşid-əd-dinin oğlu Qiyasəddin Məhəmmədlə dostluq edən Məhəmməd Naxçıvani onun məsləhəti ilə 1360-cı ildə "Dəstur əl-katib fi təyin əl-məratib" ("Vəzifələrin müəyyən edilməsinə dair katib təlimatı") adlı əsərini yazmış və dövrünün hökmdarı Sultan Şeyx Üveys Cəlairiyə ittihaf etmişdi. Əsərdə XIV əsr Azərbaycan dövlətlərinin idarəçiliyi, dövlət quruluşu və hüquq münasibətləri barəsində qiymətli mülahizələr irəli sürülmüşdü.

XIII əsrlərin ən məşhur fəqihlərindən (hüquqşünas) biri də Əbdül-kərim əl-Qəzvini ər-Rafiidir. Onun "Müxtəsər fiqh", "Mühərrir", "Miftəh əl-cinan" kimi əsərləri, habelə digər alim və fəqihlərin əsərlərinə yazdığı çoxcildlik şərhlər o qədər mükəmməl və ətraflı olmuşdur ki, bir neçə əsr ərzində qazıların-müftilərin stolüstü kitabı olmuş, müasirləri tərəfindən olduqca yüksək qiymətləndirilmişdi.

XIV əsrdə yaşamış çox görkəmli digər bir azərbaycanlı fəqih Cəmaləddin Yusif əl-Ərdəbili olmuşdur. Onun "Ənvar li əməlul-əbrar" ("Ədalət işlərinin işıqları"), "Fəraiz", "Əl-Əzhar" və digər əsərləri orta əsrlərdə fiqhdə ən çox istifadə olunan əsərlərdən olmuşlar. Müsəlman hüququna həsr olunmuş "Ədalət işlərinin işıqları" əsərində orta çağlarda başlıca olaraq mülki hüquq və ailə hüququ məsələlərindən bəhs olunurdu. Bunlarla yanaşı, əsərin ayrı-ayrı bölmələrində qulların hüquqi statusu, məhkəmə dindirmələri kimi məsələlər də yer almışdı.

Bəhs edilən dövrün görkəmli fəqihləri və dövlət xadimlərindən danışarkən Tacəddin Ürməvi, Həsən ibn Ömər Naxçıvani, Vəliəddin Baba Xətib Təbrizi, Bədrəddin Məhəmməd Naxçıvani və başqalarını da göstərmək olar. Onların fiqhə, siyasətə, dövlət idarəçiliyinə dair yazdıqları əsərlər ictimai-siyasi münasibətlərin tənzimlənməsinə, hüququn inkişafına qiymətli töhvələr olmuş, bütün islam aləminin hüquq-məhkəmə orqanlarının işçiləri tərəfindən geniş istifadə olunmuşdur. Sonuncu adı çəkilən çox görkəmli hüquqşünas Bədrəddin Naxçıvani xəlifə Möhtəsimin saray xadimlərindən olmuşdur.

Əvvəllər olduğu kimi, XIII-XIV əsrlərdə də görkəmli Azərbaycan mütəfəkkirləri və fəqihləri dövlət idarəçiliyi və cəmiyyətin ən yaxşı quruluşu barədə maraqlı mülahizələr irəli sürürdülər.

XIII əsr Azərbaycanın çox görkəmli hüquqşünaslarından və mütəfəkkirlərindən biri Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi (1198-1283) idi.

Urməvi "Hikmət incəlikləri" və "Nurların doğuşları" adlı əsərlərində göstərirdi ki, "cəmiyyətin siyasi həyatında hüquq və qanunçuluq müstəsna əhəmiyyət kəsb edir. Hüquq və qanunçuluğun, habelə düzgün dövlət idarəçiliyinin həyata keçirilməsində isə mühüm şərt ədalətin olmasıdır. Ədalət öz mahiyyətinə görə ibadətdən ucada dayanır. Çünki ibadət bir şəxsin mənafeyi ilə bağlıdır, ədalət ictimai mahiyyət daşıyır. Ədalətli sultanın bir günlük ədaləti, altmış min ibadətindən yaxşıdır".

Mütəfəkkirin fikrincə, birisinin sahib olduğu və hər vəchlə əldə saxlamağa çalışdığı xüsusi mülkiyyət başqasının tamahını doğurduğu üçün həmin şeyi o kəsdən zorla almaq istəyir. Əgər hüquqi qaydada lazımi tədbir görülməzsə, özbaşınalıq hökm sürər, ictimai münasibətlər pozular. O yazırdı: "Xalq arasında təhrikedici (sövqedici) və qadağanedici gərəkdir ki, zülm və zorakılıq aradan qalxa və ya azala, bununla aləmin (cəmiyyətin) nizamı baqi qala". Ürməvi başçı ilə rəiyyəti insan orqanizminə bənzədərək, qeyd edirdi ki, başçı rəiyyətdən faydalanır. Ona görə də başçı gərək rəiyyətin mənafeyini gözləyə, onu qoruya. "Belə etməyən padşahın başçılığı məcazi mənadadır və hakimiyyətdə onun quruca adı var".

Urməvi padşahla adamların məsləhətləşməsinin iki formasını göstərirdi: aşkar və gizli məsləhətləşmə. Birincidə hökmdar öz rəyini qabaqcadan bildirmir, hamını açıq dinləyir, sonra qərar qəbul edir. İkincidə padşah hər kəslə ayrı-ayrılıqda görüşür və onların rəyini öyrənir.

Urməviyə görə, "padşah rəiyyətə münasibətində soyuqqanlı, ağıllı olmalı, ölçülüb-biçilmiş qərar çıxarmalıdır ki, ölkədə firavanlıq olsun. Xalqın güzəranının yaxşılaşması naminə düzgün ədalətli qayda-qanun yaradılmalıdır".

Urməvi dövlət idarəçiliyi işində cəza tədbirlərini də nəzərdən keçirmişdir. Onun fikrincə, "xalqın qorunması canilərin və ümumiyyətlə, cinayətkarların ciddi cəzalandırılmasını tələb edir. Bu başqaları üçün də dərs olar".

Urməvinin fikrincə, ölkədə hüquq və qanunçuluğun bərqərar olması üçün bütün insanların hüquq bərabərliyi təmin olunmalıdır. Aristotel kimi ifrata varmamağı mühüm prinsip kimi irəli sürürdü. O, haqq ədalət işini hər şeydən, hətta peyğəmbər nüfuzundan da üstün hesab edirdi. Ədalət bolluq və firavanlığın rəhnidir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi I cild. Bakı: 1958
2. Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: 2002
3. Şükür Məmmədov. Dövlət və hüquqi təlimlər. Naxçıvan: 2013
4. Yusif Rüstəmov. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: 2000
5. Əhməd Zəki Vəlidi Toğan. Ümumi türk tarixinə giriş. İstanbul: 1981
6. E.Cəlilov. Azərbaycanın dövlət və hüququ. Bakı: 1995
7. https://www.history.az/

GÜLVİRA ABBASOVA
gulvira_abbasova@mail.ru
AMEA Naxçıvan Bölməsi

NAXÇIVAN VƏ İNGİLİS FOLKLOR ÖRNƏKLƏRİNDƏN ƏLDƏ OLUNAN FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə ingilis və Naxçıvan folklor materiallarından toplanmış frazeoloji vahidlərin struktur-semantik xüsusiyyətlərindən, müxtəlif sistemli iki dildə bu vahidlərin oxşar və fərqli cəhətlərindən bəhs edilir. İdiomların əsas xüsusiyyəti tərkib hissələrinin ayrılmaz olması və leksik mənasından tamamilə fərqli olmasıdır. İdiom dildəki frazeoloji ifadələrin məcmusudur. Frazeoloji vahidlərdə mühüm rol oynayan deyimlər semantik cəhətdən üç yarımqrupa bölünür: real, leksik, hərfi idiomlar. Bu məqalədə bu yarımqrupların xarakterik xüsusiyyətləri, bu deyimlərə aid ingilis dilində nümunələr verilmiş və onların Naxçıvan ləhcəsindəki ekvivalentləri tapılmış və araşdırılmışdır.

Açar sözlər: *Naxçıvan, İngilis dili, frazeoloji birləşmələr, semantika, idiom*

"Frazeologiya" mənşəcə yunan sözüdür. Pharasis (ifadə, ibarə) və logos (elm) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu termin dildə olan frazeoloji söz birləşmələrinin cəmini bildirir [1, s. 405]. Hər bir dil öz leksik, qrammatik quruluşuna, frazeoloji tərkibinə görə başqa dil ailələrindən seçilir. Məhz bunun nəticəsidir ki, xüsusilə xalq danışıq dilində işlənən frazeoloji birləşmələri sözbəsöz başqa dilə tərcümə etmək olmur. Məlumdur ki, frazeologizmləşmə prosesində sabit söz birləşməsinin tərəfləri arasında məna tamamilə itir və yeni vahid meydana çıxır. Belə frazeoloji birləşmələri digər dildə ifadə etmək üçün ya tam, ya da qismən ekvivalent tapılır. Lakin müxtəlifsistemli dillərdə bəzən frazeoloji birləşmənin nə tam, nə də qismən ekvivalentini tapmaq mümkün olur. Tam və qismən ekvivalenti olmayan frazeoloji birləşmələr xalqın adət və ənənəsi, həyat tərzi, dünyagörüşü əsasında yaranan özünəməxsus vahidlərdir. İngilis dilində də bir çox frazeoloji vahid və idiomlar vardır ki, onların ekvivalentini azərbaycan dilində ifadə etmək çətinlik doğurur.

Frazeoloji biləşmələr sərbəst söz birləşmələri hesabına yarandığından buraya daxil olan bir qrup birləşmələr, həm sözün həqiqi, həm də məcazi mənasında işlənə bilər. Naxçıvan dialekt və şivələrində belə misallara çox rast gəlmək olar. Məsələn; "pişiyini ağaca dırmaşdırmaq (bir kəsi sıxışdırmaq), əli qulağında olmaq (tezliklə xəbər çıxmasını gözləmək)" [2, s. 224]. Bu birləşmələr sabit söz birləşməsi olduqda məcaziləşir, öz leksik mənasından uzaqlaşır. Yəni bütöv və ayrılmaz mənanı bildirir. Sərbəst birləşmə kimi işlənəndə öz leksik mənasını qoruyub saxlayır, tərkib üzvlərinin mənası ilə əlaqədar olur.

Frazeoloji vahidlərin bir növü olan idiomlar mətndə mövzuya ifadəlilik verən, mənanı qüvvətləndirmək üçün təsirli vasitədir. İdiomlar həqiqi mənalı sözlərin qarşılığı olub, onu məcazi məna ilə bildirən sabit söz birləşmələridir. İdiomlar haqqında vahid fikir formalaşdırmaq mümkündür. Belə ki, idiomların əsas xüsusiyyəti onların tərkib hissələrinin ayrılmaz olması və idiomun leksik mənası ilə onun tərkibindəki sözlərin mənası arasnda heç bir əlaqənin olmamasıdır. İdiomları semantik cəhətdən bir neçə yarımqruplara bölmək mümkündür. Apardığımız araşdırmada ingilis dilində bu növ idiomlara aid nümunələr və onların Naxçıvan folklorunda qarşılığını müəyyən etmişik.

1) əsl (frazeoloji) idiomlar
2) leksik idiomlar
3) hərfi idiomlar

Əsl (frazeoloji) idiomlar, məcazi mənada işlənən, başa düşülməsi çətin olan sözlərin birləşməsindən əmələ gələn idiomlar nəzərdə tutulur. Belə söz birləşmələri tam idiomatik xüsusiyyətlərə malik olur və kontekst daxilində işlənən mənanı ifadə edir.

Gild refined gold - "Ələkçiyə qıl vermək" [2, s. 227].
Cut somebody's dead – "qulaqardına vurmaq" [2, s. 226]
Get on one's herves – "nalı, mıxı vurmaq" [2, s. 226]

Get one's cap at somebody – "hamam suyu ilə özünə dost tutmaq" [2, s. 224]
Swan around – "burnu yelli olmaq" [2, s. 227]
Busybody – "bir ağacda oturub min birini silkələmək" [2, s. 224]
Cheapskate – "Çömləktə noxut saymaq, qılı qırx yerə bölmək" [2, s. 225]
Climb the walls // go bananas – "burnuna duzlu su qoymaq" [2, s. 225]

Leksik idiomlar (semi-idioms) - Komponentlərdən biri qismən və ya tamamilə öz həqiqi mənasını saxlayan idiomlardır. Əsl idiomlarda hərfi mənanın mövcudluğu qeyri-mümkün olduğu halda, leksik idiomların tərkibində hərfi və məcazi mənalı söz olur. Məcazi mənalı söz həmin birləşmə daxilində məcazi məna daşıyır, ayrılıqda işləndikdə isə yalnız hərfi məna ifadə edir. Bu tip idiomların leksik idiom adlanmasının səbəbi tərkibindəki bəzi komponentlərin müstəqil leksik mənasının olması, digər komponentlərin isə həmin birləşmə tərkibində yeni leksik məna qazanmasıdır.

Send a shiver down one's spine –"gözünün odunu almaq" [2, s. 224]
Too see red – "əlindən zəncir çeynəmək, cin atına minmək" [2, s. 226]
Take the bull by the horns – "kirpiklərilə od götürmək" [2, s. 228]
Pull the wool over somebody's eyes – "gözə kül üfürmək" [2, s. 236]
Make one's life a misery – "anadan əmdiyini burnundan gətirmək" [2, s. 226]
Add more fuel to the fire – "qırx qazana çalası olmaq" [2, s .225]
Take pains to do something – "xətir üçün xəstə yatmaq" [2, s. 228]
Get your knickers in a twist – "tüstüsü təpəsindən çıxmaq" [2, s. 225]
Bend over backwards – "çörəyi daşdan çıxmaq" [2, s. 225]
Be left holding the baby – "Qüsul suyunu başqasının başına tökmək" [2, s. 224]
Follow in one's footsteps – "ayran içib ayrı düşmək" [2, s. 226]
Butter someone up – "iynənin ulduzunda keçmək, züy tutmaq" [2, s. 225, 227]
Go pear // shaped – "arzusu gözündə qalmaq" [2, s. 226]
When all is said and done – "gönü suya vermək" [2, s. 224]
Beat about/ around the bush – "nala-mıxa vurmaq" [2, s. 226]

İngilis dillində leksik idiomlara aid kifayət qədər nümunələr tapmaq mümkündür. Həmçinin Naxçıvan folklor örnəklərindən alqış, qarğış, xalq hikmətləri və s. kimi nümunələrə nəzər saldıqda leksik idiomlara aid ifadələr görə bilərik. Məsələn, "pis gözə gəlməyəsən", "bağlı qapıların açılsın", "min budağ olasan" [2, s. 100]. Qeyd etdiyimiz ifadələrdə "pis göz", "bağlı qapı", "min budaq" söz birləşmələri leksik idiomlara aid etmək olar.

İdiomların digər yarımqrupuna ***hərfi idiomlar (literal idioms)*** daxildir ki, onların bütün komponentləri müəyyən dərəcədə öz hərfi mənalarını saxlayır, lakin bütöv birləşmənin konkret mövzu çərçivəsində məcaziliyi olur. Hərfi idiomların mənasını başa düşmək frazeoloji və leksik idiomlarla müqayisədə daha asandır. Belə idiomlara misal olaraq, merry Christmas, a happy holiday və s. göstərmək olar. Əslində ilk baxışdan bu kimi ifadələr sırf idiom deyildirlər, lakin birləşmə bütövlükdə məcazilik ifadə etdiyindən onları hərfi idiomlar qrupuna daxil etmək olar.

Frazeologizmlər dilin zəngin xəzinəsi hesab edilir. İstər ingilis dili, istərsə də Azərbaycan dilində bu zəngin xəzinənin daim öyrənilib araşdırılmasına ehtiyac vardır. Nəticə olaraq, onu qeyd etmək lazımdır ki, ingilis və Azərbaycan dillərində frazeoloji birləşmələr haqqında bir çox araşdırılmalar aparılmışdır. Lakin fikrimizcə ingilis dilində mövcud olan frazeologizmləri Azərbaycanın Naxçıvan bölgəsinin dialekt və şivələrindən toplanmış materiallar əsasında araşdırılmasında fayda var. Biz də öz növbəmizdə frazeologizmlərin semantik cəhətdən müxtəlifsistemli dillər olan ingili və Azərbaycan dillərində (Naxçıvan dialekt və folklor nümunələri əsasında) araşdırmağa çalışmışıq.

ƏDƏBİYYAT

1. Bayramov İ. Azərbaycan dialektologiyası. Ankara: İKSAD Publishing House, 2022, 460 s.

2. Naxçıvan folkloru antologiyası. 3 cilddə, II cild. Naxçıvan: "Əcəmi" NPB, 2011, 488 s.

SUMMARY

Gulvira Abbasova

STRUCTURAL-SEMANTIC CHARACTERISTICS OF PHRASEOLOGICAL COMBINATIONS OBTAINED FROM EXAMPLES OF NAKCHIVAN AND ENGLISH FOLKLORE

The article deals with the structural-semantic features of phraseological units collected from English and Nakhchivan folklore materials, and the similarities and differences of these units in two languages with different systems. The main feature of idioms is that the constituent parts are inseparable and completely different from their lexical meaning. An idiom is a set of phraseological phrases in a language. Idioms which play an important role in phraseological units, are semantically divided into three semi-groups: real, lexical, literal idioms. In this article, it was investigated the characteristic features of theese semi-groups, and examples of these idioms in English and their equivalents in the Nakhchivan dialect.

***Key words**: Nakhchivan, English, phraseological units, semantics, idiom.*

VASİLƏ ABBASOVA
vasileabbasova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009 0002 6821 1244

BƏXTİYAR VAHABZADƏNİN DİL VƏ ÜSLUB ÖZƏLLİKLƏRİ

Bəxtiyar Vahabzadənin poeziyası hələ sağlığında araşdırılmış, müxtəlif alimlər bu haqda bir-birindən maraqlı fikirlər söyləmişlər. Onun barəsində dilcilik elmi cəhətdən akademik Nizami Cəfərov, Əməkdar elm xadimi, professor Yusif Seyidov, professor Sədaqət Həsənova və digər tədqiqatçılar elmi-nəzəri təhlillıar aparmışdırlar. Bu təhlillər nəticədində şairin dilinə dəyər verilmiş, ədəbi dildəki fəaliyyəti qiymətləndirilmişdir. Çağdaş Azərbaycan ədəbi dilində Bəxtiyar Vahabzadə dilimizə, onun saflığına yüksək münasibət göstərən şairlərdəndir. Şairin ana dilində yazdığı əsərlər hamı tərəfindən rəğbətlə qarşılanmışdır. Dilimizin çox qiymətlui mənəvi sərvət olduğunu şeirləri ilə təsdiq edən şairin poeziyası maraqlı üslub faktları ilə zəngindir. Hər bir ədəbi simanın öz üslubu vardır. Belə ki, bədii üslub söz adamlarını birləşdirsə də, onların özünəxas üslublarının olması ədəbi dildəki mövqeyini müəyyənləşdirir. Əslində, həyata, cəmiyyətə, sənətə orijinal baxışları, yeni poetik düşüncə formaları ilə seçilən Bəxtiyar Vahabzadə poeziyasının tədqiqat obyektinə çevrilməsi aktual msələlərdən biridir. Bəxtiyar Vahabzadənin poeziyasına linqvistik baxış onun yaradıcılığının mahiyyətinin açılmasında, leksik-semantik və üslub xüsusiyyətlərinin öyrənilməsində mühüm rol oynayır. Bu prosesdə şairin dilindəki orijinal və fərqli cəhətlər aşkarlanır. Bundan başqa, şairin dil özəlliklərini araşdırılması Azərbaycan poetik dilinin rəngarəngliyini təqdim edə bilir. Belə ki, poeziyada bədii üslub vasitələri qədim zamanlardan mılum olsa da, dəyişməz olsa da, şair çağdaş Azərbaycan şeirində onların yeni formalarına nail olmuş, söz və ifadələrdən istifadə bacarığı ilə seçilmişdir. Poetik ehtiras və yüksək sənətkarlığa Bəxtiyar Vahabzadənin, demək olar ki, bütün əsərlərində rast gəlirik. Şairin dilindəki təkrarlar, nidalar, xitab və sual cümlələri maraqlı üslub çalarları yaradır. Bəxtiyar Vahabzadənin dil və üslub xüsusiyyətləri göstərir ki, şairin yaradıcılığı linqvistik baxımdan araşdırılmağa layiqdir.

Açar sözlər: *Ədəbi aləmdə tanınan və həmişə xalqımızın yüksək münasibət göstərdiyi şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Onun əsərləri təbiət və cəmiyyətin reallıqlarını əks etdirir. Bu əsərlərdə şairin müşahidə və təəssüratlarının, müxtəlif talelərin, duyğu və düşüncələrin izi görünür. Yəqin ki, Bəxtiyar Vahabzadənin dilinin sadəliyi və gözəlliyi bunlarla əlaqəlidir. Sənətkarın qəlbindən gələn sözlər axıcı dil ilə oxuculara çatdırılır. Onun poeziyası millətinə, vətəninə, insanlara sevgi ilə doludur.*

Bəxtiyar Vahabzadənin poeziyası hələ sağlığında araşdırılmış, müxtəlif alimlər bu haqda bir-birindən maraqlı fikirlər söyləmişlər. Onun barəsində dilcilik elmi cəhətdən akademik Nizami Cəfərov, Əməkdar elm xadimi, professor Yusif Seyidov, professor Sədaqət Həsənova və digər tədqiqatçılar elmi-nəzəri təhlillər aparmışdırlar. Bu təhlillər nəticəsində şairin dilinə dəyər verilmiş, ədəbi dildəki fəaliyyəti qiymətləndirilmişdir.

Çağdaş Azərbaycan ədəbi dilində Bəxtiyar Vahabzadə dilimizə, onun saflığına yüksək münasibət göstərən şairlərdəndir. Şairin ana dilində yazdığı əsərlər hamı tərəfindən rəğbətlə qarşılanmışdır. Dilimizin çox qiymətli mənəvi sərvət olduğunu şeirləri ilə təsdiq edən şairin poeziyası maraqlı üslub faktları ilə zəngindir. Hər bir ədəbi simanın öz üslubu vardır. Belə ki, bədii üslub söz adamlarını birləşdirsə də, onların özünəxas üslublarının olması ədəbi dildəki mövqeyini müəyyənləşdirir. Əslində, həyata, cəmiyyətə, sənətə orijinal baxışları, yeni poetik düşüncə formaları ilə seçilən Bəxtiyar Vahabzadə poeziyasının tədqiqat obyektinə çevrilməsi aktual msələlərdən biridir. Bəxtiyar Vahabzadənin poeziyasına linqvistik baxış onun yaradıcılığının mahiyyətinin açılmasında, leksik-semantik və üslub xüsusiyyətlərinin öyrənilməsində mühüm rol oynayır. Bu prosesdə şairin dilindəki orijinal və fərqli cəhətlər aşkarlanır. Bundan başqa, şairin dil özəlliklərini araşdırılması Azərbaycan poetik dilinin rəngarəngliyini təqdim edə bilir. Belə ki, poeziyada bədii üslub vasitələri qədim zamanlardan məlum olsa

da, dəyişməz olsa da, şair çağdaş Azərbaycan şeirində onların yeni formalarına nail olmuş, söz və ifadələrdən istifadə bacarığı ilə seçilmişdir. Şairin aşağıdakı sözlərini onun özünə də şamil etmək olar:

Göydə qürub çağı da, dan yeri də gözəldir.
Həyatın sevinci də, kədəri də gozəldir.
Həyat - bir cıdır düzü, bir döyüş meydanıdır.
Hər kəsi öz curəti, öz qudrəti tanıdır (3, 11).

Bəxtiyar Vahabzadənin adı gələndə, ilk növbədə ana dilinə aid əsərləri yada düşür. Bu əsərlərin dili o qədər cazibədardır ki, onlar asanlıqla əzbərlənib yaddaşlarda qalır. Şairin "Ana dili" şeri bu baxımdan çox maraqlıdır. Burada şair bir müəllim kimi dilimizin önündə gələn "ana" epitetinin anlamını izah edir. "Ana" sözünün doğmalığını bildirmək üçün onun insanın ilk danışığında işlənən söz olmasına diqqəti çəkir. Bundan başqa, şair ilk dərsliyimizin "Ana dili" adlanmasını da bununlıa izah edir:

Dil açanda ilk dəfə ana soyləyərik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz (3, 8).

Bəxtiyar Vahabzadə dilimizin ulu babalarımızdan miras olduğunu və onu qorumağın vacibliyini müdrik kəlamlarla ifadə edir:

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Urəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qudrətinlə dünyalara yol açmış (3, 8).

Bəxtiyar Vahabzadə Azərbaycanın minillik poeziya ənənəsinə sadiq şairlərdəndir. O, "Şənbə gecəsinə gedən yol" əsərində yazır: "Ənənə heç vaxt yalnız bir rəngin, bir səsin müdafiəsi demək deyil. Ənənə kökə sədaqətdir. Sənət aləmində yenilik şüarı ilə meydana çıxanlar əksərən yeniliyi kənarda axtarır, öz milli ənənəsini bəyənmir, kökünə, şirə çəkdiyi torpağa dodaq büzür. Qəribə burasıdır ki, belələri yeniliyi özgəni yamsılamaqda görür." (4, 245). Şairin poetik örnəklərində bu fikirlər bədiiləşdirilir:

Nəsənsə, özün ol!
Təzəsən onda,
Sən kohnə olursan yamsılayanda!
Nəsənsə, özün ol,
Kokundən yapış!
Dunənə arxalan,
Bu gundən yapış! (3, 38).

Nəsr dilinə aid olan keyfiyyətləri bəzən şairin poeziya dilində də müşahidə edirik. Onun elə əsərləri vardır ki, nəsrlə nəzmin hüdudunda dayanır. Xüsusilə də əsərlərinin diolindəki dialoqlar bu cəhətdən səciyyəvidir:

Kimdir mənim
Duşmənim?
Yaxşımı qoyub
Yamanımı danışanmı?
Yox!
Eyblərimi deyib
Arxamca gulənmi?
Yox!..
Mənim nöqsanlarımı
Məndən yaxşı bilənmi?
Yox! Yox! Yox!(3,13).

Şerin mətnindən göründüyü kimi o, maraqlı bir dialoq əsasında qurulmuşdur. Bu, şairin iç dqünyası ilə danışığı, öz-özü ilə dialoqudur. Adama elə gəlir ki, iki nəfər bir-biri ilə müsahibə aparır. Bəxtiyar Vahabzadə dil-üslub baxımpından zəngin yaradıcılığa malikdir. O, dilimizin bütün imkanlarından istifadə edərək möhtəşəm əsərlər yazmışdır. Sözdən istifadənin bütün qaydalarına

əməl edən şair fərqli və məanlı ifadələri ilə xalqımızın söz sərvətini bollaşdırmışdır. O özü sözə dəyər verdiyi kimi, hamıda bu hissi aşılamaq istəyir. Şeirlərinin birində o, sözü önündə baş əyilməli bir sərvət kimi dəyərləndirir:

Yaxşı söz onundə siz də baş əyin,
Şair ki, yığmayır sozləri yerdən (42).

Bəxtiyar Vahabzadə filosof şairdir. Onun şeirlərini oxuyanda sanki dünyanı ayrı cür təsəvvür edirsən. "Şair yenilik xatirinə yazmaq istəmir, təzə söz istəyir, sənətin, şerin, sözün ilhamla yaranmasını arzulayır. Çünki kəlmələr söz xatirinə deyiləndə quru olur, qəlbə təsir edə bilmir, lakin ilhamla deyiləndə təzələnir, təravətli olur" (1, 266). Şairin sözləri gözəl olduğu kimi fikirləri də təravətli və təsiredicidir:

Şairi kimsəyə dəyişmərəm mən,
Onlar hər cilvədə min sirr axtarır.
İdrakm irişməz dərinliyindən
Onlar söz axtarmır, fikir axtarır (3, 42).

Professor Tofiq Hacıyev aşağıdakı sözləri ilə şairin dilini yüksək qiymətləndirmişdir: "Bəxtiyarın həyata elmi-fəlsəfi baxımdan nüfuzu yalnız mühakimələrində, bədii məntiqində, poetik sintaksisində deyil, həm də konkret şəkildə elmi üsluba məxsus leksikadan, müxtəlif düşüncə sahələri ilə bağlı terminoloji lüğətdən istifadəsində görünür"(2, 44)

Poetik ehtiras və yüksək sənətkarlığa Bəxtiyar Vahabzadənin, demək olar ki, bütün əsərlərində rast gəlirik. Şairin dilindəki təkrarlar, nidalar, xitab və sual cümlələri maraqlı üslub çalarları yaradır. Aşağıdakı şeirin dilində maraqlı bir xitab işlənmçişdir. Belə ki, şair könülə müraciət etməklə atalar sözləri səviyyəsində nəsihətli fikirlər irəli sürmüşdür:

Bir gunəş bəs edər, pərişan olma,
Sənin yüz Kür qədər göz yaşın olsa.
Min dərd hücum etsə, könül, sıxılma,
Bir nəfər dərd bilən sirdaşın olsa (3, 10).

Klassik ədəbi dildən üzü bəri könüldən bəhs edənlər az olmayıb. Lakin XX yüzillikdə Mikayıl Müşfiq və Bəxtiyar Vahabzadə yeni üslub çaları ilə "könül" leksik-qrammatik vahidini bədii xitab kimi işlədiblər.

Bəxtiyar Vahabzadənin dilində çox sayda hikmətli fikirlərlə qarşılaşırıq. Bu fikirlər iki cürdür:

1. Azərbaycanın xalq müdrikliyini ifadə edən atalar sözlərinin bədiiləşdirilməsi yolu ilə təqdim edilən fikirlər.
2. Şairin öz qələminə məxsus olan hikmətli ifadələr.

Birinci qrupa aid olan aforizmlərə aşağıdakıları örnək göstərmək olar:

Gəl təzə nırx qoyma kohnə bazara! (3, 36)
Yad yerin halvası çox şirin olar .
Ot kökü ustundə bitər, unutma (3, 37).

Nümunələrdən göründüyü kimi, el arasında məşhur olan atalar sözləri azca dəyişikliklə şeir dilinə gətirilmişdir. Şairin dilindəki hikmətlər bunlarla mıəhdudlaşmır. O, dilimizin mənalarından bacarıqla istifadə edərək maraqlı və orijinal hikmətli ifadələrə imza atmışdır. Məsələn, aşağıdakı mənalı sözlər şairin öz dil-üslub xüsusiyyətlərinə aiddir:

Yağmaq xatirinə yağan yağışın
Nə bağa xeyri var, nə dağa xeyri! (3, 38).

Araşdırmalar göstərir ki, Bəxtiyar Vahabzadənin poetik dili maraqlı ritm və intonasiyaya malikdir. Ümumiyyətlə, şairin dil və üslub xüsusiyyətləri göstərir ki, onun yaradıcılığı linqvistik baxımdan araşdırılmağa layiqdir.

ƏDƏBİYYAT

1. Həsənova S. Bəxtiyar Vahabzadə və ana dilimiz. Dilimiz mənəvi kimliğimizdir. Naxçıvan: Əcəmi, 2017, s. 261-268.
2. Manaflı H. Gen yaddaşımızın poeziya dili. Bakı: 2008, 128 s.
3. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı: Öndər, 2004, 328 s.
4. Vahabzadə B. Şənbə gecəsinə gedən yol. Bakı: Azərnəşr, 1991, 334 s.

SUMMARY

Vasile Abbasova

LANGUAGE AND STYLE PECULIARITIES OF BAKHTIYAR VAHABZADE

Bakhtiyar Vahabzade's poetry was studied during his lifetime, and different scholars expressed interesting opinions about it.Academician of Linguistics Nizami Jafarov, Honored Scientist Yusif Seyidov, Professor Sadagat Hasanova and other researchers conducted scientific-theoretical analyzes about him. As a result of these analyses, the poet's language was valued and his activity in the literary language was evaluated. In contemporary Azerbaijani literary language, Bakhtiyar Vahabzade is one of the poets who have a high regard for our language and its purity.The works written by the poet in his native language were welcomed by everyone.The poetry of the poet, who confirms with his poems that our language is a very valuable spiritual resource, is rich in interesting stylistic facts.Each literary figure has its own style.So, although artistic style unites people of words, their unique style determines their position in the literary language.In fact, turning the poetry of Bakhtiyar Vahabzade, distinguished by his original views on life, society, art, and new forms of poetic thought, into a research object is one of the urgent issues.Linguistic view of Bakhtiyar Vahabzade's poetry plays an important role in revealing the essence of his creativity, studying lexical-semantic and stylistic features.In this process, the original and different aspects of the poet's language are revealed.In addition, the study of the poet's linguistic features can present the diversity of the poetic language of Azerbaijan.Thus, even though the means of artistic style in poetry have been known since ancient times and are unchangeable, the poet has achieved their new forms in contemporary "Azerbaijani" poetry and has been selected with the ability to use words and expressions. Poetic passion and high artistry can be found in almost all works of Bakhtiyar Vahabzade.Repetitions, exclamations, address and question sentences in the poet's language create interesting stylistic nuances. Language and style characteristics of Bakhtiyar Vahabzade show that the poet's work deserves to be investigated from a linguistic point of view.

Key words: *word, language, style, expression, vocabulary.*

ARZU MƏMMƏDOVA
Naxçıvan Dövlət Universiteti

TƏDRİS PROSESİNDƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İŞİNİN TƏŞKİLİ, İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ ƏHƏMİYYƏTİ

Məqalədə tədris prosesində biliklərin qiymətləndirilməsi işinin təşkili, inkişaf xüsusiyyətləri və əhəmiyyəti haqqında məlumat verilir. Şagirdlərin qiymətləndirilməsi üçün bilik, bacarıq və vərdişlərinə baxılır. Mövzunun əsas hissəsində qiymətləndirmə anlayışından, qiymətləndirmənin şagirdlərin həyatında rolundan və ənənvi qiymətləndirmə ilə müasir qiymətləndirmənin müqayisəsi aparılmışdır. Şagirdlər təyin edilmiş meyarlar əsasında 4 səviyyədə (I,II,III,IV) qiymətləndirilir.

Nəticədə bilik və bacarıqların qiymətləndirliməsinin təşkili və əhəmiyyəti müəyyənləşdirilmişdir. Eyni zamanda qiymətləndirilmə işinin təşkilinin səmərəli istifadəsi üçün bir neçə təklif və tövsiyələr verilmişdir.

Açar sözlər: *Qalo effekt, Ko effekt, Səbiyyə effekti, cari qiymət, yekun qiymət*

Aktuallıq. Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi olaraq onların əldə etdikləri: bilik, bacarıq və vərdişlərin kəmiyyətcə qiymətləndirilməsinə əsaslanır. Məktəb təcrübəsinin işində "qiymət" və "qiymətləndirmə" anlayışları çox vaxt qarışdırılır. Bu anlayışların hər birinin geniş izahı mövcuddur, lakin qısa olaraq qiyməti-təhsilin kəmiyyət nəticəsidir. Müəlliflər qiymətləndirməni şərti olaraq iki qrupa bölürlər. Birinci qrupa yalnız qiymətin verilməsinə təsir edən amillər aid olub aşağıdakı kimi izah olunur.

1) "Qalo effekt"-şagirdin qalosu - şagirdin evvelceden mövcud olan reputasiyasına əsaslanır. Bəzi şagirdlər sinifdəki mövqeyini nə vaxtsa yaxşı(pis və yaxud əksinə "yaxşı") qiymətləndirilmiş, sonra olan zəiflik (güclülük və ya əksinə) olmasından asılı olmayaraq, əvvəlki qiymətini daşıyır. Yeknəsəklik yaradan belə qiymətləndirmə prosesi şagirdlərdə həvəsi öldürür, müəllimdə isə obyektivliyi itirir.

2) "Ko-effekt", yaxud əməkdaçlıq effekti. Bu müəllimlə daha çox əməkdaşlığa nail olan, onun tələblərinə uyğunlaşa bilən, yəni müəyyən səbəbdən müəllimin sevimlisinə çevrilən və daha yaxın bildiyi şagird daha yeksək qiymətlərin alması izah olunur.

3) "Səbiyyə effekti"-mahiyyəti eyni olan suallara görə daha zəif səviyyəli sinifdə şagirdlər daha yüksək qiymət aldıqları halda, daha güclü sinifdə isə layiq olduqlarından daha aşağı qiymət almaqlarından ibarətdir.

İkinci qrupa şagirdin cavabını süni sürətdə zəiflədən amillər aiddir. Onlara aşağıdakılar aiddir:

1) "Əlaqə effekti"
2) "Emosiya effekti"

Cədvəl 1

Müasir qiymətləndirmənin ənənəvi qiymətləndirmə ilə müqayisəsi

ƏNƏNƏVİ QİYMƏTLƏNDİRMƏ	MÜASİR QİYMƏTLƏNDİRMƏ
Qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu, şagird yalnız qiymət almaq xatirinə oxuyurdu	Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəlməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir
Tədris prosesinin yalnız müəyyən bir hissəsinə tətbiq edilirdi	Tədris prosesinin bütün mərhələlərinə tətbiq edilir
Əsas bilik səviyyəsi qiymətləndirilirdi	Şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir
Qiymətləndirmə standartları mövcud deyildi	Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir

Ənənəvi təlimdə şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün istifadə olunan əsas formalar yoxlama yazı işləri (və ya testlər) və şifahi cavablardır. İki qiymət növü mövcuddur: cari və yekun qiymət. Cari qiymət ayrı-ayrı mövzu və bölmələrin şagird tərəfindən mənimsənilməsini yoxlayır, yekun qiymət isə tədrisin nəticələrini ümumiləşdirir. Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi qiymətin ikiəsas funksiyasını nəzərə almalıdır:

- şagirddə öz nailiyyətlərini yüksəltmək həvəsini saxlamaq məqsədilə bu və ya digər bilik sahəsində irəliləyiş dərəcəsi barədə şagirdlərə, onun müəllimlərinə və valideynlərə bildirmək (formativ);

- şagirdlərin tədris proqramında qoyulmuş təlim məqsədlərinə/nəticələrinə nail olması dərəcəsi haqqında məlumat vermək (summativ).

Ənənəvi anlamda "təhsil" əsasən, təlim-tərbiyə prosesi kimi məna daşıyırdısa, hazırda dərsin məqsədinə, eyni zamanda insan şəxsiyyətini inkişaf etdirməyə istiqamətlənmiş fəaliyyət sahəsi kimi baxmaq üstünlük təşkil etməyə başlamışdır.

Materialı və metodikası: Mövzuya aid ədəbiyyat hazırlanmışdır. Mövzu işlənərkən Azərbaycan Respublikasının Təhsil nNazirliyinin qəbul etdiyi qərarlardn, müxtəlif müəlliflərin kitab və vəasitlərindən, elektron saytlardan istifdə olunmuşdur**.**

Təhlil və müzakirəsi: Ənənəvi qiymətləndirmə şagirdə qiymət yazmaq kimi qəbul olunurdu, şagird yalnız qiymət almaq xatirinə oxuyurdu.Müasir qiymətləndirmədə isə qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edəən vacib amil kimi meydana çıxır. Ənənəvi qiymətləndirmə zamanı cari qiymətləndirmə formalizmə gətirib çıxarırdı. Ənənəvi qiymətləndirmədə əsasən bilik səviyyəsi qiymətləndirilirdi. Ənənəvi qiymətləndirmədə qiymətləndirmə standartları mövcud deyil.

Şagirdin aşağı qiymətləndirilən materialı yenidən cavab verməyə (bununla əvvəlki cari qiyməti ləğv etməyə) imkanının olmaması aşağıdakı nəticələrə gətirib çıxarır:

1. Keçmiş kurs üzrə bilik,bacarıq və vərdişlərin təkmilləşdirilməsinə meylin qabaqcadan azalmasına;

2. Dərs materialının uzunmüddətli deyil, operativ yaddaşa arxalanmaq vərdişinə (biliklərin ümumi, tam mənzərəsini yaratmaq yox,ancaq yaxın dərsə hazırlaşmaq vərdişinə) əsaslanan hissə-hissə mənimsənilməsinə;

3. Nailiyyətləri sabit olmayan şagirdlərdə "məhkumluq" hissinin əmələ gəlməsinə, qiymətləndirmənin qeyri-obyektivliyinə və nəticə etibarilə romantik dona salınmış iki alan qəhrəman" rolunun ifadəsinə, dərsə biganəlik və s. kimi psixoloji müdafiə mexanizmlərinin meydana gəlməsinə.

Ənənəvi dərsin quruluşu

1.Ev tapşırığının yoxlanılması

2.Öyrənilən mövzuların sorğusu (frontal və fərdi sorğu)

3.Yeni mövzuya dair mühazirə (yeni mövzunun izahı)

4.Aydın olmayan məsələlərin açıqlanması və dəqiqləşdirilməsi

5.Yeni dərsin möhkəmləndirilməsi üçün sual və tapşırıqlar

6.Reproduktiv (təkraredici) tətbiq etmə

7.Qiymətləndirmə

Ənənəvi dərsdə müəllim əsas bilik mənbəyi olub öyrədən , şagird isə öyrənən rolunda çıxış edir. Ənənəvi təlim hafizəyə əsaslandığı halda, fəal təlim təfəkkürə əsaslanır. Belə ki, ənənəvi tədrisdə avtoritar üslub, fəal təlimdə isə demokratik üslub üstünlük təşkil edir. Ənənəvi dərsdə şagird bilikləri hazır şəkildə, yəni müəllimin izahından qavrayıb yadda saxlayır.

Təlim prosesində müvafiq əksəlaqənin təmin edilməsi üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin olması çox mühümdür. Bu sistemə aşağıdakılar daxildir:

- qiymətləndirmə üsulları (onların çeviklik, uyğunluq, fərqləndirilmə dərəcəsi və s.)

- qiymətləndirmənin ümumi meyarlarının məzmunu.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi olaraq onların əldə etdikləri bilik, bacarıq və dəyərlərin kəmiyyətcə qiymətləndirilməsinə əsaslanır. Lakin şagirdlərin təlimin nəticələrini müəyyən edən şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi sistemi mövcud deyildir. Daha təəccüblüsü budur ki, təlimin məqsədlərini əks etdirən sənədlərin hamısında təlim-tərbiyə prosesində formalaşmalı olan müxtəlif şəxsi keyfiyyətlərdən bəhs olunur. Ola bilsin bu onunla əlaqədardır ki, şəxsi keyfiyyətlərin kəmiyyətcə qiymətləndirilməsi praktiki olaraq həyata keçirilməsi çətin olan bir məsələdir. Buna baxmayaraq, ancaq şəxsi keyfiyyətlərin qiymətləndirilməsi təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verə bilər. Bu sahədə məktəbdə psixoloji xidmətin üzərinə mühüm vəzifələr düşür.

Bununla əlaqədar olaraq, şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesinə aid məsələlərindən ən başlıcasını onun şəxsi keyfiyyətlərinin diaqnostik yolları və metodlarının işlənib hazırlanması təşkil edir.

Cədvəl 2

Ənənəvi və müasir təhsil proqramlarının müqayisəsi

ƏNƏNƏVİ TƏHSİL PROQRAMI	MÜASİR KURİKULUM
1. Bilikyönümlüdür. (Müəllim hazır bilikləri şərh edir)	Şəxsiyyətyönümlüdür. (Təhsil alanın idrakı, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə milli və bəşəri dəyərlərin formalaşması)
2.Müəllim yönümlüdür. (Müəllimin fəaliyyəti öndədir: izah edir, nümayiş etdirir)	Şagirdyönümlüdür. (Təhsil sahəsində fəaliyyətlərin təhsil alanın mənafeyinə, maraq və tələbatlarının ödənilməsində, istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına xidmət edir)
3.Fəaliyyətyönümlüdür (Şagird bunları passiv şəkildə mənimsəyir)	Nəticəyönümlüdür. (Əldə olunması nəzərdə tutulan təlim nailiyyətlərinin nəticələr formasında əvvəlcədən müəyyən edilməsi)
4.Təklifyönümlüdür. (Müəllimin təklifi əsasdır)	Tələbyönümlüdür. (Fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarının nəzərə alınmasıdır)
5. Fəndaxili və fənlərarası əlaqə məqsədyönü və sistemli xarakter daşımır.	5.İnteqrativlik əsas prinsip kimi qəbul olunu. (Təhsilin məzmun komponentlərinin bir-biri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməlidir.)
6. Bəzi fənlərə üzrə qiymət normaları müəyyən edilib. (Müəllim qiymətləndirir)	6. Qiymətləndirmə satandartları və mexanizmləri qəbul edilib. (Təhsil alanın nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir)

Nəticə

1. Tətbiq edilən qiymətləndirmə sistemi şagirdlərin nailiyyətini keyfiyyət baxımından deyil, kəmiyyət baxımından qiymətləndirir.
2. 2003-cü ildə beynəlxalq təşkilatların köməyi ilə məktəbdaxili qiymətləndirmənin yeni nəzəriyyəsi icra mexanizminin hazırlanmasına başlanıldı.
3. 2008-2009-cu dərs ilində ibtidai təhsil səviyyəsində yeni qiymətləndirmə sisteminin tətbiqinə başlanıldı.
4. Yeni qiymətəndirmə sisteminin nəzəriyyəsi dünyada ilk dəfə XX əsrin 60-cı illərində ABŞ-da yaradılıb.

ƏDƏBİYYAT

1. N.Seyfullayev. Coğrafiyanın tədrisi metodikası. Bakı: 2011
2. Coğrafiya fənni üzrə təlimin təşkili formavə üsulları (metodik vəsait) N.S.Seyfullayev və Y.Əliyeva 2008
3. www.google.com
4. www.wikipedia.com
5. www.cografiya.info.com

SUMMARY

Arzu Mammadova

ORGANIZATION OF KNOWLEDGE ASSESSMENT IN THE EDUCATIONAL PROCESS, DEVELOPMENT CHARACTERISTICS AND SIGNIFICANCE

The article provides information on the organization, development characteristics and importance of knowledge assessment in the teaching process. The knowledge, skills and habits of students are considered. It is evaluated at 4 levels (I, II, III, IV).

As a result, the organization and importance of the evaluation of knowledge and skills have been determined. At the same time, several suggestions and recommendations have been made for the effective use of the organization of the evaluation work.

Key words: *Galo effect, Ko effect, Sabiyya effect, current price, final price*

BİLLURƏ AXUNDZADƏ
orxanaxundov48@gmail.com
Naxçıvan Dövlət Universiteti

HÜQUQİ DÖVLƏTİN MƏNŞƏYİ

Məqalədə hüquqi dövlətin mənşəyinin mahiyyəti aydınlaşdırılır. Hüquqi dövlət dedikdə mahiyyət etibarilə nə başa düşüldüyü ətraflı şəkildə açıqlanır. Hüquqi dövlətin tarixi təkamül yolu, müxtəlif dövrlərdə görkəmli mütəfəkkirlərin yanaşmaları incəlikləri ilə əks olunur. Həmçinin hüquqi dövlətin yaranmasında hansı prinsiplərin əsaslı rol oynaması sadalanır və onları önəmi və bugünkü hüquqi dövlət sferasında tətbiqi qeyd olunur.

Məqalədə bəşəri dəyərlərə, ənənələrə sadiq qalan hüquqi mexanizm formalaşmaşdırmağın əhəmiyyəti vurğulanır. Bugünkü hüquqi dövlət mexanizminin nə dərəcədə ənənələrə, nə dərəcədə yeniliklərə açıq olması məsələsi diqqətə çatdırılır.

Açar sözlər: *Hüquqi dövlət, dövlət quruluşu, qanun, ədalətlilik, demokratiklik*

Giriş

Tədqiqatın aktuallığı: Hüququn tarixi dönəmlərdə dövlət quruluşuna sirayət etməsi mühüm əhəmiyyət kəsb edir. Dövlət hakimiyyətinin idarə olunmasında hüquqi baxışlar sistemi mühüm önəmə malikdir. Görkəmli mütəfəkkirlər bütün dövrlərdə hüquqi dövlət yaratmağın mahiyyətini, əhəmiyyətini açıqlayır və o dövrdəki idarəetmə quruluşunu özlərinin həmçinin ondan əvvəlki hüquq mütəfəkkirlərinin fikirləri ilə sintez edərək hüquqi dövlət mexanizmi ilə müqayisə edirdilər və nəticədə hüquqi dövlət quruluşunun yaradılmasını istəyirdilər. Qanunun hakimiyyəti dövlətin mövcudiyyətini möhkəmləndirir və cəmiyyətin əbədi bərqərarı hüquqi dövlət quruluşunda qanunun tətbiq dairəsi ilə müəyyənləşdirilir. Hüquqi dövlətin sferası nə qədər genişdirsə və nə qədər öz mənşəyinə bağlıdırsa bir o qədər dövlət idarəetməsi ədalətli və demokratikdir.

Tədqiqatın obyekti və subyekti: Tədqiqatın obyekti kimi hüquqi dövlətin mənşəyi, inkişafı və əhəmiyyəti çıxış edir. Tədqiqatın subyekti isə hüquqi dövlətdir.

Material və metodlar

Hüquqi dövlət dedikdə insan və vətəndaş hüquqları və azadlıqlarının təmin olunduğu, münasibətilərin hüquq əsasında qurulduğu dövlət başa düşülür. Hüquq yarandığı andan həm ictimai münasibətlər, həm ailə münasibətləri həmdə dövlət hakimiyyəti sahəsindəki tənzimləyici faktoru ilə seçildi. Dövlətin yarandığı ilk dövrlərdə dövlət qanun əsasında həyata keçirilən təşkilat kimi formalaşmışdı. Təbii ki, insan sivilizasiyası təkamül edirdi və bu inkişaf hüquqi dövləti bir idarəetmə mexanizmi olaraq bütün münasibətlərdə təkmil və ədalətli forma kimi xarakterizə etdirirdi. İstənilən hüquqi dövlət üçün tərəqqinin qaçınılmaz olduğunu qeyd edən qədim dövr mütəfəkkirləri Sokrat, Platon, Siseron və başqaları cəmiyyət və dövlət arasında qarşılıqlı fəaliyyəti təmin edən münasibətilərin əlaqəsində həmfikir idilər. Bu sanki ahəngdar pillələr çoxluğunu ifadə etməklə, çoxölçülü hadisədir. Belə ölçü fərdlər, hər kəs, hamı kateqoriyasına yönəlməklə, sosialogiya, azadlıq ölçüsü kimi formalaşır. Əsas meyar olaraq isə dövlət və xalqın real mənafeyinə nə dərəcədə uyğundur çıxış edir.

Qədim mütəfəkkirlər hesab edirdilər ki hansı dövlət hakimiyyəti hüququ qəbul edir, onun məhdudlaşdırılma və stimullaşdırma xüsusiyyətlərini anlayırsa o ədalətli dövlət hakimiyyəti başqa sözlə hüquqi dövləti yaratmış olur. Hüquq və qanun hökm etmirsə dövlət quruluşunun forması da nə dərəcədə əsaslı və davamlı ola bilər. Siseron hüquqi dövlətin mənşəyindən danışarkən hər zaman xalq işi ifadəsini işlədərdi, yəni o dərk edirdi ki, hüququ məhz cəmiyyətdə yaşayan, fəaliyyət göstərən fərd və fərdlər qrupu ictimai, sosial münasibətlərə girərək formalaşdırıblar. Bu səbəbdən hüquqi dövlət dedikdə xalqın iradə ifadəsinin bir ünsürü anlaşılmalıdır.

Romada yaranan hüquq institutları hüquqi dövlət sferasında təlimlərin tərəqqi etməsində baza rolunu oynamışdır. Feodalizm quruluşunun dağılmağa başladığı ilk dövrlərdə hüquqi dövlət yönümü

o vaxtın mühüm tarixi şəxsiyyətləri hesab olunan N.Makiavelli , J.Boden tərəfindən işıqlandırıldı. Makiavelli öz əsərlərində ideal dövlətin təsvirini verir, dövrün tələbləri ilə siyasətin özünəməxsus qəliblənmiş formasını əlaqələndirirdi. Erkən burjua inqilabı dövründə tərəqqipərvər fikir sahibləri C.Lokk, Ş.Monteskyo, T.Hobbs, T.Cefferson və başqaları hüquqi dövlət anlayışını xeyli zənginləşdirmişdilər. Bu dövr mütəfəkkirləri hüquqi dövləti təbii hüquq və iradəvi hüququn sintezi kimi təsəvvür edirdilər. İnsan təbiəti və insan zəkası vəhdət təşkil edir, insanın təbii duyğularının iradə konstruksiyası ilə məhdudlaşması hüququn müstəsna obyekt və münasibətlərinə önəm verilməsindən irəli gəlir. Q.Qrotsiyə görə feodalizm dövründə dövlətin yeritdiyi hüquqi qaydalar insan təbiətinin qaydaları ilə uyğun gəlmirdi, çünki idrak qanununun prinsipləri mahiyyətcə tətbiq olunmurdu. C.Lokk düşünürdü ki, hüquqi dövlət quruluşunda insanların azadlığı qanunvericilik hakimiyyəti tərəfindən hamı üçün keçərli qaydalar yaratmaqdan ibarətdir. Mahiyyət etibarilə hər kəsin qanunun qadağan etmədiyi hərəkət azadlığını seçməsi onların öz iradəsinin asılı olmasında ifadə olunur. Monteskyo isə hüquqi dövlətin təşəkkülünü vətəndaş cəmiyyəti üçün siyası hüquqlar sferasında azadlıq verilməsində görürdü. Hakimiyyətdən sui istifadə etmək qanunlarla qadağan olunan əməlləri etmək sferasında siyasi boşluqları pisləyir, qanunların ruhunun hamı üçün bərabər müstəvidə tətbiq olunmasında ifadə olduğunu qeyd edirdi.

Hüquqi dövlət ölkədəki bütün xalq və millətlərin suveren hüquqlarla təmin olunduğu dövlətdir. Hakimiyyətin ali, ümumi, bölünməz, toxunulmaz olması, vətəndaşlar üçün ədalət mexanizminin birmənalılığı xarakterikdir. Məhdudlaşdırma hər hansı bir insan tərəfindən edilən davranış başqa insanlar üçün təhlükə yaradarsa dövlətin tətbiq etməkdə haqlı mövqeyi yaranmış olar. Çünki hüquq dəyərlər sistemidir, insan onun başlıca mövzusudur, hüquqi əsaslarla yaradılan dövlət isə yekdil bir şəkildə insan həyatının və təhlükəsizliyinin təmin olunmasının təminatçısı olmalıdırlar. Qanunları yaradan zaman dövlət ümumməcburi davranış qaydaları yaradır və bu davranış aktlarının bərabərlik və ədalətlilik prinsipləri ilə zənginləşdirir. Belə proses qanunların ali hüquqi mahiyyətə malik olmaqla hüquqi dövlət mexanizminin məqsədlərinə xidmət edir.

Hüquqi dövlət quruluşu həm də öz ənənələrinə sadiq qalmaqda davam edir və cəmiyyətin əxlaq kodekslərini mühafizə altına alır ona görə ki, bu proses təkamüllə çox əlaqəlidir, insanların dönəm-dönəm inkişafını nəzərə alaraq, onun təbii ehtiyaclarını yaxından izləyərək yaradılmışdır. Bu fəaliyyət nəticəsində qanunqüvvəli aktlar, qanunlar ümumməcburi aktlar qəbul etmişdir. Bu fəaliyyət daimi inkişafda qalır, çünki hüquq sahəsi və prosesi nə qədər öz ilkin bağlarına sadiq qalsada yeni yaranan insan cəmiyyətinin formalaşdırdığı tələbləri də qarşılamalıdır. Bu tələblər isə qanunlarla ödənilə bilər. Tarixi bir şüar olan cəmiyyətdə və dövlət strukturunda insalar yox, qanunlar hökm etməlidir ifadəsi nə qədər cəmiyyət və dövlət idarəetməsi dəyişsədə köhnə və ya yeni yaranan ehtiyaclar, boşluqlar qanunlarla əhatələnməlidir. Çünki hüquqi dövlət bu prinsiplərlə varlığını davam etdirir.

Nəticə

Yekun olaraq qeyd edək ki, hüquqi dövlət şəffaflıq üzərinə qurulur, vətəndaş, dövlət və digər şəxslər kateqoriyası arasında yarana biləcək münasibətləri qabaqcadan obyektiv və ədalətli hüquqi aktlarla əlaqələndirir. Hər sferaya toxunma ehtiyacı duyan hüquqi dövlət yarana biləcək mübahisələri güc və qeyri-qanuni yaranan yollarla deyil, dinc və hüquqi yollarla tənzim edərək sabitliyi təmin edir. Hər kateqoriyadan olan insanı fərd olaraq dəyərləndirir, nə qədər səlahiyyət və vəzifələrlə onları bir-birindən fərqləndirsədə yenə də sonda hər birinin qanun və dövlət qarşısında bərabər mövqeyini qeyd edərək, qanunların ruhunu bir daha səciyyələndirir. Hüquqi dövlət ictimai tərəqqini ləngidən, onun əsaslarını sarsıdan siyasi xarakterli qadağaları ön görür və aradan qaldırmaqla qanunvericilik və demokratiklik əsaslarını möhkəmləndirir. Qanunlarla idarə olunan hüquqi dövlət sarsılmaz və ədalətli sabitliyi bərqərar etdiyinə görə uzun illər mövcudiyyətini qorumuş və qorumağada davam etməkdədir.

Müzakirə

Hüquqi dövlət normalar, qaydalar, davranış modelləri ilə bir baxıma kompleks məhdud dairə kimi görsənir. Belə baxışın əsas səbəbi tənzimlənmə funksiyasının yüksək səviyyədə həyata

keçirilməsi ilə bağlıdır. Hüquqi dövlət öz əhatəsində müstəqil şəkildə 3 hakimiyyət qolunu birləşdirir, hər biri müstəqil formalaşsada birgə fəaliyyət sahəsində bir-birlərini tarazlaşdırırlar. Hüquqi dövlətdə vətəndaşa münasibət necə qurulubsa qanunların icrasına vətəndaşın münasibəti elə formalaşır. Qanunlar hüquqa, azadlığa, xalq və hakimiyyətdə olanlar arasındakı münasibətə əsaslanmaqla ümumməcburi davranış qaydası olaraq müəyyən olunur. Tərəflər öz münasibətləri daxilində öz mövqeyində dayanaraq birgə münasibətə daxil olarlarsa, onlar arasındakı tarazlıq münasibəti uzunmüddətli və daimi olar. İstər feodalizm, istər burjua, istər yeni dövr hüquq mütəfəkkirləri hüquqi dövlətin cəmiyyətin dəyişən sosial, mədəni, iqtisadi, hüquqi münasibətlərini nəzərə alaraq cəmiyyətin və dövlətin maraqlarına uyğun təşkilini labüd sayırdılar. Bununla yanaşı, hüquqi dövlət digər dövlətlərdə mövcud olan hüquqi dövlətçiliyin qurulması fəaliyyətini də diqqət mərkəzində saxlamalıdır.

ƏDƏBİYYAT

1. V.N.Xrapanyuk. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: 2013
2. Şükür Məmmədov. Dövlət və Hüquqi təlimlər. Naxçıvan: 2013
3. M.Məlikova. Dövlət və Hüquq nəzəriyyəsi. Bakı: 1988
4. M.Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: 2002

SUMMARY

Billura Akhundzade

THE ORIGIN OF THE RULE OF LAW

The article clarifies the essence of the origin of the legal state. What is essentially understood by the rule of law is explained in detail. The historical evolution of the legal state, the approaches of prominent thinkers in different periods are reflected in detail. It also lists the principles that play a fundamental role in the establishment of a legal state, and their importance and application in today's sphere of the legal state is noted.

The article emphasizes the importance of forming a legal mechanism that adheres to human values and traditions. Attention is drawn to the extent to which today's legal state mechanism is open to traditions and innovations.

Key word: *Legal state, state structure, law, justice, democracy*

AYTEN GALANDAROVA

THE STUDY OF THE IMPACT OF HISTORICAL EVENTS AND CONFLICTS ON THE LANGUAGE DEVELOPMENT

The study of the impact of historical events and conflicts on language development is a complex interdisciplinary field encompassing linguistics, history, sociology, and anthropology. Researchers investigate how wars, migrations, colonialism, and other historical events shape linguistic evolution. Through examining language change in response to socio-political upheavals, scholars aim to understand how languages adapt and transform over time.

By analyzing language policies, sociolinguistic dynamics, and language contact situations during periods of conflict, researchers gain insights into the intricate relationship between language and society. This research sheds light on the resilience of languages amidst tumultuous historical contexts and contributes to our understanding of the diverse factors influencing language development.

Key words: *historical events, language, research, development, context.*

Introduction

The study of the history of language, as well as individual languages, is a crucial aspect of linguistics, encompassing both foreign and diachronic perspectives. As F. de Saussure noted, it's a domain where various unfounded ideas thrive, presenting enduring challenges. A spectrum of theories has emerged over time, ranging from divine origins to evolutionary development from animal language, reflecting both divergence and convergence.

The inquiry into the origins of language has historically captivated scholars, spawning theories such as divine creation, labor-based emergence, vocal imitation, and exclamation-based genesis. While these theories may not offer complete explanations, they contribute insights into the fundamental issue. Nevertheless, scholarly interest in this topic has waned over time, with many linguists considering it outside the realm of serious scientific inquiry.

It's evident that attempts to fully understand the origin of language, even from a diachronic linguistic perspective, extend beyond the confines of linguistic science. Consequently, there's a reluctance within the field to engage deeply with this problem, with hopes that future discoveries may shed more light on the matter, rendering it less compelling over time.

Methods

The pioneers of comparative linguistics were the first to systematically propose that languages are not static entities, but instead undergo continuous change once created. August Schleicher, building upon these ideas with his naturalistic perspective, asserts that languages evolve over time based on direct observations, which are primarily facilitated by writing. Without the invention of writing, scholars might not have recognized the shared ancestry among languages such as Russian, German, and French.

Schleicher's assertion, though influenced by the excitement of discovering comparative linguistics, leads to a potentially metaphysical and absurd conclusion: that languages lacking written records have no history. Yet, this viewpoint retains significance, especially in determining the linguistic origins of ancient texts like Sumerian writings, for which alternative methods are still unavailable Joshua (A. Fishman,1993).

However, naturalistic perspectives in linguistic history have largely faded from prominence in contemporary linguistic theory. Schleicher's ideas about language origins and history draw from both the genealogical and typological findings of comparative linguistics and the universal principles derived from Charles Darwin's evolutionary theory. He posits that all languages share a common origin, wherein humans gradually developed meaningful sounds through vocal mimicry and

imitation. These early sound forms lacked grammatical meaning but were organized differently across various peoples, leading to the diverse languages we observe today.

It is undeniable that the insistence of a prominent linguist on likening the evolutionary process of language to that of nature has been met with skepticism over time. However, this insistence is grounded in strict analogies and, in many cases, common sense regarding the origin and history of language, which opens up a broad field for exploration (Mufwene, Salikoko S.,2001).

The analogy drawn between the origin of language and the development of organic life is based on the idea that both share common primitive forms: simple cells in the case of organisms, and simple roots in the case of languages. Just as cells represent the basic building blocks of later life forms, primitive sounds with meanings likely constituted the early linguistic expressions on our planet. These basic forms of life, whether organic or linguistic, diversified and evolved over time in various directions.

In ancient times, when languages were spoken by smaller populations, the extinction of linguistic forms may have been more prevalent. However, more organized languages, such as the Indo-European languages, likely existed long ago and underwent their own evolutionary processes. The emergence and transformation of linguistic structures over time would have necessitated a significant span, possibly tens of thousands of years. Similar to Darwin's concept of the “struggle for existence” in the plant and animal kingdoms, linguistic organisms also underwent a competitive process where many forms perished, leaving behind a select few that thrived and propagated (Colin H. Williams, 2005).

Wilhelm von Humboldt's perspective on the historical aspect of language, much like his approach to other subjects, is deeply philosophical. He posits that language emerges from the profound depths of human nature, reflecting the creative essence and innate self-activity of peoples. Language, in this view, is not a deliberate invention but rather an involuntary expression of the soul, an intrinsic aspect of human destiny.

According to von Humboldt, languages evolve concurrently with the progress of the communities that use them, influenced by their moral character which imposes certain constraints on linguistic expression. While von Humboldt acknowledges the intricate relationship between language and society, he doesn't fully elucidate how this relationship drives language development.

Von Humboldt emphasizes that the condition of peoples is intricately tied to the state of their languages, serving as a significant indicator of tribal distinctions. He suggests that languages achieve their highest form of expression within relatively large populations, where linguistic richness emerges from a foundation of societal diversity and complexity. This linguistic wealth, von Humboldt argues, arises from the interaction of many small human societies, facilitating the organization and refinement of languages.

In essence, von Humboldt's viewpoint suggests that although primitive languages may have had simple beginnings, the complexity and sophistication of languages among larger populations reflect the evolution of societal structures and cultural interactions.

Results

Wilhelm von Humboldt posits that as languages evolve further from their origins, their forms become more refined. The continuous use of language gradually integrates elements of word combinations more tightly, refining individual sounds and making once separate forms nearly indistinguishable. Von Humboldt firmly believes that agglutination serves as the foundation of all languages, describing it as the process through which initially separate words join together within a sentence to form unanalyzable units. However, Ferdinand de Saussure offers a distinct perspective on agglutination, viewing it as a natural process devoid of intentional design. He delineates three stages in the historical development of grammatical structure, emphasizing the spontaneous synthesis of syntagmatic elements in agglutination. Saussure's analysis, rooted in the French language, underscores the interaction between syntagmatics and paradigmatics, with the repetition of language units compressing their ordering over time. Von Humboldt's philosophical exploration of language

history delves into metaphysical and dialectical realms, emphasizing the unity of synchrony and diachrony in language evolution. According to von Humboldt, language is a phenomenon inherently given to humans, transcending conscious human creation. He asserts that language must have been fully endowed to humans from its inception, as its complexity exceeds human comprehension. While von Humboldt does not deny the existence of language history or its developmental tendencies, he perceives language as an independent metaphysical entity, unaffected by its historical evolution.

Discussion

In the historical approach to language, the young grammarians diverged significantly from their predecessors, establishing principles of historicism that remain influential in modern linguistics. According to German linguist Paul, language, like any cultural product, should be examined through a historical lens. In his renowned work "Principles of the History of Language," Paul emphasizes the shift from deductive to inductive reasoning and from abstract philosophical musings to empirical observations.

Paul rejects the idea of specific laws governing language history, arguing instead for a focus on sequences or principles. He notes that since there are as many languages as there are individuals, language evolution occurs through the cumulative effects of individual contributions within certain constraints, gradually leading to consistency over time. Paul also suggests that rather than studying language history as a unified system, it is more fruitful to examine the history of individual linguistic elements, ultimately pointing towards the synchronicity of language systems.

Critics accused the young grammarians of atomism for their emphasis on individual linguistic phenomena at the expense of holistic system understanding. However, this critique misunderstands the distinction between diachronic atomism and synchronic system analysis, a distinction clarified by Ferdinand de Saussure. The historical problem of language is inseparable from the historical problem of languages due to their genetic and typological relationships.

Language and languages arise primarily through differentiation rather than integration or fusion, with each language's history intricately tied to its source language. This differentiation occurs within a unique environment shaped by gradual changes separating languages from their common ancestors.

The history of language is influenced not only by linguistic factors but also by extralinguistic factors such as geography, politics, and culture. While these factors can elevate certain language manifestations to literary status or confer prestige, they cannot alter existing language structures or create entirely new languages. Therefore, the histories of literary languages like Azerbaijani, Russian, and English are not solely about language evolution but also about the roles these languages play in their respective peoples' broader histories, often in interaction with other languages.

REFERENCES

1. Joshua A. Fishman (1993). "The Sociolinguistics of Conflict and Resolution." Mouton de Gruyter.
2. Colin H. Williams (2005). "Language Revitalization: Policy and Planning in Wales." University of Wales Press.
3. Mufwene, Salikoko S. (2001). "The Ecology of Language Evolution." Cambridge University Press.
4. Turell, Maria Teresa, & Perez, Victoriano. (2015). "Conflictos políticos y cambios lingüísticos: una perspectiva histórica y comparada." Iberoamericana Vervuert.
5. Thomason, Sarah Grey, & Kaufman, Terrence. (1988). "Language Contact, Creolization, and Genetic Linguistics." University of California Press.

XÜLASƏ

Aytən Qələndərova

TARİXİ HADİSƏLƏR VƏ MÜQAFİLƏLƏRİN DİLİN İNKİŞAFINA TƏSİRİNİN ÖDƏNİLMƏSİ

Tarixi hadisələrin və münaqişələrin dilin inkişafına təsirinin öyrənilməsi dilçilik, tarix, sosiologiya və antropologiyanı əhatə edən mürəkkəb fənlərarası sahədir. Tədqiqatçılar müharibələr, köçlər, müstəmləkəçilik və digər tarixi hadisələrin linqvistik təkamülü necə formalaşdırdığını araşdırırlar. Sosial-siyasi sarsıntılara cavab olaraq dil dəyişikliyini araşdıraraq, alimlər dillərin zamanla necə uyğunlaşdığını və çevrildiyini başa düşməyə çalışırlar.

Münaqişə dövrlərində dil siyasətini, sosiolinqvistik dinamikanı və dil təmas vəziyyətlərini təhlil edərək tədqiqatçılar dil və cəmiyyət arasındakı mürəkkəb əlaqə haqqında fikirlər əldə edirlər. Bu tədqiqat keşməkeşli tarixi kontekstlər arasında dillərin davamlılığına işıq salır və dil inkişafına təsir edən müxtəlif amilləri dərk etməyimizə kömək edir.

Açar sözlər: *tarixi hadisələr, dil, tədqiqat, inkişaf, kontekst*

РЕЗЮМЕ

Айтен Галандарова

ОБЪЯСНЕНИЕ ВЛИЯНИЯ ИСТОРИЧЕСКИХ СОБЫТИЙ И КОНФЛИКТОВ НА РАЗВИТИЕ ЯЗЫКА

Изучение влияния исторических событий и конфликтов на развитие языка - сложная междисциплинарная область, охватывающая лингвистику, историю, социологию и антропологию. Исследователи изучают, как войны, миграции, колониализм и другие исторические события влияют на языковую эволюцию. Изучая изменение языка в ответ на социально-политические потрясения, ученые стремятся понять, как языки адаптируются и трансформируются с течением времени.

Анализируя языковую политику, социолингвистическую динамику и ситуации языковых контактов в периоды конфликтов, исследователи получают представление о сложных отношениях между языком и обществом. Это исследование проливает свет на устойчивость языков в бурных исторических контекстах и способствует нашему пониманию разнообразных факторов, влияющих на языковое развитие.

Ключевые слова: *исторические события, язык, исследование, развитие, контекст.*

ELZA QULUZADƏ
quluzadeelza@gmail.com
Naxçıvan Dövlət Universiteti

YETKİNLİK YAŞINA ÇATMAYANLARA MÜNASİBƏTDƏ CƏZA TƏYİN ETMƏNİN XÜSUSİYYƏTLƏRİ

Məqalədə yetkinlik yaşına çatmayanlara hökm çıxarılarkən mövcud qanunvericiliyin tələblərinə məhkəmələr tərəfindən lazımi qaydada baxılması, yetkinlik yaşına çatmayanlar haqqında hökmün çıxarılmasının hüquqi və texniki xüsusiyyətləri müzakirə olunur. Elmi ədəbiyyatda yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti məsələlərinə çox diqqət yetirilməsinə baxmayaraq, yetkinlik yaşına çatmayanlara qarşı cəza təyin edilməsinin xüsusiyyətlərinin nəzərə alınması problemi o qədər də əhatə olunmur, baxmayaraq ki, bu, praktikada olduqca aktualdır, lakin elmi ədəbiyyatda yetkinlik yaşına çatmayanlara qarşı cəza təyin edilməsinin hüquqi texnikası məsələlərinə, ümumiyyətlə, diqqət yetirilmir.

Açar sözlər: *cəza, hüquqi texnika, yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti, cinayət hüququnun tədbirləri, Cinayət Məcəlləsi*

Giriş

Azərbaycan Respublikası cinayət qanunvericiliyində müəyyən yaş həddinədək yetkinlik yaşına çatmayanlara münasibətdə cəza təhdidi altında islah edici tədbirlərin tətbiqi məqsədə müvafiq hesab edilmir. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinin vacib şərti onun müəyyən yaş həddinə çatmasıdır. Cinayətin subyekti olan şəxs cinayət törətdiyi zaman 16 yaşına çatdıqda cinayət məsuliyyətinə cəlb edilə bilər. Bu ümumi qaydadır. Eyni zamanda, adam öldürmə, quldurluq, zorlama kimi bir sıra ağır cinayətlərə görə qanunla 14 yaşından cinayət məsuliyyəti müəyyən edilmişdir. Cinayət törətmiş yetkinlik yaşına çatmayanlar cinayət qanunvericiliyinə uyğun olaraq, cəzalandırılır. Yetkinlik yaşına çatmayan müəyyən yaşlı uşaqlar üçün, ümumiyyətlə, cinayət işi qaldırılmır. 14 yaşından kiçik uşaqlar cinayət məsuliyyətinə cəlb edilə bilməz. Uşaq oğurluq və ya vandalizm kimi kiçik bir cinayət törədirsə, polis onun valideynləri ilə danışmalıdır. Onlar uşağa ya məsləhət verməli, ya da digər xidmətlərə yönləndirməlidir. Məşhur avstriyalı psixoloq Freyd cinayətkarlığı şəxsiyyətin qüsurlu inkişafının nəticəsi hesab edir.

Müəyyən müddətdə azadlıqdan məhrum etmə və alternativ sanksiyalar

Yetkinlik yaşına çatmayanlar üçün müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından əlavə alternativ olaraq ictimai işlər (ödənişsiz iş), islah işləri kimi cəza növləri seçilə bilər. Alternativ sanksiyalar almış yetkinlik yaşına çatmayanlara nəzarəti Uşaqların Müdafiəsi Cəmiyyətləri həyata keçirir. Yetkinlik yaşına çatmayan şəxslər üçün cəza çəkilmə şəraiti də xüsusi olaraq diqqət edilir. Belə ki, yetkinlik yaşına çatmayan şəxslər üçün tərbiyə müəssisələri mövcuddur. Onların saxlanması üçün yetkinlik yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmış şəxslərdən ayrı saxlanılır. Yetkinlik yaşına çatmayanlar üçün azadlıqdan məhrum etmə cəzası maksimum on ildir. Qadınlar və yetkinlik yaşına çatmayan şəxslər cəzaçəkmə müəssisəsindən qaçdıqda, onlara qarşı odlu silah tətbiq edilməsinə yol verilmir.

Yetkinlik yaşına çatmayanlara təyin edilən azadlığın məhdudlaşdırılması cəzası

Həbs cəzası çox ağır olarsa, lakin şərti cəza kimi islah işləri, ictimai işlər və ya cərimə çox yüngül olarsa nə olar? Bu halda yetkinlik yaşına çatmayan şəxsə azadlığın məhdudlaşdırılması cəzası təyin oluna bilər. Yetkinlik yaşına çatmayanlar üçün maksimum azadlığın məhdudlaşdırılması cəzası isə iki ildir. Yetkinlik yaşına çatmayanların azadlığının məhdudlşdırıldığı müddətdə onlar məktəbə gedirlər və sosial bacarıqlar, qəzəbi idarə etmək kimi mövzularda əlavə dərslər alırlar. O bir və ya daha çox təlim və ya müalicə seansından ibarətdir, məsələn, aqressiya təlimi və ya narkotik və alkoqoldan necə uzaq durmaq barədə kurs. Gənclərin probasiya xidməti onun gedişatına nəzarət edir.

Yetkinlik yaşına çatmayanların müdafiəsi və qəyyumluq

Bəzi yetkinlik yaşına çatmayanlar, məsələn, davranış pozğunluğundan əziyyət çəkdikləri üçün təkrar cinayət törətməmək üçün intensiv müalicə və məsləhət tələb edir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş cəza çəkməkdən azad edilmiş yetkinlik yaşına çatmayanların yaşayış sahəsi olmadıqda, onlar qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən internat məktəblərinə göndərilir və tam dövlət təminatına götürülürlər. Valideyn himayəsindən məhrum olmuş uşaqlar qanunun tələblərinə uyğun olaraq, yerləşdirilənədək onlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını İcra Hakimiyyəti Başçısı yanında Qəyyumluq və Himayəçilik Orqanı həyata keçirir. Qəyyumluq və himayə bəzi hallarda, məsələn, yetkinlik yaşına çatmayan şəxs valideynlərini itirdikdə, onların valideynləri valideynlik hüquqlarından məhrum olunduqda və ya hüquqları məhdudlaşdırıldıqda, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, xəstələndikdə, uzun müddət uşaqlarla birlikdə olmadıqda, uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən yayındıqda, sosial xidmət müəssisələrindən öz uşaqlarını götürməkdən imtina etdikdə, qısaca valideyn himayəsinin olmadığı hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi, yəni onların saxlanması, tərbiyə olunması, təhsil alması, habelə onların hüquq və vəzifələrinin qorunması məqsədilə təyin olunur. Qəyyumluq 14 yaşa qədər, himayəçilik isə 14 yaşından 18 yaşa qədər uşaqlar üçün müəyyən olunmuşdur.

Yetkinlik yaşına çatmayanlar üçün digər cəzalar və tərbiyəvi xarakterli məcburi tədbirlər

Yetkinlik yaşına çatmayanların cinayət hüququnda digər mümkün cəzalar və qeyri-cəza hökmləri bunlardır: əmlakın (məsələn, skuter) və qanunsuz yolla əldə edilmiş malların (məsələn, oğurluq və ya oğurlanmış malların alınması yolu ilə) müsadirə edilməsi; cərimə və ya zərərin ödənilməsi və s.

Yetkinlik yaşına çatmayan məhkuma təyin edilmiş cərimə məhkəmənin qərarı ilə onun valideynlərindən və ya digər qanuni nümayəndələrindən onların razılığı ilə tutula bilər altı yüz manata qədər miqdarda tətbiq edilir. Bəzi yetkinlik yaşına çatmayanların sərt yanaşmaya ehtiyacı var, bəziləri isə daha yaşlı olsalar da, rəhbərlikdən daha çox faydalanırlar (Samandarov, 2019; 90).

Yetkinlik yaşına çatmayan şəxsə cəza təyin edilərkən onun həyat və tərbiyə şəraiti, əqli inkişaf səviyyəsi, digər şəxsiyyət xüsusiyyətləri, habelə yaşlı şəxslərin təsiri nəzərə alınır. Cinayət cəzasına əlavə olaraq, mahiyyətcə profilaktik xarakter daşıyan geniş vasitələrin böyük seçimi var. Belə ki, cinayət törətmiş yetkinlik yaşına çatmayanlara qarşı tərbiyə tədbirləri tətbiq edilə və ya onlara cəza verilə, məhkəmə tərəfindən cəzadan azad edildikdə isə onlar təhsil orqanının xüsusi qapalı təhsil müəssisələrinə də yerləşdirilə bilər.

Cərimə təyin edilə bilməsi üçün yetkinlik yaşına çatmayan şəxsin müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olmalıdır. Cərimə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehidir.

Yetkinlik yaşına çatmayan şəxsə məcburi tərbiyə tədbirləri təyin edilə bilər, məsələn: xəbərdarlıq; valideynlərin və ya onları əvəz edən şəxslərin və ya ixtisaslaşmış dövlət orqanının nəzarəti altında köçürülmə; vurulmuş zərərin əvəzinin ödənilməsi öhdəliyinin qoyulması; asudə vaxtının məhdudlaşdırılması və yetkinlik yaşına çatmayanın davranışına xüsusi tələblərin müəyyən edilməsi. Yetkinlik yaşına çatmayan şəxs tərəfindən məcburi tərbiyə tədbirini sistematik şəkildə yerinə yetirməməsi halında, bu tədbir ixtisaslaşdırılmış dövlət orqanının təklifi ilə ləğv edilir və materiallar göndərilir. Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etməyə görə məhkum edilmiş yetkinlik yaşına çatmayan tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə cəzadan azad oluna bilər. Residivin müəyyən edilməsi zamanı da yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlər nəzərə alınmır.

Cinayət hüququnun normalarını bilmək xüsusilə yeniyetmə uşaqları (14 yaşdan 18 yaşa qədər olan yetkinlik yaşına çatmayanlar) böyüdən böyüklər üçün lazımdır, çünki çox vaxt sonuncunun günahsız zarafatları cinayətə çevrilir və qanunla ciddi şəkildə cəzalandırılır. Valideynlər tərəfindən uşaqların diqqəti məsuliyyətli davranışa, öz hərəkətlərinə cavabdeh olmağın mühümlüyünə yönədilməlidir. Yetkinlik yaşına çatmayanların ictimai təhlükəli əməllər törətdikdə məsuliyyəti

Cinayət Məcəlləsində öz əksini tapıb.

18 yaşdan etibarən isə tam cinayət məsuliyyəti yaranır. Cəza təyin edilərkən on səkkiz yaşına çatmamış, lakin tərbiyə müəssisəsində on səkkiz yaşına çatmış məhkumlar əsasən tərbiyə müəssisələrindən cəzaçəkmə müəssisələrinə keçirilməlidirlər. Məhkəmənin qərarı olduqda məhkum tərbiyə müəssisəsində iyirmi yaşınadək qala bilər.

Metodika

Tədqiqatın metodoloji əsasını ümumielmi (analiz və sintez) metodu təşkil edir.

Analiz və sintez metodundan istifadə edərək biz bu işi belə araşdırırıq ki, yetkinlik yaşına çatmayanlara ciddi cəza tətbiq edilməsin çünki onların törətdiyi cinayətlər çox zaman yüngül xarakterli olduğuna və yaşları az olduğuna görə yetkinlik yaşına çatmayan birinə cəza tətbiq edilməsi məqsədə uyğun deyil. Az yaşlı bir uşaq törətdiyi hər hansı cinayətə görə əlbəttə ki, böyükləri tərəfindən başa salınıb, düzgün yola çəkiləcək.

Müzakirə

Danılmaz haldır ki, mövcud sosial çərait nəinki yeniyetmələrə, hətta gənclərə belə mənfi təsir göstərir. Azərbaycan Respublikasının məhkəmələri yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayət işlərinə bu sahədə qanunvericiliklə müəyyən edilmiş normalara əsasən baxılır. Ümumiləşdirmələrə nəzər yetirsək görərik ki, bəzi məhkəmələr tərəfindən yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayət işlərinə baxılarkən, qanun normalarının tələbləri pozulur, təqsirləndirilən şəxslərin əməlinin tövsifində və cəza təyin edilərkən səhvlərə edilir, cinayət törətmiş yeniyetmələrin həyat və tərbiyə şəraiti yetəri qədər araşdırılmır, onlar tərəfindən cinayətlərin törədilməsinə imkan verən halların aşkar edilməsinə lazımi qədər diqqət verilmir. Bu sahədə yol verilmiş nöqsan və kəsirlərin aradan qaldırılması məqsədilə təsadüf hallarda xüsusi qərarlar çıxarılır, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətləri törətmiş yetkinlik yaşına çatmayanlar barəsində tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqi ilə bağlı qanun normalarının təcrübədə tətbiqindən az istifadə olunur.

Yetkinlik yaşına çatmayanların cinayət işlərinə baxılması üzrə vahid məhkəmə təcrübəsinin yaradılması, bu sahədə yol verilmiş qanun pozuntularının gələcəkdə təkrarlanmaması, cəzaların təyin edilməsi zamanı qanunların eyni cür və düzgün tətbiq olunması məqsədilə ümumiləşdirilmələr aparılmalı, öljə üzrə kriminal şərait qiymətləndirilməli, gəncləri kriminal şəraitdən uzaqlaşdırmaq üçün tədbirlər görülməlidir.

Nəticə

Belə nəticəyə gəlmək olar ki, yetkinlik yaşına çatmayanların arasında cinayət hallarının baş verməsinin qarşısını almaq üçün müvafiq qurumların təhsil müəssisələrində, ailə məsləhətləşmələrində və hətta narkotik vasitə istifadə edənlərin müalicə olunduğu müəssisələrdə tədbir görülməsi vacibdir. Yetkinlik yaşına çatmayanların cinayətləri çox vacib sosial bir problemdir. Gənclər bir ölkənin gələcəyini təmsil edirlər. Kiçik yaşlarından cinayətə üz tutalarsa, onları cəmiyyətə qovuşdurmaq çox çətindir. Danılmaz haldır ki, mövcud sosial şərait nəinki yeniyetmələrə, hətta gənclərə belə mənfi təsir göstə bilir. Yetkinlik yaşına çatmayanlara münasibətdə tətbiq olunan cəzalar və onların islah olunması üçün nəzərdə tututlan cəzaçəkmə müəssisələrində nəzərdə tutulan tədbirlər həmin şəxslərin islah olunması üçün kifayət etsə də, cəmiyyətdə tətbiq olunan ictimai nəzarət formaları daha effektiv olmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi; Bakı: 2020.
2. Həsənov. E.H. "Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin qarşısının alınması məsələləri"; Bakı: 2022
3. Şəfiyeva. G.B. Azyaşlıları cinayətə sövq edən səbəblər və CM-nin 170-ci maddəsinin təkmilləşdirilməsinə dair". Qanunçuluq jurnalı. № 4. 2018.
4. Səməndərov. F.Y. Cinayət hüququ ümumi hissə. Dərslik. Bakı: 2007.
5. "Uşaq hüquqları haqqında" 19 may 1998-ci il tarixli AR Qanunu.
6. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" 24 may 2005-ci il tarixli AR Qanunu.
7. Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsi.

SUMMARY

Elza Guluzade

CHARACTERISTICS OF SENTENCING JUVENILE PERSONS

The article discusses the legal and technical features of the court's proper review of the requirements of the existing legislation when sentencing minors, as well as the legal and technical features of sentencing minors. Despite the fact that much attention is paid to the issues of criminal responsibility of minors in the scientific literature, the problem of considering the features of sentencing against minors is not covered so much, although it is quite relevant in practice, but in the scientific literature, the legal aspects of sentencing against minors are not covered so much. technical issues are generally not paid attention to.

Key words: *punishment, legal technique, criminal responsibility of minors, measures of criminal law, Criminal Code*

FATİMƏ MƏSUMOVA
fatimamasumlu@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0006-4951-061X

XVI ƏSRDƏ SƏFƏVİ DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ

1555-ci il Amasya sülhündən sonrakı dövrdə Səfəvi-Osmanlı münasibətlərinin Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmış, dövrün mənbələrindən istifadə olunmaqla təhlil edilmişdir. Məqalədə həmçinin Amasya sülhünün bağlanması iki dövlət arasında dinc münasibətlərin bərqərar olunması. tarixi həqiqətin bərpa olunduğunu, görə bilərik eləcədə

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin daxilən zəifləməsi, ayrı-ayrı vilayətlərdə üsyanların başlanmasından istifadə edən Osmanlı sultanının Avropa dövlətləri ilə müharibədə itirdiyi əraziləri Səfəvi torpaqları hesabına bərpa etmək üçün onun ərazilərinin işğalına başlaması

Osmanlı dövlətinin Səfəvilərə qarşı müharibədə başlıca məqsədinin Xəzər dənizinə qədər Azərbaycan ərazilərini ələ keçirərək Səfəvi təhdidlərini aradan qaldırmaq və Orta Asiya xanlıqları ilə birbaşa əlaqə yaratmaq, Asiyanın içərilərindən gələn mühüm ticarət yollarını və bu ticarətin önəmli mərkəzi olan Təbrizə sahib olmaq istəməsi planlarıda tədqiq olunmuşdur.

Açar sözlər: *Ticarət müqaviləsi , Səfəvi-Osmanlı müharibəsi, işğal, Venesiya munasibətləri*

Giriş:

Səfəvi dövlətinin Avropa dövlətlərilə qarşılıqlı əlaqələrinin genişlənməsi ölkənin ağır iqtisadi vəziyyəti ilə şərtlənirdi. Bu dövrdə, məlumdur ki, Osmanlı imperiyası Səfəvi tacirlərinin Aralıq dənizinə girməsinə mane olurdu. Bundan əlavə böyük coğrafi kəşflər, xüsusilə, Hindistana dəniz yolu açıldıqdan sonra Səfəvi dövlətinin iqtisadi vəziyyəti daha da pisləşdi. Səfəvi dövlətinin ticarət mərkəzinə axışan hind ədviyyatı portəkizlər tərəfindən mənimsənilir, nəticə etibarilə isə bu malların alverində vasitəçilik edən Azərbaycan tacirlərinin mənafeyinə zərbə vurulurdu. Portuqaliya Hindistanın İran körfəzinə-Hörmüzdə çıxan əsas sahil məntəqələrinə (1515) yiyələndi. Bu vaxt Səfəvi dövlətinin hind okeanına çıxış yolu bağlı idi. Ona görə də Səfəvi şahları belə məqsəd güdürdülər: əvvəla, Avropa dövlətləri ilə birgə hərbi əməliyyat yolu ilə Osmanlı Türktiyəsinə zərbə endirmək, Aralıq və Qara dəniz vasitəsilə Qərblə tranzit ticarətini qaydaya salmaq, ikinci, Şərq bazarı üstündə Avropa dövlətləri arasında ticarət-siyasi ziddiyyətlərin mövcudluğundan istifadə edərək portəkizlərdən Hörmüzd adasını geri alıb, Hind okeanı və Hindistanla ənənəvi ticarət münasibətlərini bərpa etmək.

Səfəvi dövlətilə qarşılıqlı əlaqədə olan Avropa dövlətləri isə başqa məqsəd güdürdülər. Onların hər birinin Şərqdə öz marağı vardı.

XVI əsrin 50-80-ci illərində ingilis Moskva kompaniyasının Rusiya vasitəsilə Səfəvi dövləti ərazisinə ekspedisiya təşkil etməsi müstəmləkə siyasətinin həyata keçirilməsində bir cəhd idi. Gənc ingilis burjuaziyası güclü Osmanlı ərazisi və Venesiya ticarət rəqabəti xaricində Azərbaycan və İranın xam ipəyinə yiyələnməyə çalışırdı. Antoni Cenkinson Şamaxıda Şirvan bəylərbəyi Abdulla xan Ustaclınınqəbulunda olarkən demişdi: "... Bizdən azca uzaqda, venesiyalılar adlanan millət var. Onlar türklərlə ümumi rəyə gəlib, onların ərazisində bizim mal ilə alver edirlər, həmin malları Səfəvi dövlətindən gətirilən ipəklə dəyişirlər. Lakin Səfəvi hakimi və digər dövlət başçıları türklərin venesiyalılara yaratdıqları şərait kimi bizə şərait yaratsalar-bizim onların ərazisində ticarət etməyə, pasport və qorunma vərəqəsi almağa razı olsalar, mən şübhə etmirəm ki, burada ticarət yüksək səviyyədə aparılar və böyük mənfəət əldə edilər. Onlar bizim mallarla təmin olunar, eyni zamanda, öz mallarını satmaq işini də yaxşılaşdıra bilərlər..."

Çaldıran döyüşündən sonra Səfəvi şahı Osmanlı imperiyasına qarşı mübarizə aparmaq və İran körfəzi vasitəsilə istənilən silahı almaq niyyətilə Portuqaliya ilə ittifaqa girdi. Məsələn, 1515-ci il

aprelin 29-da Venesiya respublikasının Kiprdəki canişini Zuan Hradeniqo Nikosiyadan öz hökumətinə xəbər verirdi: "Təsdiq edirlər ki, Şah İsmayıl 100 mindən artıq qonşun və güclü artilleriya toplamışdır". 28 oktyabr 1518-ci il tarixli sənəddə qeyd edilir ki, "Sufinin (Şah İsmayıl) 70 minlik ordusuna Portuqaliya kralı tərəfindən göndərilmiş silahlı əsgərlər, artilleriya mütəxəssisləri daxildirlər". Başqa bir sənəddə Sufinin "ordu və silahla çox güclü olduğu qeyd edilir".

Səfəvi şahı Almaniya imperatoru və İspaniya kralı V Karlla yaxınlaşmağa çalışırdı. O, 1518-ci ildə V Karl və macar kralı II Lüdviqə məktubla müraciət etmişdi. Lakin məktublar ünvanlara vaxtında çatmadığı üçün öz əhəmiyyətini itirmişdi. Bundan əlavə, Avropa ölkələrilə Qızılbaş arasında məsafənin uzaqlığı da onların Türkiyəyə qarşı birgə əməliyyatına mane olmuşdu. Şah İsmayılın həm daxili, həm də xarici siyasəti hakim sinfin, birinci növbədə, Azərbaycan qızılbaş əyanlarının mənafeyi baxımından həyata keçirildi. Səfəvi-Osmanlı müharibələri də Səfəvilərin Şeybanilərlə apardıqları müharibələr kimi dini bayraq altında-şiəliklə sünnülük arasında gedən mübarizə idi. Əslində isə, bu mübarizə Azərbaycanın zəngin təbii sərvətlərinə yiyələnmək, Ön Qafqazdan keçən və son dərəcə mühüm əhəmiyyət kəsb edən Avropa-Asiya ticarət yoluna nəzarət etmək uğrunda gedirdi.

Nəticə:

Səfəvi dövlətinin İngiltərə ilə ticarət əlaqələri genişləndirildi. Məsələn, 1625-ci ildə Londonda, eyni vaxtda, Şah Abbasın iki nümayəndəsi Nağdəli bəy və Robert Şerli iki dövlət arasında ticarət münasibətlərini genişlənjirmək üçün yeni danışıqlar apardılar. Lakin ingilis burjuaziyasının qarşısında Hollandiyanın Ost-Hind kompaniyası ilə, habelə, İspaniya və Portuqaliya ilə hərbi-siyasi rəqabətdə uzunmüddətli və çətin vəzifələr dururdu. Bundan əlavə, Səfəvi şahı Avropa dövlətlərindən, o sıradan İngiltərədən lazımi hərbi yardımı almadığı, həmçinin, Osmanlı imperiyası tərəfindən əvvəlki təhlükəni hiss etmədiyi üçün indi xarici tacirləri ölkənin dərinliklərinə buraxmaq istəmir, onlara əvvəlki imtiyazları verməklə kifayətlənir. Şah Abbas 1628-ci ildə Mazandaranda Ost-Hind kompaniyasının nümayəndə heyətini qəbul edərək deyir: "Əgər ingilis şahzadəsi bizimlə ticarət münasibətlərini inkişaf etdirmək istəyirsə, biz onları ölkənin içərilərinə buraxmadan mahudun əvəzinə Hörmüzddə onlara ildə 10.000 yük ipək verə bilərik, mahudu isə biz tatarlara, ərəblərə, erməni, gürcü və Rusiya əhalisinə sata bilərik".

Belliklə, Azərbaycan Səfəvi dövləti Avropa ölkələri ilə sıx diplomatik əlaqələr yarada bilmişdi. Xristian Avropası isə islam daxilindəki təriqət çəkişmələrindən məharətlə istifadə edərək, güclü türk-müsəlman dövlətlərini bir-birilə vurmuşdur və Avropanı işğal olmaqdan xilas edə bilirdi.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə, üçüncü cild. Bakı: Elm, 1999, 584 s.
2. Kütükoğlu B. Osmanlı-İran siyasi münasibətləri (1578-1612). Özal Matbaası, İstanbul: 1993, 340 s.
3. Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi. Farscadan tərcümənin, önsözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı: Təhsil, 2009, 792 s.
4. Nəcəfli Tofiq. Səfəvi-Osmanlı münasibətləri. (Türkiyə tarixşünaslığında) Bakı: Turxan NPB, 2014, 516 s.

SUMMARY

Fatima Masumova

THE FOREIGN POLICY OF THE SAFAVID STATE IN THE 16th CENTURY

In the period after the peace of Amasya in 1555, the Safavid. The level of research of Ottoman relations in Turkish historiography was analyzed using the sources of the period. The article also mentions Amasya the closing of the bridge and the establishment of peaceful relations between the two states. we can also see that the historical truth has been restored. At the beginning of the 18th century, the internal weakening of the Safavid state Os-, who took advantage of the beginning of rebellions in individual provinces. The Safavid territories lost by the sultan of Manli in the war with the European states to start the occupation of its territories in order to restore the lands at the expense of. In the war against the Safavids of the Ottoman state its main goal is to capture the territories of Azerbaijan up to the Caspian Sea. to eliminate the Safavid threats and cooperate with the Central Asian khanates to create connections, important trade routes from the interior of Asia and it was studied in the plans of wanting to have Tabriz, an important center of this trade.

***Key words**: Trade agreement, Safavi-Osmanli war, occupation, Venetian relations*

GÖZƏL HƏSƏNOVA
gozalhasanova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0003-1511-0413

ƏSRİN SONLARINDA SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİ

İstər Azərbaycan, istərsə də Türk tarixşünaslığında yer alan məsələlərdən biri Osmanlı-səfəvi münasibətləridir. XVI əsrin birinci yarısında Osmanlı-Səfəvi müharibələri Qafqaz ölkələrinin xarici siyasət tarixinin ən mühüm amillərindən biri hesab edilir. I Şah Təhmasibin ölümündən sonra Səfəvi dövlətinin daxilində kəskin ziddiyyətlət baş verir. I Şah Təhmasib hakimiyyəti illərində 1555-ci ildə bağlanan Amasiya sülhünün şərtlərinə sadiq qalaraq Osmanlı imperiyası ilə əmin-amanlığı qoruyub saxlamağa çalışmışdır.

Əlbəttə, bu sağlam münasibətlər I Şah Təhmasibin ölümündən sonra tamamailə dəyişir. Hətta iki dövlət arasında müharibə vəziyyətinin yaranmasına gətirib çıxarır. Bir sözlə, hakimiyyətə gələn II Şah İsmayılın hakimiyyəti illərində bu iki dövlət arasında bütün münasibətlər kəsilir. Onu da qeyd edək ki, Osmanlı-Səfəvi dövlətləri arasında müharibə yüz əlli ildən artıq davam etmişdir.

Məqalədə də bu kimi məsələlər şərh edilmişdir.

Açar sözlər: *Səfəvi-Osmanlı münasibətləri, hakimiyyət, sağlam münasibət, sülh müqaviləsi, Amasiya sülhü*

XVI əsrin birinci yarısında Osmanlı-Səfəvi müharibələri Qafqaz ölkələrinin xarici siyasət tarixinin ən mühüm amillərindən biri hesab edilir. İstər Azərbaycan, istərsə də Türk tarixşünaslığında bu münasibətlər geniş şərh edilmiş və öyrənilmişdir.

Tarixi mənbələrə əsaslanaraq qeyd edilməlidir ki, I Şah Təhmasibin ölümündən sonra Səfəvi dövlətinin daxilində kəskin ziddiyyətlət baş verir. 1555-ci ildə bağlanan Amasiya sülhünün şərtlərinə sadiq qalan I Şah Təhmasib Osmanlı imperiyası ilə əmin-amanlığı qoruyub saxlamağa çalışır. Buna görə də 1568-ci ildə Şahqulu Sultan Ustaclının, 1576-cı ildə isə Məhəmməd xan Toxmaq Ustaclının rəhbərliyi altında İstanbula böyük bir heyət göndərir. Həmin dövrdə Qərbi Avropa dövlətləri I Şah Təhmasibi Osmanlı imperiyası ilə müharibəyə təhrik edirdilər. Lakin Təhmasib müharibədən çəkinir, münasibətləri qorumağa çalışırdı [2, 5-7].

Mənbələrin verdiyi məlumata görə, Rum padşahı Səlim xan vəfat etdiyindən onun yerinə oğlu Sultan Murad taxta çıxır. I Şah Təhmasib Sultan Muradı təbrik etmək üçün Məhəmməd xan Toxmaq Ustaclını İstanbula göndərir. Məhəmməd xan Toxmaq Ustaclı 250 nəfərlik heyətlə yola düşür və 1576cı il mayın 5-də İstanbula çatır. istanbula çatan Məhəmməd xan Toxmaq III Sultan Murad tərəfindən böyük hörmətlə qarşılanır. Eyni zamanda, Səfəvi şahı Sultana hədiyyələr də göndərir. Bu hədiyyələr içərisində 60 Səfəvi şairinin divanı, cildləri qiymətli daşlarla bəzədilmiş Quran, 40 xalqa və digər qiymətli hədiyyələr yer alırdı [3,273].

Tarixi baxımdan qeyd edilir ki, bu elçilik heyəti türk tarixində ən dəbdəbəli elçi heyəti hesab edilmişdur. Göründüyü kimi, I Şah Təhmasib 1555-ci il müqaviləsi ilə əldə etdiyi əmin-amanlığı qorumağa çalışmış, bu istiqamətdə mühüm işlər görmüşdür. Belə ki, Sultan Süleyman və II Sultan Səlimin hakimiyyəti illərində bu münasibətləri qoruduğu kimi, III Sultan Muradın da dövründə qoruyub saxlamağa çalışmışdır. Qeyd edək ki, Türkiyə tarixçilərinin qənaətinə görə, Osmanlı-Səfəvi münasibətləri I Şah Təhmasibin ölümünə kimi dostluq şəraitində davam etmiş, hətta Səfəvi şahı Xorasanı özbəklərdən geri ala bilmişdir. Bir sözlə, sülhə sadiq qalaraq Səfəvi-Osmanlı münasibətlərində müxalifət aşanmır.

Əlbəttə, bu sağlam münasibətlər I Şah Təhmasibin ölümündən sonra tamamilə dəyişir. Hətta iki dövlət arasında müharibə vəziyyətinin yaranmasına gətirib çıxarır. Bir sözlə, hakimiyyətə gələn II Şah İsmayılın hakimiyyəti illərində bu iki dövlət arasında bütün münasibətlər kəsilir.

Osmanlı imperiyası 1578-ci ildə Səfəvilərə qarşı müharibəyə başlayır. Bu müharibənin əsas səbəbi kimi tarixi köklərə dayanan sünni-şiə ixtilaflarının Anadolunun siyasi və ictimai birliyini, sabitliyini pozması göstərilir. Əslində Osmanlı dövlətinin Xəzər sahillərinə və Təbrizə yönələn yürüşləri ilə bağlı qeyd edilir ki, burda başlıca məqsəd Asiyanın içərilərindən gələn mühüm ticarət yollarına çıxmaq və tranzit məntəqələrini ələ keçirmək idi. Mənbələrə əsaslanaraq qeyd etmək olar ki, II Şah İsmayıl il yarım hakimiyyətdə olur və bu müddətdə Səfəvi dövlətinin daxili və xarici siyasətində radikal dəyişikliklər keçirir, siyasi rəqiblərini aradan qaldırır. İlk öncə Heydər Mirzənin tərəfdarlarının saraydan və paytaxtdan təmizləməyə nail olur. Qeyd edildiyi kimi: "O, dövlət üzərində böyük nüfuz sahibi olan şiə üləmalarını və Qızılbaş tayfa əmirlərini saraydan uzaqlaşdırdı, onların yerinə sünni bürokratları və alimləri təyin etdi. Bununla yanaşı, şiəliyin bəzi radikal tələblərini bəhanə edərək Səfəvi sərhədlərini sürəkli təhdid edən Osmanlı və Özbək hücumlarının qarşısını almaq üçün On iki İmamın ixtilaflı doktrinalarını qadağan etdi. Beləliklə, ölkədə sünniliklə şiəliyi barışdırmaq üçün islahatlar həyata keçirdi. Xarici siyasətində qarşıya geniş strateji məqsədlər qoyan II Şah İsmayıl Anadoluda unudulmuş Səfəvi davasını təkrar ayağa qaldırmış və bu məqsədlə Anadoludakı şiə əhali ilə əlaqələr yaratmışdır [4, 229].

II Şah İsmayıl hakimiyyətini möhkəmləndirməyə çalışmış ki, bu da ona qarşı əleyhidarların artmasına səbəb olmuşdur. Bu da ona qarşı nifrətin yaranmasına səbəb olmuş, 1577-ci ildə öldürülmüşdür. Bu da onu göstərir ki, Osmanlı-Səfəvi dövlətləri arasında müharibə yüz əlli ildən artıq davam etmişdir. Eyni zamanda, bu müharibələrin səbəbinin sünni-şiə mübarizəsi ilə əlaqəli olmadığı da qeyd edilmişdir. Bu iki dövlət arasında baş verən müharibələrin əsas səbəbi onlar arasında yaşanan siyasi rəqabət idi. Halbuki II Şah İsmayıl Şərqi Anadoluda sünnilərlə şiələr arasındakı ixtilafı aradan qaldırmış, onlara qarşı barışdırıcı mövqedə dayanmışdır. Osmanlı imperiyasını Səfəvi dövlətinə qarşı müharibəyə vadar edən başlıca səbəb I Şah Təhmasibin Moskva knyazlığı və İngiltərə ilə Qafqaz və Xəzər dənizi vasitəsilə ticarət əlaqələrini inkişaf etdirməsi, Osmanlıları bu məsələdə kərarda qoyması idi. Osmanlı dövləti isə Xəzər dənizində öz hərbi qüvvələrini saxlamaq, beləliklə, Mərkəzi asiya ilə əlaqə yaratmaq fikrində idi. Osmanlılar bu planlarını həyata keçirməklə böyük gəlirlər əldə edə bilərdilər. Bu mənada, Səfəvi-Osmanlı münasibətlərinin pisləşməsində Səfəviləri təqsikar hesab edirdilər. Bu fikir isə əsassız hesab edilir.

Bu kimi vəziyyətdən çıxış edən Osmanlı sultan III Murad Azərbaycana qarşı yeni müharibəyə hazırlaşır. Bununla da, 1555-ci il müqavilsi pozulmuş olur [5, 207]. 1578-ci ilin qışında Osmanlı-Səfəvi toqquşmaları baş verir. 1578-ci ildə Van bəylərbəyi Xosrov paşa Azərbaycana hücum edərək Urmiya, Xoy və Salmas şəhərlərini işğal edir. [1, 127].

Osmanlı-Səfəvi müharibəsinin başlanmasının təbii ki, iqtisadi səbəbləri də var idi. Bu səbəblər kimi qeyd edilir ki:"Qafqaz şərqdə Osmanlıların həm şimala, həm də cənuba irəliləməsi üçün böyük strateji əhəmiyyətə malik idi. Osmanlı dövləti on ildən az müddət ərzində öncə cənuba doğru irəliləməyə çalışan Rusiyaya qarşı Don və Volqa çaylarını birləşdirməyə, şimaldakı ticarət yollarını ələ keçirməyə və Səfəviləri şimaldan da dövrəyə almağa çalışdı, lakin uğur qazana bilmədi. "Gürcüstan və Şirvanı işğal etməyi" qarşıya məqsəd qoyan Osmanlı-Səfəvi müharibəsinin iqtisadi hədəfləri Xəzər dənizinə hakim olmaq, Həştərxan xanlığını işğal edib Xəzər dənizinə çıxan və Türküstan müsəlmanlarının həcc və ticarət yollarını kəsən Rusiyanın öz sərhədlərini genişləndirməsinin qarşısını almaq, Asiyanın içərilərindən gələn mühüm ticarət yollarını və bu ticarətin önəmli mərkəzi olan Təbrizə sahib olmaq idi [4, 235].

1587-ci ildə rəsmi şəkildə Qəzvin taxtına əyləşən I Şah Abbas dövləti böhranlı vəziyyətdən qurtarmaq üçün Türkiyə ilə sülh danışıqlarına başlayır. Səfəvilər özlərinin qalan mülklərini saxlamaq üçün Sultanın sülh şərtlərini qəbul etməyə məcbur olur və 1590-cı il İstanbul sülhünə görə Azərbaycandan əlavə Ermənistan Gürcüstan İranın qərb vilayətləri Nəhavənd Suristan Şəhrizur Osmanlıya verilir. Bundan sonra Azərbaycan Səfəvi və Osmanlı feodalları tərəfindən idarə olunmağa başlayır. Osmanlı hakimiyyət orqanları zəbt olunmuş ərazilərdə yeni inzibati vahidlər yaradır vilayətlərə hakimlər təyin edirdilər.

Beləliklə, 1555-ci il sülhünün şərtləri bərpa edilir və 1612-ci il oktyabrın 17-də Osmanlı-Səfəvi arasında sülh imzalanır.

1612-ci ildə imzalanmış İstanbul sülh müqaviləsinə görə Osmanlı dövləti İranın tutmuş olduğu ərazilərdəm imtina edir. 1578-ci ilədək mövcud olmuş Səfəvi-Osmanlı sərhəddi bərpa olunur. Nəticədə Dağıstan, Şimalı Qafqaz və Qərbi Gürcüstan osmanlılara, Qərbi İran, İrəvan, Azərbaycanın şimal hissəsi ilə birgə Naxçıvan və Qarabağ səfəvilərə verilir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə, üçüncü cild. Bakı: Elm, 1999, 584 s.
2. Kütükoğlu B. Osmanlı-İran siyasi münasibətləri (1578-1612). Özal Matbaası, İstanbul: 1993, 340 s.
3. Münşi İsgəndər bəy. Tarix-i alamara-yi Abbasi. Farscadan tərcümənin, önsözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.e.n. Namiq Musalı. Bakı: Təhsil, 2009, 792 s.
4. Nəcəfli Tofiq. Səfəvi-Osmanlı münasibətləri. (Türkiyə tarix- şünaslığında) Bakı: Turxan NPB, 2014, 516 s.

SUMMARY

Gozal Hasanova

SAFAVID-OTTOMAN RELATIONS AT THE END OF THE 15th AND 1st CENTURIES

One of the issues in both Azerbaijani and Turkish historiography is Ottoman-Safavid relations. The Ottoman-Safavid wars in the first half of the 16th century are considered one of the most important factors in the history of the foreign policy of the Caucasian countries. After the death of Shah Tahmasib I, there was a sharp contradiction within the Safavid state. During the reign of Shah Tahmasib I, he tried to maintain peace with the Ottoman Empire by adhering to the terms of the Peace of Amasiya concluded in 1555.

Of course, these healthy relations of Shah Tahmasib I completely after his death changes. Even a war between two states caused the situation takes out In a word, to the government the coming Shah Ismail II authority all relations between these two states is cut. Note it too let's say Ottoman- Safavi war between states one hundred and fifty since has already continued. In the article issues like this comment has been done .

Key words: *Safavid -Ottoman relations, power, healthy relationship, peace contract, Amasia peace*

JALƏ HACIZADƏ
Naxçıvan Dövlət Universiteti

QÜTB VƏ ONUN "XOSROV VƏ ŞİRİN" ƏSƏRİ HAQQINDA

Məqalədə orta əsr türk yazılı abidələri içərisində Qütb Xarəzmin "Xosrov və Şirin" əsəri haqqında danışılır. Məlum olduğu kimi, XIII-XVI əsrlərdə karluq-uyğur dilinin, sonralar isə ən qədim özbək, Çağatay dilinin, oğuz-qıpçaq elementləri ilə təkmilləşən formaları bir növ əksər türk dilli xalqlar üçün ümumilik təşkil edir. Monqol istilası vaxtı Qızıl Orda dövründə bu ədəbi dilin normaları ərəb ölkələrinə, Misirə, Suriyaya, İraqa, kiçik Asiyaya köç edən türk dilli xalqlar üçün də uzun müddət məqbul hesab olunmuşdur. Məhz buna görə də həmin dövrdə yaranan yazılı abidələrdə müştərək oğuz-karluq-qıpçaq elementlərinin varlığı qanunauyğun hal hesab edilmişdir. Qütbün "Xosrov və Şirin" poeması XIV əsrin I yarısında yazılıb. Əsərin yazılma ili, tərcümə edilmə tarixi dəqiq deyildir. Paris milli kitabxanasında qorunub saxlanılan bu əsərin yeganə nüsxəsi də orijinal əlyazması deyil.

Açar sözlər: *Azərbaycan dili, Qütb Xarəzm, "Xosrov və Şirin", xalqlar, arixi faktlar*

Tarixi faktların tutuşdurulması əsasında onu demək olar ki, Qütbün tərcüməsinin üzünü köçürən Birgə ibn-Bərakiz ibn-ğandu bu işi Qütbdən ən çoxu 43 il sonra həyata keçirmişdir. Birgənin qorunaraq nu günə qədər gəlib çıxan əlyazmasının tarixi 1383-cü ildir. Əsər Qızıl Orda hökmdarı Özbək xanın (1320-1340) oğlu şahzadə Tini bəyə ithaf olunub.

Məlum olduğu kimi, Tini bəy 1340-cı ildə hökmdarlığa keçib. Burdan belə aydın olur ki, Qütb bu əsərini ona şahzadəlik vaxtında ithaf etdiyindən təqribən 1330-1340-cı illərdə tərcümə edildiyi ehtimalını irəli sürmək olar.

Qütb, eyni zamanda, poemanı XV əsr ədəbi həyatı ilə səsləndirməyə çalışmışdır və bu məqsədinə nail olmuşdur. Qütbün bu əsəri əslində Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından bir növ iqtibasdır. Belə ki, əsas məzmun mühafizə olunmuş, qorunmuş, lakin o dövrün ədəbi dilinə xas zəngin poetik imkanlardan, rəngarəng birləşmələr və metaforalardan məharətlə istifadə olunaraq bir növ orijinal əsər ortaya çıxmışdır. Başqa sözlə, biz burada hərfi tərcümədən yox, bəlkə də yaradıcı səciyyə daşıyan iqtibasdan bəhs edə bilərik.

Qütbün "Xosrov və Şirin" poemasının əlyazması 240 səhifədən ibarətdir. Əsər cəmi 91 fəsildən, 4770 beytdən ibarətdir. Göründüyü kimi, Qütb Nizaminin poemasını bir növ ibtisarla tərcümə etmişdir. Belə ki, onun poeması Nizaminin əsərindən təqribən 2300 beyt azdır. Çünki Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması 7000 beytdən ibarətdir.

Qütb poemanı tərcümə edərkən buraya etdiyi əlavədə təkcə Tini bəy və onun xanımı Məlikəni mədh etməklə kifayətlənmir. O, Tini bəyin və Məlikə xanımın çox insaflı, mərifətli, alicənab və ədalətli bir insan olduqlarını göstərir.

Poemanın girişindən məlum olur ki, Qütb poemanı məhz Tini bəylə Məlikənin xahişi ilə tərcümə edib. Belə məlum olur ki, əsər hazır olana qədər Məlikə vəfat edib.

Əsərdə başqa bir cəhət də diqqəti cəlb edir. Burada məlum olur ki, Qütb bunu Qızıl Ordadan çox-çox uzarlarda, bəlkə də elə məmlüklərin hökmranlıq etdikləri ərəb ölkələrindən birində - Misirdə, Suriyada və ya İraqda hazırlayıb. Bunu aşağıdakı parçadan aydın görmək olar:

Muradım erdi ol kim bu qapuğda,
Gelib yol tabsaman teb bu tabuğda.
Səfər rəizin görüm özüm qaç əyyam,
Tabuğda yettim imdi oş sərəncam (3., s. 44)

Türk dilində yazılmış Qütbün "Xosrov və Şirin" poeması ümumtürk əsərləri içərisində yazıya alındığı dövrə və dil xüsusiyyətlərinə görə türk xalqları üçün mühüm əhəmiyyətə malikdir. Belə ki, əsər türk dilində yazılmış qədim nümunələrdən sayılır. Çünki orta əsrlərdə fars dili ədəbiyyatın hakim olduğu bir dövrdə bu cür əsərlər yazıya alınmırdı, ya da ədəbiyyatda yüksək istedada malik şəxs tərəfindən təsdüfən yazıya alınırdı.

Belə bir dövrdə əsərin türk dilində yazıya alınması və eyni zamanda, məhz bu cür ağır mövzuya müeraciət edilməsi sənətkarın ədəbiyyatı dərindən bilməsindən, peşəkarlığından xəbər verir. Qünbün "Xosrov və Şirin" əsərini türl dilinə tərcümə etməkdə əsas məqsədi türklərin də bu əsərdən geniş istifadə edə bilməsi olmuşdur. Bu mövzuya müraciət etməklə, əsərə edilən əlavələrlə ədib, bu sahədə öz peşəkarlığını nümayiş etdirmiş, həmçinin gələcək nəsillər üçün bir yadigar qoymuşdur.

Qütbün "Xosrov və Şirin" əsərinin yazılmasından altı əsrdən çox zaman keçməsinə baxmayaraq, bu əsər həmişə tədqiqatçıların nəzərindən uzaqda qalmışdır. Azərbaycan dilinin bir elm sahəsi kimi formalaşdığı gündən indiki dövrədək Qütbün "Xosrov və Şirin" əsəri ilə bağlı elmi tədqiqatlar, demək olar ki, aparılmamışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan müstəqillik qazandıqdan sonra ümumtürk abidələrinin tədqiqata cəlb edilməsi geniş vüsət almağa başladı. Nəhayət ki, Qütbün "Xosrov və Şirin" əsərinin leksikası tərəfimizdən tədqiqata cəlb olundu. Beləliklə, Azərbaycan dilçiliyi tarixində Qütbün "Xosrov və Şirin" əsərinin leksikası elmi tədqiqata cəlb olunmuşdur.

ƏDƏBİYYAT

1. Ə.A.Quliyev. Qədim türk onomastikasının leksik-semantik sistemi (II hissə), Bakı: Elm, 2001, 192 s.
2. F.R.Zeynalov.Qədim türk yazılı abidələri. Bakı: ADU mətbəə 1980, 96 s.
3. Beqdeli Q. Şərq ədəbiyyatında "Xosrov və Şirin". Bakı, Elm, 1970, 366 s.
4. Nizami Gəncəvi. "Xosrov və Şirin". Bakı: Lider, 2004, 392 s.
5. Zeynalov F. Türkologiyanın əsasları. Bakı: Maarrif, 1981, 345 s.
6. Cəfərov Qüdrət. Azərbaycan dilinin leksik-semantik sistemi. Bakı: Elm, 1994, 121 s.
7. Ə.Quliyev. Nizami "Xosrov və Şirin"nin türkcəyə ilk tərcüməsi (XIV əsr) və əsərin bəzi dil xüsusiyyətləri // AMEA-nın NB-nın Xəbərləri, 2008, №4, s. 19-23
8. S.Ə.Cəfərov. Müasir Azərbaycan dili. Bakı: Şərq-Qərb, 2007, 191 s.

KHYALA SAFAROVA
Nakhchivan State University

LEXICAL-SEMANTIC CHARACTERISTICS OF HISTORIZMS IN THE AZERBAIJAN LANGUAGE

The article talks about historicisms, which are part of obsolete words in the lexical structure of the Azerbaijani language. Historicisms, as the name suggests, express the historical event or subject of a certain period. In order for the names of such events and objects to be historicism, it is the main feature that they should become obsolete along with the historical period to which they belong. Such words are related to various areas of the past life of our society. The development in those areas has led to the obsolescence of a number of words. Obsolete events and objects have become historicisms and have taken their place in the passive vocabulary of the language.

In order to better observe historicisms, it is necessary to refer to historical dictionaries and literary monuments. Monuments such as "Divani-luğat-it türk", "Kitabi-Dade Gorgud" and "Oguzname" texts have an important place among such sources that clearly reflect the historical picture of the vocabulary of the language. Because these monuments are able to present the language with its various aspects and show the diversity of vocabulary resources.

Key words: *Azerbaijani language, historicisms, outdated events, feature, subject, "Divani-luğat-it Turk", "Kitabi-Dade Gorgud", "Oguzname", etc.*

ŞƏBNƏM ŞÜKÜROVA
shabnamshukuroffa@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0007-6832-123X

1920-ci İLİN APREL İŞĞALI DÖVRÜNDƏ AZƏRBAYCANIN HƏRBİ GÜCÜ

1920-ci il aprelin 27-də bolşevik XI rus ordusu Azərbaycan ərazilərini sürətlə işğal edərək, Azərbaycan Xalq Cumhuriyyətinin (AXC) süqutuna səbəb oldu. Bu məqalədə həmin işğalın qısa müddət ərzində baş verməsinin səbəbləri və nəticələri təhlil olunmuşdur. Bugün hələ də bir çox tədqiqatçıları düşündürən suallar sırasına daxildir: AXC nə üçün bu işğalın qarşısını ala bilmədi? AXC kifayət qədər hərbi müqavimət və gücə malik idi yoxsa deyildi? Bu cür suallara cavab tapmaq məqsədilə, AXC-nin hərbi gücü, o cümlədən bu işğal ərəfəsində Azərbaycanın hərbi gücü və fəaliyyəti bu məqalədə dəqiq faktlar əsasında araşdırılmışdır. Bundan əlavə, bu məqalədə rus ordusunun Azərbaycanı işğalı ərəfəsində şimal sərhədlərinin mühafizəsində dayanan milli hərbi qüvvələrin say-tərkibi, həmçinin bu işğala cəlb edilmiş bolşevik qüvvələrin say-tərkibi, onların təchizat imkanları və bütünlükdə tərəflərin qüvvələri nisbəti tədqiq olunmuşdur.

Açar sözlər: *ordu , hərbi güc , müstəqillik, XI qırmızı ordu, işğal*

Giriş

Azərbaycan müstəqilliyi, onun bərpası uğrunda qurbanlar verdiyi kimi, ərazi bütövlüyü, suverenliyi və müstəqilliyini qorumaq yolunda da mübarizə aparır, bu yolda da şəhidlər verir. Nə yaxşı ki, belə hadisələrin bir çoxu artıq tarixdir. Belə şərəfli günlərdən biri də Azərbaycan tarixinə Aprel döyüşləri, Aprel müharibəsi adı ilə düşüb.

Belə ki, heç bir halda bolşeviklər Azərbaycanın müstəqilliyini qəbul etmək istəmir, Leninin ifadəsiylə Bakı neftini ələ keçirməyi vətəndaş müharibəsinin girdabında iqtisadiyyatı dağılmış Rusiya üçün vaz keçilməz bir hədəf olaraq görürdü. Şaumyanın missiyası, Şərqi Anadolunu da əhatə edən bir Erməni dövləti proyektinin arxasındakı yeni Rus-Bolşevik ağlının təfərruatına varmadan 1920-ci ilin başlarından Azərbaycan dövlətçiliyini məhv etmək, ölkəni işğal etmək üçün bütün istiqamətlərdə müstəmləkə hücrələrinin hərəkətə keçdiyini ifadə edə bilərik. İşğalın həyata keçməsində əsas faktor olan Qarabağdakı Erməni qiyamı o gün də torpaqlarımızdan pay almaq həvəsiylə Erməni-Moskva sövdələşməsiylə başlamış, Kremlin planı çərçivəsində əsas hərbi qüvvələr paytaxdan, müstəqilliyin keşiyindən uzaqlaşmaq məcburiyyətində qalmışdı (Azərbaycan tarixi üzrə qaynaqlar, 2019; 12-15). Bolşeviklər böyük oyunu qurmuş, ermənilər vasitəsiylə diqqəti əsas baş verəcək fəlakətdən yayındıra bilmiş, milli hökümət, ordu və cəmiyyətin içindəki əsas qüvvələrini oyun sahəsinə sürmüş, Nərimanov kimi milli damarı da olan nüfuz sahibi bir lideri də əsas vitrinə yerləşdirməyi unutmamışdı. Artıq aprel ayının başında XI qızıl ordunun hissələri də Azərbaycan sərhəddinə dayanmışdı. Atatürk liderliyində Anadoluda imperyalizmə qarşı milli mübarizə davam edərkən Azərbaycanda bolşeviklərə inanan, müstəqil dövlətin necə bir nemət olduğunu anlamayan, İngilis imperyalizminə qarşı Bolşevik Rusiyası-Sosialist Azərbaycanı-Anadolu milli hərəkatı timsalında xalq hərəkatları ittifaqına inanan ciddi bir kütlə də vardı. Onlara görə ifrat demokratiya ehtirasından böhran yaşayan, bir-biriylə çəkişmə halında olan fərqli etnik və siyasi kimliyə sahib qrupların hökuməti geopolitik çağrışlara cavab vermək, sürətlə dəyişən siyasi vəziyyətə ayaq uydurmaq iqtidarında deyildi. Lenin Rusiyası da öz emisarları vasitəsilə bu fikri dərinləşdirməyə, işğal öncəsi həyata keçirilən psixoloji əməliyyatla Bakını fikrən ələ keçirməyə davam edirdi. Yanvar ayında hər gün Bakı polisinə kommunist təşkilatlarının əsgər və polislər arasında güclü təşviqat apardıqları haqda xəfiyə məlumatları gəlir, ancaq bunlara qarşı ciddi bir tədbir görülmürdü. M.Ə.Rəsulzadə ölkədəki tam demokratik şəraitə işarə edərək Azərbaycanda Avropada belə tətbiq edilməyən bir xalq

cümhuriyyətinin qurulduğunu ifadə edirdi. Lakin F.Xoyskinin də ifadəsilə ölkənin milli təhlükəsizliyi sərt və fövqəladə tədbirlər tələb edirdi (Azərbaycan tarixi, 2020; 89-92).

1920-ci ilin aprel işğalının mahiyyətinin və obyektiv mənzərəsinin tam şəkildə yaradılması sözsüz ki, bu problemin hərbi-siyasi aspektlərini vəhdətdə və tam şəkildə araşdırılması ilə mümkündür. Problemin siyasi aspekti haqqında bolşevik Rusiyasının lideri Vladimir Leninin bu teleqramı müəyyəm təsəvvürlərin yaradılmasına kömək edə bilər. O, Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasının üzvü S.Orconikidzeyə göndərdiyi teleqramda belə bir tələb irəli sürürdü: Bakını almaq bizim üçün çox zəruridir. Bütün səylərinizi buna yönəldin. Özü də bəyanatlarınızda mütləq yalnız diplomatik olun. Yəni bolşevik Rusiyasının rəhbəri birmənalı və qətiyyətli şəkildə tələb edirdi ki, Bakı şəhəri işğal edilməlidir. Çünki Rusiyanın gələcək taleyi Bakı neftindən asılı idi. Bunu V. Leninin sonrakı çıxışlarında da görmək mümkündür. Bakı şəhəri işğal edildikdən sonra V. Lenin bildirirdi ki, Bakı şəhəri alındıqdan sonra Sovet Rusiyasının vəziyyəti yaxşılaşacaqdır. O əlavə edirdi ki, indi bizim sənayemiz yanacaqsız qalmışdır, Bakı nefti isə bu sənayeni canlandıracaqdır (Azərbaycan tarixi, 2022; 23). Belə bir vəzifənin, yəni Bakının işğal edilməsi üçün güclü bir qruplaşma yaradıldı. Bu qruplaşmanın əsasını Qafqaz Cəbhəsinin XI Ordusu təşkil edirdi. Onun zərbə qüvvəsinin artırlması üçün isə tərkibinə əlavə qüvvələr də verilmişdi. XI ordunun tərkibində olan 38-ci və 39-cu piyada diviziyaları ləğv edilərək 20-ci piyada diviziyasının komplektləşdirilməsinə istiqamətləndirildi. XI Orduya aid olan 28-ci diviziya isə I briqadanın və 34-ci piyada diviziyasının süvari alayı hesabına komplektləşdirildi. 50-ci Taman diviziyasının I korpusunun şəxsi heyəti də 28-ci atıcı diviziyaya verildi. Bu dəyişikliklərdən sonra Azərbaycanınm işğal edilməsinə aşağıdakı qüvvələrə vəzifələndirildilər: 20-ci, 28-ci və 32-ci piyada diviziyaları, 1-ci və 7-ci süvari diviziyaları, Taman süvari briqadası və Kurışkonun komandir olduğu briqada. Sonradan Kurışkonun briqadasının bazasında 18-ci süvari diviziyası yaradıldı. XI orduya "III İnternasional", "Timofey Ulyansev", "Qırmızı Dağıstan", "Qırmızı Həştərxan", "Stepan Razin", "Kransoarmeyets" zirehli qatarları da verilmişdi. Volqa-Xəzər donanması da XI Ordunun əməliyyat tabeliyinə verilmişdi (Azərbaycan tarixi. Uzaq keçmişdən 1940-ci illərə qədər, 2019; 45). Bütünlükdə Azərbaycanın işğal edilməsinə 72472 nəfərlik bir ordu vəzifələndirilmişdi.

1920-ci il Aprel döyüşü, bolşevik işğalı ərəfəsində Azərbaycan ordusunun əsas döyüş hissələri və birləşmələri aşağıdakılar idi: 8 alaydan ibarət iki piyada diviziyası, 3 alaydan ibarət süvari diviziyası və iki topçu briqadası. Bunlardan başqa, ordunun bir sıra yardımçı hissə, bölmə və müəssisələri də var idi. Hər bir piyada alayı 3 tabordan, hər bir tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilmişdi (Bünyadov, Yusifov, 2018; 89-96). Hər pulemyot bölüyünün tərkibində 8 pulemyot var idi. Bundan başqa, hər alayda bir süvari kəşfiyyat bölüyü, bir piyada kəşfiyyat bölüyü, bir istehkam bölüyü, bir rabitə-telefon bölüyü və bir qeyri-nizami bölük var idi. Alayların ştat tərkibi onların hamısında eyni deyildi. Süvari alayları üç süvari bölüyündən, pulemyot bölüyündən, təlim və rabitə komandalarından ibarət idi (Cəfərov, 2021; 56-63).

Aydındır ki, Azərbaycanın müstəqilliyi formal xarakter daşıyırdı və Rusiya bununla hesablaşmayacaqdı; üstəlik, Rusiya guya qanunauyğun şəkildə Azərbaycanı ələ keçirmək üçün addımlar ataraq, qalan formal müstəqilliyi belə ləğv etməyə çalışırdı (Muradov, 2019; 67-70). 1920-ci il sentyabrın 30-da Sovet Rusiyası ilə hərbi-iqtisadi müttəfiqlik müqaviləsinə əsasən Azərbaycan SSR hərbi və iqtisadi müstəqilliyini tərk etdi. Təbii ki, respublikada müvafiq qanunvericilik fəaliyyəti dayandırıldı (Nəcəfov, 2019; 118-120).

Aprel işğalı ərəfəsində şimal sərhədlərinin mühafizəsinə isə çox az sayda hərbi qüvvə saxlanmışdı. 1920-ci il aprel ayının 25-nə aid olan bir məlumata görə, 4-cü Quba alayının 4 piyada bölüyü, dağ batareyası və bir zirehli qatardan ibarət qüvvə var idi. Piyada bölüklərindən biri Yalamada, biri Şirvanda, 2 bölük və bir batareya isə Xudatda dayanırdı. Zirehli qatarla dəstənin qərargahı da Xaçmazda yerləşdirilmişdi. Konkret tarixi şəraitdə şimal sərhədinin qorunmasına bu dəstə məsuliyyət daşıyırdı. Azərbaycanın işğalı üçün şimal sərhədlərinə gətirilmiş bolşevik hərbi qüvvələri isə bolşevik mənbələrinə görə, 72472 nəfər idi. Bu sayda olan bolşevik qüvvələrini 6 ədəd zirehli qatar, dənizdən isə Volqa-Xəzər hərbi donanması müşayiət edirdi. Cümhuriyyət ordusunun

şimal sərhədi boyunca yerləşdirilmiş azsaylı hərbi qüvvələri bolşevik təcavüzünün qarşısını almağa cəhd göstərsə də, sayca çox olan və güclü hərbi texnika ilə təchiz edilmiş bolşevik qüvvələrinin qarşısını almaq mümkün olmadı (Piriyev, 2018; 34).

Nəticə

Beləliklə, aparılan təhlillərdən belə bir nəticəyə gəlmək olur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti elan edilmiş müstəqilliyin qorunub saxlanması üçün mövcud olan daxili və xarici imkanlardan səmərəli şəkildə istifadə etməyə çalışmışdır. Lakin tarixi şəraitin əlverişsizliyi, dünya miqyasında cərəyan edən dinamik hərbisiyasi proseslər Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində çox ciddi təhdidləri ortaya çıxardı. Xüsusilə, bolşevik Rusiyasının nəyin bahasına olursa-olsun Azərbaycanı işğal etmək və onun təbii sərvətlərinə sahib olmaq üçün izlədiyi təcavüzkar siyasət və bu təcavüzkarlığın qarşısının alınması üçün dünyanın böyük dövlətləri tərəfindən təsirli addımların atılmaması Azərbaycanı çox ağır sınaqlarla üzbəüz qoydu. Cümhuriyyətin ordu quruculuğu sahəsində uğurlu nəticələr əldə edilsə də, qısa müddət ərzində bolşevik Rusiyasının müqayisəyə gəlməz dərəcədə üstün olan hərbi gücünün qarşısının alınması üçün yetərli qüvvənin formalaşdırılması mümkün olmadığı üçün bolşevik Rusiyası da bu güc üstünlüyündən istifadə etdi və Azərbaycanın müstəqilliyinə son qoydu.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar. (2019). Bakı: s.12-15.
2. Azərbaycan tarixi. (2020). Ali Məktəblər üçün dərslik. Bakı: s.89-92.
3. Azərbaycan tarixi. (2022). V cild. Bakı, 23 s.
4. Azərbaycan tarixi. Uzaq keçmişdən 1940-cı illərə qədər. (2019). Bakı: 45 s.
5. Bünyadov, Z., Yusifov, Y. (2018). Azərbaycan tarixi. Bakı: s.89-96.
6. Cəfərov, N. (2021). Azərbaycanşünaslığa giriş. Bakı: s.56-63.
7. Muradov, M. (2019). Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti. Bakı: s. 67- 70.
8. Nəcəfov, B. (2019). Azərbaycan Demokratik Respulikası. Bakı: s.118-120.
9. Piriyev, V.Z. (2018). Naxçıvan tarixindən səhifələr. Bakı: 34 s.

SUMMARY

Shabnam Shukurova

THE MILITARY POWER OF AZERBAIJAN DURING THE APRIL OCCUPATION OF 1920

On April 27, 1920, the Bolshevik 11th Russian army quickly occupied the territories of Azerbaijan and caused the downfall of the Azerbaijan Democratic Republic (ADR). In this article, the reasons and consequences of the occupation in a short period of time have been analysed. Today, many researchers are still thinking about the following questions: Why was ADR unable to prevent this occupation? Did ADR have enough military resistance and power or not? In order to find answers to such questions, the military power of the ADR, including the military power and activity of Azerbaijan on the eve of this occupation, has been examined in this article based on accurate facts. In addition, in this article, the number and composition of the national military forces guarding the northern borders on the eve of the Russian army's occupation of Azerbaijan, as well as the number and composition of the Bolshevik forces involved in this occupation, their supply capabilities and the ratio of the forces of the parties as a whole have been studied.

Key words: *army, military power, independence, XI Red Army, occupation*

RƏQSANƏ QULİYEVA
quliyevareqsane0403@gmil.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0001-0292-8289

DÜNYA SİVİLİZASİYASI MÜSTƏVİSİNDƏ TÜRK SİVİLİZASİYASI

Türk sivilizasiyası – Avrasiyada yaranan ən qədim sivilizasiyalardan biri olub eramızdan əvvəl Avrasiyanın geniş çöllərində formalaşmışdır. Hazırda türk xalqları əlverişli-coğrafi mövqeyə malik olan Ön Asiya, Mərkəzi Asiya, Qafqaz regionları, Kiçik Asiya yarımadası, Sayan-Altay dağlarının şimal-qərb bölgəsi, Talas vadisi, Ordos vilayəti, Orxon-Yenisey ətrafı ərazilər, Urmiya gölü hövzəsi, Qara dəniz sahili ərazilərində məskunlaşmışlar. Türklərin "Böyük çöl"də məskunlaşması onların həyat tərzinə güclü təsir etmişdir. Müvəqqəti köçlər zamanı onlar rahat açılıb yığılan alaçıq və yurtalardan istifadə edir, əsasən, heyvandarlıqla məşğul olmuşlar.Türk sivilizasiyası Avropa və Asiya xalqlarına yaxınlaşmış, özündə onların bəzi xüsusiyyətlərini birləşdirmişdir. Bu proses müasir türk xalqlarının zahiri görünüşündə, din, dil, mədəniyyət və iqtisadiyyatında da öz əksini tapır.

Açar sözlər: *Bəşər sivilizasiyası, türk sivilizasıyası, islam amili, Şərq- Qərb konteksti, Turan mədəniyyəti, Osmanlı mədəniyyəti*

Sivilizasiya-mədəniyyətin öz identifikasiyasında çatdığı elə bir hüduddur ki, burada o ümumbəşəri və ya qlobal sivilizasiya ola bilər.

Sivilizasiya (lat. civilis - mülki, dövlət) - müəyyən sosial genotipə malik olan, sosial stereotip kimi çıxış edən, dünyada sabit yer tutan insanların sosial-tarixi və mədəni ümumiliyi.Sivilizasiya tarixin müəyyən bir mərhələsində bir neçə mədəniyyətin birləşməsini əks etdirir, elm və texnikanın təsiri nəticəsində həyat rifahının yaxşılaşdırılmasını səciyyələndirir. Bu termin ilk dəfə XVI əsrdə meydana gəlmişdir. Lakin ən qədim dövrlərdə də sivilizasiya mövcüd olmuşdur. Şumer, Misir, Roma, Azərbaycan, ərəb və s. son onminillikdə mövcud olmuş sivilizasiyalardan bir neçəsidir.

Tarixdə hələ ən qədim dövrlərdən şərq və qərb sivilizasiya tipləri daha çox diqqət çəkmiş və geniş yer almışdır. Şərq elmin, mədəniyyətin, ilk bəşəri dəyərlərin beşiyi olmuş, antik sivilizasiya qədim şərq sivilizasiyasından bəhrələnmişdir. Antik sivilizasiyadan sonra bəşər tarixində ən parlaq dövr İslamın yaranması ilə başlanmışdır. Elm və mədəniyyətin inkişaf mərkəzi yenidən şərq dünyasına köçmüşdür. Bu dövrdə islamla sıx surətdə bağlı olan yeni sivilizasiya dalğası özündən əvvəlki elmi nəaliyyətlərin, mədəni-mənəvi dəyərlərin dağılmasına yol verməmiş, onları qoruyub saxlamış, inkişaf etdirmiş və qərb dünyasının yeni intibahı üçün zəmin yaratmışdır.

Qərb sivilizasiya nəzəriyyələrində Türk sivilizasiyası İslam sivilizasiyasının tərkibində, ən yaxşı halda onun subsivilizasiyası kimi təqdim olunur. Misal üçün, məşhur sivilizoloq alim Arnold Toynbi İslam sivilizasiyasının subelementlərindən bəhs edərkənhəm Ərəb, həm də İran mədəniyyətinin özünəməxsusluqlarını göstərdiyi halda, Türk mədəniyyətinə sivilizasiya yaradıcı komponent kimi baxmamışdır. Bu kimi faktları digər sivilizoloqların yanaşmasında da görmək mümkündür. Doğrudur,islam mədəniyyəti, dünyagörüşü, müsəlman həyat tərzi müasir Türk sivilizasiyası üçün başlıca xüsusiyyətlərdən biridir. Lakin sivilizasiyanın mədəniyyət və din məfhumu ilə müqayisədə daha böyük anlayış olduğunu nəzərə alsaq, fikrimizcə, islam dəyərləri çərçivəsində olubolmamasından asılı olmayaraq, müstəqil bir Türk dünyası sivilizasiyasının olmasını qəbul etmək lazımdır. Eyni zamanda islam mədəniyyətinin digər daşıyıcıları olan Ərəb və İran mədəniyyətləri də bir çox hallarda ayrıca bir sivilizasiya növü kimi verildiyindən ən azı özünəməxsus koloriti, bənzərsizliyi, fərqliliyi göstərmək üçün Türk sivilizasiyasına müstəqil bir sivilizasiya tipi kimi baxılmalıdır.

Qərb mütəxəssislərindən fərqli olaraq, türk mütəfəkkir və alimləri təmsil etdikləri sivilizasiyanın müstəqil mədəni tip təşkil etməsini iddia edirlər. Türk mədəniyyətinə yalnız İslam

sivilizasiyasında seqment kimi baxılması ilə bağlı Ziya Göyalpın mövqeyi də xüsusi maraq doğurur. Belə ki, o, nəinki Türk sivilizasiyasını İslam sivilizasiyasının tərkibində görmür, ümumiyyətlə, dinin sivilizasiya yaradan element olduğunu qəbul etmirdi. Müəllif yazırdı: "Türklərin islam dininə girməsiylə Şərq mədəniyyətinə daxil olması eyni zamanda oldu. Bu səbəbdən bir çoxlarına görə, Şərq mədəniyyətinə islam mədəniyyəti demək daha doğrudur. Halbuki dinləri ayrı olan cəmiyyətlər belə eyni mədəniyyətə malik ola bilərlər. Deməli, mədəniyyət dindən ayrı bir şeydir.... Buna görə heç bir mədəniyyət heç bir dinə bağlı ola bilməz. Bir xristian mədəniyyəti olmadığı kimi, bir islam mədəniyyəti də yoxdur. Qərb mədəniyyətini xristian mədəniyyəti saymaq doğru olmadığı kimi, Şərq mədəniyyətinə də islam mədəniyyəti adını vermək yanlışdır. Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin qaynaqlarını islam və xristian dinlərində deyil, başqa yerlərdə aramaq lazımdır".

Ən əsası isə türk sivilizasiyasına İslam sivilizasiyası daxilində baxılması ilk növbədə ona görə yanlışdır ki, bu mövqedən yanaşdıqda türklərin islamaqədərki ən azı minillik inkişaf tarixi nəzərdən qaçırılmış olur.

Elmi dairələrdə çox zaman türk mənivyəti (və ya sivilizasiyası) anlayışını Turan anlayışı ilə eyniləşdirmək meylləri də müşahidə olunur. Bu anlayış adı altında ümumtürk mədəniyyətinin əhatə olunması ilə bağlı ideyalara rast gəlinir. Buna daha doğru cavabı böyük türkoloqların əsərlərində tapmaq mümkündür. Ziya Göyalp "Türkçülüyün əsasları" kitabında yazırdı: "Turan sözü "turlar", yəni "türklər" demək olduğu üçün sadəcə türkləri içinə alan bir topluluğun adıdır. Deməli, Turan sözünü bütün türk boylarını içinə alan böyük Türküstan üçün işlətmək lazımdır". Beləliklə, aydın olur ki, "Turan" anlamı müasir mənada bir sivilizasiya və ya mədəniyyət tipi deyil, məhz coğrafi məna daşıyır.

Yaxud başqa bir misal. Osmanlı mədəniyyəti Türk sivilizasiyasının daşıyıcısı olmaqla bərabər, öz inkişafı zamanı daha çox islam dəyərlərinin daşıyıcısına çevrilmişdir. Bu baxımdan Osmanlı mədəniyyətini yalnız sırf Türk sivilizasiyasının daşıyıcısı hesab etmək olarmı? Bu zaman da yanaşmalar fərqlidir. Bu xüsusda Ziya Göyalp yazırdı: "Osmanlı mədəniyyəti türk, fars, ərəb kültürləri-harsları ilə İslam dini, Şərq mədəniyyəti və son zamanlarda isə Qərb mədəniyyəti institutlarındanqurumlardan ibarət bir qarışımdır xəlitədir. Bu qarışım xəlitə heç bir zaman qaynayıb-qarışaraq, birləşərək uyumlu ahəngdar bir sistem halını ala bilmədi. Bu mədəniyyət ancaq milli bir kültürə aşılanarsa, ahəngdar bir birlik - vəhdət halını alar". Bu yerdə qeyd etməliyik ki, sivilizasiya tam milli bir anlayış kimi başa düşülə bilməz. Belə olacağı təqdirdə onun çərçivəsi daralar, əhəmiyyəti azalmış olar. Lakin sivilizasiyada daşıyıcı element mütləq təmsil etdiyi milli mədəni tipi əks etdirməlidir. Genişlənmə hesabına daxil olan yeni (özgə) maddi-mənəvi dəyərlər isə özününküləşdirildikdə sistemə qəbul olunmuş sayılır.

Samuel Hantinqton sivilizasiyaların müxtəlifliyini din və dillə əlaqələndirir və bu iki amili bütün sivilizasiya və ya mədəniyyətlərin başlıca elementləri hesab edir. Bu prizmadan yanaşdıqda belə Türk sivilizasiyasına müstəqil bir element kimi baxmaq olar. Belə ki, türk dilləri qrupu ayrıca dil qrupudur. Sivilizasiyanın özəlliyi isə ondan ibarətdir ki, bu təkcə bir etnosun deyil, bir-biri ilə qohum olan müxtəlif xalqların dilidir. Yəni bir-biri ilə qohum olan bir neçə dil ailəsinin oğuz, qıpçaq, bulqar və s. üzvlərini birləşdirir. Dinə münasibətə gəldikdə isə deməliyik ki, hazırda əksər türk xalqları islam dininin daşıyıcılarıdır və Türk sivilizasiyasının subyektlari islamı Avropada da, Şərqdə də həm yaymış, həm də məkanından asılı olmayaraq daşımışlar. Eyni zamanda, qeyd etməliyik ki, türk xalqları tarixin müxtəlif zamanlarında Tenqriçi (əski türklər), musəvi (Xəzər Xaqanlığı), xristian-nestorian" (Uyğur Xaqanlığı) olmuş və bu dini dəyərləri öz mədəniyyətlərində əks etdirmişlər.

Hazırda bəşər sivilizasiyası tarixində özünəxas yeri olan türk sivilizasiyası, türk mədəniyyəti, elmi, dövlətçiliyi, hərb sənəti və sair sahələrin hərtərəfli öyrənilməsi üzrə geniş araşdırmalar aparılır, fundamental elmi əsərlər yazılır. Beş cilddən ibarət olan "Türk dünyası" toplusu da bu sahədə ən qiymətli tədqiqat işidir. Kitabda müəllif türk sivilizasiyasının dünyanın fundamental dəyərlərə malik ən seçkin sivilizasiyalarından biri olduğunu bildirir.Topluda türk sivilizasının dünya sivilizası terkibində yeri və rolunu dananlar üçün əsaslı araşdırmalar və yetərli cavablar vardır.

SUMMARY

Raksana Guliyeva

TURKISH CIVILIZATION AT THE LEVEL OF WORLD CIVILIZATION

Turkic civilization is one of the oldest civilizations that arose in Eurasia and was formed in the vast steppes of Eurasia before Christ. Currently, the Turkic peoples have a favorable geographical position in the regions of Front Asia, Central Asia, the Caucasus, the Asia Minor Peninsula, the northwestern region of the Sayan-Altay Mountains, the Talas Valley, the Ordos Region, the surrounding areas of the Orkhon-Yenisei River, the Urmia Lake Basin, and the Black Sea coast. settled in their territories. The settlement of the Turks in the “Great Desert” had a strong impact on their way of life. During the temporary migrations, they use tents and yurts, which can be easily opened and assembled, and were mainly engaged in animal husbandry. The Turkish civilization approached European and Asian peoples and incorporated some of their characteristics. This process is reflected in the appearance, religion, language, culture and economy of the modern Turkish people.

Key words: *Human civilization, Turkish civilization, Islamic factor, East-West context, Turanian culture, Osmanlı culture*

PƏRİ MUSTAFAYEVA
peri.mustafayeva075@icloud.com
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN DİLİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN MİSİLSİZ ROLU

Məqalədə Heydər Əliyevin Azərbaycan dilinə xüsusi qayğısı və bununla bağlı səyləri araşdırılmış bununla bağlı səyləri araşdırılmış, bunu zəruri səbəbləri müəyyənləşdirilmişdir. Ümummilli liderin və onun yolunu davam etdirən prezident İlham Əliyevin bu məsələ ilə bağlı qəbul etdiyi sərəncam və qərarlar ön plana çəkilmişdir. Bugünkü gənclərin dilimizi qorumasının mahiyyəti izah olunur

Açar sözlər: *Ana dili, dəyər, mətbuat, təhsil, teatr*

Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır. Hər bir azərbaycanı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi keçirir. Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz hətta bu ağır vaxtlarda belə milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur.

Ana dilimiz öz ifadə imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik strukturunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik, yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir. O, özünün indiki yüksək səviyyəsinə görkəmli şair və yazıçıların, maarifpərvər ziyalıların zəhməti sayəsində çatmışdır. Bu prosesdə Azərbaycan dilçilik elminin böyük xidməti vardır. Azərbaycanda müasir mətbuatın, teatrın və təhsil sisteminin təşəkkül tapması, xalqımızın ictimai-siyasi və mədəni həyatında baş verən dəyişikliklər Azərbaycan dilçiliyinin də inkişaf yolunu müəyyən etmişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı ilk vaxtlardan Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirmiş, ana dilimizin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, 1970-ci illərdə Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz Ulu Öndərin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan dilinə və ümumiyyətlə, Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı Azərbaycanın keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə "Türkologiya" jurnalı məhz Bakıda nəşr edilirdi. Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır. Azərbaycan xalqının ümummilli lideri

Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilmiş, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılmış, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılmışdır. Bununla yanaşı, son dövrlərdə müasir

Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir. Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azarbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli 552 nömrəli fərmanları, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Dahi liderimizin yolunu davam etdirən İlham Əliyevin səyləri ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli 2236 nömrəli və "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli 2240 nömrəli sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsində mühüm fəaliyyət sənədləridir. Dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsası surətdə yaxşılaşdırılmasını təmin etmək məqsədi ilə ölkəmizin prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara almışdır:

1.Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin qloballaşıma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının layihəsini hazırlayıb 2012-ci il oktyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Dövlət Proqramının layihəsini 2012-ci il noyabr ayının 1-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3.Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası yaradılsın.

4.Azərbaycanda müxtəlif sahələrdə tərcümə işinin mərkəzləşdirilmiş qaydada və məqsədyönlü aparılması üçün Azərbaycan Respublikasımın Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi yaradılsın.

5.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) həmin sərəncamlardan irəli gələn məsələlərin həllinə yönəlmişdir və 2013-2020-ci illər ərzində bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

ƏDƏBİYYAT

1. M.Hacıyev. Heydər Əliyev və milli tarixi yaddaşın bərpası. Bakı: 2003
2. S.S.Xəlilov. Heydər Əliyev və Azərbaycan dili. Bakı: 1997
3. F.H.Abdullazadə. Heydər Əliyev. Bakı: 1998

SUMMARY

Peri Mustafayeva

IN THE FORMATION OF THE AZERBAIJAN LANGUAGE UNIQUE ROLE OF HAYDER ALIYEV

In the article, Heydar Aliyev's special care for the Azerbaijani language and his research related to it were investigated, and it was managed with this goal in mind. The decisions and decisions taken by the national leader and Ilham Aliyev, who continued his path, were brought to the fore. The essence of today's youth protecting our language is explained

Key words: *Mother tongue, value, press, education, theater*

LƏMAN ŞAHVERDİYEVA
lemanshahverdiyeva1@gmail.com
Naxçıvan Dövlət Universiteti

MÜƏLLİMİN PEDAQOJİ ETİKASI VƏ PEŞƏ MƏDƏNİYYƏTİ

Pedaqogika təlim , təhsil və tərbiyə ilə bağlı bir elm olub, müəllimlərin sosial və peşəkar kateqoriyasının nümayəndələrinin yerinə yetirdiyi işin peşəkarlığına və pedaqoji mədəniyyəti məsələlərini əhatə edir. Dəfələrlə vurğulanmışdır ki, məhz müəllimlər yüksək peşəkarlıq nümayiş etdirməlidirlər ki, bu peşəkarlıq artıq müəllim təhsili mərhələsində formalaşır, sonra isə peşə fəaliyyəti zamanı onun etikası və peşə mədəniyyəti inkişaf edir və yenilənir. Bu fəaliyyət, müəllimlər tərəfindən daxil edilən müxtəlif subyektlərarası münasibətlərdə özünü göstərir ki, bu da müəllimlərin işinin pedaqoji mədəniyyətini təşkil edir. Məqalədə mövzu ilə bağlı ədəbiyyatın təhlili və mülahizələrə əsaslanaraq həm müəllimin peşəkarlığını, pedaqoji etikasını, həm də müəllim əməyinin pedaqoji mədəniyyətini müəyyən etməyə cəhd edilir. Görülən mülahizələrin məqsədi qeyd olunan məsələlərin mahiyyətini müəyyən etmək və nəticə etibarilə müəllimlərin peşəkarlığının və pedaqoji mədəniyyətinin ümumi cəhətlərinin çox olduğunu müəyyən etməkdir.

***Açar sözlər**: pedaqogika, etika, müəllim, peşə mədəniyyəti, təhsil*

Məktəbdə təlim-tərbiyə prosesini təşkil edən və həyata keçirənlərdən biri də müəllimdir. Müəllim pedaqoqdur, tədris edəndir, təhrik edəndir və ustadır. Müəllimin başlıca vəzifəsi təlim prosesini idarə etmək, təhsil vermək, tərbiyə etmək, şagirdləri inkişaf etdirmək və formalaşdırmaqdan ibarətdir. Deməli, millətin gələcəyi müəllimlərin əlindədir. Ulu Öndər Heydər Əliyev müəllimlik peşəsi haqqında belə bir fikir söyləmişdir: "Müəllimlik vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, biliki, zəkalı, tərbiyəli, vətənpərvər vətəndaşlar hazırlayır. Şübhəsiz ki, birinci növbədə müəllim özü bu xüsusiyyətlərə malik olmalıdır, daim özünü də təkmilləşdirməlidir, öz üzərində işləməlidir. Öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz. Bizim müəllimlərin əksəriyyəti ona görə yaxşıdırlar ki, onlar daim öz üzərində işləyir, tədris etdiyi fənni dərindən öyrənirlər, ictimai-siyasi sahədə biliklərini artırır və günü gündən özlərini təkmilləşdirirlər. Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı – şagird də, tələbə də, bütün kollektiv də inkişafdadır''.

Müəllimin işi yalnız müəyyən bir bilik ehtiyatını deyil, peşəkar təcrübə və motivasiyanı da əhatə edir. Onun mənəvi-əxlaqi komponenti pedaqoji fəaliyyətin keyfiyyətinə və səmərəliliyinə heç də az təsir göstərmir.

Pedaqoji peşənin-müəllimlik peşəsinin özünəməxsus etikası, müəyyən əxlaqi-etik tələbləri və xüsusiyyətləri vardır. Böyüyən nəslin milli zəmin, türkçülük, islam əxlaqi və ümumbəşəri dəyərlər əsasında tərbiyə edilməsi, onlarda milli mənlik şüurunun formalaşdırılması baxımından da gələcək müəllimlər pedaqoji etikanın bütün incəliklərinə yiyələnməli, müəyyən əxlaqi-etik tələbləri və xüsusiyyətləri bilməlidirlər. Bəs etika nədir? Etika fəlsəfənin sahələrindən biridir. Etika Platon və Aristotel tərəfindən yaxşı bir həyat təşkil edən fəlsəfi araşdırma kimi yaranmışdır. Etika əxlaq məsələlərini öyrənir. "Pedaqoji etika" isə daha geniş anlayışdır. Pedaqoji etika, səlahiyyətli şəxsin yaxşı davranışının nədən ibarət olduğunu diktə etməyə kömək edən rəhbər prinsiplər toplusu kimi yaradılmış və daim inkişaf etdirilir. Pedaqoji etika müəllimin dərsdə, tərbiyə prosesində və ümumiyyətlə, hər yerdə, həmişə adamlarla münasibətdə hadisələrə yüksək nikbinliklə baxmasını, ədalətli və nəzakətli hərəkət etməyi, insanlara qayğı və hörmətlə yanaşmasını nəzərdə tutur. Pedaqoji etika məsələlərini Y.A.Komenski daha ətraflı işləmişdir. O, müəllim və tərbiyə olunan arasında qarşılıqlı münasibətlərə xüsusi fikir vermişdir. "Əxlaqlı və şərəfli müəllimdən başqa heç kim insanları əxlaqlı və şərəfli edə bilməz".

Pedaqoji etika peşəkar etikanın ən inkişaf etmiş sahələrindən biridir. Bəzi ekspertlərin fikrincə, onun elementləri "pedaqoji fəaliyyətin xüsusi sosial funksiya kimi meydana çıxması ilə birlikdə meydana çıxmışdır". Sivilizasiyanın mövcud olduğu dövrdə pedaqoji əxlaq əhəmiyyətli dərəcədə

inkişaf etmiş və bu gün o, "pedaqoji fəaliyyətin əxlaqi xarakterini və onun yaratdığı münasibətləri təmin edən müəllim davranışının norma və qaydalarının məcmusu kimi şərh olunur; pedaqoji fəaliyyətdə əxlaqın təzahürünün mənşəyini və mahiyyətini, quruluşunu, funksiyalarını və xüsusiyyətlərini öyrənən elm kimi də şərh edilir. Pedaqoji etikanın tədqiqat obyekti, xüsusiyyətləri pedaqoji peşənin ictimai münasibətlər sistemindəki rolu və yeri ilə müəyyənləşən müəllimin peşə əxlaqıdır. Pedaqoji etikanın xarakterik xüsusiyyətlərindən biri odur ki, müəllimin təsir obyekti çox kövrək, dinamik keyfiyyətlər daşıyır. Buna görə də o, çox həssas, məsuliyyətli və incə taktiki münasibət göstərməyə məcburdur. Pedaqoji etika gələcək müəllimlərdə əxlaqi hisslər formalaşdırmaq imkanlarına malikdir. Xüsusilə, nikbinlik prinsipindən istifadə etməklə tələbənin öz müsbət keyfiyyətlərini duymağa, ona inanmağa imkan verən metodikalar hazırlamaq mümkündür.

Pedaqoji etika müəllimlərin şagirdləri qarşısında əsas vəzifələrini təsvir edir və onların tələbələrin həyatındakı rolunu müəyyənləşdirir. Hər şeydən əvvəl müəllimlər sinifdə valideynlər və həmkarları ilə davranışlarında dürüstlük, qərəzsizlik və etik davranış nümayiş etdirməlidirlər. Müəllimlər tələbələrə akademik əsasları öyrənməyə kömək edir, eyni zamanda müsbət nümunə göstərməklə dəyərli həyat dərsləri də öyrədirlər. Nümunə kimi müəllimlər pedaqoji etikaya əməl etməlidirlər. Bu, tələbələrin ədalətli, dürüst və güzəştsiz təhsil almasını təmin edir. Pedaqoji etika müəllimlərin şagirdləri qarşısında əsas vəzifələrini təsvir edir və onların tələbələrin həyatındakı rolunu müəyyənləşdirir. Müasir pedaqoji etika kateqoriyalarına pedaqoji ədalət, professional pedaqoji borc, peşə şərəfi və vicdanı, ləyaqət, pedaqoji nüfuz, intizamlılıq aiddir.

Pedaqoji etikanın bu incəliklərinə yiyələnən müəllim həm də demokratik ünsiyyət üslubuna yiyələnmiş olur. Eyni zamanda müəllim-şagird münasibətlərində pedaqoji əməkdaşlığa nail olur. Alman şairi V.Höte yazırdı: "Bizə kim dərs deyirsə, ona müəllim deyirik, lakin hər dərs deyən adam müəllimlik ləyaqətini doğrulda bilməz". Müəllimin peşə etikası, hər bir hərəkət və davranışında ədəb qaydalarını gözləməsi, şagird şəxsiyyətinə hörmətlə yanaşması ona nüfuz qazandıran amillərdəndir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"nda deyilir: "Müəllimlərin etik davranış qaydaları təhsilin bütün səviyyələrində peşə fəaliyyəti zamanı təhsilverənlərin ümumi davranışını və təhsil prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir".

Mədəniyyətin səviyyəsi əməyə məhəbbətdən asılıdır. Bu mənada pedaqoji işdə şəxsi nümunə əvəzsiz rol oynayır. Dərs, müəllimin ümumi və pedaqoji mədəniyyətinin güzgüsüdür, onun bilik səviyyəsinin göstəricisidir. Müəllim öz üzərində daim çalışaraq, elə etməlidir ki, daxil olduğu sinifdə, auditoriyada maraq dairəsinə çevrilsin. Müəllimin ümumi mədəniyyətinin tərkib hissələrindən biri olan pedaqoji peşə mədəniyyəti onun peşəkarlığında və səriştəliliyində mühüm yer tutur. Müəllimin peşə səriştəliliyinə və peşəkarlığına malik olmasının əsas atributlarından biri də peşə mədəniyyətidir. Pedaqoji peşə mədəniyyətinə müəllimin şəxsi keyfiyyətlərindən, nüfuzundan, peşəkarlığından və pedaqoji ustalığından ibarətdir. Müəllimin peşə mədəniyyəti onun şəxsiyyətinin sosial, peşəkar və sırf şəxsi xüsusiyyətlərini özündə birləşdirən mürəkkəb tərkib hissəsidir. Müəllim mədəniyyətinin mühüm komponentlərindən biri də elə məhz etikadır. Bu sahə insan həyatının mənəvi problemlərini öyrənir, xeyir və şərin tərifini verir, şəxsiyyətlərarası münasibətlərin və cəmiyyətdə insan davranışının müxtəlif modellərini nəzərdən keçirir. Müəllim peşəsində etik prinsipləri təhlil etmək və müvafiq ixtisas üçün normaları müəyyən etmək lazımdır.

Pedaqoji peşə mədəniyyəti mücərrəd bir məfhum deyildir. Bu, müəllimin pedaqoji fəaliyyəti zamanı üzə çıxan, görünən, əks olunan mədəniyyətidir. Bu mədəniyyət müəllimin davranışında, danışığında, uşaqlarla, onların valideynləri, həmkarları ilə ünsiyyətdə olduğu zaman özünü göstərən mədəniyyətdir. Müəllim böyüməkdə olan gənc nəslə qayğı ilə yanaşmaqla bərabər, tələbkar, prinsipial, ədalətli, mədəni olmalı və etik normalara əməl etməlidir. Şagirdlərinin qəlbinə yol tapa bilmək, özünü şagirdlərə sevdirmək, valideyn və ictimaiyyətlə dil tapa bilmək, pedaqoji mərifətə malik olmaq müəllimin pedaqoji peşə fəaliyyətinin əsas xüsusiyyətlərindəndir. Nəzakət, sadəlik, təvazökarlıq, təmizlik, mənəvi saflıq, paklıq və ülvilik rəmzi olan müəllim şəxsiyyəti və onun pedaqoji ustalığının dərinləşməsində yüksək əxlaqi və iradi keyfiyyətlərinin mühüm rol oynaması,

təlim və tərbiyənin müasir problemlərini həyata keçirə bilmək üçün hərtərəfli pedaqoji qabiliyyətə malik olmalıdır. Eyni zamanda zahiri görkəmi, həyata baxışı, danışıq tərzi, dərin biliyi, hərtərəfli dünyagörüşü, özünün mənəvi dünyası ilə fərqlənən müəllim dərslərində yeni texnologiya və metodlardan istifadə edərək, nəticədə, həmişə uğur qazanır. Müəllim təhsilalanlara qarşı həmişə diqqətli, xeyirxah və qayğıkeş olmalı, "mənəvi valideyn" statusunu qorumağa çalışmalıdır. Nitqində kobud və təhqiredici ifadələr işlətməməli, şagirdin hər kiçik qüsurunu onun üzünə vurmamalı, təhsilalanların şərəf və ləyaqətini alçaldan hərəkətlərə yol verməməlidir. Hər bir müəllim qarşısında əyləşən şagirdin şəxsində gələcəyin böyük adamını görməyi, şagirdlərin yaddaşında onların inandığı, etibar etdiyi, sevdiyi şəxsiyyət kimi qalmağı bacarmalıdır.

Müəllimin mühüm peşə mədəniyyəti keyfiyyətlərinə daxildir: əməksevərlik; intizamlılıq; məsuliyyətlilik; qarşıya məqsəd qoymaq vo ona nail olmaq yolunu seçməyi bacarmaq; mütəşəkkillik; qətiyyətlilik; əzmkarlq; öz peşə səviyyəsini, əməyinin keyfiyyətini sistematik va planauyğun yüksəltmək və s.

Müəllimin peşə mədəniyyətinin mühüm əsası pedaqoji etikadır ki, bu da müəllimin tələbələr, onların valideynləri və həmkarları ilə ünsiyyət prosesində əməl etməli olduğu normativ əxlaqi mövqeləri müəyyən edir. Bu prosesdə müəllimin xüsusi rolu var, materialist dünyagörüşünün əsaslarını qoyur, o, şagirdlərə etik biliklərin əsaslarını vermək məqsədi daşıyır. Bunun üçün müəllim özü yüksək mənəviyyat ideya və dəyərlərini tam mənimsəməli və bacardığı qədər onları həyata keçirməyə çalışmalıdır. Müəllim yalnız təhsilin ən gözəl alətini – əxlaq, etika elmini mənimsədikdən sonra pedaqoq olur. Əxlaq nəzəriyyəsini bilmədən bu gün müəllimin tam hüquqlu peşəkar hazırlığı ola bilməz. Peşəkar pedaqoji borcun əsasını gənc nəslin təhsili və tərbiyəsində cəmiyyətin obyektiv və aktual tələbləri təşkil edir. Müəllimin peşə vəzifəsi öz işinə yaradıcı münasibət, özünə qarşı xüsusi tələblər, peşə biliklərini artırmaq və pedaqoji bacarıqları artırmaq istəyi, tələbələrə və onların valideynlərinə hörmətli və tələbkar münasibət və məktəb həyatının mürəkkəb toqquşmalarını və münaqişələrini həll etmək bacarığı ehtiyacı ilə proqramlaşdırılmışdır.

Müəllimin peşə mədəniyyəti humanizmə əsaslanan mədəniyyətdir. Müəllimin uşaqlara humanist münasibəti, onların gələcəyinə ümidlə baxması, gələcək cəmiyyətin məhz onların əli ilə qurulacağını dərindən dərk etməsi pedaqoji peşə mədəniyyətini istiqamətləndirən amillər kimi əhəmiyyətlidir, təsirlidir. Peşə sahibi öz üzərinə düşən vəzifələri peşəkarlıqla ləyaqətlə yerinə yetirirsə və icra etdiyi işin məsuliyyətini dərk edirsə bu peşə mədəniyyətinin yüksək səviyyədə olduğunun göstəricisidir.

Müəllimlərin müvafiq peşəkarlıq səviyyəsinin, pedaqoji etikasının və peşə mədəniyyətin nümayiş etdirilməsi təhsil təcrübəsi üçün xüsusi əhəmiyyət kəsb edir. Sözügedən vəziyyətə və səviyyəyə artıq müəllimlik peşəsinə hazırlıq mərhələsində diqqət yetirilməli, sonra isə onun həyata keçirilməsi zamanı inkişaf etdirilməli və yenilənməlidir. Bunun üçün nəinki müvafiq müəllim təhsili verilməli, həm də müəllimlərin işləməsi üçün adekvat şərait yaradılmalıdır ki, bu da daxili motivasiyadan başqa, müəllimləri öz peşəkarlıqlarının daha yüksək səviyyələrinə çatmaq üçün özlərini təkmilləşdirməyə həvəsləndirəcək və pedaqoji mədəniyyət formalaşacaq. Belə bir təcrübə toplanmış təcrübəni ümumiləşdirməyə və ən uğurlu inkişafları bütün təhsil müəssisələrinin təcrübəsinə daxil etməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Məmmədzadə R. Müəllimin peşə etikası. Bakı: Maarif, 1992
2. Ə.Paşayev, F. Rüstəmov. Pedaqogika. Bakı: Elm və təhsil, - 2010
3. L.Qasımova , R.Mahmudova. Pedaqogika. Bakı: 2012
4. Heydər Əliyev. Təhsil millətin gələcəyidir.
5. M.İlyasov. Müəllimin pedaqoji peşə mədəniyyəti.

SUMMARY

Laman Shahverdyeva

TEACHER'S PEDAGOGICAL ETHICS AND PROFESSIONAL CULTURE

Pedagogy is a science related to training, education and upbringing, it covers the issues of professionalism and pedagogical culture of the work performed by representatives of the social and professional category of teachers. It has been repeatedly emphasized that teachers should demonstrate high professionalism, which is already formed at the stage of teacher education, and then, during professional activity, its ethics and professional culture are developed and updated. This activity is manifested in various intersubjective relationships entered by teachers, which constitute the pedagogical culture of teachers' work. In the article, based on the analysis of the literature on the subject and considerations, an attempt is made to determine both the teacher's professionalism, pedagogical ethics, and the pedagogical culture of the teacher's work. The purpose of the considerations made is to determine the essence of the mentioned issues and, as a result, to determine that there are many common aspects of teachers' professionalism and pedagogical culture.

***Key words**: pedagogy, ethics, teacher, professional culture, education*

ŞAMİL MAMEDOV

NƏZAKƏT YUSİFOVA
semilmemmedov665@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-0780-9243

PEDAQOJİ PROSESDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN YERİ VƏ ROLU

Təhsil tarixində monitorinq və qiymətləndirmənin məqsəd və vəzifələrinin düzgün müəyyənləşdirilməsi təhsil müəssisələrinin inkişafında və təhsil sisteminin idarə olunmasmda mühüm əhəmiyyətə malikdir.

Müasir şəraitdə Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası, elmin, texnikanın inkişaf səviyyəsi, kompyüterlərin, eləcə də, müasir informasiya-kommunikasiya texnologiyalarının tədris prosesində geniş istifadəsini zəruriləşdirir. Bu da elə bir vəziyyət yaratmışdır ki, təhsil müəssisəsinin inkişaf rejimində işləməsini, onun gələcək fəaliyyətinin dəqiq proqnozlaşdırılmasını, təhsil müəssisələrində proses iştirakçılarının fəaliyyətinin müntəzəm olaraq ardıcıl qiymətləndirilməsini müasir modellərə uyğun həyata keçirilməsinə olan tələbatı obyektiv reallığa çevirmişdir.

Ötən əsrin 90-cı illərindən başlayaraq təhsil sahəsində aparılan eksperimentlərin, tətbiq olunan yeniliklərin səmərəliliyinin artırılması, nəticələrin izlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədi ilə təhsildə monitorinq və qiymətləndirmə mexanizmi tətbiq olunmağa başlanmışdır. Hazırda nəinki Azərbaycanda, hətta dünyanın inkişaf etmiş bir sıra digər ölkələrində də təhsildə monitorinq və qiymətləndirmə sistemi kifayət qədər mükəmməl qurulmayıb və əksər hallarda bu, lokal xarakter daşıyır. Bu məqalədə məhz pedaqoji prosesdə monitorinq və qiymətləndirmənin yeri və rolu araşdırılmışdır.

Açar sözlər: *monitorinq, qiymətləndirmə, təhsil, təhsil sistemi,tədris prosesi*

Təhsil tarixində monitorinq və qiymətləndirmə, onların təlim-tərbiyə prosesinin keyfiyyət təminatmda, təhsil müəssisələrinin inkişafında və təhsil sisteminin idarə olunmasında mühüm rola malikdir. Burada problemə bağlı monitorinq və qiymətləndirmənin məzmununun açılmasında fundamental tədqiqatlar və elmi yanaşmalardan istifadə edilmişdir. "Təhsil sahəsində islahat Proqramı"nın tələblərinə uyğun olaraq, monitorinq və qiymətləndirmənin təhsil sistemində aktual rolu müəyyənləşdirilmişdir.

Son illər Azərbaycan Respublikasmda bütün sahələr kimi, təhsil də, sözün əsl mənasında məqsədyönlü islahatlar həyata keçirilir, cəmiyyətdə baş verən köklü dəyişikliklər milli təhsil sistemində də öz əksini tapır. Respublika Prezidenti cənab Heydər Əliyevin "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqrammm təsdiqi haqqmda" 15 iyun 1999-cu il tarixli Fərmanına uyğun olaraq, rəsmi şəkildə həyata keçirilən təhsil islahatlan artıq öz həlledici mərhələsinə qədəm qoymuşdur. Məlum olduğu kimi, islahatm əsas mahiyyətini təhsilin humanistləşdirilməsi, humanitarlaşdırılması,demokratikləşməsi, diferensiallaşdırılması və inteqrasiyası kimi prinsiplər təşkil edir. Bu prinsiplər isə milli zəminə, bəşəri dəyərlərə əsaslanan dünyəvi təhsil sisteminin yaradılmasını və təhsil alanın şəxsiyyət kimi formalaşması üçün onun təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektinə çevrilməsini mühüm bir vəzifə kimi qarşıya qoyur. Bütün bunların həyata keçirilməsi məhz Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasına və keyfiyyətin tamamilə yeni səviyyəsinə nail olmaq kimi ümdə məsələlərə xidmət edir (Mehrabov A., 2001).

Təhsil mürəkkəb, çoxparametrli bir sistemdir. Odur ki, müasir tələblər baxımımdan təhsil müəssisələrinin qarşısmda duran əsas məqsədlərin müvəffəqiyyətlə həyata keçirilməsi dolğun hüquqi-normativ bazanm yaradılmasını, maliyyə ehtiyatlarından daha səmərəli istifadə olunmasını,

təhsilin məzmunca tamamilə yeniləşdirilməsini, keyfiyyətin dövlət standartlarına müvafiqliyini təmin etmək üçün xüsusi monitorinqlərin aparılmasını və prosesin dəqiq qiymətləndirilməsini, idarəetmənin dövlət -ictimai və ictimai- dövlət xarakterinin müəyyənləşdirilməsini, yeni sertifikatlaşdırma, lisenziyalaşdırma, attestasiya və akkreditasiya sistemlərinin yaradılması və s. kimi vacib məsələlərin uğurlu həllini tələb edir. Bu yanaşmada keyfiyyətin daha dəqiq, obyektiv ölçülməsi, bütövlükdə müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi üçün elmi cəhətdən əsaslandırılmış yeni, etibarlı qiymətləndirmə mexanizmlərinin yaradılması zərurəti günün tələbi kimi meydana çıxır. Bunun üçün, hər şeydən əvvəl, qiymətləndirmə sahəsində mövcud olan elmi və nəzəri yanaşmaları nəzərdən keçirmək, təlim-tərbiyə prosesinin məzmun və formaca tam yararlılığını, proses iştirakçılarının fəaliyyətini xarakterizə edən göstəriciləri (indikatorları) müəyyənləşdirmək, real prosesdə onların çəki əmsalını (əhəmiyyətlilik dərəcəsini), qiymətləndirmə tutumunu dəqiq hesablamaq, təhsil sistemində bütün bunların həlledici rolunu layiqincə qiymətləndirmək xüsusi əhəmiyyət kəsb edir.

Müasir şəraitdə Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası, elmin, texnikanın inkişaf səviyyəsi, kompüterlərin, eləcə də müasir informasiya, kommunikasiya texnologiyalarının tədris prosesində geniş istifadəsi elə bir vəziyyət yaratmışdır ki, təhsil müəssisəsinin inkişaf rejimində işləməsi, onun gələcək fəaliyyətinin dəqiq proqnozlaşdırılması, təhsil müəssisələrində proses iştirakçılarının fəaliyyətinin müntəzəm olaraq ardıcıl qiymətləndirilməsinin müasir modellərə uyğun həyata keçirilməsinə olan tələbatı obyektiv reallığa çevirmişdir.

Ötən əsrin 90-cı illərindən başlayaraq təhsil sahəsində aparılan eksperimentlərin, tətbiq olunan yeniliklərin səmərəliliyinin artırılması, nəticələrin izlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədi ilə təhsildə monitorinq və qiymətləndirmə mexanizmi tətbiq olunmağa başlanmışdır. Hazırda nəinki Azərbaycanda, hətta dünyanın inkişaf etmiş bir sıra digər ölkələrində də təhsildə monitorinq və qiymətləndirmə sistemi kifayət qədər mükəmməl qurulmayıb və əksər hallarda bu, lokal xarakter daşıyır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" təsdiq olunmuşdur. Konsepsiyada təlim-tərbiyə işlərini müasir dövrün tələblərinə müvafiq qurmaq məqsədilə qiymətləndirmə fəaliyyətinin aşağıdakı tələbləri təmin etməsi qeyd edilir:

4. təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsi; təhsilin keyfiyyəti üçün əsas göstərici olan şagirdin təlim nəticələri haqqında etibarlı məlumatın verilməsi;
5. qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması;
6. təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyası;
7. qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsi (Ağamalıyev R., 1998).

Sənəddə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblərin əməli vəzifəsi, hər şeydən əvvəl, məktəblərimizdə təlim-tərbiyə işlərinin məzmun, forma, vasitə və metodlarını təkmilləşdirmək yolu ilə təhsilin keyfiyyətini əsaslı surətdə yaxşılaşdırmaqdan, müəllimlərin yaradıcılığını artırmaqdan və məktəb işlərinin keyfiyyətini bütünlüklə müasir dövrün tələbləri səviyyəsinə qaldırmaqdan ibarətdir.

Qeyd etmək istərdik ki, respublikamızın ümumtəhsil sistemində monitorinq və qiymətləndirmə həmişə mövcud olmuşdur. Buraya şagirdlərin bilik səviyyələrini dəqiqləşdirmək üçün aparılan yoxlama işləri, imtahanlar və inspektor yoxlamaları aiddir. Lakin təcrübə göstərir ki, bütün bu ənənəvi yoxlama (monitorinq) formaları lazımi effekt vermir və onların bir sıra çatışmazlıqları meydana çıxır:

8. birinci, tədrisin vəziyyətinə nəzarət mütəmadi deyil, epizodik xarakter daşıyır və buna görə də tədris prosesindəki dəyişikliklərin dinamikasını müşahidə etmək mümkün olmur;
9. ikinci, əsasən, tədris prosesinin nəticəsi öyrənilir. Bu halda tədris prosesinin özü, yəni bilik, bacarıq və vərdişlərin formalaşdırılması yoxlayıcıların diqqətindən kənarda qalır;
10. üçüncü, bü növ yoxlamaların nəticələri yetərincə şəffaf aparılmır, nəticələr təhlil olunduqda balla

qiymətləndirmədən istifadə edilir, bu isə şagirdlər tərəfindən tədris kursunun mənimsənilməsi səviyyəsini araşdırmağa imkan vermir.

Göstərilən çatışmazlıqlar əsas problemləri - şagirdlərin biliklərindəki bu və ya digər boşluqların səbəblərini, müəllimlərin işində olan çatışmazlıqları, şagirdlərin təlim-tərbiyə prosesinə təsir edən mənfi amilləri müəyyənləşdirməyə imkan vermədiyindən mahiyyət etibarilə idarəetmədə dəqiq diaqnoz qoymaq mümkün olmur. Bu halda təhsil prosesinin özü, onun yekunlarını müəyyənləşdirən bilik və bacarıqların formalaşması diqqətdən kənarda qalır. Nəticələrin yoxlanılması və təhlili zamanı istifadə olunan qeyri-dəqiq məlumatlar, subyektiv qiymət balları və yoxlama, tapşırıqlara verilən qiymətlər bütövlükdə şagirdlərin təlim materiallarının məzmununu nə dərəcədə qavrayıb-qavramadığını aydınlaşdırmağa imkan vermir. Buna görə də təlim-tərbiyə prosesinin nəticələrinin ardıcıl öyrənilməsi sisteminin yaradılması və onun işləməsinin qaydaya salınması ümumtəhsil məktəblərinin idarəetmə fəaliyyətində mühüm məsələyə çevrilir.

Aparılmış araşdırmalar zamanı müəyyən edilmişdir ki, ümumtəhsil məktəblərində sistemli, məqsədyönlü, elmi-pedaqoji cəhətdən əsaslandırılmış qiymətləndirmə sistemindən istifadə təmin edilmədiyindən məktəbdə təlim - tərbiyə prosesinin keyfiyyət göstəriciləri getdikcə aşağı düşmüşdür. Bu baxımdan ümumtəhsil məktəblərində keyfiyyətin daha dəqiq, obyektiv ölçülməsi, bütövlükdə müəssisənin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi üçün elmi cəhətdən əsaslandırılmış yeni, etibarlı bir mexanizmin yaradılması zərurətə çevrilmişdir.

Monitorinq və qiymətləndirmə ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün vacib sayılan amillərdən biridir. Aparılan müşahidələr zamanı müəyyən olunmuşdur ki, hazırda ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün mövcud qiymətləndirmə sistemində aşağıdakı problemlər mövcuddur:

1. şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsində obyektivliyin, şəffaflığın və müstəqilliyin təmin olunmaması;
2. şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsində biliyin keyfiyyətini qiymətləndirmə meyarlarının olmaması;
3. təlim prosesində şagirdlərdə formalaşdırılacaq keyfiyyətlərin (ümuminsani, milli-mənəvi və s.) məzmununun olmaması;
4. didaktik sistemlərin, pedaqoji texnologiyaların keyfiyyətinin qiymətləndirmə meyarlarının olmaması;
5. müəllimintədrisə hazırlığının keyfiyyətinin müəyyənləşdirilməsi üçün meyarlar sisteminin olmaması;
6. müəllimin tədris nailiyyətlərinin qiymətləndirilməsi üçün meyarların olmaması;
7. məktəb rəhbərlərinin mövcud nöqsanları aradan qaldırması üçün təlim- tərbiyə prosesinin keyfiyyətinin yüksəlməsinə yönələn təlim nəticələrinin müntəzəm qiymətləndirilməsi sisteminin olmaması;
8. məktəbin tədris fəaliyyətinin qiymətləndirilməsini vaxtaşırı monitorinqinin aparılması üçün meyarların olmaması (Mərdanov M. , 2003).

Müasir anlamda ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmənin başlıca məqsədi təhsil müəssisəsi rəhbərlərinə, müəllimlərə, həm də şagirdlərə məktəbdə təlim-tərbiyə prosesinin vəziyyəti haqqında obyektiv məlumat vermək və təhsilin keyfiyyətini daha da yüksəltmək imkanı yaratmaqdır.

Ümumtəhsil məktəblərində pedaqoji prosesin səmərəliliyini və inkişafını müəyyənləşdirmək, ilk növbədə, pedaqoji prosesin əsas iştirakçılarının fəaliyyətinin məqsədəmüvafiqliyi üçün məlumatların toplanması prosesidir. Bu zaman ekspertlərin qiymətləndirməni aşağıdakı prinsiplərə əsasən aparması məktəbin təlim-tərbiyə prosesinin keyfiyyəti haqqında tam, müfəssəl təsəvvür əldə etməyə şərait yaradar:

- qiymətləndiriləcək obyekt (pedaqoji proses və yaxud onun hər hansı elementi) barədə dəqiq və etibarlı informasiyaların toplanması;

- monitorinq nəticəsində əldə olunmuş materiallar təhlil olunduqdan sonra təhsilin keyfiyyətin qiymətləndirərkən kəmiyyət ölçmələrindən istifadənin dəqiq aparılması;

- bunun üçün əvvəlcədən xüsusi normativ-hüquqi sənədlərin hazırlanması;

- monitorinq müşahidələri ilə qiymətləndirmə zamanı şəffaflığın təmin olunması məqsədilə nəticələr barədə, həm də qiymətləndirmənin yerinə yetirilməsi haqqında ictimaiyyətin və rəsmi orqanların mütəmadi məlumatlandırılması;

- təhsilin keyfiyyətinin qiymətləndirilməsinin beynəlxalq standartlara uyğun aparılması.

Ümumtəhsil məktəblərində real vəziyyətin obyektiv və şəffaf təsvir olunması, müvafiq korreksiya işlərinin aparılması, idarəetmə qərarlarının verilməsi üçün sadalananların dəqiq müəyyənləşdirilməsi vacib hesab edilir.

Ümumtəhsil məktəblərində təhsilin dinamik inkişafı üçün hər dərs ilinin sonunda onun müvafiq göstəricilər əsasında monitorinqinin və qiymətləndirilməsinin aparılması müəssisənin gələcək fəaliyyət istiqamətini düzgün müəyyənləşdirməyə imkan yaradır.

Bu halda aşağıdakı bir sıra vacib məsələlərin həlli ön plana çəkilir:

1. təhsilin keyfiyyətini müəyyən etmək üçün dövlət təhsil standartlarının (parametrlərin, meyarların) işlənib hazırlanması;
2. ümumtəhsil məktəblərində şagirdlərin hazırlığının keyfiyyəti barədə mütəmadi obyektiv məlumatın toplanması;
3. təhsilin keyfiyyətinin ictimai ekspertizası (monitorinqi) üçün şəraitin yaradılması;
4. təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi üçün yeni metodiki modellərin işlənib hazırlanması;
5. təhsilin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi məsələləri üzrə idarəetmə qərarlarının qəbulu zamanı subyektivliyin minimuma endirilməsi;
6. məlumatların toplanılmasında dəqiqliyin, etibarlılığın və nəticələrin şərh edilməsində şəffaflığın təmin edilməsi;
7. təhsilin keyfiyyətinə dair monitorinq və qiymətləndirmənin nəticələrinin respublika səviyyəsində vaxtında işıqlandırılması (Mehrabov A., 2002).

Bu mövqe təhsil sistemində, onun demokratik prinsiplərlə idarə edilməsində və təhsilinin keyfiyyəti haqqında düzgün informasiyaya əsaslanaraq qərarların qəbul edilməsində xüsusi əhəmiyyət kəsbedir.

Müasir dövrdə təhsilin keyfiyyətinin idarə olunması, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi vacib hesab edilir. Bu işdə isə qiymətləndirmə mühümpedaqoji vasitə kimi qəbul edilir. Qiymətləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, şagirdlərin nəyi mənimsədiklərini, nələri öyrəndiklərini, hansı bacarıqlara malik olduqlarını və onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Məhz qiymətləndirmə vasitəsilə təhsil müəssisəsi rəhbərləri müəssisədə təlim-tərbiyə işinin səviyyəsi, müəllim və şagirdlərin fəaliyyəti haqqında lazımi informasiya toplayır və bunun əsasında işin yaxşılaşdırılması üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirirlər. Fikrimizcə, hazırda təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qiymətləndirmənin məqsədi aşağıdakı məsələlər haqqında tam aydın təsəvvür əldə etməyə geniş imkanlar yaradar:

1. məktəb kurikulumu üzrə şagirdlərin müvəffəqiyyət göstəricilərinin güclü və zəif cəhətlərinin araşdırılması;
2. şagirdlərə verilən bilik, bacarıq və vərdişlərin cəmiyyətin tələbatına uyğunluğunun müəyyənləşdirilməsi;
3. fənn materiallarının çətinlik səviyyəsinin şagirdlərin fiziki və anlaq səviyyəsinə uyğunlugunun müəyyənləşdirilməsi;
4. kurikulumun necə yerinə yetirilməsinə, əhalinin təhsilə olan tələbat səviyyəsinin öyrənilməsi;

5. şagirdlərin təlim göstəricilərinin fənlər üzrə toplanmış nəticələr əsasında fənn kurikulumunun dəyişilməsinə ehtiyacın olub-olmamasının aydınlaşdırılması üçün müvafiq təkliflərin hazırlanması;
6. müxtəlif şəhər, rayon və kənd məktəblərində fənlər üzrə şagirdlərin təlim nailiyyətlərinin müqayisəli təhlilinin aparılması və milli təhsil sistemindəki vəziyyəti əks etdirən rəsmi hesabatların hazırlanması;
7. müəllimlər tərəfindən istifadə edilən didaktik vasitələrin, pedaqoji texnologiyaların, təlim strategiyalarının təkmilləşdirilməsi;
8. müəllimlərin elmi-pedaqoji hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;
9. təhsil xidmətlərinin keyfiyyət dinamikasının öyrənilməsi;
10. təhsilin keyfiyyətli idarə olunmasının səmərəliliyinin müəyyənləşdirilməsi.

Göründüyü kimi, təhsildə qiymətləndirmə sistemi təhsil işçisinin səmərəli fəaliyyətinin üzə çıxarılması və pedaqoji prosesin təkmilləşdirilməsi üçün vaxtında tələb olunan tədbirlərin görülməsi məqsədini daşımalıdır. Çünki qiymətləndirmə pedaqoji prosesi tənzimləməyə, keyfiyyətini yüksəltməyə, həm də mövcud çatışmazlıqlar barədə təhsili idarə edənlərin və valideynlərin məlumatlandırılmasına xidmət edən yeganə pedaqoji vasitə olduğundan, qiymətləndirmənin düzgün təşkili və qiymətləndirmə aparılarkən məqsədin aydın olması təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Ona görə də ümumtəhsil məktəblərində elmi, pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış monitorinq və qiymətləndirmənin aparılması təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinin ən mühüm şərtlərindən biridir.

Təlim-tərbiyə prosesinin keyfiyyətinin, şagirdlərin təlim nəticələrinin mütəmadi monitorinqi təhsilin məzmununun yeniləşməsi, təhsil standartlarının tətbiqi, dərs yükünün normallaşdırılması, təhsilalanların sağlamlığının qorunması və möhkəmləndirilməsi mənəvi tərbiyə problemlərinin kəskinləşdiyi şəraitdə də xüsusi əhəmiyyət kəsb edir. İndi məktəbin qarşısında duran əsas məsələlərdən biri ümumtəhsil məktəbində monitorinq və qiymətləndirmə sisteminin yaradılmasıdır.

Beləliklə, ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin qaldırmaqdan ötrü monitorinq və qiymətləndirmənin düzgün aparılması vacib şərtlərdən biridir.

ƏDƏBİYYAT

1. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. Bakı: 1998.
2. Mərdanov M. və başqaları. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: 2003.
3. Mehrabov A. Təhsilin demokratikləşdirilməsi: problemlər; vəzifələr. “Təhsil, mədəniyyət, incəsənət”. Bakı: 2001. N 4.
4. Mehrabov A. Təhsil sisteminin idarə olunmasının müasir problemləri. “Təhsil, mədəniyyət, incəsənət”. 2002. N 1.

SUMMARY

Shamil Mamedov

THE PLACE AND ROLE OF MONITORING AND EVALUATION IN THE PEDAGOGICAL PROCESS

The correct definition of the goals and objectives of monitoring and evaluation in the history of education is important for the development of educational institutions and the management of the education system.

In modern conditions, the integration of the Azerbaijani education system into the world education system, the level of development of science, technology, computers, as well as modern information and communication technologies make it necessary to use them widely in the educational process. This created a situation that turned into an objective reality the requirement for the functioning of an educational institution in a development mode, accurate forecasting of its future activities, regular consistent assessment of the activities of participants in the process in educational institutions in accordance with modern models.

Since the 90s of the last century, in order to increase the effectiveness of experiments in the field of education, the introduction of innovations, timely monitoring, forecasting and corrective work of results in education, a monitoring and evaluation mechanism has been used. Currently, not only in Azerbaijan, but also in a number of other developed countries of the world, the system of monitoring and evaluation of education is insufficiently established, and in most cases it is local in nature. It is in this article that the place and role of monitoring and evaluation in the pedagogical process are considered.

Key words: *monitoring, assessment, education, education system,educational process*

SƏİDƏ İMANOVA
imanovaseide53@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0002-9589-6366

YUSİF SEYİDOVUN YARADICILIĞINDA DİL MƏSƏLƏLƏRİ

Məlumdur ki, dil məsələləri zaman-zaman bir çox alimin tədqiqat obyektinə çevrilib. Professor Yusif Seyidovun da Azərbaycan dilçiliyində çox böyük xidmətləri olmuşdur. Professor Azərbaycan dilçiliyinə dərindən bələd olmuş, dil problemlerini uzun müddət araşdırmış, bu araşdırmalardan sonra uğurlu nəticələr əldə etmiş və dilçilik sahəsində bir çox ilklərə imza atmışdır. Görkəmli elm xadimi, professor Yusif Seyidov Azərbaycan dilçiliyində ilk dəfə Azərbaycan ədəbiyyatı ilə Azərbaycan dilinin kəsişmə nöqtəsini araşdırmış, sənətkarların, söz ustalarının dilin inkşafında nə kimi rolları olduğunu göstərir. İlk dəfə olaraq linqvistik təhlilləri bədii ədəbiyyat materialları üzərində aparmaq ideyasını Yusif Seyidov vermişdir. Yeganə alimdir ki, ədəbiyyatı sistemli şəkildə dilçiliyin obyektinə çevirib. Azərbaycanda "söz birləşmələri" mövzusunda da tədqiqat aparan ilk dəfə Y.Seyidov olmuşdur. Ümumiyyətlə, Yusif Seyidovun tədqiqatları Azərbaycan dilçiliyi üçün həmişə əvəzolunmaz mənbə rolunu oynayacaq.

Açar sözlər: *Azərbaycan dili, yazıçı, təhlil, söz, tədqiqat, yaradıcılıq*

Dil insan həyatının böyük neməti, insan ağlının qüdrətli silahı və tükənməz mədəniyyət xəzinəsi hesab olunur. Dili xalq yaradır, filoloqlar kəşf edir və sistemləşdirir, yazıçılar isə onun üzərində söz sənəti yaradırlar. Dili hər zaman qorumaq lazımdır. Dil həmişə sadə və zərif olmalıdır.

Yazıçılar yaradıcılıqlarının müəyyən bir istiqamətlərində həmişə ana dili məsələlərinə yer ayırmışlar. Belə ki, onlar hər zaman öz ideyalarını, fikirlərini oxucuya çatdırmaq üçün sözün gücündən istifadə edirlər. Belə bir xalq deyimi var ki, gözəl dil hətta ən sarsaq fikrə də ləyaqət donu geyindirir.Ana dilinin problemləri yazıçıları hər zaman narahat etmiş, bütün dövürlərdə ədəbi dil normaları, ədəbil dil qaydaları yazıçıların yaradıcılıqlarının mərkəzi mövqeyi olmuşdur. Yazıçılar öz qələmləri hesabına ədəbi dili inkşaf etdirir, dili ətə-qana gətirir, formalaşdırır. Ədəbi dil tarixini öyrənən zaman biz görkəmli sənətkarların əsərlərinin əsasında dil faktlarını, dilin tarixini araşdırırıq.

Professor Yusif Seyidov da görkəmli sənətkarlarımızın yaradıcılıqlarında ədəbi dilin inkşaf qanunlarını izləmiş bu haqda elmi fikirlər söyləyən elm adamlarından biridir. Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Yusif Seyidov ömrünün çox hissəsini dilçilik axtarışlarına həsr etmişdir. Professor Azərbaycan dilçiliyində çox mühüm bir yeri tutur. O, saysız-hesabsız elmi əsərlərin, onlarla məqalənin müəllifidir. Professor Yusif Seyidov dilçiliyin, ədəbiyyatşünaslığın tərəqqisində çox böyük rolu, xidmətləri olan elm adamı ümumiyyətlə, böyük alim idi. Yusif Seyidov söz ustalarını dilin dərinliyindən necə istifadə etdiklərini, sözə necə münasibət bəslədiklərini göstərmişdir. Bu qədər böyük alim öz ədəbi bədii yaradıcılığında iz buraxmaya bilməzdi. O yeganə dilçidir ki, ədəbiyyatı sistemli bir formada dilçiliyin obyektinə çevirdi. Dilçilik və ədəbiyyat elmlərini bir yerə gətirib, onları sistemli şəkildə birləşdirib, onlar arasında vəhdət yaratdı. Yusif Seyidovun yaradıcılığı olduqca çoxşaxəlidir. Dilçiliyin bütün sahələri onun elmi yaradıcılığında yer almışdır. Ancaq qrammatika problemləri onu daha çox düşündürmüş, yaradıcılıq fəaliyyətində əsas yeri tutmuşdur. O, ölkəmizdə bu sahədə tədqiqatlar aparan ən görkəmli mütəxəsislərdən biri hesab olunur.

"Azərbaycan dilinin qrammatikası" adlı ilk məqaləsində Yusif Seyidov Zərf, Sifət, Feil bölmələrində çox maraqlı məqamlara toxunmuşdur. O, "idi", "imiş" sözlərinin yeri gəldikdə ədat kimi, yeri gəldikdə isə "Feil" bölməsində köməkçi feil kimi göstərilməsi problemlərinə toxunmuşdur.

Yusif Seyidovun olduqca maraq doğuran məqalələrindən biridə 1955-ci ildə dərc olunan "Dilin daxili inkişaf qanunları haqqında" adlı məqaləsidir. Məqalədə belə deyilir: "Azərbaycan dilinin daxili inkişaf qanunlarını öyrənmək dilçiliyimiz qarşısında duran şərəfli vəzifələrdəndir.[1] Həmin bu

məqalədə alim bütün dillərlə yanaşı konkret dillərin də inkişafının bütün dövürlərdə daxili inkişaf qanunlarını vermişdir. Və müəllif bu dilləri heç vaxt qatmamağı, onlar arasındakı fərqi bilməyi, bu dillər arasında sərhəd qoymağı, həmin dilləri heç vaxt eyniləşdirməmək qənaətinə gəlir. Yusif Seyidov "Dilin daxili inkişaf qanunları haqqında" məqaləsində təkcə dillərin inkşaf qanunlarından yox həmdə yeni yaranan sözlərlə köhnəlmiş sözlər arasındakı münasibətlərdən də söz açmışdır. Burada bəzi köhnəlmiş sözlərin yeni sözlərələ əvəz olunmasından bəhs olunur. Lakin yeni dövür üçün artıq köhnəlmiş olan bu sözlər heçdə asanlıqla öz yerini yeni sözlərə verməmiş, həmin bu sözlərin özünü doğrultması uzun zaman almışdır.

Azərbaycanda "söz birləşmələri" mövzusunda da tədqiqat aparan ilk dəfə Y.Seyidov olmuşdur.

Professor Yusif Seyidovu digər dilçilik tədqiqatları ilə məşğul olan alimlərdən fərqləndirən əsas əlamətlərdən biri bu idi ki o, qədim ədəbi dilimizlə çağdaş ədəbi prosesləri ardıcıl izləmişdir.

Professor Yusif Seyidov həyatı boyu dilçiliyin inkşafı ilə məşğul olmuşdur. AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Kamran Əliyev Professor Yusif Seyidov haqqında deyirdi: Alimin elm yolu feili bağlama tərkiblərinin təhlilindən başlayıb söz birləşmələrinin araşdırılmasından keçərək sənətkarların sözə-dilə münasibətinin məzmununu açmağa yönəlmiş və ədəbi dil tarixinin incəliklərinin təhlili ilə yekunlaşmışdır. [3]

Yusif Seyidov heç vaxt heç bir fikri təkrar etmədi. O, həmişə ilklərə imza atan alimlərdən oldu. Azərbaycan dilçiliyində bir çox ilklər onun adı ilə bağlıdır. Elmi fəaliyyətinə nəzər salsaq görərik ki, bədii nəsr əsərlərində linqivistik təhlil aparmaq qaydasını dilçiliyə ilk gətirən Yusif Seyidov olmuşdur. Alim bunları uzun zaman ədəbi dildə araşdırmış faktlarla göstərmiş, uydurma faktlar verməmişdir.

Aydındır ki, Yusif Seyidov yaradıcılığında ədəbi şəxsiyyətlərə də yer ayırmışdır. Yaradıcılığında Azərbaycan ədəbiyyatına böyük töhfələr verən ustadlara həsr etdiyi araşdırmaları əhatəli və geniş yer alır. Alim bütün dövürlərdə şairlərin, yazıçıların əsərlərinə nəzər yetirmiş, ədəbi prosesi ardıcıl olaraq izləmişdir.

Yusif Seyidov dilə olan sevgisinin ən qabarıq şəklini Azərbaycan sənətkarlarının əsərlərində göstərmişdir. O dil faktlarını ədəbiyyat nümünələrindən verməklə dillə ədəbiyyatın vəhdətini, bir-biri ilə qarşılıqlı əlaqəsini göstərmişdir. Yusif Seyidovun yazdığı "Yazıçı və dil", "Sözün şöhrəti", "Sözün qüdrəti", "Sözün hikməti", "Ədəbi tənqid və bədii dil", "Nəsiminin dili", "Ədəbi-bədii dil problemi" adlı əsərləri dilə nə qədər dəyər verdiyinin ən gözəl nümünələrindən biridir. Alim elmi-nəzəri səciyə daşıyan bu kitablarında dilə olan sevgisinin tükənməzliyini, Azərbaycan sənətkarlarının sözə, dilə necə münasibət bəslədiyini göstəriri.Yusif müəllim sözlə, dillə bağlı araşdırmalarında Azərbaycan dilinin aktual problemlərinidə həmişə ön plana çəkmişdir.

Alim nüxtəlif dövürlərdə ədəbiyyatımızda Azərbaycan ədəbi dili məsələləri haqqında araşdırmalar aparmış, maraqlı nəticələr əldə etmişdir. Y.Seyidov İ.Nəsiminin yaradıcılığında dil ilə bağlı araşdırmalardan yan keçməmişdir. O, şeirin tələblərindən asılı olmayaraq Nəsimin dildən necə ustalıqla, məharətlə istifadə etdiyini göstərir. Y.Seyidov Nəsiminin yaradıcılığında işlətdiyi sadə, xəlqi ifadələrdən atalar sözləri, məsəllərdən danışır. Baxmayaraq ki, bu nümünələrin həcmi çox kiçikdir, amma bu nümunələrin təsir gücünün nə qədər böyük olduğunu, dolğun ifadə vasitəsi olduğu alimin araşdırmalarında bir daha öz təsdiqini tapmışdır. Şair ana dilimizdən çox böyük sənətkarlıqla istifadə etdiyindən nitqindəki ərəb, fars sözləri o qədər də diqqəti cəlb etməmişdir. Alimin Nəsiminin dilində olan araşdırmalarının əsas istiqamətini qrammatik xüsusiyyətlər təşkil edir. O ən çox üç cəhəti ön plana çəkmişdir: xüsusi adların, sayların və əvəzliklərin işlənmə məqamlarını. Y.Seyidovun İ.Nəsimi haqqında apardığı araşdırmaları dilçiliyimiz üçün çox böyük əhəmiyyət kəsb edir.

Yusif Seyidov Nəsimi yaradıcılığı ilə yanaşı həm də Füzulinin də yaradıcılığında araşdırmalar aparmışdır. Şairin yaratmış olduğu təkrarolunmaz sənət incilərindən söz açmışdır. M.Füzulinin yazdığı "Söz" rədifli qəzəli ilə alim yazıçının sözə verdiyi yüksək qiymətdən, dəyərdən danışır.

Yusif Seyidov M.Füzuli haqqında "Aldanma ki, şair sözü, əlbəttə yalandır"adlı məqalə yazmışdır. Alim məqalənin adını "Leyli və Məcnun"poemasının son beytinən götürmüşdür. Professor bu əsər üzərində dərin tədqiqatlar aparmış düzgün şərhlər vermişdir. Y.Seyidov "Aldanma

ki, şair sözü, əlbəttə, yalandır" misrası ilə bağlı iki fikir söyləmişdir. Birinci fikirdə alim fasilənin bir qədər uzun olmasından istifadə edərək burda bir ziddiyyət yaradır. Və belə mənalandırır: "Füzuli gözəllərdə vəfa olduğunu söyləsə də, sən onun sözlərinə inanma". Bu fikirdə məntiqi vurğu "yalandır" sözünün üzərinə düşür. Təhlilin ikinci fikrində isə sözlər arasında fasilənin bir qədər zəifləməsi həmin misranın mənasını fərqli düşünməyə imkan yaradır. Alimin fikrincə "Aldanma ki, şair sözü, əlbəttə, yalandır"misrasındakı ikinci fikir beledir: "kim desə ki şair sözü yalandır, inanma". Alim burda iki fikiri qarşı qarşıya qoyur 1) gözəllərdə vəfanın olub olmamağı 2) şairin sözünün düzgün olub olmamağı və bu mənalarada sözlər arasındakı fasilənin davamlı olmasına görə müəyyənləşdirmişdir. Professorun hələ adi bir misra haqqında tədqiqatının bu qədər geniş olmağı onun nə qədər böyük alim olduğunu göstərir.

Yusif Seyidovun yaradıcılığını bununla yekunlaşdırmaq olmaz. Professor Y.Seyidov istər dilçilik sahəsində, istərsə də ədəbiyyatşünaslıq sahəsində dərin izlər qoymuş alimdir. Onun dərin axtarışları, tədqiqayları əsasında yaranan, heç bir yerdə təkrarı olmayan elmi irsi bu gün Azərbaycan dilçiliyi üçün tarixi abidə rolunu oynayır.

ƏDƏBİYYAT

1. Əbülfəz Quliyev, Aliyə Əbülfəz qızı. Profess Yusif Seyidovun elmi irsində yazıçı və dil məsələləri (XX əsrədək) I kitab. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2020, 144 s.
2. Sədaqət Həsənova. Dilimiz Varlığımızdır. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi-2020, 208 s.
3. http://www.anl.az/down/meqale/525/2019/may/650406.htm
4. https://525.az/news/138625-yusif-seyidovun-elmi-irsinin-tedqiqine-muhum-tohfe
5. Ysif Seyidov C28 "Yazıçı vı Dil" Bakı: Yazıçı 1979 288s.

SUMMARY

Saida Imanova

LANGUAGE ISSUES IN THE CREATION OF YUSIF SEYIDOV

It is clear that language issues has been researched by a number of scientists from time to time. Professor Yusif Seyidov has become a great role in Azerbaijani Linguistics. Professor had deep knowledge of Azerbaijani Linguistics, has researched Language issues for a long time, after these researches, he got successful results and achieved many firsts. Prominent scientist, professor Yusif Seyidov, for the first time, explored intersection point of Azerbaijani language with Azerbaijani literature, showed what roles artists and wordsmiths have in the development of the language. Yusif Seyidov, for the first time, brought up the idea of linguistic analyses on fictional literature materials. He is the only scientist who turned the literature into the object of linguistics systematically. Yusif Seyidov was also the first man who studied on "word combinations" in Azerbaijan. Generally, Yusif Seyidov's researches will always be an irreplacable source for Azerbaijan Linguistics

Key words: *Azerbaijani language, writer, analysis, the word, research, creativity*

TURAN MƏMMƏDLİ
memmedli.t369@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0003-8243-9251

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZDƏ SOSİAL-MƏDƏNİ PROQRAMLAR VƏ XİDMƏTLƏRİN KULTUROLOJİ ASPEKTLƏRİ

Cənubi Qafqazda geosiyasi vəziyyətin dəyişməsi Ermənilərin öz tarixi ənənəsinə sadiq qalaraq, yeni dəyişikliklərdən maksimum yararlanma arzularını işə salmışdı. Hər zamanki kimi gözləniləni etdilər. Azərbaycan ərazisində dövlət qurmaq arzularını reallaşdırmaq.

Tarixə nəzə yetirdikdə Ermənilər hər zaman bu tip situasiyalardan istifadə etmişdir.

Hər zaman qonşu olduğu dövlətlərin əleyhinə davranışlar sərgiləməsi dünya xaqının gözq önündədir.

Təbii ki Azərbaycanla bağlı bu iyrənc planlarına dəstək olan avropa ölkələri də oldu. Bütün bunlara baxmayaraq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Çoxunun düşüncəsinə görə, Azərbaycan hakimiyyəti dəyişnədiyi sürəcə biz buna nail ola bilmərik.

Ama biz bunu da yalanladıq. Prezident İlham Əliyev tarixə Şuşanın, Qarabağın fatehi, Azərbaycan ərazi bütövlüyünün bərpaçısı kimi daxil oldu.

Açar sözlər: *Geosiyasi, prioritet, eksponat, infrastruktur, korrupsiya*

XIX əsrin əvvəllərində Cənubi Qafqazda geosiyasi vəziyyətin Rusiyanın xeyrinə dəyişməsi regionda yeni maraqların yaranmasına səbəb oldu. Ermənilər tarixi ənənəsinə sadiq qalaraq yeni situasiyadan maksimum yararlanma çabalarını işə saldılar. Məqsəd tarixi Azərbaycan ərazilərində özlərinə dövlət qurmaq idi. Bunun üçün birinci Azərbaycan Xanlıqlarının fiziki yox edilməli idisə, ikinci əsas məsələ azərbaycanlıların bu ərazilərdə mövcud olmamasının dəlillərini toplamaq, daha doğrusu Azərbaycan xalqının regionda gəlmə xalq olduğunu sübut etməklə bu torpaqlarda yaşamaq haqqının daha çox ermənilərə aid olmasına beynəlxalq gücləri inandırmaq idi. Bu siyasət bu gün də aparılır. Bunun üçün tarixi sənədlər, dəlillər tələb olunduğundan bütün güclərini saxtalaşdırma prosesləri üzərində cəmləşdirə bildilər. Bu məsələdə onlara kömək edənlər də tapıldı. Elə Rusiyanın özünə Qafqazda yalan üzərində qurulsa belə müti və sadiq bir dövlətin mövcudluğu sərfəli idi. Avropa ölkələrinin də əksəriyyətini ermənilərin çirkin niyyətləri qane edirdi. Ona görə də tarixin saxtalaşdırılması prosesində ermənilərə kömək edəcək qüvvələr işə başladılar. Hətta Vatikanda Böyük Ermənistan xəritəsi də tapıldı. Əlbəttə, bütün bunlar vaxtilə osmanlı Türkiyəsinin Avropaya yürüşünün qarşısını almaq üçün Qafqazda gizlədilmiş mina idi ki, istədikləri vaxt işə salaraq Türkiyəni daxildən zəiflədərək parçalamaq, Ermənistan deyilən geosiyasi layihəni gerçəkləşdirmək idi. Burada hər kəsə pay düşürdü. Ermənilər dövlət qururlar. Onların havadarları isə Azərbaycan və türk xalqını parçalayan bir siyasi mərkəzə sahiblənirdilər. Sonda isə onlar üçün arzuedilməz Azərbaycan xalqı isə yox olub gedəcəkdir. Bununla da ermənilərin Azərbaycana qarşı amansız mübarizəsi başladı.

Son 200 ildə çoxsaylı qırğınlar və azərbaycanlıların dədə-baba yurdlarından birdəfəlik qovulmaları artıq hər birimizə məlumdur. Yaxın keçmişimizə nəzər saldıqda təəssüf ki, ermənilərin xəyanətləri açıq aşkar görsənir. Belə ki, bütün ictimai-siyasi hadisələrdə ermənilərin xəyanətkarlığı üzə çıxır. Elə başlasaq XIX əsrin əvvəllərindəki geosiyasi vəziyyətin dəyişməsinə. Əgər ermənilər qonşuluq, dostluq anlayışlarına hörmət etsəydilər, əzəli qonşularına xəyanət edib yadelli işğalçıların əlaltısına çevrilməzdilər.

Onu da xatırladaq ki, 1915-ci il Türkiyə vətən savaşında ölüm-dirim çarpışmasındaykən yerli Türkiyə vətəndaşları olan ermənilər qarşı tərəfə keçdilər.

Bununla bağlı görülən tədbirləri isə utanmadan genosid adlandıraraq abırsızlıqlarını davam etdirirlər. Eyni səhvi ermənilər XX əsrin əvvəllərində 1918-ci ildə də etdilər.

Yenə üç Qafqaz ölkəsi Zaqafqaziya federasiyasında birləşib bolşevik Rusiyasından canlarını qurtara bilərdilər. Sonuncu səhvi XX əsrin sonlarında Sovet İttifaqının dağılmasından sonra yenə də birləşmək əvəzinə - Pribaltika ölkələri kimi - qonşusunun torpağının zəbt edilməsini seçdilər. Yaxın qonşu uzaq qohumdan irəlidir düşüncəsini tərsinə dəyişdirərək uzaqdakı qohumlarını yaxın qonşusundan üstün tutdular.

Hələ bu son iki əsrin hər birimizə məlum mənzərəsidir. Tarixin dərinliklərindəki, günahlarını isə tarixçilər daha yaxşı bilər. Belə məlum olur ki, bunlar xəyanətə meylli, araqarışdıran haqq-ədalət, vicdan, ləyaqət kimi müqəddəs anlayışlara laqeyd olan xəstə təfəkkürlü insanlardır. Azərbaycan xalqı onlara qarşı hiddətlidir ona görə ki, müharibə etmək olar, haqlı-haqsız da olmaq olar. Ancaq xalqın mənəviyyatını yox etmək, ümumiyyətlə, varlığını şübhə altına almaq, maddi-nənəvi dəyərlərini silmək kimi amansızlıqları unuda bilməz. Ermənilərin təəccüblə azərbaycanlıların gözlərindəki hiddətin səbəbini aramalarının səbəbi də budur. Bunu anlamaları lazımdır. Yəqin ki, artıq anlayırlar. Ona görə də düşünürəm ki, əlbəttə əvvəl axır regiona sülh, əminamanlıq gələcəkdir. Ancaq bütün dadsız hadisələrin səbəbkarları ən nəhayət Azərbaycan xalqından üzr istəməlidirlər. Yalnız bundan sonra əməkdaşlıq etmək və rahatlıq tapmaq olar.

İkinci Qarabağ müharibəsindən sonra artıq ölkəmizin həyatında yeni mərhələ, quruculuq, inkişaf, işğaldan azad edilmiş torpaqlarımızın bərpası dövrü başlayır. Hazırki dövrdə 30 il ərzində erməni vandalları tərəfindən dağıdılmış, torpaqları ekoloji terrora məruz qalmış Qarabağın bərpası, yenidən qurulması və Qarabağdan məcburi köçkün düşmüş 1 milyondan çox əhalinin orada məskunlaşdırılmasının təmin olunması növbəti əsas hədəflərdən biridir.

Məlumdur ki, Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. İşin təşkilini təmin etmək məqsədilə Əlaqələndirmə Qərargahı nəzdində idarələr arası mərkəz, mərkəzin nəzdində 17 işçi qrupu formalaşdırılıb. İşçi qrupunda 55 dövlət qurumunun nümayəndələri iştirak edir.

Bütün işlər planlı və kompleks yanaşma əsasında həyata keçirilir. Belə işçi qruplarından biri olan "Akademik və təhsil məsələləri üzrə" işçi qrupunu misal gətirə bilərik.

Qarabağın özünəməxsus bir mədəniyyəti, ruhu vardır ki, elə ilk növbədə bu diyarın öz ruhuna, mədəniyyətinə qovuşması təmin edilməlidir. Şübhəsiz ki, ilk prioritetlərdən biri məhz məcburi köçkün halında olan əhalinin Qarabağa qaytarılmasıdır. Xatırladaq ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib.

İşğaldan azad edilmiş ərazilərdə kulturoloji təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Beləliklə, ilk növbədə azad edilmiş ərazilərdə təhsil ehtiyacları müəyyənləşdirilməli, mövcud təhsil infrastrukturunun vəziyyəti qiymətləndirilməli və fəaliyyətin təşkili ilə bağlı planlar hazırlanmalıdır.

Qarabağın bərpası "ağıllı şəhər", "ağıllı kənd" layihələri əsasında elmin və texnikanın ən son nailiyyətlərinə uyğun həyata keçirilir. Dirçəldilmiş Qarabağda insanlar arasındakı fərqlənməni tənzimləmək və əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq üçün sosial xidmətlərdən düzgün istifadə edilməlidir.

Bütün bunlara görə sosial sahənin modernləşdirilməsi baxımından əhali üçün sosial sistemdəki xidmətlərin praktiki ehtiyaclarını və mövcud elmi təhlil səviyyəsini araşdırmağa və müxtəlif sosial proqramların işlənib hazırlanmasına ehtiyac vardır. Sosial layihələrin yerinə yetirilməsi və bərpa işlərinin aparılması üçün xüsusi proqramlar işlənib hazırlanmalıdır. Fikrimizcə, bu proqramlar aşağıdakı sahələri əhatə etməlidir:

1. Ərazilərin minalardan təmizlənməsi;
2. İnfrastrukturun yaradılması (yol, işıq, qaz, su və s.);
3. Sosial obyektlərin və dövlət orqanlarının yaradılması, - hüquq mühafizə, təhlükəsizlik məsələləri: sərhədlərin qorunması, gömrük nəzarəti, terror, təxribatlara və cinayətlərə qarşı mübarizə;
4. Məskunlaşma proqramı və sosial xidmətlərin təşkili.

Əhali arasındakı sosial sistemdəki xidmətlərin kulturoloji aspektlərini təhlil edib qiymətləndirmək üçün aşağıdakılara diqqəti artırmaq məqsədə müvafiqdir:

1. Müxtəlif sosial-demoqrafik qrupların keyfiyyətcə yeni sosial xidmətlərə olan ehtiyaclarının aşkarlanmasını təmin etmək üçün müvafiq tədbirlərin görülməsi; - Proqramların və xidmətlərin optimal strukturunu müəyyənləşdirmək və onların əsaslarını inkişaf etdirmək;
2. Proqramların və xidmətlərin keyfiyyət hədəflərini qiymətləndirmək üçün rəqəmsal normaların, standartların əsaslandırılması;
3. Sosial sistemdə xidmətlərin göstərilməsi mexanizmlərinin inkişafı və sosial xidmətlər bazarının yaradılması;
4. Sosial sahənin yenilikçi modellərin və rəqəmsal texnologiyaların inkişafına nəzəri və metodoloji yanaşmaların formalaşdırılması.

Qarabağın 44 gün ərzində azad edilməsində Ali baş Komandanın rəhbərliyi altında ordumuzun cəsarəti və qəhrəmanlığı, habelə qardaş Türkiyənin siyasi və mənəvi dəstəyi ilə yanaşı, neftdən əldə olunan gəlirin də çox ciddi rolu oldu. O baxımdan ki bu illər ərzində dövlətimizin iqtisadiyyatı gücləndi, ordumuz qüdrətləndi. Dünyanın iqtisadi maraqları bizimlə uzlaşdı, aparılan uğurlu siyasi-iqtisadi siyasət nəticəsində də söz, nüfuz sahibinə çevrilə bildik.

Müxalifətin əsas təbliğat metodlarından biri bu idi ki, guya neft Azərbaycan xalqına xoşbəxtlik gətirmir, bizə güclü iqtisadiyyat yox, demokratiya lazımdır.

Belə uydurmalara da cəhd edirdilər ki, guya neft müqavilələrinin şərtinə görə Azərbaycan heç zaman müharibə edə, Qarabağı hərbi yolla geri ala bilməz, sadəcə buna imkan verməzlər və s. Ancaq sübut edildi ki, necə müharibə apardıq, torpaqlarımızı necə geri aldıq!

Belə bir eybəcər təbliğata da can atılırdı ki, Azərbaycanda inqilab olmasa, hakimiyyət dəyişməsə, demokratiya olmasa, Qarabağı ala bilmərik.

Məlum oldu ki, söhbət Suriyaya, Tunisə, İraqa, Livana, Misirə köçürülən demokratiyadan gedir. Bizə də o cür divan tutmaq istəyirdilər, ancaq şükürlər olsun ki, edə bilmədilər.

Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, dövlətin korrupsiya ilə mübarizəni gücləndirdiyi, böyük islahatlar apardığı, Qarabağa qayıdışla bağlı işğaldan azad olunan torpaqlarımızda bərpa işlərinin sürətləndiyi bir vaxtda ölkədə qarışıqlıq salmaq istəyən ünsürlər nəzərə çarpır. Onlar bilməlidirlər ki, Azərbaycan Prezidentinin reytinqi, nüfuzu hazırda zirvələri fəth edir. İlham Əliyev tarixə Şuşanın, Qarabağın fatehi, Azərbaycanın ərazi bütövlüyünün bərpaçısı kimi daxil oldu. Bu da hər liderə, dövlət başçısına nəsib olmayan müqəddəs bir şərəf, ən uca tarixi bir məqamdır. Ona görə də bu gün Azərbaycanın siyasi səhnəsində bir alternativ ola bilər: o da İlham Əliyevin özüdür. Çünki Azərbaycan xalqı Qarabağda zəfər çalan İlham Əliyevin dəmir yumruğu ətrafında elə möhkəm birləşiblər ki, bu birliyin də alternativi yoxdur və heç zaman olmayacaqdır.

Nəticə

Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, dövlətin korrupsiya ilə mübarizəni gücləndirdiyi, böyük islahatlar apardığı, Qarabağa qayıdışla bağlı işğaldan azad olunan torpaqlarımızda bərpa işlərinin sürətləndiyi bir vaxtda ölkədə qarışıqlıq salmaq istəyən ünsürlər nəzərə çarpır. Onlar bilməlidirlər ki, Azərbaycan Prezidentinin reytinqi, nüfuzu hazırda zirvələri fəth edir. İlham Əliyev tarixə Şuşanın, Qarabağın fatehi, Azərbaycanın ərazi bütövlüyünün bərpaçısı kimi daxil oldu. Bu da hər liderə, dövlət başçısına nəsib olmayan müqəddəs bir şərəf, ən uca tarixi bir məqamdır. Ona görə də bu gün Azərbaycanın siyasi səhnəsində bir alternativ ola bilər: o da İlham Əliyevin özüdür. Çünki Azərbaycan xalqı Qarabağda zəfər çalan İlham Əliyevin dəmir yumruğu ətrafında möhkəm birləşiblər.

ƏDƏBİYYAT

1 https://e-qanun.az/framework/52757
2 https://economy.gov.az/az/page/qarabag-azerbaycandir

SUMMARY

Turan Mammadli

CULTURAL ASPECTS OF SOCIAL-CULTURAL PROGRAMS AND SERVICES IN OUR LIBERATED TERRITORIES

The change in the geopolitical situation in the South Caucasus triggered the desire of Armenians to make the most of the new changes while remaining true to their historical tradition. As usual they did what was expected. To realize the dreams of establishing a state on the territory of Azerbaijan. Historically, Armenians have always used this type of situation. It is always in front of the eyes of the world that it behaves against its neighboring states. Of course, there were also European countries that supported these disgusting plans regarding Azerbaijan. Despite all this, Azerbaijan restored its territorial integrity. According to the opinion of many, we cannot achieve this as long as the Azerbaijani government does not change. But we denied that too. President Ilham Aliyev entered history as the conqueror of Shusha, Karabakh, restorer of territorial integrity of Azerbaijan.

Key words: *Geopolitical, priority, exhibit, infrastructure, corruption*

РЕЗЮМЕ

Туран Мамедли

КУЛЬТУРНЫЕ АСПЕКТЫ СОЦИАЛЬНО-КУЛЬТУРНЫХ ПРОГРАММ И УСЛУГ НА НАШИХ ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ

Изменение геополитической ситуации на Южном Кавказе вызвало у армян желание максимально использовать новые изменения, оставаясь верными своей исторической традиции. Как обычно, сделали то, что ожидали. Воплотить в жизнь мечты о создании государства на территории Азербайджана. Исторически армяне всегда использовали подобные ситуации. То, как она ведет себя в отношении соседних государств, всегда на глазах у всего мира. Конечно, были и европейские страны, которые поддержали эти отвратительные планы в отношении Азербайджана. Несмотря на все это, Азербайджан восстановил свою территориальную целостность. По мнению многих, мы не сможем добиться этого, пока не сменится правительство Азербайджана. Но мы и это отрицали. Президент Ильхам Алиев вошел в историю как покоритель Шуши Карабаха, восстановитель территориальной целостности Азербайджана.

Ключевые слова: *геополитика, приоритет, экспонат, инфраструктура, коррупция.*

NƏZRİN MƏHƏRRƏMOVA
nezrinmva66@gmail.com
Naxçıvan Dövlət Universiteti

İSMİN TƏDRİSİNDƏ MƏNSUBİYYƏT KATEQORİYASI

Məqalədə morfologiyanın tədrisində ismin təliminin mühüm yer tutduğundan danışılır. Biz bilirik ki, isimlər, ifadə etdiyi obyektiv varlıq, hadisələr varlıq haqqında təsəvvürlər və xəyali anlayışlar olmasa idi, onlara xas olan keyfiyyət, əlamət, kəmiyyət və hərəkət də ola bilməzdi.

Odur ki, nitq hissələri tədrisində birinci yeri ismin təlimi tutur və qrammatika dərsliklərində nitq hissələri təlimi də isimdən başlanır (2, s. 124).

İsimlərin təmsil etdiyi maddi varlığı, onun bu və ya digər hissəsini, bir sözlə, əşyanı görmədən, tanımadan, bilmədən, onun rəngi, dadı, forması, bərk və ya boşluğu kimi xüsusiyyətlərindən danışmaqla əşya haqqında tam təsəvvür əldə etmək olmaz. Çünki rəng, dad, forma və başqa bu kimi əlamətlər təkcə bu və ya digər əşyaya deyil, bir çox başqa əşyalara da aid ola bilər.

Açar sözlər: *isim, kateqoriya, morfologiya, təlim, mənsubiyyət kateqoriyası, I şəxs, II şəxs, III şəxs, tədris və s.*

Bildiyimiz kimi, morfologiya əsas nitq hissələrini öz ətrafında mərkəzləşdirir və onların baş mehvərini təşkil edir. Odur ki, morfologiya tədrisində ismin təlimi mühüm yerlərdən birini tutur.

İsim anlayışı, hər şeydən əvvəl maddi varlıqların və onun əsasında dərk edilən yaxud təsəvvür olunan hadisə, xəyali anlayış və sairənin adlarını özündə əks etdirir; məsələn, *adam, həkim, quzu, göyərçin, ev, dəmir və s.* (maddi varlıqların adları), *təbliğat, zəlzələ, yuxu, fikir, xəyal* və s. (varlıqların fəaliyyəti nəticəsində yaranan və varlıq kimi dərk edilən hadisələrin adları), *şeytan, iblis, xortdan, cin, mələk* və s. (varlıq kimi təsəvvür edilən xəyali anlayışların adları) (4, s. 118).

Digər tərəfdən təfəkkür prosesinin tamamlanmasında, onun bir sistem şəklinə düşməsində və dilin ünsiyyət vasitəsi olmaq xüsusiyyətinin təzahüründə mühüm rol oynayan sifət, say, feil kimi əsas nitq hissələri isimlə bağlı olub, onun bir əlamətini, kəmiyyətini və ya hərəkətini göstərmək üçün işlədilir. Məsələn, *qara, torpaq, bulanıq çay, balaca quş, yağlı çörək, şirin alma* kimi söz birləşmələrində *qara, bulanıq, balaca, yağlı, şirin* sifətləri *torpaq, su, quş, çörək və alma* isimlərinin əlamətini; *beş kitab, on ağac* kimi söz birləşmələrində *beş, on* sayları *kitab və ağac* isimlərinin kəmiyyətini bildirir (3, s. 196).

Göründüyü kimi, *qara, bulanıq, yağlı, şirin,* sifərtləri, *beş, on* sayları, *uçur, axır* feilləri isimlərlə bağlı olub, onların bu və ya digər cəhətdən tamamlanmasına əlamətlərinin büruzə çıxmasına və təyininə xidmət edir.

Məlum məsələdir ki, isimlər, daha doğrusu, onların ifadə etdiyi obyektiv varlıq, hadisələr varlıq haqqında təsəvvürlər və xəyali anlayışlar olmasa idi, onlara xas olan keyfiyyət, əlamət, kəmiyyət və hərəkət də ola bilməzdi.

Odur ki, nitq hissələri tədrisində birinci yeri ismin təlimi tutur və qrammatika dərsliklərində nitq hissələri təlimi də isimdən başlanır.

Aydındır ki, şagirdlər əvvəlcə isimlərin bütün xüsusiyytətlərini, şəkli əlamətlərini, sözlərlə əlaqə və münasibətdə necə dəyişdiklərini bilməsələr, bu və ya digər cəhətdən isimləri təyin edən başqa nitq hissələrini də yaxşı öyrənə bilməzlər. Başqa sözlə desək, isimlərin təmsil etdiyi maddi varlığı, onun bu və ya digər hissəsini, bir sözlə, əşyanı görmədən, tanımadan, bilmədən, onun rəngi, dadı, forması, bərk və ya boşluğu kimi xüsusiyyətlərindən danışmaqla əşya haqqında tam təsəvvür əldə etmək olmaz. Çünki rəng, dad, forma və başqa bu kimi əlamətlər təkcə bu və ya digər əşyaya deyil, bir çox başqa əşyalara da aid ola bilər. Məsələn, almanın dadını, rəngini, formasını, bərk və ya boşluğunu və sair əlamətlərini ancaq alma vasitəsi ilə öyrənmək olar. Əks təqdirdə, eyni əlamətlər armud, xurma, heyva, şaftalı və bu kimi bir çox meyvə növləri haqqında da təsəvvür verə bilər ki, bu

da nəticə etibarı ilə yüzlərlə meyvələrdən, biri olan almanın konkret şəkildə öyrənilməsinə maneçilik törətmiş olar.

Dildə də belədir. Bilavasitə əşyaların adlarını (isimləri) öyrənmədən, onun əlamətərini bildirən sözləri – sifət, say və feilləri öyrənmək qeyri-mümkündür.

İsmin tədrisində mühüm və əsas yerlərdən birini mənsubiyyət kateqoriyası tutur. Bu kateqoriyanın istər öz şəkli əlamətləri, istərsə də mənası etibarı ilə dilimizdə və qrammatika tədrisində çox böyük əhəmiyyəti vardır.

İsimlərin mənsubiyyət kateqoriyası hal kateqoriyası ilə sıx surətdə bağlıdır. Hətta bunlar çox zaman məna və şəkil etibarı ilə də bir-birinə oxşayır və çətinliklə bir-birindən seçilir. Mənsubiyyət şəkilçisi qəbul etmiş isimlərin başqa isimlə birləşməsi, köhnə tədirlə desək, izafət yaxud yiyəlik birləşməsi, yeni terminlə desək, II və III növ təyini söz birləşməsi əmələ gətirir ki, bu birləşmələrin birinci tərəfi həmişə ismin yiyəlik halında olur (7, s. 96).

İsimlərdə mənsubiyyət kateqoriyası istər öz məna xüsusiyyətləri, istərsə də öz şəkli əlamətləri cəhətindən hal kateqoriyasından əvvəl gələn, ona oxşar və ondan tamamı ilə fərqlənən kateqoriyalardan biridir. Ona görə də mənsubiyyət kateqoriyası ilə tanış olmadan, onun bütün incəliklərini mənimsəmədən, hal kateqoriyası ilə tanış olmadan, hal kateqoriyasını öyrənmək çətindir. Bu çətinlik, şübhəsiz, tədrisdı də özünü göstərə bilər. Məsələn. Müəllim ismin hallarını keçərkən hələ mənsubiyyət şəkilçiləri ilə tanış olmayan şagirdlərə *"Şagirdlərin köynəklərinin rəngi ağdır"* cümləsində köynək sözünə əlavə olunmuş cəm şəkilçisindən sonra gələn *–inin* şəkilçilərini və *rəng* sözünə artırılmış *–i* şəkilçisi necə izah edilməlidir. Birinci misalda *–i* mənsubiyyət, *nin* hal şəkilçisi, ikinci misalda isə *-i* mənsubiyyət şəkilçisidir. Mənsubiyyət şəkilçilərini tanımayan uzaqlar, çox ehtimal ki, birinci və ikinci misalda olan *–i* mənsubiyyət şəkilçisini təsirlik hal şəkilçisi adlandıracaqlar və müəllim də bu səhvi şüurlu olaraq düzəltmək üçün aciz qalacaqdır. Halbuki mənsubiyyət şəkilçilərini, onların vəzifəsini bilən şagirdlər ondan sonra gələn hal şəkilçilərini öyrənəndə heç bir çətinlik çəkməyəcək və onları mənsubiyyət şəkilçiləri ilə qarışdırmayacaqlar. Məhz ona görə də bu bəhsin, ismin halları bəhsindən əvvəl keçilməsi məsləhət görülür.

Mənsubiyyət kateqoriyası əsas etibarı ilə şəxs arasında olan yiyəlik (sahiblik) və aidlik münasibətini ifadə edir. Bu kateqoriyanın özünə məxsus şəkli əlamətləri vardır ki, bunlar mənsubiyyət şəkilçiləri adlanır. Məsələn, *qardaşım, qardaşın, qardaşı, qardaşımız, qardaşımızın, qardaşı-* dedikdə *qardaş* sözünün sonuna artırılmış, *-ın, -in, -ımız, -ınız* və *-ı* şəkilçiləri mənsubiyyət şəkilçiləri olub, *-ım* və *-ımız qardaş* sözünün birinci şəxsə, *-ın* və *-ınız,* ikinci şəxsə, *-ı* isə üçüncü şəxsə aidiyyətini bildirir (5, s. 78).

Mənsubiyyət kateqoriyası şəxslə əlaqədar olduğu üçün, istər onun məna, istərsə də, əlamətlərini, şəkli xüsusiyyətlərini müəyyən etmək lazımdır; bunun üçün şəxsi kateqoriyasının bəzi xüsusiyyətlərini və onun mənsubiyyət kateqoriyası ilə olan əlaqəsinin mahiyyətini bilmək lazımdır.

Son illərdə nəşr edilən dərsliklərdə mənsubiyyət şəkilçilərinə aid bilik nisbətən düzgün, konkret və yığcam bir şəkildə verilmişdir, məsələn, "azərbaycan dilinin qrammatikası" dərsliyində bu məqsədlə verilmiş izahatda deyilir: "isimlərdə ifadə olunan əşyanın şəxsə (kimə və ya nəyə) mənsub olduğunu göstərmək üçün isimlər şəkilçilər qəbul edərək dəyişir" (8, s. 36). Belə bir məlumat tamamı ilə məqsədəuyğundur, çünki qrammatikada şəxs məfhumu təkcə adamı deyil, yuxarıda qeyd edildiyi kimi, danışan, dinləyən, haqqında danışılan hər bir əşyanı özündə əks etdirir. Buna görə də tərifdə də əşyanın şəxsə sözündən sonra mötərizədə kimə və ya nəyə sözləri verilməlidir.

Şəxs məfhumunu düzgün mənasını şagirdlər mənsubiyyət kateqoriyasında mənimsəmələr, qrammatikanın şəxslə əlaqədar olan (şəxs əvəzlikləri, müəyyən və qeyri-müəyyən şəxsli və şəxsiz cümlələr) bütün məsələlərində onlar aydın təsəvvür əldə edə bilməyəcəklər. Mənsubiyyət kateqoriyasında şəxs məfhumunu şagirdlərə mənimsətmək üçün müəllim sinifdə bir neçə cümlə nümayiş etdirə bilər, məsələn: *Mən kitabı sənə verdim. Mən kitabı Əliyə verdim. Sən kitabı mənə verdin. Əli kitabı sənə verdi* və s. Bütün bu cümlələrdə *mən* danışanı (I şəxsi), *sən* dinləyən (II şəxsi) ifadə edirsə, *kitab, Əli* sözləri haqqında danışanı (III şəxsi) bildirir ki, bunlardan *Əli* adamı, *kitab* cansız əşyanı təmsil edir (5, s.201).

Bütün bunları nəzərə alaraq ismin sistemli şəkildə və əlaqəli şəkildə tədrisi mühüm yer tutur. Bu sistem və əlaqə pozulsa ismin tədrisinin mənimsədilməsi çətin olar və nəticə olmaz.

ƏDƏBİYYAT

1. N.B.Balıyev. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Maarif, Bakı: 1988
2. İbtidai siniflərdə ana dilinin tədrisi metodikası (Kərimov Y.). Bakı: 2000
3. Kərimov Y.S. Ana dilinin tədrisi metodikası. Bakı: 2003
4. Nəbiyeva Ş. Ana dili tədrisinin aktual problemləri. Bakı: ADPU, 2010
5. Rəhimov A. Ana dilinin tədrisi metodikası. Bakı: Maarif, 1997
6. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı: 2008. 223 s.
7. N.B.Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı: 2016, ADPU-nəş. 403s.
8. S.Cəfərov. Azərbaycan dilinin qrammatikası. I hissə, Bakı: 1961

SUMMARY

Nazrin Maharramova

AFFILIATION CATEGORY IN NOUN TEACHING

In the article, it is said that the teaching of the noun occupies an important place in the teaching of morphology. We know that if the nouns, the objective being, the phenomena they denote, were not the ideas and imaginary concepts of the being, they could not have the quality, the sign, the quantity, and the action inherent in them.

Therefore, the first place in the teaching of parts of speech is the teaching of the noun, and the teaching of the parts of speech in grammar textbooks also begins with the noun.

The material entity represented by the nouns, one or another part of it, in a word, without seeing, recognizing, knowing the thing, talking about its characteristics such as color, taste, shape, solidity or emptiness, one cannot get a complete idea about the thing. Because color, taste, shape and other similar signs can refer not only to this or that item, but also to many other items.

Key words: *noun, category, morphology, learning, affiliation category, 1st person, 2nd person, 3rd person, teaching, etc.*

TƏBİƏT ELMLƏRİ

SƏMƏNNAZ ABBASLI
smiabbasli5@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0002-7238-0885

DÖŞ XƏRÇƏNGİNİN MÜALİCƏSİNDƏ İSTİFADƏ OLUNAN MÜALİCƏ METODLARI

Hal-hazırda xərçəngin müalicəsində müxtəlif metodlardan istifadə edilir. Kemoterapiya kimi üsulda dərmanların toksikliyi səbəbindən sağlam hüceyrələrin əksəriyyəti məhv olur. Radioterapiya zamanı şüalanma nəticəsində sağlam hüceyrələr ölür. Cərrahiyyə də xərçəngin müalicəsində əsas istifadə olunan və effektiv bir seçimdir. Əməliyyat növü, xərçəngin mərhələsi, yeri və şiş hüceyrəsinin xüsusiyyətləri və şəxsin ümumi sağlamlığı kimi müxtəlif faktorlara bağlıdır. Bu metod səciyyəvi olaraq döş xərçənginin müalicəsində ilk addım kimi istifadə olunur. Şiş hüceyrəsinin və ona yaxın metastaz olmuş hüceyrə hissələrinin çıxarılması ilə aparılır. Məqalədə ədəbiyyat mənbələrinə və aparılan tədqiqatlara əsasən döş xərçənginin müalicəsində istifadə edilən müxtəlif müalicə metodaları barədə qısa məlumat verilir.

Açar sözlər*: *döş xərçəngi, metod, radioterapiya, kemoterapiya, bitkilərlə müalicə, hormonal

Giriş

Xərçəng, hüceyrələrin kontrolsuz olaraq, çoxalıb böyüməsi nəticəsində meydana gələn bəd xassəli şiş xəstəliyidir. Xərçəngin inkişaf etdiyi orqanlara görə müxtəlif növü vardır.Onlardan ən çox yayılanı döş xərçəngi olub qadınlar arasında ölümlərinin əsas səbəbi olmaqdan ibarətdir. Döş xərçənginə tutulma riski 30%, ölüm nisbəti isə 14% olduğu bilinir. Xərçəng xəstəliyi kardioloji xəstəliklərdən sonra ikinci yer tutur.Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, dünyada hər il 5,9 milyon insan xərçəng xəstəliyindən əziyyət çəkir, onlardan 4,3 milyonu dünyasını dəyişir. Gələcəkdə hər il yeni xərçəng xəstəliklərinin sayının 8 milyona çatacağı gözlənilir. Çın Səhiyyə Nazirliyinin müvafiq məlumatlarına görə, Çində 2 milyondan çox xərçəng xəstəsi var və onların sayı hər il 30 % artır (2).

İranda hər il 85 000 insan xərçəng xəstəliyindən əziyyət çəkir, 55 000 nəfər isə xərçəngdən ölür. Dünyada xərçəngdən ölüm halları artmaqdadır və 2030-cu ildə dünyada bu xəstəlikdən 13,1 milyondan çox ölümün baş verəcəyi proqnozlaşdırılır. Azərbyacan da döş xərçəngi haqqında ayrı-ayrı çalışmalar, məqalələr olsa da ölkəmizdə bu xəstəliyin yayılmasına aid hər hansı statistik məlumata rastlamadıq. Döş xərçənginə qarşı müalicənin əsasını cərrahiyyə, radioterapiya və kemoterapiya təşkil edir [3]. Ancaq problemi həll etmək üçün hələ də effektiv yeni müalicə metodlarının işlənib hazırlanmalıdır.

Material və metodlar. Hər bir metodun müsbət təsirləri qədər mənfi xüsusiyyətlərdə vardır. Metodlardan kimyaterapiya, radiologiya, cərrahiyyə, hormonol metodları əsas üstünlük təşkil edir. Son illərdə bitki tərkibli dərman preparatlarına üstünlük verilir. Dərman bitkilərindən əldə olunan eksozoma da geniş istifadə edilir.

Hal-hazırda xərçəngin müalicəsində kemoterapiya kimi müxtəlif üsullardan istifadə edilir, lakin bu üsulda dərmanların toksikliyi səbəbindən sağlam hüceyrələrin əksəriyyəti məhv olur. Həmçinin radioterapiya da buna misal ola bilər ki,bu zaman şüalanma nəticəsində sağlam hüceyrələr ölür. Xərçəngin müalicəsində ən mühüm problem normal hüceyrələrə zərər vermədən şiş hüceyrələrini məhv etməkdir. Qlobal olaraq xərçəng insan əhalisini ciddi şəkildə təsir edən bir xəstəlikdir. Bu həyati təhlükəsi olan xəstəliyin müalicəsi və qarşısının alınması üçün yeni müalicə üsulların işlənib

hazırlanmalıdır. Elmi və tədqiqat maraqları təbii mənşəli birləşmələrə diqqəti cəlb edir, çünki onların kimyaterapiya kimi cari müalicələrlə müqayisədə daha az zəhərli yan təsirləri var. Bitkilər kimi təbii ehtiyatlardan xərçəng əleyhinə dərmanlar hazırlamaq üçün sitotoksik birləşmələrin sınaqdan keçirilməsi və bitkilərin xam ekstraktlarının yoxlanılması zəruridir (Asadı S., və b., 2011).

Müzakirə

Cərrahiyyə döş xərçənginin müalicəsində əsas istifadə olunan və effektiv bir seçimdir. Əməliyyat növü, xərçəngin mərhələsi, yeri və şiş hüceyrəsinin xüsusiyyətləri və şəxsin ümumi sağlamlığı kimi müxtəlif faktorlara bağlıdır. Bu metod səciyyəvi olaraq döş xərçənginin müalicəsində ilk addım kimi istifadə olunur. Şiş hüceyrəsinin və ona yaxın metastaz olmuş huceyrə hissələrinin çıxarılması ilə aparılır.

Hormonal terapiya

Bu müalicə metodunda, döş xərçənginin estoregen və ya progesteron reseptoru müsbət olanları üçün istifadə olunur. Bədəndə hormonların təsirini bloklayan dərmanlar olur və xərçəngin təkrarlanma riskini azaldır.

Yuxarıda göstərilən və ümumi olaraq geniş istifadə olunan müalicə metodları bir çox xəstələrdə yan təsirlərə səbəb ola bilər.

Bəzi döş xərçəngi növləri ənənəvi olaraq istifadə olunan müalicə metodlarına müsbət cavab verməyə bilər, xestelerdde yorğunluq, saçların tökülməsi, ürək bulanma kimi ciddi yan təsirlərə səbəb ola bilər. Buna görə də yeni effektiv müalicə üsullarının işlənib hazırlanması hələ də problem olaraq qalır.

Nəticə

Xərçəng xəstəliyinə qarşı yüksək effektivliyə sahib və daha az yan təsirə malik yəni dərman preparatlarının hazırlanması tələb olunur. Dərman bitkilərinden istifade etmekle xərçəngə qarşı yeni aktiv birleşmelerin aşkar edilməsi cox aktualdır.. Bu bitkilər arasında *Prangos ferulacea* və *Prangos acaulis* haqqında ədəbiyyatlarda ümumi məlumat olsa da bunlardan əldə olunan ekstraktların döş xərçəngi hüceyrələrinin kulturasında poliferasiyonuna təsir edən çalışmalara rastlamadıq

ƏDƏBİYYAT

1. Current Approaches in Development of Immunotherapeutic Vaccines for Breast Cancer; Adil Allahverdiyev, Gamze Tari, Melahat Bagirova , Emrah Sefik Abamor
2. Asadı, S., Zamırı, A., Ezzatı, S., Parsaeı, P., Rafıeıan, M. & Shırzad, H. 2011. Effect of alcoholic extract of green tea (Camellia sinensis) on the healing process in surgical and burn wounds in rats. Journal of Birjand University of Medical Sciences, 18, 1-9.
3. https://patents.google.com/patent
4. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC5871268/
5. Mansouri, Kooti, Bazvand, et al.2015;10:e18396; Kooti, Ghasemiboroon, Asadi-Samani,et al. 2014;8:325–330 s.

SUMMARY

Semannaz Abbaslı

TREATMENT METHODS USED IN THE TREATMENT OF BREAST CANCER

Currently, methods such as chemotherapy are used in the treatment of cancer, but in this method, most of the healthy cells are destroyed due to the toxicity of the drugs. During radiotherapy, the healthy cells die as a result of radiation. Surgery is also the main used and effective option in the treatment of cancer. It depends on various factors such as the type of surgery, the stage of the cancer, the location and characteristics of the tumor cells, and the general health of the person. This method is typically used as the first step in the treatment of breast cancer. It is performed by removing the tumor cell and nearby metastasized cell parts. The article provides brief information on various treatment methods used in the treatment of breast cancer, based on literature sources and conducted research.

Key words: *breast cancer, radiotherapy, chemotherapy, herbal treatment, hormonal, surgery*

AYSEL YUSİFOVA
aysyusifli895@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0006-1862-3662

NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA HORDEUM L. – ARPA CİNSİNİN TAKSONOMİYASI VƏ BİOLOJİ XÜSUSİYYƏTLƏRİ

Məqalədə Naxçıvan Muxtar Respublikası florasına daxil olan Hordeum L. – Arpa cinsinin bioloji xüsusiyyətləri və taksonomik tərkibi haqda məlumat verilmişdir. Muxtar respublika ərazisində yayılan arpa cinsinin növləri arandan yuxarı dağ qurşağınadək quraq yamaclarda, qumluqlarda, yol kənarlarında, mədəni bitkilər arasında alaq bitkisi kimi yayılmışdır. Aparılan tədqiqatlar və ədəbiyyat məlumatlarına əsasən ərazi florasında Arpa cinsi bitkilərinin 2 yarımcins, 3 seksiya və 10 növlə təmsil olunduğu müəyyən edilmişdir.

Açar sözlər: *Naxçıvan MR, Hordeum L., cins, növ, taksonomik spektr.*

Müasir dövrdə dünyanın bitki aləmində örtülütoxumlu və ya çiçəkli bitkilər tarixi-təkamül prosesində qazandıqları bir sıra çox mühüm uyğunlaşma əlamətləri sayəsində hökmran mövqe tuturlar. Hazırda dünyada 300-dən çox fəsilə və 10 minə qədər cinsə aid 250000 növə malik olan örtülütoxumlu bitkilər birləpəli və ikiləpəli olmaqla 2 sinfə ayrılır. Ərazi florasında birləpəlilər sinfi: 27 fəsilə, 152 cins, 546 növlə təmsil olunur. Muxtar respublika ərazisində Arpa cinsinin 10 növü yayılmışdır ki bunlardan 2 növü (*Hordeum vulgare* L. - Adi (çoxcərgəli) arpa və *Hordeum distichon* L. - İkicərgəli arpa) mədəni florada becərilir [3, s.73].

Nəticələrin müzakirəsi. Arpa bitkisinin cücərtiləri açıq yaşıl rənglidir. Yarpağının qulaqcıqları çox iri olub bir-birinin üzərinə keçir. Sünbül oxunun hər pilləsində üç sünbülcük əmələ gəlir. Çiçək qrupu sünbüldür. Sünbülcüyü bir çiçəklidir. Çiçəyində 3 erkəkcik bir dişicik vardır. Sünbülcük pulcuqları xırda, ensiz-neştərşəkillidir. Çiçək pulcuqları dənə yapışır. Xarici çiçək pulcuğunun uc hissəsindən qılçıq çıxır. Növlər öz-özünü tozlandırır. Payızlıq arpanın vegetasiya dövrü 280-300 sutka, yazlıq arpanınkı isə 55-110 sutkadır [4, s. 247-251; 5, 397-398; 6, s.416-419].

Azərbaycanda seleksiya nəticəsində alınan Pallidium –596, Qarabağ-7, Naxçıvandəni-310, Siklon arpa sortları becərilir.

Hordeum L.- Arpa cinsinin Afrika, Avrasiya və Amerikanın subtropik və mülayim ərazilərində yayılan 25-30 növündən Azərbaycanda 12, Naxçıvan Muxtar Respublikasında 10 növü yayılmışdır [1, s.114; 2, s.76]. Ərazi florasına daxil olan *Hordeum* L. – Arpa cinsinin taksonomik tərkibi aşağıdakı kimi müəyyənləşdirilmişdir.

Genus: *Hordeum* L. - Arpa
Subgen.1. *Hordeastrum* (Döll) Rouy
Sect. 1. *Stenostachys* Nevski
1(1) *Hordeum violaceum* Boiss.& Huet. - Bənövşəyi arpa
Sect. 2. *Trichostachys* Dumort.
2(1) *Hordeum glaucum* Steud. - Boz arpa
3(2) *Hordeum murinum* L. - Siçan arpa
4(3) *Hordeum leporinum* Link. - Dovşan arpa
5(4) *Hordeum hrasdanicum* Gandiljan - Hrasdan arpa
6(6) *Hordeum geniculatum* All. - Dirsəkli arpa
Sect.3. *Bulbohordeum* Nevski
7(7) *Hordeum bulbosum* L. - Soğanaqlı arpa
Subgen 2. *Hordeum*

8(1) *Hordeum spontaneum* C. Koch - Yabanı arpa
9(2) *Hordeum distichon* L. - İkicərgəli arpa
10(3) *Hordeum vulgare* L. - Adi (çoxcərgəli) arpa

Nəticə

Aparılan tədqiqat işlərinin və ədəbiyyat araşdırmalarının nəticəsində müəyyənləşdirilmişdir ki, *Hordeum* L. – Arpa fəsiləsinin sistematik tərkibində ciddi dəyişikliklər aparılmış və bir çox növlər sinonim kimi verilmişdir. Muxtar respublika ərazisində yayılan Arpa cinsi bitkiləri 2 yarımcins, 3 seksiya və 10 növlə təmsil olunur. Cinsin yabanı növləri əsasən arandan yuxarı dağ qurşağınadək quraq yamaclarda, qumluqlarda, yol kənarlarında, mədəni bitkilər arasında alaq bitkisi kimi yayılmışdır.

İkicərgəli arpa və Adi (çoxcərgəli) arpa növləri isə mədəni florada əkin sahələrində qiymətli yem və taxıl bitkisi kimi becərilir.

ƏDƏBİYYAT

1. Əsgərov A.M. Azərbaycanın bitki aləmi (Ali bitkilər - Embryophyta). Bakı: TEAS Press Nəşriyyat evi, 2016, 443 s.
2. Qurbanov E.M. Ali bitkilərin sistematikası. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 429 s.
3. Tariyel Talıbov, Əliyar İbrahimov, Ənvər İbrahimov. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər) (II nəşr). 2021, 426 s.
4. Гроссгейм А.А. Флора Кавказа. Баку: Изд-во Аз.фил. АН СССР, 1945, Т. II, изд. 2, с. 328
5. Конспект флоры Кавказа. Том2. М.; СПБ.: Товарищество научных изданий КМК. 2012.623с.
6. Флора Азербайджана. Баку: Изд. АН Азерб. ССР, 1952, Том II. 350 с.

SUMMARY

Aysel Yusifova

TAXONOMY AND BIOLOGICAL CHARACTERISTICS OF THE GENRE HORDEUM L. – BARLEY IN THE FLORA OF T HE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC.

The article provides information about the biological characteristics and taxonomic composition of the genus Hordeum L. - Barley in the flora of the Nakhchivan Autonomous Republic. Varieties of the barley genus, distributed throughout the autonomous republic, are distributed as weeds on arid slopes, dunes, roadsides and in cultivated plants from the low-altitude belt to the peaks. According to research and literature, it has been established that plants of the genus Barley are represented in the local flora by 2 subgenera, 3 sections and 10 species.

Key words: *Nakhchivan AR, Hordeum L., genus, species, taxonomic spectrum.*

РЕЗЮМЕ

Айсель Юсифова

ТАКСОНОМИЯ И БИОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ЖАНРА HORDEUM L. – ЯЧМЕНЬ ВО ФЛОРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье приведены сведения о биологических особенностях и таксономическом составе рода Hordeum L. - Ячмень во флоре Нахчыванской Автономной Республики. Разновидности рода ячменя, распространенные по всей автономной республике, распространены в виде сорных растений на засушливых склонах, дюнах, обочинах дорог и в культурных растениях

от низкогорного пояса до вершин. По данным исследований и литературы установлено, что растения рода Ячмень представлены в местной флоре 2 подродами, 3 секциями и 10 видами.

Ключевые слова: *Нахчыванской АР, Hordeum L., род, вид, таксономический спектр.*

CEYRAN HÜSEYNOVA
huseynovaceyran763@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 009-0006-6022-4366

LANTANOİDLƏRİN TƏDQİQİ VƏ KƏŞFİ TARİXLƏRİ HAQQINDA

Məqalədə lantanoidlərin fiziki xassələri,yayıldığı yerlər qeyd olunur.Xüsusi ilədə ittirium elementinin kəşfi və yaranma tarixindən bəhs edilir.Yüngül lantanoidlər və ağır lantanoidlərin hansı elektronlardan tamamlanması,lantanoidlər sırasında atom radiusu,kənaraçıxmanın müşahidə olunduğu elementlər qeyd olunub.Lantanoidlərin tərkibində olan minerallar və onların fiziki xassələri qeyd olunub.

Açar sözlər: *Lantanoidlər,mineral,sıxlaşma,aktinoid*

Ali məktəblərdə kimya fənlərinin tədrisi prosesində müvafiq dərsliklərdə öz əksini tapmayan hadisələr, tədqiqatlar haqqında fənn müəllimləri tərəfindən yığcam məlumatlar verilməsi tələbələrin keçilən fənnə olan marağının artırılmasına, dünyagörüşünün yüksəldilməsinə,yorğunluğunun aradan qaldırılmasına xidmət edir. Qeyri-üzvi kimya fənnində lantanoidlər mövzusu keçilərkən bəzi düşündürücü məqamlara (lantanoid sıxlaşması, onun izləri, eyni nadir tapılan mineralda 7 yeni lantanoidlər sırası elementinin mövcudluğu, elementlərin adlandırılmasında yeniliklər və s.) diqqət yetirilməsi və aydınlıq gətirilməsi vacib hesab edilmişdir.

Məlumdur ki, 14 kimyəvi elementdən ibarət olan lantanoidlər III əlavə yarımqrupdakı La (lantan) xanasında yerləşmişlər. Bu yarımqrup yeganə əlavə yarımqrupdur ki, nüvə yükünün artması ilə fəallıq yüksəlir. Baxılan skandium yarımqrupu elementləri də daxil olmaqla (aktiniumdan başqa) lantanoidləri (lantan xanasında yerləşən elementlər), xassələrindəki böyük oxşarlığa görə bəzən daha ümumi ad altında nadir torpaq elementləri (NTE), yaxud nadir torpaq metalları (NTM) adlandırırlar. Bu ad onlara nadir tapılan eyni minerallarda rast gəlindiyinə görə verilmişdir. Burada skandium (Sc) bir qədər müstəsnalıq təşkil edir. Lantanoidləri bəzən ümumi simvolla (Ln) işarə edirlər (1,s. 267-271).

Adətən skandium minerallarında başqa nadir torpaq elementlərinə rast gəlinmir, lantanoid minerallarında isə skandium mövcud olmur:

1. $ScPO_4 \cdot 2H_2O$ - sterettit
2. $Sc_2Si_2O_7$ - tortveytit
3. (La, Ce…) CO_3F - bastnezit
4. (Y, La) PO_4 - ksenotim

Bütövlükdə skandium xassələrinə görə alüminiuma daha çox oxşayır.

E_2O_3 oksidləri ağ, kristal maddələrdir, su ilə reaksiyaya girib əsaslar əmələ gətirirlər. Onlar əsaslar, karbonat və oksalatların termiki parçalanmasından alına bilir; $La(OH)_3$ kifayət qədər qüvvətli əsasdır, havadan CO_2 udub karbonata çevrilir:

1. $E_2O_3 + 3H_2O = 2E(OH)_3$
2. $E_2(CO_3)_3 = E_2O_3 + 3CO_2$
3. $2E(OH)_3 = E_2O_3 + 3H_2O$
4. $2La(OH)_3 + 3CO_2 = La_2(CO_3)_3 + 3H_2O$

Aydındır ki, nəzərdən keçirilən lantanoidlər 4f – elementlərə, aktinoidlər isə 5f -elementlərə aiddir. Bu 2 sıranın hər biri 14 elementi əhatə edir. Xassələrindəki kimyəvi oxşarlığa əsasən və nüvə yükünün artma qanunauyğunluqları nəzərə alınmaqla La və Ac d' elementlər ilə yanaşı müvafiq f – elementlərin, yəni lantanoid və aktinoidlərin də formal olaraq başlanğıcını təşkil edir(2,s. 431-437).

Lantanoidlərdə f – yarımsəviyyə nüvəyə daha yaxın olduğundan onlarda elektron sayı xassələrə çox az təsir edir. Lantanoidlərə eyni minerallarda rast gəlinməsi məhz bununla bağlıdır. f – yarımsəviyyənin elektronlarla tamamlanma xarakterinə görə lantanoidləri 2 yarımailəyə bölürlər.

1. Yüngül lantanoidlər (Ce y/ailəsi)

2. Ağır lantanoidlər (Tb y/ailəsi)

Yüngül lantanoidlər 4f – yarımsəviyyənin tək elekronlarla, ağır lantanoidlər isə cüt elektronlarla tamamlanmasına uyğundur.

Lantanoidlər və aktinoidlərdə f – yarımsəviyyənin elektronlarla tamamlanma xarakterinə görə 2 yarımailəyə bölünmə daxili dövrilik adlanır.

Qeyd edək ki, lantanoidlər sırasında elementlərin atom radiusu sıra nömrəsindən asılı olaraq, monoton dəyişmir. 63-cu element Eu və 70-ci element Yb-da böyük kənara çıxma (artım) müşahidə olunur. Həmin kənara çıxma nəzərə alınmadıqda Ce-Lu sırasında nüvə yükünün artması ilə atom radiusu 1,82-1,75 A° arasında dəyişir, yəni azalır. Bu azalma **lantanoid sıxlaşması** adlanır və dövri sistemdə müəyyən anomaliyalar əmələ gəlməsinə səbəb olur.

Yer qabığında lantanoidlər çox səpələnmiş haldadır və tərkibində lantanoid olan 250-dən artıq mineral məlumdur. Sıra nömrəsi cüt olan lantanoidlər tək rəqəmlilərə nisbətən daha geniş yayılmışdır. Prometium radioaktiv lantanoiddir. Lantanoidlər əsasən gümüşü-ağ, ərimə temperaturu 800-1300^{o}C olan plastik metallardır. Ce-Lu sırasında ərimə, qaynama temperaturu, sıxlıqlarının dəyişməsində daxili dövrilik vardır.

Lantanoidlərin yer qabığında yayılması, əsas mineralları, səciyyəvi xüsusiyyətlərinə diqqət yetirdikdən sonra onlardan bəzilərinin, xüsusən ittriumun kəşfi və tədqiqi tarixlərinin maraqlı məqamlarını nəzərdən keçirək. Baltik dənizindəki çoxsaylı adalardan biri olan və Ruslagen adlanan yaşayış məskəni onunla məşhurlaşıb ki, buradakı İtterbyu şəhərciyinin adı, özündə lantanoidlər ailəsinin 4 kimyəvi elementinin adlarını (ittrium, itterbium, terbium, erbium) özündə birləşdirir. 1787-ci ildə İsveç ordusunun leytenantı, mineralogiya üzrə həvəskar Karl Arrenius buradakı köhnə karxanada parlaq qara rəngli mineral tapmış və bu minerala itterbit adı qoyulmuşdur. Bundan 130 il sonra Finlandiya mineroloqu Fliut göstərmişdir ki, tapılan mineral qeyri-üzvi kimya tarixində böyük rola malikdir. Şübhəsizdir ki,tərkibində 7 yeni kimyəvi elementin olduğu mineralın mövcudluğu qeyri-adi hadisədir. Bu mineralın və ittrium oksidin ilk ciddi tədqiqatcısı finlandiya kimyaçısı Yuxan Qadolin (1760-1852) olmuşdur. O, itterbiti analiz edərək onun tərkibində Fe, Ca, Mg, Si oksidlərinin, həmçinin 38% miqdarında naməlum element oksidlərinin mövcudluğunu müəyyən etdi. Üç ildən sonra İsveç alimi Ekeberq Finlandiya aliminin nəticələrini təsdiq etdi, bununla da "ittrium torpağı" ifadəsi qəbul olundu. Sonradan, hələ Yuxan Qadolinin sağlığında kəşf edilən element ittrium adlandırıldı, itterbyu şəhərciyindən tapılan mineralın isə adı dəyişdirilərək qadolinit qoyuldu.

1879-cu ildə ittrium oksiddən əlavə olaraq 3 elementi (itterbium,tulium, skandium), 1907-ci ildə isə lütesiumu ayırmaq mümkün oldu.

Bu, kimya elmi tarixində yeganə hadisədir ki, eyni bir nadir mineral 7 yeni kimyəvi elementin daşıyıcısı rolunda çıxış etmişdir (3, s. 483-491).

Qeyd edək ki, "ittrium torpağından" (ittrium oksid) 7 lantanoidin (ittrium, itterbium, terbium, erbium, tulium, lütesium, skandium) alınmasına 100 il vaxt sərf etmək lazım gəlmişdir.

ƏDƏBİYYAT

1. İlyaslı T.M., Seyfullayeva J.M. Elementlər kimyası. Dərslik. Bakı: BDU nəşriyyatı, 2004, 384 s.
2. Qarayev Z.Ş. Qeyri-üzvi kimya. Dərslik. Bakı: Maarif, 440 s.
3. Популярная библиотека химических элементов.Книга первая. М.: Наука, 1977, 567 с.

SUMMARY

Jeyran Huseynova

ON THE RESEARCH AND DISCOVERY HISTORY OF THE LANTHANOIDES

The article mentions the physical properties of lanthanides and their distribution. In particular, the history of the discovery and creation of the element yttrium is mentioned.Light lanthanoids and heavy lanthanoids are filled with electrons, the atomic radius of lanthanoids, and the elements where deviation is observed are mentioned.The minerals contained in the lanthanoids and their physical properties are mentioned.

Key words: *Lanthanoids, mineral, condensation, actinoid*

COŞQUN ELMANOĞLU
cosqunelmanoglu1@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-7403-391X

İNƏKLƏRDƏ QISIRLIQ

Bu məqalədə ədəbiyyat məlumatlarına əsaslanaraq "inəklərdə qısırlıq problemini" araşdıracağıq. Məqalədə qısırlığın tərifini verdik və onun iqtisadi əhəmiyyətini qısaca izah etdik, sonra inəklərin cinsi fiziologiyasını ətraflı izah etməyə çalışdıq. Qısırlığın formaları və onları əmələ gətirən səbəblər barədə qısa məlumat verdik. Daha sonra qısırlığa səbəb olan genital travmalar və funksional pozğunluqlar haqqında məlumat verdik. Məqalədə inəklərdə qısırlığın müasir müalicə üsullarını da izah etdik.

Açar sözlər: *qısırlıq, inək, cinsi fəaliyyət, balavermə, müalicə*

Kənd təsərrüfatı iqtisadiyyatda mühüm yer tutur, heyvandarlıq isə kənd təsərrüfatının əsas sahəsidir. Heyvandarlıq müxtəlif sahələrlə təmsil olunur. Bu sahələrdən biri də maldarlıqdır. Maldarlıq isə respublikanın ərzaq kompleksində aparıcı yerlərdən birini tutur. Bu sektorda alimlərin daim diqqətini çəkən problemlərdən biri, mal-qaranın qısırlığıdır. Qısa müddət ərzində belə qısırlıq geniş mənada heyvandarlıq müəssisələri üçün böyük iqtisadi itkilərə səbəb olur. Qısırlıq problemi heyvandarlıqla məşğul olan hər kəsi, eyni zamanda baytar həkimlərini yaxından maraqlandıran məsələdir. Bu problem ölkəmizdə də olduqca aktualdır. İnəklərdə qısırlığın formaları müxtəlifdir, bu məqalədə biz, onları qısaca araşdırmağa çalışmışıq.

Qısırlıq heyvanların nəsil artıra bilməməsinə verilən addır. Qısırlıq cinsiyyət orqanlarının travmaları, xəstəlikləri və anomaliyalarının əhəmiyyətli bir əlamətidir. O, ya congenital (anadangəlmə) və ya aequise (qazanılmış), daimi və ya müvəqqəti ola bilər. Heyvanlarda hər hansısa bir çoxalma pozğunluğu nəticəsində qısırlıq baş verir. Qısır heyvanda qısırlığın səbəblərini aradan qaldırmaqla heyvanın balavermə məhsuldarlığına nail olmaq olar. Bəzən qısırlığın səbəblərini aradan qaldırmaq mümkün olmur, belə heyvanlar heç vaxt bala verə bilmirlər. (Abdullayev Ə.V., 2020, 24-26)

Bu sahədə tədqiqatlar aparan alimlər qısırlığı bir neçə təsnifata ayırırlar ki, onlardan biri də professor A.P. Studentsovdur. A. P. Studentsov heyvanların qısırlığını 7 təsnifata ayırır. Bu təsnifatlar aşağıdakılardır:

1. Anadangəlmə - (doğulmuş heyvanın) qısırlıq.
2. Alimentar qısırlıq.
3. Klimatik qısırlıq.
4. Ekspluatasion (istismar) qısırlıq.
5. Simptomatik qısırlıq.
6. Süni qısırlıq.
7. Qocalıqla əlaqədar olan qısırlıq.

Aparılan tədqiqatlar zamanı qısırlığın bu təsnifatlarından bir neçəsinə rast gəlinmişdir. (Rzayev Ç. və Səidov M., 1975, 195)

Material və metodlar

Məqalənin tərtibi zamanı ədəbiyyat mənbələrindən istifadə olunmuşdur. "Baytarlıq mamalığı, ginekologiyası və kənd təsərrüfatı heyvanlarının suni mayalanması" (Ç.Rzayev, M.Seyidov, 1975), "Kənd təsərrüfatı heyvanlarında süni mayalanmanın texnologiyası və təşkili" (F.N.Nəsibov, Ə.Q.Əhmədov, L.E.Verdiyeva, 2014), "Naxçıvan Muxtar Respublikası şəraitində inəklərin süni mayalandırılmasında səmərəliliyin artırılması yolları" (Ə. Tahirov, T. Hüeynova, 2022), "Naxçıvan Muxtar Respublikasında damazlıq heyvandarlığın inkişafının əsasları" (Ə.V.Abdullayev, 2020). Eyni

zamanda məqlənin tərtibində, magistr dissertasiyasının yazılması üçün apardığım tədqiqatlar zamanı əldə edilmiş bəzi məlumatlar qeyd edilmişdir.

Qısırlığı araşdırmağa başlamazdan əvvəl cinsi fəaliyyətin fiziologiyasına qısaca toxunmağın faydalı olacağına inanıram. Cinsiyyət orqanları tam formalaşmış dişi buzov cinsi yetişkənliyə çatdıqda, cinsi aktivlik göstərməyə başlayır. Dişi heyvanın cinsi yetkinlik yaşına çatmasına iqlim (günəşin ultrabənövşəyi şüaları), temperatur, qidalanma kimi xarici faktorlar, cinsdən asılı olaraq, daha çox cinsi aktivlik və erkən yetkinlik kimi genetik faktorlar təsir edir. Bu amillərin təsiri ilə dişi buzovlar 9-15 aylıqdan başlayaraq cinsi yetkinlik göstərməyə başlayır. Bu dövrdə cinsiyyət vəziləri hipofizin ön hissəsinin təsiri ilə aktivləşir və cinsi dövrlər başlayır.

Cinsi yetkinlik neyrohumoral hadisədir və mərkəzi sinir sistemi, hipofiz vəzinin ön payı, neyro-vegetativ sistem və yumurtalıqlar arasında ahəngdar iş prinsipi əsasında yaranır. Mərkəzi sinir sistemi ilə hipofiz vəzinin ön payı arasındakı əlaqələr hipotalamus vasitəsilə baş verir. Hipotalamik mərkəzin həyəcanlanması ilə hipofiz vəzinin ön payı follikul sitimullaşdırıcı hormon (F.S.H.) ifraz edir. Bu hormon proestrus mərhələsində qraaf qovuqcuğunun və oositlərin inkişafını təmin edir. İnkişaf edən follikullarda estrogen hormonu var və bu hormon dişi heyvanda estrus (qızğınlıq) əmələ gətirir. Estrusun sonuna doğru yüksək səviyyəyə çatan estrogen hormonu F.S.H-nun ifrazını zəiflədir. Hipofizin ön payın luteinləşdirici hormon (LH) istehsal edir. LH və FSH-nun birgə təsirindən yaranan daxili təzyiq, yetişmiş follikulun partlamasına səbəb olur. Bu proses ovulyasiya adlanır. Ovulyasiyadan sonra partlamış yumurta hüceyrənin yerində sarı cisim əmələ gəlir. Sarı cisimdə yaranan progesteron müəyyən səviyyəyə çatdıqda L.H ifrazına maneə törədir və hipofizin ön payı yenidən F.S.H ifraz edərək yeni cinsi dövrün başlanmasına səbəb olur ki, bu da inəklərdə orta hesabla iki gün davam edir. Əgər döllənmə baş veribsə və boğazlıq başlayıbsa, ziqot endometriumda yerləşdikdə plasentanın rudimenti əmələ gəlir və o, LH-a oxşar hormon ifraz etməyə başlayır. Plasenta tərəfindən ifraz olunan LH progesteronun inhibe etdiyi hipofiz vəzinin LH-nu əvəz edir və sarı cismin boğazlığın sonuna qədər yumurtalıqda qalmasını təmin edir. Yuxarıda izah edilən fizioloji proseslər normaldırsa və inəkdə boğazlıq baş verərsə, o, orta hesabla 9 aydan sonra bala verəcək. Təcrübədə inəkdə üç dəfə mayalanmaya və ya cütləşməyə baxmayaraq, boğazlıq olmazsa, o, qısır hesab olunur. (Tahirov Ə. və Hüseynova T., 2022, 14-20)

Qısırlığın baş verməsinə müxtəlif amillər səbəb ola bilər. Lakin onlardan ən başlıcası saxlama və yemləmə şəraitinin pis olmasıdır. Heyvanların pis şəraitdə: qaranlıq, rütubətli, darısqal, sahəsi kiçik, havası az dəyişən binalarda saxlanması, dişilərin daim boğanaq, su buxarları və çoxlu miqdarda zərərli qazlar (amonyak, hidrogen – sulfid, karbon qazı və s.) olan binalarda pis şəraitdə qalması, heyvanların tez-tez açıq havada gəzdirilməməsi, dəriyə və yelinə yaxşı qulluq edilməməsi, dişi orqanizminin ümumi tonusuna və cinsiyyət fəaliyyətinə pis təsir edir. (Nəsibov F.N. və b., 2014, 162-169)

Qısırlıq aşkar olunan inəklərdə balalığın və yumurtalıqların hipofunksiyası zamanı heyvan uzun müddət hövrə gəlmədikdə, persistent (davamlı) sarı cisim aşkara çıxarıldıqda balalıq və yumurtalıqlar düz bağırsaqdan masaj edilir. Boyun nahiyəsinin dərisi altına toxuma stimulyatorları (biostimulgin) yeridirlər, biostimulgin ilə müalicə kursu bazunun üçbaşlı əzələsi nahiyəsində dəri altına 8-12 günlük fasilə ilə, hər dəfə də 15-25 ml dozada 2-3 dərialtı inyeksiyadan ibarətdir.

Qısır inəklərdə və düyələrdə cinsiyyət həvəsini fəallaşdırmaq üçün qonadotrop təsirli boğaz madyan zərdabından, boğaz madyan qanından, qravohormondan, estrogen təsirli sinestroldan və follikulindən istifadə edilir. Qonadotrop təsirli preparatların tətbiqinin faydalılığını artırmaq üçün onu heyvana ancaq təbii ovulyasiyadan 3-4 gün əvvəl vurmaq lazımdır. Belə olduqda boğaz madyan zərdabı vurulduqdan 2-4 gün sonra heyvanda çərə axıtma və həvəsin ilk nişanələri başlayırsa orqanizmə vurulmuş qonadotropin bir neçə follikulanın yetişməsini və bununlada yumurtalıqlarda bir neçə yetişmiş yumurtanın olmasını təmin edə bilir. Deməli boğaz madyan zərdabı qonadotropini follikulalara ancaq onun yetişməsinin son fazasında fəallaşdırıcı təsir göstərə bilir. Boğaz madyan zərdabı və boğaz madyan qanı qonadotropininin təsiri vurulduqdan 36-48 saat sonra 6 gün davam etdiyi üçün mayalanmanın onların heyvana vurulmasının məhz 2-6-cı günləri aparmaq məsləhətdir. (Rzayev Ç. və Səidov M., 1975, 197-199)

Qısırlığın müalicəsidə bir sıra yeni hormonal preparatların və vitmin komplekslərinin tətiqi də yaxşı effekt verir. Mülicə üçün sulfagen, estrogen, tetravit, vetastrol və ovostim preparatlrının istifadəsi məqsədəuyğundur. Mülicə kompleks şəkildə aparılmalıdır. Bu məqsədlə qısır heyvana birinci gün 5 ml sulfagen, 15 ml tetravit əzələ daxilinə inyeksiya olunur. Yeddinci gün 5 ml estrogen, doqquzuncu gün isə yenidən 5 ml sulfagen əzələ daxilinə vurulur. Mülicə zamanı əzələ dxilinə 5 ml vetastrol vurulması da yaxşı effekt verir. Bu mülicə kursu on gün davam etdirilir. Axırıncı inyeksiyadan 3 gün sonra hövrəgəlmə baş verir. Əgər hövrəgəlmə baş verməzsə mülicə kursu on gündən sonra yenidən təkrar olunur.

Bundan başqa, hövrə gəlməyən inəklərdə ovostim preparatından istifadə də yaxşı effekt verir. Ovarium (yumurtalıq) aktivliyini və çoxalma fəaliyyətini yaxşılaşdırmaq məqsədilə ovostim doğumdan 30 gün sonra, 100 kq diri çəkiyə 3,5-7 ml dərialtı və ya əzələ daxili tətbiq edilir.

Nəticə

Yuxarıda göstərilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, inəklərin yemlənməsini və saxlanmasını yaxşılaşdırmaqla qısırlığı xeyli dərəcədə azaltmaq olar. Bundan başqa inəklərdə bir sıra vitamin və hormonal preparatların tətbiqi ilə qısırlığı aradan qaldırmaq mümkündür. Qısırlıq iqtisadi cəhətdən təsərrüfatlara böyük ziyan vurur. Buna görə də qısırlığın baş verməməsi üçün bir sıra profilaktiki tədbirlər görülməlidir və heyvanlara qulluq düzgün təşkil olunmalıdır.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.V. Naxçıvan Muxtar Respublikasında damazlıq heyvandarlığın inkişafının əsasları. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2020, 132 s.
2. Nəsibov F.N., Əhmədov Ə.Q., Verdiyeva L.E. Kənd təsərrüfatı heyvanlarında süni mayalanmanın texnologiyası və təşili. Dərslik. Bakı: Elm və Təhsil, 2014, 184 s.
3. Rzayev Ç., Səidov M. Baytarlıq mamalığı, ginekologiyası və kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması. Bakı: "Maarif" nəşriyyatı, 1975, 303 s.
4. Tahirov Ə., Hüseynova T. Naxçıvan Muxtar Respublikası şəraitində inəklərin süni mayalandırılmasında səmərəliliyin artırılması yolları. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2022, 96 s.

SUMMARY

Coshgun Elmanoglu

INFERTILITY IN COWS

In this article, we will investigate the "infertility problem in cows" based on literary knowledge. In the article, we defined infertility and briefly explained its economic importance, then we tried to explain in detail the sexual physiology of cows. We have given detailed information about the forms of infertility and the reasons that cause them. Then, we gave information about genital traumas and functional disorders that cause infertility. In the article, we also explained modern treatment methods for infertility in cows.

Key words: *infertility, cows, sexual activity, ovulation, treatment.*

RÜBABƏ ƏLİYEVA
rubabealiyevaa@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-9265-3475

NAXÇIVAN MUXTAR RESPUBLİKASI FAUNASINDA YAYILAN *COCCINELLA UNDECIMPUNCTATA* L.-11-NÖQTƏLI PARABÜZƏN ENTOMOFAQININ BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Parabüzənlər Coccinellidae fəsiləsinin dünyada 4200 növü vardır. Qafqazda isə 98 növü məlumdur. Bunlardan da 53 növü Azərbaycanda qeydə alınmışdır. Aparılan analitik təhlillərin və müşahidələrin nəticəsində, 11 nöqtəli parabüzənin müxtəlif populyasiyasında bir çox spesifik cəhətləri aşkar edilmişdir. Belə ki, müəyyən iqlim şəraitində yarpaqyeyən böcəklərin və mənənələrin, həm də rütubət zamanı parabüzənlərin hərəkətləri xeyli məhdudlaşdırma zərurətində qalırlar ki, onlar çoxlu enerji sərf etməsinlər. Qış və yay sükunət dövrləri arasında bir oxşarlıq da müşahidə edilmişdir.

Parabüzənlərdə digər həşəratlarda olduğu kimi kannibalizm müşahidə edilir. Belə ki, ana fərd ac qaldığı zaman qoyduğu yumurtalarını yeyərək öz tələbatını ödəyir. Bundan başqa kannibalizm parabüzən sürfələrində özünü daha intensiv göstərir. Bu zaman yumurtadan yenicə çıxan sürfələr ətrafda olan yumurta koloniyasını həvəslə yeməyə başlayırlar, tələbatlar ödəndikdən sonra mənənə ovuna çıxırlar.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində bu böcəklər əsasən düzənlik zonalarda Arazboyu düzənlikdə və ən çox su hövzələrinə yaxın yerlərdə daha çox yayılıblar. Dağlıq və dağətəyi sahələrdə yayılanların rəngləri tünd və fərdlərin sayları az olur. Aran zonalarında isə ranglər nisbətən açıq qırmızı olmaqla fərdlərin sayı da çox olur. Çünki aran zonada yayılmış növlərin nəsilvermə və yumurtaqoyma qabiliyyəti artır. Bunun səbəbi temperaturun yüksək olması, qida bolluğu və nəhayət günəş radiasiyasının çox olması ilə əlaqədardır. Təsərrüfat əhəmiyyətli növdür.

Açar sözlər: *Fauna, entomofaq, çəyirdəkli meyvə bitkiləri, Coccinella undecimpunctata*

Giriş

Parabüzənlər *Coccinellidae* fəsiləsinin dünyada 4200 növü vardır. MDB-də 200-dən artıq, Qafqazda isə 98 növü məlumdur. Bunlardan da 53 növü Azərbaycanda qeydə alınmışdır. Bədənin uzunluğu 2-18 mm-dir. Bədəni qabarıq, dəyirmi və ya ovaldır. Rəngi parlaqdır, işıqlı fonda tünd xallar və ya əksinə, yaxşı nəzərə çarpır. Bığcıqları gödək olub, gözlərin altına birləşmişdir.

Pəncələri dörd buğumludur. Parabüzənlərin böyük əksəriyyətinin böcəkləri və sürfələri yırtıcı olub, təbiətdə kənd təsərrüfatında ciddi ziyanvericilər kimi tanınan mənənələri, psillidləri və s. məhv etməklə böyük fayda vermiş olurlar. Ziyankar taxtabitilərin, cırcıramaların, tor gənəciklərinin, pulcuqqanadlıların və s. yumurtalarını və erkən yaşlı sürfələrini yeməsi halları da qeydə alınmışdır. Ancaq bitkiyeyən olan bəzi parabüzən növləri kənd təsərrüfatı bitkilərin az da olsa, ziyan vurur (Qasımov A.Q., 2008).

Qafqazda məlum olan növlərin yarıya qədəri bütün Palearktikada geniş yayılmışdır. 16 növ aralıq dənizi mənşəli, 10 növ isə Qafqaz endemikidir.

Onlar, adətən, tünd və ya boz-yaşıl rəngdə, sarı və ya qırmızı naxışlı olurlar. Bir çox növlərin bədənində olan müxtəlif artımlar sürfələrə qəribə görkəm verir. Bəzi növlərin sürfələri, unlu qurdlar kimi özlərini mum qapaqla örtürlər. Parabüzənlərin məhsuldarlığı yeyən qidanın keyfiyyəti və miqdarından birbaşa asılıdır, yəni yeyilən qida nə qədər çox olarsa, qoyulan yumurtaların sayı da o qədər çox olar. Orta hesabla hər dişi fərd 200-400, bəzən də 1550 yumurta qoyur. Sürfələri tez inkişaf

edir. Tez bir zamanda puplaşırlar. Puplar bədənin arxa hissəsi ilə yarpağın alt səthinə yapışaraq başıaşağı asılırlar.

Material və metodlar

Materialların toplanılması və işlənilməsi 2022-2023-cü illərdə Naxçıvan MR-in əksər rayonlarında çöl və laboratoriya şəraitində həyata keçirilmişdir. Stasionar məntəqələr kimi Ordubad, Şahbuz, Şərur rayonlarının ərazilərində və Naxçıvan şəhəri ətrafında olan çəyirdəkli meyvə bağları seçilmişdir. Materialların təyinində müasir təyinedici ədəbiyyatlardan istifadə edilmişdir. Fəsilə, cins və növlərin yerləşmə qaydası, onların adlandırılması müasir sistematik qaydalara görə aparılmışdır. Nümunələrdə zərərverici həşəratların rastgəlmə tezliyinin və miqdarının müəyyən edilməsi üçün D.V.Panfilovun metodikasından istifadə edilmişdir. Bu metodikanın mahiyyəti ondan ibarətdir ki, əldə edilən müəyyən növün təkcə fərdlərinin sayı deyil, həmçinin onların toplanıldığı məntəqələrin sayı da nəzərə alınmalıdır (Panfilov D.V., 1957). Nadir növ hər hansı səbəbdən çoxsaylı kütləvi toplanmalar zamanı müxtəlif məntəqələrdən müntəzəm olaraq kolleksiyaya daxil olur. Buna görə də belə hallarda rastgəlmə indeksi kolleksiyada fərdlərin miqdarının toplanma məntəqələrin sayına hasili kimi verilir.

Müzakirə

Parabüzənlərin pupları–qəhvəyi-narıncı rəngdə olub, üzərində müəyyən ləkələr görünür. Pupun qabığı digər həşəratların qabıqlarından möhkəm olur. Böcək baramadan çıxdıqda pup özünəməxsus formada açılır. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yeddi nöqtəli parabüzənin inkişaf tsiklinə, çoxalmasına, inkişaf tsiklinin ayrı-ayrı mərhələlərinə, miqdarına və s. digər fizioloji proseslərin intensivliyinə temperaturun və yem faktorunun böyük təsirinin olduğu təsdiqlənmişdir. Temperaturun yüksəlməsi ilə əlaqıdar olaraq embriogenezin ayrı-ayrı mərhələlərinin inkişafı surətlənir. Lakin bu qanunauyğunluq müəyyən çərçivə daxilində özünü doğruldur. Bu çərçivədən kənarlaşdıqda qanunauyğunluq baş vermir.

Temperatur amili böcəklərin reproduktiv dövrünə və ♀ fərdlərin qoyduğu yumurtaların miqdarına təsir edir. Amma inkişaf tsiklinə başqa xarakter göstərir. Temperaturun 15-25ºC arasında təsiri zamanı çoxalma dövrü 3,14±1,75–12,03±2,17 gün müddətində baş verdiyi halda hərarətin 25º C-dən yuxarıda isə bu dövrü qısalmağa gedir və 10,13±3,04–6,01±1,18 arasında (26° və 31ºC-də) dəyişir. 30ºC-dən yuxarı temperatur böcəklərin inkişafına mənfi təsir göstərdiyi qeyd edilmişdir. O, şəraitdə yumurtaların demək olar ki, 97-98%-i məhv olur. Yumurtadan çıxan sürfələr isə inkişaflarını davam etdirə bilməyərək məhv olurlar (Əliyeva A.R., 2010).

Parabüzənlərdə digər həşəratlarda olduğu kimi kannibalizm müşahidə edilir. Belə ki, ana fərd ac qaldığı zaman qoyduğu yumurtalarını yeyərək öz tələbatını ödəyir. Bundan başqa, kannibalizm parabüzən sürfələrində özünü daha intensiv göstərir. Bu zaman yumurtadan yenicə çıxan sürfələr ətrafda olan yumurta koloniyasını həvəslə yeməyə başlayırlar, tələbatlar ödəndikdən sonra mənənə ovuna çıxırlar. Onu da qeyd etmək lazımdır ki, parabüzən sürfələri bütün yaş mərhələlərində yem çatışmazlığı zamanı yumurtaları və eyni zamanda yenicə çıxmış kiçik sürfələri yeyirlər.

Qanadüstlüyü tünd sarıdır, hər tərəfdə 5 ədəd bir-birindən fərqlənən qara nöqtələr var, başında isə bir nöqtə və buğumlu bığcığı yerləşir. Sarıayaq və göyümtül zəlicə yarpaqyeyən böcəklərinin sürfələri ilə qidalanır. Hər bir sürfə parabüzənin gün ərzində 12-18, yaşlı fərd isə 30-35 yarpaqyeyən sürfəsi ilə qidalanır. Kütləvi halda çoxaldıqda onların sayını 40-45 % aşağı salır.



Şəkli. *Coccinella undecimpunctata* L. - 11-nöqtəli parabüzən

Naxçıvan MR-in bütün təbii rayonlarında, həm də müxtəlif ekoloji şəraitdə əksər biotop və biosenozlarda yayılan bir neçə növ zərərverici ilə qidalanma xüsusiyyətinə malikdir. Yırtıcı parabüzən, yarpaqyeyən böcəklərlə yanaşı mənənələri, yastıcaları, tripsləri, fitonomusları da məhv edir (Aliev A.A., Mamedov Z.M., 1975).

Bu böcəklərin qışlama yerləri və şəraiti xüsusi maraq doğurur. 2022-2023-cü illərdə aparılan tədqiqatlardan aydın olmuşdur ki, zonanın Ordubad rayonu ətrafındakı, qidalandıqları yerlərə yaxın olan təpəliklərin zirvəsində dekabr-mart aylarında qaratikan kollarının aşağı ətraflarındakı zoğları üzərində qışlayırlar, böyük bir sahədə minlərlə parabüzənin qışlaması heyrətləndirici bir mənzərə yaratmışdır. Bunlar bir-birinə o qədər sıx və müəyyən qayda ilə elə harmonik düzülmüşlər ki, qaratikan kolundan onları seçmək belə çətin idi. Əsas istiqamətləri yel çəkən istiqamətdə, quru otların və bükülmüş yabanı bitkilərin yarpaqları arasında olması bunların ifrazatının iyini asanlıqla təmizləyir. Hamısının başı qınında idi, hərəkətsiz dayanmışlar. Onlar oyandıqda yenə də bir-birinə sığınıb, sükünət halına qayıdırdılar. Bu qışlama yerinin aşağı hissələri, bütün görüş dairəsi olan düzənliklər, bütünlükdə bunların qidalandığı yarpaqyeyən böcəklərin əkin sahələri idi. Bölgənin rayonlarında eyni şərait olsa da, onların kütləvi qışlamasına rast gəlinmir. Burada onlar kiçik topalar (5-20 ədəd) və bəzən də tək-tək qışlayırlar. Çox az bir qisminin xəzəllərin altında qışlamasına rast gəlinir. Belə nəticəyə gəlmək olar ki, böcək sürfələri ilə qidalandıqları sahə qışlama yeri ətrafında nə qədər geniş olarsa, onların qış sığınacaqlarının da, sayı bir qədər çox olur (Aslan I., Warchalowski A., 2001).

Onlar qış sığınacaqlarına oktyabr ayının ikinci yarısında yığılırlar və mart sonunda başa çatır. Aprel ayının əvvəlindən tədricən qış sığınacağından qayıtmağa hazırlaşan 11 nöqtəli parabüzən böcəyinin bir hissəsi elə həmin sığınacaqda cütləşməyə başlayırlar.

Bunların yay sükunət halı keçirməsi dövrü də elm üçün xüsusi maraq doğurur. Başqa parabüzən növlərinin yay sükünət dövrünün ayrı-ayrı münasib, gizli, sakit yerlərdə keçirilməsi müşahidə olunur. Lakin 11nöqtəli parabüzənin yay sükunətinin kütləvi olaraq bir yerə toplaşmasını

Culfa və Ordubad rayonlarında kiçik bir sahədəki şüyüd bitkisinin çətirləri arasında isti yay günlərində sakit sükunət keçirmələri halı müşahidə edilmişdir. Bir illik (2022-2023) müşahidələr nəticəsində aydın olmuşdur ki, iyul ayının ikinci yarısından başlayaraq yay sükunət dövrü, bəzən yayın çox isti keçən illərində avqust ayının üçüncü ongünlüyünə qədər davam edir.

Əldə olunan nəticələr

Aparılan analitik təhlillərin və müşahidələrin nəticəsində, 11 nöqtəli parabüzənin müxtəlif populyasiyasında bir çox spesifik cəhətləri aşkar edilmişdir. Belə ki, müəyyən iqlim şəraitində yarpaqyeyən böcəklərin və mənənələrin, həm də rütubət zamanı parabüzənlərin hərəkətləri xeyli məhdudlaşdırma zərurətində qalırlar ki, onlar çoxlu enerji sərf etməsinlər. Qış və yay sükunət dövrləri arasında bir oxşarlıq da müşahidə edilmişdir. Laboratoriya şəraitində sükunət dövrü bəzi bu cinsdən olan növ parabüzən böcəklərin dişi fərdlərinin daxilində adi vəziyyətə nisbətən xeyli artıq piy qatı toplanır.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, Naxçıvan MR ərazisində bu böcəklər əsasən düzənlik zonalarda Arazboyu düzənlikdə və ən çox su hövzələrinə yaxın yerlərdə daha çox yayılıblar. Dağlıq və dağətəyi sahələrdə yayılanların rəngləri tünd və fərdlərin sayları az olur. Aran zonalarında isə rənglər nisbətən açıq qırmızı olmaqla fərdlərin sayı da çox olur. Çünki aran zonada yayılmış növlərin nəsilvermə və yumurtaqoyma qabiliyyəti artır. Bunun səbəbi temperaturun yüksək olması, qida bolluğu və nəhayət günəş radiasiyasının çox olması ilə əlaqədardır. Təsərrüfat əhəmiyyətli növdür.

ƏDƏBİYYAT

1. Əliyeva A.R. (2010), Meşə və meyvə ağaclarına zərərverən başlıca cücülərin sayının tənzimlənməsində entomofaqların rolu // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, biologiya elmləri seriyası, Naxçıvan: cild 6, № 4, s. 219-224.
2. Qasımov A.Q. (2008), Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarının əsas zərərvericiləri // Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri, Bakı: Elm, I cild. s. 271-275
3. Алиев А.А., Мамедов З.М. (1975), О биологических регуляторах основных вредителей плодовых культур в районах Малого Кавказа Азербайд-жана // Изв. АН Азерб. ССР, сер. биол. наук, Баку: №5, с. 96-100
4. Панфилов Д. В. (1957), Опыт реконструкции палеогеографии Северной Евразии в четвертичном периоде по материалам современной фауны шмелей // Труды 1-й сессии Всесоюзного палеонтологического общества 24-28 января г. М.: Госгеолтехиздат, с. 97-106.
5. Aslan I., Warchalowski A., (2001), New Records of the Subfamily Galerucinae (Coleoptera, Chrysomelidae) for the Turkish Fauna // Zool. Middle East, v. 16, p. 85-87

SUMMARY

Rubaba Aliyeva

BIOECOLOGICAL CHARACTERISTICS OF THE ELEVEN-SPOTTED LADYBIRD - *COCCINELLA UNDECIMPUNCTATA* L., AN ENTOMOPHAGE COMMON IN THE FAUNA OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Family of ladybird (*Coccinellidae*) has 4,200 species in the world. More than 98 species in the Caucasus, 53 species have been recorded in Azerbaijan. As a result of analytical analyzes and observations, many specific features have been identified in various populations of the 11-pointed parabus. Thus, in certain climatic conditions, the movement of leaf-eating insects and butterflies, as well as parabuzzards in humid conditions, must be significantly limited so that they do not waste too much energy. Similarities were also observed between the winter and summer dormant periods.

Ladybird, like other insects, exhibit cannibalism. So, when the mother is hungry, she satisfies her need by eating the eggs she lays. In addition, cannibalism is more intense in ladybird larvae. At this time, the newly hatched larvae begin to greedily eat the surrounding egg colony, and after fulfilling their requirements, they go hunting for food.

During the research, it was established that on the territory of the Nakhchivan Autonomous Republic, these insects are mainly distributed in lowland areas, on the Aras plain and mainly in places near water bodies. Common in mountainous and foothill areas, the color is dark, the number of individuals is small. In lowland areas the color is relatively bright red and the number of individuals is high. Because the reproductive and egg-laying capacity of species common in the lowland zone increases. This is due to high temperature, abundance of food and, finally, high solar radiation. Agriculture is an important activity.

Key words: *Fauna, entomophagous, fruit plants with seeds, Coccinella undecimpunctata*

MİNA ƏSGƏROVA
Naxçıvan Dövlət Universiteti
mina.esgerova@icloud.com
ORCİD İD: 0009-0009-3030-2281

QARACİYƏRİN HİDATİDİOZ EXİNOKOKKOZUNUN PUNKSİON- DRENAJ ÜSULLA CƏRRAHİ MÜALİCƏSİNİN NƏTİCƏLƏRİ

Qaraciyərin hidatidoz exinokokkozunun cərrahi müalicəsinin başarıqsız nəticələr verməsinin əsas səbəbi qaraciyərdə qalıq boşluğun irinləməsi, qanaxma və kiçik qaraciyər qovuqlarının qalması hesab edilir. Punksiya-drenaj müdaxilə zamanı bunun tezliyi 75,5% , laparatom müdaxilə zamanı isə 37,5% təşkil edir.

Xəstələrdə qaraciyərin hidatidoz exinokokkozunun cərrahi müalicəsinin nəticələri əməliyyatın hansı üsulla aparılmasından asılı olmaqla, bu üsulların hansının qəbul edilməsinin daha səmərəli olacağını müəyyən etməyi tələb edir.

Exinokokk qovuğunun formalaşmış boşluğuna drenaj quraşdırılmasının yeni üsulu, qovuğun içərisində olan tutumun boşaldılması və işlənilməsinə böyük imkanlar yaradır. Bu drenaj üsulu ilə paraziti tam şəkildə qovuqdan kənarlaşdırmaq, qovuq mayesinin qarın boşluğuna dağılmasının qarşısını almaq və əməliyyat müddətini qısaltmaq mümkündür.

Alqoritmin işlənilməsi bütün cərrahi üsulların müəyyən çərçivədə saxlanılmasına və bu üsulların tətbiq edilmə tezliyinin diaqnostik göstəricilərdən asılı olaraq, müəyyən olunmasına imkan verməklə, laparoskopik üsulun tezliyini 10,4%-dən 23,9%-dək artırır, punksiya-drenaj üsulun tətbiq tezliyini 32%-dən 11,9%-dək azaldır.

Qaraciyərin hidatidoz exinokokkozunda cərrahi müdaxilə üsulunun alqoritmlə seçilməsi punksiya-drenaj üsulla müalicədə yaxşı və qənaətbəxş müalicə nəticələrinin sayını 24,5%-dən 81%-ə kimi, laparatom müalicə zamanı isə 62,5%-dən 72,6%ə kimi artırmasına səbəb olur. Nisbi faydanın 78%, obsalyut faydanın 27,3% artması ilə nəticələnir.

Açar sözlər: *exinokokkoz, laparatomiya, laparoskopiya, punksion-drenaj, qovuq, qaraciyər, xəstəlik*

Giriş

Son illərdə qaraciyərin hidatioz exinokokkozunun profilaktikası və müalicəsində böyük naliyyətlər əldə olunmuşdur. Ancaq bu xəstəliyə yoluxma sayının artımı hələdə getdikcə çoxalmaqdadır.

ÜST və ÜEB-nun məlumatlarına görə hər il qaraciyərin hidatidiozlu exinokokkozuna yoluxmuş pasiyentlərin müalicəsinə 3 milyard ABŞ dolları xərclənir. Ona görə də bu xəstəliyə vaxtında diaqnoz qoyularaq, müalicə edilməsi hazırkı dövür də dünya elmi qarşısında həll edilməsi vacib hesab edilən məsələlərdəndir (Şanqareeva P.X. və digər həmmüəlliflər, 2017). Bəzi hallarda qaraciyərdə formalaşan ümumi kistaların 65-80%-də hidatioz exinokokkoz aşkar olunur. M.A. Nartaylakov və həmmüəlliflər (2014) bu xəstəlik nəticəsində pasiyentlərin 23-63%-də müxtəlif mürəkkəbləşmələrin baş verməsini qeyd edirlər.

Qarşıda dayanan əsas məsələ hidatidioz exinokokkoza yoluxmuş pasiyentin müalicəsində müalicə üsulunu seçməkdə heç də asan olmayan və bu günə qədər mübahisəli qalan bir məsələni həll etmək kimi bir vəzifə durur (Kərimov Ş.İ. və həmmüəlliflər, 2008, Əhmədov İ.Q. və həmmüəlliflər 2016). Hazırkı dövürdə A.V. Çajov və digər həmmüəlliflərin (2016), fikirinə görə ən səmərəli və proqnozlu üsul cərrahi üsuldur. Son illərdə cərrahlar laparoskopik exinokokkektomiya və punksion-drenaj kimi laparotom müdaxilə üsullarından praktikada geniş istifadə edirlər (Vetşev P.S. və digərləri, 2015, Əhmədov P.M. və digərləri, 2010).

Laparoskopik əməliyyat yerinə yetirərkən exinokokkoz kistaları yerləşən sahənin yaxşı yoxlanılması və həmin sahənin tam sağlamlaşdırılması məqsədi ilə xüsusi alətlərə ehtiyac duyulur ki,

haliyədə bu məsələdə indiki dövürdə həll edilməmiş qalır. Buna görə də laparoskopik exinokokektomiyanı klinikalarda aparmaq bir növ məhdudlaşmışdır (Dosmaqambetov S.P. və digərləri, 2014).

Qaraciyərin hidatioz exinokokkozunda endocərrahi laparoskopik müdaxilə məqsədi ilə texnoloji təchizatın aktiv inkişaf etməsinə baxmayaraq, bir sıra məsələlər hələ də həll edilməmiş qalmaqdadır (Chen X. Və başqaları 2015). Bu diskusiya predmetlərinə laparaskopik exinokokkektomiya aparılması üçün parazitsizləşdirmə və antiparazitar prinsiplər nəzərə alınmaqla xüsusi alətlərin yaradılması, punksion-dreninq müdaxilə aparılmasının yeri və rolunu müəyyən etməkdir (İvanov S.A. və başqaları, 2015, Abdelaal M.A. 2014) Belə sualların bəzilərini həll etməsi bu işdə öz əksini tapmışdır.

Material və metodika: Bu tədqiqat qaraciyərin hidatidoz exinokokkozuna yoluxmuş 29 baş xırdabuynuzlu heyvanda kliniki müşahidə əsasında 2022-2024-cü illərdə Naxçıvan şəhərinin inzibati ərazisində, Naxçıvan MR Baytarlıq Laboratoriyasında və xəstəlik aşkar olunan təsərrüfatlarda yerinə yetirilmişdir.

Xəstəliyə yoluxmuş 29 baş xırdabuynuzlu heyvan üzərində cərrahi müdaxilənin nəticələri hər tərəfli öyrənildi. Hansı ki, əməliyyat müdaxiləsindən sonra xəstələrin ümumi vəziyyəti və ağırlaşma hallarının olması araşdırıldı. Xəstələr üzərində aparılan tədqiqat kriteriyaları belə olmuşdur: xəstələr 1-6 yaş arasında olmaqla, aşkar olunan qovuqların diametri 3 sm ölçüdə olmuşdur.

Xəstələrin müayinəsi retrospektiv və prospektiv hissələrdən ibarət olduğu üçün xəstələr 2 qrupa ayrıldı. Nəzarəti qrupa qaraciyərin hidatidoz exinokokkozu ilə 2022-ci ildə xəstələnib müalicə olunmuşlardan təşkil edildi. Bu dövürdə biz qaraciyərin hidatidoz exinokokkozunun müalicəsində punksion-drenaj və laporoskopik üsullardan cərrahi praktikada geniş istifadə etdik, azinvazivli müdaxilədə kliniki təcrübə topladıq. Bu qrupda əməliyyat 13 xəstədə endocərrahi və ya punksion-drenaj müdaxilə üsulu ilə aparıldı. Laparatom əməliyyat azinvazivlilərdə yerinə yetirildi.

Praktik təcrübənin toplanması ilə nəzarəti qrupda müalicənin nəticələrinin retrospektiv təhlili aparılmışdır. Bu cərrahi taktikanın təfriqinə və əməliyyat üsulunun seçilməsinə, növbəti dövür ərzində müalicənin nəticələrinə yaxşılaşmasına gətirib çıxardı. Əsas qrup (müayinənin prospektiv hissəsi) 16 xəstədən təşkil olmaqla, 2023-2024-cü illərdə stasionar müalicəyə cəlb edilmişdir.

Alınan nəticələrin müzakirəsi: Tədqiq olunan qruplarda birincili əməliyyat müdaxiləsinin xəstələr üzərində aparılma vəziyyəti cədvəl 1-də verilmişdir.

Azinvazivli texnologiyanın inkişafı ultrasəs naviqasiyadan qaraciyərin hidatidoz exinokokkozunda istifadə olunmasına imkan vermişdir.

2002-ci ildən V. D. Seradavin adına SOKB-da Punction- Aspiration- İnjection- Reaspiration üsul təklif edilmişdir. Qaraciyərin hidatidoz exinokokkoz qovuğunun punksiya yolu ilə müalicəsi üçün müasir tipli xüsusi göstərici və punksiya aparatını yeritmək üçün adaptr ilə təmin olunmuş ultrasəs aparatı tətbiq edilir.

Cədvəl 1.

Birincili əməliyyat müdaxiləsi növlərinin xəstələr üzərində aparılması

Əməliyyat müda-xiləsinin növü	***Pasiyentlərin qrupası***		***X^2, P***
	Əsas (n=16)	***Nəzarət (n=13)***	
Laparatom	7(44%)	3(22%)	X^2=1,54 P>0.05
Laparoskopik	4(25%)	5(39%)	X^2=10.13 P<0.05
Punksion- drenaj	5 (32%)	5(39%)	X^2=7.64 P<0.05
Cəmi	16(100%)	13 (100%)	

Punksiya iynəsi stiletlə təchiz olunub, 30^0bucaq altında yeridilir. Bundan başqa punksiya iynəsinin ultrasəs etiketi vardır ki, bu qaraciyər parenximasında iynənin yerini və istiqamətini dəqiq müəyyən etməyə imkan verir. Drenaj əməliyyatını yerinə yetirmək üçün stilet-katetr və pigtail tip

katetrlərdən istifadə olundu. Hidatidoz exinokokkoz qovuğu boşluğunun perkutan transhepatik drenajı üçün Şarerin şkalası üzrə xarici diametri 12-14 Fr olan katetrlərdən istifadə edildi.

Cədvəl 2.

Tədtiqatın yerinə yetirildiyi qruplarda punksiya-drenaj əməliyyat növünün xəstələr üzrə paylanması

Punksion drenaj müdaxilə	***Qruplar üzrə pasiyentlərin sayı***		***X^2, P***
	Əsas qrup (n=4)	***Nəzarəti qrup (n=6)***	
Punksion drenaj üsul	4	5	
Cəmi	4	5	X^2=19,7 P<0,01

Qaraciyərin hidatidoz exinokokkoz qovuğunun punksiyası o yerdən aparıldı ki, orada qovuğun üstündə qaraciyər toxuması ən azı 2-3 sm qalınlığında olsun. Bu imkan verdi ki, exinokokkoz qovuğunun içərisində olan mayenin punksiya yerinə dağılmasını minumuma yendirir. Cədvəl 2-də hər iki qrupda punksion- drenaj müdaxilənin sayı verilmişdir.

Ultrasəs nəzarəti altında hidatidoz exinokokkoz qovuq punksiya edildikdən sonra onun içərisində olan maye aspirasiya edildi, sonra qovuğun boşluğuna hermesid maddə: 20%-li natrium xlorid məhlulu, ekspozisiya müddəti 10 dəqiqə olmaqla yeridildi və bundan sonra qovuqda olan bu maye də aspirasiya olundu. Bundan sonra Seldinger üsulu ilə qovuğun qalıq boşluğuna drenaj- katetr yeridilib, onu dəriyə fiksasiya etdik.

Punksiyon-drenaj əməliyyat müdaxiləsindən sonra qaraciyərin qalıq sahəsinin vəziyyəti qaraciyərin UZİ-si ilə nəzarətə alındı.

Həm də qeyd olunmalıdır ki, bu üsulla müalicənin kritik qiymətləndirilməsi onu deməyə əsas verir ki, müalicənin səmərəliliyi əməliyyatdan sonrakı yaxın və uzunmüddətli müşahidələrdə özünü doğruldur. Yalnız bu üsulun tətbiqinin göstəriş və ya əksgöstəriş hesab olunması, mümkün mürəkkəbləşmələr dəqiqləşdirilməlidir. Bunu nəzarət qrupası üzərində aparılan praktiki təcrübə müşahidələri sübut edir.

Qaraciyərin hidatidoz exinokokkozunun müalicəsində laparatom üsula nisbətən punksion-drenaj üsulunun üstünlüklərini nəzərdən keçirdik. Qaraciyərin hidatidoz exinokokkozunun klinik əlamətlərinin müxtəlifliyi ilə əlaqədar ilk növbədə bu üsulun tətbiq edilməsinin göstətiş və ya əks göstəriş olmasını dəqiqləşdirdik.

Xəstələrə punksiyon əməliyyat üsulunun tətbiqi üçün göstərişlər bunlardır: hidatidoz exinokokkoz qovuğunun solitar olması, qaraciyərin parenximası arasında yerləşməsi, residivlik və exinokokk qovuğunda qalıq başcığın olması.

Bu zaman əks göstəriş: hidatidoz exinokokkoz qovuğu içərisində qız qovuqlar olduqda, qovuqlar çox kameralı olduqda, qovuqların divarı əhəngləşdikdə, hidatidoz exinokokkoz qovuğu öd yolları, periton və ya plevra boşluğu ilə birləşdikdə hesab olunur.

Bu yolla venadaxili narkoz verərək aparılan əməliyyat zamanı "pigtail" 14 Fr tip punksion-drenajdan istifadə edildi və hidatidoz exinokokkoz qovuğu deşilərək içərisindən 200 ml şəffaf maye aspirasiya edildi. Bundan sonra qovuğun qalıq sahəsi hermisid preparatla işlənildi. Əməliyyatdan sonrakı dövürdə temperatura 41^0 S olmuşdur.

Hipertermiya orta hesabla 14 gün davam etdi. Xəstələr 15 gün stasionarda müalicə aldı və sürüyə qaytarılarkən drenaj üstünə təsbit olundu, xəstələrin vəziyyəti qənaətbəxş idi. Bir aydan sonra xəstələrin bəzilərində təkrar müayinə edilərkən qaraciyərin 6-7 seqmentində qovuq aşkar edildi. Xəstələr konservativ müalicəyə cəlb edilib albendazolla kimyəvi terapiya kursu həyata keçirildi. Bu müalicə 12 gün davam etdirildi. Üçüncü yoxlama yenədə bir aydan sonra aparıldı drenaj çıxarıldı və xəstənin vəziyyəti qənaətbəxş hesab edildi.

Nəzarəti qrupda punksion-drenaj üsulu ilə aparılan əməliyyat müdaxiləsində başarısız nəticə iri hidatidoz exinokokkoz qovuqları olan xəstələrdə müşahidə edildi.

Nəzarəti qrupda cəmi 5 başda PAİR əməliyyatı həyata keçirildi. Alınan nəticələr cədvəl 3-də verilmişdir. Qəbul etdiyimiz "yaxşı", "qənaətbəxş" və "başarısız" kriteriyalara əsasən müalicənin nəticələri xəstələr üzrə belə olmuşdur.

Başarısız nəticə.....1(20,0%)
Qənaətbəxş nəticə.....1 (20,0%)
Yaxşı nəticə.....3(60,0%)
0 20 40 60 80

Nəzarət qrupunda xəstələrin punksion-drenaj əməliyyatında nəzərə çarpan çatışmazlıq ondan ibarət olmuşdur ki, ilk əvvəldən exinokokkoz qovuğu diametrinin 5 sm-dək olmasının vacibliyi, qişasının xitinləşməməsi, qız qovuqların olması, qovuğun divarının elastikliyi nəzərə alınmamışdır.

Beləliklə, qaraciyərin hidatidoz exinokokkoz qovuğunun müxtəlif üsullardan istifadə edərək əməliyyat olunmasından alınan nəticələr onu deməyə əsas verir ki, əməliyyatlardan sonra xəstələrdə əməliyyat yarasından və eləcə də qaraciyərin qalıq boşluğundan mürəkkəbləşmələr baş verir, uzunmüddətli müşahidələr göstərir ki, bir çox hallarda xəstəlik residivlə nəticələnir. Buna görə də bu nəticələr qənaətbəxş sayıla bilməz. Əvvəllər istifadə edilmiş üsulların yenidən nəzərdən keçirilməklə qaraciyərin hidatidoz exinokokkozuna yoluxmuş xəstələrin cərrahi müalicəsi üsulunun seçilməsi üçün yeni alqoritm hazırlanmasına zəmin yaranmışdır.

ƏDƏBİYYAT

1. Абдисаматов Б.С. Хирургические лечение эхинококкоза печени/ Абдисаматов Б.С., М.С. Айтназаров, Э.Мадаминов// Наука, новые технологии и инновации.- 2015, №3. с.70-73.
2. Ахмедов Р.М. Миниинвазивные вмешательства при эхинококкозе печени/ Ахмедов Р.М. (и др) //Анналы хирурческой гепатологии. 2010. Т.15, №3. с.99-104.
3. Ахмедов И.Г. Анализ отдаленных результатов хирургического лечения эхинококкоза: методологический аспект / Ахмедов И.Г. // Анналы хирургической гепатологии.- 2016.- Т. 21, № 4. с.113-118.
4. Ветшев П.С. Эндохирургическое лечение осложенного эхинококкоза печени у овец / П.С. Ветшев, Г.Х. Мусаев, А.С. Фатьянова// Анналы хирургической гепатологии. – 2015,-Т. 20, № 3.- с. 47-53.
5. Домашенко О.Н. Эхинококкоз печени: диагностика, лечебная тактика/ Домашенко О.Н., А.Д. Шаталов, Д.С. Паниева// Известия высщих учебных заведений. Поволжский регион. Медчинские науки. 2016. № 3 (39). с. 35-40.
6. Иванов С.А. Варианты хирургической тактики при лечении сочетанного эхинококкоза легких и печен / Иванов С.А., Е.А. Корымасов, С.В. Мешков // Известия Самарского научного центра Российской академии наук. – 2015.- Т. 17, № 1.- с.517-520.
7. Каримов Ш.И. Проблемы и перспективы хирургического лечения больных эхинококкозом печени и легких / Каримов Ш.И, (и др)// Анналы хрургической гепатологии. 2008. Е.13. № 1. с. 56-60.
8. Нартайлаков М.А. Обследование и лечение пациентов с инфицированными полостными образованиями печени / Нартайлаков М.А (и др.)// Медичинский вестник Башкортостана. – 2014, -№ 9 (6), с. 96-102.
9. Чажо А.В. Хирургические лечение эхинококкоза печени / Чажо А.В., Икрамов Р.З.// Хирургия. Приложение к журналу Consilium Medicum. 2016.№ 2.с. 15-17.
10. Шамсиев А.М. Результаты хирургического лечения эхинококкоза печени/ Шамсиев А.М. (и др.)// European Science. 2017. № 7 (29). С. 49-54.

11. Abdelaal A.M. Hidatid disease of the liver: laporoscopic approach, initial result in Egypt / Abdelaal A.M, H. Dabbousdl // Journal of the Egyptian Socyeti of Parasitilogy.- 2014.- Vol44, №3. P.619-625.

SUMMARY

Mina Askerova

THE RESULTS OF THE SURGICAL TREATMENT OF HYDATIDIOUS ECHINOCOCCOS OF THE LUNG WITH THE PUNCTURE-DRAINAGE METHOD

The main reason for unsuccessful results of surgical treatment of hydatid echinococcosis of the liver is suppuration of the residual space in the liver, bleeding and small liver cysts. Its frequency is 75.5% during puncture-drainage intervention, and 37.5% during laparotomy intervention.

The results of surgical treatment of hydatid echinococcosis of the liver in patients require determining which of these methods will be more effective, depending on the method of operation.

A new method of installing drainage in the formed cavity of the echinococcal bladder provides great opportunities for emptying and processing the capacity inside the bladder. With this drainage method, it is possible to completely remove the parasite from the bladder, prevent the bladder fluid from spilling into the abdominal cavity, and shorten the operation time.

Algorithm development increases the frequency of the laparoscopic method from 10.4% to 23.9%, the frequency of the puncture-drainage method from 32%, allowing all surgical methods to be kept within a certain framework and the frequency of application of these methods to be determined depending on the diagnostic indicators. It reduces to 11.9%.

Algorithmic selection of the method of surgical intervention in hydatid echinococcosis of the liver increases the number of good and satisfactory treatment results from 24.5% to 81% in puncture-drainage treatment, and from 62.5% to 72.6% in laparotomy treatment. . It results in a 78% increase in relative benefit and a 27.3% increase in absolute benefit.

Key words: *echinococcosis, laparotomy, laparoscopy, puncture-drainage, bladder, liver, disease*

FƏRİDƏ HÜSEYNLİ
frd.huseynli01@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0007-0325-0207

NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN GÜLƏVƏR (*CENTAUREA* L.) CİNSİNƏ DAXİL OLAN NADİR VƏ MƏHVOLMA TƏHLÜKƏSİNDƏ OLAN NÖVLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

Bitkilərin mühafizəsi biologiyanın aktual məsələlərindən biridir.. Buna görə də ali bitkilərin nadir növlərinin müəyyənləşdirərkən ilk növbədə onların ekoloji amillərə qarşı plan münasibətləri araşdırılır, bu növlərin müasir vəziyyəti, limitləşdirici faktorları müəyyən olunduqdan sonra növ mühafizə statusu müəyyən edilir. Bunun üçün 1991-ci ildən başlayaraq IUCN tərəfindən ilk dəfə olaraq "Qırmızı Siyahı"nın tərtibi zamanı qəbul edilmiş müxtəlif kriteriyalardan istifadə edilir.

Ərazilərdə aparılan tədqiqat işləri nəticəsində nadir və məhvolma təhlükəsi altında olan bitki müəyyənləşdirilmiş və cinsin tərkibində 2 növün təhlükə altında olduğu müəyyən edilmişdir. Bu növlərin təbiətdə qiymətləndirilməsi IUCN kateqoriyalarına uyğun olaraq, həyata keçirilmişdir.

Centaurea pseudoscabiosa Buhse. Statusu: NT. Növ muxtar respublikanin çöl və çəmən-bozqır ərazilərində yayılmış və bəzən daşlı və töküntü ilə zəngin yamaclarda da rast gəlinir. Antropogen fəaliyyət və digər abiotik amillərin təsirindən arealı qısalan, təhlükəyə yaxın olan növdür.

Centaurea cheiranthifolia Willd. Statusu: LC. növ muxtar respublikanin yüksək dağ qurşağının, subalp və alp qurşaqlarının çəmən və qayalıqlarında çox zəif yayıldığından bəzi yerlərdə rast gəlinir. Hər iki növün təbiətdə say dinamikası getdikcə azaldığından məhv olmaq təhlükəsinə yaxın növ kimi Naxçıvan Muxtar Respublikasının "Qırmızı kitab"ına salınması tövsiyə edilir.

Açar sözlər: *Qırmızı Siyahı, kateqoriya, mühafizə, Centaurea pseudoscabiosa, Centaurea cheiranthifolia*

Giriş

Bitkilərin qorunması və ya bitki qruplaşmalarının mühafizəsi onlarda təbii proseslərin dəstəklənməsi, pozulmuş tarazlığın bərpasına kömək etmək, arzu olunmaz amilləri və ekosistemlərin (biogeosenozlar) həyatına insanın əsassız müdaxiləsinin nəticələrini aradan qaldırmaq deməkdir. Buna görə də ali bitkilərin nadir növlərinin müəyyənləşdirərkən ilk növbədə onların ekoloji amillərə qarşı plan münasibətləri araşdırılır, bu növlərin müasir vəziyyəti, limitləşdirici faktorları müəyyən olunduqdan sonra növ beynəlxalq səviyyədə qəbul edilmiş müvafiq kateqoriyalardan birinə daxil edilir. Bunun üçün 1991-ci ildən başlayaraq IUCN tərəfindən ilk dəfə olaraq "Qırmızı Siyahı"nın tərtibi zamanı qəbul edilmiş müxtəlif kriteriyalardan istifadə edilir. IUCN sistemin əsas məqsədi növlərin nəsli kəsilmə riski səviyyəsinə görə mümkün qədər geniş çeşiddə təsnifləşdirilməsi üçün aydın və obyektiv struktur əsasını təmin etməkdir. Qırmızı Siyahıda nəsli kəsilmək təhlükəsi yüksək olan taksonlara xüsusi diqqət yetirilsə də, bu fakt özlüyündə onların mühafizəsi üçün prioritet tədbirlərin görülməsi üçün yeganə əsas rolu oynamır (Əlizadə V.M., 2018).

1994-cü ilə qədər, demək olar ki, 30 il ərzində, kiçik dəyişikliklərlə Qırmızı Kitabları və Siyahıları saxlamaq üçün çox subyektiv xarakterli kateqoriyalardan istifadə edilmişdir. Bu cür kateqoriyalara yenidən baxılması zərurəti çoxdan qəbul edilsə də (1987), bu istiqamətdə işin müasir inkişafı mərhələsi yalnız 1989-cu ildə Növlərin Yaşaması Komissiyasının (IUCN/SSC Steering) Təşkilat Komitəsinin müraciəti ilə başlamışdır. 1994-cü ildə IUCN Şurası IUCN Qırmızı Siyahı kateqoriyalarının prinsipcə yeni sistemini qəbul etdi.

- onun müxtəlif profilli mütəxəssislər tərəfindən istifadəsini təmin etmək;
- istifadəçilərə həmin riskə təsir edən müxtəlif amilləri necə qiymətləndirmək barədə aydın təlimat verməklə məhv olma riskinin qiymətləndirilməsinin bütövlüyünü təkmilləşdirmək;

- müxtəlif taksonların geniş diapazonunda məhv olma riskinin müqayisəsini asanlaşdırmaq;
- Qırmızı Kitablar və Siyahılarla işləyən mütəxəssislərə növlərin nəsli kəsilmək riskinə görə təsnifatının prinsiplərini daha yaxşı başa düşmək.

Material və metodlar

Tədqiqatlar 2023-2024cü illər ərzində aparılmışdır. Əsas xarakterik herbari materialları, floristik, fitosenoloji məlumatlar, herbari fondunda saxlanılan tədqiqat materialları, eləcə də ədəbiyyat mənbələri hesab olunur. Tədqiqatlar ümumi qəbul edilmiş floristik və geobotaniki metodlarla aparılmışdır (Баркман, 1993).

Müzakirə

2001-ci ilin yanvar ayından başlayaraq, sistemin meyarlarına uyğun olaraq, taksonların bütün yeni qiymətləndirmələri onun sayı və nəşr ili göstərilməklə ən son qəbul edilmiş versiyadan istifadə etməlidir. Bu sənədin əsasını bir neçə bölmədə təklif olunan sistem təşkil edir. Bölmə II, sistemin məzmunu və strukturu haqqında əsas məlumatları, həmçinin növlərə meyarların tətbiqi prosedurunu əhatə edir. III bölməyə istifadə olunan əsas terminlərin tərifləri daxildir. Bölmə IV kateqoriyaları, V bölmə isə taksonları təhlükə altında olan kateqoriyalara təsnif etmək üçün istifadə edilən kəmiyyət meyarlarının parametrlərini təsvir edir. Əlavə I meyarları tətbiq edərkən qeyri-müəyyən məlumatlarla necə məşğul olmağı izah edir; Əlavə II IUCN Qırmızı Siyahısının kateqoriyalarını və meyarlarını müəyyən etmək üçün standart formatı təqdim edir; Əlavə III qlobal IUCN Siyahılarına daxil edilmiş taksonlar üçün uçot tələblərini müəyyən edir. Sistemdən uğurla istifadə etmək üçün bütün bölmələrlə tanış olmaq və onları yaxşı başa düşmək vacibdir - bu, onun anlayış və müddəalarının düzgün, ardıcıl tətbiqini təmin edir (Akçakaya H.R. və Ferso, S., 2001).

IUCN 2007-yə uyğun olaraq, aşağıdakı təhlükə səviyyələrini fərqləndirir:

EX - Extinct (Nəsli kəsilmiş növlər.)

EW - Extinct in the Wild (Təbiətdə nəsli kəsilmiş növlər.)

CR - Critically Endangered (Təbiətdəki vəziyyəti böhran həddə olan və ya nəslinin kəsildiyi ehtimal edilən növlər-növ kritik təhlükə altındadır.)

EN - Endangered (Təbiətdə say dinamikası ardıcıl azalmaqda davam edərək, məhv olmaq təhlükəsinə yaxın növlər-təhlükədə olan növ)

VU - Vulnerable (Məhdud areal və ya sahələrdə yayılmış, mənfi təsirlərə məruz qalan -həssas vəziyyətdə olan növ)

NT - Near Threatened (Insan fəaliyyəti və ya digər abiotik amillərin təsirindən arealı qısalan, təhlükəyə yaxın növlər, həssaslığa yaxın olan növ).

Təbiətdəki təhdid vəziyyətinə görə bu kateqoriya aşağıdakı 3 yarım kateqoriyaya da bölünə bilir:

a - Conservation Dependent (CD) - Mühafizəsi zəruridir.

b - Near Threatened (NT) - Təhlükə altına düşə bilər.

LC - Least Concern (ən az təhlükə altındadırlar)

DD - Data Deficient (Müasir vəziyyəti qeyri-müəyyəndir, növlər haqqında məlumat çox azdır)

NE - Not Evaluated (təhlükə vəziyyəti olmzdığından qiymətləndirilmir).

Ərazilərdə aparılan tədqiqat işləri nəticəsində nadir və məhvolma təhlükəsi altında olan bitki müəyyənləşdirilmiş və cinsin tərkibində 2 növün təhlükə altında olduğu müəyyən edilmişdir. Bu növlərin təbiətdə qiymətləndirilməsi IUCN kateqoriyalarına uyğun olaraq, həyata keçirilmişdir.

***Centaurea pseudoscabiosa* Boiss. & Buhse.** Çoxillik yaşıl kələkötür bitkidir. Gövdəsi dik, dənəvər şırımlı, az budaqlı, 25-50 sm hündürlüyündədir. Yarpaqları sərt, yaşıl, çox qısa tüklü, aşağı yarpaqları saplaqlı, əsasən bütöv, uzun elliptik, lirəşəkilli, 1-4 (5) cüt uzunsov, lansetvarı və ya xətti bütöv kənarları olan lələkvarı parçalı və ya lələkvari bölünmüşdür. Yuxarıdakı yarpaqları oturaq daha dar pərli , ən aşağıdakıları gövdə qucaqlayandır. Səbətləri az saylı, geniş yumurtavarı və ayaqcıqlıdır. Sarğısı 1,5-2 sm enində,az çox dərəcədə tükcüklüdür. Xarici yarpaqları dərivarı, sarımtıl-yaşıl, yaşıl zolaqlı, yumurtavarı-üçbucaqlı, yuxarısı böyük qara-qəhvəyi üçbucaqlı, kənar boyunca uzun ağımtıl-kirpikcikli və 1-3 mm uzunluğunda qısa incə bükülmüş, qara-qəhvəyi və ya ağ tikancıqlıdır. Lakin bu bitkidə əlavələr daha

dardır və onların apikal tikanları daha qabarıqdır. Çiçəklər bənövşəyi, kənardakılar az böyüdülmüşdür. Toxumcası 5-6 mm uzunluğunda, uzunsov, sıxılmış, açıq qəhvəyi, bir qədər uzun qəhvəyi kəkillidir.

Bitki iyun-iyul ayları çiçəkləyir və iyul-avqust ayları toxum verir. Aşağı və orta qurşağın quru daşlı ərazilərində rast gəlinir.

***Centaurea cheiranthifolia* Willd. (*C. fischeri* Willd.).** Çoxillik az və ya çox dərəcədə bozumtul torlu tükcüklü bitkidir.Köküm sovu sürünən, çiçəkli gövdələrdən və steril tumurcuqlardan ibarət rozetlər əmələ gətirir. Gövdəsi (5) 15-40 (70) sm hündürlükdə, adətən qalxan şırımlı, əsasında qara-bənövşəyi-qəhvəyi rəngli yarpaq saplağının qalıqları ilə örtülmüşdür. Yarpaqları uzunsov-neştərvaridən xətti-neştərvariyə qədər dəyişən, iti xırdavari, tamkənarlı və oyuqlupərli və ya oyuqlu bölünmüş, iti və ya küt pərli və paylı, kökətrafı və aşağı gövdə yarpaqları saplaqlara tərəf daralmış, aşağıdakılar oturaq, az və ya çox dərəcədə aşağıqaçandır. Səbəti təkdir. Sarğı (20) 22-25 (27) mm uzunluğunda, (13) 20-25 mm enində, şarşəkilli-yumurtavaridir. Sarğı yarpaqcıqları xaricdəki yumurtavaridən daxildəki uzunsova qədər dəyişir, qara-qəhvəyi və ya qara-tutqun rəngli enli aşağıqaçan üçbucaqlı daraqşəkilli, kirpikli əlavəlidir. Kirpiklər uzun, aşağı hissəsi tünd, yuxarıda açıq, ağımtıldır. Əlavələr sarğı vərəqlərini gizlətmir. Çiçəkləri qırmızımtıl çəhrayı, kənardakılar güclü irilmişdir, 33-52 mm uzunluqdadır. Onların borusu 20-25m uzunluqdadır. Toxumcası 5-6 mm uzunluqda. uzunsov, sərt, hamar və qısa kürəni kəkillidir. Bitki iyun-iyul ayları çiçəkləyir və iyul-sentyabr ayları toxum verir. Yüksək dağ qurşağının, subalp və alp qurşaqlarının çəmən və qayalıqlarında rast gəlinir (Hüseynova A.Y.. 2009; Seyidov M.M. və b., 2014, 210-214)

Əldə olunan nəticələr

Centaurea pseudoscabiosa Buhse. Statusu: NT. Növ muxtar respublikanin çöl və çəmən-bozqır ərazilərində yayılmış və bəzən daşlı və töküntü ilə zəngin yamaclarda da rast gəlinir. IAntropogen fəaliyyət və digər abiotik amillərin təsirindən arealı qısalan, təhlükəyə yaxın olan növlərdəndir [2, 4].

Centaurea cheiranthifolia Willd. Statusu: LC. Növ muxtar respublikanin yüksək dağ qurşağının, subalp və alp qurşaqlarının çəmən və qayalıqlarında çox zəif yayıldığından bəzi yerlərdə rast gəlinir.

Hər iki növün təbiətdə say dinamikası getdikcə azaldığından məhv olmaq təhlükəsinə yaxın növ kimi muxtar respublikanın"Qırmızı kitab"ına salınması tövsiyə edilir.

ƏDƏBİYYAT

1. Əlizadə V.M. (2018), Nadir və nəsli kəsilməkdə olan bitki növlərinin Qırmızı Siyahısı: IUCN kateqoriyaları və meyarlarının regional səviyyələrdə tətbiqi qaydalarına dair qeydlər // AMEA Botanika İnstitutu və Azərbaycan Botaniklər cəmiyyətinin akad.V.C.Hacıyevin 90 illiyinə həsr edilmiş konfrans materialları,Bakı, s.18-20
2. Hüseynova A.Y. (2009), Naxçıvan ərazisində yayılan Güləvər (Centaurea L.) cinsi növləri // AMEA Botanika İnstitutunun elmi əsərləri, Bakı: Elm, XXIX cild, s. 59-63.
3. Seyidov M.M.,İbadullayeva S.C, Qasımov H.Z., Zülfüyyə Salayeva Z.K. (2014), Şahbuz Dövlət Təbiət Qoruğunun flora və bitkiliyi. Elmi metodiki vəsait. Naxçıvan 524 s.
4. Баркман Я. (1993), Новое в изучении гомогенности и минимум-ареала в фитоценологии // Ботанический журнал. Т. 78, № 4,с. 117-134
5. Akçakaya, H.R. and Ferson, S. 2001. RAMAS® Red List: Threatened Species Classifications under Uncertainty. Version 2.0. Applied Biomathematics, New York.

SUMMARY

Fareda Hussaınlı

ASSESSMENT OF RARE AND DISTORTING GENUS OF THE SPECIES CORNFLOWER (*CENTAUREA* L.), DISTRIBUTED IN THE FLORA OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Plant protection is one of the pressing issues of biology, therefore, when identifying rare species of higher plants, their relationship with environmental factors is first examined, after determining the current state and limiting factors of these species - the conservation status of the species. defined For this purpose, since 1991, various criteria adopted by the IUCN for the first time in compiling the Red List have been used.

As a result of research carried out in the territories, a rare and endangered plant was identified and it was established that 2 species of the genus are under threat. These species were assessed in nature using IUCN categories.

Centaurea pseudoscabiosa Buse. Status: NT. The species is distributed in steppe and grass-steppe regions of the Autonomous Republic, sometimes also found on rocky and gravelly slopes. It is an endangered species whose range is shrinking due to anthropogenic activities and other abiotic factors. *Centaurea cheirantifolia* Willd. Status: LCD. The species is very rarely distributed in the meadows and rocks of the high-mountain, subalpine and alpine zones of the Autonomous Republic, therefore it is found in places. meets.

Since the population dynamics of both species in nature is gradually decreasing, it is recommended to include them in the “Red Book” of the Nakhchivan Autonomous Republic as a species close to extinction.

Key words: *Red List, category, protection, Centaurea pseudoscabiosa, Centaurea cheiranthifolia.*

FƏRİDƏ HÜMBƏTOVA
humbetovaferide87@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0005-9170-7179

BİTKİLƏRİN BÖYÜMƏSİNƏ FİTOHORMONLARIN TƏSİRİ

Bitki hormonları bitkilərdə gedən fizioloji inkişafa təsir edən təbii və ya sintetik birləşmələrdir. Müəyyən hormonlar bitkinin bir toxumasında sintez olunaraq başqa toxumalara da keçdiyi halda, bəziləri isə yalnız sintez olunduğu toxumalara təsir göstərir. Hormonlar bitkilərin böyüməsinə sürətləndirici və ləngidici təsir göstərir. Buna görə də bitki hormonları "kimyəvi tənzimləyicilər" də adlandırılır. Bitki tərəfindən sintez olunan eyni hormon bir bitkinin ayrı-ayrı toxumalarına müxtəlif təsir göstərə bilir. Apardığımız tədqiqat nəticəsində və ədəbiyyat məlumatlarına əsasən bitki hormonları böyüməsini sürətləndirən (oksinlər, sitokinlər, gibberellinlər, asetil turşusu, indol butirik turşusu, tuberon turşusu, etilenlər, naftalin sirkə turşusu, asetil salisilik turşusu) və ləngidən (etilen, absis turşusu, daminozid, fosfon-d, paklobutrazol) hormonlar olmaqla 2 qrupa ayrılır.

Açar sözlər: *Hormonlar, böyüməni sürətləndirən hormonlar, böyüməni ləngidən hormonlar, sintetik hormonlar.*

Giriş: Bitkilərdə böyümə və inkişaf mexanizmi hüceyrənin bölünməsi, bitkinin daxili və xarici mühitinin balanslaşması hesabına nizamlanır. Ali bitkilərin böyümə və inkişafına xarici mühit amillərdən işıq, temperatur, su və yerçəkimi, daxili mühit amillərindən isə hormonlar güclü təsir göstərir. Hormonlar bitkilərin müəyyən orqanlarında sintez olunaraq, həmin orqana və ya bütövlükdə orqanizmə təsir edərək onun böyümə və inkişafını sürətləndirir.

Bitki hormonlarının ən vacib xüsusiyyətləri böyümə və inkişafa güclü təsir etməsi olduğu üçün, bir çox tədqiqatçılar bunları "böyümə tənzimləyicilər" kimi də adlandırırlar. Buna baxmayaraq, hormonlar bitkilərin inkişafına bəzən mənfi təsir də göstərə bilir. Belə ki, bəzi hormonlar bitkinin ümumi böyüməsinə güclü təsir göstərdiyi halda, müxtəlif orqan və toxumalara mənfi təsir edərək, onların inkişafını ləngidir. Bu isə həmin orqan və toxumaların məhv olmasına gətirib çıxarır.

Bitkilərdə hormonların sintezi əsasən mitoz bölünməni sürətləndirmək və ya zəiflətmək, meyvələrin yetişməsinə, çiçəklərdə tozlanmaya, köklərin inkişafına, yarpaqların tökülməsinə və s. bu və ya başqa formada təsir göstərir.

Nəticələrin müzakirəsi: Bitki orqanizmi tərəfindən sintez olunan, böyümə və inkişafı, xüsusilə fizioloji prosesləri nizamlayan maddələr fitohormonlar adlandırılır. Fitohormonlar bitkilərin inkişafını sürətləndirən və ləngidən hormonlar olmaqla 2 qrupa ayrılır.

Aparılan tədqiqatlar və ədəbiyyat məlumatlarına əsasən müəyyən edilmişdir ki, bitkilərin inkişafını sürətləndirən hormonlar - oksinlər, sitokinlər, gibberellinlər, asetil turşusu, indol butirik turşusu, tuberon turşusu, etilenlər, naftalin sirkə turşusu, asetil salisilik turşusu, ləngidən isə - etilen, absis turşusu, daminozid, fosfon-d, paklobutrazol hormonlarıdır (Aydoğdu, M. və Boyraz N., 2005; Ahmet Metin KUMLAY və Tamer ERYİĞİT Buban, 2000).

Oksinlər demək olar ki, bütün ali bitkilər tərəfindən sintez olunur ki, bunların ən çox yayılan növü Indol-3-sirkə turşusudur. Bu hormonlar əsasən bitkilərdə hüceyrələrin uzanmasını, mitoz bölünməni, hüceyrələrin böyümə və inkişafını, toxumaların inkişafını, kök hüceyrələrinin bərpa olunmasını sürətləndirir. Oksinlər bitkilərdə əsasən təpə tumurcuqlarında və yarpaqlarda sintez olunaraq, floema və ksilema boruları ilə hərəkət edib, bitkilərin kök hüceyrələrinə təsir göstərirlər.

Kimyəvi yolla alınan oksinlərdən əsasən seleksiyada bostan və tərəvəz bitkilərinin böyümə və inkişafının sürətlənməsində istifadə edirlər.

Sitokinlər bitki toxumalarında hüceyrə bölünməsi zamanı əmələ gələn hormonlardır. Digər bitki fitohormonlarından fərqli olaraq sitokinlər həmçinin heyvan hüceyrələrində də əmələ gəlir.

Sitokinlər aktiv hüceyrə bölünməsinəmalik olan bütün toxumalarda, xüsusən də köklərin meristem toxumalarında sintez olunaraq, ksilema boruları ilə bitkinin yerüstü orqanlarına daşınır. Bu hormonlar hüceyrələrin bölünməsini sürətləndirərək, bitki orqanlarının yaşlanmasının qarşısını alır, kök əmələ gəlməni sürətləndirir, orqan və toxumaların bərpa olunmasını sürətləndirir. Həmçinin yarpaq hüceyrələrində fotosintezin zərərli qalıqlarını məhv edərək, onların tökülməsinin qarşısını alır (Lopez-Delgado, H., Scott, I.M., 1997).

Sitokinlərin istifadəsi Oksinlər qədər geniş olmasa da, onlardan seleksiyada bitki toxumalarının böyümə və inkişafı üçün qidalı mühit kimi istifadə edirlər.

Gibberellinlər hüceyrələrin əsasən həcminin böyüməsinə səbəb olaraq meristem toxumanın inkişafına təsir edirlər. Bu hormonlar Ali və sporlu bitkilərdə genetik məlumatların daşınmasını, gövdənin böyüməsini, ultrabənövşəyi şüaların təsirinin azaldılmasını, erkən çiçək əmələ gəlməni təmin edirlər. Gibberellinlərdən seleksiyada meyvə bitkilərinin xəstəliklərlə mübarizədə davamlılığının artmasında və məhsuldarlığın yüksək olmasında istifadə edilir.

Aparılan tədqiqatlar və ədəbiyyat məlumatlarına əsasən müəyyən edilmişdir ki, bitkilərin böyümə və inkişafını sürətləndirən fitohormonlarla yanaşı onların inkişafını ləngidən hormonlar da sintez olunur (Falkenstein, E.B., Groth, A. Mithofer, E.W., 1991).

Etilen qaz halında, uçucu, sadə birləşmə olub, bitkilərin bütün toxumalarında böyümə və inkişaf zamanı əmələ gəlir. Etilen əsasən yaşlanma hormonu kimi də adlandırılır. Belə ki, havalanmaya məruz qalan, qapalı şəraitdə saxlanılan meyvə və tərəvəzlərdə əmələ gələn etilen qazı toxumaların dağılmasına səbəb olur ki, bu da məhsulun xarab olması ilə nəticələnir. Etilen həmçinin yarpaqların saralmasını, çiçək və meyvə saplaqlarının ayrılmasını sürətləndirir. Bundan başqa, etilenin yüksək miqdarda sintezi bitkilərin çiçəklərində erkəkciklərin məhv olmasına səbəb olur (Raven, P.H., Evert, R.F., Eichhorn, S.E., 1992).

Absis turşusu demək olar ki, bitkilərin bütün toxumalarında sintez olunur. Lakin ətraf mühitin təsiri nəticəsində hormonun sintezi arta və ya azala bilər. Absis turşusu əsasən bitkilərdə ağızcıqların qapanmasını sürətləndirərək bitkilərdə buxarlanmanın qarşısını alır. Həmçinin birillik bitkilərdə toxumların, ikiillik və çoxillik bitkilərdə isə tumurcuq və kök yumrularının inkişafını ləngidir.

Nəticə

Beləliklə, apardığımız tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, bitkilər tərəfindən sintez olunan fitohormonlar böyümə və inkişafı sürətləndirən, həmçinin ləngidən hormonlar olmaqla 2 qrupa ayrılır. Bitkilərin böyümə və inkişafını sürətləndirən hormonlar kimyəvi formada seleksiyaçılar tərəfindən sintez edilərək yüksək məhsuldarlığa malik meyvə, tərəvəz və bostan bitkilərinin alınmasında istifadə edilir. Tərəvəz və bostan bitkilərinin məhsuldarlığının artırılmasında oksinlərdən, meyvə bitkilərində isə sitokinlərdən daha çox istifadə edilir.

ƏDƏBİYYAT

1. Aydoğdu, M., Boyraz N., 2005. Bitki büyüme düzenleyicileri (hormon) ve hastalıklara dayanıklılık. Bitkisel Araştırma Dergisi, 1: 35–40.
2. Ahmet Metin KUMLAY ve Tamer ERYİĞİT Buban, T., 2000. The use of benzyladenine in orchard fruit growing: a mini review. Plant Growth Regulation, 32, 381-390.
3. Falkenstein, E.B., Groth, A. Mithofer, E.W., 1991. Methyl jasmonate and α-linolenic acid are potent inducers of tendril coiling. Planta, 185, 316-322.
4. Lopez-Delgado, H., Scott, I.M., 1997. Induction of in vitro tuberization of potato microplants by acetylsalicylic acid, J. Plant Physiology, 151: (1), 74-78.
5. Raven, P.H., Evert, R.F., Eichhorn, S.E., 1992. Regulating growth and development: The plant hormones (in: Biology of Plants) pp 545-571, Worth Publishers, New York, USA.

SUMMARY

Farida Humbatova

EFFECT OF PHYTOHORMONES ON PLANT GROWTH

Plant hormones are natural or synthetic compounds that affect physiological development in plants. While some hormones are synthesized in one tissue of the plant and pass to other tissues, others only affect the tissues in which they were synthesized. Hormones have an accelerating and retarding effect on the growth of plants. For this reason, plant hormones are also called “chemical regulators”. The same hormone synthesized by a plant can have different effects on different tissues of the plant. As a result of our research and based on literature data, hormones that accelerate (auxins, cytokines, gibberellins, acetyl acid, indole butyric acid, tuberonic acid, ethylenes, naphthalene, acetic acid, acetyl salicylic acid) and slow down (ethylene, abscisic acid, daaminoside, phosphode, paclobutrazol) growth. It is divided into 2 groups.

Key words: *Hormone, growth regulators, plant growth retardant and ragulators, synthetic hormones*

NİGAR VƏLİZADƏ
Naxçıvan Dövlət Universiteti

İNƏKLƏRDƏ YEM TRAVMATİZMİ VƏ ONA QARŞI APARILAN PROFİLAKTİKA TƏDBİRLƏRİ

Südlük mal-qaraya yem travmatizmi nəticəsində dəymiş iqtisadi ziyan yoluxucu xəstəliklərin vurduğu ziyandan heç də az olmur. Mal-qarada travmatik retikulitin qarşısını almaq üçün maqnit zondlarından istifadə olunur. Heyvanın torcuğuna daxil edilmiş maqnit zondlar onun daxilində olan ferromaqnit obyektləri cəzb edir və zond çıxarıldıqda onları özü ilə çıxarır. Travmatik zədə almış heyvan adətən hərəkətsiz olur, dirsəkləri çölə və boynu uzadılmış vəziyyətdə dayanır. Xüsusilə aşağı eniş zamanı yerişi gərgin və yavaş olur. Torcuğun büzülməsi iniltilərlə müşayiət olunur. Yem travmatizmi daha çox yemləmə zamanı, yemlə birlikdə yad cismlərin udulduğu hallarda baş verir. Metal və ya ucları iti əşyalar mədə önlüklərinə daxil olur, həm də ətrafda yerləşən daxili orqanlara zərər verir. Statistika göstərir ki, heyvanlarda mədə-bağırsaq traktının problemlərinin əksəriyyətinin səbəbi metal cismlərlə daxili orqanların zədələnməsidir.

Açar sözlər: *Südlük mal-qara, yem travmatizmi, metal cismlər, maqnit zondlar*

Giriş

Müxtəlif növ yem travmalarını mal-qaranın yemlə birlikdə mədə-bağırsaq traktına daxil olan yad cismlər törədir. Məhsuldar mal-qaranın 50-90%-in torcuğunda metal əşyalar olur. Ət üçün kəsilən südlük inəklərin 5-13%-i torcuq divarlarının və ona bitişik orqanların travmalı xəstəliyindən əziyyət çəkir. Südlük mal-qaraya yem travmatizmi nəticəsində dəymiş iqtisadi ziyan təkcə travmatik retikulit və perikarditli heyvanların məcburi kəsilməsi ilə müəyyən edilmir, həm də balasalmalar nəticəsində bala itkisi və boğaz inəklərin ağır dərəcəli travmalarla kəsilməsi kimi amillərlə də ağırlaşır. Bu zərər bir çox hallarda heyvanların yoluxucu xəstəliklərinin vurduğu itkilərdən heç də az deyil.

Mal-qarada yem travmatizmi ilə mübarizə yalnız travmatik retikulit və travmatik perikarditli xəstələrin cərrahi müalicəsi ilə məhdudlaşmır, həm də müalicə və profilaktika tədbirləri kompleksinin aparılmasını tələb edir. Yem emalı sənayesinin inkişafı, kənd təsərrüfatında istehsal proseslərinin mexanikləşdirilməsi və elektrikləşdirilməsi müəyyən dərəcədə yem və heyvandarlıq binalarının yemlə yanaşı, gövşəyən heyvanların həzm sisteminə daxil ola bilən metal əşyalarla çirklənməsinə gətirib çıxarır. Udulmuş metal cismlər birbaşa torcuğa daxil olur və orada məskunlaşır. Bəzi hallarda udulmuş metal cism qarın divarını deşib travmatik retikuloperitonit də törədə bilər.

Tədqiqatçılar tərəfindən maqnit zond vasitəsilə müayinə edilən 538 baş inəyin 445-indən metal əşyalar tapılıbdır. Bu saydan yalnız 34 heyvanda (7,6%) travmatik retikulitin kliniki əlamətləri müşahidə olunubdur. Heyvanların yerdə qalan 92,4 faizində heç bir klinik əlamət olmamasına baxmayaraq, onların mədə önlüklərində metal əşyaların, o cümlədən ucları iti cismlərin olması belə heyvanları yalnız şərti sağlam hesab etməyə və onları "retikulometal daşıyıcı" adlandırmağa əsas verir (Denisenko V.N. və b., 1991).

Material və metodlar. Mal-qarada travmatik retikulitin qarşısını almaq üçün A.V. Korobovun maqnit zondlarından istifadə olunur. Heyvanın torcuğuna daxil edilmiş maqnit zond onun içində olan ferromaqnit obyektləri cəzb edir və zond çıxarıldıqda onları özü ilə çıxarır. Bu metodun çatışmazlığı ondan ibarətdir ki, zond çıxarıldıqdan sonra metal əşyalar yenidən mədəyə yem ilə daxil ola bilər və maqnit zondunu yenidən tətbiq etmək zərurəti yaranar. Maqnit halqa və ya "tələ" düzlənmiş dördtərəfli çubuqdur, o, şəbəkədə olmaqla hər yemləmə zamanı içinə düşən bütün dəmir mənşəli obyektləri özünə cəzb edir. Nəticədə, onlar heyvanlarda travmatik retikulitə qarşı daha etibarlı profilaktik tədbirlər görür. A.V.Korobov hesab edir ki, maqnit halqalarının profilaktik tədbir kimi tətbiqi çox səmərəlidir. Bundan əlavə, bəzi hallarda, maqnit həlqələri ən azı retikulitin ilkin mərhələsində terapevtik məqsədlər üçün istifadə edilə bilər (Korobov A.V., 2009).

Alınmış nəticələrin müzakirəsi. Südlük inəklərin böyük əksəriyyəti əslində torcuqlarında metal daşıyırlar, lakin onların bir çoxunda uzun müddət (aylar və hətta illər) travmatik retikulitə xas olan klinik əlamətlər özünü göstərmir. Torcuqda metal əşyaların olması, bir qayda olaraq, travmatik retikulitin klinik formasından əvvəldir, buna görə də klinik baxımdan mal-qaranın mədə önlüklərinin travmatik xəstəliklərini iki dövrə bölmək olar: torcuqda metal əşyaların olması dövrü və ağırlaşmalarla müşayiət olunan travmatik retikulit dövrü.

Xəstə heyvan adətən hərəkətsizdir, dirsəkləri çölə və boynu uzadılmış vəziyyətdə dayanır. Xüsusilə aşağı eniş zamanı yerişi gərgin və yavaş olur. Torcuğun büzülməsi iniltilərlə müşayiət olunur. Heyvanın sinə divarının sol tərəfini və aşağı hissəsini sıxarkən iniltilər və xırıltılar eşidilir.

Mal-qaranın mədə önlüklərinin travmatik xəstəliyinin qarşısını almaq üçün yemin yığılması, daşınması, saxlanması, hazırlanması və heyvanlara paylanması zamanı metal hissəcikləri ilə çirklənməsinin qarşısını almaq lazımdır. Sistemli olaraq yemlər, heyvanların gəzinti və otarılma yerləri və həyətləri metal qırıntılarından təmizlənməlidir.

Potensial təhlükə növlərinin vaxtında aradan qaldırılması üçün gündəlik monitorinq təşkil edilməlidir. Heyvandarlıq təsərrüfatlarında qulluq rejiminin və texnoloji proseslərin, yəni sağım, yemləmə, peyinin çıxarılmasının pozulması, habelə heyvandarlıq təsərrüfatlarında istifadə olunan mexanizm və cihazların mexaniki nasazlığı da heyvanların travma almasına səbəb olur.

Zədələrin qarşısının alınmasına vaxtında kastrasiya, kaudotomiya (quyruğun amputasiyası), buynuzların çıxarılması və böyüməsinin qarşısının alınması kimi hallar da aid edilə bilər. Buğaların dırnaqlarının müalicəsi, dezinfeksiyaedici prosedurların tətbiqi və dezinfeksiya baryerlərindən keçmək heyvanlarda topallığın qarşısını alır (Vlasenko A.İ və Romenckaya N.V., 2020).

İnsan amili çox vacibdir, heyvandarlıq fermasının işçiləri heyvanların düzgün saxlanması, istismarı və yemlənməsi ilə bağlı biliklər üçün vaxtaşırı maarifləndirilməli və sertifikatlaşdırılmalıdır. Təsərrüfatda istifadə olunan mexanikləşdirilmiş cihazların və avtomatik avadanlıqların idarə edilməsi üzrə bilik və bacarıqlar yenilənməlidir.

Yem travmaları daha çox yemləmə zamanı, yemlə birlikdə yad cismlərin udulduğu zaman baş verir. Metal və ya iti uclu əşyalar mədə önlüklərinə daxil olur, həm də yaxınlıqdakı orqanlara zərər verir. Statistika göstərir ki, heyvanlarda mədə-bağırsaq traktının problemlərinin əksəriyyətində səbəb yad cismlərin təsirindən daxili orqanların zədələnməsidir. Yad cismlərin mədə-bağırsaq traktına daxil olmasının səbəbi yemlərin emalı, heyvandarlıq təsərrüfatlarının başqa ərazilərində və otlaqlarda olan keyfiyyətsiz və çirklənmiş yemlərdir. Ona görə də, məftil parçalarının mədəyə daxil olması halları çox geniş yayılıbdır.

Yemlərin içərisində yad cismləri müəyyən etmək üçün təmizləmə, daşıma, saxlama və əlbəttə ki, yem paylayarkən daim monitorinq tələb olunur. Zəhərli bitkilərdən xilas olmaq üçün aqromeliorasiya tədbirləri həyata keçirilir. Qablaşdırmadan əvvəl qarışıq yem birbaşa fermada olan metal obyektləri aşkar etmək üçün xüsusi maqnit qurğularından keçirilməlidir. Yemlərin hamısı maqnit tələləri və ya maqnit zondlarından istifadə edilərək çirklənməyə görə yoxlanılmalıdır. Otu bağlamaq üçün məftil maşa və ya məftil kəsicilərlə kəsilərək çıxarılır və dərhal təsərrüfat ərazisindən kənara çıxarılır (Ryazanov İ.Q. və b., 2010)

Yem ehtiyatını, ot və samanı neylon iplə bağlamaq məqsədəuyğundur, heyvandarlıq təsərrüfatlarının və otlaqların yaxınlığında mexaniki emalatxanalar və ya kənd təsərrüfatı maşınlarının dayanacağını yerləşdirmək tövsiyə edilmir. Travmatik retikuloperitonit hallarına meylli təsərrüfatlarda profilaktika məqsədi ilə müəyyən müddət ərzində heyvanların qarın nahiyyəsinə maqnit həlqəsının daxil edilməsi tövsiyə olunur (Denisenko V.N. və b., 2014).

Bu tədbirlər sayəsində ferromaqnit obyektlər, mədə önlüklərinə daxil olduqda, həlqə saxlanılır və ən azı mədə və ya onun divarına zərər vermir. Həlqə maqnit zondundan istifadə edilərək çıxarılır, baytar həkiminin tövsiyəsi ilə bu əməliyyatın vaxtı seçilir, baxmayaraq ki, həlqə orada bir aya qədər və bəzən daha artıq müddətə qala bilər. Retikuloperitonitin klinik əlamətləri olduqda, təcili cərrahi müdaxilə tələb olunur.

ƏDƏBİYYAT

1. Власенко А.И., Роменская Н.В. Профилактика травматического ретикулита у крупного рогатого скота / Горинские чтения. Инновационные решения для АПК. Материалы Международной студенческой научной конференции. В 4-х томах. 2020, с. 115.
2. Денисенко В.Н., Наметов А.М., Петраков К.А. Естественная резистентность до и после руменотомии при травматическом ретикулите // Ветеринария. 1991, № 5, с. 49-51.
3. Денисенко В.Н., Рязанов И.Г., Рогов Р.В. Профилактика кормового травматизма в современном животноводстве / Актуальные проблемы ветеринарной медицины, зоотехнии и биотехнологии. Сборник научных трудов, посвященный 95-летию МГАВМиБ им. К.И. Скрябина, 2014, с. 135-137.
4. Коробов А.В. Применение новых инструментов, приборов и специальных научно-технологических разработок в области клинической ветеринарной терапии в условиях производства / Актуальные проблемы ветеринарной медицины. Сборник трудов, посвященный 90-летию МГАВМиБ им К.И. Скрябина, 2009, с.37-41
5. Рязанов И.Г., Рогов Р.В., Круглова Ю.С. Диагностика и лечение кормового травматизма у крупного рогатого скота // Ветеринария, зоотехния и биотехнология, 2018, №10, с. 47-50.

SUMMARY

Nigar Valizade

FEED TRAUMA IN COWS AND ITS PREVENTION PREVENTIVE MEASURES TAKEN

The economic damage caused by feed trauma in dairy cattle is no less than the damage caused by infectious diseases. Magnetic probes are used to prevent traumatic reticulitis in cattle. Magnetic probes placed on the animal's retina attract ferromagnetic objects inside, and when the probe is removed, it pulls them out with it. An animal with a traumatic injury is usually immobile, stands with elbows out and neck extended. His gait is tense and slow, especially during descent. The contraction of the torch is accompanied by moans. Food trauma occurs more frequently during feeding due to swallowing of foreign objects along with food. Metal or sharp-edged objects enter the stomach lining and damage the surrounding internal organs. Statistics show that the cause of most problems in the gastrointestinal tract in animals is damage to their internal organs by metal objects.

Key words: *Dairy cattle, feed trauma, metal objects, magnetic probes.*

SƏKİNƏ HƏSƏNOVA
shasanova672@gmail.com
Naxçıvan Dövlət Univeristeti
ORCID ID: 0009-0005-7593-3985

C.AURATA L. 1758 - QIZILI PARILDAĞ NÖVÜNÜN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Əldə olunan ədəbiyyat məlumatlarına əsasən deyə bilərik ki, lövhəbığ böcəklər muxtar respublikanın əsasən dağətəyi və aran-düzənlik zonalarında daha çox yayılmışdır. Böcəklər dəstəsinin lövhəbığlar fəsiləsi respublikamızda müxtəlif alimlər tərəfindən tədqiq olunmuş, bəzi növlərin bioekoloji əlamətləri haqqında məlumatlar verilmişdir. Belə növlərdən biri də lövhəbığ böcəklər fəsiləsinin Cetoniinae yarımfəsiləsinin əsas nümayəndələrindən olan qızılı parıldaq böcəyidir. Quru və orta rütubətli biotoplarda müxtəlif tip torpaqlarda məskunlaşır. Böcəklərin uçuşu martdan sentyabradək müşahidə olunur. Embrional inkişafları 16-18 gün çəkir.

Açar sözlər: *Qızılı parıldaq, böcək, embrional, pup, sürfə*

Giriş

Naxçıvan ərazisində kənd təsərrüfatı bitkilərinə zərər verən cücülər içərisində lövhəbığ böcəklər xüsusi yer tutur. Onların bir çox növləri müxtəlif bitkilərin kök və məhsulvermə orqanlarına böyük zərər verir. Buna görə də həmin böcəklərin növ tərkibi, yayılması, bioloji və ekoloji xüsusiyyətlərinin öyrənilməsinin şübhəsiz ki, təcrübi əhəmiyyəti vardır.

Apardığımız tədqiqatlar və ədəbiyyat məlumatlarına əsasən deyə bilərik ki, lövhəbığ böcəklər muxtar respublikanın əsasən dağətəyi və aran-düzənlik zonalarında daha çox yayılmışdır. Bunu əsasən iki qrupa bölmək olar, dəniz səviyyəsindən 800-1200 metr yüksəklikdə yayılan növlər. Bu növlərin içərisində kənd təsərrüfatı bitkilərinə zərər verən növlər çoxluq təşkil edir. Əksəriyyəti mədəni bitki aqrosenozlarında qidalanırlar.

Bunların içərisində (*Anisoplia*) cinsinin növləri daha çox üstünlük təşkil edir. İkinci qrup isə əsasən 1200-2000 metr yüksəkliklərdə yaşayırlar. Bunlar mədəni və yabanı bitki qruplaşmalarında müşahidə olunurlar. Əksəriyyəti meşə, kol, bağ və yabanı bitki zolaqlarında qışlayır və qidalanırlar. Dəniz səviyyəsindən 2000 metr yüksəkliklərdə çox az və təsadüfi növlərə rast gəlmək olur. Deməli, Kiçik Qafqazın zirvələrində lövhəbığ böcəkləri daha az yaşayır [Алекперова В.А., 1989]

Yayılması və morfoloji əlamətləri. Baxmayaraq ki, böcəklər dəstəsinin lövhəbığlar fəsiləsi respublikamızda müxtəlif alimlər tərəfindən tədqiq olunmuş, onların faunistik, sistematik vəziyyətləri, zoocoğrafi xüsusiyyətləri, bəzi növlərin bioekoloji əlamətləri haqqında məlumatlar verilmişdir, bununla yanaşı bir sıra növlərin bio-ekoloji xüsusiyyətləri barədə ətraflı məlumatlar demək olar ki, yox dərəcəsindədir.

Belə növlərdən biri də lövhəbığ böcəklər fəsiləsinin Cetoniinae yarımfəsiləsinin əsas nümayəndələrindən olan qızılı parıldaq (*Cetonia aurata* L.) böcəyidir **(şəkil 1).**



Şəkil 1. Yetkin böcəklər

Bu növə Rusiyanın Avropa hissəsi, Sibir (Amur vilayətinədək), Krım, Qafqaz, Qazaxstan, Özbəkistan, Qızğızstan, Ukrayna, Avropa, Ön Asiya, Qərbi Çin, Monqolustan, Türkiyə və s. Azərbaycanın Şəki-Zaqatala, Şamaxı-Qobustan, Quba-Xaçmaz, Gəncə-Daşkəsən, Dağlıq Qarabağ, Laçın-Kəlbəcər və Şirvan qrupu rayonlarında rast gəlinir [Nərimanova V.S.,2015]

Naxçıvanda ən çox dağlıq və dağətəyi qurşaqlarda yayılmışdır. Yetkin böcəklərin müxtəlif meyvə ağaclarının (alma, albalı, ərik, gavalı, alça), tənəyin, bir sıra tarla bitkilərinin (buğda, kartof, pambıq, kələm və s.) çiçək və qönçələrini zədələdiyi qeyd olunmuşdur.

Bədəni uzunsov, enli, arxaya doğru nisbətən ensizdir. Metalı parıltılı ağ ləkələrlə və zolaqlı, üstdən yaşıl, bəzən mis-qırmızı, qara, altdan isə mis-qırmızı rənglidir. Orta və arxa baldırın zirvələri və pəncələr tünd bənövşəyi, bığcıqları isə qaradır. Bığcığın birinci buğumu bəzən tutqun-büründü rəngdə olur.

Üzlük uzunsovdur, sıx və dərin nöqtələrlə örtülüdür. Ön kürək azacıq köndələndir, üzəri sıx və iri həlqəvi nöqtəlidir. Qalxancıq orta ölçüdədir, uzunsov-üçbucaqvaridir.

Qanadüstlüklərində arxa tərəfdən, şırım boyunca çökəklik nəzərə çarpır. Üzərində ensiz, köndələn vəziyyətdə ağ rəngli ştrixlər və kiçik nöqtəciklər (ləkələr) yerləşir. Böcəklərin bədən ölçüsünün uzunluğu 17-19 mm, eni isə 10-12 mm arasında dəyişir. Ön ayaqların baldır hissəsinin çöl tərəfində torpağı qazımağa uyğunlaşmış hərəsində 3 ədəd olmaqla 3 cüt dişcik yerləşmişdir. Orta ayaqların bud çanaqları arasında yerləşmiş döş çıxıntısı ensiz olub zirvədə dairəvidir.

Pigidi azacıq qabarıq olub, zirvəyə yaxın tək-tək tüklər var. Arxa çanaq sıx iri qövsvarı qırışlı və tüklüdür. Ayaqlar sıx nöqtəli, qırışlı və uzununa tükcüklüdür. Ön və arxa pəncələr baldırdan bir qədər uzundurlar. Arxa pəncələrin buğumları zirvədə çıxıntısızdır, aşağı hissədə isə kiçik qısa çıxıntıları var.

Bioekoloji xüsusiyyətləri və fenologiyası. Mezofil növ olub, aran, dağətəyi və meşə zonalarında rast gəlir. Quru və orta rütubətli biotoplarda müxtəlif tip torpaqlarda məskunlaşır.

Böcəklərin uçuşu martdan sentyabradək müşahidə olunur. Əsasən gündüz həyat tərzi keçirirlər. May ayında dişilər yumurtalarını çürümüş ağaclara, oyuqlara və çürüntüsü çox olan torpaqlara qoyurlar. Gürcüstanda parıldağ böcəklər içərisində ən kütləvi növ hesab olunur.

Embrional inkişafları 16-18 gün çəkir. Sürfələr mayın sonunda çıxır. Puplaşma iyundan başlanır. Həm sürfə, həm də böcəklər qışlayır . Qenerasiyaları birillikdir.[Məmmədov Y.M., Məmmədova A.Y.,2013]

Sürfələr torpağın 5-10 sm dərinliyində rast gəlir. Böcəklər demək olar ki, çiçəkləyən bütün bitkiləri zədələyirlər. Qeyd etmək lazımdır ki, Səmədov *C.aurata*-nın sürfə və imaqo mərhələsində qışladığını qeyd edir. Növün sürfə və imaqo mərhələsində qışladığını S.İ.Medvedyev də göstərir. Bizim apardığımız tədqiqatlar nəticəsində müəyyən olundu ki, Abşeron təbii zonasında qızılı parıldağ üç mərhələdə iri yaşlı sürfələr, yetkin böcəklər və torpaq baramacıq içərisində pup mərhələsində qışlayırlar.

Böcək mərhələsində qışlamaya gedən fərdlər mart ayının sonlarında qışlamadan çıxaraq tez çiçəkləyən bitkilərin nektarlarını, çiçək tozcuqları və əsası ilə qidalanaraq aprelin ortalarından cütləşməyə başlayırlar. Cütləşmədən sonra dişi fərdlər mayın ilk günlərindən yumurta qoyurlar.

Proses iyunun ortalarınadək davam edir. İlk sürfələrin yumurtadan çıxması may ayının üçüncü ongünlüyünə təsadüf edir. Sürfələrin inkişafı iyulun sonunadək müşahidə olunur. İlk puplaşma iyul ayının əvvəllərindən qeydə alınır və sentyabrın birinci ongünlüyündə başa çatır.

Puplardan avqustun ikinci yarısından sentyabrın ortalarınadək böcəklər uçsa da, onlar nəsil vermədən qışlamaya gedirlər.

Böcəklərdən bəziləri (2-5%) qışlamanı elə torpaq baramacıqların içərisində keçirirlər.

Onu da qeyd etmək lazımdır ki, sürfələrdə olduğu kimi, böcəklərdə də heyvani qidalara meyl, daha doğrusu kannibalizm nəzərə çarpır. Belə ki, təcrübələr zamanı döşün alt tərəfindən zədələnmiş fərdin digər bir böcək tərəfindən necə acgözlüklə həmin nahiyədən onu söküb yediyi müəllif tərəfindən fotoaparat vasitəsilə çəkilmişdir [Brett C., 2013]

Təzə qoyulmuş yumurta şarvarı ağımtıl rəngdə olub, diametri 2-2,3 mm ölçüdə olur.

Yumurtanın daxilində embrion inkişaf etdikcə onun rəngi bir qədər tündləşir, ölçüsü isə əvvəlkinə nisbətən 0,8-1 mm böyüyür.

Laboratoriya şəraitində 27-28ºC temperaturda embrional inkişaf 4-5 gün, 22-23ºC temperaturda 18-19 günə başa çatır. Temperaturun 11-12ºC-dək endirilməsi embrional inkişafın 45-48 günədək uzanmasına səbəb olur. 5-7ºC temperaturda isə embrional inkişaf demək olar ki, dayanır. Sürfə silindir formasında olub, sakit halda C-ə bənzər şəkil alırlar. Qarın nayihəsinin orta seqmentləri enliləşərək bir növ donqar əmələ gətirmişdir. Bədən örtükləri yumşaq, yarımşəffaf, rəngləri isə boz, sarıyaçalan olur. Baş kapsulları skeletləşmiş tutqun rəngdə olur. Antenaları 4 buğumludur. Qarın hissəsi əsasən 9 seqmentdən ibarətdir. [Ахметова Л.А., 2009]

3 cüt ayaqları uzun olub, eyni ölçüdədir. Ayaqlar çox zərif, zəif və sonuncu buğumda caynaqlar olmadığı üçün onlar yeriyə bilmirlər. Hərəkətləri yalnız arxası və nisbətən yanı üstə qurdvarı yığılıb-açılmaqla həyata keçirilir. Yenicə yumurtadan çıxmış sürfələrin uzunluğu 0,8-1,2 mm, çəkisi isə 0,5-0,7 mq olur.Sürfələrin inkişafı temperaturdan asılı olaraq, 25-28 gündən 2 ayadək davam edir. Sürfələr sonuncu inkişaf mərhələsinə çatdıqda onların çəkisi 2500-2700 mq-a qədər arta bilir. Sürfələr torpaqda bitki kökləri, qidalı çürüntülər, bitki toxumları, meyvə töküntüləri və hətta laboratoriya şəraitində çörək qırıntıları ilə çox həvəslə qidalanırlar. Ölçüləri isə 35-40 mm uzunluğunda və 10-12 mm eni olmaqla dəyişə bilir. Sürfələr arasında kannibalizm çox güclüdür. İri sürfələr kiçik yaşlı sürfələri çox həvəslə yeyə bilirlər. Bəlkə də onların təbiətdə artıb çoxalmasının qarşısını alan əsas səbəblərdən biri də (bəlkə də birincisi) onların bu xüsusiyyətləridir .

Sürfə mərhələsində qışlamaya gedən fərdlər martın ortalarında aktivləşərək qidalanırlar. Aprelin birinci yarısında onlarda puplaşma başlayır və proses mayın sonunadək davam edir. Belə puplardan ilk böcək uçuşu iyun ayının ikinci ongünlüyündən qeydə alınır. Cütləşmə iyulun 10-12-dən sonra, yumurtaqoyma isə iyulun sonları, avqustun birinci və ikinci ongünlüklərində qeydə alınır. Qoyulmuş yumurtalardan sürfələr avqustun birinci ongünlüyündən çıxmağa başlayırlar.

Nəticə

Aparılan tədqiqatlar nəticəsində Qızılı parıldaq bioekoli xüsusiyyətləri öyrənilmiş və böcəklərin uçuşu martdan sentyabradək müşahidə olunur. Mezofil növ olub, aran, dağətəyi və meşə zonalarında rast gəlir.Əsasən gündüz həyat tərzi keçirirlər.Həm sürfə, həm də böcəklər qışlayır.Sürfə mərhələsində qışlamaya gedən fərdlərin aktiv qidalanması martın ortalarında aktivləşir, aprelin birinci yarısında onlarda puplaşmanın başlaması, prosesin mayın sonunadək davam etməsi, böcək uçuşunun isə iyun ayının ikinci on günlüyündə qeydə alındığı araşdırılmışdır.

ƏDƏBİYYAT

1. Məmmədov Y.M., Məmmədova A.Y. Naxçıvan MR-də Anisoplia (Coleoptera, Scarabaeidae) cinsinə mənsub böcəklərin növ tərkibi, yayılması və zərərvermə xüsusiyyətləri // Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri, Bakı: 2013, cild V, №2, s.67-69.
2. Nərimanova V.S. Abşeronda C.aurata L., 1758 növünün (Coleoptera, Scarabaeidae) inkişaf xüsusiyyətləri // Zoologiya institutunun əsərləri, Bakı: 2015, cild 33, №2, s.105
3. Nərimanova V.S., Əhmədov B.Ə. Cetonia aurata Linnaeus, 1758 (Coleoptera, Scarabaeidae, Cetonia) populyasiyasının fizioloji göstəriciləri // Azərbaycan Zooloqlar cəmiyyətinin əsərləri, Bakı: 2015, cild 7, №1, s.99-104.
4. Алекперова В.А. Насекомые (Homoptera, Coleoptera, Hymenoptera) обитающие в агроценозе виноградной лозы северо-восточной части Азербайджана и их хозейственное значение. Автореф. дис. … канд.биол.наук. Баку: 1989 г, 17 с.
5. Ахметова Л.А. Обзор пластинчато усых жуков подрода Plagiogonus mulsant рода Aphodius illiger (Coleoptera, Scarabaeidae) фауны России и сопредельных стран // Энтомол. Обозрение, 2009, 88, №2, с.391-399.
6. Brett C. Ratcliffe. A checklist of the Scarabaeoidea (Coleoptera) of Panama // Zootaxa, 2002, (32), 1-48.

7. Dellacasa M., Dellacasa G., & Gordon R.D. Cephalocyclus majomaensis and Oscarinus cabreroi new species of Mexican Aphodiinae (Coleoptera: Scarabaeidae: Aphodiinae).- Insecta Mundi, Gainesville, 2013, 285: p.1-5
8. http://www.globalspecies.org, © Myers Enterprises II 2009-2016.

SUMMARY

Sakina Hasanova

C.AURATA L. 1758 - GOLDEN SPARKLING SPECIES DEVELOPMENT CHARACTERISTICS

According to the available literature data, we can say that the beetles are more common in the foothills and lowland areas of the Autonomous Republic. The family of beetles, the family of beetles, has been studied by various scientists in our republic, and information on the bioecological characteristics of some species has been provided. One of these species is the golden shiner beetle, which is the main representative of the subfamily Cetoniinae of the family of beetles. It lives in different types of soil in dry and moderately humid biotopes. The flight of insects is observed from March to September. Embryonic development takes 16-18 days.

Key words: *Golden glow, beetle, embryonic, pupa, larva*

РЕЗЮМЕ

Сакина Гасанова

C.AURATA L. 1758 – ЗОЛОТЫЕ СВЕРКАЮЩИЕСЯ ВИДЫ ХАРАКТЕРИСТИКИ РАЗВИТИЯ

По имеющимся литературным данным можно сказать, что жуки более распространены в предгорных и равнинных районах Автономной Республики. Семейство жуков-жуков изучено различными учеными нашей республики и приведены сведения о биоэкологических особенностях некоторых видов. Подсемейство Cetoniinae семейства жуков.Обитает в разных типах почв в сухих и умеренно влажных биотопах.Лет насекомых наблюдается с марта по сентябрь.Эмбриональное развитие занимает 16-18 дней.

Ключевые слова; *Золотое сияние, жук, эмбрион, куколка, личинка*

QARATEL HÜSEYNOVA
qaratelhuseynova6@gmail.com
ORCID ID: 0009-0007-0495-9365

FƏRİDƏ SƏFƏROVA
seferova05@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0006-3350-6093

BALQABAQ - *CUCURBITA* L. CİNSİNİN BİOLOJİ XÜSUSİYYƏTLƏRİ

Məqalədə, dünya florasında çiçəkli bitkilər içərisində mühüm yer tutan Balqabaqkimilər - Cucurbitaceae Juss. fəsiləsi araşdırılmışdır. Aparılmış araşdırılmalara əsasən, məlum olmuşdur ki, dünyada Balqabaqkimilər - Cucurbitaceae Juss. fəsiləsi 95 cinsə aid 965 növü əhatə edir. Naxçıvan Muxtar Respublikası florasında isə 8 cinsə aid 9 növü mədəni və yabanı florada yayılıb.

Balqabaq (Boranı) - Cucurbita L. cinsi Balqabaqkimilər - Cucurbitaceae Juss. fəsiləsinin tipik nümayəndəsidir. Balqabaq (Boranı) - Cucurbita L. cinsinin dünyada bəzi mənbələrə əsasən 27-yə qədər növ yayılıb ki, bunlarda 6 növü mədəni florada becərilir. Azərbaycanda 3 növü Adi balqabaq – Cucurbita pepo, Muskat balqabağı – Cucurbita moschata, İri balqabaq – Cucurbita maxima olmaqla becərilir. Balqabağın meyvəsindən və toxumundan tibdə, kulinariyada istifadə olunan. İri balqabağın lətli hissəsindən xalq təbabətində kəskin və xroniki sistitdə, böyrək, ürək, qaraciyər xəstəliklərində, ateroskleroz və podaqrada effektlidir, toxumlarından həlqəvarı (askarid) və lentvarı qurdlara qarşı qurdqovucu kimi tibdə istifadə edilir. "Tıkveol" preparatı hepatoprotektor, ödqovucu, yaraəleyhinə təsir göstərir.

Açar sözlər: *Cucurbitaceae* Juss.; *Cucurbita* L.; *Cucurbita pepo; Cucurbita maxima; Cucurbita moschata.*

Giriş

Balqabaqkimilər - *Cucurbitaceae* Juss. fəsiləsi dünyada təxminən 95 cinsdə cəlməşən 965 növdən ibarət bitki fəsiləsidir. *Naxçıvan Muxtar Respublikası florasında isə 8 cinsə aid 9 növü mədəni və yabanı florada yayılıb.* Bu fəsiləyə daxil olan Balqabaq (Boranı) - *Cucurbita* L. cinsinin 3 növü *Adi balqabaq – Cucurbita pepo; muskat balqabağı – Cucurbita moschata; İri balqabaq – Cucurbita maxima* olmaqla dünyanın hər yerində becərilir (Talıbov T.H., İbrahimov Ə.Ş. 2008).

Balqabaq insanlara qədim zamanlardan məlumdur. Uzun müddətdir ki, dünya xalqları arasında tibdə, kulinariyada istifadə olunan qiymətli ərzaq kimi yetişdirilir. Balqabağın əksər növləri Şimali və Mərkəzi Amerika bölgələrindən gəlir.

Meksikalılar eramızdan əvvəl 3000-ci ildən bəri balqabaq yeyirlər. ABŞ-ın cənub-qərbindəki qədim mağara məskənlərinin qalıqlarında balqabaq areoloji meyvələrinin gövdəsi, toxumu və hissələri aşkar edilib. Bu gün balqabaq dünyanın bütün kənd təsərrüfatı bölgələrində yetişdirilir. Balqabaq meyvələri yastı və sferik, oval-silindrik və uzunsov, bəzən kəsmə ilə klub şəklindədir. Rənginə görə: ağ və boz, sarı-narıncı, bəzən sarı-yaşıl naxışlı. Ən yaxşı məhsuldar illərdə meyvələri 40-50 kq-a qədər böyüyür, hətta 100 kq ağırlığa catır. Balqabaq istiliyi sevən, istiyə davamlı, quraqlığa davamlı məhsuldur. Qara torpaqlarda daha yaxşı inkişaf edir.

Nəticələrin müzakirəsi: Cinsin növlərinin çiçəkləri birevli, iri, bir və ya çoxtumurcuqludur. Kasacığı zəngşəkilli, 5(4-7) paycıqlıdır. Çiçək tacı sarı, zəngşəkilli, yarıya qədər və ya tamamilə beşbölümlüdür. Erkəkciyi 3 ədəd, saplağı sərbəst, tozcuğu S-ə bənzər olub, başcıq hissəsi qatlanmışdır. Meyvəsi iri, ətli olub, müxtəlif formalıdır.

Bitkinin əsas xammalı toxumlarıdır. Toxumlar tam yetişmiş meyvələrdən toplanır. Bunun üçün toxumlar meyvəyanlığının lətli hissəsindən təmizlənir, kağız və ya parçanın üzərinə sərməklə aradabir qarışdırmaq şərtilə qurudulur. Toxumlar ellips formasındadır, səthi tutqun və ya parıltılı,

hamar və ya kələ-kötürdür. Toxumların qabığı iki hissədən ibarətdir: xarici - odunlaşmış, tez ayrılan və daxili- nazik pərdəli, rüşeymə bitişik hissə. Bəzən odunlaşmış qabıq olmaya bilir. Rüşeym iki sarımtıl-ağ ləpədən və az miqdarda kökcükdən ibarətdir. Toxumlar 1,5-2,5 sm uzunluğunda, 0,8-1,4 mm enində, orta hissəsi isə 0,1-0,4 mm qalınlığındadır. Toxumların rəngi ağ, ağımtıl və ya bozumtul çalarda, təsadüfi hallarda yaşılımtıl-boz və ya sarı olur. İysizdir. Odunlaşmış qabıqdan təmizləndikdən sonra toxumların dadı şirintəhər və yağlıtəhərdir.

Toxumlarının toplanıldığı ölkə Ukrayna hesab olunur. Toxumları payızda meyvələri yetişən dövrdə toplanılır. Meyvələri əl ilə yığılır, toxumları lətli meyvəyanlığından seçilir. Meyvələrinin ümumi kütləsinin 10%-ni toxumlar təşkil edir. Meyvələrinin lətli hissəsindən *karotin* alınır. Toxumları qızdırılmadan yaxşı ventiliyasiyalı çardax və naveslərdə 2 sm-ə qədər qalınlığında kağız və ya parça üzərində sərərək qurudulmalıdır. Müalicə məqsədilə istifadə edildiyindən quruducu soba və şkafda qurutmaq məqsədəuyğun sayılmır.

Becərilən növlər üzərində burulmuş bığcıqlar olan sürünən gövdəli birillik ot bitkisidir. Adi balqabaqda gövdə aydın müşahidə olunan tillidir, üzərində qaba çıxıntılar var. Yarpaqları beşdilimlidir, dilimlər itidir. Ləçəkləri düzdüran və iti ucludur. Meyvələri iridir orta çəkisi 5-10 ilə 60 kiloqram arasında dəyişir, 15-40 sm diametrində, rənginə və formasına görə müxtəlifdir. Toxumları açıq-sarı rəngdədir. Yumruya yaxın, kənarları aydın olan toxumların min ədəd çəkisi 400-500 qramdır. Bir kiloqramda orta hesabla 2000-2500 toxum var.

Balqabaq toxumlarında 50%-ə qədər piyli yağ var ki, onun da əsas tərkib hissələri linol (45%), olein (25 %) və stearin (35 %) turşularıdır. Həmçinin fitosterin - kukurbitol, kukurbitin (18%-ə qədər aminturşu məcmuyu (leysin, tirozin, fitin)), kiçik molekullu peptidlər, zülal (35 %), üzvi turşular: nikotin, oksiserotin, B_1, B_2, C və E vitaminləri (beta- və qama-tokoferollar), 5 mq karotin, nikotin turşusu, mikroelementlər (Cu, Co, Zn, Mg, Fe) və amin turşuları vardır. Yarpaqlarının tərkibində 620 mq% C vitamini, zülallar, sərbəst və birləşmiş şəkildə fitosterinlər (beta-sitosterin), üzvi turşular, silisium turşusu və s. müəyyən edilmişdir (Hamid, S. et al. 1995).

Adi balqabaq *(Cucurbita pepo)* mədəni, birillik, birevli ot bitkisi olub, gövdəsinin uzunluğu 10 m olub, spiralvarı burulan bığcıqları vardır. Adi balqabaq gövdəsi rəndələnmiş, yonulmuş, tikanlı və sərt tükcüklü, yarpaqları tikanlı-kələ-kötür, ürəkşəkilli, beşpərli və itidir. Çiçəkləri bircinsiyyətli, sarı, iri, tək və ya erkəkciyi dəstəlidir. Çiçək tacı zəngşəkilli, 5-10 sm diametrli, itiuclu və düzqalxandır. Meyvəsi iri, diametrli, 15-40 sm, şarşəkilli və ya ellipsvari formalı, çoxsaylı sarımtıl-ağ toxumlardan ibarətdir. İyun ayında çiçəkləyir. Adi balqabaq mötədil, mülayim yerlərdə daha məhsuldar olur. Ventiliyasiyalı, quru yerlərdə (3 il) saxlanılır.

Muskat balqabağı *(Cucurbita moschata* Muskat) balqabağın gövdəsi küt, yumşaq tükcüklü, yarpaqları 5-7 pərli, dəyirmi-böyrəkşəkilli və iti pərlidir. Tacı iti qatlanmışdır. Meyvələri uzunsov, adətən yastılaşmış-şarvarı olmaqla, müxtəlif rənglərdə olur. Toxumları tutqun-ağ olur. Balqabaq iri silindrik olub, gövdəsi yumşaq tükcüklüdür. Yarpaqları 5 pərli, böyrəkşəkilli, küt, dəyirmi pərli olmaqla, sərt tükcüklüdür. Tacı girdə, dəyirmi formalıdır. İyun ayında çiçəkləyir. Muskat balqabağının gövdəsi küt tillidir, zəif tüklü, yarpaqları 5-7 dilimli, girdə-böyrəkşəkilli və dilimləri itidir. Ləçəkləri itiuclu və əyilmiş şəkildədir. Meyvələri uzunsov olub, ortasından basıqdır. Rənginə görə müxtəlifdir. Toxumları iri, ağ və ya sarımtıldır. Toxumları bulanıq-ağ və ya bozumtul rəngdədir (Decker, D. S. 1988).

İri balqabağın (*Cucurbita maxima)* silindrik, zəif tüklü gövdəsi vardır. Yarpaqları beşdilimli, böyrəkşəkillidir, dilimləri küt girdə, qaba tüklüdür. Ləçəklər burulmuş şəkildədir. Meyvələri adətən yastı şar formasındadır. Toxumları iri, ağ və ya sarımtıl rəngdədir. Bütün bu balqabaq növlərindən İri balqabaq - *Cucurbita maxima* duch.dünyanın müxtəlif ölkələrində, həmçinin Azərbaycanda becərilir və tibdə istifadə edilir.

Nəticə: Balqabağın lətli hissəsindən yeyinti sənayesində, toxumlarından isə xalq təbabətində qədim zamanlardan bəri qurdqovucu vasitə kimi istifadə edilir. Son illərdə farmokoloji və kliniki təcrübələr nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda becərilən boranı toxumları son dərəcə qüvvətli qurdqovucu təsirə malikdir. Bu cəhətdən İri balqabaq - *Cucurbita maxima* duch.

toxumlarının təsiri xüsusilə qeyd edilir. *Adi balqabaq – Cucurbita pepo, İri balqabaq – Cucurbita maxima növləri* Azərbaycan Respublikasında müxtəlif sortları da yetişdirilmişdir. Bunların da qurdqovucu təsiri müəyyən edilmişdir. Xüsusilə, bunlardan biri olan "Çılpaqtoxum" boranının daha qüvvətli qurdqovucu təsirə malik olduğu müəyyən edilmişdir.

Bununla əlaqədar olaraq, həmin sortun qurdqovucu dərman kimi istifadə olunmasına dair 1956-cı il aprelin 25-də keçmiş SSRİ Səhiyyə Nazirliyi Elmi Şurasının Farmakoloji Komitəsi rəsmi qərar qəbul etmişdir.

ƏDƏBİYYAT

1. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri. Naxçıvan: Əcəmi NPB, 2008, 364 s.
2. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının Qırmızı Kitabı. c. II, Naxçıvan: Əcəmi, 2010, 677 s.
3. Talıbov T.H., Səfərova F.A.. Naxçıvan Muxtar Respublikasının zəhərli bitkiləri. "Əcəmi" nəşriyyatı, 2017, s. 232.
4. Hamid, S. et al. 1995. Medicinal plants of family Cucurbitaceae of Pakistan (part II). Hamdard
5. Decker, D. S. 1988. Origin(s), evolution, and systematics of *Cucurbita pepo* (Cucurbitaceae).

SUMMARY

Garatel Huseynova
Faryda Safarova

BIOLOGICAL CHARACTERISTICS OF GENUS CUCURBITA L. -PUMPKIN

In the article, Cucurbitaceae Juss, which occupies an important place among flowering plants in the world flora. chapter has been investigated. Based on the conducted research, it was found that in the world Cucurbitaceae Juss. The family includes 965 species belonging to 95 genera. In the flora of Nakhchivan Autonomous Republic, 9 species belonging to 8 genera are spread in cultivated and wild flora.

Genus Pumpkin - Cucurbita L. . is a typical representative of the family Cucurbitaceae Juss. The genus Pumpkin -Cucurbita L., according to some sources, has up to 27 species in the world, of which 6 species are cultivated in cultivated flora. In Azerbaijan, 3 types are cultivated: Cucurbita pepo, Cucurbita moschata, Cucurbita maxima. Pumpkin fruit and seeds are used in medicine and cooking. The fleshy part of the large pumpkin is effective in acute and chronic cystitis, kidney, heart, liver diseases, atherosclerosis and gout in folk medicine, its seeds are used as an anthelmintic against roundworms and tapeworms. The drug "Tikveol" has a hepatoprotective, choleretic, anti-ulcer effect.

Key words: *Cucurbitaceae Juss.; Cucurbita L.; Cucurbita pepo; Cucurbita maxima; Cucurbita moschata.*

TAHİRƏ İNTİZAMLI
tahireintizamli8@icloud.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0005-9161-1257

EKOLOJİ TƏRBİYƏNİN PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI VƏ PRİNSİPLƏRİ

Təbiətdən səmərəli istifadə və onun mühafizəsi üçün təbii prosesləri idarə edən qanunların nəzərə alınması vacibdir. Məhz təbii prosesləri idarə edən qanunların nəzərə alınmaması, hər şeyin iqtisadi maraqlara qurban verilməsi torpaqların yararsızlaşmasına, dənizlərin və digər sututarların çirklənməsinə, balıq ehtiyatlarının nəzərə çarpacaq dərəcədə azalmasına, meşələrin, torpaqqoruyucu zolaqların məhv edilməsinə və s. ekoloji bəlaların yaranmasına səbəb olmuşdur. İndiyədək təbii gözəlliyi və zənginliyi ilə fəxr etdiyimiz Yer kürəsinin ekoloji böhrana düçar olmasına qarşı narazılıqlar getdikcə daha kəskin xarakter alır.

Ekoloji tarazlığın qorunub saxlanması təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edir.Təbiətə şüurlu, qayğıkeş münasibətin formalaşdırılmasında, gənc nəslin ekoloji tərbiyəsində ümumtəhsil fənlərinin hər birinin özünəməxsus rolu vardır. Bu baxımdan təbiət fənlərindən biologiyanın imkanları daha geniş və realdır.

Məktəblilərdə ekoloji tərbiyənin formalaşdırılması üçün müxtəlif forma və metodlardan, sinifdənxaric və məktəbdənkənar tədbirlərdən, radio-televiziya və başqa kütləvi informasiya vasitələrindən istifadə edilir.

Açar sözlər: *ekologiya, təcrübə, təbiət, bilik, fənn, müşahidə, müsahibə*

Çiriş

Azərbaycanın ərazisi qonşu dövlətlərin ekoloji təsiri altındadır. Bilavasitə Kür və Araz çaylarına, yaxud onların qollarına axıdılan çirkab suları və müxtəlif zərərli maddələr respublikamızın ərazisinə, onun torpağına, suyuna, bitkilər və heyvanlar aləminə daxil olur.

Təbiətə şüurlu, qayğıkeş münasibətin formalaşdırılmasında, gənc nəslin ekoloji tərbiyəsində ümumtəhsil fənlərinin hər birinin özünəməxsus rolu vardır. Bu baxımdan təbiət fənlərindən biologiyanın imkanları daha geniş və realdır. Həmin fənlər üzrə tədris proqramında məktəblilərin ekoloji təhsili və tərbiyəsi birinci dərəcəli vəzifələr sırasında qeyd edilmişdir. Lakin mövcud biologiya dərsliklərində bu vəzifənin yerinə yetirilməsinə xidmət edə biləcək materiallar kifayət qədər deyildir.

Ümumiyyətlə, biologiya fənləri üzrə hər bir dərs məktəblilərin ekoloji biliklərini dərinləşdirməli, onlarda təbiətə qayğıkeş münasibət formalaşdırmalıdır.

Ekoloji bilikləri dərindən mənimsəyən məktəblilər özlərini əhatə edən təbiətdə baş verən hadisələri təhlil etmək bacarığına, təbiətin ayrı-ayrı komponentləri arasındakı səbəb-nəticə əlaqələrini müəyyən etmək qabiliyyətinə malik olurlar. Onlar bu və ya digər məsələlərə dair müxtəlif nöqteyi-nəzərləri tutuşdurmağı, həmin məsələlərə fəal münasibət göstərməyi, təbiəti mühafizəyə dair əməli təklif irəli sürməyi bacarırlar.

Material və metodlar

Biologiya fənlərinin tədris materialları əsasında VI-XI sinif şagirdlərinin ekoloji tərbiyəsinin mahiyyəti və vəzifələri, pedaqoji-psixoloji əsasları, prinsipləri, forma və metodları, şərtləri, xüsusiyyətləri, məzmunu tədqiq edilmiş və bunun uşaqların ümumi inkişafına təsiri öyrənilmişdir.

Məqalə təbiətşünaslıq və biologiya fənlərinin tədrisi keyfiyyətini yüksəltməyə, məktəblilərin ekoloji biliklərinin dərinləşməsinə xidmət edir və Azərbaycanın ümumtəhsil məktəblərinin regional

xüsusiyyətləri nəzərə alınmaqla məktəblilərin ekoloji tərbiyəsini formalaşdırmağın yerini və dərəcəsini müəyyənləşdirməyə qismən də olsa istiqamət verir.

Müzakirə

Yer kürəsində pozulan ekoloji tarazlıq Azərbaycanda da özünü açıq surətdə göstərməkdədir. Onun zirvəsi qarlı dağları, sərin bulaqları, zəngin ovalıqları, mineral suları, enerji və suvarma əhəmiyyətli bol sulu çayları var. Yeraltı sərvətlərdən – alüminium, dəmir filizi, qızıl, neft və mis yataqları var. Çoxsaylı iqlim qurşaqlarına malikdir. Lakin sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, eləcə də erməni təcavüzünün təbiətimizə vurduğu ziyan bizə və gələcək nəsillərimizə ekoloji problemlər yaratmışdır. Belə ki, Xəzər dənizi, Kür və Araz çayları, digər sututarlarımız çirklənmiş, torpaqlarımız eroziyaya uğramış və şoranlaşmışdır. Torpağa, bitkilərə düzgün verilməyən gübrələr, zəhərli kimyəvi maddələr, suyu, torpağı, havanı çirkləndirir və bitkiləri, heyvanları, mikroorqanizmləri məhv edir. İri şəhərlərimizdə atmosferin çirklənməsi əhalinin normal yaşayışına mane olur (Cabbarov S. 1989).

Ekologiya pedaqogika elminə dərindən nüfuz edir və ekoloji təhsil konsep-siyası mühüm yer tutmağa başlayır. Onun aktuallığı bəşəriyyətin müasir həyatının obyektiv şəraitindən, elmi-texniki inqilab dövründən, ekoloji problemlərin kəskinləşməsindən irəli gəlir.

Təbiətin şəxsiyyətə və şəxsiyyətin təbiətə münasibətinin mənəvi-estetik cəhətini də qeyd etmək lazımdır. Təbiət şəxsiyyətin yetkinliyini yoxlamaq, ümumbəşəri xeyirxahlıq, vicdan, mərhəmət hisslərinin möhkəmlənməsi və inkişafı üçün sınaq meydanıdır. Həmçinin, təbiət gözəlliyin tükənməz mənbəidir. Ədəbiyyat və incəsənət nümunələri ilə tanış olmaları prosesində məktəblilərin təbiətə meyli artır. Bu mənada estetik tərbiyəni ekoloji tərbiyədən ayırmaq olmaz. Humanist hisslər o zaman inkişaf edir ki, insan təbiətlə özü arasında müəyyən bir münasibət, ünsiyyət yaradır. İnsanın bütün həyatı təbiətlə bağlıdır və insan onunla ahəngdar münasibət yaratmalıdır. Ekologiya humanizmi və pedaqogikanın humanizmi qarşılıqlı surətdə bir-birini tamamlayır. Ona görə də təbiəti sadəcə insan həyatı sferasına deyil, həmçinin humanizm sferasına da daxil etmək olar. Bu, o deməkdir ki, təbiət haqqında bütün elmlər qəti surətdə humanitarlaşmalıdır. Bunsuz təbiət üzərində bizim hökmranlığımız bizim lənətimizə çevriləcək.

Təbiətin mühafizəsi, ona qayğı ilə yanaşmaq üzrə fəaliyyətin zəruriliyinə inanmadan mümkün deyildir. Ona görə də ekoloji təhsilin əsas məqsədlərindən biri təbiəti mühafizə etməyin zəruri olması əqidəsinin formalaşdırılmasından iba-rət olmalıdır.

Təbiəti qorumaq əqidəsinin quruluşu üç əsas komponentdən ibarətdir:

1. İntellektual komponent – əqidənin kökündə duran ekoloji biliklər, dünyagörüş səciyyəli intellektual bacarıqlar və səbəbiyyət şüurunun üsullarına nail olma.
2. Şəxsi komponent – təbiətə münasibət və təbiətdə baş verən hadisələrin qiymətləndirilməsi; təbiəti qorumaq fəaliyyətində məqsədlərin qoyulması və onların səbəblərinin əsaslandırılması; əxlaqi istiqamətlilik; təbiəti mühafizə etmək zəruriliyinə inam.
3. Subyektin daxilən hazırlığı (tələbatları, istəkləri, məramları) – subyektin mövcud olan biliklərə müvafiq surətdə fəaliyyət göstərməyə hazırlığı, real fəaliy-yətdə təcəssüm etdirməsi, yəni əqidələrin «kəsərliliyi».

Ekoloji təlim inkişafetdirici olmalıdır. Deməli, məktəblilərdə dərketmə fəaliyyəti, onların təfəkküründün inkişafına kömək etməlidir. Bunun üçün məktəblilər zehni fəaliyyət üsullarına yiyələnməlidirlər. Məktəblilərin təhlil, ümumiləşdirmə, müqayisə, tutuşdurma və s. üsullara yiyələnmələri vacibdir.

Təbiətə münasibət psixoloji cəhətdən mürəkkəbdir. Bu, məktəblilərin ekoloji təfəkküründü inkişaf etdirir. Təbiətə münasibətin mürəkkəbliyi onunla bağlıdır ki, təbiətin mühafizəsi bir yandan bitkiçilik və heyvandarlıq məhsullarının təkrar isteh-salı, mühitin qorunması, digər tərəfdən isə təbiətdən səmərəli istifadə etmək deməkdir (Abdullayev H. 1987).

Təbiəti qorumağın əqidəyə çevrilməsi, həmin əqidənin komponentlərinin müəyyən edilməsi ekoloji tərbiyənin psixoloji əsaslarını aşağıdakı qaydada müəyyən etməyə imkan verir. Məlum olduğu kimi hər üç komponentin birliyi məktəblilərin ekoloji tərbiyəsinin psixoloji tamlığını yaradır.

Buradan ekoloji tərbiyənin psixoloji əsasları ayrılır. Bunlardan birincisi, məktəblilərin ekoloji hisslərə yiyələnməsidir. Ekoloji tərbiyə ilkin hisslərdən biri olub, uşağın ətraf aləmlə tanışlığından başlanır. Xüsusilə kənd yerlərində əkin-biçinlə, maldarlıq və bağçılıqla məşğul olarkən məktəblilər ətraf aləm, təbiət hadisələri, su, hava, torpaq, bitki örtüyü və bunların insan həyatındakı rolu ilə tanış olurlar. Şəhərdə yaşayan uşaqlar ətraf aləmi televiziya verilişləri ilə mənimsəyirlər. Sonralar bu hisslər uşaq bağçalarında və təhsil müəssisələrində daha da möhkəmlənir. Dərsliklərdəki ətraf mühitin qorunmasına dair materiallar, kütləvi informasiya vasitələrindən əldə edilən biliklər bu hissləri davamlı edir. Bədii ədəbiyyat, torpağa, təbiət gözəlliyinə, bitki və heyvanlar aləminə həsr edilmiş şerlər və mahnılar uşaqlarda təbiətə qayğını möhkəmləndirir. Bununla da təbiətə qayğı hissi uşağın sönməz hissinə çevrilir, yəni təfəkkürün bu barədə mənimsədiyi biliklərin, onun hisslərinin ilkin formalaşması prosesi başlayır (Cabbarov S. 1989).

Ətraf mühitin mühafizəsi borcu – vətənin havasının, suyunun, torpağının, flora və faunasının qorunması naminə əzmkarlıq göstərmək, təşəbbüskarlıq etmək, nümunə olmaq deməkdir. Ətraf mühitin mühafizəsi borcunun dərk edilməsində ekoloji tərbiyə motivli kinofilmlər, kiçik səhnəciklər, bədii ədəbiyyat, dünyanın və Azərbaycanın florasına və faunasına həsr edilmiş televiziya verilişləri, internet saytları mühüm yer tutur. Məktəbdə müəllimin, evdə valideynlərin, kütləvi informasiya vasitələrinin və eləcə də digər bədii vasitələrin gücü ilə məktəblilər özlərinin ətraf mühitin mühafizəsi borclarını dərk edirlər. Ətraf mühitin mühafizəsinin dərk edilməsi ekoloji tərbiyə fəaliyyətinə təhrikedici vasitədir. Deməli, ətraf mühitin qorunması, ekoloji tarazlığın mühafizəsi istiqamətinə yönəldilmiş tədbirlərin həm keyfiyyətini, həm də kəmiyyətini yüksəltmək lazımdır (Abdullayev H. 1987).

Məktəblilərin ekoloji tərbiyəsinin psixoloji əsaslarından üçüncüsü – onların ətraf mühitin qorunmasına cəlb edilməsidir.

Yuxarıdakı tələbləri ödəyəcək prinsipləri biz belə müəyyənləşdirmişik:

1) Ekoloji tərbiyə üzrə tarixi təcrübələrə istinad edilməsi prinsipi. İbtidai icma dövründən ta indiyə qədər insanların təbiət hadisələrinə ilahi qüvvə kimi baxmaları, müxtəlif bitki və heyvanların müqəddəsləşdirilməsi, ayrı-ayrı xalqlar tərəfindən bəzi heyvanların totem kimi qəbul edilməsi bu prinsipə misal ola bilər.

2) Ekoloji tərbiyə prinsipləri. Ekoloji tərbiyədə əsas məqsəd məktəbliləri ətraf mühitə qayğılı münasibət ruhunda tərbiyə etməklə həyata hazırlamaqdır.

3) Ardıcıllıq və fasiləsizlik prinsipi. Pedaqoji həyat və təcrübələr göstərir ki, fasiləsiz və ardıcıl keçirilən tədbirlər nəticə etibarilə səmərəli olur. Belə ki, təbiətin mühafizəsi üzrə keçirilən bütün tədbirlər (sututarların, balıqların qorunması, bitkilərin və heyvanların bəslənməsi, suya, enerjiyə, ərzaq məhsullarına qənaət olunması) mütəmadi və ardıcıl surətdə yerinə yetirilməklə möhkəmlənir. Ona görə də ekoloji tərbiyə işinin həyata keçirilməsində bu prinsipə əməl edilməsinin müstəsna əhəmiyyəti var.

4) Məqsədyönlülük prinsipi. Təcrübə göstərir ki, tərbiyə işində əsas məqsədi əvvəlcədən görmək və tərbiyəvi tədbirləri bilavasitə ona tərəf yönəltmək çox vacibdir. Yəni tərbiyəçinin məqsədi ilə fəaliyyəti vəhdətdə olmalıdır.

Nəticələr

Məktəblilərin ekoloji tərbiyəsinin psixoloji əsasları aşağdakılardır:

a) ətraf mühiti mühafizə etmək borcunun dərk edilməsi;
b) məktəblilərin ətraf mühitin qorunmasına cəlb edilməsi.

Məktəblilərin ekoloji tərbiyəsinin pedaqoji əsasları aşağıdakılardır:

a) kollektiv;
b) müəllim və tərbiyəçinin şəxsi nümunəsi;
c) müəllim-şagird münasibətlərindəki qarşılıqlı inam.

Məktəblilərin ekoloji tərbiyəsi işində aşağıdakı prinsiplərdən istifadə edilməsi yüksək fayda verir:

a) ekoloji tərbiyə üzrə tarixi təcrübəyə istinad edilməsi prinsipi;
b) ekoloji tərbiyə prinsipi;

c) ardıcıllıq prinsipi;
ç) məqsədyönlülük prinsipi.

ƏDƏBİYYAT

1. Abdullayev H. Şagirdlərin ekoloji tərbiyəsi // Kimya və biologiya tədrisi, 1987, №3, s.56-58
2. Abdullayev İ.A. Ekoloji şüur və ekoloji tərbiyə: Qarşılıqlı təsirin dinamikası: Fəl.elm.nam. dis. avtoref. Bakı: 1997, 21s.
3. Əliyev H.Ə. Həyəcan təbili. Bakı: 2003, Nurlan, 174 s.
4. Cabbarov S. Şagirdlərin ekoloji tərbiyəsi // Azərbaycan məktəbi, 1989, №3, s.33-36
5. Ашихмина Т.Я. Школьный экологический мониторинг. Учебно-методическое пособие. М.: Педагогика, 1999, 74 с.

SUMMARY

Tahira Intizamlı

PEDAGOGICAL-PSYCHOLOGICAL BASIS AND PRINCIPLES OF ECOLOGICAL EDUCATION

For effective use of nature and its protection, it is important to consider the laws governing natural processes. Ignoring the laws governing natural processes, sacrificing everything to economic interests leads to land uselessness, pollution of seas and other water bodies, significant reduction of fish stocks, destruction of forests, land protection strips, etc. caused environmental problems. Dissatisfaction against the environmental crisis of the Earth, which we are proud of until now with its natural beauty and wealth, is becoming more and more acute.

Preservation of the ecological balance requires the implementation of urgent measures.

Each of the general education subjects has its own role in the formation of a conscious and caring attitude towards nature, in the ecological upbringing of the young generation. From this point of view, the possibilities of biology are wider and more real than those of natural sciences.

Different forms and methods, out-of-class and out-of-school events, radio-television and other mass media are used to form environmental education among schoolchildren.

Key words: *ecology, experience, nature, knowledge, subject, observation, interview*

ZEYNƏB RƏSULOVA
zeynebresul9@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0008-3596-5378

SAĞ QASIQ NAHİYYƏSİNDƏ YETİŞMİŞ ABSESİ OLAN İNƏYİN MÜALİCƏSİ

Yetişmiş absesin müalicəsi irinli iltihabın klinik təzahürünün mərhələləri nəzərə alınmaqla aparılır. Punksiya və cərrahi yarma əməliyyat sahəsinin əvvəlcədən diqqətlə hazırlanması, aseptika və antiseptika qaydalarına ciddi riayət etməklə yerinə yetirilir.

İrin çıxarıldıqdan sonra yaranın kənarlarının vaxtından əvvəl yapışmasının qarşısını almaq və yara mayesinin çıxmasını təmin etmək üçün abses boşluğu etil spirti ilə isladılmış tamponla silinir və həmin yerə hipertonik məhlul hopdurulmuş cuna (salfet) daxil edilir. Hipertonik məhlulu olan salfet 24 saatdan sonra dəyişdirilir.

Prosesin aseptikləşdirilməsi üçün abses şaquli kəsiklə, demarkasiya xəttini pozmadan kəsilir və furasillin məhlulu ilə yuyulur. 12 gün ərzində 10%-li streptosid məlhəmi ilə isladılmış cuna drenajdan istifadə edilir. Sağalma 12 gün ərzində ikinci dərəcəli bitişmə ilə nəticələnir.

Açar sözlər: *Abses, iltihab, inək, şişkinlik, əməliyyat.*

Giriş

Absses (Abscessus) - irinlik, irinlə dolmuş - seyrək birləşdirici (bəzən başqa) toxumanın boşluq əmələ gətirərək irinlə dolmuş məhdud irinli yaxud irinli-fibrinozlu iltihabıdır. Onun əmələ gəlməsi toxumaların irinlə parçalanması sayəsində mümkündür.

Kliniki gedişi və patoloji-morfoloji dəyişikliklərinə görə abseslər kəskin və yarımkəskin, aseptik və septik, səthi və dərin, xoşxassəli və bədxassəli, isti və soyuq, sızan və metastazlı ola bilər. İnkişaf dərəcəsindən asılı olaraq, formalaşmaqda yaxud yetişməkdə olan və formalaşmış yaxud yetişmiş abseslər ayırd edilir (İsgəndərov T.B., 2011).

Abseslərin müalicəsinin üç üsulu mövcuddur: absesin yarılması, aspirasiyası və ekstirpasiyası. Ən yaxşı nəticələr absesin cərrahi olaraq yarılıb təmizlənməsindən əldə edilir. Aspirasiyada isə iri diametrli iynələrlə abses boşluğu antiseptik məhlullarla yuyulur. Ekstirpasiya üsulu ilə ancaq xroniki gedişli və gec sağalan (gecikmiş) abseslər müalicə edilir (İsgəndərov T.B., 2011).

Müalicə irinli iltihabın klinik təzahürünün mərhələləri nəzərə alınmaqla aparılır.

Cütdırnaqlı heyvanlarda birinci və ikinci mərhələdə (qıcıqlandırıcının fiksasiyası və təcrid edilməsi) müalicə mikrob törədicilərinin zərərsizləşdirilməsinə (neytrallaşdırılmasına) yönəldilməlidir. Bu məqsədlə ən təsirli olan antibiotiklərin novokainin 0,25-0,5%-li məhlullarında qısa blokada şəklində istifadəsidir. Bədənin ümumi reaksiyası (bədən temperaturunun yüksəlməsi, nəbzin və tənəffüsün tezləşməsi, heyvanın süstləşməsi və s.) varsa, antibiotiklər ümumi klinik vəziyyət normallaşana qədər 15-20 min TV dozalı kurslarla əzələdaxili olaraq yeridilir.

Cütdırnaqlılarda müvafiq olaraq üçüncü mərhələdə müalicə absesi cərrahi yolla yarmaqla mikrob qıcıqlandırıcının toplanması (çıxarılması) üçün aparılır. Yarmadan əvvəl təzyiqi azaltmaq və irini qismən çıxarmaq üçün boşluğun punksiyasını yerinə yetirmək məqsədəuyğundur.

Punksiya və cərrahi yarma əməliyyat sahəsinin əvvəlcədən diqqətlə hazırlanması ilə aseptika və antiseptika qaydalarına ciddi riayət edilməklə aparılmalıdır. Təqribi kəsiş xətti boyunca novokainin 0,5%-li məhlulu ilə infiltrsion anesteziya aparılır. Toxumalar absesin qabarıq hissəsini xətti kəsiklə aşağıya doğru demarkasiya xəttinədək kəsilir, heç bir halda onun zədələnməsinə, həmçinin ciblərin və sızmaların əmələ gəlməsinə imkan verilmir. Boyun və qarın nahiyyələrindəki kəsişlərin istiqamətləri dəri qırışlarının istiqamətinə, ətraflarda isə - oxu boyunca şaquli uzununa olaraq keçməlidir. Abseslər yarıldıqdan sonra boşluğu antiseptiklərin məhlulları ilə yumaqla irin xaric

edilir: furasillinin 1:5000, etakridin laktatın 1:1000, kalium permanqanatın 1:1000, 3%-li hidrogen peroksidin və s. Ən təsirli antiseptik 3%-li hidrogen peroksid məhlulunun furasillinin 1:5000 məhlulunda olanıdır ki, biz də elmi-tədqiqat işimişdə bundan istifadə etdik. İrin çıxarıldıqdan sonra yaranın kənarlarının vaxtından əvvəl yapışmasının qarşısını almaq və yara mayesinin çıxmasını təmin etmək üçün abses boşluğu etil spirti ilə isladılmış tamponla silinməli və həmin yerə hipertonik məhlul hopdurulmuş cuna (salfet) və ya Vişnevski məlhəmi daxil edilməlidir. Hipertonik məhlulu olan salfet 24 saatdan sonra dəyişdirilməlidir. Vişnevski məlhəmi olan salfet isə daha uzun müddətə saxlanıla bilər, çünki o, həm mexaniki drenajı təmin edir və yara kənarlarının bir-birinə yapışmasının qarşısını alır, həm də bərpa prosesini aktivləşdirir. E.İ.Veremey və V.M.Lakisovun tədqiqatları ilə müəyyən edilmişdir ki, Vişnevski məlhəmi üçün uğurlu əvəzedici torf oksidinin maye preparatı hesab olunur ki, onun tənzimləyici təsiri sayəsində abseslərin yarılmasından sonra xoraların sağalması xeyli sürətlənir (Veremey E.İ, Stekolnikov A.A. və b. 2010; Aşarçuk D.A. və b. 2021).

Kəskin abseslərin yarılması mikrob törədicinin əməliyyatdan 3-5 gün əvvəl neytrallaşdırılması üçün onların boşluqlarına streptomisinlə bərabər nisbətdə 15-20 min TV/kq kütləyə penisillin, bitsillin və başqa antibiotiklər az həcmdə 0,5%-li novokain məhlulunda irinli ekssudatın qismən aspirasiyasından sonra aparılır. Bunun sayəsində, mikrob törədicinin neytrallaşdırılması və əməliyyatdan sonrakı dövrdə xoranın daha uğurlu sağalması təmin edilir.

Sahəsi və həcmi böyük olan abseslər zamanı, absesin aşağı nahiyyəsində irin çıxmasını təmin etmək üçün rasional kəsiklə yanaşı, yuxarı nahiyyədə də boşluğun asan yuyulması üçün əks-apertura kəsikləri aparılır. Dərində yerləşən abseslərin yarılması, ilkin yuyulma üçün onların boşluğuna yeridilmiş iynəyə uyğun aparılmalıdır.

Dərialtı toxumanın xroniki kapsullaşdırılmış abseslərini zədələnməmiş kapsulla birlikdə tam kəsmək məqsədəuyğundur, yəni kapsulu yarmadan ekstirpasiya aparmaq məsləhətdir. Absesin ekstirpasiyasından sonra əməliyyat yarası antibiotik tozu ilə işlənir və kor tikişlə bağlanır.

Bədxassəli absesi yardıqdan sonra müalicə ölü toxumanın, o cümlədən nekrozlaşmış qranulyasiyanın qismən kəsilməsi, hipertonik məhlulda və ya proteolitik fermentdə isladılmış drenajlar yeridilməli, xloramin, hidrogen peroksid, kalium permanqanatın isti məhlulları ilə uzunmüddətli yuma, qısa novokain-antibiotik blokadası, antibiotiklərlə əzələdaxili müalicə kursu aparılmalıdır.

İrinli iltihabi proseslərin, o cümlədən abseslərin müalicəsi üçün heyvan mənşəli (tripsin, ximotripsin, fibrinolizin, ribonukleaza, deoksiribonukleaza və s.) proteolitik fermentlərdən istifadə etmək məqsədəuyğundur (Veremey E.İ, Stekolnikov A.A. və b. 2010).

Material və metodlar

Absesin səbəbi yaralanan toxumaların sonrakı infeksiyalaşması ilə sağ qasıq nahiyyəsindəki əzilmə olumuşdur. İlkin kliniki baxışda xəstə inəyi müayinə etdikdə heyvanın ümumi vəziyyəti qənaətbəxş, görünən selikli qişaları solğun-çəhrayı rəngdə, hərarət, nəbz, tənəffüs, ruminasiya fizioloji normanın ən yüksək həddində, sağ qasıq nahiyəsində 10x5 sm ölçüdə bərk, isti, kəskin ağrılı şişkinlik palpasiya olundu.

Abses yetişmə mərhələsində olduğundan müalicə onun dərhal yarılmasından və sonrakı müalicəsinin davam etdirilməsindən ibarət oldu. Analoji tədqiqatlar Aşarçuk D.A. və başqaları tərəfindən 2021-ci ildə aparılmışdır.

Alınmış nəticələrin müzakirəsi

Heyvanı təsbit etdikdən və əlləri təmizlədikdən sonra, əməliyyat sahəsini hazırlamağa başladıq: dəri örtüyü qırxıldı, 70%-li spirt məhlulu ilə mexaniki təmizləmə ilə yağsızlaşdırma aparıldı, furasillin məhlulu 1:5000 ilə dezinfeksiya edildi. Nəzərdə tutulan kəsiş xətti boyunca novokainin 0,5%-li məhlulu ilə infiltrasion anesteziya etdik. Toxumalar absesin qabarıq hissəsində yuxarıdan aşağıya doğru demarkasiya xəttinə doğru düz kəsiklə (onun zədələnməməsi üçün, həmçinin cibciklərin əmələ gəlməsinə və durğunluğa yol vermədən) kəsildi, yarıldıqdan sonra irinli ekssudat və fibrin 1,2 litr həcmdə xaricə çıxarıldı. Boşluq 3%-li hidrogen peroksid məhlulu ilə, sonra isə furasillinin 1:5000 məhlulu ilə yuyuldu. Sonra yara boşluğuna 10%-li streptosid məlhəmi yeridildi və

yaranın kənarlarının bir-birinə yapışmasının qarşısını almaq və yara axıntısının çıxmasını təmin etmək üçün cuna drenajı qoyuldu. Dəyişdirilmə gündəlik həyata keçirildi, çünki qaramalda yara axıntısında çoxlu miqdarda fibrinogen olur ki, bu da cuna drenajının drenaj xüsusiyyətlərini azaldır. İnəyin müalicəsi 12 gün davam etdi. Tədricən, abses boşluğu qranulyasiya toxuması ilə doldu və dəri yarası ikincili sağalma ilə bitişdi.

Müalicənin dinamikası zamanı 10%-li streptosid məlhəminn tətbiqinin müsbət səmərəsini qeyd etdik ki, bu da öz növbəsində antimikrob və patoloji prosesə yüksək terapevtik təsirlə əlaqədardır.

ƏDƏBİYYAT

1. İsgəndərov T.B. Ümumi və xüsusi baytarlıq cərrahiyyəsi (dərslik). Gəncə, ADAU nəş., 2011, 446 s.
2. Ашарчук, Д. А. Лечение коровы с созревшим абсцессом в левой подвздошной области / Д. А. Ашарчук, М. В. Симоновец, В. А. Ходас // Тенденции развития ветеринарной хирургии: материалы Международной научно-практической конференции, посвященной 95-летию кафедры общей, частной и оперативной хирургии УО ВГАВМ (г. Витебск, 3-4 ноября 2021 г.) / Витебская государственная академия ветеринарной медицины. - Витебск: ВГАВМ, 2021. - с. 15-17.
3. Клиническая хирургия в ветеринарной медицине. Под редакцией профессоров Э.И.Веремея, А.А.Стекольникова. – Минск: ИВЦ Минфина, 2010. -600 с.

FİDAN SƏLİMOVA
fidan.salimova23@gmail.com
SAMİRƏ ŞƏFİYEVA
shafievasamira@mail.ru
Bakı Dövlət Universiteti

SACCHAROMYCES VƏ CANDİDA CİNSLİ MAYA GÖBƏLƏKLƏRİNİN TEMPERATURA VƏ ŞƏKƏRLƏRƏ MÜNASİBƏTİ

Müəyyən edilmişdir ki, müxtəlif substratlardan ayrılmış maya göbələyi ştamlarının temperatura və şəkərlərə münasibəti fərqlidir. Maya göbələyi ştamlarına temperaturun təsirinin öyrənilməsi nəticəsində məlum olmuşdur ki, onlar üçün maksimum biokütlə 30° C (Saccharomyces sp. BDU Al, Saccharomyces sp. BDU Ar2, Candida sp. BDU Q və Saccharomyces sp. BDU Ü) və 25° C(Sachharomyces sp. Ar1) temperaturda müşahidə olunur. 35-40°C temperatur intervalında tədqiq edilən ştamların inkişafı isə zəif olmuşdur. Maya göbələyi ştamları maltoza, qlükoza və saxarozanı yaxşı mənimsəmişlər. Lakin maltoza və qlükoza olan mühitdə saxarozaya nisbətən daha aktiv inkişaf etmişlər. Laktoza olan mühitdə inkişaf isə zəif getmişdir. Maltoza və qlükoza olan mühitdə ştamların inkişafı saxarozadan 3.5-2 dəfə, laktozadakından isə 4.8-6 dəfə çox olmuşdur. Maltoza və saxaroza olan mühitdə maksimum inkişaf Saccharomyces sp. BDU Ü, qlükoza olan mühitdə Candida sp. BDU Q, laktoza olan mühitdə Saccharomyces sp. BDU Al ştamlarında müşahidə olunmuşdur.

Açar sözlər: *temperatur, şəkərlər, ştamlar, maya göbələyi*

Giriş

Digər canlılar kimi, mikroorqanizmlərin də inkişafı və həyat fəaliyyəti yaşadığı xarici mühit amilləri ilə sıx surətdə əlaqədardır. Təbii şəraitdə mikroorqanizmlər müəyyən təsirlərə məruz qalır, çünki onların həyat fəaliyyəti mühitlə sıx əlaqədardır. Mühit şəraiti əlverişli olduqda onların inkişafı inensivləşir. Qeyri-əlverişli şərait yarandıqda isə ya hüceyrə inkişafdan qalır, ya da tamamilə tələf olur. Buna görə də onların laboratoriya şəraitində becərilməsi və saxlanılması üçün fizioloji xüsusiyyətlərini öyrənmək lazımdır. Fizioloji xüsusiyyətlərə qidalanma tipi və müxtəlif şəraitlərdə böyümə qabiliyyəti (bunlara karbon mənbələrinin aerob assimiliyasiya etməsi, pH-ın müxtəlif qiymətlərində, osmotik təzyiqdə, müxtəlif temperaturda böyümə qabiliyyəti və müxtəlif ingibitorlara davamlığı) daxildir[1].

Mikroorqanizmlər kəşf olunandan sonra onların müxtəlif proseslərdə rolu aydınlaşdırılmış və onların tətbiq sahələri genişlənmişdir. Maya göbələklərinin müxtəlif şəkərləri qıcqırda bilməsi xassəsi onlardan yeyinti sənayesinin müxtəlif sahələrində geniş istifadə etməyə imkan verir. Maya göbələklərinin qıcqırma prosesində oynadığı əvəzedilməz rolunu nəzərə alaraq onların çörəkbişirmə sənayesində qida məhsullarının istehsalında və dərman preparatlarının alınmasında yeni tətbiq yolları araşdırılır. Bu sahələrdən biri də süddən müxtəlif turşsüd məhsullarının alınmasıdır. Bu məqsədlə müxtəlif müəssisələrdə təmiz kulturalardan ibarət mayadan istifadə olunur. Mayaların tərkibindəki mikroorqanizmlər müəyyən fizioloji xassələri ilə xarakterizə olunurlar[1].

Material və metodlar

Tədqiqatın əsas obyekti kimi müxtəlif substratlardan ayrılmış və Bakı Dövlət Universitetinin kulturalar kolleksiyasında saxlanılmış maya göbələklərinin 5 ştamı olmuşdur; *Saccharomyces sp.* BDU Ar1, *Saccharomyces sp.* BDU Ü, *Candida sp.* BDU Q, *Saccharomyces sp.* BDU Ar2 və *Saccharomyces sp.* BDU Al.

Maya göbələklərini becərmək üçün səməni şirəsindən, Sabura mühitindən, sintetik qidalı mühitdən istifadə edilmişdir. Şəkərlərin, azot mənbələrinin və spirtlərin maya göbələklərinin inkişafına təsiri sintetik (yarımsintetik) bərk qidalı mühitdə öyrənilmişdir. Qidalı mühitlərin tərkibi qeyd edilmişdir [2]. Bütün karbon və enerji mənbələri qidalı mühitə 2% miqdarda əlavə olunmuşdur.

Maya göbələklərinin inkişafı böyümə əmsalına görə təyin edilmişdir. Böyümə əmsalı məlum düstur əsasında tapılmışdır [3].

Temperaturun və ilkin mühit turşuluğunun maya göbələklərinin inkişafına təsiri isə duru qidalı mühitdə (səməni şirəsində 6^0B) öyrənilmişdir. Duru qidalı mühitdə mikroorqanizmlərin inkişafı əmələ gələn biokütləyə görə öyrənilmişdir. Biokütlə fotoelektrokolorimetrdə optik sıxlığa və qurulmuş kalibrlənmə əyrisinə görə q/l-lə təyin edilmişdir. Tədqiqatlar üçün bütün təcrübələr 4-5 təkrarda aparılmış və nəticələr statistik olaraq işlənmişdir [4].

Nəticələr və onların müzakirəsi

Maya göbələyi ştamlarına temperaturun təsirinin öyrənilməsi nəticəsində məlum olmuşdur ki, *Saccharomyces sp. BDU Al, Saccharomyces sp. Ar2, Candida sp. BDU Q* və *Saccharomyces sp. BDU Ü* ştamları 30-35° C temperatur intervalında, *Sachharomyces sp. Ar1* ştamı isə 25-30°C temperatur intervalında aktiv inkişaf edə bilirlər. 35-40°C temperatur intervalında tədqiq edilən ştamların inkişafı zəif olmuşdur. Maksimum biokütlə 30°C-də maya göbələyi 4 ştamı (*Saccharomyces sp. BDU Al, Saccharomyces sp.* BDU Ar2, *Candida sp.* BDU Q *və Saccharomyces sp.* BDU Ü) ,25°C-də isə *Sachharomyces sp.* BDU Ar1 ştamı əmələ gətirir. 30°C temperaturda əmələ gələn biokütlə 25°C-də olan biokütlədən 1.18-1.3 dəfə, 35°C-də əmələ gələn biokütlədən isə 1.07-1.2 dəfə çox olmuşdur. Beləliklə, temperatura münasibətinə görə maya göbələyi ştamları üçün maksimum biokütlə 30°C temperaturda (*Saccharomyces sp.* BDU Al, *Saccharomyces sp.* BDU Ar2, *Candida sp.* BDU Q *və Saccharomyces sp.* BDU Ü) və 25°C-də (*Sachharomyces sp.* Ar1) müşahidə olunur.

Cədvəl 1.

Müxtəlif substratlardan ayrılmış maya göbələyi ştamlarına temperaturun təsirinin öyrənilməsi

Maya göbələyi ştamları	**Biokütlə q/l (M±m)**			
	25°C	**30°C**	**35°C**	**40°C**
Saccharomyces sp. BDU Al	0.86±0.003	1.07±0.1	0.86±0.01	0.42±0.003
Saccharomyces sp. BDU Ar1	1.01±0.1	0.97±0.003	0.89±0.01	0.46±0.01
Saccharomyces sp. BDU Ar2	0.94±0.02	1.12±0.02	1.04±0.1	0.49±0.02
Candida sp. BDU Q	0.98±0.02	1.16±0.1	1.04±0.1	0.32±0.02
Saccharomyces sp. BDU Ü	0.83±0.002	1.09±0.003	0.88±0.002	0.59±0.03

Karbon və enerji mənbəyi kimi istifadə olunan şəkərlərə münasibətinə görə maya göbələkləri ştamı bir-birinə yaxın olmuşdur. Belə ki *Saccharomyces sp.* BDU Ar1 və *Saccharomyces sp.* BDU Ar2 qlükoza və maltozanı yaxşı mənimsəmişlər. Qalan substratlarda isə zəif böyümə müşahidə olunmuşdur. *Saccharomyces sp.* BDU Al qlükoza və maltozanı yaxşı, laktozanı isə zəif mənimsəmişdir. Belə ki, qlükoza və maltozada əmələ gələn biokütlə laktozada əmələ gələn biokütlədən müvafiq olaraq 4,8 və 6 dəfə çox olmuşdur. *Candida sp.* BDU Q ştamında ən yaxşı mənimsənilmə qlükozada, yaxşı mənimsənilmə maltozada, zəif mənimsənilmə saxarozada, ən zəif mənimsənilmə isə laktozada müşahidə olunmuşdur. *Saccharomyces sp.* BDU Ü ştamında ən yaxşı inkişaf maltozada, sonra qlükozada, yaxşı böyümə saxarozada, ən zəif böyümə isə laktozada özünü göstərmişdir. Belə ki, maltoza və qlükozada əmələ gələn biokütlə saxarozadakı biokütlədən müvafiq olaraq 3.5 və 2 dəfə çox olmuşdur.

Beləliklə, şəkərlərin müxtəlif substratlardan ayrılmış maya göbələklərinin inkişafına təsirinin müqayisəli surətdə öyrənilməsi onu göstərir ki, tədqiq edilən bütün maya göbələkləri ştamları üçün karbon və enerji mənbəyi kimi ən yaxşı substrat qlükoza və maltozanı hesab etmək olar.

Cədvəl 2.

Müxtəlif substartlardan ayrılmış maya göbələkləri ştamlarına sadə şəkərlərin təsirinin öyrənilməsi

Maya göbələyi ştamları	**Biokütlə, q/l (M±m)**			
	Şəkərlər			
	qlükoza	**laktoza**	**maltoza**	**saxaroza**
Saccharomyces sp. BDU Al	7±0.6	1.65±0.02	9.95±0.2	2.5±0.1
Saccharomyces sp. BDU Ar1	16±0.4	1.6±0.02	23±0.8	2.3±0.2
Saccharomyces sp. BDU Ar2	22±1.1	2±0.1	21±0.7	4±0.1
Candida sp. BDU Q	30±1.9	1.6±0.01	8.65±0.2	4±0.1
Saccharomyces sp. BDU Ü	15.95±0.4	1.3±0.003	29.6±1.3	8.3±0.4

ƏDƏBİYYAT

1. Qənbərob X.Q., Cəfərov M.M, Hüseynova S.İ., Əbdülhəmidova S.M. Maya göbələklərinin biologiyası. Dərslik. 346 s.
2. Qasımova H. S., Ağayeva A. A. Mikrobiologiyadan praktikum. Dərs vəsaiti. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 124 s.
3. Ганбаров Х.Г., Сулейманова Г.Ч. Способ определения роста бактерий и дрожжей по ростовому коэффициенту при их выращивании на плотных питательных средах // Вестник Бакинского Университета, серия биологических наук, 2001, №2, с.44-48.
4. Плохинский Н.А. Биометрия. М.: МГУ, 1998, 150 с.

SUMMARY

Fidan Salimova, Samira Shafiyeva

THE RELATION OF SACCHAROMYCES AND CANDIDA YEASTS TO TEMPERATURE AND SUGARS

It has been determined that yeast strains isolated from different substrates have different responses to temperature and sugars. As a result of the study it was found out that the effect of temperature on yeast strains differs. Through studying the effect of temperature on yeast strains it has been found that the maximum biomass for them is observed at 30° C (Saccharomyces sp. BDU Al, Saccharomyces sp. BDU Ar2, Candida sp. BDU Q and Saccharomyces sp. BDU Ü) and 25° C (Saccharomyces sp. Ar1). The development of strains investigated in the temperature range of 35-40 has been weak. Yeast strains have shown good assimilation of maltose, glucose and sucrose. However, they have developed more actively in an environment with maltose and glucose compared to sucrose. Development in an environment with lactose has been weak. In maltose and glucose environments,the development of strains has been 3.5-2 times more than in sucrose, and in lactose , it has been 4.8-6 times more. Maximum development in maltose and sucrose environments has been observed in Saccharomyces sp.BDU Ü, in the glucose environment in Candida sp.BDU Q, and in the lactose environment in Saccharomyces sp.BDU Al strains.

Key words: *temperature, sugars, strains, yeasts*

LEYLA QƏRİBOVA
garibligaribli05@gmail.com
Bakı Dövlət Universiteti

SƏHRALAŞMA PROSESİNİN ƏTRAF MÜHİTƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ QARŞISI ALINMA YOLLARI

Səhralaşmanın əsas amilləri və inkişaf səbəbləri təbii və antropogen olmaqla 2 yolla gedir. Bu proses daha çox təbii yollarla baş versə də antropogen faktorlar bunu gücləndirir. Antropogen amillərə otlaqların mal-qara tərəfindən otarılması, ağacların, meşələrin qırılması, torpaqdan aramsız istifadə, intensiv şumlanma, qrunt sularının həcminin düşməsi və.s aiddir. Bütün bunlara əsaslanıb deyə bilərəm ki, insanın təsərrüfat işləri başlıca olaraq bitkilərə, torpağa hədsiz dərəcədə güclü mənfi təsir göstərir. Bununla yanaşı antropogen prosseslərin çoxalması, meliorasiya işlərinin dəqiq edilməməsi sayəsində flora örtüyünün sıradan çıxması səhralaşmanı ikiqat gücləndirən amillərdəndir

Açar sözlər: *Səhralaşma, buxarlanma, aridlik indeksi, rütubət zonası, deqradasiya.*

Giriş

Günümüzdə ən aktual promblemlerdən biridə səhralaşma prosesidir. Bir neçe on illikdə səhralaşma prosesi niə və hansı səbəbdən yarandığı axtarılırdı.İndi isə onun vəzifələrinə səhra ekosisteminə insanın müdaxiləsi, yəni səhralaşma ilə bağlı mənfi proseslərin qarşısının alınması və proqnozlaşdırılması öyrənilir. Ola bilsin ki, yerli elm və təcrübədə ilk dəfə olaraq alimlərin və ictimaiyyətin diqqəti bu gün ölkəmizdə hələ tam miqyasda olmayan bir problemə əvvəlcədən cəlb olunub. Azərbaycanda səhra olmasada səhralaşma prosesi gedir. Azərbaycanda səhralaşma prosesi :

1. Abşeron yarımadası
2. Kür-Araz ovalığı
3. Naxçıvan Muxtar Respublikası (B.H.Əliyev ., 2022,99)

Səhralaşma yağıntıların miqdarı az, buxarlanmanın miqdarı çox olan ərazilərdə intensiv gedir. Əsasən quraq ,arid ərazilərdə yayılmışdır.Qumların yerdəyişməsi, təkrar şoranlaşma, həddən artıq otlama nəticəsində bitki örtüyünün məhv edilməsi şəklində qeyd olunan səhralaşmanın ocaq və lokalizasiyası dövlət orqanları tərəfindən ciddi planlaşdırma və nəzarət şəraitində daha da inkişaf etmir və vaxtında aradan qaldırıla bilər. Səhralaşma prosesinin yaranmasında aridlik indeksinin təsirini nəzərə almaq daha məqsədə uyğundur.

Aridlik indeksi qiymətlərinin müəyyən diapazonlarına əsasən aşağıdakı iqlim zonaları müəyyən edilmişdir.

- Ekstra quraqlıq (hiper-arid) zona (P/Et<0,03), illik yağıntının miqdarı 100 mm-dən az, bitki örtüyü olmayan, su axarlarının yataqları boyunca efemer bitkilər və kollar istisna olmaqla. Əkinçilik və heyvandarlıq (vahələrdən başqa) mümkün deyil. Bu zona bir və ya bir neçə il ərzində mümkün quraqlıqlarla "əsl, real" səhraya uyğun gəlir.
- Arid zona (0,03<P/Et<0,20), illik yağıntı 100-200 mm, seyrək, seyrək bitki örtüyü, çoxillik və birillik sukkulentlərlə təmsil olunur.Yağışla qidalanan əkinçilik qeyri-mümkündür.
- Yarımsəhra zonası (0,20< P/E1 <0,50), illik yağıntı 200-400 mm, o cümlədən yarımsəhralar və aralıq ot örtüyü olan tropik kolluqlar.Subhumidə keçid zonası qeyri-müəyyən şəkildə ifadə edilir; quru dövrün faktiki müddətindən asılı olaraq, daha quru və ya daha yaş olur
- Qeyri-kafi rütubət zonası (rütubətsiz) (0,50<P/Et<0,75), illik yağıntı 400-800 mm.Yüksək məhsuldar əkinçilik aparmaq üçün suvarma lazımdır. Zona əsasən antropogen amillərin təsiri altında quruluğun mütərəqqi artması ilə xarakterizə olunur.(А. Г. Бабаева. 1984. – 125с)

Quraq ərazilərin yuxarıdakı hesablamalarını ümumiləşdirdikdə görmək olar ki, bütün torpaq səthinin təxminən üçdə biri rütubətin bitki örtüyünün məhsuldarlığını, eyni zamanda, heyvandarlıq məhsuldarlığını və əhalinin artımını məhdudlaşdıran həlledici amil olduğu qeyd edilir.

Səhralaşma prosesinin yaranması və insanlarla qarşılıqlı əlaqəsi haqqında alimlər öz fikirlərini irəli sürmüşlər.

Masson (1977) insanların səhra ilə qarşılıqlı əlaqəsinin üç formasını qeyd etdi:

- konkret mədəni və iqtisadi növlərin inkişafı ilə konkret iqtisadi vəziyyətə uyğunlaşma:
- mədəni proseslərin inkişafı üçün mümkün ərazi kimi səhra zonalarının bilavasitə bilməməsi ilə ifadə olunan mənfi neytrallıq;
- təbii mühiti dəyişdirən fəaliyyətlərin həyata keçirilməsi ilə və yüksək elmi-texniki potensial əsasında müxtəlif növ antropogen landşaftların formalaşmasına səbəb olan səhra zonasının fəal inkişafı.

Q.Dregne (1981) bu təsirin müvəqqəti amilini 1000-3000 il əvvəl Avropa, Asiya və Afrikanın geniş ərazilərinin torpaq eroziyasına və şoranlaşmasına məruz qaldığı dövr kimi göstərir; 50-150 il əvvəl Avropanın geniş ərazilərin müstəmləkəçiliyi torpaq eroziyasına və həddən artıq otlaqlara səbəb olduğu dövr, inkişaf etməkdə olan ölkələrdə quruya artan təzyiqin bütün növ səhralaşma proseslərinin sürətlənməsinə son 30 il biruzə verir. (А. Г. Бабаева. 1984, 210 с)

F.Engels yazırdı: “Mesopotamiyada, Yunanıstanda, Kiçik Asiyada və başqa yerlərdə bu yolla əkin sahələri əldə etmək üçün meşələri kökündən qoparan insanlar bununla bu ölkələrin indiki xarabalığının əsasını qoyduqlarını, heç ağlına da gətirmirdilər ki, onlar bu yolla bu ölkələrin xarabalığa çevrilməsinin əsasını qoydular. onlar meşələrlə bərabər. , gücün toplanması və qorunub saxlanılması mərkəzləridir” (Marks K. Engels F. Soch., cild 20, səh. 496). Geniş miqyasda başlayan meşələrin məhv edilməsi torpağın deqradasiyası və torpaq eroziyasının ilkin mərhələsinə gətirib çıxardı.

V.Masson (1977) vurğulayır ki, sinfi birləşmələr dövründə insan mədəniyyətinin səhra zonasına hücumu utilitar-istehlak xarakterli olub, bu da bitki örtüyünün məhvinə və qumların hərəkətliliyinin artmasına səbəb olub. Bu, çobanların təbii sərvətlərdən həddən artıq istifadə etməsi və çoxsaylı cığır və marşrutlarla səhraları keçərək ticarətin canlanması ilə bağlı idi. Bu dövrdə səhra ekosistemləri hələ də otlaq və kolların qismən təmizlənməsi səbəbindən nisbətən az antropogen təsirə məruz qalmışdır. (Marks K. Engels F. Soch., cild 20, s. 329)

Səhralaşma ilə mübarizə, quraqlığın təsirlərini yumşaltmaq və qlobal iqlimi qorumaq, Səhralaşmaya Qarşı Mübarizə Konvensiyasının (CCD), Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) məqsədlərini tam şəkildə həyata keçirmək əsas məqsədi olmuşdur. Kənd təsərrüfatı sektorunda fəaliyyətin intensivləşdirilməsi və genişləndirilməsi quru ekosistemlərin davamlılığının əhəmiyyətli dərəcədə azalmasına və nəticədə torpaqların deqradasiyasına və səhralaşmasına gətirib çıxarır. Bu şəraitdə maliyyə mexanizmlərindən səmərəli istifadə etməklə mövcud torpaq, su və bioloji ehtiyatların kompleks şəkildə idarə edilməsi əsasında kənd təsərrüfatı istehsalının davamlılığının təmin edilməsi və məhsuldarlığının artırılması mühüm əhəmiyyət kəsb edir. Əliyeva Rəfiqə, Mustafayev Qara. Ekologiya. Bakı: 2004, 205)

Ölkə səviyyəsində aparılan səhralaşmaya qarşı mübarizədə mərkəzi yer milli fəaliyyət proqramlarına məxsusdur və bu proqramlar milli inkişaf planları ilə ahəngdar şəkildə birləşdirilməlidir. Quraqlıqların tezliyində və şiddətində proqnozlaşdırılan artım həm də sektor strategiyalarından quraqlığa qarşı mübarizədə bu məsələnin milli inkişaf planlarında kompleks şəkildə nəzərə alınmalıdır. İndiki dövrdə səhralaşmaya qarşı mübarizə tədbirləri işlənib hazırlanarkən kənd təsərrüfatı ərazilərinin adaptiv landşaft inkişafı son dərəcə mühüm rol oynayır ki, bunda aparıcı rol qoruyucu meşə salınmasına verilir.

Material və metodlar

Artan deqradasiya və səhralaşma proseslərini qarşısını almaq üçün aşağıdakı metodları həyata keçirtmək lazımdır.

1. Kənd təsərrüfatı landşaftlarında deqradasiya prosesləri ilə mübarizə və oksigen və karbon balansının optimallaşdırılması, deqradasiyaya uğramış torpaqların bərpası və rekultivasiyası üçün adaptiv landşaft kənd təsərrüfatı sistemində kənd təsərrüfatı sahələrinin aqromeşə təsərrüfatının inkişafı prinsiplərinin həyata keçirilməsi.
2. Müvafiq və vaxtında cavab tədbirlərinin görülməsi üçün səhralaşma, şoranlaşma və daşqın proseslərinin məsafədən zondlanması texnologiyalarının işlənib hazırlanması və tətbiqi.
3. Dəstək üçün idarəetmə informasiya sistemlərinin gücləndirilməsi qərar qəbulu.

4. Səhralaşma prosesi intensiv gedən ərazilərdə geo-istinad sistemlərinin və verilənlər bazalarının yaradılması və inkişafı xəritələr və atlaslar.
5. Səhralaşma mübarizə üçün mövcud layihələrin təcrübəsinin yayılması və həyata keçirilməsi.

Müzakirə

Səhralaşma prosesinin yaranma səbəbləri, ətraf mühitə təsiri və həll edilmə yolları.

ƏDƏBİYYAT

1. Abbasov.M - Əsrimizin qlobal ekoloji problemləri İsmayılov. C. Ümumi Ekologiya.
2. Əliyev B.H. Abşeron yarımadasının ekoloji problemləri və onların həlli yolları.
3. Əliyeva Rəfiqə, Mustafayev Qara. Ekologiya. Bakı: 2004, BDU nəşriyyatı, 432 s.
4. Искендерзаде Э. Б. Агбабалы А. С. Основы екологических проблем в Азербайджане и пути их решения
5. Опустынивание: стратегия борьбы/Под ред. чл.-корр. АН СССР А. Г. Бабаева. – Ашхабад: Ылым, 1984. – 320 с 2 р. 85 к.
6. Мамедов Р.М., Исматова Х.Р., Джафарова Н.Р.Комплексная методика составления карт процессов опустынивания абшеронского полуострова на основе космических снимков. / AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ XƏBƏRLƏRİ, YER ELMLƏRİ, №3-4, 2016.
7. Marks K. Engels F. Soch., cild 20, s. 496
8. https://carececo.org/main/news/obzor-problema-opustynivaniya-na-globalnom-i-regionalnom-urovnyakh/
9. https://www.un.org/ru/observances/desertification-day/background
10. http://www.unepcom.ru/home/env-problems/desert.html
11. https://www.researchgate.net/publication/339066162_Problemy_opustynivania

SƏMA AĞALAROVA
agalarovasema996@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

İNƏKLƏRİN KLİNİK MÜALİCƏSİ ZAMANI STİMULLAŞDIRMA VƏ SİNXRONİZASİYANIN TƏSİRİ İSTİQAMƏTLƏRİ

Qeyd etmək lazımdır ki, inəklərin mamalıq və ginekoloji patologiyasının ortaya çıxması əsnasında sonsuzluğa aparan yol ölkə təsərrüfatlarında tez-tez əlaqələndirilir. Təsirlənən miyometriumun kontraktil funksiyasının pozulması ilə bir sıra amillər, həm hamiləlik zamanı, həm də doğuş zamanı və doğuşdan sonrakı dövrü əhatə edir. Bu hormonal çatışmazlıq, iltihabdır, reproduktiv sistemin prosesləri, vitamin və minerallarının pozulmasına səbəb olan qeyri-kafi pəhriz, stress və s. miyometriumun özünəməxsus elektrokimyəvi dövrəsində həyəcanın ötürülməsinə əsaslanır. Simptomatik sonsuzluğun yayılmasının səbəbləri bunlardır: balanssız qidalanma, fiziki fəaliyyətsizlik, patoloji doğuş, günəş işığına məruz qalma, həm də vaxtında və keyfiyyətsiz müalicə.

Ümumilikdə, endogen və ekzogen mənfi amillər olaraq, homeostatik tarazlığın pozulmasına, adaptivliyin azalmasına gətirib çıxararaq bədənin imkanlarını, məhsuldarlıq potensialı və inkişafı patoloji proseslərinə mənfi təsir göstərir.

Açar sözlər: *damazlıq mal-qara, ginekoloji patologiya, hormonal çatışmazlıq, reproduktiv sistem, patoloji doğuş, homeostatik tarazlığ, simptomatik sonsuzluq, qüsurlu cinsi dövrlər, etiologiya, ginekoloji xəstəliklər.*

Giriş

A.I.Marenkov və başqaları məlumatları təhlil apararkən belə bir nəticəyə gəlmişdir ki, damazlıq mal-qaranın qısırlığının əsas səbəbi bunlardır: məşq olmaması səbəbindən, nəticədə sinir-əzələ tonusu azalır; qidalanma, qulluq və qulluqda pozuntular; qaydalara əməl edilməməsi üçün mamalıq zamanı asepsiya, doğum kanalının travması.

Heyvanların reproduktiv orqanları aşağıdakı ardıcıllıq şəkilində paylanır: aktiv – passiv – ultraaktiv –infrapassive (Nezhdanov A.G. et al., 2016). Predispozisiya edən amillər immunitetin aşağı səviyyəsinə əsaslanaraq hesab edirlər ki, infrapasif heyvanlarda antioksidant müdafiə, həmçinin vajinanın ən böyük mikrob çirklənməsi ilə yüksək müqavimət yaranır. İnfrapasif və ultraaktivlik inəklərdə mikroorqanizmlərin assosiasiyaları quru dövrdə baş verir. Tədqiqatıma əsasən quru inəklərin etoloji aktivliyinin göstəriciləri patoloji inkişaf riski olan heyvanları müəyyən etmək üçün istifadə olunaraq reproduktiv sistemin vəziyyəti vaxtında həyata keçirilərək nəzərə alınmaqla profilaktik tədbirlər və müalicə rejimlərinin işlənib hazırlanması, onların fərdi xüsusiyyətlərini özündə əks etdirir.

Müalicənin aparılmasının forma və mahiyyəti

Məlumdur ki, simptomatik sonsuzluq reproduktiv pozğunluq hesab edildiyi üçün heyvanların reproduktiv və digər orqanlarının xəstəlikləri səbəbindən funksiyalarıdır. Heyvan xəstəlikləri iki böyük qrupa bölünür: yoluxucu və yoluxucu olmayan. Cinsiyyət orqanlarının zədələnməsi də iltihablı proseslərə səbəb olur. Həmçiinin patoloji doğuş zamanı asepsiya və antisepsis qaydalarının pozulması halında mamalıq baxımının təmin edilməsi, yüksək bakteriyalı sperma təqdim edilməsi çirklənmə, baytarlıq-sanitariya qaydalarının pozulması zamanı müxtəlif ginekoloji üsulları yerinə yetirir .

Cinsiyyət orqanında iltihab prosesinin lokalizasiyasından asılı olaraq, qadın orqanlarında simptomatik sonsuzluq bir sıra aşağıdakı səbəblərə görə baş verir:

- cinsiyyət orqanlarında sperma ölümü;
- yumurtanın və ya ziqotun ölümü;
- yumurtanın və ya zigotun fallopiya borularından keçə bilməməsi;
- qüsurlu cinsi dövrlər.

Tədqiqatın metodologiyası

Bildiyimiz kimi, hamiləliyin və doğuşun kütləvi fəsadları (yoluxucu olmayan abortlar) etiologiya, zəif sancılar və cəhdlər, plasentanın tutulması və həmçinin doğuşdan sonrakı dövr (uşaqlığın atoniyası, inəklərdə uşaqlığın subinvolyusiyası, davamlı sarı bədən, yumurtalıqların hipofunksiyası, metrorragiya və s.). İlk baxışdan reproduktiv orqan sistemi üçün tipik xəstəliklər hesab edilir. Lakin etiopatogenetik xüsusiyyətlərinə görə bu hallar münasib hesab edilir və səbəbi olan əhali xəstəliklərinin enzootik forması kimi qəbul edilir. Əsasən mənfi qidalanma ilə əlaqədardır, əməliyyat və iqlim amillərinə əsaslanır (Baranski W., 2008; Agenas S.E., 2003; Əhməd F.O., 2013).

Həmçinin G.N. Burdova görə (2015) inəklərdə metabolik pozğunluqların əlamətləri və dırnaq buynuzunun zədələnməsi reproduktiv orqanların ən çox görülən lezyonları iltihablı və disfunksional təbiət olduğu fərq edildi (xüsusilə, endometrit, follikulyar və luteal kistlər, davamlı sarı bədən). L.F. Khamitovanın ehtimalına görə (2015) bu səbəblərə əsaslanan ginekoloji xəstəliklər müxtəlifdir: metabolik pozğunluqlar, yemləmə texnologiyaları, damazlıq mal-qaranın saxlanması, çatışmazlıq dispanserlər və quru ağac qruplarının formalaşması, viral varlığı, biosenozda bakterial və göbələk patogenləri, təsərrüfatlar, peyvənd zamanı həssaslıq pəncərələrinin yaradılması, qeyri-kafi müalicə-profilaktika tədbirlərinin maliyyələşdirilməsi, sənaye baytarlıq xidmətinin baytarlıq mütəxəssisləri, o cümlədən baytarlıq ginekoloqlarının sayı. Yumurtalıqlarda follikulyar kistlərin meydana gəlməsinə kömək edən cinsiyyət orqanlarında iltihablı proseslər, həmçinin təkrarlanır və bəzi hallarda mastit meydana gələrək endometrit ilə paralel olur.

Müalicənin tətbiqi əhəmiyyəti

L.F.Khamitova görə (2012), histoloji dəyişikliklər endometriumdakı dəyişikliklər yumurtalıqdakı dəyişikliklərlə əlaqələndirilir. Xüsusilə, nə vaxt endometriumda kistlərlə yumurtalıqda sarı cismin olması qeyd olunaraq funksional təbəqənin qalınlığının və içindəki bezlərin sayının azalması funksional təbəqə hesab edilir. Yumurtalıqda sarı cismin hormonal fəaliyyəti ilə, endometrium, uterusun sayının və əyriliyinin artması dəmir Kistik degenerasiyanın inkişafını göstərə bilər. Yumurtalıqda follikulyar kistlər varsa, inkişaf edərək yumurtalığın follikulyar təbəqəsində metaplaziya prosesləri yaradır.

İ.A.Porfiryev (2006) öz araşdırmalarında kiçik follikulyar kistik yumurtalıqların uşaqlıq atoniyasını və subklinik xroniki qalıq təsiri irinli kataral endometritləri sübut etmişdir. Sərtliyin olmaması, uşaqlıq buynuzlarının pubik birləşmədən asılması qarın boşluğu və onlardan birində palpasiya ilə müəyyən edilmiş boşluq, uşaqlıq boynunun uzanması və onun kanalının açılması kimi dəyişikliklər göstərir ki, heyvanlarda follikulyar yumurtalıq kistinin gizli formasının olması mümkündür.

Tədqiqatın elmi yeniliyi

Texnogen təzyiq, ekoloji cəhətdən əlverişsiz şəraitə uyğun olan yaşayış yerləri hamilə qadınların orqanizminə əlavə yükdür. Çirkləndirici ətraf mühitin kimyəvi agentləri birbaşa və ya dolayı, lakin həmişə mənfi reproduktiv sistemə təsir edərək onun funksiyasını pozur və ya tamamilə dayandıraraq sonsuzluğa, abortlara səbəb olur, məhsuldarlığı kəskin şəkildə azaldır.

Məlumdur ki, alimentar (qidalanma) sonsuzluq - reproduktiv pozğunluq əsasında qidalanmada müxtəlif səhvlərə görə heyvanlarda qida maddələrinin çatışmazlığı (tükənməsi) və ya artıqlığı (piylənmə) olduqda baş verir.

Bildiyimiz kimi, mal-qaranın məhsuldarlığına çoxsaylı amillər təsir göstərir, belə ki, paratipik amillər, onların arasında qidalanma ən mühümdür. G.A. Bogdanov, (1990), yem və bəslənmənin çox daha böyük olduğunu qeyd edərək heyvanın orqanizminə cins və mənşədən daha çox təsir edir.

Nəticə

Reproduktiv funksiya pozğunluqları heyvanlarda yalnız 10% genetik faktorlarla müəyyən edilir və 90% ətraf mühit amilləri, xüsusilə adekvat qidalanma səbəbi ilə yaranır. Heyvanların qidalanması və saxlanmasında bütün sapmalar və səhvlər, xüsusilə süd məhsuldarlığı yüksək olan inəklərə gətirib çıxararaq metabolik pozğunluqlar, sistemlərin və orqanların disfunksiyası, azalmış müqavimət və

immun çatışmazlığı, çoxsaylı stresslər və nəticədə yüksək xəstəliyə, mexanizmlərin işə salınmasına, reproduktiv funksiyaların özünü tənzimləməsi, yəni sonsuzluğa zəmin yaradır.

Müasir heyvandarlıq yüksək metabolik sürət ilə xarakterizə olunan prosesləri, xüsusilə yüksək məhsuldar heyvanlarda özünü göstərərək inəklərlə müqayisədə mənfi enerji balansı dövründə orta məhsuldarlığa təsir edir. Laktasiya dominantı sekresiyanı və qana buraxılmasını maneə törədir. luteinizing hormon, insulin xüsusilə yüksək məhsuldarlıq üçün xarakterik olan gonadotropik amil heyvanlar və follikulogenezin pozulmasına səbəb olur. Eyni zamanda β-hidroksibutiratın, esterləşməyən yağ turşularının səviyyəsi artır. Bu baxımdan yüksək məhsuldar heyvanlar üçün follikulyar yumurtalıq kistlərinin görünüşü xarakterik olur və həmçinin gecikmiş yumurtlamaya meylli böyük follikulların formalaşmalaşır.

Laktasiyanın ilk həftələrində inəklərdə azalma müşahidə olunur. Yem istehlakı, qida maddələrinə olan ehtiyac və maksimum enerji zəifləməyə başlayır. Mənfi enerji balansı itkiyə səbəb olaraq canlı çəki, çatışmazlığı kompensasiya etmək üçün bədən yağ toxumasının səfərbər dilməsini təmin edir.

Metabolik proseslərin intensiv gedişinə görə bütün orqan və sistemlərin intensiv funksional fəaliyyəti heyvanların məhsuldarlığı təmin edilir. Mübadilə dəyişikliyinə görə maddələr, metabolik proseslər pozulur, heyvanın bədəninin funksional fəaliyyətinin inhibəsinə səbəb olur. Bununla belə, birinci dərəcəli heyvanların pəhrizində qida maddələrinin balanssızlığı vacib hesab olunaraq standartlara uyğun gəlməməsi, adekvat balanslaşdırılmış qidalanma ilə yaş, istiqamət, məhsuldarlıq səviyyəsi, fizioloji nəzərə alınır. Subklinik xroniki yüksək məhsuldar inəklərdə metabolik pozğunluqlar fizioloji pozğunluqlara səbəb olaraq aşağıdakı funksional əlaqələri yaradır: hipotalamus – hipofiz – yumurtalıq – uşaqlıq – xorion, inəklərdə plasentanın tutulmasına gətirib çıxarır. Heyvanlarda sonsuzluq (uşaqlıq və yumurtalıqların patologiyası səbəbindən və ya genital orqanlarda dəyişikliklərlə əlaqəli deyil) fonunda inkişaf etmişdir və qanda mikroelementlərin aşağı səviyyəsi (selen, yod, manqan, mis), A və E vitaminləri və qaraciyər disfunksiyasına təsir göstərir. Belə bir nəticə gəlirik ki, inək rumen asidozunun əsas səbəblərindən biridir.

ƏDƏBİYYAT

1. Zeynalov.E.C. Qısır inəklərin terapiyası üçün tədqiqi // Azərbaycan Dövlət Aqrar Universitetinin Elmi Əsərləri, (kənd təsərrüfatının mexanikləşdirilməsi, elektrikləşdirilməsi və texniki xidmət sahələri üzrə). 2013, № 1
2. Zeynalov E.C. Sonsuzluğun optimal parametrlərinin müəyyən edilməsi. //AMEA Gəncə Regional Elm Mərkəzi. Xəbərlər məcmuəsi, 2009. № 38, s.65-68
3. Zeynalov E.C.Təhlükəsiz artım // Elm və həyat, 2007, № 5-6. s.72- 7
4. Зейналов.Э.Д.Физиологическоеоценка работы доильного аппарата// Агропанорама, Минск: 2012, № 4. с.16-17.
5. www.google.az
6. www.baytar.az
7. www.adau.edu.az
8. www.stat.gov.az

SUMMARY

Sama Agalarova

DIRECTION OF INFLUENCE OF STIMULATION AND SYNCHRONIZATION DURING CLINICAL TREATMENT OF COWS

It should be noted that the path leading to infertility during the appearance of obstetric and gynecological pathology of cows is often associated in country farms. A number of factors with impaired contractile function of the affected myometrium include both during pregnancy and during childbirth and the postpartum period. This is a hormonal deficiency, inflammation, reproductive system processes, insufficient diet that causes disruption of vitamins and minerals, stress, etc. based on the transmission of excitation in the unique electrochemical circuit of the myometrium.

The reasons for the prevalence of symptomatic infertility are: unbalanced nutrition, physical inactivity, pathological childbirth, exposure to sunlight, as well as untimely and poor quality treatment. In general, as endogenous and exogenous negative factors, they lead to disruption of homeostatic balance, decrease in adaptability, and negatively affect the body's capabilities, fertility potential, and development of pathological processes.

Key words: *breeding cattle, gynecological pathology, hormonal deficiency, reproductive system, pathological childbirth, homeostatic balance, symptomatic infertility, defective sexual cycles, etiology, gynecological diseases.*

РЕЗЮМЕ

Сама Агаларова

НАПРАВЛЕНИЯ ВОЗДЕЙСТВИЯ СТИМУЛЯЦИИ И СИНХРОНИЗАЦИИ ПРИ КЛИНИЧЕСКОМ ЛЕЧЕНИИ КОРОВ

Следует отметить, что пути, приводящие к бесплодию при появлении акушерско-гинекологической патологии коров, часто связаны в крестьянских хозяйствах. К числу факторов нарушения сократительной функции пораженного миометрия относятся как во время беременности, так и в родах, и в послеродовом периоде. Это гормональная недостаточность, воспаления, процессы репродуктивной системы, недостаточное питание, вызывающее нарушение поступления витаминов и минералов, стресс и т. д. основан на передаче возбуждения в уникальной электрохимической цепи миометрия.

Причинами распространенности симптоматического бесплодия являются: несбалансированное питание, гиподинамия, патологические роды, воздействие солнечных лучей, а также несвоевременное и некачественное лечение. В целом, как эндогенные, так и экзогенные негативные факторы, они приводят к нарушению гомеостатического баланса, снижению адаптивности, отрицательно влияют на возможности организма, потенциал фертильности, развитие патологических процессов.

Ключевые слова: *племенной скот, гинекологическая патология, гормональная недостаточность, репродуктивная система, патологические роды, гомеостатический баланс, симптоматическое бесплодие, дефектные половые циклы, этиология, гинекологические заболевания.*

AKİM AXUNDOV
akhundov7@gmail.com
MEHRİ AĞACANOVA
Naxçıvan Dövlət Universiteti

ORDUBAD İNZİBATİ RAYONUNDA TORPAQLARIN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN TƏBİİ VƏ ANTROPOGEN AMİLLƏR

Məqalədə mövzunun aktuallığı, məqsədi, vəzifələri və material metodikası haqqında məlumat verilir. Mövzunun əsas hissəsində Ordubad inzibati rayonunda torpaq mühitinin qorunması üçün ərazinin fiziki-coğrafi şəraiti (relyef, iqlim,hidroloji və hidrogeoloji, bitki və heyvanlar ailəmi, antropogen təsir, və s.), deqradasiya prosesləri (şorlaşma, erroziya, bataqlıqlaşma, daşlılıq, kol-kos basmış sahələr və s.), morfoloji, fiziki və kimyəvi xüsusiyyətləri öyrənilir.

Nəticədə Ordubad inzibati rayonunda torpaq mühitinin qorunması üçün ərazinin fiziki-coğrafi şəraiti öyrənilib təhlil olunmaqla, mədəni-təbii bitkilər altında torpaqların qiymətləndirilməsi, aqroistehsalat qruplaşdırılması və ərazidə aqromeliorativ tədbirlərə ehtiyacı olan torpaq qruplarını da müəyyənləşdirilməsi üçün istiqamətlər göstərilmişdir. Eyni zamanda bu tədqiqat Ordubad inzibati rayonunda yayılmış bütün torpaq tiplərindən, yarımtiplərindən və növmüxtəlifliklərindən səmərəli istifadə etmək üçün bir neçə təklif və tövsiyyələr verilmişdir.

Açar sözlər: *Coğrafi amillər, eko-coğrafiya, torpaq, bonitet, torpağın bonitirovkası, torpağın ekoloji qiymətləndirilməsi*

Giriş

Tədqiqat obyekti coğrafi mövqeyinə görə şimal- şərqdən Ermənistan Respublikası, cənubdan İran İslam Respublikası, qərbdən isə Culfa inzibati rayonı ilə sərhədlənir.

Ərazidə çay şəbəkəsinin normal olmasına baxmayaraq, muxtar respublikanın digər inzibati rayonlarına nisbətən məhsuldar torpaqlar azlıq təşkil edir. Bu da ərazinin əksər hissəsinin hündür və sıldırımlı dağlardan ibarət olması ilə əlaqədar olmaqla, ərazidə torpaqların yüksək dərəcədə eroziya proseslərinə məruz qalmasına səbəb olur.

Məlumdur ki, dünyada baş verən səhralaşma-torpaq deqradasiyası prosesləri Naxçıvam Muxtar Respublikasında da yayılan torpaqların mühütünün pozulmasına da təsirini göstərir. Ərazidə müxtəlif təbii və antropogen təsirlər nəticəsində torpaqlarda baş verən deqradasiya prosesləri münbitliyin azalmasına, məhsuldarlığın aşağı düşməsinə və əhalinin ərzaq ehtiyatlarının ödənilməsində iqtisadi-sosial çətinliklər yaradır.

Naxçıvam Muxtar Respublikasında da yayılan torpaqların mühütünün pozulmasına da təsirini göstərən və ərazidə müxtəlif təbii və antropogen təsirlər nəticəsində torpaqlarda baş verən deqradasiya prosesləri münbitliyin azalmasına, məhsuldarlığın aşağı düşməsinə və əhalinin ərzaq ehtiyatlarının ödənilməsində iqtisadi-sosial çətinliklər yaranan regionlardan biri də Ordubad inzibati rayonudur.

Regionda güclü sellər nəticəsində Ordubad maili düzənliyi torpaqlarının əksər hissəsi kiçik və iri həcmli daşlarla örtülmüşdür. Muxtar respublikada torpaq fondunun 17,8 faizini, məhsuldar torpaqların isə 6,4 faizini təşkil edir. Məhz, bu baxımdan Ordubad inzibati rayonunda yayılan torpaqlarda tədqiqatların aparılması aktualdır (1, s. 15; 2, s. 7.)

Tədqiqatın məqsədi: Ordubad inzibati rayonunda torpaqların formalaşmasına təsir göstərən təbii və antropogen faktorların öyrənilməsi və mühitinin itirilməsinə təsir göstərən mənfi proseslərdən şorlaşmanın, şorakətləşmənin, bataqlıqlaşmanın və digər faktorların mənşəyini (genezisini), yaranma səbəblərini, forma və yayılma coğrafiyasını bilmək, onu düzgün qiymətləndirmək, təsnifatını hazırlamaqla, lazımı tədbirlər həyata keçirməkdən ibarətdir.

Materiallar və Metodlar: Mövzuya aid ədəbiyyat, çöl materialları toplanılmış və işin metodikası hazırlanmışdır. Mövzu işlənərkən tarixin ayrı-ayrı inkişaf mərhələlərində xarici ölkələrdə, o cümlədən Azərbaycan və Naxçıvan MR-də və o cümlədən Ordubad inzibati rayonunda torpaq-bitki tədqiqatları aparan alimlərin monoqrafiya, metodik vəsait, xəritə materialları və müasir tələblərə cavab verən iş təcrübələrindən istifadə olunmuşdur [3, s. 9-25; 4, s. 307-310; 5, s. 5-38; 6, s. 17-25]. Tədqiqat obyekti kimi Ordubad inzibati rayonunda yayılan torpaq sahələri seçilmişdir.

Ərazinin relyef şəraiti. Ordubad Muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların Araz çayının dərəsinə doğru uzanan və müasir relyefdə orta və alçaq dağlıq yaradan qolları əhatə edir. *Zəngəzur silsiləsi* Kiçik Qafqazın ən yüksək silsilələrindəndir; ən hündür zirvəsi Qapıcıq dağı (3906 *m), ən aşağı nöqtəsi Kotam dərəsi 600 metrdir*. Eyni zamanda Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsidir və daimi qar xəttindən 41 *m* yuxarıda yerləşir.

İnzibati rayonunun əsas sahəsini təşkil edən Ordubad maili düzənlikləri torpaqəmələgəlmə prosesində müsbət rol oynayaraq, digər relyef formalarına nisbətən torpaq qatının qalınlığı ilə seçilir. Relyef torpaqəmələgətirən amil kimi torpaq örtüyünün yaranmasında bilavasitə iştirak edir və onun rolu əsas ehtibarilə iqlim şəraitinin torpaqda təsirinin dəyişməsindən asılıdır. (Babayev 1999).

Geoloji quruluşu. Geoloji quruluşuna görə Ordubad inzibati rayonun ərazisi geoloji cəhətdən Kiçik Qafqazın Naxçıvan qırışıqlıq tektonik zonasında yerləşir. Digər tektonik zonalardan fərqli olaraq, geoloji quruluşu ümumi qalınlığı 14 km-ə qədər Kaynozoy (Yerin geoloji tarixinin son 65 mln. ili), Mezozoy (65-248 mln. ili), Paleozoy (248-540 mln. ili) dövrlərinin çökmə, vulkanogen-çökmə, yerüstü vulkanların püskürmə qatlarından və yer qatının daxilində kristallaşmış süxurlardan təşkil olunmuşdur. Alt Pliosen yaşlı kiçik intruzivlər (kütlələr) və ekstruzivlər silsilənin cənub-qərb yamacında konusvarı, günbəzvarı çıxıntılar yaradaraq təkrarolunmaz relyef əmələ gətirirlər.

Ordubad maili düzənliklərini təşkil edən dördüncü dövr çöküntüləri hidrogeoloji baxımdan xüsusi maraq doğurur. Bu dövrün çöküntüləri əsasən allüvial, prollüvial, dellüvial mənşəli olub müxtəlix tərkibə və qalınlığa malikdir.

Düzənliyin dağətəyi şimal-qərb və şimal-şərq hissəsində həmin çöküntülər Gilançay, Düylünçay, Vənəndçay, Ordubadçay və digər çaylarının gətirmə çöküntüləri olub, tərkib ehtibarilə arası qum gillicələrlə doldurulmuş çaqıl və çınqıllı iri çay daşlarından ibartətdir. Bu hissədə çöküntülərin qalınlığı 70 metrə çatır.

Dağətəyi zonada cənub-qərbə Arazkənarı terrasa doğru çaydaşları tədricən kiçik fraksiyalı çöküntülərlə-xırda ölçülü çınqıllarla, qumlarla, qumçalar və gillicələrlə əvəz olunur. Çöküntülərin ümumi qalınlığı Arazkənarı zonada 197 metrə çatır.

Geomorfoloji quruluşu. Geomorfoloji cəhətdən düzənlik və maili düzənliklər zəif və orta dərəcədə parçalanmışdır. Apardığımız araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, ərazi geomorfoloji cəhətdən 2 hissəyə, cənub-qərb Arazkənarı terras və şimal-şərq Gilançayın kətirdiyi konusuna ayrılır. Düzənliyin şimal-şərq və cənub kənarları Orta və Üst devon, Rerm və Karbon yaşlı kvarslı əhəngdaşları ilə təşkil olunmuş, dağətəyi zona isə qum daşları və gilli şirstlərlə əhatə olunmuşdur. Həmin süxurlar düzənliyin mərkəzi, Arazkənarı hissəsinə doğru dərinləşərək, üzəri Miosen və Dördüncü dövrün çöküntüləri ilə örtülmüşdür (Babayev 1999).

Ərazinin iqlim şəraiti. Torpaqəmələgəlmə prosesində iqlim amillərinin rolunu yaddan çıxarmaq olmaz. Burada yağıntılar (N^2, CO^2, O^2), su buxarı, günəş enerjisi və digərləri torpağın üzvü maddələrinin əmələləgəlməsində yaxından iştirak edir. Ordubad inzibati rayonun qışı soyuq, yayı quraq, isti yarımsəhra iqlimi hakimdir. Muxtar respublikanın ərazisində ayrılmış bu düzənliklər bitkilərin həyatında həlledici rol oynayan termik ehtiyatlarla zəngindir.

Bu iqlim tipi Araz çayı boyu ərazinin mütləq yüksəkliyi 600-1000 metr, nisbi yüksəkliyi isə 0-400 metr təşkil edir. Ərazinin coğrafi mövqeyi, səmanın açıqlıq dərəcəsindən asılı olaraq, iqlim parametrləri aşağıdakı kimi xarakterizə olunur. Müsbət temperaturların cəmi 4600-4400^{0}C, 5^{0}C-dən yuxarı müsbət temperaturların cəmi 3800-4000^{0}C-ə, 10^{0}C-dən yuxarı müsbət temperaturların cəmi 3600-3400^{0}C, orta illik temperatur 10^{0}C, orta mütləq maksimum 36^{0}C, orta mütləq minumum 20^{0}C

təşkil edir. İllik yağıntıların miqdarı 210-220 mm təşkil edir. Bitkilərin vegetasiyaya başladığı mart-aprel aylarında nisbi nəmləmə 40-45 faiz təşkil edir. Lakin əsas bitkilərin inkişafı müşahidə olunduğu iyul-avqust aylarında 2-5 faizdən yuxarı qalxa bilmir. Ona görə də bu sahələrdə intensiv suvarma əkinçiliyini tətbiq etmək lazımdır.

Düzənlikdə əsasən allüvial-subasar, bataqlıq-çəmən, çəmən-boz, boz-çəmən, boz, tünd-boz, boz-qonur torpaqları yayılmışdır.

Hidroloji və hidrogeoloji şəraiti. Torpaqəmələgətirmə proseslərinə təsir göstərən amillərdən biri də ərazinin hidroloji və hidrogeoloji quruluşudur. Ona görə də torpaq tədqiqatları apararkən ərazidə süxurların tərkibi, çöküntülərin əmələgəlmə şəraiti və qrunt sularının hidrogeolji cəhətdən öyrənilməsi də vacib məsələlərdən biridir.

Tədqiqat obyektində ərazinin geoloji quruluşu, ilə bərabər süxurların tərkibi, hidroloji və hidrogeoloji şəraitinin öyrənilməsi də maraq doğurur. Apardığımız araşdırmalar nəticəsində müəyyən olmuşdur ki, ərazidə dördüncü dövr çöküntüləri sulu olub, əsasən təzyiqsiz qrunt sular, Arazkənarı çöküntülərin alt təbəqəsində isə təzyiqli suların mövcudluğu ilə səciyyələnir.

İlk növbədə inzibati rayonda hidroloji şəraitə diqqət yetirdikdə çay şəbəkəsi normal inkişaf inkişaf etmişdir. İnzibati rayonun təsərrüfatlarında Gilançay, Düylünçay, Vənəndçay, Ordubadçay və digər çaylarının və qismən Araz çayından nasoslar vasitəsilə çəkilən sulardan istifadə olunur.

Bitki və heyvanlar ailəmi. İnzibati rayonunda əsasən qəhvəyi, dağ-qəhvəyi, dağ boz-qəhvəyi, bozqır və bozqırlaşmış dağ-qəhvəyi, bozqır dağ-çəmən və s. torpaqlar yayılmışdır.

Torpaqəmələgəlmə prosesində üzvü maddələrin yaranması bitki və heyvanlar ailəminin xüsusi rolu vardır. Torpaqların münbitliyi üçün böyük əhəmiyyəti olan çöküntülərin toplanması bitki və heyvanlarla əlaqədardır. Bitkilər hər şeydən əvvəl torpaqların üst qatında qida elementlərini toplayır. Bitki qalıqları bitki mikroorqanizmlərinin həyat fəaliyyəti üçün enerji mənbəyidir. Bitkilər bir sıra üzvü turşular ifraz edərək, torpaqda çətin həll olan birləşmələri bitki tərəfindən mənimsənilmiş hala salır.

Tədqiqat obyektində torpaqəmələgəlmə prosesində əvvəldə göstərilən faktorlarla bərabər təbii deqradasiya proseslərini və insan amilini də xüsusi qeyd etmək lazımdır. Antropogen relyef insan fəaliyyəti ilə dəyişdirilmiş və yaradılmış relyefdir. Qədim zamanlardan insan yaranandan sonra uzun əsrlər boyu ətraf mühitə çox yönlü fəaliyyəti nəticəsində torpaq və bitki örtüyündə dərin izlər buraxmışdır. İlk mərhələdə təbii landşaftlar bir çox hallarda mədəni bitki landşaftına, yəni aqrolandşaftlara çevirilmişdir.

I. Təbii amillər 1. Eroziya prosesləri-su eroziyası, -külək eroziyası, iqlimin dəyişməsi-İstiləşmə, quraqlıq, şoranlaşma və şorakətləşmə 4. Bataqlıq və bataqlıq-çəmənləşmə, daşlıqlar və kol-kos basmış sahələr

II. Antropogen təsir. Səhralaşma torpaq deqradasiyasını yaradan səbəblər arasında təbii amillərlə yanaşı, antropogen təsirlər də əsas diqqət çəkən məsələlərdən biridir (M.Babayev). Antropogen təsir ətraf mühitə, o cümlədən torpağa təsir göstərən insan fəaliyyətinin müxtəlif formalarını birləşdirir. Müxtəlif formalarda insanların torpaqlara kortəbii münasibəti bir çox hallarda ərazidə eroziya proseslərinin inkişafını sürətləndirir və bataqlıq sahələri yaradır. Məsələn, sahələrdə heyvanların sistemsiz otarılması, ağac və kolların qırılması eroziya proseslərini sürətləndirən əsas amillərdəndir. İnzibati rayonda səhralaşma və torpaq deqradasiyasını yaradan antropogen amillərin müxtəlif formalarından biri olan əhalinin ərazidə məskunlaşmasına diqqət yetirək.

Əhalinin ərazidə məskunlaşmasının torpaqlara təsirinə nəzər saldıqda, burada əhalinin sıxlığı torpaq münbitliyinə təsir göstərən əsas faktorlardan biridir. İnzibat rayonda əhalinin sıx məskunlaşdığı Gilançayın və Ordubadçayın orta axarı kəndi ətrafı torpaqlardan mədəni və təbii bitkilər altında olduqca səmərəli istifadə olunur. Lakin bəzi təsərrüfatlarda və əhali seyrək və yaxud olmayan ərazilərdə isə torpaqlardan səmərəli istifadə olunmur. Ona görə bu ərazilərin torpaqları öz münbitliyini get-gedə itirərək deqradasiya proseslərinə uğrayaraq əkin dövriyyəsindən çıxır. Belə torpaq sahələri Düylünçay, Vənəndçay, Ordubadçay və digər çaylarının aşağı axarlarında və inzibati rayonun dağlıq hissələrində müşahidə olunur. Ərazidə torpaq münbitliyinin azalmasına təsir göstərən

əhali sıxlığı ilə bərabər, qış və yay otlaqlarında heyvanların sistemsiz otarılması, ağac və kolluqların qırılması hallarına rast gəlinir

Nəticələr:

Ordubad inzibati rayonunda kənd təsərrüfatı təyinatlı torpaqların mühitinin qorunması və münbitliyinin artırılması istiqamətində aparılmış tədqiqatların təhlili əsasında aşağıdakı nəticələr əldə olunmuşdur.

- İnzibati rayonun torpaq mühitinin formalaşmasına, inkişafına təsir göstərən əsas fiziki-coğrafi amillər (ərazinin coğrafi mövqeyini, relyef, geoloji, geomorfoloji quruluşunu, iqlim şəraitini, bitki və heyvanlar aləmini, antropogen təsiri və b.), əkinçiliyin inkişaf tarixi,aparılan torpaq, aqroekoloji

tədqiqatlar və deqradasiya prosesləri (şorlaşma, eroziya, bataqlıqlaşma, daşlıq, kol-kos basmış, antropogen təsiri və s.) öyrənilmişdir. Göstərilən tədqiqatların nəticələri təhlil olunaraq ərazidə torpaq mühitinin qorunmasında istifadə olunmuşdur.

-Tədqiqat obyekti üzrə eyni zamanda mədəni və təbii bitkilər altında torpaqlar qiymətləndirilmiş və aqroistehsalat qruplaşdırılması əsasında aqromeliorativ tədbirlərə ehtiyacı olan torpaq qrupları da üzə çıxarılmış və bütövlükdə inzibati rayonlarında yayılmış bütün torpaq tip, yarımtip və növmüxtəlifliklər öyrənilmişdir.

Təkliflər

-Ordubad inzibati rayonda xüsusilə Ordubad maili düzənliyinin şərq hissəsində torpaqların iri həcmli daşlardan təmizlənməsi, Arazboyunun çökəklik olan sahələrdə şoran torpaqların duzlardan yuyulması və bataqlıqların qurudulması ilə mədəni bitkilər altında istifadə olunması məsləhət görülür.

-Ordubad inzibati rayonunun orta və yüksək dağlıq ərazilərində güclü sellər nəticəsində yarğanlar və bir neçə kənddə (Biləv, Behrud,) torpaqların sürüşmə proseslərinə rast gəlinir. Qeyd olunanlarla bərabər, xüsusilə Gilançayın orta axarında Biləv kəndindən yeni Su elektrik stansiyasına çəkilən su kanalının ətrafında olan torpaq səhələrinə iri həcmli daşlar tökülərək ərazi başdan-başa korlanmışdır. Göstərilən neqativ halların aradan qaldırılması üçün aid qurumlar tərəfindən həmin ərazilərə tökülən iri həcmli daşlar təmizlənməli, güclü sellərin və sürüşmə proseslərinin qarşısını almaq üçün lazımi tədbirlərin həyata keçirilməsi məsləhət görülür.

Göstərilən tədbirlər Ordubad inzibati rayonunda qeyd etdiyimiz ərazilərdə elmi əsaslarla planlı surətdə həyata keçirilərsə ərazidə torpaqlardan maksimum dərəcədə səmərəli istifadə etmək olar.

ƏDƏBİYYAT

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 298 s.
2. Babayev M.P., Qurbanov E.A. Səhralaşma-torpaq qradasiyasının tədqiqi. Bakı: Elm, 2008, 47 s.
3. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının eko-coğrafi şəraiti. Bakı: MBM, 2009, 108 s.
4. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: MBM, 2010, 296 s.
5. Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları. Bakı: Elm, 2007, 552 s.

SUMMARY

Akim Akhundov, Agacanova Mehri

NATURAL AND ANTHROPOGENIC FACTORS AFFECTING SOIL FORMATION IN ORDUBAD ADMINISTRATIVE DISTRICT

The article provides information about the topic's relevance, purpose, tasks and material methodology. In the main part of the topic, the physical and geographical conditions of the territory (relief, climate, hydrological and hydrogeological, plant and animal family, anthropogenic influence, etc.), degradation processes (salinization, erosion, swamping, stony, bush- mowed areas, etc.), morphological, physical and chemical properties are studied.

As a result, by studying and analyzing the physical-geographical conditions of the area in order to protect the soil environment in the Ordubad administrative region, directions were indicated for the assessment of land under cultural and natural plants, grouping of agro-production and determining the land groups that need agro-ameliorative measures in the area. At the same time, this study has given several suggestions and recommendations for effective use of all soil types, subtypes and species diversity spread in Ordubad administrative region.

Key words: *Geographical factors, eco-geography, soil, bonitet, bonitet of soil, ecological assessment of soil.*

MÖMÜNƏ FƏRHADZADƏ
ferhadzademomine1994@gmail.com
Naxçıvan Dövlət Universiteti

CANLILARDA DAYAQ, HƏRƏKƏT, QİDALANMA VƏ TƏNƏFFÜS

Məqalədə orta məktəblərin biologiyanın tədrisində "Canlılarda dayaq, hərəkət, qidalanma və tənəffüs" mövzusunun praktik metodla tədrisindən bəhs edilir. Burada praktik metod, onun növlərindən istifadə edilmiş, şagirdlərin inkişaf səviyələrinə təsiri də qeyd olunmuşdur. Praktik metodun müxtəlif növlərinin fəslin bir sıra mövzularında tətbiqi qaydalarına aid məlumatlar da məqalədə öz əksini tapmışdır.

Bundan əlavə, məqalədə fotosintez prosesi haqqında qısa məlumat da verilmişdir. Fotosintez prosesinə aid uzunmüddətli və qısa müddətli müşahidələr, təcrübələr məqalədə öz əksini tapmışdır. Burada həmçinin, İKT-nin biologiya fənninin tədrisinə təsiri də göstərilmişdir. Əlavə olaraq məqalədə, orta məktəblərdə biologiyanın tədrisində şagirdlərin dərsə marağını artırmaq üçün hansı üsul və vasitələrdən istifadə olunacağına dair məlumatlarda var.

Həmçinin orta məktəblərdə biologiya fənninin tədrisində təcrübələrin, ekspermentlərin, müşahidələrin mövzunun mənimsənilməsində əhəmiyyəti barədə məlumatlar da məqalədə öz əksini tapmışdır.

***Açar sözlər**: biologiya, tədris, praktik metod, müşahidə, ekperment*

Biologiya təbiət elmlərdən olduğu üçün onun tədrisində praktiki metoda daha çox yer verilir. Praktik metodla tədris – müstəqil müşahidə və təcrübələr şagirdlərdə mənimsənilən nəzəri bilikləri möhkəmləndirir, iş görmə bacarıqları və vərdişlərinin formalaşmasında əhəmiyyətlidir. Təlimin ən mürəkkəb metodu olan praktik iş müəllimin şərhi, əyanilik, müşahidələrin təşkili və onların əlaqələndirilməsindən ibarətdir. Praktik metodların təbii obyektlərin tanınması və təyini, hadisələrin müşahidəsi, ekspermentin aparılması kimi növləri var. Bu metodlardan söz, əyani, praktik işlərdə qarşılıqlı əlaqədə istifadə olunur [Babayeva Z.Y., 2023, s.58]. Bu metodların tətbiqi zamanı şagirdlərdə hiss üzvlərinin fəallığı getdikcə inkişaf etdirilir və praktiki işlər bilik mənbəyinə, bioloji bacarıqlara çevrilir. Həmçinin, bu metod şagirdlərin fiziki, əqli fəalliyyəti, təlim-tərbiyə cəhətindən çox əhəmiyyətlidir [Hacıyeva G.N., 2018, s.142]. Müşahidələr, ekspermentlər (qarşıya qoyulan problemin təcrübə ilə həlli) sinifdə, evdə, həyətyani sahədə, çöl təcrübəsində, ekskursiyalar zamanı aparıla bilər.

6-cı sinif biologiya kursunun maraqlı bölmələrindən biri "Orqanizmlərin həyat fəaliyyəti" dir ki, "Canlılarda hərəkət, dayaq, qidalanma və tənəffüs" fəsli bura aiddir. Bu fəsil özündə 8 mövzunu birləşdirir.

"**Heyvanlarda hərəkət və dayaq sistemi**" mövzusunun tədrisində heyvanlar aləminin siniflərinə aid müxtəlif əyani vasitələr nümayiş etdirməklə onların hərəkətləri və dayaq sistemi müqayisəli şəkildə izah olunur. Belə ki, birhüceyrəli, çoxhüceyrəli, qurdlar, molyuskalar, buğumayaqlılar, onurğalılara (balıqlar, suda-quruda yaşayanlar, sürünənlər, quşlar, məməlilər sinfi) aid heyvanların hərəkətləri videomaterial əsasında da izah oluna bilər. Mövzu həm də dayaq sistemi ilə bağlı olduğu üçün bu, canlıların skletləri (xarici və daxili) tablolar vasitəsi ilə müşahidə oluna bilər.

"**Bitkilərin yeraltı qidalanması**" mövzusuna uyğun olaraq, təcrübə qablarında toxumlar əkilir və bitkinin qidalanması uzunmüddətli müşahidə əsasında izlənilir. Müəllimin nəzarəti altında şagirdlər bu bitkilərdən birini gübrəli, digərini isə gübrəsiz əkir. Hər iki şəraitdə bitkilərin böyümə prosesi müşahidə edilir. Və əldə olunan nəticələrin şagirdlərin müşahidə gündəliyində də qeyd olunması tapşırılır. Əlavə məlumat mənbələrindən şagirdlərə *potometrin* bitkinin yarpaqlı budaqları və cücərtiləri vasitəsi ilə suyun sorulması və buxarlanmasının sürətini təyin etmək üçün cihaz olduğu haqda məlumat vermək olar.

"**Bitkilərin havadan qidalanması. Fotosintez**" mövzunun tədrisi zamanı ilk öncə nəql üsulunu tətbiq etmək üçün fotosintez prosesinin tədqiqatçıları olan K.A.Timiryazev və C.Pristli haqqında məlumat verilir. Bu dərsə marağın artırılması üçün əhəmiyyətlidir. Bitkilərin fotosintez zamanı günəş enerjinin 1%-dən istifadə etdiyi halda xlorella yosununun bu enerjinin 12 %-dən istifadə etməsinə dair maraqlı məlumatlarla da tədrisi həyata keçirmək olar. [Məmmədov E. 2022, s.231]

Başqa təcrübə olaraq bitkinin fotosintez zamanı oksigen əmələ gətirdiyini müşahidə ilə təyin etmək olar. İçərisində bitki olan dibçəyi iri qazana qoyub, üzəri şüşə qapaqla bağlanaraq isti və işıqlı bir yerə aparılır. 1-2 gündən sonra şagirdlərə qazanda oksigenin yığılıb-yığılmadığını müşahidə əsasında öyrədilir. Qapağı açdıqdan dərhal sonra konteynerə daxil olan parçalanma alovunu görmək olar. Alovun baş vermə səbəbi fotosintez zamanı oksigenin əmələ gəlməsidir [6].

Bu mövzu ilə bağlı başqa uzunmüddətli müşahidəni də aparmaq olar. Yaşıl rəngli olmayan yarpaqlarda da fotosintezin getməsi prosesini izləmək olar. Bunun üçün qaynar su, beqonia yarpağı (arxa tərəfi tünd qırmızıdır), ağ qab lazımdır. Müəllimin nəzarəti altında şagirdlər yarpağı qaynar suya qoyur və 5-7 dəqiqə gözləyirlər. Bu müddətdən sonra yarpaq yaşıllaşır və suyun rəngi dəyişir. Fotosintezin bu yarpaqlarda da getdiyi qənaətinə gəlinir.

"**Heyvanların qidalanması**" mövzusunun tədrisində heyvan şəkilləri təsvir olunmuş tablolar nümayiş etdirilir. Bu şəkillərə əsasən şagirdlərin heyvanların hansı qrupa aid olduğu haqda fikirləri dinlənilir. Bundan başqa birhüceyrəli, çoxhüceyrəli, qurdlar, molyuskalar, buğumayaqlılar, balıqlar, suda-quruda yaşayanlar, sürünənlər, quşlar, məməlilər sinfinə aid heyvanların qidalanmasını əks etdirən videomaterial izlənilə bilər.

"**Bakteriya və göbələklərin qidalanması**" mövzusunun tədrisi zamanı dərsin başlanğıcında ən qədim orqanizm olan bakteriyanı kəşf edən alim –Antoni Van Levenhuk haqqında qısa məlumat verməklə nəql üsulu tətbiq etmək olar. Paxlalı bitki köklərinin kök-yumrucuq bakteriyaları ilə simbioz həyatı təqdimatlar əsasında mənimsədilir. Bakteriyaların avtotrof (fototrof və xemotrof) və hetetrof (saprofit, simbioz və parazit) qrupları tablolar və təqdimatlarla tədrisi daha öyrədici olar.

Xlorofilsiz canlı olan göbələklərin bir sıra papaqlı nümayəndələrinin müəyyən bitkilərin yanında bitdiyi (tozağacı göbələyin tozağacı ilə, qırmızıbaş göbələyin ağcaqovaqla, yağlı göbələyin şam ağacı ilə, qırmızı göbələyin küknar ağacı ilə mikorizası) əyani vəsait və video fraqmentlərlə müşahidə oluna bilər. Göbələklərin insan orqanizmində yaratdığı xəstəliklər (mikozlar) keçəllik, saçqıran, dırnaq göbələyi, dəmrov və s. aid təqdimatlarla nümayiş oluna bilər. Parazitlər daha çox dəridə yerləşməsi, ancaq onlara daxili orqanlarda da rast gəlinməsi haqqında məlumatların verilməsi də mövzuya marağı artırır. Bitkilərdə parazitlik edən – çovdar mahmızı, sürmə göbələyi, pas göbələyi, qov göbələyi və onlarda yaratdığı əlamətlər haqda məlumatlar şəkillər üzrə vermək olar.

"**Heyvanlarda tənəffüs**" mövzusunun tədrisi zamanı balıqlarda tənəffüsə aid eksperment aparmaq olar. Bunun üçün uşaqlar akvariumdakı balıqların tənəffüs hərəkətlərini müşahidə edirlər. Sonra boru vasitəsilə akvariumdakı suya hava buraxırlar. Bu zaman hava qabarcıqları görünür. Müəllim şagirdlərin diqqətini balıqların qəlsəmə nahiyəsindən çıxan hava qabarcıqlarına yönəldir və bu onların tənəffüs etdiyi zaman verdiyi hava olduğunu qeyd edir.

Laboratoriya və praktiki işlər fənnə marağın yaradılması, şagirdlərin müstəqil şəkildə eksperiment qoyması, öyrədilən məlumatların təcrübələrdə tətbiq olunması, fəndaxili və fənlərarası əlaqələrin yaradılması, mövzunun daha dərindən dərk olunması, idrak fəaliyyətin aktivləşdirilməsi baxımından tədrisin keyfiyyətinə müsbət təsir edir. Biologiya kursu üzrə müasir texnologiyalar əsasında aparılan laboratoriya işləri bioloji qanunauyğunluqlar, canlıların bir-biri ilə, cansız təiətlə qarşılıqlı əlaqəsi, oxşar və fərqli xüsusiyyətləri, onların təkamülü və bunu doğuran səbəblər, orqanizmin sağlamlığının şərtləri və digər məsələlərin təhsil alanlar tərəfindən ətraflı mənimsənilməsini asanlaşdırır.

ƏDƏBİYYAT

1. Babayeva Z. Biologiyanın tədrisi metodikası. Naxçıvan: 2023, 223 s.
2. Ələkbərov U.K., Ağamirov, Ə.Ş.İmaməliyev, B.N.İsmayılov. Biologiya (bitkilər, bakteriyalar Ü.M., göbələklər, şibyələr). VI, VII siniflər üçün dərslik. Bakı: 1997.
3. Hacıyeva G. Biologiyanın tədrisi metodikası. Bakı: 2018, 360 s.
4. Məmmədov E. Abituriyentlər üçün dərs vəsaiti. Bakı: Güvənnəşr, 2022, 300 s.
5. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya 6-cı sinif dərslik. Bakı: 2013.
6. https://maxkorzhnn.ru/az/opyty-po-biologii-s-rasteniyami-kak-pokrasit-zhivye-cvety.html

SUMMARY

Momuna Farhadzade

STANDING, MOVEMENT, NUTRITION AND RESPIRATION IN ANIMALS

The article explains how to teach the subject of “Support, movement, nutrition and respiration in living things “ with an applied method in biology teaching in secondary schools. Here, the impact of applied methods and types on students` development was also noted. The article also reflects information on the application rules of various practical methods in various topics of the department.

The article also gives brief information about the photosynthesis process. Long and short-term observations and experiments regarding the photosynthesis process are reflected in the article. The impact of ICT on biology teaching is also shown here. Additionally, the article includes information about which methods and tools can be used to increase students` interest in biology teaching in secondary education institutions.

In addition, the article reflects information about the importance of experience, experiments and observations ion teaching biology in high schools.

Key word: *biology, teaching, practical method, observation, experiment*

ÜLVİ İSMAYILLI
ulviismailli0809@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0006-0162-8950

ÇILPAQ BİYAN (*GLYCYRRHIZA GLABRA* L.) BİTKİSİNİN BİOEKOLOJİ VƏ FITOKİMYƏVİ XÜSUSİYYƏTLƏRİ

Çılpaq biyan (Glycyrrhiza glabra L.) Paxlalılar (Fabaceae) fəsiləsinə daxil olub, yerüstü tumurcuqları olan, hər il qışda ölən, çoxillik ot bitkisidirr. Bu növün bir xüsusiyyətləri var; yaxşı inkişaf etmiş üfüqi rizomları və ikincili köklərinin mürəkkəb budaqlanmış şəbəkəsi ilə təmsil olunan kök quruluşludur. Şirin biyanın təbii populyasiyalarında vegetativ bərpa üsulu üstünlük təşkil edir, qismən budaqlar və onları birləşdirən çox güclü üfüqi rizomlar uzun illər canlı qalır və yığınlar əmələ gətirir. Biyan muxtar respublikanın hər yerində geniş yayılmışdır və böyük təsərrüfat əhəmiyyətinə malikdir. Hal-hazırda biyan bitkisinin yeraltı orqanları xalq təsərrüfatının müxtəlif sahələrində (tibb, əczaçılıq, yeyinti sənayesi, əlvan metallurgiya və s.) istifadə olunur. Biyan ekstraktları və onun əsas komponenti olan glycyrrhizin qidalarda, tütün məmulatlarında, ənənəvi istifadədə və bitki təbabətində intensiv istifadə olunur. Şəkərdən 50 dəfə çox şirinləşdirici olan qlikirrizin birləşməsini ehtiva edən rizomları (yeraltı gövdələri) üçün becərilir.

Çılpaq biyan xalq təbabətində istifadə olunan qiymətli dərman bitkisidir Eksperimental və klinik tədqiqatlar üzrə nəticələr göstərir ki, biyan kökü iltihab əleyhinə, antiviral, antibakterial, antikanser, immunostimulyasiya edən, hepatoprotektiv, antioksidant və neyroprotektiv xüsusiyyətlərə malikdir. Biyan kökünün tərkibində bir sıra bioloji aktiv maddələr var: triterpen saponinlər, flavonoidlər, kumarinlər və digər fenollar kimi maddələr.

Ədəbiyyat məlumatlarına əsasən şirin biyanın orqanizmə bioloji təsiri, xüsusən də mərkəzi sinir sistemində çox müxtəlif və çoxşaxəlidir. Eksperimental olaraq müəyyən edilmişdir ki, biyan kökünün sulu ekstraktı sinir dendritlərinin böyüməsini stimullaşdırır.

Açar sözlər: *Çılpaq biyan, dərman bitkisi, antibakterial, fenol, sulu ekstrakt.*

Giriş

Hazırda bütün dünyada gözlənilən ömür uzunluğunun artması tendensiyası açıq şəkildə müşahidə olunur. Əhalinin yaş qrupu zəngin peşə və sosial təcrübə ilə xarakterizə olunmasına baxmayaraq, onlar xəstəliyin çoxsaylı ağır formaları ilə xarakterizə olunur. Müalicə strategiyalarından biri oksidləşdirici stressi yatırmağa və xolinergik sistemin funksiyalarını bərpa etməyə yönəlmiş tədbirlərdir. Bununla belə, əksər dərmanlarda ürəkbulanma, ishal və qusma da daxil olmaqla bir sıra yan təsirlərin inkişafı səbəbindən istifadə məhdudiyyətləri var. Yuxarıda göstərilənləri nəzərə alaraq, bitki mənşəli maddələrin axtarışı çox perspektivli və aktualdır (Ahmed T və Gilani AH., 2009).

Bu baxımdan tədqiqatçıların diqqətini biyan (*Glycyrrhiza* L.) cəlb edir. Müəyyən edilmişdir ki, biyan köklərinin tərkibində olan müxtəlif bioloji aktiv birləşmələr insan orqanizminə geniş spektrli bioloji və fizioloji təsir göstərir. Bundan əlavə, çılpaq biyan bitkisinə əsaslanan preparatların beynin mnestik funksiyalarına müsbət təsir göstərdiyinə dair sübutlar var. Biyan kökünün öyrənmə və yaddaş mexanizmlərində iştirak edən mərkəzi sinir sisteminin (neyrotransmitter sistemlərinə müxtəlif təsirləri də göstərilmişdir.

Material və metodlar

Biyan bitkisinin müxtəlif morfoloji orqanları tədqiqat materialı kimi istifadə edilmişdir. İşin məqsədi müəyyən edilmiş, onu başa çatdırmaq üçün zəruri olan vəzifələr tərtib edilmiş, və tədqiqat metodları seçilmişdir. Bu tədqiqatın obyektləri Naxçıvan Muxtar Respublikasının müxtəlif ərazilərindən toplanmışdır. Tədqiqat rəqəmsal mikroskopiya, histokimyəvi reaksiyalar, farmakoloji

və mikrobioloji üsullardan istifadə etməklə aparılmışdır. Alınmış məlumatların statistik araşdırılması ümumi farmakopeyaya uyğun olaraq, həyata keçirilmişdir (Белова, О.А,. 2023, Deyl Z, 1978).

Müzakirə

Biyan cinsinin - *Glycyrrhiza* L.-nin tədqiqi 250 ildən artıqdır ki, davam etdirilməsinə və insanlar tərəfindən dərman kimi istifadə tarixinin əsrlər əvvəlinə təsadüf etməsinə baxmayaraq, hələ də tam öyrənilməmişdir. Biyan (*Glycyrrhiza* L.) paxlalılar ailəsinə (*Fabaceae*) aiddir. Çılpaq biyan çoxillik ot və ya kiçik kol bitkidir. Gövdəsi 50-150 sm hündürlükdə, dibi ağacvari, sıx pulcuqlu vəzili nöqtəli, ağ tüklüdür. Yarpaqları 5-14 sm, xətti, 1-2 mmuzunluqda sıx sarı-qəhvəyi vəzi tüklü yarpaqlar yumurtavarı uzunsov, uzunsov-lancevarı və ya elliptikdir. Düz qalxır, təxminən 2 m hündürlüyə qədər böyüyür. Onun bənövşəyi ağ çiçək dəstələri çox gözəl görünür. Meyvələr (meyvələr) qırmızı-qəhvəyi, uzunluğu 1-3 sm və eni 4-5 mm-dir. Hər bir qabıqda 2-5 qəhvəyi və qaramtıl toxum var. Çiçəklər 1 sm uzunluğunda, düz qabıqlar uzunsovdan xəttinə qədər, 1-3 sm uzunluğunda və 6 mm enində, az və ya çox sıx vəzili, çoxlu toxumludur. Toxumlar 2-8, tünd yaşıl, təqribən. 2 mm diametrdə, hamar olur. Çiçəkləmə: may-iyun, meyvəvermə: iyul-sentyabr aylarında olur. Geniş kök sisteminə malikdir və parlaq sarı, lifli əsaslı köklər dərman məqsədləri üçün istifadə olunur. Bitkinin qurudulmuş rizomunun və kökünün ticarət adı biyandır. Köklər və rizomlar, uzunluğu 1 m-ə qədər və diametri 5-20 mm olan təxminən silindrikdirr. Xaricdən qabıq qəhvəyi-bozdan tünd qəhvəyi rəngə qədər, uzununa qırışlıdır, bəzən rizomlarda kiçik dairəvi və ya eninə kökcük çapıqları nəzərə çarpırr. Kökləri uzun, silindrik, qalın və çoxşaxəli olur (Mustafayeva İ.R. və b., 2015).

Biyan (*Glycyrrhiza glabra*) bitki xammalı əsasında yeni dərman preparatlarının yaradılması sahəsində tədqiqatlar üçün xüsusi maraq kəsb edir. Onların əsasında quru biyan ekstraktı, qalın biyan ekstraktı, biyan ekstraktı konsentratı, biyan kökü siropu və başqaları kimi bir sıra dərmanlar istehsal olunur.

Bioloji aktiv birləşmələrin təcrid edilməsi üçün xammal iki növ bitkinin köklərəidir: xam köklər (Radix Glycyrrhizae naturalis) və mantardan təmizlənmiş köklər (Radix Glycyrrhizae mundata).

Ədəbiyyata görə biyan kökünün tərkibində triterpen saponinlər, flavonoidlər, kumarinlər və digər fenollar kimi bir sıra bioloji aktiv maddələr vardır. Biyan kökündən təcrid olunmuş ekstraktiv bioloji aktiv maddələrin ümumi həcmi ilkin xammalın kütləsinin 40%-nə çatır.

Ən aydın farmakoloji aktivliyə malik olan triterpen və flavonoid birləşmələri tədqiqatçıların daha çox diqqətini cəlb edir. Biyan köklərində olan triterpen maddələrinin əsas nümayəndələri qlikirrizin turşusu (GA) və qlükokortikoid hormonlarının quruluşuna oxşar quruluşa malik olan onun əsas metaboliti qlikiretik turşudur. Biyan kökündə qlikirrizoflavonla təmsil olunan izoflavonlar və izoliquiritinlə təmsil olunan xalkonlar vardır. Sənayedə istifadə olunan bütün biyan növləri flavonoidlərin ümumi keyfiyyət tərkibinə malikdir və yalnız ayrı-ayrı komponentlərin kəmiyyət nisbətində fərqlənir. Bu arada, ən aydın farmakoloji təsirlərə görə, onların arasında ən maraqlıları likiritigenin (LG) və glabridindir (GB).

Biyan köklərinin tərkibində olan müxtəlif bioloji aktiv birləşmələr ona əsaslanan dərmanların farmakoloji təsirini müəyyən edir. Tədqiqat nəticələri göstərir ki, biyan kökü komponentləri, məsələn, glisirrizin, antiinflamatuar, antiviral, antibakterial, anti-xərçəng, immunostimulyasiya edən, xora əleyhinə, hepatoprotektiv və antioksidant xüsusiyyətlərə malikdir. Bundan əlavə, biyandan alınan preparatlar ürək xəstəlikləri, xərçəng, astma və diabetin müalicəsində istifadə edilə bilər.

Patogen mikroorqanizmlərin antibiotiklərə qarşı müqavimətinin artması xəstəliklərin müalicəsi üçün əlavə dərman və üsulların axtarışına səbəb olmuşdur. Son tədqiqatların nəticələri göstərmişdir ki, biyanın həm sulu, həm də etanol ekstraktları Escherichia coli, Pseudomonas aeruginosa, Candida albicans, Bacillus subtilis və metisillinə davamlı sişlar kimi qram-müsbət və qram-mənfi bakteriyaların fəaliyyətini maneə törətməyə əhəmiyyətli təsir göstərir. Həm qliserrizin, həm də flavonoidlər aydın antimikrobioloji təsir göstərir. Antibakterial xüsusiyyətlər çılpaq biyan ekstraktı diş kariyes, periodontit, mədə xorası və vərəmin müalicəsi üçün istifadə etməyə imkan verir (Wang L. və b., 2015).

Glycyrrhizinin antiviral fəaliyyəti faqositozu artırmaq və normal öldürücü hüceyrələrin fəaliyyətini artırmaqla virus reproduksiyasının yatırılması ilə əlaqədardır. Bu xüsusiyyətlər biyan ekstraktının immunostimulyasiya edən təsirini göstərir. İmmunomodulyator fəaliyyəti sayəsində qlikirrizin hepatit virusu, insan sitomeqalovirusu, herpes simplex virusu, qrip virusu, HİV, və koronavirus böyüməsini ləngidir. Bəzi tədqiqatçıların fikrincə, antiviral fəaliyyət selikli qişa sekresiyası vasitəsilə virusun nüfuz etmə prosesində iştirak edən neyroamindaza fermentinin yatırılması ilə əlaqəli ola bilər.

Bir çox tədqiqat biyan glabra ekstraktı antiinflamatuar təsir göstərir. Tədqiqat məlumatları göstərir ki, biyan ekstraktının antiinflamatuar təsiri geniş spektrli iltihab əleyhinə vasitəçilərin və iltihab əleyhinə sitokinlərin bloklanmasına əsaslanır (Hocaoglu AB və ç. 2011).

. Kəskin öskürəyi yatırmaq üçün biyan ekstraktı yüksək effektivlik göstərir. Antiinflamatuar təsirlərinə görə flavonoidlərin astmanın müalicəsində potensial tətbiq eailir. Bundan əlavə, biyan flavonoidləri ağciyər iltihabını, iltihablı və prooksidləşdirici stresin hüceyrələrinin infiltrasiyasını boğaraq əhəmiyyətli dərəcədə azaldır. Klinik tədqiqatlarda biyan ekstraktının inkubasiyadan sonra boğaz ağrısına qarşı effektivliyi göstəilir. Belə ki, bir dəqiqə ərzində biyan məhlulu (200 ml suya 0,5 q) qarqara əedildikdə boğaz ağrısını əhəmiyyətli dərəcədə azaldır.

Biyan əsaslı dərmanların antiviral aktivliyi və antitoksik xüsusiyyətləri onları hepatit B və C kimi ağır xəstəliklərin müalicəsində istifadə etməyə imkan verir. Müəyyən edilmişdir ki, hepatoprotektiv xüsusiyyətlər biyan komponentlərinin antioksidant fəaliyyəti ilə bağlıdır.

Çoxsaylı tədqiqatlardan əldə edilən məlumatlar göstərir ki, biyan ekstraktı döş xərçəngi və prostat xərçəngi zamanı onkoprotektiv xüsusiyyətlər nümayiş etdirir.

Döş xərçəngi tez-tez sümüklərə yayılır. Sümük metastazları və mikromühit arasındakı qarşılıqlı əlaqə həm şiş yükünü, həm də sümük məhvini artırır. Buna görə də, bu qapalı siklik qarşılıqlı əlaqənin istənilən nöqtəsində inhibə, inkişaf etmiş döş xərçəngi olan xəstələrdə bədxassəli osteolitik lezyonları azalda bilər.

Hal-hazırda çoxlu tədqiqatlar biyan komponentlərinin insan beyninə təsirini öyrənmək məqsədi daşıyır. Biyan ekstraktı hipokampal sinir dendritlərinin böyüməsini stimullaşdırır, antikonvulsant, antioksidant fəaliyyət göstərərək, lipidlərin sərbəst radikal oksidləşməsi proseslərini maneə törədir (Егоров, М. В., 2005).

Perspektivli istiqamətlərdən biri şəkərli diabet kimi xəstəlikləri olan xəstələr üçün kompleks terapiya üçün biyan əsaslı dərmanlardan istifadə imkanlarının öyrənilməsidir. Diabet ilə idrak pozğunluğu baş verə bilər.

Əldə olunan nəticələr

Ədəbiyyat məlumatlarından göründüyü kimi, biyan glabrasının bütövlükdə orqanizmə, xüsusən də mərkəzi sinir sisteminə bioloji təsiri çox müxtəlif və çoxşaxəlidir. Tədqiqatların təhlili göstərir ki, biyan bitkisindən hazırlanan preparatlar aşağı toksikliyə və yüksək terapevtik effektivliyə malikdir. Buna görə də, biyan glabra komponentlərinə əsaslanan dərmanların istifadəsi tibbi praktikada perspektivli bir istiqamətdir.

Biyanın ayrı-ayrı komponentlərinin sonrakı tədqiqləri təkcə fərdi birləşmələrin dəyərini müəyyən etməyəcək, həm də müxtəlif xəstəliklərin müalicəsi üçün yüksək effektiv dərmanların yaradılması üçün əsas ola bilər. Beləliklə, bu bitkinin insan orqanizminə bioloji təsirlərinin daha da öyrənilməsi məqsədəuyğundur.

ƏDƏBİYYAT

1. Mustafayeva İ.R., İbadullayeva S.C., Ələkbərov R.Ə., İsmayılov A.H., Qasımov H.Z., Qasımova Ş.Ş. (2015), Farmakoqnoziya botanikanın əsasları ilə (Dərslik). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 648 s.
2. Белова, О.А. (2023), Методика количественного определения суммы флавоноидов в траве солодки голой / О.А. Белова, В.А. Куркин, М.В. Егоров // Фармация и фармакология. Т. 11, № 2. – С. 127-136.
3. Дейл, З. (1978), Жидкостная колоночная хроматография (пер. с англ.) / З. Дейла, К. Мацека, Я. Янака // Под ред. докт. хим. хаук, профессора В.Г. Березкина. – М.: Мир. 544 с.
4. Егоров, М. В. (2005), Качественный и количественный анализ сырья и препаратов солодки // М. В. Егоров [и др.] // Вестник ВГУ. Серия: Химия. Биология. Фармация. – 2005. – № 1. – С. 175-180.
5. Ahmed, T and Gilani AH. (2009), Inhibitory effect of curcuminoids on acetylcholinesterase activity and attenuation of scopolamine-induced amnesia may explain medicinal use of turmeric in Alzheimer's disease. Pharmacology, Biochemistry, and Behavior. 91 (4): 554-559.
6. Hocaoglu AB, Karaman O, Erge DO, Erbil G, Yilmaz O, Bagriyanik A and Uzuner N. (2011), Glycyrrhizin and long-term histopathologic changes in a murine model of asthma. CurrTher Res Clin Exp. 72(6): 250-261.
7. Wang L, Yang R, Yuan B, Liu Y and Liu C. (2015) The antiviral and antimicrobial activities of licorice, a widely-used Chinese herb. Pharm Sin B. 5: 310-315.

SUMMARY

Ulvı Ismaıllı

BIOECOLOGICAL AND PHYTOCHEMICAL CHARACTERISTICS OF LICORICE GLABROUS (*GLYCYRRHIZA GLABRA* L.) PLANT

Glabrous licorice (*Glycyrhiza* glabra L.) belongs to the legume family (*Fabaceae*); it is a perennial herb with aerial shoots that die off annually in winter. This type has one special feature; It has a well-developed horizontal rhizome and a complex branched network of secondary roots. In natural populations of sweet licorice, vegetative regeneration predominates, with partial branches and very strong horizontal rhizomes connecting them persisting for many years and forming clumps. Licorice is widespread throughout the autonomous republic and is of great economic importance. Currently, the underground organs of the licorice plant are used in various fields of the national economy (medicine, pharmacy, food industry, non-ferrous metallurgy, etc.). Licorice extracts and its main component glycyrrhizin are used extensively in food, tobacco products, traditional uses and herbal medicine. Cultivated for its rhizomes (underground stems) containing the compound glycyrrhizin, which is 50 times sweeter than sugar.

Glabrous licorice glabra is a valuable medicinal plant used in folk medicine. The results of experimental and clinical studies show that licorice root has anti-inflammatory, antiviral, antibacterial, anticancer, immunostimulating, hepatoprotective, antioxidant and neuroprotective properties. Licorice root contains a number of biologically active substances: substances such as triterpene saponins, flavonoids, coumarins and other phenols.

According to the literature, the biological effect of sweet licorice on the body, especially on the central nervous system, is very diverse and multifaceted. It has been experimentally established that an aqueous extract of licorice root stimulates the growth of nerve dendrites.

Key words: *Licorice root, medicinal plant, antibacterial, phenol, aqueous extract.*

MURAD AĞABABAYEV
agababayevmurad@gmail.com
Sumqayıt Dövlət Universiteti

$TlInS_2$ -$TlGdS_2$ SİSTEM ƏRİNTİLƏRİNİN İZOTERMİK SIXILMA ƏMSALININ NƏZƏRİ HESABLANMASI VƏ ONUN KİMYƏVİ RABİTƏ QÜVVƏSİ İLƏ ƏLAQƏSİ

$TlInS_2$ -$TlGdS_2$ sistem ərintilərinin istidən genişlənməsi (İXG) və izotermik sıxılması öyrənilmişdir. Müəyyən olunmuşdur ki, $TlInS_2$ kristal qəfəsində qadoliniumun miqdarı artdıqca bütün temperaturlarda İXG və izotermik sıxılma əmsalının qiyməti artır. Göstərilmişdir ki, İXG və izotermik sıxılma əmsallarının təcrübi qiymətləri əsasında hesablanmış istilik və elastiqiyyat parametrləri $TlInS_2$ kristal qəfəsində qadoliniumun metallik payının artması ilə qanunauyğun şəkildə dəyişir.

Açar sözlər: *bərk maəhlullar, krustal qəfəs, elastiklik parametrləri, istidən xətti genişlənmə, izotermik sıxılma, Debay temperaturu.*

Məruzənin əsasını $TlInS_2$ -$TlGdS_2$ (x=0,01,0.05) bərk məhlullarında istidən xətti genişlənmə əmsalının qiymətinə kimyəvi əlaqənin təsirini öyrənməkdir. Bu məqsədlə istilik parametrlərinindən: Debay temperaturu (θ), kristallik qəfəsdə atomların orta kvadratik yerdəyişməsi $\sqrt{\overline{U^2}}$ istilik tutumları fərqi (Cp-Cv) və bəzi elastiqiyyat parametrləri: Yunq modulu (E), Puasson əmsalı (τ), sürüşmə əmsalı (μ), səs dalğalarının yayılma sürətinin (V_e) hesablanması təqdim edilir.

Adətən kristallik qəfəsdə atomların orta kvadratik yerdəyişməsi rentqenoqrammalarda intensivlik xətlərinə görə təyin olunur.[1-3] Bu işində isə atomların orta kvadratik yerdəyişməsi elastiqiyyat parametrləri ilə xarakterizə olunur.

$$\overline{U}^2 = \frac{6{,}4\cdot 10^{-18} d_{1\backslash 6}}{A^{2\backslash 3} E^{1\backslash 2}} = \frac{1{,}49\cdot 10^{-23} d^{1\backslash 2}}{E^{3\backslash 2}} T^2 \qquad (1)$$

T<θ/8 temperaturlarda (1) ifadəsi doğrudur, E-elastiqiyyat modulu, d-nümunənin sıxlığıdır.
T> 1.6 θ temperaturlarda

$$\overline{U^2} = (1.52\text{-}10^{-20}\text{T})/\ \nu_a^{1\backslash 3} \cdot \text{E}$$

olur. V_a-tətbiq olunan nümunədə səs sürətidir θ /8 <T<1.6D temperatur intervalında isə kristallik qəfəsdə atomların orta kvadratik yerdəyişməsi Debay-Betera münasibətlərindən

$$\overline{U}^2 = 4.3\cdot 10^{-14}\ [\text{D}/\theta/7/\theta/\text{T}+1/4]/\bar{A}\cdot\text{D} \qquad (2)$$

kimi təyin olunur. Burada θ -Debay temperaturu, A-atomun orta kvadratik kütləsidir. $TlIn_{1-x}Gd S_2$ bərk məhlulların kristallik qəfəsdə atomların orta kvadratik yerdəyişməsini hesablamaq üçün (2) münasibətindən istifadə olunmuşdur. Bərk cismin Debay temperaturunu hesablamaq üçün

$$\theta = 19{,}37/(\bar{A}v^{2\backslash 3}\cdot\alpha)^{1\backslash 2}$$

ifadəsindən istifadə olunur. Burada v-atomun həcmi, α-istidən xətti genişlənmə əmsalıdır.[4]

İstilik tutumlarının fərqinin hesablanması

$$C_n\text{-}C_v = \frac{\beta^2 v_t . T}{\chi_T}$$

Düsturu ilə aparılmışdır. β≈3α

İzotermik sıxılmanın təcrübi qiymətləri əsasında $TlIn_{1-x}Gd_xS_2$ bərk məhlulları üçün bəzi elastiqiyyat parametrləri hesablanımışdır: [3]

Yunq modulu: (E)

$$\sqrt{E} = \frac{\theta\cdot m^{1\backslash 3}\cdot d^{1\backslash 6}}{1.6818\cdot 10^3}$$

burada θ-Debay temperaturu, d-sıxlıq, m-kütlədir

Sürüşmə modulu (μ)

$$\mu=E/2(1+\tau)$$

Hərtərəfli sıxılma əmsalı (k)

$$k=E/3(1-2\tau)$$

Puasson amsalı (τ)

$$\tau=1-(E/3k)$$

Səs dalğalarının yayılma sürəti (v_e)

$$v_e = \sqrt{E/\rho}$$

p-sıxlıqdır.

Hesablamaların nəticəsi cədvəl 1-də verilmişdir. Cədvəldən göründüyü kimi bark məhlullarda qadolinium atomlarının miqdarı artdıqca Debay temperaturu azalır, kristallik qəfəsdə atomların orta kvadratik yerdəyişməsi artır. TlInS, birləşməsində metallik pay artdıqca Yunq modulu, sürüşmə əmsalı, Puasson və səs dalğaların yayılma sürəti də artır.

$TlInS_2$ -$TlGdS_2$ sistem ərintilərinin istilik parametrləri:Debay temperaturu,kristallik qəfəsdə atomların orta kvadratik yerdəyişməsi,istilik tutumlarının fərqi və elastiqiyyat parametrləri:

Yunq modulu, sürüşmə əmsalı, Puasson əmsalının qiymətləri

T, K	$TlIn_{0.98}Gd_{0.02}Te_2$						$TlIn_{0.95}Gd_{0.05}Te_2$						$TlIn_{0.90}Gd_{0.1}Te_2$					
	θ K	$\sqrt{u^2}$ Å	C_p-C_v C/kqK	E QPa	μ QPa	Σ	θ K	$\sqrt{u^2}$ Å	C_p-C_v C/kqK	E QPa	μ QPa	σ	θ K	$\sqrt{u^2}$ Å	C_p-C_v C/kqK	E QPa	μ QPa	σ
80	324	0.081	0.019	349.7	118.1	0.471	316	0.084	0.020	333.8	118.1	0.470	314	0.085	0.021	331.3	112.8	0.470
90	315	0.088	0.024	330.5	112.4	0.473	320	0.089	0.024	321.2	112.4	0.472	307	0.090	0.023	316.7	107.9	0.469
100	307	0.092	0.029	313.9	106.6	0.474	302	0.092	0.029	304.8	106.6	0.473	301	0.094	0.028	304.4	103.7	0.470
110	299	0.097	0.035	302.5	102.4	0.475	296	0.098	0.035	301.3	102.3	0.474	291	0.100	0.34	290.6	102.1	0.471
120	293	0.102	0.042	285.8	96.9	0.476	289	0.103	0.042	278.1	96.9	0.475	284	0.105	0.041	270.9	91.1	0.474
130	287	0.106	0.049	270.4	92.3	0477	283	0.108	0.049	265.3	91.6	0.476	277	0.110	0.052	257.6	90.3	0.475
140	281	0.112	0.057	262.9	89.1	0.478	278	0.113	0.056	258.1	89.1	0.477	270	0.116	0.60	244.8	82.1	0.476
150	275	0.116	0.065	250.5	88.3	0.479	273	0.118	0.064	249.5	87.7	0.478	265	0.121	0.071	238.6	80.8	0.477
160	271	0.121	0.074	244.4	82.7	0.480	269	0.122	0.072	241.6	82.7	0.478	261	0.127	0.075	228.7	77.8	0.478
170	267	0.127	0.084	23903	81.5	0.480	264	0.129	0.081	237.4	81.2	0.478	256	0.132	0.086	225.1	74.5	0.479
180	264	0.132	0.092	231.9	78.4	0.481	261	0.134	0.091	227.4	78.4	0.479	253	0.138	0.095	214.8	72.7	0.479
190	260	0.137	0.102	228.8	76.5	0.481	257	0.139	0.101	220.6	77.3	0.479	249	0.144	0.106	210.2	71.5	0.479
200	258	0.142	0.111	221.6	74.9	0.481	254	0.145	0.102	215.3	74.9	0.480	246	0.149	0.116	203.1	68.7	0.480
210	256	0.146	0.119	217.1	73.7	0.482	251	0.149	0.125	210.3	73.7	0.481	243	0.159	0.127	198.1	67.1	0.480
220	254	0.150	0.129	214.6	72.5	0.482	249	0.153	0.138	206.9	72.5	0.481	241	0.159	0.137	194.9	65.1	0.480
240	251	0.159	0.146	209.5	70.7	0.482	245	0.162	0.156	200.3	70.7	0.481	237	0.169	0.158	188.4	63.7	0.481
280	249	0.173	0.174	206.2	69.7	0.482	243	0.178	0.182	196.1	69.7	0.481	233	0.186	0.196	182.1	61.6	0.481
310	248	0.180	0.193	204.6	69.1	0.482	242	0.187	0.248	195.4	69.1	0.481	231	0.197	0.221	178.1	60.5	0.482
350	247	0.195	0.216	202.9	68.5	0.482	241	0.199	0.280	193.8	68.5	0.481	229	0.211	0.254	175.9	59.5	0.482

$TlInS_2$ -$TlGdS_2$ Bərk məhlularında istidan xətti genişlənmə əmsalının $\sqrt{\overline{U^2}}$, E, μ, τ,ν_e in artması, Debay femperaturunun isə azalması f-elektronlarının kimyəvi rabitəyə təsiri ilə xarakterizə olunur.

ƏDƏBİYYAT

1. Байрамов Д.Д. Исмайлов Р.М. Своства сплавов системы InSex IGdSe; Журнал «Физика», т.1, №2. Баку: стр. 7-9, 2000 г.
2. Д.Д. Байрамов. Электрофизические и упругие свойства твердых растворов. Tiп xGd,Sez. Дисс. канд. физ-мат. наук. Баку: БГУ, с. 89, 1991.
3. Байрамов Д.Д.: Курбанов М.М., Изотермическая сжимаемость сплавов системы Шп. xGd,S2. Изв. АН СССР. Неорганические материалы, т.26, № 10, 1990, с. 2033.
4. Годжаев Э.М., Байрасмов Д.Д. Температурная зависимость изотермич сжимаемость твердых растворов Tiin, xGd,S, V Вс. Конф. По физ. И хим. Редкоземельных п/п. ч.1. Саратов, с.66., 1990.

SUMMARY

Murad Agababayev

THEORETICAL CALCULATION OF THERMAL LINEAR EXPANSION COEFFICIENT OF TIInS 2-TIGdS 2 SYSTEM ALLOYS AND ITS RELATIONSHIP WITH CHEMICAL BOND STRENGTH

$TlInS_2$ -$TlGdS_2$ the temperature dependence of the thermal linear expansion (ILG) and isothermal compression coefficients of the system alloys was studied. It was determined that as the amount of gadolinium in the $TlInS_2$ crystal lattice increases, the values of the linear expansion coefficient and isothermal compression increase at all temperatures. It has been shown that the thermal and elastic parameters calculated on the basis of the experimental values of IXG and isothermal compression coefficients change regularly with the increase of the metallicity share of gadolinium in the $TlInS_2$ crystal lattice.

Key words: *solid solutions, crystal lattice, elasticity parameters, linear expansion with heat. isothermal contraction. Debye temperature.*

KHANİM NASİRLİ
xanim.nesirli@inbox.ru
Baku State University
Academician Garib Shamil Mammadov graduate student
Professor Sara Zulfi Mammadova
graduate student Nigar Yashar Masmaliyeva
graduate student Movsum Chingiz Ahmadov

MODERN THOUGHTS ON THE DEVELOPMENT OF SCIENCE: IDEAS, TECHNOLOGIES AND THEORIES

The number dynamics and species diversity of microorganisms are different depending on the degree of adaptation in uncontaminated or contaminated soils. However, in man-made contaminated soils, the number dynamics and species diversity of microorganisms decrease, and only those that are adapted to that environment survive.

My research was conducted in sandy and sandy soils around the areas of Binagadi and Bibiheybat oil extraction departments, as well as in clean (control) soil areas that are slightly contaminated with oil. All microbiological analyzes related to my research were conducted in the "SOIL MICROBIOLOGY" laboratory of ARSEM INSTITUTE OF MICROBIOLOGY.



İmage 1. During research in the area of Binagadi oil extraction department (0-20 cm layer). Photos belong to Khanim Nasirli.



İmage 2. During research in the area of Bibiheybat oil extraction department (0-20 cm layer). Photos belong to Khanim Nasirli.



İmage 3. Soil samples studied. Photos belong to Hanim Nasirli.




İmage 4. Dynamics of the number of microorganisms in the soil - Bibiheybat (in 1 gram of soil sample)




İmage 5. Dynamics of the number of microorganisms in the soil - Binagadi (in 1 gram of soil sample)

During our research, it was observed that the number of microorganisms adapted to that environment was high on the upper surface (0-20 cm) of oil-contaminated soils. However, as a result of oil-rich sediments penetrating the soil to a depth of 20-40 cm, the creation of anaerobic environmental conditions and the parallel reduction of aerobic microorganisms were studied. A number of microorganisms with high enzymatic activity adapted to these areas (mainly actinomycetes and fungi and bacteria adapted to these conditions) are involved in the destruction of oil and the cleaning of oil-rich polluted soils. . Among other things, these organisms have a positive effect on the soil structure, fertility, productivity, break down toxic and hard-to-decompose substances and turn them into simple forms that can be absorbed by other microorganisms and plants. Through this method, these organisms take part in the absorption of heavy metals, radioactive substances, decomposition of oil and oil products in man-made polluted areas, making the environment healthy and neutral. After some time, depending on the development levels of the organisms, that environment becomes green.

In addition to oil pollution, soil salinization (potential alkalinity) was observed in Bibiheybat lands. This process further reduces the number dynamics and species diversity of the microorganism. Compared to Binagadi soil, the number dynamics and species diversity of microorganisms and invertebrates in those areas is lower than that of Binagadi, since the participation of Bibiheybat soil (more than 5% exchangeable $Na+$ in the absorption complex of the soil) is observed. The compaction that occurs in Bibiheybat soils causes a number of negative conditions in those soils: it deteriorates the structure of the soil, it becomes compacted, it swells when it is wet, its density increases when it dries, its plasticity and stickiness increases, cracks form on the soil, mold occurs in the soil, and in these cases, the biological and enzymatic properties of the soil are reduced. , microorganism activity decreases, all indicators characterizing fertility deteriorate. Therefore, the activity of microorganisms and invertebrates is low in such soils.

During the microbiological analysis of the soil, different nutrient media are used. Mycobacteria, fluorescent and pigmented bacteria were cultured on agar-peptone agar (EPA), spore-forming microorganisms on malt-agar and meat-peptone agar (SA+EPA, 1:1), and actinomycetes on starch-ammonium agar. (NAA). microscopic fungi were cultured in Çapek-Doks (Ç-D) medium.

The general microbiota of oil-contaminated Binagadi and Bibiheybat soils of Absheron was studied in the conducted research. It is known that the number of bacteria and mycobacteria, found in all groups of microorganisms, prevails in these soils.

The number dynamics and species diversity of micromycetes is much lower than that of actinomycetes and bacteria. The primary reason for this is that micromycetes have a mycelial structure and are very sensitive. Nevertheless, we found a number of fungal genera in man-made contaminated soils, especially in oil-contaminated soils: *Aspergillus, Alternaria, Phoma, Rhizopus, Botritus, Verticillium, Candida, Penicillium, Trichoderma, Paecilomyces, Gliocladium, Fusarium, Cladosporium, Chaetomium, Sordaria, Claviceps and etc.* These are allergenic fungi, opportunistic fungi, toxigenic fungi.

NAİLƏ QULİYEVA
qnaile94@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0003-2160-6976

KİÇİK HÜCEYRƏLİ AĞCİYƏR XƏRÇƏNGİNİN MÜALİCƏSİNDƏ MÜASİR YANAŞMALAR

Aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, kiçik hüceyrəli ağciyər xərçəngi adətən kemoterapiya ilə tək başına və ya radioterapiya və ya immunoterapiya ilə birlikdə müalicə olunur. Bu metodlar ömrü uzatmağa və simptomları aradan qaldırmağa kömək edir.Bu tip ağciyər xərçəngini müalicə etmək üçün cərrahiyyə adətən istifadə edilmir. Bunun səbəbi, xərçəngin diaqnoz qoyulduğu vaxta qədər tez bir zamanda bədənin digər bölgələrinə yayılmış olmasıdır.Ancaq xərçəng çox erkən aşkar olunarsa, cərrahiyyə istifadə edilə bilər. Bu hallarda, xərçəngin təkrar riskini azaltmağa kömək etmək üçün əməliyyatdan sonra kemoterapi və ya radioterapiya veriləməsi vacibdir.

Açar sözlər: *Cərrahiyyə, Radioterapiya, Kimyaterapiya, İmmunoterapiya, Ağciyər xərçəngi*

Giriş

Hal-hazırda xərçəngin müalicəsində cərrahi, kimyaterapiya, immunoterapiya, radioterapiya kimi müxtəlif üsullardan istifadə olunur. Lakin kimyəvi terapiya üsulunda dərmanların seçici xarakterli olmadığı üçün xərçəng hüceyrələri ilə birlikdə sağlam hüceyrələrin də yüksək faizi itirilir. Xərçəngin müalicəsində ən mühüm problem normal hüceyrələrin varlığında, sağlam hüceyrələrə zərər vermədən şiş hüceyrələrini inhibə edilməsinin mümkün olmamasıdır. Bitki kimi təbii ehtiyatlardan xərçəng əleyhinə dərmanlar hazırlamaq üçün sitotoksik birləşmələrin sınaqdan keçirilməsi və bitkilərin xam ekstraktlarının skrininqi tələb olunur (Rafieian-Kopaei M və Nasri H.,2014).

Ağciyər xərçənginin müalicəsində istifadə edilən metodlar

Cərrahiyyə

Ağciyər xərçəngi əməliyyatının 3 əsas növü var:

lobektomiya - burada ağciyərin böyük hissələrindən 1-i (loblar) çıxarılır. Xərçəng yalnız 1 ağciyərin 1 hissəsindədirsə, həkim bu əməliyyatı təklif edir.

pnevmonektomiya - bütün ağciyərin çıxarılması. Bu, xərçəng ağciyərin ortasında yerləşdikdə və ya bütün ağciyərə yayıldıqda istifadə olunur.

paz rezeksiyası və ya seqmentektomiya – burada ağciyərin kiçik bir parçası çıxarılır. Bu prosedur yalnız az sayda xəstə üçün uyğundur. Yalnız həkimləriniz xərçənginizin kiçik olduğunu və ağciyərin bir sahəsi ilə məhdudlaşdığını düşünürsə istifadə olunur. Bu adətən çox erkən mərhələdə kiçik hüceyrəli olmayan ağciyər xərçənginin aşkarlanması zamanı aparılır.

Ağciyərinizin bir hissəsi və ya hamısı çıxarılarsa, nəfəs ala bilməkdən narahat ola bilərsiniz, lakin 1 ağciyərlə normal nəfəs almaq mümkündür.Ancaq əməliyyatdan əvvəl tənəffüs probleminiz varsa, çox güman ki, bu simptomlar əməliyyatdan sonra da davam edəcək.

Radioterapiya

Radioterapiya xərçəng hüceyrələrini məhv etmək üçün radiasiya impulslarından istifadə edir. Ağciyər xərçəngini müalicə etmək üçün istifadə edilə bilən bir sıra yollar var. Əgər əməliyyat üçün kifayət qədər sağlam deyilsinizsə, kiçik hüceyrəli olmayan ağciyər xərçəngini müalicə etmək üçün radikal radioterapiya kimi tanınan intensiv radioterapiya kursu istifadə edilə bilər.Çox kiçik şişlər üçün cərrahiyyə əvəzinə stereotaktik radioterapiya adlanan xüsusi bir radioterapiya metoduna ehtiyac duyulur.Radiasiya terapiyası ağrı və qan öskürək kimi simptomları idarə etmək və müalicə

mümkün olmadıqda xərçəngin yayılmasını yavaşlatmaq üçün də istifadə edilə edilir (bu palliativ radioterapiya kimi tanınır).Profilaktik kranial şüalanma (PCI) kimi tanınan radioterapiya növü də bəzən kiçik hüceyrəli ağciyər xərçənginin müalicəsi zamanı istifadə üçün yaralı ola bilər. PCI bütün beyni aşağı dozada radiasiya ilə müalicə etməyi nəzərdə tutur. Kiçik hüceyrəli ağciyər xərçənginin beyninizə yayılma riski olduğu üçün profilaktik tədbir kimi istifadə olunur.

Kimyaterapiya

Kimyaterapiya xərçəngi müalicə etmək üçün güclü xərçəng öldürücü dərmanlardan istifadə edir. Kimyaterapiyanın ağciyər xərçəngini müalicə etmək üçün istifadə edilə biləcəyi bir neçə üsul var. Məsələn, ola bilər:

1. uğurlu əməliyyat şansını artıra bilən şişi kiçiltmək üçün əməliyyatdan əvvəl verilir (bu adətən yalnız klinik sınaqların bir hissəsi kimi edilir);
2. Xərçəngin geri qayıtmasının qarşısını almaq üçün əməliyyatdan sonra verilir;
3. müalicəsi mümkün olmadıqda simptomları aradan qaldırmaq və xərçəngin yayılmasını yavaşlatmaq üçün istifadə olunur radioterapiya ilə birləşdirilir;

Kimyaterapiya müalicələri adətən dövrlərdə verilir.Bir dövrə bir neçə gün kemoterapi dərmanı qəbul etməyi, sonra terapiyanın işləməsi və vücudunuzun müalicənin təsirindən sağalması üçün bir neçə həftəlik fasilə verməyi əhatə edir.Sizə lazım olan dövrlərin sayı ağciyər xərçənginin növü və dərəcəsindən asılı olacaq.Əksər insanlar 36 ay ərzində 4-6 dövr müalicəyə ehtiyac duyurlar.Bu dövrlər bitdikdən sonra həkiminizə müraciət edilməlidir. Xərçəng yaxşılaşdısa, daha müalicəyə ehtiyacınız olmaya bilər. Xərçəng bu dövrlərdən sonra yaxşılaşmadısa, həkiminiz sizə başqa növ kimyaterapiyaya ehtiyacınız olub-olmadığını söyləyəcək. Alternativ olaraq, xərçəngi nəzarət altında saxlamaq üçün baxımlı kemoterapiya ehtiyacınız ola bilər.

Ağciyər xərçəngi üçün kemoterapiya müxtəlif dərmanların kombinasiyasını nəzərdə tutur.Dərmanlar adətən venaya (daxili) və ya döş qəfənizdəki qan damarlarından birinə bağlı bir boruya damcı şəklində verilir.Bəzi insanlara udmaq üçün kapsul və ya tabletlər verilə bilər.Kimyaterapiyaya başlamazdan əvvəl həkim sizə bəzi vitaminlər təyin edə və yaxud vitamin iynəsi verə bilər.Bunlar bəzi yan təsirləri azaltmağa kömək edə bilər (Achakzai JK, və b.,2019)

İmmunoterapiya

İmmunoterapiya xərçəng hüceyrələrini hədəf almaq və öldürmək üçün immunitet sisteminizi stimullaşdıran dərmanlar qrupudur. Tək başına və ya kemoterapi ilə birlikdə istifadə edilə bilər. Ağciyər xərçənginin müalicəsində istifadə edilən immunoterapiya dərmanlarından bəziləri pembrolizumab və atezolizumabdır.

Sizə daxil olan plastik boru vasitəsilə immunoterapiya ola bilərsiniz:

4. sinənizdə böyük bir damar (mərkəzi xətt)
5. qolunuzdakı bir damar (kanula)

Doza qəbul etmək təxminən 30-60 dəqiqə çəkir və sizə hər 2-4 həftədən bir doza ehtiyac ola bilər. Yan təsirləri idarə etmək çox çətin deyilsə və terapiya uğurlu olarsa, immunoterapiya 2 ilə qədər aparıla bilər.

İmmunoterapiyanın ümumi yan təsirlərinə aşağıdakılar daxildir:

- yorğun və ya zəif hiss;
- ishal;
- iştahsızlıq;
- oynaqlarınızda və ya əzələlərdə ağrı;
- nəfəs darlığı;
- Dərinizin quruması və ya qaşınması kimi dərinizdə dəyişikliklər;

Yan təsirlər və onları necə idarə etmək barədə ətraflı məlumat üçün həkiminizlə və ya tibb bacınızla əlaqə saxlamalısınız.

Məqsədli terapiyalar

Məqsədli müalicələr (həmçinin bioloji terapiya kimi tanınır, inkişaf etmiş kiçik hüceyrəli olmayan ağciyər xərçənginin yayılmasını yavaşlatmaq üçün nəzərdə tutulmuş dərmanlardır.Məqsədli

müalicələr yalnız xərçəng hüceyrələrində müəyyən zülallar olan insanlar üçün uyğundur.Həkiminiz bu müalicələrin sizin üçün uyğun olub olmadığını öyrənmək üçün ağciyərinizdən çıxarılan hüceyrələr üzərində testlər tələb edə bilər (biopsiya).

Məqsədli terapiyanın yan təsirlərinə aşağıdakılar daxildir:

1. titrəmə, yüksək temperatur və əzələ ağrısı kimi qripə bənzər simptomlar;
2. yorğunluq;
3. ishal;
4. iştahsızlıq;
5. ağız yaraları;
6. xəstə hiss etmək;[3]

Ağciyər xərçənginin müalicəsində metodların çatışmayan cəhətlərin ortadan qaldırılması üçün hazırda müxtəlif istiqamətlərdə tədqiqatlar aparılır. Bu tədqiqatlar arasında bitki mənşəlli dərman pereperatlarına xüsusi yer verilməkdədir. Bitkilərdən əldə edilən ekstratların ağciyər xərçəng hüceyrəsi üzərində təsirinin öyrənilməsi çox vacibdir ki, bu da tədqiqatimizin əsasını təşkil edir.

Müzakirə

Son dövrlərdə immunoterapiyadan istifadə edərək xərçəngin müalicəsi əhəmiyyət kəsb edir. SCLC-də immunoterapiyadan istifadə etoposid və ya SCLC müalicəsində istifadə olunan digər kimyaterapevtik agentlərlə yanaşı istifadə olunur. PD-L1 inhibisyonu ilə immunoterapiya müalicəsi SCLC müalicəsi üçün mövcud üsuldur. Tədqiqatlar bu siqnalın mədə xərçəngi və ağciyər xərçəngi kimi xərçənglərdə kirpi və WNT kimi inkişaf siqnal yolları ilə çarpaz danışdığını göstərdi. Üçlü mənfi döşdə, WNT inhibitorlarının PD-L1-in aşağı tənzimlənməsində rol oynadığı müşahidə edildi, Kirpi yolu isə ağciyər xərçəngində PD-L1 ifadəsinə üstünlük verir. Ancaq bu yolların bir-biri ilə əlaqəli olduğu dəqiq mexanizm hələ məlum deyil. Bundan əlavə, SCLC vəziyyətində siqnal yollarının immunoterapiya vasitəçiliyi ilə tənzimlənməsi də deşifr edilməlidir.

Nəticə

Xərçəng xəstəliyinə qarşı yüksək effektivliyə sahib və daha az yan təsirə malik yəni dərman preparatlarının hazırlanması tələb olunur. Dərman bitkilərindən istifade etmekle xərçəngə qarşı yeni aktiv birleşmelerin aşkar edilməsi cox aktualdır. Bitkilər arasında *Rheum ribes* və *Dorema glabrum haqqında* ədəbiyyatlarda ümumi məlumat olsa da bunlardan əldə olunan ekstraktların ağciyər xərçəngi hüceyrələrinin kulturasında poliferasiyonuna təsir edən çalışmalara rastlamadıq.

ƏDƏBİYYAT

1. Rafieian-Kopaei M, Nasri H. The ameliorative effect of Zingiber officinale in diabetic nephropathy. Iran Red Crescent Med J. 2014;16:e11324.
2. Achakzai JK, Anwar Panezai M, Kakar MA, Kakar AM, Kakar S, Khan J, et al. In vitro anticancer A549, anti-inflammatory and brine shrimp lethality assay (BSLA) and GC-MS analysis of Rheum ribes (WBFRR) whole plant butanol fraction. BioMed research international. 2019; 2019.
3. https://www.nhs.uk/conditions/lung-cancer/

SUMMARY

Naila Guliyeva

IN THE TREATMENT OF SMALL CELL LUNG CANCERMODERN APPROACHES

Research shows that small cell lung cancer is usually treated with chemotherapy alone or in combination with radiotherapy or immunotherapy. These methods help prolong life and relieve symptoms. Surgery is not usually used to treat this type of lung cancer. This is because the cancer has often spread to other areas of the body by the time it is diagnosed. However, if the cancer is detected very early, surgery may be used. In these cases, it is important to give chemotherapy or radiotherapy after surgery to help reduce the risk of the cancer coming back.

Key words: *Surgery, Radiotherapy, Chemotherapy, Immunotherapy, Lung cancer*

РЕЗЮМЕ

Наила Гулиева

В ЛЕЧЕНИИ МЕЛКОКЛЕТОЧНОГО РАКА ЛЕГКИХ СОВРЕМЕННЫЕ ПОДХОДЫ

Исследования показывают, что мелкоклеточный рак легких обычно лечат только химиотерапией или в сочетании с лучевой терапией или иммунотерапией. Эти методы помогают продлить жизнь и облегчить симптомы.Хирургическое вмешательство обычно не используется для лечения этого типа рака легких. Это связано с тем, что к моменту постановки диагноза рак часто распространяется на другие части тела.Однако, если рак обнаружен очень рано, может быть использовано хирургическое вмешательство. В этих случаях важно назначить химиотерапию или лучевую терапию после операции, чтобы снизить риск возвращения рака.

Ключевые слова: *хирургия, лучевая терапия, химиотерапия, иммунотерапия, рак легких.*

LEYLA NİFTƏLİYEVA
aliye.rzaeva@mail.ru

Pb-Zn FİLİZİNDƏN $BASO_4$ KONSENTRATININ ALINMASI

Gümüşlü yatağının ərazisində qurğuşun-sink filizləşməsi damarlar şəklində inkişaf edərək, stratiform yataqlar əmələ gətirir. Gümüş sorbsiya fabrikində qurğuşun konsentrarı alınmişdır. Qalan tullantıda 10-12 %-ə qədər $BaSO_4$ olduğu müəyyən edilmişdir. Həmin tullantıdan flotasiya metodu ilə $BaSO_4$ konsentratı alınmışdır. Aparılan tədqiqatlar nəticəsində prosesin optimal şəraiti müəyyən edilmişdir. Nəticədə 50-60%-li $BaSO_4$ konsentratı alınmışdır.

Açar sözlər: *tullantı, $BaSO_4$ konsentratı, flotasiya, kimyəvi analiz.*

SUMMARY

Leyla Niftalıyeva

SYNTHESIS OF THE $BASO_4$ CONCENTRATE FROM Pb-Zn ORE

In the Gumushlu field, lead-zinc mineralization develops in the form of veins and forms stratiform deposits. Lead concentrates were obtained at the silver sorption factory. It was determined that the remaining waste contains up to 10-12% $BaSO_4$. $BaSO_4$ concentrate was obtained from that waste by flotation method. As a result of the conducted studies, the optimal conditions of the process were determined. As a result, 50-60% $BaSO_4$ concentrate was obtained.

Key words: *waste, $BaSO_4$ concentrate, flotation, chemical analysis.*

LEYLA İBRAHİMOVA
leylaibrahimova@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti

ORDUBAD RAYONUNDA TƏBİİ ŞƏRAİTİN MÜASİR ÜSULLARLA TƏDQİQİ

XXI əsrdə coğrafi tədqiqatlar zamanı müasir metodlara üstünlük vermək zaman və maddi istiqamətlərdə daha əlverişlidir. Bu zaman peyk şəkillərinin emalı ilə əldə edilən nəticələr ənənəvi tədqiqatlar zamanı əldə edilən nəticələrlə eynilik təşkil edir. Bu isə coğrafi tədqiqatlarda müasir metodların aktual olduğunu sübut edir. Bu məqasədlə biz də Ordubad rayonunda apardığımız tədqiqatlar zamanı müasir metodlara istinad etmişik. Tədqiqat ərazisinin DE Modeli (Rəqəmsal Yüksəklik Modeli) əldə edilərək Ordubad rayonunun relyefinin mütləq hündürlük, meyllik və baxarlılıq xəritələri ArcGİS texnologiyalarının köməyi ilə tərtib edilmişdir. Alınan nəticələr göstərir ki, tədqiqat ərazisinin əsas hissəsi 2000 m hündürlüyə qədər, 15º meylli, cənub və qərb istiqamətli yamaclarda yayılmışdır.

Açar sözlər: *Ordubad, ArcGİS, DEM, yamacların baxarlılığı, yamacların meylliyi*

Giriş

Hazırda təbii şəraitin tədqiqində peyk şəkillərinin və Məsafədən Zondlama materiallarının tətbiqi geniş yayılmışdır.

Bu məlumatlar yer səthinin xüsusiyyətlərini ölçmək üçün giriş kimi istifadə olunur. DEM davamlı səthin rastr (şəkil) təsviridir, o adətən yer səthinə istinad edir. Bu məlumatların dəqiqliyi, ilk növbədə, qətnamə (nümunə nöqtələri arasındakı məsafə) ilə müəyyən edilir. Dəqiqliyə təsir edən digər amillər məlumat növü (tam və ya üzən nöqtə) və orijinal DEM yaradarkən səthin faktiki nümunəsidir (Desmet P. and Grovers G., 1996).

Rəqəmsal Yüksəklik Modeli, piksel dəyərləri səthin yüksəkliklərini, ən çox yerin yüksəkliklərini təmsil edən rastrdır. Yüksəklik modelləri peyk və hava görüntülərindən əldə edilə bilən məlumat növüdür (Cowen J., 1993).

Material və metod

Tədqiqat zamanı https://earthexplorer.usgs.gov/ saytından Ordubad rayonunun Rəqəmsal relyef modeli əldə edilmişdir, onun əsasında relyefin meylli aşağıdakı ardıcıllıqla yerinə yetirilmişdir.

Arctoolbox→Spatial Analyze tool→Slope

Rəqəmsal relyef modeli əsasında yamacların baxarlılığı aşağıdakı ardıcıllıqla yerinə yetirilmişdir.

Arctoolbox→Spatial Analyze tool→Aspect


Müzakirə

50 min əhalisi və 970 kv km sahəsi olan tədqiqat ərazimiz cənubda İran, şimal və şərqdə isə Ermənistanla həmsərhəddir.

Kiçik Qafqaz dağlarının ən yüksək zirvəsi olan Qapıcıq dağı (3904 m) burada yerləşir. Tədqiqat ərazisində Bəlkə, Əjnövür və Soyuq dağları yerləşir.


Biz Ordubad rayonunun təbii şəraitini müasir metodlarla tədqiq etmişik. Bu məqsədlə ərazinin Rəqəmsal Relyef Modeli (DEM) əldə edilmişdir. Onun əsasında relyefin meylliyi və yamacların ekspozisiyası təhlil edilmişdir.

Aparılan tədqiqatlar nəticəsində tərəfimizdən Ordubad rayonun hündürlük xəritəsi tərtib edilmişdir (Şəkil 1).




Şəkil 1. Ordubad rayonun hündürlük xəritəsi

Xəritənin təhlilləri nəticəsində müəyyən edilmişdir ki, hündürlüyü 561-1000 m olan ərazilər tədqiqat ərazisinin 22%-ni, 10001-1500 m hündürlükdə yerləşən ərazilər 24%-ni, 1501-2000 m hündürlükdə yerləşən sahələr 19%-ni, 2001-2500 m hündürlüklü ərazilər 17%-ni, 2501-3000 m hündürlükdə yerləşən ərazilər 11%, 3001-3500 m hündürlükdəki ərazilər 6%-ni, 3501 m-dən hündür ərazilər isə cəmi 1%-ni təşkil edir (Şəkil 2).




Şəkil 2. Ordubad rayonun hündürlük göstəricilərinin statistikası

Relyefin meylliyi xəritəsi ərazinin Rəqəmsal Hündürlük modeli əsasında tərtib edilir. Bi tədqiqat zamanı Ordubad rayonun relyefinin meylliyi xəritəsini tərtib etmişik (Şəkil 3).



Şəkil 3. Ordubad rayonun relyefinin meylliyi xəritəsi

Ordubad rayonun relyefinin meylliyi xəritəsinin təhlilləri əsasında belə nəticəyə gəlinmişdir ki, Ordubad rayonunun əsas hissəsi relyefin meylliyinin 15º-ə qədər olduğu ərazilərdə yerləşmişdir. Belə ki, ərazinin 15%-i meylliyin 5º, 37%-i meylliyin 5-15º, 32%-i meylliyin 15-25º, cəmi 16%-i isə meylliyin 25º-dən yüksək olduğu ərazilərdə yerləşmişdir (Şəkil 4).




Şəkil 4. Ordubad rayonun relyefinin meylliyinin statistik göstəriciləri

Ekspozisiyanı hesablamaq üçün iki üsul mövcuddur. Metod parametrindən istifadə edərək Planar və ya Geodeziya hesablama metodunu seçə bilərik. Təyyarə metodunda hesablamalar 2D Dekart koordinat sistemindən istifadə etməklə proqnozlaşdırılan müstəvidə aparılır (Dunn M. və

Hickey R, 1998). Geodeziya metoduna əsasən, yer səthinin ellipsoid şəklində olan forması nəzərə alınmaqla, 3D Dekart koordinat sistemində hesablamalar aparılır. Planar və geodeziya hesablamalarında hər bir məhəllə üçün, əgər işlənmiş (mərkəz) xana NoData olarsa, çıxış dəyəri NoData olacaqdır.


Hesablamalar üçün ətrafdakı ən azı yeddi hüceyrənin etibarlı dəyərlərə malik olması da lazımdır. Yeddidən az xananın etibarlı dəyərləri varsa, heç bir hesablama aparılmır və emal olunan xananın çıxış dəyəri NoData-dır. Çıxış rasterinin ən kənar sətir və sütunlarındakı xanalar NoData-ya təyin edilir. Bu, hüceyrələrin giriş verilənlər toplusunun sərhədi boyunca kifayət qədər qonşu olmaması səbəbindən baş verir (Hickey R və b., 1994).

Tədqiqat ərazisində yamacların ekspozisiyası xəritəsini tərtib etmişik (Şəkil 5).



Şəkil 5. Ordubad rayonda yamacların ekspozisiyası xəritəsi

Yamacların ekspozisiyası üzrə aparılan təhlillər göstərmişdir ki, tədqiqat ərazimizin 18%-i şimal, 14%-i şərq, 38%-i cənub, 30%-i isə qərb ekzpozisiyalı yamaclarda yerləşmişdir (Şəkil 6).



Şəkil 6. Ordubad rayonda yamacların ekspozisiyasının statistik göstəriciləri

Nəticə

Aparılan tədqiqatların nəticəsində ilk dəfə olaraq Ordubad rayonunun hündürlük, meyllik və ekspozisiya xəritələri tərtib edilmişdir. Müəyyən edilmişdir ki, tədqiqat ərazisinin əsas hissəsi hündürlüyü 1001-1500 m olan ərazilərdə yerləşir.

Relyefin meyllik göstəricilərinin və xəritəsinin təhlilləri göstərmişdir ki, Ordubad rayonun əsas hissəsi 5-15º meylli ərazilərdə yerləşir.

Müasir metodlar əsasında tərtib etdiyimi ekspozisiya xəritəsi və onun analizi sübut etmişdir ki, tədqiqat ərazimizin əsas hissəsi cənub istiqamətli yamaclar olmaqla daha çox günəş enerjisi qəbul edir.

ƏDƏBİYYAT

1. Cowen, J. (1993) A proposed method for calculating the LS factor for use with the USLE in agrid-based environment: Proceedings of the thirteenth annual ESRI user conference, pp. 65 - 74.
2. Desmet, P. and Grovers, G. (1996) A GIS procedure for automatically calculating the USLELS factor on topographically complex landscape units. Journal of Soil and WaterConservation, 51(5), 427 – 433
3. Dunn, M. and Hickey, R. (1998) The Effect of Slope Algorithms on Slope Estimates within aGIS. Cartography, v. 27, no. 1, pp. 9 – 15
4. Hickey, R., Smith, A. and Jankowski, P. (1994) Slope length calculations from a DEM withinArc/Info GRID. Computers, Environment, and Urban Systems, 18(5), 365 - 380

SUMMARY

L.P. Ibrahimova

STUDY OF NATURAL CONDITIONS IN ORDUBAD DISTRICT WITH MODERN METHODS

In the 21st century, it is more convenient in terms of time and money to give preference to modern methods during geographical research. At this time, the results obtained by processing satellite images are identical to the results obtained during traditional research. This proves that modern methods are relevant in geographical research. For this reason, we also referred to modern methods during our research in Ordubad region. The DE Model (Digital Elevation Model) of the research area was obtained and the absolute height, inclination and visibility maps of the terrain of Ordubad region were compiled with the help of ArcGIS technologies. The obtained results show that the main part of the research area is spread on the southern and western slopes with a 15º inclination, up to 2000 m height.

Key words: *Ordubad, ArcGIS, DEM, slope slope, slope inclination*

LEYLA BUDAQOVA
leylabudaqova073@gmail.com
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSNDƏ YAYILMIŞ *İYNƏCƏLƏR (ODONATA)* DƏSTƏSİNƏ AİD OLAN *SYMPETRUM MERİDİONALE* (SELYS, 1841) NÖVÜNÜN MORFO-BİOLOJİ TƏSVİRİ VƏ EKOLOJİ XÜSUSİYYƏTLƏRİ

İynəcələr özünün əlvan rənginə və iri ölçülərinə görə tədqiqatçıların diqqətini cəlb edən həşəratlar dəstəsidir. Odonatofaunanın Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında öyrənilməsi tərəfimizdən davam etdirilir.

Bununla belə Naxçıvan Muxtar Respublikasının böyük hissəsi az öyrənilmiş olaraq qalır. Bunun üçün ərazidə iynəcə növlərinin tam müəyyənləşdirilməsi üçün məqsədyönlü, sistemli tədqiqat işlərinin aparılmasına ehtiyac vardır. Bu günə qədər Naxçıvan Muxtar Respublikasında iynəcələr dəstəsinə aid olan 36 növ təsvir edilmişdir. Lakin 2023-cü ilin yay və payız ayları ərzində aparılan tədqiqat işi zamanı Naxçıvan MR ərazisində ilk dəfə iynəcələr dəstəsinin Libellulidae fəsiləsinə aid olan Sympetrum cinsinin yeni bir növü Sympetrum meridionale (Selys, 1841) müşahidə olunmuş və bu növün üzərində ətraflı tədqiqat işləri aparılmışdır. Tədqiqatlar zamanı növün yayıldığı ərazinin ekoloji vəziyyəti tədqiq olunmuş, ekoloji-faunistik təhlili aparılmış və təsviri verilmişdir.

Açar sözlər: *Libellulidae, Sympetrum, qırmızı-qəhvəyi qızcığaz, populiyasiya*

Giriş

İynəcələr ekosistemlərdə çox əhəmiyyətli bioloji fəaliyyət göstərirlər. Bu həşəratlar müxtəlif xəstəliklərin yayıcısı olan qansoran ikiqanadlaıları məhv edirlər. İynəcə sürfələri su ekosistemində çoxlu balıq növlərinin yemini təşkil edirlər. Onların yetkin fərdləri ilə isə hörümçəkkimilər, quşlar və məməlilər qidalanır. Bundan əlavə iynəcələr ətraf mühitin çox yaxşı indiqatorlarıdır. Belə ki, onların sürfələri çirklənmiş sularda inkişaf edə bilmir.

Naxçıvan Muxtar Respublikası ərazisində toplanılmış iynəcə nümunələrinin böyük əksəriyyəti D. Znoyko tərəfindən 1928-ci ildə toplanılıb. 2008-ci ildə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı A.Bayramov tərəfindən iynəcələrin sürfə mərhələsi tədqiq edilmişdir. Bundan sonra 2012-2019-cu illərdə AMEA Zologiya İnsititutunun əməkdaşı N.Sneqovaya tərəfindən Gilançay və Şahbuzçay ərazilərində ekspedisiyalar zamanı müəyyən iynəcə növləri tədqiq edilmişdir [6]. Müəyyən edilmişdir ki, Naxçıvan MR-nın hüdudları daxilində indiyə qədər 36 növ iynəcə yayılmışdır [1. 72 s].

2023-cü ilin isti yay ayları ərzində aparılan tədqiqat işi zamanı isə iynəcələr dəstəsinin *Libellulidae fəsiləsinə* aid olan *Sympetrum* cinsinin *Sympetrum meridionale* (Selys, 1841) növü tapılmış, onun ekoloji xüsusiyyətləri və morfo-bioloji təsviri öyrənilmişdir. Tədqiqat əsasən Naxçıvan Muxtar Respublikasının suvarma kanallarının sahilində, Naxçıvançayın geniş yatağında aparılmışdır. Bu növ əsasən Naxçıvançayın sahilində, Şahbuzçay ərazisində və müəyyən təsərrüfat suvarma sistemlərinin ətrafında geniş yayılmışdır. Həmin növün tədqiqatı zamanı aparılmış hissəli tədqiqat prosesləri qeyd olunmuşdur.

Sympetrum meridionale Cənubi Avropada geniş yayılmış iynəcə növüdür. *Sympetrum* cinsinin bu növü növü, ümumiyyətlə, isti və mülayim iqlimi olan bölgələrdə müşahidə olunur. Bu növə tez-tez Aralıq dənizi iqliminin təsiri altında olan ərazilərdə, xüsusən də Avropanın cənubunda rast gəlinir. Bu növə xüsusilə İspaniya, İtaliya, Fransa, Yunanıstan, Türkiyə və Azərbaycan ətraf ölkələrdə geniş rast gəlinir. Bu bölgələrə ümumi olaraq iynəcə növünün ümumi olduğu ərazilər daxildir. Bununla belə, yerli şərait, xüsusən yaşayış yeri və iqlim fərqli ola bilər. Buna görə təbiətdə müşahidələr apararkən və bu növlə qarşılaşarkən ərazinizin təbii xüsusiyyətlərini nəzərə almaq vacibdir.

Tədqiqatın məqsədi.

Naxçıvan Muxtar Respublikasının böyük hissəsinin iynəcələri az öyrənilmiş olaraq qalır. Bunun görədə ərazidə iynəcə növlərinin tam müəyyənləşdirilməsi üçün məqsədyönlü, sistemli tədqiqat işlərinin aparılmasına ehtiyac vardır.

Tədqiqatın məqsədi Naxçıvan MR-də yayılmış yeni iynəcə növlərinin aşkar edilməsi, onların morfo-bioloji və ekoloji-faunistik təhlillərinn aparılması, onların ekosistemdəki əhəmiyyəti və mühafizəsi məsələləridir.

Tədqiqatın material və metodları.

İynəcələrin müəyyən bir növə aid olduğunu müəyyən etmək üçün taksonomik üsullardan istifadə edilir. Bu üsullardan orqanizmləri sistemli şəkildə təsnif etmək və adlandırmaq üçün istifadə olunur. Həmçinin iynəcənin növünü təsnif etmək üçün morfoloji xüsusiyyətləri nəzərə alırlar. Həşəratların xarici morfoloji xüsusiyyətləri, məsələn, bədən quruluşu, antenaların forması, ayaqların quruluşu, qanadlarının varlığı və quruluşu həşərat növlərinin fərqləndirilməsində mühüm rol oynayır. Bundan əlavə, növlər arasındakı fərqləri təyin etmək üçün mikroskop altında araşdırılan xüsusiyyətlərdən də istifadə edilir.

İynəcələr dəstəsinə aid olan *Sympetrum meridionale* növünü təyin etmək üçün 3 müxtəlif su-bataqlıq ərazidə araşdırma aparılmışdır.

Cədvəl 1.

Tədqiqat aparılan ərazilər və növlərin sayı

Araşdırma aparılan ərazilər	***Naxçıvançay***	***Naxçıvan suvarma kanalları***	***Şahbuzçay***
Növlərin sayı	4	4	2

Hər bir ərazidən nümunə götürmə üsulu ilə 10 iynəcə nümunəsi entomoloji tor vasitəsilə su-bataqlıq ərazisinin 25-30 metr kənarından tutulmuş, etil-assetat efiri ilə zənginləşdirilmiş xüsusi qabın içinə salınmış və 3 saat ərzində gözlədilmişdir. Daha sonra əldə olunmuş nümunələrin morfoloji əlamətləri binokulyar mikroskopu altında incələnmişdir (**Şəkil 2**). Alınan nəticələr *Sympetrum* cinsinin digər növləri ilə müqayisə edilmişdir. Tədqiqatın nəticələri D.W. Hagstruma görə təhlil edilmişdir.



Şəkil 1. Binokuliyar mikroskopu vasitəsilə *Sympetrum meridionale* növünün morfoloji xüsusiyyətlərinin öyrənilməsi

Növün zooloji təsnifatda yeri və onun xarakterik xüsusiyyətləri. *Sympetrum meridionale* iynəcələr dəstəsinin *Libelliludae* fəsiləsinin bir növüdür. *Libellulidae* fəsiləsinə aid növlər, ümumiyyətlə, iri, güclü və sürətli uçan canlılar kimi tanınır. Onların nazik, şəffaf, xüsusi damarlanmış və rəngli qanadları, böyük başları və güclü kəsici çənələri var. Fəsiləyə mənsub növlər, ümumiyyətlə, su obyektlərinin, gölməçələrin, çayların və digər şirin su ərazilərinin yaxınlığında yaşayırlar. Onların sürfələri su mühitində inkişaf edir və yetkin fərdlər kimi adətən su ətrafındakı bitkilərdə və ya digər

yüksək yerlərdə olurlar. Onlar ovlarını tutmaq üçün sürətlə uça bilirlər. Digər həşəratlar, milçəklər, ağcaqanadlar və kiçik onurğasızların sürfələri ilə qidalanırlar [3].

Naxçıvan Muxtar Respublikası ərazisində indiyə qədər aparılmış tədqiqatlar zamanı *Libellulidae* fəsiləsinə aid olan 4 cins (*Crocothemis, Libellula, Orthetrum, Sympetrum*) və 12 növ qeyd olunmuşdur. Bunlardan *Crocothemis* cinsinə aid bir, *Libellula* cinsinə aid 2, *Orthetrum* cinsinə aid 5 və *Sympetrum* cinsinə aid isə 4 növ aiddir [1, 204 s]. Tərəfimdən aparılan tədqiqatlar nəticəsində isə Naxçıvan Muxtar Respublikası odonafaunasında həmin fəsiləyə aid olan *Sympetrum* cinsinin yeni bir növü *Sympetrum meridionale* tədqiq olunmuşdur.

Sympetrum meridionale həşəratlar sinfinə aid olan, "*qırmızı-qəhvəyi qızcığaz*" kimi də tanınır. Elmi taksonomiyada növ adı ilə birlikdə aşağıdakı kimi təsnif edilir:

Aləm: Animalia (Heyvanlar)
Tip: Arthropoda (Buğumayaqlılar)
Sinif: İnsecta (Həşəratlar)
Dəstə: Odonata (İynəcələr)
Yarımdəstə: Anisoptera (Əsl iynəcələr)
Fəsilə: Libellulidae
Cins: Sympetrum
Növ: Sympetrum meridionale (Selys, 1841)

Sympetrum meridionale Qərbi Avropada, Asiya ölkələrində və əsasən Şimali Amerikada rast gəlinir. Növ digər *Sympetrum* növlərinə bənzər orta ölçülü, güclü bədənə və rəngli bir quruluşa malikdir. Tədqiqatlar zamanı *Sympetrum meridionale*-nin morfo-bioloji xüsusiyyətləri qeyd olunmuşdur [2, 15].

Erkək meridionalenin döş nahiyəsi parlaq qırmızı və ya narıncı rəngdədir, ümumi bədən qəhvəyidir və yan zolaqları tünddür. Dişi həşəratların rəngi daha solğundur və sarımtıl və ya qəhvəyi tonlarda ola bilər. Bədən ölçüləri 25-28 mm-ə qədər çata bilir. Qanadları ilə birlikdə ümumi uzunluğu 60 mm olur. Gözləri, ümumiyyətlə, böyük və mürəkkəbdir, çoxlu kiçik göz hücrələrindən ibarətdir. Gözlərin rəngi daha çox parlaq yaşıl və ya mavi tonlarda ola bilər. Qanadları şəffaf və nazikdir. Erkəklərinin qanadlarında bəzən bir qədər qara ləkələr və ya naxışlar ola bilər. Bu naxışlar qanadın sonunda, uc nöqtəsində yerləşir. Dişi həşəratların qanadları, ümumiyyətlə, daha solğun və ləkəsizdir [3] (**Şəkil 2**).

Çoxalmaları natamam metamarfozludur. *Sympetrum meridionale* sürfələri, ümumiyyətlə, kiçik və orta ölçülüdür, bədənlərinin uzunluğu 1-2 santimetrdir. Onlar, adətən, qəhvəyi və ya boz rəngdədirlər və bədənlərində çox vaxt fərqli naxışlar var. Sürfələr su mühitində yaşadıqları üçün adətən təbii kamuflyajı təmin edən rənglərə malikdirlər. Sürfələrin bədənləri, ümumiyyətlə, uzun və silindrikdir. Arxasında üç qəlsəmə yarığı var. Bu qəlsəmələr su altında olarkən oksigeni qəbul etməyə imkan verən xüsusi strukturlardır. Onların iri və yuvarlaq gözləri var. Gözlər ovunu tapmaq və təhlükədən qaçmaqda mühüm rol oynayır. Sürfələrin başlarında qısa antenalar var. Antenalar ətrafdakı su mühitində hərəkəti aşkar etməyə kömək edir. *Sympetrum meridionale* sürfələri su mühitində yaşayan digər həşərat sürfələri, kiçik xərçəngkimilər və su sürfələri kimi yırtıcı ilə qidalanır. Dişi iynəcələr suda yumurta qoyurlar [4]. Sürfələr su mühitində yaşayır və inkişaf edir. Digər həşərat növləri kimi, sürfələr də su həşəratları və digər kiçik orqanizmlərlə qidalanır [5].



Şəkil 2. *Sympetrum meridionale* (Selys, 1841) . Erkək fərd.A

Yetkin iynəcələr suyun səthinə çıxdıqdan sonra adətən qanadlarını açır və su damcılarını kürəklərində qurudurlar.Yetkinlik mərhələsində iynəcələr adətən bir neçə həftədən bir neçə aya qədər yaşayırlar.

Bu dövrdə iynəcələr adətən havada uçur və ovlarını tuturlar. Onların ovuna digər həşəratlar və milçəklər daxil ola bilər. Yetkin cırcıramalara tez-tez su mənbələri, xüsusən də gölməçələr, çay sahilləri və bataqlıq ərazilər ətrafında rast gəlinir.

***Sympetrum meridionale* növünün yayıldığı ərazi və biotopun ekoloji xüsusiyyətləri.** 2023-cü ilin isti yay aylarında Naxçıvan şəhərinin suvarma sularının ətrafında və Naxçıvançayın geniş yatağında yerləşən ərazidə entomoloji nümunələri toplanılmış və bu tədqiqatlar nəticəsində ilk dəfə olaraq Naxçıvan MR-də yayılmış *Sympetrum meridionale* növü aşkar edilmişdir. Onun yayıldığı ərazilərin ekoloji xüsusiyyətləri öyrənilmiş, həmin ərazilərə görə növün sahib olduğu xarakterik əlamətlər qeyd olunmuşdur.

Naxçıvançay Arazın sol qolu olub, Naxçıvan şəhəri və Şahbuz rayonu ərazisindən keçir. Çayın orta illik asılı gətirmələr sərfi 3,67 kq/san, suyunun orta lillənməsi 700 q/m³-dir. Daşqın dövründə suyunun lillənməsi 1000 q/m³-ə qədər, artır. Suyu hidrokarbonatlı kalsiumlu olmaqla, minerallaşması, yuxarı axınında 150-mq/l, mənsəb hissəsində isə 300-500 mq/l-ə çatır. Naxçıvançayın suyundan şəhər əhalisinin içməli su ilə təmin olunmasında və suvarma işlərində geniş istifadə edilir.

Çayın lillilik dərəcəsi çox oln hissələrində həmin növlərin sayına çox az təsadüf olunur. İynəcə növləri suyun daha təmiz olan hissələrində yayılmışlar. Buna görədə həmin növlər suyun təmizlilik dərəcəsini müəyyən etməyə imkan verir. Çayın sahilyanı ərazisində xüsusi otlaq sahələr vardır. Həmin otlaq sahəni əsasən qamış, yulğun və çayır kimi bitkilər əmələ gətirir. Naxçıvançay boyunca yerləşən həmin bitkilərdə iynəcələr yaşayırlar. Çayır kimi alaq otu bitkisi ağcaqanadların əsas məskəni sayılır. Bu da iynəcələrin qidalanması üçün böyük faktor dağıyır. Bununla belə, su ehtiyatlarının məhdud olduğu dövrlərdə Naxçıvançay boyunca otlaqlarda suvarmanın şətinliyi səbəbindən problemlər yarana bilər. Bu otlaqların regionda ekosistemin qorunması üçün su ehtiyatlarının davamlı idarə olunması vacibdir. Otlaqlarının sayının azalması nəinki iynəcələr üçün digər burada yaşayan canlıların populiyasiyası üçün də təhlükə mənbəyidir [4].

Bundan başqa, yaz və payız fəslində yağan güclü yağışlar çayda sellərin, daşqınların yaranmasına səbəb olur. Bu daşqınlar suyun lillilik göstəricisini artırdığı üçün növlərin populiyasiyasında azalma müşahidə olunur. Son zamanlarda yağıntının daha az olması çayda suyun səviyyəsinin aşağı düşməsinə və hətta bəzi hissələrində həddindən artıq azalmasına səbəb olmuşdur. Buda həmin növlərin populiyasiyasının kəskin azalmasına təsir edən faktorlardan biridir.



Şəkil 3. Naxçıvançay sahili bitkilərinin tədqiqi

Növün Ekosistemdəki rolu və digər növlər ilə əlaqəsi. Digər İynəcə növləri kimi *Sympetrum meridionale*-də ekosistemdəki tarazlığın bir hissəsini təşkil edir. Onun digər orqanizmlərlə qarşılıqlı əlaqəsi təbii tarazlığı qorumağa kömək edir. Məsələn, ağcaqanad populyasiyası çox olduqda, həşərat bu populyasiyaları idarə edə bilər və beləliklə, ağcaqanadla yoluxan xəstəlikləri azalda bilər.

Bununla belə, ekosistemdəki digər növlər kimi, onlar da təbii düşmənlərinə qarşı həssas ola bilərlər. Bəzən quşlar, hörümçəklər, balıqlar və digər yırtıcılar tərəfindən ovlana bilərlər. Bu, ekosistemdəki tarazlığın bir hissəsi kimi təbii bir prosesdir. Bu növlərin ekosistemdəki rolu coğrafi bölgələrdən, iqlim şəraitindən, yaşayış mühitinin xüsusiyyətlərindən və digər orqanizmlərin mövcud olduğu növlərdən asılı olaraq, dəyişə bilər. Buna görə də, Sympetrum meridionale-nin ekosistemdəki rolu və qarşılıqlı əlaqəsi onların tapıldığı xüsusi yaşayış mühitindən asılı olaraq, fərqlənə bilər.

Ekosistemdə onların nəslinin azalmasının qarşısının alınması və faydalı olduqlarını nəzərə alaraq onların təbii düşmənlərindən qorunması üçün bəzi yollardan istifadə oluna bilər. Qlobal istiləşmə nəticəsində dünyada, Azərbaycanda və Naxçıvan ərazisində çaylar və göllərin suları xüsusilə azaldığı üçün bu onların populyasiyalarına ciddi təsir edir. Son illər ərzində Naxçıvançayın su səviyyəsi ötən illərə nisbətən azalması növün tamamilə azalmasına səbəb olmuşdur. Bu növün populyasiyasına nəzarət etmək və ya azaltmaq üçün birbaşa tətbiq oluna bilən üsullar məhduddur, çünki onlar təbii ekosistemdə yaşayan orqanizmlərə təsir göstərə bilər. Bununla belə, həşərat populyasiyalarını idarə etmək üçün ümumi ekoloji tədbirlər və şüurlu planlaşdırma istifadə edilə bilər:

1. **Ekosistem yolu ilə**. Bataqlıq əraziləri qorumaq və bərpa etməklə təbii tarazlıqları dəstəkləmək çəmənlik əraziləri qorumaq populiyasiyanı təbii səviyyədə saxlaya bilər.
2. **Təsərrüfat tətbiqləri**. Davamlı kənd təsərrüfatı təcrübələri vasitəsilə kimyəvi maddələrin istifadəsinin minimuma endirilməsi həşərat populyasiyalarına zərər vermədən əkinçilik fəaliyyətinə imkan verir. Təsərrüfatda həmçinin bioloji mübarizə üsullarından da istifadə edilə bilər; məsələn, təbii yırtıcılardan istifadə edərək zərərvericilərə qarşı mübarizə. Bu zaman həmin növün pouliyasiyasını müəyyən səviyyədə saxlamaq mümkündür.
3. **Müxtəlif bitki növlərinin artırılması**. Su-bataqlıq ərazilərində bitki müxtəlifliyinin artırılması ekosistemin təbii tənzimləyici xüsusiyyətlərini dəstəkləyə bilər. Bu, təbii düşmənlərin və rəqabətqabiliyyətli növlərin mövcudluğunu təmin etməklə, qızcığazların həddindən artıq populyasiyasının qarşısını ala bilər.

Nəticə

Beləliklə, Naxçıvan Muxtar Respublikası ərazisində bu günə qədər 36 növ iynəcə tapılmış və öyrənilmişdir. 2023-cü il isti yay ayları ərzində tərəfimizdən aparılan tədqiqatların nəticəsində Naxçıvan MR üçün yeni növ olan *Sympetrum meridionale* (Selys, 1841) öyrənilmiş və onun spesifik xüsusiyyətləri qeydə alınmışdır. Növün xarakterik xüsusiyyətləri və taksonomiyada yeri göstərilmişdir. Belə qənaətə gəlinmişdir ki, bu növün ekosistemdə xüsusi rolu olduğu üçün qorunmalı və populiyasiyası orta səviyyədə saxlanılmalıdır. Bu səbəblərə görə *Sympetrum meridionale* növlərinin mühafizəsi və gələcək tədqiqi təbii müxtəlifliyin, ekosistemin sağlamlığının və insanların rifahının davamlılığı üçün vacib məsələdir. Bu növün qorunması üçünekoloji mühafizə zonalarının yaradılması, yaşayış yerlərinin bərpası və əhalinin məlumatlılığının artırılması kimi müxtəlif tədbirlər həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Bayramov A.B., Məhərrəmov M.M., Məmmədov İ.B., Məmmədov A.F., Qasımov A.Q. Naxçıvan Muxtar Respublikasının onurğasızlar faunasının taksonomik spektri. Naxçıvan: Əcəmi NPB, 2014, 320 s.
2. Bayramov A.B. Naxçıvan su anbarının zoobentosu: Biologiya elmlər namizədliyi dissertasiyası avtoreferat., Bakı, 2007, 22 s.
3. Azərbaycanın heyvanlar aləmi. II cild. Buğumayaqlılar. Bakı: Elm, 2004, 387 s.
4. Bayramov A.B., Məmmədov T.M., Fərəcov H.R. Naxçıvan Muxtar Respublikasının əsas çaylarının hidrobioloji xüsusiyyətləri // Naxçıvvan Regional Elm mərkəzinin əsərləri, Bakı: Elm, 2003, c 244-255.
5. Bayramov A.B. Naxçıvan Muxtar Respublikasında yayılmış iynəcələrin sürfə mərhələsinin inkişafına dair məqalə // AMEA Naxçıvan Bölməsi Bioresurslar İnistitutunun Onurğasızlar labaratoriyası. Naxçıvan: 2008, 1 s.
6. Snegovaya N.Y. İnternational Dragonfly Fund, collected species for Azerbaijan // AMEA Zoologiya İnistitutu. Bakı: 2021, 32 s.

SUMMARY

Leyla Budaqova

MORPHO-BIOLOGICAL DESCRIPTION AND ECOLOGICAL CHARACTERISTICS OF SYMPETRUM MERIDIONALE (SELYS, 1841) SPECIES WHICH ARE DISTRIBUTED IN THE TERRITORY OF NAKHCHİVAN AUTONOMOUS REPUBLIC

Dragonflies are a group of insects that attract the attention of researchers due to their bright color and large size. We continue the study of odontofauna in Azerbaijan and Nakhchivan Autonomous Republic.

However, most of the Nakhchivan Autonomous Republic remains poorly studied. For this, it is necessary to carry out purposeful, systematic research works for the complete identification of dragonfly species in the area. To date, 36 species of dragonflies have been described in Nakhchivan Autonomous Republic. However, during the research work conducted during the hot summer months of 2023, a new species of *Sympetrum* genus *Sympetrum* meridionale (Selys, 1841) belonging to the *Libellulidae* family of dragonflies was observed for the first time in the territory of Nakhchivan MR, and detailed studies were conducted on this species. During the research, the ecological situation of the area where the species is distributed was studied, an ecological-faunistic analysis was carried out and a description was given.

Key words: *Libellulidae, Sympetrum, red-brown girl, population*

GÜLNAR HÜSEYNOVA
huseynovagulnar67@gmail.com
HÜSEYN İMANOV
huseyn.imanov@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti

SU VƏ ÜZVİ MÜHİTDƏ NANO GÜMÜŞ HİSSƏCİKLƏRİNİN HAZIRLANMASI

Məqalədə su və üzvi şəraitdə Ag nanohissəcikləri reduksiya üsulu ilə əldə edilməsinin araşdırma nəticələri verilmişdir. H_2O, etilen qlikol, etanol, aseton, xloroform, etil asetat, etanol + H_2O kimi həlledicilərdə nano gümüşün rəng dəyişiklikləri müəyyən edilmişdir. 12 saat saxlanılan məhlulların ultrabənövşəyi şüalarla görünən sahədə udulması ölçülmüş, etilen qlikolda və suda nano gümüş hissəciklərinin TEM analizləri yerinə yetirilmişdir. Alınmış gümüş nanohissəciklərinin fərdiliyini təsdiq etmək üçün rentgenfaza analizi aparılmış və əldə edilən nəticə referans № - 01-087-0719 -la üsd-üsdə düşmüşdür.

Açar sözlər: *Gümüş nanohissəciklər, rentgenfaza analizi, etilen qlikol, TEM analiz, UB- udma spektri*

Giriş

Gümüş nanohissəciklər qiymətli fiziki-kimyəvi xassələrinə görə səhiyyə sahəsində geniş istifadə olunan kommersiya yönümlü nanomateriallardan biridir. Nanogümüşün heterogen katalizdə ənənəvi tətbiqlərindən başqa, onların antibakterial xüsusiyyətləri onları qida qablaşdırması və tekstil məhsullarında qatqı maddəsi kimi istifadə edildiyi tətbiqlərdə cəlbedici etmişdir (Kaupp, G., 2009).

Reduksiya yolu ilə əldə edilən metal nanohissəciklər reduksiyaedici, stabilizator və onların içində formalaşdırıldıqları matris kimi müxtəlif amillərdən təsirlənir. Bu nanohissəciklərin müxtəlif morfologiyaları alınan nanokompozit sistemlərin elektron, optik, maqnit və katalitik xüsusiyyətlərinə təsir göstərə bilər. Polimerlər oksidləşmənin və birləşmənin qarşısını almaqla nadir metal nanohissəciklərinin dayanıqlılığını təmin etmək üçün xidmət edir və ya nanokompozitlərdə matris kimi rol oynayır. Gümüş kimyəvi dayanıqlılığına, elektrik keçiriciliyinə və katalitik xüsusiyyətlərinə görə maraq cəzb edən bir materialdır. Gümüş nanohissəciklərin müxtəlif polimerlər üzərində tətbiq edilmiş tədqiqatları vardır. Məsələn, polivinilpirolidon, polivinil spirt və poliakrilonitrildən hazırlanan sintezlər. Bundan əlavə, təbii polimerlərə də biouyğun və toksik olmadığı üçün böyük diqqəti cəlb etmişdir (Cao, G., 2004).

Material və metodlar

Bu işdə Ag nanohissəcikləri reduksiya üsulu ilə əldə edilmişdir. Nanohissəciklərin dayanıqlığını təmin etmək üçün sulfanil turşusundan ($C_6H_7NO_3S$) istifadə edilib. 0,2 q $AgNO_3$ və 1 q sulfanil turşusu tərəzidə çəkilmiş, sonra yaxşıca üyüdülmüş və incə toz halına gələnə qədər qarışdırılmışdır. 20 mq ferrosen əlavə edilərək qarışdırma davam etdirilir. Rəngin ağdan tünd qırmızıya dəyişdiyi müşahidə edilmişdir. Tünd qırmızı toz nümunə qabına yerləşdirilmişdir.

Əldə olunan nəticələr


Alınan tozdan 50 mq-lıq nümunələr götürülüb 6 müxtəlif stəkana əlavə edilmişdir. Nümunələrə 6 müxtəlif həlledici əlavə edilmişdir. 1-ciyə 2 ml etanol (C_2H_5OH), 2-ciyə 2 ml etilen qlikol, 3-cüyə 2 ml H_2O, 4-cüyə 2 ml aseton, 5-ciyə 2 ml etilasetat əlavə edilmişdir.

Cədvəl 1.

Müxtəlif həlledicilərdə nano gümüşün rəng dəyişiklikləri

Həlledici	***H_2O***	***Etilen qlikol***	***Etanol***	***Aseton***	***Xloroform***	***Etil asetat***	***Etanol + H_2O***
Məhlul	Qara-açıq bənövşəyi	Tünd qırmızı-bənövşəyi	Sarı	Açıq sarı	Açıq-aydın	Açıq sarı	Tünd sarı
Çöküntü	Açıq sarı - ağ	Ağ toz	Narıncı toz	Qırmızı sarı	Tünd sarı	Tünd sarı	Sarı toz


Məhlullar 12 saat saxlanılmışdır. Daha 2 ml həlledici əlavə edilmiş və hazırlanmış məhlulların udulması UB spektroskopiyasında ölçülmüşdür.



Şəkil 1. Müxtəlif həlledicilərdə nano gümüş hissəciklərinin UB-görünən sahədə udma spektri

Həlledici	λ(nm)	Abs.
Etilen qlikol	504	1,2385
	269	3,6268
50% etanol-su	389	1,3261
	501	1,9063
	614,50	0,2011
H_2O	496,50	0,3257
	617,50	0,5024


Etilen qlikol məhlulunda və suda nano gümüş hissəciklərinin TEM təsvirləri şəkil 2-də verilmişdir.



a) **b)**

Şəkil 2. a) Etilen qlikol məhlulunda, b) Suda nano gümüş hissəciklərinin TEM şəkilləri

Alınmış gümüş nanohissəciklərinin fərdiliyini təsdiq etmək üçün rentgenfaza analizi aparılmış və şəkil 3-də verilmişdir.



Şəkil 3. Gümüş nanohissəciklərinin rentgenfaza analizi

Nəticələrin müzakirəsi. Nano gümüş hissəciklərinin hazırlanmasında reduksiya üsulundan istifadə edilmiş və hazırlanmış nano gümüş hissəciklərinin müxtəlif həlledicilərdə UB-görünən sahədə absorbsiyası ölçülmüşdür. Bundan əlavə, suda və etilen qlikolda alınmış nano gümüş hissəciklərinin TEM analizləri (100 və 0,2 nm) aparılmış və gümüş hissəciklərinin nano ölçülü olduğunu göstərilmişdir. Alınmış gümüş nanohissəciklərinin fərdiliyi isə rentgenfaza analizi vasitəsilə təsdiq edilmişdir.

ƏDƏBİYYAT

1. KAUPP, G., Mechanochemistry: the varied applications of mechanical bond-breaking, CrystEngComm, 2009, 11:388-403.
2. CAO, G., Nanostructures & Nanomaterials, Imperial College Press, London, 2004, pp. 329-412.

SUMMARY

Gulnar Huseynova, Huseyn Imanov

PREPARATION OF SILVER NANO PARTICLES IN AQUEOUS AND ORGANIC ENVIRONMENT

The research results of obtaining Ag nanoparticles by reduction method in aqueous and organic conditions are given in the article. Colour changes of nanosilver were determined in solvents such as H_2O, ethylene glycol, ethanol, acetone, chloroform, ethyl acetate, and ethanol + H_2O. The absorption of solutions stored for 12 hours in the visible field with ultraviolet rays was measured, and TEM analyses of silver nanoparticles in ethylene glycol and water were performed. X-ray phase analysis was performed to confirm the individuality of the obtained silver nanoparticles and the obtained result overlapped with the reference number 01-087-0719.

Key words: *Silver nanoparticles, X-ray phase analysis, ethylene glycol, TEM analysis, UV-absorption spectrum*

F.Ə.MİRZƏYEV, R.M.QULİYEV
farhad_1958@mail.ru

N.M.BAXIŞOV
namigbm@hotmail.com

F.E.ƏLİYEVA
aliyevafatma2901@gmail.com
Bakı Dövlət Universiteti

EKOLOJİ PROBLEMLƏRİN AZALDILMASINDA MAARİFLƏNDİRMƏNİN ROLU

İşdə əsas məqsəd - müasir dövrdə bəşəriyyəti "sonu bilinməyən sonsuzluğa" aparan ekoloji problemlər barəsində bəzi mühüm mülahizələrdir. Bu problemlərdən törənən fəsadların minimuma endirilməsi üçün maarifləndirmənin vacibliyi ön plana çəkilərək qabardılır.

Açar sözlər: *ətraf mühit, ekoloji tarazlıq, ekoloji maarifləndirmə, ekoloji təhlükəsizlik, qlobal istiləşmə.*

Giriş

Müasir dövrdə ərazisindən, əhalisinin sayından, təbii sərvətlərinin bolluğundan asılı olmayaraq hər bir dövlət, həmçinin beynəlxalq təşkilatlar və elmi mərkəzlər ekoloji problemlərin yaranma səbəblərini və bu problemlərin mümkün dəyişmə istiqamətlərinin proqnozlaşdırılmasını aktual məsələlərdən biri kimi qarşıya qoyur. İqlim dəyişməsi, ətraf mühitin çirklənməsi, təbii ehtiyatlardan qeyri-səmərəli istifadə ümumbəşəri qlobal problemlər olmaqla yanaşı, eyni zamanda hər bir ölkə üçün, o cümlədən Respublikamız üçün də fövqəladə əhəmiyyət kəsb edir.

Beləliklə, ətraf mühitin mühafizəsi çox vacib məsələlərdəndir. Çünki məsələn, sözün əsl mənasında istehsal özünün müsbət effekti ilə yanaşı mənfi effekt – ətraf mühitin çirklənməsi kimi ekoloji problematikanı qarşıya çıxarıb. Keçən əsrin 70-ci illərinə kimi bu haqda demək olar ki, dünyanın çox yerində heç söhbət də getmirdi. Daha bilmirdilər ki, böyük, iri müəssisələrin fəaliyyətə başlaması, dağıdıcı, dünyanı fəlakətə sürükləyən müharibələr, insanların təbiətlə qeyri-etik rəftarı gec-tez bütün dünyada həyəcan təbilinin çalınmasına səbəb olacaq. Elə də oldu. Bütün bəşəriyyət yuxarıda sadalanların acı nəticələrini görməyə başladı, dünyanın mütərəqqi, gələcək nəsillərini fikirləşən təbəqəsi - prezidentlər, baş nazirlər səviyyəsində bir araya gəlməyi qərara aldılar və axır ki, bu görüş baş tutdu, belə ki, 1992-ci ildə Brazilyanın paytaxtı Rio-De-Janeyro şəhərində dünyada ekoloji tarazlığın pozulması nəticəsində problemlərin artması ilə bağlı keçirilən ətraf mühitin və inkişafa həsr olunmuş ümumdünya konfransında ekoloji təhlükəsizliyin əsas istiqamətləri müzakirə olunaraq bir çox dövlətlərin milli təhlükəsizlik strategiyasının prioritetinə çevrildi. Sonralar keçirilən belə tədbirlərdə də — Kio, Kopenhagen simpoziumlarında da ekoloji tarazlığın pozulmasında insan amilinin başlıca rolunun danılmaz olduğu göstərildi.

Aydındır ki, XXI əsrdə elmi-texniki tərəqqinin sürətli və dinamik inkişafı, İKT, internet, robot, nano-bio-texnologiyanın insan həyatının bütün sahələrinə inteqrasiyası cəmiyyətin şüurunda təbiətə, onun sərvətlərinə, fauna və floraya yaradıcı və israfçılıqdan, ziyanvericilikdən uzaq münasibətin formalaşmasını tələb edir. Müasir dövrdə ətraf mühitin mühafizəsi sahəsinin mütəxəssisləri belə fikrə gəliblər ki, bəşəriyyətdə mədəniyyətin yeni növü olan ekoloji mədəniyyət formalaşmalıdır. Əks halda insanların canlı təbiətə, onun ehtiyatlarına mənfi, dağıdıcı münasibəti daha da dərinləşə bilər.

Deməli, yaşadığımız əsr bütün dünya əhalisindən mədəni tərəqqinin əsas istiqaməti kimi ekoloji təhsilin, ekoloji maarifləndirmənin fasiləsiz inkişaf strategiyasının konsepsiyasını, proqramını işləyib hazırlamağı və realizasiyasını tələb edir. Dünyanın ekologiya sahəsində aparıcı mütəxəssisləri ekoloji təhsilə, ekoloji maarifləndirmə işinə şəxsiyyətin formalaşmasının ilk anlarından, uşaqlıqdan

başlamağı lazım bilirlər ki, onun da təməli məhz ailədə, məktəbəqədər müəssisələrdə – yəni uşaq bağçalarında, ibtidai siniflərdə qoyulmalı, orta, orta ixtisas və ali məktəblərdə tamamilə formalaşmalıdır.

Qeyd edək ki, ekoloji problemlər müasir Azərbaycan Respublikası üçün xüsusi aktuallıq kəsb edir. Bizdə ətraf mühitin çirklənməsinin əsas mənbələrindən biri neft və qaz sənayesi və onun ayrı-ayrı sahələridir. Belə ki, məsələn neftin çıxarılması , saxlanılması , nəqli və emalı zamanı onun təxminən 1-14 faizə yaxın hissəsi itkiyə məruz qalır, baş verən sızmalar və s. ətraf mühitin çirklənməsinə səbəb olur.

İnkarolunmaz faktdır ki, son illər ölkəmizdə ekoloji problemlərə, onun həlli yollarına və ekoloji savadlanmağa diqqət xeyli artmışdır. Cənab prezident İlham Əliyevin 2010-cu ili ölkə ərazisində "Ekologiya ili" elan etməsi, bu sahəyə olan soyuq münasibəti tamamilə dəyişdiO ildən başlayaraq həm də sonrakı illərdə milyonlarla sayda ağacın əkilməsi, yeni parkların, meşələrin, meşə zolaqlarının salınması və ölkə başçısının özünün bu kompaniyada iştirak etməsi bu sahəyə xüsusi diqqətin göstəricisi sayıla bilər. Bütün bunlarla yanaşı, uzun illər yığılıb qalan, həllini gözləyən ekoloji problemlər təhlil edilərək, kompleks həll edilməsinə yönəldilən və dayanıqlı, tarazlı inkişaf prinsiplərinə əsaslanan milli və dövlət proqramları təsdiq edilmiş və onlar icra olunmuşlar. Mövcud qoruq və yaşıllıqlar ərazicə genişləndirilmiş, milli parklar salınmış, bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilmişdir. Ölkəmiz 1993-cü ildən başlayaraq 20-dən çox beynəlxalq ekoloji konvensiyaya qoşulmuşdur.

Nəticə

Lakin bunlara baxmayaraq, zənnimizcə nə qədər böyük həcmli maliyyə dəstəyi ayrılsa da, yaranmış ekoloji problemlərin aradan qaldırılmasının minimuma endirilməsi məqsədi ilə maarifləndirmə, ictimai qınaq və cərimələrin tətbiqi həyata keçirilməlidir.

Təbiətə qayğıkeş münasibət, ekoloji təfəkkürün yaranması bütün əhalidə və əsasən böyüməkdə olan gənc nəsildə ekoloji tərbiyə və mədəniyyətin hansı səviyyədə olmasından asılıdır desək səhv etmərik. Bu gün gecikmədən ekoloji maarifləndirmə işinə diqqət yetirmək çox vacibdir, buna görə də, hər bir kəs vəzifəsindən, ictimai mənşəyindən asılı olmayaraq, ekoloji biliklərə yiyələnməli, bütün əhalidə ekoloji dünyagörüşü formalaşmalı, təhsilin bütün pillələrində ekoloji təlimin həyata keçirilməsi təmin edilməli, məktəbəqədər müəssisələrdə ekoloji tərbiyəyə xüsusi diqqət yetirilməli, maarifləndirmə prosesinin fasiləsizliyi gözlənilməlidir.

Geniş kütlə arasında torpaqların qorunması, alternativ enerjidən istifadə etməklə meşələrin qırılmasının qarşısının alınması, məişətdə istifadə olunan içməli suyun idarə olunması məqsədilə maarifləndirmə işləri aparılmalıdır.

Yaxşı olar ki, hər bir televiziya kanalı heç olmasa həftədə bir dəfə ekoloji təhlükəsizlik və maarifləndirmə ilə bağlı verilişlər aparsın , QHT və dövlət qurumları konfrans və treninqlər təşkil etsin.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi məktəblilərin, tələbələrin, geniş əhali kütləsinin maarifləndirməsi məqsədilə xeyli broşürlər hazırlamışdır. Onlardan "ətraf mühitə dair məlumat toplusu", "çay hövzələrinin coğrafiyası", "sudan səmərəli istifadə və suya qənaət", "sudakı həyat və ekologiyada su", "suyun keyfiyyətinin qorunması", "Hirkan milli parkı" və s. adlı elmi populyar materialları göstərmək olar.

Enerjiyə qənaət ətraf mühitin qorunmasında çox önəmli məsələdir, ucuz enerjinin alınmasının mühüm mənbələrindən biri Azərbaycanın böyük külək enerji ehtiyatına malik olmasıdır(xüsusilə Respublikamızın dəniz sahilindəki və işgaldan azad olunmuş yüksək daglıq rayonlarında olan ehtiyatlar başa düşülür).

Hər il məktəblərdə, universitetlərdə, müəssisələrdə "15 mart – Təkrar emal günü", "22 may – Beynəlxalq bioloji müxtəliflik günü", "21 mart – Beynəlxalq meşələr günü", "22mart – Ümumdünya su resursları günü", "16 sentyabr – Ozon qatının mühafizəsi günü", " 5 iyun – Ümumdünya ətraf mühit günü" tarixlərində imkan daxilində müxtəlif tədbirlər keçirmək, ən azı ağac əkmək aksiyasını təşkil etmək çox vacibdir.Havanın çirklənmə səviyyəsi yüksək olan respublikamızın bəzi böyük rayonlarında sənaye istehsalında səmərəli üsullardan istifadə edilməsinə baxmayaraq, nəqliyyat vasitələri axınının artması öz mənfi nəticələrini göstərməkdədir. Ümumi araşdırmalara görə beş

şəhərin (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan) payına Respublikada atılan bütün zərərli maddələrin təxminən 90 faizi düşür.Bu səbəbdən ölkə miqyasında qarşıda duran əsas hədəflərdən biri işğaldan azad olunmuş ərazilərdə 2050-ci ilədək "netto sıfır emissiya" (sıfır tullantı) zonasının yaradılması ideyası olduqca təqdirəlayiqdir.

Beləliklə, yaşadığımız əsrdə təbiət və dinamik iqtisadi inkişaf məsələlərinə yeni baxışların formalaşması istiqamətində böyük işlər görülməlidir. Bu gün heç bir dövlət düzgün ekoloji siyasət yerinə yetirmədən stabil inkişaf edə bilməz. Müasir ekoloji siyasətin mahiyyəti, strukturu, həyata keçirilmə mexanizmləri, ekoloji maarifləndirmə və təhlükəsizlik problemləri müstəqil Respublikamız üçün demək olar ki, kifayət qədər yenidir. Odur ki, bu sahədə aparılan maarifləndirmə yönümlü tədbirlərin intensivliyini daha da artırmaq prioritet istiqamətləri vaxtında müəyyən etməyə, həyata keçiriləcək layihələrin nisbətən ucuz başa gəlməsinə, nəticə etibarı ilə gözlənilən ekoloji fəsadların nəticələrinin daha effektiv aradan qaldırılmasında optimal yardımçı ola bilər.

Ekoloji problemlərin dinamikası ciddiləşdikcə dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyi daha intensiv formada meydana çıxır. Çünki əksər ölkələrdə iqtisadi inkişaf sənayeləşmənin ümumi həcminin genişlənməsi hesabına baş verdiyindən, nəticədə ekoloji fəsadların miqyası da artdığından və bazar iqtisadiyyatı əksər hallarda bu problemlərin həllini əhatə edə bilmədiyindən dövlətin müdaxiləsinə ehtiyac təbii zərurətə çevrilir.

Müasir dövrün qlobal problemləri təsnifatında ekoloji problemlər mühüm əhəmiyyət kəsb edir. Ekoloji böhranlar adətən ətraf mühitlə cəmiyyətin dinamik tarazlığının pozulduğu yerdə baş verir. Ətraf mühitin mühafizəsi, təbii resurslardan səmərəli istifadə, energetika, demoqrafiya və s. problemlərin həlli dünya ölkələrinin birgə səyini tələb edir. Daha doğrusu, qlobal iqtisadi problemlərin tədqiqinə sistemli yanaşmaqla bu problemlərdə əsas istiqamətləri müəyyən etmək və nəticə etibarilə optimal qlobal ekoloji strategiyanın işlənib hazırlanması müasir dövrün mühüm tələbləri sırasında qalmaqdadır.

ƏDƏBİYYAT

1. M.P.Todaro, S.C.Smith. İqtisadi inkişaf. Bakı: Pearson, 2023, 990 s.
2. Azərbaycanın statistik göstəriciləri. Bakı: 2023, 722 s.

SUMMARY

F.A. Mirzayev, R.M. Guliyev,
N.M. Bakhishov, F.E. Aliye

THE ROLE OF EDUCATION IN REDUCING ENVIRONMENTAL PROBLEMS

The main goal of the work is some important considerations about environmental problems that lead humanity to "endless infinity" in modern times. In order to minimize the consequences of these problems, the importance of education is highlighted.

Key words: *environment, ecological balance, environmental awareness, environmental safety, global warming.*

XOŞQƏDƏM SEYİDOVA
seyidovaxosqdm3@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-5749-6054

SİNTETİK KAUÇUKLARIN TƏTBİQİ SAHƏLƏRİ

Avropa kauçuk haqqında ilk dəfə 16-cı əsrdə öyrəndi. Kristofer Kolumb onu bir çox başqa möcüzələrlə birlikdə Amerikadan gətirmişdir[1]. Gəmilər Haiti adasının yaxınlığında qalarkən, Kolumb və yoldaşları yerli sakinlərin Avropada tamamilə bilinməyən elastik materialdan hazırlanmış topla oynadığını müşahidə etdilər. Toplar yerə dəydikdə asanlıqla sıçrayır, sıxılır və ilkin formasını bərpa edirdi. İspaniyaya qayıdan Kolumb, sonradan Köhnə Dünyada "rezin" adı ilə tanınan bu gözəl materialdan nümunələri götürdü. Hind dilindən tərcümədə "rezin" "ağacın göz yaşları" deməkdir. Sonradan məlum olduğu kimi, bu, tropik Braziliya Hevea ağacının qabığındakı kəsiklərdən toplanan şirə idi [2]. Ağacın yeddi yaşı olanda ağacdan götürüldü: yarım metr hündürlükdə qabığında kəsik edildi və altından süd-ağ şirəsi axmağa başlayanda onu asma stəkanlara yığdılar, sonra böyük bir qaba tökdülər. Havada şirə nisbətən tez laxtalandı və tünd, qatranlı rezin məhsula çevrildi [3].

Avropalılar bu materialın üstünlüklərini dərhal qiymətləndirmədilər. İki əsrdir ki, kauçuka vəhşi bir maraq kimi baxırdılar. Bu vaxt Cənubi Amerikaya səyahət edənlər Avropaya getdikcə daha çox rezindən hazırlanmış əşyalar gətirməyə davam edirdilər. Onların arasında butulkalar, suya davamlı çəkmələr və yağış paltarları var idi. Bütün bunlar çox maraqlı idi, lakin praktiki əhəmiyyəti yox idi. Yalnız uzun müddətdən sonra avropalılar rezin üçün ilk istifadəni tapdılar və müasir məktəb pozanlarını xatırladan saqqız şəklində istifadə etməyə başladılar.

Açar sözlər: *kauçuk, rezin, polimer*

18-ci əsrin sonunda ingilis kimyaçısı Mackintosh rezindən suya davamlı yağış paltarları istehsalı üçün patent aldı. Onlara Macintoshlar deyilirdi. Ancaq yağış paltarları Avropa iqlimi üçün kifayət qədər yaxşı olmadığı ortaya çıxdı, aşağı temperaturda onlar qalay kimi sərtləşdi və istidə yapışqan oldu. Çoxlu təcrübələrdən sonra rezinləri vulkanizasiya etməklə onun bu xoşagəlməz xüsusiyyətlərindən qaçmağın bir yolunu tapdılar. (Bu mühüm kəşf 1839-cu ildə amerikalı kimyaçı Qudyer tərəfindən edilmişdir.) Məlum olmuşdur ki, kükürdlü rezin qızdırıldıqda onun xassələri kifayət qədər əhəmiyyətli dərəcədə dəyişir, daha elastik, elastik olur və temperatur dəyişikliklərinə o qədər də həssas olmur. Bu yeni vulkanlaşdırılmış kauçuk rezin kimi tanındı. Tez bir zamanda populyarlıq qazandı, çünki bir çox cəhətdən son dərəcə rahat olduğu ortaya çıxdı.

Ona tələbat hər il artırdı. Təbiətdə rezin kimi başqa məhsul yoxdur, suya davamlıdır, elektrik izolyasiya xüsusiyyətlərinə malikdir, elastikdir və formada çox böyük dəyişikliklərə qadirdir. Xarici qüvvənin təsiri altında bir neçə dəfə uzana və yenidən kiçilə bilər. Başqa heç bir maddənin belə elastikliyi yoxdur. Eyni zamanda, möhkəm, davamlı, aşınmaya davamlı və emal etmək asandır. Buna görə də, rezin avtomobil şinləri, hər cür sürücü kəmərləri, nəqliyyat kəmərləri, şlanqlar, amortizatorlar , sızdırmazlıq contaları, çevik izolyasiya və daha çox şeylərin istehsalı üçün ideal material idi və olaraq qalır . Kauçuk olmadan müasir sənaye cəmiyyətində həyat sadəcə mümkün deyil.

Sintetik kauçuk, demək olar ki, insan istehsalı olan hər hansı bir rezin materiala aiddir. Sintetik kauçuk təbii kauçukun arzu olunan xüsusiyyətlərini təqlid edir və eyni tətbiqetmələrin çoxunda istifadə olunur. Bazarda geniş çeşiddə sintetik kauçuklar var, onların bir çoxu təbii kauçukun malik olmadığı unikal performans xüsusiyyətlərinə malikdir.

İstehsal prosesindən başlayaraq sintetik kauçuk və təbii kauçuk arasında bir neçə əsas fərq var. Təbii kauçuk ,ümumiyyətlə, təbii kauçuk lateksdən əldə edilsə də, sintetik kauçuk neft emalı yan məhsullarından hazırlanır.

Sintetik kauçukun mərhələli istehsalı prosesi, ümumiyyətlə, neft və ya kömürdən karbohidrogenlərin qarışığı ilə başlayır. Maye şəklində bu qarışıq "NAFTA"adlanır. NAFTA, monomerlərin meydana gəlməsinə səbəb olan reaksiyanı tetikleyen təbii qaza enjekte edilir. Monomer sintetik kauçukun ilk tikinti elementi hesab edilə bilər: bir neçə eyni monomer polimer yaratmaq üçün bir-birinə bağlanmalıdır. Daha sonra polimer zəncirləri yaratmaq üçün polimerləri işə salan kimyəvi maddələr vurulur.

Növbəti addım "vulkanizasiya"adlanan prosesdir. Sadə dillə desək, vulkanizasiya polimer zəncirlərini rezin maddəyə çevirən müalicə prosesidir. Buna polikloropren və ya kükürd kimi xüsusi sürətləndiricilər əlavə etməklə nail olunur. Vulkanizasiyadan sonra sintetik kauçuk material işlənə, qəliblənə və ya başqa şəkildə əmələ gələ bilər.

Sintetik kauçukun bir çox çeşidi var, hər biri öz performans xüsusiyyətlərinə və arzu olunan xüsusiyyətlərə malikdir.

Butil: Butil kauçuk izobutilen və izoprenin kopolimeridir.Butil kauçuk üçün bir çox istifadə var, lakin bu sintetik kauçuk bir neçə əsas məhsul üçün məşhurdur. Daxili şin boruları, dinamiklər, Dam örtükləri və qaz maskaları tez-tez butildən hazırlanır. Butil əczaçılıq və idman sənayesində də istifadə olunur.

Xloropren: Ticarət adı neopren ilə asanlıqla tanınan xloropren ilk dəfə 1930-cu illərdə hazırlanmışdır. Su paltarları, noutbuk örtükləri, velosiped geyimləri və kostyumlar kimi bir çox istehlak malları xloroprendən hazırlanır. İnşaat Mühəndisləri körpülərin tikintisində xloroprendən də istifadə edirlər.

Xlorlu polietilen (CPE): CPE tez-tez hava və təsir müqavimətini yaxşılaşdırmaq üçün digər materiallara əlavə olunur. Etilen propilen dienomomerik kauçuk (EPDM): EPDM, üstün sızdırmazlıq xüsusiyyətləri, davamlılığı və korroziyaya davamlılığı sayəsində bir çox sənayedə tətbiq olunan son dərəcə populyar bir sintetik kauçuk materialdır. İnşaat və avtomobil sənayesi hava və möhürdən qorunmaq üçün EPDM-dən istifadə edir. Müxtəlif istehlak məhsulları və elektronika üçün də istifadə olunur.

Sintetik kauçukun tətbiq sahələri praktik olaraq sonsuzdur. Bəlkə də sintetik kauçukların ən böyük istehlakçısı avtomobil sənayesidir. Təkərlər, möhürlər, O-üzüklər, contalar, şlanqlar, kəmərlər və avtomobilin digər komponentləri tez-tez sintetik kauçuklardan hazırlanır. Aerokosmik eyni komponentlərin çoxu üçün sintetik kauçuklardan istifadə edir. İnşaat sənayesi, həmçinin möhürlər, döşəmə örtükləri, dam örtükləri və digər tətbiqlər üçün sintetik kauçukdan çox istifadə edir. Sintetik kauçukların digər böyük istehlakçısı Tibb sənayesidir. Sintetik kauçuklar lateks həssaslığı və ya allergiyası olan xəstələr üçün təhlükəsizdir və buna görə də tez-tez dəri ilə birbaşa təmasda olan borular və digər məhsullar hazırlamaq üçün istifadə olunur. Səhiyyə işçiləri qoruyucu vasitələr, tibbi Komponentlər və daha çoxunu hazırlamaq üçün sintetik kauçukdan da istifadə edirlər. Adi istehlakçılar gündəlik həyatlarında hər yerdə sintetik kauçuk tapacaqlar. Ayaqqabılar, idman malları, mətbəx əşyaları və hətta saqqız hər cür sintetik kauçukdan ibarətdir.

ƏDƏBİYYAT

1. A.O.Əzizov, E.O.Əkbərov. Yüksəkmolekullu birləşmələr kimyası. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2004, 368 s
2. E.Ə.Məsimov. Polimerlərin fiziki kimyasi. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010, 178 s.
3. Məsimov, E.Ə. Polimer gellərin fiziki xassələri. Monoqrafiya, Bakı: 2014, 128 s.
4. N.Y.Ləzgiyev. Polimer kimyasından praktikum. Bakı:İqtisad Universiteti nəşriyyatı, 2012, 103 s.

SUMMARY

Khoshkadam Seyidova

APPLICATION AREAS OF SYNTHETIC RUBBERS

Europe first learned about rubber in the 16th century. Christopher Columbus brought it from America along with many other miracles. While the ships remained near the island of Haiti, Columbus and his comrades observed that local residents were playing with a ball made of elastic material, completely unknown in Europe. When the balls hit the ground, they bounced easily, squeezed and regained their original shape. Returning to Spain, Columbus took samples of this wonderful material, which later became known in the Old World as “rubber”. Translated from Hindi, “rubber” means “tears of a tree”. As it turned out later, it was juice collected from cuts in the bark of the tropical Brazilian Hevea tree. When the tree was seven years old, it was taken from the tree: an incision was made in its bark at a height of half a meter, and when milk-white juice began to flow from under it, they collected it in hanging cups, then poured it into a large container. In the air, the juice coagulated relatively quickly and turned into a dark, resinous Rubber Product.

Europeans did not immediately appreciate the advantages of this material. For two centuries, rubber was viewed as a wild curiosity. Meanwhile, travelers to South America continued to bring more and more items made of rubber to Europe. Among them were bottles, waterproof boots and raincoats.all this was very interesting, but had no practical significance. Only after a long time, Europeans found the first use for rubber and began to use it in the form of chewing gum, reminiscent of Modern School violators.

Key words: *caoutchouc, rubber, polimery*

X.V.ƏLİQULİYEVA
xayala.aliquliyeva@sdu.edu.az
A.F.TALIFLI
Sumqayıt Dövlət Universiteti

In_2Se_3 VİBRASİYA XÜSUSİYYƏTLƏRİNİN EKSPERİMENTAL TƏDQİQİ

In_2Se_3 yarımkeçirici birləşmənin vibrasiya xüsusiyyətlərinin tədqiqinin nəticələri təqdim olunur: nəzəri olaraq, sıxlıq funksional pozğunluq nəzəriyyəsindən (DFPT) və eksperimental olaraq, Raman spektroskopiyasından istifadə etməklə. Raman ölçmələrinin və hesablamalarının müqayisəsi qəfəs dinamikası 91.28-də,104,5, 182,68 və 193,6 sm^{-1}, aşkar edilmiş dörd Raman-aktiv rejimi müəyyən etməyə imkan verdi. Fonon rejimlərinin müəyyən edilməsi nöqtə simmetriya qrupu nəzərə alınmaqla aparılmışdır. Fonon rejimlərinin müəyyən edilməsinin nəticələri α-In2Se3 fazasının R3m simmetriyasını təsdiqlədi. Nəticələr həmçinin əldə edilmiş ədəbiyyatda mövcud olan eksperimental məlumatlar ilə müqayisə edilmişdir Raman spektroskopiyası ilə. Zonanın mərkəzində fonon rejimlərinin hesablanmış tezlikləri və simmetriyaları Brillion eksperimental məlumatlarla yaxşı uyğunlaşır.

***Açar sözlər**: In_2Se_3, Raman səpilməsi, İR və Raman aktiv rejimləri, fonon dispersiyası, fonon hallarının sıxlığı.*

TAMARA HÜSEYNOVA
husynvatamara13@gmail.com
Naxçıvan Dövlət Üniversiteti
ORCID ID: 0009-0004-4544-4198

TƏDRİS VƏSAİTLƏRİ KONSEPSİYASI

Məqalədə tədris vəsaitləri, məktəblər, kolleclər və digər təhsil müəssisələri üçün əhəmiyyətli bir konsepsiyadan bəhs olunur. Bu vəsaitlər, tələbələrin və tələbələrin məlumatları öyrənmək və inkişaf etdirmək üçün istifadə etdikləri hər hansı bir material, alət və ya platformları əhatə edir. Bu, klassik dərs kitabları, təlim proqramları, interaktiv və onlayn təhsil platformaları, məktəb ehtiyacları, laboratoriya avadanlıqları, kitabxanalar və hətta təlim alətləri kimi müxtəlif formalar ala bilər. Tədris vəsaitləri, müəllimlərin effektiv təhsil prosesini təmin etmələrinə kömək edir, tələbələrə məlumatları asanlıqla öyrənmək imkanı verir və təhsil keyfiyyətini artırır. Bu vəsaitlər, müasir texnologiyalardan faydalanaraq təhsil prosesini daha maraqlı və interaktiv hala gətirir. Ən əsası, tədris vəsaitləri, tələbələrə müxtəlif öyrətmə metodları təqdim edir, beləliklə də, hər bir tələbənin öyrənmə prosesinə uyğun metod və alətləri seçməsinə imkan verir. Bu, tədris vəsaitlərinin adaptiv təhsilə aparmağı və tələbələrə fərqli öyrətmə yollarını təmin etməsi ilə mümkündür.

Açar sözlər: *Tədris vasitələri, konsepsiya, adaptiv təhsil, texnologiya, öyrənmə metodları, effektiv təhsil, interaktiv təhsil.*

Tədris vasitələri (pedaqoji vasitələr) müəllimin köməyi ilə tədris effektini (təhsil prosesi) həyata keçirən bütün materiallardır. Tədris vasitələrinə pedaqoji məsələlərin həllində istifadə olunan maddi və mənəvi mədəniyyət obyektləri daxildir. Ən ümumi mənada bunlara aşağıdakılar daxildir:

1. fəaliyyət növləri: oyun, təhsil, əmək;
2. pedaqoji texnika: nitq, mimika, hərəkət; media, əyani vəsaitlər, sənət əsərləri.

Tədris vasitələrinə həmçinin texniki tədris vəsaitləri, didaktik materiallar və s. Son zamanlar tədris vasitələri xeyli dəyişib. Fərdi kompüterlərin yaranması ilə əlaqədar olaraq problemli təlim prosesinin yeni növü - problemli kompüter öyrənməsi meydana çıxdı. Pedaqoji sistemdə yeni elementin (kompüterin) meydana çıxması onun funksiyalarını əhəmiyyətli dərəcədə dəyişə bilər və yeni pedaqoji effekt əldə etməyə imkan verir.

Ənənəvi təhsil prosesində **tədris vasitələri bunlardır:**

1. çap nəşrləri: dərsliklər, dərs vəsaitləri, məlumat kitabçaları;
2. təhsil məlumatları olan disketlər;
3. lövhədə qeydlər, plakatlar;
4. kino -, video filmlər;
5. müəllim sözü.

Texniki təlim vasitələri

Müasir təlim prosesində aşağıdakı yeni **texniki vasitələrdən** istifadə olunur :

1. təhsil elektron nəşrləri;
2. kompüter təlim sistemləri;
3. audio, video tədris materialları və bir çox başqaları.

Kağız nəşrlərin bütün xüsusiyyətlərinə malik olan təhsil məqsədləri üçün **elektron nəşrlər** bir sıra müsbət fərqlərə və üstünlüklərə malikdir. Xüsusilə: kompüter yaddaşında və ya disketdə yığcam saxlama, hipermətn imkanları, mobillik, təkrarlama, tez dəyişikliklər və əlavələr etmək imkanı, elektron poçtla göndərilmə asanlığı. Bu, tədris fənləri üzrə didaktik, metodik, məlumat və arayış materiallarını, habelə onlardan biliklərin müstəqil mənimsənilməsi və idarə edilməsi üçün hərtərəfli istifadə etməyə imkan verən proqram təminatını özündə birləşdirən avtomatlaşdırılmış təlim sistemidir.

Proqramlaşdırılmış təlim pedaqogikada yaxşı məlum olan ümumi prinsip və nəzəriyyələrə əsaslanır. Material kiçik, asanlıqla həzm oluna bilən addımlar, hissələr və ya məlumat parçaları adlanan hissələrdə təqdim olunur.

Proqramlaşdırılmış təlimin xüsusiyyətləri:

- ciddi seçilmiş tədris materialının ayrı-ayrı kiçik hissələrə bölünməsi;
- hər bir hissənin mənimsənilməsinə yönəlmiş müəyyən hərəkətlərin ardıcıl yerinə yetirilməsi üçün təlimatlar sisteminin daxil edilməsi;
- hər bir verilmiş hissənin mənimsənilməsini yoxlamaq üçün tapşırıqların təqdim edilməsi;
- tələbəyə verdiyi cavabın dərəcəsi və ya düzgünlüyünü bildirən cavablara uyğunluq.

Forma baxımından proqramlaşdırılmış təlim tələbələrin xüsusi işlənmiş tədris materialı üzərində müstəqil işinin xüsusi növüdür. Bu cür təlim üçün tədris materialının xüsusi işlənməsi prosesi proqramlaşdırma adlanır.

Proqramlaşdırılmış öyrənmənin iki prinsipi var. **Xətti proqramlaşdırma** tədris materialının kiçik addımlara bölünməsini, hər bir hissənin mənimsənilməsinin yoxlanılmasını və şagirdlərin bütün materialı verilmiş ardıcıllıqla işləməsini nəzərdə tutur.

Budaqlanmış proqramlaşdırma fərz edir ki, tələbə tədris materialının nisbətən tam bir hissəsini işlədikdən sonra suala cavab verərkən səhv edə bilər. Buna görə də, suala cavab vermək üçün bir neçə variant təklif olunur. Seçdikdən sonra tələbə cavabdan asılı olaraq, sonrakı iş üçün təlimat alır.

Yerli ali və orta məktəblərin təcrübəsi, eləcə də xarici məktəblərin təcrübəsi göstərir ki, heç bir fənn üzrə kompüterdən istifadəyə praktiki olaraq heç bir məhdudiyyət yoxdur. Amma kompüter dərsinin məzmunu mütləq olmalıdır. problem şəraitinin təhlili üsulları, onun həlli yolunun axtarışı, həllin düzgünlüyünə nəzarət yolları haqqında məlumatlar.

Yəni məzmunda əks etdirmənin bütün növləri - intellektual, şəxsi və şəxsiyyətlərarası məlumatlar daxil edilməlidir: tələbələrin kompüter öyrənməsinin məntiqini, tələblərin mənasını və s.

Kompüterdən istifadə təhsilin mövcud formalarını nəzərə almalıdır. Müasir təhsil formaları, məktəb növündən asılı olmayaraq, aşağıdakı dəyişməz quruluşa malikdir:

1. əsas biliklərin və fəaliyyət metodlarının yenilənməsi;
2. yeni konsepsiyaların və fəaliyyət üsullarının formalaşması;
3. biliklərin tətbiqi, bacarıqların formalaşdırılması.

Kompüter təlimi və monitorinq proqramları tədris prosesində geniş istifadə olunan və aşağıdakılara imkan verən təhsil proqram vasitələridir:

1. yanaşmanı fərdiləşdirmək və təlim prosesini fərqləndirmək;
2. səhv diaqnozu və əks əlaqə ilə tələbəni idarə etmək;
3. təhsil və idrak fəaliyyətinin özünə nəzarəti və özünü korreksiyasını təmin etmək;
4. prosesləri və hadisələri modelləşdirmək və simulyasiya etmək;
5. virtual reallıqda laboratoriya işləri, təcrübələr və təcrübələr aparmaq;
6. oyun vəziyyətlərindən istifadə edərək öyrənmə prosesinə marağı artırmaq və daha çox.

Audio və video tədris materialları maqnit daşıyıcılarına, audio və video kasetlərə yazılır və maqnitofon, video yazıcı və ya lazer kompakt diskləri CD-ROM vasitəsilə tələbəyə təqdim edilə bilər.

Kompüter şəbəkələri müxtəlif növ məlumatları və rabitə kanalları ilə birləşdirilən kompüterlər toplusunu özündə birləşdirən tədris vasitəsidir.

Qlobal İnternet ayrılmaz bir vasitədir.

Pedaqoji fəaliyyət tərbiyə, təhsil və təlim üçün fəaliyyətlər kompleksini əhatə edir. Müəllimlər pedaqoji fəaliyyətlə peşəkarcasına məşğul olurlar və demək olar ki, bütün insanlar bu fəaliyyətlə qeyri-peşəkar şəkildə məşğul olurlar.

Peşəkar müəllim üçün əsas tələb müəllimlik qabiliyyətinin olmasıdır.

Pedaqoji fəaliyyətin spesifik xüsusiyyətləri:

1. təhsil prosesinin **çoxfaktorlu təbiəti** . Tərbiyə prosesi ailədə, məktəbdə, şagirdin digər insanlarla bütün rəsmi və qeyri-rəsmi təmasları, ədəbiyyata, incəsənətə, kütləvi informasiya vasitələrinə müraciəti ilə baş verir;

2. pedaqoji prosesin **müddəti ;**

3. pedaqoji işin məzmununda konsentrizm. Bu o deməkdir ki, təhsil prosesində insan eyni şəxsiyyət xüsusiyyətlərinə dəfələrlə qayıtmalıdır;

4. pedaqoji prosesin **aktiv ikitərəfli xarakteri** . Şagird pedaqoji prosesin təkcə obyekti deyil, həm də subyektidir. Odur ki, müəllimin ən mühüm vəzifəsi şagirdlərdə özünü təhlilə, özünüqiymətləndirməyə, özünütərbiyə etməyə daimi ehtiyac aşılamaqdır;

5. xarici qavrayış üçün bu prosesin nəticələrinin **gözəgörünməzliyi** . Müəllimin əməyini yoxlamaq və qiymətləndirmək kifayət qədər çətindir. Böyük hər şey kimi, uzaqdan görünür;

6. **gələcəyə diqqət yetirin.** Müəllim bu gün yaranan problem və çətinliklərdə, sabah yaranacaq problem və çətinliklərdə görməyi, onları vaxtında aradan qaldırmağı bacarmalıdır.

Texnologiya hər hansı bir işdə, bacarıqda və ya sənətdə istifadə olunan **texnikalar** toplusudur.

Pedaqoji ədəbiyyatda anlayışın bir sıra tərifləri mövcuddur.Ənənəvilərlə yanaşı, kağızsız tədris materiallarından da daha çox istifadə olunur: video disklər, videokasetlər və s.

Bu yeni və qeyri-adi tədris vasitələrinin didaktik qiymətləndirmələri bir-birinə ziddir - təhsildə inqilab haqqında həvəsli bəyanatlardan tutmuş aşağı effektivlik və faydasızlıq haqqında kədərli bəyanatlara qədər. Gözləmək olar ki, faktiki materialın obrazlı, emosional təqdimatı tələb olunan yerdə video dərsliklər faydalı olacaq, lakin onların köməyi ilə məhsuldar təfəkkürün inkişafı, bacarıqların hazırlanması və digər problemlərin həlli çətindir. Buna görə də onları ənənəvi tədris materialları ilə birlikdə götürmək məqsədəuyğundur.

Mücərrəd təfəkkür və məntiq kompüter təlim proqramları tərəfindən yaxşı inkişaf etdirilir. Kompüter vasitəsilə ötürülən biliklər qaçılmaz olaraq natamam olur, kəsilir və rəsmiləşir. Buna görə də kompüter tədris materialları məntiqi quruluşa malik olan biliklərin öyrənilməsində çox təsirli olur. Kompüter həmçinin təlim tapşırıqlarını yerinə yetirmək və biliklərə nəzarət etmək üçün əla imkanlar təqdim edir.

Distant təhsil sisteminin yaradılması metodoloji, texniki, təşkilati və iqtisadi xarakterli vəzifələri əhatə edən mürəkkəb problemdir.

Distant təhsilin istiqamətləri:

- əlavə təhsilin metodoloji və didaktik əsaslarını;
- müəllim-məsləhətçilər (tyutorlar) sistemi və onların tələbə ilə qarşılıqlı əlaqəsi yolları;
- törəmə müəssisələrdə keyfiyyətə nəzarət və sınaq;
- texnologiyalar və informasiya və təhsil mühitləri;
- təhsil məlumatlarının ötürülməsi üsullarını;
- məktəbəqədər təhsil müəssisələrinin standart avadanlıqları.

Distant təhsil müəllim və tələbələr arasında şəxsi əlaqəni istisna edən təhsil formaları hesab olunur. Distant təhsil sistemlərinin təşkili biliklərin çatdırılmasının müxtəlif formaları ilə fərqlənir. Məqsədlərə, əhalinin sayına və öyrənmə şəraitinə uyğun olaraq, müxtəlif metodik üsullardan istifadə olunur.Peşəkar hazırlığın xüsusiyyətləri tələbənin bacarıqlarının tez-tez və yüksək keyfiyyətli monitorinqini tələb edir.

ƏDƏBİYYAT

1. Oqtay Alxasov. Coğrafiyanin tədrisi metodikasi dərslik: Bakı: Elm və təhsil, 2013, 368 s.

SUMMARY

Tamara Huseynova

TEACHING MATERIALS CONCEPT

The article discusses an important concept for teaching aids, schools, colleges and other educational institutions. These resources include any materials, tools, or platforms. that students and students use to learn and develop information. This can take various forms such as classic textbooks, training programs, interactive and online learning platforms, school supplies, laboratory equipment, libraries and even training tools. Teaching aids help teachers provide an effective educational process, enable students to learn information easily, and improve the quality of education. These materials take advantage of modern technologies to make the educational process more interesting and interactive. Most importantly, educational materials provide students with a variety of teaching methods, thus allowing each student to choose the appropriate methods and tools for the learning process. This is possible because teaching aids lead to adaptive learning and provide students with different ways of teaching.

Key words: *Educational tools, concept, adaptive education, technology, learning methods, effective education, interactive education.*

RUQAYƏ ORUCOVA
ruqaye.orucova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-006-0399-273X

SAXAROZANIN TƏDRİSİ METODİKASI

Məqalədə disaxaridlərin nümayəndəsi olan saxarozanın çuğundur və ya şəkər qamışı adlandırılmasını, saxarozanın ən mühüm kimyəvi xassəsi H^+ iştirakında qızdırıldıqda hidrolizə uğramasını, hidroliz zamanı iki monosaxarid molekuluna parçalanan karbohidrat olduğunu, parçalanma zamanı qlükoza və fruktoza əmələ gətirməsini, çoxatomlu spirtlərin xassələrini özündə əks etdirməsini, metallarla və metal hidroksidləri ilə saxaritlər əmələ gətirməsini şagirdlərə öyrətmək metodikası aydınlaşdırılmışdır.

Eyni zamanda qlükozadan fərqli olaraq saxarozanın " gümüş güzgü" reaksiyasını verməməsi , mis 2 – hidroksidin təsiri ilə oksidləşməsinin səbəbləri metodiki cəhətdən izah edilmiş, onun izomerləri və alınması, tətbiqi haqqında məlumatların öyrədilməsi metodikası müəyyənləşdirilmişdir.

Açar sözlər: *Saxaroza, polisaxarid, qlükoza, maltoza, monosaxarid, fruktoza*

Bu bölmə təlimat üzrə lazım olan təcrübələrin yerinə yetirilməsi ilə şagirdlər tərəfindən müstəqil olaraq və ya da burada karbohidratların ilk dəfə rast gələn hidroliz reaksiyalarının və saxarozanın sənayedə alınması prosesini başa düşməyə imkan verən reaksiyaların nümayiş etdirilməsi ilə müəllim tərəfindən materialın şərh edilməsi yolu ilə öyrənilə bilər.

Fiziki xassələri və təbiətdə tapılması. Saxarozanın fiziki xassələri şagirdlərə o dərəcədə məlumdur ki, əlavə olaraq onları yalnız onun qızdırılması nəticəsində gedən dəyişikliklərlə tanış etmək lazım gəlir. Şəkərin qatı sulfat turşusu ilə kömürləşməsi təcrübəsi təkrar edilə bilər.

Kimyəvi xassələri və quruluşu. Kimyəvi xassələrlə tanışlıq, saxarozanın tərkibini $C_{12}H_{22}O_{11}$ bilməklə, onda hansı xassələrin olmasını fərz etmək olar məsələsindən başlayır.

Qlükoza ilə oxşar olaraq, şagirdlər hidroksil və aldehid qruplarının varlığını göstərə bilərlər. Birinci fərziyyə şəkər məhlulunun Felinq mayesi və ya mis II hidroksidlə, qarşılıqlı təsirinə aid nümayişetdirmə və ya laboratoriya təcrübəsi ilə təsdiq edilir. Sonra qəndin sənayedə alınması prosesini nəzərdən keçirilməsinə hazırlıq məqsədilə göstərmək lazımdır ki, saxaroza, çoxatomlu spirt kimi, başqa metal oksidləri hidratları ilə də reaksiyaya girir. Saxarozanın məhlulu tökülərkən bulantının itməsinə əsasən reaksiyanın getməsi haqqında mühakimə yürüdülür. Əmələ gələn saxaraq $C_{12}H_{22}O_{11}$, CaO, $2H_2O$ formulu ilə ifadə oluna bilər.

Aldehid qrupunun varlığı haqqında fərziyyə nə gümüş oksidinin ammonyak məhlulu ilə nə də Felinq mayesi ilə qızdırılmaqla təsdiq olunmur.

Saxaroza məhlulunun indikatorlarla yoxlanması molekulda karboksil qruplarının da varlığını göstərmir.

Bəs saxarozanın quruluşu necədir? Burada sualın cavabını qlükoza üçün nəzərdən keçirilməmiş su ilə gedən reaksiyanın verə bilməsi haqqında müəllimin bir başa göstərişi olmalıdır.

Belə göstəriş əvvəlcə təəccüb doğura bilər: axı indicə reaksiya aparılan zaman saxaroza məhlullarından istifadə olunurdu, deməli onun su ilə reaksiyaya girməməsi fərziyyəsinə əsaslanılırdı. Cavab ondan ibarət olacaqdır ki, adi şəraitdə bu reaksiyanın sürəti çox kiçikdir, lakin o turşuların katalitik təsiri ilə sürətlənə bilər.

Saxarozanın hidrolizinə aid təcrübə nümayiş etdirilir. Turşunu neytrallaşdırdıqdan sonra hidroliz məhsulunu Felinq mayesi ilə qızdırırlar. Bununla da hidroliz məhsullarında qlükozanın varlığı müəyyən edilir. Fruktozanın varlığı təcrübi yolla təsdiq oluna bilməz, bu haqda müəllim müəyyən edilmiş fakt kimi xəbər verir. Buna əsasən hidroliz reaksiyanın tənliyi düzəldilir və onun tərifi verilir.

Arıların orqanizmdə oxşar çevrilmənin getməsini göstərmək maraqlıdır: onlar çiçkələrdən nektarı toplayaraq saxaroza əldə edirlər. Ona görə bal bərabər miqdarda qlükoza və fruktozanın (başqa təbii maddələrin qatışığı ilə birlikdə) qarışığından ibarətdir.

O, adi şəkərdən şirindir, çünki çoxlu fruktoza saxlayır (fruktoza saxarozadan üç dəfə şirindir, qlükozanın şirinliyi qamış şəkərinin şirinliyinin 2/3 – i qədəridir).


Saxaroza molekulunun qlükoza və fruktoza molekulları qalıqlarından əmələ gəlmə quruluşu haqqında fikir ilə gəlmək olar. Saxaroza molekulunu özünə birləşdirərək qlükoza və fruktoza molekullarını əmələ gətirdiyinə görə fərz etmək olar ki, onun özü həmin molekullardan su ayrılması nəticəsində əmələ gəlir. Görünür ki, bu ayrılma hidroksil qruplarının hesabına gedir. Belə qruplar formullarda şərti olaraq ayırmaq olar:

$$C_6H_{11}O_5 - O\boxed{H + HO} - C_6H_{11}O_5 \rightarrow \underset{\text{Qlükoza qalığı}}{C_6H_{11}O_5 - O -} \underset{\text{Fruktoza qalığı}}{C_6H_{11}O_5}$$

Belə olduqda hidroliz prosesi aşağıdakı sxemlə ifadə oluna bilər:

$$C_6H_{11}O_5 - O \begin{matrix} \diagup \\ + \\ \diagdown \end{matrix} \begin{matrix} C_6H_{11}O_5 \\ + \\ H \end{matrix} \begin{matrix} \diagup \\ + \\ \diagdown \end{matrix} \begin{matrix} \\ \\ OH \end{matrix} \rightarrow C_6H_{12}O_6 - C_6H_{12}O_6$$

Qlükoza və fruktoza qalıqlarının perspektiv formullarının tətbiq edilməsi ilə saxarozanın quruluşu aşağıdakı kimi ifadə oluna bilər:



Çuğundurdan şəkərin alınması. Bu məsələ şagirdlər tərəfindən müstəqil olaraq nəzərdən keçirilə bilər, çünki istehsalın kimyəvi əsası artıq onlara məlumdur. Şəkərin həll olan kalsium – saxarata çevrilməsi ilə onlar təcrübədə tanış olmuşlar; kalsiumun çökdürülməsi yolu ilə saxaratdan şəkərin ayrılması prosesinin mahiyyəti aydın olmalıdır. Karbon qazının və karbonat turşusunun duzlarının xassələri onlara məlumdur.

Öyrənmə zamanı şagirdlər aydın etməlidirlər ki, bu prosesin vəzifəsi təbii xammaldan məhsulu ayırmaqdan ibarətdir. Lakin öz xarakterinə görə bu istehsal kimyəvi prosesdir, çünki şəkərin ayrılması kimyəvi üsullarla həyata keçirilir.

Məktəbin yaxınlığında çuğundur şəkəri istehsalının olmasından asılı olaraq, texnoloji proses müxtəlif dərəcədə nəzərdən keçiriləcəkdir. Texnoloji proseslə tanışlıq istehsalın əsas " xəttinin" dəqiq aydınlaşdırılmasının qabağını kəsməlidir. Bu " xətt" aşağıdakı kimi ifadə olunur. Çuğundurun su ilə işlənməsi zamanı şəkərlə birlikdə məhlula keçən qatışıqlardan onu ayırmaq məqsədi ilə alınan şirəyə əhəng südü ilə təsir edirlər. Bu zaman şəkər kalsium –saxarat $C_{12}H_{22}O_{11} \cdot CaO \cdot 2H_2O$ əmələ gətirir və məhlula keçir, qatışıqlar isə həll olmayan birləşmələr (məsələn, üzvi turşuların kalsium duzlarını) əmələ gətirir. Təmiz şəkəri ayırmaq üçün kalsium –saxarat məhluluna karbon qazı ilə təsir edirlər: karbon qazı kalsiumu həll olmayan karbonata $CaCO_3$ keçirir. Süzülmüş məhluldan şəkər alırlar.

İstehsalı ətraflı öyrənərkən onun mərhələrlə bölünməsi, proseslərin fasiləsizliyi və dövriliyi, reaksiya girən maddələrin səthlərinin inkişaf etdirilməsi, sirkulyasiya prinsipi, ən vacib aparatların quruluşu və təsir əsasları kimi məsələlər müzakirə edilə bilər.

Saxarozanın izomerləri. Saxarozanın izomerləri ola bilərmi? Qlükozanın izomerləri mövcud olduğundan, şagirdlər elə buna əsaslanaraq belə nəticəyə gələ bilərlər ki, onlar birləşdikdə müxtəlif tərkibli karbohidratların da $C_{12}H_{22}O_{11}$ əmələ gəlməsi mümkündür.

Saxarozanın izomerlərindən maltoza və süd şəkəri (laktoza) haqqında anlayış vermək məqsədəuyğundur, çünki maltoza nişastanın hidrolizi prosesində əmələ gəlir, süd şəkəri isə südün mühüm qida tərkib hissəsidir.

Bu maddələr hidroliz zamanı aşağıdakı məhsulları əmələ gətirir:

$C_{12}H_{22}O_{11} + H_2O \rightarrow 2C_6H_{12}O_6$
Maltoza Qlükoza

$C_{12}H_{22}O_{11} + H_2O \rightarrow 2C_6H_{12}O_6 + C_6H_{12}O_6$
Laktoza Qlükoza Qlükoza

Saxarozadan fərqli olaraq maltoza və laktoza reduksiyaedici xassələrə malikdir: onlar gümüş – güzgü reaksiyasını verir. Mis II hidroksidi mis I oksidə qədər reduksiya edir. Bu xüsusiyyətlərin səbəbləri nəzərdən keçirilə bilməz, çünki onlar molekulların tərkibinə daxil olan tsiklik zvenoların xarakteri ilə əlaqədardır.

ƏDƏBİYYAT

1. Əliyev R., Əzimov Ə. Kimyanın tədrisi metodikası. Bakı Universiteti nəşriyyatı, 2006, 293 s.
2. Məmmədova A. Kimyanın tədrisində müasir təlim texnologiyaları. Bakı: ADPU – nəşri, 2012, 242 s.
3. Seyidov M, Seyidov A. Polisaxaridlər mövzusunun tədrisi metodikası. NMİ xəbərləri. №1, 2011.
4. Seyidov M, Seyidov A. Monosaxaridlərin tədrisi metodikası. NMİ xəbərləri. №1, 2013.

SUMMARY

Rugaya Orujova

METHODOLOGY OF TEACHING SUCROSE

In the article, sucrose, which is a representative of disaccharides, is called beet or sugar cane, the most important chemical property of sucrose is that it hydrolyzes when heated in the presence of H+, it is a carbohydrate that breaks down into two monosaccharide molecules during hydrolysis, it forms glucose and fructose during decomposition, it contains the properties of polyatomic alcohols, it interacts with metals and metals. The method of teaching students how to form saccharides with hydroxides has been clarified.

At the same time, unlike glucose, the reasons why sucrose does not give a “silver mirror” reaction and is oxidized under the influence of copper 2-hydroxide have been methodically explained, and the method of teaching information about its isomers and its acquisition and application has been determined.

Key words: *Sucrose, polysaccharide, glucose, maltose, monosaccharide, fructose*

SAHİB HACIYEV

NURCAHAN BAĞIRLI

Naxçıvan Dövlət Universiteti

ŞAHBUZ İNZİBATİ RAYONUNDA TORPAQLARIN EKOLOJİ QİYMƏTLƏNDİRİLMƏSİ

Məqalədə Şahbuz inzibati rayonunda torpaqların ekoloji qiymətləndirilməsi haqqında məlumat verilir. Regionda torpaqların ekoloji qiymətləndirilməsi üçün ərazinin fiziki-coğrafi şəraiti (relyef, iqlim, hidroloji və hidrogeoloji, bitki və heyvanlar ailəmi, antropogen təsir və s.), deqradasiya prosesləri (şorlaşma, erroziya, bataqlıqlaşma, daşlılıq, kol-kos basmış sahələr və s.), morfoloji, fiziki və kimyəvi xüsusiyyətləri öyrənilir. Mövzunun əsas hissəsində Babək inzibati rayonunda yayılan torpaq örtüyü strukturunun eko-coğrafi şəraiti, morfoloi, fiziki və kimyəvi xüsusiyyətləri təhlil olunmaqla, mədəni-təbii bitkilər altında onlardan səmərəli istifadə olunması üçün torpaqların qiymətləndirilməsi və aqroistehsalat qruplaşdırılması aparılmışdır. Burada torpaqlar mədəni və təbii bitkilər altında qiymətləndirilərkən, ən yüksək dağ-qara 100, dağ-şabalıdı (qəhvəyi) 97 bal, ən aşağı isə qumsal bataqlı-çəmən 20, daşlı-çınqıllı çay yataqları 11, daşlı çay yataqları isə 9 bal almışdır.

Nəticədə Şahbuz inzibati rayonunda mədəni-təbii bitkilər altında torpaqların qiymətləndirilməsi və aqroistehsalat qruplaşdırılması ərazidə aqromeliorativ tədbirlərə ehtiyacı olan torpaq qruplarını da müəyyənləşdirmişdir. Eyni zamanda bu qruplaşdırma Şahbuz inzibati rayonunda yayılmış bütün torpaq tiplərindən, yarımtiplərindən və növmüxtəliflikərindən səmərəli istifadə etmək üçün bir neçə təklif və tövsiyyələr verilmişdir.

Açar sözlər: *Coğrafi amillər, eko-coğrafiya, torpaq, bonitet, torpağın bonitirovkası, torpağın ekoloji qiymətləndirilməsi*

Aktuallıq. Regionun yararlı torpaq sahələrinin az olmasına baxmayaraq, muxtar respublikanın inzibati rayonların torpaqlarına nisbətən məhsuldar olmasının səbəbi burada çay şəbəkəsinin normal olmasıdır. Diğər tərəfdən ərazi muxtar respublikanın digər rayonlarına nisbətən dağlıq olduğuna görə torpaqların deqradasiyasına, xüsusilə eroziya proseslərinə məruz qalmasına səbəb olur. Şahbuz inzibati rayonu muxtar respublikanın torpaq fondunun 15,2 faizini təşkil etməsinə baxmayaraq, ərazinin dağlıq olması ilə əlaqədar, burada ümumi torpaq fondunun cəmi 2,5%-dən əkin altında istifadə olunur. Məhz bu baxımdan Şahbuz inzibati rayonunda əkin altında istifadə olunan yararlı torpaqların az olması ilə əlaqədar olaraq ərazidə müasir üsullarla torpaq-bitki tədqiqatların aparılması aktuallıq təşkil edir.

Şahbuz inzibat rayonun ümumi torpaq fondu 81497 ha təşkil edir. Torpaq fondunun 21999 ha dövlət, 54633 ha bələdiyyə və 4865 ha xüsusi mülkiyyətə aiddir. Ümumi torpaq fondunun 29023 ha kənd təsərrüfatına yararlı torpaqlardır. Bu torpaqların 2042 ha əkin altında və 24335 ha isə örüş-otlaq kimi istifadə olunur. Suvarılan torpaqlar ümumi torpaq fondunun 2,5%-ni təşkil edir (Torpaq Komitəsi, statistik məlumat 2023).

Ərazidə torpaqların ətraflı, elmi surətdə öyrənilməsi muxtar respublikanın digər inzibati rayonları kimi, Şahbuz inzibati rayonunda da S.A. Zaxarovun (1925-28), R.H. Məmmədov (1950-1957), K.A. Ələkbərov, N.A. Əsədov və X.M. Mustafayev (1959-65), H.Ə. Əliyev və Ə.K. Zeynalov (1965-1970), H.C. Mehdiyev (1980-1988), Ə.G. Quliyev (1975-2005), S.Ə. Hacıyev (1985-2019)-ci illərdə torpaqların müxtəlif sahələri üzrə tədqiqatlar aparmış və aparılmış tədqiqatların nəticələrinə əsaslanaraq bir neçə monoqrafiya yazıb çapdan çıxarmışlar (Sahib Hacıyev s. 74-78, 2009).

Bu məqsədlə tarixin müxtəlif inkişaf pillələri üzrə Naxçıvan MR-in bütün ərazilərində olduğu kimi Şahbuz inzibati rayonunda da aparılan torpaq tədqiqat işləri nəzərdən keçirilmiş və Şahbuz inzibati rayonunda torpaqlardan səmərəli istifadə etmək üçün ərazidə 1920-ci ildən hazırkı dövrə kimi

müxtəlif tədqiqatçılar tərəfindən aparılan elmi-tədqiqat işləri təhlil olunmuş, mövzunun yerinə yetirilməsində lazımi nəzəri və praktik nəticələrdən istifadə edilmişdir.

Tədqiqat obyektində aparılan və apardığımız tədqiqatların məqsədi, ərazidə yayılan torpaq örtüyü strukturunun eko-coğrafi şəraitini, morfoloi, fiziki və kimyəvi xüsusiyyətlərini öyrənməklə, təhlil etmək və mədəni-təbii bitkilər altında onlardan səmərəli istifadə olunması üçün qiymətləndirmək, aqroistehsalat qruplaşdırılmasını aparmaqdan ibarətdir.

Materialı və metodika. Mövzuya aid ədəbiyyat, çöl materialları toplanılmış və işin metodikası hazırlanmışdır. Mövzu işlənərkən tarixin ayrı-ayrı inkişaf mərhələlərində xarici ölkələrdə, o cümlədən Azərbaycan və Naxçıvan MR-də torpaq-bitki tədqiqatları aparan alimlərin monoqrafiya, metodik vəsait, xəritə materialları və müasir tələblərə cavab verən iş təcrübələrindən istifadə olunmuşdur (Qərib Məmmədov s.15-37, 2002; Sahib Hacıyev s. 4-14, 2000; Sahib Hacıyev s. 94-164, 2010). Tədqiqat obyekti kimi Şahbuz inzibati rayonunda yayılan torpaq sahələri seçilmişdir.

Mövzunun yerinə yerinə yetirilməsində ədəbiyyat materialları ilə bərabər, əsas məsələlərdən biri də çöl materiallarının toplanmasıdır. Bu məqsədlə Şahbuz inzibati rayonunda torpaqların öyrənilməsi üçün əraziyə aşağıda göstərilən istiqamətlər üzrə ekspedisiyalar təşkil olunaraq müəyyən olunmuş sahələrdən torpaq bitki nümunələri götürülmüşdür.

Təhlil və müzakirə. Tədqiqat obyektində müəyyən olunmuş ərazilərdə torpaqların qiymətləndirilməsi üçün əvvəldə qeyd olunan metodikalardan istifadə edərək mədəni və təbii bitkilərin məhsuldarlığı öyrənilmişdir (Cədvəl 1).

Cədvəl 1

Şahbuz inzibati rayonlarında müəyyən olunmuş sahələrində 2023-cü ilin məlumatlarına dair mədəni və təbii bitkilərin məhsuldarlığı (s/ha)

№	*Torpaqların adı*	*Taxıl*	*Yonca*	*Təbii otlar*
1.	Dağ-qara	55-60	125-130	25-30
1.	Dağ-şabalıdı (qəhvəyi)	49-52	122-127	21-24
1.	Şabalıdı (qəhvəyi)	44-49	120-125	16-18
2.	Subasar allüvial	36-39	110-115	15-17
3.	Açıq-şabalıdı (qəhvəyi)	34-37	90-100	13-16
4.	Tünd boz	33-36	80-90	11-15
5.	Boz-çəmən	23-25	70-80	9-11
6.	Bozqırlaşmış dağ-çəmən	20-23	60-70	7-9
7.	Dağ- çəmən çimli	-	-	23-26
8.	Dağ-çəmən	-	-	17-21

Ərazidə torpaqların mədəni və təbii bitkilər altında məhsuldarlığının qiymətləndirilməsi ilə bərabər, onların fiziki-coğrafi şəraitinə (relyef, geoloji və geomorfoloji quruluşu, iqlim şəraiti, hidroloji və hidrogeoloji şəraiti, bitki və heyvanlar ailəmi və s.) də diqqət yetirilmişdir (Səfərəli Babayev s. 9-95, 1999).

Eyni zamanda tədqiqat işində apardığımız torpaq-bitki tədqiqatları əsasında müxtəlif mənbələrdən toplanmış materialların araşdırılması (morfoloji, fiziki, kimyəvi xüsusiyyətləri, məhsuldarlığı və ekoloji şəraiti) nəticəsində ərazidə 37 növmüxtəlifliklərı aşkar olmuşdur. Göstərilən 37 növmüxtəlifliyi 16 tip və yarımtiplər üzrə birləşdirilərək, torpaqlar qiymətləndirilmiş və aqroistehsalat qruplaşdırılması aparılmışdır (Cədvəl 2).

Cədvəl 2

Şahbuz inzibati rayonlarında torpaqların tam bonitet balı (100 ballı şkalaya görə)

№	*Torpaqların adı*	*Bonitet balı*	*Bal sinifi*	*Keyfiyyət qrupu*
1.	Dağ-qara	100	X	I Yüksək
2.	Dağ-şabalıdı (qəhvəyi)	97	X	
3.	Şabalıdı (qəhvəyi)	93	X	
4.	Dağ-çəmən çimli	85	IX	
5.	Dağ-çəmən	79	VIII	II yaxşı
6.	Tünd boz	74	VIII	
7.	Boz	72	VIII	
8.	Açıq-boz	68	VII	
9.	Boz-çəmən	61	VII	
10.	Zəif şoranlaşmış, boz	53	VI	III Orta
11.	Bozqır dağ-çəmən	51	VI	
12	Qumsal, bataqlı çəmən-kol	42	V	
13.	Qumsal, bataqlı-çəmən	30	IV	IV Aşağı
14.	Bataqlı-çəmən	20	III	
15.	Daşlı-çınqıllı çay yataqları	11	II	V Şərti yararsız
16.	Daşlı çay yataqları	9	I	

Cədvəl 2-nin təhlilindən aydın olur ki, Şahbuz inzibati rayonunda torpaqları mədəni və təbii bitkilər altında qiymətləndirilərkən, ən yüksək dağ-qara 100, dağ-şabalıdı (qəhvəyi) 97, şabalıdı (qəhvəyi) 93 bal, ən aşağı isə bataqlı-çəmən 20, daşlı-çınqıllı çay yataqları 11, daşlı-çay yataqları 9 bal almışdır.

Nəticə

1. Şahbuz inzibati rayonlarında torpaqların fiziki-coğrafi şəraiti, morfoloji, fiziki, kimyəvi xüsusiyyətləri və üzərində bitən mədəni-təbii bitkilərin məhsuldarlığının qiymətləndirməsi əsasında aqroistehsalat qruplaşdırılması aparılmışdır.

2. Tədqiqat obyekti üzrə tərtib olunmuş cədvəllərdə mədəni-təbii bitkilər altında torpaqların qiymətləndirilməsi və aqroistehsalat qruplaşdırılması aqromeliorativ tədbirlərə ehtiyacı olan torpaq qruplarını da üzə çıxarmağa imkan verir. Bütövlükdə bu qruplaşdırma Şahbuz inzibati rayonunda yayılmış bütün torpaq tipləri, yarımtipləri və növmüxtəlifliklərini birləşdirir.

3. Şahbuz inzibati rayonununda ən yaxşı münbit torpağı olan Türkeş çökəkliyinin torpaqlarından səmərəli istifadə etmək məqsədilə ərazisiyə əhali köçürməklə, su ehtiyatını yaratmaq üçün tədbirlər həyata keçirmək lazımdır.

4. Şahbuz inzibati rayonunda Naxçıvançay və onun qollarında eroziya uğramış sahillərində imkan daxilində ağac və kolların əkilməsi və kəhdlərin sahillərində gəzinti parklarının salınması məsləhət görülür.

4. Fermer və fərdi təsərrüfat sahibləri torpaqlardan istifadə edərkən torpaq kartoqramlarına əsaslanmalı və mütəxəssislərdən daimi məsləhətlər almalıdır.

Göstərilən tədbirlər Şahbuz inzibati rayonlarında qeyd etdiyimiz ərazilərdə elmi əsaslarla planlı surətdə həyata keçirilərsə ərazidə torpaqlardan mədəni və təbii bitkilər altında səmərəli istifadə etmək olar.

ƏDƏBİYYAT

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 226 s.
2. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikasında torpaqların aqroekologiyası. Metodik vəsait. Bakı: Elm, 2000, 40 s.
3. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının eko-coğrafi şəraiti. Bakı: MBM, 2009, 108 s.
4. Hacıyev S.Ə. Naxçıvan Muxtar Respublikası torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı: MBM, 2010, 296 s.
5. Məmmədov Q.Ş. Azərbaycanda torpaq islahatı. (rus dilində), Bakı: Elm, 2002, 411s.
6. Torpaq Komitəsi, statistik məlumat 2023

SUMMARY

Sahıb Hacıyev, Nurcahan Bagirli

EKOLOGICAL VALUING OF SOILS IN SHAKHBUZ ADMINSTRATIVE REGION

The article informs about the ecological valuing of soils in Shakhbuz administrative Region. For ecological valuing of soils of physical-geographical condition of this area (relief, climate, hydrological and hydrogeological, plant and animals world, anthropogenic influence and etc) degradation process (saline, erosion, swamp, stony place, densely overgrown fields and etc) morphological, physical and chemical characteristics are learned in the region. In the main contend of the work the eco-geographical condition, morphological, physical and chemical properties of the structure of spreading soil layer has been analyzed in Shakhbuz administrative region, also in order to use efficiently under the cultural-natural plants, valuing the soils and grouping the classification aviability has been carried. Here at the same time the soils which valuing under cultural and natural plants, the highest mountain is mountain black 100, mountain is brown 97 point, but the lowest sandy, swamp-meadow 30, stony-gravelly river fields 11 but stony river fields have got 9 points.

As a result the valuing and grouping classification aviability soils under cultural-natural plants in Shakhbuz administrative region also in the area it has been defined the soils groups which need agromeliorative measure. At the same time this grouping in order to use efficiently spreading all kind of soils in Shakhbuz administrative region some recommcutation and offers have been given.

Key words: *geographic factors, soil, eco-geography, bonitet, soils valuation, ecological value soils*

MƏSUMƏ İBRAHİMOVA
masumaibrahimova585@gmail.co
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0009-3731-4533

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ŞAHBUZ RAYONU ƏRAZİSİNDƏ YAYILAN LƏRGƏ (VİCİA) CİNSİNƏ AİD NÖVLƏRİN İSTİFDƏ İSTİQAMƏTLƏRİ

Məqalədə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan lərgə (vicia) cinsinin bir neçə növünün istifadə sahəsi haqqında məlumat verilir. Aparılan tədqiqatlardan belə məlum olmuşdur ki, Paxlalıkimilər (Fabaceae) fəsiləsinin lərgə (vicia) cinsi Naxçıvan Muxtar Respublikasında 25 növlə təmsil olunur. Cinsin Şahbuz rayonu ərazisində yayılan növləri haqqında məlumat verilmiş və onların istifadə istiqamətləri göstərilmişdir.

Açar sözlər: *Paxlalıkimilər, vicia, lərgə, qida əhəmiyyəti, yem əhəmiyyəti*

Giriş

Naxçıvan Muxtar Respublikasında paxlalı bitkilər geniş yayılmışdır. Özündə 17 mindən çox növü birləşdirən Paxlalıkimilər fəsiləsi iqtisadi cəhətdən təkcə taxıllardan geri qalır. Bu fəsiləyə daxil olan bitkilər bütün dünyada qida və yem kimi istifadə olunan bitkilərdəndir. Onların tərkibi yağ, karbohidrat və zülal cəhətdən zəngindir. Bu bitkilər bəşəriyyət tərəfindən qədim zamanlardan becərilən bitkilərdir. Onların tərkibində heyvan və insan orqanizmi üçün lazım olan bütün aminturşular mövcuddur. Lərgə cinsinə daxil olan növlərin əksəriyyəti qida və yem kimi əhəmiyyətə malikdir. Qida və yem kimi əhəmiyyətə malik olmasına baxmayaraq, cinsin elə növləri də var ki, onlar əkin sahələrinin alaq otlarıdır. Həmçinin lərgəni texniki məqsədlər üçün də istifadə edirlər. Yem məqsədi ilə bu bitkinin küləşindən, dənindən və yaşıl kütləsindən istifadə olunur.

Material və metodlar

Tədqiqatlar 2022-ci ildən başlamışdır. Tədqiqatın obyekti Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisi, material kimi isə Vicia cinsinə daxil olan növlər götürülmüşdür.

Tədqiqatın nəticələri

Naxşıvan Muxtar Respublikası florasında geniş yayılan fəsilələrdən biri də Paxlalıkimilər (Fabaceae) fəsiləsidir. Paxlalıkimilər fəsiləsinə daxil olan əksər növlər qida kimi istifadə olunur. Belə ki, bu fəsiləyə daxil olan növlərin əksəriyəti insanlar tərəfindən istifadə edilir. Gündəlik paxlalı bitkilərdən istifadə etmək günümüzdə geniş yayılmış xərçəng xəstəliyinə yoluxma riskini azaldır. Həmçinin lif tərkibinə görə toxluq hissi yaradır və artıq çəkidən qurtulmağa kömək edir. Bu bitkilərin mənfi xüsusiyyətləri isə nisbətən gec bişməsidir. Bişmə müddətini azaltmaq üçün toxumların üzərindəki qabıq qatını soymaq lazımdır. Bu proses bişmə müddətini yarı-yarıya azaldır. Fəsiləyə daxil olan nümayəndələrdən dekorativ, dərman və boya vasitələri kimi istifadə olunan nümayəndələr mövcuddur. Fəsilənin qida kimi istifadə olunan nümayəndələrindən biri də lərgə cinsidir.Lərgə bitkisinin cücərməsi üçün 2-30° C temperatur lazımdır. Toxumlar səpildikdən sonra 6-7 gün ərzində cücərir, 18-22 gün keçdikdən sonra isə artıq bitki çiçəkləməyə başlayır. Lərgə bitkisinin vegetasiya müddəti 60-120 gün arasında dəyişir. Cücərtilər 6-80° C soyuğa davam gətirə bilir. Lərgənin toxumları yaz və payız aylarında sahəyə səpilir. Payız aylarında əkilən lərgə daha çox məhsul verir. Quraqlığa və xəstəliyə qarşı davamlıdır, tez yetişir və məhsuldarlığı yüksək olur. Yazlıq bitkilər üçün sələf bitki kimi əhəmiyyətlidir. Lərgənin gövdəsinin yatmaması üçün qarğıdalı, vələmir və sudanotu ilə qarışıq əkmək olar.

Heyvanlar üçün yem ehiyyatının yaradılmasında lərgə önəmli yerə sahibdir. Lərgədən silos, ot, dən və yüksək keyfiyyətli yaşıl yem istehsal olunur. Bu bitkinin dənində 23% protein həmçinin həzm olunan zülallar , 24-45% sulu karbonlar , 0.5-0.7% yağ , 4-4.6% sellüloza vardır. Lərgənin tərkibindəki zülal həzm olunmasına görə digər paxlalı bitki növlərini geridə qoyur. Həmçinin bitkinin

köklərindəki azot toplayan bakteriyalar havadaki sərbəst azotu torpağa keçirir və digər bitkilərin mənimsəyə biləcəyi hala salır, torpağı azotla zənginləşdirir. Bu səbəbdən növbəli əkində bu bitkidən geniş istifadə olunur. Tərkibində olan A vitamini heyvanlar üçün çox əhəmiyyətlidir.Ev quşlarının yemlənməsində lərgədən geniş şəkildə istifadə olunur, üyüdülmüş halda digər yemlərə qarışdırılaraq mal-qaraya verilir və onlar tərəfindən həvəslə yeyilir.

Lərgə cinsinə daxil olan növlərin gözəl və cəlbedici çiçəkləri olduğu üçün arılar tez-tez bu bitkilərə qonur və nektar toplayır. Bu səbdən də lərgə cinsinin növləri arıçılıqda da əhəmiyyətli rola sahibdir.

Lərgənin Şahbuz rayonu ərazisində *Vicianissoliana*, *Viciavaria* Host, *Viciagrandiflora* Scop, *Viciabalansae* Boiss, *Vicianarbonensis* L., *Viciaperagrina* L. və s. nümayəndələri yayılmışdır. Növlərin istifadə istiqamətləri aşağıda göstərilmişdir:

Vicia nissoliana L. Gövdəsi dik qalxan, çoxillik bitki növüdür. Yarpaq sapı bığcıqla sonlanır. Yetişməmiş paxlanın üzəri tükcüklərə örtülüdür. Yay otlaqlarında, biçənəklərdə yayılan qiymətli yem bitkisidir. Kolluqlarda, meşələrin ətrafında yayılmışdır. Bu növün yerüstü hissəsindən müxtəlif yeməklərin hazırlanmasında istifadə edirlər. Növün çiçəkləri istiliksalıcı təsirə malikdir. Belə ki, xalq təbabətində çiçəklər dəmlənərək istifadə olunur.

Vicia grandiflora Scop. Birillik tükcüklü gövdəyə malik bitkidir. Növün tərkibində acı dad verən birləşmələr olmadığı üçün insanlar tərəfindən geniş şəkildə qida kimi istifadə olunur. Onun yarpaqları müxtəlif yeməklərin- kətə, qutab və s. hazırlanmasında istifadə olunur. Gözəl cəlbedici çiçəkləri var. Həmin çiçəklər arılar üçün nektar mənbəyidir. Buna görə də arıçılıqla əhəmiyyəti bir bitki hesab olunur.

Vicia balansae Boiss. Qalın gövdəyə malik, çoxillik bitkidir. Paxla qəhvəyi və qara rəngli, toxumları azca yastı formadadır. Meşə kənarlarında, kolluqlarda geniş fitosenozlar əmələ gətirir. Dekorativ bitki növü kimi çəpərləri gözəlləşdirmək üçün, həmçinin qida və yem bitkisi kimi əkilib becərilir. Qida kimi onun toxumları isladılaraq müxtəlif yeməklərə əlavə edilir.

Vicia narbonensis L. Möhkəm qaba gövdəli nümayəndədir. Elə bu səbəbdən də xırdabuynuzlu və iribuynuzlu heyvanlar tərəfindən nisbətən az yeyilir. Bu növ silos hazırlanmasında daha əlverişlidir. Həmçinin quru formada otundan və dənindən də istifadə olunur. Dənində nişasta və protein daha çoxdur. İnsanlar tərəfindən dəni geniş şəkildə qida kimi istifadə edilir. İstifadədən əvvəl toxumları isti suda saxlamaq və qaynatmaq lazımdır ki, tərkibindəki acı birləşmələr öz təsirini itirsin. Toxumar müxtəlif şorbalara qatqı kimi əlavə edilir.

Vicia peragrina L. Zəif gövdəyə malik birillik bitkidir. Gövdəsi tükcüklərlə örtülüdür. Paxla azca əyilmiş formadadır. Yarpaq sapı budaqlanan bığcıqla bitir. Proteinlə zəngindir. Bu səbəndən qida kimi isifadə olunması mühim əhəmiyyət kəsb edir. İnsanlar qida kimi onun toxumlarından və yaşıl hissələrindən istifadə olunur.

Ümumiyyətlə, lərgə cininin bütün növlərindən yaşıl gübrə kimi istifadə etmək olar. Bu növlər bitdikləri ərazilərdə bəzi hallarda geniş fitosenozlar əmələ gətirir. Əkin sahələrində bəzən daha geniş ərazilərə yayılaraq əhəmiyyətli növləri sıxışdırır.

Nəticə

Aparılan tədqiqatlar zamanı Naxçıvan Müxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan lərgə cinsinin müxtəlif növləri tədqiq edilmişdir. Tədqiq olunan növlər gələcəkdə heyvandarlığın inkişafında yem ehtiyatının yaradılmasında və torpağın münbitləşdirilməsində, torpağa kimyəvi gübrələrin istifadəsinin azaldılmasında istifadə olunması məqsədəuyğun hesab edilir.

ƏDƏBİYYAT

1. Hümbətov H. S., Hüseynov A. R. Yem otları, Bakı: “Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsi 2013, 184 s. şəkilli
2. Hilal Qasımov, Səyyarə İbadullayeva, Mürsəl Seyidov, Gülnarə Şirəliyeva- Naxçıvan Muxtar Respublikası florasının yabanı tərəvəz bitkiləri. Naxçıvan-2018

3. https://az.wikipedia.org/wiki/L%C9%99rg%C9%99

SUMMARY

Masuma Ibrahimova

USAGE DIRECTIONS OF SPECIES BELONGING TO THE GENUS LARGE (VICIA) SPREADING IN THE TERRITORY OF SHAHBUZ DISTRICT OF NAKHCHİVAN AUTONOMOUS REPUBLİC

The article provides information about the area of use of several species of vicia, which are distributed in Shahbuz region of Nakhchivan Autonomous Republic. It was found out from the conducted researches that the genus Vicia of the Fabaceae family is represented by 25 species in the Nakhchivan Autonomous Republic, and information about their species distributed in the territory of Shahbuz region is given and their directions of use are indicated.

Key words: *Legumes, vicia, larch, nutritional importance, fodder importance*

İZZƏT NAMAZOVA
ismixanli71@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0000-5438-9734

2 dəfə verilib.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ŞAHBUZ RAYONU ƏRAZİSİNDƏ YAYILAN QIRXBUĞUMKİMİLƏR FƏSİLƏSİNƏ AİD NÖVLƏRİN İSTİFDƏ İSTİQAMƏTLƏRİ

Məqalədə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan qırxbuğumkimilər fəsiləsinin bir neçə növünün istifadə sahəsi haqqında məlumat verilir Aparılan tədqiqatlar zamanı Naxçıvan Muxtar Respublikası ərazisində yayılan Qırxbuğumkimilər fəsiləsinin 10 cinsinə aid 39 növlə təmsil olunur (1, 2) və onların Şahbuz rayonu ərazisində yayılan növlərinin qida, dərman, dekorativ və boya əhəmiyyəti barədə məlumat verilir.

Açar sözlər: *Qırxbuğumkimilər, polygonaceae, boya, qida əhəmiyyəti, dərman əhəmiyyəti*

Giriş

Qırxbuğumkimilər fəsiləsi bitkiləri özünün növ sayının miqdarı və əhəmiyyətinə görə digər fəsilə bitkilərindən seçilirlər. Fəsiləyə daxil olan və xalq təbabətində qədim zamanlardan istifadə edilən qırxbuğum, əvəlik və rəvənd cinslərinə daxil olan bitki növləri tətbiq sahələrinə görə də məşhurdurlar. Fəsilə bitkilərinin demək olar ki, əksəriyyəti vitaminli, aşı maddəli faydalı bitkilərdir.

Material və metodika

Tədqiqatlar 2022-ci ildən başlamışdır. Tədqiqatın obyekti Naxçıvan MR-in Şahbuz rayonu ərazisi, material kimi isə *Polygonaceae Juss.* – Qırxbuğumkimilər fəsiləsinə daxil olan növlər götürülmüşdür.

Tədqiqatın nəticələri

Şahbuz rayonunun florasında geniş yayılan fəsilələrdən biri də Qırxbuğumkimilər (*Polygonaceae Juss.*) fəsiləsidir. Qırxbuğumkimilər fəsiləsinə daxil olan növlər xalq təbabətində, kulinariyada, elmi, praktiki, eksperimental, eləcə də farmokologiyada, boyaqçılıqda və homeopatiyada geniş istifadə edilir. Bitkilərin müxtəlif hissələri, yarpaqları, gövdəsi, toxumları və köklərindən istifadə edilir.

Qırxbuğumkimilər fəsiləsinin Şahbuz rayonu ərazisində *Calligonum L.* – Cuzğun, *P.amphibia* (L.) S.F. Gray (Polygonum amphibia L.) – Su qırmızıbaşı, *B.carnea* (C.Koch) Kom. (Polygonum carneum C.Koch) – Ətrəng bistort, *P.lapathifolia* (L.) S.F. Gray (Polygonum nodosum Pers.) - Buğumlu qırmızıbaş, *A.alpinum* (All.) Schur (Polygonum alpinum All.) – Alp alkoqonu, *P.aviculare* L. (P.heterophyllum Lindm.) – Quş qırxbuğumu, *R.ribes* L.Kuntze – Qarağat rəvəndi, *R.turkestanicum* Janisch.(R.rupestre Litw.) – Türkmənistan rəvəndi, *R.acetosa* L. – Adi əvəlik, *R.acetosella* L. – Turşəng əvəlik, *R.alpestris* Jacq. (R.arifolius All.) – Dağ əvəliyi, *R.crispus* L. – Qumral əvəlik, *R. patientia* L. – Şomu əvəlik, *R.pulcher* L. – Gözəl əvəlik, *R. obtusifolius* L. subsp. subalpinus (Schur) Celak. – Kütyarpaq əvəlik kimi nümayəndələri yayılmışdır. Növlərin istifadə istiqamətləri aşağıda göstərilmişdir.

Calligonum L. – Cuzğun – Qönçələri və toxumları yeyilir. Toxumları adətən çiy yeyilir. Qum təpələrini sabitləşdirmək üçün istifadə olunur, torpağın münbitliyini artırır. Qaynadıldıqdan sanra bitkinin həlimi qarqara kimi diş ətlərinin müalicəsində istifadə olunur. Kökləri və qalın budaqları yanacaq kimi istifadə olunur. Bitki həlimi heyvanlarda sidik problemlərini müalicə etmek üçün istifadə olunur. Çiçək qönçələri bədənə soyuducu effekt verir və günəş vurmasını müalicə edir. Çiçəklər həzm sistemini gücləndirən çoxlu miqdarda zülallarla zəngindir və spesfik xüsusiyyəti

astma, öskürək və soyuqdəyməyə qarşı faydalıdır. Tibdə eqzamanın müalicəsində istifadə olunur. Cuzğun flavonoidlərlə (çiçəklər, qönçələr, toxumlar və gövdələr), alkoloidlərlə (kök, çiçəklər, qönçələr və toxumlar), zülalarla (çiçəklər və toxumlar), tanin, steroidlər, fenollar, karbohidratlar və terpenoidlərlə (kök, gövdə, qönçələr, çiçəklər və toxumlar) zəngindir. Köklərdə efir yağları 68,42 % - 82,12 % aralığındadır. *C.polygonoides* L. – Qırxbuğum cuzğun – müalicəvi xüsusiyyətləti ilə tanınır. Qırxbuğum cuzğunun çiçəklərinin dəmləməsi öskürək və astmaya faydalıdır. Səhralarda dəvə yemi və qum sürüşmələrinin qarşısını alır.

P.amphibia (L.) S.F. Gray (Polygonum amphibia L.) – Su qırmızıbaşı –su kənarlarında dayaq əmələ gətirir. Bitkinin müxtəlif hissələri dərman vasitəsi kimi istifadə edilir.

B.carnea (C.Koch) Kom. (Polygonum carneum C.Koch) – Ətrəng bistort – tərkibində aşı maddələri, katexinlər, fenol və onun törəmələri, ellaq turşuları, para-kumarin və digər maddələr vardır. Proteinlə zəngindir. Dərman əhəmiyyətli bitkidir. Büzücü və orqanizmi möhkəmləndirən dərman bitkisidir. Kökümsovundan ishal, bağırsağın xroniki xəstəlikləri, burun-qulaq-boğaz xəstəliklərinin müalicəsində istifadə edilir. Büzücü, qankəsici və iltihabsorucu xassəyə malikdir. Stomatologiyada gingivit, stomatit, xroniki tonzillit və digər ağız boşluğu xəstəliklərinin müalicəsində istifadə olunur. Ətrəng bistort həm də yem bitkisi kimi istifadə edilir. Bitki silos kimi də tədarük edilir.

P.lapathifolia (L.) S.F. Gray (Polygonum nodosum Pers.) - Buğumlu qırmızıbaş – alaq otudur. Bitki xərçəng xəstəliyinin müalicəsində istifadə olunur.

A.alpinum (All.) Schur (Polygonum alpinum All.) – Alp alkoqonu – həm qida, həm də yem əhəmiyyəti vardır. Cavan zoğları soyularaq yeyilir və turş dada malikdir. Zoğları salatlara, kətəyə, qutaba və ət yeməklərinə əlavə edilir. Mədə-bağırsaq və sinir sistemi xəstəliklərinin müalicəsində, büzüşdürücü və tonuslandırıcı kimi kök və kökümsovların dəmləmə və cövhərlərindən istifadə edilir. Gövdə, yarpaq və digər yerüstü hissələrindən alınan ekstrakt ishal, vərəm, öskürək və sinqa əlehinə işlədilir.

P.aviculare L. (P.heterophyllum Lindm.) – Quş qırxbuğumu – həm qida həm də quşların qidasını təşkil edir. Onun kökündən və gövdəsindən mavi, sarı və yaşıl rənglər alınır. Çeynənməyə davamlı olduğu üçün idman sahələrində istifadə edilir. Dəmləməsi və maye ekstraktı uşaqlıq qanaxmalarında, babasil qanaxmalarında, usaqlığın iltihabında və s. xəstəliklərin müalicəsində istifadə edilir. Bitkinin tərkibində avikularin flavonoidi, karotin, silisium birləşmələri, askorbin turşusu, aşı maddələri və s. vardır.

R.ribes L.Kuntze – Qarağat rəvəndi – aşı, boyaq və dərman əhəmiyyətinə malik bitkidir. İnsanlar tərəfindən həm tibbi məqsədlər üçün, həm də qida kimi istifadə edilir. Bitkinin tərkibi C vitamini, dəmir, sink, kalsium, kalium, maqnezium, natrium, fosfor və xam liflə zəngindir. Qarağat rəvəndi ənənəvi təbabətdədə çox istifadə edilir. İshal, qusma, həzmsizlik, hemoroid, sidik iltihabı, qızılca və çiçək xəstəliyini bitkinin üst hissələrindən, diabet, böyrək daşları, hipertoniya, piylənmə, xora, bağırsaq parazitləri, anemiya, anoreksiya, depresiyya və narahatlıq zamanı bitkinin köklərindən istifadə edilir. Qarağat rəvəndinin cavan zoğlarından müxtəlif yeməklərin hazırlanmasında istifadə olunur. Bitkinin kökümsovundan boyaq maddəsi alınır. Bu məhlulddan gön-dəri sənayesində aşılayıcı maddə kimi istifadə edilir.

R.acetosa L. – Adi əvəlik – qida, boyaq, dərman və qida əhəmiyyəti vardır. Bitkinin tərkibində antraxionlar, yarpaqlarında aloe-emodin, yerüstü hissəsində orientin, avikularin, izoorientin, C vitamini, B_1, B_2, K, E və PP vitaminləri, flavonoidlər, karotin və s. maddələr vardır. Adi əvəliyin yarpaqlarından tərəvəz kimi istifadə edilir. Qurudulmuş əvəlik yarpaqları qışda müxtəlif yeməklərdə istifadə edilir. Əvəliyin yerüstü hissələrindən infeksion xəstəliklərdə, yaraların sağaldılmasında və qeyri-spesfik poliartritdə istifadə edilir. Yarpaqlarının dəmləməsi qanaxmalarda, şişlərin müalicəsində, sarğı kimi dəri xəstəliklərində, sidik tutulmalarında istifadə olunur. Meyvələrindən alınan ekstrakt büzüşdürücü, qankəsici kimi işlədilir.

Nəticə

Aparılan tədqiqatlar zamanı Naxçıvan Müxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan Qırxbuğumkimilər fəsiləsinin müxtəlif növlərinin əhəmiyyəti tədqiq edilmişdir və istifadə istiqamətləri öyrənilmişdir.

ƏDƏBİYYAT

1. Elşad Qurbanov Dərman bitkiləri. "Bakı Universiteti" nəşriyyatı. Bakı: 2009, 356 s.
2. Hilal Qasımov, Səyyarə İbadullayeva, Mürsəl Seyidov, Gülnarə Şirəliyeva. Naxçıvan Muxtar Respublikası florasının yabanı tərəvəz bitkiləri. Naxçıvan: 2018
3. https://az.wikipedia.org/wiki/L%C9%99rg%C9%99
4. M.Ə.Qasımov, T.A.Qasımova, G.S.Qədirova XXI əsrin dərman bitkiləri. AMEA 2006-cı il.

SUMMARY

Izzat Namazova

USAGE DIRECTIONS OF THE SPECIES BELONGING TO THE POLYGONACEAE A CHAPTER WHİCH ARE DISTRIBUTED IN THE TERRITORY OF SHABUZ DISTRICT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLİC

The article provides information about the area of use of several species of the family of sedges distributed in the Shahbuz region of the Nakhchivan Autonomous Republic. During the conducted research, 39 species of the sedge family distributed in the territory of the Nakhchivan Autonomous Republic are represented by 39 species belonging to 10 genera (1,2) and their species distributed in the territory of the Shahbuz district are used for food, medicine, decorative and paint significance in given.

***Key words**: Polygonaceae, dye, nutritional vaule, medicinal vaule*

AYTAC HÜMBƏTOVA
aytachumbatova9@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0003-3625-8361

YERLİ CİNS İNƏKLƏRDƏ ÇƏTİN DOĞUŞLARIN MÜALİCƏ VƏ PROFİLAKTİKASI

Fizioloji bir hadisə olan doğuş, cinsiyyət orqanlarının və çanaq kanalının doğuşa hazırlanması, prosesini əhatə edir. Hər boğazlıq və doğuş müəyyən risk ehtiva edir. Bəzən çətin doğuş dediyimiz müdaxilə tələb edən doğuş hadisələri baş verə bilər. Doğuşa yardımın məqsədi, ana və balanın həyatını xilas etmək və məhsuldarlığın davamını təmin etməkdir. Doğuşdan sonra ana və körpənin sağlamlığını qorumaq üçün atılacaq addımlar da böyük əhəmiyyət kəsb edir.

Açar sözlər: *Cins inək, çətin doğuş, keysəriyyə, fetotomiya*

SUMMARY

Aytac Humbatova

TREATMENT AND PREVENTION OF DIFFICULT LABOR IN LOCAL BREED COWS

Birth, which is a physiological event, includes the process of preparing the genitals and pelvic canal for birth. Every labor and birth carries certain risks. Sometimes birth events that require intervention, which we call difficult births, can occur. The purpose of assisted delivery is to save the life of mother and baby and to ensure continued fertility. The steps to be taken to protect the health of mother and baby after birth are also of great importance.

Key words: *Breed cow, difficult delivery, caesarean section, fetotomy*

FATMA CƏFƏROVA
ceferovafatma2302@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009- 0008- 4821-2535

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ YAYILAN ƏMƏNKÖMƏNCİKİMİLƏR - *MALVACEAE JUSS* FƏSİLƏSİNƏ AİD OLAN HİBİSKUS CİNSİNİN BİOEKOLOJİ XÜSUSİYƏTLƏRİ

Məqalədə Naxçıvan Muxtar Respublikası ərazisində yayılan Əmənkömənçikimilər - Malvaceae juss fəsiləsinin bir neçə növünün bioekoloji xüsusiyyətləri haqqında məlumat verilir. Naxçıvan Muxtar Respublikası ərazisində Əmənkömənçikimilər fəsiləsinin 9 cinsə daxil olan 22 növlə təmsil olunur.

Açar sözlər: *Malvacea, Hibiscus, Alcea, Althaea, bioloji xüsusiyyət*

Giriş

Naxçıvan MR-in biomüxtəlifliyinə daxil olan fəsilə bitkilərinin çoxu hələ tam şəkildə dəqiq öyrənilməmişdir. Belə fəsilələrdən biri də qədim zamandan insanlar tərəfindən və xalq təbabətində geniş istifadə olunan *Malvaceae Juss* – Əmənkömənçikimilər fəsiləsidir. Fəsilə bitkiləri istisevən bitkilərdir. Nümayəndələri ot, kol, ağac bitkiləridir. Çiçəkləri ikicinsli, parlaq rəngli, iri olur. Meyvəri açılan qutucuq və birtoxumlu meyvəciklərə bölünür. Fəsiləyə daxil olan çoxlu dərman, dekorativ və texniki bitkilər vardır. Bunlar xalq təbabətində, park və xiyabanları yaşıllaşdırılmasında istifadə edilir. Fəsilənin bəzi növlərindən alınan təbii rənglərdən yunun boyanmasında və xalçaçılıqda istifadə olunur

Material və metodlar

Tədqiqatlar 2022- ci ildən başlanmışdır. Tədqiqat obyekti kimi Naxçıvan MR bütün əraziləri, material kimi isə Əmənkömənçikimilər fəsiləsinə daxil olan növlər götürülmüşdür.

Tədqiqatin nəticələri

Naxçıvan Muxtar Respublikasın florasında geniş yayılan fəsilərdən biri də Əmənkömənçikimilər fəsiləsidir. Nümayəndələri ot, kol və ağac bitkiləridir. Mülayim qurşaqda fəsilənin otlu nümayəndəri üstünlük təşkil edir. Fəsiləyə daxil olan növlərin çoxu dərman kimi istifadə olunur. Bəzi növlər isə *Hibiscus syriacus* L - Suriya hibiscusu, H. *Rosa- sinensis L.* - Çin qızılgülü bunlar isə dekorativ bitki olub, park və xiyabanlaın yaşıllaşdırılmasında istifadə olunur. Əmənkömənçikimilər fəsiləsinə daxil olan *Hibiscus.syriacus* L – Suriya hibiscusu, *H.rosa-sinensis* L- Çin qızılgü, *H.ponticus Rupr*- Pont hibiscusu, *H. Trionum* L – Üçər hibiscus, *H.cannabinus* L - Kənaf növlərin bioekoloji xüsusiyyətləri aşağıda göstərilmişdir.

Hibiscus .syriacus 2 m hündürlüyündə olan kol bitkisidir. Ağdan-qırmızıyadaək çiçəkləri müxtəlif rənglərdə olur. Çiçəkləri tək, qısaömürlüdür. Toxumları iri, əsasən toxumları və qələmi ilə çoxalır. Dekorativ bitkidir bağlarda bəzək bitkisi kimi yetişdirilir.

Hibiscus .rosa-sinensis 3-6 m hündürlüyündə olan dekorativ ağac və kol bitkisidir. Tükcüksüz toxumlara malikdir. Bəzi növləri il boyu istifadə olunur, bəzi növləri isə bir günə solur. Evdə dekorativ bitki kimi becərilir İşıqsevən bitkidir.

Hibiscus. ponticus Rupr - 2 m hündürlüyündə olan kol bitkisidir. Müxtəlif məqsədlərdən gövdəsindən istifadə edilir, hətta lif alınır . Dekorativ bitkidir.

Hibiscus. Trionum 10- 50 sm hündürlükdə olan qısamüddətli bitkidir. Ləçəkləri 20-30 mm uzunluğunda sarı, mərkəzi isə qırmızıdır. Meyvə qabığı güclü şəkildə şişir. Günəşli əraziləri daha çox əhatə edir. Çiçəkləri ömrü çox qısa olur, hətta bir neçə saat canlı qalırlar. Adətən, bu bitkini saat çiçəyi adlandırırlar. Çiçəkləri parlaq rənglidir. Soyuğa davamsız bitkidir. Tez solur.



Şəkil 1.Üçər hibiscus



Şəkil 2.Üçər hibiskusun inkişaf mərhələsi

Hibiscus .cannabinus L Hündürlüyü 4-5 m olan, birillik ot bitkisidir. Sarı rəngli iri çiçəklərə malik, 50 gün çiçəkləmə davam edir, və çiçəklərin ömrü 1 gün olur. İri toxumlara malikdir. Meyvələri qutucuqdur. Xalçaçılıqda bitkinin lifindən istifadə edilir.

Nəticə

Aparılan tədqiqatlar zamanı Naxçıvan Muxtar Respublikasının ərazisində yayılan *Malvaceae* fəsiləsinin müxtəlif növlərinin bioekoloji xüsusiyyətləri tədqiq edilmişdir.

ƏDƏBİYYAT

1. Tariyel Talıbov. Naxçıvan Muxtar Respublikası florası – *Malvaceae Juss.*_Bakı, "Ecoprint", 2023, 64 s.
2. O.V.İbadlı, Ü.M.Ağamirov, A.Ə.Bayramov. Gülçülük . Bakı: Ozan, 2003. 224 s.

SUMMARY

Fatma Jafarova

BIOECOLOGICAL CHARACTERISTICS OF HIBISCUS GENUS BELONGING TO THE MALVACEAE JUSS CHAPTER - BIOLOGICAL CHARACTERISTICS OF HIBISCUUS SPREADING IN THE TERRITORY OF NAKCHIVAN AUTONOMOUS REPUBLIC

The article provides information on the bioecological ch aracteristics of several species of the Malvaceae juss family, distributed in the territory of the Nakhchivan Autonomous Republic. In the territory of the Nakhchivan Autonomous Republic, the Amenkomenjik family is represented by 22 species belonging to 9 genera

Key words: *Malvacea, Hibiscus, Alcea,Althaea, biological property*

AYŞƏN ABBASOVA
aysen.abbasova2002@icloud.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-9967-6402

QEYRİ-SİMMETRİK CİVƏLƏŞMİŞ MANQAN KARBONİL TÖRƏMƏLƏRİNİN NEODİM METALI İLƏ REAKSİYALARININ TƏDQİQİ

Hazırki iş lantanidlərin metalkarbonil törəmələrinin sintezinə cəhd edilmişdir. Bununla yanaşı, alınmış komplekslərin stabilliyinə təsir edən amillər öyrənilmiş, lantanid (f)-metal (d) rabitəsinin əmələ gəlməsində lantanid atomunun rolu və təbiəti müəyyən olunmuşdur.

Alınmış komplekslərin İQ-spektri, RQA-zi, eyni zamanda ərimə temperaturu, element tərkibi və s. öyrənilmişdir.

Açar sözlər: *Lantanid, metalkarbonil, neodium, kompleks, pentakarbonil*

SUMMARY

Ayshan Abbasova

STUDY OF REACTIONS OF UNSYMMETRICAL MERCURY-CONTAINING MANGANESE CARBONYL DERIVATIVES WITH NEODYMIUM METAL

In the present work, an attempt was made to synthesize metalcarbonyl derivatives of lanthanides. At the same time, the factors affecting the stability of the obtained complexes were studied, the role and nature of the lanthanide atom in the formation of the lanthanide (f) - metal (d) bond was determined. IR-spectrum, RQA of the received complexes, as well as melting temperature, element composition, etc. has been studied.

Key words: *lanthanide,metalcarbonyl,neodymium,complex,pentacarbonyl*

RƏNA ABBASOVA
nakhchivan.15@gmail.com
0009-0009-1455-805X

FƏRİDƏ SƏFƏROVA
seferova05@gmail.com
Naxçıvan Dövlət Universiteti
0009-0006-3350-6093

DAZIKİMİLƏR-(HYPERİCACEAE JUSS.) FƏSİLƏSİNƏ AİD OLAN NÖVLƏRİN EKOBİOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

Azərbaycan hər zaman öz təbiətinin gözəlliyi və xüsusiliyi ilə seçilib.Azərbaycan haqqında tam əminliklə Qafqazın incisi ifadəsini işlətmək olar.Mövcud olan on bir (11) iqlim qurşağının doqquzunun (9) Azərbaycanda yerləşməsi,eyni zamnda ölkəmizin coğrafi mövqeyi zəngin biomüxtəlifliyə malik olmağına əsas verir. Xüsusi ilə də bitki aləminin özünə məxsus müxtəlifliyi və növ etibarı ilə çox olması, əhəmiyyətli bitkilərin əksəriyyətinin burada bitməsi tədqiqatlar zamanı öz təsdiqin tapıb. Qafqazda olan bitki növlərinin 66%-i say baxımından Azərbaycan Respublikası ərazisində yerləşir.

Dazıkimilər(Hypericaceae) Azərbaycan təbiətində xüsusi yerə malikdir. Fəsilənin nümayəndələrinə dünyanın bir çox yerində rast gəlinir. Fəsilənin nümayəndələri Cənub-Şərqi Avropa, Cənub-Qərbi Asiya və Qafqazda ümumi olaraq yayılıb. Azərbaycanda Naxçıvan ərazisində geniş şkildə rast gəlinir. Azərbaycan Respublikasında fəsilənin nümayəndələri Naxçıvan Muxtar Respublikası ərazisində, xüsusən Şahbuz, Sədərək və Ordubad rayonlarında eyni zamanda Qazax, Qobustan, Xaçmaz, Şirvan, Dağlıq Qarabağ, Aran, Gəncə, Zaqatala, Balakən, Lənkəran, Lerik, Astara və Quba ərazisində geniş şəkildə yayılmışdır.

Hypericaceae fəsiləsinin nümayəndələrinə ot,kol,yarımkol və alçaq boylu ağac formasında rast gəlinir. Fəsilənin nümayəndələri birillik və çoxillik olurlar. Dazıotu cinsinin Azərbaycanda 19 növü,1 yarımnövü və 1 variyasiyası mövcuddur. Hypericaceae fəsiləsinə daxil olan novlərin demək olar ki, 80%-i muxtəlif sahələrdə geniş şəkildə tətbiq olunur. Tətbiq sahələrinə misal olaraq dərman, boya və dekorativ sənayesini misal göstərmək olar. Fəsilənin nümayəndələri təsərrüffat əhəmiyyəti ilə seçilir. Xüsusi ilə dərman bitkisi kimi geniş şəkildə istifadə olunur. Zəngin tərkibinə görə sənayedə xammal əhəmiyyətli bitki hesab olunur. Avropa ərazisində Hypericaceae fəsiləsinin nümayəndələri dərman məqsədi ilə istifadəsi ilə yanaşı, eyni zamanda qida əhəmiyyətli də istifadə olunur.

Azərbaycan Respublikası ərazisində dazıotu cinsinin nümayəndləri ilə bağlı araştırmalar edilsədə, bioekoloji xüsusiyyətləri tam olaraq öyrənilməmişdir. 2015-2021 ci illərdə təbii şəraitdə Azərbaycan Respublikasının müxtəlif ərazilərində toplanan dazıotu cinsinin nümayəndələri üzərində tədqiqat aparıldıqdan sonra bioekoloji xüsusiyyətləri öyrənilmişdir. Tədqiqatlar nəticəsində cinsə aid olan növlərin bioekoloji xüsusiyyətləri öyrənilmiş və növlərin yüksəklik qurşaqdayayılma qanunauyğunluqları, fenologiyası, iqlim amillərinə munasibəti və ekoloji qrupları müəyyən olunmuşdur.

Məqalədə dazıkimilər haqqında ümumi məlumat verilib, yayıldığı ərazilər, istifadə sahələri və məqsədləri verilib.

Açar sözlər: *Hypericaceae fəsiləsi, Dazıkimilər, istifadə, yayılma*

SUMMARY

Rana Abbasova, Faryda Safarova

ECOBIOLOGICAL CHARACTERISTICS AND USAGE DIRECTIONS OF SPECIES BELONGING TO THE DAZIKIMILA (HYPERICACEAE JUSS.) CHAPTER

Azerbaijan has always been distinguished by the beauty and uniqueness of its nature. Azerbaijan can be called the pearl of the Caucasus with full confidence. Nine (9) of the available eleven (11) climate zones are located in Azerbaijan, and at the same time, the geographical position of our country gives grounds for having a rich biodiversity. It has been confirmed during the researches that the plant world has its own diversity and variety, and that most of the important plants grow here. 66% of the plant species in the Caucasus are located in the territory of the Republic of Azerbaijan.

Hypericaceae have a special place in the nature of Azerbaijan. Representatives of the family are found in many parts of the world. Representatives of the family are common in South-East Europe, South-West Asia and the Caucasus. They are widely found in the territory of Nakhchivan in Azerbaijan. In the Republic of Azerbaijan, representatives of the family are widely distributed in the territory of the Nakhchivan Autonomous Republic, especially in the Shahbuz, Sadarak and Ordubad districts, as well as in the territory of Gazakh, Gobustan, Khachmaz, Shirvan, Nagorno-Karabakh, Aran, Ganja, Zagatala, Balakan, Lankaran, Lerik, Astra and Guba.

Representatives of the Hypericaceae family can be found in the form of grasses, shrubs, semi-shrubs and low trees. The members of the family are annuals and perennials. There are 19 species, 1 subspecies and 1 variation of the Hypericaceae genus in Azerbaijan. Almost 80% of the plants belonging to the Hypericaceae family are widely used in various fields. Examples of application fields include medicine, paint and decorative industry. Representatives of the family are selected for their economic importance. Due to its rich content, it is considered an important plant as a raw material in the industry. In Europe, representatives of the Hypericaceae family are

used for medicinal purposes as well as for food.

Although research has been conducted on the representatives of the wild grass genus in the territory of the Republic of Azerbaijan, their bioecological characteristics have not been fully studied. After conducting research on the representatives of the wild grass genus collected in different areas of the Republic of Azerbaijan under natural conditions in 2015-2021, the bioecological characteristics were studied. As a result of the research, the bioecological characteristics of the species belonging to the genus were studied and The regularity of distribution of the species in the altitude belt, phenology, relation to climate factors and ecological groups were determined.

In the article, general information about dazikimi, distribution areas, areas of use and purposes were given.

Key words: *Hypericaceae family, Hypericaceae, use, distribution*

LƏTİFƏ NOVRUZOVA

GÖZƏL ABBASOVA

Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAŞ DUZ YATAQLARI VƏ ONUN TƏTBİQ SAHƏSİ

Məqalədə Naxçıvan Muxtar Respublikasının əsas təbii sərvəti olan daş duz yataqlarının muxtar respublikanın iqtisadiyyatının inkişafında rolundan bəhs edilir. Arxeoloji qazıntılar nəticəsində tapılan daş alətlərin hələ eramızdan əvvəl III minillikdə burada duz hasil olunduğu göstərilir, duz yataqlarında aparılan tədqiqat işləri və tədqiqatçıların fəaliyyətindən bəhs olunur.

Məqalədə duzdan təkcə ərzaq məhsulu kimi yox, həm də xalq təsərrüfatının digər sahələrində, o cümlədən kimya sənayesində, istilik elektrik stansiyalarında qazanxanalarda işlədilən suyun təmizlənməsində, yeyinti və yüngül sənayenin ayrı-ayrı sahələrində, buz bağlamış yolların açılmasında və digər sahələrdə tətbiqindən bəhs olunur.

Duz hasilatının artırılması və ətraf landşaftın bərpası üçün təkliflər irəli sürülür.

Duz istehsalı və ixracı muxtar respublika iqtisadiyyatı üçün əhəmiyyətli sahə olduğundan mövzu aktuallıq kəsb edir.

Açar sözlər: *Naxçıvan MR, daş duz, natrium xlorid, Duzdağ, Sust yatağı.*

Tədqiqatın obyekti və metodikası

Tədqiqat ərazisi olaraq Naxçıvan MR ərazisində yerləşən Duzdağ, Sust və Nehrəm duz yataqları götürülmüşdür. Tədqiqat işində ərazi müşahidəsi, ədəbiyyat materiallarının təhlili metodlarından istifadə edilmişdir.

Təhlil

Naxçıvan Muxtar Respublikasının daş duz yataqları Babək rayonunun ərazisində Naxçıvan şəhəri yaxınlığında yerləşir. Hazırda üç daş duz yatağı mövcuddur: Duzdağ, Nehrəm və Şəkərabad-Qoşadizə. Duzdağ yatağı iki sahəyə ayrılır: Naxçıvan sahəsi (uzunluğu 2,2 km, eni 1,6 km, sahəsi 3,5 kv.km) və ondan 4,5 km şimal-qərbdə yerləşən Sust sahəsi (uzunluğu 1,3 km, eni 0,9 km, sahəsi 1,2 kv.km).

Naxçıvan sahəsi. Naxçıvan şəhərindən 12 km şimal-qərbdə yerləşir. Yatağın lap qədimdən (5000 ildən artıq) işlənməsinə baxmayaraq, sənaye istismarına 1928-ci ildən başlanmışdır.

Sust sahəsi. Duzun qalınlığı istisna olmaqla, Sust sahəsindəki duzun keyfiyyət göstəriciləri kondisiyanın tələblərini tamamilə ödəyir. Yatağın $B+C_1$ kateqoriyaları üzrə balans ehtiyatları 3422 min ton təşkil edir.

Nehrəm daş duz yatağı. Yataq Babək rayonunun Nehrəm kəndi ətrafında, Naxçıvan şəhərindən 10 km cənub-şərqdə yerləşir. Yataq mütləq hündürlüyü 800-850 m olan alçaq təpəli düzənlik ərazidədir. Yataq 1946-cı ildə Naxçıvan su təsərrüfatı idarəsi tərəfindən artezian quyusu qazılarkəm aşkar edilmişdir. Yatağın geoloji quruluşunda Miosen və Dördüncü dövr çöküntüləri iştirak edir. Bütün buruq quyuları üzrə yatağın kəsilişi eynidir. Daş duz laylarının qalınlığı cənub-şərqdən şimal-qərbə doğru 46,4 m-dən 90 m-dək artır. Yatağın ümumi sahəsi 1,54 kv.km-dir.

Nehrəm yatağının duzu kristallik olub, ağ, metal-boz və tünd boz rəngdədir. Bir sıra quyularda yasəmən rəngli dəmir mikaları saxlayan şəffaf duz laylarına rast gəlinir. Duz qatı massiv kütlə təşkil etməyib, qalınlığı 2-10 sm olan gil və gilli qumdaşı laycıqları ilə ayrı-ayrı laylara ayrılır.

Təmiz daş duz rəngsizdir, şüşə parıltısı vardır. Tərkibində gil qarışığı olduqda boz çalarlı, dəmir birləşmələr olduqda qəhvəyi və sarı çalarlı, qara və boz rəng üzvi maddələrin olmasına görədir. Mavi, göy, bənövşəyi rəngli daş duza da rast gəlinir (tərkibində kalium duzları olduqda). Rəngli duzları 200°C-yə qədər qızdırdıqda adətən rəngləri itir. Rəngin meydana çıxmasını tərkibdə radioaktiv kaliumun şüalanmasından natrium metalının əmələ gəlməsi ilə əlaqələndirirlər.

Buruq quyuları üzrə duzun kimyəvi tərkibi

Buruq quyusunun №-si	*Daş duzun qalınlığı, m*	*Duz tərkibinin miqdarı, %-lə*				
		NaCl	*$CaSO_4$*	*$MgCl_2$*	*$CaCl_2$*	*həllolmayan qalıq*
1	58,28	92,47	2,67	0,13	0,21	2,74
2	75,65	92,41	1,97	0,17	0,18	2,79
3	56,80	93,27	2,50	0,18	0,17	2,25
4	72,55	90,93	2,49	0,19	0,13	4,14
5	41,85	95,74	1,64	0,16	0,16	1,40
6	75,02	93,26	2,19	0,23	0,21	2,84
7	43,75	92,39	2,60	0,05	0,12	3,81
8	53,40	88,51	3,38	0,02	0,12	6,46
9	35,82	85,86	4,29	0,10	0,10	8,19
10	42,16	86,19	4,48	0,16	0,18	8,72
11	35,60	83,15	5,26	0,06	0,17	11,97
12	62,50	83,94	6,93	0,07	0,58	8,76
Yataq üzrə orta:	51,96	90,10	3,35	0,13	0,20	4,89

Xörək duzu insanın tanıdığı və istifadə etdiyi ilk təbii mineral maddələrdən biridir. Duzun çıxarılması və işlədilməsi haqda yazılı məlumata Heredotun "Tarixində" (e.ə. 484 - 425-ci illər) rast gəlinir.

Xörək duzunun qədimdən istifadə edildiyini əsaslandırmaq üçün uzağa getməyə ehtiyac yoxdur. Sust yatağında son zamanlar aşkar edilmiş qədim mədənlərin e.ə. III minillikdə istismar edildiyi oradan tapılan qədim daş alətlərlə sübut olunmuşdur.

Ümumiyyətlə, xörək duzundan insanın nə zaman istifadə etməsi haqqında dəqiq fikir yürütmək mümkün deyildir.

Qədim Roma alimi v yazıçısı Plini eramızın birinci əsrinin ortalarında duzun insan üçün əhəmiyyəti haqqında belə yazırdı – "Duz başlanğıc üçün o qədər əhəmiyyətlidir ki, hayatda olan bütün yaxşı şeyləri, hətta ən yüksək şadlıq belə onunla müqayisə oluna bilməz". Qədim Romada duzun xariqüladə gücə malik olduğuna inanır və hətta ona tilsim kimi baxırdılar. Katolik kilsələrində körpəni xaç suyuna salan zaman ağzına duz da qoyurdular.

Doğrudan da xörək duzu insan üçün əvəzedilməz mineral qidadır. Burada söhbət duzun tək dad keyfiyyətindən yox, onun orqanizmdə oynadığı roldan gedir. İnsanın qidasında xörək duzunu hər hansı bir başqa maddə ilə əvəz etmək haqqında düşünmək belə ağlasığmazdır. Dəniz və okean sularında olan duzların miqdarı təyin edilmiş və onların kütlə nisbətləri hesablanmışdır. Bu nisbətləri qanın duz tərkibi ilə müqayisə etdikdə qəribə də olsa, uyğunluq müşahidə edilmişdir. Bunu və eyni zamanda natrium xloridin markəzi və vegetativ sinir sistemində, qanın və toxumanın kimyəvi tərkibini nizama salmaqla orqanizmdə çox böyük rol oynadığını nəzərə alan bir sira alimlər həyatın əmələ gəlməsinin dəniz mənşəli olduğunu göstərən hipotez irəli sürməkd bəlkə də haqlıdırlar.

Sənayenin 1500-dən çox sahəsində xörək duzundan, yaxud onun əsasında alınan maddələrdən istifadə olunur.

XIX əsrin 60-cı illərində duz yatağını Sulukidze, Xalatov və Arxipov təsvir etmişlər.

1909-cu ildə A.M.Marqolius Duzdağ və Sust yataqlarını xarakterizə etmiş və onların minimum ehtiyatlarını qiymətləndirməyə çalışmışdır. Duzdağ yatağının ehtiyatı 54 mln.ton, Sust yatağınınkı isə 43 mln.tondur.

1930-cu ildə K.N.Paffenhols duz yatağını öyrənərək duz qatının quruluşunun mənzərəsini vermiş və qatı daha qədim geoloji qatlarla əlagələndirmişdir.

1934-cü ildə ilk dəfə yataqda Qafqaz Geoloji Tresti tərəfindən hərtərəfli kəşfiyyat işləri aparılmışdır. Nəticədə yatağın cənub hissəsində $A+C_1$, kategoriyası üzrə 17 mln.ton duz ehtiyatının olduğu təsdiqlənmişdir.

Naxçıvan duz yataqlarından daş duz şaxta üsulu ilə çıxarılır. Sallar şəklində çıxarılan duz əl ilə seçilməklə zənginləşdirilir, üyüdülərək satışa göndərilir.

Naxçıvan daş duzunun qida məhsulu kimi əsas çatışmayan cəhəti tərkibində yodun olmamasıdır. Ona görə də yeyinti məqsədilə istehsal olunan duz hökmən yodlaşdırılmalıdır.

Xörək duzunun yodlaşdırılmasının əsas səbəbi içməli sularda yodun catışmazlığından əmələ gələn endemik zobun qarşısını almaq üçün işlədilən profilaktik vasitədir. İnsanın yoda sutkalıq tələbatı 0,06 - 0,1 mq-dir. Yodlaşdırıcı reagent kimi kalium yodiddən istifadə edilir. 1 ton xörək duzuna 25 q kalium yodid vurulur.

Xörək duzunun təbiətdə geniş yayılması, suda yaxşı həll olması, xüsusi dadı, konservasiya, iondəyişmə və krioskopik xassələri onun xalq təsərrüfatının çox müxtəlif sahələrində və məişətdə geniş tətbiq olunmasına imkan verir. Natrium xloridə ən böyük tələbatı olan kimya sənayesidir.

Keçmis Sovetlər İttifaqında 1985-ci ildə 5028 min ton soda və 3056 min ton natrium hidroksid istehsal olunmuşdur. Bu iki kimyəvi məhsulun istehsalına 13 mln.ton xörək duzu sərf olunmuşdur.

Natrium xloridə tələbatı böyük olan sahələrdən biri də energetikadır. İstilik elektrik stansiyalarında, istilik qazanxanalarında işlədilən suyun təmizlənməsində istifadə olunan ionitlərin regenerasiyasını 6-10%-li natrium xlorid məhlulu ilə aparırlar. 1 kub m suyun

təmizlənməsinə 0,6 - 1,0 kq natrium xlorid işlədilir.

Yeyinti və yungül sənayedə də natrium xloriddən istifadə edilir. Qida mahsullarının konservləşdirilməsi, parçalarım boyanması, dərinin duzlanması, saxlanması və aşılanması proseslərində də natrium xlorid əvəzolunmazdır.

Xörək duzundan dumana qarşı effektli mübarizə tədbiri kimi istifadə etmək olar. Tadqiqatçılar müayyən etmişlər ki, narın

üyüdülmüş xörək duzunu aerodrom üzərindən səpdikdə o havanın nəmini güclü udaraq dumanın dağılmasına səbəb olur.

Natrium xlorid suyun donma temperaturunu aşağı saldığına görə ondan buz bağlamış yolların açılması üçün işlədilir.

Xörək duzu toxuculuq sənayesində boyama prosesində, sabun sənayesində, keramikanın qlazurla örtülməsində, endotermik qarışıqların hazırlanmasında genış istifadə olunur.

Tibdə natrium-xlorid qədər miqdarca çox və müxtəlif sahələrdə tətbiq edilən ikinci bir preparat təsəvvür etmək çətindir. Natrium xloridin 0,9%-li məhlulu fizioloji məhlul adı ilə bilvasitə venaya köçürülür. Mərkəzi və vegetativ sinir sisteminin fəaliyyətini, qanın və toxumanın kimyəvi tərkibini nizama salan - hemodez, Ringer Lokk, “Asesol”, “Disol”, “Trisol”, “Laktasol” “Xlorosol” və digər geniş yayılmış dərman preparatlarının tərkibinin əsas komponentlərindən biri natrium xloriddir.

Duzdağ duz şaxtasının yaxınlığında duz üyutmə və qablaşdırma sexi fəaliyyət göstərir.

Duzdağ duz şaxtasında xüsusi avadanlıqlarla təchiz edilmiş dünyada analoqu olmayan təbii müalicəxana yaradılmışdır. Burada astma və digər xəstəliklərdən əziyyət çəkən pasientlər heç bir dərman qəbul etmədən təbii yolla müvəffəqiyyətlə müalicə olunurlar.

Şaxtanın yaxınlığında Avropa standartlarına tam cavab verən Beş ulduzlu Duzdağ Hoteli tikilib istismara verilmişdir.

Nəticə və təkliflər. Daş duz Naxçıvan Muxtar Respublikasının qiymətli sərvətidir. XX əsrin 90-cı illərinədək Naxçıvan duz mədənlərindən ildə 30 min tona yaxın duz çıxarılaraq 1927-ci ildə istifadəyə verilmiş asma yolla Başbaşı dəmiryol stansiyasına, oradan isə Cənubi Qafqazın müxtəlif rayon və şəhərlərinə daşınırdı.

İndiyədək Duzdağda olan duz ehtiyatının orta təbəqəsinin cuzi hissəsindən istifadə olunub, alt və üst qata toxunulmayıb. Bu vəziyyəti aradan qaldırmaq üçün duzun açıq üsulla çıxarılmasını həyata keçirmək olar.

1929-cu ildən istismara başlayan Naxçıvan duz mədənlərinin ətrafında yüz min tonlarla tullantı əmələ gəlmişdir. Həmin tuılantılardan da təmizlənərək xörək duzu almaq olar. Aparılan araşdırmalara görə sahəsi 1000 kv.km olan 4 hovuzdan ildə 1000 ton duz almaq mümkündür. Naxçıvanın temperatur şəraiti bu üsulla duzun alınmasına imkan verir. Qalan tullantıları isə istifadəsiz şaxtalara doldurmaqla ətrafı təmizləmək olar.

Nehrəm duz yatağının bazası əsasında burada kaustik soda zavodunun tikilməsi nəzərdə tutulur. Lakin bu kombinatın tikintisini reallaşdırarkən ətraf mühitin mühafizəsi tədbirləri ön plana çəkilməlidir.

Hazırda Duzdağda "Duzdag Estate" MMC və Nəqşicahan Holdinq Şirkətlər qrupu birgə fəaliyyət göstərir. Əgər tələb olunan qədər vəsait qoyularsa, duz istehsalı artırılar, üyüdülmüş xörək duzunun keyfiyyəti yüksəldilər və Ermənistanın blokadasından çıxdıqdan sonra yodlaşdırılmış xörək duzu qonşu ölkələrə göndərilər ki, bu da muxtar respublikanın iqtisadiyyatına müsbət təsir etmiş olar.

ƏDƏBİYYAT

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının fiziki coğrafiyası. Bakı: 1999;
2. Həsənov Ə.M. Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri və onlardan istifadə yolları. Bakı: 2001;
3. Rzayev B.S., Qarayev Ə.M. Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri;
4. Novruzova L.M. Naxçıvan Muxtar Respublikasında turizm potensialından istifadə imkanları. məqalə. Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri XIX cild;
5. İnternet resursları.

SUMMARY

Latifa Novruzova, Gozel Abbasova

ROCK SALT DEPOSITS OF THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC AND ITS FIELD OF APPLICATION

The article discusses the role of stone salt deposits, the main natural resource of the Nakhchivan Autonomous Republic, in the development of the economy of the autonomous republic. Archaeological excavations show that the stone tools found were produced here in the third millennium BC, and the research work on salt deposits and the activities of researchers. The article discusses the application of salt not only as a food product, but also in other areas of the economy, including the chemical industry, boilers in thermal power plants, in the treatment of water treatment, food and light industry, open icy roads and other areas. The. Proposals are being made to increase salt production and restore the surrounding landscape. As salt production and exports are an important area for the economy of the autonomous republic, the topic is relevant.

Key words: *Nakhchivan MR, stone salt, sodium chloride, Duzdag, Sust deposit.*

RAMİLƏ AĞAYEVA
ramilaagayeva77@gmail.com
Naxçıvan Dövlət Universiteti

"EKOLOJİ MƏDƏNİYYƏT" ANLAYIŞININ MAHİYYƏTİ

Məqalədə günümüzün qlobal, ən aktual problemlərindən biri olan ekoloji problemlər və bu problemlərin ortadan qaldırılması, həll olunması istiqamətində gənc nəsildə ekoloji mədəniyyət və ekoloji şüur formalaşdırmaqdan bəhs olunur. Ekoloji problemlərin həllində ekoloji mədəniyyətin oynadığı rolun danılmaz bir fakt olduğu, ekoloji cəhətdən sağlam mühitin yaradılmasında və bunun gələcək nəsillərə də ötürülməsində əvəzsiz xidmət göstərdiyi vurğulanmışdır.

Açar sözlər: *Ekologiya, ekoloji problemlər, makromühit, mikromühit, ekoloji mədəniyyət*

Günümüzün böyük önəm daşıyan problemlərindən biri də ekologiyadır. Ekologiyanın gənc nəsilə düzgün şəkildə aşılanmasında ekoloji tərbiyə və ekoloji mədəniyyətin böyük bir rolu vardır.

Ekoloji tərbiyə və ekoloji mədəniyyət anlayışları gənc nəslə düzgün ekoloji biliklərin verilməsi, onlara bu müstəvidə güclü , yüksək mənəviyyatla silahlandırılması gələcək nəslin sağlam ekoloji mühitdə böyüməsi üçün böyük əhəmiyyət daşıyır. Məqalədə ekoloji mədəniyyətin mahiyyəti haqqında söhbət açmamışdan əvvəl "ekologiya nədir?", "günümüzdə nə kimi ekoloji problemlər var?" və bu kimi məsələlər haqqında məlumat verməyi əhəmiyyətli və önəmli görürəm.

Ekologiya XX əsrin elmidir. "Ekologiya" yunan mənşəli sözdür. "Yurd, məskən" anlamına "eko" və "elm, təlim" mənasını verən "logos" sözlərinin birləşməsindən yaranmışdır. Yəni ekologiya yurd, məskən haqqında təlim deməkdir. Ekologiya təbiətdə tarazlığın vəziyyətin və onun pozulması səbəblərini öyrənir. Eynilə mikro və makromühitlərdə - hər yerdə bütün canlıların ekoloji tarazlığının qorunması və saxlaması haqqında elmdir.

XXI əsrin ən mühüm problemi olan ekoloji problemlər bizim həyatımıza kəskin şəkildə zərər verir. Udduğumuz bu zəhərli azot qazları, zavodlardan çıxan tüstülər, radioaktiv, kimyəvi və bioloji silahların sınaqdan keçirilməsi və bu kimi halların hamısı insanların sağlamlığına zərər verir. Meyvə və tərəvəzlərə, yaxud istifadə etdiyimiz digər qida məhsullarına vurulan hormonlar insanların xəstələnməsinə, zəhərlənməsinə, yaşam səviyyəsinin aşağı düşməsinə, yeni doğulan uşaqların şikəst şəkildə, deformasiyaya uğrayaraq dünyaya gəlməsinə səbəb olur. Bu baxımdan ekoloji problemlərin müəyyən edilib onlara qarşı xüsusi tədbirlərin görülməsi, gənc nəsildə buna uyğun olaraq, sağlam ekoloji düşüncə tərzi formalaşdırılması olduqca vacib və günümüzün aktual məsələlərindən biridir. Bütün bunlar da ekoloji mühiti qorumalı olduğu halda ona zərər verən insanların əli ilə olur. Əgər vulkanlar, torpaq sürüşmələri, tsunamilər, qasırğalar, tufanlar və bu kimi təbiət hadisələri təbii fəlakət sayılırsa, digər hadisələr – bütün bu bitmək bilməyən, minlərlə, milyonlarla insanların ölümünə yol açan amansız müharibələr, zəhərli qazlar, təhlükəli silahların sınaqdan keçirilib istifadə edilməsi, hormonlu qidalar, avtomobillərdən çıxan azot qazları, meşələrin qırılması, məhv edilməsi, yandırılması və bu kimi halların hamısı, təəssüf ki, insanların əsəridir. Bunu düzəltmək məhz elə insanların üzərinə düşür.

Son dövrlərdə insanların antropogen və texnogen fəaliyyəti, baş verən amansız və kəskin müharibələr, terror əməliyyatları, bir sıra ölkələrdə atom silahlarının sınaqdan keçirilməsi, nəqliyyatın artması, bunun nəticəsində də havaya zəhərli qazların qarışması, çirkli tullantıların artması və s. kimi hallar ekologiyada tarazlığın pozulmasının ən bariz nümunələridir. Ekoloji tərbiyə də bu kimi problemlərin ortadan qaldırılması üçün gənclərdə ekoloji mədəniyyət və ekoloji şüurun formalaşdırılmasını özünün ən başlıca vəzifəsi kimi götürür.

Ekologiyada makromühit və mikromühit anlayışı vardır. Mikromühit makromühitdən fərqli olaraq dar bir ərazini əhatə edir. Belə ki, buraya insanların evlərində, iş yerlərində natəmiz mühitin olması, insanların tullantıları çöp qutularına deyil, yol qırağına atması, sulara, gölə, çaya, dənizə çirkli tullantıların atılması, bununla da dəniz canlılarının zəhərlənməsi və məhv olması, şəhərlərdə

rayonlarda nəqliyyatın artması nəticəsində havaya zəhərli qazların ötürülməsi və bununla da atmosferin zədələnməsi, qidaların qeyri-sanitar, gigiyenik şəraitdə hazırlanması və bu kimi hallar daxildir.

Makromühit isə daha geniş anlayışı əhatə edir. Buraya böyük, hegemon dövlətlərin atim silahlarını, nüvə silahlarının yeraltı və yerüstü sınaqdan keçirilməsi, zavodların zəhərli tüstülərinin havaya qarışması, meşələrin qırılması, bununla da təbiətin yaşıllığının azalması, kimyəvi və bioloji silahların istehsalı və sınaqdan keçirilməsi, raketdənmüdafiə sistemlərinin sınaqdan keçirilməsi, radioaktiv maddə və silahlardan istifadə, kiçik və irimiqyaslı müharibələr, atom-müvə reaktorlarının sınaqdan keçirilməsi, istifadədən sonra təkrardan qidalarımıza, udduğumuz havaya, içdiyimiz suya qarışan yuyucu tozlar və s. bu kimi mənfi hallar daxildir.

Makromühit və mikromühitdə olan ekoloji problemlər havanın, suyun zəhərlənməsinə, canlıların kütləvi şəkildə məhv olmasına, əsas oksigen təminatı olan ağacların sayının kütləvi şəkildə azalmasına, ozon qatının deşilməsinə, dənizin və qurunun çirklənməsinə, qidaların təbiiliyinin pozulmasına və bu kimi mənfi hallara səbəb olur. Ekoloji mədəniyyət məhz bu mənada bizə köməyə çatır. Belə ki, pedaqoqların, müəllimlərin şagirdlərə, gənc nəslə ekoloji mədəniyyət aşılaması ilə onlarda təbiətə qarşı məhəbbət yaranır, təbiəti, təbii ehtiyatları, canlıları qorumaq, onlara sahib çıxmaq üçün mənəviyyat, ən əsası isə ekoloji şüur formalaşır.

Ekoloji mədəniyyət anlayışı uşaqlarda hələ uşaq yaşlarından formalaşdırılmalıdır. Onlarda təbiətə qayğı və məhəbbət, ona gözə göz bəbəyi kimi baxmaq ideyası aşılanmalıdır. Uşaqlar başa düşməlidir ki, bu dünya hamımızındır. İçində yaşadığımız bu cəmiyyəti, dünyanı təmiz, sağlam saxlamaq, onu zərərli hallardan qorumaq hər birimizin ən başlıca borcudur. Uşaq 3-4 yaşından artıq müəyyən ekoloji biliklərə yiyələnməlidir. Təbii ki, buna ən sadə vəzifələrdən başlanmalı, onun anlama səviyyəsinə uyğun vəzifələr verilməlidir. Ən azından əlindəki tullantını, çöp qutusuna atmalı olduğunu, səliqəli olmağı, evi çirkləndirməməsini və bu kimi ən sadə halları bilməlidir. Unutmamalıyıq ki, uşaq yaşından başlanan, təməli qoyulan ekoloji mədəniyyət anlayışı gələcəkdə təmiz, sağlam bir həyatın da məhək daşı olacaqdır.

Bəzən ekoloji mədəniyyətə riayət etmək dedikdə, sadəcə yerə zibil atmamaq başa düşülür, digər ekoloji problemlər diqqətdən kənarda qalır. Lakin bu olduqca yanlış bir haldır. Belə ki, ekoloji mədəniyyət anlayışına eyni zamanda təbii sərvətlərdən, qazdan, sudan, enerjidən səmərəli və qənaətlə istifadə etmək, təbiətin digər canlılarına qarşı da mehriban, qayğıkeş və nəvazişlə yanaşmaq və bu kimi hallar da daxildir.

Müasir dövrdə ekologiyanı öyrənmək, onun ən ümdə məsələlərini anlamaq, başa düşmək, ekologiyanın əsas müddəalarının təbliğ edilməsi, ekoloji cəhətdən saf, təmiz bir dünyada yaşamaq istəyi və bu uğurda çalışıb vuruşmaq mühüm bir məsələ kimi bir çox qurum tərəfindən diqqət mərkəzindədir. Ekoloji mədəniyyətin həyata keçirilməsi, təbiətin ekoloji tarazlığının qorunması və bərpası üçün bütün cəmiyyət, bütün insanlıq, bir sıra dövlət təşkilatları səfərbərliyə cəlb olunmalı, daha təmiz və saf, ekoloji cəhətdən sağlam bir dünya, həyat və yaşam üçün cidd-cəhdlə çalışmalıdırlar.

Ekoloji mədəniyyət uşaqlara və gənclərə düzgün şəkildə aşılandıqda, onlarda düzgün ekoloji şüur formalaşdıqda ekoloji problemlərin həlli də bir o qədər asanlaşır. Lakin bunun üçün ekoloji mədəniyyəti aşılayan şəxsin özünün də bu haqda dərin biliyi olmalıdır. İlk öncə onun özü ekoloji mədəniyyətin mahiyyətini, nə demək olduğunu, günümüz üçün nə dərəcə əhəmiyyət daşıdığını başa düşməli sonra da gənc nəslə bunu öyrətməlidir. Tərbiyəçi, müəllim ekoloji mədəniyyət haqqında şagirdlərdə müəyyən bir təfəkkür formalaşdırarkən başa düşməlidir ki, düzgün formalaşdırılmayan ekoloji təfəkkür günümüzdə ekoloji problemlərin həllində heç bir səmərə verə bilməz. Yuxarıda da qeyd etmişdik ki, ekoloji mədəniyyət anlayışı uşaqlarda təqribən 3 yaşından formalaşdırılmalı və uzun müddət də bu proses davam etməli, sağlam ekoloji mühit yaranana qədər bu proses öz fəaliyyətini davam etdirməlidir. Uşaqlarda düzgün formalaşdırılmayan ekoloji şüur, onlarda təbiətə qarşı məhəbbət və qayğıdan daha çox laqeyd münasibət, saymazyanalıq, günümüzün aktual, qlobal ekoloji problemlərinə qarşı bir laqeydlik yaradacaq, bununla da uşaqlarda təbiətə qarşı qəddarlıq,

qeyri-həssas münasibət, rəhmsizlik kimi mənfi hisslər formalaşacaq. Buna yol verilməməsi üçün düzgün ekoloji şüurun formalaşdırılması şərtdir.

Müəllim şəxsiyyətinin özü də ekoloji mədəniyyətin formalaşdırılmasında böyük rol oyanyır. Ekoloji mədəniyyətin formalaşmasında müəllim müəyyən sosioloji, psixoloji və pedaqoji yer tutur. O, şagirdlərdə sağlam ictimai əqidənin formalaşmasında, yaşadığı cəmiyyətə qarşı şagirdlərin daha diqqətli və qayğılı yanaşmasında əvəzsiz rol oynayır. Onun ekologiyaya aid tətbiq etdiyi, aşıladığı biliklərlə ekoloji mədəniyyətin daha sağlam və möhkəm forması yaranır.

Ekoloji mədəniyyət bizim yaşadığımız dünyanın daha gözəl bir yer olması üçün çalışmağa, səy göstərməyə xidmət edir. Ekologiyaya aid olan problemlərin həllində daha diqqətli olmağı, məsuliyyətli yanaşmağı, laqeydliyə yol verməməyi, bir parçası olduğumuz bu təbiəti göz bəbəyimiz kimi qorumağa borclu olduğumuzu və bu kimi mənəvi cəhətdən yüksək fikirləri bizlərə aşılayır. İnsanları cəmiyyətimizi, dünyamızı qorumağa, təbiətin yaralarınnı sarımağa, onu bərpa edib sağaltmağa çağırır.

Nəzərə alsaq ki, bütün bu ekoloji problemləri insanın özü yaradıb, onu bərpa etmək də məhz elə bizim özümüzün üzərinə düşür.

ƏDƏBİYYAT

1. Ə. Bədəlova. Təlim-tərbiyə (mühazirə mətnləri). Bakı: 2015.
2. T.Allahverdiyeva. Ekoloji mədəniyyət və ictimai tərəqqi. Bakı: 1999.

SUMMARY

Ramila Aghayeva

THE ESSENCE OF THE CONCEPT OF “ECOLOGICAL CULTURE”

The articles talks about ecological problems, which are one of the most urgent global problems of today, and how to form ecological culture and ecological awareness in the young generation in order to eliminate and solve these problems. It was emphasised that the role played by ecological culture in solving ecological problems is an undeniable fact, it provides an invaluable service in creating an ecologically healthy environment and passing it on to future generations.

Key words: *Ecology, ecological problems, macroenvironment, microenvironment, ecological culture*

AYSUN HÜSEYNLİ
aysunhuseynli0005@gmail.com
Naxçıvan Dövlət Universiteti

AĞAC FORMALI DEKORATİV BİTKİLƏRİN TƏDRİSİNDƏ ESTETİK TƏRBİYƏYƏ DAİR

Məqalədə ağac formalı dekorativ bitkilərin tədrisindən bəhs olunur. Tədris zamanı estetik tərbiyənin aşılanmasına aid məlumatlar verilmişdir. Burada estetik tərbiyənin aşılanmasında vacib olan biliklər qeyd olunmuşdur. Tədris prosesində dekorativ ağac formalı bitkilərin insan həyatında roluna aid məlumatlara da geniş yer verilmişdir. Belə ki, sağlamlığa təsiri, eroziyanın qarşısının alınması, hava təmizləyici və iqlim tənzimləyici xüsusiyyətləri diqqət mərkəzində olmuşdur. Təhsil alanlara dekorativ bitkilərin öyrənilməsində estetik tərbiyənin rolunu vurğulanmaqla yanaşı dekorativ ağac bitkilərindəndə bəhs olunmuşdur.

***Açar sözlər*:** Tədris, estetik tərbiyə, dekorativ, ağac, bitki

Giriş

Dekorativ ağac bitkilərinin həyatımızda rolu böyükdür. Dekorativ ağac bitkiləri xoş bədii görünüş yaratmaq üçün müxtəlif növ bitkilərin əkilməsində nəzərdə tutur. Ətraf aləmin estetikasını artırır. Beləliklə, ətraf aləm daha estetik və xoş görünür. İnsanlar bağların, bağçaların, otaqların, ofislərin bəzədilməsində dekorativ bitkilərdən istifadə edir. Dekorativ ağac bitkiləri altında dincəlmək və gəzinti etmək insanlara estetik zövq verir. Dekorativ ağac bitkilərinin bir çox faydaları vardır və tədris zamanı təhsil alanlara aşağıdakı xüsusiyyətləri çatdırmaq faydalıdır.

Estetik cəlbedici: dekorativ bağlar müxtəlif rəng palitrası və müxtəlif bitkilərlə vizual görüntü yaradır. Dekorativ ağaclar ətraf aləmlə bütünləşərək gözəl estetika bəxş edir. Yazda ağacların çiçəkləri, onların iyiləri və ya payızda yarpaqların al-əlvanlığı, xəzəl hadisəsi, ayağımızın altında yarpaqların xışıltı səsi, qışda ağacların xüsusi gözəlliyi və s. estetik zövq verir və insanarın ruhu dincəlir. Təbii ki, ağacların gözəlliyi bizi hər an valeh edir. İstər yazda iynəyarpaqlı ağaclarda, istər qönçələr və çiçəklərdə, ya da sulu çətirdə meyvələrin görünməsi olsun.

İqlim tənzimləyizi və hava təmizləyizi: bitkilər karbon qazını oksigenə çevirən ən yaxşı təbii hava filtrləridir. Çoxlu ağac növləri havanın təkrar emalının gücləndirilməsinə kömək edir və atmosferdəki rütubət səviyyələrini tənzimləyir. Ağac bitkiləri havadakı bir çox toksinləri məhv edir.

Sağlamlıq və stressə təsiri: meşələr, parklar bizi daha sağlam edir, əhval-ruhiyyəni yaxşılaşdırır, immun sistemini gücləndirir, qan təzyiqini aşağı salır, yuxunu yaxşılaşdırır, enerji səviyyəsini artırır, ağciyərlərə yaxşı təsir edir, stressi azaldır. Ağac bitkiləri hər zaman insan varlığına sakitləşdirici təsir edir. Təbiətin ilahi gözəlliyi ondan ibarətdir ki, o istənilən narahatlığı və ya mənfi hissləri səssizcə aradan qaldırır. Həmçinin çoxsaylı araşdırmalar göstərir ki, həm meşələrdə idman etmək, həm də sadəcə oturaraq ağaclara baxmaq stresslə əlaqəli kortizol və adrenalin hormonlarını tənzimləyir. Dekorativ ağac bitkiləri meşə və parklarımızda olduqca çoxdur və təbiətlə vaxt keçirmək həmçinin diqqətimizi cəmləməyə kömək edir.

Torpaq eroziyasının qarşısını alır: müxtəlif bitkilər kimi dekorativ əhəmiyyətli ağac bitkiləridə torpağın təməlində tarazlığı saxlamağa kömək edir. Buna görə də dekorativ bağlar möhkəm mənzərəyə sahibdirlər.

Məkan keyfiyyətini yaxşılaşdırır: dekorativ ağaclar təkcə bağçanın estetik cazibəsini yaxşılaşdırmır, həm də yüksək keyfiyyətli məkan təmin edən külək maneələrini dəf edir. Dekorativ ağaclar bir çox orqanizmlər üçün və digər canlılardan qorunmaq üçün yaşayış yeridir.

Təhsil alanlara estetik tərbiyənin aşılanması onların mənəvi tərbiyəsinin də inkişafına kömək edir. Onlara təbiətin gözəlliyi və onun qorunmasının vacib olduğu barədə müəyyən biliklər

verilməlidir. Bu, onların ətraf mühitə dəyər vermələrini və qorumaq üçün ehtiyyatlı olmalarını təmin edəcəkdir. Həmçinin, ekskursiyalara gedərək, estetik tərbiyə ilə əlaqəli məlumatlar verə bilərik.

Estetik tərbiyə, təbiətin gözəllyinə məhəbbət, onu qorumaq, elmə, əməyə və bütövlükdə ətraf aləmə olan məhəbbətdir. (M.Ş.Babayev və M.M.Məcidov, 2005,170).

Estetik tərbiyə əmək tərbiyəsi ilə birbaşa bağlıdır. Biologiya fənninin tədrisi prosesində təhsil alanlar təbiətə, əməyə və insana məhəbbət ruhunda tərbiyə olunmalıdır. Ümumiyyətlə, əxlaqi tərbiyə etmək və hər tərəfli maarifləndirmək bütün müəllimlərin borcudur. Təbiətə məhəbbət ətraf aləmə məhəbbətdən başlayır ki, bunu da məktəbəqədər yaş dövründən mənimsətməliyik. Ətraf aləmdə baş verən zibillənmə, insanlar tərəfindən təbiətin məhv edilməsi, korlanması və s. təhsil alanlarda idrak hissi doğurmur. Estetik tərbiyə təhsil alanlarda ətraf aləmə, səslərə, rənglərə, mühitdə baş verən gözəlliklərə, dünyanı dərindən anlamağa kömək edir.

Tədris zamanı bunu da qeyd etmək lazımdır ki, parkların bəzədilməsində dekorativ ağac bitkilərindən ən məşhur seçimlərdən iynəyarpaqlıları misal göstərmək olar. Bunlara ağcaqayın, söyüd, göyrüş, çinar, cökə, tozağacı, sərv, ardıc, küknar və s. aiddir. Yaşıllaşdırma işlərində bu ağaclar xoş estetik zövq verir. Gözəl görünüşləri ilə insanları valeh edir. Yarpaq formasına görə, budaqlarına görə fərqlənirlər.

Ağcaqayın (*Acer* L.) - Xüsusi görünüşü ilə gözə çarpan ağcaqayın növləri parklarda gözəl görüntüsü ilə maraq mərkəzinə çevrilir. Növünün ölçüsünə və yarpaqlarının rəngi ilə fərqlənir, yəni mənzərə üçün idealdır.

Söyüd (*Salix* L.) - bunlar sürətlə böyüyən ağaclardır. Parklar üçün olduqca uyğundur. Asiya mədəniyyətində sənət əsərlərinin mövzusu olmuşdur. Zərif budaqları və yarpaqları hər hansı park üçün gözəllikdir.

Yapon ağ şamı (*Pinus parviflora*) - Müstəsna gözəllik ağac kimi budaqlarının uclarında gümüşü və mavi iynələri olur və qışda xüsusilə gözəl görünən bir quruluş təqdim edir.

Mavi ulduzlu ardıc (*Juniperus squamata*) - bu ardıc növü ecazkar gözəlliyi ilə seçilir. Mavi rəngi və yerə sarılan budaqları ilə ətraf aləmə estetik gözəllik bəxş edir.

Material və metodlar

Araşdırmalar zaman internet saytları, elmi və pedaqoji ədəbiyyat mənbələri istifadə olunmuşdur.

Müzakirə

Estetik gözəlliyinə görə isə dekorativ ağaclar mühüm yer tutur. Ağacların qorunması təbii ekosistemin qorunması və sağlam inkişaf üçün ən vacib məsələlərdən biridir. Tədris prosesində dekorativ əhəmiyyətli ağacları necə qoruyacağımız barədə məlumat vermək daha məqsədəuyğun olar. Bu baxımdan ağacları qorumaq üçün bir sıra tədbirlər alınmalıdır. Bunlardan ən əhəmiyyətlisi ətraf mühit təmizliyidir. Kimyəvi maddələr və ya digər təbii olmayan maddələr ağacların həyatına mənfi təsir edir. Digər məsələ ağacların yetəri qədər su ilə təmin olmamasıdır. Quraqlıqların artması birbaşa bitkilərə təsir edir və zamanla bitkilər tələf olur. Buna görə də susuz qalan ağacları su ilə təmin etmək lazımdır. Əlavə olaraq, ağacların kütləvi kəsilməsi prosesi də ağacların inkişafına təsir edir. Yeni tikililər ağacların yerini tutmaması, inkişaf mühitinin qorunması vacibdir.

Ağac bitkilərində estetik tərbiyə mövzusu bitkilərin gözəlliyinin və məhsuldarlığının artırılması üçün əhəmiyyətli bir məsələdir. Bu əsasən parklarda, bağlarda və ictimai yerlərdə tətbiq edilir. Dekorativ ağac bitkilərinin tədrisində estetik tərbiyənin aşılanması zamanı əsasasən ağacların doğru formada kəsilərək təmizlənməsi və müxtəlif formalara salınması, onlara qulluq və s. gözəlliyinin artırılmasıdır. Bu iş üçün dekorativ ağac bitkilərinin həyat formasına, növünə, rənginə, hündürlüyünə əhəmiyyət verilir.

Əldə olunan nəticələr

Estetik tərbiyəni aşılayan zaman ağac bitkilərinin gözəlliyindən və ətraf aləmə necə təsir etdiyindən bəhs etmək tədris zamanı, təhsil alanların intellektual səviyyələrini artırır. Onların estetik anlayışını inkişaf etdirərək, təbiətin gözəlliyi ilə daha yaxından tanış olmaqlarına kömək edir. Məsələn, təhsil müəsssisələrində bitki bağçaları yaradılması, ətraf mühit təmizliyi və ya bitkilərin

qorunması barədə təlimlərin keçirilməsi kimi tədbirlər həyata keçirmək təhsil alanların dünyagörüşünü də formalaşdırmış olur.

Təhsil alanlarda estetika və mənəvi dəyərləri formalaşdırmaq, özünəgüvən bacarığını da formalaşdırmaq deməkdir. Estetik tərbiyə yalnız gözəlliyi duymaq deyil, həmçinin təhsil alan gənclərdə təfəkkürlərini formalaşdıraraq gözəlliyi yaratmaq bacarığını üzə çıxarmaqdır.

ƏDƏBİYYAT

1. M.Ş.Babayev, M.M.Məcidov. biologiyanın tədrisi metodikası (Ali məktəblər üçün dərs vəsaiti), Bakı: “NURLAR” Nəşriyyat Poliqrafiya Mərkəzi, 2005, s.170

SUMMARY

Aysun Huseynlı

ABOUT AESTHETIC EDUCATION IN THE TEACHING OF TREE FORMED DECORATIVE PLANTS

The article talks about teaching tree-shaped decorite plants. Information on inculcating aesthetic education during teaching was given. The knowledge important in inculcating aesthetic education is mentioned here. In the teaching process. Information about the role of decorative tree-shaped plants in human life is given ample space. So, health effects, erosion to emphasizing to role of aestthetic education in the study of deceroative plants, decorative tree plants were also discussed.

Key words: *Teaching, aesthetic education, decoritive, tree, plant.*

GÜLÜM MƏMMƏDOVA
gulummemmedova4138@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0001-0434-7736

BOTANİKANIN TƏDRİSİNDƏ "DƏRMAN BİTKİLƏRİ" ÖYRƏDİLMƏSİ ZAMANI ƏYANİLİK PRİNSİPİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ (VI SİNİF MATERİALLARI ÜZRƏ)

Məqalədə orta məktəbin botanika kursunun dərman bitkilərinin tədrisindən bəhs olunur. Dərsin motivasiya mərhələsində şagirdlərin diqqətini cəlb etmək üçün dərman bitkiləri haqqında maraqlı hekayə də danışılır. Burada dərman bitkilərinin yabanı və mədəni qruplarına dair məlumatlar da verilmişdir. Həmçinin burada dərman əhəmiyyətli bitkilərin kimyəvi tərkibindən, onların insan həyatındakı roluna dair biliklər də qeyd olunmuşdur.

Aparılan tədqiqatlar nəticəsində və ədəbiyyat məlumatlarına əsasən dərman bitkilərinin tədrisi zamanı slaydlar, herbarilər kimi əyani vasitələrdən istifadə zamanı şagirdlərin mövzunu daha asan və yadda qalan şəkildə mənimsəməsi haqqında məlumat verilmişdir. Burada təhsilalanların mövzu haqqında məlumatları bütün analizatorları vasitəsi ilə qavaramasının onlardakı diqqət dağınıqlığının qarşısını almağa kömək etdiyini nəzərə çatdırılmışdır. Həmçinin məqalədə dərman bitkilərinin tarixi, tibbi əhəmiyyəti və qiymətli ədviyyə bitkiləri kimi mədəni florada da becərildiyi göstərilmişdir.

Açar sözlər: *Botanika, əyanilik, dərman bitkiləri, tədris, kimyəvi tərkib*

Giriş

Orta məktəblərdə Botanikanın tədrisində dərman bitkilərinə də yer verilmişdir. Dərman bitkilərinin rolu insan həyatında çox böyükdür.

2019-cu ildə nəşr olunan bir məqalədə insan genindəki təbii ölüm yaşının 38 il olduğu deyilib. Hal-hazırda insanların daha uzun ömür yaşamasının səbəbi isə mədəniyyətin, elmin və texnologiyanın inkişafı əsasında düzgün dərman preparatlarından istifadə ilə xəstəliklərin spesifik müalicəsi, təmiz qidaya, həmçinin yaşayış üçün vacib olan hər şeyin əlçatan olması hesabına baş verir.

Orta məktəbin 6-cı sinif biologiya kursunun maraqlı mövzularından biri də dərman bitkilərinə aiddir. Bu mövzunun tədrisi zamanı müəllim üçün çətin mərhələ sayılan motivasiya mərhələsində şagirdlərin diqqətini çəkmək və onlarda mövzuya qarşı maraq yaratmaq üçün onlara şifahi metodun nağıletmə növündən istifadə edərək aşağıdakı kiçik bir hekayəni - əfsanəni şərh etmək olar:

Danışılan hekayə XVI yüzilin ən tanınmış alimlərindən biri həkim, kimyaçı, fəlsəfə daşının sahibi olaraq tanınan farmakologiyanın atası hesab edilən Paracelsus (Parasels) haqqındadır. Bu adı özü özünə vermişdir. Mənası Celsusdan üstün (Celsus – dövrünün ən məhşur Roma həkimi idi) deməkdir. Tarixdə bu böyük alimin yandırılaraq öldüyü deyilsə də, əfsanəyə görə o, bitkilərlə ölümsüzlüyü tapmışdı. Paraselsin fikrincə, hər şeyin çarəsi təbiətdə idi. O düşünürdü ki, təbiətdə müalicəsi olmayan heç bir xəstəliyi tanrı insana düçar etmir. Onun gözündə hər şey miqdarından asılı olaraq, həm dərman, həm də zəhər ola bilərdi. Onun bu haqda dediyi – "Hər şey zəhərdir, vacib olan onun dozasıdır" fikri hələ də aktualdır. Onun haqqında yayılan bu əfsanənin onun qəbir daşındakı yazıyla əlaqəli olduğunu və bu yazının bu əfsanəni doğruladığı düşünülür. Qəbir daşındakı yazı belə idi: "VİTAM CUM MORTE MUTAVİT- Ölümlə həyatı dəyişdirdi." (Arık.T, 2014) Bu hekayəni danışarkən həm də şagirdlərə Paraselsin şəkillərini və onun apardığı təcrübələri slaydlarla təqdim etmək şagirdlərin mövzuya qarşı marağını artırmaqda daha əhəmiyyətli yol olar. Bu mərhələdə həmçinin əlavə məlumatlar verməklə fənlərarası əlaqə yaratmaq və şagirdlərdə dünyagörüşünü artırmaq mümkün ola bilir. Bunun üçün aşağıdakı əlavə məlumatları şagirdlərin nəzərinə çatdırmaq

daha faydalı olar. Hekayədə adı keçən Parasels təkcə farmakologiyanın atası kimi deyil, həmçinin kimya elminə gətirdiyi nailiyyətlərlə də tanınmışdır. O, stibium, sink elementini kəşf etməklə yanaşı metallar haqqında da böyük kəşflər edərək kimya elminin tarixinə də adını yazmışdır. Bir əfsanəyə görə o evlənmədi və tək qalmamaq üçün də Villanovanın "HOMONCULUS" təcrübəsi əsasında özünə balaca insan dostları yaratdı və hal-hazırda da dünyanın bir yerində onlarla birlikdə yaşamağa davam edir(Arık.T,2014). O, demişdir: "Həqiqəti qəlbimizdə tapsaq, dünyada bizim üçün mümkünsüz heç nə olmayacaq." O, bu düşüncələri ilə ölümsüzlüyün dərman əhəmiyyətli bitkilər hesabına mümkün ola biləcəyi fikirlərini insanlara çatdırmış oldu.

Tədqiqat sualını aşağıdakı kimi qoyaraq şagirdlərdə aktual problemlərə qarşı fərqli baxış formalaşdırmaq mümkündür:

Müasir dövrdə dərman bitkilərindən istifadə olunması zamanı hansı problemlər baş verə bilər? Dərsin ümumiləşdirmə və nəticələrin çıxarılması mərhələsində mövzudakı əsas məlumatları şagirdlərin nəzərinə çatdırmaq daha məqsədəuyğundur:

Hələ eramızdan 6000-8000 il əvvvəl Şumerlərin, Vavilonların, Assuriyalıların işlətdikləri dərman bitkiləri haqqında məlumatları Misirlilər, Yunanlar, Romalılar,Çinlilər və Tibetlilər mənimsəmişlər (Talıbov T.H., İbrahimov Ə.Ş. və b., 2014). Bu gün alimlər dünya xalqları tərəfindən 21 min növ bitkinin müalicə məqsədilə istifadə edildiyini müəyyənləşdirmişlər (Əhmədbəyli.X. və b.,2017). Florada dərman bitkilərinin ağac, kol və otşəkilli formaları var. Tədris zamanı slaydlar vasitəsi ilə şagirdlərə dərman əhəmiyyətli bitkilərin yabanı və mədəni qrupları haqqında məlumat verilir. Yabanı dərman bitkiləri florada bitsə də mədəni formalar insanlar tərəfindən becərilir. Yabanı dərman bitkilərinə itburnu (Rosa L.), yemişan (Cratageus L.), moruq (Rubus L.), sürvə (Salvia L.), kəklikotu (Thymus L.), andız (Juniperus L.), çobanyastığı (Matricaria L.), çöl qatırquyruğu (Equisetum arvense L.), bağayarpağı (Plantago L.) kimi bitkilər misal göstərilmişdir. Bundan başqa dəman bitkiləri haqqında əlavə məlumat verərək şagirdlərin biliklərini genişləndirmək olar. Çöl qatırquyruğunun tərkibində C vitamini, qlükozid, alkaloid, qətran və aşı maddələr yüksək miqdarda mövcuddur. Bu bitkidən həzm,tənəffüs sisteminin,qadın xəstəliklərinin müalicəsində,və revmatizm,iltihab prosesləri zamanı geniş istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Antihelmint, sidikqovucu, yarasağaldıcı, qansaxlayıcı və iltihab proseslərinə qarşı təsirə malikdir (Mehdiyeva.N.Ə.,2011). Dərman bitkilərinə aid şəkillər, herbari nümunələri, slaydlar nümayiş olunmaqla onların əhəmiyyəti qeyd olunması daha faydalı olar. Kəklikotu bitkisindən ürək-damar, anemiya, dəri, sinir, mədə-bağırsaq və s. kimi xəstəliklər zamanı istifadə edilməsi haqda məlumatlar verilir. Yemişan (Crataegus L.) qan təziqi zamanı və ürək xəstəliklərində, sinir sisteminin tənzimlənməsində əzələ və yaddaş zəifliyi zamanı istifadə olunur. Mədəni bitki kimi aşağıdakı dərman bitkiləri dərslikdə qeyd olunmuşdur. Bunlar zəfəran (Crocus L.), nanə (Mentha L.), boranı (Cucurbita L.), gülümbahar(Calendula L.) və s.-dir. Əlavə olaraq, bu bitkilərin tərkibi, dərman əhəmiyyəti haqqında məlumat verməklə şagirdlərin mövzu haqqında biliklərini daha da genişləndirmək olar.

Tədris zamanı maraqlı olsun deyə slaydlar və digər əyani vasitələrlə ədviyyat əhəmiyyətli bitkilərin dərman xüsusiyyətindən də bəhs etmək faydalı olar. Bu baxımdan aşağıdakı biliklər verilir: Müasir dövrdə qida və ədviyyat kimi istifadə olunan bir çox bitki növləri qədim dövrlərdən dərman kimi istifadə edilmişdir. Farmakoloji cəhətdən aktiv ədviyyatlar qidanın xarab olmaması və bakteriyalardan qorunması məqsədilə yeməklərdə (xüsusən də ət yeməklərində) istifadə olunur. Farmokoloji ədvviyyatlardan biri olan sarıkökün (Curcuma L.) tərkibində kurkumin maddəsi vardır. Diabetin müalicəsində, orqanizmi toksinlərdən təmizləmək üçün, anemiya, mədə-bağırsaq sistemindəki iltihablar zamanı istifadə olunur. Sarıkök qaraciyərin funksiyasının bərpası zamanı və güclü ödqovucu təsiri olduğu üçün öd daşı xəstəlikləri zamanı istifadə olunur. Bu bitkilər asan əldə olunan və ucuz mailiyyətli olduğundan sənayeləşməmiş ölkə və şəhərlərdəki insanlar tərəfindən geniş istifadə olunur. Ancaq bu cür kortəbii və kütləvi yığımlar, iqlim dəyişiklikləri, yaşayış mühitlərinin zəbti bu bitkilərin növ sayının azalmasına və hətta bəzi növlərin yoxa çıxmasına gətirib çıxarır.

Material və metodlar

Araşdırma zamanı elmi, pedaqoji ədəbiyyat və internet saytlarından istifadə olunmuşdur. Həmçinin pedaqogikanın müzakirə və müşahidə metodlarına istinad edilmişdir.

Müzakirə

Dərman bitkilərinin müalicəvi xüsusiyyətləri qədim dövrlərdən kəşf olunmuş və əhali arasında geniş istifadə olunmağa başlamışdır. Dərman bitkilərinin bu müalicəvi xüsusiyyətləri tərkibində olan və ifraz etdikləri maddələr hesabına mümkün olur. Bitkilər bu maddələri müxtəlif ziyanevricilərdən, həşəratlardan və otyeyən heyvalardan qorunmaq məqsədilə ifraz edir.

Belə funksiyalara görə bitkilərin tərkibində yüzlərlə kimyəvi birləşmələr sintez olunur. Bu cür dərman əhəmiyyətli bitkilərin tərkibində müxtəlif kimyəvi birləşmələr mövcuddur. Bu birləşmələr polifenollar, alkaloidlər, terpenlər və qlikozidlər olmaqla 4 biokimyəvi qrupda toplanmışdır. İndiki dövrdə müasir elmi təbabət və xalq təbabəti birləşib "fitoterapiya" adlanan yeni sahənin ölkəmizdə inkişafına şərait yaratmışdır. Fitoterapiya kimyəvi tərkibcə aktiv olan dərman bitkiləri ilə aparılan müalicə üsuluna deyilir.

Əldə olunan nəticələr

Nəticə olaraq qeyd etmək lazımdır ki, tədris prosesində əyanilikdən istifadə mühüm əhəmiyyət kəsb edir. Bu metodla şagirdlər məlumatları bütün analizatorları vasitəsilə mənimsəyir ki, bu da onlarda biliklərin daha dərindən qavranılmasını və diqqət dağınıqlığının qarşısının alınmasını təmin edir. Təlim zamanı bu cür əyani vasitələrin nümayişi şagirdlərdə estetik və ekoloji tərbiyənin formalaşmasını asanlaşdırır.

ƏDƏBİYYAT

1. Arık.T, Paranoya. Sokak kitapları yayıncılık, 2014. s.412-413
2. Babayev M.A, Həsrət.A.İ. Biologiya lüğəti. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2011. s.480
3. Əhmədbəyli.X, Əliyeva.N, Seyidli.Y, 6-cı sinif Biologiya dərslik, "Bakı" nəşriyyatı, 2017, s.160.
4. Əhmədbəyli.X, Əliyeva.N, Seyidli.Y, 6-cı sinif Biologiya dərsliyinin metodik vəsaiti, "Bakı"nəşriyyat, 2021. s.133-135
5. Mehdiyeva.N.Ə, Azərbaycanın dərman florasının biomüxtəlifliyi, Bakı: "Letterpress" nəşriyyat evi 2011.s.188
6. Talıbov T.H., İbrahimov Ə.Ş, İbrahinov Ə.M, Ələkbərov R.Ə, İsmayılov A.H, Quliyev V.B, Qurbanov Ə.K, Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri, Naxçıvan: Əcəmi, 2014, 432 s.
7. Влияние растений на живые организмы и человека в среде его обитания. Монография /Н.Н. Лысенко, М.А. Догадина, Н.К. Плешкова. –Орел: Изд-во Орел ГАУ, 2010. – 264 с.
8. Целебные растения России с давних времен. Издательство «Арнебия» Москва: 2012, 656 с.

SUMMARY

Gulum Mammadova

ISSUES OF APPLYING THE PRINCIPLE OF VISUALITY DURING THE TEACHING OF "MEDICINAL PLANTS" IN THE TEACHING OF BOTANY. (ON VI GRADE MATERIALS)

The article talks about the teaching of medicinal plants in the high school botany course. In the motivation phase of the lesson, an interesting story about medicinal plants is also told to attract the attention of students. Information on wild and cultivated groups of medicinal plants is also given here. Also, knowledge about the chemical composition of medicinal plants and their role in human life is mentioned here.

As a result of the conducted research and based on literature data, it was reported that when using visual aids such as slides and herbariums during the teaching of medicinal plants, students master the subject in an easier and more memorable way. Here, it was noted that students' comprehension of information about the subject through all their analyzers helps to prevent them from being distracted. The article also shows the history, medical importance of medicinal plants and their cultivation in cultivated flora as valuable spices.

Key words: *Botany, visibility, medicinal herbs, training,chemical composition*

ŞƏRMİN HÜSEYNƏLİYEVA
huseynlishermin@gmail.com
Naxçıvan Dövlət Universiteti

PAXLALIKİMİLƏR (*FABACEAE* JUSS.) FƏSİLƏSİNİN RƏSMİ DƏRMAN BİTKİLƏRİ

Naxçıvan Muxtar Respulikası florasında aparıcı fəsilələrdən biri də Paxlalıkimilər -Fabaceae Juss. *fəsiləsidir. Regionun ərazisində bu fəsilə 47 cins və 262 növlə təmsil olunmuşdur. Fəsilə bitkiləri arasında digər təsərrüfat əhəmiyyətli növlərlə yanaşı, müalicəvi dərman bitkilərinə də rast gəlinir. Məqalədə ədəbiyyat mənbələrinə və aparılan tədqiqatlara əsasən Naxçıvan Muxtar Respublikası ərazisində yayılan paxlalıkimilər fəsiləsinin rəsmi dərman bitkiləri haqqında qısa məlumatlar verilir.*

Açar sözlər*: *Flora, paxlalıkimilər fəsiləsi, cins, rəsmi dərman bitkiləri

Giriş

Naxçıvan Muxtar Respublikası coğrafi mövqeyi, relyefi, özünəməxsus zəngin florası və bitki örtüyü ilə diqqəti cəlb edir. Son floristik və taksonomik araşdırmalardan məlum oldu ki, muxtar respublikanın florası 160 fəsilə və 910 cinsdə cəmlənmiş 3021 ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitki növləri ilə təmsil olunur (Talıbov 2014, 245; İbrahimov 2014, 245; Talıbov 2021). Naxçıvan Muxtar Respulikası florasında aparıcı fəsilələrdən biri də Paxlalıkimilər -*Fabaceae* Juss. fəsiləsidir. Regionun ərazisində bu fəsilə 47 cins və 262 növlə təmsil olunmuşdur (Talıbov və b., 2021). Fəsilə bitkiləri arasında digər təsərrüfat əhəmiyyətli növlərlə yanaşı, müalicəvi dərman bitkilərinə də rast gəlinir.

Material və metodlar

İşin yerinə yetirilməsində flora və bitki örtüyünün öyrənilməsində ümumi qəbul olunmuş floristik, sistematik, ekoloji, coğrafi, geobotaniki, bitki ehtiyyatları üsullarından, A.A.Qrossheymin “Флора Кавказа”, “Флора Азербайджана”, digər çox saylı təyinedicilərdən, Türkiyə florasından həmçinin Azərbaycan botaniklərinin əsərlərindən, metodiki göstərişlərindən istifadə edilmişdir (1, 2, 4, 5, 6, 7, 8, 9).

Müzakirə

Ərazi florasında elmi təbabətdə və xalq təbabətində geniş istifadə olunan 750-800 növ dərman bitkisi vardır. Onların 132-si müxtəlif illərdə rəsmi dərman bitkiləri kimi Dövlət Farmakopeyasına daxil edilmişdir. Paxlalıkimilər fəsiləsinin növlərindən də bir çoxu təbii ehtiyatı bol olan, qiymətli texniki-dərman bitkiləridir. Hər il onlardan yüz tonlarla dərman xammalı tədarük edib, müxtəlif dərman vasitələrini istehsal etmək mümkündür. Bu cəhətdən kitrəli gəvən növləri, çılpaq şirin biyan, adi yağtikan, dərman xəşənbülü, acı biyan, əkin paxlakolu (ononis) və b. daha çox faydalıdır (İbrahimov Ə.Ş., və b., 2009). Naxçıvan Muxtar Respublikası florasında Paxlalıkimilər fəsiləsinin aşağı göstərilən nümayəndələri Dövlət Farmakopeyasının rəsmi dərman bitkiləri siyahısına salınmışdır:

Astragalus microcephala - Xırdabaşlıqlı paxaladən, *Glycyrrhiza glabra* L. - Çılpaq (tükcüksüz) biyan, *Ononis arvensis* L.- Əkin ononisi, *Melilotus officinalis* (L.) Desr.- dərman xəşənbülü, *Glycyrrhiza echinata*- L. -kələkötür biyan (Talıbov T.H., və b., 2014).

Bu növlərin adları son müasir Beynəlxalq təsnifat sistemlərinə əsasən verilmişdir (10, 11).

Regnum-*Plantae*
Divisio-*Tracheophyta*
Classis-*Magnoliopsida*
Ordo- *Fabaceae*
Familia- *Fabales*

Əldə olunan nəticələr

Aparılan tədqiqatlara və ədəbiyyat mənbələrinə əsasən müəyyən edilmişdir ki, Paxlalıkimilər fəsiləsinin ərazi florasında olan 9 cinsə daxil olan 12 növü dərman əhəmiyyətlidir. *Alhagi* Tourn. ex Gagnebin cinsinin -1 növü, *Lathyrus* L. -1, *Lotus* L. -1, *Ononis* L. - 1, *Trifolium* L.-2, *Coronilla* L.-1, *Colutea* L.-1, *Medicago* L.-1, *Melilotus* Mill. -1, *Glycyrrhiza* Tourn. ex L. -2 növ.

Fəsilənin bu nümayəndələri Dövlət Farmakopeyasının rəsmi dərman bitkiləri siyahısına salınmışdır: *Astragalus microcephala* Willd. - Xırdabaşlıqlı paxaladən, *Glycyrrhiza glabra* L. - Çılpaq (tükcüksüz) biyan, *Ononis arvensis* L.- Əkin ononisi, *Melilotus officinalis* (L.) Pall. - dərman xəşənbülü, *Glycyrrhiza echinata* - L. -kələkötür biyan (Talıbov T.H., və b., 2014).

ƏDƏBİYYAT

1. Abbasov N.K. Naxçıvan Muxtar Respublikasının yay otlaqlarında Qurdotu (Lotus L.) cinsinə daxil olan növlərin bioekoloji xüsusiyyətləri və onların yem əhəmiyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Təbiət və texniki elmlər seriyası, Naxçıvan: Tusi, 2011, № 4, s. 170-179.
2. Azərbaycanın biçənək və otlaqlarının yem bitkiləri. II c., Bakı: Azərbaycanın SSR Elmlər Akademiyası Nəşriyyatı, 1969, 162 s.
3. İbrahimov Ə.Ş., Nəbiyeva F.X., Abbasov N.K. Paxlalılar fəsiləsinin dərman bitkiləri // Azərbaycan Respublikası Təhsil nazirliyi, NDU-nun Elmi əsərləri, Təbiət elmləri və tibb seriyası. Naxçıvan: 2009, № 1(26), s. 17-23
4. Talıbov T.H., İbrahimov Ə.Ş., və b. Naxçıvan Muxtar Respublikasının rəsmi dərman bitkiləri. Naxçıvan: "Əcəmi" Nəşriyyat - Poliqrafiya Birliyi, 2014, 466 s.(30 xəritə)
5. Tariyel Talıbov, Əliyar İbrahimov, Ənvər İbrahimov. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər) (II nəşr), 2021, 426 s.
6. Turkiyə florası atlası (Atlas Florae Turciseae.). Prof.Dr. Betul Tutel, Fen fakultesi basmaevi, İstambul, 1993, Fasicül: 5-7
7. Гроссгейм А.А. Флора Кавказа. Т.V. Изд. АН СССР. М.Л., 1952, 455
8. Флора Азербайджана. Том V. Изд. АН.Азерб. ССР. Баку: 1954, 579 с.
9. https://www.worldfloraonline.org
10. https://www.catalogueoflife.org

SUMMARY

Sharmin Huseynaliyeva

OFFICIAL MEDICINAL PLANTS OF LEGUMES (FABACEAE JUSS.)

One of the leading plants in the flora of Nakhchivan Autonomous Republic is legumes - Fabaceae Juss. is a family. In the territory of the region, this family was represented by 47 genera and 262 species. Along with other economically important species, medicinal medicinal plants are also found among seasonal plants. The article provides brief information about the official medicinal plants of the leguminous family distributed in the territory of the Nakhchivan Autonomous Republic based on literature sources and conducted research.

Key words: *Flora, Legume famıly, genus, official medicinal plants*

ENZALƏ NOVRUZOVA

İZZƏT NAMAZOVA
ismixanli71@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0000-5438-9734

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ŞAHBUZ RAYONU ƏRAZİSİNDƏ YAYILAN QIRXBUĞUMKİMİLƏR FƏSİLƏSİNƏ AİD NÖVLƏRİN İSTİFDƏ İSTİQAMƏTLƏRİ

Məqalədə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan qırxbuğumkimilər fəsiləsinin bir neçə növünün istifadə sahəsi haqqında məlumat verilir. Aparılan tədqiqatlar zamanı Naxçıvan Muxtar Respublikası ərazisində yayılan Qırxbuğumkimilər fəsiləsinin 10 cinsinə aid 39 növlə təmsil olunur (1, 2) və onların Şahbuz rayonu ərazisində yayılan növlərinin qida, dərman, dekorativ və boya əhəmiyyəti barədə məlumat verilir.

Açar sözlər: *Qırxbuğumkimilər, polygonaceae, boya, qida əhəmiyyəti, dərman əhəmiyyəti*

Giriş

Qırxbuğumkimilər fəsiləsi bitkiləri özünün növ sayının miqdarı və əhəmiyyətinə görə digər fəsilə bitkilərindən seçilirlər. Fəsiləyə daxil olan və xalq təbabətində qədim zamanlardan istifadə edilən qırxbuğum, əvəlik və rəvənd cinslərinə daxil olan bitki növləri tətbiq sahələrinə görə də məşhurdurlar. Fəsilə bitkilərinin demək olar ki, əksəriyyəti vitaminli, aşı maddəli faydalı bitkilərdir [1, s. 72].

Material və metodika

Tədqiqatlar 2022-ci ildən başlamışdır. Tədqiqatın obyekti Naxçıvan MR-in Şahbuz rayonu ərazisi, material kimi isə *Polygonaceae Juss.* – Qırxbuğumkimilər fəsiləsinə daxil olan növlər götürülmüşdür.

Tədqiqatın nəticələri

Şahbuz rayonunun florasında geniş yayılan fəsilələrdən biri də Qırxbuğumkimilər (*Polygonaceae Juss.*) fəsiləsidir. Qırxbuğumkimilər fəsiləsinə daxil olan növlər xalq təbabətində, kulinariyada, elmi, praktiki, eksperimental, eləcə də farmokologiyada, boyaqçılıqda və homeopatiyada geniş istifadə edilir. Bitkilərin müxtəlif hissələri, yarpaqları, gövdəsi, toxumları və köklərindən istifadə edilir.

Qırxbuğumkimilər fəsiləsinin Şahbuz rayonu ərazisində *Calligonum L.* – Cuzğun, *P.amphibia* (L.) S.F. Gray (Polygonum amphibia L.) – Su qırmızıbaşı, *B.carnea* (C.Koch) Kom. (Polygonum carneum C.Koch) – Ətrəng bistort, *P.lapathifolia* (L.) S.F. Gray (Polygonum nodosum Pers.) - Buğumlu qırmızıbaş, *A.alpinum* (All.) Schur (Polygonum alpinum All.) – Alp alkoqonu, *P.aviculare* L. (P.heterophyllum Lindm.) – Quş qırxbuğumu, *R.ribes* L.Kuntze – Qarağat rəvəndi, *R.turkestanicum* Janisch.(R.rupestre Litw.) – Türkmənistan rəvəndi, *R.acetosa* L. – Adi əvəlik, *R.acetosella* L. – Turşəng əvəlik, *R.alpestris* Jacq. (R.arifolius All.) – Dağ əvəliyi, *R.crispus* L. – Qumral əvəlik, *R. patientia* L. – Şomu əvəlik, *R.pulcher* L. – Gözəl əvəlik, *R. obtusifolius* L. subsp. subalpinus (Schur) Celak. – Kütyarpaq əvəlik kimi nümayəndələri yayılmışdır. Növlərin istifadə istiqamətləri aşağıda göstərilmişdir.

Calligonum L. – Cuzğun – Qönçələri və toxumları yeyilir. Toxumları, adətən, çiy yeyilir. Qum təpələrini sabitləşdirmək üçün istifadə olunur, torpağın münbitliyini artırır. Qaynadıldıqdan sanra bitkinin həlimi qarqara kimi diş ətlərinin müalicəsində istifadə olunur. Kökləri və qalın budaqları yanacaq kimi istifadə olunur. Bitki həlimi heyvanlarda sidik problemlərini müalicə etmek üçün istifadə olunur. Çiçək qönçələri bədənə soyuducu effekt verir və günəş vurmasını müalicə edir.

Çiçəklər həzm sistemini gücləndirən çoxlu miqdarda zülallarla zəngindir və spesfik xüsusiyyəti astma, öskürək və soyuqdəyməyə qarşı faydalıdır. Tibdə eqzamanın müalicəsində istifadə olunur. Cuzğun flavonoidlərlə (çiçəklər, qönçələr, toxumlar və gövdələr), alkoloidlərlə (kök, çiçəklər, qönçələr və toxumlar), zülalarla (çiçəklər və toxumlar), tanin, steroidlər, fenollar, karbohidratlar və terpenoidlərlə (kök, gövdə, qönçələr, çiçəklər və toxumlar) zəngindir. Köklərdə efir yağları 68,42 % - 82,12 % aralığındadır. *C.polygonoides* L. – Qırxbuğum cuzğun – müalicəvi xüsusiyyətləti ilə tanınır. Qırxbuğum cuzğunun çiçəklərinin dəmləməsi öskürək və astmaya faydalıdır. Səhralarda dəvə yemi və qum sürüşmələrinin qarşısını alır.

P.amphibia (L.) S.F. Gray (Polygonum amphibia L.) – Su qırmızıbaşı –su kənarlarında dayaq əmələ gətirir. Bitkinin müxtəlif hissələri dərman vasitəsi kimi istifadə edilir.

B.carnea (C.Koch) Kom. (Polygonum carneum C.Koch) – Ətrəng bistort – tərkibində aşı maddələri, katexinlər, fenol və onun törəmələri, ellaq turşuları, para-kumarin və digər maddələr vardır. Proteinlə zəngindir. Dərman əhəmiyyətli bitkidir. Büzücü və orqanizmi möhkəmləndirən dərman bitkisidir. Kökümsovundan ishal, bağırsağın xroniki xəstəlikləri, burun-qulaq-boğaz xəstəliklərinin müalicəsində istifadə edilir. Büzücü, qankəsici və iltihabsorucu xassəyə malikdir. Stomatologiyada gingivit, stomatit, xroniki tonzillit və digər ağız boşluğu xəstəliklərinin müalicəsində istifadə olunur. Ətrəng bistort həm də yem bitkisi kimi istifadə edilir. Bitki silos kimi də tədarük edilir.

P.lapathifolia (L.) S.F. Gray (Polygonum nodosum Pers.) - Buğumlu qırmızıbaş – alaq otudur. Bitki xərçəng xəstəliyinin müalicəsində istifadə olunur.

A.alpinum (All.) Schur (Polygonum alpinum All.) – Alp alkoqonu – həm qida, həm də yem əhəmiyyəti vardır. Cavan zoğları soyularaq yeyilir və turş dada malikdir. Zoğları salatlara, kətəyə, qutaba və ət yeməklərinə əlavə edilir. Mədə-bağırsaq və sinir sistemi xəstəliklərinin müalicəsində, büzüşdürücü və tonuslandırıcı kimi kök və kökümsovların dəmləmə və cövhərlərindən istifadə edilir. Gövdə, yarpaq və digər yerüstü hissələrindən alınan ekstrakt ishal, vərəm, öskürək və sinqa əlehinə işlədilir.

P.aviculare L. (P.heterophyllum Lindm.) – Quş qırxbuğumu – həm qida həm də quşların qidasını təşkil edir. Onun kökündən və gövdəsindən mavi, sarı və yaşıl rənglər alınır. Çeynənməyə davamlı olduğu üçün idman sahələrində istifadə edilir. Dəmləməsi və maye ekstraktı uşaqlıq qanaxmalarında, babasil qanaxmalarında, usaqlığın iltihabında və s. xəstəliklərin müalicəsində istifadə edilir. Bitkinin tərkibində avikularin flavonoidi, karotin, silisium birləşmələri, askorbin turşusu, aşı maddələri və s. vardır.

R.ribes L.Kuntze – Qarağat rəvəndi – aşı, boyaq və dərman əhəmiyyətinə malik bitkidir. İnsanlar tərəfindən həm tibbi məqsədlər üçün, həm də qida kimi istifadə edilir. Bitkinin tərkibi C vitamini, dəmir, sink, kalsium, kalium, maqnezium, natrium, fosfor və xam liflə zəngindir. Qarağat rəvəndi ənənəvi təbabətdədə çox istifadə edilir. İshal, qusma, həzmsizlik, hemoroid, sidik iltihabı, qızılca və çiçək xəstəliyini bitkinin üst hissələrindən, diabet, böyrək daşları, hipertoniya, piylənmə, xora, bağırsaq parazitləri, anemiya, anoreksiya, depresiyya və narahatlıq zamanı bitkinin köklərindən istifadə edilir. Qarağat rəvəndinin cavan zoğlarından müxtəlif yeməklərin hazırlanmasında istifadə olunur. Bitkinin kökümsovundan boyaq maddəsi alınır. Bu məhlulddan gön-dəri sənayesində aşılayıcı maddə kimi istifadə edilir.

R.acetosa L. – Adi əvəlik – qida, boyaq, dərman və qida əhəmiyyəti vardır. Bitkinin tərkibində antraxionlar, yarpaqlarında aloe-emodin, yerüstü hissəsində orientin, avikularin, izoorientin, C vitamini, B_1, B_2, K, E və PP vitaminləri, flavonoidlər, karotin və s. maddələr vardır. Adi əvəliyin yarpaqlarından tərəvəz kimi istifadə edilir. Qurudulmuş əvəlik yarpaqları qışda müxtəlif yeməklərdə istifadə edilir. Əvəliyin yerüstü hissələrindən infeksion xəstəliklərdə, yaraların sağaldılmasında və qeyri-spesfik poliartritdə istifadə edilir. Yarpaqlarının dəmləməsi qanaxmalarda, şişlərin müalicəsində, sarğı kimi dəri xəstəliklərində, sidik tutulmalarında istifadə olunur. Meyvələrindən alınan ekstrakt büzüşdürücü, qankəsici kimi işlədilir.

Nəticə

Aparılan tədqiqatlar zamanı Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində yayılan Qırxbuğumkimilər fəsiləsinin müxtəlif növlərinin əhəmiyyəti tədqiq edilmişdir və istifadə istiqamətləri öyrənilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2018, № 2, s. 352
2. Elşad Qurbanov Dərman bitkiləri. "Bakı universiteti" nəşriyyatı. Bakı 2009, 356s.
3. Hilal Qasımov, Səyyarə İbadullayeva, Mürsəl Seyidov, Gülnarə Şirəliyeva- Naxçıvan Muxtar Respublikası florasının yabanı tərəvəz bitkiləri. Naxçıvan-2018
4. https://az.wikipedia.org/wiki/L%C9%99rg%C9%99

SUMMARY

Enzala Novruzova, Izzat Namazova

USAGE DIRECTIONS OF THE SPECIES BELONGING TO THE POLYGONACEAE A CHAPTER WHICH ARE DISTRIBUTED IN THE TERRITORY OF SHABUZ DISTRICT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article provides information about the area of use of several species of the family of sedges distributed in the Shahbuz region of the Nakhchivan Autonomous Republic. During the conducted research, 39 species of the sedge family distributed in the territory of the Nakhchivan Autonomous Republic are represented by 39 species belonging to 10 genera (1,2) and their species distributed in the territory of the Shahbuz district are used for food, medicine, decorative and paint significance in given.

***Key words**: Polygonaceae, dye, nutritional vaule, medicinal vaule*

JALƏ ƏSGƏRLİ
jaleesgerli28@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-8989-5842

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ CULFA RAYONUNDA YAYILAN QAYMAQÇİÇƏKKİMİLƏR (*RANUNCULACEAE*) FƏSİLƏSİNƏ DAXİL OLAN ZƏHƏRLİ NÖVLƏRİN TƏDQİQİ VƏZİYYƏTİ

Məqalədə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yayılan Ranunculacaeae fəsiləsinə daxil olan zəhərli növlərin tədqiqi vəziyyəti araşdırılmışdır. Aparılan araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Culfa rayonu ərazisində Ranunculaceae fəsiləsinə 11 cinsə aid 49 növ yayılmışdır. Təhlillər zamanı müəyyən olunmuşdur ki, yayılan növlərin hamısının tərkibi az və ya çox dərəcədə toksikoloji təsirə malikdir. Məqalədə təhlillər nəticəsində növlərin tərkibində olan toksikoloji əhəmiyyət daşıyan bəzi maddələr (məsələn, alkaloidlər) müəyyən olunmuşdur. Növlərin araşdırılması zamanı müəyyən olunmuşdur ki, bunlar əsasən ərazinin rütubətli yerlərində yayılmışdır. İzah olunur ki, yayılan növlərin 48 növü hemikriptofit, 1 növü isə hidrofitdir.

Açar sözlər: *Naxçıvan Muxtar Respublikası, Ranunculaceae, qaymaqçiçəkkimilər, növ tərkibi, yayılma zonaları*

Giriş

Qaymaqçiçəkkimilər fəsiləsi *Ranunculales* sırasına aid olan birillik və ya çoxillik ot, nadir hallarda isə kol bitkilərindəndir. Qaymaqçiçəkkimilər fəsiləsinə aid bitkilərin yarpaqları sıra ilə düzülmüşdür. Meyvə yarpaqcıqları çoxsaylıdır, sərbəstdir, bir və ya çox yumurtacıqdan ibarətdir. Bu fəsiləsiləyə aid olan bitkilərin çiçəkləri ikicinsiyyətli, çiçəkyanlığı sadə və ya ikiqatdır, aktinomorf və ya ziqomorfdur, adətən spiralvarı yerləşmiş çoxsaylı erkəkcik və dişicikdən ibarətdir. Nektarlıqları isə erkəkciklərlə çiçəkyanlığının arasında yerləşmişdir. Məlum olan 2000-ə qədər növün 103-ü Azərbaycan ərazisində yayılıb və əsasən şimal rayonlarında bitdiyi müəyyən olunub. Bir çox növü isə zəhərlidir. N.M. İsmayılovun "Алкалоидоносные растения Азербайджанской ССР" (Исмаилов Н.М., 1975, 16) əsərində Naxçıvan Muxtar Respublika ərazisində *Ranunculaceae* Juss. fəsiləsinə aid 47 növün yayıldığı haqqında məlumat verilir. Bunlardan 16 növünün tərkibində zəhərli maddələrin aşkar olunduğu qeyd olunmuşdur. Naxçıvan MR florasının toksonomik spektrində isə (Talıbov T.H. və b., 2021, 95-99) Qaymaqçiçəkkimilər fəsiləsinin 14 cinsinə daxil olan 56 növü qeyd edilmişdir. Ədəbiyyat məlumatlarının araşdırılması nəticəsində məlum olmuşdur ki, bunlardan 11 cinsə aid 48 növündə zəhərli birləşmələr vardır.

Material və metodlar

Tədqiqatlar 2023-2024 - cü illər ərzində aparılmışdır. Tədqiqatların nəticəsində Culfa rayonu ərazisində yayılan Qaymaqçiçəklikimilər (*Ranunculaceae* Juss.) fəsiləsinə aid növlərin dəqiqləşdirilməsində "Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri" (Talıbov T.H. və b., 2021, 95-99), zəhərli növlərin müəyyən edilməsində "Naxçıvan Muxtar Respublikası florasının zəhərli bitkiləri" (Talıbov.T.H. və Səfərova F.A, 2017, 90-99) kitablarından istifadə edilmişdir. Fəsiləyə daxil olan növlərin həyati formaları isə İ.Q.Serebryakova (Серебряков И.Г., 1964, 146-205) görə aparılmışdır.

Müzakirə

Naxçıvan Muxtar Respublikasının bitki örtüyündə rast gəlinən zəhərli bitkilərin fəsilələr üzrə bölgüsünə əsasən Qaymaqçiçəkkimilər fəsiləsi Ranunculales sırasına aid olan bitkilərin 11 cinsi 49 növü vardır.

Fam.: Ranunculaceae Juss., nom. cons. – Qaymaqçiçəkkimilər

1. Genus: *Thalictrum L. nom. cons.* - Qaraqaytaran
   1(1) *T. foetidum* L. - İyli qaraqaytaran
   2(2) *T. isopyroides* C.A.Mey. - İzopironlu q.

3(3) *T. minus L.* - Kiçik q.
= *T. minus L.* subsp.flexuosum (Bernh. ex Rchb.) Krupkina
4(4) *T. sultanabadense* Stapf - Sultanabad q.
2. Genus: *Caltha* L. - Kalta
5(1) *C. polypetala* Hochst. - Çoxləçəkli kalta
3. Genus: *Aconitum* L. - Akonit, Kəpənəkçiçək
6(1) *A. confertiflorum* (DC.) Gayer - Sıxçiçək akonit
= *A. confertiflorum* (DC.) Gayer var. confertiflorum
7(2) *A. nasutum* Fisch. ex Rchb. - Burunlu a.
= *A. nasutum* Fisch. ex Rchb. subsp. nasutum
4. Genus: *Delphinium* L. - Mahmızçiçək
8(1) *D. foetidum* Lomak. - Ağıriyli mahmızçiçək
9(2) *D. caucasicum* C.A.Mey. - Qafqaz m.
10(3) *D. araraticum* (N.Busch) Grossh. – Ağrıdağ m.
11(4) *D. buschianum* Grossh. - Buş m.
12(5) *D. flexuosum* Bieb. - Qıvrım m.
13(6) *D. lomakinii* Kem.-Nath. - Lomakin m.
14(7) *D. freynii* Conrath - Frein m.
15(8) *D. szowitsianum* Boiss. - Soviç m.
16(9) *D. cyphoplectrum* Boiss. - Qozbel m.
17(10) *D. nachiczevanicum* Tzvel. - Naxçıvan m.
18(11) *D. talyschense* Tzvel.- Talış m.
19(12) *D. quercetorum* Boiss. et Hausskn.- Palıdlıq m.
5.Genus *Consolida* (DC.) Gray - Əsbəçiçəyi (Üsgükotu)
20 (1) *C. divaricata* (Ledeb.) Schrödinger - Kotul əsbəçiçəyi
= C. divaricata (Ledeb.)
21(2) *C. orientalis* (J.Gay) Schrödinger - Şərq ə.
22(3) *C. rugulosa* (Boiss.) Schrödinger - Qırışıq ə.
23(4) *C. persica* (Boiss.) Schrödinger - İran ə.
24(9) *D. cyphoplectrum* Boiss. - Qozbel m.
25(10) *D. nachiczevanicum* Tzvel. - Naxçıvan m.
26(11) *D. talyschense* Tzvel.- Talış m.
27(12) *D. quercetorum* Boiss. et Hausskn.- Palıdlıq m.
6. Genus: *Nigella* L. - Qara çörəkotu
29(1) *N. arvensis* L. – Adi qara çörəkotu
30(2) *N. segetalis* Bieb. - Şum q.
31(3) *N. orientalis* L. - Şərq q.
32(4) *N. oxypetala* Boiss. - İtiləçək q.
7. Genus: *Pulsatilla* Mill. - Güləbətin
33(1) *P. albana* (Stev.) Bercht. & J.Presl. - Alban güləbətini
= *P. albana* (Stev.)Bercht. & J.Presl. subsp. albana.
34(2) *P. violacea* Rupr. [P. armena (Boiss.) Rupr.] - Bənövşəyi g.
= P. *violacea* Rupr. subsp. violacea.
= P. *violacea* Rupr. subsp. armena (Boiss.) Luferov.
8. Genus: *Clematis* L. - Ağəsmə
35(1) *C. vitalba* L. – Üzümyarpaq ağəsmə
36(2) *C. orientalis* L. - Şərq a.
9. Genus: *Ranunculus* L. - Qaymaqçiçək
37(1) *R. grandiflorus* L. (R. kotschyi auct. non Boiss.) - İriçiçək qaymaqçiçək
38(2) *R. dissectus* Bieb.(R. szowitsianus Boiss., R. napellifolius auct. non DC.) - Soviç q.

39(3) *R. repens* L. - Sürünən q.
40(4) *R. meyerianus* Rupr. - Meyer q.
41(5) *R. caucasicus* Bieb. - Qafqaz q.
= R. caucasicus Bieb. subsp. caucasicus.
42(6) *R. oreophilus* Bieb. - Dağ q.
43(7) *R. brachylobus* Boiss. & Hohen. - Qısadilim q.
= R. brachylobus Boiss. & Hohen. subsp. incisilobatus P.H.Davis
44(8) *R. strigillosus* Boiss. & Huet - Qıllı q.
45(9) *R. aucheri Boiss.* (R. elbrusensis Boiss.) - Oşe q.
10. Genus: *Ficaria* Guett. - Fikariya
46(1) *F. fascicularis* C.Koch - Dəstə fikariya
47(2) *F. ficarioides* (Bory & Chaub.) Halaczy - Həqiqi f.
11. Genus: *Adonis* L. nom. cons. - Xoruzgülü
48(1) *A. aestivalis* L. (A. bienertii Butkov, A. parviflora Fisch. ex DC.) -Yay xoruzgülü
49(2) *A. flammea* Jacq. - Alovlu x.

Naxçıvan Muxtar Respublikasının bitki örtüyündə rast gəlinən zəhərli bitkilərin fəsilələr üzrə biomorfoloji bölgüsünə əsasən fəsilənin 48 növü hemikriptofitlər, 1 növü hidrofitlərə aiddir. Aparılan araşdırmalar nəticəsində zəhətli növlərin həyati formaları təhlil edilmiş və müəyyən olunmuşdur ki, onlardan 1 növü hidorfitlərə, 42 növü mezofitlərə, 6 növü isə mezokserofitlərə aiddir.

Əldə olunan nəticələr

Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində *Ranunculaceae* Juss.-Qaymaqçiçəkkimilər fəsiləsinin 11 cinsinə malik 49 növ yayılmışdır. Araşdırmalar sayəsində məlum olmuşdur ki, bunlardan 11 cinsin 48 növündə zəhərli birləşmələr vardır. Bunlara qaraqaytaran, yay xoruzgülü, qaymaqçiçək və.s aiddir.

ƏDƏBİYYAT

1. Talıbov T.H., İbrahimov Ə.Ş., İbrahimov Ə.M. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri (Ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər). II nəşr. Bakı: Şirvannəşr, 2021, 426 s.
2. Talıbov T.H., Səfərova F.A. Naxçıvan Muxtar Respublikası florasının zəhərli bitkiləri. Naxçıvan: Əcəmi NPB, 2017, 232 s.
3. Исмаилов Н.М. Алкалоидоносные растения Азербайджанской ССР. Баку: Элм, 1975, 199 с.
4. Серебряков, И.Г. Жизненные формы высших растений и их изучение.Москва – Ленинград: Полевая геоботаника, 1964. т. 3, с. 146-205.

SUMMARY

Jale Asgarlı

STUDY STATUS OF POISONOUS SPECIES OF RANUNCULACEAE WHICH ARE DISTRIBUTED IN JULFA DISTRICT OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

In the article, the state of research of poisonous species belonging to the family Ranunculacaeae distributed in Julfa district of Nakhchivan Autonomous Republic was investigated. During the conducted investigations, it was determined that 49 species belonging to 11 genera of Ranunculaceae family are distributed in Julfa region. During the analysis, it was determined that the composition of all the species spread has a more or less toxicological effect. In the article, as a result of the analysis, some toxicologically significant substances (for example, alkaloids) contained in the species were identified. During the investigation of the species, it was determined that they are mainly distributed in humid areas of the territory. It is explained that 48 types of spreading species are hemicryptophyte and 1 type is hydrophyte.

Key words: *Nakchivan Autonomous Respublic, Ranunculaceae, buttercups, species composition, distribution zones*

AYSEL MƏMMƏDOVA
memmedliatilla448@gmail.com
Naxçıvan Dövlət Universiteti

BİOLOGİYANIN TƏDRİSİNDƏ RƏQƏMSAL BACARIQLARDAN İSTİFADƏ

Məqalədə dərslərin ən səmərəli interaktiv metod kimi düşünülən İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçirilməsi, rəqəmsal bacarıqların qazanılmasının müasir dövrün tələbi kimi qiymətləndirilir. Multimediya ensiklopediyalar, intellektual kompüter oyunları, fərdi və qrup şəklində təqdimatların yaradılması, qeydlər, şagirdlərin fərdi fəaliyyətini təmin edilməsinin əhəmiyyəti diqqətə çatdırılır. Göstərilir ki, biologiyanın tədrisi üçün informasiya-kommunikasiya texnologiyaları şagirdi seçilmiş, düzgün təşkil edilmiş biliklərlə zənginləşdirir, onların intellektual və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Ənənəvi tədris metodlarından fərqli olaraq, keys texnologiyası şagirdlərdə müstəqil qərar qəbul etmək, problemli suallara düzgün cavab tapmaq bacarığını inkişaf etdirir. Daim öyrənən müəllimlərdən öz tədris təcrübələrini gücləndirmələri, yenilikləri yaxından izləmələri və öyrəndiklərini şagirdləri ilə səmərəli şəkildə bölüşmələri gözlənilir. Bu işdə müəllimlərin örnək olmaları və texnologiyadan səmərəli istifadədə şagirdlərinə rəhbərlik etmələri gözlənilir. Tələblərdən biri kimi müəllimlərə elektron tədris resursları ilə işləməyi öyrətmək, elektron pedaqogikanın məktəblərdə lazımi səviyyədə inkişafına nail olmaq, gələcəkdə yaradılması zəruri olan milli informasiya təhsil məkanında onları intellektual sistemlərlə təmin etmək də məqalədə vacib işlərdən biri kimi diqqətə çatdırılmışdır.

Həmçinin məqalədə təhsilalanların hərtərəfli inkişafının şəxsiyyətyönlü təlimdə əsas məqsədlərdən biri olması, şagirdlərdə yaradıcı düşüncəni inkişaf etdirmək üçün, onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığı və vərdişlərinin formalaşdırmağın mühüm vəzifə kimi nəzərə çatdırılmışdır. Belə tədris prosesinin təhsilalanlarda özünəinam hissini oyatması, sinfin və dərsin təşkilində iştiraka, öz fikirlərini sərbəst şəkildə ifadə etməyə, fəallığın artırılması məqsədilə sualları cavablandırmasına, qarşılıqlı dialoqların qurulmasına və debatların aparılmasına şərait yaratmasında əhəmiyyəti də göstərilmişdir. Bu baxımdan biologiya kurikulumu şagirdlərin bilik, bacarıq və vərdişlərini formalaşdırmaqla yanaşı, "XXI əsrin bacarıqları" adlandırıla bilən fərdi bacarıqlarının inkişaf etdirilməsi məqsədini daşıması, müxtəlif fənlərə aid elektron vəsaitlərin azlığı, biologiya fənninin tədrisində əyani vəsaitlə keçirilən dərslərin səmərəsi məlumdur. Çünki əyani vəsaitlər əqli inkişafda əhəmiyyətli olmaqla, mənimsəmə qabiliyyətini artırır. Onlar getdikcə təkmilləşdirilir və müəllimin qarşısına qoyduğu tapşırıqların yerinə yetirilməsi üçün daha səmərəli və effektli olur. Rəqəmsal bacarıqların biologiya fənninin tədrisində müəllim üçün əyani metodlardan istifadəni əlçatan etməsi də məqalədə ətraflı şərh edilir.

Açar sözlər: *Biologiyanın tədrisi, 3D texnologiyalar, XXI əsr bacarıqları, yaradıcılıq, multimedia*

Müasir dövr təhsili öz dinamikası, konsepsiyası, strategiyası ilə fərqlənir və yeni təlim texnologiyalarından istifadə bacarıqları tələb edir. Elmi mühitdəki bu dinamik təkamül yeni elm və peşə sahələrinin yaranması ilə nəticələnir. XXI əsr təhsili sabahın qurucularını, cəmiyyətdə köklü dəyişikliklər yarada bilən, qarşısına çıxacaq problemləri fəal şəkildə həll edə bilən gəncləri yetişdirməyi tələb etdiyindən orta məktəb müəllimlərinin rəqəmsal-texnoloji bacarıqlarının inkişafı zərurəti yaranmışdır. Rəqəmsal təhsilin konsepsiyasında öyrədən-öyrənən münasibətində sərhədlərin aradan qaldırılması, texnoloji savadlılıq, qarşılıqlı kəşfetmə mühiti nəzərdə tutulur (Babayeva, Z. (2023). Bu isə şagirdlərdə sərbəst öyrənmə imkanlarını genişləndirir. Təcrübələr göstərir ki, bəzən uşaq və gənclər üçün rəqəmsal texnologiyalardan istifadə, onlara məruz qalma və onlardan faydalanma məqsəddən və yanaşma tərzindən asılıdır (Clifton, Goodhall, Ban, & Birks, 2013). Həmçinin alınan məlumatlardan adekvat istifadə edərək nəticədə onu biliyə, bacarığa, layihəyə,

nəhayət, məhsula çevirmək bacarıqlarını inkişaf etdirir. Dünyada aktual bir metod kimi bütün sahələrə təsir edən STEAM – XXI əsr bacarıqları tədris etdiyimiz biologiya fənnində də maraqlı işlər görməyə imkan yaradır (Babayeva, 2023, 312 s.; Babayeva, 2009). Onun müsbət xüsusiyyətlərindən biri də odur ki, müəllim mövzunun və ya dərsin istənilən mərhələsində biliklərdən məqsədəuyğun şəkildə istifadə edə bilir [Babayeva, 2023]. Yaşadığımız əsrin gətirdiyi sosial, elmi, texnoloji, ekoloji və iqtisadi dəyişikliklər və transformasiyalar fərdlərdən bu dəyişiklikləri və çevrilmələri başa düşmək üçün müxtəlif bacarıqlara malik olmağı tələb edir. Artıq müəllim mövzunu təkcə yazı taxtası, tablo, mulyajlar və mühazirə şəklində öyrətməklə kifayətlənməməlidir (İsmayılov, İ., Abdullayev, C. (2006). Öyrənənlərin biologiya fənninə, eləcə də tədris edilən mövzuya marağının artırılması, öyrənməyi öyrətmək və öyrənilən biliklərin tətbiqi daha vacib amil hesab olunmalıdır.

Bütün məktəblərdə laboratoriya, təcrübə sahələri, ekskursiyalar təşkil etmək üçün büdcə olmaya bilər, lakin İKT-dən istifadə edərək şəkillərlə, təqdimatlarla təhsilalana biologiyanı əhatəli öyrədə bilərik. Məsələn: "Genetika – irsiyyət və dəyişkənlik haqqında elmdir" mövzusunun və müəllimlərin əyani vəsait tapmaqda çətinlik çəkdikləri bir çox mövzuların tədrisində, video materiallardan, təqdimatlardan, şəkillərdən istifadə etməklə təhsilalanların çətin qavrama problemini aradan qaldırmaq mümkündür. Tədrisi istər yeni texnologiyalar, istərsə də interaktiv metodlar əsasında keçmək istəyən hər bir biologiya müəllimi təlim texnologiyalarından istifadəyə hər zaman hazır olmalı, didaktik materiallar, elektron vəsaitlərlə hazırlanmış təqdimatlar, şəkillər, cədvəllər hazırlamağı bacarmalıdır. Pedaqoji prosesin bu cür təşkili təhsilalanların idrak bacarıqları, düşüncə əhatəliliyi və motivasiyasının artırılmasında əhəmiyyətli rol oynaya bilər (8). Biologiya dərslərində informasiya texnologiyalarından istifadə müəllimə bir sıra imkanlar yaradır. Bunlara misal olaraq, təlim-tərbiyə prosesinin gedişində təhsilalanların dinamik fəaliyyətinin təşkil edilməsini, təlim prosesində fərdi yanaşma üsulunun tətbiqinə qısa vaxt ərzində həm mikro, həm də makro aləmdə baş verən hadisə və prosesləri ardıcıllıqla izləməyə daha böyük imkanların yaradılmasını göstərmək olar. Biologiya fənninin tədrisində hadisələri təsvir etmək üçün modellər, animasiyalar, simulyasiyalardan istifadə olunur (*Вайндорф-Сысоева, М.Е. (*2020*)*. Misal üçün, fotosintez prosesi zamanı işığın təsirindən oksigen qazının əmələ gəlməsini təcrübələrlə, ölçmə texnologiyası ilə müəyyən edə bilərik. Biologiya və digər fənlərin tədrisində İKT vasitələrindən istifadə edərkən dərsin mərhələləri əvvəlcədən aydınlaşdırılmalıdır. Bununla yanaşı, bioloji biliklərin təhsilalanların həyat və fəaliyyətində mühüm rol oynadığını da nəzərdə saxlamaq lazımdır. Məhz bioloji təhsil sayəsində hələ yeniyetməlik yaşlarından təhsilalanlarda özünə, ətrafdakılara, ümumiyyətlə, bütün canlılara qarşı qayğı, təbiətə məhəbbət hissi formalaşdırılmalıdır.

Bu zaman şagirdlər sağlamlığın qeydinə qalmağın nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini anlayır, öz orqanizminin quruluşunu və funksiyalarını öyrənir, ekologiyanın nə demək olduğunu bildiyinə görə onlarda bitki və heyvanlar aləminə qarşı rəğbət hissi yaranır. Bütün bunlar təhsilalanların dünyaya baxışını dəyişir, onları kamil şəxsiyyətə çevirir. Bioloji elmlər planetimizdə unikal hadisə olan həyat qanunlarının mahiyyətini açmaqla məktəblilərdə ekoloji mədəniyyəti formalaşdırır.

Müasir təlim metodları və informasiya – kommunikasiya texnologiyalarından istifadə sinif mühitində dəyişiklik etməyə, cəmiyyətin dəyərli vətəndaşları olmağa çalışan, aktiv, hər şeylə maraqlanan şagirdin təhsil aldığı siniflərin yaradılmasında müəllimlərə xüsusi köməkçi vasitədir. Təlim prosesinin daha yaradıcı olmasına, təhsilalanın müzakirə, mühakimə qabiliyyətlərinin formalaşmasına stimul yaradan bu üsul və vasitələr, eyni zamanda məktəblilərin dərsə daha maraqla və həvəslə yanaşmasını təmin edir. Biologiyanın tədrisində rəqəmsal təhsil texnologiyaları tədris prosesinin səmərəliliyini artırmaq üçün zəruri şərtdir. Müasir təlim texnologiyaları prinsiplərinin mahiyyətindən irəli gələn əsas yanaşmaları təhsilalanların maraq və tələbatlarına, onların yaş psixologiyasına, sosial həyat tərzinə, bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəltməklə, tədris prosesində idrak fəallığını, fasilitator dəstəyi ilə öyrənməni təmin edir. Zəruri olan informasiyaları müstəqil mənimsəyib ondan düzgün istifadəni, əməkdaşlığı, şagirdyönümlülüyü reallaşdırmaqla pedaqoji texnologiyaların səmərəli tətbiqinə nail olmaq olar.

Müasir dövrdə hər gün yeni və daha çox rəqəmsal tədris resursları yaradılır. Bu resurslardan istifadə dərsə hazırlıq zamanı vaxta qənaət etməyə, yeni materialın tam mənimsənilməsi üçün lazımi resursların seçilməsinə, nəticələrin yoxlanılması və möhkəmləndirilməsinə imkan verir. Rəqəmsal tədris resurslarının köməyi ilə biz zaman və məkan baxımından əlçatmaz olan proses və situasiyaları nümayiş etdirə bilirik. Məsələn, 6-cı sinifdə biologiyanın tədrisi zamanı "mikroskopun quruluşu", "bitki və heyvan geninin quruluşu" kimi interaktiv trenajorlardan istifadə etmək olar. İnteraktiv trenajorun faydası ondan ibarətdir ki, təhsilalan yazaraq və ya oxuyaraq öyrəndiyi dərsləri unuda bilər, lakin mikroskopun quruluşunu onun üzərində hazırladıqları preparatlara baxaraq, hissələrini ayrı-ayrılıqda sayaraq daha uzunmüddətli yaddaşda saxlamaq olar. Eyni ilə bitki geninin, heyvan geninin və yaxud hüceyrə orqanoidlərinin quruluşuna mikroskopda və ya yeni texnologiyalardan istifadə edərək baxmaqla onu uzunmüddətli yaddaşda saxlamaq olar. Bundan əlavə, insan skeleti və orqanların maketləri üzərində aparılan dərsləri də interaktiv trenajorlar hesab edə bilərik. Belə olduğu təqdirdə, təhsilalan, orqanları, insan skeletindəki sümük və sümük birləşmələrini daha yaxşı qavramış olacaqdır. Biologiya dərslərində İKT-nin tətbiqi təhsilalana aktiv və şüurlu işini təşkil etmək də yeni metod sayıla bilər. Bu gün təhsil texnologiyası anlayışına geniş şəkildə pedaqoji elm sahəsi kimi və konkret təhsil texnologiyası kimi baxmaq olar. [7; 9]. Bu fənn üzrə dərslərin keçirilməsində multimedialı təqdimatdan istifadə isə daha effektli formadır. Bu üsul dərsi daha dinamik formada keçməyə imkan yaradır, bütün duyğu üzvlərinə təsir etməklə alınan informasiyaları təhsilalanların yaddaşına həkk edir. Multimedialı təqdimatla yeni mövzunun təqdim olunması öyrənmə prosesini qısaltmaqla yanaşı, təhsilalanların istirahətinə daha çox vaxt ayırmasına imkan verir ki, bu da onların sağlamlığına müsbət təsir göstərir. Rəqəmsal biologiya laboratoriyası canlı orqanizmləri, bitkiləri müşahidə etməyə imkan verir [10; 11]. Artıq elektron cihazların köməyi ilə şagirdlər ətraf mühit haqqında məlumatları tez bir zamanda toplaya və təhlil edə biləcəklər. Bu müasir dövr təhsilinin əldə etdiyi böyük nailiyyətlərdəndir.

ƏDƏBİYYAT

1. Babayeva, Z. (2009). Biologiyanın tədrisində yeni təlim texnologiyalarından istifadənin metodikası. Bakı
2. Babayeva, Z. (2023). Determinatıon of teaching strategies considered necessary in teaching biology. Dergi Park Akademik. Tübitak-Ulakbim. International Journal of Educational Spectrum. Cild 5, Sayı 217, s. 51-67. https://dergipark.org.tr/tr/download/article-file/3044384
3. Babayeva, Z. (2023). STEAM – XXI Əsrin Təhsili. Dərs vəsaiti (ali və orta məktəblər üçün). Naxçıvan: "Əcəmi" NPB, 312 s.
4. Babayeva, Z. (2023). Perspectıves of usıng 3D technologıes ın teachıng bıology. Revista Universidad y Sociedad/Universidad @cienfuegos/ WOS – Havana, Kuba https://rus.ucf.edu.cu/index.php/rus/article/view/4155
5. İsmayılov, İ., Abdullayev, C. (2006). Təlimin texniki vasitələri və yeni informasiya texnologiyaları, tədrisdə onlardan istifadə metodikası. Bakı
6. *Вайндорф-Сысоева, М.Е. (*2020*).* Методика дистанционного обучения: учебное пособие для вузов / М.Е. Вайндорф - Сысоева, Т.С. Грязнова, В.А. Шитова. - Москва: Издательство Юрайт, 2020. - 194 с. - (Высшее образование). - ISBN 978-5-9916-9202-1. - Текст: электронный // Образовательная платформа Юрайт [сайт]. URL: https://urait.ru/bcode/450836 (дата обращения: 17.11.2021)
7. https://resilienteducator.com/classroom-resources/5-interactive-teaching-styles-2/
8. https://metodiktovsiyye.blogspot.com/2015/09/is-usullar.html
9. http://tehsiljurnali.az/manset/1098-biologiya-fnninin-tdrisind-yeni-texnologiyalarn-ttbiqi.html
10. https://metodiktovsiyye.blogspot.com/2015/11/biologiya-doktorontura-suallar.html
11. https://www.muallim.edu.az/www.old/arxiv/2012/01/31.html

SUMMARY

Aysel Mammadova

USING DIGITAL SKILLS IN BIOLOGY TEACHING

In the article, conducting classes through Information and communication technologies, which is considered as the most effective interactive method, and acquiring digital skills is evaluated as a requirement of the modern era. Multimedia encyclopedias, intellectual computer games, creation of individual and group presentations, notes, the importance of ensuring individual activity of students is brought to attention. It is shown that information and communication technologies for teaching biology enrich students with selected, properly organized knowledge and develop their intellectual and creative abilities. Unlike traditional teaching methods, case technology develops students' ability to make independent decisions and find correct answers to problematic questions. Constantly learning teachers are expected to strengthen their teaching practices, keep abreast of innovations, and effectively share what they have learned with their students. In this work, teachers are expected to be role models and guide their students in the effective use of technology. As one of the requirements, teaching teachers to work with electronic educational resources, achieving the necessary level of development of electronic pedagogy in schools, and providing them with intellectual systems in the national information education space, which is necessary to be created in the future, are also highlighted in the article as one of the important tasks.

The article also points out that the comprehensive development of students is one of the main goals of personalized education, and it is an important task to develop students' creative thinking, to teach them to learn, to use the information obtained, and to form their habits. The importance of such a teaching process in awakening a sense of self-confidence in students, participating in the organization of the class and lesson, freely expressing their opinions, answering questions in order to increase activity, establishing mutual dialogues and conducting debates is also shown is done. From this point of view, it is known that the biology curriculum, in addition to forming the knowledge, skills and habits of students, aims to develop their individual skills, which can be called “21st century skills”, the lack of electronic resources for various subjects, the effectiveness of lessons conducted with visual aids in the teaching of biology. Because visual aids are important in mental development and increase the ability to assimilate. They are gradually improved and become more efficient and effective for the performance of the tasks set by the teacher. The article also explains in detail how digital skills make the use of visual methods accessible to teachers in teaching biology.

Key words: *Biology teaching, 3D technologies, 21st century skills, creativity, multimedia*

AYSU ŞAHMƏMMƏDOVA
aysushmmdva@gmail.com
Naxçıvan Dövlət Univeristeti
ORCID ID: 0009-0000-6537-3131

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ YAYILMIŞ YARPAQYEYƏN BÖCƏKLƏRİN (COLEOPTERA , CHRİSOMELİDAE) BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycanda 69 cins və 11 yarımfamiliyadan (Coleoptera, Chrysomelidae) cəmi 377 yarpaq yeyən böcək növü aşkar edilmişdir ki, onlardan bəziləri kənd təsərrüfatı və meşə təsərrüfatının mühüm zərərvericiləridir. Azərbaycanın müxtəlif ərazilərində yarpaqyeyən böcəklərin yayılması müşahidə olunur. Böyük Qafqazda 263, Kiçik Qafqazda 206, Kür-Araz ovalığında 174, Lənkəran zonasında 262 növ qeyd olunur. Yarpaq yeyən böcəklərin müxtəlif ərazilər arasında yayılması da təsvir edilmiş və zoocoğrafi analizin nəticələri verilmişdir. Yarpaq yeyən böcək faunası da təqdim olunur. Azərbaycanda yarpaq yeyən böcəklərin 11 zoocoğrafi qrupu aşkar edilmişdir ki, bu da çox spesifik deyil. Fauna əsasən ümumi növlərdən ibarətdir; endemik növlərin sayı azdır.

Növlərinin zənginliyinə görə Coleoptera (17 növ) 28,8% dəstələri üstünlük təşkil edirlər. Zərərvericilərdən 4 növü Azərbaycan faunası və 25 növü isə Naxçıvan Muxtar Respublikası faunası üçün ilk dəfə qeyd edilmişdir.Naxçıvan Muxtar Respublikası'nda yayılan yarpaqyeyən böcəklərin (Coleoptera, Chrisomelidae) bioekoloji xüsusiyyətləri, müxtəlif alt familyalar və cinslərə malik olan bu böcəklərin yaşam tarixi, üzvlərinin morfoloji xüsusiyyətləri, ürək strukturu, yumurtlama davranışları, sürfələrin və yetişkin böcəklərin qidalanması, hərəkət rejimi və həyat dövrü kimi mühüm məlumatları əks etdirir. Bu məlumatlar, tədqiqatçılar və mühafizəçilər üçün əhəmiyyətlidir və təhlükəli xəstəliklərə və ya zərərli böcək populyasiyalarına qarşı mübarizə strategiyalarının inkişafına kömək edir. Bununla birlikdə, bu məlumatları tam təxmin etmək üçün konkret nümunələr və laboratoriya tədqiqatları əsasında daha dəqiq təhlil və qiymətləndirmələr aparılması vacibdir.

Açar sözlər: *Coleoptera, Chrisomelidae, sürfə ,yarpaq yeyən böcək, sürfə, zərərverici, biotop, zoocoğrafiya.*

Giriş:

Naxçıvan Muxtar Respublikasında çəyirdəkli meyvə ağaclarına zərərverən həşəratları 3 qrupa ayırmaq olar: tumurcuq və yarpaqlarla qidalananlar; çiçək və meyvələrlə qidalananlar; gövdə və kök sistemi ilə qidalananlar.

Yarpaq böcəkləri, ***Chrysomelidae*** ailəsinə mənsub böcəklərdir və 37,000-dən çox məlum növə sahibdir. Onların yaxın zamanda ən azı 50,000 olacağı təxmin edilir. Bu ailənin 2,500-dən çox cinsdən ibarət olması, Chrysomelidae ailəsinin ən böyük və ən çox rast gəlinən böcək ailələrindən biri olmasını gətirib çıxarır.Yetkin və sürfə yarpaq böcəkləri hər növ bitki toxuması ilə qidalanır. Bir çoxları mədəni bitkilərin ciddi zərərvericiləridir, məsələn, Kolorado kartof böcəyi (Leptinotarsa decemlineata), qulançar böcəyi (Crioceris asparagi), dənli yarpaq böcəyi (Oulema melanopus), xardal böcəyi (Phaedon cochleariae) və müxtəlif flea böcəyi , az bir qismi bitki xəstəliklərinin daşıyıcısı kimi çıxış edir. Digərləri invaziv alaq otlarının bionəzarətində istifadə etdikləri üçün faydalıdır . Bəzi Chrysomelidae gözə çarpan rəngdədir, adətən parlaq sarıdan qırmızıya və ya metal mavi-yaşıl çalarlarda, bəziləri isə (xüsusilə Cassidinae) heyrətamiz dərəcədə qəribə formalara malikdir. Beləliklə, onlar həşərat toplayanlar arasında çox populyardırlar.

Material və metodlar

Materialların toplanılması və işlənilməsi 2022-2023-cü illərdə Naxçıvan MR-in əksər rayonlarında çöl və laboratoriya şəraitində həyata keçirilmişdir. Stasionar məntəqələr kimi Ordubad, Şahbuz, Şərur rayonlarının ərazilərində və Naxçıvan şəhəri ətrafında olan çəyirdəkli meyvə bağları

seçilmişdir. Naxçıvan Muxtar Respublikası ərazisində çəyirdəkli meyvə zərərvericilərinin və onların entomofaqlarının öyrənilməsinə dair materialların toplanılması və işlənilməsi 2004-cü ildən başlayaraq Ordubad, Culfa, Şahbuz, Şərur, Babək, Kəngərli və Sədərək rayonlarında çöl və laboratoriya şəraitində aparılmışdır. Stasionar məntəqələr kimi Ordubad, Şahbuz, Şərur və Babək rayonları seçilmişdir. Materialların təyinində müasir təyinedici ədəbiyyatlardan istifadə edilmişdir. Fəsilə, cins və növlərin yerləşmə qaydası, onların adlandırılması müasir sistematik qaydalara görə aparılmışdır.

Müzakirə

Fəsilə: Chrysomelidae-Yarpaqyeyən böcəklər

1.Smaragdina salicina (Scopoli, 1763)-Meyvə yarpaqyeyəni
2.Smaragdina limbata (Steven, 1806)-Həşiyəli yarpaqyeyən
3.Luperus xanthopoda (Schrank, 1781)-Sarıayaq yarpaqyeyən .

Smaragdina salicina – Meyvə yarpaqyeyəni

Növün sinonimi Smaragdina cyanea (Fabricius, 1775) adlanır. Azərbaycanın meyvə bağlarında yarpaqyeyən böcəklərin bir neçə növü meyvə bitkilərinə zərər verir. Bu böcəklər içərisində meyvə yarpaqyeyəni Naxçıvan Muxtar Respublikasının meyvə bağlarında geniş yayılaraq alma, armud, gavalı və alçaya 30-50%-ə qədər zərər verir. Təbiətdə böcəklərin uçuşu aprel-iyul aylarına təsadüf edir. Dişi fərdlər yumurtalarını torpağın üst qatlarına yaxın qoyur. Bir böcək 100-300-ə qədər yumurta qoya bilir. Yumurtalar ağacların arasında bitən bitkilərin üzərinə qoyulur. Yumurtadan çıxan sürfələr torpağın alt qatına, otların kök hissəsinə keçərək, inkişafını orada başa vurur və torpağın 5-10 sm dərinliyində pup halına keçib qışlayırlar. Yazın əvvələrində puplardan çıxan böcəklər ağacların tumurcuq, çiçək və yarpaqları ilə qidalanırlar. İldə bir nəsil verir.

Dəstə:Coleoptera-Sərtqanadlılar və ya böcəklər

Fəsilə:Scarabeidae -Lövhəbığcıqlı böcəklər

1. Tropinota (Epicometis) hirta (Poda, 1761)-Tüklü maralça
2. Melolontha melolontha (Linnaeus, 1758)-May xırıldağı
3. Polyphylla (Polyphylla) fullo (Linnaeus, 1758)-Mərmər xırıldağı
4. Cetonia aurata (Linnaeus, 1761)-Qızılı parıldaq

Tropinota (Epicometis) hirta (Poda, 1761) – Tüklü maralca.

Sərtqanadlılar **(Coleoptera)** dəstəsinin lövhəbığ böcəklər (Scarabeidae) fəsiləsindən olub, qırmızımtıl ayaqlara malik və qanadüstü oval formada olan qara rəngli böcəkdir. Bədəni və qanadüstü bozumtul pulcuqlarla örtülmüşdür. Bığcıqları gözlərlə yan-yana olub, oxlov şəklindədir. Bədəninin uzunluğu 9-12 mm-dir. Naxçıvan Muxtar Respublikasının meyvə bağlarında geniş yayılaraq demək olar ki, hər növ meyvə ağacının tumurcuq və çiçəklərinə ciddi zərər verir. Xüsusilə ərik, şaftalı və heyvanın tumurcuq və çiçəklərinə 30-35% zərər yetirir ki, bu da məhsuldarlığın xeyli aşağı düşməsinə səbəb olur. Böcək imaqo mərhələsində torpaqda qışlayır. Yazın əvvəllərində(martın axırı, aprelin əvvəlləri) qışlama yerlərindən çıxan böcəklər, təzəcə əmələ gəlmiş tumurcuqlarla və sonra təzəcə açılmış çiçəklərlə qidalanırlar. Az hallarda yenicə açılmış yarpaqlarla da qidalanmaları müşahidə edilmişdir.

Qidalandıqdan 8-10 gün sonra cütləşməyə başlayırlar və 6-8 gündən sonra isə, may ayının əvvəlində dişi fərdlər yumurta qoymağa başlayır. Hər bir dişi fərd, yumurtalar tək-tək olmaqla, 15-20 ədəd yumurta qoyur. Yumurtalar torpağın alt (3-5 sm) qatına qoyulur. 8-10 gündən sonra yumurtalardan sürfələr çıxmağa başlayır. Sürfə mərhələsi 50-55 gün çəkir. Onlar torpaqda olan bitki qalıqları və kiçik canlı orqanizmlərlə qidalanaraq son yaş mərhələsini bitirib, puplaşır. Pup mərhələsi 15-20 gün çəkir. Müşahidələrə əsasən, böcək ildə bir nəsil verir. Bəzi illərdə hədsiz çoxalaraq müxtəlif növ meyvə ağaclarına ciddi zərər yetirir.

Əldə olunan nəticələr

“Coleoptera” ,yunan sözü olub “κολεός” (qın) və “πτερόν” (qanad) sözlərindən törəyib və “sərtqanadlılar” şəklində tərcümə olunur.Coleoptera və ya sərtqanadlılar, Holometabola sinif üstlüyünə aid, boyu 1 mm ilə 15 sm arasında dəyişən bir böcək dəstəsidir. Rəngləri və formaları fərqlidir. Ortaq xüsusiyyətləri, ön hissələrinin sərt və qalın qanad örtülərinə çevrilmiş olmasıdır. Bığcıqları müxtəlif şəkilərdədir. Ağızları dişli və çeynəyicidir. Mağarada yaşayanlar müstəsna olmaqla, hamısının gözləri var.Sərtqanadlılar, zar kimi incə və ön qanadlarından daha böyük olan arxa qanadları ilə uçurlar. Böcək uçmadığı zaman, bu qanadlar yığılaraq qanad örtülərinin altına gizlənir. Sürfələri yaşam tərzi ilə çox çeşidli növlərdə olur. Məsələn, ovlanma ilə keçinən, buna görə də qüvvətli ayaqları olan və azad yaşayan sürfələr olduğu kimi, gözlü və ayaqlı olmayanları da vardır; bu növlər bitkilərin daxilində yaşayırlar. Sərtqanadlılar müxtəlif qidalanma maddələri ilə qidalanırlar. İçində qəddar olan bir çox növ də mövcuddur.

Aparılan tədqiqat nəticəsində ədəbiyyat məlumatlarına əsasən məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikasında Chrisomelidae və Coleoptera növləri üzrə aparılmış entomoloji tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikası ərazisində Coleopteranın 17 növü yayılmışdır. 28,8 % dəstələri üstünlük təşkil edir, zərərvericilərin 4 növü Azərbaycan faunası və 25 növü isə Naxçıvan Muxtar Respublikası faunası üçün ilk dəfə qeyd edilmişdir.

ƏDƏBİYYAT

1. Ratti E. Biodiversita della Laguna di Venezia. Segnalazioni 84 –Rhizobius lophanthae (Blaisdell, 1892) (Insecta Coleoptera Coccinellidae) // Boll. Mus. Civ. Stor. Nat. Venezia, 2002, v. 53, p. 286
2. Chikatunov V., Pavlicek T. And Nevo E. Coleoptera of “Evolution Canyon”, Lower Nahal Oren, Mount Carmel, Israel. P. II. Pensoft Publishers. 2004, 200 p.
3. Vəzirov N.C., Əfəndi R.M., Əliyeva Z.M. Azərbaycanda meyvə bitkilərinin zərərvericiləri. Bakı, 1981, 86 s.
4. Абдинбекова А.А. Бракониды (Hymenoptera, Braconidae) АзерБайджана. Баку: Элм, 1975, 293 с.
5. Алиев А.А., Мамедов З.М. О биологических регуляторах основных Вредителей плодовых культур в районах Малого Кавказа АзербайЖана // Изв. АН Азерб. ССР, сер. Биол. Наук, 1975, №5, с. 96-100
6. Mirzəyeva N.B. Azərbaycan Böyük Qafqaz bölgəsində yarpaqyeyən böcəklərin (Caleoptera, Chrysomelidae) ekoloji-faunistik və zoocoğrafi təhlili // AMEA-nın Xəbərləri, Biologiya elmləri seriyası, 2001, № 1-3, s. 60-68

SUMMARY

Aysu Shahmammadova

COLEOPTERA AND CHRYSOMELIDAE BEETLES DISTRIBUTED IN THE AUTONOMOUS REPUBLIC OF NAKHCHIVAN: BIOECOLOGICAL CHARACTERISTICS

In Azerbaijan, a total of 377 species of leaf-eating beetles from 69 genera and 11 subfamilies (Coleoptera, Chrysomelidae) have been identified, some of which are significant pests in agriculture and forestry. The distribution of leaf-eating beetles in various regions of Azerbaijan is presented. In the Greater Caucasus, 263 species are recorded, 206 in the Lesser Caucasus, 174 in the Kura-Araks lowland, and 262 in the Lankaran zone. The spread of leaf-eating beetles among different areas is described, and the results of zoogeographical analysis are provided. The fauna of leaf-eating beetles is also presented. In Azerbaijan, 11 zoogeographical groups of leaf-eating beetles have been identified, which is not very specific. The fauna consists mainly of common species; the number of endemic species is low.

The bioecological characteristics of leaf beetles (Coleoptera, Chrisomelidae) spread in the Nakhchivan Autonomous Republic encompass vital information such as the life history, morphological traits of members, cardiac structure, oviposition behaviors, feeding habits of larvae and adult beetles, movement patterns, and life cycle of various subfamilies and genera. These data are crucial for researchers and conservationists and aid in the development of strategies to combat dangerous diseases and harmful insect populations. However, for accurate assessment of this information, it is essential to conduct precise analysis and evaluations based on specific samples and laboratory research.

***Key words**: Coleoptera, Chrysomelidae, distribution, Leaf-eating beetle, larva, pest, biotope, zoogeography*

SƏFƏRALI ABDULLAYEV
seferaliabdullayev@gmail.com
Naxçıvan Dövlət Universiteti

AQRAR SAHƏNİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN PRİORİTETLƏRİ

Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, milli ərzaq təhlükəsizliyinin təmin edilməsində və sənaye sahələrinin xammalla təminatında kənd təsərrüfatının rolu danılmazdır. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin genişlənməsi ərzaq bolluğu yaradılmasına yönəldilir.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da sahibkarlıq fəaliyyəti kənd təsərrüfatının xarakterik xüsusiyyətlərinə və bu sahə ilə əlaqəli risklərə görə bir sıra problemlərlə, çətinliklər və maneələrlə üzləşir. Mövzunun aktuallığı kənd təsərrüfatında yüksək effektiv, çevik, rəqabətqabiliyyətli və keyfiyyətli sahibkarlığın formalaşdırılması ehtiyacından irəli gəlir.

Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının istehsal və ixrac potensialının gücləndirilməsi üzrə dövlət siyasəti həyata keçirilməli və həyata keçirilən tənzimləmə tədbirlərinin təsiri kontekstində dəyərləndirmələr aparılmalıdır. Məqalədə qarşıya qoyulan məqsədə çatmaq üçün aqrar sahənin dövlət dəstəklənməsinin təkmilləşdirilməsinin əhəmiyyəti izah edilmişdir.

Açar sözlər: *dövlət dəstəyi siyasəti, sahibkar, kənd təsərrüfatı, iqtisadiyyat, istehsal, problemlər.*

Giriş

Ayrı-ayrı dövlətlər öz iqtisadiyyatlarını son dövrlərdə dünya miqyasında baş verən dəyişkən şəraitə uyğunlaşdırmağa və dünya iqtisadi arenasında əlverişli mövqe tutmağa çalışırlar. Bu dəyişiklər ölkəmizdədə iqtisadiyyatın şaxələndirilməsi üçün istiqamətlərin yaradılması zərurətin ortaya çıxarmışdır.

Müstəqilliyimiz bərpa edildikdən sonra kənd təsərrüfatında baş verən geriləmələri aradan qaldırmaq, bu sahədə yaranmış dərin iqtisadi böhrandan uğurla çıxmaq üçün həyata keçirilən aqrar islahatlar nəticəsində sahibkarlıq fəaliyyətinə əsaslanan bərabərhüquqlu müxtəlif təsərrüfat formaları yaradılmışdır. Xüsusi mülkiyyət əsasında fəaliyyətin kənd təsərrüfatında müsbətə doğru dəyişikliklərlə müşayiət olunması ilə yanaşı, yeni şəraitdə qarşıya çıxan vəzifələrin həlli istiqamətində islahatların davam etdirilməsinə də ehtiyac yaranmışdır. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin genişləndirilərək inkişaf etməsi ölkənin iqtisadi artımına təsir edir, bazarın lazımi kəmiyyət və keyfiyyətdə məhsullarla təmin olunmasına və digər problemlərin həllinə kömək edir. Bazar iqtisadiyyatında ilk növbədə özlərinin mənafeyi naminə istehsal ehtiyatlarından ən yaxşı şəkildə istifadə edilməsi imkanlarının axtarışı və seçimi funksiyalarını həyata keçirən, istehsalı və mübadiləni təşkil edən, riskə gedən, səmərə əldə etməyə çalışan və qəbul edilmiş qərarlara, həyata keçirilən hərəkətlərə görə iqtisadi məsuliyyət daşıyan işçilər kateqoriyasına əvvəlki dövrlərlə müqayisədə daha artıq zərurət yaranır. Aqrar sahədə fəaliyyət göstərən sahibkarların üzərinə isə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı və ərzaq təhlükəsizliyinin təmin olunması, yüngül sənaye sahələrinin xammalla təmin olunması və s. vəzifələr düşür. Aqrar sahədə sahibkarlıq fəaliyyəti əsasən mikro, kiçik və orta sahibkarlığı əhatə edir.

Məqalədə kənd təsərrüfatında dövlət tənzimlənməsinin əsas istiqamətlərinə baxılır.

Azərbaycanda aqrar sahənin inkişafının təmin edilməsi və bu sahədə sahibkarlıq fəaliyyətinin genişlənməsi məqsədilə milli kənd təsərrüfatının müasir modelinə uyğun olaraq, zəruri iqtisadi təfəkkür və düşüncə istiqamətlərdə dəyişikliklərin və istehsalda modernləşdirmənin təmin edilməsi əsas vəzifələrdən biri kimi qarşıya çıxır. Bu da əsasən aqrar-sənaye kompleksinin inkişafının spesifik bir koordinasiya forması olaraq aqrobiznesin rolunun qiymətləndirilməsilə əlaqədar olan milli kənd təsərrüfatının müasir modeli ilə üst-üstə düşür. Həmin model çərçivəsində aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanda aqrar-sənaye kompleksinin dünya bazarlarında mövqeyinin gücləndirilməsinə yol açmalıdır.

Kənd təsərrüfatı sahibkarlarının istehsal imkanlarının aşağı olması onlara dövlət tərəfindən xüsusi güzəştlərin tətbiqini vacib amilə çevirmişdir. Bu güzəştlər əhatəsində ən diqqət çəkən proseslərdən biri də kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektlərinə vergi güzəştlərinin həyata keçirilməsidir. Elə bununla əlaqədar 1999-cu ildə ölkə prezidentinin müvafiq fərmanına əsasən, kənd təsərrüfatında istehsal subyektləri torpaq vergisi istisna olmaqla digər bütün vergilərdən 5 il ərzində azad edilmiş və hazırki dövrə qədər bu güzəştlər davamlı xarakter almışıdır.

Aqrar sahədə sahibkarlıq prosesinin inkişafı dövlət proqramları çərçivəsində stimullaşdırılmışdır. Bu proqramlara uyğun olaraq, sahibkarlığın tərəqqisi və tənzimlənməsinin inkişaf etdirilməsi məqsədilə bir sıra vacib işlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafı istiqamətində dövlət proqramları həyata keçirilmşdir. Həmin proqramlar regionlarda iqtisadi prosesin stimullaşdırılmasına yol açacaq zəruri məsələləri özündə cəmləmişdir.

Dövlət proqramında əkinçiliyin inkişafı yönündə də əsaslı dəyişikliklər nəzərdə tutulmuşdur. Əvvəlki illərdə taxil, üzüm, bostan məhsulları, tütün əkinçilikdə daha artıq paya malik idisə indi, istehsalın quruluşunda meyvə, tərəvəz məhsulları, yağlı bitkilər daha yüksək xüsusi çəkiyə malikdir Bu, müsbət irəliləyişlər sayəsində son 5 ildə əvvəllər 100 faiz xarici ölkələrdən idxal edilən şəkərin yerli istehsal hesabına böyük hissəsini reallaşdırmaq mümkün olub. İndi ölkədə şəkər istehsalına görə imkanlar yüksəkdir. Həmin məhsul üzrə ixtisaslaşmış bir neçə rayonda şəkər çuğundurunun əkilməsinə mühüm yer verilir. Ölkəmizdə kənd təsərrüfatı istehsalçılarına ən mühüm dəstəklərdən biri də sahə üzrə edilən vergi güzəştləridir. Qeyd olunduğu kimi, kənd təsərrüfatı sahibkarları 1999-cu ildən etibarən torpaq vergisi çıxılmaqla, qalan vergilərdən azad edilmişdir. Bundan əlavə kənd təsərrüfatı istehsalına görə vacib əhəmiyyət daşıyan maddi-texniki resursların böyük hissəsinin respublikamızda istehsalının olmamasını nəzərə alaraq, onların respublikaya idxalını asan yolla etmək və bu sahə ilə məşğul olan sahibkarların tələbatlarını ödəmək üçün ölkəyə daxil edilən kənd təsərrüfatı maşın və texnikaları, onların ehtiyat hissələri, fərqli dərman preparatları, gübrə və zəhərli kimyəvi maddələr gömrük vergisindən və idxal zamanı əlavə dəyər vergisindən azad edilmişdir.

Yeni şəraitdə kənd təsərrüfatında dövlət-özəl əməkdaşlığının genişləndirilməsi zərurəti ortaya çıxır. Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Xidmətlər Agentliyi, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Bitki Mühafizə Vasitələri, Gübrə İstehsalçıları və İdxalatçıları Assosiasiyası İctimai Birliyi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdır ki, bu da dövlət-özəl əməkdaşlığını özündə təzahür etdirir. Bu sənədin təsdiqlənməsi kənd təsərrüfatı fəaliyyətində dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi istiqamətində mühüm bir addımdır. Anlaşma memorandumu ölkədə məhsul istehsalının yüksəldilməsi üçün istehsal vasitələrindən səmərəli istifadə edilməsini, əkin sektorlarında fitosanitar tədbirlərin həyata keçirilməsi və xidmətlər göstərilməsinin koordinasiya edilməsini, həmçinin bitki sağlamlığı və qorunması, məhsuldarlığın yüksəldilməsinin həyata keçirilməsinə dair ixtisaslı kadrların hazırlanmasını özündə əks etdirir. Sənədi imzalayan tərəflər ölkə daxilində dayanıqlı ekoloji mühitin və fitosanitar mühitin qorunması, ziyanverici, xəstəlik və alaq otlarına qarşı əlverişli mübarizə tədbirlərinin, proseslərinin aparılması mexanizminin modern metod və texnologiyalar işlətməklə inkişaf etdirilməsi ilə bağlı əməkdaşlıq edəcəklər. Həmçinin sənəddə əsasən bitki sağlamlığının yeni üsullarla izlənməsi, fitosanitar mühitin mühafizəsi və ekoloji cəhətdən əlverişli mübarizə sistemlərinin həyata keçirilməsi yönündə fitosanitar mütəxəssislərin maarifləndirilməsi, ölkənin bölgələrində istehsalçılara bitki mühafizəsi prosesində modern texnoloji fəaliyyətlər haqqında birgə maarifləndirici təlimlərin təşkili və başqa yönlərə dair əməkdaşlıq nəzərdə tutulur . Eyni zamanda, kənd təsərrüfatı istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi istiqamətində Aqrar Kredit və İnkişaf Agentliyinin bank və kredit təşkilatları ilə əməkdaşlığı dövlət-özəl əməkdaşlığının ölkəmizdə uğurlu tətbiqini əks etdirir. Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə bir çox fermerə güzəştli mikrokredit verilmişdir .

İnkişaf etmiş ölkələrin təcrübəsində kənd təsərrüfatı əmtəə istehsalçılarının maddi-texniki vasitələrə olan tələbatlarının ödənilməsi üçün dövlət vasitəsilə vacib subsidiyalaşdırma fəaliyyət yerinə yetirilir. Həmin subsidiyalaşdırma prosesində, bir qayda olaraq onlara vergi prosesində

standart güzəştlərin edilməsi və elektrik enerjisindən istifadə zamanı güzəştli tariflərin həyata keçirilməsi mühüm yer tutur. Bundan başqa, ərzaq bazarında ehtiyaclara müvafiq olaraq kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və restrukturizasiya fəaliyyətinin yerinə yetirilməsinə dövlət tərəfindən yardımlar da edilir.

Təhlillər göstərir ki, rəqabətqabiliyyətliyin yüksəldilməsi yönündə kooperasiya əlaqələrinin və həmçinin emal sənayesi sahəsinə inteqrasiyanın sürətləndirilməsi, ticarət və bank sektorları ilə birgə fəaliyyət strukturlarının formalaşdırılması önəmli rola malikdir. İnkişaf etmiş ölkələrin praktikasında heyvandarlıq komplekslərinin, o cümlədən quşçuluq fabriklərinin istehsal qurumlarının strukturlarında yaradılması, kənd təsərrüfatı əmtəə istehsalçılarının mənfəətlərinin gözlənilməsində və onların satış təchizat məsələlərinin həllində əhəmiyyətli rol oynadığını göstərir. Həmin qəbildən olan quruluşlara kənd təsərrüfatı xammalının istehsalçıları ilə, emal qurumları əhatəsində birgə kommersiya qurumlarının meydana gəldiyini aid etmək olar ki, bununla da fərqli məhsul növləri üzrə holdinqlərin fəaliyyət göstərdiyi nəticəsinə gəlmək olar.

Aqrar sahənin dövlət dəstəyi sahibkarların fəaliyyətini stimullaşdırmaqla onların sayını artırır, qiymətlərin aşağı düşməsinə kömək edir, məhsulu az olan fermerlərin zərər və itkilərini azaldır. Bundan əlavə, kənd təsərrüfatının inkişafı üçün verilən subsidiyalar istehsalçılara maliyyə vəsaitlərini düzgün bölüşdürməyə və ondan səmərəli istifadəyə imkan verir. Dövlət büdcəsi hesabına əvəzsiz verilən subsidiyalar (meliorasiya xərcləri, heyvandarlığa dəstək, kimyəvi bitki mühafizə vasitələrinin alınmasına görə kompensasiya) hesabına kənd təsərrüfatında istehsal həcminin artmasına baxmayaraq, əldə edilən gəlirlər digər sahələrlə müqayisədə çox aşağıdır.

Nəticə

Dövlətin aqrar sahədə həyata keçirdiyi siyasətin əsas məqsədi sahibkarlığın inkişaf etdirilməsi, kənd təsərrüfatının və kənd yerlərinin dayanıqlı inkişafına nail olunmasıdır. Kənd yerlərinin dayanıqlı inkişafı dedikdə, onların sabit sosial-iqtisadi inkişafı, kənd təsərrüfatı məhsulları istehsalının, kənd təsərrüfatının səmərəliliyinin artması, kənd əhalisinin tam məşğulluğuna nail olunması və həyat səviyyəsinin yüksəlməsi, torpaqdan səmərəli istifadə başa düşülür. Bu isə aqrar sahibkarlığın dəstəklənməsindən və inkişaf etməsindən asılıdır.

Ümumilikdə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatına investisiyaların mühüm qaynağı əslində dövlət büdcəsi hesabına reallaşdırılan məqsədli proqramlardır. Həmin proqramlarda iştirak bir qayda olaraq müsabiqə əsasında həyata keçirilir. Proqramlar üzrə investisiya layihələrinin xeyli hissəsi infrastruktur sisteminin təkmilləşdirilməsinə, torpaqların münbitliyinin mühafizəsinə, əmtəə istehsalçıları üçün bu və qalan istehsal infrastrukturu, məhsul anbarlarının tikilməsinə yönləndirilir.

Dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndiyi müasir iqtisadi şəraitdə kənd təsərrüfatında sahibkarlıq prosesinin ölkə iqtisadiyyatına verdiyi töhfənin artırılması üçün əlverişli iqtisadi mühit yaratmalıdır ki, bu isə bilavasitə müvafiq hüquqi bazanın olmasından asılıdır.

ƏDƏBİYYAT

1. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.
2. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
3. https://agroeconomics.az/az
4. Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/
5. https://president.az/articles/50474
6. https://president.az/articles/33663
7. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, https://www.economy.gov.az
8. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, http://www.agro.gov.az/
9. Dövlət Gömrük Komitəsi, https://customs.gov.az/

10.“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu
11.Azərbaycan Respublikasının Vergi Məcəlləsi

SUMMARY

Safaralı Abdullayev

PRIORITIES OF STATE REGULATION OF THE AGRICULTURAL FIELD

The role of agriculture in meeting the needs of the country's population for food products, ensuring national food security, and providing industrial areas with raw materials is undeniable. The expansion of entrepreneurial activity in agriculture is aimed at creating food abundance.

As in other countries, entrepreneurial activity in Azerbaijan faces a number of problems, difficulties and obstacles due to the characteristic features of agriculture and the risks associated with this field. The relevance of the topic stems from the need to form highly effective, flexible, competitive and quality entrepreneurship in agriculture.

The state policy on strengthening the production and export potential of agricultural and food products in Azerbaijan should be implemented and evaluations should be made in the context of the effect of the implemented regulatory measures. The article explained the importance of improving the state support of the agricultural sector in order to achieve the set goal.

Key words : *state support policy, entrepreneur, agriculture, economy, production, problems.*

РЕЗЮМЕ

Сафарали Абдуллаев

ПРИОРИТЕТЫ ГОСУДАРСТВЕННОГО РЕГУЛИРОВАНИЯ СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ СФЕРЫ

Роль сельского хозяйства в удовлетворении потребностей населения страны в продуктах питания, обеспечении национальной продовольственной безопасности, обеспечении сырьем промышленных территорий неоспорима. Расширение предпринимательской деятельности в сельском хозяйстве направлено на создание продовольственного изобилия.

Как и в других странах, предпринимательская деятельность в Азербайджане сталкивается с рядом проблем, трудностей и препятствий, обусловленных характерными особенностями сельского хозяйства и рисками, связанными с этой сферой. Актуальность темы обусловлена необходимостью формирования высокоэффективного, гибкого, конкурентоспособного и качественного предпринимательства в сельском хозяйстве.

Государственная политика по усилению производственного и экспортного потенциала сельскохозяйственной и пищевой продукции в Азербайджане должна быть реализована, а оценки должны быть сделаны в контексте эффекта реализованных мер регулирования. В статье поясняется важность совершенствования государственной поддержки аграрного сектора для достижения поставленной цели.

Ключевые слова : *политика государственной поддержки, предприниматель, сельское хозяйство, экономика, производство, проблемы.*

QƏNİRƏ ŞİRİNZADƏ
qeniresirinzade@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0000-2894-8256

NAXÇIVAN MUXTAR RESPUBLIKASININ ALİ XƏRÇƏNGLƏRİN FAUNASI VƏ EKOLOGİYASI

Naxçıvan Muxtar Respublikasında xərçəngkimilər faunası haqqında ilk məlumatlar XX əsrin əvvəllərinə təsadüf edir. İlk dəfə NMR-nın Ordubad rayonunda qeydə alınmış yanüzən xərçəng növü təsvir edilmişdir. Naxçıvan Muxtar Respublikasının xərçəngkimilər faunası 4 sinifə, 10 dəstə, 28 fəsilə, 53 cins və 88 növlə təmsil olunmuşdur. Ali xərçənglər yarımsinifi 4 dəstəni özündə birləşdirir(Mysida, İsopoda, Amphipoda, Decapoda). Məqalədə Decapoda dəstəsinin nümayəndələrinin qısa morfoloji xüsusiyyətləri, muxtar respublika ərazisində rast gəlinən növləri (Palaemon elegans,P. Polamios,A. leptodactylus), Çay xərçənginin vətəgə əhəmiyyəti və Decapoda dəstəsinin bioekologiyası vurğulanır. Təbii hadisələr xərçənglərin sayını məhdudlaşdıran abiotik amildir. Növlərin say dinamikasına təsir edən digər amillər və Ali xərçənglərin növlərinin mühafizəsi üçün təklif olunan tədbirlər nəzərinizə çatdırılır.

Açar sözlər: *Ali xərçənglər, Decapoda dəstəsi,Araz çay, Naxçıvan su anbarı,Çay xərçəngi, Çay yengəcləri, Mizidilər və yanüzən xərçənglər*

Giriş

Azərbaycanın faunasının zənginliyi qədimdən günümüzə gəlib çatmış qaya və daş üzərindəki təsvirlərdən bizlərə məlumdur. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi öz faunasının füsunkarlığı ilə təbiətimizin zənginliyinin bir nümunəsidir.Naxçıvan MR ərazisinin Xərçəngkimilər faunası haqqında ilkin məlumatlar keçən əsrin əvvəllərinə təsadüf edir. 1914-cü ildə Alman tədqiqatçısı K.Şafern Ordubad rayonunun Kəhriz sularında apardığı tədqiqatlarda *Dikerogammarus setosus* yanüzən xərçəng növünü təsvir etmişdir. 1980-ci ildən etibarən MR ərazisində Azərbaycan EA Naxçıvan Regional Elm Mərkəzinin Daxili suların biologiyası sektorunun əməkdaşları tərəfindən Xərçəngkimilər faunası dərindən öyrənilməyə başladı. Hal-hazırda zooloji tədqiqatlar və xərçəngkimilərin növ tərkibi, bioekoloji xüsusiyyətlərinin öyrənilməsi davam etdirilir.

NMR-nın xərçəngkimilər faunası 4 sinifə, 10 dəstə, 28 fəsilə, 53 cins və 88 növlə təmsil olunmuşdur. Quru onurğasızlarına *Armadillidium vulgare* və *Cylisticus orientalis* 2 növ daxildir. Digər xərçəng növləri su həyat tərzi keçirirlər. Xərçənglər Arazboyu düzənlikdən başlayaraq yüksək dağlıq qurşağınadək bütün sututarlarda geniş yayılmışdır. Əksər növləri xərçəngkimilərin dəniz(şor su) formalarıdır. *Malacostraca*- sinifinə mənsub 14 növ və 3 yarımnöv ali xərçənglərdir. Qalan digər 71 növ ibtidai xərçənglərə aid edilir.

Buğumayaqlılarla xərçəng növlərini fərqləndirən əsas əlamətlər aşağıdakılardır;

- iki cüt antena(hissiyat bığcığı)
- bir cüt üst çənə
- iki cüt alt çənə.

Xərçənglərin bədən ölçüləri mikrometrlərdən başlayaraq 0,8 m arasında dəyişir. Ali Xərçənglərin Decapoda dəstəsində omar və lanqust kimi okean yengəclərinə rast gəlinir. Bu nümayəndələrinin kütləsi 10 və 14 kq təsadüf edir.

Ali xərçənglər yarımsinifi. *Malacostraca* sinifinə 4 dəstə aid edilir. *Mysida, İsopoda, Amphipoda, Decapoda.*

Ali xərçənglərin əsas əlamətləri:

- Ali xərçənglər 2 şaxədən ibarət ətraflara malikdirlər.

- Bədənləri 18 buğumdan ibarət olub; 4 baş, 8 döş və 6 qarın buğumlarından təşkil olunub.
- Bədən karapaksla örtülüb və karapaks sərt və möhkəm olub, baş döşün üzərini örtür.
- Mədə 2 şöbədən ibarət olub, bağırsağın ön şöbəsindən əmələ gəlmişdir.
- İfrazat orqanları yaşıl vəzilərdir.
- Tənəffüs qəlsəmələrlə həyata keçirilir. Qəlsəmələr döşdə yerləşir.
- 12 düyündən ibarət qarın sinir zəncirinə malikdirlər: 1 udlaqaltı, 5 döş, 6 qarın. Sinir sisteminin bu quruluşuna əsasən ali xərçənglərdə hiss orqanlarıda yaxşı inkişaf etmişdir.
- Ali xərçənglərdə mayalanma xaricdə gedir və ayrıcinsli heyvanlardırlar. Bunlara xas əlamətlərdən biridə cinsi dimorfizmə malik olmalarıdır. Ali xərçənglərdə cinsi vəzilər cütdür, inkişaf metamorfozla baş verir[1, 3].

***Decapoda* (Onayaqlılar) dəstəsi.**

Malacostraca sinifinə daxil olan *Decapoda* dəstəsində yüksek səviyyəli inkişafa malik olan xərçəng növlərinə rast gəlirik. *Decapoda* dəstəsinə təxminən 15000-ə yaxın növ daxildir. *Decapoda* dəstəsinə daxil olan nümayəndələrdə döşün 8 heteronom buğumu başla hərəkətsiz birləşir. Bu birləşmə ilə ümumi xitin zirehlə(karapaks) örtülmüş baş-döş əmələ gəlmişdir. Karapaksın hamar, qırışıqlı və ya qabarcıqlı formalarına rast gəlinir. Qəlsəmələrin üzərini örtən qapaqlar karapaksın uzantısıdır. Onayaqlılar fasetli gözlərə malikdir. Gözlər başın ön hissərində yerləşir. Decapoda baş-döşdən ibarət olub; 5 baş və 8 döş buğumundan təşkil olunmuşdur [1, 3].

***Decapoda* dəstəsinin NMR-da rast gəlinən növləri.** Naxçıvan Muxtar Respublikasında 3 növ oynaqlı xərçənglərə rast gəlirik. Onların sistematik vəziyyətini aşağıda qeyd edək:

Phylum: *Arthropoda* von Siebold, 1848
Classis: *Malacostraca* Latreille, 1802
Ordo: *Decapoda* Latreille, 1802
Familia: *Palaemonidae* Rafinesque, 1815

- *Palaemon elegans* Rathke, 1837

Familia:*Astacidae* Latreille, 1802-1803

- *Astacus leptodactylus* (Eschscholtz, 1823)

Familia: *Potamidae* Ortmann, 1896

- *Patomon potamios* (Olivier, 1804)

Çay xərçəngi *(Astacus leptodactylus)* Naxçıvan Muxtar Respublikasının faunasında ilk dəfə 1989-cu ildə göstərilmişdir. Çay xərçəngi populyasiyası Araz su anbarında vətəgə əhəmiyyətli ikinci bioloji məhsul sayılır. Araz çayının digər sahili qonşu ölkə ilə sərhətlənir və su anbarının faunasına daxil olan xərçəng növləri iki dövlətin balıqçıları tərəfindən ovlanır. Araz su anbarı çay xərçəngləri üçün əlverişli ekoloji mühitə sahibdir. Beləliklə, ötən müddət ərzində çay xərçəngi Naxçıvançaya və passiv induksiya yolu ilə Sirab su anbarına yayılmışdır. Araz su anbarının dib faunasında çay xərçəngi rastgəlmə tezliyinə və biokütləsinə görə üçüncü dominant növdür. Su anbarında çay xərçənginin çoxillik ümumi orta biokütləsi 241,0 ton olduğu qeydə alınmışdır. Cinsi yetişkənliyə çatmış 3 yaşındakı fərdlərdə payız aylarında mayalanma prosesi baş verir. Çay xərçənglərinin intensiv nəsil verməsi aprel- may aylarına təsadüf edir. Dişi fərdlərdə qarınaltı nahiyyədə qarın ayaqlarına yapışdırılaraq yerləşən mayalanmış ziqotların sayı 420-580 arasında dəyişir. Ziqot sayı orta hesabla 495 ədəd olmuşdur [1, 2, 4, 5 6]

Çay xərçənglərinin nəsil verən dişilərində müəyyən edilmişdirki, boy artımı yaşdan aslı olaraq çox az dəyişilir. Bunun əsas səbəbi reproduktiv fəal dişilərdə bədənə mənimsənilən üzvi maddələrin növbəti çoxalma mərhələsində cinsi məhsulların yaranmasına sərfi ilə əlaqədardır. Çay xərçənglərinin kəskin dimorfizmə malik olmaları səciyyəvi əlamətlərindən biridir. Erkək və dişi fərdlər ölçülərinə görə fərqlənirlər. Dişi fərdlərlə müqayisədə erkək fərdlər ölçüsünə, kütləsinə və qısqanclarının iriliyinə görə fərqlənirlər. Araz su anbarında erkək fərdlərin maksimal kütləsi 250,0 q-a çatmış çay xərçənglərinə rast gəlinmişdir [5, 6].

Çay xərçənglərinin qidasını xəstə və ölü heyvan qalıqları, bitki hissələri, fərqli kiçik onurğasızlar təşkil edir. Qeyd etmək lazımdır ki, çay xərçəngi və krevet fərdləri helmintlərin

bəzilərinin aralıq sahibi ola bilirlər. Ali xərçənglərin bu 2 növü gözəl dadına, yüksək qida dəyərinə görə xarici və daxili bazarlarda çoxlu tələb görür və qiymətləndirilir.

Decapoda dəstəsinin bioekologiyası. Dəstə nümayəndələrindən olan krevet (*Palaemon elegans Rathke*) , çay xərçəngi (*Astacus leptodoctylus Eschscholts*) və çay yengəci (*Polamon potamios*) Naxçıvan su anbarlarının faunasını zənginləşdirir. *Decapoda* dəstə nümayəndələrinin əksəriyyəti dəniz heyvanlarıdır. Bəzi növləri isə şirin və şor sularda yaşayır. Həyat tərzi bentos və planktobentos olan növlər daha çox daş, qum, bitki və yosun örtüyündən əmələ gələn sahil zonalarında yaşamağa üstünlük verirlər. Çay yengəclərinə Naxçıvan Muxtar Respublikasının orta və yuxarı dağlıq zonalarında çaylardan bir kilometr uzaqlıqda rütubətli çəmənliklərdə rast gəlinir. Daş yengəci cinsi 2 növlə faunamızda təmsil olunub. Naxçıvan Muxtar Respublikasında bu növlərə ən çox Culfa və Ordubad rayonlarında rast gəlinir. Culfa və Ordubad rayon çaylarının orta və yüksek dağlıq zonalarında yayılıblar. *Astacus* cinsinin nümayəndələri Xəzər faunistik kompleksinə, digər növlər isə Aralıq dəniz hövzəsindən olan immiqrantlardır. Mizidilər və yanüzənlər ali xərçənglər sinifinə aiddirlər [2, 3].

Qeyd etmək lazımdır ki, *Paramysis lacustris* növü yalnız Muxtar Respublikada Naxçıvan su anbarının faunasında rast gəlinir. Yanüzən xərçənglər daha geniş yayılmışdır. Onlar bütün sularımızda rast gələ biləcəyimiz adi su orqanizmləridir. Yanüzən xərçənglər adındanda görüldüyü kimi yanlardan bədəni sıxılıb yastılaşmış olub, narahat edildikdə yan üstə üzürlər. Mizidilər və yanüzənlər balıqlar üçün dəyərli yem orqanizmləridirlər. Bunlar həmçinin parazit qurdların aralıq sahibi ola bilirlər. *P. Lacustris*populyasiyası Naxçıvan su anbarında Mingəçevir su anbarı ilə müqayisədə il ərzində iki dəfə çox nəsil verir. Həmin növ Mingəçevir su anbarında il ərzində iki nəsil, Naxçıvan su anbarında isə dörd nəsil verir və buda onu göstərir ki, Muxtar Respublika ərazisində bu növ yüksək cinsi məhsuldarlığı ilə fərqlənir [2].

Növlərin istifadəsi və mühafizəsi üçün təklif olunan tədbirlər. Ali xərçənglər sinifi özündə qida əhəmiyyətli növləri birləşdirir. Bəzi ölkələrdə yengəclər insan qidasını təşkil edir. Ali xərçənglər su ekosisteminin təmizlənməsində böyük rol oynayır. Bir çox parazit qurdların aralıq sahibi olmaqla yanaşı, balıqların qidasını təşkil edən növlərədə rast gəlinir. Çaylarda baş verən sel və daşqınlar xərçənglərin saylarına mənfi təsir göstərir. Bu təbii hadisələr xərçənglərin sayını məhdudlaşdıran abiotik amillərdir. Növlərin intensiv ovlanması say dinamikasına təsir edən digər amillərdən biridir. Araz çay ətrafında xərçənglər bizim ölkə ilə bərabər İran İR balıqçıları tərəfindəndə intensiv ovlanır. Krevet növünü qeyd edə bilərik ki, hələdə su anbarlarında ovlanmasına imkan verilmir. Araz su anbarında *Palaemon elegans* və *Astacus leptodactylus* növlərinin səmərəli istifadəsinə diqqət etməli, hər iki qonşu dövlət tərəfindən illik ovun miqdarı və müddəti razılaşdırılmalıdır [5].

ƏDƏBİYYAT

1. Bayramov A.B. Naxçıvan su anbarında çay xərçəngi- *Astacus leptodactylus Esch.* fərdlərinin boy və çəki artımı // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Təbiət və texniki elmlər seriası. 2007, №4. s. 159-164.
2. Bayramov A.B və Məhərrəmov M.M. Naxçıvan Muxtar Respublikası faunasının onayaqlı (*Crustacea, Decapoda*) xərçəng növləri // AMEA Naxçıvan bölməsi Bioresuslar İnstitutu, Naxçıvan: 2018, Cild 36, №1. s. 21-30.
3. Bayramov A.B. Naxçıvan su anbarında çay xərçənginin (*Astacus leptodactylus*) bioekoloji xüsusiyyətləri // AMEA Zoologiya İnstitunun əsərləri. Bakı: Elm, 2006, XXVIII bur.s. 144-148.
4. Əzizov Ə.P. Abşeron yarmadasının sahilyanı sularında *Astacus leptodactylus* xərçənginin bioekoloji xüsusuyyətləri və vətəgə ehtiyatları // Zoologiya İnstitunun Əsərləri. Cild. XXVIII. Bakı: Elm, 2006. s. 257-266.
5. Qasımov Ə.H. Azərbaycan faunası. Xərçənglər (*Crustacea).* Bakı: Elm, 1976, 250 s.
6. Quliyeva H.F.və Muradova E.Ə. Onurğasızlar zoologiyası: tədris-metodikkompleks (Biologiya-050000 istiqamət üzrə təhsil alan bakalavr-tələbələr üçün) / Bakı: 2021, 392 s.

SUMMARY

Ganira Shirinzade

FAUNA AND ECOLOGY OF HIGHER CRUSTACEANS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The first information about crustacean fauna in the Nakhchivan Autonomous Republic dates back to the beginning of the 20th century. The type of side-swimming crab recorded for the first time in the Ordubad region of NMR is described. The crustacean fauna of NMR is represented by 4 classes, 10 orders, 28 families, 53 genera and 88 species. The subclass of higher crustaceans includes 4 groups (Mysida, Isopoda, Amphipoda, Decapoda). In the article, the brief morphological characteristics of the representatives of the Decapoda group, the species found in the territory of the Autonomous Republic (*Palaemon elegans, A. leptodactylus, P. polamios*), the importance of river crayfish and the bioecology of the order *Decapoda* are emphasized. Natural phenomena are the abiotic factor limiting the number of crabs. Other factors affecting the number dynamics of species and proposed measures for the protection of species of higher crabs are brought to your attention.

Key words: *Higher crabs, Decapoda group, Araz river, Nakhchivan reservoir, River crayfish, River crabs, Mizidis and swimming crabs,*

FİZİKA – RİYAZİYYAT ELMLƏRİ

XANƏLİ HƏSƏNOV
xanali.hasanov.1950@mail.ru
AYGÜN CANBAĞIŞOVA
ayguncanbagishova11@gmail.com
Naxçıvan Dövlət Universiteti

BİRCİNS YARIMKEÇİRİCİ PLAZMANIN ELEKTROMAQNİT SAHƏSİNDƏ RƏQSLƏRİNƏ DAİR

Elmi məqalə plazmanın elektrik və maqnit sahələrində fiziki xüsusiyyətlərinə həsr edilib. Plazmanın əsas xassələri nəzərə alınaraq oradakı yüklü zərrəciklərin elektromaqnit sahəsində hərəkət tənlikləri həll edilərək trayektoriyaları tapılmışdır. Plazmanın maqnit sahəsində özünü aparması Maksvell tənlikləri ilə izah edilmişdir. Burada yaranan maqnitohidrodinamik, səs, Lenqmyor və zərbə dalğalarının hər birinin əsas xüsusiyyətləri təhlil edilmişdir. Daha sonra elektrik və maqnit sahəsində yarımkeçiricinin elektrik keçiriciliyinə və yüklü zərrəciklərin dreyf cərəyanlarına baxılıb. Maqnitlənməyən və maqnitlənən plazma halları araşdırılaraq göstərilib ki, maqnitlənən plazmada dielektrik sabiti azalır, keçiricilik tenzorunun komponentləri azalan plazma isə qirotrop mühit olur. Dispersiya tənliyinə əsaslanaraq plazmada həyəcanlaşmanın dayanıqsızlığı-elektromaqnit dalğalarının sönməsi və fəallaşması halları da fərqləndirilmişdir.

Açar sözlər: *yarımkeçirici, plazma,elektromaqnit sahəsi, dreyf sürəti, elektrik keçiriciliyi, dielektrik nüfuzluğu*

Məlumdur ki, plazmadakı yüklü zərrəciklərin elektromaqnit sahəsində hərəkət tənliyi

$$\frac{dv}{dt}=\frac{q}{m}(E+[vB])-v_p v \qquad (1)$$

şəklində olur. Burada q zərrəciyin yükü, m kütləsi, v_p isə onun kristal qəfəslə toqquşma tənliyidir.

Maqnitlənən plazmada sabit maqnit sahəsi sıfırdır ($B_0=0$). Bu hal sadədir və elmi ədəbiyyatda məlumdur. Maqnitlənməyən plazmada ($B_0=0$) zərrəciyin başlanğıc sürəti v_0 B_0-a paralel yönəlibsə, onda zərrəcik maqnit sahəsinə perpendikulyar müstəvidə dairəvi hərəkətdə, sahə istiqamətində isə irəliləmə hərəkətində olacaq. Nəticədə onun trayektoriyası vintvarı olacaq.

Əgər E_0 sabit elektrik sahəsi ilə yanaşı dəyişən $E=E_0\exp(i\omega t)$ harmonik sahə də varsa onda dreyf sürətinin sabit və dəyişən toplananları üçün (1) tənliyindən

$$\vartheta_0=\mu_p(E_0+[\vartheta_0 B_0])$$
$$\vartheta_1=\mu(E_0+[\vartheta_1 B_0]) \qquad (2)$$

alarıq.

Vektor cəbrinin məlum qaydalarından istifadə etməklə (2) tənliklərindən elektrik və maqnit sahələrinin ixtiyari orientasiyasında dreyf sürətinin ümumi ifadəsi üçün

$$\vartheta = \mu\frac{E+\mu[EB_0]+\mu^2(B_0\ E_0)B_0}{1+(\mu B_0)^2} \qquad (3)$$

alınır. Burada $\mu - yürüklükdür.$

Hidrodinamik yaxınlaşmada soyuq plazmada dreyf cərəyanının $j=qn_0v=\sigma E$ ifadəsindən $\sigma -$ elektrik keçiriciliyinin tenzorunu hesablasaq

$$\sigma_{ij}=\frac{qn_0\mu}{1+\mu^2 B_0^2}[\sigma_{ij} - (\mu B_0)\varepsilon_{ije}\left(\frac{B_{0e}}{B_0}\right)+(\mu B_0^2)(\frac{B_{0i}B_{0j}}{B_0^2})] \qquad (4)$$

alınır. Burada σ_{ij}-Kroneker, ε_{ije}-Levi-Çvin simboludur.

Göründüyü kimi, maqnit sahəsi olmayanda skalyar kəmiyyət olan elektrik keçiriciliyi sahə təsir edəndə tenzora çevrilir. Buna səbəb elektrik sahəsinə paralel olmayan dreyf cərəyanının yaranmasıdır. İşdə bərk cisim plazmasının dayanıqlığı məsələsini araşdırmaq üçün yükdaşıyıcıların tarazlıq paylanma funksiyasının məlum ifadəsindən istifadə edilib. Bu məsələ fəzaya görə bircins mühitin dielektrik nüfuzluğu tenzoru ilə müəyyən edilən kiçik rəqslərinin spektrinin təhlilinə gətirilir.

Yükdaşıyıcıların tarazlıq paylanma funksiyası məlum olduqdan sonra bu halın dayanıqlığı məsələsinə baxmaq olar. Fəzaya görə birinci mühitin dayanıqlığının öyrənilməsi onun dielektrik nüfuzluğu tenzoru ilə müəyyən edilən kiçik rəqslərinin spektrlərinin təhlilinə gətirilir. Dielektrik nüfuzluğu tenzorunu hesablamaq üçün həyəcanlaşdırıcı E_1 və E_2 sahələrinin təsiri ilə paylanma funksiyasının tarazlıq halından σ_f kiçik fərqini tapmaq lazımdır. Bunu sisteminin xəttiləşdirilməsi ilə həllindən tapılır. Lakin fəza dispersiyası zəif olanda rəqslərin tezliyi alçaq olur və

$\omega << \sigma\vartheta, \quad k^2\vartheta_T^2 << \mathrm{v}$ (5)

sisteminə həll etməyə lüzum qalmır. İş burasındadır ki, tapılan həlləri təkcə stasionar və bircins sahələr halında deyil, həmçinin qeyri-bircins və qeyri-stasionar sahələrdə də doğrudur. Bu səbəbdən də dielektrik nüfuzluğu tenzorunu hesablayarkən yük sıxlığı n, E və B sahələrində sıfır indeksini atıb həmin kəmiyyətləri

$n=n_0+n, \quad E=E_0+E_1, \quad B=B_0+B_1$ (6)

şəklində yazaq. Burada, n_1, E_1B_1 uyğun olaraq, sıxlığın və sahələrin tarazlıq qiymətlərindəki kiçik həyəcanlaşmalardır.

Bu ifadəni xəttiləşdirərək tarazlıq funksiyasının həyəcanlaşmasını tapaq.

$f_{00}=f_{00}+\delta f_0. \quad f_1=f_{10}+\delta f_1$ (7)

Burada δf_0 – həyəcanlaşmanın izotrop, $\delta f_1 -$ anizotrop hissələrdir. P lazmada bir tip yükdaşıyıcıların yaratdığı həyəcanlaşma cərəyanı

$\delta_{ij} = \sigma_{ij}(\omega,k)E_{ij} = \mathrm{e}\int \vartheta_{\mathrm{i}}\frac{(\vartheta\delta f_1)}{\vartheta}\mathrm{dp}$ (8)

Bu son ifadə deyil, çünki δj təkcə E_1-dən asılı deyil. $\delta f_1 -$ in daxilində n_1 və B_1 var. Bu kəmiyyətləri aradan götürmək üçün kəsilməzlik və sahə tənliklərindən istifadə olunur.

n_1 və B_1-u tapıb, $\sigma_{ij}(\omega k)$ keçiricilik tenzorunu biləndən sonra yarımkeçirici plazmada bir tip yükdaşıyıcı halında dielektrik nüfuzluğu tenzorunu hesablamaq olar.

$\varepsilon_{ij}(\omega,k) = \varepsilon_{ij}^{(0)} + i\frac{4\pi}{\omega}\sigma_{ij}(\omega,\mathrm{k})$ (9)

burada $\varepsilon_{ij}^{(0)}$ qəfəsinin dielektrik sabitidir. Bundan sonra sadəlik üçün izotrop yarımkeçiricilərə, yaxud kristal qəfəsi kubik simmetriyalı yarımkeçiricilərə baxacağıq. Onlar üçün

$$\varepsilon_{ij}^{(0)} = \varepsilon_0\delta_{ij}$$

Alınan nəticələri simmetriyası kubik olmayan kristallara ümumiləşdirmək çətinlik yaratmır.

Əgər yarımkeçirici müxtəlif növ yükdaşıyıcılara malikdirsə, keçiricilikdə hər bir növ yükdaşıyıcı iştirak etdiyindən (9) ifadəsini

$\varepsilon_{ij}(\omega,k) = \varepsilon_{ij}^{(0)} + i\frac{4\pi}{\omega}\sum\delta_{ij}(\omega,k)$ (10)

kimi yazmalıyıq. Buradan cəmləmə yükdaşıyıcıların bütün növlərinə aid edilir.

Yarımkeçirici plazmanın keçiricilik tenzorunun və dielektrik nüfuzluğu tenzorunun hesablanmasını yuxarıda qeyd edilən üsulu ideyasına görə çox sadə olsa da yerinə yetirilməsi çox mürəkkəbdir. Ona görə də riyazi hesablamanı tamamilə yerinə yetirməyib, maqnit sahəsi olmadıqda plazmanı alçaqtezlikli rəqslərinin təhlili ilə kifayətlənəcəyik. Bu halda təkcə elektrik sahəsi paylanma funskiyasında həyəcanlaşma yaradır.

$$\varepsilon_{\mathrm{ij}}(\omega,\mathrm{k}) = \varepsilon_0\delta_{\mathrm{ij}} + \mathrm{i}\frac{4\pi}{\omega}\delta_{\mathrm{ij}}(\omega,\mathrm{k}) = \varepsilon_0\delta_{\mathrm{ij}} + \mathrm{i}\frac{4\pi}{\omega}\mathrm{x}\delta_0\gamma_0(\mathrm{E}_0)\left\{\left(1-\beta\frac{\mathrm{ku}}{\omega}\right)\delta_{\mathrm{ij}} + \beta\frac{\mathrm{k_i u_i}}{\omega} + \frac{1}{\omega-(\mathrm{ku})}\left[\frac{2\mathrm{q}}{\mathrm{r}-\mathrm{q}}\omega\frac{\mathrm{E_{0i}E_{0j}}}{\varepsilon_0^2} + \frac{\mathrm{u_i k_i}}{\omega}\left(\omega-(\mathrm{ku})\right) + \beta\frac{\mathrm{k^2 u_i u_j}}{\omega}\right]\right\}$$ (11)

Burada

$\beta = \frac{\Gamma(1+\frac{3}{2r+2q})\Gamma(\frac{2r+2q-3}{2r-2q})}{\Gamma^2(\frac{2r+3}{2r-2q})}$, u=$\frac{e\delta_0(E_0)}{mv_0}E_0$

parametrlər, Γ-qamma funksiyasıdır.

Dielektrik nüfuzluğu tenzorunun köməyi ilə dispersiya tənliyindən istifadə edərək xarici maqnit sahəsi olmadıqda bərk cisim plazmasının uzununa rəqslərinin spektri üçün

$$\omega = ku - i\frac{\omega_l^2}{\varepsilon_0\vartheta_0}\gamma_0(E_0)\left(1+\frac{2q}{r-q}cos^2\varphi\right) \qquad (12)$$

alınır. Burada $\omega_L = (\frac{4\pi e^2 n_0}{m})^{1/2}$ – yükdaşıyıcıların Lenqleyur tezliyi, -φ dalğanın yayılma istiqaməti ilə xarici elektrik sahəsi arasındakı bucaqdır. Dayanıqsızlığın, yaxud deyildiyi kimi uzununa elektromaqnit dalğalarının həyəcanlaşdırılması şərti bu halda

$$1+\frac{2q}{r-q}cos^2\varphi < 0, yaxud\ r+q-2qsin^2\varphi < 0 \qquad (13)$$

şəklində yazılar. (11) və (12)-in müqayisəsindən görürük ki, xarici elektrik sahəsində bir növ yükdaşıyıcısı olan yarımkeçiricilik plazmada rəqslərin həyəcanlaşdırılması şərti yalnız mənfi volt-amper xarakteristikasının mövcudluğu vaxtı mümkündür.

ƏDƏBİYYAT

1. Ю.К.Помела Плазма и моковые неусмойгивосми в полупроводниках Москва: Наука, 1977
2. В.Л.Гинзвупг Распросмранение элекмромагнимные воли в плазме, Москва: Наука, 1967
3. В.Л.Гинзвупг, А.А.Рухадзе Волны в магнимо акмивной плазме, Москва: Наука, 1970

SUMMARY

Khanali Hasanov, Aygun Janbagishova

ON THE ELECTROMAGNETIC FIELD DANCES OF PRINCIPAL SEMICONDUCTOR PLASMA

The scientific article is devoted to the physical properties of plasma in electric and magnetic fields. Taking into account the main properties of plasma, the trajectories of the charged particles in the electromagnetic field were solved and their trajectories were found. The behavior of plasma in a magnetic field is explained by Maxwell's equations. The main characteristics of each of the generated magnetohydrodynamic, sound, Langmuir and shock waves were analyzed. Then, the electrical conductivity of the semiconductor in the electric and magnetic fields and the drift currents of the charged particles were considered. Non-magnetized and magnetized plasma cases were investigated and it was shown that the dielectric constant decreases in the magnetized plasma, and the plasma with decreasing components of the conductivity tensor becomes a gyrotropic environment. Based on the dispersion equation, the cases of instability of excitation in the plasma, extinction and activation of electromagnetic waves are also distinguished

Key words: *semiconductor, plasma, electromagnetic field, drift speed, electrical conductivity, dielectric permeability*

РЕЗЮМЕ

Ханали Гасанов, Айгюн Джанбагишова

О ТАНЦАХ ЭЛЕКТРОМАГНИТНОГО ПОЛЯ ОСНОВНОЙ ПОЛУПРОВОДНИКОВОЙ ПЛАЗМЫ

Научная статья посвящена физическим свойствам плазмы в электрических и магнитных полях. С учетом основных свойств плазмы были решены траектории движения заряженных частиц в электромагнитном поле и найдены их траектории. Поведение плазмы в магнитном поле объясняется уравнениями Максвелла. Проанализированы основные характеристики каждой из генерируемых магнитогидродинамических, звуковы, ленгмюровских и ударных волн. Затем рассматривалась электропроводность полупроводника в электрическом и магнитном полях, а также дрейфовые токи заряженных частиц. Исследованы случаи незамагниченной и намагниченной плазмы и показано, что в замагниченной плазме диэлектрическая проницаемость уменьшается, а плазма с уменьшающимися компонентами тензора проводимости становится гиротропной средой. На основе дисперсионного уравнения выделены также случаи неустойчивости возбуждения в плазме, затухания и активации электромагнитных волн.

Клюгевые слова: *полупроводник, плазма, электромагнитное поле, скорость дрейфа, электропроводность, диэлектрическая проницаемость.*

NAZİLƏ QARDAŞBƏYOVA

NƏZAKƏT MƏMMƏDOVA

nezaket.memmedova3@icloud.com

Naxçıvan Dövlət Universiteti

YARIMKÇİRİCİ CİHAZLARDA QEYRİ-ƏSAS DAŞIYICILARIN YAŞAMA MÜDDƏTİNİN ÖLÇÜLMƏ ÜSULLARI

Məqalədə nəzəri olaraq yarımkeçirici diodun impulsdəyişmə xarakteristikalarını iki rejimdə tədqiqi göstərilmişdir.Birinci rejimdə kəskin p-n keçidli diodun impulsdəyişmə xarakteristikaları öyrənilmişdir. Bu rejim diodu ani olaraq düz istiqamətdən əks istiqamətə sıçrayışla dəyişdirdikdə müşahidə edilir.p-n keçidin baza oblastında injeksiya etmiş və yığılmış qeyri-əsas daşıyıcılar keçidə qayıdır və əks cərəyanın qiymətini artırır.Başqa sözlə desək p-n keçidin mütəhərrik daşıyıcılarla zənginləşməsi və baza keçiriciliyin azalması nəticəsində dəyişmənin başlanğıc halında əks istiqamətdə diodun keçiriciliyi düzünə keçiricilik tərtibindədir.Əks cərəyanın başlanğıc qiyməti diodun dövrəsinə ardıcıl birləşdirilmiş xarici R müqavimətinin və əks gərginliyinin qiymətindən asılıdır. Keçid oblastında daşıyıcıların konsentrasiyası çox böyük olduğuna görə gərginliyin verilmiş qiymətində əks cərəyan sabit olur.

Açar sözlər: *yarımkeçirici, metal, monokristal, elektron, qeyri-əsas daşıyıcılar, potensial çəpər, rekombinasiya,generasiya*

p-n keçidli cihazlarda qeyri-əsas daşıyıcıların yaşama müddətini ölçülmə üsullarına nəzər salaq. Yaşama müddətinin ölçülmə üsullarının iki növü vardır:stasionar və qeyri- stasionar . Stasionar-qərarlaşmış üsulda statik xarakteristikalardan injeksiya etmiş daşıyıcıların diffuziya uzunluğu, qeyri-stasionar üsulda isə elektron və deşik keçidlərin impuls və tezlik xarakteristikalarına görə yaşama müddəti təyin edilir. Qeyri-əsas daşıyıcıların diffuziya uzunluğu (LP) işıq və şüalandırılmış p-n keçidlərin qısaqapanma cərəyanına görə təyin etmək olar [1]. Bu ölçü üsulları stasionar üsullaraaiddir.Ge p-n keçidlərində əks cərəyanın doyma qiyməti effektiv yaşama müddəti ilə təyin olunur. Yaşama müddəti demək olar ki, böyük sahəli nümunələrdə qiymətcə həcmi yaşama müddətinə, kiçik sahəli nümunələrdə isə səthi rekombinasiya sürətinə bərabər olur [2]. Buradan belə qənaətə gəlmək olar ki, doyma cərəyanını ölçməklə effektiv yaşama müddətini hesablamaq olar. Həcmi yüklər layında daşıyıcıların generasiya və rekombinasiyası üstünlük təşkil edən diodlarda əks vəya düzünə cərəyanın qiymətinə görə keçid oblastındakı daşıyıcıların yaşama müddəti təyin etmək olur. Qeyri-əsas daşıyıcıların yəni deşiklərin yaşama müddətini düz istiqamətdə tutumu ölçməklə də qiymətləndirmək olar. Bildiyimiz kimi, dəyişən gərginliyin kiçik tezliklərində düz istiqamətdə gərilmiş p-n keçidin tutumu(Cdif) aşağıdakı düsturla ifadə olunur:

$$Cdif = (I+Is) \qquad (1)$$

p-n keçid üçün keçid oblastında daşıyıcıların rekombinasiyasını nəzərə almasaq düzlənmiş cərəyanın tezlikdən asılılığının tədqiqi göstərir ki,tezlik artdıqca cərəyan azalır. Buradan aydın olur ki, düzlənmiş cərəyanın tezlikdən asılılığının sadə ifadəsi ,işçi müqavimətinin keçid müqavimətindən böyük olduğu halda açıq dövrə rejimində alınır.

Ayrı-ayrı müəlliflər nəzəri olaraq yarımkeçirici diodun impulsdəyişmə xarakteristikalarını iki rejimdə tədqiq etmişlər. Birinci rejimdə kəskin p-n keçidli diodun impulsdəyişmə xarakteristikaları öyrənilmişdir. Bu rejim diodu ani olaraq düz istiqamətdən əks istiqamətə sıçrayışla dəyişdirdikdə müşahidə edilir. p-n keçidin baza oblastında injeksiya etmiş və yığılmış qeyri-əsas daşıyıcılar keçidə qayıdır və əks cərəyanın qiymətini kəskin artırır. Nəzərə alsaq ki, p-n keçidin mütəhərrik daşıyıcılarla zənginləşməsi və baza keçiriciliyin azalması nəticəsində dəyişmənin başlanğıc halında əks istiqamətdə diodun keçiriciliyi düzünə keçiricilik tərtibindədir. Bildiyimiz kimi, əks cərəyanın başlanğıc qiyməti diodun dövrəsinə ardıcıl birləşdirilmiş xarici R müqavimətinin və əks gərginliyinin

qiymətindən asılıdır. Keçid oblastında daşıyıcıların konsentrasiyası çox böyük olduğuna görə gərginliyin verilmiş qiymətində əks cərəyan sabit olur və təkcə ardıcıl R müqaviməti ilə məhdudlaşır.

I==const

Cərəyanın sabit olması keçiddə yığılmış qeyri-əsas yükdaşıyıcıların konsentrasiyasının sabit sürətlə azalmasını göstərir. Əks istiqamətdə tətbiq olunmuş gərginliyin qiyməti böyüdükcə cərəyanın başlanğıc qiyməti artır və həmçinin yığılmış yük daha da böyük sürətlə sorulmağa başlayır.

Ardıcıl qoşulmuş R müqavimətini azaltsaq,onda yığılmış yükdaşıyıcıların azalma sürəti bazanın və omik kontaktların müqaviməti ilə məhdudlaşır. Burada p-n keçidin yaxınlığındakı əlavə tarazsız daşıyıcılar sorulana qədər sistemdən qiymətcə adi əks cərəyanından böyük olan cərəyan keçir. Əlavə daşıyıcıların sorulması onların bazada rekombinasiya etməsi və elektron və deşiklərin keçidə qayıtması hesabınadır.

Gərginliyin istiqaməti sıçrayışla dəyişildikdən sonra keçiddə deşiklərin konsentrasiyasının tarazlıq qiymətinin Pn-dən böyük olduğu ana qədər əlavə əks cərəyanı sabit qalır. p-n keçiddə gərginliyin dəyişməsi qeyri-əsas daşıyıcıların konsentrasiyasının azalması ilə təyin olunur. Buna görə də qeyri-əsas daşıyıcıların tam konsentrasiyasının tarazlıqdakından böyük qiymətlərində dioda əks istiqamətdə gərginlik tətbiq edilməsinə baxmayaraq, keçid düz istiqamətdə gərilir. p-n keçidin yaxınlığında qeyri-əsas daşıyıcılar öz tarazlıq konsentrasiyasını aldığı anda keçiddəki gərginlik düşgüsü sıfra bərabər olur. Bu ani zamanı t2 qiyməti ilə işarə edək Buradan görünür ki, t t2 olan müddətdə p-n keçid düzünə gərilmişdir, cərəyan (I) isə əks istiqamətdə axır, qiymətcə adi əks cərəyanından xeyli çoxdur və t2 müddətində dəyişməzdir. t2 anından başlayaraq cərəyan sürətlə azalır. Bu cərəyan keçiddən nisbətən uzaqda yığılmış deşiklərin əks gərginliklə keçidə qaytarılması nəticəsində yaradılır. Elə buna görə də o, R müqaviməti ilə yox, daşıyıcıların diffuziya və dreyf sürətləri ilə məhdudlaşır.

p-n keçidin yaxınlığında qeyri-əsas daşıyıcıların konsentrasiyası kəskin azalanda əlavə əks cərəyan demək olar ki, yox olur və keçid əks istiqamətdə tətbiq edilmiş Uəks qədər gərilir. Fiziki qanunlara görə Uəks gərginliyinin verilmiş qiymətlərində R müqaviməti böyüdükcə daşıyıcılar daha kiçik sürətlə p-n keçidə qayıdacaq və t2 daha çox olacaqdır, yəni dioddan sabit əks cərəyanın axma müddəti artacaqdır.

Yaşama müddətini ölçmək üçün istifadə edilən üsullardan yarımkeçirici dioddakı düzünə cərəyanı sürətlə kəsmək üsulunu göstərmək olar. Bu üsul Ledehandler üsulu adlanır. Diodda belə impuls rejimində baş verən hadisələr araşdırılmışdır. Beləliklə, P-n keçiddə gərginlik düşgüsü keçidin yaxınlığında daşıyıcıların konsentrasiyası ilə birqiymətli ifadə olunduğu göstərilmişdir. Düzünə cərəyanı ani kəsdikdə keçiddəki əlavə tarazsız daşıyıcılar ani yox olmur və orta yaşama müddəti ərzində özlərini biruzə verir. Qeyd edək ki, cərəyan ani yox olanda keçiddəki gərginlik düşgüsü sıçrayışla dəyişmir və əlavə daşıyıcıların konsentrasiyası azaldıqca yavaş-yavaş düşür.

ƏDƏBİYYAT

1. Симирнов Л.С. ЖТФ, т 27, вып11, 1957
2. H.B.Abdullayev,Z.Ə.İsgəndərzadə yarımkeçirici çeviricilər Bakı: 1974

SUMMARY

Nazila Gardasbayova, Nazakat Mammadova

METHODS OF MEASURING LIFETIMES OF NON-PRINCIPAL CARRIERS IN SEMICONDUCTOR DEVICES

The article theoretically shows the study of the pulse variation characteristics of the semiconductor diode in two modes. In the first mode, the pulse variation characteristics of the sharp p-n junction diode were studied. This mode is observed when the diode is suddenly switched from direct direction to the opposite direction. Non-main carriers injected and accumulated in the base region of the p-n junction return to the junction and increase the value of the reverse current. in the reverse direction, the diode conductance is in the same conductance design. The initial value of the reverse current depends on the value of the external resistance R connected in series to the diode circuit and the reverse voltage. Because the concentration of carriers in the transition region is very large, the reverse current is constant at a given value of the voltage.

Key words: *semiconductor, metal, single crystal, electron, non-core carriers, potential barrier, recombination, generation*

RAMIZ İSMAYILOV
ramiz.ismayilov.1979@mail.ru
REYHAN YUNİSOVA
yunisova_2016@mail.ru
Sumqayıt Dövlət Universiteti
ORCİD İD: 1000-0002-4489-8196

$Cd_xHg_{1-x}Te$ MONOKRİSTALLARININ FOTOELEKTRİK XASSƏLƏRİ

Mövzunun aktuallığı. Dar qadağan olunmuş zonaya malik yarımkeçiricilərin xassələri onları yarımkeçiricilər fizikası və bərk cisim elektronikası üçün perspektivli materiallara çevirir. Həmin yarımkeçiricilərin bir nümayəndəsi də, $Cd_xHg_{1-x}Te$ bərk məhlulunun monokristallarıdır. Bu kristallarda qadağan olunmuş zonanın geniş intervalda dəyişməsi, yükdaşıyıcıların effektiv kütləsinin kiçik qiymətə malik olması və elektronların yürüklüyünün böyük qiyməti dalğa uzunluğunun 2-35 mkm - lik geniş intervalında funksiyalaşan yüksək keyfiyyətli fotoqəbuledicilər almağa imkan verir. Bu monokristallardan hazırlanmış fotoqəbuledicilər əsasən qüvvətli elektrik sahəsi şəraitində eksplatasiya olunurlar. Aydındır ki, bu sahə onların xarakteristikalarına və parametrlərinə ciddi təsir göstərə bilər. Buna görə də n və p-tip keçiricikli , $Cd_xHg_{1-x}Te$ monokristallarda və onların əsasında müxtəlif strukturlarda qüvvətli elektrik sahəsi şəraitində qeyri-tarazlıqlı elektron proseslərinin hər tərəfli tədqiqi həm elmi, həm də praktiki cəhətdən aktualdır. Qüvvətli elektrik sahəsində bu materiallarda elektron proseslərinin yeni formaları baş verir ki, bu da mövcud fotoqəbuledicilərin parametrlərini idarə etməyə imkan verir. Qüvvətli elektrik sahəsində fotoqəbuledicilərin parametrlərinin tədqiqi: birinci - bu materialların özünün bir sıra vacib parametrlərini və xarakteristikalarını təyin etməyə imkan verir. Belə ki, bu parametr və xarakteristikalar bərk cisimlər fizikası oblastında da fundamental tədqiqatlarda da perspektivlidir. İkinci bu gündə aktual olan məsələni, mövcud olan fotoqəbuledicilərin təkmilləşdirilməsinə, onların funksional imkanlarını genişləndirməsinə imkan verir.

İşin məqsədi işdə əsas məqsəd $Cd_xHg_{1-x}Te$ monokristallarında və onların əsasında izotip strukturlarda qüvvətli elektrik sahəsində qeyri-tarazlıqlı elektron proseslərinin xüsusiyyətlərini aydınlaşdırmaqdan və bu materialların praktiki tətbiq sərhədlərini genişləndirməkdən ibarətdir. Qoyulmuş məqsədə çatmaq üçün temperaturun $T = 80 \div 300\ K$ diapazonunda, işığın dalğa uzunluğunun $\lambda = 0.8 \div 1.2\ mkm$ intervalında, elektrik sahəsinin $10^3\ \frac{V}{san}$ intensivliyinə, işığın $1\ \frac{Vt}{san}$ və maqnit sahəsinin 3 $k\varepsilon$ intensivliyinədək qiymətlərində;

- qüvvətli elektrik sahəsinin yuxarıda göstərilən monokristalların elektrik və fotoelektrik xassələrinə təsiri tədqiq olunmuşdur.

Yeniliklər aşağıdakılardan ibarətdir:

- zəif və qüvvətli elektrik sahələrində tədqiq edilən materiallarda baş verən elektron proseslərinin mexanizmi müəyyənləşdirilmişdir,

- qüvvətli elektrik sahəsi şəraitində izotip strukturların elektrik parametrlərinin hesabatı aparılmışdır;

İşin praktiki əhəmiyyəti:

- qüvvətli elektrik sahəsində n^+ - n keçidlərinin elektrik və fotoelektrik xassələrinin öyrənilməsinin nəticələrini omik kontaktlarının formalaşdırılmasında, həm də , $Cd_xHg_{1-x}Te$ monokristallarından hazırlanmış şüalanma qəbuledicilərinin fotoelektrik parametrlərinin idarəsində tətbiq etmək olar. n-p keçidində yükdaşıyıcıların qızmasına və onun bu keçidlərin fotoelektrik xassələrinə təsirinin nəticələri, $Cd_xHg_{1-x}Te$ əsasında mövcud olan fotodiodların işçi diapazonunu genişləndirmək üçün istifadə edilə bilər.


Açar sözlər: *Monokrıstal, Fotoelektrik, Temperatur, Rekombinasiya*

Giriş


Mövzusunun aktuallığa əsaslandırılmışdır, işin əsas məqsədi, elmi və praktiki əhəmiyyəti formalaşdırılmışdır. Monokristallardan hazırlanmış fotoqəbuledicilər əsasən qüvvətli elektrik sahəsi şəraitində eksplatasiya olunurlar. Bu monokristallardan hazırlanmış fotoqəbuledicilər əsasən güclü elektrik sahələri altında işlənirlər. Güclü elektrik sahələri bu materialların xüsusiyyətlərinə və parametrlərinə ciddi təsir edə bilər və bu sahədə aparılan tədqiqatlar elmi və praktik məqsədlərlə aktualdır. Güclü elektrik sahəsində bu materiallarda elektron proseslərinin yeni formaları ortaya çıxır ki, bu da mövcud fotoqəbuledicilərin parametrlərini nəzarət altında saxlamağa imkan verir. Dar zonalı yarımkeçiricilərin, həm də onlar əsasında n^+-n , n-p strukturların zəif və qüvvətli qızdırıcı elektrik sahələrində elektrofiziki və fotoelektrik xassələrinin eksperimental və nəzəri xülasəsi verilmişdir. $Cd_xHg_{1-x}Te$ və onun strukturundakı hadisələrə aid işlərə xüsusi diqqət ayrılmışdır. Elektrik və fotoelektrik xassələrini əsas ölçü metodlarına baxılmış, istifadə edilən eksperimental və metodik ölçmə qurğuları təsvir edilmişdir. Həm də n- $Cd_xHg_{1-x}Te$ monokristallarının çarpaz elektrik və maqnit sahələrində elektrik və fotoelektrik xassələrinin tədqiqinin nəticələri də verilmişdir. $Cd_xHg_{1-x}Te$ əsasında fotoqəbuledicilərin müxtəlif modifikasiyalarının spektrin tədqiqinin nəticələri verilmişdir. Tədqiqat obyekti kimi sabit temperatur qradiyentində asta soyutma metodu ilə göyərdilən $0.25 \leq x \leq 0.35$ olan n- və p-tip keçiricilikli , $Cd_xHg_{1-x}Te$ bərk məhlulunun monokristalları və onlar əsasında n^+-n, n-p strukturları seçilmişdir. Bu materialların tədqiqat obyektinin götürülməsi hər şeydən əvvəl onunla bağlıdır ki, hal-hazırda IQ-spektrin şüalar oblastında qəbuledicilər yaratmaq üçün əsasən InSb və ya müxtəlif aşqarlarla aşqarlanmış germaniumdan istifadə olunur. Güclü elektrik sahəsində fotoqəbuledicilərin parametrlərinin tədqiqi, materialların özünün əhəmiyyətli parametrlərini və xüsusiyyətlərini təyin etməyə imkan verir. Bu, bərk cisimlər fizikası sahəsində də vacib tədqiqatlar üçün perspektivlidir. Bu, mövcud fotoqəbuledicilərin təkmilləşdirilməsi vəfunksional imkanlarının genişləndirilməsi üçün aktual məsələləri də təşkil edir.

Material və metodlar

Yarımkeçiricilərin fiziki xassələrinin tədqiqində fotoelektrik hadisələr böyük maraq kəsb edir. Bu hadisələrin dəqiqləşdirilməsi, bir sıra əhəmiyyətli məqsədlərə xidmət edir. Fotoelektrik hadisələrinin öyrənilməsi, yeni cihazların inkişafına sürət verir və mövcud olanları təkmilləşdirməyə imkan verir. Yeni cihazların inkişafında, fotoelektrik xassələrinin dəqiqləşdirilməsi əhəmiyyətli rol oynayır. Belə ki, bu hadisələrin öyrənilməsi, birinci yükdaşıyıcıl haqqında geniş informasiya almağa, bərk cisimlərdə müxtəlif elektron proseslərinin mexanizmi və təbiəti haqqında məlumat almağa, onların fundamental parametrlərini təyin etməyə, ikincisi yeni cihazların yaradılmasını stimullaşdırmağa artıq mövcud olanları isə təkmilləşdirməyə imkan verir. Yuxarıda söylənilənləri nəzərə alaraq öyrənilən materialların fotoelektrik xassələrinin tədqiqinin nəticələri, həm də spektrin 3-5 mkm oblastında İQ-şüalanma fotoqəbuledicilərinin parametrlərinin analizi verilmişdir. Ölçmələr $R_y = R_{eks}$ yükünə uzlaşdırılmış rejimdə aparılmışdır. Bu rejim maksimal fotosiqnal almağa imkan verir.



Şəkil 1-də müxtəliftemperaturlarda tədqiq olunan n- $Cd_xHg_{1-x}Te$ ($0.25 \leq x \leq 0.30$) nümunələrində fotokeçiriciliyin spektral paylanmasının tipik əyriləri verilmişdir. Bu şəkildə fotosiqnal nisbi vahidlərlə verilmişdir. Şəkil 1. Müxtəlif temperaturlarda n- $Cd_xHg_{1-x}Te$ nümunələrində fotohəssaslığın spektral paylanması. $X = 0.25$ (1,2 əyriləri) və $x = 0.30$ x=0,30 (3,4 əyriləri) T,K; 1-3-80 ; 2-300 və 4-190. Bu şəkildən göründüyü kimi, spektral paylanmanın maksimumları temperaturun artması ilə spektrin kiçik dalğa uzunluqlu hissəsinə sürüşürlər. Kiçik dalğa uzunluqlu hissədə spektral həssaslıq əyrilərinin hamar gedişi səthi pis hazırlanmış nümunələrdə olan hər hansı səth effektlərinin olmamasından xəbər verir. $x = 0.25$ və $x = 0.30$ kristalları üçün, əsas maksimumdan başqa $U_\phi\ (\lambda)$ asılılığında $\lambda = 6.3\ mkm$ və $\lambda = 6.4\ mkm$ dalğa uzunluqlarında fotosiqnalın əlavə maksimumlarında müşahidə edilmişdir. Uyğun olaraq, bu əlavə maksimumlar temperaturun artması ilə əsas maksimumuna nəzərən öz vəziyyətini dəyişmirlər, amma amplituda görə kiçilirlər.Yuxarıda alınan nəticələrin təsdiqini tapması üçün, həm də öyrənilən kristallarda rekombinasiya prosesinin mexanizmini təyin etmək üçün qeyri-əsas, qeyri-tarazlıqlı yükdaşıyıcıların yaşama müddətinin temperatur asılılığı ölçülmüşdür. Şəkil 2-də $x = 0.25\ ;0.30\ ;0.35$ n- $Cd_xHg_{1-x}Te$ nümunələrində öyrənilmişdir.



Şəkil 2-də qeyri-əsas yükdaşıyıcıların yaşama müddəti temperatur asılılığının eksperimental əyriləri verilmişdir. Şəkil 2. n- $Cd_xHg_{1-x}Te$ yükdaşıyıcıların yaşama müddətinin temperatur asılılığı 1,2 nəzəri əyrilər, 3-5 eksperimental əyrilər, $X = 0.25$ (3 əyrisi), 0.30 (4 əyrisi) və 0.35 (5 əyrisi). Bu əyrilərə ardıcıllıqla baxmaq mümkündür. Bu zaman $\tau\ (T^{-1})$ asılılığının temperatur gedişindən alınır ki, (3 əyrisi) $X = 0.25$ monokristallarında $80 - 130$ K temperatur intervalında yaşama müddəti eksponensial artır və $T = 125$ K-də maksimal qiymətə çatır. Temperaturun $T = 130 - 180$ K intervalında növbəti artımı ilə qadağan olunmuş zonanın eninin yarısına bərabər olan meyl ilə eksponensial düşmə müşahidə olunur. Bu halda $T = 180$ K-də yükdaşıyıcıların yaşama müddəti $\tau = 1.5 \cdot 10^{-7}\ san$ qiymətini alır. Uyğun mənzərə həm də $x = 30$ olan nümunələrdə də müşahidə olunur (4 əyrisi). Lakin bu halda yaşama müddəti temperaturun artması ilə, $T = 180\ K$-dan başlayaraq $T = 190\ K$ -dək artır və özünün maksimal qiymətini alır. Temperaturun sonrakı artımı ilə $\tau\ (T^{-1})$ asılılığı eksponensial aşağı düşür. Bu zaman gediş aşağı temperatur gedişindən fərqlənir. Anoloji asılılıq $x = 0.35$ kristalları üçün də müşahidə olunur (5 əyrisi). Fotoelektrik xassələrinin tədqiqinə görə və onların temperatur asılılığından alınan eksperimental nəticələrin analizi üçün bu nümunələrdə fotokeçiriciliyin spektral paylanmasından başlayaq. $T = 80 - 300$ K temperatur intervalında nümunələrdə $(0.25 \leq x \leq 0.35)$ alınan fotohəssaslığın spektral paylanmasının verilmiş əyriləri birlikdə, bizə imkan verir ki, tədqiq olunan materialların qadağan olunmuş zonalarının eni haqqında bir neçə kəmiyyət və keyfiyyət mühakimələri yürüdək.

$U_\phi(\lambda)$ asılılığında verilmiş əyrilərin ümumi xarakteristik əlaməti onların yarımkeçiricilərin fotokeçiriciliyi haqqında klassik təsəvvürlərlə üst-üstə düşməsidir. Bu zaman ancaq səth rekombinasiyası nəzərə alınır. $U_\phi(\lambda)$ asılılığının verilmiş əyrilərindən qadağan olunmuş zonanın eni təyin olunmuşdur. $x = 0.25; 0.30$ və 0.35 üçün uyğun olaraq, $E_g = 0.18\ eV, 0.29\ eV, 0.34\ eV$ alınmışdır. Bundan başqa, əsas və əlavə maksimumlar arasında energetik məsafə tapılmışdır.

Nəticələr

Eksperimental nəticələrin müqayisəsi üçün (1) və (2) ifadələrindən istifadə edərək, həm də şüalanma yaşama müddətinin nəzəri hesablanmış qiyməti verilmişdir (şəkil 2, 2 əyrisi). Bu nəticələrin müqayisəsi göstərir ki, $x > 0.25$ tərkibində, aşağı temperaturlarda şüalanma rekombinasiyası Oje rekombinasiya üzərində üstünlük təşkil edir.

Yaşama müddətinin temperatur asılılığının nəzəri və eksperimental əyrilərinin müqayisəli analizi göstərdi ki, aşağı temperaturlarda bu kristallarda rekombinasiya əsasən valent zonanın tavanından 60 MeV-də yerləşən lokal səviyyələrdə baş verir. Məxsusi keçiricilik oblastında şüalanma rekombinasiya əsas rol oynayır.

ƏDƏBİYYAT

1. İsmayılov R.M. Qızmar elektrik yükdaşıyıcılı n-p keçidinin elektrik xassələri. SDU-nun elmi xəbərləri. Təbiət və texniki elmlər bölməsi. C.7. №2, Sumqayıt: 2007, s.3-7.
2. İsmayılov R.M., Nurullayev Y.Q. $Cd_xHg_{1-x}Te$ bərk məhlul kristallarında fotokeçiriciliyin relaksasiya prosesinə maqnetokonsentrasiya effektinin təsiri. Bakı Universitetinin xəbərləri. Fizika-riyaziyyat elmləri seriyası, №4, Bakı: 2006, s. 130-134.
3. İsmayılov R.M. $Cd_xHg_{1-x}Te$ p-n keçidində qızmar yükdaşıyıcıların yaratdığı termo E.H.Q. Sumqayıt Dövlət Universitetinin elmi xəbərləri Təbiət və texniki elmlər bölməsi. C.8, №2, Sumqayıt: 2008, s. 3-5.
4. İsmayılov R.M., Barxalov B.Ş., Əliyeva X.1. «Электрические свойства монокристаллов $Cd_xHg_{1-x}Te$ (0.26≤ x ≤0.30)». Azərbaycan Respublikası Təhsil Nazirliyi Sumqayıt Dövlət Universiteti. Elmi xəbərlər. Təbiət və texniki elmlər bölməsi. C.14, №1, Sumqayıt: 2014, s. 6-9.

SUMMARY

Ramiz Ismailov, Reyhan Yunisova

$Cd_xHg_{1-x}Te$ PHOTOELECTRIC PROPERTIES OF MONOCRYSTALS

The relevance of the topic lies in the conversion of narrow-band gap semiconductors into promising materials for semiconductor physics and solid-state electronics. One such representative of these semiconductors is the mono crystals of $Cd_xHg_{1-x}Te$.These materials exhibit properties conducive to semiconductor physics and solid-state electronics due to their narrow band gap. The characteristics of these semiconductors, with their narrow band gap, make them promising candidates for applications in semiconductor physics and solid-state electronics. One notable example of such semiconductors is the mono crystals of $Cd_xHg_{1-x}Te$. In these crystals, the wide variation of the forbidden zone, the small effective mass of carriers, and the high mobility of electrons with large wavelengths ranging from 2 to 35 micrometers enable the fabrication of high-quality photo detectors. These photo detectors, made from mono crystals, are primarily exploited under strong electric field conditions. It is clear that this field can significantly influence their characteristics and parameters. Therefore, comprehensive research into non-equilibrium electron processes in both n and p-type carriers, in $Cd_xHg_{1-x}Te$ mono crystals and various structures based on them, under strong electric field conditions, is relevant both scientifically and practically. In strong electric fields, new forms of

electron processes occur in these materials, allowing for the manipulation of the parameters of existing photo detector.

Researching the parameters of photo detectors under strong electric fields serves two main purposes. Firstly, it allows for the determination of essential parameters and characteristics of these materials themselves. These parameters and characteristics are also promising for fundamental research in the field of solid-state physics. Secondly, it addresses the current issue of enhancing existing photo detectors and expanding their functional capabilities. The aim of the study is to elucidate the characteristics of non-equilibrium electron processes under strong electric fields in $Cd_xHg_{1-x}Te$ mono crystals and isotopic structures based on them, and to broaden the practical application boundaries of these materials. To achieve this goal, investigations are conducted within the temperature range of $T = 80 \div 300\,K$, light wavelengths of $\lambda = 0.8 \div 1.2\,mkm$, electric field intensities up to $10^3\ \frac{V}{san}$, light intensities of $1\ \frac{Vt}{san}$, and magnetic field intensities up to $3\ k\varepsilon$.

- The effect of the strong electric field on the electrical and photoelectric properties of the aforementioned mono crystals has been investigated.

The innovations include:

- Determination of the mechanism of electron processes occurring in materials investigated under weak and strong electric fields.

- The calculation of electrical parameters of isotopic structures has been conducted under strong electric field conditions.

The practical significance of the work is as follows: - Studying the electrical and photoelectric properties of n^+-n junctions under strong electric fields can influence the formation of Ohmic contacts. Additionally, these findings can be applied to manage the photoelectric parameters of photo detectors fabricated from $Cd_xHg_{1-x}Te$ monocrystals. The impact of carrier trapping in the n-p junction and its effect on the photoelectric properties of these junctions can be utilized to broaden the operational range of existing photodiodes based on $Cd_xHg_{1-x}Te$.

AYGÜN SULTANOVA
aygunsultanova60@gmail.com
ARİFƏ ƏLİZADƏ
elızadearıfe2001@gmail.com
Naxçıvan Dövlət Universiteti

YÜKSƏK VOLTLU SELEN ELEMETNLƏRİ

Müasir fizikanın qarşıya qoyduğu problemlərdən ikisi daha mühüm olub, diqqət mərkəzində durur. Onlardan biri atom nüvəsi fizikası, digəri isə yarımkeçiricilər fizikasından ibarətdir. Elm və texnikanın daha da geniş və qısa yolla yüksəlməsi həmin məsələlərin nə dərəcədə öyrənilməsindən asılıdır (1).

Son illər cismlərin elektrik xassələrinin müasir fiziki üsullarla daha dərindən öyrənilməsi bərk və maye cismlərdə elektronların paylanma, sərbəstləşmə və hərəkəti haqqında yeni düzgün təsəvvürlər yaratmışdır. Bir sıra bərk cismləri qrupunda sərbəst elektronların (eləcə də deşiklərin) konsentrasiyasını, sərbəst yaşama müddətini, yürüklüyünü və hərəkətini idarəetmək bacarığı həmin cismlərin elektrik xassələrini texnikanın tələb etdiyi kimi məqsədəuyğun şəkildə dəyişdirməyə imkan vermişdir. Bu, elektrotexnikanı yeni inkişaf mərhələsinə qaldırmaqdadır. Bir sıra təcrübələrə əsaslanaraq müasir fizika təsdiq edir ki, atom müsbət elektrik yüklü nüvədən və mənfi elektrik yüklü elektronlardan təşkil olunmuş mürəkkəb elektrik sistemidir. Elektronlar nüvənin ətrafında mürəkkəb formalı orbitlər üzrə hərəkət edir.

Açar sözlər: *ferromaqnit, gərginlik ,maqnit dalğaları, kristallasma*

Bunu qeyd etmək kifayətdir ki, yarımkeçiriciləri müasir elektrotexnikanın cəbbəxanası adlandırmaq olar, eləcə də yeni elmi və texniki sahələrin yaranmasında da rolu böyükdür. Yarımkeçiricilər vasitəsilə dəyişən elektrik cərəyanı düzləndirilir, zəif cərəyan gücləndirilir, istilik, adi və radioaktiv şüaların enerjisi elektrikə çevrilir, nüvə hissəcikləri sayılır, zəif elektron seli çoxaldılır, səs enerjisi elektrikə və əksinə çevrilir, elektriklə soyutma əldə olunur, bir sıra kimyəvi reaksiyalarda kataliz aparılır, elektrik xətlərində cərəyan və gərginlik tənzim edilir, mürəkkəb proseslər avtomatlaşdırılır, bir sıra yerlərdə ferromaqnit metallar əvəz edilir və s. (1).

Təbiətdə baş verən dəyişiklikləri düzgün qiymətləndirmək üçün bu prosesləri onların olduğu formada nəzərdən keçirmək lazımdır. Biz dünyanı yalnız eksperimental nəticələrin və yeni nəzəri konsepsiyaların kombinasiyası prizmasından müşahidə edirik. Biliklərimizin genişlənməsi ilə biz əmin olduq ki, maddələrin atom quruluşundan belə nəticə çıxır ki, onların tərkibində atomları kəmiyyət və struktur-enerji qarşılıqlı təsirinə görə fərdiləşdirən eyni elektronlar, protonlar və neytronlar var (3).

Elementlərin atomlarındakı elektronları təbiət etibarilə eyni olub, ancaq saylarına görə bir-birindən fərqlənirlər. Hər bir neytral atomda olan elektronların sayı onun nüvəsindəki protonların sayına bərabərdir. Ona görə də atom bütövlükdə elektrik nöqteyi-nəzərdən neytral sistemdir.

Elektrodinamikadan məlumdur ki, elektrik yükü dəyişən sürətlə hərəkət etdikdə, ondan ətrafa maqnit dalğaları yayılır. Radioverici antenaların şüalanması buna misal ola bilər.

Selen düzləndirici elementinin müqaviməti düz istiqamətdə olduğu kimi, əks istiqamətdə də alt elektrodun materialından, işlənməsindən asılıdır.

Hazırda, alt elektrod dəmir və ya alüminiumdan, nadir hallarda nikeldən hazırlanır. Bu məqsədlə işlənən dinam dəmirində, demək olar ki, heç karbon olmur, yaxşı ştamplanır, qumçiləyən qurğuda asan işlənir və qızdırdıqda deformasiyaya uğramır.

Dəmir astarı korroziyadan qorumaq və selen-dəmir sərhəddində keçid müqavimətini azaltmaq üçün dəmirin üzəri nazik qoruyucu metal nikel və ya bismutla örtülür. Əlavə sərhəd müqaviməti selenin dəmirlə kimyəvi birləşmələr verməsi və termik genişlənmə nəticəsində kontaktın pisləşməsilə əlaqədardır (2).

Selen düzləndiricilərini hazırladıqda yarımkeçiricinin çəkilməsi aşağıdakı kimi aparılır:

1) əridilmiş selenin akuumda buxarlanması yolu ilə;
2) sürtməklə;
3) püskürməklə;
4) turşu və qələvi vannalarında katod və ya anod üzərinə elektroliz çökdürmə ilə.

İstehsalatda hələlik birinci üç üsul tətbiq edilir. Buxarlanmadan daha geniş istifadə olunur. Astarın səthinin hər kvadratsantimetrinə düşən selenin miqdarı təxminən 0,01q olduğda 60 μ qalınlığı alınır.

Selenin sürtülmə və ya püskürülməsi halında onun sıx və müntəzəm örtülməsi məqsədilə 130°C-dək qızdırılmaqla bərabər, 100 *kq/sm*^{2} təziq altında sıxılır. Bu cür işlənmədən sonra xüsusi müqaviməti 10^{12}-10^{13} *om/sm* tərtibdə olan amorf selen kristal şəkilə keçir, müqaviməti isə 10^6 *om/sm* düşür. Bu əməliyyat, adətən "birinci termik işlənmə" və ya "birinci kristallaşma" adlanır. Selenin xüsusi müqavimətini 10^4*om, sm* tərtibə qədər azaltmaq üçün onu 214°C-də heksaqonal şəkilə keçirirlər. Bu proses "ikinci kristallaşma" adlanır. Qalvanik üsulla selen aldıqda belə işləmə lazım gəlmir, buxarlanmada isə birinci kristallaşma təzyiqsiz gedir.

İşçi gərginlikdə düz istiqamətdə cərəyanın qiyməti əsas etibarilə yarımkeçirici təbəqənin müqavimətilə təyin edilir.

Elementin düz istiqamətdə keçiriciliyini artırmaq üçün selenin tərkibinə müxtəlif haloid aşqarları (brom, xlor və ya yod) daxil edilir.

Düzləndirmə effektini yaxşılaşdırmaq və elektrik formovkasını yüngülləşdirmək üçün alınan selen elementləri ikinci kristallaşmadan sonra ya içərisində kükürd buxarlandırılan termostatda saxlanır, ya da selenin səthindən kükürdün kükürdlü karbonda məhlulu buxarlandırılır. Nəticədə yarımkeçiricinin səthi nazik kükürd təbəqəsi ilə örtülür. "Kükürdlənmə" adlanan bu proses təxminən eyni elektrik parametrli elementlər almağa imkan verir, həmçinin elektrik formovkasını xeyli asanlaşdırır.

Selen elementinin düzləndirmə xassəsi əsas etibarilə üst elektrodun (katodun) materialından və çəkilmə şəraitindən asılıdır. Belə ki, selen elementinin düzləndirmə xassəsini təyin edən bağlayıcı təbəqə, adətən püskürmə üsulu ilə çəkilmiş xəlitənin altında əmələ gəlir. Lakin püskürmə üsulu ilə alınmış elektrodlar mexaniki təziqə və nəmliyə qarşı həssasdırlar.

Selenium yaxşı fotovoltaik və fotokeçirici xüsusiyyətlərə malikdir və o, fotosellər, işıqölçənlər və günəş elementləri kimi elektronikada geniş istifadə olunur. Seleniumun ikinci ən böyük istifadəsi şüşə sənayesindədir: selenium şüşədən rəngi çıxarmaq, eynək və emallara qırmızı rəng vermək üçün istifadə olunur. Üçüncü dəqiqə istifadə, təxminən 15% alaraq, heyvan yemləri və qida əlavələri üçün natrium selenitdir. Selenium, həmçinin fotokopiyada, fotoşəkillərin tonlanmasında tətbiq tapa bilər. Onun bədii istifadəsi qara və ağ foto şəkillərinin ton diapazonunu gücləndirmək və genişləndirməkdir. Seleniumun digər istifadələri metal ərintilərdə, məsələn, akkumulyator batareyalarında və AC cərəyanını DC cərəyanına çevirmək üçün düzəldicilərdə istifadə olunan qurğuşun lövhələrindədir. Selenyum vulkanlaşdırılmış kauçuklarda aşınma müqavimətini artırmaq üçün istifadə olunur. Bəzi selenium birləşmələri kəpək əleyhinə şampunlara əlavə edilir (2).

Elektrik formovkasında selen elementinin temperaturu 130°C-ə çatır; üst elektrodun əriməsinin qarşısının almaq üçün son zamanlar ərimə temeraturu 177°C olan ikinci ərinti (1-ci cədvəl) götürülür.

1-ci cədvəl

Xəlitənin №-si	***Qurşun %-lə***	***Qalay %-lə***	***Bismut %-lə***	***Kadmium %-lə***	***Ərimə temperaturu, °C***
1	-	24,0	53,0	23,0	105
2	-	68,5	-	31,5	177
3	43,3	-	50,0	6,7	96

Heksaqonal selenin kontaktı bütün metallarla yaxşı düzləndirmə vermir, odur ki, selen düzləndiricilərinin üst elektrodu xüsusi metallardan və xəlitələrdən hazırlanır. Bununla əlaqədar olaraq müxtəlif metal elektrodla selenin sərhəddində bağlayıcı təbəqənin yaranmasının öyrənmək xüsusi maraq kəsb edir. Nümunələr aşağıdakı qayda ilə hazırlanmışdır. Bismutlanmış alüminium astar üzərinə vakuumda buxarlanma yolu ilə qalınlığı 30-40 μ olan selen təbəqəsi çəkilib, sonra 110^{o}C-də 5 saat, 214^{o}C-də isə 2 saat kristallaşdırılmışdır. Üst elektrod qızıl, gümüş, nikel, mis, bismut, qurğuşun, alüminium, sink, qalay və kadmiumdan buxarlanma və ya vakuumda katod tozlanması yolu ilə kadmium-qalay, kadmium-qalay-bismut, kadmium-bismut, qurşun-qalay-bismut, qurşun-qalay xəlitələrindən isə xüsusi cihazdan püsgürmə yolu ilə çəkilmişdir.

Elektrodlar nazik olduqda nümunələrin müqavimətləri mexaniki təzyiqdən və gün işığının təsirindən asılı olaraq dəyişir.

Elementin temperaturu elektrodlara sıxılmış miskonstantan termocütü ilə ölçülmüşdür. Nümunəni nəmlikdən qoparmaq üçün qutuya kalsium-xlor yerləşdirilir. Bu cür hazırlıqdan sonra 1*v* sabit gərginlikdə və 20^{o}C-də cərəyanın düz və əks istiqamətdə qiyməti ölçülür. Ölçmə zamanı nümunənin temperaturu dəyişmir, çünki termostatda suyun dövrü yaxşı soyutma verir. Astarda və üst elektrodda ölçmədən qabaq və sonra temperatur fərqi müşahidə olunmur.

Qızıl, nikel və bismutdan çəkilmiş üst elektrodlardan istifadə edilən halda düzlənmə çox zəif olur; bu əks istiqamətdə cərəyanın qiymətinin böyüklüyündən irəli gəlir.

Üst elektrodu kadmium və onun ərintilərindən çəkilmiş nümunələrin düzləndirmə əmsalı kifayət qədər böyük olur ki, bu da cərəyanın əks istiqamətdə azalması ilə əlaqədardır.

Bu effektlər kontakt potensiallar fərqi nəzəriyyəsilə aydınlaşdırıla bilmir. Həmin nəzəriyyəyə görə selenin sərhəddində çıxış işi kiçik olan metalla kontakt nəticəsində böyük müqavimət yaranmalıdır. Kadmiumun da çıxış işi misdə olduğu kimi 4,1*ev*-dir. Üst elektrodu bu materiallardan çəkilmiş nümunələrin müqaviməti iki tərtibə qədər fərqlənir. Selen, çıxış işi 4,0*ev* olan qurşun elektrodla kadmium və onun xəlitələrinə nisbətən az düzlənmə verir və s.

Bu təcrübələrin nəticələrinə əsaslanaraq, demək olar ki, üst elektrodu kadmium və onun ərintilərindən çəkilmiş nümunələrdən yaxşı düzləndirmə xassəsi metalla yarımkeçiricinin sərhəddində *CdSe*-nin yaranması ilə əlaqədardır. Üst elektrod olaraq selenid verməyən metallar götürdükdə cərəyanda müşahidə olunan zəif asimmetriya kristallaşmış selenin səthində kristallaşma zamanı sublimasiya ilə yaranan və kimyəvi bağlayıcı təbəqə rolunu oynayan amorf selenin varlığı ilə əlaqədardır. Bu hadisəyə səthdə aşqarların konsentrasiyasının azalmasının da təsiri vardır. Eyni şəraitdə hazırlanmış selen düzləndiriciləri düz və əks müqavimətlərilə fərqləndirdiklərinə görə yuxarıdakı təcrübələr bir elementdə aparılmışdır.

Nümunə üzərinə sahələri eyni olan kiçik dairəciklər şəklində müxtəlif metal və ərintilərdən bir sıra üst elektrodlar çəkilmişdir.

Bu halda selenin qalınlığı, termik işlənmə şəraiti, astarın vəziyyəti və yarımkeçiricinin səthi elementlər müxtəlif olan hala nisbətən bircinsli olur. Burada ölçmə zamanı cərəyan üst elektrodların yalnız birindən keçir. Odur ki, ölçmənin nəticələrindəki müxtəliflik yalnız üst elektrodun materialı ilə əlaqədar olur.

Selenin istilikkeçirməsinin araşdırılması, ona müxtəlif aşqarların təsirini, kristal quruluşundan asılı olaraq dəyişməsini öyrənmək həm elmi və həm də böyük əməli əhəmiyyətə malikdir. Yarımkeçiricilərin istilik keçirməsi çox az öyrənilmişdir. Müxtəlif aşqarların selenin istilik keçirməsinə təsiri, demək olar ki, hələ öyrənilməmişdir. Bu məsələnin çox mühüm olmasını nəzərə alaraq AEA-nın Fizika institututunda son illər xlor, brom, yod və bir sıra metal aşqarlarının (bismut, qalay, tallium, kadmium və s.) selenin, dəmir, qallium və başqa aşqarların isə germaniumun istilikkeçirməsinə təsiri öyrənilmişdir (2).

Yarımkeçirici, mis kimi bir keçirici ilə şüşə kimi bir izolyator arasında düşən elektrik keçiriciliyi dəyərinə malik bir materialdır.

Yarımkeçirici düzləndiricilər, eləcə də xüsusi selen düzləndiriciləri üçün istilikkeçirmənin öyrənilməsi elektrikkeçirmə kimi böyük əhəmiyyətə malikdir. Selen düzləndiricilərində düzünə müqaviməti azaltmaq məqsədilə yarımkeçiriciyə az miqdarda xlor, brom yaxud yod aşqarları vurulur.

Təcrübə göstərir ki, selen düzləndiricilərin elektrik formovkası zamanı həmin aşqarlar selen daxilində paylanaraq, onun istilik və elektrik xassələrini dəyişdirir. Əks istiqamətdə düzləndiriciyə tətbiq olunan gərginlik *p-n* keçidinə düşür. *p-n* keçidinin müqaviməti selenin qalan hissəsinin müqavimətinə nisbətən 10^4-10^5 dəfə böyükdür. Yarımkeciricidən cərəyan keçdiyi zaman müqavimətin belə qeyri-bərabər paylanması temperaturu qradiyentinin yaranmasına səbəb olur.

Düzləndiricidə temperatur qradiyenti *tehq*-nin yaranmasına səbəb olur ki, bunu da bəzi sxemlərdə kiçik iş gərginliyində nəzərə almaq lazımdır. Adi selen düzləndiricilərinin elektrik formovkası və işləmə prosesində onun 80^oC-dən yüksək temperaturda qızması düzləndiricinin əks xarakteristikasını pisləşdirir. Düzləndiricidə istiliyin səpilməsi və elecə də onun qızması selenin istilikkeçirməsindən asılıdır.Selenin istilikkeçirməsini, elecə də ona müxtəlif aşqarların təsirini öyrənməklə düzləndiricidə istiliyin səpilmə dərəcəsini, həmçinin formovka və iş zamanı onun qızma dərəcəsini təyin etmək olur. Digər tərəfdən selenin istilikkeçirmə əmsalını, beləliklə də selen düzləndiricilərində düzünə və əksinə müqaviməti temperatur əmsalını təyin etmək olur.

Nəticə

Müxtəlif aşqarların selenin elektrik xassələrinə əhəmiyyətli dərəcə də təsirini bilməklə, həmin aşqarların istilik keçirməyə də təsirini öyrənmək maraqlıdır.

Müxtəlif xlor aşqarlı selen nümunələri hazırlamaq məqsədilə təmiz selenə (99, 994%) $SeCl_4$ qarışdırılmış və alınan nümunələrdə xlorun miqdarı opgentometrik yodun miqdarı ilə kolometrik üsulla təyin edilmişdir.

Məlumdur ki, istilikkeçirməni ölçmə stasionar və qeyri-stasionar üsullara ayrılır. Adətən istilikkeçirməni ölçmək üçün stasionar üsuldan istifadə edilir ki, axırıncı uzun vaxt tələb edilməsinə baxmayaraq, 1-2%-dən artıq xəta vermir. Qeyri-stasionar üsulda çox az vaxt tələb etməsinə baxmayaraq 10%-a qədər xəta buraxmaq olur. Hər iki üsulda nümunədən keçən istilik seli ya kalometrik və ya elektrik üsulu ilə ölçülür.

ƏDƏBİYYAT

1. Axundov Q.A. Yarlmkeçiricilər. Bakı: 1966
2. Abdullayev H.B. Selen düzləndiriciləri. Bakı:1956
3. Zərbəliyev M.M. Yarımkeçiricilər fizikası. Bakı: 2008, s. 454
4. Hümbətov R.T. “Elektronika”. I hissə. Bakı: 2002, “Maarif” nəşriyyatı
5. Abbasov V.M,. Tağıyeva A.M., Həsənov Z.Ə., Salmanzadə Ş.V. Kimya və Həyat. Bakı: 2011. “Kövsər”, s. 234

SUMMARY

Aygun Sultanova, Arifa Alizade

HIGH VOLTAGE SELENIUM ELEMENTS

Two of the problems facing modern physics are more important and remain in focus. One of them consists of atomic nucleus physics and the other one consists of hemisphere physics. The growth of knowledge and technology more broadly and briefly depends on the extent to which the issues are studied.

In recent years, a deeper study of the electrical properties of bodies using modern physical methods has created new interpretations of the distribution, release and movement of electrons in solid and liquid bodies. The ability to control the concentration, free lifetime, mobility and movement of free electrons (or holes in other words) in a group of objects determines the electrical properties of objects. This has allowed man to change it. according to the desired purpose. This leads electrotechnology to a new stage of development. Modern physics, based on a number of experiments,

confirms that the atom is a complex electrical system consisting of a positively charged nucleus and negatively charged electrons. Electrons move in complex orbits around the nucleus.

Key words: *ferromagnet, voltage, magnetite waves, crystallization*

GÜLSEVƏR MƏJLUMOVA
gulsevermejlumova@gmail.com
Naxçıvan Dövlət Universiteti

ORTA MƏKTƏBLƏRDƏ FİZİKANIN TƏDRİSİ PROBLEMLƏRİ VƏ ONUN HƏLLİ YOLLARI

Məqalədə məktəbdə fizikanın tədrisi problemləri araşdırılır və onların həlli yollarından bəhs edilir. Məqalə həm gənc müəllimlər, həm də böyük pedaqoji təcrübəyə malik müəllimlər üçün aktualdır. Azərbayca və Naxçıvan Muxtar Respublikasında Standartına keçid kontekstində məqalədəki materialın böyük praktiki əhəmiyyəti var. Məqalədə Azərbaycan Dövlət Təhsil Standartı çərçivəsində şagirdlər r üçün mümkün tapşırıqlar verir və öz təcrübəsini bölüşür. Fizika kursunun məqsədi müasir fizikanın fəlsəfi problemlərini öyrənməkdir. Şagirdlərin fundamental fiziki nəzəriyyələrin fəlsəfi əsaslarını və ontoloji və epistemoloji problemlərini sistemli şəkildə başa düşəcəklər. Müasir kvant fizikası və kosmologiyada təbiət qanunları haqqında adi fikirləri şübhə altına alan şeyin nə olduğunu öyrənəcəklər. Bu təbiət elmi təkcə fizika və ya fəlsəfə proqramlarında təhsil alan tələbələr üçün deyil, həm də ətrafımızdakı dünyaya təzə nəzər salmaq istəyən hər kəs üçün faydalı ola bilər.

***Açar sözlər**: fizika, məktəb, fizikanın tədrisi problemləri, fizika dərsində kompüter, fiziki nəzəriyyə*

Hazırda əsas problem məktəbdə fizikanın, adətən məktəbdə və universitetdə müəllimlərin dərs dediyi üsulla tədris olunmasıdır. Müəllimlər, görünür, 21-ci əsrdə olduğumuzu "unudurlar". Ən yaxşı halda müəllim Power Point proqramından istifadə edərək Naxçıvan Müəllimlər İnstitu, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təmin edilmiş təhsil konsepsiyası, sitat və oxşar sənədlərlə təqdimatdan istifadə edir. Çox vaxt onlar problemləri həlletməyiniz lazım olan alqoritmlər verirlər və sonra müsbət qiymətləndirmə almaq üçün dizayn qaydalarına ciddi riayət edərək bu hərəkətlərin nəticəsini diqqətlə yetiririk. Bunun fizika ilə heç bir əlaqəsi yoxdur. Bəzən müəllim fizikanın nə olduğunu unudur, ona görə də şagirdlərə düzgün göstəriş verə bilmir. İcazə verin, məktəblilərlə işləyərkən rastlaşdığım bir neçə tipik nümunə verim:"Niyə belədir?" sualına. tələbə və ya şagird cavab verir: "Çünki biz də belə bir düstur var idi" və daha heç nə deyə bilmir. Bu o deməkdir ki, şagird nə baş verdiyini anlamır, bu düsturun haradan gəldiyini, mənasının nə olduğunu başa düşmür və bu o deməkdir ki, yəqin ki, nə vaxtsa onu səhv tətbiq edəcək. Tələbənin və ya şagirdin əbədi sualı: "Həllini necə düzgün rəsmiləşdirmək olar?" məni çaşdırır. Mənə aydındır ki, qərarın icrası üçün yalnız bir tələb ola bilər: qərardan aydın olmalıdır ki, cavab necə alınıb, niyə belədir, başqa cür deyil. Amma məktəbdə öyrədirlər ki, "verilmiş" sözləri yazmalısan, əks halda səhv olar və yaxud əksinə, məktəbdə fikirlərini sərbəst şəkildə ifadə etməyi öyrətmirlər və fizika məhz bunun üçün lazımdır. Amma təəssüf ki, mən və hər hansı həmkarım "standart"a uyğun formatlaşdırmağı öyrətməliyik, çünki bizdə Vahid Dövlət İmtahanı var... Məktəbi bitirdikdən sonra tələbələrin və ya şagirdlərin əksəriyyəti standart şəkildə düşünür, universitetdə standartı davam etdirirlər. Həyatda kömək etməsi üçün bir dərsi necə etmək olar? Alqoritmlərdən və şablonlardan necə uzaqlaşmaq olar? Təklif edirəm: - İnternetdə lazımi məlumatların axtarışından birbaşa dərsdə istifadə etmək; - elektron dərsliklərlə işləmək; - öz əllərinizlə yaradılmış materiallardan istifadə edin (bir sinif olaraq, əgər varsa, onlarda səhvləri tapın); - fiziki videolar çəkmək; - dərsdə və evdə təkcə kağızdan deyil, kompüterdən də istifadə etmək. Microsoft Excel orta məktəbdə problemləri həlletmək üçün, xüsusən də gündəlik hesablamalar tələb edən problemlər üçün istifadə edilə bilər. Bundan əlavə, Excel-dən istifadə qrafiklər qurmağa imkan verir (məsələn, laboratoriya işləri üçün). Kompüter əsas informasiya mənbələrindən biridir və proqram məhsullarına yiyələnmək bacarığı sivilizasiyadan geri qalmağa imkan vermir. Orta səviyyədə "Fizika dərsliyi" layihə işi edə bilərsiniz. Bu işi qismən ofis proqramlarının tədris olunduğu kompüter elmləri sinfində etmək olar. Layihə metodu

informasiya məkanında naviqasiya etmək və biliklərinizi müstəqil şəkildə qurmaq bacarığını əhatə edir. Bu cür tapşırıqlar tələbələr arasında maraq doğurur, istisnasız olaraq hər kəsi işə cəlb edir. Təbiət və humanitar elmlərin müxtəlif sahələrindən olan mütəxəssislər şübhəsiz bir şey kimi tanınmış fiziki anlayış və prinsiplərdən istifadə etməyə vərdiş etmişlər. Məkan, zaman, fiziki obyekt, fiziki sahə, güc, enerji, fiziki reallıq, determinizm, nisbilik, fiziki qanun, fiziki təcrübə - bütün bu anlayışlar və əlaqəli prinsiplər konkret fiziki nəzəriyyələrə daxildir. Lakin onların mənası nəzəriyyədən nəzəriyyəyə dəyişir, bəzən kəskin şəkildə dəyişir. Bundan əlavə, hər bir nəzəriyyənin öz məhdudiyyətləri və fərqli şərhləri var. Tədris zamanı biz fundamental fiziki nəzəriyyələrin düsturlarına və tanış anlayışlarına hansı mənanın xas olduğunu anlamağa çalışacağıq. Biz fizikaya heç bir metafizik anlayış tətbiq etməyəcəyik. Əksinə, müasir fizikanın problemlərindən başlayaraq, keçmişin və indinin çoxsaylı fəlsəfi fikirləri arasında mümkün həll yollarını axtaracaq, onları təhlil edib müqayisə edəcəyik.

Nəticə

Qeyd edək ki, fizikanın tədrisində kompüter modellərindən istifadə təkcə şagirdlərin həvəsini artırmaq və onların biliklərini yeniləmək imkanı deyil, bu, hazırda məktəblilərin ümumi bədən tərbiyəsinin zəruri elementidir.

ƏDƏBİYYAT

1. Saveliyev I.V. Ümumi fizika kursu. Cild 1. M .: 1982, “Elm”
2. Murquzov M.İ., Abdurazaqov R.R. Yeni nəsil multimedia dərsliyi. Elektrodinamika. III hissə, Bakı: 2007, Bakınəşr
3. Сивергин М.Ю. - Телевизионные образовательные технологии. Ж-л “Дистанционное образование”. 2001

SUMMARY

Gulsevar Majlumova

PROBLEMS OF TEACHING PHYSICS IN SECONDARY SCHOOLS AND ITS SOLUTIONS WAYS

The article examines the problems of teaching physics at school and discusses their solutions. The article is relevant for both young teachers and teachers with extensive pedagogical experience. In the context of transition to the Standard in Azerbaijan and Nakhchivan Autonomous Republic, the material in the article is of great practical importance. In the article, within the framework of the Azerbaijan State Education Standard, students give possible tasks for r and share their experience. The aim of the physics course is to study the philosophical problems of modern physics. Students will gain a systematic understanding of the philosophical foundations and ontological and epistemological problems of fundamental physical theories. They will learn what modern-day quantum physics and cosmology are challenging conventional wisdom about the laws of nature. This natural science can be useful not only for students studying in physics or philosophy programs, but also for anyone who wants to take a fresh look at the world around us.

Key words: *physics, school, physics teaching problems, computer in physics class, physical theory*

H.N.ADİGÖZALZADƏ
U.Z.BƏŞİROVA
N.Z.İSMAİLOV
A.A.AĞAYEVA
hadigozalzade@gmail.com
Bakı Dövlət Universiteti

HD 141569 ULDUZUNUN SPEKTRİNDƏ HYDROGEN XƏTLƏRİ

İşdə 2017-2018-ci illər ərzində ŞAR-da alınmış spectral müşahidə materialı əsasında HAeBe tipli HD141569 ulduzunun hydrogen xətlərinin profilləri tədqiq olunmuşdur. Göstərilmişdir ki, şüalanma komponentinin intensivliyi hydrogen xətlərində çox dik Balmer dekrementi yaradır. Bu da ulduz diskinin mərkəzi ulduz tərəfindən şüalanan bənövşəyi şüalanmaya qeyri şəffaf olduğunu göstərir. Balmer xətləri həm qısamüddətli, həm də uzunmüddətli dəyişmə göstərir.

Açar sözlər: *HAeBe ulduzlar, spektroskopiya, hydrogen xətləri, individual: HD141569*

Giriş

İRAS peykinin uzaq infraqırmızı (İQ) diapazonda apardığı müşahidələr göstərdi ki, böyük sayda AeBe Herbiq tipli cavan ulduzların spektrində ulduzətrafı diskin şüalanması hesabına yaranan şüalanma artıqlığı müşahidə edilir. Ulduzətrafı disk ulduz küləyi, ulduz səthinə və planetezimala akkresiya, şüalanma təzyiqi və s. proseslər nəticəsində təqribən 10^8 il ərzində tədqicən dissipasiya edərək yox olur. Ona görə də belə İQ şüalanma artıqlığı göstərən ulduzlar cavan hesab olunur (Habing et al. 1999; Silverstone 2000). Ulduzətrafı diskdə planetlərin yaranması mexanizmini başa düşmək üçün ayrı-ayrı cavan ulduzların fundamental parametrlərini və yaşını tədqiq etmək böyük əhəmiyyət kəsb edir. Burada çətinlik onunla bağlıdır ki, HR diaqramında Baş Ardıcıllığa (BA) yaxınlaşan ulduzlar çox sürətlə təkamül edir, onlarda yaşı təyin edən əsas indicator sayılan litium artıqlığı və rentgen şüalanması müşahidə olunmur.

Herbig AeBe ulduzlar BA-da yerləşən ulduzlarla oraya yaxınlaşan ulduzlar arasında aralıq mərhələdə olan ulduzlardır. İlk dəfə Herbiq tərəfindən verilmiş (Herbig, 1960), daha sonrakı tədqiqatlarda dəqiqləşdirilmiş kriteriyalara görə kütlələri 2-10 M aralığında olan, qaz-toz dumanlıqlarında yerləşən, optik diapazonda spektrində şüalanma xətləri olan ulduzlar Herbiq AeBe (HAeBe) qrupuna aid edilmişdir. Daha sonra The Winter&Prezez (1994) tərəfindən bu kriteriyalara əlavə olaraq yaxın və uzaq İQ oblastda şüalanma artıqlığı olması əlavə olunmuşdur.

HD 141569 ulduzu spektral sinfi B9.5V, Hα xəttində güclü şüalanma var, 12-100 mkm aralığında şüalanma artıqlığı göstərir, lakin bu ulduz heç bir dumanlıqla bağlı deyil. HAeBe ulduzları yalnız İQ şüalanma artıqlığına görə təsnif etməyə cəhd edilmişdir (Hillenbrandt, 1992). Hesab edilir ki, bu ulduzlar təkamülün son mərhələsində Veqa və β Pic kimi ulduzlara çevrilməlidirlər.

Weinberger və b. (2000) göstərmişlər ki, HD141569 ulduzu çox ehtimal ki, üçqat ulduzdur, komponentlərin spektrinə əsasən, litiumun miqdarı və rentgen şüalanmasına görə ulduzun yaşı 5 mln il təşkil edir. Ulduzətrafı disk müxtəlif parçalardan ibarətdir.

Bu işdə ulduzun hidrogen xətlərinin parametrlərinin və profillərinin dəyişməsi tədqiq olunmuşdur.

Alınmış nəticələr


Bu işdə tədqiq olunan spektral material 2017-2018-ci illərdə Şamaxı Astrofizika Rəsədxanasının 2m teleskopunda ShAFES eşelle spektrografı vasitəsilə alınmışdır. Spektral material və alınan nəticələrin bir qismi Adıgozalzade et al.(2023) işində təsvir edilmişdir. Spektral ayırdetmə R=28000, diapazon λ 3700-7900 Å təşkil edir.

Yuxarıda qeyd etdiyimiz kimi, HD141569 sıx üçqat sistemdir, B komponenti mərkəzi ulduzdan 7.5 arcsec, C komponenti isə 1.5 arcsec məsafədədir. Komponentlərin fərdi şəkildə müşahidəsi iki səbəbdən mümkün olmamışdır:

a) mərkəzi A komponentinin parlaqlığı J zolağında 6.88 mag, B komponentinin parlaqlığı 9.2 mag, C komponentinin parlaqlığı isə 10.16 mag təşkil edir (Weınberger et al.2000);

b) müşahidə zamanı təsvirin ölçüsü 2-4 arcsec təşkil edir, nəticədə spektroqrafın yarığı müstəvisində alınan xəyalda komponentlər ayırd edilə bilmir. Ona görə də alınan spektrlərdə üçlüyə daxil olan digər komponentlərin şüalanma payı olsa da, əsas şüalanma daha parlaq A komponenti tərəfindəndir.

İşdə 2 spektroqram 2017-ci ildən, 6 spektroqram 2018-ci ildən tədqiq edilmişdir. 1-ci şəkildə hidrogenin Hα-Hε xətlərinin profilləri verilmişdir. Göründüyü kimi, Hα xətti güclü ikipikli şüalanma profili göstərir, Hβ xəttində həmin struktur qalsa da, şüalanma piklərinin intensivliyi nisbətən xeyli azdır.



Şəkil 1. *HD141569 ulduzunun spektrində Hα, Hβ, Hγ və Hε xətlərinin profilləri*

Digər iki Hγ və Hε xətlərinin mərkəzində şüalanma komponenti demək olar ki, müşahidə olunmur. Şüalanmanın mərkəzində udulmanın sürüşməsi ulduzun kütlə mərkəzinin sürətinə yaxındır. Hγ və Hε xətlərində udulma pikinin sürüşməsi bir qədər kütlə mərkəzindən daha çox bənövşəyi sürüşmə göstərir (Adıgözəlzadə və b. 2023). Şüalanma strukturu həm uzunmüddətli, həm də qısamüddətli dəyişmə göstərir.

Şüalanma komponentinin intensivliyi hidrogen xətlərində kəskin Balmer dekrementi təşkil etdiyini göstərir. Bu da o deməkdir ki, bənövşəyi və görünən oblastda disk şüalanması ciddi udulmaya məruz qalır. Başqa sözlə, ulduzətrafı disk mərkəzi ulduzdan ultrabənövşəyi və optik diapazonda şüalanan enerji üçün qeyri şəffafdır.

Spektral xətlərin intensivliyinin dəyişməsi İQ və radio diapazonlarda müxtəlif müəlliflərin (White and Boley2018, GRAVITY collaboration, 2021) göstərdiyi ulduz diskinin müəyyən struktura malik olduğu fikrini təsdiq edir. Bununla belə, əgər disk strukturu dağılmış sabit bir formadadırsa, o zaman ulduzun fırlanma perioduna yaxın periodlu dəyişmələr müşahidə olumalıdır. Bunu sübut etmək üçün statistik çoxlu sayda yüksək ayırdetməli spektral müşahidə materialına ehtiyac var.

ƏDƏBİYYAT

1. Habing H. J., Dominik C., Jourdain De Muizon et al. 1999, Nature, 401, 456
2. Silverstone M. D. 2000, Ph.D. thesis, UCLA
3. The P.S., de Winter, D., & Perez M. R. 1994, A&AS, 104, 315
4. Hillenbrand L. A., Strom S. E., Vrba F. J., & Keene J. 1992, ApJ, 397, 613
5. Weinberger A. J., Rich R. M., Becklin, E. E. et al. 2000, ApJ 544, 943
6. Adigozalzade H.N., Ismailov N.Z., Bashirova U.Z, et al.2023, AzAJ 18(2), 43
7. White J. A., Boley A. C. 2018, ApJ, 859, 103
8. GRAVITY Collaboration: V. Ganci et al., 2021, A&A 655, A112

AYNUR SADİQOVA
Sadiqlinur001@gmail.com
Naxçıvan Dövlət Universiteti

FİZİKADAN MƏSƏLƏ HƏLLİ DƏRSLƏRİNDƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARI VASİTƏLƏRİNDƏN İSTİFADƏ

Fizikanın tədrisində YİTV-nin tətbiqi ilə məsələ həllində yuksək əyanilik hesabına məsələnin mahiyyətinin asan başa düşülməsi; həllin modellərlə həyata keçirilməsi; mürəkkəb hesablamaların avtomatik yerinə yetirilməsi, şagirdlərin mustəqil alqoritm va sadə proqramlar tərtib etmək bacarıq və vədişlərinə yiyələnməsi, məsələ həllinin gedişində buraxılan səhvlərin korreksiya edilmosi, todris materialı çətin mənimsənildikdə müəllimə operativ müraciət dərsin səmərəliliyini yüksəldir və lazımi bacarıqlar inkişaf etdirilir.

Açar sözlər: *Fizika, məsələ, kompüter, informasya, məktəb*

Giriş

Məsələ həlli dərslərində YİTV-dən istifadə texnologiyasının fizika məsələlərinin həllinə tətbiqi ilə öyrənmənin yeni üsullarına baxılmış, istənilən məsələnin həlli alqoritminin onun fiziki mahiyyətinin təhlilindən və riyazi modelləşdirilmədən başlandığı xüsusi qeyd edilmişdir. Bu, şagirdlərdə alqoritmik mədəniyyətin formalaşdırılmasına və proqramların tərtibinə geniş imkan verir. Bir sıra məsələlərin həllində tətbiq olunan mürəkkəb riyazi metodlar, müvafiq qrafikin qurulması çox böyük əmək və vaxt tələb etdiyindən məktəb fizika kursuna bu tipli məsələlər daxil edilmirdi. Belə məsələlərin maşınsız həlli müəllimdən gərgin əmək, çox vaxt tələb edir, sinifdə az sayda şagird məsələnin həllindəki məntiqi başa düşür və ya çətinliklə anlayır ,əksər şagirdlər isə mexaniki köçürmə ilə məşğul olurlar.Bu tipli məsələlərin həllində fərdi kompüterlərin tətbiqi qarşıya çıxan problemləri aradan qaldırır və müsbət nəticənin alınmasını təmin edir. Məsələ həllində YİTV-nin tətbiqi ilə əlaqədar təklif edilmiş işin forması və oxşar fundamental fiziki qanunlara aid məsələlərin həlli üçün vahid hesablama proqramı tərtib edilmişdir. Müasir fizika müəllimi öz fənnini (məktəb fizikasını) dərindən bilməklə yanaşı, təlim prosesində YİTV-nin tətbiqinə dair praktik bilik və bacarıqlara da yiyələnməlidir. Fizikanın tədrisində bu texnologiyanın tətbiqi aşağıdakı səbəblərlə əlaqədardır:

- fizika təliminin informatlaşdırılmasının intensivləşdirilməsi;
- kompüter texnologiyası bazasında məktəb fizika eksperimentinin modernləşdirilməsi, əyaniliyin reallaşdırılması, fərdiləşdirmə və differensiallaşdırmanın həyata keçirilməsi, özünüyoxlama və qiymətləndirmənin, birbasa və əks əlaqələrin gücləndirilməsilə fizika təliminin təkmilləşdirilməsi;
- fizika təlimində sinfə gətirilməsi mümkün olmayan, təbii şəkildə nümayiş edilə bilməyən, başa çatması uzun müddət və ya kiçik zaman kəsiyində baş verən, həmçinin çox qiymətli qurğu və cihazlar tələb edən hadisə və proseslərin nümayiş edilməsi.

Bu sahədə fizika müəllimlərinin qazanacaqları bilik və bacarıqlar YITV-dan produktiv istifadənin nəzəri və praktik problemləri sisteminə istiqamətlənməklə, məqsədyönlü formalaşdırılmalıdır. Belə olan halda müəllimin bilik səviyyəsi günün tələblərini qabaqlayacaqdır. Deməli, tədrisin məhz bu təlim prosesində kollektiv tərbiyə zərurəti yaranır. İnteraktiv təlim metodu tərbiyəyə öz müsbət təsirini göstərir.


Uzunmüddətli fəaliyyət zamanı uşaqlar həm də mövqelərinin doğruluğunu müdafiə etməyə yiyələnirlər. 10-cu sinif fizika dərslərində yeni təlim texnologiyalarından istifadə etməklə, şagirdlərin tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirməsinə aid dərs nümunəsinə nəzər salaq:

Mövzu: Ağırlıq qüvvəsinin təsiri altında hərəkət

I mərhələ: Problemin qoyuluşu

Motivasiya: Üfüqə nəzərən bucaq altında atılmış cismin hərəkətinə baxaq ənənəvi metodikasından yeni informasiya təhsil mühitinə keçid qaçılmazdır.

Ümumtəhsil məktəblərində fizika təlimində yeni informasiya texnologiyalarından istifadənin müəyyənləşdirilmiş nəzəri problemlərinin təklif edilmiş metodika ilə həlli tədris proqram və dərsliklərinin yeniləşməsini; informasiya tədris məkanında kursun yüksək səviyyədə, konseptual əsaslarla tədris olunmasını; şagirdlərin daha mükəmməl və sistemli biliklərə yiyələnməsini, həmçinin fizikanın gələcək tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsini təmin edir. Şəkildə υ_o başlanğıc sürəti ilə üfüqə nəzərən α bucağı altında atılan cismin trayektoriyası göstərilmişdir. Sürətin OX və OY oxları boyunca iki toplananı var. Şagirdlərə yardımçı sual verilir: bu toplananlar haqqında nə demək olar.Sonra müəllimsürətin üfüqi və şaquli toplananları haqqında məlumat verir.



$$\upsilon_x = \upsilon_{ox} = \upsilon_o \cos\alpha = const, \quad \upsilon_y = \upsilon_{oy} - gt = \upsilon_o \sin\alpha - gt$$

II mərhələ.

Tədqiqat:

Müəllim kompüterdə slaydın köməyilə sürətin üfüqi və şaquli toplananlarını göstərir. Şəklə əsasən, cismin OY oxu boyunca g təcili ilə yuxarı bərabəryavaşıyan (trayektoriyanın OA hissəsində), sonra həmin təcillə aşağı bərabəryeyinləşən (trayektoriyanın AB hissəsi) olur. Cisim parabola üzrə hərəkət edir.

$$y = \upsilon_{oy} \cdot t - \frac{gt^2}{2} = \upsilon_o \sin\alpha \cdot t - \frac{gt^2}{2}$$

Müəllim şagirdləri dörd qrupa bölür. Hər qrup öz liderini seçir. Liderlər özlərini təqdim edirlər. Qruplara iş vərəqələri paylanır. Onlar iş vərəqələrində sualların cavablarını yazırlar.

Qruplar	***Şagirdlərə verilən suallar***	***Cavablar***
I qrup	Üfüqə nəzərən bucaq altında atılmış cismin maksimal qalxma hündürlüyü	$h_{max} = \frac{\upsilon_o^2 \sin^2\alpha}{2g}$
II qrup	Üfüqə nəzərən bucaq altında atılmış cismin qalxma müddəti	$t_q = \frac{\upsilon_o \sin\alpha}{g}$
III qrup	Üfüqə nəzərən bucaq altında atılmış cismin uçuş müddəti	$t_{uç} = 2t_q = \frac{2\upsilon_o \sin\alpha}{g}$
IV qrup	Üfüqə nəzərən bucaq altında atılmış cismin uçuş məsafəsi	$S_{uç} = \frac{\upsilon_o^2 \sin 2\alpha}{g}$

III mərhələ.

İnformasiya mübadiləsi: Qrup üzvləri işlərini təqdim edir. İş vərəqələri lövhədən asılır.

IV mərhələ.


İnformasiya müzakirəsi: Şagirdlərin təqdimatından sonra müəllim cavabları sistemləşdirir və sinfə suallar verilir. Müzakirə sualları. Maksimal qalxma hündürlüyündə sürətin şaquli toplananının qiyməti nəyə bərabərdir?

a bucağının hansı qiymətində uçuş məsafəsi ən böyük qiymət alır? Bütün trayektoriya boyunca cismin təcilinin istiqaməti haqqında nə deyə bilərsiniz?

V mərhələ.

Ümumiləşdirmə və nəticə. Şagirdlərin diqqəti tədqiqat sualına yönəldilir. Müəllim nəticələri bütün siniflə ümumiləşdirir. O, cavabları lövhədə yazır. Fizikanın tədrisində YITV-nin tətbiqinin nəzəri və praktik problemlərinin həlli, innovativ texnologiya və yeni metodlar kompleksinin köməyi ilə mövcud metodikanın təkmilləşdirilməsi və inkişaf etdirilməsi istiqamətlərini müəyyənləşdirir. Qeyd edilən metodika yaradıcı inkişafı, elmi tədqiqatda əməkdaşlığı, şəxsiyyətin inkişaf etdirilməsini, intellektual və mənəvi yaradacılığı fəllaşdırır, özünütəşkilə və özünüinkişafa təkan verir. Tədqiqat nəticəsində əldə edilən nəzəri müddəalar fizikanın tədrisi metodikasını, o cümlədən pedaqogika elminin nəzəri əsaslarını yetərincə zənginləşdirir. Nəzəri hissə formaca ənənəvi dərslər üçün tərtib edilmiş metodik mərhələləri xatırlatsa da, praktik hissə yeni texnologiyaya istinad etdiyindən mövcud metodikadan fərqlənir. İcmal planın sxemi və müvafiq metodik gedişlərin ardıcıllığı konkret dərs nümunələri ilə verilmiş, qiymətləndirmənin formaları, bu prosesdə istifadə olunan testlərə verilən tələblər şərh edilmişdir. Aparılan uzun müddətli təcrübə müvəffəqiyyətli həllinin həyata keçirilməsində onun məzmununun yaxşı başa düşərək dərk edilməsinin çox böyük əhəmiyyəti vardır. Bu baxımdan məsələdə baş verən fiziki hadisə və prosesin əyaniləşdirmək rəngli dinamik şəkildə şagirdlərə təqdim edilməsində kompüterin rolu əvəzsizdir. Məsələnin həllində yaradılmış əyanilik və verilənlər onun yaxşı başa düşülməsinin təmin etməkdə bütün şagirdlərin diqqətini cəlb edir, prosesdə fəal müstəqil iştirakı əsas olur. Bu məsələ nümunəsində kompüterin imkanlarına nəzər yetirək.

Müəyyən yüksəlişdən asılmış fənərin asıldığı hündürlüyün təyin edilməsinə aid məsələ nümunəsinə baxaq (Şəkil.2).



Şəkil 2. *Məsələnin məzmunun və şərtinin əyani təsviri*

Fizikanın müxtəlif bölmə (MKN-nin əsasları, elektrodinamikanın atom fizikası və kvant mexanikası) və mövzularına aid məsələ və eksprementlərin hesabatlarında müəllim və şagirdlər çox vaxt itirir. Bu yorucu əmək axırda yaradıcılıq təfəkkürü inkişaf etdirmək əvəzinə mexaniki köçürməyə gətirib çıxarır.

Fizikanın tədrisində YİTV-nin tətbiqi ilə məsələ həllində yüksək əyanilik hesabına məsələnin mahiyyətinin asan başa düşülməsi; həllin modellərlə həyata keçirilməsi; mürəkkəb hesablamaların avtomatik yerinə yetirilməsi, şagirdlərin müstəqil alqoritm va sadə proqramlar tərtib etmək bacarıq və vərdişlərinə yiyələnməsi, məsələ həllinin gedişində buraxılan səhvlərin korreksiya edilməsi, tədris materialı çətin mənimsənildikdə müəllimə operativ müraciət dərsin səmərəliliyini yüksəldir və lazımi bacarıqlar inkişaf etdirilir.

ƏDƏBİYYAT

1. İsmayılov İ.N. Fizika müəllimlərinin peşə hazırlığında İTK-nın rolu. Fasiləsiz pedaqoji təhsildə elektron təlim texnologiyaların tətbiqi. Respublika elmi-metodik konfransı. Bakı: 2010, ADPU, s.167-172
2. İsmayılov İ.N., Əhmədli A.S. Respublika təhsil sistemində YITV-nin tətbiqi mərhələləri və texnologiyaları. Təhsildə IKT. Elmi-metodik jurnal, 2010, № 1, s.78-83
3. İsmayilov İ.N., Əhmədli A.S. Ümumtəhsil məktəblərində termo-dinamikanın tədrisində yeni informasiya texnologiyalarından istifadə. Təhsildə IKT. Elmi-metodik jurnal, 2010, No 2, s.68-80
4. Xəlilov V. Təlim prosesində yeni texnologiyalar. Bakı: 2011
5. Murquzov M., Abdullayev S., Abdurazaqov R., Əliyev N., Hüseynli M., Hüseynov C., Səmədov A., Süleymanov A. Fizika 10. Bakı: 2009
6. Əliquliyev R., Şabanova S. Fizika kursunda təlimin informasiya texnologiyalarından istifadə yolları. AMİ-nin xəbərləri. №2. Fizika-Riyaziyyat. Təbiət və informatika elmlərinin problemləri. 2008
7. Veysova Z. “Fəal-interaktiv təlim”. Müəllimlər üçün vəsait. Bakı: 2007.

SUMMARY

Aynur Sadigova

NEW INFORMATION IN PHYSICS PROBLEM SOLVING LESSONS USE OF TECHNOLOGIES

With the application of YITV in physics education, easy understanding of the problem itself thanks to high visibility in problem solving; realization of the situation with models; Automatic execution of complex calculations, acquisition of students' skills and habits in designing independent algorithms and simple programs, correction of errors made during problem solving, immediate consultation with the teacher in cases of difficulty in mastering the learning material increase and improve the efficiency of learning. lesson. desired abilities.

Key words: *physics, problem, computer, knowledge, school*

ASİMƏ ZƏKİLİ
Asimasafarli2420@gmail.com

RİYAZİ FİZİKA TƏNLİKLƏRİ KURSU TƏLİMİNİN METODİKİ SİSTEMİNİN QURULMASI

Məqalədə riyazi fizika tənlikləri kursu təliminin metodiki sisteminin qurulması iki mərhələdə həll olunur:

1. Riyazi fizika tənliklərinin müstəqil fənn kimi tədris olunması;

2. Fundamental elm sahəsi kimi tətbiqi əhəmiyyət kəsb etməklə tədris olunması.

Riyazi fizikanın inkişafının hərəkətverici qüvvəsi olaraq daxili və xarici mənbə anlayışından metodiki astalıqla istifadə edilərək onun metodiki sistemi qurulur.

Açar sözlər: *Riyazi fizika, metodika, inteqrasiya*

Məlumdur ki, hazırda cəmiyyətin ali məktəblərdə tədris olunan fənlərin öyrənilməsinə tələbi, əsasən, aşağıdakılardan ibarətdir. Fənlərin tədrisi elə qurulmalıdır ki, gənclər bilik almaqdan daha çox alınmış bilikləri müsəqil tətbiq etmək, bacarıq və vərdişlərinə yiyələnə bilsinlər. Bu baxımdan universitetlərin "Tətbiqi riyaziyyat", "Mexanika riyaziyyat", "Riyaziyyat", "Fizika" ixtisaslarında, o cümlədən pedaqoji profilli və bəzi texniki ixtisaslarında aparılan tədris prosesində iki məsələ həlletməlidirlər:

I. Riyazi fizika tənlikləri müstəqil fənn kimi tədris olunmalı;

II. Riyazi fizika tənlikləri fənni bir fundamental elm sahəsi kimi tətbiqi əhəmiyyət kəsb edilməklə tədris olunmalıdır.

Bu məsələlərin riyazi fizika tənliklərinin tədris metodikasının bərabərhüquqlu və bir-biri ilə üzvü əlaqəli məsələlərin olması riyazi fizika elminin inkişafının hərəkətverici qüvvəsinin iki mənbəyinin varlığından çıxır: "Bunlardan biri xarici mənbədir. Belə ki, riyaziyyatdan kənar məsələlərin, yəni digər elmi texniki, kosmodinamik, biofiziki, geodezik və s. məsələlərin riyazi vasitəsilə həllinin zəruriliyi ilə əlaqədardır. Məhz bu mənbə birincidir. İkinci daxili mənbə tapılmış riyazi təkliflərin təkmilləşdirilməsi, onların qarşılıqlı əlaqələrinin aydınlaşdırılması, ümumiləşmiş cərəyanların birləşdirilməsi - orta nəzəriyyənin yaradılması, öz xüsusi qanunları ilə bu nəzəriyyənin təkmilləşdirilməsi və inkişaf etdirilməsi zərurətindən çıxır (Əsgərov O.N-1993).

Qeyd edə bilərik ki, riyazi fizika tənliklərinin tədris metodikasının həlli məsələləri, demək olarki, həll edilməmiş şəkildə qalmaqdadır. Yalnız bəzi mövzuların tədrisi ilə bağlı müəyyən dövrlərdə qısa məlumatlara rast gəlmək olur .

Beləliklə, riyazi fizika tənliklərinin tədrisi metodikası həmişə aktual problem olaraq qalır. Bu məsələlərin həlli xarakterini bir-birinə üstünlük vermədən tədqiqat aparaq, hər iki məsələnin həllini eyni zamanda tapmaq lazımdır. Bu məsələlərin yaranması və varlığı arasında kəsilməz asılılıq olduğundan, onların hər ikisini eyni zamanda tədqiqi etmək və həllini tapmaq zərurətindən, bu iki məsələyə bir məsələ kimi baxmaq olar.

Ali məktəblərin riyaziyyat fakültəsində (həmçinin fizika, mexanika-riyaziyyat, tətbiqi riyaziyyatı və s.) tədris prosesinin zəruri elementi olan riyazi fizika tənlikləri kursunun tədrisi metodikası təlimin standartlarına cavab verəcək, metodoloji səviyyədə sistemli yanaşmanın tətbiqi ilə hərtərəfli öyrənilmə tələb etdiyindən onun metodik sistemi qurulmuşdur (Adıgözəlov A.S və b. 1993, s.136).

Bu sistemin səmərəli fəaliyyəti və inkişafını təmin edən elementlər seçilə bilməli, həmin elementlər arasında əlaqə yaradılmalıdır. Bazis olaraq ən əhəmiyyətli elementlər götürülməli və digər elementlərlə qarşılıqlı əlaqəsi, tabeliliyi müəyyən edilməlidir. Sistem idarə edilən olmalı, yəni elementlər arasında əlaqələr nizamlana bilməlidir. Müəyyən dövr üçün əlverişli olmasına baxmayaraq, bu sistemə dinamikada olan sistem kimi baxmaq lazımdır.

Deməli, riyazi fizika tənlikləri kursunun tədrisinin metodik sistemini qurmaq üçün verilmiş fənnin təlimi prosesinin təhlilini sistemlər nəzəriyyəsinin umumi tələbləri ilə uyğunlaşdırmaq lazımdır.

Onda belə bir tezis irəli sürmək olar: Ali məktəblərin riyaziyyat (fizika və digər uyğun) fakültələrində riyazi fizika kursunun təlimi, məqsədi, məzmunu, üsulları, formaları və vasitələri olan metodik sistemə nəzərən tam quruluşlu sistemdir.

Riyazi fizika tənlikləri kursu təlimin tam quruluş, Metodik sistemin isə onun xarici mühiti olduğunu göstərmək üçün bu sistemin daxili quruluşunu, onun bütün funksiyalarını, tamlığını təmin edən faktorları öyrənmək lazımdır.

Riyazi fizika tənlikləri kursunun quruluşu dedikdə, müəyyən proqram üzrə onun ardıcıl şərh olunması başa düşülür. Proqramda materialın şərhi ardıcıllığı verildiyindən bu ardıcıllıq müəyyən dərəcədə kursun məzmununu da təyin edir. Təcrübə göstərir ki, riyazi fizika kursunun şərhi kafedra iclaslarının qərarı ilə müəyyən dərəcədə dəyişdirilə bilir.

Riyazi fizika tənlikləri kursunun quruluşunu isə aşağıdakı üç əsas faktor dəyişdirə bilər:

4. Tədris planının dəyişdirilməs;
5. Riyazi fizika tənlikləri tədrisində müəllimlərinin metodiki yenilikləri;
6. Riyaziyyat kafedrasının bəzi tələbləri.

Riyazi fizika tənlikləri kursunun şərhinin ciddiliyi dedikdə öyrənilən materialla əlaqədar tənliklərin kifayət qədər əsaslandırılması başa düşülür.

Şərhin ciddiliyi riyazi fizika təlimi üçün çox əhəmiyyətlidir. Əlbəttə, riyazi fizika tənlikləri daxilində olan bütün təklif və formulları isbat etmək mümkün deyil. Bunun üçün bəzi məsələləri öyrənmək, teoremləri isbat etmək üçün tələbələrin müstəqil ev tapşırığı kimi özlərinə həvalə etmək lazımdır. Lakin bu iş çox məsuliyyət tələb edir. Hansı məsələləri mühazirədə izah etməli, hansı təklifləri aydınlaşdırmalı? Bütün bu suallara diqqətli yanaşmaq lazımdır.

Riyazi fizika tənlikləri kursunun məntiqi olması dedikdə, onun tədrisi zamanı meydana çıxan riyazi fizika obyektləri arasında qarşılıqlı əlaqələr və asılılıqlar nəzərdə tutulur. Riyazi fizikanın obyektləri arasında qarşılıqlı əlaqə və asılılıq digər elmlərə nisbətən daha güclüdür. Burada hər bir yeni anlayışın öz mənası vardır. Bunu nəzərə almadan riyazi fizikanı bir fənn kimi öyrənmək mümkün deyil.

Həmdə riyazi fizika tənlikləri digər riyazi elmlərə nisbətən daha çox anlayışlarla zəngindir.

Burada həm riyaziyyatın, həm də fizikanın demək olarki, bütün elementlərində istifadə olunur. Bunu nəzərə almadan riyazi fizika tənliklərini bir fənn kimi öyrənmək mümkün olmur. Məsələn, dalğa tənliklərini, Nyuton dinamikasını, Dalanber prinsipini və İkinci tərtib xüsusi törəməli xətti diferensial tənliklər nəzəriyyəsini bilmədən öyrənmək olmaz. Dalğa tənliyinin çıxarılışında "hərəkət" funksiyasının verilən oblastda kəsilməz və ən azı ikinci tərtibdən kəsilməz diferensiallanan olması zəruridir. Kəsilməzlik isə funksiyanın limiti anlayışına əsaslanır (Mahmudov M.C-2004, s.76-77).

Analoji vəziyyət riyazi fizika tənliklərinin bütün anlayışlarında, hətta daha mürəkkəb şəkildə təzahür edir.

Riyaziyyatın məntiqi olması və quruluşu haqqında L.D.Kudryavtsevin aşağıdakı fikrini nəzərə almaq lazımdır: "Hər bir elm onun hüdudlarından heç vaxt kənara çıxmayan, lakin onun daxilində mühüm rol oynayan, başa düşülməsində, mənimsənilməsində, tətbiqinin düzgün bacarılmasında zəruri olan, daxili quruluşa, daxili məntiq, daxili əlaqəli halqalara malikdir" (Quliyev C.X-2005).

Beləliklə, riyazi fizika tənlikləri kursu şərhinin məzmunlu, ardıcıl, ciddi və məntiqli olmasını təmin edən riyazi fizikanı tədrisi metodikasının ikişaxəli məsələsinin həllinin zəruri elementlərindən biri olan fundamentallıq prinsipinə istinad etmək imkanı yaradır. Digər tərəfdən fundamentallıq prinsipinə əməl etmək riyazi fizika tənliklərinin bir fənn kimi mövcudluğuna təminat verir. Ona görə də fundamentallıq prinsipi B.V.Qnedenkonun metodik sisteminə onun element təliminin məzmunu kimi daxil olur.

Qeyd edek ki, fundamentallıq prinsipinə istinad etmək, yalnız məqsəd deyil, eyni zamanda keyfiyyətli riyaziyyatçı mütəxəssis, bu ixtisas üzrə magistr hazırlamaq vasitəsidir. Ona görə də bu prinsipə istinad edildikdə, eyni zamanda riyaziyyat ixtisasının ehtiyaclarını da nəzərə almaq lazımdır. Bu isə sistemə yeni elementin daxil edilməsini labüt edir.

Riyaziyyat ixtisasının tələblərinin ödənilməsini nəzərə alaraq, riyazi fizika tənlikləri kursunun şərhini təmin edən prinsipini uyğunlaşdırma adlandıraq. Riyazi fizika tənlikləri kursunun tədrisi prosesində uyğunlaşdırma prinsipinin aşağıdakı atributları iştirak edir:

- Riyazi fizika tənlikləri kursunda elə məsələlər öyrənilir ki, bunlarsız bir çox fiziki proseslərin idarə olunması, izahı mümkün deyil. Nəzəri fizikanin, kvant mexanikasının bir çox problemləri məhz həmin bilgilər hesabına həll edilir;
- Digər kursları nəzərə almaqla riyazi fizikanın bəzi anlayışlarının interpretasiyasının verilməsi;
- Tipik məsələləri, bütün təbiət hadisələrinin riyazi nəzəriyyəsinin yaradılması, riyazi modelləşmənin qurulması;
- Fənnin tədris olunduğu bütün kafedraların əməkdaşları ilə birlikdə metodiki vəsaitlərin hazırlanması.

Riyazi fizika tənlikləri kursunun şərhi prosesində fundamentallıq və uyğunlaşma prinsipində biri digərini tamamlayır. Birinə əməl olunmadıqda ya bu fənn təcrid edilmiş şəkildə, ya da müstəqil fənn olmaqdan məhrum olar.

Fundamentalılıq və uyğunlaşma prinsipləri riyaziyyat fakültəsində riyazi fizikanın tədrisi metodikası sistemində, sanki dayanıqlıq vəziyyəti yaradır.

Birinci riyazi fizika tənlikləri kursunu bir fənni kimi qoruyur, ikincisi isə riyazi fizika kursuna qapalı və izolə edilmiş kimi qalmaq imkanı vermir (Əhmədov O.N-1990).

İkişaxəli məsələnin həllinin məzmunundan çıxır ki, riyazi fizikanı tədrisi prosesində varislik prinsipinə də hökmən istinad etmək lazımdır. Varislik prinsipinə riyazi fizikanın tədrisi metodikası sisteminin elementi kimi baxsaq, görərik ki, onun nəzərə alınması, tədris işinin müzakirə və məsləhət formalarını dəyişə bilər. Deməli, bu prinsip metodik sistemin komponentlərində bir təlimin formaları ilə əlaqədardır. Beləliklə, riyazi fizika tənlikləri kursunun tədris metodikasının ikişaxəli məsələsinin həllini təmin edən fundamentallıq, uyğunlaşma, aparıcı ideyalar və varislik prinsipləri təklif edilmiş oldu.

Nəticə

"Riyazi fizika tənlikləri kursu təliminin metodiki sisteminin qurulması" mövzusunda yazılmış magistr dissertasiyasında aşağıdakı mühüm nəticələr alınmışdır:

4. Riyazi fizika tənlikləri kursunun metodiki sisteminin iki mərhələli qurulması sxemi göstərilir;
5. Riyazi fizika tənlikləri kursunun müstəqil fənn kimi tədris olunması izah olunur;
6. Riyazi fizika fənninin fundamental elm sahəsi kimi tətbiqi əhəmiyyət kəsb etməsi göstərilir;
7. Riyazi fizika tənlikləri kursunun tədris metodikasının ikişaxəli məsələsinin həllini təmin edən fundamentallıq, uyğunlaşma, aparıcı ideyalar və varislik prinsipləri təklif edilir.

ƏDƏBİYYAT

1. Adıgözəlov A.C., Əliyeva T.M. "Riyaziyyatın tədrisi prosesində fənlərarası əlaqənin tətbiqi". Bakı: 1993, "Maarif" nəşriyyatı, 96 s.
2. Əhmədov B.A., Hacıyev A.N. Pedaqogikanın qanunları və prinsipləri. Bakı: 1993, "Maarif" nəşriyyatı, 231 s.
3. Əsgərov O.H. Riyazi fizika tənliklərinin tədrisinə aid metodiki göstərişlər. Bakı:1990, s.41
4. Fətullayeva R.S. "Riyazi fizika tənlikləri fənninin tədrisində fənlərarası inteqrasiya". Naxçıvan: 2023, Elmi əsərlər. №3, s.17-19
5. İsgəndərov N.S. Mehrəliyev Y.T. Riyazi fizika tənlikləri. Bakı-2018. 181 s.
6. Quliyev C.X. Riyazi fizika tənliklərinin tədrisində digər fənlər arasında metodiki əlaqənin qurulmasına aid tövsiyyələr. Respublika Elmi-praktiki konfrans materialları. NMİ: 2022, s.72-76
7. Quliyev C.X. Riyazi fizika üsulları fənninin tədrisində tələbələrin riyazi hazırlığının təşkil olunması. NMİ - Xəbərləri: 2005, 157 s.

8. Mahmudov M.C. “Riyaziyyatın tədrisi metodikası” (Ali texniki məktəblər üçün). I hissə. Bakı: 2004, 184 s.
9. Владимиров В.С. Уравнения математической физики. Москва: 1967, «Наука»- с.546
10. Гисев В.А. Психолого-педагогическое основы обычения матиматике. М. Вербум-2003. с.442
11. Попков В.А. Теория и практика высшего профессионального образования М. Академический проспект. 2004. 432 с.
12. Doss R. On generalized almoct periodic funktions // Annods of Math. 53. 1954. 477-483 pp

İnternet resursları

6. https://www.scribd.com/
7. https://scholar.google.com/
8. https://science.gov.az/
9. http://anl.az/

SUMMARY

Asima Zakili

ESTABLISHMENT OF THE METHODOLOGICAL SYSTEM OF MATHEMATICAL PHYSICS EQUATIONS COURSE TRAINING

In the article construction of a methodological system of mathematical physics equations course training is solved in two stages:

1. Teaching mathematical physics equations as an independent subject;
2. Teaching of Applied importance as a field of Fundamental science.

As the driving force behind the development of Mathematical Physics, its methodological system is built using the concept of internal and external source with methodological astateness.

Key words*: *mathematical physics, methodology, integration

XƏZƏL HƏSƏNOVA
hxezel@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-3873-8689

$(Sb, Bi)_2Te_3$-Te EVTEKTİK ƏRİNTİLƏRİNİN ALINMASI VƏ XASSƏLƏRİ

Sb_2Te_3-Te və Bi_2Te_3-Te evtektik sistemləri üzrə əvvəlcə ikili birləşmələr, sonra isə evtektik, evtektikaya qədərki və evtektikadan sonrakı ərintilər vakuum şəraitində, kvars ampullarda sintez edilmiş, termiki emaldan sonra xassələri fiziki-kimyəvi analiz metodları ilə tədqiq olunmuş, evtektika nöqtələrinin koordinatlarında dəqiqləşmələr aparılmışdır. İstiqamətli kristallaşdırmaqla qismən istiqamətli evtektik kompozisiyalar alınmışdır.

Müəyyən edilmişdir ki, alınan evtektika təbəqəvari tiplidir, dispers faza rolunu Sb_2Te_3 və Bi_2Te_3 birləşmələri, dispers mühit rolunu isə tellur fazası oynayır. Tədqiqat nəticələri evtektikanın təbiəti, morfoloji tipləri haqqındakı nəzəri təsəvvürlərlə yaxşı uzlaşır.

Açar sözlər: *Evtektika, sintez, istiqamətli, kristallaşdırma, dispers faza, dispers mühit*

Maddələr arasındakı kimyəvi qarşılıqlı təsirin ən ümumi məhsullarından olan evtektik qarışıqlar özlərinin səciyyəvi xassələrinə görə geniş tətbiq olunurlar (1, s.6-11).

Texnologiya ilə müəyyən edilən struktur və xassələrə malik olan kompozisiyalar yaradılmasının ən perspektivli üsullarından biri evtektik tərkibə malik maye ərintilərinin istiqamətli kristallaşdırılmasıdır. Bu üsul sadə və sərfəli olduğu üçün texnikada yaxşı mənimsənilmişdir. Üsulun mahiyyəti tənzimləmə heterogen kristallaşdırılmasıdır. Bu üsul evtektik fazaların morfologiyası tisperslik dərəcəsi, oriyentasiyasını tənzimləməyin mümkünlüyü cəhətindən əhəmiyyətlidir.

Evtektik ərintilərin və evtektik kompozisiyaların (EK) metal emalı, istehsalı proseslərində, soyuducu və elektrik qurğularında kriogen texnikasında tətbiqi nəzərə alınaraq seskvitellurid - tellur sistemlərində qarşılıqlı təsir, xüsusən evtektik kristallaşma tədqiq edilmiş, ərintilərin xassələri öyrənilmişdir. Tədqiqat üçün Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemləri seçilmişdir.

Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemləri üzrə ərintilərin sintezi və tədqiqi aşağıdakı ardıcıllıqla yerinə yetirilmişdir. Əvvəlcə tədqiq olunan sistemlərin komponenti olan tellur zonalı əritmə üsulunun üfiqi variantına tətbiq etməklə tənzimlənmiş, sonra isə Sb_2Te_3 və Bi_2Te_3 kimyəvi birləşmələri (seskvitelluridlər) sintez edilmişdir. Növbəti mərhələdə kvars ampullarda vakuum şəraitində birbaşa üsullarla Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemlərinin hər biri üzrə uyğun sürətdə 600-700 və 550-650^{0}C temperaturlarda qızdırıcı sobada sintez aparılmışdır. Soyuma prosesi ağzı qapalı qabda yerinə yetirilmiş, temperaturun ölçülməsi üçün xromel-alumel termocütündən istifadə edilmişdir. Tədqiq olunan sistemlər üzrə ərintilərin tərkibi, sintez temperaturu, evtetik tərkib, evtetik temperatur cədvəldə göstərilmişdir.

Cədvəl

Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemləri üzrə ərintilərin tərkibi, sintez tempraturu və evtetikanın koordinatları

№	*Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemi*	*ərintinin tərkibi, at % Te*	*sintez tempraturu, ^{0}C*	*evtetik tərkib, at % Te*	*evtetik tempratu, ^{0}C*
1	Sb-Te	60	600-700	89 Evtetik	420
2	Sb-Te	89	600-700		
3	Sb-Te	95	600-700		
4	Sb-Te	85	600-700		
5	Bi-Te	60	550-650	90 Evtetik	400
6	Bi-Te	90	550-650		
7	Bi-Te	95	550-650		

8	Bi-Te	85	550-650		

Cədvəldən görünür ki, Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemləri üzrə sintez olunan tərkiblər elə seçilmişdir ki, Bi $^{v}{}_2Te_3$ birləşmələrindən əlavə, evtetika nöqtələrinə uyğun, evtetikaya qədərki və evtetikadan sonrakı ərintilər əhatə olunsun. Yəni hər bir sistem üzrə başlanğıc kimyəvi birləşmə daxil olmaqla 4 ərinti (cəmi 8 ərinti) sintez olunmuşdur.

Hər biri 10 q miqdarında olan ərintilər 2 yerə bölünmüş, 5 q-ı gələcək tədqiqatlar üçün saxlanmış, 5 q-ı isə fiziki-kimyəvi analiz metodları tədqiq olunmuşdur (2, s.94-100).

Fiziki-kimyəvi analiz üsulları olaraq diferensial-termiki, mikrostruktur, fazaların mikrobərkliyinin və ərintilərin piknometrik sıxlığının təyini metodları tətbiq edilmişdir ki, bütöv evtetikadan ibarət olan (evtetika nöqtəsi) nümunələrdə yalnız bir termiki effekt qalanlarında, əsasən, iki termiki effekt vardır. Evtetika nöqtəsi nümunələri çox incə dispersli struktura görə bir fazalı kimi görünür. Evtetikalarda dispers mühit rolunu tellur fazası oynayır. Tədqiqat işində təkcə ayrı ayrı fazaların yox, təmiz evtetiklardan ibarət olan iki fazalı nümunələrində də mikrobərkliyi təyin olunmuşdur (3, s.16-31).

Ərintilərin piknometrik sıxlığının təyini nəticələri göstərmişdir ki, bu parametr additivlik qanununa tabe olur, yəni Sb_2Te_3-Te və Bi_2Te_3-Te sistemləri üzrə sıxlıq başlanğıc maddələrin malik olduğu qiymətlər arasında dəyişir.

Evtektik tərkibə malik bəzi müntəzəm strukturlu ərintilərin başlanğıc maddələrə nisbətən daha yüksək termoelektrik effektivliyinə malik olması haqqında bəzi tədqiqat nəticələri məlumdur. Tədqiq olunan Sb_2Te_3 və Bi_2Te_3 birləşmələri yüksək termoelektrik effektivliyinə malik olduqları üçün nizamlı strukturlu Sb_2Te_3-Te və Bi_2Te_3-Te evtektik ərintilərində yüksək termoelektrik xassələrin saxlanma ehtimalı böyük olduğundan evtektik tərkibli Sb_2Te_3-Te və $B^{v}{}_2Te3$-Te (B^{v} -Sb, Bi) ərintilərində istiqamətli kristallaşdırma aparılmışdır. Bunun üçün hər biri 5 q olmaqla əvvəlcədən sintez edilmiş nümunələrdən istifadə edilmişdir. Qızdırıcı sobanın tempratur rejimi, ərintilərin kristallaşma sürəti seçilərək vakuum şəraitində Brijmen metodu ilə karın əzilmiş nümunələr istiqamətli kristallaşdırılmışdır. Proses nəticəsində qismən nizamlılığa malik evtektik kristallar alınmışdır. Müəyyən edilmişdir ki, qismən nizamlı struktur müxtəlif səbəblərdən (qızdırıcı sobanın tempratur rejimi, kristallaşma sürəti heterogen kristallaşma, əsas maddələrdə olan aşqarlar və s.) alına bilər. İstiqamətli strukturlu evtektik ərintilərin (evtektik kompozisiyalar - EK) lövhəvari morfoloji tipdə olduğu müəyyən edilmişdir. Tədqiq olunan nümunələrdə həm də yarımkeçirici xassələr, anizotropluq aşkara çıxarılmışdır.

ƏDƏBİYYAT

1. Babayev Y. N., Məmmədova Q. T. Evtektika və evtektik kompozisiyalar. Magistratura üçün dərslik. Bakı: 2007, Təhsil NMİ, 250 s.
2. Залкин В.М., Природа и синяков и эффект контактного илявления. М.: 1987, Металлургия, 152 с.
3. Леонов В. В. Микротвёрдость одно - и двухфазных сиявов Красноярск Изд. КГУ, 1990, 160 с.

SUMMARY

Khazal Hasanova

(Sb, Bi)$_2$ Te$_3$-Te PREPARATION AND PROPERTIES OF EUTECTIC ALLOYS

In Sb_2Te_3-Te and Bi_2Te_3-Te eutectic systems, first binary compounds, then eutectic, pre-eutectic and post-eutectic alloys were synthesized in quartz ampoules under vacuum conditions, and their properties after heat treatment were improved in the coordinates of eutectic points in physico-chemical analysis methods. Partially oriented eutectic compositions were obtained by directional crystallization.

It was determined that the obtained eutectic is of layered type, the role of the dispersed phase is played by Sb_2Te_3 and Bi_2Te_3 compounds, and the role of the dispersed medium is played by the tellurium phase. The research results fully coincide with the theoretical ideas about the nature and morphological types of eutectic.

Key words: *Eutectic, synthesis, directional, crystallization, dispersed phase, dispersed medium*

SƏKİNƏ ƏSGƏROVA
sgrovaskin@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-6282-0367

FİZİKA QANUNLARININ MƏNİMSƏDİLMƏSİNDƏ MƏNTİQİ TƏFƏKKÜRÜN VƏ QAVRAMANIN ÜZVİ ƏLAQƏSİNƏ DAİR

Tam orta məktəbdə fizika kursunda təlimin forma, metod və üsullarının təkmilləşdirilməsi öz aktuallığını qoruyur. Hər bir elmin özünəməxsus tədqiqat obyekti və metodları vardır. Müasir texnologiyalardan istifadə ölkəmizdə şəxsiyyətin formalaşması, azərbaycançılıq irsinə hərtərəfli yiyələnmiş gənclərin yetişdirilməsi vəzifəsini daha sürətlə yerinə yetirməyi tələb edir. Bir elmin məzmunu təklikdə kainatın bütün hadisələrini əhatə edə bilməz, onun bütöv mənzərəsini verə bilməz və tam təsəvvür yarada bilməz. Şagirdlərdə elmi dünyagörüşü əsasları məktəb fənlərinin tədrisi prosesində aşılanır. Belə fənlərdən biri də fizikadır. Konkret tədris materialını izah edərkən müəllim kainatın maddiliyini, hadisələr arasındakı səbəb-nəticə əlaqəsini, təbiət qanunlarının obyektivliyi və dərkedilmə imkanını, fiziki hadisələrin praktik tətbiqini açıq göstərir. Hadisələr arasındakı səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi, dialektik-materializm dünyagörüşü təşəkkülü üçün fizika nəzəriyyələrinin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir.

Açar sözlər: *metod, enerji, qüvvə, fiziki hadisə, fiziki kəmiyyət*

Tam orta məktəblərdə təlimin məzmununun forma, vasitə və metodlarının təkmilləşdirilməsi heç vaxt indiki qədər aktuallıq kəsb etməmişdir. Müasir texnologiyalardan istifadə ölkəmizdə şəxsiyyətin formalaşması, azərbaycançılıq irsinə hərtərəfli yiyələnmiş gənclərin yetişdirilməsi vəzifəsini daha sürətlə yerinə yetirməyi tələb edir.

Təbiət və cəmiyyət haqqında hər bir elmin özünəməxsus tədqiqat obyekti və metodları vardır. Ayrılıqda götürülən hər bir təbiət, yaxud cəmiyyət hadisələrinin müəyyən sahəsini öyrənir və bu hadisələr dairəsi həmin elmin mövzusunu təşkil edir.

Bir elmin məzmunu təklikdə kainatın bütün hadisələrini əhatə edə bilməz, onun bütöv mənzərəsini verə bilməz və tam təsəvvür yarada bilməz; deməli, dünyagörüşü yaratmaq tək bir elmin işi deyil. Elmi dünyagörüşü bizi əhatə edən aləm haqqında bütün elmi bilikləri ümumiləşdirmək əsasında yarana bilər. Şagirdlərdə elmi dünyagörüşü əsasları məktəb fənlərinin tədrisi prosesində aşılanır. Belə fənlərdən biri də fizikadır.

Fizika tədrisinin vəzifəsi fiziki hadisələrin, anlayışların və qanunların öyrədilməsinin dialekt materializm baxımından əsaslandırmaqdan fiziki hadisə və proseslərin qanunauyğunluqlarını açıb göstərməkdan ibarətdir.

Şagirdlərə dialektik materializm dünyagörüşü fiziki hadisələrin, anlayışların və qanunların öyrənilməsi ilə üzvi surətdə bağlı şəkildə aşılanmalıdır.

Konkret tədris materialını izah edərkən müəllim kainatın maddiliyini, hadisələr arasındakı səbəb-nəticə əlaqəsini, təbiət qanunlarının obyektivliyi və dərkedilmə imkanını, fiziki hadisələrin praktik tətbiqini açıq göstərir.

Fizikanın tədrisi prosesində şagirdlərin dialektik materializm dünyagörüşünün aşılanması fizika təliminin birinci pilləsində başlanmalı və yuxarı siniflərdə inkişaf etdirilməlidir.

Fizika kursunda mövcud bir sıra anlayış və qanunların düzgün və dərindən mənimsənilməsinin dialektik-materializm dünyagörüşü üçün xüsusi əhəmiyyəti vardır.

Bu anlayışlara misal olaraq qüvvə, kütlə, enerji, iş və s. göstərmək olar. İlk dəfə bu anlayışları verərkən, onların düzgün materialistcəsinə izahına fikir vermək lazımdır. Sonralar çətin anlayışları

konkretləşdirilməli və tədricən inkişaf etdirilməlidir, çünki saxlanma qanunlarından ən vacib olan enerji çevrilməsi və itməməsi qanunu bunsuz dərk edilə bilməz.

Qüvvə anlayışı üzərində müfəssəl dayanaq. VI sinif şagirdlərində qüvvə haqqında ilkin, həm də düzgün təsəvvür yaradılmalıdır. Müxtəlif qüvvələrin təzahürünə aid konkret misallar əsasında şagirdlərə izah edilməlidir ki, qüvvənin təsiri dedikdə həmişə heç olmazsa iki cismin təsirdə olması başa düşülür və təbiətdə cisimsiz (materiyasız) qüvvə mövcud deyil.

Şagirdlərin, onlar üçün yeni olan anlayış ilə ilk tanışlığını həyat təcrübələri, xüsusən emalat materialın isgənə ilə çəkicin, yeye ilə detalın və s. qarşılıqı təsviri nəticəsində qüvvənin əmələ gəlməsi faktları şagirdlərə məlumdur.

Hadisələr arasındakı səbəb-nəticə əlaqələrinin müəyyən edilməsi, dialektik-materializm dünyagörüşü təşəkkülü üçün fizika nəzəriyyələrinin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Ona görə də şagirdləri onların inkişaf səbəbiyyətlərinə uyğun olaraq müasir fizika nəzəriyyələrinin əsas müddəaları ilə tanış etmək vacibdir. Fizika nəzəriyyələrinin öyrənilməsi şagirdləri aşağıdakı nəticəyə gətirib çıxarır.

Hadisə və proseslərin çoxşəkilli olması yalnız materiyanın və hərəkəti bir formadan başqa formaya çevrilməsi nəticəsidir. Məhz təbiətdəki bütün cisim və hissəciklərin, bütün hadisə və proseslərin maddiliyi olar. Arasındakı əlaqələr onların vəhdətini müəyyən etməyə imkan verir.

Məktəb fizika kursunda tədris edilən fundamental qanunlara həsr edilmiş elmi-metodiki ədəbiyyatların araşdırılması göstərir ki, qanunları şagirdlərə birbaşa öyrətmək mümkün olmur. Bunun üçün əvvəlcədən aşağıda qeyd olunan hazırlıq işləri aparmaq lazım gəlir:

a) qanunun əhatə etdiyi fiziki hadisələr, bu hadisələrin hər birinə məxsus keyfiyyət xüsusiyyətlərinin göstəricisi olan fiziki kəmiyyətlər və onlar arasındakı qarşılıqlı asılılıq şagirdlərə mükəmməl öyrədilməlidir;

b) şagirdlər qanunda əks olunan fiziki anlayışlarla cisim və hadisələrin əsas xassələri ilə onlar arasındakı zəruri əlaqə və münasibətlər barədə biliklərə sahib olmalıdırlar. Təbiətdəki qanunauyğunluğun varlığını və mahiyyətini dərk etməlidirlər.

Fizikada saxlanma qanunları çoxdur. Onlardan impulsun, impuls momentinin, kütlənin, enerjinin, elektrik yükünün, fırlanma momentinin və s. saxlanmasını göstərmək olar.

Tam mexaniki enerjinin saxlanması qanunu fundamental qanunlardan olduğunu və tez-tez təzahür etdiyindən onun üzərində bir qədər geniş dayanaq. Bu qanun emprik (təcrübü) qanun olsa da analitik şəkildə kinetik və potensial enerji haqqında teoremlərə əsasən isbat edilir.Bu qanun zamanın birinciliyininə, fəzanın izotropluğuna əsaslanır.

Fizika tədrisinin birinci pilləsində (VI-VIII) siniflərdə ilkin anlayışlar verildiyindən, həmçinin şagirdlərin riyazi hazırlığı da yüksək olmadığından saxlanma qanunları nümayişlər və təcrübələrlə izah edilir. Məsələn, VII siniflərdə hidrostatikanin qanunları, sadə mexanizmlərdə işlərin bərabərliyi qanunu, VIII sinifdə termodinamikanın qanunları və s.

Çoxsaylı təcrübələrdən və araşdırmalardan aydın olub ki, sadə mexanizmlərdə qüvvədə qazanc olsa da işdə qazanc yoxdur. Heç bir sadə mexanizm işdə qazanc vermir. Bu müddəa enerjinin saxlanması qanunundan çıxır və mexanikanın “qızıl qaydası” adlanır (1, s.112).

Fizika qanunlarının xarakteri elədir ki, onlar yalnız obyektiv varlıqlardan doğur. Materiyanın və onun hərəkətinin sürətini, dəyişmələrin qanunauyğunluqlarını, kəmiyyət və keyfiyyət xüsusiyyətlərini əks etdirir. Başqa sözlə, fizika qanunları mövcud obyektiv həqiqətləri bəşəriyyətə təqdim edir. Bu qanunların mənbəyi (materiya və onun hərəkəti) maddi varlıqdır. Onun mahiyyəti, məzmunca həmin maddi varlığın daxili aləmidir, materiya və hərəkətin sirrləridir. Həmin sözlər ya təxmini, yaxud da olduğu kimi əks edilə bilər. Bu, konkret dövrdə elmin, texnikanın, insanın dərketmə qabiliyyətinin mövcud səviyyəsi ilə bağlıdır. Bu gün təxmini əks olunan reallıq tədricən dəqiqləşdirilir və həqiqətə yaxınlaşdırılır. Nisbətən dumanlı şəkildə aşkara çıxarılan həqiqət sonradan “duruldur”, “saflaşdırır”. İstənilən fizika qanununun mənşəyini araşdırsaq, bu xüsusiyyəti aydınca görə bilərik.

Deməli, yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlirik ki, fizika qanunları, fəlsəfi materializmin əsas cəhətlərinə tamamilə uyğundur. Qanunların öyrənilməsi prosesində həmin uyğunluğa əsaslanmaq, bu cəhətlərə istinad etmək təkcə öyrədilən materialın şüurlu mənimsənilməsinə deyil, eyni zamanda şagirdlərin əqidəsinin formalaşmasına imkan verər.

Beləliklə, fizika təbiət elmi olduğundan məntiqi təfəkkürün mühüm aparatı olan analiz ve sintez üsulundan tədrisin bütün pillələrində istifadə edilməlidir.

ƏDƏBİYYAT

1. Murquzov M.İ., Abdurazaqov R.R., Əliyev R.M., Əliyeva D.Z. Fizika 7. "Bakınəşr", Bakı: 2021
2. Vahidov.T və Vahabov.İ.İ Orta məktəbdə fizikanın tədrisinin metodoloji əsasları. "Təhsil", Bakı: 2009
3. С.Е.Каменоского., Л.А.Ивановой. Методика преподованияфизики в средней школе. Под редакцией, Москва: 1987, "Просвещение"

SUMMARY

Sakina Asgarova

ON THE RELATIONSHIP OF LOGICAL THINKING AND PERCEPTION IN UNDERSTANDING THE LAWS OF PHYSICS

Improving the form, methods and methods of teaching in the physics course in the upper secondary school maintains its relevance. Each science has its own research object and methods. The use of modern technologies requires the formation of personality in our country and the faster fulfillment of the task of educating young people who have thoroughly mastered the Azerbaijani heritage. The content of a single science cannot cover all the phenomena of the universe, cannot give a complete picture of it and cannot create a complete picture. The fundamentals of scientific outlook are inculcated in students in the process of teaching school subjects. One such subject is physics. When explaining the concrete teaching material, the teacher clearly shows the materiality of the universe, the cause-and-effect relationship between events, the objectivity and understanding of the laws of nature, and the practical application of physical phenomena. The study of physics theories is of special importance for determining cause-effect relationships between events, for the formation of dialectical-materialism worldview.

Key words: *method, energy, force, phycisal event, phycisal quantity*

ZƏRNİŞAN İSAYEVA
zərnişanisayeva94@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 009-0004-6209-0635

RİYAZİ TƏFƏKKÜRÜN İNKİŞAFINDA DƏRSDƏNKƏNAR MƏŞĞƏLƏLƏRİN ROLU

Psixologiya və pedaqogikanın əsas vəzifələrindən biri də şagird təfəkkürünü inkişaf etdirmək, üzə çıxarmaq və onların əsasında təlimi daha səmərəli və yaradıcı etməkdir. Qeyd edək ki, məntiqi təfəkkürünün inkişafı istiqamətində aparılan mövcud işlər kifayət etmir. Bu ona gətirib çıxarır ki, məntiqi təfəkkürün inkişafı, əsasən, kortəbii şəkildə baş verir, ona görə də şagirdlərin əksəriyyəti ilkin təfəkkür üsullarını mənimsəmirlər. Bu halda isə zəruri bilikləri tam mənimsəmək mümkün deyil.

Buna görə də biz məktəblilərin məntiqi təfəkkürünün inkişaf etdirilməsini təxirəsalınmaz vəzifə hesab edirik. Bununla əlaqədar olaraq, biz "Riyazi təfəkkürün inkişafında dərsdənkənar məşğələlərin rolu" adlı kiçik araşdırmanı etməyi qərara aldıq.

***Açar sözlər**: motivasiya, fəaliyyət, idrak fəallığı, təfəkkür, riyaziyyat*

Riyaziyyatın tədrisi şagirdlərdə məntiqi təfəkkür, yaddaş, diqqət, təxəyyül, müşahidə, iradə, müstəqil və yaradıcı təşəbbüskarlıq inkişaf etdirdiyindən ona ibtidai siniflərdən mükəmməl şəkildə yiyələnmək zəruri hesab olunur.

Şagirdlərin şəxsiyyət kimi formalaşması, həmçinin dünya təhsil sisteminin standartlarına cavab vermək üçün riyaziyyat fənninin rolu olduqca böyükdür. Riyazi məsələlərin, misalların, məntiqi məsələlərin həlli onlara sadəcə bu tapşırıqların həll alqoritmlərini deyil, eyni zamanda dürüstlük, dözümlülük, səbr, əlverişli variant seçmək bacarığı, bir-birini dinləmə mədəniyyəti, təqdimetmə bacarığı aşılayır. Bu fənnin tədrisi ilə məşğul olan müəllim bilməlidir ki, riyaziyyat fənni sadəcə şagirdə bilik verən, qəbul imtahanlarında yüksək bal toplamağa kömək edən proses deyil ,xüsusilə cəmiyyətdə düzgün davranmağı bacaran insanlar, qarşılaşdığı problemlərin vaxtında və müsbət həllinə nail olan insanlar yetişdirməkdir (Seyidova A.M. 2020, 63 s.).

Müasir cəmiyyətin riyazi biliyə malik mütəxəssislərə böyük ehtiyacı olduğu üçün şagirdlərdə riyazi biliklərə marağı artırmaq lazımdır. Sinif otaqlarında bu imkan məhduddur. Hər bir dərsin əsas təhsil məqsədi olduğunu nəzərə alsaq, belə nəticəyə gəlirik ki, konkret bir elm kimi riyaziyyata marağı artırmaq üçün əlavə məşğələlərə və sinifdənkənar işlərə böyük ehtiyac var.

Riyaziyyatdan sinifdənkənar iş və ya məşq onu tədris prosesinin tərkib hissəsi kimi tamamlayır, inkişaf etdirir və dərinləşdirir. Buna görə də hər bir sinif üçün sinifdənkənar işlərin məzmunu bu sinif üzrə riyaziyyat proqramı əsasında müəyyən edilir və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olmalıdır.

Riyaziyyat fənni üzrə sinifdənkənar fəaliyyətlər (məşqlər) daha bacarıqlı və istedadlı şagirdləri üzə çıxarmağa, şagirdlərdə riyaziyyata maraq və həvəsin formalaşmasına xidmət edir.

Riyaziyyatdan dərsdənkənar məşğələlər zamanı şagirdlərdə əməyə sevgi, iradə və mütəşəkkillik kimi keyfiyyətlər də formalaşır.

Sinifdə öyrənmə sinifdənkənar təlimdən aşağıdakı cəhətlərə görə fərqlənir:

1. Dərs proqram əsasında keçirilir və bütün tələbələr üçün məcburidir. Sinifdənkənar işlərdə müəllim özü material seçir və proqramdan kənara çıxa bilər;
2. Sinifdənkənar fəaliyyət şagirdlərin könüllülüyünə, fəallığına və təşəbbüskarlığına əsaslanır;
3. Sinifdənkənar işlərdə müəllim şagirdlərin fərdi bacarıqlarını nəzərə alaraq ən incə prinsipləri tətbiq edir. Bu zaman müəllim təkcə göstəriş vermir, həm də şagirdlərin fəaliyyətinə istiqamət verir, onları müstəqil işə alışdırır, marağını istiqamətləndirir.

Dərsin mənimsənilməsində və keyfiyyətinin yüksəldilməsində, ibtidai sinif şagirdləri arasında əməkdaşlığın möhkəmləndirilməsində, şagirdlərin elmə və məntiqi təfəkkürə marağının

artırılmasında, bacarıqlarının üzə çıxarılmasında və inkişaf etdirilməsində sinifdənkənar məşğələlərin xüsusi rolu vardır.

1. Riyazi ekskursiyalar.

Belə ekskursiyalarda şagirdlər müəyyən obyektlər üzərində ölçmə və hesablama ilə bağlı işləri yerinə yetirir və nəticələri öz dəftərlərinə qeyd edirlər. Qeyd edək ki, aparılan müşahidələrə əsasən, belə dərs formaları şagirdlər tərəfindən daha maraqla qarşılanır və bu dərsdə əldə edilən biliklər daha yadda qalan olur.

2. Riyaziyyat klubları.

Müəllim assosiasiya təşkil edərkən şagirdlərin məsələnin həlli, hesablama texnikası, ölçü işləri, əyani vəsaitlərin hazırlanması və s.məsələlərdəki marağı nəzərə alınmalıdır.

3. Riyaziyyat olimpiadaları.

Şagirdlərin riyazi hazırlıq səviyyəsinin yüksəldilməsində, onların riyaziyyatın müstəqil öyrənilməsinə cəlb olunmasında müxtəlif səviyyəli riyaziyyat olimpiadaları xüsusi əhəmiyyət kəsb edir (Ağayev Ə.Ə. 2006, 65 s.).

Riyaziyyat olimpiadaları, adətən problem və misalların həllinə, sürətli və səhvsiz hesablamalara həsr olunur. Riyaziyyat olimpiadaları 3 mərhələdə keçirilir. Bu üslubda olimpiadalar ibtidai məktəbin III-IV siniflərindən başlayaraq təşkil oluna bilər.

4. Riyazi yarışlar və viktorinalar.

Bu cür tədbirlər asanlıqla təşkil oluna bilən riyaziyyat yarışları hesab edilir. Onların məzmununa nəzəri suallar, məntiqi suallar, əyləncəli məsələlər daxil ola bilər. Riyazi yarışlar və viktorinalar tələbələrə fikirlərini sərbəst ifadə etmək imkanı verir. Seçilən oyunlar və əyləncəli çalışmalar dərsliklərdəki materiallara uyğun olmalıdır (Əliyev İ.B. 2007, 6 s.).

5. Komanda yarışları.

Əsas kursun paralel sinifləri arasında və ya sinif daxilində keçirilən belə yarışlarda hər komandada 8-10 nəfər iştirak edə bilər. Hər komandaya müəyyən vaxt ərzində (məsələn, 30 dəqiqə) bir neçə problem və misal verilir. Vaxt bitdikdən sonra iş müəllimə təqdim olunur. Tapşırıqlar yoxlanıldıqdan sonra qalib müəyyən edilir.

6. Riyazi qəzetlər və bülletenlər.

Bu qəzet və bülletenlərdə riyaziyyat sahəsində baş verən maraqlı hadisələr, məktəblilərin, o cümlədən ibtidai sinif şagirdlərinin nailiyyətləri, riyazi yeniliklər barədə məlumatlar yer alır. Fikirlərini müstəqil ifadə etmək üçün burada şagirdlərin nailiyyətlər haqqında və onların topladıqları məlumatları vurğulaya bilərsiniz.

7. Riyaziyyat guşəsi.

İbtidai sinif müəllimi həmişə öz sinfində fəal şagirdlərin gücündən səmərəli istifadə etməlidir. Onlar əyani vəsaitlərin hazırlanmasında fəal iştirak edirlər. Riyaziyyat guşəsində tələbələrin hazırladıqları əl işləri və müxtəlif fiqurlar yer aldıqda həmin şagird daha da həvəslənir. Digər şagirdlər də buna həvəslənir və bunu təqlid edirlər.

Ümumiyyətlə, riyaziyyatdan sinifdənkənar işlər şagirdlərin riyazi biliklərinin genişləndirilməsinə və dərinləşməsinə xidmət edir. Dərsdənkənar fəaliyyətlər üçün, əsasən, istifadə edilən tədris vəsaitləri bunlardır: dərsliklər, kitablar və məşq dəftərləri (Abbasov A.N və Əlizadə H.Ə. 2000, 103 s.).

Riyaziyyatın insanın əqli qabiliyyətlərinin inkişafına müsbət təsiri effektiv, yığcam və birmənalı ünsiyyət imkanları yarada bilər. Riyaziyyatın köməyi ilə mürəkkəb problemi primitiv şəkildə təmsil etmək, hadisələri aydınlaşdırmaq və nəticələrini əvvəlcədən hesablamaq olar. Riyaziyyatın mücərrəd sistemlərindən və nəzəri modellərindən qanunauyğunluqların öyrənilməsində, vəziyyətin ətraflı və hərtərəfli təhlilində, məsələlərin həllində xüsusilə geniş istifadə olunur.

Məsələnin həlli zamanı onun mahiyyətinə və məqsədinə uyğun gələn riyazi hissəsini seçmək, əgər o yoxdursa, onu geniş şəkildə inkişaf etdirmək çox vacibdir.

Öyrənilən prosesin və ya obyektin düzgün və düşünülmüş modelini yaratmaq, yaranan modeldən istifadə etməklə lazımi nəticələri almaq və sonra onları şərh etmək lazımdır.

İbtidai siniflərdə riyaziyyat təhsili şagirdlərin təhsili və inkişafı ilə sıx və interaktiv şəkildə əlaqələndirilməlidir. Riyaziyyat məktəblilərin müşahidə təfəkkür qabiliyyətlərinin inkişafına kömək edir, onların fikirlərini qısa, konkret, dəqiq, aydın və düzgün ifadə etmək bacarıqlarını artırır, məntiqi təfəkkürünün inkişafı üçün möhkəm zəmin yaradır. Riyaziyyat təhsilinin təkmilləşdirilməsi və şagirdlərin məntiqi təfəkkürünün inkişafı müəllimin dərsə hazırlıq səviyyəsindən çox asılıdır. Başqa sözlə, riyaziyyatın tədrisi zamanı diqqətin həm praktiki, həm də elmi məsələlərin həllinə yönəldilməsi şagirdlərin motivasiyasını artırır və riyaziyyata daha çox maraq yaradır (Abdullayev B.A və Zülfüqarov Ş.V. 2005, 135 s.).

ƏDƏBİYYAT

1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı: 2000, Renesans, 202 s.
2. Abdullayev B.A., Zülfüqarov Ş.V. Didaktika. Bakı: 2005, ADPU-nun mətbəəsi, 230 s.
3. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: 2006, Adiloğlu, s.138
4. Bağırov Ə.N. Azərbaycan məktəbi: reallıq və yeniləşmə imkanları. Bakı: 2008, ADPU-nun mətbəəsi, 264 s.
5. Əliyev İ.B. Riyaziyyat təlimində didaktik oyunların təşkilin, əyləncəli və məntiqi çalışmaların həlli metodikası. Naxçıvan: 2007, 87 s.
6. Seyidova A.M. V-VI siniflərdə riyaziyyat təlimi prosesinin modernləşdirilməsi işinin pedaqoji - psixoloji əsasları \\ Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri metodik jurnal, Bakı: 2020, Elm Təhsil Mərkəzi, 62-73 s.

SUMMARY

Zarnishan Isayeva

THE ROLE OF EXTRA-CURRICULAR ACTIVITIES IN THE DEVELOPMENT OF MATHEMATICAL THINKING

One of the main tasks of psychology and pedagogy is to develop and reveal the student′s thinking and make training more efficient and creative based on them. Let′s note that the current work on the development of the logical thinking is not enough. This leads to the fact that the direction of development of logical thinking occurs mainly spontaneously, therefore most students do not master the primary ways of thinking.In this case, it is impossible to fully master the necessary knowledge.

Therefore, we consider the development of logical thinking of schoolchildren as an urgent task. In this regard, we decided to conduct a small study called “The role of extracurricular activities in the development of mathematical thinking”

***Key words**: motivation, activity, cognitive activity, thinking, mathematics*

MELİHAN HÜSEYNZADƏ
melihanibrahimova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-4900-4971

EKSPERT SİSTEMLƏRİ. BİLİKLƏRİN TƏMSİL EDİLMƏSİ METODLARI

Təqdim olunan məqalədə ekspert sistemlərinin əsas anlayışları, ekspert sistemlərinin təsnifatı və onların strukturu verilmişdir. Bundan əlavə bilik əldə etmək və artırmaq üçün alt sistemlərin ekspert istifadəçi tərəfindən biliklərlə doldurulması və sistemin bilik bazasının onun işləmə şərtlərinə uyğunlaşdırılması prosesinin avtomatlaşdırılması məsələləri araşdırılmışdır.

İstənilən sahədə mütəxəssisin malik olduğu biliklər rəsmiləşdirilə bilən, zəif rəsmiləşdirilən və qeyri-formallaşdırıla bilənlərə bölünə bilər. Formallaşdırılmış biliklər riyaziyyat, fizika, kimya, astronomiya kimi dəqiq elmlər üçün xarakterikdir. Adətən təsviri adlanan elmlər zəif rəsmiləşdirilmiş biliklərlə fəaliyyət göstərir. Belə elmlərə, məsələn, zoologiya, botanika, ekologiya, pedaqogika, tibb və s. aiddir.

Zəif rəsmiləşdirilmiş biliklərlə bağlı tapşırıqlar sinfi biliklərin asanlıqla rəsmiləşdirilə biləcəyi tapşırıqlar sinfindən xeyli genişdir. Bu, biliklərin rəsmiləşdirilməsinin çətin olduğu mövzu sahələrində kompüter texnologiyalarından istifadə etməyə imkan verən ekspert sistemlərinin xüsusi populyarlığını və geniş praktik istifadəsini izah edir.

Qeyri-səlis ekspert sistemlərinin əsas konsepsiyaları nəzərdən keçirilir, onların əsasında qeyri-səlis ekspert sisteminin qaydalar bazasında həll yolunun axtarışının sürətləndirilməsi probleminin formalaşdırılması təklif olunur. Qeyri-səlis məntiqi nəticə çıxarmanın mərhələləri nəzərdən keçirilir.

Açar sözlər: *bilik, baza, sistem, yaddaş, verilən, ekspert, üsul*

Giriş

Hal-hazırda ekspert sistemləri (ES) müxtəlif problem sahələrinin müxtəlif növlərini (şərh, proqnozlaşdırma, diaqnostika, planlaşdırma, dizayn, nəzarət, sazlama, təlimat, idarəetmə) həlletmək üçün istifadə olunan əsas vasitəyə çevrilmişdir. Ekspert sistemlərinin işləməsi bilik modelinə əsaslanır. Tədqiqat obyektinin vəziyyətini və davranışını təsvir edən bir sıra prinsipləri ehtiva edir. Ekspert sistemləri üçün ən çox istifadə edilən bilik modeli sadəliyinə, emal asanlığına və son istifadəçi üçün başa düşülməsinə görə produksion (biliyi "əgər (şərt), onda (hərəkət)" kimi cümlələr şəklində təqdim etməyə imkan verən qaydaya əsaslanan bir modeldir) modelidir.

Lakin son zamanlar qeyri-səlis ekspert sistemləri geniş yayılıb. Bu tip ekspert sistemləri öyrənilən obyektin vəziyyətini və davranışını təsvir etmək üçün linqvistik dəyişənlərdən və qeyri-səlis əlaqələrdən istifadə edən qaydalar toplusuna əsaslanır. Bu formada təqdim olunan qaydalar təbii dilə ən yaxındır, ona görə də qaydaları yaratmaq və redaktə etmək üçün ayrıca bilik mühəndisindən istifadə etməyə ehtiyac yoxdur. Əksər hallarda onları praktiki olaraq heç bir xüsusi təlim keçmədən ekspertin özü redaktə edə bilər (Рассел, С., Норвиг, П., 2006).

Belə qeyri-səlis ekspert sistemlərinin qaydalarının sayının və miqyasının artması ilə əlaqədar olaraq, bu sistemlərdə həll yollarının axtarışını sürətləndirmək üçün müxtəlif üsullar, habelə sistemlərin bilik modellərinin belə metodlardan istifadə etmək üçün uyğunlaşdırılması vəzifəsi qarşıya çıxır (Джексон, П. 2001).

Biliyə əsaslanan sistemlər üçün xarakterik olan ən mühüm problemlərdən biri biliyin təqdim edilməsi problemidir. Bu onunla izah olunur ki, biliyin təmsil forması sistemin xüsusiyyətlərinə və xassələrinə əhəmiyyətli təsir göstərir. Kompüterdən istifadə edərək real dünyadan hər cür biliyi manipulyasiya etmək üçün onu simulyasiya etmək lazımdır. Belə hallarda kompüter tərəfindən emal üçün nəzərdə tutulan biliyi insanın istifadə etdiyi biliklərdən fərqləndirmək lazımdır. Bundan əlavə, böyük həcmdə bilik olduqda, ayrı-ayrı bilik elementlərinin ardıcıl idarə edilməsinin sadələşdirilməsi lazım gəlir.

Biliyin təmsili modelini tərtib edərkən təmsilin vahidliyi və başa düşülmə asanlığı kimi amillər nəzərə alınmalıdır. Eyni cür təqdimat biliklərin idarə edilməsinin sadələşdirilməsinə gətirib çıxarır. Biliyin təqdimatı ekspertlər və sistemin istifadəçiləri üçün başa düşülən olmalıdır. Əks halda, bilik əldə etmək və onu qiymətləndirmək çətinləşir.

Material və metodlar

Mövzu predmeti ekspert sistemlərində həllərin tapılması üsullarıdır. Ekspert sistemlərində həll yollarının axtarışını sürətləndirmək üsulları və həll yollarının axtarışını sürətləndirməyə yönəlmiş bilik bazalarının modifikasiya edilməsi üsullarıdır.

Məqsəd ekspert sistemləri üçün həllərin axtarışını sürətləndirmə metodları, proqram təminatının tədqiqi və inkişafıdır.

Müzakirə

Süni intellekt bir elm kimi bir neçə əsas sahədən ibarətdir. Süni intellektin əsas sahələrindən biri ekspert sistemlərinin inkişafıdır.

Ekspert sistemləri müəyyən bir mövzu sahəsində ekspertlərin qərarlarına oxşar qərarlar qəbul edə bilən kompüter sistemlərinin yaradılması üçün süni intellekt sahəsində tədqiqat istiqamətidir. Mütəxəssis biliyi problemin nəzəri qavrayışının və onun həlli üzrə praktiki bacarıqların məcmusudur, effektivliyi sahə üzrə mütəxəssislərin praktiki fəaliyyəti nəticəsində sübuta yetirilmişdir. İstənilən növ ekspert sisteminin əsasını mütəxəssislərin ekspert bilikləri əsasında tərtib edilən bilik bazası təşkil edir.

Yüksək səviyyəli ekspertin biliklərinin uğurla rəsmiləşdirilməsi ekspert sisteminə unikal və qiymətli biliklər bəxş etməyə imkan verir (Джонс, M.T. 2004).

Artıq bu günə qədər çoxlu sayda ekspert sistemləri yaradılmışdır. Onların köməyi ilə müxtəlif mövzularda geniş spektrli problemlər həll edilir. Bir qayda olaraq, bu sahələr yaxşı öyrənilmiş və az-çox aydın qərar qəbuletmə strategiyalarına malikdir (Вагин, В.Н., Еремеев, А.П. 2001).

İstifadəçi faktları və ya digər məlumatları ekspert sisteminə təqdim edir və nəticədə ekspert məsləhəti və ya ekspert bilikləri alır. Öz strukturuna görə ekspert sistemi iki əsas komponentə bölünür - bilik bazası və məntiqi nəticə çıxarma mexanizmi. Bilik bazası məlumatlardan ibarətdir ki, onun əsasında nəticə çıxarma mexanizmi nəticələr yaradır. Bu nəticələr ekspert sisteminin ekspert bilikləri istəyən istifadəçinin sorğularına verdiyi cavabları əks etdirir.

Ekspert sistemlərin təsnifatı

Ekspert sistemləri ən çox məqsədi, mövzu sahəsi, biliklərin təqdim edilməsi üsulları, dinamikliyi və mürəkkəbliyi ilə fərqlənir.

Məqsədlərinə görə ekspert sistemləri aşağıdakı kimi təsnif edilə bilər:

6. sistemlərin vəziyyətinin diaqnostikası, o cümlədən monitorinq (cari vəziyyətin davamlı monitorinqi);
7. keçmişin və indinin modelləşdirilməsinə əsaslanan sistemlərin inkişafının proqnozlaşdırılması;
8. təşkilati və texnoloji idarəetmədə fəaliyyətlərin planlaşdırılması və inkişafı;
9. tələblərə cavab verən obyektlərin layihələndirilməsi üçün təlimatların işlənib hazırlanması;
10. avtomatik idarəetmə (tənzimləmə);
11. istifadəçi təlimi və s.

Ən çox ekspert sistemləri aşağıdakı sahələrdə istifadə olunur: hərbi işlər, geologiya, mühəndislik, informatika, kosmik texnologiya, riyaziyyat, tibb, meteorologiya, sənaye, kənd təsərrüfatı, proseslərə nəzarət, fizika, filologiya, kimya, elektronika, hüquq.

Ekspert sistemlərin strukturu

Aşağıdakı şəkildə dinamik tipli ekspert sisteminin kanonik strukturu göstərilir. Dinamik ekspert sisteminə aşağıdakılar daxildir:

- interpretator (tərcüməçi) və ya həlledici adlanan məntiqi nəticə mexanizmini həyata keçirən blok;
- iş yaddaşı (İY), həmçinin işçi verilənlər bazası (İVB) adlanır;
- bilik bazası (BB);
- biliklərin əldə edilməsi və tamamlanması üçün alt sistem;

- izahat alt sistemi;
- dialoq alt sistemi.

Məntiqi nəticə mexanizmi (MNM) iş yaddaşından ilkin verilənlərlə bilik bazasından biliyin müqayisəsi əsasında yeni faktlar əldə etmək üçün nəzərdə tutulmuşdur (Джексон, П. 2001). Məntiqi nəticə mexanizmi ekspert sisteminin bütün strukturunda ən mühüm yeri tutur. İrəli və/və ya tərs nəticə alqoritmlərini həyata keçirir və rəsmi olaraq dördlüklə təmsil oluna bilər: (V, S, K, W)

- ✓ V – biliklər bazasından və işçi yaddaşdan qayda və faktların seçilməsi proseduru;
- ✓ S – qayda və faktların müqayisəsi proseduru, bunun nəticəsində qaydalara faktlar daxil edilir və mümkün qaydalar toplusu müəyyən edilir;
- ✓ K – əgər qaydanın nəticəsində müxtəlif mənalı eyni fakt adları varsa, qaydaların istifadəsini müəyyən edən münaqişənin həlli proseduru;
- ✓ W – alınan fakt dəyərinə uyğun hərəkətləri yerinə yetirən prosedur (qaydanın nəticəsi).

İşçi yaddaş hazırda həll olunan tapşırığın ilkin və aralıq faktlarını saxlamaq üçün nəzərdə tutulmuşdur. Bir qayda olaraq, o, kompüterin əməliyyat yaddaşında yerləşir və predmet sahəsinin cari vəziyyətini bu faktların doğruluğuna əminlik əmsalları (ƏƏ) ilə faktlar şəklində əks etdirir.

Ekspert sisteminin strukturunda növbəti element məntiqi nəticə mexanizmindən heç də az əhəmiyyət kəsb etmir. Bu bilik bazasıdır. Bilik bazası nəzərdən keçirilən domeni təsvir edən uzunmüddətli faktları, bu faktlar arasındakı əlaqələri təsvir edən qaydaları və domen haqqında digər deklarativ bilik növlərini saxlamaq üçün nəzərdə tutulmuşdur. Bilik bazasının deklarativ hissəsini təşkil edən qayda və faktlarla yanaşı, o, prosessual hissəni - optimallaşdırma, hesablama və digər tələb olunan alqoritmləri həyata keçirən bir çox funksiya və prosedurları özündə birləşdirə bilər (Гаврилова, Т.А., Хорошевский, В.Ф. 2001).

Bilik əldə etmək və artırmaq üçün alt sistem ekspert istifadəçi tərəfindən həyata keçirilən ekspert sisteminin biliklərlə doldurulması və sistemin bilik bazasının onun işləmə şərtlərinə uyğunlaşdırılması prosesini avtomatlaşdırır. Ekspert sisteminin predmet sahəsindəki dəyişikliklərə uyğunlaşdırılması biliklər bazasında qaydaların və ya faktların dəyişdirilməsi ilə həyata keçirilir.

İzahat alt sistemi sistemin problemin həllini necə əldə etdiyini (və ya niyə həllini əldə etmədiyini) və bunun üçün hansı bilikdən istifadə etdiyini izah edir ki, bu da ekspertin sistemi sınaqdan keçirməsini asanlaşdırır və istifadəçinin problemin həllinə inamını artırır. Öz hərəkətlərini izah etmək bacarığı ekspert sisteminin ən vacib xüsusiyyətlərindən biridir, çünki:

- ✓ istifadəçinin əldə edilmiş nəticələrə inamı artır;
- ✓ sistemin sazlanması asanlaşdırılır;
- ✓ istifadəçilərin mövzu sahəsində yeni nümunələr kəşf etmələri üçün şərait yaradılır.

Ekspert sisteminin strukturu dialoq alt sistemi olmadan natamam olardı. Dialoq alt sistemi həm problemin həlli zamanı, həm də biliklərin əldə edilməsi və iş nəticələrinin izahı zamanı bütün kateqoriyalı istifadəçilərlə dostluq interfeysinin təşkilinə yönəlmişdir.

Lakin son zamanlar qeyri-səlis ekspert sistemləri geniş yayılmışdır. Bu tip ekspert sistemləri öyrənilən obyektin vəziyyətini və davranışını təsvir etmək üçün linqvistik dəyişənlərdən və qeyri-səlis əlaqələrdən istifadə edən qaydalar toplusuna əsaslanır (Вагин, В.Н., Еремеев, А.П. 2001).

Bu formada təqdim olunan qaydalar təbii dilə ən yaxındır, ona görə də qaydaları yaratmaq və redaktə etmək üçün ayrıca bilik mühəndisindən istifadə etməyə ehtiyac yoxdur. Onlar praktiki olaraq heç bir xüsusi hazırlıq olmadan ekspertin özü tərəfindən redaktə edilə bilər. Həmçinin, bu cür sistemlərin nəticələri məhdud təbii dildə təqdim olunur ki, bu da onların son istifadəçiyə uyğunlaşma dərəcəsini artırır.

Əldə olunan nəticələr

Mövzu üzrə apardığımız uzunmüddətli araşdırmalara əsasən, aşağıdakı konkret nəticələrə gəlmək olur:

1. Ekspert sistemlərinin əsas anlayışları və ekspert sistemlərinin təsnifatı formalaşdırılır. Ekspert sisteminin strukturunun təhlili aparılıb, ona əsasən, qeyri-səlis ekspert sisteminin prototipi hazırlanacaq. Ekspert sisteminin yaradılmasının həyata keçiriləcəyi ekspert sistemlərinin inkişaf mərhələləri və ekspert sistemlərindən istifadənin əsas üstünlükləri nəzərdən keçirilir.

2. Biliklərin təsviri modellərinin təhlili aparılıb, ekspert sistemlərində istehsalat biliklərinin təqdim edilməsindən istifadənin üstünlükləri əsaslandırılıb.

3. Qeyri-səlis ekspert sistemlərinin əsas konsepsiyaları təqdim olunur, onların əsasında qeyri-səlis ekspert sisteminin qaydalar bazasında həll yolunun axtarışını sürətləndirmək probleminin formalaşdırılması təklif olunur.

ƏDƏBİYYAT

1. Башмаков А.И. Интеллектуальные информационные технологии: Учеб. Пособие // М.: Изд-во МГТУ им. Н.Э.Баумана, 2005
2. Вагин В.Н., Еремеев, А.П. Некоторые базовые принципы построения интеллектуальных систем поддержки принятия решений реального времени // Изв.РАН.ТиСУ, 2001, № 6, 114-123 с.
3. Люгер Д.Ф. Искусственный интеллект. Стратегии и методы решения сложных проблем. 4-е издание. Пер.с англ. М.: Изд. дом «Вильямс», 2003, 864 с.
4. Искусственный интеллект. В 3-х кн. Кн. 2. Модели и методы: справочник. М.: Радио и связь, 1990, 304 с.
5. Гаврилова Т.А., Хорошевский, В.Ф. Базы знаний интеллектуальных систем. Издательский дом “Питер”, 2001, 384 с.
6. Рассел С., Норвиг П., Искусственный интеллект: современный подход. Издательский дом “Вильямс”:, 2006. 1407 с.
7. Джексон П. Введение в экспертные системы. 3-е издание. Пер. с англ. М.: Изд. дом «Вильямс», 2001 с.
8. Джонс М.Т. Программирование искусственного интеллекта в приложениях. М.: ДМК Пресс, 2004, 312 с.

SUMMARY

Melihan Huseynzade

EXPERT SYSTEMS. KNOWLEDGE REPRESENTATION METHODS

The presented article provides the basic concepts of expert systems, classification of expert systems and their structure. In addition, in order to obtain and increase knowledge, the issues of filling subsystems with knowledge by an expert user and automating the process of adapting the knowledge base of the system to its operating conditions were investigated.

The knowledge possessed by a specialist in any field can be divided into formalized, poorly formalized and informal. Formalized knowledge is characteristic of exact sciences such as mathematics, physics, chemistry, astronomy. Commonly called descriptive sciences operate with poorly formalized knowledge. Such sciences, for example, zoology, botany, ecology, pedagogy, medicine, etc. belongs to.

The class of tasks related to poorly formalized knowledge is much wider than the class of tasks for which knowledge can be easily formalized. This explains the special popularity and wide practical use of expert systems, which allow the use of computer technologies in subject areas where formalization of knowledge is difficult.

The main concepts of fuzzy expert systems are reviewed, based on them, the formulation of the problem of accelerating the search for a solution in the rule base of the fuzzy expert system is proposed. The stages of fuzzy logic inference are reviewed.

Key words: *knowledge, base, system, memory, given, expert, method*

PƏRVİN QULİYEV
pervinquliyev@ndu.edu.az
ORCİD İD: 0009-0009-7082-3305

LEYLA QULİYEVA
quliyevaaleylaa@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0001-0890-8887

TELLURİT İONLARININ REDUKSİYASINA MÜHİTİN TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

Xalkogenid birləşmələri və onlar əsasında hazırlanan bərk məhlullar aşağı temperatur intervalında işləyən enerji çeviricilərində, xüsusilə elektron soyuducularında termoelektrik material kimi istifadə olunur. Telluritlər də bu qəbildən olan birləşmələrdəndir və texnikanın müxtəlif sahələrində termoelektrik və fotoelektrik material kimi geniş tətbiq olunur. Bu baxımdan bəhs olunan materialların işləmə oblastını genişləndirmək, ərimə temperaturunu yüksəltmək, mexaniki davamlılığını, elektrik parametrlərini artırmaq məqsədilə Me_2Te_3 tərkibli birləşmələrin alınması üçün tellurit ionlarının müxtəlif sintez metodları ilə fərqli substratlarda turş və qələvi mühitlərdə sintezi həyata keçirilmişdir. Tellurit ionlarının reduksiyasına müxtəlif amillərin təsiri tərəfimizdən öyrənilmişdir. Fərqli metodların sintez məhsulu olan tellurun müxtəlif qalınlıqlı təbəqələrinin səth morfologiyası tədqiq edilmişdir. Turş mühitdə çaxır turşusu məhlulundan, qələvi mühitdə isə kalium-hidroksid (KOH) məhlulundan istifadə edilmişdir. Hər iki mühitdə nazik tellur təbəqələrinin alınması ilə nəticələnən reduksiya prosesləri öyrənilmişdir.

Açar sözlər: *Reduksiya, məhlul, elektrolit, yarımkeçirici, xalkogenid*

Monokristal və polikristal yarımkeçiricilərin istehsalı zamanı onların qalınlığının azaldılması həm texnoloji çətinliklərlə, həm də yüksək faizlə zay nümunələrin alınmasına gətirib çıxarır. Yuxarıda qeyd olunanları əsas götürərək, birbaşa optik keçidə malik yarımkeçirici materialların nazik təbəqələrinin alınması və onlar əsasında effektiv və ucuz günəş elementlərinin, yaddaş qurğularının, diod və tranzistorların hazırlanmasına istifadəçilər tərəfindən cəhd edilməsi tamamilə qanunauyğundur (4).

Nazik yarımkeçirici təbəqələri müxtəlif üsullarla almaq olar: vakuumda termiki buxarlandırma, pirolitik parçalanma, kimyəvi çökdürmə və elektrokimyəvi metodla. Hal-hazırda vakuumda termiki buxarlandırma üsulu nisbətən ətraflı öyrənilmiş və geniş tətbiq olunur. Lakin bu və başqa metodların tətbiqi müəyyən çətinliklərlə məhdudlanır yaxud tətbiq olunması qeyri mümkün olur. Qeyd etmək lazımdır ki, xalkogenidlər yüksək temperaturda dissosiasiya edir, bu da alınan təbəqələrin tərkib və qalınlığına görə bircinsli olmasına əngəl törədir.

Digər cəhətdən bu metod yüksək əməktutumlu, mürəkkəb cihazlar tələb edir. Vakuumda buxarlandırma prosesində nazik təbəqənin tərkibinə nəzarət etmək çətinləşir. Bu çətinlik qaz fazasında komponentlərin parsial təzyiqlərinin idarə olunması üsulu olmağından baş verir (5).

Yuxarıda deyilənləri nəzərə alaraq, aşağı temperaturda xalkogenidlərin müxtəlif elektrolitlərdən və müxtəlif metal altlıqlar üzərində nazik təbəqələrin alınma üsullarının axtarışı və işlənməsi tamamilə aktual istiqamətdir. Bu səbəbdən elektrokimyəvi üsul diqqəti cəlb edir. Elektrokimyəvi üsul özünün elektrik təbiəti ilə prosesə və alınan nazik təbəqənin qalınlığına dəqiq nəzarət etməyə imkan verir. Bundan başqa, elektrokimyəvi üsul müxtəlif quruluşlu və xassəli nazik təbəqələrin alınması üçün geniş imkanlara malikdir (6). Bu da onların texnikanın müxtəlif sahələrində tətbiq olunmasına imkan yaradır. Üsulun texniki cəhətdən reallaşdırılması həddən çox sadə olduğundan, texniki tətbiq üçün müxtəlif konfiqurasiyalı və böyuk səthə malik nazik təbəqələrin alınması prosesinin avtomatlaşdırılması çox perspektivlidir. Lakin elektrokimyəvi üsulla metal və

ərintilərin nazik təbəqələrinin alınmasının yuxarıda qeyd etdiyimiz üstünlükləri ilə yanaşı bir sıra çətinlikləri də mövcuddur.

Yüksək elektrik müqavimətinə malik yarımkeçirici ərintilərin elektrokimyəvi metodla çökdürülməsi prosesinin nəzəriyyəsi lazımi dərəcədə öyrənilmədiyindən, bu məsələnin həllini çətinləşdirir. Ərinti və nazik təbəqələrin elektrokimyəvi yolla çökdürülməsi metodikası çox vaxt emprik yolla işlənilir. Ərintilərinin elektrokimyəvi yolla alınmasına tətbiq olunan ümumi qanunauyğunluqları yarımkeçirici nazik təbəqələrin elektrolitik yolla çökdürülməsi prosesinə tətbiq etmək olmaz. Çünki yarımkeçiricinin səthində yükdaşıyıcıların qatılığı həddindən az olduğu üçün, proses təyin olunmuş rejimdə getmir və əlavə çətinliklər yaradır. Bununla əlaqədar olaraq yarımkeçirici nazik təbəqələrin xüsusi şəraitdə formalaşmasının tədqiqi – elektrolitik çökmə prosesinin mexanizminin nisbətən mürəkkəb olan başlanğıc mərhələsində elektrod proseslərinin kinetikasının aydınlaşdırılması üçün qiymətli məlumatlar verə bilər.

Xalkogenid birləşmələri və onlar əsasında hazırlanan bərk məhlullar aşağı temperatur intervalında (200-350 K) işləyən enerji çeviricilərində, xüsusilə elektron soyuducularında termoelektrik material kimi istifadə olunur. Telluritlər də bu qəbildən olan birləşmələrdəndir və texnikanın müxtəlif sahələrində termoelektrik və fotoelektrik material kimi geniş tətbiq olunur (1). Bu birləşmələr əsasında yeni materialların, o cümlədən bərk məhlulların sintezi həmin bərk məhlulların fiziki xassələrinin tərkibdən necə asılı olduğunu aşkar etməyə imkan verir. Me_2X_3 tipli yarımkeçirici xalkogenid birləşmələr və onlar əsasında alınmış mürəkkəb tərkibli bərk məhlullar yüksək termoelektrik effektivliyə malik olub, enerji çeviricilərinin hazırlanmasında, yaddaş qurğularının hazırlanmasında geniş tətbiq edilir (2). Bu baxımdan bəhs olunan materialların işləmə oblastını genişləndirmək, ərimə temperaturunu yüksəltmək, mexaniki davamlılığını, elektrik parametrlərini artırmaq məqsədilə Me_2Te_3 tərkibli birləşmələrin alınması üçün tellurit ionlarının müxtəlif sintez metodları ilə fərqli substratlarda turş və qələvi mühitlərdə sintezi həyata keçirilmişdir. Fərqli metodların sintez məhsulu olan tellurun müxtəlif qalınlıqlı təbəqələrinin səth morfologiyası tədqiq edilmişdir (3).

Turş mühitdə tellur təbəqələrinin alınması üçün tellur-dioksiddən (TeO_2) reaktiv kimi istifadə edilmişdir. 100 ml distillə suyunda 17,9 qram çaxır turşusu və 1,9 qram tellur dioksid qızdırılaraq həll edilir. Mis lövhədən $1sm^2$ elektrod kəsilir, narın dişli şlifləmə kağızı ilə mexaniki parıldadılır və etil spirti ilə yuyularaq səthi yağsızlaşdırılır. Mühitin pH=1,68 tərtibində olmuşdur.

Turş mühitdə çaxır turşusu məhlulundan, qələvi mühitdə isə kalium-hidroksid (KOH) məhlulundan istifadə edilmişdir. Hər iki mühitdə nazik tellur təbəqələrinin alınması ilə nəticələnən reduksiya prosesləri baş vermişdir. Alınmış təbəqələr termiki emal edilmiş və təbəqələrin səth morfologiyaları öyrənilmişdir. Termiki emal prosesindən əvvəl nazik tellur təbəqələrinin səth morfologiyası daha hamar təbəqə şəklində alınmışdır. Tellurit məhlullarında qatılığın artması ilə alınan təbəqələrin qalınlaşması baş vermiş və bu qalınlaşmış təbəqələr termiki emaldan sonra, əsasən, ovxalanan təbəqə şəklində elektrod səthindən ayrılmışdır. Bu onu termiki emaldan sonrakı vəziyyətində kristal strukturların adgeziya xarakterinin aşağı olması ilə izah oluna bilər. Eyni zamanda tellur-dioksid qələvi məhlulunda tellurit duzuna çevrilir və TeO_3^{-2} ionu şəklində reduksiyaya məruz qalır. Tellurit ionlarının reduksiyasından sonra məhlulda qələvi mühit qismən artmış olur və bu gələcəkdə termiki emal olunması nəzərdə tutulan nümunələrdə adgeziyanı aşağı salan səbəblərdən biri kimi göstərilə bilər. Bununla yanaşı tellurit ionları qələvi mühitdə aşağı qatılıqda alınmış təbəqə nümunələrində yuxarı adgeziya müşahidə olunur və əsasən hamar səth morfologiyası nümayiş etdirən təbəqələr şəklində alınır.

Tellur dioksid turş mühitdə həll edilərək reduksiya olunduqdan sonra, qələvi mühitdə də reduksiya prosesi öyrənilmişdir. Bunun üçün tellur dioksidin qələvidə məhlulu hazırlanır. 1,12 q kalium-hidroksid (KOH) 40 ml suda həll edilərək 0,4 M kalium-hidroksid məhlulu hazırlanır. Hazırlanmış məhlulun kütlə ekvivalentinə uyğun olaraq 1,6 q tellur dioksid (TeO_2) həll edilir. Məhlulda aşağıdakı molekulyar reaksiyanın baş verdiyi müəyyən edilmişdir.

$$TeO_2 + 2KOH \rightarrow K_2TeO_3 + H_2O$$

Reaksiyadan alınmış tellurit duzunun həll olmuş məhlulu qızdırılaraq reaksiyanın getməsi təmin edilir. 200ºC temperaturda reaksiya tam baş vermədiyi üçün qələvi məhlulu 1,12 q kalium-hidroksid əlavə edilməklə 1 M-a qədər qələvi məhlulu qatılaşdırılır. 1 sm^2 mis lövhə üzərində tellurid ionlarının reduksiyası ilə potensiostatik elektroliz aparılır. Tsiklik polyarizasiya əyrisində təkrarlanan əyrilər alınmağa başlayır. Potensial yüksək olduğu üçün alınmış analoji əyrilərdə elektrod səthində ayrılan tellurun təsiri ilə alınan xətlər sabit deyil, cizgili xətlərlə ifadə olunur. Ən qısa zamanda elektrod səthi nazik tellur təbəqəsi ilə örtülür. Reduksiya prosesi 10 dəqiqə ərzində aparılır. Tellur nazik toz şəklində mis elektrod üzərində səpələnmişdir. 1,6 qram tellur dioksid götürüb 1,12 qram kalium hidroksid ilə qarışdıraraq 40 ml suda həll etdikdən sonra qələvi mühit yaratmaq üçün 1 qram kalium-hidroksid yenidən əlavə edilmişdir. Alınmış 2,54 qram kalium-tellurit birləşməsinin 40 ml məhluldakı qatılığı 0,25 M hesablanmışdır. 0,25 M məhluldan 25ml götürülərək potensiostatik elektroliz aparıldı. Potensialın dəyişmə sürətindən və cərəyanın dəyişmə sürətindən asılılıq əyriləri qurulmuşdur. Nümunənin termiki emalı kvars sobada aparılmışdır.

Nəticə: Hər iki mühitdə alınan nazik tellur təbəqələrinin səth morfologiyası öyrənilmiş, reduksiya prosesinin mexanizmi müəyyənləşdirilmişdir.

Müəyyən edilmişdir ki, turş mühitdə alınan təbəqələrin adgeziyası və təbəqənin keyfiyyəti qələvi mühitə nəzərən daha effektiv olur.

ƏDƏBİYYAT

1. Aliyev A.Sh., Salakhova E.A., Suleymanov A.S., Babayeva M.A., Gasanov Ch.A. Photovoltaic cell on the semiconductor heterosystems – // Inter.congres of Energy Ecologi Istanbul – Baku: 1991, p.1
2. İsmayılov F.İ., Əliyev İ.İ., Abbasov R.M. $(Sb_2Te_3+Bi_2Te_3+Se+Te)_{1-x}$ tərkibli "p"-tip bərk məhlulun fiziki-kimyəvi xassələrinə Pr elementinin təsiri. // Kimya Problemləri jurnalı. №1, 2008
3. Bəxtiyarlı İ.B., İsmayılova R.Ə., Qurbanov H.R. Sb_2Te_3-Gd_2Te_3 sistemində faza tarazlığının tədqiqi. // Kimya problemləri jurnalı. №2, 2006
4. G. Qiu The resurrection of tellurium as an elemental two-dimensional semiconductor // Nature communications, 2022
5. J. Qiao Few-layer Tellurium: one-dimensional-like layered elementary semiconductor with striking physical properties // Elsevier, 2018
6. Tingjun Wu Electrochemical mechanism of tellurium reduction in alkaline medium – // Frontiers in Chemistry, 2020

SUMMARY

Parvin Guliyev, Leyla Guliyeva

STUDY OF THE EFFECT OF THE ENVIRONMENT ON THE REDUCTION OF TELLURITE IONS

Chalcogenide compounds and solid solutions based on them are used as thermoelectric materials in energy converters operating at low temperature range, especially in electronic coolers. Tellurite's are also such compounds and are widely used as thermoelectric and photoelectric materials in various fields of technology. From this point of view, in order to expand the working area of the mentioned materials, to increase the melting temperature, to increase their mechanical durability and electrical parameters, the synthesis of tellurite ions was carried out in acidic and alkaline environments on different substrates with different synthesis methods to obtain compounds containing Me_2Te_3. We have studied the effect of various factors on the reduction of tellurite ions. The surface morphology of different thick layers of tellurium, which is the synthesis product of different methods, was studied. In an acidic environment, calcareous acid solution was used, and in an alkaline environment, potassium hydroxide (KOH) solution was used. In both environments, reduction processes resulting in thin tellurium layers have been studied.

Key words: *Reduction, solution, electrolyte, semiconductor, chalcogenide*

GÜLNAR YAQUBOVA
gulnarygbva01@gmail.com
Naxçıvan Dövlət Universiteti

QÜVVƏTİ DÖRD OLAN HAL ÜÇÜN MODİFİKASİYA EDİLMİŞ FERMA TEOREMİ

Məqalədə $n = 4$ halı üçün $x^4 + y^4 = z^4$ tənliyini modifikasiya edərək $x^4 + y^4 = z^2$ kimi yazıb, Ferma teoreminin oxşar forması olaraq, alınan bu tənliyində tam ədədlər çoxluğunda sıfırdan fərqli həllinin mümkün olmadığı ilə bağlı müvafiq teorem verilir. Onun isbatı məlum lemmaya əsaslanaraq oxşar qaydada bəzi bərabərsizliklərdən istifadə etməklə verilir.

Açar sözlər: *Ferma, qüvvət*

Riyaziyyat tarixində "Fermanın böyük teoremi" adı ilə məşhur olan bir teorem var ki, "$x^n + y^n = z^n$ tənliyinin $n = 3, 4, 5, \ldots$ olduqda natural ədədlər arasında həlli yoxdur". (Poctinkov M.M 2385).

Bu teorem XVII əsrdən indiyə qədər riyaziyyat alimlərini, hətta həvəskar riyaziyyatçıları məşğul etmişdir. Ferma həmin teoremin doğruluğunu qeyd edir, lakin oxuduğu Diatantin kitabının səhifələrində boş yerlər az olduğundan isbatını verə bilməmişdik. İndiyədək bu teoremin isbatına minlərcə yanaşmalar olubsa da, hələ də ümumi halda isbatı verilməmişdir. Hesab etmək olar ki, heç Fermanın özü də bu teoremi isbat edə bilməmişdir. Buna baxmayaraq, $x^n + y^n = z^n$ tənliyində $x, y, z \epsilon N$ üçün $n > 2$ olduğu müxtəlif qiymətlərdə bəzi xüsusi hallar qeyd olunur (Z.İ.Borevica, s.241).

$n = 4$ halı üçün Ferma teoreminin isbatını vermək üçün bir elementar metod seçək:

Məlumdur ki, $x^2 + y^2 = z^2$ şərtini ödəyən (düzbucaqlı üçbucağın tərəfləri) hətta tam ədədlər çoxluğuna daxil olan sonsuz sayda ədədlər var. Burada belə bir Lemma mövcuddur.

Lemma: Müxtəlif parametrli $n < m$ cüt müsbət tam ədədləri üçün

$$\begin{cases} x = 2mn \\ y = m^2 - n^2 \\ z = m^2 + n^2 \end{cases} \qquad (1)$$

kimi verilən ədədlər $x^2 + y^2 = z^2$ tənliyinin həllini verir. Ə$BOB(x, y, z) = 1$ olarsa, bu ədədlərdən hökmən biri cüt olmalıdır (Ductnikov M.M, s.41-43).

Bu lemmadan istifadə etməklə $n = 4$ halı üçün Ferma teoreminin modifikasiya edilmiş forması üçün aşağıdakı təklifi isbat edək.

Teorem: $x^4 + y^4 = z^2$ (2) tənliyinin tam ədədlər çoxluğunda sıfırdan fərqli həlli yoxdur.

İsbatı: Əksini fərz edək ki, (2) tənliyinin tam ədədlər çoxluğunda həlli mövcuddur. Bu ədədləri müsbət ədədlər (natural ədədlər) olaraq qəbul etsək burada ən kiçik (x, y, z) həlli olacaq. Onda bu həllərdən ikinci mütləq tək olmalıdır. Üçü də tək ola bilməz. x ədədinin cüt olduğunu fərz edək: x^2, y^2, z ədələri müsbət və x^2 cüt olduğundan Lemmaya görə

$$\begin{cases} x = 2mn \\ y = m^2 - n^2 \\ z = m^2 + n^2 \end{cases} \qquad (3)$$

Əgər $m = 2k$ və $n = 2l + 1$ olarsa, onda

$$y^2 = 4(k^2 - l^2 - l - 1) + 3$$

olması mümkün deyil. Çünki hər hansı tək ədədin kvadratı $4k + 1$ şəklində olmalıdır. Onda m ədədi tək, n ədədi cütdür.

Tutaq ki, $n = 2q$. Onda $x^2 = 4mq$ və buna görə də

$$mq = \left(\frac{x}{2}\right)^2$$

m və q ədədləri müştərək olduğundan, buradan alınır ki, $m = {z_1}^2, q = t^2$ kimidir. Burada z_1 və t müsbət tam ədədlərdir. Bunları nəzərə alsaq görərik ki,

$$y_2 = ({z_1}^2)^2 - (2t^2)^2$$

və ya

$$(2t^2)^2 + y^2 = ({z_1}^2)^2$$

t və z_1 qarşılıqlı sadə ədədlər olduğundan qeyd etdiyimiz lemma yenədə bu bərabərliyə tətbiq olunur. Nəticə etibarilə, müxtəlif təbiətli a və b ədədləri var ki, $b < a$ olduqda

$$\begin{cases} 2t^2 = 2ab \text{ və ya } t^2 = ab \\ y^2 = a^2 - b^2 \\ z_1^2 = a^2 + b^2 \end{cases}$$

a və b qarşılıqlı sadə ədəd olduğundan birinci bərabərlikdən belə nəticə alınır ki, elə x_1, y_1 tam ədədləri mövcuddur ki, $a = x_1^2, b = y_1^2$ olur.

Beləliklə, üçüncü bərabərliyi aşağıdakı kimi yazmaq olar: $x_1^4 + y_1^4 = z_1^2$

Bu o deməkdir ki, x_1, y_1, z_1 ədədləri müsbət ədədlərdir və (2) tənliyini ödəyir. Belə olan halda (x, y, z) həlli seçilməsi $z_1 \geq z$ və həmçinin $z_1^2 \geq z$ bərabərsizliklərindən $m \geq m^2 + n^2$ alınmalıdır. Bu isə tamamilə ziddiyət təşkil edir. Bu onu göstərir ki, (2) tənliyi tam ədədi həllə malik deyil. Bununla da teorem isbat olundu.

ƏDƏBİYYAT

1. Əkbərov M.E. "Ədədlər və fiqurlar aləmində". Bakı: 2000, 338 s.
2. Maqsudov F.Ə. Riyaziyyat və riyaziyatçılar. Bakı: 1982, 162 s.
3. Боревура И. «Теорил гусел» Москва: 1972, 241 с.
4. Постнуков М.М. Теорема Ферма – МОУ - №4 мам-физ жиг, 41-43 с.
5. Постнуков М.М. Введение в теорию алгебраигески гусел-м наука - 1978
6. Сомунскй И.С. Елементарная алгебра. Москва: 1987, 205 с.

SUMMARY

Gulnar Yaqubova

A MODIFIED FERMAT'S THEOREM FOR THE POWER-FOUR CASE

In the article for the case of $n = 4$, modified the equation $x^4 + y^4 = z^4$ and wrote it as $x^4 + y^4 = z^2$, as a similar form of Fermat`s theorem, a correspondig theorem is given that this obtained equation cannot have a non-zero solution in the set of integers. Its proof is given by using some inequalities in a similar manner based on a well-known lemma.

Key words: *Fermat's theorem, strength*

PƏRVİN QULİYEV
pervinquliyev@ndu.edu.az
YASİN BABAYEV
yasinbabayev@rambler.ru
LEYLA QULİYEVA
quliyevaaleylaa@gmail.com
Naxçıvan Dövlət Universiteti

ELEKTROKİMYƏVİ YOLLA SİNTEZ EDİLƏN Sb_2Se_3 NAZİK YARIMKEÇİRİCİ TƏBƏQƏLƏRİNİN İŞIQDA VƏ QARANLIQDA FOTOELEKTROKİMYƏVİ XASSƏLƏRİNİN TƏDQİQİ

Müasir dövrümüzdə elektrotexnikanın inkişafı yeni yarımkeçirici materialların sintezinə tələbatı artırır. Sb_2Se_3 yarımkeçirici naik təbəqələri elektrotexnikada, düzləndiricilərdə, günəş enerjisini çevirən konversiya qurğularında geniş tətbiq imkanlarına sahibdir. Bu birləşmənin yarımkeçirici xassələri sintez şəraitindən asılı olaraq dəyişir. Elektrokimyəvi yolla sintez edilən Sb_2Se_3 birləşməsinin yarımkeçirici xassələrinin daha əhəmiyyətli olduğu müəyyən edilmişdir. Bu birləşmələr A^VB^{VI} tipli yarımkeçirci xalkogenid birləşmələrdəndir. Sb_2Se_3 birləşməsinin nazik yarımkeçirici təbəqələri elektrokimyəvi yolla sintez edilmiş və yarımkeçirici xassələri öyrənilmişdir. Elektrokimyəvi üsulla İTO elektrodu üzərinə çökdürülmüş yarımkeçirici xassəli Sb_2Se_3 nazik təbəqələrinin işıqda və qaranlıqda elektroddan keçən cərəyanın zamandan asılı olaraq dəyişməsi (xronoamperometriya) öyrənilmişdir. Bu baxımdan, İTO (şüşə elektrodlar) üzərinə çökdürülmüş Sb_2Se_3 nazik təbəqələrinin 0,5 M Na_2SO_4 məhlulunda potensiodinamik üsulla həm qaranlıqda, həm də işığın təsirilə anod polyarizasiya əyriləri çəkilmişdir. Elektroliz üsulu ilə sintez edilən Sb_2Se_3 yarımkeçirici birləşməsinin fotokeçiriciliyi tədqiq edilmişdir. Məlum olmuşdur ki, bu birləşmə fotohəssas materialdır və onun optiki qadağan olunmuş zolağının eni 1,478 eV-a bərabərdir.

Açar sözlər: *Nazik təbəqə, fotoanod, polyarizasiya, tartrat turşusu, yarımkeçirici*

V qrup metallarının xalkogenidləri və onların əsasında alınan termoelektrik və optiki xassəli materiallar mikroelektronika üçün əhəmiyyətli tətbiqə malikdir. Belə materialların sintez şəraitinin optimallaşdırılması və təkmilləşdirilməsi metodlarının tədqiqi vacib şərtlərdəndir. Son illərdə arzu olunan struktur və morfologiyalı materialların idarə oluna bilən sintezinə əhəmiyyətli cəhdlər edilib, çünki yarımkeçirici materialların optiki və elektronik xüsusiyyətləri geniş formada onların təşkil olunduğu zərrəcik ölçüsü və tərzindən asılıdır (1). Maraqlı morfologiyalı və spesfik xüsusiyyətli nazik təbəqələr haqqında ədəbiyyatlarda məlumat verilmişdir. Xüsusilə nanometr və mikrometr ölçülərində olan qeyri-üzvi nazik təbəqələr öz aşağı sıxlığına, geniş spesfik sahəsinə, mexaniki və termiki stabilliyinə və səthkeçirmə qabiliyyətinə görə geniş formada diqqəti çəkən mühüm material sinfinə malikdirlər (2). Fotovoltaik elementlərdə işığın udulma aktından kimyəvi çevrilmələr zənciri başlayır ki, bu da kifayət qədər stabil və böyük kimyəvi enerji ehtiyatı olan məhsulların əmələ gəlməsilə nəticələnir. Bu məhsullar elektrodun səthinə çataraq daxili zəncirdə cərəyanla nəticələnən elektrokimyəvi reaksiyaya daxil olurlar.

Fotovoltaik elementlərin iş prinsipinə nəzər saldıqda görürük ki, enerjinin fotoelektrokimyəvi çevrilməsi prosesi fotohəyəcanlanma mərhələsindən başqa toplanmış enerjinin kifayət qədər davamlı olan və uzun müddət saxlama qabiliyyətinə malik hissəciklərə ötürülməsi mərhələsini də özündə əks etdirir.

Deyilənlərə əsasən, yarımkeçirici / elektrolit sərhəddi özünü işıq enerjisini çevirmək üçün çox əlverişli sistem kimi göstərir. Yarımkeçiricinin fotohəssaslığı, əsasən, zonalararası keçidlərə əsaslanır ki, bu zaman həyəcanlanmanın ilkin məhsulları elektronlar və deşiklər olurlar (3).

Araşdırmalar göstərir ki, yarımkeçirici elektrodlardan ibarət fotoelektrokimyəvi elementlər bərk cisimli yarımkeçiricilərlə müqayisədə daha çox üstünlüklərə malikdirlər. Ona görə də günəş batareyalarında elektrod kimi ucuz, asan əldə olunan, mükəmməl kristal quruluşa malik yarımkeçirici materialların istifadəsi günəş enerjisinin geniş miqyaslı çevrilməsi zamanı həlledici əhəmiyyətə malikdir. Məhz bu hal, yarımkeçirici elektroda malik fotoelektrokimyəvi elementlərin yaradılması sahəsində olan tədqiqatların genişləndirilməsinin əsas səbəblərindən biri oldu (4).

Lakin günəş enerjisinin kimyəvi enerjiyə çevrilməsi proseslərində günəş spektrində kvant kütləsinə malik yüksək enerjili şüaların kifayət qədər olmaması bu prosesin əsas çatışmazlıqlarından biridir. Ona görə də son onilliklərdə tədqiqatçılar qarşısında duran əsas məsələ günəş enerjisini birbaşa olaraq elektrik enerjisinə çevirə bilən fotoelektrokimyəvi elementlərin işlənib hazırlanmasıdır.

Günəş batareyalarında yüksək səviyyəli enerji çevrilməsinə nail olmaq üçün bu sistemlər bir sıra tələblərə cavab verməlidirlər:

a) sistemin tarazlıq potensialı ilə yarımkeçiricinin müstəvi zolaq potensialı arasında kifayət qədər böyük fərqin olması;

b) hücrənin hər iki elektrodunda gedən reaksiyaların yaxşı dönərliyə malik olması;


c) məhlulun yüksək işıq keçirmə qabiliyyətinin olması;

d) aşağı omik müqavimətin olması.


Ona görə də apardığımız tədqiqat işinin bu mərhələsi məhz günəş çeviricilərində elektrod kimi tətbiq edilə bilən, elektrokimyəvi çökdürülmə üsulu ilə alınmış, qadağan olunmuş zolağının eni 1.43 - 1.7 eV intervalında dəyişən, yarımkeçirici Sb_2Se_3 kimyəvi birləşməsinin nazik təbəqələrinin bəzi elektrofiziki, fotofiziki və fotoelektrokimyəvi xassələrinin tədqiqinə həsr edilmişdir (5).

Təcrübi hissə. Sb_2Se_3 nazik təbəqələri günəş çeviricilərində, əsasən, fotoanod materialı kimi tətbiq olunduğundan anod proseslərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, İTO üzərinə çökdürülmüş Sb_2Se_3 nazik təbəqələrinin 0.5 M Na_2SO_4 məhlulunda potensiodinamik üsulla həm qaranlıqda, həm də işığın təsirilə anod polyarizasiya əyriləri çəkilmişdir (şəkil 1). Şəkildən göründüyü kimi, hər iki anod prosesi eyni potensialda (0.14 V) başlamışdır. Qaranlıqda çəkilən anod polyarizasiyası halında 0.14 – 0.4 V intervalında fotocərəyan əvvəlcə tədricən 20 μA-ə qədər artır, 0.4 V potensialdan sonra isə hədd cərəyanı müşahidə olunur. İşıqda çəkilən anod polyarisaziya əyrisində isə 0.14 – 0.4 V potensial intervalında fotocərəyanın kəskin artımı müşahidə olunur ki, bu da 0-dan 120 μA-ə qədər qiymət alır. Bu isə elektrokimyəvi üsulla tartrat elektrolitindən çökdürülmüş Sb_2Se_3 kimyəvi birləşməsinin nazik təbəqələrinin işığa yüksək həssaslığının bariz nümunəsidir.


Nəticələrin müzakirəsi. Şəkil 2-də İTO elektrodu üzərinə elektrokimyəvi yolla çökdürülmüş Sb_2Se_3 kimyəvi birləşməsinin nazik təbəqələrinin işıqda və qaranlıqda elektrod potensialının zamandan asılı olaraq dəyişməsi (xronopotensiometriya) verilmişdir. Şəkildən göründüyü kimi, 0.5 M Na_2SO_4 məhlulunda Sb_2Se_3 nazik təbəqələrinin DRK - 120 yüksək təzyiqli civə kvars lampası ilə işıqlandırılması zamanı elektrod potensialı anod istiqamətində 0.14 V-dan (- 0.2) V-a qədər dəyişir.



Şəkil 1. *Sb_2Se_3 nazik təbəqələrinin işıqda və qaranlıqda potensiodinamik polyarizasiya əyriləri*



Şəkil 2. *Sb_2Se_3 nazik təbəqələrində işıqda və qaranlıqda elektrod Potensialının zamandan asılı olaraq dəyişməsi*



Şəkil 3. *Sb_2Se_3 nazik təbəqələrində işıqda və qaranlıqda elektroddan*

keçən cərəyanın zamandan asılı olaraq dəyişməsi


Təcrübi tədqiqatlardan əldə etdiyimiz qiymətlərlə apardığımız hesablamalardan aldığımız nəticələrə əsasən, belə qənaətə gəlmək olar ki, elektrokimyəvi yolla tartrat turşusu elektrolitindən sintez edilən stibium-selen nazik təbəqələri yüksək fotoeffekt xüsusiyyətlərə malik olub, fotokeçirici materialdır. Bu, qeyd olunan əhəmiyyətli xassələrin mövcudluğu nəzərə alınaraq, elektrokimyəvi yolla sintez edilən Sb_2Se_3 kimyəvi birləşməsinin nazik yarımkeçirici təbəqələrinin elektroskopiyada və fotoskopiyada tətbiqi məqsədəuyğun hesab edilir.

Elektrokimyəvi üsulla çökdürülmüş yarımkeçirici xassəli Sb_2Se_3 nazik yarımkeçirici təbəqələrinin işığa həssaslığını təyin etmək üçün bu təbəqələr üzərində işıqda və qaranlıqda fotoelektrokimyəvi tədqiqatlar aparılmışdır. Qadağan olunmuş zonasının eninə bərabər və ya ondan böyük olan kvant enerjisinə malik işığın təsiri nəticəsində yarımkeçiricidə baş verən halların fiziki mənası ona gətirib çıxarır ki, onun həcmində qeyri-bərabər elektron deşik cütləri əmələ gəlir. Əgər yüklərin fazalar sərhəddindən keçməsi baş verməzsə, yarımkeçiricidə səthi yüklərin qiyməti qaranlıqda olduğu kimi qalmalıdır.

Digər tərəfdən işıqlandırma zamanı sərbəst cərəyan daşıyıcılarının qatılığı artır. Səthi yükləri səthi potensialın və sərbəst daşıyıcıların qatılığının funksiyası olduğundan bu qiymətlərdən hər hansı birinin dəyişməsi bir-birinin ardınca ikincinin də dəyişməsinə elə təsir göstərməlidir ki, səthi yüklərin qiyməti dəyişməz qalsın. Yarımkeçiricinin səthi foto – e.h.q. və ya fotopotensialı adlanan səthi potensialının uyğun dəyişikliyi onun müstəvi zolaq potensialı istiqamətində baş verəcək.

Elektrokimyəvi üsulla İTO elektrodu üzərinə çökdürülmüş yarımkeçirici xassəli Sb_2Se_3 nazik təbəqələrinin işıqda və qaranlıqda elektroddan keçən cərəyanın zamandan asılı olaraq dəyişməsi (xronoamperometriya) şəkil 3-də verilmişdir. Zaman keçdikcə üzəri Sb_2Se_3 nazik təbəqəsi ilə örtülmüş elektrodun işıqlandırılması nəticəsində elektroddan keçən cərəyanın anod istiqamətində 50 μA-dən 100 μA-ə yüksəlməsi müşahidə olunur. İşıqda və qaranlıqda aparılan həm xronopotensiometrik, həm də xronoamperometrik tədqiqatlar bir daha sübut edir ki, elektrokimyəvi üsulla alınmış Sb_2Se_3 nazik təbəqələri n - tip keçiriciliyə malikdirlər.

İTO elektrodu üzərinə çökdürülmüş Sb_2Se_3 kimyəvi birləşməsinin nazik təbəqələrinin fotocərəyanının spektral asılılığı şəkil 4-də verilmişdir. Şəkildən göründüyü kimi, Sb_2Se_3 nazik təbəqələrinin işıq udması 360 nm - dən yuxarı dalğa uzunluqlarında başlayır. Sb_2Se_3 kimyəvi birləşməsinin nazik təbəqələrinin fotoelektrokimyəvi davranışına şüalanmanın dalğa uzunluğunun (λ) analoji təsiri eyni potensialda fotocərəyanın spektrlərində də müşahidə olunur. Şəkildən göründüyü kimi, 400-800 nm dalga uzunluğunda tədricən artan fotocərəyan, 800 nm dalğa uzunluğunda maksimuma çatır, sonra isə tədricən azalır.



Şəkil 4. *Sb_2Se_3 nazik təbəqələri üçün E = 0.4 V potensialda fotocərəyanın*

spektral asılılığı (bərabər kvant saylarında)

Elektrokimyəvi yolla sintez edilmiş stibium-selen nazik təbəqələrinin elektrofiziki və fotofiziki xassələri tədqiq edilərək bir sıra xüsusiyyətlər müəyyən edilmişdir.

- Elektroliz üsulu ilə alınmış stibium - selen nazik təbəqələrinin xüsusi keçiriciliyinin temperaturdan asılılığı tədqiq edilmiş, müəyyən olunmuşdur ki, tədqiq olunan bütün temperatur intervalında (300-460 K) həmin təbəqələr yarımkeçirici xassəyə malikdir. Alınmış stibium selenid nazik təbəqələrinin termiki qadağan olunmuş zolağının eni təyin edilərək, 1,24 eV-a bərabər olduğu aşkarlanmışdır.

- Elektrokimyəvi yolla tartrat elektrolitindən sintez edilən yarımkeçirici xassəyə malik olan Sb_2Se_3 kimyəvi birləşməsinin nazik təbəqələrinin statik Volt - Amper xarakteristikası tədqiq edilmiş və məlum olmuşdur ki, bu təbəqələr çevirici material kimi texnikanın müvafiq sahələrində tətbiq oluna bilər.

- Elektroliz üsulu ilə sintez edilən Sb_2Se_3 yarımkeçirici birləşməsinin fotokeçiriciliyi tədqiq edilmişdir. Məlum olmuşdur ki, bu birləşmə fotohəssas materialdır və onun optiki qadağan olunmuş zolağının eni 1,478 eV-a bərabərdir.

ƏDƏBİYYAT

1. Babayev Y.N., Quliyev P.H., Məcidzadə V.A. Stibium selenidin sintez üsulları və xassələrinin tədqiqi // NDU Elmi əsərlər, Təbiət və tibb elmləri seriyası. 2017, № 7 (88), s.67-72
2. Sadıqov F.M., İsmayılov Z.İ., Qənbərova G.T. Tb-Sb-Se sisteminin Sb_2Se_3 - Tb_2Se_3 Kəsiyi Üzrə Fiziki-Kimyəvi Tədqiqi // Bakı Dövlət Universitetinin Xəbərləri, Təbiət Elmləri Seriyasi. 2012, №2, s.14-18
3. Вирт И.С., Рудый И.А., Курило И.В. *и* др. Свойства тонких пленок Sb_2S_3 и Sb_2Se_3, полученных методом импульсной лазерной абляции. Физика и техника полупроводников. 2013, том 47, вып. 7, с.997-1001
4. Juan Lu, Qiaofeng Han, Xujie Yang, Lude Lu, Xin Wang. Preparation of ultra-long Sb_2Se_3 nanoribbons via a short-time solvothermal process // Materials Letters, 2008, V. 62, 16, p.2415-2418
5. Liu Y.Q., Zhang M., Wang F.X., Pan G.B. Facile Microwave-Assisted Synthesis of Uniform Sb_2Se_3 Nanowires for High Performance Photodetectors // J. Mater. Chem. C, 2014, 2, p.240

RUHİYYƏ CƏFƏROVA
ruhiyeceferova@ndu.edu.az
AYTƏN İSMAYILOVA
aytanismayilova22@gmail.com
Naxçıvan Dövlət Universiteti

VEYL AKSİOMATİKASI ƏSASINDA DÜZ XƏTLƏRƏ VƏ MÜSTƏVİLƏRƏ AİD BƏZİ MƏSƏLƏLƏRİN HƏLLİ

Həndəsənin aksiomatik qurulması yolunun əsası Evklid tərəfindən qoyulmuş, sonra isə D.Hilbert tərəfindən inkişaf etdirilmişdir (1899). Həndəsənin aksiomatik qurulması istiqamətində digər müxtəlif alimlər tərəfindən fərqli aksiomlar sistemi təklif edilmişdir. Məsələn, həndəsənin aksiomatik qurulmasının tamamilə fərqli bir yolu 1918-ci ildə məşhur alman riyaziyyatçısı H.Veyl tərəfindən təklif edilmişdir. Veyl aksiomlar sistemi əsas altı anlayışı təsvir edir. Bunlardan ikisi: nöqtələr və vektorlar - əsas obyektlər adlanır. "Vektorların toplanması", "vektorun həqiqi ədədə vurulması", "vektorların skalyar hasili" və "vektorun nöqtədən çıxması" anlayışları əsas münasibətlərdi. Düz xətlər, müstəvilər, fiqurların bərabərliyi və s. ilkin anlayışlar və münasibətlər vasitəsilə müəyyən edilir.

Veyl aksiomatikasının sadəliyi, çoxölçülü fəzaların həndəsəsini əsaslandırmaq üçün uyğunluğu, nəzəriyyənin xətti cəbr əsasında alqoritmləşdirilməsi müasir həndəsədə və onun tətbiqlərində ən çox istifadə olunmasına səbəb oldu. Vektor fəzalarının istifadəsi qeyri-Evklid fəzalarının aksiomatikasının "Veyl ruhunda" qurulmasına və müxtəlif həndəsələrin vahid qaydada əsaslandırılmasına imkan verir.

Veyl aksiomlar sisteminin tətbiqi ilə həndəsənin, o cümlədən müxtəlif elm sahələrinin problemləri daha asanlıqla həll edilir. Bu məqalənin mövzusu Evklid həndəsəsinin Veyl aksiomlar sistemi əsasında vektor əsaslandırılmasına aiddir. Mövzu kifayət qədər aktualdır, bu onunla izah olunur ki, yeni riyaziyyat proqramının tələblərinə uyğun olaraq vektor anlayışı məktəb riyaziyyat kursunda aparıcı anlayışlardan birinə çevrilib.

Açar sözlər: *nöqtə, vektor, məsafə, müstəvi, tənlik*

Müasir riyaziyyatın fundamental anlayışlarından biri vektor və onun ümumiləşdirilməsi - tenzordur. Vektor anlayışının təkamülü bu konsepsiyanın riyaziyyatın, mexanikanın, eləcə də texnologiyanın müxtəlif sahələrində geniş tətbiqi sayəsində həyata keçirilmişdir.

Vektor hesabının və onun tətbiqlərinin sürətli inkişafı sayəsində vektor cəbri və vektor analizi, vektor fəzasının ümumi nəzəriyyəsi yaradılmışdır. Bu nəzəriyyələr müasir fizikada son dərəcə mühüm rol oynayan xüsusi və ümumi nisbilik nəzəriyyələrini qurmaq üçün istifadə edilmişdir.

Həndəsə kursunda problemlərin vektor üsulu ilə həllinin araşdırılmasına çox az vaxt ayrılır. Dərslərdə yalnız bir neçə problem təhlil edilir və həll edilir. Problemlərin həllinin vektor üsulu olduqca mürəkkəbdir, bir neçə dərsdə onun mənasını başa düşmək və qavramaq mümkün deyil. Belə ki, tələbələr problemlərin həllinin bu üsulunu tam mənimsəyə bilmirlər. Ali təhsilin kurikulumunda da bu mövzunun öyrənilməsinə bir neçə saat vaxt ayrılır. Bu şəkildə həll edilməli olan problemlə qarşılaşdıqda həm tələbə, həm də şagird öz qarşısında mürəkkəb, bəzən həll olunmayan problem görürlər. Bu həll metodunu mənimsəmək üçün məsələlərin həllinin vektor metodunun əsaslarını öyrənmək lazımdır.

1918-ci ildə məşhur riyaziyyatçı H.Veyl Evklid həndəsəsinin "vektor" əsaslandırması adlanan aksiomatik nəzəriyyəni təklif etdi. Evklid həndəsəsinin "vektor" əsaslandırmasında o, köməkçi struktur kimi elementləri nöqtələr fəzasında operator rolunu oynayan Evklid vektor fəzasından istifadə edir.

Vektor fəzasının ölçüsü nöqtə fəzasının ölçüsünü müəyyən edir. Veyl aksiomatikası Evklid (nöqtə) fəzası nəzəriyyəsini xətti cəbrin dilinə çevirir.

Veyl aksiomatik nəzəriyyəsində əsas anlayışlar nöqtə və vektor, əsas münasibətlər isə vektorların cəmi, vektorun həqiqi ədədə hasili, vektorların skalyar hasili və vektorun bir nöqtədən çəkilməsidir. Düz xətlər, müstəvilər, fiqurların bərabərliyi və s. ilkin anlayışlar və münasibətlər vasitəsilə müəyyən edilir.

Bu işin yazılmasında əsas məqsəd Evklid həndəsəsinin vektor əsaslandırılması ilə tanış olmaq və vektor üsulu ilə həll edilən məsələlərin əsas növlərini nəzərdən keçirməkdir.

Vektor üsulu ilə həll olunan bəzi məsələlər

1. *İki nöqtədən keçən düz xəttin tənliyi.*

Tutaq ki, fəzada ümumi Dekart koordinat sistemi və koordinatları uyğun olaraq (x_1, y_1, z_1) və (x_2, y_2, z_2) olan iki M_1 və M_2 nöqtəsi verilmişdir. M_1M_2 düz xəttinin tənliyini yazmaq üçün başlanğıc nöqtəsi kimi M_1-i, istiqamət vektoru kimi isə $\overline{M_1M_2}$-ni götürək. Nöqtələr üst-üstə düşmürsə, bu vektor sıfırdan fərqlidir. M_1M_2 düz xəttinin üzərində $M(x, y, z)$ nöqtəsini qeyd edək. Onda $\overline{M_1M}$ vektorunun koordinatları $(x - x_1, y - y_1, z - z_1)$, $\overline{M_1M_2}$ vektorunun koordinatları $(x_2 - x_1, y_2 - y_1, z_2 - z_1)$ olar. $\overline{M_1M}$ və $\overline{M_1M_2}$ vektorları kollineardı.

Nəticədə,

$$\frac{x - x_1}{x_2 - x_1} = \frac{y - y_1}{y_2 - y_1} = \frac{z - z_1}{z_2 - z_1}$$

alınır. Bu isə verilmiş iki nöqtədən keçən düz xəttin tənliyidir.

Bu bərabərliklərdə məxrəclərdən hər hansı biri sıfıra bərabərdirsə, müvafiq sürəti sıfıra bərabərləşdirmək lazımdır.

Məsələ planimetriyada da belə həll olunur. Fərq ondadır ki, nöqtələrin koordinatları (x_1, y_1) və (x_2, y_2) olur:

$$\begin{vmatrix} x - x_1 & y - y_1 \\ x_2 - x_1 & y_2 - y_1 \end{vmatrix} = 0.$$

2. *Üç nöqtədən keçən müstəvinin tənliyi.*

Tutaq ki, fəzada ümumi koordinatları uyğun olaraq (x_1, y_1, z_1), (x_2, y_2, z_2) və (x_3, y_3, z_3)olan, bir düz xətt üzərində olmayan üç M_1, M_2 və M_3 nöqtələri verilmişdir. Başlanğıc nöqtə kimi M_1-i, istiqamətləndirici vektorları kimi isə $\overline{M_1M_2}$ və $\overline{M_1M_3}$-ü seçək. Onda müstəvinin tənliyini alırıq:

$$\begin{vmatrix} x - x_1 & y - y_1 & z - z_3 \\ x_2 - x_1 & y_2 - y_1 & z_2 - z_1 \\ x_3 - x_1 & y_3 - y_1 & z_3 - z_1 \end{vmatrix} = 0.$$

3. *Düz xəttin və müstəvinin paralelliyi.*

Tutaq ki, $\bar{a}(a_1, a_2, a_3)$ düz xəttinin istiqamətləndirici vektoru məlumdur. Müstəvinin tənliyi isə $(\bar{r} - \bar{r}_0, \bar{n}) = 0$ və ya $(\bar{r} - \bar{r}_0, \bar{p}, \bar{q}) = 0$ tənliyi ilə verilmişdir. Düz xətt müstəviyə paraleldirsə və ya onun üzərindədirsə, onda uyğun olaraq $(\bar{a}, \bar{n}) = 0$ və ya $(\bar{a}, \bar{p}, \bar{q}) = 0$. Əgər müstəvinin tənliyi $Ax+By+Cz+D=0$ şəklində verilmişdirsə, onda paralellik şərti $Aa_1 + Ba_2 + Ca_3 = 0$ kimi olur.

Tutaq ki, düz xətt tənliklər sistemi ilə verilmişdir:

$$\begin{cases} A_1x + B_1y + C_1z + D_1 = 0, \\ A_2x + B_2y + C_2z + D_2 = 0. \end{cases}$$

Onda:


$$A\begin{vmatrix} B_1 & C_1 \\ B_2 & C_2 \end{vmatrix} + B\begin{vmatrix} C_1 & A_1 \\ C_2 & A_2 \end{vmatrix} + C\begin{vmatrix} A_1 & B_1 \\ A_2 & B_2 \end{vmatrix} = 0$$

və ya

$$\begin{vmatrix} A & B & C \\ A_1 & B_1 & C_1 \\ A_2 & B_2 & C_2 \end{vmatrix} = 0.$$

Burada verilən bütün şərtlər təkcə zəruri deyil, həm də kafidir.

4. *Nöqtədən müstəviyə qədər olan məsafə.*



Şəkil 1.

Tutaq ki, müstəvi $(\vec{r} - \vec{r_0}, \vec{n})=0$ tənliyi ilə və M nöqtəsi isə $\bar{R}$ radius vektoru ilə verilmişdir. Müstəvinin M_0 nöqtəsini M nöqtəsi ilə birləşdirən $\overline{M_0M} = \bar{R} - \bar{r}_0$ vektorunu nəzərdən keçirək (şəkil 1). Nöqtədən müstəviyə qədər olan məsafə onun $(\vec{n})$ vektoru (müstəvinin normal vektoru) üzərinə skalyar proyeksiyasının moduluna bərabərdir, yəni

$$h = \frac{|(\bar{R} - \bar{r}_0), \bar{n}|}{|\bar{n}|}.$$

Düzbucaqlı Dekart koordinat sistemində M nöqtəsinin (x,y,z) koordinatları verilərsə, onda bərabərlik aşağıdakı kimi yazılacaq

$$h = \frac{|Ax + By + Cz + D|}{\sqrt{A^2 + B^2 + C_2}}$$

5. *Nöqtədən düz xəttə qədər olan məsafə.*

Tutaq ki, düz xətt $[\bar{R} - \bar{r}_0, \bar{a}] = 0$ tənliyi ilə və M nöqtəsi isə $\bar{R}$ radius vektoru ilə verilmişdir. M nöqtəsindən düz xəttə qədər olan h məsafəsini tapaq. $\bar{R} - \bar{r}_0$ və $\bar{a}$ vektorları üzərində qurulan paraleloqramın sahəsini onun tərəfinin uzunluğuna bilməklə h-ı tapırıq:

$$h = \frac{[(\bar{R} - \bar{r}_0), \bar{a}]}{|\bar{a}|}.$$

Nəticə

İşin məqsədi Evklid həndəsəsinin vektor əsaslandırması olan Veyl aksiomatikası ilə tanış olmaq və vektor üsulu ilə həll edilən məsələlərin bəzi növlərini nəzərdən keçirməkdir.

Bu işi yazarkən aşağıdakı məsələlər həll edildi:

- Veyl aksiomatikası öyrənilmişdir;
- məktəb həndəsə kursu ilə Veyl aksiomatikası arasında əlaqə öyrənilmişdir;
- vektor üsulu ilə həll olunan bəzi məsələlər nəzərdən keçirilmişdir.

Bu işi yazmaq nəticəsində nəinki işin mövzusu ilə bağlı nəzəri materialı öyrənilir, həm də vektor metodundan istifadə etməklə məktəb həndəsə kursunun əsas problemlərinin necə həll edildiyi, həmçinin daha mürəkkəb məsələlərin həlli yolları öyrənilmişdir.

ƏDƏBİYYAT

1. Беклемишев Д.В., Курс аналитической геометрии и линейной алгебры, М., Физматлит, г. 2004
2. Беклемишева Л.А., Сборник задач по аналитической геометрии и линейной алгебре: М.: Физматлит, г.2003
3. Həsənov A.İ. Elementar riyaziyyat. Dərslik, Bakı: 2021
4. Həsənov A.İ. Elementar riyaziyyat-Həndəsə. Naxçıvan: 2020

SUMMARY

Ruhiyya Jafarova, Ayten Ismayilova

SOLVING SOME PROBLEMS WITH RESPECT TO LINES AND PLANES BASED ON WEYL'S AXIOMATICS

The traditional way of constructing geometry, proposed by Euclid and established by D. Hilbert in his “Axiomatics of Geometry” (1899), is very popular, but this way is not the only one. For example, a completely different way of constructing geometry was proposed by the famous German mathematician G. Weyl in 1918. Weyl’s system of axioms describes six basic concepts. Two of them-points and vectors-are called base objects. The main relations were the concepts of “vector addition”, “multiplying a vector by a real number”, “scalar product of vectors” and “moving a vector from a point”. Straight lines, planes, equality of figures, etc. are determined through initial concepts and relationships.

The simplicity of the axiomatics, its suitability for justifying the geometry of multidimensional spaces and the algorithmization of the theory based on linear algebra made Weyl's axiomatics the most widely used in modern geometry and its applications. The use of vector spaces makes it possible to establish the axiomatics of non-Euclidean spaces in the “Weyl spirit” and uniformly justify various geometries.

The topic of this article concerns the vector justification of Euclidean geometry. The topic is quite relevant in the modern world, which is explained by the fact that, in accordance with the requirements of the new mathematical program, the concept of a vector has become one of the leading concepts in the school mathematics course.

Key words: *point, vector, distance, plane, equation*

JALƏ CƏFƏROVA
jale.jafarova.00@mail.ru
Naxçıvan Dövlət Universiteti

FUNKSİYALARIN XƏTTİ MÜSBƏT OPERATORLARLA YAXINLAŞMASI TƏRTİBİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məqalədə funksiyaların xətti operatorlarla yaxınlaşması tərtibinin kəsilməzlik modulu vasitəsilə qiymətləndirilməsinin mümkün olduğu haqda teoremlər isbat edilir və həmin teoremdən çıxan nəticələr bir sıra konkret xətti müsbət operatorlara tətbiq olunur. Burada isbat edilən teoremlərin birdəyişənli funksiyalar üçün nəzərdə tutulduğu qeyd olunur və çoxdəyişənli funksiyalar üçün də müvafiq istiqamətlər verilir.

Açar sözlər: *Operator, kəsilməzlik modulu, Lipşis şərti, polinom*

Məlumdur ki, hər bir kəsilməyən f(x) funksiyasını polinomlar vasitəsilə yaxınlaşdırmaq olar. Lakin aparılan mühakimələr və alınan nəticələr onu göstərir ki, xətti müsbət polinomial operatorlar yaxşı diferensial xassələri olmayan, yüksək tərtibdən diferensiallanmayan funksiyalara onların ən yaxşı yaxınlaşması tərtibdən yaxınlaşma verə bilsə də yüksək tərtibdən diferensiallanan funksiyalara xətti müsbət polinomial operatorlar pis yaxınlaşma verir. Ona görə də kəsilməyən f(x) funksiyasının qeyd olunan xassələrindən asılı olmayaraq, $L_n(f,x)$ xətti müsbət operatorları ilə yaxınlaşmasını həmin funksiyaların kəsilməzlik modulu ilə qiymətləndirmək olduqca faydalı olardı.

Tutaq ki, $L_n(f,x)$, C(a,b) fəzasında təyin olunmuş və

$$L_n(1,x)=1 \qquad (1)$$

Şərtini ödəyən xətti müsbət operatorlardır.

$$\mu_n = \max_{0\le x\le b} L_n(|t-x|,x) \qquad (2)$$

işarələməsini qəbul edək.

Teorem 1: Hər bir f(x)∈C(a,b) funksiyası üçün x-in [a,b] parçasında bütün qiymətlərində

$$|L_n(f,x)-f(x)|\le 2\omega(f;\mu_n) \qquad (3)$$

bərabərsizliyi doğrudur.

İsbatı: (1) şərtini ödəyən hər bir müsbət $L_n(f,x)$ operatoru üçün

$$|L_n(f,x)-f(x)| = |L_n\{[f(t)-f(x)],x\}| \le L_n(|f(t)-f(x)|,x)$$

bərabərsizliyi doğrudur. Digər tərəfdən bilirik ki, kəsilməzlik modulu üçün

$$\omega(f,\lambda t)\le(\lambda+1)\omega(f,t)$$

bərabərsizliyi də doğrudur. Onda yaza bilərik:

$$|L_n(f,x)-f(x)|\le L_n[\omega(f;|t-x|),x]\le\omega(f,\mu_n)L_n(\frac{1}{\mu_n}|t-x|+1,x)\le 2\omega(f,\mu_n)$$

Bununla teorem isbat edildi.

İndi isə Lipşis şərtini ödəyən funksiyalar üçün dəqiq bərabərsizliklə bağlı təklifə baxaq:

Teorem 2: f(x) funksiyası [a,b] parçasında

$$|f(t)-f(x)|\le M|t-x|$$

Lipşis şərtini ödəyirsə, onda x-in həmin parçadakı bütün qiymətlərində

$$|L_n(f,x)-f(x)|\le M\mu_n \qquad (4)$$

Bu teoremin isbatı aşkardır.

İndi isə aşağıdakı kimi müsbət xətti operatorlar ardıcıllığı təyin edək.

Tutaq ki, 2π periodlu $K_n(t)\geq 0$ funksiyası

$$\int_{-\pi}^{\pi} K_n(t)dt = 1 \text{ və } K_n(t) \in L_q(-\pi;\pi)$$

şərtlərini ödəyir. (p+q=p·q) Bu funksiya vasitəsilə 2π periodlu funksiyaların $L_p(-\pi,\pi)$ fəzasında

$$W_n(f,x) = \int_{-\pi}^{\pi} f(t)K_n(t-x)dx$$

kimi xətti müsbət operatorlar ardıcıllığı təyin olunur.

Teorem 3: Hər bir $f(x)\in L_p(-\pi,\pi)$ funksiyası üçün

$$\| W_n(f,x) - f(x) \|_{L_p} \leq 2\omega(f,\gamma_n)L_p \qquad (5)$$

bərabərsizliyi doğrudur. Buradan

$$\gamma_n = \int_{-\pi}^{\pi} |t| K_n(t)dt$$

kimi göstərilir.

İsbatı: Şərtə görə

$$\left\|W_n(f,x) - f(x)\right\|_{L_p} = \left\{ \int_{-\pi}^{\pi} | \int_{-\pi}^{\pi} [f(t) - f(x) | K_n(t-x)dt]^p dx \right\}^{\frac{1}{p}}$$

olduğundan, ümumiləşmiş Minkovski bərabərsizliyinə görə

$$\left\|W_n(f,x) - f(x)\right\|_{L_p} \leq \int_{-\pi}^{\pi} K_n(t) \left\{ \int_{-\pi}^{\pi} \left| f(x+t) - f(x) \right|^p dx \right\}^{\frac{1}{p}} dt$$

olur.

Buradan

$$\left\|W_n(f,x) - f(x)\right\|_{L_p} \leq \omega(f,\gamma_n)_{L_p} \left[\int_{-\pi}^{\pi} (1+\frac{|t|}{\gamma_n}) K_n(t)dt \right] = 2\omega(f,\gamma_n)_{L_p} \text{ alınır.}$$

Bununla teorem isbat olundu.

İndi isə isbat etdiyimiz bu teoremləri bir sıra xətti müsbət operatorlara tətbiq edək:

S.N.Bernşteynin

$$B_n(f,x) = \sum_{k=0}^{n} f\left(\frac{k}{n}\right) C_n^k x^k (1-x)^{n-k}$$

operatoru üçün $\mu_n \leq \frac{1}{2\sqrt{n}}$ olduqda (Akılov.K.P və b. 1984) T-I teoremini nəzərə alsaq, aşağıdakı bərabərsizlik doğru olur.

$$\left|B_n(f,x) - f(x)\right| \leq 2\omega\left(f, \frac{1}{2\sqrt{\pi}}\right) \qquad (6)$$

2π periodlu funksiyaların $C(-\pi, \pi)$ fəzasında təyin olunmuş $D_n(f,x)$ cekson operatoruna baxaq və

$$\mu_n \leq \frac{3\pi}{2} \cdot \frac{1}{n} \text{ (Şvars C.Q-1962)}$$

Bu operator üçün teorem 3-ə görə aşağıdakı bərabərsizliyin doğru olduğu alınar:

Hər bir $f(x)\in C(-\pi, \pi)$ funksiyası üçün

$$|D_n(f,x)-f(x)| \le 2\pi(f,\mu_n) < 10\omega\left(f;\frac{1}{n}\right) \qquad (7)$$

Burada $\omega(f,\mu_n) < 5\omega\left(f,\frac{1}{n}\right)$ olduğu nəzərə alınır.

Bütün bu göstərilən faktlar çoxdəyişənli funksiyalara uyğun xətti müsbət operatorlar üçün də oxşar qaydalarla göstərilə bilər.

Məqalədən aşağıdakı mühüm nəticələr alınmışdır:

1. [a,b]-də kəsilməz f(x) funksiyalarının $L_n(f,x)$ operatorları ilə yaxınlaşması həmin funksiyaların kəsilməzlik modulu ilə qiymətləndirilmiş;
2. [a,b]-də Lipşis şərtini ödəyən f(x) funksiyalarının $L_n(f,x)$ operatorları ilə yaxınlaşması həmin funksiyaların kəsilməzlik modulu ilə qiymətləndirilmiş;
3. 2π periodlu f(x) funksiyalarının $(f(x) \in L_p(-\pi,\pi))$ $W_n(f,x)$ xətti müsbət operatorları ilə yaxınlaşması həmin funksiyaların kəsilməzlik modulu ilə qiymətləndirilmiş;
4. Bu teorəmlərin $B_n(f,x)$ (Bernşteyn), $D_n(f,x)$ Cekson xətti müsbət operatorlarına tətbiqləri göstərilmişdir.

ƏDƏBİYYAT

1. Ахиезер Н.И. 1.Лекции по теории аппросимаци. М-1965
2. Колмогоров А.Н., Фомин С.В. Элементи теории функции и функсионального анализа М. «Наука»-1972
3. Конторович Л.В., Акулов Г.П. Функсиональный анализ. М.: «Наука»-1984
4. Донфорд Н., Швари Дж.Г. Линейные операторы. М.: ИЛ.1962
5. Aslanov H.M. Funksiyalar nəzəriyyəsi və funksional analiz. Bakı: 2016
6. Həbibzadə Ə.Ş. Funksional analiz. Bakı: 1978

SUMMARY

Jale Jafarova

EVALUATION OF THE FORMULATION OF APPROXIMATION OF FUNCTIONS WITH LINEAR POSITIVE OPERATORS

In the article, theorems about the possibility of evaluating the approximation of functions with linear operators through the continuity module are proved, and the results of that theorem are applied to a number of specific linear positive operators. It is noted that the theorems proved here are intended for univariate functions, and corresponding directions are also given for multivariate functions.

Key words: *Operator, modulus of continuity, Lipshis condition, polynomial*

Г.Г.КУЛИЕВА
gulnara.quliyeva@sdu.edu.az
С.Е.ХАЛИЛОВА
Сумгаитский Государственный Университет

РЕШЕНИЕ УРАВНЕНИЯ КЛЕЙНА-ФОКА-ГОРДОНА ДЛЯ ПОТЕНЦИАЛА РОЗЕН-МОРСА В СВЯЗАННОМ СОСТОЯНИИ

В данной работе используя успешную схему для преодоления трудностей, возникающих при случае $l \neq 0$ в центробежной части потенциала Розена-Морса для связанных состояний найдено решение модифицированного уравнения Клейна-Фока-Гордона. Определены собственные значения энергии и соответствующие радиальные волновые функции для произвольного значения орбитального квантового числа ().

***Ключевые слова**: потенциал Розена-Морса, метод Никифорова-Уварова, спектральная задача*

В настоящей статье рассмотривается случай, когда взаимодействие недостаточен для создания пар частица-античастица в потенциале Розена-Морса. При этом в уравнении КФГ удается обработывать частицы с нулевым спином с частицей с полу-целым спином при интенсивных внешних полях, что позволяет применять уравнение Дирака. Потенциал Розен-Морса играет важную роль в атомной, молекулярной и химической физике, поскольку она может быть использована для описания молекулярных колебаний и для получения энергетических спектров линейных и нелинейные системы. Потенциал Розен-Морса с тригонометрической функцией имеет применении в объяснении характера кварк-глюонной динамики в квантовой хромодинамике.

Как известно, модифицированный потенциал Розена-Морса определяется в виде (4):

$$V(r) = \frac{V_1}{\cosh^2(\alpha r)} - \frac{V_2 \sin h(\alpha r)}{\cosh^2(\alpha r)}. \qquad (1)$$

Здесь V_1, V_2 определяют глубину потенциала и α параметры экранирования. Для скалярного $S(r)$ и векторного $V(r)$ потенциалов уравнение КФГ в атомных единицах $(\hbar = c = 1)$ в сферической системе координат определяется в виде:

$$\left[-\nabla^2 + (M + S(r))^2\right]\psi(r,\theta,\varphi) = [E - V(r)]^2 \psi(r,\theta,\varphi), \qquad (2)$$

где M – масса покоя скалярной частицы, E – энергия релятивистской частицы. В уравнении (10) волновую функцию $\psi(r,\theta,\varphi)$ в сферической системе координат можно взять в следующей форме:

$$\psi_{nlm}(r,\theta,\varphi) = \frac{\chi_{nl}(r)}{r} Y_{lm}(\theta,\varphi), \qquad (3)$$

здесь $Y_{\ell m}(\theta,\varphi)$ является сферически гармонической функцией.

Подставляя функцию (3) в уравнение (2), радиальное уравнение КФГ можно переписать в следующем виде:

$$\chi''(r) + \left[E^2 - M^2 - 2\left(MS(r) + EV(r)\right) + \left(V^2(r) - S^2(r)\right) - \frac{\ell(\ell+1)}{r^2}\right]\chi(s) = 0. \qquad (4)$$

Для решения уравнения (4) по методу Никифоров-Уварова (2) мы вводим новые переменную $s = \sinh(\alpha r)$, тогда получим:

$$\frac{d}{dr}=\frac{d}{dr}\frac{d}{dz}=\alpha\cos h(\alpha r)\frac{d}{dz}=\alpha\sqrt{1+z^2}\,\frac{d}{dz},$$
$$\frac{d^2}{dr^2}=(1+z^2)\alpha^2\frac{d^2}{dz^2}+\alpha^2 z\frac{d}{dz}. \qquad (5)$$

Теперь учитывая (4) в (5), тогда получим:

$$(1+z^2)\alpha^2\frac{d^2}{dz^2}\chi(z)+\alpha^2 z\frac{d\chi(z)}{dz}+$$
$$+\left[E^2-M^2-2\left(MS(z)+EV(z)\right)+\left(V^2(z)-S^2(z)\right)-\frac{l(l+1)}{arc\sin h^2(z)}\right]\chi(z)=0 \qquad (6)$$

Уравнение (6) после простых упрощений можно переписать в виде:

$$\left(1+z^2\right)\chi''(z)+z\chi'(z)+\frac{1}{\alpha^2}\left[E^2-M^2-2\left(MS(z)\right)+EV(z)\right)+$$
$$+\left(V^2(z)-S^2(z)\right)-\frac{l(l+1)\alpha^2}{arc\sinh^2(z)}\Bigg]\chi(z). \qquad (7)$$

Подставляя новую переменную $z=\sinh(\alpha r)$ в выражение (1), для потенциала Розена-Морса тогда получим:

$$V(z)=\frac{V_1}{1+z^2}-\frac{V_2 z}{1+z^2} \qquad (8)$$

Теперь кратко проанализируем поведение потенциала. Для нахождения связанного состояния необходимо найти минимум точки потенциала из условия $dV/dz=0$. Потенциал (8) в случае $V_2>0$ будет иметь минимум в точке

$$z=z_0=\frac{V_1}{V_{21}}+\frac{\sqrt{V_1^2+V_2^2}}{V_2}>0. \qquad (9)$$

С другой стороны известно, что уровни энергий связанных состояний, в основном, определяются поведением эффективного потенциала в регионе вблизи минимальной точки потенциала. Для этого мы введем новую переменную в виде $x=z-z_0$ и преобразуем $1/\operatorname{arcsin} h^2(z)$ в следующий вид:

$$\frac{1}{arc\sinh^2(z)}=\frac{1}{arc\sinh^2(z_0+x)}, \qquad (10)$$

а функцию $1/arc\sin h^2(z_0+x)$ разложим в ряд Тейлора вблизи точки $x=0$ до членов разложения второго порядка. Тогда получим следующие выражения:

$$\frac{1}{\operatorname{arcsin} h^2(z)}=\frac{1}{\operatorname{arcsin} h^2(z_0)}-\frac{2x}{\sqrt{1+z_0^2}\cdot\operatorname{arcsin} h^2(z_0)}+$$
$$+\frac{3x^2}{(1+z_0^2)\operatorname{arcsin} h^4(z_0)}+\frac{z_0x^2}{(1+z_0^2)^{3/2}\operatorname{arcsin} h^3(z_0)}+\ldots \qquad (11)$$

Также мы можем $1/\operatorname{arcsin} h^2(z)$ выразить в виде:

$$\frac{1}{\operatorname{arcsin} h^2(z)}=\frac{c_0+c_1(x+z_0)+c_2(x+z_0)^2}{1+(z_0+x)^2} \qquad (12)$$

Теперь разложим правую сторону уравнения (4) в ряд Тейлора вблизи точки $x=0$ и сравним полученное с (3), тогда для c_0, c_1 и c_2 получаем:

$$c_0 = \frac{3x^2}{(1+z_0^2)\arcsin h^4(z_0)} - \frac{(z_0^2-2)z_0}{\sqrt{z_0^2+1}\cdot\arcsin^3(z_0)} + \frac{1}{\arcsin h^2(z_0)} \quad (13)$$

$$c_1 = \frac{4z_0^2-2}{\sqrt{z_0^2+1}\arcsin h^3(z_0)} - \frac{6z_0}{\arcsin h^4(z_0)}, \quad (14)$$

$$c_2 = \frac{1}{\arcsin h^2(z_0)} + \frac{3}{\arcsin h^4(z_0)} - \frac{3z_0}{\sqrt{z_0^2+1}\arcsin h^3(z_0)} \quad (15)$$

Подставляя выражении (13-15) в уравнение (7) имеем:

$$(1+z^2)\chi''(z) + z\chi'(z) + \frac{1}{\alpha^2}\Big[E^2 - M^2 - 2(MS(z)+EV(z)) + \\ + (V^2(z) - S^2(z)) - \frac{l(l+1)\alpha^2}{1+z^2}(c_0 + c_1 z + c_2 z^2)\Big]\chi(z) = 0 \quad (16)$$

В уравнение (16) мы вводим новые обозначения чтобы переписать дифференциальное уравнения в более компактном виде:

$$\varepsilon = \sqrt{c_2 l(l+1) - \frac{E^2-M^2}{\alpha^2}}, \quad (17)$$

$$\beta^2 = l(l+1)(c_0 - c_2) + \frac{2V_0(E+M)}{\alpha^2}, \quad (18)$$

$$\gamma^2 = \frac{2V_1(E+M)}{\alpha^2} - c_1 l(l+1). \quad (19)$$

Для решения уравнения (16) методом Никифорова-Уварова необходимо преобразовать к гипергеометрическому уравнению, которое имеет вид:

$$\chi''(s) + \frac{\tilde{\tau}(s)}{\sigma(s)}\chi'(s) + \frac{\tilde{\sigma}(s)}{\sigma^2(s)}\chi(s) = 0. \quad (20)$$

Учитывая выражения (17-19) в уравнение (16), получаем:

$$(1+z^2)\chi''(z) + z\chi'(z) - \left(\varepsilon^2 + \frac{\beta - \gamma z}{1+z^2}\right)\chi(z) = 0. \quad (21)$$

Чтобы уравнению (21) придать форму уравнения (20) введем новую переменную $z = is$. В следствии из уравнения (21) получим:

$$\chi''(s) - \frac{s}{1-s^2}\chi'(s) + \frac{1}{(1-s^2)^2}\left[\beta^2 + is\gamma^2 + (1-s^2)\varepsilon^2\right]\chi'(s) = 0 \quad (22)$$

Теперь мы можем успешно применить метода Никифорова-Уварова [1] для решения уравнения (22). Сравнивая уравнение (22) с уравнением (20), для $\tilde{\tau}(s)$, $\sigma(s)$ и $\tilde{\sigma}(s)$, получаем:

$$\bar{\tau}(s) = -s, \quad \sigma(s) = 1-s^2, \quad \tilde{\sigma}(s) = \beta^2 + i\gamma^2 s + (1-s^2)\varepsilon^2 \quad (23)$$

Для функция $\pi(s)$ получаем:

$$\pi(s) = -\frac{s}{2} \pm \sqrt{\left(\frac{1}{4} + \varepsilon^2 - k\right)s^2 - i\gamma^2 s - (\varepsilon^2 + \beta^2 - k)}. \quad (24)$$

$$\pi(s) = -\frac{s}{2} \pm \begin{cases} \sqrt{F_+}\, s - G_+, \; k = \varepsilon^2 + \frac{1}{8}\left((1+4\beta^2) - \sqrt{(1-4\beta^2)^2 + 16\gamma^4}\right) \\ \sqrt{F_-}\, s - G_-, \; k = \varepsilon^2 + \frac{1}{8}\left((1+4\beta^2) + \sqrt{(1-4\beta^2)^2 + 16\gamma^4}\right) \end{cases} \quad (25)$$

Здесь $F_\pm$ и $G_\pm$ определяются в виде:

$$F_{\pm}=\frac{1}{8}\left(1-4\beta^2\pm\sqrt{(1-4\beta^2)^2+16\gamma^4}\right) \tag{26}$$

$$G_{\pm}=\sqrt{2}\gamma^2\left(4\beta^2-1\mp\sqrt{(1-4\beta^2)^2+16\gamma^4}\right)^{-\frac{1}{2}} \tag{27}$$

$$k=\varepsilon^2+\frac{1}{8}\left((1+4\beta^2)-\sqrt{(1-4\beta^2)^2+16\gamma^4}\right) \tag{28}$$

Как видно из выражения (25) полином $\pi(s)$ имеет четыре возможных значения по методу NU, но мы выбираем то значение $\pi(s)$, для которого функция $\tau(s)$ имеет отрицательную производную. Другие значения не подходят физически. Следовательно, соответствующие функции $\pi(s)$ и $\tau(s)$ имеют вид:

$$\pi(s)=-\frac{s}{2}\pm\left(\sqrt{F_+}s-G_+\right) \tag{29}$$

$$\tau(s)=\tilde{\tau}(s)+2\pi(s)=-2(1-\sqrt{F_+})s-2G_+ \tag{30}$$

Собственные значении энергии определяется в виде:

$$\varepsilon^2=\frac{1}{4}\left[2n+1-2\sqrt{F_+}\right]^2 \tag{31}$$

Выражение (17) для ε подставляя в (31) для спектра энергии находим:

$$M^2-E^2=C_2l(l+1)\alpha^2-\frac{\alpha^2}{4}\left[2n+1-2\sqrt{\left[(1-4\beta^2)\pm\sqrt{(1-4\beta^2)^2+16\gamma^4}\right]}\right]^2. \tag{32}$$

Радиальное волновой функции $\chi(s)$ получаем:

$$\chi(s)=C_{nl}(1+s)^{(1/4-B/2)}(1-s)^{(A/2-1/4)}\frac{\Gamma(n+A+1)}{\Gamma(A+1)}{}_2F_1(-n,\,1+n-\frac{1}{\sqrt{2}}\sqrt{1-4\beta+\sqrt{(1-4\beta)^2+16\gamma^2}},1-\frac{1}{2}\sqrt{1-4\beta-4i\gamma};\frac{1}{2}(1-s)). \tag{33}$$

C_n нормирующая постоянная находится из условия нормированности и получаем:

$$C_n=\sqrt{\frac{2\alpha n!(n+\frac{A}{4}-\frac{B}{4}+\frac{1}{2})\Gamma(\frac{A}{2}-\frac{B}{2}+\frac{1}{2}+n)\Gamma(\frac{A}{2}+\frac{7}{4})}{(n-\frac{B}{4}+\frac{1}{8})\Gamma(n+\frac{A}{2}+\frac{7}{4})\Gamma(\frac{A}{2}+\frac{3}{4})\Gamma(n-\frac{B}{2}-\frac{1}{8})}}. \tag{34}$$

В этой работе мы получили собственные значения энергии и соответствующие собственные функции для произвольных $l\neq 0$ состояний путем решения модифицированного радиального уравнения Клейна-Фока-Гордона для потенциала Розен-Морса с использованием метода Никифорова-Уварова.

ЛИТЕРАТУРА

1. Nikiforov A.F., Uvarov V.B. Special Functions of Mathematical Physics, (Birkh auser, Basel 1988)
2. Greiner W. Relativistic Quantum Mechanics, 3ed. edition Berlin, Springer, 2000
3. Ahmadov A.I., Aydin C., Uzun O. // Int. J. Modern. Phys. A 29, 1450002 (2014)
4. Orudjev G.S., Ismayilova N.A. // Advanced Physical Research Vol.1, No.1, 37 (2019)
5. Ahmadov A.I., Demirchi M., Aslanova S.M., Mustamin M.F. // Phys. Lett. A, 384, 126372 (2020)
6. Nagiyev Sh. M., Ahmadov A.I.. // Int. J. Mod. Phys. A 34, no.17, 1950089 (2019)
7. Ahmadov A.I., Nagiyev Sh.M., Qocayeva M.V., Uzun K., Tarverdiyeva V.A. // Int. J. Mod. Phys. A 33, 1850203 (2018)

SUMMARY

G.G.Gulieva, S.E.Khalilova

SOLUTION OF THE KLEIN-FOCK-GORDON EQUATION FOR THE POTENTIAL ROSEN-MORSE IN A BONDED STATE

In the present work an analytical solution for bound states of the Klein-Fock-Gordon equation is found for the modified Rosen-Morse potential. To overcome the difficulties arising in the case $l \neq 0$ in the centrifugal part of the Rosen-Morse for bound states, we applied the developed approximation. Analytical expressions for the energy eigenvalue and the corresponding radial wave functions for an arbitrary value $l \neq 0$ of the orbital quantum number are obtained. It is shown that energy levels and eigenfunctions are very sensitive to the choice of potential parameters and orbital and radial quantum numbers.

Key words: Rosen-Morse potential, Nikiforov-Uvarov, spectral problem

RUHİYYƏ CƏFƏROVA
ruhiyeceferova@ndu.edu.az
TƏRANƏ HÜSEYNOVA
terane0435@gmail.com
Naxçıvan Dövlət Universiteti

VEYL AKSİOMATİKASI ƏSASINDA EVKLİD HƏNDƏSƏSİNİN BƏZİ TEOREMLƏRİNİN İSBATI

Əsası Evklid tərəfindən qoyulan, sonra isə D.Hilbert tərəfindən inkişaf etdirilən (1899) həndəsənin aksiomatik qurulması yolu çox məşhurdur, lakin bu yol yeganə deyil. Belə ki, məsələn, həndəsənin aksiomatik qurulması tamamilə fərqli və səmərəli bir yolu 1918-ci ildə məşhur alman riyaziyyatçısı H.Veyl tərəfindən təklif edilmişdir. Veyl aksiomatikasını bəzən nöqtə-vektor aksiomatikası adlandırırlar.

Veyl aksiomatikası Hilbertin aksiomatikasından daha sadədir. Bundan başqa, Evklid həndəsəsinin Veyl aksiomatikası müasir riyaziyyatın müxtəlif sahələri ilə daha sıx bağlı olduğundan və geniş tətbiq edilmə imkanlarına malik olduğundan digər aksiomlar sisteminə nisbətən üstünlük təşkil edir.

Riyaziyyatın fundamental anlayışlarından biri vektor və onun ümumiləşdirilməsi olan - tenzordur. Vektor anlayışının daxil edilməsi və inkişafı vektor cəbri və vektor analizi, vektor fəzasının ümumi nəzəriyyəsinin yaradılmasına səbəb oldu və riyaziyyatın, mexanikanın, eləcə də texnologiyanın müxtəlif sahələrində geniş tətbiqini tapmışdır. Bu nəzəriyyələr müasir fizikada son dərəcə mühüm rol oynayan xüsusi və ümumi nisbilik nəzəriyyələrini qurmaq üçün istifadə edilmişdir.

Veyl aksiomatikasının tətbiqləri ilə həndəsənin, həmçinin elementar həndəsənin, vektor analizinin və s.-nin bir çox problemləri daha asanlıqla həll edilir. Bu məqalədə də elementar həndəsənin bəzi teoremlərinin Veyl aksiomatikasının tətbiqi ilə isbatı öyrənilmişdir.

Açar sözlər: *teorem, elementar həndəsə, Veyl, aksiom*

Giriş

1918-ci ildə alman riyaziyyatçısı H.Veyl Evklid həndəsəsinin nöqtə-vektor aksiomatikasını təklif etdi. Bu aksiomatikada əsas obyektlər nöqtələr və vektorlardır. Veyl aksiomatikası Hilbertin aksiomatikasından daha sadədir, lakin sonuncudan fərqli olaraq qapalı deyil. Burada həqiqi ədəd anlayışının məlum olduğu güman edilir, yəni aksiomları təqdim edərkən R həqiqi ədədlər meydanı verilmiş hesab olunur.

Veyl aksiomlar sistemi altı əsas anlayışı təsvir edir. Əsas anlayışlardan - nöqtələr və vektorları - əsas obyektlər adlanır. Vektorların toplanması, vektorların ədədə vurulması, vektorların skalyar hasili və vektorun nöqtədən çəkilməsi əsas münasibətlərdi. Veyl aksiomları beş qrupa bölünür və ilk üç və dörd qrupun aksiomları müvafiq olaraq afin və Evklid vektor fəzalarının aksiomlarını təşkil edir.

Veyl aksiomlar sisteminin bütün aksiomları 5 qrupa bölünür:

I. Birinci qrup 4 aksiomadan ibarətdir və vektorların toplanması əməlinin əsas xassələri verilir;

II. İkinci qrup vektorun ədədə vurulması əməlinin əsas xassələrini təsvir edən 4 aksiomadan ibarətdir;

III. Üçüncü qrup vektorun ölçüsünü təsvir edən iki aksiomdan ibarətdir;

IV. Dördüncü qrup 4 aksiomdan ibarətdir və vektorların skalyar hasilinin əsas xassələrini təsvir edir;

V. Son üç aksiom vektorun bir nöqtədən çıxması əməliyyatının əsas xassələrini irəli sürür.

Veyl aksiomatikanın sadəliyi, çoxölçülü fəzaların həndəsəsini əsaslandırmaq üçün uyğunluğu, xətti cəbr əsasında nəzəriyyənin alqoritmləşdirilməsi müasir həndəsədə və onun tətbiqlərində ən çox


istifadə olunmasına səbəb oldu. Vektor fəzalarının istifadəsi qeyri-Evklid fəzalarının aksiomatikasının "Veyl ruhunda" qurulmasına və müxtəlif həndəsələrin vahid qaydada əsaslandırılmasına imkan verir.

Bu məqalənin mövzusu da Evklid həndəsəsinin vektor əsaslandırılmasına aiddir. Mövzu kifayət qədər aktualdır. Bu onunla izah olunur ki, yeni riyaziyyat proqramının tələblərinə uyğun olaraq vektor anlayışı məktəb riyaziyyat kursunda aparıcı anlayışlardan birinə çevrilib.


Evklid həndəsəsinin bəzi teoremlərinin vektor əsaslandırılması ilə isbatı

Teorem. Rombun diaqonalları qarşılıqlı perpendikulyardır.

İsbatı. *ABCD* verilmiş rombdur (şəkil 1). $\overline{AB}=\bar{a}$, $\overline{BC}=\bar{b}$ işarə edək.



Şəkil 1.



Şəkil 2.

Rombun tərifinə görə: $\overline{AB}=\overline{DC}=\bar{a}$, $\overline{BC}=\overline{AD}=\bar{b}$. Vektorların cəmi və fərqinin tərifinə görə:

$$\overline{AC}=\bar{a}+\bar{b},\quad \overline{DB}=\bar{a}-\bar{b}.$$

$\overline{AC}\cdot\overline{DB}$ skalyar hasilinə baxaq.

$$\overline{AC}\cdot\overline{DB}=(\bar{a}+\bar{b})\cdot(\bar{a}-\bar{b})=\bar{a}^2-\bar{b}^2.$$

Rombun tərəfləri bərabər olduğuna görə $\bar{a}^2=\bar{b}^2$. Deməli, $\overline{AC}\cdot\overline{DB}=0$. Buradan da $\overline{AC}\perp\overline{DB}$ olduğu alınır.

Teorem (kosinuslar teoremi). Tutaq ki, *ABC* üçbucağı verilmişdir (şəkil 2). $\overline{AB}=\bar{c}$, $\overline{AC}=\bar{b}$, $\overline{BC}=\bar{a}$.

Üçbucaq bərabərliyinə görə $\bar{c}=\bar{a}-\bar{b}$. Bu bərabərliyin hər iki tərəfini kvadrata yüksəltsək, alarıq:

$$\bar{c}^2=(\bar{a}-\bar{b})^2=\bar{a}^2+\bar{b}^2-2\bar{a}\cdot\bar{b} \text{ və ya } c^2=a^2+b^2-2ab\cos\alpha.$$

Bu düsturlar kosinuslar teoremini ifadə edir.

Teorem (sinuslar teoremi). Şəkil 2-dən

$$\bar{c}=\bar{a}-\bar{b}. \qquad (1)$$

Bu bərabərliyin hər iki tərəfini $\bar{a}+\bar{b}$ -yə skalyar vursaq:

$$\bar{c}\cdot(\bar{a}+\bar{b})=(\bar{a}-\bar{b})\cdot(\bar{a}+\bar{b})\Rightarrow\bar{c}\cdot\bar{a}+\bar{c}\cdot\bar{b}=\bar{a}^2-\bar{b}^2\Rightarrow$$

$$\ldots\ldots\Rightarrow ca\cos\angle B+cb\cos\angle A=a^2-b^2. \qquad (2)$$

$$\bar{c}\cdot\bar{c}=\bar{c}\cdot\bar{a}-\bar{c}\cdot\bar{b}\Rightarrow c=a\cos\angle B-b\cos\angle A. \qquad (3)$$

(2) və (3) bərabərliklərindən:

$$a^2\cos^2\angle B-b^2\cos^2\angle A=a^2-b^2. \qquad (4)$$

(4) bərabərliyindən

$$b^2\sin^2\angle A=a^2\sin^2\angle B. \qquad (5)$$

Bu qayda ilə

$$c^2\sin^2\angle A=a^2\sin^2\angle C. \qquad (6)$$

(5) və (6) bərabərliklərindən

$$\frac{a}{\sin\angle A}=\frac{b}{\sin\angle B}=\frac{c}{\sin\angle c}$$

sinuslar teoremini ifadə edən düstiru alırıq.

Üç perpendikulyar teoremi. Müstəvi üzərindəki düz xətt müstəviyə çəkilən mailə perpendikulyardırsa, onda mailin bu müstəvi üzərindəki proyeksiyasına da perpendikulyardır.

İsbatı. AA_1 perpendikulyar, AB mail, A_1B mailin α müstəvisi üzərindəki proyeksiyası, a düz xətti AB mailinə perpendikulyardır (şəkil 3). İsbat edək ki, $a\perp A_1B$.


Şərtə görə $\overline{AA_1}\perp\alpha$ olduğundan $\overline{AA_1}\perp\bar{a}$. Üçbucaq bərabərliyinə görə

$$\overline{AA_1}+\overline{A_1B}=\overline{AB}.$$


Bu bərabərliyin hər iki tərəfini $\bar{a}$ vektoruna skalyar vuraq:

$$\bar{a}\cdot\overline{AA_1}+\bar{a}\cdot\overline{A_1B}=\bar{a}\cdot\overline{AB}.$$

$\bar{a}\cdot\overline{AA_1}=0$ və $\bar{a}\cdot\overline{AB}=0$ olduğunu nəzərə alsaq, $\bar{a}\cdot\overline{A_1B}=0$ olduğu alınır ki, bu da $\overline{A_1B}\perp\bar{a}$ deməkdir.



Şəkil 3.



Şəkil 4.

Teorem. Paraleloqramın diaqonallarının kvadratlarının cəminin onun tərəflərinin kvadratlarının cəminə bərabər olduğunu isbat edin.

İsbatı. $ABCD$ paraleloqramına baxaq (şəkil 4). İsbat edək ki, $2\left(\overline{AB}^2+\overline{AD}^2\right)=\overline{AC}^2+\overline{DB}^2$.

Aşağıdakı vektor bərabərliklərini yaza bilərik:

$$\overline{AB}+\overline{AD}=\overline{AC},\quad \overline{AD}-\overline{AB}=\overline{BD}.$$

Bu bərabərliklərin hər iki tərəfini kvadrata yüksəldək:

$$\left(\overline{AB}+\overline{AD}\right)^2=\overline{AC}^2,\quad \left(\overline{AD}-\overline{AB}\right)^2=\overline{BD}^2,$$

$$\overline{AB}^2+\overline{AD}^2+2\overline{AB}\cdot\overline{AD}=\overline{AC}^2,\quad \overline{AD}^2+\overline{AB}^2-2\overline{AB}\cdot\overline{AD}=\overline{BD}^2.$$

Axırıncı iki bərabərliyi tərəf-tərəfə toplaşaq:

$$2\left(\overline{AB}^2+\overline{AD}^2\right)=\overline{AC}^2+\overline{DB}^2$$

alırıq.

Məsələ. A(-1;2;4), B (-4;5;4), C(-1;-2;2) və D(2;1;5) nöqtələri verilmişdir. $\overline{AB}$ və $\overline{CD}$ vektorlarının bir-birinə perpendikulyar olub olmadığını müəyyənləşdirin.

Həlli. Əvvəlcə vektorların koordinatlarını tapaq: $\overline{AB}=(-3;3;0)$, $\overline{CD}=(3;3;3)$.

İndi bu vektorların skalyar hasilini hesablayaq:

$$\overline{AB}\cdot\overline{CD}=-9+9+0=0.$$

Buradan da $\overline{AB}\perp\overline{CD}$ olduğu alınır.

Nəticə

İşin məqsədi Evklid həndəsəsinin vektor əsaslandırması olan Veyl aksiomatikası ilə tanış olmaq və vektor üsulu ilə bəzi teoremlərin isbatını nəzərdən keçirməkdir.

Bu işi yazarkən aşağıdakı məsələlər həll edildi:

- Veyl aksiomatikası öyrənilmişdir;
- məktəb həndəsə kursu ilə Veyl aksiomatikası arasında əlaqə öyrənilmişdir;
- vektor üsulu ilə bəzi teoremlərin isbatı nəzərdən keçirilmişdir.

Bu işi yazmaq nəticəsində nəinki işin mövzusu ilə bağlı nəzəri materialı öyrənilir, həm də vektor metodundan istifadə etməklə məktəb həndəsə kursunun əsas problemlərinin necə həll edildiyi, həmçinin daha yüksək səviyyəli məsələləri necə həlletmək öyrənilmişdir.

ƏDƏBİYYAT

1. Беклемишев Д.В. Курс аналитической геометрии и линейной алгебры, М.: Физматлит, г. 2004
2. Беклемишева Л.А., Сборник задач по аналитической геометрии и линейной алгебре: М.: Физматлит, г. 2003
3. Həsənov A.İ. Elementar riyaziyyat. Dərslik. Bakı: 2021
4. Həsənov A.İ. Elementar riyaziyyat-Həndəsə. Naxçıvan: 2020

SUMMARY

Ruhiyya Jafarova, Tarana Huseynova

PROOF OF SOME THEOREMS OF EUCLIDEAN GEOMETRY BASED ON WEYL AXIOMATICS

The path of axiomatic construction of geometry, founded by Euclid and then developed by D. Hilbert (1899), is very popular, but this path is not the only one. For example, a completely different and effective method for the axiomatic construction of geometry was proposed by the famous German mathematician G. Weyl in 1918. Weyl's axiomatics is sometimes called the axiomatics of a point vector.

Weyl's axiomatics are simpler than Hilbert's axiomatics. In addition, the axiomatics of Euclidean Weyl geometry are more closely related to various areas of modern mathematics and have a wide range of applications, so they are superior to other axiom systems.

One of the fundamental concepts of mathematics is the vector and its generalization – the tensor. The introduction and development of the concept of a vector led to the creation of vector algebra and vector analysis, the general theory of vector space and has found wide application in various fields of mathematics, mechanics and technology. On the basis of these theories, the theories of special and general relativity were built, which play an extremely important role in modern physics.

Using Weyl's axiomatics, many problems in geometry, as well as elementary geometry, vector analysis, etc., are easier to solve. This article examines the proof of some theorems of elementary geometry using Weyl's axiomatics.

Key words: *theorem, elementary geometry, Weyl, axiom*

NƏRMİN AYDINLI
narminaydnl08@gmail.com
Naxçıvan Dövlət Universitetinin

QURMA MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ CƏBRİ METODDAN İSTİFADƏ

Həndəsə məsələləri həll üsuluna görə üç qrupa ayrılır. Bu məsələlər içərisində qurma məsələləri öz həll xüsusiyyətlərinə görə digərlərindən fərqlənir. Çünki qurma məsələlərinin həlli məntiqi təfəkkürün və fəza təsəvvürünün inkişafına təsir etməklə yanaşı, həm də şüurlu mənimsəmənin və konstruktorluq bacarığının formalaşmasına kömək edir.

Məqalədə həndəsi qurmaların məntiqi təfəkkürün və fəza təsəvvürlərinin inkişafındakı rolu diqqətə çatdırılmış və qurma məsələlərinin həllində cəbri metoddan istifadə tədqiq edilmişdir. Həmçinin qurma məsələlərinin həllində cəbri metodun tətbiqinin mahiyyəti şərh edilmiş və bu metodun tətbiqi ilə məsələ həllinə baxılmışdır.

Açar sözlər: *həndəsə, həndəsi qurmalar, məsələ həlli, cəbri metod*

Həndəsi qurmalar həndəsə fənninin əsas bölmələrindən biri olub, məntiqi təfəkkürün və fəza təsəvvürlərinin inkişafına, şüurlu mənimsəmənin və konstruktorluq bacarığının formalaşmasına təkan verir. Fəza təsəvvürlərinin zəif inkişafı isə bir sıra fənlərin – riyazi analizin, analitik həndəsənin, tərsimi həndəsənin, həndəsə əsaslarının və bu kimi digər fənlərin şüurlu mənimsənilməsində çətinlik yaradır. Bununla əlaqədar olaraq, baxılan işin mövzusu aktuallıq kəsb edir.

Bilirik ki, həndəsə məsələləri verilənlərdən və tələb olunanlardan asılı olaraq üç qrupa ayrılır:

- hesablamaya aid məsələlər;
- qurmaya aid məsələlər;
- isbata aid məsələlər.

Həndəsə məsələləri içərisində qurmaya aid məsələlər didaktik məqsədlərinə və həll üsullarına görə xeyli fərqlənirlər. Belə ki, qurma məsələləri verilən bəzi elementlərinə və onlar arasındakı münasibətlərə görə verilmiş alətlərlə bu və ya digər fiqurun qurulmasını tələb edən məsələlərdir. Qurma məsələlərini həlletmək, verilən elementlərinə görə məsələnin şərtini ödəyən fiquru qurmaq deməkdir. Qurma məsələlərinin tam həlli dörd mərhələdə yerinə yetirilir (1, s.339):

1. analiz - həllin axtarılması mərhələsi;
2. qurma - qurmanın yerinə yetirilməsi mərhələsi;
3. isbat - həllin əsaslandırılması mərhələsi;
4. araşdırma - həllin tədqiq olunması mərhələsi.

Qeyd edək ki, bu mərhələlər hər bir qurma məsələlərinin həllində (məsələ nə qədər sadə olsa da) vardır. Lakin qurma məsələsi çox sadə olduqda onu həll edərkən bu mərhələlərin hər birinin üzərində dayanmağa ehtiyac olmur. Bu zaman qurma (və ya qurma və isbat) ilə də kifayətlənmək olar.

Qurma məsələlərində fiqurun qurulma üsulu göstərilmişsə və göstərilən qurmalar nəticəsində tələb olunan xassələri ödəyən fiqurun alındığı isbat edilmişsə, onda məsələ həll olunmuş hesab edilir. Ümumiyyətlə, mürəkkəb qurma məsələlərinin həllini müxtəlif metodların tətbiqi ilə yerinə yetirmək olar. Bu metodlardan biri də cəbri metoddur.

Bilirik ki, fəndaxili inteqrasiya həndəsə məsələlərinin həllinin cəbrin tətbiqi ilə yerinə yetirilməsinə geniş imkanlar yaradır. Belə ki, bir sıra həndəsə məsələlərinin həlli cəbri tənliklərin həllinə gətirilir. Bu zaman həndəsi faktlar cəbri (Pifaqor teoremi) və ya triqonometrik (sinuslar teoremi, kosinuslar teoremi) formada verilmiş olurlar.

Cəbri metodun mahiyyəti ondan ibarətdir ki, məsələnin analiz mərhələsində tələb edilən fiquru təxmini çəkib, fiqurun qurulması üçün zəruri olan elementi (bu element parça, bucaq, qövs və s. ola bilər) məchul hesab edərək, verilənlərlə bu məchul arasındakı münasibəti tənlik vasitəsilə ifadə edir və alınan tənliyi həll edirlər. Bu halda tənliyin kökü məchul elementi ifadə edən bir cəbri düstur olur.

Aydındır ki, tələb edilən fiquru qurmaq üçün əvvəlcə həmin cəbri düsturu qurmaq lazım gəlir. Daha sonra isə məsələnin qurma, isbat və araşdırma mərhələləri yerinə yetirilir. Qeyd etmək lazımdır ki, qurma məsələlərini cəbri metodla həll etdikdə araşdırma mərhələsini yerinə yetirmək asan olur. Çünki araşdırma elə alınmış tənliyin həllinin tədqiq edilməsindən ibarətdir.

Beləliklə, cəbri metodla qurma məsələlərinin həlli dörd mərhələdən ibarətdir:

1) tənliyin tərtibi;
2) tənliyin həlli;
3) həllin araşdırılması (cəbri düsturun köməyilə);
4) cəbri düsturla verilən parçanın qurulması.

Qeyd edək ki, cəbri düsturun qurulmasında aşağıdakı nəticə xüsusi əhəmiyyət kəsb edir:

- Pərgar və xətkeşlə yalnız elə cəbri ifadələri qurmaq olar ki, ya ifadədə tamamilə radikal olmasın, ya da ifadəyə daxil olan radikalların dərəcəsi 2,4,8, … olsun (2, s.268).

Cəbri metodla qurma məsələlərini həlletmək üçün bəzi sadə düsturlarla ifadə olunmuş parçaların qurulmasını bilmək lazımdır. Orta məktəb kursundan aşağıdakı sadə düsturlarla verilən parçaların qurulması bizə məlumdur.

1. $x = a + b$
2. $x = a - b, \quad a > b$
3. p və q ədədləri natural ədədlər olduqda $x = \frac{p}{q}a$
4. $x = \frac{ab}{c}$ (dördüncü mütənasib parçanın qurulması)
5. $x = \sqrt{ab}$
6. $x = \sqrt{a^2 + b^2}$
7. $x = \sqrt{a^2 - b^2}, \qquad a > b$

- düsturları ilə verilən parçaların qurulmasından istifadə edərək daha mürəkkəb düsturlarla verilmiş parçaları qurmaq olar.

Cəbri metodun köməyilə qızıl bölgü adı ilə məşhur olan məsələni həll edək (3, s.231).

Məsələ. Verilən parçanı orta və kənar nisbətdə bölün.

Həlli: Məsələni həlletmək üçün verilən düz xətt parçası elə iki hissəyə bölünməlidir ki, bu hissələrdən böyüyü bütün parça ilə kiçik hissə arasında orta mütənasib olsun. Verilən düz xəttin uzunluğunu a, böyük hissəsinin uzunluğunu x ilə işarə etsək, kiçik hissənin uzunluğu $(a - x)$ olacaqdır. Onda məsələnin tələbinə görə

$$a : x = x : (a - x)$$

tənasübünü alarıq. Buradan isə

$$x^2 = a(a - x)$$

$$x^2 + ax - a^2 = 0$$

kvadrat tənliyini alarıq. Tənlik həll edilir, köklər tapılır və mənfi həll atılır:


$$x_1 = -\frac{a}{2} + \sqrt{\left(\frac{a}{2}\right)^2 + a^2} = -\frac{a}{2} + \sqrt{\frac{5a^2}{4}} = \frac{a\sqrt{5}}{2} - \frac{a}{2} = \frac{a}{2}\left(\sqrt{5} - 1\right)$$

Göründyü kimi, cəbri metodla həll olunan qurma məsələlərinin həlli kvadrat tənliyin köklərinin qurulmasına gətirilir. Bu düstura uyğun parçanın qurulması isə məsələnin həllinin tapılması deməkdir. Əgər aldığımız düsturu sadələşdirmədən əvvəlki halını götürsək, yəni

$$x = \sqrt{\left(\frac{a}{2}\right)^2 + a^2} - \frac{a}{2}$$

onda bu düsturu daha əlverişli qurmaq olar. Əvvəlcə $k=\sqrt{\left(\frac{a}{2}\right)^2+a^2}$ parçasını quraq. Göründüyü kimi, bu parça katetləri a və $\frac{a}{2}$ olan düzbucaqlı üçbucağın hipetonuzunun uzunluğunu verir. Bu üçbucağı qurmaqla, $\sqrt{\left(\frac{a}{2}\right)^2+a^2}$ düsturu ilə ifadə olunan parçanı tapırıq. Sonra isə x parçasını almaq üçün qurduğumuz düzbucaqlı üçbucağın hipetonuzundan $\frac{a}{2}$ parçasını çıxmaq kifayətdir. Beləliklə, qurmanı aşağıdakı kimi yerinə yetirmək olar:

Verilən $AB=a$ parçasının B ucundan AB-yə perpendikulyar çəkib, onun üzərində $BD=\frac{a}{2}$ parçasını ayıraq. D nöqtəsi ilə A nöqtəsini birləşdirib ABD düzbucaqlı üçbucağını alarıq. Bu üçbucaqda katetlər $AB=a$, $BD=\frac{a}{2}$ olduğundan üçbucağın hipetonuzu $AD=\sqrt{\left(\frac{a}{2}\right)^2+a^2}$ olar.



Hipetonuzdan $\frac{a}{2}$ uzunluğunu çıxmaq üçün mərkəzi D nöqtəsində olan $BD=\frac{a}{2}$ radiuslu qövs çəkirik. Bu qövsün AD hipetonuzunun kəsdiyi nöqtəni E ilə işarə edirik. Onda aldığımız AE parçası x-ə bərabər olacaqdır.

$$AE=x=\sqrt{\left(\frac{a}{2}\right)^2+a^2}-\frac{a}{2}$$

Mərkəzi A nöqtəsində olan AE radiuslu qövs çəkək. Bu qövsün AB düz xəttini kəsdiyi nöqtəni M ilə işarə edək. Beləliklə, M nöqtəsi AB parçasını orta və kənar nisbətdə bölmüş olur.

Həndəsədə parçanın orta və kənar nisbətdə bölünməsi verilən dairə daxilinə düzgün onbucaqlının qurulmasında tətbiq olunur. Çünki dairə daxilinə çəkilmiş onbucaqlının tərəfi orta və kənar nisbətdə bölünmüş radiusun böyük hissəsinə bərabər olur. Yuxarıda məsələdə tapdığımız $x=\left(\frac{\sqrt{5}-1}{2}\right)a$ parçası radiusu a olan dairə daxilinə çəkilmiş onbucaqlının bir tərəfidir.

Göründüyü kimi, həndəsə məsələlərini cəbri üsulla həll etdikdə bir neçə dəyişən daxil etmək lazım gəlir, yəni dəyişənin seçilməsi də böyük əhəmiyyət kəsb edir. Bəzən bucağın da dəyişən kəmiyyət kimi seçilməsi məqsədəuyğun olur. Bu halda isə həmin bucağı tapmaq üçün triqonometrik tənlik tərtib edilir. Axtarılan bucağın triqonometrik funksiyasını verilmiş elementlərlə ifadə edərək əvvəlcə həmin bucağı, daha sonra tələb edilən fiquru qurmaq olar.

Nəticə

Qurma məsələlərinin həllində cəbri metoddan istifadə fəndaxili inteqrasiyanın köməyi ilə tətbiq edilir və həndəsi faktların cəbri formada mənimsənilməsinə imkan yaradır.

ƏDƏBİYYAT

1. Muradova N.L. Məktəb riyaziyyatı kursunda qurma məsələlərinin tədrisi xüsusiyyətlərinə dair. "Naxçıvan" Universiteti. Elmi əsərlər. 2022 №2 (26), s.338-342
2. Adıgözəlov A.S., Əliyeva T.M., Quliyev A.İ., Rzayev M.T., Qardaşova Z.Ş. Elementar həndəsə. Bakı: 2018
3. Alıyev X.H., Əliyev F.F., Allahverdiyeva Z.B. Analitik həndəsə fənni üzrə mühazirələr. II hissə. Sumqayıt: 2011

SUMMARY

Narmin Aydinli

USING THE ALGEBRA METHOD IN SOLVING CONSTRUCTION PROBLEMS

Geometry problems are divided into three groups according to the method of solving them. Among these issues, construction issues differ from others due to their solution features. Because the solution of construction issues not only affects the development of logical thinking and spatial perception but also helps to form conscious mastery and construction skills.

In the article, the role of geometric constructions in the development of logical thinking and spatial concepts was brought to attention, and the use of the algebraic method in solving construction problems was studied. Also the essence of the application of the algebraic method in the solution of building problems was explained and the solution of the problem with the application of this method was considered.

Keywords: *geometry, geometric constructions, problem solving, algebraic method*

GÜLÜSÜM PİRİYEVA
gulsumpriyeva@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0001-3484-0679

DİFERENSİAL HESABLAMANIN ƏSAS TEOREMLƏRİNİN TƏDQİQİ.

Riyazi analizin təməl daşı olan diferensial hesablama funksiyaların davranışını anlamaq və elm, mühəndislik, iqtisadiyyat və s. sahələrdə geniş spektrli problemlərin həlli üçün güclü alətlər təqdim edir. Bu məqalə diferensial hesalamanın əsas teoremlərini araşdırır, onların nəzəri əsaslarını aydınlaşdırır və praktik tətbiqlərini araşdırır.

Hədlər, törəmələr və davamlılıq daxil olmaqla, diferensial hesablamanın fundamental anlayışlarına ümumi baxışdan başlayaraq, məqalə Roll, Ferma, Koşi, Laqranj teoremlərini müzakirə etməyə davam edir.

Bu teoremlərin nəzəri aspektləri ciddi riyazi ekspozisiya vasitəsilə aydınlaşdırılır və oxuculara onların hesablama və təhlildəki əhəmiyyətini dərindən başa düşməyə imkan verir.

Açar sözlər: *Diferensial, teorem, funksiya*

Riyaziyyatda funksiyaların və onların xassələrini törəmə və ya diferensiallar vasitəsilə öyrənən bölməsi – Diferensial hesabı adlanır. Onun mahiyyəti ondan ibarətdir ki, funksiyanın ayrı-ayrı nöqtələr ətrafında xassələrini araşdırmaqla, funksiyanın xassələrini bütövlükdə təsvir etsin.

Diferensial hesablamanın fundamental teoremlərinin inkişafı 17-ci əsrdə İsaak Nyuton və Qotfrid Vilhelm Leybnits kimi riyaziyyatçıların qabaqcıl işlərinə gedib çıxır. Nyuton və Leybnits müstəqil olaraq diferensiallaşma və inteqrasiya konsepsiyalarını inkişaf etdirərək müasir hesablamanın əsasını qoydular. Əsrlər boyu sonrakı riyaziyyatçılar bu anlayışları təkmilləşdirdilər və genişləndirdilər ki, bu da əsas teoremlərin indiki formada ciddi şəkildə formalaşdırılmasına gətirib çıxardı.

Nəticə olaraq, diferensial hesablamanın əsas teoremləri funksiyaları təhlil etmək, problemləri həlletmək və hesablamanın əsas prinsiplərini başa düşmək üçün vacib alətlərdi.

Diferensial hesablamanın fundamental teoremləri elm və mühəndisliyin müxtəlif sahələrində dərin təsirlərə malikdir. Fizikada bu teoremlərdən hərəkəti təhlil etmək, dəyişmə sürətlərini hesablamaq və sürət, təcil, yerdəyişmə ilə bağlı məsələləri həlletmək üçün istifadə olunur. Mühəndislikdə onlar optimallaşdırma problemlərində, əyrilərin uyğunlaşdırılmasında və idarəetmə sistemlərinin dizaynında istifadə olunur. Bundan əlavə, fundamental teoremlər iqtisadiyyatda həlledici rol oynayır, burada tələb və təklif əyrilərini modelləşdirmək, istehlakçı davranışını təhlil etmək və istehsal proseslərini optimallaşdırmaq üçün istifadə olunur.

Diferensial hesabın əsas teoremləri aşağıdakılardır:

Teorem: (Ferma). Tutaq ki, y=f(x) funksiyasi hər hansı aralıqda təyin olunmuşdur və bu aralığın daxili x_0 nöqtəsində özünün ən böyük və ya ən kiçik qiymətini alır. Əgər x_0 nöqtəsində $f'(x_0)$ törəməsi varsa, onda $f'(x_0)=0$ olur (Namazov Q.M. 2012, s.183).

Teorem (Koşi). Əgər f(x) və φ(x) funksiyaları [a,b] parçasında kəsilməz, (a,b) intervalında diferensiallanan olmaqla (a,b) intervalında $\varphi'(x)\neq 0$ isə, həmin intervalın elə x_0 nöqtəsi var ki,

$$\frac{f(b)-f(a)}{\varphi(b)-\varphi(a)}=\frac{f'(x_0)}{\varphi'(x_0)}$$

Bərabərliyi ödənilir (Əlizadə A.N və b. 2006, s.146).

İsbatı: Əvvəlcə qeyd etmək lazımdır ki, teoremin şərtinə əsasən, $\varphi(b)-\varphi(a)\neq 0$ götürmək lazımdır. Əgər belə götürülməsə φ(x) funksiyası [a,b] parçasında Roll teoreminin öz şərtlərini

ödəmiş olar, bu zaman elə c∈ (a, b) olmalıdır, ki φ′(c)=0 olsun. Bu da teoremin (a,b) intervalında φ′(x)≠0 şərtinə zidd olmuş olar.

Teoremin isbatı üçün F(x)=f(x)-kφ(x) funksiyasını götürək. Burda

$$k=\frac{f(b)-f(a)}{\varphi(b)-\varphi(a)}$$

qəbul edirik. F(x) funksiyasından aydındır ki, o [a,b]-da kəsilməz, (a, b) isə diferensiallanan olaraq [a,b] parçasının ucunda bərabər

$$F(a)=F(b)=\frac{f(a)\varphi(b)-f(b)\varphi(a)}{\varphi(b)-\varphi(a)}$$

qiymətini almış olur. Görünür ki, F(x) funksiyası [a,b]-da Roll teoreminin bütün şərtlərini ödəmiş olur. Bu zaman elə $x_0 \in (a, b)$ nöqtəsi vardır ki, $F'(x_0) = 0$ olsun. Aydındır ki, $f(x_0) - k\varphi'(x_0) = 0$ və burada

$$k=\frac{f'(x_0)}{\varphi'(x_0)}$$

alınır. Bununla da teorem isbat olundu (A.N Əlizadə və b. 2006, s.146-147).

Teorem (Roll): Əgər f(x) funksiyası a<x<b seqmentində fasiləsizdirsə, onun bu seqmentin hər daxili nöqtəsində f·(x) törəməsi var və

$$f(a)=f(b)$$

onda arqumentlər üçün ən azı bir § qiyməti var, burada a<§<b, belə ki,

$$f'(§)=0$$

Teorem (Laqranj): Əgər f(x) funksiyası a<x<b seqmentində fasiləsizdirsə və bu seqmentin hər daxili nöqtəsində törəməsi varsa, onda

$$f(b)- f(a)=(b-a)\, f'(§)$$

burada a<§<b (Б.П.Демидовича. 1978, s.71).

ƏDƏBİYYAT

1. Namazov Qabil. “Ali məktəblər üçün dərs vəsaiti”. Bakı Biznes Universiteti nəşriyyat. 2012, 464 s.
2. Əlizadə A.N., Şıxəliyev N.İ., Məmmədov Ə.A., Zamanov A.D. “Texniki Ali məktəblər üçün dərslik”. Azərbaycan nəşriyyatı. 2006, 568 s.
3. Демидовича Б.П. “Задачи и упражнения по математическому анализу”. Москва: 1978, 480 s.
4. Həsənov Abdulla. “Riyaziyyat III hissə”. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 272 s.

SUMMARY

Gulusum Piriyeva

STUDY OF BASIC THEOREMS OF DIFFERENTIAL CALCULUS

Differential calculus which is the cornerstone of mathematical analysis, is the ability to understand the behavior of functions and is used in science, engineering, economics, etc. it provides powerful tools for solving a wide range of problems in the fields. This article examines the basic theorems of differential calculus, clarifies their theoretical foundations and examines their practical applications.

Starting with an overview of the fundamental concepts of differential calculus, including limits, derivatives and continuum, the article continues to discuss Roll, Fermat, Cauchy, Lagrangian theorems.

The theoretical aspects of these theorems are clarified through rigorous mathematical exposition, allowing readers to deeply understand their importance in calculus and analysis.

Key words: *Differential calculus, theorem, function*

ZƏRNİŞAN İSAYEVA
zərnişanisayeva94@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD:009-0004-6209-0635

RİYAZİ TƏFƏKKÜRÜN İNKİŞAFINDA DƏRSDƏNKƏNAR MƏŞĞƏLƏLƏRİN ROLU

Psixologiya və pedaqogikanın əsas vəzifələrindən biri də şagird təfəkkürünü inkişaf etdirmək, üzə çıxarmaq və onların əsasında təlimi daha səmərəli və yaradıcı etməkdir. Qeyd edək ki, məntiqi təfəkkürünün inkişafı istiqamətində aparılan mövcud işlər kifayət etmir. Bu ona gətirib çıxarır ki, məntiqi təfəkkürün inkişafı, əsasən, kortəbii şəkildə baş verir, ona görə də şagirdlərin əksəriyyəti ilkin təfəkkür üsullarını mənimsəmirlər. Bu halda isə zəruri bilikləri tam mənimsəmək mümkün deyil.

Buna görə də biz məktəblilərin məntiqi təfəkkürünün inkişaf etdirilməsini təxirəsalınmaz vəzifə hesab edirik. Bununla əlaqədar olaraq, biz, "Riyazi təfəkkürün inkişafında dərsdənkənar məşğələlərin rolu" adlı kiçik araşdırmanı etməyi qərara aldıq.

***Açar sözlər**: motivasiya, fəaliyyət, idrak fəallığı, təfəkkür, riyaziyyat*

Riyaziyyatın tədrisi şagirdlərdə məntiqi təfəkkür, yaddaş, diqqət, təxəyyül, müşahidə, iradə, müstəqil və yaradıcı təşəbbüskarlıq inkişaf etdirdiyindən ona ibtidai siniflərdən mükəmməl şəkildə yiyələnmək zəruri hesab olunur.

Şagirdlərin şəxsiyyət kimi formalaşması, həmçinin dünya təhsil sisteminin standartlarına cavab vermək üçün riyaziyyat fənninin rolu olduqca böyükdür. Riyazi məsələlərin, misalların, məntiqi məsələlərin həlli onlara sadəcə bu tapşırıqların həll alqoritmlərini deyil, eyni zamanda dürüstlük, dözümlülük, səbr, əlverişli variant seçmək bacarığı, bir-birini dinləmə mədəniyyəti, təqdimetmə bacarığı aşılayır. Bu fənnin tədrisi ilə məşğul olan müəllim bilməlidir ki, riyaziyyat fənni sadəcə şagirdə bilik verən, qəbul imtahanlarında yüksək bal toplamağa kömək edən proses deyil, xüsusilə cəmiyyətdə düzgün davranmağı bacaran insanlar, qarşılaşdığı problemlərin vaxtında və müsbət həllinə nail olan insanlar yetişdirməkdir (Seyidova A.M. 2020, s.63).

Müasir cəmiyyətin riyazi biliyə malik mütəxəssislərə böyük ehtiyacı olduğu üçün şagirdlərdə riyazi biliklərə marağı artırmaq lazımdır. Sinif otaqlarında bu imkan məhduddur. Hər bir dərsin əsas təhsil məqsədi olduğunu nəzərə alsaq, belə nəticəyə gəlirik ki, konkret bir elm kimi riyaziyyata marağı artırmaq üçün əlavə məşğələlərə və sinifdənkənar işlərə böyük ehtiyac var.

Riyaziyyatdan sinifdənkənar iş və ya məşq onu tədris prosesinin tərkib hissəsi kimi tamamlayır, inkişaf etdirir və dərinləşdirir. Buna görə də hər bir sinif üçün sinifdənkənar işlərin məzmunu bu sinif üzrə riyaziyyat proqramı əsasında müəyyən edilir və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olmalıdır.

Riyaziyyat fənni üzrə sinifdənkənar fəaliyyətlər (məşqlər) daha bacarıqlı və istedadlı şagirdləri üzə çıxarmağa, şagirdlərdə riyaziyyata maraq və həvəsin formalaşmasına xidmət edir.

Riyaziyyatdan dərsdənkənar məşğələlər zamanı şagirdlərdə əməyə sevgi, iradə və mütəşəkkillik kimi keyfiyyətlər də formalaşır.

Sinifdə öyrənmə sinifdənkənar təlimdən aşağıdakı cəhətlərə görə fərqlənir:

1. Dərs proqram əsasında keçirilir və bütün tələbələr üçün məcburidir. Sinifdənkənar işlərdə müəllim özü material seçir və proqramdan kənara çıxa bilər;
2. Sinifdənkənar fəaliyyət şagirdlərin könüllülüyünə, fəallığına və təşəbbüskarlığına əsaslanır;
3. Sinifdənkənar işlərdə müəllim şagirdlərin fərdi bacarıqlarını nəzərə alaraq ən incə prinsipləri tətbiq edir. Bu zaman müəllim təkcə göstəriş vermir, həm də şagirdlərin fəaliyyətinə istiqamət verir, onları müstəqil işə alışdırır, marağını istiqamətləndirir.

Dərsin mənimsənilməsində və keyfiyyətinin yüksəldilməsində, ibtidai sinif şagirdləri arasında əməkdaşlığın möhkəmləndirilməsində, şagirdlərin elmə və məntiqi təfəkkürə marağının

artırılmasında, bacarıqlarının üzə çıxarılmasında və inkişaf etdirilməsində sinifdənkənar məşğələlərin xüsusi rolu vardır.

1. *Riyazi ekskursiyalar.*

Belə ekskursiyalarda şagirdlər müəyyən obyektlər üzərində ölçmə və hesablama ilə bağlı işləri yerinə yetirir və nəticələri öz dəftərlərinə qeyd edirlər. Qeyd edək ki, aparılan müşahidələrə əsasən, belə dərs formaları şagirdlər tərəfindən daha maraqla qarşılanır və bu dərsdə əldə edilən biliklər daha yadda qalan olur.

2. *Riyaziyyat klubları.*

Müəllim assosiasiya təşkil edərkən şagirdlərin məsələnin həlli, hesablama texnikası, ölçü işləri, əyani vəsaitlərin hazırlanması və s. məsələlərdəki marağı nəzərə alınmalıdır.

3. *Riyaziyyat olimpiadaları*.

Şagirdlərin riyazi hazırlıq səviyyəsinin yüksəldilməsində, onların riyaziyyatın müstəqil öyrənilməsinə cəlb olunmasında müxtəlif səviyyəli riyaziyyat olimpiadaları xüsusi əhəmiyyət kəsb edir (Ağayev Ə.Ə. 2006, 65 s.).

Riyaziyyat olimpiadaları, adətən problem və misalların həllinə, sürətli və səhvsiz hesablamalara həsr olunur. Riyaziyyat olimpiadaları 3 mərhələdə keçirilir. Bu üslubda olimpiadalar ibtidai məktəbin III-IV siniflərindən başlayaraq təşkil oluna bilər.

4. *Riyazi yarışlar və viktorinalar*.

Bu cür tədbirlər asanlıqla təşkil oluna bilən riyaziyyat yarışları hesab edilir. Onların məzmununa nəzəri suallar, məntiqi suallar, əyləncəli məsələlər daxil ola bilər. Riyazi yarışlar və viktorinalar tələbələrə fikirlərini sərbəst ifadə etmək imkanı verir. Seçilən oyunlar və əyləncəli çalışmalar dərsliklərdəki materiallara uyğun olmalıdır (Əliyev İ.B. 2007, 6 s.).

5. *Komanda yarışları*.

Əsas kursun paralel sinifləri arasında və ya sinif daxilində keçirilən belə yarışlarda hər komandada 8-10 nəfər iştirak edə bilər. Hər komandaya müəyyən vaxt ərzində (məsələn, 30 dəqiqə) bir neçə problem və misal verilir. Vaxt bitdikdən sonra iş müəllimə təqdim olunur. Tapşırıqlar yoxlanıldıqdan sonra qalib müəyyən edilir.

6. *Riyazi qəzetlər və bülletenlər*.

Bu qəzet və bülletenlərdə riyaziyyat sahəsində baş verən maraqlı hadisələr, məktəblilərin, o cümlədən ibtidai sinif şagirdlərinin nailiyyətləri, riyazi yeniliklər barədə məlumatlar yer alır. Fikirlərini müstəqil ifadə etmək üçün burada şagirdlərin nailiyyətlər haqqında və onların topladıqları məlumatları vurğulaya bilərsiniz.

7. *Riyaziyyat guşəsi.*

İbtidai sinif müəllimi həmişə öz sinfində fəal şagirdlərin gücündən səmərəli istifadə etməlidir. Onlar əyani vəsaitlərin hazırlanmasında fəal iştirak edirlər. Riyaziyyat guşəsində tələbələrin hazırladıqları əl işləri və müxtəlif fiqurlar yer aldıqda həmin şagird daha da həvəslənir. Digər şagirdlər də buna həvəslənir və bunu təqlid edirlər.

Ümumiyyətlə, riyaziyyatdan sinifdənkənar işlər şagirdlərin riyazi biliklərinin genişləndirilməsinə və dərinləşməsinə xidmət edir. Dərsdənkənar fəaliyyətlər üçün, əsasən, istifadə edilən tədris vəsaitləri bunlardır: dərsliklər, kitablar və məşq dəftərləri (Abbasov A.N və Əlizadə H.Ə. 2000, 103 s.).

Riyaziyyatın insanın əqli qabiliyyətlərinin inkişafına müsbət təsiri effektiv, yığcam və birmənalı ünsiyyət imkanları yarada bilər. Riyaziyyatın köməyi ilə mürəkkəb problemi primitiv şəkildə təmsil etmək, hadisələri aydınlaşdırmaq və nəticələrini əvvəlcədən hesablamaq olar. Riyaziyyatın mücərrəd sistemlərindən və nəzəri modellərindən, qanunauyğunluqların öyrənilməsində, vəziyyətin ətraflı və hərtərəfli təhlilində, məsələlərin həllində xüsusilə geniş istifadə olunur.

Məsələnin həlli zamanı onun mahiyyətinə və məqsədinə uyğun gələn riyazi hissəsini seçmək, əgər o yoxdursa, onu geniş şəkildə inkişaf etdirmək çox vacibdir.

Öyrənilən prosesin və ya obyektin düzgün və düşünülmüş modelini yaratmaq, yaranan modeldən istifadə etməklə lazımi nəticələri almaq və sonra onları şərh etmək lazımdır.

İbtidai siniflərdə riyaziyyat təhsili şagirdlərin təhsili və inkişafı ilə sıx və interaktiv şəkildə əlaqələndirilməlidir. Riyaziyyat məktəblilərin müşahidə təfəkkür qabiliyyətlərinin inkişafına kömək edir, onların fikirlərini qısa, konkret, dəqiq, aydın və düzgün ifadə etmək bacarıqlarını artırır, məntiqi təfəkkürünün inkişafı üçün möhkəm zəmin yaradır. Riyaziyyat təhsilinin təkmilləşdirilməsi və şagirdlərin məntiqi təfəkkürünün inkişafı müəllimin dərsə hazırlıq səviyyəsindən çox asılıdır. Başqa sözlə, riyaziyyatın tədrisi zamanı diqqətin həm praktiki, həm də elmi məsələlərin həllinə yönəldilməsi şagirdlərin motivasiyasını artırır və riyaziyyata daha çox maraq yaradır (Abdullayev B.A. və Zülfüqarov Ş.V. 2005, 135 s.).

ƏDƏBİYYAT

1. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Renesans. Bakı: 2000, 202 s.
2. Abdullayev B.A., Zülfüqarov Ş.V. Didaktika. ADPU-nun mətbəəsi, Bakı: 2005, 230 s.
3. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Adiloğlu, Bakı: 2006, 138 s.
4. Bağırov Ə.N. Azərbaycan məktəbi: reallıq və yeniləşmə imkanları. ADPU-nun mətbəəsi, Bakı: 2008, 264 s.
5. Əliyev.İ.B. Riyaziyyat təlimində didaktik oyunların təşkilin, əyləncəli və məntiqi çalışmaların həlli metodikası. Naxçıvan: 2007, 87 s.
6. Seyidova A.M. V-VI siniflərdə riyaziyyat təlimi prosesinin modernləşdirilməsi işinin pedaqoji-psixoloji əsasları \\ Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri metodik jurnal, Elm Təhsil Mərkəzi, Bakı: 2020, s.62-73

SUMMARY

Zarnishan Isayeva

THE ROLE OF EXTRA-CURRICULAR ACTIVITIES IN THE DEVELOPMENT OF MATHEMATICAL THINKING

One of the main tasks of psychology and pedagogy is to develop and reveal the student′s thinking and make training more efficient and creative based on them. Let′s note that the current work on the development of the logical thinking is not enough. This leads to the fact that the direction of development of logical thinking occurs mainly spontaneously, therefore most students do not master the primary ways of thinking. In this case, it is impossible to fully master the necessary knowledge.

Therefore, we consider the development of logical thinking of schoolchildren as an urgent task. In this regard, we decided to conduct a small study called “The role of extracurricular activities in the development of mathematical thinking”.

***Key words**: motivation, activity, cognitive activity, thinking, mathematics*

ZİNYƏT ŞAHBAZOVA
Sahbazovazinyet5@gmail.com
Naxçıvan Dövlət Universiteti

TƏLİMATLAR ARDICILLIĞI ŞƏKLİNDƏ HESABLAMA PROSESİ ANLAYIŞININ MAHİYYƏTİ ALQORİTMİK TƏFƏKKÜRÜN ƏSAS KOMPONENTİ

Açar sözlər: *hesablama prosesi, alqoritmik təfəkkür, problemlərin həlli, şagird, müəllim*

Hesablama prosesi anlayışının mahiyyəti "Alqoritmik təfəkkür"ü koqnitiv düşüncə prosesi kimi müəyyən etməyə imkan verir, bunlara aşağıdakılar daxildir:

- məsələ elə formalaşdırılmalıdır ki, onun həlli kompüterdən istifadəyə əsaslansın;
- məntiqi təşkili və verilənlərin təhlili;
- abstraksiyalardan istifadə etməklə məlumatların təqdim edilməsi;
- alqoritmik düşüncəyə əsaslanan məlumatların avtomatlaşdırılması;
- şablonların ümumiləşdirilməsi, identifikasiyası və istifadəsi.

Beləliklə, alqoritmik təfəkkürünün inkişafı üçün şagirdlərdə aşağıdakı bacarıqların formalaşdırılması tələb olunur:

- Məntiqi təşkilatlanma və verilənlərin təhlili bacarığı. Məlumat toplamaq, yaratmaq və təhlil etmək üçün hesablama texnologiyalarından istifadə. İdarə etmək, alınan məlumatlardan nəticə çıxarmaq, məlumatları vizuallaşdırmaq bacarığı;
- Mücərrəd düşünmək bacarığı. Proqram hazırlayarkən müxtəlif abstraksiya səviyyələrində düşünmək və asanlıqla birindən digərinə keçmək bacarığı. Obyektlər toplusunda ümumi xüsusiyyətlərin müəyyən edilməsi və onlar arasındakı əhəmiyyətsiz fərqlərə məhəl qoyulmaması. Proqramlaşdırma zamanı bu xüsusiyyətlərin riyazi anlayış və ya obyektin təsviri şəklində ifadəsi. Dilin müvafiq abstraksiya səviyyəsini seçmək üçün müəyyən bir həlli təsvir etmək bacarığı. Müxtəlif növ obyektlərin manipulyasiyası üçün vahid təlimatlar toplusunun yaradılması, burada müxtəlif obyektlərə təsir üsullarında fərqlər daha aşağı abstraksiya səviyyələri ilə müəyyən edilir;
- Alqoritmik düşünmə bacarığı. Mücərrəd ideyanı onun praktiki həyata keçirilməsi üçün zəruri addımların atılması ardıcıllığın bacarığı;
- Problemlərin həllini kompüterdə həyata keçirmək bacarığı. Yüksək səviyyəli dildə və ya riyazi paketlərdən istifadə etməklə ədədi metodlar üçün alqoritmlərin həyata keçirilməsi;
- Problemin həllində ümumiləşdirmə və nümunələri müəyyən etmək bacarığı. Yəni nəzərdən keçirilən sahədə obyektlərin ümumi xüsusiyyətlərini müəyyən etməklə, ümumi halda zəncir boyu ümumiləşdirmə prosesində hərəkət edərək daha yüksək abstraksiya səviyyəsinə keçmək bacarığı:

a) vahid anlayış;
b) ümumiləşdirilmiş anlayış;
c) mühakimə;
ç) qanun;
d) nəzəriyyə.

Sual yaranır ki, alqoritmik təfəkkürnün inkişafına yönəlmiş ədədi metodlar üzrə təlimin təşkili üçün hansı üsullardan (proseslərdən) və vasitələrdən istifadə edilməlidir? Tədris fəaliyyətinin təşkili üsulları və vasitələri "Bilik" yanaşmasını müəyyən edən tədris fəaliyyətinin təşkilinin ənənəvi üsulları nəzəri təfəkkürün formalaşmasına yönəlmişdir. Onlar materialın "sadə"dən "mürəkkəb"ə təqdim edilməsi ardıcıllığını müəyyən edir, bunun əsasında induksiya, deduksiya, təhlil, sintez, ümumiləşdirmə kimi təfəkkürün bütün əsas əməliyyatları həyata keçirilir. Lakin bu üsullar alqoritmik təfəkkürünün inkişafı üçün kifayət etmir.

Ədədi metodların öyrədilməsi üçün üsul və vasitələrə nəzər salaq. Sistem dinamikası bu sistemin strukturundan və onun elementlərinin qarşılıqlı təsirindən asılı olaraq zamanla mürəkkəb

sistemlərin davranışının qurulması və öyrənilməsi üsuludur (5, s.67). Bir sıra tədqiqatçılar qeyd edirlər ki, bu, sensor yaddaşın inkişafına, intuitiv düşüncə tərzinə və alqoritmik hərəkətləri əks etdirən psixi sxemlərin formalaşmasına kömək edir. Vizuallaşdırma texnologiyası hər hansı psixi obyektə, subyektə, prosesə və s. anlamaq üçün maksimum rahatlığı təmin edən və görünən forma verən məlumatların təsvirlər şəklində təqdim edilməsi prosesidir. A.A.Verbitskinin nöqteyi-nəzərindən vizuallaşdırma metodu "təlim məzmununun ən əhəmiyyətli, vacib elementlərini sistemləşdirmək, cəmləşdirmək və vurğulamaqla peşəkar təfəkkürün formalaşmasına töhfə verir". Ağıl xəritələri və informasiya yanaşması nöqteyi-nəzərindən animasiya informasiyanın vizuallaşdırılmasının ən təsirli vasitəsidir. Onlar mücərrəd riyazi anlayışların təsvirlərini formalaşdırmağa, hesablama sxemlərinin intuitiv səviyyədə yadda saxlanma dərəcəsini artırmağa, peşəkar fəaliyyətdə ədədi metodların tətbiqinin tam mənzərəsini təqdim etməyə imkan verir.

Ədədi üsulları öyrənərkən mental xəritənin bir parçasının nümunəsi Java Script dilində ədədi metodların işini başa düşmk, ədədi metodların işini nümayiş etdirmək üçün dinamik vizuallaşdırma elementləri həyata keçirilir. Mental xəritələrdən və dinamik vizuallaşdırmadan istifadə şagirdlərin mücərrəd anlayışları dərk etmə keyfiyyətini artırır, onların mücərrəd təfəkkürünü və ədədi metodların alqoritmlərini qavramasını inkişaf etdirir. Ədədi metodu həyata keçirərkən şagird problemi üç abstraksiya səviyyəsi nöqteyi-nəzərindən nəzərdən keçirir: riyazi məsələnin ifadəsi, həllin ədədi üsulu və proqram təminatının həyata keçirilməsi.

Son tədqiqatlar alqoritmik təfəkkürü XXI əsrin mühüm bir səriştəsi hesab edir. Nəzərə alsaq ki, alqoritmik təfəkkür hər bir şagirdin gələcək peşə və şəxsi həyatı üçün müəyyən dərəcədə ehtiyac duyduğu mühüm bacarıqdır, ilk sual onun həqiqətən də bacarıq olub-olmamasıdır. Bu suala aydınlıq gətirmək üçün müvafiq araşdırma aparmaq lazımdır. Bu, öz növbəsində, alqoritmik təfəkkürün tərifini və konseptuallaşdırılmasını ehtiva edən bir çərçivə tələb edir. Sağlam düşüncə, hesablama düşüncəsinin müasir və texnologiya ilə dolu bir dünyada düşüncə və problemlərin həlli yolu kimi təsvir edilə biləcəyini təklif edə bilər. Bununla belə, razılaşma, adətən alqoritmik təfəkkürünün əsas elementlərinin nədən ibarət olması sualına gəldikdə başa çatır. Şagirdin malik olmalı olduğu əsas elementlər və əlaqəli bacarıqlar haqqında bilik onları ümumiyyətlə ölçə bilmək və alqoritmik təfəkkürün tərifi və konseptuallaşdırılması üçün zəruridir. Tədqiqatçılar alqoritmik təfəkkürü müəyyən etmək üçün öz səylərində bir neçə tərifi nəzərdən keçirsələr də, hələlik ümumi qəbul edilmiş tərif müəyyən edilməmişdir. Bu da onu qiymətləndirməyi çətinləşdirir. Təhsilin və xüsusən də məktəblərin rolu (məsələn, ötürülə bilən, kurrikulyar bacarıqlar toplusu kimi) bu kontekstdə müzakirə mövzusudur. Bu, məktəblər qarşısında yeni vəzifələr və çağırışlar qoyur. Bununla belə, bəzi ekspertlər artıq "şagirdlərin dünyanı hesablama obyektivindən görmək bacarığını inkişaf etdirmək üçün" çərçivələr hazırlayıblar. Bu çərçivələrə kurikulumlar üçün əsas kimi xidmət edə biləcək proqramlaşdırma tapşırıqlarının intizam üzrə spesifik aspektləri daxildir. Alqoritmik təfəkkürünün kompüter elminə yaxın bir əlaqəsi olduğu doğru olsa da, bu, onun yalnız bu sahə ilə məhdudlaşdığı anlamına gəlmir.

Bütün şagirdlərin bu bacarıqlara bərabər və kifayət qədər malik olmadığını fərz etsək, şagirdlərin alqoritmik təfəkküründə nailiyyətlərindəki fərqləri hansı təsiredici amillərin izah edə biləcəyi sualı da yaranır. Şəxsi və sosial amilləri nəzərə almaq olar, lakin alqoritmik təfəkkürün öyrənilməsi və öyrədilməsinə gəlincə, burada məktəblərin və xüsusən də müəllimlərin rolu sualı ortaya çıxır (2, s.84). Buna görə də məktəb konteksti şagirdlərin alqoritmik təfəkkürünün nailiyyətlərinə mümkün təsir dəyişəni kimi nəzərə alınmamalıdır. Alqoritmik təfəkkürün onu necə öyrənmək və öyrətmək barədə kurikulumlara tətbiqi mübahisəli məsələ olmuşdur. Bəzi ekspertlər hesablayırlar ki, alqoritmik təfəkkürnün nədən ibarət olduğu və ondan necə tam istifadə olunacağına dair biliklər onu əlçatan edir. Bu nöqteyi-nəzərdən güman edilir ki, alqoritmik təfəkkür və onun əsas elementlərini başa düşmək müəllimlərə onu öz tədris konsepsiyalarına inteqrasiya etməyə imkan verəcəkdir.

Şagirdlərin lazımi səriştələrə malik olub-olmadığını ölçən tədqiqat çərçivəsində alqoritmik təfəkkürün tərifini və konseptuallaşdırılmasını əldə etmək üçün alqoritmik təfəkkürünün əsas

elementləri müəyyən edilməlidir. Bunun ardınca ümumi problemin həlli kontekstində alqoritmik təfəkkür nəzərə alınır və sonra məlumat emalı kontekstində alqoritmik təfəkkürün "bağlanmamış aspektləri" kimi bunların onun prosesləri ilə necə əlaqəli olduğu göstərilir. Sonradan alqoritmik təfəkkür prosesləri əlavə təhlil oluna bilər. Nəhayət, alqoritmik təfəkkür sahəsində şagirdlərin hesablama nailiyyətlərindəki variasiyanı izah etmək üçün məktəbdə kompetentlərin mənimsənilməsi kontekstində məktəb kontekstinin hansı aspektlərinin nəzərə alınması nəzərdə tutulur.

Son illərdə "Alqoritmik təfəkkür" problemin həlli kontekstində tez-tez xatırlanır. Problemin həlli maneəni aşaraq arzuolunmaz ilkin vəziyyətdən arzuolunan son vəziyyətə çevrilməsi kimi təsvir olunur. Bunu etmək yüksək səviyyədə düşünmə və mülahizə ilə işləmək deməkdir. Şagirdləri işdə, həyatda və cəmiyyətdə iştirak üçün mümkün olan ən yaxşı başlanğıc mövqeyinə qoymaq üçün mürəkkəb düşüncə və çevik problem həlli kimi əlavə səlahiyyətlərin öyrədilməsi probleminə diqqətlərini yönəldirlər.

Problem həlletmə bacarıqlarının əldə edilməsi aktual müzakirə mövzusu olsa da, problem həlletmə bacarıqları və problem həlletmə proseslərinə dair tədqiqatlar onilliklər ərzində aparılır. Problemin həlli prosesi tez-tez yeddi mərhələli dövr kimi təsvir edilir:

1) problemin tanınması və ya müəyyənləşdirilməsi;
2) problemin tərifi və zehni təsviri;
3) problemin həlli üçün strategiyanın hazırlanması;
4) problemlə bağlı biliklərin təşkili;
5) problemin həlli üçün əqli və fiziki resursların ayrılması;
6) məqsədə doğru irəliləyişin monitorinqi;
7) həllin düzgünlüyünün qiymətləndirilməsi.

Problemi həlletməyin bir neçə yolu ola bilsə də (və seçilən yol mövcud problemin xarakterindən asılı olacaq) onların hamısında eyni proseslərin olacağı güman edilir. Problemin həlli prosesinin birinci mərhələsi buna görə də böyük əhəmiyyət kəsb edir: Problemin mümkün olan ən yaxşı həll yolunu seçmək üçün həm tanınmalı, həm də müəyyən edilməlidir. Çünki problemin necə həll olunacağı faktiki problemin özündən asılıdır.

Alqoritmik təfəkkür prosesləri problemin həlli prosesləri və informasiyanın emalı ilə müqayisə edildikdə yüksək dərəcədə oxşarlıq aşkar edilir. Müvafiq olaraq, bu töhfə aşağıdakı tərifə diqqət yetirir: "Alqoritmik təfəkkürdə şagirdlər problemi müəyyən etmək, onu idarə edilə bilən addımlara bölmək, vacib detalları və ya nümunələri işləmək, mümkün həll yollarını formalaşdırmaq və bu həlləri bir şəkildə təqdim etmək bacarığını nümayiş etdirirlər. Hesablama düşüncəsi, həmçinin həll prosesini dəstəkləmək üçün məlumat dəstlərinin strukturlaşdırılmasını və manipulyasiyasını əhatə edə bilər". Bu tərifə problemin müəyyən edilməsi və tərtib edilməsi, parçalanma prosesi (parçalanma), nümunənin tanınması və nümunənin uyğunlaşdırılması prosesi, abstraksiya, qiymətləndirmə və sazlama kimi bir neçə proseslə mümkün həllin formalaşdırılması, həmçinin həllərin təqdim edilməsi ilə alqoritmik düşüncə daxildir. O strukturlaşdırılmış konseptual və strateji düşüncə tərzini və problemləri həll edən alqoritmik təfəkkürün koqnitiv strukturu haqqında çox şey deyir. Aşağıda təsvir edilən hesablama prosesləri yuxarıda qeyd olunan tərifə bağlıdır.

Seçilmiş tərif problemlərin konseptuallaşdırılması və həllərin operativləşdirilməsinin iki xəttini ehtiva edən alqoritmik təfəkkürün qiymətləndirilməsi çərçivəsinə əsaslanır. Yuxarıda göstərilən problemin həlli prosesi dövrü həm problemlərin müəyyən edilməsini, həm də müəyyənləşdirilməsini əhatə edir. Bu o deməkdir ki, həll yolları formalaşdırılmazdan əvvəl problemlər başa düşülərək konseptuallaşdırılmalı və çərçivəyə salınmalıdır. Problemin müəyyən edilməsi həm də onun hesablama düşüncəsindən istifadə edərək həll oluna biləcəyinə dair qərar verməyə imkan verir. Həll edilməli olan problemi başa düşmək problemin həlli prosesi üçün mühüm ilkin şərtdir. Belə ki, "başa düşmədiyiniz suala cavab vermək axmaqlıqdır". Elmi araşdırma prosesi fərziyyə ilə başlasa da problemin həlli prosesi problemin tərifi ilə başlayır. Bir çox tədqiqatçı problemin səciyyələndirilməsinin problemin həllinin ən çətin hissəsi olduğunu müdafiə edir. Bir şəxs başqasına problem təqdim etdikdə və ondan həllini istədikdə (məsələn, məktəbdə, müəllim şagirdlərindən

problemi həlletmələrini istədikdə), yaxşı olar ki, problemi öz sözləri ilə ifadə etsinlər. Hesablama fəaliyyətlərinin problemin müəyyən edilməsi ilə başlaması və ya həmişə həll ediləcək problemlər baxımından düşünülməsi qayda olmasa da, yuxarıdakı tərifə əsasən, problemin müəyyən edilməsi və problemin müəyyənləşdirilməsi hesablama düşüncə proseslərinə daxil edilə bilər.

Alqoritmik təfəkkürünün əsas ideyası mahiyyət etibarilə alqoritmik düşüncədir. Kompüter elmləri sahəsində alqoritm "dəyərlər toplusunu giriş kimi qəbul edən və bəzi dəyərlər toplusunu çıxış kimi proseduradan keçirən hər hansı yaxşı müəyyən edilmiş hərəkətlər ardıcıllığı" kimi müəyyən edilir (4, s.7). Həyata alqoritmik baxış çox dəyərlidir, çünki o, sadə və diskret addımları izləməklə həyatda bir çox vacib fəaliyyətləri əhatə edir. Alqoritmin formalaşdırılması üçün tələb olunan təfəkkür prosesi dəqiq müəyyən edilmiş hərəkət qaydasının formalaşdırılmasından bir cəhətinə görə fərqlənir: başqa bir dil forması lazımdır. Kompüter tərəfindən idarə olunan bir alqoritm bir alqoritmin yalnız bir mümkün şərhə malik olmasını təmin edən proqramlaşdırma dili tələb edir ki, heç bir anlaşılmazlıq olmasın. İnsan dili bu tələbi yerinə yetirməsə də, yalnız prosesin özü nəzərə alındıqda, hərəkət qaydasının formalaşdırılması alqoritmik təfəkkür sayıla bilər. Hazırlanmış həll, adətən düzgünlük, səmərəlilik, zəriflik və istifadəyə yararlılıq baxımından qiymətləndirilməlidir.

Alqoritmik təfəkkürün üstünlüyü ondan ibarətdir ki, həll başqa şəxsə və ya kompüterə həvalə edilə bilər (3, 26 s.). Bir çox tədqiqatçılar alqoritmik təfəkkürün yalnız kompüter elmində deyil, digər fənlərə də daxil edilməsini müdafiə edirlər. Şagirdlərin proqramlaşdırma dili ilə tanış olduğunu güman etmək mümkün olmadığından, təlimatın yazılması onlara alqoritm yazarkən istifadə olunan məntiqi mülahizələri məşq etməyə kömək edir.

Yuxarıda qeyd etiklərimiz üç şeyi vurğulayır. Birincisi, hesablamalı düşüncə prosesləri digər sahələrdəki proseslərə aiddir. İkincisi, problemin həlli prosesləri ilə hesablama təfəkkür prosesləri arasında güclü oxşarlıq var və bununla da qeyd etmək lazımdır ki, alqoritmik təfəkkür prosesi təmiz həllin formalaşdırılmasının aydın genişləndirilməsini təmsil edir. Üçüncüsü, hesablama təfəkkür prosesləri məktəbdə digər fənlərdə də tətbiq oluna və həyata keçirilə bilər.

Yuxarıda qeyd olunan alqoritmik təfəkkür prosesləri alqoritmik təfəkkürünün koqnitiv hissəsini təsvir edir. Şəxsiyyətin beş amilinin hesablama düşüncəsi ilə əlaqəli olduğunu nümayiş etdirərək, Roman-Qonzalez problemin həllinin alqoritmik təfəkkürə yaxın olduğuna dair tapıntılarını genişləndirirlər. Nəticə olaraq, şagird səviyyəsində hesablama düşüncəsinə təsir edən qeyri-koqnitiv amillər də nəzərə alınmalı və araşdırılmalıdır. Proqramlaşdırma ilə alqoritmik təfəkkür arasında qohumluq əlaqəsi olduğundan, bu nəticələr şagirdlərin alqoritmik təfəkkür sahəsində öz-özünə effektivliyinin onların alqoritmik təfəkkür sahəsində səriştələrə yiyələnməsinə təsir göstərə biləcəyi fərziyyəsinə ağırlıq verir. Şagirdlərin alqoritmik təfəkküründə nailiyyətlərinə təsir göstərə biləcək digər şagird səviyyəli dəyişənə fon xüsusiyyətləri (məsələn, cins) daxil ola bilər. Cins fərqləri proqramlaşdırma sahəsində açıq-aydın görünür və hesablama düşüncəsi sahəsində də fərqlərin olduğunu güman etmək olar.

ƏDƏBİYYAT

1. Ablullayev C., Mahmudov N., Tağıyev H., Əliyev A., Əhmədov H. İnformatikanın tədrisi metodikası. Ali məktəb tələbələri üçün vəsait. Bakı: 2008, 240 s.
2. Musayev İ., Əlizadə M. İnformatikanın əsasları. Dərs vəsaiti. Bakı: 2014, 228 s.
3. Novruzova X.T. İnformatikanin tədrisi metodikası (1-4-cü siniflər). Dərs vəsaiti. Bakı: 2017, ADPU, 152 s.
4. Копаев А.В. О практическом значении алгоритмического стиля мышления / Копаев А.В. // Информационные технологии в общеобразовательной школе. 2003. №4. с.6-11
5. Симонович С.В., Евсеев Г.А. Практическая информатика: Учебное пособие для средней школы. Универсальный курс. М.: 1998. АСТ–ПРЕСС: Инфорком–Пресс

SUMMARY

Zinyat Shahbazova

THE ESSENCE OF THE CONCEPT OF THE COMPUTATIONAL PROCESS IN THE FORM OF A SEQUENCE OF INSTRUCTIONS IS THE MAIN COMPONENT OF ALGORITHMIC THINKING

In order to obtain a definition and conceptualization of algorithmic thinking within the framework of research that measures whether students have the necessary competencies, the key elements of algorithmic thinking must be identified. This is followed by a consideration of algorithmic thinking in the context of general problem solving, and then how these relate to its processes as 'disconnected aspects' of algorithmic thinking in the context of information processing. Later, algorithmic thought processes can be further analyzed. Finally, in order to explain the variation in students' calculation achievements in the field of algorithmic thinking, it is considered which aspects of the school context are taken into account in the context of the acquisition of competencies at school.

Key words: computational process, algorithmic thinking, problem solving, student, teacher

РЕЗЮМЕ

Зинят Шахбазова

СУЩНОСТЬ ПОНЯТИЯ ВЫЧИСЛИТЕЛЬНОГО ПРОЦЕССА В ВИДЕ ПОСЛЕДОВАТЕЛЬНОСТИ ИНСТРУКЦИЙ ЯВЛЯЕТСЯ ОСНОВНЫМ КОМПОНЕНТОМ АЛГОРИТМИЧЕСКОГО МЫШЛЕНИЯ

Для того чтобы получить определение и концептуализацию алгоритмического мышления в рамках исследования, измеряющего наличие у студентов необходимых компетенций, необходимо определить ключевые элементы алгоритмического мышления. Затем следует рассмотрение алгоритмического мышления в контексте решения общих проблем, а затем того, как они соотносятся с его процессами как «несвязанные аспекты» алгоритмического мышления в контексте обработки информации. Позже алгоритмические мыслительные процессы могут быть дополнительно проанализированы. Наконец, чтобы объяснить разброс вычислительных достижений учащихся в области алгоритмического мышления, рассматривается, какие аспекты школьного контекста учитываются в контексте приобретения компетенций в школе.

Ключевые слова: вычислительный процесс, алгоритмическое мышление, решение задач, студент, преподаватель

FİDAN RƏHİMOVA
fidanr741@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0004-0400-1331

LANTANIN METALKARBONİL TÖRƏMƏLİ KOMPLEKSİNİN SİNTEZİ

Elmi məqalə nadir-torpaq elementlərinin metalkarbonil törəmələrinin son zamanlar inkişaf etdiyi sahələrə həsr olunmuşdur. Lantan metalı ilə metalkarbonil törəmələrinin kompleksləri bu işdə əsas obyektdir. Alınmış kompleksdən kiçik molekulların aktivləşməsində geniş istifadə olunur.

Açar sözlər: *Metalkarbonil, kompleks, lantan, əvəzlənmiş, pentakarbonil*

Nadir-torpaq elementlərinin metalkarbonil törəmələri koordinasion kimyanın son zamanlar inkişaf etdiyi sahələrdəndir. Lantan metalı ilə metalkarbonil törəmələrinin kompleksləri bu işdə əsas obyektdir. Alınmış kompleksdən kiçik molekulların aktivləşməsində geniş istifadə olunur.

Nadir torpaq elementlərin üzvi liqandlarla – əvəzlənmiş və əvəzlənməmiş tsiklopentadienil kompleksləri $(R_mC_5)_3Ln$ koordinasion birləşmələrin ən çox öyrənilmiş sahələrindəndir. Bu metalların metalkarbonil törəmələr kimyası $[L(OC)_mM]_3Ln$, yeni inkişaf etməyə başlamışdır. Metalkarbonil törəmələri həm nəzəri, həm də praktik cəhətdən xüsusi maraq doğurur. Belə ki, bəzi quruluş xüsusiyyətləri, uyğun olaraq d-elementləri törəmələrinə xas olmayan xüsusiyyətlər müəyyən olmuşdur, lantanid-metal rabitəsi ilə karbonil qruplarından birinin molekul daxili çox asan miqrasiya etməsi, karbon oksidinin lantanid atomu ilə molekul daxili və arası kordinasiyası öyrənilmişdir, karbonil birləşmələrində körpü və yarım-körpü əmələ gətirmək qabiliyyəti öyrənilmişdir. Praktik nöqteyi nəzərdən bu birləşmələrin bəzi nümayəndələri olefinlərin hidroformiatlaşdırılması prosesində güclü katalizator kimi kiçik molekulların CO və H_2-də aktivator kimi özünü göstərir. Funksional əvəzlənmiş üzvi molekulların hidridləşmə və dehidridləşmə prosesini onların köməyi ilə həyata keçirilir (1).

Pentakis–tetrahidrofuranat tris–manqan pentakarbonil lantanın kompleksinin $[(OC)_5Mn]_3La \cdot (THF)_5$ sintezi, aktivləşdirilmiş lantan ilə manqan–pentakarbonil arasındakı reaksiyaya əsaslanır.

Lantanı aşağıdakı kimi aktivləşdirirlər: 0,05 kq lantan ovuntusu hazırlanır. Sonra onu ikiboğazlı kolbaya boşaldırlar və üzərinə 10 mq $HgCl_2$ (10 ml etanolda həll edilmiş) əlavə edilir. Ekzotermik reaksiya olduğundan kolbanı bağlayırlar. Reaksiyanı helium atmosferində aparırlar. Şəffaf məhlul alınana qədər məhlulu qarışdırırlar. Reaksiya qarışığını sonrakı təcrübəyə saxlamaq üçün onu xlorlaşdırırlar: $LaCl_3 \cdot (THF)_n$. Qarışdırma vaxtı bir neçə an dayandırılır və dekantasiya yolu ilə məhlulun parıltılı hissəsini ayırırlar. İnert qaz altında iki dəfə əlavə olaraq 2x5 ml etanol ilə yuyurlar. Bu yol ilə alınmış lantan tez hidroliz olduğundan ondan həmin dəqiqə istifadə etmək lazımdır.

Beləliklə, alınmış, aktivləşdirilmiş La/Hg lantan–manqan karbonil kompleksinin sintezi üçün istifadə olunur. Bunun üçün üçboğazlı kolbaya (mexaniki qarışdırıcı ilə təchiz olunmuş) 0,8 q $Mn_2(CO)_{10}$ – dekakarbonildimanqan kompleksi 25 ml təzə qovulmuş tetrahidrofuran ilə yerləşdirilir. Sonra onun üzərinə təzə hazırlanmış (yuxarıda göstərildiyi kimi) aktivləşdirilmiş lantan əlavə edilir. Reaksiya qarışığını əvvəlcə – 13^0C (buz + NaCl) temperaturda dörd saat ərzində, sonra isə üzərinə 10 ml toluol əlavə edib temperaturu 0^0C-yə qədər qaldırırlar və daha iki saat qarışdırırlar. Sonra bir saat ərzində temperaturu otaq temperaturuna qədər qaldırırlar. Bu temperaturda bulanıq məhlulu sakit buraxırlar. Səhərisi gün məhlulun rəngi qəhvəyi olur.

Reaksiya məhsulunu ayırmaq üçün əvvəlcə 120 ml soyuq heksan (qabaqcadan 5 dəqiqə ərzində helium ilə təmizlənir) hazırlanır. Sonra oraya helium altında dekantasiya yolu ilə reaksiya məhlulu əlavə edilir. Axırıncı məhlulu əlavə etdikdə bulanır və sarı çöküntü əmələ gəlir. Əsas məhsulun tamamilə ayrılmasıüçün heksan–THF məhlulunu soyuducuya 3 gün müddətində saxlayırlar. Çöküntünü ayırırlar, 3x5 ml soyuq heksan ilə yuyurlar və helium axınında qurudurlar. Çıxımı 0,37 q

(30%) olan pentakis–tetrahidrofuranat tris–manqanpentakarbonil kompleksi, $[(OC)_5Mn]_3La \cdot (THF)_5$ olur.

Hesablanmışdır, % : C – 38,75 H – 3,69 Mn – 15,22 $C_{35}H_{40}LaMn_3O_{20}$
Tapılmışdır, % : C – 38,01 H – 3,98 Mn – 15,41
$T_{ər.}$> 105–108^{0}C (parç.)
İQ–spektr: THF : $\nu_{C\equiv O}$ 1990, 1935, 2060 sm^{-1} $Mn_2(CO)_{10}$
vazelin yağında : $\nu_{C\equiv O}$ 2016, 2048, 2032, 2008 sm^{-1}
İQ–spektr : (THF–da) : $\nu_{C\equiv O}$ 1900, 1862, sm^{-1} $\left[Na^+ Mn(CO)_5^- \right]$

ƏDƏBİYYAT

1. Бочкарев М.Н., Каменина Г.С., Захаров Л.Н., Хоршев С.Н. Органические производные редкоземельных элементов. М.: 1989. Наука, 232 с.
2. Белецкая И.П., Сулейманов Г.З. Органические металлкарбонильные производные лантанидов. Металлорганическая химия. 1988, Т.1, №1, с.10-22
3. Махмудов Ш.М., Алиева Д.А., Джавадова И.А., Касумов Б.Г., Касумов Ш.Г., Сулейманов З.Г., Хандожко В.Н., Колобова Н.Е. Синтез, строение и свойства металлкарбонильных проихводных элементов I-III группы. Изд-во “Элм”. Препринт № 9 . Б. 1992. 40 с.

SUMMARY

Fidan Rahimova

SYNTHESIS OF LANTHANE METALCARBONYL DERIVATIVE COMPLEX

The scientific article is devoted to the recently developed areas of metalcarbonyl derivatives of rare-earth elements. Complexes of lanthanum metal and metalcarbonyl derivatives are the main object in this work. The obtained complex is widely used in the activation of small molecules.

Key words: *Metalcarbonyl, complex, lanthanum, substituted, pentacarbonyl*

H.N.ADIGÖZƏLZADƏ
shadigozalzade@gmail.com
Ü.Z.BƏŞİROVA
N.Z.İSMAİLOV
N.Tusi adına Azərbaycan Şamaxı Astrofizika Rəsədxanası
Milli Elmlər Akademiyası
A.A.AĞAYEVA
Bakı Dövlət Universiteti

HD 141569 ULDUZUNUN SPEKTRİNDƏ HYDROGEN XƏTLƏRİ

İşdə 2017-2018-ci illər ərzində ŞAR-da alınmış spectral müşahidə materialı əsasında HAeBe tipli HD141569 ulduzunun hydrogen xətlərinin profilləri tədqiq olunmuşdur. Göstərilmişdir ki, şüalanma komponentinin intensivliyi hydrogen xətlərində çox dik Balmer dekrementi yaradır. Bu da ulduz diskinin mərkəzi ulduz tərəfindən şüalanan bənövşəyi şüalanmaya qeyri şəffaf olduğunu göstərir. Balmer xətləri həm qısamüddətli, həm də uzunmüddətli dəyişmə göstərir.

Açar sözlər: *HAeBe ulduzlar, spektroskopiya, hydrogen xətləri, individual: HD141569*

İRAS peykinin uzaq infraqırmızı (İQ) diapazonda apardığı müşahidələr göstərdi ki, böyük sayda AeBe Herbiq tipli cavan ulduzların spektrində ulduzətrafı diskin şüalanması hesabına yaranan şüalanma artıqlığı müşahidə edilir. Ulduzətrafı disk ulduz küləyi, ulduz səthinə və planetezimala akkresiya, şüalanma təzyiqi və s. proseslər nəticəsində təqribən 10^8 il ərzində tədqicən dissipasiya edərək yox olur. Ona görə də belə İQ şüalanma artıqlığı göstərən ulduzlar cavan hesab olunur (Habing et al. 1999; Silverstone 2000). Ulduzətrafı diskdə planetlərin yaranması mexanizmini başa düşmək üçün ayrı-ayrı cavan ulduzların fundamental parametrlərini və yaşını tədqiq etmək böyük əhəmiyyət kəsb edir. Burada çətinlik onunla bağlıdır ki, HR diaqramında Baş Ardıcıllığa (BA) yaxınlaşan ulduzlar çox sürətlə təkamül edir, onlarda yaşı təyin edən əsas indicator sayılan litium artıqlığı və rentgen şüalanması müşahidə olunmur.

Herbig AeBe ulduzlar BA-da yerləşən ulduzlarla oraya yaxınlaşan ulduzlar arasında aralıq mərhələdə olan ulduzlardır. İlk dəfə Herbiq tərəfindən verilmiş (Herbig, 1960), daha sonrakı tədqiqatlarda dəqiqləşdirilmiş kriteriyalara görə kütlələri 2-10 M aralığında olan, qaz-toz dumanlıqlarında yerləşən, optik diapazonda spektrində şüalanma xətləri olan ulduzlar Herbiq AeBe (HAeBe) qrupuna aid edilmişdir. Daha sonra The Winter&Prezez (1994) tərəfindən bu kriteriyalara əlavə olaraq, yaxın və uzaq İQ oblastda şüalanma artıqlığı olması əlavə olunmuşdur. HD 141569 ulduzu spektral sinfi B9.5V, Hα xəttində güclü şüalanma var, 12-100 mkm aralığında şüalanma artıqlığı göstərir, lakin bu ulduz heç bir dumanlıqla bağlı deyil. HAeBe ulduzları yalnız İQ şüalanma artıqlığına görə təsnif etməyə cəhd edilmişdir (Hillenbrandt, 1992). Hesab edilir ki, bu ulduzlar təkamülün son mərhələsində Veqa və β Pic kimi ulduzlara çevrilməlidirlər.

Weinberger və b. (2000) göstərmişlər ki, HD141569 ulduzu çox ehtimal ki, üçqat ulduzdur, komponentlərin spektrinə əsasən, litiumun miqdarı və rentgen şüalanmasına görə ulduzun yaşı 5 mln il təşkil edir. Ulduzətrafı disk müxtəlif parçalardan ibarətdir. Bu işdə ulduzun hidrogen xətlərinin parametrlərinin və profillərinin dəyişməsi tədqiq olunmuşdur.


Bu işdə tədqiq olunan spektral material 2017-2018-ci illərdə Şamaxı Astrofizika Rəsədxanasının 2m teleskopunda ShAFES eşelle spektroqrafı vasitəsilə alınmışdır. Spektral material və alınan nəticələrin bir qismi Adıgozalzade et al.(2023) işində təsvir edilmişdir. Spektral ayırdetmə R=28000, diapazon λ 3700-7900 Å təşkil edir.

Yuxarıda qeyd etdiyimiz kimi, HD141569 sıx üçqat sistemdir, B komponenti mərkəzi ulduzdan 7.5 arcsec, C komponenti isə 1.5 arcsec məsafədədir. Komponentlərin fərdi şəkildə müşahidəsi iki səbəbdən mümkün olmamışdır:

a) mərkəzi A komponentinin parlaqlığı J zolağında 6.88 mag, B komponentinin parlaqlığı 9.2 mag, C komponentinin parlaqlığı isə 10.16 mag təşkil edir (Weınberger et al.2000);

b) müşahidə zamanı təsvirin ölçüsü 2-4 arcsec təşkil edir və nəticədə, spektroqrafın yarığı müstəvisində alınan xəyalda komponentlər ayırd edilə bilmir. Ona görə də alınan spektrlərdə üçlüyə daxil olan digər komponentlərin şüalanma payı olsa da, əsas şüalanma daha parlaq A komponenti tərəfindəndir.

İşdə 2 spektroqram 2017-ci ildən, 6 spektroqram 2018-ci ildən tədqiq edilmişdir. 1-ci şəkildə hidrogenin Hα-Hε xətlərinin profilləri verilmişdir. Göründüyü kimi, Hα xətti güclü ikipikli şüalanma profili göstərir, Hβ xəttində həmin struktur qalsa da, şüalanma piklərinin intensivliyi nisbətən xeyli azdır.



Şəkil 1. *HD141569 ulduzunun spektrində Hα, Hβ, Hγ və Hε xətlərinin profilləri*

Digər iki Hγ və Hε xətlərinin mərkəzində şüalanma komponenti demək olar ki, müşahidə olunmur. Şüalanmanın mərkəzində udulmanın sürüşməsi ulduzun kütlə mərkəzinin sürətinə yaxındır. Hγ və Hε xətlərində udulma pikinin sürüşməsi bir qədər kütlə mərkəzindən daha çox bənövşəyi sürüşmə göstərir (Adıgözəlzadə və b. 2023). Şüalanma strukturu həm uzunmüddətli, həm də qısamüddətli dəyişmə göstərir.

Şüalanma komponentinin intensivliyi hidrogen xətlərində kəskin Balmer dekrementi təşkil etdiyini göstərir. Bu da o deməkdir ki, bənövşəyi və görünən oblastda disk şüalanması ciddi udulmaya məruz qalır. Başqa sözlə, ulduzətrafı disk mərkəzi ulduzdan ultrabənövşəyi və optik diapazonda şüalanan enerji üçün qeyri şəffafdır.

Spektral xətlərin intensivliyinin dəyişməsi İQ və radio diapazonlarda müxtəlif müəlliflərin (White and Boley 2018, GRAVITY collaboration, 2021)) göstərdiyi ulduz diskinin müəyyən struktura malik olduğu fikrini təsdiq edir. Bununla belə, əgər disk strukturu dağılmış sabit bir formadadırsa, o zaman ulduzun fırlanma perioduna yaxın periodlu dəyişmələr müşahidə olumalıdır.

Bunu sübut etmək üçün statistik çoxlu sayda yüksək ayırdetməli spektral müşahidə materialına ehtiyac var.

ƏDƏBİYYAT

1. Habing H.J., Dominik C., Jourdain De Muizon et al., 1999, Nature, 401, 456
2. Silverstone M. D. 2000, Ph.D. thesis, UCLA
3. The P.S., de Winter, D., & Perez M. R. 1994, A&AS, 104, 315
4. Hillenbrand L.A., Strom S.E., Vrba F.J., & Keene J. 1992, ApJ, 397, 613
5. Weinberger A.J., Rich R.M., Becklin, E.E. et al. 2000, ApJ 544, 943
6. Adigozalzade H.N., Ismailov N.Z., Bashirova U.Z, et al.2023, Az AJ 18(2), 43
7. White J.A., Boley A.C. 2018, ApJ, 859, 103
8. GRAVITY Collaboration: V. Ganci et al., 2021, A&A 655, A112

YENİ İNFORMASİYA TEXNOLOGİYALARI VƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ

ŞƏFİQƏ İMANOVA
Shefiqeimanova@ndu.edu.az
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0000-7902-888X

TƏRCÜMƏYÖNÜMLÜ İXTİSASLARDA İKT-NİN ROLU. ONLAYN TƏRCÜMƏ. PROBLEMLƏR. TƏKLİFLƏR

Texnologiyanın sürətlə inkişaf etdiyi zamanda hər bir elm sahəsində olduğu kimi tərcüməyönümlü ixtisaslarda da İKT vasitələrdən istifadə xeyli çoxalmışdır. Bu tələbatların nəticəsində bir çox və müasir təyinatlı tərcümə proqram vasitələri yaranmışdır. Bununla birlikdə, onlayn tərcümənin bəzən yaşadığı bəzi problemlər də var. Məsələn, maşın tərcüməsi tam mətn anlayışı və dillərin incəsənəti kimi məsələlərdə sınırlılıqlar göstərə bilər. Həmçinin onlayn tərcümə platformaları insan tərcüməçilərinin işini əvəzləyərək onların mənimsəməsinə mane olacaqsa da, insan elementinin mühüm olduğu halda mənimsəmə məsələləri yaranır.

Təklif olunan həll yolları arasında, maşın tərcüməsinin daha çox insan redaktoru ilə təkmilləşdirilməsi, tərcümə proqramlarının daha yaxşı tələbələr və müəllimlər tərəfindən istifadəsi üçün təminatları, tərcüməçilər və müştərilər arasında daha yaxşı kommunikasiya və əməkdaşlıq platformalarının inkişafı verilir. Xarici dillərdən tərcümə zamanı, xüsusilə fərqli dil ailəsinə məxsus dillər arasındakı tərcümədə bədiiliyin normaya uyğun şəkildə təşkil olunması zamanı bir çox çatışmayan məqamlar vardır. Araşdırmanın məqsədi tərcümə materiallarının hansı dillərdən çevirilməsindən asılı olmayaraq həmin dillərin qrammatikasına və leksikasına uyğun olaraq bədii mətnlərdə ədəbi dilin normalarını gözləməklə tərcümə prosesinin maksimum keyfiyyətli və sürətli şəkildə həyata keçirilməsindən bəhs etməkdir. Bundan başqa, məqalədə transilyasiya prosesində qarşıya çıxan problemlərin aradan qaldırılması üçün bir sıra həll üsulları və təkliflərə də toxunulmuşdur.

Açar sözlər: *informasiya kommunikasiya texnologiyaları, onlayn tərcümənin çatışmazlıqları, elektron resurslara müraciət, onlayn tərcümə proqramları*

Giriş

Məlum olduğu kimi, XXI əsr Azərbaycanda informasiya cəmiyyətinə keçid dövrü hesab olunur və elektron hökumətin formalaşdırılması, intellektual potensialın inkişafı sayəsində neft sektorundan sonra əsas sahə hesab olunan informasiya və kommunikasiya texnologiyaları sahəsi Azərbaycanın sosial-iqtisadi həyatına son illərdə daha böyük və əhəmiyyətli dərəcədə təsir etmişdir. Müasir dövrdə və gələcək planlarda İKT-nin əhəmiyyəti ön plana keçmişdir. Bu günkü rabitə və informasiya texnologiyaları, ölkənin inkişafı, əhalinin savadlılığının və İKT vasitələrdən istifadənin populyarlaşması, həmçinin də dünyada baş verən keçid və əlaqə proseslərinə daha fəal cəlb olunması işləri istiqamətində ölkəmizin qarşısında yeni imkanlar açır.

Bütün elm sahələrində olduğu kimi tərcümə ilə əlaqəli ixtisaslarda da İKT vasitələrdən geniş istifadə olunur. İKT vasitələrin istifadəsi və ya tətbiqi dedikdə, təkcə kompüter, elektron lövhə və s. nəzərdə tutulmur. Söhbət tərcümədən gedirsə, onlayn və oflayn tərcümə proqramlarının tətbiqi vacibdir. Belə proqramlara Prompt, Dilmanc, Polyglot, Everylang Pro, Lingoes, Balabolka və daha bir çox nümunələr sadalamaq olar. Bu proqramlar günümüzdə tərcümə prosesini xeyli asanlaşdırıb, sərf olunan zamanı minimuma endirsə də, bir çox çatışmayan cəhətləri var.Transilyasiya prosesində ən azı iki dil arasında çevrilmə gedir, burada mümkün qədər dəqiq məna qarşılığı almaq üçün proqrama daxil edilən hər iki dilin lüğət tərkibi zəngin olmalıdır. Lakin iş bununla da bitmir, hərfi

tərcümə yerində olsa da, ümumi mənada tamamlanmayan hissələr ola bilir. Klassik sinxron tərcümə zamanı tərcüməçi peşəkar olduğundan dillərarası məna əlaqələrini tez və asanlıqla yaradır və beləliklə tərcümə tam mənasında qüsursuz olur. Onlayn tərcümə proqramları maşın çevirməsi ilə baş tutduğuna görə bəzi problemlərlə qarşılaşmaq qaçınılmazdır.

Metodlar:

İstər tərcümə, istərsə də digər təyinatlı proqramları və ya kitabxanaları hazırlayarkən elektron resurslara müraciət vacibdir. Bütün mövcud olan elektron informasiya resursları 3 tərkib hissədən ibarətdir.

1. Pulsuz, yəni hamı üçün açıq olan şəbəkə (internet) resursları. Bu resursları istifadə etmək, yəni öz məxsusi serverinə (elektron saxlayıcısına) keçirmək üçün resurs sahiblərindən icazə almaq lazımdır. Çox zaman yalnız bir dəfəlik istifadə üçün razılıq almaq da lazım gəlmir. Ancaq kitabxana hər hansı bir web-sənədi, yaxud biblioqrafik məlumat bazasını öz elektron fonduna keçirmək və mühafizə etmək istəyirsə, sənəd sahibindən təqribi razılıq almalıdır, yəni onun saytında sadəcə olaraq qeydiyyatdan keçməlidir. Burada heç bir pul tələb olunmur.

2. Portativ informasiya daşıyıcılarından olan kitab, jurnal və digər növ sənədləri komplektləşdirmək kağız sənədlərdə olduğu kimidir. Onları əlaqədar kitab mağazalarından və abunə agentliklərindən pul ödəmə yolu ilə alıb elektron kitabxanaya daxil etmək olar. Nəşriyyatlarda da birbaşa belə sənədləri satırlar.

Baxmayaraq ki, bu komplektləşdirmə üsulu xarici ölkə kitabxanalarında hələ XX əsrin 80-ci illərindən tətbiq edilir, respublikada bu işlər zəifdir. Çünki nəşriyyatlarımızda belə məhsullar hazırlanmır. Xarici ədəbiyyatı deyilən formada almaq isə baha başa gəlir. Əlaqədar kitabxanada versiyası əsasında belə elektron kitabları hazırlamaq çoxlu texniki avadanlıq tələb edir, mürəkkəb prosesdir və hazır şəkildə almağa nisbətən daha bahadır.

3. Pullu şəbəkə resurslarına elektron informasiyaların komplektləşdirilməsi ən vacib əhəmiyyət daşıyır. Çünki ən aktual keyfiyyətli sənədlər, məhz bu tip resurslarda mühafizə olunur. Onların çox hissəsinin, ümumiyyətlə, çap versiyası olmur. Burada lisenziyalaşdırma üsulu istifadə edilir. Lisenziya müqaviləsi informasiya təchizatçısı ilə onun tələbatçısının əlaqələndirilməsidir. Lisenziyanın hüquqi əsası müəlliflik hüququ haqqında qanundur (2017).

Forma və məzmuna görə müxtəlif elektron resursların kəmiyyət artımını bu gün hər hansı asılılıqla müəyyən etmək mümkün deyildir. Bundan başqa, elektron resurslar bir-birlərindən reallaşma formalarına və yayılma resurslarına görə güclü fərqlənirlər. Məhz kitabxanalar onların pərakəndəliyini dəf etməli, elektron resurslara unifikasiyalı çıxışın olmaması problemini həll etməli, onların etibarlığı və aktuallığının qiymətləndirilməsini aparmalıdır, bu da informasiya xidməti keyfiyyətinin radikal yüksəlməsinə imkan verir (2016).

Maşın tərcümə sistemi bir dildə olan mətnin digər dildə keyfiyyətli qaralama tərcüməsini almaq üçün yaradılan kompüter proqramı sistemidir. Bizim bilmədiyimiz dildə olan məlumatı başa düşə biləcəyimiz dildə əldə etmək üçün bu proqram ideal vasitədir.

U.Uiver yazırdı: "*I have a text in front of me which is written in Russian but I am going to pretend that it is really written in English and that it has been coded in some strange symbols. All I need to do is strip off the code in order to retrieve the information contained in the text.*''(—Mənim gözlərim önündə rusca yazılmış bir mətn vardır, lakin mən özümü elə göstərməyə çalışıram ki, o həqiqətən ingilis dilində yazılmışdır və bir qədər qəribə simvollarla kodlaşdırılmışdır. Mənə əsas lazım olan bu mətndəki informasiyanı əldə etmək üçün həmin kodu sındırmaqdır). O vaxt böyük vətən müharibəsinin təzə qurtardığı vaxtlar şifrələmə və kriptoqrafiya elmləri çox aktual olduğundan Uiverin tərtib etdiyi maşın tərcüməsi konspesiyasına maraq xeyli artdı.

Uiverin ideyaları sonralar maşın tərcüməsində interlinqva kimi yaranmış konsepsiyanın əsasını qoydu: İnformasiyanın ötürülməsi iki mərhələyə bölünür. Birinci mərhələdə giriş mətni sadə ingilis dilinin bazası əsasında yaradılmış vasitəçi dilə tərcümə olunur, ikinci mərhələdə isə bu nəticə çıxış dilində təqdim olunur (2017).

Onlayn tərcümə proqramlarına bəzi məşhur proqramları misal göstərmək olar. Multitran. Qramota.

Socrat-Personal. Babylon: Belazar Sayt.Magic Gooddy

Bəzi online tərcümə resursları :

http://www.multitran.ru

http://www.lingvo.ru/lingvo/index.asp

http://online.multilex.ru

https://translate.google.ru/

Problemlər:

Mətnin düzgünlüyü və qrammatikası: Maşın tərcüməsi texnologiyaları hələ də mətnin düzgünlüyü, qrammatikası və üslubu kimi sahələrdə məhdudiyyətlər göstərir. Yaranan tərcümələrin səmərəliliyi və məntiqi düzgünlüyü, adətən bir insan tərcüməçisinin tərəfindən təmin edilir.

Məzmunun anlaşılmazlığı: Mənzərələrin mənası və subyektiv interpretasiyası kimi daha mürəkkəb məzmunlar, maşın tərcüməsi üçün problem yarada bilər.

Lüğət məhdudiyyətləri: Maşın tərcüməsi texnologiyalarının istifadə etdiyi lüğətlər məhdud ola bilər və buna görə də mətnin bütün nüanslarını əks etdirə bilməz.

Mədəniyyətlərarası nüanslar: Dilin bəzi ifadələri və məzmunları mənsub olduğu mədəniyyətə və dilə özəl nüanslara malik olur. Bu nüanslar maşın tərcüməsi üçün çətinlik yarada bilər.

Təkliflər:

Maşın tərcüməsi və insan redaktoru ittifaqı: İdeal olaraq, maşın tərcüməsi texnologiyaları insan redaktoru ilə birlikdə istifadə edilərək mətnin səmərəliliyi artırılmalıdır. İnsan redaktoru, mətni dillərin incəsənəti və məzmunun mənası baxımından yoxlaya bilər.

Texnoloji inkişaf: Maşın tərcüməsi texnologiyalarının daha da inkişaf etdirilməsi və mətnin mənasını daha yaxşı təhlil etməyə kömək edəcək, yeni alətlərin yaradılması əhəmiyyətlidir.

Dil tədrisi və texnologiya: Tərcümə sahəsində ən yaxşı təlim və tədris proqramları həm insan, həm də maşın tərcüməsinin inkişafına yönəldilməlidir.

Sosial və təcrübəəsaslı tərcümə platformaları: Müştərilərin və tərcüməçilərin bir araya gəlməsi üçün daha effektiv və interaktiv platformaların inkişafı. Bu, daha yaxşı iş birliyi, məlumat mübadiləsi və məsləhət imkanı yarada bilər.

Bu təkliflər, onlayn tərcümə sahəsindəki texnoloji inkişafı və sürətləşməsi üçün yararlı ola bilir. İKT və tərcümə sahəsindəki yeni inkişaflar əmələ gəlməklə, bu problemlərin üstəsindən daha effektiv şəkildə gəlinə bilər.

Nəticə:

Tərcümə zamanı İKT vasitələrdən istifadə və tərcümə zamanı qarşıya çıxa biləcək problemlər və bu problemlərin həlli yolları ilə bağlı olan bu araşdırmada gəlinən nəticə ondan ibarətdir ki, ən mükəmməl maşın tərcüməsi zamanı da məna fərqli nəticə almaq mümkündür. Bunun qarşısını almaq üçün ən məqsədəuyğun həll yolları aşağıdakılardır:

1. Proqramın söz bazası zəngin olmalıdır;
2. Məna əlaqələri gözlənilməlidir;
3. Dilin ədəbi normalarına diqqətlə yanaşılmalıdır;
4. Mümkün qədər lakonik tərcümə üsulları daxil edilməlidir;
5. Mütləq ən azı 2 dilçi alimlə əməkdaşlıq edilməlidir.

Bu təkliflər nəzərə alındıqda, dillərarası tərcümə prosesində günümüzün aktiv problemlərinin böyük bir qismi həllini tapa bilər.

Müzakirə: İKT-nın tərcüməyönümlü ixtisaslar üzərindəki təsiri

ƏDƏBİYYAT

1. Əliyev A., Qardaşov R. 2017
2. Əzimov F.M. 2017, s.41-113
3. Qasımova R. 2016

SUMMARY

Shafiga Imanova

THE ROLE OF ICT IN TRANSLATION-ORIENTED SPECIALIZATIONS. ONLINE TRANSLATION. PROBLEMS. PROPOSALS.

At the time of rapid development of technology, as in every field of science, the use of ICT tools has increased significantly in translation-oriented specialties. As a result of these needs, many and modern translation software tools have been created. However, there are some problems that online translation sometimes has. For example, machine translation may exhibit limitations in issues such as full text understanding and language arts. Also, although online translation platforms will replace the work of human translators and prevent them from mastering, mastering issues arise when the human element is important.

Proposed solutions include improving machine translation with more human editors, providing translation software for better use by students and teachers, and developing better communication and collaboration platforms between translators and clients. In the translation between languages, there are many missing points during the organization of the artistic in accordance with the norm. The purpose of the research is to talk about the maximum quality and speed of the translation process in accordance with the grammar and lexicon of those languages, in accordance with the norms of the literary language in literary texts, regardless of which languages the translation materials are translated from. In addition, the article also touched upon a number of solution methods and proposals to overcome the problems encountered in the process of transmission.

***Key words**: information communication technologies, shortcomings of online translation, access to electronic resources, online translation programs*

AYNUR NƏCƏFOVA
necefova.aynur136@gmail.com
Naxçıvan Dövlət Universiteti


PAYLANMIŞ ŞƏBƏKƏLƏRDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

Paylanmış şəbəkələr informasiya təhlükəsizliyi üçün ciddi risklər törədə bilən platformalardır. İstifadəçilər bu şəbəkələrdə müxtəlif məlumatları paylaşır və əlaqə qurur, ancaq bu məlumatlar müxtəlif təhlükələrə məruz qalır. İnformasiya təhlükəsizliyi, şəbəkələrdə şəxsi və rəsmi məlumatların qorunması və yetkililər tərəfindən əlçatanlığının qarşısının alınması məsələlərini əhatə edir. Birinci təhlükə, identifikasiya oğurluğudur. İnsanların şəxsi məlumatları, kredit kartı nömrələri, şəxsiyyət və maliyyə məlumatları kimi mahiyyətlər paylanmış şəbəkələrdə qorunmasız ola bilər. Bu məlumatlar pis niyyətli fəaliyyətlər üçün istifadə oluna bilər. İkinci təhlükə, köməkçi proqramlar və viruslar tərəfindən hücuma məruz qalmaqdır. Paylanmış şəbəkələrdə faydalananlar, köməkçi proqramlar vasitəsilə hədəflənə bilər və onların məlumatları ələ keçirilə bilər. Həmçinin faydalananlar tərəfindən yayılan viruslar və malware proqramları vasitəsilə hədəflənə bilər. Üçüncü təhlükə, şəbəkənin özü ilə bağlı məsələlərdədir. Paylanmış şəbəkələrin öz sistemləri və infrastrukturu da təhlükə altında ola bilər. Hakerlər və digər pis niyyətli fəaliyyət göstərənlər, şəbəkələrin zəifliklərindən istifadə edərək istədikləri məlumatlara giriş əldə edə bilərlər. Bu təhlükələrə qarşı qorunmaq üçün, istifadəçilər tərəfindən güclü parolların seçilməsi, məlumatların müvafiq şəkildə qorunması üçün tədbirlərin alınması və anti-virus və anti-malware proqramlarının istifadə edilməsi tövsiyə olunur. Həmçinin, paylanmış şəbəkələrin idarə olunması və təhlükələrə qarşı qorunmaq üçün tədbirlər almaq şirkətlər və şəbəkə operatorları üçün də vacibdir. İnformasiya təhlükəsizliyi, paylanmış şəbəkələrdə fəaliyyət göstərən hər bir tərəfin diqqətini cəlb etməli və təhlükələrə qarşı qorunmaq üçün ciddi ehtiyatlar almağı tələb edir.

Açar sözlər: *İnformasiya sistemləri, informasiya təhlükəsizliyi, paylanmış şəbəkə, paylanmış şəbəkədə informasiya təhlükəsizliyi*

Tutaq ki, istehsal obyektlərinə xidmət edən açıq paylanmış kompüter şəbəkəsinin qurulması tələb olunur. Şəbəkədə tələblərə daxilolma qaydası ilə xidmət edilir, yəni FCFS (First-Come-First-Served).

Baxılan şəbəkəyə tələblər əvvəlcə GÇQ vasitəsilə λ intensivliyi ilə daxil olur və mərkəzi prosessora xidmət üçün götürülür. Burada xidmət intensivliyi μ_i-dir. Hər iki parametr ekspenonsial paylanma qanununa tabedir. Tələblər mərkəzi prosessorlara, emaldan sonra printerə və ya diskə ötürülə bilər. Printerdə xidmət alan tələb, ehtiyac olduqda yenidən kompüter sisteminə GÇQ vasitəsilə qayıda bilər. Diskə yazılmış tələb isə, eyni zamanda stekə də göndərilə bilər və lazım gəldikdə də bu tələb də yenidən GÇQ vasitəsilə sistemə qayıda bilər. Beləliklə, biz aşağıdakı struktura malik kompüter sisteminin açıq KXŞ modelinə baxarıq.



Bu şəbəkədə 4-düyün vardır. Şəbəkənin parametrlərinin qiymətləri aşağıdakılardır:

$$\lambda = \lambda_{04} = 4t\ /san\ (k_1, k_2, k_3, k_4)\ (3, 2, 4, 1)$$

$$\left.\begin{array}{l} 1/\mu_1 = 0{,}04san \\ 1/\mu_2 = 0{,}03san \\ 1/\mu_3 = 0{,}06san \\ 1/\mu_4 = 0{,}05san \end{array}\right\} \quad \begin{array}{l} P_{12} = P_{13} = \frac{1}{2} \\ P_{41} = P_{21} = 1 \\ P_{21} = 0{,}6 \\ P_{30} = 0{,}4 \end{array}$$

$$\left.\begin{array}{l} \lambda_1 = 20 \\ \lambda_2 = 10 \\ \lambda_3 = 10 \\ \lambda_4 = 4 \end{array}\right\} \quad \begin{array}{l} \rho_1 = \lambda_1 / \mu_1 = 0.8 \\ \rho_2 = 0.3 \\ \rho_3 = 0.6 \\ \rho_4 = 0.2 \end{array}$$

$\rho_1<1$ erqodiklik şərtini ödəyir. Bu verilənlər əsasında aparılmış hesablamalar aşağıdakı nəticələrin alınmasına imkan verir. Nəticələr cədvəllər göstərilmişdir. Qeyd edək ki, alınmış nəticələr qurulması tələb edilən kompüter sisteminin əsas xidmət xaraqteristikalarının müəyyən olunmasına tam imkan verir və göstərilən qayda ilə istehsal şəbəkələrinin qurulması yerinə yetirmək mümkündür.

Düyünlərdə tələblərin orta sayı

K_1	K_2	K_3	K_4
4	0,4	1,5	0,25

Orta reaksiya müddəti

$\overline{T_1}$	$\overline{T_2}$	$\overline{T_3}$	$\overline{T_4}$
0,2	0,043	0,15	0,06


Düyünlərdə növbədə orta gözləmə vaxtı

$\overline{W_1}$	$\overline{W_2}$	$\overline{W_3}$	$\overline{W_4}$
0,2	0,01	0,09	0,012

Düyünlərdə tələblərin orta növbə uzunluğu

$\overline{Q_1}$	$\overline{Q_2}$	$\overline{Q_3}$	$\overline{Q_4}$
3,2	0,12	0,9	0,05

Məlumdur ki, kompüter şəbəkələrində informasiya qorunma problemi günü-gündən böyük əhəmiyyət kəsb etməkdədir. Kompüter şəbəkələrində neqativ halların baş verməsi əksər hallarda İNTERNET qlobal şəbəkəsi tərəfindən əmələ gəlir. Belə ki, bu şəbəkələr, nəinki informasiya axtarışına meydan açır, bununla birlikdə virusların yayılmasını, troyan atları və digər zərərverici proqramların yaranmasına səbəb olur. Daxil olan informasiyaların ad və parol səviyyəsində informasiya qorunmasının təmini qənaətbəxş sayıla bilməz. Ona görə də real şəbəkələrdə aparat və proqram təminatında qarşıya bir sıra çatışmazlıqlar meydana çıxır. Bu məqsədlə şəbəkələrdə meydana çıxa biləcək mümkün təhlükələrin təsnifatı aparılmışdır. Bu təsnifat bəzi xarakterik xüsusiyyətlərə əsaslanaraq aparılmışdır. Bu xüsusiyyətlər proqramlaşdırılmış və ya proqramlaşdırılmamış hərəkətlər, poçt qutusunun zibillənməsi, qara gedişin axtarışı, kanalın sıradan çıxması, kompüterin sıradan çıxarılması və s. ilə əlaqədardır. Troyan atı fon rejimində işləyən proqramdır və kənardan kompüterə tam müdaxilə edə bilir. Onun vasitəsilə kənardan kompüterə müdaxilə mümkündür. Lakin onun mümkün hərəkətləri proqramlaşdırılmamış, yalnız onun fantaziyasından asılıdır (Qasımov V.Ə. 2009. s.190-192).



Viruslar WORD və EXCEL kimi heç nəyə ziyan verməyən sənədlərdə də yayıla bilər. Poçt qutusunu zibilləyən xəbər-poçt xəbəridir, elektron poçt vasitəsilə ünvana göndərilir. Onlar reklam və ya hər hansı mənasız mətinlərdən ibarətdir. Onlar çox böyük həcmdə göndərilir və poçt qutusunu o tərzdə doldurur ki, orada lazımi informasiyanı seçmək mümkün olmur. Qara gedişlər proqram məhsullarını hazırlayanlar tərəfindən yaradılmış və saxlanılmış məlumatlardır ki, bunlar da troyan atlarının variantlarıdır. Serverin otkazına istiqamətlənmiş hücumlar, əsasən, şəbəkələrdə serverlərə qarşı yönəlmişdir və çox zaman kanalları sıradan çıxarır. Qeyri-korrekt işləyən proqramlar, ümumiyyətlə kompüter şəbəkələrini sıradan çıxarmağa istiqamətlənmiş zərərvericilərdir. Aparılmış təhlillər göstərir ki, informasiyanı qoruyan xüsusi proqram vasitələri vardır ki, onlar istifadəçini müəyyənləşdirməyə, müdaxiləyə nəzarət, qalıq informasiyanın çıxarılmasını və s. imkan verir. Bu proqram vasitələrinin bir sıra üstün cəhətlərinə baxmayaraq, universallıq, etibarlılıq, quraşdırma sadəliyi, modifikasiya qabiliyyəti və s. onlar bir sıra çatışmazlıqlara malikdirlər (şəbəkənin funksional imkanlarının məhdudluğu, fayl-serverin ehtiyatlarından istifadə, dəyişikliklərə qarşı yüksək həssaslıq, kompüterlərin tipindən asılılıq). Ona görə də kompüter şəbəkələrində informasiyanın müdafiəsi ilə bağlı problemi həll edərkən bu şəbəkədə fəaliyyət göstərən informasiya qorunma sisteminin proqram–texniki strukturunu təyin edən məsələ təklif edilərək həll edilməlidir. Təklif edilən informasiya qorunma sistemi qlobal şəbəkə ilə paylanmış şəbəkə tərəfdən daxil olan informasiyaları filtrasiya, təftiş edərək şəbəkə kompüterlərinə emal üçün göndərir. Belə struktura xaricdən gələn təhlükələrin kifayət qədər azaldılmasına imkan verir. Bu zaman sistem maskarad üsulundan istifadə edilərək, bütün informasiya paylanmış şəbəkədən informasiya müdafiə sistemi adından çıxır və şəbəkə özü praktik olaraq görünməz qalır. İnformasiya belə şəbəkələrdə sinxron və asinxron şəkildə müxtəlif mənbələrdən ötürülür. Belə şəbəkələrdə bufer yaddaşının strukturunun müəyyənləşdirilməsi başlıca məsələ kimi qarşıya çıxır. İnformasiya müdafiə sistemi informasiya qəbulu, ötürülməsi üzərində nəzərdə yaratmaqla yanaşı aşağıdakı kompleks proqramları da özündə saxlayır və onlar vasitəsi ilə fəaliyyətini yerinə yetirir:

- Pretty Good Privasy (PGP) proqramını, bu proqram poçt xəbərinin kriptoqrafik şıfrasiyasın yerinə yetirir;
- Add aware və ya X cleaner kimi “casus” proqramlarını aşkarlayan və məhv edən utilitlər;
- Bərk diskə “zibil”, “casus” proqram təminatı və troyanların düşməsinin qarşısını alan və kompüterlərə sauksiyalaşdırılmamış müdaxilələri aşkarlayan və blokirə edən brondmanerlər;
- Antivirus proqram təminatı (Antiviral Toolkit, Kaspresky antivirus, Dr.web və s.) və konkret viruslarla mübarizə edən müxtəlif utilitlər.

Qeyd etmək lazımdır ki, periodik olaraq informasiya qorunma sistemi kompüter şəbəkəsinin əsas məsələsi kimi sistemin effektivliyini təhlil edir ki, bu da son nəticədə kifayət qədər effektiv sistemin işlənməsinə gətirib çıxarır. Belə sistemin hesabına təbiidir ki, ən təcrübəli “təxribatçı” proqram belə sistemi sıradan çıxara bilmir. Bu məqsədlə yuxarıda təklif olunan və işlənən analitik model belə sistemin xarakteristikalarının tapılmasına imkan verir. Baxılan informasiya qorunma sistemi açıq kütləvi xidmət şəbəkəsi ilə üst-üstə düşür. Onun xarakteristikalarının seçilməsi məsələsi

müəyyən effektivlik kriteriyasının tətbiqi ilə bağlıdır. Aparılmış təhlillər belə məsələlərin aşağıdakı optimallaşdırma məsələləri çərçivəsində həll edilməsi məqsədə uyğundur. Verilmiş buraxılış qabiliyyəti şərti ilə sistemin dəyərinin məhdudiyyəti şəraitində reaksiya müddətinin maksimallaşdırılması ona görə də şəbəkələrin işlənməsində sonuncu mərhələlərdən biri optimallaşdırma üsulunun seçilməsindən ibarətdir. Qeyd edək ki, ən müxtəlif optimallaşdırma üsulları mövcuddur ki, belə məsələlərin həlli zamanı istifadə edilə bilər. Yazılmış modellər optimallaşdırma üsulları çərçivəsində həll edilərək əsas xarakteristikaların tapılmasına şərait yaradır. Çox zaman optimallaşdırma zamanı kütləvi xidmət şəbəkələri modellərindən, markov modellərindən, iyerarxik modellərdən istifadə edirlər. Sonrakı mərhələdə alınmış analitik modelin adekvatlığının sübuta ehtiyacı məsələsi qarşıya çıxır. Ona görə də növbəti bölmədə işlənmiş analitik modelin nəticələrinin də geniş qiymətlər üçün işlənməsini təmin etməkdən ötrü onun imitasiya modelinə baxılır (S.Q.Kərimov. 2010. s.43-45).

Nəticələr

Paylanmış Şəbəkələrdə İnformasiya Təhlükəsizliyinin dedikdə, verilənlərin bir-biri ilə əlaqəli çoxsaylı qovşaqlarda saxlandığı və emal edildiyi paylanmış şəbəkələrdə informasiya təhlükəsizliyinin əhəmiyyətini araşdırır. O, paylanmış arxitekturalarla əlaqəli zəifliklər səbəbindən belə qeyri-mərkəzləşdirilmiş mühitlərdə həssas məlumatların qorunmasının kritik əhəmiyyətini vurğulayır.

Əsas nöqtələr

Paylanmış Şəbəkələrə İcmal: Məqalə paylanmış şəbəkələrin icmalı ilə başlayır, onların mərkəzsizləşdirmə, miqyaslılıq və nasazlığa dözümlülük kimi xüsusiyyətlərini vurğulayır. Bu xüsusiyyətlər müxtəlif üstünlüklər təklif etsə də, eyni zamanda effektiv şəkildə həll edilməli olan unikal təhlükəsizlik problemləri təqdim edir.

Təhlükəsizlik Təhdidləri və Riskləri: O, icazəsiz giriş, məlumatların pozulması, paylanmış xidmətdən imtina (DDoS) hücumları və zərərli insayderlər daxil olmaqla, paylanmış şəbəkələrdə geniş yayılmış müxtəlif təhlükəsizlik təhdidləri və risklərini araşdırır. Bu təhdidlər məlumatların məxfiliyini, bütövlüyünü və əlçatanlığını poza bilər və təşkilatlar üçün ağır nəticələrə səbəb ola bilər.

Təhlükəsizlik tədbirləri və strategiyaları: Məqalədə paylanmış şəbəkələrdə risklərin azaldılmasına və informasiya təhlükəsizliyinin artırılmasına yönəlmiş bir sıra təhlükəsizlik tədbirləri və strategiyaları təsvir edilmişdir. Bunlara şifrələmə üsulları, möhkəm autentifikasiya mexanizmləri, girişə nəzarət siyasətləri, müdaxilənin aşkarlanması sistemləri (IDS) və şəbəkə seqmentasiyası daxildir. Şəbəkəni inkişaf edən təhdidlərə qarşı gücləndirmək üçün təhlükəsizlik müdafiəsinin çoxsaylı təbəqələrini birləşdirən dərin müdafiə yanaşmasından istifadə etmək tövsiyə olunur.

Blockchain Texnologiyasının Rolu: Blockchain texnologiyası paylanmış şəbəkələrdə təhlükəsizliyin və etibarın artırılması üçün perspektivli həll yolu kimi vurğulanır. Mərkəzləşdirilməmiş konsensus mexanizmləri vasitəsilə dəyişməz və şəffaf əməliyyat qeydlərini təmin etməklə, blokçeyn məlumatların bütövlüyünü gücləndirə və saxtalaşdırma və ya icazəsiz dəyişikliklər riskini azalda bilər.

Problemlər və Mülahizələr: Məqalədə paylanmış şəbəkələrdə effektiv informasiya təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi ilə bağlı problemlər və mülahizələr müzakirə olunur. Bunlara qarşılıqlı fəaliyyət problemləri, miqyaslılıq problemləri, tənzimləmə uyğunluğu və mərkəzləşdirilməmiş sistemləri effektiv şəkildə idarə edə bilən kibertəhlükəsizlik üzrə təcrübəli mütəxəssislərə ehtiyac daxildir.

Gələcək Trendlər və İnnovasiyalar: Nəhayət, məqalə sıfır inamlı arxitektura, təhlükəsiz çoxpartiyalı hesablamalar və süni intellektə əsaslanan təhdidlərin aşkarlanması kimi informasiya təhlükəsizliyi sahəsində yaranan tendensiyaları və yenilikləri araşdırır. O, paylanmış şəbəkələrin dinamik mənzərəsində inkişaf edən kibertəhlükələrdən qabaq qalmaq üçün davamlı tədqiqat və təkmilləşdirmə səylərinin vacibliyini vurğulayır.

Yekun olaraq, məqalə paylanmış şəbəkələrdə informasiya təhlükəsizliyinin prioritetləşdirilməsinin kritik əhəmiyyətini vurğulayır və risklərin azaldılması və həssas məlumatların

effektiv şəkildə qorunması üçün proaktiv tədbirlərin tərəfdarıdır. Həm texnoloji həlləri, həm də möhkəm kibertəhlükəsizlik təcrübələrini əhatə edən hərtərəfli yanaşmanı qəbul etməklə təşkilatlar paylanmış mühitlərdə kibertəhlükəsizliklərə qarşı dayanıqlığını gücləndirə bilər.

ƏDƏBİYYAT

1. "İnformasiya təhlükəsizliyi". İnformasiya bülleteni. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya. 2008. № 2
2. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyi: kompüter cinayətkarlığı və kiberterrorçuluq. Bakı: 2007. Elm, 192 s.
3. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyinin əsasları. Bakı: 2009. MTN-in nəşriyyatı, 342 s. Kərimov S.Q. İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri. Bakı: 2010, 426 s.
4. Шаньгин В.Ф. Информационная безопасность компьютерных сетей и систем.– М.: 2008. ИД «Форум»- Инфра-М, - 416 с.

SUMMARY

Aynur Najafova

INFORMATION SECURITY IN DISTRIBUTED NETWORKS

Distributed networks are platforms that can pose serious risks to information security. Users share various information and communicate on these networks, but this information is exposed to various threats. Information security covers the protection of personal and official information on networks and the prevention of access by authorities. The first threat is identity theft. People's personal information, such as credit card numbers, identity and financial information, can be vulnerable on distributed networks. This information can be used for malicious activities. The second danger is being attacked by adware and viruses. Beneficiaries in distributed networks can be targeted and their data intercepted by adware. It can also be targeted by viruses and malware programs distributed by beneficiaries. The third threat lies in issues related to the network itself. Distributed networks' own systems and infrastructure may also be at risk. Hackers and other malicious actors can exploit vulnerabilities in networks to gain access to the information they want. To protect against these threats, it is recommended that users choose strong passwords, take appropriate data protection measures, and use anti-virus and anti-malware software. It is also important for companies and network operators to take measures to manage distributed networks and protect against threats. Information security should be the focus of every party operating in distributed networks and requires serious precautions to be taken to protect against threats.

***Key words**: Information systems, information security, distributed network, information security in distributed network*

MİNAYƏ MƏMMƏDOVA
minayememmedova14@gmail.com
Naxçıvan Dövlət Universiteti

ŞƏBƏKƏDƏ ETİBARLILIQ VƏ İNFORMASİYA MÜHAFİZƏ PROBLEMLƏRİ

Şəbəkə etibarlılığı nədir? Daim inkişaf edən texnologiya mənzərəsində şəbəkə etibarlılığı müasir infrastrukturun təməl daşı kimi dayanır. Müəssisələrin, hökumətlərin və fərdlərin rabitə, ticarət və əməkdaşlıq üçün rəqəmsal əlaqəyə arxalandığı, bir-biri ilə əlaqəli olan dünyada, getdikcə şəbəkə etibarlılığının təmin edilməsinin əhəmiyyətini qiymətləndirmək olmaz.

Bu məqalə boyu biz şəbəkənin etibarlılığını və dayanıqlığını gücləndirməyə yönəlmiş müxtəlif strategiyaları və ən yaxşı təcrübələri araşdırdıq. Ehtiyatsızlıq və uğursuzluq mexanizmlərindən tutmuş, davamlı monitorinq və performansın idarə edilməsinə qədər hər bir aspekt sabit və etibarlı şəbəkə əməliyyatlarının saxlanmasında mühüm rol oynayır.

Bacarıqların planlaşdırılması və miqyaslılıq strategiyaları təşkilatlara şəbəkə tələbatının artımını proqnozlaşdırmaq və uyğunlaşdırmaq imkanı verir, infrastrukturun inkişaf edən tələblərə cavab vermək üçün problemsiz şəkildə genişlənməsini təmin edir. Fiziki təhlükəsizlik tədbirləri xarici təhlükələrdən qoruyur və kritik aktivləri oğurluqdan, vandalizmdən və ya təbii fəlakətlərdən qoruyur.

Fəlakətlərin bərpası və işin davamlılığının planlaşdırılması dayanıqlığın vacib komponentləridir, təşkilatlara gözlənilməz hadisələrdən sonra fasilələrdən tez sağalmağa və əsas funksiyaları qorumağa imkan verir. İstifadəçilərin təhsili və təlimi təhlükəsizlik şüurlu mədəniyyəti inkişaf etdirir, fərdlərə riskləri proaktiv şəkildə tanımaq və azaltmaq imkanı verir.

Nəticə etibarilə, şəbəkə etibarlılığı təkcə texniki tələb deyil, həm də rəqəmsal birinci dünyada inkişaf etmək istəyən təşkilatlar üçün strateji vacib şərtdir. Bu məqalədə qeyd olunan strategiyaları həyata keçirməklə və şəbəkənin etibarlılığına vahid yanaşmanı mənimsəməklə, təşkilatlar bu günün və sabahın çağırışlarına tab gətirə bilən möhkəm və dayanıqlı infrastruktur qura bilərlər. Bununla onlar maraqlı tərəflər arasında inam yarada, əməliyyat davamlılığını qoruya və getdikcə bir-birinə bağlı və dinamik mühitdə innovasiya və inkişaf üçün yeni imkanlar aça bilərlər.

Açar sözlər: *Təhlükəsizlik, şəbəkə etibarlılığı, davamlılığın təmin olunması*

Şəbəkə optik lif, mikrodalğalı radio və burulmuş cütlər və ya koaksial (Noll) şəklində mis kabel də daxil olmaqla, müştəri trafikinin yaratdığı siqnalları bir yerdən başqa yerə ötürür. Müştəri trafiki tərəfindən yaradılan siqnalları daşımaq üçün mənbə və təyinat arasında tam dövrə yaranana qədər müxtəlif yollar birlikdə dəyişdirilir. Müştəri trafiki, adətən telefon alətləri tərəfindən yaradılan nitq siqnallarından ibarətdir, lakin faks və məlumat siqnalları da şəbəkə üzərindən ötürülür. Transmissiya və kommutasiya kommutasiya edilmiş telekommunikasiya şəbəkəsində iştirak edən iki əsas texnologiyadır.

Kommutasiya edilmiş şəbəkə üzərindən telekommunikasiya trafikini daşımaq üçün yaradılmalı olan müxtəlif real və virtual yollar zəng müddəti ərzində qurulmalı və saxlanmalı, sonra isə zəng başa çatdıqdan sonra sökülməlidir. Siqnalizasiya bu yolları yaratmaq, saxlamaq və sökmək üçün şəbəkənin idarə edilməsi ilə məşğul olan telekommunikasiya aspektidir.

Keçmişdə siqnalizasiya müştəri trafikini daşıyan eyni kommutasiya edilmiş şəbəkə üzərindən həyata keçirilirdi və yalnız tam ucdan-uca dövrə tamamlandıqdan sonra uzaq telefon zəngi çalınırdı. Yol boyu sıxlığın qarşısını almaq üçün alternativ marşrut xətti çətin idi. Həqiqi danışıq hələ başlamamış olsa da, bahalı səs sxemləri birləşdirildi. Bu tip siqnalizasiya çətin idi və şəbəkəni asanlıqla və tez yenidən konfiqurasiya etmək mümkün deyildi. Zəngin tamamlanma müddətləri uzun idi və siqnal məlumatlarını daşımaq üçün adətən faktiki telekommunikasiya siqnallarını daşıyan bahalı qurğulardan istifadə olunurdu. Bundan əlavə, fırıldaqçı istifadəçilər faturalandırılmamaq üçün saxta siqnal məlumatları yarada bilər. Bugünkü telekommunikasiya şəbəkəsi şəkildə göstərildiyi kimi

müştəri trafikinin ötürülməsi və dəyişdirilməsini siqnalizasiyanın şəbəkə idarəetmə funksiyalarından ayırır.

Müasir telekommunikasiya şəbəkələri keçmişin özəl və ictimai şəbəkələri üzərindən ötürülən siqnallar arasında fərq qoymur. Bugünkü şəbəkə çevikdir və bir çox istifadəçini qane etmək üçün lazım olan virtual sxemləri yaratmaq üçün dinamik şəkildə yenidən konfiqurasiya edilə bilər. Bugünkü şəbəkənin təhlükəsizliyi və etibarlılığı yüksək tutumlu ötürmə marşrutlarının alternativ yolları və həmçinin mürəkkəb siqnalın çevikliyi vasitəsilə dəstəklənir. Müasir telekommunikasiya şəbəkəsinin arxasında duran texnologiya bu məqalədə təhlükəsizlik və etibarlılıq məsələlərinə vurğu ilə təsvir edilmişdir.

Nəticə

Şəbəkənin etibarlılığı təkcə texniki problem deyil; müasir rəqəmsal ekosistemlərin qurulduğu təməldir. Şəbəkə etibarlılığının prioritetləşdirilməsinin nəticələri çoxşaxəli və təsirlidir, sadəcə əməliyyat səmərəliliyindən xeyli kənara çıxır.

Əməliyyat Davamlılığı: Etibarlı şəbəkələr fasiləsiz əməliyyatları təmin edərək, bizneslərə məhsuldarlığı saxlamağa və müştərilərə ardıcıl xidmətlər göstərməyə imkan verir. Bu davamlılıq xidmət səviyyəsi müqavilələrinin yerinə yetirilməsi, gəlir axınının davam etdirilməsi və müştəri məmnunluğunun qorunması üçün vacibdir.

Etibar və Reputasiya: Etibarlı şəbəkə müştərilər, tərəfdaşlar və maraqlı tərəflər arasında etibarı artırır. Təşkilatlar fasiləsiz öz vədlərini ardıcıl olaraq yerinə yetirə bildikdə, bazarda öz nüfuzlarını və etibarlarını artırırlar.

Xərclərə qənaət: Şəbəkənin etibarlılığına investisiyalar ilkin xərclərə səbəb ola bilsə də, onlar çox vaxt şəbəkə ilə bağlı kəsilmələrin tezliyini və təsirini azaltmaqla uzunmüddətli qənaət verir. İtirilmiş gəlir, məhsuldarlıq və potensial tənzimləyici cərimələr də daxil olmaqla, dayanma vaxtının maliyyə nəticələri sağlam infrastruktura ilkin investisiyadan xeyli üstündür.

Rəqabət Üstünlüyü: Bugünkü hiper-əlaqəli biznes mənzərəsində şəbəkə etibarlılığı rəqabətdə fərqləndirici ola bilər. Etibarlılığa üstünlük verən təşkilatlar üstün xidmət keyfiyyəti təklif etməklə, müştəri itkisini minimuma endirməklə və yeni iş imkanlarını cəlb etməklə strateji üstünlük əldə edirlər.

Kiber Təhdidlərə Dayanıqlılıq: Etibarlı şəbəkə mahiyyət etibarilə kibertəhlükələrə və hücumlara qarşı daha davamlıdır. Güclü təhlükəsizlik tədbirləri həyata keçirməklə və davamlı infrastrukturu saxlamaqla təşkilatlar məlumatların pozulması, sistem kompromisləri və digər təhlükəsizlik insidentləri riskini azalda bilər.

İnnovasiya və Çeviklik: Etibarlı şəbəkələr innovasiya və rəqəmsal transformasiya üçün sabit platforma təmin edir. Müəssisələr öz şəbəkə infrastrukturuna etibar edə bildikdə, onlar inkişaf etməkdə olan texnologiyaları araşdırmaq, dəyişən bazar dinamikasına uyğunlaşmaq və inkişaf imkanlarından istifadə etmək üçün daha yaxşı mövqe tuturlar.

ƏDƏBİYYAT

1. Məmmədov M.İ., Orucova M.Ü., Bayramova N.B. Kompüter şəbəkələri. (Dərs vəsaiti). Bakı: 2014, 175 s.
2. Qasımov V.Ə. İnformasiyanın qorunmasının müasir texnologiyaları. Dərslik. MTN-in Heydər Əliyev adına Akademiyasının nəşriyyatı. Bakı: 2011, 112 s.
3. Əliquliyev R.M., İmamverdiyev Y.N. Rəqəm imzası texnologiyası. Elm. Bakı: 2003, 132 s.
4. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyi: kompüter cinayətkarlığı və kiberterrorçuluq. Elm. Bakı: 2007, 192 s.
5. Qasımov V.Ə. İnformasiyanın qorunmasının müasir texnologiyaları. Dərslik. Bakı: 2011, 112 s.
6. Абдикеев Н.М. Интеллектуальные информационные системы. М.: 2003. КОС- ИНФ, Рос. экон. акад. 188 с.

7. Əliquliyev R.M., İmamverdiyev Y.N. Kriptoqrafiyanın əsasları. İnformasiya texnologiyaları. Bakı: 2006, 698 s.

SUMMARY

Minaya Mammadova

NETWORK RELIABILITY AND INFORMATION SECURITY ISSUES

What is network reliability?

In the ever-evolving landscape of technology, network reliability stands as a cornerstone of modern infrastructure. As we navigate an increasingly interconnected world, where businesses, governments, and individuals rely on digital connectivity for communication, commerce, and collaboration, the importance of ensuring network reliability cannot be overstated.

Redundancy and failover mechanisms provide critical backup systems, ensuring uninterrupted service in the face of hardware failures or network disruptions. Continuous monitoring and performance management enableproactive detection and resolution of issues, minimizing downtime and optimizing network performance.

Capacity planning and scalability strategies empower organizations to anticipate and accommodate growth in network demand, ensuring that infrastructure can scale seamlessly to meet evolving requirements. Physical security measures protect against external threats and safeguard critical assets from theft, vandalism, or natural disasters.

Disaster recovery and business continuity planning are essential components of resilience, enabling organizations to recover swiftly from disruptions and maintain essential functions in the wake of unforeseen events. User education and training foster a security-conscious culture, empowering individuals to recognize and mitigate risks proactively.

In conclusion, network reliability is not merely a technical requirement but a strategic imperative for organizations seeking to thrive in a digital-first world. By implementing the strategies outlined in this article and embracing a holistic approach to network reliability, organizations can build robust and resilient infrastructure capable of withstanding the challenges of today and tomorrow. In doing so, they can instill confidence among stakeholders, preserve operational continuity, and unlock new opportunities for innovation and growth in an increasingly interconnected and dynamic environment.

Key words: *Security, network reliability, ensuring continuit*

MURAD ƏHMƏDOV
mur4drk@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-1672-3322

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MÜSTƏQİLLİYİNİN BƏRPASI İLLƏRİNDƏ KİTABXANA İŞİ

Naxçıvanda kitabxana ənənələri və mədəni irs çox rəngarəng və zəngindir. Bu məqalədə Naxçıvandakı kitabxanalar haqqında ümumi məlumat veriləcək. Hər bir kitabxana öz kolleksiyalarına, xidmətlərinə, tarixinə və mədəni təsirinə diqqət yetirəcəkdir. Naxçıvanın müstəqil vilayətlərdəki kitab mağazaları sistemi bölgənin sosial-mədəni infrastrukturunu gücləndirdi, əhalinin informasiyaya daha asan çıxışını təmin etdi. Bu prosesdə kitab mağazaları sadəcə kitab saxlamaq və öyrənmək deyil, cəmiyyətin bir hissəsinə çevrildi. Bu inkişaflar Naxçıvanın mədəni və mənəvi zənginliyinin gələcək nəsillərə ötürülməsi və qorunub saxlanılması baxımından çox əhəmiyyətlidir.

Naxçıvan kitabxanaları rayonun zəngin tarixi və mədəni keçmişinin mühüm tərkib hissəsidir. Uzun müddət müxtəlif icmalara ev sahibliyi edən Naxçıvan kitab və yazılı sivilizasiyanın inkişafına mühüm töhfələr vermişdir. Bu yazıda Naxçıvanın kitabxana ənənəsi, tarixi, əhəmiyyəti və bugünkü vəziyyəti müzakirə olunacaq.

Açar sözlər: *Naxçıvan, kitabxana, mədəni irs, təhsil, kitab oxuma vərdişi, tarix, mədəniyyət, informasiya əldə etmək, sosial inkişaf*

Müasir dövrdə kitabxanaların avtomatlaşdırılması kitabxana-informasiya sistemlərinin tətbiqindən bəhrələnib müasir məzmunlu məlumatların əldə edilməsi, qorunması və ötürülməsi kimi vəzifələr inkişaf etdikcə cəmiyyətdə baş verən demokratikləşmə, sosial, iqtisadi, elmi-mədəni inkişaf, qloballaşma meylləri kitabxanaların kompüterləşməsini tələb edir. Kitabxananın öz işində qazanacağı uğurlar kompüterin imkanlarından, internet texnologiyasından, avtomatlaşdırmadan nə səviyyədə istifadə edilməsindən asılıdır. Kitabxana işinin keçmiş ənənələri müasir üsullarla bu gün də davam etdirilməlidir. Lakin müasir dövrün tələblərinə uyğun olaraq kitabxanalarda elektron kataloqun, elektron kitabxananın təşkili, məlumat bazalarının yaradılması, oxuculara yeni virtual xidmətin təqdim edilməsi kitabxanaların qarşısında duran prioritet məsələlərdəndir. Kitabxanaların kompüterləşdirilməsi, yeni kitabxana-informasiya (10, 243 s.) texnologiyalarının yaranması və onların kitabxanalarda tətbiqi kitabxanaların xidmət sisteminin (oxu zallarının və abonoment şöbələrinin) yüksək inkişaf səviyyəsini təmin edir.

Müasir şəraitdə şəhər, rayon kitabxanaları öz oxu zallarında və abonement şöbələrində kitab, kartoçka və kartotekalarla işləməklə yanaşı, həmçinin ən müasir informasiya kommunikasiya texnologiyalarından istifadə edərək ənənəvi iş üsullarının keyfiyyətini yüksəldəcək, internet informasiya resursları, elektron kataloq və elektron kitabxana, elektron məlumat bazaları yaradacaq, elmi kommunikasiyaların inkişafına təkan verəcəkdir (2, 143 s.). Bu sahədə ilkin görüləcək iş kitabxanaların ən yeni kompüter-telekommunikasiya texnikası ilə təchiz olunması bu işdə çalışa biləcək yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Bu, kitabxanalar öz oxucularına məsafədən asılı olmayaraq, 24 saat müddətində online xidməti göstərir, informasiya müəssisələri kimi fəaliyyətinə davam edəcəkdir. Müasir kitabxanalar internet-kompüter şəbəkəsi vasitəsilə heç bir siyasi, dini, milli məhdudiyyətlər tanımadan, ölkələrin coğrafi sərhədlərini aşaraq öz informasiya xidmətlərini oxuculara bilavasitə yaşadıqları və işlədikləri yerlərdə təqdim edib, cəmiyyət üzvlərinin mənəvi aləminə, təfəkkür tərzinə, əxlaqına, psixologiyasına daha çox nüfuz etmək imkanına malik olacaqlar.

Hal-hazırda Elektron Kitabxanada müxtəlif müəlliflərə məxsus olan müxtəlif material yerləşdirilmişdir və müntəzəm olaraq materialların yerləşdirilməsi davam etdirilir. Bu saytda virtual xidmətin genişləndirilməsi məqsədilə Azərbaycanın müxtəlif regionlarından qabaqcıl ali təhsil

ocaqları iştirak edirlər. Həmin təhsil müəssisələrinin siyahısına Elektron Kataloq səhifəsində baxmaqla, eləcə də bütün ali məktəblər aşağıda göstərilən şərtləri yerinə yetirməklə "Elektron Kitabxana Şəbəkəsi" layihəsində iştirak edə bilərlər. Layihədə iştirak etmək istəyən kitabxanalar öz üzərlərinə aşağıdakı öhdəlikləri götürməlidirlər:

- Kompüterdə kitabxana fondunun verilənlər bazasının yaradılmasını təşkil etmək;
- Bütün oxucuların, həmin bazadan kitabların axtarışını həyata keçirmələri üçün kitabxanada 1 ədəd İnternet şəbəkəsinə qoşulmuş kompüter quraşdırmaq;
- Kitabxana işçilərinin kompüter biliklərinin artırılması üçün treninqlərdə iştirakını təmin etmək;
- Kitabxana üçün ayrılmış kompüterə müvafiq proqramların yüklənməsi və gələcəkdə nəzarət üçün İT mütəxəssisinin (informasiya texnologiyası mütəxəssisi) cəlb olunması. Virtual kitabxana xidməti göstərən kitabxanalarımız arasında universitet kitabxanalarının da əməyi böyükdür. Kitabxananın Azərbaycan dilində olan fondu tam elektron kataloqa daxil edilmişdir və bu proses hal-hazırda davam etdirilir. Kitabxanada Azəbaycan, rus və xarici dillərdə olan dövri nəşrlər, dissertasiya və nadir kitablar da elektron kataloqa daxil edilmişdir. Bu iş İRBİS-64 avtomatlaşdırılmış kitabxana-informasiya sistemi ilə həyata keçirilir (2, s.184). Elmi Kitabxananın elektron kataloqu ilə tanış olaq: Birinci edəcəyimiz əməliyyat lib.bsu.edu.az saytına daxil olub, ana səhifənin sağ tərəfində yerləşdirilən elektron kataloq bölməsinə keçid almaqdır.

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında elektron kataloq vasitəsilə online rejimində daha operativ axtarış imkanları, həmçinin tammətnli elektron kitabxana olaraq informasiyalaşmış cəmiyyətin baza prinsiplərinə: informasiyanın əmtəəyə çevrilməsinə, informasiya bazarının formalaşmasına, cəmiyyət üzvlərinin peşə və təhsil hazırlığının yüksəlməsinə, qlobal informasiya mühitinin yaranmasına xidmət edir.

Beləliklə, elektron kitabxanalar ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya ehtiyatlarına malikdir. Belə elektron kitabxanaların informasiya ehtiyatı rəqəmli formada hazırlanmış müxtəlif formatlı sənədlərdən ibarətdir. Bu sənədlərin bir qismi kitabxananın mülkiyyəti olub, mərkəzləşmiş formada elektron kitabxananın Web serverlərində toplanmışdır və Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası tərəfindən lisenziya – "istifadə hüququ" əldə edilmiş tammətnli məlumat bazaları, həmçinin kitabxana tərəfindən seçilmiş, dəqiqliyinə və etibarlılığına zəmanət verilən "istifadə üçün açıq" olan İnternet ehtiyatları aiddir (21, s.223). Elektron kitabxananın informasiya ehtiyatları ilə komplektləşməsi, əsasən, oxucu sorğusu vasitəsilə həyata keçirilir. Naxçıvan Dövlət Universitetinin ndu.az.saytı sərbəst fəaliyyət göstərir. İstifadəçilər bu sayta daxil olmaqla, kitabxana haqqında məlumat ala bilər. İstifadəçilərə virtual kitabxana xidməti göstərən saytlarımız təkcə ölkəmizdə olan virtual kitabxanalarla deyil, eləcə də dünya kitabxanalarının məlumat bazaları ilə də əlaqə yaradır. Bu kitabxanaların məlumat bazalarına saytlarımızdan keçid almaq olar. Bunu Milli Kitabxananın saytının timsalında göstərmək olar. www.anl.az. saytının ana səhifəsinin sol tərəfindən "Dünya kitabxanaları internetdə" linki (keçid) vasitəsilə dünya kitabxanalarına keçid alıb, onların elektron kataloqunda və elektron kitabxanasında axtarış aparmaq olar.

ƏDƏBİYYAT

1. Azərbaycanda kitabxanaların fəaliyyətinin daha da yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan: 2007, 21 aprel
2. İsmayılova N.R. Naxçıvan MR kitabxanalarının tarixi. Dərs vəsaiti. Naxçıvan Əcəmi nəşriyyatı: 2021, 260 s.
3. İsmayılova N.R. Naxçıvan MR kitabxanalarının tarixi. Proqram. Naxçıvan Əcəmi nəşriyyatı: 2021, 20 s.
4. İsmayılova N.R. Naxçıvan Naxçıvan Dövlət Universitetinin 50 illik tarixi və Elmi kitabxananın inkişaf yolu. Dərs vəsaiti. Əcəmi nəşriyyatı: 2020, 96 s.

5. İsmayılova N.R. Naxçıvan MR kitabxanalarının tarixi kursunun öyrənilməsi (tezis). H.Əliyevin anadan olmasının 97 il dönümünə həsr olunmuş konfrans. “Kitabxana informasiya fəaliyyətində innovasiyalar və yeni əsrin çağırışları” adlı Respublika elmi konfransının materialları 9-10 iyun. Bakı: 2020, Bakı Dövlət Universiteti. 31 s.

SUMMARY

Murad Ahmadov

RESTORATION OF THE INDEPENDENCE OF THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC LIBRARY WORK IN THE YEARS

Nakhchivan is a region with a rich cultural and historical heritage. The book culture and reading habits of this region go back thousands of years. Nakhchivan's Library tradition sheds light on the journey from education to culture. In this article, we will explore the literary heritage of Nakhchivan.

In the years of Nakhchivan's independence, the system of bookstores strengthened the cultural and educational infrastructure of the region and increased the population's access to information. In this process, the role of libraries became a part of society rather than a place where books are stored and studied. These developments are of great importance in terms of conveying and preserving the cultural and intellectual wealth of Nakhchivan to future generations.

Nakhchivan libraries are an important part of the region's rich cultural heritage. Nakhchivan, which has hosted various civilizations throughout its history, has made great contributions to the development of book and written culture. In this article, information will be provided about the tradition, history, importance and current state of the Library of Nakhchivan.

Key words: *Nakhchivan, library, cultural heritage, education, reading habit, history, culture, getting information, social development*

SEVİNC ƏSƏDOVA
Sevincccesedovaaa@gmail.com
Naxçıvan Dövlət Universiteti

EKSPERT SİSTEMİNİN TƏTBİQİ İLƏ QƏRAR QƏBUL ETMƏ PROSESİ

Bu məqalədə ekspert sistemlərinin nə olduğu, ekspert sistemi işləmə prinsipi, həmçinin ekspert sisteminin komponentləri və ekspert sistemlərindən harada və necə istifadə edilməsindən bəhs ediləcək. Ekspert sistemləri müəyyən sahələr üzrə ekspertlərin problem həlletmə bacarıqlarını təqlid etmək üçün nəzərdə tutulmuş süni intellektə əsaslanan kompüter proqramlarıdır. Onlar domenə məxsus bilik və qaydaları ehtiva edən bilik bazasından istifadə edir. Həmçinin nəticələrə gəlmək və ya tövsiyələr vermək məqsədi ilə məntiqi əsaslandırma tətbiq edən nəticə mühərrikindən istifadə edərək işləyirlər. Ekspert sistemlərinin biliklər bazası, nəticə çıxarma mühərikki, istifadə interfeysi, təsvir modulu kimi əsas komponentləri var. Bilik əldə etmə sistemi, Ekspertlərindən və ya yeni məlumatlardan öyrənməklə bilik bazasını əldə etməyə, yeniləməyə və təkmilləşdirməyə kömək edir. Ekspert sistemləri tibb, maliyyə, mühəndislik, istehsal və müştəri xidmətləri kimi müxtəlif sahələrdə tətbiq edilir. Ekspert sistemləri hər bir sahə üçün ardıcıllıq, istifadəyə yararlılıq və yeni başlayanlara təlim keçmək kimi üstünlüklər təklif edirlər. İnsan təcrübəsinin artırılması, qərarların qəbul edilməsinin təkmilləşdirilməsi və müxtəlif sahələrdə səmərəliliyin artırılmasında ekspert sistemləri əvəz olunmaz hesab edilir. Onlar süni intellektin inkişafı ilə təkamül etməyə davam edir və müxtəlif sənaye sahələrində problemlərin həllində və qərarların dəstəklənməsində kömək edir.

Açar sözlər: *Ekspert sistemləri, biliklər bazası, idarəetmə, maliyyə*

Müəyyən bir sahə üzrə mütəxəssisin qərar qəbul etmə qabiliyyətini əvəz etmək üçün nəzərdə tutulmuş kompüter proqramına ekspert sistemləri deyilir. Ekspert sistemləri mürəkkəb problemləri həll etmək üçün böyük biliklər bazasından istifadə edir. Həmçinin ekspert sistemləri mürəkkəb problemlərin həlli, dəqiq tövsiyələr vermək və qərarlar qəbul etmək üçün nəzərdə tutulmuşdur. Ekspert sistemlərinin işləmə prinsipi tam olaraq insanların düşünmə bacarığını və problemləri həlletmə tərzini təqlid etməkdir. Ekspert sistemləri sabit proqramlara etibar etmək əvəzinə, bir sıra qayda və məntiqdən istifadə edərək məlumatları təhlil edir və həll yollarını seçirlər. Ekspert sistemləri daha çox insan təcrübəsi tələb edən problemləri yerinə yetirmək üçün nəzərdə tutulmuşdur. Söz ki, bu da onları müxtəlif sənaye sahələrində əvəzolunmaz vəziyyətə gətirib çıxarır.

Ekspert sisteminin digər insan-maşın sistemlərindən əsas fərqləndirici xüsusiyyəti tərkibində izahedici altsistemin olmasıdır (Balayev R.Ə və b. 171).

Ekspert sistemi özündə iki əsas komponenti saxlayır: bilik bazası və nəticə çıxarma mühərriki. Yəni ekspert sistemləri bu iki əsas komponentə əsaslanaraq nəticə çıxarır. Müəyyən bir sahə ilə bağlı olan mütəxəssislərin təcrübələrindən istifadə edilərək əldə olunan məlumatlar biliklər bazasında toplanır. Qısa olaraq desək, biliklər bazası məlumatların saxlanıldığı anbar rolunu oynayır. Anbarda olan faktlar, qaydalar və evristik məlumatlar qərar qəbuletmə prosesində rəhbər rolunu oynayır. Nəticə mühərriki isə sistemin beyni rolunu oynayır. Onun gördüyü iş, bilik bazasından məlumatları emal etmək, məntiqi əsaslandırma tətbiq etmək və nəticə, tövsiyələr verməkdən ibarədir. Bu problemin həll olunma mexanizmi rəqəmsal mühitdə baş verir. Nəticə çıxarma mühərriki girişi təhlil etmək və həll yoluna gəlmək üçün öz qaydalarından və məntiqindən istifadə edərək, istifadəçinin ekspert sisteminə təqdim etdiyi problemi və ya sorğunu həll edir. O, sahə mütəxəssisinin qərar qəbuletmə prosesini təqlid edərək və biliklər bazasında olan məlumatlara əsaslanaraq fikirlər və tövsiyələr verir.

Ekspert sistemləri qeyri-səlis məntiq sistemləri və ya neyron şəbəkələri kimi müxtəlif rejimlərdə işləyə bilər. Bu proses ekspert sistemlərinin həll edəcəkləri problemin mürəkkəbliyindən asılı olaraq dəyişə bilir.

Ekspert sistemlərinin müxtəlif sənayelərdə istifadə edilməsinin əsas səbəblərdən biri müxtəlif yollara uyğunlaşma bacarığının olmasıdır. Ekspert sistemlərinin əsas komponentlərini kəşf etmək istəyiriksə, onların daxili işini başa düşmək lazımdır.

Ekspert sistemlərinin işləməsində əsas komponentləri önəmli rol oynayır. Bu komponentlər aşağıdakılardır:

- Biliklər bazası;
- Nəticə çıxarma mühərikki;
- İstifadəçi interfeysi;
- Təsvir modulu.

İlk ikisi yuxarıda qeyd edilmişdir.

İstifadəçi interfeysi:

O, ekspert sistemi və onun istifadəçiləri arasında körpü rolunu oynayır. Bu komponent vasitəsilə istifadəçiyə sorğular daxil etməyə, tövsiyələr almağa və əlavə olaraq sistemlə problemsiz əlaqə saxlamağa imkan tanıyır. Həmçinin bu interfeys yaxşı dizayn edilməlidir. Yaxşı dizayn edilmiş interfeys istifadəçinin işini asanlaşdır, yəni daha başa düşülən edir. Bundan əlavə, istifadəçi ilə ekspert sistemi arasında effektiv əlaqəni təmin edir.

Təsvir modulu:

Ekspert sistemləri sahəsində şəffaflıq vacib məsələdir. İstifadəçilərə sistemin qərar qəbuletmə prosesi haqqında məlumat verməkk üçün təsvir modulundan istifadə edilir. Təsvir modulu prosesin arxasında duran məntiqi aydınlaşdırmaqla sistemi daha etibarlı vəziyyətə gətirir.

Nəticə olaraq, komponentlərin başa düşülməsi bizə ekspert sistemlərinin necə işlədiyinə fikir qazandıra bilər. Bu komponentlərin incəliklərini araşdırdıqca, ekspert sistemlərinə müxtəlif ssenarilərdə əsaslandırılmış qərarlar qəbul etməyə imkan verən dizayn və arxitekturaya daha dərindən qiymət verəcəyik.

Ekspert sistemləri müxtəlif sektorlarda özünə yer tapır, mürəkkəb problemləri həll edir və qərar qəbuletmə proseslərini asanlaşdırır. Bu sahələr aşağıdakılardır:

Tibbi diaqnoz:

Səhiyyə sahəsində ekspert sistemləri tibbi mütəxəssislərə diaqnoz və müalicə tövsiyələri ilə kömək etməkdə mühüm rol oynayır. Bu sistemlər simptomları, xəstəlik tarixini və test nəticələrini təhlil etmək üçün geniş tibbi biliklərdən istifadə edir. Və həkimlərə dəqiq və vaxtında qərarlar qəbul etməyə kömək edir.

Maliyyə planlaması:

Ekspert sistemləri maliyyə sənayesində fərdiləşdirilmiş investisiya tövsiyələri, risklərin qiymətləndirilməsi və maliyyə planlaşdırması üçün istifadə olunur. Bu sistemlər maliyyə qərarları qəbul etməyə kömək etmək üçün istifadəçilərə bazar tendensiyalarını, iqtisadi göstəriciləri və fərdi maliyyə məqsədlərini təhlil edərək əsaslandırır.

İstehsal və keyfiyyətə nəzarət:

Sənayelər istehsal proseslərinin optimallaşdırılmasında və məhsulun keyfiyyətinin artırılmasında ekspert sistemlərindən istifadə edirlər. Ekspert sistemlər vasitəsilə real vaxt rejimində potensial problemləri müəyyən edə, düzəlişlər tövsiyə edə və səmərəli istehsal və keyfiyyət təminatına töhfə verə bilər.

Maliyyə sahəsində ekspert sistemlərinin tətbiqləri çox geniş və müxtəlifdir. Müxtəlif formaya malik olan maliyyə sektorlarında uyğunlaşma qabiliyyətini və effektivliyini nümayiş etdirir:

Kredit qiymətləndirmə modelləri:

Banklar və kredit təşkilatları müraciət edənlərin kredit qabiliyyətini qiymətləndirmək, kreditin təsdiqlənməsi prosesini sadələşdirmək və defolt riskini minimuma endirmək üçün ekspert sistemlərindən istifadə edirlər.

Bazar təhlili:

Maliyyə institutları real vaxt rejimində bazar təhlili, investisiya imkanlarını və potensial bazar dəyişikliklərini müəyyən etmək üçün ekspert sistemlərindən istifadə edir.

Şəxsi maliyyə məsləhətçiləri:

Ekspert Sistemləri fərdi investisiya məsləhətləri və maliyyə planlaşdırma xidmətləri göstərməklə sərvətlərin idarə edilməsini və daha geniş auditoriya çatmasını təmin edir.

Nəticə

Nəticədə, ekspert sistemləri insan təcrübəsi və maşın zəkasının qeyri-müəyyən birləşməsini təmsil edir. Həmçinin bir sıra sənaye və tətbiqlərdə əvəzolunmaz potensial təklif edir. İnsan ekspertlərinin qərar qəbuletmə proseslərini təqlid etmək bacarığı sayəsində onlar problemin həllini, qərar qəbul etməyi və məlumatların idarə edilməsini əvvəllər ağlasığmaz üsullarla asanlaşdırırlar. Ekspert sistemləri istifadəçilərə məlumatlı seçimlər etməyə kömək etmək üçün qabaqcıl alqoritmlərdən və domenə məxsus biliklərin böyük verilənlər bazasından istifadə edir. Bu da əməliyyatları sadələşdirməyə və məhsuldarlığı artırmağa imkan verir.

Ekspert sistemlərinin geniş şəkildə tətbiqi onların səhiyyə, maliyyə, istehsal və digər sahələr də daxil olmaqla müxtəlif sənaye sahələrinə transformativ təsirini vurğulayır. Bu sistemlərin köməyi ilə təşkilatlar öz mütəxəssislərinin kollektiv biliyindən istifadə etməyə imkan verir, hesablama sistemlərinin sürəti, dəqiqliyi və miqyası ilə imkanlarını artırır. Bundan əlavə olaraq, bu sistemlər inkişaf etməyə davam etdikcə və maşın öyrənmə üsullarını və təbii dil emalını özündə birləşdirdikcə, onların effektivliyi və uyğunlaşma qabiliyyəti də avtomatik olaraq artacaq.

Bununla yanaşı, problemlər hələ də qalmaqdadır. Xüsusən ekspert sistem qərarlarının şərh oluna bilməsi və izah oluna bilməsi, habelə insan nəzarəti və müdaxiləsinə davamlı ehtiyac vardır. Məlumatların gizliliyi, qərəzliliyin azaldılması və hesabatlılıqla bağlı etik mülahizələr ekspert sistemlərinin işlənib hazırlanması və tətbiqində ehtiyatlı olmağı da tələb edir. Belə çətinliklərə baxmayaraq, ekspert sistemlərinin köməyi danılmaz faktdır. Onlar inkişaf etməyə davam etdikcə, bizim problemləri həll etməkdə və qərar qəbul etməkdə daima kömək edəcəklər. Və əlavə olaraq, bəşəriyyətin kollektiv intellektindən istifadə etmək üsulumuzda inqilab etmək potensialına malikdirlər. Növbəti illərdə ekspert sistemlərinin davamlı olaraq təkmilləşdirilməsi və gündəlik həyatımıza inteqrasiyası bu günə kimi görünməmiş yeniliklər, səmərəlilik və imkanlar dövrünü açmağı vəd edir.

ƏDƏBİYYAT

1. Balayev R.Ə və b. İntellektual Sistemlər və Texnologiyalar. Bakı: 2016, “MSV NƏŞR” nəşriyyatı, Dərs vəsaiti, şəkilli, 256 s.
2. Kərimov S.Q. İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri. Bakı: 2010, 426 s.
3. Əliyev T.Q. İnformasiyanın iqtisadiyyatı. Bakı: 2018, 220 s.

SUMMARY

Sevinc Əsədova

DECISION-MAKING PROCESS USING AN EXPERT SYSTEM

In this article, we will talk about what expert systems are, the working principle of expert systems, the components of expert systems and where and how expert systems should be used. Expert systems are artificial intelligence-based computer programs designed to mimic the problem-solving skills of experts in specific fields. They use a knowledge base that contains domain-specific knowledge and rules. They also work using an inference engine that applies logical reasoning to reach conclusions or make recommendations. Expert systems have main components such as knowledge base, inference engine, user interface, annotation module. The knowledge acquisition system helps you acquire, update and improve your knowledge base by learning from experts or new knowledge. Expert systems are used in a wide variety of fields such as medicine, finance, engineering, manufacturing and customer service. Expert systems offer consistency, usability and training advantages for beginners in any field. Expert systems are considered indispensable in increasing human experience, improving decision-making and increasing efficiency in various fields. They continue to evolve with the development of artificial intelligence and help solve problems and support decisions in various sectors.

Key words: *Expert systems, knowledge base, management, finance*

PÜSTƏ ZEYNALOVA
Pusta.zeynalova@gmail.com
Naxçıvan Dövlət Universiteti

İDARƏETMƏDƏ İNFORMASİYA SİSTEMLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ: GƏLƏCƏYƏ DOĞRU YOL XƏRİTƏSİ

İdarəetmədə informasiya sistemləri bir şirkətin və ya təşkilatın effektivliyini artırmaq, məlumatları daha sürətli və effektiv şəkildə işləmək və strateji qərarlar almaq üçün kritik bir rol oynayır. Texnologiya sürətlə inkişaf etdikcə, idarəetmədə informasiya sistemləri də yeniliklərə uyğun şəkildə inkişaf etməlidir. Bu məqalədə, idarəetmədə informasiya sistemlərinin gələcəkdəki inkişaf istiqamətləri ilə bağlı əsas mövzulara diqqət yetiriləcəkdir (1).

"Yol xəritəsi" ifadəsi, məqalədə müzakirə olunan mövzuların və inkişaf istiqamətlərinin təyin edilmiş plan və yollarını ifadə edir. Bu yollar, şirkətlərin informasiya sistemlərində gələcəkdə necə irəliləmək və inkişaf etmək istədiklərini göstərir. Nəzərdə tutulmalıdır ki, hər şirkət öz təklif etdiyi informasiya sistemləri strategiyasına və iş tələblərinə görə fərqli yollar seçə bilər.

Açar sözlər: *İdarəetmə İnformasiya Sistemləri, Bulud İT Xidmətləri, İdarəetmə Analitikası, Strateji Qərarlar*

Bu yolların nümunələri aşağıdakı kimi ola bilər:

Yenilikçi Texnologiyalara Yatırım: Şirkət, mobil idarəetmə, bulud xidmətləri, maşın öyrənməsi və digər yenilikçi texnologiyalara investisiya edərək informasiya sistemlərini yeniləyə bilər və sürətli dəyişikliklərə cavab verə bilər.

Təhlükəsizlik və Gizlilik Tədbirləri: Şirkət, informasiya sistemlərindəki təhlükəsizlik və gizlilik tədbirlərini gücləndirərək, siber təhlükələrə qarşı müdafiəni artırmaq və məlumatların güvənliyini təmin etmək üçün fəaliyyət göstərə bilər (3).

Əməliyyat Təkmilləşdirməsi və İş Prosessləri: Şirkət, informasiya sistemlərini iş tələblərinə daha yaxşı cavab verən, effektiv iş prosessləri və əməliyyatlar üçün təkmilləşdirmək məqsədi ilə istifadə edə bilər.

Müştəri Təcrübəsinin Mənbəyi: Şirkət, informasiya sistemləri vasitəsilə müştəri təcrübəsini yaxşılaşdırmaq və müştəri ilə daha yaxın əlaqə qurmaq məqsədilə yeni alətlər və platformalar tətbiq edə bilər.

Bulud İT Xidmətləri:

Bulud İT xidmətləri son illərdə çox sürətlə inkişaf etmişdir. Şirkətlər artıq məlumatlara müraciət etmək üçün mərkəzləşdirilmiş serverlərə ehtiyac duymur və bunun əvəzinə bulud bazalı xidmətlərdən istifadə edir (4). Bu, idarəetmədə informasiya sistemlərinin təşkilatlara gətirdiyi rahatlığı və effektivliyi artırır. Gələcəkdə, bulud İT xidmətlərinin daha da genişlənəcəyi və tətbiq sahələrinin artacağı gözlənilir.

Sürətli İnformasiya İşləmə:

İdarəetmədə informasiya sistemlərinin əsas məqsədi, məlumatları effektiv şəkildə işləmək və onlardan qiymətli görüşlər və strateji qərarlar çıxarmaqdır. Gələcəkdə, bu prosesləri daha sürətli həyata keçirmək üçün yeni texnologiyaların tətbiqi gözlənilir. Sürətli informasiya işləmə alətləri, məlumatları anında analiz etmək və işləmək imkanı yaradacaq və bu da təşkilatların reaksiya və qərar alma proseslərini sürətləndirəcək.

Kiber Təhlükəsizlik:

Texnologiya inkişaf etdikcə, kiber təhlükəsizlik də daha mühüm bir məsələ halına gəlir. İdarəetmədə informasiya sistemləri daha da kompleksləşdikcə, onların qorunması da daha mühüm olacaq. Bu səbəbdən, gələcəkdə şirkətlər, sibernetik təhlükəsizlik tədbirlərinə daha böyük ehtimalla diqqət yetirəcəklər. Bu, məlumatları müdafiə etmək və potensial hücumları öncədən tanımaq üçün artırılmış texnologiyaların tətbiqini əhatə edir.

İdarəetmə Analitikası :

İdarəetmədə informasiya sistemləri ilə toplanan məlumatlar, strateji qərarlar almaq üçün dəyərli bir mənbədir. Gələcəkdə, bu məlumatların daha effektiv şəkildə sərvətləndirilməsi və analiz edilməsi üçün daha güclü analitik alətlər və maşın öyrənmə texnologiyaları istifadə ediləcək. Bu, şirkətlərin məlumatları daha effektiv şəkildə nəzərdən keçirməsinə və optimal qərarlar almağa kömək edəcəkdir.

Nəticə

İdarəetmədə informasiya sistemlərinin gələcəkdəki inkişafında texnologiya tətbiqləri və inteqrasiyası da çox əhəmiyyətli bir rol oynayacaqdır. İş proseslərinin effektivliyini artırmaq üçün daha kompleks və interaktiv sistemlərə doğru hərəkət edilir (4). Bu, müxtəlif fəaliyyət sahələrində informasiya sistemlərinin daha ciddi bir şəkildə tətbiq edilməsini və fərqli funksionallıqların inteqrasiyasını tələb edir. Həmçinin mobil cihazlar və aplikasiyaların gələcəkdə idarəetmədə informasiya sistemlərinin mərkəzi hissələrindən biri olması gözlənilir. İşçilərə, məlumatlara hər zaman və istənilən yerdə müraciət etmək imkanı verən mobil platformalar, iş effektivliyini artırmaq və əlaqələrin daha sürətli qurulmasına kömək edir.

Gələcəkdə, iş təhlükəsizliyi və gizliliyi də informasiya sistemlərinin inkişafında prioritet mövzular arasında olacaq. Şirkətlər məlumatlarını qorumaq və potensial təhlükələrdən müdafiə etmək üçün daha effektiv tədbirlər görməlidirlər (3). Bu, sibernetik hücumlara qarşı müdafiə strategiyalarının dərinləşdirilməsini, məlumatların gizliliyinin təmin edilməsini və komplayens standartlarına uyğunluğun artırılmasını tələb edir.

Günümüzdəki iş dünyasında sürətli dəyişikliklər normaya dönüb. Gələcəkdə informasiya sistemlərinin də bu dəyişikliklərə sürətli və effektiv şəkildə cavab verə biləcəyi proaktiv sistemlər inkişaf etdirilməlidir. Şirkətlər, yeni məsuliyyət sahələri, iş prosesləri və texnologiyalara uyğun dəyişikliklərə sürətli və asan bir şəkildə uyğunlaşa biləcəkləri adaptaqiv və asan tətbiqlər axtarmalıdırlar.

ƏDƏBİYYAT

1. Laudon K.C., & Laudon J.P. (2020). Management Information Systems: Managing the Digital Firm (16th ed.). Pearson.2020 (723 s.)
2. Turban E., Pollard C., & Wood, G. (2018). Information Technology for Management: Digital Strategies for Insight, Action, and Sustainable Performance (11th ed.). Wiley. 2018 (600 s.)
3. “Strategic Management of Information Systems” by Keri E. Pearlson and Carol S. Saunders 2012, (320 s.)
4. https://www.bilimveteknik.com.tr/

SUMMARY

Pusta Zeynalova

DEVELOPMENT DIRCTIONS OF INFORMATION SYSTEMS IN MANAGEMENT: ROADMAP TOWARDS THE FUTURE

Information systems in management play a critical role in enhancing the efficiency of a company or organization, processing information more swiftly and effectively, and making strategic decisions. As technology rapidly advances, management information systems must evolve in accordance with innovations. This article will focus on the key topics regarding the future development directions of information systems in management (1).

“The term “roadmap” refers to the defined plans and paths of development and progress discussed in a comprehensive article. These paths indicate how companies want to advance and develop their information systems in the future. It should be noted that each company can choose different paths according to its proposed information systems strategy and business requirements.

Key words*: Management Information Systems, Cloud IT Services, Management Analytics, Strategic Decisions*

DÜRAYƏ MƏMMƏDLİ
durayememmedli@gmail.com
Naxçıvan Dövlət Universiteti

BANK XİDMƏTLƏRİ SAHƏSİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Bir çox digər sənaye sahələrində olduğu kimi, bank işində də biznes modelləri sürətli rəqəmsal transformasiya səbəbindən dəyişir. Xərcləri azaltmaq, bütün təşkilatın rəqəmsallaşdırılmasını sadələşdirmək və təkmilləşdirmək üçün rəqəmsal texnologiyalardan istifadə etməklə bank qurumları üçün kommunikasiya proseslərini daha səmərəli etmək çox vacibdir. Bu kontekstdə yeni rəqəmsal texnologiyalar mükəmməl alətlər olduğunu sübut edir. Banklar müştəriləri və bazarları ilə əlaqələri gücləndirmək və genişləndirmək, müştəri ilə ünsiyyət proseslərini daha səmərəli və miqyaslı etmək üçün kommunikasiyalarını strukturlaşdıra bilərlər.

Məqalədə göstərilir ki, bir sıra amillərin təsiri altında ənənəvi bank xidmətlərinin elektron xidmətlərə çevrilməsini müşahidə edirik. Eyni zamanda qeyd olunur ki, internet bankçılıq uzaq məsafədən xidmətlərin göstərilməsinə əsaslanan müasir bank xidmətidir.

Qeyd etmək lazımdır ki, internet bankçılıq əməliyyatları həyata keçirərkən və hesablar üzrə resurslara qənaət edərkən yüksək etibarlıdır. Sonda belə nəticəyə gəlirik ki, bu vəziyyət həm müştərilər, həm də banklar üçün ən vacibdir, çünki pul dəyərlərinə əlavə olaraq, bankların qudvilliyi də dəyərlidir.

Açar sözlər: *informasiya texnologiyaları, elektron xidmətlər, müştəri-bank sistemi, internet-bankçılıq*

Giriş


İnformasiya texnologiyalarından istifadə həqiqətən də zərurətə çevrilib. Maliyyə sahəsi onların rolunun böyük olduğu sahələrdən biridir. Gələcəkdə bank sektorunda göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsi, hesablaşma əməliyyatlarının sürətinin artırılması, eləcə də elektron xidmətlər vasitəsilə bank məhsullarına çıxış tendensiyası üstünlük təşkil edəcəkdir. Bankların meydana çıxmasından sonra elmin bütün sahələrində, yəni qabaqcıl texnologiya sahəsində əhəmiyyətli irəliləyişlər əldə edildi. Bu tərəqqinin əsas məqsədi istehsalın kompüterləşdirilməsi və elektronika vasitəsilə idarə olunması idi. Bu inqilab bank fəaliyyətinin tərəqqisinə əhəmiyyətli dərəcədə təsir etdi (Grinin L.E., 2003).

Son illər banklarda informasiya texnologiyalarının tərəqqisi qeyri-müəyyən bir yolla gedir. Bir tərəfdən iqtisadi artımın azalması, bankların sayında azalma müşahidə olunsa da, digər tərəfdən yüksək texnologiyalardan nəticə gözləntiləri xeyli artıb. Elektron məhsullar müasir elektron sistemlər vasitəsilə təqdim olunan bank məhsullarıdır. Elektron məhsullar çox rahatdır, buna görə də əksər müştərilər onlara daha çox maraq göstərirlər. Onların istifadəsi gecə-gündüz təklif olunduğundan geniş kommunikasiya şəbəkəsi vasitəsilə müştəriləri cəlb edir və müştəri də özlərinə uyğun olan xidmət sahəsini seçə bilir.

İndiki vaxtda bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsinə elektron məktublar göndərən, telefonun sensoruna bir neçə toxunuşla dostları ilə video söhbət yaradan gənclər nəslinə çox vaxt informasiya əsri nəsli deyilir. Başqa sözlə desək, indiki nəsil səbrə və gözləməyə hazır deyil, çünki hər şey yüksək sürətə və informasiyanın ictimai əlçatanlığına əsaslanır. Gənclərin bu spesifik xüsusiyyəti bank sektoruna öz təsirini göstərib. Bu gün banka baş çəkmək və uzun növbələrdə dayanmaq, banklara real vaxt rejimində xidmət göstərməyə imkan verən İnternet sayəsində çox vaxt və enerji tələb edir və bununla da banka baş çəkməyi lazımsız edir (Utkin E.A., Morozov G.I., Morozova N.I. İnnovativ idarəetmə., 1996: 207 s.).

Sxem 1.

Bir sıra amillərin təsiri altında ənənəvi bank xidmətlərinin elektron xidmətlərə çevrilməsi sxemi



Mənbə: müəllif tərəfindən hazırlanmışdır.

İndiki vaxtda informasiya texnologiyaları daha rahatlaşıb və bu təkmilləşmə istəyi əhalinin həyatının iqtisadi təbəqəsinə də təsir edib. Əksər banklar xidmətlərin göstərilməsi sahəsində qabaqcıl texnologiyaların tətbiqi sayəsində bizneslərini inkişaf etdirmək və müştəriləri cəlb etmək üçün texnologiyadan istifadə etmək üçün maksimum səy göstərirlər. Qeyd etmək lazımdır ki, bank sektorunda istifadə olunan informasiya texnologiyaları iki texnoloji qrupa bölünür: müştərilərlə əməliyyatlar üçün nəzərdə tutulmuş ön ofis və bankın aktiv və passivləri ilə daxili işə yönəlmiş arxa ofis.

İnformasiya texnologiyaları sahəsində ön ofisin əsas hissəsi distant bank sistemidir. Bu o deməkdir ki, əməliyyatlar apararkən banka getməyə ehtiyac yoxdur. İnternet sayəsində müştəri telefon və ya kompüter vasitəsilə bank xidmətlərindən istifadə edə bilər. Bunlar müştərilər üçün müsbət imkanlardır, çünki vaxt əhəmiyyətli dərəcədə qənaət olunur və eyni zamanda növbədə durmağa ehtiyac yoxdur (Kiryanov M., 2009). Uzaqdan xidmətin açarı olan uzaqdan bankçılığın klassik texnologiyalarını da xatırlamaq lazımdır: Bank-müştəri və İnternet-bankçılıq. Bu texnologiyalar müştərilər tərəfindən istifadə olunur və innovativ məhsullarla eyni vaxtda inkişaf edir.

Gəlin Müştəri-Bank sistemini nəzərdən keçirək. Bu xidməti göstərmək üçün bank xüsusi proqram təminatı quraşdırır, bunun sayəsində istifadəçi kompüter vasitəsilə xidmət göstərmək imkanı əldə edir. Bank da öz növbəsində istifadəçiyə bu sistemdən istifadə bacarıqlarını öyrənmək və mənimsəməkdə köməklik göstərir. Bu sistem sizin hesabınızdan istifadə etmək və müxtəlif əməliyyatları onlayn, təbii olaraq İnternetə çıxışla yerinə yetirmək hüququnu təmin edir.

İnternet-bankçılıq İnternet üzərindən xidmət göstərən bir sistemdir. Bu xidmət öz hesablarınızın vəziyyəti, ödəniş sənədləri haqqında məlumat almağa, ödəniş kartları, qiymətli kağızlarla əməliyyatlar aparmağa və s. Xidmətlər bank avadanlığı, yəni bankomatlar, terminallar və POS terminallar vasitəsilə də həyata keçirilir. Bankomatların tətbiqi və istifadəsinin müsbət tərəfləri çoxdur. Bankların özləri üçün bankomatların tətbiqi işçilərin işini azaldır və başqa sahələrdə cəmləşmək imkanı verir (Podolskaya T.O., Podolsky K.V., 2004). Əhali üçün bankomatlar onlara harada və nə vaxt olmasından asılı olmayaraq xidmətdən istifadə etmək və müxtəlif əməliyyatlar aparmaq hüququnu təmin etdiyi üçün çox rahatdır. Ödəniş terminalları kimi bank avadanlıqları əhali arasında geniş yayılıb. Onların hesabına əməliyyatlar sürətləndirilmiş şəkildə həyata keçirilir. Terminallardan istifadə iqtisadi cəhətdən səmərəlidir, çünki bank həyata keçirilən hər əməliyyatdan komissiya alır, əməliyyatların rahatlığı və sürəti sayəsində onlara tələbat getdikcə artır.

1960-cı illərdə, həmişə olduğu kimi, ilk innovativ məhsul ABŞ-da telefon rabitəsi vasitəsilə yaradılmışdır. Bank işçisi istifadəçiyə bank məhsulları ilə bağlı məsləhətlər verib. Sonra, 1967-ci ildə bankomatlar formalaşdı, bunun sayəsində ödənişlər və pul köçürmələri həyata keçirildi, vəsait çıxarıldı və s.

Maliyyə məhsulları sahəsində ekspert Chris Skinner "Bankçılığın gələcəyi" kitabında hesab edir ki, internet bankçılıq bank və müştəri arasında virtual münasibətlərə əsaslanan rəqəmsal bazardır (Skinner K., 2009: 400 s.).

İnternet bankçılıq uzaq məsafədən xidmətlərin göstərilməsinə əsaslanan müasir bank xidmətidir. İnternet bankçılıq bir çox müsbət cəhətlərə malikdir, məsələn, artıq qeyd etdiyimiz kimi, belə sistemlərdən istifadə zamanı vaxta xeyli qənaət olunur və müştərinin də öz əməliyyatlarına nəzarət etmək hüququ var. İnternet bankçılıq, əvvəlki xidmətlər kimi, aşağıdakı əməliyyatları həyata keçirmək hüququnu təmin edir: hesablaşmalar və pul köçürmələri, şəxsi hesab məlumatları və s. Qeyd etmək lazımdır ki, İnternet bankçılıq əməliyyatları həyata keçirərkən və hesablar üzrə resurslara qənaət edərkən yüksək etibarlıdır. Bu vəziyyət həm müştərilər, həm də banklar üçün ən vacibdir, çünki pul dəyərlərinə əlavə olaraq, bankların qudvilliyi də dəyərlidir (Gvozdetskaya I.V., 2011).

Bu sistem həm də xidmətlərin dəyərini azaltmağa, bankın əməliyyat xərclərini azaltmağa və bankın gəlirlərini artırmağa kömək edir. Hazırda internet bankçılıq ən çox inkişaf etmiş ölkələrdə yayılmışdır. İnternet bankçılıq xidmətləri 24 saat mövcuddur. Bu sistemdən istifadə etməklə müştəri müxtəlif əməliyyatları yerinə yetirə bilər, yəni:

- yerli ödənişlər;
- valyutanın konvertasiyası;
- hesablara nəzarət məlumatları;
- depozitlər üzrə məlumatlar;
- beynəlxalq ödənişlər və s.

Lakin internet bankçılıq sistemindən yalnız sistemə qoşulmuş müştərilər istifadə edə bilər. Sistemə qoşulmaq üçün bir sıra zəruri sənədləri imzalamalısınız. Bank işçiləri bu məsələ ilə bağlı müştəriyə tam şəkildə məsləhətlər verir.

2023-cü ildə Azərbaycanda bank müştərilərinin internet bankçılıq və kağız daşıyıcılar ilə aparılan köçürmələrin ümumi sayı 363,6 milyon ədəd, dəyəri isə 379,3 milyard manat təşkil edib. Bu barədə Azərbaycan Mərkəzi Bankının illik "Rəqəmsal Ödənişlər İcmalı"nda bildirilib. Bu nəticə 2022-ci il ilə müqayisədə müvafiq olaraq köçürmələrin ümumi sayından 94 %, dəyərindən isə 19,1 % çoxdur.

Bu statistikaya əsasən, aparılan köçürmələrin say üzrə 85,9 %-i (312,2 milyon ədədi) dəyər üzrə isə 79,6 %-i (301,8 milyard manatı) məhz rəqəmsal bankçılıq vasitəsilə reallaşdırılıb. Bu nəticə 2022-ci ilə nisbətən müvafiq olaraq 2,3 dəfə çoxdur (Rəqəmsal Ödənişlər İcmalı: 2022-2023).

Cədvəl 1.

Azərbaycanda bank müştərilərinin internet bankçılıq və kağız daşıyıcılar ilə aparılan köçürmələrin ümumi sayı və dəyəri

	Köçürmələrin ümumi sayı (milyon)	***Köçürmələrin ümumi dəyəri (milyard manat)***	***Rəqəmsal ödənişlərin ümumi sayı (milyon)***	***Rəqəmsal ödənişlərin ümumi dəyəri (milyard manat)***
2022	97,6	343	137.4	244
2023	363,6	379,3	312,2	301,8

Mənbə: (Rəqəmsal Ödənişlər İcmalı: 2022-2023).

Azərbaycanda, həmçinin müştərinin mobil telefonuna kart əməliyyatları barədə ani bildirişlər verən SMS bankçılıq sistemi də işlənib hazırlanıb. Yəni müştəri öz ödənişləri, hesabın doldurulması

və ya nə vaxt vəsait çıxarması barədə məlumatları yoxlamaq istədikdə və s. Bunun üçün sadəcə SMS mesajı göndərmək lazımdır. Bu xidmətin qiyməti 1 manatdır.

Yarandığı gündən bank fəaliyyətinin mahiyyəti dəyişməyib, lakin bankın fəaliyyətinin həyata keçirildiyi strategiyasına davamlı olaraq yenidən baxılır. Məşhur maliyyə məhsulları alimi Chris Skinnerin istinad etdiyi professor David Llewellyn fikrini vurğulamaq istərdim ki, "sənaye son 5 ildə son 50 ildəkindən daha çox dəyişib" (Skinner K., 2009: 400 s.). Bu fikir bu gün də aktualdır. Bunun əsasını, Kris Skinnerin fikrincə, qabaqcıl texnologiyaların tətbiqi və tərəqqisi təşkil edir. Skinner hesab edir ki, internet bank işinin tərəqqisində böyük təsirə malikdir, o, həmçinin hesab edir ki, banklar dünyanın meyl və ehtiyaclarını anlamaq üçün daha çox səy göstərməlidirlər. Və buna əsaslanaraq innovativ məhsullar istehsal edilməlidir.

Baxmayaraq ki, distant bankçılıq bank sahəsində ən mütərəqqi sahədir, bir qayda olaraq, arxa-ofis hələ də təməl olaraq qalır. Çünki bankçılığın əsasını təşkil edən texnologiyalar çox böyük sürətlə inkişaf edir. Bu tərəqqi mərhələsində ən vacib sahə bulud texnologiyasıdır. Bu texnologiya informasiya texnologiyalarının mütərəqqi sahələrindən biridir. Ancaq buna baxmayaraq, bank sektorunda bulud texnologiyalarının istifadəsi ilə bağlı qəti fikir yoxdur, çünki etibarlılıq baxımından mövcud sabitliyi pozan səbəblərə əlavə olaraq, əksər banklar bu texnologiyadan razı deyillər.

Nəticə

Beləliklə, müştərilərin rəqəmsal və kommunikasiya texnologiyaları ilə təmin edilməsi proseduruna rəqəmsal və kommunikasiya texnologiyalarının tətbiqinin vacibliyi danılmazdır. Əvvəla, bu, banklar üçün lazımdır, çünki müştərilərin tərkibinin transformasiyası çərçivəsində insan fəaliyyətinin demək olar ki, bütün sahələrinin avtomatlaşdırılması və onların daha uyğun bank xidmətlərinə doğru seçilməsi onların rəqabət qabiliyyətinə və səmərəliliyinə təsir göstərəcək.

ƏDƏBİYYAT

1. Utkin E.A., Morozov G.İ., Morozova N.İ. (2011) "İnnovasiyaların idarə edilməsi." M.: Akalis, 207 s.
2. Kiryanov M. (2009) "Uzaqdan bank xidmətləri". №8. 78-79 s.
3. Podolskaya T.O., Podolski K.V. (2004). "Bankomatlar vasitəsilə ödənişlərin genişləndirilməsi yolları". 148 s.
4. Skinner K. (2009). "The Future of Banking", Minsk. 400 s.
5. Azərbaycan Mərkəzi Bankının illik "Rəqəmsal Ödənişlər İcmalı". 4-15 s.

SUMMARY

Duraya Mammadli

USE OF INFORMATION TECHNOLOGIES IN THE FIELD OF BANKING SERVICES

As in many other industries, business models in banking are changing due to rapid digital transformation. It is very important to make communication processes more efficient for banking institutions by using digital technologies to reduce costs, simplify and improve the digitization of the entire organization. In this context, new digital technologies prove to be excellent tools. Banks can structure their communications to strengthen and expand relationships with their customers and markets, and to make customer communication processes more efficient and scalable.

The article shows that under the influence of a number of factors, we observe the transformation of traditional banking services into electronic services. At the same time, it is noted that internet banking is a modern banking service based on the provision of remote services.

It should be noted that internet banking is highly reliable when performing transactions and saving resources on accounts. In the end, we conclude that this situation is the most important for both customers and banks, because in addition to monetary values, banks' goodwill is also valuable.

***Key words**; information technologies, electronic services, customer-banking system, internet-banking*

GÜNSEL QASIMZADƏ

TARİX DƏRSLƏRİNDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Elmi məqalədə tədris prosesində, xüsusən də tarix dərslərində informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadənin xüsusiyyətləri üzə çıxarılır. Qeyd olunur ki, tədris prosesində İKT-dən istifadə imkanını təmin edən geniş informasiya ehtiyatları sistemi, yəni tədris-metodik vəsaitlər, proqramlar, dərsliklər, ayrıca əlavə dərs vəsaiti kimi çıxış edə bilən ixtisaslaşdırılmış saytlar yaradılmışdır. Tarix dərslərində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar təhsilalanların idrak müstəqilliyinin formalaşması problemi təhlil edilir, interaktiv təlim vasitələrinin köməyi ilə onlarda (tələbə və şagirdlərdə) tənqidi və yaradıcı təfəkkürünün inkişafının xüsusiyyətləri nəzərdən keçirilir.

Elmi məqalədə tarixin tədrisi prosesində informasiya kommunikasiya texnologiyalarının tətbiq edilməsi ilə əlaqədar olaraq tələbələrin idrak müstəqilliyinin formalaşması problemi təhlil edilmişdir. Həmçinin interaktiv təlim vasitələrinin köməyi ilə ali və orta təhsil müəssisələrində təhsilalanların tənqidi və yaradıcı təfəkkürünün inkişafının xüsusiyyətləri nəzərdən keçirilmişdir.

Qeyd olunur ki, tədris prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadə motivasiya səviyyəsinin yüksəlməsinə, təhsilin intensivliyinin artmasına, təhsilin fərdiləşdirilməsinə, qiymətləndirmənin obyektivliyinin, şəffaflığının artmasına, tələbələrdə müstəqilliyin güclənməsinə təsir göstərir.

***Açar sözlər:** İnformasiya-kommunikasiya texnologiyaları; İnformasiya resursları; Tarix dərsi; Cəmiyyətin informasiyalaşdırılması; Telekommunikasiya vasitələri; Pedaqoji texnologiyalar; Müasir Azərbaycan təhsili*

Müasir dövrdə ali və orta təhsil müəssisələrində tarix fənninin tədrisi prosesində informasiya-kompüter texnologiyalarından istifadə aktuallıq kəsb edir. İnformasiya-kompüter texnologiyaları tələbə və şagirdlərə bilikləri aşılamaq üçün ən effektiv vasitələrdən biridir. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar ali və orta təhsil müəssisələrinin tədris prosesinə İKT-nin tətbiq edilməsi ilə sıx sürətdə bağlıdır. Cəmiyyətin inkişaf etməsi həyatımızın bütün sahələrinə, o cümlədən təhsil sahəsinə yeni innovativ yeniliklərin tətbiq olunmasının vacib olduğunu və zəruriliyini müəyyən edir.

Bu gün təhsilin əsas vəzifələrindən biri təkcə bilik daşıyıcısı deyil, ilk növbədə əldə edilmiş bilik və bacarıqları tətbiq etməyi, informasiya resursları ilə işləməyi bilən yaradıcı şəxsiyyətin formalaşdırılmasıdır ki, bu da təhsil sahəsində uğurlu fəaliyyət üçün zəruri şərtdir. İnformasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə təhsil prosesində müəllim və şagirdin rolunu və yerini əsaslı şəkildə dəyişir, təhsilə fərdi yanaşmanın həyata keçirilməsini təmin edir. Belə bir modeldə müəllim biliyin sadəcə "təkrar tərcüməçisi" olmaqdan çıxır, lakin o, müasir təlim texnologiyalarının birgə yaradıcısı kimi çıxış edir.

Məqalənin yazılmasında məqsəd tarix dərslərində informasiya və kompüter texnologiyalarından istifadənin xüsusiyyətlərini və effektivliyini öyrənməkdən ibarətdir.

Məqalənin metodoloji bazasını tarix elmində qəbul olunan metodlar təşkil edir. Məqalənin yazılması zamanı problemlə bağlı olan materiallar toplanaraq sistemləşdirilmiş, müqayisəli şəkildə təhlil edilmiş, ümumiləşdirilmiş nəticələr çıxarılmışdır.

Yaşadığımız üçüncü minilliyin əvvəllərində müasir həyatı informasiya texnologiyalarından istifadə etmədən təsəvvür etmək olduqca çətindir. Heç təsadüfi deyil ki, XXI əsri texnologiya əsri adlandırırlar. İnsanların həyatının ayrılmaz hissəsinə çevrilən kompüter texnologiyası bütün sahələrə, o cümlədən də təhsilə böyük təsir göstərmişdir. Bu, kompüterin əvəzolunmaz olduğu təhsil prosesi

üçün olduqca vacibdir. Kompüter təhsilalanların və təhsilverənlərin sadiq köməkçisinə çevrilmişdir, çünki hətta ən yaxşı dərsliklərin pəncərəsindən biz aysberqin yalnız görünən hissəsini görürük. Kompüter bizə didaktik baza toplamaq və saxlamaq, görmə problemini həlletmək imkanı verir. Əgər əvvəllər tədris prosesinin tarixi xəritələrlə təmin edilməsi problemi var idisə, müasir dövrdə isə biz interaktiv resurslardan istifadə etməklə xəritəni ekranda nümayiş etdirə və zərurət yarandıqda ondan tədris prosesində istifadə edə bilirik.

Cəmiyyətin informasiyalaşdırılması prosesi müvafiq olaraq təhsilin informasiyalaşdırılmasını müəyyən edir: təhsil sahəsi təhsilin və tərbiyənin psixoloji və pedaqoji məqsədinin həyata keçirilməsinə yönəlmiş müasir informasiya texnologiyalarının inkişafı və istifadəsi nəzəriyyəsi və təcrübəsi ilə təmin edilir. İnformasiya məkanında təhsil sektorunun vəzifələri dəyişir, klassik metodlar innovativ üsullarla rəqabət aparır, təhsildə texnoloji yanaşma aktuallıq qazanır (Богдановская, 2009: s.47-53).

Ənənəvi pedaqoji texnologiyalar və İKT-nin vəhdəti əsasında uşağın təbii qabiliyyətlərini daha səmərəli şəkildə inkişaf etdirmək mümkündür. Təlim prosesində bu texnologiyalardan istifadə təhsilin məzmununun yenilənməsinə kömək edir, təhsil fəaliyyətinin keyfiyyətcə daha yüksək nəticələrinə nail olmağa, hər bir məktəbli üçün öz təhsil trayektoriyasının formalaşmasını və inkişafını təmin etməyə imkan verir. Bu, təhsil prosesinin fərdiləşdirilməsi və differensiallaşdırılması üçün yeni, praktiki olaraq qeyri-məhdud pedaqoji imkanların meydana çıxması, onun tələbənin fərdi xüsusiyyətlərinə çevik uyğunlaşması, bu prosesdə əlavə informasiya təhsil resurslarından istifadə etməklə, geniş çeşidli təhsil imkanları ilə əlaqədardır.

Müasir informasiya və təhsil texnologiyalarının tətbiqi ümumbəşəri dəyərlər nəzərə alınmaqla həyata keçirilməlidir. Praktikada bu o deməkdir ki, xüsusilə, informasiya cəmiyyətinin formalaşması şəraitində təhsil informasiya texnologiyalarından, eləcə də bütövlükdə təhsil prosesindən istifadə mümkün qədər ideoloji cəhətdən siyasətsizləşdirilməlidir (Олейник, 2008: 17 s.).

Təhsil prosesinin sırf informasiya komponentlərinin formalaşması cəmiyyətin inkişafının reallıqlarına, yəni informasiya cəmiyyətinin yeni sosial model kimi uyğunluğu baxımından olduqca vacibdir.

İnformasiya-kommunikasiya texnologiyaları kompüter və telekommunikasiya vasitələrindən istifadə etməklə informasiyanın emalı texnologiyalarıdır. İKT-nin tədris prosesinə tətbiqi təhsil fəaliyyətinə marağı stimullaşdırır, məntiqi və yaradıcı təfəkkürün formalaşmasına kömək edir, tələbələrin inkişafına və informasiya mədəniyyətinin formalaşmasına kömək edir.

İnsan həyatının elə bir sahəsi yoxdur ki, informasiya-kommunikasiya texnologiyaları ora nüfuz etməsin. Digər sahələrə olduğu kimi, təhsil sahəsinə də informasiya-kommunikasiya texnologiyalarının təsiri son dərəcədə böyükdür. Ona görə də, son dövrlər informasiya-kommunikasiya texnologiyalarının ali və orta məktəblərdə tətbiq edilməsi sahəsində məqsədyönlü işlər aparılmış, dövlətimizin bu sahəyə diqqəti xüsusilə artmışdır.

Müasir Azərbaycan təhsili aktiv öyrənmə, idrak və oyun fəaliyyəti prosesində şagirdlərin şəxsiyyətinin inkişafına yönəlmişdir. Buna görə də, təhsil sahəsində qəbul edilmiş yeni qanunlara əsasən müasir müəllimin təfəkküründən yenidən istiqamətləndirilməsinə, təhsil prosesinə informasiya-kommunikasiya texnologiyalarını tətbiq etmək bacarığına və səriştəli məzunun formalaşdırılmasına mühüm diqqət yetirilir.

Müasir dövrdə Azərbaycanda və dünyada bir sıra alimlər bu problemin öyrənilməsi ilə məşğuldurlar. Ölkəmizdə bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Belə ki, hərtərəfli dinamik inkişafda olan ölkəmizdə aparılmış islahatlar nəticəsində qeyri-neft sektorunun enerji amilindən asılılığının azalması, valyuta ehtiyatlarımızın günü-gündən artması informasiya texnologiyaları sektorunun da sürətli inkişafına səbəb olmuşdur. Bu sahənin inkişaf etdirilməsi ilə bağlı mühüm addımlar atılmış, daha dəqiq desək, İKT-nin sürətli inkişafı dövlətimizin qarşısında duran mühüm prioritet məsələlərdən birinə çevrilmişdir. Hələ Ümummilli Lider Heydər Əliyev tərəfindən 2003-cü ilin fevral ayının 17-də imzalanan "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya" ilə ölkəmizdə

informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində qarşıda duran vəzifələr müəyyən edilmişdir (1).

Qeyd etdiyimiz kimi, tarixin tədrisi prosesində informasiya-kommunikasiya texnologiyalarının rolu çox vacib və əhəmiyyətlidir. Belə ki, tarixi hadisələrin şərh edilməsi zamanı, görkəmli hökmdarların, sərkərdələrin, xalq qəhrəmanlarının fəaliyyətlərinin öyrənilməsində, dünyanın müxtəlif ölkələri barədə olan məlumatların toplanılmasında informasiya-kommunikasiya texnologiyaları təhsilalanlara yaxından köməklik göstərir (Əliyev, 2020: s.137-141).

Təhsil aldığım Naxçıvan Dövlət Universitetində informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş xüsusi auditoriyalar təşkil edilmiş, həmçinin ağıllı lövhələr quraşdırılmış və müəllim və tələbələr bunlardan geniş şəkildə istifadə edirlər. Tədris prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadə motivasiya səviyyəsinin yüksəlməsinə, təhsilin intensivliyinin artmasına, təhsilin fərdiləşdirilməsinə, qiymətləndirmənin obyektivliyinin, şəffaflığının artmasına, tələbələrdə müstəqilliyin güclənməsinə təsir göstərir (Паньков, 2021: s.228-236). Universitetimizdə yeni innovativ texnologiyalar ilə təchiz olunmuş auditoriyalar tələbələrin fənni keyfiyyətli şəkildə mənimsəmələrinə səbəb olur.

Alimlər İKT-nin tədris prosesinə tətbiqinin məqsədəuyğunluğunu qeyd edir, onlardan istifadənin şagirdlərin təfəkküründə və tədqiqat fəaliyyətinin inkişafında müsbət təsirini vurğulayırlar (Спиваковский, 2003: s.31-32).

Naxçıvan Dövlət Universitetində tarix dərslərində kompüter texnologiyalarından istifadənin kompleks sistemi yaradılmışdır. Tarix fənni üzrə seminar və praktik məşğələlərdə müəllimlər informasiya və kompüter texnologiyalarının aşağıdakı forma və metodlarından istifadə edirlər:

- Tarixi hadisələri, faktları, mədəni hadisələri göstərən multimedia təqdimatları;
- Tarixi obyektlərin, cədvəllərin, multimedia xəritələrinin görünməsi;
- Kompüter testlərindən istifadə etməklə tələbələrin biliyinə nəzarət. Testin əsas məqsədi tələbələrin böyük bir qrupunun biliklərini yoxlamaq, müəyyən bir mövzunun öyrənilməsində boşluqları aşkar etmək, tədris materialının mənimsənilmə dərəcəsini və biliklərin təqdim edilməsinin obyektivliyini qiymətləndirmək üçün riyazi statistika metodlarından istifadə etməkdir.

Tarix müəllimləri müxtəlif növ test tapşırıqlarını yerinə yetirirlər:

1) Test (düzgün cavabın müəyyən edilməsi, yazışmaların qurulması, düzgün ardıcıllığın qurulması, qısa seçimli cavab və s.);

2) Kartoqrafik;

3) Əyani və illüstrativ testlər (ən görkəmli mədəniyyət abidələrinin tanınması, onların təsviri, tarixin müxtəlif dövrlərinin abidələrinin memarlıq, üslub və bədii fərqlərinin müəyyən edilməsi, onların ölkəmizin mədəni irsinin öyrənilməsində əhəmiyyətinin aşkarlanması). Tarix müəllimləri tərəfindən müxtəlif fənlərə, məsələn, Orta əsrlər tarixi, Yeni tarix, Türk xalqları tarixi və s. fənlərə aid testlər hazırlanmışdır.

- Layihə fəaliyyəti. Tələbələr ondan təkcə tarix dərslərində deyil, həm də tədris və pedaqoji təcrübə zamanı istifadə edirlər. Tələbələr layihənin tədqiqat hissəsini yerinə yetirirlər. Onlar internetdə, elektron dərsliklə, elektron kitabxanada işləmək yolu ilə məlumatları qəbul edərək sistemləşdirirlər və s.

Tarix dərslərində informasiya və kompüter texnologiyalarının üstünlükləri vardır. Bunlar aşağıdakılardır:

- Şagirdlərin erudisiyası və tarixi biliyə həvəsi artır;
- Biliyin qiymətləndirilməsi zamanı tələbələrin biliyinin təqdim olunan qiymətləndirilməsində obyektivlik;
- Şagirdlərin və müəllimlərin dərslərə hazırlanmasının daha səmərəli və effektiv olması;
- Öyrənmənin fərdiləşdirilməsi və tələbələrin müstəqil işlərinin intensivləşdirilməsi;
- Bu təlim texnologiyasının həyata keçirilməsi zamanı idrak və yaradıcılıq qabiliyyətlərinin inkişafı, sistemli və məntiqi təfəkkürün inkişafı və s.;
- Tədris prosesinin idarə olunmasının çevikliyinin təmin edilməsi (Мокроруз, 2007: s.39-42).

Ona görə də müasir təhsil sistemində informasiya və kompüter texnologiyalarının tədris prosesinə tətbiqi günün tələbidir, çünki o, tələbələrin tədris fəaliyyətinin aktivləşdirilməsinə, təlimin fərdiləşdirilməsinə kömək edir, tədqiqat bacarıqlarını və optimal həll yollarını seçmək bacarığını formalaşdırır.

Məqalənin elmi yeniliyi ondadır ki, məqalədə ilk dəfə olaraq informasiya komminukasiya texnologiyalarının tarixin tədrisində rolu və əhəmiyyəti araşdırılmış, müasir metodları göstərilmişdir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi ondan ibarətdir ki, informasiya-kommunikasiya texnologiyaları insan həyatında əhəmiyyətli yerə malik olmaqla yanaşı, tarixin tədrisi prosesində də özünəməxsus yerə malikdir. Müasir dövrdə vahid informasiya təhsil məkanının yaradılması günümüzdə qarşıda duran ən mühüm məsələlərdən biridir. İnformasiya-kommunikasiya texnologiyalarının ən mühüm vəzifəsi ondan ibarətdir ki, orta məktəb də daxil olmaqla ali təhsil müəssisələrində hər bir tələbə üçün müxtəlif tədris metodlarından sərbəst şəkildə istifadə etmək imkanı yaradır.

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycanda İKT-nin inkişafı sahəsində böyük uğurlar qazanılır. “Azərbaycan” qəzeti. 2011, 2 oktyabr, s.1. http://anl.az
2. Əliyev V. İnformasiya-kommunikasiya texnologiyalarının tarixin tədrisində rolu. Bakı Qızlar Universiteti. “Elmi əsərlər”. Cild 11, №4. 2020 (44), s.137-141

Rus dilində:

3. Богдановская Л.П. Особенности преподавания курса всемирной истории при применении средств информационно-коммуникационных технологий / Л.П. Богдановская // Научный журнал НПУ им. М.П. Драгоманова. Серия 5: Педагогические науки: реалии и перспективы. Вып. 19. Киев: 2009, №5 (19), с.47–53
4. Мокрогуз О.П. Инновационные технологии на уроках истории. – Харьков: 2007. Изд-во группа “Основа”, 192 с.
5. Паньков Б.И. Использование информационных технологий на уроках истории как средство повышения результативности и эффективности учебно-воспитательного процесса // Современные вызовы и актуальные проблемы науки, образования и производства: межотраслевые диспуты (сб. науч. Пр): материалы XIII международной научно-практической интернет-конференции (г. Киев: 2021, 26 февраля). Киев: 2021. с.367 – с.228-236
6. Спиваковский О.В. Принцип соответствия технологического инструментария учителю и ученику в условиях постиндустриального общества // Компьютер в школе и семье. – 2003. – № 5. – с.31-32
7. Олейник А.И. Информационные технологии как основа и средство реализации инновационных процессов в современном образовании: автореф. дис. канд. филос. наук: 09.00.10 «Философия образования» / А.И. Олейник; Нац. пед. ун-т им. М.П. Драгоманова. К., 2008, 20 с.

SUMMARY

Gunsel Gasimzade

USE OF INFORMATION-COMMUNICATION TECHNOLOGIES IN HISTORY LESSONS

The scientific article reveals the features of using information and communication technologies (ICT) in the teaching process, especially in history lessons. It is noted that a wide system of information resources providing the possibility of using ICT in the educational process, i.e. teaching-methodical resources, programs, textbooks, as well as specialized sites that can act as additional teaching resources, have been created. In history lessons, the problem of formation of cognitive independence of students is analyzed in connection with the application of information and communication technologies, the features of the development of critical and creative thinking in them (students and pupils) are reviewed with the help of interactive learning tools.

In the scientific article, the problem of the formation of cognitive independence of students was analyzed in connection with the application of information and communication technologies in the process of teaching history. Also, with the help of interactive learning tools, the characteristics of the development of critical and creative thinking of students in higher and secondary educational institutions were considered.

It is noted that the use of information and communication technologies in the educational process has an effect on increasing the level of motivation, increasing the intensity of education, personalizing education, increasing the objectivity and transparency of assessment and strengthening the independence of students.

Key words: *Information and communication technologies; Information resources; History lesson; Informatization of society; Telecommunication means; Pedagogical technologies; Modern Azerbaijani education*

AYGÜL ABDULLAYEVA
abdullaaygul@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-5126-3367

MÜASİR FİZİKA DƏRSLƏRİNDƏ KOMPÜTERDƏN İSTİFADƏNİN PERSPEKTİVLİYİ

Müasir dövrdə internetdən istifadə təhsil, o cümlədən fizika ilə bağlı olan məsələlər də öz yerini tapmaqdadır. Fizika elminə dair informasiyalar hər gün, hər an artmaqdadır. Yeni informasiyaların meydana çıxması və onların operativ şəkildə cəmiyyətə çatdırılması interneti kitabdan fərqləndirir, onun effektivliyini daha da artırır. Təlimin Yeni İnformasiya Texnologiyaları Vasitələrinin tətbiqilə keçirilən fizika dərslərinin başlıca üstünlüyü sinif dərs sistemində müəllimin müxtəlif formalı işlərinə (mühazirə, müsahibə, müəllimin şagirdləri dinləməyə sərf etdiyi vaxt) nəzərən, şagirdlərin bilik və bacarıqları müstəqil əldə etmələrinə və mənimsəmələrinə daha geniş imkan verərək onların dərsə marağını artırır, tədqiqatçılıq bacarıqlarını formalaşdırır.

Müasir dövrdə internetdə digər elmlərlə yanaşı fizika ilə bağlı olan məsələlər də öz yerini tapmaqdadır. Fizika elminə dair informasiyalar hər gün, hər an artmaqdadır.

Hal-hazırda istifadə olunan kompüterlərlərin bir çox tipləri və növləri vardır. Bu anlayışlar bəzən bir-biri ilə qarışdırılır. Lakin onlar bir-birindən fərqli anlayışlardır və onlar arasındakı fərq isə yetəri qədərdir çoxdur.

Hər bir kompüter tipləri istifadə sahələrinə görə bir-birindən fərqlidir. Müasir dövrdə texnologiyanın inkişafıyla bağlı olaraq kompüterlərin müxtəlif tiplər insanlar tərəfindən yaradılmışdır.Yaradılmış və istifadə olunan kompüterlər çox böyük və ya çox kiçik olurlar. Qeyd etmək yerinə düşər ki, indiki dövrdə super adlanan kompüterlər çox böyük hesablamalar aparma qabiliyyətinə malikdirlər. Digər tərəfdən də qeyd etməliyik ki, bütün bunlarla yanaşı kiçik və sadə işlər görmək üçün istifadə olunan kompüterlərdə yaradılmışdır. Bunlar televizorların, maşınların, ev alətlərinin içərisində olurlar. Yəni əslində kompüterlər bizim düşündüyümüz kimi sadəcə dizüstü və stolüstü tiplərdən ibarət deyil. Kompüterlər indiki zamanda demək olar ki, bütün işlərimizdə bizə köməklik edir.

Kompüter söylənəndə ağlımıza ilk olaraq stolüstü kompüter növü gəlir. Demək olar ki, hər sahədə istifadə oluna bilir. İş yerlərində, məktəblərdə, kitabxanalarda, internet kafelərdə və bir çox başqa yerlərdə qarşımıza çıxır. Bu növ kompüterlər kiçik və ya böyük ölçülərə malik ola bilir. O, adətən stolun üstündə olduğu üçün, ona stolüstü kompüter deyilir. Ekran, siçan və klaviaturanın birləşməsiylə ortaya çıxan cihaz masaüstü kompüterdir. Masaüstü kompüterlərə asanlıqla əlavələr edə bilirik. Buna misal olaraq, printer skaner, səs gücləndiriciləri göstərə bilərik. Bu növ kompüterlər digər kompüterlər arasında ən ucuzudur. Eyni spesifikasiyalara malik masaüstü və noutbuku müqayisə etdikdə, masaüstü kompüter daha ucuz qiymətə gəlir. Digər kompüterlərlə müqayisə etdiyimizdə ən ucuz olanıdır. Bir dizüstü kompüterə nisbətən daha ucuzdur.

Ən çox istifadə olunduğuna şahid olduğumuz ikinci kompüter növüdür. Daxilindəki batareyadan enerji alaraq işləyir. Daşınma özəlliyi və kiçik ölçüsü sayəsində demək olar ki, hər zaman istifadə edilə bilir. Ölçüsü adi kompüterlərdən daha kiçik olduğundan, aparatın hissələrinə daxil olmaq çətinlik törədə bilir. Stolüstü kompüterlərə istədiyimiz zaman parça əlavə edə, müəyyən parçaları daha üst səviyyədəki alternativi ilə rahat dəyişə bilirik.

Kompüter tipinin nə olduğunu aydınlaşdıraq. Günlük həyatımızın ayrılmaz hissəsinə çevrilən kompüterin tipi dedikdə, bir-birinə oxşar funksionallıq buna uyğun olaraq oxşar istifadə qaydalarına malik kompüterlər başa düşülür. Kompüterin növü dedikdə isə xarici görünüşlərində oxşarlıqlar mövcud olan, amma bir sıra fərqli xüsusiyyətlərə malik hesablama qurğuları yer alır. Əgər kompüterlərin tipinə nəzər salsaq görərik ki, məsələn fərdi kompüter tip sayılır. Lakin növləri dedikdə isə artıq planşet, smartfon, noutbuk, bankomat və.s.

Bəs onda portativ kompüterlər dedikdə necə kompüterləri başa düşürük? Portativ yığcam, istənilən yerə anında daşına bilən deməkdir.

1. Netbuk;
2. Planşet;
3. Noutbuklar;
4. Smartfonlar;
5. Ödəmə terminalları və bankomatlar

Netbuk nə deməkdir? Netbuk dizüstü kompüterdən daha az emal gücünə malik olan və yaddaş sahəsi az kiçik mobil hesablama cihazıdır. Netbuklar olduqca yüngül cihazlardır və əksəriyyətində CD/DVD sürücüsü olmur. Bununla belə, onlar söz emalı və digər daxiletmələr üçün kiçik klaviaturanı dəstəkləyirlər. Netbuklar, əvvəlcə ikinci dərəcəli hesablama variantları kimi yaradılmış və təhsil bazarına yönəldilmişdir. Netbuklar bir çox hesablamalar üçün idealdır. Netbuk həm də ultra portativ, mini notebook, subnotebook, ultra-mobil PC (UMPC) kimi tanınır.



Netbuklar, adətən portativ Linux ƏS-də işləyir, baxmayaraq ki, bəzi modellər Windows XP və ya Linux ilə əvvəlcədən yüklənmiş ola bilər. Bəzi netbuklar, həmçinin Google-dan ən son əməliyyat sistemi olan və xüsusi olaraq bir sıra netbuklar üçün nəzərdə tutulmuş Chrome ƏS-də işləyir. Netbukların bir çox imkanları var, o cümlədən İnternetə baxış, Microsoft Office proqramları, fotoşəkillərin idarə edilməsi və multimedia. Bundan əlavə, netbuklar bir çox hesablamalar üçün idealdır, çünki bu, kompüter və proqram təminatının uyğunsuzluğu, məlumat itkisi və printerin nasazlığı ilə bağlı problemləri aradan qaldırır. Netbuklar tələbələr, yolda olan istifadəçilər arasında çox populyardır. Bəzi təşkilatlar, hətta əsas sahə əməliyyatları üçün netbuklar təmin edir. Netbuk və noutbukun texniki xüsusiyyətləri oxşardır və netbuku noutbuk istifadəçiləri üçün ideal alternativ edir. Vaxt keçdikcə netbuk və noutbukların texniki xüsusiyyətləri birləşdi və daha çox oxşar oldu (1).

ƏDƏBİYYAT

1. “Təhsilin təşkili və idarə olunmasının aktual məsələləri”. Magistrantların Respublika elmi konfransının materialları (7-8 aprel). Bakı: 2022
2. Pənahov T.M., Əhmədov V.İ. “Ümumi fizika kursu fizika-1”. Bakı: 2013
3. Nəzərov Akif. “Müasir təlim texnologiyaları”. Bakı: 2012

SUMMARY

Mehpara Ismayilova

INVESTIGATION OF SCIENTIFIC-THEORETICAL BASIS OF SUBJECTS IN "ELECTRONIC TECHNOLOGIES" SECTION IN TECHNOLOGY TEXTBOOKS. TYPES AND TYPES OF COMPUTER

Innovations in the teaching of "Electronic technologies" lessons in technology classrooms must be taken into account. If we require perfect understanding of new lessons, then we need to use many functions of modern computers. Therefore, the difference between computers used in modern times should be taken into account. The differences between desktop and laptop computer should be clearly explained and their advantages should be shown.

Key words: *Technology, electronic, scientific-theoretical. Computer, software, modern, information, understanding, screen, small*

TEXNİKİ ELMLƏR

ƏYYUB AĞAYEV
eyyubagayev01@gmail.com
Naxçıvan Dövlət Universiteti

ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏNİN ÜSTÜNLÜKLƏRİ

Bərpa olunan enerjidən istifadə etməklə ətraf mühiti korlayan yanacaqlardan, yəni kömürün müxtəlif növləri - neft və ondan alınan məhsullar, qaz və.s istifadə etməməklə yeni və davamlı enerji əldə etməklə həm ekologiyamıza, həm də bəşəriyyət üçün sərfəli enerji almış oluruq. İndiki texnologiyanın inkişaf etdiyi bir dövrdə ölkələri narahat edən əsas məsələ enerjiyə olan tələbatı hansı yollarla əldə etməkdir. Dünya bu enerji çatışmamazlığı aradan qaldırmaq üçün neftdən və digər yanacaqlardan asılılığı aradan qaldırmaq üçün daha əlverişli üsullara əl atırlar. Bərpa olunmayan enerjidən istifadə etməklə neftin qiymətinin durmadan artması iqtisadiyyata ziyan vurmaqla bərabər yaşayış səviyyəsini aşağı salır. Eyni zamanda bu yanacaqların həm də tükənən olması və müəyyən dövdən sonra sıfra enməsi bəşəriyyəri çıxılmaz vəziyyətə salar.Başqa cür yanaşsaq bu sərvətlərin kor təbii istehsalı və bu yanacaqları yandıran zaman ətraf mühitə buraxdığı zəhərli qazlar və tullantılar yaşayış səviyyəsinin sıfıra enməsi deməkdir.

Açar sözlər: *Alternativ enerji , bioenerji ,külək enerjisi ,günəş enerjisi, fotoelektrik qurğular*

Giriş

Alternativ energetika dedikdə ekologiyanın korlanmasının qarşısını alması və resurslardan istifadə etməklə canlı aləmə ziyan vurmayan müxtəlif növ enerjilərin müasir adıdır.Bərpa olunan enerji kimi də adlanan alternativ energetika insan aləminə və iqtisadiyyata ziyan vurmayan və böyük inkişaf sahələri olan enerji növüdür. Bərpa olunan enerjidən istifadə etməklə ətraf mühiti korlayan yanacaqlardan yəni ,kömürün müxtəlif növləri ,neft və ondan alınan məhsullar,qaz və.s istifadə etməməklə yeni və davamlı enerji əldə etməklə həm ekologiyamıza, həm də bəşəriyyət üçün sərfəli enerji almış oluruq. İndiki texnologiyanın inkişaf etdiyi bir dövrdə ölkələri narahat edən əsas məsələ enerjiyə olan tələbatı hansı yollarla əldə etməkdir.Dünya bu enerji çatışmamazlığı aradan qaldırmaq üçün və neftdən və digər yanacaqlardan asılılığı aradan qaldırmaq üçün daha əlverişli üsullara əl atırlar. Bərpa olunmayan enerjidən istifadə etməklə neftin qiymətinin durmadan artması iqtisadiyyata ziyan vurmaqla bərabər yaşayış səviyyəsini aşağı salır. Eyni zamanda bu yanacaqların həm də tükənən olması və müəyyən dövdən sonra sıfıra enməsi bəşəriyyəti çıxılmaz vəziyyətə salar. Başqa cür yanaşsaq, bu sərvətlərin kor təbii istehsalı və bu yanacaqları yandıran zaman ətraf mühitə buraxdığı zəhərli qazlar və tullantılar yaşayış səviyyəsinin sıfıra enməsi deməkdir. Bunun üçün dünya xalqlarının qarşısında əsas məsələ durur ki, necə etmək lazımdır ki,ekologiyamızı korlamadan davamlı enerji əldə edək. Bunun üçün tükənməyən və təbiətə ziyan vurmayan enerji növü olan alternativ enerji növündən istifadə etmək ən səmərəli üsuldur. Axır vaxtlar bütün inkişaf etmiş dövlətlər iqtisadiyyatlarını durmadan inkişaf etdirirlər və bunu bir siyasi məsələyə çevirirlər. Enerji siyasətinin nə qədər əhəmiyyətli olduğunu bilən istehlakçılar enerjiyə və enerji resurslarına nə qədər tələbatın artıöını görürlər.Enerji siyasətinin məqsədi hər iki istiqaməti, yəni bərpa olunan və alternativ enerji mənbələrindən istifadəni getdikcə artırmaq, bu enerjiyə qənaət etmək, eyni zamanda enerji səmərəliliyini yüksəltmək yollarıdır. Ətraf mühiti qorumaqla mövcud resurslardan insanların ehtiyacları üçün istifadə olunmasını təmin etmək iqtisadiyyatın inkişafının başlıca məram və məqsədidir. Gələcək nəsillərin potensial ehtiyacları da nəzərə alınmaqdan ötrü, enerji resurslarından istifadə etdikdə, yalnız bu günkü günü fikirləşmək lazım deyil. Davamlı enerji siyasətinin nə qədər əhəmiyyətli olduğunu müasir dövrdə enerjiyə və enerji resurslarına olan tələbatı nəzərə alsaq

bəşəriyyətin bu enerjiyə nə qədər ehtiyacı olduğunu görərik. Buradan da bərpa olunan enerji siyasətinin hər iki siyasətinin necə əhəmiyyətli olduğunu görərik.

Günəş enerjisi – Biz bilirik ki, dünya təcrübələrində ən şox yayılan enerji günəş enerjisinin bilavastə istilik enerjisinə çevrilməsidir ki, buda dünyada energetikanın ən inkişaf etmiş növlərindən biri hesab olunur. Dünyada insanların işlətdiyi enerjidən 30 min dəfə çoxunu günəş enerjisindən alındığı və günəşin yer üzərinə səpələdiyi enerjinin miqdarı 4x1023 kvt\saat-dır. Bütün neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatlarından alınan enerji yer səthinə düşən günəş enerjisinin verdiyi enerjinin ödədiyi tələbatı ödəmir. Günəşdən alınan enerji ilə hazırki energetikasının bütün ehtiyaclarını təmin etmək olardı. İstiliyin aşağı atmosfer qatlarına yayılmaması, günəş qurğuları işləyən zaman parnik effekti yaranmaması, havanın çirklənməsinin baş verməməsi, günəş enerjisinin istifadəsin nə qədər səmərələli olduğunu göstərir. Günəş panelləri vasitəsi ilə günəş enerjisindən elektrik enerjisi alınır, bu da Günəş elektrik stansiyalarında baş verir. Elektrik enerjisinə çevirən avadanlıqlar (panellər) vasitəsi ilə günəş enerjisi alınır. Enerji yığımı və avtomatik idarəetmə sistemləri vasitəsi ilə GES-nın işini daha işlək və səmərəli təşkil etmək olar. Günəş enerjisi qəbuledicisinin köməkliyi ilə Günəş enerjisinin qəbulu və istiliyə çevrilməsi optik əksetmə sistemi və sıxlaşdırılmış günəş enerjisi əldə etmək olar. İstilik daşıyıcılarının işçi hissələrinin qızdırılması üçün istifadə olunan, su buxarı alma, qaz şəkilli və digər istilik daşıyıcılarının işçi hissələrinin qızdırılmasında günəş enerjisinin rolu əvəzedilməzdir. Quraqlıq və səhra zonaları Günəş elektrik stansiyalarının panellərinin qurulması üçün vacib əməllərdən biridir. Bəşəriyyətin elektrik enerjisinə olan indiki tələbatı ödənilməsi üçün dünyanın ən böyük səhralarının 20 mil.km 2 ümumi sahəsinə düşən 5x1016kvt x saat günəş enerjisinin çevrilmə effektliyi 10% olarsa, səhra zonasının 1%-dən istifadə edilməsi kifayət edər. Buxar-turbin qurğuları və günəş qaz-turbin qurğuları vasitəsi ilə enerji alınır. Bu zaman həmin qurğulardan əldə edilən faydalı iş əmsalı 12 %-i təşkil edir. Qurğunun həddən böyük hissələrini və bütünlükdə qurğunun ölçülərini xarakterizə edən bu faydalı iş əmsalı günəş şüalarının enerjisindən istifadə edildiyi üşün əldə edilən iqtisadi göstərici deyil. Kifayət qədər alternativ və bərpa olunan enerji potensialına malik olması bilirik ki, Azərbaycanın əlverişli şəraiti ilə kifayət qədər alternativ və bərpa olunan enerji potensialına sahib olması hesabınadır. Dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə edilməsinə onun yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraitidir. Bu da Azərbaycanın ətraf mühitə ziyan vurmayan təmiz bərpa olunan enerji mənbələrindən yararlanmasına köməklik edir. Azərbaycanda günəşli saatın miqdarının il ərzində 2400-3200 saat olması, onu dünya ölkələrin illik günəşli saatlarını ötüb keçməsi daha avantajlı edir. Planetimizin bir sıra qabaqcıl dövlətlərində Fotovadtaik Proqramının (FVP) geniş şəkildə tətbiqi və Azərbaycanın bu proqrama qoşulması ölkə ərazisində ekoloji təmiz olan enerji qurğularının istifadəsində əhəmiyyətli rol oynayar. Azərbaycanda ildə 300 günəşli və 270 küləkli günün olmasını, yer kürəsinin 50-ci en dairəsindən cənuba doğru yerləşən ərazilərdə günəş qurğularının olması günəş energetikası üçün əvəzedilməzdir. Ölkənin təbii iqlim şəraitindən və coğrafi mövqeyi günəş stansiyalarının səmərəliliyininin energetika üçün əsas atributlarından biridir. Azərbaycanda il ərzində 1 m2 yer səthinə düşən günəş enerjisinin miqdarı 1500-2000 Kvt/saat olduğu halda Çində–1800-2000 Kvt/saat, Rusiyada 800-1600 Kvt/saat, ABŞ-da 200-500 Kvt/saatdır, bu da Azərbaycanın ərazisinə düşən günəş şüalarının miqdarının artıqlığına görə digər dünya dövlətlərindən fərqləndiyini və enerjidən istifadə də necə böyük imkanlara malik olduğunu göstərir. Elmi təcrübələrin əldə etdiyi nəticələrə əsaslanaraq, Azərbaycanın ərazisində günəş enerjisinin instensivliyinə görə paylanması Naxçıvan, Aran rayonları və Abşeron yarımadasında daha çoxdur və burada günəş stansiyalarının qurulması daha çox enerji əldə etmək deməkdir. Bunun nəticəsində günəşdən alınan enerjinin ekologiyamıza, yəni flora və faunamıza ziyansız enerji olduğunu əldə edəciyik. Fotoelektrik və termodinamik qurğular vasitəsi ilə günəş şüalarını insan ehtiyacı olan elektrik enerjisi alınır. Elektrik enerjisinə fotoelektrik çeviricilərin aracılığı ilə günəş enerjisindən elektrik enerjisi alınır. Dünyada daha çox yayılan və təbii günəş batareyaları adlanan bu qurğulardan istifadə daha səmərəlidir. Günəş enerjisini əvvəlcə istilik enerjisinə, sonra isə istilik qurğularının köməyi ilə mexaniki enerjiyə termodinamik

qurğular vasitəsi ilə baş verir. Bundan sonra, həmin mexaniki enerji generator vasitəsi ilə bizə lazım olan elektrik enerjisinə çevrilir, günəş enerjisini öncə istiliyə çevirir.

Külək enerjisi dedikdə, külək qurğularının köməkliyi ilə və atmosferdəki hava qatının doğal enerjisi təsəttüfatda lazım olan bütün enerji növlərinə çevrilən enerji nəzərdə tutulur. Müxtəlif qurğular vasitəsi ilə bu proseslər həyata keçirilir (5). Bərpa olunan enerji növlərindən günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən daha çox özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəli olan külək enerjisi daha perspektivli və arzuolunandır. Hər yerdə işlənə bilər və ekoloji cəhətdən təmiz olan külək enerjisi yer altı sərvətlərdən fərqli olaraq, tükənməyən enerji növünə daxil edilir. Alimlərin böyük araşdırmalarına görə, ölkəmizin bir çox ərazilərində külək energetikasının inkişafı üçün böyük imkanlar var. Tədqiqatdan alınan nəticələrə görə, təbii şəraitinə və iqtisadi infrastrukturlarına görə 900 Mvt-a yaxın illik külək enerjisi ehtiyatına malik bir respublikamız var. Bu o deməkdir ki, əldə olunan nəticələrə görə bu da elektrik enerjisinin 3 milyard Kvt/saat miqdarındadır. Ozondağıdıcı olan karbon dioksidin (CO2) atmosferə atılmasının qarşısının alınması, bir ildə külli miqdarda tullantıların qabağının alınması, bununla da 2 milyon tondan çox yanacağa qənaət edilməsi və ölkə iqtisadiyyatına verilən gəlirlərin deməsidir. Ən əlverişli külək şəraiti Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında, Naxçıvan Muxtar Respublikasının Şərur-Culfa ərazisində, Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonasında olduğundan bu zonalarda külək qurğularından istifadə iqtisadi cəhətdən əlverşli sayılır. Orta güclü külək elektrik qurğularından istifadə etmək və burada küləyin sürəti illik olaraq 3-6 m/san olduğundan Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonasında və Naxçıvan Muxtar Respublikasının Şərur-Culfa ərazilər daha məqsədə uyğundur. Abşeronda hündürlüyü 30 və 40 m olan iki qüllə quraşdırmış, küləyin sürətinin orta illik qiyməti 7,8-8,1 m\san olması müəyyən edilmiş və Qobustan rayonu ərazisində ümumi gücü 30 MVt olan külək elektrik stansiyasının qurulmasına Azərbaycan Elmi-Tədqiqat İnstitutu xarici şirkətlərlə ortaq qərara gəlmişdilər. Bundan sonra, həmin ərazilərdə külək qurğuları inşa edilmiş və yüksək nəticələr eldə edilmişdir.

Bioqaz dedikdə metan qazının ayrılması ilə müşayiət olunan və bioloji kütlənin anaerob qıcqırması nəticəsində yaranan qaz kütləsi nəzərdə tutulur. Bilirik ki, heyvan mənşəli üzvi tullantılar, müxtəlif bitki qalıqları, peyin kənd təsərrüfatı obyektlərində istənilən qədərdir. Çürümə prosesi zamanı istilik və qazın ayrılmasını çox az insanlar bildiyindən və bu tullantılardan kübrələr kimi istifadə etdiyindən bu enerjinin yerli sakinlər üçün nə qədər dəyərli olduğundan xəbərsizdilər.

Gündə bir neçə kiloqram əmələ gəlir ki, bunun da çoxu, yəni 40%-i həmin maddədən alınır. Bir m3 bioqazdan 2-3 kvt\saat elektrik enerjisi istehsal edilir. Bir baş iri buynuzlu heyvanın gündəlik peyindən 1,7 m^3 bioqaz istehsal olunur. Bu kütlədən alınan qazın tərkibi müxtəlif qazlardan ibarətdir ki, bunun da çox hissəsini, yəni 75%-ni metan qazı təşkil edir. Biometanın alınması üçün Bioqazın tərkibinindən karbon qazını çıxarmaq lazımdır. Əldə edilən bimetan əvəzsiz təbii qazdır. "Zibilxana qazı" Bioqazın əsas növlərindən biri hesab edilir. Buna niyə zibilxana qazı deyilir? Adından məlum olduğu kimi istehsalat və bərk məişət tullantılarından əldə edilən qazdır. Üzvi maddələrlə zəngin olduğu üçün bərk məişət və istehsalat tullantılarından elektrik enerjisi əldə edilir. Aparılan hesablamalara görə, müasir bioqaz qurğusunun enerji istehsalı 127 min kənd evi təminində, 60 Alternativ enerji mənbələrindən istifadəsində lazım olan enerji 3 min növlərə ayrılmamış tullantılardan alınır. Avropada bir sıra kompaniyaların texnologiyası ilə istehsal olunan bioqaz enerjisi ilə 150 mindən çox mənzilin işıqlanması təmin olunur. Metan qazının atmosferə atılmasının qarşısını alınması bioqazın istehsalı zamanı baş verir. Karbon qazının parnik effektinə təsiri metan qazından 21 dəfə azdır. Tədqiqatçıların araşdırmalarına görə Metan qazı 12 il atmosferdə yaşaya bilir.

Bioqaz istehsal etmək üçün bioqaz qurğularından istifadə olunur ki, bu da əl üsulu ilə və ya zavod üsulu ilə hazırlanır. Qızdırıcı sistemlərinə, homogenizasiya və avtomatik qurğularına və mexanizasiyaya qurğularına malik olan zavod istehsalı olan qurğu əl sənəti ilə hazırlanmış qurğulardan xeyli fərqlənir.

Tədqiqatın metodları: Alternativ energetikada təmin edilməsi sahəsində elmi tədqiqatların geniş spektri və problemlərin tədqiqində elmi abstraksiya, məntiqi və tarixi əlaqə kimi metodlardan

istifadə etməklə faktlar toplanıb ümumiləşdirilmiş, onlar arasında qanuna uyğun və təsadüfi əlaqələr müəyyənləşdirilmiş, xarakterik olan əlaqələr aşkara çıxarılmış və müxtəlif mülahizə və nəticələrə gəlinmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası". (Paşayev N.Ə., Əyyubov H.H. və b. Bakı: 2010)
2. Azərbaycan Respublikasının Alternativ və Bərpa olunan Enerji mənbələri üzrə Dövlət Agentliyi. (Jump up to: Bakı: 2017)
3. Naxçıvan MR elektroenergetika sistemləri. (Kazımov Ş.K., Hacıyeva V.İ və b. Naxçıvan: 2017)
4. Məmmədova Z.M. "Coğrafiya və təbii resuslar". Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. s.79–81
5. Геология Азербайджана. (Том . VI Полезные ископаемые. Баку: 2005)
6. Azərbaycanın yanacaqenerji kompleksinin inkişafının iqtisadi-ekoloji problemləri. (Nurəliyeva R.N. Bakı: 2010)
7. "Alternativ və bərpa olunan enerji mənbələri, onlardan istifadənin ekoloji iqtisadi nəticələri" mövzusunda magistr dissertasiyası (Babayev Elman Ələsgər oğlu, Bakı: 2017)

SUMMARY

Ayyub Agayev

ADVANTAGES OF USING ALTERNATIVE ENERGY SOURCES

By using renewable energy, we get new and sustainable energy by not using fuels that damage the environment, i.e. different types of coal, oil and its products, gas, etc. In today's technologically advanced era, the main issue that worries countries is how to meet the energy demand. The world is resorting to more convenient methods to overcome this energy shortage and to eliminate dependence on oil and other fuels. The constant increase in the price of oil by using non-renewable energy causes damage to the economy and lowers the standard of living. At the same time, the fact that these fuels are also depleted and after a certain period of time will reduce to zero puts humanity in a desperate situation. the toxic gases and waste it releases into the environment mean that the standard of living will drop to zero.

Key words: *Alternative energy, bioenergy, wind energy, solar energy, photoelec-tric devices*

ŞƏBNƏM MƏMMƏDOVA
Shabnammva6@gmail.com
Naxçıvan Dövlət Universiteti

GENİŞ İSTİFADƏ OLUNAN TEXNOLOJİ ÖYRƏNMƏ ÜSULLARI

Texnoloji öyrənmə metodları anlayışların çıxarılmasında, proqnozların verilməsində və verilənlər bazalarından nümunələrin aşkar edilməsində mühüm rol oynayır. Geniş istifadə olunan metodlara assosiasiya qaydalarının öyrənilməsi, təsnifat alqoritmləri, klasterləşdirmə alqoritmləri, ardıcıllıq və yol təhlili, reqressiya təhlili, neyron şəbəkələri və proqnozlaşdırma modelləri daxildir. Bu üsullar müxtəlif sənaye və tətbiqlər üzrə verilənlərə əsaslanan qərar qəbul etməyə, nümunənin tanınmasına və proqnozlaşdırıcı analitikaya imkan verir. Müvafiq metodun seçilməsi konkret problemdən, verilənlər toplusunun xüsusiyyətlərindən və arzu olunan nəticələrdən asılıdır və bu, müasir verilənlərə əsaslanan dünyada texnoloji öyrənmənin çox yönlülüyünü və əhəmiyyətini vurğulayır.

Ümumi olaraq, geniş istifadə olunan texnoloji öyrənmə metodları ətrafında müzakirə çoxşaxəli və dinamikdir və bu metodların müxtəlif sahələr üzrə davamlı təkamülünü və tətbiqini əks etdirir. Bu müzakirənin əsas aspektlərindən biri müxtəlif təlim metodlarının müqayisəli təhlili və onların konkret tapşırıqlar və verilənlər bazası üçün uyğunluğudur.

Açar sözlər: *Assosiasiya qaydası, təsnifat, klasterləşmə, ardırıcllıq və yol təhlili, reqressiya, neyron şəbəkələri və proqnoz*

Giriş

Texnoloji öyrənmə metodları bu gün məlumat elmi, süni intellekt və maşın öyrənməsi sahələrində böyük təsirə malik mühüm alətlərdir. Bu üsullar böyük məlumat dəstlərini təhlil etmək, nümunələri müəyyən etmək, gələcəyi proqnozlaşdırmaq və qərar qəbuletmə proseslərini optimallaşdırmaq üçün istifadə olunur. Texnoloji öyrənmə metodlarından istifadə etməklə, müəssisələr, tədqiqatçılar və qərar qəbul edənlər daha məlumatlı və məlumatlara əsaslanan qərarlar qəbul edə bilərlər (Gong Z., 2017).

Material və metodlar

Texnologiya öyrənmə üsullarını araşdırmaq üçün müxtəlif resurslar və metodlar mövcuddur. Bu mənbələrə elmi məqalələr, kitablar, konfrans materialları, doktorluq dissertasiyaları, sənaye hesabatları və onlayn platformalardakı məzmun kimi müxtəlif materiallar daxil ola bilər.

Bu resurslar və metodlar bizə texnologiya öyrənmə metodları haqqında ümumi anlayışı inkişaf etdirməyə və daha konkret məlumat əldə etməyə kömək edə bilər. Tədqiqat apararkən, müxtəlif mənbələrdən istifadə edərək müxtəlif perspektivlərdən məlumat əldə etməyi yadda saxlamaq vacibdir.

Əldə olunan nəticələr

Texnoloji öyrənmə üsulları məlumat elmi, maşın öyrənməsi, süni intellekt və biznes analitikası kimi müxtəlif sahələrdə mühüm rol oynayır. Bu üsullar mənalı fikirlər çıxarmağa, proqnozlar verməyə və qərar qəbuletmə proseslərini avtomatlaşdırmağa kömək edir. Bu üsullar arasında fərqli xüsusiyyətlərə malik olan dərin texnoloji öyrənmə üsulları aşağıdakılardır (Tran C.T., 2021):

Sxem 1: *Dərin Texnoloji Öyrənmə Metodları*



Mənbə: *Tran C. T., 2021 əsasında hazırlanmışdır*

Assosiasiya Qaydaları - Böyük məlumat dəstlərindəki dəyişənlər arasındakı əlaqələri müəyyən etmək məqsədi daşıyır. Tez-tez nümunələr və ya əlaqələr tapmağa əsaslanır. Nümunə tətbiqlərə bazar səbətinin təhlili, tövsiyə sistemləri və saxtakarlığın aşkarlanması daxildir.

Təsnifat - Təsnifat, nəzarət edilən öyrənmə texnikası, yeni məlumat nöqtələrini əvvəlcədən müəyyən edilmiş kateqoriyalara və ya etiketlərə təsnif edir. Nümunə tətbiqlərə e-poçt spamının aşkarlanması, əhval-ruhiyyənin təhlili və xəstəliyin diaqnozu daxildir.

Klasterləşdirmə - Klasterləşdirmə, nəzarətsiz öyrənmə texnikası, oxşar məlumat nöqtələrini xüsusiyyətlərinə görə qruplaşdırır. Nümunə tətbiqlərə müştəri seqmentasiyası, anomaliyaların aşkarlanması və təsvirin seqmentasiyası daxildir.

Ardıcıllıq və Yol Təhlili - Zaman seriyası məlumatlarını və ya proses axınlarını ehtiva edən məlumatlarda hadisələrin və ya hərəkətlərin ardıcıllığını başa düşmək məqsədi daşıyır. Nümunə tətbiqlərə pərakəndə səbət təhlili, klik təhlili və hadisələrin proqnozlaşdırılması daxildir.

Reqressiya - Asılı və müstəqil dəyişənlər arasındakı əlaqəni modelləşdirməklə proqnozlar verməyə imkan verir. Nümunə tətbiqlərə satış proqnozu, qiymət proqnozu və trend təhlili daxildir (Gou B., 2019).

Neyron Şəbəkələr - Bu, insan beyninin strukturu və fəaliyyətindən ilhamlanan maşın öyrənmə alqoritmidir. O, təbəqələrdə düzülmüş bir-birinə bağlı düyünlərdən (neyronlardan) ibarətdir. Nümunə tətbiqlərə təsvirin tanınması, təbii dilin işlənməsi və zaman sıralarının proqnozlaşdırılması daxildir.

Proqnoz - Tarixi məlumatlardan istifadə edərək gələcək hadisələri və ya meylləri proqnozlaşdırmaq məqsədi daşıyır. Nümunə tətbiqlərə səhm qiymətlərinin proqnozlaşdırılması, hava proqnozu və tələbin proqnozlaşdırılması daxildir (Chen P., 2024).

Bu dərin texnoloji öyrənmə üsulları müxtəlif sahələrdə müxtəlif məqsədlər üçün istifadə olunur və hər birinin öz güclü və məhdudiyyətləri var. Əhəmiyyətli olan məlumat növünə, problem sahəsinə və məqsədə uyğun olaraq ən uyğun metodu seçmək və bu üsullardan səmərəli istifadə edərək dəyərli fikirlər əldə etməkdir.

Müzakirə

Geniş istifadə olunan texnoloji öyrənmə metodları ətrafında müzakirə çoxşaxəli və dinamikdir və bu metodların müxtəlif sahələr üzrə davamlı təkamülünü və tətbiqini əks etdirir. Bu müzakirənin əsas aspektlərindən biri müxtəlif təlim metodlarının müqayisəli təhlili və onların konkret tapşırıqlar və verilənlər bazası üçün uyğunluğudur.

Birincisi, hər bir öyrənmə metodunun güclü və zəif tərəflərini nəzərə almaq vacibdir. Məsələn, assosiasiya qaydalarının mədəniçiliyi bazar səbətinin təhlili üçün əməliyyat məlumatlarında nümunələri aşkar etməkdə üstün olsa da, böyük məlumat dəstləri ilə işləyərkən miqyaslanma problemləri ilə mübarizə apara bilər. Digər tərəfdən, neyron şəbəkələri təsvirlər və mətnlər kimi

mürəkkəb məlumatların idarə edilməsində diqqətəlayiq imkanlar nümayiş etdirir, lakin təlim üçün əhəmiyyətli hesablama resursları tələb edir.

Digər müzakirə mövzusu öyrənmə modellərinin şərh edilə bilməsi və şəffaflığıdır. Reqressiya və qərar ağacları kimi üsullar sadə şərhlər təklif edərək, tənzimləyicilərə uyğunluq və ya tibbi diaqnoz kimi model şəffaflığının vacib olduğu ssenarilərdə onlara üstünlük verir. Bunun əksinə olaraq, neyron şəbəkələri kimi dərin öyrənmə modelləri çox vaxt "qara qutular" kimi fəaliyyət göstərir və onların xüsusi proqnozlara və ya təsnifatlara necə çatdıqlarını başa düşməkdə çətinliklər yaradır (Sri Lakshmi M., 2020).

Müzakirə, həmçinin texnoloji öyrənmə metodları ilə bağlı etik mülahizələri əhatə edir. Məsələn, sifətin tanınması və ya proqnozlaşdırıcı polislik kimi təsnifat tapşırıqlarında təlim məlumatlarında qərəzlilik ədalətsiz və ya ayrı-seçkilik doğuran nəticələrə gətirib çıxara bilər ki, bu da alqoritmik ədalət və hesabatlılıq haqqında mühüm etik suallar doğurur.

Bundan əlavə, müzakirə praktiki icra aspektlərini, o cümlədən məlumatların ilkin işlənməsi, xüsusiyyət mühəndisliyi, model seçimi və qiymətləndirmə ölçülərini əhatə edir. Bu mülahizələr real dünya tətbiqlərində öyrənmə modellərinin ümumi effektivliyi və etibarlılığında mühüm rol oynayır.

Üstəlik, texnoloji öyrənmə metodları ətrafında müzakirələr bulud hesablamalarının yayılması, dərin öyrənmə tapşırıqları üçün xüsusi avadanlıqların inkişafı və avtomatlaşdırılmış maşın öyrənməsi (AutoML) alətlərinin yaranması kimi texnologiyadakı irəliləyişlərlə sıx bağlıdır.

Yekun olaraq, geniş istifadə olunan texnoloji öyrənmə üsulları ətrafında müzakirə texniki imkanlardan və şərh edilə bilənlikdən tutmuş, etik nəticələrə və praktiki mülahizələrə qədər müxtəlif mövzuları əhatə edir. Sürətlə inkişaf edən texnoloji mənzərədə problemlərin həlli və məsuliyyətli və etik istifadənin təmin edilməsi zamanı bu metodların bütün potensialından istifadə etmək üçün bu sahədə davamlı dialoq və tədqiqatlar vacibdir.

ƏDƏBİYYAT

1. Chen P. (2024). Self-supervised self-organizing clustering network: A novel unsupervised representation learning method. IEEE Transactions on Neural Networks and Learning Systems, 35(2)
2. Gong Z. (2017). Diversified deep structural metric learning for land use classification in remote sensing images. In 2017 IEEE International Geoscience and Remote Sensing Symposium (IGARSS). IEEE
3. Gou B. (2019). Remaining useful life prediction for lithium-ion battery using ensemble learning method. In 2019 IEEE Power & Energy Society General Meeting (PESGM). IEEE
4. Sri Lakshmi M. (2020). Integrated technological tools for effective blended learning. In 2020 IEEE Bombay Section Signature Conference (IBSSC). IEEE
5. Tran C. T. (2021). Deep representation learning for Vietnamese speaker recognition. In 2021 13th International Conference on Knowledge and Systems Engineering (KSE). IEEE

SUMMARY

Shabnam Mammadova

WIDELY USED TECHNOLOGICAL LEARNING METHODS

Machine learning methods play an important role in extracting insights, making predictions, and discovering patterns from databases. Widely used methods include association rule learning, classification algorithms, clustering algorithms, sequence and path analysis, regression analysis, neural networks, and predictive models. These techniques enable data-driven decision making, pattern recognition, and predictive analytics across a variety of industries and applications. The choice of the appropriate method depends on the specific problem, the characteristics of the dataset, and the desired results, highlighting the versatility and importance of technological learning in today's data-driven world.

In general, the discussion around widely used technological learning methods is multifaceted and dynamic, reflecting the continuous evolution and application of these methods across different domains. One of the main aspects of this discussion is the comparative analysis of different training methods and their suitability for specific tasks and databases.

Key words: *Association rule, classification, clustering, sequential and path analysis, regression, neural networks and prediction*

KÖNÜL ƏHMƏDOVA

MİRNAMİK BƏŞİROV
Mbashirov@bsu.edu.az
Bakı Dövlət Universiteti

GÜNƏŞ AKTİVLİYİNİN TƏLƏBƏLƏRİN TƏDRİS GÖSTƏRİCİLƏRİNƏ TƏSİRİNİN TƏDQİQİ

Günəş ləkələri, onların sayı, alışmalar və Günəşin Yer kürəsində yaratdığı maqnit qasırğalar radioelektro-texniki qurğulara və canlı aləmə təsiri labüddür. Bu tələbələrin tədris göstəricilərinə də təsirsiz ötüşmür. Əlaqədar olaraq günəş küləyi parametrləri və geomaqnit qasırğa ilə bağlı materiallar toplanılmışdır. Tələbələrin tədris göstəriciləri kimi Bakı Dövlət Universitetinin Fizika fakültəsi üzrə onların davamiyyətləri, imtahan sessiyalarında müvəffəqiyyət və keyfiyyət göstəricilərinin günəş küləyi parametrlərindən və maqnit qasırğa səviyyəsindən asılılığı tədqiq olunmuşdur. Reqressiya münasibətləri verilmiş, əmsallar təyin olunmuşdur. Tələbələrin tədris göstəricilərinin günəş aktivliyi ilə bağlı parametrlərdən, geomaqnit qasırğanın gücündən asılı olması müəyyən olunmuşdur. Alınan nəticələr təhsil göstəricilərinin təhlili zamanı nəzərə alınması məqsədəuyğun hesab edilir.

Açar sözlər: *Günəş, geomaqnit qasırğa, təhsil göstəriciləri, müvəffəqiyyət, keyfiyyət*

Giriş

Yerə günəş küləyinin təsiri kosmik plazmanın bütün sahələrdə tədqiqini aktual edir: geomaqnit qasırğanın yaranması, Günəş küləyi plazması intensivliyindən asılı olaraq elektron nəzarət cihazlarına, yerüstü peyk komplekslərinə, uçan aparatlarına və məsafədən idarəetmə sistemlərinə, radiotexnika-naviqasiya-lokasiya və televiziya sistemlərinə və qurğularına, havada hərəkətin idarə olunmasına, mikro və nanoelektronik cihazlara, eləcə də insanlara təsirsiz ötüşmür.

Günəş küləyi Günəşdən bu və ya digər səbəbdən ayrılaraq yayılan zərrəciklər seli olaraq bütün kosmosa genişlənir. İlk olaraq, Günəş öz sistem planetlərinə təsir edir: qravitasiya səbəbindən ətrafında fırlanmağa məcbur edir, yaratdığı külək hesabına planetlərin atmosferlərinin itirilməsinə səbəb olur, planetin maqnit xassələrini, xüsusiyyətlərini dəyişir, maqnit qasırğa yaradır və s.

Günəş küləyi faktoru canlılara da təsir edir. Günəş aktivliyi bioobyektlərə, aşağı kurslarda təhsilalanların əqli fəaliyyətinə, azyaşlı məktəblilərdə təhsil müvəffəqiyyətlərinə, davamiyyətə, eləcə də yaş qrupu yüksək olan insanlarda müəyyən xəstəlikləri daşıyan insanlara təsiri tədqiq olunmuşdur (1, 2, 3). Günəş aktivliyinin pandemiya və virusların yayılmasına təsiri də araşdırılmışdır və müəyyən edilmişdir ki, pandemiyalar yalnız Günəş aktivliyinin minimum dövrlərinə təsadüf edir (4). Gündəlik Günəş aktivliyi rezonansları təsiri ilə qripə oxşar epidemiyaların mövsümi güclənmələri və bu epidemiyaların Günəş aktivliyindən asılılığı tədqiq olunmuş, müəyyən edilmişdir ki, aktivliyin dəyişməsi tsikli regionda digər proseslərin dəyişmə tsikli ilə,virusların mutasiya və antigen dreyflərin dəyişməsi ilə üst-üstə düşə bilər ki, bu mexanizmlərin kombinasiyası da mövsümi epidemiyalar yarada bilər.

Günəş küləyinin Yerdə yaratdığı maqnit qasırğa əvvəli və qasırğadan sonrakı günlərdə təhsilalanların tədris göstəricilərinin tədqiqi digər amillər kimi mühümdür. Həmin günlərdə digər canlıların bu hadisəyə qabaqlayıcı təsirlərinin olması faktına rağmən 18-23 yaş və daha yaşlı təhsilalanların tədris göstəricilərinə təsirinin öyrənilməsi maraq kəsb edir. İnsan təhsilalan fizioloji obyektdir, bioloji subyektdir və onun bu və digər formada davranışı, fəaliyyəti hər hansı bir tələbləri yerinə yetirməsi bir mənalı olaraq öz fiziki göstəricilərindən, düşüncələrindən asılı olmayıb kənar fiziki hadisələrlə bağlı təsirlərdən də asılıdır. Belə ki, imtahan verməyə gəlmiş tələbə tədris müddətində tam fəal olmasına baxmayaraq, imtahan nəticəsi aşağı və əksinə ola bilər. Çox mükəmməl hazırlığı olmayan tələbə mövcud biliyini tam şəkildə nümayiş etdirə bilər. Sosial-mədəni aspektlər

təhsilalanların keyfiyyətinin idarə edilməsinə təsir edir (5). Bu aspektlərin də təzahürü və idarə olunması bilavasitə və ya dolayı yolla Günəş aktivliyindən bu və ya digər formada asılıdır.

Günəş küləyi, maqnit qasırğalar müxtəlif canlılarda, mikroblarda qabaqlayıcı təsirlər nəticəsində bu effektə reaksiya vermiş olur. Rənglərini, formasını və s. parametrlərini dəyişir. Təbii bu kimi dəyişikliklər insan orqanizmində müxtəlif xəstəliklərin təzahürünə yol açır.Bu və ya digər xəstəliklərin say miqdarı artır.Tədris göstəricilərinə təsir göstərən digər faktorlarla: yaşayış tərzi, əqli potensialı, fiziki durumu, motivasiyası, maddi imkanı, təhsilin təkməqsədli olub-olmaması kimi faktlarla yanaşı kənar təsirlər: ailə, yaxın, tanışlar, cəmiyyət, siyasi hadisələr və s. kimi faktlarla yanaşı Yerə ən yaxın olan ulduzun-Günəşin təsiri də əvəzsizdir. Əlaqədar olaraq təhsil göstəricilərinə də təsirsiz ötüşmür. Son nəticədə bütün bu faktlar təhsilalanların təhsil göstəricilərinə təsir edir. Təhsilalanların təhsilə ayırdıqları vaxtı müqayisə etsək (günün 35-45%, yuxarı siniflərdə daha çox) yuxarıda sadalanan hadisələrin bu prosesin öyrənilməsinə təsirinin tədqiqinin nə qədər əhəmiyyətli olduğunu görərik.

Material və metodlar. Bunun üçün ən yaxın imkanlar qiymətləndirilmiş, bir fakültənin müəyyən ixtisas qruplarının tədris göstəricilərinin: təhsilalanların davamiyyəti, təhsil göstəricisi, imtahan sessiyalarında davamiyyətləri və müvəffəqiyyət faizləri ilk addım kimi tədqiq olunması nəzərdə tutulur. Bunun üçün müxtəlif illərdə dekabr, yanvar, mart, aprel, may və iyun ayları üçün Günəş aktivliyi göstəriciləri kimi, ləkələrin sayı, C, M və X sinif alışmaların sayı və tədris göstəricilərinin bu faktlardan asılılığı tədqiq olunmuşdur. Toplanan baza məlumatlarından hər bir göstərici üçün mümkün qədər çox sayda tənliklər qurulmuş, həll olunmuş və reqressiya düsturunun əmsalları təyin olunmuşdur.

SN	İLLƏR	AYLAR	I kurs MÜV.~~%~~	II kurs MÜV.%	III kurs MÜV.%	Müvəffəqiyyət M(REQ)
1	2017	YANVAR	50	55	75	72,56976
2	2017	İYUN	68,1	75,4	90,4	80,46216
3	2018	YANVAR	82,1	63,4	81,5	87,09536
4	2018	İYUN	79	67	81	79,20296
5	2019	YANVAR	83,39	78,69	82,94	80,69868
6	2019	İYUN	75	75,82	78	85,96028
7	2020	YANVAR	86,67	79,68	74,69	81,89348
8	2020	İYUN	100	100	100	83,20888
9	2021	YANVAR	99	100	99	91,06904
10	2021	İYUN	97	98	98	73,96884
11	2022	YANVAR	72	81	85	102,59318
12	2022	İYUN	80	74	36	82,86218
13	2023	YANVAR	76	86	82	109,97538
14	2023	İYUN	77,35	80,07	85,97	82,35198

Verilənləri sistemləşdirib birgə həll edərək, keyfiyyət parametri üçün

$$K=100-3,5L-0,3849C+4,7600M-15,657X$$


müvəffəqiyyət göstəricisi üçün isə

$$M=100-0,095L-0,1476C-2.2077M+8,806X$$

ifadələrini alarıq.


Burada L - həmin dövr üçün ləkələrin, C, M və X alışmaların sayıdır. C sinif alışmalar praktik olaraq Yerə, radiodalğaların yayılmasına, elektronik cihazlara təsir edə bilməsə də, canlı varlıqlara təsirsiz ötüşmür. M sinif alışmalar isə zəif və təsirli olaraq radiodalğaların yayılmasını əngəlləyə bilir və hətta pozulmasına gətirir. Orta M sinif alışmalar günəş radiasiya qasırğası yarada bilir. Güclü və davam edən M sinif alışmalar isə TKA (Tac Kütlə Atılması-Coronal Mass Ejection) yarada bilər. X sinif alışmalar ən böyük və güclü alışmalardır. Bu sinif alışmalar ildə təqribən 10 dəfə baş verir və


əsasən günəş maksimumu vaxtı müşahidə olunur. X sinif alışmalar zamanı Yerin gündüz olan səthində radiodalğaların yayılmasına olan maneələr güclü səviyyədən daha yüksək-ekstremal səviyyəyə qalxır.



Reqressiya düsturu müvəffəqiyyət faizini ləkələrin,C,M və X alışmaların sayına görə tapmağa imkan verir. 8-9-10-cu hissələrdə real nəticələrin reqressiya düsturundan alınan nəticələrdən kəskin fərqlənməsi COVİD 19 pandemiya dövrünə təsadüf edir. Bu dövrdə təbii online imtahan nəticələri real imtahan göstəricilərindən fərqlənməli idi. Digər hissələrdə kurslara görə dəyişmələr mövcuddur. Orta qiymətdən kənara çıxmalar nəzərə alınmazsa müvəffəqiyyət faizi üçün alınan reqressiya düsturu asılılığı ifadə edə bilir. Alınan ifadələr real qiymətlərdən 5-12%-lə fərqlənir. Keyfiyyət faizinin göstəricilərində fərqlər daha böyük alınır. Reqressiya ifadəsi ilə real göstəricilər arasında 20-30% fərqlər aşkar edilmişdir. Bu da onu göstərir ki, keyfiyyət göstəricisi günəş alışmalarından daha mühüm olan və üstünlük təşkil edən digər faktorlardan daha çox asılıdır. Aldığımız reqressiya düsturlarını 2023-cü ilin yanvar ayı üçün intahan sessiyasının göstəricilərinə tətbiq edək.

Aşağıda verilmiş dioqramlarda imtahan sessiyası dövründə keyfiyyət və müvəffəqiyyət göstəricilərinin günəşdə olan ləkələrin sayından, C və M sinif alışmaların sayından asılılığı verilmişdir. Göründüyü kimi müvəffəqiyyət faizinin real qiymətinin dəyişmələri ləkələrin sayından asılıdır. Təbii bu bir gecikmə ilə olmalıdır ki, bu da öz təsirini göstərir. Bu gün Günəşdə olan ləkələrin sayının sonrakı 3-4 gün ərzində təsiri aşkardır. Ləkələrin yaratdığı dəyişikliklər 3-4 gündən sonra Yerdə təsirə malik olur.





Təhsilalanların təhsil göstəricilərinə təsir edən faktorlar hədsiz çoxdur. İnsan amilini nəzərə alsaq, bu proseslərdə də qeyri-səlis faktorlar vardır. Bütün digər faktorlarında bir çox qismi özü Günəş faktorlarından asılıdır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, günəş alışmaları, ləkələrinin sayı, təhsil göstəricilərinə təsir edir. Bu daha əhatəli öyrənilib tədqiq edilməlidir.

Nəticə.

18-22 yaş qrupunda təhsilalanların təhsil göstəriciləri müəyyən formada, bilavasitə və ya dolayı yolla Günəş atmosferinin parametrlərindən, Günəşdə ləkələrin və baş verən alışmaların sayından, Günəş küləyinin və tac kütlə atışlarının Yerdə yaratdığı geomaqnit qasırğalarının gücündən asılıdır. Ləkələrin sayı, C və M sinif alışmaların sayı dəyişdikcə həmin günlər, qasırğanın qeydə alındığı gündən 3-4 gün əvvəl və qasırğadan sonra 3-4 gün ərzində imtahan nəticələri də müəyyən faizlə dəyişir. Günəşdə ləkələrin və alışmaların sayı artıqda təhsilalanların müvəffəqiyyət və keyfiyyət göstəricilərinin artması müşahidə olunur. Düşünülür ki, günəş alışmaları nanosəviyyədə insan orqanizminə təsir edir, insan orqanların işində yaratdığı dəyişikliklərlə onun fəaliyyətində normal haldan kənara çıxmalara səbəb olur.

Müzakirə.

Tədqiqatın daha effektiv nəticələrinin alınması üçün daha çox verilənlərin bazasının hazırlanması, eyni zamanda təhsil göstəricilərinin Günəş küləyinin digər parametrlərindən də asılılığı tədqiq olunması nəzərdə tutulur. Ətraf aləmdə baş verəcək dəyişikliklər qaçılmazdır. Lakin bizim məsuliyyətsizliyimiz və etinasızlığımız nəticəsində bu dəyişikliklər faciəli və kütləvi hal alır. Bəzi faciələrin qarşısı alına bilər, bəzilərindən qorunmaq olar, bəzi hallarda ağırlaşma dərəcəsini azaltmaq olar və bəzən də həyatımızda mane olan, inkişafımıza əngəl olan faktorları aradan qaldırmaqla onu daha da gözəlləşdirmək, sadələşdirmək olar. Sadalanan hadisələr və tədqiqat göstərir ki, məhz geomaqnit şərait müxtəlif xarakterli fövqəlada hallara gətirə bilir. Məhz Günəş aktivliyinin dəyişməsi, xüsusi halda azalması: Yerdə baş verən bir çox hadisələrin aktivliyinin azalmasına gətirir, epidemiyaların, avianəqliyyat hadislərinin azalmasına gətirir. Günəş aktivliyi insanları, onların fiziki və əqli fəaliyyətini stimullaşdırır, birbaşa və ya dolayı yolla tədrisə davam etməsinə və nəticələrə təsir edir. Günəşdə baş verən və verəcək hadisələrə insan bütün yaşam dövründə uyğunlaşmış, bu formada olan dəyişmələri yaşamışdır. Bu baxımdam günəş hadisələri qorxu yaratmamalıdır. Günəş hadisələri daha mükəmməl öyrənilməli, öyrənilən faktlar gündəlik həyatda istifadə üçün tətbiq olunmalıdır.

ƏDƏBİYYAT

1. Days of “Zero” level geomagnetic activity accompanied by the high neutron activity and dynamics of some medical events-Antipodes to geomagnetic stormsE. Stoupel, E. S. Babayev, E. Abramson, J. SulkesHealth Vol.5 No.5, May 27, 2013 DOI: 10.4236/health.2013.55113
2. Azərbaycanda günəş aktivliyinin (volf ədədinin) insan xəstəliklərinə təsirinin ekonometrik qiymətləndirilməsi - Econometric evaluation of the effect of solar activity (wolff number) on human diseases in Azerbaijan, https://www.ceeol.com/search/article-detail?id=1057681 Sage Yayınları Turan-2022)
3. Влияние солнечной активности на распространенность ВПР среди новорожденных детей г. Атырауhttps://www.yaneuch.ru/cat_34/vliyanie-solnechnoj-aktivnosti-narasprostranennost/548397.3422865.page4.html
4. Цикл вируса. Какая связь между солнечным минимумом и пандемией? https://kuban.aif.ru/society/cikl_virusa_kakaya_svyaz_mezhdu_solnechnym_minimumom_i_pandemiey
5. Təhsilin keyfiyyətinin idarə edilməsinin sosiomədəni aspektləri M.Nəzərov Homeros Cilt / Volume 2, Sayı / Issue 3, 2019, pp. 111-124 https://dergipark.org.tr/tr/download/article-file/795655

SUMMARY

Konul Ahmadova, Mirnamik Bashirov

A STUDY OF THE INFLUENCE OF SOLAR ACTIVITY ON STUDENTS' LEARNING PERFORMANCE

Just as the solar wind affects the phydical and magnetic parameters of the planets in the interplanetary space,the sunspots,their number,flares and magnetic storms created by the Sun on the Earth do not pass by without affecting the radio-elecrtrotechnical devices and the living world.Although the educational indicators of the students are related to physical,socio-cultural factors,the indicators of the solar wind do not go unnoticed in these results.Relatedly,basic data on solar wind and geomagnetic storm materials have been collected.The dependence of educational indicators such as attendance,success and quality indicators in exam sessions on solar wind parameters and magnetic storm level was studied.Regression relationships are given and coefficients are determined.It was determined that the educational indicators depend on the parameters related to the sun and the strength of the geomagnetic storm.The obtained results are important during the analysis of educational indicators.

Key words: *Sun, geomagnetic storm, educational indicators, educated, quality*

AYSUN HÜSEYNOVA
aysunhuseynova751@gmail.com
Naxçıvan Dövlət Universiteti

İNFORMASİYA AXTARIŞ SİSTEMLƏRİNDƏ MAŞIN ÖYRƏNMƏSİ VƏ MAŞIN ÖYRƏNMƏ METODLARININ RANKLANMA PROBLEMLƏRİNDƏ TƏTBİQİ

İnformasiya axtarış sistemləri böyük həcmdə məlumatların səmərəli idarə edilməsində və əldə edilməsində mühüm rol oynayır. Rəqəmsal məlumatın eksponensial artması ilə ənənəvi axtarış metodları müvafiq və dəqiq nəticələrin təmin edilməsində çətinliklərlə üzləşir. Maşın öyrənmə üsulları, xüsusən sıralama problemlərinin həllində məlumat axtarış sistemlərinin performansını artırmaq üçün güclü vasitələr kimi ortaya çıxdı.

Nəzarət olunan öyrənmə alqoritmləri, o cümlədən Dəstək Vektor Maşınları (SVMs) və neyron şəbəkələri, modelləri etiketli nümunələrin böyük verilənlər toplusunda öyrətmək üçün istifadə edilmişdir ki, bu da sistemlərə sənədlərin konkret sorğulara uyğunluğunu dəqiq proqnozlaşdırmağa imkan verir. Klasterləşdirmə və ölçülərin azaldılması kimi nəzarətsiz öyrənmə üsulları məlumatların təşkilinə və strukturlaşdırılmasına kömək edir və bununla da daha səmərəli axtarış proseslərini asanlaşdırır.

Bundan əlavə, gücləndirici öyrənmə alqoritmləri sistemlərə istifadəçi qarşılıqlı əlaqəsindən gələn rəy əsasında öyrənməyə və uyğunlaşmağa imkan verir, zamanla axtarış nəticələrinin sıralamasını dəqiqləşdirir. Bu üsullar axtarış nəticələrini fərdiləşdirmək üçün istifadəçi davranışı və üstünlüklərindən istifadə edərək ümumi istifadəçi təcrübəsini artırır.

Məlumat axtarış sistemlərində maşın öyrənməsinin tətbiqi bir sıra çətinliklər və imkanlar təqdim edir. Çətinliklərə böyük şərhli verilənlər toplusuna ehtiyac, seyrək və səs-küylü məlumatların idarə edilməsi, modelin şərh edilməsi və ədalətliliyinin təmin edilməsi daxildir. Bununla belə, maşın öyrənmə alqoritmlərindəki irəliləyişlər və böyük məlumatların mövcudluğu bu çətinlikləri əhəmiyyətli dərəcədə azaldıb.

Bundan əlavə, söz daxiletmələri və dərin öyrənmə arxitekturaları kimi təbii dil emal üsullarının inteqrasiyası mətn məlumatlarının başa düşülməsini daha da təkmilləşdirərək daha dəqiq və kontekstdən xəbərdar axtarış nəticələrinə gətirib çıxardı.

Nəticə olaraq, məlumat axtarış sistemlərində maşın öyrənmə üsullarının tətbiqi istifadəçilərin rəqəmsal məlumatlara daxil olma və onlarla qarşılıqlı əlaqədə inqilab etdi. Maşın öyrənmə alqoritmlərinin gücündən istifadə etməklə axtarış sistemləri daha uyğun və fərdiləşdirilmiş nəticələr verə bilər, nəticədə müxtəlif sahələrdə istifadəçi məmnunluğunu və məhsuldarlığını artırır.

Açar sözlər: *İnformasiya axtarış sistemləri, maşın öyrənməsi, maşın öyrənmə metodları, ranklanma problemləri*

Giriş

Rəqəmsal əsrdə məlumatların bolluğu bizim verilənlərlə qarşılıqlı əlaqə tərzimizi dəyişərək, biliyə daxil olmaq, təşkil etmək və əldə etməkdə misli görünməmiş imkanlar və çətinliklər yaradıb. Veb axtarış sistemlərindən tutmuş sənəd anbarlarına qədər informasiya axtarış sistemləri bu geniş informasiya mənzərəsində naviqasiya üçün əvəzedilməz alətlər kimi xidmət edir. Bununla belə, bu cür sistemlərin effektivliyi onların istifadəçinin niyyətinə və kontekstinə uyğunlaşdırılmış müvafiq və vaxtında nəticələri təqdim etmək qabiliyyətindən asılıdır (Ghansah B., 2015).

TF-IDF (Term Frequency-Ters Document Tezliyi) və vektor fəza modelləri kimi alqoritmlərə əsaslanan ənənəvi məlumat axtarış üsulları uzun müddət axtarış texnologiyalarının təməl daşı olmuşdur. Müəyyən kontekstlərdə effektiv olsa da, bu yanaşmalar çox vaxt mürəkkəb məlumat axtarışı tapşırıqlarına xas olan nüanslı semantika və istifadəçi üstünlüklərini tutmaq üçün mübarizə aparır.

Maşın öyrənməsinə daxil olun - sistemlərə verilənlərdən öyrənmək, nümunələrə uyğunlaşmaq və açıq proqramlaşdırma olmadan ağıllı qərarlar qəbul etmək imkanı verməklə məlumat axtarışı sahəsində inqilab edən paradiqma dəyişikliyi. Maşın öyrənmə üsulları sənədlər, sorğular və istifadəçi qarşılıqlı əlaqələri arasında mürəkkəb əlaqələri modelləşdirmək üçün güclü çərçivə təklif edir və bununla da axtarış nəticələrinin aktuallığını və dəqiqliyini artırır (Dammak F., 2017).

Bir çox məlumat axtarışı problemlərinin əsasında sıralama problemi - sənədlərin və ya əşyaların uyğunluq ehtimalına əsasən, istifadəçiyə təqdim edilmə qaydasının müəyyən edilməsi dayanır. Reytinq alqoritmləri istifadəçi təcrübəsinin formalaşdırılmasında mühüm rol oynayır və birbaşa əlaqəyə, məmnuniyyətə və nəticədə məlumat axtarış sistemlərinin effektivliyinə təsir göstərir.

Maşın öyrənmə metodlarının sıralama problemlərinə tətbiqi fərdiləşdirilmiş, kontekstdən xəbərdar axtarış təcrübələri dövrünü açan məlumat axtarışında paradiqma dəyişikliyini təmsil edir. Böyük miqdarda məlumatlardan istifadə etməklə, maşın öyrənmə alqoritmləri gizli nümunələri aşkar edə, mənalı xüsusiyyətləri çıxara və real vaxt rejimində sənədlərin uyğunluğu və sıralaması haqqında əsaslandırılmış qərarlar qəbul edə bilər (Geng B., 2011).

Bu kontekstdə məlumat axtarış sistemlərində maşın öyrənməsinin prinsiplərini, çətinliklərini və nəticələrini başa düşmək çox vacibdir. Mürəkkəb sıralama alqoritmlərinin dizaynından tutmuş istifadəçi rəyi mexanizmlərinin inteqrasiyasına qədər, müasir məlumat axtarışının mənzərəsi istifadəçilərin və maraqlı tərəflərin daim artan tələblərinə cavab vermək üçün davamlı olaraq inkişaf edir.

Əsas üstünlüklər: sürət və uzaq bölgələrə çatma qabiliyyəti.

Çatışmazlıqlar: yüksək yük tarifləri və hava şəraitindən asılılıq, hansı ki, çatdırma cədvəlinə əməl olunması etibarlılığını azaldır.

Göründüyü kimi logistikada nəqliyyat növünün seçilməsinə bir neçə amil təsir göstərir:

- Çatdırılma vaxtı;
- Göndərmələrin tezliyi;
- Çatdırılma qrafikinə əməl etmənin etibarlığı;
- Müxtəlif yükləri daşıması qabiliyyəti;
- Yükü lazımi nöqtəyə çatdırmaq qabiliyyəti;
- Daşımaların dəyəri (3).

Logistika sahəsindəki mütəxəssislərin çoxsaylı təxminlərinə görə nəqliyyat vasitəsi seçərkən ən əhəmiyyətli amillər bunlardır: çatdırma cədvəli, çatdırma vaxtı və qiymətinə əməl etmənin etibarlığı. Edilən seçimin düzgünlüyü texniki və iqtisadi hesablamalar ilə təsdiqlənməlidir.

ƏDƏBİYYAT

1. İmanov T.İ. Logistikasının əsasları. I hissə. Dərslik. Bakı: 2005, “Təhsil”. NPM, 474 s.
2. İmanov T.İ. Logistikanın əsasları. II hissə. Dərslik. Bakı: 2005. “Təhsil”. NPM, 667 s.
3. Məmmədov D.A., Cahangirov A.Ə., Qardaşov C.Ə., Şərifov A.C. Nəqliyyat logistikası. Dərslik. Bakı: 2022. “Qanun” Nəşriyyatı. 504 s.

SUMMARY

Zeynab Huseynova

PLACE AND ROLE OF TRANSPORT IN LOGISTICS SYSTEMS MANAGEMENT

In the article, general issues of the operation of transport logistics systems were investigated, the basics of the construction of the transport service system for the management of cargo flows were investigated. It has been shown that problems related to the delivery and distribution of goods can be solved using transport logistics principles and methods. Finally, the basic features of transportation and logistics systems were examined.

Key words: *Logistics, road transportation, railway transportation, sea transportation, air transportation*

MƏZAHİR RZAYEV
rzayevmezahir81@gmail.com
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZSİSİNDƏ II VƏ III SİNİF QRUNTLARDA İNŞA OLUNAN KÜRƏLƏRDƏ ZƏLZƏLƏ ZAMANI YARANAN NİSBİ SÜRÜŞMƏ DEFORMASİYALARI

Kəhriz kürələri möhkəm qutu şəklində dizayn olunur. Dərinlik artdıqca kürələrdə deformasiyaların qiyməti dəyişir. Zəlzələnin təsirindən kürələrdə yaranan nisbi sürüşmə deformasiyalarının qiymətini hesablamaq üçün aşağıdakı parametrləri bilmək lazımdır:

1. Eninə dalğalardan asılı olaraq qrunt kütləsinin maksimum sürəti - S.

Naxçıvan Muxtar Respublikası 9 ballıq zəlzələ zonasında yerləşir və bu zonada qruntun maksimal sürətinin qiyməti $K = 180\ ^{sm}/_{san}$-ə bərabərdir (3; 33 s.). Qruntun hərəkət parametrləri, adətən yer səthində müəyyən edilir. Kürələrin yer səthinin altında müəyyən bir dərinlikdə tikildiyi məlumdur. Seysmik yüklərin kürəyə təsirini hesablamaq üçün kürə səviyyəsində qrunt hərəkətinin parametrlərini bilmək lazımdır. Zəlzələlər zamanı qrunt titrəyişlərinin intensivliyi dərinlik artdıqca azaldığına görə bu azalmış qiymətlərdən istifadə etməklə hesablamaların aparılması daha əlverişlidir. Parametrlərin dərinlikdən asıllığını xarakterizə edən qiymətlər cədvəl 1-də verilib. Əmsalları nəzərə alaraq qrunt kütləsinin maksimal sürətini təyin edək:

Cədvəl 1

Dərinlik ilə qruntun hərəkətini xarakterizə edən parametrlərin azalmasını nəzərə alan əmsallar (3, 33 s.)

Tunelin dərinliyi (m)	**Qruntun hərəkətini xarakterizə edən parametrlərin azalmasını nəzərə alan əmsallar**
≤ 7	1,0
7 -16	0,9
16 -32	0,8
≥ 32	0,7

a. L=5 m dərinlik üçün:

$$K_S = 1{,}0\ K_S = 1{,}0 \times 180 = 180\ ^{sm}/_{san} = 1{,}8\ ^{m}/_{san}$$

b. L=10 m dərinlik üçün:

$$K_S = 0{,}9\ K_S = 0{,}9 \times 180 = 162\ ^{sm}/_{san} = 1{,}62\ ^{m}/_{san}$$

c. L=18 m dərinlik üçün:

$$V_S = 0{,}8\ K_S = 0{,}8 \times 180 = 144\ ^{sm}/_{san} = 1{,}44\ ^{m}/_{san}$$

d. L-32 m dərinlik üçün:

$$K_S = 0{,}7\ V_S = 0{,}7 \times 180 = 126\ ^{sm}/_{san}\ 1{,}26\ ^{m}/_{san}$$

1. Maksimum nisbi sürüşmə deformasiyası - Z_{max}

Z_{max}-aşağıdakı düsturla hesablanır (4, s.415):

$$Z_{max} = \frac{K_S}{C_m}$$

Burada:

C_m -S-eninə dalğaların qruntda yayılma sürətidir və hesablamalarda aşağıdakı cədvəldən istifadə etmək olar (1, s.1).

Cədvəl 2.

Eninə dalğaların qruntda yayılma sürəti:

Qruntun sinfi	***Qruntlar***	***C_m m\san***
II	I sinf qruntlara aid, lakin aşınmış, nəmli və ya az nəmli, çınqıllı və s.	360 ÷ 800
III	Su ilə doymuş və ya nəmli boş qumlar	180 ÷ 360

II sinif qrunt üçün orta qiymət C_m=580 $^m/_{san}$:
II sinif qrunt üçün nisbi sürüşmə deformasiyası-Z_{max}:

a. L=4 m dərinlik üçün:

$$Z_{max,a} = \frac{K_S}{C_{m,a}} = \frac{1{,}8}{580} = 0{,}0031$$

b. L=8 m dərinlik üçün:

$$Z_{max,b} = \frac{K_S}{C_{m,b}} = \frac{1{,}62}{580} = 0{,}0028$$

c. L=16 m dərinlik üçün:

$$Z_{max,c} = \frac{K_S}{C_{m,c}} = \frac{1{,}44}{580} = 0{,}0025$$

d. L-32 m dərinlik üçün:

$$Z_{max,e} = \frac{K_S}{C_{m,e}} = \frac{1{,}26}{580} = 0{,}0022$$

III sinif qrunt üçün orta qiymət C_m=270 $^m/_{san}$:
III sinif qrunt üçün nisbi sürüşmə deformasiyası-Z_{max}:

a. L=4 m dərinlik üçün:

$$Z_{max,a} = \frac{K_S}{C_{m,a}} = \frac{1{,}8}{270} = 0{,}0067$$

b. L=8 m dərinlik üçün:

$$Z_{max,b} = \frac{K_S}{C_{m,b}} = \frac{1{,}62}{270} = 0{,}006$$

c. L=16 m dərinlik üçün:

$$Z_{max,c} = \frac{K_S}{C_{m,c}} = \frac{1{,}44}{270} = 0{,}0053$$

d. L-32 m dərinlik üçün:

$$Z_{max,e} = \frac{K_S}{C_{m,e}} = \frac{1{,}26}{270} = 0{,}0047$$

Cədvəl 1.

II və III növ qruntlarda yerləşən düzbucaq en kəsik profilli tunellərdə yaranan sürüşmə deformasiyaları

Dərinlik, m	***Ks, $^m/_{san}$***	***Cm, $^m/_{san}$***		***II sinif qrunt Z_{max}***	***III sinif qrunt Z_{max}***
		IIsinif	***III sinif***		
4	1,8	580	270	0,0031	0,0067
8	1,62	580	270	0,0028	0,006

16	1,44	580	270	0,0025	0,0053
32	1,26	580	270	0,0022	0,0047

ƏDƏBİYYAT

1. Dəyişiklik № 1 .AzDTN 2.3-1 “Seysmik rayonlarda tikinti”, 4 s.
2. Güldağlı O. “Yeraltı yapıların tasarımı ve sismik analizi” İTÜ, 2004, 135 say
3. Минь М.Д. “Расчет тоннелей на сейсмические воздействия” Москва: 2014, 123 с.
4. Hung C.J., Monsees J., Munfah N., Wisniewski J. “Technical manual for design and construction of road tunnels – civil elements”. New York, NY 10119

SƏMİNƏ RÜSTƏMOVA
samina_rustamova@mail.ru
FƏRHAD RÜSTƏMOV
rferhad55@gmail.com
Naxçıvan Dövlət Universiteti

VR VƏ AR EXNOLOGİYALARININ TƏDRİS PROSESİNƏ İNTEQRASİYASI MƏSƏLƏLƏRİ

Məqalə müasir dövrün tələblərindən olan VR və AR texnologiyanın təhsildə tətbiqinə həsr olunmuşdur. Məqalədə virtual və artırılmış reallıq (VR) təcrübəsinin necə təmin edildiyini göstərmək üçün ümumi VR və AR quraşdırmalarının qısa təsviri verilmiş və təhsil kontekstində VR və AR-dən istifadəyə dair bəzi nümunələr təqdim edilmişdir. Texnoloji alətlərin çoxluğu bu istiqamətdə fərqli metodologiyanın tətbiqini və yüksək nəticələrin əldə edildiyini ortaya qoymuşdur. Virtual və artırılmış reallıq texnologiyalarının inkişafı təhsil sənayesinin izlədiyi ən son tendensiyalardan biridir. Virtual və artırılmış reallıq şagirdlərə, tələbələrə, eləcə də müəllimlərə, tamamilə fərqli təcrübə təqdim edir. Virtual və artırılmış reallığın təhsildə tətbiqi son illərdə ciddi bir inkişaf yaşamış, öyrənmə prosesinin mənimsənilməsinə yeni bir üsul təqdim etmiş, tələbələrə fərqli mühitlər və təcrübələr təqdim etməklə öyrənmə prosesini daha maraqlı və interaktiv hala gətirmişdir.

Açar sözlər: *Virtual reallıq, artırılmış reallıq, təlim texnologiyaları, tədris prosesi, simulyasiya*

Təhsil müasir cəmiyyətin əsas elementlərindən biridir. Təhsil sahəsində hər hansı məqsəd və uğurlara nail olmaq üçün daha yüksək səmərəliliklə müasir texnologiyalardan istifadə edilməlidir. İnformasiya cəmiyyətinin inkişafının müasir mərhələsində insan həyatının bütün sahələrinə, o cümlədən təhsilə nüfuz edən virtual (VR) və artırılmış (AR) reallıq texnologiyaları populyarlıq qazanır.

VR və ya virtual reallıq real təcrübəyə çox yaxın olan kompüter simulyasiyasıdır. Onun köməyi ilə informasiyanın qavranılmasını və yadda saxlanmasını asanlaşdıran interaktiv mühit yaradılır. AR və ya artırılmış reallıq rəqəmsal məlumatları (səslər, videolar və qrafiklər) real mühit üzərindən həyata keçirən texnologiyadır.

AR və VR tez-tez qarışdırılır, lakin virtual reallıq tamamilə süni mühit yaradırsa, o zaman artırılmış reallıq istifadəçinin ətrafındakı dünya haqqında təsəvvürü dəyişir. AR texnologiyaları real vaxt rejimində smartfon, planşet, kompüter və ya ona qoşulmuş eynəklərin kameraları vasitəsilə reallığı rəqəmsal məlumatlar və multimedia ilə zənginləşdirir. AR-dan istifadənin əsas məqsədi informasiyanın mənimsənilməsi və yadda saxlanması, onun qavranılmasının təkmilləşdirilməsi və idraki inkişafın stimullaşdırılmasıdır.

Biz dəyişən və inkişaf edən texnologiyalar dünyasında yaşayırıq, onların rolu durmadan artır. Texnoloji yeniliklər insan fəaliyyətinin demək olar ki, bütün sahələrinə təsir edir, təhsil sahəsində xüsusi əhəmiyyət və aktuallıq qazanır. Müasir təhsili yeni texnoloji modifikasiyaların tətbiqi olmadan təsəvvür etmək mümkün deyil. Müasir təlim texnologiyalarının ən diqqətəlayiq tendensiyaları arasında virtual və artırılmış reallıq aparıcı mövqe tutur. Artırılmış reallıq (AR) real fiziki dünyada yerləşən hər hansı marker və ya obyektlə virtual məlumat təbəqəsi yaratmaq və eyniləşdirmək üçün kompüter proqramlarından istifadə etməyə imkan verən texnologiyadır. Markerin rolunu xüsusi proqram vasitələrindən istifadə etməklə müxtəlif formatlı virtual obyektlərin əlavə oluna biləcəyi istənilən qrafik vizual obyekt oynaya bilər.

Dünya yerində dayanmır, təhsilin daimi yeniliyə daha çox ehtiyacı var, çünki şagirdlərin və tələbələrin gələcəyi onların indi necə öyrənməsindən asılıdır. Virtual və artırılmış reallıq təhsil sisteminin təkamülünün növbəti addımıdır.

Müasir təhsil sisteminin problemlərindən biri də mürəkkəb anlayışları təsvir etmək və göstərmək, onları daha sadə şəkildə izah etmək imkanlarının məhdudluğudur. Bəzən tədris prosesi

yalnız elmi terminlərlə, əyani materiallar, vizuallaşdırma olmadan keçirilir ki, bu da şagirdlər üçün yeni mövzunun qavranılmasında çətinliklər yaradır.

Artırılmış və virtual reallığa malik təhsil proqramları interaktiv amil əlavə etməklə mürəkkəb anlayışların izahı prosesini sadələşdirə bilər. Augment Education kimi layihələr təhsil sferasında öyrənmə və öyrətmə sərhədlərini genişləndirir. Augment Education pedaqoqlara və tələbələrə formaların, obyektlərin və hərəkətlərin geniş kitabxanalarından istifadə edərək müxtəlif obyektləri qurmaq və canlandırmaqda güclərini sınamağa kömək edir. VR və AR-ın tətbiqi ilə əhəmiyyətli dərəcədə təkmilləşdirilə bilən başqa bir istiqamət isə xüsusi qayğıya ehtiyacı olan tələbələrin tədris prosesinə cəlb edilməsidir. Məsələn, Near Sighted VR Augmented Aid layihəsi görmə qabiliyyəti zəif olan tələbələrə kömək edir. Bu proqramın köməyi ilə tələbələr rəngləri, mətn ölçülərini idarə edə, audio şərhlər əlavə edə bilər. İnklüziv təhsildə tətbiq oluna bilən belə layihələr təhsilin bütün öyrənənlər üçün əlçatanlılığını təmin edir.

Həmçinin VR və AR texnologiyalarının tətbiqi tələbələrin təhsil prosesindən yayınma problemini həlletməyə kömək edəcək. Qeyd etmək lazımdır ki, bir çox şagirdlər tədris prosesini rutin, darıxdırıcı hesab edirlər və bu da dərsə olan marağın azalmasına gətirib çıxarır. Yaxşı təşkil edilmiş, VR və AR texnologiyalarının tətbiqi ilə zənginləşdirilmiş dərs prosesi şagirdin diqqətini mövzuya yönləndirməyə imkan verir.

İnteraktivlik - VR və AR-nın təhsil məqsədləri üçün bu qədər cəlbedici olmasının əsas səbəbidir. Məsələn, şagird xəritəyə baxıb hansısa ölkənin kiçik rəsmini axtarmaq əvəzinə, misirli fermerin həyatını şəxsən yaşaya və ya Böyük Vətən Müharibəsində iştirak edə, həmçinin virtual olaraq müxtəlif ölkələrə səyahət edə bilər. Virtual reallıq faydalı öyrənmə təcrübəsi təmin edə bilər. Artırılmış reallıq isə daha dəstəkləyici rol oynaya bilər, buna görə də hər iki texnologiya çox faydalı olur və bir-birini tamamlayır.

İstər virtual, istərsə də artırılmış reallıq texnologiyaları təhsil sistemi üçün bir çox imkanlar açır ki, bu da əsas problemlərin həllində və keyfiyyətin yüksəlməsində mühüm rol oynaya bilər. Texnologiyaların sürətli inkişafı və onların əlçatanlığının genişlənməsi ilə əlaqədar olaraq, onların öz xüsusi dəyəri ilə əlverişli variant kimi qəbul edilməsi daha çox zaman məsələsidir.

Müasir təhsil çox vaxt tələbədən mürəkkəb və ya mücərrəd anlayışları dərk etməyi və ya mövcud olmayan ssenariləri və vəziyyətləri qiymətləndirməyi tələb edir. Virtual və artırılmış reallıq real dünyadan alınan kompüter simulyasiyası ilə yaradılmış sensor girişlə əvəz edən texnologiyadır və insanların təbii davranışlarına cavab verməklə interaktivliyi təmin edir. Bu baxımdan, VR şagirdə ssenariləri və vəziyyətləri təsəvvür etmək əvəzinə, təcrübə etməyə imkan verən mühitlə təmin etməklə tədrisdə kömək edə biləcək güclü mənbə ola bilər. VR sistemlərinin təcrübi təbiəti üç mənbədən irəli gəlir: immersion, interaktivlik və multisensorlu əks əlaqə.

Təhsildə virtual reallığı bu qədər güclü edən bir neçə xüsusiyyət mövcuddur:

- şagirdlər bir mövzu haqqında oxuyanda çox vaxt onu təcrübədən keçirmək istəyirlər. Mövzunu araşdıra və işlərin necə bir araya gətirildiyini görə bilərlər;

- VR və AR-nin təmin etdiyi mövcudluq hissi sayəsində şagirdlər bir mövzunu yaşayaraq öyrənə bilərlər;

- VR və AR təcrübələrinin real olmadığını unutmaq asandır - bədən əslində yeni bir yerdə olduğuna inanır. Bu hiss zehni diqqətəlayiq şəkildə cəlb edir;

- elmi laboratoriyalar kimi texnologiyalar heyrətamizdir - onlar şagirdlərə praktik təcrübəyə əsaslanaraq necə işləməyi anlamağa imkan verir.

Təhsil üçün VR və AR-dan istifadənin səbəbi nədir?

Təsəvvür edin: artıq məktəb müəllimlərinə, məsələn, Misir piramidaları və onların tikintisinin xüsusiyyətləri haqqında monoton danışmağa ehtiyac yoxdur. Virtual reallıq dəbilqələrinin köməyi ilə şagird sarkofaqlar olan tunellərlə gəzintiyə çıxa, labirintlərin xışıltısını eşidə və minlərlə il əvvəl baş vermiş əsas tarixi hadisələri müstəqil olaraq qiymətləndirə bilər. Bu cür öyrənmə ssenariləri ilə bu gün cəmiyyətdə daha az tələbat olan, lakin müasir elmin çox yönlülüyünü qorumaq üçün hələ də son dərəcə zəruri olan peşələrin bütöv bir nəslini yetişdirmək mümkündür.

Virtual və artırılmış reallığın üstünlükləri nələrdir?

Onlar insan tərəfindən hisslər vasitəsilə qavranılan bir mühit yaratmağa imkan verir. Əslində, VR/AR sizə yeni biliklər əldə etmək və xüsusilə uşaqları, yeniyetmələri və gəncləri öyrətmək üçün rahat öyrədici mühit modelləşdirməyə imkan verir.

Təhsil mühitinin rəqəmsallaşdırılmasında müəllimin rolu

İmmersiv texnologiyaların tətbiqi sürəti və istifadə keyfiyyəti yalnız bir amildən - müəllimlərin ixtisasından asılıdır. İnteqrasiya müəllimlərdən başlayır. Pedaqoqlar avadanlığa texniki qulluq, əsas nasazlıqların aradan qaldırılması, avadanlığın düzgün saxlanması, şagird performansı haqqında məlumatların toplanması və təhlili, video-konfrans vasitələrindən istifadə, kompüter təhlükəsizliyi və müəllif hüquqları qanunlarından xəbərdar olmaq ilə bağlı xüsusi texnologiya bacarıqlarına malik olmalıdırlar.

Təhsil yönümlü Virtual reallıq texnologiyalarına aşağıdakı formatlar daxildir: 360 dərəcə video, platformalar, oyun meydançaları və interaktiv proqramlar. VR video müəllimin istifadə edə biləcəyi ən sadə vasitədir. Xüsusi virtual reallıq eynəkləri 2D təsvirləri və videoları 3D-yə çevirərək, əhatəli görüntü yaradır. Məsələn, elə kimyəvi təcrübələr var ki, onları məktəb sinfində aparmaq qeyri-mümkün və hətta təhlükəlidir, lakin istənilən təcrübəni virtual laboratoriyada, virtual reallıq texnologiyalarının köməyi ilə aparmaq olar.

Platformalar və meydançalar dərslərin keçirilməsi üçün imkanlar təmin edən virtual mühazirələr və ya seminarlardır. Digər tərəfdən, interaktiv proqramlar virtual reallıqda ənənəvi onlayn kurs və təcrübənin hibrid layihəsidir. Müxtəlif məzmun növləri eyni platforma və proqram çərçivəsində birləşdirilə bilər ki, bu da şagirdlərin fəallığını artırır və pedaqoji metodların geniş arsenalını əlçatan edir.

Bununla belə, başa düşmək lazımdır ki, sinifdə AR və VR alətləri öyrənməyə daha ənənəvi yanaşmaları əvəz etmək deyil, tamamlamaq üçün lazımdır. Rəqəmsal texnologiyaların uğurlu inteqrasiyasının iki əsas prinsipi var: birincisi, onun təhsil prosesinə nə gətirdiyini, texnologiyanın hansı məqsədlə istifadə edildiyini dəqiq müəyyən etmək, ikincisi, öyrənənin mərkəzdə olmasına əmin olmaq lazımdır.

ƏDƏBİYYAT

1. Oyelere S.S. Exploring the trends of educational virtual reality games: a systematic review of empirical studies / Oyelere S.S., Bouali N., Kaliisa R., Obaido G., Yunusa A.A., Jimoh E.R. // Smart Learning Environments. – 2020. – 7(1), – pp.1-22
2. Lau K.W. The use of virtual reality for creating unusual environmental stimulation to motivate students to explore creative ideas / Lau K.W., Lee P.Y. // Interactive Learning Environments. – 2015. – 23(1), – pp.3
3. Christou C. Virtual Reality in Education /– Cyprus: University of Nicosia, – 2010. 16 p.
4. Lavoie R. Virtual experience, real consequences: the potential negative emotional consequences of virtual reality gameplay / Lavoie R., Main K., King C., King D. // – Virtual Reality, 2021. 25(1), – pp.69-81
5. Augmented and Virtual reality in education // theappsolutions URL: https://theappsolutions.com/blog/development/ar-vr-in-education/

SUMMARY

Samina Rustamova, Farhad Rustamov

TO THE EDUCATIONAL PROCESS OF VR AND AR TECHNOLOGIES ISSUES OF INTEGRATION

The article is dedicated to the application of VR and AR technology in education, which are the requirements of the modern era. The article provides a brief description of common VR and AR setups to illustrate how virtual and augmented reality (VR) experiences are provided, and provides some examples of using VR and AR in an educational context. The abundance of technological tools has revealed the application of a different methodology in this direction and the achievement of high results. The development of virtual and augmented reality technologies is one of the latest trends followed by the education industry. Virtual and augmented reality offers a completely different experience to students, teachers as well as students. The application of virtual and augmented reality in education has experienced a serious development in recent years, introduced a new method of mastering the learning process, and made the learning process more interesting and interactive by providing students with different environments and experiences.

Key words: *Virtual reality, augmented reality, learning technologies, teaching process, simulation*

РЕЗЮМЕ

Самина Рустамова, Фархад Рустамов

К ОБРАЗОВАТЕЛЬНОМУ ПРОЦЕССУ ПО VR И AR ТЕХНОЛОГИЯМ ВОПРОСЫ ИНТЕГРАЦИИ

Статья посвящена применению технологий VR и AR в образовании, которые являются требованиями современной эпохи. В статье представлено краткое описание распространенных настроек VR и AR, предоставляются возможности виртуальной и дополненной реальности (VR), а также приведены некоторые примеры использования VR и AR в образовательном контексте. Обилие технологических средств выявило применение различной методологии в этом направлении и достижение высоких результатов. Развитие технологий виртуальной и дополненной реальности — одна из последних тенденций, которой следует образовательная индустрия. Виртуальная и дополненная реальность предлагает студентам, учителям и студентам совершенно другой опыт. Применение виртуальной и дополненной реальности в образовании получило серьезное развитие в последние годы, представило новый метод освоения процесса обучения и сделало процесс обучения более интересным и интерактивным, предоставив учащимся различные среды и опыт.

Ключевые слова: *Виртуальная реальность, дополненная реальность, технологии обучения, учебный процесс, имитационное моделирование*

ŞƏFİQƏ MEHDİYEVA
Naxçıvan Dövlət Universiteti

GERMANİUMUN KOMPLEKSƏMƏLƏGƏTİRİCİ SB-1 ANİONİTİNİN FƏAL QRUPLARI İLƏ QARŞILIQLI TƏSİRİNİN MEXANİZMİ HAQQINDA

K.M.Saldadze və həmkarlarının (1) polietilenpoliaminlər əsasında sintez edilmiş anionitlərin kompleksəmələgətirmə özəlliklərini qeyd etdiyi dövrdən 70 ilə yaxın vaxt ötür. Sonrakı illər ərzində bu sahədə çoxlu sayda nəzəri və praktik işlər görülmüş, xeyli material işıq üzü görmüşdür (2-4).

Germaniumun araşdırılan anionitlərlə qarşılıqlı təsirinin koordinasion xarakteri onun atomlarında sərbəst orbitalların mövcudluğu ilə şərtlənir. Sorbsiya zamanı germanium atomları öz elektron defisitlərini, sorbentlərin tərkibinə daxil olan funksional qrupların donor atomlarının elektron cütləri vasitəsilə neytrallaşdırmağa çalışırlar. Germaniumun bu qruplarla qarşılıqlı təsirinin mexanizmi öyrənilərkən elektronodonor atomlar kimi oksigenin və azotun rolunu müəyyən etmək olduqca vacibdir. Belə ki, bu atomlar metallarla rabitələr əmələ gətirərək, iki və bir ikielektronlu bölünməmiş sp^3 hibrid orbitalları hesabına proseslərdə aparıcı rol oynayırlar. Sicvik təsnifatına əsaslanaraq, germaniumun oksigenlə yaratdığı rabitənin azotla yaratdığı rabitəyə nisbətən daha davamlı olmasını elektronodonor atomun elektron sıxlığının donor atomun qütbləşməsinə təsir göstərməsilə izah etmək olar. Belə ki, oksigenin qütbləşməsi azota nisbətən azdır. Bundan başqa, bütün liqand qrupunun donor atomun elektronodonor yetənəklərinə böyük təsiri vardır. Belə liqandlarla əlaqəli nukleofil və ya elektrofil əvəzləyicilərin iştirakı induktiv effekt hesabına donor atomda elektron sıxlığının artmasına və ya azalmasına səbəb olur. Liqandların stereokimyasının da əhəmiyyətini yaddan çıxarmaq olmaz. Çünki koordinasion ilişkinin yaranması zamanı fəza çətinliyinin varlığı birbaşa liqandların stereokimyası ilə bağlıdır. Koordinasiya əlaqəsinin varlığını müəyyən etməyə imkan verən yöntəmlər sırasından IQ-spektroskopiyaya üstünlük verməyimiz (onsuz da buna başqa imkanımız olmamışdır) axtardığımız suala adekvat cavab alacağımıza ümiddən qaynaqlanmışdır.

Çoxlu sayda araşdırmaçı, məhluldan sorbsiya olunan komponentlə sorbent arasında yaranan əlaqənin və ümumiyyətlə sorbsiyanın təbiətinin müəyyən edilməsinə imkan verən yöntəmlər arasından IQ-spektroskopiyanı ən perspektivli yöntəmlərdən biri hesab edir. Lakin ionitlərin quruluşunun mürəkkəbliyi bu sahədə kifayət qədər araşdırmanın olmamasilə diqqəti çəksə də, ionitlərin IQ-spektroskopiyana həsr olunmuş bir neçə icmal xarakterli monoqrafiyanı qeyd etməmək mümkün deyil (5-9). Tərəfimizdən germaniumun SB-1 anionitinin liqand qrupları ilə qarşılıqlı təsirinin mexanizmi IQ-spektroskopiyanın köməyilə aydınlaşdırılmağa cəhd edilmişdir.


SB-1 anioniti monoetanolamina epixlorhidrinin polikondensləşməsi nəticəsində sintez edilmiş, alınmış məhsul sonradan polietilienpoliaminlərlə bərkidilmişdir (tikilmişdir). Sonradan toxunacağımız AN-31Q anioniti də polietilenpoliaminlərlə epixlorhidrinin polikondensləşmə məhsuludur. Hər iki anionit tərkiblərindəki ikili və üçlü aminlərin miqdarına və onların fəzadakı vəziyyətlərinə görə bir-birlərindən fərqlənsələr də, ümumi sorbsiya tutumlarına görə bir-birlərinə yaxındırlar. Hər iki anionit, əsasən, məhluldan borat-ionlarının sorbsiyası üçün nəzərdə tutulmuş, lakin digər iondəyişdiricilər kimi, oxşar xüsusiyyətli ionların da sorbsiyasında nəzərdən keçirilmişlər. SB-1, EDE-10PQ, AN-31Q, PVQ, Diaion CRB0 2 və bu qəbildən olan çoxlu sayda kompleksəmələgətirici ionitlər məhlullardan borat-ionlarının sorbsiyası üçün nəzərdə tutulsa da, sonradan aparılan araşdırmalarla adı çəkilən iondəyişdiricilərin germanat-ionlarına da yüksək hərisliyi müəyyən edilmiş, bu proseslərin əsasında istər bor, istərsə də germanium ionlarının ionitlərin funksional qrupları ilə davamlı komplekslər əmələ gətirməsi müəyyən olunmuşdur. Bu fakt tarazlıq sabitinin hesablanması zamanı da özünü göstərir. Belə ki, birvalentli ionun birvalentli iona dəyişməsi halı üçün nəzərdə tutulan tənlikdən hesablanan tarazlıq sabitinin qiyməti həmişə vahiddən kiçik olur. Həqiqətdə isə bu kəmiyyət ən azından sorbatın qatılığından asılı olaraq 5-10 aralığında dəyişməli idi. Fikrimizcə, bu fakt proseslərin iondəyişmə mexanizmi ilə deyil, kompleksəmələgəlmə mexanizmi üzrə gerçəkləşməsi hesabına ola bilər.

Anionit mineral və üzvi qarışıqlardan yuyulub təmizlənmiş, sonra onun Cl^- və OH^--formaları alınaraq, bir gün ərzində germanium 4-oksidin doymuş məhlulunda saxlanmışdır. Alınan nümunələr məhlulun artığından yuyulmuş və qurudulmuş, əzilib tox halına salınaraq KBr ilə həbi hazırlanmışdır. IQ-spektrlər UR-20 spektrometrində 4000-400 sm^{-1} intervalında çəkilmişdir.

GeO_2-nin infraqırmızı spektri ədəbiyyatda verilən spektrlərlə yaxşı uzlaşır və simmetrik valent rəqsləri oblastında ν $(Ge\text{-}O)_s$ 577, 540 və 510 sm^{-1} qiymətli dalğa ədədləri ilə üç zolaqla xarakterizə olunur. Eyni zamanda 873 sm^{-1} oblastda assimmetrik rəqsləri xarakterizə edən ν $(Ge\text{-}O\text{-}Ge)_s$ qüvvətli zolaq müşahidə olunur. İkili amin qruplarının NH deformasiya rəqslərinin səbəb olduğu udulma, yəqin ki, 1643 sm^{-1} oblastından maksimumla δ (H_2O) xarakterizə olunan udulma zolağı ilə örtülür. Germaniumla doymuş anionitin spektrindəki 883-859 sm^{-1} oblastındakı maksimumlu zolaq germaniumun varlığını təsdiq edir. 600-500 sm^{-1} oblastında yaranan udulma zolağı isə ν (Ge-O-Ge)-a uyğun maksimumu örtür (10-11).

Təmiz Cl-formalı və germaniumla doydurulmuş anionitin IQ-spektrlərinin müqayisəsi 1640-1590 sm^{-1} oblastındakı dəyişmənin anionitin amin qruplarının germanium atomları ilə əlaqə yaranmasında iştirakını təsdiq edir. Bu belə bir faktdan qaynaqlanır ki, göstərilən oblastda 1608 və 1590 sm^{-1} dalğa uzunluqlarına uyğun iki udulma zolağı yaranır ki, bunlar da amin qruplarının deformasiya rəqslərinə aiddir və əhəmiyyətli dərəcədə təmiz sorbentdəki 1643 sm^{-1} dalğa ədədi ilə müqayisədə azalmışdır. 1643 sm^{-1} maksimumlu zolaq, eyni zamanda δ (H_2O) və δ (NH_2) qruplarını xarakterizə edir. Tamamilə mümkündür ki, germanium atomu amin qruplarla eyni güclə birləşmədiyindən, elə bunun hesabına da iki udulma zolağı yaranır. 1641 sm^{-1} dalğa ədədli yüksəktezlikli zolaq, suyun deformasiya rəqslərinə δ $(1120sm^{-1})$ aiddir. Bundan başqa, ikili aminlərin –NH valent rəqsləri oblastında 3300-3150 sm^{-1} intervalında tezliyin müəyyən azalması qeyd olunmuşdur ki, bu da amin qruplarının azot atomlarının germanium atomları ilə koordinasiyada iştirakını təsdiq edir. Qeyd edilən yerdəyişmə böyük olmasa da, sorbent matrisasında krossagentin iştirakı ilə əlaqəli araşdırılan obyektin sərt strukturunu izah etməyə kömək edir. Yəqin ki, öyrənilən sorbentin strukturunun mürəkkəb olmasına baxmayaraq, onun KBr ilə IQ-spektrlərinin sadəliyi də qeyd edilənləri təsdiq edir. Anionitin hidroksil forması xlorid formaya nisbətən germaniuma qarşı daha yüksək sorbsiya göstəriciləri ilə xarakterizə olunur. Təcrübədə müşahidə etdiyimiz bu vəziyyət germaniumla doydurulmuş OH^- anionitin IQ-spektrlərində də tamamilə təsdiq olunur. 770 sm^{-1} maksimumlu qüvvətli udulma zolağının, qeyd edilən oblastda anionitin Cl^--formasının spektrində həmin dalğa uzunluğunda yaranan çox zəif udulma zolağı ilə müqayisəsi anionitin OH^--formasında germaniumun daha çox miqdarına uyğun gəlir. OH^--formalı anionitin protonlaşmış amin qrupları ilə germanium arasında qarşılıqlı təsirinin koordinasiya xarakteri 500-400 sm^{-1} oblastında yaranan udulma zolağı ilə təsdiq olunur.

AN-31Q anioniti strukturuna görə SB-1 anionitinə çox yaxın olduğundan, onun IQ-spektrinin də SB-1-in spektrinə oxşar alacağı gözlənilməlidir. Həqiqətən də iki spektr arasındakı fərq yalnız bəzi udulma zolaqlarının intensivliklərində özünü göstərir (şəkil 1).




Şəkil 1. *1-Germanium 4-oksidin, 2- Germaniumla doydurulmuş Cl-formalı SB-1 anionitinin, 3-Germaniumla doydurulmuş OH-formalı SB-1 anionitinin IQ spektrləri (U%-udulma)*


Germaniumla doymuş AN-31Q anionitinin spektrində, SB-1-in spektrində olduğu kimi, amin qrupların deformasiya rəqsləri oblastında δ (NH_2)-nin udulma zolağının aşağı tezlikli oblasta azacıq sürüşmə ilə ~20 sm^{-1} parçalanması müşahidə olunur. Bu isə amin qruplarının germanium atomları ilə əlaqə əmələ gətirməsi ehtimalını düşünməyə əsas verir. Germaniumla doymuş AN-31Q anionitinin ikili amin qruplarının –NH valent rəqsləri oblastında, bu anionitin germaniumsuz təmiz xlorid formasının IQ-spektrinin uyğun zolaqlarının müqayisəsi udulma zolağının ən yüksək azalmasının 30 sm^{-1}-ə qədər olduğu qeyd edilmişdir. Germaniumla doymuş AN-31Q anionitinin spektrində, SB-1-də olduğu kimi 680 sm^{-1} oblastda yeni udulma zolağı müşahidə olunur. Bu isə başlanğıc GeO_2 nümunəsində Ge=O rabitəsinin zəifləməsi ilə germanium atomunun digər donor atomlarla təmasından yaranır.

Natrium alizarin sulfonatla modifikasiya olunmuş SB-1 və bu formalı anionitin germaniumla doydurulmuş nümunəsinin IQ-spektrləri çəkilmiş, bunların əsasında modifikatorun prosesə təsiri haqqında mülahizə yürütməyə cəhd edilmişdir (şəkil 2). Karbonil C=O və hidroksil qruplarının udulma oblastında kristallik alizarinin IQ-spektri 1671 və 1640 sm^{-1}-də iki udulma zolağı ilə ν (OH) xarakterizə olunur. ν (OH) oblastında isə 3440 sm^{-1}-də aydın zolaq və yayılmış fon müşahidə edilir. Alizarin qırmızısı S-in İQ-spektrindən göründüyü kimi, onun molekulundakı ν(C=O) ν(OH)-a uyğun udulma zolaqları alizarinin spektrindəki uyğun udulma zolaqlarından az fərqlənir. Modifikasiya olunmuş anionitin IQ-spektrində 1587


sm^{-1}-də ν(C=C)-yə, 783 sm^{-1}-də δ (≥C-H)-a, 1284-1256 sm^{-1}-də




-ya və 705 sm^{-1}-də δ



-a uyğun udulma zolaqları daha əhəmiyyətlidir. Çünki bu udulma zolaqlarının varlığı sorbent fazasında alizarin qırmızısı S-in varlığının birbaşa təsdiqidir. Oxşar udulma zolaqları modifikatorun özünün də IQ-spektrində görünür. Modifikatorla işlənmiş anionitin IQ-spektrində 1645 və 1626 sm^{-1}-də ν (C=O)-ya uyğun udulma zolaqlarının müşahidə olunması da maraqlıdır.



Şəkil 2. *1-Təmiz AN-31Q anionitinin, 2- Germaniumla doymuş AN-31Q anionitinin IQ-spektrləri (U,%-udulma)*



Şəkil 3. *Alizarin qırmızısı S-in, 2- Alizarin qırmızısı S-lə modifikasiya olunmuş SB-1 anionitinin, 3- Germaniumla doymuş 2-ci nümunənin IQ-spektrləri*

Germaniumla doymuş, anionitin modifikasiya olunmuş nümunəsinin IQ-spektrinə baxıldıqda 3000-3500 sm^{-1} oblastında udulma zolaqlarının xeyli dərəcədə sürüşməsi diqqəti çəkir. Məlum olduğu kimi, bu oblast H_2O, -NH_2 və -OH qruplarının valent rəqsləri üçün xarakterik olsa da, bu qrupları ayrı-ayrılıqda identifikasiya etmək mümkün deyil. Bununla yanaşı, məlum olduğu kimi, hidroksil qruplarının oksigen atomu ilə koordinasiya əlaqəsi yaranarkən, özəlliklə də alizarin qırmızısı S ilə belə əlaqə yaranarkən (OH) valent rəqsləri görünməmişdir (12). Düşünmək olar ki, bu halda (~3200 sm^{-1})-də yaranan zolaq və udulmanın ümumi konturunun dəyişməsi alizarin qırmızısı S-in ν (OH) zolağının yaranmaması hesabına baş verir.


1626 və 1645 sm^{-1} oblastında udulma zolaqlarının dəyişməz vəziyyəti anionitin amin qruplarının azot atomunun hesabına koordinasiya əlaqəsinin əmələ gəlməsinin mümkünlüyünü aradan qaldırır. Bu oblastda udulma zolaqlarının intensivliklərinin yenidən paylanması, yəqin ki, hidroksil qrupuna ən yaxın karbonil qruplarından birinin C=O əlaqəsi hidroksil qrupunun germaniumla koordinasiyası hesabına zəifləyir. Bu vəziyyət V.A.Nazarenko və əməkdaşlarının gəldiyi nəticəylə yaxşı uzlaşır. Bu müəlliflərə görə, germaniumun alizarin qırmızısı S-lə yaratdığı

əlaqə orto-difenol qruplaşması hesabına baş verir və alizarin qırmızısı S-in məhlulda və ya sorbent fazasında olmasından asılı olmayaraq prosesin mexanizmində dəyişiklik baş vermir (13). Təklif edilən mexanizmin germaniumun məhlulda hansı anion formasında olmasından da asılı olmadığı göstərilir (140.

Alizarin qırmızısı S-lə modifikasiya olunmuş və $NaHGeO_3$ məhlulundan germaniumla doydurulmuş anionitin IQ-spektri ilə GeO_2 məhlulundan doydurulmuş SB-1 anionitinin IQ-spektri arasında fərq yaranmır və hər iki spektr sanki bir-birini təkrar edir. Buradan hər iki halda sorbent fazasında germaniumun $HGeO_3^-$ anionu formasında mövcud olması faktı təsdiq olunur.

Beləliklə, bu yöntəmlə aparılan araşdırmalar sonucunda anionit fazasında oksigenlə germanium arasında hansısa ilişginin mövcudluğunu təsdiq edən fakt ortaya qoyulmamışdır. IQ-spektroskopiya ilə aparılan araşdırmaları yekunlaşdıraraq belə bir nəticəyə gəlmək mümkündür ki, anionitlə germanium arasında yaranan ilişgi anionitin aminqruplarının azot atomları vasitəsilə gerçəkləşir.

Anionitin hər iki ion formasında tarazlıq şəraitinin öyrənilməsi ilə bağlı alınan sonucları və IQ-spektroskopiyanın verdiyi məlumatları ümumiləşdirərək germaniumun SB-1 anioniti ilə sorbsiyasının mexanizmini aşağıdakı kimi təsvir etmək olar:



Bu sxemə uyğun olaraq, zəif əsaslı kompleksəməlgətirici SB-1 anionitinin hidroksil forması germaniumun sorbsiyası zamanı aralıq forma olub, elementin udulmasına kömək edir. Sonrakı qarşılıqlı təsir qeyd edilən hər iki istiqamətdə gedə bilər. Çünki bu istiqamətlər nə germaniumun sorbsiyasına aid təcrübə məlumatlarına, nə də IQ- spektroskopiyanın sonuclarına zidd deyil. Bu proses üçlü amin qrupların hidroksil – əks ionun neytrallaşma reaksiyasına görə germaniumun sorbsiyası ilə müşahidə olunur. Alınan nəticələr ədəbiyyat məlumatlarına zidd olmayıb, müəyyən dərəcədə bu məlumatları təsdiq edir.

ƏDƏBİYYAT

1. Салдадзе К.М., Копылова-Валова В.Д. Комплексообразующие иониты («комплекситы»). М.: 1980, Химия, 336 с.
2. Галицкая Н.Б., Слабкая Л.Д., Кононова Г.Н., Плотникова О.А. Сорбенты для извлечения бора из растворов. Обзорная информация. М.: 1983, Ниитэхим, 35 с.
3. Копылова В.Д., Салдадзе К.М. Закономерности комплексообразования в фазе ионитов/Тезисы докладов Всесоюзной конференции по ионному обмену.М.:1979, с.55
4. Салдадзе К.М. О путях целенаправленной модификации ионообменных материалов/ Ионный обмен. Под ред. М.М. Сенявина. М.: 1981, Наука, с.73-82
5. Nakomoto K. İR-spectrums and CD (combinational dispersion)-spectrums of inorganic and coordination combinations. Moscow: 1991. World, 531 p.
6. Грибов Л.А. Теория инфракрасных спектров полимеров. М.: 1977, Наука, 240 с.
7. Семушин А.М., Яковлев В.А., Иванова Е.В. Инфракрасные спектры ионообменных материалов. Справочное пособие. Л.: 1980, Химия, 96 с.
8. Углянская В.А., Чикин Г.А., Селеменев В.Ф., Завьялова Г.А. Инфракрасная спектроскопия ионообменных материалов. Воронеж, Изд-во Воронежского Гос. ун-та, 1989, 207 с.
9. Эллиот А. Инфракрасные спектры и структура полимеров. М.: Мир, 1972, 159 с.
10. Демьянец Л.Н., Лобачев А.Н., Емельченко Г.А. Германаты редкоземельных элементов. М.: 1980, Наука, 152 с.

11. Федосова С.П. Гидротермальной синтез TR-силикатов, германатов и их ИК-спектроскопия: Автореф. дис. канд. геол.-минерал. наук. МГУ, М.: 1975, Мир, 23 с.
12. Przeszlakowski S., Maliszewska M. Retention on some metal ions on silica gel modified with Alizarin Red S // Chemical Analysis, 1992, 37, № 5, p.545-550
13. Назаренко В.А. Аналитическая химия германия. М.: 1973, Наука, 263 с.
14. Емельченко Г.А., Гречушников Б.Н., Ильюхин В.В. Спектроскопическое исследование редкоземельных германатов / Спектроскопия кристаллов. М.: 1976, Наука, с.265-269

LEYLA BAĞIROVA
leylamemmedli19222@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0007-4473-2130

TEXNOLOGİYA ÜZRƏ MƏŞĞƏLƏLƏRDƏ UŞAQLARIN YARADICI FƏALİYYƏTİNİN FORMALAŞDIRILMASI

Tədqiqat qabiliyyətinin düzgün istiqamətdə inkişafı tələbəni gələcəkdə böyük uğurlara apara bilər. Lakin nəzərə almaq lazımdır ki, hər bir tələbəni tədqiqata, axtarışa cəlb etmək düzgün deyil. Ümumiyyətlə, şagirdlərdə tədqiqat bacarıqlarının inkişaf etdirilməsi üçün hansı yol və üsullar faydalıdır. Təcrübə göstərir ki, bu işdə interaktiv təlim metodlarından istifadə uğurlu nəticələrə gətirib çıxarır.

Açar sözləri: *Tarix, texnologiya, fəaliyyət, yaradıcılıq, qabiliyyət, aşkar, məktəbli, şagird, tədqiqatçılıq, mahiyyət, müəyyənləşdirmək*

1. Uşaqların yaradıcı fəaliyyətinin inkişaf etdirilməsi imkanları. Tarix boyu insan fəaliyyətinin inkişafı ictimai xarakter daşıyan orjinal məmulatlar hazırlamaqdan ibarət olmuşdur. Bu baxımdan yeni məmulatlar yaradılmış və yaxud köhnələr əsaslı surətdə dəyişdirilmişdir. Tarixin müəyyən bir dövrünü özündən əvvəlki dövrlə müqayisə etdikdə, görürük ki, texnika, kənd təsərrüfatı, sənaye, ədəbiyyat və incəsənət sahələrində böyük nailiyyətlər geniş xalq kütlələrinin iştirakı ilə yaranmışdır. Bütün bu nailiyyətlər isə insanın yaradıcılığa meylindən və bu sahədə apardığı fəaliyyətdən irəli gəlir.

İnsanların yaradıcı fəaliyyətinin təməli ilk növbədə ailədə və məktəbəqədər tərbiyə müəssisəsində qoyulur. Kiçik yaşlı uşaqların yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi üçün texnologiya məşğələləri qüdrətli vasitələrdən biridir. Məktəbəqədər təlim sistemində texnologiya üzrə məşğələ qarşısında duran məqsədlərdən biri də məhz bu məsələnin həllinə yönəldilməlidir.

Bu baxımdan uşaqların yaradıcılıq qabiliyyətlərini aşkara çıxaran, sonra fəaliyyətlərinin inkişafına təkan verən və sürətləndirən aşağıdakı amillərdən istifadə olunması məqsədəuyğun olar; fəaliyyətin məqsədinin dərk edilməsi, fəaliyyətin düzgün planlaşdırılması, fəaliyyət üçün müvafiq şəraitin yaradılması, məşq yolu ilə fəaliyyət hərəkətlərinin formalaşdırılması, fəaliyyətdə təkidlilik göstərilməsi və s.

Aparılan müşahidələr və təcrübələr göstərir ki, uşaqların istedadının və qabiliyyətinin inkişafına erkən başlamaq daha effektli olur. Məlumdur ki, çox yüksək istedadlı dahi adamlar öz qabiliyyətlərini uşaq vaxtı biruzə vermişlər. İstedad və qabiliyyətin rüşeymlərinin təzahür etməsi bir çox hallarda bağça və kiçik məktəb yaşından başlayır. Məhz beynin yetkinləşməsi bu dövrdə baş verir. Zehni işə və fəaliyyətə can atmaq, ondan zövq almaq, yorulmaq bilmədən işləməyə meyl məktəbəqədər yaş dövründən əmələ gəlir. Daha qabiliyyətli uşaqlar müstəqilliyə can atır, müəyyən nəticəyə gəlmək üçün xüsusi təkidlilik göstərirlər. Məktəbəqədər müəssisələrdə uşaqların ilkin yaradıcılıq qabiliyyətinin inkişafının düşünülmüş sistemli mərhələləri aşağıdakılardan ibarət ola bilər:

a. Yaradıcılıq qabiliyyətinin aşkara çıxarılması üçün müvafiq şəraitin yaradılması;

b. Yaradıcı qabiliyyətin mahiyyətinin müəyyənləşdirilməsi - zehni və fiziki, praktik-əmək, hansı fəaliyyət sahəsində olması istiqamətlərinin müəyyən edilməsi;

c. Yaradıcı fəaliyyətin inkişafının təmin edilməsi.

Hər üç mərhələ həm məşğələ prosesində, həm də məşğələdən kənar işlər zamanı yerinə yetirilə bilər.

Sonuncu mərhələ aşağıdakı xüsusiyyətlər üzrə həyata keçirilir: məntiqi çalışmalar, müstəqil işlər, tədqiqatçılıq, yaradıcı fəaliyyət və s. Burada mühüm bir cəhət ondan ibarətdir ki, tərbiyəçi uşaqların yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsində yalnız fəal olan uşaqları deyil, eyni

zamanda qismən zəif uşaqlarda da yaradıcılıq qabiliyyətinin yaradılması və inkişaf etdirilməsinə pedaqoji ustalıqla yanaşmalıdır. Uşaqların məşğələ prosesində fəallaşması üçün hər bir uşağa fərdi yanaşılmalı, onların gücünə müvafiq sual və tapşırıqlar verilməlidir. Tərbiyəçi belə uşaqlarla işdə pedaqoji-psixoloji taktlar seçməyə çalışmaqla onlarla daha nəvazişlə, mehribanlıqla, qayğıkeşliklə rəftar etməli, onlarda özünə inam yaratmalıdır.

Aparılan əməli işlərin ümumi məzmununu nəzərdən keçirdikdə məlum olur ki, müxtəlif materiallarla görülən işlər yaradıcı fəaliyyətin inkişaf etdirilməsinə geniş imkanlar yaradır. Bu baxımdan yaradıcılıq fəaliyyətinin inkişafı üçün lazım olan bir sıra ilkin şərtləri kağızla, kartonla və digər materiallarla görülən iş zamanı yerinə yetirmək mümkündür. Kağız və kartonla görülən iş prosesində uşaqlar müəyyən ölçmə və nişanlama, müxtəlif formada qatlamaq və kəsmək kimi bacarıqlara yiyələnməli olurlar ki, bunlar da uşaqların yaradıcılıq fəaliyyəti zamanı istifadə etdikləri əməliyyatların avtomatlaşmasına səbəb olur. Bundan başqa, kağız və kartonla hazırlanmış əşyalar forma və quruluşuna görə müxtəlif qaydalardan istifadə edilərək quraşdırıla bilir ki, bu da uşaqların yeni və səmərəli yollar tapmaq üzərində düşünmələrinə səbəb olur. Təbiət materialları ilə görülən işlərdə də uşaqların yaradıcı fəaliyyətini inkişaf etdirmək üçün geniş imkanlar yaranır. Təbiət materialları ilə işləyən uşaqlar, əsasən, qum, daş, bitki, meyvə, qoza, plastilin və s-dən istifadə edirlər. Belə materiallarla işləyərkən uşaqlar istənilən qədər materialla təmin olunur və onların yaradıcılığının təmin olunması təşkil edilir. Əməyin bu növündə uşaqların kollektiv fəaliyyətini təşkil etmək daha səmərəlidir. Bu zaman uşaqlar arasında yaranan yoldaşlıq, dostluq, əməksevərlik, sadəlik və əxlaqi keyfiyyətlər daha da möhkəm tədqiqatçılıq qabiliyyəti yüksək olan şagird müstəqillik, sərbəst mühakimə, mükəmməl qrammatik hazırlıqla birlikdə ədəbi material barədə dolğun, aydın və sistemli məlumata yiyələnməlidir. Bu amil çox vacibdir.

Xüsusi qabiliyyətli uşaqlarla işin gerçəkləşdirilməsi mexanizminin yaradılmasında xüsusi qabiliyyətli uşaqların axtarışı; uşaqların yaradıcılıq tələbatlarının təminatının təşkili; şagirdlərin öz qabiliyyətlərini gerçəkləşdirilməsi kimi amillər nəzərə alınmalıdır.

Məlumdur ki, elmi iş yazmaq, özündən müəyyən mövzuda inşa-esse hazırlamaq üçün şagird böyük lüğət ehtiyatına malik olmalıdır.

Müstəqil, yaradıcı gənclər tərbiyə etmək məktəb qarşısında duran ən mühüm vəzifələrdəndir. Ona görə ki, müstəqil ölkəyə qabiliyyətli, istedadlı şəxslər lazımdır. Onlar cəmiyyətin aparıcı qüvvələri sayılır. Tədqiqatçılıq qabiliyyəti öncə fəaliyyət prosesində təşəkkül tapır. Təlim prosesi nə qədər məqsədəuyğun qurularsa, şagirdin istedadı, tədqiqatçılıq qabiliyyəti bir o qədər də tez üzə çıxacaq və inkişaf edəcəkdir. Demək, hər bir şagirdin sirli, qəribə dünyasına ilkin olaraq müəllim daxil olur. Müəllim şagirdin tədqiqatçılıq bacarığını düzgün müəyyənləşdirməkdə, ona fərdi yanaşmaqda, inkişafına düzgün istiqamət verməkdə yardım göstərir. Müəllim şagirdin elmi işə marağında, düşüncə tərzində böyük dönüş yarada bilən fərddir.

Dilimizi öyrənərkən ayrı-ayrı bəhslərə yaradıcı yanaşmaq üçün fənn müəllimlərindən tədris prosesini canlı qurmaq tələb olunur.

Nəticə

Nəticədə yaradıcılıq qabiliyyətinin aşkara çıxarılması üçün müvafiq şəraitin yaradılması, yaradıcı qabiliyyətin mahiyyətinin müəyyənləşdirilməsi, yaradıcı fəaliyyətin inkişafının təmin edilməsi. - zehni və fiziki, praktik-əmək, fəaliyyətinin istiqamətlərinin müəyyən edilməsi nəzərdə tutulur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında Ümumtəhsilin konsepsiyası. "Kurikulum" jurnalı, 2008, №1. 3234 s.
2. Axundov N., Əhmədov H., Şərifova F., Ələkbərova R. Texnologiya–5. Metodik vəsait. "Aspoliqraf". Bakı: 2020, 80 s.
3. Axundov N., Əhmədov H., Şərifova F., Mirizadə G. Texnologiya–6. Metodik vəsait. "Aspoliqraf". Bakı: 2017, 96 s.
4. Qusakova M.A. Tətbiq: Tələbələr üçün dərslik ped. №2002. Təhsil 1997

SUMMARY

Leyla Baghirova

CHILDREN CREATIVE IN TECHNOLOGY LESSONS FORMATION OF ACTIVITY

Development of research ability in the right direction can lead the student to great success in the future. However, it should be taken into account that it is not correct to involve every student in research and search. In general, what ways and methods are useful for developing research skills in students. Experience shows that using interactive training methods in this work leads to successful results.

Key words: *History, technology, activity, creativity, ability, discovery, schoolboy, student, research, essence, define*

İCTİMAİ ELMLƏR

AYSU ABDULLAZADƏ
abdullazadeaysu1@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0009-0965-4223

ENERJİ TƏHLÜKƏSİZLİYİ, ENERJİ EFFEKTİVLİYİ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ PROBLEMİ

Məqalədə enerji təhlükəsizliyini möhkəmləndirən və enerji effektivliyini artıran məsələlər tədqiq olunmuşdur. Məqalədə enerjinin iqtisadi həyatda və insan həyatındakı rolu, onun müasir zamanda qlobal təhlükəsizlik məsələsi olduğu diqqətə çatdırılmışdır. "Enerji təhlükəsizliyi" anlayışı geniş xarakterizə olunmuş dövrün qlobal problem kimi təqdim olunmuşdur. Məqalədə enerji təhlükəsizliyi enerji effektliyindən ayrılmır və o, iqtisadiyyatın yanacaq-enerji resursları ilə təchizatında inkişaf səviyyəsinin yüksəldilməsinin mühüm indikator göstəricilərindən hesab olunur. Bundan əlavə, planetimizin gələcəyi üçün həyati əhəmiyyət daşıyan ətraf mühitin qorunması məsələlərinə də geniş yer verilmişdir. Bu işlərin davamlılığının təmin edilməsi üçün aparılan təhlillərlə milli enerji təhlükəsizliyi strategiyasının hazırlanması və onu şərtləndirən meyarlar, fəaliyyətlər və hədəflər əsaslandırılmışdır.

Açar sözlər: *Enerji təhlükəsizliyi, enerji effektivliyi, enerji mənbələri, enerji siyasəti*

XXI əsrin ilk onilliklərində stabil və davamlı enerji təminatı problemi Avropa İttifaqının üzv ölkələri arasında mühüm yer tutur. Bu ilk olaraq planetin resurs bazasının tükənməsi ilə izah edilə bilər, ilbəil enerji istehlakı artdığı halda, enerji resursları tükənməyə doğru gedir. Bu baxımdan alternativ enerji mənbələrinin tapılması, ənənəvi enerji resurslarının cəlb edilməsinin vacibliyi kimi problemlər ön plana çıxmaqdadır. Digər tərəfdən problem siyasi çalarlara da malikdir. Belə ki, enerji faktorundan siyasi məqsədlərə nail olunması məqsədilə istifadə edilir; Rusiya Federasiyası ilə Ukrayna Respublikası arasında baş verən konfliktlər zamanı bu özünü qabarıq şəkildə biruzə vermişdir (1).

Mövcud şəraitdə enerji təhlükəsizliyi məsələsi daha da aktuallaşmış və artıq nəinki Avropa İttifaqı, eləcə də ABŞ bu məsələnin həlli üçün səylərini artırmışdır. Avropa Komissiyası, Avropa Parlamenti və Avropa Şurası üzv ölkələrinin enerji təminatı ilə bağlı müəyyən məsələlərin tənzimlənməsini həyata keçirən sənədlər qəbul etmişdilər. Avropa Parlamentinin və Avropa Şurasının 26 iyun 2003-cü il tarixli qərarına əsasən, vahid elektrik enerjisi bazarı yaradılmış, üçüncü ölkələrin bu bazarda iştirak qaydaları işlənib hazırlanmışdır. Həmçinin vahid qaz bazarı və onun qaydaları, təbii qazın idxalının təhlükəsizliyinin təmin edilməsi qaydaları da işlənib hazırlanmışdır (2).

Bundan başqa, 2003-cü ilin dekabrında Avropa Şurası özünün Brüssel sammitində Avropanın təhlükəsizlik strategiyasını qəbul etdi. Bu sənəddə göstərilən hərbi münaqişələr, aclıq, xəstəliklər kimi təhlükəli tendensiyalarla yanaşı, qlobal enerji təhlükəsizliyi ilə bağlı dünya yanacaq – energetika kompleksinin vəziyyəti və inkişafı da öz əksini tapmışdır.

Enerji təhlükəsizliyi - mövcud iqtisadi şərait tələbində sərəncamda zəruri kəmiyyət və keyfiyyətdə enerjinin olması vəziyyətinə inamdır;

- Enerji təhlükəsizliyi - vətəndaşın, cəmiyyətin və dövlətin mühüm "enerji maraqlarının" daxili və xarici təhlükələrdən müdafiəsi vəziyyətidir;
- Enerji təhlükəsizliyi - milli və beynəlxalq səviyyədə ictimai istehlakın enerji resursları ilə yetərincə və səmərəli ödənilməsində iqtisadiyyatın imkanlarının məcmusudur;
- Enerji təhlükəsizliyi - həyat şəraitinin və şəxsiyyətin inkişafının, cəmiyyətin və dövlətin, sosial-iqtisadi və hərbi-siyasi stabilliyinin enerji resursları ilə dolğun təminatı, habelə bu çevrədə daxili və xarici təhlükələrə müqavimət göstərmək üçün iqtisadiyyatın hazırlığıdır;

• Enerji təhlükəsizliyi - milli iqtisadiyyatın müstəqilliyinin, onun sabitliyi və dayanıqlığının, mütəmadi yenilənməsi və özünü təkmilləşdirməsi bacarığının təminatının şərt və faktlarının məcmusudur.

BMT-də akkreditə olunan, nəhəng beynəlxalq qeyri-kommersiya enerji təşkilatı "Dünya Enerji Şurası" isə enerji təhlükəsizliyini enerjinin mövcud iqtisadi şəraitdə, zəruri kəmiyyət və keyfiyyətdə qətiliklə sərəncamda olması kimi şərh edir (3).

Enerji təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:

• strateji və mühüm obyektlərin enerji ilə etibarlı təmin olunması;
• sərf edilmiş yanacaq ehtiyatlarının yerinin doldurulması;
• yanacağın və enerji növlərinin diversifikasiyası, yəni şaxələndirilməsi;
• ekoloji tələblərin nəzərə alınması;
• enerji ehtiyatlarından səmərəsiz istifadənin qarşısının alınması;
• daxili və xarici bazarlarda enerji ehtiyatlarının lazımi gəlir gətirməsi və səmərəli ixrac üçün azad iqtisadi şəraitin yaradılması və s.

Müasir iqtisadi və siyasi həyat bizə energetikanın, dünyanın geniş spektrli palitrasına təsiri ilə bağlı kifayət qədər faktiki material verir. "Enerji siyasəti", "enerji diplomatiyası", "enerji effektivliyi" məsələləri bu gün dünya medyasında geniş yer alır. Bütün bunlar isə ümumilikdə "enerji təhlükəsizliyi" adlanan fenomendən qaynaqlanır (4).

Müasir dövrdə energetika sənayesinin baza sahələrinin, məişət tərzinin inkişafının əsasını təşkil etməklə yanaşı biosferə, onun bir hissəsi olan ətraf mühit, o cümlədən insanın sağlam ətraf mühitdə yaşamaq hüququna mənfi təsir göstərə bilən mənbə kimi də xarakterizə olunur.

Energetikanın ətraf mühitə mənfi təsiri əsasən aşağıdakı qaydada təsnifləndirilə bilər:

- oksigendən istifadə etməklə atmosferə qaz, rütubətlilik, kül buraxmaq;
- sudan istifadə etməklə hidrosferə, sututarlara maye tullantıları atmaq;
- abiotik (cansız) ekosistemlərdə idarəedici əlaqələrin fəaliyyətini pozmaqla biosferə mənfi təsirli enerji resurslarının istifadəsi.

Enerji resurslarından daş kömürün, neft məhsullarının, uranın və b. resursların istifadəsindən, nəqlindən ətraf mühitə mənfi təsirin qarşısının alınması enerji təhlükəsizliyi qədər aktuallaşmış və hətta müəyyən vaxtlarda onu üstələmək meylləri də yaratmışdır. Bu sahədə qəbul edilmiş beynəlxalq hüquqi aktların analizi də müvafiq nəticə üçün əsas verir. İstər Enerji Xartiyası Müqaviləsi çərçivəsində, istərsə də ayrı-ayrı beynəlxalq sazişlərdə enerji resurslarından ətraf mühitə mənfi təsir tənzimlənməkdədir. Bir qisim beynəlxalq sazişlər qlobal istiləşmə effektini azaltmaq məqsədilə enerji resurslarının dövriyyəsindən yaranan tullantı vahidlərinin məhdudlaşdırılmasının beynəlxalq ticarətinə, tullantı vahidləri üzrə standartların müəyyən edilməsinə yönəlirsə, digər qisim müqavilələr ətraf mühitə dəymiş zərərin qarşılanmasına yönəlir. Enerji resurslarının istifadəsində ekoloji təhlükəsizliyə yönələn hər iki kateqoriya sazişlər enerji effektivliyinə əsaslanan yeni iqtisadi inkişaf modeli nəzərdə tutur.

Enerji effektivliyi və ətraf mühitin mühafizəsi prinsipi uzunmüddətli beynəlxalq hüquq yaradıcılığı nəticəsində formalaşdırılmışdır. Dövlətlərin iqtisadi hüquq və vəzifələri Xartiyasında, Uzaq məsafədə havanın transsərhəd çirkləndirilməsi haqqında Konvensiyada, Ozon təbəqəsinin müdafiəsi üzrə 1985-ci il Konvensiyasında, Ozon təbəqəsinin dağıdan maddələr üzrə 1987-ci il Protokolunda, İqlim dəyişikliyi üzrə BMT-nin çərçivə Konvensiyasında, həmin Konvensiyaya qəbul edilmiş Kioto Protokolunda, Ətraf mühit və inkişaf üzrə Rio-de-Janeyro Bəyannaməsində, Neftlə çirklənmədən dəymiş zərərə görə mülki məsuliyyət haqqında beynəlxalq Konvensiyada, nüvə enerjisindən istifadə sahəsində və s. beynəlxalq sazişlərdə iqtisadi fəaliyyətin, enerji resurslarından istifadənin ətraf mühitin mühafizəsi ilə uzlaşdırılması zərurəti ifadə edilmişdir. Enerji effektivliyi üçün xarakterik xüsusiyyət daha az məsrəflərlə, başqa sözlə, ətraf mühitə daha az mənfi təsirlə iqtisadi inkişafı stimullaşdırmaq təşkil edir (5, s.21).

İqtisadiyyatın ekoloji təhlükəsizliyə uyğun davamlı inkişafı yalnız indiki nəslin həyat səviyyəsinin yüksəldilməsinə deyil, eyni zamanda perspektiv inkişaf maraqlarının nəzərə alınmasına yönəlir. Davamlı inkişaf konsepsiyası tükənən təbii, enerji resurslarının müxtəlif nəsillər arasında

ədalətli bölgüsünü nəzərdə tutmalıdır. Bütün təsərrüfat subyektlərinin fəaliyyətində hazırki inkişafın təminatı ilə yanaşı gələcək üçün sabit inkişaf modeli müəyyən edilməlidir (6, s.84-111).

1992-ci il Ətraf mühit və inkişaf üzrə "Rio Bəyannaməsi"ndə qeyd edilir ki, dövlətlər müvafiq məsələnin həllində ümumi, lakin differensiasiya edilmiş məsuliyyət daşıyırlar. İnkişaf etmiş ölkələr malik olduqları texnologiya və maliyyə resursları ilə onların ictimaiyyətinin qlobal ətraf mühitə təsirini nəzərə alaraq beynəlxalq səviyyədə davamlı inkişafın təminatı üzrə məsuliyyətli olduqlarını bildirirlər. Göstərilir ki, BMT Nizamnaməsinə və beynəlxalq hüququn prinsiplərinə görə dövlətlər inkişaf və ətraf mühit sahəsində müstəqil siyasət həyata keçirməklə özlərinin resurslarından istifadə də suveren hüquqlara malikdirlər, eyni zamanda onların yurisdiksiyasında və nəzarətində olan fəaliyyətin digər dövlətlərin və ya milli yurisdiksiyadan kənarda yerləşən rayonların ətraf mühitinə zərər vurmamaqla bağlı məsuliyyət daşıyırlar. Müvafiq öhdəlik və vəzifələrin həlli onların milli-hüquqi implementasiyası iqtisadiyyatın struktur dəyişikliyinin hüquqi tənzimlənməsini təmin etməlidir. Enerji resurslarından səmərəli istifadə və ekoloji ekvivalentlik mexanizmi davamlı enerji təhlükəsizliyinə transformasiya edilməlidir (7, 47 s.).

Beynəlxalq hüququn müəyyən etdiyi kimi dövlət idarəçilik mexanizmi təbii ehtiyatların idarə olunması zamanı bazar iqtisadiyyatının prinsipləri ilə yanaşı davamlı inkişafın ekoloji yönümlü imperativlərini həlledici amil kimi qəbul etməlidir.

Ozon təbəqəsini dağıdan maddələr üzrə 1987-ci il Monreal Protokolu "kim çirkləndirir o da ödəyir" prinsipinə uyğun olaraq daha təmiz enerji mənbələrindən istifadəni təşviq etməklə, eyni zamanda inkişaf etməkdə olan ölkələrə maliyyə yardımını dəstəkləyir.

Bu sahədə müxtəlif subsidiya və maliyyə yardımları yeni və bərpa olunan enerji mənbələrinin istifadəsinə yönəlməlidir.

Beləliklə, qeyd edilənlərin əsasında enerji effektivliyi və ətraf mühitin mühafizəsi prinsipini qiymətləndirsək bu halda:

- enerji dövriyyəsindən ətraf mühitə və dünya iqliminə mənfi təsiri azaltmaq məqsədilə müvafiq hüquqi bazanın yaradılması ilə bağlı siyasətin müəyyən edilməsini;
- tamamilə ekoloji xərclər də daxil olmaqla rəqabət əsasında enerji resurslarının qiymətinin müəyyən edilməsini;
- iqtisadiyyatın struktur baxımından yenidən qurulması ilə həyat səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur.

ƏDƏBİYYAT

1. Безопасная Европа в мире, который должен стать лучше. Европейская стратегия безопасности// Совет Европейского союза Режим доступа: http://www.consilium.europa.eu /uedocs/cmsUpload/031208ESSIIRU.pdf
2. Conclusions of the European Council: Doc. EUCO 2/1/11 REV 1, Brussels, 8 March 2011// Council of the European Union:
3. <http://www.consilium.europa.eu/uedocs/cms_data/docs/pressdata/en/ec/119175.pdf
4. Hacızadə E.M. Enerji təhlükəsizliyi və enerji effektivliyinin yüksəldilməsi prioritetləri http:// hajizada.com/az/article-view/7/1076/
5. Зеркалов Д.В. Энергетическая безопасность. Киев: 2012, Основа, 920 с.
6. Kessels J.R., Bakker S.J.A. ESCAPE: Energy Security & Climate Policy Evaluation. Linking climate and energy security policy in post-2020 climate strategies. ECN April 2005.
7. Plamer G. Environment: The International Challenge. 1995
8. Kuik O., Peters P. and Schrijver N. Joint Implementation to Curb Climate Change. Legal and Economic Aspects. 1994

SUMMARY

Aysu Abdullazade

ENERGY SECURITY, ENERGY EFFICIENCY AND ENVIRONMENTAL PROTECTION PROBLEM

Issues that strengthen energy security and increase energy efficiency have been studied in the article. In the article, the role of energy in economic life and human life, its global security issue in modern times was brought to attention. The concept of “energy security” has been widely characterized as a global problem of the time. In the article, energy security is not separated from energy efficiency, and it is considered one of the important indicators of increasing the level of development in supplying in the economy with fuel and energy resources. In addition, the issues of environmental protection, which are vital for the future of our planet, are given ample space. Preparation of the national energy security strategy and the criteria, activities and goals that determine it are based on the analyzes conducted to ensure the sustainability of these works.

Key words: *Energy security, energy efficiency, energy sources, energy policy*

AYSUN CƏFƏROVA
aysunceferli12@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0004-7058-2808

KOMMERSİYA BANKLARININ ƏMƏK POTENSİALI ONUN RƏQABƏT QABİLİYYƏTLİLİYİNİN ƏSASI KİMİ

Tədqiqatın məqsədi. *İctimai təkrar istehsalın intensivləşməsi və iqtisadi inkişafın innovativ modelinə keçid üçün ilkin şərtlərin formalaşması bank fəaliyyətində insan oğlunun əmək potensialından səmərəli istifadə məsələlərini kəskin şəkildə ortaya qoyur. Burada başlıca məqsəd mövcud araşdırma obyektindən çıxaraq homojen xarakterə malik olan bank bazarında rəqabət mübarizəsində uğur əldə etməyə imkan verə biləcək və bazarda dominant mövqe tutmağa kömək edə biləcək əmək potensialının, başqa sözlə desək, əqli kapitalın formalaşdırılmasıdır.*

Tədqiqatın metodologiyası – *müşqahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvari əlaqə və asılılıq metodlarından istifadə edilməsi.*

Tədqiqatın nəticəsi *olaraq məqalədə aşağıdakı qənaətə gəlinmişdir:*

- Bankların rəqabət qabiliyyətliliyi sırasında ən mühüm yeri əmək potensialı tutur. Özünün praktik təcrübəsi, nəzəri biliyi, peşəkar səviyyəsi, şəxsi keyfiyyətləri, intellektual qabiliyyəti ilə bank işçisi kommersiya banklarının ən qiymətli resursudur.

- Uğurlu fəaliyyət üçün kommersiya banklarının işçilərinin biliklərindən səmərəli istifadə, başqa sözlə desək, "biliklərin düzgün idarə edilməsi" bankların gəlirliliyinin ən vacib amilidir.

Tədqiqatın məhdudiyyətləri. *İstehlakçıların tələblərinə uyğun olaraq bank xidmət və məhsullarının keyfiyyətinin yüksəldilməsi üçün işçilərin əmək potensialının inkişaf etdirilməsi yönündə atılacaq zəruri addımların yalnız kommersiya banklarından asılı olmaması.*

Tədqiqatın praktiki əhəmiyyəti – *intellektual qabiliyyətlərin və orijinal təfəkkürün istifadəsini tələb edən əməliyyatlar qrupunun formalaşması.*

Tədqiqatın orijinallığı və elmi yeniliyi – *bankın idarə edilməsi sistemində əmək potensialından səmərəli istifadə, onun bankın rəqabət qabiliyyətliliyinin ən mühüm amili kimi inkişafı problemlərinin araşdırılmasına yer verilməsi.*

Açar sözlər: *Kommersiya bankları, əmək potensialı, əmək resursları, rəqabət qabiliyyətlilik, innovativ potensial*

Giriş

Çağdaş zamanda innovativ iqtisadiyyatın formalaşması əmək potensialının inkişafı məsələlərinin həllinə yeni formatda kompleks və sistemli yanaşma tələb edir. İctimai təkrar istehsalın intensivləşməsi və iqtisadi inkişafın innovativ modelinə keçid üçün ilkin şərtlərin formalaşması bank fəaliyyətində insan oğlunun əmək potensialından səmərəli istifadə məsələlərini kəskin şəkildə ortaya qoyur. Bankın bazardan sıxışdırılıb çıxarılması təhlükəsi və onun bank sektorunda öz payını artırmaq istəyi mövcud bazar mexanizminin tərkib hissəsi olan rəqabətin artmasına və kəskinləşməsinə səbəb olur. Bu hallar istehlakçıların tələblərinə uyğun olaraq kommersiya banklarının xidmət və məhsullarının keyfiyyətinin yüksəldilməsini zəruri edir ki, bu da işçilərin əmək potensialının inkişaf etdirilməsinə yönəlmiş metodlar kompleksi olmadan mümkün deyildir.

Bildiyimiz kimi, bank bazarında kreditlər və depozitlər, lizinq xidmətləri, depozitar və ipoteka kimi bütün xidmətlər oxşar xarakter daşıyır. Bütövlükdə, bank bazarı homojen olduğundan banklar arasındakı müştəri uğrunda mübarizə daimi xarakter daşıyır. Bu bankların, xüsusən kommersiya banklarının çoxluğu ilə əlaqədardır (Məmmədov Z.F., 2013).

Parantez açaraq bir faktı qeyd edək ki, hal-hazırda dövlət banklarının və ya dövlət payının yüksək olduğu bankların rolunun gücləndirildiyi bir şəraitdə bir çox kommersiya banklarının rəqabət qabiliyyətini saxlaması səyləri obyektiv baxımdan çətinləşmişdir. Fikrimizcə, bank sektorundakı

obyektiv çətinliyi nəzərə alaraq rəqabət mübarizəsində əldə edilə biləcək uğurlu addım bazarda dominant mövqe tutmağa kömək edə biləcək işçilərin əqli kapitalı ilə yanaşı əmək potensialından düzgün və diqqətli istifadə edilməsi ola bilər. Burada işçilərin əmək potensialını və bu məsələnin nəzəri əsaslarını ətraflı şəkildə nəzərdən keçirmək məqsədəuyğundur.

Material və metodlar

Müasir cəmiyyətimizdə "işçinin əmək potensialı" anlayışından olduqca fəal şəkildə istifadə olunur. Əmək potensialı – insanın öz şəxsi və sosial məqsədlərinə çatması üçün istifadə edə biləcəyi inkişaf prosesində əldə etdiyi biliklər məcmusudur (Abbasov Ə.M. və b., 2005, s.235).

İnsan, məhz onun potensialı iqtisadiyyatın inkişafının əsas hərəkətverici qüvvəsinə, insan amilinin rolunun təmərküzləşmiş ifadəsinə çevrilir. Əmək potensialı bir-biri ilə əlaqəli bir sıra kəmiyyət və keyfiyyət amillərindən – əmək qabiliyyətli əhalinin sayından, əhalinin sağlamlıq vəziyyətindən, ümumi təhsil hazırlığından, peşəkar biliklərdən, təcrübədən, işçilərin fəallığından asılıdır.

Bazar münasibətlərinin inkişafının hal-hazırki mərhələsində fərdin əmək potensialının kəmiyyət xüsusiyyətləri deyil, ictimai istehsalda həyata keçirilən və sahibinə gəlir gətirən təşəbbüskarlıq, işgüzarlıq, sərişt əlilik, peşəkarlıq, məsuliyyət, işə yaradıcı yanaşma kimi xüsusiyyətləri özünə daxil edən keyfiyyət xüsusiyyətləri getdikcə daha çox əhəmiyyət kəsb edir. Əmək potensialı əmək bazarının sistem formalaşdıran elementidir, sistemin inkişaf istiqamətini müəyyən edir və eyni zamanda onun inkişafı zamanı özünü dəyişir. Beləliklə, əmək potensialı təkcə iqtisadi funksiyalar kompleksi deyil, həm də istehsalın şəxsi amilinin ümumiləşdirici xarakteristikası, çoxşaxəli insan şəxsiyyətinin tərkib hissəsi - müasir cəmiyyətin iqtisadi, informasiya və yaradıcı resursudur.

Müasir iqtisadiyyatda baş verən proseslər daim əmək resursunun keyfiyyətinə yeni spesifik tələblər formalaşdırır. Buna görə də işçinin əmək bazarında rəqabət qabiliyyətini müəyyən edən, onun istehsalın tələblərinə uyğunluğunu xarakterizə edən əmək potensialıdır. Analoji olaraq firmanın əmək potensialı rəqabət mübarizəsində uğurun açarıdır və xalqın yüksək əmək potensialına malik olması ona dünya inkişafında lider mövqe tutmağa imkan verir.

Əldə olunan nəticələr

Yuxarıda deyilənlərə əsaslanaraq belə qənaətə gəlmək olar ki, bankların rəqabət qabiliyyətliliyi bir çox amillərlə müəyyən edilir ki, onların sırasında ən mühüm yeri əmək potensialı tutur. Əmək potensialından səmərəli istifadə, onun müəssisənin rəqabət qabiliyyətliliyinin amili kimi inkişafı problemləri hələ də ümumi müəssisə idarəetmə sistemində öz yerini tapmamışdır. Özünün praktiki təcrübəsi, nəzəri biliyi, peşəkar səviyyəsi, şəxsi keyfiyyətləri, intellektual qabiliyyəti ilə bank işçisi müəyyən mənada kommersiya bankının ən qiymətli resursudur.

Qərbdə belə bir fikir var ki, "biliklərin idarə edilməsi" bankların gəlirliliyini artırmaq üçün ən vacib amillərdən biridir. Belə ki, burada söhbət kommersiya banklarının işçilərinin biliklərindən daha uğurlu fəaliyyət üçün istifadə etmək istəyindən gedir. Bu zaman bilik sferasına qoyulan investisiyalar və bankların bu prosesdə aparıcı rolu aşağıda qeyd olunan bir sıra amillərlə izah olunur:

- informasiya-kommunikasiya texnologiyalarının sürətli tərəqqisi, maliyyə münasibətlərinin mürəkkəbləşməsi, texnologiyaların getdikcə daha da təkmilləşməsi işçilərin ixtisasına uyğun olaraq iş həyatı boyu öyrənməyə hazır olmalarına tələbləri artırması;
- qloballaşmanın bir çox kommersiya banklarını qlobal informasiya şəbəkəsi daxilində müştərilərlə əlaqələr qurmağa məcbur etməsi;
- durmadan artan mürəkkəb məlumatların işlənməsini zəruri edən məlumat yükünün artması;
- informasiya xidmətləri bazarına giriş maneələrinin azaldılması;
- məhsulların həyat dövrünün qısaldılması;
- məlumatlı və tələbkar müştərilərin sayının getdikcə artması;
- rəqabətin artmasının və müəyyən xidmətlərin qiymətlərinin aşağı düşməsinin kommersiya banklarının məhsuldarlığı artırmağa məcbur etməsi;

• kadrlar arasında rəqabətin artmasının bilik axınının dövriyyəsinin artmasına və məhdudlaşdırılmasına səbəb olması.

Bu amillərin fəaliyyət göstərməsi bankın innovasiyalar aparmaq və biliklərdən daha məhsuldar istifadə etmək qabiliyyətinə tələblərin artırılması deməkdir. Beləliklə, "biliklərin idarə edilməsi" bankın mövcud və yeni əldə etdiyi biliklərdən məqsədyönlü və səmərəli istifadə üçün texniki, təşkilati və mədəni ilkin şərtləri yaradır. Birincisi, müştərilərin bank xidmətlərinin keyfiyyətinə əlavə tələbləri yaranır ki, bunun da nəticəsində kredit müqavilələrinin məzmunu və kreditlərin ödənilməsinin təmin edilməsi formaları, depozitlərin şərtləri və sxemləri təkmilləşdirilir, qiymətli kağızlar bazarında və lizinqdə yeni əməliyyat növləri meydana çıxır. İkincisi, bankın özü likvidliyi qoruyur, riskləri minimuma endirir ki, bu da böhrandan sonra xüsusilə vacibdir. Çünki yalnız az sayda bank sabit və etibarlı fəaliyyəti təmin edərək risk siyasətinə yenidən baxmaqdadır. Bütün bunlar işçilərin intellektual qabiliyyətlərinə tələblərin artmasına səbəb olur, onların innovativ keyfiyyətlərə malik olmasını, nəzəri bilikləri dərinləşdirmək və praktiki bacarıqları təkmilləşdirmək istəyini nəzərdə tutur (Bəşirov R.A., 2007, s.23).

İntellektual qabiliyyətlərin və orijinal təfəkkürün daha çox istifadəsini tələb edən xüsusi əməliyyatlar qrupunu fərqləndirmək lazımdır ki, bunlara bank maliyyə analitikası adlandırılan qeyri-ənənəvi bank əməliyyatları (əmlakın etibarlı idarə edilməsi, depozitar və konsaltinq xidmətləri, bank kartları ilə əməliyyatlar və s.) aid edilə bilər. Bu sonuncu hallarda əmək funksiyalarının yerinə yetirilməsində obyektiv çətinliklər kifayət qədər ənənəvi peşəkar bilik və praktiki bacarıqların olmaması ilə əlaqədardır. Bununla əlaqədar olaraq, kommersiya banklarında kadrlara olan tələblər məcmusunda ən vacibləri aşağıdakılardır:

1. inteqrasiya olunmuş biliklərin mövcudluğunu nəzərdə tutan bir problemi yaradıcı şəkildə dərk etmək və uğurla həlletmək bacarığı;
2. resursların rəsmiləşdirilməsi əsasında resurs problemlərinin həllinə çoxvariantlı optimallaşdırma yanaşmasını göstərmək bacarığı;
3. yerinə yetirilən əməliyyatın faktiki parametrlərinin normativ sənədlərdə nəzərdə tutulanlardan kənara çıxmasına tez reaksiya vermək bacarığı (Sadiqov E.M., 2010, s.109);
4. öz innovativ potensialını reallaşdırmaq üçün daxili motivasiyanın olması;
5. maliyyə və iqtisadi təhlilin elmi üsullarına yiyələnmək.

Bankın əmək potensialının inkişaf etdirilməsinin məqsədi xüsusi metodlardan istifadə etməklə onun keyfiyyətinin artması üçün daxili stimulları aktivləşdirmək və bu əsasda yaradıcı və innovativ potensialın reallaşdırılmasını təşviq etməkdir. Bunun üçün, ilk növbədə, işçiləri öz əməklərinin nəticələrindən tam məmnun olmalarından imtinaya məcbur etmək, daha məhsuldar və keyfiyyətli iş üçün daim ehtiyatlar axtarmaq zərurətini dərk etdirmək və bu fonda bilik və praktiki bacarıqlarının səviyyəsini artırmağa vadar etmək lazımdır. Parantez açaraq bir faktı qeyd edək ki, bu zaman tapşırığı sadələşdirmək və əsas kadr hazırlığının məzmununu xüsusi tədris metodlarının formal tətbiqinə qədər azaltmaq olmaz. Bu iş sahəsinə həvalə edilmiş kadrlarla iş üzrə menecerlər bankçılıqdan əlavə tətbiqi psixologiya və sosiologiyanın əsaslarına da sahib olmalıdırlar.

Müzakirə

Əgər kommersiya banklarının inkişaf konsepsiyası yeni bank məhsulları və texnologiyalarının işlənib hazırlanmasını, ixtisaslaşmanın dərinləşdirilməsini, təşkilati idarəetmə strukturlarının təkmilləşdirilməsini nəzərdə tutursa, bu zaman kadr siyasətində əlavə kadr tələbatının ödənilməsinin daxili imkanları və mənbələrinə diqqət yetirilir, bəzi işçilərin bu işin öhdəsindən gəlmələri üçün ya bu sahədə biliklərini dərinləşdirir, ya da əlaqəli sahələrdə əsas bilikləri əldə edir. Bu zaman ixtisasın artırılması və ya təkmilləşdirilməsi metodundan istifadə edilir. Kadrların əsas inkişafı metodu kimi ixtisas artırma və ya təkmilləşdirmə xüsusi biliklərin sistemli şəkildə yenilənməsi və praktiki bacarıqların formalaşdırılması yolu ilə bank işçisinin peşəkar səviyyəsinin yüksəldilməsi prosesidir. Bir nüansı da qeyd edək ki, kadrların əsas inkişafının təsvir olunan metodları effektiv nəzarətin təşkilini və onların tətbiqi nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur.

Fikrimizcə, ciddi rəqabət aləti kimi bankın əmək potensialının inkişafına aşağıdakı istiqamətlər üzrə qarşıya qoyulmuş məqsədə nail olmağa yönəlmiş bir sıra proqram tədbirləri şərait yarada bilər:

1. bankın inkişaf konsepsiyasının, sahəvi kompleks proqramların həyata keçirilməsi yolu ilə iş yerlərinin yaradılması və əmək resurslarının planlaşdırılması;
2. yaradılmış iş yerlərinin, demoqrafik proseslərin və işçi qüvvəsinə olan tələbatın monitorinqi;
3. maliyyə-təsərrüfat sektorunun sahələrinin perspektiv ehtiyaclarına müvafiq olaraq kadr hazırlığı sifarişinin formalaşdırılması;
4. kadrların firmadaxili hazırlığı sisteminin inkişafı;
5. gənc işçilərin peşə üstünlükləri və işçilərin peşə və ixtisas səviyyəsinin monitorinqi vasitəsilə işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsi;
6. əlverişli iş şəraitinin yaradılması və sosial cəhətdən məqbul gəlir səviyyəsinə nail olmaqla, əhalinin real gəlirlərinə nəzarət etməklə kadrların saxlanılması sisteminin yaradılmasına köməklik göstərilməsi;
7. gənc işçilərin həvəsləndirilməsinə, bankir peşəsinin nüfuzunun artırılmasına, təşkilatların korporativ mədəniyyətinin formalaşmasına köməklik göstərilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi (Əliyev M.F., 2011, s.89-90).

Təklif olunan tədbirlər kompleksi əmək bazarının monitorinqi sisteminin yaradılmasına, yeni iş yerləri hesabına məşğulluğun artırılmasına, əmək qabiliyyətli əhalinin gəlir səviyyəsinin yüksəldilməsinə, təhsil müəssisələrində kadr hazırlanması, kadrların hazırlanmasında dövlət sifarişi sisteminin formalaşdırılmasına, müəssisələrdə kadrların saxlanması sisteminin işlənib hazırlanmasına və həyata keçirilməsinə, əmək bazarının vahid informasiya məkanının formalaşdırılmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Abbasov Ə.M., Bağırov M.M., Bağırov D.A., Pürhani S.H. İzahlı iqtisadi terminlər lüğəti. Bakı: 2005, Nurlan, 536 s.
2. Bəşirov R.A. Bank işi. Dərs vəsaiti (qısa kurs). Bakı: 2007, 118 s.
3. Əliyev M.F. Bankların inkişaf istiqamətləri. Monoqrafiya. Bakı: 2011, "Şərq-Qərb" nəşriyyatı, 120 s.
4. Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları. Bakı: 2013, Azərnəşr, 480 s.
5. Sadiqov E.M. Bank əməliyyatları Dərs vəsaiti. Bakı: 2010, "İqtisad Universiteti" nəşriyyatı, 212 s.

SUMMARY

Aysun Jafarova

LABOR POTENTIAL OF COMMERCIAL BANKS AS THE BASIS OF ITS COMPETITIVENESS

The purpose of the study. The intensification of social reproduction and the formation of the initial conditions for the transition to an innovative model of economic development sharply reveal the issues of effective use of the labor potential of the human son in banking activity. The main goal here is the formation of labor potential, in other words, intellectual capital, which can help to achieve success in the competitive struggle in the banking market, which has a homogeneous nature, and can help to take a dominant position in the market.

Research methodology - using observation, grouping, comparative analysis, chain link and dependency methods.

As a result of the research, the following conclusion was reached in the article:

- Labor potential occupies the most important place among banks' competitiveness. With his practical experience, theoretical knowledge, professional level, personal qualities, intellectual ability, a bank employee is the most valuable resource of commercial banks.

- Effective use of knowledge of employees of commercial banks for successful operation, in other words, “proper management of knowledge” is the most important factor of profitability of banks.

Limitations of the study. In order to improve the quality of bank services and products in accordance with the demands of consumers, the necessary steps to be taken in the direction of developing the labor potential of employees should not depend only on commercial banks.

Practical significance of research – forming a group of operations that require the use of intellectual abilities and original thinking.

Originality and scientific innovation of research – effective use of labor potential in the bank's management system, providing space for researching the problems of its development as the most important factor of the bank's competitiveness.

Key words: *commercial banks, labor potential, labor resources, competitiveness, innovative potential.*

ƏDALƏT TAĞIYEV
edalettagiyev978@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-4518-9518

REGİONLARARASI FƏRQLİLİK VƏ TƏNZİMLƏNMƏMİŞ FƏRQLİLİYİN SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİ

Tədqiqatın əsas məqsədi *qaçılması mümkünsüz olan və sosial ədalət baxımından arzu olunmayan regionlararası sosial-iqtisadi fərqlilik probleminin meydana gəlmə prosesini araşdırmaq, regional fərqlilik probleminin mənfi təsirlərini və iqtisadi inkişafın bir şərti kimi olduğunu göstərmək, regionların inkişaf səviyyəsində mövcud olan fərqlərin azaldılması istiqamətində təkliflər verməkdən ibarətdir.*

Tədqiqat işi *pozitiv yanaşma, elmi abstraksiya və statistik təhlil kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir.*

Tədqiqatın nəticəsi *olaraq Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində mühüm rol oynayan regional islahatların mövcud vəziyyəti Naxçıvan Muxtar Respublikası timsalında araşdırılmış, regionların sosial-iqtisadi inkişafı çərçivəsində həyata keçirilən iqtisadi islahatların nəticələrinin təhlili aparılmış, yeni müəssisələr yaratmaqla regionların inkişaf səviyyəsindəki fərqlərin azaldılması və məşğulluq probleminin həlli məsələləri araşdırılmış və bu istiqamətdə yaranan problemlər nəzərdən keçirilmişdir.*

Tədqiqatın məhdudiyyətləri: *regional araşdırma və çalışmaların bir çox elmlərin (demoqrafiya, sosiologiya, tarix, coğrafiya və s.) birgə istifadəsini gərəkdirməsi.*

Tədqiqatın praktik əhəmiyyəti: *regional səviyyədə tədqiqatlar aparan və bu sahədə çalışan mütəxəssislərin elmi və təcrübi biliklərinin yüksəldilməsində mühüm rol oynaya bilər.*

Tədqiqatın elmi yeniliyi və orijinallığı: *regionların daxili resurslarının iqtisadi dövriyyəyə cəlb olunması, regionların ölkə iqtisadiyyatındakı xüsusi çəkisinin artırılması, regionların sosial tələbatlarının ödənilməsi və məşğulluq problemlərinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən regionların sosial-iqtisadi inkişaf proqramlarının doğurduğu regional fərqlilik probleminin iqtisadi inkişafın bir şərti kimi araşdırılmasıdır ki, ki, elmi məqaləmizdə tədqiqatımızın obyekti məhz bu problemin həllidir.*

Açar sözlər: *regional iqtisadiyyat, regional inkişaf, regional fərqlilik, regional tarazlıq, məşğulluq.*

Giriş

Regional fərqlilik – hər hansı bir ölkənin müxtəlif regionlarında (bölgələrində) müşahidə edilən sosial-iqtisadi fürsət, imkan və ya şərait fərqliliyidir. İqtisadi fürsət fərqi bir ölkə hüdudları daxilindəki regionlarda yaşayan insanların istər iş tapma, istərsə də görülən eyni səviyyəli iş müqabilində eyni səviyyəli real əmək haqqı əldə etmək imkanına sahib olmamaları kimi izah oluna bilər. Sosial fürsət fərqi isə bir ölkə hüdudları çərçivəsindəki regionlarda yaşayan insanların sağlıq və təhsil xidmətlərindən, mədəni fəaliyyətlərdən eyni dərəcədə istifadə edə bilməmələridir.

Aparılan araşdırmalar sosial-iqtisadi inkişafın müxtəlif ölkələr arasında olduğu kimi hər hansı bir ölkə daxili regionlar arasında da fərqli sürətlə reallaşdığını göstərir. Bir ölkə hüdudları daxilindəki regionların inkişaf səviyyəsində müşahidə edilən fərqlər ancaq 1929-cu ilin Böyük İqtisadi Böhranından sonra diqqəti cəlb etməyə başladı. Məhz bu səbəbdən İkinci Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrində regional sosial-iqtisadi inkişaf fərqliliyini azaltmağa xidmət edən siyasətin həyata keçirilməsinə başlanıldı.

Demək ki, Azərbaycanın mərkəzi regionları ilə digər regionları arasındakı sosial-iqtisadi fərqlilik yalnız ölkəmizə xas problem deyildir. Məhz bu nöqteyi-nəzərdən regional inkişaf

fərqliliyinin ortaya çıxma səbəblərini və onun sosial-iqtisadi-siyasi nəticələrini araşdırmağa ehtiyac vardır.

Material və metodlar

Regionların inkişaf səviyyəsindəki fərqlərin meydana gəlməsinin tarixi köklərini araşdırarkən sosial-iqtisadi inkişafın və ya yüksəlişin müəyyən ölkələrdə və əsasən bu ölkələrin fərqli xüsusiyyətləri ilə seçilən regionlarında baş verdiyini görürük. İqtisadi inkişafın hər yerdə eyni zamanda baş verməsinin mümkünsüz olduğu və təsadüf nəticəsində müəyyən bir regionda – təbii ehtiyatların zəngin və coğrafi mövqenin əlverişli olduğu regionda başladığı, bazar güclərinin bu region ətrafında toplandığı və tədricən müəyyən bir səviyyəyə çatdıqdan sonra bu region ətrafında yayılmağa başladığı görülməkdədir (Aydalot P., 1965).

Qeyd etdiyimiz kimi, müəyyən bir regionda başlayan iqtisadi inkişaf bazar subyektlərinin həmin region ətrafında toplanmasına səbəb olur. Bazar subyektlərinin, başqa sözlə desək, bazar güclərinin inkişafda olan region ətrafında toplanmasının iki səbəbi var:

1. İqtisadiyyatdakı mövcud "bazar boşluqları"ndan maksimum yararlanmaq istəyən müəssisələr istehsal həcmini optimal səviyyəyə çatdırmaq üçün yeni investisiya qoyuluşlarına getməlidirlər. Beləliklə, hər hansı bir müəssisənin iqtisadiyyatdakı mövcud vəziyyətdən maksimum yararlanmaq istəyi müəssisənin fəaliyyət göstərdiyi regionda iqtisadi fəallığını artırmış olur.
2. Zəngin təbii ehtiyata və əlverişli coğrafi mövqeyə malik olan regionun ətrafında toplanmağın verdiyi üstünlüklərdən yararlanmaq üçün müəssisələr eyni bir regionda toplanmağa meyl göstərirlər. Başqa sözlə desək, yeni yaradılan və ya formalaşdırılan müəssisələr xarici ticarətin formalaşdığı regionlarda toplanmağa meyl edirlər.

Bəzi regionlarda ixracyönümlü iqtisadiyyatın formalaşması yeni bir coğrafi toplanma təsiri yaradır. Buna "toplanma təsiri" adı verilir (Eraydın A., 1982). Bu toplanmanın təsiridir ki, müəssisələrin fəaliyyət göstərməsi üçün zəruri olan çoxlu sayda xidmət növlərinin var olduğu böyük məskunlaşma mərkəzləri qurulur. Qeyd edək ki, bu böyük mərkəzlərdə bir ailənin bütün üzvləri öz ixtisaslarına uyğun iş tapa bilərlər. Bu da gələcək köç üçün başlıca zəmindir.

Nəticə etibarilə, iqtisadi inkişafın "keçmiş texnik" dövründən başlayaraq haliyəyədək müəssisələrin, biznesmenlərin böyük əksəriyyətinin öz iqtisadi fəaliyyətlərinə əlverişli şəraitə malik regionlarda başladıqlarını görürük. Beləliklə, bəzi regionlarda başlayan toplanma hərəkatı artaraq bu regionları inkişaf etdirməkdədir. İnkişaf nöqtəsindən və ya ərazisindən yoxsul digər regionlarda isə durğunluq, hətta geriləmə müşahidə olunmaqdadır. "İnkişaf qütbləri" nəzəriyyəsinə əsasən inkişaf nöqtəsi və ya ərazisi ətrafında sosial-iqtisadi hərəkətliliyin gedərək artması və bunun nəticəsində regionlararası fərqlərin meydana çıxması iqtisadi inkişafın bir şərtidir. İqtisadi inkişaf nəticəsində meydana gələn regionlararası gəlir bölgüsündəki fərqlilik, başqa sözlə desək, ədalətsizlik heç də yaxşı hal deyildir. Qeyd edək ki, qaçınılması mümkünsüz olan və sosial ədalət baxımından istənilməyən bu halı qısa müddət ərzində aradan qaldırmaq lazımdır. Çünki inkişaf etməkdə olan region digər regionların inkişafına mənfi istiqamətdə təsir göstərir.

Aparılan araşdırmalar göstərir ki, müxtəlif səbəblərdən inkişaf etməyə başlayan region ətrafındakı digər regionların inkişafına mane olur. Bu mənfi təsirlərə əsasən digər regionlardan inkişaf edən regiona doğru olan fəal işçi axınını, kapital transferini, durğun regionlardakı ənənəvi sənaye sahələrinin iflasa uğramasını və s. göstərmək olar.

İnkişaf edən regionda baş verən iqtisadi canlanma iş yerlərinin artmasına, əmək haqlarının yüksəlməsinə və həyat səviyyəsinin yaxşılaşmasına səbəb olur. Həyat səviyyəsinin yüksəkliyi və rahatlığı, çeşidli boş iş yerlərinin olması ilə fərqlənən inkişafda olan region digər regionlardakı əhalini özünə cəlb edir. Ətraf regionlardan inkişaf edən regiona doğru olan bu axında gizli və açıq işsizlərlə yanaşı, ilk əvvəl iqtisadi fəal əhali kateqoriyasına daxil olan ixtisaslı kadrlar iştirak etməkdədirlər. Ətraf regionlardakı təşəbbüskar və sahibkarlıq ruhuna malik, ancaq yaşadığı regionu özü üçün əlverişli hesab etməyən şəxslər – başda gənclər olmaqla yüksək ixtisaslı və peşəkar işçilər ilk axın edənlər sırasındadırlar.

Gənc və işgüzarlıq ruhuna sahib fəal və peşəkar kadrlarını itirən ətraf regionlar inkişaf potensiallarını itirərək mövcud inkişaf səviyyələrini belə qorumaqda çətinliklərlə qarşılaşırlar. Reallıqda bu hərəkət regionlar arasında baş verən beyin axınından başqa bir şey deyildir. Bu iş qüvvəsinin axını nəticəsində inkişafın başlanğıc mərhələsində olan region "gələcəyin işgüzarları" potensialına malik olmaqla yanaşı bu mütəxəssislərin sayəsində daha sürətlə inkişaf edir.

İqtisadi fəal işçi axınının bir digər təsiri işçi axını ilə üzləşən regionda köç edən işçilərin istehsaldakı səbəb olduqları əlavə dəyərin və buna əlavə olaraq istehlak həcminin azalmasıdır ki, son nəticədə, işçi axını ilə üzləşən regionun gəlirləri azalacaqdır. Tam əksinə olaraq işçi axınını qəbul edən regionun gəlirləri axın edən insanların istehlak səviyyəsi ilə əlaqədar artır. Beləliklə, işçi axını ilə üzləşən regionun gəliri azalır, işçi axınını qəbul edən regionun gəlirləri artır. Bu da regionlar arasındakı regional fərqliliyin bir forması olan gəlir bərabərsizliyinin daha da artmasına səbəb olacaqdır.

Qeyd edək ki, təşəbbüskar və işgüzarlıq ruhuna sahib fəal mütəxəsislərin durğun regionlardan inkişaf edən regionlara doğru axını özü ilə bərabər kapital axınına səbəb olur. Belə ki, durğun regionlardan inkişaf etmiş regionlara axın edən fəal mütəxəsislər əllərindəki kapitalı da özləri ilə birlikdə aparırlar. İnkişaf edən regionda meydana gələn iqtisadi hərəkətlilik, yüksək tələb və sərmayə qoymaq üçün artan imkanlar durğun regionlarda az miqdarda olsa belə ənənəvi sənaye və kənd təsərrüfatı fəaliyyəti nəticəsində əldə edilən gəlirin yığıma yönəldilən və ya qənaət edilən hissəsini özünə cəlb edir. Bunun səbəbi durğun regionlarda qənaət nəticəsində əldə edilən vəsaitin dəyərləndirilməsi imkanlarının məhdud olmasıdır. Həmçinin durğun regionlarda mövcud olan və yetərincə inkişaf etməmiş banklar onlara əmanət edilən vəsaitləri inkişaf edən regionlara transfer edərək dəyərləndirirlər (Dinler Z., 2012).

İnkişaf edən region ilə durğun region arasındakı ticarət durğun regionun əleyhinə olub mövcud ənənəvi iqtisadi fəaliyyətləri zəiflədir. İnkişaf edən regionda böyük həcmli və daha yüksək verimliliklə işləyən modern sektorların gedərək artması və bu sektorların öz məhsullarını durğun regionlara satması bu regionlardakı mövcud iqtisadi fəaliyyətləri iflasa sürükləyir. Belə ki, durğun regiondakı ənənəvi istehsalçıların istehsal etdikləri əmtəələr inkişaf edən regionlardan gələn əmtəələrdən həm aşağı keyfiyyətli, həm də baha olduğundan özünə alıcı tapa bilmir.

Dünya təcrübəsi göstərir ki, xüsusilə az inkişaf etmiş ölkələrdə inkişaf edən regionlardakı sənaye sahələri digər regionlardan xammal təminatına dayanmayan mallara yönəlmişlərsə, durğun region inkişaf edən regionun varlığından zərərli çıxacaqdır. Çünki nisbətən az inkişaf etmiş regionlar daha əvvəl ölkə hüdudları kənarından ucuz qiymətə idxal etdikləri sənaye malları əvəzinə inkişafda olduğu üçün gömrük qanunları ilə qorunan inkişaf edən regionda istehsal edilən malları daha baha qiymətə satın almaq məcburiyyətində qalacaqdır. Bu gün bir çox az inkişaf etmiş ölkənin nisbətən inkişaf etmiş regionlarında istehsalına başlanan və inkişaf etmiş regiondakı müəssisələri qorumaq məqsədilə idxalı tamamilə qadağan edilən istehlak mallarını buna misal göstərmək olar.

Əldə olunan nəticələr

Bir amili yadda saxlamaq lazımdır ki, bu təhlil qısa zaman kəsimi üçün doğrudur. Uzun zaman kəsimində inkişaf etmiş regiondakı iqtisadi subyektlər və onların həyata keçirdikləri iqtisadi fəaliyyət geri qalmış regionlara doğru irəliləyəcək və regionlararsı inkişaf səviyyəsindəki fərqlər tədricən azalacaqdır. Başqa sözlə desək, qanunla qorunan sənaye fəaliyyətləri uzun zaman kəsimində bütün regionların inkişafını təmin edəcəkdir.

Hər bir ölkədə hansı iqtisadi sistem tətbiq edilirsə edilsin hər bir iqtisadiyyatın həll etmək məcburiyyətində olduğu təməl iqtisadi problemlərdən biri ölkədə həcmi məhdud olan istehsal amillərinin tamamının istehsalda iştirakını təmin etməkdir. Hər hansı bir ölkədəki resursların tam istifadəsi geniş mənada bütün istehsal amillərinin istehsal dövriyyəsinə cəlb edilməsi deməkdirsə, dar mənada ölkədəki bütün iş qüvvəsinin istehsal prosesində iştirak etməsidir. Qeyd edək ki, əgər bir ölkədəki regionlararası inkişaf fərqləri nəzərə çarpacaq səviyyəyə çatmışsa, deməli inkişaf baxımından geri qalmış regionlardakı istehsal amillərindən tam istifadə olunmur və bu səbəbdən tam məşğulluqdan söhbət belə gedə bilməz. Əgər bir ölkədə tam məşğulluq təmin edilə bilməmişsə və

işsizlik problemi varsa, sözü gedən ölkədə ÜDM-nin həcmi və dolayısı ilə rifah səviyyəsi aşağı düşəcəkdir. Nəticə etibarilə bir ölkənin geri qalmış regionlarında işsizliyin var olması rifah itkisinin başlıca göstəricisidir.

Bir ölkənin regionları arasında iqtisadi inkişaf fərqlərinin olması və bu fərqin getdikcə artması və ya mövcud fərqin azaldılması istiqamətində tədbirlərin görülməməsi mühüm mənfi sosial nəticələr doğurur. Hər şeydən əvvəl, qeyd edək ki, iqtisadi fərqlilik eyni səviyyədə sosial fərqlilik yaradır. Belə ki:

- inkişaf etmiş regionlarda iş imkanlarının çox olması həm işsizlik səviyyəsinin aşağı, həm də əmək haqlarının yüksək olmasına səbəb olmaqdadır. İnkişaf baxımından geri qalmış regionlarda isə iş imkanları məhdud olduğundan açıq və gizli işsizlik səviyyəsi artır. Bu səbəbdən bu bölgələrdə gəlirlər aşağı və yaşam şərtləri son dərəcə çətindir. Bu bölgə insanlarının yeganə çıxış yolu doğulub böyüdükləri yerləri, ata və analarını, dostlarını buraxıb iş imkanlarının çox olduğu və əmək haqlarının yüksək olduğu inkişaf etmiş regionlara köçməkdir.
- inkişaf nöqteyi-nəzərindən geri qalmış regionda istehsalın, əmək haqların və dolayısı ilə satınalma gücünün aşağı olması bu regionlarda sosial xidmətlərin inkişaf etməməsinə səbəb olur. Bu regionlarda sağlıq xidmətləri geridir, təhsil xidmətləri kifayət qədər inkişaf etməmişdir, mədəni fəaliyyətlər son dərəcə məhduddur. Sağlıq müəssisə və xidmətlərinin yetərsizliyi xəstəliklərin müalicəsində gecikmələrə, zaman itkisinə və nəticə etibarilə iş qüvvəsinin məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Dünya standartlarına uyğun sağlıq sisteminin yaradıla bilməməsi inkişafdan geri qalmış regionda uşaq ölümünün artmasına, təbii artım səviyyəsinə və s. səbəb olur. Bu qeyd etdiklərimiz isə məcburi köçün başlıca səbəbinə çevrilir (Myrdal G., 1959).
- dövlət iqtisadi israfın qarşısını ala bilmək üçün infrastrukturun yenilənməsinə və ya yaradılmasına investisiya qoyuluşlarını inkişaf etmiş regionlardan başlayaraq inkişafdan geri qalmış regionlara doğru yönəldir.

Müzakirə

Gördüyümüz kimi, iqtisadi inkişaf nöqteyi-nəzərindən geri qalmış regionlardakı infrastrukturun və sosial xidmətlərin yetərsiz olması, eyni zamanda, satınalma gücünün aşağı olması sahibkarlıq subyektlərinin aktiv fəaliyyətə keçməsi üçün əlverişsiz şərtlərdir. Yeni müəssisələrin regionda yaradılması üçün zəminin olmaması, onların regionda fəaliyyət göstərə bilməməsi burada əlverişsiz şərtlərin davam etməsinə və bölgə əhalisinin bu ərazidən köçüb getməsinə səbəb olur. Regional fərqliliyin sosial təhlükəsi bu halda özünü daha bariz şəkildə büruzə verir. Məsələn, inkişaf baxımından geri qalmış regionlara universitetləri bitirmiş gənc və ixtisaslı kadrları belə göndərmək çətinləşir. Bu cür regionlara təyin edilənlər bölgəyə getməkdənsə, işsiz qalmağı üstün tuturlar. Respublikamızın inkişafdan geri qalan ucqar dağlıq rayonlarında ixtisaslı və gələcək vəd edən potensiallı kadrların çatışmaması yuxarıda qeyd etdiyimiz problemlərdən irəli gəlir. Bu səbəblə respublikamızda bu regionlara göndərilən kadrlar iqtisadi baxımdan stimullaşdırılır.

Son olaraq qeyd edək ki, sürətli inkişaf dövrünü yaşayan respublikamızda bu inkişafdan qaynaqlanan regionların inkişaf səviyyəsindəki fərqlilik problemi həll edilməsi vacib bir məsələ kimi regionların sosial-iqtisadi inkişafı haqqında dövlət proqramlarında qarşıya qoyulmuşdur.

ƏDƏBİYYAT

1. Aydalot P. “Note sur les Economies Externes et Quelque Notions Connexe” **Revue Economique**, №6, November, 1965.
2. Eraydın A. Bölgesel Gelişme. Ankara, 1982.
3. Zeynel Dinler. Bölgesel iktisat. Bursa, 2012.
4. Myrdal G. Theorie Economique et Pays Sans-developpees. Paris, 1959.

SUMMARY

Adalet Taghiyev

DIFFERENCES BETWEEN REGIONS AND SOCIO-ECONOMIC CONSEQUENCES OF UNREGULATED DIVERSITY

The main purpose of the research is to investigate the process of emerging inter-regional socio-economic diversity problem, that can't be escaped and undesirable from social justice point of view, to show the negative effects of the problem of regional disparities, giving suggestions for reducing the existing differences in the development of the regions.

The research has done on the basis of positive approach, scientific abstraction and statistical analysis.

As a result of the research, the current situation of regional reforms played an important role in ensuring the sustainable development of the Azerbaijani economy was investigated by the Nakhchivan Autonomous Republic, analyzed the results of economic reforms carried out within the socio-economic development of the regions, reducing the differences in the development levels of the regions and solving the employment problem were examined and the problems arising in this side were considered.

Research restrictions: the need for joint use of many subjects (demography, sociology, history, geography, etc.) on regional research.

The practical importance of the research: can play an important role in raising the level of scientific and practical knowledge of researchers at regional level.

The scientific innovation and originality of the research : the involvement of regional resources into economic turnover, the specific essence of the regions in the country's economy, the social needs of the regions and the improvement of employment problems should be investigated as a condition of economic development of the problem of regional disparities caused by the socio-economic development of the regions.

Key words: *regional economy, regional development, regional differences, regional balance, employment.*

ELVİN QƏNBƏRLİ
elvinqenberov38@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-0256-1932

KİÇİK BİZNESİN İNNOVATİV İNKİŞAF FAKTORLARININ İQTİSADİ ARTIMA TƏSİRİ

İndiki vaxtda biznes üçün innovasiyaların əhəmiyyəti günü-gündən artır. Xüsusilə KOBİ-lərin strukturlarına görə sahib olduqları çatışmazlıqları aradan qaldıra bilmələri və rəqabətli və sürətlə dəyişən mühitdə fərq yaradaraq davamlılığını davam etdirmələri onların edəcəkləri yeniliklərlə sıx bağlıdır. Daimi dəyişiklik və gərgin rəqabət mühitində innovasiyaların biznes üçün əhəmiyyəti günü-gündən artır. Bizneslərdə artan məhsuldarlığa və davamlı gəlirliyə nail olmaq qloballaşan bazarlarda innovasiya təcrübələri ilə mümkündür.

İnnovasiya biznesin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılmasında çox mühüm vasitədir. Yenilik sayəsində xərclərini azalda bilən müəssisələr; qiymət üstünlüyü, rəqiblərinə qarşı məlumatlılıq və üstün keyfiyyət kimi üstünlüklər qazana bilər. İri müəssisələrin rəqibləri olan KOB-lar; Onlar öz məhsullarında, proseslərdə, marketinq metod və texnikalarında və təşkilati strukturlarda innovasiyalardan faydalanmalıdırlar.

Tədqiqatın məqsədi KOB-ların innovasiyaya münasibətinin müəyyən edilməsi innovasiya təcrübələrinə mane olan daxili və xarici amilləri müəyyən etməyə yönəlib. Qeyd olunan amillər arasında əlaqələr araşdırılmağa çalışılmışdır. Bu məqalədə kiçik bizneslərin xüsusiyyətləri, innovativ fəaliyyətin iqtisadi artıma təsiri araşdırılmış, nəticə və təkliflər verilmişdir.

Açar sözlər: *İnnovasiya, gəlirlilik, marketinq, biznes, texnologiya*

Giriş

İqtisadi və texniki baxımdan sürətlə dəyişən və dinamik bir mühitdə olan biznes subyektləri ancaq özləri dəyişmə vəziyyətində olduqda sağ qala və məqsədlərinə çata bilərlər. Xüsusilə qlobal rəqabətlə ölkə iqtisadiyyatında və sənayesində yeri və əhəmiyyəti günü-gündən artan kiçik və orta bizneslər (KOB) bu dəyişikliklərə iri müəssisələrə nisbətən daha çox məruz qalırlar. Keyfiyyət, çeviklik və sürətli istehsal sahələrində gərgin rəqabət mühitində kiçik bizneslər ancaq innovativ yanaşma tətbiq etməklə fəaliyyətin davamlılığını təmin edə bilərlər. İnnovasiyalar iqtisadi artımın, artan məşğulluğun və həyat keyfiyyətinin mühüm mənbəyidir. Bu gün sürətlə dəyişən rəqabət mühitində sağ qalmaq üçün müəssisələr öz məhsullarını, xidmətlərini və istehsal üsullarını daim dəyişməli və yeniləməlidirlər. Bu səbəbdən innovasiyaların ölkələrin inkişafında və biznesin uğurunda böyük yeri var.

2. İnnovasiya və kiçik bizneslər

İnnovasiya yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsul (mal və ya xidmət) və ya prosesin - yeni marketinq metodu və ya biznes təcrübələrində, iş yerinin təşkilində, xarici əlaqələrdə yeni təşkilati metodun tətbiqidir (OSLO Guide, 2005). Keith və Theodore (1984) innovasiyanı ixtira ilə başlayan, bu ixtiranın inkişafı ilə davam edən və onun bazara yeni məhsul, proses və ya xidmət kimi daxil olması ilə nəticələnən proses kimi müəyyən edirlər. Müəssisələr üçün innovasiya - xərcləri minimuma endirmək, gəlirliliyi davamlı şəkildə artırmaq, keyfiyyətli standart məhsullarla xidmət göstərmək və bütün idarəetmə proseslərini təkmilləşdirmək imkanı kimi qəbul edilə bilər. Bu mənada innovasiya müəssisələrin öz məhsullarını, proseslərini, marketinq və təşkilati fəaliyyətlərini yeniləməklə kommersiya faydaları yaradan təşəbbüslərinin nəticəsidir.

Madrid-Guijjaro innovasiya və rəqabətqabiliyyətlilik arasında sıx əlaqələri həm mikro, həm də makro səviyyələrdə araşdıraraq bildirmişlər ki, “Bizneslər rəqabətədavamlı olmaq və böyümək üçün texnoloji imkanlarından tam istifadə etməlidirlər” (Kotey və Sorensen, 2014. s.407).

Müasir rəqabət mühitində müştərilərin tələbat və tələbləri, eləcə də istehsal xərcləri müəssisələri yenilik etməyə məcbur edir. Şirkətlər daha az xərclə, daha keyfiyyətli və daha səmərəli məhsul və ya xidmətlər təqdim etməyə çalışırlar. Atılan addımlar nəticəsində, innovasiyalar biznesə öz bazar gücünü artırmağa və daha çox yeni bazarlar tapmağa imkan verəcək. Yeni iş imkanları ilə "sektorundan və ölçüsündən asılı olmayaraq bütün şirkətlərin yenilik etməsi qaçınılmazdır" (Elçi, 2006. s.31-32).

Ümumiyyətlə, innovasiya kiçik biznes üçün "davamlı inkişaf vasitəsi" kimi qəbul edilir. "Sahibkarlıq subyektləri üçün innovasiyaların əhəmiyyəti" aşağıdakı kimi ifadə edilir (www.fka.gov.tr):

4. Məhsuldarlığın artımı;
5. Rəqabət üstünlüyü;
6. Tarazlığın əldə olunması;
7. İnstitusionallaşma və markalaşma;
8. Tədqiqat və inkişafa istiqamətlənmə.

Kiçik bizneslər məşğulluğun yaradılması, iqtisadi artım və inkişaf etməkdə olan və inkişaf etmiş iqtisadiyyatların iqtisadi dinamikası baxımından mühüm elementlərdir. Kiçik bizneslərin bu töhfələri verə biləcəyi ən mühüm vasitələrdən biri, məhz onların innovasiyaları həyata keçirmək bacarığıdır. Müxtəlif ölçülü bizneslər arasında kiçik bizneslər, ümumiyyətlə, daha çevikdir, daha yaxşı uyğunlaşma bacarığına malikdir, müştərilərinə daha yaxındır və yeni ideyalar hazırlamaq və həyata keçirmək ehtimalı daha yüksəkdir. Sadə təşkilati struktur və aşağı risk qavrayışları əslində onların yenilikçi olmasını asanlaşdıran əsas xüsusiyyətlərdir. Kiçik bizneslərin innovasiya qabiliyyəti getdikcə daha da əhəmiyyət kəsb edir. Çünki innovasiyalar ölkədə və regionlarda biznesin rəqabət qabiliyyətinin amili kimi geniş şəkildə qəbul edilir. Texnoloji innovasiya mikro səviyyədə ayrı-ayrı müəssisələrin böyüməsini stimullaşdırmaq və makro səviyyədə sənaye artımına yeni ölçü əlavə etmək potensialına malikdir. KOM-ların çevik strukturları innovasiya fəaliyyətləri üçün böyük şirkətlərə nisbətən daha çox üstünlüklər təmin edir. Texnologiya, istehsal üsulları və marketinq kimi yeniliklərə daha asan uyğunlaşa bilən KOBİ-lər innovativ fəaliyyət nəticəsində əldə edilən məhsulu asanlıqla kommersiyalaşdıra bilərlər. İnnovasiyaya əsaslanan strategiyalar iqtisadi inkişaf üçün əhəmiyyətli töhfələr verərək kiçik bizneslərin rəqabət qabiliyyətini artırır və qorunma və davamlılığa zəmanət verir (Bozkurt və Kalkan, 2014. s.190).

3. Kiçik bizneslərdə innovasiya strategiyaları

Strecker görə; İnnovasiya strategiyası innovasiya fəaliyyətindən asılı olaraq biznesin etdiyi strateji seçimlərin cəminə aiddir. Vey və Vanq deyirlər ki, innovasiya strategiyası biznesin təşkilat daxilində innovasiyanın təşviqi və qiymətləndirilməsini əks etdirir. Dodgson belə nəticəyə gəldi ki, innovasiya strategiyası resursların biznesin innovasiya məqsədlərinə çatmaq üçün necə istifadə olunacağına rəhbərlik edir və bununla da rəqabət üstünlüyü və əlavə dəyər təmin edir. İnnovasiya strategiyası müəssisələrə korporativ məqsədlərə ən yaxşı uyğun gələn innovasiya növünə qərar verməyə kömək edir (Sattalamaksa və Sakun, 2015. s.108-109).

KOB-lar rəqabət mühitində mövcudluğunu qorumaq və mövqelərini qorumaq üçün innovasiyalara önəm verməlidirlər. KOB-ların innovasiya strategiyaları ilə qlobal arenada rəqabət üstünlüyü əldə etməsi mümkündür. KOB-ların bəziləri, tamamilə yenilikçi strategiyalar müəyyən edir. Digər tərəfdən, bəzi KOB-lar böyük müəssisələrin üstünlük vermədiyi sahələrdə yenilik axtarırlar ki, bununla da, innovasiyaların patentləri hesabına gəlir əldə etmiş olurlar. Bunun baş verməsi üçün kiçik və orta bizneslər bazara və texnologiyaya ciddi nəzarət etməlidirlər.

4. Nəticə və təklif

Kiçik biznesdən gələn innovasiyalar iqtisadi artıma müsbət təsir göstərə bilər. İnnovasiya rəqabət üstünlüyü təmin etməklə biznesin inkişafına töhfə verə biləcək yeni ideyaların, məhsulların, proseslərin və ya biznes modellərinin inkişafı deməkdir. Aşağıda qeyd olunan amillərin reallaşdırılması kiçik biznesin iqtisadi artıma təsirlərini daha effektli və səmərəli edə bilər:

• *Rəqabət Üstünlüyü:* İnnovasiya kiçik bizneslərə rəqiblərindən fərqlənməyə imkan verir. Yeni və unikal məhsul və ya xidmətlər təklif etməklə müştəriləri cəlb edə və mövcud müştəriləri saxlamaqla rentabellik artırıla bilər.

• *Məhsuldarlığın Artması:* İnnovasiyalar biznes proseslərini daha effektiv və səmərəli etməyə kömək edə bilər. Bu xərcləri azalda, mənfəət marjasını artıra və rəqabət üstünlüyü təmin edə bilər.

• *Bazarın genişləndirilməsi:* İnnovativ məhsullar və ya xidmətlər yeni bazarlara girişi asanlaşdıra bilər. Bu, biznesinizin böyümə potensialını artıra və yeni gəlir mənbələri yaratmağa imkan verə bilər.

• *Müştəri Məmnuniyyəti:* Yenilikçi həllər müştəri məmnuniyyətini artıra bilər. Müştərilərin ehtiyaclarına daha yaxşı cavab verə bilmək onların sədaqətini artıra bilər və müsbət müştəri təcrübəsi biznesin imicini gücləndirə bilər.

• *Məşğulluq imkanları:* İnnovasiya biznesin böyüməsi üçün yeni iş yerləri yaratmaq potensialına malikdir. Bu, yerli iqtisadiyyata müsbət töhfə verə bilər.

• *Texnoloji Tərəqqi:* İnnovasiya çox vaxt texnoloji tərəqqi ehtiva edir. İnnovativ texnologiyalar biznes proseslərini təkmilləşdirə və daha sürətli, daha səmərəli işləməyə imkan verə bilər.

• *Davamlılıq:* Yenilik ekoloji və sosial davamlılığı artırmaq üçün istifadə edilə bilər. Daha ekoloji cəhətdən təmiz məhsulların və ya istehsal üsullarının mənimsənilməsi biznesin uzunmüddətli uğurunu dəstəkləyə bilər.

Bununla belə, innovasiyanın uğurlu olması üçün müvafiq biznes mühiti, resurslar və idarəetmə strategiyaları tələb olunur. Bundan əlavə, risk götürmək bacarığı və çeviklik də mühüm amillərdir. İnnovasiya zamanla dəyişən bazar şərtlərinə uyğunlaşma qabiliyyətini nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Oslo Klavuzu (2005): Yenilik Verilerinin Toplanması ve Uygulanması İçin İlkeler, Baskı, OECD ve Eurostat Ortak Yayımı, Tübitak, Ankara
2. Keith E.L.; Theodore G.J. (1984): "Characterization of Innovations Introduced on the U.S: Market in 1982", The Futures Group, U.S: Small Business Administration, Contract No. SBA-6050-0A-82, March
3. Elçi Ş. (2006). İnovasyon: Kalkınmanın ve Rekabetin Anahtarı, (7.Baskı), Meteksan Bilişim Grubu, BT Haber, s.27-150
4. www.fka.gov.tr. FKA. (2010). Güravşar Gökçe, S. İnovasyon Kavramı ve İnovasyonun Önemi. Erişim Tarihi: 23.09.2017
5. Kotey B. ve Sorensen A. (2014). Barriers to Small Business Innovationin Rural Australia. Australasian Journal of Regional Studies. 20(3): s.405-429
6. Bozkurt Ö.Ç., Kalkan A. (2014). Business Strategıes of SMEs, Innovatıon Typ and Factors Influencing their Innovatıon: Burdur Model. Ege Akademik Bakış. 14(2): s.189- 198
7. Sattayaraksa T., Sakun B. (2015). Astudy of CEO Transformational Leadership, Organizational Factors and Product Innovation Performance: Scale Development and a Theoretical Framework.7(2): s.107-125

SUMMARY

Elvin Qanbarli

IMPACT OF SMALL BUSINESS INNOVATIVE DEVELOPMENT FACTORS ON ECONOMIC GROWTH

Nowadays, the importance of innovation for business is increasing day by day. In particular, the ability of SMEs to overcome their structural deficiencies and to remain sustainable in a competitive and rapidly changing environment is closely related to the innovations they will make. In an environment of constant change and intense competition, the importance of innovation for

business is increasing day by day. Achieving increased productivity and sustainable profitability in businesses is possible through innovation practices in globalized markets. This article examines the characteristics of small businesses, the impact of innovative activity on economic growth, and gives conclusions and suggestions.

Innovation is a very important tool in increasing business competitiveness and efficiency. Businesses that can reduce their costs thanks to innovation; it can gain advantages such as price advantage, competitive awareness and superior quality. SMEs, which are competitors of large enterprises; They should benefit from innovations in their products, processes, marketing methods and techniques, and organizational structures.

The purpose of the study is to determine the attitude of SMEs to innovation and to identify internal and external factors that hinder innovation practices. An attempt was made to examine the relationship and relationship dimensions between the mentioned factors. This article examines the characteristics of small businesses, the impact of innovative activity on economic growth, and gives conclusions and suggestions.

Key words: *Innovation, profitability, marketing, business, technology*

РЕЗЮМЕ

Элвин Канбарлы

ВЛИЯНИЕ ФАКТОРОВ ИННОВАЦИОННОГО РАЗВИТИЯ МАЛОГО БИЗНЕСА НА ЭКОНОМИЧЕСКИЙ РОСТ

В настоящее время важность инноваций для бизнеса возрастает с каждым днем. В частности, способность МСП преодолевать свои структурные недостатки и оставаться устойчивыми в конкурентной и быстро меняющейся среде тесно связана с инновациями, которые они будут внедрять. В условиях постоянных изменений и жесткой конкуренции важность инноваций для бизнеса возрастает с каждым днем. Достижение повышения производительности и устойчивой прибыльности бизнеса возможно благодаря инновационным практикам на глобализированных рынках. В данной статье рассмотрены особенности малого бизнеса, влияние инновационной деятельности на экономический рост, даны выводы и предложения.

Инновации являются очень важным инструментом повышения конкурентоспособности и эффективности бизнеса. Предприятия, которые могут сократить свои расходы благодаря инновациям; он может получить такие преимущества, как ценовое преимущество, осведомленность о конкурентоспособности и превосходное качество. МСП, являющиеся конкурентами крупных предприятий; Они должны получать выгоду от инноваций в своих продуктах, процессах, методах и технологиях маркетинга, а также организационных структурах.

Цель исследования – определить отношение МСП к инновациям и выявить внутренние и внешние факторы, препятствующие инновационной практике. Была предпринята попытка изучить взаимосвязь и аспекты взаимоотношений между указанными факторами. В данной статье рассмотрены особенности малого бизнеса, влияние инновационной деятельности на экономический рост, даны выводы и предложения.

Ключевые слова: *Инновации, рентабельность, маркетинг, бизнес, технологии*

ƏŞRƏF ƏLƏKBƏROV
a.ashraf@ndu.edu.az
CAVİD HƏSƏNLİ
hesenlicavid01@gmail.com
Naxçıvan Dövlət Universiteti

MÜASİR İQTİSADİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN ƏSASLANDIRILMASI

Məqalədə, iqtisadi inkişafın indiki mərhələsində iqtisadi idarəetmənin ən səmərəli metodları və mexanizmlərinin müəyyən olunması, onlardan məqsədyönlü istifadə olunması kimi məsələlər araşdırılmışdır. Sahibkarlıq fəaliyyətinin təşkili və idarə olunması isə bu sahədə perspektivli nəticələrin mühüm ifadəsi olaraq göstərilmişdir. Kiçik və orta sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi müstəvisində sənaye Park və Məhəllələrinin yaradılması, fəaliyyətinin tənzimlənməsi məsələlərinə nəzər salınmışdır. Makroiqtisadi inkişafın təmin olunması proseslərində sənayeləşmə siyasətinin müəyyən olunması, onun sahibkarlıq təşəbbüslərinin stimullaşmasına təsiri imkanları və etibarlı milli iqtisadi quruculuq proseslərində çəkisinin yüksəldilməsi kimi amillər tədqiqatlara cəlb olunmuşdur.

Sahibkarlıq siyasətinin daha da perspektivli olmasında, müasir iqtisadi islahatlar müstəvisində ölkəmizdə həyata keçirilən uzunmüddətli tədbirlərin mühüm əhəmiyyətindən söz açılmışdır. Qeyd olunmuşdur ki, 12 əsas istiqamət üzrə Strateji Yol Xəritələrinin təsdiq olunması, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin təsdiq olunması və digər hüquqi, iqtisadi tənzimləmə vasitələrinin qüvvəyə minmiş olması, bütün tərəflərinə görə milli iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmişdir.

Ölkənin istər regional, istərsə də milli iqtisadiyyat üzrə perspektivlərinin şaxələndirilməsində Sahibkarlıq fəaliyyətinin əhəmiyyətindən, iqtisadi və sosial mahiyyətindən və makroiqtisadi inkişafının təmin olunması proseslərindəki təsirindən elmi əsaslara söykənən müddəalar öz əksini tapmışdır.

Açar sözlər: *Sahibkarlıq fəaliyyəti, dövlət tənzimlənməsi, kəmiyyət göstəriciləri, keyfiyyət meyarları, texnologiyalar, innovasiya, istehsal olunan məhsul və s.*

Sahibkarlıq fəaliyyəti, bütün zamanlar üzrə ölkələrin milli iqtisadiyyatları üçün səmərəli idarəetmə mexanizmlərinin məcmusunu özündə əks etdirməkdədir. Bu, təbii ehtiyatların düzgün qiymətləndirilməsi, iqtisadiyyatın islahatlara potensial səviyyədə hazır olması, regionların iqtisadi inkişaf sahəsində olan resurslarının nəzərə alınması və əlaqəli təsərrüfatçılıq perspektivlərinin üstünlüyü ilə müşayiət olunmaqdadır.

Elmi mənbələrə istinad etdikdə aydın olur ki, sahibkarlığın yaranma və təşəkkül tarixi, əsasən, orta əsrlərdən başlanmaqdadır. Belə ki, bəhs olunan dövrlərdə, xüsusilə təsərrüfat fəaliyyətinin səmərəli istiqamətlərini müəyyən etmiş olan ticarətçilər, tacirlər, sənətkarlar, missionerlər, məhz həmin dövrlər üçün sahibkarlıq fəaliyyətinin nümayəndələri olaraq formalaşmaqda idilər. Hələ XVII yüzilliyin axırlarında ingilis iqtisadçısı Riçard Kontilion əsərlərində və araşdırmalarında "Sahibkar" və "Sahibkarlıq" anlayışlarından istifadə etmiş və onların fərqini, həmçinin mənalandırılmasını irəli sürmüşdür. Sahibkarın, xüsusilə riskli mühitdə təşəbbüslərinə görə seçilmiş olan, fəaliyyətini və yeniliklərini bu əsaslar üzrə qurmağı bacarmış olan şəxsdir (Mahmudov İ.M., 2008, s.16).

Bir sıra mənbələrdə isə sahibkarlıq terminin, "vusinessman" – işgüzar adam, "estrepencur" – sahibkar, "enmpenpuce" – müəssisə kimi sözlərin açıqlamasından irəli gəlmiş olduğu qeyd olunur. Əsaslandırılır ki, istər bizim ölkəmizin, istərsə də xarici ölkələrin iqtisadçıları içərisində bəhs olunan terminlərin elmi və iqtisadi əhəmiyyətinə, eyni zamanda təcrübi əhəmiyyətinə aid olan yanaşmalar irəli sürülmüşdür (Məmmədli O.Q. və İsmayılov F.İ, 2007, s.115).

Sahibkarlıq fəaliyyətinin bir sıra araşdırma vasitələrində mülkiyyət münasibətlərinə xas olan təriflənməsi də irəli sürülməkdədir. Belə ki, göstərilir ki, bu termin mülkiyyət sahibi olan fiziki və hüquqi şəxslərin mənfəət (qazanc) əldə etmək məqsədilə, qanunvericiliklə qadağan olunmayan, təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirmiş olduqları müstəqil fəaliyyət formasıdır (Alıyev İ.H, 1999, s.90).

Sahibkar anlayışının, eyni zamanda firma və müəssisələrin təşkili, həmçinin idarə olunmasında ortaya çıxmış olan risklərin və məsuliyyətin öz üzərində götürən şəxs olduğunu əsaslandıran araşdırma nəticələri də aktuallıq qazanmaqdadır. Göstərilmişdir ki, həm də sahibkarlıq termini də özünü göstərməkdədir ki, bu da hər şeydən əvvəl bir fəaliyyət növüdür və bu terminləri, xüsusilə də iki istiqamətdə fərqləndirmək olar. Bunlardan birini miqyasına, digərini isə fəaliyyətin xarakterinə görə səciyyələndirmək olar (İbadov S.A, 2009, s.82).

Sahibkarlıq termininin təriflənməsində iki sözün birləşməsindən ibarət olan anlayış olduğunu qeyd etmək olar. Göstərilir ki, Sahibkarlıq:

- istənilən bir mülkə, əmlaka, hər hansısa bir şeyə sahib olmanı əks etdirən fəaliyyətin məcmusudur;
- həmin sahib olmanın özünü ortaya qoyan anlayışdır (Vəliyev T.S. və Qafarov Ş.S, 2004, s.198).

Ümumi mənada, yanaşdıqda qeyd etmək olar ki, Sahibkarlıq fəaliyyəti cəmiyyət üzvlərinin şəxsi gəlir və ya mənfəət əldə etməyə yönəldilən, öz riski və öz əmlak cavabdehliyi ilə həyata keçirilən müstəqil təşəbbüskar təsərrüfat fəaliyyətidir. Bu fəaliyyətlə məşğul olanlar sahibkar adlanır (Vəliyev T.S., 1999, s.72).

Sahibkarlıq fəaliyyəti nə, nə üçün, kimin üçün istehsal etmək, təsərrüfat qanunlarının qəbul olunması, məhdud resurslardan istifadənin daha mütərəqqi üsullarının axtarılıb tapılması, daha az xərclə daha keyfiyyətli məhsul istehsalı, yeni xidmət üsullarını tapılması, satışın səmərəli təşkili, istehlakçıların araşdırılması, rəqiblərin hərtərəfli öyrənilməsi və s. ilə bilavasitə bağlıdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir şəxs sahibkarlıq mühitini qiymətləndirməyi bacarmalıdır.

Müasir müstəqillik illərinin bütün mərhələlərində Sahibkarlıq fəaliyyətinin inkişafı faydalı ideyalar və məhsuldar təşəbbüslər əsasında daha da təkmilləşmişdir. Sahibkarlıq fəaliyyətinin uzunmüddətli iqtisadi inkişaf üzrə təşəkkülü, yeni iqtisadi mərhələnin olduqca mühüm tələb və çağırışlarından birini təşkil etməkdədir. Sənayeləşmə siyasətinin səmərəli təşkili və idarə olunması məsələləri, sosiallaşma proseslərinin əlaqəliliyinin nizama salınması, milli iqtisadiyyat üzrə strateji Yol Xəritələrinin icra mexanizmlərinin qərarlaşması, Milli Prioritetlərin dəqiq həyata keçirilməsi sahəsində zəruri təsisatların yaradılması amilləri ilə paralel olaraq daha da mütərəqqi görünməkdədir. Burada onu qeyd etmək olar ki:

- sənayeləşmə siyasətinin təşəkkülü proseslərində, xüsusilə də mikro, kiçik və orta Sahibkarlıq fəaliyyətinin təmin olunması ilə Sənaye Park və Məhəllələrinin yaradılması. Artıq ölkəmizin iqtisadi rayonları üzrə yeddi sənaye Parkı və beş Sənaye Məhəlləsi yaradılmışdır;
- Milli Prioritetlər müstəvisində uzunmüddətli iqtisadi prioritetlərin müəyyən olunması və onun daha da əlçatan olması məqsədilə iqtisadi motivasiya və tənzimləmə mexanizmlərinin nəzərdə tutulması. Bu məqsədlə, vergi və gömrük sahələrində məqsədyönlü tənzimlənmə vasitəsilə dövlət büdcəsinin məsrəflərinin təmin olunması məqsədilə adekvat perspektivlər qərarlaşdırmaqla birlikdə, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına zəmin olmalıdır;
- Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinin müəyyən olunması ilə daha etibarlı iqtisadi idarəetmənin müvafiq təsisatlarının yaradılması. Burada, çoxistiqamətli, müqavimətli və davamlı iqtisadi islahatlara xas olan təşəbbüslərin yer almış olduğu mexanizmlərin mövcud olması nəzərə alınmışdır. Təbii olaraq, bunlar milli iqtisadiyyat üzrə perspektivlərə malik olan ölkəmiz üçün daha da əlverişli olacaqdır.

Bütün bunlardan bir daha aydın olur ki, zəruri və strateji mahiyyətə malik olan sahibkarlıq fəaliyyəti, ölkənin bütün hüquqi tənzimləmə mexanizmlərində aktual bir mahiyyət kəsb edir və milli

iqtisadiyyat üzrə uzunmüddətli perspektivlər təşkil etməkdədir. Ölkəmizdə məqsədyönlülüklə davam etmiş olan milli iqtisadi quruculuq prosesləri, özünün elmi, hüquqi və perspektivli əsaslarına görə sahibkarlıq fəaliyyətinin etibarlılığını və bu sahədə dövlət tənzimlənməsinin çoxistiqamətli əsaslarını ifadə etməkdədir. Ölkəmizdə 24 aprel 2013-cü il tarixində Sənaye Parkları haqqında Nümunəvi Əsasnamə Azərbaycan Respublikasının Prezidentinin 865 nömrəli Fərmanı, 13 may 2015-ci il tarixində isə Sənaye Məhəlləsi haqqında Nümunəvi Əsasnamə isə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 186 nömrəli Qərarı ilə təsdiq olunmuşdur. Məhz həmin Fərman və Qərarların mühüm mahiyyətini milli iqtisadiyyat üzrə uzunmüddətli perspektivlər müstəvisində sahibkarlıq fəaliyyətinin etibarlı dayaqlarının yaradılması, zəruri infrastruktur təsisatlarının qərarlaşması, regional xüsusiyyətlər nəzərə alınmaqla, istehsal proseslərinin təmin olunmasında kəndlərin, qəsəbə və şəhərlərin iqtisadi resurslarından səmərəli istifadə olunması və bu potensialların artan tələbatlara uyğunlaşdırılması kimi amillər təşkil etməkdədir.

Elmi, nəzəri, iqtisadi və hüquqi baxımdan Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə olunan, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir (7). Aydın olur ki, Sənaye Parkının yaradılmasında zəruri məqsədlərdən biri olaraq bütün tərəflərinə görə fərqlənmiş olan amillərlə yanaşı, eyni zamanda sahibkarlıq fəaliyyətinin səmərəli təşkili və idarə olunması məsələləri də nəzərə alınmışdır. Həmçinin bu sahədə modern texnologiya və avadanlıqların da tətbiq olunması məsələlərinə də diqqət yetirilmişdir.

Sahibkarlıq fəaliyyətinin məqsədyönlü şəkildə olmaqla tənzimlənməsində, onun ideya və təşəbbüslərinin dəstəklənməsində, dövlət tənzimlənməsinin mühüm əhəmiyyətini qeyd etmək olar. Milli iqtisadiyyat üzrə aktual problemlərin həll olunmasında, xüsusilə də istehsal və xidmət bölmələrinin etibarlılığının təmin olunmasında sənayeləşmə siyasətinin mühüm təsirlərini qeyd etmək olar. Məhz bu istiqamətdə Sənaye Parkları ilə yanaşı, Sənaye Məhəllələrinin də zəruri əhəmiyyətini vurğulamaq yerinə düşər. Müxtəlif elmi əsaslandırmalara və hüquqi təsbit mexanizminə görə Sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə olunan ərazidir (7). Buradan da aydın olur ki, Sənaye Məhəlləsinin yaradılması proseslərində də sahibkarlıq fəaliyyətinin makroiqtisadi inkişafda rolunun artırılması məsələlərinə diqqət yetirilmişdir. İqtisadi proseslərin müşahidəsi zamanı bu qənaətə də gəlmək olar ki, istər Sənaye Parkı, istərsə də Sənaye Məhəlləsinin yaradılmasında əsas məqsədlərdən birini də regional və milli iqtisadiyyatların sintezi şəraitində davamlı, müqavimətli və uzunmüddətli inkişafı təşkil etməkdədir.

ƏDƏBİYYAT

1. Alıyev İ., İbadov S. Azərbaycan iqtisadiyyatı. Bakı: 1999, Ağrıdağ
2. İbadov S. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: 2009, Şərq-Qərb
3. Mahmudov İ.M. Sahibkarlığın əsasları. Dərs vəsaiti. Bakı: 2008, Milli Aviasiya Akademiyasının nəşriyyatı
4. Məmmədli O.Q., İsmayılov F.İ. İqtisadi nəzəriyyə. Bakı: 2007, MBM
5. Vəliyev T., Qafarov Ş. İqtisadi nəzəriyyə. Bakı: 2004, Azpoliqraf LTD MMC, 504 s.
6. Vəliyev T.S. və b. İqtisadi nəzəriyyə. Bakı: 1999, Çaşıoğlu
7. Sənaye parkları haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur

SUMMARY

Ashraf Alakbarov, Javid Hasanli

JUSTIFICATION OF ENTREPRENEURIAL ACTIVITY AT THE STAGE OF MODERN ECONOMIC DEVELOPMENT

In the article, at the current stage of economic development, issues such as determining the most efficient methods and mechanisms of economic management and using them purposefully were investigated. The organization and management of entrepreneurial activity is shown as an important expression of promising results in this field. At the level of supporting small and medium entrepreneurship initiatives, the creation of industrial parks and districts and the issues of regulation of their activities were considered. Factors such as determination of the industrialization policy in the processes of ensuring macroeconomic development, its influence on the stimulation of entrepreneurial initiatives, and increasing its weight in reliable national economic building processes have been involved in research.

The important importance of the long-term measures implemented in our country at the level of modern economic reforms in making entrepreneurship policy even more promising was mentioned. It was noted that the approval of the Strategic Roadmaps for 12 main directions, the approval of Azerbaijan 2030: National Priorities for socio-economic development and the entry into force of other legal and economic regulatory instruments have become the driving force of the national economy in all its aspects.

In the diversification of the country's regional and national economic perspectives, the importance, economic and social essence of entrepreneurship, and its impact on the processes of ensuring macroeconomic development have been reflected in the provisions based on scientific principles.

Key words: *Entrepreneurship, state regulation, quantitative indicators, quality criteria, technologies, innovation, manufactured product, etc.*

KƏMİNƏ ORUCƏLİYEVA
kminorucliyeva@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0009-0731-5260

KOMMERSİYA BANKLARI MALİYYƏ BAZARININ SUBYEKTİ KİMİ

Bazar iqtisadiyyatının dinamik inkişafı şəraitində araşdırmamızın aktuallığı kommersiya bankının fəaliyyətində strateji planlaşdırmanın prinsiplərinin, forma və metodlarının elmi təhlilinə və metodiki əsaslandırılmasına obyektiv ehtiyacı ilə müəyyən edilir. Azərbaycan iqtisadiyyatının inkişafında kommersiya banklarının fəaliyyəti əhəmiyyətli olduğundan, onların səmərəli fəaliyyəti olduqca vacibdir ki, bu da banklar daxilində strateji idarəetmənin və planlaşdırmanın necə təşkil olunmasından çox asılıdır.

Azərbaycan bank sisteminin inkişafındakı müasir tendensiyalar, bir tərəfdən bankların likvidliyinin və etibarlılığının artması ilə müşayiət olunur, digər tərəfdən onlar artım dinamikasının yavaşlaması və aşağı gəlirlilik səviyyəsi ilə xarakterizə olunur. Bu, təkcə bank xidmətləri bazarının investisiya cəlbediciliyini deyil, həm də bank sisteminin gələcək kapitallaşmasını məhdudlaşdırır.

Bank rəqabəti beynəlxalq səviyyəyə çatmış, maliyyələşdirmənin xarakterini dəyişdirən yeni maliyyə bazarları yaranmış, banklar öz məhsul və xidmətlərini diversifikasiya etməyə başlamışlar. Kompüter texnologiyalarından istifadə müxtəlif bankların ondan istifadə imkanlarının qeyri-bərabər olması səbəbindən rəqabəti artırdı. Bu cür hadisələr dünyanın bir çox maliyyə bazarları üçün xarakterikdir. Strateji planlaşdırmaya ehtiyac hazırda dünyanın əksər bankları tərəfindən qəbul edilir, çünki bu onlar üçün ən vacib uğur amillərindən birinə çevrilmişdir. Hazırda əksər ölkələrdə, o cümlədən Azərbaycanda həyata keçirilən maliyyə liberallaşdırılması tədbirləri bu tendensiyaları gücləndirir və buna görə də bankların öz rəqabət üstünlüklərinə nail olmaq üçün strateji planlar hazırlaması məqsədəuyğundur.

Kommersiya banklarının fəaliyyətindəki müasir tendensiyalar mühüm təşkilati alət kimi strateji planlaşdırmadan səmərəli istifadə problemlərinin həllinin və qarşıya qoyulmuş problemin həlli üçün bank resurslarından istifadənin təkmilləşdirilməsinin zəruriliyini göstərir.

Açar sözlər: *Maliyyə bazarı, bank sistemi, kommersiya bankları, pul-kredit münasibətləri*

Giriş

Bank sistemi bazar iqtisadiyyatının ən mühüm strukturlarından biridir və pul mexanizmi çərçivəsində fəaliyyət göstərən, hər biri cəmiyyətin tələbatını maksimum dərəcədə artırmağa yönəlmiş müəyyən funksiyaları və əməliyyatları yerinə yetirən milli bankların və kredit təşkilatlarının məcmusudur.

Dünya təcrübəsi göstərir ki, son qırx il ərzində milli bank tənzimləmə sistemlərinin institusional və qanunvericilik əsaslarının müasirləşdirilməsi bank qanunvericiliyinin qarşılıqlı yaxınlaşması, tənzimləmə üsul və mexanizmlərinin unifikasiyası və standartlaşdırılması yolu ilə inkişaf etmişdir. Bu bank işinin təşkilində, onun tənzimlənməsi, nəzarəti sistemlərində informasiya texnologiyaları inqilabı, habelə siyasi fəlsəfənin və 70-ci illərdə Bretton Woods sisteminin böhranının aradan qaldırılması nəticəsində dövlətlərarası pul-kredit münasibətlərinin qurulması konsepsiyalarının köklü dəyişməsi sayəsində mümkün olmuşdur.

Bazar iqtisadiyyatına keçid və real maliyyə bazarının yaradılması son iyirmi il ərzində baş verir və Azərbaycan iqtisadi inkişafın müasir mərhələsində ölkələr üçün xarakterik olan problemlərlə üzləşir. İqtisadi proseslərin qloballaşması fonunda bu çox çətindir. Maliyyə bazarları və xidmətlər birləşərək qlobal bazarı formalaşdırır. Beynəlxalq bazarda hərəkət edərkən kapitalın həcmi sürətlə artır, lakin bunun öz üstünlükləri və mənfi cəhətləri var. Üstünlüklər kapitalın maksimum mənfəət əldə edə biləcəyi, biznesin inkişafının ən dinamik olduğu yerə yönəldilməsi ilə xarakterizə olunur.

Mənfi cəhət ondan ibarətdir ki, əgər xarici investorlar siyasi və iqtisadi qeyri-sabitlik hiss edərlərsə, onlar maliyyə resurslarını tez bir zamanda başqa ölkəyə köçürəcəklər və bununla da müsbət effekt verəcəklər. Buradan belə nəticə çıxır ki, keçid iqtisadiyyatı olan ölkələr, o cümlədən Azərbaycan üçün qloballaşmanın mürəkkəbliklərinin həll olunmamış daxili iqtisadi problemlərin üzərinə qoyulması ilə bağlı problem var (Sabiroğlu N., 2006). Həll edilməmiş daxili problemlərin səbəbləri arasında bank risklərinin, ilk növbədə valyuta və kreditin kifayət qədər ixtisaslı idarə edilməməsi, bir çox Azərbaycan banklarının kifayət qədər kapitalının olmaması və iqtisadiyyatın real sektoru ilə əmək tutumlu və az gəlirli işin zərərinə maliyyə bazarında, o cümlədən sırf spekulyativ əməliyyatlara həddindən artıq həvəsin olmasıdır (Əliyev M.F., 2011, s.15-16).

Bazar münasibətləri şəraitində iqtisadi böhran fonunda bank sektorunun formalaşması bir sıra çatışmazlıqları üzə çıxardı ki, bunlardan da ən mühümü kommersiya banklarının fəaliyyətinin strateji idarə edilməsinin mükəmməl təşkil olunmamasıdır. Buna görə də bu tədqiqatda əsas və birinci dərəcəli vəzifələrdən biri kommersiya banklarında strateji planlaşdırmanın keyfiyyətinin yüksəldilməsi prosesinin öyrənilməsinə yönəldilmiş işdir. Qeyd etmək lazımdır ki, strateji planlaşdırma metodlarının inkişafı ilə yanaşı, bu tədqiqatda kommersiya bankı olan xidmət obyektinin özünün xüsusiyyətlərindən asılı olaraq bu üsullardan istifadənin xüsusiyyətləri hərtərəfli və tam öyrənilməmişdir.

Material və metodlar

Azərbaycan Respublikasında kommersiya banklarının yaradılması və fəaliyyəti "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsaslanır. Qanuna əsasən, "bank – fiziki və hüquqi şəxslərdən əmanətlərə vəsait cəlb etmək, bu vəsaitləri öz adından və öz vəsaiti hesabına geri qaytarılma, ödənişli, təcili, fiziki və hüquqi şəxslərin bank hesablarının açılması və aparılması şərtləri ilə yerləşdirmək kimi bank əməliyyatlarını məcmu olaraq həyata keçirmək üçün müstəsna hüquqa malik kredit təşkilatıdır" (https://e-qanun.az/framework/7588).

Yəni banklar tərifinə görə öz sahəsində fəaliyyətin universallığına yönəlmiş maliyyə təşkilatlarıdır. Banklardan fərqli olaraq digər kredit təşkilatları həmişə daha dar bir əməliyyat spektri təklif edirlər, yəni hər bir belə təşkilat məhdud sayda bazar seqmentlərində fəaliyyət göstərir (Тавасиев А.М., 2015, s.22). Praktikada bank, bir qayda olaraq, maliyyə bazarında bank məhsullarının tam çeşidini təklif edə bilməz. Ona görə də maliyyə bazarında rəqabət qabiliyyətini itirməmək üçün ixtisaslaşdığı xidmətləri, eləcə də müştərilərin istəyi ilə digər əlavə xidmətləri təklif etməklə güzəştə gedir.

Beləliklə, istənilən bank maliyyə bazarının subyekti olmaqla müştərilərin bank məhsullarına olan tələbatını maksimum dərəcədə təmin etmək və onun strateji problemlərini həll etmək məqsədilə maliyyə bazarına xas olan, ölkə qanunvericiliyi ilə icazə verilən müəyyən növ əməliyyatlar həyata keçirir.

Banklar istehsal sferasında fəaliyyət göstərən sənaye, kənd təsərrüfatı və tikintidən fərqli olaraq mübadilə sferasında fəaliyyət göstərirlər. Bankların ticarətlə bağlı olması təsadüfi deyil, çünki banklar faktiki olaraq resursları "alır" və "satırlar", bununla da əmtəə mübadiləsi sferasında fəaliyyət göstərirlər (Mahmudov C.İ., 2011, s.101-102). Bankların öz "satıcıları", "məhsulları" var, onların fəaliyyəti, əsasən, dövriyyədən asılıdır. Bunu valyuta mübadiləsi apararkən, bir ölkənin valyutası müəyyən məzənnə (qiymət) ilə satıldıqda və ya alındıqda qeyd etmək olar.

Kommersiya bankları maliyyə vasitəçiləri adlanan biznes müəssisələrinin xüsusi kateqoriyasına aiddir. Onlar kapitalı, əhalinin əmanətlərini və iqtisadi fəaliyyət prosesində sərbəst buraxılan digər vəsaitləri cəlb edir və əlavə kapitala ehtiyacı olan digər təsərrüfat subyektlərinin müvəqqəti istifadəsinə verirlər. Banklar pul bazarında əmtəəyə çevrilən yeni tələblər və öhdəliklər yaradırlar. Belə ki, kommersiya bankı müştəri əmanətlərini qəbul etməklə yeni öhdəlik - depozit, kredit verməklə isə borcalan üçün yeni tələb yaradır. Yeni öhdəliklərin yaradılması prosesi maliyyə vasitəçiliyinin mahiyyətini təşkil edir. Bu transformasiya bizə təklif olunan və tələb olunan məbləğlər,

onların şərtləri və gəlirliliyi arasındakı uyğunsuzluq səbəbindən əmanətçilər və borcalanlar arasında birbaşa təmasda olan çətinlikləri aradan qaldırmağa imkan verir.

Banklar pul-kredit münasibətləri ilə sıx bağlıdır və onların əsasında "məhsulu kredit və emissiya olan xüsusi müəssisələr sistemi" olan bank formalaşmışdır (Лаврушин О.И., 2023, s.11). Bu bankın strateji planlaşdırmanın obyekti kimi praktikada nə olduğunu izah edən məsələnin nəzəriyyəsidir.

Professor M.S.Maramıqin və E.Q.Şatkovskayanın fikrincə, bankların mahiyyəti və iqtisadiyyatdakı rolu onların təklif etdiyi ən mühüm funksiyalar toplusunun müxtəlifliyində özünü göstərir:

- müvəqqəti sərbəst vəsaitlərin toplanması və onların kreditləşmə yolu ilə fəaliyyət göstərən kapitala çevrilməsi;
- müəssisələrə, dövlətə və əhaliyə kredit verilməsi;
- kredit pulunun verilməsi;
- hesablaşmaların və ödənişlərin aparılması;
- emissiya və təsisçilik fəaliyyəti;
- qiymətli kağızlarla əməliyyatlarda vasitəçilik; bütün növ konsaltinq məlumat xidmətləri;
- etibarlı əmlakın idarə edilməsi;
- bank kapitalının sənaye və kommersiya kapitalı ilə birləşməsinin təmin edilməsi və maliyyə kapitalının fəaliyyətinin təşkili (М.С.Марамыгин М.С., Шатковская Е.Г., 2021, s.365).

Sadalanan funksiyalar iqtisadiyyata və onun inkişafının mütənasibliyinə fəal təsir göstərməyə imkan verir. Hər bir əməliyyat növü bankın xüsusi şöbələrində cəmləşsə də və xüsusi işçilər qrupu tərəfindən həyata keçirilsə də, onlar bir-birinə qarışmışdır. Beləliklə, banklar iqtisadiyyatda əmtəə dövriyyəsini və hesablaşmaları təşkil etmək üçün istifadə olunan ödəniş vasitələri yaratmaqda unikal imkanlara malikdirlər. Qeyd edək ki, yaxşı işləyən nağd hesablaşma sistemi olmadan iqtisadiyyat mövcud ola və inkişaf edə bilməz. Bu hesablaşmaların təşkilatçıları kimi bankların böyük əhəmiyyəti də bundan irəli gəlir. Deməli, iqtisadi inkişaf şəraitində bankların fəaliyyətinin rolu və mahiyyəti əhəmiyyətlidir və kommersiya banklarının fəaliyyətinin səmərəliliyi daha çox banklar daxilində strateji planlaşdırmanın necə təşkil olunduğu ilə müəyyən ediləcəkdir.

Respublikamızda Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına görə, 2023-cü ildə fəaliyyət göstərən kredit təşkilatlarının sayı 117 olub, onlardan 23-ü banklar, 94-ü isə bank olmayan kredit təşkilatlarıdır (https://www.cbar.az/page-188/credit-institutions).

Strateji planlaşdırma metodlarından istifadənin təkmilləşdirilməsi məhz o, banklar üçün aktuallıq kəsb edir ki, onlar müasir iqtisadi transformasiya şəraitində iri, dövlət və xarici banklarla rəqabət aparmalı olurlar. Buna görə də səmərəliliyi və rəqabətqabiliyyətliliyi, əsasən, onların konkret fəaliyyətindən, strateji məqsəd və vəzifələrindən, fəaliyyət prinsiplərindən və potensial imkanlarından asılı olan, homogen səviyyəli iqtisadi parametrlərə malik banklar qrupunu müəyyən etmək lazımdır.

Beləliklə, Azərbaycan banklarının strateji planlaşdırmasının xüsusiyyətləri bankların gələcək fəaliyyət göstəricilərinin asılı olduğu strateji məqsədlər, vəzifələr və istiqamətlər ilə müəyyən edilir. Öz növbəsində məqsəd, vəzifə və istiqamətlər təklif olunan xidmətlər sahəsində onların fərqləndirici xüsusiyyətlərindən və bazarı əhatə etmə dərəcəsindən asılıdır. Əgər kommersiya bankları ixtisaslarına görə qruplara bölünsələr, onların müvafiq fəaliyyət göstəricilərini hansı strateji məqsəd və vəzifələrdən gözlədikləri aydın olur. Kəskin rəqabət şəraitində müxtəlif banklar, müxtəlif inkişaf strategiyaları seçməyə başladılar ki, bu da onların gəlirliliyinə təsir göstərir.

Ən çox yayılmış inkişaf strategiyası çox filiallı bankın formalaşdırılmasını və ya filiallar açmaqla fəaliyyətini genişləndirməyi planlaşdırmağı nəzərdə tutur. O, regionlarda yüksək faiz dərəcələri və yüksək komissiyalarla kreditləşmədən əldə edilən gəlirlər hesabına kifayət qədər yüksək səviyyədə əməliyyat gəliri təmin edir. Lakin bu, əsasən, əməliyyat xərcləri tərəfindən mənimsənilir. Nəticədə, pərakəndə bankların gəlirliliyi orta səviyyədən bir qədər aşağıdır. Bu strategiyanın əks tərəfi, eləcə də əsas əsaslandırması bankın biznesinin sürətli böyüməsi və onun "bazar boşluğu"nun

genişlənməsidir. Gələcəkdə bu qrupa daxil olan bəzi bankların bazar payını artırmaq şansı yüksəkdir. Bununla belə, filial şəbəkəsinin inkişafı dövründə sürətli kəmiyyət artımı ilə deyil, əməliyyatların optimallaşdırılması ilə bağlı sabit inkişaf trayektoriyasına çatana qədər bu banklar ən yüksək gəlirlilik səviyyəsi göstərməyəcəklər.

İqtisadi mühitdə topdansatış yönümlü kommersiya bankları xüsusi rol oynayır. Məhdud sayda böyük müştərilərlə işləmək, ən azı aşağı xərclər hesabına deyil, gəlirliliyi maksimuma çatdırmağa imkan verir. Nəticə etibarı ilə, bu qrup orta səviyyədən yuxarı gəlirliliyə və əməliyyat gəlirinə malikdir. Bu banklar aşağı əməliyyat xərcləri və yüksək mənfəət ilə xarakterizə olunur. Bu "bazar boşluğu"nu maksimum səmərəlilik və səhmdarların kapitalından maksimum gəlir əldə etmək strategiyası xarakterizə edir. Ancaq topdansatış bankları ənənəvi olaraq nisbətən aşağı sürətlə böyüyür və onların bazar payı azalır. Topdansatış ixtisaslaşması bir çox xarici banklar üçün xarakterikdir. Lakin ölkə bazarı üçün çox aşağı faiz dərəcələri ilə kredit vermək Azərbaycanda tam miqyaslı kredit biznesinin inkişafına etibar etməyən xarici bankların gəlirlilik səviyyəsini kəskin şəkildə azaldır.

Maliyyə-sənaye qruplarının fəaliyyəti ilə bağlı əməliyyatların yüksək payına malik banklar tərəfindən ayrıca qrup formalaşır. Bir qayda olaraq, onlar həm pərakəndə satış şəbəkəsi, həm də investisiya əməliyyatları ilə universal bankın inkişafı yolu ilə gedirlər, ümumiyyətlə pərakəndə banklar qrupuna qoşulurlar. Ancaq nisbətən aşağı faiz dərəcələri ilə verilmiş kreditlərin yüksək payı səbəbindən onların əməliyyat gəlirləri və aktivlərə münasibətdə mənfəəti nəzərəçarpacaq dərəcədə aşağıdır. Bununla belə, iri müəssisələr şəklində səhmdarların güclü dəstəyi sayəsində onların artım templəri bazarda ən yüksək göstəricilərdən biri olaraq qalır və onların ortamüddətli perspektivdə liderlik şansları maksimumdur.

Azərbaycan Respublikasının bank sektoru strukturlaşdırılmış forma almağa başlayır, onun tərkibində çox fərqli ixtisaslara və mövqelərə malik banklar var. Sistemin müəyyən yetkinliyi bankın ixtisaslaşması ilə onun səmərəliliyi arasında əlaqənin olmasıyla da ifadə olunur. Bankın strategiyası ilə bağlı amillərin onun gəlirliliyinə təsir göstərmədiyi 1999-2000-ci illərdən bugünkü vəziyyət kəskin şəkildə fərqlənir (https://banker.az/must%C9%99qil-az%C9%99rbaycan-respublikasinin-bank-sisteminin-yaranma-tarixi-v%C9%99-olk%C9%99nin-iqtisadi-inkisafinda-rolu/). Bankların rəqabətqabiliyyətliliyi, müştəri məmnuniyyətinin dərəcəsi, bank fəaliyyətinin gəlirliliyi qarşıya qoyulan məqsəd və vəzifələrin nə dərəcədə əldə olunmasından asılı olacaqdır. Strateji istiqamətlərin əldə olunması bankların əlaqəli riskləri, müştərilərin tələblərini və öz maraqlarını nəzərə almaq üçün öz daxili potensialından nə dərəcədə istifadə etməsindən asılı olacaqdır. Strateji planlaşdırma burada əsas rol oynayır. Çünki tam məlum olmayan xarakteristikalar və parametrlər olan bir vəziyyətdə hərəkət etməyə imkan verdiyindən, həm də əvvəlcədən seçilmiş mümkün həllər toplusunun hüdudlarında optimal həlli axtarmağa imkan verir. Strateji planlaşdırmadan istifadənin əsas problemi ondan ibarətdir ki, qərarın nəticələri müxtəlif amillərdən asılı olduğundan onları proqnozlaşdırmaq mümkün deyildir. Ona görə də təkcə bankın strateji məqsəd və vəzifələrini onun potensial imkanları ilə uyğunlaşdırmaq deyil, həm də strateji planın həyata keçirilməsinin bütün mərhələlərində əlaqəli amilləri və riskləri təhlil etmək və nəzərə almaq vacibdir.

Tədqiqat Azərbaycandakı kommersiya banklarının fəaliyyətində strateji planlaşdırmanın inkişafı problemlərinə ən çox diqqət yetirir. Belə ki, homogen ölçüdə əsas göstəricilər, yuxarıda qeyd edildiyi kimi həm əhaliyə xidmətlər təklif etməkdə, həm də korporativ müştərilər və orta müəssisələrlə əlaqələrin möhkəmləndirilməsində inkişafın universallığına strateji diqqət yetirir. Çünki onlar üçün strateji planlaşdırma təkcə müəyyən edilmiş konkret məqsədlərə, vəzifələrə, istiqamətlərə nail olmaq üçün deyil, həm də bazarda onların daha da böyüməsinə kömək edəcək, optimal pay və mövqe tapmaq üçün zəruri elementə çevrilir.

Qərbdə maliyyə institutlarının əldə etdiyi bilikləri daxili maliyyə sisteminin inkişafına ekstrapolyasiya etsək, onda belə nəticəyə gəlmək olar ki, yaxın gələcəkdə ən iri banklar güclənəcək və miqyas iqtisadiyyatı və güclü sinerji effekt sayəsində orta ölçülü bankları bazardan sıxışdırıb çıxaracaqlar (Botasheva L.S., Tsikisova R.X., 2020, 9 s.). Konkret mövqe və ya geniş müştəri bazası

vasitəsilə əldə edilən unikal gəlir mənbələrinə malik olmayan bankın hazırki vəziyyəti rəqabət mühitinin kəskinləşməsi ilə xarakterizə olunur. Bankın sağ qalması onun rəqabət üstünlüklərinin olması ilə sıx bağlıdır, buna görə də onun gələcək rəqabət qabiliyyəti bankın səmərəli fəaliyyəti üçün şərait yaradan amil kimi strateji planlaşdırmadan istifadə dərəcəsindən asılıdır.

Bununla yanaşı, resursların yüksək qiyməti, yüksək yenidən maliyyələşdirmə dərəcələri və məcburi ehtiyat fonduna ayırmalar, uzunmüddətli resursların çatışmazlığı, pərakəndə bank bazarının infrastrukturunun inkişaf etməməsi, korporativ müştərilər tərəfindən tələbin kifayət qədər olmaması və s. kimi amillər bankın fəaliyyətinin inkişafına maneələr yaratmaqda davam edir. Eyni zamanda bu cür tendensiyalar onların gündəlik fəaliyyətlərində strateji idarəetmə və planlaşdırma aspektlərinin kifayət qədər tətbiq edilmədiyini göstərir. Məhz bu baxımdan kommersiya banklarının fəaliyyətində təkcə gələcəyə yönəlmiş fəaliyyətin strateji istiqaməti izlənilməli deyil, həm də bank fəaliyyətinin müəyyən keyfiyyət strateji və kəmiyyət göstəricilərinə nail olmaq üçün gündəlik iş aparılmalıdır.

Əldə olunan nəticələr

Bank pul-kredit mərkəzi kimi iqtisadi qurum olmaqla təkcə mənfəət əldə etməklə bağlı iqtisadi maraqlarını həyata keçirməməlidir (Лаврушин О.И., 2002, s.4). Bankın məqsədləri daha tutumlu dəyərlər sahəsindədir. Belə ki, bazar şəraitində banklar milli iqtisadiyyatı əlavə pul resursları ilə təmin edən əsas halqadır. Bu kontekstdə onların sosial-iqtisadi əhəmiyyətini itirməməsi üçün bank strategiyasının prioritetləşdirilməsi vacibdir.

1. Bank öz strateji fəaliyyətində maliyyə bazarının subyekti kimi daim müəyyən məqsədlərə nail olmağa yönəlmişdir. A.V.Orlova "Kommersiya banklarında maliyyə planlaşdırması" adlı elmi məqaləsində qeyd edir ki, məqsədlər sistemi A.Maslounun piramidasına uyğun olaraq insanların ehtiyaclarına əsaslanır və onlar iki yerə - iqtisadi məqsədlərə (şəxsi gəliri maksimuma çatdırmaq) və qeyri-iqtisadi məqsədlərə (peşəkar və şəxsi ambisiyaları həyata keçirmək, gücün dolğunluğuna və ictimai tanınmağa çalışmaq) piramidanın ən yüksək zirvəsində dayanırlar. Onun araşdırmalarından belə nəticə çıxır ki, "kommersiya bankının məqsədlər sistemi əsas məqsəddən və əsas məqsədin həyata keçirilməsinə xidmət edən bir sıra köməkçi məqsədlərdən ibarətdir" (https://www.dissercat.com/content/finansovoe-planirovanie-v-kommercheskikh-bankakh). Bankın əsas məqsədi biznesin gəlirliliyinin uzunmüddətli davamlı artımı və müəyyən əməliyyat nəticələrinin əldə edilməsidir. Əlavə etmək lazımdır ki, müasir şəraitdə bankın fəaliyyətinin strateji məqsədi yalnız xərcləri minimuma endirməklə mənfəəti artırmaq deyil, həm də texnoloji, məhsul və təşkilati yeniliklərə əsaslanan strateji üstünlük əldə etməkdir. Banklar məqsədin bank mənfəətini artırmaq kimi klassik təqdimatından diqqəti yeni texnologiyaların axtarışına və istehsalın təşkilinə, risklərin minimuma endirilməsinə və davamlı inkişafa yönəldiblər. Banklar həmçinin öz qarşılarına qeyri-iqtisadi məqsədlər də qoyurlar:

- özünü təsdiq etmək istəyi;
- imicini gücləndirmək;
- uğur əldə etmək;
- inkişafın davamlılığı;
- etibarlı planlaşdırma və proqnozlaşdırma nəticəsində qabaqcadan görə bilənlik;
- qanunverici orqanlar və müştərilər, habelə səhmdarlar, rəqiblər və bank işçiləri ilə münasibətlərdə sosial və etik məqsədlərə nail olmaq.

Müzakirə

Beləliklə, kommersiya bankları təkcə öz maraqlarını deyil, həm də bütövlükdə iqtisadiyyatı təmin edən məqsədlər müəyyən edirlər. Bank fəaliyyəti son nəticədə mənfəətin maksimumlaşdırılmasına və bazar payının artırılmasına yönəldilmişdir. Əgər bank məqsədlərinə çatmazsa, məsələn, cəmiyyəti qane etməyə yönəlmiş yeni texnoloji üstünlüklərə nail olmazsa, o zaman effektiv əməliyyatlara və rəqabət üstünlüyünə nail ola bilməyəcəkdir.

Bununla əlaqədar olaraq, hesab edirik ki, Rusiyada kommersiya banklarının inkişafının müasir mərhələsində onların sabitliyini, rəqabətqabiliyyətini artırmaq və bütövlükdə bank sisteminin gücləndirilməsi üçün ən aktual, praktiki əhəmiyyətli istiqamətlər aşağıdakılardır:

- banklarda strateji planlaşdırma üsullarından istifadənin təkmilləşdirilməsi;
- bankın müştəri xidməti prosesinin təkmilləşdirilməsi;
- bütün iyerarxik səviyyələrdə bank işçilərinin peşəkarlıq səviyyəsinin artırılması;
- beynəlxalq əməliyyat standartlarının tətbiqi nəzərə alınmaqla bankların biznes proseslərinin səmərəli təşkili.

Beləliklə, bu cür mühüm problemlərin həlli bankların - mənfəəti daim artırmaq və rəqabət üstünlüklərinə nail olmaq kimi əsas məqsədlərinə çatmaq üçün əsas olacaqdır.

ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı: 1992, 7 avqust. № 262, https://e-qanun.az/framework/7588
2. Əliyev M.F. Bankların inkişaf istiqamətləri. Monoqrafiya, Bakı: 2011, “Şərq-Qərb” nəşriyyatı, 120 s.
3. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Dərs vəsaiti. Naxçıvan: 2011. İdeya, 272 s.
4. Sabiroğlu Natiq. Qloballaşma və xarici investisiyalar. Bakı: 2006. “Qanun” nəşriyyatı, 288 s.
5. Банковское дело. Учебник, Под. ред. О.И. Лаврушина, Москва: 2023. КНОРУС, 632 с.
6. Банковское дело и банковские операции. Учебник, Под ред. М.С.Марамыгина, Е.Г. Шатковской, Екатеринбург, Издательство Урал. ун-та, 2021, 567 с.
7. Лаврушин О.И. От теории практики к современным проблемам его развития в экономике. Банковское дело, №6. 2002, с.2-8.
8. Тавасиев А.М. Банковское дело. Учебник, М.: 2015. Издательство “Юрайт”, 647 с.
9. Botasheva L.S., Tsikisova R.X. Features of financial management in a commercial bank. The scientific heritage, №52, 2020, p.8-10
10. https://www.cbar.az/page-188/credit-institutions
11. https://banker.az/must%C9%99qil-az%C9%99rbaycan-respublikasinin-bank-sisteminin-yaranma-tarixi-v%C9%99-olk%C9%99nin-iqtisadi-inkisafinda-rolu/
12. https://www.dissercat.com/content/finansovoe-planirovanie-v-kommercheskikh-bankakh

SUMMARY

Kamina Orujaliyeva

COMMERCIAL BANKS AS SUBJECTS OF THE FINANCIAL MARKET

In the conditions of dynamic development of the market economy, the actuality of our research is determined by the objective need for scientific analysis and methodological justification of the principles, forms and methods of strategic planning in the activity of a commercial bank. Since the activity of commercial banks is important in the development of the economy of Azerbaijan, their efficient operation is very important, which depends on the organization of strategic management and planning within the banks.

Modern trends in the development of the banking system in Azerbaijan, on the one hand, are accompanied by an increase in the liquidity and reliability of banks, on the other hand, they are characterized by a slowdown in dynamic growth and a low level of profitability. This limits not only the investment attractiveness of the banking services market, but also the future capitalization of the banking system.

Bank competition has reached an international level, new financial markets have emerged that change the nature of financing, and banks have begun to diversify their products and services. The use of computer technology has increased competition due to the unequal access of different banks to it. Such events are characteristic of many financial markets around the world. The need for strategic planning is now recognized by most banks around the world, as it has become one of the most important success factors for them. Currently, financial liberalization measures implemented in most countries, including Azerbaijan, strengthen these trends, and therefore it is appropriate for banks to develop strategic plans to achieve their competitive advantages.

Modern trends in the activity of commercial banks indicate the need to solve the problems of effective use of strategic planning as an important organizational tool and to improve the use of bank resources to solve this problem.

Key words: *Financial market, banking system, commercial banks, money-credit relations*

OĞUZ CƏFƏROV
oguzceferli10@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-8367-4696

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA ƏMƏK BAZARININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MƏZMUNU VƏ XÜSUSİYYƏTLƏRİ

Respublikamızda bazar iqtisadi münasibətlərinin formalaşması əmək bazarı və məşğulluğun qarşılıqlı əlaqəsi ilə bağlı problemlərin həmişə aktuallığını şərtləndirmişdir. Əmək bazarı, işsizlik və məşğulluq problemlərinin həlli bütün dövrlərdə hər bir dövlətin qarşısında duran ən mühüm məsələlərdəndir. Əmək bazarı və məşğulluğun bir-biri ilə qarşılıqlı əlaqələrinin tədqiqi iqtisadçı alimlərin bir çoxunun əsərlərində yer almışdır. İqtisad elmində əmək bazarı nəzəriyyəsinin əsasını klassik məktəbin nümayəndələri olan iqtisadçı alimlər A.Smit, D.Rikardo və J.B.Sey qoymuşlar. Sonralar bu məsələlər müxtəlif ölkələrin görkəmli iqtisadçıları tərəfindən tədqiq edilmişdir. Əmək bazarı və məşğulluq heç vaxt öz əhəmiyyətini itirmir.

Son illərdə əmək bazarı, məşğulluq və işsizlik problemlərin elmi, nəzəri və praktiki tərəflərin həlli yolları ilə bağlı respublikamızın görkəmli iqtisadçı alimlərindən T.Ə.Quliyev, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, Ş.M.Muradov, Ə.Q.Əlirzayev, R.K.İsgəndərov, S.S.Mehbalıyev və b. tərəfindən sanballı tədqiqat işləri yerinə yetirilmişdi. Aparılan araşdırmalarda daha çox əmək bazarı və məşğulluğun nəzəri-metodoloji aspektləri, formaları, müxtəlif tərəfləri və elementləri tədqiq edilmişdir. Odur ki, bazar iqtisadiyyatı şəraitində əmək bazarı və məşğulluğun qarşılıqlı əlaqəsinin kompleks tədqiqinin aparılması zərurətini nəzərə alaraq məqaləmizdə bu problemi araşdırmışıq.

Açar sözlər: *Əmək bazarı, məşğulluq, məşğulluq strategiyası, dövlət tənzimlənməsi, işsizlik problemi*

Giriş

Azərbaycan Respublikası öz müstəqilliyini əldə etdikdən sonra əmək bazarı və onun tənzimlənməsi problemləri uzun müddət yerli alimlər üçün ənənəvi elmi maraq kəsb edən araşdırma mövzularından və sferasından biri olmuşdur. Belə ki, bazar münasibətləri şəraitində əhalinin məşğulluğu məsələsinin həll olunması sahəsində çox saylı yeni və mürəkkəb sosial-iqtisadi problemlərin meydana çıxması əmək bazarına tamamilə yeni nəzəri-metodoloji bucaqdan yanaşılmasını tələb edir (http://www.anl.az/down/meqale/azerbaycan/2011/iyun/182794.htm). Məhz bu baxımdan məqaləmizdə araşdırmamızın tədqiqat obyekti Azərbaycanda əmək bazarının inkişaf meyllərini nəzərdən keçirmək və bu istiqamətdə həyata keçirilən tənzimlənmə siyasətini qiymətləndirməkdir.

Əmək bazarının elmi tədqiqinin əsası A.Smit, D.Rikardo, C.Keyns, K.Marks, A.Marşall, V.Oyken, A.Piqu, M.Fridman və F.Hayekin fundamental tədqiqatlarında qoyulmuşdur. Onların bu sahədə əldə etdikləri nəticələr əmək bazarının dövlət tənzimlənməsinin praktiki problemlərinin dərk edilməsinə kömək edən mühüm nəzəri müddəalardır. Bu məsələ öz əhəmiyyətli həllini və inkişafını, eyni zamanda U.Bek, R.Buaye, R.Qordon, M.Kastels, C.Kornai, M.Piore, C.Saks, P.Samuelson, C.Stiqlits, Q.Standinq, H.Landert, R.Layard, O.Toffler və R.Ehrenbergin əsərlərində də tapmışdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Qərbi Avropada sosial siyasət məfhumu bazar iqtisadiyyatının ilkin inkişaf mərhələsində formalaşmış və həmin dövrdən etibarən sosial siyasət dövlət siyasətinin əsas tərkib hissəsi kimi əhalini bazar iqtisadiyyatının mənfi təsirlərindən müdafiə etməyə başlamışdır (Məmmədova S., 2017, s.66). Azərbaycan Respublikasının müstəqil sosial bir dövlət kimi bu sahədə həyata keçirəcəyi stratejik addımlar ilkin göstəricilərdən hesab oluna bilər. Bu baxımdan, Azərbaycan Respublikasının Konstitusiyasında mövcud olan 15, 16 və 38-ci maddələri

dövlətin sosial yönümlü olmasına nümunə olaraq göstərmək olar (Azərbaycan Respublikasının Konstitusiyası, 2005).

Azərbaycan Respublikasının son illər həm dünya arenasında siyasi gücünü gücləndirmək, həm də ölkə daxilində sosial-iqtisadi potensialını artırmaq istiqamətində atdığı mühüm addımlardan biri kimi hökumətin əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsi yönündəki reallaşdırdığı siyasəti misal göstərmək olar.

Material və metodlar

Əmək bazarı dedikdə, işçi qüvvəsinə tələb və təklifin məcmusu başa düşülür. Həmçinin iş yerlərinin dinamikası, yəni daim artıb-azalması, dəyişməsi, iş yeri və iqtisadi cəhətdən fəal hesab olunan insanların sahə, ərazi, demoqrafik və peşə-ixtisas cəhətdən təsərrüfat sahələrinə uyğun olaraq yerləşməsi hesab olunur. Əmək bazarında o, insan iqtisadi cəhətdən fəal hesab edilir ki, həmin insan məşğul olmayan, yəni iş yeri axtarandır, həmçinin işlə təmin olunmağına baxmayaraq o, işdən razı deyildir. Buna görə də digər və ya ikinci iş yerləri axtarır. Eyni zamanda müəyyən bir müəssisədə çalışır, lakin iş yerini itirmək təhlükəsi var. Bu nöqteyi nəzərdən qeyd edək ki, əmək bazarı heç də sadə məfhum olmayıb, özündə müxtəlif sosial-iqtisadi münasibətlərin qarşılıqlı və asılı əlaqələrini birləşdirir.

Əmək bazarının strukturuna öncə onun obyekti və subyektini daxil etmək lazımdır. Bu baxımdan satıcı və alıcı əmək bazarının subyekti olaraq hesab olunur. Digər bazarlardan fərqli olaraq əmək bazarında istənilən şəxs satıcı və alıcı kimi çıxış edə bilməz. Bu şəxslər, yəni subyekt hesab olunan insanlar sosial-iqtisadi vəziyyətinə görə müəyyən olunmuş insanlardır. Bu nöqteyi nəzərdən subyekt kimi satıcı qismində mütəmadi olaraq öz istehsal vasitələri olmayan, yaşam vasitələrinə sahiblik baxımından çatışmazlıqlar yaşayan, öz işçi qüvvəsinin mülkiyyətçisi hesab olunur. Digər bir subyekt olaraq alıcı mövqeyində isə iş verən, yəni iş şəraiti təqdim edən, öz işçi qüvvəsini təqdim edən satıcını müvafiq işlə təmin edən istehsal vasitələrinin mülkiyyətçisi hesab olunur.

Müasir dövrdə respublikamızda milli-dövlətçilik ənənələrimizin qorunub saxlanması, milli mənafelərimizin lazımınca möhkəmləndirilməsi və gələcək nəsillərə ötürülməsi, təkmilləşdirilməsi və bu sahədə əsaslı addımların atılması, ölkənin iqtisadi cəhətdən gücünün artırılması və əhalinin dövlətin iqtisadi siyasətinin bir hissəsi və aparıcı parçası olaraq görülməsi, vətəndaşların yaşam standartlarının inkişaf etdirilməsi, beynəlxalq normalara uyğun hala gətirilməsi, dövlətin iqtisadi gücünün əsası kimi iqtisadi cəhətdən fəal əhalinin və onların əmək potensialından maksimum dərəcədə yüksək səviyyədə istifadə edərək dövlətin sosial-iqtisadi siyasi xəttinə lazımi fayda vermək, bu sahədə əsas da gənc vətəndaşların həm zehni, həm də fiziki cəhətdən əmək bacarığından yetəri qədər istifadə etmək ölkənin bu sahədə yerinə yetirmək istədiyi uğurlu siyasi kursun fəaliyyət planına daxil olan məsələlərdən biri hesab olunur.

Respublikamızda aparılan iqtisadi islahatlar nəticəsində ölkə daxilində nəzərə çarpacaq dərəcədə keyfiyyət baxımından baş verən mühüm dəyişikliklər ölkənin iqtisadi inkişafını şərtləndirmişdir. İqtisadi vəziyyətin dinamik olduğu bu dövrlərdə dövlətin qəbul etdiyi tədbirlər planı və bu istiqamətdə yerinə yetirdiyi fəaliyyətlər ölkədə aparılan islahatların səmərəsini sübut edir. Xüsusilə də iqtisadi inkişafa nail olmaq üçün qeyri-neft sektorunun inkişafına yönəlmiş stratejik addımlar diqqətə layiqdir. Bu nöqteyi nəzərdən əhalinin, xüsusən də gənclərin məşğulluğunun təmin olunması, onların potensialından və bacarıqlarında səmərəli istifadə olunması dövlət siyasətinin başlıca prioritetlərindən biri hesab olunur.

İşsizlik problemi, iqtisadi cəhətdən fəal əhalinin müvafiq işlə təmin etmək məsələsi müstəqillik qazandıqdan sonra dövlətimizin qarşısında duran, həll olunması gərəkən vacib vəzifələrdən biridir. Məhz bu baxımdan Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli fərmanı ilə "Məşğulluq haqqında" qanun qüvvəyə mindi. Məhz bu qanunda məşğulluq, məşğul və işsiz əhali anlayışlarının məzmunu və vətəndaşların işsizlik statusu müəyyənləşdirildi (https://com-roseltorg.ru/az/vklady-i-depozity/regulirovanie-rynka-truda-osushchestvlyaetsya-cherez gosudarstvennoe-regulirovanie/). Bu qanunun qəbul olunması əhalinin, xüsusilə əmək qabiliyyətli

gənclərin əməyə cəlb olunması, onların əmək bazarının dövlət tərəfindən tənzimlənməsi üçün də mühüm addım oldu.

İqtisadi kateqoriya kimi məşğulluq anlayışı iqtisadi cəhətdən fəal olan əhalinin əmək bazarında ictimai faydalı əməkdə iştirakı nəticəsində yaranmış əlaqələr cəmi hesab olunur. Məşğulluq sahəsindəki yerinə yetirilən siyasət iqtisadi cəhətdən fəal əhalinin əmək münasibətlərini, minimum əmək haqqı əldə etmək hüququnu, təhsil və kadr hazırlığı səviyyəsinin təkmilləşdirilməsini, əmək bazarının dövlət tərəfindən nizamlanmasını əhatə edir. Çoxşaxəli bu fəaliyyət planı ölkənin əmək bazarı modelini formalaşdırır (Həsənov R., 2016, s.175). Son illər ölkəmizdə iqtisadi sahədə aparılan islahatlar, qəbul olunan qanunlar əmək bazarı sferasında artan keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Belə ki, 2021-ci ildə respublikamızda iqtisadi cəhətdən fəal əhalinin sayı 2005-ci illə müqayisədə 923,8 min nəfər artaraq 5303,9 min nəfər olmuşdur. Bunlardan 4988,2 min nəfərini iqtisadiyyatla məşğul olanlar, 315,7 min nəfərini isə işsiz əhali təşkil etmişdir. Ötən 16 il ərzində ölkə iqtisadiyyatında əldə olunan bu göstərici qəbul olunan məşğulluq haqqında qanunun səmərəsindən xəbər verir (Azərbaycanın statistik göstəriciləri, 2022, 85 s.).

Respublikamızda 2021-ci ildə iqtisadi cəhətdən fəal olan 5303,9 min nəfər əhalinin 1406,8 min nəfəri 15-29 yaşda olan (15-19 yaşda olanların 107,7 min nəfəri; 20-24 yaşda olanların 515,9 min nəfəri; 25-29 yaşda olanların 783,2 min nəfəri iqtisadi fəal əhali kateqoriyasına daxildir) gənclərdir (Azərbaycan gəncləri, 2022, 130 s.).

Əhalinin, xüsusən də gənc nəslinin əmək məşğuliyyətini təmin etmək üçün onların peşə hazırlığına dövlət dəstəyi danılmaz faktdır. Bu baxımdan 2010-cü ildə Dövlət Məşğulluq Agentliyinin yerli qurumları tərəfindən 29 yaşınadək olan gənclərin 2728 nəfəri, 2019-cu ildə isə 1358 nəfəri peşə təliminə göndərilmişdir. Göründüyü kimi, 2010-cu illə müqayisədə 2019-cu ildə peşə təliminə göndərilən gənclərin sayında 2 dəfəyə yaxın azalma müşahidə olunmuşdur (Azərbaycan gəncləri, 2022, s.138).

Dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin say və yaş qrupları üzrə bölgüsünə əsasən Respublikamızda 2019-cu ildə 30 yaşadək olan gənc vətəndaşların ölkə üzrə 5089 nəfəri Ali 3-cü təsnifatlar üzrə inzibati vəzifələrə, 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələrə, o cümlədən yerli icra hakimiyyətinin başçısının müavini, şöbə müdiri, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi və s. kimi müxtəlif dövlət əhəmiyyətli vəzifələr tutmuşlar (https://www.stat.gov.az/source/labour/). Bu göstəricilər dövlətin gənc nəslin yüksək səviyyəli peşə və kadr hazırlığına sahib bir fərd kimi yetişməsində dəstək və qayğısının sübutudur.

Parantez aşaraq bir faktı qeyd edək ki, iqtisadi cəhətdən fəal əhalinin əməyinin xarakteri və məzmununa görə işçilərin sosial-peşə strukturunun formalaşması onların zehni, fiziki, idarəetmə və icra qabiliyyəti kimi əməyi ilə şərtlənir (Vahidov F və Ağayev T., 2008, 111 s.).

Respublikamızda gənclərin peşə təhsilindən əmək bazarına inteqrasiyasını yüksəltmək üçün məsləhət və karyera sahəsində planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi, həmçinin rəqəmsal texnologiyalardan yüksək səviyyədə istifadə edilərək təkmilləşdirilməsi, mərkəzləşdirilmiş karyera portalının yaradılması respublikamızda gənclərin peşə təhsilinin inkişafına, təhsil səviyyəsinin yüksək standartlara uyğunlaşdırmaq üçün Prezident İlham Əliyev tərəfindən müxtəlif illərdə qəbul olunmuş xaricdə təhsillə bağlı dövlət proqramlarının yerinə yetirilməsi və tətbiqi gənclərə dövlət qayğısının bariz nümunələrindəndir. Bu baxımdan, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" qəbul edilmiş, eyni zamanda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasındakı 35-ci maddəyə əsasən, "Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir". Bu maddənin digər bir müddəasına görə isə "İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır". Bununla yanaşı, "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 2001-ci ilin iyun ayında qəbul olunması, eyni zamanda 2006-2015-ci illərə dair "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası", 2007-2010-cu illər ərzində "Azərbaycan Respublikasının məşğulluq siyasətinin həyata keçirilməsi üzrə Dövlət Proqramı" və Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-

2015-ci illər üçün Dövlət Proqramı" qəbul olunması dövlətin sosial-iqtisadi sahədə yerinə yetirdiyi siyasi kursun səmərəli fəaliyyəti üçün mühüm şərait yaradır. Bu proqramların qəbul olunmasında əsas və ilkin hədəf ölkədə işsizliyin azaldılması, hətta aradan qaldırılmasıdır. Lakin əmək fəaliyyəti ilə məşğul olmayan hər bir şəxs işsiz hesab oluna bilməz. Bu baxımdan, işsizliyin səviyyəsinin dəqiq ölçülməsi üçün nə vaxt və kimin işsiz hesab edilməsini əsaslı surətdə müəyyənləşdirmək lazımdır. Respublikamızda işsizliyin kəmiyyət göstəriciləri ilə Dövlət Statistika Komitəsi və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti məşğul olur. İşsiz əhalinin hesablanması müstəvisində qadınların və gənclərin göstəricilərinin yüksək olması məşğulluq sahəsində nəzərə çarpan mühüm problemlərdəndir. Respublikamızda 2021-ci ildə işsiz status almış 315,7 min nəfər əhalinin 44,9 faizi, yəni 141,7 min nəfəri 15-29 yaşda olan (15-19 yaşda olanların 15,3 min nəfəri; 20-24 yaşda olanların 73,3 min nəfəri; 25-29 yaşda olanların 53,1 min nəfəri iqtisadi fəal əhali kateqoriyasına daxildir) gənclərdir (Azərbaycan gəncləri, 2022, 135 s.).

İqtisadi termin kimi işsizlik hadisəsi işçinin istəyindən asılı olmayaraq əmək fəaliyyətindən istifadə edə bilməmək, uzun müddət işə düzələ bilməmək səbəbindən, eyni zamanda muzdlu əməklə işləyən və iş verən, yəni işlə təmin edən arasında əmək müqaviləsinin pozulması nəticəsində dayandırılması hesab olunur (Həsənov R., 2016, 183 s.).

Əldə olunan nəticələr

İşsizlik problemi nəinki iqtisadi cəhətdən fərdi çətin vəziyyətə salır, həmçinin sosial-psixoloji cəhətdən də işsiz şəxs ruhdan düşmüş, özünü cəmiyyətdən, insanlardan, əsas da ailəsindən təcrid olunmuş, yalnız buraxılmış hiss edir. Bu nüans, əsasən, gənclər arasında tez-tez rast gəlinən bir haldır. Gənclər Respublikamızda əhalinin demoqrafik baxımdan aparıcı hissəsini təşkil edir və bu baxımdan onların sosial-psixoloji sağlamlığı da dövlətin diqqət və qayğısından kənarda qala bilməz. İşsizlik problemi, eyni zamanda sosial qruplar, siniflər arasında da müəyyən problemlərin yaranmasına səbəb ola bilər. Marksizm nəzəriyyəsinin tərəfdarlarına görə, siniflər arasında iqtisadi fərqlər əsasında onların siyasi həyatında və mədəniyyətdə fərqlilik formalaşır. Beləliklə, bu təlim siyasi, mədəni, ideoloji, sosial-psixoloji fərqlərin olduğunu qəbul etməklə yanaşı, o, bütün bu fərqləri iqtisadi sahədəki fərqlərin davamı kimi nəzərdən keçirir (Vahidov F. və Ağayev T., 2008, 109 s.).

Respublikamızda məşğulluq strategiyasının reallaşdırılması ilə əlaqədar nəzərdə tutulan hədəflərə 2025-ci ilədək bütün əhali qrupları (xüsusilə gənclər, qadınlar və əlilliyi olan şəxslər) üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olmaq, işsizlik səviyyəsini isə 2030-cu ilədək 4 faizə qədər, eyni zamanda qadınlar və gənclərin məşğulluq problemini və işsizlik səviyyəsini minimum səviyəyə endirmək daxildir (2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası. "Xalq" qəzeti. 31 oktyabr, 2018).

Müzakirə

2017-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının rəhbər orqanına üzv seçilmişdir. Bu meyar Azərbaycan Dövlətinin beynəlxalq arenada inamlı və güvənilir bir dövlət kimi tanınmasının göstəricisi hesab olunmalıdır. Respublikamızın növbəti illərdə reallaşdırılması planlaşdırılan "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" məşğulluğun növbəti on illikdə yüksəldilməsinə, işçi qüvvələrinin əmək bazarına cəlb olunması və inteqrasiyasına, əmək bazarı subyektlərinin aktiv fəaliyyətinin təmin olunmasına istiqamətlənir. Məşğulluq sahəsində qəbul olunmuş on ili əhatə edən uzun müddətli tədbirlər planı dövlətimizin əhalinin iqtisadi sahədə daha fəal iştirakına və xüsusən də demoqrafik cəhətdən üstünlük təşkil edən gənc nəslin əmək bazarına inteqrasiyası, əmək bazarının dövlət tərəfindən tənzimlənməsi cəhətdən mühüm addımlardan biri kimi hesab olunur.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. 29.12.2012, 39 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2005. Qanun, 64 s.
3. Azərbaycanın statistik göstəriciləri – 2022. Statistik məcmuə. Bakı: 2022, 748 s.

4. Azərbaycan gəncləri – 2022. Statistik məcmuə. Bakı: 2022, 172 s.
5. 2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası. "Xalq" qəzeti. 31 oktyabr, 2018
6. Əsgərov Ə., Hüseynov E., Hüseynov S. Davamlı insan inkişafı. Dərslik. Bakı: 2009. "ADAU" nəşriyyatı, 494 s.
7. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu. Bakı: 2002
8. Həsənov R. Sosial siyasət. Bakı: 2016. Avropa, 310 s.
9. Məmmədova S. Azərbaycanda Sosial Dövlət: inkişafı, perspektivləri. Bakı: 2017. Avropa, 232 s.
10. Rəcəbli H. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və korporativ təhlili. Bakı: 2003. Gənclik, 372 s.
11. Vahidov F., Ağayev T. Sosiologiya. Bakı: 2008. Təknur, 333 s.
12. https://www.stat.gov.az/source/labour/
13. http://www.anl.az/down/meqale/azerbaycan/2011/iyun/182794.htm
14. https://com-roseltorg.ru/az/vklady-i-depozity/regulirovanie-rynka-truda-osushchestvlyaetsya-cherez-gosudarstvennoe-regulirovanie/

SUMMARY

Oguz Jafarov

CONTENT AND FEATURES OF STATE REGULATION OF THE LABOR MARKET IN AZERBAIJAN IN MODERN TIMES

The formation of market economic relations in our republic has always determined the relevance of problems related to the interaction of the labor market and employment. Solving the problems of unemployment and employment in the labor market is one of the most important issues facing every state at all times. The study of the interrelationships of the labor market and employment has been included in the works of many economists. The basis of the theory of the labor market in economics was laid by economists A.Smith, D.Ricardo and J.B.Say, representatives of the classical school. Later, these issues were studied by prominent economists of different countries. The labor market and employment never lose their importance.

In recent years, T.A.Guliyev, Z.A.Samadzade, A.K.Alasgarov, Sh.M.Muradov, A.Q.Alirzayev, R.K.Isgandarov, S.S.Mehbaliyev and others carried out significant research work among the prominent economists of our republic, have discussed ways of solving the scientific, theoretical and practical aspects of labor market, employment and unemployment problems. The theoretical and methodological aspects, forms, various sides and elements of the labor market and employment have been studied in the conducted studies. Therefore, we have examined this problem in our article, taking into account the need to conduct a complex study of the interaction of the labor market and employment in the conditions of the market economy.

Key words: *Labor market, employment, employment strategy, state regulation, unemployment problem*

RAUF ƏLİYEV
raufaliyevv98@gmail.com
Naxçıvan Dövlət Universiteti

YENİ DÖVRDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA EKOLOJİ TƏMİZ LAYİHƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İqtisadiyyatın davamlı inkişafı və ekoloji prinsiplərin ödənilməsi baxımından XXI əsrdə ekoloji təmiz iqtisadi layihələrin hazırlanması və onların reallaşdırılması prioritet məsələlərdən olacaq. Bu baxımdan, Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və dünyada yaşıl enerji və tullantısız istehsal istiqamətinə keçid istiqamətində həyata keçirilən işlər belə layihələrə güclü təkan verir. Naxçıvan Muxtar Respublikasında da mövcud olan təbii şərait və resurslar bir neçə istiqamətdə ekoloji təmiz layihələr üçün geniş imkanlar yaradır.

Açar sözlər: *Ekotəmiz layihələr; dayanıqlı inkişaf; Naxçıvan Muxtar Respublikası; yaşıl enerji; ekoturizm*

Ətraf mühitin qorunması məsələləri cəmiyyəti yüz illərdən bəri düşündürür. Bununla yanaşı planetdə canlı təbiətin vəziyəti ilbəil ağırlaşır, ən vacib həyat amilləri sayılan suyun, havanın, torpağın keyfiyyəti pisləşir. Buna görə də müasir dünyamızda ekoloji böhranın ümumbəşəri təhlükə olmasına heç kim şübhə etmir. Məhz ona görə də qlobal ekoloji problemlərin hamı üçün təhlükəli olmasını dərk etməklə, yeni təşəbbüslər vacib şərtdir.

Ekoloji təhlükələr özünü iqlim dəyişikliyində daha çox göstərir. İqlimin dəyişməsi yeni əsrin ən ciddi qlobal problemidir. Qlobal istiləşmə və istilik efekti XX əsrdə texniki tərəqqinin atmosferdə yaratdığı ən ciddi zərər kimi dəyərləndirməlidir. Belə ki, Günəş işığının 90 faizi Yer səthindən əks olunur. Ancaq atmosferdə tullantı qazlarının miqdarının artması nəticəsində bu istilik effektinə səbəb olur, nəticədə planetdə quraqlıq, səhralaşma kimi ekoloji böhranlar yaranır.

BMT-nin hesabatlarında göstərilmişdir ki, yaxın gələcəkdə planetimizdə orta temperatur 1,4-5,8 dərəcə artması proqnozlaşdırılır. Kosmosdan çəkilmiş şəkillərin vasitəsilə müəyyən olunub ki, qumlu səhralar savanna zonasına doğru 200 km-ə qədər genişlənib. Son proqnozlara əsasən, XXI əsrin ortalarında okean suyunun səviyyəsi 0,5-1 m, sonunda isə 2 m qalxmaqla qurunun bir hissəsini su altında qalması ilə nəticələnə bilər.

Planetdə ekoloji sabitliyin pozulması qitələr, ölkələr, regionlar üzrə müxtəlif dərəcədə qiymətləndirilsə də axar sular, yağmurlar, atmosfer havası sərhəd bilmir. Müasir kommunikasiya, nəqliyyat vasitələri, iqtisadi əlaqələr nisbətən lokal məhdud ərazilərdə yetişdirilən aşağı keyfiyyətli məhsulların da dünyanın çox yerinə getməsinə imkan yaratmışdır. Hazırda, dünyanın müxtəlif regionlarında ekoloji baxımdan ziyansız, təmiz ərzaq əldə edilməsi imkanları getdikcə məhdudlaşır. Bütün bunlar ekoloji təmiz işlərin gələcək həyat üçün nə qədər vacib olduğunu göstərir.

Ekoloji təmiz layihələr sərf etdiyi xammal, enerji və istehsal prosesi ilə ətraf mühitə daha az zərər vuran və iqtisadi səmərəsi ilə davamlı inkişaf prinsiplərinə daha çox cavab verə bilən işlər və layihələrdir. Onların reallaşması zamanı cəmiyyət onlara çəkilmiş məsrəflərin yerinə qaytarılmasından daha çox onların gətirdiyi iqtisadi və sosial səsmərədən danışa bilir, uzun və uzaqmüddətli perspektivlərdə özləri ilə bərabər belə layihələrin gətirdiyi yeni fürsətlərdən faydalana bilirlər. Yaşıl təbiətin, bioloji müxtəlifliyin qorunması, havanın, suyun, yerin altının çirkləndirilməməsi şərtilə təbii ehtiyatlardan səmərəli istifadə olunması kimi məsələlər ekoloji təmiz layihələrin əsas məğzini təşkil edir. İstehsalatda, evdə, xidmət yerlərində, səyahət zamanı yüksək texnologiyanın tətbiq olunması ilə əldə olunan resurs və enerji qənaəti, həmçinin tullantıların

həcminin minimuma endirilməsi kimi məsələlər yaşıl dünya naminə inkişaf prizmasında mühüm şərtlərdəndir.

Ekotəmiz layihələr ənənəvi layihələrlə müqayisədə nisbətən daha çətin başa gəlsə də onların iqtisadi və sosial səmərəsi daha yüksək, ekoloji tarazlığın qorunması baxımından daha artıqdır. Belə layihələr zamanı görülən işlərin özü ilə bərabər yeni tədqiqatların aparılması, ekoloji maarifləndirmə işlərinin həyata keçirilməsi, uşaq və gənclərdə ekoloji mədəniyyətin formalaşdırılması, resurslardan rasional istifadə vərdişlərinin yaradılması, elmi-tədqiqat müsabiqələri və startapların həyata keçirilməsi, komanda işinin öyrənilməsi kimi mühüm nəticələr əldə oluna bilir.

Ekoloji təmiz məhsullar kimi ekoloji təmiz layihələr də insanın həyat tərzini dəyişdirən mühüm yeniliklərdəndir. Primitiv həyat tərzindən fərqli olaraq yüksək texnologiyalı, ancaq ekoloji təmiz məhsullar insanların ömür uzunluğunun artmasına, bir sıra xəstəliklərdən uzaq olmasına, eyni zamanda sağlam həyat tərzinin yaradılmasına imkan yaradır. Yerli əhalinin maraqlarından başqa regional və qlobal miqyasda baxdıqda ekoloji təmiz layihələr və onların nəticələri olan məhsullar ölkənin və onun regionunun imcini yüksəldən işlər hesab olunurlar.

Ekoloji təmiz layihələr kimi bir sıra istehsal sahələri, xüsusən də enerji istehsalı mühüm diqqət cəlb edir. Buna görə də ənənəvi olmayan bir neçə mənbələri hesabına elektrik enerjisindən istifadə edilməsini gələcəkdə prioritet kimi nəzərdə tutulur. Bu sahədə Günəş enerjisi daha perspektivli sayılır. Günəş enerjisindən hazırda dünyanın bir çox ölkələrində istifadə edilir.

Dünyada çoxlu fırtınalar törədən küləklər mövcuddur. İnsanların iradəsinə tabe olmayan külək saysız-hesabsız fəlakətlərə səbəb olur. Lakin əgər küləyi enerjiyə yönəldə bilsək, o, insanlara köməkçi ola bilər. Külək enerjisindən istifadə etdikdə atmosfer çirklənmir, ətraf mühit zərər görmür. Hazırda, dünyanın bir çox ölkələrində ekoloji cəhətdən zərərsiz, səmərəli külək enerjisi alınır. Belə ölkələrə Şimal dənizi sahillərindəki ölkələr aiddir. Azərbaycanda da bu ehtiyatlar daha çoxdur. Hələ qədim zamanlardan Azərbaycanda, xüsusilə Abşeron yarımadasında külək enerjisindən istifadə olunmuşdur.

Ekoloj təmiz layihələrdən biri də turizm, xüsusən ekoturizmdir. Düzgün təşkil olunub, idarə olunduqda turizm fəaliyyəti həm gəlirlərinə görə, həm də təbiətin qorunması mexanizminə görə ən yaxşı ekoloji təmiz iqtisadi layihələrdən biridir. Bir sıra turizm növləri, xüsusən fotoovçuluq, kənd turizmi kimi turizm növləri özünün ayrı-ayrı göstəriciləri üzrə bu mənada diqqəti çəkir.

Belə ki, bu cür turizm növləri yerli əhali arasında məşğulluq və sosial effekt göstəricilərinə görə diqqəti cəlb edir və yeni layihələr üçün açıq imkanlar yaradır. Buna görə də ekoloji təmiz layihələrin genişləndirilməsi üçün təklif olunan biznes planlarda onların iqtisadi rentabelliyi ilə yanaşı sosial effektlərinin də nəzərə alınması mühüm məsələdir.

Naxçıvan Muxtar Respublikası sahib olduğu resurslar hesabına ekotəmiz layihələr üçün yaxşı potensiala malikdir. Bura yüksək radiasiyalı günəşli günləri hesabına ekoloji təmiz elektrik enerjisinin istehsalı üçün əlverişli məkandır. Belə ki, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyasının tikilib istifadəyə verilmiş, 2017-ci ildə stansiyanın gücü daha 2 meqavat artırılmışdır. Hazırda, Naxçıvanda 4 günəş elektrik stansiyası fəaliyyət göstərir. Bu stansiyalar muxtar respublika üzrə illik istehsal olunan enerjinin 13-14 faizinis təşkil edir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən verilmiş məlumata görə ötən 2023-cü ilə günəş elektrik stansiyalarında istehsal olunmuş 60.516.708 kilovatt saat elektrik enerjisinin 32,5 faizi yay aylarının, 17,6 faizi isə qış aylarının payına düşüb ki, bu da ilin bütün dövrlərində yüksək məhsuldarlıq deməkdir. Gələcəkdə Naxçıvanda 1500 MVt gücündə "yaşıl enerji" layihələrinin reallaşdırılacağı və Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı da planlaşdırılır.

Bundan başqa, Naxçıvanın hidroenerji ehtiyatları da belə enerji üçün imkan yaradır. Naxçıvanda ekoturizmin inkişafı burada toxunulmamış təbiət guşələri hesabına olduqca perspektivlidir. Xüsusən Zəngəzur Milli Parkı ərazisindəki unikal biomüxtəliflik və landşaft gözəllikləri burada fotoovçuluq və elmi mühahidə turizmi kimi ekotəmiz layihələrə imkanlar yaradır. Ayrıca olaraq, Naxçıvanda orqanik qida məhsullarının istehsalı üçün zəruri şərait vardır.

Nəticə

Davamlı inkişaf üçün insan, cəmiyyət və təbiət maraqlarının uzlaşması həmişə vacibdir. Bu baxımdan, iqtisadiyyatın inkişafı baxımından ekoloji təmiz layihələrin gələcəkdə daha çox yayılması ehtimal olunur. Naxçıvanın yerləşdiyi geostrateji mövqe, sahib olduğu günəşli günlər burada alternativ enerji istehsalına geniş imkanlar yaradır. Ekoturizmin xüsusiyyətlərini nəzərə aldıqda Naxçıvanda onun da ekotəmiz layihə kimi perspektivləri böyükdür.

ƏDƏBİYYAT

1. Lucyna Witek. Green marketing: the environmentally-friendly attributes of products and decision to purchase. Folia Oeconomica Stetinensia Volume 20 (2020) Issue 2 DOI: 10.2478/foli-2020-0059
2. Qasımlı V. Yaşıl iqtisadiyyat. Bakı: 2022. "Azprint" nəşriyyatı, 280 s.
3. Xəlilov T.A., Zeynalova M.Ə. Qlobal ekoloji problemləri (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: 2013. "MBM", 212 s.
4. Məmmədov Q.S., Xəlilov M. Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı: 2005
5. Глобальная экологическая перспектива – 3. Прошлое, настоящее и перспективы на будущее. ЮНЕП. М.: 2002, Интердиалект
6. Mahmudov C. Ekologiya (Mühazirələr toplusu) IV nəşr. Bakı: 2010,"Nurlan" nəşriyyatı
7. National Sustainable Energy Action Plan of Azerbaijan https://unece.org/fileadmin/DAM/project-monitoring/unda/16_17X/E2_A2.3/Action_Plan_of_Azerbaijan-new-03.12.2019.pdf
8. 'Together towards Azerbaijan's clean energy future' Speech by Gary Jones, bp's regional president for Azerbaijan, Georgia, Turkey at special Shusha session of Baku Energy Week 4 June 2022 https://www.bp.com/content/dam/bp/country-sites/en_az/azerbaijan/home/pdfs/speeches/Shusha_session_speech_Gary_Jones_eng.pdf
9. Mammadli M. Environmentally Responsible Business Approaches in Azerbaijan. Sustainability 2022, 14, 6227. https://doi.org/10.3390/su14106227
10. Promoting Green Innovation Policy assessment and recommendations Azerbaijan. November 2013. https://unece.org/fileadmin/DAM/ceci/publications/Assessment_Azerbaijan.pdf
11. Novruzova S. Solar Energy Resources of Nakhchivan. Bulletin of Science and Practice 7(9):69-78 DOI: 10.33619/2414-2948/70/06
12. Mammadov A. Birdwatching Nakhchivan in Azerbaijan. https://www.researchgate.net/publication/338749685_birdwatching_nakhchivan_in_azerbaijan

SUMMARY

Rauf Aliyev

THE DIRECTIONS FOR THE IMPLEMENTATION OF ECO-FRIENDLY PROJECTS IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

In terms of the sustainable development of the economy and the fulfillment of ecological principles, the development of eco-friendly economic projects and their implementation will be one of the priority issues in the 21st century. In this regard, the declaration of 2024 in Azerbaijan as the "Year of solidarity for the Green World" and the work carried out in the direction of the transition to green energy and waste-free production in the world give a strong impetus to such projects. The conditions and natural resources available in the Nakhchivan Autonomous Republic create ample opportunities for environmentally friendly projects in several directions.

Key words: *Eco-clean projects; sustainable development; Nakhchivan Autonomous Republic; green energy; ecotourism*

РЕЗЮМЕ

Рауф Алиев

НАПРАВЛЕНИЯ РЕАЛИЗАЦИИ ЭКОЛОГИЧЕСКИ ЧИСТЫХ ПРОЕКТОВ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

С точки зрения устойчивого развития экономики и реализации экологических принципов разработка экологически чистых экономических проектов и их реализация будут одним из приоритетных вопросов в XXI веке. В этой связи объявление 2024 года в Азербайджане «Годом солидарности зеленого мира» и работа, проводимая в направлении перехода к зеленой энергетике и безотходному производству в мире, дают мощный импульс подобным проектам. Имеющиеся в Нахчыванской Автономной Республике условия и природные ресурсы создают широкие возможности для экологически чистых проектов по нескольким направлениям.

Ключевые слова: *Эко-чистые проекты; устойчивое развитие; Нахчыванская Автономная Республика; зеленая энергия; экотуризм*

İLAHƏ SADİQOVA
ilahesadiqova57@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-3036-1397

ƏSRİN QƏLƏBƏSİ VƏ YENİ GEOSİYASİ REALIQLAR

Məqalədə XXI əsrin yeni geosiyasi reallıqları içərisində Cənubi Qafqaz regionunda yaranan dəyişikliklər, xüsusilə Azərbaycanın 30 illik işğala son qoyaraq öz tarixi ərazilərini bərpa etməsi, qazandığı uğurları ilə Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilməsindən söhbət açılır. Qeyd olunur ki, Azərbaycan 44 günlük Vətən Müharibəsi və 24 saatlıq antiterror tədbirləri ilə düşməni tarixi torpaqlarımızdan tamamilə çıxartmağı bacardı və ərazi bütövlüyümüzü bərpa etdi. Qələbənin nəticələrinin dünya səviyyəsində tanınması istiqamətində atılan addımlar öz nəticəsini verərək dünya dövlətlərinin Azərbaycana olan marağını daha da artırdı və yeni layihələrin həyata keçirilməsinə şərait yaratdı. Məqalədə vurğulanır ki, artıq Azərbaycan regionda söz sahibinə malik, öz siyasəti ilə dünya dövlətləri üçün nümunə göstəriləcək bir ölkəyə çevrilib.

Açar sözlər: *Cənubi Qafqaz, antiterror, region, siyasət*

Qloballaşan dünyamızda qüvvələr nisbətinin dəyişməsi, yeni dünya nizamının yaranması, xüsusilə Cənubi Qafqaz regionunda yeni geosiyasi və geoiqtisadi reallığın meydana gəlməsinə səbəb olmuşdur. Diplomatiyamızın son illər əldə etdiyi uğurlar, ard-arda qazanılan qələbələr nəticəsində artıq Azərbaycan Cənubi Qafqaz regiounun lider dövləti olaraq tanınır və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən hegemon dövlətlərlə qarşılıqlı əməkdaşlıq sahəsində silsilə uğurlar əldə edir. Dünyada baş verən siyasi proseslər fonunda Azərbaycanın Ali Baş Komandanın rəhbərliyi altında yürütdüyü məqsədyönlü siyasət ölkəmizin diplomatiya sahəsində daha çox uğurlar qazanmasına səbəb oldu. Bu prosesləri sürətləndirən ən önəmli məqam isə İkinci Qarabağ müharibəsi nəticəsində 44 günlük Zəfər yolunu keçməklə müstəqil Azərbaycan Respublikasının müzəffər ordusunun düşmən üzərində çaldığı qələbə və 30 ilə yaxın bir müddət ərzində düşmən tapdağı altında qalan torpaqlarımızın azad olunmasıdır.

Ard-arda qazandığımız qələbələr ilə Azərbaycan bütün dünyaya sübut etdi ki, 30 il ərzində davam edən işğala yalnız öz gücümüz hesabına son qoyduq. Əbəs yerə deyil ki, müharibənin həlli istiqamətində vasitəçi dövlətlər tərəfindən indiyədək irəli sürülən müxtəlif təkliflər, o cümlədən qəbul edilən qətnamə və qərarlar yalnız kağız üzərində qalmış və bu istiqamətdə heç bir irəliləyiş əldə olunmamışdır. 30 ildən sonra qazanılan qələbə isə heç də asan əldə olunmadı. 44 günlük müharibənin gedişində vətənimiz dünya dövlətləri tərəfindən müxtəlif təzyiqlərlə üzləşir, haqlı savaşında haqsız göstərilməyə çalışılırdı. Amma hədəfləri düzgün müəyyən edən uzaqgörən siyasət nəticəsində bu qələbəni əldə edə bildik. Bu uğurlu siyasətin memarı isə Ali Baş Komandan İlham Əliyev oldu. Dünyanın müxtəlif telekanallarından tanınmış jurnalistlərin müharibənin gedişatında Azərbaycan prezidentinə ünvanladığı məkrli sualları çox səlis və faktlara əsaslanmaqla cavablandıran İlham Əliyev bu müsahibələrlə dünya dövlətlərinə layiqli mesajını verir, mübarizədə kimin haqlı olduğunu sübut etməyə çalışırdı (Zəfər yolu, s.146-147).

44 günlük müharibə başlandığı ilk gündən etibarən qəhrəman ordumuz əzmlə irəliləyir, düşməndə böyük xof yaradırdı. Azərbaycan ordusunun gücü, əzmi və iradəsi qarşısında tab gətirə bilməyən düşmən döyüş meydanında zirehli texnikalarını, hətta yaralı döyüş yoldaşlarını qoyub qaçırdılar. Xüsusilə də Şuşa döyüşlərində heç bir döyüş texnikasından istifadə etmədən aşılmaz qayaları aşaraq, düşmənlə əlbəyaxa döyüşə girən igid oğullarımız artıq düşməndə böyük fobiya yaratmışdı. Müzəffər ordumuz qarşısında tab gətirə bilməyəcəyini anlayan düşmən və vasitəçi dövlətlər 9 noyabr tarixində Şuşanın azad olunmasından sonra döyüşün davam edəcəyi tədqirdə itkilərin daha da çox olacağını dərk etdiklərindən döyüşün dayandırılması ilə bağlı Azərbaycan

tərəfinə müraciət etdilər və beləcə noyabr ayının 10-da Ermənistan, Azərbaycan və Rusiya prezidentlərinin iştirakı ilə 10 noyabr bəyannaməsi imzalandı. Beləliklə, Azərbaycan xalqının 30 illik işğal həsrətinə son qoyuldu və tarixi qələbəmiz əldə olundu. Ali Baş Komandanımızın düzgün siyasəti, vətən üçün canından keçən 3000-dən çox şəhidimizin və qazilərimizin şücaəti, xalqımızın dəstəyi nəticəsində bir vaxtlar adını həsrətlə çəkdiyimiz əzəli torpaqlarımız nəhayət geri qaytarıldı (Tağıoğlu Ə. 2021, s.23).

10 noyabr bəyannaməsindən keçən müddət ərzində əldə etdiyimiz uğurlu qələbənin nəticələri ilə barışmaq istəməyən və hər cür cəhdlərlə sülh müqaviləsi imzalamaqdan yayınan düşmən yenə də öz təxribatlarından əl çəkmirdi. Ali Baş Komandan tərəfindən dəfələrlə xəbərdarlıq olunmasına baxmayaraq, düşmən yenə də ənənəvi olaraq "verdiyi sözə əməl etməmək" prinsipinə sadiq qalırdı. Nəticədə, düşmənin bu təxribatlarına qarşı 2023-cü il sentyabr ayının ayının 19 və 20-də Ali Baş Komandanın rəhbərliyi ilə keçirilən antiterror tədbirləri ilə Azərbaycan qazandığı qələbəni daha da möhkəmləndirdi və ərazi bütövlüyünü tamamilə bərpa etdi. Ermənilər tarixi əraziləri adlandırdıqları Xankəndindən kütləvi şəkildə qaçaraq çıxmaqdan başqa çarə görmədilər. Bu tarixi qələbə əslində "44 günlük zəfərimizin" növbəti uğurlu səhifəsi, ordumuzun növbəti qətiyyəti oldu. Cəmi 24 saatlıq şanlı qələbə 44 günlük zəfər mübarizəsinin uğurlu davamı olaraq tarixə düşdü.

Azərbaycan qazandığı şanlı qələbə ilə bütün dünyaya səs salaraq ölkəmizin daha da tanınmasına şərait yaratdı. Artıq Azərbaycan diplomatiyasının uğurları beynəlxalq təcrübədə digər dövlətlər üçün bir örnəkdir. Ölkə başçısı Cənab İlham Əliyevin səyi nəticəsində Zəfər yolunu keçməklə qazandığımız qələbənin diplomatik müstəvidə də möhkəmləndirilməsi istiqamətində aparılan uğurlu siyasətin nəticəsi göz qabağındadır. Belə ki, bir sıra nüfuzlu beynəlxalq təşkilatların müxtəlif səviyyəli görüşlərinin məhz Azərbaycanda keçirilməsi, ölkəmizin regionda baş verən proseslərin tənzimlənməsi istiqamətində irəli sürdüyü təkliflər bir daha dünyada öz sözümüzü demək iqtidarına malik güclü ölkə siyasətinin formalaşdığından xəbər verir.

Son illər qazandığımız ard-arda tarixi qələbələrdən ilhamlanaraq qeyd etməliyik ki, prezidentimizin yürütdüyü hərtərəfli düzgün siyasət nəticəsində Azərbaycan diplomatiyası artıq yeni eraya qədəm qoymuşdur. Azərbaycanın əsas üstünlüyü ondan ibarətdir ki, qazandığımız bütün qələbələr, həyata keçirilən hərbi əməliyyatlar yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, heç bir hüquq pozuntusu olmadan həyata keçirilib. Ona görə də həm müharibənin gedişində, həm də sonrakı müddətdə regiona marağı olan dövlətlər tərəfindən ölkəmizin adına xələl gətirmək, onu beynəlxalq arenada gözdən salmaq niyyəti ilə bir çox təbliğatlar keçirilsə də, onlar bu məqsədlərinə çatmadılar (Sadiqova İ., 2024).

Azərbaycan, hazırda, Cənubi Qafqaz regionunun ən güclü dövləti kimi dünya dövlətləri ilə yeni iqtisadi və siyasi əlaqələr qurur. Əbəs yerə deyil ki, artıq Avropa dövlətləri Azərbaycanla yeni layihələr həyata keçirməyə daha maraqlıdırlar. Xüsusilə yaşıl enerji layihəsi ilə bağlı yeni təkliflər irəli sürülərək, bu istiqamətində müəyyən addımlar atılıb. Beləliklə, Azərbaycan Avropanın enerji təminatında əsas enerji təminatçısı kimi xüsusi rol oynamağa başlayıb (Əliyeva A., 2022).

10 noyabr bəyannaməsinin əsas müddəalarından olan Zəngəzur dəhlizinin açılması ilə bağlı nəzərdə tutulan layihələr də təkcə Azərbaycanın deyil, ümümilikdə regionun inkişafına yönəldilib. Dəhlizin açılması ilə bağlı müxtəlif alternatif təkliflər olsa da yürüdülən uğurlu xarici siyasət bu tarixi hadisənin tezliklə reallaşacağından xəbər verir (Sevdimaliyev R və Sevdimalıyev E. 2023, 119 s.).

Beləliklə, əldə etdiyimiz bütün bu qələbə və uğurların kökündə Ali Baş Komandanın rəhbərlik etdiyi xalq-ordu birliyi dayanır. Müharibənin gedişində ön cəbhədə qəhrəman ordumuz şücaət göstərərək torpaqlarımızı geri qaytarır, arxa cəbhədə isə xalq mənəvi dəstəyi ilə ordumuzda böyük ruh yüksəkliyi yaradırdı. Bu gün yeni tarix yazan Azərbaycan artıq dünya dövlətləri içərisində öz sözünü deməyi bacaran, öz gücü hesabına tarixi ədaləti bərpa edən və bütün əməliyyatlarında yalnız beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan bir lider dövlət kimi tanınır. Artıq Azərbaycanın yeni tarixi uğurlu qələbələrlə yazılır və həyata keçirilən məqsədyönlü siyasət sübut edir ki, bu tarix hələ yazılmaqda davam edəcək.

ƏDƏBİYYAT

1. Əliyeva Aygün. “44 günlük Vətən Müharibəsi ərzində və sonrasında Azərbaycan-Avropa İttifaqı münasibətləri” Akademik Tarih ve Düşünce Dergisi. 2022, 25 s.
2. Sevdimalıyev Ramiz., Sevdimalıyev Emin. “İkinci Qarabağ müharibəsi və yeni geosiyasi reallıqlar”, Bakı: 2023. AF Poliqraf, 320 s.
3. Sadiqova İlahə. “Bütöv və qalib Azərbaycan”, “Heydər Əliyev Azərbaycan gənclər siyasətini banisidir” Respublika elmi praktiki konfrans. 2024, 4 s.
4. Tağıoğlu Əjdər. “44 günlük əfsanəvi hərb tariximiz”. Elm və təhsil” nəşriyyatı. 2021, 77 s.
5. “Zəfər yolu”, Bakı: 2020. “Qanun” nəşriyyatı, 340 s.

SUMMARY

Ilaha Sadigova

VICTORY OF THE CENTURY AND NEW GEOSEOLOGICAL REALITIES

The article describes the changes taking place in the South Caucasus region within the framework of the new geopolitical realities of the XXI century, especially Azerbaijan's restoration of its historical lands by ending 30 years of occupation and becoming the leading state of the South Caucasus region with its achievements. It was noted that Azerbaijan, through 44 days of civil war and 24-hour anti-terrorist measures, managed to completely expel the enemy from our historical lands and restore our territorial integrity. The steps taken towards the worldwide recognition of the results of the victory gave their consequence and increased the interest of world countries in Azerbaijan and created conditions for the implementation of new projects. The article emphasises that Azerbaijan has already become an influential country in the region and will set an example for the countries of the world with its policy.

Key words: *South Caucasus, anti-terror, region, policy*

SEVİNC SƏFƏRLİ
seferlisevinc999@gmail.com
Naxçıvan Dövlət Üniversiteti
ORCİD İD: 0009-0003-8107-5767

AZERBAYCAN RESPUBLİKASININ MÜALİCƏ-SAĞLAMLIQ TURİZM SAHƏSİNDƏ MÖVCÜD PROBLEMLƏR VƏ BU PROBLEMLƏRİN HƏLLİNDƏ DÖVLƏT SİYASƏTİNİN ROLU

Məqalədə Azərbaycan Respublikası və onun ayrı-ayrı bölgələrinin müalicə-sağlamlıq turizmi potensialı araşdırılmış, həmçinin bu sahənin inkişafında mövcüd olan problemlər öyrənilmiş və bu problemlərin həlli üçün görülən bir sıra tədbirlərə nəzər salınmışdır. Həmçinin müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən aparılan tədbirlərə nəzər yetirilmişdir. Qeyd olunmuşdur ki, ölkəmizdə turizminin inkişafı üçün dövlət tərəfindən aparılan siyasət, həmçinin qəbul edilən hər bir qanun bu sahənin inkişafına müsbət təsir göstərmiş və bu tədbirlərin sayəsində ölkəmizdə sağlamlıq turizmi əvvəlki illərlə müqayisədə xeyli inkişaf etmişdir. Azərbaycan xarici vətəndaşların diqqətini daha da çox çəkməyə nail olmuşdur. Bütün görülən tədbirlərin nəticəsində isə hər il ölkəmizə xaricdən gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə xeyli dərəcədə artmışdır.

Açar sözlər: *Müalicə, kurort, turist, sanatoriya*

Azərbaycanda turizmin inkişafı, imkanları, turizm bazası, dövlətin ümumi turizm infrastrukturu əhatəli formada araşdırılmış və xarakterizə edilmişdir. Burada nəinki respublikanın ümumi turizm imkanları, həmçinin də ayrı-ayrılıqda rayonlar üzrə araşdırmalar aparılmış və onların turizm imkanları öyrənilmişdir. Bütün bu nəticələri ümumiləşdirərək, Azərbaycanın turizm perspektivlərini öyrənmək məqsədi ilə SWOT təhlili aparılmışdır. Respublikamızda turizmin həm üstün, həm də zəif cəhətləri vardır. Zəif cəhətlər bunlardır:

1. Azərbaycanın müxtəlif regionlarında mövcud olan turizmin potensialından kifayət qədər istifadə edilməməsi: Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, Aran iqtisadi rayonunun turizm ehtiyyatlarının aşağı səviyyədə mənimsənilməsi, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın zonasının işğal altında olduğu dönəmdə buradakı turizm ehtiyyatlarının istifadə edilə bilməməsi;
2. Rayonlardan, kəndlərdən əhalinin Bakıya köçməsi nəticəsində Paytaxtda demoqrafik yüklənmə, həmçinin sənayenin inkişafı nəticəsində ekoloji gərginliyin artması;
3. Tarixi-mədəni irsin olduğu bəzi regionlarda, kəndlərdə relyeflə bağlı nəqliyyat sisteminin, kommunikasiya və rabitə sisteminin zəif inkişafı;
4. Turizmin inkişaf etdiyi bəzi rayonların turizm-informasiya mərkəzlərində statistik bu məlumatların, yəni gələn turistlərin sayı, onların yerləşmə dərəcəsi və s. çıxarılmaması;
5. Ölkənin tanıtımını edən reklam məqsədli kampaniyaların yetərincə təşkil edilməməsi;
6. Çimərlik və dənizlərdə mövcud olan turizm potensialının kifayət qədər istifadə olunmaması, yaxta turizminin, həmçinin gəmi ilə səyahət turizminin təşkil edilməməsi;
7. Turizm potensialı olan bölgələrdə ekskursiya və tur planlarının zəif olması, həmçinin ekskursiya xidmətlərini keçirən bələdçilərin, tur rəhbərlərinin ehtiyaclarının zəif qarşılanması (Soltanova H.B., Hüseynova Ş.H. 2007, s.199-203).

XX əsrin sonuna yaxın turizm haqqında bir sıra proqramlar, qərarlar qəbul edilsə də düzgün idarəçilik olmadığından heç bir müsbət irəliləyişlər olmamışdır. İlk öncə turistlərə və bura gələn digər insanlara xidmət göstərən otellərdə buranın çalışanlarına düzgün xidmət göstərmək baxımdan masalara xidmət qaydaları, otaq təmizlənməsi qaydaları, gələn qonaqlara rəftar qaydaları öyrədilməlidir. Lakin bu qaydaları çalışanların əksəriyyəti öyrənməkdən yayınır. Həmçinin demək olmaz ki hər bir oteldə işçilərin çalışma qaydaları eynidir. Bunun fərqli olmasının əsas səbəbi otellərin başında olan əsas şəxslərin türk və ya başqa xarici vətəndaşlar olmasıdır. Həmçinin bu sahədə inkişaf

etmək üçün 4-5 ulduzlu bahalı otellərdən əlavə, daha əlverişli qiymətə malik 2-3 ulduzlu otellərdə tikilib, istifadəyə verilərsə bu sahədə tələbat sahada artacaqdır.

Ölkəmizdə müalicə-sağlamlıq turizminin zəif cəhətlərini aradan qaldırmaq bu yöndə inkişaf etmək məqsədilə dövlət tərəfindən bir sıra tədbir görülmüşdür. Turizm sektorunun inkişafında mühüm rol oynayan və onun beynəlxalq turizm bazarına çıxışının əsasını qoyan işlərdən biri 2002-2005-ci illər üçün nəzərdə tutulan "Azərbaycanda turizmin inkişaf proqramı"-nın qəbul edilməsi oldu. XX əsrin sonundan başlayan turizm sahəsində görülən işlər yeni əsrin əvvəllərində də davam etdi və ilki 2002-ci ildə olmaqla hər il mütəmadi olaraq AİTF (Azərbaycan Beynəlxalq Turizm Sərgisi) keçirilmiş və artıq bu sərgilər ənənə halını almışdır. Ölkəmizdə keçirilən turizm sərgilərindən əlavə, həmçinin ölkəmizin turizm sahəsində malik olduğu resursları, bu sahədə Azərbaycanın yüksək potensiala və inkişafa malik olmasını göstərən materiallar bir çox beynəlxalq səviyyəyə malik olan xarici ölkə sərgilərində nümayiş edilmiş, xarici ölkələrdə tanıdılmışdır.

Növbəti illəri əhatə edən dövlət proqramları edilməsi turizmin inkişaf etdirilməsində növbəti addımlardan biri idi. Bu dövlət proqramlarından biri də 2007-2016-cı illər üçün nəzərdə tutulan "Dövlət Proqramı"dır. Bu proqramda diqqət yetirilən əsas məsələlər turizm sahəsində kadr potensialının azlığına əsasən, ixtisaslı kadrların artırılması, ölkəmizin malik olduğu turizm ehtiyyatlarından düzgün və səmərəli şəkildə istifadə edilməsi, bu sahənin inkişafına kömək edəcək dövlət siyasətinin formalaşdırılması və s. idi.

Müalicə-turizminin inkişaf etdirilməsi üçün müalicə ehtiyyatların olduğu ərazilərdə sağlamlıq mərkəzləri, kurort-sanatoriyaları yaratmaq, müəsisələrin müasir avadanlıqlara təchiz edilməsinə diqqət göstərmək, həmçinin bu ərazilərdə turizm marşrutlarını təşkil etmək və s kimi işlər əsas diqqət göstərilməli olan işlərdir. Bu ərazilərin həm ölkə daxilində, həm də ölkə xaricində tanıdılması üçün turizm potensialının olduğu bölgələr, həmçinin bu bölgələrdə yaradılan müəsissələr haqqında informasiyaya malik nəşrlərin, reklam materiallarının təşkil edilməsi, həmçinin hər bir kurortu təmsil edən simvolik suvenirlərin yaradılması kimi işlər böyük əhəmiyyət daşıyır.

Turizm sahəsində növbəti addım isə Prezident İlham Əliyevin sərəncamı ilə 5 yanvar 2011-ci ilin Turizm ili elan olunması oldu. Azərbaycan Respublikasında 2011-ci işin "Turizm ili" elan edilməsi haqqında verilən sərəncamda belə deyilmişdir:

Dövlət tərəfindən ölkəmizin turizm sahəsində dünya üzrə tanıdılması məqsədi ilə bu tədbirlər görülə bilər:

- Azərbaycanın beynəlxalq səviyyədə keçirilən turizm sərgilərində öz turizm stendi ilə iştirak etməsi;
- Ölkəmizdə geniş miqyaslı turizm sərgilərinin keçirilməsi və bu sərgilərin dünya ölkələrinin böyük turizm sərgiləri sırasına girməsi üçün lazımi tədbirlər görmək;
- İlk öncə, daxili turizm bazarında daha sonra xaricdə öz istehsal etdiyimiz məhsulları brend məhsullar olaraq tanıtmaq;
- Azərbaycanın xaricdəki nümayəndələrinin vasitəçiliyi ilə ölkəmizin sağlamlıq-tuizminə aid olan məlumatların, yeni informasiyaların və reklamların həmin ölkələrdə yayımlanmasını təmin etmək;
- Bir və ya bir neçə ölkələrə çoxtərəfli və ya ikitərəfli əməkdalıq quraraq bunun əsasında beynəlxalq səviyyədə konqres, konfrans və simptoziumlar təşkil etmək.

Respublikamızda sağlamlıq-turizminin inkişafı üçün görülən tədbirlərin nəticəsi olaraq deyə bilərik ki, Azərabaycandan xarici ölkələrə gedənlərin sayı ilə ölkəmizə gələn turistlərin sayı arasındakı fərq 2-2,5 dəfə az idisə günümüzdə bu fərq nisbəti dəyişmiş və getdikcə azalmağa davam edir (Məmmədov S.A., Bilalov B.Ə. 2004, s.45-48). Belə ki, 2005-ci ildə ölkəyə gələn və ölkədən gedən turistlərin sayı arasındakı fərq 194,2 min nəfər idisə, 2014 cü ildə bu sayın 70,5 min nəfər olduğu qeyd edilmişdir. Bu sayın belə azalmasının səbəbi dövlətimizin daxili turizm sahəsindəki uğurlu siyasəti və bunun əsasında xüsusi istirahət mərkəzlərinin, otellərin, mehmanxanaların yaradılmasıdır. "Şahdağ" turizm mərkəzinə səyahət edən turistlərin sayı 2013 cü ildə təxminən 30 min nəfərə çatmışdır.

ƏDƏBİYYAT

1. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin əsasları. Bakı: 2007, Mütərcim
2. Məmmədov S.A, Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı: 2004
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008). "Respublika" qəzeti. 13 fevral 2004-cü il
4. "Azərbaycan kurortlarının" Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Xalq" qəzeti. 28 fevral 2007-ci il
5. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Xalq" qəzeti. 6 fevral 2009-cu il
6. Rzayev B.Z. Naxçıvan Muxtar Respublikasının mineral sərvətləri və ondan istifadə imkanları

SUMMARY

Sevinj Safarli

EXISTING PROBLEMS IN THE FIELD OF MEDICAL-HEALTH TOURISM OF THE REPUBLIC OF AZERBAIJAN AND THE ROLE OF STATE POLICY IN THE SOLUTION OF THESE PROBLEMS

In the article, the potential of medical and health tourism of the Republic of Azerbaijan and its separate regions was investigated, and the existing problems in the development of this field were studied, and a number of measures taken to solve these problems were reviewed. Measures taken by the state for the development of health tourism were also reviewed. It was noted that the policy implemented by the state for the development of tourism in our country, as well as every law adopted, had a positive effect on the development of this field, and thanks to these measures, health tourism in our country has developed significantly compared to previous years. Azerbaijan has managed to attract the attention of foreign citizens even more. As a result of all the measures taken, the number of tourists coming to our country from abroad has increased significantly compared to previous years.

Key words: *treatment, resort, tourist, sanatorium*

SEVİNC ƏMİRƏLİYEVA
sevinc.amraliyeva@icloud.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0002-1677-8178

REGİONAL BANK SİSTEMİ PUL-KREDİT TƏNZİMLƏNMƏSİNİN BAŞLICA VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

Müasir Azərbaycan reallığı şəraitində bank islahatı inkişaf mərhələsindədir. Respublikamızda mövcud qanunlar hazırda kredit təşkilatları üçün tam balanslaşdırılmış qanunvericilik bazası təşkil etmir. Bank sisteminin fəaliyyəti, fikrimizcə, ümumi iqtisadi islahatların aparılmasına və iqtisadiyyatda bazar iqtisadi münasibətlərinin gücləndirilməsinə hesablanıb və onun vəziyyəti cəmiyyətin demək olar ki, hər bir üzvünün maraqlarına toxunur. Qeyd etmək lazımdır ki, bank sistemi yalnız onun strukturu və funksiyaları bazar iqtisadiyyatına adekvat olduqda, bazar şəraitində tam və stabil fəaliyyət göstərmək iqtidarındadır. Bununla yanaşı, mövcud bank qanunvericiliyi bank sisteminin qurulmasında və tənzimlənməsində regionallıq prinsipinə kifayət qədər diqqət yetirmir, eyni zamanda regional kimlik və ya özünə məxsusluq amili Azərbaycan iqtisadiyyatının fəaliyyətində əsas amillərdən biridir.

Azərbaycan bank sektorunun hazırki vəziyyəti bank sektorunun bütövlükdə iqtisadiyyatın artım templərindən daha sürətli artım templəri, kommersiya banklarının resurs bazasının genişləndirilməsi və kreditorlar və əmanətçilər tərəfindən banklara inamın güclənməsi, kredit təşkilatlarının resurs bazasının "uzadılması" meyli, əhaliyə verilən kreditlərin həcminin artması, qeyri-maliyyə sektorunda kredit qoyuluşlarının üstünlük təşkil edən artımı, iqtisadiyyatın real sektoruna verilən kreditlərin artım tendensiyası ilə xarakterizə olunur.

Qeyd edək ki, müstəqilliyin ilk illərindən Azərbaycan Mərkəzi Bankı vahid dövlət pul-kredit siyasəti və məzənnə siyasəti prinsiplərinə əməl etməkdədir. İnflyasiyanın planlaşdırılmış səviyyəyə endirilməsi pul siyasətinin əsas məqsədidir. Azərbaycan Mərkəzi Bankı inflyasiyanın azaldılmasına yönəlmiş siyasət həyata keçirərkən milli valyutanın məzənnəsinin dinamikasının Azərbaycan iqtisadiyyatının vəziyyətinə təsirini nəzərə alacaqdır.

Dövlət miqyasında maliyyə-kredit münasibətlərinin ümumiliyi Azərbaycan Respublikası subyektlərinin maliyyəsinin dövlət maliyyəsinin əsas elementi olmasında özünü göstərir. Bununla belə, ümumi metodoloji əsasa malik olmaqla regionun və bütövlükdə dövlətin pul-kredit münasibətləri obyektiv iqtisadi qanunlara əsaslanan və regional xüsusiyyətləri nəzərə alan pul münasibətlərinin iqtisadi əsasları, milli struktur və regional və ya regionlararası strukturlarla səciyyələnən redistributiv reproduktiv proses, pul sisteminin qapalılıq dərəcəsi kimi əlamətlərə görə bir sıra fərqlərə malikdir.

Yuxarıda göstərilən fərqləri nəzərə alaraq hesab edirik ki, bazar münasibətləri inkişaf etdikcə ölkənin müxtəlif regionlarında iqtisadi şəraitin tədricən bərabərləşməsi maliyyə axınlarının mərkəzdən regionlara yönəldilməsi yolu ilə baş verməlidir. Bu vəzifəyə nail olmağın yollarından biri, fikrimizcə, konkret regionda iqtisadi inkişafa yönəlmiş regional kommersiya bankları şəbəkəsinin yaradılması və inkişafına dəstək verilməsidir ki, elmi məqaləmizdə məhz bu problemin həlli yolları nəzərdən keçirilmişdir.

Açar sözlər: *Pul-kredit siyasəti; pul-kredit tənzimlənməsi; bank sistemi; regional iqtisadiyyat; regional bank sistemi*

Giriş

İqtisadiyyatın pul-kredit tənzimlənməsi sistemi hər bir sistem kimi bir-biri ilə qarşılıqlı münasibətdə və əlaqədə olan, müəyyən bütövlüyü, birliyi təşkil edən elementlərin məcmusundan ibarətdir. Sistemin əsas elementlərinin xüsusiyyətləri, yəni prinsiplər, məqsədlər, subyektlər,

obyektlər, alətlər və onların əlaqələri hər bir ölkənin pul-kredit tənzimləmə sisteminin xüsusiyyətlərini əvvəlcədən müəyyən edir.

Pul-kredit tənzimlənməsi, adətən iqtisadiyyatın dövlət tənzimlənməsinin bir hissəsi olub, burada məcburi ehtiyat tələbləri, faiz dərəcələri, açıq bazar əməliyyatları, bankların yenidən maliyyələşdirilməsi və s. pul-kredit tənzimlənməsinin başlıca alətləridir. Pul-kredit tənzimləmə alətlərinin seçilməsi üçün bazar münasibətlərinin inkişaf dərəcəsi və praktikada istifadə olunan pul-kredit tənzimləmə konsepsiyası böyük əhəmiyyət kəsb edir. İqtisadiyyatın pul-kredit tənzimlənməsi alətlərinin seçilməsi həmişə cəmiyyətin iqtisadi, sosial və siyasi inkişafının müxtəlif xarakterli amilləri ilə müəyyən edilən konkret tarixi prosesdir. Təkamül prosesində bəzi alətlər ilkin mənasını itirir, bəziləri isə əksinə, çəki qazanır, başqa sözlə desək, tanınır və ön plana çıxır. Qeyd edək ki, pul-kredit tənzimləməsinin bütün alətləri – ənənəvi və qeyri-ənənəvi, birbaşa və dolayı təsir, ümumi və seçmə, qısamüddətli və uzunmüddətli tənzimləmə alətləri kimi təsnif edilir (Məmmədov Z.F., 2008, s.385).

Material və metodlar

Pul-kredit tənzimlənməsi – Azərbaycan Mərkəzi Bankı tərəfindən dövriyyədə olan pul kütləsi, verilən kreditlərin həcmi, faiz dərəcələrinin səviyyəsi və s. kimi pul dövriyyəsinin bu cür göstəricilərini dəyişdirməyə yönəlmiş tədbirlər kompleksidir. Pul-kredit tənzimlənməsi pul-kredit siyasətinin tərkib hissəsi olub, pul tədavülü və kredit sahəsində iqtisadiyyatın dayanıqlı və səmərəli fəaliyyətinin təmin edilməsi, pul sisteminin lazımi səviyyədə saxlanılması məqsədilə ölkə hökuməti tərəfindən yeridilən kurs və həyata keçirilən tədbirlərdir (Abbasov və b., 2005, s.206).

K.R.Tahirbekovun fikrincə, iqtisadi konyunkturanın vəziyyətindən asılı olaraq pul-kredit siyasətinin iki əsas növü mövcuddur ki, onların hər biri özünəməxsus alətlər toplusu və iqtisadi-inzibati tənzimləmə üsullarının müəyyən kombinasiyası ilə xarakterizə olunur (Тагирбеков К.Р., 2003, s.81).

Məhdudlaşdırıcı pul-kredit siyasəti kommersiya banklarının faiz dərəcələrinin səviyyəsinin artırılması və kredit əməliyyatlarının həcminin məhdudlaşdırılması yolu ilə pul-kredit sisteminin fəaliyyətini tənzimləyən tədbirlərin həyata keçirilməsinə yönəlmişdir. Onun həyata keçirilməsi, adətən vergilərin artırılması, dövlət xərclərinin azaldılması, habelə inflyasiyanın qarşısının alınmasına, bəzi hallarda isə tədiyə balansının yaxşılaşdırılmasına yönəlmiş digər tədbirlərlə müşayiət olunur (Əsgərova R.V., 2007, s.95).

Ekspansionist pul-kredit siyasəti, bir qayda olaraq, kreditləşmənin əhatə dairəsinin genişləndirilməsi, tədavüldə olan pul kütləsinin artmasına nəzarətin zəifləməsi, vergi və faiz dərəcələrinin aşağı salınması ilə xarakterizə olunur (Əsgərova R.V., 2007, s.97).

Həm ekspansionist, həm də məhdudlaşdırıcı pul-kredit siyasəti ya ümumi, ya da seçici ola bilər. Ümumi pul-kredit siyasəti zamanı Azərbaycan Mərkəzi Bankının tədbirləri bank sisteminin bütün qurumlarına, seçmə halında isə ayrı-ayrı kredit təşkilatları və qrupları və ya bank fəaliyyətinin müəyyən növlərinə şamil edilir. Seçici, başqa sözlə desək, selektiv pul-kredit siyasəti Azərbaycan Mərkəzi Bankına müəyyən istiqamətdə seçici təsir göstərməyə imkan verir.

Selektiv siyasətə maliyyə bazarları zəif inkişaf etdikdə, pul vəsaitlərinin və investisiyaların düzgün istiqamətlərdə kifayət qədər effektiv yenidən bölüşdürülməsini təmin edə bilməyəndə müraciət edilir. Belə bir siyasət bir tərəfdən iqtisadiyyatın prioritet sahələrinə kredit axınının əhəmiyyətli dərəcədə dəyişməsinə şərait yaradır, digər tərəfdən isə ayrı-ayrı regionlar, sahələr və fəaliyyət sferaları üçün güzəştli kreditləşmə şəraitinin yaradılması hesabına kredit-maliyyə sisteminin normal fəaliyyətinə mane olur. Selektiv siyasət prioritet sahələrə yönəldilmiş kreditlərə kəmiyyət məhdudiyyətləri, habelə onlara güzəştli faiz dərəcələri təyin etməklə iqtisadiyyatın prioritet sahələrinin beynəlxalq maliyyə institutlarının kreditləri və büdcə vəsaitləri hesabına subsidiyalaşdırılmasını zəruri edir ki, bu da istər-istəməz kredit-maliyyə sferasında yeni problemlərin yaranmasına səbəb olur.

Fikrimizcə, həyata keçirilən pul-kredit siyasətinin növünün və müvafiq olaraq kommersiya banklarının fəaliyyətinin tənzimlənməsi alətləri toplusunun seçimi hər bir konkret halda regionun

iqtisadi inkişafının vəziyyətinə əsasən, Mərkəzi Bank tərəfindən aparılmalı və qanunvericilik aktları ilə təsdiq edilməlidir.

Pul-kredit siyasətinin metod və alətləri fərqlidir. Pul-kredit siyasəti metodları müəyyən pul-kredit siyasəti alətlərindən istifadə etməklə həyata keçirilən pul-kredit siyasətinin istiqamətlərinə təsir üsullarıdır. Pul-kredit siyasəti alətləri pul-kredit siyasətinin hədəfləri ilə sıx əlaqəli olan, pul-kredit tənzimləyici orqan kimi Azərbaycan Mərkəzi Bankının təsir dairəsində olan və dəyəri kifayət qədər tez tənzimlənə bilən göstəricilərdir.

Pul-kredit siyasəti metodlarına aşağıdakılar daxildir:

- inzibati metodlar;
- iqtisadi metodlar.

Öz növbəsində pul-kredit siyasətinin inzibati metodlarına aşağıdakılar aid edilir:

- kreditlər üzrə faiz dərəcələrinin səviyyəsinin məhdudlaşdırılması;
- kredit təşkilatlarına verilən kreditlərin həcminin məhdudlaşdırılması;
- selektiv (seçici) kredit siyasəti.

Azərbaycan Mərkəzi Bankının pul-kredit siyasətinin iqtisadi metodlarına aşağıdakılar daxildir:

- normativ metodlar. Bu metodlar aşağıdakı alətlərdən istifadə etməklə həyata keçirilir:

a) məcburi ehtiyat fonduna ayırmalar;
b) kredit təşkilatları üçün müəyyən edilmiş əmsallar və standartlar.

- korreksiyaedici metodlar. Bu metodlar aşağıdakı pul-kredit siyasəti alətlərindən istifadə etməklə həyata keçirilir:

a) faiz dərəcəsi;
b) açıq bazarda əməliyyatlar;
c) valyuta müdaxilələri və s.

Azərbaycan Mərkəzi Bankının istifadə etdiyi pul-kredit siyasəti alətləri səmərəlilik meyarlarına malikdir. Belə meyarlara aşağıdakılar daxildir:

- çeviklik, yəni bu alətdən istifadə prosesində manevr etmək bacarığı;
- geri dönmə qabiliyyəti, yəni tərs əməliyyat aparmaq imkanı;
- sürət;
- əldə edilmiş nəticələrin qarşıya qoyulan məqsədlərə uyğunluğu.

Parantez açaraq bir nüansı vurğulayaq ki, Azərbaycan Mərkəzi Bankının 2024-cu il üçün vahid dövlət pul siyasətinin əsas istiqamətləri qlobal iqtisadi fraqmentasiya, mərkəzi banklar tərəfindən pul siyasətinin sərtləşdirilməsi şəraitində formalaşdırılmışdır (https://uploads.cbar.az/assets/f99c0a21f2500479d8abf343a.pdf).

Əldə olunan nəticələr

Qeyd edək ki, bank kapitalının fəaliyyət mexanizminin dövlət idarəetməsinin maliyyə alətləri sistemində həlledici rol pul-kredit siyasətinə aiddir. Fikrimizcə, pul-kredit siyasəti maliyyə sabitləşməsinin və dayanıqlı iqtisadi artımın təmin edilməsinin əsas alətidir. Pul-kredit siyasətinin bu funksiyasının yerinə yetirilməsi pul kütləsinin tənzimlənməsi vasitəsi ilə təmin edilir. Belə ki, dövlət istehsalın azalması zamanı xərcləri stimullaşdırmaq üçün pul təklifini artırır, inflyasiya zamanı isə əksinə, pul təklifini məhdudlaşdırır ki, bununla da məcmu tələbi azaldır.

Azərbaycan Mərkəzi Bankı (AMB) kommersiya banklarının saxladığı izafi ehtiyatların miqdarını tənzimləməklə ölkədə pul kütləsinin həcmini dəyişir, çünki onlar bank sisteminin kapital yaratmaq qabiliyyəti üçün çox vacibdir. Yuxarıda da qeyd etdiyimiz kimi, AMB kommersiya banklarının öhdəliklərinin artırılması siyasətini - kreditin genişləndirilməsi siyasətini və ya onların azaldılmasını - kreditin məhdudlaşdırılması siyasətini həyata keçirə bilər. Kredit bazarında AMB kommersiya banklarına və hökumətə verilən kreditlərə limit təyin etmək kimi alətdən istifadə edir. Bu alət kommersiya banklarının öhdəliklərinin formalaşmasına dərhal təsir göstərdiyi üçün effektivdir. Lakin bu alətin çox əhəmiyyətli bir çatışmazlığı da vardır ki, bu da onun istifadəsi zamanı iqtisadiyyatın pul resurslarına olan obyektiv ehtiyaclarını nəzərə almamasıdır. Bu ya iqtisadiyyatın

həddindən artıq kreditləşməsi nəticəsində inflyasiyaya səbəb ola bilər, ya da kreditlərin az verilməsi ödənişlərin aparılmaması ilə nəticələnə bilər.

Qiymətli kağızlar bazarı əməliyyatları bazar münasibətləri inkişaf etmiş ölkələrdə ən çox istifadə olunan öhdəliyin idarə edilməsi vasitəsidir. Bu onunla əlaqədardır ki, dövlətin kreditorları və dövlət büdcəsinin icraçıları olan mərkəzi banklar böyük qiymətli kağızlar portfelinə, ilk növbədə ən likvid olan dövlət qiymətli kağızlarına malikdirlər. Buna görə də AMB bu şərtlərlə birja satıcı və alıcısı kimi hərəkət edə bilər. Kommersiya banklarına və ya onların müştərilərinə qiymətli kağızları satmaqla AMB kommersiya banklarının sərbəst ehtiyatlarını və bununla da onların yeni depozitlər yaratmaq üçün emissiya qabiliyyətini azaldır. Qiymətli kağızları almaqla AMB kommersiya banklarının sərbəst ehtiyatlarını və buna görə də onların passiv hesablarda yeni pul yaratmaq imkanlarını artırır. Oxşar mənzərə valyuta bazarında da müşahidə olunur. AMB ən böyük valyuta sahibi olmaqla kreditin məhdudlaşdırılması siyasətini həyata keçirərək onu kommersiya banklarına satır və ya kredit ekspansiyası siyasətini həyata keçirərək banklardan valyuta alır.

Maliyyə tənzimlənməsinin başqa bir aləti uçot dərəcəsinin dəyişdirilməsidir, yəni AMB-nin kommersiya banklarına verdiyi kreditlərə görə tutduğu faizin dəyişməsi. Bu alət, fikrimizcə, kredit bazarında fəaliyyət göstərən tələb və təklif qanununu nəzərə aldığı üçün sırf iqtisadi xarakter daşıyır. Başqa sözlə desək, rəsmi uçot dərəcəsi bazar faiz dərəcələri üçün etalondur. AMB tərəfindən verilən kreditlər üzrə uçot dərəcəsinin dəyişdirilməsi, kredit resurslarının təklifinin artırılması və ya azalması, bununla da onlara olan tələbi tənzimləyir. Uçot dərəcəsinin aşağı salınması, yəni "ucuz pul" siyasəti kredit əməliyyatlarının genişlənməsinə və iqtisadi inkişaf tempinin sürətlənməsinə təkan verir. "Bahalı pul" pul siyasəti xərcləri və inflyasiya təzyiqlərinin qarşısını alır. AMB-nin nağdsız pul dövriyyəsini sıxışdırmağa və kredit resurslarının təklifini azaltmağa yönəlmiş "sərt" məhdudlaşdırıcı siyasəti kommersiya banklarının iqtisadiyyatın real sektoruna kredit vermək və vəsait yatırmaq imkanlarını məhdudlaşdırır və bankların mənfəətinin azalmasına səbəb olur. Gəlirlərin azalmasını kompensasiya etmək üçün kommersiya bankları öz kreditləri üzrə faiz dərəcələrini artırmağa məcbur olurlar ki, bu da pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi və maliyyə vəziyyətinin pisləşməsi nəticəsində kreditə ehtiyacı artan borcalanların maraqlarına ziddir.

Dövlətin maliyyə siyasətinin həyata keçirilməsinin növbəti və ən vacib vasitəsi büdcə-vergi və ya fiskal mexanizmdir. Büdcə faktiki olaraq dövlət resurslarının həcmini və strukturunu təmsil etməklə ölkənin sosial-iqtisadi inkişafının real imkanlarını xeyli dərəcədə müəyyən edir. Büdcənin vəziyyəti bilavasitə dövlətin maliyyə bazarlarında iqtisadi davranışını müəyyən edir ki, bu da öz növbəsində bütün iqtisadi subyektlərin iqtisadi davranışına birbaşa təsir göstərir. Dövlətin büdcə kəsirini necə ödəməsindən asılı olaraq müxtəlif maliyyə bazarı modelləri yaradılır. Məhz bu baxımdan qeyd edə bilərik ki, büdcə gəlirlərinin əsas mənbəyini vergilər təşkil etdiyinə görə büdcənin keyfiyyəti və onun reallığı bilavasitə vergi daxilolmalarının həcmindən, strukturundan və dərəcəsindən asılıdır.

Artıq qeyd edildiyi kimi, dövlət maliyyə siyasətinin mühüm struktur həlqəsi valyuta tənzimlənməsi mexanizmidir. Valyuta bazarında sabitləşmə ümumi maliyyə sabitləşməsi üçün zəruri və fikrimizcə, əvvəlcədən müəyyən edən şərt kimi çıxış edir. Mövcud hesablamalara görə, xarici valyuta ümumi nağd dövriyyənin yarıdan çoxuna xidmət edir, əmanətlərin əsas hissəsi ona yatırılır və bu göstəricilər daha da artmağa meyllidir. AMB tərəfindən xarici valyutanın idxalı və ixracı, nağd valyutanın dəyişdirilməsi və daxili ödəniş dövriyyəsində onun dövriyyəsinin məhdudlaşdırılması məqsədilə bir sıra tədbirlər görülməsinə baxmayaraq, bu Azərbaycanın daxili ödənişin dövriyyəsinin mühüm elementidir. Mütəxəssislərin fikrincə, nağd valyutanın manat ifadəsində həcmi nağd manat təklifinin həcmindən dəfələrlə çoxdur.

Müzakirə

Ümumiyyətlə, fikrimizcə, pul-kredit münasibətlərinin dövlət tənzimlənməsinin keyfiyyət meyarları aşağıdakılardan ibarət olmalıdır:

- inflyasiya proseslərinin səviyyəsi və dinamikası;
- pul sisteminin vəziyyəti;

- maliyyə sabitliyinin təmin edilməsi;
- investisiya fəaliyyətinin stimullaşdırılması.

Pul-kredit siyasəti strategiyası tədricən aşağı inflyasiya ilə iqtisadi artım yoluna nail olmaqdan ibarətdir. Bu strategiyanın həyata keçirilməsi üçün stimullaşdırıcı şərtlər bank sisteminin sağlamlaşdırılması, maliyyə bazarlarının bərpası, xarici borc probleminin həlli, bütün formalarda borc öhdəliklərinin qeyri-şərtsiz icrası mexanizminin yaradılmasıdır. Pul-kredit siyasətinin son məqsədi iqtisadi daralmanı məhdudlaşdırmaqla yanaşı, inflyasiyanın qarşısını almaqdır. Bu o deməkdir ki, ARMB-nin pul-kredit siyasəti əhalinin real gəlirlərini saxlamağa və işsizliyin artımını məhdudlaşdırmağa kömək edəcəkdir. Tədiyyə balansının cari hesabında tarazlığın təmin edilməsi vacibdir ki, bu da valyuta ehtiyatlarının artırılmasına və borcların ödənilməsinə imkan verəcəkdir.

Pul-kredit siyasətinin strateji məqsədlərinə nail olunmasında mühüm amil gələcəkdə iqtisadiyyatda real faiz dərəcələrinin aşağı müsbət səviyyəsinə çatmasıdır ki, bu real sektorda borc vəsaitlərinə tələbi, eləcə də iqtisadi artımı stimullaşdıracaqdır. Lakin bazar münasibətləri şəraitində Mərkəzi Bank son borcalanlara verilən kreditlər üzrə faiz dərəcələrinə birbaşa təsir göstərə bilməz, bu dolayı təsir maliyyə bazarları vasitəsilə həyata keçirilir. Bu məqsədə nail olmaq demək olar ki, bütün maliyyə bazarlarında sabitliyin pozulması ilə çətinləşir. Odur ki, sonuncunun bərpası və onların xarici kapitalın hərəkətindən daha az asılılığının təmin edilməsi faiz dərəcələrinin tənzimlənməsində daha çox çevikliyə imkan verəcəkdir.

Mərkəzi Bankın kommersiya banklarına verilən kreditləri artırması pul-kredit siyasətinin yeni elementinin artmasına, yəni bankların müəssisələrə verdiyi kreditlərin payının pul kütləsinin artmasına səbəb olacaqdır.

Beləliklə, dövlət pul-kredit tənzimlənməsinin məqsədi bütün cəmiyyətin yekun sosial-iqtisadi inkişaf proqramlarından irəli gəlməli və sosial-iqtisadi inkişafın intensivləşməsini stimullaşdırmalıdır. Fikrimizcə, bu məqsədə optimal monetizasiyanı təmin edən siyasətlər, məzənnə siyasəti, depozit siyasəti, kredit siyasəti, ödəniş və hesablaşma, bank sisteminin fəaliyyətinə səmərəli nəzarətin təmin edilməsi siyasəti, pul sisteminin etibarlılığını və sabitliyini təmin edən siyasətlər və s. vasitəsilə nail olmaq lazımdır.

ƏDƏBİYYAT

1. Məmmədov Z.F. Pul, kredit və banklar. Dərslik. III nəşr. Bakı: 2008. Azərnəşr, 400 s.
2. Abbasov Ə.M., Bağırov M.M., Bağırov D.A., Pürhani S.H. İzahlı iqtisadi terminlər lüğəti. Bakı: 2005. Nurlan, 546 s.
3. Основы банковской деятельности: Банковское дело. Под ред. К.Р.Тагирбекова, М.: 2003, Издательство «Весь мир», 716 с.
4. Əsgərova R.V. Pul, kredit və banklar. Dərslik. Bakı: 2007. Mütərcim, 392 s.
5. https://uploads.cbar.az/assets/f99c0a21f2500479d8abf343a.pdf

SUMMARY

Sevinj Amiraliyeva

REGIONAL BANKING SYSTEM AS ONE OF THE MAIN INSTRUMENTS OF MONETARY REGULATION

In the conditions of modern Azerbaijan, the banking reform is in the stage of development. The current legislation of our republic at the moment does not represent a fully balanced legislative base for credit organizations. The activity of the banking system, in our opinion, is designed to carry out general economic reforms and strengthen market economic relations in the economy, and its condition affects the interests of almost every member of society. It should be noted that the banking system is able to fully and stably operate in market conditions only when its structure and functions are adequate to the market economy. In addition, the existing banking legislation does not pay enough attention to the principle of regionalism in the establishment and regulation of the banking system, and at the same time, the factor of regional identity or self-ownership is one of the main factors in the activity of the Azerbaijani economy.

The current state of the banking sector in Azerbaijan is the faster growth rates of the banking sector than the growth rates of the economy as a whole, the expansion of the resource base of commercial banks and the strengthening of trust in banks by creditors and depositors, the tendency to "extend" the resource base of credit organizations, the increase in the volume of loans to the population, credit in the non-financial sector the dominant growth of investments is characterized by the growth trend of loans to the real sector of the economy.

It should be noted that since the first years of independence, the Central Bank of Azerbaijan has followed the principles of a unified state monetary and credit policy and exchange rate policy. Reducing inflation to the planned level is the main goal of monetary policy. The Central Bank of Azerbaijan will take into account the influence of the dynamics of the exchange rate of the national currency on the state of the economy of Azerbaijan when implementing a policy aimed at reducing inflation.

The generality of financial and credit relations at the state level is manifested in the fact that the finances of the subjects of the Republic of Azerbaijan are the main element of the state finances. However, having a common methodological basis, the monetary and credit relations of the region and the state as a whole are based on objective economic laws and take into account regional peculiarities, the redistributive reproduction process, characterized by a national structure and a regional or interregional structure, has a number of differences due to such a feature as the degree of closure monetary system.

Taking into account the above differences, we believe that as market relations develop, the economic conditions in different regions of the country should be gradually equalized by directing financial flows from the center to the regions. One of the ways to achieve this task, in our opinion, is to support the creation and development of a network of regional commercial banks aimed at economic development in a specific region, and the solutions to this problem were considered in our scientific article.

Key words: *monetary policy, monetary regulation, banking system, regional economy, regional banking system*

ƏLİ FƏRƏCOV
ali.06.03.2001@icloud.com
Naxçıvan Dövlət Universiteti

İDARƏETMƏDƏ İNFORMASİYA SİSTEMLƏRİNDƏN İSTİFADƏNİN ƏSASLARI

Müəssisənin əsas fəaliyyət prosesinə informasiya texnologiyaları necə daxil olur? İnformasiya texnologiyaları müəssisənin mənfəətinin artmasında, rəqabət qabiliyyətinin qorunmasında necə iştirak edir? İnformasiya texnologiyalarının istehlak dəyərinin artmasında rolu nədən ibarətdir? Bu suallara cavab vermək üçün Harvard biznes məktəbində XX əsrin 90-cı illərində dəyərin yaradılması zənciri konsepsiyası işlənib hazırlanmışdır. Konsepsiya müəllifi M.Porter göstərdi ki, şirkətin rəqabət qabiliyyətli olması çox saylı köməkçi və əsas proseslərin optimallaşdırılması yolu ilə mümkündür. Bu proseslərin optimallaşdırılması isə aktual, keyfiyyətli və zəngin informasiyadan, başqa sözlə, optimal fəaliyyət göstərən informasiya sistemlərindən birbaşa asılıdır. Biznes-proses dedikdə, çıxışı istehlak dəyərindən, girişi isə resurs sərfindən ibarət olan müxtəlif növ fəaliyyətlər zənciri nəzərdə tutulur. Qara qutu səviyyəsini ifadə etdiyindən bu tərif səmərəli deyil. Çünki sözü gedən zəncirin optimallaşdırılması üçün zəif həlqələrin necə möhkəmləndirilməsi və onun hansı həlqələrdən ibarət olması barədə informasiyaya malik olmaq lazımdır. Bu baxımdan biznes-proses – vahid natural və ya dəyər kriterisi ilə xarakterizə olunan nəticəyə gətirən bir cins işlər ardıcıllığıdır. Biznes-prosesə aid iş biznes-proses addımı adlanır. Biznes-prosesin modelləşdirilməsi iqtisadi informatikanın əsas metodudur.

Açar sözlər: *İnformasiya sistemləri, planlaşdırma, idarəetmə, şirkət, biznes-proseslər*

İnformasiya sistemləri – xidmət göstərdiyi istifadəçilərin sayına və həll etdiyi məsələlərin mürəkkəbliyi səviyyələrinə görə təsnifləşdirilir.

Sistemin əlçatanlığı və ya miqyası həmin sistemdən istifadə edən istifadəçilərin sayı ilə müəyyən edilir. Sistemin əlçatanlığının iki tipi fərqləndirilir: kommersiya əlçatanlığı və dinamik əlçatanlıq.

Kommersiya əlçatanlığı sistem istifadəçiləri üçün işçi yeri təşkil etmək məqsədilə satın alınmış lisenziyaların sayı ilə, dinamik əlçatanlıq isə eyni vaxtda xidmət göstərilən istifadəçilərin sayı ilə müəyyən edilir. Dinamik əlçatanlıq daha obyektivdir, lakin çətin qiymətləndirilə biləndir. Çünki, eyni zamanda sistemə müraciət edən istifadəçilərin sayı həmin momentdə onların hansı məsələləri həll etdiklərindən əhəmiyyətli dərəcədə asılı olur. Buna görə də, bu göstərici qiyməti mümkün müəyyən qiymətlər arasında, məsələn, Y-dən az, X-dən çox ola bilməz şəklində təyin edilir. Y ədədi sistemin icra etdiyi biznes-proseslərin və ya həll edilən məsələlərin xarakterilə bağlıdır. Buna görə də, bu ədəd həmişə təxminidir. X ədədi isə sistemin leqal istifadəçilərilə bağlanmış müqavilələr əsasında əldə edilmiş lisenziyaların sayına bərabər olduğundan həmişə dəqiqdir.

Hal-hazırda "informasiya sisteminin miqyaslaşa bilənliyi" termini də geniş tətbiq edilir. Bu, eyni vaxtda sistemə müraciət imkanı qazanmış istifadəçilərin sayının artmasına və ya resursların artan texnoloji yükə adaptasiya qabiliyyəti kimi dərk edilir.

Miqyaslaşa bilənlik sistemin çevikliyini, yəni istismar şərtlərinin dəyişməsini nəzərə ala bilənliyini xarakterizə edir (Kərimov S.Q., 2010, s.35-36).

Sistemə obyektiv qiymət vermək üçün miqyaslaşa bilənlik və ədədi parametr kimi istifadə edilən miqyas anlayışlarının təyinində müəyyən çatışmazlıqlar diqqəti cəlb edir. Məsələn, verilmiş informasiya sistemlərinin yüz istifadəçiyə işləmək imkanı verməsi barədəki təsdiq və ya hökm sistemin hansı məsələlərin həlli ilə məşğul olduğu barədə heç nə demir. Aşağıdakı 2 nümunəni bu fikri izah etmək üçün müqayisə edək:

Malların pərakəndə satışı ilə məşğul olan yüzlərlə satıcı-operator işçi yerlərilə xarakterizə olunan supermarketdə gedən biznes-proseslər olduqca standart və sadə olduğundan bu proseslərin

gedişinə kifayət qədər sadə informasiya sistemləri xidmət göstərə bildiyi halda, ölkənin müxtəlif regionlarında filialları olan iri xoldinqin cəmi 3-4 mütəxəssisdən ibarət olan analitik şöbəsi müxtəlif mal qrupları üzrə satış dinamikasını tədqiq etdikdə xoldinq informasiya sistemlərinin bütün hesablayıcı və kommunikasiya resursları bu işə cəlb edilir.

İnformasiya sistemlərinin aşağıdakı şərti təsnifatı "miqyas" parametrinin bu xüsusiyyətini unutmamaqla qəbul edilmişdir:

• Lokal informasiya sistemləri. Bunlar kompüter şəbəkəsinə ehtiyac duymayan kiçik müəssisə üçün və ya bir neçə istifadəçi üçün məhdud imkanlı sistemlərdir. Məsələn, 1C, Инфин, Парус lokal informasiya sistemləridir;

• Kiçik sistemlər. Bunlar tətbiqi xüsusi məsləhətçilər tələb edir, çox saylı funksiyalar icra edir, nisbətən az saylı istifadəçilərlə işləyir. Məsələn, 1C, Парус, Галактика, PLATINUM, SCALA kiçik sistemlərdir;

• Orta sistemlər. Bunlar çox istifadəçili, çox funksiyalı sistemlərdir, tətbiqi baha və mürəkkəbdir və məsləhətçi rəhbərliyi altında mümkündür. Məsələn, People Soft, BAAN, SCALA orta sistemlərdir;

• İnteqrasiya edilmiş idarəetmə sistemləri. Bunlara: SAP R/3, ORACLE Applications aiddir.

Orta və iri sistemlər tətbiqinə çəkilən xərclərin həcminə görə fərqləndirilir. Məsələn, ERP-sistemi azı 500000 ABŞ dolları dəyərindədir. Bu parametrin inandırıcı görünməsi çətin olsa da, bir orientir kimi istifadə edilə bilər. Konkret informasiya sistemləri üçün təsnifatın bu tipi baza parametrlərinin dəyişmə diapazonunu təyin etdiyindən mövqeləşdirici təsnifat adlandırılır.

Göstərək ki, ERP-sistemlər və lokal informasiya sistemləri yaxşı mövqeləşdirilir. Çünki bunlar bir-birindən kəskin fərqlənir. Təsnifatda qonşu olan sistemlər arasında praktiki olaraq isə dəqiq sərhəd qoymaq mümkün deyildir. İnformasiya sistemləri yaradıcıları öz məhsullarını daim inkişaf etdirir, onların fəaliyyət miqyaslarını və funksional imkanlarını genişləndirir və daha yüksək göstəricilərə malik təsnifat qruplarına yaxınlaşdırırlar. Xüsusilə də orta və kiçik sistemləri fərqləndirmək olduqca çətin olur. Buna baxmayaraq, bu, dünyada qəbul edilmiş təsnifatdır.

Əsas diqqət burada ERP-sistemlərinə yönəldilir. Çünki idarəetmə, biznes və iqtisadiyyat sahəsində qərarların hazırlanması və qəbulu proseslərində istifadə edilən informasiya sistemlərinin bütün əsas xüsusiyyətlərilə yalnız ERP-sistemlərin nümunəsində tanış olmaq olar. ERP-sistemin nə olduğunu anlamaq üçün əvvəlcə onun meydana çıxmasının tarixinə qısa nəzər salmaq lazımdır.

"ERP-sistem" termini XX əsrin 90-cı illərində GartnerGroup şirkəti tərəfindən ortaya atılmışdır. İstehsalın təşkilinin kəmiyyət metodları təməli üzərində ERP-sistem anlayışı formalaşmışdır. Bu metodların bünövrəsi XX əsrin əvvəllərində F.Teylor və H.Qantt tərəfindən qoyulmuşdur. F.Teylor akademik metodların təcrübədə tətbiqinin və istehsalın planlaşdırılması tədris fənninin, yəni, "tər tökdürmə elmi sistemi"nin banisi kimi məşhurdur. H.Qantt menecment və iqtisadiyyat sahələrində ardıcıl işlərin planlaşdırılması ilə bağlı olaraq fəal istifadə edilən məşhur Qantt diaqramları ilə tanınmışdır. Bu yanaşma əsasında ABŞ-da 1950-ci illərdə şəbəkə planlaşdırması metodları formalaşdırıldı ki, bunlar da paralel icra edilən işlər zəncirləri çoxluğunda ən sürətli və ya ən qısa yolu – "kritik yolu" təyin etməyə imkan verdi. H.Qantt və F.Teylorun əsərlərindəki ideyalar istehsalın təşkili və idarə edilməsi, əməliyyatların tədqiqi kimi elmi istiqamətlərin meydana çıxmasına səbəb oldu. Bir sözlə, bu gün də inkişaf etməkdə olan ERP-sistemlərin təməli olduqca məhsuldar olmuşdur. (Abbasov Ə.M. və b., 2013, 121-122)

Ehtiyatların idarə edilməsinin avtomatlaşdırılması sahəsində işlər ABŞ-da XX əsrin 60-cı illərinin əvvəllərində fəal inkişaf etdirilirdi. Məhsul istehsalı üçün tələb olunan ehtiyatların səviyyəsinin optimallaşdırılması məqsədilə bu işlərdə riyazi metodlardan istifadə edilirdi. Ehtiyatların ixtisar edilməsi anbar ehtiyatları və bitməmiş istehsal şəklində dondurulmuş iri həcmli vəsaitlərə əhəmiyyətli dərəcədə qənaət etməyə imkan verdi. İlk "ehtiyatların avtomatlaşdırılmış idarə edilməsi sistemləri"ndə hazır məhsul istehsalı planı əsasında verilmiş müddətə material və komplektləşdirici məmulatların satın alınması həcmləri hesablanırdı.

Oliver Uayt ehtiyatların avtomatlaşdırılmış idarə edilməsi ideyasını inkişaf etdirərək istehsalın planlaşdırılması məsələlərini zəruri resursların göndərilməsi və hazır məhsulun satışı ilə əlaqələndirməyi təklif etdi. Bu yanaşma istehsal prosesində baş verən şərait dəyişmələrilə bağlı olaraq plan tapşırıqlarını korrektə etməyə imkan verdi. O.Uayt 1960-cı illərin sonlarında MRP konsepsiyasını formalaşdırdı ki, burada da materiallara tələbatın planlaşdırılması alqoritmləri verilmişdi. O.Uayt planlaşdırma alqoritmərinin sonrakı təkmilləşdirilməsi nəticəsində belə bir fikrə gəldi ki, təkcə materiallara tələbatın planlaşdırılması kifayət deyil, bununla yanaşı, maliyyə və əmək resurslarının planlaşdırılması da zəruridir.


O.Uayt 1970-ci illərin sonlarında MRPII konsepsiyasını formalaşdırdı və bununla da istehsal ehtiyatlarının planlaşdırılması alqoritmlərini təklif etdi. Bu konsepsiyaya analoji olaraq keçmiş SSRİ-də MAİS – müəssisənin avtomatlaşdırılmış idarəetmə sistemi yaradıldı.

MRPII sistemlərinin inkişafı illəri XX əsrin 80-ci illəri idi. Bu inkişaf təkcə istehsalla bağlı proseslərə aid deyildi. Avtomatlaşdırma maliyyə fəaliyyəti məsələlərini həlletməyə kömək etdi. İnformasiya sistemləri vergi tutma, hüquq xidməti, ətraf mühitlə qarşılıqlı münasibətlər kimi köməkçi fəaliyyət proseslərini əhatə etdi. Bundan əlavə, trans milli korporasiyaların tələbatlarına xidmət göstərmək – müxtəlif hüquqi, fiskal və gömrük şərtlərində, müxtəlif dillərdə tərtib edilmiş sənədlərdə və müxtəlif valyutalarda müştəri və mal göndərənlərlə hesablaşmaların aparılması problemlərini həlletmək demək idi. Bu məsələlərin həllinin avtomatlaşdırılmasına tədiyəqabiliyyətli tələb tədricən yeni tip informasiya sistemləri formalaşdırdı. İndi artıq yeni informasiya sistemləri konsepsiyasının müəllifi, MRP və MRPII sistemlərinin müəllifi O.Uayt kimi bir nəfər deyil, qloballaşma və informatlaşdırmanın yeni çalarları ilə bəzənmiş müasir iqtisadiyyatdır.

1990-cı illərdə korporativ informasiya sistemlərinin inkişaf etdirilməsi və tətbiqi sahəsində dünyada məşhur olan GartnerGroup şirkəti ERP-sistemlərini iri korporasiyalarda qərarların hazırlanması və qəbulu aləti kimi etiraf etdi.

ERP-sistem dedikdə, artıq iri müəssisələrdə biznes-proseslərin avtomatlaşdırılması və optimallaşdırılması ilə inteqrasiya edilmiş planlaşdırma və idarəetmə ideologiyası nəzərdə tutulur. ERP-sistemləri planlaşdırma, uçot, maliyyələşdirmə, istehsal, resurs sifarişləri və hazır məhsul satışı üçün qərarların hazırlanması və qəbulu məqsədi ilə şirkətin praktiki olaraq bütün əsas biznes-proseslərini vahid informasiya mühitində, vahid verilənlər bazası əsasında avtomatlaşdırmaq imkanı təklif edir.

ERP-sistemin əsas məsələləri aşağıdakı sxemdəki kimidir:



Müasir şirkətlərdə işləyən iri informasiya sistemlərinin müzakirəsi zamanı işlədilən ən vacib anlayış inteqrasiyadır. Qərarların hazırlanması və qəbulu üçün inteqrasiya edilmiş yanaşmanı təmin etmək məqsədi ilə informasiya sistemlərindən istifadə edilməsinin vacibliyi informasiya iqtisadiyyatına aid ilk əsərlərdə də öz əksini tapmışdır. Belə ki, Y.Q.Yasin göstərirdi ki, "inteqrasiya ixtiyari saylı qarşılıqlı əlaqəli məsələlərin həlli və nəzarət edilə bilməyən informasiya axınlarının emalının təkrarlanmalarını ləğv etmək üçün verilənləri sistemə bir dəfə daxil etməyi və kompleks şəkildə istifadə etməyi nəzərdə tutur. Çünki bu halda informasiyanın saxlanması, ötürülməsi və təqdim edilməsinin forma və metodlarına vahid tələblər formalaşır, yəni informasiya prosesləri üçün vahid standart təyin edilir. Bu ona görə lazımdır ki, informasiya sistemlərinin istənilən yerində iqtisadi verilənlər birmənalı başa düşülsün" (Ramazanov M.K., 2017, s.85-86).

ERP-sistemləri müəssisədə planlaşdırma, idarəetmə və nəzarət məsələlərinin gerçək inteqrasiya edilmiş şəkildə həllinə imkan verir. Bu mənada, ERP-sistemləri inteqrasiya edilmiş informasiya sistemləridir. Bunlar bəzən də inteqrasiya edilmiş idarəetmə sistemləri adlanır. Çünki burada informasiya sistemləri şirkətin funksional altsistemlərini təmin edən informasiya proseslərini dəstəkləyən verilənlər mübadiləsini vahid standartlar çərçivəsində saxlayan birləşdirilmiş informasiya texnologiyaları platformalarına əsaslanır. Məsələn, SAP R/3 tam funksionallıq təmin edir. Yəni şirkətin istehsal, maliyyə, mühasibatlıq, marketinq, zəruri resursların satın alınması, hazır məhsulun satışı və s. kimi bütün funksional istiqamətlərindəki biznes-prosesləri avtomatlaşdırmaq imkanı verir.

SAP R/3 inteqrasiya edilmiş qərar hazırlayır. Çünki qərar qəbulunu şirkətin bu sistemin xidmətlərindən istifadə edən bütün bölmələrində verilənlər və informasiyanın hazırlanması və təqdim edilməsinin vahid standartlarına əsasən hazırlayır. Beləliklə, ERP-sistemlər şirkətin biznes-proseslərini vahid texnoloji və informasion əsasda avtomatlaşdırmaq üçün vasitələr təqdim edir.

Digər tərəfdən, ERP-sistemlər daha bir vacib xassə nümayiş etdirir. İri şirkət və ya xoldinq, bir qayda olaraq, müxtəlif bölmələrdə və ya tabe müəssisələrdə müvəffəqiyyətlə işləyən bir-neçə müxtəlif informasiya sistemlərinə malik olur. Göstərək ki, ERP-sistemin müvafiq modulları pərakəndə paylanmış sistemlərdə ya xüsusi hazırlıq işi görülmədən işləmir, ya da məqsədəuyğun olmur. Bu halda ERP-sistem birləşdirici və ya inteqrasiyaedici rol oynayır. Yəni şirkətdə bütün iyerarxiya səviyyələri üzrə fəaliyyət göstərən müxtəlif təbiətli və müxtəlif funksional imkanlara malik olan informasiya sistemləri birləşdirir. Məsələn, şirkətin mərkəzi ofisində işləyən SAP R/3 bölmələrdə işləyən 1C sistemindən mühasibat verilənlərini, tabe müəssisələrdə işləyən "Парус" sistemindən digər verilənləri qəbul etməklə birləşdirici rol oynaya bilir.

Burada inteqrasiya edilmiş informasiya sistemləri ilə inteqrasiya edilmiş idarəetmə sistemləri arasında mövcud olan fərqə diqqət yetirmək lazım gəlir. Belə ki, inteqrasiya edilmiş idarəetmə sistemləri fərqli biznes-modellərdən və verilənlərin idarə edilməsi üzrə fərqli texnologiyalardan istifadə edən müxtəlif platformalara əsaslanan proqram əlavələrinin ERP əsasında birgə istismarını təmin edir. İnteqrasiya edilmiş informasiya sistemləri isə şirkətdə mövcud olan və özünün funksional altsistem modulları olmayan proqram əlavələrinə yalnız qoşula bilən EAI proqram paketləri əsasında inteqrasiya həyata keçirir.

Adətən inteqrasiyanın 3 səviyyəsini fərqləndirirlər:

1) informasiya texnologiyaları – birgəlik;
2) funksional altsistemlərin və proqram əlavələrinin bir-birinə qoşula bilənliyi;
3) biznesin idarə edilməsinin inteqrasiyası.

Nəticə

İnformasiya sistemlərilərinin idarə edilməsi dedikdə, informasiya texnologiyaları, funksional altsistemlər və onlarla əlaqədar mütəxəssislər arasında optimal qarşılıqlı fəaliyyət yaradan və həmçinin onların inkişafını təmin edən komponent nəzərdə tutulur. Korporativ informasiya sistemlərinin idarə edilməsi aşağıdakı funksiyaların icrasına yönəldilir:

- işçi heyətin idarə edilməsi;
- istifadəçilərin idarə edilməsi;
- inkişafın idarə edilməsi;
- operativ idarəetmə;
- keyfiyyətin idarə edilməsi;
- maliyyənin idarə edilməsi;
- təhlükəsizliyin idarə edilməsi.

Hal-hazırda təsərrüfat qərarlarının hazırlanması və qəbulunda informasiya sistemləri daim istifadə olunur. Bunlardan: ümumi təyinatlı Reuters, Bloomberg sistemlərini, axtarış təyinatlı Yahoo!, Alta Vista, Google, Rambler və Yandex sistemlərini misal göstərmək olar.

İnformasiya sistemi adətən müəyyən gerçək idarəetmə sisteminin 3 tərkib hissəsindən:

1) idarəetmə subyekti;

2) informasiya sistemi;
3) idarəetmə obyekti.

İnformasiya sistemlərinin idarə edilməsi, əslində, mahiyyətcə idarəetmə sisteminə informasiya sistemləri xidmətinin idarə edilməsidir. Odur ki, məqalənin predmeti informasiya sistemləri xidməti fəaliyyətinin predmeti ilə üst-üstə düşür.

İnformasiya texnologiyaları dedikdə, informasiya proseslərinin reallaşmasını təmin edən infrastruktur nəzərdə tutulur. İnformasiya texnologiyalarını informasiyanın ötürüldüyü rabitə kanalları, informasiyanın yığılması, saxlanması, emalı və təqdim edlməsi prosedurlarını idarə edən proqramlar və həmin proqramların icrasını təmin edən kompüter və digər aparat vasitələri formalaşdırır. İnformasiya texnoloji səviyyədə verilən kimi iştirak etdiyindən, verilən informasiya texnologiyasının təşkiledicisi sayılır. İnformasiya proseslərinin reallaşmasında iştirak edən proqramlaşdırma dilləri, informasiyanın ötürülməsini reallaşdıran protokollar, verilənlərin saxlanması və ötürülməsi modelləri və s. kimi instrumentlər də informasiya texnologiyalarına aid edilir. Beləliklə, informasiya texnologiyalarının infrastrukturu bir tərəfdən, aparat-proqram mühiti və telekommunikasiyadan ibarətdirsə, digər tərəfdən də, informasiya proseslərinin həyata keçirilməsi instrumentariyasından ibarətdir. Verilənlər isə infrastrukturun nüvəsini təşkil edir.

ƏDƏBİYYAT

1. Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B. Müasir informasiya sistemlərinin idarə edilməsi. Bakı: 2016, 248 s.
2. Abbasov Ə.M., Qasımov V.Ə., Quliyev R.H. İntellektual informasiya sistemlərində qərar qəbuletmə üsulları. Bakı: 2013, 254 s.
3. Kərimov S.Q. İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri. Bakı: 2010, 426 s.
4. Kərimov S.Q. İnformasiya sistemləri. Bakı: 2018, 676 s.
5. Əliyev T.Q. İnformasiyanın iqtisadiyyatı. Bakı: 2018, 220 s.
6. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Pürhani S.H. Menecment. Bakı: 2013, 600 s.
7. Ramazanov M.K. İnformasiya sistemləri menecmenti. Bakı: 2017, 187 s.

SUMMARY

Ali Farajov

THE BASICS OF USING INFORMATION SYSTEMS IN MANAGEMENT

How does information technology enter the core business process? How does information technology participate in the increase of the company's profit and protection of competitiveness? What is the role of information technology in increasing consumer value? To answer these questions, the value chain concept was developed at Harvard Business School in the 1990s. Michael Porter, the author of the concept, showed that the competitiveness of the company is possible through the optimization of numerous main and auxiliary processes. The optimization of these processes directly depends on rich, relevant and quality information, in other words, optimally functioning information systems. A business process means a chain of various types of activities, the input of which is resource consumption, and the output of which is consumption value. Since this definition implies a black box level, it is not efficient. Because, in order to optimize the mentioned chain, it is necessary to have information about what links it consists of and how to strengthen the weak links. From this point of view, a business process is a sequence of homogeneous activities leading to a result characterized by a single natural or value criterion. A business-process task is called a business-process step. Business process modeling is the main method of economic informatics.

Key words: *Information systems, planning, management, company, business processes*

ELXAN MASUMOV
emsmv3@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0000-9376-3522

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AKTİV İSTİRAHƏT MƏZMUNLU TURİZM MARŞRUTLARININ PERSPEKTİV İMKANLARI

Aktiv istirahət, yaxud fiziki rekreasiya müasir dövrdə insanların daha çox ehtiyac duyduqları həyat tərzi elementlərindəndir. İnsan həyatında texnoloji yükün artması, intensiv əmək və informasiya axını, sosial əlaqələrdə həddən artıq geniş auditoriya və stresli halların çoxalması aktiv istirahətə olan tələbi artıran amillərdəndir. Bu məqalədə, zəngin turizm ehtiyatları olan Naxçıvan Muxtar Respublikasında aktiv istirahət üzrə əlverişli olan turizm marşrutlarının perspektiv imkanları araşdırılmışdır.

Açar sözlər: *Turizm; rekreasiya; aktiv istirahət; turizm marşrutları; Naxçıvan Muxtar Respublikası*

Aktiv istirahət müasir turizm fəaliyyətində ən çox seçilən turizm növlərini özündə birləşdirir. Bu, fiziki sağlamlıq və rekreasiyanın daha çox təbii üsullarla, həm də aktiv hərəkət vasitəsilə həyata keirilən turizm növləridir (6). Bunlara olan maraq müasiri turistlərin tipologiyasında özünü göstərir. Belə ki, müasir dövrdə səyahətə meyl maraq göstərən insanlar daha çox işgüzar fəaliyyətlə məşğul olan, oturaq iş və məişət tərzi keçirən, avtomobillərdən asılı olan, informasiya yükünə məruz qalan, stressli vəziyyətlərlə daha çox rastlaşan insanlardır. İnsanların zehni və fiziki yüklənməsinə rekreasiya edici təsir göstərən aktiv istirahət formulu üzrə turların təşkili də bu mənada çox maraqlı və həm də dayanıqlı iqtisadi fəaliyyət növüdür (7; 36). Belə səyahətlər insanları zənginləşdirir və ruhən şəxsi keyfiyyətləri inkişaf etdirir və ruha gözəl təsir göstərir. Lakin hər şeydən əvvəl, göründüyü kimi aktiv istirahət fiziki sağlamlıq üçün çox faydalıdır və insanın psixi vəziyyətinə də təsir göstərir. Bunlar aktiv turizmin insanların rifahı və sağlamlığının ən mühüm amillərindən biri olduğunu təsdiqləyir.

Aktiv istirahət üzrə turistlərin piyada yürüşləri, velosiped turları, raftinq və dayvinq turları, kamp və macəra turları hazırda dünyada geniş yayılıb (6). Aktiv turizmdə istifadə olunan piyada yürüşlər ürək-damar sistemi, həmçinin immunitet sisteminə faydalı təsir göstərir. Digər bir aktiv istirahət olan velosiped turizmi sırf idman turizmidir, turistlərin müəyyən marşrut üzrə velosipedlə səyahət etməsi kimi istifadə olunur. Velosiped turizmi həm də ekoloji problemlərlə mübarizəyə kömək edir, çünki velosipedlər təbiətə işlənmiş qazlar atmır. Velosiped turizminin əsas üstünlüyü ötürmə qabiliyyətidir. Qısa müddətdə uzun məsafələr qət olunur, əlavə olaraq avadanlıq yerinə daşına bilir. Bu həm də ailə və ya dostlar üçün yaxşı seçimdir. Su turizmi turizmin bir növüdür, onun mənası xüsusi nəqliyyat vasitələrindən istifadə edərək insanı su üzərində hərəkət etdirməkdir. Bu cür səyahətlər çay, göl, dəniz, gölməçə, şəlalələr və digər su obyektləri boyunca həyata keçirilir, daha tez-tez müxtəlif maneələrlə seçilmiş marşrutdan keçmək planlaşdırılır. Su turizminin növləri olduqca maraqlı və fərqlidir, onlardan bir neçəsi də var:

Raftinq, çayın aşağısına enməyi əhatə edən su turizminin bir növüdür. Turistlər, adətən müxtəlif maneələrlə, məsələn, eşiklər, yamaclar, drenajlar olan çayı seçirlər. Rafting su turizminin ən populyar növüdür. Su turizmi ilə məşğul olan insanlar həm sağlamlıqlarını yaxşılaşdırır, həm də əzələlərini gücləndirirlər, çünki avarçəkmə demək olar ki, bütün əzələ qruplarını əhatə edir. Bədənin dözümlülüyü də yüksəlir, ürək-damar sisteminin fəaliyyəti və ağciyərlərin fəaliyyəti yaxşılaşır.

Turistlər qayalara, dağlara və digər səthlərə dırmaşmağı da yaxşı bacarmalıdır. Bu turizm növü hazırlıqsız turistlər üçün çox təhlükəlidir.

Atçılıq turizmi, atda və ya arabada arzu olunan marşrut üzrə səyahəti nəzərdə tutan aktiv turizm növüdür. Belə səfərlərə sərf olunan vaxt tamamilə fərqli ola bilər. At turizmi məhdudiyyətsiz turizm növüdür, hamı üçündür.

Xizək turizmi xizəklə müəyyən bir marşrutla səyahət etməyi nəzərdə tutan bir turizm növüdür. Xizək turizmi müxtəlif formalarda gəlir. Bunlar şəhərdən kənarda, xüsusi ayrılmış yerdə heç bir maneə olmadan bir günlük gəzintilər ola bilər və yaşayış sahəsinin ərazisində meşələr, dağlar, əkin sahələri ilə gəzintilər də ola bilər. Xizək gəzintilərinə şimal şəhərlərində, xüsusilə qış tətillərində və həftə sonlarında böyük tələbat var.

Bütün yuxarıda deyilənlərə əsaslanaraq ümumiləşdirə bilərik ki, gəzintilər bədən tərbiyəsi və sərtləşmə sistemində mühüm rol oynayır. Aktiv turizm bir çox müxtəlif növlərə malikdir, bunun sayəsində ilin istənilən vaxtında və müxtəlif yaşda və müxtəlif fiziki hazırlıqlı insanlar tərəfindən həyata keçirilə bilər. Fəal turizm insanın fiziki hazırlığını və psixoloji vəziyyətini yaxşılaşdırır. Aktiv turizm zehni rifahı da yaxşılaşdırır. Gəzinti təkcə profilaktik tədbir deyil, həm də müxtəlif xəstəlikləri müalicə edə bilər.

Naxçıvan Muxtar Respublikasında turizm marşrutlarının yaradılması potensialı yüksəkdir (3; 300). Naxçıvana olan turist marağının sürətlə artması və regiona edilən səyahətlərin çoxalması burada çox sayda turizm marşrutlarının yaradılmasına imkan yaradır. Naxçıvanda turizm marşrutlarının yaradılması üçün zəruri olan tarixi proseslər, sosial-iqtisadi inkişaf səviyyəsi, yerli sakinlərin məşğuliyyəti və turizmin bir təsərrüfat növü kimi Azərbaycanda və eləcə də Naxçıvan Muxtar Respublikasında genişlənməsi bu sahədə obyektiv fikirləri ortaya qoyur (91; 121).

Naxçıvanda mövcud oluna aktiv istirahət məzmunlu turizm marşrutlarını, əsasən, Şahbuz və Ordubadın dağ kəndləri üzrə göstərmək olar (3; 66). Bu marşrutlarda, əsasən, dağ yürüşləri, ekoturizm, təbiətlə tanışlıq və buna bənzər turizm aktivitələri vardır. İnsanların məzuniyyət və istirahət vaxtlarının ən gözəl dövründə təbiətin saf guşələrindən biri olan Batabat yaylası ekoturizm, sağlamlıq və fotoovçuluq üzrə səfərə çıxan turizmi həvəskarları üçün ideal məkanlardan biridir.

Naxçıvan-Əlincə turizm marşrutu da aktiv istirahət üçün uyğun istiqamətlərdəndir. Naxçıvandan şimal-şərq istiqamətində 30 kilometr məsafədəki Əlincəqala səyyahların birgünlük ekskursiyası üçün çox uyğun yerdir. Aktiv turizm baxımından, ilk olaraq onu qeyd edək ki, Əlincəqala kimi yerlərə səfər edən turistlərdə müxtəlif istəklər müşahidə olunur. Belə ki, insanların təbii arzu olaraq yüksəkliyə meyli burada daha çox özünü göstərir.

Ağbulaq İstirahət Mərkəzi uşaq və gənclər üçün gözəl kamp məkanıdır. Burada sosial turizm formasında maraqlı istirahət turları təşkil edilir. Uşaq və gənclərin və həmçinin digər yaşdan olan insanların yay tətili üçün burada yaxşı imkanlar vardır. Naxçıvan şəhərindən və digər yerlərdən gələn insanların həftəsonu günlərində onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün burada əlverişli şərait vardır.

Şahbuz-Ağbulaq turizm marşrutunun son nöqtəsi, eləcə də buradakı maili yamaclı yerlər həm də qış turizm məkanıdır. Ağbulağın yerləşdiyi coğrafi mövqe, onun dəniz səviyyəsindən yüksəkliyi və relyefinin vəziyyəti buradakı isti yay günləri ilə yanaşı, ilin bütün dövrlərində, xüsusən də qarlı qışda fəslində də mənalı istirahəti keçirməyə və rekreasiya-sağlamlıq turları keçirməyə imkan verir. Kənddə yaradılmış 1590 metr uzunluğundakı xizək zolağı olan Ağbulaq Xizək Mərkəzinin yaradılması bu mənada turistlərə aktiv istirahət baxımından faydalıdır.

Naxçıvanda aktiv istirahət baxımından perspektiv turizm marşrutları bu sahədə mövcud olan turizm marşrutları ilə bərabər rəqabətqabilyyətli olmaqla daha maraqlı bir turist cazibəsinə malikdir. Bu baxımdan ilk olaraq Naxçıvan-Kükü-Gurbulaq turizm marşrutunu qeyd elmək olar. Belə ki, hər il turizm mövsümündə, xüsusən qızmar yay günlərində Şahbuz dağlarına, Kükü kəndtinə daha çox avtiv istirahət üçün gələnlərin sayında artım olur (4; 44).

Naxçıvanın yerləşdiyi coğrafiyada aktiv istirahət baxımından Naxçıvan-Haçadağ turizm marşrutu üzrə perspektiv imkanlar xeyli dərəcədə vardır. Haçadağa qalxmaq ən yaxşı fəali istirahətdir. Haçadağa qalxarkən buradakı zəngin flora və fauna ilə tanış olmaq istəyən turistlər üçün isə onları burada müxtəlif təəssürat gözləyir.

Turistlərin maraqları baxımından zəngin təbiət gözəlliklərinə sahib olan Naxçıvanda aktiv istirahət baxımından mövcud turizm marşrutları arasında Ordubad-Göygöl marşrutu diqqəti cəlb edir. Turistlər Ordubadın Göygölünə səfər etdikləri zaman dörd fəsli eyni gündə yaşamaq imkanı əldə edirlər. Ona görə də Naxçıvan-Ordubad-Göygöl turizm marşrutunun son yeri bu mənada, bir çox səyyahın çatıb, görmək istədiyi unkal məkanlardan biridir (3; 90). Göygölün mühüm cazibə elementlərindən biri buradakı 360 dərəcəli bir panoramik mənzərə ilə rastlaşır, daha çox fotoovçuluq əyləncəsi imkanı qazanırlar.

Nəticə

Naxçıvan Muxtar Resrublikasında mövcud olan təbii resurslar və infrastruktur şəraiti burada fəal istirahətin təşkili üçün əlverişli imkanlar yaradır. Naxçıvanın Ordubad, Şahbuz rayonlardakı dağlıq və dağətəyi ərazilərindəki rekreasiya ehtiyatları burada aktiv hərəkətlə müşaiyət olunan turizm növlərini inkişaf etdirməyə yararlıdır.

Burada əsas problemlər isə turistlərin, xüsusən də yerli turistlərin aktiv istirahət turlarına daha çox maraq göstərməməsi və bu sahədə bəzi xüsusi şəraitin, misal üçün velosiped zolaqlarının olmamasıdır.

ƏDƏBİYYAT

1. Soltanova H. Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı: 2015
2. Azərbaycanın əsas və əlavə turist marşrutlarının təsdiq olunması haqqında Gənclər, İdman və Turizm Nazirliyinin qərarı. Bakı: 2003, 36 s.
3. Cabbarov Ə. Naxçıvan Muxtar Respublikasının turizm marşrutları. Naxçıvan: 2020. Monoqrafiya "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 160 s.
4. Cabbarov Ə. Naxçıvan-Kükü-Gurbulaq perspektiv turizm marşrutu üzrə GZİT təhlil. "Naxçıvan" Universiteti. "Elmi əsərlər". İqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat. Naxçıvan: 2023, № 3 (30), s.43-49
5. Бабкин А.В. Специальные виды туризма. Ростов-на-Дону: 2008
6. Коробейникова Е. Виды активного туризма и их влияние на здоровье человека. Наука-2020. № 2(38)
7. Tourism, recreation, and sustainability: linking culture and the environment / edited by Stephen McCool and R. Neil Moisey - 2nd ed

SUMMARY

Elkhan Masumov

POSSIBILITIES OF TOURIST ROUTES WITH ACTIVE RECREATION IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Active recreation or physical recreation is one of the lifestyle elements that people need most in our time. An increase in the technological stream in a person's life, intensive work and information flow, a large audience of social relations and the growth of stressful situations are among the factors that increase the demand for active recreation. In this article, prospective possibilities of tourist routes suitable for active recreation in the Nakhchivan Autonomous Republic, which has rich tourist resources are reserached.

Key words: *tourism; active recreation; tourism routes; Nakhchivan Autonomous Republic*

РЕЗЮМЕ

Эльхан Масумов

СОДЕРЖАНИЕ АКТИВНОГО ОТДЫХА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ ПЕРСПЕКТИВНЫЕ ВОЗМОЖНОСТИ ТУРИСТИЧЕСКИХ МАРШРУТОВ

Активный отдых или физический отдых – один из элементов образа жизни, который в наше время больше всего необходим людям. Увеличение технологической нагрузки в жизни человека, интенсивный труд и информационный поток, слишком широкая аудитория социальных отношений и рост стрессовых ситуаций относятся к числу факторов, повышающих спрос на активный отдых. В данной статье исследованы перспективные возможности туристических маршрутов, пригодных для активного отдыха в Нахчыванской Автономной Республике, имеющей богатые туристические ресурсы.

Ключевые слова: *туризм; отдых; активный отдых; туристические маршруты; Нахчыванская Автономная Республика*

HƏSƏN HƏSƏNOV
thehhasanov@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD:0009-0006-8020-3140

NAXÇIVAN TÜRBƏLƏRİNİN TÜRK-İSLAM MEMARLIĞINDA ƏDƏBİ XÜSUSİYYƏTLƏRİ

Səlcuqluların qərbə doğru yürüşləri ilə İslam memarlığına gətirdiyi yeni formalardan biri də türbə memarlığıdır. Türbə memarlığı Kiçik Asiyaya gəlməzdən əvvəl Səlcuqlu ərəb memarlığına da təsir etmişdir. Səlcuqlar dövründə Azərbaycanda dörd memarlıq məktəbi yaradılmışdır. Onlardan biri də Naxçıvan-Marağa memarlıq məktəbidir. Səyyahların verdiyi məlumatlara və tarixi binaların divar bəzəklərinə, ustad və memarların adlarına əsasən məlum olur ki, Naxçıvan-Marağa məktəbindən orta əsrlərdə bir sıra memarlar yetişdirilib. Bu memarlardan biri də Əcəmi Əbubəkirin oğlu Naxçıvanidir. Arxiv sənədlərinə və apardığımız araşdırmalara əsaslanaraq deyə bilərik ki, XII əsrdə Atabəy-Eldəniz dövründə Naxçıvan şəhərinin formalaşmasında və onun monumental tikililərlə zənginləşməsində memar Əcəmi böyük rol oynamışdır. Müasir Naxçıvan şəhərinin mərkəzində memar Əcəminin iki əsəri qalıb. Bunlardan biri 1162-ci ildə Naxçıvanın orta əsrlər qəbiristanlığında İslamın məşhur siması, şeyxlərin rəhbəri Yusif Küseyirin oğlu, ikinci türbə isə 1186-cı ildə onun şərəfinə ucaldılmış türbədir. Həyat yoldaşı Mömina Xatun Atabəy Eldənizin, Naxçıvan şəhərinin "Böyük qala" adlanan məhəlləsində. İki türbənin memarlıq dizaynı xarici ornamental kompozisiyaları və tikinti materialları ilə Naxçıvan-Marağa məktəbinin memarlıq xüsusiyyətlərini əks etdirir. Qəbiristanlıq və onun gövdəsi çoxbucaqlı formaya malikdir, iki türbənin fasadları həndəsi naxışlar, naxışlar və simvolik məna daşıyan mətn motivləri ilə bəzədilmişdir. Məqbərədən kənarda türbənin yuxarı gövdəsini daha da əzəmətli edən, işıq-kölgə effekti yaradan, naxışlar arasında harmoniya yaradan həndəsi bəzəklər diqqətlə işlənib.

Açar sözlər: *Naxçıvan Türbələri, Türk-İslam Memarlığı, Səlcuqlu Dövrü, Memarlıq Məktəbi, Türbə*

Giriş

Səlcuqluların Orta Asiyadan Qərbə yürüşləri zamanı İslam memarlığına gətirdikləri yeni formalardan biri də türbə memarlığı idi. Türbələr türklərin "Yurt" adlandırdıqları çadır və kürkan mədəniyyətini öz memarlığında birləşdirən tikililərdir. Orta Asiyada yaşayan türklər yaşadıqları çadırları "Yurd" adlandırmış və gəldikləri torpaqlarda Vətənə olan ehtiramlarını ifadə etmək üçün qəbiristanlıqda onu qoruyub saxlayaraq yeni forma yaratmağa nail olmuşlar. Türklər arasında ağsaqqallarının, hökmdarlarının, sərkərdələrinin, ağalarının, müəllimlərinin, qadınlarının məzarları üzərində türbələr ucaltmaqla onlara hörmət və ehtiram göstərilirdi. Onlar həmçinin bildirirlər ki, tədqiqatçıların təqdim etdikləri mənbələrdə türklər arasında ilk türbə quruluşunun Göytürklər və Uyğurlar arasında tikildiyi aşkarlanıb. Sonrakı dövrlərdə Qarahanlı və Qəznəvi memarlığında kərpicdən hörülmüş kvadrat planlı, ornamentli türbələr Səlcuq memarlığında mürəkkəb quruluş şəklini alır. Türbə memarlığı da Anadoluya daxil edilməzdən əvvəl Səlcuqluların Ərəb memarlığına təsir göstərmişdir.

Türbə memarlığı Səlcuqlar dövrü İran, Azərbaycan, İraq, Suriya, Anadolu və s. Digər bölgələrə yayılaraq Elxani, Səfəvi və Osmanlı memarlığına daxil edilərək onun tükənmiş nümunələrini ortaya qoydu. Səlcuqlu dövrünün bütün sahələrində olduğu kimi, memarlıqda da misli görünməmiş hərəkətlər başlamışdır. Bu cərəyan Azərbaycan memarlığında da öz əksini tapmışdır. Bu dövrdə görülən əsərlər üzərində araşdırma aparan alimlər Səlcuqlular dövrünü "İncəsənət dünyası dövrü" adlandırmış və 15-16-cı əsrlərdə Avropada yaranan İntibah sənətinin bir neçə əsrdən çox olduğunu bildirmişlər.

Material və metod. Tədqiqat zamanı Naxçıvan türbələrinin türk islam memarlığında ədəbi xüsusiyyətlərinin təhlili zamanı müxtəlif ədəbiyyatlardan istifadə edilmişdir. Xüsusilə türk dilində olan ədəbiyyatlar üstünlük təşkil edir. Eyni zamanda tədqiqat zamanı analiz, sintez, induksiya, deduksiya, ümumilləşdirmə metodlarından istifadə edilmişdir. Naxçıvan ərazisində yerləşdən abidələri analiz və sintez metodlarından istifadə edərək təhlil edilmişdir. İnduksiya və deduksiya metodları tədqiqat işinin aparılması zamanı müxtəlif ədəbiyyatların təhlili zamanı istifadə edilmişdir. Ümumiləşdirmə metodundan yekun nəticə zamanı istifadə olunmuşdur.

Müzakirə

Səlcuqlar dövründə Azərbaycanda dörd memarlıq məktəbi - Şirvan, Aran, Naxçıvan-Marağa, Qəzvin-Həmədan formalaşmışdır. Səyyahların verdiyi məlumatlardan, tarixi binaların fasad bəzəkləri daxilində ustad və memarların qoyduğu adlardan məlum olur ki, orta əsrlərdə Naxçıvan-Marağa məktəbinin təsiri ilə bölgədə bir sıra memarlıq əsərləri tikilmişdir. Naxçıvan şəhərində Naxçıvan-Marağa məktəbinin şagirdlərindən biri olan Əcəmi Əbubəkir oğlunun adına Naxçıvan şəhərində çoxlu binalar var. Arxiv sənədlərinə və apardığımız araşdırmalara əsaslanaraq deyə bilərik ki, XII əsrdə Atabəy-Eldənizlər dövründə Naxçıvan şəhərinin formalaşmasında, onun monumental tikililərlə zənginləşməsində memar Əcəmi böyük rol oynamışdır (Kanbarova G., 2008).

Müasir Naxçıvan şəhərinin mərkəzində memar Əcəminin iki əsəri ucalır. Bunlardan biri 1162-ci ildə orta əsr Naxçıvan şəhər qəbiristanlığında İslam dininin məşhur rəhbəri, şeyxlərin sərdarı Yusif Küseyirin oğlunun şərəfinə ucaldılmış türbə, ikinci türbə isə 1186-cı ildə şərəfinə tikilmiş Naxçıvan şəhərinin "Böyük qalası" adlanan ərazidə Atabəy Eldənizin arvadı Möminə Xatunun türbəsidir. (Salamzade A., 1985).

Xalq arasında "Atababa günbəzi" kimi tanınan türbə hazırda Naxçıvan şəhərinin mərkəzində yerləşən köhnə məhlələrdən biri olan "Şahab" məhəlləsində yerləşir. Yusif Küseyiroğlu türbəsi Səlcuqlu-Atabəy dövrünə aid kərpic memarlığının nadir sənət nümunələrindən biridir, daxili diametri 5,8 metr, hündürlüyü 14 metrdir. Türbənin səkkizguşəli qəbir hissəsi yeraltıdır. Yerüstü gövdə səkkizguşəli prizmatik formaya malikdir və piramidal formalı günəş çarpayısı ilə örtülmüşdür. Güney Azərbaycanda (İran) tikilmiş bir sıra Səlcuqlu türbələrində olduğu kimi, Yusif Küseyir oğlu türbəsinin qəbiristanlığını örtən günbəzin mərkəzində də silindrik formada boşluq açılaraq qəbiristanlığı nəmdən qorumuşdur. Xarici tərəfdən piramidal formada olan türbənin örtüyü içəridən günbəz şəklindədir.(Kanbarova G., 2008)

Türbə üçölçülü Helli-türk inancının üçölçülü kosmokonik ideyasına əsaslanır və bu inanca görə dünya modeli yuxarı (göy), orta (yer) və aşağı (yeraltı) hissələrdən ibarətdir. Türbənin quruluşu bu modeli təsirli şəkildə təkrarlayır. Bu oxşarlıq türbənin təkcə üçölçülü quruluşunda deyil, plan quruluşunda da görünür. Yusif Küseyir türbəsinin plan quruluşu səkkizbucaqlıdır və memarlıqda simvolik məna daşıyır. Səkkizbucaqlı forma "Ərs" kosmik simvolunu - səkkiz mələyin gizləndiyi İslam dünyasındakı ilahi taxtı təmsil edirdi. Bu səbəbdən də dövrün memarları nüfuzlu şəxslərin adlarına tikilmiş türbələrin planlarına səkkizbucaqlı forma verərək onları səmavi məbədin maketi kimi göstərməyə çalışmışlar.

Möminə Xatun türbəsi Naxçıvan-Marağa memarlıq məktəbinin qiymətli tikililərindən biridir. Naxçıvan şəhərinin tarixi mərkəzində - Atabəylər Memarlıq Kompleksinin ərazisində yerləşir. Möminə Xatun türbəsi kompleksdən günümüzə qalan yeganə tikilidir. "Atabəylər Günbəzi" kimi də tanınan türbə 1186-cı ildə Atabəylər dövlətinin hökmdarı Şəmsəddin Eldənizin həyat yoldaşı Möminə Xatunun məzarı üzərində ucaldılıb. Eldəniz vəfat etdikdən sonra məzarın üstünə türbə tikmək qərarına gəlib və türbənin quruluşunu oğlu Cahan Pəhləvan davam etdirib. Miladi 582/miladi 1186-cı ildə tamamlandı. Hündürlüyü 34 metr olan türbənin piramidal örtüyü zamanla dağılıb, sərdabə 26 metr hündürlüyündə qalıb. Yusif Küseyiroğlunun məzarı kimi Möminə Xatun türbəsi də üç ölçüdə hazırlanır. Türk inancındakı üçölçülü kosmokonik düşüncəni bu türbənin maketinə tətbiq etməklə memar türbənin plan formasını onbucaqlı formaya çevirmişdir. Türbə yerdən yuxarı on tərəfli prizmatik gövdəyə malikdir, prizmatik konusla örtülmüş, içəridən silindrik və günbəzli boşluqdur. Türbənin künclərində tikilmiş taxçalar türbənin künclərindən çıxarılaraq həndəsi naxışlarla

bəzədilmiş fasadlarda dərinlik yaradır. Türbənin qəbiristanlıq hissəsində Atabəylər dövlətinin hökmdarı Şəmsəddin Eldəniz, həyat yoldaşı Mömünə Xatun və oğlu Cahan Pəhləvan dəfn edilmişdir.

Sovet dövründə (1956-1963) türbədə aparılan təmir işləri zamanı qəbiristanlıqlar açılmış, Sankt-Peterburqa araşdırmaya açılmışdır. 1990-cı illərdən bəri türbə bir neçə dəfə təmir olunub (2003; 2017), ilkin görkəmini qoruyub saxlamağa çalışıb. Türbənin onbucaqlı qəbiristanlığı (sərdabə) - mərkəzə qoyulan qovşaqvari döymənin dayanıqlığını daha da artırmaq məqsədilə onun künclərindən əks künclərə çiy qabırğalar qoyulmuşdur. Bu dizayn ulduza bənzər bir çərçivə yaratdı. Bu çərçivə abidəni bəzəyən ornamental kompozisiyalarla formal mənşəyə malikdir və riyazi harmoniyaya əsaslanır. Çərçivələr arasındakı boşluqlar adi kərpic donqarla tikilərək dizaynı tektonik görünüşü ilə daha parlaq edir (Kanbarova G., 2018).

Memar Əcəmi Əbubəkirin oğlu Naxçıvani Mömünə Xatun türbəsini Yusif Küseyir türbəsindən 26 il sonra tikdirmişdir. Onun sözlərinə görə, bu sənət əsərində memarın ustalığının və şüurunun artması ilə yanaşı, sifarişçinin təsiri və böyüklüyü təmsil olunur. Mömünə Xatun türbəsinin ümumi quruluşu, qəbiristanlıq və kül, kompozisiyanın inkişaf yolu, memarlıq münasibətinin düzülüşü Yusif Küseyir türbəsindəki kimi dəyişməz olaraq qalır. Üstəlik, memar bu əsərə yeni, zəngin ifadə vasitələri ilə özünəməxsus, daha yüksək bədii əzəmət bəxş etmişdir.

Mömünə Xatun türbəsinin layihəsində memar qülləli türbələrə xas olan bütün xüsusiyyətləri əvvəlki əsərlərindən daha aydın və parlaq şəkildə ifadə etmişdir. Bu türbə Yusif Küseyiroğlu türbəsindən mahiyyətinə və üslubuna görə yalnız dizaynı ilə fərqlənir. Memarlıq formasında kompozisiya prinsipləri, memarlıq formaları və üslubları daha mükəmməl inkişaf etmişdir. Alman memarı Yakobstalın 19-cu əsrdə çəkdiyi fotoşəkillərdən aydın olur ki, türbə o dövrdə böyük bir məclisin bir hissəsi olub, şezlong kərpicdən, gövdə isə yonulmuş qayalardan tikilmiş kürsüyə qoyulub.

Nəticə

Hər iki türbənin memarlıq quruluşu fasadlarını bəzəyən naxış kompozisiyaları və tikinti materialları ilə Naxçıvan-Marağa memarlıq məktəbinin xüsusiyyətlərini daşıyır. Mömünə Xatun türbəsinin çöl hissəsinə çıxıntılı şəkildə tikilmiş irili-xırdalı həndəsi naxışların ahəngdar düzülüşü, xətlər cərgəsində yuxarıya doğru yönəlmiş şəquli yazıların ritmi, ziyarətgahın boş yerlərinə düşən dekorativ formalı işarələr və təzad baxımından və rəngləri baxımından fasadlarda monolit monumental bəzək nümunəsi deyil, gözəl ornamental kompozisiyalara çevrilmişdir. Yusif Küseyiroğlunun türbəsinin kiçik gövdəsini kitabə dili ilə tamamlayan memar Mömünə Xatun türbəsinin kitabə bıçağının üzərində təcvari müqarnas tağı verib. Fasadlardakı naxış kompozisiyalarının formasına uyğun gələn bu müqərnəs yarpağı türbənin hündür piramidalı örtüyü üçün də motiv yaratmışdır. Azərbaycan türbələri arasında ilk dəfə olaraq Əcəmi Mömünə Xatun türbəsində muqarnas formalı karniz kürşaşdan istifadə edilmişdir. Hər iki türbədə qırıq cizgilərdən əmələ gələn həndəsi ulduz bəzəkləri türbənin fasadında işıq-kölgə effekti və naxışlar arasında hormoniya yaradaraq, türbənin hündür gövdəsini daha da vurğulayır. Türbənin tikintisi yerli materiallardan hazırlanmış kərpiclə tikilib. Yusif Küseyiroğlu türbəsinin çöl donqarası birrəngli kərpicdən, Mömünə Xatun türbəsinin fasad donqarı isə sarı və narıncı rəngli kərpiclərlə, hündür həndəsi bəzəklərlə tikilib. Memar Mömünə Xatunun türbəsinin kərpic naxışlı kompozisiyalarına göy və firuzəyi rəngli kirəmitlər əlavə edərək türbənin hündür gövdəsindəki isti rəngləri açmağa çalışmış, türbəni daha tağvari hala gətirərək kitabə yarpağının səciyyəvi olmasına nail olmuşdur.

ƏDƏBİYYAT

1. Kanbarova G. Nahçıvan türbelerinin mimari sembolleri. Academi Nauk Respubliki Узбекистан. Mekanik İle İlgili Problemler. Taşkent, Yayınevi «FAN» Acad. Наук Республики Узбекистан, 2008, №4-5.-235 c.
2. Kanbarova G. Azerbaycanın Selçuklu dönemi türbeleri. Doğu Ülkelerinin Uluslararası Mimarlık Akademisi. Mimarlık, kentleşme tarihi ve restorasyonu. Toplu № 1. Bakü: 2011, 226 s.
3. Kanbarova G. Nahçivan'da yerleşimler ve kentsel gelişim. Cilt I. Bakü: 2018, 385 s.
4. Kanbarova G. Orta çağ Azerbaycan Mimarlığının banisi Acemi Ebubekir oğlu Nahçıvani. Kardeş Kalemler, 60 s.
5. Мифы Народов Мира. Энциклопедия. Том 2. Москва: 2000, 718 с.
6. Salamzade A., Memmedzade K. Azerbaycanın mimarisinin Nahçıvan okulu yapıları. Bakü: 1985. Elm ,265 s.

SUMMARY

Həsən Həsənov

ЛИТЕРАТУРНЫЕ ХАРАКТЕРИСТИКИ НАХЧИВАНСКИХ ГРОБНИЦ В ТУРЕЦКО-ИСЛАМСКОЙ АРХИТЕКТУРЕ

One of the new forms that the Seljuks brought to Islamic architecture with their marches to the west is the tomb architecture. Tomb architecture also influenced Seljuk Arab architecture before it arrived in Asia Minor. During the Seljuk period, four schools of architecture were established in Azerbaijan. One of them is the Nakhchivan-Maraga school of architecture. Based on the information provided by travelers and the wall decorations of historical buildings, the names of masters and architects, it is known that a number of architects were trained from the Nakhchivan-Maraga school in the Middle Ages. One of these architects is Ajami Abubekir's son Nakhchivani. Based on archival documents and our research, we can say that architect Ecemi played a major role in the formation of the city of Nakhchivan and its enrichment with monumental buildings during the Atabay-Eldeniz period in the 12th century. In the center of the modern city of Nakhchivan, there are two works of the architect Ajami. One of them is a tomb built in 1162 in the medieval cemetery of Nakhchivan in honor of Yusif Kuseyir, son of the famous figure of Islam, head of sheikhs, and the second tomb was erected in 1186 in his honor. His wife Momina khatun Atabey Ildagiz, in the neighborhood of Nakhchivan city called “Boyuk gala”. The architectural design of the two tombs reflects the architectural features of the Nakhchivan-Maraga school with its external ornamental compositions and construction materials. The cemetery and its body have a polygonal shape, the facades of the two tombs are decorated with geometric patterns, patterns and textual motifs with symbolic meaning. Outside the mausoleum, the geometric decorations that make the upper body of the mausoleum even more magnificent, create a light-shadow effect, and create harmony between the patterns have been carefully worked out.

Key words: *Nakhchivan Tombs, Turkish-Islamic Architecture, Seljuk Period, School of Architecture, Tomb*

MƏRHƏMƏT QULİYEV
mrhmtquliyev@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0004-4916-7845

TERRORİZMİN YAYILMASININ ƏSAS SƏBƏBLƏRİ VƏ TERRORİZMİN YAYILMASINA QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ

Bu məqalədə terrorizmin yayılmasının əsas səbəbləri araşdırılır. Terrorizmin səbəblərini anlamaq üçün müxtəlif yanaşmalar təqdim olunur, həmçinin müxtəlif amillər də göstərilir. Digər mütəşəkkil cinayətlər kimi terrorizmin də yaranmasının ən çox yayılmış səbəbinin qloballaşma prosesləri olduğu vurğulanır və bununla bağlı əsas problemlərə işarə edilir. Sonda araşdırma ilə bağlı nəticələr qeyd edilmiş və ədəbiyyat siyahısı verilmişdir.

Açar sözlər: *terrorizm, terrorizmin xüsusiyyətləri, terrorizmin yayılması, terrorizmin səbəbləri, mübarizə yolları.*

Giriş

Terrorizm ideologiyası cəmiyyətdə qeyri-müəyyənlik, inamsızlıq və ayrılıq yaradan dağıdıcı bir siyasi texnologiyadır. Dövlətin davamlı inkişafına zərbə vuran, terror aktlarına səbəb olan zorakı ekstremizmlə hüquq-mühafizə orqanları tərəfindən səmərəli şəkildə mübarizə aparılmalıdır. Bununla belə, hökumət orqanları terror təhlükəsini rasional siyasi səylərlə, bir çox hallarda terrorizmə qarşı təbliğatla, yüksək keyfiyyətli təhsillə və terrorizm təhlükəsinin aradan qaldırılmasında maraqlı olan vətəndaş cəmiyyəti institutları ilə sosial tərəfdaşlığa arxalanaraq zərərsizləşdirməlidir (1, s.9).

Terrorizmin yayılmasının səbəblərinin araşdırılması və öyrənilməsi ilə yanaşı, terrorizm ideologiyasının yayılmasına qarşı fəal mübarizə və gənclər arasında antiterror tədbirlərinin informasiya-təbliğat dəstəyi üzrə işin gücləndirilməsi vacib məsələlərdəndir.

Terrorizmin yayılma səbəbləri və ona qarşı mübarizə yolları

Terrorizmin mahiyyətinin və onun sosial təhlükəsinin aydınlaşdırılması, zorakılıq ideologiyasının cəmiyyət tərəfindən israrla rədd edilməsinin formalaşdırılması, o cümlədən gənclərin terrorizm, ekstremizm, millətçilik və dini fundamentalizmə qarşı mübarizədə iştiraka cəlb edilməsi əsas mübarizə tədbirlərindən hesab oluna bilər. Terrorçular hakimiyyətə müqavimət göstərə bilmirlər, ona görə də onlar özləri üçün daha asan və təhlükəsiz yol seçirlər - insanlar arasında qorxu, inamsızlıq və düşmənçilik səpmək, hakimiyyətdən narazılıq yaratmaq. Terrorizmə qarşı mübarizə dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, habelə fiziki və hüquqi şəxslərin terrorizmin qarşısının alınması, o cümlədən terrorizmin törədilməsinə şərait yaradan səbəblərin və şərtlərin müəyyən edilməsi və sonradan aradan qaldırılması üzrə kompleks fəaliyyətidir. Mübarizə tədbirlərinə həmçinin, terror aktının müəyyən edilməsi, qarşısının alınması, araşdırılması, terrorizmin nəticələrinin minimuma endirilməsi və aradan qaldırılması daxildir (6).

E.G.Samovichevin fikrincə, terrorizmin səbəbləri, olduqca mürəkkəb problemlər kompleksidir. Hər şeydən əvvəl, daxili və xarici xarakterli motivlər var (həm ölkədə, həm də ondan kənarda - ətrafdakı vəziyyətin xüsusiyyətlərini əks etdirən). Ayrıca, terrorizmin aşağıdakı səbəblərini ayırmaq olar:

- insan üzərində informasiya və ideoloji təsir;
- əhalinin mövcud şəraitdən narazılığı;
- dövlətin həyatının müxtəlif məsələləri və sahələri ilə bağlı aparılan rəsmi siyasətlə razılaşmamaq;
- məmurlar və vəzifəli şəxslərin əhali ilə çalışma üsullarından qaynaqlanan məmnuniyyətsizlik (3, s. 196).

E.G.Samovichevə görə, bəzi motivlər müasir dünyada törədilən terror cinayətlərinin xüsusiyyətlərini əvvəlcədən müəyyənləşdirir. Onlara aşağıdakılar daxildir:

- şantaj, aldatma, zorakılıq metodlarından istifadə ilə siyasi mübarizənin kəskinləşməsi;
- siyasi, sosial, millətlərarası, dini və digər xarakterli fikir ayrılıqları;
- silahlı münaqişələr, o cümlədən peşəkarlıqla zorakılıq və ekstremizmə yönəlmiş digər ekstremal vəziyyətlər;
- ölkədəki kriminogen vəziyyətin kəskinləşməsi;
- dünyada terrorizmin ümumi artımının nəticələrinin mənfi təsiri [3, s. 196].

P.A.Kabanov terrorizmin yayılmasının çox sayda siyasi səbəbini göstərir. Onların arasından xüsusilə aşağıdakıları vurğulayır:

- hakim elitanın müxalif siyasi partiyalara qarşı repressiyası;
- hakim elitanın bu cəmiyyət üçün qeyri-ənənəvi ictimai-siyasi yeniliklər tətbiq etməsi;
- dövlətin özündə daxili siyasi münaqişələrin kəskinləşməsi;
- hər hansı bir bölgədə iki dövlətin siyasi maraqlarının toqquşması;
- hökumətin milli siyasətdəki səhvləri;
- ayrı-ayrı insanlar, qruplar, partiyalar tərəfindən milli nifrətin məqsədyönlü şəkildə qızışdırılması;
- başqa dövlətə qarşı təcavüz və onun işğalı əksər hallarda dinc əhalinin (partizanların) terror üsullarından istifadə etməklə (mühüm obyektlərin partladılması, yandırılması və s.) silahlı müqavimətinə səbəb olur;
- Latviya, İran, İraq, əfqanıstan kimi dövlət siyasəti səviyyəsində terrorizmin təşviqi;
- xarici dövlətlərin hökumətinin fəaliyyətindən narazılıq, bununla əlaqədar nümayəndələrə və qurumlara qarşı terror aktları törədilir (3, s.32).

Bəzi alimlər hesab edir ki, bu sahədə əsas amil sosial amildir və terrorçuların fəaliyyətini gücləndirən də məhz bu amildir.

Əsassız olaraq, digər mütəşəkkil cinayətlərdə olduğu kimi terrorizmin yaranmasının ən ümumi səbəbinin qloballaşma prosesləri olduğuna inanan xarici tədqiqatçılarla razılaşmaq olmaz. Qloballaşma prosesləri öz növbəsində üç əhəmiyyətli kriminoloji problem yaradır:

1. məşğulluq problemi və əlaqəli yaşayış səviyyəsi;
2. bazarlar və maliyyə spekulyasiyaları problemi;
3. milli hökumətlərin cəmiyyətin idarə edilməsində, cinayətkarlığın qarşısının alınmasında imkanlarının əhəmiyyətli dərəcədə azaldılması problemi (2, s.48).

Baxılan problemlə əlaqədar olaraq, terrorizmin əsas səbəbinin dünyada hökm sürən dünyagörüşünün dəyişməsi olduğuna inanan D. V. Çuxviçevin mövqeyi maraq doğurur. Onun fikrincə, dünya müharibələrdən, inqilablardan və qan tökülməsinə səbəb olan digər sarsıntılardan bezdi və bütün inkişaf etmiş ölkələrdə insan həyatı əsas (ən yüksək) dəyər elan edildi. Terror aktının törədilməsi ehtimalı cəmiyyətdə sakitliyi dərhal bərpa etməyə çalışmaq məcburiyyətində qalan kütlələrdə və güc strukturlarının sıralarında daim (mütləq) narahatlığa (çaxnaşmaya) səbəb olur. Totalitar rejimlərin həyata keçirdiyi dövlət terroru şəraitində isə qanunsuz terrorizmin təzahürləri son dərəcə çətindir. Belə rejimlərin olduğu dövlətlərdə cəmiyyətlə dövlət arasında əks əlaqə xeyli zəifdir və xüsusi xidmət orqanları cəmiyyətin bütün sahələrinə ciddi nəzarət edir və sistemdən narazı olanların hamısını müəyyən etmək imkanına malikdir, bu narazılığın konkret hərəkətlərə çevrilməsinin qarşısını alır. Terrorçuların totalitar ölkələrdə çaxnaşma yaratması daha çətindir, çünki media əhaliyə yalnız dövlət tərəfindən icazə verilən məlumatları çatdırır (4, s.96).

Xarici hüquqşünasların araşdırmalarında əksər hallarda terrorizmin səbəbləri kimi bunlar qeyd olunur:

- cinayət amili (Maliyyə və ya maddi fayda əldə etmək üçün);
- dini amil;
- hərbi amil (silahlı qarşıdurmada düşməni bütün mövcud vasitələrlə qorxutmaq);

- siyasi amil.
- Bundan əlavə, terrorizmin səbəbləri kimi bunlar qeyd olunur: kriminogen proseslərin geniş yayılması;
- cəmiyyətin mövqeyinin müxtəlif iqtisadi qruplara bölünməsi;
- dini-millətçi fikirlər.

Müasir informasiya məkanı terrorizmin istehsalında da əsas rol oynayır. İnformasiya cəmiyyətdə geniş auditoriyaya çatır ki, bu da istənilən hərəkətə geniş rezonans verir, əhalinin psixikasına dəhşətli təsir göstərir. Buna görə də terrorizmin yayılmasında kütləvi informasiya vasitələrinin fəaliyyətinin öyrənilməsi elmi əhəmiyyətə malikdir (5, s.197).

Televiziya ekranlarından və İnternetdən müntəzəm olaraq yayımlanan terrorizm partlayışları gənclərin şüurunu həddindən artıq mübarizə formalarına hazırlayır ki, bu da psixoloji cəhətdən insanlara mənfi təsir etmək deməkdir. Və bu gün bir çox elm adamı bunu medianın dağıdıcı təsiri ilə əlaqələndirərək şiddət potensialının artacağını proqnozlaşdırır (5, s.197).

Terror aktlarının hansı siyasi nəticələrə nail olmasından asılı olmayaraq, şübhəsiz ki, hər halda onların fərqli, birmənalı mənfi nəticələri var. Bir qayda olaraq, bütün hallarda, terrorçular təyin etdikləri hədəflərə çatsalar da, tətbiq etdikləri zorakılıq qisas zorakılığına səbəb olur və paralel olaraq təhlükə inkişaf edir. Burada zorakılığın əsas təsiri ondan ibarətdir ki, o, cəmiyyətdə sabitliyi pozur, dialoqa gedən yolu bağlayır.

Yuxarıda qeyd olunanları ümumiləşdirmək üçün qeyd etmək lazımdır ki, hər bir tarixi dövrün özünəməxsus inkişaf istiqaməti və təhlükəsizliklə bağlı müvafiq ideyaları var. Terrorizmin səbəblərini bilmək və sistemləşdirmək, xarici və daxili təhdidlərini ayırd etmək onunla mübarizəni də asanlaşdıra bilər (5, s.197).

Nəticə

Tədqiqat nəticəsində deyə bilərik ki, terrorizmi yaradan səbəblərə yanaşmalar müxtəlif siyasətçilər və hüquqşünaslara görə müxtəlifdir. Elmi və tələbə ictimaiyyətinin konkret fəaliyyət sahələrində terrorizmə qarşı mübarizənin nəzəri və metodoloji əsaslarının işlənib hazırlanmasına cəlb edilməsi mübarizəni daha da asanlaşdırmağa imkan verə bilər. Terrorizmə qarşı mübarizə onu yaradan səbəbləri düzgün şəkildə araşdırdıqda və təyin etdikdə daha effektiv ola bilər. Müasir şəraitdə gənclərin vətənpərvərlik tərbiyəsi və təbliğat-təşviqat kampaniyaları vasitəsilə terrorçu qrupların yaranması risklərini əhəmiyyətli dərəcədə azaltmaq olar. Yüksək məşğulluğun və ölkə vətəndaşlarının ictimai faydalı əməyə həvəsləndirilməsinin təmin edilməsi də məqsədəuyğundur. Terrorizmin ideoloji və maliyyə sponsorlarının müəyyən edilməsi və aradan qaldırılması beynəlxalq terrorizmin dağıdıcı ideologiyasının kökünün kəsilməsində mərkəzi problem olaraq qalır.

ƏDƏBİYYAT

1. Алексеев Г.В., Кириленко В. П. “Противодействие Идеологии Современного Терроризма”, 2018. № 5, с.8-18
2. Бельский А.И., Якимова В.И. “Причины Международного Терроризма Как Государственно-Правовая Проблема” 2022. № 1. 2022, с.46-51
3. Горбунов К.Г. “Терроризм: История И Современность. Социально-Психологическое Исследование”, Москва: 2012, Форум, с.400
4. Медов М.У. “Причины И Условия Распространения Терроризма В Странах”, 2012, №4, с.96-98
5. Медов М.У, “Современный Взгляд На Причины Терроризма”, 2014, № 5, с.195-197
6. https://www.socialkirov.ru/social/root/dsr/terror.htm.

SUMMARY

Merhamat Guliyev

THE MAIN CAUSES OF THE SPREAD OF TERRORISM AND MEASURES TO COMBAT THE SPREAD OF TERRORISM

This article examines the main causes of the spread of terrorism. Various approaches to understanding the causes of terrorism are presented, as well as various factors are shown. It is emphasized that the most common reason for the emergence of terrorism, like other organized crimes, is the processes of globalization, and the main problems associated with it are pointed out. At the end, the results of the research were noted and a list of literature was given.

***Key words**: terrorism, features of terrorism, the spread of terrorism, causes of terrorism, ways of struggle*

SƏİMƏXANIM ƏLİYEVA
saimaliyeva@gmail.com
Naxçıvan Dövlət Universiteti

XARİCİ VƏ DAXİLİ İNVESTİSİYALARIN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ƏHƏMİYYƏTİ

Qeyd edim ki, müstəqil Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyanın (BXİ) daxil olmasına 1995-ci ildən başlanmışdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 1995-2017-ci illər dövründə ölkə iqtisadiyyatına ümumilikdə 125.5 mlrd. ABŞ dolları məbləğində xarici investisiya daxil olub ki, bunun da 96.1%-i (yaxud 120.6 mlrd. dolları) 2000-2017-ci illər dövründə baş verib.

İllər üzrə neft sektoruna daxil olan BXİ-nin məbləği hər zaman qeyri-neft sektoru ilə müqayisədə dəfələrlə çox olub. Bu məqalədə yuxarıda göstərilən amillər üzrə ölkə iqtisadiyyatının vəziyyəti qiymətləndirilmisdir.

Açar sözlər: *daxili investisiyalar, xarici investisiyalar, texnoparklar, sənaye məhəllələri, sosial-iqtisadi inkişaf, idxal-ixrac əməliyyatları.*

İnkişaf etməkdə olan ölkələr üçün investisiyalar iqtisadi inkişaf və makroiqtisadi sabitliyin təmin olunmasında əhəmiyyətli rol oynayır. Xarici investisiyalar məhsuldarlığın artırılması, texnologiyanın bir ölkədən digərinə ötürülməsi, məşğulluq səviyyəsinin yüksəldilməsi iqtisadi artımı təmin etməklə milli iqtisadiyyatın şaxələndirilməsinə şərait yaradır. Sovet İttifaqının süqutundan sonra Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr bazar iqtisadiyyatına keçməyə başladılar. Bu proseslər öz növbəsində beynəlxalq transmilli şirkətlərin bölgəyə gəlməsinə şərait yaradırdı və xarici investisiyaların artmasına səbəb olurdu. Beləliklə, xarici investisiyalar onları qəbul edən ölkələrin iqtisadiyyatlarının potensialını məhdudlaşdırmamağa kömək edərək, yeni texnologiyaların və resursların hərəkətini və köçürülməsini, islahatların həyata keçirilməsini, maliyyə institutlarının yaradılmasını sürətləndirirdi.

Dünyada o dövlətlər dinamik və sabit inkişaf edir ki, onlar gələcəyə hədəflənən düşünülmüş strategiyaya malikdir. Son 10 il ərzində Azərbaycanın sosial-iqtisadi həyatında baş verən irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri dövründə ölkəmizin iqtisadi qüdrəti daha da artmışdır. Hazırda Azərbaycan özünün iqtisadi inkişaf modelinə görə dünyada nümunə göstərilir və bu təcrübə geniş yayılmaqdadır.

Ölkənin qeyri-neft potensialının gücləndirilməsi, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun rəqabətqabiliyyətli ixracat məhsulları istehsal etmək gücündə olan sənaye sektorunun yaradılması və inkişaf etdirilməsi zəruriliyi həm ölkənin daxili iqtisadi inkişaf modelinin, həm də dünya iqtisadiyyatının müasir inkişaf meyillərinin tələbləri ilə bağlıdır. Məhz, ona görə də "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, eləcə də "Milli İqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsində" qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi prioritet sahələr kimi qeyd edilmiş və onun diversifikasiyasının zəruriliyi ön plana çəkilmişdir. Qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi həm regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, həm də dövlət büdcəsinin gəlirlərinin artırılması və onun müxtəlif mənbələrdən formalaşdırılması, ixrac gəlirlərinin artırılması, idxalı əvəz edən və ixracyönümlü, geniş çeşidə malik sənaye məhsullarının istehsalı baxımından önəmli hesab edilir (5).

Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyası Azərbaycanı dünyanın ən əlverişli investisiya məkanlarından birinə çevirməkdədir. Azərbaycana yatırılmış investisiyaların həcminə görə son illərin statistikasına nəzər yetirsək görərik ki, iqtisadiyyata qoyulan 270 milyard dollarlıq investisiyanın yarısı xarici sərmayələrdir. Bu, əlbəttə ki, xarici investorların Azərbaycana olan inamının göstəricisidir.

Azərbaycandakı sabitlik, xarici investorlara yaradılan əlverişli şərait iş adamlarının diqqətini daim cəlb edir. Bu səbəbdəndir ki, xaricdən ölkəyə investisiya, sərmayə qoymaq istəyənlərin sayı çoxalır.

2015-ci ilin ortalarından etibarən Azərbaycan hökuməti tərəfindən ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması (lisenziya və icazələrin azaldılması, prosedurların asanlaşdırılması və s.), sahibkarlıq sahəsində olan yoxlamaların 2021-ci ilədək olan müddətə qismən dayandırılması, investisiyaların təşviq edilməsi (məsələn, "investisiya təşviqi sənədi"nin tətbiqi və həmin sənədi alanlara 7 il müddətinə vergi güzəştlərinin verilməsi, habelə layihə çərçivəsində idxal olunan texnika və texnologiyanın ƏDV və rüsumdan azad edilməsi), sənaye parklarının yaradılması (parkların rezidentlərinə də 7 il müddətinə vergi güzəştləri tətbiq olunur, habelə onların istehsal məqsədi üçün idxal etdikləri texnika və texnologiya ƏDV-dən və rüsumdan azad olunur), yerli istehsalın himayə edilməsi və daxili bazarın qorunması, qeyri-neft ixracının stimullaşdırılması (ixrac təşviqinin tətbiqi, xarici ölkələrdə ixrac missiyalarının təşkili və ticarət evlərinin açılması və s.), idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlərin (yaşıl dəhliz, elektron bəyanetmə və s.) tətbiqi, bir sıra kənd təsərrüfatı məhsullarının istehsalının subsidiyalaşdırılması və s. kimi çox sayda qərarlar qəbul edilib və tədbirlər həyata keçirilib.

Son 10 ildə Prezident İlham Əliyevin əsas hədəflərindən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək olub. Bu səbəbdən də ölkədə iqtisadi müstəqillik əsas prioritet olub və siyasi müstəqillik üçün bünövrə rolunu oynayıb. Əgər müstəqillik dövründən 2015-ci ilədək ölkə iqtisadiyyatına 206 milyard dollar həcmində investisiya cəlb olunmuşdusa, 2019-cu ildə bu rəqəm 270 milyard dollar həcminə yüksəlib. Yəni 5 ilə 64 milyard manatlıq investisiya artımı qeydə alınıb.

Bu dövr ərzində ölkəmizdə ümumdaxili məhsul 3.3 dəfə artıb, ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 51 milyard dollara çatıb. Ötən illərdə Azərbaycanın iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17.184.3 milyon manat vəsait yönəldilib. Möhtəşəm inkişaf və islahatlar mərhələsini yaşamaqda olan Azərbaycan investorlar üçün etibarlı tərəfdaşdır.


Prezident İlham Əliyev Davosda çoxsaylı dövlət və hökumət başçıları, dünyanın aparıcı maliyyə-iqtisadi qurumlarının, şirkətlərinin rəhbərləri ilə görüşləri zamanı investorlara çağırış etdi. Bu xüsusda Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolunun imzalanmasını, "Procter and Gamble Europe" şirkətinin regional mərkəzini yaratmaq üçün Bakını seçməsini, Azərbaycanın Naxçıvan və Qoşadaş yataqlarının Rusiyanın "LukOİL" şirkəti ilə birgə işlənməsi barədə qərar qəbul olunmasını, "Sighify" şirkətinin Azərbaycana yeni texnologiyalar gətirməsi məsələsinin müzakirə edilməsini, "Carlsberg Group" şirkətinin ölkəmizə investisiyalarını artırmaq niyyətində olmasını və Azərbaycanda sığorta bazarının inkişafı üçün "Swiss Re" şirkəti ilə əməkdaşlıq məsələlərinin müzakirə edilməsini nəzərə alsaq, deyə bilərik ki, 2020-ci ildə Azərbaycan iqtisadi sahədə mühüm nailiyyətlər əldə etmişdir. İlk növbədə ölkəyə yatırılan investisiyaların həcmi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) hər il dünya ölkələrində birbaşa xarici investisiyaların (BXİ) durumu ilə bağlı xüsusi illik hesabatlar hazırlayır. Həmin hesabatlarda BXİ-nin artım dinamikası, xarici investisiyaların cəlb edilməsi üçün hökumətlər tərəfindən həyata keçirilən tədbirlərin xülasəsi və mühüm inkişaf meyilləri ümumiləşdirilərək təqdim olunur. Təşkilatın "İnvestisiyalar və yeni sənaye siyasətləri" (İnvestments and New İndustrial Policies) mövzusuna həsr edilmiş 2018-ci il hesabatına əsasən 2017-ci ildə qlobal BXİ axınlarının məbləği 1.43 trln. ABŞ dolları məbləğində olub ki, bu da 2016-cı illə (1.87 trln. ABŞ dolları) müqayisədə 23 faiz azalma deməkdir. Hesabatda qeyd edilir ki, 2017-ci ildə 65 ölkədə investisiyalarla bağlı 126 qərar qəbul edilib ki, bunun da 84 faizi investorlar üçün əlverişli olub (2016-cı ildə 58 ölkədə 124 investisiya siyasəti qərarı verilmişdi). Bu qərarlar ayrı-ayrı sahələrdə (nəqliyyat, energetika və istehsal sahələri də daxil olmaqla) giriş maneələrinin aradan qaldırılması, inzibati prosedurların azaldılması və stimullaşdırıcı mexanizmlərin yaradılmasına yönəldilib (8).

Beynəlxalq təşkilatlarla yanaşı ayrı-ayrı regional təşkilatlar da BXİ axınları üzrə araşdırmalar aparırlar. Xüsusilə Avrasiya və Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivələrində aparılan araşdırmalarda Azərbaycanla bağlı ortaya çıxan nəticələr maraq doğurur.

Məsələn, Avrasiya İnkişaf Bankının "MDB ölkələrində qarşılıqlı investisiyaların Monitorinqi-2017" hesabatında göstərilir ki, Azərbaycanın MDB ölkələrinə qoyduğu investisiyanın məbləği (illər üzrə toplam) 2016-cı ildə 2.4 mlrd. ABŞ dolları səviyyəsinə çatıb, halbuki həmin ölkələrdən Azərbaycan iqtisadiyyatına yönəldilmiş investisiyanın məbləği 0.91 mlrd. ABŞ dolları (bunun 0.89 mlrd. dolları Rusiyanın payına düşür) olub. Avrasiya İnkişaf Bankının "Avrasiya İqtisadi Birliyi və Avrasiya materiki ölkələri: birbaşa investisiyaların monitorinqi və analizi - 2017" adlı digər bir tədqiqatına əsasən Azərbaycan Avrasiya İqtisadi Birliyindən kənarda olan MDB ölkələri arasında kapital ixracına görə liderdir: 5 ildə (2012-2016-cı illər nəzərdə tutulur) MDB-dən kənar Avrasiya ölkələrinə Azərbaycandan daxil olan BXİ orta illik artım tempi 41 faiz olub. Həmin tədqiqata görə 2016-cı ilin sonuna qeyd edilən regionda Azərbaycanın toplam (ümumi) BXİ-nin məbləği 16.9 mlrd. ABŞ dolları məbləğində olub ki, bunun da çoxu Türkiyə iqtisadiyyatına yönəldilib (4).

DSK-nın məlumatına əsasən bu dövr (2000-2017-ci illər) ərzində qeyri-neft sektoruna daxil olmuş ümumi BXİ-nın 2588.2 mln. dolları (23.7%-i) Türkiyə, 1649.3 mln. dolları (15.1%-i) Böyük Britaniya, 1125.0 mln. dolları (10.3%-i) Niderland, 911.7 mln. dolları (8.3%-i) ABŞ, 757.9 mln. dolları (6.9%-i) Rusiya Federasiyası, 717.6 mln. dolları (6.6%-i) Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), 615.4 mln. dolları (6.6%-i) Almaniya, 143.7 mln. dolları (1.3%-i) İtaliya, 138.3 mln. dolları (1.3%-i) Fransa, 97.1 mln. dolları (0.9%-i) Çin və 91.0 mln. dolları (0.8%-i) İran şirkətlərinin payına düşüb (9).



Diaqram 3. 2000-2017-ci illər dövründə Azərbaycanın qeyri-neft sektoruna axan BXİ-nin mənşə ölkələri (*Mənbə: DSK*)

Azərbaycanın qeyri-neft sektorunda Türkiyə şirkətlərinin investisiyaları çox zaman (arada bir neçə il istisna olmaqla) üstün mövqeyə malik olub. Bundan başqa ABŞ, Böyük Britaniya, BƏƏ, Almaniya, Fransa və Rusiyadan demək olar hər il Azərbaycanın qeyri-neft sektoruna müəyyən qədər investisiyalar daxil olub. Amma son 2-3 ildə Rusiya və İsveçrədən gələn investisiyanın daha sürətlə artması baş verib. Ölkənin qeyri-neft sektoruna daxil olan BXİ-nin məbləğində 2015-ci ildəki azalmadan sonra 2016-cı ildə baş verən kəskin artımda İsveçrə, Rusiya və Türkiyədən daxil olan vəsaitlər həlledici rol oynayıb: həmin il qeydə alınan 1.7 mlrd. ABŞ dolları məbləğində BXİ-nın 1.04 mlrd. dolları, yaxud 61.0%-i bu 3 ölkənin payına düşüb (9).

Prezident İlham Əliyev deyib ki, sənayenin inkişafı ilə bağlı hazırda texnoparklar yaradılır, dövlət burada da öz üzərinə böyük məsuliyyət götürür, böyük maliyyə töhfəsini verir. Çünki texnoparkların yaradılması, infrastrukturun qurulması, yolların çəkilməsi dövlət hesabına olan məsələlərdir. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın əsas istiqamətlərindən biri də sənaye və texnologiyalar parklarının, eləcə də sənaye məhəllələrinin yaradılması idi ki, bu dauğurla olunmuşdur.

Ölkəmizdə qeyri-neft sektoru sahəsinə xüsusi diqqət yetirilməsi və həyata keçirilmiş kompleks tədbirlər İKT-nin də sürətli inkişafına gətirib çıxaran innovativ fəaliyyət platformasının təşəkkül tapmasına şərait yaratmışdır. Hazırda innovativ rəqabətqabiliyyətli və ixracyönümlü İKT potensialının formalaşdırılması, ölkənin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi, kosmik sənayenin inkişaf etdirilməsi və peyk texnologiyalarının geniş tətbiqi (bu gün Azərbaycan dünyanın kosmos ölkələri ailəsinin üzvüdür), vətəndaşların və cəmiyyətin mövcud imkanlardan, məhsul və xidmətlərdən səmərəli bəhrələnməsi üçün şərait yaradılması və onların İKT biliklərinin, bacarıqlarının və hazırlığının yüksəldilməsi, "elektron-hökumət"in inkişaf etdirilməsi və dövlət idarəçiliyinin bütün səviyyələrində elektron xidmətlərdən istifadə olunması, yüksəkixtisaslı kadrların hazırlanması və görülən işlərə elmi dəstək verilməsi, ölkənin qlobal informasiya məkanına sıx inteqrasiyası siyasəti uğurla davam etdirilir.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanın hədəfi ixracatı şaxələndirmək və ixracyönümlü qeyri-neft məhsullarının siyahısını genişləndirməkdir. Bu istiqamətdə də real uğurlar əldə edilir. Azərbaycan dövləti iqtisadi inkişafı qeyri-neft sektorunun inkişafında görür və ölkə iqtisadiyyatının dayanıqlı inkişafını müəyyənləşdirən sahələrdə islahatlar həyata keçirir. Məhz məqsədyönlü siyasət sayəsində son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafının neft sektorunun artım dinamikasını üstələməsi məmnunluq doğurur və bu tendensiyanın davam etməsini şərtləndirən əlverişli investisiya-biznes şəraiti hökm sürür. Ən əsası, dövlətin qeyri-neft sektoruna dəstəyinin gücləndirilməsi iqtisadiyyatın dayanıqlı inkişafını təmin edəcək, növbəti illərdə həyata keçiriləcək çox ciddi islahatlar vətəndaşlarımızın yaşayış səviyyəsini daha da yaxşılaşdıracaqdır.

Prezident İlham Əliyev vurğulayıb ki, hazırda Azərbaycanın qarşısında duran ən mühüm strateji məqsəd ölkəmizin müstəqilliyini bundan sonra da gücləndirmək və respublikamızı dünyanın ən inkişaf etmiş və rəqabətədavamlı dövlətlər səviyyəsinə yüksəltməkdir. Buna görə də müasir dünyanın çağırışları da nəzərə alınmaqla, regionlardakı sürətli inkişaf davam etdiriləcəkdir. Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının və digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcək, eyni zamanda Azərbaycan dünyanın aparıcı ölkələri sırasına çıxacaqdır.

ƏDƏBİYYAT

6. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 13 yanvar 1995-ci il. № 952
7. İnvestisiya fondları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 oktyabr 2010-cu il. № 1101
8. Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 15 yanvar 1992-ci il. № 57
9. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15.09.2017-ci il
10. İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 18 yanvar 2018-ci il
11. Резепин А.С. Активизация роли государства в формировании привлекательного инвестиционного климата. Дисс. канд. экон. наук. Москва: 2007, 138 с.
12. Лаврентьева Н.Д. Оценка инвестиционного климата м привлекательности экономических систем. Дисс. канд.экон.наук. Нижний Новгород, 2009, 225 с.
13. The World Investment Report 2018: İnvestments and New Industrial Policies http://unctad.org/en/PublicationsLibrary/wir2018_en.pdf
14. Azərbaycanın statistik göstəriciləri-2018, 573 s.

SUMMARY

Saimakhanim Aliyeva

FOREIGN AND DOMESTIC INVESTMENTS OF THE COUNTRY IMPORTANCE IN ECONOMIC DEVELOPMENT

I would like to mention that foreign direct investment (FDI) has started entering the economy of independent Azerbaijan since 1995. According to the information of the State Statistics Committee, in the period of 1995-2017, a total of 125.5 billion was transferred to the country's economy. Foreign investment in the amount of US dollars entered, of which 96.1% (or 120.6 billion dollars) took place in the period of 2000-2017.

Over the years, the amount of FDI entering the oil sector has always been many times higher than that of the non-oil sector. In this article, the state of the country's economy is evaluated based on the above factors.

Key words: *domestic investments, foreign investments, technological parks, industrial districts, socio-economic development, import-export operations*

РЕЗЮМЕ

Саймаханим Алиева

ИНОСТРАННЫЕ И ВНУТРЕННИЕ ИНВЕСТИЦИИ СТРАНЫ ЗНАЧЕНИЕ ДЛЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

Хочу отметить, что с 1995 года в экономику независимого Азербайджана начали поступать прямые иностранные инвестиции (ПИИ). экономику страны. Иностранные инвестиции в сумме поступили в долларах США, из которых 96,1% (или 120,6 млрд долларов) пришлись на период 2000-2017 гг.

На протяжении многих лет объем ПИИ, поступающих в нефтяной сектор, всегда был во много раз выше, чем в ненефтяной сектор. В данной статье состояние экономики страны оценивается на основе вышеуказанных факторов.

Ключевые слова: *внутренние инвестиции, иностранные инвестиции, технопарки, промышленные районы, социально-экономическое развитие, импортно-экспортные операции.*

TURAL TAPDIQLI
turaltapdiqli1999@gmail.com
Naxçıvan Dövlət Universiteti

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN ƏSAS KAPİTAL İSTİQAMƏTLƏRİNİN MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ

İqtisadiyyatın tammənalı və plananuyğun təşkili və həyata keçirilməsi sahələrlə yanaşı, onların fəaliyyətinin nizamlanması məqsədilə müxtəlif metod, alət və vasitələrin istifadəsini nəzərdə tutmaqdadır. Onların sırasında uçot-hesabat işlərinin təşkili və həyata keçirilməsi özünəməxsusluğu ilə fərqlənməkdədir. Təsərrüfat subyektlərində dəqiq və dürüst, tam və vaxtlı-vaxtında olan informasiyanın əldə edilməsi məhz onlarda təşkil olunan mühasibat işləri ilə əlaqələndirilməkdədir.

Mühasibat uçotu və hesabatında sənaye müəssisəsinin miqyasını və maliyyə vəziyyətini xarakterizə edən əsas göstəricilərdən biri onun kapitallarıdır. Bu sırada nominal (nizamnamə) kapitalı xüsusi əhəmiyyət kəsb etməkdədir. O, gələcəkdə mənfəət əldə etmək məqsədi ilə istehsal fəaliyyəti üçün ona lazım olan start kapitalıdır. Nizamnamə kapitalı müəssisə yaradılarkən onun təsisçisi və ya təsisçiləri tərəfindən müəssisə üçün ayrılan və onun tam təsərrüfat sərəncamına təhkim olunan vəsaitlərin pul ifadəsində məcmusudur. Onun formalaşması qaydası qanunvericiliklə və müəssisənin təsis sənədləri ilə tənzimlənir. Nominal kapitalın həcmi müəssisənin nizamnaməsində öz əksini tapır və müəssisənin təsərrüfat dövriyyəsi onun həcminə təsir göstərmir. Onun həcmi mülkiyyət formasından asılı olmayaraq yalnız təsisçilərin qərarı ilə dəyişdirilə bilər. Bu halda dövlət qeydiyyatı orqanına müvafiq qaydada məlumat verilməli və nominal kapitalın yeni həcmi qeydiyyata alınmalıdır. Nizamnamə kapitalı formalaşdırılarkən onun qanunvericiliklə müəyyən edilmiş limitdən aşağı olmayan ümumi həcmi, iştirakçılar üçün isə illik üzvlük haqqının həcmi və üzvlük haqları üzrə hesablaşmaların son müddətləri müəyyən edilir. Nizamnamə kapitalının həcminin dəyişdirilməsi zamanı onun həcminin dəyişdirilməsi və bu dəyişmənin iştirakçıların payları arasında bölüşdürülməsi qaydası, iştirakçılardan biri və bir neçəsi çıxdığı zaman onlara veriləcək vəsaitlərin həcmi müəyyənləşdirilir. Müəssisənin hüquqi statusu onun nizamnamə kapitalının minimal həcmini, onun formalaşdırılmasını, dəyişdirilməsini və s. müəyyən edir. Müəssisənin mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olaraq nizamnamə kapitalı aşağıdakı şəkildə çıxış edə bilər: dövlət və bələdiyyə müəssisələrində - nizamnamə fondu; istehsal kooperativlərində - pay fondu; səhmdar cəmiyyətlərində, məhdud məsuliyyətli ortaqlıqlarda və s. zəmanət kapitalı. Dövlət və bələdiyyə müəssisələrində nominal kapitalı müəssisə istismara buraxılarkən öz fəaliyyətini həyata keçirmək üçün dövlət tərəfindən büdcədən ayrılmış vəsaitlərin (tikinti, quraşdırma, sazlama işləri üçün çəkilən bütün xərclərin və s.) məbləğini əks etdirir (2; 114).

Səhmdar cəmiyyəti, kollektiv təsərrüfat, kooperativ və s. kimi xüsusi mülkiyyət obyekti olan müəssisələrin nizamnamə kapitalı onların təsisçiləri tərəfindən qoyulmuş paylar əsasında formalaşır. İştirakçı payının verilməsi faktını təsdiq etmək və bu payın həcmini göstərmək üçün müxtəlif sənədlərdən, o cümlədən qiymətli kağızlardan (səhm, sertifikat və s.) istifadə edilir. Nizamnamə kapitalının statusu iştirakçının müəssisənin işlərinin aparılmasına təsiri və onun gəlirlərində iştirakı qaydasını müəyyənləşdirir. Belə ki, kooperativin üzvü bu təşkilatdan çıxarkən ona payının dəyəri və ya payına müvafiq əmlak verilməli, habelə kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişlər həyata keçirilməlidir. Bu cür hesablaşmalar maliyyə ili sona yetdikdə və kooperativin mühasibat balansı təsdiq edildikdə həyata keçirilir (əgər kooperativin nizamnaməsində digər hallar nəzərdə tutulmamışdırsa). Nominal (nizamnamə) kapitalının yaradılmasının və dəyişdirilməsinin daha mürəkkəb sistemi səhmdar cəmiyyətləri üçün müəyyən edilmişdir. Çox vaxt hər hansı bir işgüzar fəaliyyət növü ilə məşğul olmaq üçün xüsusi vəsaitlər – sərmayələr birləşdirilir. Bu zaman geniş miqyaslı təsərrüfat-maliyyə fəaliyyətilə məşğul olmaq və yüksək iqtisadi səmərəyə nail olmaq etimalı adətən daha çox olur. Bu yolla təşkil edilən təsərrüfat qurumları qiymətli kağızların – səhmlərin buraxılması və satılması (yerləşdirilməsi) yolu ilə ayrı-ayrı sərmayələrin birləşdirilməsinin nəticəsi olub, bu cür

cəmiyyətlərin buraxdığı qiymətli kağızlar – səhmlər, həmin kağızları əldə edənlər isə - səhmdarlar adlanır. Səhmdar cəmiyyətinin yaradılması, idarə edilməsi və fəaliyyətlə əlaqədar münasibətlər "Səhmdar cəmiyyətləri haqqında" və "Müəssisələr haqqında" AR Qanunları və digər müxtəlif səviyyəli qanunvericilik aktları ilə tənzimlənir. Səhmdar cəmiyyətinin ən azı üç təsisçisi olmalıdır. Təsisçi kimi hüquqi və fiziki şəxslər, yəni müvafiq olaraq müəssisə və təşkilatlar, ayrı-ayrı vətəndaşlar ola bilər. Səhmdar cəmiyyəti açıq və qapalı formada yaradıla bilər. Nominal kapitalın məbləği səhmdarların yığıncağının qərarı ilə dəyişdirilir. Bu məsələyə dair ümumi yığıncağın çağırılması haqqında məlumatda aşağıdakılar əks olunmalıdır: 1) nizamnamə kapitalının dəyişdirilmə məbləği, üsulu və səbəbi; 2) cəmiyyətin nizamnamə kapitalının dəyişdirilməsi ilə əlaqədar nizamnamədə nəzərdə tutulan dəyişikliklərin layihəsi; 3) yeni buraxılacaq səhmlərin nominal dəyəri, miqdarı, ümumi məbləği; 4) yeni buraxılacaq səhmlərə abunə yazılışlarının müddəti (1; 106).

Cəmiyyət nizamnamə kapitalını o vaxt artıra bilər ki, əvvəl buraxılmış bütün səhmlər nominal dəyərindən az olmamaq şərti ilə ödənilmiş olsun (əmlakın verilməsi yolu ilə artırılması halları istisna olmaqla). Nizamnamə kapitalı yeni səhmlərin buraxılması, istiqraz vərəqələrinin səhmlərə dəyişdirilməsi və səhmlərin nominal dəyərinin artırılması yolu ilə artırılır. Onun azaldılması səhmlərin nominal dəyərinin azaldılması, yaxud dövriyyədən çıxarılıb ləğv edilməsi yolu ilə həyata keçirilir. Nominal kapitalın həcminin dəyişdirilməsinin bütün növləri zamanı müəssisənin qarşısında dəyişdirilən məbləğlərin iştirakçı payları arasında bölüşdürülməsi qaydası haqqında məsələlər durur. Əgər nominal kapitalın həcminin artması konkret invvestorun hesabına baş verirsə, onun payı ödədiyi vəsaitin həcmində artırılır və ya ona ödədiyi məbləğ müqabilində əlavə buraxılmış səhm verilir. Əgər onun həcmi müəssisənin sərəncamında qalan mənfəət hesabına artırılırsa, onda ya əvvəllər buraxılmış səhmlərin nominal dəyəri artırılır, ya da əlavə səhm buraxılaraq iştirakçıların nizamnamə kapitalındakı pay nisbəti mütənasib olaraq onlar arasında əvəzsiz yerləşdirilir.

Müxtəlif mülkiyyət formalı müəssisələrin nizamnamə kapitalının həcmi onların xalis aktivlərinin həcmindən çox olmamalıdır. Xalis aktivlərin həcmi aktivlərin likvid hissələrilə müəssisənin öhdəlikləri məbləğinin fərqi kimi müəyyən edilir. Beləliklə, nizamnamə kapitalı göstəricisinin reallığına, onun əmlakla real təmin olunmasına nəzarət edilir. Müəssisənin nominal kapitalının vəziyyəti və hərəkəti haqqında informasiyaların ümumiləşdirilməsi və uçotu üçün mühasibat uçotunun hesabalar planında 301 №-li "Nominal (nizamnamə) kapitalı" hesabı nəzərdə tutulmuşdur. Bu hesabda payların və təsis sənədlərində müəyyən edilmiş ilkin (nominal) dəyər üzrə səhmlərin uçotu aparılır.

Müəssisənin öz təsisçiləri ilə onların paylarına görə və səhmdar cəmiyyətinin səhmdarları ilə alınmış səhmlərə görə hesablaşmaların uçotu üçün 301 №-li "Nominal (nizamnamə) kapitalı" hesabına aşağıdakı subhesablar açıla bilər: 301-1 "Elan edilmiş kapital", 301-2 "Abunə kapitalı", 301-3 "Ödənilmiş kapital" və başqaları. Bu subhesablarla yanaşı səhmdar cəmiyyətləri tərəfindən geri satın alınmış öz səhmlərinin uçotunu aparılması məqsədi ilə 321№-li "Geri alınmış kapital (səhmlər)" sintetik hesab nəzərdə tutlmuşdur. Digər təşkilati-hüquqi formalı müəssisələrdə bu hesabda öz iştirakçılarından satın alınmış və hələlik digər iştirakçılara satılmamış payların uçotu aparılır. Səhmdar cəmiyyətinin satın aldığı öz səhmlərinin təkrar satış əməliyyatlarının əks etdirilməsi mühasibat uçotunda fərdiliyi ilə fərqlənir. Nizamnamə kapitalı və ona qoyuluşlar üzrə iştirakçıların (sahibkarların) faktiki borcları uçot və hesabatda ayrı-ayrılıqda əks etdirilir (3; 229).

"Mühasibat uçotu haqqında" AR Qanununa müvafiq olaraq müəssisə nəzərdə tutulmayan itki və zərərləri ödəmək üçün müəyyən edilmiş qaydada qanunvericilik üzrə ehtiyatları yarada bilər. Sözügedən ehtiyatların mühasibat uçotunda dəqiq əks etdirilməsi üçün mühasibat uçotunun hesablar planında 333 №-li "Qanunvericilik üzrə ehtiyat" adlı sintetik hesab nəzərdə tutulmuşdur. Qeyd olunan mühasibat hesabı üçün aşağıdakı subhesab-ların açılması tövsiyyə olunur: 333-1 – " Ehtiyat kapitalı", 333-2 – "Əvəzsiz alınmış maddi sərvətlər" və başqaları.

333-1 subhesabında müəssisənin ehtiyat kapitalı formasında cəmləşdirdiyi ehtiyatların mövcudluğu və hərəkəti uçota alınır. Bu kapitalın yaradılmasının xüsusi qaydasını nəzərə alaraq müəssisələr tərəfindən həmin kapitalın istifadəsinin məhs hansı xərclərin ödənilməsinə yönəldilməsi

qüvvədə olan qanunvericilikdə konkret olaraq öz əksini tapmamışdır. Odur ki, mənfəət hesabın ayaradılmış ehtiyat kapitalının aşağıdakı xərclərin ödənilməsinə yönəldilməsi məqsədəuyğun hesab olunur:1.təsərrüfat fəaliyyətindən olan zərərlərin örtülməsinə; 2.səhmdar cəmiyyətinin istiqrazlarının ödənilməsinə; 3.imtiazlı səhmlərə görə dividentlərin ödənilməsinə (imtiazlı səhmlərin ümumi məbləği səhmdar cəmiyyətinin nizamnamə kapitalının 10%-indən çox ola bilməz); 4.səhmdar cəmiyyətinin öz səhmlərinin satın alınmasına; 5.nizamnamə kapitalının artırılmasına və s. Bütün müəssisələr öz ehtiyat kapitalını yalnız öz sərəncamında qalan mənfəət və digər xüsusi vəsait məmbələri hesabına yarada və onun vəsaitlərinin təsis sənədlərinə müvafiq olaraq nəzərdə tutulmuş istiqamətlərə yönəldə bilər.

Ehtiyat kapitalı vəsaitlərinin mövcudluğu və hərəkətinin uçotu üçün mühasibat uçotunun hesablar planında 333-1 – " Ehtiyat kapitalı" adlı subhesab nəzərdə tu-tulmuşdur. Onun kredit qalığı hesbat dövrünün əvvəlinə istifadə olunmamış ehtiyatın məbləğini, debet döriyyəsi müəyyən edilmiş məqsədlərə ehtiyatların istifadə olunma-sını, kredit dövriyyəsi isə ehtiyatların yaradılmasını əks etdirir. Ehtiyat kapitalı vəsaitlərinin istifadəsi üzərində nəzarəti təmin etmək üçün onun yaradılması məmbəyindən asılı olaraq 333-1 "Ehtiyat kapitalı" subhesabına aşağıdakı analitik hesablar açıla bilər: qanunvericilikdə nəzərdə tutulduğu hallarda kapital balans mənfəəti hesabına yaradıldıqda: 333-1-1 "Balans mənfəəti hesabına yaradılan ehtiyat kapitalı"; ehtiyat kapitalı müəssisənin xalis mənfəəti (mənfəət vergisi ödənildikdən sonra qalan mənfəət) hesabına yaradıldıqda: 333-1-2 "Xalis mənfəət hesabına yaradılan ehtiyat kapitalı".

Müəssisələr özlərinin nizamnaməsinə uyğun sürətdə ehtiyat yarada bilərlər. Bu ehtiyatın tərkib hissələri müəssisədə yaradılan yığım fondundan, sosial sferalar fondundan, istehlak fondundan, şübhəli borclar üzrə ehtiyatlardan və nizamnamə üzrə digər ehtiyatlardan ibarətdir. Nizamnamə üzrə ehtiyatların uçotu üçün hesablar planında eyni adlı 334 saylı sintetik hesab nəzərdə tutulmuşdur. Onun bir sıra subhesabları açıla bilər. 334-1"Yığım fondu" subhesabında nizamnamə üzrə ehtiyatların tərkib hissəsi olan yığım fondunun mövcudluğu və hərəkəti uçota alınır. Yığım fondu müəssisə istehsalının inkişafının və istehsal təyinatlı dövriyyədənkənar (immobil) aktivlərinin yaradılması və əldə edilməsi üzrə digər oxşar tədbirlərin maliyyələşdirilməsi üçün xalis mənfəət hesabına yaradılmış kapitaldır. Onun vəsaitləri aşağıdakı məsrəflərə yönəldilə bilər: fəaliyyətdə olan istehsalatın texniki cəhətdən yenidənsilahlandırılması, yenidən qurulması və genişləndirilməsi, yeni obyektlərin tikintisi üzrə tədbirlərin maliyyələşdirilməsinə; elmi-tədqiqat işlərinin aparılması, avadanlıqların, cihazların alınmasına; səhmlərin, istiqrazların və digər qiymətli kağızların buraxılması və yayılması ilə əlaqədar olan xərclərə; investisiya fondlarının, birgə müəssisələrin, səhmdar cəmiyyətlərinin və assosiasiyaların yaradılmasına pay qoyuluşlarına; AR Nazirlər Kabinetinin "Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında" Əsasnaməyə görə məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilməyən, bilavasitə müəssisənin sərəncamında qalan mənfəət hesabına həyata keçirilən xərclərin silinməsinə və s. 334-1 "Yığım fondu" subhesabı üzrə uçotun daha aydın əks etdirilməsi üçün ya ikinçi dərəcəli subhesablar, və ya analitik hesablar açıla bilər: 334-1-1 "Yaradılmış yığım fondu", 334-1-2 "İstifadə edilmiş yığım fondu". Ümumiyyətlə, yığım fondu aşağıdakı hallarda azalır: onun vəsaitlərinin hesabat ilinin zərərlərinin ödənilməsinə yönəldildikdə; onun vəsaitləri təsisçilər arasında bölüşdürüldükdə; əsas vəsaitlərin dəyərini artırmayan kapital qoyuluşu xərcləri fondun vəsaitləri hesabına silindikdə və s.

334-2 "Sosial sferaların fondu" subhesabında eyni adlı fondun mövcudluğu və hərəkəti uçota alınır. Təsis sənədlərinə və ya təsisçilərin qərarına əsasən sosial sferanın inkişafının (kapital qoyuluşlarının) maliyyə təminatı kimi xalis mənfəət hesabına yaradılan ehtiyat məbləği sosial sferaların fondu adlanır. Bu fondun tərkibinə, həmçinin qeyri-istehsal təyinatlı dövriyyədənkənar aktivlərin yenidən qiymətləndirilməsindən olan fərqlər və əvəzsiz alınmış qeyri-istehsal təyinatlı əmlakın dəyəri daxildir.

334-3 "İstehlak fondu" subhesabında müəssisənin təsis sənədlərinə və ya təsisçilərin qərarına müvafiq olaraq xalis mənfəətdən ayırmalar hesabına yaradılan istehlak fondu vəsaitlərinin mövcudluğu və hərəkəti uçota alınır. İstehlak fondunun vəsaitləri işçi heyətinin sosial inkişafına və maddi

həvəsləndirilməsinə, habelə müəssisənin yeni əmlakının yaranmasına gətirib çıxarmayan tədbirlərin və işlərin həyata keçirilməsinə yönəldilir. İstehlak fondu işçi heyyətinin sosial müdafiəsinin təminatı üçün nəzərdə tutulmuşdur.

ƏDƏBİYYAT

1. Abbasov T.A., Bağırov M.S. Mühasibat (maliyyə) hesabatları və audit işinin təşkili. Bakı: 2005, ADPU nəşriyyatı
2. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. Naxçıvan: 2022, Əcəmi
3. Cəfərov A.M. Mühasibat uçotu. Bakı: 2011. “Monitorinq Konsaltinq Servis” MMC
4. www.maliyye.gov.az

FİDAN SADİQOVA
sadiqovafidan01@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0009-9964-5338

KOMMERSİYA BANKLARININ KAPİTALININ DƏYƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜSULLARI

Məqalədə, əvvəlcə, bazar iqtisadiyyatı şəraitində bankların iqtisadi inkişafda rolu, bank kapitalının formalaşması xüsusiyyətləri müəyyən edilmişdir. Bundan sonra, bank kapitalının dəyərinin qiymətləndirilməsi meyarları müəyyən edilmişdir. Daha sonra qiymətləndirmənin iqtisadiyyatın müxtəlif sahələrinə təsiri xüsusiyyətləri təhlil edilmişdir. Məqalənin sonunda bank kapitalının dəyərinin qiymətləndirilməsi ardıcıllığı verilmiş və nəticə olaraq qeyd edilmişdir ki, tədqiqat işi bankların kommersiya fəaliyyətinin səmərəliyinin artırılması məqsədi ilə maliyyə-iqtisadi kompleks tədbirlərin hazırlanması üçün istifadə oluna bilər.

***Açar sözlər**: bank kapitalı, ödəmə qabiliyyəti, bank sektoru, qiymətləndirmə.*

Giriş

Respublikada bazar iqtisadiyyatının formalaşmasının artıq 30 ildən çox bir tarixi vardır və bu illər ərzində onun maliyyə strukturu beynəlxalq standartlara uyğunlaşmışdır.

Bu gün bazarda fəaliyyət göstərən bir çox maliyyə qurumları arasında, aparıcı yerlərdən birini banklar tutur. Onların həyata keçirdiyi pul vəsaitlərinin axınlarının saxlaması, yenidən bölüşdürülməsi və tənzimlənməsi fond bazarının inkişafına və dövlətin iqtisadiyyatının real sektoru birbaşa təsir göstərir. İqtisadiyyatın inkişafı bank sisteminin effektiv fəaliyyəti olmadan mümkün deyil, çünki bu sistemə çoxlu iqtisadi subyektlər, pul və ödəmə vəsaitləri cəlb olunmuşdur. Buna görə, iqtisadiyyatın yenilənməsi məhz bank sektorunun institusional dəyişilməsindən başlanmalıdır. Effektiv bank sisteminin yaradılması kredit təşkilatlarının resurslarını iqtisadiyyatın real sektorunun kreditləşdirilməsi və investisiya üçün minimum bank marjası (faiz təklif) təklif etməyə imkan verəcək.

Müasir bank sisteminin qarşısında duran əsas problemlərdən biri bank işinin həddindən artıq böyük kredit təşkilatlarının əlində cəmlənməsidir. Bazel müqavilələrinə əsaslanaraq. Mərkəzi Bank kommersiya banklarını beynəlxalq standartlara uyğun olan göstəricilər verməyə məcbur edir (Banklarda Korporativ idarəetmə standartlarının tətbiqi Qaydaları, 2004, s.7-9).

Kommersiya bankları da bu tələblərə cavab vermək üçün və bank sisteminin digər iştirakçıları arasında rəqabətə davam gətirmək üçün gəlir yolları axtarmağa məcbur qalır. Bank sektorunun qarşısında duran digər problemlərdən biri də, bank kapitalının keyfiyyətli qiymətləndirilməsidir, çünki onun həcmi hesablama metodlarından asılı olaraq əhəmiyyətli dərəcədə dəyişə bilər.


Maliyyə sisteminin müxtəlif həlqələrində kapital mənbələrinin müqayisəli tədqiqi göstərdi ki, banklar fəaliyyət göstərmək üçün öz vəsaitləri ilə yanaşı müştərilərin vəsaitlərindən də istifadə edirlər. Bu baxımdan bankın şəxsi kapitalı anlayışı bir qədər dəqiqləşdirilməlidir, çünki üzərində mülkiyyət hüququ olmadığı müştəri vəsaitləri də ona aid edilir. Onu qeyd edək ki, bu gün kommersiya bankının kapitalı çoxsaylı əmanətçilərin və müştərilərin nağd və nağdsız formada, qiymətli kağızlar, külçələr və qiymətli sikkələr, metallar formasında vəsaitlərini də özündə cəmləşdirir.

Bu kredit təşkilatına müddətli, geri qaytarılan və cəlb edilən pul vəsaitləri hesabına cari maliyyə və kapital xərcləri, müştərilərə faizlərin ödənilməsi, kreditlərin verilməsi və s. əməliyyat fəaliyyətini həyata keçirmək üçün imkan verir.

Material və metodlar

İqtisadiyyat elmində "kapital" terminina bu konsepsiyanın xüsusi tətbiq dairəsi, təhlilin məqsəd və vəzifələrindən asılı olaraq fərqli baxılır. Bu, "kapital" anlayışının bir çox tərifərinin olması və onun həcminin ümumi istifadə olunan hesablama üsullarının olmaması ilə təsdiqlənir.

Beləliklə, bankın şəxsi kapitalına aşağıdakı tərifi vermək olar: kredit təşkilatına mülkiyyət hüququ əsasında məxsus olan, mənfəət əldə etmək və mümkün riskləri azaltmaq məqsədi ilə fəaliyyət göstərməsi üçün pul, maddi və qeyri-maddi formada ona məxsus olan vəsaitlərdir. Bank kapitalı onun ümumi dəyərinə, hər biri birinə əhəmiyyətli dərəcədə təsir göstərən bir-birinə tabe olan elementlər məcmusudur (şəkil 1).



Şəkil 1. *Maliyyə kateqoriyası kimi bank kapitalının elementləri*

Kapitalının dəyərinə görə bankın qiymətləndirilməsi optimaldır, ona görə ki marağı olanlar üçün şəffaf və açıqdır, həmçinin kredit təşkilatının özünün pul öhdəliklərinə görə potensial imkanlarını əks etdirir (Abdullayev Ş.Ə., 2008, s.65-66).

Hal-hazırda bu qiymətləndirmə xüsusi aktuallıq qazanıb, çünki onun yetərincə etibarlı olmaması kütləvi şəkildə bankların lisenziyalarının ləğvinə gətirib çıxarır. Kapital, əmək, torpaq və sahibkarlığın cəmi əsas istehsal amillərini təşkil edir və cəmiyyətin inkişafını təmin edir. Lakin, iqtisadi cəhətdən bu maddə capital kimi yalnız o halda qəbul edilə bilər ki, sahibkar üçün gəlir əldə etmək imkanı versin və ilkin dəyərini bərpa etmiş olsun..

Ölçüsü baxımından bankın öz vəsaiti və kapitalı qeyri-bərabərdir. Kapitalın hesablanması zamanı bankın ehtiyat və fondlarının bir hissəsi nəzərə alınmır, çünki bir tərəfdən riskləri minimuma endirmək üçün yaradılmış ehtiyatlar daimi xarakter daşıyır və onların dəyəri daim dəyişir, digər tərəfdən isə onların tam həcmdə bankın kapitalına daxil edilməsi müəyyən edilmiş meyarlara cavab vermir. Kommersiya bankının kapitalının strukturunun təhlili göstərir ki, onun əsas hissəsini nizamnamə və ehtiyat kapitalı və emissiya gəlirləri təşkil edir ki, onlar ümumi məbləğin 85%-dən çoxunu təşkil edir.

Bankın kapitalına daxil edilən digər vəsaitlərədaxildir: əmlakın yenidən qiymətləndirilməsindən daxil olan vəsaitlər, yığım fondu, əvvəlki dövrlərin və cari ilin bölüşdürülməmiş mənfəəti.

Kapitalın qiymətləndirilməsi zamanı şəxsi və borc kapitalının strukturu nəzərə alınmalıdır. Bu zaman şəxsi kapitalın az olması və borc kapitalından istifadə onun bankda formalaşmasının əsas xüsusiyyəti hesab edilə bilər. Çünki kapital, birincisi, zərərin öhdəsindən gəlmək və bankın ödəmə qabiliyyətini qorumaq üçün buferdir; ikincisi. maliyyə resursları bazarına girişi təmin edir və bankları likvidlik problemindən qoruyur; üçüncüsü, müştərilərin banka olan etibarını təmin edir və kreditorları bankın maliyyə gücünə inandırır (Bağırov,M.M., 2000, s.25).

Bank kapitalı anlayışına təkcə onun şəxsi və borc vəsaitlərini deyil, həmçinin bankın ödəməqabiliyyətliyinin qiymətləndirilməsində onun fəaliyyətinin spesifikliyini maksimum şəkildə ifadə edən kateqoriyalarl aid etmək lazımdır.

Əldə olunan nəticələr

Kommersiya banklarının kapitalının dəyərinin qiymətləndirilməsinə metodiki yanaşmanın mahiyyəti ümumi regional məhsulun həcmi nəzərə alınaraq yeddi mərhələdən ibarət olan kapitalın dəyərinin müəyyənləşdirilməsi prosesidir.

Birinci mərhələdə bankın kapital dəyərinin qiymətləndirilməsinin təkmilləşdirilməsi barədə tövsiyələrin təhlili üçün zəruri olan məlumatların toplanması və işlənməsi baş verir.

İkinci mərhələdə seçilmiş regionların təhlili aparılır, bunun üçün hər bir bölgənin ümumi məhsul istehsalının həcmi və onun ÜDM-nin respublika həcmində payı bankın kapitalının dəyərinin tənzimlənməsi üçün əsas götürülür.

Üçüncü mərhələdə regional dairələr ümumi daxili məhsulun həcminə və respublikanın bütün subyektləri üçün ümumi məhsuldakı payına görə tipoloji qruplara bölünür.

Dördüncü mərhələdə, ölkə miqyasında regionların reytinqi qurulur, bu müddət ərzində istehsal olunan ümumi regional məhsulun payından asılı olaraq hər bir bölgəyə 0-dan 100-ə qədər dərəcə verilir.

Beşinci mərhələdə yerləşdiyi regionun xüsusiyyətindən asılı olaraq və seçilmiş reytinq şkalasına uyğun olaraq kommersiya bankına təyin edilmiş regional əmsalı hesablanır.

Altıncı mərhələdə kommersiya bankının kapitalının həcmi müəyyən edilir.

Yekun

Yeddinci mərhələdə kommersiya bankının kapital dəyərinin nəticə smetasına bankın yerləşdiyi regionun əldə edilmiş iqtisadi inkişaf səviyyəsini əks etdirən əvvəllər hesablanmış ÜDM əmsalı ilə düzəliş edilir.

Müzakirə

Bankın kapitalının minimum məbləğinin tənzimlənməsi onun regionun iqtisadi xüsusiyyətlərinə uyğun olaraq adekvatlığını qiymətləndirməyə kömək edəcəkdir. Bu da bəzi banklara azad olmuş resurslardan əlavə mənfəət əldə etmək, digərlərinə isə maliyyə ehtiyatlarını və öz kapitalının həcmini artırmaq üçün istifadə etməyə imkan verəcək. Və müəllif metodikasından istifadə nəticəsində alınan kredit təşkilatlarının reytinqləri onların kommersiya fəaliyyətinin səmərəliyini artırmaq üçün maliyyə-iqtisadi tədbirlər kompleksinin işlənib hazırlanmasına kömək edəcəkdir.

ƏDƏBİYYAT

1. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu (16 yanvar 2004-cü il)
2. Banklarda Korporativ idarəetmə standartlarının tətbiqi Qaydaları // Azərbaycan Respublikasının Mərkəzi Bankı, Bakı, 03 noyabr 2004-cü il
3. Banklarda Korporativ idarəetmə standartları. Mərkəzi bank, 3 iyun 2013-cü il
4. Abdullayev Ş.Ə. Bankların resursları və onların idarəolunması sistemləri / Abdullayev Ş.Ə.-Bakı: 2008. Çaşıoğlu, 188 s.
5. Bağırov M.M. Müasir iqtisadi şəraitdə bankların inkişaf meylləri // Bakı: 2000. Odlar Yurdu Universitetinin elmi-pedoqoji xəbərlər jurnalı
6. Bəşirov R. Bank işi. Dərslik / Bəşirov R. – Bakı: 2016, MBM, 392 s.

SUMMARY

Fidan Sadigova

METHODS OF EVALUATİNG THE VALUE OF CAPİTAL OF COMMERCİAL BANKS

In the article, firstly, the role of banks in economic development in the conditioms of the market economy, the features of bank capital formation are defined. After that the criteria for assessing the value of bank capital were determined. Then, the impact characteristics of the assessment on various areas of the economy were analyzed.At the end of the article? The sequence of the evaluation of bank capital is given? And as a result? İt is noted that this research can be used for the preparation of

financial and economic complex measures with the aim of increasing the efficiency of comission activity of banks.

Key words: *bank capital, solvency, banking sector, valuation*

FƏRAHİM MƏMMƏDOV
ferahimm35@gmail.com
Naxçıvan Dövlət Universiteti

YOL NƏQLİYYAT HADİSƏLƏRİ VƏ ONLARIN TƏSNİFATI

Yol nəqliyyat hadisələri təsnifatı, bu hadisələrin sürücülərin davranışı, yol və nəqliyyat təchizatının vəziyyəti və digər bir sıra faktorlardan asılı olaraq müxtəlif kateqoriyalarda yer ala bilər. Bu hadisələrə qarşı tədbirlər, nəqliyyat təhlükəsizliyini artırmaq və yol təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirilir. Hər bir YNH bir neçə səbəbdən baş verə bilər. Orta hesabla hər 100 YNH-yə 250 səbəb və amil düşür. Statistika məlumatları göstərir ki, YNH-nin əksəriyyəti obyektiv amillər üzündən baş verir. Eyni zamanda yol nəqliyyat hadisələri texniki problemlər, ətraf mühit şəraiti, yol infrastrukturu və idarəsizlik, yol təhlükəsizliyinə rəhbərlik edilməməsi və s. kimi bir çox fərqli səbəblərdən baş verir. Bu səbəblər və başqa bir sıra faktorlar birlikdə yol nəqliyyat hadisələrinin meydana gəlməsinə səbəb ola bilər. Təhlükəsiz sürüş tədbirləri, qaydalar və yol təhlükəsizliyi tədbirləri bu hadisələri azaltmağa və ya qarşısını almağa kömək edir.

Açar sözlər: *Yol nəqliyyat hadisələri, avtomobil, yol, sürücü, piyada*

Yol-nəqliyyat hadisələrinin təsnifatı

YNH-nin qeydiyyatını aparmaq və analiz etmək üçün onların vahid təsnifatını vermək vacibdir. Təsnifatı müxtəlif əlamətlərə görə aparırlar. Bunlar aşağıdakılardır.

- nəticənin ağırlığına görə;
- növünə və ya baş vermə mexanizminə görə;
- baş vermə yerinə görə və s.

Nəticənin ağırlığına görə YNH-ni üç qrupa bölürlər:

- ölümlə nəticələnən;
- insanların yaralanması ilə nəticələnən;
- ancaq maddi ziyanla nəticələnən.

Keçmiş SSRİ-də qəbul edilmiş məhkəmə-tibbi təsnifata görə insanların xəsarətləri üç qrupa bölünür: ağır, nisbətən yüngül və yüngül xəsarətlər.

YNH baş vermə mexanizminə görə aşağıdakı kimi təsnif olunurlar:

1. Nəqliyyat vasitələrinin toqquşması;
2. Nəqliyyat vasitələrinin (NV) aşması;
3. Maneənin vurulması;
4. Piyadaların vurulması;
5. Velosipedçinin vurulması;
6. Dayanmış NV-nin vurulması;
7. Canlı nəqliyyat vasitələrinin vurulması;
8. Mal-qaranın vurulması;
9. Sərnişinin yıxılması;
10. Digər hadisələr.

1. Digər ölkələrdə mövcud olan təsnifatların buna anoloji olmasına baxmayaraq, bir sıra fərqləri aydın görmək olar. Başqa təsnifatlar üçün xarakterik olan növə misal olaraq NV-nin yolun hərəkət hissəsindən çıxmasıdır. Belə növ YNH-yə elə hadisələr aid edilir ki, NV-nin hərəkət trayektoriyası qəfildən pozulur və o, yolun hüdudundan kənara çıxır. Ölkəmizdə belə YNH NV- nin aşmasına aid edilir (Tağızadə Ə.H və Bayramov R.P., 2002, 24-30).

Baş vermə yerinə görə hadisələr aşağıdakı kimi təsnif olunurlar:

- respublika, diyar və vilayət mərkəzlərində baş vermiş YNH;
- digər şəhərlərdə baş vermiş YNH;
- ümumdövlət əhəmiyyətli yollarda baş vermiş YNH;
- vilayət əhəmiyyətli yollarda baş vermiş YNH;
- respublika əhəmiyyətli yollarda baş vermiş YNH;
- rayon, inzibati, təsərrüfatdaxili əhəmiyyətli yollarda baş vermiş YNH;
- digər yerlərdə baş vermiş YNH.

Yol-nəqliyyat hadisələrinin baş vermə səbəbləri.

YNH-nin öyrənilməsində ən çətin, həm də tam öyrənilməyən məsələ onların baş vermə səbəblərinin müəyyən edilməsidir. Qəzaların və xəsarətlərin sayı aşağıdakı əsas amillərlə düz mütənasibdir:

- şəhər əhalisinin sayı;
- şəhərlərdəki NV-nin sayı;
- nəqliyyat şəbəkəsinin ölçüləri;
- nəqliyyat vasitələrindən istifadə əmsalı;
- yolların vəziyyəti, onların avadanlıqları;
- NV-nin texniki vəziyyətləri və s.

YNH-nin səbəbləri iki əsas qrupa bölünürlər: subyektiv- sürücü, piyada və sərnişinlər, obyektiv yolun vəziyyəti, NV-nin texniki vəziyyəti, yolun işıqlandırılması, yerli şəraitlər, atmosfer şəraiti və s.

Sürücülərin təqsirindən baş verən hadisələr aşağıdakı səbəblərdən doğur:

- svetofor siqnalları və nişanların tələblərinə əməl etməmək;
- əsasən yol ayrıclarında, döngələrdə və maillikli yol sahələrində sürətin artırılması;
- ictimai sərnişin nəqliyyatının dayanacaq məntəqələri yanında hərəkət qaydalarının pozulması;
- avtomobili sərxoş vəziyyətdə idarə etmək;
- keçmə növbəliliyinin və ötmə qaydalarının pozulması;
- nasaz avtomobilin idarə olunması;
- pis hava şəraitində ehtiyatsız hərəkət etmək;
- avtomobillər arasındakı ara məsafəsinin düzgün seçilməməsi.

Sərnişinlərin günahı üzündən YNH aşağıdakı səbəblərdən baş verir:

- hərəkət edən NV-yə minmə və ondan düşmə;
- NV-nin çıxıntılı hissələri üzərində getmə;
- dayanmış NV-dən hərəkət hissəsinə düşmə.

YNH çox zaman ictimai sərnişin nəqliyyatı vasitələrinin aşağıdakı konstruktiv çatışmamazlıqları üzündən baş verir:

- qapıları avtomatik idarə edən quruluşun nasazlığı;
- çıxıntılı hissələrin olması;
- qapıların təkərlərdən əvvəldə yerləşməsi;
- NV-nin pis işıqlandırılması;
- qeyri-təkmil və nasaz tormoz sistemi;
- sürətin artırılmasını xəbər verən cihaz və quruluşların olmaması;
- digər səbəblər.

Statistika məlumatlarının analizi göstərir ki, YNH, əsasən, aşağıdakı səbəblər üzündən baş verir:

- sürətin artırılması;
- sürücünün diqqətsizliyi;
- yolun soluna çıxış və dayanacaq məntəqələrinin yanından ehtiyatsız keçmə;
- piyadaların yolu müəyyən edilməmiş yerdən və yaxınlaşan nəqliyyat vasitəsinin qabağından keçməsi;
- piyadanın yolun hərəkət hissəsi boyu getməsi;
- nəqliyyat vasitəsinin arxasından qəfildən yolun hərəkət hissəsinə çıxma;

- tormoz sistemi və sükan idarəsinin nasazlığı;
- yolun lazımi qədər işıqlandırılmaması və buzun olması;
- səkilərin olmaması və ya eninin kifayət qədər olmaması.

Qeyd olunduğu kimi, hər bir YNH bir neçə səbəbdən baş verə bilər. Orta hesabla hər 100 YNH-yə 250 səbəb və amil düşür. Statistika məlumatları göstərir ki, YNH-nin əksəriyyəti obyektiv amillər üzündən baş verir.

YNH-nin səbəblərinin düzgün müəyyən edilməsi sayəsində onların sayının azaldılması üçün daha səmərəli tədbirlər işləyib hazırlamaq olur.

Analiz göstərmişdir ki, şəhərlərin çoxunda baş vermiş hadisələrin əksəriyyəti NV-nin toqquşması, aşması, və piyadaların vurulmasıdır. Bu hadisələrin əsas səbəbi sürücülərin yol hərəkəti qaydalarına əməl etməməsidir.

Ən ağır nəticələrə malik YNH-nin sayını azaltmaq məqsədi ilə ən təhlükəli yerləri ləğv etdikdə belə bir məsələni aydınlaşdırmaq lazım gəlir: ocaqlardan hansının ağırlıq göstəricisi daha yüksəkdir.

Yol nəqliyyat hadisələrinin tədqiqatının nəticələri, həm təhlil olunan statistika və məlumatlar, həm də müxtəlif tədqiqat metodlarından əldə olunan analizlər əsasında formalaşa bilər. Bu tədqiqatların əsas məqsədi, yol təhlükəsizliyini artırmaq, qəza sayını azaltmaq və nəqliyyat sistemini təkmilləşdirməkdir. Nəqliyyat tədqiqatları zamanı əldə olunan bəzi əsas nəticələr isə aşağıdakıları əhatə edə bilər.

Əsas Qəza Səbəbləri: Tədqiqatlar, adətən yol qəzası səbəblərini təyin edir. Bu sürücü yorğunluğu, sürücüların narkotik və ya alkohol təsirində olması, maşın təchizatının təzyiqsizliyi, yol qurğularının və nəqliyyat nişanlarının problemləri və s. kimi faktorları əhatə edir.

Yol Təhlükəsizliyi Çatışmazlıqları: Tədqiqatlar, yol infrastrukturunun təhlükəsizlik səviyyəsini qiymətləndirərək, qəzaların və ciddi yaralanmaların önünə keçmək üçün lazımi dəyişiklikləri təklif edir.

Sürücü Tərbiyəsi və Təlimi: Araşdırmalar sürücülərin nəqliyyat qaydalarına uyğunluğunu və təhlükəsiz sürüş bacarığını müəyyənləşdirmək üçün lazımi tədbirləri təklif edir.

Təsirli Tədbirlər və Sistemlər: Nəqliyyat tədqiqatları, tətbiqi tədbirlər və təhlükəsizlik sistemləri kimi nəqliyyat sektorunun təkmilləşdirilməsi üçün təkliflər edilə bilər.

Yol təhlükəsizliyinin statistikası: Araşdırmalar adətən ərazidə müşahidə olunan yol qəzalarının və onların nəticələrinin statistikasını təyin edir. Bu müstəqil ölkələr və ya bölgələr arasında fərqlilikləri müqayisə etməyə imkan verir.

Əsasən, bu nəticələr nəqliyyat təhlükəsizliyini artırmağa və yolların daha təhlükəsiz olmasına nail olmağa kömək edir.

ƏDƏBİYYAT

1. Tağızadə Ə.H., Bayramov R.P. “Yol hərəkətinin təşkili və təhlükəsizliyi”. Dərslik. Bakı: 2002. Çaşıoğlu, 248 s.
2. Əliyev A.A., Vəliyev S.M., Nuriyev M.Ə. Avtomobil. İdarəetmə sistemləri. Metodik vəsait. Bakı: 2014, 109 s.
3. Əliyev A.A., Vəliyev S.M. Avtomobillərin konstruktiv təhlükəsizliyi. Dərs vəsaiti. Bakı: 2019. ADPU nəşriyyatı. 295 s.

SUMMARY

Farahim Mammadov

ROAD TRANSPORT INCIDENTS AND THEIR CLASSIFICATION

The classification of road traffic incidents, the management behavior of these incidents, the state of road and energy safety and other factors can be placed in certain ranks. Impacts against these events make it possible to ensure energy security and road safety. Each YNH can occur for several reasons. On average, there are 250 causes and factors for every 100 YNH. Statistics rule that YN occurs for objective reasons. At the same time, road infrastructure and management system, environmental conditions, road infrastructure and management, road safety monitoring, etc. It happens for many different reasons. These reasons and a number of other factors together can lead to road accidents. Safe actions, rules and road safety measures help to reduce or neutralize these incidents.

Key words: *Road traffic accidents, car, road, driver, pedestrian*

ELTUN İBRAHİMOV
ibrahimoveltun@ndu.edu.az
YADULLA ZEYNALOV
yzeyn4lov@gmail.com
Naxçıvan Dövlət Universiteti

ÖLKƏMİZDƏ SƏNAYE STRUKTURUNUN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Sənayenin sahə quruluşu olduqca dəyişkən və dinamik hesab edilir. Bütün ölkələrdə sənayenin quruluşunun formalaşması və təkmilləşməsinə çoxsaylı amillər təsir göstərməkdədir. Bu amillərin ortaya çıxarılması mövcud sənaye siyasətinin hərtərəfli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir.

Sənayenin sahə quruluşunun hansı səviyyədə optimallığının müəyyən olunması onun qarşısında olan tələblərə necə cavab verilməsindən asılı olmaqdadır. Hazırki qlobal rəqabətin mövcudluğu şəraitində ölkəmizin sənayesi iqtisadiyyatın inkişafını təmin edə biləcək imkanlara malik olmalıdır. Bunun üçün isə, o, beynəlxalq rəqabətə tab gətirəcək sahələrdən təşkil edilməlidir. Belə ki, sənaye mümkün olduqca geniş şaxələndirilmiş olmalı, bir-iki sahədən asılı olmamalıdır. Ölkə sənayesinə aid olan sahələr nə qədər çox rəqabətə davamlı məhsul ixrac etmiş olarsa, bu da öz növbəsində milli sərvətinin artırılmasına müsbət təsir göstərər. Belə ki, ixracı stimullaşdıran bu amil nəticədə tədiyə balansının artmasına töhvə vermiş olar. Sənayenin sahə quruluşu qlobal çağırışlara cavab verə bilməli, müasir dünyanın tələb etdiyi inkişaf meyllərinə tam uyğun olmalıdır

Məqalədə ölkəmizin iqtisadiyyatında sənaye strukturunun formalaşmasına təsir göstərən amillər araşdırılıb. Aparılan təhlillərdə sənaye sektorunun formalaşmasına təsir edən faktorlar göstərilməklə, onların iqtisadiyyatın və ixracın diversifikasiya olunması, eyni zamanda qeyri-neft sektorunun daha da canlandırılmasına təsirindən bəhs edilib. Ölkədə sənaye strukturunun təkmilləşdirilməsinə aşağıdakı amillərin təsiri araşdırılmışdır: təbii ehtiyatların mövcudluğu və resurs potensialı, cəmiyyətin sosial-iqtisadi, mədəni səviyyəsi və demoqrafik amillər, ölkənin investisiya və iqtisadi siyasəti, dövlət tənzimlənməsinin təsirləri, xarici ticarət əlaqələri, elmi-texniki amillər, infrastruktur amilləri, dünya bazarında gedən proseslər. Qeyd edilmişdir ki, bu amillərin birgə mövcudluğu və eyni vaxtda icrası sənayenin sahə strukturunun dahada təkmilləşməsində və dəyişilməsində ciddi təsiredici imkanlar yaradacaqdır.

Açar sözlər: *sənaye, rəqabət, qeyri-neft sektoru, mədənçıxarma sənayesi, emal sənayesi*

Giriş

Dünyanın əksər ölkələrinin iqtisadiyyatında sənaye əhalinin gəlirlərini təmin edən, daxili tələbatı qarşılayan və məşğulluq yaradan başlıca sahələrdən biridir. İstənilən ölkənin sənayesinin inkişaf səviyyəsi onun iqtisadi durumunu müəyyən edir. Məhz sənaye kompleksinin rəqabət qabiliyyətli olması ilə insanların həyat səviyyəsinin davamlı olaraq yaxşılaşdırılması və ölkə iqtisadiyyatının şaxələndirilməsi kimi strateji vəzifələrin öhdəsindən uğurla gəlmək mümkündür. Sənaye iqtisadiyyatında əsas məsələ mövcud sistemin işini başa düşmək, sonra isə sistemdə ortaya çıxan dəyişmələr nəticəsində yaranacaq təsirləri proqnozlaşdırmaqdır (3, s.6).

Məqsəd və metodlar

Araşdırmada əsas məqsəd sənayenin sahə quruluşunu təhlil etmək və bu istiqamətdə müəyyən olunmuş amilləri qiymətləndirməkdir. Müəyyən olunan məqsədə çatmaq istiqamətində isə əsas vəzifə ondan ibarətir ki, ortaya çıxan amilləri müəyyən etməklə sənayedə rəqabət qabiliyyətliliyin artırılmasına yönəldilən struktur tədbirlərin həyata keçirilməsi üçün təkliflər hazırlansın.

Tədqiqat prosesində iqtisadi analiz, müqayisəli təhlil və cədvəl metodlardan istifadə edilmişdir.

İşin əsas elmi nəticəsi kimi göstərilir ki, sənayenin düzgün təşkil edilməsi üçün ona təsir edən struktur amilləri ciddi öyrənilməlidir. Burada başqa bir məqam isə həm də ondan ibarətdir ki, bu amillərin eyni vaxtda mövcud olması sənaye strukturunun formalşaması üçün arzualounan məsələdir. Tədqiqatdan məlum olur ki, ölkəmizdə sənaye strukturunu təkmilləşdirmək və emal sənayesini investorlar üçün daha da cəlbedici etmək üçün investisiya mühitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülməlidir.

Sənayedə əsas struktur amilləri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə 2023-cü ildə ölkədə istehsal olunan ÜDM-da sənaye sektorunun payı təqribən 49760 milyon manat olmuşdur. Bu isə cəmi ÜDM-in 40,5%-i deməkdir. ÜDM-in sənaye sahələri üzrə istehsal olunan məhsulun 87,4%-i neft sektorunun, 12,6%-i qeyri-neft sahələrinin payına düşmüşdür. Bundan başqa, həmin ildə sənayedə istehsal olunan mallar və göstərilən xidmətlərin həcmi 66619 milyon manat həcmində olmuşdur. Bu da öz növbəsində bir il əvvəlki ilə nisbətən 1,1% azalma kimi qeydə alınmışdır.

Sənaye strukturunun formalaşmasına əsas aşağıdakı amillər təsir edir:

- Ölkəmizin əlverişli coğrafi mövqeyi və zəngin təbii sərvətlərinin mövcudluğu. Azərbaycanın zəngin neft-qaz ehtiyatları hər zaman onun iqtisadiyyatının inkişafında başlıca rol oynamışdır. Siyasi müstəqilliyi qazandıqdan sonra da iqtisadi-sosial inkişafı sürətləndirən, xaricdən valyuta gətirməyin əsasında neft-qaz sənayesi dayanmışdır. Mineral filiz və qeyri-filiz ehtiyatları müxtəlif sənaye sahələrinin formalaşmasına imkan yaratmışdır.

- Cəmiyyətin inkişaf səviyyəsi. İnsanların sayı, həyat səviyyəsi, qazandıqları gəlirlərin həcmi, milli-mənəvi dəyərlər, adət-ənənələr, dini və etnik xüsusiyyətlər, təhsil səviyyəsi və digər amillər onların zövqlərini,ortaya qoyduqları tələbin strukturunu və alıcılıq qabiliyyətini müəyyən edir. Bu da öz növbəsində onların iştirak etdikləri bazarların həcminə və quruluşuna təsirsiz qalmır. Beləliklə, də sənaye mallarına olan tələbatın artması və dəyişilməsi yeni sahələrinin meydana gəlməsinə, eyni zamanda isə köhnəlmiş və aktuallığını itirmiş sahələrin aradan getməsinə gətirib çıxarır.

- Xarici ticarət əlaqələri. İqtisadiyyatın, eyni zamanda sənayenin dünya iqtisadiyyatına inteqrasiya dərəcəsi sənayenin sahə quruluşuna da olduqca mühüm təsir göstərir. Ölkədə olan sənaye obyektlərinin tələbata cavab verən məhsul istehsal etməsi onların bir hissəsinin dünya bazarına çıxmasına şərait yaradır. Bu da mövcud sahələrin mövqeyini daha da gücləndirir. O müəssisələr ki, rəqabət qabiliyyətli məhsul buraxa bilmirlər, onlar yerli bazarlarda da gec-tez öz mövqelərini itirməli olacaqlar. Bu da həmin sənaye sektorlarının aradan çıxması ilə nəticələnəcəkdir.

- Dövlətin iqtisadi və investisiya siyasəti. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, böhranlar şəraitində iqtisadi inkişafın, əsasən də sənaye sahələrinin inkişafının təmin olunmasında dövlətin həyata keçirdiyi düzgün sənaye siyasətinin olduqca mühüm əhəmiyyəti vardır. Dövlət monopoliyanı aradan qaldırmaqla rəqabətli bazar mühitini təmin edir. Buna görə də xüsusi stimullar sistemi yaradır və kapitalın perspektiv inkişaf baxımından zəruri hesab etdiyi sahələrin xeyrinə işlər həyata keçirir. Bununla da sənayenin sahə strukturunda dəyişikliklər baş verir. Dövlət ərazilərdə sənaye sahələrinin və sənaye müəssisələrinin yaranmasında birbaşa və dolayı yollarla iştirak edir. Burada əsas məqsəd regional inkişafı təmin etməkdir. Sənayenin sahə quruluşunda baş verə biləcək və gözlənilən dəyişiklik müvafiq dövlət orqanlarının - komitə, nazirlik, idarə və elmi - tədqiqat institutlarının daim nəzarətində olmalıdır, bazar iqtisadiyyatına keçid həmin prosesin dövlət tənzimləməsini gücləndirməlidir (Hümbətov Y.Ə, 2018).

- Elmi-texniki amillər. Ölkədə və dünyada elm və texnika inkişaf etdikcə, yeni kəşflər və ixtiralar meydana çıxır. Məhsul və proses innovasiyaları həmişə yeni məhsullar, yeni proseslər meydana çıxarır. Bu da yeni sənaye sahələrinin yaranmasına səbəb olur. Sənayenin böyümə sürəti, gəlirlilik, rəqiblərin sayı və rəqabətin intensivliyi, məhsul, müştəri və təchizatçı xüsusiyyətləri, sənayedə istifadə olunan texnologiya və resurslar, sənayeyə giriş asanlığı, cəlbedicilik kimi amillər sənaye sektorunun təhlilində nəzərə alınır. Bu gün biz elmi və ya texnoloji inqilab partlayış adlanan yeni texnologiyalar dövründə yaşayırıq ki, bu da bilavasitə bütün iqtisadi sahələrə, istehsalın təşkilinə, yaradılan gəlirin bölüşdürülməsinə təsir göstərir. Son texnoloji nailiyyətlər əmək tutumlu

mexanikləşdirmə dövrünü geridə qoyaraq kapital tutumlu mexanikləşdirmə sistemləri dövrünü artıq başlatmışdır.

- İnfrastruktur amillər. Buna həm də istehsal və bazar amilləri aiddir. Elektrik, su, qaz, nəqliyyat, rabitə və kommunikasiya sistemləri ölkə boyu istehsal infrastrukturunun əsas hissəsi hesab olunur. Bu infrastrukturun mövcud vəziyyəti və təminat səviyyəsi sənaye müəssisələrinin xərclərinin səviyyəsinə birbaşa təsir göstərir. Bu da yeni sənaye sahələrinin yaranmasına və mövcud sektorların daha da təkmilləşməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda, ərazilərdə bank, sığorta, maliyyə və digər xidmətlərin təşkil olunması və yayılma dərəcəsi də orada yerləşən müəssisələrin fəaliyyətlərinin qurulması ilə bağlı qərarların qəbul edilməsində həlledici rola malikdir.

- Dünya sənayesində gedən proseslər. Hazırda qloballaşmanın tələblərinə uyğun olaraq dünya sənayesi də sürətlə dəyişməkdədir. Artıq rəqəmsallaşma sənaye istehsalında da kütləvi şəkildə avtomatlaşdırılma və robotlaşdırılmanı təmin edir. Dünya 4-cü sənaye inqilabı dövrünü yaşamaqdadır. Bütün bunlara bağlı olaraq isə ölkəmizin sənayesinin strukturu baş verən bu cür proseslərin təsirləri altında formalaşır.

Ölkəmizdə bütün dövrlərdə sənaye istehsalında əsas yer mədənçıxarma sənayesinin payına düşmüşdür. Sənayenin qeyri-neft sektorunda iqtisadi fəaliyyət növlərinə görə göstəricilər aşağıdakı cədvəldə əks edilmişdir:

Cədvəl

Sənayenin qeyri-dövlət sektorunun strukturu (yekuna nisbətən, faizlə)

Göstəricilər	2000	2005	2010	2015	2020	2021	2022
Bütün sənaye	100,0	100,0	100,0	100,0	100,0	100,0	100,0
Mədənçıxarma sənayesi	56,1	71,4	85,6	75,6	70,7	76,3	83,8
Emal sənayesi	43,7	27,6	14,0	24,1	28,8	23,2	15,8
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	0,1	0,8	0,2	0,0	0,2	0,2	0,2
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	0,1	0,2	0,2	0,3	0,3	0,3	0,2

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi

Göstərilən məlumatlar 2000-ci ildən başlayaraq hər 5 ildən bir dövrü əhatə edir. Göründüyü kimi bütün sənayenin strukuturunda mədənçıxarma daha yüksək çəkiyə malikdir. Mədənçıxarma və emal sənayesi üzrə ən ciddi fərq 2005-ci ildən başlayaraq davam etmişdir. Belə demək olar ki, emal sənayesi nə daxili investisiya siyasətində prioritet istiqamət olmuş, nə də xarici investisiyalar baxımından cəlbedici olmuşdur.

Ölkədə emal sənaye sahələrində əsas məhsul istehsalı aşağıdakılardır:

Qida məhsullarının istehsalı, içki istehsalı, tütün məmulatlarının istehsalı, geyim istehsalı, toxuculuq sənayesi, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı, kağız və karton istehsalı, poliqrafiya məhsullarının istehsalı, ağacın emalı və ağacdan məmulatların istehsalı, kimya sənayesi, əczaçılıq məhsullarının istehsalı, neft məhsullarının istehsalı, rezin və plastik kütlə məmulatlarının istehsalı, Metallurgiya sənayesi, tikinti materiallarının istehsalı, hazır metal məmulatlarının istehsalı, elektrik avadanlıqlarının istehsalı, kompüter, elektron və optik məhsulların istehsalı, avtomobil, qoşqu və yarımqoşquların istehsalı, maşın və avadanlıqların istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri, sair nəqliyyat vasitələrinin istehsalı. Bu sahələr ürə ən yuxarı çəki isə qida və içki məhsulları istehsalının üzərinə düşmüşdür. (www.stat.gov.az/).

Mədənçıxarma sənayesində isə, əsas yeri xam neft və təbii qaz hasilatı, metal filiz hasilatı və digər sahələr tutur.

Sənayedə struktur təkmilləşdirilmələrin aparılması, emal sənayesini yerli və xarici iş adamları üçün cəlbedici etmək məqsədilə ölkədə investisiya mühitinin yaxşılaşdırılması yönündə əsaslı islahatların aparılması zərurəti vardır. Bu təkcə həmin sektorlara ediləcək güzəştlərin və subsidiyaların genişləndirilməsini deyil, həm də digər önəmli məsələləri nəzərdə tutur.

Ölkəmizdə emal sənayesinin müxtəlif sektorlarında yeni istehsal güclərinin meydana çıxarılması baxımından geniş imkanlar mövcuddur. Sənayenin diversifikasiyasını sürətləndirmək üçün, yerli xammala bağlı rəqabətyönümlü ağır sənaye istehsalının genişləndirilməsi olduqca mühümdür.

ƏDƏBİYYAT

1. Hümbətov Y.Ə. Sənayenin təşkili və idarə edilməsi. Bakı: 2018, Avropa, 356 s.
2. Rüstəmova G.R. Sənaye müəssisələrinin iqtisadi potensialı // SDU **"**Elmi Xəbərlər**"** - sosial və humanitar elmlər bölməsi, № 4, Cild 13, 2017, s.74-76
3. Sanayi Ekonomisi. (Prof.Dr. Mustafa Özer və Doç.Dr. Meltem Erdoğanın redaktorluğu ilə). Anadolu Universiteti, 2014, 210 s.
4. Azərbaycan Dövlət Statistika Komitəsi rəsmi internet səhifəsi. https://www.stat.gov.az/

SUMMARY

Eltun Ibrahimov, Yadulla Zeynalov

FOR THE FORMATION OF INDUSTRIAL STRUCTURE IN OUR COUNTRY INFLUENCING FACTORS

It is considered that the structure of the industry is quite variable and dynamic. Many factors affect the formation and development of industrial structure in all countries. Revealing these factors is of particular importance in terms of the overall development of current industrial policy.

The optimality of the field establishment of the industry depends on how it responds to the demands facing it. Under the current conditions of global competition, our country's industry must have the means to ensure the development of the economy. For this reason, it should be composed of areas compatible with international competition. Therefore, the industry should be structured as widely as possible and should not be limited to one or two areas. The more the regions belonging to the country's industry constantly export products to the competition, this will also have a positive effect on increasing the national wealth. So, this factor that stimulates exports will ultimately contribute to the increase in the balance of payments. The field structure of the industry must be able to respond to global challenges and fully correspond to the development trends required by the modern world.

In the article, the factors affecting the formation of the industrial structure in our country are examined. The factors affecting the formation of the industrial sector are indicated, and their impact on the diversification of the economy and exports, as well as the further revitalization of the non-oil sector, is discussed. The following factors affecting the improvement of the industrial structure are analyzed: the availability of natural resources and resource potential, the socio-economic, cultural level and demographic factors of the society, the investment and economic policy of the country, the effects of state regulation, foreign trade relations, scientific and technical factors, infrastructure factors, the world market processes. İt is also noted that the coexistence and simultaneous implementation of these factors will create significant opportunities for further improvement and change of the field structure of the industry.

***Key words**: industry, competition, non-oil sector, mining industry, processing industry*

MİRCƏBRAYIL MUSTAFAYEV
mustafayevmircbrayil@gmail.com
Bakı Dövlət Universiteti

XARİCİ TİCARƏTDƏ GÖMRÜK-TARİF TƏNZİMLƏNMƏSİ VƏ ONUN HÜQUQİ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ ƏHƏMİYYƏTİ

Xarici ticarətin gömrük-tarif tənzimlənməsinin ən əsas cəhətlərindən biri, onun daim olaraq yenilənməsinin və təkmilləşdirilməsinin vacibliyi və eyni zamanda elm sahəsi kimi praktikada və metodologiyada mühüm əhəmiyyət kəsb etməsidir. Müasir dövrdə bir çox dünya dövlətlərinin qarşısında duran ən önəmli məqsəd dünyaın iqtisadi prosesinə inteqrasiya olmaq, dünya ticarətində yer tuta bilmək, onun aktiv iştirakçılarından olmaq və bu prosesin faydalarından əlverişli şəkildə istifadə etməkdir. Ölkələr arasında yaranan iqtisadi əlaqələrin fonunda, yaranan bir çox problemlərin həlli üçün, onun müxtəlif yollarla tənzim edilməsinin vacibliyini, bu sistemdə normativ-hüquqi bazanın təkmilləşdirilməsinin önəmli olmasını göstərir.

Açar sözlər: *gömrük, normativ-hüquqi akt, idxal, ixrac, iqtisadiyyat*

Bildiyimiz kimi, dövlətin xarici iqtisadi və ticari fəaliyyəti, birbaşa onun cəmiyyətin sosial rifahına və insanların həyat və yaşayış şəraitinə təsir edən vacib məqamlardan biridir.Xarici iqtisadi fəaliyyət cəmiyyətin həyat şəraitini artıra və eyni zamanda azalda bilər.Bu prosesin ölkənin iqtisadiyyatına, maraqlarına pozitiv təsiri o zaman baş veririk, bu fəaliyyət dövlət tərəfindən düzgün və ciddi şəkildə diqqətə alınmaqla və daxili bazar mühitini qorumaqla ölkənin ixrac prosesini inkişaf etdirsin, onun potensialını artırsın və ixraca münasib bir çox sahələrin düzgün inkişafına və tərəqqisinə yol açsın.Dövlət tərəfindən iqtisadi fəaliyyətin və xüsusi ilə xarici iqtisadi fəaliyyətin tənzim olunması, tənzimlənməsi, dünya praktikasında rast gəlinən bir fəaliyyət növüdür.Bu fəaliyyətin, prosesin vəzifələri, məqsədləri, missiyası isə həmin ölkənin iqtisadi vəziyyətinə, dünya ölkələri arasında iqtisadi mövqeyinə və roluna, xarici siyasətinə görə müəyyənləşdirilir.Bütün bu nüanslar, bu mövzunun dünya üzərində aktual və eyni zamanda diqqət yetirilməsi vacib olan bir sahə olmasına gətirib çıxarır (Əliyev, 2002).

Xarici ticarətin tənzimlənməsinin ən ənənəvi metodlarından biri gömrük-tarif tənzimlənməsidir.Gömrük-tarif tənzimlənməsinin ən əsas məqsədi, ayrı-ayrı sahələrin xarici təhlükədən qorunması və eyni zamanda daxili bazarın üstünlüyünün təşkil edilməsidir.Bu səbəblə bu prosesin hüquqi təminatının təkmilləşdirilməsi istər Azərbaycan və istərdəsə Azərbaycan kimi keçid iqtisadiyyatı dövrünü yaşayan ölkələr üçün zəruridir (Məhərrəmov, Aslanov, 2008).

Gömrük-tarif münasibətləri ölkəmizin milli iqitisadiyyatın inkişafında önəmli hissələrdən biridir, çünki gömrük-tarif münasibətlərinin inkişafı birbaşa özü-özlüyündə milli iqtisadiyyatın inkişafına təkan verir.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün gömrük-tarif sistemindən istifadə və onun hüquqi təminatının təkmilləşdirilməsi dedikdə, bu tədqiqatın ən əsas predmeti, onun hüquqi mexanizminin, hüquqi bazasının və eyni zamanda tənzimlənmə fəaliyyəti zamanı beynəlxalq hüququn rolunu müəyyənləşdirməkdir.

Normativ hüquqi aktların tətbiqi istənilən sahədə vacib rol oynayır və eyni zamanda, məcburi davranış qaydalarının tətbiqi ilə, istər iqtisadiyyat və istərsədə digər proseslərin davamlılığına, səmərəliliyinə və inkişafına yol açır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, azad gömrük siyasətini aparmaq üçün, lazım olan məcəllə və qanunvericiliklə bağlı aktlar işlənib-hazırlandı.Azərbaycan müstəqillik əldə edənə qədər, yəni 1991-ci ilə qədər, Azərbaycanda gömrük fəaliyyəti SSRİ-nin qanunvericiliyi ilə tənzimlənirdi.1991-ci ildən sonra, Azərbaycan müstəqilliyini elan etdikdən sonra, istər gömrük, istərsədə digər sahələrlə bağlı qanun vericiliklər hazırlandı. Bununla da Azərbaycan gömrük-tarif

tənzimlənməsi zamanı, yalnız öz iqtisadi maraqlarına xidmət etməyə başladı.Bütün bu fəaliyyətin əsasını Azərbaycanın iqtisadi təhlükəsizliyini təmin etmək və xarici-iqtisadi fəaliyyətinin suverenliyinə nail olmaq təşkil edir (Əliyeva Ə.Ə, 2013, 154).

Biz gömrük qanunvericiliyi sistemi barədə danışdığımız zaman, onu qeyd etməliyikki, bu sahədə yaranan bir çox münasibətlərin tənzimlənməsi, aşağıdakı normalar sistemi vasitəsi ilə baş verir:

- Azərbaycan Respublikasının Konstitusiyası
- Beynəlxalq hüquqi aktlar
- Qanunlar (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, "Gömrük tarifi haqqında " Azərbaycan Respublikasının Qanunu və s.)
- Qanun qüvvəli aktlar (Azərbaycan Respublikasının Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarları, Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin normativ-hüquqi aktları və s.). (Əliyeva Ə.Ə, 2013, s.154).

Gömrük-tarif tənzimlənməsi və onun hüquqi-təminatının təkmilləşdirilməsi dedikdə, aşağıda yazılan bəzi nüanslar müəyyən edilmişdir:

- İqtisadiyyat sahəsində aparılan siyasətdə gömrük siyasətinin rolunu müəyyənləşdirmək;
- Gömrük-tarif tənzimlənməsinin əsas tariflərini və eyni zamanda əsas istiqamətlərini müəyyənləşdirmək;
- Azərbaycanın xarici ticarətinin və xarici iqtisadi fəaliyyətinin müasir vəziyyətini araşdırmaq;
- Bu sahənin hüquqi bazasının inkişafı yolların müəyyənləşdirmək;
- Azərbaycan Respublikasının gömrük-tarif sahəsindəki fəaliyyətin və onun hüquqi təminatının təkmilləşdirilmə istiqamətlərini müəyyənləşdirmək;
- Gömrük-tarif sahəsindəki normativ –hüquqi bazanın daim inkişafına və yenilənməsinə şərait yaratmaq;

Tədqiqatın aparılmasının əsas məqsədi, gömrük-tarif tənzimlənməsinin hüquqi bazasının və eyni zamanda hüquqi mexanizmasının analizini aparmaq, bununlada hüquqi təminatın müasir vəziyyətini, onun mühüm problemlərini ortaya qoymaq və eyni zamanda Azərbaycanın xarici iqtisadi fəaliyyətinin hüquqi bazasının artılırması yolunda dövlətin fəaliyyətini müəyyənləşdirməkdir.

Xarici ticarətin gömrük-tarif tənzimlənməsinin hüquqi təminatının təkmilləşdirilməsi istər Azərbaycan və istərsədə Azərbaycan kimi keçid iqtisadiyyatı yaşayan ölkələrdə vacib amil rol oynayır və o nəzəri, metedoloji və praktiki cəhətdən mühüm əhəmiyyət kəsb edir.Müasir dövrdə Azərbaycan Respublikasının qarşısının qarşısında, dünya iqtisadiyyatına inteqrasiya etmək və bunun əlçatan olması üçün onun, istər milli və istərsədə beynəlxalq hüquqi bazasının təkmilləşdirilməsi fəaliyyəti dayanır.Azərbaycan Respublikasında gömrük-tarif siyasəinin hüquqi tənzimlənməsi, müxtəlif aktlardan ibarət olmaqla vahid sistemi təşkil edir.Bu sahənin hüquqi bazasının daim təkmilləşdirilməsi və qanunvericilik sistemində yaranan problemlərin həlli, həm gömrük-tarif fəaliyyəti, həm də digər sahələr baxımından daha əlverişli olardı.

ƏDƏBİYYAT

1. Heydərov K.F. "Gömrük işinin əsasları və gömrük işinin təşkili", Bakı: 2000
2. Hacıyev Ş.H., Bayramov Ə.İ., Beynəlxalq iqtisadiyyat, Bakı: 2000
3. Məhərrəmov A.M., Aslanov H.H. "Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi". Bakı: 2008, 399 s.
4. Əliyev A.Ə. "Gömrük işi və dünya iqtisadiyyatının inkişafı". Bakı: 2002, 236 s.
5. Əliyeva Ə.Ə. " Gömrük-tarif tənzimlənməsi: Maliyyə-Hüquqi Aspektlər". Bakı: 2013, 154 s.

SUMMARY

Mirjabrayil Mustafayev

CUSTOMS-TARIFF REGULATION IN FOREIGN TRADE AND THE IMPORTANCE OF IMPROVING ITS LEGAL SECURITY

One of the main functions of the regulation of custom-tariff of foreign trade is the importance of his update and improve of him and at the same time, playing an important role in metodology and practice. In modern period, the main goal in front of the many of world countries is integrate to economical process of world, placed in world trade, being the active paricipant of him and using the profits of this process conveniently.This shows the importance of regulation with different ways and improving the normative-legal basis for solving of different problems of economical relations between countries.

Key words: *custom, normative legal base, import, export, economy*

ŞİRƏLİ ƏLİYEV
sirelialiyev15@gmail.com.
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN VƏ TÜRKİYƏNİN XARİCİ TİCARƏTİNİN İNKİŞAFI

Bu məqalədə Azərbaycan ilə Türkiyə arasında 1995-2015-ci illərdə xarici ticarətin inkişafı ümumi və fəsil əsasında araşdırılmışdır. Metod olaraq iki ölkə arasındakı xarici ticarətin ölçüləri; Xarici ticarət statistikası və hesablanmış xarici ticarət konsentrasiyası indekslərindən istifadə edilmişdir. Bu inkişaflara əsaslanaraq, tərəflər arasında ticarətin gedişatını və miqyasını beynəlxalq ticarəti izah edən nəzəriyyələr istiqamətində inkişaf etdirmək və bu baxımdan iki ölkə arasında xarici ticarətin gələcək dövrlərdə necə formalaşacağını ortaya çıxarmaq məqsədəuyğundur. Məqalədə xarici ticarəti daha da inkişaf etdirə biləcək bəzi təkliflər irəli sürülüb.

Açar sözlər: *Azərbaycan iqtisadiyyatı, Türkiyə iqtisadiyyatı, xarici ticarət, ticarət konsentrasiyası indeksləri*

Giriş

1991-ci ildə Sovet İttifaqının dağılması ilə Türkiyə Azərbaycanı tanıyan ilk ölkə olub və o vaxtdan sosial, siyasi və iqtisadi əməkdaşlıq başlayıb. Azərbaycan neft və təbii qaz kimi təbii sərvətlərə malik olduğu halda, Türkiyə isə sənayeləşmə yolunda texniki bilikləri və təcrübələri ilə Azərbaycan və digər qardaş ölkələr üçün lider mövqedə olan böyük qardaş ölkədir. 1991-ci ildən etibarən uzun illər istismara məruz qalan bu ölkələrin öz resurslarını idarə etmələri və planlı iqtisadiyyatdan azad bazar iqtisadiyyatına keçid istiqamətində addımlar atmağın vaxtı çatmışdı. Sovet sisteminin o vaxta qədər yaratdığı planlı inkişaflar struktur ölkələrə rəqabət aparmağa və təkbaşına istehsal etməyə imkan vermirdi. Bundan əlavə, istehsal texnologiyalarından xeyli geri qalan bu ölkələrdə istehsalda səmərəlilik demək olar ki, cüzi səviyyədə idi.

1991-ci ildən sonra Türkiyə həm Azərbaycan, həm də digər Orta Asiya Türk Cümhuriyyətləri ilə xüsusi iqtisadi əlaqələr qurmağa başladı. İqtisadi və ticarət əlaqələri ilə yanaşı, rabitə və nəqliyyat kimi sahələrdə də öncül mövqe tutaraq, onların dünya iqtisadiyyatlarına inteqrasiyasına şərait yaradıb.

2005-ci ildə fəaliyyətə başlayan Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsi ilə Azərbaycan nefti birbaşa beynəlxalq bazarlara açıldı və Türkiyə bu nöqtədə mühüm körpü oldu. Bundan əlavə, Şahdəniz Layihəsi ilə Türkmənistanın təbii qazı Türkiyə vasitəsilə dünya enerji bazarına açıldı. Enerji ticarəti Türkiyə ilə Azərbaycan arasında xarici ticarətin əhəmiyyətli bir hissəsini təşkil edir. 2006-cı ildə Türkiyə Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri ilə Cənubi Qafqaz təbii qazını idxal etməyə başladı. İki ölkə arasında təbii qaz və neft ticarəti təbii ehtiyatların bolluğu və zənginliyi nəzəriyyəsinə əsaslanan xarici ticarətdir.

- 10 aprel 2014-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublika-sının Nazirlər Kabinetinə 5,0 (beş) milyon manat (7);
- 2 dekabr 2015-ci il tarixdə Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında imzaladığı Sərəncamla Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 7,0 (yeddi) milyon manat (6);
- 12 yanvar 2017-ci il tarixdə imzaladığı Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Sərəncamla isə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 5,0 (beş) milyon manat ayrılmışdır (5) və s.

Yuxarıda bəhs olunan hüquqi tənzimləmələr bir daha təsdiq edir ki, ölkənin milli iqtisadi quruculuq proseslərində regional iqtisadi inkişaf mühüm aktuallıq kəsb edir və burada Naxçıvan Muxtar Respublikasının yeri, rolu və mövqeyi nəzərə alınmaqdadır. Muxtar respublikanın özünün də regional iqtisadi siyasətə malik oldğunu nəzərə alsaq, onu deməyə əsasımız olur ki, burada, ölkənin milli iqtisadiyyatı üçün zəruri mexanizmlərdən birini təşkil edən məsələlərdən biri olaraq, maliyyə resurslarına çıxış imkanlarının daha da yaxşılaşdırılması məsələləri diqqət mərkəzində saxlanılmış və bu, daha çox, bank sektorunun tənzimlənməsi proseslərinə elmi yanaşmanın da əsaslarını özündə birləşdirməkdədir.

Bəhs olunan məsələlərin aktuallığının daha da artırılması nəticəsində, muxtar respublikada regional inkişaf üzrə Dövlət proqramlarının icrası nəticəsində və digər bu kimi həyata keçirilmiş olan tədbirlər nəticəsində 2004-2022-ci illər ərzində makroiqtisadi inkişafda dinamik iqtisadi artım təmin olunmuşdur. Bunu, şəkil 1-in məlumatlarında görmək olar:

Şəkil 1

2004-2022-ci illər ərzində Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf göstəriciləri (dəfə)



Statistik göstəricilər əsasında (8) aparmış olduğumuz təhlillər nəticəsində aydın olur ki, Naxçıvan Muxtar Respublikasında makroiqtisadi inkişafın etibarlılığı təmin olunmuşdur. Bütün bunlar, eyni zamanda, dayanıqlı bank sektorunun tənzimlənməsi sayəsində mümkün olmuşdur. Banklar, ölkələrin milli iqtisadiyyatı üçün iqtisadi-istehsal münasibətlərinin hərəkətverici qüvvəsinə çevrilməklə, həmin proseslərin səmərəli yöndə qərarlaşmasına təminat verməkdədir. Bir sözlə, bank sektorunun inkişafı, dayanıqlı maliyyə siyasətinin əsasını təşkil etməkdədir. Bunu şəkil 2-nin məlumatlarında görmək olar.

Şəkil 2

Makroiqtisadi siyasi tənzimlənmədə maliyyə siyasətinin yerinə yetirmiş olduğu funksiyalar

Respublikanın maliyyə və iqtisadi sisteminin ümumi kurs hədəflərinin müəyyənləşdirilməsi
Beynəlxalq maliyyə-kredit institutları ilə münasibətlər və maliiyə proqramlarının
Pul kredit siyasətinin xarakterizalarının digər parametrlərlə qarşılıqlı şəkildə əlaqələndirilməsi
Mövcud qanunlar çərçivəsində büdcə və büdcədənkənar fondların formalaşdırılması
Borc mexanizmlərinin tənzimlənməsi
Vergi qanunvericiliyi və vergi siyasəti ilə pul axınlarının idarə olunması
Büdcə kəsrinin strukturunun tənzimlənməsi

Bütün iqtisadi mərhələlər üzrə banklar milli iqtisadiyyat üçün lokomotiv rolunu oynamaqdadır. İqtisadi inkişafın hazırkı mərhələsində, daha doğrusu, yeni bazar iqtisadi qanunları mühitində banklar ölkələrin milli iqtisadiyyatları üçün bir növ iqtsadi körpü funksiyalarını yerinə yetirmiş olurlar. Daha doğrusu, hər zaman bütün sferalarla qarşılıqlı bağlılıqda olan banklar məcmu iqtisadi idarəetmədə koordinasiyaedici olaraq təmsil olunaraq, həmin körpü vəzifəsini həyata keçirməkdədir. Məhz bu mənada da, milli iqtisadiyyatlarda bankların təmsil olunmasını səmərəli olaraq, formalaşdırmaq və kredit mexanizmlərinin həyata keçirilməsini mümkün etmək zəruri prioritet sahələrdən biri olmalıdır. Real bölmədə göstəricilərin pozitiv olaraq, dəyişməsi maliyyə-kredit strukturlarının iş prinsiplərinə təsiri olduqca zəruri amil olaraq qəbul olunur. Açıqlamalardan aydın olur ki, bankların fəaliyyətinə eyni zamanda, bir sıra amillər də təsir edir ki, bunu da, şəkil 3. məlumatlarında görmək olar.

Şəkil 3

Bankların fəaliyyətinə təsir göstərən beynəlxalq, makro-iqtisadi və bank daxili mühitə aid amillər

Beynəlxalq bazarların mövcud olması və bankların həmin bazarlara çıxış imkanlar vasitəsi ilə kreditlərin cəlb olunması, xarici sərmayənin cəlb olunması və beynəlxalq birjalarda qiymətli kağızlar, səhmlərin buraxılması üsülu ilə öz daxili kapital ehtiyyatlarını artırmağa şərait yaradır.

Bankların kadr siyasəti və korporativ idarəetmə informasiya texnologiya sistemi və strategiyaları yüksək səviyyədə təşkil edilməsi banklar üçün əsas prinsip şərtləridir.

Makroiqtisadi şəraitin dayanıqlı formada olması, əlverişli bazar şəraitinin yaradılması biznesin inkişafı bank sektoru üçün əvəzolunmaz bir mühit formalaşdırır. Eləcədə, məhkəmə-hüquq sistemin boşluqların olmaması və bürokratik əngəllərin yoxluğu makroiqtisadi sistemi güclü olması üçün vacib amil sayılır

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral 2014-cü il tarixdə ölkə başçısı tərəfindən təsdiq olunub
2. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral 2014-cü il tarixdə ölkə başçısı tərəfindən təsdiq olunub
3. Qasımov C.Y. (2020). Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı regional Dövlət proqramlarının icrası müstəvisində (2004-2018-ci illər). Dərs vəsaiti. Naxçıvan: Əcəmi
4. Qasımov C.Y., Ələsgərova F.Q. (2017). Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik. Dərs vəsaiti. Naxçıvan: Əcəmi
5. http://www.president.az/articles/22463
6. http://president.az/articles/11381?locale=en
7. http://www.president.az/articles/5013
8. http://www.statistika.nmr.az/

SUMMARY

Asef Garibov, Amin Fərzəliyev

ISSUES OF THE IMPACT OF THE BANKING SECTOR ON THE SUSTAINABLE ECONOMIC DEVELOPMENT OF THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC

In the article, the scientific and theoretical nature of the importance of financial resources in the sustainable socio-economic development of the Nakhchivan Autonomous Republic was discussed, and its social sustainability perspectives were discussed. It was noted that the purposeful economic reforms in our country accelerated the role of the Nakhchivan Autonomous Republic in the processes of national economic development and made it even more productive, like all economic regions of the country. As a result of the successful industrialization policy since 2011, the creation of 7 Industrial Parks and 5 Industrial Districts in the regions has become the driving force of the mentioned processes. One of those Industrial Districts will be established on September 13, 2019 in the Nakhchivan Autonomous Republic, as well as measures are being taken to regulate the activities of the Sharur Industrial District. The State Program for the socio-economic development of the Nakhchivan Autonomous Republic for the years 2023-2027, with the Order signed by the head of state on June 5, 2023, also mentions the importance of access to financial resources in the autonomous republic's continuous socio-economic development processes and the efficiency of the state's regulatory mechanisms in this field. has been done.

Nakhchivan Autonomous Republic is the driving force of effective regional economic policy of our country. The foundations of the new stage of economic management have been established in the Nakhchivan Autonomous Republic, which has established reliable development prospects for each of the economic and social fields with its own regional policy, and the reforms started in this field are being confidently continued.

In this sense, the article deals with the analysis of the current state of indicators related to the banking sector, including access to financial resources, in the environment of organizing new economic activities. On this basis, the analyzes of the socio-economic development of the autonomous republic were conducted.

Key words: *banking sector, financial resources, economic development, Industrial Parks, Industrial District, etc.*

MÜBARİZ GÖYÜŞLÜ
mubariz2011@hotmail.com
Bakı Dövlət Universiteti

AZƏRBAYCAN VƏ TÜRKİYƏ İQTİSADİ MÜNASİBƏTLƏRİNİN MEDİADA ƏKS OLUNMASI

"Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan iqtisadiyyatında dönüş nöqtəsi oldu. SSRİ-nin süqutundan sonra yeni müstəqillik qazanmış dövlətlər iqtisadiyyatlarını inkişaf etdirmək baxımından Türkiyə və İran üçün əhəmiyyət kəsb edirdi. Bu məsələlər həm də Türkiyə üçün gələcəkdə Türk Dövlətləri Təşkilatının yaradılmasında Azərbaycanla birgə aktiv çalışmalar həyata keçirməkdə dəstək olacaqdı.

Azərbaycanın ixrac məsələsində ilk yeri İtaliya, ikinci yeri isə Türkiyə tutur. Azərbaycandan Türkiyəyə neft-qaz ixracatı, oradan ölkəmizə isə tekstil məhsulları idxalatı həyata keçirilir. Türkiyənin Azərbaycan ilə ticarət əlaqələri artan xətt üzrə inkişaf edir. Ticarət əlaqələrinin həcmi 2001-ci ildən bu günədək artan dinamika ilə irəliləmişdir. İdxalat 2017-ci ildən başlayaraq yüksəlmiş və 2019-cu ildə ixracat səviyyəsini keçmişdir.

2005-2022-ci illərdə Türkiyə-Azərbaycan münasibətlərinin iqtisadi aspektləri çox genişdir. Bu, qarşılıqlı sərmayə qoyuluşları, ticarət əlaqələri, enerji əməkdaşlığı və digər sahələri əhatə edir. Bu iqtisadi əlaqələrin başında enerji əməkdaşlığı xüsusi önəmə sahibdir.

Anadolu Agentliyinin məlumatına görə Azərbaycanın Türkiyə iqtisadiyyatında oynadığı rol 2006-cı ildən artmağa başlamışdır. 2002-ci ildə əsası qoyulan və 2006-cı ildə açılışı olan BTC (Bakı–Tbilisi–Ceyhan) layihəsi, Azərbaycan neftini dünyaya ixrac etməklə yanaşı, Türkiyə üçün tranzit gəlirləri əldə etməyə (5 milyard ABŞ dolları), yeni iş imkanları qazanmağa və Türkiyənin strateji əhəmiyyətini artıran beynəlxalq əlaqələrinin genişlənməsinə şərait yaratdı.

2010-cu ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi"nə əsasən iki ölkə arasında mövcud ikitərəfli ticarət, nəqliyyat, siyasi, iqtisadi, hərbi, enerji, mədəniyyət və elm sahələrində münasibətləri daha da inkişaf etdirmək məqsədilə yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurası yaradılmışdır.

2008-ci ildə Azərbaycan Milli Məclisində "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı" qəbul edilmişdir. BTC layihəsi işə düşəndən sonra ARDNŞ-nin və Azərbaycan şirkətlərinin Türkiyədə sərmayə qoyuluşu artmışdır.

Azərbaycan öz enerji siyasəti ilə həm özünün, həm Türkiyənin, həm də Orta Asiya dövlətlərinin iqtisadi inkişafına şərait yaradır. Qarabağın düşməndən azad edilməsi Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində yeni səhifə açdı.

Azərbaycan və Türkiyənin təkif etdiyi əməkdaşlıq layihəsi bölgədə inkişafa və sülhə xidmət edir. Nəticədə Türkiyə və Azərbaycan əməkdaşlığı bölgədə iqtisadi inkişaf, sülh yaratmaqla yanaşı, onun üzərində formalaşan yeni geosiyasi reallığı da özüylə gətirir.

Açar sözlər: *Azərbaycan, Türkiyə, iqtisadi münasibətlər, media, idxal, ixrac*

ABBAS İSMAYILOV
Naxçıvan Dövlət Universiteti

İNSAN KAPİTALININ MÜƏSSİSƏNİN FƏALİYYƏTİNDƏ ROLU

Məqalədə müəssisənin əsas iqtisadi resurslarından olan insan kapitalı nəzərdən keçirilir. İnsan kapitalının mahiyyəti və onun iqtisadi inkişafa təsiri xüsusiyyətləri təhlil edilir. İnsan kapitalının yalnız ölkə miqyasında deyil, eyni zamanda müəssisə və təşkilat səviyyəsində də hesablanması vacibdir. Şirkətin inkişafının və rəqabətədavamlılığının təminatının əsas göstəricisi olan insan resurslarının qiymətləndirilməsi qərar qəbul edən rəhbər şəxslərin idarəetmə alətlərindən biri kimi çıxış edir. Məqalədə insan kapitalının dəyərləndirilməsi və müəssisənin fəaliyyətindəinsan kapitalı mühüm iqtisadi kateqiriya kimi nəzərdən keçirilir.

Açar sözlər: *insan kapitalı, intellektual kapital, insan resursları, müəssisə*

İnsan kapitalı istehsal prosesinin əsas hərəkətverici amilidir, ictimai təkrar istehsal isə geniş, iqtisadi nöqteyi-nəzərindən məhsul istehsalının yenidən başlanılması və bu kapitalın özünün təkrar istehsalıdır. A.Smit yazırdı ki, "faydalı iş istehsalının artımı hər şeydən əvvəl işçinin çevikliyinin və bacarığının yüksəldilməsindən, ondan sonra isə işlətdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". O, hesab edirdi ki, əsas resurslar maşın və başqa alətlərdən, tikililərdən, torpaqdan və"əhalinin və cəmiyyət üzvlərinin əldə edilmiş faydalı bacarıqlarından" ibarətdir. O, qeyd edirdi ki, "bu cür bacarıqların əldə edilməsi bacarıq sahibinin tərbiyəsi, təlimi və ya şagirdliyi dövründə təkmilləşməsi zamanı xərc tələb edir, bu bir növ onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təşkil edir". Bu bacarıqlar, müəyyən şəxsin dəyərinin tərkib hissəsi olmaqla bərabər məxsus olduğu cəmiyyətin də sərvəti olur.

İnsan kapitalı – intellektual kapitalın ən "görünən" hissəsi olub, bilikdən, təcrübi bacarıqlardan, insanların yaradıcı və təfəkkür qabiliyyətindən, onların mənəvi və əxlaqi dəyərlərindən, əmək mədəniyyətindən ibarətdir. "İnsan kapitalı" və "intellektual kapital" kimi iqtisadi kateqoriyalar insanın iqtisadi sistemdəki yeri və funksiyasına, onun əmək qabiliyyətinə əsaslanır. Ona görə də bu anlayışlar oxşardırlar.

İntellektual kapitalın başlıca vəzifəsi müəssisənin fəaliyyəti üçün vacib olan bilik, əşya və münasibətlər sistemi hesabına mənfəətin əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır. Bütün bunlar, öz növbəsində, onun yüksək səmərəli təsərrüfat fəaliyyətini təmin edir. Müəssisənin intellektual kapitalı onun idarəetmə sisteminin keyfiyyətini müəyyən edir. İnnovasiyanı həyata keçirərkən, xüsusən, belə kapitala ehtiyac vardır. Ona görə də onun ölçülməsi, nəinki ölkə, həmçinin hər bir müəssisə və təşkilat üçün aktual əhəmiyyət kəsb etdiyindən məqalədə bu məsələlər nəzərdən keçirilir.

İnsan kapitalı insanların ömürləri boyu topladığı biliklər, bacarıqlar və sağlamlıqdan ibarətdir və onların cəmiyyətin məhsuldar üzvləri kimi potensiallarının reallaşdırılmasını təmin edir. İnsanların qidalanması, tibbi yardımı, keyfiyyətli təhsili, iş yerləri və bacarıqlarına investisiyaların yatırılması insan kapitalını inkişaf etdirməyə yardım edir və bu, daha inklüziv cəmiyyətlərin yaradılması üçün vacibdir. Hazırda ölkələrin əsas iqtisadi hədəflərindən biri dayanıqlı iqtisadi inkişafa nail olmaqdır. Dayanıqlı iqtisadi inkişafın ən vacib şərtlərindən biri isə məhz insan kapitalıdır. Azərbaycan iqtisadiyyatının da qarşısında duran ən böyük problemlərdən biri iqtisadiyyatın şaxələndirilməsi və resurs asılılığının azaldılması məsələsidir. Bu problemin aradan qaldırılması baxımından Azərbaycanın ən böyük resursu məhz insan kapitalı ola bilər. Ancaq o şərtlə ki, insanların potensialının formalaşması və bu potensialın reallaşdırılması üçün münbit şərait yaradılsın.

İnsan kapitalı həmçinin, inkişafın növbəti ən yüksək mərhələsi kimi innovativ iqtisadiyyatın və bilik iqtisadiyyatının formalaşması və inkişafında əsas amildir. İnsan kapitalının inkişafı və keyfiyyətinin yüksəldilməsi üçün şərtlərdən biri iqtisadi azadlığın yüksək göstəricisidir.

İnsan kapitalının təsnifatı aşağıdakı kimidir:

1. Fərdi insan kapitalı.
2. Şirkətin insan kapitalı.

3. Milli insan kapitalı.

lk iki növ insan kapitalı yalnız müəyyən bir firma və ya sənayedə dəyərli sayılan qabiliyyətlərə və biliklərə istinad edərək, bir bölgə və ya dövlət daxilində yenilikçi fəaliyyətə məhdud bir təsir göstərir. Bu iki fərddən fərqli olaraq, fərdi spesifik insan kapitalı geniş firma və sənaye sahələrinə tətbiq olunan biliyi nəzərdə tutur.

Müasir sənaye müəssisələrinin rəqabətqabiliyyətli olmaları, yeni texnologiyaları tətbiq etmələri, yeni məhsullar bazara təklif etmələri, əldə olunan informasiyalardan istifadə edərək iqtisadi nəticələrə nail olmaları üçün mövcud bilik və resurlardan yararlanmaları zəruridir. Sənaye müəssisələrinin daxili innovativ potensialı insan kapitalıdır hansı ki, bilik və təcrübə, bacarıq və keyfiyyətlər, mövcud olan resursları idarə etmək yolu meydana gəlir.

Ümumiyyətlə, insan kapitalı müəssisələr üçün rəqabət üstünlüyünün vacib bir mənbəyidir. İnsan kapitalı ilə innovasiya arasında olan əlaqə innovasiyanı təşviq etmək üçün deyil, yenilikləri idarə etmək üçün bir vasitədir. İnsan kapitalı bilik, bacarıq, təcrübə və istedadın tərkib hissəsidir. Bunlar insanlar içərisində olan dəyərlərdir və onlarla sıx əlaqəlidir. İnsan kapitalı fərdi, sosial və iqtisadi rifah yaratmağa imkan verən, şəxsi keyfiyyətlərə malik olan fərdin bilik, bacarıq, qabiliyyət və digər üstün cəhətlərini xarakterizə edən iqtisadi kateqoriyadır.

Öyrənmə və davamlı inkişaf bacarığı, müəssisənin əlavə dəyərinin digər resurslardan daha əhəmiyyətli olmasını təmin edir. Bir insana investisiya qoyuluşu, onlar tərəfindən yeni təcrübələr əldə etməklə bağlıdır, əlavə olaraq, fərdi şəkildə və ya komanda şəklində öyrənmə, bilikləri təkmilləşdirmə prosesi onların təhsilinin artırılması ilə təmin edilir. Mükəmməl keyfiyyətləri əldə etmək və innovasiya aktivliyinin yüksəldilməsinə nail olmaq üçün müəssisə işçisini kurslar, təlimlər və ya müxtəlif tədris yolları ilə inkişaf etdirilə bilər.

Müəssisənin biliyə əsaslanan baxışları onu yenilikləri və məlumatları yaradan, koordinasiya edən və qoruyan bir təşkilat kimi təsvir edir. nnovasiya və insan kapitalı ilə bağlı aparılan tədqiqatlar, fərd və firmanın yenilikçilik baxımından xüsusi əhəmiyyət kəsb edən əməli qabiliyyətini müəyyən edir. Bu yanaşmaya görə əməli qabiliyyət yalnız fərdi iştirakçıların cəmini deyil, həm də təşkilatların istifadəsi qabiliyyətini ehtiva edir.

Firmanın yeni fikirlərə, komanda işinə, rahatlığına və ünsiyyətinə açıqlığı innovasiya prosesinə olduqca müsbət təsir göstərir. Məlum olduğu kimi müəssisələrdə innovativ insan kapitalı daxili və xarici amillərdən formalaşaraq təsir göstərir. Müasir müəssisələr sürətlə dəyişən rəqabət mühitində ayaqda qala bilmək üçün məhsullarını, xidmətlərini və iş görmə üsullarını davamlı olaraq dəyişdirmək, fərqliləşdirmək və yeniləmək zərurətindədirlər. Buna görə də, yeni bir modelin - innovativ insan kapitalının yaratdığı imkanlardan yararlanmaq hər bir müəssisə üçün müsbət effektlər verəcəkdir.

İnsan kapitalına hər hansı formada qoyulan investisiyalar, bir tərəfdən, insana gəlir gətirmək, digər tərəfdən əmək məhsuldarlığını artırmağa imkan verir. Əmək məhsuldarlığını artıran qoyuluşları gələcəkdə yüksək gəlir əldə etməyə imkan verən investisiya kimi dəyərləndirmək olar.

Aşağıdakı investisiyalar əsas sayılır:

- Təhsilə qoyulan;
- Sağlamlığın qorunmasına (profilaktik tədbirlər, tibbi xidmət);
- Əməyin muhafizəsi, həmçinin əmək şəraitinin yaxşılaşdırılması;
- Sosial-məişət şəraiti.

İnsan kapitalının səmərəli istifadəsi müəssisənin iqtisadi artımını təmin edir və onun fəaliyyətinin səmərəliyini yüksəldir. İnsan kapitalı müəssisədə düzgün istifadə olunduqda əlavə mənfəət gətirən əsas resurs kimi çıxış edir.

İnsan kapitalının dəyərinin qiymətləndirilməsi hər zaman iqtisadçıların mubahisə predmeti olmuşdur. Hələ U. Petti "Siyasi Arifmetika" (1676) əsərində "insanın dəyərini" onun yaratdığı mənfəət əsasında müəyyən etməyə çalışmışdır.

Müəssisənin nsan kapitalına qoyduğu investisiyadan aldığı mənfəət aşkar olsa da bu sahədə hələ çox müzakirə olunacaq məsələlər vardır.

ƏDƏBİYYAT

1. Laçın Abışlı. “Müəssisənin iqtisadiyyatı”. Bakı: 2011
2. F.Məmmədov. “İdarəetmə mədəniyyəti” dərslik. Bakı: 2013
3. Quliyev Tofiq. “Menecmentin əsasları”. Bakı: 2006
4. Yeremin B.L., T.Y.Bazarov “Heyətin idarəedilməsi”
5. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. “Menecment dərslik”. Bakı: 2007
6. Фитценц Я. Рентабельность инвестиций в персонал: измерение экономической ценности персонала, М., Вершина, 2006. 320 с. 3
7. Маленков Ю.А. Управление развитием человеческого капитала компании // Образование и бизнес, 2000, № 24(48), с.54-56

SUMMARY

Abbas Ismailov

THE ROLE OF HUMAN CAPITAL IN THE ACTIVITY OF THE ENTERPRISE

Human capital, which is one of the main economic resources of the enterprise, is considered in the article. The nature of human capital and its impact on economic development are analyzed. It is important to calculate human capital not only at the national level, but also at the enterprise and organizational level. The assessment of human resources, which is the main indicator of ensuring the company's development and competitiveness, acts as one of the management tools of decision-makers. The article considers human capital evaluation and human capital as an important economic category in enterprise activity.

Key words: *human capital, intellectual capital, human resources, enterprise*

ƏŞRƏF ƏLƏKBƏROV
a.ashraf@ndu.edu.az
CAVİD HƏSƏNLİ
hesenlicavid01@gmail.com
Naxçıvan Dövlət Universiteti

MÜASİR İQTİSADİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN ƏSASLANDIRILMASI

Məqalədə, iqtisadi inkişafın indiki mərhələsində iqtisadi idarəetmənin ən səmərəli metodları və mexanizmlərinin müəyyən olunması, onlardan məqsədyönlü istifadə olunması kimi məsələlər araşdırılmışdır. Sahibkarlıq fəaliyyətinin təşkili və idarə olunması isə bu sahədə perspektivli nəticələrin mühüm ifadəsi olaraq göstərilmişdir. Kiçik və orta sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi müstəvisində sənaye Park və Məhəllələrinin yaradılması, fəaliyyətinin tənzimlənməsi məsələlərinə nəzər salınmışdır. Makroiqtisadi inkişafın təmin olunması proseslərində sənayeləşmə siyasətinin müəyyən olunması, onun sahibkarlıq təşəbbüslərinin stimullaşmasına təsiri imkanları və etibarlı milli iqtisadi quruculuq proseslərində çəkisinin yüksəldilməsi kimi amillər tədqiqatlara cəlb olunmuşdur.

Sahibkarlıq siyasətinin daha da perspektivli olmasında, müasir iqtisadi islahatlar müstəvisində ölkəmizdə həyata keçirilən uzunmüddətli tədbirlərin mühüm əhəmiyyətindən söz açılmışdır. Qeyd olunmuşdur ki, 12 əsas istiqamət üzrə Strateji Yol Xəritələrinin təsdiq olunması, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin təsdiq olunması və digər hüquqi və iqtisadi tənzimləmə vasitələrinin qüvvəyə minmiş olması, bütün tərəflərinə görə milli iqtisadiyyatın hərəkətverici qüvvəsinə çevrilmişdir.

Ölkənin istər regional, istərsə də, milli iqtisadiyyat üzrə perspektivlərinin şaxələndirilməsində Sahibkarlıq fəaliyyətinin əhəmiyyətindən, iqtisadi və social mahiyyətindən və makroiqtisadi inkişafın təmin olunması proseslərindəki təsirindən elmi əsaslara söykənən müddəalar öz əksini tapmışdır.

Açar sözlər: *Sahibkarlıq fəaliyyəti, dövlət tənzimlənməsi, kəmiyyət göstəriciləri, keyfiyyət meyarları, texnologiyalar, innovasiya, istehsal olunan məhsul və s.*

Sahibkarlıq fəaliyyəti, bütün zamanlar üzrə ölkələrin milli iqtisadiyyatları üçün səmərəli idarəetmə mexanizmlərinin məcmusunu özündə əks etdirməkdədir. Bu, təbii ehtiyatların düzgün qiymətləndirilməsi, iqtisadiyyatın islahatlara potensial səviyyədə hazır olması, regionların iqtisadi inkişaf sahəsində olan resurslarının nəzərə alınması və əlaqəli təsərrüfatçılıq perspektivlərinin üstünlüyü ilə müşayiət olunmaqdadır.

Elmi mənbələrə istinad etdikdə aydın olur ki, sahibkarlığın yaranma və təşəkkül tarixi, əsasən, orta əsrlərdən başlanmaqdadır. Belə ki, bəhs olunan dövrlərdə xüsusilə, təsərrüfat fəaliyyətinin səmərəli istiqamətlərini müəyyən etmiş olan ticarətçilər, tacirlər, sənətkarlar, missionerlər məhz həmin dövlər üçün sahibkarlıq fəaliyyətinin nümayəndələri olaraq formalaşmaqda idilər. Hələ XVII yüzilliyin axırlarında ingilis iqtisadçısı Riçard Kontilion əsərlərində və araşdırmalarında "Sahibkar" və "Sahibkarlıq" anlayışlarından istifadə etmiş və onların fərqini, həmçinin, mənalandırılmasını irəli sürmüşdür. Sahibkarın xüsusilə, riskli mühitdə təşəbbüslərinə görə seçilmiş olan, fəaliyyətini və yeniliklərini bu əsaslar üzrə qurmağı bacarmış olan şəxsdir (Mahmudov İ.M., 2008, s.16).

Bir sıra mənbələrdə isə, sahibkarlıq termininin, "vusinessman" – işgüzar adam, "estrepencur" – sahibkar, "enmpenpuce" – müəssisə kimi sözlərin açıqlamasından irəli gəlmiş olduğu qeyd olunur. Əsaslandırılır ki, istər bizim ölkəmizin, istərsə də, xarici ölkələrin iqtisadçıları içərisində bəhs olunan terminlərin elmi və iqtisadi əhəmiyyətinə, eyni zamanda, təcrübi əhəmiyyətinə aid olan yanaşmalar irəli sürülmüşdür (Məmmədli O.Q. və İsmayılov F.İ, 2007, s.115).

Sahibkarlıq fəaliyyətinin bir sıra araşdırma vasitələrində mülkiyyət münasibətlərinə xas olan təriflənməsi də irəli sürülməkdədir. Belə ki, göstərilir ki, bu termin. Mülkiyyət sahibi olan fiziki və hüquqi şəxslərin mənfəət (qazanc) əldə etmək məqsədilə, qanunvericiliklə qadağan olunmayan, təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən, məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirmiş olduqları müstəqil fəaliyyət formasıdır (Alıyev İ.H, 1999, s.90).

Sahibkar anlayışının eyni zamanda, firma və müəssisələrin təşkili, həmçinin idarə olunmasında ortaya çıxmış olan risklərin və məsuliyyətin öz üzərində götürən şəxs olduğunu əsaslandıran araşdırma nəticələri də aktuallıq qazanmaqdadır. Göstərilmişdir ki, həm də sahibkarlıq termini də özünü göstərməkdədir ki, bu da, hər şeydən əvvəl bir fəaliyyət növüdür və bu terminləri, xüsusilə də, iki istiqamətdə fərqləndirmək olar. Bunlardan birini miqyasına, digərini isə fəaliyyətin xarakterinə görə səciyyələndirmək olar (İbadov S.A, 2009, s.82).

Sahibkarlıq termininin təriflənməsində iki sözün birləşməsindən ibarət olan anlayış olduğunu qeyd etmək olar. Göstərilir ki, Sahibkarlıq:

- istənilən bir mülkə, əmlaka, həra hansısa bir şeyə sahib olmanı əks etdirən fəaliyyətin məcmusudur;
- həmin sahib olmanın özünü ortaya qoyan anlayışdır (Vəliyev T.S. və Qafarov Ş.S, 2004, 198).

Ümumi mənada, yanaşdıqda qeyd etmək olar ki, Sahibkarlıq fəaliyyəti cəmiyyət üzvlərinin şəxsi gəlir və ya mənfəət əldə etməyə yönəldilən, öz riski və öz əmlak cavabdehliyi ilə həyata keçirilən müstəqil təşəbbüskar təsərrüfat fəaliyyətidir. Bu fəaliyyətlə məşğul olanlar sahibkar adlanır (Vəliyev T.S., 1999, s.72).

Sahibkarlıq fəaliyyəti nə, nə üçün, kimin üçün istehsal etmək, təsərrüfat qanunlarının qəbul olunması, məhdud resurslardan istifadənin daha mütərəqqi üsullarının axtarılıb tapılması, daha az xərclə daha keyfiyyətli məhsul istehsalı, yeni xidmət üsullarını tapılması, satışın səmərəli təşkili, istehlakçıların araşdırılması, rəqiblərin hərtərəfli öyrənilməsi və s. ilə bilavasitə bağlıdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir şəxs sahibkarlıq mühitini qiymətləndirməyi bacarmalıdır.

Müasir müstəqillik illərinin bütün mərhələlərində Sahibkarlıq fəaliyyətinin inkişafı faydalı ideyalar və məhsuldar təşəbbüslər əsasında daha da təkmilləşmişdir. Sahibkarlıq fəaliyyətinin uzunmüddətli iqtisadi inkişaf üzrə təşəkkülü, yeni iqtisadi mərhələnin olduqca mühüm tələb və çağırışlarından birini təşkil etməkdədir. Sənayeləşmə siyasətinin səmərəli təşkili və idarə olunması məsələləri, sosiallaşma proseslərinin əlaqəliliyinin nizama salınması, milli iqtisadiyyat üzrə strateji Yol Xəritələrinin icra mexanizmlərinin qərarlaşması, Milli Prioritetlərin dəqiq həyata keçirilməsi sahəsində zəruri təsisatların yaradılması amilləri ilə paralel olaraq daha da mütərəqqi görünməkdədir. Burada onu qeyd etmək olar ki:

- sənayeləşmə siyasətinin təşəkkülü proseslərində xüsusilə də, mikro, kiçik və orta Sahibkarlıq fəaliyyətinin təmin olunması ilə Sənaye Park və Məhəllələrinin yaradılması. Artıq ölkəmizin iqtisadi rayonları üzrə yeddi sənaye Parkı və beş Sənaye Məhəlləsi yaradılmışdır;
- Milli Prioritetlər müstəvisində uzunmüddətli iqtisadi prioritetlərin müəyyən olunması və onun daha da əlçatan olması məqsədilə, iqtisadi motivasiya və tənzimləmə mexanizmlərinin nəzərdə tutulması. Bu məqaəsdlə, vergi və gömrük sahələrində məqsədyönlü tənzimləmmə vasitəsilə, dövlət büdcəsinin məsrəflərinin təmin olunması məqsədilə, adekvat perspektivlər qərarlaşdırmaqla birlikdə, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına zəmin olmalıdır;
- Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsinin müəyyən olunması ilə daha etibarlı iqtisadi idarəetmənin müvafiq təsisatlarının yaradılması. Burada, çoxistiqamətli, müqavimətli və davamlı iqtisadi islahatlara xas olan təşəbbüslərin yer almış olduğu mexanizmlərin mövcud olması nəzərə alınmışdır. Təbii olaraq, bunlar, milli iqtisadiyyat üzrə perspektivlərə malik olan ölkəmiz üçün daha da əlverişli olacaqdır.

Bütün bunlardan bir daha aydın olur ki, zəruri və strateji mahiyyətə malik olan sahibkarlıq fəaliyyəti, ölkənin bütün hüquqi tənzimləmə mexanizmlərində aktual bir mahiyyət kəsb edir və milli iqtisadiyyat üzrə uzunmüddətli perspektivlər təşkil etməkdədir. Ölkəmizdə məqsədyönlülüklə davam

etmiş olan milli iqtisadi quruculuq prosesləri, özünün elmi, hüquqi və perspektivli əsasılarına görə sahibkarlıq fəaliyyətinin etibarlılığını və bu sahədə dövlət tənzimlənməsinin çoxistiqamətli əsaslarını ifadə etməkdədir. Ölkəmizdə 24 aprel 2013-cü il tarixində Sənaye Parkları haqqında Nümunəvi Əsasnamə Azərbaycan Respublikasının Prezidentinin 865 nömrəli Fərmanı, 13 may 2015-ci il tarixində isə Sənaye Məhəlləsi haqqında Nümunəvi Əsasnamə isə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 186 nömrəli Qərarı ilə təsdiq olunmuşdur. Məhz həmin Fərman və Qərarların mühüm mahiyyətini milli iqtisadiyyat üzrə uzunmüddətli perspektivlər müstəvisində sahibkarlıq fəaliyyətinin etibarlı dayaqlarının yaradılması, zəruri infrastruktur təsisatlarının qərarlaşması, regional xüsusiyyətlər nəzərə alınmaqla, istehsal proseslərinin təmin olunmasında kəndlərin, qəsəbə və şəhərlərin iqtisadi reurslarından səmərəli istfadə olunması və bu potensialların artan tələbatlara uyğunlaşdırılması kimi amillər təşkil etməkdədir.

Elmi, nəzəri, iqtisadi və hüquqi baxımdan, Sənaye Parkı, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə olunan, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir (7). Aydın olur ki, Sənaye Parkının yaradılmasında zəruri məqsədlərdən biri olaraq, bütün tərəflərinə görə fərqlənmiş olan amillərlə yanaşı, eyni zamanda, sahibkarlıq fəaliyyətinin səmərəli təşkili və idarə olunması məsələləri də nəzərə alınmışdır. Həmçinin bu sahədə, modern texnologiya və avadanlıqların da tətbiq olunması məsələlərinə də diqqət yetirilmişdir.

Sahibkarlıq fəaliyyətinin məqsədyönlü şəkildə olmaqla, tənzimlənməsində, onun ideya və təşəbbüslərinin dəstəklənməsində, dövlət tənzimlənməsinin mühüm əhəmiyyətini qeyd etmək olar. Milli iqtisadiyyat üzrə aktual problemlərin həll olunmasında, xüsusilə də, istehsal və xidmət bölmələrinin etibarlılığının təmin olunmasında sənayeləşmə siyasətinin mühüm təsirlərini qeyd etmək olar. Məhz bu istiqamədə Sənaye Parkları ilə yanaşı, Sənaye Məhəllələrinin də zəruri əhəmiyyətini vurğulamaq yerinə düşər. Müxtəlif elmi əsaslandırmalara və hüquqi təsbit mexanizminə görə Sənaye məhəlləsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə olunan ərazidir (7). Buradan da aydın olur ki, Sənaye Məhəlləsinin yaradılması proseslərində də, sahibkarlıq fəaliyyətinin makroiqtisadi inkişafda rolunun artırılması məsələlərinə diqqət yetirilmişdir. İqtisadi proseslərin müşahidəsi zamanı bu qənaətə də gəlmək olar ki, istər Sənaye Parkı, istərsə də, Sənaye Məhəlləsinin yaradılmasında əsas məqsədlərdən birini də regional və milli iqtisadiyyatların sintezi şəraitində davamlı, müqavimətli və uzunmüddətli inkişafı təşkil etməkdədir.

ƏDƏBİYYAT

1. Alıyev İ., İbadov S. Azərbaycan iqtisadiyyati. Bakı: 1999, Ağrıdağ
2. İbadov S. İqtisadi nəzəriyyə. Dərslik. Bakı: 2009, Şərq-Qərb
3. Mahmudov İ.M. Sahibkarlığın əsasları. Dərs vəsaiti. Bakı: 2008, Milli Aviasiya Akademiyasının nəşriyyatı
4. Məmmədli O.Q., İsmayılov F.İ. İqtisadi nəzəriyyə. Bakı: 2007, MBM
5. Vəliyev T., Qafarov Ş. İqtisadi nəzəriyyə. Bakı: 2004, “Azpoliqraf LTD” MMC, 504 s.
6. Vəliyev T.S., və b. İqtisadi nəzəriyyə. Bakı: 1999, Çaşıoğlu
7. Sənaye parkları haqqında nümunəvi əsasnamə. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur.

SUMMARY

Ashraf Alakbarov, Javid Hasanli

JUSTIFICATION OF ENTREPRENEURIAL ACTIVITY AT THE STAGE OF MODERN ECONOMIC DEVELOPMENT

In the article, at the current stage of economic development, issues such as determining the most efficient methods and mechanisms of economic management and using them purposefully were investigated. The organization and management of entrepreneurial activity is shown as an important expression of promising results in this field. At the level of supporting small and medium entrepreneurship initiatives, the creation of industrial parks and districts and the issues of regulation of their activities were considered. Factors such as determination of the industrialization policy in the processes of ensuring macroeconomic development, its influence on the stimulation of entrepreneurial initiatives, and increasing its weight in reliable national economic building processes have been involved in research.

The important importance of the long-term measures implemented in our country at the level of modern economic reforms in making entrepreneurship policy even more promising was mentioned. It was noted that the approval of the Strategic Roadmaps for 12 main directions, the approval of Azerbaijan 2030: National Priorities for socio-economic development and the entry into force of other legal and economic regulatory instruments have become the driving force of the national economy in all its aspects.

In the diversification of the country's regional and national economic perspectives, the importance, economic and social essence of entrepreneurship, and its impact on the processes of ensuring macroeconomic development have been reflected in the provisions based on scientific principles.

Key words: *Entrepreneurship, state regulation, quantitative indicators, quality criteria, technologies, innovation, manufactured product, etc.*

ALXAN NİFTƏLİYEV
naxla456@gmail.com
Naxçıvan Dövlət Universite

MALİYYƏ AXINLARI SƏNAYELƏŞMƏ SİYASƏTİNİN TƏRKİB ELEMENTİ KİMİ

Məqalədə sənayeləşmə siyasətində maliyyə axınlarının əhəmiyyətindən bəhs edilir. Burada maliyyə axınlarının mahiyyəti və məzmun elementləri açıqlanaraq, qeyd olunur ki, müəssisənin maliyyə resursları dedikdə, maliyyə münasibətlərini həyata keçirən zaman müəssisədə bütün xərclərin və məsrəflərin qarşılanmasında təsərrüfat subyektlərinin öhdəsində qalan, aktiv xərc maddələrinin, pul vəsaitlərinin, eləcə də, kənardan daxil olan vəsaitlərin ümumi məcmusu başa düşülür.

Tədqiqatda xərc və məsrəf anlayışları biri-birindən fərqləndirilir və elmi əsaslarla izah edilir.

Məqalədə maliyyə resurslarının tərkib elementləri göstərilir. Müəssisənin maliyyə resurslarının yaranması, formalaşması və istifadəsi məsələləri, eyni zamanda mənfəətin bölüşdürülməsi istiqamətləri qeyd olunur.

Sonda maliyyə resurslarından səmərəli istifadənin sənayeləşmə siyasətinə təsirinin möhkəmləndirilməsinə dair təkliflər verilir.

Açar sözlər: *Maliyyə axınları, Maliyyə resursları, Pul vəsaitləri, Xərc, Məsrəf*

Maliyyə axınları dedikdə, maliyyə münasibətlərini həyata keçirən zaman müəssisədə bütün xərclərin və məsrəflərin qarşılanmasında təsərrüfat subyektlərinin öhdəsində qalan, aktiv xərc maddələrinin, pul vəsaitlərinin, eləcə də, kənardan daxil olan vəsaitlərin ümumi məcmusu başa düşülür. Burada xərc və məsrəf anlayışını biri-birindən fərqləndirmək lazımdır. Belə ki, xərc dedikdə müəssisənin fəaliyyətini təmin etmək üçün istehsal məqsədi ilə alınmış xammal və material dəyərlilərinə sərf olunan maliyyə vəsaiti başa düşüldüyü halda, məsrəf dedikdə həmin xammal və materialların istehsala sərf olunmuş hissələri başa düşülür.

İqtisadi-hüquqi formasından və mülkiyyət münasibətlərindən asılı olmayaraq iqtisadi fəaliyyət göstərən müəssisələr, fəaliyyətinin fasiləsizliyini, istehsal olunacaq məhsulların kəmiyyət və keyfiyyətini qoruyub saxlamaq üçün müəyyən miqdarda maliyyə resurslarına sahib olmalı, mövcud resurs potensialından səmərəli istifadə imkanlarına malik olmalıdır.

Hər bir müəssisə rəhbəri öhdəsində olan iqtisadi və maliyyə resurslarından istifadə etmək, onların bölüşdürülməsini həyata keçirmək hüquq və səlahiyyətinə malikdir, lakin müəssisə rəhbərləri maliyyə resurslarından səmərəli istifadəni qarşılarında məqsəd qoymalı, idarə etmə prosesinin səmərəliliyinin və əmək məhsuldarlığının yüksəldilməsini ön plana çəkməlidir.

Maliyyə resurslarının əsas və ya xüsusi hissəsini iqtisadi fəaliyyət nəticəsində yaradılan, müəssisənin öhdəsində qalan və onun üzərində sərəncam vermək hüququ saxlanılan mənfəət hesab olunur. Mənfəət müəssisə rəhbərinin qərarı ilə mövcud qaydalara müvafiq bölüşdürülür. Mənfəətin bölüşdürülməsi zamanı müəssisənin maliyyə-iqtisadi siyasəti əsas götürülür.

Müəssisənin sərəncamında qalan mənfəət müəssisənin strateji məqsədlərinə müvafiq olaraq aşağıdakı kimi bölüşdürülə bilər:

-müəssisədə diversifikasiya proseslərinin həyata keçirilməsi məqsədilə istehsal həcminin genişlənməsinə və buraxılacaq məhsulun çeşidinin və keyfiyyət göstəricilərinin artırılmasına;

-müəssisənin iqtisadi fəaliyyəti ilə bağlı olmayan, digər xarici təsir amillərinin investisiyalaşmasına;

-yaranan mənfəət bütövlüklə istehlak tələbinin ödənilməsinə;


-yeni innovativ avadanlıq, maşın, mexanizmlərin alınmasına və mənəvi cəhətdən köhnəlmiş əsas vəsaitlərin yenilənməsinə;

-Yeni bazarda əlavə satış obyektlərinin yaranmasına və s.

Maliyyə axınlarının yaradılmasında əsas yerlərdən birini müəssisədə hesablanılan amortizasiya ayırmaları təşkil edir. Ammortizasiya ayırmaları dedikdə, müəssisənin aktiv hesabında olan əsas vəsaitlərin və ya əsas kapitalın aşınması nəticəsində yaranan dəyərin pulla ifadəsi kimi nəzərdə tutulur. Amortizasiya ikili xarakterə malik olmaqla, həm məhsulun istehsal məsrəflərinə daxil olur, həm də satışdan əldə olunan gəlirdə öz əksini tapır ki, bu da geniş təkrar istehsal prosesinin yaradılmasında iştirakı təmin edir.

Müəssisədə təsərrüfat fəaliyyəti zamanı yaranan amortizasiya ayırmaları müəssisənin amortizasiya fondunda toplanılır. Bu isə köhnəlmiş əsas vəsaitlərin bərpasına, alınacaq yeni əsas fondların hazırlanmasına sərf olunur.

İqtisadi fəaliyyətdən yaranan mənfəət heç də, bütövlüklə müəssisənin öz hesabında qalmır. Onun müəyyən bir hissəsi, daha doğru desək, normativ-hüquqi sənədlərdə müəyyən edilən miqdarı vergilər və məcburi ödənişlər şəkilində nəzərdə tutulan, aid büdcə sisteminin hesabına köçürülür. Müəssisələrin maliyyə axınlarının tərkib elementləri.



Şəkil 1. Tədqiqat nəticələrinin ümumiləşməsi olaraq, müəlliflər tərəfindən tərtib edilib.

Mənfəətin müəssisənin sərəncamında qalan hissəsi rəhbər işçilərin qərarı əsasında, səhimdar və məhdud məsuliyyətli cəmiyyətlərdə isə ümumi yığıncağın qərarı əsasında istehlak, yığım və ehtiyat fondlarının yaradılmasına və ya dividentin verilməsinə yönəldilir.

Yığım fondunda toplanılan maliyyə vəsaitləri müəssisənin gələcək inkişaf perspektivlərinin artırılmasına və istehsalın genişləndirilməsi istiqamətləri üzrə yönəldilir. İstehlak fonduna yığılan sərmayə isə müəssisənin sosial-iqtisadi məqsədləri üçün istifadə edilir.

Müəssisələrin maliyyə resurslarını əmələ gətirən, kənardan daxil olan maliyyə axınlarının daxilolma mənbəələrinə görə dörd istiqamət üzrə təsnifləşdirmək olar: - borc alınmış vəsaitlər; xüsusi vəsaitlər; bölgü üzrə daxilolmalar və büdcə təyinatlı təxsisatlar. Bu qaydada təsnifləşdirmə müəssisəyə kapital qoyuluşunun forma və məzmunu ilə xarakterizə olunur.

Bazar iqtisadiyyatı şəraitində müəssisələr iki istiqamətdə maliyyə vəsaitlərini cəlb edirlər:- pay alma formasında və ya payçı qismində və borc verən qismində maliyyələşdirmə.

Payçı formasında müəssisə buraxdığı qiymətli kağızlarını, yəni səhmləri fond birjalarında emissiyasını təşkil etməklə, yerləşdirilməsini həyat keçirir. İkinci halda isə müddətli qiymətli kağızların buraxılışını və yerləşdirməsini nəzərdə saxlayır.

Bəzən tez-tez rast gəldiyimiz "sahibkarlıq kapitalı" anlayışı da işlədilir ki, bu da gəlir əldə etmək məqsədilə digər müəssisə və təşkilatların nizamnamə kapitalına yönəldilən maliyyə vəsaiti hesab edilir.

Ssuda kapitalı dedikdə, başqa təşkilatların qiymətli kağızları, veksel və istiqrazlar formasında, həmçinin bank kreditləri şəklində müəssisəyə müvəqqəti istifadə üçün verilən maliyyə vəsaitləri başa düşülür. Bu kimi digər formada qiymətli kağızların satışından əldə edilən gəlirlər, səhm paketlərinin və istiqraz vərəqələrinin satışından daxil olmalar maliyyə bazarından daxilolmalar hesab edilir.

Dövlət sifarişlərinin yerinə yetirilməsi və ya dövlət əhəmiyyətli iş və xidmətlərin görülməsi zamanı müəssisəyə əvəzsiz və ya qaytarılmaq şərti ilə verilən maliyyə vəsaitləri büdcə təxsisatları adlanır. Büdcə təxsisatları, xüsusilə, iqtisadi əhəmiyyətli iri investisiya layihələrinin yerinə yetirilməsi və dövlət əhəmiyyətli məhsulların sifarişlərinin həyata keçirilməsi məqsədi ilə sahibkar subyektlərin dəstəklənməsi, onların motivasiyası məqsədilə verilir.

Müəssisənin mövcud olan maliyyə axınları müəssisənin xammal alışında, istehsal planlarının yerinə yetirilməsində, investisiya layihələrinin icrasında, logistik fəaliyyətin təmin olunmasında və s. bu kimi istehsal-texnoloji proseslərin fasiləsiz həyata keçirilməsində istifadə olunur. Əsas etibarı ilə dövriyyəyə cəlb olunan maliyyə axınları müəssisənin hərəkətdə olan maliyyə ehtiyatı rolunu oynayır. Maliyyə axınlarının müəyyən bir hissəsi hüquqi şəxs olan müəssisənin bank hesabında və ya xəzinəsində saxlanmaqla, gələcəkdə sənayeləşmə siyasətinin həyata keçirilməsində səmərəli istifadə olunur.

Nəticə

Bazar iqtisadiyyatı şəraitində müəssisənin davamlı və fasiləsiz iqtisadi fəaliyyətini təmin etmək üçün hər bir müəssisə özünün maliyyə imkanlarını qiymətləndirməli, maliyyə axınlarından səmərəli və məqsədyönlü istifadə etməyi planlaşdırmalıdır.

İqtisadiyyatın müasir davamlı inkişafı şəraitində maliyyə münasibətləri dərinləşmiş, maliyyə iqtisadi siyasətin daha da mükəmməl həyata keçirilməsi üçün yeni iqtisadi mexanizmlərin meydana gəlməsi üçün zəmin yaranmışdır. Müəssisə və təşkilatlar belə iqtisadi mexanizmləri tətbiq etməklə, sənayeləşmə siyasətinin daha səmərəli yollarla həyata keçirilməsini təmin etməldirlər.

ƏDƏBİYYAT

1. Ağayev A. Dövlət borcu və onun idarə edilmasi. (monoqrafiya). Bakı: 2002. 318 s.
2. Allahverdiyev H., Qafarov K., Əhmadov Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: 2002, 445 s.
3. Bağırov D.A. Vergi auditi. Bakı: 1999, 428 s.
4. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı: 2003, 418 s.
5. Büdcə terminləri: izahlı lüğət. Bakı: 2003, 100 s.
6. www.maliyye.gov.az

SUMMARY

Alkhan Niftaliyev

FINANCIAL FLOWS AS AN ELEMENT OF INDUSTRIALIZATION POLICY

The article discusses the importance of financial flows in industrialization policy. Here, the essence and content elements of financial flows are explained, and it is noted that the financial resources of the enterprise are the total sum of active expenditure items, cash, as well as funds received from outside, which are the responsibility of economic entities to cover all costs and expenses in the enterprise when carrying out financial relations. it is understood.

In the study, the concepts of cost and expense are distinguished from each other and explained on scientific grounds.

The article shows the constituent elements of financial resources. Issues of creation, formation and use of financial resources of the enterprise, as well as directions of profit distribution are mentioned.

At the end, suggestions are made on strengthening the effect of the efficient use of financial resources on the industrialization policy.

Key words: *Financial flows, Financial resources, Cash,Cost.*

РЕЗЮМЕ

Алхан Нифталиев

ФИНАНСОВЫЕ ПОТОКИ КАК ЭЛЕМЕНТ ПОЛИТИКИ ИНДУСТРИАЛИЗАЦИИ

В статье рассматривается значение финансовых потоков в политике индустриализации. Здесь поясняются сущность и элементы содержания финансовых потоков, а также отмечается, что финансовые ресурсы предприятия представляют собой общую сумму активных статей расходов, денежных средств, а также средств, полученных извне, находящихся в ответственности хозяйствующих субъектов. для покрытия всех издержек и расходов на предприятии при осуществлении финансовых отношений.

В исследовании понятия себестоимости и затрат выделены друг от друга и объяснены на научных основаниях.

В статье показаны составные элементы финансовых ресурсов. Рассмотрены вопросы создания, формирования и использования финансовых ресурсов предприятия, а также направления распределения прибыли.

В конце даются предложения по усилению влияния эффективного использования финансовых ресурсов на политику индустриализации.

Ключевые слова: *Финансовые потоки, Финансовые ресурсы, Денежные средства, Стоимость.*

NİHAD HÜSEYNLİ
nihad.hseynli@yandex.com
Naxçıvan Dövlət Universiteti

UNESCO-nun MADDİ-MƏDƏNİ İRS NÜMUNƏLƏRİNƏ OLAN TURİZM MARAĞI

UNESCO-nun maddi-mədəni irs nümunələrinin mühafizəsi və tanıdılması üzrə əsas siyahıya düşmək həmişə cazibədardır. Bu mənada BMT yanında UNESCO təşkilatı dünya üzrə təhsil, elm, mədəniyyət və ümumilikdə, sosial-humanitar məsələlər üzrə öz missiyasını yerinə yetirməyə çalışır. Naxçıvan Muxtar Respublikasında da tarixi-mədəni dəyəri yüksək olan kifayət qədər sayda belə unikal tarixi-mədəni abidələrimiz vardır. Bu məqalədə ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvandakı belə abidələrin turizm cazibəsindən bəhs olunur.

Açar sözlər: *turizm; UNESCO miras siyahısı; Naxçıvan; abidələr*

Müasir dövrdə turizmin əsas məqsədi ölkələrin xalqlarına məxsus mədəni müxtəlifliyi və tarixi mirası tanıtmaqdır. Müasir dövrdə ölkələrin malik olduğu belə tarixi-mədəni və təbii sərvətlər daha yaxşı mühafizə olunması da əsas məsələdir. Bu ehtiyatların əsasında turizm gəlirlərinin artırılması ilə bərabər ölkə və regionun da tanıdılması da mühüm əhəmiyyətli məsələlərdəndir. Belə ki, hazırkı çətin dövrdə dünya ölkələri humanitar inkişafda turizmin oynadığı rolu yüksək dəyr verərək məhz turist mübadiləsi yolu ilə bir sıra çətin beynəlxalq məsələləri həlletmək və eləcə də gərgin siyasi problemləri dialoq yolu ilə düzəltmək üçün əldə olunmuş müsbət təcrübədən yararlanmaq istəyirlər. Bu mənada, ölkəmizdə də UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahıdakı maddi-mədəni miras nümunələrinə verilən qiymətə əsaslanmaqla tarixi-mədəni obyektlərin qorunması, bərpası və turizm məqsədilə istifadəsi öz əhəmiyyətini qorumaqdadır.

UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahıya düşmək həmişə turizm baxımından cazibədardır. Bu mənada, 5 iyul 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş "Naxçıvan Muxtar respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət proqramı"nda da Naxçıvan Muxtar Respublikasının turizm cazibədarlığının artırılması və qədim diyarda tarixi-memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə buradakı abidələrin UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün tədbirlərin aparılması öncəlik vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur (2). Burada əsas vəzifə, Naxçıvanda xalqımıza məxsus olan təbii və tarixi-mədəni sərvətlərimizin gələcək nəsillərin istifadəsinə də qazandırmaqla onların mövcud şəraitdə daha səmərəli turizm dövriyyəsinə cəlb edilməsi, iqtisadi fəallığın artırlması və ölkəmizin daha yaxından tanıdılmasıdır. Tədqiqat baxımından UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə əsas siyahısının necə yaranmasına, onun tarixinə qısa nəzər salaq.

BMT tərkibindəki UNESCO əslində, bu təşkilat nəzdində fəaliyyət göstərməklə dünya üzrə təhsil, elm, mədəniyyət və ümumilikdə, sosial-humanitar məsələlər üzrə öz missiyasını yerinə yetirməyə çalışır. Təşkilatın tarixi çox maraqlıdır. Belə ki, hələ XX əsrin ortalarında, dəqiq desək 1959-cu ildə keçmiş SSRİ-nin Misirdə nəhəng Asuan bəndinin tikintisinə kömək etdiyi zaman antik Nubiya krallığına aid olmuş qiymətli tarixi-mədəni abidələrin yox olaraq itməsi təhlükəsinə qarşı Misir və Sudan ölkələrinin UNESCO-ya kömək üçün müraciət etməsi ilə bu məsələ aktuallıq qazanmışdır (4). Bu dövrdən təşkilatda dünya mirasının qlobal səviyyədə mühafizəsi üçün ilk addımlar atılmağa başlamışdır. Öz növbəsində UNESCO da kömək üçün müvafiq beynəlxalq ictimaiyyətə müraciət etməsi ilə məsələ qabarmışdır. Belə ki, bu regionda, daha sonra isə bütün dünyada yox olmaq təhlükəsi ilə qarşı-qarşıya qalan və bütün bəşəriyyət üçün əhəmiyyətli miras dəyəri daşıyan maddi və mədəni obyektlərin mühafizəi məsələsi qabardılmış və nəhayət nəhayət

1978-ci ildə Ümumdünya İrs Siyahısı tərtib oluanarq planetdə mövcud olan dəyərli irs nümunələrinin qorunmasına başlanılmışdır.

Hazırda UNESCO-nun miras siyahısı dövri olaraq yenilənir. Hər il dünya üzrə bir sıra tarixi-mədəni obyektlər buraya əlavə olunur və eləcə də əvvəlcə mövcud olanlar müəyyən səbəbələrdən bu siyahıdan çıxarılır. Bu da öz növbəsində dünya ictimaiyyətinin diqqətinə çatdırılır. Belə ki, son məlumatlara görə dünyanın 168 tərəfdaş ölkəsindən 1199 miras nümunəsi bu siyahıda vardır (1). Ölkələr tpində baxdıqda burada bəzi ölkələr məxsus olan miras nümunələrinin hansı sayda olması, yaxud bunların hansı dövrlərdə və ya hansı kriteriyalara görə bu siyahıya daxil edilməsi maraq doğurur. Ölkəmizə gəldikdə Şərq-Qərb mədəniyyətlərinin qovşağında yerləşən Azərbaycanda hazırda ölkəmizə aid 4 tarixi-mədəni və bir təbiət abidəsi daimi miras siyahısındadır. Belə ki, 2019-cu ilədək bu rəqəm İçərişəhər və Şirvanşahlar sarayı (2000-ci ildə) ilə Qobustan qaya təsvirləri (2007-ci ildə) ilə sadəcə iki abidə ilə məhdudlaşırdı. Sonrakı illərdə bu sahədə aparılan işlər nəticəsini vermişdir. Belə ki, 2019-cu ildə Şəki Xan Sarayı, 2023-cü ildə isə Xınalıq kəndi və Köç yolu ilə Hirkan meşələri təbiət abidəsi kimi bu siyahıya daxil olunub (3). Bu isə bu istiqamətdə ölkəmiz tərəfindən atılan qəti addamların sonunda mümkün olmuşdur. Belə ki, dünya praktikasında UNESCO-nun dünya mirası siyahısına düşməyin də nə qədər çətin problem olduğu və bunun üçün namizəd abidənin hansı çətin və ciddi proseduralardan keçməsi gərəkdiyi məlumdur.

Araşdırma baxımından yanaşsaq, bəs dünya mirası siyahısınıa düşmək ölkələrə, onların iqtisadiyyatına, beynəlxalq nüfuzuna və eləcə də onlarda turizmin inkişafına necə təsir edir? Öncə onu qeyd edək ki, bu siyahıya düşməyə namizəd olan abidə ümumbəşəri dəyər kəsb etməklə, onun təkcə sahib olduğu ölkənin ərazsində deyil, onun sərhədlərindən də kənarda dəyər göstərməldir. Başqa sözlə belə abidə analoqları ilə müqayisədə aşkar üstünlükləri olmalıdır. Bəşəriyyətin yaradıcılıq fəaliyyətinin nəticəsi olan tarixi abidələr, inanc və adət nümunələri, yox olmuş qədim yaşayış yerlərinin izlərini daşıyan məkanlar, unikal landşaft məkanları və şəhərsalma və arxtektura kompleksləri, unikal gözəlliyə malik təbiət guşələri, nadir biomüxtəliflik növlərinin sıx rast gəlindiyi ərazilər, qədim yaşayış yerləri və ekoloji, bioloji və geoloji təkamül proseslərinin yarandığı ərazilər UNESCO tərəfindən müəyyən olunmuş kriteriyalara cavab verdiyi halda bu siyahıda yer alırlar. Bunun da nətcəsində həmin abidələr və əsərlər öz ölkəsinin görməli yeri kimi turizm marağı da cəlb edir. Ümumilkdə isə, turizm marağından əlavə olaraq UNESCO-nun dünya mirası siyahısına salınmış abidələrin qoruma əhəmiyyəti də vardır. Bu unikal abidə sahibi olan ölkələrin və onların hökumətlərinin bu məsələdə məsuliyyətlərinin artırılması, onların imcinin yüksəlməsi və eləcə də onların qorunması üçün maliyyə köməyinin artırılması da bu sahədə əsas vəzifələrdəndir.

Turizm baxımından əhəmiyyəti ilə yanaşı UNESCO Dünya mirası siyahısına düşməyin və bunun üçün keçilən proseduraların kifayət qədər sərt olmasını da bilmək lazımdır. Belə ki, UNESCO siyahıda yer tuta biləcək abidələr qarşısında ciddi tələblər qoyur. Belə ki, miras dəyəri daşıya biləcək əsərlərə sahib olmaqla yanaşı ölkələr, bu dünya mirasına necə sahib çıxdıqları barədə də özləri özlərinə bir hesabat da verməlidirlər. Belə ki, vaxtaşırı olaraq miras siyahısında yer alan bəzi abidələrin zaman keçməklə hansı səbəblərdən bu siyahıdan çıxarılmasını da qeyd etmək mümkündür.

Azərbaycan qədim abidələrlə zəngindir (5). Ölkəmiz özünün sahib olduğu belə sərvətlərlə bu siyahıda cəmi 5 deyil, ən azı 20-25 belə obyekt ilə təmsil oluna bilər. Şübhəsiz, bu məsələdə müstəqilliymzin ilk illərində ölkəmizin məruz qaldığı müharibə də özünü göstərmişdir. Lakin bununla bərabər, ölkəmizin iqtisadi inkişafı, beynəlxalq müstəvidə öz mövqeyni gücləndirməsi nəticəsində artıq hər cür tarixi-mədəni abidələrimizin də dünya mirasına qatılması üçün ciddi irəliləyişlər əldə olunmuşdur.

Ölkəmizin tərkib hissəsi, qədim mədəniyyət mərkəzi olan Naxçıvanda da tarixi-mədənri dəyəri yksək olan və özünün sahib olduğu tarixə, unikallğına və dünya səviyyəsindəki yerinə görə kifayət qədər sayda belə unikal tarixi-mədəni abidələrimiz vardır. Bunların öyrənilməsi və tanıdılması, qorunması və ən azından UNESCO-nun müvəqqəti irs siyahısına daxil edilməsi üçün məqsədli işlər görülür. Naxçıvandakı Möminə-xatun (Şəkil 1.) və digər qədim türbələr və tarixi Ordubad şəhərinin qədim hissəsi artıq bu siyahıdadır. Lakin bundan sonra həmin abidələrdən ən azı birinin UNESCO-

nun daimi siyahısına daxil edilməsinin vacibliyini xüsusilə vurğulamaq lazımdır. Şübhəsiz, Naxçıvana səfər edən əcnəbi turistlərin marağını cəlb edən Azərbaycanın Maçu-Pikçusu adlandırdıqları Əlincə qalada, yaxud Qarabağlar, Gülüstan və Yusif ibn Küseyir turbələri bunlara layiqdir.

Nəticə

UNESCO-nun dünya mirası siyahısında yer almaq məsələsi çətin olmaqla bərabər həm də turizmin inkişafı üçün də önəmli məsələdir. Bu baxımdan, ölkəmizdəki abidələr beynəlxalq tələblərə əməl etməklə, eyni zamanda dünya miqyasında müsbət imic qazanmaq, daha çox seçilən destinasyia kimi tanınmaq istəyirlər. UNESCO kimi beynəlxalq təşkilatın səhifəsində yer almaq turistlərin marağını cəlb etmək baxımından olduqca cazibədardır.

ƏDƏBİYYAT

1. https://whc.unesco.org/en/list/- UNESCO-nun daimi irs siyahısını saytı
2. https://president.az/az/articles/view/60144 - “Naxçıvan Muxtar respublikasının sosial-iqtisadi inkişafina dair 2023-2027-ci illər üçün Dövlət proqramı”
3. https://whc.unesco.org/en/statesparties/az - UNESCO-nun daimi irs siyahısını saytındakı Azərbaycan bölümü
4. https://34travel.me/post/unesco-faq - UNESCO-nun daimi saiyahısının formalaşması haqda sayt
5. https://anl.az/el/vsb/Azerbaycanin_tarixi_abideleri/index.html - Azərbaycanın tarixi abidələri

SUMMARY

Nihad Hüseynli

TOURISM INTEREST IN UNESCO MATERIAL AND CULTURAL HERITAGE EXAMPLES

It is always tempting to be included in the main list for the protection and promotion of examples of material and cultural heritage of UNESCO. In this sense, the UNESCO organization under the UN is trying to fulfill its mission on education, science, culture and social-humanitarian issues in general. In the Autonomous Republic of Nakhchivan there are enough number of such unique historical and cultural monuments of high historical and cultural value. This article discusses about the tourism attraction of such monuments in our country and its’ part Nakhchivan as well.

Key words: *tourism; UNESCO world heritage list; Nakhchivan; monuments*

HİNDƏ GÜLMƏMMƏDOVA
hgulmmmdova@gmail.com
Naxçıvan Dövlət Universitetinin

İŞĞAL SONRASI YENİ DÖVRDƏ QARABAĞDA PERSPEKTİV TURİZM NÖVLƏRİNİN İNKİŞAFI MƏSƏLƏLƏRİ

Turizm mürəkkəb bir sahə olub, burada turistlərə təklif olunan xidmətlərin təşkili və idarəolunması, regionun sahib olduğu turizm ehtiyatlarından rasional istifadə, ekoloji maraqların qorunması, modern infrasruktur və kadr potensialının yaradılması və eyni zamanda mövcud turizm marşrutları üzrə yaradılan turların dizaynı ilə sıx bağlıdır. Bu kimi məsələlər ölkəmizdə və onun 30 illik erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində də aktualdır. Bu məqalədə erməni işğalı sonrası Qarabağda inkişaf etdilə biləcək turizm növləri araşdırılmışdır.

Açar sözlər: *Azərbaycan, turizm, Qarabağ, erməni işğalı*

Otuz il davam etmiş Erməni işğalı sonrası Qarabağ bölgəsinin turizm potensialının dəyərləndirilməsi üzərində araşdırma aparakən regionun keçmişdə mövcud olmuş turizm potensialı hesabına nostalji məzmunlu səyahətlər, eləcə də təbii və nisbətən salamat qalmış tarixi-mədəni ehtiyatları hesabına gələcəkdə yaradıla biləcək turizm layihələri haqqında danışmaq mümkündür. Fikrimzcə, Qarabağ regionunda turizmi potensialı haqqında danışarkən buradakə turizm ehtiyatları və Ağdam, Kəlbəcər-Laçın, Şuşa, Xankəndi və Qubadlı-Zəngilan bölgələri üzrə araşdırmaq məqsədəuyğun olardı (6).

Qarabağ Azərbaycanın turizm potensialı çox yüksək olan bir bölgəsidir (3). Hələ erməni işğalından qabaq bura təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ən cazibədar turizm-rekreasya məkanlarından biri olub. Şübhəsiz hər bir bölgənin turizm-rekreasiya potensialını dəyərləndirərkən cazibədarlığını müəyyən edən faktorlara ümumi şəkildə nəzər salmaq lazımdır. Regionun yerləşdiyi coğrafi mövqe, əsas turist göndərən ölkələrə olan məsafə, təbii-iqlim şəraiti, ekoloji təmizlyii, tarixi-mədəni zənginlik, yerli əhalsinin milli qonaqpərvərliyi, mövcud infrastruktur və turizm xidmətlərinin təşkili vəziyyəti əsas götürülür. Otuz ilə yaxın işğal, müharibə və dağıntılar içərisində qalmış Qarabağ torpağının turizm potensialını dəyərləndirərkən şübhəsiz kompleks qiymətləndirməən çox hər bir amilə ayrılıqda nəzər salmaq daha düzgün yanaşma olardı. Çünki qeyd olunduğu kimi işğal zamanı ekoloji vəziyyəti və torpaq quruluşu tamamən pozulmuş, nəinki turizm, hətta heç bir infrastrukturu qaralmamış, yol-nəqliyyat şəbəkəsi dağıdılmış Qarabağın turizm potensialından danışarkən bu ərazilərdə keçmişdə mövcud olmuş rekreasiya təsərrüfatının imkanlarından və müasir dövrdə isə təbii ehtiyatlar hesabına təşkil oluna biləcək turizm xidmətlərindən bəhs etmək mümkündür. Erməni işğalı nəticəsində infrastrukturla bərabər demək olar ki, bütün tarixi-mədəni turizm ehtiyatlarının yerlə bir edilməsi ümumilikdə Qarabağ regionunun turizm potensalının qiymətlənlirilməsində obyektv çətinliklər yaradır (2).

Turizm üzrə ekspertlərinin də fikrincə, Qarabağda belə turizm səyahətləri gələcəkdə həm daxili, həm də əcnəbi səyyahlar üçün açıq olacaqdır. Qarabağda ilk növbədə daxili turizmin inkişafı gözlənilir, çünki yuxarıda qeyd olunduğu kimi bu bölgə ölkəmizin bütün əhalisi üçün olduqca maraqlıdır. Artıq "yolumuz Qarabağa" portalı vasitəsilə 20 mindən artıq yerli turist Şuşa və digər şəhərlə səfərlər etmişdir (9). Eyni fikirləri xaricdə yaşayan azərbaycanlılar üçün də göstərmək mümkündür. Qeyd etdiymiz kimi dünyada belə dağıdılmış, yaxud məhv edilmiş obyektlərin qalıqlarının qorunub saxlanılması və ziyarətçilərə göstərilməsi üzrə təşkil olunan turizm səyahətləri vardır. Turistlər şiddətli döyüşlərin baş verdiyi yerləri görmək üçün "Dark tourism" növü üzrə səyahət etməyə çox maraqlıdırlar (1). Artıq Qarabağa xarici ölkə səfirlərinin və jurnalistlərin ilk belə səfərələri formalaşmaqdadır.

Şübhəsiz, Qarabağın turizm potensialını təkcə "Dark tourism" növü üzərindən dəyərləndirmək düzgün olmazdı. Belə ki, yaxın gələcəkdə xarici turistlərin əksəriyyəti Qarabağda erməni işğalın

nəticələrinri görmək üçün yox, bu ərazinin ecazkar mənzərələrindən zövq almaq üçün ziyarət edəcəklər. Bunu da müəyyən edən faktorlardan biri müasir Azərbaycan Respublikasının iqtisadi inkişaf səviyyəsidir. Ölkəmizin müstəqillik illərində iqtisadi-mədəni quruculuq sahəsində qazandığı uğurlar, xüsusilə turizm infrastrukturu yaradılması sahəsindəki təcrübəsi Qarabağın da gələcəkdə bu istiqamətdə turizm potensialını müəyyən edən mühüm faktorlardandır. Qarabağın yenidən inşası zamanı burada yaradılacaq ağıllı kənd və şəhərlər burada digər yerlərdə çox da asan olmayan turizm layihələrinin həyata keçirilməsi üçün əlverişli olacaq. Buraya Qarabağın zəngin təbii turizm ehtiyatlarını da əlavə etsək gələcəkdə burada tanışlıq-rekreasya məzmunlu yeni bir turizm modelindən danışmaq mümkünüdür. Tarixilik baxımından isə Qarabağda nostalgiya məzmunlu turların təşkili perspektivli sayılır.

İşğal sonrası Qarabağda kurort-sanatoriya müalicəsi üzrə də turizmin inkişafı perspektivlidir. Buna təsir göstərən amillərdən biri bölgədəki zəngin kurort və iqlim-su potensialıdırsa, digər bir mühüm faktor Qarabağın yenidən inşası zamanı əvvəlki dövrdən fərqli olaraq daha çox planlı infrastrukur yaradılması və antropogen yüklənmənin ilk dövrlərdə daha az olmasıdır. Kurort turizminə gəldikdə, onu qeyd edə bilərik ki, Qarabağ ölkəmizin mineral sularla zəngin bir bölgəsidir və bu da gələcəkdə keçmişdə olduğu kimi sağlamlıq turizminin inkişafına mühüm faktorlardan biridir. Burada 120-dən artıq mineral su mənbəyi vardır (6). Belə mineral su mənbələrindən ən məşhurları Şuşa rayonu ərazisindəki Turşsu və Şırlan bulaqlarıdır. Ümumilikdə, Qarabağın mineral bulaqları ilə birlikdə meşələri, dağları, iqlim şəraiti burada kurort-sağlamlıq turizm-rekreasiya komplekslərinin inkişafına yaxşı imkanlar açır. Burada Şuşa şəhərində balneoloji dağ-iqlim kurortunun yenidən canlandırılması işğaldan sonrakı dövr üçün də aktualdır. Eləcə də Kəlbəcər və Laçın rayonları ərazsindəki Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, habelə iqlim şəraiti, gözəl mənzərəli dağ meşələri gələcəkdə kurort-rekreasiya məqsədləri üçün istifadə oluna bilər. Ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarındakı mineral sular su sərfiyyatına görə ölkəmizdə ilk yerlərdən birini tutur. Dünyada analoqu olmayan İstisu bulaqları çox əhəmiyyətli müalicəvi xüsusiyyətlərə malikdir. Bu bulaqların potensial ehtiyatı ilə birlikdə onların yerləşdiyi ərazinin təbii cazibədarlıq xüçusiyyətləri burada keçmişdə olduğu kimi gələcəkdə də kurort-müalicə kompleksinin yaradılması üçün əlverişli təbii amillərdir. Belə ki, erməni işğalına qədər, 1990-cı illərədək burada İstisu kurort-müalicə sanatoriyası fəaliyyət göstərmişdi.

Qarabağda sağlamlıq və rekreasiya məzmunlu turizm səfərləri arasında gələcəkdə dünyada yaxşı tanınan Qarabağ atlarına minik, yaxud sırf atçılıq yarışları keçirilməsi baxımından çox cazibədar olan turizm layihələri haqqında danışmaq mümkündür. Qeyd edək ki, 2013-cü ildə Qarabağ minik atları ilə keçirilən Çövkən oyununun UNESCO-nun qeyri-maddi miras siyahısına salınması gələcəkdə Ağdamda və Şuşada cıdır düzündə belə yarışların beynəlxalq səviyyəli tədbirlərin də keçirilməsi perspektivini artırır. İşğaldan qabaq Qarabağ atlarının xilas edilərək Azərbaycanda saxlanılması buna imkan yaradır.

Gələcəkdə Ağdama təşkil olunacaq səyahətlər arasında Qafqaz Albaniyası dövrünə məxsus olmuş məbədlər, həmçinin Şahbulaq kəndindəki XVIII əsrə aid karvansara, XVII əsr aid Xanoğlan məqbərəsi, XVII əsrdə tikilmiş qədim məscid, Pənahəli xanın sarayı və məqbərəsi, Xaçıntürbətli kəndindəki XIV əsrin yadigarı olan "Qutlu Musa oğlu" məqbərəsi, XIX əsrə aid Natəvan və onun oğlunun türbəsi və digər çox sayda maddi-mədəniyyət nümunələrini qeyd edə bilərik.

Erməni işğalı nəticəsində "ruhlar şəhəri"nə dönmüş olan Fizuli rayonu Şimaldan Qubadlı, Şərqdən Cəbrayıl, cənubdan Araz çayı boyunca Iran Islam Respublikası, qərbdən isə Ermənistan ilə həmsərhəddir. Rayon 1959-cu ildə böyük şairimiz Məhəmməd Füzulinin 400 illik yubileyi münasibətilə Füzuli rayonu adlandırılmışdır. Erməni təcavüzü nəticəsində rayonun böyük bir hissəsi, 78 kənddən 58-i və rayon mərkəzi işğal olunub (4). "Dark tourism" növü bu rayon ərazisində təşkil oluna bilər.

Zəngilan rayonu iqtisadi və coğrafi baxımdan turizm üçün əlverişli imkanlara malikdir. Zəngilan təbii sərvətlər baxımından çox cazibədardır. Burada 107 hektar ərazisi olan Bəsitçay Dövlət Qoruğu, 2,2 min hektarda yerləşən Arazboyu yasaqlığı, 4 təbiət abidəsi, 10 min hektarlıq xüsusi

mühafizə edilən Araz palıd meşəsi, Yesentuki-4 suyuna tərkibcə uyğun gələn 4 mineral su mənbəyi vardır (5). İşğalçı Ermənistan Zəngilanda "ekoloji terror" törətməklə buradakı meşələrdən kəsdiyi ağacları Avropaya satıb.

Zəngilanın tranzit turizm potensialı onun Naxçıvan Muxtar Respublikasına ən yaxın quru sərhəddində olmasıdır. 2020-ci il noyabrın 10-da işğalçı Ermənistanın təslim olması ilə yekunlaşan üçtərəfli müqavilədə göstərildiyi kimi Zəngəzur dəhlizinin açılması ilə Zəngilandan Azərbaycanın Naxçıvan Muxtar Respublikasından Türkiyə Respublikasına, oradan da Avropaya açılan qərb istiqamətindəki quru yol mühüm turizm əlaqələri yaradacaq, ölkəmizə bu yolla gələcək turistlər Zəngilandan keçəcəklər. Ayrıca Zəngilan üzərindən İran İslam Respublikası ilə də iqtisadi əlaqələr yaradıla bilər.

Cəbrayılın turizm potensialı böyükdür. Buranın havası çox təmizdir. Keçmişdə insanlar buraya istirahət üçün, əsasən, avqustda gəlirdilər, rayon "Kiçik Soçi" adlanırdı. Cəbrayılda yaşı 200-1600 olan 14 iri Şərq çinarı və digər qiymətli ağaclar və Dağtumas kəndindəki "Divlər sarayı" adlanan mağara təbiət abidəsi kimi maraq doğurur. Rayonda turizm əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Diridağın təbiət guşələri olub (10).

Qarabağın turizm potensialı olan mühüm bir bölgəsi də Xankəndi şəhəridir. Fikrimizcə, məhz Xankəndinə turizm səfərləri vasitəsilə dünyaya erməni yalanlarının ifşa etmək mümkün olacaq. Belə ki, 1988-c ildə və ondan qabaqkı dövrlərdə Dağlıq Qarabağ bölgəsinin iqtisadi geriliyini bəhanə gətirib üsyan çıxarır və terror aktları törədən ermənilərin yalanlarına qarşı onun əslində bir zamanlar Azərbaycanın ən inkişaf etmiş regionlarından biri olduğunu sübut etmək mümkündür (10). Gələcəkdə Xankəndidə yaşamaq, Xankəndidə təhsil almaq istəyi ilə də insanların buraya axını olacağını demək mümkündür (11).

Şuşa Qarabağın ən strateji nöqtəsi, mühüm yaşayış məntəqəsi və Azərbaycanın mədəniyyət paytaxtı kimi keçmişdə sahib olduğu turizm potensialından daha artıq bir cazibə gücünə malikdir. 28 ilə yaxın bir müddətdə erməni işğalından vurulmuş zərərlərin bərpasından sonra Şuşanın daha güclü turist axınına uğrayacağını proqnoz etmək olar (2). Çünki bütün Azərbaycan xalqı, xaricdə yaşayan Azərbaycan diasporası nümayəndələri illərlə həsrətində olduğu yerləri gəzmək, görmək istəyir. Şuşa bütün azərbaycanlılar üçün simvolik olaraq müqəddəs bir ocaq olaraq ziyarət dəyəri də daşıyır.

Nəticə

Gələcəkdə Qarabağda inkişaf etdiriləcək turizm növlərinə gəldikdə, qeyd etmək olark ki, burada ekoturizm, tanışlıq, kurort turizmi, atla gəzinti turizmi, tanınmış şəxsiyyətlərin adı ilə bağlı olan yerlərə olan səyahət və ekskursiyalar maraqla qarşılanacaq. Xüsusilə, gələcəkdə Qarabağda mədəniyyət və tanışlıq məzmunlu turlar zamanı buradakı qədim Qafqaz Albaniyası dövründə inşa olunmuş xristian abidələrinin öz əsl kimliyi ilə təqdim olunmasını işğal dövründə ermənilər tərəfindən hay-küylə erməni abidələri kimi tanıdılmasının tamamən çaşdırıcı və yalan olduğunu ifşa etmək baxımından çox zəruri və əhəmiyyətli bir məsələ olacağını də düşünmək olar (8).

ƏDƏBİYYAT

1. Cabbarov Ə. "Dark" turizm - erməni işğal sonrası Şuşa şəhərində perspektiv turizm növü kimi. "Şuşanin sosial-iqtisadi dirçəldilməsi– azərbaycanin tərəqqisinin yeni zirvəsidir" adlı ümumrespublika elmi məqalə müsabiqəsinin elektron məqalə toplusu 284 s. s.12-16 https://unec.edu.az/application/uploads/2022/03/u-a-li-M-sabiq-kitab_yeni_versiyada.pdf
2. Cabbarov Ə. Bakı-Xankəndi-Şuşa turizm marşrutu. Şərq Qapısı qəzeti 9 noyabr 2020-ci il http://www.serqqapisi.az/index.php/dzabbarov-aeli/27892-bak-khankaendi-shusha-turizm-marshrutu.html https://azerbaijan.travel/qarabag
3. Füzuli rayonunun əsir abidələri. http://www.dqdk.gov.az/az/view/objects/7 Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin saytı

4. Əhmədova V. Zəngilanın inanılmaz təbii sərvəti https://teleqraf.com/news/iqtisadiyyat/265711.html
5. Rəşid L. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. "Xalq" Qazeti 9 dekabr 2020-ci il. https://xalqqazeti.com/mobile/az/news/65710
6. Агдам – "Город – призрак". Город, известный своей "бормотухой" на весь СССР. https://zen.yandex.ru/media/d1als/agdam-gorod-prizrak-gorod-izvestnyi-svoei-bormotuhoi-na-ves-sssr-5b9c335dc3cbc000ab1411a5
7. Amerikanın Azərbaycandakı səfiri Metyu Brayza. "Ağdamda gördüklərim məni dəhşətə gətirdi" https://news.milli.az/society/358384.html
8. https://yolumuzqarabaga.az/ Qarabağa turizm səfərlərinin təşkili üzrə portal
9. Musayev A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinda turizmin perspektivli investisiya imkanlari http://www.ejsr.org/files/arxiv/Jurnal_Nomre_20_2022/4.pdf
10. Qarabağ Universitetinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 28 noyabr 2023. https://president.az/az/articles/view/62346

SUMMARY

Hinde Gulmammadova

DEVELOPMENT OF PERSPECTİVE TYPES OF TOURİSM İSSUES İN KARABAKH İN THE NEW POST-OCCUPATİON PERİOD

Tourism is a complex field, in which the organization and management of services offered to tourists, the rational use of the tourism resources of the region, the protection of ecological interests, the creation of modern infrastructure and human resources, and at the same time the design of tours created on existing tourist routes are closely related. Such issues are relevant in our country and its regions of Karabakh and East Zangezur, which were freed from the 30-year Armenian occupation. This article studies the types of tourism that can be developed in Karabakh after the Armenian occupation.

Key words: *Azerbaijan, tourism, Karabakh, Armenian occupation*

ELMƏDDİN HİLALLI
elmeddinh005@gmail.com
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNDƏ VƏTƏNDAŞLIQ İNSTİTUTUNUN FORMALAŞMASI VƏ İNKİŞAFI

Vətəndaşlıq institutu son dərəcə mühüm əhəmiyyət kəsb edir, çünki həm siyasi, həm də hüquqi baxımdan zəruridir. Dünyanın müxtəlif ölkələrinə, cəmiyyətlərinə, mədəniyyətlərinə diqqət yetirdikdə, vətəndaşlığa verilən müxtəlif anlayışların və yanaşmaların şahidi oluruq. Vətəndaşlıq anlayışının tərifl ərinin çoxluğu, öyrənilməsinə müxtəlif yanaşmaların mövcudluğu məzmunundakı davamlı dəyişikliklərlə də izah olunur. Vətəndaşlığın məzmunu və orada baş verən proseslər dövlətin inkişafının konkret tarixi şərtlərinin təsiri altındadır.

Azərbaycan vətəndaşlığı anlayışı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu ildə yaranıb. Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında əsasnamə 23 avqust 1918-ci ildə ADR tərəfindən qəbul edildi. Azərbaycanda vətəndaşlıq inistitutunun inkişafı dövlət müstəqilliyin bərpa edilməsindən sonra sistemli şəkildə davam etdirilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan Respublikası vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanunu vətəndaşlıq hüquq münasibətlərini tənzimləyən milli qanunvericiliyin formalaşmasında müstəsna rol oynamışdır.

Açar sözlər: *vətəndaşlıq, vətəndaşlıq haqqında qanun, vətəndaşlığın inkişafı, vətəndaşlıq siyasəti, konstitusiya, xarici vətəndaş, vətəndaşlığı olmayan şəxs*

Azərbaycan Respublikasının vətəndaşlığının anlayışı. Vətəndaşlıq institutu ilk dəfə Qədim Yunanıstanda meydana gəlmişdir. Qədim Yunanıstanda vətəndaşlar dövlətin işlərində iştirak etmək hüququ olan şəxslər idi. Vətəndaşlıq hüquq institutundan bəhs etməzdən əvvəl, "vətəndaş" və "təbəə" terminlərinə diqqət yetirək. Hüquq nəzəriyyəsində "vətəndaş" və "təbəə" terminləri bir çox hallarda sinonim söz kimi işlədilir. Lakin bu terminlər arasında müəyyən fərqlər mövcuddur. Vətəndaşlıq hüquq münasibətinin subyektləri vətəndaş və dövlətdir. Vətəndaş hüquqlara malik olduğu kimi eyni zamanda dövlət qarşısında müəyyən vəzifələr daşıyır. Təbəə isə dövlət qarşısında vəzifələr daşıyır, hüquqlara malik olmur. Bu baxımdan yanaşsaq, təbəə termini daha çox monarxiya idarəetmə formasına xas olan anlayışdır.

Vətəndaşlıq institutu son dərəcə mühüm əhəmiyyət kəsb edir, çünki həm siyasi, həm də hüquqi baxımdan zəruridir. Vətəndaşlıq dövlət ərazisində şəxsin hüquqi statusunun əsaslarının strukturunu və məzmununu müəyyən edən mühüm hüquqi kateqoriyadır. Məhz vətəndaşlıq fərdlə dövlət arasında məkan baxımından sabit və zaman baxımından davamlı hüquqi əlaqənin yaranmasına, onların qarşılıqlı ictimai hüquq və vəzifələrinin məcmusunu bərqərar etməyə kömək edir (4, s. 54-57).

Vətəndaşlığın konseptual aparatı müxtəlif elmi yanaşmalarla zəngindir. Azərbaycan dövlət hüququnda bu anlayışın terminoloji xüsusiyyətlərinə dair fikirlərin inkişafı bir sıra hüquqşünas alimlərin tədqiqatının predmeti olmuşdur. Ziyafət Əsgərov, Elşad Nəsirov, Ceyhun Qaracayev, Əmir Əliyevin bu mövzu ilə bağlı müxtəlif araşdırmaları mövcuddur.

Konstitusiya hüququ elmində vətəndaşlıq dedikdə – bir insanın dövlətlə hüquqi əlaqəsi başa düşülür, buna görə həm dövlət daxilində, həm də hüdudlarından kənarda suveren dövlət hakimiyyəti bir şəxsə şamil olunur. Dövlət, vətəndaş dövlət xaricində olsa da, vətəndaşdan vəzifələrini yerinə yetirməsini tələb edə bilər. Eyni zamanda dövlət öz vətəndaşlarını harada olursa-olsun qorumalı, onlara yardım və himayə etməlidir (5, s.72).

Vətəndaşlıq hüquq institutuna konstitusion müstəvidə diqqət yetirsək, Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsində hakimiyyətin mənbəyindən bəhs olunur. Həmin maddənin ikinci hissəsində qeyd olunur: "Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və

ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir" (1).

Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində definitiv norma müəyyən olunub və həmin normada vətəndaşlığa anlayış verilir. "Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır" (1). Bu müddəada vətəndaşlığın əlamətləri müəyyən olunub.

Birinci əlamət – Azərbaycan dövlətinə mənsub olmaq. "Dövlətə mənsubiyyət" və "vətəndaşlıq" anlayışları nəzəriyyədə bəzən sinonim sözlər kimi işlədilir. Lakin bu anlayışlar arasında fərqlər mövcuddur. Belə ki, vətəndaşlığın anadangəlmə əldə edilməsi bir qayda olaraq, 2 prinsipə əsaslanır. "Torpaq hüququ" prinsipi müəyyən ölkə ərazisində doğulma zamanı vətəndaşlıq əldə etmədir. "Qan hüququ" prinsipi isə fərdin anadangəlmə, yəni doğulma zamanı valideyinlərdən birinin vətəndaşlığını əldə etməsidir. Lakin vətəndaşlıq bu prinsiplərlə və ya digər bioloji xüsusiyyətlərlə şərtləndirilmir.

İkinci əlamət – dövlətlə siyasi və hüquqi cəhətdən bağlılıq. Siyasi bağlılıq əlaməti onu ifadə edir ki, vətəndaş dövlətlə siyasi münasibətlərə daxil olur, yəni o konstitusiyada təsbit olunmuş bəzi hüquqlarla dövlətin siyasi fəaliyyətində iştirak edir. Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində vətəndaşların dövlətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirak etmək hüququ təsbit olunub. Bu hüquqların realizəsinin müəyyən bir hissəsi seçkilər vasitəsilə həyata keçirilir. Hüquqi bağlılıq onu ehtiva edir ki, vətəndaşlar Azərbaycan Respublikası qanunlarına tabedir. Qanunvericiliklə nəzərdə tutulmuş hüquqlara malikdir və vəzifələr daşıyırlar. Eyni zamanda vəzifələrin pozulması və yerinə yetirilməməsinə görə qanunvericiliklə müəyyən edilmiş məsuliyyət daşıyırlar.

Üçüncü əlamət – qarşılıqlı hüquq və vəzifələrə malik olmaq.

Vətəndaşlığın daxili məzmununu əks etdirən vacib xüsusiyyətlərə aşağıdakılar daxildir:

- əlaqənin sabitliyi;
- vətəndaş və dövlət arasında hüquqi əlaqənin olması;
- qarşılıqlı hüquq və vəzifələrin məcmusunda əlaqənin ifadəsi.

Vətəndaşlığın davamlılığı (sabitliyi) onun vacib xüsusiyyətlərindən biridir, yəni vətəndaşlıq daim mövcuddur və müxtəlif xarici amillərin birbaşa təsirinə məruz qalmır. Bu, bir insanın və dövlətin xüsusi "şəxsi əlaqəsi", onun məzmununu təşkil edən hüquq və vəzifələrin sabitliyi ilə əlaqədardır. Vətəndaşlığın davamlılığı məkan və zamandadır. Birincisi, şəxsin yerləşdiyi yerdən asılı olmayaraq – vətəndaşlıq dövlətinin ərazisində və ya onun hüdudlarından kənarda – hər iki halda qarşılıqlı hüquq və vəzifələri var. Əlbəttə ki, dövlətdən kənarda olmaq çox vaxt vətəndaşın müəyyən hüquq və vəzifələrinin həyata keçirilməsinin dayandırılmasına gətirib çıxarır, lakin onların fəaliyyəti dayanmır. Onlar bu vətəndaşlığın məzmununun tərkib hissəsi olmağa davam edir və vətəndaş mənsub olduğu dövlətə qayıtdıqda hüquq və vəzifələr tam həcmdə bərpa olunur.

Dövlətin müxtəlif hüquqi əlaqələri onun ərazisində olan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərlə də yarana bilər. Ancaq öz vətəndaşlarından fərqli olaraq, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərlə hüquqi əlaqə yalnız dövlətin ərazisində olduğu zaman baş verir və tərk etdiyi andan dayandırılır, yəni faktiki, keçid xarakterlidir.

Vətəndaşlıq, vətəndaşlarla dövlət arasındakı hüquqi əlaqə olaraq, dövlətin ərazi-məkan sərhədləri ilə əlaqələndirilmir, yəni universal, hərtərəfli və xüsusi bir xarakter daşıyır. Vətəndaşlığın növbəti vacib xüsusiyyəti vətəndaşın və dövlətin qarşılıqlı hüquq və vəzifələrinin məcmusunun olmasıdır. Vətəndaşlıqla əlaqəli münasibətlərin məzmunu ümumbəşəri dəyərlərin prioritetinin tanınmasından irəli gəlir. Bir şəxsə bir sıra hüquq və vəzifələr verilir və dövlət hüquqi qorunma təmin etmək öhdəliyini götürür.

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş müddəaya əsasən, vətəndaşlıq hüququ insanın təbii və ayrılmaz hüquqlarından biridir. Konstitusiyada Azərbaycan Respublikası

vətəndaşının öz vətəndaşlığından və ya onu dəyişdirmək hüququndan məhrum edilə bilməyəcəyi müəyyən edilib.

Vətəndaşlığın təminatı Konstitusiyanın 53-cü maddəsində öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycan qanunvericiliyi vətəndaşlıqdan məhrum etmə institutunu tanımır. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlikləri, konsulluqları, diplomatik nümayəndəlikləri və beynəlxalq təşkilatlar vasitəsilə vətəndaşların hüquqi müdafiəsi təmin olunur.

Vətəndaşlıq haqqında Azərbaycan qanunvericiliyinin inkişafı. Azərbaycan vətəndaşlığı anlayışı ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu ildə yaranıb. Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında əsasnamə Cümhuriyyət Hökuməti tərəfindən 23 avqust 1918-ci ildə qəbul edildi və növbəti il qanun qəbul olunana qədər qüvvədə idi. Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında qanun 11 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmişdir. 4 bölmədən ibarət olan Qanun vətəndaşlığın müəyyənləşdirilməsi, vətəndaşlığın verilməsi və vətəndaşlığın itirilməsi məsələlərini tənzimləyirdi. Qanunda Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığını qəbul etmiş bütün insanların sədaqət andı içmələri lazım olduğu müvafiq bənd var idi. 11 avqust 1919-cu il tarixli "Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşlığı haqqında" qanun ilə Azərbaycan ərazisində daimi yaşayan bütün şəxslər və Azərbaycan vətəndaşlarından doğulmuş şəxslər üçün vahid vətəndaşlıq təsbit edilmişdir. Qanunla Azərbaycan vətəndaşlığının əldə edilməsi əsasları və qaydası müəyyən edilmişdi. Vətəndaşlıq almaq istəyən şəxslər qanunla müəyyən edilmiş qaydada ərizə ilə müvafiq orqana müraciət etməli idi. Vətəndaşlıq almış şəxs sədaqət andı içməli, andı qəbul etməyən isə and ilə eyni məzmunda təntənəli surətdə söz verməli idi.

18 oktyabr 1991-ci tarixində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Dövlət müstəqilliyini bərpası ilə bağlı qəbul edilmiş tarixi sənəd vətəndaşlıq münasibətlərini tənzimləyən normaları da özündə əks etdirmişdir.

Konstitusiya aktının 17-ci maddəsinə əsasən, Azərbaycan Respublikası bütün vətəndaşların mənafelərinin qanuna əsasən uzlaşdırılmasının təmin edilməsi, vətəndaşlara yaşayış sahəsi və fərdi mənzil tikintisində köməklik göstərilməsi, vətəndaşların müxtəlif qəsdlərdən müdafiə edilməsi, həmçinin vətəndaşların sağlamlığının qorunması öhdəlikləri daşıyır.

Aktın 18-ci maddəsində "vahid vətəndaşlıq" prinsipi təsbit olunur. Vətəndaşlıq hüquq münasibətlərini subyektləri qarşılıqlı vəzifələr daşıyır, yəni dövlət vətəndaş qarşısında vətəndaş isə dövlət qarşısında qanunla müəyyən edilmiş vəzifələr daşıyır.

12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Konstitusiyada geniş yer verilmiş əsas vətəndaş hüquq və azadlıqlardan biri də vətəndaşlıq hüququdur. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikası vətəndaşlığına anlayış verir. Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır (1).

Həmçinin Konstitusiyanın 53-cü maddəsində vətəndaşlıq hüququnun dövlət müdafiəsindən bəhs olunur. Harada olmasından asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsi tənim edilir.

Azərbaycan Respublikasının vətəndaşlığı haqqında qüvvədə olan qanun 30 sentyabr 1998-ci ildə ümummilli lider Heydər Əliyev təşəbbüsü ilə qəbul edilmişdir. Sonrakı illərdə (2005, 2008, 2014, 2015, 2017, 2018 və 2019) qanuna müvafiq dəyişikliklər edilməklə qanun daha da təkmilləşdirilmişdir.

Qanun Azərbaycan vətəndaşlığının hüquqi məzmununu, onun əldə edilməsi və xitam verilməsi əsaslarını və qaydalarını, vətəndaşlıq məsələlərinin həllində iştirak edən dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərini, vətəndaşlıq məsələlərinə dair qərarlardan, dövlət hakimiyyəti orqanlarının və vəzifəli şəxslərin hərəkət və ya hərəkətsizliyindən şikayət vermə qaydasını müəyyən edir (2).

Qanun 5 fəsil və 26 maddədən ibarətdir. Birinci fəsildə Ümumi müddəalar təsbit olunur. İkinci fəsildə Azərbaycan vətəndaşlığının alınması və bərpası ilə bağlı müddəalar, Üçüncü fəsildə Azərbaycan vətəndaşlığına xitam verilməsi şərtlərini müəyyənləşdirir. Valideynlərin vətəndaşlığını dəyişdikdə və övladlığa götürmə halında uşaqların vətəndaşlığı dördüncü fəsildə tənzimlənir. Son fəsildə isə vətəndaşlıq məsələləri ilə bağlı beynəlxalq hüquq normalarının hüquqi qüvvəsi müəyyən edilib. Qanunla Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq normalar arasında ziddiyyət olduqda, beynəlxalq normalara üstünlük verilir.

2013-cü il 1 avqust tarixində Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi qüvvəyə minmiş və həmin Məcəllənin təkmilləşdirilməsi istiqamətində bu günə qədər qanuna müvafiq dəyişikliklər edilmişdir. Miqrasiya Məcəlləsinin qüvvəyə minməsi ilə "Vətəndaşlıq münasibətləri"ni tənzimləyən normaların təkmilləşdirilməsi və inkişafı prosesi davam etdirilmişdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi "Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərini və bu sahədə yaranan münasibətlərin tənzimlənməsini, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı normaları müəyyənləşdirir" (3).

Miqrasiya Məcəlləsinin 3-cü fəslində Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi və ölkəyə qayıtması hüququ, bu hüququn həyata keçirilməsi qaydası, həmçinin Azərbaycan Respublikası ərazisindən kənarda yaşayan vətəndaşların hüquqlarının Azərbaycan dövləti tərəfindən müdafiəsi ilə əlaqədar münasibətləri tənzimləyən normalar müəyyən edilmişdir.

Bir qayda olaraq, vətəndaşlıq fərdin dövlətlə əlaqəsi şəklində müəyyən edilir, lakin eyni zamanda cəmiyyətin müəyyən bir vəziyyətini təmsil etdiyi aydındır. Buna görə vətəndaşlıq yalnız dövlət və hüquq institutu kimi deyil, həm də sosial-mədəni, mənəvi və psixoloji bir institut kimi qəbul edilməlidir. Vətəndaşlığın hüquqi təbiətinə hüquq institutu, hüquqi münasibətlər, hüquqi vəziyyət və subyektiv hüquq daxildir. Bir şəxsin hər hansı bir dövlətin vətəndaşı hesab edilməsi üçün vətəndaşlığın sənədli sübutu lazımdır (6, s.45).

Beləliklə, vətəndaşlıq institutunun prinsipləri ümumiyyətlə hüquq prinsiplərinin daha ümumi probleminin bir hissəsi kimi qəbul edilə bilər. Prinsiplər ictimai münasibətlərin bu sahəsini tənzimləyən hüquq normalarının vəhdətini və əsas inkişaf meyllərini xarakterizə edən əsas fikirlər, rəhbər prinsiplərdir. Cəmiyyətin inkişafının obyektiv qurulmuş qanunlarını əks etdirir, dövlət siyasətinin məzmunundan irəli gəlir və hüquq sahəsinin ümumiləşdirilmiş təsvirini ehtiva edir.

Ümumilikdə Azərbaycanda vətəndaşlıq institutunun inkişafı vətəndaşlığın əldə edilməsi və məhrum edilməsi prosesində qanunçuluğun və ədalətin təmin edilməsinə, habelə bu sahədə vətəndaşların hüquq və azadlıqlarının qorunmasına yönəlmişdir.

Bu kontekstdə ədalətin təmin edilməsi və bütün vətəndaşların hüquqlarının müdafiəsi üçün bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi davam etdirilir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2016. Qanun, 48 s.
2. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 30 sentyabr 1998-ci il, № 527-IQ
3. Azərbaycan Respublikasının Miqrasiya məcəlləsi. Bakı: 2022. Qanun, 160 s.
4. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik / Əsgərov Z. Bakı: 2011. Bakı Universiteti Nəşriyyatı, 760 s.
5. Dəmirov A.H. Azərbaycan Respublikasının Konstitusiyası və Hüququn Əsasları. Dərs vəsaiti. / Dəmirov A.H., İsmayılov Ş.N., Hüseynov Q.F. Bakı: 2010. Mütərcim, 196 s.
6. Cəfərov.İ. Azərbaycan Respublikası konstitusiyasının şərhi, "Hüquq Ədəbiyyatı" nəşriyyatı. Bakı: 2013

SUMMARY

Elmeddin Hilallı

THE LEGAL STATUS OF THE AZERBAIJANI LANGUAGE DURING THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC AND THE AZERBAIJAN SSR

The institution of citizenship is extremely important because it is both politically and legally necessary. When we pay attention to different countries, societies, and cultures of the world, we witness different concepts and approaches to citizenship. The multiplicity of definitions of the concept of citizenship, the presence of different approaches to its study is also explained by the continuous changes in its content. The content of citizenship and the processes taking place in it are influenced by the specific historical conditions of the development of the state.

The concept of Azerbaijani citizenship was created for the first time in the year of the existence of the Azerbaijan Democratic Republic. The statute on the citizenship of the Azerbaijan Democratic Republic was adopted by the ADR government on August 23, 1918. The development of the citizenship institute in Azerbaijan was systematically continued after the restoration of state independence. The Law of the Republic of Azerbaijan "On Citizenship of the Republic of Azerbaijan", adopted at the initiative of the great leader Heydar Aliyev, played an exceptional role in the formation of the national legislation regulating citizenship legal relations.

Key words: *citizenship, citizenship law, development of citizenship, policy of citizenship, constitution, foreign citizen, stateless person*

GÜLCAN ƏLİZADƏ
elizadegulcan27@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-6386-8815

GƏNC AİLƏNİN ÇƏTİNLİKLƏRİNİN XARAKTER XÜSUSİYYƏTLƏRİ

Gənc ailələrdə özünü göstərən çətinliklərin bir səbəbi də ər və arvadın birgə həyat tərzinə və bir-birlərinə zamanla uyğunlaşa bilməməsi,yaxşı bələd olaraq tanıya bilməməsidir.Ailənin mənəvi-psixoloji mühitinə gənc ər-arvadın maraqları, tələbatları,onların hansı sahələrə yönələrək istiqamətlənməsi,bir-birilə uzlaşaraq anlaşa bilməsi ciddi təsir göstərir.Ər və arvadın ümumi maraqlarla yaşaması ailədə əmin-amanlığın,normal yaşayışın çox mühüm şərtidir.Ümumi maraqların yaradılmasına əsasən ailə üzvlərini birləşdirən,onlara sevincli anlar,dəqiqələr,müsbət emosiyalar bəxş edən amillər təsir göstərir.

Açar sözlər: *Ailə,həyat tərzi, psixoloji mühit, anlaşma, çətinliklər*

Şəxsiyyətin sosiallaşmasının mühüm bir istiqaməti ailənin sosiallaşmasıdır. Bura gənclərin ailə həyatına hazır olmaları, valideynlərin ailə münasibətlərini doğru qurmaları ailənin funksiyalarını düzgün həyata keçirmələri ilə bağlıdır. Sosial-psixoloji tədqiqatlar göstərir ki, gənclərin ailə həyatına hazırlanmaları heçdə hər zaman lazımi səviyyədə özünü göstərmir.Nəticədə isə gənc ailələr bir çox çətinliklərlə qarşılaşır.Ailədəki gərginlik bəzən son həddə olan boşanmaya səbəb olur.

Alimlərdən A.Q.Xarçov, V.A.Qruşin və başqaları apardıqları tədqiqatlara görə boşanmaların 30%-i ailə həyatının ilk dörd-beş ilində baş verir.Apardığımız tədqiqatlarda gənc ailələrdəki boşanmaların nisbətən yayılan əsas səbəbləri əsaslı şəkildə müəyyən edilmişdir.Onları aşağıdakı kimi qruplaşdırmışıq:

a) Gələcək ailə quracağımız həyat yoldaşının seçilməsinə və nigaha qeyri-ciddi münasibət

b) Xarakter əlamətlərinin, maraqların, tələbatların, işlər və arzuların uyğun gəlməməsi

c) Ailə üzvləri arasında qarşılıqlı münasibətlərin qurulmasındakı çətinliklər. Buraya eqoizm,digər ailə üzvlərinə qarşı dözülməz münasibəti göstərmək lazımdır.

d) Məişət təsərrüfat həytının lazımi səviyyədə, həyat şəraitinin əlverişli şəkildə olmaması

e) Ər-arvadın etdikləri xəyanət, kişinin və ya qadının spirtli içkilərə meyl etməsi, sərxoşluq halı və.s amillər

Apardığımız müşahidələr göstərir ki, gənc ailələr müəyyən xarakterik çətinliklərlə qarşılaşmaları qaçınılmazdır.Yeni-qurulan ailələrdə belə çətinliklər daha çox özünü biruzə verir: Ailənin maddi vəziyyəti və bundan qaynaqlanan çətinliklər; xarakterdə, mənəvi dəyərlərdə və bir-birlərini qiymətləndirmədə olan çətinliklər; uşaqlara qarşı və onların tərbiyə edilməsində, özünü biruzə verən çətinliklər və s.

Gənc ailələrdə yeni ailə quran zaman gənclərin xarakterləri, xarakter əlamətlərindəki nöqsanlardan olan kobudluq, eqoizm, inadkarlıq, tərslik və s. tez bir zamanda qabarıq şəkildə üzə çıxır.Çox zaman təzə gəlin atası evində olan davranışı gəlin gəldiyi ailəyə gətirir; ərköyünlük edir, təzə qohum-əqrəbalarına, əsasən də qaynana və qaynatasına soyuq münasibət göstərir. Çox zaman həyat yoldaşını qaynana və qaynatasından ayırmaq istəyir. Gəlin ər evinə qarışıqlıq salmaq, onları bir-birlərindən ayırmaq üçün yox, iki nəsli birləşdirmək və mehriban münasibət yaratmaq üçün gəlir. "Evlənmək"- ev, ailə qurmaq mənasını verir. Onu parçalamaq, dağıtmaq yox.

Gənclər ailə həyatı qurduqdan sonra bir-birlərini yenidən tərbiyə etməyə, xasiyyətlərini dəyişməyə cəhd göstərirlər. Gənc ər-arvad fikirlərini güclə bir-birlərinə qəbul etdirməyə çalışırlar. Bir-birlərinin acığına öz mövqelərindən geri çəkilməməyə, inadkarlıq, tərslik etməyə, hər biri ailədə hakim mövqe tutmağa çalışırlar.

Qadının və ya gəlinin ailədə hökmranlıq etməsi,kişinin rolunu oynaması, əlbəttə, əgər bu qarşılıqlı razılığa əsaslanmırsa, deməli milli mentalitetimizə uyğun deyil. Necə deyərlər: bir evdə iki kişi ola bilməz, hər kəs öz rolunu oynamağı bacarmalıdır.

Ailənin başçısı sizcə necə olmalıdır?

Ailədəki yaşanılan çətinliklərin hər bir qismi ailədə səlahiyyətlərin bölgüsü modeli haqqında düzgün təsəvvürlərin formalaşmasından çox asılıdır.

Sosial-psixoloji tədqiqatlar aparan görkəmli alimlərdən Ə.Əlizadə, A.Abbasov, E.Tiyut, V.Ukolova bu məqsədə ailə münasibətlərinin xarakterik tiplərini müəyyən etmişlər. Bunlara aşağıdakılar aiddir:

1. Ənənəvi
2. Assimetrik
3. Simmetrik ailə tipləri

Bu ailə tiplərinin xarakter xüsusiyyətləri hansılardır?

Ənənəvi ailə tipində ailəyə kişi başçılıq edir. Kişi evin çörək qazananı, necə deyərlər evin direyi, qadın isə evin sahibəsi, xanımı rolunu oynayır.

Assimetrik ailə tipində isə ailənin başçısı həm ər, həm də arvad ola bilər.Mənəvi nüfuzu yüksək olan qadınlar çox vaxt ailəyə başçılıq edirlər.Ailənin qalan digər üzvləri, o cümlədən kişi, qadını başçı kimi qəbul edir, eyni zamanda özü könüllü olaraq ona tabe olur.

Simmetrik ailə tipi isə ər və arvadın bərabərliyinə əsaslanan ailə tipidir.Ər və arvad ailə təssərrüfatını birgə idarə edir, öz aralarında könüllü olaraq iş bölgüsü aparırlar: Həmçinin ailənin əsas və həlledici məsələlərini bir yerdə həll edirlər.

Hansı ailənin tipinin seçilməsi gənc ailənin strukturundan asılı olaraq həll edilir. Ailə tipinin seçilməsi ailə münasibətlərinin xüsusiyyətlərindən ər və arvadın xarakterindən və.s asılı olaraq da müəyyən olunur. Ünsiyyət mədəniyyətinin aşağı səviyyədə olması gənc ailədə bir sıra çətinliklərin yaranmasına səbəb olur.Bu səbəbdən ailədə əsəbi şərait yaranır, xırda bir məsələ üstündə söz-söhbət olur.Ər və arvad normal ünsiyyət qura bilmir, kobudluq edir, bir-birinə ağır söz işlədir, biri birinin qanını qaraldırlar.Belə vəziyyət ailədəki münasibətlərlə yanaşı ailənin mənəvi-psixoloji iqliminə, qohumluq münasibətlərinə də xələl gətirir.Bunların qarşısının alınması mümkündür.

Bunun üçün qadın və kişi bir-birinə diqqət və qayğı ilə yanaşmalı, çətin vəziyyətlərdən səbr və dözüm göstərərək çıxmağı bacarmalıdırlar.Həmçinin bir-birlərinə güzəştə getməlidirlər.

Ər və arvad bir-birlərinə sakit, mülayim tonda müraciət etməli, kobud, əmr tonu ilə danışmağı birdəfəlik aradan qaldırmalıdırlar.Yumşaq tonda danışmaq, asta tonda deyilmiş söz, şirin dil əsəbi adamı sakitləşdirir,onu mülayim danışmağa yönləndirir.Qadınlar kişilərdən xoş sözlər eşitməyi sevir, ona qarşı nəzakətlə müraciət etməyi həsrətlə gözləyirlər.Məhz bunun üçün də kişi qadına xoş sözlər deyərək müraciət etməli, qadın isə kişiyə cazibədarlıq incəlik, zəriflik, şuxluq bəxş etməyi bacarmalıdır.El arasında belə bir söz var: “Qadın qulaqları ilə, kişi isə gözləriylə sevir.” Qadının əhval-ruhiyyəsi bütövlükdə ailənin əhvalından xəbər verir.Yaxşı deyirlər: “Qadın güləndə bütün ailə gülür,onun qanı qaralanda bütün ev zülmətə bürünür.”

İllər keçsədə insanın zahiri gözəlliyi bir qədər azalır.Lakin daxili gözəllik isə daha da zənginləşir.İllər keçməsinə baxmayaraq ər və arvadı bir-birinə bağlayan məhz onların daxili gözəlliyidir, gözəl və səmimi xarakteridir.

Atalarımız çox gözəl demişdir: “Gözəldən 40 günə doymaq olar, amma gözəl xasiyyətdən 40 ilə də doymaq olmaz (3.s.191).

Bunun üçün də ər və arvad daxili aləmlərində var olan gözəlliyi qoruyaraq saxlamalı, bir-birlərinə daim xoş hisslər, müsbət emosiyalar bəxş etməyə hər zaman çalışmalıdırlar.Bu isə ailənin xoşbəxt və uzunömürlü olmasına şərait yaradır.

Gənc ailələrdə özünü göstərən çətinliklərin bir səbəbi də ər və arvadın birgə həyat tərzinə və bir-birlərinə zamanla uyğunlaşa bilməməsi, yaxşı bələd olaraq tanıya bilməməsidir. Sosial-psixolji tədqiqatlar göstərir ki, psixolji-mənəvi uyğunlaşmanın uğurlu olması üçün üç əsas şərtə diqqət edilməsi zəruridir:

1) Ər və arvad,ailə üzvləri arasında emosional yaxınlıq, yəni bir-birinə yaxşı ovqat, müsbət emosiyalar bəxş edərək aşılamaq.

2) Qarşılıqlı anlama, bir-birlərini başa düşmək, bir-birinin fikirlərinə hörmətlə yanaşmaq.

3) Davranışda qarşılıqlı təsir, müsahibəni diqqətlə dinləmək, fikir bitməmiş dərhal cavab verməmək, bir-birlərinə diqqət və həssaslıq göstərmək.

Göstərilən bu şərtlərlə ailə həyatında ər və arvadın ünsiyyət və davranışında ümumi ahəng,müsbət mənəvi-psixoloji mühit yaratmaq mümkün olar.

Ailə əsl səmimilik, mehribanlıq, qayğıkeşlik tərbiyəsi məktəbidir: anaya, ataya, babaya, nənəyə, qardaşlara və bacılara münasibət insaniyyətinin sınağıdır (2.s.10).

Ailənin mənəvi-psixoloji mühitinə gənc ər-arvadın maraqları, tələbatları, onların hansı sahələrə yönələrək istiqamətlənməsi, bir-birilə uzlaşaraq anlaşa bilməsi ciddi təsir göstərir. Ər və arvadın ümumi maraqlarla yaşaması ailədə əmin-amanlığın, normal yaşayışın, çox mühüm şərtidir. Ümumi maraqların yaradılmasına əsasən ailə üzvlərini birləşdirən, onlara sevincli anlar, dəqiqələr, müsbət emosiyalar bəxş edən amillər təsir göstərir. Uşağı birlikdə tərbiyə etmək, uşaqların qayğılarını birlikdə çəkmək, nənə və babanın üzərinə atmamaq, eyni zamanda birgə maraqlı tədbirlərin, ailə çətinliklərinin, ənənələrinin həyata keçirilməsi ümumi maraqların yaşaması üçün təsirli vasitədir.

ƏDƏBİYYAT

1. Hüseynzadə R., İsmayılov M. “Tərbiyə işi və onun metodikası”. Bakı: 2012, 294 s.
2. İsmixanov M., Vəliyeva S. Sosial pedaqogika. Bakı: 2013,186 s.
3. Hüseynzadə R., Allahverdiyeva L. Ailə pedaqogikası. Bakı: 2016, 208 s.
4. Pedaqoji Universitet xəbərlər, No:4. 2000

SUMMARY

Gulcan Alizade

CHARACTERISTICS OF THE DIFFICULTIES OF A YOUNG FAMILY

One of the reasons for the difficulties that appear in young families is the husband and wife's inability to adapt to their joint lifestyle and to each other over time, and their inability to recognize each other as good friends. the ability to reconcile and understand has a serious effect. Husband and wife living with common interests is a very important condition for peace and normal life in the family. Factors that unite family members and give them happy moments, minutes, and positive emotions influence the creation of common interests.

Key words: *Family, lifestyle, psychological environment, understanding, difficulties*

İNCİ PAŞAYEVA
Naxçıvan Dövlət Universiteti

MÜASİR SOSİALLAŞMA ŞƏRAİTİNDƏ UŞAQLARDA SOSİAL NORMALAR HAQDA BAXIŞLARIN FORMALAŞDIRILMASI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" fərmanı uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsinə geniş imkanlar yaratmaqla, onlara qayğı sisteminin inkişafında yeni mərhələ açmışdır.Bu gün respublikamızda bu problemin uğurlu həlli üçün hərtərəfli və çoxsahəli tədbirlər həyata keçirilir (1). Bu baxımdan, uşaqların tərbiyəsinə ümumnəzəri planda yanaşdıqda, cəmiyyətdə gedən sosiallaşma prosesləri şəraitində onların sosial normalar ilə münasibətlərinin də öyrənilməsi zərurəti qarşıya çıxır. Uşaqların tərbiyəsi problemi ilə sosial normaların sıx əlaqəliliyi bununla izah edilir ki, sonuncular ictimai həyatın müxtəlif sahələrində (siyasi, iqtisadi, hüquqi, əxlaqi, mədəni və sair) insanlar (mövzumuzla bağlı həssas qrupdan olan uşaqları) arasındakı münasibətləri tənzim edir. Onların fəaliyyətinin aktivliyi meyarı kimi özünü göstərən sosial normaların məna tutumu və təsir funksiyaları daxilən bir-biri ilə çox bağlı olduğundan aparılan təhlillərə kompleks yanaşmaq lazımdır.

Açar sözlər: *sosiallaşma, sosial iş, "çətin yeniyetmə", adaptasiya, valideyn himayəsindən məhrum uşaqlar*

Sosial normalar bir yerdə dayanıb durmur, dinamik surətdə dəyişilir və təkmilləşir. Belə ki, ictimai və fərdi şüurda baş verən irəliləyişlər, valideyn himayəsində və ya tədris müəssəsində olan uşaqların dünyagörüşü və davranış mədəniyyətinin yüksəlməsi, onlar arasındakı münasibətlərdə ictimai xarakter daşıyan birgəyaşayış qaydalarının möhkəmlənməsi tələb edir ki, sosial normalar da təkmilləşsin, onlarda fəaliyyətin miqyasına qoyulan məhdudiyyətlər də tədricən azaldılsın. Bu zaman cəmiyyətdə gedən sosiallaşma prosesləri şəraitində uşaqların sosial normalara münasibəti məsələsinə nəzər salmaq lazımdır. Uşaqların sosiallaşma prosesində iştirakı fərdin cəmiyyətə, müxtəlif tipli sosial birliklərə inteqrasiyası prosesi olduğundan , bu proses fərdin mədəniyyət ünsürlərini, sosial norma və sərvətləri mənimsəməsi sayəsində mükün olur. Həmin ünsürlərin, norma və sərvətlərin əsasında uşaqların sosial cəhətdən əhəmiyyətli xüsusiyyətləri formalaşır. Valideyn himayəsindən məhrum olan uşaqların cəmiyyətə, sosial qrupun, təsisatın, təşkilatın ünsürünə necə qoşulması sosiallaşma prosesində iştirakı həmin qrupun, təsisatın, təşkilatın uşaqlara təsir göstərmək qabiliyyəti, habelə onların da başqa adamların təsirinə məruz qalmaq imkalarından asılıdır. Bu şəraitdə valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşmasını çətinləşdirən amillərdən bəhs edərkən aşağıdakı amilləri də diqqətdən saxlamaq lazımdır.Bu əsasən uşaqların qəbul olunmuş normalardan imtina etməsi, sağlamlığında və psixi inkişafında sapmalar olması, özünə yaxın olan böyüklərlə ünsiyyətin az olması, uşaqlar üçün əhəmiyyətli olan idraki və praktik fəaliyyətin məhdudluğu, əldə edilmiş norma və sosial təcrübənin reallaşmasında məhdudiyyətlərin mövcudluğu, bəzi məsələlərdə yaşına uyğun olmayacaq dərəcədə "zəngin" təcrübənin olması, yaşıdları ilə məcburi xarakterli ünsiyyət kimi xüsusiyyətlər hesab edilə bilər. Bütün bunlar isə uşaqların xarakterində emosional həyəcan və neqativ psixi halların yaranmasına gətirib çıxara bilər.

Valideyn himayəsindən məhrum olan uşaqlarda formalaşan fərdi seçimin məhdudluğu, həyat prosesinin ciddi şəkildə reqlamentləşdirilməsi, müstəqil təşəbbüsün və azad şəkildə qərar vermənin boğulması, özünütənzimləmə təzahürlərinin az olması, həyatda təcrübə qazanaraq özünü göstərə bilmək fəaliyyətinin çətinlikləri, mühitdə ictimai əlaqələrin məhdudluğu onun real həyatdan uzaqlaşma meyllərinin güclənməsinə və sosiallaşma prosesində iştirakının da aşağı səviyyədə olmasına gətirib çıxara bilər. Bu cür hallar uşaqlarda asılılıq, real həyatdan və xarici aləmdən qorxu meyllərini gücləndirir, "yaxınlarına" və "onunku olmayanlara" xüsusi baxış formalaşdırır.

Ümumiyyətlə, kimsəsiz və valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşması prosesi bütövlükdə kifayət qədər mürəkkəb və ziddiyyətli olduğundan bu proses valideyn himayəsindən məhrum olmuş uşaqların mükəmməl proqramlar əsasında sağlamlığının qorunmasına və möhkəmləndirilməsi, onlarda sağlam həyat tərzinin aşılanması, uşaq kollektivində, eləcə də böyüklərlə qarşılıqlı münasibətlərdə canlı ünsiyyət mühitinin formalaşdırılması, situasiyaya uyğun davranmaq bacarığı, düşünülmüş, məsuliyyətli seçim etmək bacarığı, uşaqlarda borc hissinin, ən mühüm həyati tələbat olan əməyə münasibətin, əməyin şəxsi və ictimai zərurət kimi başa düşülməsi, tərbiyə olunması, uşaqların çoxşaxəli yaradıcı, şəxsi və ictimai əhəmiyyətli fəaliyyətinin təşkilini aparılan kompleks tərbiyə tədbirləri zamanı diqqətdə saxlamağı tələb edir (5;6). Uşaqların sosiallaşma prosesində iştirakı fərdin cəmiyyətdəki mühitə, müxtəlif tipli sosial birliklərə inteqrasiyası prosesidir. Bu proses uşaqların mədəniyyət ünsürlərini, sosial norma və sərvətləri mənimsəməsi sayəsində mükün olur. Həmin ünsürlərin, norma və sərvətlərin əsasında uşaq şəxsiyyətinin sosial cəhətdən əhəmiyyətli xüsusiyyətləri formalaşır və zənginləşir. Beləliklə, valideyn himayəsindən məhrum olmuş uşaqların sosiallaşması prosesi bütövlükdə kifayət qədər mürəkkəb və ziddiyyətlidir. Bu zamn hər bir ailədə və təhsil müəssisəsində aparılan tərbiyə işinin mühüm cəhətləri olan valideyn himayəsindən məhrum olmuş uşaqların mükəmməl proqramlar əsasında sağlamlığının qorunmasına və möhkəmləndirilməsi, onlara sağlam həyat tərzinin aşılanması, uşaq kollektivində, eləcə də böyüklərlə qarşılıqlı münasibətlərdə canlı ünsiyyət mühitinin formalaşması, uşaqlarda situasiyaya uyğun davranmaq bacarığı, düşünülmüş, məsuliyyətli seçim etmək qabiliyyəti,uşaqlarda borc hissinin, ən mühüm həyati tələbat olan əməyə münasibətin, əməyin şəxsi və ictimai zərurət kimi başa düşülməsinin tərbiyə olunması, uşaqların çoxşaxəli yaradıcı, şəxsi və ictimai əhəmiyyətli fəaliyyətinin təşkili daim diqqət mərkəzində saxlanılmalıdır (4, s.27).

Araşdırmalara əsasən, belə qənaətə gəlmək olar ki, valideyn himayəsindən məhrum olan uşaqlarla sosial-psixoloji işlərin aparılması zamanı bir tərəfdən həmin uşaqların həyat və fəaliyyətinin bütün tərəflərini əhatə edən elmi araşdırmaları dərinləşdirmək, digər tərəfdən isə mövcud reallıqla şərtlənən xüsusiyyətləri diqqətlə nəzərə alaraq, tərbiyə işində istifadə etmək xüsusi ustalıq və bacarıq tələb edir.

Müasir şəraitdə insanı sosial normalara sövq edən mexanizmlər son dərəcə müxtəlifdir. Onların sırasında ictimai münasibətlərin və insanların davranışının birbaşa tənzimedici rolu sosial normaların əhəmiyyətini daha da artırır. Bu, onunla izah edilir ki, sonunculara ifadə olunan qaydalar və tələblər, ictimai və şəxsi maraqları əlaqələndirmə baxımından çox mühüm sosial nəzarət həyata keçirir. Sosial normalar uşaqların fəaliyyət davranışının reallaşması mexanizmində onların yaradıcı fəallığını stimullaşdırmaq, həm də onların sosial muhitdəki rolları ilə ziddiyyət təşkil edən hərəkətlərin qarşısını almaq baxımından əvəzsiz yer tutur. Rus tədqiqatçısı E.Penkov haqlı olaraq yazır: “Sosial normalar hər bir cəmiyyətin geniş yayılmış və universal hadisəsi olmaqla, sosial həyatın bütün sferalarında, insanların fəaliyyəti və davranışının bütün növlərində öz təsirini göstərir” (3, s.8).

Qeyd etmək lazımdır ki, bu və ya digər konkret şəraitdə uşaqların tərbiyə kompleksində yaratdığı imkanlar baxımından sosial normaların bütün növləri eyni deyildir. Belə ki, hüquqi normalar uşaqların hərəkət və davranışlarını müəyyən çərçivəyə salır, burada sanksiyalaşdırıcı təsir daha güclü olur. Ondan fərqli olaraq, əxlaq normaları, uşaqların davranış və hərəkətlərində mümkün olan ilə yol verilən variantların geniş miqyaslı spektrini əhatə edir. Həm də nəzərdə tutulmaldır ki, əxlaq normaları, tərbiyə prosesinin xarici deyil, daxili mənəvi tərəfi ilə sıx bağlı olub könüllü hərəkətləri özündə ehtiva edir (7). Bu baxımdan, hər hansı bir uşağın fərdi şüuri tərəfindən sosial normaların mənimsənilməsi, təkcə bu normalar barədə biliklər məcmusu əldə etmək demək deyildir. Son dərəcə mürəkkəb olan bu proses , həm də fərddə öz əqidəsinin və hisslərinin formalaşması, onların daxili tələbata çevrilməsi, bütövlükdə ictimai şüurun bu istiqamətdə fərdiyə transformasiyası deməkdir. Yalnız bu məqamları əhatə etdikdə sosial normalar, özünənəzarət və öztənzimləyici rolunu yerinə yetirir və onlara əsaslanan hərəkətlər sözün əsl mənasında mütərəqqi xarakter daşıyır.

Sosial normalar hər bir cəmiyyətdə uşaqların və valideynlərin qarşılıqlı münasibətlərini tənzim etmək və ona nəzarəti həyata keçirməklə, fərdin normal və dayanıqlı fəaliyyətini təmin etməyə

istiqamət verir. Sosial normaların ictimai mahiyyəti və rolu haqqında danışarkən, belə bir amili də əsas götürmək lazımdır ki, onlar bir tərəfdən uşaqların müxtəlif növlü fəaliyyətlərinin oriyentasiyası vasitəsi kimi çıxış edir, digər tərəfdən isə onların tənzim olunması üzərində nəzarət həyata keçirirlər. Onların hər iki istiqamətdə özünü göstərən funksiyaları, fərdin həyat fəaliyyətinin müvafiq sahələrində social normaların daha dolğun reallaşmasını stimullaşdırır. Bununla yanaşı, sosial normalarda uşaqların hərəkət və əməllərinin müəyyən modelinin, nümunəsinin əks olunmasına baxmayaraq, onların daxili məzmunu son dərəcə geniş və əhatəli olduğundan, fərdin müəyyən situasiyada seçim edə bilməsi üçün çoxlu imkanlar yaradır. Odur ki, belə davranış nümunələri rolunu oynayan normalar, uşaqların subyektiv keyfiyyətlərinə, xüsusilə də azad seçimi və fəaliyyətinə əngəl törətmir, əksinə ona real şərait yaradır (2, s.24).

Müasir cəmiyyətin artmaqda olan demokratikləşməsi gənc nəslin sosiallaşmasına real şərait yaradır. Bu onunla izah edilir ki, öz mahiyyətinə görə demokratiya humanizm ilə sıx vəhdətdədir. Həqiqi demokratik prinsiplərin mövsudlubu və fəaliyyəti humanist keyfiyyətlərdən ayrılmazdır. Deyilənlərdən belə bir nətisəyə gəlmək olar ki, indi həyata keçirilməkdə olan cəmiyyətin ardisil və hərtərəfli demokratikləşdirilməsi xətti, həm də gənclərin sosiallaşmasına sürətləndirisi təsir göstərir.

Müasir demokratikləşmə ilə gənc nəslin formalaşması və inkişafı proseslərinin qarşılıqlı əlaqələrini təhlil edərkən demokratiyanın müasir, yeni məzmun kəsb etməsi mütləq nəzərə alınmalıdır. Demokratiyanın keçmiş anlamı üçün səciyyəvi cəhət onun sinfi, sovet, milli və başqa meyarlara görə təsnif edilməsi olmuşdur. Qeyd edək ki, həmin bölgülər üçün mühüm cəhət ondan ibarət idi ki, onların hamısı bir tərəfdən gəncliyin fərdi, özgür və unikal xassələrinə məhəl qoymur, onu ümumi kollektiv, kütlə içərisində əridirdi. Nəticədə, sanki bütün gənclik qrupları bir-birinə qarışır və onları bir-birindən fərqləndirmək çox çətin və bəzən də qeyri-mümkin olurdu. Lakin nəzərdə tutmaq lazımdır ki, sözün əsl mənasında götürülən humanist cəmiyyət öz fərdi simasını itirmiş və ümumi içərisində əriyən fərdlərdən deyil, öz individuallığını qoruyub saxlayan insanlardan, əsasən də gənclərdən ibarət formalaşmışdır. Yalnız belə cəmiyyət gənc nəslin unikal və təkrarolunmaz xassələrini inkişaf etdirməyə, sosial reallığın bütüi tərəflərində, birinsi növbədə isə insanda humanist keyfiyyətlərin dərin qatlarını üzə çıxarıb daha da inkişaf etdirməyə qadirdir. Odur ki, demokratiyanın əvvəlki tarixi formaları özündə gənc nəslin hüquqları və əxlaqını qorumağın müəyyən ünsürlərini əhatə etsə də, bütövlükdə onun aktiv yaradısi fəaliyyəti üçün hərtərəfli şəraiti təmin edə bilməmişdir.

Müasir cəmiyyətdə formalaşmaqda olan humanist prinsiplər uşaqların siyasi, sosial, iqtisadi və mədəni fəaliyyətinin bütün sahələrində həyat normasına çevrilməkdədir. Cəmiyyət inkişaf etdiksə, istimai həyatın bütün sferalarında humanizmin genişlənməsi üçün şərait yaranır. Əlbəttə, bütün bu proseslər asan və rəvan getmir, müəyyən çətinliklər və ziddiyyətlər ilə müşayiət olunur. Siyasi sferada humanizm ən çox bunda ifadə olunur ki, siyasi fəaliyyətin bütün forma və tərəflərində siyasi mənafelərin reallaşdırılması ilə yanaşı insana hörmət və qayğı ön plana çəkilir. Ölkənin qəbul etdiyi qanunverijilik sənədlərində və normative-hüquqi aktlarında şəxsiyyətin, hər bir gəncin ləyaqətinin toxunulmazlıbı elan edilir, onun geniş hüquqları və azadlıqları təsbit olunur. Müasir şəraitdə gəncliyin humanistləşməsi meyli həm də bütün sağlam düşünsə sahibi olan insanlarda bəşəriyyətin gələsək taleyi ilə bağlı yaranmış qayğılar ilə bağlıdır. Akademik T.Oyzerman yazırdı: «Qlobal problemlərin yaranması, insanların dünyagörüşündə, siyasi, dini və əxlaqi əqidələrində müxtəlifliyə baxmayaraq, humanizmin indi mövsud olan bütün formalarının birləşməsi üçün real əsas kimi çıxış edir» (4, s.65). Müasir cəmiyyətdə gedən elmi-texniki və kommunikativ irəliləyişlər, dərin siyasi və mənəvi transformasiya prosesləri və qloballaşma gənclərin sosiallaşmasını yeni məzmunla zənginləşdirir, onun öz mövcudluğunun həqiqi mahiyyətini dərk eməsi üçün real imkanlar açır. Bu zaman açıq cəmiyyətin siyasi, sosial, iqtisadi və mənəvi dayaqları möhkəmləndiksə bir tərəfdən gənc nəsildə sosiallaşma meylləri durmadan yüksəlir, digər tərəfdən onun əsas istiqamətləri cəmiyyətin mütərəqqi məcrasına getdikcə daha çox yaxınlaşır. Bu zaman gənclərin milli mənlik şüurunun inkşafı onda ümumbəşəri keyfiyyətlərin çoxalmasına, ümumi sosiallaşma meylinin güclənməsinə sürətləndirici təsir göstərir.

ƏDƏBİYYAT

1. Əliyev İ.H. İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. 128-ci kitab, Bakı: 2023. Azərnəşr, 400 s.
2. Xəlilov H. "Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri". Bakı: 2012, Qafqaz Universiteti nəşri, 236 s.
3. Ойзерман.Т.И. Амбивалентность философии. М, Канон, 2011. 411s.
4. Пенков Е.М. Социальные нормы: управление, воспитание, поведение. М.: Высшая школа, 1990, 175 с.
5. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 22 iyun 1999-cu il http://www.e-qanun.az/framework/3859
6. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında Azərbaycan Respublikasının qanunu https://e-qanun.az/framework/25137.http.//www.asi.org.ru.
7. Семья Г.В.Политика деинституционализацииучреждений интернатного типа. 2005

AYSEL ABDULLAYEVA
Sukurovramiz9@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0006-3727-4752

UNİVERSİTETİN SOSİAL MÜHİTİ VƏ TƏLƏBƏLƏRİN FƏALİYYƏTLƏRİ

Tələbələrin universitet həyatını daha zəngin və mənəvi cəhətdən daha məmnun etmək üçün universitetin sosial və mədəni mühitinə uyğunlaşdırılması mühüm məsələdir. Bu, tələbələrin şəxsi maraqları, inkişaf etmək istədikləri sahələr, sosial və sivil tələblər, mövcud tədbirlər və imkanlarla dərin münasibətlərin qurulması ilə bağlıdır. Şagirdlər öz məqsəd və maraqlarına uyğun olaraq müxtəlif tədbirlərdə iştirak edə bilərlər. Hər bir tələbə öz tələbə sahələrində nəyə nail olmaq istədiyini və öz potensialını necə inkişaf etdirmək istədiyini düşünməlidir. Universitetdə fəaliyyət göstərən bir çox klub, təşkilat və assosiasiyalara qoşulmaq tələbələrin öz mineral maraqlarını həyata keçirmələri üçün gözəl bir yoldur. Məsələn, sosial xidmət klubları, mülki tədbirləri həyata keçirən klublar, təlim klubları və digər oxşar təşkilatlar tələbələrin vətəndaş mühitinə uyğunlaşmasına kömək edir. Bu məsələlər tələbənin universitetin sosial və mədəni mühitinə uyğunlaşmasına kömək edə bilər və onlara kampus həyatında daha zəngin və daha qənaətbəxş təcrübə əldə etmək imkanı yarada bilər.

Açar sözlər: *sosial, mədəni, universitet, tələbə*

Universitetin sosial mühiti tələbələrin akademik proqramlarından kənarda qarşılıqlı əlaqədə olduğu və sosial əlaqələr qurduğu mühitə aiddir. Universitet həyatının sosial mühitini tələbələrin yaşadığı yataqxana, kitabxana, yeməkxana, idman obyektləri, tələbə klubları, tədbirlər və digər sosial sahələr formalaşdırır.

Universitetin sosial mühiti və tələbələrin fəaliyyəti tələbələrin akademik və sosial inkişafında mühüm rol oynayır.

1. Sosial mühit:

Universitet tələbələrin qarşılıqlı əlaqədə olduğu, sosial əlaqələri inkişaf etdirdiyi və onların şəxsi inkişafını dəstəklədiyi bir mühitdir. Tələbələrin sosial mühiti fəaliyyətlər, klublar, dərnəklər, idman qurğuları, kitabxanalar və kampusda və ondan kənarda digər sosial sahələr vasitəsilə formalaşır.

Universitetlər tələbələrin sosial və mədəni ehtiyaclarını qarşılamaq üçün konfranslar, panellər, incəsənət tədbirləri və idman turnirləri kimi müxtəlif tədbirlər təşkil edir.

Tələbə klubları və təşkilatları tələbələrə oxşar maraqları və hobbiləri paylaşan qruplarla bir araya gəlməyə və bu qruplar vasitəsilə liderlik bacarıqlarını inkişaf etdirməyə imkan verir.

2. Tələbə fəaliyyətləri:

Universitet dövründə tələbələr akademik işlərlə yanaşı müxtəlif fəaliyyətlərdə də iştirak edirlər. Bunlara tələbə klubları, ictimai xidmət layihələri, idman komandaları, incəsənət və mədəniyyət tədbirləri, tələbə birlikləri və s. daxildir.

Tələbə fəaliyyətləri tələbələrə liderlik, ünsiyyət və əməkdaşlıq kimi bacarıqların inkişafına kömək edir. Bundan əlavə, bu fəaliyyətlər tələbələrə sosial şəbəkələrini genişləndirməyə və yeni dostlar qazanmağa imkan verir.

Universitetlər tələbə fəaliyyətini təşviq etmək və dəstəkləmək üçün təqaüdlər, mükafatlar və digər həvəsləndirici proqramlar təklif edə bilər. Bu, tələbələrin fəal iştirakını təşviq edir və onları öz icmalarına daha çox töhfə verməyə təşviq edir.

Universitetlərin sosial mühiti və tələbə fəaliyyəti tələbələrin təkcə akademik uğurlarını deyil, həm də şəxsi inkişaflarını və təcrübələrini zənginləşdirir. Bu tədbirlər tələbələrə kampus həyatını tam şəkildə yaşamağa və məzun olduqdan sonra həyata daha hazırlıqlı olmağa kömək edir.

Tələbələrin sosial mühitinə aşağıdakı elementlər daxil ola bilər:

Tələbə klubları və cəmiyyətləri: Tələbələr oxşar maraqları paylaşdıqları və ya müəyyən mövzular ətrafında birləşdikləri tələbə klublarına və cəmiyyətlərinə qoşula bilərlər. Məsələn, idman klubları, incəsənət və mədəniyyət klubları, dil və ədəbiyyat icmaları, sosial məsuliyyət layihələri kimi müxtəlif sahələrdə fəaliyyət göstərən icmalar ola bilər.

Tələbə klubları və cəmiyyətləri universitet həyatında mühüm rol oynayır. Bu təşkilatlar tələbələrə oxşar maraqları olan, hobbilərini paylaşdıqları və ya müəyyən bir məqsədi olan qruplarla bir araya gəlməyə imkan verir. Tələbə klubları və cəmiyyətləri tələbələrə sosial şəbəkələrini genişləndirməyə, liderlik bacarıqlarını inkişaf etdirməyə, yeni bacarıqlar öyrənməyə, sosial mühitdə iştirak etməyə və cəmiyyətə töhfə verməyə imkan verir.

Tələbə klubları və cəmiyyətlərinin nümunələri:

İdman klubları: Futbol, basketbol, voleybol, tennis, üzgüçülük və digər idman növləri üzrə fəaliyyət göstərən klublar idmansevərləri bir araya gətirir, onlara yarış və məşq imkanları yaradır.

Sosial məsuliyyət klubları: Bu klublar sosial xidmət layihələrində iştirak edərək cəmiyyətə fayda verməyi hədəfləyir və humanitar yardım, mülki işlər və immiqrasiya problemləri ilə bağlı fəaliyyətləri əhatə edir.

Akademik klublar: Bu klublar müxtəlif sahələrdən olan tələbələri bir araya gətirir və akademik məqsədlər üçün tədqiqatlar, konfranslar və məlumat mübadiləsini təmin edir.

İncəsənət və ədəbiyyat dərnəkləri: Bu dərnəklər mahnı, mahnı, şeir və ədəbiyyatla maraqlanan tələbələri bir araya gətirir və bədii məşğələlər, tamaşalar və müsabiqələr təşkil edir.

İnkişaf klubları: Bu klublar tələbələrin liderlik, danışıqlar aparmaq, sosial etika, mənəviyyat və digər şəxsi inkişaf sahələrində təkmilləşdirməyə yönəlmiş təlim və tədbirlər təşkil edir.

Bu klublar və cəmiyyətlər tələbələrə təcrübə və şəxsi inkişaf imkanları təqdim edir və yataqxana mühitini daha zəngin və məmnun edir.

Tədbirlər və əyləncə: Universitetlər tələbələrə müxtəlif əyləncə və sosial tədbirlər təklif edir. Bu tədbirlərə konsertlər, tamaşalar, film nümayişləri, idman tədbirləri, kampus festivalları, rəqs partiyaları və digər sosial tədbirlər daxil ola bilər.

Bəli, əksər universitetlər tələbələrə müxtəlif istirahət və sosial fəaliyyətlər təklif edir. Bu tədbirlər tələbələrin kampus həyatını zənginləşdirir, onlara yeni insanlarla tanış olmağa və fərqli təcrübələr qazanmağa kömək edir. Universitetlərin tez-tez təşkil etdiyi bəzi əyləncə və sosial tədbirlərdən bir neçə nümunə:

Festivallar və bayramlar: Universitetlər tez-tez festivallar və xüsusi tədbirlər təşkil edirlər. Bu hadisələr çox vaxt musiqi, rəqs, yemək, oyunlar və digər əyləncələrlə dolu ola bilər.

Konsertlər və tamaşalar: Universitetlər məşhur rəssamları və ya yerli istedadları gətirərək konsertlər və digər performans tədbirləri keçirir. Bu tədbirlər tələbələrə əyləncəli bir gecə keçirmək imkanı verir.

İdman tədbirləri və turnirlər: İdman tədbirləri tələbələrə bir araya gəlməyə, yarışmağa və əylənməyə imkan verir. Universitetlər tez-tez futbol, basketbol və voleybol kimi idman turnirləri təşkil edir və tələbələrə imkanlarından istifadə etmək imkanı verir.

Film nümayişləri: Universitetlər tez-tez kinoteatrları və ya açıq havada film nümayişləri keçirirlər. Bu tədbirlərdə tələbələrə yeni filmlərə baxmaq və dostları ilə vaxt keçirmək imkanı verilir.

Mədəni və incəsənət tədbirləri: Universitetlərdə tez-tez konsertlər, tamaşalar, sərgilər, ədəbi tədbirlər və digər mədəni tədbirlər keçirilir. Bu fəaliyyətlər tələbələrə incəsənət və mədəniyyətlə bağlı təcrübələr təqdim edir.

Bu kimi tədbirlər universitetlərin öz tələbələri üçün tələbə həyatını daha əyləncəli, müxtəlif və unudulmaz etmək üçün təşkil etdikləri bir neçə nümunədir. Hər bir universitetin özünəməxsus tədbirləri və ənənələri ola bilər və onlar tələbələrə onların maraqlarına və hobbilərinə uyğun fəaliyyətlər təklif etməyə çalışa bilərlər.

Xidməti layihələri: Bir çox universitet tələbələri öz icmalarına töhfə verməyə təşviq etmək üçün ictimai xidmət layihələri təklif edir. Tələbələr yerli məktəblərdə, xəstəxanalarda, heyvan sığınacaqlarında və digər icma mərkəzlərində könüllü olaraq öz icmalarına xidmət edirlər.

Universitetlər ümumiyyətlə tələbələrə sosial xidmətlər təklif edirlər. Bu sosial xidmət proqramları tələbələri cəmiyyətə töhfə verməyə, sosial problemləri həlletməyə və sosial xidmət təcrübəsi qazanmağa təşviq edir. Universitetlərin tələbələrə təklif etdiyi sosial xidmət imkanlarından bəzi nümunələr:

Könüllülük proqramları: Universitetlər tələbələri könüllü proqramlarda iştirak etməyə təşviq edir. Bu proqramlara yerli məktəblərdə təhsil haqqı, yaşlılar üçün tibb bacısı proqramları, evsizlərə yardım proqramları, immiqrantlara yardım və digər ictimai xidmət layihələri daxil ola bilər.

İcma xidməti klubları: Bir çox universitetlər tələbələrə ictimai xidmət klublarına qoşulmaq imkanı təklif edir. Bu klublar tələbələrə ictimai xidmət fəaliyyətlərində iştirak etmək və öz ictimai fəaliyyətlərini formalaşdırmaq imkanı verir.

Sosial inkişaf proqramları: Bəzi universitetlər tələbələrə sosial inkişaf və sosial fəaliyyətlərlə bağlı təlim və tədbirlər təklif edir. Bu proqramlara liderlik, sosial etika və digər sosial məsələlər üzrə təlimlər daxil ola bilər.

Sosial xidmət sxemləri: Universitetlər tələbələrə müxtəlif sosial xidmət proqramlarında iştirak etmək imkanı təklif edir. Bu, məsələn, vətəndaş tədbirlərinin təşviqi, qanvermə kampaniyaları, immiqrantlara kömək və digər sosial təşəbbüslər ola bilər.

Tələbə həmkarlar ittifaqı işləri: Bir çox universitetlər tələbələrə cəmiyyətə fayda vermək və ictimai xidmət fəaliyyətlərinə rəhbərlik etmək üçün tələbə həmkarlar ittifaqı işləri və rəhbər vəzifələr təklif edir.

Bu sosial xidmət imkanları tələbələrin öz icmalarında faydalı olmaları və məsuliyyət hiss etmələri üçün bir yoldur. Bu proqramlar tələbələrə sosial xidmət problemləri ilə maraqlanmaq və həlletmək üçün bir platforma təqdim edir.

Mədəniyyət və incəsənət fəaliyyətləri: Universitetlər tələbələrə müxtəlif mədəniyyət və incəsənət tədbirləri təklif edir. Bu tədbirlərə sərgilər, sənət emalatxanaları, musiqi və rəqs tamaşaları, ədəbi tədbirlər və digər bədii fəaliyyətlər daxil ola bilər.

Universitetlər tez-tez müxtəlif mədəniyyət və incəsənət tədbirləri təşkil edir və tələbələrə sivilizasiya və bədii fəaliyyətlərdə iştirak etmək imkanları yaradır. Bu tədbirlər tələbələrin yaradıcılıq potensialının inkişaf etdirilməsi, yeni maraqların kəşf edilməsi və vətəndaş biliklərinin artırılması üçün platforma rolunu oynayır. Universitetlərin adətən təşkil etdiyi mülki və bədii fəaliyyətlərdən bəziləri bunlardır:

Teatr oyunları: Universitetlər yerli teatrlar və aktyorlarla birgə çalışaraq teatr tamaşaları təşkil edə bilər. Bu tamaşalar tələbələri teatr sənətinin keyfiyyəti və zənginliyi ilə tanış edir, mətnlər və tamaşa sənəti ilə tanış edir.

Musiqi konsertləri: Universitetlər tələbə orkestrlərini, xorları və sənətçiləri dəvət edərək müxtəlif musiqi konsertləri təşkil edə bilərlər. Bu tədbirlər tələbələri klassik musiqi, caz, estrada, rok və digər musiqi janrlarında çıxışlar vasitəsilə musiqi sivilizasiyasının zənginliyi ilə tanış edir.

İncəsənət sərgiləri: Universitetlər tələbələrin yaradıcılığını nümayiş etdirmək və bədii yenilikləri təqdim etmək üçün rəsm sərgiləri keçirə bilər. Bu sərgilərdə rəsmlər, qafiyələr, fotoqrafiya, heykəltəraşlıq və s nümayiş etdirilir.

Etnik və mədəni tədbirlər: Universitetlər müxtəlif etnik və mədəni ənənələri təqdim etmək üçün etnik gecələr, matbex festivalı və digər mədəni tədbirlər təşkil edə bilər. Bu tədbirlər tələbələrə dünya sivilizasiyaları ilə tanış olmaq və qarşılıqlı sivil anlaşmanı inkişaf etdirmək imkanı verir.

Ədəbi və poeziya tədbirləri: Universitetlər ədəbi qruplar və poeziya klubları təşkil edə, ədəbi tədbirlər, şeir qiraətləri və ədəbi müzakirələr təşkil edə bilər. Bu fəaliyyətlər tələbələrin ədəbi maraqlarını artırmaq və özlərini ifadə etmək imkanı verir.

Bu cür mədəni və incəsənət fəaliyyətləri universitet həyatını daha zəngin və dolğun edir və tələbələrə yaradıcılıq potensiallarını ifadə etmək üçün platforma yaradır.

İşə Yerləşdirmə və karyera tədbirləri: Bir çox universitet tələbələrə işə yerləşdirmə tədbirləri və karyera imkanları təklif edir. Bu tədbirlər tələbələrə bilik əldə etmək, mövqeləri müəyyənləşdirmək və karyera seçimləri ilə bağlı təcrübə qazanmaq imkanı verir.

İşə yerləşdirmə və karyera tədbirləri bir çox universitetlər tərəfindən tələbələrə iş tapmaq və karyera inkişaf etdirmək üçün həyata keçirilən proqram və tədbirlərdir. Bu tədbirlər tələbələrə iş axtarışı prosesində və karyera seçimində kömək etmək üçün məsləhət və təcrübə təmin edir. İşə yerləşdirmə və karyera ilə bağlı həyata keçirilən bəzi tədbirlərin nümunələri:

İşə yerləşdirmə məsləhətləri: Universitet karyerası məsləhətçiləri tələbələrlə görüşərək, onların karyera məqsədlərini müəyyənləşdirir və onlara iş axtarışında köməklik göstərirlər. Müsahibələr zamanı məsləhətlər verir. Bu görüşlərdə adətən CV hazırlanması, müsahibə təcrübəsi, karyera yolunun planlaşdırılması və iş axtarış strategiyası kimi mövzular müzakirə olunur.

Karyera sərgiləri: Universitetlər karyera sərgiləri təşkil edir və tələbələrə müxtəlif məşğulluq və karyera imkanlarını təşviq etmək üçün şirkətləri universitetə gətirir. Bu tədbirlər tələbələrə müəyyən sektorlar və şirkətlər haqqında məlumat əldə etmək, işə qəbul prosesi haqqında məlumat almaq və şəxsi münasibətlər qurmaq imkanı verir.

İşə yerləşdirmə tədbirləri: Bu tədbirlər həm tələbələr üçün iş tapmaq, həm də şirkətlər üçün potensial iş axtaranlar tapmaq üçün bir platforma təşkil edir. İşəgötürənlər kampusda iş və təcrübə təkliflərini göstərə bilər və tələbələr iş müsahibələrindən keçərək iş imkanları əldə edə bilərlər.

Karyera ilə bağlı ehtiyat tədbirləri və seminarlar: Universitetlər, karyera ilə bağlı təlimlər, seminarlar və işçi hazırlığı kurslarından ibarətdir. Bu tədbirlər tələbələrə iş axtarışı strategiyaları, CV və müsahibəyə hazırlıq, karyera yolları və uğurlu karyera inkişafı haqqında məlumat vermək üçün mütəxəssisləri cəlb edir.

Bu tədbirlər tələbələrə peşə seçimi, iş təcrübəsi və əlaqələrin qurulması baxımından ciddi dəstək verir. İşə yerləşdirmə və karyera tədbirləri tələbələrin təcrübəsini artırmaq və onların gələcək karyera inkişafı planlarına hazırlamaq üçün vacibdir.

Bu elementlər universitetin sosial mühitini təşkil edən və tələbələrin həyatını zənginləşdirən əsas elementlərdir. Bu fəaliyyətlər tələbələrə sosial bacarıqlarını təkmilləşdirməyə, yeni dostlar qazanmağa, maraqlarını kəşf etməyə və ümumilikdə kollec təcrübələrini daha məmnun etməyə kömək edir.

Nəticə

Universitetin sosial mühiti tələbələrin öz akademik məqsədlərinə çatmaqla yanaşı, ictimai və sivil fəaliyyətlərdə iştirak edə bildiyi, ictimai əlaqələr qura bildiyi, öz maraqlarını kəşf etdiyi və şəxsi inkişaf etdirə bildiyi bir mühitdir. Bu mühit təhsil, istirahət və müxtəlif fəaliyyətlər vasitəsilə tələbələrə məsləhət və dəstək verir. Universitet tələbələrə bir araya gəlmək, yeni insanlarla tanış olmaq, müxtəlif sivil və etnik axtarışları anlamaq və sosial əlaqələri inkişaf etdirmək imkanı verir. Tələbələrin fəal olduqları ərazilərdə müxtəlif klublar, təşkilatlar və cəmiyyətlər fəaliyyət göstərir və onlara şəfqət, liderlik və əməkdaşlıq edir, bacarıqlarınızı inkişaf etdirmək imkanı verir. Universitetin sosial mühiti tələbələrin akademik təcrübəsini eyni dərəcədə vacib sosial, maliyyə və karyera fəaliyyətləri ilə birləşdirərək onlara kompleks təcrübə təqdim edir. Bu mühit tələbələrin təhsil müddətində inkişaf etmələrinə və öyrənmə və ifadəli mühitdə öz potensiallarını reallaşdırmağa kömək etməkdə mühüm rol oynayır.

ƏDƏBİYYAT

1. Salmaz T. (2021). “Öğrenci Aktiviteleri ve Üniversite Deneyimi.” (Online). Mevcut: https://www.aa.com.tr/tr/egitim/ogrenci-aktiviteleri-ve-universite-deneyimi/2160759. (Müraciət: 3 Aprel 2024)
2. Üniversitə Tələbə İşləri. (2022). “Universitetdə Tələbə Fəaliyyətləri.” (Online). Mevcut: https://studentlife.yale.edu. (Müraciət: 3 Aprel 2024).
3. Ramirez J. (2020). “The Importance of Student Organizations in College.” (Online). Mevcut: https://www.collegeconsensus.com/college-life/importance-of-student-organizations-in-college/. (Müraciət: 3 Aprel 2024).

4. Smith J. (2023). “The Impact of Student Organizations on University Social Environment.” University Times, 15(2), 45-56.
5. University of ABC Student Life Office. (2022). “Student Clubs and Organizations.” Retrieved from https://www.example.com/student-life/clubs

SUMMARY

Aysel Abdullayeva

UNIVERSITY SOCIAL ENVIRONMENT AND STUDENT ACTIVITIES

Adapting students to the social and cultural environment of the university is an important issue in order to make university life richer and more spiritually satisfying. It is related to building deep relationships with students' personal interests, areas they want to develop, social and civic demands, available events and opportunities. Students can participate in various activities according to their goals and interests. Each student should think about what they want to achieve in their student fields and how they want to develop their potential. Joining the many clubs, organizations and associations on campus is a great way for students to pursue their mineral interests. For example, social service clubs, civic action clubs, study clubs, and other similar organizations help students adapt to a civic environment. These issues can help students adjust to the social and cultural environment of the university and enable them to have a richer and more fulfilling experience of campus life.

Key words: *social, cultural, university, student*

SARA AĞAYEVA
sara.məmmədova.agayeva@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0006-9947-2527

NATAMAM AİLƏLƏRDƏ BÖYÜYƏN UŞAQLARDA DEVİANT DAVRANIŞLAR

Ailə, insan cəmiyyətində ən əhəmiyyətli sosial institutlardan biri olaraq qəbul edilir və insanların dəyərlər sisteminin əsasını təşkil edir. Lakin təəssüf ki, müasir dünyada natamam ailələrin sayı artmaqdadır. Natamam ailə termini tez-tez boşanmış və ya ayrılmış valideynlərə və onların uşaqlarına müraciət etmək üçün istifadə olunur. Natamam ailələrdə böyüyən uşaqlarda deviant davranış tədqiqatçıların, siyasətçilərin və psixi sağlamlıq mütəxəssislərinin böyük diqqətini cəlb edən mürəkkəb və aktual problemdir. Boşanma, ayrılıq və ya digər hallar səbəbindən valideynlərin birinin və ya hər ikisinin olmaması ilə xarakterizə olunan natamam ailələr, formalaşma illərində uşaqlar üçün unikal çətinliklər yaradır. Bu problemlər ənənəvi ailə strukturlarının pozulması və bununla bağlı ailə dinamikasında, iş rejimlərində və dəstək sistemlərində baş verən dəyişikliklərdən qaynaqlanır.

Natamam ailələrin yayılması son onilliklərdə artmışdır ki, bu da nikah modellərində, boşanmalara münasibətdə və ailənin qurulmasında cəmiyyətin dəyişikliklərini əks etdirir. Nəticədə, getdikcə artan uşaqların sayı valideynlərinin münasibətlərinin pozulmasını və ailə strukturlarının yenidən qurulmasını yaşayır. Bu tendensiya ailənin dağılmasının uşaqların sosial-emosional inkişafına, akademik nailiyyətlərinə və uzunmüddətli nəticələrə potensial təsiri ilə bağlı narahatlıqları artırmışdır.

Natamam ailələrdə böyüyən uşaqlar deviant davranışların yaranmasına kömək edə biləcək bir sıra stress və çətinliklərlə üzləşə bilərlər. Cəmiyyətin normalarından və gözləntilərindən kənara çıxan bu davranışlara aqressivlik, itaətsizlik, cinayətkarlıq, narkotik maddələrdən sui-istifadə və digər antisosial davranış formaları daxil ola bilər. Natamam ailələrdən olan uşaqların hamısı deviant davranışlar nümayiş etdirməsə də, araşdırmalar onların sağlam ailələrdən olan həmyaşıdları ilə müqayisədə daha çox risk altında olduğunu göstərir. Natamam ailələrdə böyüyən uşaqlarda deviant davranışlar mövzusu son dövrlərdə sosial elmlərin və psixologiya sahəsindəki tədqiqatların diqqət mərkəzində olan bir məsələdir. Bu məqalədə, bu məsələnin əhəmiyyəti və zəruriliyi bəzi əsas məqamlar ətrafında ətraflı şəkildə təhlil ediləcəkdir.

Açar sözlər: *Natamam Ailə, Deviant, Disfunksional, İntervensiya, Anksiyetə*

Şəxsiyyətin inkişafında ailə həyatının böyük rolu və təsiri vardır. Natamam ailələrdə böyüyən uşaqların şəxsiyyət olaraq formalaşmasında müəyyən problemlər ortaya çıxa bilir. Bu cür deviant davranışların ortaya çıxması bir sıra mühüm səbəblərə əsaslanır. Birincisi, natamam ailələr ciddi disfunksional proseslər və münasibətlərə malik olur. Bu, uşaqların sağlam bir mənəvi və ictimai mühitdə böyümələrinə, onların öz kimliklərini formalaşdırmaq və müstəqil şəkildə problem həlletmə qabiliyyətlərini inkişaf etdirmələrinə mane olur (1).

İkinci səbəb, natamam ailələrə daxil olan fiziki və mənəvi əziyyətlərdir (2, s.166). "'Normal' bir gəncin devianta çevrilmə mexanizmi kompleks və çox dəyişkəndir, buna görə də uğursuz ailələrdən olan valideynlər belə davranış formalarını gec fərq edirlər. Bu uşaqların məruz qaldığı travmalar və əziyyətlər, onların davranışlarında ciddi dəyişikliklərə səbəb ola bilər. Onlar münasibətsizlik, qəzəb, depressiya və anksiyetə kimi problemlərlə üzləşə bilərlər. Həmçinin, natamam ailələrdə gəlir səviyyəsinin aşağı olması vəziyyəti daha da ağırlaşdırır. Böyük bir bədbinlik vəziyyətində olan ailələrdə, uşaqlar ətrafındakı tələbatları ödəməkdə çətinlik çəkə bilər və bu da onların həyatlarını qorumaq və ideallarını qorumaq üçün çeşidli yollarla təşviq edə bilər (2. s.167).

Bu məsələlərə diqqət yetirmək əhəmiyyətlidir, çünki bu uşaqların cəmiyyətə inteqrasiyasını və müvəffəqiyyətini təmin etmək, onların sosial və psixoloji problemlərlə mübarizə aparmaq üçün vacibdir. Natamam ailələrdə böyüyən uşaqlarda deviant davranışların yaranması cəmiyyət üzərində də böyük təsirə malik ola bilər və bu, tərəqqi və sülh proseslərini təhlil edən bütün tədqiqatçıların və sosial təşkilatların diqqətini cəlb etməlidir. Bu məsələni araşdıran tədqiqatlar, bu uşaqların davranışlarına nəzarət etmək və onların potensialını maksimuma çıxarmaq üçün təsirli intervensiya strateji və tədbirlərinin inkişaf etdirilməsinə kömək edəcəkdir (3). Bununla birlikdə, cəmiyyət geniş miqyaslı təhsil və məsləhət xidmətləri təmin edərək, natamam ailələrdə böyüyən uşaqların potensialını reallaşdırmaqla əlavə dəstək təmin edə bilər. Bu, müvəffəqiyyətli cəmiyyətin inkişafı və genişlənməsi üçün əhəmiyyətli bir addımdır.

Natamam ailə termini tez-tez boşanmış və ya ayrılmış valideynlərə və onların uşaqlarına müraciət etmək üçün istifadə olunur. Bu termin ailə strukturunun ənənəvi normalardan kənara çıxdığı və ya standart ailə modelindən uzaqlaşdığı vəziyyətlərə aiddir (5). Təəssüf ki, natamam ailələrin çox hissəsini boşanmış ailələr təşkil edir. İndiki vaxtda bir çox müxtəlif səbəblər nikahın ləğvinə səbəb ola bilər. Bunlara ünsiyyət problemləri, maliyyə çətinlikləri, məişət zorakılığı və sui-istifadə, xəyanət, stress və təzyiq, erkən yaşda nigah və.s adiddir.

Bu faktorların hər biri evliliklərə müxtəlif dərəcədə təsir edə və bir çox hallarda bir araya gələrək nikahın sona çatması ilə nəticələnə bilər. Dövlət Statistika Komitəsinin hesabatına görə, kəçən il Azərbaycanda 16226 boşanma olmuşdur. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 31,3 faiz artmışdır (6). Nəticələr, natamam ailələrin sayının hər gün bir az daha artmasının davam etdiyini göstərir.

Natamam ailələrdə valideynlərin səhv ünsiyyət və münaqişəsi, valideynlər arasında münaqişə, valideynlərin məsuliyyətsiz davranışı, valideyn laqeydliyi, valideynlər arasında qeyri-adekvat əməkdaşlıq davranışı, uşaqların inkişafına mənfi təsir göstərərək deviant davranışlara səbəb ola bilər. Buna görə də valideynlərin natamam ailələrdə sağlam və dəstəkləyici davranışlar göstərmələri vacibdir. Valideynlər arasında sağlam ünsiyyət qurmaq, uşaqların ehtiyacları haqqında müntəzəm olaraq danışmaq və birlikdə qərarlar vermək önəmlidir. Dəyişən həyat şərtlərinə uyğunlaşmaq və çevik olmaq da vacibdir. Planları, uşaqların ehtiyacları və inkişafına uyğun şəkildə təşkil etmək gərəkdir. Uşaqların rifahı və xoşbəxtliyi ən əsas prioritet olmalıdır. Onların emosional və psixoloji ehtiyaclarını anlamağa çalışmalı və dəstək olunmalıdır. Əsas məsələlərdə birgə qərarlar almaq da vacibdir. Uşaqların təhsili, sağlamlığı və digər mühüm məsələlər üzərində birgə işləyərək uşaqlara daimi dəstək və sevgi göstərmək və onlara özünüzü onların emosional təhlükəsizliyi üçün mövcud olduğunuzu hiss etdirmək vacib məqamlardan biridir.

N. İmamverdiyeva və N.Mirzəliyevanın yazdığı “Yeniyetməlik və yetginlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri Yeniyetməlik və yetginlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri” adlı əsərə əsasən natamam ailələrdən olan “çətin” yeniyetmələr davranışlarına əsasən üç qrupa bölünə bilər (2, s 166-167):

- Birinci qrup cinsi və fiziki inkişafda həmyaşıdlarından geri qalan zehni və emosional fəaliyyətin geriliyi kimi hallarla üzləşən, qeyri-sabit yeniyetmələri əhatə edir. Bu qrupda olan yeniyetmələrin, emosional olaraq istəklərinin qeyri-sabitliyi və maraqlarının dəyişkənləyişləri müşahidə olunur.
- İkinci qrupda, cinsi inkişafın sürətləndiyi, təsir qabiliyyəti və aggressivliyi artan məktəblilər yer alır. Bu qrupa daxil olan yeniyetmələr ən çox valideynlərin və ya müəllimlərin qadağalarına reaksiya verirlər və davranışları qarşısında ən çox bu növ məhdudiyyətlərə müraciət edirlər.
- Üçüncü qrupa aid olan yeniyetmələrdə təmkin çatızmazlığı, cinsi azadlıq, avaralıq, alkoqol istifadəsi kimi məsələlər açıq şəkildə ifadə edilir. Bu qrupa daxil olan yeniyetmələr öz davranışlarında daha açıq və yüksək riskli davranışlar sərgiləyirlər. Uğursuz ailələrin sayı artmaqdadır və bir çox yeniyetmə “risk” qrupuna daxildir. Ancaq bu qrupa daxil olanlar yalnız uğursuz ailələrdən olan yeniyetmələrlə deyil, funkisonal ailələrdən olan bir çox yeniyetmələrə rast gəlinir.

Bunlarla yanaşı, natamam ailələrdə uşaqlar tez-tez birdən çox evə gedir və birdən çox valideynlə münasibət qururlar. Bu, uşaqlar üçün emosional və psixoloji çətinliklər yarada bilər və ailənin dinamikasına da təsir edə bilər. Buna görə də, natamam ailələrdən olan uşaqlar çox vaxt əlavə dəstək və diqqət tələb edir.

Natamam ailələrdəki uşaqların psixoloji vəziyyəti, onların həyatında çətinliklər yaşadıqlarında daha da kompleksləşir. Boşanma və ayrılma prosesi, uşaqların mənəvi və emosional sağlamlığını ciddi şəkildə təsir edir. Məhz bu dövrdə, uşaqlar valideynləri arasındakı qarşıdurmanın təsirləri ilə mübarizə aparır və bu da davranışlarında dəyişikliklərə səbəb olur. Valideynlərin müxtəlif məsələləri olan və ya valideynləri tərəfindən dərinliklə məhvə məruz qalan uşaqların psixoloji mövqeləri daha da ciddiləşir (1). Valideynlərin uşaqlara olan münasibəti, uşaqların davranışları və psixoloji sağlamlığı üzərində birbaşa təsir göstərir. Boşanma və ayrılma prosesində valideynlərin davranışları, uşaqların təhlükəsiz və sabit hiss etmələrini təmin etmək və onların mənəvi inkişafını dəstəkləmək üçün əhəmiyyətli rol oynayır (2, s.94-95).

Ailənin sosial vəziyyəti, uşaqların davranışlarına dərin təsir göstərir. Ailə içi maddi və mənəvi problemlər, sosial təmaslar, məsuliyyət və sosial dəstək, uşaqların psixoloji sağlamlığı və davranışları üzərində də birbaşa təsir edir.

Uşağın yaş dövrü, onun bu məqamda yaşadığı çətinliklər və psixoloji təzyiqləri dəyişdirir. Uşaqların yaşadığı davranışlar, onların yaşlarına, ictimai və mənəvi dəstəyə çəkdiyi çətinliklərə, mənsub olduğu sosial mühitə və həyat təcrübəsinin miqyasına görə dəyişir. Bu məqamdakı uşaqlarla ünsiyyətdə diqqət edilməli məqamlar, onların yaş dövrü və mənəvi ixtiyarlarını nəzərə alaraq müəyyənləşdirilməlidir (4).

Ümumiləşdirsək, uşağın potensialını üzə çıxarmaq üçün mümkün addımlar atılmalıdır. Bu, məsələnin bütünlüklə tədqiqi və müxtəlif intervensiya strategiyalarının tətbiqi ilə baş verir. Uşağın mənəvi inkişafını dəstəkləmək, valideynlərin uşaqlara olan münasibətini gücləndirmək, psixoloji dəstək təqdim etmək və məşğələlərlə, təhsil və ictimai aktivlərlə onların potensiallarını inkişaf etdirmək əhəmiyyətli addımlar sayılır.

Nəticə

Psixoloji cəhətdən zərərlərə məruz qalan bir uşaq cəmiyyətdə heç vaxt tam sağlam bir insan olaraq fəaliyyət göstərə bilmir. Çox hallarda, bu uşaqların mənəvi zərərləri, gələcəkdə digər cəmiyyət üzvlərinə qarşı aqressiya şəklində özünü göstərir. Ailədə yaşanan problemlər səbəbindən mənəvi zədələr alan bir şəxs, zaman keçdikcə özünü doğrulda bilmir və hətta digər insanlara zərər yetirmək riski daşıyır. Hər hansı bir uşaq ailə daxilində münaqişələr baş verirsə, bu hadisələr onun gələcək həyatına müəyyən dərəcədə mütləq ki təsir edir.

Uğursuz ailələrdən gələn yeniyetmələrlə təlim-tərbiyə prosesi heç vaxt birtərəfli şəkildə öz həllini tapa bilməz. Bu məsələnin düzgün şəkildə həll edilməsi üçün ata və ana birlikdə daimi qarşılıqlı fəaliyyət göstərməli, əməkdaşlıq etməli və tələblərdə vahidlik prinsipinə əməl etməlidirlər. Valideynlər bu məsələdə bir-birinə dəstək olmalı və əgər lazım olarsa, yeniyetmələrə psixoloji dəstək almaq üçün mütəxəssislərdən yardım alınmalıdır.

Son olaraq qeyd etmək lazımdır ki, Bu qədər ətraflı təhlil və müzakirə, natamam ailələrdə böyüyən uşaqlarda deviant davranışlar mövzusunu daha yaxından anlamağa və bu məsələyə ətraflı cavab tapmağa kömək edir. Həm də bu, bu məsələ ilə bağlı intervensiya strategiyalarının və dəstək tədbirlərinin daha effektiv şəkildə təyin edilməsinə imkan verir.

ƏDƏBİYYAT

1. Nəsirli Günel. "Natamam ailələrdə böyüyən yeniyetmələrdə şəxsiyyət pozuntulari problemi və onun reabilitasiya məsələlər" mövzusunda dissertasiya işi (Elmi rəhbər: Fəlsəfə doktoru Eldar Şahgəldiyev), Xəzər Universiteti, Bakı: 2017. https://core.ac.uk/download/pdf/161801511.pdf
2. B Nəzakət., İmamverdiyeva Nərminə., Mirzəliyeva S. Yeniyetməlik və yetginlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri (metodik vəsait). Bakı: 2022. "Müəllim" nəşriyyatı, 207 s.
3. Christina McGhee. "Ayrı valideynlik: Ayrılmış və Boşanmış Valideynlər Uşaqları Necə Xoşbəxt və Təhlükəsiz Yetişdirə bilər". 2009
4. Robert E. Emery "Uşaqlar və Boşanma Haqda Həqiqət: Emosiyalarla Başa Çıxmağı Öyrənmək, Beləliklə Siz və Uşaqlarınız Böyümək və İnkişaf Etmək Ola Bilər". 2004
5. The Co-Parenting Handbook: "Birlikdə Valideynlik Elçiyi: Boşanma və Ayrılıq Yolu ilə Kiçiklərdən Gənclərə Qədər Sağlam və Dəbəyli Uşaqlar Yetişdirmək". 2014 https://novator.az/2023/11/20/bosanma-statistikasi-2/

SUMMARY

Sara Aghayeva

DEVIANT BEHAVIORS IN CHILDREN GROWING UP IN INCOMPLETE FAMILIES

The family is considered one of the most important social institutions in human society and forms the basis of people's value system. But unfortunately, the number of incomplete families is increasing in the modern world. The term single family is often used to refer to divorced or separated parents and their children. Deviant behavior in children growing up in single-parent families is a complex and urgent problem that attracts a lot of attention from researchers, policy makers and mental health professionals. Single-parent families, characterized by the absence of one or both parents due to divorce, separation, or other circumstances, present unique challenges for children during their formative years. These problems stem from the disruption of traditional family structures and associated changes in family dynamics, work patterns, and support systems.

The prevalence of single-parent families has increased in recent decades, reflecting societal changes in marriage patterns, attitudes toward divorce, and family formation. As a result, an increasing number of children experience the breakdown of their parents' relationship and the restructuring of family structures. This trend has raised concerns about the potential impact of family breakdown on children's social-emotional development, academic achievement, and long-term outcomes.

Children growing up in incomplete families may face a number of stresses and difficulties that may contribute to the emergence of deviant behavior. These behaviors that deviate from societal norms and expectations may include aggression, disobedience, delinquency, substance abuse, and other forms of antisocial behavior. Although not all children from dysfunctional families exhibit deviant behavior, research shows that they are at greater risk than their peers from healthy families. The topic of deviant behavior in children growing up in incomplete families has been the focus of research in the field of social sciences and psychology in recent times. In this article, the importance and necessity of this issue will be analyzed in detail around some key points.

Key words: *Incomplete Family, Deviant, Dysfunctional, Intervention, Anxiety*

ƏRUS GÜLMƏMMƏDOVA
Nastigulmammadova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0000-9107-5355

POZİTİV VALİDEYN VƏ YENİYETMƏ MÜNASİBƏTLƏRİNDƏ FƏALİYYƏTLƏ ÜNSİYYƏTİN ƏLAQƏSİ

"Pozitiv valideynlik və yeniyetmə münasibətlərində fəaliyyətlə və ünsiyyətin əlaqəsi" başlıqlı məqalədə fəaliyyət və ünsiyyət problemi sosial psixologiyada mövcud yanaşmalar kontekstində araşdırılır. Problemin həlli ilə bağlı tədqiqatlarda obyektiv yanaşma üstünlük təşkil edir. Bu məqalədə uşaq-valideyn münasibətləri müsbət psixologiya çərçivəsində bir araşdırma predmeti kimi müzakirə edilir. Müsbət uşaq-valideyn münasibətlərini müəyyən edən əsas meyarlar var. Müsbət uşaq-valideyn münasibətlərinin təmin edilməsi yolları və onun formalaşmasına təsir edən amillər araşdırılır. Ekzistensial yanaşmanın əhəmiyyəti ünsiyyətin subyektlərarası mahiyyəti fonunda izah olunur. Problemə dialoq yanaşmasının əhəmiyyəti sosioloji-psixoloji prizmadan izah edilir.

Açar sözlər: *pozitiv valideyn, şəxsiyyət, fəaliyyət, yeniyetmə, ünsiyyət, pozitiv psixologiya*

Sosial və psixoloji tədqiqatlarda pozitiv valideyn və yeniyetmə münasibətlərində fəaliyyətlə ünsiyyətin qarşılıqlı əlaqəsi probleminin qoyuluşu və araşdırılmasının çox mühüm istiqaməti burada sistemli təhlil metodologiyasının geniş miqyasda tətbiqi ilə bağlıdır. Təbii-elmi biliklər sahəsində əhəmiyyətli nəticələrə gətirib çıxaran sistemli yanaşma metoduna uşaqların problemlərinin öyrənilməsində də marağın artması təsadüfi deyildir. Bu onunla şərtlənir ki, həmin metod yeniyetmə-sosial həyat-insan sxeminə tətbiq edildikdə cəmiyyətimizə mühüm uğurlar gətirir, cəmiyyətə gərəkli olan şəxsiyyətin formalaşmasına öz müsbət təsirini göstərir.

Müasir elmi ədəbiyyatda cəmiyyətin mühüm qrup kimi xüsusi əhəmiyyət kəsb edən uşaqlar, xüsusilə yeniyetmələrin probleminin tədqiqinin sistemli təhlil metodologiyasının əsas müddəaları sosioloq və psixoloqlar tərəfindən işlənib hazırlanmışdır. Onlar, əsasən, aşağıdakılardır:

1. Cəmiyyətin bu cür qrupları müxtəlif sosial sistemlərə daxil olub, onların ünsürü kimi çıxış edir və həmin sistemlərə məxsus olan müxtəlif keyfiyyətləri mənimsəyir
2. Bu cür yeniyetmələrin problemlərini yalnız fiziki, bioloji və sosial sistemlərin təkamülü prosesində götürməklə düzgün öyrənmək və anlamaq olar.
3. Müxtəlif sistemlərin məqsədli deferminasiyasının təhlil edilməsi, o cümlədən məqsədyönlülük sistemlərinin yaranması, bu cür uşaqların problemlərinin öyrənilməsinin zəruri məqamını təşkil edir.

İdrak tarixində və adi həyatda cəmiyyətin sosial problemlərinin anlaşılmasına dair çoxlu baxışların mövcudluğu zəminində çoxölçülülük təhlil etdiyimiz problemin həqiqi mahiyyət xarakteristikası kimi çıxış edir. Cəmiyyətdə yeniyetmələrlə bağlı məsələlərin anlaşılmasında çıxış nöqtəsi rolunu oynayan çoxölçülü yanaşma sosial və psixoloji fikir tarixində hələ qədimdən təşəkkül tapmış və sonralar böyük təkamül yolu keçmişdir. Gerçəkliyin hansı tərəfinin öyrənilməsinə yönəlməsindən asılı olmayaraq idrak, özünün bütün tarixi mərhələlərində, cəmiyyətdə insanın doğulması, uşaqlığından böyüyənədək keçən həyat tərzinə xüsusi diqqət yetirmiş, onunla bağlı olan aşağıdakı məsələləri həlletməyə çalışmışdır: yeniyetmələrin dünyada yeri, onun mənşəyi, amalı, ləyaqəti, həyatının mənası, onun unikallığı və tipikliyi, azad seçiminin hüdudları və məsuliyyəti, insanın həyat fəaliyyətində keçmişin, indinin və gələcəyin əlaqələndirilməsi.

Digər obyektlərdə olduğu kimi valideyn və yeniyetmə problemlərinin öyrənilməsində də sistemli təhlil metodologiyası aşağıdakı üç cəhəti əhatə edir: predmet, funksional və tarixi. Birinci cəhət bir-biri ilə əlaqəli iki vəzifəni həlletməyi nəzərdə tutur:

a) sistem kimi götürülən yeniyetmələrin əsas komponentlərinin (yarım sistemlərinin) müəyyən edilməsi;

b) bu komponentlərin qarşılıqlı əlaqələrinin aşkarlanması.

Funksional cəhət, sistemi təşkil edən elementlərin sahmanlı düzülüş qaydasını və onların qarşılıqlı funksional münasibətlərini əsas götürür. Tarixi cəhət isə başlıca diqqəti sistemin təşəkkülü və inkişafı mərhələlərini araşdırmağa yönəlir.

Sosioloji ədəbiyyatda valideyn və yeniyetmə arasında qarşılılı münasibət probleminin ən ümumi və əsas ünsürləri subyekt, obyekt, aktivlik (subyekt tərəfindən obyektə yiyələnmə və yaxud digər obyektlər ilə kommunikativ qarşılıqlı təsiri bərqərar etmə üsulu) kimi səciyyələndirilir (6, s.51; 7, s.38-39).

Cəmiyyətdə pozitiv valideyn və yeniyetmə probleminin sistemli - struktur təhlilində «fəaliyyət» və «ünsiyyət» kateqoriyaları müstəsna dərəcədə böyük rol oynayır. Məhz onlar problemin mahiyyətini ifadə edən əsas struktur komponentlər kimi çıxış edirlər. Cəmiyyətin və sosial strukturun həssas hissəsi kimi çıxış edən yemiyetmələr və onların cəmiyyətdə tərbiyəsi probleminin öyrənilməsi zamanı nəzərə almaq lazımdır ki, uşaqların fəaliyyətinin yönəldiyi predmetlər həm praktiki, həm də mənəvi xarakterə malikdir. Yəni bir tərəfdən yeniyetmələrin fəaliyyətinin predmetləri idrakın obyekti kimi çıxış edir, digər tərəfdən isə onlar obyektiv reallığın dərk olunması səviyyəsinin, gələcək şəxsiyyətin maddi və mənəvi qabiliyyətlərinin inkişaf göstəricisidir.

Elmi ədəbiyyatda fəaliyyətə müxtəlif təriflər verilir (1; 3; 4; 5;). Məsələn, psixologiyada aşağıdakı tərif geniş yayılmışdır. Fəaliyyət subyekt ilə dünyanın qarşılıqlı təsirinin elə bir dinamik, özüinkişaf edən yerarxik sistemidir ki, bu prosesdə psixiki obraz yaranır və həmin psixiki obraz subyektin predmet gerçəkliyindəki münasibətlərinin yaranmasını, dəyişdirilməsini və təcəssümünü vasitələndirir (8, s.112).

Sosioloqlar arasında da fəaliyyətin müəyyənləşdirilməsində birmənalılıq, demək olar ki, yoxdur. Ayrı-ayrı müəlliflər fəaliyyətin bu və ya digər tərəfini ön plana çəkir və onu müəyyənedici amil kimi qiymətləndirirlər. Fəlsəfi ədəbiyyatda isə fəaliyyətin aşağıdakı tərifi geniş yer tutur. "Fəaliyyət cəmiyyətin və insanın mövcudluğu və inkişaf üsulu olmaqla, onun tərəfindən təbii və sosial reallığın (özü də daxil olmaqla) öz tələbatları, məqsədi və vəzifələrinə müvafiq surətdə ümumi dəyişdirilməsi prosesidir" (9, s.63).

Deyilənlər sübut edir ki, yeniyetmələr yalnız subyekt - dünya qarşılıqlı münasibətləri kontekstində düzgün anlamaq olar. Bu mövqedən hər cür kənara çıxmaq cəhdləri labüddən uğursuzluğa məhkumdur və problemin təşəkkülü, fəaliyyəti və inkişafı proseslərinin mexanizmini və qanunauyğunluqlarını açmaqda acizdir. Qeyd etmək lazımdır ki, yeniyetmə və valideyn arasında qarşılıqlı münasibətlərin ailədə və tədris müəssisələrində öyrənilməsinə fəaliyyət mövqeyindən yanaşılması, onun təhlilinin digər metodoloji prinsiplərini bir kənara atmır, onlardakı müsbət cəhətləri götürüb inkişaf etdirir. Son dövrlərin fəlsəfi, psixoloji və sosioloji ədəbiyyatında bəzən belə bir fikrə rast gəlinir ki, sosial hadisələrin öyrənilməsinə fəaliyyət mövqeyindən yanaşılması metodoloji prinsipi artıq özünü doğrultmur. Lakin cəmiyyətin əsaslı və hərtərəfli dəyişikliklərə uğradığı indiki şəraitdə valideyn-yeniyetmə problemlərinin anlaşılmasında fəaliyyət anlayışı mühüm yer tutur. Söhbət pozitiv valideyn və yeniyetmələr arasında qarşılıqlı münasibətlər problemi kimi mürəkkəb fenomenin təhlilindən getdikdə isə fəaliyyət kateqoriyasının metodoloji əhəmiyyəti birə on qat artır.

İctimai həyatda yeniyetmələrin fəaliyyətinin daxili məzmunu xeyli dərəcədə mürəkkəb olub, aşağıdakı əsas yarımsistemlərdən ibarətdir:

a) fəaliyyətin konkret subyekti və obyekti;

b) onun həyata keçirilməsinin üsulları və vasitələri;

c) fəaliyyətin törətdiyi nəticələr;

d) fəaliyyətin konkret məzmununu və istiqamətlərini, onun subyektlərinin əlaqəsi üsulunu şərtləndirən sosial mühit;

e) ayrı-ayrı fəaliyyət növlərinin məhsullarının qarşılıqlı mübadiləsi sistemi;

f) fəaliyyətin idarəedilməsi mexanizmi, ictimai və fərdi şüurda onun sövqedici motivlərinin düzgün istiqamətdə formalaşdırılması və s.

Məqsədyönlü xarakter daşıyan fəaliyyət prosesində təkcə yeniyetmələrin tələbatları ödənilmir. O, həm də aşağıdakı mühüm sosial funksiyanı yerinə yetirir: özündə keçmiş nəsillərin praktikasının nəticələrini və gələcək nəsillərin görəcəyi işin əsas istiqamət-lərini ifadə etməklə, sözün geniş mənasında götürülən sosial təcrübəni və vərdişləri nəsldən-nəslə ötürür, beləliklə də, nəsillər arası sosial varisliyi həyata keçirir.

Ünsiyyət öz məzmunu və strukturuna görə çox mürəkkəb kateqoriyalardan biridir. Onu psixologiya, sosial psixologiya, mədəniyyətşünaslıq və başqa elmlər də öyrənir. "İnsanların öz münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədi ilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir (2, s.14). Ünsiyyətin sosioloji anlamı onu bir subyekt ilə digər subyekt arasında qarşılıqlı təsirin və qarşılıqlı münasibətlərin çox mühüm forması kimi nəzərdən keçirir. Yeniyetmələrin ünsiyyətinin daxili məzmununda bir-birilə əlaqəli olan, eyni zamanda müəyyən özünəməxsusluğu ilə seçilən aşağıdakı əsas tiplərini göstərmək olar: maddi-praktiki ünsiyyət, mədəni-informasiya xarakterli ünsiyyət və mənəvi-praktiki ünsiyyət. Birinci tip, uşaqların həyat fəaliyyətində çox mühüm rol oynayır. Burada ünsiyyət prosesində iştirak edənlərin ümumi məqsədi və fəaliyyəti ilə bağlı real hərəkətlər əhatə olunur. Lakin ünsiyyətin bu tipi təkcə maddi tərəflə məhdudlaşmır, həm də mənəvi keyfiyyət daşıyır. Bu onda təzahür edir ki, heyvanlardan fərqli olaraq insanların birgə fəaliyyəti instiktiv xarakterli proses deyil, şüurlu məqsədyönlü prosesdir. Maddi praktiki ünsiyyətin mənəvi təbəqəsi tələbatların müəyyən olunmasından başlayaraq, bir sıra psixoloji mexanizmləri əhatə edir (məqsəd, mənafe, ustanovkalar və s.).

Eynilə də mənəvi ünsiyyət daxilən çoxtərəflidir. Burada informasiya xarakterli təbəqə ilə psixoloji təbəqə çox sıx əlaqəlidir. Ünsiyyətin mənəvi-praktiki növü daha çox bədii və dini ünsiyyət formalarında təzahür edir.

Bəzən fəlsəfi, psixoloji və pedaqoji ədəbiyyatda ünsiyyət və kommunikasiya anlayışları sinonim kimi işlənilir. Bu, onların mənaca çox yaxın olmasından irəli gəlir. Belə ki, kommunikasiya sözü də latın mənşəli olub, «əlaqə» mənasını verir. Lakin kommunikasiya və ünsiyyət anlayışları nə qədər yaxın olsalar da onlar arasında müəyyən fərqlər nəzərə çarpır. Hər şeydən əvvəl ünsiyyət daha geniş anlayış olub, praktiki, maddi, mənəvi, informasiya xarakterli sahələri əhatə edir. Kommunikasiya isə əsas etibarilə bu və ya digər məlumatların ötürülməsini ifadə edən xalis informasiya xarakterli proses kimi çıxış edir. O, subyektin bu və ya digər obyektlərlə (insan, maşın, heyvan və s.) informasiya əlaqəsidir. Bu əlaqənin məzmunu kimidir: subyekt faktiki müəyyən informasiyanı (bilik, ideya, işgüzar aşağıdakı məlumatlar, göstəricilər, əmrlər və sair) onu qəbul edən obyektə ötürür. Sonuncu bu halda bir növ passiv qəbuledici rolunu oynayır. Beləliklə, kommunikasiya bir istiqamətli, bir xətt üzrə gedən prosesdir. Ünsiyyət isə bundan fərqli olaraq subyektlər arasında çoxtərəfli, qarşılıqlı əlaqə və təsirləri ifadə edir. Başqa sözlə, ünsiyyət subyektlərarası qarşılıqlı təsirin simmetrliyinə əsaslanır. Buradan aydın olur ki, ünsiyyət burada iştirak edən valideynlər və yeniyetmələr üçün ümumi olan yeni informasiyanın işlənib hazırlanması prosesidir (10, s.140).

Ünsiyyət çoxtərəfli və mürəkkəb xarakter daşımaqla, pozitiv valideyn və yeniyetmələrin münasibətləri baxımından özündə aşağıdakı prosesləri ehtiva edir: fərdlərin qarşılıqlı təsiri prosesi; informasiya prosesi; valideyn və yeniyetmələrin bir-birinə münasibəti; onların bir-birini hiss etməsi və qarşılıqlı surətdə bir-birini anlaması prosesi.Bu baxımdan ünsiyyət prosesinin aşağıdakı tərkib hissələri vardır: ünsiyyətin predmeti; ünsiyyətə olan tələbat; ünsiyyətin kommunikativ motivləri; ünsiyyəti ifadə edən əməl və hərəkətlər; ünsiyyətin vəzifələri; ünsiyyətin həyata keçirilməsi vasitələri və ünsiyyətin nəticələri və məhsulları.

Fəaliyyət kimi ünsiyyət də həm cəmiyyətin, həm də şəxsiyyət kimi yeniyetmələrin mövcudluğu və inkişafının ən ümumi və zəruri şərtidir. Hər cür fəaliyyət yeniyetmələrində müəyyən ünsiyyət formalarına daxil olmasını nəzərdə tutur. Öz daxili məzmunu baxımından ünsiyyət təkcə mənəvi

proses olmayıb, həm də ailədəki qarşılıqlı fəaliyyət nəticələrinin, təcrübəsinin, vərdiş və bacarıqlarının mübadiləsini əhatə edən çoxtərəfli sosial prosesdir. Maddi və mənəvi mədəniyyət nümunələri hər cür ünsiyyət formalarının (özü də təkcə yetkin uşaqların deyil, habelə yetişməkdə olan gəncin) vasitəsi rolunu oynayır. Yeniyetmələrin ünsiyyəti mənəvi fəaliyyətin nəticələrini (ideyalar, rəylər, dəyərlər, ideallar) əhatə etməklə məhdudlaşmır, həm də maddi əşyalar (əmək alətlərini, predmetləri və vasitələri) əks etdirir.

Ünsiyyətin sosial-praktiki aspektinin çox mühüm tərəfini fəaliyyət subyekti kimi yeniyetmələrin formalaşmasında oynadığı böyük rol təşkil edir. Ünsiyyət prosesində onların rasional, emosional və iradi göstəricilərinin qarşılıqlı təsiri baş verir, məhz valideynin təsiri altında yeniyetmələrin əhvali-ruhiyyələrinin, fikir və baxışlarının ümumiliyi formalaşır, qarşılıqlı anlaşması və həmrəyliyi yaranır. Ünsiyyət həm də hər bir gəncin davranışının sosial determinasiyası kimi mürəkkəb prosesin çox mühüm amilidir. Bundan əlavə o, yeniyetmələrin şüurunun və mənlik şüurunun formalaşmasının ən mühüm şərtlərindən biri, bütövlükdə onun inkişafının stimulyatorudur. Ünsiyyət, ictimai münasibətlərin bir növ fərdiləşmiş forması, onların şəxsi - psixoloji konkretləşməsi kimi çıxış etdiyindən, həm də müəyyən nisbi müstəqilliyə malikdir. Belə ki, sosial münasibətlərin ünsiyyət dairəsində təzahürünün spesifikliyi, xarakteri, sosial təcrübəsi və xüsusiyyətləri ilə müəyyən olunur. Cəmiyyətdə yeniyetmələrin öz sosial rollarını yerinə yetirməsi isə onlar tərəfindən öz ictimai vəzifələrini, cəmiyyətdə yerini anlamaları səviyyəsindən, pozitiv mövqedə duran valideynin onlara bəslədiyi şəxsi münasibətlərdən, konkret şəraitdən, obyektiv və subyektiv amillər məcmusundan asılıdır.

Beləliklə, ünsiyyətin sosial məzmunu yenietmənin və ailədə yaşadığı fəaliyyətinin sosial istiqamətliliyi, predmet-funksional əlaqələri, dəyər orientasiyaları, onların münasibətlərini tənzim edən formalar ilə müəyyən olunur. Bu tamamilə təbiidir, çünki yeniyetmələri onların hərəkət və əməllərindən, fəaliyyətindən süni surətdə təcrid etmək olmaz.Bu zaman pozitiv valideynlə yeniyetmə arasındaki qarşılıqlı münasibətlərin düzgün istiqamətdə formalaşması gələcək şəxsiyyətin cəmiyyətə gərəkli şəxsiyyət kimi formalaşmasında aparıcı rol oynayır.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə., Sosial psixologiya. Bakı: 2023, 354 s.
2. Həmzəyev M.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Bakı: 2007, 227 s.
3. Qədirov Ə. Yaş psixologiyası. Bakı, “Maarif”, 2002, 387 s.
4. Qolenkova Z.T., M.M.Akuliç, V.N.Kuznetsov. Ümumi sosiologiya. (prof.İ.Rüstəmovun tərcüməsi) Bakı: 2014. ADPU-nun mətbəəsi, 493 s.
5. Seyidov S.İ., Həmzəyev M.Ə. Mustafayev T.Ə. Psixologiya, Bakı: 2007, 626 s.
6. Какабадзе З. Проблема человеческого бытия. Тбилиси, 1985, 221 с.
7. Кемеров В.Е. Проблема личности: методология исследования и жизненный смысл. М, 1997, 226 с.
8. Асмолов А.С. Психология личности. М, 2012, 414 с.
9. Буева Л.П. Человек: деятельность и общение. М, МГУ, 1988 , 215 с.
10. Сердюк Н. В.Профессиональная деонтология.Учебное пособие.М, Академия управления МВД России, 2020, 104 с.

SUMMARY

Arus Gulmammadova

THE RELATIONSHIP BETWEEN POSITIVE PARENTING AND ADOLESCENT RELATIONSHIPS WITH ACTIVITIES AND COMMUNICATION

In the article “The relationship between positive parenting and adolescent relationships with activities and communication”, the aktivites and communication problem is investigating from the context of existing approaches in social psychology. An objective approach in the study of the problem solving is prevailing. This article discusses the child-parent relationships as a subject of study in the framework of positive psychology. There are main criteria determining the positive child-parent relationships. The ways of achieving positive child-parent relations and the factors influencing their formation are analysed. In the background of the intersubjective essence of the communication, the importance of the existential approach is explaining. The importance of the dialogue approach to the problem has been explained from the sociological-psychological aspect.

Key words: *positive parenting, the personality, activities, communication, positive psychology*

РЕЗЮМЕ

Арус Гульмаммадова

АКТИВНОСТЬ В ПОЗИТИВНЫХ РОДИТЕЛЬСКИХ ОТНОШЕНИЯХ С ПОДРОСТКОВАМИ КОММУНИКАЦИЯ

В статье “ Связь активности и общения между взаимоотношении позитивных родителями и подросткам”, проблема активность и общения исследуется в контексте существующих подходов в социальной психологии. Отсюда видно, что в решении проблемы преимущественно лидирует объектный подход. В статье рассматриваются детско-родительские отношения как предмет изучения в рамках позитивной психологии. Приводятся основные критерии, определяющие позитивные детско-родительские отношения. Анализируются пути достижения позитивных детско-родительских отношений и причины, влияющие на их формирование. Учитывая интерес субъективный характер общения, раскрывается важность экзистенциального подхода. Социально-психологический аспект проблемы показывает важность диалогового подхода в анализе.

Ключевые слова: *позитивный родитедь, личност, активность, подросток, обшение, позитивная психология*

SALATIN HACIYEVA
salatinhaciyeva72@gmail.com
GÜLTAC HƏSƏNOVA
Naxçıvan Dövlət Universiteti

SOSİAL PEDAQOQUN PEŞƏ FƏALİYYƏTİNİN STRUKTURU

Məqalədə sosial pedaqoji fəaliyətin təşkili, sosial pedaqoqun peşə keyfiyyətləri, sosial pedaqoqun peşə fəaliyyətinin strukturundan bəhs edilir. Həmçinin sosial – pedaqoji fəaliyyətin komponentləri, obyekti və subyekti, məqsəd və vasitələri diqqətə çatdırılır. Qeyd edilir ki, sosial pedaqoqun fəaliyyətinin mövzusunu uşağın inkişafındakı problemli vəziyyət təşkil edir və onlar uşaq şəxsiyyətinin formalaşmasında, onun sosiallaşmasında qarşıya çıxan problemlərin həllində önəmli rola malikdir. Sosial pedaqoqun fəaliyyəti təhsil müəssisəsinin tərbiyə sisteminin mühüm tərkib hissəsi, sosial inkişafda müəyyən problemləri olan uşaq və yeniyetmələrin tərbiyəsində fərdi yanaşmanın təşkilinin əsas vasitəsidir.

Açar sözlər: *sosial pedaqoq, uşaq, fəaliyyət, cəmiyyət, problem*

Öyrənənlərin uğuru, onların müstəqil qəraralar qəbul edə bilən sosial – fəal şəxsiyyətlər kimi tərbiyə edilməsi – insanın həyatda uğurunun açarıdır. Hər bir öyrənən istedadlıdır, hər bir uşaq bütöv bir dünyadır, mühüm olan isə uşağın fərdi və şəxsi keyfiyyətlərinə əsaslanmaqla onun istedadının üzə çıxarılmasına kömək etməkdir. Buna görə də hər bir təhsil müəssisəsində şəxsiyyətin sosiallaşması prosesində yaranan müxtəlif növ problemlər zamanı öyrənənlərlə qarşılıqlı əlaqəni nəzərdə tutan sosial – pedaqoji fəaliyyət həyata keçirilməlidir.

1990-cı ildə Dövlət Təhsil Komitəsinin kollegiyası "Sosial pedaqoq" ixtisasının yaradılması haqqında qərar qəbul etmişdir. Cəmiyyətdə baş verən problemlər sosial müdafiə istiqamətində uşaqlarla, ailə və gənclərlə iş üzrə mütəxəssis tələb edirdi.

Sosial pedaqoqu sosial işçi növlərindən biri hesab etmək və ya onun funksiyalarını ümüumtəhsil məktəbi və ya başqa bir müəssisənin fəaliyyətilə məhdudlaşdırmaq səhv olardı.

Sosial pedaqoqun əsas fəaliyyət sahəsi cəmiyətdir(insanın yaxın ətrafı, insani münasibətlər sferası).Bu vəziyyətdə, uşağın ailə ilə və yaşayış yerindəki yaxın ətrafı ilə münasibət sahəsi prioritet hesab olunur. Sosial pedaqoq uşaqlar,onların ailələri, ailə və məhəllə mühiti ilə işləyir və onun məqsədi cəmiyyətdə uşaqla və böyüklər üçün profilaktik, sosial əhəmiyyətli tədbirlər təşkil etməkdir."Sosial pedaqoq" mütəxəssisinin adı pedaqoq sözündən götürülsə də, bu mütəxəssislərin peşə fəaliyyətində bir sıra əhəmiyyətli fərqlər vardır. Sosial pedaqoqun missiyası sosiallaşma prosesində uşağın dinamik inkişaf edən cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Sosial pedaqoq sosial həyatında müəyyən problemləri olan uşaq və yeniyetmələrin tərbiyəsi üzrə mütəxəssis olmaqla, müasir təhsil müəssisəsinin fəaliyyətində sosial pedaqoji funksiyanı həyata keçirmək üçün pedaqoji kollektivin səylərini əlaqələndirir.

Sosial pedaqoqun peşə fəaliyyətinin real və perspektivli sahəsi, yönəldiyi obyektdən asılı olaraq bir çox xüsusi sosial-pedaqoji fəaliyyət növlərini əhatə edir. Alimlərin də qeyd etdiyi kimi, böyüməkdə olan nəslin dövlət institutlarına inamsızlığı, sosiallaşma mexanizmlərinin pozulması və gənclər arasında asosial meyllərin artması, əhali arasında neqativ halların (narkomaniya, alkoqolizm, hüquq pozuntusu) artması ilə əlaqədar olaraq müasir cəmiyyətdə bu fəaliyyətin əhəmiyyəti də artır. Buna görə də mövcud mütəxəssisin həlletməli olduğu problemlərin əhatə dairəsi son dərəcə müxtəlifdir. Sosial pedaqoq müxtəlif rollarda çıxış edir: böyüməkdə olan şəxsiyyətlə müxtəlif xidmətlər, təşkilat və qurumlar arasında vasitəçi kimi; uşaqların maraq və mənafelərinin müdafiəçisi kimi; ətrafdakıların maarifləndirilməsində böyüklər və uşaqlar arasında birgə fəaliyyətin təşkilatçısı kimi; çətin həyat şəraitində olan uşaq və yeniyetmələrin sosial inkişafına dəstək göstərən mentor kimi; uşaqların sosial inkişaf problemlərinin tədqiqatçısı kimi. Sosial pedaqoqun fəaliyyəti təhsil

müəssisəsinin tərbiyə sisteminin mühüm tərkib hissəsi, sosial inkişafda müəyyən problemləri olan uşaq və yeniyetmələrin tərbiyəsində fərdi yanaşmanın təşkilinin əsas vasitəsidir. Sosial pedaqoq sosial – pedaqoji fəaliyyətin subyektidir, onun obyekti isə ikitərəfli sosial – pedaqoji prosesdir: şəxsiyyətin sosial cəhətdən formalaşması prosesi və pedaqoji cəhətdən məqsədəmüvafiq mühitin yaradılması prosesi.

Sosial pedaqoq yeni bir peşədir, onun yaranması daha çox müasir dövrdə sosial – siyasi, iqtisadi, milli və ictimai ziddiyyətlərin ciddi mənada kəskinləşməsi ilə əlaqədar şəxsiyyətin sosiallaşmasının yeni keyfiyyəti ilə bağlıdır. Bu peşə əsasən xüsusi təlim və iş təcrübəsi nəticəsində əldə edilmiş xüsusi nəzəri bilik və praktiki bacarıqlar kompleksinə malik olan şəxsin əmək fəaliyyətinin növü kimi qəbul edilir. Sosial pedaqoqun fəaliyyətinin mövzusunu uşağın inkişafındakı problemli vəziyyət təşkil edir ki, onunda mahiyyətini zəruri sosial əlaqələrin zəifləməsi və onun şəxsiyyətini zədələyən müəyyən sosial nisbətlərin pozulması təşkil edir. Problemli situasiyaya daxil olmaqla sosial pedaqoq uşağın problemlərinin bir hissəsini öz üzərinə götürür, uşağın şəxsi potensialını aktuallaşdırır, aktiv şəkildə müvafiq sosial münasibətlər yaradır, bununla da problemin aradan qaldırılması üçün şərait yaratmış olur.

Uşaqların sosialozasiyası multifaktorlu prosesdir: onların cəmiyyətlə inteqrasiyası mürəkkəb və çoxcəhətli sosializasiya proseslərindən başlayır, bu proseslərin axarında da inkişaf edir (Bayramov Ə.S.Əlizadə Ə.Ə., 2003, s. 99).

Sosial pedaqoqun fəaliyyətinin obyektini sosiallaşma prosesində köməyə ehtiyacı olan uşaq və gənclər təşkil edir. Bu kateqoriyaya sosial tərbiyənin çatışmaması nəticəsində intellektual, pedaqoji, psixoloji və sosial baxımdan nornadan kənara çıxması olan, eləcə də, kifayət qədər çox sayda fiziki, əqli və psixi inkişaf pozğunluğu olan uşaqlar daxildir. Bütün bu uşaqlara cəmiyyətin xüsusi qayğı göstərməsi tələb olunur. Sosial pedaqoqun cəmiyyətdəki peşə vəzifəsi qarşıda ziddiyətin olması ilə müəyyən edilir. Əgər uşağın sosiallaşması prosesi uğurludursa, o zaman onun sosial pedaqoqdan yardım almağa ehtiyacı olmur. Ailə və məktəb uşağın lazımi inkişafını, tərbiyəsini və təhsilini təmin etmədiyi zaman sosial baxımdan tərk edilmiş uşaqlar meydana çıxır və bu zaman sosial – pedaqoqun fəaliyyətniə ehtiyac yaranır.

Sosial pedaqoqun fəaliyyətinin məzmununu müvafiq olaraq, uşağın cəmiyyətə inteqrasiyasına, onun inkişafına, tərbiyəsinə, təhsilinə, peşəkar inkişafına, başqa sözlə - uşağın sosiallaşmasına kömək etmək təşkil edir.

Beləliklə, sosial pedaqoqun fəaliyyətinin əsas məqsədi uşağın psixoloji rahatlığı və təhlükəsizliyi üçün əlverişli şərait yaratmaq, ailədə, məktəbdə və ətraf mühitdə mənfi halların qarşısını almaq və aradan qaldırmaq, sosial, hüquqi, psixoloji, tibbi, pedaqoji mexanizmlərin köməyi ilə ehtiyaclarını ödəməkdir. Sosial pedaqoq öz məqsədlərini həyata keçirməzdən öncə uşağın inkişaf xüsusiyyətlərinivə onun böyüdüyü mühiti yaxşı bilməlidir. Uşağın bir qayda olaraq, öz problemlərini dərk edib sosial pedaqoqa izah edə bilmədiyini xüsusilə vurğulamaq lazımdır.

Sosial tərbiyənin əsası ailədə qoyulur. Ailədaxili münasibətlərin pozulması uşağın "çətin" uşağa çevrilməsinə zəmin yaradır. Bu məsələ həmişə sosial pedaqoqların diqqət mərkəzində olmalı, qaçqın, köçkün, yetim,əlil, miqrant uşaqlarla müqayisədə çətin şagirdlərlə daha ciddi sosial iş aparılmalıdır (Həmzəyev M. Ə., Bakı: 1991, s.61).

Belə ki, qaçqın, köçkün, yetim, əlil, miqrant uşaqlar çətin uşaqlar deyildirlər, onlar çətin situasiyaya düşmüşdürlər: Onlarla pedaqoji iş zamanı, sosial pedaqoqun qarşısında duran əsas vəzifə onları düşdükləri çətin situasiyadan çıxarmaq, yeni mühitə adaptasiyasına kömək etməkdirsə, çətin şagirdlərlə pedaqoji iş zamanı sosial pedaqoji iş onların yenidəntərbiyəsi müstəvisində həyata keçirilməlidir. Bu isə daha çətin, daha mürəkkəb və uzunmüddətli sosial pedaqoji işdir (Əlizadə H. Ə., Manmudova R. M., 2013).

Sosial pedaqoqun fəaliyyəti ilk növbədə uşağın və ətraf mühitin problemlərinn diaqnostikası ilə bağlı olduğundan, o, müxtəlif diaqnostik üsulları bilməli və tətbiq etməyi və ya kömək üçün bu işin öhdəsindən gələ bilən mütəxəssislərə müraciət etməyi bacarmalıdır. Həmçinin sosial pedaqoq uşağın tərbiyəsi və inkişafının diaqnozundan və ümumi məqsədlərindən asılı olaraq, onun optimal inkişafını

təmin edən şərtləri proqnozlaşdıra bilməli, nəzərdə tutulan nəticələrə nail olmaq üçün üsul və vasitələri seçməyi bacarmalıdır.

V.A.Slastenin fikrincə, sosial pedaqoqun peşə fəaliyyətinin əsas məqsədi uşaq və yeniyetmələrin sosiallaşması, təhsili və inkişafı prosesinin səmərəiliyinin yüksəldilməsidir.Y, V.Vasilkova, M.A. Qalaquzova, L.S. Naqavkina və bir sıra digər müəlliflərin əsərlərində sosial və pedaqoji fəaliyyətin obyekti yaş həddi ilə məhdudlaşdırılır və obyekt olaraq uşaq və yeniyetmələr götürülür. Eyni zamanda, sosial – pedaqoji fəaliyyətin çoxşaxəliliyi ilk növbədə böyüməkdə olan şəxsiyyətə yönəlməklə sosial pedaqoqun müxtəlif yaşda olan insanlarla işləməsini zəruri edir. Sosial – pedaqoqun peşə fəaliyyətinin böyük spektrə malik olması ilə bağlı olaraq, təhsil müəssisələrində mütəxəssis hazırlığı da müxtəlif istiqamətlərdə həyata keçirilir: məsələn, uşaq və gənclərlə sosial əhəmiyyətli işin təşkilatçısı olan sosial pedaqoqlar; uşaq və böyüklərin birgə istirahətinin və ailənin asudə vaxtının təşkili üzrə ixtisaslaşan sosial pedaqoqlar və s. Bir sıra regionlarda ayrılıqda sosial etnoloq, sosial ekoloq, sosial valeoloq, sosial pedaqoq defektoloq kimi ixtisaslar da fərqləndirilir. Belə müxtəlif ixtisaslar, bir tərəfdən, müxtəlif sosial sahələrə, sosial pedaqoji işə tələbatın göstəricisidir, digər tərəfdən, təkcə uşaqlara deyil, gənclərə, böyüklərə və qocalara münasibətdə fəaliyyət kimi təsvir edilir. Sosial – pedaqoji fəaliyyət müxtəlif tipli və səviyyəli problemlərin həlli prosesidir. Sosial – pedaqoji fəaliyyətin vəzifələrinin təsnif edilməsi ən mühüm məsələlərdən biridir. Bu məsələ əsasən N. V. Kuzmina, L.F. Spirin, İ.F. İsayev və başqa müəlliflərin əsərlərində öz əksini tapmışdır. Bu peşə insanların və cəmiyyətin sosial problemlərinin, o cümlədən:

- Sosial və psixoloji münaqişələr, böhranlar, stress vəziyyətləri;
- Emosioanal və psixoloji problemlər;
- Ehtiyac və yoxsulluq;
- Alkoqolizm və narkomaniya;
- Zorakılıq və ayrı seçkilik;
- Cinayət və hüquq pozuntusu;
- İşsizlik və peşəkar uyğunlaşma;
- Mənzil problemi;
- Qəyyumluq, himayədarlıq və övladlığagötürmə;
- Valideyn qəddarlığı və s.-nin həlli üçün yaradılmışdır.

Hər bir fəaliyyətin özünün strukturu vardır ki, bu da fəaliyyətin elementlərinin qarşılıqlı əlaqəsini və asılılığını müəyyən edir. Sosial pedaqoqun fəaliyyətinin strukturu, istənilən digər peşə fəaliyyəti kimi, aşağıdakı komponentlərdən təşkil olunur: subyekt (onu həyata keçirən); obyekt (xüsusi olaraq kimin üçün təşkil edilib, kimə yönəlib); məqsəd (nə üçün çalışır, fəaliyyətin ideal gözlənilən nəticəsi); funksiyalar(hansı funksiyalar və ya fəaliyyətlər yerinə yetirilir); vasitə(hansı üsul və texnologiyaların köməyi ilə məqsədə nail olunur).

Baxmayaraq ki, obyekt fəaliyyətin əsas məzmununu təşkil edir, istənilən fəaliyyət subyektdən obyektə doğru həyata keçirilir. Müasir sosial pedaqogikada sosial – pedaqoji fəaliyyətin obyekti və subyekti məsələsi mübahisəli olaraq qalır. Müasir tədqiqatlarda sosial – pedaqoji fəaliyyətin obyekti haqqında müxtəlif fikirlərə rast gəlmək mümkündür. V.A. Slastenin fikrincə, sosial pedaqogikanın obyekti, bir tərəfdən, həyat fəaliyyətinin bütün zənginliyində böyüyən insan, digər tərəfdən isə şəxsiyyətin formalaşması üçün tikinti materialı olaraq xidmər edən, pedaqoqun sahib olduğu sosial mədəniyyət elementləridir.

Sosial – pedaqoji fəaliyyət öz təbiətinə görə unikal bir hadisədir: onun baza əsasını ümumbəşəri və eyni zamanda sosial dəyərlər təşkil edir. Bu dəyərlər mənimsənildikcə, sosial – pedaqoji fəaliyyət subyektlərinin prinsiplərinə, bir növ peşə kodeksinə çevrilir. Peşəkar sosial – pedaqoji fəaliyyətin əsasını təşkil edən mənəvi dəyərlərə əsaslanaraq, mütəxəssislər öz peşə borclarını yerinə yetirməyə yönəlmiş mürəkkəb, fənlərarası biliklər sistemini həyata keçirirlər. Sosial-pedaqoji fəaliyyətin subyektlərinin əsas prinsipləri kimi aşağıdakıları hesab etmək qəbul edilmişdir:

- cəmiyyətə münasibətdə fərdin üstünlük cəhdi;
- müştərilərlə münasibətdə məxfiliyə hörmət;

- şəxsi hissləri və ehtiyacları peşəkar münasibətlərdən ayırmaq istəyi;
- cəmiyyət tərəfindən sosial tələbat kimi tanınan tələbatlara uyğun sosial dəyişikliklərə cəhd etmək;
- bilik və bacarıqları başqalarına ötürmək istəyi;
- fərdlər və ya qruplar arasındakı fərqlərə hörmət və onların layiqli qiymətləndirilməsi;
- cəmiyyətin bütün üzvləri üçün sosial ədalət, iqtisadi, fiziki, əqli rifah istəyi;
- şəxsi və peşəkar etikanın yüksək standartlarına sadiqlik.

Bütün bunlar sosial – pedaqoqdan yaradıcılıq, öz fəaliyyətini konkret iş formaları ilə zənginləşdirmək tələb edir. Çox güman ki, sosial pedaqoq bir çox problemləri (sağlamlığın və maddi vəziyyətin yaxşılaşdırılması) təkbaşına həll edə biməyəcək. Bu zaman o, uşaqların problemlərinin hərtərəfli həlli üçün müxtəlif mütəxəssislərin (psixoloq, tibb işçisi, sosial iş üzrə mütəxəssis, hüquqşünas və s.) eləcə də, şöbə və inzibati orqanların (təhsil, səhiyyə, sosial müdafiə) səylərinin əlqələndirilməsində vasitəçi kimi çıxış etməyi bacarmalıdır.

İstənilən peşə fəaliyyəti kimi sosial-pedaqoji fəaliyyət də müəyyən struktura malikdir. Onun əsas komponentləri bunlardır:

- fəaliyyətin məqsəd və vəzifələrinin müəyyən edilməsi;
- fəaliyyətin obyekt və subyektinin müəyyən edilməsi;
- fəaliyyətin məzmununun müəyyən edilməsi;
- işin üsul və texnologiyalarının seçilməsi;
- fəaliyyətin formasının seçilməsi;
- nəzərdə tutulan fəaliyyət planının həyata keçirilməsi;
- fəaliyyətin tənzimlənməsi;
- nəticələrin təhlili.

Sosial pedaqoqun fəaliyyətinin strukturunu tədrisin məzmununun formalaşmasının əsas kimi nəzərdən keçirərkən, sosial-pedaqoji fəaliyyət kimi vacib bir anlayışın xüsusiyyətlərini və əsas komponentlərini nəzərə almaq lazımdır. Sosial-pedaqoji fəaliyyətin bir sıra növü və formaları mövcuddur. Sosial-pedaqoji fəaliyyətin növlərinə psixososial iş, tibbi-sosial, sosial-hüquqi, mədəni və asudə vaxtın təşkili, informasiya və tərbiyəedici işlər aiddir. Formalarına isə sosial-pedaqoji diaqnostika, yardım, dəstək, müşayiət, profilaktika, korreksiya, reablitasiya, məsləhət, tibbi-psixoloji konsilium, vasitəçilik və s. aiddir.

Sosial pedaqoqun işində uğur qazanması daha çox onun şəxsi keyfiyyətlərindən asılıdır. Baxmayaraq ki, hər bir insan unikal və təkrarolunmaz fərdiyyətə sahibdir, sosial pedaqoq peşəsinin bütün mütəxəssisləri bir sıra ümumi və spesifik xüsusiyyətlərə malik olmalıdır:

- humanist keyfiyyətlər (mehribanlıq, alturizm, özünəhörmət hissi və s.);
- psixoloji xüsusiyyətlər (əqli proseslərin yüksək səviyyəsi, sabit psixi vəziyyətlər, yüksək emosional və iradi xüsusiyyətlər);
- psixoanalitik keyfiyyətlər (özünüidarə,özünütənqid, özünüqiymətləndirmə);
- psixoloji-pedaqoji keyfiyyətlər (ünsiyət bacarıqları, empatiya qura bilmək, vizuallıq, natiqlik və s.)

Sosial pedaqoqun peşə fəaliyyətinin mühüm istiqamətlərindən birini BMT Konvensiysında elan olunduğu kimi, uşağın həyat və sağlam inkişaf hüquqlarının, təhsil və öz fikirlərini azad ifadə etmək hüquqlarının müdafiəsi təşkil edir. Digər bir istiqamət isə uşaqların hərtərəfli inkişafı işinə xidmət edən sosial layihə və proqramların, fərdi təşəbbüslərin işlənib hazırlanması və həyata keçirilməsində sosial pedaqoqun iştirak etməsidir.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: 2003, 356 s.
2. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: 1991, 296 s.
3. Əlizadə H. Ə., Mahmudova R.M. Sosial pedaqogika. Bakı: 2013, 368 s.

SUMMARY

Salatin Hajiyeva, Gultac Hasanova

STRUCTURE OF PROFESSIONAL ACTIVITY OF SOCIAL EDUCATOR

The article deals with the organization of social pedagogical activity,the professional qualities of a social pedagogue and the structure of the professional activity of a social pedagogue. Also the components object and subject,goals and means of social pedagogical activity are brought to attention. It is noted that the problematic situation in the child's development is the subject of the social pedagogues' activity and they have an important role in the formation of child's personality and in solving the problems encountered in his socialization. The activity of a social pedagogue is an important component of the education system of an education system of an educational institution,the main means of organizing an individual approach in education of children and adults with certain problems in social development.

Key words: *social pedagogue, child, activity, society, problem*

SEVİNC HİDAYƏTLİ
sevincaliyava26@gmail.com
Naxçıvan Dövlət Universiteti

ŞAGİRDLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNDƏ MİLLİ DƏYƏRLƏRDƏN İSTİFADƏ

Məqalədə şagirdlərin mənəvi tərbiyəsində milli dəyərlərdən necə istifadə edildiyindən bəhs edilir. Tərbiyənin növlərindən biri olan mənəvi tərbiyə müsbət əxlaqi keyfiyyətləri nəzərdə tutur. Milli dəyərlərdə şəxsiyyətin dilinin, dini əxlaqi keyfiyyətlərini, vətənpərvərlik hisslərinə üstünlük verilir. Məktəbdə bu kimi keyfiyyətlərin istifadə edilməsi ilə şəxsiyyətin formalaşması və inkişafı prosesi baş verir.

Açar sözlər: *mənəvi tərbiyə, şəxsiyyət, milli dəyər, şagird, şəxsiyyətin formalaşması*

Tərbiyə insan şəxsiyyətini formalaşdırmağın bünövrə daşlarından biridir. Tərbiyə insan şəxsiyyətinin inkişafına, onda dünyagörüşün formalaşmasına xidmət edən bir fəaliyyətdir. Tərbiyə prosesində iki tərəfin fəaliyyəti nəzərdə tutulur; kimsə kimi isə bəsləyib yetişdirir, böyüdür, müəyyən işə, fəaliyyətə, keyfiyyətə alışdırır, vərdiş etdirir. Yəni tərbiyə etmək, yaşlıların istədikləri sifət və keyfiyyətləri uşaqlara aşılamaq məqsədi ilə həyata keçirdikləri fəaliyyət prosesidir.

Tərbiyənin əsas sahələrindən biri də mənəvi tərbiyədir. Mənəvi tərbiyə isə qəlb tərbiyəsi ilə bağlıdır. Mənəviyyat insanın daxili aləmini, xarakterini, insanlara, ətraf aləmə, hadisələrə münasibətini əks etdirir. Əxlaqi – mənəvi tərbiyə işinin məzmununa milli mənlik şüuru və milli ləyaqət, vətənsevərlik, yurdsevərlik, mərdlik, halallıq, düzlük və doğruçuluq, dostluq və yoldaşlıq, sadəlik və təvazökarlıq, humanizm, əməksevərlik və əməyə vicdanlı münasibət, cəmiyyətdə özünüidarə və rəftar qaydaları və s. daxildir. Tərbiyə edən şəxs uşağın mənəviyyatını milli ruhla zənginləşdirməlidir. Müəllim dərs dediyi hər bir şagirdi fərdi tanımalı və onların mənəviyyatında ola biləcək qüsurları dönmədən aradan qaldırmağa çalışmalıdır. Mənəvi tərbiyə bütün müsbət əxlaqi keyfiyyətləri əhatə edən anlayış kimi çox genişdir. Mənəvi tərbiyənin inkişafında biliklərin əqidəyə çevrilməsində məktəbin üzərinə daha ciddi vəzifə düşür. Məktəblilər öyrəndikləri biliklərlə əməli fəaliyyətin vəhdəti nəticəsində onun zəminində mənəvi zənginliyə sahib olurlar. Şagirdlər mənəvi tərbiyənin komponentlərini nəzəri cəhətdən öyrəndikdə təlim materiallarında onlara aid nümunə tapdıqda ona dərindən inanırlar. Şagirdlərin mənəvi tərbiyəsi təhsil konsepsiyasında da olduqca aktual problemdir.

Şəxsiyyəti ən çox yüksəldən onun həyatda fəal mövqe tutmasıdır, ictimai borca şüurlu münasibət bəsləməsidir. Mənəvi tərbiyə vəzifəsi məhz belə bir mövqe tərbiyə etməkdən ibarətdir. Şəxsiyyətin kamillik dərəcəsi, onun bu istiqamətdə formalaşması prosesi öz-özünə yaranmır. İnsanın mənəvi tərbiyəsi ailədə, məktəbəqədər tərbiyə müəssisələrində, məktəbdən başlayır, sonralar təhsilin yüksək pillələrində möhkəmləndirilir, daha sonralar isə özünütəkmilləşdirmə, ümummədəni səviyyəni artırmaqla davam edir, zənginləşir, mükəmməlləşir. Mənəvi kamilliyin belə yüksələn xətlə inkişafı prosesində məktəbin yeri və rolu böyükdür. Məktəbdə insanın mənəvi keyfiyyətlərinin əsası qoyulur, onun baxışları, arzu və istəkləri formalaşır. Məktəbdə şagirdlərin mənəvi tərbiyəsi üzrə aparılan işin məzmunu olduqca geniş və çox şaxəlidir. Təlim prosesi ilə yanaşı sinifdən xaric işin təşkili, məktəbdən kənar tədbirin keçirilməsi zamanı da şagirdlərin mənəvi aləminə təsir göstərir və onların bir şəxsiyyət kimi formalaşmasına istiqamət verilir.

Mənəvi tərbiyə prosesinin elmi təşkili, onu məqsəd və vasitələrinin qarşılıqlı münasibəti məsələləri, əhalinin müxtəlif sosial və yaş kateqoriyalarının tərbiyəsi xüsusiyyətlərinin aydınlaşdırılması aktual əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq alimlərin bəzi təqdiqatları və tövsiyələri mənəvi tərbiyə işinin xeyli yüksəltməkdə faydalı rol oynuya bilər.

Milli mənəvi dəyərlər, adət ənənələr, milli mədəniyyətin bir növü kimi, keçmişlə gələcək arasında, bir körpü salır, varislik yaradır. Mənəvi tərəqqiyə yeni yollar açır. Milli mənəvi dəyərlər dedikdə, milli ideologiyamızın bu komponenti xalqımızın, millətimizin milli mentalitetini təşkil edir.

Bu dəyərləri dərindən bilməyən, onunla fəxr etməyən , dilini, dinini, tarixini, mədəniyyətini sevməyən insan vətənpərvər ola bilməz.

Gənc nəslin milli mədəniyyət , milli adət ənənələr ruhunda tərbiyəsi ilə yanaşı, qloballaşma prosesində mədəniyyət sahəsində meydana çıxan görkəmli nailiyyətlər onları zənginləşdirir. Hər bir xalq özünün milli mənəvi dəyərləri köksündə tərəqqi tapır, dünyada öz adət ənənələrini həyata keçirməklə zənginləşdirir və daim yaşadır. Öz dininin müqəddəs uca olduğunu dərk edən hər bir azərbaycanlı bilməlidir ki, bu din bizim milli mənəvi, dini əxlaqi , adət ənənələrimizi yaradan və qoruyub saxlayan bir inancdır. Azərbaycan xalqı hər zaman milli dəyərlərə sadiqliyini göstərib, bu dəyərləri əsrlərlə yaşadaraq onu inkişaf etdirib. Tarixin hər bir dövründə ölkəmizdə milli dəyərlərimizin qorunması və onun gələcək nəsillər çatdırılması aktual olub. Ulu Öndər Heydər Əliyev demişdir : "Hər bir xalqın adət ənənələri milli mənəvi dəyərləri həmin xalqın mentalitetini, fəlsəfi psixoloji xüsusiyyətlərini səciyyələndirir".

Milli mənəvi dəyərlərin yaşadılması və qorunması heç də ümumbəşəri mədəniyyətin formalaşmasına nəinki mane olmur, əksinə ümumbəşəri mədəniyyət məhz milli mədəniyyətlərin nailiyyətləri əsasında formalaşır. Milli və ümumbəşəri mədəniyyət bir- birini tamamlayır və zənginləşdirir. Milli-mənəvi dəyərlərini yaşatmaq, gələcək nəsillərə ötürmək xalqın keçmişi ilə bağlılığını, onun varlığını ifadə edir. Dilimiz, dini inancımız, adət-ənənələrimiz, həmçinin tarixən bu torpaqlarda mövcud olmuş birgə yaşayış mühiti, tolerantlıq kimi xüsusiyyətlərimiz milli-mənəvi dəyərlərimizdir. Bu dəyərlərə sadiqlik, onları yaşatmaq, təbliğ etmək, nəsillərə sevdirmək doğma Vətənimizin və xalqımızın gələcəyi naminə vacib və əhəmiyyətlidir. Azərbaycan xalqı əsrlərdir ki, məhz bu dəyərlərə söykənərək tarixin ağır sınaqlarından, çətin imtahanlarından uğurla çıxmağı bacarıb, öz milli kimliyini, dövlətçilik ənənələrini qoruyub saxlamağa müvəffəq olub. Tarix sübut etmişdir ki, xalq öz milli ruhunu, mənəvi dəyərlərini, əxlaqi keyfiyyətlərini qoruyub yaşadanda, inkişaf etdirib gələcək nəsillərə çatdıranda böyük və qüdrətli olur. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı da hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Milli-mənəvi dəyərlərdən danışarkən xüsusi vurğu ilə qeyd olunmalıdır ki, bizim misilsiz mənəvi irsimiz olan Heydər Əliyev şəxsiyyəti bu anlayışla ayrılmaz sürətdə bağlıdır. Milli dəyərlərimizin qorunması və inkişafı yaxın keçmişimizdə məhz ulu öndərimizin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında uğurlu yeniliklər, dəyişikliklər başlanmışdır.

Müasir dövrdə dövlət quruculuğuna dair sənədlərdə uşaqların əxlaq və mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsinə ciddi diqqət yetirmək təlim-tərbiyə müəssisələrinin başlıca vəzifələrindən biridir. Kiçikyaşlı uşaqlar xeyir, şər, ailə, yoldaşlıq, qayğıkeşlik, ədalət, sülh, müharibə, ekoloji fəlakətlər, hüquqi, iqtisadi biliklər və s. haqqında təsəvvürlərə, anlayışlara məhz məktəbəqədər müəssisələrdə, məktəblərdə yiyələnirlər. Məktəbəqədər yaşlı uşaqlarda yoldaşlıq, dostluq və qayğıkeşlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasına təsir göstərən mühüm şərtlərdən biri müvafiq mənəvi mikromühitin yaradılmasıdır. Bu mühitin yaradılmasının əsasında uşağın şəxsiyyətinə hörmət, qayğı və ağıllı tələbkarlıq durur.

Əxlaqi, mənəvi tərbiyənin mühüm vəzifələrindən biri də milli mənlik şüurunun formalaşdırılmasıdır. XX əsrin sonlarında aşkarlıq və demokratiyanın təsiri ilə, bütün xalqlar kimi, azərbaycanlılar da tarixin açılmamış səhifələrinə müraciət edərək, öz köklərini - görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini öyrənir, milli özünüdərkin, özünütəsdiqin, özünəməxsusluğun bütün faktlarını aşkar etməyə çalışırlar. Milli rəmzlərə, adət-ənənələrə yeni həyat verilir, dini etiqadlar, müqəddəs bayramlar xalqa qaytarılır. Bu qayıdışda yeni ruh, təfəkkür tərzi, münasibət öz əksini tapır. Milli ləyaqət, torpağa bağlılıq, vətəndaşlıq dəyanəti bu köklərdən qidalanır, gənc nəsli müstəqilliyə, azadlığa çağırır. İnsanda milli mənlik şüuru bu zəmin üzərində təşəkkül tapır və belə bir həqiqəti təsdiq edir ki, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı xalqın sayca böyüklüyündən, kiçikliyindən deyil, onun müdrikliyindən, zəngin təfəkkür tərzindən asılıdır. Kiçikyaşlıların müsbət

əxlaqi keyfiyyətlərinin, mənəviyyatının inkişafı milli mənlik şüurunun formalaşması ilə bilavasitə bağlıdır. Milli mənlik şüuru vətənlə, torpaqla, mədəniyyətlə, incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni-mənəvi irsin qavranılması, dərk edilməsi və təsdiqi deməkdir. Milli mənlik şüuru Vətənə, doğma torpağa, doğma yurda məhəbbət hissini formalaşdırır. Vətən torpağı insanın yaşayış və əbədiyyət məskənidir.

ƏDƏBİYYAT

1. İbrahimov Hacı Səbuhi. Heydər Əliyev və əxlaqi dəyərlər. Naxçıvan: 2013
2. Rəhimova S. Məktəbəqədər təhsil müəssisələrində uşaqların milli və vətənpərvərlik ruhunda tərbiyə olunması təcrübəsindən
3. İsmixanov M. Gənclik və mənəvi tərbiyə
4. Heydər Əliyev. Təhsil millətin gələcəyidir
5. Bədəlova Ə. Təlim-Tərbiyə

SUMMARY

Sevinj Hidayatli

USE OF NATIONAL VALUES IN MORAL EDUCATION OF STUDENTS

The article talks about how national values are used in the moral education of students. Moral education, which is one of the types of education, implies positive moral qualities. In national values, the language, religious and moral qualities of the personality, and feelings of patriotism are preferred. With the use of such qualities in school, the process of personality formation and development takes place

***Key words**: moral education, personality, national values, student, personality formation*

SALATIN HACIYEVA
salatinhaciyeva@ndu.edu.az
AYSEL İBRAHIMLI
ibrahimliaysel166@gmail.com
Naxçıvan Dövlət Universiteti

ÇƏTİN HƏYAT ŞƏRAİTİNDƏ YAŞAYAN AİLƏLƏRİN SOSİAL – PEDAQOJİ PROBLEMLƏRİ

Məqalə müasir dövr üçün olduqca çətin həyat şəraitində yaşayan ailələrin sosial – pedaqoji problemlərinə həsr olunub.Cəmiyyətdə baş verən dəyişikliklərlə müşayiət olunan sosial problemlərin müxtəlifliyi bu gün ailələrə də əhəmiyyətli dərəcədə təsir edir, çox vaxt onun həyati funksiyalarını pozur və yeni şəraitə uyğunlaşma qabiliyyətini azaldır. Bu gün cəmiyyətdə yeni sosial – iqtisadi şəraitdə yaşamağa məhkum olan azərbaycanlı ailəsinin inkişaf yollarının proqnozlaşdırılmasına yüksək tələbat hiss olunur. Sosial problemlərin kəskinləşdiyi belə bir şəraitdə ailənin sosial – pedaqoji problemləri açıq şəkildə özünü büruzə verir.

Çətin həll olunan mənzil problemləri, maddi gəlirin aşağı olması, məşğulluqla bağlı problemlər ailələrdə onların gələcək inkişafı ilə bağlı ümidsizlik, uşaqların tərbiyəsi məsələlərində məlumatsızlıq və sosial – pedaqoji narahatlıq hissi yaradır. Dövlət Statistika Komitəsinin məlumatına görə, ailələrin 85% -ə qədəri hər gün bu və ya digər aktual problemin təzyiqini hiss edir. Ayrı- ayrı ailələrə göstərilən dəstək millətin problemini həll etmir, başqalarının, xüsusilə güzəştli kateqoriya sferasına daxil olmayan əhalinin daha böyük bir hissəsinin problemi onların şəxsi tərbiyə imkanlarından daha sürətlə artır.

Uğursuz ailələrlə sosial – pedaqoji işi təşkil etmək, bu cür ailələrdə uşaqlar və valideynlərlə iş üsullarını müəyyən etmək üçün ailənin uğursuzluğunun səbəblərini bilmək, habelə bu uğursuzluğun yarada biləcəyi, sosial pedaqoqun öz işində qarşılaşa biləcəyi vəziyyətlər haqqında təsəvvürə malik olmaq lazımdır.

Açar sözlər: *ailə, çətinlik, problem, dəstək, sosial yardım, cəmiyyət*

Bu gün cəmiyyətdə baş verən və sosial münasibətlərə əhəmiyyətli dərəcədə təsir göstərən köklü siyasi və iqtisadi dəyişikliklər də mövzunun aktuallığından xəbər verir. Birinci növbədə bazar iqtisadiyyatına keçid şəraitində rifah halı dövlətdən asılı olan əhali qrupları arasında bu münasibətlərin stereotipi dəyişilir. Bu cür şəraitdə əlillərin, təqaüdçülərin və çoxuşaqlı ailələrin maddi vəziyyəti xüsusilə pisləşir, bu kateqoriyadan olan əhalinin sosial müdafiəsi vacib xarakter daşıyır və bununla əlaqədar olaraq, bu insanların rifah halının asılı olduğu bütün sosial institutların rolu getdikcə artır. Mövcud əhali təbəqələri ilə davamlı çalışa bilən, sosial yönümlü iş sistemi yaratmaq üçün sosial pedaqoqların və sosial işçilərin təlim prosesinin nəzəriyyə və metodologiyasının əhəmiyyətli dərəcədə yenidən nəzərdən keçirilməsi, aydınlaşdırılması və əlavələr edilməsi tələb olunur.

"Azərbaycan Respublikasında yaranmış demoqrafik situasiyanın özgün xüsusiyətləri vardır. Respublikada doğum, ölüm, boşanma, miqrasiya və s. proseslərdə, məhz onlarla şərtlənən spesifik cəhətlər özünü göstərir. Ailənin sosial – demoqrafik inkişafı da demoqrafik situasiyanın xüsusiyyətləri ilə bilavasitə bağlıdır" (Əlizadə H.Ə. 1993. s.9) 232 s.

Ailə bir sosial institut kimi həmişə cəmiyyətin ən mürəkkəb strukturlarının qurulmasının əsasını təşkil edir. Ailə hər bir insanın inkişafı üçün zəruri şərt olmaqla yanaşı, cəmiyyətin və dövlətin həyatında, yeni nəsillərin yetişdirilməsində, ictimai sabitliyin və tərəqqinin təmin edilməsində də mühüm rol oynayır. Normalar, dəyərlər və ailə strategiyaları sistemi əsrlər boyu mövcud olmuşdur. Ailənin sabitliyi, çevikliyi və uyğunlaşma qabiliyyəti bir çox nəsillərin təcrübəsinin izlənilməsi yolu ilə əldə edilmişdir. Dövlətin sabitliyi və gücü isə ailə həyat tərzinin norma və dəyərlərinə əsaslanır. Buna görə də, Azərbaycanda sosial siyasətin tərkib hissəsini, ailə və uşağın sosial və hüquqi

müdafiəsini əhatə edən, ailənin bir institut kimi qorunmasını təmin edən sosial, hüquqi və iqtisadi şəraitin yaradılmasına yönəlmiş ailə siyasəti təşkil edir. Sosial dəstək sosial hadisə kimi yarandığı gündən insan cəmiyyəti üçün xarakterik olmuşdur. Cəmiyyət öz üzvlərinə yaşaya bilmək, həyatda qala bilmək üçün müxtəlif formalarda kömək edir. Sosial dəstəyin ilk forması xeyriyyə işləridir. Dövlətin sosial dəstək sistemi əsasən yoxsulluq, evsizlik, əlillik kimi vəziyyətlərin aradan qaldırılmasına yönəldilmişdir. Bu gün Azərbaycanda sosial dəstək fəal şəkildə inkişaf edir, yəni çətinliklərin aradan qaldırılması və ya yüngülləşdirilməsi, sosial vəziyyətin yaxşılaşdırılması üçün ayrı-ayrı şəxslərə və ya qruplara yardım göstərmək məqsədi ilə tədbirlər sistemi işlənib hazırlanır. Hal-hazırda yoxsulluq ən böyük sosial problemlərdən biri hesab olunur.

Yoxsulluq insanların tələbatlarının qismən və ya tamamilə ödənilmədiyi bir vəziyyətdir. Cəmiyyət yarandığı gündən yoxsulluq problemi mövcud olub və hər bir dövrdə bu problemi müxtəlif üsullarla aradan qaldırmağa cəhd göstərilib.Yoxsulluğun müxtəlif səbəbləri var və onları aşağıdakı kimi qruplaşdırmaq olar: işsizlik, əlillik, narkotik və alkoqoldan asılılıq, təhsil səviyyəsinin aşağı olması, boşanma və həyat yoldaşının itirilməsi, iş qabiliyyətinin aşağı səviyyəli olması, ailənin böyüklüyü və s. Ailə, üzvləri ümumi həyat, qarşılıqlı mənəvi məsuliyyət və qarşılıqlı yardımla bağlı olan, nikah və qan qohumluğuna əsaslanan kiçik bir qrupdur. Azərbaycan Respublikasının qanunvericiliyinə görə, ailə dövlətin himayəsindədir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 16-cı maddəsinin 3-cü bəndində cəmiyyətin təbii vahidi olan ailənin cəmiyyət və dövlət tərəfindən müdafiə hüququnun olduğu nəzərdən keçirilir.

Müasir həyat şəraiti və Azərbaycanın iqtisadi inkişaf səviyyəsi, ailənin gəlir səviyyəsinin gözlənilməzliyi bizi uşaqların sayının planlaşdırılması məsələsinə daha məsuliyyətlə yanaşmağa məcbur edir. Odur ki, hazırda az övlad sahibi olmaq analığın sosial dəyərini getdikcə azaldır və iqtisadi həyatın qeyri-sabitliyi ənənələri canlandırmaq cəhdlərinə baxmayaraq, bunu daha da ağırlaşdırır. Ailələrin yaşayış şəraitinin təhlili göstərir ki, maddi-məişət şəraiti nə qədər yaxşı olarsa, bir uşağın doğulmasına da bir o qədər tez yönəlişlik yaranır. Uşaqların sayı ilə ailənin gəliri arasında tərs əlaqə də aşkar edilmişdir: yüksək gəlirli ailələrdə uşaqların sayı daha azdır. Əlverişsiz şərait, aşağı maddi vəziyyət və zəruri yaşayış sahəsinin olmaması başqa bir uşaq sahibi olma ehtimalını azaldır. Üstəlik, gözlənilən gəlir artımı reproduktiv münasibətə təsir göstərmir. Ailənin reproduktiv münasibəti ər-arvadın öz maddi vəziyyətini subyektiv qiymətləndirilməsi ilə əlaqələndirilir. Maraqlıdır ki, maddi təminatı yaxşı olan ailələrdə ər- arvadın üçdə biri (adətən ərlər) maddi şəraiti yoxsul hesab edir və bunu uşaq sahibi olmağa əngəl kimi qiymətləndirilir. Gəlirləri aşağı olan və artıq bir və ya iki uşağı olan ailələr isə maddi durumlarını kafi qiymətləndirirlər. Beləliklə, ailənin gəliri nə olursa olsun, ondan məmnunluq fərqli ola bilər. Bu əhəmiyyətli dərəcədə maddi sərvətin ailənin dəyər sistemindəki yeri ilə müəyyən edilir. "Əgər ölkəmizdə doğum səviyyəsinin artması üçün müvafiq şərait və stimul yaratmasaq, analığa, uşaqlığa, ailəyə dəstək üçün təsirli proqramlar qəbul etməsək, demoqrafik problemin həlli mümkünsüzdür. Daha əvvəl də qeyd edildiyi kimi, ailə uşaq şəxsiyyətinin inkişafı və sosiallaşmasının əsas institutudur. Bu proseslərin uğurlu nəticələnməsi üçün ailə daxilində, uğuruz ailələrdə olmayan, əlverişli mühit yaratmaq lazımdır. Buna görə də, ailə uğursuzluğunun nəticəsi əsasən gənc nəsildə - uşaqlarda əks olunur.

Ailə uğursuzluğunun nəticəsi olaraq uşaqların sosiallaşması və psixi inkişafındakı problemləri nəzərə almaq lazımdır. Ailə disfunksiyası çox vaxt uşaq və yeniyetmələrdə deviant davranışın inkişafına səbəb olur. Həmçinin ailə uğursuzluğu "sosialyetimlik", gənclik ekstremizmi və dezadaptasiyası kimi hadisələrin yaranmasına səbəb olan amildir. Beləliklə, sosial pedaqoqun öz işində qarşılaşa biləcəyi ailə uğursuzluğunun nəticələrini daha ətraflı nəzərdən keçirək.

Uşaq və yeniyetmələrdə deviant davranışın inkişafı. İlk növbədə deviant davranış anlayışına diqqət yetirək. Elmi ədəbiyyatlarda bu davranış "müəyyən cəmiyyət tərəfindən qəbul olunmuş, sosial cəhətdən məqbul sayılan davranışdan kənara çıxan sosial davranış" kimi müəyyən edilir. Deviant davranış bu və ya digər cəmiyyətdə sosial davranışın hüquqi və əxlaq normalarına zidd olan hərəkətlərin törədilməsidir. Bu, cəmiyyətdə qəbul edilmiş sosial, əxlaqi və hüquqi norma və tələblərə zidd olan davranışdır (1). Davamlı münaqişə, təcavüz və qəddarlıq şəraitində böyüyən uşaqda deviant

davranışın inkişafı riski artır. Bir qayda olaraq, uşaqlar öz valideynlərini nümunə götürdüklərinə görə, onların əxlaqsız davranışını və həyat tərzini kopyalamağa başlayır. Sosioloqlar uşaqlarda deviant davranışa səbəb olan ailə münasibətlərinin aşağıdakı üslublarını müəyyən edirlər (Bezrukova V.S., 2000, s.45).

- Nizamsız tərbiyə üsulu: həddindən artıq mühafizə etmək, münaqişələr, uşaqların tərbiyəsindən kənarda qalmaq;

- Natamam ailələrdə qeyri – sabit tərbiyəvi təsir üslubu: bu, boşanma və ya valideynlərin ayrı yaşaması hallarında baş verir;

- Nizamsız ailədə antisosial qarşılıqlı münasibət üslubu: mütəmadi şəkildə alkoqoldan və narkotiklərdən istifadə, əxlaqsız həyat tərzi, valideynlərin cinayətkar davranışı, qəddarlıq və məişət zorakılığı.

Yetkinlik yaşına çatmayanların hüquq pozuntusu və cinayətkarlığının səbəblərinin araşdırılması göstərir ki, qanunsuz davranış hallarının 70- 80%-i ailə tərbiyəsindəki çatışmazlıqlardan qaynaqlanır. Ailə tərbiyəsində uşaqlarda deviant davranışa səbəb ola biləcək ən tipik səhvlər bunlardır: (Əliyev R.İ., 2004, s.173).

- Valideynlərlə uşaq arasında səmimi ünsiyyətin azlığı;
- Valideynlərdə sabit əxlaqi prinsiplərin olmaması;
- Ailə həyatının təşkili uşaqda əxlaqi vərdişlərin formalaşmasına kömək etmir;
- Valideynlər uşağın daxili aləmini bilmir və anlamırlar;
- Valideynlərin uşağa qarşı kobud və xoşagəlməz münasibəti.

Gənclik ekstremizmi - gənclər arasında ekstremizmin spesifikliyi gənclərin iqtisadi, siyasi və mənəvi sosiallaşmanın tamamlanmaması, dünyagörüşünün qeyri-sabitliyi, sosial-psixoloji yetkinlik azlığı, həyat fəaliyyətinin forma və üsullarının qətiyyətlə yenilənməsinə cəhd, sosial etirazın müxtəlif formalarını təzahür etdirmək meyli və məqsədə çatmaq üçün vasitə və üsulların seçimində qeyri-sabitlik kimi özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. Gənclər arasında ekstremizmin yaranmasının səbəbləri iqtisadi bərabərsizlik, mülkiyyətin ədalətsiz bölgüsü, yüksək sosial gərginlik və ictimai münasibətlərdə münaqişə, siyasi hakimiyyətin nüfuzunun aşağı düşməsi, prioritet mənəvi dəyərlər sisteminin aşınması ilə əlaqələndirilir.

Ailə problemləri yetkinlik yaşına çatmayanlarda iqtisadi bərabərsizlik hissini gücləndirir, həmçinin mənəvi dəyərlərin və prioritetlərin formalaşmasına kömək etmir. Gənclər arasında ekstermizmin əsas xüsusiyyəti onun qrup xarakterli olmasının açıq ifadə olunmasıdır. Bu qrup yeniyetmənin ailəsini əvəz edir, onun xilasına, müdafiəsinə və sığınacağına çevrilir. Burada onu başa düşürlər və dəstəkləyirlər. Buna görə də gənclərin ektremizminə qarşı mübarizədə əsas istiqamət disfunksional ailələrin sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş fəaliyyət olmalıdır. "Sosial kimsəsizlik". Sosial kimsəsizlik bioloji valideynləri olan uşaqların hər hansı bir səbəbdən onların himayəsindən məhrum qalması, valideynləri tərəfindən tərk edilməsi hadisəsidir. Sosial yetimlik ailənin tərbiyə imkanlarının aşağı düşməsi, toxsulluq, valideynlərin pis vərdişləri, çətin həyat vəziyyətləri, habelə mənəvi və etik normaların məhv edilməsi iə əlaqələndirilir. Ailəyə verilən müavinətlər və kompensasiyalar sisteminin təhlili deməyə imkan verir ki, ailənin sosial – iqtisadi müdafiəsində onların rolu çox da böyük deyil. Uşaq müavinətlərinin onların gəlirlərinin əhəmiyyətli hissəsini təşkil etməsinə baxmayaraq, aztəminatlı ailələrin həyat səviyyəsi keyfiyyətcə dəyişmir. Yüksək gəlirli ailələrdə, bu müavinət və vəsaitlər onların həyat səviyyəsinin müəyyən edilməsində heç bir rol oynamır. Bu, keçid dövründə formalaşmış həyat şəraitində ailələrin sosial müdafiəsi problemnin prinsipial əhəmiyyət kəsb etdiyi tezisini təsdiq edir. Bununla yanaşı, onun bazar iqtisadiyyatının formalaşması mərhələsində həyata keçirilməsi keyfiyyətcə yeni yanaşma tələb edir. Bununla belə, sosial müdafiə tədbirlərinin siyahısı və növləri regionlar üzrə həm kəmiyyət, həm məzmun, həm də maliyyələşmə mənbələrinə görə əhəmiyyətli dərəcədə fərqlənir.

Hazırda çoxuşaqlı ailələrin sosial – iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün dövlət siyasətinin perspektivli istiqamətinin müəyyənləşdirilməsi çox vacibdir. Yaşayış şəraitinin yaxşılaşdırılması uzun müddətdir ki, çoxuşaqlı ailələr üçün aktual məsələdir. Buna görə də, 2011-ci

ildən çoxuşaqlı ailələr, mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan kimi tanının – tanınmamasından, ailənin başqa torpaq sahələrinin olub-olmamasından asılı olmayaraq, pulsuz və növbədənkənar torpaq mülkiyyəti hüququ əldə etmişlər. Bu dəyişikliklər Azərbaycan Respublikasının "Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinə pulsuz mülkiyyətin verilməsi haqqında" qanunda öz əksini tapıb. Bu gün çoxşaxəli ailəyə sosial dəstək, cəmiyyətdə baş verən dinamik proseslərlə əlaqədar əhalinin müxtəlif qruplarına münasibətdə fərdiləşdirilən, müxtəlif nazirlik və idarələr tərəfindən strukturlaşdırılan çoxşaxəli fəaliyyətdir. Ailələrin, xüsusilə də böyük ailələrin sosial yardıma və dövlət himayəsinə ehtiyacı var. Üstəlik, yardım zəmanətli və ünvanlıdır. Azərbaycanın hər bir regionunda onun sosial-iqtisadi imkanları nəzərə alınmaqla, ailələrlə işləmək üçün yaxşı düşünülmüş, balanslaşdırılmış sosial proqram lazımdır.

Çətin həyat şəraitində olan aztəminatlı ailələr ünvanlı yardım və sosial müqavilə şəklində dövlət dəstəyinə arxalana bilər. Bu, ya birdəfəlik nağd ödəniş, ya da geyim, psixoloji və digər yardım növləri ola bilər. Sosial-pedaqoji dəstəyin şərtləri bələdiyyələr və Azərbaycan Respublikasının təsis qurumları səviyyəsində tənzimlənir. Ünvanlı maddi yardım çətin həyat vəziyyətinə düşmüş ailələrə və subay insanlara göstərilir. Bunlar əlillik, xəstəlik, işsizlik və insanın öz gücü hesabına öhdəsindən gələ bilmədiyi vəziyyətlərdir.

İnsan həyatında yeni tələbatın yaranması obyektiv və fasiləsiz bir prosesdir. Xüsusilə də, çətin həyat şəraitində yaşayan ailələrin tələbatlarının ödənilməsi məsələsi bu gün aktuallıq kəsb edir. Bu tələbatların ödənilməsi üçün yeni sosial xidmətlərin təşkili və mövcud xidmətlərin isə keyfiyyətinn yaxşılaşdırılması zəruri faktor kimi qiymətləndirilməlidir. Azərbaycan Respublikası Qanununun IV fəsli çətin həyat şəraitində yaşayan insanlara sosial xidmətin forma və növlərinə həsr edilmişdir. Həmin fəslin 18-ci maaddəsində sosial xidmətin aşağıdakı formaları müəyyən edilmişdir:

1. Evdə sosial xidmət;
2. Yarımstasionar sosial xidmət;
3. Stasionar sosial xidmət;
4. Sosial-məsləhət yardımı.

Tədbirlər sistemi müxtəlif sosial xidmətlər vasitəsilə həyata keçirilir. Bu cür sosial xidmətlərə əhaliyə sosial-pedaqoji yardım mərkəzləri, yetkinlik yaşına çatmayanlar üçün sosial reablitasiya mərkəzləri, ailələrə və uşaqlara sosial yardım mərkəzləri, psixoloji-pedaqoji məsləhətlər, övladlığa götürmə mərkəzləri, qəyyumluq və qəyyumluq mərkəzləri, "yardım xətti" xidmətləri və s. daxildir. Sosial-pedaqoji xidmət dedikdə yetkinlik yaşına çatmayan uşaqların inkişafındakı geriliyin və davranış pozuntusunun profilaktikası, uşaqlarda marağın yaradılmasıvə onların asudə vaxtının səmərəli təşkili və ailə tərbiyəsinə dəstək başa düşülür. Sosial-pedaqoji dəstəyin əsas məqsədi ailə və mühitin qarşılıqlı əlaqələrinin yaradılması, şəxsiyyətin sosial adaptasiyası, təlim, tərbiyə və inkişafa yardım etməkdir.

Çətin həyat şəraitində olan ailələrin problemlərinin həyata keçirilməsi təkcə bu problemin həllinə deyil, həm də ailənin sosial əhəmiyyətli funksiyalarını yerinə yetirməsi üçün daxili potensialın gücləndirilməsinə və inkişafına yönəlmiş mövcud sosial-pedaqoji dəstəyin səmərəliliyindən asılıdır. Bu cür ailələrin aşkar olunması və onlara zamanında lazımi köməkliyin göstərilməsi, ailələrlə profilaktiki, maarifləndirici işlərin aparılması çox önəmlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan qəz., 2012; www. President.az/ articles/ 7022
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: 1993. Maarif, 232 s.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşdırılmasının etnopsixoloji əsasları: Psixol. Elm. Dok, ..,dis. Avtoref. Bakı: 2004
4. Безрукова В.С. Основы духовной культуры (энциклопедический словарь педагога), Екатерингбург, 2000

SUMMARY

Salatin Hajiyeva, Aysel Ibrahimli

SOCIAL-EDUCATIONAL PROBLEMS OF FAMILIES LIVING IN DIFFICULT LIFE CONDITIONS

The article is dedicated to the social-pedagogical problems of families living in difficult living conditions, which are quite modern. The variety of social problems accompanied by changes in society today significantly affects families, often disrupting their vital functions and reducing their ability to adapt to new conditions. Today, there is a high demand in the society for predicting the ways of development of the Azerbaijani family, which is doomed to live in new social and economic conditions. Social-pedagogical problems of the family clearly manifest themselves in such a situation where social problems are aggravated. Hard-to-solve housing problems, low financial income, and employment-related problems create hopelessness in families regarding their future development, lack of knowledge in children's education issues, and a sense of social-pedagogical anxiety. According to the State Statistics Committee, up to 85% of families feel the pressure of one or another urgent problem every day. The support given to individual families does not solve the problem of the nation, the problem of others, especially the larger part of the population that does not fall into the sphere of privileged categories, grows faster than their personal educational opportunities.

In order to organize social-pedagogical work with failed families, to determine the methods of working with children and parents in such families, it is necessary to know the reasons for the failure of the family, as well as to have an idea of the situations that this failure may cause, and the social pedagogue may encounter in his work.

***Key words**: family, difficulty, problem, support, social assistance, society*

KİMYƏ ALLAHVERDİYEVA
Kimyehuseynli107@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0003-4575-3030

MÜƏLLİMİN PEŞƏ MƏDƏNİYYƏTİ

Məqalədə müəllimlik peşəsinin xüsusiyyətlərindən, müəllimin peşə mədəniyyətini səciyyələndirən, xarakterizə edən cəhətlərdən bəhs olunmuşdur. Müəllimin təlim-tərbiyəsi ilə məşğul olduğu uşaqların fərdi psixoloji xüsusiyyətlərini bilməsi vurğulanmış, qeyd olunmuşdurki , hərtərəfli inkişafa malik olan şəxsiyyətin formalaşması uşaqların fərdi psixoloji xüsusiyyətlərini öyrənməklə şərtlənir.

Məqalədə müəllimin ünsiyyətinin xüsusiyyətlərindən,informasiya axınının gücləndiyi müasir dövrümüzdə, dərslərin tələblərə uyğun qurulması məsələlərinə də toxunulmuşdur.

Açar sözlər: *Müəllim, peşə,mədəniyyət, səriştəlilik, təmkinlik*

Müəllimlik peşəsi çox çətin,məsuliyyətli, mürəkkəb və habelə çox böyük yaradıcılıq tələb edən peşə fəaliyyətidir. Çətinliyi ondadırki, özünəməxsus fərdi psixoloji xüsusiyyətlərinə malik olan uşaqlarla təlim-tərbiyə işi aparır. Bu cəhətdən o, təlim-tərbiyə işi ilə məşğul olduğu uşaqların xüsusiyyətlərini bilməli,onların bütün zəif və qüvvətli cəhətləri ilə tanış olmalıdır. Məsuliyyətlidir, ona görə ki, vətəninin, xalqının, gələcək taleyi bir çox cəhətdən onun yetişdirdiyi, formalaşdırdığı uşaqlardan asılı olacaqdır. Bu işdə isə səhvə yol vermək olmaz. Müəllim gərgin fəaliyyəti ilə xalqının etiqadını doğrultmalıdır. Çünki "əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, pedaqoqlara uşaqlarımızın əxlaqını, ruhunu və bütün bunlarla bərabər öz vətənimizin gələcəyini etibar edirik (1, s.87).

Müəllimlik, eyni zamanda çətin və mürəkkəb işdir. Çünki müəllimin fəaliyyət obyekti olan uşaqlar özləri mürəkkəb və dəyişkən varlıqdırlar. Pedaqoji proses isə çoxcəhətli və çətindir. Müəllimlik yaradıcı işdir, ona görə ki, o, hazır göstərişlərlə, reseptlərlə işləyə bilməz. Müəllimdən hər bir konkret halda vəziyyəti düzgün təhlil edib, uğurlu çıxış yolu tapmaq, məsələlərə yaradıcı və müstəqil yanaşmaq, hər zaman standart olmayan , necə deyərlər qeyri- standart qərarlar qəbul etmək tələb olunur. Bunun üçün hər bir müəllimin pedaqoji nəzəriyyəyə və qabaqcıl təcrübəyə yiyələnməsi vacibdir. Yaradıcılıq, müəllimdən bütöv pedaqoji prosesi müşahidə və təhlil etməyi, onun qanunauyğunluqlarını nəzərə almağı, pedaqoji problemlərin optimal həlli yollarını müəyyən etməyi nəzərdə tutur. Yaradıcılıq müəllimə nikbinlik və sevinc bəxş edir.

Müəllimin peşə mədəniyyətini səciyyələndirən, xarakterizə edən cəhətlər çoxdur. Pedaqoji fəaliyyətdə müəllimin şəxsiyyəti, böyük əhəmiyyətə malikdir. Müəllim şəxsiyyəti onun işinə, pedaqoji prosesə bilavasitə təsir göstərir. Müəllim ilk növbədə öz şəxsiyyəti ilə uşaqları tərbiyə edir. Təlim-tərbiyə işində müəllimi heçnə əvəz edə bilməz. Öz işinin öhdəsindən layiqincə, uğurla gəlməsi üçün müəllim əsl mənada şəxsiyyət olmalı, özündə müsbət keyfiyyətlər formalaşdırmalıdır. Müəllimin ümumi mədəniyyətinin tərkib hissəsindən biri olan peşə mədəniyyəti, onun peşəkarlığında, səriştəliliyində, mərifətində mühüm yer tutur. Müəllimin peşə mədəniyyətini müəllimin ümumi mədəniyyətinin tərkib hissəsi olub, onun şəxsi keyfiyyətlərini, nüfuzunu, peşəkarlığını, pedaqoji ustalığını və s. özündə birləşdirən keyfiyyətlərin məcmusundan ibarətdir. Ümumi mədəniyyətin olmadığında peşə mədəniyyətinin mümkün olmadığı kimi,peşə mədəniyyətinin də olmaması ümumi mədəniyyətdə müəyyən boşluqların nəticəsi kimi meydana çıxır.

Peşə mədəniyyəti peşələrin reallaşması şəraitində özünü göstərə bilir. Peşənin qarşısında duran vəzifələr həm də həmin peşələrin mədəniyyətlərini özündə ehtiva etdiri. Başqa sözlə desək, peşə mədəniyyəti özünü müəyyən bir peşənin və ya peşə qrupunun qarşısında duran əsas vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi kimi göstərir.

Müəllimin peşə mədəniyyəti onun peşəkar keyfiyyətləri sırasında mühüm yer tutur. Onun təşkilatçılıq, didaktik, kommunikativ,perseptiv,kontruktiv, digər bacarıq və qabiliyyətləri kimi, peşə mədəniyyəti də səriştəlilik, peşəkarlıq və pedaqoji ustalıq sferasında xüsusi rola malikdir.

Müəllimin peşə mədəniyyəti humanizmə əsaslanan bir mədəniyyətdir. Müəllim təlim-tərbiyə işi ilə məşğul olduğu üçün uşaqlara humanist münasibəti onların gələcəyinə ümidlə baxması, gələcək cəmiyyətin məhz onların əli ilə qurulacağını dərindən dərk etməsi peşə mədəniyyətini istiqamətləndirən amillər kimi əhəmiyyətlidir, təsirlidir. Bu baxımdan, müəllimin peşə mədəniyyətini həm də onun bir vətəndaş kimi vətən, xalq, millət qarşısında öz borcunu və vəzifəsini ləyaqətlə yerinə yetirməli olduğuna inamlı olması və yerinə yetirməsidir.

Peşə mədəniyyəti müəllimin yeniliklərə can atması,onları öyrənməsi öz işinə və fəaliyyətinə yaradıcılıqla yanaşması ilə sıx bağlı olan keyfiyyətdir. Bundan məhrum olan müəllimin pedaqoji prosesdə uğur qazanması çətindir. Vətənimizin, xalqımızın işinə, əməyinə yarayan hərtərəfli inkişafa malik yetkin şəxsiyyət formalaşması işinin müvəffəqiyyətli həlli müəllimin peşə mədəniyyətinə yiyələnməsi ilə şərtlənir. Şagirdlərə "güzəstlə və nəzakətlə yanaşsalar, onları atalıq məhəbbəti,nəvazişi və nəsihətləri ilə özlərinə cəlb etsələr, əgər müəllimlər ən çalışqan şagirdləri bəzən tərif etməklə həvəsləndirsələr, şagirdlərinə şəfqətli münasibət göstərsələr, asanlıqla onların qəlbini özlərinə cəlb edirlərki, uşaqlar məktəbə gəlməyi evdə qalmaqdan daha artıq həvəs göstərirlər (2, s.132).

Təhsilimizdə baş verən yeniliklər, sürətli inkişaf tendensiyaları, dünyanın qabaqcıl ölkələrinin yaxşı təcrübəsinin pedaqoji prosesə gətirilməsi müəllimin bu yeniliklərlə ayaqlaşa bilməsini sürətləndirir. Hazırda hər bir müəllimdən öz fənnini yaxşı bilib- öyrənmək deyil, həm də öz fəaliyyətinə yaradıcılıqla yanaşmaq, yeniliklərlə işləyə bilmək, novator olmaq, şagirdlərin təfəkküründü inkişaf etdirmək, onları hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdıra bilmək və s. tələb olunur.

Müəllimin peşə mədəniyyətini səciyyələndirən, xarakterizə edən rövlətləndirən cəhətlər çoxşaxəlidir. Bu baxımdan onun təmkinliyi, onlarla məhəbbəti, onlarla yaxın mənəvi əlaqədə olması,mənəvi ünsiyyətə girmək səriştəsi,onların xarakter əlamətlərini öyrənmək təlim-tərbiyə prosesində nəzərə alması mümkün didaktik dəyərə malikdir.

Pedaqoji prosesdə həlledici, aparıcı rola malik olan əsas sima müəllimdir. Müəllimin peşə mədəniyyəti ilə bağlı heyrətamiz nümunələri şagirdləri tərəfindən görünməli, müşahidə olunmalı və duyulmalıdır. Müəllim intellektual səviyyəyə, ensiklopedik biliyə, metodik hazırlığa malik olmaqla yanaşı öz səviyyəsini aramsız olaraq yüksəltməyə diqqət etməli və bunun üçün daim çalışmalıdır. Müəllim tədris etdiyi fənni dərindən bilməklə yanaşı onu həm pedaqoji həm də metodik nöqteyi nəzərdən öyrənməyi bacarmalıdır.

ƏDƏBİYYAT

1. Ağayev R.Ə. Təlim-Tərbiyənin səmərəliliyinin artırılmasının elmi-nəzəri əsasları Bakı: 2010
2. Ağayev R.Ə. Tərbiyədə nümunənin rolu. Azərbaycan məktəbi jurnalı. Bakı: 2000. No 6, s. 18-31
3. Ağayev R.Ə. Müəllim nümunəsinin təsir gücü. İbtidai məktəb və məktəbəqədər tərbiyə jurnalı. Bakı: 2004, No 2
4. Əliyeva G.B Şəxsiyyətin formalaşmasının psixoloji problemləri, Bakı: 2010
5. Uşunski K.D. Seçilmiş əsərləri, Bakı: 1953

SUMMARY

Kimya Allahverdiyeva

TEACHER'S PROFESSİONAL CULTURE

The article talks about the characteristics of the teaching profession, the aspects that characterize the teacher's professional culture. It was emphasized that the teacher should know the individual psychological characteristics of the children whom he is training, and it was noted that the formation of a comprehensively developed personality is conditioned by studying the individual psychological characteristics of the children.

In the article, the features of the teacher's communication, in our modern era where the flow of information is increasing, and the issues of setting up the lessons according to the requirements were also touched upon.

Key words: *Teacher, profession, culture, competence, restraint*

SARA MUSAYEVA
musayeva415@gmail.com
Naxcıvan Dövlət Universiteti

İDEAL AİLƏ MODELİ

Məqalədə son dövrlərdə sosial-iqtisadi problemləron ailələrin həyatına necə təsir etdiyi araşdırılmış, sonda isə ideal ailə necə olmalıdır, bunun yaradılması üçün zəruri olan amillər sadalanır. Ailə üzvlərinə hansı xususiyyətlərin aşılanması ön plana çəkilmişdir. Ümumilikdə ideal ailənin fərdlər və cəmiyyətdəki mühim əhəmiyyəti izah olunur.

Açar sözlər: *Ailə, valdeyin nüfuzu, tərbiyə, etika, inam, etibar*

Ailə, nikah, yaxud qan qohumluğuna əsaslanan, birgə yaşayan, bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı münasibətlə bağlı kiçik qrubdur.

Yer üzərində ailənin, cəmiyyətin yaranması, insanların dünyagörüşünün getdikcə təkmilləşməsi, həyat tərzində yeniliklərin görünməsi, yaşayıb-yaratmaq istəyi, arzusu, amalı insanı bir sıra mənəvi-əxlaqi keyfiyyətlər əldə etməyi öyrətmişdir. İnsan bütün varlığı dövründə xeyirlə-şərin mübarizəsini görmüşdür. Min illər boyu davam edən bu mübarizə insanda mənfi və müsbət keyfiyyətlərin yaranmasına, genindəki xislətlərin üzə çıxamasına, ziddiyyətlərin, ədalətsizliklərin baş verməsinə səbəb olmuşdur. İstər Şərq istərsə də Avropa filosofları insanın həyatında problemləri həlletmək üçün ailədə, cəmiyyətdə nəyin yaxşı, nəyin pis olduğunu praktiki fəlsəfənin əsas vəzifəsi hesab edirlər. Onların fikrincə buna normativ etika deyilirdi. Hələ qədim dövrlərdən başlayaraq etika - "insan necə hərəkət etməlidir?,, sualına cavab axtarır. Çünki məhs etika qaydalarını anlayıb, dərk edən şəxs ailədə, cəmiyyətdə düzgün davranışlarına diqqət edib, öz yerini tapar. Bəs yaxşı ailə olmaq üçün fərdlərdə hansı xususiyyətlər fornalaşdırılmalıdır?- Ailəcənablılıq, gerçəklik və düzlük, ağıl və dərakə, idrak, sədaqət, inam, nəzakət, dostluq və s. Bu hisslər formalaşan şəxs həm ailəsində həm də cəmiyyətdə nüfuz sahibi olur. Alicənablıq- bu yüksək mənəvi-əxlaqi keyfiyyət insanın genindən, yüksək tərbiyəsindən irəli gəlir. O, insanın hərəkətini, davranışını əks etdirən mənəvi xususiyyətdədir. Müxtəlif dövrlərdə müxtəlif məzmun daşısada daima insanlıq aləninin carçısı kimi, sevilmişdir. Müasir dövrümüzdə təəssüfki, bu keyfiyyətlər lazımınca övladlara aşılanmır. Belə insanlar ailədə, cəmiyyətdə nə qədər çox olarsa ailənində, cəmiyyətində mədəni səviyyəsi daha yüksək olar. Biz hər bir ailədə, evdə böyüyən uşaqları alicənab, nəcib insan ruhunda böyütməli və tərbiyə etməliyik. Bu hər bir valdeyinin həm övladına həm də millətinə qarşı borcudur. Bundan başqa ailədə fərdlərə düz danışmağı, həqiqəti düzü deməyi öyrətmək lazımdır. Əlbətdəki bu mövzuda valdeyin nümunəsi əvəzsiz rol oynayır. Hər bir ailədə böyüyən uşaq kiçik yaşlarından bu ruhda, əqidədə tərbiyə olunmalıdır. Amma bu da həqiqətdir ki, düzgün qurulmayan həyat tərzində problemlər içində çapalayan insan həmin keyfiyyətlərdən hrum olur. Deməli ilk növbədə həyat şəraiti, sosial furum yaxşılaşdırılmalıdır. Əgər ailənin möhkəm təməllər üzərində qurulmağını istəyiriksə övladlarımıza ilk öncə dosltluq hissini aşılamaq lazımdır. Ər-arvad ilk öncə bir-biriylə dost olmağı bacarmalı dərdlərini dinləməlidir. Bunu görən oğul və qızda özlərində bu xususiyyətləri formalaşdıracaqdır. Yaxşı ailədə tərəflər arasında inam və etibar olmalıdır. Bu insanın əqidəsində, həqiqətə inamında vicdanlı, insaflı, təmiz qəlbliliyində özünü göstərir. Bütün tarix boyu kamilləşməyə can atanlar işdə, əməldə, həyatda qarşılıqlı inama, etimada, etibara yüksək qiymət vermiş övladlarının bu mənəvi keyfiyyətlərə yiyələnmələrini arzulamışlar. İnsanı ailəsində, cəmiyyətdə yaşadan inam hissidir. Çünki etibar sədaqətin açarıdır, ailədə məhəbbətin qoruyucusudur. Uşağın bu mövzuda tərbiyəsi gələcək nəslində tərbiyəsidir. İnsan dünyaya göz açandan ta ölənədək tərbiyə olunmalıdır. Tərbiyə olunmayıb qeyd etdiyimiz xüsusiyyətləri qazanmayan insan ailədə, cəmiyyətdə mədəni inkişafdan geri qalar. Odur ki, böyüy pedoqolar buyurublar ki, uşağın tərbiyəsi ilə lap körpə yaşından – anadan olan gündən məşğul olmaq lazımdır.

Bu hikmətli kəlamın bir əhəmiyyətli cəhədi də budur ki, uşaq kiçik yaşlarında hər şeyi görür, mənimsəyir. Yaxşı mühitdə böyüyən tərbiyə ola uşağında gələcəyi parlaq olur. Tərbiyə haqqında danışarkən uşaöın düzgün tərbiyə olunması üçün ailədə ata-ananın, nənə-babanın sözü bir olmalıdır. Bu o deməkdir ki, ailədə elə etik psixoloji mühit yaranmalıdır ki, uşaq valdeyinlərinin tələblərinin, göstərişlərinin, düzgünlüyünü, ədalətli olmasını dərk etsin. Ananın tapşırığını uşaq şıltaqlıq edib yerinə yetirmirsə, ata ananın sözünə, tələbinə qüvvət verməli, ananın haqlı olduğunu uşağa başa salmalıdır. Atanın sözü, tələbi olan yerdə anada belə etməli, yaxud da dinməməlidir. Amma bh etik-pedoqoji şərt ailədə tez-tez pozulur. Əksər hallarda ananın övladına olan məhəbbəti üzündən vahid tərbiyə prinsipi unudulur. Məsələn: ata uşaöa acıqlananda, tənbeh edəbdə yaxud da iş tapşıranda ana çox vaxt dözməyib araya girir, uşağı ovundurmağa çalışır. Hətta bəzi analar ərləri ilə yersiz mübahisə edirlər. Ancaq müdrik el misalında deyir ki, "uşağım əzizdir, tərbiyəsi ondan da əzizdir, Evdə uşaq üstündə ana-ata arasında mübahisə, dedi-qodu olanda uşaq çaş-baş qalır, kim haqlıdır, kim haqsız. Belə münasibət uşaqda sözə baxmamaq, kobudluq, dəcəllik, intizmalsızlıq və s. Qüsurlar yaradıb, çətin xasiyyət halına keçir. Vahid tərbiyənin düzgün qurulmamağı cəmiyyətdə də özünü göstərir. Həyata qədəm basmış gənc işdə biganəlik, davranış və hərəkətlərində səhflərə yol verir.

Evdə qız böyüyür: Hər bir övlad xususilədə qız uşağı evin yaraşığı, sevincidir. Onun sağlam böyüməsi, mənəvi tərbiyəsi böyük zəhmət, qayğı, pedoqoji bilik və təcrübə tələb edir. Qız uşaqları zərif, incə olurlar. Valideynlər onların həm gigiyena cəhətdən, həm də nəzakətli, mehriban, ağıllı olmaq baxımından hər gün tərbiyəsinin qayğısına qalmalıdırlar. Axı, hər bir qız gələcək ailənin xanımı, anası olacaqdır. Odur ki, qız uşağına hələ kiçik yaşlarından mədəni ailə və məişət qaydaları öyrədilməldir. Bu işdə ana xususi rol oynamalıdır. Ana öz qızına çay stolunu, yemək süfrəsini düzəltməyi, hər bir məişət əşyasının yerini bilməyi, ondan istifadə etməyi, evdə səliqə-səhma yaratmağç öyrətməlidir.

Evdə oğul böyüyür: Hər bir ailə oğula böyük ümid bəsləyir. İndi tərbiyə etdiyimiz oğul gələcəyin vətəndaşıdır, əməksevər işçisi və ilk növbədə ailə başçısıdır. Onun necə insan olacağı hər şeydən əvvəl ailədən və məktəbdən asılıdır. Qoçaq, zəhmətkeş və ədalətli olmaq, zəiflərin köməyinə gəlmək.. Bax, bu keyfiyyətlər elə lap uşaqlıqdan oğlan uşaqlarına aşılanmalıdır. Bəziləri belə düşünürlər ki, oğlanların tərbiyəsindəki çətinliyi aradan qaldırmaq olmaz, çünki bu, onların narahat xarakterindən irəli gəlir. Bu fikirdə həqiqət var, Amma hər halda əsas məsələ oğlanların ailədə də, məktəbdə də hansı şəraitdə, necə tərbiyə olunmasındadır.

Dünyada qadına münasibət məsələsinə gəlincə biz öz tədqiqatlarımıza əsasən qeyd edə bilərik ki, türk - Azərbaycan ailələrində, cəmiyyət içində qadına, anaya yaxşı münasibət olub. Ailə, nəsil, qadınlıq Şərqdə müqəddəs sayılıb. Bu haqda müdriklərimiz çox dəyərli fikirlər söyləyiblər. Azərbaycan türk qadınları ailəyə, övlada, ərinə, evinə möhkəm bağlı olublar. Onların mənəvi-əxlaqi düşüncələrinin, pak hisslərinin nəticəsidir ki, gözəl, saf əqidəli ailələrimiz yaranıb. Ağbirçək nənələrimiz, kişi qeyrətli analarımız həmişə ər qədri biliblər, talelərini bağladıqları kişilərin köməkçiləri, sirdaşları, hətta silahdaşları olublar. El qəhrəmanı Qaçaq Nəbinin Həcərini, H.B. Zərdabinin ömür yoldaşı Hənifə xanımı, general Ə.A. Şıxlinskinin ömür yoldaşı Nigar xanımı, Azərbaycanın maarifpərvər qadınları Şəfiqə xanım Əfəndizadəni, Mədinə xanım Qiyasbəylini, Məryəm xanım Bayraməlibəyovanı, Həmidə xanım Cavanşiri, şairə Gülsüm xanım Sadıqzadəni və yüzlərlə belə nurani, alicənab, nəcib qadınlarımızı neçə-neçə nəslin şərəf tacı olmuş analarımızı yada salaq. Onların hər biri gözəl ailə xanımı, mənəviyyat müəllimi olmuşdur. Təkcə bir nümunə: ailəsinə böyük məhəbbəti olan, mehriban, ciddi bir ömür yoldaşı kimi Həmidə xanım Cavanşir Mirzə Cəlili göz bəbəyi kimi qoruyur, onun böyük yaradıcı ilhamını qanad- landırır, istirahəti, dincliyi qayğısına qalır, bəzən də bir əməkdaş kimi ona kömək edirdi. Mədəni, xeyirxah balalar tərbiyə etdiyi üçün Cəlil Məmmədquluzadə ömrünün axırına kimi ona minnətdarlıq etmişdir. Bütün bu nümunələr qadının ailədəki mövqeyini bir daha sübut edir. Müasir dövrdə bir çox problemlər var. Qlobal, istisadi, siyasi, ekoloji, maddi, eyni zamanda psixoloji problemlər, iş həyatında isə stress, aqressiya, konfliktlər və s. Müasir dövrdə geniş yayılmış problemlərdən biri də ailə daxilində olan konfliktlərdir. Bu problemlər də insana psixoloji təsir göstərir, insanın saglamlığının aşağı səviyyədə olmasına, eyni zamanda

birbaşa ailəyə təsir göstərir. Güclü və təməli möhkəm qurulan ailələrdə bu cür problemlər ailəyə ayaq basa bilmir.

Ailə dəyərlərini bilənlər, hər kiçik problemi böyütmürlər, çünki ailənin dəyərindən böyük heç nəyin olmadığını, hətta onları narahat edən hər hansı prblemin belə ailəyə hüzursuzluq gətirməməsi üçün onları ailə münasibətlərini pozacaq hala gətirmir, evdə lazımsız konfliktlər yaratmırlar. Yaxşı gündə də, pis gündə də bir-birinin əlindən tutub güclü olmağı, ayaqda durmağı bacarar güclü ailələr. Buna görə də ailə səmimi və sağlam münasibətlər üzərində qurulmalı, ailədə qarşılıqlı hörmət olmalıdır. Ətraf mühitin ailə münasibətlərinə pis təsirindən qaçmaq, əvəzində xoşbəxt olmağın yollarını axtarmaq lazımdır.

Xoşbəxt olmağın ən gözəl yolu, sahib olduğun ailənin dəyərini bilmək, onu hər şeydən qorumaqdır.

ƏDƏBİYYAT

1. Ə.Əlizadə., A.N Abbasov. Ailə həyatının etika və psixologiyası. Bak: 1988, 192 s.
2. Əlizadə H.O., Mahmudova R.M. Sosial pedaqogika. Bakı: 2013, 368 s.
3. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: 2015,411 s.

SUMMARY

Sara Musayeva

THE IDEAL FAMILY MODEL

The article examines how socio-economic problems affect the lives of families in recent times, and finally, what an ideal family should be, and the factors necessary for its creation are listed. What characteristics are instilled in the family members is brought to the fore. In general, the necessary importance of the ideal family in individuals and society is explained.

Key words: *Family, family authority, education, ethics, trust, confidence*

GÜLNAR NOVRUZOVA
Naxçıvan Dövlət Universiteti

MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA XARİCİ ƏLAQƏLƏRİN ROLU

Məqalədə Azərbaycanın müstəqillik əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında xarici əlaqələrin rolundan bəhs edilmişdir. Məqalədə əsasən ulu öndərin Naxçıvanda Ali Məclisin Sədri olduğu dövrdə istər İranla, istərsə də Türkiyə ilə bağladığı müqavilələr nəticəsində Naxçıvanın iqtisadi inkişafı qeyd edilmişdir. Bundan əlavə Zəngəzur dəhlizinin açılması, onun Naxçıvana verəcəyi iqtisadi xidmətlərdən də bəhs edilmişdir. Tədqiqat nəticəsində Naxçıvanın son dövrlər üçün xarici ticarət dövriyyəsi araşdırılıbortaya qoyulmuşdur.

Açar sözlər: *Naxçıvan, xarici əlaqə, iqtisadiyyat, Zəngəzur, Türkiyə, İran*

Müstəqillik əldə ediləndən sonra, daha dəqiq desək ulu öndər Heydər Əliyev Azərbaycanda prezident seçiləndən sonra dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri Qarabağ məsəlsi olsa da, digər məsələ isə iqtisadi naliyyətlər əldə etmək, iqtisadi vəziyyəti aşağı vəziyyətdən yuxarıya qaldırmaq və insanların rifah halını yaxşılaşdırmaqdan ibarət idi. Belə bir zamanda investorları ölkəyə cəlb etmək lazı idi. Ancaq müstəqilliyin ilk illərində ölkədə vəziyyət o qədərdə ürəkaçan olmadığı üçün investorları ölkəyə cəlb etmək o qədər də asan deyildi. Buna baxmayaraq ümummilli liderimiz Heydər Əliyev bu məsələlərin öhtəsindən çox asanlıqla gələ bildi. Az bir zaman kəsiyində Azərbaycanın iqtisadi naliyyətləri onun beynəlxalq aləmdə mövqeyini və nüfuzunu xeyli möhkəmlətdi.

Ölkənin iqtisadi cəhətdən dirçəldilməsi Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikasında da öz bəhrəsini vermişdir. Belə ki, hələ ulu öndər Naxçıvanda Ali Məclisin Sədri işləyərəkən bölgəni iqtisadi böhrandan çıxarmaq üçün bir sıra addımlar atmışdır. Belə addımlardan biri Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında yerləşən "Ümid körpüsü"nün açılışının olması idi. Bundan əlavə İran İslam Respublikası ilə Naxçıvan arasında "Şahtaxtı-Poldəşt" körpüsünün açılışı da bu kimi məsələlərdən idi.

Ulu Öndərin Naxçıvana rəhbərlik etdiyi zaman onun qonşu Türkiyə və İran ilə qurduğu əlaqələr bölgənin taleyi üçün mühüm rol oynadı. Onun, xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən bu ölkələrə bir neçə dəfə səfərlər etməsi, ölkə rəhbərləri ilə imzaladığı sənədlər tərəflər arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə səbəb oldu. Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində idxalın həcminin 1992-1993-cü illərdə artması, əsasən, gündəlik tələbat mallarının həcmi ilə bağlı olmuşdu. Belə ki, müharibə şəraitində olan muxtar respublikanın bu dövrdə əsas yeyinti məhsullarına olan tələbatının idxal hesabına təmin olunması, ticarətdə barter əməliyyatlarının üstünlük təşkil etməsi idxalın dəyər və həcminin artmasına gətirib çıxarırdı.

Bir sözlə müstəqillik əldə etdikdən sonra xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başlamışdır. Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə müsbət təsirini göstərmişdir.

Xarici əlaqələr. İran və Türkiyə ilə yaradılmış iqtisadi əlaqələr, qonşu dövlətlərin muxtar respublikaya maliyyə yardımı bölgənin sosial-iqtisadi vəziyyətinə öz müsbət təsirini göstərdi. İqtisadçı alim N. Əhmədov yazır ki, Regional inkişafın təmin olunması baxımından xarici iqtisadi əlaqələri inkişaf etdirmək üçün aşağıdakı problemlərin həlli də çox əhəmiyyətlidir.

1. Regionda ixtisaslaşmanın onun ölkədaxili və beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlükləri, mövqeyi və daxili tələbatı nəzərə almaqla aparılması;

2. Regionun potensialının inkişaf etdirilməsi və onun strukturunun son məhsul hesabına tədricən yaxşılaşdırılması;

3. Regionda idxalı əvəz edən məhsul istehsalının artırılması və ixracın quruluşunun müəyyənləşdirilməsi;

4. Regionda xarici iqtisadi əlaqələrin müasir dövrün tələblərinə cavab verən təşkilati-idarəetmə sisteminin yaradılması və s.

Bazar iqtisadiyyatı şəraitində xarici iqtisadi əlaqələri inkişaf etdirmədən ölkənin istehsal potensialını artırmaq, ondan səmərəli istifadə etmək, habelə ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlükləri reallaşdırmaq mümkün deyildir (Əhmədov N., 2012).

Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi İran İslam Respublikasına səfərləri müştərək tarix, mənəvi dəyərlərlə birbirinə bağlı olan Azərbaycan və İran respublikaları arasındakı münasibətlərin əsasını qoymuşdur. Culfa və Şahtaxtı gömürük məntəqələri açılmış, qarşılıqlı əlaqələr sürətlə inkişaf etmişdir. Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin əsası isə 1992-ci ildə İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin dəvəti ilə Naxçıvan MR Ali Məclisinin Sədri ümummilli lider Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı 24 avqust 1992-ci il tarixdə imzalanmış "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq protokolu" ilə qoyulmuşdur. Bundan sonra 1993-cüilin ortalarında muxtar respublikaya İran İslam Respublikasından 42 mvt, gücündə elektrik enerjisi daxil edilmişdir ki, bu da yaşayış standartlarının normallaşmasında mühüm mərhələ təşkil etmişdir. 1993-cü ildə ulu öndərinAzərbaycan Respublikasının prezidenti seçiləndən sonra Azərbaycan-İran dövlətlərarası münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. 1996-cı ildən ötən müddətdə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığa dair 4 saziş, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında iqtisadi və mədəni əməkdaşlığa dair 5 saziş imzalanmışdır. 2004-cü ilinavqustun 5-də İran İslam Respublikasının Culfa şəhərində Azərbaycanın və İranın Culfa şəhərləri arasında çəkilmiş 132 kilovoltluq hava elektrik ötürücü xəttinin və 132h kilovoltluq yardımçı elektrik stansiyasının təntənəli açılış mərasimi olmuşdur.Bu xəttin və yardımçı stansiyanın istifadəyə verilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası əhalisinin və iqtisadiyyatının elektrik enerjisinə tələbatının ödənilməsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bağlanmış müqavilələrə əsasən, 2011-ci ilin oktyabr ayında Naxçıvan-Təbriz-Tehran və əks istiqamətdə, Naxçıvan-Urmiya və Urmiya-Naxçıvan müntəzəm avtobus marşrutları fəaliyyətə başlamışdır.

İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikasının yaxın bölgələri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq da yüksələn xətlə inkişaf edir.2011-ci ildə Xoy şəhərində Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İranın Xoy Şəkər Fabriki arasında şəkər çuğundurunun verilməsi və əvəzində şəkər tozunun alınması haqqında müqavilə imzalanmışdır. Ümumilikdə, 2000-2012-ci illər ərzində muxtar respublikanın 200-ə yaxın sahibkarı İran İslam Respublikasında təşkil olunmuş sərgi və beynəlxalq tədbirlərdə iştirak etmişdir.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikasında təşkil edilən Novruz yarmarkalarında İran şirkətləri iştrak etmişdir. Buna bariz nümünə olaraq Naxçıvanda təşkil edilmiş 3-cü Novruz yarmarkasında İranın müxtəlif vilayətlərindən gəlmiş 17 şirkət 570 tondan çox müxtəlif növ məhsullarını satışa çıxardıblar. Bu məhsullar əsasən ərzaq məhsulları, yuyucu maddələr, meyvə, süd məhsulları və əl işləri sənayesidir.

Təkcə 2012-ci ildə Azərbaycan Respublikasının İran İslam Respublikası ilə ümumi ticarət dövriyyəsinin həcmi 263 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 176 milyon ABŞ dolları, ixracın həcmi 87 milyon ABŞ dolları təşkil etmişdir.

44 günlük Vətən müharibəsindən sonra "İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu" imzalanıb.Məqsəd Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir (10).

Naxçıvan Türkiyə əlaqələri hələ ötən əsrin 90-cı illərinin əvvəllərində atılmışdır. Sonrakı dövrdə "Dilucu" keçid məntəqəsinin açılması ilə əlaqələr yüksək səviyyə qalxmışdır. Bu əlaqələrdə iqtisadi əlaqələr mühüm yer tutmuşdur. Onu da qeyd edək ki, Türkiyə nəyin ki, iqtisadi məsələlərdə, demək olar ki, bütün məsələlərdə, regionun başlıca inkişafında xalqımızın yanında olmuşdur.

1993-cü ilin may ayında Türkiyə Respublikasındakı "İğdır" elektrik yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına 87,5 km uzunluğunda 154 kilovotluq ikidövrəli elektrik verilişi xəttinin çəkilişi başa çatdırıldı və Naxçıvana qardaş Türkiyə Respublikasından 50-60 mvt gücündə elektrik enerjisinin ötürülməsinə başlanıldı.Vaxtilə işıqsız, qazsız qalan Naxçıvan indi Türkiyəyə 17 meqavat gücündə elektrik enerjisi ixrac edir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında xüsusi iqtisadi zona yaradılması üçün qarşılıqlı anlaşmalar mövcuddur. İqtisadçı alim C.Qasımov bununla əlaqəli yazır ki, bu məqsədlərin reallaşdırılması istiqamətindəki tədbirlərin tərkib hissəsi olaraq, 2017-ci ilin yanvar ayında Türkiyənin İqtisadiyyat Nazirliyinin İxracat İdarəsi rəisinin Naxçıvan Muxtar Respublikasında səfərdə olması, oktyabr ayında isə Türkiyənin İqdır şəhərində Türkiyə-Azərbaycan biznes-forumunun keçirilməsinin bəhs olunan sahədə böyük əhəmiyyəti vardır. Azərbaycan və Türkiyə respublikalarının iqtisadiyyat nazirlərinin birgə iştirakı ilə reallaşan bu görüşdə qarşılıqlı iqtisadi-ticarət perspektivlərinə dair müzakirələr aparılmışdır. Məlumdur ki, Türkiyə Cümhuriyyətinin Nazirlər Kabineti tərəfindən qəbul edilmiş qərarla Naxçıvan Muxtar Respublikasında istehsal edilən və ya istehsal potensialı olan 43 adda məhsulun (bunlardan 13-ü kənd təsərrüfatı, 30-u sənaye məhsulu olmaqla) Türkiyənin bütün ərazisinə idxal rüsumu ödənmədən, güzəştli şərtlərlə daxil olmasına razılıq verilməsi nəzərdə tutulmuşdur. Sözügedən qərar Naxçıvan Muxtar Respublikasında istehsal olunan illik təqribən 100 milyon ABŞ dolları məbləğində məhsulların Türkiyəyə rüsum ödəmədən ixrac edilməsinə imkan yaradacaq. Bu isə şübhəsiz ki, muxtar respublikanın ixracın şaxələndirilməsi sahəsindəki hədəflərinin çevik gerçəkləşməsinə xidmət edəcəkdir (Qasımov C., 2018).

Muxtar Respublikada kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artırılmasına Türkiyə respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasında istehsal olunan və ixrac edilən məhsullara qoyulan rüsumun ləğv edilməsi və digər məhdudiyyətlərin götürülməsi sahibkarlığın inkişafı üçün geniş imkanlar açmışdır.

Sevindirici haldır ki, Naxçıvanlı sahibkarlar 23-27 oktyabr 2018-ci il tarixlərdə Türkiyənin İstanbul şəhərində qida, inşaat, tikinti, kimya sənayesi, mebel, turizm və s. keçirilən ixrac missiyasına Muxtar Respublikanın 19 şirkətlə təmsil olunmaqla qlobal arenada kifayət qədər tanınmaqdadır.

İki ölkə arasında iqtisadi əlaqələrin əsas istiqamətlərindən biri enerji sahəsində əməkdaşlıq olmuşdur. Türkiyə-Azərbaycan enerji əlaqələrinin əsasları Azərbaycanın müstəqillik qazanması ilə qoyulmuşdur. Bu sahə Naxçıvanı daha çox bağlamadığı üçün geniş şəkildə araşdırma aparmamışıq. Azərbaycan və Türkiyə arasında İğdır–Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu 2020-ci il dekabrın 15-də Ankarada imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır–Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyəti. Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrində və iqtisadi inkişafında Zəngəzur dəhlizinin böyük önəmi vardır. Belə ki, İkinci Qarabağ müharibəsindən sonra nəzərdə tutulan anlaşmalardan biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizinin əhəmiyyətini müxtəlif istiqamətlər üzrə alternativ marşrutların mövcudluğu ilə xarakterizə etmək olar. Bu dəhliz bir çox baxımdan çox önəmlidir. Belə ki, Türkiyə ilə Orta Asiya arasında yeni marşrutun yaradılmasına təkan verməklə Türkiyənin bu istiqamətdə İrandan asılılığı aradan qaldırılacaqdır.

Bundan başqa, Gürcüstana daxil olmadan Rusiya ilə Türkiyə arasında yeni nəqliyyat marşrutu yaradılacaqdır ki, bu marşurut Naxçıvandan keçəcəkdir (Həmzatlı M, 2022, s.54).

Dəhlizin açılması ilə ölkələr arasında ticarət məsafələrinin əhəmiyyətli dərəcədə azalacağı və ticarətin artacağı gözlənilir. Zəngəzur dəhlizinin uzunluğu təxminən 40 kilometr olacaq və regionda ticarət potensialını artıracaq mühüm layihə olacaq. Onu da qeyd edək ki, dəhlizin açılması ilə türk şirkətlərinin bölgənin yenidən qurulmasında və inkişafında fəal rol alması gözlənilir. Üstəlik, dəhliz sayəsində mallar İran və Gürcüstan kimi ölkələrdən keçən xətlərə ehtiyac olmadan birbaşa Azərbaycana çatdırıla bilir. Eyni zamanda Orta Asiya ölkələrinə malların daşınması daha sürətli və daha az xərclə həyata keçirilə biləcək. Bundan əlavə, koronavirus epidemiyasından iqtisadi yöndən mənfi cəhətdən təsirlənən region ölkələri Zəngəzur dəhlizi sayəsində yeni istiqamətlərə çata biləcək. Dəhliz həmçinin Şimal-Cənub marşrutu ilə Mərkəzi Dəhlizlə daha fasiləsiz və daha qüsursuz əlaqəni təmin edəcək.

Bakı-Tiflis-Qars dəmiryolu və Naxçıvan. Bakı-Tiflis-Qars dəmiryolu layihəsi iqtisadi cəhətdən Naxçıvan üçün böyük əhəmiyyət kəsb edir və olduqca səmərəlidir. Layihəyə Naxçıvandan Qarsa dəmiryolu xəttinin çəkilməsi daxildir. Belə ki, bu layihə həyata keçsə, Naxçıvanın Türkiyə ilə birbaşa dəmiryolu əlaqəsi olacaq. Bundan əlavə, bu dəmiryolu xətti Naxçıvanın dünyaya açılması deməkdir. Bundan əlavə, yaxın vaxtlarda Bakı-Tiflis-Qars dəmiryolunun Naxçıvan-Culfa-Təbriz dəmiryolu xəttinə birləşdirilməsi üçün zəruri tədbirlər görülərsə daha əlverişli olacaqdır. Bu yol təkcə Azərbaycanı Türkiyə ilə deyil, Avropa və Asiya ilə birləşdirəcəkdir. Bu yolun Naxçıvana birləşdirilməsi çox mühüm addım olacaq. Beləliklə, bu marşrut iqtisadi fayda baxımından böyük əhəmiyyət kəsb edəcəkdir.

İxrac ili. 2020-ci ilin Naxçıvanda "İxrac ili" elan olunması muxtar respublikanın sosial-iqtisadi imkanlarını daha da genişləndirmiş, yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən məhsulların ixrac potensialının artırılmasını təmin etmişdir. Sahibkarlıq subyektlərinin əlaqələrinin inkişaf etdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, istehsal olunan məhsullarının ixrac imkanlarının artırılması və xarici ölkələrdə tanıdılması məqsədilə 2020-ci ildə dövlət dəstəyi ilə ölkə daxilində və xaricdə keçirilən 7-si onlayn olmaqla 10 beynəlxalq tədbirdə 14 sahibkarlıq subyektinin 27 nümayəndəsinin iştirakı təmin olunmuşdur.

Artıq Naxçıvan Muxtar Respublikasının istehsalı olan məhsulların xarici bazarlara çıxış imkanlarının daha da genişlənməsi özünün mühüm yüksəliş mərhələsinə gəlib çatmışdır. Diqqət edəndə görünür ki, muxtar respublika mineral suların ixracı sahəsində, xüsusən də, "Sirab" və "Badamlı"dan ibarət Naxçıvan brendini dünyaya təqdim etməkdədir. Əgər "Sirab" mineral suyu Rusiya, Ukrayna, Türkiyə, İran kimi ölkələrə ixrac olunursa, "Badamlı" mineral suyu MDB məkanına, Dubaya, Səudiyyə Ərəbistanının hüdudlarına daxil ola bilirsə, deməli muxtar respublika öz təbii sərvətlərinin qiymətləndirilməsində, ixracında və ondan əhalisinin rifahı naminə səmərəli istifadə olunmasında artıq güclü təcrübəyə malikdir. Artıq ABŞ, Yəmən, Oman Sultanlığı, Əfqanıstan kimi ölkələr yerli istehsal məhsullarının ixracında yeni satış bazarları kimi çıxış edir və bu tendensiya davam etməkdədir.

2020-ci ildə muxtar respublikanın 63 ölkə ilə 510,5 milyon ABŞ dolları həcmində xarici ticarət-iqtisadi əlaqələri qurulmuş, 14 ölkəyə 425,5 milyon ABŞ dolları həcmində (xarici ticarət əməliyyatlarının 83,3 faizi) məhsul ixrac olunmuşdur ki, burada da xüsusi çəki etibarı ilə Türkiyənin payı 50%-dən yüksəkdir (Mahmudov C., Qasımov C., Nəsirov E. 2021).

2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 510 milyon 547 min ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 428 milyon 520 min ABŞ dollarını ixrac, 82 milyon 27 min ABŞ dollarını idxal təşkil etmiş və 346 milyon 493 min ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır. 2020-ci ildə muxtar respublikada dəmir yolu nəqliyyatı ilə 133 min tondan artıq yük və 96 minə yaxın sərnişin daşınmışdır. Türkiyə hökümətinin qərarı ilə Naxçıvanda istehsal olunan 40-dan artıq məhsul qardaş ölkəyə rüsumsuz ixrac edilir (1).Bu rəqəmlərə nəzər saldıqda görürük ki, ötən əsrin 90-cı illərindən blokada vəziyyətində olmasına baxmayaraq, muxtar respublikada iqtisadi göstəricilər hər il əvvəlki illərə nisbətdə yüksək templə davam etmiş, iqtisadi yeniləşmə və davamlı sosial-iqtisadi inkişafa nail olunmuş, hər il yeni sənaye müəssisələri yaradılmışdır. Lakin Azərbaycanın əsas hissəsi ilə quru əlaqələrinin olmaması səbəbindən Naxçıvan Muxtar Respublikası

Azərbaycanda sosial işin təşkili və onun inkişaf perspektivlərinin tədqiqinin aktuallığını qiymətləndirmək olmaz. Mövzu sosial ədalət, iqtisadi sabitlik, səhiyyə, təhsil və beynəlxalq əməkdaşlığın fundamental aspektlərinə toxunaraq onu siyasətçilər, praktiklər və bütövlükdə cəmiyyət üçün mühüm tədqiqat və fəaliyyət sahəsinə çevirir (14, s.88).

Nəticə

Azərbaycanda sosial işin təşkili və onun inkişaf perspektivlərinin tədqiqi həm çağırışlarla, həm də imkanlarla dolu mənzərəni ortaya qoydu. Azərbaycan sürətlə dəyişən sosial və iqtisadi mühitin mürəkkəbliklərində naviqasiya etməyə davam etdikcə, sosial işin rolu getdikcə daha mühüm olur. Məqalə, sosial birliyi, bərabərliyi və rifahı təşviq etməklə yanaşı, Azərbaycan əhalisinin müxtəlif ehtiyaclarını ödəməyə qadir olan möhkəm, dinamik və həssas sosial iş sisteminə kritik ehtiyacı vurğulamışdır. Azərbaycanda sosial işin inkişafı qanunvericilik dəstəyinin, peşəkar təhsilin, ictimaiyyətin cəlb edilməsinin və beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayaraq çoxşaxəli yanaşma

tələb edir. Aydındır ki, sosial iş peşəsinin böyüməsini təşviq etmək müxtəlif maraqlı tərəflərin, o cümlədən dövlət orqanlarının, təhsil müəssisələrinin, qeyri-hökumət təşkilatlarının və ümumilikdə ictimaiyyətin birgə səylərini tələb edir. Sosial işçilərin təhsilinə və təliminə sərmayə qoymaq, qabaqcıl beynəlxalq təcrübələri mənimsəmək və bu peşəni dəstəkləyən siyasətləri həyata keçirməklə Azərbaycan öz vətəndaşlarına göstərilən sosial xidmətlərin keyfiyyətini və təsirini artıra bilər.

Texnologiyanın sosial iş təcrübələrinə inteqrasiyası xidmətin göstərilməsi və çıxışın yaxşılaşdırılması üçün perspektivli bir yol təqdim edir. Rəqəmsal platformalar və alətlər daha səmərəli kommunikasiyanı, resursların bölüşdürülməsini və xidmətlərin təmin edilməsini asanlaşdıra, nəticədə sosial iş xidmətlərini ehtiyacı olanlar üçün daha əlçatan və effektiv edə bilər. Tədqiqat, həmçinin sosial iş xidmətlərinin qəbuluna və effektivliyinə mane ola biləcək ictimai münasibətlər və mədəni normaların həllinin vacibliyini vurğulayır. İctimai maarifləndirmə kampaniyaları və təhsil proqramları qavrayışların dəyişdirilməsində və sosial iş təşəbbüsləri üçün daha dəstəkləyici mühitin təşviqində mühüm rol oynaya bilər. İrəliyə baxsaq, Azərbaycanda sosial işin inkişaf perspektivləri ölkənin daha geniş sosial siyasəti və iqtisadi inkişaf hədəfləri ilə mahiyyət etibarilə bağlıdır. Sosial iş təkamül etməyə davam etdikcə, o, uyğunlaşa bilən, sübuta əsaslanan və sosial ədalət və insan hüquqları prinsiplərinə əsaslanmalıdır. Sosial işin Azərbaycanda ictimai rifaha və inkişafa töhfə vermək potensialı böyükdür.

ƏDƏBİYYAT

1. Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. Sosial Rifah Proqramları üzrə İllik Hesabat. Bakı: 2020. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
2. Dunham, A., & İsmayılova, L. (2019). "Azərbaycanda İnkişaf edən Sosial İş Təhsili: Problemlər və Perspektivlər", Sosial İş Təhsili və Təcrübəsi Jurnalı, 4(3), s.35-46
3. Beynəlxalq Sosial İşçilər Federasiyası (IFSW). (2021). Sosial İş Təhsili və Təliminin Qlobal Standartları. Bern: IFSW
4. Cəfərova, G., & Hüseynli, A. (2018). "İcma əsaslı layihələrin Azərbaycanda sosial birliyə təsiri", İcma İnkişafı Jurnalı, 53(2), 245-260
5. Xəlilov, M. (2022). "Sosial Xidmətlərdə Rəqəmsal Transformasiya: Azərbaycanın səyahəti", Beynəlxalq Sosial İş Jurnalı, 7(1), 77-89.
6. Nəsirova S., & Vəliyev A. (2020). "Beynəlxalq Sosial İş Təcrübələrinin Yerli Kontekstlərə Uyğunlaşdırılması: Azərbaycandan Case Studies", Social Work and Society International Online Journal, 18(1), s.1-13
7. Birləşmiş Millətlər Azərbaycan. Azərbaycan və Dayanıqlı İnkişaf Məqsədləri: Təhlil və Tövsiyələr. Bakı: 2019. Birləşmiş Millətlər
8. Dünya Bankı. (2021). Azərbaycan İqtisadi Yenilik - Sosial İnklüzivliyin Artırılması. Vaşinqton, D.C.: Dünya Bankı.
9. Orucova F. (2022). "Sosial İş Təcrübəsində Texnoloji Yeniliklər: Azərbaycan üçün Perspektivlər", İnsan Xidmətlərində Texnologiya Jurnalı, 40(2), s.158-174
10. Rəhimli T. (2021). "Postsovet Azərbaycanda Sosial İşi Dəstəkləyən Qanunvericilik Çərçivələri", Hüquq və Sosial İş İcmalı, 5(4), s.233-250
11. Sosial Müdafiə və İcma İnkişafı Agentliyi. (2020). İnnovativ Sosial Xidmətlər Fəaliyyətdə: Azərbaycandan Case Studies. Bakı: SPCDA Nəşrləri.
12. Tağıyev B. və Əliyeva R. (2019). "Sosial İşçilər üçün Bacarıqların Yaradılması: Azərbaycanda Təlim Proqramları". Təhsil və Sosial İş Jurnalı, 16(1), s.89-104
13. UNICEF Azərbaycan. Azərbaycanda uşaqların müdafiə sistemlərinin gücləndirilməsi. Bakı: 2020, UNICEF
14. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST). (2021). Psixi Sağlamlıq və Sosial Xidmətlərin İnteqrasiyası: Azərbaycan üçün Qlobal Perspektivlər və İnsights. Cenevrə: ÜST

SUMMARY

Sunay Abdullayeva

ORGANIZATION AND DEVELOPMENT PERSPECTIVES OF SOCIAL WORK IN AZERBAIJAN

The field of social work in Azerbaijan and the opportunities that shape its future are at a crucial stage. The article examines the current organization of social work in Azerbaijan, focusing on its structure, practice, and regulatory legal framework. Through an examination of recent developments, the study highlights advances in the professionalization of social work, the improvement of social welfare policies, and the implementation of community-based interventions. The article, such as the integration of technology into social services, the expansion of educational programs for social workers, and the expansion of international cooperation, identifies potential development areas and examines the prospects for development in social work in Azerbaijan. The analysis is based on a review of government reports, academic literature and interviews with practitioners in the field. The article aims to define a road map for future progress by identifying both the achievements and obstacles faced by social work in Azerbaijan. Advocates increased investment in social work education, greater interdisciplinary collaboration, and a focus on research and evidence-based practice. With targeted reforms and continued commitment, social work in Azerbaijan can adapt to modern social challenges and thereby contribute to the overall social and economic development of the country.

Key words: *Social Work, Azerbaijan, Social Welfare Policies, Community Based Interventions, Professional Development, Technology Integration*

РЕЗЮМЕ

Сунай Абдуллаева

ОРГАНИЗАЦИЯ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ СОЦИАЛЬНОЙ РАБОТЫ В АЗЕРБАЙДЖАНЕ

Сфера социальной работы в Азербайджане и возможности, определяющие ее будущее, находятся на решающем этапе. В статье рассматривается современная организация социальной работы в Азербайджане, особое внимание уделяется ее структуре, практике и нормативно-правовой базе. Анализируя последние события, исследование подчеркивает достижения в профессионализации социальной работы, совершенствовании политики социального обеспечения и реализации мер на уровне общин. В статье, такие как интеграция технологий в социальные услуги, расширение образовательных программ для социальных работников, а также расширение международного сотрудничества, определены потенциальные направления развития и рассмотрены перспективы развития социальной работы в Азербайджане. Анализ основан на обзоре правительственных отчетов, научной литературы и интервью с практиками в этой области. Целью статьи является определение дорожной карты будущего прогресса путем определения как достижений, так и препятствий, с которыми сталкивается социальная работа в Азербайджане. Выступает за увеличение инвестиций в образование в области социальной работы, расширение междисциплинарного сотрудничества и акцент на исследованиях и научно обоснованной практике. Благодаря целенаправленным реформам и постоянной приверженности социальная работа в Азербайджане может адаптироваться к современным социальным вызовам и тем самым способствовать общему социальному и экономическому развитию страны.

Ключевые слова: *социальная работа, Азербайджан, политика социального обеспечения, вмешательства на уровне сообщества, профессиональное развитие, интеграция технологий*

TALEH XƏLİLOV
x.taleh@gmail.com
ZÜLEYXA MURADOVA
zuleyxamuradova7575@gmail.com
Naxçıvan Dövlət Universiteti

XIX-XX ƏSR AZƏRBAYCAN MAARİFÇİLƏRİNİN ŞƏXSİYYƏT TƏRBİYƏSİNDƏKİ ROLU

Məqalədə XIX-XX əsrdə yaşayıb-yaratmış Azərbaycan maarifçilərinin əsərlərində şəxsiyyət tərbiyəsi üçün təsir edən amillər haqqında bəhs olunur. Böyük şəxsiyyətlər yazdıqları əsərlər ilə insanın şəxsiyyət kimi formalaşmasına, cəmiyyətdə öz şəxsiyyəti ilə fərqlənməsi üçün daim inkişaf etməli olduğunu aydın şəkildə göstərmişlər. Bu baxımdan dahilərin yazdıqları əsərlər uzun zaman keçməsinə baxmayaraq öz aktuallıqlarını qoruyub saxlamış, pedaqoqların əsas pedaqoji vasitələri olaraq hələdə mühüm mövqedə dayanırlar. Vətənimizin maarif sahəsində çoxlu sayda dahi şəxsiyyətləri vardır. Bu şəxsiyyətlər nəinki bizim tərəfimizindən, həmçinin dünya xalqları tərəfindəndə hər zaman diqqət mərkəzindədirlər. Onların söylədikləri fikirlər oxucuların müsbət əxlaqi keyfiyyətlərə yönəlməsinə, nəcib əxlaqi xüsusiyyətlərə sahib olmasına təsir edir. Həmin dövrlərdə mətbuat sahəsinin zəif inkişaf etməsinə baxmayaraq yazıların böyük qismi varlığını qoruyub saxlamış, dövrümüzə qədər gəlib çıxmışdır. Buda xalqımızın öz mənəvi mirasına qarşı necə diqqətcil olduğunun göstəricisidir.

Açar sözlər: *Şəxsiyyət tərbiyəsi, maarifçilərin əsərləri, pedaqoji əsərlər, maarifçilərin fikirləri*

Giriş

Vətənimiz əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri ilə hər zaman dünya xalqlarının diqqət mərkəzində olduğu kimi, elmi sahəsinə bəxş etdiyi dahi şəxsləri ilə də diqqətləri üzərinə çəkmişdir. Azərbaycanda maarifçilik idealarının yaranması qədim tarixə malikdir. Maarifçilik idealarının yayılması üçün vətənimizin ziyalılarının böyük rolu vardır. Onlar maarif sahəsinin inkişaf etməsinə, insanların savadsızlıqdan uzaqlaşmasına, təhsil ocaqlarına qarşı diqqətlərin çoxalmasına səy göstərmişlər. Hər bir cəmiyyətin inkişafı, ilk öncə o cəmiyyətin insanlarının təhsil sahəsinə verdikləri diqqət ilə bağlı olduğunu bilən böyük şəxsiyyətlər yazdıqları əsərləri ilə insanların elm ocaqlarına yönəlməsinə istiqamət vermişlər. İstər yazdıqları elmi yazılarında, istərsə də əsərlərində gəncləri təlim-tərbiyəyə səsləyən maarifçilərimiz, onların nəcib əxlaqi keyfiyyətlərlə tərbiyə olunmaqlarını üstün sayırdılar.

XIX-XX əsrlərdə Azərbaycan maarifçilərinin əsərlərində həm həmin dövrün gəncləri, həm də sonrakı dövrün gənc nəsillərinin şəxsiyyət kimi inkişaf etməsi üçün dəyərli fikirləri vardır. Abbasqulu ağa Bakıxanov, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Hüseyn Cavid, Seyid Əzim Şirvani, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi və.s kimi çoxlu sayda dahi şəxslər əsərlərində şəxsiyyət tərbiyəsi motivlərinə xüsusi qiymət vermişdirlər. Yazdıqları əsərlər istər həmin dövr üçün, istərsə də sonrakı dövrlər üçün öz aktuallığını qoruyub saxlamaqdadır. Hər zaman oxucuların diqqət mərkəzindədir.

Azərbaycanda tarix elminin banisi olan, dahi şəxs, böyük alim Abbasqulu ağa Bakıxanov 1794-cü ildə anadan olmuşdur. "Qüdsi" təxəllüsü ilə əsərlər yazmışdır. Gənclərin şəxsiyyət kimi inkişaf etməsi üçün iki gözəl əsər yazmışdır ki, bu əsərlərdə pedaqoji əhəmiyyəti ilə hələdə pedaqoqların diqqət mərkəzindədir. "Təhzibül-əxlaq" əsəri pedaqoji əhəmiyyət daşıyan əsərlərində biridir. Bu əsərdə gənclərin nəcib əxlaqi keyfiyyətlərdə tərbiyə olunmasını vacib sayır, dahi şəxs gənc nəsili daima inkişaf etməyə, dostluğa, sədaqətə, böyüklərə hörmət etməyə, düzgünlüyə, ədalətə çağırır. Bu kimi müsbət xarakterik xüsusiyyətlərə sahib hər bir gənc özünə cəmiyyətdə düzgün yer tapacaqdır. Həmçinin o yalançılıq, fırıldaqçılıq kimi mənfi keyfiyyətlərdən uzaq olmağı vurğulayırdı.

"Təhzibül-əxlaq" əsəri kimi "Kitabi-nəsihət" əsəridə pedaqoji fikir tariximizdə milsiz rola malikdir. Bu əsər həmdə "Nəsihətnamə" adı ilə tanınır. Nəsihətnamə əsəri gənclərin və uşaqların tərbiyəsi üçün qiymətli fikirlərin toplandığı əsərdir. Burada 103 qiymətli fikirlər öz əskini tapmışdır. Əsər ilk olaraq dini əhəmiyyət daşıyan nəsihətlərlə başlayır, sonra valideynlərə, yaşlılara hörmətin mühüm olmasına aid, daha sonra digər məsələrlə bağlı əxlaqi nəsihətlər verir.

Maarifçinin "Firəng məclisi", "Xəyalın uçuşu" adlı poemalarıda vardır. "Gülüstani-İrəm" əsəridə müəllifin qiymətli əsərlərindən biridir. Elmi xüsusiyyət daşıyan bu əsəridə öz tərbiyəvi motivləri ilə pedaqoji əhəmiyyət daşıyır. Maarifçi 1847-ci ildə vəfat etmişdir. Lakin ədəbiyyatımıza bəxş etdiyi qiymətli əsərləri hələdə aktuallığını qoruyub saxlamaqdadır.

Mirzə Ələkbər Sabir 1862-ci ildə Şamaxı rayonunda anadan olmuşdur. Ədəbiyyatımızda satiranın əsasını qoymuş, yazdığı satirik şeirləri ilə dövrün acınacaqlı hallarını gülüş obyektinə çevirmişdir. Amma bu gülüş kinayəli gülüş xarakteri daşıyır. Maarifçi daima təhsilə yüksək qiymət vermiş şəxsiyyətin inkişaf etməsi üçün, insanlar arasında fərqlənməsi üçün təhsilin mühüm olduğunu hər zaman vurğulamışdır. O, əsərlərində, satirik şeirlərində cahil, avam insaları kinayəli gülüş obyektinə çevirmiş, övladlarını təhsildən uzaq tutan, elm ocaqlarına getməyə qoymayan valideynləri daima qınamışdır.

Uşaqlar üçün yazdığı hekayələrində, şeirlərində onların inkişaf etməsi üçün qiymətli fikirlər ifadə edən yazar "Camış və sel", "İskəndər və fəqir", "Molla Nəsrəddin və oğru" kimi mənzum hekayələrində də ibrətverici məsələlər, gənclər üçün əhəmiyyətli fikirləri öz əksini tapmışdır.

Həmçinin qadın azadlığı, mövhumat, cəhalətlə aparılan mübarizə, mədəni geriliyin özü ilə gətirdiyi ciddi problemlər şairin satirik əsərlərinin əsasını təşkil edir. "Qoyma gəldi", "Adətimiz daş idi dəva günü", "Bizə nə", "Kim nə deyər bizdə olan qeyrətə" və.s kimi satirik şeirlərində avamlğı, cəhaləti, mövhumatı, mədəni və ictimai geriliyi pisləyir, satirik gülüş obyektinə çevirmişdir.

Milli oyanışa sahib olmağın yolunu şair təhsildə görürdü. "Oxutmuram əl çəkin", "Uşaqdır", "Neçin məktəbə rəğbətim olmayır", "Müəllimlər syezdi" və.s kimi şeirlərində savadsızlığa, elmsizliyə, elmin düşmanlərinə qarşı olan fikirlərini öz tərzində kəskin şəkildə göstərmiş, başqa üsullarla elm ocaqlarının milli dirçəliş və irəliləyişin mühüm yönəldici qüvvə olduğunu hər zaman irəli sürmüşdür. Həmçinin şair yalançı, fırıldaqçı, ikiüzlü ruhanilərədə kəskin mövqedə dayanmışdır.

Mirzə Ələkbər Sabir 1911-ci ildə vəfat etmişdir. İllər keçməsinə baxmayaraq yazdığı əsərləri hələdə dillər əzbəridir. Pedaqoqlar hələdə bu əsərlərin irəli sürdüyü pedaqoji fikirlərin mahiyyətini izah edir, gənclərin təlim-tərbiyəsi üçün mühüm sayırlar.

Görkəmli Azərbaycan maarifçisi, dövlət xadimi Nəriman Nərimanov 1870-ci ildə Tiflisdə anadan olmuşdur. Pedaqoji fəaliyyət göstərərək gənc nəsili elmə, savada yönləndirən maarifçi həmçinin ictimai xadim kimi fəaliyyət göstərərək vətənimizdə mədəniyyətin yayılmasına böyük təsir göstərmişdir. Maairfçilik fikirlərinin yayılmasında xüsusi xidmətləri olan dahi şəxs yazdığı əsərləri ilə də pedaqoji fikir tariximizdə dərin iz qoymuşdur. Şəxsiyyət tərbiyəsi üçün mühüm fikirlər söyləyən N. Nərimanovun əsərləri hər zaman oxucular tərəfindən xüsusi diqqət görmüşdür.

"Nadanlıq", "Bahadır və Sona", "Pir", "Bir kəndin sərgüzəşti" və.s kimi əsərləri şairin ədəbiyyatımıza bəxş etdiyi qiymətli mirasıdır. Əsərlərində mövhumatı, cahilliyi, cəhaləti, savadsızlığı pisləyən maarifpərvər gəncləri yalançılıq, fırıldaqçılıq, ikiüzlülük, saxtakarlılıq, düşmanlıq kimi pis xarakterlərdən uzaq gəzməyə çağırırdı.

N.Nərimanovun yazdığı "Pir" povestində cəhalət, avamlıq, insanları cəhalətdə saxlayan dini görüşləri böyük məharətlə tənqid etmiş, ziyarətgahların əslində xurafat mərkəzi kimi olduğunu vurğulamışdır. Məşədi Allahverən və Gülbadam obrazlarında dinin və xurafatın əslində insanların mənəvi cəhətdən kor etdiyini, onların inkişaf etməsinə mane olduğunu açıq formada qələmə almışdır. Bu fikirləri müəllif öz real gördüyü həyat hadisələrindən çıxarmış və belə nəticəyə gəlmişdir.

"Bir kəndin sərgüzəştləri" hekayəsini maarifçi 1915-ci ildə nəşr etdirmişdir. Bu hekayədə müəllif avamlıq və mövhumatçılığı tənqid atəşinə tutmuş, onların özləri ilə gətirdiyi müsibətləri göstərmişdir. Əsərdə baş qəhrəmanlar Əmi və Daşdəmirdir. Əmi obrazı ikiüzlü, ürəksiz, şöhrət

düşkünüdür. Bu obraz vasitəsi ilə müəllif göstərir ki, belə olan insan irəli addım ata, mədəni qaranlıqdan çıxa biməz.

Daşdəmir obrazı isə pisliklərə qarşı mübarizə aparan, ədalətsizliyə dözməyəndir. Bu obraz özünün ağılı, geniş dünyagörüşü ilə diqqət çəkir. Burada müəllif göstərir ki, birlik olan yerdə dövlətə rəhbərlik edənlər xalqla istədikləri kimi davrana, onlara qarşı laqeyd ola bilməzlər. Əsərdə kətxudalar avam kəndlinin hüquqlarını əzir, onlara gücləri ilə qalib gəlməyə çalışır lakin onlardan üstün olan bəyzadələrə qarşı isə heçnə edə bilmirlər. Buna görədə müəllif kəndliləri birlik olmağa, cahillikdən çıxmağa çağırır.

"Bahadır və Sona" romanında N.Nərimanov vətənpərvərlik hissləri yüksək olan Bahadır ilə təhsil almış erməni qızı Sona arasındakı məhəbbətdən bəhs edir. Bu romanda müəllif din, millət, ailə və.s kimi məsələlərə toxunmuş, öz fikirlərini söyləmişdir. Romanda Bahadır və Sonanın nakam məhəbbəti ruhani avamlığı, burjua-mülkədar fonunda verilmişdir. Əsərdə əsas diqqət mövhumatçılığa, müsəlman qadınlarının elmdən uzaq qalmalarına verilmişdir. Buna görədə roman tarixi reallığın məhsuludur.

Nəriman Nərimanov 1925-ci ildə Moskvada vəfat etmişdir. Vəfatından uzun zaman keçməsinə baxmayaraq, yaşadığı müddətcə göstərdiyi pedaqoji fəaliyyəti ilə maarifçilik tariximizdə dərin iz qoymuşdur.

Hüseyn Cavid 1882-ci il 24 oktyabr tarixində dünyaya gözlərini açmışdır. Yaşadığı müddətcə göstərdiyi pedaqoji fəaliyyəti ilə pedaqoji fikir tariximizə dərin iz qoyan H. Cavid yazdığı əsərləri ilə şəxsiyyət tərbiyəsi üçün qiymətli fikirlər söyləmişdir. Dünyaca məşhur olan poemaları hələdə insanın şəxsiyyət kimi inkişaf etməsi üçün qiymətli vasitələrdir. "Ana", "Səyavuş", "Xəyyam", "Peyğəmbər" və.s kimi poemaları hələdə öz tarixi əhəmiyyətini qoruyub saxlamaqdadır.

"Azər" lirik-epik, fəlsəfi bir poemadır. Şair ömrü boyu onu düşündürən problemləri bu orijinal quruluşlu poemada bədii şəkildə təsbit etmişdir. "Azər" əslində, poema ilə mənzum dram arasında keçid mövqeyində duran bir əsərdir. Əsərin bir sıra hissələri lirik, bir sıra hissələri epik poema təsiri bağışlayırsa, bir sıra hissələrində mənzum dram ünsürlərini görməmək mümkün deyildir. Beləliklə, Cavid öz bədii-estetik və ideya amalını ifadə etmək üçün poetik janrın bütün formalarından istifadə edir (Cavid. H., 2005).

"Azər" poeması şairin yazdığı qiymətli əsərlərdən biridir. Əsərin baş qəhrəmanı olan Azər obrazında müəllif öz fikirlərini onun dilindən səsləndirir. Azər geniş dünyagörüşünə sahib, öz millətini hər zaman inkişaf etmiş millətlər sırasında görmək istəyən obraz kimi çıxış edir. Bu fikirlərdə elə Hüseyn Cavidin qabaqcıl istəkləri arasında olmuşdur. Əsərin baş qəhrəmanı daim öyrənmək istəyir, tez-tez səfərlər edir. Bu səfərləri o, yalnızca gəzmək, əylənmək məqsədi ilə etmir həmçinin o, dünyanı gəzərək öyrənmək, inkişaf etmək və bu inkişafa xalqınıda qoşmaq istəyir bununlada millətini irəli aparmağa niyyət edirdi. "Azər" poeması müəllifin öz düşüncələrini ən gözəl şəkildə ifadə etdiyi qiymətli əsərlərdən biridir.

Həsən bəy Zərdabi 1837-ci ildə anadan olmuşdur. Azərbaycanda maarifçilik fikirlərinin inkişaf etməsi H. Zərdabinin adı ilə sıx bağlıdır. 1875-ci ildə maarifçilik fikirlərinin inkişafı etməsi, daha çox insana yayılmasına böyük təsir göstərən "Əkinçi" qəzeti H.Zərdabinin böyük səyi ilə fəaliyyətə başlamışdır. Bununla da mətbuatın əsası qoyuldu. Bu da öz növbəsində maarif sahəsinin genişlənməsinə kömək etmişdir. Müəllimlik fəaliyyəti göstərərək xalq xidmət edən, onun inkişafı üçün böyük səy göstərən dahi şəxs yaratdığı qəzetlə də bu xidmətini daha da qüvvətləndirmişdir. Qəzetdə bir çox ziyalıların elmi məqalələri nəşr olunmuş buda millətimizin irəli getməsinə təkan vermişdir. H.Zərdabi qəzetdə yazdığı məqalələri ilə gəncləri inkişaf etməyə, təhsil ocaqlarına gedərək cahillikdən uzaq olmağa, dünyagörüşlərini genişlətməyə çağırırdı. Böyük dövlət xadimi 1907-ci ildə vəfat etmişdir.

Yazdığı əsərləri ilə gənc nəsilin şəxsiyyət kimi inkişaf etməsində böyük rol oynayan maarifçilərdən biri olan Seyid Əzim Şirvani 1835-ci il iyul ayının 9-da dünyaya gözlərini açmışdır. S.Ə.Şirvani yazdığı əsərləri ilə Azərbaycan pedaqoji fikir tarixinin inkişafına böyük təkan vermiş şəxslərdən biridir. Yaradıcıllığında riyakar, fırıldaqçı, yalançı insanları tənqid edən dahi şəxs gəncləri

təhsil almağa, inkişaf etməyə, avamlıq, cahillik, fırıldaqçılıq kimi mənfi keyfiyyətlərdən qaçmağa çağırırdı. Dövrün yalançı din xadimlərinə qarşı kəskin tənqidi mövqedə dayanan S. Ə. Şirvani əsərlərində onların iç üzünü açmış, xalqı onlara inanmamağa səsləyirdi. Xalqı cəhalət və avamlıqdan uzaqlaşmağa çağıran "Əkinçi" qəzetinin nəşrə başlamasını şair alqışlayırdı. Qəzetdə çap etdirdiyi məqalələri ilə hər kəsi maarifə, qəzet oxumağa səsləyir, inkişafın yolunun burdan keçdiyini vurğulayırdı.

Şair yazdığı mənzum hekayələrinin əsasını öyüd, nəsihətlər təşkil edir. Dostluq, mehribançılıq, böyüklərə, insanlara qarşı hörmətlə yanaşmaq, zəhmətkeş olmaq və.s kimi müsbət keyfiyyətlər mənzum hekayələrinin əsas obyektidir.

Yazdığı satiraları ilə həqiqəti realist tərzdə göstərən müəllifin "Dəli şeytan", "Yerdəkilərin göyə şikayət etmələri", "Elmsiz alim" və.s kimi əsəsləri bu silsilədəndir.

Gecə gördüm səni, ey afəti dövran, yuxuda
Ki, elərdin mənə yüz lütfi-firvan yuxuda.

deyən yazan şair qəzəllərinin əsas ideası nikbin əhvali-ruhiyyə, həyata qarşı məhəbbət hisləridir. Şair 1888-ci il may ayında vəfat etmiş, yazdığı misilsiz əsərlərini oxuculara miras olaraq qoymuşdur. Hələdə pedaqogika dərslərində yazdığı əsərlər pedaqoji vasitə kimi təhlil edilir, gənc nəsilin şəxsiyyət kimi tərbiyə olunmasına böyük təsir göstərir.

Azərbaycanda maairfçilik idealarının yayılmasında böyük rol oynayan, istər ədəbiyyat tariximizə, istərsə də pedaqoji fikir tariximizə adını böyük hərflərlə yazdıran böyük şəxsiyyət Nəcəf bəy Vəzirov 1854-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Əsərlərindəki obrazların simasında şəxsiyyət tərbiyəsindəki mənfi keyfiyyətləri tənqid edən dahi şəxs nadanlıq və köhnəliyə qarşı mübarizə aparmış, cəhalətin özü ilə gətirdiyi fəlakətləri aydın şəkildə göstərmişdir.

"Müsibəti-Fəxrəddin" faciəsidə müəllif azadlıq və humanizlə bağlı fikirlərini göstərmiş, nadanlıq və cəhalətin xoşbəxt və firavan həyata böyük manea olduğunu vurğulamışdır. Bu əsərlə yanaşı "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", "Sonrakı peşmançılıq, fayda verməz" və s. kimi əsələrində acgöz, yalançı tacirləri, saxtakar bəyzadələri tənqid hədəfinə çevirir.

"Müsibəti-Fəxrəddin" hələ xalis bir maarifçi dünyagörüşü idi. Burada Rüstəm bəyi də, Fəxrəddini də məhv edən bir böyük bəla görürük: nadanlıq!

Elmsizlik və maarifsizlik! Kimdir müqəssir? – "Müsəlman qardaşın vəhşi nadanlığı" –tragediya hər sözü ilə, bütövlükdə öz pafosu ilə bu hökmü təsdiq edir. (Vəzirov.N., 2005)

Dahi şəxsin yazdığı yazılar hələdə oxucular tərəfindən sevilir, gənclərin inkişaf etməsində əsas mənbə kimi böyük rol oynayır. N.Vəzirov 1926-cı ildə vəfat etmiş, pedqoji fikir tariximizə qoyduğu izlərlə hələdə unudulmamışdır.

Ümumiyyətlə, Azərbaycan pedaqoji fikir tarixində saysız-hesabsız maaripərvərlərin adı vardır. Onlar istər yazdıqları məqalələri ilə istərsə də əsərləri ilə şəxsiyyət tərbiyəsi, insanın inkişaf etməsi üçün dəyərli məlumatlar qoymuşlar. Hər bir xalqın əsas mirası elm sahəsinə bəxş etdiyi dahi şəxsləridir. Bu baxımdan vətənimiz çox zəngin mirasa sahibdir. Biz gənclər bu mirasları qoruyub saxlamağa xüsusi diqqətlə yanaşırıq və yanaşmalıyıqda.

Nəticə

Azərbaycanda pedaqogika elmi uzun zaman öncə yaranmışdır. Bu elm sahəsinin inkişaf etməsi üçün maarifçilərimizin, pedaqoq alimlərimizin rolu çox böyükdür. Onların yazdıqları elmi məqalələr, əsərlər apardıqları tədqiqatlar pedaqogika elminin inkişaf etməsindəki rolu danılmazdır.

XIX-XX əsrlərdə Azərbaycanda maarifçilik ideaları inkişaf etməyə, daha çox yayılmağa başlamışdır. Həmin dövrdə Abbasqulu ağa Bakıxanov, S.Ə.Şirvani, H.Zərdabi, N.Vəzirov, H. Cavid, N.Nərimanov, M.T.Sidqi və.s kimi ziyalılar maarifçilik fikirlərinin yayılmasına, gənclərin şəxsiyyət kimi inkişaf etməsinə yazdıqlar əsərlər ilə öz müsbət təsirlərini göstərmişlər. Bunun üçündə onların yazdıqları əsərlər məna dərinliyi və özünə məxsus istiqamətləri ilə elmə həvəsi olan insanlar arasında böyük sevgi qazanmışdır.

Maarifçilərimiz yalnızca əsərləri, yazıları ilə deyil, həmçinin öz savadları, mənəvi keyfiyyətləri ilə dərin və böyük iz qoymuşlar. İndiki zamanda belə onların mənəvi mirasları böyük diqqət və qayğı ilə qorunub saxlanılır. Bütün dahi şəxsiyyətlərimiz vətənimizin elm sahəsində inkişaf etməsində əvəzsiz mövqedə dayanırlar və gənclərin yaradıcı fikirlərinin yüksəlməsi üçün daima ilham mənbəyidirlər.

ƏDƏBİYYAT

1. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: 2005. Avrasiya press, 488 s.
2. H.Cavid Əsərləri. I cild. Bakı: 2005. Lider nəşriyyat, 256 s.
3. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: 2004. Lider nəşriyyat, 496 s.
4. Sabir M.Ə. Hophopnamə. I cild. Bakı: 2004. ŞərqQərb, 480 s.
5. Şirvani S.Ə. Seçilmiş əsərləri. II cild. Bakı: 2005. Avrasiya press, 384 s.
6. Vəzirov N. Əsərləri. Bakı: 2005. Şərq-Qərb, 304 s.

SUMMARY

Taleh Khalilov, Zuleykha Muradova

THE ROLE OF AZERBAIJANI EDUCATORS OF THE XIX-XX CENTURIES IN PERSONALITY EDUCATION

The article talks about factors affecting personality education in the works of Azerbaijani intellectuals who lived and created in the 19th-20th centuries. Great personalities have clearly shown with their written works that a person should constantly develop in order to be formed as a personality, to be distinguished by his personality in the society. From this point of view, the works written by geniuses have preserved their relevance despite the passage of time and are still in an important position as the main pedagogical tools of educators. Our country has many geniuses in the sphere of education. These personalities are always in the center of attention not only by us, but also by the peoples of the world. The opinions expressed by them influence the readers to focus on positive moral qualities and have noble moral characteristics. Despite the poor development of the press during those times, most of the writings have survived and have come down to our time. Buddha is an indicator of how careful our people are towards their spiritual heritage.

Key words: *personality education, works of educators, pedagogical works, ideas of educators*

SƏNƏTŞÜNASLIQ VƏ METODİKA

SƏMƏNNAZ İMANLI
fortepiano0102@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009 0005 8582 3018

N.A.RİMSKİ – KORSAKOV VƏ FOLKLOR

Bildiyimiz kimi Rimski-Korsakov öz yaradıcılığında rus milli folkloru ilə klassik ənənələri üzvü surətdə birləşdirmişdir. Onun demək olar ki, bütün əsərlərində xalq musiqisi, xalqın adət-ənənələrinin təsviri əhəmiyyətli yer tutmuşdur. Təqdim edilən məqalədə də bəstəkarın yaradıcılığının bu cəhətinə toxunulmuş və onun əsərlərindəki folklorla əlaqə hər tərəfli şəkildə araşdırılmışdır. Məqalədə bəstəkarın xüsusilə opera janrında istifadə edilən folklor nümunələrinin təhlili verilmişdir.
Açar sözlər: *folklor, Rimski-Korsakov, opera, xalq mahnıları*

N.A.Rimski-Korsakovun yaradıcılığında rus milli folkloru ilə klassik ənənələri bir-biri ilə sıx bağlıdır. Xalq yaradıcılığına, folklora maraq hələ uşaqlıqdan onu özünə cəlb etmişdir. O, xalq mahnılarını dinləyir, xalq adət-ənənələrinə tamaşa edir və bütün bunlar bəstəkarın qəlbinə, yaddaşına həkk olunurdu. Bəstəkar əsərlərinə əsil, orijinal xalq mahnılarını daxil etməklə yanaşı, xalq mahnı ruhunda, xəlqi ruhlu özünəməxsus melodiyalar da yaratmışdır. Bu bəstəkarın istifadə etdiyi mürəkkəb metrlərdə, (məsələn, "Qar qız" operasında son xor-11/4), arxaik diatonik ladlarda və s. özünü aydın göstərir. Xalq mahnılarından fərqli olaraq, bu nümunələrə quruluş cəhətdən tamlıq, motivlərin sıx əlaqəsi, təkrarlanması xarakterikdir. Bəstəkar variasiyalılıqdan geniş istifadə edərək ona səsaltı polifoniya və bəzən isə imitasiyalılıq əlavə etmişdir. Rus kəndli mahnılarından irəli gələrək o, qədim diatonik ladlardan, artırılmış 3 səsli, köməkçi akkordlardan , nonakkord ardıcıllığı, ellipsisdən geniş istifadə etmişdir. Onun yaradıcılığında əsasən artırılmış, "Rimski-Korsakov qamması" adlanan əksildilmiş ladların səsdüzümünə rast gəlinir. Xüsusilə, Rimski-Korsakov üçün zəngin, ornamentlərlə dolğun instrumental melodiyalar daha səciyyəvidir və o, bu növ melodiyaları fantastik opera personajlarının vokal partiyasına daxil etmişdir.

Rimski-Korsakovun təcəssüm etdirdiyi mövzu və süjet diapazonu son dərəcə geniş və rəngarəngdir. Bütün "Qüdrətli dəstə"çilər kimi bəstəkar da rus tarixinə, xalq məişəti lövhələrinə, Şərq obrazlarına müraciət etməklə yanaşı, həm də gündəlik dramaturgiya sahəsinə, lirik-psixoloji sferaya toxunmuşdur. Lakin Rimski-Korsakovun istedadı fantaziya dünyasına və rus xalq sənətinin müxtəlif formalarına aid əsərlərdə ən böyük dolğunluqla üzə çıxır. Nağıl, əfsanə, epos, mif, ritual onun əksər əsərlərinin təkcə mövzusunu deyil, həm də ideoloji mənasını da müəyyən edir. Rimski-Korsakov folklor janrlarının fəlsəfi alt mətnini açaraq, xalqın dünyagörüşünü əks etdirir: onun daha yaxşı həyat, xoşbəxtlik haqqında əbədi arzusu parlaq nağıl ölkə və şəhərlərin obrazlarında təcəssümünü tapır; onun əxlaqi-estetik idealları bir tərəfdən operaların füsunkar dərəcədə saf və mülayim qəhrəmanları (Ölməz Kaşşeydə şahzadə, Fevroniya), digər tərəfdən isə əfsanəvi müğənnilər (Lel, Sadko), solmayan xalq sənətinin bu rəmzləri vasitəsilə təcəssüm olunur. Təbiətin həyatverici gücünə və əbədi gözəlliyinə heyranlıq, nəhayət, xalqın işıq, ədalət və xeyirxahlıq qüvvələrinin təntənəsinə sarsılmaz inamı - Rimski-Korsakovun yaradıcılığına xas olan nikbinliyin mənbəyini təşkil edir. Bütün bunlar bəstəkarın operalarında daha aydın görünür. Milli xüsusiyyətinə görə fərqlənən bu əsərlərdə xalq məişətinə, tarixinə, poeziya və adət-ənənəsinə alovlu maraq özünü göstərir. Operalarda xalq dastan və nağıllarının süjetindən, rus xalq mahnı folklorunun incilərindən geniş istifadə edilir. Folklor, qədim slavyan mifologiyasına böyük sevgi, xalq mərasimi xüsusilə, bəstəkarın "May gecəsi" və "Qar

qız" operalarında öz əksini tapmışdır. Bu operalar bəstəkarın ən sevimli əsərləri və özünün də misilsiz sənət nümunəsi hesab etdiyi operalardır (Гозенпуд.А, 1967 s.96-97).

Bəstəkar əsərlərində tez-tez xalq mövzularından istifadə edirdi. Bu mövzu demək olar ki, bəstəkarın yaradıcılığının bütün sahələrinə sirayət etmişdir. Bu "Rus temasına simfoniyetta", "Sadko" musiqi lövhəsi, "Çar Soltan haqqında nağıl" operası, "Ölməz Kaşşey", "Görünməz Kitej şəhəri haqqında nağıl" operaları, "100 rus xalq mahnısı" məcmuəsidir. Onun əsərlərində 2 aləm göz önündə canlanır. Birincisi ağır zəhmətlə məşğul olan, sevinən, həyəcanlanan insanların real həyatını təsvir edir. Onun operalarında gözümüzün qarşısından çarlar, çobanlar, tacirlər, skomoroxların obrazı gəlib keçir. İkincisi isə mif, nağıl və təbiətdən doğan obrazlarla bağlı aləmdir. Bu aləmin obrazları isə real aləmdən uzaq ideal obrazlardır. Bu da bəstəkarın nağıl operalarında meydana çıxır. Nağıl aləmi bəstəkarı daima cəlb etmişdir. Onun 15 operasının əksəriyyəti məhz nağıl və ya əfsanə süjetinə yazılıb.

Folklora bu sevgi və maraq gələcəkdə onun xalq mahnılarını toplayıb, nota salması və onları harmonizə etməsinə gətirib çıxarmışdır. Xüsusilə, onu mərasim və oyun mahnıları daha çox cəlb edirdi. Bu mahnılar poetik ruhlu təbiətilə bəstəkarı özünə çəkir və onun gözləri qarşısında Qədim Rusiya lövhələrini, mərasimlərini canlandırırdı. Belə ki, bəstəkar olduqdan sonra o, musiqi folklorunun müxtəlif janrlarının ətraflı tədqiqi ilə məşğul olmağa başlayır. O, xalq mahnılarını toplayaraq lentə yazdırır, nağıllları, əfsanələri, adət-ənənləri öyrənir və burdan əldə etdikləri bilikləri sonradan əsərlərində tətbiq edirdi. Xalq mahnılarının toplanılması və nota köçürülməsi nəticəsində bəstəkarın "100 rus xalq mahnısı"ndan ibarət məcmuəsi meydan çıxmışdır. Mahnılar məcmuədə təqvim üzrə yerləşdirilmişdir. Əvvəl bahar mahnıları, sonra su pərisi, troits mahnılar, ardınca yay xaravodu, sonda isə toy və əzəmətli mahnılar gəlir. Bu mahnılar zəngin poetik və musiqi ifadəsilə seçilir. Bəstəkar özü də qeyd edirdi ki, xalq yaradıcılığını öyrənmək onun yaradıcılıq fəaliyyətinə, opera əsərlərinin tema və süjetinin seçiminə və musiqi dilinin xarakterinə böyük təsir etmiş və istiqamət vermişdir.

Rimski-Korsakovun yaradıcılığında əsas, aparıcı janrlardan biri opera idi. Bəstəkar yazdığı 15 operasında folklora bu və ya digər dərəcədə müraciət etmişdir. Bu özünü xüsusilə, xalq mahnısından sitat kimi istifadə etməsi, əsərə hər hansı bir mərasimin daxil edilməsi şəklində özünü göstərmişdir. Onun yaradıcılığında slavyan təqvim mərasimini əks etdirən 4 operası buna parlaq misal ola bilər:"May gecəsi", "Qar qız", "Mlada", "Miladdan əvvəlki gecə". "May gecəsi" operası Rimski-Korsakovun mərasim mahnılarına olan marağını və qədim slavyanların günəşə sitayiş ayinini əks etdirən ilk operasıdır.

Folklora müraciət bəstəkarın ən çox sevilən "Qar qız" operasında ən parlaq və dolğun şəkildə özünü göstərmişdir. "May gecəsi" operasında olduğu kimi, bu operada da bəstəkar ədəbi mənbə ilə bağlı olaraq əsərə xalq motivləri daxil etmişdir. Xüsusilə, operada ayin səhnələri əhəmiyyətli rol oynayır. Məsələn, proloqda bütpərəst bayramı olan Maslenitsa mərasiminin keçirilməsi, I pərdədə toy mərasimi, III pərdədə qoruq meşəsindəki səhnə. Maslenitsa gəzintiləri, müqəvvanın yandırılması bəstəkarın yaddaşında uşaqlıqdan qalmışdı. Bəstəkar bu operada mərasimin bütün ayinlərindən istifadə etmişdir. Maslenitsanın keçirilməsində N.A.Rimski-Korsakov əsl xalq mahnısı olan "Görüşmək və salamlaşmaq xoşdur" mahnısından istifadə etmişdir. Operada mərasim səhnələri və müxtəlif xalq mahnıları ilə yanaşı, folklor və xalq motivlərindən götürülümüş qəhrəmanlar da yer almışdır.

Rimski-Korsakovun sonrakı "Mlada" operasının süjeti də bütün yaradıcılığı boyu onu valeh edən və bəstəkarın əsərlərində parlaq şəkildə təcəssüm etdirdiyi slavyan mədəniyyətini, onun mərasimlərini, fantastik və mifoloji obrazları, təbiət mənzərələrini əks etdirir. Operanın janr əsasını dini-mifoloji və tarixi-lirik məişət operasının sintezi təşkil edir. Əsərə bəstəkar qədim ayin daxil etmişdir. Hadisələr yay gündönümü ərəfəsində "Kupala" zamanı (ilin ən qısa gecəsi-iyunun 23-dən 24-nə keçən gecə) baş verir. Oyunlar, rəqslər, fala baxmaq şər ruhların Kupala məclisi ilə əvəz edilir. Operada bəstəkar slavyan tanrılarını təqdim edir: Çernaboq, Kaşşey, Morena, Taun, Topolets. Burada şər, mənfi tanrılara qarşı xeyirxahları qoyulur. Məsələn, tanrı Lada Morena sehrini gücsüzləşdirir.

Operada balet nömrələrinin əhəmiyyəti böyükdür. Eyni zamanda operada simfonik musiqinin rolu da genişdir. Buna "Kupala kolo", "Şahzadələrin yürüşü", "Triqlav dağında gecə" parlaq misal ola bilər. "Mlada" operasında Rimski-Korsakov sitatlardan geniş istifadə etmişdir. Lakin əvvəlki operalardan fərqli olaraq o, bu operada rus və ukrayna folkloruna müraciət etmir.(Феφелова.А.Г, 2013,s. 122)

Bəstəkar özünün sevimli temasına sonrakı "Miladdan əvvəlki gecə" operasında da müraciət etmişdir. Onun janrı əsil kolyadkadır (qızıl yumurta bayramı). Kolyadka operanın əsas mərasim elementini təşkil edir. Operanın əvvəlində Solox qədim kolyada mahnısını ifa edir. "Miladdan əvvəlki gecə" operası ilə Rimski-Korsakov qədim mərasimlərə və Slavyan tanrılarının nümayişinə yer verdiyi operaları tamamlayır. Lakin sonrakı operalarda mərasim, ayinlərin təqdimatına yer verilməsə də, bəstəkar əsl xalq mahnılarını əsərlərinə daxil etməyə davam edir. Xüsusilə, müxtəlif millətlərin folklorunun daxil olduğu operaları iki qrupa ayırmaq olar. Birinci qrupa əfsanə və dastan əsasında yazılmış operalar, məsələn, "Sadko", "Görünməz Kitej şəhəri və Fevroniya əfsanəsi", ikinci qrupa isə ədəbi mənbə əsasında nağıl süjeti olan operalar-"Çar Soltan nağılı", "Ölməz Kaşşey", "Qızıl xoruz" operaları daxildir. Artıq Rimski-Korsakov ritual səhnələrə müraciət etməsə də, bütpərəstlik obrazları onu cəlb etməkdə davam edirdi. Məsələn, "Sadko" operasında hadisələr Novqorodda yenicə məskunlaşan xristianlığın mövcudluğu dövrünə, bütpərəst inancların tam qüvvədə olduğu dövrə təsadüf edir. "Sadko" operası janr cəhətdən epik operadır. Epos da bildiyimiz kimi, rus folklorunun janrlarından biridir. Epik opera üçün hadisələrin ləng inkişafı, hadisələrin qədim dövrlərdə vaqiə olması, xanəndə-nağılçı obrazı, dastanların qusli alətinin müşayiəti ilə ifası və s. xarakterikdir. Əsərin librettosu rus eposunun ənənələri əsasında yazılıb. Bəstəkar operada dastanlardan, nağıllardan, nəğmələrdən, mərsiyələrdən istifadə etdiyini qeyd etmişdir.

Rimski-Korsakovun digər "Görünməz Kitej şəhəri haqqında əfsanə" operasının xalq səhnələrində, rus xalqının nümayişində rus xalq yaradıcılığı ilə əlaqə olsa da, bəstəkar bu operada əsl xalq melodiyalarından az istifadə etmişdir. Əsərin digər aləmini isə monqol qoşunu təşkil edir. Onların xatakteristikasında bəstəkar deklamasiya üslublu melodiyalardan, dissonans harmoniyalardan istifadə edir. Həmçinin onların musiqi obrazı üçün Rimski-Korsakov "Tatar əsirləri haqqında"-"Çaydan kənarda, dəryadan kənarda" qədim rus xalq mahnısından istifadə etmişdir. Bu mahnı operada bir neçə dəfə səslənərək ilkin mənbə ilə müqayisədə xeyli dəyişdirilir.

N.A.Rimski-Korsakov "Çar Soltah nağılı" operasında da digər operalarında olduğu kimi xalq mahnıları və ya onların stilizasiyasına mühüm yer vermişdir. Ümumiyyətlə, operada qəhrəmanların əksəriyyətinin musiqi xarakteristikasına xalq melodiyasının intonasiyaları hopdurulmuşdur.

N.A.Rimski-Korsakovun bahar nağılı janrındakı "Ölməz Kaşşey" operası da rus folklor motivi əsasında yazılmışdır. Operanın musiqi dili dissonanslar, deklamasiyalı üslublu melodiyalarla boldur. Lakin buna baxmayaraq bəstəkar əsərə xalq mahnı melodiyası da daxil etmişdir. Məsələn, I şəkildən "Ağ çovğun, çovğun" rus mahnı-rəqs janrında yazılmış xor. Fala baxmaq rus folklorunun ayrılmaz elementidir. Ümumiyyətlə öz taleyini güzgüdə görmək bir sıra nağıllarda rast gəlinən epizoddur. Kaşşey də ölümünün qaçılmaz olduğunu güzgüyə baxdıqdan sonra görür.

Rus folklorundan xüsusi mənada istifadə edilməsinə digər bir nümunə bəstəkarın "Qızıl xoruz" operasıdır. Bu operada Rimski-Korsakov iki aləmi bir-birinə qarşı qoyur: həqiqi və sehirli.

Beləliklə, Rimski-Korsakov musiqisinin fundamentini rus xalq musiqisi təşkil edir. O, folklorun bütün laylarını dərindən öyrənmiş və onun musiqisini rus məktəbinin milli-xəlqi mənşəyinin özünəməxsus "güzgüsü" adlandırmaq olar. Onun üçün ən əhəmiyyətli mənbə həmçinin xarici folklor olmuşdur, yəni, qərbislavyan-polşa, serb, ispan, şərq. Xüsusilə, xalq mahnılarından istifadə bəstəkarın yaradıcılığının xarakterik xüsusiyyəti idi. Bəstəkarın operalarını səhifələdikcə biz xorovod, axıcı mahnı, beşik nəğməsi, mərsiyə və s. kimi musiqi folklorunun digər janrlarına rast gəldik. Bu əsərlərdə dinləyicilərin gözü qarşısında parlaq, rəngarəng ayinlər, mərasimlər, bayramlar (Su pərisi həftəsi, Milad bayramı ərəfəsi, Maslenitsa, toy mərasimi, fala baxma və s.) canlandırılır. Rimski-Korsakov həmçinin operalarında təbiət obrazlarını təsvir edən canlı simfonik lövhələr də yaratmışdır. Bəstəkarın bu əsrarəngiz musiqi mənzərələri, rəngarəng səsli rəsm əsərləri də son nəticədə öz əsasını xalq yaradıcılığından götürür. Ona görə illər keçsə də gələcək nəsillər bəstəkarın

özündə nağıl və əfsanə, kantilen və deklomasiyanı birləşdirən, folklora, təbiətə sevgidən yaranmış bu şah əsərlərindən ilham alacaqlar.

Nəticə

Rimski-Korsakov öz yaradıcılığı ilə rus musiqi tarixinə qızıl səhifələr yazmaqla yanaşı rus musiqi mədəniyyətinin inkişafını yüksək zirvələrə qaldırmışdır. Bəstəkar öz qələmini demək olar ki, musiqi sənətinin bütün janrlarında sınamış, musiqi mədəniyyətini zənginləşdirən opera, simfoniya, kantata, mahnı, romans kimi rəngarəng əsərlər yaratmışdır. Xüsusilə, onun yaradıcılğında opera janrı daima diqqət mərkəzində dayanmışdır. Opera janrı Rimski-Korsakovun yaradıcılığında böyük inkişaf yolu keçmiş və bəstəkar tərəfindən operanın müxtəlif janrlarında şedevrlər yaranmışdır.

ƏDƏBİYYAT

1. Римский-Корсаков Н.А., «Летопись моей музыкальной жизни», Москва: 1980. «Музыка»
2. Гозенпуд А.Н.А. Римский-Корсаков. Темы и идеи его оперного творчества. – М.: 1957. Музгиз
3. Фефелова А.Г. Миф и ритуал в музыкальном тексте оперных циклов. Н.А.Римского-Корсакова и Р. Вагнера // Музыковедение №4, 2013.
4. Русский народ. Его обычаи, обряды, предания, суеверия и поэзия. М.: 1999

SUMMARY

Semannaz Imanli

N.A.RIMSKY - KORSAKOV AND FOLKLORE

As we know, Rimsky-Korsakov combined Russian national folklore and classical traditions in his works. In almost all of his works, folk music and the description of folk traditions have taken an important place. This aspect of the composer's creativity was touched upon in the presented article and the connection with folklore in his works was investigated in every way. The article provides an analysis of folklore examples used by the composer, especially in the opera genre.

Key words: *folklore, opera, folk songs*

FİDAN KAMİLLİ
kamillifidan@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0001-7130-6088

MUĞAMIN BƏSTƏKAR YARADICILIĞINDA TƏCƏSSÜMÜ

Muğam Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi zəngin və həmişəyaşar təravətli bir xəzinədir. Daima bəstəkarlar öz yaradıcılığında bu tükənməz mənbədən istifadə edərək misilsiz sənət nümunələri yaratmışdırlar. Təqdim edilən bu məqalədə də Azərbaycan bəstəkarlarının yaradıcılığının muğamla sıx əlaqəsi və musiqi xəzinəmizi zənginləşdirən əsərlərindən söhbət açılır. Məqalədə bütün bəstəkarlara örnək olan dahi Ü.Hacıbəyovdan başlayaraq bu günədək zəngin musiqi irsi muğamdan bəhrələnərək rəngarəng əsərlər yazmış bəstəkarlar haqqında məlumat verilir.

Açar sözlər: *muğam, bəstəkar, janr, folklor*

Azərbaycan xalqı son dərəcə zəngin musiqi xəzinəsinə malikdir. Azərbaycanın musiqi folklorunda mahnı, rəqs musiqisi ilə yanaşı xalqın yaratdığı şifahi professional ənənəli janrlar da yaranıb inkişaf etmişdir. Onlardan ən əsası muğamlardır. Muğam Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi zəngin xəzinədir. Yarandığı qədim dövrdən başlayaraq muğam sənəti tədricən inkişaf etmiş, təkamül prosesi nəticəsində formalaşaraq kamillik əldə etmişdir. Xalqın ruhunu özündə yaşadan muğamlarımız zəngin məzmun və fəlsəfi dərinliyi ilə seçilərək bu gün, müasir dövrdə də bu dəyərləri özündə saxlayır. Belə ki, Azərbaycan xalqının bədii yaradıcılığının zəngin bir hissəsi və Şərq xalqlarının şifahi ənənəli professional musiqisinin özünəməxsus janrı olan muğam əsrlərdən bəri şifahi şəkildə inkişaf edərək dövrümüzə qədər gəlib çatmış unikal sənət nümunəsidir.

Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında xalq musiqisinin müxtəlif janrlarına müraciət edərək misilsiz sənət nümunələri yaratmışdırlar. Bəstəkarlarımızın yaradıcılığında milli mənbə, milli zəmin son dərəcə parlaq şəkildə özünü büruzə vermiş və hər bir bəstəkarın yaradıcılığı fərdi üslubu ilə bir-birindən seçilmişdir. Dahi Ü.Hacıbəyovdan başlayaraq bu günədək Azərbaycan bəstəkarları daima milli musiqimizin saf çeşməsindən qidalanmış və musiqi xəzinəmizi heç vaxt solmayan, öz təravətini itirməyən nümunələrlə zənginləşdirmişdirlər. Xüsusilə muğam sənəti XX əsr Azərbaycan bəstəkarlıq məktəbinin milli köklər üzərində formalaşmasında əsas rol oynamış, bəstəkarların bəhrələndiyi zəngin mənbə olmuşdur.

Muğam sənəti qədim və zəngin tarixə malik Azərbaycan xalqının mədəni irsinin ən mühüm sahəsini təşkil edir. Muğam Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi zəngin xəzinədir. Bəstəkarlarımız daima öz yaradıcılıqlarında muğamlardan, onun səciyyəvi xüsusiyyətlərindən müxtəlif yollarla istifadə edərək xəlqi ruhlu əsərlər yaratmışdırlar. Məhz muğam və bəstəkar yaradıcılığının qarşılıqlı təsiri nəticəsində Azərbaycan bəstəkarlarının musiqi üslubu formalaşmışdır.Muğam demək olar ki, bəstəkar yaradıcılığının bütün sahələrinə öz təsirini göstərmişdir. Opera, simfonik musiqi, instrumental, vokal musiqi sahəsində muğamla bağlı özünəməxsus janrlar da meydana gəlmişdir. Buna muğam operaları, simfonik muğam janrı, "muğam-poema", "xor-muğam", "sonata-muğam", "caz muğam" və s. janrları parlaq misal ola bilər.

XX əsrdə Azərbaycanda professional bəstəkarlıq məktəbinin təməlini qoymuş dahi bəstəkarımız Üzeyir Hacıbəyov bütün yaradıcılığı boyu həm musiqi əsərlərində, həm də məqalələrində muğama xüsusi diqqət və yer ayırmışdır, musiqi sənətinin inkişafında muğamların xüsusi rolunu qeyd etmişdir. Özündən əvvvəlki alimlərin irsindən bəhrələnən Ü.Hacıbəyov özünün "Azərbaycan musiqi həyatına bir nəzər" məqaləsində yazırdı ki, "Şərq musiqisi öz vaxtında müəyyən bir tərəqqi və mədəniyyət dərəcəsinə yetişmiş olduğunu bu gün belə mövcud olan müxtəlif təsirli muğam və dəstgahları ilə aşkar surətdə göstərməkdədir" (1. s.215).

Ü.Hacıbəyovun musiqi dilinin muğamlarla bağlılığının ən yüksək nümunəsi isə "Koroğlu" operası olmuşdur ki, burada bəstəkar məhz muğamın lad, melodiya və intonasiya əsaslarından faydalanmışdır. Əgər yaradıcılıq yolunun əvvəlində bəstəkar professional musiqi əsərlərinə hazır xalq materialının daxil olmasını vacib hesab edirdisə, gələcəkdə o, bu yoldan uzaqlaşmışdır. Bəstəkar fikrincə, musiqi əsərlərinin xəlqiliyi avropa musiqi texnikasının Azərbaycan xalq musiqisinin əsasları ilə yaradıcı sintezində ifadə olunmasıdır.

Xalq musiqisi, xüsusilə, muğamı bütün musiqi aləminin sərvətinə çevirmək ilk dəfə məhz dahi Ü.Hacıbəyova müəssər olmuşdur. Musiqi folkloruna və öz şəxsi istedadına arxalanan bəstəkar musiqiyə ilk addımlarından məhz xalqa yaxın, doğma olan muğam və el havalarından başlamış və bu tükənməz xəzinədən bəhrələnmişdir. O, öz yaradıcılığı ilə bütün bəstəkarlara xalq musiqi sərvətindən istifadə etməyin nümunəsini göstərmişdir. Üzeyir bəy ənənələri böyük bir məktəb olaraq, əsrimizin ən görkəmli bəstəkarları tərəfindən tükənməz örnək kimi qiymətləndirilmişdir. Dahi Üzeyir bəydən başlayaraq M.Maqomayev, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, S.Hacıbəyov, T.Quliyev, S.Rüstəmov, C.Cahangirov, Ə.Abbasov, H.Xanməmmədov və digər Azərbaycan bəstəkarları öz opera və baletlərində, musiqili komediyalarında, mahnı və romanslarında Azərbaycan xalq musiqisinə xas bütün xüsusiyyətlərdən böyük ustalıqla istifadə etmiş, muğamlarımıza geniş yer ayırmışdırlar. Buna dahi Ü.Hacıbəyovun "Leyli və Məcnun", M.Maqomayevin "Şah İsmayıl", Z.Hacıbəyovun "Aşıq Qərib", Ş.Axundovanın "Gəlin qayası", V.Adıgözəlovun "Natəvan" muğam operaları, əsası F.Əmirov tərəfindən qoyulan və Niyazi, S.Ələsgərov, T.Bakıxanov, V.Adıgözəlov tərəfindən davam etdirilən "Şur", "Kürd ovşarı", "Gülüstan Bayatı-Şiraz", "Rast", "Bayatı-Şiraz", "Dügah", "Humayun", "Segah" və s. simfonik muğamlar, A.Zeynallı tərəfindən muğam əsasında yazılmış miniatür əsərlər, C.Cahangirov tərəfindən yazılan "Çahargah" xor muğamı və s. gözəl nümunədir.

Azərbaycanın görkəmli bəstəkarları muğamlardan məharətlə istifadə edərək, onlara yaradıcı münasibət bəsləmiş və bu xalq sərvətindən rəngarəng ifadə vasitələrilə üçün istifadə etmişdir. Azərbaycan musiqisinin inkişaf yollarının nəzərdən keçirilməsi aydın surətdə göstərir ki, şifahi ənənəli professional musiqi sənəti olan muğam bəstəkar yaradıcılığının inkişafı üçün əsl bünövrə olmuşdur. Muğama əsaslanan və onun musiqi dilindən məharətlə istifadə edən bəstəkarlar son dərəcə möhtəşəm sənət nümunələri yaratmaqla musiqinin hər bir sahəsini yeni janrlarla zənginləşdirmişdir.

Bunun nəticəsində də xalqa yaxın, doğma musiqi dilində yazılmış əsərlər meydana çıxmışdır.Doğurdan da musiqi mədəniyyətimizin inkişaf yoluna nəzər yetirərkən belə nəticəyə gəlmək olar ki, yalnız doğma musiqi irsinə, onun janr və formalarına istinad etməklə Azərbaycan musiqisini yüksək zirvələrə qaldırmaq mümkündür. Onu da qeyd edək ki, xalq mahnı, rəqs və aşıq sənəti kimi muğam da yalnız orta əsrlərin abidəsi deyil, həmçinin Azərbaycan xalqının müasir milli mədəniyyətinin də həmişəyaşar sahələrindən biridir. Onlar, daim bəstəkarların, şairlərin, ifaçıların ilham mənbəyi olmuş və bu gün də olmaqda davam edirlər. Müasir dövrdə də bəstəkarlarımız bu zəngin mənbədən istifadə edərək bənzərsiz sənət nümunələri yaradırlar. Çünki muğam yalnız dünənin və bu günün deyil, eyni zamanda gələcəyin musiqisidir.

ƏDƏBİYYAT

1. Hacıbəyov Üzeyir Əsərləri. II cild, Bakı: 1965
2. Abdullazadə G. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Bakı: 1996, s.165.
3. Axundov İmran. "Azərbaycan muğamları". Bakı: 2015
4. Abduləliyev A.Ə. Azərbaycan muğamı Qafqaz regionunda. // «Musiqi dünyası» jurnalı, № 3-4 (33), 2007
5. Azərbaycan xalq musiqisi. Oçerklər. (müəlliflər: Ə.İsazadə, Ə.Eldarova, R.İsmayılzadə, N.Məmmədov, R.Zöhrabov, B.Hüseynli). Bakı: 1981. Elm

SUMMARY

Fidan Kamilli

THE EMBODIMENT OF MUGHAM IN THE CREATION OF THE COMPOSER

Mugham is a rich and eternally fresh treasure that the people of Azerbaijan have given to the world culture. Composers have always used this inexhaustible source in their creations to create incomparable works of art. In this presented article, the work of Azerbaijani composers is closely related to mugham and the works that enrich our musical treasure are discussed. The article provides information about the composers who, starting with the genius U. Hajibeyov, who is an example for all composers, wrote colorful works benefiting from the rich musical heritage of mugham.

Key words: *mugham, composer, genre folklore*

RƏSUL MÜTƏLİMOV

MÜASİR DÖVRDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA MUĞAM SƏNƏTİNİN İNKİŞAFI

Azərbaycan musiqi mədəniyyətində xanəndəlik sənətinin xüsusi rolu vardır.Xanəndələr xalq musiqisini və muğam sənətini yaşatmaqla Azərbaycan musiqi mədəniyyətini inkişaf etdirmişlər. Musiqi tarixindən məlumdur ki, bir çox xanəndələr mahir ifaçı olmaqla yanaşı, həm də yaradıcı sənətkarlar olub, çox sayda təsnif və rəngləri, lirik xalq mahnılarını,həmçinin, muğam və zərbi muğamların yeni variantlarını yaradaraq, Azərbaycan şifahi ənənəli musiqi irsini zənginləşdirmişlər. Xüsusilə XX əsrin əvvəllərində xanəndəlik sənətinin Azərbaycan operasının meydana gəlməsində mühüm rolu olmuşdur.

Xanəndəlik sənətinin əsas xüsusiyyətlərindən biri odur ki, xanəndə səslə oxumaq –vokal sənətinin təmsilçisidir və həmişə instrumental ansamblın müşayiəti ilə çıxış edir.Əlbəttə ki, ansamblların tərkibi müxtəlif olur. Müəyyən dövrlərdən, xalq çalğı alətlərinin inkişafından, dinləyici tələbatından asılı olaraq, instrumental ansamblların tərkibində dəyişiklik müşahidə olunur. Musiqi tarixində ansamblların tərkibinin müxtəlif alətlərdən –ud, rübab, çəng, bərbət və s. kimi qədim alətlərdən ibarət olduğu məlumdur. Müasir dövrdə muğam üçlüyü (tar, kamança, qaval), xalq çalğı alətləri ansamblı və ya orkestri muğam sənəti ilə bağlı olan əsas musiqi kollektivləridir. Lakin hər bir halda xanəndə bu ansamblda solist kimi əsas aparıcı qüvvə olaraq çıxış edir və repertuar da onun ifaçılıq sənəti ilə bağlı olur.

Azərbaycan musiqi irsinin üç təbəqədən: xalq musiqi yaradıcılığı, aşıq sənəti, muğam sənətindən ibarət olması, özünəməxsus xüsusiyyətlərlə - janr və ifaçılıq baxımından, formalaşdığı və təkmilləşdiyi mühit, dinləyici auditoriyası baxımından xarakterizə olunması ilə yanaşı, bu təbəqələrin bir-biri ilə sıx bağlılığını, biri-digərindən yetişdiyini və qarşılıqlı təsirini qeyd etməliyik ki, bu da xanəndələrin repertuarında xüsusilə qabarıq üzə çıxır.

Xanəndəlik sənəti – qədim və zəngin ənənələrə malik olub, bir neçə fəaliyyət sahəsini özündə cəmləşdirir: muğam ifaçılığı və yaradıcılığı, muğam janrlarının inkişaf etdirilməsi, muğam irsinin qorunması, muğamın qanunauyğunluqlarının və ifaçılıq ənənələrinin nəsildən-nəslə ötürülməsi də bu qəbildəndir.

Açar sözlər: *Azərbaycan , Üzeyir Hacıbəyli, musiqi, muğam, Xanəndə*

Azərbaycan bəstəkar yaradıcılığının təməlini qoymuş Üzeyir Hacıbəyli öz əsərlərində xalq musiqisindən bəhrələnmiş, xalq musiqisi nümunələrinin müxtəlif sahələrdə tərkiblər üçün işləmələrini və orijinal əsərlərini yaratmışdır.

Ü.Hacıbəyli xalq mahnılarından istifadə olunması yollarını açıqlayaraq, onların musiqi elmində, musiqi təhsili sahəsində, musiqi ifaçılarının, xanəndələrin repertuarında, bəstəkar yaradıcılığının inkişafında rolunu xüsusi qeyd edirdi.

Müasir dövrdə Azərbaycanda muğam sənəti yüksək səviyyədə inkişaf etdirilir. Görkəmli muğam ifaçılarının yaradıcılıq irsi qorunur və dünya miqyasında təbliğ olunur. Azərbaycan xanəndələrinin ifaçılıq sahəsindəki nailiyyətlərini musiqi mədəniyyətinin əlamətdar hadisələri kimi qeyd etməliyik. Muğam ifaçılığı və muğam yaradıcılığının vəhdətdə tədqiq olunması vacibdir. Digər tərəfdən, musiqi sənətində yeni yollar açmış ustad sənətkarların yaradıcılıq fəaliyyətinin öyrənilməsi zəruridir və onların tarixi rolunun qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan müasir dövrdə xanəndəlik sənətinin müxtəlif cəhətlərdən – ifaçılıq, yaradıcılıq, pedaqoji sahələrdə tədqiqi, onların Azərbaycan şifahi ənənəli professional musiqi mədəniyyətinin inkişafındakı rolunun öyrənilməsi müasir musiqişünaslıqda aktual məsələlərdəndir. Xanəndəlik sənətinin inkişafında dövrləşmə - cəmiyyətin mədəni-ictimai həyatı ilə bağlı olaraq aparıla bilər. Azərbaycan xanəndəlik sənətinin inkişafında hər bir tarixi-siyasi dövr özünəməxsus cəhətlərlə əlamətdar olmuşdur. Elmi

ədəbiyyata, tarixi faktlara, ədəbi mənbələrə, o cümlədən muğam ifaçılarının fəaliyyətinə əsaslanaraq, xanəndəlik sənətinin tarixi inkişaf yolunun dövrləşməsini bu şəkildə aparmaq olar:

I. Qədim dövrdən başlayaraq, erkən orta əsrlər (X əsrə qədər) dövrünə qədər – xanəndəlik sənətinin yaranması ilə bağlı ilkin məlumat;

II. Orta əsrlər, X-XVII əsrlər – Şərq İntibahı dövrü, klassik poeziyanın və muğam sənətinin inkişafı;

III. XVIII – XIX əsrlər – Azərbaycanın ayrı-ayrı bölgələrində muğam məktəblərinin meydana gəlməsi, Azərbaycan tarının yaranması;

IV. XX əsr və XXI əsrin ilk onillikləri, hazırkı dövrə qədər - xanəndəlik sənətinin yüksək inkişaf dövrü.

Xanəndəlik – muğam ifaçılığı sənətinin yaranmasının I dövrü qədim dövrlərdən başlanır və muğamın bir janr kimi formalaşmasına - X əsrə qədər davam edir, buraya İslamaqədərki və İslamdan sonrakı erkən orta əsrlər dövrünü də aid edə bilərik. Həmin dövrdə xanəndəlik sənətinin yaranması ilə bağlı tarixi və elmi mənbələrdən məlumat alırıq. Son onilliklərdə aparılmış bir sıra tədqiqatlarda arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış mənbələrdə xanəndəlik sənətinin qədim köklərə malik olduğundan xəbər verilir (Hüseyni Ə. 1976).

Bu dövrdə şifahi ənənəli musiqidə xalq musiqisi, aşıq və muğam sənəti kimi təbəqələşmə əmələ gəlmiş, aşıq yaradıcılığı və muğam ifaçılığı, xanəndə sənəti şifahi ənənəli musiqinin peşəkar sahələri kimi, ustad ənənələri əsasında formalaşmışdır. Musiqişünas-alim R.Zöhrabov "Muğam" kitabında şifahi ənənəli Azərbaycan musiqisinin üç təbəqədən ibarət olduğunu göstərmişdir: "xalq (mahnı və rəqs musiqisi janrları), xalq-professional (aşıq musiqi yaradıcılığı) və sırf şifahi-professional musiqi janrları (muğam dəstgahları, kiçik formalı muğamlar, zərbi-muğamlar, rənglər və təsniflər)" (F.Şuşinski.1995. s.6)

Bu təbəqələri səciyyələndirən alim yazır ki, "...xalq musiqi növləri və şifahi ənənəyə əsaslanan professional musiqi janrları bütün dövrlərdə bir-birilə çox sıx əlaqədədir. Öz kökləri ilə gedib qədim dövrlərə çatan xalq musiqi yaradıcılığı şifahi ənənəyə əsaslanan professional musiqi sənətinin yaranması və getdikcə inkişafı üçün faydalı zəmin olmuşdur" (F.Şuşinski. 1995. s.5).

Qədim dövrlərdən cəmiyyətin musiqi həyatında xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı, dini musiqi və saray musiqisindən ibarət təbəqələrdə öz əksini tapmışdır. Tarixi inkişaf mərhələlərində bunlar müəyyən təkamülə məruz qalmış, bir-birinə qarşılıqlı təsir göstərərək, şifahi ənənəli musiqi mədəniyyətinin özünəməxsus xüsusiyyətlərə malik sahələri kimi inkişaf edib, bizim günlərə çatmışlar və bu proses bu gün də davam etdirilir.

Xanəndəlik sənətinin təşəkkülünün II dövrü orta əsrlərə aid olub, X əsrdən başlayaraq, klassik poeziyanın və muğam sənətinin inkişafı ilə səciyyələnir. Elmi ədəbiyyatda "Şərq intibahı" adlandırılan orta əsrlər dövrü bəşər tarixinə bir sıra mütəfəkkir şair və filosofları bəxş etmişdir. Şərq aləmində orta əsrlər dövründə muğam ifaçılığı sənəti böyük şəhərlərdə saray mədəniyyəti kimi çiçəklənmə dövrünü yaşayıb. Muğamın bir janr kimi formalaşması, muğam ənənələrinin, terminologiyanın yaranması, muğam tərkiblərinin sistemləşməsi bu dövrə aiddir.

Xanəndəlik - saray musiqiçisi kimi xarakterizə olunaraq, musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamağa başlamış, muğam ifaçılığı sənəti şifahi ənənəli professional musiqinin yüksək inkişaf etmiş təbəqəsini təşkil etmişdir. Klassik poeziyanın və muğam sənətinin inkişafı dövrü kimi mədəniyyət tarixinin xüsusi bir mərhələsi olan Orta əsrlər dövrünün əsas ifaçılıq xüsusiyyətləri haqqında məlumat Şərqin böyük şairlərinin yaratdığı klassik poeziya nümunələrində və Şərq aləminin görkəmli ensiklopedik alimlərinin risalələrində bizə gəlib çatmışdır. Bu dövr haqqında məlumat verən əsas ədəbi və elmi mənbələr kimi "Qabusnamə" (Keykavus, XI əsr) əsərini, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani (XII əsr), İmadəddin Nəsimi (XIII-XIV əsrlər), Şah İsmayıl Xətai (XIV əsr), Füzuli (XVI əsr) kimi şairlərin poeziyasını, Səfiəddin Urməvi (XIII əsr), Əbdülqadir Marağayi (XIV-XV əsrlər), Fətullah Şirvani (XV əsr), Mirzə bəy (XVII əsr) və başqa musiqişünas-alimlərin elmi əsərlərini qeyd edə bilərik.

Məhz bu dövrdə muğam bir janr kimi formalaşmış, Şərq musiqi təfəkküründün ən yüksək forması kimi inkişaf edərək, şifahi ənənəli professional musiqinin mərkəzi janrına çevrilmişdir. Orta əsrlərdə muğam ifaçılığı ilə yanaşı, musiqinin tədqiqinə həsr olunmuş risalələr yaranmışdır. Həmin dövrə aid ədəbi və elmi mənbələrdə xanəndəlik sənəti ilə bağlı məlumat öz əksini tapmışdır (Səfərova Z. 1996. s.76).

Xanəndəlik sənətinin tarixi inkişafının III dövrü XVIII – XIX əsrləri əhatə edir. Bu dövrün əsas hadisələri Azərbaycanın ayrı-ayrı bölgələrində – Qarabağ, Abşeron, Şirvan və s., muğam ifaçılığı ənənələrini yaşadan muğam mühitlərinin və muğam məktəblərinin meydana gəlməsi ilə bağlıdır Həmçinin, XIX əsrdə böyük tarzən Mirzə Sadıq Əsəd oğlunun yaradıcılıq fəaliyyəti - Azərbaycan tarının yaranması muğam sənətinin inkişafının yeni mərhələsi olmuşdur. Bu dövrdə Azərbaycan muğamının inkişafı, ifaçılıq ənənələrinin ötürülməsinin genişlənməsi, xanəndəlik sənətinin yeni mərhələyə qədəm qoyması müşahidə olunur (Zöhrabov R. 1991. s.34).

Görkəmli şair və yazıçıların, alimlərin və muğam bilicilərinin – Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab və b. yaradıcılığı, müxtəlif bölgələrdə fəaliyyət göstərən poeziya və musiqi məclisləri, muğam məktəbləri bu dövrün əlamətdar hadisələridir. Xanəndələrin ənənəvi fəaliyyət sahələri – toy məclisləri ilə yanaşı, onların yaxından iştirakı ilə keçirilən poeziya və musiqi məclisləri muğam ifaçılığının inkişafında böyük rol oynamışdır.

Azərbaycanda muğam ifaçılığı məsələlərini araşdırarkən XIX əsrə kimi xanəndələr və məktəblər haqqında geniş məlumata rast gəlmirik. Lakin adı çəkilən dövrdən başlayaraq xanəndəlik sənəti özünün yeni mərhələsinə qədəm qoyur, artıq xanəndələr özləri də müxtəlif təbəqələrə bölünür. Musiqi mədəniyyətində xanəndə - sənətkar, ustad, yaradıcı-ifaçı kimi önəmli yer tutmağa başlayır.

XIX əsrin I yarısında Azərbaycanda xanəndəlik sənətinin yüksəliş dövrü başlandı. İlk dövrdə, bu Azərbaycanın müxtəlif şəhərlərinin adı ilə bağlı idi. Bu şəhərlər arasında Şuşa, Şamaxı daha sonralar isə Bakı xüsusi yer tuturdu. Adını çəkdiyimiz şəhərlər arasında Şuşanın öz payı var. Çünki xanəndəlik sənətinin, daha doğrusu musiqi sənətinin inkişafı məhz bu şəhərin adı ilə bağlıdır desək, yanılmarıq. Ümumiyyətlə, Qarabağ xanəndəlik məktəbi bütün zamanlarda digər məktəblərə nisbətən daha böyük tarixə malik olub, Azərbaycan xanəndəlik sənətində öz sözünü demiş yüzlərlə böyük xanədənin beşiyi olmuşdur. Bu dövrdə böyük şəhərlərdə musiqi məclislərin təşkil olunması ilə muğam dəstgahları təkmilləşdirilir, müxtəlif şöbə və guşələrlə zənginləşdirilir, yeni yaradılan təsnif və rənglər səsləndirilirdi. Çox zaman yaradıcılığa başlayan musiqiçilər burada ustad sənətkarlardan xeyir-dua alırdılar. Bu məclislər muğam sənətini inkişafı üçün çox önəmli idi və muğam ifaçıları üçün əsl ustadlıq məktəbinə çevrilmişdi.

XIX əsrin II yarısında muğam ifaçılığını tədris edən məktəblər meydana gəlməyə başladı ki, bunlar dini mahiyyət daşıyırdı. Xarrat Qulu dini mərasimlərdə iştirak etmək üçün gözəl səsi olan gəncləri öz məktəbinə cəlb edir, onlara muğamatı və oxumaq qaydalarını öyrədirdi. Lakin inkarolunmaz bir faktdır ki, bu məktəb sonradan muğam tədris edən musiqi məktəblərinə nümunə olmuşdur. Qarabağın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Şahnaz Abbas, Əbdülbağı Zülalov (Bülbülcan), Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdı oğlu və məşhur tarzən Sadıqcan həmin məktəbin yetişdirmələridir (Hüseyni Ə. 1976).

Beləliklə, Xarrat Qulunun məktəbinə Qarabağ muğam ifaçılığı məktəbinin inkişaf tarixində mühüm bir mərhələ kimi baxmaq lazımdır. XX əsrə qədərki dövrdə xanəndəlik sənətinin inkişafından söhbət açarkən əsas diqqətimizi iki amilə yönəltməliyik. Bu dövrdə muğam ifaçılığının - xanəndəliyin inkişafına musiqi məclisləri və musiqi məktəblərinin rolunu vurğulamalıyıq. Məhz bu məclislər və məktəblər XX əsrin əvvəllərində muğam ifaçılığı sənətinin qızıl dövrünü yaşamasına səbəb olmuşdur.

Muğam ifaçılığı sənətinin IV inkişaf mərhələsi XX əsr və XXI əsrin ilk onillikləri, hazırkı dövrə qədər - xanəndəlik sənətinin yüksək inkişaf dövrü kimi xarakterizə oluna bilər. Nəzərə almalıyıq ki, xanəndələr xalqın nümayəndələri olaraq, cəmiyyətin həyatında yaxından iştirak etmişlər. Dövrün ictimai-siyasi hadisələri onlardan yan keçməmişdir, həm tarixi-siyasi, həm də ictimai-mədəni hadisələr musiqi mədəniyyətinin mühüm bir qolu olan muğam sənətinin inkişafına təsir göstərmişdir.

ƏDƏBİYYAT

1. Hacıbəyov Ü.Ə. Əsərləri. II cild. (Cildin redaktoru M.İbrahimov; tərtibat, kommentariya və lüğət Q.Qasımovundur). Bakı: 1965. Azərbaycan EA nəşri, 412 s.
2. Hüseyni Ə. Orkestrin ulu babası. "Ədəbiyyat və incəsənət" qəz. Bakı: 1976, 7 avqust, s.4
3. Səfərova Z. Azərbaycanın musiqi elmi. XIII-XX əsrlər. Bakı: 1996. s.213
4. Zöhrabov R. Muğam. Bakı: 1991, s.42
5. F.Şuşinski. Musiqiçinin düşüncələri Bakı:1995, s.65.

SUMMARY

Rasul Mutalimov

THE DEVELOPMENT OF MUGHAM ART IN THE CREATION OF AZERBAIJAN COMPOSERS IN THE MODERN PERIOD

The art of singing has a special role in the musical culture of Azerbaijan. Singers have developed the musical culture of Azerbaijan by keeping folk music and mugham tradition alive. It is known from the history of music that many singers, in addition to being skilled performers, were also creative artists. They enriched the Azerbaijani oral traditional musical heritage by creating a large number of categories and colors, lyrical folk songs, as well as new versions of mughams and percussion mughams. Especially at the beginning of the 20th century, the art of singing played an important role in the creation of Azerbaijani opera.

One of the main characteristics of the art of singing is that the singer is a representative of vocal art and always performs with the accompaniment of an instrumental ensemble. Of course, the composition of the ensembles varies. Changes in the composition of instrumental ensembles are observed depending on certain periods, the development of folk musical instruments, and the demand of listeners. In the history of music, the composition of the ensembles consisted of various instruments - oud, rubab, chang, barbet, etc. It is known that it consists of ancient tools. In modern times, mugham trio (tar, kamancha, gaval), ensemble or orchestra of folk instruments are the main musical collectives related to mugham art. However, in any case, the singer acts as the main driving force as a soloist in this ensemble, and the repertoire is also related to his performance art.

In addition to the fact that the musical heritage of Azerbaijan consists of three layers: folk music creation, ashiq art, and mugham art, it is characterized by its own characteristics - in terms of genre and performance, the environment in which it was formed and improved, and the listening audience. we should note that it grew from the other and its mutual influence, which is especially evident in the singers' repertoire

Khanandal art has ancient and rich traditions and includes several areas of activity: mugham performance and creativity, development of mugham genres, preservation of mugham heritage, transmission of mugham rules and performance traditions from generation to generation.

Key words: *Azerbaijan, Uzeyir Hajibeyli, music, mugham, Khananda*

NƏRMİN RZAYEVA
narminismayilova9805@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-2297-0442

XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ YAZILMIŞ OPERALARDA FOLKLOR NÜMUNƏLƏRİ

Təqdim olunmuş məqalə 20ci əsrin 50-60ci illərində Azərbaycan professional musiqi mədəniyyətində fəaliyyət göstərmişdir. Bir sıra görkəmli bəstəkarların opera yaradıcılığından bəhs edir.

Məqalədə F. Əmirov, C.Cahangirov, R.Mustafayev kimi bəstəkarların operalarındakı milli xüsusiyyətlər öz parlaq əksini tapmışdır.

Opera janrında xalq musiqisi, folklor janrın maraqlı inkişaf prinsiplərindən istifadə edərək bəstəkarlar yeni yaradıcılıq axtarışlarının önünü açaraq, dərin məzmunlu musiqili təfsir kimi onun inkişafında yeni istiqamətlər müəyyənləşdirmişlər.

Açar sözlər: *Janr, opera, forklor, muğam*

XX əsrin 50-ci illəri mili opera sənətində bir sıra nailiyyətlərin əldə olunduğu, yeni janr xüsusiyyətlərinin meydana gəldiyi dövr idi. Bu dövr sonrakı mərhələdə opera sənətində mövzu rəngarəngliyini yetişdirdi. F.Əmirovun milli opera sənətində ilk lirik-psixoloji opera müəllifi ünvanı qazanması isə bu sahədə yaradıcılıq imkanlarının genişliyindən xəbər verirdi. 1953-cü ildə yazılan "Sevil" operası milli musiqi mədəniyyəti tarixində lirik-psixoloji amillərin geniş planda işləndiyi və bu mənada daha əhəmiyyətli əsər kimi janrın ilk nümunəsi olaraq xarakterizə olunur. Əsərin əhəmiyyəti haqqında musiqişünas-alim S.Qasımova qeyd edir: "Sevil operasının yaradılması F.Əmirovun və eyni zamanda 50-ci illər milli musiqi sənətinin böyük nailiyyəti oldu" (1. s.131).

"Sevil" operasının milli musiqi mədəniyyətində əhəmiyyətinin ən böyük səbəblərindən biri xalq yaradıcılığı və folklor nümunələri əsasında maraqlı süjet xəttinin formalaşdırılmasıdır. Lirik xəttin inkişafında xalq mahnılarının işlənməsi də mühüm cəhətlərdən biridir. "Sevil" operasının xəlqi mahiyyət daşıyan musiqili təfsiri ilk növbədə proloqda özünü hiss etdirən xalq melosunun zənginlikləri ilə izah olunur. Burada bəstəkar "azan" səsləndirən müəzzinin səsini verməklə milli boyanı bir qədər də dərinləşdirir. Proloqun mövzusunun əsasını "Şüştər" muğamı təşkil edir. "Azan" səsi isə "Bayatı-kürd"-ün intonasiyaları üzərində qurulmuşdur. "Azan" səsindən sonra xalqın obrazı bəstəkarın çox sevdiyi "Şur" məqamında yazılmış mövzu ilə xarakterizə olunur. Onun orkestr girişində "Humayun" məqamının nidaları mövcuddur. Mövzunun ağır tonları qəmli-kədərli əhval-ruhiyyə ifadə edərək, mənəvi həbsə məhkum edilmiş acınacaqlı qadın taleyindən danışır. Onun məruz qaldığı haqsızlığa baş qaldırması mənəvi qurtuluşunu şərtləndirir. Operanın ana xəttini təşkil edən bu əsas ideya proloqun intonasiyalşarında özünün əksini taparaq, tamaşaçını səhnədə baş verəcək hadisələrə hazırlayır və proloq bütün monumentallığı ilə operanın mərkəzi nömrələrinin fövqündə duran nömrə kimi səciyyələndirilir.

"Sevil" operasında F.Əmirov üçün baş qəhrəmanının xarakterinin bütün tərəfləri ilə açılması mühüm yaradıcılıq problemi idi. I pərdədən Sevilin ariozası bu mənada və xalq mahnıları ruhunda olmağı ilə diqqət cəlb edir. Bəstəkar əsərin II redaksiyasında xalq musiqisi ünsürlərinə daha çox meyl edərək, obrazın milli ruhunu qabartmağa çalışmış və I pərdədə Sevilin xasiyyətnaməsinin açılmasında əhəmiyyətli rol oynayan ariozada xalq mahnısı kimi geniş yayılan "Onu demə zalım yar"ın intonasiyalarına müraciət etmiş və bu mahnını sitat kimi melodiyanın əsasına yerləşdirmişdir. Mahının əsaslandığı "Bayatı-Şiraz" muğamının "Bayatı-İsfahan" şöbəsinin xarakteri obrazın mənəvi dünyasını tam mənası ilə ifadə etməkdə bəstəkar üçün stimul olmuşdur.

"Sevil" operasında Sevilin çıxışının mərkəzini təşkil edən "Ayrı düşdüm" ariyasının əsas mövzusu "Şüştər" məqamı üzərində qurulmuşdur. Sevilin maraqlı solo nömrəsi olan "Lay-lay" da folklorda geniş yayılmış və anaların körpələrin beşiyi başında səsləndirdiyi xalq yaradıcılığı janrıdır. Onun kədərli intonasiyaları "ağı"larla oxşarlıq təşkil edir. Bu nömrənin fonunda operada xalq məişətinə xas cizgilər sərgilənir.

Əsərin digər qəhrəmanı Balaşın xaasiyyətnaməsini təşkil edən nömrələrdə də xalq musiqisi əsası əhəmiyyətlidir. Onun mahnısında "Bayatı-Şiraz" ladından istifadə olunur. Onunla Sevilin duetində isə iki məqamın intonasiya xüsusiyyətləri qabardılır ki, nömrədə "Bayatı-Şiraz" "Çahargah"la əvəz olunur. Balaşın qohumları ilə görüşü səhnəsində səsləndirdiyi solo nömrə "Şur", onun şəxsi dramının ifadə olunduğu ariyasında isə "si bemol" mayəli "Bayatı-Şiraz" və "fa" mayəli "Çahargah" məqamlarına müraciət olunub. Balaşın ariyasının I bölməsinin melodiyasının əsasını təşkil edən "Bayatı-Şiraz" məqamı ikinci bölmədə modulyasiya vasitəsilə "Çahargah"a keçir. Onun materialı əsasında III pərdədən Balaşın solo nömrəsi qurulub. Lakin bu zaman "si bemol" deyil, "lya" mayəli "Bayatı-Şiraz"ın intonasiyaları eşidilir.

Operada I pərdədə keçən Atakişinin "Ay sənə qurban inəklər" misraları ilə başlayan kupletləri əsl folklor nümunəsidir. Atakişinin kupletləri folklorun şeir janrları ilə yaxınlığı ilə diqqət cəlb edir. O, "oxşama"dır və bayatı şəklində qurularaq, "Segah" məqamına əsaslanır. Nömrə folklorda çox geniş yayılmış janr xüsusiyyəti daşıyaraq, xalq mahnı və rəqslərinin intonasiya cəhətlərinə malikdir. Kupletlərdə xalq mahnı-rəqsləri üçün xarakterik olan iki xanəli melodik əsasın variantlılığı hökmranlıq edir.

"Sevil" operasının partiturasında F.Əmirov modulyasiyalarla müxtəlif ladlara keçid verərək, musiqili məzmunu daha da dolğunlaşdırır. O, bütün inkişaf ərzində "Şur", "Şüştər", "Bayatı-Kürd", "Humayun" məqamlarına keçidlər edir, harmonik əsası şaxələndirir. Maraqlıdır ki, Avropa rəqsi olan valsın keçdiyi səhnədə milli əsas bir daha özünün təsdiqini tapır və bəstəkar bu dəfə "Uzundərə" xalq mahnısına müraciət edir. Operanın kütləvi səhnələrini ifadə edən xor nömrələrində təcəssüm olunan əhval-ruhiyyə müxtəlif məqamların intonasiya xüsusiyyətləri vasitəsilə diqqətə çarpdırılır. Bütün əsərin ideya məzmununu açan xor nömrələri arasında II pərdədən xor "Çahargah" məqamı üzərində qurulmuşdur. Qarışıq tərkib üçün nəzərdə tutulan xorun ilk bölməsini qadın səsləri-alt və sopranolar ifa edir, sonra bas və tenor ümumi axına qoşulur. Üçüncü bölmədə yenə qadın səsləri öz partiyasını ifa edir. Kodanın bir neçə xanəsi isə *a capella* keçir.

"Sevil" operasının bütün iştirakçılarının təqdimatında bu və ya digər məqam üzərində qurulmuş melodik zənginlikləri ilə diqqət cəlb edən solo nömrələr əhəmiyyətlidir. Burada hər bir epizod, kiçik detalların təfsirində də milli lad-məqam əsası üstünlük təşkil edir ki, bu mənada müasirliyin rəmzi kimi təqdim edilən Gülüş, daha kiçik əhəmiyyətli obraz olan Taftanı xarakterizə edən nömrələri də qeyd etmək olar. Gülüşün ariozası "sol" mayəli "Bayatı-Şiraz" və "Çahargah", Taftanın mahnısı isə "fa" mayəli "Segah"a əsaslanır. Ümumiyyətlə muğam əsası mahnının dinamik xəttini müəyyən edir.

XX əsrin 50-ci illərində digər bəstəkar C.Cahangirov opera yaradıcılığında Ü.Hacıbəyli ənənələrinn davam etdirir. Onun M.İbrahimovun "Gələcək gün" və "Azad qız" romanlarının motivləri əsasında 1957-ci ildə yazdığı "Azad" operası Ü.Hacıbəylinin "Koroğlu"da izlədiyi yaradıcılıq konsepsiyasını müasir mövzu əsasında inkişaf etdirir. Bu ilk başda əzəmətli xor partiyalarında ifadə edilən xalq gücündə özünü büruzə verir. Bəstəkar xalq birliyi və onun gücünün əhəmiyyətini vurğulamaq üçün ənənəvi olaraq III pərdəni mərkəz olaraq seçir və burada "Hey, hey" nidaları ilə başlayan xorun əsasında "Çahargah" kimi xarakterik məqamı yerləşdirməklə operanın qəhrəmani pafosunu dolğunlaşdırır. Xor nömrəsində məqamın bütün bölmələrinə istinad olunmuşdur. Bəstəkar "Çahargah" məqamının "Məyə", "Bəstə-Nigar", "Mənəndə-müxalif", "Mənsuriyyə" şöbələri ilə milli musiqidə ilk dəfə muğam əsaslı xor nömrəsi yazır. "Azad" operasında C.Cahangirov muğam şöbələrini sitat kimi işləməyi hədəfləmir. O, məqama və onun şöbələrinə sərbəst yanaşır, improvizasiya imkanları ilə zəngin melodik xətt formalaşdırır. Bu haqda İ.Məhərrəmova qeyd edir: "Muğam tipli melodiyalardan geniş istifadə edən C.Cahangirov bir çox Azərbaycan bəstəkarlarından, məsələn, F.Əmirovdan fərqli olaraq, muğamla daha artıq intonasiya yaxınlığına nail olmağa cəhd

göstərməmişdir. Onun "muğam" tipli melodiyalarının xalq melodiyaları ilə əlaqəsi intonasiya yaxınlığında deyil, daha çox melodiyaların quruluşunda, tədrici inkişaf prinsipində təzahür edir" (2. s.161).

Operanın bütün pərdələrində keçən xor nömrələrində hər hansı bir milli məqamın intonasiya xüsusiyyətləri mütləq istifadə edilir. I pərdədən "Kəndlilərin xoru"nda "Şur" məqamına müraciət olunur. Xor nömrəsi iki bölmədən ibarətdir. Hər bölmə məqamın bölmələri ilə uyğunlaşdırılmışdır ki, bu da nömrədə ifadə olunan ideyanı dolğun şəkildə təcəssüm etdirir.

Operada xalq kütlələrinin rolu olduqca böyükdür. Xalq məişətinə xas rəngli lövhələr milli məqamların xarakterik xüsusiyyətləri ilə canlandırılır. Xalqın şən əhval-ruhiyyəsinin təqdimatında "Rast" ailəsinə daxil olan "Bayatı-Qacar"dan istifadə edilmişdir. Bütün dramaturji inkişafda xalq obrazı folklor nümunələri vasitəsilə daha qabarıq ifadə olunur. Bu baxımdan III pərdənin mərkəzi səhnələrində yer alan "Yallı"nı, xalqın məişətində geniş yer almış "Güləşmə" rəqs-döyüşünü misal göstərmək olar.

60-cı illərdə milli opera sənətində özünəməxsus şəkildə bədii həllini tapmış əsərlərdən biri də R.Mustafayevin "Vaqif" operasıdır. 1960-cı ildə səhnələşən bu operaya teatr truppaları dəfələrlə müraciət etmişdir. S.Vurğunun eyni adlı dramının motivləri üzərində yazılan əsərdə milli xarakteri müəyyən etmək üçün folklor nümunələrinə müraciət olunur, solo partiyalarda xalq mahnılarının ifa tərzi vokal sənətinin kantilena üslubu ilə uzlaşdırılır. Baş qəhrəmanın təqdimi lirik xarakterli solo nömrələrdə özünü təsdiq edir. Bu nömrələr şairin poetik, şeiriyyatla dolu mənəviyyatını açır. Onun I pərdədən ariyası da bu planda inkişaf etdirilir. Operanın baş qəhrəmanı Vaqifi monoloq tipli solo nömrələrlə təqdim edən bəstəkar obrazı xalq musiqisinə yaxın intonasiyalarla səciyyələndirir. Bu baxımdan I pərdədən şairin ilk arioza-monoloqunu diqqətə çatdırmaq olar. Onun harmonik inkişafında milli xüsusiyyətlər muğam elementləri vasitəsilə canlandırılır. I şəkildə keçən arioza qəmlidir. Arioza-monoloq "Segah-Zabul" muğamına əsaslanır. Ariozada böyük şairin xalqın taleyi ilə bağlı nigarançılığı "Şüştər" məqamı vasitəsilə verilib. II şəkildə səslənən Vaqifin ariozası isə ümumiyyətlə kulminasiya anının yetişməsində əhəmiyyətlidir. Bu nömrədə xalq musiqisinin özünəməxsus intonasiya xüsusiyyətləri var və bu, nömrənin lirik xarakterini müəyyən edir. Arioza "Rast" məqamı üzərində qurulub.

"Vaqif" operasının aparıcı obrazlarından biri də onun arvadı Xuramandır. Xuramanın ariyası zərif elementlərlə örtülmüşdür. Burada kontilena üçün səciyyəvi olan cəhətlər var. Ariyanın özəyində xalq melosunun incəlikləri hökmranlıq edir. Bütün inkişaf muğam prinsipi əsasında formalaşdırılır. Nömrədə Vaqifin leytmotivindən elementlər də var. Obrazın şəxsi faciəsinin təqdimində IV pərdədə səslənən "Vaqif, sevgilim" ariozasını qeyd etmək lazımdır. Melodiyanın özəyində yerləşdirilmiş kədərli nüanslar bütün inkişafı təmin edərək, baş qəhrəmanın dramatik taleyini diqqətə çatdırır. Bunun üçün isə xalq musiqisinin kədərli əhval-ruhiyyəli intonasiya xüsusiyyətlərindən istifadə olunur. Ariozada matəm xarakterli, ağıları xatırladan elementlər bolluq təşkil edir.

R.Mustafayevin "Vaqif" operasında kütləvi səhnələri təmsil edən xor nömrələri birmənalı olaraq xalq musiqisinə istinad etdiyi üçün əzəmətlidir. Əsərdə digər xalqların da musiqi nailiyyətlərinə müraciət edən bəstəkar "Gürcülərin xoru"nda bu xalqın milli musiqi intonasiyaları əsasında melodik inkişaf qurur. Digər tərəfdən xalqın təmsilində Eldar obrazı da əhəmiyyətlidir ki, bu obrazın xarakterini vermək üçün R.Mustafayev "Çəngi" rəqsinə oxşar intonasiyalardan faydalanmışdır ki, bu da Eldarın simasında xalq qəhrəmanlığının ifadəsinə çevrilmişdir.

Məlumdur ki, Molla Pənah Vaqifin bütün həyatı Qarabağ, Şuşa mühitində keçmişdir. Operada bu mühiti ayrı bir obraz kimi səciyyələndirmək olar. Bu səciyyəvi cəhət isə "Qarabağ şikəstəsi" zərbi muğam vasitəsilə təqdim edilir. Zərbi muğamın özünəməxsus intonasiya xüsusiyyətləri həmin mühitin yaradıcılıqla dolu, eyni zamanda narahatçılıq ifadə edən tarixi anlarının təcəssüm etdirilməsində əhəmiyyətli vasitəçi rolunda çıxış edir. "Qarabağ şikəstəsi"nin giriş bölməsi orkestr partiyasında səslənir. Ostinat ritm musiqili təfsirin xarakterini düzgün təsvir edir. "Vaqif" operasında bəstəkar xalq musiqisi janrlarından bəhrələnməklə milli koloriti qabardaraq, obrazların xarakterini daha dəqiq ifadə etməyə nail olmuşdur. Opera muğam prinsipi ilə inkişaf etdirilən bitkin musiqili

nömrələri ilə dolğun təəssürat yaradır. Bəstəkarın muğam təfəkküründə istinad etməyinin əhəmiyyətini vurğulayan İ.Məhərrəmova qeyd edir: "Operada muğama istinad mühüm əhəmiyyətə malikdir. Muğam ənənələri janrın təbiətinə uyğun olaraq, Vaqifin lirik-faciəvi obrazını açmağa xidmət edir. Melodiya ilə əlaqədar muğamların əvvəli xarakterik regitasiyalarda və koloritli oxumalarda spesifik milli yubilasiyalarda, sərbəst variantlılıq çərçivəsində, improvizasiyaların ifadə olunmasında özünü göstərir" (2. s.197).

Xalq musiqisi, folklor janrın maraqlı inkişaf prinsiplərindən istifdə olunması XX əsrin 50-60-cı illərində opera sənətində janr rəngarəngliyinin daha qabarıq tonlarla ifadə olunmasına imkan yaradıb. Bu vasitə ilə bəstəkarlar opera janrında yeni yaradıcılıq axtarışlarının önünü açaraq, dərin məzmunlu musiqili təfsir kimi onun inkişafında yeni istiqamətlər müəyyənləşdirmişlər. Bu illərə aid operaların diqqətdə qalan əsas məziyyətlərindən biri xalq yaradıcılığı, folklorun tərkib hissəsi olan mahnı və rəqslər əsəsaında müxtəlif mənəvi keyfiyyətlərə malik obrazlar dairəsinin təqdimidir. Azərbaycan bəstəkarları da xalq musiqisi, muğam elementlərindən bəhrələnməklə səhnə dramlarında daha orijinal və milli xüsusiyyətlərlə dolğun dramaturgiyanın qurulmasına nail olmuşlar.

ƏDƏBİYYAT

1. Qasımova S., Bağırov N. Azərbaycan musiqi ədəbiyyatı. Maarif, Bakı: 1984
2. Məhərrəmova İ.E. Azərbaycan opera sənətinin nəzəri problemləri. Elm və təhsil. Bakı: 2014

SUMMARY

Narmin Rzayeva

EXAMPLES OF FOLKLORE IN THE OPERAS WRITTEN IN THE 50-60S OF THE XX CENTURY

The presented art music culture of Azerbaijan in the 50s and 60s of the 20th century. One row tells about the opera creativity of famous composers.

In the article, the national features of the operas of composers such as F.Amirov, J.Jahangirov and R.Mustafayev are vividly reflected.

Using the interesting development principles of folk music and folklore in the opera genre, the composers opened the way for new creative searches and defined new directions in its development as a deep musical interpretation.

Key words: *genre, opera, folklore, mugham*

NURLANA TAĞIYEVA
tagiyevanrln7@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0009-9700-8327

XX ƏSRİN 60-CI İLLƏRİNDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA KANTATA-ORATORİAL JANR

Təqdim olunan məqalə milli bəstəkarlarımızın yaradıcılığında kantata-oratoriya janrı və konkret olaraq XX əsrin 60-cı illərində bu janrda yazılan əsərlərin janr keyfiyyətlərindən bəhs edir. Məqalədə qeyd olunur ki, həmin illərdə bəstəkarlarımızın kantata və oratoriyaları daha aktual olaraq özünün müasir mövzusu və obrazları ilə seçilir. Milli müəlliflərimiz üçün kantata və oratoriya janrları bəstəkarlıq təxəyyülünün, fikirlərinin daha parlaq ifadəsində böyük əhəmiyyət daşıyır. Bəstəkarlarımızın rəngarəng obrazlı kantata və oratoriyalarında harmonik, melodik inkişaf, orijinal orkestr səslənməsi, xor və solist partiyaları kompleks şəkildə dramaturji inkişafı istiqamətləndirir. Məqalədə R.Mustafayev, C.Cahangirov, Q.Qarayev, R.Hacıyev, A.Məlikov, N.Əliverdibəyov, N.Məmmədovun irihəcmli vokal-instrumental əsərinin nümunəsində janrın özünəməxsusluğu müəyyən edilir.

Yekunda qeyd olunur ki, bəstəkarlarımız kantata və oratoriya janrında yazdıqları əsərlərdə milli lad və məqamlardan, xalq musiqisi nümunələrindən, muğam elementlərindən istifadə edərək klassik Avropa musiqisi janrında milli üslub xüsusiyyətlərini parlaq şəkildə təqdim etmişlər.

Açar sözlər: *janr, oratoriya, kantata, səciyyəvi xüsusiyyətlər, milli özünəməxsusluq*

Kantata-oratorial janrın milli musiqi mədəniyyəti tarixində özünəməxsus yeri var. Bu janr bəstəkarlar üçün hər zaman maraqlı olub və müxtəlif məzmunlu onlarla musiqi əsərləri məhz bu janrda yazılıb. Azərbaycan bəstəkarları müxtəlif məzmuna, dramaturgiyaya malik kantata və oratoriyalarında Ü.Hacıbəyli tərəfindən müəyyən olunan yaradıcılıq yolundan hərəkət etmişlər. Onlar ən əsası klassik Avropa musiqisi janrları olan hər iki sahədə milli sənət nümunələri yaratmışlar. Bu zaman isə əsərlərin bədii mətnində milli nüanslar kəşf edərək, onları musiqili təfsirə keçirmişlər. Bu isə həmin janrların xalq tərəfindən rəğbətlə qarşılanmasını təmin etmişdir.

Musiqili səhnə dramları olmaqlarına baxmayaraq, kantata-oratorial janrı operadan fərqləndirən mühüm cəhət budur ki, onlarda səhnə hərəkəti olmur. Bu cəhət bəstəkara fərdi yaradıcılıq imkanlarını şaxələndirərək, öz fikrini daha ifadəli formada təqdim etmək imkanı qazandırır. Azərbaycanda hər iki janrın spesifik xüsusiyyətləri milli operaların ilk nümunələrində mövcud olan xor səhnələrində formalaşmış və janr bir çox bəstəkarın yaradıcılığına nüfuz edərək, maraqlı inkişaf yolu qət etmişdir. Bu tarixi inkişafda XX əsrin 60-cı illərində yazılmış əsərlər xüsusi diqqətə layiqdir.

XX əsrin 60-cı illərinin zəngin yaradıcılıq mühitində Azərbaycan bəstəkarları musiqinin müxtəlif, o cümlədən kantata və oratoriya janrlarında yazdıqları rəngarəng ideya məzmunlu əsərlər ilə milli musiqi mədəniyyətinin şaxələnərək daha demokratik platformadan inkişafını təmin edirdilər. Həmin illərdə bəstəkarlarımızın kantata və oratoriyaları daha aktual və dövrünə görə müasirliyi ilə seçilən mövzu və obrazlar dairəsini özündə ehtiva edirdi. Bu eyni zamanda janr rəngarəngliyini də yetişdirib, əsərlərdə dərin ideya məzmununun ifadə olunmasına da imkan yaradırdı. Bu baxımdan R.Mustafayevin "Oktyabr", "Kür-Abşeron", C.Cahangirovun "Sabir", Q.Qarayevin "Neft daşlarının qəhrəmanlarına", R.Hacıyevin "And içirik", "Həmişə birgə", "Kolxoz çöllərində", A.Məlikovun "Vətən" və başqa bu kimi kantata və oratoriyaları maraqlı əsərlər hesab olunur. Bu əsərlər qəhrəmani-epik, lirik, məişət xarakterli olub, özündə dərin ictimai-məişət motivləri birləşdirirdilər. Quruculuq illərində insanların dinc həyatını, gələcəyə ümidlərini ifadə edən əsərlərin hər birinin mövzusu öz dövrünə görə olduqca maraqlı idi. Bu isə kantata və oratoriya janrlarına bəstəkarların böyük diqqətini şərtləndirirdi. Əsərlərdə xalq musiqisi intonasiyaları və folklor nümunələri orijinal şəkildə

dramaturgiyada iştirak edir, onların harmonik dili, melodik xətti muğam elementləri ilə dolğunlaşdırılırdı. Bəstəkar R.Hacıyevin 1961-ci ildə yazdığı "Kolxoz çöllərində" kantatasının lirik planını məhz xalq musiqisi ilə dərin əlaqə müəyyən edir. F.Köçərlinin sözlərinə bəstələnmiş əsərdə xalq rəqsləri, aşıq musiqisinin lad-məqam əsası, metro-ritmik xüsusiyyətləri bəstəkarın improvizasiya məharəti ilə uzlaşdırılır. Bu əsər sosialist təfəkküründü ifadə edirsə, C.Cahangirovun 1962-ci ildə Azərbaycan satirik poeziyasının görkəmli nümayəndəsi M.Ə.Sabirin 100 illiyinə yazdığı "Sabir" oratoriyası tamamilə fərqli mövzuları əhatə edərək, daha dərin bədii mahiyyət daşıyır. İlk başda bəstəkar əsərdə Sabir satirasının öldürücü gücünə müraciət etsə də, əsərin musiqisində bu istiqamətdən çıxış etmir. Lakin xalq rəqsləri və meyxana janrının yumorlu xarakterinin imkanları ilə komik tonlar ortaya çıxarır ki, bu da ideya məzmununda satiranın gücünü artırır. "Sabir" oratoriyası janrın fərqli planda təqdimatında ilk nümunədir. Bu haqda G.Vəzirova yazır: "Sabir" oratoriyası satirik mövzuya bu janrda müraciət etməyin ilk cəhdi olmaqla maraq doğurur. Demək olmaz ki, satirik mövzuda oratoriya yaratmaq cəhdi Cahangirova tam müyəssər olmuşdur. Lakin bu əsərin partiturasında gözəl xor fakturalı, aydın melodizmli xor və solonun üzvi nisbətinə malik uğurlu xor səhifələri vardır" (1. s.278). Əsərin ümumi süjeti yoxdur. Bütün məzmun şairi əhatə edən obrazlarla əlaqədə üzə çıxır.

"Sabir" oratoriyası solistlər, xor və simfonik orkestr üçün yazılmışdır. Əsərin mərkəzi obrazı şairin özüdür. O, tenor səsi ilə ifadə olunur. Bəstəkar öz yaradıcılıq ənənəsinə sadiq qalaraq əsəri kiçik orkestr girişi ilə başlayır. Orkestr girişində zəngin faktura ilə dolğun səslənmə ortaya çıxır. Onaltılıq notlar dinamik inkişafı təmin edir. Başlanğıcın möhtəşəm xarakteri Allegro maestoso tempi ilə daha emosional xarakter alır. Xor partiyası isə "Sabir, Sabir" nidaları ilə alt səsində başlayır. Bu nida bütün partiyalarda növbələşir.

"Sabir" oratoriyasının I hissəsində A.Səhhətin şeirlərindən istifadə olunmuşdur. O, təntənəlidir. Şeirlərin mənasını musiqi dili ilə dolğun ifadə etmək üçün bəstəkar intonasiya çalarlarında yeni nüanslar əldə edir. Burada bütün inkişaf məntiqi ardıcıllığa əsaslanır. Oratoriyada xorlara müxtəlif rollar həvalə edir. Onlar qəhrəmanları, kütləni canlandırır, Sabirin böyüklüyünü tərənnüm edir, onun fəaliyyətinin xalqın həyatında əhəmiyyətini vurğulayır və ya avam kütlə rolunda çıxış edərək, şairə lənətlər yağdırır. Kişi və qadın qruplarına bölünən xor nömrələri ardıcıl şəkildə solo nömrələrlə bir-birini əvəz edir. Bəstəkarın polifonik texnikadan istifadə imkanları şairə lənət yağdıran xor nömrələrində daha qabarıq şəkildə üzə çıxır. Bu zaman o, imitasiyalı polifoniyadan bəhrələnir. Satirik nömrələrdə isə hərəkət bəzən unison, bəzən də sadə ikisəsli xorlarla təmin edilir. Oratoriyada milli lad-məqamlarla rəngarəng musiqili lövhələr yaradılır.

R.Mustafayev kantata və oratoriya janrında ən çox əsər yazan bəstəkarlardan biridir. O, 9 oratoriya, 5 kantata müəllifidir. Bəstəkarın bu janrda olan hər bir əsəri özünün mövzu dairəsinin əhatəliyi, zəngin ideya məzmunu ilə seçilir. Bəstəkar müxtəlif illərdə bu janrlarda R.Rzanın sözlərinə "Oktyabr", N.Xəzrinin sözlərinə "Ana", "Mənim müasirim", "İnam", "Salatın", R.Zəkanın sözlərinə "Füzuli", "Hüseyn Cavid", H.Ziyanın sözlərinə "Haqq səndədir, Azərbaycan", M.İsmayılın mətninə "Kür-Abşeron", B.Vahabzadənin mətninə "Məhəmməd və Leyla" əsərlərini yazmışdır. Bəstəkarın müraciət etdiyi şairlərə baxdığımızda onun poeziyaya olan dərin marağı və bu zəngin sənətə olduqca diqqətli yanaşdığını görmək mümkündür. R.Mustafayevin kantata-oratorial janra meylini izah edən Z.Qafarova yazır: "9 oratoriya, 5 kantata, vokal-simfonik poemalar-bəstəkarın bütün həyatı boyunca yaratdığı bu əsərlər demək olar ki, "irimiqyaslı", geniş və sərbəst yazılmış əsl monumental "freska"lardır" (2. s.28).

R.Mustafayevin 1967-ci ildə oratoriya janrında yazdığı əsər "Oktyabr"ın ilk təqdimatı Azərbaycan Bəstəkarlar İttifaqının Plenumunda baş tutmuşdur. R.Rzanın poeziyasından sərbəst şəkildə istifadə edən bəstəkar müxtəlif şeirləri bir vəhdətdə birləşdirərək musiqili kompozisiyasının əsasına keçirmişdir. Monumentallığı ilə seçilən oratoriya beş hissədən ibarətdir. Burada XX əsr kantata və oratoriya janrının tipik xüsusiyyətləri işlənilir, onun opera və dramla əlaqəsi diqqət mərkəzində saxlanılır. Əsərdə xalqın azadlıq uğrunda mübarizəsi bütün bəşəriyyət üçün aktual mövzu kimi təqdim edilir. Kütləvilik baxımından əhəmiyyətli olan epizodlarda xalq gücü, onun

həmrəyliyi ifadə olunur. Oratoriya böyük ictimai məna kəsb etməklə yanaşı insan mənəviyyatında dərin psixoloji amillərə toxunur. Musiqidə xalq mahnıları, marş janrının metro-ritmik xüsusiyyətləri bəstəkar təxəyyülünün incəlikləri ilə işlənilir.

1964-cü ildə A.Məlikovun şair T.Bayramın mətni əsasında yazdığı "Vətən" kantatası iri həcmli vokal-instrumental janrın maraqlı nümunələrindəndir. Burada doğma vətənin əzəmətli portretini yaradan bəstəkar, onun gözəllikləri, təbiətinin ecazkarlığını böyük ruh yüksəkliyi ilə ifadə edir. Əsərin mövzusu dövrünə görə müasir həyati gerçəklikləri əks etdirir. Əsas ideyanı ümumiləşdirən A.Məlikov musiqili təfsirdə səmimi, zəngin çalarlar əldə edir. Doğma vətənin təcəssümündə milli ritmik cəhətlər, xalq musiqisi intonasiyaları mühüm rol oynayır. Burada sonata-allegro formasına bir qədər fərdi yanaşan bəstəkar ona proqramlılıq xüsusiyyəti aşılayaraq, fikirlərini daha konkret və lakonik ifadə tərzi ilə dinləyiciyə çatdırır. Əsərdə sadəcə A.Məlikovun deyil, o dövrdə kantata-oratorial janra müraciət edən bütün bəstəkarların bu sahədə apardığı yaradıcılıq axtarışları ümumiləşdirilir. R.Hacıyevin 60-cı illərdə yazdığı "Həmişə birgə" oratoriyası da bu kimi konsepsiyanı daşıyan əsərlərdəndir. Ümumiyyətlə, R.Hacıyevin yaradıcılıq üslubunu daha dolğun ifadə edən kantata-oratorial janrında yazdığı əsərlərdə iki istiqamət qabarıq şəkildə özünü hiss etdirir. Bu iki istiqamətin əsasını vətən mövzusu təşkil edir. Bunların ilki qəhrəmani pafosda olub, vətənin azadlığı, bu yolda aparılan mübarizəni təsvir edirsə, digəri dinc quruculuq illərini, vətən təbiətinin gözəlliklərini təbliğ edən musiqili təfsirlə özünü ifadə edir.

Dörd hissədən ibarət olan oratoriyanın I hissəsi "Rus fəhləsi", II hissəsi "Oktyabr" adlanır. Göründüyü kimi əsərdə dövrün gerçəkliklərinə uyğun olaraq Sovetlər ölkəsinin tərkibində olan Azərbaycan Respublikasının vətəndaşı kimliyindən çıxış edən bəstəkar digər respublikalarla birlikdə coğrafiyanı əhatə edən böyük vətən ideyasını musiqili təfsirdə canlandırır. Ümumiyyətlə mərkəzi hissə olan II hissə bütün dramaturgiyada mühüm rol oynayır. Bütün digər hissələrin dinamik inkişafı isə bu hissəyə doğru yönləndirilir. III hissə obrazına görə gərgin elementlərə malikdir. Burada əsərin milli kimliyi qabardılır. Onun zəngin musiqisinin əsasında milli rəqslərə xas forma xüsusiyyətləri var. Musiqi materialı daha dinamik şəkildə inkişaf etdirilir. Kulminasiyaya yaxınlaşdıqca orkestr səslənməsində rəqs elementləri dinamikləşir, temp artır. IV hissə finaldır. Burada kulminasiyanın davamı gətirilir ki, bu da dinamik inkişafı növbəti fazaya keçirir. IV hissədə xalqlar dostluğu, bərabərlik böyük vurğu ilə diqqətə çatdırılır və bu epiqraf kimi səslənir.

XX əsrin 60-cı illərində kantata-oratorial janrda yazılan əsərlər arasında N.Əliverdibəyovun N.Həsənzadənin sözlərinə 1967-ci ildə bəstələdiyi "Məktəblilərin oktyabr nəğməsi" kantatasını, N.Məmmədovun A.Zeynallının sözlərinə 1969-cu ildə yazdığı "Azərbaycan" oratoriyasını qeyd etmək lazımdır. İlk əsər solist, xor, violin partiyası və simfonik orkestr, digəri isə solist, xor və simfonik orkestr üçün nəzərdə tutulmuşdur. "Məktəblilərin oktyabr nəğmələri" əsərində yenə oktyabr idealları tərənnüm edilir. Lakin bu zaman həmin ideal gənc nəslin dilindən təbliğ olunur. Kantata lirik xarakterlidir. Musiqisi parlaqlığı, aydınlığı ilə xoşbəxt və sevinc dolu anları ifadə edir. Faktura olduqca sadədir.

N.Məmmədov "Azərbaycan" oratoriyasında böyük bir xalqın tarixi keçmişi ilə müasirliyi qarşı-qarşıya gətirir. Burada Azərbaycan bəstəkarlarının daha əvvəl müxtəlif janrlarda nümayiş etdirdiyi ənənələr bir daha təcəssüm olunur. Belə ki, xalqın azadlıq uğrunda mübarizəsi, xalq kütlələrinin monumental çıxışı, keçmişin qaranlıq siması, müasirliyin işıqlı sabahı əsərin musiqili təfsirində böyük ölçüdə yer alır. Bəstəkar ənənəvi olaraq əsərə milli xüsusiyyət aşılamaq üçün xalq musiqisi, aşıq havaları, muğam intonasiyalarına müraciət edib.

XX əsrin 60-cı illərində də Azərbaycan bəstəkarlarının kantata və oratoriya janrında yazmış olduğu əsərlərdə diqqət çəkən mühüm cəhətlərdən biri səhnə hərəkəti olmayan musiqili təfsirdə orijinal dramaturgiya qura bilmək imkanıdır. Belə ki, bəstəkarlarımızın rəngarəng obrazlı kantata və oratoriyalarında harmonik, melodik inkişaf, orkestr partiyasının orijinal səslənməsi, xor və solist partiyaları bir vəhdətdə birləşərək, dramaturji inkişafı sonuna qədər zirvəyə yönəldir. Hər bir obrazın monoloqu və ya xor partiyasında ifadə olunan fikirlər həqiqi mənada hekayətçilik xüsusiyyəti

daşıyaraq, təsvir olunan hadisələri nəql edir. Bu isə süjet xəttində rəngli çalarların meydana gəlməsini yetişdirir.

Bütün digər janrlarda olduğu kimi kantata və oratoriya janrlarında yazılmış əsərlərdə də milli üslub və ona xas xüsusiyyətlərin təzahürü əsl yaradıcılıq nailiyyətidir. Azərbaycan bəstəkarları bu janrda yazdıqları əsərlərin əsasında milli lad-məqamları, xalq musiqisi, aşıq havaları, muğam elementlərini yerləşdirməklə klassik Avropa musiqisi janrında milli üslub xüsusiyyətlərini bir daha bütün əzəməti ilə vurğulamışlar. Bəzi bəstəkarlar xalq musiqisi ünsürlərindən sitat kimi istifadə etmiş, bu zaman doğma vətənə aid gözəllikləri, ona olan sevgini, vətən qəhrəmanlarını daha qabarıq şəkildə vəsf etməyə çalışmışlar, digər bəstəkarlar isə xalq musiqisi ünsürlərini fərdi bəstəkarlıq nailiyyəti olan melodik zənginliklərin işlənməsində vasitə kimi nəzərdən keçirərək, həmin zəngin mənbədən bəhrələnmişlər. Hər iki istiqamətdən çıxış edən bəstəkarlar nəticədə olduqca maraqlı obrazlar dairəsi, ideya məzmununa malik rəngli əsərlər külliyyatı yaratmışlar. XX əsrin 60-cı illərində də Azərbaycan bəstəkarlarının yazdığı kantata-oratoriyalarda əsrin 30-40-cı illərində formalaşan ənənələr davam və inkişaf etdirilir, özünəməxsus ifadə tərzi ilə dinləyici kütlələrinə təqdim edilirdi.

ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. III cild Bakı: 2018, Elm
2. Azərbaycan musiqi tarixi. IV cild Bakı: 2019, Elm

SUMMARY

Nurlana Tagiyeva

CANTATA-ORATORIAL GENRE IN THE CREATION OF AZERBAIJAN COMPOSERS IN THE 60S OF THE XX CENTUR

The presented article talks about the cantata-oratorio genre in the creativity of our national composers and specifically the genre qualities of the works written in this genre in the 60s of the 20th century. The article mentions that the cantatas and oratorios of our composers in those years are distinguished by their contemporary themes and images. For our national authors, the cantata and oratorio genres are of great importance in the brighter expression of their creative imagination and ideas. Harmonic, melodic development, original orchestral sounding, choral and soloist parts guide the dramaturgical development in a complex manner in the colorfully imaginative cantatas and oratorios of our composers.

In the article, the uniqueness of the genre is determined on the example of the voluminous vocal-instrumental work of R.Mustafayev, J.Jahangirov, G.Garayev, R.Hajiyev, A.Malikov, N. Aliverdibeyov, N.Mammadov.

In conclusion, it is noted that our composers have brilliantly presented national style features in the genre of classical European music, using national scales and moments, examples of folk music, mugham elements in their works written in cantata and oratorio genres.

Key words: *genre, oratorio, cantata, characteristic features, national specificity*

TURAN ABBASZADƏ
turanabbaszade1994@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0002-8008-0751

ORDUBAD ŞƏHƏRININ REKONSTRUKSIYA XÜSUSIYYƏTLƏRI VƏ PROBLEMLƏRI

Naxçıvan Muxtar Respublikasının ikinci mühüm şəhəri olan Ordubad Ordubadçay dərəsinin yamacları boyunca yerləşir. Ordubaddan şimal-qərbdə, Kiçik Qafqaz dağlarında min ildən çox yaşı olan Gəmiqaya qayaüstü təsvirləri vardır. Vaxtilə İpək Yolu üzərində yerləşən, xüsusilə ipək və meyvə ticarətində mühüm əhəmiyyət kəsb edən şəhərin məhəllələri, dar küçələri, kəhrizləri, hamamları və məscidləri tarixi memarlıq qoruğunun bir hissəsidir. Qədim abidələr arasında 14-cü əsrə aid Buzxana, Qeysəriyyə binası (17-ci əsrə aid bazar, hazırda Tarix-diyarşünaslıq muzeyi) və 1604-cü ildə tikilmiş Cümə məscidi var. Görkəmli alim, akademik Yusif Məmmədəliyevin və yazıçı Məmməd Səid Ordubadinin ev-muzeyləri də şəhər ərazisində yerləşir.

Şəhər Azərbaycanın qədim yaşayış məskəni sayılır və keçmişlə müasirliyin vəhdətini özündə birləşdirir. Məlumdur ki, Ordubad 1977-ci ildə tarix-memarlıq qoruğu adını almışdır. Tarixi şəhər Ordubad günümüzdə diqqətdən kənarda qalmayaraq ölkə başçısı cənab İlham Əliyevin 21 fevral 2024-cü il tarixli sərəncamı ilə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdir.

Müasir dövrdə tarixi şəhərlərdə inşaat işlərinin aparılması problem yaradan məsələlərdəndir. Bu problem Ordubad şəhərində də aktualdır. Burada son illər ərzində tarix və mədəniyyət abidələrinin sürətlə dağıntılara məruz qalması tarixi şəhərin görkəmini tanınmaz dərəcədə dəyişmişdir. Məqalədə Ordubad şəhərində aparılan bərpa işləri nəticəsində memarlıq mühitinin məhv edilməsi haqqında qısa məlumat verilmişdir.

Açar sözlər: *Ordubad, şəhər, qədim, tikili, memarlıq*

Naxçıvan Muxtar Respublikasının tərkibinə daxil olan Ordubad bölgəsinin mərkəzi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən «Azərbaycanın incisi» kimi dəyərləndirilən Ordubad şəhəri Arazın sol sahilində, dəniz səviyyəsindən 950 metr yüksəklikdə yerləşir. Şimaldan Aşağı Əndəmic, qərbdən Dəstə, şərqdən Kotam kəndləri ilə qonşu olan Ordubad şəhəri cənubdan İran İslam Respublikası ilə həmsərhəddir. Mənbəyini uca dağlardan alan kiçik Dübəndi çayı şəhərin mərkəzindən keçərək onu iki hissəyə ayırır və axıb Araza qovuşur (Hacı Fəxrəddin Səfərli, 2009, s.18).

Tədqiqatçı Ə. Hüseyni "Naxçıvan zonasının yerlərinin adı" məqaləsində məlumat verir ki, Ordubad şəhəri qədim zamanlarda Ordubadçayın sağ sahilində kiçik bir qalanın ərazisində yerləşirdi. Həmin qalanın qalıqları dövrümüzə qədər gəlib çatmışdır. Həmçinin, tədqiqatçıya görə şəhər qədim zamanlarda "Ordubay – bəy qalası" adlanırdı. Daha sonralar "y" hərfi "d" ilə əvəz olunaraq "Ordubad" kimi tanınmağa başlanmışdır (Салаева Р. Д., 1989, s.6).

Dünyanın qədim insan məskənlərindən biri sayılan Ordubadın adına V əsrdəki yazılı mənbələrdə rast gəlinir. Qədim sivilizasiyanın nadir nümunələrindən sayılan Gəmiqaya qaya rəsmləri bu coğrafiyada - Ordubad ərazisindədir. Ərazidə təkcə Gəmiqaya kimi müqəddəs panteona deyil, həmçinin Sabir-Dizə yaxınlığındakı Plovdağ (e.ə IV-II minillik) adlanan ərazidən tapılan mədəniyyət nümunələri, müxtəlif formalı tikililər-yaşayış evləri, ibadətgahlar, qəbirlər, Sumbatan şəhərinin qalıqları (e.ə II minilliyin sonu – I minilliyin əvvəlləri), arxeoloq və tədqiqatçılar tərəfindən aşkarlanmış orta əsrlərə aid Gilan adlanan ərazidə qədim şəhər qalıqları və memarlıq abidələrinin xarabalıqları, Aza, Əylis şəhərlərində dövrümüzədək qalan memarlıq abidələrinin qalıqları Ordubad ərazisinin qədim tarixə malik olmasını təsdiq edir (Qənbərova G., 2015).

Keçmişdə, artıq qeyd edildiyi kimi, Ordubadçayın sağ sahilində saray kompleksi ilə birlikdə feodal hökmdarının qalası üstünlük təşkil edirdi. Şəhərin ən qədim, əhalinin isə ən sıx məskunlaşdığı yer hesab edilən bu hissəsi şəhərin ilk mərkəzi olmuşdur. Sonralar şəhərin mərkəzi Cümə məscidinin yerləşdiyi Ordubadçayın sol sahilinə köçürülüb. Şəhər dərə boyu zolaq şəklində uzanır və uzunluğu 3-4 km, kifayət qədər dar, cənubdan şimala bir kilometrdən çox olmayan bir ərazidə yerləşir (Сыcоев B.M., 1929).

1852-ci ilin "Qafqaz təqvimi"ndə Ordubad şəhəri haqqında yazılır:

"Şəhərin özündə və onun ətrafında XIV əsrə aid yazılar, yarıuçuq bina və hasarların torpaq divarları, geniş tikililərin möhkəm özülləri, bazarda isə bişmiş kərpicdən qotik üslubda inşa edilən beş karvansarayın qalıqları, eyni zamanda 1500 nəfər tutan baş məscidin giriş qapısı üzərindəki XVI əsrə aid yazı və nahayət, torpaq altında gizlədilmiş su kəmərlərindən zəif eşidilən suyun şırıltısı - bütün bunlar Ordubadın qədim şəhər olduğuna dəlalət edir və bu qənaətə gəlməyə əsas verir ki, hələ 150 il əvvəl burada 12 min ev mövcud olmuşdur" (Ə.S.Fərəcov, 2005, s.22).

"Tarixi şəhər" dedikdə, müəyyən dövr ərzində mühüm inkişaf mərhələləri keçmiş, abidələri, ansamblları və şəhərsalma kompleksləri olan, tarixi, bədii və şəhərsalma aspektlərinə görə qiymətli, təbii landşaftları, maraqlı qədim tarixi nümunələri olan şərti şəhər tipli yaşayış məntəqələri başa düşülür. Şəhər müasir sivilizasiyanın simvolu, onun təcəssümü və kütləvi yaşayış məntəqəsidir. Mövcud olduğu uzun müddət ərzində artıq tarixi şəhərlər cəmiyyətin öz yaşayış yerlərini yaratması və bu yerlərin yenidən qurulub, abadlaşdırılması mövzularından və xəritədə sadəcə coğrafi nöqtə, insanların yaşadığı ünvanlar toplusu olmaqdan çıxıb. Şəhər mühiti daha da inkişaf edərək müstəqil sosial sistemə çevrilmişdir. Şəhər müəyyən andan öz həyatına başlayan, orada yaşayan insanların dünyagörüşünü formalaşdıran müstəqil substansiyadır. Memarlıq nümunələri və tikililəri şəhər mühitinin əsas maddi hissəsidir, onun görünən skeletidir. Köhnə və yeni memarlıq üslublarının qarışığı müasir şəhərin mühüm tendensiyalarından biridir. Əsrlər boyu formalaşan şəhər, muncuq kimi, ardıcıl dövrlərin üslublarını və istiqamətlərini sonsuz bir zaman xəttinə bağlayır. Şəhərin "ruhunu" bina və evlərin fasadlarında, küçələrin düzülüşündə tapmaq olar.

Memarlıq zaman, məkan, istifadə olunan tikinti materialları, üsullar, vasitələr və ənənələr şəraitində uzun əsrlər boyu formalaşmış insan yaşayış mühitinin tərkib hissəsidir. Müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələrinin xüsusiyyətlərini daşıyan tarixi memarlıq tikililəri yerlərin fərdiliyini, özünəməxsusluğunu və şəhərlərin görkəmini müəyyən edir, mədəniyyətin inkişaf mərhələlərinin davamlı olmasına həlledici təsir göstərir. Şəhərin müasir memarlığında tarixi tikililərin öyrənilməsi, istifadəsi və çox olması milli kimliyin formalaşmasında mühüm amillərdən sayılmaqdadır. Azərbaycanın tarixi şəhərlərinin həm yerli vətəndaşlar, həm də dünya turistləri üçün cəlbediciliyi də məhz bundan ibarətdir. Tarixi memarlıq və şəhərsalma nümunələri vasitəsilə onlar yerli əhalinin mədəniyyətini və xarakterik xüsusiyyətlərini dərindən öyrənirlər.

İstismar zamanı tarixi obyektlərin istifadəsi ilə bağlı problemlər tamamilə utilitar şəkildə həll olunur. Məsələn, kosmetik təmir ucuz müasir tikinti materiallarından istifadə etməklə aparılır, müxtəlif həcmlər əlavə olunur, arakəsmələr quraşdırılır və ləğv edilir, açılışlar əlavə olunur və s. Bu isə öz növbəsində həm binaların özünün, bütövlükdə küçənin bədii obrazına, şəhər ansamblının formalaşmasına, həm də şəhərin tarixi görkəminə təsir edir. Eyni zamanda nəzərə alınmalıdır ki, insanın formalaşdırdığı mühit öz növbəsində insanın özünü formalaşdırmaqla yanaşı, onun maddi aləmi dərk etməsinə, memarlıq təfəkküründün inkişafına, həyat fəaliyyətinin kəmiyyət və keyfiyyət olaraq yüksəldilməsinə xidmət edir.

Bununla belə, əhəmiyyətli xronoloji yaş obyektləri sayılan tarixi tikililər tədricən funksional, struktur, gigiyenik tələbləri ödəmə imkanlarını dayandırır və aşınmalara məruz qalaraq bəzi xarici xüsusiyyətlərini itirir. Zaman keçdikcə bədii memarlıq elementləri (freskalar, rəsmlər, mozaika, stükko dekorasiyası), onların möhkəmliyi, dayanıqlılığı və etibarlılıq xüsusiyyətləri azalır. Nəticədə tikililər xarab olur və istifadəyə yararsız hala çevrilir, yenidənqurma işlərinin artıq mümkünsüz olduğu həddə yaxınlaşır.

Ordubadın tarixi simasını təşkil edən, tarixi-mədəni dəyəri olan, lakin heç bir mühafizə kateqoriyasına daxil olmayan bəzi tarixi tikililərin texniki vəziyyəti hazırda qənaətbəxş deyil. İqtisadi məqsədəuyğunluq nöqteyi-nəzərindən şəhərdəki tarixi obyektlərin yenidən qurulması, bərpası və möhkəmləndirilməsi tədbirləri, xüsusən də tikililərin həcm-fəza planlaşdırma həllərinin funksionallığı, rahatlığı və gigiyenasına dair artan müasir tələblər ciddi elmi yanaşmalar tələb edir. Xüsusilə mərkəzi hissədən radial istiqamətdə ayrılan əsas küçələrdə yerləşən tarixi tikililər nəzərə alınmaqla şəhərin qədim simasının qorunub saxlanılması baxımından strukturların yenidən qurulması, uyğunlaşdırılması və möhkəmləndirilməsi tədbirləri ilə bağlı qərarlar tarixi binaların gələcəkdəki dəyərini və şəhərin inkişafındakı rolunu müəyyən etməyə əsaslanmalıdır. Ona görə ki, mərkəzi küçələr şəhərin bütün inkişaf mərhələlərində formalaşmış memarlıq və şəhərsalmanın inkişafının mühüm göstəriciləridir. Şəhərin qədim simasının formalaşmasında tarixi obyektlərin əhəmiyyətini nəzərə alaraq onların müasir şəraitdə istifadəyə uyğunlaşdırılması layihələri həmin binaların memarlıq xüsusiyyətlərinin orijinallığını qorumağa çalışmalıdır. Bu zaman yalnız binaların fasadları qorunub saxlanıla, quruluşlar isə tamamilə müasirləri ilə əvəz edilə bilər. Yeni plan isə öz növbəsində müasir funksional məqsədlərə cavab verməlidir.

Əksər hallarda bir binanın yenidən qurulması zamanı, tarixi binadan yalnız fraqmentlərin qaldığı bir vəziyyətlə qarşılaşırıq. Bu problemlərin həlli mürəkkəb vəzifə olmaqla konstruktiv, hüquqi, memarlıq, tarixi, mədəni və şəhərsalma aspektlərinin öyrənilməsinə əsaslanmalıdır. Ordubad şəhərinin arxitekturasını və sosial infrastrukturunu təkmilləşdirmədən onun inkişafı haqqında nəsə demək doğru olmazdı. Bu isə təhlükəsizlik, səmərəlilik və gigiyena baxımından müasir tələblərə cavab verən yeni obyektlərin tikintisini tələb edir. Amma Ordubad şəhərinin tarixi memarlıq irsinin, onun qədim simasının qorunub saxlanmasının zəruriliyi də göz qabağındadır. Ona görə də bu gün şəhərin müasir memarlığında tarixi tikililərin qorunub saxlanılması və istifadəsi probleminin optimal həllinin tapılması xüsusi əhəmiyyət kəsb edir.

Ordubad şəhərində son 30 ildə müxtəlif sahələrdə quruculuq abadlaşdırma işləri aparılsa da, bəzi tarixi abidə və tikililərin bərpası və onların rekonstruksiyasına laqeyid münasibət göstərilmiş, onların tarixiliyinin və qədimliyinin izləri demək olar ki yoxa çıxmışdır. 1972-ci ildə Azərbaycanın məşhur roman yazıçısı Məmməd Səid Ordubadinin anadan olmasının 100 illiyinin qeyd edilməsi münasibətilə onun Ordubad şəhərinin qədim Mingis məhəlləsindəki ata evi muzeyə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev şəxsən həmin muzeydə olmuş və buranın daha maraqlı eksponatlar və maddi mədəniyyət nümunələri ilə zənginləşdirilməsi haqqında xüsusi tapşırıqlar vermişdir. Buna baxmayaraq 2009-cu ildə bu muzeyin fəaliyyət göstərdiyi bina əsaslı təmir adı ilə bütövlükdə sökülmüş və içəridəki bəzi maddi-mədəniyyət nümunələri məhv edilmişdir. Əvəzində isə evin əvvəlki memarlığı ilə əlaqəsi olmayan bina tikilərək muzey kimi istifadəyə verilmişdir. Həmin muzeyin yaxınlığındakı ərazidə XIX əsrə aid tarixi abidə - qədim hamam yerləşir. Sözügedən bina yenə eyni taleyi yaşayaraq əsaslı təmir adı altında dağıdılmış, bərpadan sonrakı vəziyyətində isə tarixilik göstəriciləri yox olmuşdur.

Məhəmməd Tağı Sidqinin ev-muzeyi Ordubadın qədim məhəlləsi olan Mingis məhəlləsində yerləşərək hazırda muzey kimi fəaliyyət göstərir. Muzeyin tikildiyi ərazi əvvəllər qədim məscidin yerləşdiyi sahə olmuşdur. Sakinlərin verdiyi məlumatlardan aydın olur ki, Məhəmməd Tağı Sidqi Təbriz küçəsi 27 nömrəli ünvanda yaşamışdır. Burada yerləşən tarixi tikililər məhv edildikdən sonra Məhəmməd Tağı Sidqinin ev-muzeyi tamamilə fərqli memarlıq üslubunda indiki yerində inşa edilmiş və eynitipli layihə digər rayonlarda tikilərək fərqli məqsədlər üçün istifadəyə verilmişdir.

Şəhərin ictimai mərkəzində yerləşən və Ordubadın simvolu sayılan memarlıq abidələrindən biri də tarixi Cümə məscididir. 2020-ci ildə məsciddə təmir-bərpa işlərinə başlanılıb. XVII-XVIII əsrə aid olan məscidin interyerindəki tarixi cizgilərin demək olar ki hamısı bərpa zamanı çapılaraq məhv edilmişdir. Binaya xüsusi gözəllik və rəngarənglik verən, onun fasadını zənginləşdirən həndəsi şəbəkə naxışları ilə bəzədilən pəncərələr sökülüb çıxarılmış, əvəzində isə müasir görünüşlü metal materiallardan hazırlanan pəncərələr qoyulmuşdur. Təmir-bərpa zamanı tikilinin ətrafındakı çoxillik ağaclar və yeni əkilmiş tinglər kəsilmişdir. Məscidin cənub-qərbə yönəlmiş hissəsində şəhər

əhalisinin istirahəti və isti yay aylarında günəşin qızmar şüalarından qorunması üçün irigövdəli çinar ağacları altında meydançalar salınmışdır. Bu kiçikölçülü sahələrdə dekorativ meşə ağaclarının əkilməsi nəzərdə tutulmuşdur.

Cümə məscidinə yaxın ərazidə yerləşən və XVII əsrə aid olan Qeysəriyyə binası hazırda tarix diyarşünaslıq muzeyi kimi fəaliyyət göstərir. Binada 2010-cu ildə aparılan təmir və bərpa işləri zamanı tikilinin daxilində və fasadında tarixən mövcud olan kompozisiyalar itirilmiş, eksteryerin bərpasında isə binanın tarixi ilə əlaqəsi olmayan mozaikalardan istifadə olunmuşdur.

Abidələr diyarı Ordubadın qədimliyini sübut edən tikililər siyahısında ilk yerlərdən birini də Cümə məscidinin təxminən 100 metr şimalında yerləşən Mədrəsə binası tutur. XX əsrin əvvəllərinə qədər həmin bina ali dini təhsil müəssisəsi olaraq fəaliyyət göstərmişdir. Yaxınlıqda yerləşən Rabitə Evinin tikintisi zamanı həmin tarixi binanın müəyyən bir hissəsinə ziyan dəymişdir. Əhalinin etirazına səbəb olan bu hadisədən sonra söküntü işləri dayandırılmışdır. Buna baxmayaraq hazırda Mədrəsənin iki tağı uçmuş vəziyyətdədir.

Sovet hakimiyyətinin qanlı izlərindən olan 20 Yanvar hadisəsi zamanı xüsusi qəhrəmanlıqla şəhid olan Rahim Vaqif oğlu Babayevin adının verildiyi Ordubad şəhər 2 nömrəli orta məktəb 1957-ci ildə inşa edilmişdir. 2000-ci ildə fəaliyyəti naməlum səbəbdən dayandırılan məktəb binası 18 il müddətində yararsız və istifadəsiz qalmış, daha sonra isə bina tamamilə sökülmüşdür. Hazırda Ordubad şəhərində sözügedən məktəb binasının fəaliyyət göstərməməsi ətrafdakı yaşayış massivlərində orta təhsil alan şagirdlərin uzun məsafələr qət edərək 1 və 3 nömrəli orta məktəblərdə təhsillərini davam etdirmələrinə səbəb olmuşdur. Bu xüsusilə payız və qış aylarında şagirdlərin çətinliklərlə üzləşməsinə şərait yaradır. Halbuki bu təhsil ocağı binasının təmiri və yenidən istifadəyə verilməsi kiçik maliyyə vəsaiti hesabına mümkün idi.

Ümummilli lider Heydər Əliyevin 1980-ci ilin may ayında Ordubada səfəri müddətində xalqla görüşü baş tutmuş və şəhər sakinlərinə burada yeni Konserv zavodun tikintisinə başlanacağı barədə məlumat vermişdir. Ona görə ki, vaxtilə Ordubad Konserv zavodunda istehsal olunan məhsullar Kaliforniya və Venesiyada baş tutan müsabiqələrdə uğur qazanmışdır. Ulu Öndərin təşəbbüsü ilə yeni inşa olunacaq Konserv zavodu Şəhriyar qəsəbəsində altı hektar ərazini əhatə etməli idi. Yeni zavod binası müəyyən vaxt ərzində tikilmiş və ötən əsrin 90-cı illərinə yaxın zamanlarda bütövlükdə istifadə üçün yararlı vəziyyətə gətirilmişdi. Burada konserv məhsullarının istehsal edilməsi üçün hər cür şərait yaradılmışdı. Zavod istifadəyə verilmədən son 30 il ərzində dağıdılaraq məhv edilmişdir. Əlbətdə ki, bu laqeyid münasibət Ordubadın ən böyük sənaye potensialına vurulan zərbədir.

Ordubad şəhərinin rekonstruksiya xüsusiyyətləri və problemləri istiqamətində aparılmış təhlillər aşağıdakı fikirləri söyləməyə imkan verir:

1. Şəhərin bədii-memarlıq görkəminin qorunub saxlanılması və yeni memarlıq ansambllarının formalaşdırılması məqsədilə onun yenidənqurulması layihələri hazırlanarkən şəhərin mövcud memarlıq simasının qorunub saxlanılmasının zəruriliyi;

2. Ordubadın bundan sonrakı şəhərsalma prosesini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi zərurəti.

Tarixən inkişaf etmiş binaların yenidən qurulması zamanı müəyyən edilmiş memarlıq və şəhərsalma problemlərinin həlli üçün təklif olunan şərtlər şəhərin memarlıq ifadəliliyini yaratmaq və bərpa etmək, Azərbaycanın tarixi şəhərlərindən biri olan Ordubadın mədəni irsini qorumaq məqsədi daşıyır.

Cəmiyyətin müasir inkişaf mərhələsində tarixi şəhərlərin qorunması problemi xüsusi aktuallıq kəsb edir. Qədim tikililərin qorunub saxlanılması məsələsinə lazımi diqqətin yetirilməməsi insan həyatının həm maddi, həm də mənəvi sferasına mənfi təsir göstərəcəkdir. Bu səbəbdən tarixi şəhərlərin və onların memarlıq mühitinin mühafizə edilməsi müasir cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Şəhərin tarixi mərkəzində siyasi, iqtisadi və sosial həyatın cəmləşməsi onu maliyyə maraqları üçün daha cəlbedici edir. Son 30 il ərzində Naxçıvan memarlıq məktəbi öz səylərini məhz Ordubadın

tarixi mərkəzində cəmləyir. Şəhərin mədəni və tarixi irsini qorumaq üçün hakimiyyət orqanlarının, memarların, dizaynerlərin və ictimaiyyətin səylərinin birləşdirilməsinə ehtiyac duyulur.

ƏDƏBİYYAT

1. Ə.S.Fərəcov. Ordubad, QAPP-POLİQRAF, 2005, 156 s.
2. Hacı Fəxrəddin Səfərli. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: 2009, "MBM" mətbəəsi, 191 s.
3. Qənbərova G. Ordubad şəhər məhəllələrinin memarlığı. Naxçıvan Dövlət Universiteti Elmi əsərlər N5(70) Naxçıvan: 2015, 210 s.
4. Салаева Р. Д. ОРДУБАД-истоки и формирование. Баку: 1989, Элм, 113 с.
5. Сысоев В. М. Нахичевань на Араксе и древность Нах. АССР.— Изв. Азкомстарис. Баку: 1929. вып. 4

SUMMARY

Turan Abbaszade

CHARACTERISTICS AND PROBLEMS OF RECONSTRUCTION OF ORDUBAD CITY

Ordubad, the second most important city of Nakhchivan Autonomous Republic, is located along the slopes of the Ordubadchay valley. To the northwest of Ordubad, in the Lesser Caucasus mountains, there are Gamigaya petroglyphs, which are more than a thousand years old. The neighborhoods, narrow streets, kahriz, baths and mosques of the city, located on the Silk Road and especially important in silk and fruit trade, are part of the historical architectural reserve. Among the ancient monuments are the 14th-century Buzkhana, the Caesarea building (the 17th-century bazaar, now a museum of history and geography) and the Juma Mosque, built in 1604. The house-museums of prominent scientist, academician Yusif Mammadaliyev and writer Mammad Said Ordubadi are also located in the city.

The city is considered the oldest settlement of Azerbaijan and combines the past with the modern. It is known that Ordubad was named a historical-architectural reserve in 1977. The historical city of Ordubad has not been ignored today and was declared the "Ordubad" State Historical and Cultural Reserve by the order of the head of the country Mr. Ilham Aliyev dated February 21, 2024.

Construction work in historical cities is one of the problematic issues in modern times. This problem is relevant in the city of Ordubad. In recent years, the historical and cultural monuments have been rapidly destroyed here, and the appearance of the historical city has changed beyond recognition. The article provides brief information about the destruction of the architectural environment as a result of restoration works in the city of Ordubad.

Key words: *Ordubad, city, ancient, building, architecture*

AYİŞƏ ZEYNALOVA
aysezeynalova182@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-7369-6234

GÖRKƏMLİ AZƏRBAYCAN BƏSTƏKARI TOFİQ QULİYEVİN YARADICILIĞINDA MİLLİ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Təqdim olunan məqalədə görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin əsərlərində milli üslub xüsusiyyətləri araşdırılır. Milli üslubun vurğulanması xalq musiqisi və folklor nümunələrindən istifadə olunmaqla müəyyən edilir. Azərbaycan bəstəkarlarının əsərlərində də xalq musiqisi, milli lad-məqam əsası, muğamlardan bəhrələnmək nəticəsində həm dərin ideya məzmununa malik əsərlər külliyyatı yaranmış, həm də bu vasitə ilə milli üslub özünü göstərmişdir.

T.Quliyev Azərbaycan musiqi mədəniyyəti tarixində əhəmiyyətli əsərlərin müəllifi olub, daha çox vokal janrın inkişafında mühüm rol oynayan əsərlər məcmusunun yaradıcısıdır. Onun bəstəkarlıq üslubu, malik olduğu özünəməxsus ifadə imkanları yazdığı əsərlərdə maraqlı süjet xəttinin formalaşması, mahnılarında ecazkar duyğu selinin ortaya çıxması ilə nəticələnib. Bəstəkarın bütün janrlarda yazdığı əsərlər zərif, eyni zamanda emosional obraz dairəsinə malikdir. Onun mahnıları ruh oxşayan melodiyası və dərin məzmunlu sözləri ilə qısa zamanda xalq arasında məşhurluq qazanmışdır. Müvəffəqiyyətin ən başlıca səbəbi isə mahnılarda hekayətçilik imkanlarının genişliyi, onların xəlqi mahiyyətə malik olmağıdır. Bu isə bir çox halda milli lad-məqam əsası ilə izah olunur ki, bəstəkar buna xalq musiqisi intonasiyaları, muğam elementlərindən istifadə etməklə, mahnılarının əsasına milli lad-məqam ünsürlərini yerləşdirməklə nail olur. Xalq musiqisinin əsasları ilə əlaqədar bilikləri böyük ustad Ü.Hacıbəylidən mənimsəməsi və bir tədqiqatçı olaraq topladığı xalq mahnı və rəqslərinin nərşlərdə öz əksini tapması da əhəmiyyətli yaradıcılıq fəaliyyətlərindən biridir. Xalq musiqisi sahəsində T.Quliyevin apardığı yaradıcılıq axtarışları onun bu musiqini incəliklərinə qədər mənimsəməsi ilə nəticələnmişdir ki, bütün bunlar da bəstəkar yaradıcılığında milli üslubun ortaya çıxmasına bir vasitə olmuşdur.

Məqalədə T.Quliyevin müxtəlif dövrlərdə yazdığı ayrı-ayrı əsərlər nəzərdən keçirilir, onlarda xalq musiqisi və muğam incəliklərinin işlənməsi probleminə toxunulur. Müasir milli estradanın formalaşmasında əhəmiyyətli rol oynayan T.Quliyevin mahnılarında caz, estrada musiqisi ilə xalq musiqisi intonasiyaları üzvi şəkildə qovuşdurulub. Bu onun mahnıları və ya hər hansı bir janrda yazdığı əsərində müasirliklə ənənəviliyin qovşağını yaradıb və onun əsərlərinin xəlqi mahiyyətini ortaya qoyub. Bədii yaradıcılıqda milli üslubun təzahürü sənətkarın fərdi bəstəkarlıq üslubunun nailiyyətidir. T.Quliyevin də əsərlərində milli üslubun vurğulanması onun bəstəkarlıq imkanlarının genişliyindən, fərdi yaradıcılıq üslubunun orijinallığından xəbər verir. Bütün bunlar T.Quliyevin yaradıcılığının unikallığını bir daha sübut edərək onun milli musiqi mədəniyyətində yerini müəyyənləşdirir.

Açar sözlər: *Milli, üslub, musiqi, bəstəkar, yaradıcılıq*

Milli üslub xüsusiyyətlərinin təzahürü bəstəkarın yaradıcılığının mahiyyətinin aşkarlanmasında mühüm əhəmiyyət daşıyaraq, bəstəkarlıq təxəyyülünün sərhədlərini üzə çıxarır. Bu, eyni zamanda yaradıcı insanın milli mənsubiyyətinin musiqili təfsirlərdə ifadə olunması, öz xalqına mənsub mədəni dəyərlərin bədii yaradıcılıqda təcəssüm olunması deməkdir.

Bəstəkar yaradıcılığında milli üslub xüsusiyyətlərinin təzahürü onun folklora, xalq musiqisi ünsürlərinə münasibəti və bu zəngin mənbədən bədii yaradıcılıqda istifadə etməyi ilə müəyyənləşir. Musiqi mədəniyyəti tarixində elə bir bəstəkar yoxdur ki, bu və ya digər mənada mütləq şəkildə xalq musiqisi, folklor nümunələrindən istifadə etməmiş olsun, hətta bir çox bəstəkar sadəcə öz xalqlarının deyil, digər xalqların da xalq musiqisi ünsürlərindən mütləq şəkildə faydalanır. Avropa və ya rus

bəstəkarlarının əsərlərində Şərq motivlərinin təzahürü isə incəsənətdə oriyentalizm olaraq dəyərləndirilir ki, bu istiqamətdən çıxış edən bəstəkarlar da Şərq dünyasının eqzotik gözəllikəri, onun təbiətinə xas xüsusiyyətləri və ya şərqli obrazı canlandırmaq üçün bu vasitədən faydalanır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında milli üslubun təzahürü ənənəvi olaraq milli kimliyin vurğulanması və bir xalqın malik olduğu ən qədim mədəni dəyərlərin bədii yaradıcılıqda təcəssüm etdirilməsi istəyindən irəli gələrək, Ü.Hacıbəyli tərəfindən formalaşdırılan və zamanla daha da inkişaf edərək öz müasir simasına qovuşan milli bəstəkarlıq məktəbinin hər bir nümayəndəsinin yaradıcılığında böyük ölçüdə özünü hiss etdirir. Azərbaycan bəstəkarlarının əsərlərində milli üslub xüsusiyyətləri xalq musiqisi, mahnı və rəqslər, folklor nümunələri, ən başlıcası isə muğam sənətindən bədii yaradıcılıqda faydalanmaq nəticəsində mümkün olmuşdur. Azərbaycan milli musiqi mədəniyyəti tarixində özünəməxsus yaradıcılıq irsinə malik olan görkəmli bəstəkar T.Quliyev də xalq musiqisi ünsürləri və muğam sənətinin özünəməxsus qanunauyğunluqlarını əsərlərində yalnız fərdi bəstəkarlıq təxəyyülü ilə işləyərək, yaradıcılığında milli üslubu ortaya qoymuşdur. T.Quliyevin musiqisi üçün xalq musiqisi, muğam sənəti ilə müasir musiqinin estrada janrı, hətta caz sənətinin elementlərinin sintezi səciyyəvidir. Təsadüfi deyil ki, bəstəkarın xüsusilə mahnı yaradıcılığını bu baxımdan qiymətləndirən Z.Abdullayeva yazır: "Xalq musiqisi, kütləvi mahnı ənənələri estrada və cazın sintezindən yaranmış vokal əsərlərilə T.Quliyev milli mahnı üslubunun səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmiş və bu janrda yeni bir məktəb yaratmışdır" (Səfərova, 2018: s.361).

T.Quliyevin bəstəkar təxəyyülündə xalq musiqisinə yaradıcı münasibət, xalq musiqisi və onun əsaslarını öyrənmək, dərindən mənimsəmək nəticəsində formalaşmışdır. Konservatoriyada oxuduğu illərdə xalq musiqisi nümunələrinin toplanması işində yaxından iştirak edən bəstəkar üçün bu zəngin mənbə əsl yaradıcılıq məhsulu idi. T.Quliyev Bülbülün rəhbərlik etdiyi Elmi-Tədqiqat Musiqi Kabinəsinin təşkil etdiyi ekspedisiyalarda Q.Qarayev. F.Əmirov, Z.Bağırov, Niyazi kimi milli musiqinin korifeyləri ilə birgə müxtəlif bölgələrə səyahət edərək, burada xalq musiqisi, muğamları nota köçürmüşdür. T.Quliyevin əsərlərində, xüsusilə mahnı yaradıcılığında xalq musiqisinin ahəngi ilə estrada musiqisinin sintezi nəticəsində xalq tərəfindən qısa zamanda sevilərək, dillər əzbərinə çevrilən onlarla mahnı meydana gəlmişdir. Təsadüfi deyil ki, o, bu ekspedisiyalarda nota köçürdüyü "Evləri var xana-xana" və "Qoy gülüm gəlsin" xalq mahnılarını sonralar simfonik orkestr üçün işləmişdir. T.Quliyev 1935-ci ildə Mirzə Mansur Mansurovun ifasında səslənən "Rast" və "Segah-Zabul" muğamlarını da nota almışdır. Daha sonra isə o, Z.Bağırovun nota aldığı "Dügah" muğamını fortepianoda ifa edərək, milli ifaçılıq sənətində yeni başlanğıclara imza atan sənətkarlardan biri olmuşdur. Bütün bunlar bəstəkarın xalq musiqisi, muğam sənətinə münasibətini izha edərək, fərdi yaradıcılığında milli üslubun mahiyyətini ortaya qoyur.

Tofiq Quliyev milli musiqi mədəniyyəti tarixinə gözəl melodiyaya, söz ilə musiqinin incə ahənginə əsaslanan mahnılar müəllifi kimi düşsə də onun müxtəlif janrda yazmış olduğu əsərlərində xalq musiqisi, mahnı və rəqslərin özünəməxsus intonasiyaları ilə zəngin obrazlar əhatəsi yaradılmış, xalq musiqisi ilə estrada və caz sənətinin elementləri üzvi şəkildə bir-birinə qovuşmuşdur. T.Quliyevin musiqili komediyalarında da bu özünü böyük ölçüdə hiss etdirir. Bəstəkarın musiqili komediyalarında bu sintezin əhəmiyyətini qeyd edən Z.Abdullayeva yazır: "Tofiq Quliyevin operettalannın musiqisi koloritinə görə ifadəlidir, milli ritm və melodiyası ilə zəngindir, müasir caz, estrada elementləri ilə xalq musiqisinin üzvi surətdə birləşməsinin parlaq nümunəsidir" (Səfərova, 2018: s.386).

T.Quliyev "Aktrisa", "Qızılaxtaranlar", "Sənin bircə sözüm", "Tahirin süqutu" və "Sabahın xeyir, Ella" kimi beş operettra müəllifidir. Obrazların fərdi xasiyyətnaməsini hərtərəfli inkişaf etmək üçün bəstəkar operettalarında xalq musiqisi, mahnı və rəqslərindən də faydalanmışdır. O, solo, xor, ansambl nömrələrində milli xüsusiyyətləri bu vasitə ilə diqqətə çatdırmışdır. T.Quliyev operettalarında qəhrəmanlarının ziddiyyətli mənəvi dünyalarını ifadə etmək, fəqli psixoloji vəziyyətləri yaratmaq üçün xalq musiqisi və muğam elementlərini musiqi nömrələrinin əsasına keçirir və bu vasitə ilə obrazların çoxtərəfli inkişafına nail olur. Onun "Qızılaxtaranlar" musiqili komediyasının qəhrəmanlarından olan Pərvanənin xarakterinin təsvirini verən III pərdədən

ariozasının xalq üslubu bu mənada maraqlıdır. Əsərdə lirik xəttin inkişaf etdirən Töhfə və Şakirin ansambl nömrələri xalq rəqsinin zərif melodiyaları ilə işlənir. Onların iştirak etdiyi kvintetdə isə bəstəkar "Ninni" xalq mahnısının melodiyasında istifadə edir. Bu qəhrəmanların II və III pərdədə səslənən duetlərində muğam elementləri, xalq rəqslərinin intonasiyaları mövcuddur. Digər tərəfdən Şakir obrazını dolğun səciyyələndirən "Süfrə manısı"nda isə "Brilyant" xalq rəqsinin ritmik cəhətləri hiss olunmaqdadır.

"Qızılaxtaranlar" operettasının istər mənfi, istərsə də müsbət obrazlar sferası xalq musiqisinin özünəməxsus intonasiya cəhətləri ilə daha dəqiq təsvir olunmuşlar. Rəxşəndə və Xədicənin I pərdədən olan duetində "Hüsnu bağında" xalq mahnısı, mənfi qəhrəmanlardan olan Mirismayılın təsvirində "Çahargah" məqamı vasitəsilə yumorlu, satirik cizgiləri ortaya qoyan bəstəkar xalq musiqisindən istənilən emosional halın təcəssümündə zəngin mənbə kimi faydalanmışdır. O, kütləvi mahnılarda da bu istiqamətdən çıxış edərək final xorunda "Rast" və "Şur" məqamlarının intonasiya xüsusiyyətlərinə üz tutmuşdur.

Bəstəkarın kino musiqisində ekranda cərəyan edən hadisələrin emosionallığı, dramaturji inkişafın kulminasiyası təmin olunur. Bu musiqi sadəcə fon rolunda çıxış etmir, eyni zamanda hadisələrin bir parçasına çevrilir. T.Quliyev "Səbuhi", "Görüş", "Ögey ana", "Bəxtiyar", "Onu bağışlamaq olarmı?", "Telefonçu qız", "Möcüzələr adası", "Nəsimi", "Qaynana" və s. filmlərinə fərdi bəstəkarlıq üslubunun ən gözəl nailiyyətlərini təcəssüm etdirən parlaq melodiyalar bəstələmişdir. Onun kino musiqisinin bir çox nömrələri vokal janrın gözəl nümunələri kimi qısa zamanda xalq tərəfindən sevilmişdir. Bunu ilk başda T.Quliyevin bəstəkarlıq məharəti, digər tərəfdən həmin nömrələrdə xalq musiqisi, mahnı və rəqs elementlərinin zənginliyi təmin edir. Bununla yanaşı bəstəkar milli folklora aid sənət nümunələrini də film musiqisinə gətirir və "Nəsimi" filminə yazdığı musiqdə dərviş obrazını ifadə etmək üçün bu istiqamətdən çıxış edir. Bu haqda Z.Abdullayeva qeyd edir: "Yeni ifadə vasitələrinin daim axtarışında olan Tofiq Quliyev burada da folklor nümunələrindən ustalıqla istifadə etmişdir. Belə ki, filmdə dərvişlərin yığıncağı səhnəsinə meyxana janrı daxil edən bəstəkar, obrazın emosional, fərdi təsvirinə nail ola bilmişdir. Filmin musiqisi zəngin, parlaq çalarlarla dolu melodiyası, məqam-intonasiya, ritmik xüsusiyyətləri ilə cəlb edir. Təzadlı obrazlar mühitinin qarşıdurması əksərən tembr xüsusiyyətləri vasitəsilə əldə olunur". [Səfərova, 2018: 402] Qeyd etmək lazımdır ki, T.Quliyev "Dərviş Parisi partladır" filminə yazdığı musiqidə də bu vasitəyə müraciət edir. Lakin bu zaman o, dərvişlərə məxsus fəlsəfi baxışları deyil, komik ştrixləri canlandırmağa çalışır. Buna da yenə meyxana janrının orijinal xüsusiyyətləri vasitəsilə nail olur. Filmdə hadisələrin Qarabağda, muğam sənətinin bu qədim ocağında cərəyan etməsi də musiqi baxımdan orijinal şəkildə öz həllini tapmışdır. Bütün hadisələri müşayiət edən musiqidə milli ruhun ifadə olunması bəstəkar yaradıcılığında fərdi üslub xüsusiyyətlərinin mükəmməlliyini bir daha diqqətə çatdırır.

T.Quliyevin yaradıcılığında fortepiano musiqisi əhəmiyyətli yerlərdən birini tutur. Onun "15 Azərbaycan xalq rəqsləri işləmələri" buna ən bariz nümunədir. Hamofon ifadə tərzinə malik olan birsəsli xalq rəqslərini polifonik üslubla işləyən bəstəkar həmin işləmələrdə maraqlı üslub xüsusiyyətləri təqdim etmişdir. Bu cəhət milli fortepiano ifaçılığı üslubunun əsasını da yaratmışdır.Belə ki, rəqs melodiyalarının işlənməsi sırf instrumental musiqinin (konsert, sonata, simfoniya, ballada və s.) bünövrəsini qoymuş oldu. Azərbaycan musiqisində milli və Avropa musiqisinin sintezləşməsi ilk öncə fortepiano işləmələri ilə əlaqədardır (Абдуллаева, 1992: s.36). T.Quliyevin fortepiano musiqisi palitrasında parlaqlığı ilə diqqət çəkən "Qaytağı" pyesi hər bir ifaçının repertuarına daxil edilən maraqlı əsərdir. Məhz xalq rəqsinin özünəməxsus intonasiya cəhətlərinin pyesdə işlənməsi əsərdə lakonik ifadə tərzi ilə unikal dramaturgiya qurulmasına imknan yaratmışdır.

T.Quliyevin "Cəmilənin albomu" fortepiano məcmuəsinə daxil olan pyeslər arasında "Rəqs" milli ruhu ilə yadda qalan əsərlərdən biridir. Burada xalq rəslərinin səciyyəvi xüsusiyyətlərini klassik formaya tabe etdirən bəstəkar lakonik ifadə tərzi ilə maraqlı, eyni zamanda uşaq psixologiyasını təcəssüm etdirən obraz yaratmışdır.

T.Quliyevin vokal janrında yazdığı əsərlər həm müasir musiqinin incəliklərini, həm də xalq musiqisinin özünəməxsus orijinallığını özündə ifadə edir. Azərbaycan bəstəkarları arasında vokal janra bu qədər diqqətlə yanaşan və melodik gözəlliklərə malik onlarla mahnı yazan ikinci bir bəstəkar demək olar ki, yoxdur. Məhz T.Quliyev bu janrda yazmış olduğu əsərlərində özünün kamil ustalığını, səmimi hisslərini, insan mənəviyyatının ziddiyyətli tərəflərini, məhəbbətin ülviliyini, vətən təbiətinin gözəlliklərini tərənnüm etməyi bacarmışdır. T.Quliyevin vokal janrında yazdığı əsərlərində təcəssüm etdirdiyi fərdi yaradıcılıq imkanları ənənəyə çevrilmişdir. Bu ənənə S.Qasımova tərəfindən belə qiymətləndirilir: "Bəstəkarın mahnılarının fərqləndirici xüsusiyyəti onların ifadəsinin səmimiliyində, melosundadır. Təsadüfi deyildir ki, T.Quliyevin əldə etdiyi yaradıcılıq nailiyyətləri bir ənənəyə çevrilmişdir. Sonrakı nəslin mahnı yazan bəstəkarları bu ənənəyə əsaslanırlar" (Qasımova, Bağırov, 1984: s.37).

T.Quliyevin bir çox filmə yazdığı mahnılar da vokal sənətinin ən gözəl nümunələri kimi səciyyələnir. Bu əsərlər müasir günümüzdə hər bir vokal ustasının repertuarına böyük ehtiram hissi ilə daxil olduğu kimi instrumental ifaçılıqda da əhəmiyyətli musiqi nömrələri kimi qiymətləndirilir. Təsadüfi deyil ki, fortepiano ifaçılarından olan Ç.Sadıxov T.Quliyevin mahnılarının instrumental versiyalarının ən mahir ifaçılarından biridir. T.Quliyevin mahnılarının özünəməxsusluğu onlarda xalq musiqisi intonasiyaları və muğam elementlərinin estrada və caz musiqisi ilə uzlaşdırılması ilə izah olunur. Bu mahnılarda xalq mahnıları və rəqslərinin, muğamın qeyri-adi və ecazkar tərzdə işlənməsi ilk xanələrdən etibarən özünü büruzə verir ki, bu da vokal janrında milli üslub xüsusiyyətlərinin təzahürüdür. T. Quliyev mahnılarında mətnin seçilməsinə diqqətlə yanaşır. O, kompozisiyanı elə qurur ki, musiqi ilə sözlər bir vəhdət təşkil edərək hekayə nəql etsin. Bu hekayətdə isə milli musiqinin incə təravəti, parlaq obrazlılığı, zərif intonasiyaları böyük ölçüdə yer alır. Onun "Axşam mahnısı", "Qızıl üzük", "Qəmgin mahnı", "Bahar nəğməsi", "Arzular", "Sənə də qalmaz", "Mən sənin, sən mənim", "İlk bahar", "Məhəbbət valsı" mahnılarının hər biri öz-özlüyündə poetik löfhədir. T.Quliyevin daha çox məşhur olan "Sənə də qalmaz" mahnısı özündə muğamlara xas olan inkişaf xüsusiyyətlərini daşıyır ki, bu başlanğıc fortepiano müqəddiməsinin ilk iki xanəsindən etibarən özünü hiss etdirir. Mahnda modulyasiya imkanları ilə bir muğamdan digərinə keçidlər edilir. Bu kulminasiya anında daha qabarıqdır. Kulminasiya "Yalqızam, yalqız" ifadəsinə düşür ki, burada da "Müxalif"dən "Segah" ladına keçid verilir. Bütün inkişafı emosional, ekspressiv xətti davam etdirir, milli muğamlara bəstəkarın incə yanaşması mahnının melodiyasında zəngin nüansların ortaya çıxmasını yetişdirir.

T.Quliyevin Bakının gözəlliklərini, doğmalığını ifadə edən "Bakı haqqında mahnı" əsərində isə aşıq üslubu, folklorun ən qədim janrlarından olan aşıq yaradıcılığının elementləri var. Mahnın əsasını təşkil edən 6/8 metrik ölçüsü isə xalq rəqslərindən gələn bir cəhətdir. Xalq rəqslərində çox təsadüf edilən bu ölçü vahidi mahnıda milli elementləri bir daha qabardır. Mahnıda "Bayatı-Şiraz" məqamının intonasiyalarının mövcudluğu da bu fikrin əyani sübutudur. Lakin lad-məqam əsasına T.Quliyev öz yaradıcılıq konsepsiyasından yanaşır və müxtəlif mayələrə keçidlər verir. Bu emosional gözəlliyi bir qədər də dərinləşdirir. "Görüş" kinofilmində də səslənən "Arzular" mahnısında isə lirik əhval ruhiyyə "Bayatı-Şiraz" ilə "Segah" məqamlarının qarşılıqlı əlaqəsi əsasında formalaşır.

T.Quliyev qəzəl-romanslarında Ü.Hacıbəyli ənənələrini davam etdirir. Onun Ə.Xəqaninin sözlərinə yazdığı "Bəxtəvar oldum" əsərində milli üslub xüsusiyyətləri lad-məqam əsası ilə müəyyən olunur, bu ifadə tərzi öz başlanğıcını fortepiano müşayiətinin instrumental girişindən götürür. Burada "Çahargah" məqamının intonasiyaları işlənilir. Vokal partiyasının başlanğıcında ortaya çıxan ritmik ifadə isə xalq çalğı alətlərinin səslənməsinə yaxın fiqur cizir. Bütün bunlar T.Quliyev yaradıcılığında xalq musiqisi incəliklərinə zövqlə yanaşmaq nəticəsində əldə olunur.

Nəticə olaraq deyə bilərik ki, T.Quliyevin yaradıcılığının əsas istiqamətlərindən biri bədii sənət nümunələrində xalq musiqisi, mahnı və rəqslər, muğam intonasiyalarından fərdi yaradıcılıq üslubunun imkanları ilə istifadə etməklə orijinal əsərlər məcmusu yaratmaq və bəstəkarlıq üslubunun gözəlliklərini dinləyicilərə təqdim etməkdir. Bir çox halda xalq ruhuna yaxın melodik zənginliklərə nail olmaqla özünü ifadə edir. T.Quliyev müxtəlif janrlarda yazdığı əsərlərində milli üslubu miilli

kimliyinin təsqidləyicisi kimi təqdim edir. Bu isə yalnız xalq musiqisi, mahnı, rəqslər, muğam elementlərinin musiqili təfsirlərdə yüksək bədii zövqlə işlənməsi nəticəsində mümkün olur ki, T.Quliyev də fərdi dəst-xəttində bu mükəmməlliyi əldə edərək ecazkar, lirik təxəyyüllü, zərif əsərlər yaradan sənətkarlardan biri kimi milli musiqi mədəniyyəti tarixinə düşmüşdür.

ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. (Red. Z.Səfərova) III cild. Bakı: 2018
2. Абдуллаева З.К. Азербайджанские народные мелодии (в записи и фортепианно обработке). Баку: 1992
3. Qasımova S., Bağırov N. “Azərbaycan sovet musiqi ədəbiyyatı”. Bakı: 1984

SUMMARY

Ayisha Zeynalova

CHARACTERISTICS OF THE NATIONAL STYLE IN THE CREATION OF THE GREAT AZERBAIJAN COMPOSER TOFIG GULIYEV

The presented article examines the features of the national style in the works of the outstanding Azerbaijani composer Tofig Guliyev. Emphasis on the national style is determined by using examples of folk music and folklore. In the works of Azerbaijani composers, as a result of benefiting from folk music, national lad-maqam base, and mughams, a collection of works with deep ideological content was created, and the national style showed itself through this tool.

T.Guliyev was the author of important works in the history of national music culture, and he is the creator of a collection of works that played an important role in the development of the vocal genre. His compositional style, his unique expressive possibilities resulted in the formation of an interesting plot line in the works he wrote, and the emergence of a flood of wonderful emotions in his songs. The works written by the composer in all genres have an elegant and at the same time emotional range of images. His songs quickly gained popularity among the people with their soulful melody and deep lyrics. The main reason for the success is the wide range of possibilities of storytelling in the songs, their folk essence. In many cases, this is explained on the basis of national lad-maqam, which the composer achieves by using folk music intonations, mugham elements, and placing elements of national lad-maqam on the basis of his songs. One of his important creative activities is to acquire knowledge about the basics of folk music from the great master U.Hacıbeyli and to reflect the folk songs and dances he collected as a researcher in chants. T. Guliyev's creative searches in the field of folk music resulted in his mastering this music to its subtleties, and all these became a means for the emergence of a national style in the composer's creativity.

The article reviews individual works written by T. Guliyev in different periods, in which folk music and Mugham intricacies are developed.the problem is addressed. In the songs of T. Guliyev, who played an important role in the formation of modern national pop music, the intonations of jazz, pop music and folk music were organically combined. This created a junction of modernity and traditionality in his songs or in any genre he wrote and revealed the folk essence of his works. The manifestation of the national style in artistic creativity is the achievement of the artist's individual compositional style. Emphasizing the national style in T. Guliyev's works indicates the breadth of his compositional possibilities and the originality of his individual creative style. All this once again emphasizes the uniqueness of T. Guliyev's creativity and determines his place in the national music culture.

Key words: *National, style, music, composer, creativity*

MİRSƏLİM EMİNOV
AMEA Naxçıvan Bölməsi
ORCİD İD: 0000-0003-3332-2244

NAXÇIVANIN DƏMİR DÖVRÜ SƏNƏTKARLIĞIN TEXNİKİ ÜSULLARI

Azərbaycanda eləcə Naxçıvanda dədekorativ-tətbiqi sənətin tarixi olduqca qədimdir. I Kültəpədən, Maxtadan, Ovçular təpəsindən və başqa arxeoloji abidələrdən əldə olunmuş keramika, metal əşyalar və Gəmiqaya təsvirləri Naçıvan ərazisində yurd salmış insanların hələ uzaq keçmişlərdə sənkarlıqla, bədii yaradıcılıqla məşğul olduğunu göstərir. Dulusçuluq, bədii metalişləmə, zərgərlik və s. Naxçıvanda dekorativ-tətbiqi sənətin ən qədim sahələrindəndir. Bu qədim sənətlər əsas olaraq insanların məişət ehtiyacının ödənməsinə yönəlib. Lakin sonrakı dövrlərdə sənətkarlığın texniki inkişafı, insanların estetik ehtiyacı hazırlanan əşyalarda bədii görkəmi daha da ön plana çıxarıb. Saxsı və metal əşyaların hazırlanmasında yeni texniki üsullar yeni estetik görkəmlər verməyə imkan verir. Naxçıvanın Dəmir dövrü sənətkarları bu işdə öz bacarıqlarını inkişaf etdirərək yeni formalı və yeni bədii tərtibatlı dulusçuluq, zərgərlik nümunələri hazırlayırlar.

Dəmir dövrü sənətkarlığında da əvvəlki dövrlərin texniki üsulların, formaların istifadəsi ilə yanaşı yeni texniki üsullar tətbiq edilirdi. Dulusçuluq sənətində dulus çarxının istifadəsi, cızma, yapma, ştamp, boyama və s. üsullar daha geniş tətbiq olunur. Zərgərlik sənətində qəlib, döymə və digər üsullarla orijinal sənət nümunələri yaradılır, eyni zamanda daha estetik və daha keyfiyyətli bəzək əşyaları da əldə edilir. Silahqayırma sənətində eyniylə yeni bədii xüsusiyyətlər və daha sərt metallar əldə olunmasına nail olunur. Yeni arxeoloji qazıntıların əldə olunması bu sənət sahələrinin texniki və bədii cəhətdən yenidən öyrənilməsi ehtiyacını yaranır.

NİGAR HÜMBƏTOVA
humbatovanigar7@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0007-1255-3285

BƏSTƏKAR EMİN SABITOĞLUNUN MAHNI YARADICILIĞI

Təqdim olunmuş məqalədə görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Emin Sabitoğlunun mahnı yaradıcılığının xüsusiyyətlərindən bəhs edilir. Məqalədə E.Sabitoğlunun mahnıları Azərbaycan bəstəkarlarının mahnı yaradıcılığı kontekstində geniş şəkildə şərh edilir və özünəməxsus səciyyəvi xüsusiyyətləri nəzərə çatdırılır. Əvvəlcə məqalədə Ü.Hacıbəylinin və A.Zeynallının mahnı yaradıcılığının E.Sabitoğlunun mahnılarına təsiri qeyd olunur. Nəzərə çatdırılır ki, ənənələrə əsaslanan E.Sabitoğlu öz mahnılarının musiqi dilində milli xüsusiyyətləri dərindən açmağa nail olmuşdur.

Yaradıcılıq fəaliyyəti boyu müxtəlif janrlara müraciət edən E.Sabitoğlu simfonik əsərlər, üç kantata, kamera-vokal və instrumental əsərlər, bir çox Azərbaycan kinofilmlərinə və müxtəlif məzmunlu tamaşalara yazılmış musiqilərin müəllifidir. Bununla belə, onun yaradıcılığının əsas istiqamətini mahnı janrı təşkil edir. Bu baxımdan məqalədə bəstəkarın mahnıları onun yaradıcılığının əsas istiqaməti kimi araşdırılmışdır.

Mahnıvari musiqi üslubu E.Sabitoğlunun yaradıcılığının bütün sahələrinə nüfuz etmişdir. Belə ki, bəstəkarın mahnı üslubu, vokal lirizminin xüsusiyyətləri geniş dinləyici kütləsinin maraq dairəsini təşkil edir. Onun mahnıları parlaq və melodik musiqi dilinə malikdir.

Məqalədə E.Sabitoğlunun müxtəlif illərdə nəşr olunan "Lirik mahnılar", "Dərələr", "Bakı, sabahın xeyir", "Gözümdə Leylisən", "Nə gözəldir Azərbaycan" toplularına əsaslanılmışdır. Bəstəkarın mahnılarının araşdırılması zamanı toplulara daxil olan mahnıların müəyyən bir hissəsi nəzərdən keçirilərək, araşdırmaya cəlb edilmişdir.

Bəstəkarın mahnı yaradıcılığında doğma Azərbaycan, onun təbiəti geniş şəkildə vəsf edilir. Eyni zamanda, bəstəkar müəyyən edilmiş bütün mövzuları qeyri-adi geniş şəkildə şərh edir. Bəstəkarın mahnılarının ən üslub xüsusiyyətlərindən biri janr sintezi, başqa sözlə desək, bir əsərdə bir neçə janr qrupunun xüsusiyyətlərinin bir-birinə qarışmasıdır. Belə ki, məsələn, "Ana Kür" vokal miniatüründə bəstəkarın doğma yurdunun sevimli obrazı Azərbaycanın əsas təbiət rəmzi olan Kür çayı vasitəsilə təcəssüm olunur. Bununla yanaşı, mahnının sözlərində və musiqi dilində layla janrının təsiri nəzərə çarpır. Bu kimi xüsusiyyətləri bəstəkarın bütün mahnılarında izləmək mümkündür.

E.Sabitoğlu mahnılarında poetik mətnin ümumi emosional ahəngini mümkün qədər dəqiq çatdırır. Eyni zamanda musiqi ifadə vasitələrindən düzgün şəkildə istifadə edən bəstəkar öz daxili hisslərini də ifadə edir və vətən təbiətinə bağlılığını dərindən göstərir.

Bəstəkarın mahnılarında doğma diyar və vətən mövzusunun təcəssümü təbiət mövzusu ilə sıx bağlıdır. Çünki bəstəkarın mahnılarında ifadə etdiyi obrazlar məzmun baxımından müxtəlifliyi ilə seçilir və rəngarəng təbiət mənzərələrini əks etdirir.

Açar sözlər: *Emin Sabitoğlu, mahnı, bəstəkar, lirika*

Görkəmli Azərbaycan bəstəkarı Emin Sabitoğlu milli musiqi mədəniyyəti və incəsənətinin inkişafında mühüm əhəmiyyət kəsb edən sənətkarlardandır. E.Sabitoğlu müxtəlif məzmunlu və fərqli obrazları ifadə edən çoxsaylı mahnıların müəllifidir. Onun mahnılarını şərtləndirən əsas xüsusiyyət say etibarilə üstünlükdən daha çox, E.Sabitoğlunun bir bəstəkar kimi düşüncə tərzinin, təfəkküründün zənginliyidir. Ü.Hacıbəyli, A.Zeynallı kimi bəstəkarların ənənələrini davam etdirən E.Sabitoğlunun mahnıları isə özündə milli xüsusiyyətlərlə bəstəkarın fərdi yanaşmasının müxtəlifliyini əks etdirir.


"Onun musiqisində bir cəhət xüsusilə qeyd olunmalıdır. Bu musiqi insanların qəlbinə ünvanlanaraq ürəklərin ən zərif hisslərini oxşayır, hamıya doğma, mərhəm olur" (Əfəndiyeva, 2014: s.18).

E.Sabitoğlunun mahnı yaradıcılığına daxil olan mahnıların bir hissəsi müxtəlif illərdə nəşr olunmuş beş topluda toplanmışdır. Bu toplular "Lirik mahnılar", "Dərələr", "Bakı, sabahın xeyir", "Gözümdə Leylisən", "Nə gözəldir Azərbaycan" adlanır. Sadalanan toplular həcm və tematik məzmununa görə fərqlənirlər. Həmçinin bəstəkarın toplularda olan mahnıları obraz-emosional məzmun və janr müxtəlifliyi baxımından müəyyən üslub xüsusiyyətlərinə malikdir.

Bəstəkarın mahnıları haqqında qızı, sənətşünaslıq doktoru, professor C.Mahmudova belə bəhs edir: "Emin Sabitoğlu nadir bəstəkarlardandır ki, onun mahnılarında melodiya ilə mətn arasında mütləq bir harmoniya var. Atam sanki bütünlüklə melodiyadan ibarət idi. Mahnılarını çox rahat bəstələyirdi. Vəzifəpərəst, intriqalara meylli insan olmadığı üçün fikri yalnız musiqi ilə məşğul idi. Əlinin altında nə olsaydı, notları onun üstünə qeyd edirdi. Hər dəfə də mahnı hazır olandan sonra bizim üçün çalırdı. Deyirdi, qulaq asın görün, hansısa başqa mahnıya oxşamır ki? Bu, onun üçün prinsipial məsələ idi – heç kimə bənzəməmək" (Məhərrəmova, 2017: s.13).

E.Sabitoğlunun mahnılarının tematik məzmunu çox zəngin və müxtəlifdir. "Azərbaycan klassik mahnı ənənələrinə uyğun olaraq, bəstəkar mahnılarının aranjimanını da özü edirdi, onların əvvəlində səslənən instrumental girişlərdə bəzən birbaşa vokal partiyada istifadə olunmayan mövzular eşidilir, bu da mahnının melodik məzmununun daha da zənginləşməsinə gətirib çıxarır" (Mahmudova, 2016: s.94). Onun mahnılarında əsas yeri bəstəkar tərəfindən çox geniş şəkildə ifadə olunan lirik obrazlar aləmi təşkil edir. Lirik-məhəbbət mövzusu, təbiət obrazları və lövhələri E.Sabitoğlunun toplularına daxil olan mahnıların səciyyəvi xüsusiyyətlərinə aiddir. Eyni zamanda bəstəkarın mahnı yaradıcılığında vətənpərvərlik, o cümlədən Azərbaycan xalqının və onun nümayəndələrinin əməyinin tərənnümü kimi mövzular da az əhəmiyyət kəsb etmir. Maraqlısı budur ki, E.Sabitoğlu bir bəstəkar kimi bu mövzuları qeyri-adi bir tərzdə şərh edir. Amma bəstəkarın ən çox sevdiyi və daha çox müraciət etdiyi bədii obrazlardan biri də doğma torpaq, vətən obrazlarının təcəssümüdür. Bu mövzuya həsr olunmuş vokal əsərləri arasında Vətən obrazının təcəssümü üçün çox səciyyəvi olan vətənpərvərlik mahnıları da var. Vətənpərvərlik mövzusunda olan mahnılar daha çox bəstəkarın "Bakı, sabahın xeyir" toplusuna daxil edilmişdir. Toplunun proqramlı adı da mahnıların məzmunu ilə bağlıdır.

Xalq şairi Bəxtiyar Vahabzadənin sözlərinə yazılmış "Azərbaycan" mahnısı vətənpərvərlik mövzusunda olub, "Bakı, sabahın xeyir" toplusunda həm musiqi dili, melodik xüsusiyyətlər, həm də məzmun baxımından xüsusi bir əhəmiyyətə malikdir. Xalqımızın qəhrəmanlıq tarixini, mədəniyyətini və adət-ənənələrini tərənnüm edən "Azərbaycan" mahnısı E.Sabitoğlunun yaradıcılığında mühüm bədii dəyərə malikdir. Bu mahnıda bəstəkar musiqi dili vasitəsilə doğma yurdunun musiqili obrazını yaradır, dinləyici qarşısında doğma Vətəni, onun rəşadətli keçmişini, əzəmətli və qəhrəman obrazını təcəssüm etdirir. Geniş nəfəsli inkişaf, nöqtəli ritmlərdən çox istifadə olunması, ilk xanələrdən başlayaraq, emosional əhval-ruhiyyənin çox aydın şəkildə şərh edilməsi, marş ritminin xüsusiyyətləri bəstəkarın toplularının əsas xüsusiyyətidir.



"Bakı, sabahın xeyir" toplusuna daxil olan mahnılar arasında İ.Kəbirlinin sözlərinə yazılmış "Nə gözəldir Azərbaycan" mahnısı da diqqəti cəlb edir. Bu mahnıda doğma torpağın tərənnümü,

onun təbiətinin vəsf olunması əsas yer tutur. Eyni zamanda mahnıda şair və bəstəkar arasında olan bir-birini anlamaq bacarıqları da görünür və onların hər ikisi mövzunun açılmasına öz münasibətlərini bildirməyə çalışırlar. Şair mətni, bəstəkar isə musiqisi ilə mahnıda üzvi əlaqə yaratmağa nail olmuşlar. Mahnının müəllifləri Vətənin təbii sərvətinin qeyri-adi gözəlliyinə və əzəmətinə heyranlıqlarını göstərərək, Azərbaycana vurğunluqlarını nümayiş etdirməyə nail olmuşlar. Doğma vətən obrazını daha dərindən təcəssüm etdirmək üçün E.Sabitoğlu mahnıda fərqli üsullardan istifadə etmişdir. Belə ki, mahnının musiqi dili milli elementlərlə zəngindir, bəstəkar birbaşa xalq melodiyasına əsaslanmasa da, ritmik xüsusiyyətlər, melodiyanın inkişafı özündə xalq yaradıcılığına xas olan cəhətləri birləşdirir. Milli ənənəvi musiqiyə xas olan 6/8 ölçü mahnının xarakterini müəyyənləşdirir və ona milli rəqs janrlarına bənzər xüsusiyyətlər bəxş edir. Vokal hissəsinin melodik xəttinin həcmi geniş olmasa da, melodiyanın axıcı və rəvan hərəkəti xalq mahnılarını xatırladır. Melodik xəttin bu şəkildə inkişafı Azərbaycan musiqi folklor nümunələrinin inkişaf xüsusiyyətləri ilə uyğunluq təşkil edir. Eyni zamanda, şüştər məqamı silsiləyə daxil olan bir çox mahnılarda olduğu kimi, bu mahnının da məqam əsasını təşkil edir.

Vətənpərvərlik məzmunlu mahnıların üstünlük təşkil etdiyi "Bakı, sabahın xeyir" toplusundan daha bir mahnı R.Zəkanın sözlərinə yazılmış "Bura Qafqazdır" vokal miniatürüdür. Bu mahnıda doğma torpağa məhəbbət mövzusu ilə Qafqazda yaşayan insanların xeyirxahlığı, qonaqpərvərliyi, mənəvi alicənablığı qovuşmuş şəkildə verilmişdir. Yalnız Azərbaycandan deyil, bütün Qafqazdan bəhs edildiyi üçün bəstəkar bu ərazidə yaşayan bütün xalqların qürurunu, cəsarətini və mərdliyini musiqi çalarlarında ifadə etmişdir. Bu məqsədlə, bəstəkar çox sürətli tempdən istifadə etməklə kifayətlənməmiş və dəyişkən metr (6/8 - 3/4), həmçinin "Ləzginka" rəqsinin melodik intonasiyaları və harmoniyalarına əsaslanmışdır. Məlumdur ki, "Ləzginka" rəqsi Qafqazın bütün xalqlarının musiqi irsində əsas yer tutur. Bu baxımdan bəstəkarın bu mahnıda əsaslandığı musiqi intonasiyaları Qafqaz xalqları arasında seçilən azərbaycanlıların da xarakterini ifadə edir.

E.Sabitoğlunun daha bir maraqlı toplusu olan "Dərələr" onun eyniadlı mahnısı ilə adlandırılmışdır. Nəzərə çatdıraq ki, bu silsilənin mahnıları daha çox təbiət mövzuları, doğma vətənin gözəlliklərinin tərənnümü ilə bağlıdır. Xalq şairi N.Xəzrinin sözləri əsasında yazılmış "Ana Kür" mahnısı bu silsilənin tanınmış mahnılarındandır. "Ana Kür" mahnısında bəstəkarın digər mahnılarında olduğu kimi doğma torpağa məhəbbəti və heyranlığı konkret təbiət obrazlarının təcəssümü ilə ifadə olunur. Bu mahnıda da şair-bəstəkar arasında olan birlik bir daha özünü göstərir. Əvvəlcə şair, sonra isə bəstəkar çay obrazını insaniləşdirərək, ona xitabən doğma təbiəti vəsf edirlər. Təsadüfi deyildir ki, bu mahnının adı da obrazlı məzmunu açır. Belə ki, çaya layla oxuyan ana kimi müraciət edilməsi bədii obrazlılığı daha da gücləndirir. Mahnının sözlərində aydın şəkildə ifadə olunan, xüsusilə "Lay-lay deyir Kür çayı" sözlərindəki bədii obrazın təcəssümü bəstəkar üçün musiqi ilhamının əsas mənbəyinə çevrilir. Asta temp, melodik ibarələrin tədricən inkişaf etməsi laylaların səciyyəvi intonasiyalarını ifadə edir və kompozisiyanın əsas obrazını ən dəqiq şəkildə nümayiş etdirir.

Bu mahnı, eyni zamanda digər keyfiyyətləri ilə də maraq doğurur. Əslində, "Ana Kür" mahnısı bir neçə janr qrupunun xüsusiyyətlərini özündə birləşdirir, çünki bəstəkar doğma yurdunu Azərbaycanın çox tanınmış təbiət rəmzlərindən biri olan Kür çayının obrazında tərənnüm edir. Nəticədə, "Ana Kür" mahnısı özündə həm lirik mahnı janrı xüsusiyyətlərini, həm müəyyən layla janrı, həm də vətənpərvərlik janrının xüsusiyyətlərini ehtiva edir. Çünki əsərin əsas bədii obrazı vətən mövzusu ilə bağlıdır. Qeyd edək ki, müxtəlif janr sintezinin verilməsi bəstəkar E.Sabitoğlunun mahnılarının mühüm üslub xüsusiyyətlərinə daxildir.

Bəstəkarın Vətənini tərənnüm etdiyi mahnılarından biri də "Dərələr" toplusuna daxil olan "Çay" mahnısıdır. E.Sabitoğlunun "Azərbaycan çayı" filmi üçün yaratdığı və şair Z.Cabbarzadənin sözlərinə daxil edilmiş "Çay" mahnısı lirik janr xüsusiyyətlərini özündə birləşdirən vokal miniatürdür. Mahnının əsas bədii obrazını yenə də Azərbaycanın əsas rəmzlərindən biri təşkil edir. Təsadüfi deyil ki, bu əsərin musiqi dilinin bütün vasitələri Azərbaycan musiqi folkloru

nümunələrinə mümkün qədər yaxındır. Bu baxımdan milli xalq mahnıları və rəqsləri üçün səciyyəvi olan 6/8 ölçüsünə xalq musiqisində tez-tez rast gəlinir. Eyni zamanda melizmatikanın nüfuz etdiyi vokal hissədə melodik intonasiyalar isə mahnının məqam əsasını müəyyənləşdirir. Yəni, mahnının musiqi dilinin hər bir ünsürü Azərbaycan üçün təkcə dərin milli deyil, həm də rəmzi məna kəsb edən əsas bədii obrazın vurğulanmasına yönəldilmişdir. Yəni doğma yurdun gözəlliklərindən birinə müraciət edən bəstəkar sanki doğma xalq musiqisi dilinə yaxın tərzdə öz yanaşmalarını ifadə edir.

Onu da nəzərə çatdıraq ki, E.Sabitoğlu üçün vətən torpağı və doğma yurd, onun rəmzləri ilə yanaşı, burada yaşayan insanlar da əsas ilham mənbəyidir. Ona görə də lirik janrda təcəssüm olunmuş Vətən obrazı bəstəkarın mahnılarında çox vaxt fərqli şəkildə təcəssüm etdirilir. Bu baxımdan "Dərələr" toplusuna daxil olan şair İ.Səfərlinin sözlərinə yazdığı "Bakı, sabahın xeyir" mahnısında bəstəkar məhz doğma xalqına müraciət edir. Burada mahnının müəlliflərinin diqqət mərkəzində, adından da göründüyü kimi, doğma Bakı şəhəri, onun gözəlliyi və əvəzolunmaz obrazı verilmişdir. Əsərin yüksək intonasiyalarla dolu musiqi dilində doğma şəhərə heyranlıq, onun gözəlliklərinə vurğunluq və sakinlərinə səmimi məhəbbət öz əksini tapmışdır.

E.Sabitoğlu Vətən obrazına eyni zamanda doğma Azərbaycan ənənəvi mədəniyyətinin bir hissəsi kimi də yanaşır və bu, bəstəkarın daha bir fərqli yanaşmasını nümayiş etdirir. E.Sabitoğlu xalq poeziyasına olan bağlılığını mətn əsası bayatıdan götürülmüş üç mahnı ilə ifadə etmişdir. Həmin mahnılar bunlardır: "Gün keçdi" filmindən "Vətən bayatıları" və "İkinci mahnı" və sözləri Kərkük bayatılarına əsaslanan "Şirin dil" mahnısı. "Bakı, sabahın xeyir" toplusuna daxil edilən bu mahnılar obraz-emosional və məzmun baxımından bir-birindən fərqlənir. "Vətən bayatıları" E.Sabitoğlunun sevimli Vətənini tərənnüm edən vətənpərvərlik xəttini davam etdirir. Bu əsərdə doğma topraq və yurd obrazının musiqi təcəssümündə bəstəkar milli folklor nümunələrinin musiqi dilinə çox yaxın vasitələrlə müraciət edir. Bu isə əsərin musiqi nitqinin bütün elementlərində özünü göstərir. Xalq sözləri əsasında hazırlanan digər iki mahnıda - "Gün keçdi" filmindən "İkinci mahnı" və "Şirin dil" isə aydın şəkildə lirik obrazları təcəssüm etdirir və mahnının melodiyasının inkişaf xüsusiyyətləri məzmunla müəyyənləşdirilir.

E.Sabitoğlunun mahnılarında Azərbaycan bəstəkar və şairlərinin yaradıcılığında daha çox rast gəlinən Xəzər dənizi obrazları da tərənnüm edilmişdir. "Lirik mahnılar" toplusuna daxil olan R.Zəkanın sözlərinə yazılmış "Sahildə" mahnısı bəstəkarın bu mövzuya həsr etdiyi ən yaxşı əsərlərindən biridir. Bütün mahnı ucsuz-bucaqsız göl-dənizin gözəlliyinə heyranlıq sözləri ilə doludur. Bəstəkar yenə də təbiət obrazını humanistləşdirərək, poetik mətndə verilən xüüsiyyətləri musiqi dilində ifadə edir. Mahnının məzmunu da maraqlıdır: belə ki, qəhrəman Xəzərə özünün ən yaxşı və sadiq dostu kimi müraciət edərək, onu vəsf edir. Eyni zamanda bəstəkar əsərin musiqi dilində səs ətrafında olan gəzişmələrdən də geniş şəkildə istifadə edir. Qeyd edək ki, səs ətrafında olan gəzişmələr bəstəkarın çox istifadə etmədiyi vasitələrdəndir. Bununla belə bu mahnının həm vokal hissəsinin melodiyasında, həm də müşayiət hissəsinin inkişafında sanki Xəzər dənizinin dalğalanmasını eşitmək mümkündür.

E.Sabitoğlunun hər toplusuna daxil olan mahnılar nəzərə çarpacaq qədər fərqlidirlər. Belə ki, "Lirik mahnılar" toplusundan Xalq şairi R.Rzanın sözlərinə yazılmış "Gilavar" mahnısında fərqli xarakter və əhvali-ruhiyyə hiss edirik. Bu mahnıda hamı tərəfindən tanınan təbiət obrazı təcəssüm olunur. Əsərin bütün inkişafı incə lirik tərzdə işlənmiş emosional xarakterə malikdir. Mahnıda külək sadəcə təbiətin insaniləşdirilmiş obrazı kimi deyil, həm də daim dəyişən hadisə olaraq, həyatımızın rəmzlərindən biri kimi verilmişdir. Belə ki, bu mahnıda təbiət mövzusu sırf lirik çalarları əhatə edir.

Bəstəkarın doğma təbiət obrazına həsr etdiyi maraqlı əsərlərindən biri də S.Vurğunun sözlərinə yazılmış və "Gözümdə Leylisən" toplusuna daxil edilmiş "Dağlar" mahnısıdır. Mahnının adı bu vokal miniatürün əsas bədii obrazını əks etdirir. Bəstəkar Azərbaycan dağlarının əzəmətli obrazını təcəssüm etdirmək üçün mahnının bədii obrazını canlandırır. Qəhrəmanın bir insan kimi dağ mənzərəsinə xitab etməsi melodik musiqi dilində də davamını tapır. Belə ki, təbiət obrazının gözəlliyinə heyranlığın ifadə edilməsi üçün bəstəkar səs ətrafında olan gəzişmələrdən uzaqlaşaraq,

daha inkişaflı melodik xəttə üstünlük verir. Poetik mətnin ümumi emosional ahəngini mümkün qədər dəqiq çatdırmağa qadir olan musiqi ifadə vasitələrindən istifadə edən bəstəkar, eyni zamanda öz daxilindən gələrək, vətən təbiətinə bağlılığını və hiss etdiklərini də melodiyada göstərmişdir.

Nəticə olaraq deyə bilərik ki, ümumiyyətlə, E.Sabitoğlunun mahnılarında tematik məzmun palitrası çox zəngindir. Onun mahnılarının məzmununda məhəbbət mövzusundan başlayaraq, təbiət obrazlarının təcəssümünə qədər əhatə olunan lirik obrazlar aləmi əsas yer tutur. Emin Sabitoğlunun mahnı yaradıcılığı Azərbaycan vokal sənətinin parlaq səhifəsini təşkil edir. Məzmun müxtəlifliyi və obraz zənginliyi E.Sabitoğlunun mahnılarının əsas xüsusiyyəti kimi onun fərdi üslubunun xüsusiyyətlərinin ifadəsidir.

ƏDƏBİYYAT

1. Əfəndiyeva, İ.M. Emin Sabitoğlu. Bakı: 2014
2. Məhərrəmova, T. Heç kimə bənzəməyən bəstəkar. Kaspi. 2 noyabr. 2017
3. Mahmudova C. (2016). Emin Sabitoğlu. Bakı.

NOTOQRAFİYA

1. Mahmudov E. Lirik mahnılar [Notlar]: Klavir. Bakı: 1965, 23 s.
2. Mahmudov E. Dərələr [Notlar]: Klavir. Bakı: 1970, 58 s.
3. Mahmudov E. Bakı, sabahın xeyir [Notlar]: Klavir. Bakı: 1975, 62 s.
4. Mahmudov E. Gözümdə Leylisən [Notlar]: / Klavir. Bakı: 1980, 42 s.
5. Mahmudov E. Nə gözəldir Azərbaycan [Notlar]: Klavir. Bakı: 1986, 26 s.

SUMMARY

Nigar Humbatova

SONG CREATION OF COMPOSER EMIN SABITOGLU

The presented article talks about the features of the song creation of the outstanding Azerbaijani composer, People`s Artist Emin Sabitoghlu. In the article, the songs of E.Sabitoghlu are widely interpreted in the context of the song creation of Azerbaijani composers and their unique features are taken into account. First of all, the article mentions the influence of U.Hajibeyli and A.Zeynalli's song creations on E.Sabitoghlu's songs. It should be noted that E.Sabitoghlu, who is based on traditions, managed to deeply reveal national characteristics in the musical language of his songs.

Let`s also note that E.Sabitoghlu, who applied to various genres during his creative activity, is the author of symphonic works, three cantatas, chamber-vocal and instrumental works, music written for many Azerbaijani movies and plays of various content. However, the main direction of his creativity is the song genre. From this point of view, the composer`s songs are examined in the article as the main direction of his creativity.

The song-like musical style permeated all areas of E.Sabitoghlu`s creativity. Thus, the composer's song style and vocal lyricism are of interest to a wide audience. His songs have a bright and melodious musical language.

The article is based on E.Sabitoghlu`s collections “Lirik mahnilar” (“Lyric songs”), “Dereler” (“Valleys”), “Bakı, sabahin xeyir”, (“Baku, good morning”), “Gozumde Leylisen”, (“You are Leyli in my eyes”), “Ne gozeldir Azerbaycan” (“What a beautiful Azerbaijan”) published in different years. During the examination of the composer`s songs, a certain part of the songs included in the collections were reviewed and included in the study.

In the song creation of the composer, native Azerbaijan and its nature are widely praised. At the same time, the composer interprets all the identified themes in an unusually broad way. One of the most stylistic features of the composer`s songs is genre synthesis, in other words, the intermingling of features of several genre groups in one work. So, for example, in the vocal miniature "Ana Kur" ("Mother Kura"), the favorite image of the composer`s homeland is embodied by the Kura river, the main natural symbol of Azerbaijan. In addition, the influence of the lullaby genre is noticeable in the lyrics and musical language of the song. Such characteristics can be observed in all the songs of the composer.

In his songs, E.Sabitoghlu conveys the general emotional tone of the poetic text as accurately as possible. At the same time, the composer who correctly uses the means of musical expression also expresses his inner feelings and deeply shows his attachment to the nature of his homeland.

In the composer`s songs, the embodiment of the theme of native land and homeland is closely related to the theme of nature. Because the images expressed by the composer in his songs are distinguished by their diversity in terms of content and reflect colorful natural landscapes.

***Key words**: Emin Sabitoghlu, song, composer, lyrics*

ORHAN GHORBANİ
ali.kurbani@hotmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0006-9368-3796

AZƏRBAYCAN BƏSTƏKARLARININ ƏSƏRLƏRİNDƏ FORMA VƏ MƏZMUNUN İFADƏSİ

Məqalədə musiqi əsərlərində forma və məzmunun bir-biri ilə vəhdət təşkil etməyi, forma və məzmunun xarakterik cəhətlərindən, məzmunu müəyyən etmək üçün bəstəkar tərəfindən istifadə olunan metodlardan bəhs edilir. Forma və məzmunun qarşılıqlı əlaqəsi, elementləri və ayrı-ayrı komponentlərinin uzlaşdırılması nəticəsində bəstəkar ifadə etmək istədiyi ideyanı düzgün təqdim etmək imkanı qazanır.

Bəstəkar yaradıcılığının özünəməxsusluğu onun tərəfindən istifadə olunan yazı texnikası, bəstəkarlıq üslubunun qeyri-adiliyi ilə müəyyən olunur. Bəstəkar yaradıcılığında mühüm cəhətlərdən biri də bədii yaradıcılıqda sənətkarın milli kimliyinin vurğulanmasıdır. Buna bir çox bəstəkar malik olduğu xalqın folklor nümunələrindən, xalq mahnı və rəqslərindən, milli lad-məqam əsasından istifadə etməklə nail olur. Bu mühüm komponentlər də musiqi əsərlərində forma, məzmunun müəyyən olunmağında əhəmiyyətli faktor kimi çıxış edir. Məqalədə bu və ya başqa musiqi əsərlərində lad-məqam əsasının milli mahiyyətinin əhəmiyyətinə diqqət çəkilir. Xüsusilə milli muğamların əsərlərin zəminə yerləşdirilməsində bəstəkarın məqsədi və bu istiqamətdən yaradıcılıq potensialı nəzərə çatdırılır. Qeyd edilir ki, Ü.Hacıbəylinin yaradıcılıq irsinin davamçıları olan bəstəkarlarımızın hamısı milli lad və məqamları mütləq şəkildə əsərlərinin əsasına yerləşdirmiş, bu vasitə ilə özünəməxsusluğu ilə seçilən əsərlər yazmış, eyni zamanda musiqi mədəniyyətini zəngin sənət nümunələri ilə dolğunlaşdırmışalr. Xalq musiqisi ünsürləri, milli lad- məqam forma təşkili problemlərin həllində əhəmiyyətli rol oynamış, milli harmoniyanın kamil şəkildə təcəssümünə imkan yaratmış, eyni zamanda əsərlərin məzmununu daha da dərinləşdirərək, musiqili təfsirlərdə müxtəlif affektlərin ifadə olunmağında vasitəçi kimi çıxış etmişdir.

Məqalədə Azərbaycan bəstəkarlarının müxtəlif əsərlərində məzmunun ifadə olunmasında muğamların əhəmiyyətinə diqqət çəkilir. Burada bəstəkarlarımızın proqramlı və ya proqramsız əsərlərinə nəzər salınaraq, onlardakı forma, məzmuna aid xarakterik cəhətlərə toxunulur, bütün yaradıcı imkanlarla bəstəkar təxəyyülündə formalaşan bədii süjetdə ifadə olunan fikir, dramaturji inkişafın təqdim edilməsində forma və məzmunun əhəmiyyəti vurğulanır. Burada həmçinin Azərbaycan bəstəkarlarının vokal janrda da yazdıqları əsərlərdə forma xüsusiyyətlərinə toxunulur və məzmunun açılmasında söz sənəti ilə musiqinin vəhdətinin əhəmiyyətindən bəhs edilir.

Açar sözlər: *forma, məzmun, musiqi, bəstəkar, əsər*

Forma və məzmun fəlsəfi mahiyyət daşıyan iki fərqli, eyni zamanda bir-biri ilə sıx vəhdət təşkil edən anlayışlardır. Bu anlayışlar bir tək musiqidə deyil, incəsənətin bütün sahələrində mövcud olan sənət əsərlərinin mahiyyətinə aydınlıq gətirir. Bu iki anlayışın düzgün qavranılmasını isə onların hər birinin funkisyası, rolu və musiqili təfsirlədən özünəməxsus tərəflərini izah etmək qabiliyyəti müəyyən edir.

Musiqi forması musiqi əsərlərinin quruluşudur. O, müxtəlif musiqi elementlərinin bir-biri ilə ardıcıllığı və bir-birinə münasibətini müəyyən edir. Formanın özünəməxsusluğu musiqi əsərlərinin məntiqi və emosional inkişafını düzgün qavramaq imkanı yaradır. Təkrarlıq, ziddiyyət, inkişaf, variasiya formanın əsas elementləridir. Musiqi formalarının ən əhəmiyyətli elementlərindən biri mövzudur. Məhz mövzu bəstəkar fikrinin musiqili ifadəsini təcəssüm etdirir.

Musiqi elementlərinin təşkilindən asılı olaraq musiqi mədəniyyəti tarixində hər bir bəstəkarın fərdi yanaşdığı formalar mövcud olmuşdur. Bəstəkar ifadə etmək istədiyi ideya məzmununu təqdim

etmək üçün konkret forma əsasında işləyir. Bir çox hallarda isə forma əvvəlcədən müəyyən olunmur. Bəstəkar təxəyyülü ortaya qoyduğu melodiyalar zəncirini kulminasiyaya, düyünün zirvə nöqtəsinə yüksəldib, sonra onun açılışına doğru istiqamət alaraq sonluğu yetişdirdiyində musiqi əsəri özünəməxsus forma xüsusiyyəti qazanır ki, bu forma da musiqinin digər elementləri ilə birlikdə əsərin orijinallığını təmin edir.

XX əsrin ilk onilliklərindən etibarən Azərbaycanda peşəkar səviyyədə formalaşan bəstəkarlıq məktəbinin hər bir nümayəndəsinin əsərlərində Avropa klassik musiqisinin forma xüsusiyyətlərinin dərindən mənimsənilib, onlar əsasında milli əsərlərin yaradılması istiqamətində aparılan yaradıcılıq axtarışlarının şahidi olmaq mümkündür. Bəstəkarlar Avropa musiqisindən əxz etdikləri forma xüsusiyyətlərini milli məzmunla üzvi şəkildə qovuşdurmaq nəticəsində monumental sənət əsərləri yaratmağa nail olmuşlar. Bir çox hallarda isə forma və məzmun ifadə edilən ideya ilə əlaqələndirilərək bəstəkar üslubunun əsas cəhəti kimi ortaya çıxmışdır. Bu kimi yanaşma musiqi əsərlərinin mahiyyətinin başa düşülməsində məzmunun mühüm əhəmiyyətini izah edir. Məzmun müxtəlif musiqi elementləri vasitəsilə ifadə olunur. Melodiya, ritm, harmoniya, dinamika, tembr və başqa bu kimi ifadə vasitələri məzmunun çatdırılmasında mühüm elementlərdir. Bu elementlərin kombinasiyası nəticəsində isə özünəməxsus məzmun formalaşdırılır ki, hər bir əsərin məzmunu onu digər sənət nümunəsindən kəskin şəkildə fərqləndirir. Musiqi əsərlərinin məzmunu hər hansı bir tarixi hadisə, ictimai-siyasi hərəkat, dini və ya məişət xarakterli ola bilər. Ayrı-ayrı dövrün bəstəkarları da öz əsərlərində bu kimi dərin emosionallığa nail olmağı bacarmışlar. Məsələn: dahi alman bəstəkarı L.V.Bethovenin yaradıcılığının ikinci mərhələsinə aid olan demək olar ki, bütün əsərlərində Fransız burjua inqilabının əhval-ruhiyyəsi, inqilabi mövzular dərinliklə işlənilir və yaxud Bethoven romantizm dövrünün başlanğıcını gətirən son əsərlərində yeni ifadə vasitələri ilə forma və məzmunun vəhdətinə nail olaraq tamamilə fərqli istiqamətdən çıxış edir ki, bu da onun əsərlərində emosional əhval-ruhiyyəyə məhz bu kimi elementlərin tərcümanlıq etdiyinə və bəstəkarın ifadə etmək istədiyi düşüncə və duyğuların bu vasitə ilə gerçəkləşdirildiyinə birbaşa işarədir.

Azərbaycan bəstəkarlarının əsərlərində milli lad-məqam əsası forma və məzmunun vəhdətinin təmin edilməsində mühüm rol oynayır. Bu zəngin əsas əsərlərin milli xasiyyətnaməsini verərək, forma, janr xüsusiyyətlərinin müəyyən olunmağına, eyni zamanda məzmunda daha obrazlı dramaturgiyaya nail olmağa birbaşa təsir göstərir. Bu cəhət öz başlanğıcını Ü.Hacıbəylinin yaradıcılığından götürərək, müasir dövrün ən mürəkkəb yazı texnikalarından bəhrələnən yeni nəsil bəstəkarların demək olar ki, bütün əsərlərində özünü qabarıq şəkildə hiss etdirir. Məlum olduğu kimi Ü.Hacıbəyli milli muğamlardan sadəcə opera qəhrəmanlarının xarakteri və ya opera dramaturgiyasını diqqətə çatdırmaq üçün faydalanmamışdır. O, Azərbaycan lad-məqam əsasının nəzəri problemlərini həll edərək, milli harmoniyanın elmi əsaslarını formalaşdırmış və ilk olaraq özü əsərlərində bu zəngin mənbədən lad-məqam əsası kimi istifadə etmişdir. Bəstəkarın əsərlərində milli lad-məqam əsası ilə forma və məzmunda vəhdətə nail olmağın orijinallığı ilə qarşılaşmaq mümkündür. Bu mənada onun yaradıcılığının ilk məhsulu olan "Leyli və Məcnun" operasında muğamların solo və ya ansambl nömrələri kimi təqdim edilməsi diqqət çəkən ilk cəhətlərdən biridir. Muğamların operanın məzmununda əhəmiyyətini vurğulayan Z.Səfərova yazır: "Əgər əvvəllər xanəndələr tərəfindən oxunan muğamlar konsert ifasında mücərrəd bir halı, əhvali-ruhiyyəni, məsələn, məhəbbəti, sevinci, kədəri ifadə edirdilərsə, bu operada həmin muğamlar əsərin ümumi məzmununa tabe olaraq ilk dəfə səhnədəki hərəkətlə, aktyor oyunu ilə birləşərək, operanın məzmununun açılmasına, onun əhvali-ruhiyyəsinin əks edilməsinə kömək edən musiqi vasitəsi olmuşdu. Bu da "Leyli və Məcnun"un əsas müvəffəqiyyətlərindən biri sayıla bilər" (Səfərova, Z., 2017: s.33)

Ü.Hacıbəyli müxtəlif janrda yazdığı əsərlərdə milli lad-məqam əsasını məzmunun ifadə olunmasında mühüm vasitə kimi təqdim edir. Onun biri "Şur", digəri "Çahargah" ladına əsaslanan fantaziyalarını misal göstərmək olar. Hər iki əsər milli orkestr musiqisinin ilk nümunələri olaraq bəstəkar tərəfindən 1931-ci ildə yazılmışdır. Burada o ilk dəfə çoxsəsli imkanların nümayiş olunduğu orkestr təfəkkürünü musiqili dil ilə ifadə etmişdir. Belə ki, müxtəlif alətlərin ifasını bir vəhdətdə qovuşduran əsərlər gələcəkdə "Koroğlu" operasında nümayiş olunacaq simfonik elementlərin

təqdimatında ilk təcrübələrdir ki, bunlar da milli simfonizmin yaranmasında mühüm axtarışların nəticəsi kimi qiymətləndirilir. Göründüyü kimi bəstəkar məhz milli lad-məqamlar üzərində qurduğu kompozisiyalarda milli məzmunu ifadə etmişdir. Birbaşa olmasa da ümumi ahəngdə proqramlılığın hiss olunduğu fantaziyaların bu mənada başlıqları da məzmunu özünəməxsus şəkildə təqdim edir.

Musiqi əsərinin forması musiqi materialının müəyyən ardıcıllıqla təşkilatlandırılmasıdır. Bu vasitə ilə musiqili təfsir məntiqi bir davamlığa malik olur. Musiqi ideyasının formalaşması, inkişafı və ilkin vəziyyətə qayıdılması formanın əsas mahiyyətini üzə çıxarır. Bu qayda ilə forma başlanğıc, inkişaf, ziddiyyətin kəskinləşməsi, düyünün açılması və yekunu kimi trayektoriyanı özündə birləşdirir. Demək forma bütün məntiqi ilə musiqi əsərinin qavranılmasında mühüm amillərdən biridir. O, bəstəkar üçün fikirlər, yaradıcılıq təxəyyülünü bir məcraya yönləndirmək imkanı qazandırır. Forma ilə məzmunu doğru istiqamətləndirmək, onu orijinal düşüncə və emosional hisslərlə dolğunlaşdırmaq olar. Görkəmli bəstəkar Q.Qarayevin "Leyli və Məcnun" simfonik poemasında məzmunun zənginliyi ilə yanaşı formanın mükəmməlliyi də özünəməxsus musiqili təfsirin ortaya qoyulmasına şərait yaradıb. Onun digər əsərləri kimi simfonik poema da formasının bitkinliyi, məzmunun dərinliyi, obrazların çoxşaxəli inkişafı ilə diqqət cəlb edir. "Leyli və Məcnun" simfonik poemasının formasının mükəmməlliyini qeyd edən L.Kazımova yazır: "Poemanın forma quruluşu tədricən gərginləşən dramatikliyi ilə fərqlənir. Melodik dilinin səlisliyi və ifadəliliyi ilə səciyyələnən bu poemada iki gəncin - Leyli və Məcnunun romantik məhəbbəti tərənnüm olunur. Simfonik poemanm forma quruluşu məhz obraz-dramaturji aspektlə bağlıdır ki, bu da öz növbəsində, əsərin ümumi konsepsiyası ilə əlaqədardır" (Səfərova, Z., 2018: 92 s.)

"Leyli və Məcnun" simfonik poemasında məzmunu dolğun musiqili ifadələrlə təqdim etmək üçün bəstəkar sonata-allegro formasının imkanlarına müraciət etmişdir. Əsər birhissəli quruluş daxilində olduqca dramatik, emosional əhval-ruhiyyə təlqin edir. Bu bəstəkar üslubunun möhtəşəmliyi və yazı texnikasının mükəmməlliyi ilə izah olunan bir cəhətdir. Poemada forma məzmunun açılmasında birmənalı şəkildə mühüm funksiyanı icra edir. Məhz sonata-allegro formasının bölmələri inkişafda kulminasiyanın əldə olunması və düyünün açılışını təmin edir. Əsərdə üç obraz üç əsas mövzunun inkişafı fonunda təqdim olunur. Bunlardan ilki müqəddimədə eşidilən faciəli mövzudur. Bu dramatik yüklə dolğun, olduqca faciəli mövzudur və inkişafda kədərli elementlərin ortaya çıxacağına çağırış xarakteri ilə əhəmiyyətlidir. Əsas mövzu Məcnunu xarakterizə edir. Onun inkişafında "Şüştər" məqamının intonasiyaları var. Melodik inkişaf baş qəhrəmanın ehtiraslı sevgisini, mübarizə ruhunu, həyəcanlarını ifadə edir. Köməkçi mövzu isə Leylini və onun zərif, o cümlədən ehtiraslı məhəbbətini təcəssüm etdirir. Maraqlıdır ki, yalnız Q.Qarayev lirikasına xas cizgilər qəhrəmanın xarakterinin müəyyən olunmağında mühüm amil kimi üzə çıxır. Bu mövzu haqqında S.Qasımova qeyd edir: "Üçüncü obraz köməkçi partiyadır-lirik əhval-ruhiyyəlidir, qanadlıdır, zərifdir, bu həmişə insanın can atdığı idealın bir növ ifadəsidir" (Qasımova S, Bağırov N. 1984: 120)

"Leyli və Məcnun" simfonik poemasında Q.Qarayev sonata-allegro formasından bir qədər kənara çıxaraq, ənənəviliyi pozur, öz yaradıcılığına uyğun konsepsiya ilə çıxış edir. Belə ki, burada formanın quruluşunda əsas inkişaf imkanlarını nümayiş etdirən və ziddiyyəti ortaya qoyan işləmə bölməsi yoxdur. Bununla bəstəkar mövzular arasında ziddiyyəti deyil, həmahəngliyi, obrazların bir-birinə vurğunluğunu ifadə etməyə çalışır ki, bu da forma ilə məzmun arasında vəhdət qurmağın kamil üsullarında biridir. Repriza ekspozisiyada təqdim olan mövzuları bir üst mərhələyə daşıyır. Girişin materialı bir qədər qısaldılaraq, ixtisarla təqdim edilir. Bütün mövzular bir-biri ilə bağlanaraq vahid kompozisiya formalaşdırır. Əsas mövzu reprizada daha dinamik elementlərə bürünür. Kulminasiyada bu mövzu ilə girişin mövzusu bir-birinə qovuşur. Bu isə faciənin qabardılmasında imkan yaradır. Beləliklə, Q.Qarayev "Leyli və Məcnun" kimi orijinal musiqili təfsirində forma mükəmməlliyi ilə məzmunun daha dərin emosionallığa bürünməsini təmin etmişdir ki, bu da musiqili təfsirlərdə bəstəkar fikrinin ifadə olunmasında forma, eyni zamanda məzmunun əhəmiyyətini bir daha diqqətə çatdırır.

Bəstəkarlar əsərin məzmununu musiqinin ifadə vasitələri ilə yanaşı əsərinə proqram başlığı verməklə də diqqətə çatdıra bilərlər. Proqram başlığına malik olmayan əsərlərdə zaman vahidi əhəmiyyətli rol oynayırsa, proqram başlıqlı əsərlərdə bəstəkarın ifadə etdiyi ideya məzmunu həmin başlıqla anında diqqətə çatdırılır. Bu mənada görkəmli bəstəkar F.Əmirovun azərbaycançılıq məfkurəsinin böyük hərflərlə işləndiyi bütün simfonik əsərlərini misal göstərmək olar. Ən əsası isə "Azərbaycan kapriççiosu"nun üzərində durmağa dəyər. Bu əsər dərin emosional məzmunu ilə diqqət cəlb edir. Burada bir xalqın keçmişi, bu günü, gələcəklə bağlı istəkləri dərin məzmunla ifadə olunub. Əzəmətli, eyni zamanda zərif mövzular, dinamik keçidlər, özünəməxsus parlaqlığa malik olan, eyni zamanda xalq musiqisi ilə yoğrulan harmoniya forma ilə məzmun arasında da dərin vəhdət quraraq bəstəkarın orijinal üslubunun nailiyyəti kimi ortaya çıxır. Əsəri F.Əmirovun zəngin yaradıcılıq təxəyyülünün məhsulu kimi qiymətləndirən S.Ağayeva yazır: "Zəngin yaradıcılıq təxəyyülünə malik olan bəstəkar bu əsərində bir-birini əvəz edən möhtəşəm, coşqun, kəskin ritmik və səmimi-lirik, Azərbaycan ənənəvi musiqisinə xas olan improvizasiyalı melodiyalardan istifadə etmişdir. "Azərbaycan kapriççio"sunu fərqləndirən başlıca məziyyətlərdən biri də F.Əmirovun simfonik orkestrin ifadə və virtuoz imkanlarını, müxtəlif tembr çalarlarını məharətlə təqdim etməsidir" (Səfərova, Z., 2018: 317). Qeyd edildiyi kimi orkestr, tembr çalarları, ritmik dönüşlər əsərin məzmununu ifadə etməklə yanaşı, onun forma xüsusiyyətləri haqqında da dolğun təsəvvürlərin formalaşmasına imkan yaradır.

Ümumilikdə "Azərbaycan kapriççiosu" üçhissəli kompozisiya kimi qəbul edilə bilər. Onun kənar hissələri oxşar xarakter cizgilərinə malikdir. Orta hissə isə lirik əhval-ruhiyyəsi, gözəl melodiyası ilə kənar hissələrdən kəskin surətdə fərqlənir ki, bəstəkarın melodiya sahəsində ustalığı bu əsərdən də yan keçməmişdir. Əsərin leyttezis kimi səciyyələn mövzusu çağırış xarakterində olub, emosional inkişafın ilk dalğası təəssüratını yaradır. Burada mübariz ruh hökm sürür. Melodiyanın inkişafı həyəcanlı axınla kulminasiyaya yönəlir. Kulminasiya lirik mərkəzə təsadüf edir. Orta bölmə kimi səciyyələndirdiyimiz bu hissə "Şüştər" məqamının ecazkar füsunkarlığını özündə daşıyır, onun xarakterik lirik əhval-ruhiyyəsindədir. Sonra emosionallıq tədricən bərpa olunur. Sonda isə mübarizə ilə keçən həyatın fonunda parlaq, işıqlı gələcəyə inam hissi ifadə olunur. Ümumi lad-məqam əsası "Rast" üzərində qurulan əsərdə hekayətçilik prinsipi böyük ölçüdə özünü hiss etdirir. Bəstəkar musiqinin ifadə vasitələrini forma və məzmunun əsas elementləri kimi işləməklə vətənin əzəmətli obrazını, gözəl təbiətini yaradır. Burada mühüm cəhət ondan ibarətdir ki, kapriççio proqram başlığına malik olmasaydı da onda ifadə olunan dramaturgiya monumental melodiya zənginlikləri ilə də anında qavranılardı. Bu isə onunla izah olunur ki, qarşısına konkret yaradıcılıq problemi qoyan bəstəkar forma və məzmunun dərin vəhdəti əsasında monumental kompozisiya qurmağı bacarmışdır.

Vokal əsərləri, mahnı janrı forma və məzmununa görə daha maraqlı inkişaf prosesini özündə birləşdirən sənət əsərləridir. Mahnılar hələ qədim dövrlərdən etibarən xalq arasında qısa zamanda geniş yayılaraq, bir xalqın mədəni nailiyyəti, onun məişətini ən dərin emosionallıqla vurğulayan əsərlərdir. Maraqlıdır ki, bəstəkar yaradıcılığında əsas yerlərdən birini tutan vokal əsərlərinin forma xüsusiyyətləri bir çox mənada xalq mahnılarının forma xüsusiyyətlərinə əsaslanır. Belə ki, xalq mahnılarının kuplet-nəqarətə əsaslanan sadə forması, onlarda təkrarlılıq, variasiya, sekvensiyavari inkişaf bəstəkar mahnılarında da mühüm cəhət kimi ortaya çıxır. Mahnılardı fikrin sözlə ifadə olunması formanın bu sözlərə tabe edilməsinə şərait yaradaraq, əsərin məzmunu ilə forması arasında dərin əlaqənin üzə çıxarılmasına imkan yaradır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında vokal musiqisi əhəmiyyətli yerlərdən birini tutur. Ən əsası isə xalq musiqisi intonasiyaları, muğam əsası bəstəkar mahnılarının zəminini təşkil edərək, onlardakı milli elementləri qabardır. Bu isə məzmunda ifadə edilmək istənilən lirik, dramatik və ya lirik-dramatik başlanğıcın təqdim olunmasında əhəmiyyətli nüans kimi qyimətləndirilir. Bu mənada istənilən bəstəkarın vokal janrda yazdığı əsər qiymətlidir. A.Zeynalllının vətən gözəlliklərini vəsf edən C.Cabbarlının sözlərinə yazdığı "Ölkəm" romansı, V.Adıgözəlovun Natəvanın sözlərinə bəstələdiyi "Qərənfil", S.Ələsəgərovun M.Füzulinin sözlərinə yazdığı "Vətənimdir" vokal əsərləri

musiqinin ifadə vasitələrinin köməyi ilə dərin məzmun ifadə edən, insanda məzmuna uyğun əhval-ruhiyyə oyadan nadir sənət incilərdir.

Beləliklə Azərbaycan bəstəkarlarının müxtəlif janrlarda yazdıqları əsərlərdə forma və məzmunun dərin emosional qüvvə ilə işlənməsi nəticəsində olduqca maraqlı dramaturgiya, inkişaf xətti yaranmışdır ki, bu əsərlər də milli musiqi mədəniyyəti xəzinəsini zənginləşdirən ən gözəl yaradıcılıq irsini formalaşdıran əsərlədir. Bu, ilk növbədə qısa zamanda Avropa klassik musiqisinin bilinən janr və forma xüsusiyyətlərinin mənimsənilməsi, klassik musiqinin qanunauyğunluqları ilə milli musiqi nailiyyətlərinin qovuşdurulması nəticəsində mümkün olmuşdur ki, bu da milli bəstəkarlıq məktəbinin ən böyük uğuru kimi qiymətləndirilən bir cəhətdir.

ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi (Red. Səfərova Z). II cild Bakı: 2017, Elm
2. Azərbaycan musiqi tarixi (Red. Səfərova Z). III cild Bakı-Elm 2018
3. Qasımova S, Bağırov N. Azərbaycan sovet musiqi ədəbiyyatı. Bakı: 1984. “Maarif”

SUMMARY

Orhan Ghorbani

EXPRESSION OF FORM AND CONTENT IN THE WORKS OF AZERBAIJAN COMPOSERS

The article talks about the unity of form and content in musical works, characteristic aspects of form and content, the methods used by the composer to determine the content. It is noted that, despite having different essences, form and content act as a unity in providing dramaturgical development in musical interpretations. As a result of their interaction, reconciliation of elements and individual components, the composer gets the opportunity to correctly present the idea he wants to express.

The uniqueness of the composer's creativity is determined by the writing technique used by him, the unusualness of the compositional style. One of the important aspects of the composer's creativity is the emphasis on the artist's national identity in the artistic creation.

Many composers achieve this by using folklore examples of their people, folk songs and dances, and national customs. These important components also act as important factors in determining the form and content of musical works. The article draws attention to the importance of the national essence of the lad-maqam base in this or other musical works. Especially in placing national mughams on the background of the works, the purpose of the composer and the creative potential from this direction are brought into consideration. It is noted that all of our composers, who are the successors of U. Hajibeyli's creative legacy, definitely placed national moods and moments at the base of their works, wrote works distinguished by their uniqueness, and at the same time filled the musical culture with rich art examples. The elements of folk music played an important role in solving the format problems of the national mood, created an opportunity for the perfect embodiment of national harmony, and at the same time deepened the content of the works and acted as a mediator in the expression of various emotions in musical interpretations.

In the article, the expression of content in various works of Azerbaijani composersattention is drawn to the importance of mughams. The article looks at the works of Azerbaijani composers with or without a program, touches on the characteristic aspects of their form and content, emphasizes the importance of form and content in presenting the idea expressed in the artistic plot formed in the composer's imagination with all the creative possibilities, dramaturgical development. Here, the features of form in the works written by Azerbaijani composers in the vocal genre are touched upon, and the importance of the unity of word art and music in opening the content is discussed.

Key words: *form, content, music, composer, work*

SOFİYA AXUNDZADƏ
sofiyaaxundzad92@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0001-3098-0017

BƏSTƏKAR SÜLEYMAN ƏLƏSGƏROVUN YARADICILIĞININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Təqdim edilən məqalədə Azərbaycan Respublikasının Xalq artisti, görkəmli bəstəkar Süleyman Ələsgərovun yaradıcılığının səciyyəvi xüsusiyyətləri araşdırılmışdır. Bu il (2024-cü il) S.Ələsgərovun 100 illik yubileyi ərəfəsində onun yaradıcılığının araşdırılması görkəmli bəstəkarın irsinə olan marağın təzahürüdür. Xalq musiqisinə, milli musiqi ənənələrinə sıx bağlı olan S.Ələsgərovun yaradıcılığında musiqi dilinin milli xüsusiyyətlərə əsaslanması və müxtəlif səpkili mövzuları ifadə etməsi bəstəkarın fərdi dəst-xəttinin səciyyəvi cəhəti kimi qeyd olunmalıdır.

S.Ələsgərovun yaradıcılıq irsi çox geniş və hərtərəflidir. Onun yaradıcılığına çoxsaylı mahnıları, instrumental əsərləri, operaları, musiqili komediyaları, simfonik musiqi nümunələri və digər əsərləri daxildir. Bununla belə, S.Ələsgərovun müxtəlif janrları əhatə edən yaradıcılığında musiqili komediya və mahnı janrı əsas yer tutur. Məqalədə S.Ələsgərovun yaradıcılığı fitri istedadı və yaradıcı təxəyyülün təzahürü kimi dəyərləndirilir. Məlumdur ki, Azərbaycan xalqının fəlsəfi təfəkküründən mənbələrindən olan xalq musiqisi Süleyman Ələsgərovun əsas yaradıcılıq mənbəyi olmuşdur. Onun xalq musiqisi intonasiyalarına dərindən bələd olması və hər zaman bu mənbədən bəhrələnməsi, özünəməxsus yazı üslubu, bəstəkarlıq texnikası və fərdi yaradıcılıq xüsusiyyətləri müraciət etdiyi bütün janrlarda maraqlı obrazları canlandırmağa imkan vermişdir. S.Ələsgərov müxtəlif janrlarda yazdığı əsərlərdə özünəməxsus obrazlar aləmi, lirik məzmuna malik olan süjet xətti yaratmağa nail olmuş və bu əsərlərlə milli musiqi mədəniyyəti xəzinəsini zənginləşdirmişdir.

S.Ələsgərov müəllifi olduğu əsərlərdə öz yaradıcılıq imkanlarını, bəstəkarlıq bacarıqlarını göstərməklə yanaşı, həm də Azərbaycanda baş verən ictimai-siyasi, ədəbi prosesləri də ifadə etmiş və hər zaman vətənpərvər bir bəstəkar kimi baş verən hadisələrə öz münasibətini bildirmişdir. O, bir bəstəkar kimi şahidi olduğu hadisələri, yaşadığı dövrün aktual problemlərini, xüsusilə Qarabağ ilə bağlı mövzuları öz əsərlərində ifadə etmişdir.

Yaradıcılığının ən gözəl keyfiyyətlərini müxtəlif janrlarda yazdığı əsərlər ilə təcəssüm etdirməyi bacaran istedadlı bəstəkar Süleyman Ələsgərov müxtəlif mövzulu mahnılarında rəngarəng obrazlar aləmi, orijinal məzmunlu süjet xətti yaratmışdır. Bu baxımdan məqalədə S.Ələsgərovun mahnı yaradıcılığının xüsusiyyətlərinə nəzər salınmış və müxtəlif janr sahələrində əldə etdiyi uğurları işıqlandırılmışdır.

Açar sözlər: *Süleyman Ələsgərov, bəstəkar, musiqi dili, lirika, mahnı*

Azərbaycan bəstəkarlıq məktəbinin nailiyyətlərini, ilk növbədə dahi Üzeyir Hacıbəylinin ənənələrini davam etdirən Süleyman Ələsgərov Azərbaycan musiqi mədəniyyətində çoxşaxəli fəaliyyət göstərmiş, təşkilatçı kimi böyük iş aparmış, bəstəkar, dirijor, pedaqoq kimi milli musiqimizin tarixinə daxil olmuşdur. S.Ələsgərov bəstəkar kimi çox zəngin yaradıcılıq irsi qoyub getmişdir. Onun yaradıcılığı yalnız müxtəlif məzmunlu mövzu və obrazlar baxımından deyil, həm də müraciət etdiyi janrların rəngarəngliyinə görə də fərqlidir. Vətəninə dərindən bağlı olan S.Ələsgərovun yaratdığı əsərlərin böyük hissəsi doğma Azərbaycanla bağlıdır. Bəstəkarın bu bağlılığı onun əsərlərinin musiqi dilində, melodiyasının zənginliyində, ən əsası isə bəstəkarın müraciət etdiyi mövzularda, yaratdığı musiqi obrazlarının xarakterində özünü parlaq şəkildə büruzə verir. S.Ələsgərovun Qarabağ torpağında, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada dünyaya göz

açması, buranın musiqili mühitində böyüməsi, erkən yaşlarından etibarən muğamları, xalq mahnılarını, rəqs melodiyalarını dinləməsi ona gələcək bəstəkarlıq fəaliyyətində bunlardan məharətlə istifadə etməsinə imkan vermişdir. Bəstəkarın musiqi dili həmişə xalq yaradıcılığına bağlı olmuş və xalq musiqisinin xüsusiyyətlərini özündə birləşdirmişdir. Şübhəsiz ki, S.Ələsgərovun bəstəkar kimi formalaşmasında Üzeyir Hacıbəyli ilə qarşılaşması və dahi bəstəkarın onun sənət yolunun müəyyənləşməsində təsiri əvəzsizdir. Bunun nəticəsidir ki, bəstəkar öz yaradıcılıq irsində sevimli müəllimi, böyük ustadı hesab etdiyi Üzeyir bəyin ənənələrinə hər zaman əsaslanmış və əsərlərində dahi bəstəkarın yaradıcı prinsiplərini davam etdirmişdir. 1941-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olan S.Ələsgərov musiqi təhsilinin təkmilləşdirilməsi üçün böyük səy və həvəslə çalışmışdır. B.Zeydmanın bəstəkarlıq sinfində təhsil alan S.Ələsgərov eyni zamanda Ü.Hacıbəylinin tədris etdiyi "Azərbaycan xalq musiqisinin əsasları" fənnini də dərindən mənimsəyirdi. S.Ələsgərov Azərbaycan milli musiqisinin xüsusiyyətlərini dərindən qavrayaraq, özünün yaradıcılıq yolunun əsasını məhz bu illərdə təsdiqləyir. Belə ki, tələbəlik illərində yazdığı "Gözlə məni" mahnısı ilə S.Ələsgərov ilk yaradıcılıq təcrübəsinin başlanğıcını qoymaqla yanaşı, həm də yaşadığı dövrün hadisələrinə, müasiri olduğu zamana öz münasibətini də ifadə edir. Təsadüfi deyildir ki, S.Ələsgərovun mahnı janrında ilk nümunəsi olan "Gözlə məni" 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya respublikaları xalqlarının musiqi ongünlüyündə böyük rəğbətlə qarşılanaraq, gənc müəllifə böyük uğur gətirir. Tələbəsinin uğuruna dahi Üzeyir bəy də biganə qalmır və Bəstəkarlar İttifaqına üzv qəbul olunması üçün zəmanət verir. Həmin dövrdə S.Ələsgərovun bəstəkarlıq aləmində böyük səylə çalışmasından bəhs edən S.Rüstəmov yazırdı: "Hələ böyük müəllimimiz Üzeyir Hacıbəyovun sağlığında Süleymanın xalq çalğı alətləri orkestri üçün yazdığı bir sıra əsərlər ustadımızın diqqətini cəlb etmişdi. Onun müharibə illərində yazdığı ilk pyeslər içərisində "Rəqs", "Cəngi", eləcə də orkestrin müşayiəti ilə bəstələdiyi "Gözlə məni", "Qol çəkirəm" mahnıları indi də təravətini itirməyib" (Babayev, 1992: 8).

Dövrünün bir çox janrlarına müraciət edən S.Ələsgərov opera, operetta, kantata, vokal-simfonik poema, simfoniya, simfonik muğam, üvertura, simfonik poema, süita, instrumental konsert, kamera-vokal musiqinin müxtəlif janrlarında çoxsaylı əsərlər yaratmış, xalq mahnılarını solist, xor, fortepiano, xalq çalğı alətləri və müxtəlif tərkibli ansambllar üçün işləmişdir.

"Bahadır və Sona" və "Solğun çiçəklər" operaları S.Ələsgərovun yaradıcılığında parlaq janr nümunələri kimi dəyərləndirilə bilər. S.Ələsgərovun yaradıcılığında operetta janrı əsas yer tutur. Yaradıcılıq irsinə on bir musiqili komediya daxil olan S.Ələsgərov bu sahədə özünü professional bir bəstəkar kimi nümayiş etdirmişdir. Konservatoriyanın tələbəsi olarkən 1945-ci ildə "Məhəbbət gülü" adlı ilk musiqili komediyasını yazan bəstəkar daha sonra 11 operetta yaratmışdır. "Ulduz", "Milyonçunun dilənçi oğlu", "Özümüz bilərik", "Hardasan ay subaylıq", "Sevindik qız axtarır", "Həmişəxanım", "Olmadı elə, oldu belə", "Gurultulu məhəbbət", "Subaylarınızdan görəsiniz" , "Hərənin öz ulduzu" və digər musiqili komediyaları bu gün də maraqla qarşılanır. 1948-ci ildə Sabit Rəhmanın librettosu əsasında yazdığı "Ulduz" musiqili komediyası bəstəkarın ən tanınmış və ən sevimli səhnə əsəridir. Kənd həyatından və orada çalışan əmək adamlarından bəhs edən operetta gözəl məzmun və formaya, zəngin musiqi partiturasına malikdir. Tamaşaçıların marağına səbəb olan bu komediyada şən, yumoristik səhnələrdən bacarıqla istifadə edən S.Ələsgərov oynaq, melodik və yaddaqalan musiqi yaratmaqla təsvir olunan hadisələrin məzmununu və ayrı-ayrı obrazların daxili aləmini və xarakterini açmışdır. Bəstəkar, Xalq artisti V.Adıgözəlov S.Ələsgərov haqqında xatirələrdə yazırdı: "Musiqinin bir çox janrlarında dəyərli əsərlər yaratmışdı. Xüsusilə musiqili komediya janrında çox işləyirdi. Onun "Ulduz" musiqili komediyası musiqi tariximizin dəyərli səhifələrindən biridir. Özü etiraf edirdi ki, bu əsər Üzeyir bəyin komediyalarının davamıdır" [Təhmirazqızı, 2002: 28]. Eyni zamanda S.Ələsgərovun zəngin yaradıcılıq irsinə simfonik orkestr üçün "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, "Bayram üverturası", violonçel və fortepiano ilə simfonik orkestr üçün ikili konsert və digər əhəmiyyətli əsərləri daxildir. "Rəqs", "Cəngi", "Marş", "Qaytağı", "Fantaziya", "Yallı" kimi xalq çalğı alətləri orkestri üçün yazdığı əsərlər, tar ilə xalq çalğı alətləri orkestri üçün Birinci, İkinci,

Üçüncü konsertləri, tar ilə orkestr üçün "Daimi hərəkət", kamança və orkestr üçün "Tarantella", qanun ilə orkestr üçün "Poema", saz və müğənni ilə xalq çalğı alətləri orkestri üçün "Aşıqvari", 200-ə qədər mahnı və romansları Azərbaycan musiqi mədəniyyətinin əhəmiyyətli bir sahəsini təşkil edir.

Milli çalğı alətimiz tara olan sevgisi S.Ələsgərovun xalq çalğı alətləri üçün daha çox əsər yazmasına səbəb olmuşdur. Bu barədə professor M.Qafarova yazır: "Bəstəkarın yaradıcılığının böyük bir hissəsini Azərbaycan xalq çalğı alətləri orkestri üçün qələmə aldığı əsərlər təşkil edir. Bəstəkar ilk əsərini də məhz xalq çalğı alətləri orkestri üçün bəstələmişdir. 1941-ci ildə yazdığı "Rəqs" pyesi ilə S.Ələsgərov bəstəkarlıq sənətinə qədəm qoymuşdur." [Qafarova, 2012: 7]. Məlumdur ki, bəstəkarın yaradıcılığında vokal musiqisi janrları, xüsusilə mahnı və romans əsas yer tutur. Klassik Azərbaycan ədəbiyyatına, eləcə də onun müasiri olduğu ədəbi nümunələrə müraciət edən S.Ələsgərov vokal yaradıcılığında müxtəlif məzmuna malik olan əsərlərin müəllifidir. Bəstəkar vokal əsərlərində poetik mətnin məzmunu ilə təfəkkürünün düşüncələrini və duyğularını əlaqələndirmiş, zəngin musiqi dili ilə janr rəngarəngliyinə malik olan əsərlər yaratmışdır. Eyni zamanda S.Ələsgərovun klassik şeir vəzninə, xüsusilə əruza bələd olması onun romans-qəzəl janrında yazdığı əsərlərdə maraqlı janr nümunələrinin yaranmasına səbəb olmuşdur. Bəstəkarın romans-qəzəl janrında yazdığı əsərlərdə əruz vəzninin xüsusiyyətləri musiqi ilə poetik mətnin üzvi əlaqələndirilməsində nəzərə çarpır. S.Ələsgərovun vokal əsərləri insan düşüncəsinin və hisslərini ifadəsi kimi dərk edilə bilər. Bəstəkar bu hissləri musiqi vasitəsilə ifadə edərək, məzmunla uyğunlaşdırmış və dərin düşüncələri əks etdirən fikirlərini dinləyicilərə çatdırmağa nail olmuşdur.

Bir bəstəkar kimi S.Ələsgərovun fərqliliyi ondadır ki, o, bütün fəaliyyəti boyu Azərbaycan musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir. Bütün yaradıcı fəaliyyəti boyu mahnı janrında çoxsaylı əsərlər yazan S.Ələsgərov məzmundan irəli gələn maraqlı musiqi nümunələri də yaratmışdır. Onun müxtəlif mövzuları əks etdirən mahnılarında vətənə məhəbbət, dövrün ictimai-siyasi hadisələrinin əks etdirilməsi, rəngarəng məzmunlu melodiyalar müşahidə olunur. Bəstəkarın mahnılarında insanların dərin mənəviyyatı, əmək adamlarının fədakarlıqları öz əksini tapmışdır. Eyni zamanda S.Ələsgərovun vokal janr nümunələri forma-quruluş xüsusiyyətləri, melodik musiqi dili, ritm, milli musiqinin xüsusiyyətlərinə əsaslanan harmonik dönmələrinin zənginliyi ilə də seçilir. S.Ələsgərovun yaradıcılıq irsində kamera-vokal əsərlərinin üstünlük təşkil etməsi onun mahnıvariliyə meyl etməsi ilə də əlaqələndirilə bilər. Özünün milli ənənələrə əsaslanan bəstəkarlıq üslubunu yaradan S.Ələsgərovun əsərlərində melodiklik və melodiyanın zəngin çalarlara malik olması diqqəti cəlb edir. Onun bəstələdiyi mahnılar müxtəlif illərdə məcmuə şəklində çap olunmuşdur. S.Ələsgərovun mahnılarının məzmunu son dərəcə sadəliyi və formasının demokratikliyi ilə seçilir. S.Ələsgərov dərin köklərlə Vətəninə, doğma Azərbaycanına bağlı idi. Məcmuələr belə adlanır: "Lirik mahnılar", "Mahnılar", "Sərhədçilər nəğməsi", "Bu torpağa bağlıyıq", "Hünər və könül təranələri.", "Əmək və hünər nəğmələri", "Eşq olsun sənətkara", "Qol çəkirəm", "Ulduzun mahnısı" , "Hardasan igid oğlan?" və s.

Nəticə olaraq qeyd etməliyik ki, S.Ələsgərovun yaradıcılıq irsinə daxil olan əsərlər bütün dövrlər üçün aktual və mühüm əhəmiyyət kəsb edən musiqi nümunələridir. Həmçinin, əsərlərində ifadə etdiyi mövzuların dövrün tələblərinə uyğun olması, müasirliklə səsləşməsi S.Ələsgərovun yaradıcılığına olan marağın dərinləşməsinə gətirib çıxarır. S.Ələsgərov həssas qəlbli bir sənətkar idi, elə bunun nəticəsidir ki, onun əsərlərində xalqının, millətinin ağrı-acılarına, doğma Qarabağda baş verən hadisələrə yanğı hissi ilə yanaşmanı görməmək mümkün deyildir. Milli köklərə və ənənələrə bağlılıq S.Ələsgərovun dərin məzmunlu yaradıcılığının aktual olmasını bu gün də qoruyub saxlayır.

ƏDƏBİYYAT

1. Babayev E.Ə. Süleyman Ələsgərov / E.Ə.Babayev. Bakı: 1992. Azərnəşr, 18 s.
2. Qafarova M. Bəstəkar Süleyman Ələsgərov və xalq çalğı alətləri orkestri. Bakı: 2012. ADPU-nun nəşriyyatı

3. Mustafayeva N.T. Bəstəkar Süleyman Ələsgərov yaradıcılığının əsas istiqamətləri // – Bakı: 2014. Konservatoriya, №2 (24), – s.25-30
4. Təhmirazqızı S. Süleyman Ələsgərov xatirələrdə / S.Təhmirazqızı. Bakı: 2002. Təfəkkür, 390 s.

SUMMARY

Sofiya Akhundzade

SPECİFİC CHARACTERİSTİCS OF SULEYMAN ALESGAROV'S CREATİVİTY

The presented article examines the characteristics of the work of the People`s Artist of the Republic of Azerbaijan, outstanding composer Suleyman Alasgarov. This year (2024) on the eve of S. Alasgarov`s 100th anniversary, the study of his work is a manifestation of the interest in the legacy of the outstanding composer. Being closely connected to folk music and national musical traditions, the musical language based on national characteristics and the expression of various themes in the works of S.Alasgarov should be noted as a characteristic feature of the composer`s individual handwriting.

S.Alasgarov`s creative heritage is very wide and comprehensive. His works include numerous songs, instrumental works, operas, musical comedies, symphonic pieces and among other works. However, in S.Alasgarov`s creativity, which includes various genres, the musical comedy and song genres occupy the main place. In the article, S.Alasgarov`s creativity is valued as a manifestation of his innate talent and creative imagination. It is known that folk music, which is one of the sources of the philosophical thinking of the Azerbaijani people, was the main creative source of Suleyman Alasgarov. His deep familiarity with the intonations of folk music and his constant use of this source, his unique writing style, compositional technique and individual creative features allowed him to portray interesting characters in all the genres he applied to. S.Alasgarov managed to create a unique world of images, a plot line with lyrical content in the works he wrote in various genres and enriched the treasure of national musical culture with these works.

S.Alasgarov, in addition to showing his creative abilities and compositional skills, also expressed the socio-political and literary processes taking place in Azerbaijan in the works he authored, and always expressed his attitude to the happenings as a patriotic composer. He expressed the events he witnessed as a composer, the actual problems of his time, especially the issues related to Karabakh in his works.

The talented composer Suleyman Alasgarov, who is able to embody the best qualities of his creativity with his works in various genres, has created a world of colorful images and an original plot line in his songs with various themes. In this regard, the article examines the features of S.Alasgarov`s song creation and highlights his achievements in various genres.

***Key words**: Suleyman Alasgarov, composer, musical language, lyrics, song*

ŞƏMSİYYƏ ZALOVA
wems.zal@mail.ru
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu
ORCİD İD: 0009-0008-5819-107X

AZƏRBAYCAN MEMARLIQ TARİXİ ƏCNƏBİ TƏDQİQATÇILARIN QEYDLƏRİNDƏ

Azərbaycan torpaqları müxtəlif dövrlərdə arxeoloji zənginliyi ilə seçilən ərazilərdən olub. Qədim zamanlardan başlayaraq Azərbaycan ərazisində formalaşan xalçaçılıq, dulusçuluq, zərgərlik kimi el sənətləri ilə yanaşı, memarlıq da əcnəbi səyyahların, arxeoloqların və şərqşünasların diqqətini çəkib. Həmin tədqiqatçılar tərəfindən Azərbaycanın müxtəlif bölgələrində aparılmış araşdırma işləri bizə memarlıq sənətimizə xas olan bədii və texnoloji xüsusiyyətlər haqqında ətraflı məlumat verir. Məqalədə əcnəbi tədqiqatçıların qeydlərindəki zəngin memarlıq sənətimiz araşdırılır.

Açar sözlər: *Azərbaycan, memarlıq, səyyah, arxeoloq, tədqiqat*

Azərbaycanda incəsənətin yaranma tarixi burada vahid dövlətin yaranması tarixindən daha qədimdir. Misal olaraq deyə bilərik ki, yunan tarixçiləri Alban qəbiləsinin fəaliyyəti haqqında çox erkən vaxtlarda yazmağa başlamışlar (Kərimov K. və b., 1992, 7). Bu və rast gəlinən digər faktlar sübut edir ki, Azərbaycanda istər ibtidai icma quruluşu, istərsə də orta əsrlərə aid sənət növləri əhatəli şəkildə öyrənilib. Azərbaycanın rəmzi sayılan Qobustan qayaüstü təsvirlərini araşdıran T.Heyerdal və sonrakı dövrlərdə nəhəng daşlardan istifadənin nəticəsində yaranmış meqalitik abidələrdən olan menhirlər, dolmenlər, kromlexlər və bu tipli digər tikililərin tapılmasında rolu olan J.Morqan, İ.İ.Meşşaninov, Y.İ.Hummel çox qədim eksponatlar aşkar ediblər. J.Morqan Lənkəran rayonunun Görükdi kəndi yaxınlığında ikimərtəbəli dolmenləri tapıb və ilk dəfə onların elmi, tarixi və dini mahiyyəti haqqında məlumat vermişdi (Kərimov K. və b., 1992, 14).

Müxtəlif dövrlərin məhsulu olan və formasına görə Misir pramidalarını xatırladan kurqanlar Azərbaycanda dağətəyi və düzənlik yerlərdə geniş yayılmışdı. Kurqanlar "axirət dünyası" ideyasına xidmət edən memarlıq abidələri idi. Bu abidələr qəbirlər üzərində ucaldılmış konusşəkilli təpələrdən ibarət idi. Tədqiqatları əsas olaraq tunc-erkən dəmir dövrünü əhatə edən alman arxeoloqu Y.İ.Hummelin Xanlar rayonunun kurqanlarının öyrənilməsində müstəsna xidmətləri olub. Qədim dövr dəfn adətlərini geniş şəkildə araşdıran alim qəbirlərin səpələnmiş halda deyil, müəyyən ərazidə toplanmasına diqqət yetirib. Alim belə qənaətə gəlib ki, bütün qəbirlər müəyyən bir nöqtə ətrafında - günəş şüasının çevrə boyu yayılması istiqamətində tikilib. Onun kəşf etdiyi bu qanunauyğunluq "Şəfəq sistemi" adı ilə bizə məlumdur (Kərimov K. və b., 1992, 17).


Yunan əsatirləri ilə əlaqələndirilən və Azərbaycanda daha geniş miqyasda yayılmış abidələrdən olan Siklopik tikililər guya siklop adlanan nəhəng və təkgöz insanlar tərəfindən yaradılıb (Kərimov K. və b., 1992, 15). Bu tikililər inşaat məhlulu işlədilmədən, yonulmamış böyük daşlardan əmələ gəlmiş, dinc dövrdə yaşayış, müharibə dövründə isə müdafiə üçün istifadə edilirdi. Dağ yerlərində yaradılmış kiçik siklopik abidələrdən isə mal-qaranı saxlamaq, qorumaq üçün bir çəpər kimi istifadə edilmişdi. Daşlarının uzunluğu bəzən 2 metrə qədər çatan və dünyanın bir çox yerində rast gəlinən bu tikililər xalq arasında "qalaça", "qalacıq", "hörük", "hörükdaş" kimi adlanırdı. Bu abidələri ilk dəfə olaraq apardığı elmi araşdırmaları ilə tariximizə bir çox qiymətli nümunələr bəxş edən İ.M.Cəfərzadə ilə birlikdə İ.İ.Meşşaninov da tədqiq etmişdi (Kərimov K. və b., 1992, 16). Azərbaycanın qədim tarixinə və arxeologiyasına dair bir sıra əsərlərin müəllifi olan məşhur akademik təsadüfi deyil ki, torpaqlarımızı zəngin və təbii muzey adlandırmışdı.

Azərbaycan tarixinə dair araşdırmalar göstərir ki, uzun inkişaf yolu keçmiş və heç bir mədəniyyəti təqlid etməyən memarlıq sənətimiz orta əsrlərdə də öz yüksəlişini davam etdirib. Bu inkişafın əsas səbəblərindən biri də, bu dövrdə Aran, Şirvan-Abşeron, Naxçıvan kimi memarlıq məktəblərinin təşəkkül tapması və Azərbaycanda inşaat texnikasının yüksək tərəqqisi ilə bağlı idi.

Ölkəmizdə kobalt filizinin külli miqdarda olması və ondan firuzəyi şir üçün səmərəli istifadə edilməsi nəticəsində xüsusi kaşıların istehsalı genişlənmişdi. Çünki memarlıq abidələrinin xarici və daxili tərtibatında bu kaşılardan geniş istifadə edilirdi. Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Bərdədə, Şirvan və bir çox yerlərdə tikilmiş məscidlərin, türbələrin, hamam və binaların bədii tərtibatında işlənmiş müxtəlif rəngli kaşı nümunələri bu günə kimi qorunub saxlanılmışdır. Ərəb tarixçilərindən Müqəddəsi, Həməvi və başqaları Azərbaycan şəhərlərində kaşılarla bəzədilmiş binaların olmasını xəbər vermişlər. XII əsrin sonu, XIII əsrin əvvəllərində yaşamış və şəxsən Təbrizdə olmuş Y.Həməvi bu barədə öz qeydlərində yazır: "Təbriz çox əhaliyə malik gözəl şəhər olub, kərpicdən tikilmiş evləri kaşılarla bəzədilib" (Kərimov K. və b., 1992, 62). Azərbaycan memarlıq sənətində ən gözəl kaşı nümunələri Şirvan-Abşeron memarlıq məktəbinə daxil olan Pirsaatçay xanəgahı kompleksinin mühüm hissəsi sayılan Pir Hüseyn türbəsinin kaşılarıdır. Bu kaşı nümunələri hal-hazırda dünyanın bir çox məşhur muzeylərində qorunub saxlanılır. Rus şərqşünası V.A.Kraçkovskaya tərəfindən ətraflı şəkildə öyrənilən bu türbənin ornamental bəzəkli kaşıları və kitabələri tarixi əhəmiyyətli materiallar olduğu üçün hətta monoqrafik əsər şəklində də nəşr edilib (Əfəndiyev.R., 2007, 38).

1858-ci ildə rus şərqşünası İ.X.Bartolomey xanəgahda olub, abidədəki kitabələr, türbənin və məscidin al-əlvan kaşı bəzəkləri onu heyrətə gətirib (4).

Şirvan-Abşeron memarlıq məktəbinin digər bir nümunəsi olan və tədqiqi hələ də davam edən "Bayıl qalası" hazırda Xəzər dənizi sularının altında qalmış mühüm tarixi memarlıq abidəsidir. 1782-ci ildə rus xəritəçiləri tərəfindən düzəldilmiş Bakı limanının xəritəsində "Bayıl daşları" nın sudan çıxmağa başladığı qeyd edilmişdi. Arxeoloqlarımız tərəfindən son illərədək dənizdən çıxarılmış 700-dən çox bədii daş hissələri vaxtilə quruda yerləşən möhtəşəm bir memarlıq abidəsinin bəzəkləri olmuşdu. Qalanın tikinti qalıqları haqqında A.Bakıxanov ilə yanaşı rus şərqşünası İ.N.Berezin də maraqlı məlumatlar verib (Kərimov K. və b., 1992, 65). Şirvan-Abşeron memarlığı tikililəri ilə yaxından maraqlanan şərqşünas eyni zamanda, XIII əsrdə inşa olunmuş Bibiheybət məscidinin inşası ilə bağlı ərəbcə yazının tapılmasında da əhəmiyyətli rol oynamışdı. Gəncə sənətkarları memarlıq abidələrində tətbiq olunan metal pəncərə barmaqlıqlar və qapı düzəltməkdə xüsusilə mahir olmuşdular. XIII əsr tarixçisi K.Qandziyskinin verdiyi məlumata görə Gəncə şəhərinin tunc darvazası 1139-cu ildə I Dmitrinin Gəncəyə basqını zamanı hərbi qənimət kimi Gürcüstana, Kelati monastrına aparılmışdır. XII əsrdə Gürcüstanın mədəni həyatında xüsusi rol oynayan Kelati monastrında gürcü şahları qarətlər zamanı əldə edilmiş nadir sənət nümunələri və qiymətli əlyazmaları saxlayırdılar (Əfəndiyev.R., 2007, 47). Bu qapı bədii cəhətdən ümumi görünüşü və əzəməti ilə diqqəti cəlb edirdi. Qapının horizontal bəndləri arasındakı boşluqlarda verilmiş kufi xəttli yazını 1835-ci ildə şərqşünas X.Fren oxumuşdur (Kərimov K. və b., 1992, 71).



Qeyd edildiyi kimi o dövrlərdə metaldan yalnız məişət əşyalarının düzəldilməsində yox, memarlıq abidələrində element kimi geniş istifadə edilirdi. XV əsrin 70-ci illərində Sultaniyyə şəhərində olmuş italyan səyyah A.Kontarini "Cümə məscidi" nin bürünc qapıları haqqında yazır: "Bu möhtəşəm binanın ən gözəl hissəsini onun tökmə üsulu ilə düzəldilmiş bürünc qapıları təşkil edir. Bu qapılar Venesiyada yerləşən müqəddəs "Mark kilsəsi"nin qapılarından xeyli hündürdür. Üst səthi xatəmkarlıq üsulunda, gümüşlə bəzədilmiş bu qapıların yəqin ki, çox böyük qiyməti vardır" (Əfəndiyev.R., 2007, 51).

XV əsrdə Təbizdə memarlıq və təsviri sənət sürətlə inkişaf edirdi. 1478-ci ildə monumental boyakarlığı ilə təkcə Azərbaycanda deyil, ümumiyyətlə Yaxın Şərqdə nadir sənət əsəri kimi yüksək qiymətləndirilən "Həşt Behişt" sarayı tikilməyə başlayır. İtaliyalı elçi və səyyahların yazılarından

bəlli olduğu kimi, sarayın dairəvi zalı və digər otaqlarının tavan və divarlarında ov və müharibə səhnələrini, saray məclislərini təsvir edən süjetli kompozisiyalar işlənmişdi. Freska texnikası ilə işlənmiş bu monumental boyakarlıq əsərləri təsvirin reallığı ilə Avropa səyyahlarının diqqətini cəlb etmişdi. "Fiqurlar elə məharətlə təsvir olunmuşdu ki, canlı insanlar kimi görünürdü. Bu gözəl təsvirlərlə bəzənmiş zal əfsanəvi təsir oyadırdı". Venesiya səfiri A.Kontarinin yazdığına görə, otaqlardan birinin divarında Herat hakimi Əbu Səidin edam olunması səhnəsi təsvir edilmişdi" (Kərimov K. və b., 1992, 95). Beləliklə, bu məlumat XV əsrdəAzərbaycanda memarlıq tikililərində monumental boyakarlığın süjetli divar təsvirlərinin mövcud olduğunu bir daha təsdiqləyir.

Təəssüf hissi ilə qeyd etməliyik ki, ölkədə tez-tez baş verən təbii fəlakətlər, ictimai sarsıntılar, baxımsızlıq və digər səbəblər nəticəsində qədim dövr və orta əsrlərə aid divar rəsmləri vaxtından əvvəl məhv olmuş, onun ən qədim nümunələri dövrümüzə qədər əsasən XVIII əsrdən gəlib çatmışdır. Halbuki müxtəlif dövrlərdə Azərbaycanda olmuş səyyah və alimlərin rəsm və yazıları bu sənətin Azərbaycanda qədim tarixə malik olduğunu, hətta bədii üslub xüsusiyyətlərinə görə miniatür sənətinin təsiri altında inkişaf etdiyini sübut edir (Kərimov K. və b., 1992, 196).

Dövrümüzə qədər gəlib çatmayan divar rəsmləri içərisində İrəvan sərdarı Hüseynqulu xanın sarayındakı təsvirlər daha böyük əhəmiyyət kəsb edir. Sarayın memarlığı, xüsusən də güzgülü zalın memarlıq quruluşu və dekorativ tərtibatı öz orijinallığı ilə seçilir. A.Qriboyedov, B.Moşkov, Q.Qaqarin kimi tədqiqatçılar öz yazıları və şəkillərində sarayın divar rəsmlərinə aid son dərəcə maraqlı məlumatlar vermişlər. Həmin şəkil və yazılar sarayın 1850-ci illərdə görkəmli Azərbaycan rəssamı M.Q.İrəvani tərəfindən bərpa olunmasına qədərki vəziyyəti haqqında müəyyən qədər təsəvvür oyadır (Kərimov K. və b., 1992, 197).


Hələ qədim zamanlarda K.Ptolomeyin və İ.Flavinin haqqında ilkin məlumat verdikləri Naxçıvan qədim və orta əsr memarlıq abidələri ilə zəngindir. Naxçıvan memarlıq məktəbinin incisi sayılan və bürcvari Azərbaycan türbələrinin ən görkəmli nümunəsi olan "Mömünə Xatun türbəsi" bir çox tarixi qeydlərdə öz əksini tapıb. Əcəminin tükənməz fantaziyasını özündə parlaq şəkildə əks etdirən türbə mürəkkəb kərpic hörgüsü və firuzəyi kaşıları ilə ümumşərq memarlığında görkəmli yerlərdən birini tutur. Fransalı arxeoloq J.Dyölafua Mömünə Xatun kompleksinə daxil olan hissələr, o cümlədən, Cümə məscidi haqqında qiymətli məlumatlar vermişdir. Digər bir fransalı səyyah D.Monpere isə türbənin gözoxşayan və təkrara yol verilməyən ornamental divar naxışlarını tədqiq etmiş, onun kitabələrini akademik X.Frenə göndərmişdi (Əfəndiyev.R., 2007, 31).

XII əsrdən sonra da öz inkişafının yüksək zirvəsində dayanmağa davam edən Naxçıvan memarlığı bir çox Şərq sənətkarlarına istiqamət verib. Hətta bu fikir bu gün də tarixi faktlarla izah olunmaqdadır. Əcəmi əsərlərinin Yaxın Şərq ölkələrindəki təsir qüvvəsindən danışarkən, alman şərqşünası E.Ditsin "Türk sənət tarixi" əsərində irəli sürdüyü mülahizəni də qeyd etmədən keçmək olmaz. E.Dits bu qeydlərində məşhur türk memarı Sinanın ucaltdığı bəzi türbələrin Naxçıvan türbələrinin təsiri ilə tikildiyini açıq etiraf edirdi. Memar Sinanın Naxçıvan abidələri ilə necə tanış olduğunu izah edərkən isə onun ordu mühəndisi sifəti ilə burada olduğu vurğulanır (Əfəndiyev.R., 2007, 32). Maraqlı cəhət burasındadır ki, digər türkiyəli tədqiqatçılar da bu faktları mütləq şəkildə qəbul edirlər. Memar V.Dalokay "Toplumçu Sinan" adlı məqaləsində memar Sinanın İstanbuldakı "Xosrov Paşa türbəsi"ndən bəhs edərkən "Atabəylərdən qalma günbəzlərdən bir nəfəs gəlir" deyə qeyd edir (Əfəndiyev.R., 2007, 32).

Azərbaycanda memarlıq abidələrinin mühafizəsi üçün bir sıra arxeoloji qazıntı və bərpa işlərində fəal iştirak edən İ.P.Şeblıkinin adı xüsusi vurğulanmalıdır. Çünki o, rəssam istedadına malik olduğundan abidələri təkcə bir alim kimi öyrənmirdi, həm də onların bir çoxunun rəsmini yaradırdı. İ.Şeblıkin həm də Naxçıvanda olmuş, tarixi-memarlıq abidələrinə, şəhərin qədim məhəllələrinə və mənzərələrinə silsilə rəsmlər həsr etmişdir. Onun bu silsilə rəsmləri arasında Ordubad rayonunun memarlıq abidələrinin təsvirləri də yer alır. İ.Şeblıkinin çəkdiyi "Qarabağlar türbəsi", "Atababa türbəsi", "Naxçıvanda XV əsr xanəgahı", "Vənənd kəndində qoç abidələri", "Siklopik abidə", "Qazançı kəndində körpü" kimi rəsmlərin sözün əsl mənasında, tarixi mahiyyət daşıdığını desək yanılmarıq.

Müxtəlif dövrlərdə qeydə alınmış bu və digər yazılar göstərir ki, Azərbaycan torpaqları buraya gələn hər bir qonağı təəccübləndirib. Məsələn, bu gün Şəkidə büstü ucaldılan və Azərbaycan tarixinə dair maraqlı tədqiqatları ilə elmə öz töhfəsini verən məşhur norveçli alim T.Heyerdal xalqımızın ən qədim dövrlərə aid tarixini öyrənmək baxımından qiymətli mənbə olan Qobustan qayaları qarşısında heyrətini gizlədə bilməmişdi. Bundan əlavə Bərdədəki məşhur "Allah-Allah" türbəsinin, Ordubaddakı Vənənd məscidinin kitabələrini oxumuş N.Xanıkov və digər tarixçilərin də memarlıq mədəniyyətimizin müntəzəm şəklidə öyrənilməsində az rolu olmayıb.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi həvəskar tədqiqatçılar da olub ki, onların axtarışları heç də planlı və sistemli şəkildə olmayıb, əksinə, təsadüfi səciyyə daşıyıb. Bu səbəbdən də əldə olunan nəticələr çox zaman elmi həqiqətlərdən bir qədər uzaq olurdu. Bəzən misilsiz, qiymət biçilməz maddi-mədəniyyət nümunələrimiz xarici ölkələrdə muzeylərə satılırdı. Məsələn, vaxtı ilə fransız alimi J.Morqan tərəfindən aşkarlanan maddi-mədəniyyət nümunələrinin xeyli hissəsi ölkəmizin sərhədlərindən kənara aparılıb. Təqdirəlayiq haldır ki, elə peşəkar əcnəbi arxeoloqlarda olmuşdur ki, onların apardığı tədqiqat işləri öz reallığı ilə xeyli fərqlənib, bənzərsiz inkişaf yolu keçmiş olan memarlıq tariximiz haqqındakı yanlış nəzəriyyələri puça çıxarıb.


Naxçıvanda "Ata-baba" türbəsi-1937 ci il

ƏDƏBİYYAT

1. Əfəndi.R. Azərbaycan incəsənəti. Bakı: 2007, Şərq-Qərb, 160 s.
2. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Bakı: 1992, İşıq, 344 s.
3. https://medeniyyet.az/page/news/50431/Naxcivan-tarixi-renglerin-isiginda.html?lang=az
4. https://www.medeniyyet.az/page/news/52150/Kerpicleri-dunyanin-meshur-muzeylerine-aparilan-xanegah.html

SUMMARY

Shamsiya Zalova

AZERBAIJAN ARCHITECTURAL HISTORY IN THE NOTES OF FOREIGN RESEARCHERS

The lands of Azerbaijan were distinguished by their archaeological richness in different periods. In addition to handicrafts such as carpet weaving, pottery, and jewelry, which have been formed in the territory of Azerbaijan since ancient times, architecture has also attracted the attention of foreign travelers and archaeologists. The research conducted by those researchers in different regions of Azerbaijan gives us detailed information about the artistic and technological features characteristic of our architectural art. The article examines our rich architectural art in the notes of foreign researchers.

Key words: *Azerbaijan, architecture, traveler, archaeologist, research*

TURANXANIM HÜMBƏTOVA
turanhumbatova@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0008-3420-7946

KLASSİK SƏHNƏ SƏNƏTİNDƏ REJİSSORUN VƏ AKTYORUN ROL ÜZƏRİNDƏ YARADICILIQ PROSESİNƏ K.S.STANİSLAVSKİ "SİSTEM"İNİN TƏTBİQİ PRİNSİPLƏRİ

Məqalədə aktyorun öz üzərində işini ilk olaraq sistemləşdirib bir nəzəriyyə halına salan klassik aktyor sənəti məktəbinin banisi Konstantin Stanislavski sistemi təhlilə cəlb edilir. Klassik səhnə sənətində rejissorun və aktyorun rol üzərində yaradıcılıq prosesinə K.S.Stanislavski "Sistem"inin tətbiqi prinsipləri araşdırılır. Stanislavski sisteminə görə aktyor ilk növbədə təklif olunan vəziyyəti dəyərləndirməlidir. Çox vaxt aktyorlar tamaşada adı keçməyən, səhnədə olmayan simvollar və hadisələrin haqqında düşünməlidirlər. Aktyor özünə Mən nə edirəm? Necə edirəm? Nəyə görə edirəm? kimi suallar verməlidir. Məqalədə, həmçinin Stanislavski sisteminə uyğun olaraq aktyorun rol üzərində iş zamanı tamaşanın atmosferi, diqqət, fəaliyyət, daxili monoloq kimi diqqət yetirməli olduğu faktorlardan bəhs edilir.

Açar sözlər: *Stanislavski, aktyor, xarakter, diqqət, daxili monoloq*

Aktyorun öz üzərində işini ilk olaraq sistemləşdirib bir nəzəriyyə halına salan Konstantin Stanislavski olmuşdur. K.Stanislavskinin işləyib hazırladığı və inkişaf etdirdiyi bu klassik aktyor sənəti texnikası özündən sonra bir çox aktyorluq texnikalarının yaranmasına rəvac vermişdir. S.Meisner, V.Meyerhold, B.Brext, E.Morris, L.Strasberq, L.Qrotovski, P.Bruk, A.Boal kimi teatr xadimləri Stanislavski sistemindən bəhrələnərək, bəzən ona yaxın, bəzən isə tamamilə ona zidd olan yeni məktəblər formalaşdırmışlar (4).

Stanislavski sistemi aktyorun rolunun mahiyyətini anlamaq üçün bir sıra təlimlər və prinsiplər sistemidir. Bu aktyorluq texnikası aktyorun özünü personajın yerinə qoyub xarakterlə ümumi cəhətləri cəmlədiyi, yəni aktyorun obraza çevrildiyi bir texnikadır. Bu sistemde aktyor obraza bürünmək üçün özünə ilk növbədə "Mən onun yerində olsam nə edərdim?" sualını verir. Stanislavski aktyorun səhnədəki oyununu 3 yerə ayırır. Yaşama, göstərmə və imitasiya. Stanislavskiyə görə bunlardan ən yüksəyi və doğru olanı yaşama sənətidir.

Stanislavski sisteminə əsasən, səhnədə "mənasız hərəkətlər" edilməli deyil, Bütün hərəkətlər obrazın yaşadığı durumla bağlı təbii olaraq edilməlidir. Aktyor səhnədə olan hər bir hərəkətə haqq qazandırmalı və içindən keçməlidir. Aktyor ilk növbədə təklif olunan vəziyyəti dəyərləndirməlidir. Çox vaxt aktyorlar tamaşada adı keçməyən, səhnədə olmayan simvollar və hadisələrin haqqında düşünməlidirlər. Aktyor özünə Mən nə edirəm? Necə edirəm? Nəyə görə edirəm? kimi suallar verməlidir. Məsələn, bir şəxs bir otağa girərsə, o, haraya və niyə girdiyini bilməlidir. Tamaşaçı bunu görməyəcək, ancaq aktyor bunu başa düşməlidir. O, haradan gəlir? Hava necə idi? O girməzdən əvvəl nə etmişdi? Niyə buraya gəlib? və s. kimi sualların cavabını əvvəlcədən təyin etməlidir. Bu doğru duyğuya sahib olmağa, obrazın tamamilə içinə girməyə kömək edir.

Stanislavskiyə görə tamaşada ən önəmli faktorlardan biri atmosfer, yəni ab-havadır. Atmosfer anlayışı mürəkkəb və çoxqatlıdır, lakin onda bir neçə mühüm cəhətləri ayırd etmək olar: məkan, zaman və psixoloji (Yarkova E.N., 2011). Tamaşanın ümumi atmosferi deyildikdə hadisələrin cərəyan etdiyi məkan, zaman, personajların geyim tərzi, dekor, musiqi, rəssamın işi, aktyorların oyun tərzi və s. başa düşülür. Bu siyahını təbii ki, uzatmaq da mümkündür. Bu faktorların hər biri ab-havanın doğru qavranılmasında mühüm rol oynayir, amma ab-havanın əsas daşıyıcısı təbii ki, aktyordur. Çünki səhnə ab-havası tamaşanın baş verən hadisələr, konfliktlər ilə qırılmaz şəkildə bağlıdır. Bu hadisələrin və konfliktlərin ab-havasını yaradan və saxlayan aktyordur. Atmosfer

yaratmaq üçün musiqi, işıqlandırma, əlavə məişət təfərrüatları kimi elementlər də aktyora kömək edir. Bu cür təfərrüatlar aktyorun psixoloji yaşantısı ilə birbaşa bağlı deyilsə də, tamaşaçının hadisələrin içinə çəkilməsində və obrazlarla emosional bağ qurmasında böyük rol oynayır.

Atmosferin qavranılmasındaa ən mühüm nüanslardan biri aktyorun tərəf müqabili ilə qarşılıqlı münasibəti, ünsiyyətidir. Personajların bir-biri ilə toqquşması,qarşılıqlı münasibəti tamaşanın inkişafında mühüm amildir. Elə tamaşanın özünün mahiyyəti onun məkanında yaşayan insanlar arasında baş verənlər üzərinə quruludur. Və bu baş verənlər onların bir-biri ilə və ətraf aləmlə qarşılıqlı münasibətində üzə çıxır. Əgər personajın hərəkətləri hazırda səhnədə olan və ya olmayan tərəf müqabilinə yönəlməyibsə, o zaman səhnədə heç nə baş vermədiyini söyləyə bilərik. Təəssüf ki, səhnədə imitasiyaya, qarşılıqlı əlaqənin həqiqətən qurulması əvəzinə təyin edilməsinə səhnədə tez-tez rast gəlinir. Və ya aktyorlar qarşılıqlı əlaqədə olduqlarını iddia edirlər, amma əslində onlar özləri ilə məşğul olurlar və səhəndə sadəcə təcrübələrini ifadə edirlər. Bu da aktyorun tərəf müqabili ilə əslində ünsiyyət qurmadığını, bunu sadəcə təqlid etdiyini göstərir. Əsl duyğular yalnız o zaman yarana bilər ki, onlar kiməsə yönəlmiş olsun.

Qarşılıqlı təsir davamlı, daimi, ikitərəfli, qarşılıqlı, çoxmərhələli bir prosesdir. K. S. Stanislavski "Aktyorun öz üzərində işi" kitabında üzvi ünsiyyət prosesinin beş mərhələsini formalaşdıraraq onun komponentləri üzərində ətraflı dayanan ilk şəxsdir. Qarşılıqlı əlaqənin qurulması üçün əsas ünsürlər diqqət, fəaliyyət, idrak, daxili monoloq (aktyorun öz içində qərar verməsi), cavab hərəkətidir **(**Stanislavski K.S., 2011, 45**).** Buradan aydın olur ki, diqqət, hərəkət, qavrayış, davamlı daxili monoloq olmadan qarşılıqlı əlaqə mövcud ola bilməz. Qarşılıqlı əlaqə səhnə həyatının bir növ əbədi hərəkət maşınıdır. Bu maşın dayanarsa səhnədə heç bir fəaliyyətdən söz gedə bilməz.

Aktyorun səhnədə diqqəti yaradıcı xarakter daşıyır, çünki o, diqqət obyektini öz məqsədinə və ya tapşırığına, təklif etdiyi şəraitə uyğun seçir Səhnədə davamlı diqqətə nail olmaq üçün obyektə, onunla bağlı baş verənlərə diqqət yetirmək çox vacibdir (Stanislavski K.S., 2011, 72). Qavrama prosesi həqiqi diqqətdən başlayır Səhnə diqqətinin obyekti səhnədə mövcud olan və ya olmayan tərəf müqabili, personaj üçün vacib olan cansız əşyalar, səhnədən kənarda baş verən hər hansı bir hadisə və s. ola bilər. Bəzən aktyor səhnədə canlı bir obyekt, yəni digər obrazlarla göz təması qurarkən, tərəf müqabilinə ümumiyyətlə diqqət yetirir. Əslində isə diqqət, həyatda olduğu kimi, qarşı tərəfdən nə gözlədiyimizdən asılı olaraq, tərəf müqabilinin xarakterində xüsusi bir şeyə yönəldilməlidir. Aktyor həyatda səhnə diqqətini inkişaf etdirmək üçün ilk növbədə müşahidə qabiliyyətini inkişaf etdirməli, gördüklərinin, diqqətini çəkənlərin mahiyyətinə nüfuz etməyə çalışmalı, gördüklərini anlamağa, görünməyənlər haqqında isə xəyal qurmağa çalışmalıdır. Bütün bunlar aktyora gələcək rollar üçün material verir, onu həyatla, həyat həqiqəti ilə bağlayır.

Daxili monoloq həm həyatda, həm də səhnədə yüksək səslə deyil, özünə deyilən daxili nitqdir, yuxu zamanı istisna olmaqla, həmişə insanı müşayiət edən sözlərlə ifadə olunan fikirlər qatarıdır. Adi həyatda da bütün insanlar davamlı daxili monoloqdan istifadə edirlər. Bu, monoloqlar bizimmüəyyən hərəkətlərimizə səbəb olur və bundan hər hansı bir vəziyyələ bağlı çox təsirli və çox güclü sözlər doğulur. Həyatın kritik anlarında bu monoloqlar gərgin, emosional və konfliktli olur. Daxili monoloq isə həmişə insanın yaşadığı gərginlik dərəcəsində baş verir. Bu səhnədə də eynilə belədir. Həyatda insanın daxili monoloqu, öz daxilindəki vəziyyəti şüurlu şəkildə araşdırdığı məqamlar istisna olmaqla, öz-özünə yaranır. Səhnədə isə bu, aktyorun yox, xarakterin daxili monoloqudur. Aktyorun daxili monoloqu aktyora deyil, onun xarakterinə xas olan dildə qurulmalıdır. Aktyorun rol üzərində işinin əsas mənbəyi ədəbiyyat, yəni səhnələşdirilmiş nəsr əsəri və ya dramaturgiyadır. Əgər əksər nəsr əsərlərində yazıçı səhnə yaradaraq öz personajlarının daxili monoloqlarını verirsə, dramaturgiyada daxili monoloqlar yoxdur. Onun yerinə pauzalar, tərəf müqabilinin mətni və s. var. Belə olan halda aktyor özü personajın daxili monoloqlarının müəllifi olmalıdır. Yəni aktyor qəhrəmanının həyatının təklif etdiyi şəraitə uyğun olaraq, hər bir səhnədə konkret məqsədlərini müəyyənləşdirməli, təkcə özünün deyil, həm də partnyorunun mətnini öyrənərək, "xəyali" monoloqunda qəhrəmanının adından düşünməlidir (Stanislavski K.S., 2011, 125).

Daxili monoloq tamaşaya orijinallıq verir, aktyorun obrazın tamamilə içinə girməsinə, onun öz xarakterinin daxili həyatına dərindən nüfuz etməyinə kömək edir. Daxili monoloq olmadan səhnədə qavrayış və qarşılıqlı əlaqə mümkün deyil, o, rolun "fonunu", rolun ritmini mənimsəməyə kömək edir, hətta səsin tembrini dəyişdirir. İ.Nemiroviç-Dançenko qeyd edir ki : "Necə söyləmək daxili monoloqdan, nəyi söyləmək isə mətndən asılıdır" (Stanislavski K.S., 2011, 89).

K.S.Stanislavski kitabında yazır: "Artistin vəzifəsi tamaşa ideyasını bədii səhnə reallığına çevirməkdir. Bizim təxəyyülümüz bu prosesdə böyük rol oynayır" (Stanislavski K.S., 2011, 158) Tamaşanın əsas şəraiti, hadisələri təbii ki, müəllif tərəfindən təklif olunur, lakin rejissor və aktyor onları öz təxəyyülü ilə inkişaf etdirməli, zənginləşdirməli, canlandırmalıdır. Təxəyyül olmadan nə rejissorun tamaşa ideyasının doğulması, nə də canlı, maraqlı səhnə obrazlarının yaradılması mümkün deyil. Personajların bu günü və keçmişi, arzuları, zövqləri, vərdişləri, yaşadıqları hadisələrin gücü və əhəmiyyəti - bütün bunlar yaradıcı təxəyyülün əməyinin nəticəsidir. Yaradıcı təxəyyülün sehrli gücü sənətçiyə təkcə rolun şərtlərini öyrənməyə deyil, həm də onları sanki özünə "uyğunlaşdırmağa" imkan verir.

Stanislavskiyə görə yaradıcı təxəyyül artisti həyəcanlandırır, onu asanlıqla təklif olunan vəziyyət dünyasına cəlb edir. Təşəbbüsdən məhrum olan təxəyyül rejissor göstərişlərinə ehtiyac duyur, onu, sanki, daşımaq lazım gəlir. Stanislavski qeyd edirdi ki, təxəyyülü məcbur etmək olmaz, onu yalnız ovsunlamaq olar. Təxəyyül fəaliyyətlə əlaqələndirilməlidir və buna görə də münaqişəyə yönəldilməlidir (Stanislavski K.S., 2011, 155). Həqiqətən də, həyatda məhz münaqişə vəziyyətində çox vaxt bizim iradəmizə zidd olan təxəyyül xüsusilə intensiv işləməyə başlayır. Münaqişəyə yönəlmiş təxəyyül aktyorda aktiv səhnə hərəkətləri üçün emosional stimullar yaradır.

ƏDƏBİYYAT

1. Stanislavski K.S., Seçilmiş əsərləri. I cild. "Yaşantı" yaradıcılıq prosesində öz üzərində iş. Bakı: 2011. "Avrasiya press", 472 s.
2. Stanislavski K.S., Seçilmiş əsərləri. II cild. "Təcəssüm" yaradıcılıq prosesində öz üzərində iş. Bakı: 2011. "Avrasiya press", 384 s.
3. Яркова Е.Н., "Метод и система К.С. Станиславского или первый междисциплинарный анализ творчества актёра", 2011.
4. https://www.masterclass.com/articles/stanislavski-method

SUMMARY

Turankhanım Humbatova

THE PRINCIPLES OF THE APPLICATION OF K.S.STANISLAVSKY'S "SYSTEM" TO THE CREATIVE PROCESS ON THE ROLE OF THE DIRECTOR AND THE ACTOR IN THE CLASSICAL STAGE ARTS

In the article, the analysis involves the system of Konstantin Stanislavsky, the founder of the classical acting school, who was the first to systematize the actor's work on himself and turn it into a theory. The principles of application of K. S. Stanislavsky's "System" to the creative process of a director and actor over a role in classical stage art are explored. According to Stanislavsky's system, the actor must first evaluate the proposed situation. Actors often have to think about characters and events that are not mentioned in the play, that are not on stage. An actor has to ask himself some questions such as What am I doing? How can I do it? Why am I doing this? The article also mentions factors that an actor should pay attention to while working on a role, such as the atmosphere of the performance, attention, action, internal monologue according to the Stanislavsky system.

Key words: *Stanislavsky, actor, character, focus, internal monologue*

TƏRANƏ MƏMMƏDOVA
zeyneb_turan@mail.ru
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0006-5932-9558

MUĞAM JANRININ YARANMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Təqdim olunan məqalədə muğam janrının yaranması, tarixi inkişaf yolundan bəhs edilir. Burada muğam sənətinin yaranması haqqında elmi araşdırmalar tədqiqatlara istinad olunmuş, musiqişünas alimlərin bu sahədəki fəaliyyətinə diqqət yetirilmişdir.

Muğam Azərbaycan musiqi mədəniyyətinin dəyərli incilərindəndir ki, bu yöndə aparılan araşdırmalar heç vaxt öz əhəmiyyətini və aktuallığını itirmir.

Məqalədə, muğamların təşəkkülü və inkişafı, quruluşu, muğamların təməlində duran ideyalar diqqətə çatdırılır. Muğam çox böyük tarixi inkişaf yolu keçmişdir. Şərq musiqisinin möhtəşəm sənət abidəsi olan muğamın yaranmasını alimlər hələ keçən minilliyə, İslamaqədərki dövrə aid edirlər. Onun köklərini zərdüştliklə bağlayırlar. Təsadüfi deyil ki, qədim dövrün alimləri insanları muğam sədaları ilə müalicə edir, xalq ifaçılarının yaratdıqları musiqi "nəva", "rah","xosrovani" adlanırdı. Muğamın bir janr kimi formalaşması isə XII-XIII əsrlərə aiddir. Azərbaycan muğamları haqqında əsaslı məlumatı orta əsr musiqişünasları S.Urməvi və Ə.Marağainin əsərlərindən əldə etmək mümkün olmuşdur. Orta Asiya musiqişünası Dərviş Əlinin muğamat haqqında yazdığı traktatında muğam Peyğəmbərlərin həyatı ilə əlaqələndirilmişdir. Onun fikrincə Rast muğamı Adəm, Üşşaq muğamı Nuh, Nəva muğamı Davud, Hicaz muğamı Süleyman, Əraq muğamı Yəhya, Hüseyni muğamı Yaqub, Busəlik muğamı Baba Ömər, Rəhavi muğamı isə Məhəmməd peyğəmbərdən qalmışdır.

XIX əsrin II yarısında Şuşada yaşayıb-yaratmış ictimai xadim, şair Mir Möhsün Nəvvab "Vüzuhül-ərqam" traktatında muğamların şöbə, guşə, avazlarından bəhs etmişdir. Araşdırmalara əsasən demək olar ki, Mir Möhsün Nəvvab elmi ədəbiyyatda dəstgah termini haqqında məlumat verən ilk müəllif olmuşdur.

Muğamın fəlsəfi əhəmiyyəti o qədər dərindir ki, bu sənət növü hər kəsə yüksək təsiredici qüvvəyə malikdir. Təsadüfi deyil ki, dahi bəstəkarımız Ü.Hacıbəyli öz yaradıcılığında geniş kütlələrin diqqətini cəlb etmək üçün muğamı əsas vasitə kimi istifadə etmişdi. Onun "Leyli və Məcnun" muğam operasında müşahidə olunan muğamın aparıcı qüvvəyə çevrilməsi digər Azərbaycan bəstəkarlarının yaradıcılığında da müraciət edilən üslub olmuşdur.

Muğamların tədqiq edilib nota yazılması məsələsi də olduqca mühüm işlərdən biridir. Bu sahədə yenə də Üzeyir bəy ilk dəfə təməl qoyaraq 1927-ci ildə M.Maqomayev ilə birlikdə çap etdirdikləri "Azərbaycan türk el nəğmələri" adlı not məcmuəsinə bir neçə təsnif və "Qarabağ şikəstəsi"ni daxil etmişdir. Daha sonra Elmi-tədqiqat musiqi kabinetinin fəaliyyəti sayəsində bir sıra bəstəkar və musiqişünaslar muğanların nota yazılması üzərində çalışmışlar.

XIX-XX əsrlərdə muğamların inkişaf xətti XX əsrdə Azərbaycan muğamının dünyada tanıdılması mərhələsi ilə davam etmişdir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra muğam beynəlxalq səviyyədə aktuallaşmağa başlamış, 2005-ci ildən başlayaraq Azərbaycanda muğam müsabiqələri keçirilmiş, 2009-cu ildə Muğam mərkəzi açılmış, muğam ifaçıları dünyanın bir çox ölkəsində Azərbaycan muğamının ifası ilə bu sənəti dünya miqyasında tanıtmışlar.

Açar sözlər: *Muğam, şöbə, məqam, şərq intonasiyası*

Muğam Azərbaycan şifahi ənənəli professional musiqisinin əsas janrıdır. Azərbaycan musiqi mədəniyyətinin şah əsəri sayılan muğam, bu gün bizə miras qalmış qiymətli xəzinədir. Muğam ərəbcə "məqam", yer, mövqe deməkdir. Bu termin Orta Asiya və Hindistanda makon, ərəblərdə makam, İranda dəstgah, Türkmənistanda mukam, Qazaxıstanda küy, Əlcəzairdə nuba, Misirdə taqasim, Azərbaycanda muğam adlanır. Avropa ölkələrində isə not sistemində çalınma yerinə görə minor və

major qammaları şəklində ifadə olunur. Qədim zamanlardan bir çox ölkələrdə böyük nüfuza malik olan muğam, Şərqin qədim musiqi janrlarından biri olmuş, dünya musiqişünaslarının daima diqqətində olmuşdur. Orta əsr şərq musiqi mədəniyyətinin, folklorunun öyrənilməsində muğam janrı vacib məsələ kimi tədqiqatçıların təhlilinə səbəb olmuş, bu günümüzə qədər aktuallığını itirməmişdir.

Onu da qeyd etməliyik ki, muğam termini birdən-birə yaranmamışdır. Midiya dövrü musiqi mədəniyyətində e.ə. I minillikdə yaşamış böyük nüfuza malik muğ tayfaları musiqisevər idilər. Onlar Urmiya gölü ətrafında Muğanda yaşamışlar. "Muğam sənətinin ilkin elementlərinin yaranmasının e.ə. IV minilliklərdən başlanması ilə bağlı bir sıra məlumatlar mövcuddur" (1. s. 3-13).

Muğam çox böyük tarixi inkişaf yolu keçmişdir. Şərq musiqisinin möhtəşəm sənət abidəsi olan muğamın yaranmasını alimlər hələ keçən minilliyə, İslamaqədərki dövrə aid edirlər. Onun köklərini zərdüştliklə bağlayırlar. Təsadüfi deyil ki, qədim dövrün alimləri insanları muğam sədaları ilə müalicə edir, xalq ifaçılarının yaratdıqları musiqi "nəva", "rah", "xosrovani" adlanırdı. Muğamın bir janr kimi formalaşması isə XII-XIII əsrlərə aiddir. Bu dövrdə poeziyanın yüksəlişi muğamın da inkişafına təkan verdi.

Orta və Yaxın Şərq musiqi elminin inkişafı Əbu Nəsr Fərabinin elmi əsərlərində əks olunmuşdur. Fərabi yazdığı kitablarda ilk dəfə olaraq muğamlardan məlumat vermiş, tədricən bu janrın öyrənilməsi elmi mənbəyə çevrilmişdir.

XIII-XV əsrlərdə Azərbaycan musiqisinin inkişafında S.Urməvinin çox böyük xidmətləri olmuşdur. S.Urməvi ilk dəfə olaraq "Kitab əl-ədvar" əsərinin doqquzuncu fəsilində muğamlardan bəhs etmiş,12 muğamı sistemləşdirmiş, avazlara, hissələrə və şöbələrə ayırmışdır. Bu muğamlar "Uşşaq", Nəva","Busəlik", "Rast", "İraq", "İsfahan", "Zifərkənd", "Buzurk", "Zəngulə", "Rəhavi", "Hüseyni", "Hicaz" adlanır.

XIV-XV əsrlərin musiqişünas alimi Ə.Marağai araşdırmalarında muğamlarla bağlı problemləri üzə çıxarmışdır. O, öz əsərlərində 12 muğamdan yaranmış 24 şöbə haqqında məlumat vermiş, hər birinin xasiyyətnaməsini izah etmişdir. Görkəmli musiqişünas Z.Səfərova yazır: "Ə.Marağainin "Came əl-əlhan", Məqasid əl-əlhan" və "Fəvaid əşəra" risalələrinin hər üçündə 24 şöbə haqqında fəsillər vardır. Əbdülqadir bu fəsilləri belə fikirlə başlayır ki, musiqi sənətinin ustadları dairələrdən 6 avaz, 12 pərdə, 24 şöbə seçirlər və hər birinə elmi ad verirlər. Əsərlərini də onların əsasında qururlar" (4. s.193-194).

XVI-XVII əsrlərdə Orta Asiya alimləri Nəcməddin Kavkabinin, Dərviş Əlinin, Mirzəbəyin yazdıqları traktatlardan muğamlar haqqında məlumatlar alırıq.

Görkəmli alim, musiqiçi N.Kavkabinin "Külliyyat" şeirində 12 muğam, 24 şöbə, 6 avaz, 3 rəngin elmi əhəmiyyəti izah olunmuşdur. Burada "Rast"dan "Hicaz"a, "İsfahan"dan "İraq"a edilən keçidlərdən sonra digər muğamların ardıcıl şəkildə ifasından bəhs olunur.

Orta Asiya musiqişünası Dərviş Əlinin muğamat haqqında yazdığı traktatında muğam Peyğəmbərlərin həyatı ilə əlaqələndirilir. Rast muğamı Adəm, Üşşaq muğamı Nuh, Nəva muğamı Davud, Hicaz muğamı Süleyman, Əraq muğamı Yəhya, Hüseyni muğamı Yaqub, Busəlik muğamı Baba Ömər, Rəhavi muğamı isə Məhəmməd peyğəmbərdən qalmışdır.

XVII əsrdə yaşamış musiqiçi Mirzəbəyin yazdığı "Risaleyi-musiqi" traktatı 10-12 fəsildən ibarət olmuş, muğam şöbələri və musiqiçilərin ifaçılıq üsulu şərh olunmuşdur.

XIX əsrin II yarısında Şuşada yaşayıb-yaratmış ictimai xadim, şair Mir Möhsün Nəvvab "Vüzuhül-ərqam" traktatında muğamların şöbə, guşə, avazlarından bəhs etmişdir. Eyni zamanda risalədə cədvəllər təqdim olunmuş, iki cədvəldə muğamların registri, şöbə və güşələri göstərilmişdir. Musiqişünas, alim R.Zöhrabov yazır: "Klassik musiqidən bizə 12 muğam, 24 şöbə, 48 guşə, 6 avaz məlumdur. Nəvvabda isə 6 avaz əvəzinə 15 avaz verilir. Görünür ki, XIX əsrin sonları üçün Azərbaycanda avazların sayı artıb 15-ə çatmışdır" (5. s.43). Beləliklə, 6 dəstgahın adı "Rast", "Mahur", "Şahnaz", "Rəhavi", "Çahargah", və "Nəva" adlanır.

Belə nəticəyə gəlmək olar ki, Mir Möhsün Nəvvab elmi ədəbiyyatda dəstgah termini haqqında məlumat verən ilk müəllif olmuşdur. Risalədəki cədvəllərə nəzər yetirəndə görürük ki, bir neçə muğamların adı bizə naməlumdur. Nəvvab risaləsində yazırdı ki, dəstgahların məlahətli səslənməsi

ifaçıların məharətindən asılıdır. Hansı pərdədən başlayıb, hansı pərdəyə modulyasiya etmək, hansı pərdələrə enib təsniflərə keçmək maraqlı və olduqca çətindir. Risaləni oxuyarkən bizə məlum olur ki, muğamların emosional təsiri, eləcə də təsniflərin ifası üçün münasib şeirlər seçilməlidir.

Azərbaycan muğamının yeni inkişaf mərhələsini tədqiqatçılar XIX əsrin əvvəlləri kimi dəyərləndirir. Məhz bu dövrdə muğam ifaçılığında tədricən inkişaf və dəyişiklik özünü göstərməyə başlamışdı. Əvvəllər ifa olunan muğamlar getdikcə dəyişilir, bəzi muğamların rəngarəng formaları yaranırdı. Bu dövrdə xanəndələrdən Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və məşhur tarzən Qurban Pirimovun sayəsində muğam dəstgahları, zərbi-muğamlar geniş yayılmışdır. Bu xüsusda professor R.Zöhrabov yazır: "Musiqi irsimizdə geniş inkişaf etmiş muğam sənəti hazırda milli musiqili-poetik incəsənətin əsas sahəsi kimi üç növdə təşəkkül tapmışdır; muğam dəstgahları, kiçik formalı muğamlar və zərbi-muğamlar" (5. s.7).

Azərbaycan muğamlarının öyrənilməsində Ü.Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları", M.S.İsmayılovun "Azərbaycan xalq musiqisinin janrları" adlı fundamental elmi əsərlərinin rolu böyükdür. Muğamların nəzəri əsaslarının, lad-məqam sisteminin öyrənilməsində Ü.Hacıbəyli böyük əmək sərf etmişdir. Bu elmi əsər 20 illik axtarışların qiymətli xəzinəsidir. Bu əsərin yazılmasını özü belə izah edirdi: "Mən Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmək işinə 1925-ci ildə başlamışam. Seçdiyim bu mövzuya dair nə bir ədəbiyyat, nə xüsusi elmi əsərlər, nə də başqa bir vəsait olmadığına görə, mən ancaq öz şəxsi müşahidələrimin, apardığım diqqətli tədqiqatın nəticələrinə, Azərbaycan xalq musiqisinin bütün nümunə və formalarının dərin təhlilinə əsaslanmağa məcbur oldum" (2. s.11).

Muğam haqqında yazan musiqişünas N.Məmmədovun "Azərbaycan muğamları" adlı oçerkində muğamların lad və kompozisiya quruluşunun xüsusiyyətləri təhlil olunmuşdur. Muğam janrı bir çox məqalə və tədqiqat işlərində görkəmli musiqişünaslar tərəfindən işıqlandırılmışdır.

Məlum olduğu kimi, Azərbaycan muğamı öz süjet xətti, kulminasiya və sonluğu ilə bütöv forma quruluşu səviyyəsindədir. Təsadüfi deyil ki, Şərqdə ilk opera olan Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası muğam üzərində yazılmışdır. Çünki operanın aparıcı musiqisi muğamdır, fikirlər, hisslər muğam vasitəsilə dinləyiciyə çatdırılır. Ü.Hacıbəyli demişdir: "Mən xalq yaradıcılığının klassik nümunələri olan muğamlardan musiqi materialı kimi istifadə etməyi nəzərdə tutmuşdum. Vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi" (3. s.180). Onu da əlavə etmək lazımdır ki, M.Maqomayev "Şah İsmayıl", Z.Hacıbəyov "Aşıq Qərib" və Ş.Axundova "Gəlin qayası" operalarında muğamlardan sitat kimi istifadə etmişlər.

Muğamların nota yazılma prosesi nisbətən gec - XX əsrdə başlanmışdır. Bunun əsas səbəblərindən biri bildiyimiz kimi muğamın şifahi ənənəyə əsaslanması olmuş, muğamlar nəsildən-nəslə şifahi şəkildə ötürülmüşdür. Həm də muğam ifaçıları düşünürdülər ki, muğamda olan xırdalıqları, incə çalarları olduğu kimi nota yazmaq mümkün deyil. Ancaq XX əsrdə bu iş geniş şəkildə həyata keçirilməyə başladı ki, zənnimizcə bu da muğam sənətinin daha geniş auditoriyada tanınması və öyrənilməsi prosesinə öz töhfəsini verdi. 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində elmi-tədqiqat kabineti təşkil olunmuş, görkəmli bəstəkarlar Azərbaycanın rayonlarına gedərək muğam və təsnifləri nota salmışlar. Beləliklə, muğamların istifadə olunmasını bir çox bəstəkarların yaradıcılığında da müşahidə edirik. 1927-ci ildə Ü.Hacıbəyli və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" adlı 33 mahnıdan ibarət not məcmuəsi çap olunmuş, bu məcmuəyə bir neçə təsnif və "Qarabağ şikəstəsi" daxil edilmişdir. 1935-ci ildə Niyazi "Rast" və "Şur" muğamlarını nota yazmışdır.

Bildiyimiz kimi, simfonik muğam Azərbaycan musiqisinə xas olan janrdır. 1948-ci ildə F.Əmirov "Şur" və "Kürd Ovşarı" simfonik muğamlarını yazmaqla bu janrın əsasını qoymuş, XX əsrin sonlarında pianoçu V.Mustafazadə yaratdığı əsərlərilə caz-muğam janrına həyat bəxş etmişdir.

Bir məsələni də vurğulamaq lazımdır ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra muğam beynəlxalq səviyyədə aktuallaşmağa başladı. 2005-ci ildən başlayaraq Azərbaycanda muğam

müsabiqələri keçirilmiş, 2009-cu ildə Muğam mərkəzi açılmış və əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur.

Deyilənlərə yekun vuraraq belə nəticəyə gəlmək olar ki, muğam olduqca mürəkkəb bir sistemdir. Başqa sözlə desək, muğam dinindən və milliyətindən asılı olmayaraq, izləyiciləri özünə cəlb edir, həmçinin bu sənət milli ruhun və təfəkkürün ifadəsidir. Qeyd olunan faktlar muğamın aktuallığını, dünya mədəniyyətində yerini və rolunu göstərmiş olur.

ƏDƏBİYYAT

1. Azərtürk T. Muğam-Şumer türkünün milli mənəvi sərvətidir. ABŞ: SİETL, Tarıyel Vəli-ƏLİ korporasiyası, 2001
2. Hacıbəyli, Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: 2010
3. Hüseynova, E., Kərimova N., Dadaşzadə K., Tağıyeva S., İsgəndərova N. Musiqi tarixi. Bakı: 2011
4. Səfərova Z. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). Bakı: 2006, Azərnəşr
5. Zöhrabov R. Bakı: 1991, Muğam.

SUMMARY

Tarana Mammadova

ESTABLISHMENT AND DEVELOPMENT STAGES OF THE MUGHAM GENRE

The article presents the origin of the mugham genre and its historical development. Here, scientific studies on the creation of mugham art are cited, and the activities of musicologists in this field are emphasized.

Mugham is one of the valuable pearls of Azerbaijani musical culture, and the research conducted in this direction never loses its importance and relevance.

The article focuses on the creation and development of mughams, their structure, and the ideas behind foundation of mughams. Mugham has gone through a great historical development. Scholars ascribe the creation of mugham, a magnificent artistic monument of Eastern music, to the last millennium, to the pre-Islamic period. They connect its roots with Zoroastrianism. It is no coincidence that scientists of ancient times treated people with mugham sounds, and the music created by folk singers was called “Nava”, “Rah”, “Khosrovani”. The formation of mugham as a genre belongs to the 12th-13th centuries. It was possible to obtain fundamental information about Azerbaijani mughams from the works of medieval musicologists S.Urmavi and A.Maragai. Central Asian musicologist Darvish Ali's treatise on mugham has been associated with the lives of the Prophets. According to him, these mughams were left from these Prophets: Rast mugham from Adam, Ushshaq mugham from Nuh, Nawa mugham from Davud, Hejaz mugham from Suleiman, Arak mugham from Yahya, Husseini mugham from Yaqub, Buselik mugham from Baba Omar, and Rahavi mugham from Prophet Muhammad.

In the second half of the 19th century, the public figure and poet Mir Mohsen Navvab, who lived and worked in Shusha, talked about the branches, corners, and voices of mughams in the treatise “Vuzuhul-argam”. Based on research, it can be said that Mir Mohsen Nawab was the first author to provide information about the term dastgah in scientific literature.

The philosophical importance of mugham is so deep that this art has a high impact on everyone. It is no coincidence that our genius composer U. Hajibeyli used mugham as the main means to attract the attention of the masses in his work. The leading force of mugham observed in his mugham opera “Leyli and Majnun” has been a style applied in the works of other Azerbaijani composers.

The issue of researching and notating mughams is also one of the most important tasks. In this field, Uzeyir Bey laid the foundation for the first time and included several tasnifs and “Karabagh shikastesi” in the collection of notes called “Azerbaijani Turkish folk music” published together with

M. Magomayev in 1927. Later, thanks to the activities of the scientific-research music cabinet, a number of composers and musicologists worked on notation of mughams.

The development of mughams in the 19th and 20th centuries continued with the introduction of Azerbaijani mughams to the world in the 20th century.

After Azerbaijan regained its independence, mugham became actual at the international level, mugham competitions were held in Azerbaijan starting from 2005, Mugham center was opened in 2009, mugham performers have introduced this music on a global scale with the performance of Azerbaijani mugham in many countries of the world.

Key words: *mugham, branch, point, oriental intonation*

ŞÜKUFƏ VƏLİYEVA
sukufeveliyeva3@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0008-9400-3902

ARİF MƏLİKOVUN SİMFONİK MUSİQİ YARADICILIĞI

Məqalədə görkəmli Azərbaycan bəstəkarı Arif Məlikovun simfonik yaradıcılığı,onun bu sahədə müxtəlif janrlarda yazdığı rəngarəng əsərlər tədqiq edilmişdir. Bildiyimiz kimi Arif Məlikov 8 simfoniyanın, simfonik poemaların və s müəllifidir. Bəstəkar bu əsərlərinin hər biri fərdi xüsusiyyət daşıyaraq onun bu sahədəki ustalığını bir daha sübut edir. Məqalədə Arif Məlikovun simfoniyaları, "Nağıl", "Metamarfozalar" simfonik poemaları hər tərəfli şəkildə təhlil və tədqiq edilir.

Açar sözlər: *Arif Məlikov, simfoniya, simfonik musiqi, simfonik poema*

Görkəmli Azərbaycan bəstəkarı A.Məlikov musiqi mədəniyyəti tarixində silinməz iz qoymuş bəstəkarlardan biridir. Onun yaradıcılığı müasir Azərbaycan musiqi mədəniyyətinin ən parlaq səhifələrindən birini təşkil edir. A.Məlikov öz yaradıcılığında milli köklərə söykənərək, həmçinin dünya musiqisinin ən yaxşı ənənələrindən bəhrələnmiş və adını musiqi tarixinə əbədi yazdırmışdır. Dahi bəstəkar Üzeyir Hacıbəyovun əsasını qoyduğu ənənələri davam və inkişaf etdirən, müəllimi Qara Qarayevin yaradıcı prinsiplərindən qidalanan Arif Məlikov özünəməxsus fərdi üslubunu yaratmışdır. Bəstəkarın yaradıcılığına yüksək ideya, dolğun məzmun, obrazların dərin emosional-psixoloji ifadəsi xasdır. A.Məlikov musiqinin müxtəlif janrlarına müraciət edərək dəyərli sənət nümunələri yaradıb. Hələ çox gənc ikən 26 yaşında yazdığı "Məhəbbət əfsanəsi " balet ilə milyonların rəğbətini qazanmışdır. Belə ki, sənətdə ilk addımlarından musiqi aləmində bir ulduz kimi parlayan A.Məlikov sahibi olduğu fitri istedadını sonrakı illərdə də kamilləşdirdiyi peşəkarlığı ilə tamamlamış və yeni-yeni zirvələr fəth etmişdir. Onun "Məhəbbət əfsanəsi", "İki nəfər", "İki qəlbin poeması" baletləri, "Vətən" və "Dünyanın səsi" kantataları, 8 simfoniyası, "Ləpələr" operettası, müxtəlif janrlı kamera - instrumental əsərləri, xalq çalğı alətləri orkestri üçün süitaları, romans və mahnıları, film və tamaşalara yazdığı musiqisi milli musiqi xəzinəmizi zənginləşdirmişdir (3, s.189). A.Məlikovun əsərləri bu gün də dünya miqyasında müasir Azərbaycan musiqisini ləyaqətlə təmsil və təbliğ edir. Sənətkarın hər bir əsəri Respublikamızda, həmçinin onun hüdüdlarından çox-çox uzaqlarda da əks - səda tapır, böyük rəğbət və maraqla qarşılanır. Çünki bu əsərlərdə klassik və müasir musiqi üslublarından istifadə edən bəstəkar milli köklərdən də uzaqlaşmamışdır.

A.Məlikovun yaradıcılığında simfonik musiqi janrı əhəmiyyətli yer tutur. Bəstəkar öz yaradıcılığının təbiətinə görə simfonistdir. Yaradıcılığında yeni formalar, yeni yollar axtaran bəstəkarın irsi genişmiqyaslı və rəngarəngliyi ilə diqqəti cəlb edir. A.Məlikov bu sahədə 8 simfoniyanın və simfonik orkestr üçün yazılmış müxtəlif səpkili əsərlərin ("Nağıl", "Metamarfozalar", "Füzuli", "Axırıncı aşırım", "Yadda saxlayın" simfonik poemaları, xor və simfonik orkestr üçün "Vətən" simfonik poema, səs və simfonik orkestr üçün "Azərbaycan" balladası və s.) müəllifidir. Bəstəkarın hər bir əsəri fərdi xüsusiyyət daşıyaraq, özündə gerçək həyat hadisələrini əks etdirmişdir. A.Məlikovun simfoniyaları XX əsrin sonu–XXI əsrin əvvəlində milli simfonik musiqimizin əsas inkişaf istiqamətini müəyyən etmişdir. Bəstəkar bu əsərlərində milyonlarla insana, xalqa müraciət edərək ümumbəşəri problemlərdən, hamımızı narahat edən həyat məsələlərindən söz açmışdır. Milli zəmindən, xalq musiqimizin qaynaqlarından uzaqlaşmadan A.Məlikov öz əsərlərində XX əsrin cərəyan və təmayüllərinə, ən yeni yazı üsullarına da müraciət etmişdir.

A.Məlikovun "Nağıl" simfonik poeması epik simfonizmin gözəl nümunəsidir. Bu əsərlə bəstəkarın simfonik musiqi sahəsindəki axtarışlarının əsası qoyulmuşdur. A.Məlikov simfonik poemada muğamlarla bağlılığını nümayiş etdirmişdir. Poemanın "Andante" hissəsində klarnet və faqotun unison ifasında səslənən Humayun muğamındakı mövzu bunu aydın göstərir. Poemanın II cəld hissəsi (Allegro) dinamik cizgilərlə nağıl süjetini əks etdirir.

A.Məlikovun digər simfonik poeması "Metamarfozalar" adlanır. Metamarfozalar "Dəyişmələr" mənasını verir. Əsərdə dəyişikliklər metroritmin, tembrin dəyişməsinin yeni rəng çalarları əldə etməsilə bağlıdır. Əsərin əvvəlində faqotların solosunda son dərəcə geniş melodiya səslənir və bu xromatik tersiyalı səslənmə bütün əsərin "leytformulası"na çevrilir. Bunun ardınca bütün orkestrin ifası verilir və yeni-yeni tembrlər daxil edilir, fortessimonun ifası dramatik səslənmə yaradır. Burada ritmik müxtəliflik də özünü göstərir. Tədricən alətlərin ifasının azalması ilə səs zəifləyir. Saksafonun ifasında vals üslubunda yazılmış musiqi əsərə rəngarənglik gətirir.

Əsərin sonunda xoral verilir. Poema simli kvintetin ifasında işıqlı, sakit tərzdə tamamlanır. "Metamarfozalar" poeması A.Məlikov yaradıcılığında xüsusi mərhələ təşkil etmiş, ona uğur qazandırmış və sonradan bəstəkarın bu əsəri əsasında "Yer üzündə iki nəfər" birpərdəli baleti səhnələşdirilmişdir.

A.Məlikovun simfonik musiqi sahəsində onun simfoniyaları xüsusi yer tutur. Bəstəkar 8 simfoniyanın müəllifidir. Onun I simfoniyası son dərəcə kamil əsərlərindən biridir. Simfoniya klassik formada yazılaraq 4 hissədən ibarətdir. Bu simfoniyada Azərbaycan bəstəkarlarının (Q.Qarayev, C.Hacıyev) ilk simfoniyalarında olduğu kimi böyük sovet bəstəkarı D.Şostakoviçin təsiri aydın duyulur. Simfoniya öz dramatizmi, orkestr koloritinin zənginliyilə seçilir.

A.Məlikovun II simfoniyası onun yaradıcılığında yeni mərhələnin başlanğıcını qoyaraq, bəstəkar üslubunun kamilliyindən xəbər verir. Bəstəkar bu simfoniyanı D.Şostakoviçə ithaf etmişdir. Bu əsər milli musiqi və müasir bəstəkarlıq təfəkküründən sintezindən yaranmış, novatorluğu ilə seçilən bir əsərdir. Bəstəkar bu II simfoniya ilə fəlsəfi əsər yaratmış və onda müasir insanı həyəcanlandıran problemləri işıqlandırmışdır. A.Məlikov əsərdə dodekafoniya texnikası, aleatorikadan istifadə etmişdir. Bununla yanaşı, A.Məlikov əsərdə muğamla bağlı improvizasiyalı inkişaf üsulundan da istifadə etmişdir. II simfoniya 6 hissədən ibarətdir. Hissələrinin sayının çox olmasına baxmayaraq, simfoniya intonasiya cəhətdən bir mövzu ilə bağlı yığcam hissələrdən yaranır. II simfoniya ilk dəfə Niyazinin rəhbərliyi altında 1970-ci ildə Bakı şəhərində ifa edilmişdir.

A.Məlikovun III simfoniyası kamera orkestri üçün yazılmış və əsər 15 solistdən ibarət heyət tərəfindən ifa olunur. Simfoniya 4 hissədən ibarətdir. Onun I və III hissələri lirik obrazları, II və IV hissələrin isə canlı, coşğun obrazları əks etdirir. A.Məlikovun III simfoniyası ilk dəfə 1974-cü ildə Moskvada ifa edilmiş və tezliklə həm Azərbaycan, həm də xarici ölkə musiqi kollektivlərinin repertuarına daxil olmuşdur.

A.Məlikovun IV simfoniyası Azərbaycan simfonizminin inkişafında yeni bir mərhələ təşkil edir. Bu simfoniya simli orkestr üçün yazılmış və müasir dövrün dinamik inkişafına həsr edilərək xalqın taleyi haqqında düşüncələri əks etdirir. Simfoniya 1 hissəlidir. IV simfoniya özündə Avropa simfonizmi ilə Azərbaycan muğamının vəhdətini özündə əks etdirmişdir. Xüsusilə, obrazların təcəssümündə, tematizmin intonasiya əsasında, qeyri-müntəzəm temperasiyadan istifadə edilməsində muğamla əlaqə aydın hiss edilir. Yalnız simli alətlərdən istifadə etsə də, bəstəkar əsərdə dərin psixoloji obrazlar aləmini əks etdirməyə nail olmuşdur. Simfoniya təzadlı epizodların bir-birini əvəz etməsi əsasında yazılmışdır. IV simfoniyada bəstəkarın polifonik ustalığı nümayiş etdirilmişdir. Kulminasiya anında A.Məlikov 7 səsli fuqadan istifadə etmişdir.

A.Məlikovun simfonik əsərləri içərisində onun VI simfoniyası xüsusi yer tutur. Bəstəkarın bu simfoniyası "Təzadlar" adlanır. Simfoniya ideya cəhətdən son dərəcə zəngin olaraq, müharibə və sülh, xeyir və şər obrazlarını əks etdirir. Simfoniyada bu obrazların qarşı-qarşıya qoyulması və xeyrin qələbəs ilə bitməsi ifadə edilir. Təzadlıq simfoniyanın tematizmində, tempində, ritmində və orkestr tembrində aydın görünür (1, s.330). Əsərdə A.Məlikov yazı texnikasının müxtəlif vasitələrindən, yəni, dodekafoniya, serial texnika, aleatorika, sonoristika ilə yanaşı muğama xas improvizasiyalılıqdan da istifadə etmişdir. Ümumilikdə isə simfoniyanın muğama əsaslanan intonasiya aləmi Humayun muğamı ilə bağlıdır. Bildiyimiz kimi bu muğam A.Məlikovun sevimli muğamı olaraq, bəstəkarın bir çox əsərlərində lirik obrazların təsvirində istifadə edilmişdir. A.Məlikovun VI simfoniyası ilk dəfə 1985-ci ildə Azərbaycan bəstəkarlarının VI qurultayında böyük uğurla ifa edilmişdir.

A.Məlikovun sonuncu VII və VIII simfoniyaları yaradıcılığında son dərəcə əhəmiyyətli yer tutur. Bu simfoniyalar zəmanəmizin böyük şəxsiyyətlərinə həsr edilərək öz müəllifinə böyük uğur

qazandırmışdır. 1995-ci ildə yazılan VII simfoniya məşhur türk xeyriyyəçisi İhsan Doğramacının təklifi ilə yazılmış və ona həsr edilmişdir. Simfoniya Türkiyə Bilkənd konsert salonunun açılışı üçün xüsusi olaraq yazılmışdır. Əsərdə bəstəkar insan şəxsiyyətini hərtərəfli, dolğun şəkildə əks etdirməyə çalışmışdır. Simfoniya 4 hissədən ibarətdir.

Bəstəkarın sonuncu simfoniyası –"Əbədiyyət" onun yaradıcılığının ən dəyərli əsərlərindəndir. Bu simfoniyanı o, dahi şəxsiyyət, dünyada tanınmış siyasi xadim, ümummilli lider Heydər Əliyevə həsr etmişdir. Əsərdə bəstəkar simfonik musiqiyə xor da əlavə etmişdir. Bu monumental əsər yüksək peşəkarlıq səviyyəsinə, dolğun məzmununa görə müasir simfonik musiqinin ən dəyərli incisidir.

Simfoniya 3 hissədən ibarətdir. Onun I hissəsində türk şairi Nazim Hikmətin 6 fəlsəfi şerinə yazılmış musiqi, vokal silsilə öz ifadəsini tapır. İlk 2 romansın mövzusunu əsərin əsasına qoyulmuş məhəbbət və ölüm mövzusu təşkil edir. "Çinar olsam" romansında "Laçın" xalq mahnısı, "Yumulu göz qapaklarımın içində" romansında isə "Sarı gəlin" xalq mahnısının intonasiyaları aydın duyulur. Mahnıvari xarakterli "Çinar olsam" romansı əsərdə intermesso təşkil edir, kulminasiya nöqtəsi isə "Dün gecə rüyamda gördüm" romansına düşür. Digər "Sən" romansı coşğun hisslərin ifadəsidir. Sonuncu romans "Yumulu göz qapaklarımın içində" simfoniyanın faciəvi nəticəsidir. Belə ki, I hissədə məhəbbət və ölüm mövzuları fəlsəfi şəkildə öz ifadəsini tapır.

Simfoniyanın dramaturji mərkəzini II hissə təşkil edir. II hissədə orkestrə lent yazısı ilə səslənən daha 2 orkestr əlavə edilmiş və möhtəşəm səslənmə əldə edilmişdir. Bu hissədə bəstəkar aleatorika, sonor texnikasından istifadə etmiş və qiyaməti xatırladan lövhə yaratmışdır. Bəstəkar burada ümumbəşəri faciəni əks etdirməyə çalışmış, Vətənə məhəbbət hissini ifadə etməyə can atmışdır. Simfoniyanın III hissəsində Almaz Yıldırımın "Azərbaycan" şerinə yazılmış musiqisi ilə silsilə başa çatır. Simfoniyanın sonunda simlilərin müşayiətilə royalda səslənən musiqi bir növ əbədiyyətə qovuşma ideyasını ifadə edir.

Simfoniyanın yazılması tarixcəsi də maraqlıdır. A.Məlikov 1997-ci ildə H.Əliyevlə birlikdə nümayəndə heyətinin tərkibində Səudiyyə Ərəbistanına səfər edir. Səfər zamanı H.Əliyev bəstəkara səfərdən aldığı təəssüratlarla bağlı simfoniya yazmağı təklif edir. A.Məlikov səfərdən qayıtdıqdan sonra bu simfoniya üzərində işləyir və onu dahi H.Əliyevə həsr edir. Lakin simfoniyanı dinləmək ümummilli liderə nəsib olmur. Simfoniya ilk dəfə 2004-cü ildə onun adını daşıdığı H.Əliyev sarayında uğurla səslənir.

Dünya musiqisinin tarixi bir daha təsdiq edir ki, əsil mənada simfonik musiqisi olan xalq, yəni, simfonizmin dərin sirlərinə yiyələnən xalq böyük mədəniyyətə yiyələnmiş hesab olunur. Azərbaycan xalqı müasir simfonik musiqisi ilə haqlı olaraq fəxr edir. Misilsiz sənət əsərləri daxil olan bu mədəniyyət xəzinəsi bu gün də yeni-yeni incilərlə daha da zənginləşməkdə davam edir. A.Məlikovun simfonik yaradıcılığı da öz janr rəngarəngliyi ilə seçilmiş və bəstəkarın bu sahədə yazılmış əsərləri Azərbaycan simfonik musiqisinin dəyərli əsərləri kimi daima yaşayacaq.

ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. IV cild. Bakı: 2019
2. Musiqi və həyat. Bakı: 1961
3. Qasımova S., Bağırova N. "Azərbaycan sovet musiqi ədəbiyyatı" Bakı: 1984. "Maarif"

SUMMARY

Shukufa Valyeva

SYMPHONIC MUSIC CREATION OF ARIF MALIKOV

In the article, the symphonic creativity of the ouststanding Azerbaijani composer Arif Malikov, his colorful works written in this field in various genres are studied. As we know, Arif Malikov is the author of 8 symphonies, symphonic poems, etc. In the article. Arif Malikov's symphonies, "Fairy tale", "Metamorphoses" symphonic poems are analyzed and studied in a comprehensive way.

Key words: *Arif Malikov, symphony, symphonic music, symphonic poem*

NAZİLƏ QARDAŞBƏYOVA

ZİNYƏT MƏMMƏDZADƏ

Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN KİNOFİLMLƏRİ ÜÇÜN YAZILAN MUSİQİLƏRİN MİLLİ XÜSUSİYYƏTLƏRİ

Kino musiqisi, əsas etibarilə filmin məzmununun açılmasına xidmət edir. Bu baxımdan Azərbaycan kinosunda səslənən musiqilərdə filmin ümumi ifadəliliyinə xidmət edən mövqe formalaşmışdır ki, o da ancaq musiqi səviyyəsində obrazların və süjet xüsusiyyətlərinin açıqlanmasına kömək edir.

Kinofilmin səciyyəsi təkcə onun məzmunu, özünəməxsus obrazı ilə deyil , həm də filmə yazılmış musiqi ilə şərtlənir. Kinoda səslənən musiqilərin özünəməxsusluğu filmin surətlərinin təcəssümünün musiqi vasitələrilə bağlıdır.

Qeyd etmək lazımdır ki, filmə yazılan musiqilərin səs xüsusiyyətləri tədqiqatçıların həmişə nəzər nöqtəsində olmuşdur. Təbii ki , bu qanunauyğundur, çünki kino – vizual yəni gözlə görünən bir sənətdir. Elə ona görə də kino musiqisi haqqında yazılan tədqiqatlarda zəruri faktor qeyd olunur :incəsənətin kino və musiqi kimi növlərinin paralel öyrənilməsi həm musiqi həm də kino sənətinin inkişafını tapmağa imkan verir.

Bu baxımdan XX əsrin axırları- XXI əsrin başlanğıcında Azərbaycan kinofilmlərinə yazılan musiqilərdə tema şəffaflığı milli parlaqlığı və spesifikliyilə seçilir.

Kino üçün yazılan musiqilərdə də oxşar proseslər baş vermişdir. XXI əsrin başlanğıcında Azərbaycan kinosu üçün yazılan musiqiləri öz tendensiyaları, xarakterləri, qanunauyğunluqları olan Azərbaycan musiqi mədəniyyətinin formalaşmış tərkibini təmsil edir

Açar sözlər: *Azərbaycan musiqiçiləri, Azərbaycan bəstəkarları, Azərbaycan musiqi sənəti, instrumental, opera, musiqi*

Azərbaycan musiqişünaslığının ən vacib məsələlərindən biri – Azərbaycan musiqi mədəniyyətinin öyrənilməsindən ibarətdir. Buna görə də, Azərbaycan kino musiqisinin özünəməxsusluğunun çox böyük əhəmiyyəti vardır.

Kino musiqisinin böyük ifadə imkanları vardır. İlk növbədə ona görə ki, insan fəaliyyətinin bir çox tərəfləri ona tabedir, yəni musiqi bütün filmləri müşayiət edir. Uşaqlar üçün sənədli filmlərdən tutmuş lirik , komediya filmləri, dramatik məzmunlu geniş kinolentlərədək olan bütün filmlər buna aiddir. İkincisi, kino musiqisində müxtəlif janrlardan istifadə olunur. Məsələn, mahnı janrı, xalq havaları, böyük simfonik janr – bütün bunlar filmin süjet xəttindən asılı olaraq dəyişilir.

Kino musiqisinin səciyyəvi cəhətlərini təhlil edərkən biz Azərbaycan bəstəkarlıq məktəbinin milli xüsusiyyətlərini unutmamalıyıq.

Azərbaycan kino musiqisinin bütün zamanlarında musiqinin milli köklərinə istinadetmə faktı özünü bariz şəkildə göstərmişdir.

Azərbaycan bəstəkarlarının həmişə bəstəkar texnikasının müasir vasitələrinə yiyələnmək kimi təşəbbüsü, yalnız onunla kifayətlənmirdi, o həm də milli musiqi dilindən istifadə etməklə seçilirdi. Bu əsasla Azərbaycan kinosu üçün musiqilər yazan bəstəkarlar Azərbaycan musiqisinin janr strukturunun zənginliyinə, çox qədim dərin köklərə xas olan ladintonasiya sisteminə, alətlərin rəngarəng ahənginə arxalanırdılar. Buna görə də Azərbaycan bəstəkarları kino üçün yazılan musiqilərində xalq musiqisinin ənənələrindən geniş və orijinal şəkildə istifadə etmişdilər.

Azərbaycan kino musiqisi bir çox inkişaf mərhələsindən keçmişdir. Bu mərhələlər birbaşa Azərbaycan bəstəkarlıq məktəbinin tarixi ilə əlaqədardır. Burda, eyni zamanda janr müxtəlifliyi, orkestr üslubunun dramaturji rəngarəngliyinə gedən yol, musiqili və gözlə görünən sıraların

korrelyasiyasının yeni qaydaları, kino musiqisinin simfonik janrda da səslənməsi və miqyası özünü göstərir. Azərbaycan musiqi mədəniyyətində kinofilmlərə yazılan musiqilərin tarixi kino obrazlarının dəyişilməsi ilə də fərqlənir. Bununla yanaşı Azərbaycan kino musiqisinin ən parlaq cəhətlərindən birini qeyd etmək lazımdır. Bu isə dəqiq lad əsasında duran milli intonasiyalaşma sistemidir.

XXI əsr kino musiqisi öz rəngarəngliyilə, eyni zamanda milli əsasın təcəssümünün müxtəlifliyilə dəyərləndirilir. Bəstəkarların individual xüsusiyyətləri, yaradıcılıq fəaliyyətləri burada mühüm əhəmiyyət kəsb edir.

Öyrənilən dövrə aid filmlərə yazılan kino musiqisi xarakteristikaların səviyyəsi ilə fərqlənir, milli musiqi təfəkküründün dərindən mənimsənilməsilə seçilir. XX əsrin axırı, XXI əsrin əvvəllərində yazılan kino musiqilərinin musiqi dilinin şəffaflığı milli tarixin, öz Vətəninin müqəddaratını, vətənsevərliyin yüksək dərəcədə dərk olunması ilə birbaşa bağlıdır. Elə onun üçün də, kino musiqisində Azərbaycan musiqisinin bədii musiqi qurluşunun elementlərinin uyğun istifadə etmə prinsipləri qanunauyğun hesab olunur.

Azərbaycan musiqisinin milli xüsusiyyətləri , bəstəkarın musiqi temasına daxil olaraq, şəxsi yaradıcılıq ideyasına malik olur. Bəstəkarın yaradıcılıq işinin kinofilmin ərsəyəgəlməsinə yönəlmiş məntiqi ilə, əlbəttə ki, kinofilmin ilk öncə , dramatik və məzmunlu vəzifələri müəyyənləşir.

Kino musiqisinin ən vacib funksiyası – rejissorun filmdə yaratdığı gərginliyi və bu gərginliyin azaldılmasını musiqinin köməyi ilə izləyicilərə çatdırmaqdır. Bütünlükdə musiqi kinolentin anlaşılmasını təmin edir.

Qeyd etmək lazımdır ki, intonasiyanın milli elementləri filmlərin ən zəruri dramatik nöqtələrində gerçəkləşir. Milli musiqinin xarakter spesifikliyi ilə filmin mətninin qarşılıqlı əlaqəsi bu və ya digər sujet xəttini müəyyən edir, filmin dramaturgiyasının mənimsənilməsini təmin edir.

Hər bir film milli ifadənin dəqiqliyilə fərqlənir. Musiqinin yeni xüsusiyyətləri istifadə olunur,yəni kino musiqisi tamaşaçıda filmin nümayiş etdiyi hər hansı bir parça və ya obrazını anlamağa şərait yaradır. Bundan əlavə təhlil olunan filmlərdə musiqi onunla səciyyələndirilir ki, onun ifadə vasitələri filmin obrazlarını müəyyən edir. Bu mənada diyə bilərik ki, musiqi dramaturji funksiya daşıyır. Bir və ya daha çox mövzunun cərəyan etdiyi filmin dramaturgiyasının proseslə əlaqədar gedişini əks etdirir. Başqa bir funksiya münasibət funksiyasıdır ki, bu da musiqi sənətinin bədii təsir imkanları ilə əlaqədqrdır. Yəni musiqinin tamaşaçıya yönələn təsiri filmin tamamilə anlaşılmasını gerçəkləşdirir. Deməli, filmin gözlə görünən - sujet və musiqi xəttinin eyni strukturu kimi bütövlüyü və süniliyi formalaşır.

Musiqi mövzusunun milli spesifikliyi kinofilmin bədii cəhətdən anlaşılmasında demək olar ki, bələdçilik edir. Kino üçün yazılan musiqilərin milli xüsusiyyətlərinin əsasını yalnız müasir mövzuda fəaliyyət göstərən musiqili üslub sistemi deyil , eyni zamanda yaranmış musiqi sisteminin tarixi əsasları təşkil edir.

Kino musiqisinin milli xüsusiyyətləri həm bəstəkarın individual cəhətlərini, həm də kinofilmin lakonikliyini , onun dramatizmini , həm də tarixi mədəni mövzusunu əks etdirir.

Bütün bunlarla yanaşı, həmin dövrün kinomusiqisi Azərbaycan bəstəkarlıq məktəbində hökm sürən musiqi adət ənənələrinə söykənir. Azərbaycan kino musiqisinin obrazlı dili ənəvvəl, Azərbaycan bəstəkarlıq məktəbinin musiqi üslubu, musiqi qanunları, kino musiqisinin birbaşa funksional təyinatı ,filmin rollar sistemi və dramatizmi, kino sənətinin müəyyən bir janrının anlaşılma xüsusiyyətləri əsnasında əmələ gəlmişdir.

Ümumiyyətlə, janr assosiasiyaları mahnıvarilik, muğamvarilik, rəqsvarilik, marşvarilik və başqalarından istifadə olunur.

Musiqişunaslar dəfələrlə qeyd etmişdirlər ki, xarakter, milli üslub daha çox musiqili- intonasiya lüğətində ifadə olunur. Belə ki,müəyyən musiqi mədəniyyətinə aid olan spesifik lad və ritmo-intonasiyalar qrupunda özünü göstərir. Janr tərkibi də bununla sıx bağlıdır. Yəni Azərbaycan musiqisində buraya yalnız mərasim, məişət musiqisi, instrumental mahnı deyil, həm də şifahi ənənəli professional musiqi- muğamat və aşıq sənəti də daxildir.

Qeyd etmək lazımdır ki, musiqidə milli xüsusiyyətlər, milli özünəməxsusluq zamandan, bəstəkarın fərdiliyindən asılı olaraq həmişə dəyişilir. Amma Azərbaycan musiqisində onu başqalarından fərqləndirən elə bir xüsusiyyət var ki, onlar dəyişilməzdir. Bu Azərbaycan musiqisinin ladintonasiya əsasıdır. Azərbaycan musiqi sənətinin tarixində, bəstəkarların yaradıcılığında çox zaman ladintonasiya dilindən istifadə olunur. Ona görə bu əsərlər yerli mədəniyyət əsəri kimi səciyyələndirilir.

Onu da qeyd etmək lazımdır ki, kinomusiqisinin izahı, onun ifadəli məna imkanları və əhəmiyyəti musiqili mühitdə formalaşmışdır. Azərbaycan musiqi sisteminin kadans formulları hansı, mətndə, hansı teksdə səslənir səslənsin, həmişə özünün bu və ya digər lad mənsubiyyətini bildirir.

Formul oxumalar, Azərbaycan kinofilmlərinə yazılmış musiqilərin musiqi dili sisteminə tabe olur və onun yollarını müəyyən edir. Azərbaycan bəstəkarlarının yaradıcılığı Azərbaycan xalq musiqisinin ladintonasiya sistemi ilə sıx əlaqədardır. Yeni üslub həmişə xalq mənbələrinə söykənmişdir. Və ya milli musiqi həmişə professional musiqinin , eyni zamanda, kino musiqisinin tərkibində olmuşdur.

Azərbaycan musiqisinin milli xüsusiyyətlərinə xas olan problemlər Azərbaycan musiqişunaslarının nəzər nöqtəsindədir. Belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan musiqisinin ən şəffaf, parlaq görünüşü onun ladintonasiya yönüdür. Yəni Azərbaycan musiqisinin janr müxtəlifliyi , onların məna dəyəri və bədii zənginliyi ladintonasiya sisteminin tərkibində birləşir.

Əslində məqsədimiz kino musiqisinin milli spesifik xüsusiyyətlərini açıqlamaqdan ibarətdir. Həmçinin belə bir zəruri faktı qeyd etməliyik ki, Azərbaycan musiqisinin lad sistemi istər müasir kino musiqisində, istərsə də XX əsrin sonu, XXI əsrin əvvəllərinə xas olan kino musiqisində əsas olmağa qabildir. Onu da vurğulamaq lazımdır ki, Azərbaycan musiqi tarixinin öyrənilən dövrü çox mürəkkəb hadisələrin əksi ilə fərqlənir. Son illərin kino musiqisində milli lad intonasiya sisteminə istinad etmək, mürəkkəb obrazlar müxtəlifliyinə baxmayaraq , sanki klassik ifadəlilik verir.

Kinofilmlərin müəyyən aspektlərinin koloriti, şəkilli ahəngdarlığı, həmçinin Azərbaycan ladlarının ifadəliliyinə söykənir. Kinofilmin emosional aurası başdan ayağa onun spesifik quruluşunu əmələ gətirərək bütövlükdə musiqi ilə korrelyasiya olunur.

Musiqi tarixi dəfələrlə xalq lad sisteminin necə dərindən professional musiqiyə təsir etdiyini sübut etmişdir. Tək bunu demək kifayətdir ki, XX əsrdə Qərbi Avropa məktəbləri musiqi dəyərlərinin təsdiqində yalnız milli ladlara arxalanmışlar. Qerşvinin, Albenisin, Sibeliusun, Qriqin yaradıcılıqlarını xatırlayaq.

XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan kino musiqisinin bədii quruluşunu yalnız Azərbaycan musiqisinin ladintonasiya dilinin xüsusiyyətləri zənginləşdirməmişdir, o, eyni zamanda mətnə xüsusi ifadəlilik vermişdir.

Kinofilmlərdə Azərbaycan bəstəkarlarının istifadə etdikləri koloristik fon musiqiləri, tembr spektrləri Azərbaycan ladlarının spesifik xüsusiyyətlərinə istinad etmişdir.

Mübaliğəsiz demək olar ki, kino musiqisi bu və ya digər mənada mətn musiqisidir. O, dəqiq kinofilmdə səslənir, süjeti canlandırır, qəhrəmanların xarakterini açıqlayır, dramaturji vurğuları qoyur. Başqa bir tərəfdən, kino filmlərdə istifadə edilən musiqi nömrələri məşhur assosiativ əlaqələrə söykənir, yəni Azərbaycan musiqisinin milli spesifikliyi həm onun melodiyasında, metroritmində, ladintonasiyasında, melodik strukturunda, forma təşkilində özünü göstərir. Filmin mətninin, məzmununun, dramatizminin, süjet xəttinin qarşılıqlı əlaqəsi bədii tam kimi filmin təkrarolunmazlığını yaradır.

Filmin süjeti bəstəkardan filmdə cərəyan edən hadisələrdə bu və ya digər şəraiti xarakterizə edən intonasiya-ritmik dönmələrdən istifadə etməsini tələb edir. Bəstəkarlar filmlərə musiqilər bəstələyərkən,filmdə iştirak edən persanajların psixoloji xarakteristikalarına uyğun olan müəyyən ifadəli mənaya xas olan musiqili vasitələr seçirlər.

Ümumiyyətlə, bəstəkarın yaradıcılığının ümumi məntiqi filmin dramaturgiyasından asılıdır. Eyni zamanda bəstəkarın istifadə etdiyi musiqi vasitələri onun individual yaradıcılıq metodunu əks etdirir.

Musiqi təfəkküründün impulsları Azərbaycan xalq musiqisinin ladintonasiya sistemində özünü göstərir. Hamıya bəlli olduğu kimi Azərbaycan xalq musiqisinin milli spesifikliyi melodik quruluş vasitəsilə ifadə olunur.

Azərbaycan musiqisinin əsasını lad təşkil edir. Biz ladın rolundan danışarkən, qeyd etməliyik ki, dahi Üzeyir bəy Hacıbəyov Azərbaycan musiqisinin milli lad nəzəriyyəsinin əsasını qoymuşdur. Musiqi bilicilərinin fikrinə görə Üzeyir bəyin elmi yaradıcılığı Azərbaycan musiqisinin mili nəzəri parametrlərinin öyrənilməsi üçün əsas şərtdir.

Üzeyir Hacıbəyov Azərbaycan ladintonasiya tipologiyalarını aşkara çıxarmış və ümumiləşdirməyə nail olmuşdur. Melodik kadans formasında fəaliyyət göstərən bu tipalogiyalar Azərbaycan musiqisinin müxtəlif sahələrini əks etdirir. Belə demək mümkündür ki, melodik kadans Azərbaycan xalq musiqisinin təşəbbüsçüsüdür. Melodik kadans eyni zamanda folklor janrlarını arxitekturlaşdıran əsasdır. Sözsüz ki, biz Azərbaycan bəstəkarlarının əsərlərinin musiqilərinə diqqət etsək, orada müəllifin folklor nümunələrinə istinad və yaradıcı şəkildə yenidən işlədilməsinin şahidi olacayıq.

XX əsrin axırları- XXI əsrin əvvəllərində Azərbaycan kino musiqisində ahəngdar effektlər, Bəstəkarlıq ifa texnikasından istifadə milli ladintonasoyaya malikdir.

Mübaliğəsiz demək olar ki, müasir musiqidə yeni tembr instrumental imkanları , elektron musiqi alətlərinin səs tembri , müxtəlif növ səs effektləti və s istifadə olunur. Kinosevərlər Azərbaycan filmləri üçün yazılan kino musiqilərinin melodik tərtibinə daha çox nəzər yetirirlər.

Azərbaycan tədqiqatçıları Azərbaycan musiqisinin milli spesifikliyinin ən zəruri şərtlərindən birinin ladintonasiya sisteminin olduğunu həmişə vurğulayiblar.

Qeyd olunduğu kimi Azərbaycan musiqişunaslığının əsas mövqeyi ondan ibarətdir ki,Azərbaycan musiqisinin özünəməxsusluğunun ən şəffaf göstəricilərindən biri xalq musiqisinin lad-melodik quruluşudur.

M.Q.Aranovskinin “Melodiyanın sinteksik strukturu” kitabından iki sitat gətirmək istərdim.” Melodiya musiqi ifadəsinin ilkin formasını təmsil edir (1, s.6). Başqa bir sitat: “Ümummədəni və musiqi tarixinin təcrübəsini özünə çəkmək və əks etdirmək qabiliyyəti ilə musiqinin bədii-semiotik qatının dütün sisteminin fərqləndirici faktoru kimi melodiyanın hədsiz nitqi izah olunur” (1, s.13).

Nümayış olunan filmlərin musiqi dili milli ruhun əsas funksiyasini özündə ehtiva edir.Müasir kino musiqisinin xalq musiqisinə məxsusluğu ladintonasiya sisteminin xüsusiyyəti ilə sıx əlaqədardır. Biz ona əsaslanaraq diyə bilərik ki, musiqidə xəlqilik həmişə öz tarixi köklərinə xasdır.

Kinoya yazılan musiqilər filmin gedişatında ən zəruri stimul kimi dramaturgiyanın yüksəliş mərhələlərini müəyyənləşdirir. Musiqi filmin ən əhəmiyyətli komponentlərindəndir. Kinoda rol ifaçılarının, baş verən hadisələrin,zaman və məkan xüsusiyyətlərini səciyyələndirmək əsərin mənasını ifadə etmək kimi vəzifələrini yerinə yetirir. Kinonun yarandığı ilk illərdən, eyni zamanda musiqiyə tələbat da onunla bərabər yarandı. Yəni mübaliğəsiz demək mümkündür ki, musiqi kinonun ayrılamaz bir hissəsinə çevrildi.

ƏDƏBİYYAT

1. Арановский. М.Г.Синтаксическая структура мелодии. Москва: 1991
2. В.Н.Музыка как вид искусства.М.: 1990
3. Səfərova Z.Y. Azərbaycan musiqi elmi. Bakı: 1998. Elm, 583 s.

SUMMARY

Nazila Gardasbayova, Zinyat Mammadzade

NATIONAL CHARACTERISTICS OF MUSIC WRITTEN FOR AZERBAIJAN FILMS

Film music mainly serves to open the content of the film. From this point of view, in the music played in the Azerbaijani cinema, a position has been formed that serves the general expressiveness of the film, which only helps to reveal the characters and plot features at the musical level.

The character of the movie is determined not only by its content, its unique image, but also by the music written for the film. The uniqueness of the music played in the cinema is related to the musical means of embodying the images of the film.

It should be noted that the sound characteristics of the music recorded for the film have always been the focus of the researchers. Of course, this is legal, because cinema is a visual art. That is why in the studies written about film music, a necessary factor is noted: the parallel study of such types of art as cinema and music allows to find the development of both music and film art.

From this point of view, the transparency of the theme in the music written for Azerbaijani movies at the end of the 20th century and the beginning of the 21st century is distinguished by its national brilliance and specificity.

Similar processes took place in music written for movies. Music written for Azerbaijani cinema at the beginning of the 21st century represents the formed composition of Azerbaijani musical culture with its own trends, characters, and regularities.

***Key words**: Azerbaijani musicians, Azerbaijani composers, Azerbaijani musical art, instrumental, opera, music*

ZEYNƏB MAHMUDOVA
mahmudovazeynebceyhunn@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0008-2133-0902

FƏAL TƏLİMİN TƏSVİRİ SƏNƏTDƏKI ROLU VƏ ƏNƏNƏVİ TƏLİMLƏ MÜQAYİSƏSİ

Tədqiqatın məqsədi: Bu tədqiqat ibtidai və orta təhsil pilləsində dərslərdə ənənəvi təlimin və fəal təlimin rolunu araşdırmaq üçün aparılmışdır. Tədrisdə fəal təlimin göstərdiyi nəticələri, üstünlükləri, fəal təlimdə müəllim və şagirdlərin rolunu, ənənəvi təlim metodu ilə müqayisə edilərək qeyd edilmişdir.

Tədqiqatın metodologiyası: tədqiqat işində empirik (müqayisə) metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti: Bu sahədə aparılmış tədqiqatın nəticələri və əldə edilmiş ümumiləşdirmələr, dərslərin şagirdlər üçün öyrədici, həvəsləndirici, şagirdlərin fəal iştirak etməsi və dərslərin daha səmərəli olması üçün tətbiq edilə bilər.

Tədqiqatın nəticələri: Təhsilin müxtəlif sahələrində baş verən inkişaflar, təhsil prosesində fərqli metod, texnika və mühitlərdən istifadəyə gətirib çıxarır. Tədqiqat əsasında müəyyən edilmişdir ki, tədris prosesinə fəal təlim metodlarının daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, təfəkkürün inkişafına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. ”Fəal təlim metodları şagirdin biliklərini artırmaq, dərsi qavramasını və tətbiq etməsinə, lazımi nəzəri biliklərə sahib olmasına kömək edir.

XI əsrin incəsənət cərəyanlarını öyrətmək üçün istifadə edilən ənənəvi tədris üsulları şagirdlərdə qalıcı izlər qoymur və öyrənməyi təmin etmir. Təcrübə zamanı isə əsərlər yalnız reproduksiyadır və şagirdə müxtəlif texnika və üsullardan istifadə etməyə imkan vermir. Halbuki, faəl təlim metodları ilə tədris olunan təlim dövrün və müasir incəsənətin yeni tətbiqləri, müxtəlif texnika və materialları haqqında məlumat yaratmaq, şagirdə fərqli baxışlar bəxş etmək və bu zənginliklərdən istifadə edə bilmək baxımından xeyirli olmuşdur.

Açar sözlər: *fəal təlim, təsviri sənət, ənənəvi təlim, bədii öyrənmə, metod.*

SUMMARY

Zeynab Mahmudova

THE ROLE OF ACTIVE LEARNING IN THE FINE ARTS AND COMPARISON WITH TRADITIONAL LEARNING

Purpose of the Study: This study was conducted to examine the role of traditional learning and active learning in classrooms at the primary and secondary levels. The results and advantages of active training in teaching, the role of teachers and students in active training, compared with the traditional training method, were noted.

Research methodology: empirical (comparative) methods were used in the research.

Application significance of the research: The results of the research conducted in this area and the obtained generalizations can be applied to make the lessons more educational, motivating for the students, active participation of the students, and more effective for the lessons.

Research results: Developments in various fields of education lead to the use of different methods, techniques and environments in the educational process. Based on the research, it was determined that the inclusion of active learning methods in the teaching process creates conditions for the elimination of students' passivity, the development of thinking, and the improvement of the quality of training”. Active learning methods help the student to increase his knowledge, to understand and apply the lesson, to have the necessary knowledge.

Traditional teaching methods used to teach art trends of the 21st century do not leave lasting impressions on students and do not ensure learning. During practice, the works are only reproductions and do not allow the student to use different techniques and methods. However, teaching with active learning methods has been good in terms of creating information about new applications of the era and modern art, various techniques and materials, giving the student different views and being able to use these riches.

Key words: *active learning, fine art, traditional learning, artistic learning, method.*

KÖNÜL SÜLEYMANZADƏ

TOFİQ BAKIXANOVUN BƏSTƏKARLIQ ÜSLUBUNUN SPESİFİK CƏHƏTLƏRİ

Tofiq Bakıxanov Azərbaycanın ziyalı ailələrindən biri olan Bakıxanovlar ailəsinin tanınmış nümayəndələrindəndir. Bakıxanovlar nəsli Azərbaycana görkəmli musiqiçilər və hərbçilər bağışlamışdır. Bu nəsildən 6 musiqiçi, 4 general, 17 görkəmli hərbçi yetişmişdir. Bəstəkar bəstələdiyi əsərləri ilə Azərbaycanda və onun sərhədlərindən kənarda tanınmış, musiqi xəzinəsinə dəyərli töhfələr bəxş etmişdir. Bəstəkar balaca yaşlarından musiqi mədəniyyətimizin abu-havası ilə böyümüşdür. O, ilk əvvəl skripka ifaçılığı ilə məşğul olmuş, daha sonra bəstəkarlıq sahəsi üzrə qabiliyyətini bütün dünyaya sübut etmişdir. Tofiq Bakıxanovun yaradıcılığında müəllimi Qara Qarayevin rolunu xüsusilə vurğulamaq lazımdır. Azərbaycan Dövlət Konservatoriyasında təhsil aldığı illərdə "Üzeyir Hacıbəyov" adına təqaüdə laiq görülmüşdür. Tofiq Bakıxanov ilk əsərini məhz skripka üçün yazmışdır. Bəstəkar yaradıcılığı boyunca yorulmadan çalışmış, Azərbaycan musiqisinin inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Onun yaradıcılığı haqqında bir çox resenziyalar, silsilə məqalələr, monoqrafiyalar yazılmış və bəstəkarın həyatı haqqında "Tofiq Bakıxanov" filmi çəkilib ekranlaşdırılmışdır. Tofiq Bakıxanov 3 baletin, 26 konsertin, 3 simfoniettanın, 6 simfonik poemanın, xor əsərlərinin, 3 musiqili komediyaların, 100-dən çox romans və mahnıların müəllifi olmuşdur. Bəstəkarın yaradacılığının "Şah damarı" 5 Azərbaycan muğamını simfonik dilə çevirməsidir. Müəllif həmin əsərlərdə Fikrət Əmirov, Süleyman Ələsgərov və Niyazinin ənənələrinin layiqincə davam etdirmişdir. "Xəzər balladsı" baleti bəstəkarın həyatında və sənətində önəmli bir məsələ olaraq müəllifə bir çox uğurlar qazandırmışdır. 1990-cı illər Bəstəkarın yaradıcılığında çox məhsuldar dövr olmuş və bir çox alətlər və orkestr üçün müxtəlif janrlı əsərlər yaratmışdır. Tofiq Bakıxanov " Əməkdar incəsənət xadimi"- 1973-cü ildə, "Xalq artisti" fəxri adına 1990-cı ildə, professor vəzifəsinnə-1983-cü ildə, "Şöhrət" ordeninə-2000-ci ildə layiq görülmüşdür. 1996-2001-ci illərdə Abbasqulu Ağa Bakıxanov adına mükafatın 2 dəfə laureatı və onun ardınca 2005-ci ildə "Humayun" mükafatı laureatlığına layiq görülmüşdür. Höküma Əliyeva 2001-ci ildə tərtib etdiyi "Bəstəkar haqqında söz, not biblioqrafiya" kitabı "Zaman" nəşriyyatında çapdan çıxmışdır. Bu kitab Azərbaycan Respublikasının ulu öndəri Heydər Əliyevin Tofiq Bakıxanovunun yaradıcılığına göstərdiyi yüksək diqqətlə səhifələnir: "Hörmətli Tofiq Bakıxanov!... Əlli illik yaradıcılıq yolunuz həm ifaçı, həm də bəstəkar kimi xalqa sədaqətli xidmət, musiqi sənətinə möhkəm bağlılıq nümunəsi olmuşdur. Azərbaycan milli musiqi xəzinəsinin dərin köklərindən bəhrələnən çoxşaxəli yaradıcılığınız müasir musiqinin ümumi kontekstində inkişaf edərək sənət aləmində Sizə böyük hörmət qazandırmışdır". (Əliyeva H, 2007, 104). Azərbaycan musiqi mədəniyyətində violo aləti üçün sonata janrının yaranması məhz Tofiq Bakıxanovun adıla bağlı olmuşdur. Tofiq Bakıxanovun 75 illik yubileyi Naxçıvanda böyük təntənə ilə qeyd edilmiş, Naxçıvan Dövlət Universitetində, Naxçıvan Musiqi Kollecində və bir sıra Musiqi məktəblərində tədbirlər təşkil olunmuşdur. O, yaradıcılıq imkanlarından məharətlə istifadə edərək Kırpız-Azərbaycan, Türkiyə-Azərbaycan, Azərbaycan-İran mədəni əlaqələrinin inkişaf etməsində çox yaxından iştirak etmiş, bir çox Avropa ölkələrində - İngiltərə, Avstriya, Fransa, Macarıstan, İsveçrə, Rumuniya, İsveç, Almanya, Şotlandiya, Bulqanıstanda Azərbaycan milli musiqisinin təbliği üçün səfərlərdə iştirak etmişdir.

Açar sözlər: *Tofiq Bakıxanovun həyatı, Tofiq Bakıxanovun yaradıcılığı, Tofiq Bakıxanovun simfonik muğamları, Tofiq Bakıxanovun balet yaradıcılığı, Tofiq Bakıxanovun musiqili komediyaları.*

1. Tofiq Bakıxanovun bəstəkarlıq üslubunun spesifik cəhətləri

Azərbaycan musiqisinin inkişaf etməsində əhəmiyyətli rola sahib olan simalardan biridə Azərbaycan Respublikasının "Xalq artisti", "Şöhrət"ordenli Tofiq Əhmət oğlu Bakıxanovdur.

O, yaradıcılığa 1950-ci illərin sonu, 1960-cı illərin əvvəllərində başlamışdır. Tofiq Bakıxanov "Xəzər balladası","Şərq poeması","Xeyir və Şər" balletlərinin, simfonik orkestr üçün əsərlər, musiqili komediyalar, romans və mahnıların müəllifidir.

Bəstəkarın çoxşaxəli yaradıcılığında "Kamera instrumental" musiqisi əsas yer tutur. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası (hal-hazırda Bakı Musiqi Akademiyası) Kamera ansambl kafedrasının professoru Tofiq Bakıxanov bu janrların təbliğində əlindən gələni əsirgəməmişdir.

O, 1930-cu il dekabrın 8-də Bakı şəhərində "muğam ustası, tarzən" Ə. Bakıxanovun ailəsində dünyaya gəlmişdir.Əhməd Bakıxanov heyatı boyunca Azərbaycan musiqisinin inkişafında Üzeyir Hacıbəyovla çiyin-çiyinə vuruşmuşdur.

Tofiq Bakıxanovun ulu babası olan A.A.B.Qüdsi fəlsəfə, tarix və başqa elmlərin dərin bilicisi olmuş, əruz vəznində şeirlər yazmışdır. Üzeyir Hacıbəyovun məsləhəti ilə T.Bakıxanov 10 illik musiqi məktəbinə skripka şöbəsinə daxil olub, N.İ.Tsimberovdan dərs almışdır. 1948-1953-cü illərdə Konservatoriyada S.Bretanitskinin sinfində təhsil almışıdır. İfaçılıq sahəsindəki uğurlarına baxmayaraq, muxtəlif janrlarda əsərlər bəstələmək arzusu qalib gəlir və bununlada fortepiano, violonçel, skripka və müxtəlif alətlər üçün ilk əsərlərini ərsəyə gətirir. Qara Qarayev Tofiq Bakıxanovun bəstəkarlıq qabiliyyətini görərək bu sahə ilə ciddi məşğul olmağı məsləhət görür. Beləliklə 1954-57-ci ildə Konservatoriyanın yenidən tələbəsi olaraq Qara Qarayevin sinifində bəstəkarlıq ixtisası üzrə təhsil almışdır. Tələbəlik illərində bu günümüzə qədər keyfiyyətini itirməyən bir çox əsərlər qələmə alıb yaratmışdır. Bu əsərlər içərisində ən çox geniş yayılıb və dinləyicilər tərəfindən rəğbət qazanan Azərbaycanın unutulmaz bəstəkarı Məmməd İsrafilzadənin xatirəsinə həsr etmiş olduğu, adını musiqisevərlər arasında tanıtmış "Elegiya"dır.

Konservatoriyanı bitirərkən diplom işi kimi təqdim etdiyi və imtahan komissiyasının rəğbətini qazanan "Skripka və orkestr üçün Birinci konserti" müvəffəqiyyət qazanır. Bu əsərə görə I dərəcəli diplomla təltif olunur və Azərbaycan Gənclərinin II festifalında laureant adı qazanmışdır.

1962-ci ildə bəstəkarın II Simfoniyası Moskvada, C.Dalqatın rəhbərliyi ilə Ümumittifaq televiziya və radiosunun simfonik orkestrinin ifasında səsləndirilmişdir. Azərbaycanda isə K.Əliverdibəyovun rəhbərliyi ilə 1966-cı ildə Azərbaycan simfonik orkestrinin ifasında səsləndirilmişdir. Tofiq Bakıxanovun simfonik əsərləri içərisində vaxtsız dünyasını dəyişən qızına həsr etdiyi "Nigar" adlanan V simfoniyası xüsusilə diqqətə laiqdir. Bu simfoniyda bəstəkar dərin kədərini və 1990-cı illərdə xalqımızın başına gəlmiş faciələri göstərmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyevə həsr etmiş olduğu "Həmişə bizimləsən" əsəri dinləyicilərin böyük məhəbbətini qazanmışdır.

Bəstəkarın digər simfonik əsərləri arasında ilk dəfə Türkiyədə səsləndirilmiş və İhsan Doğramacıya həsr etmiş VI "Türk" Simfoniyasını qeyd etmək lazımdır.

Tofiq Bakıxanovun simfonik əsərləri sırasında simfonik muğamlarını vurğulamaq lazımdır. Bəstəkarın simfonik muğamları bunlardır: "Nəva", "Humayun", "Rəhab", "Şahnaz". Simfonik muğamları sırasında "Nəva" simfonik muğamının adını çəkmək lazımdır. Bu əsəri atası Ə.Bakıxanovun ifasında yazmışdır. "Nəva" muğamı XIV əsrdə geniş yayılsa da zaman keçdikcə bəzi şöbələri ixtisarlanmış, XXI əsrə daha yığcam bir şəkildə - 9 şöbə şəkilində gəlib çatmışdır.

"Nəva" simfonik muğamı "Bərdaşla" la başlayır və bu şöbə ağır səslənən musiqidən ibarətdir. Bundan sonra ifa olunan "Nəva" muğamın maye şöbəsi olub aramla əsas mövzunu nağıl edir. Zaman keçdikcə hekayənin xarekteri dəyişir və coşqun xarekter alır, musiqi dinləyicini "Nişapur"şöbəsinə gətirir. Bu şöbədən sonra "Əbu-əta"şöbəsi səslənir və simli, nəfəsli alətlər bir-birilə sanki dialoq şəklimdə danışırlar.Daha sonra həmin alətlər birləşərək "tutti" şəklində orkestrin ifasında musiqi davam edir. "Dəşti" şöbəsində Tofiq Bakıxanov musiqi alətlərini səslənməsini aşağı registrdən başlataraq getdikcə zil səs registrinə yüksəltmişdir. Bundan sonra, "Gövhəri" şöbəsi səslənir və burada bəstəkar şöbənin lad-məqamını dəyişərək "Gövhəri" şöbəsini mülayim səslənmə ilə dinləyiciyə çatdırır. "Mənəvi" şöbəsi vaistəsilə simfonik muğamın əsas məqama keçid baş verir.Bu şöbə digər şöbələrə nisbətən daha iri həcimli olub, ehtiraslı melodiyalar coşqun melodiyalarla bir-

birini əvəzləmişdir. “Nəva” simfonik muğamının son şöbəsi olan “Pəhləvi” özündə böyük həcimli melodiyaları əks etdirir. Burada, bəstəkar Zərbi muğamlara xas olan üslub xüsusiyyətləri saxladığını müşahidə edirik. Tofiq Bakıxanov simfonik muğamın sonunda əvvəlki şöbələrdə səslənən bəzi melodiya və leytmotivdən istifadə edərək muğamın yekun mətnini yaratmışdır

Bəstəkar simfonik muğamın final hissəsində orkestrdən məharətlə istifadə edərək təntənəli səslənmə əldə etmiş, qələbə sədaları ilə tamamlamışdır.

Tofiq Bakıxanovun çoxşaxəli yaradıcılığında xüsusi yer tutan balet yaradıcılığı, təkcə müəllifin özünün deyil, bütünlükdə Azərbaycan musiqi məktəbinin uğurlarından sayılır. Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev balet (musiqi-xoreqrafiya) janrının inkişaf etməsi üçün yollar açmışdır. Böyük sənətkarımızın bu sahədə əldə etdiyi nailiyyətləri Azərbaycan bəstəkarlarının diqqətini musiqi-xoreqrafiya janrına çəkmişdir. 1967-ci ildə bəstələmiş olduğu və yanvarın 14-ü 1968-ci ildə səhnələşdirdiyi “Xəzər balladası”, daha sonra S.Yeseninin “Fars motivləri” şeirləri əsasında bəstələdiyi “Şərq poeması” və sonuncu baleti olan “Xeyir və Şər” baletini 1990-cı illərin əvvəllərində N.Gəncəvinin anadan olmasının 850 illiyinə həsr etmişdir. Bəstəkarın I pərdəli “Xəzər balladası” baleti olub və librettosunu isə S.Məmmədzadə üstlənmişdir. Librettoda bir çox cəzbedici cəhət vardır, mətn yığcam və ümumiləşdirilmiş maraqlı bir şəkildə açılır. Baletmeystr rolunda- Məmmədov Maqsud və Axundova Rəfiqə səhnədə ilk dəfə çıxış etmişdir. Baletdə bəstəkar sevgi səhnələrindən, süjet motivlərindən, məişət səhnələrindən istifadə etməmiş, əməyə olan sevgini, insan zəkasını işləyib ön plana çıxarmışdır. “Xəzər balladası” da təbiət hadisələrindən, neftçilərin əmək və istirahət səhnələrindəki təsvirlərin ziddiyyəti ilə tamaşaçıların diqqətini cəlb etmişdir.

“Xəzər balladası” baleti xoreoqrafiya və musiqinin dili vaistəsilə neftçilərin əməyindən bəhs edir. Yanğın səhnəsi və nefçilərin səhnəyə çıxış rəqsi təsirli və yadda qalandır. Neftçilər dənizdən neft çıxarmaq üçün dənizə yollanırlar. İş başlayır və buruq fantan vurur. Dəniz neftçiləri əmək qələbələrinə sevinirlər. İş bitir və neftçilər dincəlirlər. Şimal küləyinin başlaması ilə fırtına qopur və həyəcan siqnalı verilir. Həyəcanı “Nordun rəqsi” meydana gətirir. Getdikcə güclənən küləyin səsini dinləyiciyə xatırladan dinamik elementlər, musiqi nömrəsinin əsas parçasını təşkil edir. Baletin kulminasiya hissəsində neftçilərin əsas mövzusu səslənir və bu halda əsərin koda hissəsi tamamlanır.Neftçilər təbiət hadisəsinə qarşı birgə mübarizə aparırlar. Neft buruqlarından dənizə axan neft alovlanaraq ekoloji fəlakət baş verir. Həyəcanlı mövzu klarnet və fleytanın ifasında səslənir. “Fəhlələrin yürüşü” adlanan musiqi nömrəsindən əsas mövzuya keçid baş verir. Bəstəkar burada faqot, bas- klarnetdən geniş şəkildə istifadə etmişdir. Neftçilər qəhrəmancasına birlikdə çalışaraq yanğını söndürüb fəlakəti dəf edirlər və yaşanılacaq böyük bədbəxtliyin qarşısına keçməyi başarırlar. Qələbə sevinci qəhrəman nefçilərə yorqunluqlarını unutdurur. Gərgin əmək prosesi ilə məşğul olmaq üçün dəniz neftçiləri yenidən iş başına qayıdırlar.

Yenidən günəş ən təpədə yerini alır. Dalğalar sakit şəkildə sahilə əvvəlki kimi çırpmağa başlayır. Dəniz üzərində quşlar qanad çırpmağa başlayır.

T.Bakıxanov yaradıcılığında musiqili komediya janrına müraciət edərək 3 operettanı yaratmışdır. Bəstəkar operettalarını Nəriman Məmmədovla birlikdə yazmışdır. 1964-cü ildə M.Əlizadənin librettosu üzrə “Altı qızın biri Pəri”, Asəf Zeynallının librettosu əsasında 1969-cu ildə qələmə aldığı “Məmmədəli kurorta gedir”, A.Babayevin librettosu üzrə “Qız görüşə tələsir” musiqili komediyalarını ərsəyə gətirmişdir.

Operettaların mövzusu gündəlik həyatımızdan götürülmüş, məişətimizdə baş verən eybəcər cəhətlər, mənfi və fırıldaqçı insanlar satirik cəhətdən tənqid atəşinə tutulmuşdur. Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında həmin əsərlər böyük müvəffiqiyyətlə tamaşaya qoyulmuşdur.

Bəstəkarın sonuncu operettası olan “Qız görüşə tələsir” 1979-cu ildə baş tutmuş Azərbaycan bəstəkarlarının V qurultayının proqramına daxil edilmişdir.

Tofiq Bakıxanovun yaradıcılığında müxtəlif məzmuna sahib romans və mahnılar xüsusi yer tutmuşdur. Bəstəkarın “Azərbaycan gölləri”, “Vətən haqqında mahnı”, “Özbək bacım”, “Gözəlliklər

məskəni", " Sevməyir, qoy sevməsin", "Sənlə bağlıdır bəxtiyarlığım", "Sevən könlüm" və s. mahnıları dinləyicilərin qəlbinə asanlıqla yol tapmışdır.

Bunu söyləmək lazımdır ki, Tofiq Bakıxanovun rəngarəng janrlarda bəstələdiyi əsərlər musiqi məktəblərimizin repertuarlarını və ifaçıların proqramlarını zənginləşdirmişdir. Həmin əsərlərin bir çoxu müəllifin 75, 80, 85 illiyinə həsr edilmiş konsertlərdə müvəffiqiyyətlə səsləndirilmişdir.

ƏDƏBİYYAT

1. Əliyeva Hökümə. Tofiq Bakıxanov-Misiqi düşüncələri, 2007
2. Qafarova Zemfira. "Xəzər balladası"-50 Fransada Azərbaycan baleti günləri, 2018
3. Məmmədova Günay. Tofiq Bakıxanovun baletləri, 2020
4. Qafarova Zemfira. Tofiq Bakıxanov, 2017
5. Qafarova Zemfira.Tofiq Bakıxanovun Simfonik muğam dünyası, 2014

SUMMARY

Konul Suleymanzade

SPECIFIC ASPECTS OF THE COMPOSING STYLE OF TOFIG BAKIKHANOV

Tofig Bakikhanov is one of the well-known representatives of the Bakikhanov family, one of the intellectual families of Azerbaijan. The generation of Bakikhanovs gave outstanding musicians and soldiers to Azerbaijan. From this generation, 6 musicians, 4 generals, 17 prominent military men grew up. The composer has made valuable contributions to the musical treasury known in Azerbaijan and beyond its borders with his works. The composer has grown up with the atmosphere of our musical culture since childhood. At first, he was engaged in playing the violin, and then he proved his ability in the field of composition to the whole world. The role of his teacher Gara Garayev in Tofig Bakikhanov's creativity should be emphasized. During his studies at the Azerbaijan State Conservatory, he was awarded a scholarship named after "Uzeyir Hajibeyov". Tofig Bakikhanov wrote his first piece for the violin. The composer worked tirelessly throughout his career and spared no effort for the development of Azerbaijani music. Many reviews, series of articles, monographs have been written about his work, and the film "Tofig Bakikhanov" about the composer's life was shot and screened. Tofig Bakikhanov was the author of 3 ballets, 26 concerts, 3 symphonies, 6 symphonic poems, choral works, 3 musical comedies, more than 100 romances and songs. The creativity of the composer is the transformation of 5 Azerbaijani mughams "Shah Damari" into a symphonic language. In those works, the author continued the traditions of Fikret Amirov, Suleyman Alasgarov and Niyazi. The ballet "Caspian Ballad" brought many successes to the author as an important issue in the composer's life and art. The 1990s were a very productive period in the composer's work and he created works of various genres for many instruments and orchestra. Tofig Bakikhanov was awarded the title of "Honored Art Worker" in 1973, the honorary title of "People's Artist" in 1990, the position of professor in 1983, and the Order of "Fame" in 2000. In 1996-2001, Abbasgulu was a 2-time laureate of the award named after Agha Bakikhanov, and then in 2005 he was awarded the laureate of the "Humayun" award. The book "A word about the composer, not a bibliography" compiled by Hokuma Aliyeva in 2001 was published by "Zaman" publishing house. This book is devoted to the great attention of the great leader of the Republic of Azerbaijan, Heydar Aliyev, to Tofig Bakikhanov's creativity: "Dear Tofig Bakikhanov!... Your fifty-year creative path has been an example of loyal service to the people, as well as a strong commitment to the art of music, both as a performer and a composer. Your multifaceted creativity, benefiting from the deep roots of Azerbaijan's national musical treasure, has developed in the general context of modern music and earned you great respect in the art world." (Aliyeva H, 2007, 104). The creation of the sonata genre for the viola instrument in Azerbaijani musical culture was connected with the name of Tofig Bakikhanov. Tofig Bakikhanov's 75th anniversary was celebrated with great ceremony in Nakhchivan, events were organized at Nakhchivan State University, Nakhchivan Music College and a number of music schools. Skillfully using creative opportunities, he closely participated in the

development of Kyrgyz-Azerbaijani, Turkey-Azerbaijani, Azerbaijan-Iranian cultural relations, in many European countries - England, Austria, France, Hungary, Switzerland, Romania, Sweden, Germany, He participated in visits to promote Azerbaijani national music in Scotland and Bulgaria.

Key words: *Tofig Bakikhanov's life, Tofig Bakikhanov's creativity, Tofig Bakikhanov's symphonic mugams, Tofig Bakikhanov's ballet works, Tofig Bakikhanov's musical comedies.*

GÜNAY ƏLİYEVA
ferideliyeva013@gmail.com
Naxçıvan Dövlət Universiteti

BƏSTƏKAR KAMAL ƏHMƏDOVUN "MƏN SƏNİ SEVMİŞƏM" ROMANSINDA MİLLİ XÜSUSİYYƏTLƏR

Azərbaycan bəstəkarlarının yaradıcılığı xalq musiqisinə əsaslansa da onlardan hər biri öz fərdi üslubunu yaratmış, müasirlərimizin həyatını, arzu və istəklərini özünəməxsus şəkildə ifadə etmişlər. Dahi bəstəkarl Üzeyir Hacıbəylinin əsasını qoyduğu professional bəstəkarlıq məktəbinin nümayəndələri sırasında Naxçıvanda yaşayıb yaradan bəstəkar Kamal Əhmədovun da adını qeyd edə bilərik. Əməkdar incəsənət xadimi K.Əhmədovun yaradıcılığı Sovetlər birliyinin dağıldığı və Azərbaycanın müstəqillik əldə etdiyi illərə təsadüf edir. Hər iki dövrü əhatə edən bəstəkarın yaradıcılığında müxtəlif janrlı əsərlərə rast gəlmək mümkündür.

Açar sözlər: *romans, muğam, bəstəkar, milli xüsusiyyətlər*

K.Əhmədov Naxçıvan şəhərində uşaq musiqi məktəbində tar sinfinə gedir və orada ilk dəfə müəllimi Yusif Əliyevin vasitəsi ilə muğam sənəti haqqında bilgilər əldə edir. Lakin A.Zeynallı adına orta ixtisas Musiqi Texnikumunda təhsil aldığı illərdə ustadı Əhməd Bakıxanovdan muğam aləminin sirlərini öyrənmişdir. Məhz bu illərdə K.Əhmədov bəstəkarlıq sənətinə də maraq göstərir və fortepiano üçün kiçik həcmli əsərlər bəstələyir. O, 1979-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olaraq, professor, bəstəkar Xəyyam Mirzəzadənin sinfində təhsil alır. Sənətin sirlərini öyrəndikcə, artıq özün üçün fərdi yaradıcılıq üslubu müəyyən edən bəstəkar K.Əhmədov öz dəstixətti yarada bilir.

Bəstəkar kamera orkestri, böyük simfonik orkestr, fortepiano ilə simfonik

orkestr üçün, tar ilə simfonik orkestr üçün müxtəlif səpkili əsərlərin müəllifidir. Bundan əlavə o, qarışıq xor və simfonik orkestr üçün "Ömrün Heydər zirvəsi", "Azərbaycan bayrağı" odaları, a kapella xor üçün "Qədim Naxçıvan" kantatası və s. əsərlərini bəstələmişdir. Bəstəkarın yaradıcılığında iri həcmli əsərlər ilə yanaşı kişik həcmli əsərlərə də rast gəlinir. Buna misal olaraq bəstəkarın mahnı və romanslarını qeyd edə bilərik. Onu da qeyd edək ki, Kamal Əhmədov mahnılarını əsasən Naxşıvan şairlərin sözlərinə yazmışdır. Bu mahnılar arasında M.Nəsirlinin sözlərinə "Qızlar bulağı", H.Valehin sözlərinə "Qoşa çinar", "Yaqub Şirinoğlunun sözlərinə "Saçlarıma qar da yağdı", "Gözlərinə baxan zaman", E.Maqsudovun sözlərinə "Zəfər marşı", "Anacan", Rövşən Əhmədin sözlərinə "Milli Ordumuz", Tərifənin sözlərinə "Bənövşə", T. Aslanın sözlərinə "Unutdun məni" digər şairlərin sözlərinə "Kaman səsi", "Bu yolu seçdim", "Keçmə", Xanəli Kərimlinin sözlərinə "Mən səni sevmişəm" və s. mahnılar yazmışdır. Bəstəkarın "Azadlıq türküsü", "Sevdam" mahnılarının sözlərinin müəllifi bəstəkar özüdür.

K.Əhmədovun "Mən səni sevmişəm" romansı səs və fortepiano üçün bəstələnmişdir. Romans fortepianonun giriş xanələri ilə Moderato tempində, 6\8 ölçüdə başlayır. Romans həzin və lirik xarakterdədir.

Melodiya humayun məqamının istinad pillələri əsaslanmaqla, səssırası daxilində qurulmuşdur. Buna əsərin bölmələri və musiqi cümlələri, yarım və tam kadanslarda məqamın əsas dayaq pillələrinə istinad edilir. Bu şəkildə ifadə tərzi ilk növbədə, melodiyanın dayaq pillələrinin qabarıq göstərilməsinə şərait yaradır. Həmçinin burada əsas məqamdan digər məqam-tonallıqlara yönəlmələr də özünü göstərir.

Romansın vokal partiyasında üslub xüsusiyyətləri baxımından mahnı varilik, muğamvarilik özünü büruzə verir. K.Əhmədovun mahnı yaradıcılığında musiqi dilinin milli köklərə bağlılığı, janr və üslub xüsusiyyətləri, xalq musiqisindən istifadə üsulları və və digər xüsusiyyətlər diqqəti cəlb edir.

Romansın fortepiano müşayiətndə bəstəkar homofon-harmonik üslubla yanaşı, səsaltı polifonik elementlərdən də istifadə etmişdir. Bütün bunlar sol əldə dərin bas notların fonunda təqdim olunmuşdur.

Bəstəkarın təhlil olunan vokal əsərlərində xalq musiqimizin lad-intonasiya xüsusiyyətləri ilə dərin köklərlə bağlılıq özünü büruzə verir.

SUMMARY

Gunay Aliyeva

**COMPOSER KAMAL AHMADOV "I LOVED YOU"
NATIONAL CHARACTERISTICS IN THE ROMANCE**

Although the creativity of Azerbaijani composers is based on folk music, each of them created their own individual style and expressed the life, dreams and aspirations of our contemporaries in their own way. Among the representatives of the professional composition school founded by the genius composer Uzeyir Hajibeyli, we can mention the name of the composer Kamal Ahmadov, who lived and created in Nakhchivan. The work of the honored artist K. Ahmadov coincides with the years when the Soviet Union collapsed and Azerbaijan gained independence. It is possible to find works of various genres in the work of the composer covering both periods.

Key words: *romance, mugham, composer, national characteristics*

FƏRHAD ALLAHVERDIYEV
lycidas515@gmail.com
Naxçıvan Dövlət Universiteti

MÜASİR AZƏRBAYCAN KARİKATURASINDA BAYRAM HACIZADƏNİN ROLU

Məqalədə müasir Azərbaycan karikaturasının inkişaf etməsində əvəzsiz rolu olan əməkdar incəsənət xadimi, karikaturaçı rəssam Bayram Hacızadənin yaradıcılığından bəhs edilmişdir.

Açar sözlər: *incəsənət, təsviri incəsənət, karikatura*

Müasir Azərbaycan karikaturasının inkişaf etdirilməsində böyük rolu olan rəssamlarımızdan biridə Bayram Hacızadədir. O, 1968-ci ildə Bakı şəhərində anadan olmuşdur. Hacızadə 1987-ci ildə Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbini başa vurmuşdur. Bundan sonra isə, 1994-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir. Bayram Hacızadənin karikatura sahəsindəki fəaliyyətinə nəzər salsaq görərik ki, 1986-cı ildən "Kirpi" satirik-yumor jurnalı ilə əməkdaşlıq etmişdir. 2000-ci ildən isə Azərbaycan Jurnasiltlər Birliyinin üzvüdür. Hacızadə 2005-ci ildə həm Azərbaycan Rəssamlar İttifaqının üzvü, həm də karikatura şöbəsinin rəhbəri seçilmişdir. Həmin ildə yaradılmış "Biz və Karikatura" satirik jurnalının baş redaktorudur. Bayram Hacızadə 2006-ci ildə yaradılmış Azərbaycan "Karikaturaçı Rəssamlar Biriliyi"nə sədr seçilmişdir. Həmin ildən başlayaraq Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasında Azərbaycanı təmsil etməkdədir. Bayram Hacızadə dünyanın müxtəlif ölkələrində təşkil olunan müsabiqə və yarışmalarda münsiflər heyətinin üzvü olmuşdur. Ölkəmiz başda olmaqla, dünyanın bir çox ölkəsində keçirilən müsabiqələrdə qızıl medal və xüsusi mükafatlara layiq görülmüşdür (1; s.4).

Bayram Hacızadə 2005-ci ildən başlayaraq "Karikaturanın inkişafı" adlı elmi iş üzərində çalışır. Həmçinin karikatura haqqında 6 kitab, 50-dən çox elmi və publisistik məqalənin müəllifidir. Bayram Hacızadə 2007-ci ildə Azərbaycan Respublikası "Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülmüşdür.

Bayram Hacızadənin aşağı hissədə göstərdiyimiz müəllifi olduğu karikaturaya nəzər salaraq, həm Hacızadənin rəsm etdiyi karikaturanı təhlil etmiş olarıq, həm də müasir Azərbaycan Karikaturası haqqında fikir formalaşdırmış olarıq:



Şəkil 1.

Bayram Hacızadə sələflərindən fərqli olaraq, müasir, dünya ilə ayaqlaşan bir sənətkardır. Bununla yanaşı keçiş dövrlərdən günümüzədək gəlib çatmış problemləri də öz karikaturalarında canlandırmaqdan çəkinməmişdir. Yuxarıda verdiyimiz karikaturaya ilk baxışdan nəzər salsaq görərik

ki, müəllim və partalarda əyləşmiş bir neçə şagirddən ibarətdir. Burada müəllim əlində qayçı dərs çalışan şagirdlərə nəzarət edir. Lakin müəllim əlində ki qayçı ilə balaca şagirdlərin simvolik olaraq təsvir edilmiş qanadlarını kəsərək, təsvirin sağ tərəfindən sola doğru özündən razı və sanki etdiyi adi, sıaradan bir halmış kimi davam edir. Təsvir olunmuş partalara və müəllimin geyiminə diqqət yetirsək görərik ki, rəssam XX əsrin əvvəllərində istifadə olunan əşylarla bənzərdir. Ümumi olaraq təsvirdəki insanlara baxdıq ortaq bir fərqli cəhət vardır ki, buda müəllim rənglərlə boyadılıb, təsvir olunmuş şagirlər isə sadəcə qara xəttlərlə verilmişdir. Karikaturnın isə bizlərə demək istədiyi odur ki, zamandan asılı olmayaraq bəzi müəllimlərin həyata keçirdikləri dərs metodu və ya tədris olunan dərslərdən asılı olmayaraq balaca mələk kimi şagirdlərin azad düşüncəsi, rəngli xəyallar aləmi əllərindən alınır, Rəssam bu karikatura vasitəsilə bu problemi çox gözəl bir formada işıqlandırmışdır.

Beləliklə, yuxarıda göstərdiyimiz karikatura nümunəsinə baxaraq deyə bilərik ki, Bayram Hacızadə sələflərindən fərqli olaraq karikaturalarında ölkəmizdə baş verən hadisələrə, problemlərə toxunduğu kimi, bütün dünyada da baş verən prosseslərə laqeyd qalmamışdır. Bu hadisələri özünə məxsus bir tərzdə rəsm etmiş, hətta bəzi karikaturalarında zaman mövhumunu belə heçə sayaraq, keçmişlə gələcəyi birləşdirərək baş verən prosesləri dilə gətirmişdir.

ƏDƏBİYYAT

1. Hacızadə Bayram. “Azərbaycan Karikaturanın İnkişafı”. Bakı: 2004
2. Hacızadə Bayram. “Azərbaycan Karikaturası dünən və bu gün”. Bakı: 2007
3. Hacızadə Bayram. “Müasir Azərbaycan karikaturası”. Bakı: 2007
4. https://az.wikipedia.org/wiki/Bayram_Hac%C4%B1zad%C9%99

SUMMARY

Farhad Allahverdiyev

THE ROLE OF BAYRAM HAJIZADE IN THE MODERN AZERBAIJAN CARTOON

The article talks about the work of cartoonist Bayram Hajizade, an honored artist who played an invaluable role in the development of modern Azerbaijani caricature.

Key words: *art, visual arts, caricature*

AYSUN ƏLƏSGƏROVA
huseynovanuray424@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-0462-0824

AZƏRBAYCANDA BALET JANRININ YARANMASI VƏ BU JANRIN İLK NÜMUNƏLƏRİ

Məqalədə Azərbaycan musiqi mədəniyyəti tarixində ilk dəfə balet janrının yaranması və bu janrın ilk milli nümunələrindən məlumat verilir. Bu sahədə, xüsusilədə böyük rolu olmuş bəstəkar Ə.Bədəlbəylinin balet yaradıcılığı məqalədə vurğulanmışdır. Bəstəkarın yazdığı "Qız qalası" baleti bu janrda yaranmış ilk tarixi əhəmiyyətli əsərdir. Məhz Ə.Bədəlbəylinin balet yaradıcılığının nəticəsidirki, bundan sonra Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında balet janrına geniş şəkildə yer verməyə başlamışdırlar.

Açar sözlər: *balet, janr, pərdə, baletmeyster.*

Azərbaycan musiqi mədəniyyəti tarixində milli balet janrının ilk nümunəsi görkəmli bəstəkar Ə.Bədəlbəylinin adı ilə bağlıdır. Lakin XX əsrin 30-cu illərindən bəstəkarlarımız tərəfindən aparılan yaradıcılıq axtarışları bu janra xas ilkin xüsusiyyətlərin formalaşmasında mühüm nailiyyətlər hesab edilir. Bu sahədə də ilk addımı M.Maqomayev atır. M.Maqomayevin xalq musiqisi nümunələrini toplaması onun tərəfindən milli rəqsin xarakterik cəhətlərinin mənimsəniləsi ilə nəticələnmişdir ki, bəstəkar xüsusilə orkestr musiqisi janrında yazdığı bir sıra əsərlərində milli rəqsi simfonik parçanın dramaturji inkişafında əhəmiyyətli vasitə kimi təqdim edir. Balet janrı sahəsində bəstəkarın apardığı yaradıcılıq axtarışları onun "Dəli Muxtar" adlı xoreodrama yazmaq fikrindən xəbər verir ki, əsər tamamlanmasa da bəstəkarın bu sahədə gördüyü işlər milli balet janrında atılan ilk ən əhəmiyyətli addımlar olaraq qiymətləndirilir. Bəstəkar dörd pərdəli əsər kimi nəzərdə tutduğu "Dəli Muxtar" üzərində 1936-cı ildə işə başlamışdır. Sosialist idealogiyanı təbliğ edən bu əsərdə hadisələr Azərbaycan kəndlərindən birində cərəyan edir. Onun məzmunu "Nərgiz" operası ilə yaxınlıq təşkil edir. Burada da kəndlilərin mülkədarlara qarşı mübarizəsi təsvir olunmalı idi. Əsərin librettosundan müxtəlif qeydlər və ayrı-ayrı rəqs epizodlarını tamamlamaq bəstəkara nəsib olmuşdur. Əsərin əlyazması Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda 25 №-li fondda qorunub saxlanılır.

18 aprel 1940-cı ildə Dövlət Opera və Balet Teatrının səhnəsində Azərbaycan musiqi mədəniyyəti tarixində balet janrında yazılmış ilk milli əsər "Qız qalası"nın ilk təqdimatı baş tutur. Bu əsər öz yaradıcılıq imkanları ilə Azərbaycan musiqi mədəniyyəti tarixində əhəmiyyətli işlərə imza atmış görkəmli sənətkar Əfrasiyab Bədəlbəyli tərəfindən yazılır.

Ə.Bədəlbəyli balet janrında olan ilk əhəmiyyətli əsərini ərsəyə gətirməzdən əvvəl apardığı yaradıcılıq axtarışları nəticəsində janrın xarakterik cəhətlərini özü üçün müəyyən edir və hələ 1939-cu ildə balet janrında kiçik də olsa ilk əsərini yazır. "Tərlan" adlanan əsər uşaqlar üçün nəzərdə tutulur. Ə.Bədəlbəylinin həyat yoldaşı istedadlı baletmeyster Q.Almaszadə tərəfindən quruluşu verilən bir pərdədən ibarət bu balet-tamaşa ilk dəfə 1939-cu ildə xoreoqrafiya məktəbinin şagirdləri tərəfindən oynanılıb. Təəssüf ki, həmin tamaşanın lent yazısı mövcud deyil. Əsərin məzmunu ondan ibarətdir ki, balaca qız Tərlan yuxuda eybəcər fantastik obraz tərəfindən təqib olnur. Onu bu təqibdən mərd oğlan xilas edir. Əsərin ideya məzmununun əsasını xeyirlə şər qüvvələr arasında gedən mübarizədə xeyrin qələbəsi təşkil edir. XX əsrin 30-cu illəri üçün aktual olan bir mövzu əsasında balet-tamaşanın hazırlanması Ə.Bədəlbəylinin bu sahədə apardığı yaradıcılıq axtarışlarının göstərcisi idi ki, "Qız qalası" baleti də 1940-cı ildə həmin fəaliyyətin nəticəsi kimi ortaya çıxır.

XX əsrin 40-cı illərində milli musiqi mədəniyyəti tarixində Avropada geniş yayılmış növbəti bir janrda ilk nümunəsinin yaranması tarixi əhəmiyyətli hadisə idi. Baletin səhnə taleyinin uğurlu

alınmasında bir çox sənətkarın yorulmaz əməyinin izləri hiss olunmaqdadır. İlk tamaşanın quruluşunu rejissor İ.Hidayətzadə, baletmeysterlər S.Gevorqov, V.NAdiradze-Vronski vermiş, səhnə tərtibatı rəssam F.Qusakın hazırladığı dekorasiyalarla dolğunlaşdırılmışdır. Əsərdə baş qəhramanları ifa edən balet ustaları öz istedadlarını tam mənası ilə nümayiş etdirməyə nail olmuşlar. İlk tamaşada Gülyanağı Ə.Bədəlbəylinin həyat yoldaşı, görkəmli rəqqasə Q.Almaszadə, Poladı Konstantin Bataşov, Cahangir xanı isə Anatoli Urvantsev canlandırmışdır.

Bu da qeyd edilməlidir ki, baş qəhrəman Gülyanağı özünəməxsus emosiya ilə yaradan Q.Almaszadə Ü.Hacıbəyli tərəfindən bu sahəyə cəlb edilmiş və Peterburq Xoreoqrafiya məktəbinin məzunu olan Q.Almaszadə milli balet janrının formalaşmasına özünün məhsuldar əməyi, fitri istedadı ilə olduqca böyük töhfələr vermişdir. Onun "Qız qalası" baletində müvəffəqiyyətli oyun sərgiləməsi haqqında Ü.Hacıbəyli qeyd edir: "İstedadlı balerina Q.Almaszadə ayrıca vurğulanmalıdır. Öz ifasında o, xoreoqrafiya sənətinin çağdaş texnikası ilə xalq rəqsini yaradıcı şəkildə birləşdirə bilmişdir. Onun yaratdığı Gülyanaq surəti inandırıcılığı, dolğunluğu, bütövlüyü ilə seçilir və uzaq keçmişdən bizlərə xatirə kimi görünən azərbaycanlı qadının faciəsinin ifadəsi kimi bizi həyəcanlandırır".

"Qız qalası" baletinin ilk təqdimatı keçmiş SSRİ miqyasında olduqca böyük əks-səda doğurmuşdur. Həmin tamaşanın ərsəyə gəlməsində bütün işltirakçıların rolunu birmənalı olaraq ən müsbət hal kimi qiymətləndirən Ü.Hacıbəyli yenə qeyd edir: "Balet kollektivi öz qarşısına xalq rəqslərində saxta şablonçuluqdan qaçmaq, xalq əfsanəsini bədii realist vasitələrlə göstərmək vəzifəsini qoymuş və buna nail ola bilmişdir. Baletin müvəffəqiyyət qazanmasında baş balerina Qəmər Almaszadə, quruluşçu rejissor Hidayətzadə, baletmeyster Kevorkov və Vronski, artistlərdən Sara Mirəliyeva, Əbilova, Boyman, Cəfərova, Bataşov, Urvantsev və başqaları böyük rol oynamışlar".

"Qız qalası" baletinin ümumi dramaturgiyasında digər bəstəkarların milli opera sənətində izləmiş olduğu yaradıcılıq konsepsiyası özünü büruzə verir. Əsərdə xalq musiqisi, muğam intonasiyaları klassik musiqi janrları və formalarında tətbiq edilən qanunauyğunluqlarla üzvi şəkildə qovuşdurulmuşdur. Bu ilk balet əsərində milli xüsusiyyətlərin vurğulanması ilə yanaşı bəstəkar üslubunda özünəməxsus cəhətləri nümayiş etdirən mühüm faktorlardan biridir. "Qız qalası" baletinin ilk təqdimatının uğurlu taleyi bu musiqili-xoreoqrafik səhnə dramına sonralar dəfələrcə müraciət olunmasını şərtləndirmiş və baletin 1959-cu ildə baş tutan ikinci səhnə versiyasının quruluşu Q.Almaszadə tərəfindən verilmişdir. Tamaşanın yeni bədii tərtibatı isə onun qardaşı Ə.Almaszadə tərəfindən hazırlanmışdır. Bu zaman əsərin yenidən işlənmiş ikinci redaksiyasından istifadə olunmuşdur. Bu redaksiyada isə qəhrəmanların faciəli taleyi daha da dərinləşdirilmişdir. Tamaşada Gülyanaq obrazını Leyla Vəkilova ifa etmişdir. Maraqlıdır ki, əsərin ikinci redaksiyasında bütün obrazlar dramaturgiyanın inkişafında mühüm rol oynayır. Bu isə onların hər birinin daha dərin emosionallıqla işlənməsi nəticəsində mümkün olmuşdur. Baletdə epizodik rol oynayan elçi qadını qeyd etmək bu mənada yerinə düşər. Həmin obraz Xumar Zülfuqarovanın ifasında parlaqlığı ilə yadda qalır. Tamaşada Poladı respublikanın xalq artisti Məsud Məmmədov, Cahangir xanı isə ilk tamaşada Polad obrazında çıxış edən K.Bataşov canlandırmışdır. K.Bataşovun ifasında Cahangir xan daha qəddar obraz kimi təqdim edilir. Yeni redaksiya özünün məzmununa görə digər iki redaksiyadan fərqlənir. Burada hadisələr birbaşa I pərdədən inkişaf etməyə başlayır. Tamaşada Gülyanaq obrazını Mədinə Əliyeva, Polad və Cahangir xanı isə Gülağası Mirzəyev və Yuri Lobaçov canlandırır.

Librettosu Ə.Bədəlbəylinin özünə aid olan "Qız qalası" baletinin qısa məzmunu bundan ibarətdir ki, Qəddar Cahangir xan qız övladı olduğu üçün bərk qəzəblənir və körpənin məhv edilməsinə əmr verir. Lakin körpə vəzir tərəfindən xilas edilərək saraydan uzaqlaşdırılır. O, öz keçmişindən xəbərsiz halda xalq arasında böyüyən Gülyanaqdır. Gənc qız igid Polada könül verir. Lakin təsadüfən Gülyanağı görən Cahangir xan onu əldə etməyə çalışır. Sevdiyi adamın həyatını xilas etmək üçün vaxt qazanmaq istəyən Gülyanaq xana belə bir şərt qoyur ki, o, dənizin kənarında əzəmətli qala ucaldarsa, Gülyanaq xanla evlənər. Qəddarlığı ilə hamının nifrətini qazanan Cahangir xan Gülyanağın öz qızı olduğunu bildikdən sonra da niyyətindən əl çəkmir. O, Polad tərəfindən

döyüşdə məğlub edilərək öldürülür. Gülyanaq isə addım səslərindən gələnin Cahangir xan olduğunu düşünərək özünü qaladan ataraq məhv edir. Beləliklə o, müqəddəs məhəbbət və əbədi paklığın rəmzinə çevrilir.

Sadəcə Azərbaycan deyil, bütün Şərq dünyasında balet janrının ilk nümunəsi olan "Qız qalası" üç pərdə, proloq və epiloqdan ibarətdir. Birinci pərdədən əvvəl verilən müqəddimə əsas qəhrəmanların təqdim olunmasında, onların xarakterinə xas ilk xüsusiyyətlərin nümayiş olunmasında əhəmiyyətli rol oynayır. Burada Cahangir xan və onun arvadının mövzuları keçir və ilk dəfə olaraq Gülyanağın leytmotivi eşidilir. Dramaturgiyaya bütövlükdə hakim kəsilən münaqişə öz başlanğıcını ilk pərdədən götürür. Tamamilə klassik prinsiplərə uyğun şəkildə işlənmiş ikinci pərdədə hadisələr öz axınını kulminasiyaya yönəldir. Kulminasiya üçüncü pərdəyə düşür. Bu zaman münaqişə daha kəskin xarakter alır. Epiloqda isə düyünün açılışı baş verir. Cahangir xanın məhv edilməsi, Gülyanağın ölümü ilə də inkişaf yekunlaşır.

Baletdə xalq obrazının fəallığı xüsusilə Gülyanaqla Poladın toy səhnəsində hiss olunur. Burada kütləvi rəqs səhnələri hadisələrin inkişafını vahid məcrayə yönəldərək əsas obrazların da xarakteristikasının verilməsinə birbaşa təsir göstərir. Toy səhnəsində bəstəkar ustalıqla xalq mahnı və rəqslərinin melodiyalarından bəhrələnmişdir. "Tərəkəmə", "Şalaxo", "Ay bəri bax" kimi xalq təfəkküründün ecazkar nümunələri musiqinin milli mahiyyətinin vurğulanmasında əhəmiyyətli nüans kimi yadda qalır.

ƏDƏBİYYAT

1. Paşayeva Y. "Əfrasiyab Bədəlbəyli və Azərbaycan xalq musiqisi". Bakı: 2018, "Nurlan"
2. "Azərbaycanın görkəmli şəxsiyyətləri. "M.Maqomayev" Biblioqrafiya. Bakı: 2011
3. Əliyev H. "Mədəni irsimizin keşiyində" .II kitab. Bakı: 2001
4. Hüseynov R. "Vaxtdan uca". Bakı: 1987, "İşıq"
5. Həsənova L. "Qız qalası", "III minilliyə vəsiqə", "Musiqi dünyası". 1/2 2000

SUMMARY

Aysun Alasgarova

THE EMERGENCE OF THE BALLET GENRE IN AZERBAIJAN AND THE FIRST EXAMPLES OF THIS GENRE

The article provides information on the creation of the ballet genre for the first time in the history of Azerbaijani musical culture and the first national examples of this genre. The ballet creativity of the composer A. Badalbeyli, who played a particularly big role in this field, is highlighted in the article. The ballet "Maiden's Castle" written by the composer is the first historically significant work created in this genre. It is the result of A. Badalbeyli's ballet creativity that after that Azerbaijani composers began to widely include the ballet genre in their works.

Key words: *ballet, genre, screen, ballet master*

CƏMİLƏ ALLAHVERDİYEVA
yusiflicemile99@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-3756-2127

PYOTR İLİÇ ÇAYKOVSKİNİN SİMFONİK YARADICILIĞI

Çaykovski dünya incəsənətində öz melodistliyi ilə seçilən bəstəkar olması ilə fərqlənir. O, öz yaradıcılıq üslubu ilə milyonların məhəbbətini qazanmışdır. Çaykovskinin əsərlərini dinləyən hər kəs bunlarda bir növ doğmalıq, yaxınlıq duyur. Bəstəkarın musiqisinin böyük cazibə gücü vardır. Onun musiqisi anlaşıqlı və sadədir. Çaykovskinin hər əsəri yüksək bədii ustalıq nümunəsidir.

Dünya musiqi klassikasında görkəmli bəstəkar hesab olunan Çaykovski musiqisi digər millətlərin bəstəkarları üçün ilham mənbəyi oldu. Bütün əsərləri həm pedaqoji repertuarda, həm konsert proqramlarında yer alan Çaykovski sənəti ölməzdir.

Açar sözlər: *simfoniya, bəstəkar, musiqi, P.İ.Çaykovski, rus*

P.İ.Çaykovskinin adı XIX əsrin rus musiqi mədəniyyəti tarixinə böyük nüfuza malik, əvəzedilməz sənətkar kimi daxil olmuşdur. O, rus klassik musiqisinin, həmçinin, dünya musiqi mədəniyyətinin parlaq nümayəndələrindən biridir. P.İ.Çaykovski musiqi sahəsində yalnız bəstəkar kimi deyil, həmçinin dirijor, müəllim, ictimai musiqi xadimi və musiqi tənqidçisi kimi də fəaliyyət göstərmişdir. Öz yaradıcılığında sələfləri M..Qlinka və A.S.Darqomıjski ənənələrini davam etdirsə, həmçinin Qərbi Avropa bəstəkarlarının, V.A.Motsart, L.V.Bethoven, F.Şubert, F.Mendelson, R.Şuman yaradıcılığına istinad etsə də, Çaykovski musiqidə öz fərdi üslubunu yarada bilmişdir. Çaykovski, eyni zamanda musiqidə rus romantizminin parlaq nümayəndəsi olmuşdur.

Çaykovskinin estetik baxışları XIX əsrin 60-70-ci illərində mütərəqqi rus mədəniyyətinin ümumi inkişafı məcrasında formalaşmışdır. Bu illərdə rus ədəbiyyat və incəsənətində öz ifadəsini tapmış mövzular- şəxsiyyət hissinin yüksəlişi, insanın öz azadlığı və xoşbəxtliyi uğrunda mübarizəsi teması onun yaradıcılığının aparıcı mövzusu olmuşdur. Bəstəkar böyük ustalıqla öz əsərlərində sadə insanın kədər və şadlığını, onun iztirabını, Vətənə, doğma təbiət və xalq yaradıcılığına məhəbbətini açıb göstərmişdir. O, öz əsərlərində işıqlı, şən arzulardan tutmuş, faciəvi əzablara, ölüm haqqında düşüncələrə qədər qeyd etmişdir. Belə ki, həssas psixoloq-dramaturq olan Çaykovski insanın daxili aləmi, yaşantı və duyğularını, düşüncə və arzularını bütün zənginliyi, rəngarəngliyilə olduğu kimi vermişdir. Təsadüfi deyil ki, rus yazıçısı M.Qorki onu "dahi lirik" adlandırmışdır.

Çaykovskinin yaradıcılığı rus klassik realizminin yüksək zirvələrindən biridir. O, özü bu barədə yazırdı ki, "Sözün əsil mənasında mən realist və əsl rus adamıyam" (10.səh.76).

Çaykovskinin musiqisi son dərəcə parlaqlığı və melodik zənginliyilə diqqəti cəlb edir. O, dünya incəsənətində ən görkəmli melodist bəstəkar olmuşdur. Onun yalnız opera, balet və romansları deyil, instrumental əsərləri də melodikliyilə seçilir. Bəstəkarın melodiyasının bu cür zənginliyi onun xalq yaradıcılığı ilə bağlılığından irəli gəlir. Lakin o, kəndli folkloruna deyil, əsasən şəhər mahnısı və xüsusilə şəhər məişət romansına istinad etmişdir.

P.İ.Çaykovski öz yaradıcılığında rus musiqisinin klassikləri Qlinka və Darqomıjskinin, həm də dünya musiqisinin təcrübələrindən bəhrələnmişdir. Onun yaradıcılığına Bethoven simfonizminin, Motsart və Bizenin opera dramaturgiyasının, romantik bəstəkarların (xüsusilə, Şuman) bəzi yaradıcılıq prinsiplərinin də təsiri olmuşdur. Lakin, ümumilikdə Çaykovski öz orijinal dəsti-xətti, üslubu ilə seçilmişdir.

P.İ.Çaykovski öz dövrünün bütün janrlarında böyük ustalıqla işləmiş və hər bir sahədə novator əsərlər yaratmışdır. Bəstəkar 10 opera, 3 balet, 6 simfoniya, "Manfred" proqramlı simfoniyası, 10 proqramlı simfonik əsərlər, f-no və orkestr, skripka və orkestr, violonçel üçün konsertlər, orkestr üçün

süita, fantaziya, kapriççiolar, trio və kvartetlər, 100-dən artıq mahnı və romanslar, xor əsərləri, kantatalar, "Uşaq albomu", "İlin fəsilləri" kimi f-no miniatürü, f-no silsilələri və s. əsərin müəllifidir.

Dahi rus bəstəkarı P.İ.Çaykovski Vyatsk quberniyasının Votkinsk şəhərində mühəndis ailəsində dünyaya göz açmışdır. Onun valideynləri musiqiyə böyük sevgi bəsləmiş və gözəl musiqi qabiliyyətləri olmuşdur. Atası gənc yaşlarında fleytada, anası isə fortepiano, həmçinin arfada məharətlə çalmış, anası eyni zamanda xalq mahnı və romanslarını da böyük ustalıqla ifa etmişdir. Xalq mahnılarına, folklora sevgi məhz ona anasından ötürülmüşdür. Onların evində həmçinin royal və mexaniki orqan olmuş və uşaq yaşlarından artıq Çaykovski bu alətlər və onlarda ifa edilən klassik əsərlərlə tanış olmuşdur. 5 yaşından başlayaraq o, fortepianoda çalmağı öyrənmiş, xüsusilə, fransız dilinə, ədəbiyyata, rəssamlığa böyük maraq göstərmişdir. Onun teatrla, böyük simfonik orkestrlə tanışlığı anası ilə birlikdə izlədiyi M.İ.Qlinkanın "İvan Susanin" operası sayəsində olmuş və bu da onun yaddaşında dərin izlər buraxmışdır. 10 yaşında ikən Çaykovski Peterburq hüquqşünaslıq məktəbinin hazırlıq kursuna daxil olur. Burada o, digər fənlərlə yanaşı, Frans Bekkerin rəhbərliyi altında fortepiano dərsləri alır, həmçinin xorda da oxuyurdu. Bununla yanaşı Çaykovski eyni zamanda alman pianisti Rudolf Kündinqerdən fortepiano üzrə şəxsi dərslər də alır, onun vasitəsilə Qərb instrumental musiqisi ilə yaxından tanış olur. Bu təhsil ocağını uğurla bitirdikdən sonra Ədliyyə Nazirliyində işə qəbul olunur. Gələcəkdə oxuduğu texnikumun yubileyi münasibətilə Çaykovski öz sözləri əsasında xor üçün "Hüquqi mahnı" və həmçinin "Hüquqi marş" əsərlərini bəstələmişdir. Musiqi bəstələməyə o, 14 yaşından başlamış və 1860-cı ildə onun italyan mətninə yazılmış ilk romansı nəşr edilmişdir. Çaykovskidə musiqiyə olan böyük sevgi onu 1861-ci ildə Rus musiqi Cəmiyyətinin Musiqi kursuna, 1862-ci ildə isə yeni açılan ilk rus konservatoriyası olan Peterburq Konservatoriyasına, bəstəkarlıq sinfinə gətirir. Burada onun ixtisas və alətşünaslıq üzrə müəllimləri A.Rubinşteyn və Nikolay Zaremba olmuşdur. O, eyni zamanda burada fleyta və orqan alətlərində də çalmağı öyrənir. Təhsil illərində yazılmış əsərlərdən xüsusilə, Aleksandr Ostrovskinin pyesi əsasında "Fırtına" uvertürasını, simfonik orkestr üçün "Xarakterik rəqslər"ini (sonradan "Voevoda" operasına daxil edilmişdir), F-dur uvertürasını misal göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, "Xarakterik rəqslər" ilk dəfə 1865-ci ildə İohann Ştrausun rəhbərliyi altında Pavlovsk konsert zalında ifa edilmiş və bu Çaykovski musiqisinin kütlə qarşısında təqdim edilən ilk ifası idi. Onun diplom işi isə Şillerin rus dilinə tərcümə edilmiş eyniadlı odasının mətni əsasında yazılmış "Sevincə doğru" kantatası olmuşdur. 1865-ci ildə konservatoriyanı böyük gümüş medalla bitirən gənc bəstəkar Çaykovski Nikolay Rubinşteynin dəvətilə 1866-cı ildə açılmış Moskva konservatoriyasında fəaliyyətini müəllim kimi davam etdirir, ixtisas, alətşünaslıq və harmoniya dərslərini tədris edir. Pedaqoji məqsədlə o bir neçə musiqili-nəzəri işlərin, o cümlədən "Harmoniyanın praktiki öyrənilməsi üçün bələdçi" dərsliyinin müəllifi olmuşdur. Konservatoriyada işlədiyi 10 il ərzində o, 4 opera, 1 balet, "Romeo və Cülyetta" uvertüra-fantaziyası, "Tufan" simfonik fantaziyası, "Françesko da Rimini" proqramlı simfonik əsərini, I simfoniyasını, f-no və orkestr üçün 1 saylı konserti kimi məşhur əsərlərini yazır. Bəstəkarın yaradıcılığında rus və Ukrayna xalqlarının mahnıları əhəmiyyətli rol oynamışdır. Məsələn, II simfoniyasında bəstəkar Ukrayna xalq mahnısı «Журавли», IV simfoniyasının finalında «Во поле береза стояла» rus xalq mahnısı, "Voevoda" operasında "Palıd ağacındakı bülbül" xalq mahnısı, I simli kvartetində "Vanya divanda oturmuşdu" Ukrayna xalq mahnısından istifadə etmişdir. Bu illərdə yazılmış bir çox əsərlərində xalq həyatının parlaq eskizləri mövcuddur. Onlarda xalq yumoru və əyləncəsi (məsələn, I və II simfoniyaların finalları), təbiətin poetik obrazları (məsələn, "İlin fəsilləri" f-no silsiləsi) gözlər önündə canlı şəkildə canlandırılır.

1868-ci ildə Çaykovski mətbuat səhifələrində ilk dəfə olaraq musiqi tənqidçisi kimi də çıxışlar edir, Moskvanın "Müasir xronika" və "Rus bəyanatları" qəzetlərində musiqi rəyçisi kimi işləyir, "Qüdrətli dəstə"nin üzvlərilə yaxından tanış olur. Bu illərdə onu xüsusilə, proqramlı musiqi cəlb edir və "Qüdrətli dəstə"nin rəhbəri M.Balakiryevin məsləhətilə Şeksprin eyniadlı faciəsi əsasında "Romeo və Cülyetta" uvertüra-fantaziyasını yazır. Uvertüra-fantaziya Çaykovski yaradıcılığına xas olan ideyanın təcəssümünə ümumiləşdirilmiş yanaşmanın parlaq nümunəsidir. Şekspir dərinliyi ilə bəstəkar musiqidə insan hisslərinin gözəlliyini və sədaqətini üzə çıxarmışdır. O, şairlə birlikdə

qəhrəmanları əhatə edən sosial mühitin qəddarlığına, ətalətinə qarşı sərt hökm çıxarmışdır. Uvertüra gənc Cülyetta və Romeonun dərin kədərinin ifadəsidir. Lakin bu, eyni zamanda insanın parlaq, uca ideallarının, mənəvi gözəlliyinin toxunulmazlığının təsdiqidir.

Tənqidçi V.Stasov isə Çaykovskiyə "Tufan" simfonik fantaziyasını yazmaq üçün tövsiyələrini söyləyir. Bu illərdə o, tələbəsi Vladimir Şilovskinin dəvətilə bir çox Avropa ölkəsinə səyahət edir, səyahət zamanı Şilovskiyə həsr edilmiş iki f-no pyesini bəstələyir: "Noktyurn" və "Yumoreska". Tədricən tanış olduğu Nadejda von Mekin maddi dəstəyilə onun əsərləri xaricdə də tanınmağa başlayır. Nadejda von Mek musiqiyə və xüsusən də Çaykovskinin musiqisinə pərəstiş edən, uzun illər bəstəkarı dəstəkləyən, onunla dostluq edən, lakin görüşmək istəməyən dul qadın, böyük sərvət sahibi olmuşdur.

1870-ci illər Çaykovskinin yaradıcılığında axtarış illəri olmuşdur. Bu illər onu xüsusilə, Rusiyanın tarixi keçmişi, rus xalqının məişəti, insan taleyi mövzusu daha yaxından cəlb edir. Həmin illərdə onun "Opriçnik", "Dəmirçi Vakula" operaları, Ostrovskinin "Qar qız" dramına musiqi, "Qu gölü" baleti, II, III simfoniyaları, 3 simli kvarteti, "Violonçel və orkestr üçün rokoko temasına variasiya" və s. əsərləri yaranır. Konservatoriyadakı pedaqoji fəaliyyəti onun çox vaxtını aldığı üçün bəstəkarın yaradıcılığa zamanı az qalırdı. Buna görə o, 1878-ci ildə Konservatoriyadakı fəaliyyətini dayandırır. Lakin bu illər ərzində onun bir çox istedadlı tələbələri yetişir ki, onlardan bəstəkar S.Taneyev, pianist A.Ziloti, xor dirijor V.Orlov, skripka ifaçısı A.Arendo və b. göstərmək olar.

1870-ci illər onun yaradıcılığının yüksəliş illəri hesab edilə bilər və o, bədii cəhətdən kamil yaradıcılıq mərhələsinə qədəm qoyur. Məhz bu illərdə Çaykovski "Françesko da Rimini" fantaziyasını, canlı olaraq görüşmədiyi dostu Nadejda von Mekə həsr etdiyi IV simfoniyasını, "Yevgeni Onegin" operasını və s. bəstələyir. Xüsusilə, IV simfoniya və "Yevgeni Onegin" operasının Çaykovskinin tərcümeyi-halında əhəmiyyəti çox böyük oldu. Əvvəlki təcrübəsini yekunlaşdıraraq, o, eyni zamanda gələcək yaradıcılıq fəaliyyəti üçün yeni, geniş üfüqlər açdı. Bu əsərlərin meydana çıxması bütün rus incəsənətinin həyatında görkəmli hadisə idi.

1880-ci ildən Çaykovski həm Rusiya, həm də onun hüdudlarından kənarda, xarici ölkələrdə dirijor kimi fəaliyyətə başlayır. Xarici ölkələrə konsert səyahəti zamanı o, E.Qriq, A.Dvorjak, Q.Maler, Kamil Sen-Sans və b. kimi tanınmış musiqiçilərlə dostluq əlaqəsi yaradır. Bəstəkarın dirijorluq fəaliyyəti ömrünün sonuna kimi davam etmiş və onun sonuncu dirijor pultu arxasındakı çıxışı ölümünə 10 gün qalmış Peterburqda olmuş və bu konsertdə bəstəkarın VI "Patetik" adlandırdığı simfoniyası ilk dəfə ifa edilmişdir.

1881-ci ildən başlayaraq Çaykovskinin bir çox xarici ölkələrə səyahəti davam edir, İtaliya, Vyana, Paris, Roma, İsveçrə, Neapolda olur. Bu səyahət illərində onun italyan mahnı və rəqsi əsasında yazdığı simfonik orkestr üçün "İtalyan kapriçç kapriççiosu", N.Rubinşteynə həsr edilmiş skripka, violonçel və f-no üçün "Dahi sənətkarın xatirəsinə" triosu yaranır.

ƏDƏBİYYAT

1. Ю.Кремлев.Симфонии П.И.Чайковского. М.Гос.муз.изд-во. 1955.
2. Должанский А.Музыка Чайковского. Симфонические произведения.Л.1960
3. Б.Асафьев. Б.О музыке Чайковского.Избранное. Л.1972
4. Бачинская, Н. Народные песни в творчестве русских композиторов [Текст] / Н. Бачинская под ред. проф. Е. В. Гиппиуса. – М.: 1962. Гос. муз. изд-во
5. А.Познанский. Чайковский.М. Молодая гвардия. 2010

AYSEL BAĞIROVA
ayselbagirova641@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-6759-6678

TÜRK ALƏMİNDƏ NAXÇIVAN MUSİQİ MƏDƏNİYYƏTİ

Məqalədə, Naxçıvan və türk musiqisinin müqayisəli təhlilinin bəzi aspektlərini şərh etməyə çalışacağıq. Bu problemlər sırasında etnik, tarixi, mədəni, bədii yaradıcılıq kimi mühüm problemlərin adını çəkə bilərik. Burada, əlbəttə ki, türk köklərinin ümumiliyi faktı çox önəmlidir. Naxçıvanın çox qədim dövrlərdən məlum olan tarixi abidələri bunu sübut edir.

Hər bir janrda musiqi dilinin elementlərinin dəqiq uzlaşması və onların müvafiq olaraq spesifikliyi özünü büruzə verir. Buna görə də tədqiqatın ilkin mərhələlərində müqayisəli təhlili məhz müəyyən janrların müqayisə olunmasından başlamaq lazımdır. Çünki artıq hansısa ümumi "intonasiya müstəvisi" mövcuddur və bu kontekstdə ümumi və fərqli cəhətləri aydın şəkildə üzə çıxarmaq mümkündür. Bundan əlavə, türkdilli xalqların musiqisində məhz janr parametrləri çox zaman üst-üstə düşür. Elə Azərbaycan və türk musiqi folklorunun nümunələrini misal göstərmək kifayət edər.

Türk köklü mədəniyyətin xüsusiyyətlərinin xarakteristikası Azərbaycan tarixi üçün böyük əhəmiyyətə malikdir. Mədəniyyətin təbəqələrinin ehtiyatlı surətdə bərpası xalqımızın tarixinin daha qədim mərhələlərini üzə çıxarmağa imkan verir.

Türk xalqlarının musiqisinin tipoloji qohumluğu, hər şeydən əvvəl genetik stereotipə əsaslanır. Genetik stereotipin aydınlaşdırılması yalnız böyük praktiki materialın təhlili nəticəsində mümkündür. Burada xalq yaradıcılığı bütün səviyyələrdə – mərasim musiqisindən tutmuş şifahi ənənəli professional musiqiyə kimi əhatə olunmalıdır.

Müqayisəli metod ən müxtəlif istifadə parametrlərinə malikdir: oxşar faktların qarşılaşdırılmasından tutmuş, müxtəlif növ qarşılıqlı təsir və qarşılıqlı əlaqələrə kimi. Biz isə türk xalqlarının mədəniyyətinin yalnız genetik qohumluqla bağlı cəhətlərini öyrənirik. Burada xalqların tarixi-mədəni ünsiyyəti nəticəsində meydana çıxan etnomədəni əlaqələr nəzərdə tutulur.

Bizim tədqiqatın kontekstində Naxçıvan və türk musiqisinin janr sisteminin vəhdətindən danışmaq olar. Məsələn, nümunə olaraq mərasim musiqisini, aşıq havalarını, instrumental musiqi janrlarını göstərə bilərik. Bu janrlar türk musiqisindəki analoji musiqi nümunələri ilə bir çox yaxın, bəzən isə tam ümumi cizgilərə malikdir. Əlbəttə, musiqilərin bu cür yaxınlığı, oxşarlığı onların dərin ümumi soykökündən xəbər verir .

Naxçıvanın xalq musiqisinin janr sisteminin və onun türk xalq musiqisi ilə qarşılıqlı əlaqəsi probleminin tədqiqi çox maraqlı nəticələri aşkarlayır. Söhbət Naxçıvan və türk musiqi folklorunda eyni olan yaradıcılıq növlərinin və onlara münasib janrların xarakteristikasından gedir. Onların arasında aşıq musiqisini və yallını xüsusilə qeyd etmək lazımdır.

Açar sözlər: *Azərbaycan ,Naxçıvan,Türk, musiqi, janr, Türk köklü*

Türk köklü mədəniyyətin xüsusiyyətlərinin xarakteristikası Azərbaycan tarixi üçün böyük əhəmiyyətə malikdir. Mədəniyyətin təbəqələrinin ehtiyatlı surətdə bərpası xalqımızın tarixinin daha qədim mərhələlərini üzə çıxarmağa imkan verir.

Türk xalqlarının musiqisinin tipoloji qohumluğu, hər şeydən əvvəl genetik stereotipə əsaslanır. Genetik stereotipin aydınlaşdırılması yalnız böyük praktiki materialın təhlili nəticəsində mümkündür. Burada xalq yaradıcılığı bütün səviyyələrdə – mərasim musiqisindən tutmuş şifahi ənənəli professional musiqiyə kimi əhatə olunmalıdır. Türk musiqi sisteminin ümumi-tipoloji xüsusiyyətləri janr sisteminin əsasları ilə bağlıdır. Məlumdur ki, dünya folklorunda bədii qarşılıqlı əlaqələr məsələsində söhbət yalnız janr qohumluğu ilə şərtləndirilən tipoloji uyğunluqdan gədə bilər.

Bəs türk xalqlarının musiqisinin qohumluğu nədə özünü göstərir? Naxçıvanın və Türkiyənin musiqisinin tipoloji qohumluğu və yayılması kriteriyaları hansılardır? Qeyd etmək lazımdır ki, onlar həm xalq mahnılarının (əmək, mərasim, lirik, matəm oxumaları və s.) semantikasının etnopsixoloji

əsaslarında, həm aşıq havalarında, həm də şifahi ənənəli professional musiqidə təzahür edir. Şübhəsiz, bizim türkdilli xalqların musiqisində daha çox tipik və xarakterik olan intonasiya modellərinin axtarışına və üzə çıxarılmasına ehtiyacımız vardır. Tədqiqatlar türkdilli xalqların musiqisinin bir növ, özünəməxsus intonasiya lüğəti bazasını yaratmağa imkan verir.

Fikrimizcə, yalnız melodik baxımdan uyğun elementləri müəyyən etmək kifayət deyil; müqayisəli – tipoloji təhlil labüddür. Belə ki, yalnız belə bir təhlilin nəticəsində tədqiqatçı öz nəticələrinin dəqiqliyinə və düzgünlüyünə əmin ola bilər.

Bəs təhlilin doğruluğu nə ilə müəyyən olunur? Əlbəttə ki, tədqiqata cəlb olunan materialın zənginliyi, miqdarı və keyfiyyəti ilə.Sözsüz ki, türk xalqları bir-birindən əhəmiyyətli surətdə fərqlənir. Burada həm ictimai-iqtisadi, həm coğrafi, həm də etnomədəni faktorlar qeyd olunmalıdır.

Türk aləmində lokal variantların çoxluğu şərtidir. Bununla yanaşı, türkologiyada məhdudiyyət problemi yoxdur. Biz türkdilli xalqların mədəniyyətinə tam vahid kimi baxırıq. Başqa sözlə desək, biz türkdilli xalqların musiqisini ayrılıqda araşdırmırıq, mədəniyyətin əsasını təşkil edən ümumi "fondu" öyrənirik. Eyni zamanda, türkdilli xalqların musiqi mədəniyyətinin tipologiyasını öyrənərkən, biz labüd surətdə hər bir mədəniyyət üçün səciyyəvi olan elementlər haqqında da informasiya əldə etmiş oluruq.

Müqayisəli metod ən müxtəlif istifadə parametrlərinə malikdir: oxşar faktların qarşılaşdırılmasından tutmuş, müxtəlif növ qarşılıqlı təsir və qarşılıqlı əlaqələrə kimi. Biz isə türk xalqlarının mədəniyyətinin yalnız genetik qohumluqla bağlı cəhətlərini öyrənirik. Burada xalqların tarixi-mədəni ünsiyyəti nəticəsində meydana çıxan etnomədəni əlaqələr nəzərdə tutulur.

Bizim tədqiqatın kontekstində Naxçıvan və türk musiqisinin janr sisteminin vəhdətindən danışmaq olar. Məsələn, nümunə olaraq mərasim musiqisini, aşıq havalarını, instrumental musiqi janrlarını göstərə bilərik. Bu janrlar türk musiqisindəki analoji musiqi nümunələri ilə bir çox yaxın, bəzən isə tam ümumi cizgilərə malikdir. Əlbəttə, musiqilərin bu cür yaxınlığı, oxşarlığı onların dərin ümumi soykökündən xəbər verir.

6. "Tapın görək" oyunu. Müəllim şeirlər və tapmacalar seçir, onlardan şagirdlər hansı sənət növlərindən danışdıqlarını təxmin etməlidirlər. Oyun məntiqi təfəkkürü, emosional qavrayış mədəniyyətini inkişaf etdirir, diqqəti aktivləşdirir, bədii məlumatların yadda saxlanması prosesini stimullaşdırır. Məsələn; Şəkildə çiçəklər, meyvələr və tort şəkilləri təsvir edilmişdir Biz bu şəklə.....(natürmort) deyirik; Tabloda dağlar, meşə, çaylar və ormanlar təsvir edilmişdir. Biz bu şəklə... (Peyzaj) deyirik.

İncəsənət əsərlərinin qavanılmasını inkişaf etdirmək üçün oyun və məşğələlər

9. Bədii əsəri xarakterizə edən sifətləri seçin (reproduksiya və ya slayd). Ən çox sifət seçən şagird qalib gəlir. Bu məşğələ vizual təsviri şifahi birinə çevirmək bacarığını inkişaf etdirir. Məsələn, qar neçə olur? (yüngül, havalı, heyrətamiz).

10. Təəssüratları müqayisə edin.Kətan üzərində yağlı boya ilə yaradılan əsərlərə baxın və fərqini izah edin. Onların koloriti haqqında nə demək olar? Şagirdlər iki sənət əsərini müqayisə edirlər. Məsələn, şagirdlərə 3-cü sinif üçün nəzərdə tutulmuş Mir-Teymur Məmmədovun "Sübh çağı" və "Yaddaş gecəsi" rəsmlərini müqayisə etmək tapşırılır. Bu məşğələləri yerinə yetirərkən bədii əsərlərin qavranılması mədəniyyəti və şagirdlərin nitqi inkişaf edir.

11. Özünün şəkilin daxilində hiss edin" (özünüzü bədii əsərin qəhrəmanının yerində təsəvvür edin). Bu oyun uşağın təxəyyülünü, nitqini inkişaf etdirir və yaradıcı xarakter daşıyır.

12. Şeiri bədii əsərlə uyğunlaşdırın. Belə estetik məqamlar təsviri və ifadəli bədii vasitələrin vəhdəti əsasında şagirdlərin təxəyyül-təfəkkürünün inkişafına kömək edir. Məsələn, lövhədə qış mənzərələrinin reproduksiyaları göstərilir: İ.Şişkin. "Qış"; G. Nisski "Moskva ətrafında bölgələr. Fevral". Şagirdlər şeirin keçidi üçün qış mənzərəsini əks etdirən uyğun reproduksiya seçməli və seçimlərini izah etməlidirlər.

13. Xalq sənətinin adını göstərin. Şagirdlərə bədii sənət nümunələrinin adlarını ehtiva edən cədvəl olan kartlar verilir, lövhədə nömrələri olan sənətkarlıq reproduksiyası yerləşdirilir. Şagirdlər cədvəli doldururlar.

14. Bədii əsərlər arasında müəyyən hisslərlə bağlı olanları tapın. Məsələn: V.Vasnetsovun "Alyonushka" və K.Bryullovun "Atlı qadın" tablolarında kədər və sevinc duyğuları. Bu tip tapşırıqdan bədii qavrayış dərslərində istifadə oluna bilər.

Sonda qeyd etmək olar ki, oyun və məşğələlərin əsasını uşağın tədris materialını hissdən duyğuya, birləşmədən təhlilə, sonra isə yaradıcılığa qədər dərk etməsi prinsipi dayanır. Əksər oyunlar uşağı təhsil və təlim obyekti mövqeyindən fəaliyyət subyekti mövqeyinə - yaradıcı mövqeyə keçir.

ƏDƏBİYYAT

1. Kərimov Y. Təlim metodları. Dərs vəsaiti. / Y. Kərimov - Bakı: 2009. RS Poliqraf, 279 s.
2. Абрамова М.А. Беседы и дидактические игры на уроках по изобразительному искусству – М.: 2004, Владос
3. Аникеева Н.П. Воспитание игрой. М.: 1987
4. Выготский Л.С. Роль игры в психическом развитии ребенка / Л. С. Выготский // Вопросы психологии. 1966. № 6.
5. Грошенков И.А. Занятия изобразительным искусством в специальной коррекционной школе – М.: ООО « Институт общегуманитарных исследований», В Секачев, 2001
6. Газман О.С. В школу с игрой. М.: 1991
7. Занько С.Ф. Игра и учение. М.: 1992

8. Селевко Г.К. Современные образовательные технологии. М.: 1998

SUMMARY

Fərid Həsənzadə

YOUNG SCHOOL STUDENTS IN FINE ART CLASSES ORGANIZATION OF GAME ACTIVITY FOR

The article presents the game activity at the lessons of fine arts in primary classes, which is built as a holistic education, covering a certain part of the educational process and United by a common content, plot, character. It includes consistently games and exercises that form the ability to identify the main, characteristic features of objects, compare, compare them; groups of games to generalize objects on its specific features; groups of games that educate artistic taste.

With the help of didactic games, knowledge about the means of graphic expression is repeated and strengthened. Play is a meaningful activity for a child. Because this is a convenient way for the child to understand and master the world, social relations and himself in the world. Didactic games perform various functions such as teaching, developing, educating. According to many scientists, play is a form of developmental activity.

Key words: didactic games, exercises, fine arts lessons, creativity, abilities.

NAZİLƏ QARDAŞBƏYOVA
GÜLAN MƏMMƏDOVA

ZAKİR BAĞIROV YARADICILIĞINDA KONSERT JANRI

Bəstəkar Zakir Bağırov zəngin yaradıcılıq yolu keçmişdir. O musiqi mədəniyyətinə müxtəlif janrlarda yazılan möhtəşəm əsərlər bəxş etmişdir. O əsərlər arasında bəstəkarın fortepiano və simfonik orkestr üçün yazdığı "Konsert"i , musiqi tariximizdə xüsusi yer alan əbədiyaşar əsərlər sırasındadır. 1967-ci ildə yazılan bu əsər intonasiya cəhətdən sadə və asanlıqla qavranıla bilən demokratik əsərdir . Konsert bir-biri ilə təzadlıq təşkil edən 3 hissədən ibarətdir. Əsərin quruluşuna, orkestr qanunauyğunluğuna, maraqlı musiqi fakturasına diqqət edərkən, bəstəkarın bir daha dahiliyinin şahidi olursan.

Açar sözlər: *Konsert, orkestr, fortepiano, bəstəkar, janr.*

Öz fərdi dəsti-xəttinə malik , Azərbaycan milli musiqi tarixində spesifik yeri olan bəstəkar Zakir Bağırov zəngin yaradıcılıq yolu keçmişdir. O, musiqi mədəniyyətinə böyük xidmətlər göstərərək musiqinin müxtəlif janrlarında samballı əsərləri bir arxiv yaratmışdır. Bu arxivdə bir çox layiqli əsərlər yer almışdır. Bu əsərlərdən birini – Z. Bağırovun fortepiano və simfonik orkestr üçün konsertini göstərmək lazımdır. 1967-ci ildə yazılan bu əsər milli musiqi ədəbiyyatında spesifik üsluba malikdir.Bu əsər dramaturji quruluşu ,orkestr qanunauyğunluğu musiqi intonasiya cəhətdən çox maraqlıdır. Dinamiklik, virtuozluq,rəngarənglik bu konsertin musiqi fakturasına xas olan xüsusiyyətlərdir. Musiqi alətlərinin hər birinin tembr xüsusiyyətləri ,spesifik texniki cəhətləri,reqistr imkanları ilə bağlı üsul tətbiqi onların əsasını təşkil edir.

Zakir Bağırovun fortepiano konserti , başqa əsərləri kimi ,intonasiya cəhətdən sadə və asanlıqla qavranıla bilən ,həm də demokratik əsərdir. Konsert 3 hissədən ibarətdir. Hissələr bir-birilə təzadlılıq təşkil edir.

Birinci hissə-sonata alleqrosu
İkinci hissə- Andante cantabile
Üçüncü hissə-Tokkata-rondo.

Göstərilən üç hissə əsassında əsərin dramaturji quruluşu həll edilmişdir.

Zakir Bağırovun fortepiano üçün yazdığı Konsertin musiqi quruluşu həddindən ziyadə maraqlı və təbiidir. Əsərin məzmunu milli intonasiyaların ,xalq musiqisinin elementləri ilə zəngindir. Konserti dinlədikcə hiss edirsən ki, orkestr alətlərinin her birinin ayrı- ayrı partiyalarına bəstəkar həssaslıqla,məhəbbətlə yanaşıb. Orkestr alətlərinin təkrar olunmayan səslərin birbirinə uyğunluğunu açmaq , orkestrin ancaq ayrı-ayrı qruplarında ,alətlərin texniki və ifadəli imkanlarını görmək üçün solo nömrələrə, virtuoz kadensiyaya, improvizasiyalara yer vermişdir.

Konsertin birinci hissəsi mahnıvari xarakterdə bəstələnmişdir və Moderato sostenuto tempində hərəkət edir. Deyə bilərik ki, bu musiqi nömrəsi bəstəkarın tam dəsti-xəttini təsdiq edir. Melodiyanın mahnıvariliyi, fortepiano ilə orkestr arasında olan sual cavab şəklində dialoqda şur intonasiyalarının həm sadə,həm də zəngin melodik lövhəsinin əmələ gəlməsinə gətirib çıxarır.

Mövzunun mahnıvariliyi əsərin quruluşunun sadəliyi və melodikliyi ilə bağlıdır. Əsas mövzunun ifası onu müşayiət edən orkestrin ifasında daha dəqiq və lakonik akkordlarla tesdiq olunur.Bu musiqi aşıq musiqisini xatırladan mövzuya əsaslanır. Əsas mövzunun intonasiya qurluşunda milli məqam qanunauyğunluğuna xas olan alterasiya zənginliyi özünü təsdiq etmişdir. Bu xüsusiyyət , ilk xanələrdə do diyez notunun intonasiya daxilində do bemol ilə əvəz olunması ilə özünü büruzə verir. Bu da onu göstərir ki bəstəkar hər bir cümləsində milli musiqi ənənələrinə əsaslanır. Musiqi mövzusu inkişaf edərkən mahnıvarilikdən ritmik aşıq musiqisinin çərçivəsinə yaxınlaşır .Elə bu da bu üslubun təsdiqidir.

Orkestr ifaçılıq və müşayət müddəası ,özünün ilkin obrazına əsasən ,əsaslandırılmış musiqi obrazına aid olan şəkildə ritmik və intonasiya "dayağı" kimi çıxış edir. Əsərin orkestr üçün yazılmış

partiturasında ,yəni onun əsas intonasiya quruluşunda fortepianonun solo partiyası unison şəkildə həll edilmişdir. Bəstəkar burada orkestr daxilində fortepianonun solo alət kimi ucalan səsini , orkestrlə dialoqa girən və onunla həmsöhbət olan bir alət kimi göstərməyə çalışmışdır. Faktura baxımından mövzunun inkişaf edərək mürəkkəbləşməsi,onun daha zəngin və texniki cəhətdən sərt xarakter almasına gətirib çıxarır.

Köməkçi mövzu ilə əsas mövzu kontrastlıq təşkil edir. Əsas mövzudan sonra səslənən bu mövzu lirik obrazın təcəssümü kimi maraqlıdır.

Köməkçi mövzunun intonasiya həlli poliritmik quruluşda öz əksini tapmışdır. Bu misiqinin axıcılığına dəlalət etmişdir. Köməkçi partiyanın fortepiano ifası əvvəlki ritmi özündə qoruyaraq saxlamış və onu inkişaf etdirmişdir. Burada 5/4, 4/4, 3/4, 2/4dəyişkən ölçülər özünü büruzə verir. Bu ölçülər inkişafla əlaqədar olaraq orkestrlə fortepiano arasında dialoq mübadiləsi yaradır və polifonik əlaqələndirilməsini təşkil edir.

Əsərin bu yerində köməkçi mövzu başlayır. Köməkçi partiyanın əsasında variasiyalı inkişaf özünü göstərir. Elə bu xüsusiyyət ,solo ifaçılığının virtuoz xarakteristikasının sübutudur.

İşləmə bölməsi isə çox konkret, lakonik musiqi kimi özünü göstərməkdədir. Burda əsas mövzunun leyt-intonasiya əsası ,çox böyük incəliklə və səriştəliklə həll edilmişdir. İşləmə hissəsində ustalıqla ifa olunmuş fortepiano ifası ilə orkestrin dinamik şəkildə birləşdirilməsi, dramaturji musiqi həllini çox böyük professionallıqla büruzə vermişdir.

İşləmə bölməsində bir növ bəstəkar önündə fortepianonun güclü solo inkişaf xətti, eyni zamanda onun virtuoz texnikasının şəffaf nümunəsi öz həllini tapmışdır. Belə cəld tempdə çalınan musiqinin inkişafı özünün pik nöqtəsində "kodensiya"ya keçidi kimi əlaqələndirilir. Kodensiya birinci hissənin yekunu , yəni müəyyən mənada təsdiqi kimi özünü göstərir. Burada solist alətin virtuoz ifaçısına çevrilir. Fortepianonun müxtəlif texniki və keyfiyyətli səs effektləri kodensiyada toplanır.

Kadensiyanın inkişafı onun özəyini təşkil edən əsas mövzunun melodik qurluşuna qayıdışın bariz nümunəsidir. Bu baxımdan birinci hissənin kompozisiya quruluşu özünün tamamlanmış həllini tapmışdır.

Konsertin II hissəsi , Andante cantabile tempində , 4/4 ölçüdə bəstələnmiş ənənəvi olaraq lirik oxunaqlı xarakterdədir. Bu hissə klarnetin solosu ilə başlayır.Bu hissədə bəstəkar lirik obrazlarının açılmasında fortepianonun lmkanlarından çox fərasətlə istifadə etmişdir. Hissənin kompozisiya quruluşu rast intonasiyaları üzərində qurulur. Piu mossoda-da mövzu etrafında hərəkət üzə çıxır mi, bu da inkişafa doğru uğur kimi neydana çıxır.

Bu hissənin quruluşunda nəzərə çarpan inkişaf , yəni daxili zirvə nöqtəsi özünü göstərir ki, bu da hissənin obraz çalarlarının verilməsində həlledici rol oynayır.

Bir növ hissənin tamamlanmasında kompozisiya həllini təyin edir.

"İkinci hissənin mövzusu incə və həzin romans lirikası gözəl milli ornamentli hissoyatlı melodiya və eyni zamanda harmoniyanın axıcı səs axını ilə bağlıdır.

Əsərin ikinci hissəsi çox sadə reprizalı üç hissəli forma əsasında qurulmuşdur. Bu formanın daxilində bəstəkar sanki konsert janrında lirik musiqi obrazını təsdiq etməyə çalışmışdır. Bu hissənin gedişatında mövzunun bir növ variantlı "adımları" diqqəti cəlb edir.

Konsertin üçüncü hissəsi adətən Alleqro tempi ilə başlayır. Bəstəkar burada özü də bir virtuoz pianoçu olaraq malik olduğu texniki imkanlarını nəzərə alaraq əsərdə texnikanın təcəssümünə daha çox diqqət etmişdir.

Bu hissənin obraz quruluşu "Perpetium mobile" xarakterində yazılmışdır. Finalın musiqisi isə mübariz,gərgin xarakter daşıyan bir obrazla əlaqəlidir.

Əsərin üçüncü hissəsi ən parlaq bir səhifəni təşkil edir. Belə ki , onun dinamik həlli texniki cəhətdən gərgin musiqinin variantlı inkişafı onun solist və orkestrin əlaqəliliyində özünü təsdiq edir.

Bəstəkar üçüncü hissəni rondo formasında yazmışdır. Burada obrazlar kontrastlıq təşkil edir. Bu hissə də çox dinamik səslənir. Musiqinin virtuoz xarakterdə inkişafı ilə moestoso tempindən başlayaraq sonatək möhtəşəm şəkildə tamamlanır.

Konsert janrına müraciət etməklə bəstəkar solist və orkestr arasındakı əlaqə sisteminə diqqət etməyə çalışır.

Z. Bağırov " Fortepiano ilə simfonik orkestr üçün konsert"ində fortepiano alətini orkestrin bütün alətləri ilə yarışan bir alət kimi göstərməklə yanaşı , orkestrin bütün tembr rəngarəngliyini, rəngarəng tembr müxtəlifliyini və gücünü fortepianoda əks etdirməyə nail olmuşdur.

Bu konsert Azərbaycan musiqi incəsənətində özünəməxsus yer tutmtş və çox məşhur ifaçıların repertuarını bəzəmişdir. Bu isə Azərbaycan fortepiano sənətində bəstəkarın xüsusi bir mövqeyə sahib lmasına və məşhurlaşmasına səbəb olmuşdur.

ƏDƏBİYYAT

1. Yaqubova T. Zakir Bağırov. "Qobustan " incəsənət toplusu.
2. Əliyeva F. Bəstəkar yaradıcılığında milli ənənələrin təzahürü . //" Musiqi dünyası" jurnalı № 1-2 (15), 2003, s.25-25
3. Qasımova S, Bağırov N. Azərbaycan Sovet Musiqi Ədəbiyyatı. Bakı: Maarif,1984,244 s.

SUMMARY

Nazila Gardasbayova, Gulan Mammaduva

CONCERT GENRE CREATED BY ZAKIR BAGIROV

Composer Zakir Bagirov has passed a rich creative path. He gave the music culture great works written in various genres. Among those works, the composer's "Concert" for piano and symphony orchestra is among the eternal works that have a special place in our music history. This work, written in 1967, is intonationally simple and easily understandable democratic work. The concert consists of 3 contrasting parts. When you pay attention to the structure of the work, orchestral regularity, interesting musical texture, you witness the composer's genius once again.

Key words: *Concert, orchestra, piano, composer, genre.*

РЕЗЮМЕ

Назила Гардасбаева, Гюлан Маммадува

КОНЦЕРТНЫЙ ЖАНР СОЗДАТЕЛЬ ЗАКИРА БАГИРОВА

Композитор Закир Багиров прошел богатый творческий путь. Он подарил музыкальной культуре великие произведения, написанные в различных жанрах. Среди этих произведений «Концерт» композитора для фортепиано и симфонического оркестра принадлежит к числу вечных произведений, занимающих особое место в истории нашей музыки. Это произведение, написанное в 1967 году, представляет собой интонационно простое и легко понятное демократическое произведение. Концерт состоит из 3 контрастных частей. Обращая внимание на структуру произведения, оркестровую регулярность, интересную музыкальную фактуру, лишний раз становишься свидетелем гениальности композитора.

Ключевые слова: *концерт, оркестр, фортепиано, композитор, жанр*

AYSU RÜSTƏMOVA
rustemovsabiq@gmail.com

ƏLAVƏ TƏHSİL SİSTEMİNDƏ UŞAQ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA TƏSVİRİ SƏNƏTİN ROLU

Məqalədə müasir təhsil təcrübəsi üçün aktual olan əlavə təhsil sistemində uşaqların şəxsiyyətinin inkişafı problemi araşdırılır. Məhz təsviri incəsənət uşaqların tərbiyəsinin tərkib hissəsi olmaqla onların hissiyyatını inkişaf etdirir, əşyaların mahiyyətini anlamağa kömək edir, gözəlliyi dərk etmək bacarığını inkişaf etdirir. Bundan əlavə, təsviri sənət dərsləri yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, rəsmlərdə orijinallıq və onların təzahürünü təşviq edir, uşaqda fərqli və induktiv düşüncə formalaşdırır. Uşağın şəxsiyyətinin inkişafında müəllimin roluna xüsusi diqqət yetirilir. Müəllif belə qənaətə gəlir ki, təsviri incəsənət dərsləri əlavə təhsil sistemində uşağın şəxsiyyətinin inkişafının mühüm vasitəsidir.

Açar sözlər: *təsviri incəsənət, şəxsiyyətin inkişafı, əlavə təhsil sistemi, şəxsiyyətyönümlü yanaşma, təfəkkür, yaradıcılıq qabiliyyətləri*

Təsviri sənət şifahi dillərin yaranmasından çox əvvəl yaranmış xüsusi insan dillərindən biridir. O, obyektin və ya hadisənin simvolik təyin edilməsindən emosional və intellektual təcrübənin bədii və obrazlı ötürülməsinə qədər uzun bir təkamül yolu keçmişdir: rəssamdan tamaşaçıya, bir nəsildən digərinə (4).

İncəsənət insanın inkişafında və cəmiyyətin həyatında böyük rol oynayır. Biz uşaqlıqdan bununla üzləşmişik. İncəsənət şəxsiyyətin inkişafına güclü təsir göstərir, hissləri, düşüncələri, əxlaq və həyat prinsiplərini, baxışları formalaşdırır. İndiki dövrdə insanları sənətlə tanış etmək sadəcə zəruridir və xüsusi aktuallıq kəsb edir.

XXI əsrdə cəmiyyətin sosial deqradasiyası ilə üz-üzəyik. Hazırda, siqaret çəkənlərin, alkoqolik və narkomanların sayı getdikcə artır. Müasir incəsənətin qəhrəmanları kimlərdir? Cinayətkarlar, qatillər, oğrular, vicdan, namus və insanlıq sevgisi yalnız sözdə olan insanlardır. Musiqi, kitablar, rəsmlər, kinolar bizə tez-tez qanun pozuntusunu, cəmiyyətin bəzi təbəqələrinin cəzasız qalmasını, insanlıqsızlığı, hesablaşmanı, ədalətsizliyi göstərir.. Çoxları ancaq pul üçün işləyir, ideyaları arxa planada qoyurlar. İncəsənət, demək olar ki, bu gün yalnız ticarət aspektini daşıyır. Bununla əlaqədar olaraq, biz əlavə təhsil sistemində uşağın şəxsiyyətinin inkişafında təsviri sənətin rolunu xüsusi qeyd etmək istəyirik.

Təsviri sənət insanın bədii yaradıcılığının mühüm növlərindən biridir. Uzun müddət ilk rəssamlar öz rəsmlərində illüziyalarını təsvir edirdilər. Sənət dünyası illüziyalar dünyasıdır. Amma insan heç vaxt görmədiyi, qarşılaşmadığı bir şeyi çəkə bilməz. Hər bir rəssam mövcud olanı öz nöqteyi-nəzərindən təsvir edir. Əgər içimizdə sevgi, heyranlıq, xeyirxahlıq və hörmət varsa, o zaman tam olaraq bunu təsvir etməyə çalışacağıq. Bu, eyni zamanda aqressiv enerji, qəzəb, yaxşılığı və gözəlliyi görməmək və qiymətləndirməmək ilə də baş verir. Buradan valideynlərin və müəllimlərin əsas vəzifəsi - müharibədən, bəşəriyyətin tənəzzülündən və məhvindən qaçmaq üçün gələcək nəslə yaxşılıq və pozitiv sənət öyrətməkir.

Təsviri fəaliyyət əxlaq tərbiyəsi problemlərinin həlli ilə sıx bağlıdır. Bu əlaqə ətrafdakı reallığa müəyyən münasibəti gücləndirən uşaqların işinin məzmunu və uşaqların müşahidə, fəallıq və müstəqillik tərbiyəsi vasitəsilə həyata keçirilir. Rəsm və heykəltəraşlıq prosesində yaradıcılıq fəaliyyətinin əsas və tərkib hissələri olan fəallıq, müstəqillik, təşəbbüskarlıq kimi mühüm şəxsiyyəti keyfiyyətlər formalaşır. İşdə məqsəd hissi və onu sona qədər görmək bacarığının inkişafı da eyni dərəcədə vacibdir. Təsviri sənət prosesində məktəbəqədər uşaqlarda yoldaşlıq və qarşılıqlı yardım hissi inkişaf etdirilir. Təsvir üzərində işləyərkən uşaqlar məsləhət və kömək üçün tez-tez bir-birinə müraciət edirlər (6).

Uşaqlarda ətraf aləmə estetik münasibət, gözəlliyi görmək və hiss etmək bacarığının formalaşdırılması, bədii zövqün və yaradıcılıq qabiliyyətlərinin inkişafı vacib məsələlərdir. Təsviri

sənət insana həqiqətən mövcud olan gözəllik dünyasını göstərir, onun estetik zövqünü formalaşdırır, davranışına təsir edir. Təsviri fəaliyyətlər uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edir ki, bu da yalnız bilik, bacarıq və vərdişlərin praktiki tətbiqi prosesində mümkündür. Təsviri fəaliyyətin hər bir növü, ümumi estetik təsirdən əlavə, uşağa özünəməxsus təsirə malikdir. Rəsm rəng duyğusunun inkişafına təsir edir, müxtəlif rəng və çalarların birləşməsinin gözəlliyini görməyə öyrədir. Modelləşdirmə forma duyğusunun inkişafına təsir göstərir. Uşaq həqiqətən gil parçasını hiss edir və müstəqil olaraq ona istədiyi formanı verə bilər. Aplikasiya uşağı formanı ümumiləşdirməyə və siluetdən istifadə edərək ifadə etməyə aparır (8).

İncəsənət məktəbində uşaqların təhsili prosesində ən vacib təhsil vəzifələri həll olunur:

- obyektiv və universal fəaliyyət üsullarının formalaşdırılması, öyrənmə qabiliyyətinin tərbiyəsi
- təhsil problemlərini həlletmək üçün özünü təşkil etmək bacarığı; şəxsi inkişafın əsas sahələrində fərdi tərəqqi
- emosional, koqnitiv, özünütənzimləmə (8).

Bir şəxsiyyətin inkişafı və tərbiyəsi prosesində bədii istiqamət obyektləri çox mühüm rol oynayır. Çünki onlar uşaqların yaradıcı təfəkkürünü və yaradıcı potensialını formalaşdırmağa, dəyərə əsaslanan ətraf aləmə emosional münasibətə malikdirlər.

Təhsilin ən mühüm vəzifələrindən biri funksional səriştəli, təkcə fənn üzrə deyil, həm də universal bilik və bacarıqlara malik olan şəxsiyyətin formalaşdırılmasıdır. Funksional savadlılığın əsasları daha gənc yaşda, o cümlədən uşaqları bədii mədəniyyətlə tanış etmək yolu ilə qoyulur: onlara həyatda və sənətdə gözəlliyi görmək bacarığını, sənət əsərlərini zehni olaraq qavramaq və onlar haqqında öz fikrini aydın şəkildə ifadə etmək üçün duyğuları öyrətmək, həmçinin əldə edilmiş praktiki bacarıqları gündəlik həyatda və layihə fəaliyyətlərində (həm fərdi, həm də kollektiv) istifadə etmək bacarığı öyrədilir. Bu bacarıq və qabiliyyətlər, şübhəsiz ki, şagirdlərin daxili aləmini zənginləşdirir, onların dünyagörüşünü əhəmiyyətli dərəcədə genişləndirir və onlara ətraf aləmi daha şüurlu və məqsədyönlü şəkildə dərk etmək imkanı verir (7).

Bədii fənlər proqramı iki yanaşmanı özündə birləşdirir: tarixi və tematik. Şagirdlərə qədim incəsənətdən başlayaraq bu günə qədər müxtəlif dövrlərin bədii mədəniyyəti haqqında biliklər verilir. Burada uşaqlar konkret nümunələrdə müxtəlifliyi görürlər, burada əsasən təbiətin, incəsənətin və mədəniyyətin xüsusiyyətləri ilə əlaqəli olan estetik prinsiplər və yaradıcı ifadə formaları göstərilir. Digər yanaşma bir tərəfdən sivilizasiya, digər tərəfdən tarixi inkişafdır.

Dərslərdə şəxsiyyət yönümlü bir yanaşma istifadə olunur, çünki çox vaxt yaradıcı tapşırıqlar fərdi həll tələb edir və hər bir məktəbli ilə şəxsən işləmək lazımdır. Dərsləri qurarkən üç növ motivasiya nəzərə alınır.

Birincisi, sosial motivasiya. Uşağın yoldaşları arasında nüfuzunu yüksəltmək üçün müvəffəqiyyətlə yerinə yetirilən tapşırığa görə uşağı tərifləməyə ehtiyac yoxdur.

İkincisi, praqmatik motivasiya. Bu, özünü mövzuya diqqətin artmasında göstərir. Çünki uşaqların bəziləri əsas istiqaməti incəsənət olan təhsil müəssisələrinə daxil olmaq niyyətindədirlər (son dövrlərdə şagirdlərin idmana marağı, dizayna maraq daha çox artıb).

Üçüncüsü, güclü və istedadlı məktəblilərlə işləyərkən əsas diqqəti məzmun motivasiyasına yönəltmək lazımdır. Sinifdə maarifləndirici müzakirələr təqdim olunur. Məsələn, bədii üslublar haqqında bir dərsdə şagirdləri qruplara bölmək olar ki, onlar dünya incəsənətində ən vacib bədii üslub olan sübut üçün material hazırlayırlar. Mübahisə zamanı məlum olduğu kimi, həqiqət doğulur. Həmçinin, məktəblilər problemli situasiyalarla tanış edilir və ya paradoksal nümayişlər təşkil edilir. Məsələn, rəssamlıq və ya dekorativ sənət məmulatlarında əsl şah əsərlərinin sərgisi təşkil edilir. Ən vacib istiqamətlərdən biri özünü inkişafa maraq və idrak marağının stimullaşdırılması hesab edilə bilər. Məsələn, ev tapşırığı vasitəsilə: söhbət üçün materialların seçilməsi, öz "kiçik bədii qalereyanızın" yaradılması (reproduksiyalar, açıqcalar, markalar). Və təbii ki, həm güclü, həm də zəif məktəlilərin inkişafına kömək etməyə çalışmalıyıq. Bütün uşaqların istedadlı olduğuna inansalar da, onların yalnız kiçik bir hissəsi həqiqətən rəsm çəkməyə qadirdir. Xüsusilə yuxarı siniflərin uşaqları arasında artan özünütənqidlə, kompozisiya yaratmazdan əvvəl müəyyən bir qorxu yaranır. Buna görə də dərsə

motivasiya dəstəyi verməkdə məqsəd həm də uşaqların emosional rifahını və öz güclü tərəflərinə inamını qorumaqdır (8).

Müəllim tərəfindən maraqlı yaradıcı məhsul əldə etmək üçün materialın bacarıqlı, səlist təqdimatı, fərdi yanaşma hər bir məktəbliyə diqqət yetirməyə, meylləri öyrənməyə, layihənin mövzusunu, kompozisiyanı (eskiz vasitəsilə) müzakirə etməyə, rəngləməyə, işi bir şəkildə istiqamətləndirməyə imkan verir. Ətraflı birgə qiymətləndirmə ilə yaxşı və ya yüksək nəticə əldə edildikdə, uğur vəziyyəti yaranır. Mövzu ilə məşğul olmaq üçün motivasiya artır. Gənc rəssamın bilik, bacarıq və vərdişlərinin səviyyəsi yüksəlir və bununla da uşaq yaradıcılığının keyfiyyəti yüksəlir.

Beləliklə, təsviri sənətlə məşğul olmaq əlavə təhsil sistemində uşağın şəxsiyyətinin inkişafının vacib vasitəsidir. Təsviri fəaliyyətdə fərdin fəaliyyəti və hər şeydən əvvəl şəxsiyyətin mürəkkəb strukturunun idrak və yaradıcı komponentlərinin fəaliyyəti aydın şəkildə təzahür edir. Müasir müəllimin vəzifəsi uşaqlara dünyanı yaxşı, gözəl və müsbət formada görməyi, hiss etməyi və təsvir etməyi, pis və əxlaqsız cəhətlərdən qaçmağı bacarmağı öyrətməkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Ümumtəhsil məktəblərinin I-IX sinifləri üçün təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) Bakı: 2013
2. Müseyib İlyasov Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri, Monoqrafiya. “Elm və təhsil”. Bakı: 2018
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 18 dekabr 2020-ci il
4. Колесникова Н.В. Учим созидать: Развитие творческих способноей детей в кружковой деятельности / Н.В. Колесникова //журнал «Народ'ное образование». – 2017.– №4. – с.3-8.
5. Логинова Л.Г. Влияние искусства на развитие личности в системе дополнительного образования/Л.Г. Логинова//журнал «Дополнительное образование и воспитание».- 2012, № 3, с.5-9
6. Колесникова Н.В. Учим созидать: Развитие творческих способностей детей в кружковой деятельности / Н.В. Колесникова // журнал «Народное образование» – 2017. –№4. – с.3-8
7. Магомедова Л.И. Актуальные проблемы системы дополнительного образования детей/Л.И.Магомедова // интернет-журнал «Мир науки». 2016. – Том 4. №2
8. Разенков И.В. Влияние изобразительного искусства на развитие личности ребенка в системе дополнительного образования / И. В. Разенков//[Текст]: // Актуальные задачи педагогики: материалы V Междунар. науч. конф. (г. Чита, апрель 2014 г.). – Т. 0. – Чита: Издательство Молодой ученый, 2014. – С. 171-173. задачи педагогики: материалы V Междунар. науч. конф. (г. Чита, апрель 2014 г.). – Т. 0. –Чита: 2014. Издательство Молодой ученый, с.171-173

SUMMARY

Aysu Rustamova

THE ROLE OF FINE ARTS IN CHILD PERSONALITY DEVELOPMENT IN ADDITIONAL EDUCATION SYSTEM

The article examines the problem of personality development of children in the additional education system, which is relevant for modern educational practice. Visual arts, being a part of children's education, develop their sensibilities, help them understand the essence of things, and develop the ability to perceive beauty. In addition, fine art lessons develop creative abilities, encourage originality in drawings and their expression, form different and inductive thinking in the child. Special attention is paid to the role of the teacher in the development of the child's personality. The author concludes that fine art classes are an important tool for the development of a child's personality in the additional education system.

***Key words**: visual arts, personality development, additional education system, personality-oriented approach, thinking, creative abilities*

NƏCİBƏ QAFAROVA
nəcibəqafarova90@gmail.com
Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0004-5984-6980

CÖVDƏT HACIYEVİN YARADICILIĞINDA AŞIQ MUSİQİSİ

Aşıq yaradıcılığı milli folklorun ən maraqlı, qeyri-adi inkişaf xəttinə malik sahələrindəndir. Əsrlər boyu şifahi ənənələr əsasında inkişaf edən milli musiqini bu janr olmadan təsəvvür etmək mümkün deyil. Aşıq havalarında xalq musiqisi və rəqsləri, muğam sənətinin ecazkarlığı bir vəhdətdə qovuşur. Sinkretik sahə olan aşıq yaradıcılığı söz, hərəkət və musiqinin vəhdətinə əsaslanır. Məhz bu kimi xüsusiyyət onun bəstəkar yaradıcılığında mükəmməl şəkildə istifadə olunmasını şərtləndirib. Aşıq havalarının demək olar ki, əksəriyyəti "Şur" məqamına əsaslanır. Bu, aşıq musiqisində milli xüsusiyyətini ən başlıca göstərcisi kimi qiymətləndirilir. Məhz bu qədər mükəmməl forma, inkişaf prinsipi həmin musiqinin intonasiyalarından C.Hacıyevin əsərlərində orijinal formada istifadə olunmasına səbəb olmuşdur. Bəstəkar Q.Qarayev ilə birlikdə yazdığı "Vətən" operasında, "Sülh uğrunda" simfonik poemasında, simfoniyalarında aşıq musiqisi intonasiyalarından mütləq şəkildə bəhrələnmişdir. Bunun nəticəsində onun müxtəlif janrda yazmış olduqları əsərlərinin ideya məzmunu daha dərinləşmiş, obrazlar dairəsi özünəməxsus xarakterə bürünmüşdür.

Açar sözlər: *Aşıq, janr, milli musiqi, pedoqoq*

Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələrinin yaradıcılığında xalq musiqisi, folklor nümunələrindən istifadə olunması onların əsərlərində milli üslubun təzahür etdirilməsi istiqamətində mühüm əhəmiyyətli yaradıcılıq fəaliyyətidir. Xalq mahnıları, milli rəqslər, muğam sənəti, aşıq havaları özünəməxsus inkişaf xətti ilə xalqın şüurunda, onun məişətində mükəmməl inkişaf yolu qət edərək, ən böyük milli-mənəvi dəyər kimi formalaşmışdır. Buna görə də bu mənbə bəstəkar yaradıcılığı üçün ən əhəmiyyətli zəmin rolunda çıxış edir. Ümumiyyətlə xalq yaradıcılığı bədii yaradıcılıqda iki istiqamətdə özünün dərin ifadəsini tapır. Birincisi, folklor nümunələri musiqili əsərlərin süjet xəttini təşkil edir, ikincisi isə xalq musiqisinin müxtəlif janrlarının forma xüsusiyyətləri, melodik zənginlikləri vasitəsilə ecazkar melodiyalar yaradılır ki, bu melodiyalar da klassik Avropa musiqisi qanunauyğunluqlarına tabe etdirilən musiqili əsərlərin özəyini təşkil edir.

Əsası Ü.Hacıbəyli tərəfindən qoyulmuş milli bəstəkarlıq məktəbinin hər bir nümayəndəsi öz yaradıcılığında xalq musiqisi, muğam intonasiyalarından mütləq şəkildə bəhrələnmişdir. Milli folklorun əsas tərkib hissəsi olan aşıq yaradıcılığının inkişaf xüsusiyyətləri də bəstəkarlıq üslubunda özünün dərin ifadəsini tapmışdır. Bəstəkarlarımız öz əsərlərində aşıq musiqisi, onun qanunauyğunluqlarından böyük ölçüdə səmərəli şəkildə istifadə etmişlər. Bu haqda T.Quluzadə qeyd edir: "Hər bir bəstəkar özünün fərdi üslubu, estetik qayəsi və qarşısında duran konkret bədii vəzifələrlə əlaqədar aşıq musiqisindən özünəməxsus tərzdə istifadə etmişdir. Bundan başqa, həmin tükənməz mənbəyə münasibət, zaman ərzində müəyyən dəyişikliklərə də uğramışdır. Hər bir dövrün yeni tələbləri əsrlərin sınağından uğurla çıxmış bu qaynaqdan istifadə olunmanın yeni və daha təkmilləşmiş prinsiplərini meydana gətirmiş, onların tarixi inkişaf qanunauyğunluqlarını şərtləndirmişdir" (7. s.4).

Azərbaycan xalqının fəlsəfi təfəkküründün məhsulu olan xalq musiqi intonasiyaları, onun qanunauyğunluqlarını öz yaradıcılığı üçün əzəmətli mənbə hesab edərək, ondan yaradıcı şəkildə bəhrələnən görkəmli bəstəkarlardan biri də C.Hacıyevdir. Maraqlıdır ki, milli musiqi mədəniyyəti tarixində simfoniya janrının banilərindən biri hesab edilən bəstəkar özünün istər kiçik, istərsə də iri həcmli əsərlərində xalq musiqisindən sitat kimi istifadə etmir, onun əsərlərinin melodiyaları xalq musiqisi, muğam intonasiyaları ilə yoğrularaq mükəmməl inkişaf yaradır. C.Hacıyevin melodiyalarının əsasını xalq musiqisi, aşıq havaları, milli-lad məqamların özünəməxsus inkişaf xətti

təşkil edir. O, bəstəkarlıq üslubunun yalnız özünəxas imkanları ilə milli musiqinin monodik quruluşunu bəzən çoxsəsli laylarla təqdim edir, bəzən isə homofon-harmonik inkişaf xəttini xalq musiqisi nümunələrinin zəngin elementləri ilə dolğunlaşdırır. Bəstəkar xalq musiqisi və folklorda əhəmiyyətli janrlardan biri olan aşıq musiqisini Avropa klassik musiqisindən tanınan janrlarda mükəmməl formada işləyərək, hər iki sahənin üzvi şəkildə sintezi nəticəsində əzəmətli dramaturgiya ortaya qoyur.

Aşıq yaradıcılığı milli folklorun ən maraqlı, qeyri-adi inkişaf xəttinə malik sahələrindəndir. Əsrlər boyu şifahi ənənələr əsasında inkişaf edən milli musiqini bu janr olmadan təsəvvür etmək mümkün deyil. Aşıq havalarında xalq musiqisi və rəqsləri, muğam sənətinin ecazkarlığı bir vəhdətdə qovuşur. Sinkretik sahə olan aşıq yaradıcılığı söz, hərəkət və musiqinin vəhdətinə əsaslanır. Məhz bu kimi xüsusiyyət onun bəstəkar yaradıcılığında mükəmməl şəkildə istifadə olunmasını şərtləndirib. Aşıq havalarının demək olar ki, əksəriyyəti "Şur" məqamına əsaslanır. Bu, aşıq musiqisində milli xüsusiyyətini ən başlıca göstərcisi kimi qiymətləndirilir. Məhz bu qədər mükəmməl forma, inkişaf prinsipi həmin musiqinin intonasiyalarından C.Hacıyevin əsərlərində orijinal formada istifadə olunmasına səbəb olmuşdur. Bəstəkar Q.Qarayev ilə birlikdə yazdığı "Vətən" operasında, "Sülh uğrunda" simfonik poemasında, simfoniyalarında aşıq musiqisi intonasiyalarından mütləq şəkildə bəhrələnmişdir. Bunun nəticəsində onun müxtəlif janrda yazmış olduqları əsərlərinin ideya məzmunu daha dərinləşmiş, obrazlar dairəsi özünəməxsus xarakterə bürünmüşdür.

C.Hacıyevin ilk dəfə 1951-ci ildə Niyazinin dirijorluğu ilə səslənən "Sülh uğrunda" simfonik poemasında xalq musiqisi ilə dərin bağlılıq hökm sürməkdədir. Burada xalq yaradıcılığının digər janrları ilə yanaşı aşıq musiqisindən də d istifadə edilmişdir. Bu haqda A. Tağızadə qeyd edir: "Üslubuna görə poemanın mövzuları xalq musiqisi ilə bağlıdır və muğam, aşıq musiqisi, rəqs janrlarının tipik xüsusiyyətlərinə əsaslanmışdır. Bəstəkarın həmin mənbələrə yaradıcı şəkildə yanaşması vacibdir, o, bəzi hallarda mövzuların məqam quruluşunu, digərlərində xalq-janr musiqisini başqa janrların qanunauyğunluqları ilə məharətlə sintez edir" (1. s.178).

C.Hacıyev bir-birindən maraqlı dramaturgiyaya malik simfoniyaların müəllifidir. O, müxtəlif məzmunlu bu əsərlərində də xalq musiqisi, aşıq havalarını zəngin mənbə görmüş və simfoniyalarının dramaturgiyasını xalq sənəti nümunələri ilə dolğunlaşdırmışdır. Bəstəkar xüsusilə V simfoniyasının inkişaf xəttində aşıq musiqisini maraqlı şəkildə işləyir. C.Hacıyevin yaradıcılıq üslubunu müəyyən edən bu meyl öz başlanğıcını onun III simfoniyasından götürür. C.Hacıyev III simfoniyada xalq musiqisi, aşıq havalarının zəngin imkanlarından istifadə perspektivliyini konkretləşdirir. V simfoniyada isə xalq yaradıcılığı ünsürləri müxtəlif aspektlərdən çıxış edir. "İnsan. Torpaq. Kosmos" adlandırılan bu əsərdə bəstəkar xüsusilə XX əsrin 60-cı illərində kosmosun fəthi kimi aktual məsələni musiqi dilinin imkanları ilə işləmiş və cəmiyyət, onun inkişafı, şəxsiyyət və onun mənəvi yüksəlişi probleminə yaradıcılıq müstəvisindən yanaşmışdır. Simfoniya hissələrə deyil fəsillərə bölünmüşdür. Dramaturgiyada hər fəslin özünəməxsus inkişafı düyünə doğru yolu, kulminasiyanı, düyünün açılışı anlarını maraqlı şəkildə təqdim edir. Əsərdə xalq yaradıcılığını mövzuların işlənməsində əhəmiyyətli mənbə kimi nümayiş etdirən bəstəkar xüsusilə VI fəslin musiqili təfsirində aşıq havaları intonasiyalarına müraciət etmişdir.VI fəsil olduqca ehtiraslı və dinamikdir. VI fəsil bütün simfoniyanı əhatə edən obrazlar dairəsinin inkişaf mərhələsini sonlandırır. Bu ifadəliliyi təqdim etmək üçün bəstəkar xalq rəqslərinin marş-yürüş xarakterli xüsusiyyətlərindən istifadə edir. Bu isə aşıq musiqisi intonasiyaları ilə verilir. Xüsusilə orkestrin "tutti" ifa edən bölmələrində bu əhval-ruhiyyə daha qabarıq hiss olunur. Bəstəkar burada xalq musiqisinə xas sonor effektləri aşıq musiqisi intonasiyaları ilə ifadə edir. Ümumiyyətlə, simfoniyanın tematizmində xalq musiqisi, aşıq havalarının məqam xüsusiyyətləri, inkişaf qanunauyğunluqları klassik prinsiplərlə uzlaşdırılır.

C.Hacıyevin Q.Qarayevlə birlikdə 1941-1945-ci illərin qanlı müharibəsi ilə əlaqədar yazdığı "Vətən" operasında aşıq musiqisi obrazların bədii simasının daha qabarıq ifadə olunmasında mühüm faktor kimi iştirak edir. Təsadüfi deyil ki, operanın bu xüsusiyyəti Ü.Hacıbəylinin "Koroğlu" operasının aşıq üslubu ilə müqayisə olunur.

Müəllifinə dövrünün ən yüksək mükafatı olan "Stalin" mükafatını qazandıran "Vətən" operası 1945-ci ildə Niyazinin dirijorluğu ilə səhnələşmişdir. Burada hadisələr iki cəbhədə təsvir olunur. Bunlardan ilki ön cəbhə və burada Azərbaycan övladlarının göstərdiyi rəşadəti, ikincisi isə arxa cəbhədə xalqın qələbə naminə etdiyi fədakarlıqları canlandıran səhnələrlərdir. Operanın əsas qəhrəmanları Aslan, Mərdan, Dilbər, Baxşı, Aşıq Səlim və Sergeydir. Ardıcıl dramaturgiya yaratmaq üçün operada aramsız simfonik inkişaf özünü hiss etdirir. Bu leyttema prinsipi ilə həyata keçirilir.

Klassik operalardan fərqli olaraq uvertürası olmayan "Vətən" operasının məzmunu tamamilə qəhrəmanların xarakterinin açılmasına xidmət edən dramaturji inkişafa əsaslanır. Burada hər bir qəhrəmanın obrazı ifa olunan solo nömrələrlə açılır. Solo nömrələr isə bütün dramaturgiyanı birləşdirən leyttemalar kimi xarakterizə olunur. Aslanın üç leyttemasından birinci və ikincisi I pərdənin giriş bölməsində, III leyttema isə yenə həmin pərdədə xor səhnəsində verilir. İlk iki leyttemada onun vətənə sevgisi, III leyttemada isə qəhrəmanlığı ifadə olunur. Bütün əsər boyu inkişaf etdirilən Mərdanın xarakteri I pərdədə səslənən ariyası ilə açılır. Bu, qəhrəmanın həyatına aid monoloq kimi səciyyələn ariyadır. O, lirik-dramatik əhval-ruhiyyədədir. Kədərli xarakterdə olan Dilbərin ariyası isə özünün dərin lirikası ilə bayatı elementləri daşıyır. Ümumiyyətlə, bütün əsər beynəlmiləlçiliyi təcəssüm etdirsə də, onun məzmununu dərinliklə ifadə edən musiqi dili tamamilə milli ruhla nəfəs alır. Operada bu milli ruhu verə bilmək üçün isə xalq musiqisi, milli lad-məqam ünsürləri, aşıq melodiyaları, xalq rəqslərinə müraciət olunur.

"Vətən" operasında xalqın birliyini vermək üçün I pərdədən rəqsi qeyd etmək yerinə düşər. Bütün operada yeganə rəqs olan bu nömrədə milli ruh ifadə olunmaqla yanaşı düşmənə qarşı xalqın həmrəyliyi də təcəssüm olunur. Operada xalqın gücünün təqdim olunmasında bu cəhət əhəmiyyətlidir. Bu, eyni zamanda əsərin milli mahiyyətini üzə çıxarır. Xalq obrazının xarakterinin açıldığı I pərdənin inkişaf xəttində aşıq musiqisinin rolu xüsusi vurğulanmalıdır. Aşıq havaları əsasında solo nömrələr isə operanın formatəşkili probleminin həllində maraqlı nüansların kəşf olunması ilə nəticələnib.

"Vətən" operasının əsas qəhrəmanlarından olan Aslanın obrazının təqdimatında mühüm olan iki ariyada aşıq musiqisi ünsürləri özünü qabarıq şəkildə nümayiş etdirir. Həmin ariyalar klassik ariya qanunauyğunluqları ilə işlənmiş aşıq mahnıları təəssüratı yaradır. Aslanın ariozası, Səlimin mahnısında isə aşıq üslubu ümumiləşmə kimi diqqət cəlb edir. Bu ümumiləşmə aşıq olan Səlimin obrazının xarakterik yönlərini açır. Aşıq Səlimin solo nömrəsi bəzi xüsusiyyətlərinə görə Ü.Hacıbəylinin "Koroğlu" operasından baş qəhrəmanın aşıq simasını müəyyən edən iki nömrə ilə yaxınlıq təşkil edir. Bunlar Qıratı tərifləyən aşıq mahnısı və "Səni gördüm" ariozasıdır. Səlimin məhz aşıq simasını açan solo nömrə aşıq musiqisi intonasiyaları, aşıq havası ruhu daşıyır. Bu kimi ümumiləşmə operanın bütün obrazlarının xarakterinin müəyyən olunmasına birbaşa təsir edən mühüm cəhətdir.

Beləliklə, Azərbaycan bəstəkarlıq məktəbinin bütün nümayəndələri kimi C.Hacıyev də yaradıcılığında folklor nümunələri, aşıq havaları, xalq musiqisi, muğam elementləri ilə maraqlı obraz dairəsi yaradaraq, milli üslub xüsusiyyəti, milli ruh ortaya qoymuş və bu əsərlərlə musiqi mədəniyyətimizi zənginləşdirmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan musiqi tarixi. III cild. Elm nəşriyyatı, Bakı: 2018
2. Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Bakı: 2009, Adiloğlu
3. Əfəndiyeva İ. Musiqi əsərlərinin təhlili. Bakı: 2009
4. Əliyeva F. Azərbaycan musiqisində üslub axtarışları. Bakı: 1996
5. Həkimov M.İ. Aşıq sənətinin poetikası. Səda, Bakı: 2004
6. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. İşıq, Bakı: 1984
7. Quluzadə T. Ü.Hacıbəyli və Q.Qarayevin yaradıcılığında aşıq musiqisinin təzahür xüsusiyyətləri. Mütərcim. Bakı: 2019

SUMMARY

Nadjiba Gafarova

LOVE MUSIC CREATED BY JOVDAT HAJIYEV

Ashik creativity is one of the most interesting and unusual areas of national folklore. It is impossible to imagine national music without this genre, which developed on the basis of oral traditions for centuries. In the air of love, folk music and dances, the magic of mugham art come together in one unity. Ashiq creativity, which is a syncretic field, is based on the unity of words, movement and music. It is such a feature that determined its perfect use in the composer's creativity. Almost most of the love spells are based on the “Shur” moment. This is considered as the most important indicator of the national characteristic of Ashiq music. It is this perfect form, the principle of development that led to the original form of the intonations of that music being used in the works of J. Hajiyev. In the opera “Vatan” written together with the composer G. Garayev, in the symphonic poem “For the sake of peace”, and in his symphonies, he definitely benefited from the intonations of Ashiq music. As a result, the idea content of his works written in various genres deepened, and the circle of images took on a unique character.

Key words: *Passionate performer, genre, national music, pedagogue*

Nəşriyyat direktoru:	Məhəmmədəli Məmmədli
Mətbəə müdiri:	Vidadi Kazımov
Qrafik dizayner:	Sahilə Abbasova
Redaktor:	Zəhra Rəhimova
Aparıcı korrektor:	Sitarə Əlizadə
Korrektor:	Zərri Məmmədova

Yığılmağa verilib: 20.05.2024
Çapa imzalanıb: 03.06.2024
Formatı: 60/90, 32/1, həcmi 75.25 ç/v
Sifariş № 332, sayı 100 nüsxə

REDAKSİYANIN ÜNVANI: 7012, Naxçıvan şəhəri,
Universitet şəhərciyi,
Naxçıvan Dövlət Universiteti,
Əsas bina, I mərtəbə,
Universitet Nəşriyyatı

TELEFON: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

E-mail: *elmi.hisse@mail.ru*